HEYDƏR ƏLİYEV
FONDU

GƏNCƏ

GƏNCƏ ŞƏHƏR
İCRA HAKİMİYYƏTİ

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Nizami
Gəncəvi

# XƏMSƏ

HEYDƏR ƏLİYEV
FONDU

GƏNCƏ ŞƏHƏR
İCRA HAKİMİYYƏTİ

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

# Nizami Gəncəvi

# XƏMSƏ



Ar 2011/2034

Nizami Gəncəvi

# XƏMSƏ

93800
92729
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası
ARXIV

Gəncə - 2011

Ш6(2=Az)1 + Ш5(2=Az)1


Elmi məsləhətçi: akademik Bəkir Nəbiyev

Tərcümə edənlər: Xəlil Yusifli ("Sirlər xəzinəsi", "Xosrov və Şirin")
Səməd Vurğun ("Leyli və Məcnun")
Məmməd Rahim ("Yeddi gözəl")
Abdulla Şaiq, Mikayıl Rzaquluzadə ("İskəndərnamə")

Ön sözlərin müəllifləri: Xəlil Yusifli ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl")
Qəzənfər Əliyev, Zümrüd Quluzadə ("İskəndərnamə")

İzahların müəllifləri: Xəlil Yusifli
Mübariz Əlizadə
Rüstəm Əliyev
Əkrəm Cəfər

Elmi redaktorlar: Əliyar Səfərli ("Sirlər xəzinəsi")
Afaq Yusifli ("Xosrov və Şirin")
Xəlil Yusifli ("Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə")

Nizami Gəncəvi. "Xəmsə". Gəncə, 2011, 776 səh.

Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunan bu kitabda Nizami Gəncəvinin "Xəmsə"yə daxil olan bütün poemaları birlikdə ilk dəfə Azərbaycan dilində oxucuların ixtiyarına buraxılır. Kitabın dahi şairin 870 illik yubileyinə ən layiqli töhfə olacağına inanırıq.

Kitabda istifadə olunan illüstrasiyalar AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyindən götürülmüşdür.

ISBN 9 – 789952 – 815207


# NİZAMİ GƏNCƏVİ
# XƏMSƏ

Qədim və zəngin mədəni irsə malik olan Gəncə şəhəri dünyaya ümumbəşəri dəyərlərin yaranmasında müstəsna xidmətləri olmuş Əbül-Üla Gəncəvi, Qivami Gəncəvi, Ömər Gənci, Əbubəkr Gəncəvi, Məhsəti Gəncəvi, Raziyə Gəncəvi, Mirzə Şəfi Vazeh kimi dahilər bəxş etmişdir. Onların arasında Şeyx Nizami Gəncəvinin şəxsiyyəti və yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi bənzərsiz dahi sənətkar, böyük şair və mütəfəkkir, bütün dünya poeziyasında yeni epik romantik janrın banisi, ümumdünya və Şərq İntibahının parlaq nümayəndəsi Nizami Gəncəvi XII əsrin ortalarında Gəncə şəhərində doğulmuş və doğma vətənində yaşayıb yaratmışdır. Nizami dövründə Gəncə şəhəri çox vaxt Bağdada oxşadılırdı və bu şəhərdə çoxsaylı əhali yaşayırdı. Həm əhalisinin sayına, həm də elm və mədəniyyətin inkişafına görə, Gəncə bu bölgədə o vaxtadək görünməmiş bir səviyyəyə çatmışdı. Heç təsadüfi deyil ki, Nizami öz doğma şəhərini "mənim Babilim" deyə tərənnüm edirdi. Burada məktəblər, mədrəsələr, şəxsi və ictimai kitabxanalar fəaliyyət göstərirdi. Şəhərdə "Hikmət evləri" və "Şəfa ocaqları" da yaradılmışdı. Gəncədə məşhur alim Əbülfəzl Naxçıvaninin rəhbərlik etdiyi "Dar əl-kütub" deyilən böyük bir kitabxananın olduğu da məlumdur. Həmin dövr Gəncədə üzərində "Azərbaycan" və "Arran" sözləri həkk olunmuş sikkələr kəsilirdi.

Şairin "Leyli və Məcnun" əsərindən məlumdur ki, Nizaminin anası Gəncənin nüfuzlu ailələrindən birinə mənsub olmuşdur. Ənənəyə görə, müdrik və alim bir insan, sufi kimi şairi Şeyx Nizami deyə çağırmışlar. Akademik Krımskinin yazdığına görə, XVII əsrin sonlarında Avropada nəşr olunmuş "Şərq kitabxanası" adlı kitabda da şair Nizami Gəncəvi kimi təqdim olunmuşdur.

Nizami Gəncəvinin yaradıcılığı "Xəmsə", "Beş xəzinə" adlandırılmışdır. "Beş xəzinə" dedikdə, şairin sonralar "Xəmsə" ("Beşlik") adı altında bir kitabda toplanan poemaları – "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə" nəzərdə tutulur. Nizami Gəncəvi "Xəmsə"yə daxil olan poemaları ilə poeziyaya yeni istiqamət vermiş, onun əsərlərinin təsiri ilə Nizami məktəbi adlı ədəbi məktəb yaranmışdır. Şərqin Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Məhəmməd Füzuli kimi sənətkarları onu ustad bilmiş, Nizami əsərlərinin mövzularında yeni-yeni əsərlər yazmışlar. Orta əsrlərdə Nizaminin əsərləri çox vaxt bir kitab halında toplanmış, xüsusi xəttatlar tərəfindən üzü köçürülmüş və geniş yayılmışdır. Şairin poemaları bəzən də ayrı-ayrılıqda köçürülərək əldən-ələ gəzmişdir.

Dahi mütəfəkkir Əbdürrəhman Cami (XV əsr) Şeyx Nizami haqqında yazır: "O, Gəncədəndir, onun fəzilət və kamilliyi aydındır, şərhə ehtiyac yoxdur. "Beş xəzinə" kitabında o qədər incəliklər və dəqiqliklər ifadə etmişdir ki, bəşər övladının qüdrətindən kənardır".

XX əsrin böyük nizamişünası Y.E.Bertels isə Nizami Gəncəvinin əsərləri üzərində apardığı uzun araşdırmalardan sonra onun haqqında belə demişdir: "Nizami mənim üçün heç cür izah edilə bilinməyən bir möcüzədir".

1941-ci ildə dahi şairimiz Nizami Gəncəvinin anadan olmasının 800 illiyi qeyd edilməli idi. O vaxt İkinci Dünya müharibəsinin dalğası Sovet İttifaqına və onun tərkib hissəsi olan Azərbaycana da gəlib çatdığı üçün yubiley keçirilmədi. Lakin Bakıda Nizami Muzeyinin yaradılması işi davam etdirildi. Üzeyir Hacıbəylinin şairin sözlərinə bəstələdiyi "Sənsiz" romansı yarandı...

Möhtəşəm beş əsərində insan fikir və düşüncəsini yüz illərlə qabaqlamış böyük söz ustadı Nizami Gəncəvinin dünya mədəniyyəti tarixində yerini bütün zənginliyi ilə duyan, bilən ümummilli liderimiz Heydər Əliyevin 1979 və 1981-ci illərdə onun xatirəsinin əbədiləşdirilməsi haqqında verdiyi qərarlardan sonra dahi şairin əsərlərinin nəşri və tədqiqi sahəsində böyük bir canlanma yaranmış, bütün əsərləri ayrı-ayrılıqda Azərbaycan dilində nəşr olunmuş, bu sahədə tədqiqatlar böyük vüsət almışdır.

Ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə şairin doğma yurdunda Nizami Gəncəvi Mərkəzinin və Nizami Muzeyinin yaradılması, məqbərəsinin təmir edilməsi, onu əhatə edən 35 hektar ərazidə dahi mütəfəkkirin memorial kompleksinin ucaldılması, bu kompleksin YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edilməsi üçün həyata keçirilən tədbirlər, Nizami parkının, Nizami prospektinin yaradılması qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcəkdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunan bu kitabda Nizami Gəncəvinin "Xəmsə"yə daxil olan bütün poemaları birlikdə ilk dəfə Azərbaycan dilində oxucuların ixtiyarına buraxılır. Bu kitabın dahi şairin 870 illik yubileyinə ən layiqli töhfə olacağına inanırıq.

akademik Bəkir Nəbiyev,
professor Xəlil Yusifli

# Sirlər xəzinəsi

## NİZAMİ GƏNCƏVİ VƏ ONUN "SİRLƏR XƏZİNƏSİ" POEMASI

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşər mədəniyyətinin yetirdiyi nadir şəxsiyyətlərdəndir. Söz dünyasının günəşi, hələ sağlığında əsərləri möcüzə sayılan Nizami özü də yaradıcılığının dəyərini yaxşı bilmişdir. Şair "Sirlər xəzinəsi" poemasında belə bir fikir yürüdür ki, elmin, mədəniyyətin, ədəbiyyatın inkişafında dəmir bir qanunauyğunluq var. Nizami özündən əvvəlkilərlə müqayisədə şeiri elə bir əlçatmaz yüksəkliyə qaldırmışdır ki, sonradan gələn sənətkarlar artıq ondan yüksəyə qalxmaq xülyasına düşməmiş, onun yolu ilə getməyi, ona bənzəməyi, onun şagirdi olmağı özləri üçün fəxarət saymışlar. Nizami mövzularında əsərlər yazmaq, ondan mənalar iqtibas etmək artıq bir ənənəyə çevrilmişdi.

Nizami Gəncəvi 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Şairin əsərlərindən anlaşılan budur ki, o, təhsilini də öz doğma şəhərində almışdır. Bu dövrdə Gəncə şəhərində təhsil almaq üçün kifayət qədər geniş imkanlar var idi. Şair "Xəmsə"də adının İlyas, atasının adının Yusif, babasının adının Zəki Müəyyəd olduğunu göstərmişdir. Alimlər onun babasının adındakı iki sözdən birinin ləqəb olduğunu düşünürlər ki, bu da şairin mövqe, hörmət sahibi olduğunu düşünməyə əsas verir. Şair əsərlərində ancaq Nizami təxəllüsünü işlətmişdir. Bu söz nizamlı, ölçülü sözə, nəzmə, başqa ifadə ilə desək, şeirə mənsub olan adam deməkdir. Nizaminin ləqəbini bəzi qaynaqlar Nizaməddin, yaxud Cəmaləddin kimi yazırlar, ancaq şairin əsərlərində bu ləqəbi təsdiqləyəcək əlamətlər yoxdur.

Nizaminin doğulduğu, ömrü boyu yaşadığı və vəfat etdiyi yer Gəncə şəhəridir. Bütün qədim və etibarlı mənbələr də onun Gəncədən olduğunu yazır. Nizami əsərlərinin XIV-XV əsrlərə aid əlyazmalarında şairin Gəncəyə gəlmə olduğu barədə heç bir qeyd yoxdur. Ancaq Nizami əsərlərinin XVI əsrdə və sonralar köçürülmüş nüsxələrində "İqbalnamə"nin bir yerində şair Gəncədən danışan zaman fikir yarımçıq kəsilərək aşağıdakı dörd misra artırılmışdır:

Gəncə dənizində olsam da pünhan,
Yerim Qum şəhridir, yurdum Qohestan.
Təfrişdə Ta adlı bir kənd dayanıb,
Nizami ad-sanı ordan qazanıb!

Burada söhbət İranın Qum vilayətindən, oradakı Təfriş adlı elmin Ta adlı kəndindən gedir. Qohestan Qum vilayətinin şərqində böyük bir ərazinin tarixi-coğrafi adıdır. Nizami irsinin ən gözəl bilicilərindən biri kimi tanınan və şairin əsərlərini yeddi cilddə şərhlərlə birlikdə nəşr edən Vəhid Dəstgerdi yuxarıdakı misraları yersiz bir artırma sayır. V.Dəstgerdi Nizaminin Əcəm İraqından olduğunu iddia etsə də, yuxarıdakı misralarda irəli sürülən fikri qəbul etmir. Dəstgerdinin Nizamini iraqlı hesab etməsi şairin tez-tez İraqı təriflməsi, ora getməyi arzu etməsinə əsaslanır. Halbuki, Xaqani də dönə-dönə İraqı vəsf etmiş, ora getmək arzusunu bildirmişdir, ancaq onun Şirvanlı olduğu məlumdur.

Nizami İraqa getmək arzusunu bildirərkən müxtəlif şəkillərdə Gəncəni öz vətəni, öz ölkəsi kimi qeyd etməyi unutmur. "Ləl öz mədənindən çıxmayınca ona qiymət verilməz" deyən şair köklü, əsilli bir gəncəli olduğunu bir daha nəzərə çarpdırır. Təəssüflər olsun ki, XVI əsrdən sonra yazılan bir çox təzkirələrdə Nizaminin babasının, yaxud atasının İranın Qum vilayətinin Təfriş elinin Ta kəndindən olduğu barədə və bu kimi fikirlər yürüdülmüşdür.

Nizami yaradıcılığa çox erkən başlamış, ilk çağlardan sarayların diqqətini cəlb etmişdir. Dərbənd hakimi Bəybars ibn Müzəffərə göndərdiyi hər şerə görə qiymətli hədiyyələrə layiq görülmüş, ərməğanı olan Afaq adlı qadınla evlənmiş və ondan da 1174-cü ildə Məhəmməd adlı bir oğlu olmuşdur. "Xosrov və Şirin" poeması yazılarkən bu qadın artıq həyatda yox idi. Sonralar şair daha iki dəfə evlənsə də, Afaqı ömrü boyu böyük sevgi ilə xatırlamış, taleyinin uğursuzluğundan gileylənmişdir.

Nizami 1209-cu il martın 12-də doğma şəhəri Gəncədə vəfat etmişdir. İndi onun məzarı üzərində möhtəşəm bir məqbərə ucalmaqdadır. Dahi şair və mütəfəkkirin adı doğma vətəni Azərbaycanda əbədiləşdirilmiş, əsərləri dəfələrlə kütləvi tirajla nəşr olunmuşdur.

Nizaminin ilk iri həcmli əsəri "Sirlər xəzinəsi" poemasıdır. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi olan bu əsər dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əsər hicri tarixilə 570-ci ildə yazılmışdır ki, miladi təqvimilə 1174-1175-ci illərə uyğun gəlir. "Azərbaycan ədəbiyyatı tarixi"nin birinci cildində (Bakı, 1960) mexaniki səhv nəticəsində poemanın 1170-ci ilin əvvəllərində yazıldığı göstərilmişdir. Təəssüf ki, bu mexaniki səhv sonra yazılmış bütün əsərlərdə, o





cümlədən dərsliklərdə təkrar olunmuşdur. Poemadakı

Beş yüz ilə yetmiş olub, qalx, oyan,
Gün qalxıb, məclisə gəl durmadan

beyti və bir sıra başqa faktlar poemanın 1174-cü ilin avqustundan 1175-ci ilin iyul ayına qədər olan dövrdə yazıldığını təsdiq etməkdədir. Poemanın bəzi əlyazmalarında olan artırma misralara görə, əsər 1176-cı il sentyabr ayının 30-da tamamlanmışdır. Bu, yəqin ki, əsər yazılandan bir qədər sonra köçürülən nüsxələrdən birinin tarixidir.

"Sirlər xəzinəsi" adından da göründüyü kimi, zahirən Nizamiyə qədər Yaxın və Orta Şərq ədəbiyyatında geniş yayılan didaktik əsərlər silsiləsinə daxildir. Mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və b. bu kimi əsərlərə yaxın olan "Sirlər xəzinəsi" həm də onlardan fərqlənir. Dahi şair sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist, demokratik istiqamət vermişdir.

Sənai Qəznəvi artıq XII əsrin əvvəllərində "Hədiqətül-həqiqə" ("Həqiqət bağçası") poeması ilə didaktik poema janrını yeni bir yüksəkliyə qaldırmışdı. "Hədiqətül-həqiqə"dən əlavə bir sıra kiçik poema, çoxlu qəsidə, qəzəl və rübailər müəllifi olan Sənainin yaradıcılığı farsdilli poeziyada humanist fikirlərin təsdiqi baxımından xüsusi mərhələ təşkil edir. XII əsrin bir çox şairləri, o cümlədən Əbül-Üla Gəncəvi, Xaqani Şirvani humanist poeziya sahəsində onun varisi olmaları ilə fəxr etmişlər.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin də öz ilk poemasını Sənai Qəznəvinin "Hədiqətül-həqiqə" əsərinə nəzirə kimi yazması təsadüfi deyildir. Bu, Nizaminin, özündən əvvəlki humanist şeirin nailiyyətləri ilə hesablaşması, ona biganə qalmaması ilə izah edilməlidir. Şair sələfinin əsərinin adına uyğun ad seçməklə bərabər, onun bəzi fikirlərinə də şərik olduğunu bildirmiş, hətta bir çox hekayələrini onun hekayələri ilə mübahisə şəklində yazmışdır. "Sultan Mahmud və qarı" hekayəsi ilə "Sultan Səncər və qarı" hekayələri dediklərimizə misal ola bilər.

Bu bir həqiqətdir ki, Nizaminin "Sirlər xəzinəsi" məzmunu, mündəricəsi, humanizmi, aşıladığı fikirlər və sənətkarlıq baxımından Sənainin poemasından qat-qat yüksəkdə durur. "Sirlər xəzinəsi"nin özündə də bu həqiqət müəllif tərəfindən aydın şəkildə göstərilir:

Gəldi iki namə iki ölkədən,
Hər biri bir Bəhramı tərif edən.
Köhnəcə kandan o töküb dür zəri,
Tapdı təzə bəhrdə bu gövhəri.
Qəznədə qaldırdı o, yerdən ələm,
Vurdu bu Rum sikkəsinə bir rəqəm.
Olsa da ol sikkədə söz zər kimi,
Yaxşı bil ondan zərimi, sikkəmi.
Azsa da ondan yükümüz, varımız,
Yaxşıdır ondan ki, xiridarımız.

Nizami özü aydın şəkildə Sənainin didaktik poema janrında dəfələrlə işlənmiş vəzn və formadan istifadə etdiyini (Sənainin əsəri xəfif bəhrində yazılmış, hekayələr müəyyən prinsip gözlənmədən verilmişdir) göstərməklə onun əsərini qızıla bənzədir. Başqa sözlə, Sənainin poemasının yüksək ədəbi qiymətini etiraf edir.

"Sirlər xəzinəsi"ni, sözün həqiqi mənasında, Nizaminin yaradıcılıq manifesti adlandırmaq olar. "Xəzinə" adını şair əsərə təsadüfən verməmişdir; "Sirlər xəzinəsi", doğrudan da, həyatın ayrı-ayrı sahələrini əhatə edən, cəmiyyətin müxtəlif təbəqələrinin rəngarəng surətlər silsiləsini yaradan, yeni fikirlər, ideya və qənaətlər ifadə edən bir əsərdir. Böyük şair didaktik poema janrının imkanlarından bacarıqla istifadə edib, oxucu ilə lirik monoloqlar şəklində söhbət edir, onu düşündürən, narahat edən problemlərə toxunur, bütün hallarda orta əsrlərin qatı zülməti içərisindən işığa, həqiqətə, xeyrə səsləyir.

Poema müxtəlif məsələlərə həsr edilmiş müqəddimə, 20 məqalət (söhbət) və bu məqalələri epik lövhələrlə əks etdirən 20 kiçik hekayədən ibarətdir. Kitabın tamamlanması haqqında kiçik bəhslə poemaya yekun vurulur. Başlanğıcda şair tövhid, minacat, nət adlı başlıqlar altında Allahdan, peyğəmbərdən söhbət açır, islam dini ehkamları çərçivəsində onları tərifləyir. Zamanın tələbinə uyğun hərəkət edən şair bu bəhslərin

özündə belə ənənəvi dini ifadələrlə olsa da, çox ciddi ictimai problemlərə toxunur. Nizaminin sənətkar mövqeyi bu hadisələrə münasibətdə də açıq-aydın diqqəti cəlb edir; şair oxucunu həyəcanlandırır, şairin əhval-ruhiyyəsi, ürək təlatümləri oxucuya da sirayət edir. Məlum olur ki, bütün bu təriflər, müraciətlər əsl mətləbə keçmək üçün bir bəhanədir. Zəmanəsindən son dərəcə narazı olan şair Allaha və peyğəmbərə də böyük ideallar naminə müraciət edir, qədim düzlük və doğruluq, təmizlik dövrünün, islamın ilk illərinin həyatını qaytarmağa çağırır:

Pərdəni at, təkcə özün çıx çölə,
Pərdə mən olsam da, onu məhv elə.
Çərxə öz acizliyini et bəyan,
Aç daxi dünya düyünün durmadan.
Nəqşini poz, durma tez ol ruzgarın,
Surətini məhv elə ulduzların...
Kim ki sevir zülməti, nurdan sən et,
Kim ki sevir cövhər, ərəzdən gen get...
Zülm oduna tezcə su tök bir görək,
Torpağın altında qoy itsin külək...

Son misralar şairin həyəcanını daha aydın ifadə edir. Şeirdə dörd ünsür (od, su, torpaq, hava) ancaq zahiri poetik gözəllik xatirinə yox, böyük fikirlərin obrazlı ifadəsi üçün xatırlanır. Zülm və ədalətsizlik alovları üzərinə su tökülsün, ədalət bərpa edilsin, mənəm-mənəmlik, qürrə, başqa sözlə, özbaşınalıq, haqsızlıq yeli torpağa gömülüb yox olsun - deyən şairi narahat edən onun zamanəsi, insanların taleyidir. Eyni həyəcanlı, narahat çağırış peyğəmbərə müraciət hissəsində də özünü aydın göstərir.

Poemanın müqəddiməsində şeir və sənət məsələlərinə də xüsusi diqqət yetirən şair sözün meydana çıxması, insan həyatında rolu, onun qiyməti və s. haqqında söhbət açır. Sözü xilqətin birinci gözəli adlandıran Nizami doğru göstərir ki, qələm hərəkətə başlayan zamandan dünyanın gözünü sözlə açıbdır. Söz insanın canı, bədən isə onun mənzilidir. Bayraqlar söz qədər qələbə çala bilməz, söz hər şeydən qiymətlidir:

Kimsə alıb söz və zəri bir sabah
Sərrafa göstərdi, dedi: - Ey qoçaq,
Köhnə qızıl, ya təzə söz yaxşıdır?
Söylədi usta: - Təzə söz yaxşıdır.
Qasid olub söz haraya getmədi?
Söz kimi kimsə bir işi etmədi.

Göründüyu kimi, Nizami sözə geniş mənada yanaşır, dilin, bədii sözün, nitqin, yazının bəşəriyyətin inkişaf tarixindəki misilsiz rolundan, onun müasir həyatda əhəmiyyətindən danışıb, sözü insanın canı və özü hesab edir. Nizami ümumiyyətlə sözdən danışdıqdan sonra şeir haqqında söhbət açır, ərşin ötən bülbülü saydığı şairin zəhmətinə yüksək qiymət verir, onu peyğəmbərlərə yaxın tutur. Şair və şeir qarşısında ciddi ictimai vəzifələr qoyan Nizaminin fikrincə, şeir insanları tərbiyə etmək vasitəsidir.

Kim ki sözə verdi sığal, sahmanı,
Sözlə bişirdi çiy olan insanı.

Nizami şeirin asan yazılmadığını, dərin düşüncələr, yaradıcılıq iztirabları nəticəsində yarandığını qeyd edir. Onun yaratdığı hər söz canın bir parçasıdır, qəlbin dişi ilə yonulmuş heykəldir; o, yeni söz üçün axtarışa başlayanda gah ölür, gah dirilir. Şair yaradıcılıq prosesinə çox ciddi bir iş kimi yanaşır, onun ağırlığından danışır.

Mədən açıb tapmaq üçün bir göhər,
Yeddi göyə fikri salar rəxnələr.
Yaxşı sözü övladına tay tutar,
Səy edib ilham ataya oxşadar.
Xoş nəfəsi canlara dinclik verər,





Hər sözü dillərdə gəzər sərbəsər.
Nəqqaşısa kim bu gözəl dilbərin,
Bil ki, o, şairdir, oxu sözlərin.

Əsl sənətkar, həqiqi şair haqqında Nizaminin qənaəti belədir. Dahi şair sözü hörmətdən salan alçaq adamlara, var-dövlət və şöhrət xatirinə ona-bunamədhiyyə yazanlara da biganə qalmır, onları nifrətlə xatırlayır. Nizami dünya İntibahının ən qüdrətli şairlərindən biri kimi poeziya sənətinə onun insana, həyat həqiqətinə xidməti baxımından qiymət verir. Şairin fikrincə, hər şeir qaralayanı, qafiyə qoşanları şair adlandırmaq olmaz:

Çoxlu çaparlar bu yolu getdilər,
Alçaq olanlar onu xar etdilər.
Diddi bu söz, parçaladı bağrımı,
Söz bəzəyən tökdü sözün abrını.
Candır ürək meyvəsinin qiyməti,
Onlar üçün yox su qədər hörməti.
Tapdı əlindən necə ey çərx, aman,
Yaltaq olub şerə düyünlər salan...

Qızıl üçün saralıb-solan, qızılla sözü qiymətdən salan, söz ləlini qiyməti olmayan daş-qaşa dəyişən bu şaircikləri Nizami alçaq adlandırır. Zahirən saraylarda yüksək mövqe tutan bu adamların özlərini alçaltdığını Nizami həm nifrət və qəzəb, həm də ürək ağrısı ilə qeyd edir. O, saray şairi vəzifəsinin aqibətindən söz açır, saraylarda bir müddət zərli don geyənlərin axırda qurğuşun yediyini, civə kimi zərdən ötrü ölənlərin axırda Sultan Səncərin dəmiri ilə məhv olduqlarını xatırladır. Nizami şeiri ucuz tutmağı rəva görmür, şairdən ağır zəhmət, böyük iradə tələb edir.

"Nuşirəvan və bayquşların söhbəti" hekayəsi romantik planda işlənsə də, real həyatın eybəcərliklərini çox doğru əks etdirir. Əsərin qəhrəmanı olan Nuşirəvan islamdan xeyli əvvəl yaşamış Sasani hökmdarıdır. Lakin burada təsvir edilən həyat Nizami dövrünün həyatıdır. Nuşirəvanın ov zamanı qarşılaşdığı mənzərə XII əsrin mənzərəsi, Nizaminin gördüyü, yandığı facianin təsviridir. Şair ədalətsizliyin, qətl və qarətin həddini aşdığını göstərmək üçün maraqlı bir üsul işlətmişdir; həmişə xarabalıq sevən bayquşlar şahı yaxşı tanıyırlar. Onlar əmindirlər ki, əgər şahları budursa, az bir vaxta min-min kənd xarabaya çevriləcəkdir. Quş dili bilən vəzirin köməyi ilə bayquşların söhbətini dinləyən Nuşirəvan xəcalət çəkir, əməllərini yadına salıb peşman olur.

Burda Nizami Nuşirəvanın daxili monoloqunu verir. Bu düşüncə monoloq hekayənin ən güclü hissəsidir. Şahın bütün bəd əməlləri öz dili ilə sadalanır, xəcil, peşman olduğu onun öz dilindən söylənir:

Barmağını dişlədi şah: Zülmə bax.
Quşlara çatmış sitəmimdən soraq.
Gör necə zülm eylədim insanlara,
Bayquş oturtdum evə, eyvanlara.
Özgə malın zülm ilə aldım, yetər,
Qaldım ölümdən nə qədər bixəbər.
Oldu bu gün zülm tamaşa mənə,
Vay ola məhşər günü rüsva mənə.
Bəli, qiyamətdə tamam bunları,
Hey soracaqlar tökülən qanları.
Ah! Nə qədər yetdi məlamət mənə,
Bəsdir ömürlük bu xəcalət mənə.
Söylə, bu vardan ki bilinmir sayı,
Sam nə götürdü, ya Süleyman nəyi?

Şahın dili ilə deyilən bu sözlər Nizami əsrinin ədalətsiz şahları üçün ciddi ittiham idi. Bu ittiham canilərin yaşamağa haqqı olmadığını, onları məhv etmək, etdikləri günahların, qarət etdikləri malların, tökdükləri qanların hesabını bir-bir soruşub cəzalarını vermək lazım olduğunu göstərir. Bu hissədə güclü bir inkar da

var. Lakin Nizami romantik sənətkar kimi qəhrəmanı dəyişdirir; Nuşirəvan ədalətli işlər görməyə başlayır, tarixdə Adil Nuşirəvan adı ilə tanınır. Bu, şairin arzusu idi. O istəyirdi ki, dövrünün zalım hakimləri Nuşirəvan kimi hərəkət etsinlər. Ancaq bunlar söz idi. Nizami də hiss edirdi ki, sözlərə əhəmiyyət verən azdır. Bununla belə, şair sənətin təsir gücünə inanır, söz, sənət vasitəsilə əməl, iş tələb edirdi. "Bəhanə gətirmə, bunlar sözdür, səndən isə iş tələb olunur. Əgər işlər sözlə düzəlsəydi, Nizaminin işləri göylərə ucalardı". Bu etirafda, bu inamda müdrik, mübariz, narahat bir qəlbin ağrıları gizlənmişdir. Şahın darğası sərxoş halda gələrək kimsəsiz qarını təhqir edir, filan gecəyarısı filanı filan küçədə kim öldürüb deyə sorğu-suala tutur, canini onun evində axtarır. Qarı bu cinayətin necə, nə üçün baş verdiyini dəqiq başa düşür. Əgər şahın darğası sərxoş olarsa, canilər qan tökəcəklər. Camaat təhqir olunacaq, şahın ədaləti yox olacaqdır.

Dəxlini mülkün talayır oğrular,
Dul qarılardan çəkilir sorğular.

Şahın üzünə, hərəkətlərinə diqqətlə baxan qarı onu yaxşıca öyrənir, hökmdarın bu zülmdə iştirak etdiyini, özbaşınalıq və cinayətlərə şərait yaratdığını başa düşür. Bu yerdən hekayənin ikinci hissəsi başlayır. Əgər birinci hissədə qarı şikayətçidirsə, ikinci hissədə bir ittihamçı – xalq ittihamçısıdır. Qarı onu şahlığa layiq olmayan qul, qarətçi, utanmaz, hünərsiz, oğru adlandırır. Qarının bu sözləri ildırımtək çaxır, alov kimi saçılır. Hekayənin axırında Nizami lirik ricətə keçir, əsərdə təsvir edilən hadisələri öz dövrü ilə əlaqələndirərək yazır:

İndi ədalətdən, aman, yox soraq,
Qaçmış o, Simürğə aparmış pənah.
Mavi bu çardaqda abır yox daha,
Əsla bu torpaqda görünmür həya.
Qalx, Nizami, yaş axıt sən yenə,
Qan yaşı səp qanlar olan qəlbinə.

Böyük sənətkarın xalqın halına nə qədər ürəkdən yandığını, elin faciəsinə necə acı göz yaşları tökdüyünü, sadə adamların dərdindən ayrı bir dərd-qəmi olmadığını göstərən və şərhə, izaha ehtiyacı olmayan bu alovlu, həm də fəryad dolu misraları Yaxın və Orta Şərq İntibahında humanizm ideyalarının ən yüksək, misilsiz bir ifadəsi kimi qiymətləndirsək, səhv etmərik.

Dərin ifşaedici məzmunu etibarilə "Zalım padşahla zahidin dastanı" və "Sultan Səncər və qarı" hekayələri bir-birinə çox yaxındır. Əgər "Sultan Səncər və qarı"da şah məmurlarının cinayətləri və şahın bu cinayətlərə laqeydliyi əks olunmuşsa, "Zalım padşahla zahidin dastanı"nda feodal gerçəkliyinin başqa bir kölgəli cəhəti açılıb göstərilmişdir. Sultan Səncər şikayətləri eşitmir, əhəmiyyət vermir, cinayətkarları cəzalandırmır, onlara şərait yaradırsa, bu hekayədə təsvir edilən zalım padşah daha qəddardır. O, hər tərəfi casuslarla doldurmuşdur, haqq zülmündən şikayət edənləri məhv etdirir. Onun ölkəsində şahın əleyhinə danışmaq ən qorxulu cinayət sayılır. Bu isə Nizami dövrünün mənzərəsidir. Ona görə də Y.E.Bertels bu hekayəni "Sirlər xəzinəsi"nin açarı və poemanın ən yaxşı hekayəsi adlandırır. Doğrudan da, Nizami "Sirlər xəzinəsi" ilə zəmanəsinin eybəcərliklərinə güzgü tutmuş, hər şeyi olduğu kimi göstərən bir poeziya aynası yaratmışdır. "Zalım padşahla zahidin dastanı"nda, adından göründüyü kimi, iki əsas surət vardır: zalım padşah və doğruçu qoca. Zalım padşah ordusuna, xəzinəsinə, casuslarına güvənir, doğruçu qoca isə düzlüyə. Zalım padşah hamını qanla qorxudub susdurmaq, özünə tabe etmək, qul vəziyyətinə salmaq istəyir. Doğruçu qoca isə düzlüyündən dönmür, zalımın inadını sındırır, onu özünə təslim edir. Düzlüyün qarşısında cəlladın qılıncı əlindən düşür, qəzəbdən bozarmış üzü gülümsünməyə məcbur olur. Doğrudur, bu bir romantikadır, lakin onda güclü, inkaredilməz bir həyat həqiqəti var. Düzlük eybəcərliyin, zalımlığın, qəddarlığın üzünə güzgü tutub onu özünə baxmağa, utanmağa, öz-özünü inkara məcbur edir. Zalım zalımlığını danır, haqqında zalım deyən qocanı qətlə yetirməyə hazırlaşdığı halda fikrini dəyişir, onu ifşa və inkar edən, heçliyini qorxmadan üzünə deyən gücsüz, zəif, onsuz da öldürüləcəyini düşünüb şahın yanına kəfən geyinib gələn, cəsarətli, ifşaedici sözlərindən dönməyən doğruçu qocaya cəza verə bilmir, əksinə, onu mükafatlandırır. Düzlük əyriliyə, ədalət zalımlığa, İntibah orta əsrlərə qalib gəlir.

Nizami poeziyasında ictimai siniflərin, hakim təbəqələrlə xalqın bu şəkildə qarşı-qarşıya qoyulması, xalqın böyük gücünə inam, hökmdar və xalq probleminin tamamilə demokratik baxımdan düzgün həlli Yaxın və Orta Şərq İntibahının ən böyük nailiyyətlərindən biri idi. Nizami bununla da kifayətlənmir, yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutması fikrini irəli sürür. O, əsrlərin dumanı arxasından gələcəyə baxaraq,





yeni ideyaların qələbəsi üçün yollar göstərir. Bu məsələdə ona əxiliyin mübariz humanist baxışları istiqamət verir. Xalq içərisində böyüyüb, yaşayıb müdrikləşən, şəhər sənətkarları ilə daim təmasda olan, qəlbi xalqın azadlığı və xoşbəxtliyi üçün döyünən, qələmi ilə "kiçik" adamların hüququnu müdafiəyə qalxan qüdrətli sənətkarı XII əsrin ən xalqi fikir cərəyanlarından olan, ayrıca birlik formasına çevrilən əxilikdən kənarda təsəvvür etmək olarmı? Ona görə də şairin poemasındakı bir çox fikirlər əxiləri şəhər sənətkarlarının bu mübariz birliyini yada salır. Nizami yeniliyin köhnəliklə mübarizəsindən danışanda əxilər kimi düşünərək köhnə əqidələri, köhnə budaqları cəsarətlə doğrayıb tökməyi məsləhət bilir. Fəallığa, hərəkətə üstünlük verir.

Nizami dünyanın zənginliyi, daimi inkişafı, get-gedə daha da gözəlləşməsi haqqında son dərəcə heyranlıqla danışır. Şairə görə, həyat daim irəliyə doğru inkişafdan ibarətdir; fikirlərdə, baxışlarda daim bir hərəkət və irəliləyiş vardır.

Gündə bu bağdan yeni bir bar gələr,
Hər şirinindən də şirin meyvələr.
Çoxlu həmaildir ürəklər tamam,
Hər biri xoşdur o birindən müdam.
Həm bu yolun yolçuları bax ki sən,
Zirək olur dəstə ötən dəstədən.

Bu irəliləyiş və inkişaf zamanı köhnəliklə yenilik qarşı-qarşıya gəlir. Köhnəlik öz yerini asanlıqla güzəştə getmir, yeniliksə onunla vuruşmaq, ona qalib gəlməklə özünü təsdiq edə bilər. Dahi şair mübariz bir mövqedə duraraq köhnəliyi rədd edir.

Nizaminin yeniliklə köhnəliyin qarşılıqlı münasibəti haqqındakı fikirlərini "Bir şahzadənin hekayəsi" yekunlaşdırır. Hekayədə göstərilir ki, Mərvdə yaşayan gənc bir şahzadə ölkəni yeni qayda ilə idarə etmək istərkən ətrafındakı mühafizəkar, dövlətli adamların ciddi müqavimətinə rast gəlir, ölkə ona asi olur. Köhnələr təzəyə qarşı üsyan edib onu ölümlə hədələyirlər. Ümidini itirən, bədbinləşən gənc şahzadə fikirli-fikirli yuxuya gedir. Yuxusunda bir qoca ona bu vəziyyətdən qurtulmağın yolunu öyrədərək deyir:

Ey təzə ay, köhnə olan bürcü sök,
Ey təzə gül, köhnə budaqları tök.
Ölkə səninlə ola ta bərqərar,
Şadlıq elə, sən də yaşa bəxtiyar.

Deməli, yeniliyin qələbəsini təmin etmək üçün onun qarşısını alan maneələr aradan götürülməli, məhv edilməlidir. Nizaminin yenilik tərəfdarı olan şahzadə qəhrəmanı da məhz belə edir. Yuxudan oyanan kimi iki-üç düşməni aradan götürür, köhnə qayda-qanunu pozaraq yeni qayda-qanun yaradır, ölkə yeniləşir, abadlaşır. Bu, Nizami dövrü üçün son dərəcə cəsarətli bir ideya idi. Qəhrəmanın qəti hərəkəti ilə razı olan şair hekayəyə əlavə etdiyi lirik ricətdə bu ideyanı daha da dərinləşdirir, qətiyyət və inamla belə yazır:

Ölməlidir mülkə pozuqluq salan,
Qovmalıdır olsa qoşun bədgüman,
Qol-budaq atmaz təzə şax, bil ki, sən,
Köhnə budaqları əgər kəsməsən.
Kəsməsən arxın önünü aşikar,
Göylərə qaldırmaz əli göy çinar.
Sən bulağın gözlərini açmasan,
Gözdən axıtmaz su bu yer heç zaman.

"Ovçu, it və tülkü" hekayəsində biz inamlı bir şəxsin təntənəsi ilə qarşılaşırıq. Ovçunun sədaqətli, qoçaq iti birdən yoxa çıxır. Ovçu çox kədərlənir, lakin canını dişinə tutub gözləyir, inamını itirmir, gücündən artıq bir səbrlə dözür. Bir tülkü gəlib ovçuya istehza edir, itinə qarşı vəfasız olduğuna, ondan ötrü qəm çəkmədiyinə görə ona tənə edir. Ovçu tülküyə inamla belə cavab verir:

- Hamilədir zil gecə,
Bir gün olar qəm keçəcək gör necə,
Mən bu dar ovlaqda onunçün şadam.

Şadlıq ilə qəm qala bilməz müdam...
Qaçdısa bir dəm itim, ey hiyləgər,
Sən kimi bir ovla geri tez dönər.

Ovçu bu sözləri deyib qurtarmamış toz dumanı qalxır, it duman içindən çıxıb tülkünü tutur. Ən ümidsiz halda belə inam insanı mükafatlandırır. Dahi şair bu dərin fəlsəfi məzmunlu hekayəni inam haqqında himnlə bitirir:

Kimdə inam olsa iradətlə yar,
Daim olar sonda səadətlə yar.
Getsə inamla ayaq olmazmı baş?!
Böylə fikirlə zərə dönməzmi daş?!
Olsa inamla qədəmin üstüvar,
Daima oddan su, sudan od çıxar.
Başqa olurlar inam əhli tamam,
Bizlər ayaq, oldu baş onlar müdam.

Əməyə və əmək adamına dərin məhəbbət Nizami yaradıcılığını səciyyələndirən əsas keyfiyyətlərdəndir. Şair başqa əsərlərində olduğu kimi "Sirlər xəzinəsi"ndə də bu mövzuya xüsusi diqqət yetirir, əməyi insanın zinəti, yaraşığı, onu hər cür bəlalardan qoruyan bir vasitə sayır. Nizami belə hesab edir ki, hər bir adam işləməli, zəhməti ilə dolanmalıdır. İstər məqalətlərdə, istərsə də ayrı-ayrı hekayələrdə onun insanı işləməyə çağıran hərarətli çağırışlarını eşidirik.

Ey əxi, nəfs itdir, onu çək dara,
Ruzi üçün açma əl alçaqlara.
Dadına paxıl rizqini, ye torpağı,
Torpaq olub, olma rəzil tapdağı.
Qoy əlinə, qəlbinə batsın tikan,
İşlə, çalış durma bekar bircə an.

"Süleyman və əkinçi", "Kərpickəsən qocanın dastanı" hekayələrində Nizami öz fədakar zəhməti ilə ruzi qazanan, zəhmət çəkməyi özünə borc bilən sadə adamların heyranedici surətini yaradır. Nizami əmək adamlarından həmişə dərin məhəbbət, yüksək hörmət hiss ilə danışır, onları hər cəhətdən başqa adamlara, xüsusən əməyə xor baxan tüfeyli hakim təbəqəyə qarşı qoyur. Quru bir çöldə dımağını bel, alın tərini su edib məhsul becərən əkinçini görən Süleyman peyğəmbər onun zəhmətini mənasız sayır, qocanı toxumu zay etməməyə çağırır. Lakin əkinçi öz ağıllı cavabı, sonsuz inamı, insanın həyatda vəzifəsi haqqında sağlam təsəvvürü ilə müdrik peyğəmbər Süleymanı utandırır. Otdan, ələfdən özünə paltar toxuyub, kərpic kəsməklə əldə etdiyi qazancla dolanan qoca bir kişi qızğın işlədiyi vaxt yanına tüfeyli bir gənc gəlir. Nizaminin təsvirindən görünür ki, bu gənc varlı təbəqəyə mənsubdur. O, qocaya məsləhət görür ki, yaşı ötmüşdür, daha işləməsin, heç kəs ondan bir parça çörək əsirgəməz. Qoca ağıllı, mərdanə cavabı ilə həmin avara gənci utandırır, onu öz nadanlığı, tüfeyliliyi üçün göz yaşı tökməyə məcbur edir. Qocanın sözlərində sağlam, ayıq bir həyat fəlsəfəsi gülümsəyir, hər kəsi öz həyatına nəzər salmağa, kim olduğunu anlamağa yönəldir. Nizami əsərlərində əmək və əmək adamlarına belə sağlam münasibət şairin yaradıcılığındakı demokratizmin, humanizmin ən parlaq ifadəsidir.

İsa peyğəmbərlə əlaqədar verdiyi bir hekayədə Nizami müdrik bir insanın surətini yaradır. Bazarın başında bir dəstə adam qarğa-quzğun kimi bir it cəmdəyini dövrəyə alıb, onun üfunət, xəstəlik mənbəyi olmağından danışır, dodaq büzürlər. Növbə İsa peyğəmbərə çatanda, o, söyləyir ki, heç inci də bu itin dişləri qədər ağ ola bilməz. Bu sözlər hər kəsi heyran edir, hamı başını aşağı dikib gedir, çünki düşündüklərinə, danışdıqlarına görə xəcalət çəkirlər.

Nizami yaradıcılığının böyük idraki əhəmiyyəti də məhz bunda, həyatı bədii mənzərəsini yaratmış, ən müxtəlif məsələlərdən danışmış, müxtəlif təbəqələrin həyatından söhbət açmışdır. Əfsanəvi, tarixi şəxsiyyətlərdən tutmuş müasir dövrün adi adamlarına qədər hamı burada əks olunmuşdur. Peyğəmbərlər, şahlar, xəlifələr, ruhanilər, kəndlilər, kərpickəsənlər, əlsiz-ayaqsız qarılar, avara, tüfeyli şəhər gəncləri, yeniyetmə uşaqlar, darğalar, oğrular, zəvvarlar, saray əyanları, yəhudi, atəşpərəst, müsəlman, xristianlar, saray xidmətçiləri, sufilər, varlı şəhərlilər - Nizami poemasındakı adamların ümumi və qısa siyahısı belədir. Ancaq dahi şair ilk poemasında bununla da kifayətlənmir. Adəmdən başlamış müasirlərinə qədər insanlığı bütün keçmişi, bu günü və sabahı ilə əks etdirməyə çalışan şair insanı yaşadığı təbiətdən, canlı və cansız aləmdən təcrid olunmuş şəkildə deyil, onunla birlikdə təsvir edir. Şair nədən





danışırsa danışsın, onu müasir həyat, müasir insanlar düşündürür, haqsızlıq, ədalətsizlik, zülm və özbaşınalıq hökm sürən bu dövrünsə adamları əsasən məhdud görüşlü, tamah, şöhrət və şəhvət əsiri olan insanlardır. Nizamini daha çox kədərləndirən də odur ki, məhz belələri başqalarına ağalıq edir, özlərini yüksək tuturlar.

Aləmə bax, başçıları kimdilər,
Adlıların adlıları kimdilər.

"Sirlər xəzinəsi" zəngin və mürəkkəb məzmunlu, yüksək sənətkarlıqla yazılmış bir əsərdir. Azərbaycan İntibahının qiymətli bir abidəsi kimi bu əsərin əhəmiyyəti ondadır ki, o, insanlığın nurlu sabahına, sadə adamlara məhəbbətlə doludur.

Xəlil Yusifli

93800

M.F.Axundov adına
Azərbaycan Milli
Kitab...

Bismillah irrəhman irrəhim
Oldu xəzinə açarın, ya həkim.

Haqq adı fikrin önü, həm söz sonu,
Qurtar adıyla sözü, yad et onu.

İlkidir aləmdə olanların o!
Baqisidir baqı qalanların o!

Oldu qədim aləmə bir sərvər o,
Taxdı qələm boynuna bir ziyvər o.

Çoxlu səxa çeşmələri car edib!
Hər nə ki vardır, o özü var edib!

Pərdəsini çərxin açar daima,
Sirri biləndən o qaçar daima!

Ləli günün toqqasına hey düzər,
Yerlə suyu otla, naxışla bəzər.

Arif olan kəslərə yol göstərər.
Ruzi yeyən kəslərə ruzi verər.

Hikməti ağlın sapına dür verib,
Güdrəti ağlın gözünə nur verib.

Alnına dağlar vuranı pakların,
Dövlət ilə tac verəni şahların.

Həm pozar o, bişmiş olan tədbiri,
Əfv eləyər istəsə həm təqsiri.

Şihnəsidir qovğada qorxanların,
Çeşməsi tədbir bilən insanların.

Varlığın ilki, sonudur aşikar,
Kainat ondan yox olar, həm də var.

Güdrəti bildi iki dünyanı kəm,
Əvvəlimiz, axırımız bircə dəm!

Kim bu qoca mülkdə haqdan kənar
"Mülk mənimdir!" deyərək səs salar?!

Vardı o, yoxkən hələ alçaq, uca,
Bunlar olar yox, yaşar o, daima.

Daim əzəl dərsi alanlar da heç
Açmadı bu müşkülü, boylanma keç.

Gör əzəli elmi nə dərya imiş!
Gör əbədi mülkü nə səhra imiş?

Kim ki, cahanda yaşayıb ömr edir,
Fərmanına tabe olan bəndədir.

Saldı bədən bağına o, hurini,
Nərgisin ondan tapıb öz nurini.

Dağ yamacı, yer papağı hey gərək,
Şükr edə ehsanına min-min ətək.

Haqq kərəmi nurda olarkən nihan,
Qəndə qamış yaddı, gülə tirtikan.

Ta ki səxavətlə o etdi kərəm,
Yoxluğu tərk eylədi varlıq o dəm.

Eşqü həvəsdən bu neçə kənd üçün
Düşmüş idi çərxin işi dürdüyün.

Haqq düyünü açmasa, tapmaz bir an
Gündüz əlindən gecə zülfü aman.

Səpdi göyün dürlərini göydəcə,
Yox tozunu sildi saçından gecə.

Çəkdi beş-üç dairə o, göylərə,
Yeddi düyün vurdu özü həm yerə.

Tikdi bu ağdan, qaradan sonra da
Ayla günə cübbə ilə bir qəba.

Verdi buludçün, ödü dəryadan o,
Açdı Xızır çeşməsi səhradan o!

Sübh camın torpağa tökdü xuda,
Atdı daşın ağzına bir damla da.

Qatdı, qarışdırdı o suyla odu,
Böylə yaratdı dür ilə yaqutu.

Torpaq ürək qanını yellə yenə
Tökdü o, ləlin cigəri üstünə.

Etdi səxa bağını göylər gözəl,
Söz quşu səs saldı göyə əlbəəl.

Verdi dilin nəxlinə tər xurma haq,
Oldu ağız dürr, sədəfsə qulaq.

Pərdəyə tutdu yuxunu burda o,
Verdi suyun əyninə bir can donu.

Tutdu yerin zülfü ilə aləmi,
Qoydu "əsa" xalı ilə Adəmi.





Xarlığı sildi üzərindən zərin,
Sildi yağışla qanını güllərin.

Qoy dedi ulduzla silinsin hava,
Güllərə versin canını xoş səba.

Qoydu yerin bağrına dünya qanın,
Qəlbə verib ağlını o, insanın.

Verdi təbəssüm dodağa, gül deyə,
Sən gecə mütrüb – dedi – ol! Zöhrəyə.

Əmri ilə müşk satandır gecə,
Bəndəsi olmuş təzə ay göydəcə.

Əldən uzun oldusa dünyada söz,
Xeymə daşıyla başını yardı tez.

Getdi düşüncə bu yolu yortaraq,
Haqq qapısından əliboş döndü, bax!

Çox yol aşıb tapmadı bir əslini!
Gəzdisə göz, tapmadı heç mislini!

Gəldi ağıl, çünki mən etdim tələb,
Mən ona öyrətməli oldum ədəb.

Göydə gəzənlər yolunu getmədə!
Ərşi süzənlər ona meyl etmədə!

Keçdi fələklər başına xaltası,
Doldu yerin qəlbinə həm sövdası!

Can tək ürək olsa da pak, pürvüqar,
Haqq qapısında yenə qul tək durar.

Yerdə bitənlər o, verən danədir,
Bağı gülündən irəm əfsanədir.

Bildi Nizami onu öz arxası,
Torpağı tövhid dəninin tarlası.

## TÖVHİD VƏ MİNACAT

Hər var olan varlığı ey var edən,
Tapdı səninlə gücü torpaq bədən.

Bayrağın altında oturmuş cahan,
Sənlə varıq biz, sən özünlə hər an.

Varlığının surəti yoxdur sənin,
Bənzəri yoxdur sənə bir kimsənin.

Hər nə dəyişməz, nə deyim, sənsən o!
Ölməyib, ölməzsə də kim sənsən o!

Biz gedəri, daimi sənsən fəqət!
Təkcə sənindir bu uca məmləkət!

Göylər üçün dövranı sən vermisən,
Yerdə bədənçün canı sən vermisən.

Sən bu kürən köhləni çapsan əgər,
Özgə "Ənəlhəq" sözünü kim deyər?!

Səndən alıb eşq səbr qüvvəti,
Çatdı adın cəzbəsinə taqəti.

Ta kərəmin aldı yeri qoynuna,
Düşdü ağır yük cahanın boynuna.

Öz kərəmindən törəyib doğdu yer,
Yoxsa qarından göbəyi tez düşər.

Səcdə boyunbağına verdin nizam,
Qeyri kəsə səcdə haramdır, haram!

Kim ki demir səndən, o sussun gərək,
Söz səni yad etməsə, heçdir demək.

Oldu gecə saqisi ancaq gədan,
Sübh quşu tabe sənə hər zaman.

Pərdəni at, sən tək özün çıx çölə,
Pərdə mən olsam da, onu məhv elə.

Çərxə öz acizliyini et bəyan,
Aç dəxi dünya düyünün dünyadan.

Nəqşini poz durma yetər rüzgarın,
Sürətini məhv elə ulduzların.

Ver qələmə nitqini sən dillərin,
Heçliyə tez borcunu qaytar yerin.

Zülmətilər nurunu al, hər nə var,
Cövhərilər olsun ərəzdən kənar.

Altıbucaq kürsünü sındır görək!
Doqquz ayaq minbəri tez qır görək!

Torpağına çırp ayı bu möhrənin,
Daşla vurub qır camını Zöhrənin.

Qır sapı sən nurlu bu muncuqları,
Vur gecə-gündüz quşunu tez barı.

Əz də bu torpaq təpəni sən silib,
Qalmaya ta bir dənə kərpic qəlib.

Göydə gecə tozları qoy qalmasın,
Cəbhə ilə əxbiyə yüksəlməsin.

Poz həyatın, poz bu yeni rəngini,
Çal zamanın öz qədim ahəngini.

Bir yeni qaydayla tez ol, tez çıxar
Çərxi sükunət-hərəkətdən kənar.

Zülm oduna tezcə su tök bir görək!
Torpağın altda qoy otursun külək!

Yax bu münəccimlərin al dəftərin!
Kim tapınır al günə, yum gözlərin.

Sən bu hilal bürcü boşa tez çıxar,
Pərdəni et boşca xəyaldan kənar.

Ta görüb iqrar edələr: tanrısan!
Özləri heçdir biləlær tez haman.

Qəhr eləsən də bizə sən çox, yenə
Kimdə var üz qalxa, şikayətlənə.

Yox bahası töksən əgər bir qanı,
Kim xilas eylər sən asan insanı?!

Cana ağıl nuru verib lütf ilə,
Verdin ürək tamını da sən dilə.

Sən gecənin mənzilin etdin uzun,
Gündüzü, getsə gətirərsən özün.

Çərxə yeriş, qütbə veribsən səbat,
Gülşəninə varlığın abi-həyat.

Nəsrin, o qəmzə ona neylər səba?!
Torpağın etmişdir onu tutiya!

Bəndən olub qönçə taxıbdır kəmər,
Sənlə varam – gül deyir axşam-səhər.

Bildi Nizami səni bir, ey xuda,
Yol tozun olmuş hər iki dünyada.

Könlünü ürfan ilə abad elə!
Qəm tələsindən onu azad elə!

## MİNACAT

Biz yox ikən ey binadan var olan,
Biz gedənik, ey həmişə sağ qalan.

Hökmün üçün oldu yedəkçi zaman,
Çul daşıyan oldu sənə asiman.

Biz qulunuq, qəmli, başı qovğalı,
Qullarınıq həm qulağı halqalı!

Kimsəyə möhtac deyilik biz bir an,
Bizləri sənsən bir özün oxşayan.

Oldu səninçün bu ümid, qorxu da,
Rəhmə gəl, əhv et bizi sən, ey xuda.

Çarə qıl, et dərdimizə bir kömək,
Sən bizi qovsan, kimə üz döndərək.

Dağlı itik biz sənə, heç hökmran,
Dağlı iti ovda bəyənməz bir an.

Öz bağının meyvəsiyik, biz buyuq!
Dağlı itik, xaltalı bir qumruyuq!

Söylə nə dildir bu, nə sözdür, nədir;
Dinməyi, həm susmağı peşman edir.

Qəlb hara, bəs bu qanad-qol hara?!
Haqqa pərəstiş hara, bir qul hara?!

Cumdu bu dəryaya nə cürətlə can?!
Qəlb su içdi necə bu saf sudan?!

Bax, sifətindən tutulub nitqimiz,
"Mən ərəfallah" oxuduq burda biz.

Çiy sözümüzdən xəcilik, şərmsar,
Sən bizi əhv eylə, a pərvərdigar.

Əlsiz-ayaqsız yanına gəlmişik,
Arzu, ümidlə qapına gəlmişik.

Arxa ol, ey qəmlilərin munisi,
Çarə qıl, ey çarəsizin çarəsi.

Qafilə getmiş, dalayıq gör ki, biz,
Kimsəsizik gör necə, ey kimsəmiz?!

Arxa kim olsun bizə, sən ver soraq!
Kim dayaq olsun bizə, sənsən dayaq!





All qapın tək bizə bir qiblə var,
Oxşamasan sən, bizi kim oxşayar?!

Kim sənə əl açdı axı biz qədər?!
Kim bu qədər çəkdi ahı biz qədər?!

Yalvarırıq, suçluyuq, əhv et görək,
Biz ki sığındıq sənə, ol sən kömək!

Sənlə Nizami yetişib ad-sana,
Əsl ağalıqdır qulun olmaq ona.

Həmd, sənadan dilinə töhfə ver,
Mərifətindən canına pay yetir.

## PEYĞƏMBƏRLƏRİN SONUNCUSUNUN, ALLAH ONA RƏHMƏT ELƏSİN, NƏTİ

Yazdı o ilk lövhə "əlif" hərfini,
Açdı tez "Əhməd" sözünün zərfini.

Verdi "ha"nın halqəsinə bir şəhər,
Etdi həmayıl "dalı", "mim"dən kəmər.

Xidmətinə durdu onun "mim"lə "dal",
Verdi ona bir belə dövlət, kamal.

Göylərin altında göyə yüksələn,
Təzə turunc idi behiştdən gələn.

Qayda turunca belədir dünyada:
Meyvə verər, yaz gətirər sonra da.

Ta nəbilik qalxıb ucaltdı ələm,
Son nəbilik Əhmədə çatdı o dəm.

Göydə zəbərcəd bir üzükdür qəmər,
Oldu Məhəmməd möhürü qaş məgər.

Taxdı cahan halqasını "mim"inin,
Hər iki aləm qulu olmuş həmin.

Yolda ağa oldu, Məsiha nökər,
Oldu "xeyirsözlü" o, bu, "xoşxəbər".

Bisavad Adəmlə Məsihdən deyir,
Bunda o, "mim", onda "əlif"dən deyir.

Əhdinə düzdür bir əliftək tamam,
Ənbiyaya əvvəl, axırdır müdam.

Pərgarın ən parlaq olan nöqtəsi,
Sözlərin ən pərgar olan nüktəsi.

Dünyada kibri, qüruru sevmədi,
Aləm önündə başını əymədi.

Tapdı sözündən hər ədəb şöhrəti,
Çərx belindən götürüb nisbəti.

Öz hərəmində yaşar ismətilər,
İsməti də bəslər o, axşam-səhər.

Gözdən olub qəbri cinayət silən,
Qürbətə düşsə, bac alar Məkkədən.

Susmağı natiqlik edib dür səpər,
Dostluğu eybə od olan bir hünər.

Fitnə yatırmaq - gözəl ondan bu, çox!
Məftun ona olmamaq imkanı yox!

Hər xeyirə baş, hamıya başçıdır,
Qütb kimi tez gəzən, amma ağır!

Qəlbi ilahi çıraq olmuş ona,
Bilmiş əzəl dərsini başdan sona.

Oldu günəş ərşdə möhtac ona!
Aypara oldu gecə meracına.

Etdi geniş dar nəfəsə meydanı,
Nalladı axşam süzən ağ madyanı.

Çəkdi qayıtsın deyərək intizar,
Sübhün ala atlıları durdular.

Mənzilə çatdıqda qaçıb köhləni,
Çul daşıyan eylədi Nizamini.

## PEYĞƏMBƏRİN MERACI HAQQINDA

Çıxdı yarım gün şahı yarı gecə,
Məşəli süzdürdü uca göydəcə.

Etdi kəcavə gözünü asiman.
Oldular Ay, Zöhrə də məşəl tutan.

Kainata verdi: o, dörd həddi tez,
Altı cəhət, yeddi olan xətti tez.

Eylədi gündüz qədəmiylə vida
Saldı gələn dəm o, gecə səs – səda.

Tutdu həm əğyan yuxu qayğıdan,
Çünki o, döndərdi üzü uyğudan.

Uçdu qəfəslə quşu öz könlünün,
Tezcə bu tordan ora getmək üçün.

Tökdü qanad quş dəxi, yəni mələk,
Xirqəsini tulladı, yəni fələk.

Can quşuna oldu qanad, həm qəfəs,
Qəlb ilə eylərdi bədən göydə bəhs.

Getmədə, yüksəlmədə o, anbaan,
Göylər onu çəkmədə həm durmadan.

Hər iki aləm ona göz dikdilər,
Başlarını səcdə üçün əydilər.

Daim ayaq sürət ilə getmədə!
Mənzili yüz qat tez o, qət etmədə.

Tulladı o, köhləni axır yerə,
Tutdu mələklər çulu birdən-birə.

Döndü bu yer mədənə, o, gövhərə,
Çərx onu tac etdi uca göylərə.

Qapdı gecə gövhərini bir gecə,
Çərx öküzü yer öküzündən necə!

Aldı səfər vaxtı özü ərməğan
Tac Sərətandan, kəməri Cövzadan.

Xuşə sığal verdi görüb zülfünə,
Sünbüləni tulladı Şir bürcünə.

Axşamının qədrini bilsin deyə,
Zöhrə götürmüş tərəzi çəkməyə.

Tökdü şirə yarpağı süsənbərin
Quyruğuna əqrəb olan göylərin.

Yaydan ox atdıqca onun barmağı,
Zöhrə atıb qaçdı o dəm Oğlağı.

Oldu o, Dol Yusifi bir gün sayaq,
Oldu Balıq Yunis o doldan qıraq.

Qoçda Süräyya özü taxtın qurub,
Çöldə çiçək ordusu yan-yan durub.

Etdi o gülşəndə olan gül, çiçək
Yerləri əlvan necə yaz fəsli tək.

Oldu gecə sübh, əcaib bahar!
Sərvə dönüb gül, nə əcaib süvar!

Bir bax, o gül, nərgiz olan bağ ilə,
Sürmələnib nərgizi "ma zağ" ilə.

On ədəb öyrətdi ona asiman,
İstədi üzrü nəbilərdən o an.

Cırdı göyün örtüyünü barmağı,
Oldu mələklər yükü həm bayrağı.

Müşk götürdü dodağından gecə,
Atdı ay at nalını tez göydəcə.

Böylə qaranlıq gecə şimşək sayaq,
Ərşi ayaq altına almış Buraq.

Kəkliyə oxşardı o şahin yaman,
Vardı huma şövkəti, həm biguman.

Çıxdı bu firuzə çəməndən çölə,
Getdi o gün ərşə yetişdi belə.

Köynəyi oldu sinəsi Sidrənin,
Ərş ətəyindən aşağıydı sənin.

Atdı səfər dostları bir-bir süpər,
Qalmadı onlarda olan balü pər.

Heyrətə düşmüş o qəriblər kimi,
Tez qapını döydü igid ər kimi.

Pərdəlilər ki, onu seyr etdilər
Məhmilini tək buraxıb getdilər.

Yoldaşı yox bir yol ilə getdi, həm
Olmadı agah qədəmdən qədəm.

Qaldı bu sirli qapıda başqalar,
Oldu o da burda özündən kənar.

Varlığa addımları bir tac idi,
Ərş özü bu nemətə möhtac idi.

Ta ki bütün sözlərə çəkdi qələm,
Ərşin özündən o, ucaltdı ələm.

Nəbzini saydıqca canın hey bədən
Canla bədən oldu qoşa yolgedən.

Dövləti ərşin yetişərkən sona,
Çatdı ürək, can sözü qəlbə, cana.

Qaçdı bədən əsl evinə sonra tez,
Görmədi göz burda heç ondan bir iz.





Düşdü qədim bir yola ordan mətin,
Pərdəsini tulladı o, xilqətin.

Etdi başı yol gedərək biqərar
Sonra təbiət yaxasından kənar.

Himməti dolduqda könül nur ilə,
Gəldi o, mənzil tanımaz mənzilə.

Saldı o pərdə onu lap qeyrətə,
Düşdü bu yandan da fəqət heyrətə!

Getdi, ayaq çəkmədi zəhmət fəqət!
Sıçradısa, almadı rüsxət fəqət.

Çıxdı o, söz tək lap özündən tamam,
Tapdı haman ləhzə qəbulçun salam.

Atdı göründükdə o sonsuz calal,
Pərdəni təzim qapısından vüsal.

Atdı ayaq başə tamam get-gəli,
Can göz açıb baxdı: nə var görməli!

Gördü o bir nur ki, görməz zaval
Baxdı o bir gözlə ki, bilməz xəyal.

Qəlbə yatan bir söz olubdu bu da!
Gördü xudanı, görünəndir xuda.

Cövhər ərəzsiz görünər haqq üzü,
Cövhər, ərəzdən çox o yandır özü.

Görməsini çoxlar əbəs gizlədi,
Kordur əgər kimsə ki, görməz dedi.

Məbudu görmək xoş olar dünyada,
Bil, görünəndir, görünəndir xuda!

Pərdəni o, gördü məkan bilmədən,
Həm bu yolu getdi zaman bilmədən.

Kim ki bu xas pərdədə tapmış qəbul,
Burda cəhətsiz gedərək tapdı yol.

Sən sifətin danma ki, bu küfr olar,
Onda cəhət axtaranın cəhli var.

Vardır o, aydın məkanı yoxsa da,
Kim ki deyildir belə, olmaz xuda.

Gördü Məhəmməd onu, yad gözlə yox,
Başda olan gözlə, bunu danma çox!

Haq - şərabından gedərək daddı o,
Qəlbimizə bircə udum atdı o.

Naz çəkəni oldu xuda şəfqəti,
Oldu əzəl lütfü də həmsöhbəti.

Gülməsi bal saçdı dodaqdan hər an,
Ümmətini istədi o, tanrıdan.

Xəznə ilə çatdı vara himməti,
Çatdı başa hər diləyi, niyyəti.

Etdi onu gücü ulu barigah,
Gəldi bir iş görməyə dünyaya, şah!

Etdi səfər eşq ilə, çıxdı yola,
Bir nəfəsə getdi, qayıtdı dala.

Ey sözü dillər möhürü hər zaman,
Ətrini can dərmanı tək daddı can.

Qalx, səxa dövrünü sən xətm elə,
Şer də bitsin bu Nizami ilə.

İKİNCİ NƏT

Şəmsəsi doqquz göy ilə ulduzun,
Ənbiyalar sahibidir, həm yekun.

Torpağı olmuşdur ağıl hər zaman,
Bağlı onun tərkinə bir cüt cahan.

Açmış o tər sünbülü naz səhrası,
Vermiş o xas gövhəri sir dəryası.

Sünbülü al gündüz üçün sünbülə,
Ləl verib gövhəri günçün belə.

Gülmür o üzdən o şəkər ləbləri,
Tökməsin abrın sədəfin gövhəri.

Etmədisə gövhəri daşla savaş,
Gövhərini bəs nə üçün qırdı daş?!

Daşdan idi çünki ürək dünyası,
Çəkdi hücum qupquru, xam sövdası.

Ləli əzən olmasa, gövhər qıran,
Söylə "müfərrih" törədər daş haçan?!

Eylədi düşmən daşı gen dünyada
Bircə dənə gövhəri ondan cüda.

Çıxdı çölə gövhər o dar mücrüdən,
Doğsa göhər daşdan, əcəb sanma sən.

Varmı zəri qanbaha versin ona,
Gəldi yara vurdu onun ağzına?!

Daşdan əgər lalü göhər çıxsa da,
Dişçün olar birgə ləbiylə baha.

Yerdə olan daşdakı gövhər yaqin,
Qanbahası olmaz o gövhər dişin.

Bir dişinə qanbahasıyçün zəfər
Candan onun oldu qulu sərbəsər.

Daş dəyərək qanla yudu ağzını,
Bir daha doğrultdu kərim adını.

Candan, ürəkdən dişini dartdı o,
Fəthə görə şükr edərək atdı o.

Arzu yolunda dişi etdi fəda,
Yoxdu gözü əsla iki dünyada.

Durmuş idi səf-səf onun ləşkəri,
Əlləri bayraqdı, dili xəncəri.

Xəncəri atdı dişini birbaşa,
Xəncər əgər dişlisə, gəlməz xoşa.

Ta ki onun lütfünə salsın nəzər,
Xan atıb görsün o güldən bəhər.

Bağ doludur güllə, tikandan dema!
Sap dolu muncuqla, ilandan demə!

Təbi – Nizami o bağın bir gülü,
Öylə gülün xoş-xoş ötən bülbülü.

ÜÇÜNCÜ NƏT

Cismi canından da pak ey dünyada,
Ruhu da sən bəslədin, "ey can fəda".

Rəhm evinin mərkəzi sənsən ki sən!
Nöqtəni "zəhmətdən" özün silmisən.

Sənsən ərəb yolçulara ay hər an!
Sənsən əcəm şahlarına hökmran!

Tapdı səninlə yolu hər yol gedən,
Kəndə böyük, kənddə yox bir bədən!

Getsə tamaşaya kəramətlilər
Ruzini dostlarla bərabər bölər.

Süfrə başında yediyin xurmadan
Bəs nə gətirdin bizə sən ərmağan.

Ağzını aç, saç hamıya sən şəkər,
Ta görələr xurma dilindən bəhər.

Ey gecə zülfü bizə ruzi-nicat!
Eşqinin atəşləri abi-həyat!

Ağlı üzün gör necə məftun edib!
Zülfün özü hər kəsi məcnun edib!

Çərx-kəmər ilgəyinin bəndəsi
Sübh sənin gün üzünün gülməsi.

Sənlə batıb müşkə bu yer hər zaman,
Sənlə qurutmuş ətəyi tər cahan.

Müşk saçan torpağın etdi əsər,
Müşk saçan oldu o yer sərbəsər.

Ötdü Süleyman yelini torpağın,
Keçdi o cənnət bağını həm bağın.

Təkbirin üçün canamaz Kəbədir,
Xoş sözünün şərbətinə təşnədir.

Daima taxt-tacını saxlar cahan,
Taxtın olub yer, tac olub asiman.

Aydır o, yox kölgəsi əsla onun,
Kölgəsidir yerdə o, haqq nurunun.

Dörd ələmin – rüknü müsəlmanlığın,
Beş namazın – növbəti sultanlığın.

Sənlə zəlil torpağı gülzar olur,
Sənlə əzizlər gözünə gəldi nur.

Addımın altında qalarkən fələk,
Göylərin üstündə çəkən vaxt ətək.

Dürr ilə doldu ətəyi göylərin,
Zərlə vuruldu bəzəyi göylərin.

Ağ sədəfi üstünə sübhün səba
Qaliyə saçmaqda əl açmış vəfa.

Bir yürüş etdikdə səba sübh çağı
Tulladı ənbər qoşunu bayrağı.





Titrəyən o ənbərinin ətrinə
Versən iki aləm ucuzdur yenə.

Sidrə olub taxtına bir qul hər an,
Eyvanının kürsü yeri asiman.

Sübh işıq saçsa o can pəncərən,
Bir toz olar ərş o günəşdən həmən.

Tullamasa güzgüsünü sübh əgər,
Torpağa nurun necə, hardan düşər?!

Ey iki aləm niyə yatdın yerə?
Xəznə kimi sən niyə batdın yerə?

Torpağın altındasan, ey xəznə sən,
Xəznə edər torpağın altın vətən.

Fəqrin özü xəznənə viranədir,
Kölgən özü şəminə pərvanədir.

Ahlarına göylər olubdur nişan,
Dəlv olubdur quyuna ip hər an.

Daima dönməkdə olan ağ, qara
Qasidin olmuş burada yollara.

Xəstə düşüb əql, ona sənsən təbib
Ay səfər üstə, ona sənsən qərib!

Qalx, Nizami təbini şad elə!
Sübh gətir, dərdliləri yad elə!

DÖRDÜNCÜ NƏT

Ey mədəni örtülü, Məkki niqab,
Kölgədə qalmaz bu qədər afitab.

Aysan, o gündən sən işıq, nur gətir,
Gülsən, o bağdan xoş ətirlər yetir.

Yolda qalıb göz, dodağa gəldi can,
İmdada, fəryada yet, ey mehriban!

Min gecə-gündüz – qara - ağ köhləni,
Sür əcəmə, tərk et ərəb ölkəni.

Qur təzə aləm, təzələ dövranı,
Şöhrətin ilə tut iki dünyanı.

Kimdir əmirlər?! Vur özün sikkəni!
Xəlfələrə sus de, de sən xütbəni!

Müşk ətirin çulğadısa hər yeri,
Əsdi, onu qovdu nifaq yelləri.

Taxtını asudə yatanlardan al!
Minbərini çirkə batanlardan al!

Evdəki divdirlər, axır qov çölə,
Heçliyin anbarına at, məhv elə.

Əcri azalt, çox yeyir onlar, tanı,
Oğrudur onlar özün al iqtanı.

Biz bədənik, durma yetiş can sən ol!
Biz hamı diviksə, Süleyman sən ol!

Darğa isən, qafilə tənha nədən?
Ortada sənsən, aləm orda nədən?

Dinə pozuqluq salır onlar yaman,
Pusqu qururlar ona hər bir zaman.

Bir Əli göndər səfinə meydanın!
Ya bir Ömər qarşısına şeytanın!

Sal gecəni tez yəməni aya sən,
Çək başı ay tək Yəməni kürkdən.

Hərbə necə azğın ilə ol hazır,
Dini pozanlar büsatın tezcə qır.

Beş yüz ilə yetmiş olar yatmısan,
Gün də keçir, məclisə gəl durmadan.

Dur belə bir əmr ver İsrafilə,
Qalxıb üfürsün bu necə qəndilə.

Sirlərinin pərdəsinə dal hər an,
Biz hamı yatdıq, sən özün qalx, oyan.

Qalx bu afət dolu aləmdə gəl,
Sən tut əlindən hamının əlbəəl.

Hər nəyi təqdir eləsən, haqq olar,
Səndən axı kim soruşar sorğular.

Lütf ilə salsan sən əgər bir nəzər,
Hər nə ki lazımsa olar sərbəsər.

Barmağın ilə cahana çevrə çək,
Hər nə ki vardır sənin olsun gərək.

Kim qarışar işlərinə iş çağı
Əfv eləməkçün bir ovuc torpağı?!

Açsan üzündən sən əgər pərdəni,
Tullar iki aləm o dəm xirqəni.

Gəzdi Nizami sorağınla hər an,
Qəlbi xoş ətrinlə yaşar hər zaman.

Ruhuna lütf ilə vəfa ətri ver,
Mülki-Süleymani gədayə yetir.

BEŞİNCİ NƏT

Ey nəbilər tacına gövhər hər an,
Şahlara, sultanlara tac paylayan.

Yadü yaxın hər nə qədər canlı var,
Burda himayəndə sənin xoş yaşar.

Başladısa beyti adınla xuda,
Qafiyə etdi adını sonra da.

Əmr olunarkən bu viran kəndi siz –
Adəm ilə sən belə şenlətdiniz.

Hər bir evin bər-bəzəyi, qiyməti,
Əvvəl, axır kərpicidir zinəti.

Adəm ilə Nuh kimisən! Yox, dayan!
Sən bələdan onları qurtarmısan.

Buğda yeyib gördüsə Adəm zərər,
Tövbəsi oldu ona bir gülşəkər.

Olmuş ürək tövbəsi ətrin ona,
Torpağını gülşəkər etmiş cana.

Sənlə ürək tövbə dedi, gülşəkər,
Gördü bunu şərm elədi gülşəkər.

Oldu qəbulçun top əzəl vaxtı var,
Ordan ürək meydanına atdılar.

Atlanaraq Adəm o ad-san ilə,
İstədi alsın topu çövkən ilə.

Atla fəqət sünbülə meyl etdi o,
Qoydu topu, bir bucağa getdi o.

Nuh susamış gördü haman süfrəni,
Tufana düşdü itirib çeşməni.

Yüyrüyü İbrahimin üç-dörd kərə
Dəydi yerə çatmadan o, bir yerə.

Təngnəfəsdi özü Davud bu an,
Burda onun çıxdı səsi bəm yaman.

Burda Süleyman da həya etdi, bax,
Mülkü sevirdi, deмədi ver papaq.

Görmədi Yusif bu sudan bir nişan,
İplə dol oldu ona ancaq çatan.

Xızr əliboşca qayıdarkən yolu
Gördü ki, yaşdır ətəyi, tapdı su.

Musa bu camdan əli gördü təmiz,
Əmidə çırpıb şüşəni qırdı tez.

Atmadı Musa bu dənə əsla can,
Töhmətə düşmüşdü başı çox yaman.

Şah kimi durdun bu işin qəsdinə,
Kölgəni saldın bu işin üstünə.

Gəldi bu məktub sənin ünvanına,
Sənlə bu xütbə yetişibdir sona.

Qalx, fələkdən daha artıq dolan,
Görməz o, iş, sən gör işi hər zaman.

Oldu fələk xütbə üçün meydanın,
Top kimi tutmuş cahanı çövkanın.

Ta ki, fəna tozları heçlikdədir,
Köhləni çap, tezcə bu meydana gir.

Kimdir aparsın suyu camdan fəna?!
Girsin o heçlik naçidir meydana?!

Heçliyi et heçliyin öz dustağı,
Faniliyə bağla fəna qolbağı.

Dilsiz olan kəslərin ey həmdəmi,
Xəstələrin dərdinin ey mərhəmi.

Can gəmisin əql özü şərin ilə
Qan dənizindən çıxarıb sahilə.

Qiblə bu doqquz göyə olmuş qapın,
Altıca günlük yol o mişkin saçın.

Başdan əgər düşsə sənin bir tükün,
Mülk dəyər bir-birinə büsbütün.

Üzdə qələmlə oxuyarsan nə var,
Əql ilə sən içdə duyarsan nə var.





Qoymaz əlin bir sözə heç vaxt ayaq,
Ta sözünü sürtməyə barmaq nahaq.

Gördüsə barmaq hamının sözləri,
Görmədi barmaq sözünün heç biri.

Oldu qapın torpağı unla şəkər,
Xurma ilə püstə o dürlə göhər.

Eşq çölündə bir ovuc versən un,
Eşq üçün o ruzi olar qırx gün.

Sən mənə bir təzə nicat sübhüsən,
Torpağınam, abi-həyatımsa sən.

Torpağını can bağı bildim hər an,
Gülşənin olmuş mənə can, həm cahan.

Hey başına görcək o gülşən bağı
Yel kimi dönnəm, olaram torpağı.

Torpağını çəkdi Nizami gözə,
Çul daşıyan oldu səninçün təzə.

Ta eləsin başlar ətirdir deyə
Torpağımı başlarına qaliyə.

İSLAM PADŞAHI
MƏLİK FƏXRƏDDİNİN MƏDHİ

Aləmi bax bəndə salan kəc fələk
Eylədi dustaq məni bir nöqtə tək.

Qandalımı açmağa yox qüvvətim,
Kölgədəyəm, yox nə hüma şövkətim.

Torpağa batmış ayağım lap dərin,
Tərkinə bağlanmış əlim göylərin.

Mən başı atdım ayağım altına,
Dizlərimi etdim ayaq, baxsana?

Gör necə parlaq yaranıb ki üzüm,
Qəlbimin öz güzgüsü olmuş dizim.

Seyrinə daldım bu gözəl güzgünün,
Atdım o göz güzgüsünü büsbütün.

Hansı, görüm, güzgü mənə nur salar,
Hansı alovdan ya su qismət olar.

Seyr edib ağlın nəzəri hər yanı,
Qucdu əliylə elə bil dünyanı.

Gördü o yerdən ağlın himməti
Rütbə verən gənc vəlinemati.

Bəxti uca, hərbdə aslan ürək,
Mavi bu bağda yetişən tər çiçək.

Xızr idi, İskəndərə bənzər yaman,
Qütbi-rəsədbənd, "Məcəsti" açan.

Varlığın ilk məqsədi olmuş yəqin,
Gəlmiş ona ayəsi həm məqsədin.

Çərxi-fələk tac, Süleyman nigin,
Aləmə o fəxr məlik Fəxrədin.

Verdi onun olması Davud nəsəb
Bir də Süleyman adına şan-şərəf.

Ondan o İshaq ələmi alidir,
Düşməni vardırsa simailidir.

Altı cəhət, yeddi də taxta pənah;
Nöqtə bu doqquz göyə Bəhramşah.

Eyləsə Bəhramlıq, o etsə zur,
Tuş olacaq qəbrə o Bəhram Gur.

Güclüsüdür şahların dünyanın,
Elmdə şöhrətlisidir dövranın.

Eylədi xalqın malı bu aləmi,
Olmuş o Ərmən şahı, Rum hakimi.

Taxtı onun oldu xəlifə məqam,
Fəth edir Abxazı, edir Rumu ram.

İnsanın ən adili, ən alimi,
Rəhm, səxavətlə tutub aləmi.

Din-fələk, ulduzlar onun növrağı,
Mülk-sədəf, dür qapısı torpağı.

Dürlə, balıqla dolu dərya, bulaq,
Bəhr-təlatüm, durur amma bulaq

Toqqasının ləli gülür, bax, yenə,
Al günəşin toqqasının ləlinə.

Hər kəs ona pəncə atarsa əgər,
Pəncə vurar, göylər onu incidər.

Zəngi edər göyləri səslənsə kar,
Od nəfəsi ay şüşəsin sındırar.

Başdan əzəldən gözəl əyyamı var,
Ədli ilə xeyr sərəncamı var.

Ovcu səxa camına bir saqidir,
Baqi qoy olsun, necə ki baqidir.

## HÖKMDARA XİTAB VƏ TƏZİM

Ey şərəfi, şanı olan adəmin
Tapdı səninlə gözü nur aləmin.

Çərx səfərlərdə olubdur yarın,
Nazına bir hamilə doqquz qarın.

Tapdı o bir cüt balıq ondan şərəf,
Oldu qılıncın göhəriçün sədəf.

Ay gecə xəncər çəkər olsa əgər,
Xəncərini görcək atar tez süpər.

Xəncərinin çeşməsi olmuş Fərat,
Tökdü tuluqdan yerə abi-həyat.

Kim ki, bu tufanda sevər uyğunu,
Nuh ola, dərhal aparar su onu.

Camı Keyə, həm Cəmə peymanədir,
Boğdu günü, kölgən o pərvanədir.

Şir ürək ol, sənsən axı ər yıxan!
Şir nəçidir?! Sənsən axı şir yıxan!

Göy bu meşə şirlə dolu olsa da,
Çərx özü səndən çəkinir dünyada.

Hərbdə kim sənlə de, bəhs eyləyər?!
Kimdə olar sən tək ürək, ya ciyər.

Hər nə var altında bu mavi göyün,
Oldu sənin arzuna tabe bu gün.

Var əlin altında bax üç-dörd nəfər,
Olsa əl üstündə mələk bəs elər.

Dövr sənə xatəmi-dövran – dedi,
Torpağına yel də Süleyman – dedi.

Mülk verib tanrı, cavanlıq sənə,
Mülkü verib, sahib ol öz mülkünə.

Bəxtin ilə torpaq olar simü zər,
Zəhr səni yad eləsə bal, şəkər.

İçsə Firidun meyi sənsiz bir an,
Çiyninin üstdə bitəcəkdir ilan.

Mütrüb ilə saqi varındır, mey iç!
Baqi olan mülk ilə qəm çəkmə heç!

Mülkə keşik, şahlar üçün arxasan,
Tac və qılınc sahibisən hər zaman.

Möhkəm, iti, zağlı qılıncınla sən
Taxt ilə tac fəth eləyən gəlmisən.

Saçdı xəzinə o, xəliflər kimi,
Tac verər, taxt tutar hər dəmi.

Xəncərin altında durur taxt, tac,
Qoy sənə versin hamı şahlar xərac.

Qoysan ayaq bir başa dövlət tapar,
Məskənin olsa bir ürək, bəxti var.

Ədlin ilə bayquş olar bir hüma,
Zəhmin ayaq etdi başı daima.

Oldu peşə rəhm, ədalət sənə!
Etdi şikayət də şikayət sənə!

Oldu dayaq torpağa rəxşin sənin,
Nal kimi dörd mıx yedi kor düşmənin.

Yeddi fələk gövhərinin hoqqası!
Səkkiz ədəm bayrağının şaqqası!

Hökmünə baş əyməsə hər hansı kəs,
Noxta olar tacı ona burda bəs.

Anladı hər elmdə o, mənanı,
Bircə bədəndə iki dünya canı.

Alsın ədəb dərsini səndən səba!
Söz şamını yandır özün dünyada!

Bəndənə göylər xələti ver bu gün,
Bir də qəbul ətri Nizami üçün.

Olsa da sözlər kök, ürək oxşayan,
Süfrən üçün amma arıqdır yaman.

Ləl, göhərsizsə bu dərya, bu kan,
Ləl-göhər versin o əl, dil hər an.

Yağdır o dəm kim paxılınsa əgər,
Peykan ilə ləl, qılıncla göhər.



Verdi fələk xoş, düzü, tale sənə,
Axının olsun daha yüksək yenə.

Yansın, ucalsın göyə bu dünyada,
Mən ucalım, yansın o bədxah oda.

Bayraq ucaltsın göyə fəthin sənin!
Doğra qələm tək başını düşmənin!

## KİTABIN NƏZMƏ ÇƏKİLMƏSİNİN SƏBƏBİ

Nəzm elədim mən bu təzə tər gülü,
Bağının oldum xoş ötən bülbülü!

Eşqin ilə şurə gəlib hər zaman
Yolların üstündə mənəm zəng çalan.

Özgə yazan sözləri borc etmədim,
Hər nə ki könlüm dedi: "De!" Mən dedim.

Bir yeni qaydayla bu şux heykəli
Tökdüm, odur, oldu belə sevməli.

Bir neçə dərs öyrənərək hər səhər,
Sübhə sehirdən toxudum pərdələr.

Yoxsulun onda yeri var, həm şahın,
Sirlərinin xəznəsidir allahın.

Şəkkərinə milçək ayaq qoymamış,
Milçəyinə özgə şəkər dəyməmiş.

Nuh bu dənizdə tez atar qalxanı,
Xızr qırar həm bu suda dolçanı.

Qürə atarkən bu gözəlçün bir an
Çıxdı adın qürəyə, ey hökmran.

Gəldi iki namə iki ölkədən,
Hər biri bir Bəhramı tərif edən.

Köhnəcə mədəndən o tökmüş zəri,
Tapdı təzə bəhrdə bu gövhəri.

Qəznədə qaldırdı o, yerdən ələm,
Vurdu bu, Rum sikkəsinə bir rəqəm.

Olsa da ol sikkədə söz zər kimi,
Yaxşı bil ondan zərimi, sikkəmi.

Azsa da ondan yükümüz, varımız,
Yaxşıdır ondan ki xiridarımız.

Olsa da tərzi qərib, ey hökmran,
Heç qərib olmaz, sən onu oxşasan.

Hər sözü oxşar təzə-tər bir gülə,
Yanmadı qəndil sayağı borc ilə.

Çatdı bu söz təkcə sənin süfrənə,
Dəyməmiş əl, sən bir ona dəysənə!

Duzlu isə, sən ye nuş olsun müdam,
Yoxsa yadından da çıxar lap tamam.

Çərx ilə əyləşsən əgər süfrəyə,
Barı bir az sür-sümük at bəndəyə.

Mən bir itintək edirəm iftixar,
Bəndəliyinlə yaşaram bəxtiyar.

Kimdə ki gördüm hələlik mən vəfa,
Bircə sənə meyl elədim dünyada.

Bəhrə verər bir gün axır xidmətim
Bir gün olar ki, yetişər qismətim.

Daim o ali qapına, doğrudur,
Mədh yazanlar hamısı üz tutur.

Gördü Nizami gücünü, durdular,
Mən hara, onlar hara, ey hökmdar?!

Yolda qoyub onları mən qalxaraq
Çapdım atı bir neçə mənzil qabaq.

Xəncər edib mən şeir almasını,
Tez kəsib atdım gələnin başını.

Təksə, misilsizsə də rütbəm mənim,
Bil, daha yüksəkdir əsil məskənim.

Ərş ucadır, uçmadayam ərşə mən,
Himmətimi ötdüm axır bəlkə mən.

Bəlkə də sayəndə tapam mən də kam,
Sən hara qoydunsa ayaq, baş qoyam.

Mən tozunu tutdum, uçum göylərə,
Sən məni çatdır ki, çatım bir yerə.

Bir neçə aydı bu idi məqsədim,
Mən şah önündə yenə təzim edim.

Hər yanıma çəksə də odlar hasar,
Qoymasalar da məni burdan kənar.



Bəlkə çoxalsın deyərək hörmətim,
Lap dəridən çıxmaq idi niyyətim.

Hər yanı gördüm ki, fəqət şir tutub,
Dal, qabağı qan deyə şəmşir tutub.

Amma qılınclar yolumu kəssə də,
Xütbə dedim mən sənə bu ölkədə.

Söz suyunu hey qapına saçmışam,
Qumsa mənəm, qaldım odur, vəssalam.

Ey günəş, etsən məni bir toz hesab,
Qoy müdam olsun bu duam müstəcab:

Qəlb sənə dür saçan ümman ola!
Qoy belinin gövhəri bu can ola!

Daima gündüzlərə dönsün gecən!
Yansın o şahlıq çırağın, parla sən!

Oldu bu dünyada sənə bəxt yar,
Olsun o dünyan daha xoş, bəxtiyar!

## SÖZ DEMƏYİN FƏZİLƏTİ HAQQINDA BİR NEÇƏ KƏLMƏ

Ta qələm açdı hərəkət zərfini,
Yazdı o, əvvəlcə sözün hərfini.

Tulladılar pərdəsini xəlvətin,
Oldu söz ilkin gözəli xilqətin.

Söz neçə ki, qəlbə könül vermədi,
Palçığa can meyl eləyib girmədi.

Başlayan andan qələm öz cövlanın,
Sözlə açıbdır gözünü dünyanın.

Tapmadı sözsüz belə şöhrət cahan,
Çox dedik, əskilmədi söz heç zaman.

Eşq dili saydı sözü canımız,
Biz sözük, olmuş bədən eyvanımız.

Hansı düşüncə, ya fikir var əgər,
Söz quşunun qismətidir sərbəsər.

Görməyib əsla bu cahan, yaxşı bax,
Söz tək iti, incə kəsən bir bıçaq.

Əvvəli fikrin, sonu haqqın – sayın,
Daima sözdür, sözü vacib sayın.

Taclı şah ad vermiş ona taclılar,
Başqa bir ad vermiş o cür başqalar

Nəğmə olub gah ucalar bayrağı,
Gah da naxışla qurular növrağı.

Bayraq onun tək çala bilməz zəfər,
Tutmaz onun tək nə qələm ölkələr.

Onlara göstərməsə də söz camal,
Etmiş əsir çoxlarını boş xəyal.

Biz sözə dikdik gözü çoxdan bəri,
Sözlə ölüb, sözlə də olduq diri.

Ruhu soyuqlar odu sözdən tapıb!
İsti gedənlər suyu sözdən tapıb!

Dünyada sözdür fəqət abad çəmən,
Bir təzə güldür bu qoca çərxdən.

Gəlməyir uyğun ona heç bir nişan,
Sığmır o, mövcud dilə də heç zaman.

Harda ki, söz bayrağını qaldırar,
Hərfə, dilə orda daha yermi var!?

Can ipini söz kələfə vurmadan
Heç nə baş açmazdı o ipdən bu can.

Sözlə tutublar təbiət mülkünü,
Sözlə vurublar şəriət möhrünü.

Mədən alıb söz və zəri bir sabah
Sərrafa göstərdi, dedi: - Ey qoçaq,

Köhnə qızıl, ya təzə söz yaxşıdır?
Söylədi usta: - Təzə söz yaxşıdır!

Qasid olub söz haraya getmədi!?
Söz kimi kimsə bir işi etmədi!

At dirəmi, sözlə gümüş sikkə vur,
Zər nəçidir? Ovladığı ahudur.

Söz cahanın ən ulu bir nemətì!
Təkcə sözündür bu yerin dövləti!

Yalnız ürək duydu sözü büsbütün!
Şərhi sözün çoxdur özündən sözün.

Söz neçə ki var, səsi qoy gurlasın!
Sözlə Nizaminin adı parlasın!





## ŞERİN MƏRTƏBƏSİ HAQQINDA

Ölçüsüz olsun və pozuq söz bir az,
Saydısa gövhər yenə gövhərşünas,

Onda nədir gör şeirin nisbəti!
Ölçülü, mövzun kəlamın qiyməti!

Aldı ələ şair olan kəs yəqin,
Xəznəsini sözlə iki aləmin.

Xəznə açan xas bir açar qındadır,
Şairin almas dili altındadır.

Kim ki sözə verdi sığal, səhmanı,
Sözlə bişirdi çiy olan insanı.

Ərşin ötən bülbülü say şairi,
Özgələrə eyləmə tay şairi.

Fikrin odu etsə pərişan onu,
Göydə mələk tək uçurar ruhunu.

Zənn elə şairliyi sirr pərdəsi,
Ənbiyalar kölgəsidir kölgəsi.

Durdu böyüklər sırada yan-yana,
Durdu önə ənbiya, şair sona.

Dosta yaxındır bu iki göz hər an,
Onlar özəkdirsə, qabıqdır qalan.

Süfrəsinə düzdüyü tər xurmanın
Hər birini parçası zənn et canın.

Candır, o yonmuş onu palçıq quşu,
Fikrdir o, çeynədi qəlbin dişi.

Şer özü nur çeşməsidir hikmətin,
Tökdü neçə alçaq onun hörmətin.

Kim ki bu ahəng ilə bir şey çalar,
Aləm evindən də gözəl qəsr alar.

Dizləri olduqda vilayət tutan,
Hər qapıda əyməz o baş heç zaman.

Qəlbə ayaq etsə dizi pünhanı,
Əllə qucaqlar hər iki dünyanı.

Baş ayağa gəlsə salam verməyə,
Çevrilər onda bədəni halqəyə.

Oldu həmin halqə onun meydanı,
Öldürərək sonra dirildər canı.

Fikrə dalıb gah beləcə bərk-bərk
Göylərə min halqə verər sırğa tək.

Gah da bu firuzeyi rəng hoqqadan
Bir deyil, on möhrə çıxardar hər an.

Sözlə atı başlasa dür səpməyə,
Can gələr ağza ləbini öpməyə.

Mədən açıb tapmaq üçün bir gövhər
Yeddi göyə fikri salar rəxnələr.

Yaxşı sözü öğluna bir tay tutar,
Səy edib ilham ataya oxşadar.

Göylər önündə dayanar xidmətə,
Düşməz əsa xidmət üçün zəhmətə.

Xoş nəfəsi canlara dinclik verər,
Hər sözü dillərdə gəzər sərbəsər.

Nəqqaşısa kim bu gözəl dilbərin,
Bil ki, o, şairdir, oxu sözlərin.

Müştəritək sözdə odur sehrikar,
Zöhrə kimi Harutu da sındırar.

Çoxlu çaparlar bu yolu getdilər,
Alçaq olanlar onu xar etdilər.

Diddi bu söz,parçaladı bağrımı,
Sözbəzəyən tökdü sözün abrını.

Candır ürək meyvəsinin qiyməti,
Onlar üçün yox su qədər hörməti.

Tapdı əlindən necə, ey çərx, aman,
Yaltaq olub şerə düyünlər salan?

Tərpət ayaq barmağını sən bir az,
Et şeiri tez bu düyündən xilas.

Gör necə zərçin saralıb soldular,
Zərlə sözün sikkəsini aldılar.

Kim ki verir şeiri zərə, daş-qaşa,
Ləli verir qiyməti yox bir daşa.

Çoxbilən, aqil bu adamlar ki var,
Dursa da yüksəkdə, çox alçaqdılar.

Kim ki saraylarda geyər zərli don,
Son tikəsi bir gün olar qurğuşun.

Civə kimi kim zər üçün ölmədi,
Son dəfə Səncər dəmiri görmədi.

Olsa sözün bal tək, ucuz satma sən!
Söz balını milçək üçün atma sən!

Verməsələr, alma vəfa olsa da!
Baxmasalar, dinmə dua olsa da!

Verməsə ad-san bu şəriət sənə,
Əsla yaxın durma şeir mülkünə.

Şərilə şerin o yerə yüksələr,
Cövzaya səndən yayılar kölgələr.

Şer səni südrəyəcən qaldırar,
Mənə elində eləyər hökmdar.

Şer sənə burda əmir ad verər;
"Şair əmirdir kalama", müxtəsər.

Çərxi fələk tək uca söz tapmamış
Durma bir an, sən də fələk tək çalış.

Sən yerə dik öz başını şam sayaq,
Gündüz uzan yat, gecələr qal oyaq.

Tez qızışan dəm xəyalın köhləni
Astalaşar çərxin uçan yelkəni.

İstəyən olsan sən əgər yaxşısın,
Tezcə bəyənmə, verələr yaxşısın.

Tez sinənə döymə, taparkən göhər,
Sən çalışıb yaxşısını tap məgər.

Yaxşı olar ki, sözü gəl gec bəyən,
Yüksək olan söz tapasan bəlkə sən.,

Kim ki, bu yollarda ələm qaldırar,
Ayla günəşdən top alar, saldırar.

Olmasa da fikri iti, tez gedən,
Əsla dayanmaz tez, iti getmədən.

Fikri yürüşdə qızışar daima,
Qucsa da lap göyləri, eylər həya.

Yelpik edib tufanın İsrafilin
Həm qanadın köhlən o, Cəbrailin.

Eyləmə yad tapdağı bu tarlanı,
Kimsəyə tərk etmə bu gen meydanı.

Hər quş olarsa əgər əncir yeyən,
Qurtarar əncir bu yaşıl süfrədən.

Kamiliyəm mən bu işin seyrə dal,
Möcüzəyəm, tər-təzəyəm, orjinal.

Mənlə şeir somiyədə yurd salıb!
Şair o meyxandən azad olub!

Zahid, rahib mənə üz tutdular,
Gördü məni, xirqələri atdılar.

Qönçə qızıl gül kimiyəm mən, nə qəm,
Burda şimal yellərini gözlərəm.

Ağzını açsam təzə-tər sözlərin,
Suri – qiyamət səsi qalxar yaqin.

Köhnə, təzə - mövcud olan hər nə var
Sözdə sehirkar mənə heyran olar.

Caduların səbrini almış sözüm,
Əfsuna salmış mələyi, möcüzüm.

Gəncə yaxır Harutu, o, Babilim,
Zöhrə könül göylərə nur qəndilim.

Zöhrəsi olmuş Tərəzi Gəncəmin,
Mənəvidir nitqi bu üzdən həmin.

Sübh halal sehrim ona bir yemək,
Pozmuş o, Harut yazanı, neyləmək!?

Oldu Nizami xəyalım surəti,
Verdi halal sehrim ona şöhrəti.

## HƏQİQƏTLƏRİ, ÜRƏYİ TANIMAQ VƏ ONUNLA DOSTLUĞA CAN ATMAQ HAQQINDA SÖHBƏT

Qalxan atıb verdi günəş fərmanı:
Yer də qoy atsın suya tez qalxanı.

Oldu darısqal nəfəsindən cahan,
Qalxanı tək mən də saraldım yaman.

Qalxan atarkən o, çəkib xəncəri,
İstədi kəssin başını ləşkəri.



Sağkən inək görsə də muncuq əgər,
Amma yıxılsa, hamı xəncər çəkər.

Açdı gecə körpəsi öz çəngini,
Asdı ayaqdan günüzün zəngini.

Bir gecə sövdası verən qorxunu
Dəfə o, torpaqdan edir məcunu.

Torpaq o İsa nəfəsi- can verən,
Oldu o sövda odunu söndürən.

Şərbət ilə xəstə görüb vaxtı xoş,
Atdı o sövda evini, qoydu boş.

Qusdu o dəm bircə kasa xəstə qan,
Rəngi onun qapqara oldu yaman.

Daxilinin rəngi çıxıb xaricə,
Dindi qəza: - Kafir olub gör necə.

Şuxluq edir, cilvələnir, qaynayır,
Səhnə düzəldib gecə hey oynayır.

Ay qəsəbi üstə çiçəklər səpir,
Zöhrə dəfi əmri ilə zər səpir.

Şamsız olan bir belə axşam yenə
Bülbül idim bağı yox o gülşənə.

Mən sözə qatdım qanını bağrımın,
Od kimi çatdım qanını bağrımın.

Öz sözümü dinlər ikən mən yenə
Verdi öyüd kimsəsiz ağlım mənə.

Hatif o xəlvətdə məni səslədi:
-Borc elə al, qaytara bil sən-dedi.

-Atəşinə su nədən olmuş gərək!?
Torpağına yel niyə olmuş yedək!?

Xəstə edən torpağı qoy tabuta!
Tezcə yanar atəşi ver yaquta!

Öz fikirindir hədəfin, atma ox!
Öz ayağındır at, onu vurma çox!

Bəsdir oturma belə qafil, naşı,
Yağdır ürək qapısına göz yaşı.

Əyri bu küp ki, belə xoş rəngi var,
Sən gəl ürəkdən de, xoş ahəngi var.

Quldur olan hissləri at birbəbir,
Qəlbi tanı, düz yolu qəlbin bilir.

Ərşi gəzənlər ona bənd etdilər
Cəbrailin öz qanadın sərbəsər.

Kim iki dünyadan üzü döndərər,
Hər nə ürəkdən diləsə, tez verər.

Göz, qulaq artıqdı qərəzdən tamam,
Xaric olan pərdədə işlər müdam.

Gör, qulağın gül kimi pambıq tıxar,
Əqlinə nərgis gözün olmuş qabar.

Bağ kimi gül, nərgisi sevmək nədən,
Ey gülə, ey nərgisə dağlar çəkən.

Ayna olub nakəs üçün göz yaqin,
Bəsdir odu olsa suyu gəndiyin.

Sövdələşir əql ilə təbin yenə
Yetmək üçün qırx ilinin nəqdinə.

Qırxa çatan vaxt yaşı bir zaman
Onda səfər nəqdi də artar yaman.

Dost ara, tulla bu sehir bəhsini,
Qırx ilin indi, oxuma dərsini!

Çək əli beldən, gəl ara çarə sən,
Qəlb qəmiyçün yet o qəmxarə sən.

Qəm yemə, hərgah o qəmxar var,
Qəm boynun vur, necə ki, yar var.

Qəmlər əlində yesə min dərd ürək,
Dostluğudur dostun ən artıq kömək.

Olsa əgər dost iki kəs bir nəfəs,
Yüz qəmi rədd etməyə etməzmi bəs?!

İlk səhər çəksə nəfəs bir kərə,
Sonrakı sübh səs salacaq göylərə!

İlk gələn sübh zəlil, xar olar,
Sonrakı sübh olmasa dost, arxa, yar.

Sən tək özün heç görə bilməzsən iş,
Dost ara ki, dostsuz iş ötməmiş.

Olmasa hər mülk əgər xar tək,
Ha baxıram, yaxşı nə var yar tək.

Burda gərəkdir hamıya dost, yar,
Həm də elə yar ki, əldən tutar.

Batmış o dostlar, özünü sən qoru,
Halqəsidirlər qapının qupquru.

Tezcə yapış qəlbin özün tərkinə!
Torpağı olsan, bu şərəfdir sənə.

Tanrı qurarkən binasın dünyanın
Xəlq elədi mülkünü surət, canın.

Bir-birinə sonra onun qüdrəti,
Qatdı qovuşdurdu canı, surəti.

Bu ikidən gəldi ürək meydana,
Çatdı xilafət bu cahanda ona.

Qəlbə çatıb hökm eləmək xütbəsi,
Olmuş o, cism ilə canın meyvəsi.

Qəlb Süheyli üzünə saçdı nur,
Cism ilə can qəlbə qul olmuş odur.

Qəlb özü beynə çatarkən həmin
Qəndilinə çatdı yağı qəlbimin.

Mən qulağı burda dil etdim o an,
Oldu canın hatifinə can nişan.

Burda kökəlməklə dilim saçdı bal,
Güldü təbim, getdi kədər, qəm, məlal.

İsti bulaq verdi soyuq su bu an,
İsti idi qəlbin odundan qazan.

Qırdım o əl bağlarını tezcə mən,
Güclü idim, aciz idi yol kəsən.

Bu iki mənzil yolu ki, getmişəm,
Qəlb evinə bir nəfəsə yetmişəm.

Atdım ürək səmtinə addımları,
Oldu gecə tən yarı ömrüm yarı.

Çatdım o ruhanicə məqsurəyə,
Döndü bu çovkan bədənim halqəyə.

Top kimi gəldi ələ çovkan qədim,
Hansı yaxamdır, ətəyim seçmədim.

Etdim ayaqdan başı, başdan ayaq,
Bir top idim, görkəmi çovkan sayaq.

İş gedib əldən, mən özümdən, nə söz,
Bir yüz olub gördüm, o birdən də yüz.

Mən təzə, cahildi gedən yolçular,
Burda qəriblik nə acı dərd olar!

Yox burada yol içəri getməyə,
Yoxdu həvəs həm də geri getmyə.

Dar bu lağımda tutularkən dilim,
Oldu bələdçi tutaraq eşq əlim.

Mən qapı döydüm, dedi: - Kimdir bu dəm?
- Varsa izin ərz elədim adəməm.

Ön qapıdan tulladılar pərdəni,
Pərdədən azad elədi həm məni.

Xaslar evindən bu zaman gəldi səs:
-Gəl içəri, durma, Nizami, tələs!

Məhrəmi oldum o evin mən yaxın,
- Gəl yuxarı- söylədi. Getdim yaxın.

Gördüm işıq, nur dolu bir barigah,
Hüsnü yaman gözdən iraq, nəydi ah!

Yeddi xəlifə hamı bir xanədə!
Səkkiz ədəd nəql bir əfsanədə!

Mülkü hüdudsuz bu fələklər qədər,
Kim ki, bu torpaqdan -ola bəxtəvər!

İsti nəfəs gəldi nəfəs mülkünə,
Taxta yarımgün şahı çıxmış yenə.

Öndə durub qırmızı at bir nəfər,
Al qəbalı istər onunçün zəfər.

Öncül olub ovda acı bir cavan,
Sonra dayanmış qara bir xılt udan.

Burda kəməndçi özü düşmən güdən,
Bir zireh etmiş gümüşü tunc bədən.

Gör, hamı pərvanəsə, şəmdi ürək,
Dardağınıqdı hamı, cəmdi ürək.

Qane olub oldum ürək mehmanı,
Verdim o şah qəlbə girov tək canı.

Tapdım ürək bayrağını mən haçan,
Onda çevirdim üzümü dünyadan.





Gəldi dilə, qəlb mənə söylədi:
- Sən quşu gəz, bu yuvadan keç, - dedi.

Məhrəmi sanma odumu tüstünün,
Sən bu əti sanma qaxac, bir düşün.

Kölgəm olub çox bu ağacdan, nə qəm!
Daima bundan da uca mərtəbəm!

Xəznə ikən, yetmədi Qarun mənə,
Sənsizəm amma deyiləm yad sənə.

Od nəfəsindən xəcil olduqda mən,
Quş dodağım tökdü qanat dinmədən.

Mən yerə əydim başı, oldum xəcil,
Halqəli qul olmağa etdim meyil.

Əhdə ürək xacəsi ta başladı,
Göylərə yüksəldi Nizami adı.

Görmədiyimdən burada qeyri yol,
Etdim o xacəylə riyazət qəbul.

BİRİNCİ XƏLVƏT
REYHANLARIN TƏSVİRİ

Təlim edən başladı məndən bütün
Dürdüyünün açdı bu doqquz göyün.

Olsa da saysız bu düyünlər yenə,
Gəldi düyün düşmüş ipin üstünə.

Çatsa ucu bir yerə bu ip ki, var,
Onda bu ipdən o düyün ayrılar.

Xacə, xülasə, bizə çox bənd idi,
Olmasa da haqq, xudavənd idi.

Hər iki dünya yoluma şihnədir,
Yoxsa canımçün nə üçün qəmdədir?!

Görməsə də məndən özü rəğbəti,
Kəsmədi məndən yenə də şəfqəti.

Olcaq o, mən biədəbə bir qulam,
Tez o ədəb kanı məni etdi ram.

Qaçmadı məndən, salaraq ülfəti,
Saydı qazanc torpaq ilə söhbəti.

Misri, Züleyxanı atıb bir sabah
Dar quyudan çıxdı o, Yusif sayaq.

Ta gecə qəndillərini qırdılar,
Göydə səhər şəmini yandırdılar.

Sübh fələk şəmi gülərkən üzə,
Döndü qaranlıq gecə al gündüzə.

Bir çiraq aldı ələ xacəm yenə,
Çəkdi, apardı məni bir gülşənə.

Qəm tikanından məni azad edib,
Güllərə qərq etdi, məni şad edib!

Lalə kimi güldüm atıb hər qəmi,
Parçaladım paltarımı gül kimi.

Canıma verdi ürəyin lalələr,
Verdi belə qurşamağa gül kəmər.

Çıxdım o güllər kimi gah pərdədən,
Mey kimi batdım qana bəzən də mən.

Qaçdım o şaxdan-şaxa, güldən-gülə,
Səs salıb axdım o sular tək belə.

Eşq çəkib bayraq elə bir yerə,
Əsdi vəfa ətri tamam hər yerə.

Əsdi meh, aydın dil ilə qəlbimi,
Tezcə diriltdi dəmi-İsa kimi.

Tez yükümü tökdü açıb yerlərə,
Atımı tapşırdı əsən yellərə.

Söylədi: - Düş, çapma, yetər, köhləni,
Yoxsa düşürrəm lap özündən səni.

Bir gəmi oldum o suda mən üzən,
Oldum o cənnət yeli sakini mən.

Düşdüm atımdan baxıb o saf suya,
Təşnə adamlar kimi qaçdım çaya.

Gün kimi parladı o büllur bulaq,
Yatsa da tapmaz Xızır ondan soraq.

Yasəmən üstündə qurulmuş yataq,
Uyğu içindəydi o nərgiz oyaq.

Çərxin ona dairəsi bir məqam
Oldu behişt qaliyəsi bir qulam.

Gül çəmənin köksünü etmiş məkan,
Tər gülü tutmuş ətəyindən tikan.

Ahu ilə tülkü gəzib çölləri,
Xacə, gülə nafə verib, xəz dəri.

Tuti gülün bal gülüşündən xəcil,
Tökdü yaşıllıqda tük, asan deyil.

Əldə tutub şir kimi otlar şəkər,
Otlayaraq ahu olub şiri-nər.

Gül çadırından meh üzü göstərir,
Ahu ot üstündən özü gül dərir.

Xeyri mixəklə qarışıb bir-birə,
Yelpik olub bağda yenə ənbərə.

Nərgizi, baxsan, gözə bir sürmədir,
Zümrüdü əfi gözünə lynədir.

Yol kəsən olmuş təzə gül, yasəmən,
Bülbül ilə qumru şeirlər deyən.

Bir günə açdı süsən İsa dili
Sübhə o, ərz eylədi Musa əli.

Sübh göyərçin çəkib ahlar yenə,
Ah ilə saldı göyü öz rənginə.

Yel götürüb mişk-söyüd yarpağı,
Gül sözünü yazdı ümid barmağı.

Yasəmənə gah salam eylər bahar,
Gah gül üçün haqqa dua etdi xar.

Türk səmən çöldə çadırlar qurub!
Ay çadırın üstə Süreyya vurub!

Hindli muğlar kimi dikmiş nəzər
Sirlərin atəşgahına lalələr.

Hindu sifət lalə, o türk yasəmən,
Olmuş ərəb Səhl, Süheyli-Yəmən.

Qaquma dönmüşdü lətafətdə su,
Qaquma sincab qarışıb, nəydi bu?

Bağça-bağ açmışdı əcəb pəncərə
Al, sarı bayraqlar ilə göylərə.

Qoydu budaqlar göyü heyrətdə həm
Kölgə ayağına səpərkən dirəm

Kölgə ləbindən günəşin söz qapır,
Qum suların zikri ilə can tapır.

Nəstərənə dərd öpüşü sünbülün,
Qönçə vurub oxla ləbindən gülün.

Xeyri tikansız görərək oxdanı,
Bəzən aman istər o, gah qalxanı

Sehr ilə vurğun söyüd əsməkdədir,
Lalə yanıb dərdinə dərman edir.

Sanki çeviklikdən uçur göy çəmən,
Damlalanır incəliyindən səmən.

Saldı gülüş neyşəkəri meydana,
Gül sarısı batdı o ləl al qana.

Nəşə saçır hər təbii gül-çiçək,
Söhbət açır xoş nəfəsindən külək.

Göydü turunc yarpağı tək asiman,
Gəldi narınc əldə ki, çatmış zaman.

Göylərə qaldırdı fələklər ələm,
Etdi yaşıllıq güləş arzu bu dəm.

Gör bu yaşıl süfrədəki hər düyün
Yerlərə candı, ürəyiydi göyün.

Bir cavan ulduzmu gəlib ilhama
Söylədi: -Ey yer, yaşıl ol daima?!

Ya ki fələk ordan edərkən səfər,
Göylüyü yaquta veribdir səhər.

Çeşmə saçır nur necə huri gözü,
İstər ala gündən o, nuru özü.

Aldı göy otlar o sudan dəstəmaz,
Etdi bununçun bulağa min niyaz.

Gördü Süleyman ətrin güldə quş,
Başladı Davud kimi bir nalə xoş.

Tökdü turac qırqovulun qanını,
Al boyadı sərvin o, hər yanını.

Sanki bağın dəftəri hökm eylədi,
Bülbülə get qırğını öldür dedi.

Bayquş o yerdən salınıbdır yola,
Sirri olubdur başına bir bəla.

Saçdı Süheyl ətri Yəmən yelləri
Yer gönünü etdi qumaş bir dəri.





Lalə tələsdi, atını çapdı tez
Təngnəfəslik mərəzi tapdı tez.

Şümşad onun kölgə salıb üstünə,
Qoydu əli köksünün üstə yenə.

Sübh sayaq yasəmənin dırnağı,
Qovdu gözündən gecənin tez ağı.

Kəndiri zər Yusifə bənzər səhər
Yasəmən üstdə quyu qazmış məgər?!

"Ağ əli" göstərdi su Musa sayaq,
Yer sarı köynəkli cühud idi, bax!

Etdi dəva torpaq o şəffaf sudan,
Qusdu nə udmuşdusa da sonradan.

Düşdü səhər nuru bütün hər yerə,
Verdi budaq: kölgəni meh gəzdirə.

Kölgə öpür al dodağından günü,
Yel darayır hey söyüdün zülfünü.

Yarpaq içindən süzülən kölgə, nur
Rəqs eləyirlər sular üstdə budur.

Ud olub o xar ki, məqsud idi,
Gül odu manqalda yanan ud idi.

Minbər olub gül sinəsi bülbülə,
Zülfü bənövşə kəmər etmiş gülə.

Davudun avazı nə bülbül qədər,
Saçdı Nizamidən ötə gül şəkər.

## İKİNCİ XƏLVƏT
## HALLARIN AÇILIŞI

Örpəyi qaldırdı bir üzdən külək.
Xacə tez aşiqliyə verdi ürək.

Gülnəfəs idi, gülüşü bal, şəkər
Güllə şəkər hüsnünə həsrət çəkər.

Saldı qəsəb geymiş o ay fitnəni,
Yandı qəsəb tək, bax ayın xərməni.

Qurşağacan etdi zireh telləri,
Duzlu, şirindir nə qədər hər yeri.

Hər kəs onun hüsnünə baxsa əgər,
Gözləri həsrətlə müdam yaş tökər.

Qəndi, duzu birləşən andan bəri,
Çıxdı yoxa duzluların şəkkəri.

Qəndi edib tutiləri bağda xar,
Gül çənədə sanki gümüş halqa var.

Yumru çənə oldu narıncılar sayaq
Sanki turuncdur asılıb ağ buxaq.

Oxşar o, gülşən gülü tək məstləri,
Dost meyi tək yoldan edər dostları.

Qənd dodağı əldə təbərxun tutur,
Qırdı təbərxunla o, qəndi odur.

İncə qızılgüldü, yaşıl neyşəkər,
Dadlı nabat, şərbət idi sərbəsər.

Ud kimi xalı edir bağrı qan,
Qaliyə sürtər sədəfə anbaan.

Hindu xalından çəkərək dad-haray,
Xallara qərq oldu tamam göydə ay.

Sözləri gün tək ciyəri yandırır,
Ləli yeri ay tək işıqlandırır.

Qalmış ürək bir neçə fərsəng uzaq,
Yol dar idi dilbərin ağzı sayaq.

Bağrıma daş qəlbi vurub yüz yara,
Qəlbimi daş bağrı edib yüz para.

Ləb danışır, gülməsi şəkkər yeyir,
Üz duada, qəmzəsi əfsun deyir.

Ağzını bir hoqqa kimi bağlamış,
Möhrə qədər bircə keçid saxlamış.

Eşq görüb onları lap qaldı mat,
Qurdu gözəl, dəbdəbəli bir büsat.

Açdı belimdən kisəsin surətin,
Açdı bədən tövqünü candan mətin.

Qalmadı məndə daha taqət, tavan,
Ötdü həyat çeşməmi ağızdan yaman.

Möhkəm ağıl uydusa da divlərə,
Düşdü odur tezcə dəmir zəncirə.

Qovdu ürək şən-şən ürək qüssəsin,
İstədi palçıqlaya gün çeşməsin.

Qəmlilərin munisidir qəm, kədər,
Sərxoşa ancaq mey əlac eyləyər.

Ey dağımı görsə gülüb oynayan,
Bağ və yaşıllıqlarımı duymayan!

Çərx yaşıllıqdı, baxış atəşi,
Söz bağ idi, oldu suyu göz yaşı.

Kim ki, bu xas pərdədə gizlər üzü,
Olmuş o, ixlas üzünün güzgüsü.

Çox dizim üstə başımı atmışam,
Ta bu ipin mən ucuna çatmışam.

Getdi yəqinlə bu yolu hər gedən,
Boylə gediblər, belə get həm də sən.

Yolçu deyilsən bu yola, dur, yetər!
Boylə yolu bircə Nizami gedər.

GECƏ İŞRƏTİNİN TƏSVİRİ VƏ
İKİNCİ XƏLVƏTİN SƏCİYYƏSİ

İstər ikən xacə yetə bir gülə
Kəsdi beş-üç kəlmə beş-üç dost ilə.

Tapdı bir axşam necə bir al səhər
Təkcə duayla tapılan nəsnələr.

Bir yaza bənzərdi o məclis tamam,
Dövrdən asudə bir işrət, nizam.

Ud yanaraq hey bacadan ah edir,
Yusif ilə köynəyi izah edir.

Şihnə tökübdür qanını darğanın,
Qırmış, o milçəklərin almış canın.

Nəğmə deyir heyrət ilə nəğməkar,
Etdi vəfa pərdədə hər kim ki var.

Saqi Süheylin ayağından yenə
Ləl səpir dürri-yetim üstünə.

Yandı bağır şəmi şamın bağrı tək,
Yandı odun qəlbi tək oddan ürək.

Məclisi manqal hey işıqlandırır,
Ud yaradır qənd, udu qənd yandırır.

Şişə gülabdan yenə şəkkər səpir,
Şam yanaraq süfrələrə zər səpir.

Meylə noğul almada busəylə kam,
Gözlə ağız saçmada şəkkər, badam.

Nüktə deyir şəkkərü badam hər an,
Eşqə düşüb Zöhrə və Mərrix yaman.

Aldı qulaq vədəni ki, gəl görüş,
Gəldi pay alsın dodağından gülüş.

Tülkünün atmış dərisin, bax, yerə,
Ahu edib nafəni zəncir şirə.

Yar gah ətəkdən, yaxadan çəkmədə!
Rəqs edərək əlləri dür tökmədə!

Saqi kimi şam dayanıb əldə cam,
Olmuş o pərvanə də sərxoş tamam.

Oxşadı yanmış yuxu pərvanəyə,
Şam baş əyib başladı şükranəyə.

Zöhrə haman pərdədə tez qalxaraq
Çaldı dürüst, mizrabı sındırdı, bax!

Burda yuxu qapdı dimaqdan dimaq,
Burda işıq aldı çıraqdan çıraq.

Tapdısa ömründə nəsə hansı kəs,
Tapdı onu bir nəfəsə həmnəfəs.

Daima göndərmədədir ərməğan,
Qəlbə ürək, cismə bədən, canə can.

Sanki bu evdən ki yığıb çatdılar
Heçliyə heçlik yükünü atdılar.

Aldı sevinclər quşu tez məktubu,
Yeddi qolun qırdı Sürəyyanın o.

Sübh quşu yandığı odla yenə
Hey su səpir sevgililər qəlbinə.

Yatmış idi quşlar o sübhdən də bərk,
Bağlı idi göydəki aydan fələk.

Oldu qapı həlqəsi yad pərdəsi!
Oldu pəri zülfü dəli həlqəsi!

Etdi haman həlqə qəmi biqərar
Müştəri qəlbini üzükdən də dar.

Etdi pəri qızları şəbxun yenə
Bir pəri tək qəmlilərin qəlbinə.





Kirpiyi ilə götürüb hey tikan
Qəlb üçün o, yasəmən əkmiş hər an.

Meyvəsidir qəlbin o tər xətləri,
Canə çiçək dəstəsi qamətləri.

Durmuş o bal fındıq ilə dar badam!
Xətti təzə, püstə yanır sanki şam.

Var gecə xəttində sehirlər halal,
Babili şux qəmzə ilə hindu xal.

Döndü bu qəmzəylə, bu xaldan hər an,
Babilə, Hindistana yeksər cahan,

Bir neçə yol xoş nəzər açmışdı göz,
Qəlb o gözün səcdəsinə tutdu üz.

Dildə tikandan itidir qəmzələr,
İşlərimiz tək dolaşıq türrələr.

Çəksə yayı bir dəm o süzgün baxış,
Gör nələr eylər oxunu atmamış.

Əsdi ürəkdən məgər İsa dəmi,
Abi-həyat çağladı çaylar kimi.

Qaliyə taxmış qulağa yasəmən,
Ay daşıyır çətrini göy tək həmən.

Saçdı şəkər çünki badam üz, dodaq,
Qaçdı, apardı şəkərə gül pənah.

Hər baxış olmuş canı bir dünyanın!
Məbədi hər kiprik olub bir canın!

Ağ gümüş üstündə qara zülflər
Saçmada bədmüşkə sarı müşki-tər.

Taxdı sudan bir kəmər o ağ buxaq,
Qövsi-qüzeh etdi günəş qalxaraq.

Zülf Birahim, qalayır odlar üz,
Xəncəri, İsmaili kipriklə göz:

Reyhana döndərdi bu, atəşləri
Nərgisə döndərdi o da xəncəri.

Düşgün edir busəsi bir mey sayaq,
Can verir İsa kimi ancaq dodaq.

Bənzər o tər güldə olan nəsrinə
Xərməni sünbüldür ayın Pərvinə.

Huri açan dəm yaxanı, bax budur,
Qoydu səhər xəttinə tüğranı nur.

Oldu avam qəlbi, xasın himməti
Sərsəm o nurdan, ataraq qeyrəti.

Dinmir ağız, çəkmədədir qəmzə car,
Dil tutulub, göz danışır biqərar.

Badə çiçək tək bəzədi aləmi,
Zərdi gümüşdə cam o nərgis kimi.

Oldu bu meydanda ağıl lap xumar,
Qalmadı səbr etməyə bir iqtidar.

Gülmək idi dil, dodağın adəti,
Taqətin ah çəkməyə yox taqəti.

Bitmiş idi səbrü qərar nəğməsi,
Zildə idi fitnənin ancaq səsi.

Başladı Davud sayağı nəğməsin,
Dinlədi Mahmudla Ayaz qissəsin.

Saçdı Nizami şeiri şəkkəri,
Oldu gözəllər dilinin əzbəri.

Ömr əzəliyyat toxuyan xalçada
Hər nə itirmişdisə, tapdı o da.

Göz duaçı oldu haman səcdədə,
Həm də qulaq etdi dua namədə.

Qəndə çəkir dağ gülərək türklər,
Sürmə alır ahu gözündən nəzər.

Geydi qəsəb türküm, odur ay kimi,
Etdi qəsəb tək hədəf o, qəlbimi.

Ay gecəyə silkələdi əllərin,
Sübhə qədər etmədi tərk öz yerin.

Qəmzə oxu tez-tez alarkən nişan,
Səcdəsinə durmaq üçün getdi can.

Şəmin o nurdan gözü qan-yaş damar,
Qibtə çırağın gözün etmiş qabar.

Zülm ilə etdikcə o dilbər cəfa,
Qəlb onu minnətlə sayıbdır vəfa.

Gah o, yaşıllıq, ona su arxı mən,
Gah o, günəş, mən boyaçıydım həmən.

Gördüm o axşam nə ki o xurmadan,
Yox xəbərim, vardısa da bir zaman.

Taxmış o ay nurdan, işıqdan kəmər,
Aşiqə göstərməz ayı, gen gəzər.

Vurğununa vurğun idi qəlbən o,
On dəfə çox aşiq idi məndən o.

Arzu edir qəlb: zaman qaçmaya,
Sübh gecə pərdəsini açmaya.

Nola bu axşam bizi incitməyə!
Yaxşı keçə, məhşərəcən bitməyə!

İndi o parlaq gecəni dünyada
Çox gəzirəm, görməyirəm röyada.

Xoşdu mənimçün o sayaq bir gecə,
Getdi "gecən xoş" dedi yar ah necə! ...

Yetmək üçün bir də o xoş axşama,
Yarəb! Yarəb! deyirəm daima.

Zil gecə zənn etmə o al gündüzü,
Çünki o, merac gecəsiydi özü.

Ay fələyin lalinə qazdıqca kan,
O gecənin fikri ilə qazdı can.

Olsa da düşmən gecəyə al səhər,
Qəlbən o cür bir gecə görmək dilər.

Sübh mən asudə, yarıb göyləri
Gəldi səhər, əldə də nur xəncəri.

Doğdu günəş, şölə saçıb hər yana
Tökdü o göz yaşımı bu eyvana.

Oynayaraq gəldi bulud layları,
Yandı, yuyuldu günəşin paltarı.

Qırdı günəş nəqşə vuran çeşmələr
Dövrdə sən, mən kimi çox kuzələr!

Tökdü hər ulduz gümüşün üstünə
Saf qızılından günəşin, bax, yenə!

Bərk yatan sübh oyanıb tez səhər,
Xəncər ilə gəldi can alsın məgər?

Mənsə bu meydanda atıb qalxanı,
Xəncər önündə sipər etdim canı.

Keçdi çayı sübh tutub börkünü,
Vurdu məni, qırdı o dəm körpünü.

Dözmədi, dilləndi bu könlüm yenə:
Bəs budur, ey sübh, mükafat mənə?!

Vardı qabaqlar yenə dostum, yarım,
Vardı gecə nur çiləyən şamlarım.

Getmiş o şamla o gecə, qalmamış!
Sanki əzəldən belə şey olmamış!

Kim ki, yedi qəndini, sən vur yara!
Kim sənə pambıq çəkə, sən yun ara!

Xamı sən öldür ki, savabdır bu, bil!
Yanmışı yaxmaq oda müşkül deyil!

Sübh görüb göz yaşım, əl saxladı,
Göz yaşı tökdü halıma, ağladı!

Yandı qəmimdən səhərin xərməni!
Dondu ahımdan görərək gün məni!

Verdi zəhərçün göy ümid meyvəsi,
Verdi gecə şahmanı gün möhrəsi.

Sübh işığı eylədiyi vaxt əsər
Bixəbərəm, tutdum isə bir xəbər.

Kim ki, bu yüyrək beşiyə yol tapar,
Sübh işığın eylədi çox vaxt açar.

Ey kişi, işrətlə keçən gündüzün
Üzqara etmiş gecəni büsbütün.

Bir gecəni mən belə vəsf eylədim,
Mərifətimdən bu sözü söylədim.

Pərdəsidir hər gecə tənhalığın,
Gövhəridir şamları binalığın.

Udla gülab olmuş onun yoldaşı,
Qəmlilərin naləsidir, göz yaşı.

Sən bu gözəllikləri bir seyrə dal,
Nur idi, qədr axşamı saçmış xəyal.

Zənci sifətli bu qara pərdənin
Məhrəmi aləmdə tapılmaz yəqin.

Sübh ha pərvanəlik etsin müdam,
Bax ki, o yandırmadı bir böylə şam.





Səy et o şamdan tapasan sən də dağ,
Bəlkə Nizami kimi tap bir çırağ.

BİRİNCİ MƏQALƏT
ADƏMİN MƏRTƏBƏSİ HAQQINDA

Eşqpərəstlik yox idi çox qabaq,
Yoxdu bu varlıqdan ədəmdə soraq.

Çıxdı ədəmdən birisi, saldı iz,
Varlığa iz tutdu, qapı açdı tez.

Oldu pərizadlar üçün sonbeşik,
Oldu bu azad bəşərə həm də ilk.

Bayraq ucaltdı göyə bir şah sayaq,
Bayrağı tək hey yıxılıb-qalxaraq.

"Əlləmə adəmdir" o pak sirəti!
"Xəmmərə tinə" bu yerin şöhrəti!

Tutqun idi, həm də ki saf dürr tək,
Oldu qızıl, sərraf özü, həm məhək.

Göylüləri mat buraxan bir canan!
Yerlilərə ayna olan bir cavan!

Qolbağısı can qoluna bir bəzək!
Həm qoluna qolbağı taxmış fələk!

Tutmuş iki xas beşik içrə məqam,
Onda qarışmış iki gövhər tamam.

Zindana düşmüşlərə ənam verən,
Oldu o ruhanilərə cam verən.

Oldu o, sərhəddi tamam xilqətin,
Meyvəsidir bakirə bir qüdrətin.

Qırxca günlükkən o pəltək uşaq
Qırx ili ötmüş qoca dərs verdi, bax!

Xətti gözəldi, yazısı eşqdən,
Gəldi behiştdən gül açan bir çəmən.

Bir nur idi, ən iti gözdən saçan!
Bir quş idi, ən uca şaxdan uçan!

Dən yeyəni oldu fələk quşları,
Səcdəyə gəldi hamının başları.

Bir dən üçün etdi kərəm qeyrəti,
Atdı o parlaq geyimi, zinəti.

Oldu əsir bircə dənə danəyə,
Dəyməz o dən heç ona şükranəyə.

Gəldi vücuda o, duayla özü,
Səcdəsinə durdu odur yer üzü.

Döndü bütün gözlər üçün qibləyə,
Gəlmədi bir asi mələk səcdəyə.

Üstünə gül səpdi behişt bağları,
İblisə dağ, özgələrin gülzarı.

Yad idi sənsiz ona şadlıq, nişat,
Olmadı cənnətdə də sənsiz rahat.

Onda yox idi buna taqət, tavan,
Qurtara bilmirdi qəmindən bir an.

Qəm çəkərək düşdü sənin arzuna,
Buğda yemək arpaca gəldi ona.

Qəlbini buğda odu, yandırdı bərk,
Oldu iki parça o da buğda tək.

Buğda kimiydi, ayağı-başı yox,
Binəvanın torpağı yox, daşı yox.

Səpməsələr, bitməz o ümmid bir an,
Qırmasalar olmaz o, ağ heç zaman.

Oldu samantək dərisi buğdayı,
Damğaladı arpa da sanki ayı.

Torpağa üz tutdu qəmindən yaman,
Buğda görünsən də, ey arpa olan.

Buğdanı, o alçağı birdən yemək,
Eylədi çır-çılpaq onu buğda tək.

Düşmən onu etdi yaman burda xar,
Etdi o buğda onu yoldan kənar.

Dondu ciyər, buğda, odur oldu bərk,
Ancaq ağılsız onu istər yemək.

Buğda və arpa yem olandan sənə,
Ağzını açmış o da, bir görsənə.

İtdi səninlə can ipi bax belə,
Bir dənə buğda sənə oldu tələ.

Arpa çörəkdən ye, çoxalt səbrini,
Ta yemə Adəm kimi buğda dəni.

Şeytana uyma, ey ürək qasidi,
Sən ki, şahın şirisən, itlik nədi?!

Olmaz o çirki bədənindən yumaq,
Tövbə əgər etməsən Adəm sayaq.

Üzr dilə, yaxşısı, etsən xəta,
Adəm öz üzrüylə qazandı əta.

Orda onu bircə dənin arzusu
Etdi bu torpaq yolunun yolçusu.

Gördü ki, öz dən tamahı oldu xam,
Atdı özün onda tora, vəssalam.

Qulluq edilmiş bu yerə verdi su,
Gəldi Sərəndibdə vətən saldı o.

Qaçdı günahdan oraya üzqara,
Üzqaralıqlarını tökdü ora.

Xeyli göyün nili ilə o, belə
İşlədi Hindistanda nil ilə.

Çərx nilindən yuyulan tək əli
Nil otu bitdi qədəmində, bəli.

Oldu xəta türkü o, yəni bir ay!
Yığdı papaq altda saçı laybalay!

Tövbə lətafət çilədi qəlbinə,
Oldu xəlifə o, bu yer mülkünə.

Ədl çölündə o, vəfa toxmunu
Əkdi, bizə vəqf elədi həm onu.

Cənnət ona hər nə verib al deyə,
Qoydu bu doqquz qapılı hücrəyə.

Sən ye bu vardan, o, sənindir tamam,
Əkmək onundur, biç onu sən müdam.

Manqal əlindən ud edər nalələr,
Dinc-palançı, həm əziyyətdə xər.

Sahmana sənsiz işini saldılar,
Lütfə səni burda yaxın qıldılar.

Gül gəmisi ol, necə yaz çölləri,
Olma tikan tək çəmənin lövbəri.

Tezcə dəyişdir yolu gəlmiş xəzan,
Aşdı su başdan, düşüb od yandı can.

Olsa da şir surəti, yox şirliyin,
Olsa da qəlb, yox ürəyin, ərliyin.

Çəkmək olar qəsr divarında şir,
Keçsə yüz il, kim görüb o tərpənir.

Bil ki, yaraşmaz sənə göydən xələt,
Torpağa torpaq yaraşar, bil, fəqət.

İşlərinin bəxti dönür durmadan,
Qəlb daralmış, qəmin artmış yaman.

Yoxsa nədən çərxi-fələk, söylə bir,
Sən kimi bir fatehi etdi əsir!?

Ol beli bağlı həmişə çevrə tək,
Çərx ilə asta! Yerin olmuş fələk!

Cəld yürümək odlara olmuş sənət,
Qalma yürüşdən, belə xoşdur fəqət.

Yüngül axan bir suya dön sən tamam,
Çox bahadır yüngül olan su müdam.

İncəlik olmuş bədənin zinəti,
Oldu o yüngüllüyü can qiyməti.

Seyrdə yüngül ruh olub yel yaman,
Sənsə o Qafdan da ağır canlısan.

Rəngə tikan tək belə aldanma sən,
Olma bənövşə, sənə boylanma sən!

Oldu bu güzgü evə sahib üzün,
Bəs bunun üçün sənə dikmiş gözün.

Burda bəyənsən nə qədər hədd var,
Sən hamıdan heç tək olarsan kənar.

Aşıq olubsan özünə sən belə,
Çərx kimi ayna alıbsan ələ.

Qəm duzu dadsan sən əgər daş sayaq,
Duzsuz olub qalmayacaqsan nahaq.

Tərk elə gəl zülmü, vəfa ilə ol,
Xalq axı kimdir ki, xuda ilə ol.

Gör ki, necə yaxşıdır o, ar elə!
Pisliyini anlayıb iqrar elə!

Burda xəcil tək nəfəs al daima,
Onda sənə mərhəmət eylər xuda.





NAÜMİD OLUB SONRA
BAĞIŞLANAN PADŞAHIN HEKAYƏSİ

Gördü bir adil məlik uyğu dəmi,
Bir savab olsun deyə bir zalimi.

Söylədi: - Sən zalıma haq neylədi?
Zülmün üçün çəkdimi haq, neylədi?

Söylədi: - Ömrüm yetişərkən sona,
Bir daha baxdım cahana, hər yana,

Ta kim edər burda hidayət mənə,
Ya kim edər orda inayət mənə.

Yoxdu ürəklərdə nə rəhmət mənə,
Kimsədə yoxdu nə də şəfqət mənə.

Körpə söyüd yarpağı tək titrədim,
Üz qara, qəlbimdə də yox ümmidim.

Bəxti burulğanlara atdım, düzü,
Bir də xuda rəhminə tutdum üzü:

"Ey yaradan, doğrusu, şərməndəyəm,
Keç günahımdan ki, xəcil bəndəyəm.

Görmədim əmrinlə bir iş heç zaman
Gəl hamı qovmuş, məni qovma, aman.

Ya alovunla ədəb öyrət mənə,
Ya hamının ziddinə əfv et yenə.

Gördü xəcalətli, məni şərmsar,
Tutdu əlimdən, mənə haqq oldu yar.

Tutdu sözüm bərk o kərəm feyzini,
Atdı yükü, aldı o yerdən məni".

Olsa peşimanlıq ilə bir nəfəs,
Olmağa məhşərdə sənə şihnə bəs.

Ey küləkölçən, nəfəsin durmadan
Daima zəhmət, ziyan ölçür hər an.

Ölçülüb artıq bu ilin, ayların,
Həm sona yetmiş payızın, yayların.

Dürr ilə daşdan tərəzin boş tamam,
Boşdur o mizan, doludur əldə cam.

Yer daşını heç mizana qoyma sən,
Palçığı zər qolbağı gəl sayma sən.

Bir dirəm etmiş səni qul dünyada,
Bircə nəfəsdir bu həyat, sal yada.

Burda nə alsan, onu qaytar geri,
Sən çalış alma, ver olan şeyləri.

Onda o gün ki gələcək bir zaman,
Boynu sən azad ol, ağız boş dayan.

Onda yetimlər ətəyin tutmasın,
Özgə yükü boynunu ağrıtmasın.

Tez bu cırıq fərşi burax, rədd elə!
Çirkə batıbdır ətəyin, ver yelə!

Ya bu Nizami kimi bir künc ara,
Ya ki gəl azuqə ara yollara.

İKİNCİ MƏQALƏT

ƏDALƏTİ QORUMAQ VƏ İNSAFI
GÖZLƏMƏK HAQQINDA

Ey kamalı canlılara hökmran,
Ey ayağı şahlar üçün dürr olan,

Şahsan əgər, şah evi axtar müdam,
Dürsən əgər, haq tacı gəz, vəssalam.

Bax bu cahandan kənar aləm ki var,
Sənlə mənəm agah ona, aşikar.

O əzəli nurdan eşit daima
Tək sənə çox pay verilib dünyada.

Sən bir əziz nəqd, cahan məskənin,
Nəqdi onun təkcə sənindir, sənin!

Təkcə sənindir bu gözəl, xoş diyar,
Sən bu cəlal üçün elə iftixar.

Dövrün olub dairədən gen hər an,
Qədrin olub artıq iki dünyadan.

Ayna tutan olmuş onunçun səhər,
Ta salasan hüsnünə sən bir nəzər.

Mehrabın olmuş bu beşik tərpənir,
Körpə uşaqsan, yatasan bəlkə bir.

Qəlb quşu, can üçün İsa - o sən!
Varsa da bir sən kimi sima - o sən!

Al günəşin qəlbi ki, daim yanır
Üz-gözünü görmək ilə şadlanır

Ay ki, saçıntək telə dönmüş tamam,
Ay üzünü görsə gülümsər müdam.

Özgədən əskik ki, deyilsən, şad ol!
Bəndə deyilsən, kədərə sən yad ol!

Yer tozu tək ol hamıya alçaraq!
Daim əliboş yaşa yellər sayaq!

Yaxşı olar, torpaq olarsa təmiz,
Qalxsa torpaq, toz olar, şübhəsiz.

Qəlbini ver haqqa, şad ol daima,
Əsl ağalıqdır bu özü dünyada.

Söylə görüm, din və dəyanət hanı?
Biz harada, bir də əmanət hanı?

Qəlbə ki dindən bir əsər verdilər,
Burdan o yandan da xəbər verdilər.

Var isə dünyan, din üçün səy elə,
Bəlkə gətirdin həm onu sən ələ.

Aləmə din almaq əlindən gəlir,
"Etmə-et!"in divin eşitmək nədir!?

Arpa qədər cövhərə bu kəhrüba
Ovladı batman qədəri kimiya.

At bu daşı, tezcə götür gövhəri,
Tulla bu yer torpağını, al zəri.

Kim yoluna ruzi tədarük görər,
Səndən o istər bir, özü on verər.

Özgə sənin yox bu sayaq bir mayan,
Bəhrə götür, durma, yetişməz ziyan.

Dinə çalış sən deyə iş verdilər,
İşçi olanlar belə iş gördülər.

Olmaq ədalətli! Budur məsləhət!
Amma bu tayfayla çətindir fəqət!

Kim qoşuna, şəhrə xeyirlər verər,
Xeyrini istər qoşunu, həm şəhər.

Qarət edən mülkü zülümdür, sitəm!
Dövlət olar baqi o zülm olsa kəm!

Məhşərə bax! Bir düşün ondan qabaq,
Etdiyini gör, son üçün qorxaraq.

Dinclik ara xalqa, burax zülmü sən,
Oldu xəcalətli axır zülm edən.

Sərxoş olub əql şirin yatmada!
Dəryada tədbir gəmisi batmada!

Tut ki, zəif mülkünü qəsb eylədin,
Həm də yetimlər malını sən yedin,

Gəlsə qiyamət, sorularsa hesab,
Yoxmu həyan, sən nə verərsən cavab!?

Üz günə-zərdüştiliyə tutma sən,
Dinə tut üz, gör necə qüdrətlisən!

Zirnix oyuncaq - bu sarı top tamam!
Düşmə oyuncaq dalına hey müdam.

Mıxları doqquz bu çadırda hər an,
Zirnix oyuncaqla oyundur əyan.

Eylərəm İsa kimi hey iltimas,
Et bu çiraqdan yağını sən xilas.

Uçma o pərvanə kimi çox, yetər!
Hey şam önündə belə atma süpər!

Pərdəni İsa kimi gəl parçala!
Ta ayağında o qanadlar ola!

Can damarın kim tutar İsa kimi,
Fəth edər insafı ilə aləmi.

Aləmi kim fəth eləyər zülm ilə!?
Mülkü ədalətlə alarlar ələ.

Hər nə deyil ədl, yadından çıxa!
Olmasa insaf, o, çıxsın yoxa!

Ədl əmirindir, cahanı şad elə!
İşçi isən, ölkəni abad elə!

Məmləkət ədl ilə olar payidar!
İşlərin ədl ilə olar bərqərar!





## ADİL NUŞİRƏVAN İLƏ VƏZİRİN HEKAYƏSİ

Ov zamanı Nüşirəvan köhləni
Düşdü uzaq, dalda qoyub dəstəni.

Şahla vəzir həmdəm olub ov gəzir,
Bircə şah idi orada bir vəzir.

Şah bu bol ovlaqda gəzərkən düzü,
Bir xaraba kəndə sataşdı gözü.

Gördü iki quş oturub biqərar,
Nəğmələri şah könülündən də dar.

Sordu vəzirdən: - Nə deyirlər bular?
Çaldığı fitlərdə nə cür fikr var?

Ərz elədi: - Ey cahana hökmran,
Söyləyərəm şah qulaq assa bir an.

Dinlə, bu quşlar oxuyan nəğmələr,
Xütbədir evlənmə üçün sərbəsər.

Bax, bu, qızın vermiş onun oğluna
Süd bahası ver deyir indi ona.

Sən bu viran kəndi mənə ver deyir,
Bir neçə də həm belə kənd istəyir.

Söyləyir o:- Gəl bu sözü heç demə,
Zülmünə bax şahımızın, qəm yemə.

Şah bu isə ən qısa bir vaxta mən,
Min xaraba kənd verərəm istəsən.

Eylədi təsir şaha bu söz yaman,
Ah elədi, çəkdi ürəkdən fəğan.

Döydü başa, etdi yaman ahu zar,
Zülm eləyən bir gün özü ağlayar.

Dişlədi şah barmağını: "Zülmə bax!
Quşlara çatmış sitəmimdən soraq.

Gör necə zülm eylədim insanlara,
Bayquş oturtdum evə, eyvanlara.

Qafil olub aləmə uydum yaman,
Çox döyəcəm mən başıma, bigüman.

Özgə malın zülm ilə aldım, yetər,
Qaldım ölümdən nə qədər bixəbər.

Mən sitəmi ta nə qədər eylərəm,
Öz başıma gör ki, nələr eylərəm!

Tanrı mənə ölkə veribdir ki, mən,
Gen dolanım zülmdən, işgəncədən.

Altuna tutmuş misimi kirdigar,
Mənsə pis işlər görürəm biqərar.

Zülmilə etdim adımı pis neçün?
Zülm edirəm, vay özümə büsbütün!

Ədl, nola qəlbimə artıq dola,
Məndə özümdən, xüdadan şərm ola.

Oldu bu gün zülm tamaşa mənə,
Vay ola məhşər günü rüsva mənə.

Yanmalıdır odda bu rüsva bədən,
Qəlbimə qəlbim oda yansın həmən.

Ta nə qədər oynayacam zülm ilə?
Ya ki nahaqdan tökəcəm qan belə?

Bəli, qiyamətdə tamam bunları,
Hey soracaqlar tökülən qanları.

Abrımı tökdüm, necə mən yanmayım?
Daşdımı qəlbim, necə odlanmayım?

Ah! Nə qədər yetdi məlamət mənə,
Bəsdir ömürlük bu xəcalət mənə.

Mindiyim at oldu yüküm, bigüman,
Çarəsiz olmaqdır əlacım haman.

Söylə bu vardan ki, bilinmir sayı,
Sam nə götürdü, ya Nəriman nəyi?

Hökmranam məmləkətə bir belə,
Yaxşı nəhayət nə gətirrəm ələ?"

Şah bu düşüncəylə qızışdı yaman,
Dördnala çapdı atını ordacan.

Şah yetişən dəm qoşuna, bayrağa,
Çatdı ədalət qoxusu torpağa.

Tezcə götürdü hamıdan vergini,
Boşladı zülmün, sitəmin rəsmini.

Ədlilə davrandı, sitəm qalmadı,
Ömrü boyu zülmə nəzər salmadı.





Sonra dolandı bu fələk durmadan,
Getdi özü, ədli durur hər zaman.

Qəlbi böyüklər diyarında belə,
Oldu adı daima cüt ədl ilə.

Yaxşıca oldu işinin ancamı,
Ədl ilə böylə ada çatmış hamı.

Ömrünü ver, gülsün ürəklər bacar,
Razı qalar səndən o pərvərdigar.

Sən sığın ancaq şir ürək xaslara,
Dostlara dinclik, özünə rənc ara.

Dərd alan ol, daima dərman verən,
Eyləyələr ta səni fərman verən.

Kində soyuq, sevgidə ülfətli ol,
Ayla günəşdən də səxavətli ol.

Yaxşılıq ilə bir işi eyləsən,
Yaxşılığa rast olasan bəlkə sən.

Bax, dolanan çərx əgər etsən qiyas,
Daim olur yaxşı, pisə haqşünas.

Bax, cahanın hasilidir bir saat,
Taətə qatlan ki, olarsan rahat.

Eylə itaət, çalış etmə günah,
Olma xəcillər kimi ta üzrxah.

Üzr gətirmə, belə qurma kələk,
Bunlar axı sözdür, əməl, iş gərək.

Sözlə düzəlsəydi bu işlər, düzü,
Göylərə qalxardı Nizami özü.

## ÜÇÜNCÜ MƏQALƏT

## ALƏM HADİSƏLƏRİ HAQQINDA

Lovğaların, ey ağası, bircə an
Silk atəyi aləm üçün bir dayan.

Xəstələrə eylə dəva, vermə qəm,
Xacəliyindən kənar ol bircə dəm.

Aqibəti fikrə isə hökm əgər,
Oldu ağa dərvişə pak bəndələr.

Mülki-Süleyman buraxıb dünyanı,
Mülk hamandırsa, Süleyman hanı?!

Gərdək odur ki, bəzək Əzra vurub!
Məclis odur ki, elə Bamiq qurub!

Məclis, o gərdək dayanıb bərqərar,
Batmış o Bamiq, olub Əzra kənar.

Aləmin ömrü çox isə bir belə,
Bir tükü də olmamış əskik hələ.

Çərx haman qanlar içən zülmkar!
Yer də haman qorxulu düşmən ki var!

Kim diləyər dost ola bu aləmə!?
Söylə vəfa etdi bu dünya kimə?!

Torpaq olub kim ki yerə naz satıb,
Yer nə bilir yerdə axı kim yatıb!?

Hər çiçəyin yarpağıdır bir sənəm!
Bir yeni şahzadə başı hər qədəm.

Gəncliyi verdik cahana burdaca,
Doğmuşuq ondan, nədən olduq qoca!?

Oğlunu simürğə verən qəmli Sam
Gəncdi özü, oğlu qocaydı tamam.

Əsla bu yüyrək səma sabit deyil,
Ziddinə iş görməyə eylər meyil.

Gah yetirər burda sənə şahlığı,
Gah da edər kuzəçilər palçığı.

Bu iki rəng fərş üzərində müdam
Təngə gəlib hər kəs işindən tamam.

Böylə deyir kimsə ki, səhradadır:
Bəxtəvər onlardı ki, dəryadadır.

Dəryada kim gördü çətinlik bir an,
Yandı ki, səhra xoş olar, bigüman.

Hadisələrdən qəmə düşmüş bəşər,
Nalə edir yaş-qurudan sərbəsər.

Karvanı artıq yola salmaq gərək!
Mənzili çatmış daha tərk eyləmək.

Kim ki, bu yoldan tamam olmuş bezar,
Kəndə şəhərdən qovulubdur kənar.

Yol gedənə burda verilsə aman,
Orda uzaqdan verəcəklər nişan.

Mülkü burax ki, səni məğrur edər,
Zülmət ilə kölgə necə nur edər.

Ömrü oyuncaqla yetirdin sona,
Oynamağın həddən ötüb, baxsana!

Sanma oyundur fələyin gərdişi,
Yoxdur oyunla onun əsla işi.

Bil ki, ağıl mərtəbəsindən qabaq,
Qəflətin əyyamı idi, heyf o çağ.

Ta ki ağıl çatdı kamal dövrünə,
Getdi sevinc, bax cahanın cövrünə.

Qafil olub qalmaq ağıldan deyil,
Bir dəlidir qafil olan kimsə, bil!

Qafil oturma, kağız al, yaz hər an,
Barı qələm yon, sən özün yazmasan.

Paklara xidmətdən uzaq qaçma sən,
Üzmə əli bəxti olan kimsədən.

Həmdəmi olmaqla tikanlar gülün
Daməninə saçdı ətir sünbülün.

Bil ki, qiyamətdə hesablar gələr,
Məhşər olar, çöldə sədə yüksələr.

"Xəstə ürək bağrını ey qan edən,
Qanını dilsizlərin içdin nədən?

Qum, de, hara, abi-həyat bəs hara!?
Çöl hara, bu feyzi-fərat bəs hara!?

Nalə edir qum ki, qan içdim hər an,
Tökmə qumu, tökməmişəm mən ki, qan.

Duz tökərək süfrəni sahmanladım,
Orda mən üç-beş cigəri yanladım,

Olmaq üçün güclülərin həmdəmi,
Hurilərin qolbağının məhrəmi.

Eylə pərəstiş deyə əmr etsələr,
Mütrüb, o xalxalları at! əmr elər.

Yaxşılar ilə kim olar dost, yar,
Bir gün olar ki, ona lazım olar.

Yaxşıların yox sorağı dünyada,
Bal pətəyində arı salmış yuva.

Yoxdur adamlıq, cahana sal nəzər,
İnsan edir insan əlindən həzər.

İnsan adından ədəbi aldılar,
Dərbədər insanlığı, gör, saldılar.

Əhdi-Süleyman yox olandan bəri
İnsan odur ki, olub indi pəri.

Kimlə yaxınlaşdım isə mən fəqət,
Gördüm uzaq qaçmağımı məsləhət.

Var nə hüma şövkəti bir kölgədə!
Var nə vəfa ətri də bir kimsədə!

Nəydi ədəb toxmu? Vəfa bəsləmək!
Nəydi vəfa haqqı? Onu gözləmək!

Daim əkinçi toxumu bəsləyər,
Gün gələr ondan o da ruzi yeyər.

### SÜLEYMAN İLƏ QOCA ƏKİNÇİNİN HEKAYƏSİ

Məşğələdən asudə xoş bir səhər,
Bir çirağa saldı Süleyman nəzər.

Məmləkəti sürdü köçü bir çölə,
Qurdu yaşıllıqda o, taxtın belə.

Gördü susuz çöldə qoca cütçünü,
Gördüyü hal təzələdi könlünü.

Qoymayıb evdə taxılı ixtiyar,
Torpağa səpmişdi tamam hər nə var.

Hər yana səpmişdi toxum səy ilə,
Dönmüş idi hər dəni bir sünbülə.

Pərdəsini açdısa kəndli dənin,
Quş dilini açdı Süleyman həmin.

Söylədi ki, ey qoca, bir din görək,
Bir bu qədər vardı, yeyəydin gərək.

Tor ki, deyilsən, belə dən saçma sən,
Mənlə belə quş dili gəl açma sən.

Qazma, belin yox beləcə səhranı,
Yoxsa suyu, səpmə çölə arpanı





Biz suyu bol yerləri əkdik hələ,
Əkdiyimizdən nə gətirdik ələ?

Ta bu toxum qarsalayan çöldə sən
Eyləyəsən bəhrə, xeyir əldə sən!?

Boylə cavab verdi qoca tez o dəm:
"Mən su, ya torpaq qəmini çəkmirəm.

Yaşla quruyla yox işim heç zaman,
Səpməyi məndən, köməyi tanrıdan.

Bax, suyum olmuş bu axan qan tərim,
Bax, belim olmuş bu qabar əllərim.

Çəkməyirəm mülk qəmi əsla mən,
Mən yaşadıqca mənə bəsdir bu dən.

Kim ki, mənə mücdə verir biqərar,
Bir dənimi yeddi yüzə çatdırar".

Səpmə şərik sən dəni şeytan ilə,
Bəlkə birin yeddi yüz olsun belə.

Yaxşı toxum tap çalış əvvəlcə sən,
Yaxşı da sünbül gətirər onda dən.

Hər gözə ki, nur rəva gördülər,
Qəddinə uyğun da libas verdilər.

Hər bir ulaq çəkməz o İsa yükün,
Dövlətə çatmaz belə hər gördüyün?

Bax, yedi fil boynunu bu kərgədan,
Murə çəyirtkə ayağı ərməğan.

Susdu dəniz axsa da yüzlərlə çay,
Bir sel ilə çay qoparar hay-haray.

Mavi göy altında açıq-aşikar,
Hər kəsin öz mərtəbəsi, qədri var.

Bəxti olan kəs gərək olsun mətin,
Qəm yeməsin işlər olarkən çətin.

Naz üçün olmaz hamıda hövsələ,
Sirr ilə olmaz hər adam hamilə.

Xamlıq olar bir də desəm mən əgər;
Yük çəkən olmaz bu Nizami qədər.

## DÖRDÜNCÜ MƏQALƏT

### PADŞAHIN RƏİYYƏTƏ QAYĞI GÖSTƏRMƏSİ HAQQINDA

Ey kişilik qalxanını tullayan,
Eylədi yoldan səni div tək cahan.

Bivəfa mülk ilə nədir iftixar!?
Axrı yox ömrə nə gərək etibar!?

Qismətin olmuş bulaşıq badələr,
Etmiş oyuncaq səni səyyarələr.

Quran ilə xəncəri atdın tamam,
Aldın ələ indi qədəh, bir də cam.

Əldə tutub güzgü ilə bir daraq
Qulluq edirsən saça qızlar sayaq.

Bir köpəyin yanğısı sönsün deyə,
Saçlarını neylədi, gör Rabiə!

Oldu xəcil, ey kişi, səndən hünər,
Barı qadından gedib öyrən hünər.

Çox demə, gəl qəhrəmanam, qəhrəman,
Bircə qadınca hünərin yox, dayan!

Gen deyil əsla heç ağıldan hünər,
Amma hünər yoxdur ədalət qədər.

Təptəzə suyla dolub arxın sənin,
Gör nə gözəl torpaq olub məskənin.

Yaxşılıq et, çərx deyilsən ki, sən!
Qorx uca göydən, kənar ol fitnədən!

Yaxşılığın gövhərini saç fəqət,
Böylə maya, bil, gətirər mənfəət.

Zülm eləmək yaxşı deyil heç zaman,
Tökmə nahaq qan, gedər abrın-həyan.

Oldu qabaqlar da belə iddia,
Ta neçə himmətli görüb toplana!...

Himməti xalqın pis olar, qorx, aman!
Məzlum ahından qorx, ey hökmran!

Himmət o yerdən ki, salar bir nəzər,
Baxma həqarətlə, əsər göstərər.

Bir neçə himmətli kişi, sal yada,
Neylədi himmətlə böyük Mahmuda.

Himmət edərsə iki-üç pak nəfər,
İş zamanı gör ki, sənə neyləyər!?

Kim ki, mələk tək atar addım yola,
Tısbağadan kəşfdə qalmaz dala!

Zülm qılıncıyla, dayan, kəsmə yol,
Ta yemə sübh oxlarını, rahat ol.

Şahlıq üçün şərtdir ədalət fəqət!
Oldu, yetər, zülm cahançün sənət.

Xalqı kim ədliylə bir an şad edər,
Öz gələcək yurdunu abad edər.

## SULTAN SƏNCƏR VƏ QARI HEKAYƏSİ

Bir qarını tutdu yaman bir sitəm,
Səncəri tutdu qarı, ərz etdi həm:

-Ey məlik insafını kəm görmüşəm
İl boyu mən zülm, sitəm görmüşəm.

Gəldi mənim mənzilimə darğa məst,
Döydü təpiklə o, məni, etdi qəsd.

Sonra saçımdan tutub, ey hökmran,
Çəkdi çölə bir günahım olmadan.

Zülm eləyib gör nə oyun qurdu o,
Möhrünü zülmün qapıma vurdu o.

Sordu: - filan gün gecə olmuş yarı,
Kim filanı öldürüb, ey çal qarı?

Mənzilimi gəzdi ki, canî hanı?
Heç belə zülm olmaz, ara dünyanı.

Sərxoş isə darğa, o da qan tökər!
Bir qarıdan bəs nə üçün haq çəkər!?

Dəxlini mülkün talayır oğrular,
Dul qarılardan çəkilir sorğular.

Darğa edən zülm ilə itmiş tamam
Bax, sənin ədlin, mənim abrım-həyam.

Əzdi təpiklər sinəmi çox nahaq,
Qalmadı məndən, nə canımdan soraq.

Yetməsən imdadıma, ey hökmdar,
Məhşərə qaldı bu hesab aşikar.

Görmürəm amma səni ədl ilə yar,
Görmürəm əsla bu zülümdən kənar.

Arxa olar, şah kömək eylər hər an,
Zülm eləyirsən bizə sən hər zaman.

Hər yetimi soymaq ədalət deyil!
Abxaz edən heç belə qarət deyil!

Bir qarını çapma, çox azdır varı,
Barı utan, sən görüb ağ saçları.

Qulkən özün eyləmə şahlıq belə,
Şah deyil, ey şah, yaşayan zülm ilə.

Şah çalışıb ölkəni abad edər,
Qayğı ilə xalqı müdam şad edər.

Onda məhəbbətlə baxar xalq ona,
Tabe olar verdiyi hər fərmana.

Aləmi alt-üst elədin sən bütün,
Sən nə hünər sahibisən, bir düşün!

Dövləti türkün ucalandan bəri,
Ədl ilə güldürdü bütün hər yeri.

Zülm edəni sən bu qədər oxşasan,
Türk deyil, qarət edən hindusan.

Sənlə şəhərlər dağılıb, sarsılıb,
Kəndlilərin xərməni dənsiz qalıb.

Anla gələr bir gün ölüm, vaxtı var,
Əl yetəcəkdir sənə də, qur hasar!

Ədlini zənn et gecə qəndil kimi,
Sən bu günü say sabahın həmdəmi.

Bir qarını sözlə müdam şad elə,
Bir qarıdan da bu sözü yad elə:

"Hər yazığa zülm əlini atma sən,
Qəmlilərin, qorx, oxunu dadma sən.

Hər bucağa sən hey ox atdın, yetər,
Ey duasından hər acın bixəbər!

Aləmi tutmaqçün açar gəlmisən,
Gəlməmisən ki, sevəsən zülmü sən.





Zülmünü, şahsan ki, müdam sən kəm et,
Vursa yara başqası, sən mərhəm et!

Naz eləmək hər zəifin qaydası,
Sənsə nəvaziş elə, var faydası.

Nəfslərin arzusuna as qulaq,
Sən bu beş-üç yoxsul üçün ol dayaq".

Eylədi Səncər bu sözü boş güman,
Gördü Xorasanı tutarkən ziyan.

İndi ədalətdən, aman, yox soraq,
Qaçmış o, simürğə aparmış pənah.

Mavi bu çardaqda abır yox daha!
Əsla bu torpaqda görünmür həya!

Qalx, Nizami, daha çox ağla, yan!
Qanlar olan qəlbin üçün ağla qan.

### BEŞİNCİ MƏQALƏT

### BƏŞƏRİN ZƏİFLİYİ VƏ QOCALIĞIN TƏSVİRİ

Xoş günü ömrün sona çatdı, aman!
Su oda, torpaq yelə çatdı yaman.

Sübh açılıbdır, belə yatmaq nədir,
Gün divar üstündən aşıbdır, gedir.

Etmə cahangirlik ilə iddia,
Sən qocasan, etmə cavanlıq daha.

Qupqurudur qəm yara vurmuş ürək,
Qalmayıb əsla duzu əvvəlki tək.

Əql çaşıb, fikrin olub tarümar,
İflic olubdur ayağın, əl qabar.

Töhfə verir yer sənə, çatmış zaman,
Sən geri dur, dincini al, bir dayan.

Daima bu paklıq ilə, çirk ilə
Yaxşı olar dincələsən sən hələ.

Dondu üzündə o işıq çeşməsi,
Soldu, saraldı üzünün laləsi.

Çapdı Həbəşdən Təraza saçların,
Türk, ərəb gəldi çapıb atların.

Hey gecə-gündüz o saçı çal qoca
Sən cavana dərs verib daima.

Çoxlan gəlmiş bura səndən cavan,
Burda qocalmaz deyə etmiş güman.

Əsdi xəzan, getdi gülün yarpağı!
Oldu qoca, itdi cavanlıq çağı!

Eyb eləməzlər cavana heç zaman,
Bax, qocalıqda yüz eyib var hər an.

Olsa də Cəm dövləti dövlət əgər,
Ağ tük ümidsizliyə olmuş xəbər.

Ağ tük əcəldən xəbər eylər müdam,
Əyricə bel söylər ölümdən salam.

Gənclik ilə yaxşılıq ah kimdə var!?
Məndə o yoxdur, ulu pərvədigar!

Qəflət ilə keçdi cavanlıq tamam,
İndi təəssüf yeridir, vəssəlam.

İtkin olan olsa o Yusif kimi,
İtməsinə əfsus elə, çək qəmi.

Qədrini bilmirsən əziz gəncliyin,
Ta qocalarsan, biləcəksən yəqin.

Olsa da gənclik yanar od, gözlə bir,
Balsa cavanlıq, qocalıq zəhrdir.

Gənc bir ağac bağda gözəl bir çinar,
Amma qocalsa, yiyəsi baltalar.

Tər bir ağac bəslənilər gül verər,
Əyri odun yandırılar, kül verər.

Qaliyədir başda qara saç hər an,
Bir qara daşdır qızıl üçün mizan!

Bitdi cavanlıq, di yetər, yatma, dur!
Doğdu günəş, oldu səhər, yatma dur!

Od məzacın onda ki, kafur yedi,
Müşkünü kafur kimi ağ eylədi.

Bir neçə ay gəlsə soyuq göylərə,
Ağ qar ələr qara buludlar yerə.

Əslən ağartmaq, boyamaq eynidir,
Günlə Məsiha evi, bax, eynidir.





Paltar ağartmaq suya olmuş sifət,
Oldu boyaq vurmaq aya bir sənət.

Müştaq olub rəngə bu göylər, düzü,
Oldu boyaqçı, odur, İsa özü.

Yox havanın arpaca rəng, surəti,
Yoxdur odur, arpa qədər qiyməti.

Olma iki rəng gecə-gündüz sayaq,
Olma ürəkdən qara, zahirdən ağ.

Olmaq ilə dağda beli rəng-rəng,
Gör necə oxlandı belindən pələng.

Ağ-qara ardınca yüyürdükcə sən
Zülmət ilə cahil dağındır həmən.

Sən də ağaclar kimi, etsən qiyas,
Gah qəsəb örtdün üzünə, gah palas.

Xasiyyətin ziddir əzəldən müdam,
İstidə yüz cübbə, qışı lüt tamam!

Şirlə pələng tək elə şeylər geyin,
Geyməyə tapsın onu hər vaxt əyin.

Bir qarın olsa çörəyin, az da su,
Çömçəyə döndərmə əli, doğrusu.

Almasa səndən çörək ataş, odu,
Bəs kim alar səndən o suyla otu.

Bir çörək almaqdan isə özgədən,
Yaxşıdır eşşək sayağı ot yesən.

Odlu bu torpaq küpü fırlar külək,
Tökməsə üzdən suyu, verməz çörək.

Burda bu dustaqlar olan daxmada,
İstisi ruhanilərin varsa da,

Olmuş o can Yusifi bir qurd niyə
Şir nədən oldu pişik o süfrəyə!?

Buğdaya oxşar neçə arpa üçün
Buğda kimi əzmə dənin könlünün.

Sən çörək al özcə sinəndən su tək,
Od kimi yandır kabab olsun ürək.

Ey əxi, nəfs itdir, onu çək dara!
Ruzi üçün açma əl alçaqlara!

Dadma paxıl rizqini, ye torpağı,
Torpaq olub olma rəzil tapdağı!

Qoy əlinə, qəlbinə batsın tikan,
İşlə, çalış durma bekar bircə an.

Bir işə öyrənsən, olar çox gözəl,
Özgəyə açmazsan o vaxt bir dəm əl.

### KƏRPİCKƏSƏN QOCANIN DASTANI

Şam sarıda var idi bir ixtiyar,
Sanki pəriyidi yaşar eldən kənar.

Köynəyini otdan-ələfdən geyər,
Kəsdiyi kərpicdən o, ruzi yeyər.

Tullar ikən qalxanı xəncərlilər,
Oldu o kərpic ləhədində süpər.

Kim ki, o kərpicləri etmiş niqab,
Bir günah etmişsə də, görməz əzab.

Öz əməlindəydi qoca bir səhər,
İş-gücün artırdı qəza bir qədər.

Gəldi qəza gör qocaya neylədi,
Bir cavan oğlan gələrək söylədi:

"Söylə bu zillət, bu əziyyət nədir?!
Heyvana layiq belə zəhmət nədir?!

Gəl başını əzmə yerin sən hədər,
Bir çörəyi, bil, sənə hər kəs verər.

Burda bu kərpic qəlibin at oda,
Başqa qəlib, kərpic ara dünyada.

Palçıq ilə çəkdin əziyyət, yetər!
Hey su və torpaqla bu zəhmət, yetər!

Sən özünü say qocalardan hər an,
Gənc işini gəncə burax, gəz, dolan".

Dindi qoca: - Etmə cavanlıq, dayan,
At bu sözü, get buradan, ey cavan.

Kərpic işi bizlərə olmuş sənət,
Yük götürər dərdə düşənlər fəqət.

Mən bu işə qatmışam əl, ey cavan,
Ta ki, sənə açmayım əl heç zaman.

Xəznə üçün kimsəyə əl açmaram,
Ruzim üçün işləyərəm, qaçmaram.

Ruzi üçün sən bu sözü söyləmə!
Böylə deyildirsə, halal eyləmə!

İxtiyarın töhmətini dinlədi,
Getdi cavan, yaş tökərək inlədi.

Aləmə bənd olma, Nizami, yetər,
Din qapısın döy yenə, döysən əgər!

ALTINCI MƏQALƏT

VARLIĞIN ETİBARI HAQQINDA

Pərdə dalında var oyunbaz, tələs,
Yoxsa oyuncaqları kim asdı bəs?!

Bax bu gözəl pərdəyə qəlbinlə sən,
Gör nə çıxar bir də yenə pərdədən.

Həm bu yaşıl pərdənin ardında, bax,
Çoxluca qarətçi durubdur qoçaq.

Parlar ədəblə gözünün gövhəri,
Qəlbə qul olmuşdur əzəldən bəri.

Var nə bu pərgarda, bu nöqtədə,
Dairə xəttində bir iş görmədə.

Burda beş-üç at ki, vurulmuş yəhər,
Onları bizdən ötəri seçdilər.

Şanlı qədimlər, təzələrdən qabaq
Hər yenilərdən hələ yoxkən soraq.

Himini eşqin axı biz hörmüşük,
Zövqünü eşqin axı biz görmüşük.

Hər hünəri, eybi iki dünyada
Təkcə sənin tərkinə asmış xuda.

Yox cahanın sən kimi bir həmdəmi,
Yer quşunun bir dəni yox sən kimi.

Tezcə bu murdar quşu at, keç görək,
Uç bu quş üstündə o simurğ tək.

Altına sərmişsə qanad can quşu,
Daima yüksəkdə uçur səndən o.

Caynağını et bu qəfəsdən cüda,
Tapşır ona sən qəfəsi tez ya da.

Bir gün aparsa köçü o, məskənə,
Öz qanadında verəcək yer sənə.

Bir neçə yer dəhlizini tullasan,
Lövhəni səndən yuyacaqlar o an.

Ağla qara sənlə çatarlar sona,
Xəznə olarsan haqın əsrarına.

Artıq olarsan nəbilər həmdəmi,
Ruhun olar haqq evinin məhrəmi.

Hər iki aləm yolunu sərbəsər,
Daim ürək bir nəfəsə fəth edər.

Kim himini torpağa qoymuş sənin,
Qəlb evinə qoydu o, can Kəbəsin.

Qəlbdən al sən qəbulun nəqşini,
At bədənin köhnə palaz çirkini.

Sürmələyər nərgisi daim səba,
Mis libasa vurdu boyaq kimiya.

Torpaq olan tökmə bədən heç nədir!
Qəlb, yenə qəlb, söz axı qəlbdədir!

Qəlbə qul ol ki, olasan hökmran,
Ağla ağa, ruha şah ol hər zaman.

Qəlbi zəriflik diləsən kürk tək,
Sərtliyə dözsün bədənin çox gərək.

Qoy kobud olsun libasın hər zaman,
Atlas, ipəkdə deyil iş, bigüman.

Sərt dərilik ahunu etmiş gözəl,
Verdi bu üzdən dərisi eşqə əl.

Sərt dəridə müşk dağılmaz, durar,
Olsa ipəkdə, dağılar hər nə var.

Dar nəfəs ol daima, olsan şəkər,
Daş sədəfə həmdəm ol, olsan gövhər.

Gah gecə tək sübhə nal ol sən müdam,
Sübh tək ahlar hədəfi gah tamam.

Zil gecə zəhmət yükü çəkmək gərək,
Zəhmətin artdıqca da artar kömək.

Əhd, vəfa əhli çatan hər məqam,
Zəhmət ilə əldə olar, vəssalam.





Gəlsə bəla, xeyr sayır ənbiya,
Xeyrini sən də güman et bir bəla.

Mərhəmidir qəm, bəla xudbinliyin,
Mey acısı mayəsi şirinliyin.

Sərv tək ol, qurtar özündən hər an,
Şam tək olub, yanmaq ilə şad dolan.

Xəznəni gözlərsə ilan biqərar,
Dincliyə zəhmət yaranıb xəznədar.

Zəhmət olan yer tanımaz nalələr,
Zəhmətin ardınca rahatlıq gələr.

Açmasa bax bir düyünü asiman,
Bağlamadı bir düyün o, heç zaman.

Bax bu səfər ki, gedir azadlığa,
Qəm burada öncül olar şadlığa.

OVÇU, İT VƏ TÜLKÜ

Vardı bir ovçu, gözü aləm iti,
Çölləri ölçməkdi işi, sənəti.

Şir bir iti vardı, tutardı yəqin
Ceyranın üstündə günəş kölgəsin.

Boynu salıb kərgədanı qorxuya,
Dişləri vermirdi aman ahuya.

Ovda ona munis idi, həm də yar,
Bir neçə gün işlədi it biqərar.

Könlünü vermişdi itə çox yaman,
Ruzi idi it ona, həm pasiban.

İtdi, budur aslan iti ovçunun,
Sandı pişiklər yedi bağrın onun.

Söylədi ki, hökm eləyirkən qəza
Şir başı it dımağına bir baha ...!

Üzdü bu qəm qəlbini, vicdanını,
Tutdu dişiylə fəqət öz canını.

Durdu gücündən çox olan səbr ilə,
Arpaca səbri dirəm oldu belə.

Bir dənə tülkü lağ ilə bax bu dəm
Söylədi: - Səbr eyləmə, ey səbri kəm.

Bildim ölübdür qaçışı ceyranın,
Oldusa it heyf, sağ olsun canın.

Getdi yanından dünən o, ov deyə,
Qaçdı, qovuşdu özü də heçliyə.

Yaxşı ov etmişdir itin bax bu gün,
Sən ye, bəsindir iki ay büsbütün.

Qalx, kabab ver bir an öz qəlbinə,
Ver dərini yoxsula, içlər sənə.

Dadlı xörəklər yemisən sən qabaq,
Tülkü əti düşməz ələ bir də, bax!

Tülkü yağından daha asudəsən,
Ümma ödümdən payı bihudə sən.

Görməyəcək bir də kələk, ya tələ
Mən xilas oldum bu ölümdən belə.

Ondan uzaqsan, hara getmiş vəfan!?
Qəm niyə çəkmirsən itinçün bir an?!

Ovçu dedi: - Hamilədir zil gecə,
Bir gün olan qəm keçəcək gör necə!

Mən bu dar ovlaqda onunçun şadam,
Şadlıq ilə qəm qala bilməz müdam.

Bəndəlik ilə bu əmirlik bütün,
Hey bu qəlibdə dəyişir günbəgün.

Ulduz ilə çərx özü dövr etmədə!
Dinclik ilə möhnət ötüb getmədə!

Şadlanıram, çünki könül qəmdədir,
Qəmlər axı şadlıq üçün mücdədir.

Oldusa Yusif kimi qurdum tamam,
Qurd deyiləm, köynəyi mən cırmaram.

Məndən onu aldısa, ey hiyləgər,
Sən kimi bir ovla geri tez verər.

Böylə deyərkən kişi qalxdı duman,
Oldu iti toz dumanından əyan.

Gəldi dolandı başına məşq üçün,
Tutdu dişiylə göbəyin tülkünün.

İt dedi:- Gec gəldim isə, doğrudur,
Tülkü bilir, şir kimi gəldim budur.

Boynumu bənd eylədi dinin sənin,
Tülkünü tutdum, bu yəqinin sənin!

Kimdə yəqin olsa iradətlə yar,
Daim olar sonda səadətlə yar.

Dönmə yəqindən çalışıb sən müdam,
Oldu yəqin çünki mübarək məqam.

Getsə yəqinlə ayaq, olmazmı baş,
Böylə fikirlə zərə dönməzmi daş!

Olsa yəqinlə qədəmin üstüvar,
Daima oddan su, sudan od çıxar.

Qatdı təvəkkül, yəqini kim həmən,
Söylədi ki, "ruzini haqdır verən".

Süfrələrə qonma o milçək sayaq,
Ruzi gəlirsə, onu gəzmə nahaq.

Ruzi buraxmaz qapını bircə dəm,
Haqq işi gör, ruzi üçün çəkmə qəm.

Üz tut o dərgaha tərəf hər zaman,
Ruzini ondan dilə versin hər an,

Getdisə dərgahına kim, sən ya mən,
Dönmədi ordan diləyə yetmədən.

Başqa olurlar yəqin əhli tamam,
Bizlər ayaq, oldu baş onlar müdam.

Atsalar onlar suya səccadəni,
Bal tək edərlər bulaşıq bədəni.

Bir günə vermirsə qərar ömr əgər,
Yığma on il ruzisini sən hədər.

Surətimiz olmuş əvəldən hazır,
Qismətimiz olmuş əzəldən hazır.

Ruzini ordan bizə göndərdilər,
Biz yeyirik hər nə bizə verdilər.

Oldusa insan çoxa cəhd eyləyən,
Ruzidən artıq hələ yoxdur yeyən.

Əhd budur ki, din üçün cəhd elə,
Artmadı ruzi, nə də var cəhd ilə.

Dövrdə olmaqçün əziz sən gərək
Cəhd edəsən, haqdan ola həm kömək.

Cəhd Nizamidə soyuq bir nəfəs,
Verdi kəramlə ona qismət o kəs.

## YEDDİNCİ MƏQALƏT

## İNSANLARIN BAŞQA CANLILARDAN ŞƏRƏFLİ OLMASI HAQQINDA

Yerdə olub göy kimi ey nazlanan,
Çəkmədədir nazını yer, göy hər an.

İşlərin olmuş daha yüksək müdam,
Sən düşünəndən və biləndən tamam.

Əvvəl özün sən bu dəni bəslədin,
Süd yemədin, çünki şəkərlər yedin.

Yaxşılığın olmalı çox, şübhə yox,
Yaxşılıq olsun necə bundan da çox.

Qarğı qələmlə, özün et bir nəzər,
Surətini gör nə gözəl çəkdilər.

Can sapı səndə ciyərə bənd olub!
Beldə bədən gövhəri peyvənd olub!

Xoşdur anqlıq, bu çölü seyrə dal,
Qaçmır anqlar kimi cəld kök maral.

Bir belə heyvan sənə oldu əsir,
Hey tələn içrə gəzişib ot yeyir.

İşdə hümasansa, şərafətli ol!
Az danış, az ye, az əziyyətli ol!

Bil ki, bu aləmdə nə var, ağ, qara,
Burda bir iş görmədədir daima.

Bayquş uğursuzsa da əfsanədə,
Xəznəyə bülbüldür o, viranədə.

Kimdən əgər var burada bir nişan,
Cismi qədər qiymət alar onda can.

Gövhəri səndən az isə dəryada,
Sən kimi gövhərdir o da dünyada.

Artıq ilə əskiyə çəksən hesab,
Qan bahasınca ver əziyyət, əzab.

Burda bir iş görmədədir yaxşı, pis,
Yaxşı, pisə güzgü tutur, şübhəsiz.





Baxş eləsən başmaq, alarsan papaq,
Pərdə cıranlar olacaq ay sayaq.

Pərdə açan olma belə sübh tək,
Ol gecə tək pərdə tutan bir görək.

Pərdə düzəltmiş arılar surıdən
Etdin arı pərdəsini pərdə sən.

Uçma yem üçün belə milçək sayaq,
Çox bu hörümçək toru ağzında, qalx!

Pərdə tutanlar ki, tutub dünyanı,
Saxladılar sirlərini pünhanı.

Pərdə yolun gəldin ağır, amma sən,
Çıxdın odur təkcə çölə pərdədən.

Pərdəsi yox qəlbə vida söyləmə!
Pərdəsiz olsa sən onu dinləmə!

Pərdədə vardır bir oyunbaz məgər,
Başına o, pərdəni asmaz hədər.

Sən vur əli təkcə bu göy pərdəyə,
Başla bu pərdəylə fəqət nəğməyə.

Dinlə bu pərdəylə sözü, qalx, oyan,
Məhrəmi ol sirlərinin hər zaman.

Zindana atsan bədəni qırx gün,
Paklaşacaq can tək o da büsbütün.

İnsanı zindan yetirər ad-sana!
Yusif odur düşdü soyuq zindana.

Qəlbə, cana layiq olan bir məqam
Əldə riyazətlə olar, vəssalam.

Simini təbin bu riyazətlə say,
Eylə təbiət qızılın sonra pay.

Bəlkə riyazətlə adın yüksələ!
Heç kəs olub qalmayasan sən belə!

Olsa sənə tabe təbin köhləni,
Zərb vəfa ilə edər sikkəni.

Yarın ola əql, təbiət özü,
Say bunu əttarla dəmirçi sözü.

Bu, üzünü odla qabar eyləyər,
Qaliyəyə qərq edər o, sərbəsər.

Varlığın əslində budur, yox nicat!
Gəzmə ölüm məhbəsi içrə həyat!

Hər nə ki, zidd olsa bu adətlərə,
Sarvan olar dürlü səadətlərə.

Kim ki, havadan keçə, sərvərdir o,
Keçsə həvəsdən de, peyəmbərdir o.

Əmrinə tabe isə nəfsin bir an,
Onda yerin cənnət olar hər zaman.

Gəl nəfsin zəngi ilə tuğyana,
Dinə qul ol, olma nökər şeytana.

Din evinə eylə pənah büsbütün
Məhşər odundan xilas olmaq üçün.

Ətri cəhənnəmdə də peyğəmbərin
Dərgasıdır daim Əbu Talibin.

Doğrusu, xoşbaxtlar edən bir nəzər
Paklar üçün oldu zireh, həm süpər.

## FİRUDİN İLƏ AHU DASTANI

Getdi Firudin, neçə da xas nəfər
Gəzmək üçün çöl, çəməni bir səhər.

Gəldi çölə, eylədi ov cəlb onu,
Gördü Firudin ovu bir ahunu.

Boynu, qulağı nə bilir qorxu var,
Rəhm dilər gözlər ilə sağrılar.

Bənd elədi şahı bu görkəm, bu hal,
Sanki çıxıb şah nəzərindən xəyal.

Şahı o ov bax beləcə ovladı,
Varlığını bircə telə bağladı.

Çapdı atı dördnala öz bağrı tək,
Çəkdi yayı ahucuğun qamı tək.

Ox bu uçuşla heç ona batmadı,
At bu qaçışla tozuna çatmadı.

Sordu oxundan: - Uçuşun hardadır?!
Sordu atından: - Qaçışın hardadır?

Siz hünəri verdiniz əldən nədən?!
Ötdü sizi bir kiçicik ot yeyən !?

Gəldi dilə ox dedi: - Ey hökmran,
Olmuş o dilsiz ki, tamaşan hər an.

Şah zirehi altda gəzir biqərar,
Şah zirehin oxla axı kim vurar?!

Yaxşı deyil görsün o nazik dəri,
Çalğıçılardan savayı əlləri.

Dağını axtar sən uca kəslərin,
Sən də bu dağdan ucalarsan yəqin.

Xidmət olub insana ən xoş sifət,
İnsana xidmət şərəf olmuş fəqət.

Kimdə ağıldan azacıq bəhrə var,
Əhdi o, ən yaxşıca xidmət sayar.

Əhdə sədaqətlə dolan, əhd elə,
Əhdini sındırma, buna cəhd elə!

Xəznələr üstündə ilan yatsa da,
Xidmət üçün canlı kəmərdir o da.

Xidmət üçün cismini etmiş kəmər,
Çərx odur olmuş başa tac, mötəbər.

Olsa hünərdən yüyəni hər kəsin,
Xidmət üçün taxdı kəmər həlqəsin.

Çatdı işıq şahlığına, yandı şam,
Xidməti ilə arının, vəssalam.

Qalx, Nizami, çox oturdun, yetər,
Xidmət üçün bağla tez ol bir kəmər.

## SƏKKİZİNCİ MƏQALƏT

## YARADILIŞIN GÖZƏLLİYİ

İlk vucudun sözü heç keçməmiş,
Kimsə kərəm bəhri suyu içməmiş.

Yoxdu bu mülk içrə nə dövlət, nə var,
Yaddı bu torpaq yol üçün toz-qubar.

Getməmiş idi "hələ yox" vədədən,
Çıxmamış o löbət özəl pərdədən.

Həm gecə, gündüz yerə alçalmamış,
Canla ürək varlığa bənd olmamış.

Əza çəkişməkdə ikən zülm ilə,
Ədlin "eləl" - "etməl"si yoxkən hələ,

Lütf edərək tanrı özü bir zaman
Tulladı bir damcı bura dəryadan.

Gəldi o damcı elə ki, meydana
Başladı bu mavi fələk cövlana.

Qalxdı sudan toz, yaranıb yer bu an,
Cövhərin olmuş o ərəz, bigüman.

Kim ki, bu tordan qaçaraq qurtarar,
Bir toz olar sanki bu yoldan kənar.

Ey xoş o dəm ki, yox idi xilqətini
Sənsiz idi can, yox idi surətin.

Axtarış etməzdi göyün gözləri,
Yerlər eşitməzdi nə bu sözləri.

Basmamış ikən bu yola sən qədəm,
Varlığa eylərdi şükürlər ədəm.

Görmədi aləm bağı bir tir-tikan,
Yoxdu bu yerdə bu dəli toz-duman.

Bu gecə-gündüz nə sənə hamilə,
Namiyə gücsüz, təbiət dul hələ.

Cövza belin bağlayaraq şad idi,
Sənlə qan alma, vərəmə yad idi.

Oldusa yerdə qara üz ay müdam
Olmadı teştin ilə rüsvay tamam.

Zöhrə yerə tökməmiş abrın hələ,
Həm də ki, Harut qanadı Babilə.

Sənsiz idi onda hələ yer, səma,
Sən yox idin, vardı qəmin daima.

Möhrün ilə ta təzələnmiş cahan,
Səslər ilə doldu tamam asiman.

Bəd gözünə ulduz olub tuş sənin,
Qırdın o ulduz beşiyi dəstəsin.

Onda dolanmazdı ay, il ortada,
Oldu səninlə belə işcil o da.

Yer üzü güzgündü üzü saf müdam,
Buz nəfəsindən qaralıbdır tamam.





Məşəlini sübhün apardın şama,
Doğru-yalançı tanıdın daima.

Göylərin ağzında yerin torpağı,
Yoxsa nədən bağladı göy qurşağı.

Göy sənə "ruh meyvəsidir" söylədi,
Dinləmə, çünki bu sözü dil dedi.

Tacına dəyməz o başın, heyf ola!
Dəyməz ulaq torbaya, at həm çula!

Gop danışıblar burada çox zaman,
Səncə, bir arpaya da dəyməz cahan.

Bircə ovuc torpağa can ver dedin,
Bir dənə kərpicə cahan ver dedin.

Daim əlindən yer əziyyət çəkir,
Yaxşı olar, xəznə kimi qəbrə gir.

Civəyə bənzər necə beynində yağ,
Sincabı fındıqdan olub buz sayaq.

Fındıq olub dar bir evə düşmədən,
Sincabı fındığı gəl et tərk sən.

Qaqum, o qunduz, gecə, gündüz hara?!
Xallı pələng tək dələ bir əcdaha.

Olma pişik tək əluzun hər zaman,
Oynama on qəlbi dələylə, dayan!

Tökmüş ağızdan suyu bu yolda şir,
Ahu kimi bəs suya cummaq nədir?!

İşvə ilə göstərə bir su fələk,
Bil ki, bir ilğımdır o, vermə ürək.

Qaçma, fələklər suyudur gördüyün,
Sor dilini, duzdur o su büsbütün.

Gəlsə susuzluq, ona tədbir çək,
Xərməni odla o təbaşir tək.

Yusifin əvvəl quyuya düşmədən,
Haq Misirin olmuş idi seyr edən.

Ta quyuya düşdün özün, gör barı,
Gəldin o göydən sən üzü sapsarı.

Çoxdur üzündə sarılıq kölgəsi,
Etməz əsər qaşqabağın sirkəsi.

Səndə yüzillik yağ olan bir piyə
Qaşın on il sirkə verə, neynəyə?

Batdı atan qanına bu həft xan,
Yeddi çörəkçün niyə getsin həyan?!

Yaxma oda xərmənini, səbr elə,
Tapdama öz dövlətini bir belə.

Tez çap atı, oldu bu meydan sənin!
İş buyur oldu daxi fərman sənin!

Cam tutan oldun neçə gün, bigüman,
Xoş yeyərək, xoş yataraq, xoş dolan.

Burda sənə gör necə zülm etdilər,
Başda ipi boş buraxıb getdilər.

Oldu ayaq süst, əyilib bel belə,
Yanmadasan öz yağına sən hələ.

Çör-çöpüsən burda ikən mətbəxin,
Orda olarsan ələfi düzəxin.

Dolsa qarın su, çörək ilə hər an,
Ey yünül, orda ağır olmazmısan?!

Çox yaşanılsaydı yeməklə əgər,
Çox yaşayardı, kim əgər çox yeyər.

Azdır ömür, çoxdur odur qiyməti,
Azlığı verdi ona bu neməti.

Az ye, dönüb dinciyə bax sonra sən,
Dərdə düşərsən, nə qədər çox yesən.

Ağlının olmaz yeməyə rəğbəti,
Etdi bu işlə tamahın ülfəti.

Ac tamahınçun ağılı verdilər,
Hər nə ki, gəlmir, yemə! bildirdilər

Səbr edə bilməz tamahın fitnəsiz,
Aldadar ağlı bu səfeh, tulla tez.

Qorxuram olsun işi örnək sənə,
Həm səni salsın tamah öz rənginə.

Burda olan yaxşı-yaman hər nə var,
Bir-birinə uyğun olan rəng alar.

## BAQQAL İLƏ TÜLKÜ HEKAYƏSİ

Yurd idi bir meyvəsatançün Yəmən,
Bir danə tülkü ona mal gözləyən.

Tülkü baxar hər tərəfə səy ilə,
Bərk qoruyardı dükanı hey belə.

Qurdu bir oğru ona hər cür kələk,
Etmədi heç bir kələyi bir kömək.

Sonra yumub göz, sanasan yatdı o,
Tülkünün uyğu damarın tutdu o.

Yatdığını tülkü görüb oğrunun,
Gözlərini tutdu yuxu həm onun.

Oğru görüb yatdığını tülkünün,
Çapdı dükandan dirəmi büsbütün.

Kim burada yatsa əgər, yaxşı bax,
Ya başı əldən gedəcək, ya papaq.

Qalx, Nizami, daha bəsdir, oyan,
Hər şeyi tərk etməyə çatmış zaman.

## DOQQUZUNCU MƏQALƏT

### BÖYÜKTƏBİƏTLİLİK VƏ UCA HİMMƏTLİLİK HAQQINDA

Ey vüsal axşamı kimi möhtəşəm,
Sübh aləmindən daha yüngül qədəm!

Qəmli oturma bu qədər kölgə tək!
Bayrağa durmaq yaraşar, dur görək!

Şahlar əgər istəsə etsin səfər,
Daima əvvəlcə köçü göndərər.

Şahsan əgər getmək üçün əzm elə,
Gör bu səfər tədbirini səy ilə.

Sən köçü göndər tez özündən qabaq,
Azuqə göndər sabaha qalxaraq.

Görmək ilə çox qabağı gör, müdam,
Doldu arı mənzili balla tamam.

Yerdə qarışqa necə səf çəkmədə!
Öz sabahıyçün dən, ələf çəkmədə!

Aqil adam olmasa kor, yaxşı bil,
Heç də qarışqa-arıdan kəm deyil.

Kim diləsə xoş keçə gün hər zaman,
Yayda çəkər qış qəmini, bigüman.

Sənlə, mənəm, burda kənar kim ki, var,
Bircə saat cövhərə sərrafdılar.

Himmət ilə kimsə düşünmür sonu,
Bircə nəfəs heç düşünən yox bunu,

Mənzilimiz keçdi fələkdən tamam,
Aqibəti fikrə bu olmuş məqam.

Hər necə baxdımsa da, yox bir nəfər
Aqibəti fikr eləyən biz qədər.

Ömrü keçirmək xoş olur hər zaman,
Son düşünənlik daha xoş bigüman.

Biz könül arifləri, sərvərlərik,
Olsa da torpaq kanımız, gövhərik.

Hər gələcəkdən bizə gəlmiş əsər,
Olmuşuq olmuşlara sahib xəbər.

Lövhəsi üstdən oxuduq biz yerin
Əbcədini doqquz ədəd göylərin.

İlki biz olduq bu dağın sənlə mən,
Nübarı olduq, bu bağın sənlə, mən.

Torpağını qatdı ələrkən hələ,
Qəlbinə məcun eləməkçün belə.

Torpağın o zillət ilə yoğrulub,
Qəlbi fəqət xəznələr ilə dolub!

Bil bu yerin qədrini, tutma bu cür,
Yerşünas olma belə, ey naşükür.

Mənzilinin sən yolunu gör hanı!
Gəlməyini, getməyini bil, tanı!

Gəlməyinin söylə nədir məqsədi?
Getməyinin sonra nədir hikməti?

Bax belə bir mülk adına olmamış,
Sən bu uçuq kəndi vətən salmamış.

Vardı hüma şövkəti, fərrin sənin,
İlk əzəli göylər idi məskənin.

Sonsuza açmış qanad eşqin əgər,
Var bu əbəd yolların son məgər?!





Sən yorulub yer-yerim olsun dedin,
Su-quruya kölgə salıb işlədin.

Sonra dar olsa sənə dünya bütün,
Tez basacaqsan ətəyindən günün.

Tərk eləsən hər kəsi bu yolda sən,
Qalmaycaqsan yenə bu halda sən.

Şübhə, tərəddüddür işin biqərar,
Səndə bir işçün daxi yoxdur qərar.

Yoxsul olan, həm də edənsən əta,
Köhnə olan bir təzəsən dünyada.

Övlada qatil bu anandan uzaq!
Hər nə atan söylədisə, as qulaq.

Sən nəzər eylə atana, ey avam!
Gör nə edib, tut yolunu et davam.

Dinciyi olmaz dayanıb gözləmək,
Gəlməz o, asan, biləsən sən gərək!

Təkcə bir an təbini sən oxşasan,
Məhv olan ömrün qayıdar bir zaman.

Qəm ye, sən öz torpağına sal nəzər,
Hansı ürəklə belə şadsan, gülər?!

Çərx kimə söylədisə: - Şad olun!
Biz deyilik-sən, mən, o, azad olun!

Biz bura gəldik ki, dözək zəhmətə,
Gəlməmişik boş sözə, boş söhbətə.

Alver edəndən bəri dünyada biz,
Görməmişik düz onu mənada biz.

Neyçün özün gəlmək ilə allanır,
Bil ki, gələn sonra geri yollanır.

Çoxmu çəkər, çoxmu belə ruzigar?!
Daima gəl-get belə bixtiyar?!

Onda deyil şəkk, ədəm heç nədir,
Varlığa şək var ki, o, həm heç nədir.

Uçma iti, çünki yavaş gəlmisən,
Gəldin ələ kec, belə tez getmə sən.

Bir gün olar, "köç-köç" olar, şübhəsiz,
Tez vurular bir dirəmə sikkəmiz.

Tullanılan torpaq olar təzə-tər,
Hər dağılanlar yığılar sərbəsər.

Şərm, həya eyləməsən sən bu gün,
Eylə həya bəlkə sabahın üçün.

Bir belə möhnət görürük burda biz,
Səbr eləyir çox yaralı qəlbimiz.

Həm bu çölün köhləni dindir fəqət!
Həm bu işə çarə həmindir fəqət!

Gör bu yol ağırlığını, bərk dayan,
Süst güman olma sən, ey bərk can!

Qalx, ələ cəhd aynası al daima!
Surətinin qeydinə qal daima!

Üzrü özündən, qəbulu tanrıdan,
Sən boyun əymə qədərə heç zaman.

## BİR ZAHİDİN HEKAYƏSİ

Zahidi almışdı bəla qoynuna,
Künci-xarabat idi mənzil ona.

Meydən içib ağladı mey tək yenə:
- Mən yazığın çarə nədir dərdinə.

Oldu hava quşuna qəlbim məkan,
Təsbih olubdur mənə bir tor yaman.

Mən ki, xarabatda tuturdum qərar,
Kəbə məni etdi yolumdan kənar.

Gülmədi tale üzümə, oldu bəd,
Meyxana küncündə mənəm namizəd.

Gördü məni, mərifət örtdü niqab,
Oldu xarabat özü məndən xarab.

Xəstə mənə aləm ola nola dar,
Kaş tozum olsun ətəyimdən kənar.

Oldu qəza! Yoxsa ki, mən, lat hara?!
Məscidə getmək və xarabat hara?

Himmət o yerdən ki, baxar hər zaman,
Pərdə dalından dedi xoş bir cavan:

-Sayma günahkar qəzanı, ey qoca,
Bil, səni saymaz bu qədər arpaca.

1465 Üzr dilə, qəlbini pak eylə sən,
Sonra gəlib gəl belə söz söylə sən.

Getsən özün, üzrə çakərlər tamam,
Yoxsa gəlib eylər əsir, vəssalam.

Otlamısan yerdə göy ot çox, yetər!
Oldu fələklər sənə göy neyşəkər!

Yuxlamamış tezcə çəkil bir yana,
Azuqə yığ bir qədər o dünyana.

Yaxşı deyil bəs dola göz qan ilə,
Yatmaq ölü, həm də dirikən belə.

1470 Gördü səni xoş yuxuda burda din,
Örpək ilə örtdü odur çöhrəsin.

Qalx, Nizami, şah olubdur süvar,
Keçdi gecə, sən də tez ol bir kənar.

ONUNCU MƏQALƏT

AXIR ZAMANIN ƏLAMƏTLƏRİ

Asta ol ey, göy, bəs elə dövrünü!
Bir dayan, ey yer, bəs elə cövrünü!

Hər gecə ardınca gəlir bir səhər,
Kim nə götürsə, qoyacaq sərbəsər.

Dəhşət ilə məhşər olan zəlzələ
"Torpağa salmış necə bir vəlvələ".

1475 Etdi yeri lap dəli o, zülm ilə,
Zəncirinə noldu göyün bəs belə?!

Əzdi o məcnun bədəni yel təmiz,
Hər dəli zəncir dağıdar, şübhəsiz.

Kimlə düşüb mərci belə bəs yerin,
Açmaq üçün toqqasını göylərin!?

Rəngə gecə, ətrə səhər yad olub!
Çovkana göy, həm topa yer yad olub!

Yer qapısın döymədədir göylərin,
Göy də durub pusqusuna hey yerin.

1480 Çərxin işi tərk edərək pusmağın
Parçalar əndamını bu torpağın.

Ta qoca göylər cıracaq paltarı,
Yer qıracaq müncuq olan sapları.

Çərx enəcək birləşəcək yerlə, bax,
Fırlanaraq yer yuxarı qalxacaq.

Başlarını yormayacaq dərdimiz,
Hər tozumuzdan hər iki yol təmiz.

Göylər işindən sənin azad olar!
Hiylənə düşməz yer özü şad olar!

1485 Ulduz ilə çərx xəcalətdədir,
Torpağa bir böylə tapınmaq nədir?!

Oldu ilan həlqəyə bənzər fələk,
Torpaq olur sonda ilançün yemək.

Ey bu yerin bağrını qan eyləyən,
Yerdə olan sənsən, özün təkcə sən.

Qəm küpünə girdi bu torpaq neçün?
Geydi o matəm libası bax neçün?

Pusqu üçün qüvvələri çatmasa,
Palçığı küpdən kənara atmasa,

1490 Tezcə bu küpdən ətəyi, şübhəsiz,
Yeddi su, torpaqla yuyarlar təmiz.

Həm çıxarar xirqəsini göylərin,
Həm pozar abadlığını tez yerin.

Çox iti getməklə fələk biqərar,
Torpağı bir hadisəyə uğradar.

Sən bu hazırlıqlara bax sərbəsər,
Verdi fələk titrəməsindən xəbər.

Titrəsə baş, sındıracaqdır özün,
Yerdə belə titrəmə var bax bu gün.

1495 Oldu bu müşk rəng sədəf düşmənin,
Gözləri gövhər, sinəsi daş həmin.

Bu, nə sədəf, bəhrdə gövhərdir o,
Bu nə sədəf, görməyə cövhərdir o.

Beyni donar kim ona baxsa əgər,
Zümrüdə vermiş gözü əfi məgər.

Nuru olan göz hanı, yox, müxtəsər,
Çoxsa da göz, yoxdur iti bir nəzər.

Heçlik - ölüm heç xoşuna gəlmədi,
Özgə gözü çünki onu gör dedi.





1500 Sən ayağı zəhmətə sal bir qədər,
Yad ayağilə, de, yolu kim gedər?!

Tapsa da dünyada böyük zər və zur,
Gurə olar qismət o Bəhram Gur.

Burda qapı bağlamaq olmaz bir an,
Kimsə çıxarmaz başı damdan, dayan.

Dustaq olub qal burada sən görək!
Bağla qapı-pəncərəni xəstətək.

At bu qədər çərxi yada salmağı!
Olsun o məğrur başa yer torpağı!

1505 Çox bu göyü, kəhkəşanı anma sən,
Süd yolunu arpa qədər sanma sən.

Uç bu dolab rəng fələkdən, yetər,
Qaç belə dar pərgar əlindən betər!

Hər necə naziksə xəyal, yaxşı bil,
Etdi bu nazik yol onu lap xəcil.

Aciz olub burda xəyal, sal nəzər,
Tük kimidir incə, bu yol sərbəsər.

Başdakı bir tükcə çalış tap dayaq,
Yoxsa xəmirdən kənar ol tük sayaq!

1510 Bundan əgər yaxşı məqam varsa, bil,
Burda oturmaq xoş olan hal deyil!

Çünki bu palçıq təpədə yox vəfa!
Üz çevir ondan, kənar ol daima!

Hər bir ələm yüz cür atılmış yerə!
Hər bel əyilmiş qul olub yüz cürə!

Hər hünərə tənə edir bir şəhər,
Hər şəkəri etmiş acı bir zəhər.

Sübh alovu, atəşi bu mətbəxin,
Bircə kiçik zərrəsidir duzəxin.

1515 Ay göyə etmiş bədəni bir çiraq,
Daima bizdən dilənir göydə yağ.

Mərhəmi olmuşsa bulud solmağın,
Bəlğəmidir, həm də donub qalmağın.

Canlara rahatlığa baissə su,
Var gəmilərçün ziyanı, qorxusu.

Olmuş eyiblərlə dolu ev cahan,
Eybinə baxmırsan onun heç zaman.

Sən yumub öz eybinə daim gözü,
Özgələrə güzgü tutursan, düzü.

1520 Güzgü kimi eyb açan olma əbəs,
Salmasın eybə səni ta hər nəfəs.

Ya sən özündən hünəri at çölə,
Yaxud öz eyb aynanı qır, məhv elə!

Özgələrin eybinə göz yum, dayan,
Ancaq özündə ara eybi hər an.

Eyb, hünər var hamıda, müxtəsər,
Eyb arama,qismətin olsun hünər.

Şamla tapılmaz gecə, gəz hər yanı,
Görmək olar gündüz o dəm qarğanı.

1525 Zərli libas tavusa bir baxsana!
Tənə yaraşmaz bir ayaqçün ona.

Qapqarasa qarğa bədəncə əgər,
Gözləri ağdır, sən ona sal nəzər!

İSA ƏLEYHƏSSALAMIN HEKAYƏSİ

İsa gəzərkən cahanı bir zaman,
Bir bazara düşdü yolu nagəhan.

Gördü yol üstə sərilib bir köpək,
Yusifi çıxmış quyudan ürkərək.

Xeyli adam almış iti dövrəyə,
Baxmada quzğun kimi hey cəmdəyə.

1530 Dindi biri: - Heç buna dözməz damaq,
Böylə nəfəsdən qaralar hər çıraq.

Afəti çoxdur-dedi bir digəri,
Qəlbə bəladır, kor edər gözləri.

Hər birisi çaldı belə bir hava,
Ölmüş itə oldu zülüm, çox cəfa!

Çatdı sözün növbəsi ta İsaya,
Eybi atıb, tutdu üzü mənaya.

Dedi: - O eyvanda olan nəqşə bax,
Dürr ola bilməz dişi tək böylə ağ!

Qorxu, ümiddən o iki-üç nəfər,
Baxdılar o dürrə, gülümsündülər.

Yadda eyib görmə, sən öz yaxşını,
Əy sinənə əcz ilə öz başını.

Səy elə ki, ayna alarkən ələ,
Sən sənə bənd olma, səni məhv elə.

Vurma bəzək yaz kimi öz hüsnünə,
Eyləməsin dünya tamah qoy sənə!

Paltarı nazik toxunub eybinin,
Etdi odur pərdəni doqquz sənin.

Hər nə ki vardır, bu üzük halqada
Tövqün olubdur, nəzər et dünyada.

Çəkmə Süreyya tövqün it sayaq!
Çəkmə Məsiha yükün, olma ulaq!

Çərx axı kimdir? Qoca bir dul qarı!
Bəs nədir aləm? Zədəli bağ narı!

Köhnə, təzə burda nə vardır belə,
Arpaca yox, çünki gedəndir yelə.

Dur, yemə dünya qəmi, ey xacə, sən
Tulla Nizami payını, sən yesən.

ON BİRİNCİ MƏQALƏT

DÜNYANIN MƏŞƏQQƏTLƏRİ
HAQQINDA

Dur bu fələk süfrəsini yığ daha,
Çünki bu nərtaxtada yoxdur vəfa.

Getmə vüsal kuyuna, axtarma kam,
Xisləti insaf ilə yaddır tamam.

Söylə bu dəryada bu qaçmaq nədən?
Dalğalar üstündə yük açmaq nədən?

Ördəyə şahin dedi: - Çöl yaxşıdır!
Söylədi: - Xoş qal, mənə göl yaxşıdır!

Bir bax, olub qəm gəmisi məskənin,
Qanına baisdir o malın sənin.

At yükünü, bitsin əzabın, yetər!
Önlənməsən, su səni tez qərq edər!

Yox bir aman küncü bu dünyada heç,
Yox bu sümükdə nə vəfa məğzi, keç.

Zərrəcə çəkməz bu cahan nazını,
Eyləmə ortaq ona çox-azını.

Hər nə bu göy süfrədə var, birbəbir
Burbuləşıq qab, boş olan süfrədir.

Hər kəs ona baxdı, ağız yumdu tez,
Kim dedi, ondan, dili yanmış təmiz.

Zəngi çox isə bu köçün, heç nə yox!
Yox kasada heç nəyi, milçəksə çox!

Bircə ovuc kim ki, bu qabdan yedi,
Baş kasasından o, üzük eylədi.

Burda tapılmaz savab işdən nişan,
Fitnə, yuxu fikri, qəmi hər zaman.

Heçlik evində təzə xəlvət düzəlt!
Tez bu viran kəndi burax, qaç fəqət!

Qoy bacası olsun evin tüstünün,
Açma bazar arvad ilə ev üçün.

Aləmi qucma iki əllə belə,
Sən ki, onu doğmamısan rənc ilə.

Aləmə xətt çək, qəmi at, şad yaşa!
Dövr ilə asudə ol, azad yaşa!

Mənzil uzaqdır, yol uzundur yaman,
Onlar üçün azuqə yığ durmadan.

Oldu bu məhşər çölü div məskəni,
Tezcə yeyərlər yananı, təşnəni.

Abi-həyatı cigərin qanıdır,
Duz qabısı gün - o fələk xanıdır.

Şorluğu duzsuzlar üçün al şərab!
Duzluluğu onlar üçün bir kabab!

Yox suyu, su rəngli bu duzdan yaman
Qəlb ödü su oldu, ödün qəlbi qan.

Bir yolu görcək qan ola qəlb əgər,
Orda təbiət nə sayaq köç sürər!?

Divli bu çöldə sürünən istidən
Qəlb evi dar, qəlb qəmi oldu gen.





Kim bu təbiət çölünə uydu, bax
Dondu cigər tək, əridi öd sayaq.

Torpağı çox qazma, sonu et xəyal,
Qalx, cəhənnəm verərək cənnət al!

Torpaq o heykəl toz olar hər nə var,
Tullar ayaqlara səni ruzigar.

Başqa adamlar kimi o, bir zaman,
Həm də səni tez itirər ortadan

İndi ki torpaq olacaq son yerin,
Söylə, dolanmaq nədir üstdə yerin!?

Heç kəsi əzmə ayaq altda bir an,
Çoxlarını əzmiş o da bir zaman.

Almadı kimsə buradan öz canın,
Çatmadı kimsə sonuna dünyanın.

Basma tikan üstə ayaq, qalx, oyan!
Qalx, qorun sən bu tikandan hər an.

Burda yerin, bil ki, deyildir müdam,
Qorxuludur, etmə onu sən məqam.

Fani evi zənn eləmə birqərar,
Sanma xəzan yellərini sən bahar.

NƏZƏR SAHİBİ BİR MÖBİDİN DASTANI

Hindli bir möbid açıq bir səhər
Eylədi gülşən tərəfə bir səfər.

Gördü bir ev ki, vurulub nəqşəsi,
Tapdı bir ölkə, bəzənib süfrəsi.

Qönçə taxıb göy kimi qandan kəmər,
Ömrügödək lalə durub bixəbər.

Çöldə çiçək bir-birinə çulğaşıb,
Qarğı qamışlar şəkərə sarmaşıb.

Xəstə edibdir tikanı peykanı,
Titrədir aşiq söyüdü öz canı.

Zülfü bənövşə ip edib boynuna,
Nərgiz edibdir gözü dirhəm dona.

Lalə yonur ləl, çiçək dür bütün,
Lalə bir anlıqdı, çiçək bircə gün.

Təkcə bir an olsa da möhlətləri,
Aqibəti fikr eləmir heç biri.

Getdi qoca böylə baxıb gülşənə,
Bir neçə ay sonra qayıtdı yenə.

Gördü nə bülbül, nə də gül, lalə var,
Nalə edir bağda qara qarğalar.

İndi cəhənnəm düşüb o cənnətə,
Getmiş o qəsrin şahı da məbədə.

Yanmış otu gözdən olubdur nihan,
Gül yerinə vardı yığın tir-tikan.

Baxdı qoca, qəlbini bu, dağladı,
Özgəyə güldü, özünə ağladı.

Söylədi: - Hər kim ki, saçar cilvəsin,
Ömrü deyil daimilik heç kəsin.

Hər nə ki, baş qaldıra torpaq, sudan,
Axır o, viran olacaq bir zaman.

Yaxşı olan yer yenə viranədir,
Tutdum üzü ancaq ora, hər nədir.

Möbid açıb tanrı gözüylə gözü,
Bildi ki, kimdir xuda, kimdir özü.

Oldu bu sir gövhərinə sərraf o,
Əslinə döndü, heç olub, doğrusu.

Gəbrcə yoxsan, a müsəlman olan!
Yox nə yağış damcın, a çeşmə, dayan.

Hindli o möbiddən axır olma kəm,
Aləmi at, aləm üçün etmə qəm.

Gül kimi məğrurluğa meyl etmə çox!
Bil ki, papaqla kəmərin xeyri yox!

Qalx gülün sən kəmərin tərk elə!
Bil ki, qanındır, kəmər olmuş gülə!

Afət olub eşqə kəmərlə papaq,
Et girov onları xarabatda, qalx!

Gah papaq qəlbə ağa eyləyər,
Bəndə edər gah gül üçün kəmər.

At bu ağa-bəndəliyi sərbəsər,
Tutma Nizamini Nizami qədər.

## ON İKİNCİ MƏQALƏT

### BU MƏNZİLLƏ VİDALAŞMAQ HAQQINDA

Qalx, vidalaş daha dövran ilə!
Tülla ətəkdən bu toru, silkələ!

Tap daha yaxşı, daha xoş ölkə sən,
Aç daha yaxşı qapı bu hücrədən.

Getməyə qəlbinlə gözün başladı,
Azuqə et göz yaşını, fəryadı.

Versən əgər azca su bu torpağa,
Qəlbə vəlinemət olarsan, ağa.

Oyna bu yolda dəvəsənsə əgər,
Yoxsa fil altda tuluq atma, yetər!

Tükcə sənə məhrəm olan yoxsa da,
Heçliyə üz tut bu qoca dünyada.

Qəlbini oxşar o zəriflər gedib!
Tənha oturma ki, həriflər gedib!

Çoxları görsənsə də daim lətif,
Heç sənə təklikdə o, olmaz hərif.

Olsa ürək, yaxşısı, pərhiz edən,
Gəzmə təmiz su qara torpaqda sən.

Gəlməmiş ikən o müşayətçi sən,
Payla qazandıqlarını indidən.

Ləng gedirsən, yükünü at nə var,
Yüngül olan mənzilə də tez çatar.

Göylərə yüksəl, arasan qəlb əgər,
Boylə bir evdən nə görərsən səmər!?

Sevmə tələ, tor dolu bu məskəni,
Parçala ki, etmiş o, yoldan səni.

"Mim" sayağ bağlı bu xətt, bil ki, sən,
Heç sənə yol verməz iki bölməsən.

Olma hədəf nöqtəli bu göylərə,
Çıx belə bir xətdən uzaq bir yerə.

Xəttini aşsan gecənin, gündüzün,
Onda bu xətdən də çıxarsan özün.

Sən qədəmin altını bərkitməmiş,
Addım atıb görmə, dayan, heç bir iş.

Hər bir işə başlamamış sən qabaq,
Qaçmaq üçün varmı yolu, yaxşı bax!

Sellərə düşmüş bu evi deş, yol aç,
Fürsət olarkən duraraq tezcə qaç..

Aqil o tülkü tutub itdən xəbər
Açdı evindən iki yol, sal nəzər.

Bağlayacaqdır yolu, bilmir yəqin,
Tüstüsü bu tüstütutan göylərin.

Bəs nə sevincdir bu ki, şadsan hər an
Qafil olubsan sən özündən yaman.

Əhd bu olmuş ki, bu dar dünyada
Qəmli gəlib tez gedəsən daima.

Əhdini qırdınsa bu gün tanrının,
Əhdi necə tərk edəcək bəs canın?!

Get bu yolu hər necə görmüşsə can!
At bu cahanı ki, görübsən cahan.

Baxma yerə, qorxaqayaq olma sən!
Dönmə dala, qorxar adam kölgədən!

Azuqəni dindən elə, get yolu,
Yolda su yox, göz yaşını eylə su!

Ver sədəfə sən bu təmiz gövhəri,
Qurtar özün, eylə xilas həm yeri.

Çoxların öldürdü göyün dövranı,
Əzdi o çox səndən igid insanı.

Sən bu qədim düşmənə qur bir kələk,
Arxasını tez yerə vur bir görək!

Bir bu qədər onda hünər, güc hanı!?
Qorxulu sanma bu qılınc, qalxanı!

Qəm yemə bu ip ki, düşüb dürdüyün
Eşq çəkərkən səni heçdir bütün.

Qəmlərə batma bu şüşəyçün müdam,
Bircə daşa sındıracaqsan tamam.

Kim qızılın atəşini söndürər,
Düşməni şəkkərlə də o, öldürər.





Ağla işıqlar saçan ey mərd ürək!
Düşməni bir güllə yox et sübh tək.

### BİR-BİRİ İLƏ ÇƏKİŞƏN İKİ HƏKİMİN DASTANI

Bir evə sahiblik iki alimi
Bir-birinə eylədi düşmən kimi.

"Mən" var idi, "sən" dilə heç gəlmədi,
Mülk biriydi, ikilik gülmədi.

Haqq ikisə, kimsə birin dinləməz,
Baş iki olsa, birini tezcə kəs.

Sığmaz iki Cəm büsatı bir yerə!
Bir qın ev olmaz heç iki xəncərə!

Onların ancaq bu idi niyyəti
Olsun o ev tək birinin qisməti.

Kində o dəm ki, hüdudu keçdilər,
Tərk eləməkçün evi yol seçdilər.

Qoydular onlar o evi hərraca,
Şərt bu oldu o gecə ordaca.

Hər biri tapsın bir acı şərbəti,
İçmək ilə bitsin evin söhbəti.

Qəlbi kimin burda görək güc gələr,
Burda kimin zəhri kimi məhv elər.

Bir fənə yetsin iki fən dövləti,
Bir bədənə ruhun iki surəti.

Zəhr düzəltdi birisi bir qədər,
Qart daş iyindən əriyərdi məgər.

Verdi, dedi: - Al necə can mərhəmi,
Sanma zəhərdir, iç onu qənd kimi.

Şir kişi ondan zəhəri aldı tez,
Qənd kimi içdi zəhəri tər təmiz.

Nuşgiya qaynatdı, çimib iylədi,
Tiryakı zəhri belə rədd eylədi.

Yandı o pərvanə, qanad tapdı tez,
Məclisə şam tək tələsik çapdı tez.

Bağdan o, bir gül dərərək iylədi,
Tez gülə əfsun oxuyub üflədi.

Zəhrdən artıqdı o gül büsbütün,
Verdi onu düşmənini qəhr üçün.

Düşmən alıb bircə gül əfsunçudan
Qorxusu guc gəldi, o dəm verdi can.

Etdi əlac zəhrə o, tədbir ilə,
Şübhə ilə verdi bu, can bir gülə.

Yerdə bitən hər gül özü birbəbir
Qəlb qanından saçılan qətrədir.

Aləmi bağ bil, yazı sənsən ki sən,
Dərd evi zənn et, sən onun nəqşisən.

Lay-lay olan torpağa daş vur hələ
Sən bu asılmış suya torpaq ələ.

Keç bu sudan, etmə onu arzu sən,
Uç belə yerdən, belə meyxanədən.

Ayla, günə etmə sitayiş belə,
Onları səy et küsufa qərq elə.

Hey bu çadırda dolanan ay yəqin,
Divi olub yolda Xəlil eşqinin.

Etdi səninçün qara ağ gündüzü,
Saldı o gündən bu günə çərx özü.

Dönsə ürək nur çiləyən al günə,
Sən çatacaqsan yenə xoş bir günə.

Yaş tök, ümidlər gülabı bəlkə tez
Bu qara, ağ lövhəni silsin təmiz.

Olsan əməl ölçəni sən düzlüyün,
Məhşər olarkən güləcəkdir üzün.

Burda qolun dinlə əgər güclənər,
Onda ədalət tərəzin düzlənər.

Azad olub bir hünərə bağlanan
Dünyada dünya qəmi çəkməz bir an.

Aləm isə hər diləyi qəlbinin,
Din bu Nizami payı, dünya sənin!





## ON ÜÇÜNCÜ MƏQALƏT

### ƏLAQƏLƏRDƏN AYRILMAQ HAQQINDA

Sən qoca, dar aləmə bax sonra keç,
Baxma cavan rənginə, aldanma heç.

Ol qocanın tutduğu əlvan dəmət,
Gül kimi görsənsə də, oddur fəqət.

Çeşmə bir ilğım, ona aldanma sən,
Xaçdır o qiblə, uzaq ol səcdədən.

Bir belə güldən sənə yox bir tikan,
Var hamı, sən yoxsan, özün bir utan.

İstədiyindən sən olarkən cüda.
Sənlə gələn, sənlə gedər sonda da.

Getsə o dəryasına köç məhşərin,
Qurtaracaq canı dirəmsizlərin.

Sən maya yığ, istər uduz hey müdam,
Hər nə veriblər, alacaqlar tamam.

Alver evi olmuş əzəldən cahan,
Bax bu verən dəm, o, alar durmadan.

Qurdun ipəklər toxuyar hey biri,
Hey yeyər ancaq ipəyi digəri.

Eylə bu cəfəri gülü şam, yetər,
Şam kimi gör sən də gülündən bəhər.

Sındır o doqquz qapını, ver yelə!
At zəri, o altı başı rədd elə.

Tapda kərəmlə qızılı, eylə qəsd,
Qoyma adın zər tək ola bütpərəst.

Yoxsa zər üstündə amal sikkəsi,
Zirnix ilə birdir o, yox şübhəsi.

Zərri əziz etdi zəri dünyada,
Var belə zərdən, düzü, tavusda da.

Sildi zərin sikkəsini, bax, dəmir,
Oldu dəmirçi bu sayaq şah, əmir.

Qaruna himmət yetirib zər papaq
Saldı o üzdən quyuya dartaraq.

Olsa yeri başda, o, yükdür sənə!
At ayaq altına, minikdir sənə!

Kim ki qızıl verdi, verir sanki can,
Almamaq ondan da gözəldir hər an.

Gəlsə qızıl, hey tamah artar hər an,
Getsə qızıl, rahat olar onda can.

Sən ki, alırsan, sovurursan müdam,
Yaxşı olar, almayasan, vəssalam.

Səfra yığan yağdır o zər, yığma sən,
Səfra qovan meyvə olar, bil, yesən.

Şərq elinin nemətidir, bil ki, zər,
Qərbli ad qoydu ona bixəbər.

Qərb, onun əhli kərəmin düşməni,
Şərq, o bağın əhli səxa mədəni.

Şərqli, o, hər nə verə sübhdəm,
Qərbli şam vaxtı qapar tezcə həm.

Mədən üçün vali deyilmiş zərə,
Quşda qanad naib olub əllərə

Rum zəri ki, Şam daşı ilə müdam
Gəldi düz eşqin müzanında tamam.

Olsa da parlaq və gözəl zahirən,
Torpağa basdır, ona aldanma sən.

Qapmadı bu oğru, de, kimdən papaq!?
Salmadı yoldan kimi bu hal uzaq!?

### HACI İLƏ SUFİNİN DASTANI VƏ ONUN ƏMANƏT VERMƏSİ

Kəbəyə getmək diləyən bir nəfər
Gördü tədarük edə bir gün səfər

Xərci üçün lazım olandan kənar
Yığmış idi bir kisə zər ixtiyar.

Təkcə filan sufi-dedi, -bigüman,
Üz çeviribdir bu qoca dünyadan.

Zənn elədi, onda olar etibar,
Varsa da düzlük, bir elə onda var.

Getdi pulu versin əmanət deyə,
Verdi qızıl pul qabını sufiyə.

Söylədi: - Pul olsun əmanət sənə,
Mən geri döndükdə də qaytar mənə.

Xacə durub çöl tərəfə çapdı tez,
Şeyx əmanət qızılı qapdı tez.

Gör neçə vaxt idi, aman, ey xuda,
Sufi yaşardı belə bir arzuda.

Söylədi: - Zərlə işə verrəm nizam,
İstədiyim xəznəni tapdım tamam.

Hər nə veribdi xuda asan mənə,
Tezcə yeyim, düşməsin iş tərsinə.

Tez gələrək açdı düyündən bağı,
Keyf elədi bir neçə axşam çağı.

Hər nə ki, vardı qızılı büsbütün
Qarnına sərf etdi, yedi keyf üçün.

Üstünə düşdü o, əmanət zərin,
Zülfünü zünnar elədi bütlərin.

Xirqəsi oldu şeyxin yüz para,
Qaldı ürək səksəkədə, üz qara.

Qalmadı ovdan, yedi, bir iz, soraq,
Öz çırağıyçün nə də bir qətrə yağ.

Döndü səfərdən hacı bir gün yenə,
Etdi hücum hindusunun üstünə.

Sufiyə o: - Tezcə gətir – söylədi,
Söylədi: – Nə? Söylədi: – Zər. - Sus – dedi.

Eylə kərəm, əl çək inaddan, yetər!
Kim bu viran kənddə xərac istəyər?!

Sərf olunub getdi qızıl pul kisən,
Zər hara, müflis hara, bir söylə sən?!

Türkü de, kim qarət edər yağmalar?!
Hinduya kim mənzil edər etibar?!

Rüknünü qırdı qızılın qəlbimin,
Verdiyini mən yemişəm, bil həmin.

Verdi malı yüz gülüş ilə yelə,
Sonra da getdi o, yüz ah-zar ilə.

Söylədi: - Rəhm et ki, peşiman mənəm!
Kafir idim, indi müsəlman mənəm.

Hamilədir fitnə, xələldən cahan,
Oldu xələl, səhv mənimdir haman.

Söylədi tüğyan edərək ədli həm,
Dərviş ayaq üstə durub, et kərəm!

Tutdu kərəmlə üzünü allaha,
Keçdi kərəmlə qızılından daha.

Oldu öyüdçü özünə: - Boşla sən,
Heç nəyi yoxdur, nə alım heç nədən?!

Mən nə alım bircə dəni yoxsa da!?
Üzrüdür ancaq girovu dünyada.

Sufidə o verdiyi maldan qalan
Kufi "əlif", halqalı "mimdir" olan.

Etməyim istərsən əgər mən vəbal,
Hər nə haram oldu, edim mən halal.

Gen dolan, ey çərx kimi hiyləgər,
Sufilik ilə bu kələkdən, yetər!

Qəlb tamahla həsədə oldu yar,
Kimsəyə yoxdur burada etibar.

Din zərini vermə o şeytanə sən!
Şaha yarar qolbağı səgbanə sən!

Versən əgər, peşman olarsan, dayan,
Yoxsul olandan geri gəlməz mayan!?

Eyb evidir, azuqəni et hünər,
Qəlbə sığın, bir bucağa get, yetər.

Oğruluğu darğa seçib burda yol,
Yaxşı olar varlı deyil, yoxsul ol.

Çərx özü pulsuzları çapmaz bir an,
Varlıların karvanın eylər talan.

Mən belə gördüm, belə olmuş cahan,
Gördü şirinlikdən arı min ziyan.

Oldu acı şir də onuncun məgər,
Ölsə onu qoy yeməsin vəhşilər.

Daim ucalmaqla yanıb söndü şam,
Sındı tamamlıq diləyib ay müdam.

Yel ki, yerə meyl eləyir qurd kimi,
Heç nəyi yoxdur, yox odur bir qəmi.





Göl quşu yəqin ki, bilir bunları,
Oldu bəla həm balığa pulları.

Zər tərəzi oldu niyazın üçün,
Fatihə oldu o namazın üçün.

Pak eləməz, bil, bu niyaz heç zaman,
Sən də Nizami kimi pak olmasan.

ON DÖRDÜNCÜ MƏQALƏT

OYAQLIĞIN ŞƏRTİ
HAQQINDA

Ey bir öküz, ya bir ulaq tək hər an
Otlamaq ilə sevinib şadlanan

Aləmə biganə olan sərbəsər,
Ey bu yaşıl dairədən bixəbər.

İş verilir burda xəbərdarlara!
Dövr qəmi-dərdi, xəbərsiz hara!?

Başla işə, sən nə üçün yatmısan!
Qəlbə yatan işlərə qoş hər zaman!

Anla pusurlar, belə yatmaq neçün!?
Ağlı olanlar belə etmir, düşün!

Qəm təpəsi aləmə bax, gör sonu!
Gör necə acizsən, axır bil bunu!

Ağlını say yaddaşı yox bir qoca,
Salmamış o, sən tez onu sal yada.

Verməsə ağlın sənə şöhrət-şanı,
Yad edərək kimlər öyər insanı?

Əql Məsihdir, ona üz tut hər an,
Etmə cığallıq çox ulaq tək, dayan.

Əql ilə yol get, tapasan bəlkə nur,
Ya qapısından çalışıb gendə dur.

Ağlını məst etmə "nə olsun!" deyə,
Şahini yem eyləmə bir sərçəyə.

Olsa da hər yerdə halal mey müdam,
Əql ilə düşmənliyi etmiş haram.

Mey nəçidir, abrını tökmüş cama?!
Et mey ağıl çeşməsini daima!

Mey, özü dünya qəmini qovsa da,
İçmə, verər ağlını da tez bada!

Duzla ciyər bil meyi, durma yaxın!
Tök ciyəri üstünə duzsuzların.

Heç nə yemə, lazım isə bir xəbər,
Mey səni hər şeydən edər bixəbər.

Bixəbər o kəs ki, içər bircə dəm,
Çəkdi xəbərdarlığa o bir qələm.

Ol bu xəyalın gözünə mil çəkən,
Meyxana ayağına vur kündə sən.

Ey bu "əlif" qəddinə heyran olan
Etmə bu sevda ilə ülfət, dayan.

Olsan "əlif", dön qanadı yox quşa,
Yoxsa "be" ol, başı aşağı yaşa!

Məclisə zinətsən "əlif" tək müdam,
Amma ki müflissən "əlif" tək tamam.

Yüksəyə meyl etmə tikan tək nahaq,
Başsız-ayaqsız yaşa sən gül sayaq.

Körpə kimi oynamağa uyma çox;
Ömr kimi "olsun uzun!" umma çox!

Qaş qaralıb, gün də gedibdir uzaq,
Kölgə çox olsa, sən az ol nur sayaq!

Çatsa sona, bil ki, günün dövrəsi,
Hər şeyin artar ikiqat kölgəsi.

Kölgəpərəst olma belə sanki bağ,
Kölgəni qov nur ilə, ol bir çırag.

Kölgəni sən etsən özündən kənar,
Məhv olar eybin də sənin kölgə var.

Kimdir oturmaq bacaran kölgədə?!
Abi-həyatdır o duran kölgədə!

Ey baş-ayağı müdam alt-üst olan,
Fikri fələkdən tamam alt-üst olan.

Sübh qızıl teşti veribdir ki, tez,
Ta sən özündən yu əli tərtəmiz.

Paltarı bu teştdə yusan, doğrusu,
Get günəşin çeşməsinə istə su.

Sabunun olmuş bu günəş, şübhəsiz,
Paltarını qandan o, eylər təmiz.

Saçdı təbiət çox od-ataş bütün,
Qalmadı bağrında su heç ömrünün.

Varsa qərəz çirkin əgər, səbr qıl,
Qırmızı olmaz, yemə qəm, hər qızıl.

Olsa təmiz varlığı hər ünsürün,
Onda cəhənnəm qalar ac büsbütün.

Odlarına, buzlarına aləmin
Düzlüyü olmuş zirehi adəmin.

Əyriliyin verdi sənə qəm, kədər,
Doğru dolansan, gen olar qüssələr.

Doğruçu olsan tərəzi tək müdam,
Düzlüyünü ver tərəziyçün tamam.

Bir dənə arpa, ya da bir dən qədər
Əllərin az çəksə, axır gün gələr...

Heç biri qeyb etməyəcək öz yerin,
Göstərəcəklər sənə, bil, hər birin.

Gizli nəyin var açacaqlar o gün,
Az verib artıq nə alıbsan bütün.

Etmə bu alver, çəkini çox rəvan,
Gəl ya da artıq ver, az al hər zaman.

Əyrilik etmiş tikanı yar gülə,
Neyşəkəri düzlük edib nuş belə.

Harda ki, düzlük aləmi sancılar,
Haqq köməyi qalxıb ona əl çalar.

ZALIM PADŞAHIN
ZAHİDLƏ DASTANI

Var idi bir şah eli incidən,
Zülmdə olmuşdu o, Həccac fən.

Hər nə doğardısa gecə sübhdən,
Söylənilərdi qapısında həmən.

Getdi biri sübh şahın yanına,
Sirr aça bilməkdə də yox tay ona.

Oynamaq idi işi ay tək gecə,
Eyb açan olmuşdu səhərtək necə.

Ərz elədi: - Bir qoca pünhan ikən,
Söylədi zalım səni, həm qan içən.

Oldu yaman şah bu sözə xişmnak.
İndi edərəm – dedi – onu həlak.

Xalça atıb tökdü qumu, doğrusu,
Divləri hürkütdü onun qorxusu.

Getdi qocanın yanına bir cavan,
Ki, səni şah eylədi cani güman.

İstəməmiş, dur, səni ol zülmkar,
Get yanına, bəlkə ola bəxt yar.

Dəstəmaz aldı, qoca geydi kəfən,
Getdi şahın yanına birbaş həmən.

Gördü, ovuşdurdu əlin şah yaman,
Baxdı kinindən ayağa hökmran.

Söylədi ki, məlumum olmuş, nihan
Sən mənə zalım demisən, ev yıxan.

Hökmranam mülki-Süleymanə mən
Sən mənə cəllad demisən, div, nədən?

Ərz elədi: - Mən deyiləm yuxlayan,
Mən daha artıq demişəm bil əyan.

Gənc, qoca görmüş işindən bəla,
Kənd, şəhər dərdə olub mübtəla

Mən sayıram eybini düzgün sənin,
Bil, məni yaxşı, pisə güzgün sənin.

Güzgü düz əks etsə səni, bigüman,
Sən səni sındır, onu qırma, dayan.

Diqqət elə, düzlüyümə, as qulaq,
Böylə deyilsə, məni sən qoyma sağ.

Dönmədi düzdən o qoca, müxtəsər,
Düzlüyü etdi şaha möhkəm əsər.

Gördü onun duzlüyünü hökmran,
Gördü o, düzdür, özü əyri yaman.

Əmr elədi: - Getsin o kafur, kəfən,
Xələt ilə qaliyə cəlsin həmən.

Zülmdən əl çəkdi o gündən tamam.
Oldu ədalətli o andan müdam.





Düzlüyünü kimsə nihan etmədi.
Doğru sözə kimsə ziyan etmədi.

Doğru dolan, görməyəsən ta xətər,
Doğruluq et, tanrı yetirsin zəfər.

Düz söz özü olsa da lap dür sayaq,
Zəhr dadar, zəhr dadar çünki haq.

Sən sözü düzlüklə desən, bigüman,
Haqq ona nüsrət verəcək hər zaman.

Qəlbi Nizaminin, özü düzdülər,
Hər işini düzlük ilə düzdülər.

## ON BEŞİNCİ MƏQALƏT

### YENİ GƏLƏNLƏRİN PAXILLIĞI HAQQINDA

Çərx iti sürətlə qaçıb hər bir an
Növ-növ oyunlar çıxarır durmadan.

Xalça dolu zərbə, de, rəqqas hanı?
Bəhr dolu dürr ilə, qəvvas hanı?

Tac ilə dövlət, dəxi xəncər, dirəm,
Hər nə gərəksə, götür al, etmə qəm.

Kim ki nəfəsdə çata Cəbrailə,
Qibtəçi olmaz ona qüdrət belə.

Sən buradan hey daşısan, var yenə,
Çoxdur onun dəxli, çatar xərcinə.

Get bu yol ilə, iti rəftara bax!
Döy qapını, sonra da əsrara bax!

Torpağı kimya, daşı yaqutdur, ah!
Sən tanımırsansa, kimindir günah!?

Sındı təsərrüf qələmi, oldu xar,
Pərdədə çünki nə qədər sirr var.

Gündə bu bağdan yeni bir bar gələr,
Hər şirinindən də şirin meyvələr!

Çoxlu həmayildir ürəklər tamam,
Hər biri xoşdur o birindən müdam.

Həm bu yolun yolçuları, bax ki, sən
Zirək olur dəstə ötən dəstədən.

Verdi ağıl hər şərəfi məniyə,
Vermədi əsla qocalıq, gəncliyə.

Köhnələrək daş, mənə məlum olan,
Lələ dönür, var burada çox güman.

Hər nə qədər köhnəsə, pisdir bu xalq,
Dağda qopan boş səda, səsdir bu xalq.

Kim südəmər gördü səni bir zaman,
Həm südünü, saydı zəhər bigüman.

Mərhəmət etməz təzəyə köhnələr,
Gəncə qoca az havadarlıq edər.

Hər təzə gül mərhəm olar canlara,
Köhnə tikansa vurar artıq yara.

Oldu üzüm təptəzəsə, tutiya,
Köhnələrək oldu ilan, əcdaha.

Baş kasasında ağıl etmiş məkan,
Köhnə olan beyni bəyənməz bir an.

Kimsə ki ulduz kitabın anladı,
Köhnə olan təqvimi tez tulladı.

Aslana dönmüş qoca itlər ki var,
Qurd kimi ceyran göbəyi parçalar.

Mən qoca qurdlardan edərsəmsə qəm,
Etmə məzəmmət, mən axı Yusifəm.

Vursa qoca hər nə yara, xoşdu bu
Neyləyim, oddur özü gənclik suyu.

Olsa da gənclik, özü fərzanəlik,
Bircə budaqdır, kökü divanəlik.

Saysa da bədmişk özünü yasəmən,
Eyləyir ağ hinduluq o, bilmədən.

Gül kimi hey xəznə saçıb daima,
Gənc ikən etdim qocalıq iddia.

Sən bu özün sevmək işindən gen ol,
Haqqı sevirsən, özünə düşmən ol.

Ay təzəsə, gördün onu sən hilal,
Bədr adı aldı o, taparkən kamal.

Olsa ağac sahib uca bir boya,
Əl elə at, çatsın əlin xurmaya.





Tarlanı əkdinsə də, səpdinsə dən,
Sünbül olarkən onu dən sayma sən.

Çaylar axar, göl dəxi dərya olar!
Baxma haman gözlə ona, zinhar.

Gözlərini yumdu səhərçün gecə,
Gündüz ona baxdı fəqət gör necə!

Baxma nə otdan göyəribdir qamış,
Qəndinə bax, sonra sən ondan danış!

Ver hünərə qəlbi, nədir iddia?!
Sən hünər axtar, harada olsa da.

Bolsa sədəfçün su əgər hər zaman,
Bircə yağış damcısıdır dürr olan.

Qəlb ilə can çox-çox əziyyət çəkər,
Tapmaq üçün taclıq olan bir göhər.

Harda qəzadan yeni bayraq gələr,
Sən qoru ki, onda o da yüksələr.

Çərx hələ, bax bu evi yıxmayıb!
Gör ki, bu göy süfrəni də yığmayıb!

Olma, aman, mane olan dərğa tək,
Ta yemə iblis kimi dəxi kötək.

Baxmasa kim hökmünə iqrar ilə,
Çərx verər başını axır yelə.

### BİR ŞAHZADƏNİN HEKAYƏTİ

Nəql eləyirlər vətəni Mərv olan
Var idi şahzadə gözəl bir cavan.

Səltənət əhli ona olmuşdu qəm,
Asi idi çərx kimi ölkə həm.

Asi olub bir təzəyə köhnələr,
Qorxuya salmışdı onu həmlələr.

Yatdı fikirlərlə cavan bir gecə,
Söylədi röyada ona bir qoca.

- Ey təzə ay, köhnə o bürcü uçur!
Ey təzə gül, köhnə budaqları vur!

Ölkə səninlə ola ta bərqərar,
Şadlıq ilə sən də yaşa bəxtiyar.

Şah qalxıb tezcə götürdü haman,
O iki-üç düşmənini ortadan.

Təzə bina qoydu pozub köhnəni,
O təzə şah etdi təzə ölkəni.

Ölməlidir mülkə pozuqluq salan,
Qovmalıdır, olsa qo°un bədgüman.

Kök-budaq atmaz təzə şax, bil ki, sən,
Köhnə şaxı dibdən əgər kəsməsən.

Kəsməsən arxın önünü aşikar,
Göylərə qaldırmaz əli göy çinar.

Sən bulağın su yolunu açmasan,
Gözdən axıtmaz su bu yer heç zaman.

Səndə sənə sirdaş olan dost var,
Yaxşı öyüdlər verir o, biqərar.

Tezcə qılıncı o qınından çıxar,
Saxlama qında onu çox, zinhar.

O nəfəsi sayma bu yer mücrüdən,
Haqqını o pak kəsin anla sən.

Hər şeyini eylə ona ərməğan,
Ta ki, səxavətdə böyük ad qazan.

Varlıların tapdığı hər bir zəri
Onlara tapdırdı kəramətləri.

Sən gəl aman tarlasına səp kərəm,
Məhşər olar, bar verər o, etmə qəm.

Yarəb, öz ehsanın olan xəznədən
Ver bu Nizami payını barı sən.

## ON ALTINCI MƏQALƏT

### CƏLD TƏRPƏNMƏK HAQQINDA

Ey meh əsincə göyə bayraq tutan!
Bir toz önündə qələmi tez atan!

Kənd ki yox, kəndxudalıq eyləmə,
Mülk ki, yox, təxti-Süleyman demə.

Sən nə qılıncsan, bu kəsakəs nədir!?
Dəf ki, deyilsən bu qədər səs nədir!?

Parla qılınc ağzı kimi, səp dirəm,
Səslən o dəf qamı kimi boşca həm.

Div boğacaq, düşmə yerə, ağla gəl!
Sən dirisən, ölməmisən, vermə əl.

Bir muğu gördükdə səlib olma sən,
Taxma qılıncı, o xətib olma sən.

Xütbə mətin dillilərə bir sənət,
Asqırar Adəm kimi İsa fəqət.

Kim nəfəs alsa, düzü, pərvanətək
Od qoşunu üstə cumar böylə tək.

Bir neçə dəm xoş nəfəs al, can qazan,
Xirqəni at, aləmə ol hökmran.

Bəxşişin olmuş sənin ancaq riya,
Həqqə deyil, and ola bir tanrıya!

Aslana dön, qorxma pişikdən hədər,
Təlq tək ol, qorxma o oddan məgər.

Saxta isən, get halal ol odda yan,
Yaqut isən, qorxma alovdan bir an.

Bəsdir öyündün belə, ey saxtakar,
Ey iki batman sümük, et bir qərar.

Özgələr olmuş hələ bizdən qabaq,
Rütbə üçün əlləşib onlar da, bax!

Rütbələrin hasilini gör nədir,
Faydası da oldu ziyan hər nədir.

Sən yerin ey zərrəsi ay, gün sayaq,
Rütbədə qoysan fələk üstə ayaq.

Düşməli olsan da gec o dövrədən,
Torpaq olan düşməlidir, anla sən

Kəsməmək üçün başı saç tək, dayan,
Qoyma ayaq sən divar üstə, aman.

Quş ki, deyilsən, uçasan sən belə,
Çatmaq üçün canını tez məhv elə.

Sən fələyi heyrətə sal, bir sına,
Heyrət ilə düşsün ayaqlarına.

Dəhri məzəmmətləmə, ey yaxşı kəs;
Sənlə mənə dəhr yaman eyləməz.

Dəhr çalışmış, oyun açmış müdam,
Ta ola bizdən birimiz bir adam.

Kəndin ən alçaq kəsiyik sənlə mən,
Bəs sayınq dəhri günahkar nədən!?

Olmasa ləlin mayası abdar,
Heç qəbul eylərmi onu şəhriyar?!

Daşla tamam dopdolu olmuş cahan,
Onlar içində az olar ləl olan.

Bax, tikana, yasəmənə, otdular,
Gözlərə çöpdür bu, o, dərman olar.

Çeşmə suyu verməsə də bir kömək,
Getməz əsil güldən ətir, ya ki rəng.

Yaxşı tutaq ki, su lətafət verər,
Nəylə tikanı səmənə döndərər?!

Olmasa dünyada belə bir qərar,
Lap dəyişib saxtalaşar ruzigar.

İş nə bu tədbir ilə, dövlətlədir,
Dövlət ilə ruzi nə qiymətlədir?!

Varsız olan kəs verər ömrü bada,
Varlıların dərdi nədir dünyada!?

Var sevənin bəxti oyaqdır müdam,
Dövlətə ol bəndə hər an sən tamam.

Mülkü nahaq vermədilər dövlətə,
Yetmədi heç kimsə hədər dövlətə.

Varlıların sən başına hey dolan,
Ruzin olar onda sənin hər zaman.

Bir neçə bədbəxtə belə olma yar,
Əyyamın iqbalısı ol, tut qərar.

Bəxtəvər ol, bəxtini tap Cövzada,
Qoz qıraraq bəxti sına sonra da.

Var qapısında müdam üftadə ol,
Hər düyünündən fələyin sadə ol.

Oldu sular saf, belə xoşdur müdam,
Udsa yanar, çünki düyündür tamam.

Qəlbə qul ol, vermə könül heç kəsə,
Zəhmət üçün bəsdi bədən hər nəsə.

Gündə yeni bir budağa atma əl,
"Ah! çox ola nola varım" etmə gəl.





Zənn eləyək aləmi tutdun bütün,
Burda qalarsa, onu gəzmək neçün?

At tamahı, taətini məhv edər,
Təkcə qənaət! O, necə səhv edər?!

Mavi göyün mərkəzi hey biqərar,
Tək sənə gendir, bu xəyal, fikrə dar.

Ya fikir etmə ələ al bir təhər,
Təngə gətir ya fikir ilə yetər!

Qalmadı bir mərifət adəmdə, bax!
Yox bir ürək əhli bu aləmdə, bax!

İki hünəmamədə doqquz dəbir,
Yazmadı bir surətə mənanı bir.

Mənada bir düşməni dost sanma sən,
Abi-həyat umma belə əfidən.

Aqil olan düşmən olar qəm sənə!
Nadan olan dostdan o, xoşdur yenə.

### YARALI UŞAĞIN DASTANI

Əslcə azadə olan bir uşaq,
Getdi neçə həmyaşıdilə uzaq.

Addım atıb böylə düşəndən yola,
Hey yüyürürdü o, sağa, gah sola.

Bax, ayağı getdi o qaçmağilə,
Qəlbi qırıldı, ayağı həm belə.

Böylə görərkən pis onun halını,
Pozdu neçə həmyaşı əhvalını.

Kim ki, ona xeyli yaxın dost idi,
Bir quyuya tezcə ataq-söylədi.

Olmaya ta sirri onun aşikar,
Olmayaq artıq bu işə şərmsar.

Aqibəti fikr eləyən bir nəfər,
Düşmən idi həm də ona bir qədər.

Söylədi ki, sonra bu söz, bigüman,
Qalmayacaqdır belə daim nihan .

Çünki sayırlar məni düşmən sayaq,
Təqsiri də məndə görərlər nahaq.

Tez gedərək verdi bu işdən xəbər,
Ta atası eylədi çarə məgər.

Kimdə olarsa ağılın cövhəri,
Həll eləyər daima müşkülləri.

Müşkülünü kimlər açar göylərin?
Kim ki, qədəm üstə basar göylərin!

Az-çoxunu çərxin atandan bəri,
Keçdi Nizaminin işi göyləri.

### ON YEDDİNCİ MƏQALƏT

### HAQQA PƏRƏSTİŞ, TƏCƏRRÜD VƏ XƏLVƏTƏ ÇƏKİLMƏK HAQQINDA

Ey özünə, tanrıya həm yad olan!
Can, bədəni qəmlər əlində qalan!

Hey bu qəlibdə belə "mən", "mən" deyən
Getməz ağızdan oyana, dinmə sən.

Aləmə çərx əyrisi tez olma bənd,
Yad nə veribsə, nə gərək, olma bənd.

Gücdə səni üstələyər, bil, cahan,
Həm daşı çoxdur tərəzindən yaman.

Dağ gücünü istəmə bir zərrədən,
Bircə qığılcım var, ocaq bilmə sən.

Kim belə bağlarsa rizadan kəmər,
Dəxi bədən xidmətini tərk edər.

Oldu tamah qisməti məhrumların,
Oldu riza baş tacı məhkumların.

Bax bu yol üstündə hamı yol kəsən,
Rahat olarsan, boş olarsa kisən.

Varlı isən, hər qəmə qatlaş müdam,
Yoxsa ki, yoxsulluq elə, vəssalam.

Dərdli kosagördü iki kəs budur,
Bir-birinin saqqalını hey yolur.

Söylədi, hərçənd tüküm oldu kəm,
Yoxdu yolan saqqalımı, rahətəm.

Verdilər orda işinə düz qərar:
Eşşəyin üstdən yükünü açdılar.

Qəlbə o İsa kimi yet ta belə,
Yüksüz, ulaqsız yetiş o mənzilə.

Mömin olan gəbrlik etməz xəyal,
Olma qalın, incəliyə kölgə sal.

Durma tələs, qalxıb ölüm tufanı,
Tulla suya tez yükü, qurtar canı.

Xoşdur əliboş və pozuq gündə ol,
Ta küdü tək batma, su üstündə ol.

Çox yemə, çox yatma ki, tap qədr sən!
Tapdı böyüklər varı viranədən.

Cəmdək üçün ölmə o quzğun sayaq,
Ol ala qarğa, qana qoyma ayaq.

Qansız olarsa bədənin nəqş tək,
Lazımın olmaz daha cəmdək yemək.

Qan da cigərdir, şərab olmuş belə,
Oddur o, dönmüş suya həm şərm ilə.

Qan gücünü əzsən əgər bir qədər,
Lap dəmir olsan da, səni məhv edər.

Çox yeməyə eyləmə adət bir an,
Az yeməyə vərdiş elə hər zaman.

Az yeməyi etdi şiri pürvüqar,
Çox yemək atəşdə olur biqərar.

Gündüzə bax, bir çörəyə şadlanır,
Aqil onu gözlərinə nur sanır.

İçmədi vaxtında meyi bax gecə,
Cismini qan etdi qara gör necə!?

Çox yemək ağla gətirər nöqsanı,
Qəlbin olar daima qəm qalxanı.

Candır ağıl, sənsə onun cismisən,
Xəznədi can, tilsimi sənsən ki, sən!

Sən qapının tilsimini qırmasan,
Saçmaz o xəznə sənə nur heç zaman.

Torpaq olub əhdə dönük hey müdam,
Əhdə dönük, söylə, yox olsun tamam.

Qəmlə keçirsən də sən ömrü əgər,
Çəkməz o, arxanca sənin qəm, kədər.

Sordu ata oğlu, gülən zəncidən:
- Ağlamalıykən belə gülmək nədən?!

Çünki – dedi – naümidəm dünyadan,
Üz qara, diş ağ xoş olar, bigüman.

Olmaz əcəb üz qarasa gülməyi;
Göydə bulud gizləməyir şimşəyi.

Bağlı deyilsən bu yerə, qəm yemə,
Şimşəyə dön,gül bu geniş aləmə.

Tuti gülüb qırdı ləbin şəkkərin,
Qəhqəhələr şövqünü kəkliklərin.

Gülməsə vaxtında əgər bir dodaq,
Yaxşıdır ondan lap özü ağlamaq.

Yanğı, gülüş ildırıma oxşasa,
Ömrü qığılcım kimi eylər qısa.

Qəmli ikən şam kimi gülmək, yetər!
Ağla bu cür gülməyə axşam-səhər.

Gülməmək üçün diş ağardınca sən,
Tut ləbini dişlə gülərkən həmən.

Ağlama çox ki, gözə eylər zərər,
Çox gülüşü kim bəyənər, kim sevər!?

Görsən əgər köhnə, ya da təzə sən,
Yaxşı, pisindən götür əndazə sən.

Qalx ayağa, cum qəmə, şadlıq elə;
Gah belə lazımdır ola, gah elə.

İncə ürəklərdə yaxan nalə var,
Sübhdə gövhər, gecədə zülf olar.

Kim ki, həvəsdən, havadan içdi su,
Gördü həm ardınca qapaz, doğru bu.

Hər köçə pay bircə dənə zəng düşüb!
Hər şəkərə bir dənə milçək düşüb!

Bax sənə aləm bilici dayədir,
Tapşır ona yaxşı-pisi-hər nədir.

Sirkə verərsə, şirə tək qaynama,
Xeyrini istər, qulaq as, oynama!

Möhkəm olar, kim ola sabitqədəm,
Xızra da Musa yar olar burda həm.





Çoxlu böyüklər nazı çəkmək gərək,
Ta olasan sən də böyük qeyri tək.

Uyğun olan dost dara düşsən əgər,
Çəkməz ətək, tez səni dardan çəkər.

### MÜRŞİD İLƏ MÜRİDİN HEKAYƏSİ

Bir dəfə bir mürşid edərkən səfər
Vardı yanında müridi min nəfər.

Mürşid o çöldə özü sərmayə tək
Verdi yer əhlinə təmiz bir külək.

Hər birisi çırpıb ətək getdilər,
Getdi hamı, qaldı fəqət bir nəfər.

Söylədi mürşid: - Fikirə dalmısan?
Getdilər onlar, niyə sən qalmısan?

Söylədi ki, ey ürəyim məskənin,
Torpağın olsun başıma tac sənin.

Mən ki bura bil yel ilə gəlmədim,
Sonra da bir yellə durub tez gedim!

Versən əgər, tez gedəcək pay uman,
Yellə gələn yellə gedər hər zaman.

Toz dənəsi tez oturub tez durar,
Heç harada tutmaz odur bir qərar.

Astalıq ilə oturub amma dağ,
Durmuş o sabit necə gör qalxaraq.

Pərdə açanlıq zamana bir sənət,
Yük götürər səbri olanlar fəqət.

Yoxsa suçun, zöhd yükü çək qoçaq,
Çəkmə təbiət yükü eşşək sayaq.

Zöhd xətində yox əgər bir yalan,
Göz yaş olar, xətt yaş olmaz bir an.

Şah xələti geysə əgər zöhd özü,
Say onu zənbillə Süleyman sözü.

Hər gecə şam çoxlu qızıl paylayar,
Paltarı altında nihan zöhdü var.

Zöhd qəribdir özü meyxanədə,
Xəznə əzizdir özü viranədə.

Xoşdu, Nizami, düzü, zöhdün budur,
Çünki o, zərbəft ələm altda durur.

## ON SƏKKİZİNCİ MƏQALƏT

### PAXILLARIN VƏHŞİLİYİ HAQQINDA

Çıxdı neçə qəlp vuran meydana,
Təzə qəliblə gələrək cövlana.

Tezcə qarıntək çevir ondan üzü,
Yaxşı qoru hər iradından sözü.

Dostun olub nur tək, üzdən sənin,
Arxadasa kölgə kimi düşmənin.

Sadəliyi şam, düyünü ud sayaq,
Qəlb düyün, üzsə düz, olsun iraq.

Zülmü sevən, qeyrə köməkdən qaçan,
Eyb yazan, həm də şikayət saçan.

Dildədir ancaq bu məhəbbətləri,
Lay-lay olub kin və küdurətləri.

İstidir, amma donub onda ürək,
Canlıdır, amma ölüdür qəlbi tək.

Sözlərini qəlbinə salma nahaq,
Məst kimi palçığa basma ayaq.

Dağ kimidirlər, demə sirri əbəs,
Böhtan atar, səslərinə vermə səs.

Laf vuracaq, ta tutasan sən əziz,
Cəhd edəcək bir şey ala, şübhəsiz.

Sülh özü yoxluqdan olarsa əgər,
Qəhr eləsin allah onu sərbəsər.

Hansı nəfəs olsa qərəz, qəsdə yar,
Dostluğu düşmənliyə bais olar.

Dostluq olarsa özü "sən", "mən" deyə,
Bənzər o dostluq qatı düşmənliyə.

Dost nə deyər zəhrinə? – Ancaq şəkər!
Dost nə bilər eybini? – Ancaq hünər!

Mərhəm olar dərdinə dostun müdam,
Yoxsa hər alçaq sözünü at tamam.

Bir dərili oldu pişiklər məgər,
Öz balasın istədiyindən yeyər.

Dostun odur sirrinə örtük tutar,
Pərdə cırar bunlar isə biqərar.

Fikri odur üstələsin ta səni,
Ya necəsə yağmalasın sikkəni.

Üzdə səninlə çox olar dost, yar,
Lazım olan dəm çəkilib gen qaçar.

Hər kəs açıqca ola dostun sənin,
Rədd eləsə qəlb, onu say düşmənin.

Kim sənə yardır, onu bilməz bədən!?
Qəlb bilər dostu, tanı qəlbi sən!

Qəlbin əgər birsə, qəmin min hər an,
Bir çiçəyin, yüz də tikandan yaran!

Min dənədir mülk, Firidunsa bir,
Tər damağ azdırsa da, çoxdur ətir.

Pərdə açanlar bürüyüb aləmi,
Qəlbini bil sirlərinin məhrəmi.

Saxlamasa sirrini qəlbin nihan,
Özgə ürəkdən bunu umma bir an.

Nazik ürək olmamısansa əgər,
Bəs niyə düşmüş çölə sirrin hədər?

Nazik olub açmasa sirri ürək,
Mey şüşəsi sındı nədən aç görək!

Vacib olur insana bir həmnəfəs,
Həmnəfəsi qovma özündən əbəs.

Basdın ayaq sən ki axır meydana,
Səy elə çat həmdəm olan bir cana.

Sən tanıyıb bilməmiş öz yarını,
Vermə əlindən, çalış, əsrarını.

## CƏMŞİD İLƏ BİR SİRR SAHİBİNİN DASTANI

Məhrəm idi Cəmşidə bir xas cavan,
Xas idi aydan da günə hər zaman.

Gör haraya çatdı işi oğlanın,
Aldı əlindən şah onu dünyanın.

Aldı topu əhddə o, bəxtiyar,
Sirrini etdi şah ona etibar.

Çox yaxın olduqca şaha hey cavan,
Ox kimi yaydan o, çölə atdı can.

Deşdi şahın sirri onun canını,
Aldı bu sirri demək imkanını.

Oğlana yol tapdı bu dəm bir qarı,
Gördü onun laləsini sapsarı.

Söylədi: - Sərvi niyə vurmuş xəzan?
Şah bulağından ki, su içdin hər an?

Sapsarısan, məhv eləyir qəm səni,
Şadlıq elə, at bu qəmi, qüssəni.

Sən bu cavanda bu qoca üz nədir?
Lalə üzün bir de nədən xeyridir?

Məhrəm olan şah ilə sənsən özün,
Gülsün onun qəlbi kimi həm üzün.

Şahla gülər xalqın üzü lalə tək,
Gülsün üzü xasların artıq gərək.

Dindi cavan: - Yox xəbərin, bir dayan,
Bəlli deyil, qəlbim içində olan.

Səbr məni qəmlə edib yar tamam,
Səbr saraltmış üzümü, vəssalam.

Qoydu mənim qəlbimə yük hökmdar,
Sirrlərinin gövhərini, hər nə var.

Xeyli böyükdür, nə qoyub qəlbimə,
Söyləmək olmaz bu sözü heç kimə.

Sözlərinə könlümü verdim yaman,
Bir sözü də söyləmərəm heç zaman.

Gülməyirəm sənlə onunçun belə,
Sirr quşu uçmaya dildən çölə.

Qəlbimi tərk etməsə bu sirr əgər,
Qəlbimi al qanlara qəltan edər.

Şah sözünü etsəm əgər aşikar,
Bəxt özü üstümdə gəlib yas qurar.

Söylədi o: - Çəkmə adın heç kimin,
Ancaq olar öz nəfəsin həmdəmin.





Məhrəmi sayma bu sözün kimsəni,
Bilmə yaxın hətta sən öz kölgəni.

Xoşdur əgər al yanağın lap sola,
Min dəfə ondan ki, qana qərq ola.

Böylə deyirlər, gecələr durmadan,
Baş dilə söylər ki, danışma, aman!

Olma qılınc dil, başı vermə nahaq,
Sirr açan olma belə gündüz sayaq.

Bağlasa xoşdur dilini hər adam,
İt qudurarkən çıxarar dil müdam.

"Dil damaq altında!" budur məsləhət!
Çünki qılınc qında gözəldir fəqət.

Mərhəm olar böylə öyüd canlara,
Oldu bəla dilləri insanlara.

Saxla bu teştdə dili axşam-sabah,
Söyləməsin ta ki başın teştdən: "ah!"

Hər nə qədər olsa xoş, açma dodaq,
Hər divar ardında nə çoxdur qulaq!

Gül kimi ta almayalar ətrini,
Etməyələr burda başından səni.

Pis söz eşitmə, yetişib pis zaman,
Pis demə, susmaq çağıdır, bigüman.

Yazma, yetər, bir qələmi saxla sən,
Sonra yazarlar, dilini bağla sən.

Hər nə eşitsən yu su tək, ləngimə,
Ayna kimi gördüyünü gəl demə.

Hər nə görərsə igid ərlər gecə,
Sübh deməzlər onu, xoşdur necə!

Ay, günü, ulduzları parlaq fələk
Sübh deməz, görsə gecə yüz kələk.

Dərs alan olsan buradan, qəm yemə,
Hər nə ki görsən gecə, gündüz demə.

Hər gecə min sirlə dolu xəznədir,
Qəlbi onun xəznə dolu sinədir.

İldırım addımlı olan bəxtəvər
Hər nə görərsə, keçərək tez gedər.

Kim başı ərşdən yuxarı qaldırar,
Topla ürək meydanına tez varar.

Bir göz ilə dil ki sevər zahiri,
Başdan o, tükdür, ya bədəndən dəri.

Pərdədə bu eşq kəramət olub,
Çıxdı çölə, yurdu xarabat olub.

Din sapı vurdu bu düyün, bu bağı,
Həllacın odlandı bu cür pambığı.

Pərdə edər qönçə bu sirçün canı,
Ağzını açsa, tökülər al qanı.

Hardan ağız böylə yerə yüksələr?!
Qəlb sözün qəlb ağızı xırd elər.

Qəlb camından bu xuruş xoş gələr,
Atəş olar, ağza gətirsən əgər.

Susmağa bax! Əsl fəsahət budur!
Asta yerişdə iti sürət budur!

Qəlb işığı eylər o şəxsə xəbər
Ağzını o, özgələrə tez verər.

Qəlb dili qəlbdədir, bil bunu,
Qəlb dili tərcümə eylər onu.

Qəlbin ola qane Nizami qədər,
Mülki-qənaətdə səni şah edər?

## ON DOQQUZUNCU MƏQALƏT

## AXİRƏTİ QARŞILAMAQ HAQQINDA

Tapdı o xəlvət büsatı bir nizam,
Nurlu gözəldir bütöv ay tək tamam.

Şölələnir şəm, saçır şəkkəri,
Taxt qurulmuş, qarışıb ənbəri.

Düşmən olubdur canın üçün cahan,
Sən çalış ondan uzaq ol, gen dolan.

Gör bu cahan kimləri zəncirlədi!
Kim ki onu gördü, "aman" söylədi!

Dini atıb, aləmə ey bənd olan,
Din qoruyanlar nə deyir gör hər an:

Qaç qapısından dala zalımların,
Dön başına sirr evi ehramların.

Sən bu çölün odlarına yanmısan,
Danmayacaqlar nəyi ki, danmısan.

Kində qoçaq, mehrdə süstdür köpək,
Kürkə girib tülkü bununçun, demək.

Oldu cəhənnəm bu qaranlıq məkan,
Tərk eləyər tez onu xoşbəxt olan.

Topla tüpürcəklərini səy ilə,
Tök bu kükürd atəşinə sən belə.

Tez geri qaytar fələyin borcunu,
Tulla bu torpaq nə veribsə onu.

Tulla tamam bunları, ustadsan,
Olma gəl aciz, axı azadsan!

Hər nə bu yollarda mənəmlik edər,
Quldur olub sənlə məni incidər.

Əqrəb olar əcdahadan çox yaman,
Çünki bu aşkardır, o, səndən nihan.

Xırdaca düşmən –o, böyük bir bəla,
Saymasan olmazmı böyük bir xəta!

Xırdasa kin, xırdaca zənn eyləmə,
Xırdanı gör, düşməyəsən ta qəmə.

Xırdaca da olsa qarışqa əgər,
Körpə şirin gözlərinə mil çəkər.

Ev dolub oğru ilə, gizlət zəri,
Zikr elə bir, div bürüyüb çölləri.

Qəlbin üçün pusqu quran oğrular,
Sonda kəsərlər bu yolu bir qərar.

Qorxum odur həmlə ilə bir gecə
Xar bu çöldən qovalar gizlicə.

Karvan əsir düşsə çatar, mənzilə,
Dolsa gəmi, bil ki, çıxar sahilə.

Ol yuxu tək gizli, görən olmasın,
Ax su kimi, kimsə səni qovmasın.

Dəyməz ayaq basmağa bu somiə,
Kim ki, basar, tez tələsər getməyə.

Yoxsa yuyarlar qan ilə qəlbini,
Somiədən xaric edərlər səni.

Olmasa yerdən səfər etmək hünər,
Çərx eləməzdi gecə-gündüz səfər.

Dur, yaxanı vermə əbəs divə heç!
Qəlbə sığın, din ilə, imanı seç.

Durma, şəriət çağırır, ver qulaq!
Oldu təbiət sənə yad, dur uzaq.

Ver, bu şəriət mehi olsun canın!
Təb qoy olsun tozu bu dünyanın!

Etdi şəriət səni reyhan əl,
Olma təbiət qulu, imana gəl.

Hər qapıdan bir meh olub ötmə sən.
Hər nəfəs ardınca durub getmə sən.

Kölgədir onlar, sən özün nura dön,
Hər şeyin olmuş, qeyrə tutma yön

Çənbərə olmuş sənə çənbər fələk,
Qurtaracaqsan necə ondan görək.

Etsə sənə halını o, ərz əgər,
Ya ki, yaşından desə o bir xəbər,

Mənzilini eylər o girdab dar,
Dövrü yanında ömrün heç olar.

Sözlərinin bil ki, sükutdur sonu,
Heçlik, unutmaqdır işin, bil bunu.

Dəhrdə çəkdikcə nəfəs sən belə,
Yaxşı olar, bir kəsi sev qəlb ilə.

Burda bu ömrün iki ansa əgər,
Ancaq o badəylə yenə xoş keçər.

Qapmasa burdan iki börklük səma,
Biçmədi heç vaxt o, özü bir qəba.

Hər nə sən etsən, bu amansız cahan,
Tez yazacaqdır adına durmadan.

Ömr eləsən üzr, ya da naz ilə,
Sənlə də rəftar edəcəklər elə.

Lağ, zarafat pərdəsi olsa gözün,
Oynayacaqsan bu havayla özün.





Yaxşı, pisi doğru görüb anlayan
Burda bəyənməz pisi heç bir zaman.

Surətini yaxşı və ya pis apar,
Hər nə aparsan, sən osan, hər nə var.

Gül tikan adlandı geyərkən tikan,
Ənbər adı aldı həm ənbərsatan.

Olma bu cür saxta, gələr, vaxt olar,
Tanrıdan olma o zaman şərmsar.

Qəlbi yaxır odlara dövran, bağır!
Tezcə bu qanlı şüşəni daşla qır!

Eylə bu zər löbəti tez daşqalaq,
Sən bu sözə yox qələmi çək, burax!

Qoy bu qalayrəng qalanın üstə əl,
Həm bas ayaq tez bu atın üstə, gəl!

Minbər edib doqquz otaq göyləri
Çərx sənə xitbə deyəndən bəri,

Bayraq atıb qaçmaq olub iş-peşən,
Bayrağı qaldırdım uca amma mən.

İnsanam, uçmaqda göyə bir mələk,
Səy edirəm, arxada qalsın fələk.

Artıq olub indi boyumdan baham,
Dövrüm olub dairədən gen tamam.

Yoxsa suyum, şövkətə, dəryama bax!
Yoxsa dənim, xəznə bu saymama bax!

Sanki fələk xəznələr üstündəyəm,
Bir söz ilə, fikri uca bəndəyəm.

### HARUN ƏR RƏŞİD İLƏ DƏLLƏYİN DASTANI

Çatdı xilafət elə ki Haruna,
Qalxdı Abbas ələmi gərduna.

Zövcəsinə arxa tutub bir gecə,
Getdi hamam səmtinə o, gizlicə.

Dəlləyi vardı, dili lal hər zaman,
Etdi onu bir dəfə qəmgin yaman:

- Bəlli sənə, olmuşam ustad mən,
Nolar olum qoy sənə damad mən.

Yay dəxi toy xütbəsini ölkəyə,
Öz qızını namizəd et bəndəyə.

Qızdı xəlifə bu sözə bir qədər,
Etdi həya, dinmədi o, bir təhər.

Zənn elədi: - Fikri çaşıb istidən,
Zəhmimi görmüş, danışır köndələn.

Hərzəçi etdi onu çaşmaq belə,
Yoxsa danışmazdı bu cürət ilə.

Başqa günü etdi yenə imtahan,
Sikkəsini gördü hamandır haman.

Bir neçə yol yoxlayaraq dinmədi,
Amma işindən kişi də dönmədi.

Keçdi iş-işdən, qalaraq lap naçar,
Bu sözu açdı vəzirə hər nə var.

Dəlləyin ülgüc qələmindən haman,
Gör nə gəlibdir başıma nagahan.

İstəyir olsun kürəkən bu, mənə,
Yox ədəbi, gör nə düşüb beyninə!?

Ta ki bəla tək başım üstə durur,
Həm mənə, həm gövhərimə daş vurur.

Ülgüc əlində, dili xəncər sayaq,
Mən bu qılınca başı verrəm nahaq.

Arxayın ol sən – dedi – aqil vəzir,
Bil, ayağı xəznənin üstündədir.

Bir də gedərkən yanına böylə sən,
Durduğu yerdən "kənar ol" söylə sən.

Boynunu vurdur sözünə olsa ağ,
Olmasa, qazdır hara qoysa ayaq.

Əydi boyun dəllək olan fərmana,
Hər necə lazımsa, çəkildi yana.

Durduğu yerdən yan olarkən haman
Rəngi dəyişdi kişinin çox yaman.

Az danışan gördü onu, dinməyən,
Bir dəm ədəbdən kənara dönməyən.

Xəznənin üstə o qoyarkən ayaq,
Görkəm alırdı necə bir şah sayaq.





Xəznənin üstdən çəkilərkən yana,
Çıxdı o dəllək dükanı meydana.

İlk qədəmi altını tez qazdılar,
Gördülər orda, düzü də, xəznə var.

Kim ki, basar xəznənin üstə qədəm,
Xəznə açar sözlə, dinərsə o dəm.

Burda Nizaminin o saf sinəsi
Oldu müdam tilsim açan xəznəsi.

## İYİRMİNCİ MƏQALƏT

### BU ƏSR ADAMLARININ HƏYASIZLIĞI HAQQINDA

Biz ki, əl üzdük özümüzdən belə,
Torpağa bəndik nə üçün bəs hələ!?

Çox səni xar etdi yerin söhbəti,
Torpağın ancaq belədir adəti.

Getdi ömür, kimsəsizik lap tamam,
Günbəgün ancaq dalayıq biz müdam.

İki mələk bağlı bizə biqərar,
Div bu pisliklə bizə oldu yar.

İsti gedən, həm soyuğuq külçü tək,
İsti olar, həm soyuyar kül gərək.

Yoxdur ürəkdə daxi nurdan əsər,
Yoxdur ötən dincliyimizdən xəbər.

Gəldi qiyamət gecəsi, nagəhan,
Sübhün o al bayrağı oldu nihan.

Sındı dodaqda gülüşü qəflətin,
Qaldı ürəkdə hər ömür həsrətin.

Yaxşıca salmış səni torpaq tora,
Sən canı qurtarmaq üçün fənd ara.

Uç da bu cəllad tələdən, gen dolan,
Burda tapar çarəsini cəld olan.

Dişdə iti olsa da qurd tülküdən,
Oldu xilas tülkü, odur çox bilən.

Cəhd elə hər dəm ki, vəfa ilə ol!
Sən səni sevmə, o xuda ilə ol!

Qəlbə qul ol sən ki, vəfa ondadır,
Ədl çölü, otları da ondadır.

Qəlb əgər öyrətsə kimə bir hünər,
Tikmə vəfa tirməsinə tikdilər.

Olsa bir insanda əgər bir hünər,
Görməsə rəğbət, hünəri əskilər.

Rəğbət olunsa, dəyişər büsbütün,
Çeşməsi çağlar, gur olar günbəgün.

Harda hünər görsə, düzü, əhl adam,
Bəslər, əzizlər onu canla müdam.

Təkcə hünərdir pak elər torpağı,
Yoxdu bu torpaqda hünər torpağı.

Harda hünərvər bir adam görsələr,
Həmlə edər tezcə ona bihünər.

Hər dəm onu hey doyurarlar cana,
Hər hünəri böylə düşər nöqsana.

Görsə riyazət, tamaşa zənn edər,
Fikri müdam sevda, hava zənn edər.

Həm kərəmə "azca ziyan" ad qoyar,
Həm vəfanı "müftəcə qulluq" sayar.

Görsə səxavət, ona rişxənd edər,
Həm də sözü sel yoluna bənzədər.

Buzda çəkər əhdü vəfa nəqşini,
Ay-günə rişxəndlə keçər hər günü.

Hansı nəfəs dərdlərə dərman olar,
Tezcə bu qövmün sinəsin parçalar.

Görsə şirin şərbətə bənzər dodaq,
Gör necə şirinə gəzərlər nahaq.

Görsələr əncir kimi bişmiş cigər,
Kal qora tək sirkə satar sərbəsər.

Görmürəm əsla hünəri mən görən,
Eyb arayır burda yerindən duran.

Dür deyil ancaq dənizin sərvəti,
Bircə hünər bir nəfərin qisməti!

Kor gözünün qətrə yaşı Dəclədir,
Bax ki, qarışqa nə, çəyirtkə nədir!

Eyb arayan bir neçə "namuslu" var,
Tənə vurarlar hünərə biqərar.

Qapqaradır zatları palçıq qədər,
Can qəmi tək qəlb acılarlar hədər.

Tüstü olarlar damağa çatsalar,
Bir yel olarlar çirağa çatsalar.

Aləmə bax, başçıları kimdilər!
Adlıların adlıları kimdilər!c

Burda məni bir neçə bədnam ki var,
Sındırır öz əhdi kimi biqərar.

Göydə süzən ay kimiyəm mən tamam,
Sınmaram, ancaq sınaram artaram.

Çox çəkib onlar, götürək zəhməti,
Çərx ilə oynar necə bəs şahmatı?

Ruh bağından da təzə bir sözü,
Nuh qohumu tək danır onlar özü.

Ey Xızırın bayrağı! Et bir qəza,
Nuh nəfəsi! Sən də yetir bir dua.

Qəlbimə girməz çəkilən zülmlər,
Çıxsın o, yaddan, düşünərsəm əgər.

Ötsə də pislikləri əndazədən,
Susmağılə hay verirəm böylə mən.

Bir dür ilə mücrü haray, hay salar,
Qarnı dolarsa, susaraq lal qalar.

Küp yarım olsa, coşaraq kükrəyər,
Amma dolarsa, lal olar sərbəsər.

Çoxsa da elmin, yenə sus sən müdam,
Həm dili tərk et, qulaq ol, gəl tamam.

## BÜLBÜL İLƏ ŞAHİNİN DASTANI

Bağda qarışmışdı yenə gül-gülə
Şahinə ərz eylədi bülbül belə:

- Quşların ən dinməzi sənsən, gərək,
Bəs necə aldın topu, ərz et görək?!

Ağzını açsan da əgər bircə an,
Bir dənə xoş söz demədin heç zaman.

Səncər əli mənzilin olmuş sənin,
Kəklik əti həm yemin olmuş sənin.

Qeyb kanından göz açınca həmən
Yüz dənə gövhər saçıram amma mən.

Yem mənə olmuş, bu böcəklər nədən?
Həm niyə olmuş tikan üstü vətən?

Söylədi şahin ki, dayan, as qulaq!
Gör, dəxi şahinliyimi, sus, qoçaq.

Anlayalı sirrini mən işlərin,
Yüz görüb iş, söyləmirəm heç birin.

Get ki, cahan aşiqisən burda, sən,
Min danışarsan, birini görmədən.

Mənə bu ovlaqda mənim sirətim,
Kəklik əti, şah əlidir qismətim.

Halbuki sən çox acı dilsən yaman,
Oldu yemin qurd, vətənin tir-tikan.

Xütbə Firidunçün oxunsa əgər,
Dəf səsinin hökmünü kim dinləyər?

Bir bana bənddir açılan sübh həm,
Əfsus edən qəhqəhədir, çəkmə qəm.

Nalə eşitməz bu fələk heç zaman,
Çənbərəsindən ola bilməz çıxan.

Etmə uca şeir avazın sən büłənd,
Olma Nizami kimi ta şəhrbənd.

## KİTABIN TAMAMLANMASI HAQQINDA

Xeyrə açılsın sabahın, ey yazan,
Düşmüşəm əldən, tut əlimdən bir an.

Gör bu üsul çərxdən artıq gedir,
Buqələmunluq qələmimlə edir!

Bir belə alması, əritdim bütün,
Bir bıçağa sərf elədim şah üçün.

Oldu qılıncım dəmiri daşda, həm,
Darlıq içindəydi dəmirçi kürəm.

Olsa idi bəxtim əgər yar mənə,
Məşğələ olmazdı ki, bunlar mənə.





Zənn edirəm, lap günaha batmışam,
Ta kağız üstündə at oynatmışam.

İndi bu gərdəkdə nə var gördüyün,
Bir neçə sübh çilvəsidir büsbütün.

Dadlıdır əmlik, nə gərək tüstülər!?
Odlara yandır qaxacı sən, yetər!

Çox yeri, ancaq yolunu asta get,
Bir fikir etsən, çalış ağlınla et.

Bir söz əgər olsa, ədəbdən kənar,
Üstünə xət çək, belədir ixtiyar.

Hansı sözü şər ilə tutmur aləm,
Hətta mən olsam da, ona çək qələm.

Qalxmasa onda söz özü göylərə,
Mən belə göndərməz idim hər yerə.

Oldu bu yerlər belə zindan mənə,
Olsa da tabe, düzü, hər yan mənə

Dövr mənə: - Yer ki, deyilsən – dedi,
- Bəsdir oturdun, dəxi tərpən – dedi.

Bikr bu mənaların, oxşarı yox,
Qəddinə uyğun nə də paltarı yox.

Nimtənəsi dizlərini örtməyir,
Çökdü diz üstə, boşuna etməyir.

Qamətini zinətə tutmaq gərək;
Qalxar ədəblə o zaman ol mələk.

Bax ki, Nizami özü ziynət üçün,
Gövhərə qərq etdi onu büsbütün.

Hər təzədən, köhnədən, etsən nəzər,
Hasilim oldu quru şöhrət, hünər.

Mərəkə var, yox ki, qızıldan nişan,
Bircə bazar zəhməti – hər şey yalan.

Gəncə tutubdur yaxamı ərk ilə,
Yoxsa İraq xəznəsin allam ələ.

Aləmə aləm dinərək saldı səs:
Kim bu Nizami, haradır Gəncə bəs?

Saçdığı gövhər o şaha ərməğan,
Barı mübarək sayıla hər zaman.

Şükr ki, çatdı bu kitab ünvana,
Ömrdən əvvəl belə yetdi sona.

Süzdü qələm qartalı hər kəlməni,
Ərşə uçurtdu bu gözəl naməni.

Başdan ayaq etdi, ləbi saçdı dür,
"Məxzənül-əsrar"ı bitirdi budur.

Doğru hesabla bu idi tarixi:
İlk rəbi dörd və iyirmi dəxi,

Keçmiş idi hicrət ilindən tamam
Beş yüz ilə yetmiş iki, vəssalam.

# XOSROV VƏ ŞİRİN

## ELMİ VƏ BƏDİİ FİKRİN ÜFÜQLƏRİ FÖVQÜNDƏ

Nizami Gəncəvi poeziyası öz zamanı və bütün zamanlar üçün insan idrakı və bədii təfəkkürünün ən yüksək nöqtəsində dayanan bir hadisədir. Bu hadisə araşdırıcılar tərəfindən çox vaxt heç cür izah oluna bilməyən bir möcüzə kimi dəyərləndirilir. Nizami əsərlərini dönə-dönə oxuyan, onu nəşr edən, ona şərhlər yazan bəzi araşdırıcılar isə uzun mütaliələrdən sonra belə qənaətə gəlirlər ki, "bütün ins-cins yığıla, Nizaminin bir beytini deməyə qadir ola bilməz". Bu fikirlər Nizami əsərlərinin az-çox diqqətli və qərəzsiz mütaliəsindən sonra deyilmişdir. Nizami yaradıcılığının özündən əvvəlki və sonrakı ədəbi-bədii irsdə yerini müəyyənləşdirmək məqsədi ilə söylənilmişdir. Nizami özü isə əsərlərində kim olduğunu, nəyə qadir olduğunu dönə-dönə nəzərə çatdırmış, yaratdıqları ilə zamanı və məkanı fəth etdiyini söyləmişdir. Nizaminin böyüklüyü ondadır ki, özünəqədərki fikir və sənət axtarışlarını mənimsəyərək insanın ən adi qayğıları ilə kainatın dərinliklərinə tuşlanan düşüncələrini bütün rəngarəngliyi, əlvanlığı ilə əks etdirmişdir. Özünün dediyi kimi, onun poeziyası fikir və sənət baxımından çərxi, yəni göyləri ötüb keçmişdir: "Bax, bu sənət çərxdən ötmüş, gedir". Bu sözlər artıq "Sirlər xəzinəsi" əsərində deyilir. "Xosrov və Şirin"i yazmağa başlayanda isə Nizami elə bir əsər yazmaq haqqında düşünür ki, onunla dünyanı və zamanı fəth etsin, yəni yer üzərində bütün zamanlar üçün bənzəri, tayı olmayan bir əsər ortaya qoysun.

Nə tərzə üz tutum tutsun cahanı?!
Nə iş görmək ki, fəth etsin zamanı?!

Nizami "Xosrov və Şirin" poeması ilə həqiqətən bənzərsiz bir əsər yaradır və əsər tamamlanandan sonra ürək rahatlığı ilə bildirir ki, "hicrətdən keçən 576 il ərzində heç kəs gözəllərin üzünə belə xal qoymamışdır". Hətta şairin hünərinin paxıllığını çəkənlər də etiraf edirlər ki, Nizami bu əsərlə göylər ayağını öpməyə hazır olan bir gözəl yaratmışdır. Bəs bu Nizami özü kimdir, harada anadan olmuşdur, hansı xalqa məxsusdur? Nizami özü "Sirlər xəzinəsi" əsərində bir gerçəyi nəzərə çatdırır. Onun əsərləri ilə tanış olan dünya hər yerə haray salır ki, bu əsərləri yazan Nizami hansıdır, bu Gəncə hansı Gəncədir.

Aləmə aləm dinərək saldı səs:
Kim bu Nizami, haradır Gəncə bəs?!

Bu suala ətraflı cavab vermək imkanımız olmasa da, bəzi həqiqətləri xatırlayaq. Əvvəlcə Nizaminin doğulduğu, yaşadığı, sevdiyi, bəzən gileyləndiyi Gəncə haqqında. Orta əsrlərə aid qaynaqların, Nizaminin özünün fikirlərini gözdən keçirək, həqiqət və yalanlar üzərində dayanaq. Nizami Gəncəvinin çox saylı qeydlərindən aydınlaşır ki, o, 1141-ci ildə Gəncədə Zəki Müəyyəd oğlu Yusif adlı bir kişinin ailəsində anadan olmuşdur. Onun həyatında dayısı Xacə Ömər, şairin yazdığına görə böyük mövqeyə malik imiş. Anasının adı Rəisə imiş. Dövlət şah Səmərqəndinin yazdığına görə, Qivami Gəncəvi ilə Nizami qardaş olmuşlar. 1170-ci ildə, ondan bir-iki il əvvəl və ya sonra Nizami Dərbənd hökmdarının göndərdiyi Afaq adlı bir kənizlə evlənmiş, ondan Məhəmməd adlı oğlu olmuşdur. Bu qadın "Xosrov və Şirin" yazılan ərəfədə vəfat etmişdir. Nizami Afaqı ömrü boyu sevgi ilə xatırlamışdır. Eyni zamanda onun ölümündən sonra daha iki dəfə evlənmişdir. İkinci dəfə evləndiyi qadın "Leyli və Məcnun" yazılanda, üçüncü dəfə evləndiyi qadın isə "İskəndərnamə" yazılanda həyatdan getmişdir.

Böyük sənətkar qəbirüstü abidəsində yazıldığına görə, 1209-cu il mart ayının 12-də Gəncədə vəfat etmişdir. İndi şairin məzarı üzərində möhtəşəm qranit abidə ucalır.

Yaradıcılığa çox erkən başlayan, lirik şeirləri ilə böyük şöhrət qazanan şair artıq bu əsərləri ilə türklərin və farsların fars dilində yaratdığı poeziya axtarışlarına qoşulur. Türk hökmdarlarının (Samanilər, Qəznəvilər, Səlcuqilər və s.) himayə etdiyi bu poeziya axını əslində bir hünər meydanına çevirilir, hansı xalqın nümayəndəsi olmasından, asılı olmayaraq sənətkarlar ümumi bir axında birləşir, fikir və sənət axtarışları sahəsində nəyə qadir olduqlarını nümayiş etdirirdilər.

Nizami "Sirlər xəzinəsi" əsərini Sənainin "Həqiqət bağçası" əsərinə cavab kimi yazmaqla, Sənai əsərinə yüksək qiymət verməklə, ona böyük ehtiram göstərməklə bərabər, öz poemasını daha yüksək hesab edir. "O, köhnə mədəndən qızıl çıxartmışsa, bu, yeni bəhrdən (dəryadan və əruz ölçüsü olan bəhrdən) ləl ortaya qoymuşdur". Şair həm də bəyan edir ki, o, özgələrindən heç nə götürməmiş, ürəyinin dediklərini yazmışdır.





Özgə yazan sözləri borc etmədim,
Hər nəyi könlüm dedi: "De". Mən dedim.
Yoxsulun onda yeri var, həm şahın,
Sirlərinin xəznəsidir allahın!

Nizami bu əsərlə didaktik poema janrına dərin humanist məzmun və qeyri-adi dərəcədə olan yüksək sənətkarlıq gətirmiş oldu. Ona görə də burada fikrin və sənətin çərxi belə ötüb keçməsindən dərin bir inam və qürurla söhbət açmışdır.

Sənainin poeması da hekayə və məqalətlərdən ibarətdir. Bu əsərdəki hekayələrdən biri "Sultan Mahmud və qarı" adlanır. Nizami başqa bir süjet tapa bilmədiyindən deyil, sanki kimin kim olduğunu göstərmək məqsədilə "Sultan Səncər və qarı" hekayəsini yaradır. Bu hekayələrdə ifadə olunan ideya, fikir bir-birinə nə qədər yaxın olsa da, onların arasında yerlə göy qədər fərq vardır. Bütün əsərlərində özünəqədərki ölçüləri uçurub dağıdan, köhnə nırxları sındıran Nizami burda da həmin yolla getmişdir.

Nizami "Xosrov və Şirin" əsərində Xosrovun Ruma getməsi, Rum qeysərinin qızı Məryəmlə evlənməsi epizodunu təsvir etdiyi məqamda birdən belə bir bəyanat verir:

O qızla bəxtiyar şah dastanından,
O Rum əhlindən ərz etdi nə dastan,
Niyatusla qoşun çəkməkdən orda,
Cinahlar düzməsindən orda-burda,
Demişdir başqası, bəhs etmirəm mən,
Gedib yatmışdır o, mən bir oyaqkən.
Əgər mən nırxını qırsam kiminsə,
Mənim də nırxımı qırmazmı kimsə?!

Nizami etiraf edir ki, başqasının yazdığı bir səhnəni, süjeti yenidən yazarsa, əvvəlki yazanın nırxını sındırmış olar. Əslində Nizami irsi özündən əvvəlki bütün nırxları sındıran, alt-üst edən bir hadisədir. Bu "Sirlər xəzinəsi"ndə də belədir, "Xosrov və Şirin"də də belədir, o biri əsərlərdə də.

Nizami irsinin tədqiqi ilə məşğul olan ayrı-ayrı alimlər "Sirlər xəzinəsi" əsərinin yazılma tarixini müxtəlif şəkillərdə göstərsələr də, onun hicri qəməri 570 (miladi 1174-75)-ci ildə yazıldığını düşünmək daha ağlabatandır.

Bu əsər az müddətdə böyük şöhrət qazanır. Azərbaycan Atabəylər dövlətinin ən qüdrətli nümayəndəsi olan Şəmsəddin Məhəmməd Cahan Pəhləvan Nizamidən eşq mövzusunda bir əsər yazmağı xahiş edir və əvəzində yaxşı mükafatlandırılacağını bildirir. Əsərdəki ayrı-ayrı işarələrdən belə anlaşılır ki, bu hadisə 573 (1177)-cü ilin məhərrəm – səfər (iyun-iyul) aylarında baş vermişdir ki, bu vaxt Sultan III Toğrul rəsmi şəkildə sultan elan olunub, adına bütün böyük şəhərlərdə xütbə oxunmuşdur. Hətta bir az da dəqiq desək, bu hadisə səfər və rəbiül-əvvəl aylarının qovşağında, günəş şir bürcündə olarkən baş vermişdir. "Fələk bəxtində şirlik göstəribdir" misrasında ola bilsin ki, buna işarə vardır. Nizami "Xosrov və Şirin" əsərinin başlanğıcında "Bu nəzmin tarixi və başlanğıcı" adlı bəhsdə bu məsələyə aydın işarə etmiş və Sultan III Toğrul sultanlıq taxtına əyləşəndə bu əsəri yazmağa başladığını, "bu xəzinənin qapısını açdığını" bildirir. Bu həqiqətə diqqət yetirən çex alimi Y.Ripka da "Xosrov və Şirin"in 1177-1181-ci illərdə yazıldığını göstərmişdir. Yəni Nizami əsəri 573-cü ildə başlayıb 576-cı ildə bitirmişdir.

Poemanın giriş hissəsində şair bildirir ki, o, Cahan Pəhləvandan eşq haqqında yeni bir əsər yazmaq barədə sifariş alan ərəfədə bir gecə oyaq qalıb elə bir əsər yazmaq haqqında düşünür ki, onunla zamanı və dünyanı fəth etsin, yəni bütün dünyada bütün zamanlar üçün ən yüksək, bənzərsiz bir əsər olsun.

Nə tərzə üz tutum, tutsun cahanı,!
Nə iş görmək ki, fəth etsin zamanı?!

Nizami bu düşüncələrdə ikən qasid gəlir və dünya şahənşahının buyruğunu ona çatdırır. Cahan Pəhləvan "qeyb mədənindən yeni bir eşq dastanı yaratmağı" xahiş edir, əvəzində "Süleyman səxavəti" göstərəcəyini bildirir. Nizami bu hissələrdə yoxsulluqdan, arpa çörəyi ilə oruc tutmaqdan, anlar kimi yerinin darısqal olmasından, bir bucaqda keçən yoxsul həyatından söhbət açır. Bir ömür qədər Səlcuqların, Atabəylərin ne-

mətinə şükür etməsini, ancaq əvəzində bir nəvaziş görmədiyini dilə gətirir. Şair eyni zamanda saraylardan uzaq yaşamasını, tez-tez hökmdarların yanına gedib-gəlməməsini təbiətinin iqdişliyi ilə izah edir. Nizami əsərindəki bu iqdiş sözünü çox vaxt yanlış olaraq onun ata və anasının ayrı-ayrı xalqa mənsub olması kimi izah edirlər və çox gülünc şəkildə sirkə deyəndə anasını, bal deyəndə atasını nəzərdə tutduğunu yazırlar. Halbuki elə oradaca Nizami bu iqdişliyin onun təbiəti ilə bağlı olduğunu yazır

Yaşar xəlvətdə bu iqdiş Nizami,
Yarı baldır, yarı sirkə kəlamı.
Şirin bir çeşmədir ilhamı, çağlar.
Yükü çiynində zöhd ilə o bağlar.
O, ağzı zöhd ilə boş bir büsatdır,
Dilimsə xurmadır, abi-həyatdır.
İy aldım, mişkə döndüm təkliyimdən,
Uyuşdum təkliyə simurğ tək mən.
Gül olmaz mən tikandan məclis üçün,
İşim ancaq duadır şaha hər gün.

Nizami bu misralarda iqdişliyinin mahiyyətini çox dəqiq göstərir: zahidlik və şairlik, bal kimi şeirlər və sirkə kimi tünd əxlaqi təbiət. Şair gül məclisində tikan olmağı özünə rəva görmür, çünki onun zahidliyi, sərt əxlaqı şeirlərindən fərqli olaraq tikana bənzəyir. Bu iqdişlik bal və sirkə, gül və tikan iqdişliyidir.

Nizami poemasının girişində ən çox diqqət çəkən bəhslərdən biri onun eşq haqqındakı düşüncələrini əks etdirir. Şair eşqi ancaq insanla bağlamır, bəlkə daha çox təbiətdə hakim olan bir qanunauyğunluq kimi qiymətləndirir.

Göyün mehrabıdır eşq adlı qüdrət,
Yer eşqin torpağından tapdı qiymət.
Kim eşqə yad isə artıq solubdur,
Onun yüz canı da olsa, ölübdür.
Sevinmə it kimi yatmaq, yeməklə,
Pişik də olsa, sev canla, ürəklə,
Cahanda cəzbədən başqa nə iş var?!
Həkimlər bu işə eşq ad qoyurlar.
Bu dastana girişdim eşq ilə mən,
Cahan doldu tamam eşqin səsindən.

Nizaminin eşq haqqındakı düşüncələrinə təxminən 30 beyt həsr olunmuşdur. Biz onlardan ancaq bəzilərini nümunə gətirdik. Şairin hər beytində onun eşq anlayışının ayrı-ayrı tərəfləri əks olunmuşdur. Nizami bu parçada eşqin insan həyatının, bəlkə də bütün kainat həyatının əsası olduğu təsdiqlənir. Şair belə hesab edir ki, varlığın əsası olan dörd ünsür bir-birini çəkməkdən, bir-birinə qarşı eşq nümayiş etdirməkdən başqa bir iş bilmir. Həkimlər, yəni bilicilər ünsürlərin bir-birini belə cəzb etməsini, yəni cazibə qanununu eşq adlandırırlar. Nizami müxtəlif müqayisələr, xatırlamalar yolu ilə belə bir həqiqəti nəzərə çatdırır ki, eşqin qulu olmaqdan başqa doğru yol yoxdur. "Eşqin qulu ol ki, doğru yol budur!"

Nizami böyük sələfi Firdovsini xatırlayanda da eşq məsələsini dilə gətirir, onun "Xosrov və Şirin" mövzusuna həsr etdiyi bəhsdə eşqdən danışılmadığını onunla özü arasındakı mühüm fərq kimi göstərir. Firdovsinin həmin bəhsi yazarkən altmış yaşında olduğunu, buna görə də eşq həyəcanlarının ona təsir etmədiyini dilə gətirir.

Firdovsi "Şahnamə"sində "Xosrov və Şirin" mövzusuna çox az yer verilmiş, ancaq həqiqətən yadda qalan səhnələr yaradılmışdır. Nizami qətiyyətlə nəzərə çatdırır ki, o, bilici, yəni Firdovsi deyəni təkrar etməyib. Düzdür, Nizami də Xosrovun Şiruyə tərəfindən öldürülməsi, onun Şirinə eşq elan etməsi, Şirinin onu aldadaraq Xosrovun sərdabəsində özünü öldürməsi səhnələrini qələmə almışdır, ancaq Nizami bu səhnələri sələfindən tam fərqli bir şəkildə işləmişdir. Hətta cəsarətlə demək olar ki, Nizami bu epizodları işləyərkən elə ecazkar bir sənət nümayiş etdirmişdir ki, hörmətlə xatırladığı, sənətinə ehtiram bəslədiyi Firdovsinin, özünün başqa yerdə dediyi ki, nırxını sındırmalı olmuşdur. Hətta biz belə düşünürük ki, Nizami eşq haqqında bir əsər yazmaq üçün mövzu axtarışları apararkən, onu məhz "Xosrov və Şirin" mövzusunu





seçməyə yönəldən qaynaqlardan, səbəblərdən biri, bəlkə də birincisi Firdovsi "Şahnamə"si olmuşdur. Nizaminin bu mövzu ilə bağlı bildikləri, tarixi qaynaqlardan öyrəndikləri, Bərdə əlyazması, Bərdə qocalarından əldə edilən bilgilər və s. məqamlar onun bu mövzuya müraciət etmək meylini daha da gücləndirmişdir. Mövzunun Fərhadla bağlı məqamlarının Azərbaycanda geniş yayılması da yeni tipli bir əsər yaratmağa imkan verirdi. Xatırladaq ki, Nizamidən xeyli əvvəl artıq Qətran Təbrizinin şeirlərində Xosrov, Şirin və Fərhad surətləri eyni bir eşq macərasının qəhrəmanları kimi xatırlanırlar. Eyni zamanda, görünür ki, Nizami Şirinin Bərdəli bir alban türk qızı olduğunu yaxşı bildiyindən, özü də türk olduğundan bu mövzuda əsər yazmağa daha maraqlı olmuşdur.

İlk dəfə Nizaminin "Xosrov və Şirin" mövzusu ilə əlaqələndirdiyi Məhinbanu surəti də maraq doğurur. İran alimi Zərrinkub heç bir əsas olmadan Məhinbanunu "Ərmən hökmdarı", "ərmən xanımı" adlandırır. Nizami Məhinbanunun adının Şəmira olduğunu və bunun da "Böyük xanım" demək olduğunu bildirir. Yunanların Semiramida adlandırdığı Şammuramat əslində Assur hökmdarı olmuşdur. Əslən Midiyalı olduğu bildirilir. Haqqında çoxlu əfsanələr vardır. O, əslən dağlar ölkəsindən, Midiyadan olduğu üçün Babil hökmdarı onun şərəfinə "asma bağ" saldırır. Əri öləndən sonra oğulluğu Ninnay ona eşq elan edir. Adını, eşqini ləkələnməkdən qorumaq üçün Semiramida göyərçinə çevrilib öz vətəninə, dağlar ölkəsinə gəlir. Şammuramat sözünün göyərçin demək olduğu da məlumdur. Görünür ki, bu əfsanənin izləri Nizami dövründə də Azərbaycanda, o cümlədən Bərdədə, Gəncədə dillərdə dolaşırmış, hətta ola bilsin ki, artıq Azərbaycan türk xalq yaradıcılığında Şəmira-Məhinbanu əfsanəsi Xosrov və Şirin mövzusu ilə birləşibmiş.

Nizamidə bu qadın yüksək əxlaq mücəssəməsi və bir türk kimi təqdim olunur. Ola bilsin ki, Şəmira-Məhinbanu haqqında hər hansı alban yazılı və ya şifahi xalq yaradıcılığı əsəri də olmuşdur ki, Nizami onu Xosrov və Şirin mövzusu ilə birləşdirməyi, bu yolla Azərbaycan türk qadınlarının namus və qeyrəti haqqında bir himn yaratmağı lazım bilmişdir.

Nizami Gəncəvi əsərdə Məhinbanunu və Şirini bir türk kimi təqdim edir. Həm də onun bu təqdimində bir türk qüruru duyulur. Xosrov Bərdədə olarkən Şirinlə çoxlu əyləncə məclisləri təşkil edir. Məhinbanu qardaşı qızının namus və qeyrətinə inansa da, bu məqamda səhv edəcəyi barədə şübhələrə düşür və ona nəsihət etməyi vacib bilir. Bu nəsihət bütövlükdə ayrıca bir namus, qeyrət dastanıdır. Bu nəsihətdə ən maraqlı yer odur ki, Məhinbanu özünü və qardaşı qızını böyük türk hökmdarı Əfrasiyabın varisi adlandırır. İranlı şahzadə Xosrovu Keyxosrov adlandırırsa, özlərinin Əfrasiyab olduqlarını söyləyir.

O, Aydırsa əgər, biz Afitabıq,
O, Keyxosrovsa, biz Əfrasiyabıq!

Bu sözlər həm də bir türk olan Nizaminin qəlbindən qopan bir iftixar sədasıdır. İdeal insani sifətlərlə təqdim etdiyi Şirin və Məhinbanunun ünvanına, onların dilindən deyilən bu sözlər eyni zamanda Nizaminin özünə aiddir, və bizə görə, "Xosrov və Şirin" poeması bütünlüklə güclü türklük ruhu ilə yazılmış bir əsərdir.

Əlbəttə, Nizami əsərini yazarkən müxtəlif qaynaqlara üz tutmuş, onlardan hansı ölçüdəsə bəhrələnmişdir, ancaq "Xosrov və Şirin" poeması başdan-ayağa Nizaminin şair təxəyyülünün, mütəfəkkir düşüncəsinin məhsuludur. Onun əsərində hər bir kiçik parça belə düşünülərək müəyyən məqsədlə yaradılmışdır. Buradakı hər bir surət müəyyən insani keyfiyyətlərin daşıyıcısıdır. Eyni zamanda onlar Nizaminin dünya və insan haqqındakı düşüncələrinin ifadəsi üçün bir vasitədir. Xosrovun Büzürgümidlə söhbətini, onun Büzürgümidə verdiyi sualları xatırlayaq. İlk yaradılan nə olmuşdur? Bu fələklər nədir, daxildə həyat var, xaricdə nə var? Bu ulduz cirmi nəyin üstündə durur? Biz hardan gəlmişik, hara getməliyik, nə üçün gəlmişik? Ölənlərdən niyə bir nəfər durub nə gördüyünü danışmadı? Bədəndən ayrılan can hara gedir? Can bədəndən ayrı yaşaya bilərmi? Bu bədən quru bir qəfəsdirsə, yuxuda gördüyümüz naxışlar nədir? İnsan o dünyada bu dünyanın işlərini yada salırmı? Bu təfəkkür nədir? Xosrov Büzürgümidə bu məzmunda çox suallar verir, ondan maraqlı, bəzən aydın, bəzən üstüörtülü, eyhamlı cavablar alır. Əslində Nizami poemasına bir eşq macərasının qələmə alınması kimi yox, heç olmasa, Xosrovun Büzürgümidə verdiyi suallar, Büzürgümidin ona cavabları, yenə Büzürgümidin "Kəlilə və Dimnə"dən danışdığı hikmətlər işığında baxmaq lazımdır. Əsərdəki hər bir surət, onların hər bir hərəkəti, düşüncəsi, sevgisi həmin sual və hikmətlərə necə cavab verməsi ilə qiymətləndirilə bilər. Məhz bu sual və hikmətlər dairəsində hərəkət edən Şirin Xosrovu sevərək ona belə nəsihət edir:

Haman səndən qabaq şahlar ki, vardı,
Bilirsənmi bu mülkdən nə apardı.
Malın qalsa, gələr bədxahlıq ondan,

Olar bəxş eyləsən, yollarda dərgan.
Oxu, Dara ilə Cəmşid nə oldu,
Günəş qurdu oyun, onlar yoruldu.
Bu doqquz pərdədə səy et, durust çal,
Bu gizli sirləri dərk eylə, dərs al.

Bu sözlər Şirinin həyat, insan, dünya haqqındakı düşüncələrinin, onun dəyişməz insani prinsiplərinin kiçik bir parçasıdır. Onun təbiətindəki gözəllik ümmanından bir damladır. Bir az dəqiq desək, əsərdəki bütün hadisələr, surətlər, onların düşüncələri, hərəkətləri, şairin ricətləri – bunlar hamısı Yaxın və Orta Şərq intibah mədəniyyətinin ən böyük mütəfəkkir şairi olan Nizaminin dünya və insan haqqındakı düşüncələrinin misilsiz bədii ifadəsidir. Nizamiyə qədərki elmdə, sənətdə olan insanlıq axtarışlarının möhtəşəm bir yekunu və zirvəsidir. Əsərin hər üç əsas qəhrəmanı – Xosrov, Şirin və Fərhad eşq aləminə romantik bir tərzdə daxil olur. Biri sevdiyi adam haqqındakı söhbəti eşidib ona aşiq olur, biri sevdiyi adamın özünü yox, ancaq şəklini görüb əbədi bir məhəbbətlə onu sevir. Üçüncüsü isə sevdiyi adamın özünü görmədən, ancaq səsini eşitməklə onun divanəsi olur. Bunların hər üçü sevir, ancaq biri bu sevgiyə qovuşmaq üçün uzun müddət əyri yolla gedir, bu yolla istədiyinə çata bilmədiyini anlayıb həqiqi sevgi yoluna gəlir. O dəyişir, inkişaf edir, əsil aşiq səviyyəsinə ucalır. İkincisi də sevir, ancaq sevməklə bərabər halal bir arvad olmaq fikrini, yolunu gedir. Uzun müddət həsrətə, iztiraba dözür və istədiyinə nail olur. Şirin bədnam, yüngül, insanda insanlığı inkar edən, onu alçaldan sevgini qəbul etmir. Şirin həm sevgisindən dönmür, həm də bu sevginin ləkələnməsinə razı olmur. Bütün hərəkətləri, fikirləri, qənaətləri ilə Şirin insan idealının ən yüksək təcəssümü kimi diqqəti cəlb edir. Onun simasında real düşüncə ilə romantikanın mükəmməl bir sintezi vardır.

Fərhad da sevir. Onun sevgisi təmiz və pakdır. O, nadir bir memar və daşyonandır. Şirin üçün süd arxı çəkir. Şirinə qovuşmaq ümidi ilə Bisütun dağını çapmaqla məşğul olur. Xosrov Fərhada bildirir ki, o, Bisütun dağını çapıb oradan yol salsa arzusuna qovuşacaq. Fərhad bu şərtin doğruluğuna inanır və qısa bir müddətdə az qalır ki, Bisütun dağını çapıb, ordan yol salsın. Ancaq Şirinin yalan ölüm xəbərini eşidib ürəyi partlayıb ölür. Fərhadın qəlbi o qədər təmiz, sevgisi o qədər güclüdür ki, o, şirin vədlərə inanır, aldanır, Şirinin onu sevib-sevmədiyini düşünmür, bu cəhəti heç ağlına belə gətirmir. Onun üçün özünün sevməsi kifayətdir. Bu sevgi daha çox reallıqdan uzaq, romantik bir sevgidir. Ancaq həyatda belə sevgi nümunələri də olur və vardır.

Tədqiqatçılar bir həqiqəti də etiraf edirlər ki, bu əsər üzərində Nizaminin sevimli Afaqının ölümünün də müəyyən təsiri olmuş, şair Şirin surətini yaradarkən Afaqla bağlı xatirə və düşüncələrindən təsirlənmişdir. Bunun üçün poemadan aşağıdakı misraları nümunə gətirirlər.

Oxu ibrətlə, bir dürdanədir bu,
Nə zənn etdin, məgər əfsanədir bu!?
Bu dastanı oxu, yaş tök gözündən,
Gülab səp Şirin üçün qalx özün sən -
Onunçün ki, kəm ömr oldu o dilbər,
Onu gültək cavankən aldı yellər.
Qədəm yüngüldü o, qıpçaq bütüm tək,
Güman etdim ki, Afaq idi gerçək.
Gözəl sima, şirin dil sanki qönçə
Onu etmişdi Dərbənd şahı töhfə.

Burada, əlbəttə, müəyyən həqiqət vardır. Sənətkarın şəxsi həyatı, sevdiyi insanların xatirələri onun yaradıcılığına, düşüncələrinə təsirsiz ötüşə bilməzdi. Görünür ki, Şirin surətinin yaradılmasında, onun ən ali insani cizgilərinin qələmə alınmasında bir insan kimi Afaqın müəyyən təsiri olmuşdur. Ancaq "Xosrov və Şirin" poemasını bütövlükdə tək bu hadisə ilə bağlamaq kökündən yanlış olardı. "Xosrov və Şirin" poeması əslində Fərabi, İbn Sina, Biruni, Ömər Xəyyam, Söhrəverdi kimi fikir bahadırları yetirən islam Şərqinin dünya və insan haqqındakı düşüncə və qənaətlərinin əsrarəngiz bədii ifadəsidir. Təsadüfi deyildir ki, bu əsər meydana çıxan vaxtdan böyük şöhrət qazanmış, ədəbi aləmdə yeni, müstəsna bir hadisə kimi qarşılanmışdır. Dövrün bir çox adlı-sanlı sənətkarlarının həsədinə səbəb olmuşdur. Bu əsərin qazandığı böyük şöhrətin nəticəsi idi ki, şairin çağdaşı olan tarixçi Ravəndi özünün "Rahət əs-südur və ayət əs-sürur" əsərində "Xosrov və Şirin" poemasından çoxlu parçalar vermişdir. Təxminən 1190-cı ildə Nizamini sarayına dəvət edən Qızıl





Arslan bu əsər haqqında ilk rəy söyləyən insanlardan biri kimi "Xosrov və Şirin" əsərini belə qiymətləndirir.

Şahənşah çiynimə əl qoydu sonra,
Mənə təhsinlərindən verdi sırğa.
Dedi "Xosrovla Şirin"dən hekayət,
Şəkər dillər buna etməzmi, rəğbət?!
Dedin sənətdə çox sözlər gözəl sən!
Nə gövhərlərlə qoydun bir təməl sən.
Hekayətlər dedin nadir, nə qaldı?
Bizim tarix yeni bir surət aldı.
Nə bülbüldə bu cür tər bir nəva bar!
Nə bir dildə bu cür xoş bir hava var?
Açıb hər beyti etsən sən qiraət,
Bu bir zeytun yağı – iflicə səhhət!
İpəkdir tələə düşmüş, odda yanmaz,
O bişməz odlar üstdə, buzda donmaz.
Nə halvadır bişirdin qaynadıb sən,
Yeyən bir qismət ondan söylər əhsən!
Məzən süddən də şirindir, verir can,
Belə dadlı hanı aləmdə dastan.

Bu sözləri poemanın yazılmasından cəmi doqquz il sonra Əbdülhüseyn Zərrinkubun fitnəkar adlandırdığı böyük türk hökmdarı Qızıl Arslan söyləyir. Bu türk hökmdarı bir türk şairinin irandillilərin dilində yazdığı əsəri sevərək oxuyur, təhlil edir, eyni zamanda türk dilində yazılmayan bu əsərlə Nizaminin türk tarixinə yeni bir həyat verdiyini xüsusi olaraq vurğulayır. Eyni zamanda Qızıl Arslan da Samani, Qəznəvi və həm də Səlcuq hökmdarları kimi əslən türk olan şairlərin farsca yazmasına qanuni, təbii, eyni zamanda onların özlərinin rəvac verdiyi bir hal kimi yanaşır. Qızıl Arslan özü də bu təhlil və dəyərləndirməsi ilə belə bir həqiqəti nəzərə çatdırır ki, Səlcuq türk hökmdarları özləri də fars dilində yazmaq, oxumaq, bu dildə yazılmış əsərləri mütaliə etməkdən zövq duymaq dərəcəsində savadlı olmuşlar. İstər XII əsrdə, istər ondan daha əvvəlki çağlarda, istərsə də daha sonrakı dövrlərdə türk hökmdarlar fars dilində yazılan əsərlərin ən yaxşı biliciləri və xiridarları olmuşlar. Onlardan bir çoxları farsca şeirlər də yazmışlar. Türk şairlərinin farsca yazmasının bir səbəbi də bununla bağlıdır. Türk hökmdarlar bütün xalqlara eyni gözlə baxmış, hər cür şovinizmdən uzaq olmuşlar. Onlar dünya vətənim, insan millətim əqidəsi ilə yaşamışlar. Sultan Mahmud Qəznəvinin fars şairi Firdovsiyə İran şahlarının tarixindən "Şahnamə" yazmaq sifariş etməsi bunun ən parlaq nümunəsidir. Bu yanlış bir ənənə idi. Bütün Yaxın və Orta Şərqi öz hakimiyyətləri altına alan türklər özlərini keçmiş İran şahlarının varisi, davamçısı sayır, fars dilində yazıb yaratmağa rəvac verirdilər. Belə olmasaydı əslən türk olan Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi və digərləri əsərlərini farsca yazmazdılar.

Nizami irsi həm qeyri-adi insani məzmunu, həm də görünməmiş ecazkar sənətkarlığı ilə özündən sonrakı ədəbi irsə yeni istiqamət verdi. "Xəmsə" yazmaq, yaxud Nizaminin hər hansı bir əsərinə cavab yazmaq ayrı bir vüsət aldı. Eyni zamanda Nizaminin ayrı-ayrı əsərlərinin türk dillərində tərcümələri meydana gəldi. Belə tərcümələrdən birini 1340-1342-ci illərdə Xarəzmli Qütb ortaya qoydu. O dövrün tərcümələrinə uyğun olaraq Qütb Nizaminin "Xosrov və Şirin" poemasını sərbəst şəkildə çevirmişdir. Poemanın əsas məqamlarına sadiq qalan müəllif bəzi bəhsləri ixtisar etmiş, bəzi məqamlarda isə yeni bəhslər artırmışdır. Məsələn, orijinalda Sultan III Toğrulun, Cahan Pəhləvanın, Qızıl Arslanın mədhinə həsr edilmiş parçalar Qütb tərcüməsində ixtisara salınmış əvəzində Qızıl Orda hakimi Tünü bəy mədh olunmuşdur. "Xosrov və Şirin" tərcüməsində ixtisara salınmış əvəzində Qızıl Orda hakimi Tünü bəy mədh olunmuşdur. 1947-ci ildə "Xosrov və Şirin" poəsərini tərcümə etmək təşəbbüsləri günümüzə qədər davam etmişdir. 1947-ci ildə "Xosrov və Şirin" poemasını müasir Azərbaycan dilinə Rəsul Rza tərəfindən tərcümə olunmuşdur. R.Rza Nizami poemasını heca vəznində tərcümə etmiş, əsərin məzmun və bədii xüsusiyyətlərini mümkün qədər saxlamağa çalışmış, çox vaxt buna nail olmuşdur. R.Rza daha çox ona çalışmışdır ki, Nizami fikri müasir dilimizin tələblərinə uyğun bir tərzdə oxucuya çatdırılsın. O, hərfi tərcümə yolu ilə getməmiş, hər beytin müasir dildə daha dəqiq, daha aydın ifadəsinə çalışmışdır. Nizamidə belə bir beyt vardır:

Fələk coz eşq mehrabi nədarəd,
Cahan bixake eşq abi nədarəd.

Bu beytin hərfi tərcüməsi belə olar: "Fələk eşqdən başqa bir mehraba sahib deyil, cahan eşq torpağından başqa bir suya malik deyil." R.Rza isə bu beytdə ifadə olunan fikri müasir Azərbaycan dilinin ifadə imkanlarını nəzərə alaraq aşağıdakı kimi tərcümə etmişdir.

Eşqdir mehrabı uca göylərin!
Eşqsiz, ey dünya, nədir dəyərin!?

Zahirən bu tərcümə orijinaldan fərqlənir, həqiqətdə isə həmin beytdə ifadə olunan fikrin burada ən dəqiq ifadəsi ilə qarşılaşırıq. R.Rza poemanı tərcümə edərkən həmişə bu yolla getməyə çalışmışdır.

Oxuculara təqdim olunan bu tərcümə əruzla, poemanın yazıldığı ölçüdə yerinə yetirilmişdr. Yəni həzəc bəhrinin "məfAİLün məfAİLun məfAİL" ölçüsündə tərcümə olunmuşdur. Mütərcim çalışmışdır ki, Nizami əsərinin məzmun və bədii xüsusiyyətlərinə sadiq qalmaqla onun fikirlərini bugünkü dilimizin tələblərinə uyğun ifadə etsin. Tərcümə üçün L.A.Xetaqurovun hazırladığı elmi-tənqidi mətn əsas götürülmüşdür. Yeri gəldikcə, R.Rzanın poetik, H.Məmmədzadənin isə filoloji tərcüməsindən də istifadə olunmuşdur.

Xəlil Yusifli

## XOSROV VƏ ŞİRİN

İlahi, bir qapı aç yardım üçün!
Nizami haqq yolu göstər ki, görsün.
Səni dərk etməyə sadiq könül ver,
Səni mədh etməyə qüdrətli dil ver.
Yamandan qəlbimi saxla, amandır,
Əlim qoyma tuta pisdən, dayandır.
Bəzənsin qoy könül nurunla hər dəm,
Səni öysün dilim durduqca aləm.
Yeni bir Davud olsun, qəlb oyansın,
Zəburum bir cahan şöhrət qazansın.[1]
Bu dilbər bəslənib naz ilə canda,
Üzü olsun mübarək qoy cahanda.
Nəzər salsa, könül şadlıqla dolsun,
Onun mişkiylə yer Xəllüx tək olsun![2]
Qarasından çoxalsın gözdə nurlar,
Sədasından xumarlansın şüurlar,
O, qəlb üçün sevinc dastanı olsun,
Düyün, müşkül açan ünvanı olsun.
Onunla mənaya bəxş eylə şöhrət,
Onunla daim olsun qoy səadət.
Camalı şah gözündə şirin olsun,
Özü şirin, adı həm Şirin olsun.
Ona lütfünlə yar ol, möhtəşəm qıl,
Yetir bir qətrə, feyzindən, kərəm qıl.
O lütfün mədəni dindi olub yar:
"Gətir, ey gövhərin kanı, nəyin var!"

### ALLAHIN BİRLİYİ HAQQINDA

Onunla ad tapıbdır varlıq, aləm,
Onunla yer durub, göy qaçdı hər dəm.[3]
Edir səcdə ona hər yerdə xilqət,
Budur mütləq dəlil-vardır o qüdrət.
Uca tanrı, sənə yox bənzər, oxşar,
Böyük saymış səni harda böyük var.
Onunla yandı ulduz, durdu göylər,
O, verdi ağla hikmət, dürlü şeylər.
Gecə zülmət də olsa gündüz eylər,
İti ağla bağışlar inci, gövhər.
O, xəlq eylər gecə-gündüz həm ay, gün,
Verər şadlıq, ümid, qorxu o, hər gün.
Ucanı, alçağı gözlər o, möhkəm.
Sübutdur varlığına cümlə aləm.
Vücudu qəhr edər cümlə cahanı,
Bütün hal əhlinə bəlli nişanı.
Onun əmriylə ulduzlar gəzər, bax!
Yeri gövhərlə o daim bəzər, bax!
Görən gözlər onu istər dəmadəm.
Odur tənhaların könlündə həmdəm.
Bu dünyada əsaslardan kənardır,
Ona burda nə həd, nə ölçü vardır.
Onu göylərdə çox gəzmiş könül pak
Bu yolda nal tökübdür əql, idrak.
Ağıl gəzməkdən ötrü durdu huşyar,
Fəqət gördü nə sağ qalmış, nə sol var.
Nə vaxt öz nəqşini durdan götürdü,
Götürdükcə onu artıqca gördü.
Onun hökmu bu tez-gecdən uzaqdır,
O zat alçaqla yüksəkdən iraqdır.
Bütün dünyada hərflər səndədir cəm,
Hamanca lövhədə cəmsən özün həm.
Dağıl, yüz parça ol gül tək bu bağda,
Yetişməz sağlama, bil ki, bu dağ da.
Bu dünyaya bir elçi gəldin ordan,
Ora üz tut ki, qurtar tezcə burdan.
Olar hər bir kəsə bilmək çox asan,
Fəqət sonda qalar heyrətdə insan.
Xudanı bilməyə tək bircə yol var,
Dəlil ilə, qiyas ilə o parlar.
Qiyas ilə ağıl işlərsə böylə,
Xuda üçün dəlil tapmazmı, söylə!
Yetər, yol vermə fikrə bundan artıq,
Görərsən bir quyu öndə, ya dağlıq.
O gün ki, anladın bir məbudun var,
Nədir? Kimdir? Nə cürdür? Gəzmə, zinhar!
Yanan hər şamda sən gəzdin işıq, nur,
O, haqqın birliyi üçün sübutdur.
O, torpaqdan gülü əlvan yaratdı,
Sudan gah biz kimi bir can yaratdı.
Ağıl verdi onu ta dərk edək biz.
Görən göz verdi düz yolla gedək biz.
Göyün doqquzca hərfindən bərabər
Bu yer taxtasına yazmış rəqəmlər.
Su verdi ruh nəbatıyçün cigərdən,
Ağıl şəminə yağ verdi bəsərdən.
Alıb altı yaxa ondan cəhətlər,
O atdı torpaq üstə dörd gövhər.[4]
Elə xəlq oldu varlıq ilk zamandan,
Bu sirrə yol tapa bilmir bir insan.
Elə bir son verər burda o, hər bəm,
Ona bir yol tapılmaz, gəlsə aləm.
Özündə olmaz axtarmaq xudanı,
Xudalıq şahlıq olmaz, haqqı tanı.
Dağılmaqçün olanlar məhv olarlar,
Odur hər varlığa qadir səbəbkar.
O, bəxş eylər hədiyyə, həm bağışlar,
Onunla oldu ilkin mayə ta var.
Verib bir mayəyə ayrı əlamət,
Qoy olsun hər birində bir ləyaqət.
Buna verdi səxa, bəxşiş yetirsin,
Onu etdi xəsis, alsın, gətirsin.
Bu verməkdən xəbər bilməz verənlər,
Nə bilməzlər xeyir, bəxşiş görənlər.
Nə atəşdə xəbər var yaxmağından,
Nə su agah: o daim bəsləyir can.
Şəriksizdir xuda mülkündə hər dəm,





Onun fərmanına quldur bu aləm,
Bu qullardan kim eylər bir cəsarət,
O dərgaha yetirsin bir xəsarət.
Yer ölçər, bircə tük ondan qoparmaz,
Əsər yellər, ətirdən pay aparmaz.
Min əhsən! Gör nələr qurmuş o qüdrət!
Gərəkdir daim olsun bunlar ibrət.

### YARADILIŞI DƏRK ETMƏK HAQQINDA

Göyün səyyahlarıçün, bir xəbər ver,
Neçün bir Kəbə olmuşdur mudam Yer?[5]
Bu mehrab içrə məbud kimdir əvvəl?
Nə getməkdir, nə gəlməkdir bu get-gəl?
Nə istərlər bu karvan çəkmək ilə?
Nə istərlər bu mənzil kəsmək ilə?
Bu hardan sabit, o, səyyar olubdur?
Ona kim söylədi "tərpən", buna "dur"?
Qəba geymiş qızıl güllərdir onlar,
Durub təzimə çox illərdir onlar,
Ora çatdım ki, yüz yol heyrətimdən
Bu cür bütxanədə zinnar taxım mən.
Fəqət tez-tez qaçakən burda heyrət!
"Nizami"-səslədi birdən inayət.
"O bütlər qoy səni çaşdırmasınlar,
Edirlər qeyrə daim səcdə onlar.
Dönüb pərgara sərgərdan gəzirlər,
Gəzirlər xaliqi hər an gəzirlər.
O qüdrətli əlinlə sən də bir dur,
Çıxıb bütxanədən, bağla, qıfıl vur.
Bütü İbrahim ol, sən sev, əzizlə,
Fəqət bütxanəni bütdən təmizlə.[6]
Nəzər salsan bütə, surətpərəstsən
Bütü əz, olma bir supərətpərəst sən.
Yer altında, səmalarda nə vardır,
İlahi xəznəyə tilsim, açardır.
O bağlı tilsimi tapmaq çətindir,
Tapıb qırsan, xəzinə qismətindir.
Bu dörd ünsür ki, var, tez durma mil çək,
Bu yolla sürmələndir ağlı, nil çək.
Bu çərxin nəqşi əlçatmaz xəyaldır,
Bu müşkül sirrə yol tapmaq mahaldır.
Bu çərxin sirrinə yol tapmıram mən,
Deyil bu nəqşlər ancaq əbəsdən.
Bilinmək lazım olsaydı bu sirlər,
Bu varlıqdan biri, söylər nədirlər.
Bu günbədlər işıqlarla yanırlar,
Görərsən gendən ancaq fırlanırlar.
Bu fırlanmaqda, məlumdur, bir iş var,
Bu dönməkdə səbəb var, istəyiş var.
Ağıllı hər kəsə olmuş bu aşkar!
Yəqin hər fırlananı fırladan var.
Qarı cəhrəsinə sən bir nəzər sal,
Fələk də fırlanır, bil ki, bu minval.[7]
Nizamlansa, qüsurlardan gen olsa,
Əgər fırlatmasan fırlanmaz əsla,
Əgər fırlatsa həm aqil bir insan,
Dayanmaz xeyli öz fırlanmağından.
Bu qayda dövr edir daim fələklər,
Bunu gövhərşünas anlar, ya zərgər.
Bu ağlın, fikrin üstürlabı haqdan
İşıq, nur almasa, olmazsa fərman,
Nə bir qaş tərpədib məktub yazarlar,
Nə bir barmaq tikər bir tazə paltar.
Sən ondan bil gecə, görsən saçar nur,
Sən ondan görməsən aydan qaçar nur.
O hər bir nəqşə vermiş bir camalı,
Bu ulduzlar açır onlarla falı.
Biri on arpanı mehrab edibdir,
İki daşı bu, üstürlab edibdir.
Nə gördünsə o daşla arpadan sən,
Görərsən onları çərxin işindən.
Demə dörd rükndən gəlmişdir insan,
Yaranmış çünki ulduzdan həm ərkan.
O qüdrət bəs kimə olmuş həvalət?
Həvalətdə bəs işləndi nə alət?
Yaranma alətə olsa həvalət,
Nə alətlə yaranmış bəs o alət?
Əgər atəşlə yel, bir də su, torpaq
Edərsə bir-biriylə ülfət ancaq,
Yenə gəlməzsə haqdan əmr, fərman,
Bədəndə sakin olmaz onda bir can.
Özündən sən əgər qiblə düzəltsən,
Sənə hardan deyərlər haqpərəstsən!?
Olarsan haqpərəst, keçsən özündən,
Gecəylə gündüz olmaz dost, bil sən.
Özündən kim bu yolda heç nə görməz,
Əzizdir haqqa qullardan bu cür kəs.
Özün çıxsan yadından, ey Nizami,
Olar qismət sənə o vəsl camı.

### MİNACAT

Yoğurdun sən bizi palçıqdan, allah!
Vəsiqə yazdın, oldun həm xeyirxah.
Bizə borc oldu durmaq xidmətində,
Verərsən muzdunu hər xidmətin də.
Bu gücsüzlük, zəifliklə biz aşkar,
Sənə xidmətçiyik ta qüvvəmiz var.
O qüdrətlə, inayətlə, de, hardan
Çıxarmazsan zəif qulları dardan?
Ümidlər bizdə bir dərya qədərdir,
Kərəmlər səndə bir dünya qədərdir.
Kimik bəs yoxsa meydana gələk biz?
Divanından sənin bir rəng silək biz?
Xilas eylə, ayır bizdən bizi sən,
Duraq ayrılmayaq heç xidmətindən.

Yarar xidmət hanı bizdə səninçün,
O izzət qəsrinə layiq görünsün?
Fəqət biz bəndəyik, əlbət, həmişə.
Edərlər bəndələr xidmət həmişə.
Əgər bir gün bizə sən xət də çəksən,
Kim əmrindən qaçar, qüdrətdə təksən.
Bu yumruq boyda torpaqdan sevinsən,
Qazannıq biz, həm etməzsən ziyan sən.
Əgər tənha qalıb imdada gəlsək,
Kərəmlə bax bizə, biz dada gəlsək.
Bağışla sən bizi əhdin, vəfanla.
Kərəm qıl, bir görün hüsnün, liqanla.
Bu torpaq ki, içi öz danən olmuş,
Mənəm şam, qəlb isə pərvanən olmuş.
Məni əvvəlcə torpaqdan yaratdın,
Fəzilətlə seçib ərşə ucaltdın.
Üzüm tək ver gözə sən nur, bəsirət,
Veribsən nemati, şükr etmək öyrət.
Çətində səbr ver, ta ki dözüm mən,
İşim düz getsə də, qoyma gözündən.
Mənə bildir varındırsa nə hikmət,
Götürsün pərdəni gözdən bu qəflət.
Uçurt tərlan xəyalı, bəndə salma!
Gəl əvvəl hər nə verdin, sonra alma.
Əgər həddindən artıqsa günahım,
Xəcalətdir bu yolda üzrxahım.
Sözümdə hər nə ki, səhvim, xətam var,
Sən üstündən qələm çək, çoxdur onlar.
Mənim yetmiş iki qaydam, yolum var,
Biri güldür, o yetmiş bir tikanlar.
Bu yolda fikrimə sən pərdə tutdur,
Xilas da, qurtuluş da bax bu yoldur.
Səni hər bir naxışda gəzmişəm mən,
Səni hər sözdə duymuş, sezmişəm mən.
Sənin sevginlə divanə olandan,
Yapışdım yaxşıdan, bəzən yamandan.
Yol aldım qarşına mən xidmət üçün,
Yol azsam, qaytar ordan hörmət üçün.
Keçir hey Kəbəni görmək könüldən,
Əgər yollarda ölsəm, neyləyim mən?
Olubdur yaxşı da burda, yaman da,
Kərəm də səndədir ancaq, aman da.
Buna sınmış ayaq verdin, ucaltdın,
Qanad verdin ona, göylərdən atdın.
Yazıq mən bilmirəm oldum nə cür qul,
Məni məhrummu saydın, yoxsa məqbul.
Əgər mən bütpərəstəm, ya ki dindar,
Bağışla hər kiməm, ya hər nəyim var.
Sən öz fəzlincə göstər burda şəfqət.
Edib tutduqlarımca verme qiymət.
Tapılmaz məndə layiqli əməllər,
Olar fəzlinlə o hardan bərabər.
Sənin fəzlin qədər məndə əməl yox,
Nəvaziş eyləsən, yaxşı olar çox.

Özün xidmətlə güldür, mərhəmət saç,
Məni hər kəs yanında qoyma möhtac.
Budur arzum ki, yox da, var da olsam,
Özün bax, qane ol mən harda olsam.
Kərəm qıl qurtarım dünya işindən,
Özün bil, keçsə iş səndən, kiməm mən.
Sənin feyzinlə nurlansın çırağım,
Qapından daim öpsün qoy dodağım.
Bu sərxoş qəlbimi, yarəb, ayılt sən,
Bu qəflətdən məni, yarəb, oyat sən.
Yatırt möhkəm gəlib çatsa hesabım,
Tökülsə palçığım, qalsın gülabım.
Dilimdən qoy bu cür gəlsin şəhadət!
Mənim son qismətim olsun səadət.
Qənaətlə bədən dursun, oyansın!
İtaətdə məzacım düz dayansın!
Bu dərdli ruhuma sən bir şəfa ver!
Məhəmməd torpağından bir dəva ver!

## PEYĞƏMBƏRİN NƏTİ

Məhəmməd canına minlərlə əhsən!
Onun torpağı xəlq olmuş əzəldən![9]
Görən gözlərdə yandırmış çıraq o,
Verib varlığa bir qayda, sayaq o!
Vəfanın meydanında qəhrəman, ər,
Nəbilər dəstəsində başçı, rəhbər.
Günahkar bəndəyə verməz xəcalət,
O, bir çox düşgünə istər şəfaət.
Açar gəlmiş ilahi xəznə üçün,
Səhər gülzara gül paylar o, hər gün.
Yetimlərçün o, şirin bir nəsimdir.
Odur hər kəs deyir: "Dürri - yetimdir".[10]
Fikirdə Adəmin can kimiyası,
Şəkildə aləmin göz tutiyası.
Şəriət qəsrinə qoydu o, dörd həd,
Ölümsüz dörd divardan qurdu sərhəd.
Bu peyğəmbərlik ondan təzələndi,
Ağıl həm sayəsində kölgələndi.
Cahanda din də qurtarmış onunla,
Şəriətlər heçə varmış onunla.
Rəhimli bir igid, çox tünd bir şir,
Açardır gah dili, gah da ki şəmşir.
O, xaslardan seçilmiş xas Ayazdır,
Nə məsudluq, o, məhmudluğa xasdır.[11]
O, bir nüsrət qılıncı aldı burda,
Dəmirlə daşda izlər saldı burda.
Utandı möcüzündən bədgümanlar,
Sıxıldı qəlbi daşdan bərk olanlar.
Görərkən dostları gül tək olur şad,
Yaşar bir sərv tək dünyadan azad.
Yaşıl rəng aldı sərvindən ürəklər,
Saçından ənbər almışdır küləklər.
Qərar tutmuş atı şah dəstəsində,





Durub dörd yan beş yol növbəsində.[12]
Olub başmağı ərşin taxtına tac,
O, vəhy aldı, nədir həm bildi merac.
Apardı mehdini ərşə, bu yerdən,
Çevirdi divi insana hünərdən.
Qoşun çəksə, Xəlil ancaq bir əsgər!
Məsih qəsrində çavuşdan kiçiktər.[13]
O, dağlarda yaşarkən bir zamanlar
Onun dostuydu əqrəblər, ilanlar.
Gah ağzından diş almışdır dəyən daş,
Qoyub bəzən daş üstə bir zaman baş.[14]
Onunçün daşda qaldı diş-dodağı,
Olar daş ləl ilə gövhər yatağı.
Daş atdı düşməni, bir diş itirdi,
Fələk tutdu onu qul tək gətirdi.
Yatır gözlər, ürək dönmür yolundan,
Deyibdir "Ümmətim", tutmuş qolundan.
Onunçün təşnəyəm, yandım qəmindən,
Suyumdur, odlu bir torpağıyam mən.
Buraxdıq qulluğunda xeyli təqsir,
Ey allah elçisi, vardır nə tədbir!?
O pak qəbrindən ancaq istərəm mən,
Mənimçün tanrıdan bir xahiş etsən.
Bir əl qaldır mənimçün sən səmaya,
Tez ondan sonra üz tut bir duaya.
De: "Ey tanrı, Nizamiyçün şəfəq saç,
O kafir nəfsinin zünnarını aç.
Könül gen düşməsin dinclik evindən,
Bu aləmdə onu əfv eylə gəl sən.
Ağır dağlarca göstərmişsə nöqsan,
Sənin rəhmin də sahilsiz bir ümman.
Bağışla ruhunu, sən bəxş edənsən,
Əvəzsiz əfvin ardınca gedənsən."

## KİTABIN YAZILMASINDAN ÖTRÜ YUXARIDAN GƏLƏN BUYRUQ HAQQINDA

Gəlib bəxt atını tərpətdi iqbal,
Səadət aləmə üz tutdu dərhal.
Səhər nuru yetişdi hökmdar tək,
Qara rəngi cahandan sildi ağ rəng.[15]
Göyün var çətri, bəs sultan da varmı?
De, sultansız çətir qurmaq yararmı?
Döhül vurdu ötən quşlar səhərdən,
Gəlib car çəkdilər beş növbə birdən.
Günəş Cəmşid camıyla qalxıb asan,
Bu yüyrək taxta çıxdı sanki sultan.[16]
Bu mülkə söz Tuğan şahı müzəffər,
Qələm tutmuş Qaraxan aldı xəncər.[17]
Bu yeddi şahlı göylər qurdu divan,
Sözün haqqında verdi təzə fərman.
Bu xəncərlə az iş görsən cahanda,
Qələm tək doğranar əllər bir anda.

Oyaq qaldım gecə lap məst idim mən,
Yapışmışdım qılınc dilli qələmdən.
Deyirdim hansı yolla dür saçım mən,
Ya hansı xəznədən bəndi açım mən.
Nə tərzə üz tutum tutsun cahanı?
Nə iş görmək ki, fəth etsin zamanı?
Səadət girdi şadlıqla qapımdan,
Üzümdən yüz yol öpdü, qoydu heyran.
Buyurdu: - İşlərin qurtardı dardan.
Çıxıb qıfılın da daşdan, gör ki, hardan.
Buyurmuşdur cahan şahı cahanın,
Yarat bir dastan eşqindən zamanın.
Ölüb-getmişlər, əhli-hal olanlar
Alovsuzca donurlar bir-bir onlar.
O xəncər dillə sən çərxin başından
Hər anı məna tükü qırxarsan asan.
Qələm sən qoymadın çalsın Ütarid,
Tikan tək batdı atlas geysə Nahid.[18]
Gəl İsa tək ruh üçün dərs qandır,
Yetiş Musa tək eşqə şam yandır.[19]
Üzük tap, sal ona firuzə qaş sən,
Süleyman bəxşişi bizdən görərsən.[20]
Əgər haqqında göstərsək ədalət,
Yəqin bizdən sən etməzsən şikayət.
Əgər bir dəm sənə biganə qalsaq,
Səni Firdovsi tək narazı salsaq.[21]
Qızıl bir lövhəyə buzla möhür vur,
Sevinsin pivəçi, sənsə kənar dur.
Əgər xoşbəxtsən, dövlət sevənsən,
Tamahdan keç ki, can qurtar əlindən.
Könül bəxt ilə olduqda həmavaz,
Sevincindən o, bəxtə etdi bir naz.
Dedim: - Vaxtdır, bu işdə yarım ol sən,
Bu qəmlərdə mənim qəmxarım ol sən!
Bu meydan çox görüb mahir sənətkar,
Deşiblər ləli, yar olduqca şahlar.
Əgər baxmazsa dövlət şeir ucalmaz,
Deşər dünyada ləli ancaq almaz.
Sürəyyaya ucalmış bax bu sənət,
Ucalmışdır görüb dünyada nemət.
Doyub mən bir ovuc arpa unundan,
Qaçıb bir küncə, gen gəzdim cahandan,
Mən oldum bir arı, hər dəm evim dar,
Bu evdə yüz cürə halvam, balım var.
İlan tək xəznə üstü məskənimdir,
Bütün gün bir çörək ancaq yemimdir.
Bu şahın sayəsində qalmaram ac,
Daralmışsa ürək, qalmaz o, möhtac.
Bacamdan quş gələr könlüm dilərkən,
Çıxar növ-növ balıqlar tezcə yerdən.
Sənin bəxtinlə düşmənlər yox olsun!
Sənin yardımların barı çox olsun!
Cahanda hər nə cür iş var, əməl var,
Bu şahın himmətindən oldu aşkar.

Bu dünyada malı yoxdursa hərgah,
Qənaət bəxtli olsun, ey allah!

## BU NƏZMİN TARİXİ VƏ BAŞLANĞICI HAQQINDA

O vaxt ki, bu cavan taleli sultan,
Xeyir görsün, görüm, taxtı, tacından.
O mənə mülkünün taxtında qaim,
Həyat dünyasını tutmuş o hakim,
Məlik Toğrul, bu dünyanın ağası,
Səxavət ümmanı, iqbal səması,
O şahlar şahı Toğrul, mülkə arxa,
Ədalət kanı sultan, mülkü dünya.
Çatıb sultanlığa taxtü tac aldı,
O, Arslandan qalan taxta ucaldı,
Haman bu xəznəni açdım o gün mən,
Özü qoydum bu qəsr üçün o gündən.[22]
Mübarək tale idi, başladım mən,
Mübarəkdir dedi göylər ürəkdən.
Bu tale ki, həmin nəzmə olub fal,
Məni öz nəqşi tək etməzmi xoşhal.
Şahın bəxtiylə başlandı bu dastan,
O da dünyanı tutsun sanki sultan.
Könüllər məşuqu olmuş bu dilbər
Çox az vaxta tamam oldu sərasər.
Bu yolda ləngimə olmuşsa hərgah,
Boşalsın, söylədim işdən bir az şah.
Həbəş zülfü dedim Tamğaçə vursun,
O Şüştər ziynətini Çaçə vursun.[23]
Çətir tərlanla ənqanı o tutsun!
Qızıl tacla sürəyyanı o tutsun!
Cəlal çətri səmalarda ucalsın,
Atı Ceyhuna bir titrətmə salsın.
Tutub düz yeddi ölkə, eyləsin faş,
Fələklər çənbərindən çəkməsin baş.
Ona Çindən gətirsin vergi xaqan,
Müdam qeysər yetirsin cizyə Rumdan.[24]
Ey allah, min şükür, qədri, cəlalı,
Üzərlikdir yanan, görməz zavalı.
Məhəbbətdən üzərlik yandırıb mən,
Səhər saldım yola sübhün mehindən.
Onun ətrindən olsa şah xoşhal,
Mənimçün atəşə atsın o, bir nal.
Desin bir dəm: "Atabəy, ey Cahangir,
Nizami göstərib axır nə təqsir?
Yetər, qalmış bu cür şair kənarda,
Yetər, bir ruzi görmür bu diyarda.
Deyilmi vaxt onu ta oxşayaq bir!
Bu dünyada ona gün ağlayaq bir!
Baxaq bir dəm, çəkilsin qəm gözündən,
Qırışlar getsin alnından, üzündən.
Sitiylə Məhsəti olsa qəzəlxan,
Gecə yüz xəznə verrik biz çox asan.
Ona açsaq əgər biz bircə xırman,
Bir arpa, vallah, əksilməz bu vardan.
Durubdur sərvət üstdə mülkümüz şad,
Pis olmaz bir pozuq kənd etsək abad.
Günəş zülmətlərə daim saçar nur,
Odur öz qəsri də nurla dolubdur.
Səxavətdə ad almışdır buludlar,
Bax, onlardan süd əmmiş körpə otlar.
Nə müddətdir bu xoş sözlər düzən quş,
Bizə şükr etmək ilə məşğul olmuş.
O, bir cam içməmiş meyxanəmizdən,
Dayanmır bircə an şükranəmizdən.
O cür bir bəndə, mən tək bir xeyirxah,
Özün Keyxosrova bənzər böyük şah.
Başı göylərdən ötmüşdür, o, az-maz,
Nəvaziş görsə bizdən heç pis olmaz."
Nədir səndə Nizami bu, nə üzdür?
Nədir şahla kobudluq, bu, nə sözdür?
O bir şahdır ki, fəğfur ilə xaqan,
Öpər torpağını hər dəm uzaqdan.
Nə üzr istərsən, ey bir parça torpaq,
Bu qorxunc vadidə olmaz dil açmaq.
Budur üzrüm ki, adil hökmdardır,
Üzündə haqqa məxsus şölə vardır,
Kim orda yüksək olsa, alçalar da!
Əgər kim düşgün olsa, sərt olar da.
Dəmir yandı odur şimşək çaxanda.
O yandırdı qarıyçün bir şam onda.
Odur dəryada hər dalğa ölümdür,
Gül üçün güllü bağ, bağda ölümdür.
Bizim şahda Süleymandan nişan var,
Ona Ay söz deyir gah, gah balıqlar.
Özün bax, külçələr yandıqca zərgər
Tapır gah torpaq ordan, gah da ki zər.
Sudan, rəngdən büsat qurduqca aləm,
Fələk dövr eyləyib, durduqca aləm,
Müzəffər şahə ver, yarəb, cahanı,
Cahandır şahə yar eylə səmanı.
Xeyir ver gəncliyindən, taleyindən,
Qoy ömrü artıq olsun hər şeyindən.
Qoy ondan olmasın gen bəxt, dövlət,
Qoy onsuz olmasın tacda bu şövkət.
Onunla aləmi bolluq qoy alsın,
Onun çətriylə səmalarca ucalsın.

## ATABƏY ƏBU CƏFƏR MƏHƏMMƏDİN MƏDHİ

Uğurlu taleyim vardı, xoş iqbal,
Ucaltdım göylərə mən şeiri dərhal.
Dua üçün yapışdım tez qələmdən,
O şahın adına vurdum rəqəm mən.
Üfüqlər şahıdır, hər yerdə yüksək,
O, həm cüt, həm də təkdir qaşla baş tək.





O dövrün hakimi Əzəm Atabəy,
Cahandan zülmü sildi həm Atabəy.
Səxa ilə Əbu Cəfər Məhəmməd
Xorasan fəth edər Mahmud nisbət.
Günəş tək nuru ilə dolmuş aləm,
Yanar düşmən yaxın düşsə haman dəm.
Avamı, xası Gün tək eyləyər şad,
O, Şəmsəddin vəd-dünya alıb ad.
Günəş nur paylayır ulduzlar üçün,
Səadət bəxş edir xalqa o, hər gün.
O gün ki, xalqa haqdan gəldi rəhmət,
İki sahib, bax, adlandı Məhəmməd.
Biri oldu axır peyğəmbər ondan,
Biri oldu axır bir rəhbər ondan.
Ərəb bürcündə bir aydır o, daim,
Əcəm mülkündə bir şahdır bu, hakim.
O, dini zülmdən etmişdir azad,
Bu, ədl ilə edib dünyanı abad.
Min əhsən! Gör nə hikmət var bu adda,
İki mimi iki dünyaya sırğa.
Paxıllıqdan iki olmuşdur aləm,
Bu bir mimli, iki mimli o, hər dəm.
Qələm türklərini etməz o, tarac
Verər bir mim kəmər, bir mim verər tac.[25]
O, bir tac bəxş edən şimşəkmi, parlaq?
Ona tac bəxş edən söylərlər ancaq.
Əgər bəxşişə əl qatsa, nə olmaz!
Batar bəxşiş selində Cudi, qalmaz.[26]
Fələklər söyləsə, bir dur amandır!
Bu bir qaim yıxan, qaim asandır.
Utanmışdır səxasından dənizlər,
Xəcalətdən yerin üstə tökür tər.
Qılıncı xas poladdan bir buluddur,
O, yeddi mülki tutmaqda bir oddur.
Cəhət çiyninə altı tağ o saldı,
Göy ondan daxi doqquz sırğa aldı.[27]
Verir dərya kimi dürrü ürəkdən,
Danılmır, bəxş edir gövhər o mədən.
Anasıymış cahan sanki binadan
Bahar tək ədl üçün doğmuş anadan.
Bu aləmdən kənar sirlər, xəbərlər
Onun könlünə qəlbdən yetərlər.
O, hansı elmə sahib olmayıbdır,
Nədən məhrum olub, kam almayıbdır.
Döyüşlərdə cəsurdur sanki aslan.
Bu cür aslan olar, ey tanrı, hardan?!
Nə incitmiş bu şirliklə o, bir kəs,
Nə şirlərdən onunla var edən bəhs.
Onun ox, nizəsi tükdən çəkər tük,
O, gözdə tük görən gözdən tökər tük.
O şimşəkli oxundan, xəncərindən
Buludlar tək dağılmış sübh düşmən.
O şimşəkli qılınc oynarsa hərgah,
Şəfəqlər tək üzər qanlarda bədxah.
O, daş xaçı Rumun zülmət yerində,
Əzib mum tək müzəffər dişlərində.
Əgər Rum ordusu türkdən çox oldu,
Onun hindi qılıncıyla yox oldu.
Atı qaçmaqda yel tək etsə təcil,
Qalar dalda fələklər yeddi mənzil.
Ona dost olsa da dünyada camış,
Bu yer nadan öküz tək altda qalmış.
Papağı çərxə çatmış, başı ayda,
Min əhsən! Şah gərək olsun bu qayda!
Xeyir fikriylə tutmuşdur cahanı,
Budur haq kölgəsi, ədlin də kanı!
Qara, ya ağ cahanda hər nə vardır,
Xudadan sonra şaha səcdəkardır.
Zireh geymiş igidlər coşğun ümman,
Yağır ox, nizələr düşmən başından.
Dəmir dımaqlı dağlar da çatıb qaş.
Onun bədxahına daim atır daş.
O düşməndə boğaz bir zəngə oxşar,
Çəkir maqnit kimi harda dəmir var.
O, düşməndən deyil qafil, ayıqdır,
Budur bax şahlığın şərti, sayıqdır.
Atabəy Eldəniz şahdır, cahangir,
O vurdu yeddi mülkə dörd təkbir.
İki dünyaya qurban verdi bir can.
Canı sağdırsa, ölmüşdür o, hardan?!
Bu can ilə yaşar ancaq cahan da,
Cahanın canıdır, şəksiz, cahanda.
Onun tək görməyib bir kəs bu aləm,
Başından olmasın heç bircə tük kəm.
Deyin, dünyaya kim gəlmiş bu bəxtlə?!
Həbəşdən Çinə kim almış bu bəxtlə?!
İraqda badə süzmüşdür o, cama,
Düşübdür heybəti Rum ilə Şama.
Onun ovlağı Abxaz ilə Dərbənd,
Döyüş meydanı Xarəzmü Səmərqənd.
Bu ayın getməsin bu nur üzündən.
Bir an gen düşməsin bu tac özündən!
Nəyi etməzsə də arzu cahandar,
Əgər ud olsa da, yandırsın odlar.
Onu incitsə hər kəs bu həyatda,
O, xəznə olsa da, qalsın yer altda.

## YERÖPMƏ XİTABI

Bu şahlıq taxtının şahına əhsən!
Ona şahlıq verilmişdir fələkdən.
Xilafət arxası, mülkün dayağı,
Qılıncından gəlir yoxluq sorağı.
İkinci bir Firidun, həm də Cəmşid,
Dedim yanlış Firidun nə, nə Cəmşid![28]
Firidun süd əmən bir tifl inəkdən,
Sən aslansan, ötüb bəxtin fələkdən.[29]
Boğubdur Cəmşidi Zöhhak ilanı,

Sənə göy əjdəri vermiş bu canı.[30]
Əgər onlarda vardı taxt ilə tac,
Səninlə təxtü tac pay aldı möhtac.
İgidlər bir nişan istər şahından,
Sən isə hökmran, həm pəhlivansan.
Süleymanda üzük var, səndə var din,
Var İskəndərdə ayna, səndə ayin.
Nə gördünsə zamandan, görməz əsla,
Nə İskəndər, nə Cəmşid ayna, camda.[31]
Cavanlıq mülkü səndən xürrəm oldu,
Bünövrə bu həyata möhkəm oldu.
Dəmir xəncərlə tutdun aləmi sən,
Qızıl camla əvəz etdin Cəmi sən.
Dəmirlə tapmadın dövlət, xəzinə,
O sərf olsun sənin eyş-işrətinə.
Bu dünya fanidir, sən də bilirsən,
Qalan baqi nədir, sən də bilirsən.
Beş-üç kəlmə deyərdim məsləhətlə,
İzin versəydi şahım mərhəmətlə.
Bulud beynimdə yox ayrı su, ey şah!
Verərdim, olsa idi can da hərgah.
Mənəm yol qasidi burda əzəldən,
O şahın zəng çalan Harutuyam mən.[32]
Birinci quş kimi qondum bu bağa,
Sən istər bülbül adlandır, ya qarğa.
Nə müddətdir deyirdim böylə hər gün:
Düzəldim bir hədiyyə şahım üçün.
Nə var çipal, fəğfur misli töhfəm,
Gələm, təzim edən gendənsə bir dəm.
Bu fikrin məhsulu sehri, xəyalı
Səpim qoy qarşına altun misalı.
Qarışqanı kəsər kim, harda qurban?
Çəyirtkə töhfəsi almaz Süleyman.[33]
Günü göylərdə zərrəylə tutar kim?
Və ya tərlanı sərçəylə tutar kim?
Bu şahlıqla gileylənsəm, nə xeyri?
Yoxumdur bir tüküm də bundan ayrı.
Budur dərdim ki, öz qəlbim kimi mən,
Yanında olmuram, ey şah, hərdən.
Mənim qoy bəlli olsun şaha halım,
Duadan başqa yox fikrim, xəyalım.
Yaşar xəlvətdə bu ikdiş Nizami,
Yarı baldır, yarı sirkə kəlamı.
Şirin bir çeşmədir ilhamı, çağlar,
Yükü çiynində zöhd ilə o, bağlar.
O, ağzı zöhd ilə boş bir büsatdır,
Dilimsə xurmadır, abi-həyatdır.
İy aldım, mişkə döndüm təkliyimdən,
Uyuşdum təkliyə simurğ tək mən.[34]
Gül olmaz mən tikandan məclis üçün,
İşim ancaq duadır şaha hər gün.
Gecikdim ta deyəm bir bəndənəm mən,
Geciksəm də gələn şirtək mənəm, mən!
Nə yaxşı söyləyib ustad, min əhsən!

Ki, "gec gəl, amma düz gəl, ey cavan sən".[35]
Nə bir dəm şaha layiq xidmətim var,
Səhərlər səcdəyə tək qüdrətim var.
Qürur beynimdə – tordan qorxuram mən,
Tamah qəlbimdə – dardan qorxuram mən.
Tamah, nəfs üstə durram, xirqə sallam,
Qürurun paltarını dartıb allam.
Mən eşq ilə durub tək qallam onda,
Tək olsam, büsbütün dinc ollam onda,
Qoyardım baş üzəngin üstünə mən,
Həm ordan qaldırardım baş yenə mən.
Əgər qovsan, uzaqdan yer öpərdim
Nəvaziş eyləsən, onda nə dərdim
Əgər lazımsa, Ay tək bir gülərdim,
Yanıb ataş böcək tək nur çilərdim.
Yaxın qoysan kimi tale kimi sən,
Onu ya bir əmir, ya şah edərsən.
Əgər baxsan kimə sübhün şamı tək,
Çəkərsən, qalmaz onda zülmət örpək.
Günəş tək hansı bir yurda gedərsən,
Səpərsən torpağa çox simü zər sən.
Qızıl səpmək peşən qoy daim olsun!
Qılıncın canın üçün tilsim olsun!
Sənin hökmünlə dövr etsin qoy aləm!
Bu yerdən olmasın toz-torpağın kəm!
Bu şahlıq tacı nur saçsın adınla,
Qoy arxan möhkəm olsun övladınla!
Saçarkən mişk yol getsən hayanda,
İşıq saç ayla gün tək asimanda,
Hara üz tutmalı olsan qədərlə,
Qayıt tale kimi hər dəm zəfərlə.
Vücudun aləmə olsun müzəffər,
Yağı məğlub ola, ordun müzəffər!

## SƏADƏTLİ PADŞAH QIZIL ARSLANIN MƏDHİ

Tələs, ey sübh əsən meh, gəldi fürsət,
Buyur bir sən də göstər bir fəzilət.
Yer öp get məclisində padşahın,
Ucaltmış göylərə şah bargahın.
Günəşdir yeddi iqlimə o, şöhrət,
Müzəffərdir onunla dinlə dövlət.
O, Məğrib şahıdır, Şərqin dayağı,
Ötüb Aydan Qızıl şahın papağı.
O, Mehdi tək tutub Məğribdə məskən,
Yatağı keçdi Məşriq sərhədindən.
Möhür vursa mum üstündə o sərvər,
O, Rumdan cizyə, Çindən vergi istər.
Sulu, gülrəng qılıncı çəksə birdən,
Axar Rus nəhri Zəngin çeşməsindən.
Əgər meyl eyləsə tək bir zəfərlə,
Yuyar Hinddən qara rəngi hünərlə.
O zülmü məhv edəndən qorxaraq bərk





Doğuldu, öldü fitnə ildırım tək.
Buludlar tək saçar bəxşiş o, hər dəm,
Qılıncından işıqlandı bu aləm.
Ötə olmuş buludlardan səxada,
Bulud nəymiş? Verər üç-beşcə damla.
Bağışlar əlləri yüz xəznə gövhər,
Gərəkdir əsməsin bəxşişdə əllər.
Onun taxtı günəşdir, nurlu, parlaq!
Ötübdür şöhrəti aydan da ancaq.
Bu yer yeddi olarsa, hətta yetmiş,
Onun torpağı yoxsa, bada getmiş.
Ona göylər əgər olmazsa bir qul,
Atarlar təzcə ordan, yəni məhv ol.
Göyə qaldırsa da düşmən əgər baş,
Öpər torpağını, qul tək əyər baş.
Axar, kükrər, coşar düzlərdə hər çay,
Yetər dəryaya, salmaz bir haray, hay.
Əgər yüz dağ da bağlarsa biləklər,
Olar hardan qızılla daş bərabər.
O atlas ki, ona bəxş etdi dövran,
Kəmərlikdir düşən dörd ruknə ondan.
Ona xələt biçərkən bəxt hər gün,
Papaqlıqdır çatan ulduzlar üçün.
Qılıncından qopar odlar həmişə,
O odlar düşməni odlar həmişə.
Dəmirindən qaçar düşmən o div tək.
Dəyərsə hər kəsə, eylər canı tərk.
Qılıncıyla boyunlar kəsdi hər dəm,
Tutar öz boynunu düşmən, çəkər qəm.
Kömür düşmənlər ahından olur ud,
Olur Mərrix Zənəbdə dəxi məsud.[36]
Ona üz tutsa bir istəklə insan,
Açıqdır qapısı sanki bir ümman.
Xəzərli yoxsul olsun, Rumlu varlı,
Kərəm dəryası qoymaz intizarlı.
Göbəkdən mişk saçdı fikri hər dəm,
Yesə sünbül verər mişk ahular həm.
Onun mehriylə kinində ara az,
Başıyla ərş arası tükcə olmaz.
Kamalından Ütarid yığdı sünbül,
Bu üzdən qəsri də adlandı Sünbül.
Onun dərgahına yetsə qarışqa,
Süleyman növbə gözlər qarşısında.
Yolundan qalxsa bir milçək də, əlbət,
Olar qəsrində Nəmrud başı zlynət.
Qılınc çalsa əgər dəryaya birdən,
Öküz söylər: "Nə cürsən, ey balıq, sən?"
Nalından bu hilal ölçü götürsə,
Edər darvazaya çərxi o, həlqə.
Onun könlü olub sarvanı qeybin,
Bilik vardırsa gücdə, gəzmə eybin.
Həyatı var Məsih ilə bərabər,
Səbuhu həşrəcən vardır sərasər.
Qılıncı qoymadı bir su, nə bir rəng

O Nildə, Dəclədə bir nilufər tək.
Əgər məclisdə qalmaz mey və saqi,
Qalan qoy qalmasın, qalsın o, baqi!
Belə əhd eyləmişdirsə bu dövran
Bu Mehdiylə sən ondan qurtararsan.
Külək tufanı qorxuncdur, bu doğru
Süleyman var belə burda nə qorxu!?[41]
Əgər Zöhhak ilanı sancsa neştər,
Firidun dəstəsində çəkmə qəmlər.
Həm ulduzlar qəranla tuş gələrkən,
Zaman xalqı sitəm gördü bu işdən.
O xəsf ilə qərandan biz nə qorxaq?!
Rəhimdir şah, adildir o ancaq!
Bu ədl ilə qərandan çəkmə qəm sən,
Olar bir yel, o fal olmuşsa yeldən.
Bu aləm qəsri yanında kiçik tağ,
Şüşə bir cam bu tağda göylər ancaq.
Necə qalxar ora bir toz bizim tək?!
Bulud üzdən tökər su ərşə yetcək.
O qəsrə yetsən, ey yel, düşsə fürsət,
Bu xacətaşını, lütf eylə yad et.
Ona et səcdə sanki şah qulamı,
Xəbər ver ki, belə söylər Nizami.
"Uzaq düşdümsə xidmətdən bir az mən,
Bir an da qalmadım şükr etməyimdən...
İşarət gəldi şahın dərgahından,
"İşə, ey bəndə, başla" - gəldi fərman.
Ağıl duydu qürurlar heybətindən
Ki, bir töhfə yarat qeybi çalış sən.
Mən etdim bəndəlik burda canımla,
O danlağa cavab yazdım qanımla.
Yazıldı ta ki, qurtardı vərəqlər,
Üfüqlər şahının oldu o dəftər.
Bilirdim bu ikinci Cəmşid amma,
Ömür sürsün görüm durduqca dünya!
Bu bağda görsə bir gül də o ancaq,
Üfüqlər şahı adıyla vurar dağ
Məni etdi bu yolda bəxtim agah,
Dedim qoy razı qalsın bəndədən şah.
Eşitdim dövlət əhli şəxs varmış,
O, Yusif üzlü bir dildara yarmış.
O dildara elə aşiqdi candan,
Təmamən iş-gücü çıxmış yadından,
Elə yer tutdu qəlbində o dildar,
Canı canıyla bir olmuşdu aşkar.
Ona nurdan əgər versən də yüz bağ,
Onu bir salxıma saymazdı ancaq.
Əgər bir gül verən olsaydı yara,
Sevincindən dönərdi ilk bahara.
O üzdən ki, sevirdi yarı candan,
Edərdi yar üçün hər şey o insan.
Cahanın məqsədi şahın da, bil, həm
Beləydi qardaşıyla kamı hər dəm.
Ziyanlardan uzaq olsun bu dövlət,

Nə bir toz görsün aləmdə bu şərbət.
Camalından cahan nur ilə dolsun!
Gecə merac, günü bir novruz olsun!
O canan oynadır ta zülfi-mişkin,
O, Hindistan düzəldir gah, gah Çin,
Ola Çin türkləri qarşında bəndən,
Nə alnında çin olsun çinilərdən![44]
Əsir olsun sənə kim olsa bədxah,
Yeri olsun ipək, dost olsa hərgah!
İtaət göstərən içsin meyi şad!
Yağı olsa, ola tezcə o bərbad.
Ola daimi sakin cismə canı!
O dərgahı həyatın bir məkanı.
Nə mənə varsa bu töhfəmdə gerçək,
Cavan canına olsun qoy mübarək!

## KİTABIN TƏRTİBİ VƏ EŞQ HAQQINDA BİR NEÇƏ SÖZ

Məni can hatifi ta gördü həmdəm,
Dedi himmət səmasından haman dəm.
"Tələs, durma, Nizami, gecdir artıq.
Fələklər bivəfa, fani bu varlıq.
Şirin bir çeşmədən tər bir bahar qur.
Sözə geydir təzə paltar, bəzək vur.
Bu mənzildə sazı himmətlə dindir,
Qoy ötsün pərdələr, dövran sənindir.
Yola vaxtında çıx, pusqu qurarlar,
Əgər bivaxt dinsən baş vurarlar.
Açılsın qoy dilin gül tək beş-üç gün,
Olubdur susən ancaq lal bununçün.
Poladlandı sözün zər sikkəsi tək,
Bu sikkəylə dirəmdən sikkəni çək.
Dəmirçi ol, düzəltsən bir qılınc sən,
Fəqət sonra cilalandır gəl üstdən.
Düşüncəylə deyilməzsə əyər söz,
Demək, ya yazmağa hardan dəyər söz!?
Sözü nəzm ilə söyləsən sən asan,
Gərək dursun fəqət nəzm üstdə insan.
Sözün çoxsa, azalt, qoyma özün bir.
Birin yüz olmasın, olsun yüzün bir.
Əgər bir dəm aşıb həddən ötər su,
Doyuzdurmaz, axırda qərq edər su.
Bədəndə olsa həddən çox əgər qan,
Təbib neştər çəkib ondan tökər qan.
Çalış az söylə ki, asan tutarlar,
O çox sözlərdə çox nöqsan tutarlar.
Danışma çox, əgər saysan da doğru,
Böyük nöqsan, qəbahətdir, inan bu.
Canın dərmanıdır söz, həm də candır,
Odur can tək əzizdir, mehribandır.
Bu insanlar nə cür qafil yatırlar,
Çörək tapmaqdan ötrü can satırlar.
Sözün qəvvası şairdir, söz inci.

Xas inci tez tapılmaz, sən gəz, inci.
Dürü deşməkdən ustadlar qaçarlar,
Bilirlər çünki yüksək qiyməti var.
Görürsən, dürr deşərkən usta həkkak,
Verir şagirdə, dürr olsa xətərnak.
Sən istər lap ayıq, istər xumar ol,
Elə ömr et, hücumlardan kənar ol.
Durur minlərcə qonşun, əyni çılpaq
Əl açmışlar sənə əfğanla, bir bax.
Keçirmə ömrü qəflətdə hədər sən,
Özündən bilmə qafil bir nəfər sən".
Eşitdim hatif etdikcə nəsihət,
Yerim hatif tək ancaq oldu xəlvət.
O xəlvət ki, ürək dəryadır orda,
Gözü hər çeşmənin ordadır, orda.
İşim əfsanəyə tək ziynət oldu,
Dönüb ataşkədə bir cənnət oldu.
Bu bir bütxanədir, nəqqaş mənəm, mən.
Naxış vurdum ona ancaq bəzəkdən.
Tutaq, abi-həyatdır söz cahanda,
O, cayizdir fəqət mümkün olanda.
Əgər mümkünsə düz, doğru danışmaq,
Nə lazımdır yalanlardan yapışmaq?
Sözü hörmətsiz etmişdir yalanlar,
Əzizləndi sözü doğru olanlar.
Həmişə düz danışdı sübh əzəldən,
Cahan paltar geyindirdi qızıldan.
Ucaltdı düzlük ilə sərv bayraq,
Xəzandan görmədi qarət olunmaq.
Mənə "Sirlər xəzinəm" oldu dövlət,
Nədir sevda yolunda bəs bu zəhmət?
Bu gün yoxdur cahanda bircə insan,
"Həvəsnamə" əlindən qurtara can.
Həvəsdən, sevgidən aləm yaratdım,
Qəmə düşmüşlərə həmdəm yaratdım.
Həvəsdən vurmuşam əlvan naxışlar,
O, ağlın könlünə sevda bağışlar.
Əl atdım bir budaqdan meyvə dərdim,
Mən onda xurmadan qeyri nə gördüm.
Deyil gizli bu "Xosrov - Şirin", əlbət,
Fəqət yoxdur bu cür şirin hekayət.
Könüllər həmdəmi olmuş bu dastan,
Gəlin tək pərdədə qalmışdı pünhan.
Tanınmırdı, bu dilbər kölgədəydi,
Bir əlyazması ancaq Bərdədəydi.
Qədim tarixlərindən, bax, o mülkün
Bu dastanla tanışlıq oldu mümkün.
O yerdə yaşlılar çox etdi söhbət,
Girişdim bu işə könlümdə rəğbət.
Ağıl sevdi görüb düzlük sözündə,
Həqiqətdir o aqillər gözündə.
Deyil gizli bu işlər aşikardır,
Bax onlardan çox işlər yadigardır.
Qoyubdur Bisütunda şəkli Şəbdiz,





Qalıbdır qəsri, yox olmuşsa Pərviz.
O miskin Fərhadın ahı, fəğanı,
Süd arxı, Qəsri-Şirinin nişanı.
Odur Şəhrud axır orda nə vaxtdı,
O yerdə Xosrovun ovlağı, taxtı.
Haman Barbəd, on altı növ ahıyla,
Haman Şəhrudda şah aramgahıyla.
Deyərkən o həkim eşqin sözünü,
Atıb eşqin, gözəl, şirin sözünü.
Keçirdi altmış ömrün payından,
Oxu düşmüşdü həm gənclik yayından.
Ömür keçmişdi, o, altmış yaşında,
Bu eşqin söhbəti yoxdu başında.
Kənar durdum o aqil nə deyibdir,
Deyilmiş sözləri təkrar eyibdir.
O sözdən eşqlə bağlı qalanlar
Mənim oldu, bilər agah olanlar.
Məhəbbətdən kənar şey yox yanımda,
Sağ olduqca qoy eşq olsun canımda.
Göyün mehrabıdır eşq adlı nemət!
Yer eşqin torpağından tapdı qiymət.
Sən eşqə bəndə ol, məslək budur, bu.
Bütün hal əhlinə istək budur, bu.
Bu dünya eşqdir, qeyri fırıldaq,
Məhəbbətdən kənar hər şey oyuncaq.
Əgər eşq olmasaydı aləmə can,
Diri bir şəxs tapmazdı bu dövran.
Kim eşqə yad isə artıq solubdur,
Onun yüz canı da olsa, ölübdür.
Əgər eşq olmasa bir dən cücərməz,
Adam eşqin evində zülm görməz.
Cahanda eşq odundan xoş nə od var,
Nə onsuz gül gülər, ağlar buludlar.
Oda səcdə edən ataşpərəstlər,
Gün eşqiylə odu bir böylə istər.
Məhəbbət hiylə bilməz, əsla qorxmaz,
Əgər tutsa daha əldən buraxmaz.
Sevinmə it kimi yatmaq, yeməklə,
Pişik də olsa sev canla, ürəklə.
Pişik də olsa, eşqindən şad olsan,
Gözəldir şir olub eşqə yad olsan.
Daşın da könlünə düşsə məhəbbət,
O da bir cövhər ilə bağlar ülfət.
Bu eşqə düşməsə maqnit hərgah,
Yapışmazdı dəmir gördükdə gah-gah.
Əgər eşq olmasaydı kəhrübada,
Saman axtarmaz idi o arada.
Nə çoxdur daş da, gövhər də cahanda,
Dəmir də çəkmir onlar, bir saman da.
Bu gövhərlər ki, var düşsən izinə,
Hərə meyl eyləyir öz mərkəzinə.
Əgər yol tapmasa ataş havaya
Yanıb qalxar yer altından səmaya
Düşünmə qəlb olubdur canə sultan,

Sən eşqə üz çevir, canə odur can.
Su hərgah qalsa da xeyli havada,
Enər axır yerə, durmaz orada.
Cahanda cəzbədən qeyri nə iş var?
Həkimlər bu işə eşq ad qoyublar.
Sözü gah qiblədir, gah da olur lat,
Yeri gah Kəbədir, gah da xarabat.
Fikirləş əql üzündən sən bir anlıq,
Durubdur eşq üstdə, gör ki, varlıq.
Bu göylər eşqdən olsaydı azad,
Bu yer hardan olardı böylə abad.
Bədəndə eşqsiz can görmədim mən,
Can aldım, qəlbi müftə vermədim mən.
Dumanla doldurub dünya üzünü,
Yatırtdım eşq ilə ağlın gözünü.
Bu dastana girişdim eşq ilə mən.
Cahan doldu tamam eşqin səsindən.
Xəsislər görməsin bəhrə qoy ondan,
Bilən, yaxşı yazan alsın pay ondan.
Bu məndən yaxşı gəldi, yazsa kim pis,
Suçundan yazmış o, muzdumla, şəksiz.
Qapım bağlı qalan dəmlər, zamanlar,
Müsahibim olurdu asimanlar.
Mələklər bürcünə bəzən ucaldım,
Gah ulduzlar üzündən pərdə aldım.
Var idi bircə dostum, nurlu, dindar,
Ürəkdən-candan olmuşdu vəfadar.
O, arxaydı mənə sanki bir aslan,
Qılıncdı düşmən üçün, dosta qalxan.
Biliklə aləmi salmış o, bəndə.
Biliklə şad idi daim o bəndə.
O gəldi bir gecə rəngi qızıl tək,
Qapımda halqəni döydü yaman bərk.
Yetişdi üz-gözündə hirs, hiddət,
Töküldü üstümə tənə, məzəmmət.
Dedi: "Mənə elində hökmransan,
Şeir mülkündə şahsan, kamransan.
Keçirdin əlli çillə, qırx yaşında.
Bu boş sözlər, de, hardandır başında.
Oruc tutdun, canında taqətin var,
Nədir murdar sümüklə açmaq iftar?
Səni arzu tora salmadı əsla,
Bu dünyada gözün olmadı əsla.
Bu xəncər tək qələm ki, səndə vardır,
Neçə çöz xəznəsi üçün açardır.
Qızıl üstündə bu pərdə nədəndir?
Gümüş qatsan zərə, sanma gedəndir.
Yetər, torpaqda qalma xəznələr tək,
Bu gün şairlərin ustadısan, tək.
Yapış tovhidə, bir dünya adın var,
Diriltmə muğlar ayinini, zinhar.
Səni "Zənd" oxuyanlar saysa da sağ,
Cahan şairləri ölmüş sayacaq".
Zəhər dilli qonaq haldan çıxanda,

Mən üz turşutmadım əsla bir an da.
O dilbər Şirinin əfsanəsindən
Oxudum bir neçə mətləb ona mən.
O ziynət vurduğum atlas açıldı,
İpəkdən könlünə nurlar saçıldı.
O "Ərjəng" naxşını gördükdə mehman,
Daş üstündə naxış tək qaldı heyran.
Dedim: "Susmaqda qəsdin nola böylə?
Dilin yoxdurmu, bir əhsənsə söylə".
Yüz üzr ilə dedi: "Ey mən qulamın,
Adın təsbihi olsun qoy duamın.
"Şirin" dastanını ta dinlədim mən,
Şirinlikdən dilim lal oldu, əhsən.
Bu cür sehri fəqət sən yad edərsən,
Büt üçün Kəbəni abad edərsən.
Onunçün ağzımı etdin ki, şirin,
Dilim ağzımda şəkkər dadı versin.
Əgər mən dil yedimsə heyrətimdən,
Şəkər saç, ey şəkər dil, hər zaman sən.
Bu yol ki, başladın dönmə, davam et,
Binan üçün özül qoydun, tamam et.
De gəlsin, qoy sənə yar olsun iqbal,
Xeyir gör zəhmətindən, çoxlu kam al.
Bu qiymətli İraq nəqdi əlində,
Əsir olmaq nədir divlər əlində?
Atı sür, dustaq olma, Gəncədən qaç,
Sən aslan pəncəlisən, pəncəni aç.
Çıxar tez köhləni meydan sənindir,
Özün, bəxtin cavan, dövran sənindir.
Yox indi bir şirin sözlü sənətkar,
Sənə bənzər tapılmaz, həm əgər var.
Hümasan sən, tez ol bir kölgə sal bir,
Bu mülkü bir neçə bayquşdan al bir.
Bu iki-üç çıraq pərvanələrdir,
Evində ancaq o, sahib-hünərdir.
İki mənzil uzaqlaşsa yerindən,
Gedər rövnəq, parıltı hər birindən.
Günəşsən, səndə bir dünya işıq var,
Saçırsan Şərqə, həm Qərbə işıqlar,
Cəsarətlə qədəm bassan bu yolda,
Qaçar bir küncə hər kəs bir xəyalda.
Hünər dünyası tapsın bir hasar qoy,
Şeir iqlimi görsün bir çapar qoy.
Dedim hiddətlə: "Sus, ey bəxtəvər kəs.
Nə sən qəssab, nə mən oldum qoyun, kəs.
Yetər, sönməz çırağım, üfləmə çox
Yəqin bil, Musada İsa dəmi yox.[45]
Məni yandırma yersiz sözlə hərdən,
Özüm yannam çıraq tək hər zaman mən.
Elə bir şüşəyəm ki, daşla vursan,
Adımdan ar edər aləm bir umman.
Sərərsən, zərlə örtülmüş misəm mən,
Gülablanmış meyitdən də pisəm mən.
Özün bir bax, boş istəklər yemimdir,
Mənim torbamdakı ancaq qəmimdir.
Fələk bəxtimdə şirlik göstəribdir,
Nə fayda, amma yun şirlik veribdir.[46]
Nə o şirəm ki düşmənlə edim cəng,
Bu bəsdir indi mən mənlə edim cəng.
Sevincim, şadlığım vardı, o getdi,
Qürurla gənclik oynardı, o getdi.
Uşaqlıq söhbəti, xudbin xəyallar,
Burax, məstlik idi, şirin xəyallar.
İyirmi, ya otuzdan ötsə ömrün,
Yaraşmaz bixəbər tək itsə ömrün.
Fəqət qırxa qədər şadlıq duyarsan,
Yetincə qırxa aləmdən doyarsan.
Bədən ta əlli oldu sağlam qalmaz.
Gözün görməz, dizində qüvvə olmaz.
Bədən altmışda istər dinclik, aram,
Düşər yetmişdə əldən tutduğun cam.
Yaşın səksən, ya da doxsan olanda,
Əzablardan bezər könlün cahanda.
Əgər burdan yüzə doğru aşarsan,
Ölərsən, zahirən ancaq yaşarsan.
Ömür sürsən yüz il, ya bircə gün sən,
Yenə bir gün bu mənzildən köçərsən.
Budur ən yaxşısı, gəl könlü şad et.
Sevinclərlə yaşa, allahı yad et.
Sevinc vaxtı görürsən nurlu bir şəm,
Dodaqlarda gülüş, gözdə gəzir nəm.
O şamlar sübh qaldı ağlamaqdan,
O şimşəkli gülüş düşdü dodaqdan.
Kədərsiz xoş gülüş ummaq olarmı?
Bu gülməkdən ağız yummaq olarmı?
Eşit məndən: bir iş görsən əgər sən,
Ki, bir qəm görməyib gülmək dilərsən.
İşin yaxşı gəlib könlün güləndə,
Sevindir malla bir bədbəxti sən də.
Günəş, bir bax, dolandıqca səmanı,
Gülür ki, güldürə daim cahanı."

## "XOSROV ŞİRİN" DASTANININ BAŞLANĞICI

Qədim dastanları etdikcə hər yad,
Bu cür söylərdi dünya görmüş ustad.
O Kəsranın ayı tapdıqda nöqsan,
Oturdu taxta tez Hörmüz bu yandan.
Cahan Hörmüzlə gördü ədl ilə dad,
Ədalətlə cahanı etdi abad.
Haman Kəsra qoyan qanun yerində,
Yerindəydi o comərdlik də, din də.
O, nəsli itməməkçün kəsdi qurban,
Bir övlad istədi qadir xudadan.
Nəzir, qurban verib umdu o, imdad,
Bir övlad verdi tanrı, bəh, nə övlad!
O, bir dürr idi, şah dəryası vermiş,





Çırağ idi, o nur dünyası vermiş!
Mübarək tale idi, vardı taxtı,
Ona taxt ilə tac vermişdi baxtı.
Ata şahlıq nişanı gördü onda,
Ona ad verdi Xosrov Pərviz onda.
O üzdən Pərviz adlandı bu oğlan,
Qucaqlardı əgər görsə bir insan.
Üzü gün tək kədər, qəm məhv edərdi,
Şirin gülməkləri xoş bir səhərdi.
O mişki dayə saxlardı ipəkdə,
O tər dürrün yeri pambıq bələkdə.
Südə meyl etdiyindən onda şəkkər,
Şəkərlə, südlə bəsləndi o gövhər.
Gələr şah yanına hər dəm o gün tək,
Gəzərdi əllər üstdə dəstə gül tək.
Beşikdən keçdi iş, meydana düşdü,
Onun eşqi cahanla, cana düşdü.
Çatıb beş yaşına diqqət yetirdi,
Qaradan, ağdan ibrətlər götürdü.
Hər il bəxti ona yaş artıran dəm,
Yeni bir təlim öyrətdi ağıl həm.
Gəlib ta yeddi yaş üstə qol açdı,
Onun zülfü gül üstə mişk saçdı.
O, məşhur oldu hüsn ilə, camalda,
Misirli Yusif idi o, bu halda.
Dedi boş keçməsin vaxtı o bir gün
Müəllim təyin etdi oğlu üçün.
Bu söhbətdən bir ay keçmişdi ancaq,
Hünər göstərdi Xosrov xeyli parlaq.
O, məna söyləməkdə qadir oldu,
Dəniz tək inci saçdı, mahir oldu.
Sular tək kim rəvan söz söyləyərdi,
Onunla ehtiyatla söz deyərdi.
O, incə görməyi tükdən keçərdi,
Dinəndə tükdən incə söz seçərdi.
O, doqquzda çəkindi oynamaqdan,
Danışdı əjdaha, şir ovlamaqdan.
Zaman gəldi, o ta on yaşa girdi,
Otuz yaşlılar həm bada verdi.
Vuruşdu şiri-nərlə, əjdər ilə,
Sütun doğrar qılıncla, xəncər ilə.
Düyün açdı ox atmaqla o tükdən,
Alırdı halqa nizəylə zirehdən.
Edib niyyət kaman dartarsa bir dəm,
Təbilcik Zöhrə təblindən asar həm.
Alıb on yayı birdən dartan insan
Qalar aciz onun tək bir yayından.
Kəmənd atsa, o on düşmən nə əngəl,
Oxu doqquz qılıncdan da mükəmməl.
Yamanlıq Ağ div olsun lap önündə,
Qalar yeldən əsən yarpaq günündə.[47]
Görüb daş, ildırım tək nizə çaldı,
Ucu bax nizənin daşlarda qaldı.
Keçib dövran, yaş on dördə çatanda,
Qanadlandı bilik şahbazı onda.
O, gizli sirlərə diqqət yetirdi,
Yamandan, yaxşıdan ibrət götürdü.
Büzürgümmid adlı vardı alim.
Ağıl bəslər ona ümmid daim.
Yeri başdan-başa gəzmiş, dolaşmış,
Xəyalı göylərin üstündən aşmış.
O gizlin sirlərindən bu cahanın
Tapıbdır xəznəsini asimanın.
Çağırdı xəlvətə Xosrov onu bərk,
Dil açdı sonra bir hindi qılınctək.
Bilik dəryası o , gəzdi bu, gövhər,
Yapışdı ondan elm üçün bu sərvər.
İşıq, nur tapdı təlimdən ürək, can,
Əcəb hikmətlər öyrəndi çox ondan.
Zühəl pərgarı ilə yer təkində,
Nə var öyrəndi göylər məsləkində.[48]
Az ömründə içi olmuşdu dərya,
O, hər fənni bilirdi kamil, əla.
Keçib qəflətdən o, qəlbi oyatdı,
Haman şahlıq yoluyla addım atdı.
O, gizli sirlərə yol tapdı aşkar,
Nədəndir fırlanır daim bu pərgar
O bildi xidməti üstün cahanda,
Kənar olmazdı xidmətdən bir an da,
Onu istərdi şah artıq cahandan,
Cahan nə, bəlkə çox istərdi candan.
Onun ömrü uzun olsun deyib şah,
Uzun əllər qısaldıldı, ol agah.
Buyurdu: - Carçı car çəksin haman bəs
Desin vay halına, zülm etsə bir kəs!
Bir at bir tarlaya hərgah girsə,
Biri bir qeyri bağdan meyvə dərsə,
Biri naməhrəmə kəc baxsa bir dəm,
Bir evdə zorla əylənsə bir adəm,
Görər mütləq cəza məndən o insan.
Şah and içdi, dedi sınmaz bu peyman.
Ədalətdən geri durmazdı əsla,
Nizam gördükcə, qüvvət tapdı dünya.
Götürdü əl xarab olmaq cahandan,
Cahan qurtardı zülm ilə ziyandan.

## XOSROVUN OVA ÇIXMASI VƏ KƏNDLİNİN EVİNƏ GETMƏSİ

Gözəl bir gündə, qəlbi bir səhər şən
Çölə üz tutdu Xosrov xeyli erkən.
Tamaşa etdi, çox ov vurdu orda,
Uzaqdan bir gözəl kənd gördü orda.
O kəndin dörd yanı gömgöy çəməndi,
Büsat qursun deyə şah atdan endi.
O göylük məclisində al mey içdi,
Sarı rəngli o gül fırlandı, keçdi.
Aşan vaxtı günəş mavi hasardan,

Sarı bir bayraq asmışdı divardan.
Köçən sultan kimi ud yandırırdı.
Tikirdi çətrini, bayraq cırırdı.
Üzrəngiylə vurur, durmur gedirdi,
Qılınc əldə fələklə cəng edirdi.
Bu torpaqda o, aciz qaldı çox bərk,
Su üstə qalxan atdı nilufər tək.
Bir ev tutdu o kənddən şah haman dəm,
Quruldu bir də məclis, yoxdu bir qəm.
Gecə ta sübhəcən içdi mey onlar.
Açıb sübhü yenə içdi hey onlar.
Ötürdü ərğənun, bihuş edirdi,
Qızılgül rəngli meydən nuş edirdi.
Yanında mey dolu hər kuzə xəndan,
O meylə can tapır bir də cahan, can.
Səhər tezdən bir at qəsd eyləmişdi,
Girib bir tarlaya ot-mot yemişdi.
Yenə quri qulamlardan bir oğlan,
Neçə salxım qora dərmişdi bağdan.
Günəş qalxıb yerə nurlar saçarkən,
Gecə qorxub da gündüzdən qaçarkən,
Qara qarğa gedərkən yorta-yorta,
Uzatdı tutiyə zər bir yumurta.[49]
Götürdü əl gecə qalxıb belindən,
Yer əhli hərfi qurtardı əlindən.
Yamanlardan neçə bədgövhər insan
Xəbər çatdırdılar tez şaha punhan, -
Ki, Xosrov gözləmir qanun və qayda
Onun yox qorxusu şahdan, nə fayda?!
"Günahı, bilmirəm nəymiş" - dedi şah.
Dedilər: - Zülmkar olmuş ol agah!
Atı tarlada nə görmüş, yemişdir,
Qulam girmiş, bağı zay eyləmişdir.
Alınmış yoxsulun əldən odası,
Üzüb naməhrəmi çəngin sədası.
Bunu biganə etsəydi, nə övlad,
Edərdi mülkünü şah tezcə bərbad.
Təbib çərtər, alar qan hər damardan,
Əli titrər özü olsa verən qan.
Buyurdu şah, qınından çıxdı xəncər,
Atın dırnaqları doğrandı yeksər.
Qulam bağ sahibinə hədyə oldu,
Şoran torpaq gülab ilə yuyuldu.
O gün Xosrov qalan ev sahibiyçün
Onun taxtı hədiyyə oldu, gördün.
Söküldü telləri çəngin haman dəm,
Qırıldı çənginin dırnaqları həm.
Fikir ver, qeyrə yox, övlada hətta
Cəza vermişlər əvvəllər nə qayda!
Hanı indi o insaf, o ədalət!?
Cəza versinlər övlada bu surət!
Tutub yüz acizi lap töksələr qan,
Keçən kimdir durub bir yonqarından.
Eləydi bu cahan ataşpərəstkən,
Müsəlmanlıq bu isə, bir utan sən!
O, gəbr idi, müsəlmanıq biz amma,
Gəbrlik o, müsəlmanlıq nə onda?!
Nizami, dön geri, sən söylə dastan,
Nəsihətçi quşu sevməz hər insan.

## HÖRMÜZÜN XOSROVU CƏZALANDIRMASI

Baxınca Xosrovu tutdu xəcalət,
Bu işdən fikrə getdi xeyli müddət.
Yəqin etdi görübdür çox xəta iş,
Ona Hörmüz nə etmişsə, düz etmiş.
O döydü başına bir xeyli müddət,
Bu qəmdən olmadı bir dəm o rahət.
Yığıb minnətçi ağsaqqal adamlar,
Aparsınlar o sərvi şaha onlar.
Şəfaət bəlkə yumşalda o şahı,
Keçə, əfv eyləyə bəlkə günahı.
Kəfən geydi, götürdü bir qılınc həm,
Qiyamət gördü birdən sanki aləm.
Gedir öndə qoca üzr istəyənlər,
Bir az dalda əsirlər tək o sərvər.
Gəlib taxtın önündə nalə etdi,
Döşəndi yerlərə bir halə yetdi.
Dedi: - Şahım, məni incitmə, əfv et,
Kiçiklərlə böyüklər tərzi yol get.
Bu Yusif baxma qurd oldu, günahkar,
Yaşı azdır, əgər onda günah var.[50]
Hələ süd qoxuyur ağzım tələsmə,
Durub qan tökməyə şirlər tək əsmə!
Bu bəxti dönmüşə göstər inayət,
Sənə düz baxmağa yox məndə taqət.
Günahım varsa, boynum bu, qılınc bu!
İtaət məndən, al, vur sən bu boynu!
Dözərdim burda mən hər nə qəm olsa,
Çətindir, amma şah narazı qalsa.
Deyib torpaqlara baş qoydu bir də,
O pak gövhər yenə yaş tökdü yerdə.
Bu qayda halı gördükdə adamlar,
Hamı hönkürdü, başlandı bir ah-zar,
O hönkürdü, o ah-zar ərşə yetdi,
O göz yaşları şaha təsir etdi.
Kiçik, həm nazla bəslənmiş bir övlad,
Bu işdə incədən incəydi, naşad.
O övlad ki, ona həm bəxt yardı,
Atasıyçün fəqət bəxt arzulardı.
Sənə neylərsə övladın cahanda,
Görər övladlarından, bil ki, sonda.
Olar, bənd olma, övlad yaxşı, ya pis,
Odur səndən sənə varis və maris.
Görür Hörmüz ki, bu xoş tale insan
Könüllər meyvəsidir, cana dərman.
Görüb oğlunda aqillik və təmkin,





O bildi onda vardır nuru həqqin.
Başından öpdü, həm göstərdi şəfqət,
Onu ordu üçün etdi vəliəhd.
Hüzurdan şad olub Xosrov çıxanda,
Ədalət müjdəsi gəzdi cahanda.
Üzündəydi ədalətdən xəbərlər,
Görürdü onda şah nuru nəzərlər.

## XOSROVUN YUXUDA BABASINI GÖRMƏSİ

Saçarkən zil gecə zülfündən ənbər,
İşıq qeyb oldu zülmətdə sərasər.
O şüşə oynadan qeyb oldu birdən,
Sehirbaz şeş atan çıxdı böyürdən.
Yönəldi Xosrov etsin bir ibadət,
Dua etdi xudaya, xeyli müddət.
Bir uyğu tapdı rahatlıq duyunca,
Dünəndən yatmamışdı heç doyunca.
O gördü şah babanı uyğudaykən,
Dedi: - Ey aləmin nuru günəş, sən
Əgər verdinsə əldən dörd nemət,
Olar mütləq sənə dörd nəsnə qismət.
Biri dərdin qora, daddın acı sən,
Heç üz turşutmadın əsla bu üzdən.
Olar həmdəm sənə bir can alan can,
Onun tək görməmiş bir büt bu dövran.
Atından kəsdilər, getdi ayaqlar,
Bunu dərd etmədin, görsən də dağlar.
Alarsan bir gecə rəng, adı Şəbdiz,
Ona sərsər də çatmaz qaçsa, hərgiz!
Verildi kəndliyə gördükdə taxtın,
Pərişan olmadı bundan da baxtın.
Alarsan taxt ələ şahanə, gerçək,
Olar eynən qızıldan bir ağactək.
Gedərkən çəngi çənginin əlindən,
Buna səbr eylədin, dözdün haman sən.
Verərlər Barbəd tək nadir ustad,
Zəhər şərbət dadar, etsən əgər yad.
Taparsan daş itirdinsə təmiz zər,
O dörd muncuq yerində dörd də gövhər.
Oyandı uyğudan şahzadə birdən,
Dua etdi xuda üçün ürəkdən.
Gecə-gündüz susub dinməz dayandı,
Baba hər nə demişdi, daim andı,
Gecə yatmazdı aqillərlə bir dəm,
Hekayət söylədər, söylərdi o həm.

## ŞAPURUN ŞİRİNİN GÖZƏLLİYİNDƏN DANIŞMASI VƏ XOSROVUN AŞİQ OLMASI

Nədimi vardı şahın xas, Şapur,
Yeri gah Məğrib idi, gah Lahur.
Onun nəqşi vurardı Manidən dəm,
Açardı "İqlidis" rəssam kimi həm.[51]
Qələm çalmaqda od, cəld idi əldən,
Çəkərdi fırçasız rəsmi xəyalən.
Əlində çox lətif bir sehr vardı,
Su üstündə zərif nəqşə salardı.
Edib təzim o, Pərviz qarşısında,
Dedi qəlb oxşayan çox sözlər onda:
"Əgər əmr etsə aləm şahı, həm mən
Deyərdim bir qədər bildiklərimdən."
Buyurdu Xosrov onda: "Ey cavan sən
Soyutma, məclisə od vur sözündən."
O natiq Şapur əyləşdi, dil açdı,
Sözə min rəng verdi, ətr saçdı.
Dedi: "Qoy bəndən olsun daim aləm!
Gözəl keçsin günün illərlə hər dəm.
Səni şad istəməz kim, qəmdə qalsın!
Kim abad istəməz, uçsun, dağılsın.
Camalınla cavanlıq həmdəm olsun!
Murada yetməyin qoy hər dəm olsun!
Dolaşdım çox bu altı tağ çadırda,
Çox işlər gördüm, ey şah, çöl-bayırda.
O dağlar mülkünün bir sahmanında,
O Dərbənd adlı dəryanın yanında,
Qadın bir hökmdar var, şah soyundan,
Çatar hay İsfahana ordusundan.
O iqlimdə olan Arran və Ərmən
Onun hökmündədir gördüm tamam mən.
Gəlir qaydayla hər yandan xəracı,
Onun var hər şeyi, yox taxtı, tacı.
Qala qurmuş uca dağlarda çox-çox,
Nə çoxdur xəznəsi, bir say bilən yox.
Qədərsiz orda gördüm mal-qoyun var,
Balıqdan, quşdan artıqdırlar onlar.
Əri yoxdur, muradı, bəxti vardır,
Keçir şadlıqla ömrü, bəxtiyardır.
Şəmira adlanır hakim o rəna,
Məhinbanu deməkdir bu Şəmira.
Kişilərdən igiddir, həm dilavər,
Böyükdür ki, Məhinbanu demişlər.
Seçir bir ayrı yer hər bir havada,
O, hər fəsli olur ayrı obada,
O, gül fəsli tutar məskən Muğanda,
Yaşıllıqlar gəzər xoş bir məkanda.
Yaşar yay vaxtı Ərmən dağlarında,
Keçər güldən-gülə şadlıqla onda.
Xəzan vaxtı edər Abxazı məskən,
Ov etməklə keçirdər günləri şən.

O, qışda Bərdəyə meyl eyləyər bərk,
Olur qış vaxtı Bərdə isti gerçək.
O, dörd fəsli gəzər bir yerdə çox şən,
Tutar hər fəslə uyğun ayrı məskən.
Keçər şadlıqla dövranı bu qayda,
Ona şən bir oyundur sanki dünya.
Bu zindandan betər dünyada yalnız,
Var ancaq qardaşından töhfə bir qız.
Pəri övladı! Yox! Yox! Nurlu bir ay!
Papaq qoymuş, çəkib üstdən kələğay.
Gecə nurlar saçan aydır o dilbər,
Demə, abi-həyat imiş o gözlər.
Gümüş xurma ağacı onda sima,
İki zənci dərir üstündə xurma."
Dedikcə Şapur o şirin dodaqdan,
Dadırdı ağzı qənd, xurma bayaqdan.
Saçır mirvari dişlər nur hər dəm,
Su almışdır o dişlərdən sədəf həm.
Əqiq idi sulanmış iki şəkkər,
Kəmənd idi burulmuş bir cüt ənbər.
Saçı qıvrımlarından qəlb xəstə,
O zülf ilə çəkib xətti gül üstə.
Saçarkən mişk ilə ənbər saçından,
O yorğun nərgizə od düşdü ondan.
Özüyçün öz gözündən qurdu əfsun,
Yaman gözlər dedi ondan kor olsun.
Ürəklər yandırır sehri ocaqda,
Şəkər var, həm də duz vardır dodaqda.
Dodaqlardan saçar duz gülsə nazla,
Bu duz şirin deyil, şirin o amma.
Qılıncdır üzdə burnu saf gümüşdən,
Tapıb bölmüş bir alma ortadan tən.
Ayından yüz qəsəb tapmışsa nöqsan,
Ayında bir eyib tapmaz bir insan.
Onun şəmində çox pərvanələr var,
Nəzər bir kimsəyə salmaz o dildar.
Səba zülfü, üzündən tapdı ziynət,
Edər qaqumla, qunduzla ticarət.
Qoşub hər qəmzəyə bir naz o dildar,
Çənə alma, turunc idi buxaqlar.
Üzü yol kəsdi ulduz təqvimiyçün,
O, əl silkib dedi: - Sən kimsən Ay, Gün!?
Təzə çıxmış məmə bir cüt gümüş nar,
Dirəmlər yağdırır güldən yanaqlar.
Büküb qəddi önündə boynu ceyran,
Tökür göz yaşları, olmuş o, heyran.
Götürsə öz gözündən ölçü bir dəm,
O bir baxmaqla yüz ahu tutar həm.
O Şirin ahu gözlərlə o dildar
Tutub dovşan tək aslanlar yatırdar.
Cavab verməz o ləli busə üçün,
Açarsa ləli, qorxur dürr tökülsün.
Satanlar həm İrəm bağında reyhan,
O məst nərgizlərə olmazmı heyran?!

Dolubsa min qucaq burda tikandan,
Gülündən dərməmiş bir gül bir insan.
Onu yüz kəs görər əl versə röya,
Gecə görməz günəştək kimsə amma.
O bayram zinəti qaşlar hilaldır,
Görüb can verməmək mütləq mahaldır.
Toxundu Məcnuna möhkəm xəyalı,
Görüb gizləndi Leylinin camalı.
O, hökm ilə kimi istərsə vurmaq,
Əlində on qələm var, yəni barmaq.
Deyə bir söz o, tufanlar qopardar,
Dodaq bir, amma min qənd tək öpüş var.
O zülflər naz ilə qəmzə fıravan,
Dodaq, diş həm olub yaqut və mərcan.
Hünər pak canına məftun ürəkdən,
Yazıb torpağına ənbər: "Qulam mən!"
Üzü nəsrin, qoxurdu zülfü nəsrin,
Dodaqlar dadlı, şirin, adı Şirin.
Dodaq güldükcə, baldır söyləmişlər,
Məhinbanuya varisdir, demişlər.
O yerlərdə olan dilbər gözəllər
Onun fərmanına tabe gəzərlər.
Kubarlardan onun ay surətində
Durur yetmiş nəfər qız xidmətində.
Gəlib hüsn ilə hər kəs cana aram,
Gözəllikdə əcəb dilbər, dilaram.
Tutub əllərdə cam rud ilə ahəng,
Gəzir hər bir yeri onlar da ay tək.
Ay üz bəzən düşür mişk ilə bəndə,
İçirlər badə gah gül xərmənində.
Üzə onlar bir örtük bağlamazlar
Yaman gözdən də görməzlər bir azar.
Gətirmişlər ələ xoş nəğmə bir bağ,
Tamam bağ nar məmə qızlardır ancaq.
Baxırsan, hər biri bir sərv, göyçək,
Süzürlər cüt-cüt onlar qırqovul tək.
Ağızlar dar, kiçikdir, dadda şəkkər,
Ətirlər saçmaz onlar tək bir ənbər.
Gözəllikdə tapılmaz tay cahanda,
Sevincdən qalmaz onlar heç bir an da.
Hünər göstərməyin vaxtı gəlincə,
Nə fillər diş, nə aslan gördü pəncə.
Bu aləm od tutar, bir həmlə etsə,
Tökər gözdən o ulduz qan, ox atsa.
Əgər cənnətdə isə huri məşhur,
O yer cənnətdir, o bütlərsə bir hur.
Məhinbanu ki, hakimdir o yerdə,
Ona olmaz çatan sim ilə zərdə.
Onun var axurunda bağlı bir at,
Külək hardan çatar ardınca, heyhat!
Filosoflar xəyalından uçar bərk,
Yarar tufanları sanki bir ördək.
Günəş səmtə o, at çapsa nə halda,
Qalar düz yeddi mənzil çərx dalda.





Dəmir dırnaqlıdır, çapsa əgər dağ,
Dəniz keçsə – o, bambuq quyruq ancaq.
Zaman gərdiş, xəyal rəftar, bu haqdır,
Gecə agah olur, gündüz oyaqdır.
Gecərəng o ata Şəbdiz qoyub ad,
Ona bayquş tək aşiq o pərizad.
Həmişə bir qızıl zəncir o, saxlar,
Onu daim haman zəncirlə bağlar.
Nə Şəbdiz tək eşitdim bir qara at,
Nə Şirin tək əcəb şirin, pərizad."
Deyib Şapur sözü, birdən dayandı,
Rahatlıq getdi, yatdı, eşq oyandı.
Hamı Şirinə heyran oldu aşkar,
O Şirin sözləri etdi həm iqrar.
Bir ustad ki, ola nəqqaş o Çində,
Həqiqət var nə söylərsə içində.
O sözdən Xosrov oldu bərk heyran,
Nə bir dinclik, nə bir yatmaq o vaxtdan.
Bütün gün çək-çevirdəydi bu halı,
Cücərtməzdi bir ayrı tum xəyalı.
Bu hal ilə keçirdi xeyli müddət,
Quru əfsanə ilə tutdu ülfət.
İş-işdən keçdi axır, gəldi zara,
Ayaq-baş tulladı səbri kənara.
Edib dastan deyənlə guşə xəlvət,
Bu dastandan onunla etdi söhbət.
Dedi: - Ey dərdimə çarə vəfadar,
İş əldən getdi, səndən bir umum var.
Özül qoydun gözəl, etdin könül şad,
Tamam et bu işi, aqilsən, ustad.
Hekayət bitdi, gəl saçma şəkər sən,
Dedin, Xuzistana eylə səfər sən.[52]
Qurub sən bütpərəstlər misli hiylə,
Haman nadir bütü əldə tez eylə.
Onun könlündə gör insaf olarmı?
Bir insanla qovuşmaq meyli varmı?
Götürsə bir möhür mumtək o dilbər,
Ona vur möhrümü, bir sehr göstər.
Əgər qəlbi dəmirdirsə, qayıt sən,
Soyuqdursa dəmir, heç döyməyim mən.

## ŞAPURUN ƏRMƏNƏ GETMƏSİ VƏ ŞİRİNİ İSTƏMƏSİ

Yer öpdü söz bilən Şapur, o ustad,
Dedi: - Daim ola Xosrov gülər, şad.
Ona baxsın xeyir gözlə xeyirxah,
Yaman gözdən iraq olsun o hər vaxt.
Yenə ərz etdi şah üçün dualar,
Dedi: - Ey aləmin sahibi sərdar.
Naxış çəksəm qələmlə mən verib rəng,
Pozar "Ərjəng"i Mani, qalmaz "Ərjəng".
Çəkəm bir nəqşə baş, oynar, dayanmaz,
Qanad versəm quşa, eylər o pərvaz.

Bu üzdən qəlbinə heç qonmasın qəm,
Tapar qəmdən ürəklər dərd hər dəm.
Qoy olsun hər zaman könlün sənin şad!
Yola düşdüm mən, ol sən qəmdən azad!
Bu yolda etmərəm bir ləhzə aram,
Qanad quşdan, ayaq ceyrandan allam.
Gözüm görməz yuxu şad olmasan sən,
Gətirməzsəm o yarı, gəlmərəm mən.
O, odlar tək dəmirdən qursa eyvan,
O, gövhər tək olarsa daşda pünhan
Çıxar fənd ilə həm güclə, o dilbər,
Dəmirdən sanki od, daşdan da gövhər.
Tikanla, güllə ollam dost, həmdəm,
Baxıb billəm işi, tədbir də görrəm.
Onu allam, gətirrəm bəxt qoysa,
Olar xosrovpərəst tale tək oysa.
Əgər görsəm bir iş gəlmir əlimdən,
Xəbərdar eylərəm şahı o vaxt mən.
Deyib qurtardı, yerdən durdu Şapur,
Yol üçün hər hazırlıq gördü Şapur.
O, yollarda nə dincəldi, nə yatdı,
Bir ay yol getdi ta Şirinə çatdı.
O çöllərdən haman sürətlə keçdi,
Həm Ərmən dağları səmtə yetişdi.
Gözəllər ki, haman yerlərdə vardı,
Gəlib yayda o dağlarda qalardı.
O çağlar orda çıxmışdı göy otlar,
Bəzənmiş lalələr, güllərlə gülzar.
Sarı, al, qırmızı güllər al-əlvan,
Gülürdü rəngbərəng daşlarla hər yan.
Çəkib dağlar başa zümrüd bir örpək,
Açıbdır lalələr bir süfrə al rəng.
O Cörrüm dağ ilə Buğra düzündə
Naxış vurmuşdu gül torpaq üzündə,
O mehrab ki, o, rüknüydü İraqın,
Belindəydi kəmər tək İnhiraqın.[53]
Qaya üstdə yonulmuş deyr vardı,
Qoca bir çox keşiş orda yaşardı.
Haman köhnə o deyrə gəldi Şapur,
Bir az abdal sayaq dincəldi Şapur.
Gəlib nitqə dəri dürrü deşən dəm
O aqil söz deyən böylə deyir həm:
"Kaha olmuş o deyr altında pünhan
Qara bir atlı vardır orda daşdan.
Hər il düz Rəmgilə çöldən, o yoldan
Gəlir döl tutmağa bir güclü maydan.[54]
Kaha üçün o, yüz fərsəx çapır yol,
Ora ancaq sürünməklə tapır yol.
Qara daşa edir izhar rəğbət,
Daşa çox sürtünür qəlbində şəhvət.
Tutur döl daşdan əmriylə xudanın,
Dedinsə tanrı, düzdür hər bəyanın.
Haman döldən toxum tutmuş qulan tək,
Nə dövran dövr edər, nə yel qaçar bərk.

Yenə söylər haman aqil o insan,
Törənmişdir bu Şəbdiz də o daşdan.
O daş deyri bu gün axtarsa hər kəs,
Burulğanlar udub sanki, görünməz.
O dağdan ki, deyirsən İnhiraq sən,
Qolu altında düşmüş baş görərsən.
O gül rəngli dağa gözdən töküb yaş,
Qara geymiş, oturmuş bir cahan daş.
Onun daşlıqları görmüş qəzəb bərk,
Diliklənmiş, tökülmüşlər ləçək tək.
Onun fəryadı etmiş çərxi həm məst,
O, qırmış şüşəni burda edib qəsd.
Əgər vardırsa allahdan çox ibrət,
Qiyamətçün bu ibrətdir kifayət.
Bu qırx ildə bir az çox ya az isə,
O cür dağla bu işlər baş verirsə,[55]
Sən islanmış bir az torpaq kəsəkkən
Onu daim yaşar neyçün bilirsən?!
Nizami, dön bu yoldan, nə bu sözlər?
Bunu səndən o dostlar dinləməzlər.

## XOSROVUN ŞƏKLİNİ ŞAPURUN ŞİRİNƏ GÖSTƏRMƏSİ

Gecənin ta qara zülfü darandı,
O gündüzlər çırağı göydə yandı,
Haman dəm abinus nərtaxta altda
Yox oldu kəhrəba zərlər büsatda.[56]
Gəlir həm Müştəri, əldəydi fərman,
Çıxır şah bənddən, Şapur bəladan.[57]
O köhnə deyrdə fərzanə Şapur
Bir az dincəlməyə olmuşdu məcbur.
O deyrin çox bilən insanlarından
Soruşdu düz desinlər, varsa imkan,
Sabah harda salar məskən gözəllər,
Nə yerdə, hansı su üstdə gəzərlər.
Belə ərz etdi o aqillər onda,
O dilbərlər gəzər azca o yanda.
O dağdan sonra bax göy bir düzən var
Həm orda sıx meşə içrə çəmən var,
Səhər tezdən o şümşad boy gözəllər
Gəlib sərxoş o gülşəndə gəzərlər.
Bu sincab çərx vaşaq kürkü tikərkən,
Gecə samuru qaçdı mar əlindən,
Günəş Elbursun üstündən çıxanda,
O Cəm ayini başlandı cahanda.[58]
O işrətlər sevən qızlardan erkən
Hazırlıq gördü Şapur sübh tezdən,
Çəmənlik səmtə etdi öncə həmlə,
O bağlıydı ürəkdən güllər ilə.
Mübarək bir kağız seçdi bir anda,
O çəkdi Xosrovu eynilə onda.
Çəkərkən surəti göstərdi sənət,
Ağac seçdi, ona bənd etdi xəlvət.

Pəri tək sonra ordan gözdən itdi,
Pərilər tək gözəllər gəldi, yetdi
Çəmənlikdə gəlib əyləşdilər şad,
Çiçək-gül yığdı onlar, gahi şümşad.
O güllərdən gülablar çəkdilər şən,
Nabatlar tökdülər bəzən gülüşdən.
Gözəllərdi, hələ üz görməmişlər,
Həvəs dünyasına can verməmişlər.
Sevənlər tək oturmuş mehriban bərk,
Sığışmırlar qabıqda qönçələr tək.
İçib meydən sevinc tapdı könüllər
Saçıb gül, gülləri şad etdi güllər.
Tutub əllərdə mey ulduz da, ay da,
O div insanla divdən xali dünya.
Tamam şəhvət o büllur, saf bədənlər,
Budur qayda cavan qızlarda əksər.
Kənar idi o yerlər yad gözündən,
Gəlirlər rəqsə sərxoşluq üzündən
Deyir bu, güllərə bəzən sənalar,
Tutur bülbüllə bəzən o, nəvalar.
Sevincdən qeyri iş bilməzdi bir kəs,
Könül şad etmək idi orda iş bəs.
O Şirinlə dodaqlar bal gözəllər.
Durubdur sanki Ay, dörd yanda Ülkər.
Anıb həmdəmləri keyf eyləyir hey,
Verir gah mey, özü gah-gah içir mey.
Qüruru ta dedi: - Ay surətin var,
Haman rəsmi qəfil gördü o dildar.
Dedi qızlar o rəsmi tez gətirsin,
Kim etmişdir bunu, bir söz gətirsin.
Gözəllər tez haman rəsmi gətirdi,
Baxıb Şirin ona diqqət yetirdi.
Ürək qoymurdu göz çəksin gözündən,
Həya qoymurdu ki, öpsün üzündən.
Onu hər baxmağı sərməst edirdi,
İçərkən hər qədəh əldən gedirdi.
Düşürdü hər baxınca qəlbi haldan,
Arardı rəsmi kim çəkmiş o, pünhan.
Bu işdən qorxuya düşdü baxanlar,
O rəsmə bənd olar, fikr etdi onlar,
Görə Çin nəqşi rəngindən olar tez,
Elə bir nəqşi qorxub cırdılar tez.
Haman nəqşi soruşsaydı o dilbər,
Dedi qızlar ki, divlər gizlədiblər.
Pəri, div yurdu olmuşdur bu səhra,
Gedək, burda dayanmaq olmaz əsla.
Bu manqaldan elə odlandı onlar,
Üzərrik yandırıb atlandı onlar.
O tüstü ulduz üstə kölgə saldı,
Köç indi ayrı bir səmtə yol aldı.





### ŞAPURUN İKİNCİ DƏFƏ XOSROVUN ŞƏKLİNİ GÖSTƏRMƏSİ

O gül rəngində nur qalxıb obaşdan
Səpərkən dağlara odlar nalından,
O etdi hər bucaqda sirlər aşkar,
İpəkdən dağlara geydirdi paltar.
Yenə onlardan əvvəl getdi Şapur,
Ora qızlardan öncə yetdi Şapur.
Haman şəkli çəkib əvvəlki qayda
Kağız üstündə o, rəsm etdi orda.
Gəlib çatdı o bütlər də ora şad,
Dolaşdı gülşəni güllər tək azad.
İpək paltarda ay sima gözəllər
Qəsəb geymiş aya gülməkdə yeksər.
Az idi işrətə əvvəlcə rəğbət,
Az-az artıb yenə göstərdi şiddət.
Gözəllər oynayıb qızdıqca meydan,
Oyunbazlıq yolu tutdu bu dövran.
Yenə ətrafı Şirin seyr edərkən,
Haman ruhani şəkli gördü birdən.
Baxınca can quşu uçdu haman dəm,
Dili söz tutmadı, susdu o həmdəm.
Edər sərməstə bir uyğu kifayət,
Nəm olmuş torpağa bir su kifayət.
O qışqırdı özüyçün bu, nə haldır,
Yalandırmı bu surət, ya xəyaldır?!
Gözəllərdən dedi bir sərvə Şirin,
Haman şəkli gedib tezcə gətirsin.
O ay getdi, o şəkli etdi pünhan.
Günəş palçıqla örtülsün, de hardan?!
Pəri açmış oyundur söylədi bu,
Pərilər çox qurublar böylə qurğu.
Gözəllər tezcə ordan köçdü, getdi,
Haman gülzarı güllər tərk etdi.
Gəlib bir çöldə onlar tutdu aram,
Yenə əllərdə idi mey dolu cam.
Gecə gəlcək udub bir yaqut ənqa,
Onunla qamını doldurdu əla.
Ayaqlar altda güllər, badə əldə
Gözəllər məst olub yatdı o çöldə.

### ŞAPURUN XOSROVUN ŞƏKLİNİ ÜÇÜNCÜ DƏFƏ GÖSTƏRMƏSİ

Gecə paltarı altdan çıxdı gündüz,
Başa oddan qızıl tac taxdı gündüz.
Haman firuzə taxtda tacdarlar
Mey ilə ülfətə bərk uydu təkrar.
O yerdən ta Pərisuz deyrinədək
Uçub getdi pərilər bir pəri tək.[59]
O mavi guşədə etdikcə seyran,
Gözəllər göyləri etmişdi heyran.
Çəmən aqil canından qəlbə hakim,
Hava övlad mehrindən mülayim.
Deyərdin, burda cənnətdən əsən yel,
Yerə dür bəxş edib, dərya üçün gül.
Daşı bütxanə etmiş lalə, əlvan,
Çəmən zülfü daraq görmüş səbadan.
Al-əlvan güllər üstündə oxurdu
Əcəb cəh-cəhlə bülbül, bir də qumru.
Uçan quşlar gəzirdi qorxusuz, şad,
Budaqlarda tamam sərbəst, azad.
Odur hər guşədə cüt-cüt duran quş,
Deyirdi güllərə olsun, için nuş.
Gəlib yerləşdi nəqqaş həm o yerdə,
Haman əvvəlki nəqşi çəkdi bir də.
Pərisimaya xoş gəldi o gülşən,
Pərilərlə meyə meyl etdi qəlbən.
Yenə gördü sevən gözlər o yerdə
Onu bənd eyləyən rəsmi o, bir də.
Bu cadu, sehr onu etmişdi heyran,
Keçibdir anladı işlər oyundan.
O, heyran könlünün ardınca getdi,
Özü qalxıb o şəkli əldə etdi.
Baxıb onda nişan gördü özündən,
Özündən getdi bu surət üzündən.
Qurub tor milçək ovlar bir hörümçək,
Humanı bəndə saldı gör nə cür bərk.
O divlər məskəni saf çeşmə üstdə
Pərini etdilər divanə, xəstə.
Nə yerdə görsə iş tədbirlə insan,
Nə insanı, o ovlar divi asan.
Elə sözlər dedi burda o dildar,
Yaraşmaz söyləsək bir kəlmə təkrar.
O üzlər gül gözəllər gördü amma,
Qalıb yerlərdə dərd ilə o rəna.
Deyildir bildilər bu iş pərilik,
Əcəbdir, saymaq olmaz sərsərilik.
Peşiman oldular etdiklərindən,
Durub vəsf etdilər şəkli ürəkdən.
Dedilər axtarıb biz canla-başla,
Bu şəklin sirrini billik nə olsa.
Görüb Şirin gəzirlər çarə onlar,
İnandı onlara qəlbən o dildar.
O, imdad istədi, etdi çox ah-zar!
Məgər olmazmı dosta dost olan yar.
Qaçılmazdır hər işdə yarı olmaq,
Xuda yarsız və bənzərsizdir ancaq.
Çox işlər var ki, dost ilə düzəlmiş,
Gərəkdir dost, əgər üz versə bir iş.
O büt surətlərə ərz etdi Şirin,
Alıbdır səbrimi fikri bu şəklin.
Nəyə lazım bu sirri gizlədək biz,
Bu şəkli yad edib mey nuş edək biz.
Yenə başlandı təkrar eyş-işrət,
Yenə mey gəldi, məclis tapdı zinət.
Qəzəllər gəldi hicrandan bu dəm hey,





Dedi saqi: - İçin, nuş olsun al mey!
O şirin büt acı meylə tamaşa!
O şirinlə, acıyla məst dünya.
O şirin ləblərə hər mey dayəndə,
Haman şəklə baxıb eylərdi səcdə.
Durub aşiqliyi məstlik yıxanda,
Səbirli olmağa üz qoydu onda.
O bütlərdən dedi bir kimsə getsin,
Kimi görsə bu yanda söhbət etsin.
Baxıb görsün bu yerdə neyləyir nə,
Bu surətdən o görsün söyləyir nə.
Tutuldu sorğuya çox gizli, aşkar,
Deyildi kimsə surətdən xəbərdar.
Yaman süst oldu Şirin iztirabdan,
Şəkildən bilmədi düz söz bir insan.

### ŞAPURUN ÖZÜNÜ ŞİRİNƏ GÖSTƏRMƏSİ

O əfsunlar bilən quş gəldi birdən,
O, muğlar qaydasınca qalxdı yerdən.
Baxıb Şapuru Şirin seyr edən dəm,
Uzaqdan gördü o simanı məhrəm.
O, Şapur haqda zənn etmişdi doğru,
Fikir doğru, kağız üstündə yox bu.
Buyurdu səsləyin gəlsin o muğ tez,
Bu işdən həm də söz-söhbət salın siz.
Olar bəlkə bilək kimdir bu surət,
Nədir dini, edir harda iqamət.
Ətək silkib kənizlər durdu, getdi,
O möbidlə şəkildən söhbət-etdi.
Cavab verdi: - Bu dürrü deşmək olmaz,
Ayaq üstü desəm, yaxşı sayılmaz.
Dodaqaltı dedi Şapur çox əfsun,
Nəzərlər ta bu işlərdən gen olsun.
Ayaqdan ta ovu gördü o, torda,
O, aram olmağı düz bildi burda.
Qaçıb Şirin olan səmtə kənizlər,
Dedilər söylədi mobid nə sözlər.
Bu sözlər Şirini oynatdı yerdən,
Qanı cuş eti getdikcə cigərdən.
Gümüş bir dağ yerindən durdu dərhal,
Dağa səs düşdü tərpəndikcə xalxal.[60]
O getdi Şapura doğru, yox aram,
Uca bir sərvə bənzərdi gül əndam.
Biliklə köksü bir billur hasardı,
Başında zülfü mişkin növbahardı.
Ətirli bir kəmənd idi o saçlar,
Keçirmiş boynuna naz ilə dildar.
O hindu axtarır bir türktazla,
Bütün türklər olub hindu o nazla.
Aparmış qəlbini gördü o hindu,
O türklər tək gəzir mal'hindudan bu.[61]
Gəlincik tək camalı qəlbi oxşar,
Gəlincik oynadanla gör nə oynar?!
Elə şirin naxış göstərdi Şirin,
Dili lal oldu nəqqaşın deyərdin.
Qulaq gövhər dolu, açdı o rəna,
Qulaq verməşdi dürrə sanki dərya.
Dodaq yüz dad, haman gözlərdə yüz naz!
O, mobidlər sayaq qaldırdı avaz.
Dedi: - Dost ol mənimlə bir zaman sən!
Mənə yad olma, ol məhrəm, aman sən.
Eşitdikdə bu avazı oyunbaz,
Fikirləşdi tələsmək yaxşı olmaz.
O məst nərgizləri Şapur görərkən,
Dilindən başqa hər şey getdi əldən.
Pəri üçün dedi Şapur sənalar,
Pəri göstərdi, əyləşdi sənətkar.
Dedi Şirin: -Danış hardansan öncə,
Səni mən dosta oxşatdım görüncə.
Cavab verdi o dünya görmüş insan,
Dedi: - Çox görmüşəm yaxşı-yamandan
Uca, alçaq xuda çox göstəribdir,
Haman gizlətməyib məndən o bir sirr.
Balıqdan ta Aya həm sirli dünya
Mənə məlumdur istərsən nə mənə.
O Məğrib torpağından ta o Şərqə
Dolaşdım aləmi mən ölkə – ölkə.
Cəsarətli görüb Şapuru Şirin,
Dedi: - Varmı bu surət haqda bilgin?
Cavab verdi ona nəqqaş Şapur:
- İraq olsun üzün bəd gözdən, ey hur!
Uzundur çox bu surət haqda söhbət,
Var ondan məndə çox gizlin hekayət.
Onu başdan-başa nəql eylərəm mən,
Əgər yer xəlvət olsa, söylərəm mən.
Buyurdu onda Şirin ta gözəllər
Dağılsınlar Bənatünnəşə bənzər.[62]
O söz sərrafı boşdur gördü meydan,
Ora sözdən top atdı aqil insan.
Ki, bu surət təmiz gövhərli candır,
Günəşdir, yeddi mülkə hökmrandır.
O, İskəndər calal, Dara vüqardır,
O şahlardan cahanda yadigardır.
Deyir göylər: - Günəşdir, nur salıbdır,
Bu yerlərdə o, Cəmşiddən qalıbdır.[63]
O şahlar şahı Xosrovdur o surət,
Yaranmış şahlıq üçün güc və qüdrət.
O, çox sözlər dedi orda bu qayda,
Yayıldı cana yağ tək, verdi fayda.
Danışdıqca o, Şirin verdi diqqət,
Qulaq verdi, onu cəlb etdi söhbət.
Tuturdu Şirini hər sözdə mənə,
Gəzirdi bir nişan sözdə o rəna.
Verib rəng pərdədə sözlər deyirdi,
Çıxınca ləl daşdan, can yeyirdi.[64]
Daha gizlətmədi Şapur söz ondan,

Sözü aydın dedi aqil o insan:
"Tutursan sirri gizlin, ey pəri, sən,
Pəri tək pərdədə sözlər deyirsən.
Nədir gülmək qabıqda sanki bir gül,
Şəkər tək çıx qabıqdan, söz danış, gül.
Əgər tapmaq dilərsən dərdə dərman,
Təbibindən sən etmə dərdi pünhan."
O zəncir zülf büt qızdı bu sözdən,
Nə xoşdur bu qızışmaq ondan, əhsən.
Yapışmışdı ətəkdən eşq amma,
Bir üzr ilə sınaq qurdu o rəna.
Otaq boş həm müsahib dost bir insan,
Götürdü örtüyü birdən tabaqdan.
"Ey abid, - söylədi – sən tanrı, gəl sən
Əmin eylə, pənahında olum mən.
Pərişandır halım çünki mənim bərk,
Pərişan oldu könlüm işlərim tək.
Bu surət bəndə salmış qəlbi, məstəm,
Gecə-gündüz tamam surətpərəstəm.
Bir iş gör, bir əlac et dərdə sən də,
Yəqindir qalmaram heç borclu mən də.
Danışdım bax sənə mən sirri böylə,
Əgər vardırsa sirrin, sən də söylə.
O əfsunçu ararkən çarələr bərk,
Düşündü, yoxdur əfsun doğru söz tək.
Öpüm, fikr etdi qolbağ tək o əldən,
Yer öpdü sonra xalxal tək o, birdən,
Yüz and içdi, dedi: - Ey dost üçün şam,
Özü tac layiqi, şahlar üçün kam!
O bədxahın gecəndən də qaragün!
Görür incə təzə aydan da könlün.
Min and olsun, özüm bir bəndəyəm mən.
Sən and verdin, gərək doğru deyəm mən,
Mənəm surət çəkən rəssam sənətkar,
Haman surətdə Xosrovdan nişan var.
O surət nəqş edən çəksə nə surət,
Nişan var onda, can yoxdur, həqiqət!
Mən öyrəndim şəkil çəkmək ədası,
Tikilmiş ayrı yerdə can libası.
Belə olmuşsa surətdən xəyalın,
Onu görsən olar daxi nə halın?!
Haman nurdan yaranmış ayrı dünya!
Cavandır, gözlərə nurdur o sima.
Əcəb nadir, çevik, qorxmaz bir insan,
O, mehr, ülfətdə ahu, kində aslan.
Xəzan, yel görməmiş gül nəqşi vardır,
Cavanlıq bağı içrə ilk bahardır.
Hələ bilmir gülü ətrafı şümşad,
Onun sərvi yaşar susən tək azad.
Hələ niluфəri oynar sularda,
Vurar yığlıqla qartal olsa harda.[65]
Buludsuz bir günəşdir, bil, hələ o,
Buluddan, gündən o bilsin nə qorxu?!
Behiştə ətri açmış yüz qapı, həm
İki rüxlə ayı mat etdi hər dəm.
Yəhər qoysa ata, Rüstəm deyərsən.
Mey içsə, Keyqubad zənn eyləyərsən.[66]
Gecə qalxıb o, xəznə paylar ikən,
Salar yel börkü Qarun xəznəsindən.
O, mərcandan alar dür, dinsə hər dəm,
Qılınc çalsa, o, şirdən can alar həm.
Üzəngi qütbü tərpətsə o insan,
Çəkər qalxıb cilov yellər tozundan.
Nəsəb sorsan, o, Cəmşid yadigarı,
Sifət sorsan, Günəşdən çox yuxarı.
Qoşun çəksə, bu gen dünya olar dar,
Bu yeddi iqlimə bayraq o sancar.
Düzülsün qoy dəvə ta zər bağışlar,
Qılınc çalsa, edərlər nalə daşlar
Polad xəncər durar daim yanında,
Deşər almaz da qurşansan, bir anda.
Qılınc oynatmağa çatdıqda növbə,
Verər qazi qılıncı hər xətibə.
Ayaq bassa, tamam yorğun düşər yer,
Tələssə, asta dövr eylər fələklər.
Onunla küt qılıncdır çərx, gör sən!
Olar gah altda, gah üstdə dönərkən.
O, bayram məclisində hüsnü bir nur,
Hünər əsli, gözəllik bəxş olubdur.
Ürək, can qarşılar iqbalı onda,
Hər işdə bəxt olar iqbal olanda.
O aləm nuru bu hüsnü camalla,
Gecə-gündüz yaşar tək bir xəyalla.
Xəyalın uyğuda mehmanı olmuş,
Haman vaxtdan qaçıb ondan ağıl, huş.
Nə mey nuş eyləyər, nə qaldırar cam,
Gecə bilməz yuxu, gündüzlər aram.
O, həmdəm istəmir Şirindən özgə,
Acı gün görməsin bu qayda kimsə!
Məni bir elçi göndərmişdir əslən,
Dedim yaxşı-yaman, ta sən bilirsən.
O deşdi dürlü dürlər çox bu qayda,
Deyirdi bildiyindən söz bu haqda.
O sözlər dadlı, Şirin dinləyirdi,
Deyərdin dadlı nemətlər yeyirdi.
Ora çatdı iş, az qaldı yıxılsın,
Məharət göstərib durdu, nə qılsın.
Zaman gəldi, dedi: - Ey aqil insan!
Nədir tədbirin indi, etmə pünhan.
Nişan ver hardadır yol, doğru göstər!
Bu qəmlərdən könül qurtarmaq istər.
Bu qəmlər qəlbimə təsir edib bərk,
Düşüb xəstə bədən nərgizlərim tək.
Dedi: - Ey gün camal, qəmdən ol azad,
Ola ömrün uzun, qəlbin mudam şad!
Budur düz söz, bu sirri açma heç sən,
Sabah tezdən ova qalxıb gedərsən.
Kişilər tək geyin, Şəbdizə atlan,





Gəl ovlaqda ov et, sonra qaç ordan.
Səni qalxıb ətəkdən kimsə tutmaz.
Bilirsən, Şəbdizə bir kimsə çatmaz.
Sən uç səyyarə tək mil-mil uzaqlaş,
Bacarsam, mən də gəlləm tezcə birbaş.
O, Xosrov barmağından bir üzük həm
Ona verdi, dedi: - Get, durma bir dəm.
Cavan şahı əgər yollarda görsən,
Təzə aydır, bunu sən göstərərsən.
Görərsən ki, atında var qızıl nal,
Tutulmuş paltarı lələ, yaşıl, al.
Papaq, paltar, belində həm kəmər ləl,
Üzü lölö, dodaq, dişlər göhər, ləl.
Əgər yox, tut Mədain səmtə üz, get,
Soruş ki, hardadır sən şah, düz get.
Mədain mülkünə tapsan əgər yol,
Görərsən xəznə üstə xəznə bol-bol.
O şahın qəsri vardır sanki Fərxar.[67]
Baxarsan, orda həddən çox kəniz var.
O mişkin qəsrə çatdınsa, düş orda,
Üzük şahındır, orda göstər amma.
O gülşəndə sən ol, ey sərvi-azad,
Budaqda tər-təzə bir meyvə tək şad.
Bir az gözlə, gələr o bəxtiyar şah,
Ucalsın göylərə taxtın, ol agah,
O şahın hüsnünə eylə tamaşa,
Çatarsan arzuna mütləq sən onda.
Mən olsam kölgə tək böyründə tacın,
Bu hikmətlərçün olmaz ehtiyacın."
Deyib qurtardı nə istərdi Şapur,
Nəfəsdən Ay tutuldu, hiylədən hur.
Ümidlərlə ürək, can getdi ordan,
O Ay qaldı günəş tək çox pərişan.
Qaçıb gəldi o qızlar, gördü Şirin
Bənatün-nəş dönüb olmuşdu Pərvin.[68]
Dedi ulduzlara orda o dildar,
O mənzildən gecə getsinlər onlar.
Haman dağ boyda atlarla gedərkən,
Dağ oldu at nalından dürlü mədən.
O yerdən köçdü bütlər kef-damağ çağ,
Günəş tək at çapan, Ay misli parlaq,
Bütün gün söz deyib baş qatdı onlar,
Axır gəldi o yurda çatdı onlar,
Bir az dincəldilər rahatca, sonra
Yaman getmişdi Şirin fikrə amma.
Dolunca bir gecə tüstüylə dünya,
Tapıb uyğu bu aləm göz yumanda.
Günəş çəkdi başa bir göy ipək tül,
Belindən həm söyüd asdırdı bir gül.
Dedi Banuya Şirin:- Ey cahangir,
Dilər könlüm sabah ovda olum bir.
Buyur, ey sahib insan, bu sabah mən,
Gedim ovlağa Şəbdiz ilə erkən.
Minim Şəbdizi, ölçüm çöl və səhra,
Dönüm axşam evə mütləq mən amma.
Məhinbanu cavab verdi: - Ey Ay, sən
Bir at yox, bəlkə yüz mülk istə məndən.
O üzdən ki, gecə rəngli bu Şəbdiz,
Qaçandır bərk, cilov bilməz o hərgiz.
Budur qorxum ki, tündlük, sürət aşsın,
Onu minsən su və ataş savaşsın.
Əgər minmək onu olmuş qaçılmaz,
Gecə parlaq bir aydan göyçək olmaz.
Ona sən pəhlivanlar tək yüyən vur,
Onu öyrət bir az dinc olsun, ey hur!
Üzü güldü bu sözdən, kama çatdı,
Baş əydi Banu üçün getdi, yatdı.

## ŞİRİNİN OVA VƏ ORADAN MƏDAİNƏ GETMƏSİ

Səhər Çin xəznədan zər qıfılla
O gövhər mücrünü örtdü calalla.[69]
Çıxıb tez mücrüdən Çin nəqşi gəldi,
Qərar vermişdi qəlbində, o bildi.
Durub Çin bütləri xidmətdə bərk-bərk,
Ayaq üstdə dayandı sərvlər tək.
Dayanmış mehribanlar gördü Şirin,
Danışdı yağlı dillə xeyli şirin.
Ki, bismillah, gedim çöldə gəzim mən.
Tora bir quş düşə bəlkə qəfildən.
Gözəllər örpəyi rədd etdi başdan,
Verildi xidmətə bir qeyri sahman.
Papaq qoydu bir oğlan tək gözəllər,
İpək donlar qəba oldu sərasər.
Bir adətdi, çölə qızlar çıxarkən,
Qulamlar tək geyərdi paltar üstdən.
Hamı bir həlqə, mərkəzdə o dilbər,
O atlandı, həm atlandı gözəllər.
Çölə üz tutdular onlar saraydan
Deyərdin Xızr içibdir abi – heyvan.
O çöldə at sürüb kef gördü onlar,
Keçib çöldən-çölə at sürdü onlar.
Axırda atlara oldu yüyən tərk,
Səyirtdi atları onlar bir az bərk.
O tüplər sındıran altında Şəbdiz,
O at yüyrəkdi, atlı tünd, səbirsiz.
Qızışdırdı atı dostlar yanında,
Uzaqlaşdı o, qızlardan bir anda.
Götürdü, qaçdı at, zənn etdi onlar,
Nə bilsinlər özü qaçdı o dildar.
Dalınca kölgələr tək qaçdılar çox,
Nə kölgə, gördülər bir toz da heç yox.
Bütün gün gəzdilər, ta oldu axşam,
Geri üz tutdular axırda nakam.
Uzaq düşdü o şahdan hər bir afət,
Bədən yorğun, könüldə dərd, həsrət.
Gözəllər gəldi Banuya yetişdi,

O ulduzlarla Ay yoxdu, nə işdi?!
Durub taxtın önündə hüzn, qəmlə,
Dedi Şirindən onlar dərd, ələmlə.
Oyun sanki gecə ulduzlar açdı,
Uçan köhlən onu qaldırdı, qaçdı.
Məhinbanu xəbərdən qayğılandı,
O, köhnə qəmləri bir daxi andı.
Düşüb taxtından o, durmuşdu qəmli,
Başı yerlərdə idi dərd, ələmli.
O qəmlərdən əli qalmış başında,
Yuyunmaqda yanaqlar göz yaşında.
Anırkən Şirini Banu bu yerdə,
Yaman qövr etdi qardaş dərdi bir də.
Dedi gözlərdə yaş: - Ey nazəninim,
Səni bədgöz əlimdən aldı, neynim.
Gül idin, yel budağından qopardı,
Səni hansı tikan üstə apardı?
Nə oldu, söylə, bizdən kəsdin ülfət?
Kimə bizdən çox ərz etdin məhəbbət?
Marallardanmı doydun ahular tək,
Yem oldun hansı şir üçün qalıb tək.
Bir Ay tək ayrısan ulduzlarından,
Günəşsənmi, bu tənhalıq de, hardan?
Hanı sərvin, ona canımdı gülzar,
Onun hər şaxı üstdə canımdan damar var.
Üzün aydır, kimin üstə saçır nur?
İtirdim mən, səni kim tapdı, ey hur?
Gecə ta sübhəcən eylərdi növhə,
Qəm üstündən gəlirdi dərd töhfə.
Qoşun düşmüşdü xidmətdə nigaran,
Hamı gözlərdi, versin Banu fərman.
Yox idi getməyə Banuda istək,
Nə buyruq verdi, nə istərdi getmək.
O gördü bu bəlanı uyğu vaxtı,
Əlindən gördü tərlanı buraxdı.
O tərlan uçdu getdi, qaldı həsrət,
Geri döndü haman tərlan, nəhayət.
Dedi: - Biz burda lap olsaq da tərlan,
Fələklər misli lap etsək də cövlan,
Deyil mümkün dolaşsaq hər məkanı,
Tozundan Şəbdizin tapmaq nişanı.
Uçan bir quş dalınca getmək olmaz,
Bir ov tordan çıxıbsa, yetmək olmaz.
Göyərçin uçdu, düşmə ahu-vaya,
Halal olsa, dönər mütləq yuvaya.
Bəli, könlüm dözər dərdə ürəkdən,
Nalından atının bir od tapım mən.
O itkin xəznədən olsam xəbərdar,
Sevinclər bir daha könlümdə artar.
Qoyardım xəznəyə tək xəznəni mən,
Yenə çox xəznə paylardım sevincdən.
Dedi Banu, qoşun həm verdi diqqət
Baxıb onlar da göstərdi itaət.
O yandan Şirinin altında Şəbdiz,
Gəzirdi aləmi fikrində Pərviz.
Gedir sürətlə o, səyyarələr tək,
Gecə-gündüz yorulmur, yol gedir bərk.
Qəba geymiş, olub görkəmcə bəndə,
Keçir eldən-elə, kənddən də kəndə.
Duyub gah qarxu düşməndən o, yolda
Gedirdi yollu-yolsuz dağda, çöldə.
O nazik ruhu çox yorğundu artıq,
Dəyişmişdi üzü, solğundu artıq.
Nədir sirri, necə əfsanədir bu?
Gedirkən bir qadın göstərdi cadu.
O atdı bir daraq yolda, bir ayna,
Meşə oldu o, bu, dağ oldu amma.
Daraq, ayna atan arvad, inan sən,
Meşəylə dağa bənzər bərkliyindən.
O Şirin yolda çox çəkmişdi dərd, qəm,
O çöllərdə toza batmışdı çox həm.
Qovurdu yel kimi dağtək atı bərk,
Qaçışda yel qalırdı dalda dağtək.
Nişan axtardı, yol getdi çəkib qəm
Düz on dörd gün o on dörd günlük ay həm.
Dayandırmır atı bir yerdə əsla,
Soraqlaşdı, həm at sürdü o rəna.
Külək Şəbdiz qədər heç yol gedirmi?
Unutmuş yer fələk heç dövr edirmi?
Ağarma göstərən dəm üz bir anlıq,
Ümidsizlik sözü yazdı qaranlıq
Odur minlərlə nərgiz göydə soldu,
Açıldı bir sarı gül, gör nə oldu.[70]
Yeyin sürdü atı bir daxi Şirin,
Ürək bir yolluq olmuş dərdli, qəmgin.
Görür orda o, birdən bir çəmənzar,
Görür abi-həyat tək çeşmə həm var.
O parlaq çeşmədən ar etdiyindən,
Tutub abi-həyat zülmətdə məskən.
Bədən yol zəhmətindən lap yorulmuş,
Gül əndamı tamam toz-torpaq olmuş.
O gəzdi dörd yanında çeşmənin çox,
Baxıb gördü o ətrafda adam yox.
Düşüb atdan onu bənd etdi sonra,
Onu görməz düşündü kimsə əsla.
Suda nur çeşməsi getdi, dayandı,
Görəndə gözləri çərxin sulandı.
Süheyl orda şəkər dondan çıxanda
Fəğan etdi o Şera asimanda.[71]
Belə mavi ipək bağlandı ələ,
Suya girdikdə bərk od tutdu dünya.
Gözə çəkdi qara bir sürmə Pərvin,
Qovuşdu sanki niluferlə nəsrin.
Məgər axşam idi, nilə büründü,
O nil rəngində bürcdən Ay göründü.
Təmiz əndamı su üstdə üzürdü
De, qaqum sincab üstündə gəzirdi.
Yuyunsun çeşmədə xoşdur o tər gül,





Nə yanlış! Çeşmə üstündə bitər gül.
Min əhsən! Gör necə bir çeşmə varmış,
Günəşdən saf suyu rövnəq aparmış.
O zülf ilə gümüş qolla, bədənlə
Suya bir örtü çəkmiş yasəmənlə.
O, saçlarla suya atmışdı qarmaq,
Balıq yox, bəlkə tutmuşdu Ay ancaq.
Onun kafuru mişk ilə bəzənmiş,
O kafurdan bu aləm xəstələnmiş.
Olub bir öngörən, duymuş o canan
Keçər burdan gəlib bir tazə mehman.
O xalis qənd haman çeşmə suyundan
Qonaq üçün düzəltdi şərbət asan.

## XOSROVUN HÖRNÜZDƏN QAÇIB ƏRMƏNƏ GETMƏSİ

O farsca söz deyən ustad qoyub can,
Bu cür vermiş xəbər fars şahlarından.
Ki, Xosrov Ərmənə göndərdi bir kəs,
O azad sərvdən bilsin xəbər bəs.
Gecə-gündüz çəkirdi intizarın,
Dilərdi halını bilsin o yarın.
Yanındaydı o, şahın sübh-axşam,
O Ayla Gün kimi xidmətdə şadkam.
Papağı taxtını şahın bəzərkən,
"Başım tacı" deyərdi şah sevincdən.
Əziz gördü onu gözdə mudam şah,
Yaman göz dəydi bu üzdən də nagah.
Poladdan bir qılınc qurşandı hikkə,
Adıyla Pərvizin kəsdirdi sikkə.
Bu pullar çox şəhərlərdə göründü,
Əcəm şahı qəzəbdən don büründü.
Qılıncı, sikkəni gördü o, qorxdu,
Yaman qorxutdu gənc şir köhnə qurdu.
Bu qurğu haqda çox fikr eylədi şah,
Dedi: - Xosrov qurub şətrənci nagah.
Düşündü, işlədib burda bir az fənd,
Cavan şahı tutub vursun ona bənd,
Hesab eylərdi işlətsin o, tədbir,
Xəbərsizdi, nə oynar burda təqdir.
Yox imkan Xosrova yol bağlanılsın,
Nə qarmaqla tutulsun, saxlanılsın.
Kimin qəlbində düzlük varsa az-çox,
O, dünyanı tutar, dünya onu yox.
Büzürgümmid xəbər tutdu bu işdən,
Dedi: - Bəxtin dönüb səndən, ol agah,
Cəza vermək sənə fikr eyləmiş şah.
Bu yerdən get beş-üç gün ta var imkan,
Tələs, qurtar başı mütləq bəladan.
Bu oddan bəlkə bu tüstü çəkilsin,
Dönən bəxtim gəl dönsün, dikəlsin.
Görür Xosrov qarışmışdır zəmanə,
Onu məhv etməyə qurmuş bəhanə.
O, ənbər saçlılarla etdi söhbət,
O ay üzlülərə etdi vəsiyyət.
Sabahdan var ova getmək xəyalım,
İki-üç həftə bəlkə orda qalım.
Minib bir qarğa at bir tavus ikən,
Gələrsə nar məmə bir büt qəfildən,
Düşürdün atdan, o mehman əzizdir,
Siz aysız, o, Günəş misli kənizdir.
Yaşıl qəsrim onu birdən sıxarsa,
Xızır tək çöl deyib burdan çıxarsa,
O hansı çöldə istər, at çapın siz,
O cənnət üzlü qəsr istər, tikərsiz.
O hər dəm qəlbin əmriylə gedirdi,
Deyirdi, haqq nəyi ilham edirdi.
Dedi, sonra o, yel tək uçdu, getdi,
Pərilərlə o qəsri tərk etdi.
Onun dağ heykəl atı yer qazandı,
O, Ərmən səmtə çapdı, yol uzandı.
O, şahdan qorxub eylərdi fikir həm,
İki mənzil yolu eylərdi bir həm.
Yoruldu atları yolda qəzadan,
Haman yerdə yuyurdu zülfü canan.
Buyurdu şah qulamlar ta dayansın,
Verilsin atlar üçün yem, sulansın.
Qulamlardan düşüb ayrı o, təm tək,
O çeşmə səmtə getdi seyr edən tək.
Yaşıl gülşəndə bir xeyli dolaşdı,
Gözü saf çeşməyə birdən sataşdı.
Tovuz tək qartala bənzər at otlar,
Kənarında suyun bir qırqovul var
Göy otluqda bir az asta gedirdi,
Gedir asta, belə bir fikr edirdi.
Bu büt canım mənim olsa, nolardı?!
Bu at bir köhlənin olsa, nolardı?
O bilmirdi o bədr ayla gecərəng,
Onun bürcü sarı tutmuşlar ahəng.
Durur məşuq qapı ağzında, var bu,
Olur gözlərdə ağ, başlarda uyğu.
Durar dövlət yol üstündə, olub çox,
Çıxar yoldan kişi, çünki xəbər yox.
O baxdı hər yana, etmişdi adət,
Gözü birdən bir Ay gördü, nəhayət.
Bir az baxdı, üşütmə canı aldı,
O çox baxdıqca çox heyrətdə qaldı.
O, Ay tək bir gözəl gördü bəzənmiş,
Dedi bəlkə bu Ay göylərdən enmiş.
Nə Ay? Civə çəkilmiş saf bir ayna,
O, Nəxşəb ayı tək parlaq və rəna.[72]
Sular mavi, o, bir gül tək oturmuş,
Belə mavi ipək taxmış da durmuş.
Olubdur çeşmə gircək o güləndam
Badam gül, həm gül içrə bir də badam.
Suda durmuş, necə möcuzlər eylər,
O cür vermiş suya xoş rəng o dilbər.





Daraq zülfü darardı hər tərəfdən,
Bənövşə tər gül üstə düşdü dən-dən,
Başa tökdükcə su əllə o dilbər,
Aya mirvari bağlardı fələklər.
Bədən nurlar saçır, olmuş o, qar dağ,
Suya dönmüş o qardan şah ancaq.
O saçlar səhv edib etsəydi izhar
Ki, hər tük kölgəsində bir ilan var.
Qulaqaltdan pıçıldardı bu haqda:
Sənin bir bəndənəm həlqə qulaqda.
Olub bir xəznə ölçən kimya dildar,
İlan tək xəznə üstdə zülfü oynar.
Hələ tutmazdan əfsunçu ilanı,
İlan çalmış onu, buydu gümanı.
Qapı açmışdı bir cüt nar qəfildən,
Açar salmış baxıb bostançı əldən.
Ürək gördü o narda dadlı bir hal,
O nar tək partladı həsrətlə dərhal.
Haman çeşmə Aya olmuşdu məskən,
Günəş çıxmış yolu üstdə həvəsdən.
Görüb büllur camalı şah yanırdı,
Günəşlənmişdi, yəni odlanırdı.
Buludlar tək gözündən yaş gedirdi,
Su bürcündə ona bəxt aymı verdi?!
Onu şah seyr edir, bilmir o tər gül
Xumar nərgizləri örtmüşdü sünbül.
O Ay mişkin buludlardan çıxarkən,
O şahlar şahını qeyd etdi birdən.
O gördü qırqovul üstdə hümanı,
Qayın üstdə bitən sərvi-rəvanı.
Həya etdi o gözlərdən yaman bərk,
O əsdi saf suda Ay titrəyən tək.
O şəkkər çeşməsi axtardı çarə,
O, zülfü sərdi Ay üstə dübarə.
Saçıb ənbər Ay üstə o, günəş üz,
Gecə ilə günü örtmüşdü gündüz.
Qara örtdü gümüş əndama qorxu,
Gümüş örtmüş qara rəng, nə gözəl bu.
O Ayla Xosrovun qəlbi bu yerdə,
Qovuşmuşdu qızılla sanki civə.
O ancaq gördü burda ovçu şirdən
Maral çox qorxular çəkməkdə birdən.
Daşındı aslan aciz ovlamaqdan,
Heç aciz ovlamaz ovçu bir aslan.
Səbirlə ağlını yığdı başında,
Coşan atəşləri söndürdü canda.
Ona mərdlik ədəb xoş gəldiyindən,
Bir ayrı səmtə üz döndərdi birdən.
O, qəlbi dən kimi səpmişdi orda,
Yad idi hər nə göz görsə kənarda.
Tikan gördü iki gül cüt bulaqdan,
İki suyla iki təşnə pərişan.
Onu çeşmə edib yoldan o ilk gün,
Buna çeşmə quyu bəxş etdi neyçün.

Düşər hər çeşmə üstündə hər insan,
Çörək də yumşalar bərk olsa ondan.
Gedərkən çeşmədən qəm gördü onlar,
O yumşaqlıq yaman sərt oldu naçar.
O qəlb atəşləri ilə o çeşmə
Yaxın qoymaz gəzə palçıqda təşnə.
Bu bir qan çeşməsi olmuş, günəş yox,
Dolanmışdır o, dünyanı bu cür çox.
Aya şah pərdə tutmuşdu bu yerdə,
Aparmazlar gəlin, olmazsa pərdə.
Sudan çıxdı pəriüzlü haman dəm,
Qəba geydi, tez atlandı o həmdəm.
Dedi: - İstər bu gənc oğlan nə etmək?
Neçün fırlandı dövrəmdə fələk tək.
Əcəbdir çox, deyildirsə o, yarım,
O aldı qəlbimi, getdi qərarım.
Eşitdim ləli var, ləlin məkanı
Hanı dildarım isə bəs nişanı?
Xəbərsizdi yola çıxdıqda şahlar,
Duyub qorxu geyərlər ayrı paltar.
Yolunda durdu istəklər, dedi : - Dur!
O şəkkərlə gülü cəld ol, qovuşdur.
Əgər parlaqsa o surət, bu, candır,
O ancaq bir xəbərdir, bu, əyandır.
Dedi bir də: - Üzü döndər bu yoldan,
Namaz qılmaz iki mehraba insan.
Bu dövran bir, iki şərbət içilməz,
Nökər birdir, iki sahib seçilməz,
Bu gənc olsun deyək o nazənin şah,
Soruşmazlar bunu heç burda nagah.
Məni qoy pərdədə görsün, olar xoş,
Kim olmuş pərdəsiz, üstü toz olmuş.
Bu işlər pərdədə qalmış əzəldən,
Necə bəs pərdədən birdən çıxım mən?
Qanadlandı qara qartal haman dəm
Öküz nal səsləri duydu, Balıq həm,[73]
Qaçış vaxtı səbadan bərk gedirdi,
Uçuşda göylər ilə bəhs edirdi,
Tuturdu od qaçış ilə pərini,
Deşirdi sanki divin gözlərini,
Geri baxdı keçincə bircə ləhzə,
Özündən başqa yoxdur gördü kimsə.
O, atla gəzdi hər yanı sərasər,
Nə gördü qəlbini orda, nə dilbər.
O saf çeşmə yanında düşdü atdan,
O gövhərdən nişan gəzdi pərişan.
Nə baş verdi belə tez, heyrət etdi,
Bu tezliklə hara üz tutdu, getdi.
Ağaclar səmtə göz gəzdirdi bəzən,
Tutub quş tək budaqda bəlkə məskən.
Yudu gah çeşmədə yaşdan gözünü,
Balıq tək gəzdi bədr ayın üzünü.
Qurur, göz yaşı üstdə körpü bəzən,
Qırır həm çeşmə üstdə körpü hərdən.

Qaraldı gözləri burda onun bərk,
Yıxıldı çeşməyə birdən balıq tək.
Elə ah çəkdi, etdi nalə, əfğan,
Cahan zülmü üçün oldu peşiman.
O Ayla Şəbdizi axtardı bağda,
Gəzirdi gözləri tərlan və qarğa.
O, tərlan tək edir hər səmtə həmlə
Ki, qarğa tutmuş o tərlanı bəlkə.
O cəld qarğa ona çəkmişdi dağlar,
Qaralmışdı gözündə aləm, ağlar
O ağ tərlan dönüb olmuşdu qarğa,
O bədmişki tikan olmuşdu amma.
Söyüd qəddi gənəgərçək tək oldu,
İçib göz yaşını, güc tapdı toxmu.
Əyildi bir günəş eşqiylə qamət,
Düzəldərlər söyüddən çovkan, əlbət.
Ciyərdən çəkdi od-atəşli ahlar,
Yana ta mən kimi mərdümgiyahlar.[74]
Bahar tapdım, tutub bar dərmədim mən,
Fərat tapdımsa, bir su görmədim mən.
Bu nadanlıqla əldən çıxdı gövhər,
Vurum qoy başıma daşlar sərasər.
Görüb bir gül obaşdan dərmədim mən,
Gecə gəldi, apardı yel çəməndən.
Açılmış nərgizi gördüm sularda,
Su tək yatmışdı o, yatdı sular da.
Eşitdim su yatar, torpaq olar zər,
Neçin bəs civə oldu o sənubər?
Başım üstə hüma salmışdı kölgə,
O, qoymuş taxtını ərş üstə bəlkə.
Ətək çırpdım o cür kölgə görərkən,
İşıqsız qaldım onda kölgə tək mən.
Quru olmaz keçəm artıq bu qandan,
Dəyər bundan betər bir balta hardan?!
Qəflədən çeşmədən çıxmışdı bir gül,
Yatırdım, ya oyaqdım oldu müşkül.
Əsər yox çeşmədə indi o güldən,
Yanam odda tikanlar tək gərək mən.
"O Aydan üz çevir" kim söylədi, kim?
Dedi: - Tez dön! Gəlirkən qarşı bəxtim,
Nə div etdi məni yoldan, nə etdim?
O cənnət bağını gördüm və getdim.
Həmişə səbri öymüş, olsa harda,
Kim almış səbri ondan təkcə burda?
Canı etmək gərək şimşək kimi şam,
Bu xam səbri o şam oduyla yaxsam.
Su içsəydim haman saf çeşmədən mən,
Heç etməzdim kabab indi ürəkdən.
O hindli gör necə etmiş nəsihət:
"Əgər tapdınsa mal, tezcə ye, əlbət."
Sarı ya qırmızı güldən bu bağda,
Yesə kim bəhrə, peşman olmaz əsla.
Mənəm, bundan belə bağrı qan olmaq!
Qəmin peykanını candan çıxarmaq!
Əlim, bir də başım olsun bu gündən!
Qopa "Yarəb"səsi hər bir tükümdən.
Bu dərddən bəlkə rahatlıq tapam bir,
Bir azca soyusun odlu bu təndir.
Əgər qan şişsə, çirk etsə bədəndə,
Olar rahat o çirkli qan gedəndə.
Gəzindi orda, etdi xeyli nalə
Axan göz yaşını sildi əl ilə.
Döşəndi yerlərə huşsuz yaman bərk,
Qucurdu çeşməni sanki o, gül tək.
Xuraman sərvi getmişdi əlindən,
Su sərvindən çəkildi, rəng gülündən.
Sərilmiş yerlərə, halı yox idi,
Əsir çör-çöp kimi yeldən vücudu.
Bu ay söylərdi olsaydı bir insan,
Hanı yerdə izi addımlarından?
Pəri isə, çətinlik burda çox var,
Pərilər çeşmə üstdə çox olurlar.
Bu sirri sən kimə söylə, inandır,
Deyər, Xosrov pəri sevmiş, amandır!
Adım əvvəl gərək olsun Süleyman,
Olar sonra pəri ram etmək asan.[75]
Bu cür fikr etdi, söhbətlər danışdı,
Könül oxşar hekayətlər danışdı.
Ümidsiz əl götürdü burda yardan,
O, Ərmən şəhrinə yollandı ordan.

### ŞİRİNİN XOSROVUN SARAYINA ÇATMASI

Düzəltmək istəsə iş çərx, ruzgar,
Çıxardar pərdədən əvvəl oyunlar.
Diləsə kəndliyə versin xəzinə,
Verər zəhmət o, əvvəlcə özünə.
Əgər yoldan tikan görməzsə bir kəs,
Gül ilə şümşadın qədri bilinməz.
Bu hicran dağını görsən bir az sən,
Yetərkən vəslə şadlıqdan gülərsən.
Düşüb Xosrovdan ayrı getdi Şirin,
Çox oldu ayrılıq dərdiylə qəmgin.
O şah dərgahına ta yetdi Şəbdiz,
Soruşdu hardadır qəsriylə Pərviz.
Gəlintək axtarırda o, ərini,
Unutmuşdu gəlin adətlərini.
Düşüb verdi nişan, baxdı kənizlər,
Bağa bir sərv tək girdi o dilbər.
Görərkən Şirini ayna qabaqlar,
Həsəddən dişlənildi alt dodaqlar.
Ona göstərdilər şahanə diqqət,
O Xosrov söyləyən tək qayğı, hörmət.
Dedilər xeyli söz sərbəst qalınca,
Gedib Xosrov yaqin ataş dalınca.
Gətirmişdir bir od ki, sübhə bənzər,
O oddan odlara yandı ürəklər.
Soruşmaq başladı sonra hal-əhval,





Nişanından xəbər bilmək bu minval.
Ki, hardansan, adın nəymiş, havan nə?
Nədir əslin, nə quşsan sən, yuvan nə?
Pərüzlü yayındı sorğulardan,
Quraşdırdı yalanlar burdan – ordan.
Dedi: - Çox-çox uzun bir macəram var,
Gələr Xosrov, olar bunlar da aşkar.
Gələr dərgahına bir gün yetər şah,
Özü eylər sizi mətləbdən agah.
Edin amma bu atla yaxşı rəftar,
Onun dünya qədər bir qiyməti var.
Deyib qurtardı o, göstərdi ecaz,
Ona yol verdi qızlar eyləyib naz.
Gülablar səpdilər Ay çöhrəsinə,
Atı bağlandı həm şah tövləsinə,
Verildi hüsnünə layiq bəzəklər,
Büründü dürrə əynində ipəklər.
Gül açdı vədə bağı vəsl üçün həm,
O, rahatca uzandı, yatdı möhkəm.
O şah qəsrindəki rəna rəqiblər,
Düşündü bir kəniz gəlmiş o dilbər,
Kənizlərlə olub Şirin də həmdərd
Kənizlərlə kəniz tək oynadı nərd.

### XOSROVUN ATASINDAN QORXUB QAÇMASINDAN ŞİRİNİN XƏBƏR TUTMASI

Mədaində qərar tutduqda Şirin,
Tabaqlarla bal açdı ağzı şirin.
Bir ay dincəldi, oldu qəlbi rahət,
Xəbər tutdu gedib Xosrov, nəhayət.
O, qorxub şahdan ov adıyla getmiş,
Həm ordan Ərmənə doğru yol etmiş.
O dərmansız qalıb dərdləndi möhkəm,
Bir aciz halda qalmışdı o həmdəm.
O, evdən çıxmağa biganə oldu,
Səbirsiz qəlbi lap divanə oldu.
Yaqin oldu haman tək atlı oymuş,
Baxıb xeyli könül sevdaya uymuş
O, Xosrovmuş qəfildən yolda çıxdı,
Günəş tək gördü ayı, döndü, baxdı.
O gördü aldanıbdır burda möhkəm,
Özü öz başına döydü çəkib qəm.
Bir az səbr etdi, amma gördü sonra,
Tapar bir xəstəlik qalsa bu qayda.
Dedi: - Bir qəsr dağlarda tikilsin,
Ona layiq çəmənlik yer seçilsin.
O gülzar bəsləyən bir dağlıyam mən,
O gül rəngim saralmış istilərdən.
Ona bildirdi büt sima sənəmlər:
- Sən ey bütlər şamı, bəsdir bu qəmlər,
Səninçün əmr edib Xosrov səfalı,
Tapaq qəlb oxşayan bir yer havalı.
Buyursan işçi memar az zamanda,
Sənə bir yer tapar dağlıq məkanda.
Dedi Şirin: - Gərəkdir tezcə tikmək,
Elə bir qəsr şahənşah deyəntək.
Kənizlərdən ona çox qısqananlar
Çağırdı xəlvətə gəlsin o memar.
Dedilər: - Cadugərdir, nadir insan
Gəlibdir indi Babil dağlarından.[76]
Əgər çərxə desə, eylə sükunət,
O, tərpənməz yerindən ta qiyamət.
Elə bir yerdə istər qəsr o dilbər,
Havadan od tutub yansın o yerlər.
Ora üz tutmasın qorxub bir insan,
Xəbərlər tutmasınlar cadusundan
Bu caduya çalış, möhkəm hücum et,
Havası ən yaman bir yer bəyən, get.
Necə lazımsa orda qəsr tiksən,
İşə layiq də bir muzd istə bizdən.
İpək, xəz verdilər, həm bollu dinar,
İşin xərci üçün bir xeyli xərvar.
Görüncə xəznəni bənna sevindi,
Dedi: - Zəhmət çəkim lazımdır indi.
O, insandan kənar bir yer aradı,
Dolandı dağ-daşı, gördü nə vardı.
O, bir yer tapdı od-atəşli, qızmar,
Odu bir həftəyə tifli qocaldar.
O, Kirmanşahdan on fərsəng uzaqda,
Nə Kirmanşah, bu dünyadan qıraqda.
Gedib orda yarar iş qurdu bənna,
O, altı ayda bir qəsr etdi inşa.
Ora at sürsə hər kəs, yaxşı anlar,
Uyuşmaz bu acı hal ilə dildar.
Gecə ta gəldi mişki örtü etdi,
Saraydan çıxdı Şirin qəsrə getdi.
Kənizlərdən neçə bakirə qız həm,
O şəhvət məkri bilməz xeyli həmdəm,
O qəsrə gəldilər zindan kimi dar,
Deyərdin gövhər uddu orda daşlar.
Ona Xosrov qəmi olmuşdu həmdəm,
Kənar düşdü ürəkdən iki aləm.

### XOSROVUN ƏRMƏNƏ ÇATMASI

O yerdən getdi Xosrov, qaldı saf su,
Yox oldu yaş tökən gözlərdən uyğu.
O hər mənzil uzaqlaşdıqca ordan,
Ümidsiz qəlbi yandı ağrılardan.
Ümid gəldi, yenə şad oldu bir də,
Hələ çıxmırdı dağdan gün bu yerdə.
Tələssəm Şərqə fikr etdi bu yerdən,
Görəm bəlkə günü qarşımda birdən.
Yetişdi dağlara gül tək o qəmxar,
Xəbər tutdu yelindən mərzbanlar.
Çıxıb pişvaza məmurlar sərasər,
Gətirdi xidmətə çoxlu ipək, zər.

O, bütlər gördü, məclislər çırağı,
Dilərdi hər biri görsün qonağı.
Ona bütlər yaman xoş gəldi orda,
Yeri düşdü, bir az dincəldi orda.
Durub ordan Muğan səmtə yönəldi,
Muğandan sonra Baxərzana gəldi.
Məhinbanuya həm çatdı bu söhbət,
Tələsdi göstərə şahanə xidmət.
Qanadlandı haman şah qarşılansın,
Yaraqlansın qoşun, hazır dayansın.
Ədəblə xəznəyə layiq nələr var,
Ona göndərdi ondan ərməğanlar
İpək, gövhər, qulam, xəznə, zər oldu,
Qələm yazdıqca katiblər yoruldu.
O şah dərgahına həm gəldi Banu,
Nəvaziş gördü şahdan, güldü Banu.
Qoyuldu kürsü şah taxtı yanında,
Qalan durdu, oturdu Banu onda.
Soruşdu Banudan Xosrov hal-əhval,
Dedi: - Daim sevin, şadlıqla sən qal.
Qonaq gəldim sənə, verdimsə zəhmət,
Dilərdim görmə bir ağrı, əziyyət.
Görüncə mehribanlıq Banu ondan,
Qürur duydu bu xidmətdən o, candan.
Dil açdı tər-təzə sübhün yelindən,
Dua saçdı ona layiq dilindən.
Ona güclü bir arxa bəxş edib bəxt,
Pənah olmuş o Xosrov təxti tək təxt.
O bir həftə durub şah xidmətində,
Yeni nemət yığıb göndərdi gündə.
Yenə bir həftədən sonra o bir gün,
O cür gün görmədi göydə gəzən Gün.
Cavanlıqla oturmuş şah taxta,
Deyərdin sultan olmuş şah baxta.
Yeni çıxmışdı xətti sanki mərzə,
Tərə doğrar, salardı qəlbə lərzə.
Qulamlar Yağmadan gəlmişdi munis,[77]
Gözəl bir sərv bağı idi məclis.
Söz ağzında coşub qaynardı hər kəs,
Durub bir bəndə tək oynardı hər kəs.
Bir əngəl yox, qurulmuş eyş-işrət,
Nə bir yox vardı yardan, olsa hacət.
Məhinbanu baş əydi, qalxdı sonra,
Tutub üz Xosrova, dindi o rəna
Ki, paytaxt Bərdəni oxşa bir az sən,
Qışı orda keçir, rahatlan, əylən.
O yerlər istidir hər bir tərəfdən,
O yer boldu sudan, otdan, ələfdən.
Qəbul etdi sözü Xosrov haman dəm,
Dedi: -Qalxın gedin siz, mən də gələm.
Obaşdan şah buyurdu, qalxdı ordu,
Getaget düşdü Ağbağ səmtə doğru.[78]
Vətən-cənnət, ora üz tutdu köç həm,
Quruldu taxtı şahın orda möhkəm.

Çadırlar qurdu onlar hər tərəfdə,
Hərə bir yer götürdü orda səfdə.
Məhinbanu edib dərgaha hörmət,
Qüsursuz göstərirdi şaha xidmət.
Gecə-gündüz o şah işrətdə hər dəm,
İçir mey, könlü Şirinçün çəkir qəm.

### XOSROV MƏCLİSİNİN TƏRİFİ VƏ ŞAPURUN GƏLMƏSİ

O novruz axşamından xoş bir axşam,
O bayram gündüzündən qəlbə xoş kam!
Çadırda səslənir şahanə nəğmə,
Nədimlər vardı, malik təbə, zövqə.
Olur söhbətdə mövzu gah hikmət,
Lətifə, məzhəkə, hər dürlü söhbət.
Kəyan misli çadırlar xoş qurulmuş,
Alan tipli keçə möhkəm vurulmuş.
Qapı ağzında sıyrılmış qılınclar,
Gələn naməhrəm olsa, tezcə doğrar.
Çadırlarda yanırdı udla ənbər,
Yayırdı hər yana tüstü ətirlər.
Şərab ləzzətli, işrət qəlb açırdı,
Qızıl manqal yanır, odlar saçırdı,
Kömür Ərməndən idi, yanmaq əla,
Qara zənciydi eyşə bais amma,
Göbək mişki kimi bir rəng hər dəm,
Olur əvvəl o al, sonra qara həm.
Nədən ud xasiyyət bədmişk burda,
Qara rəngdən dönür al rəngə sonra.
Qara rəngdən yox artıq rəng o yanda,
Dönüb oldu qara al hardan onda?
Bu dövrandanmı öyrəndi o, hiylə,
Qara saçlar dönüb ağ oldu böylə?!
Bağında şölənin kəndli əlilə,
Bənövşə biçdi, sonra əkdi lalə,
O dağ qarğası tək paltar əyində,
Tutub öz qanını öz dimdiyində.
Qanad qartal üçün bir ox canında,
Qara rəng bir ilan möhrə yanında,
Kömür atəşpərəst bir hindli olmuş,
Gəlib Zərdüşt sanki "Zənd" oxumuş.
Həbəş bir mirzə Bulğar səmtə getmiş,
Tutub al rəng mürəkkəb də düzəltmiş.
Qızıl eylər o, reyhanlar kimi xoş,
Qışın reyhanıdır hər dəm od-ataş.
Sürahi bir xoruztək vaxtı anlar,
Xoruz tək ancaq o, vaxtında banlar.
Xoruzda gördülər oddan o tac var,
Yanır gah kəklik odda, gah turaclar.
Kabab ilə noğul axmaqda çay tək,
Gəlir kəklik kababı, bəzən ördək.
Qızıl bardaqda al rəngli şərab tək,
Turunc, alma öpüşməkdəydi bərk-bərk.





Bəzərdi məclisi hədsiz narınc, nar,
Düzəldib hoqqalar, oynardı ruzgar,
Təzə bir ruh ələ almışdı dünya,
Mey içməklə açıldı sübh amma.
İpəktel çəng çalanlar da bu yerdə,
Çəkib eşqin üzündən yırtdı pərdə.
İnildər pəhləvi nəğmə, dinir çəng,
Daşın da bağrını yandırdı bərk-bərk.
Kaman Musa kimi inlərdi hər dəm,
Çalan xanəndəni önlərdi hər dəm.
Qəzəl başlar müğənni, ayrı bir hal,
Ki, xoş qal, ey sevinc, ey eyş, xoş qal!
Nə xoş bağdır həyat bağı, sən olsan,
Əgər olmazsa bir qorxu xəzandan.
Zamanın gör nə əladır binası?
Əgər olsaydı daimi əsası.
O üzdən bu saray böylə soyuqdur,
Yeri sən qızdıran tək söyləyir: - Dur!
Bu torpaq məbədin boşdur əsası,
Burax, yellərdə qərq olsun binası!
Sabahdan, həm dünəndən bir xəbər yox!
O, getmiş ortadan, bundan əsər yox!
Bu bir gün nağd bəxş etmişdir əyyam,
Ona həm etibar yox ta bir axşam,
Gülək gəl burda barı bir ağız bərk,
Bir axşam qəlbi şadlıqla dirildək.
Bir axşam yatmağı tərk et, bacarsan,
Bu torpaqlarda gec-tez çox yatarsan.
Xumar olmuşdu şah, saqi mey əldə,
Müğənni nəğmə söylər bəmdə, zildə.
Bu vaxt gəldi gülüz bir sərv qamət,
Dedi Xosrov sevən nazlı o afət:
"Hüzura gəlmək istər bəndə Şapur,
Deyimmi gəlsin o, ya söyləyim: - Dur!"
Yerindən istədi şah tezcə dursun,
Ağıl hökm etdi təmkinlə otursun.
Gətirsinlər deyib əmr etdi tez şah,
Sevincdən qəlbi coşdu burda nagah.
Nigaran qəlbini ümmidlə qorxu,
Qılınc ilə iki bölmüşdü doğru.
Ürəklər parçalar göz yolda olmaq,
Böyük dərddir gözü yollarda qalmaq.
Yox isə dərdi –sər, olmaz kədər, qəm,
Gözü yollarda qalmaqdır betər qəm.
Nə bir kimsə gözü yollarda qalsın,
Nə ömr ondan gödəlsin, üz saralsın.
O Mani əlli nəqqaş gəldi, çıxdı,
Öpərkən torpağı izlər buraxdı.
Yeri öpdü, dayandı öz yerində,
Ayaq üstündə, şahın qənşərində.
Əziz tutdu onu şah, etdi hörmət,
Oturdu, oldu çadır dəxi xəlvət.
Xəbərlər sordu dağından, düzündən,
Əcaib əhvalatlardan, özündən.

O aqil etdi əvvəlcə dualar:
Uzun ömr eyləsin daim cahandar,
Ola məğlub ona hər yerdə yağı,
Başından düşməsin dövlət papağı,
Muradınca görə daim səadət,
Ola həm qisməti hər gün yeni bəxt.
Ararkən bu işə bir çarə bəndə,
Çəkər xeyli uzun şərh eyləyəndə,
Buyurmuş şah, necə ərz etməyim mən,
Necə istəklərincə getməyim mən?
O, əvvəldən dedi burda nə vardı,
Danışdı hər nəyi etdi, bacardı.
Necə gizləndi qızlardan o, dağda,
Necə bir çeşmə tək oldu o, peyda,
Gəzib hər çeşmə üstündə obaşdan,
Çıxarmaqdan Müqənnə tək Ay asan.[79]
Necə ovlandı surətlə o surət,
Necə bənd oldu bir şəklə o afət.
Necə bir hindli tək yoldan çıxardı,
Necə Türküstana tutdu apardı,
Düşüncə söhbət o təzə bahardan,
O dəm ah-nalə qalxdı hökmdardan.
Dedi, yalvardı: - O hüsnü günəşdən
Danış bir də, necə ram eylədin sən?
Ağıl işlətdim – ərz etdi sənətkar,
Bu yandan bəxti şahın oldu çox yar.
Gözüm oxçu gözü, mən yayı qurdum,
Gedib yayçı dükanında oturdum.
Gətirdim cəld ələ, tutdum o yan,
Gümüş belli o daş qəlbli nigarı.
Nə gördün? Bir zəka, bir nazlı sima,
Asılmış hər telindən ayrı İsa![80]
Üzü güldür, qara xal üzdə gövhər,
Bədən candır, badam içrə ləpə tər.
Dizindən ta üzə incə o bellə,
İki aləm olub bənd bircə tellə,
Qarışqa gözdə Xuzistan olan tək,
Kiçikdir ağzı, imkansızdı görmək.
Dodağı öpməmiş bir kimsə əsla
Öpübdür aynanı tək məst olanda.
Uzunluq etməmiş o əl, o barmaq,
Fəqət zülfüylə oynarkən o ancaq.
Telindən incə, nazikdir beli çox,
Adından ağzı şirindir, əcəb yox.
O Aydan fitnəyə düşmüşsə aləm,
Olubdur şaha bərk aşiq o Ay həm.
Çalışdım getmək üçün mən o rəna,
Düşündüm Şəbdiz üçün çarə sonra.
O Ay getdi gecə rəng ilə burdan,
Bununçün hiylələr qurdum firavan,
Mən oldum xəstə burda xeyli müddət,
Odur mənsiz yola düşdü o afət.
Çətinliklər görüb, məncə, firavan,
Yəqin şah qəsrinə çatmış o çoxdan.

Qucaq açdı ona Xosrov bu yerdə,
Onu qərq etdi şah gövhərdə, zərdə,
Təşəkkür çox dedi ustada sərvər,
Ürəkdən söylədi çox afərinlər.
O çeşmə söhbəti, orda yuyunmaq,
Deyirdi, söylənənlər düzdür ancaq,
Dedi şah da nə görmüşsə sərasər,
Dedi bir-bir olanlardan xeyir, şər
Bilindi burda o qəlb oxşayan quş,
Qanadlanmış, Mədain səmtə uçmuş.
Qərar oldu belə bir dəxi Şapur,
Olub pərvanə görsün hardadır nur.
O qaytarsın gedib zümrüdü kana,
Gətirsin tər gülü tər busitana.

## ŞİRİNİN HALINDAN XOSROVUN MƏHİNBANUYA XƏBƏR VERMƏSİ

Gözəldir bu həyat mülkü cahanda,
Cavanlıqdan gözəl gün yox zamanda.
Həyatdan xoş nə bir haq var, hesab var,
Cavanlıq tək nə xoş gün var, nə ruzgar!
Cahan şah Xosrovun mülkü cahandı,
Cavan idi, ürəkdən şən cavandı.
O içməz bircə qurtum nəğmə yoxsa,
Açılmaz könlü mütrüb yoxsa əsla.
Ayaqhaqqı desə xanəndə bir gün
Verər bir xəznə o hər nəğmə üçün.
O, əldə badə bir gün mey vururdu,
Məhinbanu gülər gəldi, oturdu.
Ona göstərdi Xosrov hörmət-izzət,
Olanlardan çox artıqdı bu hörmət.
Dedi Xosrov yemək vaxtı gələn dəm
Buyursun mobəd əvvəl bacübərsəm,[81]
Yeməkdən bir şeyə şah əl basınca,
Olardı bacübərsəm qaydasınca.
Bu qayda bacübərsəmdə beləydi:
Gərək mobəd xörəkdən dad biləydi.
İzin mobəd verir xeyli zamandır,
Xörəklərdən bu, yaxşı, o, yamandır.
Mey içməkçün oturduldu böyüklər,
Oturdu xoşqədəm Banu, o sərvər.
Onunla şah mey içdi ayrı camla,
Onunla söhbət etdi ehtiramla.
Acı meydən o, məst oldu nəhayət,
Yenə Şirinlə başlandı hekayət.
Danışdı qaçmasından Şirinin həm,
Könüldən şad idi, üzdə kədər, qəm:
"Qalıb bir qız, deyən, qardaşınızdan,
Üzü gül, sərv boylu dilbər insan.
Eşitdim at onu almış, qaçırmış,
Bir ənqa tək onu gözdən yaşırmış.
Bu gün evdən gəlib bir qasid insan,
Gətirmiş xoş xəbərlər həm o Aydan.
Əgər qalsam bir-iki həftə burda,
Yəqin billəm məkan tutmuş o, harda.
Adam göndərrəm, o, tapsın, gətirsin,
Mey iç sən, dərdi qəlbindən itirsin.
Məhinbanu eşitdi ta nə olmuş,
Tutuldu nitqi, qaldı xeyli bihuş
O, torpaq tək sərildi, yerdə qaldı,
Ürəkdən nalə etdi, həşr saldı.
Hanı dürrüm? Onu röyada görsəm,
Ətəkdən keç, dərin dəryada görsəm,
Bu kirpiklərlə qurtarram mən ordan,
Basıb da bağrıma, verrəm o dəm can."
O şah taxtından öpdü Banu sonra,
Dedi: - Taxtından öpsün Zöhrə Ayla,
Edə tacına səcdə külli-aləm!
Ola tabe sənə Qərb ilə Şərq həm!
Olar əldə o, söylərdim o vaxt mən,
Qovuşdu bəndə şah bəxtiylə görsən.
Sənin bəxtin bizə olduqca dost, yar,
Bu qayda tez gələr bəndə çox ovlar.
Adam göndərsə ardınca onun şah,
Olum mütləq gərək ondan mən agah,
Ona Gülgün kimi köhlən verim mən,
Olub Şəbdizlə bir döldən o köhlən.
Bir at yoxdur bu Şəbdiz misli yüyrək,
Ona Gülgün çatar olmazsa büdrək.
Əgər Şəbdiz bütün aydırsa hər vaxt,
Onun yol yoldaşı Gülgündür ancaq.
Əgər Şəbdiz daha yoxsa o yerdə,
Əvəz eylər onu Gülgün səfərdə.
Dedi şah: - Sən buyur gəlsin o köhlən,
Verilsin Şapura candan, ürəkdən.
Durub atlandı Şapur at gələn tək,
Yol aldı, getdi Gülgünlə o, təm-tək.
Uçub getdi Mədain səmtə doğru,
Bir ay gəzdi o ayı, etdi sorğu.
Sarayda tapmadı Aydan nişan da,
Onun öz qəsrinə yollandı onda.
Tapıb qəsri qapı döydü o insan,
Gələn şəxsə nişan göstərdi şahdan.
Onu cəld aldılar qəsrə adamlar,
Qəbul etdi onu xəlvətdə dildar.
O Şirin qəsrini Şapur görən dəm,
Cahandan gen, görür qəmli bir aləm.
Oturmuş daş yumurta içrə gövhər,
Cəhənnəmdə qalıb bir huri peykər.
O gövhərdən üzü ləl oldu, al rəng,
Baş əydi, yerlərə üz sürtdü bərk-bərk,
O ay simasına etdi dualar,
Soruşdu dərd-qəmlərdən nə söz var.
Necə oldu, dəf oldu zülm, bidad,
Qəmindən olmadım bir dəm mən azad.
Ümidim var çətinlik ötdü, keçdi,
Çətinlik bitdi, asanlıq yetişdi.





Nə yerdir bu? Ürək burda tapar dərd,
Belə bir yer seçibdir hansı namərd?
Bu zülmətdə işıq hardan saçar nur?!
Cəhənnəmdə necə qane olar hur?!
Bir üzrüm var, gecikməzdim heyif kaş!
Budur, ləlin yeri, ey ləl, olur daş!
O Çin nəqqaşını gördükdə dildar,
Bu dərdə gördü ki, onda açar var.
Həyadan əlləri örtdü üzünü,
Təşəkkürlərlə bildirdi sözünü.
Dedi: - Mən söyləsəm gördüm nə qəmlər,
Necə çəkdim bu yollarda sitəmlər.
Demək, ya dinləmək mümkünmü, söylə!
Qələm çək üstünə bir rəhm eylə!
Gəlib çatdım saraya sən deyən tək,
Neçə məlunla üzləşdim yaman bərk.
Kənizlər vardı bilməzdi xəcalət,
Kefindəydi hərə, al sən də ləzzət!
Açıb əl-qol hərə bir Zöhrə olmuş,
Nə var qiymətli, mizana qoyulmuş.
Təmiz, namuslu bir qız tək dedim mən,
O yolsuz dəstəni tez tərk edim mən,
Dedim qəlbimdə, xoşdur ayrı olmaq!
Durub köşk istədim onlardan ancaq.
Həsəddən bağrımı qan etdi onlar,
Mənə ibrət verib, incitdi onlar.
Qara daşlar olub bir səbr evim tək,
Acı olmaqla səbr olmuş qara rəng.
Bu qəlbə dərd yeri onlar seçibdir,
Yeganə çarə dözməkdir, keçibdir.
Dedi sonra ona Şapur ki, qalx tez,
Belə fərman veribdir orda Pərviz.
Onu Gülgünə tez mindirdi nəqqaş,
Murad gülzarına üz tutdu bir-baş.
Yəhər qoydu, atı tez mindi Şirin,
Qaçışda çərxi ötmüş sanki Pərvin.
At uçmaqda hümadır söyləyərdin,
Qanad vardır ayağında deyərdin.
Tükənmiş Xosrovun səbri, qərarı,
Üzürdü qəlbini yar intizarı.
Bəladır intizar ömrə binadan,
Vüsal olsa sonu, xoşdur, həm asan.
Nə xoşdur, intizar çəksən də sonda,
Ümidli yetsin ümmidə cahanda.

## HÖRMÜZÜN ÖLÜMÜNDƏN XOSROVUN XƏBƏR TUTMASI

Oturmuşdu yarımməst şah bir gün,
Oyanmır bəxt o, fikr eylərdi neyçün.
Tələsmiş gəldi bir qasid İrandan,
Filə Hinddən xəbər verdi nigaran.
O kirpik Çin kasasıymış, nəm olmuş,
O bel zənci tükü misli xəm olmuş.
O Çinli-zənci xətt məktub gətirdi
Ki, taxtı zəngi, Çin şahı itirdi.
Bu türk xislət Kəyan çərxi dönərkən,
Qaravulçu bax oldu iki gözdən.
İki mirvari minadan alındı,
O, sap tək iynəyə sonra salındı.
Qoyuldu pərdəsiz bir cüt oyunçu,
Bu bir mildir, deyil göz sürməsi bu.
İtirdi ədli Yusif tək bu divan,
Çəkir Yaqub dağı axırda dövran.
Sənə dünya görən göz verdi dünya,
Əsa verdi ona, nizə yox amma.
O aləm şahı yummuş aləmə göz,
Kəmər bağla, qisas al, bax budur söz.
O şahlıq taxtına məhrəm yaxınlar,
Yazırdı hər biri gizlin nələr var.
Amandır, tez yetiş, iş gör, iş anlat,
Cahan əldən gedir, heyhat! Heyhat!
Başın gilli isə, orda yuma, gəl!
Sözün ağzındasa, orda demə, gəl!
Bu Xosrov gördü ki, əyyam nə qıldı,
Kəməndlər açılıb, çadır yığıldı.
Dözüm yox bildi bu dövranda bərkə,
Bəqəm nil ilə saxlar, balla sirkə.
Bu torpaq mənzilə hər dəm budur hal:
Olur bəzən arı, bəzən olur bal.
Var işsizlik hər işdə, sevgidə kin,
Deyil turş, acıdan gen yağlı, şirin.
Nə bir arxı qoyar asudə qumlar,
Nə bir kuzə üçün daşdan aman var.
Vücud bəndindəsən, yol get bu qəmlə,
Rahatlıq istəsən, dost ol ədəmlə.
Yükü bir pak yelə gəl bağla can tək,
Qapı bağla bu torpaq qəsrə bərk-bərk
Nəyin var tez qapar bərk oğru dünya,
Tutarsan boş, salar çox bərkə sonra.
Hanı bir sap gəl axtar bu dükanda,
Onun olmaz bir iynə arxasında?
Kim içdi bir küdü burda sərin su,
Susuzluqdan saraldı, gör nədir bu?!
Ağaclar yaz gətirmiş bağça-bağda,
Tumurcuqlar açarkən gül budaqda,
Büküb sındırmasa bir bel bu dünya,
Bir arpa mumiya verməz o, əsla.
Kəfən bükməzlər, anla, ölmədən sən,
İpək qurdu deyilsən, çıx ipəkdən.
Nədir olmaq bu gül-gül rəngə möhtac,
Olar bir mürdəşir ilə o, tarac,
Geyin Ay tək, Günəş tək, eylə adət!
Səninlə yoldaş olsun ta qiyamət.
Ətək bir çırp olan hər süfrədən sən!
Bəsindir bir çörək, ol qane qəlbən!
Yetər dünya! Yetər bidad edirsən!
Məni qəmgin, səni sən şad edirsən!

Mənə sən qəm verirsən, olma heç şad!
Xarabam mən, səni olma heç abad!
Nə buğda göstərib arpa satırsan,
Çürük arpan var, amma üzdə buğdan.
Bükük bel buğdayam, bir solğun arpa,
Bir arpa görmədim, daddım nə buğda.
Sənə bəsdir bu buğda göstərənlik,
Dəyirman daşı olmaq fikri mənlik.
Bu yolda hər gecə xoşdur ürəklə
Oruc açsam o Ay tək bir çörəklə.
Nizami, bir kənar ol sanki İsa!
Qoy olsun ot yeyənlər malı dünya.
Ot otlarsan, minərsən eşşək, ey yar!
Hələ İsa məqamında gözün var.
Diriykən yük daşı eşşək kimi sən,
Olur eşşək əti yaxşı diriykən.

XOSROVUN PAYTAXT
MƏDAİNƏ GETMƏSİ

İlahi hökmünü məlum edirkən,
Əlindən Hörmüzün şahlıq gedirkən,
Cavan şah bir mübarək gündə, vaxtda,
Gəlib paytaxta, cəld əyləşdi taxta,
Ürək bənd olsa da Şirinə çox bərk,
Tamam yanlışdı etmək ölkəni tərk.
Bu yandan ölkəyə şahlıq edirdi,
O yandan yar üçün əldən gedirdi.
Tikib qurdu, cahanı etdi abad,
O, yurdu fitnələrdən etdi azad.
O ki, hər məzlum üçün dada yetdi,
O Kəsra ədli yaddan çıxdı, getdi.[84]
O, ölkə işlərindən qurtaranda,
Yenə başlardı eyş-işrət cahanda.
Gecə-gündüz işi ov, eyş-işrət,
Ov etmək, badə içmək etdi adət,
Ona qalib gələndə eşq, istək,
Yaxınlardan xəbərlər sordu bərk-bərk.
Ona bildirdilər, xeyli zaman var,
Atıb getmişdir o qəsri o dildar,
Hara Şapur apardı, bilmirik, biz,
Apardı bəs neçün şahdan izinsiz.
Qalıb heyrətdə dövranın işindən,
Çox aciz qaldı çərxin gərdişindən.
Ona Şəbdiz o yardan yadigardı,
Bu yerdə Xosrova bir qəmgüsardı.
Gecərəng ilə bədr ayı edib yad,
Dilərkən gövhəri daşla olur şad.

ŞAPURUN ŞİRİNİ YENİDƏN
ƏRMƏNƏ GƏTİRMƏSİ

Gətirdi qəsrdən Şirini Şapur,
O gördü ancaq orda şah yoxdur.
Onu Gülgündən endirdi bu yerdə,
O Banu gülşəni gül gördü bir də.
O, bağa sərv verdi, cənnətə hur,
Günəş bəxş etdi çərxə, gözlərə nur.
Qohum, qulluqçular şad oldu bundan,
Hamı olmuşdu Şirinçün pərişan.
Yer öpdü qarşısında görcək onlar,
Döşəndi yerlərə torpaq tək onlar.
Bu yerdə şükrə, şükrana hesab yox,
Həm atəşgaha mal vəqf etdilər çox.
Nə haldaydı o vaxt Banu, bilsən,
Sevincdən pərdədən çıxmışdı birdən.
Deyərdin bir qoca tapmış cavanlıq,
Dirilmişdir ölü, zənn et bir anlıq.
Sevincdən bağrına basdı onu bərk.
Həyat tapmışdı bu dünya yeni rəng.
Nə şadlıq, mehribanlıq duydu insan,
Onu yüz beyt ilə yox şərhə imkan.
Dedi: - Al xəznədən, mülkdən, nəyim var,
Nə istərsən, sənindir burda onlar.
Utanc ilə onu sındırmadı heç,
Nə olmuşsa, üzə həm vurmadı heç.
Yəqin bildi bu baş vermiş oyunlar
Dəlildir eşqə, sevdaya, nə söz var.
Nişanlar Banu sezmişdi o şahdan,
Gözəllərdən də sızmışdı bu dastan.
O, meylə kükrəyən küp gördü, ötdü,
Günəş gördü, onu palçıqla örtdü.
Könül verdi, qəbul etsin o, fərman,
Ürək qüvvət tapar, içsə o, dərman.
Nəvaziş, mərhəmət göstərdi hər dəm,
Dururdu köhnə əhd üstündə möhkəm.
Ona bəxş etdi yetmiş dilbər azad,
Gəzib əyləntsin, olsun hər zaman şad.
Oyunbazlıq sevən bu çərx bir də,
Onunla bir oyun qurdu bu yerdə.
Görüncə qızları Şirin alayla,
Bəzəndi sanki ulduzlar o Ayla.
Yenə başlandı aləm eyş-işrət,
O əvvəlki bazar tez tapdı vusət.

XOSROVUN BƏHRAMDAN QAÇIB
ƏRMƏNƏ GETMƏSİ

Haman fəthə açarda diş ki, vardır,
Dəmir bir rəy ona altun açardır.
O yüz qalpaqdan artıq şah papağı,
Qılınclardan iti fikrin bıçağı!
Sən on düşmən vurarsan bir qılıncla,
O bir rəy ordular məhv eylər amma.
O fikri güclü Bəhram oldu agah
Ki, Xosrov aləmə olmuş böyük şah.
Başında tac sevdası yaşardı,
Həm aldı, çünki güclü rəyi vardı.





Ona töhmət də yaxdı o bu üzdən,
Edibdir Hörmüzü guya o, gözdən.
O bilmirdi haçan Yusif ki, yoxdur,
Alar Yəqub gözündən aynlıq nur.
Yazıb hər bir kəsə məktub o, pünhan
Qoyurdu yaxşıya orda pis ünvan
Ki, əsla bu uşaqdan bir kar aşmaz,
Ata qətl eyləyən taxta yaraşmaz.
Ona bir qurtum al mey versə insan,
Gələr xoş yüz nəfər qardaş qanından.
Verər bir rud səsi üçün bir ölkə,
Olubdur nəğməyə aşiq, nə mülkə.
O bilmir iş nədir qızğınlığından,
O bilmir yaxşı – pis nadanlığından.
Hələ könlündə eşqin dərdi, dağı,
Dolubdur Şirin eşqiylə damağı.
Başalçaldan bu şuxdan döndərin üz,
Olarsa başçı, baş tapmazsınız siz.
Ona zəncir vurulsun, yol budur, bu!
Bu od, atəşlə yol getmək olurmu?!
O, zəncirlənsin, alsın bəlkə ibrət,
Və ya Hörmüz kimi tapsın o qismət.
Qılınclarla kəsin yol, qaçsa hardan,
Bura mən gəlmişəm sanki bir aslan.
Qisas üçün yanan şir gördü tədbir,
Rəiyyət şaha qarşı qalxdı əlbir.
O şahlar şahı ta gördü dönüb bəxt,
Tamam üz döndərib ondan rəiyyət.
Qızılla bəxtinə qüvvət verirdi,
Haman düşmənlə korluq göstərirdi.
Qoşun yığdı durub düşmən nəhayət,
Ayaq aldı şaha qarşı rəiyyət.
Yox idi arxa, aciz qaldı Pərviz,
Axırda son pənahı oldu Şəbdiz.
Bu qovğada itirdi tacı başdan,
Tacından oldusa, olmadı başdan.
Kəyan taxtından ayrıldı cavan şah,
Cahanı ayrı fateh tutdu nagah.
Oyunlar qurdu, şah gördü bu əyyam,
Qılınc ilə ona güc gəldi Bəhram.
Bu qanlı taxtada oynandı şahmat,
Onu hər xanədə qoydu yağı mat.
O, yolsuz-yollu hər hiyləylə, yolla
Azərbaycana gəldi bu üsulla,
Ürək bütxanə, muğ sevdası canda,
Çıxıb ordan məkan tutdu Muğanda.

XOSROVLA ŞİRİNİN
OVLAQDA RASTLAŞMASI

Bu cür söylər cahan görmüş sənətkar,
Gəlib çıxdı o səhraya cahandar,
Ov eylərdi o çöllərdə o yandan
Göründü toz bu Şirindən bu yandan.
Gözəl dostlarla o nurlar saçan Gün
Ov etməkçün o çöldəydi haman gün.
İki ovçu o çöldə oldular rast,
Ov etmək istədi hər ovçu sərrast.
Elə məst oldu eşq ilə iki yar,
Uzaq düşdü qalan dostlardan onlar.
İki sərv idi onlar, beldə oxdan,
Hədəf bir-birini seçmişdi çoxdan.
Ona şahlıq əli vermişdi bir tac,
Bu isə eyləmiş yüz tacı tarac.
Birində güldən üz göstərdi sünbül,
Birində sünbül içrə, bax qalıb gül.
Qulaqdan asmış ənbər tək saçı bu,
Atıb mişkin kəməndi çiyninə o.
Verir tuğu onun aya xəcalət,
Buxaqla bu aya bəxş etdi ziynət.
Nəzər çox saldılar bir-birlərinə,
O gözlərdən yaş axdı su yerinə.
Nə Şirindən düşürdü ayrı Pərviz,
Nə Gülgündən gəzirdi ayrı Şəbdiz.
Kök atdıqca bu dostluqlar dərindən,
Nişan, ad sordular bir-birlərindən.
Öz adları dilə gəldikdə birdən,
Sərildi yerlərə onlar yəhərdən.
Keçincə bir saat qaldırdılar baş,
Cəvahir saçdı gözlərdən axan yaş.
Hal-əhval sordu ondan bu, bu ondan,
Dedilər bir qədər yaxşı-yamandan.
Çox idi söz, çəkindi onlar ancaq,
Daha xoş gəldi burda az danışmaq,
Havanı başlayıb quş tək bu yerdə,
Durub əyləşdilər quş tək yəhərdə.
Yetişdi, gəldi hər yandan çox atlı,
Pəriüzlü gözəllər yel qanadlı.
Görürlər Ay, Günəş naz eyləyir çox,
Sevənlər eşq bürcündə, kədər yox.
Alovlanmış bu eşq, od qəlbə salmış,
O atlar xər kimi palçıqda qalmış.
Görənlər qaldılar mat xeyli burda,
Seçilmirdi o şah Şirindən əsla.
Dedi üç-dörd qarışqa burda pünhan
Ki, bu, Bilqeys olub, digər Süleyman.[86]
O dağda ordu toplandı o miqdar,
Öküz dözməz deyib yer çəkdi ahlar.
Qoşun gəlməkdə hər yandan dəmadəm,
Alırdı dövrəyə onları möhkəm.
Dedi Şirin bu yerdə: - Ey cahandar,
Nə mən, min mən kimi bəndən, qulun var.
Tacından asimanlar bəhrə almış,
Sənin taxtınla yer ərşə ucalmış,
Bu düzdür, yeddi iqlimdə olanlar
Sənin xas mülkün olmuş, ey cahandar,
Yaxınlıqda yol üstündə, ol agah,
Bizim bir hücrəmiz var, bəxş edib şah.





Əgər şah lütf edib təşrif gətirsə,
Bizə bir fəxr olar, diqqət yetirsə.
Qarışqa fərşinə bassa ayaq fil,
Görər bir düşkünün paltarı həm nil,
Dedi Xosrov: - Əgər mehman bəyənsən,
Durub mən canla gəlləm, can bəyənsən.
Yenə Şirin ona etdi dualar,
Şəkər saçdı, dedi çox-çox sənalar,
Adam göndərdi Banuya o dilbər,
Qonaqdan ta ona versin xəbərlər.
Məhinbanu olunca işdən agah,
Qərəzsiz gəlməyib bildi bura şah.
Gətirdi, gəldi dürlü ərməğanlar,
Şabaşlar gördü Şirinlə cahandar.
Gətirdi Xosrovu bir qəsrə, əla,
O bağdan bir budaq idi o Tuba.[87]
Haman qəsrin başı ərşə ucalmış,
Uzun, en ta iki meydan yer almış.
Yenə üzr istəyib göndərdi sovqat,
Ona şahlara layiq verdi sovqat.
Elə bir xəznə bəxş etdi o insan,
Yox idi saymağa taqət, nə imkan.
Ürəkdən şahı bənd etmişdi Şirin,
Bilirdi Şirini candan da şirin.

## MƏHİNBANUNUN ŞİRİNƏ ÖYÜD VERMƏSİ

Əkinçi torpağa səpsə təmiz dən,
Təmiz də dən verər torpaq o dəndən.
Təmiz bir kəs təmiz saxlarsa gövhər,
Bulaşdırmaz onu çirkə bu yerlər.
Məhinbanu təmiz gövhər bir insan,
Tutub işdən xəbər, oldu nigaran.
Onu almışdı fikri iki qəlbin,
Necə çör-çöplə atəş saziş etsin?!
Dedi Şirinə: - Ey aqil balam sən,
Gözəllər mülkünə şahlıq edərsən.
O bir nazına bir şahlıq dəyərmi?
Bu aləm bir tükün qədri qədərmi?
Olub kölgən, səni izlər səadət,
Sənə ziynət qoy olsun paklıq, ismət,
Camalın nura qərq etmiş cahanı,
O hüsnün ismətindir pasibanı.
Özün bir xəznə, üstündə möhür var,
Deyilsən yaxşıdan, pisdən xəbərdar.
Bu aləm göstərir çox hiylə, dastan,
Əzər yaqut, oğurlar dür çox asan.
Damıbdır könlümə gəlmiş cahangir,
Qovuşmaqçün sənə görməkdə tədbir.
Ürəkdən aşiqin olmuşsa Xosrov,
Çıxıbdır qarşına indi böyük ov.
Əgər görsən səbirsizlik edir şah,
Səni aldatmasın hiylə, ol agah.
Şirin dil töksə, aldanma, dayan sən,
Yeyər müftə o şirin halva birdən.
Səni bədnam edib tullar o sonra,
Gəzər bir ayrı yarı başda sevda.
Günəş nuruyla sən səbr ilə davran,
Çörəkdən tez nə təndir gör, nə düş yan.
Eşitdim saxlayır on min o, dilbər,
Saçı zəncir, dodaqlar sanki şəkkər.
O güllərlə onun qəlbi gülürkən,
Sevərmi bir gülü daim, nə dersən?!
Bacarmazsa, ələ gəlməzsə gövhər,
Onu almaqçün artıq cəhd eylər.
Səni əhdində sabit görsə hərgah,
Gəlib namuslu qız tək istəyər şah.
Bilər göylər də, vardır səndə ismət,
Sənə şahlıq olar dünyada qismət.
O, Aydırsa əgər, biz Afitabıq,
O, Keyxosrovsa, biz Əfrasiyabıq.[88]
Qəbahətdir kişi ardınca getmək,
Qadınlarçün eyibdir böylə etmək!
Dəriblər çox gülü, incə, tər, əla,
Atıblar iyləyəndən sonra amma.
Olub çox mey, qədəhlər dolmuş ondan,
İçib bir qurtum, atmış sonra insan.
Yəqin bil, eşqbazlıqdan cahanda,
Daha xoşdur ərə getmək zamanda.
Öyüd verdikcə o Banu bayaqdan,
Asırdı hər sözü Şirin qulaqdan.
Onun qəlbi o sözlərlə bir idi,
O sözlərlə şərik, həmxatir idi.
Durub yeddi göyə and içdi qəlbən,
Haman nurlu kitaba həm ürəkdən:
"Gözümdən qanlı yaş töksə fələk, bax!
Halal bi arvad ollam, olsam ancaq."
Eşitdi Banu, and içdi dilaram,
Bu sözdən qəlbi tapdı dinclik, aram.
İzin verdi ona çöldə, sarayda,
Otursun şahla istərsə nə qayda.
Bu şərtlə gəzməsin şahla o, xəlvət,
Onunla eyləsin çoxluqda söhbət.
Oturmuşdu yenə Şirin, Şəmira,
Çəmən, çöl güllər ilə ayrı dünya.
Yenə bir gün Günəş çöldə gülərkən
Yığıldı bir təpə, bax, lalələrdən.
Qoşun çəkdi Günəş, bir kəşfiyyatçı
O dəm Bərcisə, Nahidə ox atdı.[89]
O tənha şəxs qəlbində qəzəb, kin,
Döyüş başlatdı ulduzlarla kəskin.
Dişi aslan kimi yetmiş gözəl qız,
Yenə Şirinə üz tutdu qərarsız.
Hərə mərdlikdə bir İsfəndiyardı,
Oxu Rüstəm tək onlar bərk atardı.[90]
Çevik, cəld idilər, oynansa çovkan,
Fələkdən top alardı onlar asan.

Taxıb oxdanları zövq ilə sərvə,
Durub əyləşdilər quş tək yəhərdə.
Rübənd ilə Ayı cəld örtdü onlar,
O şaha xidmətə üz tutdu onlar.
Görüb onları hacib etdi hörmət,
Yetirdi şah özü onlara diqqət.
Görüb Şirini şah durdu anında,
O, Şirini oturtdu sağ yanında.
Gözəllər gördü, qəlbi eyləyir bənd,
Saray şəkkər dolu, amma şəhər qənd.
O bilmirdi necə güc var, ciyər var,
Bu meydan bütlərində nə hünər var.
O bütlər həm baxıb görsün deyib şah,
Tələsmiş getdi meydan səmtə nagah.
Gəlib meydanda onlar ta ki, durdu,
Pəri üzlər sevincindən uçurdu.
Hər Ay orda Günəş tək etdi cövlan,
Dönüb hər kəklik oldu orda tərlan.
Görür Xosrov bu quşlar nə olurmuş,
Çəməndə qırqovul, ovda qızılquş.
Dedi Şirinə şah: - At oynadaq biz,
Bu düzdə top qovaq, ləzzət dadaq biz.
O şah çovkanına kimsə top atdı,
Gözəllər coşdu, bir hay-küy qopartdı.
Söyüdlük oldu yol çovkanla birdən,
Aya sürtürdü səndəl yer söyüddən.[91]
Yel alsa o söyüddən bir top asan,
Sınar həm Gün topu burda o topdan.
O Ay idi, o qızlardı bu yanda,
O şah idi, o xadimlər o yanda.
Oyunlar göstərirdi şir maralla,
Edirdi yağma şahin qırqovulla.
Aparmaqla topu gah Ay, gah Gün,
Girov Şirin verir, gah şah onunçün.
Yetincə kama top-çovkandan onlar,
Gəzib zövq aldılar meydandan onlar.
Minib Şəbdizlə Gülgünü, əcəb yox.
O meydan dövrəsində gəzdilər çox.
Yenə at çapdılar səhraya ordan,
Ov üçün etdilər çöllərdə cövlan.
Ov etdi növbənöv onlar yaman çox,
Neçəydi, kim bilər, həd yox, hesab yox.
O qədr atmışdı nizə nazəninlər,
Qulanlarçün qamışlıq oldu yerlər.
İgid xatunlar ox-yay işlədərkən,
Didərgin düşdü ceyranlar çəməndən.
Dişi şirlərdə şah görcək cəsarət,
Onun qəlbində yurd salmışdı heyrət.
Hərə meydanda sanki bir hümadır,
Deyərdin ovda hər kəs əjdahadır.
Baxıb Şirinə şah fikr etdi pünhan:
"Nə sovqat bəxş edər tale bu ovdan".
Görüb göz, sağrı o ahuda nagah,
Əyan oldu ov olmuşdur özü şah.

Qılınc əldə maral sərməst durmuş,
O, ceyran ovlayırkən şiri vurmuş.
Ov eylərkən o fateh əldə şəmşir,
Ov oldu burda Xosrov tək cahangir.
O al rəngli tovuz bağdan qaçanda
Bağa gül yığmağa üz tutdu qarğa.[92]
Tovuzlar cilvələnməkdən yoruldu,
O qarğa rənglər üstdə hazır oldu.
Yuvalarda hamı üz-göz qapatdı,
Gedib ta sübhəcən dincəldi, yatdı.
Səhərsə öpmək üçün asitandan
Gəlib dərgaha səf qurdu hər insan,
Haman çovkanla top başlandı bir də,
Ov ovlandı və quş quşlandı bir də.
Bir ay ömr etdilər burda bu cür şən,
Şikayət etmədi kimsə bu işdən.
Çox axtardı tapa fürsət bir an şah,
Edə Şirini mətləbdən bir agah.
Ona üz vermədi amma bu fürsət,
Yox idi açmağa bəndi o möhlət.
Bir axşam baldodaq çöldən dönəndə,
Hüma eşqin səmasından enəndə,
Dedi Xosrov: - Sən ey hüsnə olan şah!
Camalın bəxt üçün olmuş nəzərgah.
Səhər tezdən obaşdan gəl duraq biz,
Fələkdən kam alaq, kam axtaraq biz.
O mey gəlsin, sevinc olsun fikirdə,
Sevinc ilə ömür keçsin bu yerdə.
Bu məbəddə olaq şad, ya çəkək qəm,
Deyilsən arxayın neylər bu aləm.
Bu məbəddən əgər labüdsə getmək,
Kədər, qəm yox, gözəldir şadlıq etmək.
Göz üstə qoydu əl burda o rəna,
Yer öpdü, həm "gecən xoş" gəldi sonra,
Bu vədi aldısa Xosrov o Aydan,
Sabah bəs nolacaq, qaldı nigaran.

## XOSROVLA ŞİRİNİN BAHAR VAXTI ƏYLƏNMƏSİ

Yaşıl geymiş, qocalmış asiman ta
Göyərdər göy budaqlar orda-burda,
Qoca olsun, cavan bir dəxi təkrar,
Çəkər öz qoynuna al rəngli gülzar!
Qurub Kavus taxtı gül bu yerdən,
Bənövşə bir tovuz olmuşdu birdən.
Deyirdi çöldə quşlar eşqə dastan,
Təzə başlandı köhnə eşq başdan.
Sevindi Xosrovun Şirinlə canı,
Sevinclər qoynuna aldı cahanı.
Gülürdü ilk bahar, şaddı könüllər,
Sevincdən paltarı yırtırdı güllər.
Sevincdən gül ələm qaldırdı bağda,
Qoşun çəkdikdə qumru, qaçdı qarğa.





Səmən saqiydi, tutmuş canı nərgiz,
Bənövşəydi xumar, gül dərd-sərsiz.
Açıb örpək gözəllərdən səba, bax,
Çatıb aşiqlərə bundan səda, bax!
Şimal əsdi, gəlir hay-küy sorağı
Öküzgüclə vuruşdu fılqulağı,
Çəmən, çöl lalə örtmüşdü camalə,
Beşik olmuşdu mərzənquşa lalə,
Çəməndə sərv qamət göstərən tək
Onun eşqiylə lalə cırdı köynək.
Bənövşə çiyninə tökmüşdü tellər.
Qulağın nəsrinin açmışdı yellər.
O reyhan qızları qalmış əl üzdə,
Darardı zülfünü gül çöldə, düzdə.
İkicanlıydı torpaq, gör nə qayda,
Göbəkdən bitkilər eylərdi peyda.
Çəmən üstə hava səpmişdi gövhər,
Taxıb mirvariyə zümrüd təzə-tər.
Süd ilə məst olan hər körpə ceyran,
Anasıyla gəzirdi düzdə heyran.
Qanad tökmüş gül üstə qırqovullar,
Qanad almış özü güllərdən onlar.
Açılmış bir bahar hər bir budaqda,
Tuturdu hədyə hər bir gül qucaqda.
Turac qaqqıltısı, bülbül sədası,
Hər aşiq səbrinin olmuş bəlası,
Belə eşq oxşayan xoş bir zamanda,
Günahdır eşqsiz olmaq bir an da.
Gecə-gündüz gəzib Xosrovla Şirin,
Hər ovlaqda keçirdi vaxtı şirin.
Gəzib çöllərdə bəzən mey içərkən.
Gedib gül dərdilər dağlarda bəzən.
Keçib güldən-gülə camla iki yar,
Gəlir sərməst olub Şahruda onlar
Ata Şahrudda onlar bənd vurdu,
Dil açdı nəğmə, onlar şad oturdu.
Gülüşlərdən şəkər saçdıqca Şirin,
Qamış Şahrudda qənd olmuşdu şirin.
Necə can tapdı meysandan sədəflər,
Haman onlarla da Şahrud tərəflər.
O mişkin zülf olan yerdə nə ənbər?!
Onun bal ləlinə qurban o şəkkər.
Elə güldü balı şəkkər görərkən
O Xuzistana yetdi nalə, şivən.
Nəsimiylə müfərəh oldu həmdəm,
Dəvaəlmişk qaçar duysa qoxu həm,
Boyu bir sərv idi şah divanında,
Olar Tuba bir ot ancaq yanında.
Haman nərgizlərə salsa nəzər gül,
Dişiylə cismini çeynər, əzər gül,
Ağa ikən gülə bir yasəmən də
Bu gün bu qaş-gözə olmuşdu bəndə.

## MƏCLİSDƏ XOSROVUN ŞİR ÖLDÜRMƏSİ

Gəzinti fikrinə şah düşdü bir gün,
Yanında Şirin idi, hüsnü Ay, Gün,
Kimə qəlb oxşayan yar olsa həmdəm,
Olar hər yan ona cənnət bir aləm.
Gözəl yer tapdılar onlar çəməndən,
Yox idi başqa ot orda süsəndən.
O cənnət güşə içrə durdu onlar,
Cavan şaha çadır həm qurdu onlar.
Çadır ətrafına qullar, kənizlər
Düzüldü Ay yanında sanki Ülkər.
Olub Xosrovla Şirin burda bir can,
Asıldı tək ayaqdan hicr dardan,
Əlində ləl cam tutmuşdu saqi,
Gülüb söylərdi: - Olsun eyş baqi!
Məhəbbət meylə olmuş burda həmdəm,
İki meydən o şah məst idi möhkəm.
Qəfildən toz qopardıb çıxdı yandan
O yerdə qorxulu qızmış bir aslan.
Qoşun səmtə o cumdu məstlər tək,
Qoşunda qopdu çaxnaşma yaman bərk.
Yaxınlaşmışdı xeyli barigaha,
Qəzəblə həmlə etdi məst şaha.
Qılıncsız, həm zirehsiz sıçrayıb şah,
Atıldı şirin üstə onda nagah,
Elə bərk vurdu yumruqla başından.
İtirdi huşunu zərbindən aslan,
Kəsilsin başı əmr etdi o sonra,
Çıxardılsın dəri boynundan amma.
O gündən şahlar etdi möhkəm iqrar:
Qılıncsız durmasın məclisdə şahlar.
Əgər şir gövdəliydi Pərviz, amma
Olar təmkinli şahlar harda olsa.
Döyüşdü şirlə şah məst olduğundan,
Ad adlı "şir yıxan" məstkən o insan.
Edib şir yıxmağı mümkün bəhanə,
Əlindən şahın öpdü o yeganə.
Edirkən ağzını şirin o dilbər,
Əli şahın öpüşdən oldu şəkkər.
Ləbindən öpdü, bir baldır dedi şah!
Öpər burdan olarsa hər kim agah.
Bir ilk qasid kimi gəldi şəkər cam
Apardı şahdın o, Şirinə peyğam!
Əgər içsə o, yüz-yüz camı sonra,
O ilk camı çıxarmaz yaddan əsla.
O ilk camın bir aləmdir səfası,
Yüz ayrı camdan artıqdır bahası.
Meyin ilk camı ki, saf oldu hər dəm,
Qarışdı sonrakı cam xılta möhkəm.
Açılsa arx yanında bir gül əvvəl,
Olar yüz bağçadan ətri mükəmməl.
Sədəfdən ilk qanın dürr ovlasan sən,





Olar qiymətli çox lölö səfindən.
Xörəklərdə nə çoxdur dadlı nemət,
Qazan ağzında çoxdur amma ləzzət.
İki aşiq belə ta şərbət içdi,
O həsrətlər, o qəmlər ötdü, keçdi.
Bir an gördükdə xəlvət yerlərini,
Tuturdu südlə mey tək bir-birini
Taparkən gövhəri sanki bir oğru,
Görür ki, məst olub çoxdan qoruqçu.
Güdürdü düşməni onlar bu gözlə,
Əkirdi bağda gül, reyhan o gözlə.
Görərkən düşmənə mil çəkdi fürsət,
Oğurlar daxi bir busə qənimət.
Ayıq vaxtı utancaqdı o rəna,
Ləbə tapmazdı yol simurğ hətta.
Fəqət meydən sənəm sərməst olan dəm,
Olardı busədə şahla o həmdəm.
Qucaqlardı onu Xosrov da bərk-bərk,
Tutub sincabı atlas geydirəntək.
Üzündən dəmbədəm şah dişləyərkən,
Bənövşə boylanırdı nilufərdən.
Göyərməkdən çəkirdi Ay xəcalət,
Edir göylükdə Ay seyrü səyahət.
Ayıq, sərxoş, necə olsa o insan,
Əlindən gül kimi düşməzdi kirşan.

XOSROVUN ŞİRİNLƏ
İŞRƏT MƏCLİSİ QURMASI

Gecəydi, amma gündüzdən də parlaq!
İşıqlanmışdı aləm Aydan ancaq.
Dolub İsa nəfəsiylə damağı,
Nə o yel ki, qaraldar hər çırağı.
Qaranlıqdan tək onda bir nişan var,
Gecə abi-həyatı gizli saxlar.
Gecərəng pərdə altda yoxdu kimsə,
Ona pərdə tutan ismətdən özgə.
Alırdı canın alnından səba toz,
Baxıb diş göstərirdi sübhə ulduz.
Gecə niyyət yolunda bir gecəydi,
Doğulmuş o gecə hər kam, nəydi?!
O yandan Zöhrə səpməkdəydi gövhər,
Bu yandan Ay sapa düzməkdə dürlər.
Yer ölçür mişk, tutmuş əldə xarvar,
Havasa qaliyə sürtür və paylar.
Sevinclə mişk saçdıqca o yellər,
Yerin bağrı tamam olmuşdu ənbər.
Baharın ətri tutmuşdu cahanı,
Qəmari ud tutub ətrə havanı.
Gecə nəğmə dolu, dindikcə Zöhrə,
Tutub bir həftəlik Ay cam əldə.
Durub Ülkər o məclisdə olub xas,
Üfüqlərdə Ütarid daxi rəqqas.
Oyansınlar deyib quşlar gecələr,
Tutub zəng bağlamışdı şəbpərələr.
Tapıb yem nəşədən heyvanla qurd-quş,
Hərə öz mənzilində mütrüb olmuş.
Əgər çox müxtəlif idi səs, ahəng,
Gecə sazıyla olmuşdu həmahəng.
Oturdu şah Firidun taxtı üstdə,
O Cəmşid dinini etmişdi qiblə.
Onun Şirin camalıydı çırağı,
Bir özgə şəmə meyl etməz damağı.
Əsir yellər, ətir saçmaqda güllər,
Verirdi Şirinə şahdan xəbərlər.
Belə bir xoş gecə bir də olarmı?
De, bundan xoş ətir dünyada varmı?
Vüsaldan bəs neçün gendə qalaq biz?
Əgər nuruqsa, bir yerdə olaq biz.
Qan olduqsa, qanın coşmur nədən bəs?
Coşursa, görmürəm neyçün, de mən bəs?!
Hava xoşdur, nədən xoş gülməyək bir?!
Yapılmazmı çörək, istiysə təndir?!
Nə hər gün tər-təzə gəlmiş bahar həm,
Nə hər saat tora ov düşdü möhkəm.
Yeyilsin ruzi xoşdur olsa qismət,
Görülsün görməli iş ta nə söhbət?
Aparmışlar çörək ovçu üçün çox,
Yedi quşlar, balıqlar, bir əcəb yox.
Kələkbaz tülküyə qurd dedi hikmət:
"Mən axtardım, sənə oldu o, qismət."
O Ayla söylənildikcə bu sözlər
Bir Ay tək çıxdı düz yoldan o dilbər.
O bir də vurdu zəncir divə bərk-bərk,
Mələk qaytardı and üstə igid tək.
O yanda taxta şahənşah oturmuş,
Neçə qullar ayaq üstündə durmuş.
Durub Şapur önündə Xosrovun tək
Keşikdə "Yel gətirmiş xəzinə"yə bərk.[96]
Günəştək bütpərəst Ayı o yanda,
Oturmuş nar məmə on büt yanında.
Firəngizlə uca boylu Süheyla,
Əcəbnuşla, Fələknazla Hümeyla.
Humayun, həm Səməntürk, həm Pərizad,
Xütənxatunla Gövhərmülk könül şad.
İşə düşdü gülabla ləl təkrar,
Üzü etmişdilər ləl ilə gülnar.
Həya süfrəsini məstlik yığanda,
Ağıl getdi o məclisdən bir anda.
Dedi Xosrov: "Bu bənzərsiz gözəllər
Hərə növbəylə dastan söyləsinlər."
Qəsəb geymiş, tutub ləli qucaqda,
Ayı örtmüş qəsəb, ləli qulaqda,
O qaşlar yay idi, oxlardı qəmzə,
Hamı atmaqda düz, görməkdə incə.
Qoyub şirinliyə bir tüng şəkərdən,
Şəkərdən hər biri tüng açdı birdən.





ŞİRİNİN RƏFİQƏLƏRİNİN
ƏFSANƏ SÖYLƏMƏLƏRİ

Firəngiz başladı əvvəlcə dastan:
"Edibmiş yerdə dövlət xəznə pünhan,
Firidun xəznədən olmuş xəbərdar
Qazıb tapmış, aparmış hər nə şey var"
Dedi sonra gümüş sima Süheyla:
"Gəzərkən qırqovul bir sərvin altda,
Enib axşamçağı şahin səmadan,
Haman nazlı quşu tez tutdu asan."
Əcəbnuş açdı dillər, saçdı şəkkər:
"Açıldı bağda bir gül, ətri ənbər,
Görüb ənbər gülü, qırdı, apardı.
Uçub cənnət quşu gülzara vardı."
Fələknaz söylədi bir yaxşı dastan:
"Biz ancaq bir göz açmışdıq cahandan,
Bizə dost oldu burda daxi bir göz,
İki göz yaxşıdır birdən, budur söz."
Humeyla söylədi: "Bir saf su vardı,
Yaşıl gülşəndə aramla axardı,
Susuz qalmış cavan bir şir yetişdi,
Qəfildən gəldi, ordan bir su içdi."
Humayın söylədi: "Bir ləl vardı,
Müdam yağma olunmaqdan kənardı.
Gəlib şah bəxti etdi ləli tarac,
Onu bir küncünə aldı haman tac."
Səməntürk – yasəmən əndam dedi həm,
"Sədəfdən düşdü ayrı dürr bir dəm,
Fələk bir şaha etmişdi onu bənd,
Bir ayrı yaqut ilə etdi peyvənd."
Pəriüzlü Pərizad dedi: "Hər dəm
Sevinclər gördü ovlaqda bir Ay həm,
Gəlib göydən Günəş ovlaq yerinə,
O Ayı çəkdi birdən çənbərinə."
Xütənxatun dedi qəlbən olub şad:
"Gəzirkən tək qəsəb geymiş o şümşad,
Qovuşdu sərv ilə şümşad nagah,
Gözəldir sərv ola şümşada həmrah."
Dil açdı daxi Gövhərmülk sonra:
"Qalırdı xeyli müddət Zöhrə tənha,
Səadət açdı ta bəxtin əlini,
Qovuşdu, tapdı Zöhrə Müştərini."
Gəlib Şapura çatdı sözdə növbət,
Məhəbbətdən yeni rəng aldı söhbət.
"Əgər bal idi Şirin bir dolu cam,
Ona yağ oldu Xosrov, tapdılar kam.
Mən o rənglər qatan şəxsəm, həmanam,
Bişən halvada yəni zəfəranam."
O sonra pəhləvicə açdı dastan:
"Yaşa dünya, bizə verdin iki can!
İki parlaq çıraqsız bu cahana,
Sizi heç görməsin ayrı zamana!"
Açınca ağzı Şirin xoş nəzərlə,
Hava mişk ilə doldu, çöl şəkərlə.
Danışdıqca yerə baxdı həyadan:
"Yox idi eşqə eş, könlüm nigaran,
Gəlib Şapur işə çarə tapınca,
Bu işdən qəlbim oldu parça-parça.
Olubsa bir yazı sevda qəzası,
Nə yazmışsa o yazmış intəhası.
İpin çatmış ucu xoş nəqşə çox bərk,
Sevincdəndir üzüm olmuş ipək tək.
Mənə qismətsə Xosrovdan noğul, cam,
Neçə Keyxosrovu mən qul tək allam."
Dedi Xosrov ona növbə yetəndə:
"Qara bir şir yaşarmış bir çəməndə,
Maral varmış, o yerdən şir keçirmiş,
O, Şirin boynuna zəncir keçirmiş.
Bu ovlaqda mənəm indi haman şir,
Olub boynumda Şirin zülfü zəncir.
Əlimdən tutmasa Şirin də bir dəm,
Küləkdən şam sönən tək mən də sönnəm.
Mənimlə hərb edərsə bir qara şir,
Bu Şirinlə zəfər mütləq mənimdir."
O dostlar əhl idi, həmcins hərifler,
Qatıblar hər sözə əl, can veriblər.
Ürək məhrəmsə, torpaq səthə bənzər,
Bir əl vursan, olar mütləq təmiz, tər.
Qızışdı könlü Şirinin bu yerdə,
Yanaşdı Xosrova lütf ilə bir də.
"Qədəh meylə dolu, üz-göz tamam al,
O verdi şaha "Nuş olsun! Buyur al."
O bakir ləldən ta ləl alırdı,
Açıb şah gül kimi razı qalırdı.
Dedi bəzən: - Gecə, bax, köçmək istər,
Sən ağla, ey qədəh, gülsün o dilbər.
Dedi gah: - Diş ağartma, ey səhər sən!
Mənə güldürmə afaqı, yetər sən!
O məclis zinəti bütlərlə amma
Üzük oynatdı göylər sübh olunca.
Gəlincə sübh üzük qapdı apardı,
Xoruz gəzdi üzük, bir hay qopardı.
Sevincdən faydalar gördü gözəllər,
Qayıtdı şəhrə onlar, qaldı çöllər.
Yedilər aləmi, qəm yox bir arpa,
Sevinc əskilmədi heç bir samanca.
Günün şüşəsini ta qırdı daşlar,
Cahan da xalqa oldu şüşətək dar.
Ələ mey şüşəsi onlar götürdü,
Şüşə tək qalxdı mey, başda oturdu.
O şüşə qəlblərə çarx etdi həmlə,
Şüşə oynatmaq öyrətdi o, həm də.
Mey içməkdə sevinc bir qul bu yerdə,
Bu işrətlə gecə can tapdı bir də.
Ötən əfsanələr bir də deyildi,
Keçən dürdanələr bir də deşildi.
Həvəsdən qəlbi şahın cuş edirdi.





O yarı yad edib mey nuş edirdi.
Tovuzdur al şərab, amma ilansız,
Nə şirindir o xurma, həm tikansız.
Şərab ilə qədəh tutmuş bir əldə,
Tutub bir dəstə gül bir digər əldə.
İçib meydən gülü qoxlardı hər dəm,
O yarın könlünü yoxlardı hər dəm.
Acı mey canına etdi əsər çox,
O, Şirinə yetirirdi nəzər çox.
Dedi qəmzə ona bir xeyli mənа,
Öpüşlərlə dodaq bağlıydı amma,
Haman naz ilə, eyhamlarla hər dəm
Alırdı hər sual üçün cavab həm.
Sözü gizlətdi onlar işvələrlə,
Dedilər hər nə varsa, qəmzələrlə.
Gecə oldu gözətçi daim onlar,
Gecə çox-çox fikir çəkdi iki yar.
O şahı istidən basdı tamam tər,
O, sübhün eyşinə gəzdi səbəblər.
Necə Şirini tutsun bir zaman məst,
O şəkkər tüngünə etsin nə cür qəsd,
Ələ düşmürdü bir fürsət, bir imkan,
Hədəf səmtə ox atsın şah yaydan.
Ürək şad idi gördükcə o yarı,
Keçirdi sübhəcən xoş ruzigarı.
O gülgün rəng günün şəbdizinə bərk
Cilov vurdu söyüd üstdə o gül tək.
Minib Gülgünlə Şəbdizə bərabər
Günəşlə Ay ov üçün gəzdi çöllər.
Suyu baldan da xoş Şahrudda bəzən
Cahan min nəşə duydu rudla meydən.
Kürə gah vurdu onlar bərk zəncir,
Balıq, quş tutdular etməklə tədbir.
Gəzib at sürdülər Məntura doğru,
Nə ceyran qoydular orda, nə ahu,
Keçirdi günləri hər dəm bu qayda,
Yemək-içməkdə, seyranda, gah ovda.
Gecə çərxin qızı vurdu ələ rəng,
Üzə ulduzları etdi bir örpək.
O şah yarı da gərdəkdən göründü,
Üzündən hər tərəf nura büründü.
Gözəllər oldular dəxi ona yar,
Bütün məclis gözəllər, şahsa bikar.
Şəkər çoxdu, az idi badam orda,
Göyərçin çox, az idi şahin amma.
Hamı yad etdi şahı, mey götürdü,
Səsiylə aləmi dəf, ney götürdü.
O rudsuz bir gecə olmazdı onlar, -
Şərabsız bir zaman qalmazdı onlar.
Şərab, məşuqə, gənclik, bir də gülzar.
Düşün, bundan gözəl yəni həyat var!
Gülü, gülzarı hər dəm seyrə dalmaq,
Mey içmək, camı bir dilbərdən almaq!
Qolu yar boynuna salmaq bir az bərk,
Dolanmaq nara bir tər narivən tək.
Ətəyindən onun tutmaq bir əllə,
Toxunmaq nəbzinə bir digər əllə.
Baxıb bir çarə gəzmək qəmzə ilə,
Durub nərd oynamaq bir busə ilə.
Baharı tutmaq ağuşunda möhkəm,
Qulağa bir bənövşə bağlamaq həm.
Demək sirrini yarın gah qulağa,
Demək qəmdən yenə qəlb ovlamağa.
Cahan ancaq budur, yox bu, cahanda!
Əgər varsa, gedər qalmaz bir anda.
Gecə xoş bir gecə idi, bahardı,
Səadət göstərib üz, bəxt yardı.
Gecə gündüz kimi Aydan alır nur,
Qədəh tutmuş gecə nurlar saçan hur.
Günəşdən parlaq o Ay şöləsində,
Gedirdi mey söyüdlər kölgəsində.
Deyir "Nuş olsun!" o saqi, ötür quş,
Ürəkdən ayrılıq dərdi yox olmuş.
Şamamayla ləyaqət söyləyir sir,
Nə ayətlər səba eylərdi təfsir.
Gözəllər sərv boylu, hüsnü aləm,
Açılmış hər birindən bir bahar həm.
Camı atmış biri, tutmuş dəf əldə,
Gülabdan vardı o digər gözəldə.

## XOSROVUN ŞİRİNDƏN MURAD ALMAQ İSTƏMƏSİ VƏ ONUN MANE OLMASI

Qədəhlər dövr edib qızdıqca meydan,
Ağırlaşmışdı başlar yatmamaqdan.
Oturmaqdan yaman məst oldu dostlar,
Hamı getməkdə şahla oldu həmkar.
Xumarlıqdan düşüb saqi ayaqdan,
Yuxu mütrübləri tutmuş bayaqdan.
Qurulmuşdu o məclis, yoxdu əğyar,
Açılmış gül, yox idi amma bir xar.
Tamam keçdi bu vaxt Xosrov səbirdən,
O arzu ovuna üz tutdu birdən.
O qıvrım zülfünü tutdu nigarın,
Xilas oldu əlindən ruzigarın.
Ləbindən öpdü ki, bax bir qulam mən,
Tora düşmüş quşam, gəl barı səp dən.
Nə getmişsə ömürdən, söylə, getsin,
Yeni gündür, yeni bir ruzi yetsin.
Bu səndən, məndən özgə burda kim var?
Nədir dəxi çəkinmək, bu, nə rəftar?!
Bu bağrı yanmışa dərman özün ol!
Əgər oldunsa ruzim, gəl bu gün ol!
Nədir bir meyvə verməz bir ağac tək,
Ümid etmək, əbəs hər zülmə dözmək?
Əgər bir körpü lap göy daşdan olsa,
Su üstdə olmasa, yox xeyri əsla.
Görər qəssab iti hər dəm ciyər çox,

Yeyər öz bağını, ancaq ciyər yox.
Qara rəngli bulud çox dəstə tutmuş,
Edib naz kəndlinin bağın qurutmuş.
Şoranlar var su görsəndi o, çox vaxt,
Susuzlar ağzına doldurdu torpaq.
Tökürsən cama, de, neyçün zəhər sən,
Dönürsən sonra Şirin ad verirsən.
Məgər tər laldən mümkünmü keçmək?
Onu yaxşı olar tər vaxtı deşmək.
Yemək lazım quzu körpə olarkən,
Yetişsə, qurda qismətdir görərsən.
Göyərçin körpə ikən etsə pərvaz,
O şah tərlanı gəlsə, bilmək olmaz.
Dayanma məst şir tək pəncə üstə!
Bu bizdən şir yıxan bir pəncə istə.
Maral dağda olur hərçənd məğrur,
Kəməndi çarənin amma uzundur.
Əgər çöldə qaçar ahular od tək,
Qaçar şah itləri daxi yaman bərk.
Düyün vurma o xəttə, xala çox sən,
Zəkat ver, malını qurtar xətərdən.
Olarsa müştəri nilinə möhtac,
Əgər lap Nilə düşsən də, yükü aç.
Şəkər tək lütf ilə dilləndi Şirin
Cavab verdi nabat tək dadlı, şirin:
"Bu bir torpaq nə adla, ixtiyarla,
Otursun taxta birgə tacidarla?
O caldlik görmürəm mən eşşəyimdən,
Ərəb atiyla ta bəhsə girim mən.
Nə var məndə o güc bərk at sürüm mən,
Hər ov şiriylə bir bəhsə girim mən.
Əgər naz eylədim, qəsdim əyandır,
Yeməzlər isti vaxtı bal, ziyandır.
Bu qızğınlıq ötüb keçsə bir az-maz,
Mənə şəkkər, şah üçün qənd pis olmaz.
Əqiq üstündə almaz durdu sonra,
Keşikçi zümrüdə əfiydi burda.
Başında təslim olmazlıq xəyalı,
Necəydi qəlbinin, ey tanrı, halı?!
Üzü al rəng, tamam olmuş tikan tək,
Gözəldir gül bitirmiş xarı görmək!
O şir tək hər tükü sərt idi, qızmar,
Durur qaqum tükü altında aşkar.
Qaşın yayı çatılmışdı yaman bərk,
Hədəf səmtə uçurdu qəmzə ox tək.
Döyüşməkçün götürmüş qəmzə mizraq,
Var idi hər döyüşdə bir barışmaq.
Təbəssümlər deyir sorma ləbimdən.
Yüz "et" söylərdi bir "etmə" deyirkən.
Qəzəb var üzdə, örtülmüş yanaqlar,
"Mənə bax ortada!" - söylər buxaqlar.
Sükut möhrü dodağında bu yanda,
Durur həlqə qulağında o yanda.
Hesabsız sayda naz eylər bu bir göz,
Dönüb sonra bir üzr istər o bir göz.
Bəzərdi məclisi saçlarla oynu,
O, üz döndərsə, üzr istərdi boynu.
Görüb şah qəlbi bu istəklə yandı,
Mürüvvət tutduğu işdən utandı.
O tərpəndi, çevirdi şaha arxa,
Odu ağ bir kükürd söndürdü burda.
Çevirməklə bu cür arxa o dilbər,
Dedi: "Arxam o şah olsa, bəs eylər."
Dedim mən səhv, o, taxt göstərdi sırf ac,
Gərəkdir şah üçün həm taxt, həm tac.
Var idi burda bir ayrı hesab həm:
Üzüm tək qiblədir arxam da hər dəm.
Və bir də bir üzüm çıxsa əlindən,
Daha parlaq bir üz ərz eylərəm mən.
Gözəllər eyləyən nazda nələr var,
Qovub gözdən, yenə gözdə ararlar.
Bozardıb bir gözü söylər ki, dur, get!
Bir ayrı göz deyər: "Tez qaçma, rəhm et."
Dəyər yüz cana o rəğbət ki canan
Deyər yox sevmirəm, istər o, candan.
Görüb dərk etdi Xosrov ta o Ayda
Bu dərdə çarəyə yox meyl əsla.
Bir az üzlü dedi: - Qorx, ey dilaram!
Tutulmuş kimsəni az döy, ol aram!
Mey içdin, həm mənə mey verdin, ey yar,
Nədən mən sərxoş oldum, sənsə huşyar?!
Ayıqlıq eyləmə mənlə ki, məstsən,
Mənim tək qəlbi həm qeyb etmisən sən.
Nədən bu kəkliyi sən sındırırsan?
Aparmış kəkliyini eşq – o tərlan.
Ürəkdə sirri örtmək istəsən sən,
Döyüş qəlbinlə sən bəlkə dözərsən.
Yetər sən də yürüş başla, təbil vur,
Quyudan sən get Əyyuqda çadır qur![98]
Bu sevdada iti, kəskin qılınc var,
Qaçarlar burda gücdən dəm vuranlar.
Bilirsən ki, qılınc oynatsa dövran,
Cəsurluq göstərən olmuş başından.
Çalışmırsa ola qəlbin mənə yar,
De, barı işvələr satsın riyakar,
Desin dostam, deyilsə dost əsla,
Ona yox xeyri, şad ollam mən amma.
Nə çox fallar açılmış bir oyuntək,
O ulduz keçdi, həm fal oldu gerçək.
Nə yaxşı söyləmiş mənə bilən şəxs:
"Həmişə xeyrə aç fal, ey bilən kəs!"
Yaman fikr eyləsən, fal da gələr bəd,
Desən yaxşı, görərsən yaxşı qismət.
O ləlindən mən aldım busə ancaq,
Halal eylə, haram etmə, özün bax!
Dodaq mən bağlaram lap, istəsən sən,
Belə tezliklə yox, yannam bu işdən.
Budur qorxum: cırarsan üz o bir gün,





Mənim tək aşiqi öldürdüyünçün.
Səni bir gün tutar qan, yaxşı olmaz,
Qanı aşiqlərin heç yerdə qalmaz.
Tutaq ki, istəmirsən mehribanlıq,
Öpüş meylin də yox artıq bir anlıq,
O cürət yoxdur ağzından öpüm mən,
Öpüm qoy astanandan, ya ətəkdən.
Deməzdim busəni bir sədqə eylə,
Ləbi dad bilmək üçün töhfə eylə.
Özün bir busə ver, qalx on götür sən,
Məgər bundan gözəl alver görübsən?!
O tacirsən ki, yüz xarvar yığıb qənd,
Vurursan bircə qənd üçün bu cür bənd.
Əgər açsan, səninçün də açarlar,
Əgər sən bağlasan, bağlar, qaçarlar.
Götürsə çeşmədən çox su o səqqa,
Azalmaz çeşmədən su, artar amma.
Qucaqlardım səni sanki bulud su,
Canımsan sən, qılınc vurmaq olurmu?!
Sənin zülfün nə xain oğru imiş,
Nəyim vardırsa, gündüz qarət etmiş.
O oğru hindumu, bil, tutmasam mən,
Bir oğru hindu adlandır məni sən.
Olarsa oğruda lap yüz cəsarət,
Çığırsan bəhrə verməz daxi cürət.
Kəmənd zülfü götür bir boynuma sal,
Arıq ovla bir axşam razı sən qal,
Könül almaqda ol ki, mən satım can,
Sən ol saqi, içim mən badə candan.
Vüsal axşamıdır, gülsün dodaqlar,
Qorunsun sevgidən yanmış çıraqlar.
Qulağı sırğalı istər qul olmaq,
Satan mən, bəs sənə qaldı qul almaq
Öpüş saymaq işim olsun bu axşam,
Öpüş ver sən, nolar mən busə saysam.
Nolar tale qapısından girək bir,
Bu tale xoşsa, xoş dəmlər görək bir.
Haman bu bir gecə gəl çəkməyək qəm,
Sabah kim hökm edər, bilməz bir adəm.
Var ikən bu gecə nəqd əldə, bir söz,
Sabahkı nisyəyə dikmək nədir göz!?
O qıvrım zülfü oynatma, yetər sən,
Mənimlə bir gecə oyna, tut əldən.
Bu könlüm cana gəldi, eylə dərman,
Hasar et qoynunu, əldən gedir can.
Bu candan dadlı, şirin çeşməsən, bax,
Yarar can tək səni ağuşa almaq.
Ayağından, ya başından öpəm mən,
Dadar bal hər yerin digər yerindən.
Nə şirinlik ki, var, vardır o səndə,
Düz etmişlər sənə Şirin deyəndə.
Bu şadlıqda, yetər, sən olma qəmgin,
Nə Şirinsən, işin olmazsa şirin."
Dedi: - Sındırma əhdi – o dodaq bal,
Peşiman ol, səbirlə əhdə düz qal!
Yaraşmaz əhdini sındırsa bir şah,
Baxılmaz yaxşı, pis iş tutsa hərgah.
Elə su gəzmə, o, üzdən tökər su,
Nə lazım, eyləmə bitməz bir arzu.
Bu kam ilə mən ollam burda nakam,
Sən olsan bir od, ataş, mən ud ollam.
Yox ikən eşq qəlbim mehribandı,
Bu eşq gəldi, tamam ruhum oyandı.
Baxıb təbə əgər ölçü götürsəm,
Səninlə xoş keçirrəm vaxtı hər dəm.
Uduzmaz nərd özüylə kimsə ancaq,
Olurmu hər zaman qəlbi şad olmaq.
Yarı aləm onunçündür olaq şad,
O bir yarı qazanmaqçün təmiz ad.
Nə lazım təbə vermək hər zaman kam,
İki yaxşı ad olsun dəxi bədnam.
Olar xoş düşməyək ayrı həyadan,
Və sonra çəkməyək qorxu xudadan.
Qadın yıxmaq – bu, mərdlikdən uzaqdır,
Yıxan öz nəfsini haqq ilə haqdır.
O kəs ki,nəfsini yıxdı, ucaldı,
Yıxan öz nəfsini, dünyanı aldı.
Məni şirin ağac bil xoş təravət
Ki, vardır halva məndə, həm də şərbət.
Sən əvvəl şərbətə ol qane məndən,
Tələsmə, vaxt olar halva yeyərsən.
Yetər şərbət, düşünmə indi halva,
Verərlər öncə şərbət, halva sonra.
Bu boyda ortada qənd var, şəkər var,
O Xuzistanla bəs nəymiş bu rəftar?!
O vaxtlar xoş gələr insana saf su,
Onunla söndürərlər qəlbdə odu.
Başından aşsa bir su, o, ziyandır,
Həyat çeşməsi lap olsa hamandır.
Səni sevmirsə qəlbim burda, canan,
O qəlbə bənzəyər sevməz o bir can.
Yeməz qızdırmalı bir kimsə halva,
Dəyərmi görsün o, illərlə səfra.
Görüncə Şirini şah işdə lap xam,
Dili ötkəmsə də, gördü olar ram.
Dönüb yalvardı: - Ey bir nurlu Ay, sən,
Qəbulumdur nə qayda naz etsən.
Savab olmazmı əl tutmaq bu yerdə,
Nədir əl bağlayıb atmaq bu yerdə?
Yüyürdüm ki, sənə bəlkə çatam mən
Səni əldə edəm, səndən tutam mən!
Görəndə zülfünə bağlanmışam mən,
Ələ gəldinsə sən, getdim mən əldən.
Deməzdim, andını gəl qır vəfada,
Xumarım sınmağa ver busə amma.
Əsiri vədə ilə eylə sən şad,
Mübarək ölmüşü et qəmdən azad.
Yetirsin bir qucaq gül vəsl bağın,

Məni qoymuş tikan üstdə fərağın.
Gülaba bəlkə mən batdım o güldən,
Gülüstan ətri ilə şad olum mən.
Özün sərxoş, ucu zülfün həm əldə,
Pis olmaz bir sevinc duysam könüldə.
Səninlə mey içib məst olmayımmı?
Sevincdən sənlə bir pay almayımmı?
Kəmər bağlansa sənlə oldu zərrin,
Səninlə gülsəm, ağzım oldu şirin.
Nə qaç məndən necə möhrə ilandan,
Nə mən güldən qalım, nə sən tikandan.
Sən ayrılsan mənim dərdi – sərimdən,
Mən ollam bu başımdan, dərddən sən.
Apar ye bağrımı, sənsən o yarım.
Yoxumdur səndən artıq bir nigarım.
Üzün almazsa qəlb, onda dad olmaz,
Olar qəlbim, o qəlb ancaq şad olmaz,
Gözüm istərsə səndən qeyrə baxmaq,
Tikan batsın ona hər dəm qoy ancaq.
Əgər can döndərərsə üz üzündən,
Gələr evlənmyi yatsa gözündən.
Olarsa ortada daxi məzəmmət,
Miyançı olmağa zülfün kifayət!
Bu cür çox söz dedi, xeyli rəm atdı,
Tutub Şirini zülfündən o, yatdı.
O yaqut camı göylər oynadırkən
O bir qurtumla yaqut aldı yerdən.
Əlində camı şah durdu, oyandı,
Dünənki meydən o, məstdi, əyandı.
Tutub sevda yapışmışdı ətəkdən,
O atəşdən od almış daxi xərmən.
Od-ataş püskürürdü başda sevda,
Quru otdan çəkinmək yoxdu əsla.
O, tutmuş nar məmə dildarı bərk-bərk,
O taxta üstə bağlanmış ipək tək,
Çalışdı burda Şirin xeyli candan,
Xilas oldu o şirdən ta ki ceyran.
Belə qızğınlığı gördükdə şahda,
Dedi: - Etmə belə qızğınlıq əsla.
Qızışdırmaq nə lazım qəlbi naçar,
Üzə ağ olmağım daxi mənim var.
Bu cür qızğınlıq etsən, yaxşı olmaz,
Əgər bir gül qızışsa, ətri qalmaz.
Ağa eylərsə vərdiş çox danışmaq,
Olar qulluqçu da onda üzə ağ.
Nədir qulluqçu ilə söhbət açmaq?!
Cəza verməK gərək, ya susmaq ancaq!
Olarsa yolda axsaq şahlıq atı,
Çətindir çox düzəlsin bir muradı.
Sənə şahlıq verən gün, bil ki, dövran
Muradın tez girər zorla qapından.
Əlində cam ola, kündə ayaqda,
O sərxoşda ayıqlıq olmaz əsla.
Budur mən burdayam, get şahlıq al sən,
Onu qaytar, əlindən qaçmıram mən,
O dövlətsiz naxışdan salma söhbət,
Olar bir yerdə ancaq mən və dövlət!
Sevib mən dövləti, verrəm sənə can,
Məni dövlətlə bilmə düşmən insan!
Sevin ta dövlətə sən sahib oldun,
Yemə qəm, sən ki xoş gündə doğuldun.
Sən əvvəl bəxti axtar, sonra gəz cam,
Tapılmaz xəznə, olmazsansa aram.
Dil əvvəl, sonra söz, göz, sonra həm nur,
Üzüm olmazsa əvvəl, badə olmur.
Səbirlə mümkün olmuş kama yetmək,
Həm aram ilə dilarama yetmək.
Bu qızğınlıqla iş heç cür düzəlməz,
Keçi qaçmaqla, bir sözdür, kökəlməz.
Bu sərgərdanlıq olmuşkən arada,
Olurmu mən yetim şahla murada?!
Əgər mən baş qoşub olsam sənə yar,
İşindən sən qalarsan mənlə naçar.
Sən əvvəl şahlığı al, mülkü qaytar,
Mən ollam mütləq olsa bəxtimiz, yar.
Bu həmdəmliklə şad olsan, sevinsən,
Olarsan şahlığından, qorxuram mən.
Xəyalında əgər varsa şah olmaq,
Gərəkdir ayrılaq mütləq biz ancaq.
Qədimdən mülkünüz olmuş bu dünya,
Eyibdir qalsa yad əllərdə amma.
Bu dünyanı tutublar cəld olanlar,
Durub baxmaqla olmuş kim cahandar?!
Hər işdə ləngimək mümkün də olsa,
Buna şahlıqda bir mümkün yox əsla.
Əgər şahlıqda, sən diqqətlə baxsan,
Udubdur əzmilə tez hərbə qalxan.
Cavansan, şahlığın, aslanlığın var,
Döyüş, ancaq başın üçün tac axtar.
Ayağından bu mülkün fitnəni aç,
Nəyə qadirsən, aç göstər, hünər saç.
Nəyin vardı o hindu gəldi, aldı,
Edib türklük o, taxtı-tacı çaldı.
Qılınc vur cisminə, bağrı yarılsın.
Elə et, tilsimi bəlkə qırılsın.
Əgər şahlar əli axtarsa bir kam,
Tutar bəzən qılınc, bəzən qızıl cam.
Yerindən dur, ələ hindu qılınc al,
Gələr altı cəhətdən ordu dərhal,
Səninlə yar olar göylər də birbaş,
Səninlə düşmən üstə yağdırar daş.
Bir əl mən də yetirrəm olsa imkan,
Əgər yox, əllərim qalmaz duadan.
O atəşdən alındı, qızdı çox şah,
O hirslə Şəbdiz üstə qalxdı nagah.
Acıqla söylədi: - Getdim, gecən xoş!
Çıxa lap qarşıma dərya, ya ataş.
Xuda bilsin, o oddan dönmərəm mən,





Gedib islanmaram tükcə dənizdən.
Nə zənn etdin, olarmı daxi yatmaq!
Düşündüm, yatmağı bir yolluq atmaq.
Yeri qazmaq gərək bir fil boyunca,
Tuluq verrəm, qoy əzsin fil doyunca.
Fil ollam yastığa baş qoymaram mən,
Söz olmaz burda daxi saxsı fildən.
Nə nadandım, dam üstə sürdüm eşşək,
Onu endirrəm ordan bir biləntək.
Bacarsam da gözəl kuzə qayırmaq,
Bacarram mən yerə çırpıb da qırmaq.
Mənə qəhr ilə lazım yaxmaq odlar,
Həm odda yanmaq öyrənmək nə cür var.
O qorxutmaq məni, bitməz muradın,
O mədlik dərsi keçməkdə iradın!..
Məni tacımdan etdi eşq, sevdan,
Başından oldu eşq ilə çox insan.
Əgər olmazdısa eşqin başımda,
Uzaq düşməzdi tacından başım da.
Fələk tək boynumu saldın kəməndə,
Buraxdın hər necə saldınsa bəndə.
Verib bir badə məst etdin məni sən,
Ayaqdan bəndə saldın məst olurkən.
Olunca məst, əcəb, dur söyləyirsən,
Ayıq düşmənlə get, çarpış deyirsən.
Bəli, düşmənlə qalxıb hərbə girrəm,
Quyudan da xilas ollam haman dəm.
Yola düşməkdir artıq məndə niyyət,
Gedim ardınca, iş çoxdur həqiqət.
Öyüd verdin, yadımdan çıxmaz əsla.
Gərək səy eyləyim burda nə olsa.
Məni halımdan etdin sən xəbərdar,
Dedin yaxşı – yamandan hər nə söz var.
Mənim əvvəl var idi yaxşı baxtım,
Var idi başda tacım, həm də taxtım.
Bu aləmdə məni avarə etdin,
Yaman günlü, yaman biçarə etdin.
Qəmin almazdısa tərkə əlilə,
Gələrdim mən bura hansı yel ilə?!
Mənimlə xoş dolandın xeyli müddət,
Edərdin çox şirin, çox dadlı söhbət.
Uzaq dur indi mehrimdən deyirsən,
Özün verdin izin, artıq gedim mən.
Bu getmək vardı, mən nadan deyildim,
O cür də bədgüman mehman deyildim.
Oturdum, süfrə açdın sən ürəkdən,
Çörək heybəmdədir, artıq gedim mən.
Ayağıyla atı tərpətdi sonra,
Qoşun çəkdi o Gülgün adlı yolla.

## XOSROVUN HİRSLƏNİB ŞİRİNİN YANINDAN RUMA GETMƏSİ VƏ MƏRYƏMLƏ EVLƏNMƏSİ

Ürək Şirindən inciq yol gedirdi,
O, Ruma çatmağa tez cəhd edirdi.
O yollar qorxulu, mümkündü tarac,
Dəbilqə başda idi sanki bir tac.
O qorxur Bəhrama məxsus adamlar,
Görərlər, eyləyirdi usta rəftar.
Var idi dörd qanad bir qartal altda,
Qılıncı bir nəhəng, ancaq əl altda.
Yetişdi məbədə, bir vaxt keşişlər,
Ona ulduzdan, aydan söz demişlər.
Edib ordan da dərya səmtə təcil,
İki at mənzili yol getdi mil-mil.
Atı sürətlə ordan sürdü möhkəm,
Yetişdi Qeysərə, Qonstantinə həm.
Olunca Qeysərə məlum nədir hal,
Bunu bildi o, Rum üçün xeyir fal.
Bu iqbalı uğurlu bəxt bildi,
Durub hörmətlə o, pişvaza gəldi.
Görür Qeysər qapı açmış özü bəxt,
Ona təslim olundu tac ilə təxt.
O İsa din bu işdən oldu çox şad,
Qızı Məryəm şah üçün oldu arvad.
Haman şahanə toyda şahla Qeysər,
Bəyan etmişdilər çox əhd-şərtlər.
O qızla bəxtiyar şah dastanından
O Rum əhlindən ərz etdi nə dastan,
Niyatusla qoşun çəkməkdən orda,
Cinahlar düzməsindən orda-burda.
Demişdir başqası, bəhs etmirəm mən,
Gedib yatmışdır o, mən bir oyaqkən.
Əgər mən nırxını qırsam kiminsə,
Mənim də nırxımı qırmazmı kimsə!?

## XOSROVUN BƏHRAMLA VURUŞMAQ ÜÇÜN QOŞUN ÇƏKMƏSİ VƏ QƏLƏBƏ QAZANMASI

Qalıb şah orda əyləndi beş-on gün,
Bir ordu istədi hərbə köməkçün.
Ona saysız qoşun bəxş etdi Qeysər,
Qızıl kəsdi, düzəldi ondan işlər.
Qoşun toplandı saysız şah yanında,
Dağ üstə dağ qalandı, coşdu dərya.
Dəmir bir dağ ki, tərpəndi yerindən,
Deyərdin oynadı yer məhvərindən.
Seçib qırx-əlli min mərd pəhlivanlar,
Döyüş görmüş, vürüşqan qəhrəmanlar,
O etdi həmlə, bir düşməndi Bəhram,
Zirehlər paltar olmuşdu, qılınc cam.
Xəbər tutduqda Bəhram halı bildi,
Ov eylər şir kimi meydana gəldi.
Edərsə tülkülük işdə əgər bəxt,





Nə fayda, şahlıq olsun, tac, ya taxt?!
İki ordu düzüb səf, çəkdi xəncər.
Cinahda, qəlbdə düzləndi səflər.
O qədr oxlar, qılınclar çak-çak etdi,
O filin beyni, şirin bağrı getdi.
Təbil gurlar, ölənlər çaş-baş olmuş,
Dirilərdən aparmış hərb ağıl, huş.
Nal almış atların dımağı oddan,
Dönübdür lələ qandan, sağrı, yalman.
Ərəb atlar coşub girdikcə hərbə,
Qulağı yerlərin pay aldı civə.
Qılınclar əldə şimşəklər saçırdı,
O şirlər hər tərəfdən diş qıcırdı.
Əcəl can almağa gözlərdi fürsət,
Oyunlar göstərir hər dəm qiyamət.
Cahanda sanki məhşər başlamış tək,
Bülövlər nizə döşlərdə ucu bərk.
Meşə olmuşdu hər yan nizələrdən,
Yox idi qaçmağa bir yol o yerdən.
Nə şirdən orda ceyran qurtarardı,
Qılınclardan nə şir can qurtarardı.
Tutub oxlar zirehlər altda yerlər,
O gül yarpağı altda sanki yellər.
Gəzirdi qanlı oxlar sanki qartal,
Yazıb quzğunlar üçün hökm dərhal.
Zəhərlənmiş zirehlərdən damır qan
Yıxılırdı zireh geymişlər ondan
O Əyyuqa çatırdı qanlı dalğa,
Dolub bayraqda muncuqlar da qanla.
Qınlmış nizələrlə burda hər dəm
Darardı zülfü bayraqda səba həm.
Ölən sərvərləri görcək nəzərlər
Ətək cırdı fələk, həm sinə yerlər.
Həmail bağladı orda hər insan,
Qılıncdan bu biri, qeyri yaradan.
Guruldar türk neyi, hər yanda qovğa,
O türklərdə görünmür hay-küy əsla.
İpək bayraqlar al rəngdə ucaldı,
Qamışlıq sən deyərdin ki, od aldı.
Cumur qan tökməyə saysız qılınclar,
Nə çöllərdə o sayda daşla qum var.
O oxlar gör can almaqda nə hayda!
Xəzan yarpaq da tökməz heç o sayda.
Fil üstündə qurulmuş şah üçün taxt,
Qılınclar hər yanında vardı sərvaxt.
Büzürgümmidsə məst fil qarşısında,
Hey üstürlabı seyr eylərdi onda.
Baxır, fürsət gəzir görsün nələr var,
Haçan süstlük tapar düşməndə bazar.
Gəlirkən vaxt dedi şaha: - Tələs sən,
Mübarəkdir bu tale, vermə əldən.
Qisas üçün gəlib qovğa qopardın,
Sən oynat fili şah rüx vur, apardın!
Yerindən fili tərpətdi o şah bərk.
O, Bəhram səmtə cumdu, coşdu Nil tək.
Onu toppuzla şah vurduqda birdən,
O fil gövdə yıxıldı, düşdü fildən.
O dünya yandıran oldu tamam xar,
Qazandı hərbi Xosrov, bəxt idi yar.
Axan qanlar nə sellər gör qopardı,
O sellər başları toptək apardı.
Kəmənd bir zəncir idi rumlularda,
O zənci zülfünə bənzərdi orda.
Haman hindu qılınc kim gəldi qarşı,
O gürcü qıvrımı tək kəsdi başı.
O Bəhramlar yaman çaxnaşdılar bərk,
İşıq görmüş o bir sərsəm adam tək.
Xilas oldu o qırğından çox az kəs,
O Bəhramla yara almış neçə şəxs.
Görüb Bəhram gücündən razıdır bərk,
Cahan yıxdı onu Bəhram Gur tək.
Sınar, gördüm, özündən razı insan,
Qalarsan sağ, gözün ilə bacarsan.
Əgər bir kimsə görsə bədnəzərdir,
Baxarsa yaxşı gözlə, bu, zərərdir.
Haçan Xosrovdan üz döndərdi Bəhram,
O, düşmən istəyincə oldu nakam.
Belə çox yandırar xırman bu dövran,
Oyunbazla oyun oynarmı insan?!
O hansı sərvi bəslər bərk, ucaldar,
Yenə əyməz onu dərd ilə təkrar?!
O hansı bir gülü bəslər, çəkər naz,
Yenə axırda soldurmaz, saraltmaz?!
Ağızda hər tikə dadmaz ki, şəkkər?
Bu mey gah saf olur, gah xılt içərlər.
Bu yer şadlıq, o yer qəmdir deyərlər,
Ayaq burda, başa orda döyərlər.
Elə yer var ki, mütrüb dindirər saz,
Elə yer, növhəçi qaldırmış avaz.
Bu sazdan, növhədən qalxan səda, səs,
Bu günbəddə çürük bir cevzə dəyməz.
Bu təndir istidir, sən tök odun çox,
Tikan doldur ona, gül, fərqi heç yox.
Ala bir köhlənə minmiş bu dünya,
Təpik dadmaq var əql üçün hesabda.
Fələk mavi bir at minmiş, qaçır bərk,
Gərək qaçsın bu ruh, etsin yolu tərk.
Bu dövrana inanmaq olmaz əsla,
Vəfa bir kimsəyə etməz bu dünya.
Yaman sərt oldu Bəhram Çubinə bəxt,
Dönüb şah Xosrova qaldı qılınc, taxt.
O getdi Çinə alnında qırışlar,
"Qəza üz verdi", tək alnında xətt var.
Bu zülmə düşmədi burda o, tənha,
Oyun çox göstərib böylə bu dünya.

## XOSROVUN İKİNCİ DƏFƏ TAXTA OTURMASI

Balıq bürcündən Ay baş qaldırarkən,
O şah bürcündə Xosrov tutdu məskən.
Sövrdən Zöhrə, Xərçəngdənsə Bürcis
Səadət bəxş edir təslislə təsdis.
Həməl bürcündə Gün saçmaqdadır nur,
Zühəl Dəlv içrə nurlarla dolubdur.
Ütarid orda Cövzada nigaran,
Baxırdı Şir yıxan Mərrixə heyran.
Zənəb Mərrixi tutmuşdu oraqda
Zühəl rəs ilə yatmış bir yataqda.[100]
Zəfər vermişdi tale burda bəxtə,
Oturdu şah gəlib firuzə təxtə.
Bütün ağla qara ondan olub şad,
O, Şərqə, Qərbə yüksəltdi uca ad.
Yerində qaydaya düşdükcə dövlət,
Günü-gündən yeni güc tapdı, qüvvət.
Gəmiylə dür verib, dəryaca gövhər,
Ucaltdı Ülkərə bir taxt o sərvər.
O gövhər çoxluğu saçdıqca nurlar,
Gecə aylı gecəymiş sanki parlar.
O, üz tutdu mübarək təxtə şir tək,
İgidlər söylədi: - Olsun mübarək!
Üzüyüylə cahan şad oldu, xürrəm,
Ona əhsən dedi xilqət haman dəm.
Onun əksindən aləm nur qazandı,
Xorasanda günün ömrü uzandı.
Sevinc, şadlıq səsi hər yana getdi,
O, Mərvdən Bəlxə, lap Şahcana yetdi.
Onunla tapdı şadlıq təxt ilə tac,
O Şirin qəmzəsi başlatdı tarac.
Ürəkdən nə qəmi mümkündü atmaq,
Nə qəm qəmxarına mümkündü çatmaq.
O, çünki Məryəmi gözlərdi hər dəm,
Onunla göylərə qalxmışdı möhkəm.
Var idi xəznə, şahlıq, bir də dövlət,
Verirdi amma yarsızlıq əziyyət.
Deməzdim, eyləmir şadlıq o heç vaxt,
Edirdi şadlıq o, candan yox ancaq.
Tapırdı rudla meydən bəzən aram,
Olurdu göz yaşından doldurur cam.
- Nə istərsən, ürək? – söylərdi bəzən,
Bu şahlıq, eşq mülkü – hansı? Dillən!
Bu eşq ilə bu mülk düz gəlməz əsla,
Olar doğru, birindən tutsan amma.
Nə xoş söylər pələng üçün o aslan:
Doğar eşşək və ya yol bu, o, Zəncan.
Mənim bu mülk ilə həm yarım olsa,
Bu şahlıqdan tapardım kamı onda.
Oyaq bəxtimlə şad oldumsa, xurrəm,
Deyil yüz mülk yarın bir tükü həm.
Yatırdım bir gecə yar ilə bağda,
Oyaq bəxtim dayanmışdı ayaqda.
Yatarkən bəxtim ancaq mən oyandım,
Ürəksiz, yarsız oldum, odda yandım.
Hanı dəm-dəm o məclis qurmaq orda?
Sevənlər cənnəti qaldı, de harda?
Pəriüzlü gözəllərlə bir olmaq,
Gözəllər şahını ağuşa almaq!
Kimi mən səsləyim könlümdə əfğan,
Nə güllərdi? Küləklər çaldı çoxdan.
Necə naziklər idi, nazəninlər,
Yox onlardan hanı heç bircə dilbər.
O işrətlər, gecə heç yatmamaqlar,
Gecə əfsanə söylərdi dodaqlar!
Ayın taxtında söykənmək bir az bərk!
Mey içmək sanki bir düşmən qanı tək.
Hanı Şirin? Hanı şirin o dillər?
O bir abi-həyatdı, dadlı, şəkkər!
Təzə gül yarpağı idi, şəkər bar!
Şəkər var idi, bax, xarvar-xarvar!
Düzəldərdi dəmirdən bir hasar bərk,
O eylərdi qolundan altun örpək.
Üz üstə qoymaq üz, sanki o bir gül,
Telə tel bağlamaqlar sanki sünbül!
Xumar gözlə çıxarmaq məstliyindən,
Onu ağuşa almaq gizli bəzən.
O sözlər ki, dedim mən, ya eşitdim,
Xəyalmı, uyğumu, mən yad etdim.
O, düşmən getdisə, artdı xəzinəm,
Bu yarsızlıqla artdı heyf dərd-qəm,
Deyirlər, Gün kimi gül burda hər dəm,
Yerində Cəmşidin olmaz rəva qəm.
Ağız hardan gülər burda dolu, bərk!
Soyuq bir ah olar ancaq o gülmək?!
Yuvası yundan olmuş bir quşam mən,
İpək bir tordayam, heyf, istəməzdən.
Gülüstan səmtə getmək arzular can,
Ayaqda bir qızıl zəncir, yox imkan.
Nə bu bəndi ayaqdan mümkün açmaq,
Nə bu bənd ilə mümkündür bir uçmaq.
Bu bir fərdin qəmindən aciz ikən,
Necə bir məmləkət dərdi çəkim mən.
Mənə lazımsa da yüzlərlə qəmxar,
Bu yüz qəm çəkməyə hardan gücüm var?!
Görüb eşşəkdə yük, allam, götürrəm,
Buna gülməzmi eşşəklər baxıb həm?!
Günəşlə Ay bu bir olmaqla ancaq,
Bu torpaq fərş olubdur nurlu, parlaq.
Pərişandır könül, nurum odur yox!
Deyil toplu ürək, zillətdəyəm çox.
O ulduzlar gülü olmuş bu bağın,
Dağılmışlar nə nuru o çırağın?!
İşıq verməz qığılcım sanki bir şəm,
Dağılmış bunda nur, onda olur cəm.
Ürəkdə tac ilə təxtə həvəs yox,





Bu qəlbi istəməzdim incidim çox.
Qara gün qəlbimə gəldi gecə, gör!
Bu cismə düşdü qızdırma necə gör!
Siçan əqrəb yuvasından ki, keçməz,
Süpürgə quyruğa bağlar nədən bəs?!
Qara rəngdə olar zənci sifətdən,
Saraldı amma rəngi xəstəlikdən.
O, hirslə sonra dilləndi dayan bir.
Bu dövlətlə bu cür tündlük nədəndir?!
Bu dövlət var, tapar həm bəxt aram,
Səninlə sevgilin həm qaldırar cam.
Bu dövlətdən böyüklər dönməz əsla,
Düşün, dövlətlə etməz kimsə qovğa.
Nə kam oldu bu dövlətsiz, nə bir dad,
Fələk bilməz bu dövlətdən gözəl ad.
Yetərlər kama həm dövlətlə hər dəm,
Dən olsa, quş düşər mütləq tora həm.
Həyat bəxş eyləyər sən buğda əksən,
Bitərlər özləri otlar, görərsən.
Hər işdə nur saçan dövlətdir ancaq,
Bu işdə olmasın dövlətsiz olmaq.
Dedi bir xeyli bu əfsanələrdən,
Ürək nə, eşq nə sevda gələrkən.
O, hicrana dözüb, qəmdən çəkindi
Bu səbr etməkdən o, xeyli sevindi

## XOSROVUN AYRILIĞI İLƏ ŞİRİNİN AH-ZAR ETMƏSİ

Çəkərkən sözdə zəhmətlər o ustad,
Seçib söz, dəftərində eyləyib yad.
Haçan Şirin o şahdan ayrı qaldı,
O həsrət canı, qəmlər qəlbi aldı.
O, səpdi gül suyu badama hər gün,
Gülab tökdü həmən badam gülüyçün.
Qəfil başı kəsilmiş bir qoyuntək
Yıxıldı, döydü orda əl-ayaq bərk.
Bədən gücdən düşüb, könlündə ahlar,
Qarışqa gözləri misli ürək dar.
Yelə vermişdi xırmanı o dilbər,
Yuyurdu göz yaşı ilə ətəklər.
Düşürdü məst yerə bəzən o, bihal,
Gözə bağlardı bəzən də o, dəsmal.
Açıb gah bir sap inci gözlərindən,
Edir gövhər sapı kirpiklərindən.
Yuxu bilməz həvəslərdən damağı
Yuxusuzluqdan olmuş göz çırağı.
Söyüd yarpağı tək titrər o canan,
Baha nifə, kasaddı nafə ondan.
Sərildi yerlərə qəmgin o bir dəm,
O mişkin zülf yeri mişk eylədi həm.
O nəsrin dırnağı birdən apardı,
Onunla lalədən yarpaq qopardı.
O badam şəkkərə bəzən verir su,

Həm əzdi fındığı innab ilə o.
Qaçırdı hər yana toptək o bəzən,
Donurdu həm də çovkantək o birdən.
Ağac bitmişdi bir nur günbədi tək,
O, kafur tək əriyirdi su görcək.
Yuxusuz nərgiz üçün duz səpirdi,
Yanırdı lalə, nərgizdən su verdi.
Təzə bir yazdı o, parlaq bir Ay tək,
Yerə düşdü, dağıldı civətək bərk.
Hücum çəkdi qəfildən qəlbə qəmlər,
O qəlb ordugahı sındı sərasər.
Çıxıb tez pusqudan atlandı möhnət,
Haman ön dəstədə məhv oldu taqət.
Cigər tək büsbütün, qəlb ilə sinə,
Talandı, qarət oldu xəznə-xəznə.
Edib yüz cəhd qurtardı özü can,
O, xidmətdə durandan sonra candan.
Edirdi qəlbi nifrinlə o gah yad,
Edirdi dərdlilər tək gah fəryad.
Deyirdi bəxtə bəzən: - Ey zülümkar!
Sənin bundan betər yəni işin var?!
O bir kamı ki, könlümdə oyatdın,
Gətirdin sonra əldən aldın, atdın.
Ayaq basdın xəzinə üstə nagah,
Nədən bəs tulladın sonra sən, ey şah!?
Özün sən gül-çiçək bir yaz gətirdin,
Gülü aldın, tikan orda bitirdin,
Bəyəndin bir çıraq dünyadan əvvəl,
Onun üstə nədir əsdirməyim yel?!
Ələ abi-həyat gəlmişdi birdən,
O qeyb oldu, heç ondan içmədin sən.
Sənə mətbəxdən odlar düşdü qismət,
O oddan görmədin şadlıq, səadət.
Çıxır tüstün sənin indi o oddan,
Nə fayda indi olsan da peşiman.
Xeyirli bir mələk göydən də bəzən,
Ürək verdi, dedi: - Kama yetərsən.
Həvəs divi yolundan gah çıxardar
Ki, getsin şahın ardınca o dildar.
O bir müddət bu cür möhnətdə qaldı,
Gəmi bir sahilə axır yan aldı.
O, yerdən durdu, könlündə yüz ah-zar,
Düşüb torpaqlara olmuşdu çox xar.
Tutub üz Banu qəsrinə o dilbər,
Dedi Banuya Xosrovdan xəbərlər.
Bu işdə Banu çox göstərdi diqqət,
Öyüd verdi, dedi bir çox nəsihət.
Dedi: - Səbr et neçə gün sən bu qəmdə
Ki, daim kim qalıb dərddə, ələmdə?!
Yeyin bəxt olmaq olmaz çox o gültək,
Yıxar tez körpünü axsa sular bərk.
Düşüb qalxmaq o toptək yaxşıdır bəs,
Yıxılsa, qalxacaqdır bir də hər kəs.
Əgər bağlanmasa işlər, açılmaz,





Toxum bitməz, çürüməzsə o az-maz.
Daha xoşdur ələ gec gəlsə hər kam,
Olar tez məst tez-tez qaldıran cam.
Bulud möhkəm qaralsa, sən görürsən,
O ağlar bərk, açılmış tez də birdən.
Yararmı yol gedən sürsün atı bərk,
O, tez yoldan qalar tez getdiyi tək.
Götürsə altmış batman bir eşşək,
O qorxmaz altmış beşdən, nə etmək!
Çətinlik var bu gün, səbr eylə, qəm ye!
Sabah iş nolacaq kimdir bilən, de!
Yolunda Xosrovun çəkdin əziyyət,
Bu yolda görmüsən çox dərd, möhnət.
Əgər xeyr olmadı, eyb eyləməz bu,
O, yaxni dadmayıb, yox burda qorxu.
Zamandır, su aşağıyla qoy axsın.
Bu bəxt olmaz səni tək çox buraxsın.
Tələsmə, indi sən səbr eylə barı,
Çətinliklə axar su üz yuxarı."
Dedikcə Banu bir xeyli bu qayda,
Səbirsiz büt səbirdən gördü fayda.
Gəlib ustad Şapur da bu yandan
Danışdı bir neçə mənə olandan.
Səbirlə qəlbi oldu xeyli toxdaq,
Anıb Pərvizi şad oldu o ancaq.
O dözdü qəmlərə bir xeyli müddət,
Nə cismində ürək, canda nə taqət!

## MƏHİNBANUNUN ŞİRİNƏ VƏSİYYƏT EDİB ÖLMƏSİ

O Ayın qəlbi qəmdən sınmamaqçün
Ürək verdi ona şah Banu hər gün.
Onu bir xəlvətə bir gün çağırdı.
Gedirdi dövlət əldən, hal ağırdı.
Açar verdi deyib "Al, xəznələrdən".
Anan tək can verim qarşında qoy mən.
Vücudu büsbütün süstləşdi artıq,
Bədəndən xəstəlik almışdı sağlıq.
Beş-üç gün çəkdi o xeyli əziyyət,
Bədəndən can uzaq düşdü nəhayət.
Ayırmışdı cahan şirin canından,
Özü Şirinə tapşırdı cahan, can.
Keçib getdi, Günəş birdən qaraldı.
Köçü taxtdan qara torpaqlar aldı.
Ələ heç gəlmədi bir şüşə daşdan,
Qırıb daş etmədi axır pərişan.
Fəğan! Bu çərx oyun oynar həmişə!
Düzəldər, həm qırar daim o, şişə.
Yaranmışda belə olmuşdur adət,
Qoyulmuş hər əsas üçün nəhayət.
Arı əvvəl məqamda bal düzəltdi,
Yedi baldan o, axır öldü, getdi.
Papağı yel dolu sən bu qəliblə,

Bir az torpaqdır o, çox qürrələnmə
Papaq başdın salan yellərdən, əlbət,
Görər otlar nəvaziş, sərv əziyyət.
Bina qurmuş küləklər üstdə çox can,
Bünövrə pis qoyulmuş, qorx ondan.
Bu tor tutmuş boğazdan bərk, bax sən,
Çubuqdan başqa nə onda görərsən.
Bu dovşan, tülküyə çox baxma, zinhar,
Bu dovşan tək yatan tülkü çox oynar.
Olubdur çox döyüşkən qurdla aslan,
Bacarmış tülkü onlarla çox asan.
Baxıb mən təcrübəylə gördüm amma,
Cahan xoşluqlarıymış bir qaşınma.
Qaşınma əvvəl əldə çox gələr xoş,
Düşər amma ələ sonda od-ataş.
Bu dünya camını iç, şad olarsan,
Haman əvvəldə məst, sonra xumarsan.
Bu qəmdən keç, qəmə dəyməz bu dünya.
Yapışma bərk ona, dəyməz o, əsla.
Umarsan hər nə var almaq cahandan,
Yeyərsən bir qarın ancaq sən ondan.
Yoxundur heç nə, ya xəznə varındır,
Cahandan qismətin tək bir qarındır.
Əgər sağlamlığın olsa ayaqda,
Səni süstlükdən o, saxlar qıraqda.
Yeməklərdən ağız aldıqca ləzzət,
Ağıldan pay alar hər dəm təbiət.
Ümidsizlik əgər tutsa qulaqdan,
Xilas üçün yolu tapmaz bir insan.
Zəhərdir bir acı dünya qədimdən,
Olar qurtarmaq ondan, az yesən sən.
Sən olma çox yeyən gücsüz o qurd tək,
Qarışqa misli ol, az ye, beli çək.
Çıxar isə məzacın öz yönündən,
Çətin sağlamlığı əldə edərsən.
Yeyib çox, gündə yüz insan ölürsə,
Yeyib az, tapmadı qızdırma kimsə.
Haram olmuş yemi tarac etmək,
Məzacı dərmana möhtac etmək.
Yesən bir gülşəkərtək az çörək sən,
Əlac ummaz məzacın gülşəkərdən.
Gülər sən dəyməsən hər şey o gül tək,
Yesən, lap qənd də olsa, iylənər bərk.
Əgər sevmirsən, axtarma cahanı,
Sevirsən, söyləmə yaxşı-yamanı.
O kəs dünya qəmi çəkməz bir an da,
Bizim tək mənzili yoxdur cahanda.
Bu səhra ilə hər kəs üns saxlar,
O istər bir ovuc torpaq, su naçar.
Özün palçıq, neçin qəlbi qəm alsın?
Bu palçıq qəlb müsibətdir daralsın!
Bu namus, hiylə ilə çərx hər dəm,
Qoca, axsaq, ala bir at minir həm.
Həmişə bu ala at get-gəl eylər,

Düşər bundan, minər, ondan əl eylər.
Selində qəmlərin getmiş atan bəs,
Ata ölmüş, oğul kim söylər ölməz?
Tutub bir hindunu töksən əgər qan,
Qalan varis tutar bir gün yaxandan.
Oğulsan, hindu öldürmüş atanı,
Nə oxşarsan onu, göstər vəfanı.
Bu donqar yay beli vur oxla sən həm,
Qırıbdır nəslini burda dəmadəm.
Kirişsiz ta bu çərxin yayı qalmaz,
Ovu bir kimsənin burda kök olmaz.
Maral şir məskənindən yol salınca,
Gözündə hər bir ot döndü qılınca.
Necə xatircəm oldun qalmağından,
Önündə bir quyu, yellərdir arxan.
Sən olma arxayın, sakit bu dərya,
Bir an adəm yeməkdən qalmaz əsla.
Xəzansız bir bahar kim gördü burda?!
Açar tər güllər o, həm soldurarda.
Acı dadsın gərək dünyada aqil,
Yaşa şirin, acı öl var muqabil.
Kimin ki, qisməti dərd ilə dağdır,
Ölüm vaxtı güllər sanki çaraqdır.
Bu dünyaya baxıb ağlarsa kim bərk,
Öpər boynu vuran əldən o, gültək.
Əgər bir vaiz olsa söyləyər ki,
Zamandır, tulla, olsun qoy mənimki.
Yüzü ölsün – deyər bir zahid olsa,
Soyunsun ta ölən, geysin o, sonra.
O kəsdən bu cahan ar etdi hər dəm
O kəs ki bu cahan üçün çəkər qəm.
Hələ gün var, yemə qəm ruzi üçün,
Verər ruzi verən ruzini hər gün.
Cahan dəyməz qəmə, çək din üçün qəm,
Gəlindir bir gecə üçün, nə matəm!?
Yox isə daimi heç nə cahanda,
Odur bir arpaya dəyməz cahan da.
Ədəm mülkü üçün töhfə bu torpaq,
Təmiz tərkiblə pak gövhərdir ancaq.
O aqillər verir doğru xəbərlər,
Yaman-yaxşı ölən vaxtı bilərlər.
Qadınlar var durar orda ərən tək,
Kişi çoxdur, qaraüzdür ölən tək.
Sən ey tanrı, gəmim girdaba düşsə,
Ayağım bir daşa birdən ilişsə,
Nizamiyə əminlik ver kərəmdən,
Bağışla, lütfünə layiq olum mən.

## MƏHİNBANUNUN YERİNƏ ŞİRİNİN ŞAHLIQ TAXTINA ƏYLƏŞMƏSİ

Haçan ki, taxtı qalxıb Şirin aldı,
O ölkə yüksəlib ərşə ucaldı.
Görüb insafını, xalq oldu çox şad,
Bütün məhbusları etdi o, azad.
Düşüb almazdı hər kəsdən o, bacı,
Nə hər bir kəndlidən istər xəracı.
Götürdü məzlum üstündən o, cövrü,
Çəkib aldı zülümlərdən o, dövrü.
Şəhərlə, kənd ilə düzdü aranı,
Cahandan çox o, istərdi duanı.
Olub ədlilə dost şahinlə kəklik,
Qoyun qurdla su içdi, etdi birlik.
Rəiyyət hər biri-olsun qohum, yad,
Onun ədlinə and içdi, olub şad.
Cahanı tutdu bolluq hər tərəfdən,
Verirdi yüzdən artıq dən o bir dən.
Olarsa padşahda yaxşı niyyət,
Nə gül, otdan bitər gövhər, nəhayət.
O bədniyyət ağac barsız budaqdır,
Xeyir niyyət verər bolluq – bu haqdır.
Əgər bolluq, qəhətlik olsa harda,
Ədalət var və ya yox söylər orda.
Olarsa şahda bir yaxşı yaman rəy,
Bilər ki, şahlığı eylər haman rəy.
Xəbər bilmirdi Şirin şahdan onda,
Könül alt-üst idi o, şah olanda.
O, Keyxosrov kimi taxtı bəzərdi,
Dəli-divanə tək çöllər gəzərdi.
O, hər karvandan istərdi xəbərlər,
Məgər şahdan ona bir söz deyərlər.
Xəbər bildi, olub şah Müştəri bəxt,
Ucaltmış göylərə yerdən yenə təxt.
Xəzinə payladı, çox saçdı gövhər,
Bu cür dost borcunu verdi o dilbər.
Bu Məryəm söhbəti verdi ona qəm,
Təəssübkeş, qatı qısqancdı Məryəm.
Belə and içdirib Rumda olan vaxt
Ki, bir kimsə ilə evlənməsin şah.
Olub bu acıdan Şirin xəbərdar,
Bu sözdən ağzı da daddı zəhirmar.
Bu işdə qəlbini heyranlıq aldı,
Bu möhnət palçığında batdı, qaldı.
Bir il şah oldusa yurda o rəna,
Nə ondan bir quş incik, nə qarışqa.
O göz, qəlb uyğulu, qəmgin, nigaran,
O zülflər tək işi daim pərişan.
O qorxurdu pərişan fikri yalnız,
Ədalət rəsminə olsun vəfasız.
O zirək sərv yenə bir çarə gördü,
Düşündü, iddiadan əl götürdü.
O getsin Xosrovun ardınca tənha,
O şahın dərdini çəksin tək orda.
Ayaq durmurdu bir yerdə fikirdən,
Ürəksizdə fikir olmaz, bilirsən.
Gəlib bir bəndəyə bəxş oldu şahlıq,
O, tac qoymaq işindən doydu artıq.
Yəhər qoydurdu yüyrək Gülgün üçün,





Yanındaydı onun Şapur gedən gün,
Gözəllər ki, ona olmuşdu həmdəm,
Apardı bir neçə seçmə kəniz həm.
Onunla hər zaman olmuşdular yar,
Əzablarda, rahatlıqlarda qəmxar.
İpək, dinar götürdü çox firavan,
Naxırla dördayaqlı çoxlu heyvan.
Dəvə, at, mal, qoyun vardı əcəb çox,
Dərə, dağ bir dəniz olmuş, hesab yox.
O, təcili yol aldı qəsrə doğru,
Dalınca mal-qoyun saysız bir ordu.
O tər lölö sədəfdə tutdu mənzil,
O gövhər öz daşıyla tapdı bir dil,
O hindli hovzuna bir xəznə gəldi,
O qəm daşlağına bir şüşə gəldi.
O yerdə daşlar od tutdu o dürdən,
O atəşgah işıq, nur tapdı birdən.
O üzdən ki, o, parlaq bir bahardı,
O atəşgah onunla laləzardı.
Hava qızmar onun hər dəm işindən,
Hava ondanmı tapmış isti birdən.
Yaxın gəlmiş nigarı, şah bildi,
Ümid etdi, işi bəlkə düzəldi.
Bu işdə qorxudurdu şahı Məryəm,
Gecə-gündüz onu izlərdi hər dəm.
Nə qəsrə almağa verməzdi rüxsət,
Nə getməkçün tapırdı bircə fürsət.
O, qaneydi ala bir söz o Aydan,
Baxırdı ta gələ bir yel o taydan.
Xatırlardı o yarı hər zaman bərk,
Fikirdən qıvrılırdı bir ilan tək.

## BƏHRAM ÇUBİNİN ÖLÜMÜNDƏN XOSROVUN XƏBƏR TUTMASI

Gəlib ta sübh şahı taxta yetdi,
Rum ordu zənci üstə həmlə etdi.
Narıncı əldə Yusif açdı dava,
Turuncu sanki sındırdı Züleyxa.[103]
Göyün düşdü gözündən sehr artıq,
Cahan göstərdi üzdə mehr artıq.
Qapı firuzə gümbəddən açıldı,
Cahana bir xeyir müjdə saçıldı.
Zamanda qalmadı qovğa və fəryad,
Cahanda qalmadı bir zülm, bidad.
Yeni bir şövq ilə güldü üzə bəxt,
Ucaltdı şah Xosrov ərşə bir taxt.
Sarayı sidrəyə qalxıb ucalmış,[104]
Onun bayrağı göylərdən bac almış.
O vaxt qeysərlə fəğfur, bir də xaqan
Bir at mənzilliyindəydi büsatdan.
Hazırlanmışdı hər bir yanda yerlər,
Oturmuş orda çox şahlar, əmirlər.
Durub səflərlə sərhəddə baxanlar,
Yerə dikmiş gözü heyrətlə onlar.
Kimin könlündə baş kəsmək var idi,
Kəsə bilməz, cəzadan qorxar idi.
Kəmərlərdə elə parlardı gövhər,
Çəkindi dikbaş olmaqdan səhərlər.
Zireh geymiş ərənlər hər biri fil,
Durublar cərgə ilə gendə on mil.
Odu qorxu o səflərdə su eylər,
Dönər bir civəyə, olsa sözün zər.
Oturmuş Pərviz, altında qızıl taxt,
Cavan təbli, cavan fərli, cavan baxt.
İki cərgəylə o taxtın önündə
Dayanmışdı qulamlar azca gendə.
Qulamlar zər libas, dillər susub bərk,
Dinən yoxdu divarda rəsmlər tək.
Tapıbdır taxtı ilə dinclik aləm,
Qapı orda açıqdı xalqa hər dəm.
Qapı açmışdı tale sübh tezdən,
Qapıdan girdi bir qasid güllər, şən.
Yer öpdü, söylədi: - Ey şah, var ol,
Nəsibin dövlət olsun, bəxtiyar ol.
Qızıl taxt üstdə dünyadan sən al kam
Çubuq bir taxta tabut tapdı Bəhram.
Evindən Çubinin gen düşdü şadlıq,
O düşmən bu çubuqluqda yox artıq.
Necə daş qəlblidir, şah gördü əyyam,
Çubuq bir taxtaya çevrildi Bəhram.
Çubuqlar bizləri dünya nədəndir?
Çubuqçu bu fələk, çubin bədəndir.
Bizim bəxt çubuğu verdi bu gün bar,
O Bəhram Çubini örtdü çubuqlar.
Nə bu Bəhram, ola Bəhram Gur həm,
Ona bir qəbr edər qismət bu aləm.
O bir Bəhram Gur çıxmışsa tordan,
Baxır gör bir neçə Bəhram o gordan?
Ona olmuşdu bir müddət cahan yar,
Təmənna eylədi olsun cahandar.
Hanı indi qılınc tutmuş o aslan?
Olub sərxoş bizimlə açdı meydan.
Nə oldu o qılınc odlu o dillə?
Bu Gavə bayrağı, harda o şillə?!
O şirlərdən doğan çox mərd varmış,
Bu torpaq aldadıb, yellər aparmış.
Qoca tülkü cavan qurdlar görüb çox,
Onu tutmuşdur əfsunla, əcəb yox!
Pələngliklə biri şir tutdu erkək,
Yeyib şirə o, axır öldü it tək.
O üzdən tülkü olmuş qurda bir şah,
Gedib düşmənlik axtardı o, bir vaxt.
O çiy tədbirlərə uymaqla amma,
İpək yox, köksü oxlar gördü sonda.
Gedər başdan papaq, məğrurluq etsən,
Yamandır məğrur olmaq öz gücündən.
Çıraq yağdan alırsa nuru hər dəm,

Olur çox vaxt onu yağ söndürür həm.
Xörəklər duzla dad tapmış, olub tər,
O duz da ölçüsündə fayda eylər.
Yemə sən çox, o xurma olmasın xar,
Yeməklər olmasın ağzında murdar.
Zəruri saydığı miqdar ye halın,
Kimə olsa haram, olsun halalın.
Sənə olmuşsa bu darvaza məskən,
Qəm ilə şadlıq üçün ölçü bil sən.
Boyundan artığa burda can atma!
Ayağı yorğanından gen uzatma!
Dənizdə dalğalar tək əl-qol açma!
Boyundan yüksəyə cəhd eylə, uçma!
Nə iş gördünsə söhbət başla ondan,
Həsir hörsən, tikərsən bafta hardan?!
Nə yaxşı söz demişdir bir hünərmənd,
"O əzvay ilə əzvay, qənd ilə qənd."
Deyil yaxşı yeni bir qayda qoymaq,
Nə varsa köhnə, atmaq, səhv saymaq.
Qədim qəndillərə qalxıb daş atma!
Yetimlər malına çəngə uzatma!
Kim əkmişsə toxum, bir bar yemişdir,
Bunu mən yox, bitən hər dən demişdir.
Qılınc taxmaq nədir sərhənglər tək!
Çox aylar var dumanlarda yatar bərk.
O şir ki, ov tutar qan tökmək üçün,
Tutar qan, gec də olsa, baxma, bir gün.
Zülüm dövlətdə heç yaxşı sayılmaz,
Zülümkarlarla dövlət dost olmaz.
Bir eşşək düşdü, rast olcaq samanlıq,
Nə eşşək heyf, heyf ancaq samanlıq.
Haçan halvaya milçək tutdu arxa?!
Bir əncirçün neçin ölsün, de, qarğa?!
Gümüşüylə qızıl ev tikmə qeyrin,
Kisən yırtıq qalar, rəxnə tapar din.
Boyaqçı küp qoyub, tünlüksə bazar,
Fikir ver atmasın narınc əttar.
Çətin olsa işin, etmə sükut sən,
Sükutla zülmə, bil, yardım edirsən.
Eşitdim ki, avamlar cərgəsində,
Var imiş əqli kamil haqqa bəndə,
Onunla bir uşaq etsəydi dava,
Atarmış daş böyüklər səmtə onda.
Soruşurlar: - Uşaq eylər səni xar,
Böyüklərlə nədir səndən bu rəftar?!
Deyir: - Gülməzsə ağsaqqal olanlar,
Bu zülmə əl qoyar hardan cavanlar?!
Ayaqdan narazı qalsa bu əllər,
Ayaq etsə günah, tez baş döyərlər.
Qürurla baxma bir yoxsul görəndə,
O da bir möhtəşəmdir öz yerində.
Nəcib kəsdə eyib görmə, çəkin sən,
Hünərlər görməyi bəd gözdən öyrən.
Göz axtar, gör o qarğada bədən yox,
Tovuzda rəng ara, gəzmə ayaq çox.
Varındır yüz riya hər gözdə ancaq,
Qoyursan özgə söz söylərsə barmaq.
Öz eybinçün açırsan bircə göz sən,
O özgə eybinə yüz göz dikirsən.
Deyilsən güzgü, eyb axtarma əsla,
Nədir bərk üzlülük, olma gəl ayna.
Hünər var aynada, hər sirri saxlar,
Görər, bir kimsəyə açmaz nə sirr var.
Var amma əyləşənlər kölgələr tək,
Deyərlər dalda üzdə hər nə görcək.
Kiçik görmə nə olsa düşmən ancaq,
Çətindir nərdi xamlardan aparmaq.
Qızıl dovşanlara, qorx, arxalanma,
Çəkib xəncərdə rəssamlar, inanma.
O xəncərlə hücum eylərsə şirlər,
Vurub dovşanları çox qan tökərlər.
Xətərsiz sanma, su axsa əgər lal,
Görərsən bərk axar birdən də dərhal.
Ürək vermə oda ta üz qızardar,
Onun yüz xırmanı yandırmağı var.
Gülürsə, arxayın olma bir aslan,
Deyil diş, bir qılınc parlar o yandan.
İgidlikdən vurarsa burda kim dəm,
Vuruşsa şirlə bir şir adlanar həm.
O Bəhram hərbə girdi şahla nagah,
Bu üzdən axır adlandı özü şah.
Çəkişmə səndən alçaqla, çəkin sən,
Yıxıl, ya yıx, nə fərqi, inciyərsən.
Böyüklərlə vuruşsan, kam alarsan,
Döyüşsən hər kiçiklə, alçalarsan.
Nəhəng dərya ilə qalxdı, vuruşdu,
Verər xırda balıq ancaq kiçik su.
Dedi bir xeyli söz Xosrov bu yöndən,
Böyüklər tökdü qan-yaşlar gözündən.
O düşdü taxtdan qəlbində dərd, qəm,
Axıtdı nərgizindən yaş bir aləm.
O, üç gün tutdu yas könlündə Bəhram,
Nə taxta tutdu üz, aldı nə bir cam.
Yenə dördüncü gün başlandı işrət,
Ucaldı nəğmələr ərşə, nəhayət.
Verir dərya kimi hey bəxşiş əllər,
Yer olmuşdu cəvahirdən bir Ülkər.
Alıb şah saqidən mey, məst olurkən,
Çəkib Şirin üçün qəm, getdi əldən.
Buyurdu Barbəd gəlsin haman dəm,
O etsin dərdlərə nəğməylə mərhəm.

### MÜTRÜB BARBƏDİN TƏRİFİ

Yetişdi Barbəd, sərxoş o bülbül,
Su tək bərbət əlində saldı qülqül.
Sazında vardısa yüz nəğmə, dastan,
Otuz xoş nəğməni seçmişdi ondan.





Haçan qalxıb o, bir nəğmə çalardı,
O gah qəlb oxşayar, gah huş alardı.
Edəndə "Gənci-bad avərdi" hər yad,
Dodaq səslə saçardı xəznələr şad.
Haçan ki, "Gənci-qav" meydan açardı,
Öküzlə Yer durub xəznə saçardı.
O "Gənci-suxtə" dinsəydi hərgah,
Od-ataşla yaxar yüz xəznəni ah.
O "Şadirvan mirvarid" oxunsa,
Dodaq söylərdi: - Dürlər deşdim amma!
O "Təxti-taqdis" ta dürr saçdı,
O dəm göylərdə cənnət qapı açdı.
O "Övrəng" ilə "Naqusi" dinərkən,
Gəlirdi zəng kimi səslər fələkdən.
O "Kalus höqqəsi" qənd paylayanda,
Öpərdi nemətindən qənd bir anda.
Haçan ki, "Mah bər kuhan" yayardı,
O dağlar üstünə Ay dil qoyardı.
O, "Mişk danə"ni dindirsə bir dəm,
Xütən olmazdımı ev mişkdən həm?
Gələ "Arayişi-xurşid" yolundan,
Tapardı Ay, Günəş zinətlər ondan.
Desəydi "Nimruz"dan bir dəm orda,
Ağıl bihuş olardı ta günorta.
Haçan səs "Səbz dər səbz"ə yetərdi,
Quru bağda yaşıl otlar bitərdi.
Götürsə "Qıfli-Rumi" bir dəm ahəng,
Açardı xəznədən qıflı o Rum, Zəng.
O "Sərvistan" əgər ötsəydi dil-dil,
Səba getməzdi sərvistana bir il.
O başlarsa "Səhi sərv" adlı dastan,
Uca sərvi verərdi qanla fərman.
O "Nusin badə"yə bağlarsa pərdə,
Sınar məstlik, gedər, qalmaz bu yerdə.
Edərsə "Ramişi-can" dəxi cövlan
Fəda eylər ona canı bu dövran.
O, "Sazi-novruz" üçün çəksə pərdə,
Durub novruz edər tale bu yerdə.
O "Müşkuyə" dinib mişkin saçanda,
Saray mişkə batardı bircə anda.
Haçan ki, "Mehriqan" başlardı birdən,
Alardı ağlı, huşu yerbəyerdən.
Qanad "Mürvayi-nik" üstə salanda,
O il xoşluq tapar işlər cahanda.
Gecə söylərsə "Səbdiz" adlı nəğmə,
Gecə yatmaq nədir bilməzdi kimsə.
"Şəbi-fərrux"a söz axır yetişsə,
Elə xoş bir gecə görməzdi kimsə.
O "Fərruxruz"a çatsa növbə bir dəm,
Zəmanə şad olar, qəm görməz aləm.
Açarsa "Qönçeyi-kəbki-dəri" dil,
Ötərdi sanki kəklik dağda dil-dil.
Durub "Nəxcirqan"dan başlayanda,
Neçə gör Zöhrə ovlardı bir anda.

Əgər dindirsə bir "Kini-Səyavuş",
Səyavuşlar qanından lal olar huş.
O qalxıb "Kini-İrəc" başlayanda,
Qisasa üz tutar hər kəs cahanda.
Haçan dilləndi bal tək "Bağı-Şirin"
Acı tamlı ağac bar verdi şirin.
Dedikcə Barbəd xoş nəğmələrdən,
Olurdu Pərvizin könlü tamam şən.
Dedikcə hər sözü yüksək sənətkar,
Ona söylərdi əhsənlər cahandar.
O nurlu Ayda adət buydu hər dəm,
Desə əhsən, verərdi bədrə zər həm.
O gün hər pərdədə çaldıqca ustad,
Ona bir xəznə verdi şah olub şad.
Nə xoş sözdür, görüb yoxsul bir insan
Deyə əhsən, biçə bir don qızıldan.
O dindirdikcə hər dəm bir nəvanı,
Verirdi şah ona gövhər qəbanı.
Bəyənməklər bu gün bundan da çox var,
Nə əhsən? Boynuna yun bağlamazlar.
Özün sən dik dayan, ey ali himmət,
O Zöhrə kəndirin var, gəzmə dövlət.
Tamahdan keç, nə varsa qane ol sən.
Mənimtək damladan dəryalıq öyrən.
O şaha xəznə bəxş etdim cahanda,
Mən ondan görmədim heç bir saman da.
Mən imkansız sözə düzlük verirkən,
Nə o verdi, nə ondan istədim mən.
Bu bəsdir ki, sözümlə doldu dünya,
Mənimdir indi hər mədən və dərya.
Nizami, zər xələt çoxdur, bilirsən,
Bu zöhdün xələtindir, vermə əldən.
Yaxan hərgah bu xələtlə bəzənsə,
Sənin tək çiyni dik gör varmı kimsə?!

## XOSROVUN ŞİRİNİ GƏTİRMƏK ÜÇÜN MƏRYƏMDƏN İCAZƏ İSTƏMƏSİ

Cibindən göylərin bədr ay çıxarkən
Hilali örpək örtdü yer qəfildən.
Hərəmxana deyib şah getdi birbaş,
Başında Şirin eşqi qaldırıb baş.
O, məst əyləşdi Məryəm qarşısında,
Dedi İsa nəfəslə sözlər onda.
Deyirkən Xosrov o Şirin sənəmdən,
Acı tam gördü Məryəm ağzı qəmdən.
Ki, Şirin yaxşıdır məndən gen olsa,
Yaram duzdan əziyyət çəkməz əsla.
"Bu işdə düşməni ancaq tapıb kam,
Mənim sayəmdə olmuşdur o, bədnam.
Əziz tutsam onu, bir oxşasam mən,
Savab iş gör, nolar ki, oxşa həm sən.
İzin ver, qəsrdən gəlsin o bəlkə,
Kənizlərlə otursun burda birgə.





Ona mən baxmaram, baxsam qəfildən,
Gözüm odlarda yansın, görməyim mən."
Cavab qaytardı Məryəm: - Ey cahangir!
Calalın göyləri tutmuş, düşün bir!
Çırağı aləmin burda qoyulmuş,
Əyir baş hökmünə göylər, nə olmuş?!
Əziyyətsiz durur qarşında halva,
Boyatdır o düyü, qızdırma əsla.
Əgər tər halvadırsa adda Şirin,
Ola ağzında mümkünmü o, şirin?!
Daha xoşdur tikansız olsa xurma,
Olar həm tüstüsüz çox dadlı halva.
Məni qoyma bir evdə cadugərlə,
O, Babil sehri eylər qəmzələrlə.
Bilir mindən də çox əfsanə, dastan
Çıxardar gör nələr tək bir ədadan.
Səni bərk aldadar, qallam uzaq mən,
Olarsan razı sən, ollam iraq mən.
Onun əfsunları hər nəysə billəm,
Çox olmuşdur bu cür əfsanə hər dəm.
Çox arvad anlamır yüz, əlli hardan,
Ütaridlər çıxardar sehri yoldan.
O saxsı qabdakı güldür qadınlar,
Xəbislikdir içi, çöldənsə dildar.
Tapılmaz bir vəfa gəzsən həyatda
Qılınclarda, qadınlarda və atda.
Kişiyçündür vəfa, olmaz qadında,
Adamlıq kim görüb arvad adında?!
Bu yolda çarə axtardı kişi çox,
Qadından gördü bir doğru olan yox.
Qadınlar sol böyürdəndir, deyirlər,
Neçin soldan sağ olmaq istəyirlər?!
Könül vermə ona, gendir xudadan!
Bəladır qismətin axır bəladan!
Əgər qeyrət çəkərsən, dərd alarsan,
Və qeyrət çəkməsən, namərd olarsan.
Yeri tənha dolan, keçsin günün şad!
Yaşa susən kimi dünyada azad!
O qeysər tacına and olsun, ey şah!
O Şirin bu saraya gəlsə hərgah,
Salıb öz boynuma mişkin bir ip mən,
Asıb qurtarram axır bu zülümdən.
Bu xoşdur ki, o, vadidə oturmuş,
Bu xoşdur, görməsin abad bayquş.
Dedi Məryəm, əyan oldu həqiqət,
Günü etməz günü ilə heç ülfət.
Sözə üz tutdu bir də ayrı yandan,
Nəvazişlərlə davrandı o insan.
Gəlib Şapur həmişə xoş xəbərlə,
Uzaqdan söz deyərdi hiylələrlə.
Cavablar da apardı o, pünhan,
Haman dərd əhlinə qanlar udandan.
Salırdı heyrətə Şirini bunlar,
Necə səbr eyləyir bunca cahandar?

Vəfasızlıq deyil anlardı amma,
Bu dözmək dövlət üçündür o şahda.

## ŞAPURUN XOSROVDAN ŞİRİNƏ XƏBƏR GƏTİRMƏSİ

Dedi Şapura şah xoş dillə bir gün,
Qalım mən yardan ayrı bunca neyçün?
O Ayı bir gecə barı gətir sən,
O ləli mücrüdə qoy gizlədim mən.
Məni məcbur edir indi bu dövlət,
Ona göstərməyim bir zərrə rəğbət.
Budur qorxum ki, İsa tək o Məryəm,
Özün səbr etməyib assın haman dəm.
Budur ən yaxşı, o dildar gəlsin,
Pərilər tək bu iş gizlin düzəlsin.
Bu Məryəm o pərisimanı görcək,
Dönər bir divə, başlar divlər tək.
Qəbul etdi olan fərmanı nəqqaş,
Dedi: - Şad ol, gətirrəm yarı birbaş.
O, coşğun bir dəniz tək qəsrə gəldi,
Onun hər dalğası dadlı, gözəldi.
O, başdan Şirinə etdi hekayət,
Bu get-gəllər deyir gəlmiş o fürsət.
Səni ov tək dilər tutsun hər an şah,
Qılıncı kütləşir Məryəmdən ancaq.
O üzdən çox həya eylər cahandar,
Edir qeysərlə əhdindən o, bərk ar.
Gəl indi atlara cəld atlanaq biz,
O şah qəsrinə burdan yollanaq biz.
Sən eyş-işrətdə ol Xosrovla pünhan,
Olar tez düşmənin bəxti pərişan.
O tənha Ay, o yalqız büt, o dildar,
Özündə olmayan, yardan uzaq yar,
Acıqla Şapura qışqırdı birdən:
- Utan! Ar olsun, ey haqdan uzaq sən.
Apardın beynimi, bəsdir bu söhbət,
Deyilməz söz dedin, eylər kifayət!
Nə hər gövhər deşilməkçün var imkan,
Nə hər söz gəlsə ağza, söylər insan.
Olubmu səndə insaf, etmirəm yad,
Heç insafın yox imiş, dad-bidad!
Uzaq etsin səni tanrı peşəndən!
Ağıl versin, desin keç bu işindən!
Məni şahlıqdan etdin, xanumandan!
Nə almaq istəyin var indi candan!?
Ağılsızdım, məni tutdu qəfil qəm,
Qurutdu qəm məni, paylar gözüm nəm.
O çiy yansa bu odlarda mənim tək,
Süpürrəm yolunu zülfümlə bərk-bərk.
Palançı dukkanından qaçdı eşşək,
Yerindən durdu birdən arpa görcək.
Rəvamı gövhər ikən əksiləm mən,
Gedim çağrılmamış, yoxsa yeləm mən?!

Hovuzdan paltarım olmuşsa da nəm,
Olar yanlış gedib dəryaya girsəm.
Nədir fikrin, olubsa qəlb viran,
Açım bir əjdahayla mən nə meydan?!
O dərgaha əgər layiq deyilsəm,
Yaman olmazmı zorla rədd edilsəm?!
Neçə yol burda oldum mən giriftar,
Tamam oldum bu qəmlərlə əcəb xar.
Necə gör bivəfa oldu o həmdəm,
Ki, göndərməz quru bir söz, salam həm.
Bir arşın örtüyə nə səbr edim mən,
Kişi tək bir belə yol nə gedim mən.
Mənim tək bir qadın nə ixtiyarla,
Papaq qoysun bərabər tacidarla?!
Qəzadır bu, mənim üçün yazılmış,
Tikan dolmuş yaram var, duz basılmış.
Dərirdim gül-çiçək, qaldım tikanda,
Var idi iş-gücüm, qaldım amanda!
Nə hirslənmək? Mən etdim səhv ancaq,
Nədir öz səhvini bəd gözdə tapmaq?!
Dedim ki, o, mənə candır, cahandır,
Cahanı aldı, niyyət indi candır.
Dilindən od tökən olsun hər insan
Yanarmı ağzı heç bir gör o oddan.
O mizanda bilirsən iki göz var,
Biri arpa, biri altun hesablar.
Mənə Xosrov verən mizanda amma,
Var ancaq bircə göz yüklənmiş arpa.
Haman bu arpaya baxmaz bir eşşək,
Yeməkdir çarəsi qəlbin, nə etmək?!
Gəlincik bil bu daşlıqda məni sən,
Düzəltmişlər məni hiyləylə gəcdən.
Yaraşmaz gəc gəlin olsun yataqda,
Gül ilə mum turunc həm bir otaqda,
Əcaib işlərim olmuş mənim çox,
Deyim, səndən mənim ar etməyim yox!
Nə etmiş qaniçən quldur nigarım,
Yanıb odlarda ondan cümlə varım.
Diriykən mən tapıbdır ayrı bir yar,
Məhəbbətlə açıbdır ayrı bazar.
Üzüm burda əgər daşdan da olsa,
Onu görsə, yanar arından amma.
Tutaq ki, itsifət qalxdım yerimdən,
İçib də it südü bəslənmədim mən.
O itdən də pisəm, bir hiylə görcək,
Qovulmazsa o hiylə burdan it tək.
Ürəkdən fayda yoxdursa, yeyər it,
Onu qəlbim itə tullar, deyər :- İt!
Ona heç baxmasam yaxşı olar bu;
Mənə baxmır, baxır amma itə o.
Anam heç doğmaya idi məni kaş!
Və ya doğsa, itə versəydi birbaş!
Deyək düz söz, otursaq da biz əyri,
Necə xar oldum ondan, var nə xeyri?!

Bu işdə bağladım düz pərdə min-min,
Hələ etmir o, əyri pərdə tərkin.
Töküldü üz suyum, haqqa yovuşmur,
Nə etmək, su suya sanki qovuşmur.
Bəyənməz qulduru heç bir diyarın,
O töksün abrını məntək nigarın.
O, at saldırdı, gör saldı nə dava
Ki, sülhə qalmadı burda yol əsla.
Papağında olan tükcə yoxam mən
Nə ordu gəlsə, azdır bir tükümdən.
Baş əydikcə önündə mən əyildim,
Qəmi zülmət! Nə gördüm indi bildim.
Ürək kordur, o, istər bir görən göz,
Nə bu kor qəlb, nə o kəs ki, o görməz.
Qaşınmaqda başım, yox burda qorxu,
Qaşınsam da, yenə eşq iladir bu.
Səbəb var dil acı sözlər deyirsə,
Olub bir dil yarası o, nə versə.
Bu layiqdir, mənə olmursa həmdəm,
Gətirmir bəxt onunla, şahid aləm
Burax dərdimlə burda ağlayım mən,
Anası ölmüşə öyrətmə şivən.
Onu yad eyləyib oldumsa mən şad,
Neçə illərdir o etməz məni yad.
Ona yetməz bu sevgimdən qoxu həm,
Nə var könlündə tükcə mən çəkən qəm.
Onunla yastığa baş qoysa bəxtim,
Qurulmazmı uca göylərdə taxtim?!
Döyündü qəlb, dərk etdim bu əyyam,
Ziyan eylər, məni qoymaz alım kam.
Bəli vardır sınanmış çox nişanlar,
Döyünsə qəlb, görər hər kəs ziyanlar.
Gözüm də səyriyir indi bu yerdə,
Nə görrəm daxi, bismillah, bir də?!
Mənə bu qəsrdən, cənnət də olsa,
Çıxıb getmək deyildir mümkün əsla.
Əgər Qeysər qızı gəlsin, nə Şapur,
Deyərdim xar edib: - Burdan uzaq dur!
Nə məstəm, hiyləyə aldanmaram mən,
Məni bir hiylə tərpətməz yerimdən.
Əgər bilmirsə ağlımdan gələn nə,
O Babildə bilən kim mən bilən nə!
Uca olmazmı yarın başı burda?
Atılmış nal oda burda, nə orda,
Nə Xosrov, lap özü Keyxosrov olsa,
Bacarmaz pəncələşsin Ayla əsla.
Kənar gəzsin bu nərgizdən o həmdəm,
Əl-əl üstdə dayansın müti hər dəm.
Mənim bu coşmağımla hərbə girsə,
Yanar odlarda mən coşsam, o, görsə.
Desəm mən qəmzəmə axşam düşərkən,
Bir ox vursa, atı oynar yerindən.
Əgər mən zülfü göndərsəm qurar fənd,
O, səbrin boynuna möhkəm vurar bənd.





Xəyalım, mən buyursam o yatarkən,
Yüyürdər bir su tək yerlərdə birdən.
Doyubsa məndən o namehriban yar,
Bu işlərdə yenə qalib zaman var.
Dözüb səbr eylərəm, dünyada bir gün,
Durar qarşımda o, üzr istəməkçün.
Kəmənd tək qəlb ona neyçün dolansın?
Odun boynunda ip neyçün, de, yansın.
Uçar hər cins cinsiylə bərabər,
Göyərçin bir, o tərlan bir sərasər.
Yeli sən torpağa bənd eylə, durmaz,
Nə bu suyla, o atəş bir oturmaz.
Yox isə vəsli, hicrandan nə qorxu?!
Bədən cansızsa, zindandan nə qorxu?!
Mənəm qiymətdə yer, göydür o dildar,
Yerin göylə arasında nə iş var?!
Kimin vardırsa varı, qəm çəkər çox,
Nə qorxsun oğrudan o heç nəyi yox!?
O quş bilmə məni tutsun hər insan,
Bacarmaz ovlasın hər hansı tərlan.
Tora düşdümsə, mən oldumsa nadan,
Yenə qurtarram ağlımla bu tordan.
Nə söylər bilmədinmi cadugər kəs:
Bilər hər tüstü hardandır baca bəs.
O Xosrov gəlsə Çin bütxanəsindən,
Şoran verməz ki, Şirin bal, bilirsən.
Qaçandırsa əgər Şəbdiz yaman bərk,
Qaçar Gülgün də sürətlə onun tək.
Olub bir qənd ağacı indi Məryəm,
Mənim xurmamı Məryəm bəsləmiş həm.
O bir tac sahibi tək etsə dava,
Mənim şahlıq papağım vardır amma.
Acı qəmlər mənim çıxmaz yadımdan,
O Məryəm keyf edər, Şirin yonar can.
Biri inci gəzirkən, gördü dərya,
Biri sirkə gəzib bal tapdı amma.
Həmişə döş əti tapmaz adamlar,
Nə yerdə varsa bud, həm də boyun var.
Könül verməzdim eşqə, oldu təqdir,
Peşimanam, xəta etdim, nə tədbir?!
Mən etdim bir zarafat, bərk inandı,
Dedim mən bir yalan, o, doğru sandı.
Bu bazardan bezibdir könlüm, ey vah!
Dilərsən and içim, şahid bir allah!
Əyirsəm də sözü zülmət gecəykən,
Necə nazik əyirdim, sən görürsən.
Bu cür yetməzmi sönmüş bir şam olmaq?
Əgər sönsəm də, yanram dəxi parlaq.
Deməzdim yaxşı-pis nifrinlə mən heç,
İlahi! Sən bilirsən, bax, özün seç:
Onundur bu dodaq həsrətsə hər kəs,
Uzanmış hər ələ halva verilməz.
Atırsansa yerə sən bir bahanı,
Aparsın qoy əsən yellərsə banı.

Yeməkdənsə səni zülm ilə aslan,
Daha xoşdur, itə ovda yem olsan.
Ayağınla özün gəl lazımamsa,
Əziyyət vermə bir yad şəxsə əsla.
Ov eylərkən çevik mahir o şirlər,
Ovu özcə ayağıyla edirlər.
Ona bağlı ayağım taleyim tək,
Çağırdı qeyr ayağıyla, nə getmək?
Nə qeyrin çiyninə zənbil asarlar,
Nə özgə dişlə bir zəncir qıran var.
Bu yolda çoxlu tədbirdən nə fayda,
Qocalmaq niyyətim yoxdur bu qayda.
Sınar camım qocaykən badə içsəm,
O kürdəm ki, tikəm axur köçən dəm.
Bu möhnətlər soruşma kimdən oldu,
Nə dildarımdan, öz qəlbimdən oldu.
Çıxar hər yerdə oğru yaddan, ancaq
Mənim oğrum evimdən çıxdı, bir bax!
Nə qaçmaq bu ürəkdən oldu mümkün,
Nə bağlandı qapı ev oğrusuyçün.
Dedi pis söz bu qəlbim bəxt haqda,
Ayağından əliylə vurdu balta.
Yetər daşdan soruşmaq ləli kortək!
Yolu gördün, soruşmaqdan gəl əl çək!
Ürək zalım, budur yarım sitəmkar,
Bu üzdəndir nə qəlbim var, nə yar var.
Əgər bir bəhrə yoxdursa ürəkdən,
Gərək heç verməyim qəlbə ürək mən.
Çəkər ruzi qəmi hər kəs, bu təqdir!
Mənim ruzim qəm olmuşdur, nə tədbir?!
Könül şad idi, bir gün vardı dildar,
O gündən sonra bilməzdim bu gün var.
Olarmı bir belə gizlin bu ah-zar?!
Keçərmi bir belə qəmlərdə ruzgar?!
Bu səbr ilə acı ağzımda dadım,
Qoy olsun səbr oyuncağı bu adım.
Uzaq düşsəm də xəznəmdən, elimdən,
Başım ki, getməyib axır əlimdən.
İki halda nə eylər hökm kimsə:
Tamahsız kimsəyə, azad şəxsə?!
O, inci mücrünü ta qəndə vurdu,
O innabla nabat qalxıb buyurdu:[108]
Əgər şah söyləsə sevdim onu mən,
Ona söylə: - Dayan, keçməz bu işvən.
O sübhə həsrətəm söylərsə, heyhat!
Uzundur, bax, gecə, söylə, yıxıl, yat!
Haçan mümkün, desə, Şirinə çatmaq,
De: - Məryəmdən oruc olsan sən ancaq.
Desə: - Çatmazmı halvaya əlim bəs?
De: - Halva istəməz sərxoş olan kəs.
Desə: - Qənd istərəm mən tər dodaqdan,
De ki, diş sazlama, gen dur, uzaqdan.
Desə: - Tutsam o zülfü, xalı candan,
De ki, gözlə, sığallarsan, tutarsan.

Desə, bir gün qucaqlardım onu bərk,
Çıxart başdan de, baş tutmaz bu istək!
Desə: - Qoysam üzü üstə üzü mən,
De ki, rüxlə haçan olmuş o şah tən?[109]
Desə: - Nola verə bir top zənəxdan?
De: - Zülfümdən yeyərsən onda çovkan.[110]
Desə: - İstərdim o tər ləli sormaq,
De: - Gendən bax, sulansın ağzın ancaq.
Desə: - Versə əgər fərman o dilbər,
De ki, fərman nədir, hicran bəs eylər.
Desə: - Həddindən ötsə burda hicran,
De: - Qaldırram, hələ sən dinc otursan.
Desə vəsli: - Onunku olmuşam mən,
De ki, dinmə hələ mən dinmədən sən.
Bu sözlərdən dedi bir xeyli tünd, bərk,
Hədə, təhdid də bildirdi qadın tək.
Şüşə qırdı daşa çırpıb məzəmmət,
Əqiq eylər dava, istərdi ülfət.
Dedi Şapura hirslə möhnətindən,
O yüngülləşdi qəlbin həsrətindən.
Dedi yumşaq: - Sözü ey durr, gövhər,
Axar bir su olur ağzında sözlər.
Salam söylə o şaha olsa fürsət,
Xəbərlər de, eşitsin barı dövlət.
De ki, Şirin deyir: - Ey mehrsiz kəs!
O baldan dədlı söhbətlər hanı bəs?
Üzün məndən dönər zənn eyləməzdim,
Olarsan qeyrə aşiq mən deməzdim.
Yalan çıxdı bu zənnim nemətindən,
Tutubdur düşmənim könlündə məskən.
Yatan bir bəxt tək yar olmağın yox!
Bu dövran tək vəfadar olmağın yox!
İşin, fikrin tək öz kamındır ancaq,
Nədir böylə özündən razı qalmaq?
Acı daddımsa çox şirin tikandan,
Yetişcək xurma, zənci tutdu ondan.
Ürək qanımla mən bir bağı saldım,
O, bar verdi, mən isə çöldə qaldım.
Odundan görmədim mən bir isinmək,
Kor oldum amma tüstündən sənin bərk.
Bu cismi zülm, bidadınla qırdın,
Sən ad tapdın, nə adım var batırdın.
O iş sahibləri iş düz gedən dəm,
Qovulmuş kəslərə xoş baxdılar həm.
Sən işsizkən gözümdə yurd tutdun,
Məni iş sahibi oldun, unutdun.
Köməksizkən sənə yar olmuşam çox,
İşin var indi, kimsəylə işin yox.
Məni rüsvay edib sən kama çatdın,
O rəna bir su üstdə qalxan atdın.
Məni öldürməyə fərman da verdin,
Yenə qəmlər dolu hicran da verdin
Qalıbdır bircə tel, bax, can ipindən
Ucu bir yerdədir, çəkmə, bilirsən.

Qılınc vurma bu Şirinə, əbəsdir,
Apardın nizəni Ruma, bu, bəsdir!
Yetər, qızğınlıq etmə, qalxar odlar!
Budur qorxum ki, birdən tüstü qalxar.
Mey içməkdə sənə minlərlə dost var,
Biri ancaq olar bəs, saxla qəmxar.
Məni eşqinlə saldın dərdə çox sən,
Tora saldın, ətək çəkdin də birdən.
Elə etmə qala palçıqda eşşək,
Ola heyranın aşiqlər də çox bərk.
Oda yaxma sitəm görmüş bu canı,
Bir ev saxla, odun olsun məkanı.
Qəmin qəlbimdə qıvrılmış ilandır,
Bu zülfün hər tükü altda tikandır.
Bu göz yaşımla, ahlarımla, baxsan,
Cəhənnəm bir qığılcım, damla ümman.
Qəmi sürmək bu göz yaşımda bəsdir,
Xəyalından kömək gəzdim, əbəsdir.
Tamam işlər qalıb sənsiz yarımçıq,
Olubdur xam xəyallarım xam artıq.
Cəhənnəm qarşısında yoxsa pünhan
Nədir abi-həyat gəzmək nigaran?!
Ölən kəs ölməyincə, yaxşı bax sən,
O, əl çəkmir həyat üçün ümiddən.
Ağıl yol göstərəndir elmə burda,
Bu dəftərdən kənardır eşq amma.
Bu iki rəng atı minmiş hər insan,
O, meydanında eşqin oldu heyran.
Düzəldən məlhəmi fərzanələrdir,
Hazırlansa, içən divanələrdir.
Bu eşq ilə dözüm xamlıqdır ancaq,
Qurub eşqə bina səbrə yad olmaq.
Uzaqdır səbr özü eşqin yolundan,
Deyil aşiq, əgər səbr etsə insan.
Əziyyət çəksə də Şirin qədərdən,
Uzaq olsun o Xosrov bədnəzərdən.
Dedi Şapura Şirin xeyli sözlər.
Edib səcdə o Şapur gör nə söylər:
Sözün xoşdur bizim tədbirimizdən,
Yerində söylədin hər nə dedin sən.
Daha fikri necə gəldi deməzdi,
Yüz ölçüb-biçməmiş söz söyləməzdi.
Ağılla qoy deyilsin söz qızıltək,
Qızıl xərclənmədən əvvəl onu çək.

## FƏRHAD VƏ ŞİRİN HEKAYƏTİ

İpək geymiş pərisima o dilbər,
O daş qəlbli, gümüş əndam sərvər
O qəmli vadidə etmişdi məskən,
İçərdi içsə süd ancaq ürəkdən.
Qoyulsaydı önündə yüz xörək həm,
Qoyun, madyan südü istərdi hər dəm.
Uzaqdaydı yanından mal-qoyunlar,





Gətirməkçün süd olmuşlardı bizar.
O qəmgin vadini tutmuşdu bərk-bərk,
Acı qanqallar, otlar zəhrimar tək.
O otlardan xəbərdardı çobanlar,
O otlaqda sürü qoymazdı onlar.
Bu süd haqqında fikr eylərdi Şirin,
Gəzirdi çarə, bilmirdi nə etsin.
Gətirməkçün südü hər gün uzaqdan,
Düşür qulluqçular əldən – ayaqdan.
Gecə öz çiyninə zülfü tökəndə,
Qızıl aydan qulağa taxdı həlqə.
O həlqə içrə qalmışdı o Ay tək,
O qıvrıldı olunca sübh ilan tək.
Oturmuşdu yenə Şapur yanında,
Var idi növbənöv sözlər canında.
Nədir fikri o sərvin duydu nagah,
O aqil Şapur oldu işdən agah.
Bu işdən o üzü gül söhbət etcək,
Açıldı dinləyən kəs lalələr tək.
Baş əydi hindli görcək bir pərini,
Baxıb öydü Ütarid Müştərini.[111]
Dedi: - Burda mühəndis vardır ustad,
Çox aşiq bir cavandır, adı Fərhad.
Gələrsə həndəsə ibrət saçandır,
"Məcəsti" anlar, "İqlidis" açandır.[112]
Yaşıddıq, bir zaman Çində olardıq,
Bir ustaddan biz orda dərs alardıq.
Götürdük hər sənətdən pay həmişə,
Götürdüm mən qələm, aldı o, tişə.
Əgər tişəylə iş görsə o zirək,
Yeri yüklər balıq üstə o, quştək.
O, sənətlə gülə rəng versə bir dəm,
Dəmirlə daşda Çin nəqşi çəkər həm.
O sənətlə əlindən öpdü çox Rum,
O, qart daşı edər tişəylə bir mum,
Nə istərsən, edər ustad o insan,
O çeşməylə bitər güllər tikandan,
Bir ustad yoxsa, iş müşkül düzəlmiş,
Gərəkdir öncə ustad, sonra bir iş.
Düzəldər bir üzük hər kəs, bilirsən,
Gümüş, zər yox, olar mumdan, ya gildən.
Əgər əmr eyləsən, mən iş bitirrəm.
Onu min dillə də olsa, gətirrəm.
O Şapur söyləyən sözlər bitərkən,
Tamam qurtardı Şirin süd qəmindən.
Günün güzgüsünü açdıqda gündüz,
O yüz gözlü gecə tez yumdu yüz göz.[113]
Gedib hər səmtə Şapur göz yetirdi,
O seçkin Fərhadı tapdı gətirdi.
Apardı Qəsri-Şirinə onu şad,
Böyük tək kürsü də qoymuşdu ustad.
Gələrkən dağçapan kəs qəsrə dağtək,
Hamı qalmışdı heyran onu görcək.
O bir fildi, o görkəm, boy-buxunda,
İki filcə var idi qüvvət onda.
Kənizlər durdu çox xidmətlər etdi,
Ona layiq gözəl bir yer düzəltdi.
O Fərhad pərdədən xaricdə qalmış,
Beli bağlı, biləklərsə açılmış.
Fikirdəydi, oyunbaz çərx birdən.
Nələr göstərmək istər pərdələrdən.
Qəfildən həmlə etdi burda dövran,
Oyun göstərdi o pərdə dalından.
Dodaqlar qənd, gülüşlər dadlı, şirin,
Dalından pərdənin dilləndi Şirin.
O şəkkər qıflı açdı yaqutundan,
Şəkər azuqə tapdı burda ondan.
Onun sərvində o xurma ki, vardı,
Görüb xurma qulaqburma alardı.
O südlü xurmanın şirin dadından,
Çağırdı qənd balı, dad bilsin ondan.
Saçırdı qənd danışdıqca o ləblər,
Ətək çırpdı o Xuristana şəkkər.
Əcəb şirin dil imiş, dillənirkən,
Eşitdim Şirin adlanmış o üzdən.
Elə şirindiliydi o, nə söz var,
Səsindən mürgülər quşlar, balıqlar.
Təbərzəd tutsa ağzında o rəna,
Qulağından asardı qənd sırğa.
Dodaq açsa o bir məclisdə candan,
Ona can verməyən qalmaz bir insan.
Eşitsə kim onu etdikdə söhbət,
Lap Əflatun ola, eylərdi heyrət.
O avazı, səsi Fərhad eşitdi,
Alışdı, yandı bağrı, huşu getdi.
Elə şiddətli ah çəkdi cigərdən,
Sərildi yerlərə, qəşş etdi birdən.
Düşüb çırpındı yerlərdə o, bərk-bərk,
Yerə baş döydü, qıvrıldı ilan tək.
Görür Şirin gedib əldən sənətkar,
Ürək tordan çıxan quştək pırıldar.
Ona sözlə dönüb etdi o, çarə,
Tora qaytardı o, dənlə dübarə.
Dedi sonra ona: - Ey aqil ustad,
Mən istərdim elə iş gör, olum şad.
Budur səndən muradım, ey hünərmənd,
Açılsın qəmli könlümdən mənim bənd.
Çalış ustad işinlə, cəld əlinlə,
Bu qəsrin xeyrinə iş gör yəqinlə.
Sürü gendə, südə möhtac biz ancaq,
Elə et ki, ola asan süd almaq.
Bu yerdən ta qoyunlar hardadırsa,
Bir arx qaz bərk o daşdan, mümkün olsa.
O yerlərdə çobanlar süd sağarkən,
İçə xidmətçilər burda o süddən.
O Şirin sözləri bildirdi Şirin,
İtirdi huşunu Fərhad, o miskin ,
Eşitdi sözləri Fərhad sənətkar





Nə istər bilmədi amma o dildar.
Dedi dostlar nədir söhbət bu yerdə,
Nədir mətləb deyildi orda bir də.
Nədir istək, fikir ta bildi Fərhad,
Göz üstə qoydu hökmü, oldu çox şad.
Bu işdə o, çevik işlərdi, söz yox!
İşi naziklərin nazik olur çox.
Yeri orda necə gör parçalardı,
Dönüb daş zərbəsindən mum olardı.
Didirdi qart daşı tişəylə asan,
Söyüd tək nov yonurdu orda daşdan.
O otlaqdan tutub ta qəsrə birbaş,
İki üz daş düzülmüşdü başa-baş
Bir ay ərzində qart daşlar içindən
O, dərya tək bir arx çəkdi ürəkdən.
Haçan ki, daşlara tişə çalardı,
İki ağrınca gövhər muzd alardı.
Düzəltdi bir hovuz axır o, göyçək,
O kövsər hovzu olmazdı onun tək.
Elə bir arx düzəltdi daşdan əla!
Arasından onun keçməz tük əsla!
Hovuzda qoydu o, daşdan bir insan,
Deyərdin su axır üst paltarından.
Əgər bənna elə almazsa tişə,
Bina tikmək çətin gəlmiş həmişə.
Əgər yarmaq gələ yüz dağ poladdan,
Qalar aciz ona əl qatsa insan.
Nə var etməz ona bir çarə adəm.
Ölümdən qaldı tək biçarə adəm.

## ŞİRİNİN FƏRHADIN DÜZƏLTDİYİ HOVUZ VƏ ARXA BAXMAĞA GETMƏSİ

Xəbərdar oldu Şirin Fərhad orda,
Hovuz tikmiş, həm arx çəkmiş bir ayda.
Gecə-gündüz qoyundan nə süd olmuş,
Ayağıyla gəlib bəs hovza dolmuş.
Pərisima çölə doğru yol aldı,
Hovuzla arxa lap heyrətdə qaldı.
Elə zənn etdi bu hovzu o həmdən
Düzəltmişdir özü tanrı, nə adəm.
Süd arxıyla hovuz hur ilə cənnət,
Deyil insan işi, məlum həqiqət.
Dedi Fərhada Şirin çoxlu əhsən
Ki, eşq olsun hünərlər göstəribsən.
Çağırdı: - Gəl yaxın iş qurtaranda,
Uca tutdu yaxınlardan da onda.
Sən ustada necə bir haqq verim mən,
Gücüm yox qurtarım şagirdlərindən.
Var idi şəbçıraq sırğası gövhər,
Qulağından onu açdı o dilbər.
Dəyərdə sındırardı dürr tacı,
Onun hər danəsi iqlim xəracı.
Yüz üzr ilə onu açdı qulaqdan,
Dedi: - Al, sat bunu, yalvardı candan.
Daha artıq gücüm bir vaxt olanda,
Yetirrəm haqqını mütləq mən onda.
Dedi bu xəznəyə Fərhad çox əhsən,
Ayağı altına atdı o, birdən.
Tez ordan çöllərə üz tutdu, getdi,
Dəniz tək tökdü qan-yaş, nalə etdi.
O qorxdu dillərə düşsün bu dastan,
Böyük mərdliklə gen gəzdi adamdan.

## ŞİRİNİN EŞQİ İLƏ FƏRHADIN ÇÖLLƏRƏ DÜŞMƏSİ

Ürəkdən Şirinə bənd oldu Fərhad,
Vücudunda onun eşq etdi fəryad.
Çətin keçdi günü xeyli bu qayda,
Bir iş gəlmirdi əldən, yoxdu fayda.
Nə səbr üçün var idi canda qüvvət,
Nə güc vardı, səbirlə tutsun ülfət.
Batıb qəlbin ayağı palçığa bərk,
Əli köksündə qaldı çarəsiz tək.
Əl işdən düşdü, dil qaldı sözündən,
Bədəndən güc, yuxu getdi gözündən.
Qaçırdı div kimi bir kimsə görcək.
Yıxılmaq, qalxmağı həm xəstələr tək,
Qərarı yox, gəzirdi çöldə, dağda,
Əlindən zara gəldi çöl də, dağ da.
Uca sərvi əyilmiş gül budağı,
Cırılmış köynəyi güllər sayağı.
O, ağlar bir sürahi, qəmli bülbül,
Vurulmuş könlünə dağ qönçə bir gül.
Cahanda qəmləriyçün yoxdu qəmxar,
Nə eylərdi ona bir çarə dildar.
Əyilmişdi yığa yoldan tikanı,
Ayaq-mismar tikanların məkanı.
Cırar paltarını qorxmur tikanlar,
Nə qorxurdu başı üstdə qılınc var,
Havalanmış başı hicran qəmindən,
Uzaq düşmüş dözüm, səbr aləmindən.
Saçırdı gözlərindən hər zaman qan,
Üzündə lalələr bitmişdi qandan.
Havada nalədən xeymə qurardı,
Fələklərdə təbəqlər sındırardı.
Aparmış eşq odu qəlbindən aram,
Gəlirdi cuşa onda yeddi əndam.
Adı bilmir suyun, ya dayənin nə,
Su istər cam ilə bir köhnə təşnə.
Damağı qəlb odundan odlanırdı,
Çıraq tək varlığı odda yanırdı.
Yaralar qəlbi etmiş parça-parça,
Düşüb can bir həlak olmaq dalınca.
Hədəf seçmiş onu dərd ilə möhnət,
Bəla ötmüşdü həddən, qəlb həsrət.
Ağac, daş görsə qorxan qurd, ilan tək,

Ayıq, məst qəmdən o qorxurdu çox bərk.
Sudabdan cadu qorxar, div dəmirdən,
Onusa hürküdürdü dost və düşmən.
Edirdi nalə qəlbi, gözlər ağlar,
Kabab etmişdi qəlbi dərd-dağlar,
Gecə ta sübhəcən eylərdi ah-zar,
Yanar odlar içində qəlbi sızlar.
Ürək getmiş, dönüb bəxtin qərarı,
Düşüb qəlbin dalınca, harda varı?!
Onu ağlatdı Şirin eşqi zar-zar,
Bu ah-zarı eşitdi çox uzaqlar.
Ətəkdən qəm tutub, qəmlərlə o, şad,
Olar xəznə necə viranda abad.
Dəvasız dərdinə bilmirdi dərman,
Bu qəmlərdə nədir bilmirdi sahman.
Düşüb qalmışdı xəstə, dərdli, tənha,
O dostlardan, yaxınlardan kənarda.
Olub köksündə Şirin eşqi punhan,
O Fərhad olduğu çıxmış yadından.
Xəbər göndərməyə qəmdən nə bir dəm,
Sifarişçün nə bir munis, nə həmdəm.
Onun qəsri tərəfdən toz da gəlsə,
Edərdi gözləri üçün o, sürmə.
O görsə yar gedən yolda bir ot var,
Öpüb söylərdi təhsinlər, dualar.
Dilində səslənən vaxtı həmin ad,
Öpərdi torpağı yüz dəfə Fərhad.
Baxarkən qəsrinə yarın o həmdəm,
Cırardı paltarı yox, canı hər dəm,
Qaçırdı vəhşi tək çöldə nigaran,
Onunla üns tutdu vəhşi heyvan.
Bu acizlər tutan torda olanlar,
Yığıldı dörd yanında, oldu dost, yar.
Biri yastıq təmizlər, qeyri yorğan,
Ətəkdən gah öpərlər, gah ayaqdan.
Gəzərdi ahularla gah xəlvət,
Qulanlarla edərdi bəzən ülfət.
Silər, göz yaşını töksə marallar,
Darar gah şirləri, quyruq sığallar.
Olar gündüz o, ceyranlarla yoldaş,
Marallarla gecə munisdi, sirdaş.
Gecə-gündüz fələk tək fırlanardı,
Yeməz-içməzdi, dərdlərdən yanardı.
Baş alsaydı, yola çıxsaydı birdən,
Bir ay düz yol gedər, qalmaz səfərdən.
Əgər lap yüz divar çıxsaydı qarşı,
Baxıb görməzdi ta dəyməzdi başı.
Əgər dəysə gözündən harda bir ox,
Elə mədhuş idi, göz qırpmağı yox.
Ona yolda quyu rast olsa hərgah,
Düşər, görməz, sudan olmazdı agah.
Sevinc alsa onu yarın qəmindən,
Atar tezcə onu qəlbin evindən.
Haçan qəm könlünə həmdərd olardı,
İki at mənzilində qarşılardı.
Üzü daim yuyar gözdən axan qan,
Arardı öz Süheylin gözdə candan.[114]
O yatmazdı gərək də olsa naçar,
Gələn dosta qapı heç bağlamazlar.
Ürək biganə olmuşdu özündən,
O evdə özgəsi tutmuşdu məskən.
O üzdən nəqşi bərk olmuşdu heyran,
Ona bağlıydı özgə nəqş çoxdan.
Gecə-gündüz qaçar, durmaz o sərvər,
Özündən ta kənar atsın qədəmlər.
O istərdi bədəndən dışra dursun,
O dostla bir bədən içrə otursun.
O bilmirdi quşu yoxdur qəfəsdə,
Xəbərsizdi, yox artıq evdə kimsə.
Elə yar ilə getmiş ixtiyarı,
Özündən fərq edə bilmirdi yarı.
O bir nur görsə, ya ataş hayanda,
Görərdi bunda hicran, vəsli onda.
Yaman fal eşqdə tutmaz bir adəm,
Özüyçün tutmaz amma tutsa bir dəm.
Ona qarşı çıxan hər bir naxışdan
Xeyir bir fal açar aşiq o insan.
Naxış yaxşı olar, ya bəd gələrdi,
Onu hər dəm muradınca bilərdi.
O nuru daim eylərdi ziyarət,
Edərdi baxmağa gendən qənaət.
Dönüb səhraya bir də üz tutardı,
Könüldə qəlb alanın dərdi vardı.
Gələrdi axşamüstü o, bir ov tək,
Hovuzdan süd içərdi ürkək-ürkək.
O süddən başqa heç bir şey yeməzdi,
Hovuzdan özgə yer seyr eyləməzdi.
Hovuzdan bir gecə gəzməz kənarda,
Gecə daim o, dövr eylərdi orda.
Bu söz bir dastan oldu axır eldə,
Ağızlarda dolaşdı, gəzdi dildə.

## FƏRHAD ƏHVALATINDAN XOSROVUN XƏBƏRDAR OLMASI

O dərgaha yaxın məhrəm bir insan,
Xəbər çatdırdı şaha əhvalatdan
Ki, Fərhad Şirinə divanə olmuş,
Sözü aləmdə bir əfsanə olmuş.
Elə almış onu ağuşa sevda,
Yeri olmuş bu sevda ilə səhra.
O parlaq hüsnü hədsiz sevdiyiçün,
Gəzər çılpaq ayaq-baş çöldə hər gün.
Deyir qəlbim olub Şirinə vurğun,
Bu üzdən dillərə düşmüşdür olsun.
Nə qorxar bir qoca, yaxud cavandan,
Onun yox qorxusu oxdan, kamandan.
Nə var qəlbində o Ayla qovuşmaq,





Ona baxmaqla qanedir o ancaq.
Gümüş sima bütü eylər o, çox yad,
Olar yaddan çıxıb dəxi özü yad.
Gəlib hər həftə o qəsri salamlar,
Qalar razı desə hər söz adamlar.
Eşitdikdə haman dastanı Pərviz,
Onun könlündə artdı eşqi hədsiz.
Olar yaxşı iki mərd etsə dava,
Öyər tək bir gülü cüt bülbül əla.
Olarsa bir şeyə bir cüt xiridar,
O malın qiyməti onda çox artar.
Bu yandan Xosrov oldu bir qədər şad
Ki, olmuş yoldaşı bir könlü bərbad.
O, qeyrət çəkdi yar üçün o yandan
Ki, bir qeyrətli də çıxdı bu yandan.
Dolaşdı fikri acizlər sayağı,
Qalırdı çünki palçıqda ayağı.
Bədəndə qalib olsa dərdlə azar,
Ucalıqdan düşər həm sərv naçar.
Özün axtarma dərdə çarə əsla,
Deməz sağlam fikir, kim xəstə olsa.
Deyər sağlam söz, olsa sağlam insan,
Gələr hər süst əməl həm süst olandan.
Təbib nəbzin tutar bir xəstə gəlsə,
Özü qeyrə verər əl, xəstələnsə.
Oturdu bir neçə məhrəm yaxınlar,
Bu mənadan dedi çox sözlər onlar.
"Bu sevdalı adam ilə nə etmək?
Bu möhrəylə necə tədbirə getmək?
Buraxsam sağ, işim bərbad olar çox,
Əgər töksəm qanın, onda günah yox.
Bu şahlıqda çalışdım xeyli müddət,
Görüm bir kəndlisiz bayram və işrət.
Mənə göstərdi bayram indi dilbər,
Olub Xosrovla divanə bərabər."
O aqillər cavab verdi həmin vaxt:
"Olub, ey şah, səninlə ölkə xoşbaxt.
Sənin hər bir qulun bir tacidardır,
Sənə səcdə edənlər hökmdardır.
Ola ömrün uzun durduqca aləm,
Səadət yarın olsun, bəxt həmdəm.
Əgər divanəyə lazımsa tədbir,
Dəmirdən yox, qızıldan sazla zəncir.
Bu sevdaya qızıldır, bil ki, dərman,
O dərman da alır qüvvət qızıldan.
Çağır, yüz-yüz ümid ver burda əvvəl,
Qızıllar saç günəş tək sonra sən gəl.
Nə tək yardan, dönər dindən qızılla,
Dönər mütləq o, Şirindən qızılla.
Qızıl çox gözlünü etmiş tamam kor,
Qızılla çox dəmirdən aldılar zor.
Qızılla çıxmadı yoldan o, görsən,
Tutub daşla onu məşğul edərsən.
O qalsın ta ölüncə dağda, daşda,
Keçirsin ömrümü daşla savaşda.

## XOSROVUN FƏRHADI YANINA ÇAĞIRTDIRMASI

Dedi öz fikrini orda olanlar,
Buyurdu: "dağçapan gəlsin" cahandar.
O, qəsrə daxil oldu sanki bir dağ,
Düşüb ardınca heyran dəstə yığnaq.
Nə baxdı Xosrova, nə taxta gircək,
Ayaq basdı yerə şir tək o, bərk-bərk.
Elə məst idi Şirinin qəmindən,
O, şahın qorxmadı heç görkəmindən.
Buyurdu şah, onu ta oxşasınlar,
Hər addımda şabaş səpsinlər onlar.
Oturdu ta ki, fil gövdə o insan,
Qızıllar yağdı fil boyda başından.
Onun qəlbində vardı bircə gövhər,
Onunçün birdi gövhər, daş və ya zər.
Maraqlanmır görürkən zərlə mehman,
Yenə şah saçdı gövhərlər dodaqdan.
O Xosrov söyləyən hər nüktə, mənə
Cavabladı həm eyhamla o qayda.

## XOSROVLA FƏRHADIN DEYİŞMƏSİ

Dedi Xosrov: - Nə yerdənsən, cavan sən?
Dedi Fərhad ki, sevda ölkəsindən.
Dedi: - Orda nə sənət var, nə iş var?
Dedi: - Dərdi alırlar, can satırlar.
Dedi: - Satmaq o canı bir ədəbmi?
Dedi: - Aşiqlər üçün bu əcəbmi?
Dedi: - Qəlbənmi aşiqsən, ey insan?
Dedi: - Qəlbən deyirsən, mənsə candan.
Dedi: - Oldun necə Şirinə aşiq?
Dedi: - Onsuz mənə canım nə layiq.
Dedi: - Röyada gördünmü gecə sən?
Dedi: - Gəlsə yuxum, heç yatmadım mən.
Dedi: - Qalmaz haçan bu eşq canda?
Dedi: - Torpaqlar altında yatanda.
Dedi: - Birdən sarayında sən olsan?
Dedi: - Görsəm, keçərdim mən başımdan.
Dedi: - Bir gözünü birdən çıxartsa?
Dedi: - Digər gözü verrəm mən onda.
Dedi: - Birdən onu bir qeyri alsa?
Dedi: - Oxlar yeyər, daşdan da olsa.
Dedi: - Durma, ona sən bir yol axtar,
Dedi: - Daim Aya gendən baxarlar.
Dedi: - İstərsə birdən hər nəyin var?
Dedi: - Haqdan elə bu istəyim var?
Dedi: - Səndən o istərsə əgər baş?
Dedi: - Qurtarram o borcdan da birbaş.
Dedi: - Sən gəl bu eşqi at başından.
Dedi: - Gəlməz bu iş aşiq olandan.





Dedi: - Sən rahat ol, bu fikr xamdır.
Dedi: - Rahatlıq aşiqdə haramdır.
Dedi: - Get səbr elə daim bu dərdə.
Dedi: - Səbr eyləməz aşiq bu yerdə.
Dedi: - Səbr eyləyən çəkməz xəcalət?
Dedi: - Qəlb olsa, qəlbim yoxdur, əlbət.
Dedi: - Qəmlərdə qorxursan, de, kimdən?
Dedi: - Ondan mən ayrılmaq qəmimdən.
Dedi: - Dünyada istərsənmi həmdəm?
Dedi: - Yaxşı olardı, olmasam həm.
Cavab verməkdə Xosrov qaldı aciz,
Suala dəxi yer qalmırdı hərgiz.
Dedi: - Dostlar, bu su, torpaqda gəzsən,
Belə hazırcavab kəs görmədim mən.
Onunla zərlə müşküldür bacarmaq,
O, daşlarla sınansın zər tək ancaq.
Poladdan bir qılınc tək dindi sonra,
Dedi: - Almaz gedib qalsın daş altda,
Bizim burda yol üstündə durur dağ,
O dağdan çox çətindir keçmək, aşmaq.
Gərək bir yol çəkilsin indi dağdan,
Gedib-gəlmək bizə olsun qoy asan.
Gücü hər kimsənin bu əmrə yetməz,
Bunu səndən savayı kimsə etməz.
O Şirin eşqinə! Hərgah bacarsan
Yoxumdur bundan artıq and, peyman!
Bu istəklərdə ol gəl mənlə həmdəm,
Ödənsin ehtiyacım, görsün aləm.
Cavab verdi dəmir pəncə o insan:
"Götürrəm dağı mən şahın yolundan.
Bu şərtlə şaha mən xidmət yetirsəm,
Necə lazımdır o şərti bitirsəm,
Gərəkdir razı salsın şah məni bərk,
O Şirin qəndini etsin tamam tərk."
Elə hirsləndi Fərhada şah onda,
Düşündü boynunu vursun bir anda.
Dedi sonra: Bu şərt ilə nə qorxu?
Bu torpaq ki, deyil, daşdır axır bu!
Lap olsun torpaq o, mümkünmü yarmaq!
Əgər yarsa, hara mümkün aparmaq?!
Qızıb bir də dedi şərtdir haman şərt,
Əgər dönsəm, məni sanma kişi, mərd.
Buyur bel bağla göstər nə gücün var,
Çalış göstər nəyə qadirsən aşkar.
Bu sözdən oldu Fərhadın kefi çağ:
- Ey adil şah, - dedi, - bəs hardadır dağ?
Ona göstərdi şah bir dağ haman dəm
Ki, indi Bisütun ad vermiş aləm.
O üzdən ki, o, sərt daşdandı çox qart,
Üzündən sərtliyi aşkardı hər vaxt.
Olub vədiylə şahın qəlbi çox şad,
Tez ordan odlu dağ tək getdi Fərhad.
Gəlib çatdı dağa axır ki, yel tək,
Külüng açdı, o həm bel bağladı bərk.

O, əvvəlcə dağa göstərdi hörmət.
Daş üstündə yaratdı xeyli surət.
Elə əla yonuldu daşda Şirin,
Çəkibdir Mani "Ərjəng"i deyərdin.
Haman odlar saçan tişəylə sonra
Yonuldu şahla Şəbdiz şəkli əla.
Çəkərkən surəti Fərhad cavandı,
Nə comərdliklər etdi, mehribandı.
O piylə başlanan quyruqla ancaq,
Nə etdi bir qarı Fərhada bir vaxt?
Əgər quyruq tələ qurmuşdu qurda,
O quyruqla kişi qurtardı burda.
O piy quyruqda görsən də kələk, fən,
Elə hey quyruq ardınca gəzirsən.
Dişi düşmüş qoyundur bilmə dünya,
Yesən quyruq, sevinməz qəlbin əsla.
Deyil quyruqlu ulduz bəxt bürcün
O quyruqtək düşübsən dalca neyçün?

## FƏRHADIN DAĞ ÇAPARAQ NALƏ ETMƏSİ

O daşlar üstdə çəkdi xeyli surət,
İşi qurtardı, Fərhad oldu rahət.
Aşırmaqçün dağı çırmandı candan,
Qırırdı ölçüsüz çox daşlar ondan.
O göstərdikcə qart daşlarda zor-güc,
Qopardırdı hasardan sanki bir bürc.
O dincəlmirdi ta gəlmirdi axşam,
Yarırdı qart dağı, fikri dilaram.
O almaz kirpiyi yaqut deşirdi,
Qəmindən qart dağ ilə söyləşirdi.
Ki, ey dağ, gəl sinən sal daş da olsa,
Elə bir mərdlik, ol sən parça-parça.
Mənim xətrimçün üz cır, ovxalan sən,
Bir az yüngül yanıl ki, dərdliyəm mən.
O canan canı üçün yoxsa sonra,
Axır bir gün bədəndən can çıxınca.
Səni incitməyi tərk etmərəm mən,
Lap ölləm, bu döyüşdən getmərəm mən.
Bir axşam vaxtı qəmlər səhrasında
Gəlib durdu Günəş dağlar başında.
Qaranlıq ağlığa bir rəng vurdu,
Ucaldıb bayraq o sultan oturdu,
Gedib şəklin qabağında durardı,
Haman daşda baxıb gövhər arardı.
Öpər şəklin ayağından o, bərk-bərk,
Edərdi nalə eşqindən təbiltək:
"Sən ey rəssamların mehrabı insan!
Taparlar dərdlilər tək səndə dərman.
Sən ey gərdən gümüş, qəlbi olan daş!
Səninlə azdı miskin qəlb birbaş.
Ayağı bağlı gövhərsən o daşda,
Sınıb daşda ürək gövhər tək amma."
Önündə bir zaman ağlardı zar-zar,

O ağlar, sonra üzr istərdi təkrar.
O, dağ üstə çıxardı sonra ordan,
Belində qəm yükü, könlü pərişan.
Baxardı qəsrinə yarın o nakam,
Deyərdi ahu-zarla: - Ey güləndam!
Bu bağrı yanmışa bir nur bəxş et!
Bu işdən düşmüşə sən bir iş öyrət!
Bu nakam kimsəni kama yetir sən!
Ümidsiz qəlbə ümmidlər gətir sən!
Məni yad etməyə gəlməz qərarın,
Varındır çünki məndən yaxşı yarın.
O yaram eylərəm ancaq səni yad,
Yanar aləm, mən etsəm nalə, fəryad.
Oturmuş şad Şirin orda gül tək,
İçir mey yad edib Pərvizi, yox şək.
Elə etmiş fəda Fərhad, o miskin,
O şirin canı Şirinin canıyçün.
Səni etsəm də, ey bədr Ay, ziyarət,
Məni yad eyləməzsən, bu, həqiqət.
Sənin eşqinlə, ey nurlar saçan şam!
Görürsən ki, günüm var dərdli, nakam.
Bu dar dəhlizdə ki, adı cahanmış,
Vücudum sanki bir daşdan yaranmış,
Deyildirsə üzüm daşdan, dəmirdən,
Dəmir-daşdan vəfa gəzdim neçin mən?
Bu üzgün qəlbi xar etməkdən əl çək!
Qəribi daşda öldürmə ilan tək!
Sənə çoxdur olan qurban bu yerdə,
İki qəssab dayanmış bir böyürdə.
Dağ üstdə qalmışam tənha, görən yox,
Arıqlıqdan məni bir öldürən yox.
Məni gendən yaxır odda məhəbbət,
Hanı pərvanədə nura o taqət!?
Yaxın gəlmir o üzdəndir bu torpaq,
Yaxınlıqda xətərlər vardır ancaq.
Mənəm haqqı bilən, bəsdir bu zillət!
Gəl öldür ki, qala boynumda minnət,
Bu qəmdən bəlkə qurtarsın yanan can
Ki, xoşdur ölməyim böylə həyatdan.
Bu gündə nola ulduz çıxmayaydı,
Bu bəxt ilə bir insan doğmayaydı!
Qılıncında bu dövrün rəhm olsa,
Sənə dımaq, mənə əl kəsməz əsla.
Yox isə meyli dövranın döşündən
Niyə sən süd, qan içdim hər zaman mən?!
Anandan əmdiyin süd xətrinə sən
Gəlib süd mən çəkən arxdan içərkən,
Şəkərlə, südlə et barı məni yad,
Olar südlə, şəkərlə təşnə həm şad.
Çobanlar süd verib əldən tutar bərk,
Məni eşqində bil sən südəmərtək.
Məni bir içməli süd tək xatırla,
Unutma südəmərlər misli amma.
Şirinlik dadmadım camın dadından,
Dilim bal daddı, yad etsəm adından.
Yoxumdur səndən özgə yar, qəmxar,
Nə bir qəmxar ola, etmə, nə bir yar.
Çağır bu təşnəni, söz de, söz olsun!
Qaranlıq bir gecə qoy gündüz olsun!
Əgər yoxsul da olsam mən yanında,
Sənə bir varlı tək verrəm can amma.
Bu yoxsulda nə gör dövlətlilik var,
Maya qoymaz, qazanmaq fikri artar,
O qəlbi yaxma ki, dildarı sənsən,
Onun həm çarəsi, həm yarı sənsən.
Gözəllikdə əcəb hüsnün göz oxşar,
Qəriblər qoyma qalsın yolda naçar.
Qəriblikdən bu gün bir qismətin yox,
Qəriblik günləri möhnət gələr, qorx!
Təəssüf ki, bu dünyada bu yarlar,
Çətində yoldaş olmazlar, qaçarlar.
Səni dərdə atar, ömr eylər asan,
Desən əl tut, tutar hər dəm ayaqdan.
Gəl içmə qanımı, mən qan yedim çox,
Ayaq torpağın olmuş bu qərib, qorx!
Nə etdim ki, mənə kin bəslədin sən?
Pis iş tutdumsa, nöqsandır, deməzsən.
Olub ancaq xəyalın səcdəgahım,
Cuhudam varsa bir qeyri günahım.
Ürəkbir dosta bir göstər vəfanı,
Kim etmiş kimsəyə böylə cəfanı?!
Əgər mən bir yeləm, ey sərv qamət!
Söyüd tək sən bu yeldən başı tərpət.
Əgər sən xəznəsən, bir torpağam mən,
Bu torpaqdan ziyarətgah düzəlt sən.
Yox imkan, ey Təraz şamı, cavanım,
Çırağında yana piy tək bu canım,
Elə öldür qapından da kənarda
Kül olsun bu sümüklər də qoy orda.
Qala oldum gecə quşlara hər dəm,
Mənə İshaq-Mushaq oldu həmdəm.
Gecə ta sübh olunca ağlaram zar,
Nə bir zahid, nə rahib mən tək ağlar.
Görəydin kaş gecə mən ağlayarkən,
Gecə-gündüz necə qallam oyaq mən.
O daşdan yox, polad da olsa qəlbin,
Bu dərdli qəlbimə rəhm eyləyərdin.
Yeni bir zülm gördüm mən hər anda,
Nə olsun, dəxi saymazsan bir arpa.
Yıxılmış bir öküz, xəstə görürsən,
Baxırsan, eşşəyi gendən sürürsən.
Apardın qəlbi, bəsdir bu zülümlər!
Özün öldürmüsən, bir lütf göstər!
Əlimdə qaldı aciz dağlar, amma,
Yanında qiymətim yox bir samanca.
Bu dağlardan da çox güc, qüdrətim var.
Olar qarşımda dağ tək ordular xar.
Qılınc çəksəm əgər yerdən durub tez,





Nədir qarşımda Şəbdiz, ya ki, Pərviz?!
Bax o Pərviz, bax o Şirin, o Fərhad,
Hamı beş hərfik ancaq, ey pərizad![115]
Hər üç adda cəmi beş hərf varkən,
Apardı bəs nədən Xosrov, bilirsən.
Onu mən bilmirəm qalib özümdən,
Bu qalib, məğlub içrə üstünəm mən.
Budur mən bildiyim, gülmür mənə baxt,
Məni qorxutdu burda baxt hər vaxt.
Mənim baxtım bəd imiş, oldum agah,
Əcəb xoş tale imiş amma bədxah!
Belə kaş olmaya olsa o lap şah,
Ki, olsun bəxtli bir kimsə bədxah.
Budur qorxum, bu dağla çarpışarkən,
Girov düşmənlə qalsın, dərd ilə mən.
Buyurmuşsa mənə kim dağı çapmaq,
O istərmiş məni məhv etsin ancaq.
Mənə ölmək bu işdə oldu asan,
Qalıbdır canda qüssə, qüssədə can.
Bu aşiqlik mənə müşküldür, ey kaş!
Daşa bağlandı qəlbim, qəlbimə da°.
Həqiqətdir, məcaz bilmə sən ancaq,
İş üstə gəlmişəm, sanma oyuncaq.
Edərsən qəlbi sən bərk daş təbiət,
Elə bərk yox, dəmir çəksin xəcalət.
Sarı mum tək məni yandırdı sevda,
Ürək yandı özüyçün qəmdən amma,
Qızıl, ya ki, gümüş yox məndə hər dəm,
Səpim qarşında xarvarla dəmadəm.
Sarı üzlə axan göz yaşlarım var,
Qızıl, həm də gümüş peşkəşdir onlar.
Sənin eşqinlə, ey nurlar saçan şam,
Nə yatsam, nə oyansam, tapdım aram.
Oyaq vaxtı həmişə qəm yedim, qəm,
Əgər yatsam, çoxalmış dərd hər dəm.
Oyaq qalsam da, yatsam da, buyam mən,
Mənə yaxşı pənah dünyada sənsən.
Gəl, insan tək sənə bəxş eyləyim can,
Məgər divəm, qaçım gördükdə insan.
Durub daşdan özü insan yonan kəs,
O, insana necə bənd olmasın bəs?!
Daşı yonnam, deyil gizlin bu, əsla,
Durur qarşımda, alnımda yox amma.
Kimin alnı olarsa ayna tək bərk,
Olar xalqın içində bəxti yüyrək.
Bənövşə misli kim olsa utancaq,
Onu bəslərmi nemətlə bu torpaq.
Həyasızsa, utanmazdırsa hər kim,
O nərgiz tək qızıl tac qoydu daim.
Cahanda varmı bir kürd məndən alçaq!?
Mənimtək kimsəsiz mümkünmü tapmaq?!
Mənə qəlbi yanan bir dost yoxumdur.
Əgər bir gün yıxılsam, söyləsin: - Dur.
Nə dövrəmdə elə dostum, yarım var,
Ölərkən yastığımdan tutsun onlar.
Bu qəmlərlə mənəm dünyada tənha,
Fəda etdim, qalıb baş astananda.
Düşüb qalsam quyu içrə yüz il mən,
Başım üstdə tək ahım var, görərsən.
Yüz il dağlarda, ya çöllərdə gəzsəm.
Gəzər arxamca ancaq özcə kölgəm.
Necə it canlıyam dərdə dözür can
Bir it sahibi tək üstüm-başım qan!
İtin var yer-yatağı, tək mənim yox!
Otun yerdə ayağı, tək mənim yox!
Sığınmış dağlara şirlər, pələnglər,
Tutub dəryada bir yer həm nəhənglər.
Ağılsız mən düşüb torpaqda qaldım,
Nə torpaqda, nə daşda rahat oldum.
Yer üstündə buraxmır tək məni qəm,
Yer altında xilas ollam haman dəm.
Bu cür evsiz-eşiksiz olmasın kəs,
Nəyə lazım acı isə həyat bəs?!
Sənə doğru məni məhvə qovur yel,
Xəta etdim, məni torpaq çəkir, bil.
Deyim neyçün kiməm mən, var isən sən?
Sənindir kənd, bu kənddə bəs nəyəm mən?
Demək olmaz varam mən, sən də varsan,
Sən onda xudpərəst bir can olarsan.
Gedim, cəhd eylərəm mən burdan amma,
Yolu kəsmiş duman, tüstü, nə fayda?!
Bu mənzildə ayaq qaçmış, yorulmuş,
Bura çatmaq gec, o getmək tez olmuş.
Atım getməkdə çox cəld oldu burda,
Tapar heç bilmirəm aram o, harda.
Bu qəmdən olmuram bir dəm mən azad,
Cahanda kimsəni kaş olmasın şad!
O aqillər nə söylər gör bu yöndə,
Bu dəryada ağıl dürrü deşəndə,
Hər insan canı sağlam olmayan dəm,
O, sağlam istəməz olsun bir adəm.
Yaraşsın bəs mənə bu eşq hardan?
Saçımda toz yığılmışdır bir ümman.
Tamam yağsız qalıb beynim, damağım,
Yanır, sən dərdə bax, hardan çırağım.
Bu dərd ilə qalıb məndən kül ancaq,
Olar küllə odu örtmək, basırmaq.
Bu torpaq yel kimi qopmuş yerindən,
Ayaqdan güc gedib, şadlıq əlindən.
Ayaq düşsə ələ bir də olan tək,
Onu daşda naxış tək saxlaram bərk.
O pərgar altda bir nöqtə olardım,
Önündə bir naxış tək mən qalardım.
Daha bənd olmaram bir surətə mən,
Yetər surətpərəst olmaq bu gündən."
Gecə artıq vilayətdən ötürdü,
O gündüz ordusu bayraq götürdü.
Yenə bir də qiyamətgün sənətkar,

Götürdü tişə, dağ çapsın o, təkrar.
Gecə gövhər saçar gözdən həmişə,
Yonar daş gündüz olcaq əldə tişə.
Dolardı daşla, gövhərlə o yerlər,
Qarışmış bir-biriylə daşla gövhər.
O Fərhad Bisütunda dağ çapandan
Onun dağ çapması olmuşdu dastan.
Gəlirdi hər bucaqdan daş yonanlar,
Görüb barmaq haman dişlərdi onlar.
Baxan olmuş dəli-divanə ondan,
Dəmir, daş hər kəsi etmişdi heyran.

ŞİRİNİN FƏRHADI GÖRMƏK ÜÇÜN BİSÜTUN DAĞINA GETMƏSİ

Mübarək günlərin xoş bir günündə,
Oturmuş dostları Şirin önündə.
Yamandan, yaxşıdan söhbət gedirdi,
Hərə öz bildiyindən bəhs edirdi.
Keçən bir eyşi eylərdi biri yad,
Bu tarixlə olardı hər könül şad.
Gələn gündən biri əfsanə söylər,
O, bundan da gözəl gün vəd eylər.
Deyildi hər sayaq söz qəlbi oxşar,
Çəkər xeyli uzun, olsa o, təkrar.
Calandı söz sözə burda, nəhayət,
Sütunlu Bisütundan düşdü söhbət.
Dedi Şirin gülüb: - İndi mən onda,
Gedib bayrağı sancım Bisütunda.
Dəmir qollu o Fərhad mən görüm bir
Poladla daş çapır, eylər nə tədbir.
Bu qəlbim daş, dəmirdən bəlkə dinsin,
Qığılcım bəlkə düşsün, qəlb isinsin.
Buyurdu hazır olsun at haman dəm,
Səba üstə qoyulsun zər yəhər həm.
O gün Gülgün onun yoxdu yanında,
Bir ayrı at ələ düşmüşdü onda.
Yola düşdü, nə söz, sanki bahardı,
Gözəllikdə o, Yağmalı nigardı.
Gedir, nərgizləri məst idi amma,
O, yüz xərmən gül idi, başda sevda.
Bədən nazik, vücudunda təravət,
At üstündə quşa bənzər o afət.
Elə bir cəld miniciydi o həmdəm,
On addımdan ata sıçrardı hər dəm.
Səba üçün nala mismar vururdu,
Fələk tək yerlərə pərgar vurdu.
Çağırdı dağçapan gəlsin o dağtək,
Tutub üz dağçapançün dağbədən bərk.
Gəlib çıxdı, şabaş mişk ilə nəsrin,
O daş dağa gümüş dağ misli Şirin.
Onun gün tək üzü əksiylə asan
Olurdu lələdən daşlar Bədəxşan.[116]
O ləli yad edib Fərhad qazır can,
Qazırdı dağları biçarə kankan.
Yeyib daşqəlb yardan daş hər dəm
Daş ilə çarpışırdı dağda möhkəm.
Nə zəhmət çəkdi daşlarda o insan,
Bunu ölçən ələ gəlmirdi mizan.
O dağ gövdə dağı çapmaqda hər dəm,
Dəmavənd boyda könlündə kədər, qəm.[117]
Daşın bığlarını dartırdı bərk-bərk,
Çıxırdı çünki daşlardan o istək.
Yuyur qart daşları al ləl qanla,
Gəzirdi ləli daşlarda gümanla.
Gəlincə ləl ləb Şirin, o dilbər
O qart daşdan düşündü tapdı gövhər.
Dəmir qəlbindən artıq qızdı möhkəm,
Tamam yumşaldı palçıq misli daş həm.
Daşı torpaq kimi bəzən qazırdı,
O, bəzən bağrına daşlar basırdı.
O büt eşqi didirdi qəlbi dən-dən,
Nə üçün büt yonurdu büt var ikən.
Var idi bir qədəh süd bal dodaqda,
Ona verdi, dedi: - Al iç ayaqda.
Südü aldı o, Şirinin əlindən,
Necə ləzzətlə içdi, nə deyim mən!
Olarsa aşiqə bir saqi Şirin,
Nə süd, onda olar həm zəhr şirin.
İçib cam o sərxoş qurtaran tək,
Yığışdı saqi etsin məclisi tərk.
Qızıllardan ağırlaşmış bədən çox,
O gövhərlər yükündən atda güc yox.
O at yox, lap qızıl bir dağ da olsa,
O dözməzdi gümüş dağ altda əsla.
Haman yel tək qaçan yorğun o at da
Şikəst oldu, yıxıldı xəznə altda.[118]
Görəndə aşiq o sevdalı dildar,
Yel atdan torpağa düşməkdə naçar.
Gedib tez çiyninə aldı o birdən,
O, atlıyla atı qaldırdı yerdən.
O dağlardan elə bərk-bərk yüyürdü
Qalanlar çox geri qalmışdı gördü.
Apardı qəsrinə Şirini rahət,
Heç onda görmədi bir tük əziyyət.
Apardı Şirini qoydu yerində,
Qayıtdı, oldu bir də işlərində.
Külüngü daşlara hər dəm çalardı,
Dəmirlə daşları hey parçalardı.
Göy ot görmüşdü sanki dağda ceyran,
O qəbristana qaçmışdı şorandan.
Qəmi dağ boyda, o dağa gedərdi,
Döyüb daşlara baş, nalə edərdi.





### ŞİRİNİN FƏRHADIN GÖRÜŞÜNƏ GETMƏSİNDƏN XOSROVUN XƏBƏRDAR OLMASI VƏ ONU HİYLƏ İLƏ ÖLDÜRMƏSİ

Həmişə Xosrov, o dünyaya sərvər,
Bilə istərdi Şirindən xəbərlər.
Xəbərlər izləyənlər çoxdu mindən,
O bir şey öyrənirdi hər birindən.
O Ay əl burnuna vursaydı nagah,
Olardı Xosrov ondan bir-bir agah.
Haçan Fərhadı etdi o, ziyarət,
Polad bir qələ gördü, daş yox, əlbət.
Xəbərlər verdilər şaha bu yöndən
Ki, o qəlb alanı Fərhad görəndən,
Qolunda möhtəşəm bir güc, hünər var,
O hər zərbəylə dağdan dağ qopardar.
Haman vaxtdan olubdur könlü çox şad,
Alıb bərklik və güc daşdan o Fərhad.
Dəmirlə daş çaparkən gördük onu,
Sütunsuz eyləyər tez Bisütunu.[119]
Çalar hər dəm külüngü şiri-nər tək,
Külüng yox, ehtirasdır bu, coşub bərk.
Vuruşsa tülkü lap qurd ilə birdən,
Görərkən quyruq o düşməz hünərdən.
O dinardan əgər çoxdursa arpa,
Çəkər dinardan üz mizan tez orda.
Bir ay qalsa əgər onda bu qüvvət,
Çəkər bir yol dağ üstdən, bu, həqiqət.
Bu daş yarmaqdan o şah qorxdu çox bərk,
O ləli eyləsin gördü gərək tərk.
Qoca aqilləri dindirdi bir-bir:
"Bu işdə eyləyək indi nə tədbir?"
Dedi aqillər onda: - Hökmdar, sən
Əgər qurtarmaq istərsən bu işdən,
İşə layiq adam tap, elçi göndər,
Desin: - Birdən ölüb Şirin, o dilbər.
Əli işdən qala bəlkə bu qayda,
Verər bir ləngimə baş versə fayda.
Tapıldı bir yaman söz söyləyən kəs,
Qınş alnında, üz bir ləhzə gülməz.
Üzü qan-qan deyir qəssablar tək,
Bığı Nəffat tək odlar saçır bərk.[120]
Ona öyrətdilər bəd xeyli sözlər,
Qılıncla qorxudub, vəd etdilər zər.
Onu göndərdi onlar Bisütuna,
Bələdçiydi bir idbar kimsə ona.
Yetişdi dağçapan Fərhada namərd,
Dil açdı, öldürür sanki onu dərd,
Dedi: "Qafil, nə işdir sən görürsən?
Bu qəflətdə neçün dövran sürürsən?"
Dedi: "Mən yarın adı xatri üçün,
Görürsən, işlərəm şövq ilə hər gün.
Nə yar? Baldan da şirin dil olan yar,
Bu candan yüz dəfə şirin o dildar."

O turş üzlü, acı sözlü bəd insan
Görür Şirinə bağlanmış o candan,
Ürəkdən ah çəkib etdi o, fəryad:
"Olub Şirin, xəbərsiz amma Fərhad.
Hayıf, bir vaxt elə bir sərv ucaldı,
Əcəl gəldi, yel əsdi, torpaq aldı.
Saçıldı torpağından Aya ənbər,
Yuyuldu göz yaşından yol sərasər.
Ona qəmdə hamı olmuşdu qəmxar,
Onu dəfn eyləyib döndü adamlar."
Sözə hər dəm o, xəncər bağlayırdı,
Yalandan ah çəkirdi, ağlayırdı.
Hayıf o zülfə, o xala deyirkən,
Dili lal olmadı, əfsus, bu sözdən.
Necə heç görmədən bəd söylər insan?
Əgər görsə, hanı bəs qəlb, vicdan?
Söz aldı ta ki Fərhadın qulağı,
Yıxıldı dağdan o bir dağ sayağı.
Soyuq bir nalə, ah qopdu cigərdən,
Deyərdin bağrına ox batdı birdən.
Dedi ağlar: "Əbəs çəkdim əziyyət,
Rahatlıq görmədim, öldüm, bu, zillət!
Əgər yüz-yüz qoyun rast olsa qurda,
Kasıb qurbanını çaldı o burda.
Gülabçı gör gülüstana nə söylər.
Nə vermək lazım isə, alma, sən ver.
Gedib torpağa qəddi sərv olan kəs,
Gərək mən başıma küllər töküm bəs.
O gül yarpağı düşmüşdür budaqdan,
Mənə neyçün bağ olmaz daxi zindan,
Buludlar tək necə yaş tökməyim mən.
Sönüb aləm çırağı, bir də gülməz,
Mənə gündüz gecə olmur nədən bəs?!
Çırağım söndü, ahım dondu, qaldı,
Ayım getdi, Günüm soldu, saraldı.
Yetişmək Şirinə mümkün ədəmdə,
Ona yetmək əlimdə bircə dəmdə.
Deyib "Şirin" elə yandı, töküldü,
Yer öpdü, Şirini yad etdi, öldü.
Yaqin ayrı bir iş bilmir bu dövran,
Verər qəmlər, çəkib səndən alar can.
Yazıq bir kəs qalarsa darda birdən,
Yağar üstə bəlalar yerbəyerdən.
Budaqdan istəsə gül dərsin insan,
O, gül görməz, yağar daşlar başından.
O görməz bəhrə şadlıqdan həyatda,
Zəhər dadmışdır ağzında nabat da.
Dönər bəxti, gələr təngə o, candan,
Köçüb getmək dilər ancaq cahandan.
Durub ömrün atı artıq enişdə,
Üzəngi üstdədir gənclik gedişdə.
Xilas oldu bu dövrandan o insan,
O, ev qurmuş kənarda bu cahandan.
Bu məbəddə oturmuş sanki İsa,





Çıraqla həm onu görməzlər əsla.
Cahan divdir, bu divdən sən, ey insan,
Fəqət xoş xislətinlə qurtararsan.
Cəhənnəmdir sənə səndə bu xislət,
Elə xoş xisləti sən qeyrə cənnət.
Adamlıq xislətində varsa amma,
Yerin cənnətdir onda burda, orda.
Yetər gəl yatma, ey göz, bixəbər sən,
Ayıqlar tək çalış, göstər hünər sən.
Bilirsən, torpaq altda çox yatarsan,
Çıxar yaddan necə dövr etdi dövran.
Haman bu əlli yaşla indi, söylə,
Nə oynarsan bu palçıq möhrə ilə?
Nə əlli, lap o əlli min də olsa,
Burax getsin, deyildir daim əsla.
Dəmirtək bərk də olsan sən o daşdan,
Əzər qum tək səni axırda dövran.
Bu yer bir xalçadır, üstündə qanlar,
Odur qandır onun üstdə olanlar.
Bu çöl torpaqları çox qanlar udmuş,
Xilas olmaz bu teştdən bir Səyavuş.[121]
O yellərlə gələn hər zərrə torpaq,
Firidun, Keyqubadmış bəlkə bir vaxt.
Bu yerdə bir ovuc torpaq tapılmaz
Ki, üstündə yüz insan qanı olmaz.
Bilən kimdir ki, qart yaşlı bu məbəd
Necə olmuşdur, ömr etmiş nə müddət.
Görə dövranını qoymaz o bir kəs,
Kökü, əsli nədir, bir kimsə bilməz.
Bu dövranla neçə gün burda qaçsan,
Eşitmək, görmək üçün var nə imkan?!
Onun zülmü, həm ədli daim işlər,
Bilənlər həm bu sirri bilməmişlər.
Əgər sən zülm görmək istəməzsən,
Nədir sirri bu dövranın deməzsən.
Gecə-gündüz olubdur bir ala at,
Cilov vermə ona dünyada heç vaxt.
Əgər yüz fənd üçün elmin də olsa,
Harınlıqdan uzaq düşməz o, əsla.
Ha qaynatdı fələk torpaq qazanı,
Qayışdır, getmədi çiylik nişanı
Olubdur bir qumarxana bu aləm,
Atıb hər varlıdan varı o, hər dəm.
Bu torpaq dilbəri Ay tək ucalmış,
Onu ver yellərə, çoxdan qocalmış.
Bu yeldən baş verən məlum xüsufdan
Talaq əmri verər torpağa dövran.[122]
O yel gəlsin, və ya heç gəlməsin, gəl,
Bu yellərdən, dayan, yandırma məşəl.
Bu torpaqda sən ey ovcunda torpaq!
O on barmağı etsən də şam ancaq,
Bu torpaq qoymur olsun barı mümkün
Kəsilmiş barmağa torpaq tökülsün.
Səni etmiş bədənsiz süst bu əndam,
Olursan gahi xəstə, gahi sağlam,
Olar asan dam üstündən yıxılmaq,
Yük olmazsa sənə əndamın ancaq.
Olur əndamsız kim görsə röya,
Yüz ox dəysin, o, ağrı duymaz əsla.
Bu doqquz kal turuncdan hər nə görsən,
Narınc görməz kükürdün tüstüsündən.[123]
A Yusif, bu turuncdan burda əl çək,
Səni doğrar Züleyxa bir narınc tək.[124]
Yetər, sən bir daş at sərxoş o başdan,
Boşalt bu süfrəni narınc, turuncdan.
Bu doqquz qapı evdən çıx, yol axtar,
Bu doqquz baş ilandan canı qurtar.
Həyata xidmət eylər bu nəfəs, bil,
Onu bildik xəzan vaxtı əsən yel.
Ölübdür eşqsiz çəksən nəfəs sən,
Sayılmış hər nəfəs bir-bir əzəldən.
Gərəkdir eşqə bir Fərhad olmaq!
Həm ondan sonra ölmək, şad olmaq!
Mühəndis tişə üçün sapı ancaq,
Edərmiş nar ağacındanca hər vaxt.
Onunçün ki, onu rahat tutardı,
Necə istərdi sap əmrə yatardı.
Acı söhbətləri ta ki, eşitdi,
Dağ üstə atdı tişə, gör nə etdi.
Tiyə daşlara, sap torpağa girdi,
Deyirlər, torpaq orda nəmlənirdi.
O dəstəkdən göyərdi orda bir nar,
Boy atdı, sonralar verdi ağac bar.
Nizami heç o narı görməmişdir,
Kitablarda nə görmüşsə demişdir.

## FƏRHADIN ÖLÜMÜ MÜNASİBƏTİLƏ XOSROVUN ŞİRİNƏ TƏƏSSÜF MƏKTUBU

Özül qoydu sözə qabil bir ustad,
Öləndə Şirinin eşqiylə Fərhad,[125]
Qəmə qərq oldu Şirin, çox bu dağdan,
Uçub bir nazənin quş getdi bağdan.
O arx üstdə bitən sərvə o dildar
Buludlar tək gözündən tökdü yaşlar.
Böyüklər tək ona ayin düzəltdi.
Onu tapşırdı torpağa, qayıtdı.
Məzarı üstdə bir günbəd ucaltdı,
O günbəddən ziyarətgah yaratdı.
Xəbərlər çatdı şaha bundan-ondan,
Təmizləndi yolun artıq tikandan.
Peşiman oldu şah etdiklərindən,
Onu ağrıtdı bu işlər dərindən.
O qaldı qayğının, fikrin əlində,
Dözülməz şayələr, sözlər selində?!
Yamanlıq bir kəsə eylərsə bir kəs,
Görər bir gün o cür pislik haman şəxs,
Bu qəmlərlə o daim fikrə qaldı,





O, bir gün bu fikirdən zərbə aldı,
Çağırdı bir xüsusi katibi şah,
Kağız üstə saçardı inci gah-gah.
Dedi: - Qat dadını sən güllə qəndin,
Yaz o Şirinə məktub dadlı, şirin.
Verildi orda ilkin yer duaya,
Ümidlər, ehtiramlar bir xudaya.
Onun adıyla ki, vermiş gözə nur,
Bu varlıqda görən gözlər onundur.
Yaratmış qüdrəti həm cin, həm insan,
Yer ilə göydə çoxdur izlər ondan.
Dönür hey başına ərzin fələklər,
Yeri seyrangah etmişdir bu göylər."
Xudanı, pakları yad etdi, burda.
Dedi həm dərdlilərdən çox söz orda.
Gözəllər şahı Şirin, nazlı dilbər,
Gülüşlər vardı onda sanki şəkkər.
Eşitdim yarı üçün bir sevən yar,
Düşüb torpağa yas saxlar, həm ağlar.
Səpirdi mişk gül üstə sünbülündən,
Səmən civə alır nərgiz gülündən.
Qəmindən sərv olan qamət bükülmüş,
Üzü nilufər olmuş, gül tökülmüş.
Bənövşə bağlamışdır, yasəmən həm,
Yaralanmış sümükdən xurma möhkəm.
Gülün taxtasına qonmaqda lalə,
Ayı ləli salırdı ayrı halə.
Ayından örpəyi dartıb qopartmış,
Saçından bənd, üzündən örpək atmış.
O, ah-naləylə etmiş dostları yad,
Cahanı yandırıb etdikcə fəryad.
Budur dost olmağın şərti cahanda,
Olar dostluq olarsa bu nişanda.
Ürəkdən dağçapan üçün o yanmış,
Dizi üstdə gedib dağlar dolanmış.
Qərib ölmüş üçün azdır bu əfğan,
Hanı dünya ki, yaş töksün bir ümman?
Ölər aşiq bu cür qəlbində həsrət,
Elə olsun, götürməzsə kim ibrət.
Bu işlərdə hesab bizdən uzaqdır,
Ürək dərdlər görür səndən nə vaxtdır.
Səni bildim, bu işdən incidin bərk,
O öldü, eyləmirsən sən onu tərk.
Neçün əvvəl sən öldürdün verib qəm,
O öldü, qəm çəkirsən indi hər dəm.
Sən içdin qanını, ol həm də qəmxar,
Əziz tut ki, özün etdin onu xar.
Başı üstdə otursan da yüz il sən,
O torpaqda elə torpaq görərsən.
Verərmi fayda bu yaşlar axıtmaq?
Kababsız tüstü qoxlarsan sən ancaq.
Bu qəm çəkməkdə yoxdur səndə nöqsan,
Nə etmək, bir qəza salmışsa talan?!
Həyat qurmuş ölüm üstdə binanı,
Tutub kim daima qalmış cahanı?!
O, ulduz sənsə gündüzsən cahanda,
Sönər ulduz o gündüz başlananda.
Sən idin sübh, çırağ idi o parlaq,
Çırağı söndürərlər sübh olan vaxt.
O, pərvanə, haman bir şəmsən sən,
Yanırkən şəm, gedər pərvanə əldən.
O bağsan sən, o, otdur səndə bitmiş,
O ot xoşdur ki, bağdan sonra getmiş,
Sən ataş təblisən, ancaq o bir ud,
Yanar ud tez, əgər tutsa onu od.
Uçub bir quş gedibsə gülüstandan,
Əyər baş Nəsri-tair asimandan.[126]
Əgər bir damla kuzandan gedib su,
Axar çox Dəclə arxın səmtə doğru.
Qalırsa bədr, qoy sınsın hilalı,
Gözəllik varsa, az gəz tək o xalı.
Əgər Fərhad gedib, Şirin var olsun!
Sarı gül solsa, o nəsrin var olsun!"
Yazan ta məktubu yazdı, bitirdi,
Edib səcdə onu Pərvizə verdi.
Onu bir qasidə tapşırdı Pərviz,
O da Şirinə çatdırdı onu tez.
O Xosrovdan gələn məktubu görcək,
Sevincdən parladı Şirin bir ay tək.
Öpüb üç dəfə möhrü açdı sonra,
Gözündən qaçmadı bir hərf orda.
Bürünmüş mişkə o gördü cigərlər,
Nabat gördü, qarışmışdır zəhərlər.
Qəsəblərdə dolanmış yüz ilan var,
Odur hər xurma altda yüz tikan var.
İpək altda kilimlər gördü Şirin,
Zəhərlər gördü ki, baldan da şirin.
Nə vardı səbri, içsin azca şərbət,
Nə hirsə, qızmağa var onda taqət.
Bu dərd, ağrı onu ruhən çox üzdü,
Oyaq bəxti ona yar oldu, dözdü.

## MƏRYƏMİN ÖLÜMÜ MÜNASİBƏTİLƏ ŞİRİNİN XOSROVA TƏNƏLİ MƏKTUBU

Düşün, vardır bu dövranın hesabı,
Nə iş tutsan, gəlir axır cavabı.
İtib-bitməz bir iş yaxşı –yamandan,
Beli bağlı durur hazır bu dövran.
Çəkib qəm guya şah Fərhad ölərkən,
Acı söz yazdı Şirinə, bilirsən.
İlahi təqdirin hökmü gələn dəm,
Vidalaşdı durub şahlıqla Məryəm.
Zəhər vermiş ona Şirin deyirlər,
Yemək vaxtı, yemiş, ölmüş o dilbər.
Düzü gəzsən, zəhərdən salma söhbət,
Onu öldürdü Şirində o himmət.[127]
Vuruşsa hindlilər himmətlə hər vaxt,

Tökərlər tər budaqdan təzə yarpaq.
Ayı möhrə edən əfsunçular var,
Gücüylə himmətin hoqqa çıxardar.
Oruc gözlərdi Məryəm misli Məryəm,
O yumdu ağzını şah qəndinə həm,
Zahı Məryəmotuyla qurtaran tək,
Şahı qurtardı Məryəmdən bu iş bərk.[128]
Haçan Məryəm ağacı qaldı bardan,
Xilas oldu axır şah intizardan.
Ona göstərdi layiq ehtiramlar,
Oturdu yasda ayinlə cahandar.
O, taxta çıxmadı, göstərdi hörmət,
Qara paltar geyindi xeyli müddət.
Bu işdən Şirin olduqda xəbərdar,
Ona bir gül hesab oldu, bu, həm xar.
Bu yandan bu ölümdən oldu çox şad,
Həsəddən canı oldu çünki azad.
O yandan ağrıdı qəmlər yükündən,
Ağıllıydı, yaman qorxdu o gündən.
O şahın xatirinə Şirin bir ay düz
Sevincə, şadlığa heç tutmadı üz.
Bir ay sonra tikan çıxdı yaradan,
Bu dünya qəmləri getdi aradan.
Həvəs toxmu, dedi, ək qəlb birdən,
Cavab yaz Xosrova vaxtdır, yetər sən.
Nə sözlər vardısa könlündə gerçək
O yazdı torpağa dənlər səpən tək.
Kağız üstdə qələm oynatdı katib,
O yazdı hər sözü, fikri münasib.
O yazdı hər sözü qənddən də şirin,
Bəzəndi söz xuda adıyla ilkin.
"Olan şahlar üçün bir şah adıyla,
Günahlardan keçən allah adıyla,
O sahib ki, odur dərdin əlacı,
Onun yoxdur bizə bir ehtiyacı.
Deyil cism o, özü cismi yaratmış,
Münəccimlərdə bir heyrət oyatmış.
Bu yer, göy, həm günəş, ay etdi arzu,
Kamal Türküstanına oldu yolçu.
O, haqq almaz, verər ruzini hər dəm,
Qələmsiz daşda yaqut rəsm edər həm.
Dənizdə, dağda bir quş, ya qarışqa,
O qoymaz çox qala qəmlərdə əsla.
Verərkən nemət əfv eylər o, nöqsan,
Tutar əldən əgər heyrətdə qalsan.
Ona şükrü yadından kim çıxardar,
Ayıltmaqçün qulağından o dartar.
O üzdən ki, əgər diqqətlə baxsan,
Dəyişməklər tamam ondandır, ondan.
O, gah dinclik verər, gah da əziyyət,
Edər müflis, verər bəzən də dövlət.
İki rəngdir işi dünyanın ancaq:
Qara zənci o gah, gah rumlu tək ağ.
Ona ədl o, buna zülm ilə bidad,
Buna qəmlər verər, eylər onu şad.
Lahurlu tusluya söylər nə düzgün:
"O eşşək öldü, bayramdır it üçün."
Nə hər qismət gələ, bil şadlıq olmaz,
Ayaqda hər palaz xalça sayılmaz.
Bizə ruzi verəndəndir bu qismət,
O gah dərman olur, gah dərd, həsrət.
Olar qane hər işdə aqil insan.
Tikan, ya bir gül olsun, qaçmaz ondan.
Cahanın Cəmşidi tapdı böyük baxt,
O, yeddi qardaş üstdə qurdu bir taxt.
Cahanı şahlığı altda o saxlar,
Odur başçı, başında əla tac var.
O cənnət bir bucaq mülkü yanında,
Bir otdur dövləti bağında tuba.
Balıqdan ayacan oldu o bir şah,
Balıqdan ayacan olmuş o, agah.
Gecə-gündüz iki rəngdir, bilirsən,
Verər pay gah şəkərdən, gah zəhərdən.
Qara rəngli bu səndəl evdə hər dəm
Olur gah toy-düyün, bəzən də matəm.
Yatır yarı o şahın torpaq altda,
Nə qəm, çox yarı vardır bu həyatda.
Fələk verdi ona getməkdə cürət,
O bildi tez doyur şah, bilmir ülfət.
Yox idi şaha ondan yaxşı həmdəm,
Tez ondan doydusa şah, bu, deyil qəm.
Onu cəlb eylər ayrı bir gülüstan,
Basar tez bağrına ayrı o, canan.
Təəssüf, qalmadı, getdi o dilbər,
Qalanlar boş dayanmaz, keyfin eylər.
O qəmdən incimə, ey qəlbi incə,
Olur torpaqlar altda xəznə, məncə.
Yemə qəm, çox qəmə tab etməz adəm,
Deyirsən qəm, ona dözməz bu yer həm.
Bu qəmdən nazəninlər inciyərlər,
Bu naziklər necə qəmlər yeyərlər?!
Unutsan Məryəmi, olmazmı əla!
Tapılmaz heç tozu, olsan da İsa.
Yeri o nazlı yarın oldu taxta,
Vida etmək yararmı taca, taxta?!
Mey iç, neyçün gözündən mey süzürsən?
Qəmin artar, qəm üstdən qalxmasan sən.
Ölə qarşında kimsə, kimsə ölməz,
Çətin gündə çəkər qəm, qəlbi gülməz.
Çəkib ah ölmüşə göstərmə bidad,
Ölən səbr istəyir səndən, nə fəryad.
Vücud işdən qalıb puç olsa artıq,
Nə yoxsulluq bir iş eylər, nə şahlıq.
O bir çeşmə üçün çox coşma hər dəm,
Qoy olsun Dəclədən bir damla su kəm.
Tut əldə cami-Cəm, şad ol, mey iç, gül,
Nədir Bağdad üçün bir köhnə zənbil.
Heç onsuz yatmayan könlün nə etsin?
Gözündən getdi, könlündən də getsin.
Gedib bir sərv bu dünya bağından,
Yaşa dünyada ki, dünyaya cansan.
Mey iç, şad ol, nə lazım çəkmə heç qəm,
Başından salmasın bir tük o yel həm.
İraq səndən bu varlıq getsə əldən,
Şükür, hər şey olar, varsansa bir sən.
O dürsən sən, olar xoş dür tək olsa,
O ləl isən, olar xoş ləl tənha.
Bu tənhalıqla qane ol Günəş tək,
O Cəm dinində olmuşdur Günəş tək.
Yatarsa hər zaman bir quşla bir quş,
Fəqət Simurğ olan quş eşsiz olmuş.
O gövhər qalmayıbsa, çəkmə çox qəm,
O mədənsən ki, olmaz gövhərin kəm.
Eşi yoxdursa bir baş, yaxşıdır çox!
O gövhər yaxşıdır tay gövhəri yox.
Bir ahu getdisə çöldən, burax sən,
Sən onlardan bu çöldə çox görərsən.
Alıb bir dən o xırmandan küləklər,
Fəda Ay xırmanı, bir də fələklər.
Gedib bir gül, tikandan fayda olmaz,
O bir güldü, əvəz gəlmiş bir ilk yaz.
O bir büt getdisə, Kəsra sağ olsun!
Yemə Məryəm qəmi, İsa sağ olsun!"

## ŞİRİNİN MƏKTUBUNUN XOSROVA ÇATMASI

Ona Şirin nə yazmış gördü ta şah,
O şirin sözlərə mat qaldı gah-gah.
Dedi: - Bunlar cavabdır, bir savaş yox!
Kim atmışsa kəsək, daşlar yeyər çox.
Yazıb mən cırmadım, indi nə etmək!?
Eşitdim hər nə lazımsa eşitmək.
Şəkərlər umdu Şirindən o heyran,
O milçək qovğası qalxmışdı yoldan.
O Məryəm davası etdi onu tərk,
Nə şamda tüstü, nə xurmada çərdək.
Sevincdən burda Məryəm gen düşən gün
O Məryəm bayramıydı Xosrov üçün.
Olar kamınca iş, məhv olsa düşmən,
Sən ondan sonra bəsdir bir su içsən.
Yola çox yağlı sözlər saldı ki şah,
Polad yumşaldı yağla bəlkə nagah.
Qəbul etdi o büt hər nəydi fərman,
Var idi dərdi, aldı sanki dərman.
Onun şaha gümanı çoxdu bundan,
O gözlərdi daha düz dəvət ondan.
Adam yollar, alar yarı kəbinlə,
Gedər qəsrə o, Şirin tək gəlinlə.
Dil açdı, başladı Şirin məzəmmət,
Giley artdıqca naz etdi o afət.
O gördü yaxşı mal üçün maraq var,
Tələb eylərsə bazar, qiymət artar.
Olarsa müştəri, yaxşı gedər mal,
O nurun qədrini gözdən xəbər al.
Sənə xeyri olar, bu fikri atma,
Alan yoxdursa səndən malı, satma.
Qapı örtmə rəvac isə bazar sən,
O bazarda yəqin sən xeyr edərsən.
Nə hiylə etsə şah, uymurdu Şirin,
Əlindən nazını qoymurdu Şirin.
Görərkən nazı aciz qaldı çox şah,
İşə bir çarə axtardı o, gah-gah.
Düşündü ayrı yar tapsın o bir gün,
Bir axsaq eşşək alsın, yorğa sürsün.
Özüyçün ayrı bir iş-güc düzəltsin,
Bir iş tutsun, onunla kama yetsin.
Gəzib axtardı söhbət burdan-ordan,
Boş iş tutmaz cahanda zirək insan.

## XOSROVUN PADŞAHLIQDAKI ŞÖVKƏTİ VƏ LƏZZƏT ÇƏKMƏSİNİN TƏSVİRİ

Bilir dünya çıxandan taxta Pərviz,
Elə şah çıxmamışdı taxta hərgiz.
Onun xalqı qəbul etmək günündə
Durardı beş səf insanlar önündə.
O ilkin səfdə ancaq varlılardı,
İkinci səfdə yoxsullar durardı,
Üçüncü səfdə gücsüz xəstələrdi,
Qəbirdən tükcə qaçmış kimsələrdi.
O dördüncü olan səfdə duranlar,
Ayaq zəncirdədir, qəlbində mismar.
Beşinci səfdə qan tökmüş günahkar,
Soruşmaz bir-birindən bir söz onlar.
Ümidlər verməyə hər kim töküb qan,
Asılmışdı xilas olmağa fərman.
Qəbulu gözləyən dilləndi birdən:
Keçirsin arxanı hər kəs nəzərdən.
Görüb yoxsulları varlı sevindi,
Dedi: - Şükr eyləsəm layiqdir indi.
O yoxsul xəstəni birdən görəndə
Şükür yoxdur mərəz- dilləndi – məndə.
Baxıb dustaqları xəstə görərkən,
O, azad idi, şükr etdi ürəkdən.
Baxıb qatilləri gördükdə dustaq,
Dil açdı, halına şükr etdi ancaq.
Görüb qatil xilas üçün ümid var,
Şükürlər şamına artırdı nurlar.
O şahın qəlbi ədl ilə müdam şad,
Misir tək ölkəsi ədl ilə abad.
Mey əldə bir gün əyləşdi o, taxta,
Rəqib olmaq dilərdi sanki baxta.
O taxtı dövrəsində şadü heyran,
Öpürdü şahlar ağzı torpağından.
Göyün timsalları yer-yer, əcəbdir,

Kəyan taxtında həkk olmuşdu bir-bir.
O Ay, Zöhrə, yenə çadırla Keyvan,
Çəkilmiş orda diqqətlə hər eyvan.
O ulduzlar, tamam sabit və səyyar
Dəqiqəylə, dərəcəylə, nə cür var.
O gövhərlərlə nə qurmuşsa insan,
Soraq eylər gecə-gündüz saatdan.
Nücumda hər kim olmuşsa xəbərdar,
O taxt ilə nə var göylərdə anlar.
O Xosrov taxtına baxsa bir insan,
Tapar Keyxosrov üçün xoş cam ondan.
O taxtı taxt bilmə, asimandı,
Ona sahib nə şah, sahib qərandı.
O, bir fildi, fil üzdən adəm olsa,
O, bir şirdi tükü ənbərdir amma.
Yol açmış göylərə doğru bu yerdən,
Açıbdır süfrə ulduzdan yerəcən.
O məclisdə İrəm camı qalıb boş,
O dərgahda fələk bir halqə olmuş.
Böyüklük istəsən, göstər səxavət,
Açıq olsun kisən, olduqca fürsət.
Dirəm sahibləri bərk olsa əldən,
Olar bədbəxt o axır bu əməldən.
Nizam ver işlərə şadlıqla hər dəm,
Xərac al, xərclə, boş durma özün həm.
Necə aldınsa bu dünyanı, ver sən,
Verirsən, almayırsan, sən bilirsən.
Yəqin tənha cahanı tutmaq olmaz,
Yemək dünyanı tənha, udmaq olmaz.
Kim aqilsə, nədir bilmiş bu gerçək,
Həmişə tək yeyən axır ölər tək.
Tək içmə, çay suyu görsən də lap sən,
O dərya tək acı olma bu üzdən.
Yetər bir şəmə çevril, nur saç, odlan,
Ayaq tərpət bir özgəyçün alış, yan.
Bu dünya varına dəyməz bu zillət,
Nə gördü Qarun ondan, bu, həqiqət.[129]
O, zəhmətlə olur əldə, nə söz var,
Əlindən getsə, qəlbin dəhşət ağlar.
Əziyyət gəlməyi, getmək əziyyət,
Bu xəznə olmamaq-ayrı səadət!
O Pərviz Cəmşidi keçmişdi çox bərk,
O, hər dəm xəznə paylardı Günəş tək.
Verərkən xəznə şad idi o hər vaxt,
Özü bir xəznə idi yerdə ancaq.
İki dəfə açardı süfrə hər gün,
Kasa verdi xörəkçün, camı meyçün.
Tökərdi süfrəyə nemət o, bir mil,
Alar milçək inək, ağcaqanad fil.
Düzülmüş süfrədə hər dürlü halva,
Qonaq bilmir yesin hansından amma.
Dana, həm quş, qoyun, həm də balıqlar,
Nə istərsən, bilinməz say, nə miqdar.
O məclisdə ətir saldıqca tufan,

Çiçəklər borcunu aldı səbadan,
Yanırkən udla, ənbərlərlə manqal,
Gedir Hindin xəracı xərcə dərhal.
Yeməklər gəlsə şaha məxsus amma,
Gedərdi ətri Xuzistana hətta.
Yeyərdi tər kabab əvvəl səhərlər,
Ona sürtərdilər bir dür, deyirlər.
Dənizlər tacirindən dürrü pünhan,
Alarlarmış verib zər yüzcə batman.
Eşitdim ki, rütubətliysə əndam,
Olarmış bax haman dürr ilə sağlam.
Təzə doğmuş, gözü göy, qırmızı rəng,
Ətirlənmiş bir at Bağdad gülü tək.
Anasından salınmış ayrı dayça,
Qoyundan süd ona vermişlər amma.
Buyurmuş bir gümüş təndir tikilmiş,
Ona bir ölkənin xərci çəkilmiş.
On-on beş batman orda ud yanarmış,
O ud orda odun tək odlanarmış.
Kabab orda bişərmiş Xosrov üçün,
O od, təndir, kabab bir qayda hər gün.
Qızıldan süfrəçi süfrə salardı,
Çəki min yeddi yüz misqal olardı.
O, qənd, püstə yeyən tək o xörəkdən
Yeyərdi bir neçə loğma ürəkdən.
Keçirdər sonra dərgahı nəzərdən,
Gözü bir kimsəyə düşsəydi birdən,
Ona o süfrəni bəxş eyləyərmiş,
O təndiri, nə alət var verərmiş.
Elə bir süfrəyə, nura min əhsən!
Çıxardarlar çörək hey təndirindən.
Yenə bir gün ki, göylər süfrə saldı,
O sübhün təndirindən göy saraldı,
O köhnə qayda, adət bir də gəldi,
O təndir, süfrə də bir də düzəldi.
Qəribə işlər işlərdi o hər gün,
Keçirdərdi bu qayda daim ömrün.
Zaman gəldi, əlindən getdi şahlıq,
O işlər, təmtəraq bir heçdi artıq.
Şərəf lazımsa, axtar kimdə var bəxt,
Olarsan bəxtilərlə sən də xoşbəxt.
Tatar ceyranı sünbüllükdə otlar,
Nəsimindən tapar mişk ətri bazar.
Əgər otlarsa çör-çöp başqa ceyran,
Nə mişk axtar, yeri çör-çöp gəz ondan.
Atam rəhmətlik, olsun qisməti nur,
Öyüd verdi qocalar misli məşhur:
"O bəxtsizdən bir ox tək qaç, uzaq dur!
O xoşbəxtlər yanında yer tut, ev qur!
Gecə lazımsa gündüz misli parlaq,
Çıraq yandır o nur məşəllə ancaq.
O dürr getmiş həmişə yüksək əldən,
Oturmuşdur böyüklərlə əzəldən."





### İSFAHANLI ŞƏKƏRİN ƏHVALATI

O şahlar qaydasınca şah bir gün,
Yenə məclisdə idi işrət üçün.
O Reydən, Çinlə Qurdan, İsfahandan,
Bütün şahlar önündə şad, heyran.
Galib Qafdan Qafa hakim olanlar,
Əlindən öpməyə hazırdı onlar.
Xütən xaqanı, Zəngin şahı çox şad,
Mey əldə hər kəs eylər Xosrovu yad.
Dolandı bir neçə dəfə qədəhlər,
Həya getmişdi şahlardan sərasər.
Həyadan örpəyi atmışdı həm şah,
Açıq sözlər deyirdi gah – nagah.
"Mənə layiq dedi varmı gözəllər,
Əgər varsa, nə yerlərdə gəzərlər.
Lətafət Rumdadır – dilləndi kimsə,
Olar ancaq o torpaqda o xəznə."
Dedi bir kəs: - Bu yer ancaq Xütəndir,
Gözəllərlə o yer əfsanədir bir.
Dedi bir qeyri: - Ərmən yurdu dilbər,
Var orda çox pəri surət gözəllər.
(Dedi kimsə: - Gözəl yurdu Arandır,
O bütlər hurilərdən bir nişandır.
Gözəllər yurdudur ancaq o torpaq,
Elə bütlər olur cənnətdə ancaq.)
Dedi bir kimsə: - Kəşmir ayrı dastan,
Tapılmaz bir gözəldə orda nöqsan.
"Şaha layiq – dedi kimsə – bu anda,
Şəkər adlı gözəl var İsfahanda.
Edər şirinliyə zülm ilə bidad,
Edər şəkkər o Xuzistanda fəryad.
Dodaqaltı dönüb şirin güləndə,
Edər yüz şəkkəri bir dəmdə bəndə.
Qəbə sərvində çox dardır çəmənçün,
Dirəm paylar gümüşdən yasəmənçün.
Yanında ağzının xurma tökər dən,
Şəkər kimdir qovulmuşdur o evdən,
Ayından örpəyi qaldırsa bir dəm,
Quyudan Yusif eylər nalələr həm.
Olan eybi budur, ancaq o dildar,
Edər hər kəslə dikbaşlıqla rəftar.
Küləklər tək tapar hər yerdə aram,
Yetənlə lalələr tək qaldırar cam.
O olmaz lütf ilə bir kəslə munis,
Yolunda olmayınca xar, müflis.
Qucaqlarsa gecə bir dəfə bir kəs,
Yadından o gecə heç vaxt getməz."
Bu xoş sözlər o şahı tutdu möhkəm,
Əsas qoydu yeni eşqə haman dəm.
Düşündü Şirin üstə çapsın atla
Ki, etsin türkü türklüklə o, yağma.[131]
O qənd şirinliyi alsın o qənddən
O qənd ilə özü çıxsın o bənddən.

Düşər gövhərlə gövhər hörmətindən,
İpək düşmüş ipəklə qiymətindən.
Şəkərdən başqa bir sevdası vardı,
Şəkərdən həm də şirinlik arardı.
Nə rədd eylər onu qəlb ilə candan,
Nə mümkündü çağırsın İsfahandan.
Bir il səbr etdi fikr ilə cahandar,
Deyildi kimsə halından xəbərdar.
Bir il sonra durub atlandı birdən,
Yol aldı İsfahan səmtə o yerdən.
Çatıb endi atından İsfahanda,
O gördü Rumtək abadlıqlar onda.
O, işrətlər sevən gördü çox üzlər,
Könüllər şad idi sanki günüzlər.
Həm işrət başladı şah, həm mey içdi,
Onun könlündən o azadə keçdi.
Soruşdu gizlicə yurdu, yerindən,
Evi hardaymış öyrəndi birindən.
Durub getdi qulam ilə bir axşam,
Şəkərdən almaq istərdi o bir şam.
O Şəkkər kuyuna Xosrov çatanda,
Bax, oldu Qəsri-Şirin İsfahan da.
O axşam qəlb işrətlər tapardı,
Şəkər kuyu, o Şirin qəsri vardı.
Çalırkən halqanı şah asta-asta,
Yetişdi bir qulam halqa qulaqda.
Qapı ağzında gördü bir cavan var,
Başında gördü şahlıqdan nişan var.
Onu Şəbdizdən endirdi bir Ay tək,
Atı otlağa göndərdi o, tezcək.
Qonaqlarla qulam eyvana getdi,
Qonaq ilə başı Keyvana yetdi.
Oturdu ta ki Xosrov iş başında,
Qızıl səpdi, o, məclis qurdu onda.
İzin verdi o dəm gəlsin o Şəkkər,
Dilindən saçsın o mehmanla şəkkər.
Şəkər gəldi, əlində camı vardı,
Ağız şəkkərdisə, gözlər xumardı,
Adı Şəkkər, sözü şəkkər o idi,
Sifahanlı nabat dilbər o idi.
Saçırdı saçlarından mişk, ənbər,
Gülərkən paylayırdı qənd, şəkkər.
O, fitnə busələrlə sanki Visə,
Şirin dillər tökürdü sanki dayə.
Kənizlər saxlar o, Çin ilə Rumdan,
Elə dilbər gözəllər görməz insan.
Gecə olmuş yarı novruz edərlər,
Hamı eyş-işrət ardınca gedərlər.
Oturdu, mey ələ aldı haman dəm,
Elə bir büt, həm ev xali, nə aləm!
Cahan şahı oturmuş, məst idi bərk,
Şəkər tez başladı bir nəğmə Ay tək.
O qoynu yasəmən sanma süzür mey,
Var idi su, ona atəş qatır hey.

Acı üzlə işə salmış gülabı,
Verir, şirinlik ilə yox hesabı.
Qədəhlər dalbadal meylə dolurdu,
İçir şah, uyğuya təslim olurdu.
Meyin şövqü tikan çəkdi dodaqdan,
O mütrüb səsləri getdi otaqdan.
Yarar bir üzr ilə Şəkkər də qalxdı,
Qonağa ayrılan evdən o çıxdı.
Kəniz vardı, onunla birdi boyda,
Camalı, cəldliyi vardı o qayda.
Geyindirdi onu zər-zivərinə,
Onu göndərdi Şəkkər öz yerinə.
O Xosrov gördü gəlmiş nazlı canan,
Şəkərdən hayfını aldı o, baldan.
Elə sarmaşdı, ondan kama yetdi,
O məst əfsunda naçar yanlış etdi.
Kəniz olmuşdu işdə şaha heyran,
Qucağında onun dad gördü ondan.
Gözəllikdə o şah olmuşdu dastan,
Çıxardar yağlı sözlə ağlı başdan.
Uca qamətdə bir sərvərsə bir kəs,
Yenə qamətdə şah Pərvizə yetməz.
O xoş xülqü badam tək tazə, tərdi,
Şirinlikdə, deyərdin, neyşəkərdi.
Atı düşsəydi işrət vaxtı axsaq,
Otuz fərsəx gedərdi orda da şah.
O, bir gün içsə idi az qədərdən,
İçərdi qırxca batman camı birdən.
Kəniz tezcə obaşdan sübh durdu,
İcazə aldı şahdan, fənd qurdu.
Tez istər-istəməz getdi o afət,
Olandan Şəkkərə etdi hekayət.
O, şahdan hər nə görmüşdü, danışdı,
Olan gizlinləri nəql etdi, açdı.
Şəkər bir şam götürdü, çıxdı nazla,
Olur bir yerdə şəkkər, şam çox əla.
Güman etdi budur axşamki dilbər,
Kəniztək şam tutur, amma bu şəkkər.
Soruşdu, söylə, mehman saxlayandan,
Olubmu mən kimi xəlvətdə mehman?
Cavab verdi: - Böyüklər içrə ey tək!
Cahanda görmədim mehman sənintək.
Gözəllikdə sənə yoxdur bərabər.
Şəkərdən dadlı sözlər, yağlı dillər.
Bir eybin var ağır gəlmirsə naçar,
Duzunda ağzının gördüm ki, iy var.
Təmiz iylər gələr duz varsa insan,
Bu cür ki, duzlusan, iy səndə hardan?!
Dedi şah: -Tədbirin varsa, de ancaq.
Dedi Süsən: - Bir il sən ye sarımsaq.
Haman bütxanədən şah getdi sonra,
Bir il üz tutdu o tədbirə amma.
Bu söhbətdən bir il keçmiş cahandar,
Məzacında görürdü ayrı hal var.

Harın dövran ona ram oldu birdən.
Sarımsaqla ağacda bitdi susən.
O durdu bir gecə, etmişdi adət,
Şəkərlə başladı bir də o, işrət.
Haman şirinliyi tapdı o sərvər,
Çatar şirinliyə kim tapsa şəkkər.
O işrətdə necə hallar düzəldi
Öpüşmək, oynamaq meydana gəldi.
O əvvəlki kəniz gəldi bu yandan,
Qoşuldu şaha, o, qurtardı ondan.
O çeynənmiş noğuldan şah yeyirdi,
Boyat aşı Şəkər zənn eyləyirdi.
Qoşunuyla gecə qalxıb gedərkən,
Soruşdu bal dodaqdan şah qəfildən:
Çıxıbmı rastına mən tək, de, mehman?
De, məndən yaxşı gördünmü bir insan?
Belə Şirin cavab verdi o Şəkkər.
Sənintək vardı bildir böylə sərvər.
Gəlirdi pis qoxu ağzından ancaq,
Qoxun xoşdur, nə xoşdur böylə olmaq!
Dedi: Hər kəsdəki eybi görürsən,
Nə eybin var dayan hüsnündə gör sən.
Soruşdu: - Bəs nədir eybim, nə bildin?
O eybimdən bu hüsnüm oldu çirkin?
Cavab verdi: - Gəl eybindən deyim mən,
Ki, qalmırsan yaxınlıqdan bir an sən.
Olursan çərx tək hər kəslə məhrəm,
Bu dünya tək yetənlə dost, həmdəm.
Gözəl bir quşsan, ey Çin nəqşi, əhsən!
Ki, hər dəm bir budaq üstə enirsən.
Təəssüf, çox zərif, incə qının var,
O hər dəm bir qılıncla qalxıb oynar.
Cavab verdi Şəkər sərt: - Ey cavanmərd,
Bu Şəkkərdən düşünmə daddı bir fərd.
O sirlər örtənə and olsun, ey şah!
Mən öz möhrümdəyəm, şahiddir allah.
Nə yatmış bir gecə kəs mənlə pünhan,
Nə deşmiş dürrümü əsla bir insan,
Kənizlərdir o kəslər ki, görürsən,
Gedib xəlvətdə dövranlar sürürsən.
Gəlib əvvəl olurdum sənlə həmdəm.
İçirdim mey, edirdim eyş hər dəm.
Sənin ancaq qucağında olanlar,
Nə məndim, mən kimi bütlərdi onlar.
Şəkərdən ta eşitdi bu sözü şah,
Bu mənaya könüldən oldu agah.
Xuda möhrü olan bir dürrə, əlbət,
Edər bakirliyin möhrü şəhadət.





## XOSROVUN ŞƏKƏRİ ALMASI

Üfüqlərdə o Şərq od yandıranda
Sular tək getdi şah ordan bir anda.
Böyüklər dəvət etdi İsfahandan,
Soruşdu Şəkkəri şah bundan, ondan.
Ağız bir İsfahan verdi şəhadət,
Olubdur Şəkkərə bir ziynət ismət.
O Şəkkər hər zaman tüngündə qalmış,
O gül əl dəyməyib rəngində qalmış.
Nə varsa malı hər dəm yükdə saxlar,
İş üçün bir neçə onda kəniz var.
Yəhərlərsə o, at hər kəslə bəzən,
"Uzaq dur!" - nizəsi vardır dəmirdən.
Qanlar təsdiq etdi dəxi möhkəm
Ki, qalmış pərdədə bakir o həmdəm.
Mübarək gördü falı şah, o sərvər,
Bu çox milçəklə tər qalmış bu şəkkər.
Adam göndərdi ki, gəlsin saraya,
Ər-arvad ayini qurdu o Aya.
O bakir dürrü almaz ilə deşdi,
Üzük ləl idi, yaqutla bir eşdi.
Mədain səmtə üz tutdu o bir də,
Onunlaydı şəkər yüklü Şəkər də.
Şəkər ilə edirdi Şirini xar,
Bilirdi Şəkkərin şirinliyi var.
O şahın könlü doyduqda Şəkərdən,
O Şirin qəndinə meyl etdi birdən.
Şəkər tüngündə Xosrov çox pərişan,
Tikanlar gördü Şirin xurmasından.
Başında Şirin eşqi şah çəkir ah,
Əriyirdi suda şəkkər kimi şah.
O, Şirindən uzaq yanmaqda şam tək,
Bal ilə xoş keçər halı mumun bərk.
O şirin candan ayrı düşsə bir kəs,
Şəkər ver ağzına bir fayda verməz.
Şəkər Şirin yeri verməz heç əsla,
Şəkərdən dadlıdır şirincə halva.
Çəmən torpaqdır ancaq yoxsa nəsrin,
Acı dadmış şəkər olmazsa şirin.
Demə birdir şəkər, şirin, bacarsan,
Qamışdandır şəkər, şirinsə candan.
O Şirin balı şam yandırsa harda,
Şəkər ud yandırar manqalda orda.
Əgər varsa Şəkərdən dad o canda,
Onu borc aldı şirinlikdən onda.
Böyüklər, bil ki, şirinlik sevərlər,
Uşaqla tutini aldatdı şəkkər.
Edər şirin o harda görsə bir su,
Su gördükdə şəkər döndü su oldu.
Şəkərlə şirinin fərqi əyandır,
Şəkər bir can yeri, şirinsə candır.
Pəriüz Şirin öz qəsrində dustaq
Ona pərdə tutandır Şəkkər ancaq.

Deyirdi qəlbi gəlsin tezcə Şirin,
Bu Şəkkərdən nə fayda, varsa dərdin.
Buza çatmazsa da saflıqda billur,
Bu buz yaşdır, quru billur yaş olmur.
Dəyirman daşı fırlansa başında,
Ürək dönməz heç o dilbərdən əsla.
Dolannam başına, dönməm mən ondan,
Bu bir başım qoy olsun yara qurban.
Dedi: - Boş-boş xəyallardır bu, sonra,
Hələ səbr eylə, olma dəxi rüsva.
Gərəkdir eyləyim Şirini mən tərk.
Yetər, şirinliyə uydum uşaq tək.
Budur camımdadır Şəkkər və Şirin!
Günüm neyçün acılıqlarla keçsin?!
Bu dostlarla mənə bir dost olan yox,
Gəmi batmış, gəmiçi olsa da çox.
Bu meylin gözlərinə qalx mil çək,
Tələsməklə çətindir kama yetmək.
Yerə sən düşməməkçün sanki kölgə,
Çalış çıx pilləkanla pillə-pillə.
O kam üçün elə göstərmə rəğbət
Onu sən tapmayanda çəkmə möhnət.
Həmişə az tamah ol, çox taparkən,
Uğurlarla ürəkdən bir sevin sən.
Ürək yaxşı olar mərdliklə gəlsin,
İşi mərdin də mərdliklə düzəlsin
Yolun dözməkdir ancaq burda, heyhat,
Qalar arvad önündə aciz arvad.
Haramdır, mərd olan arvadlıq etməz,
Bu arvadlıq, zina etmək nədir bəs?!
Desəm şirəm, mənə layiq deyil bu,
Məni məğlub edir çünki bir ahu.
Əgər olsam yara almış qoyun da,
Mənimdir yun, deyil can özgə yunda.
O fil tək bir kəsə sirr açmadım mən,
Pilə tək yad kilimdə yatmadım mən.
Elə naz etdi o dilbər, heç olmaz,
Nə Xosrov, bəlkə Keyxosrov çəkər naz.
Ürək versən, gəzər kürd tək o, sinə
Sən ev versən, hanı söylər xəzinə.[133]
O hicranı edirsə bağrımı qan.
Tamah idi, taun qalxar tamahdan.
Vəfa məşuqələrdən kimsə görməz,
Həkimlər sirkəli şorba bişirməz.
Çıxardar ağlımı daim başımdan
Ki, qalx, əstəğfurullah, vur, axıt qan.
Həya etdim, həmişə qəm yedimsə,
Gərəkdir incidim, mən incidimsə.
Çalış vurma, qadın çıxsa özündən,
Vurarkən bərk vur, getsin özündən.
Gilanda bir qadın söylər nə əla!
Səni incitsə, vursan, bərk vur amma.
Yox idi çarə, qəlbində şahın qəm.
Nə sirri açmağa bir dost, həmdəm.

Olar hər qəlbə məhrəm evdə ancaq,
O yad bir qəlb olarmı qəmdə ortaq?!
Dənin getsin evindən, istəmirsən,
Yaxın qoyma evə yad kimsəni sən.
Elə de ən yaxın dosta desən sirr,
Düşün ki, ən qatı bir düşməninidir.
Deyilməz söz demə düşmənlə əsla,
Nə düşmən, ən yaxın bir dostla hətta.
O xəlvətdə divarlardan da gizlə!
Qulaqlar var divar ardında, gözlə!
Özündən eyləmək olmursa pünhan,
Fikir vermə, yayındır fikri ondan.
Fikirləşmə, demək olmazsa sirri,
Deyilməzsə, fikirləşsən, nə xeyri?!
Bu məclisdə elə pərdə tut amma,
Qılınc oynatmasın meydanda darğa.
Yaraşmırsa çölə bir nəğmə az-maz,
O, sultan məclisi üçün yaraşmaz.
Yaman xislət adamla birgə durma,
Düşər əskikliyə şanin, oturma.
Sənin dostun olan nadan, ya aqil,
Möhürsüz mal ona tapşırma qafil.
Nə torpaqda ağac əksən əgər sən,
Nə əkdinsə, onu həm gözlə, dər sən.
Bişir əvvəl sözü sən, eylə diqqət,
Deyildikdə gətirsin hörmət, izzət.
Diləərsən yüz qəba şad vaxtı bərk-bərk,
Bu yaxşı ad üçün yırt bircə köynək.
Dura qarşında yüz ayüzlü canan,
Çıxa bir çirkin üzlü, qorx sən ondan.
Desən bir söz ona düşmən kimi bax,
Görərsən yaxşı-pis onda sən ancaq.

### ŞİRİNİN TƏK QALIB TANRIYA YALVARMASI VƏ NALƏ ETMƏSİ

Saçırkən fikrinə şahın ağıl nur,
O bildi Şirinə qəmxardı Şapur.
Çağırdı Şapuru dərgaha gəlsin,
Bezə bəlkə qalıb təklikdə Şirin.
Uca qamətli Ay qaldıqda tənha,
Tökürdü nərgizi yaş damla-damla.
Bu haldan təngə gəldi bir gecə bərk,
Gecə gəldi ona bitməz bir il tək.
Gecə zülmət dağ üstdə sanki qarğa,
Qanadından asılmış dağın amma
Soyuq sərt bir gecə odsuz ürək tək,
Gecə bitmir, deyir gündüzdən əl çək.
Qalıb sübhün quşu darda gələrkən,
Onu asmış qaranlıq dimdiyindən.
Təbilçi barmağın çalmış ilanlar,
Qalıb ulduz ayağında tikanlar.
Keşikdə salmış əldən zəngi zəngçi,
Xarab o zəngçalan, sərxoş keşikçi.

Bu zülmət yerlərə kölgə salınca,
Boyun əydi baxıb dövran qılınca.
Ər-arvad olsalar da burda Ay, Gün,
Rəhim bağlıydı sübhü doğmaq üçün.
Gecə üçün qucaq açmış səmalar,
Unutmuşdu Günəş Şərq var, doğum var.
Şimal ulduzları bərk uyğudaydı,
Yumurta bu cənub ulduz sudaydı.
Başa çəkmişdi şahlıq çətri yerlər,
Balıq, quş dinclik içrəydi sərasər.
Gecə zülmətlə gözdən nuru almış,
Bənatünnəşi dartıb ayrı salmış.
Qaranlıq bəndə salmışdır cahanı,
Edibdir qütb tək heyran səmanı.
Bu xilqətdən xəbərsiz qaldı dünya,
Cahan bir ayrı yerdəymişmi yoxsa?!
Fələklər baş yerə əymiş dəniztək,
Səpir başa ətəkdən incilər bərk.
O ulduz inci çalmaq istər ikən,
Düşübdür qır küpə, bir bax, qəfildən.
Bu küp ki, onda artıq kül yer almış,
Zamanın odlarından tüstü qalmış.
Tökülmüş kəhkəşan yolda samandır,
Quyu içrə su altda asimandır.
Olubdur bir ovuc arpa o Ülkər,
Tutub bir hindli qarı məşq eylər.[134]
Nə "Zənd" vird etməyə mobiddə dil var,
Nə şadlıqdan qanad çırpırdı quşlar.
Hər addım nizəli bir zənci durmuş,
İşıq, nur qarşısında pusqu qurmuş.
Dul arvad vardı ki, sönmüş çırağı,
Xoruz saxlardı çalmış oğru, yağı.
Gecə yol kəssə bir div, bil ki, nagah,
Xoruz banlar, mədəd səndən, ey allah!
Nə dəhşət bir gecə, yüz div, rəng qır,
Baxırsan bir xoruz bir səs çıxarmır.
Gecə Şirini sonsuz qəmlər aldı,
Çırağı o gecə misli qaraldı.
Ürək bərk ağrılardan gəldi təngə,
Cahanla dərd əlindən girdi cəngə.
Dürüstdür xəstə haqqında bu dastan:
Görüb xəstə gecə ondan alır can.
Verərsən can, gecə sən xəstə olsan,
Betərdir xəstən olsa, qeydə qalsan.
Dil açdı, söylədi: - Ey tərs dünya!
Gecəndir bu, tükənməz dərd yoxsa?!
Gecə nəymiş? Qara gürzə ilandır,
Adamxor zəncidir, bir can alandır.
O üzdən ağlaram qır rəng bu zənci
Gülüb bir yol niyə göstərmir inci?
Nə olmuşdur ki, ey mavi səma sən,
Durursan bu gecə, dövr eyləmirsən?!
Ürək tüstümmü kəsmişdir qabağın?!
Ahımdanmı şikəst oldu ayağın?!





Məni sən, ey gecə, etdin nə qəmgin!
Olum dinsiz, əgər var səndə bir din.
Bu axşam, ey gecə, mərd ol, tut əldən,
Tez öldür ya məni, ya gündüz ol sən.
Yerində donmusan tutqun buludtək,
Qılıncmı axtarırsan, odmu bərk-bərk.
Təbilçi əlləri bağlı qalıbsa,
Odur, Ülkər ayaqdan sazdır amma,
Gecə heç yatmayan bir tək şamam mən,
Odur ki, ağlaram şam tək ürəkdən.
Onunçün şam kimi yannam cahanda,
Gözə çox xoş gəlir hər şam yananda.
Vurubdur boynuma bir bənd dünya,
Oxu bu sözləri, gül daxi sonra.
Oxu, ey quş, dilin varsa, yubanma!
Gül, ağzın varsa, ey sübh, sən dayanma!
Sən ey sübhün quşu, oldunmu kafər?
Demirsən bir nədən allahüəkbər?
Deyilsənmi bir od, ey nurlu sübh, sən,
Nədən bəs çıxmadın daşdan, dəmirdən?
Bu qəmdəykən könül pərvanələr tək
O sübhün şamı nurlar saçdı bərk-bərk.
Gözəldir sübh mülkü hər diyardan,
Taparsan hər nə istərsən sən ordan.
Taparsa xəznəyə bir yol bir adəm,
Tapar sübhün açarıyla o, hər dəm.
Əgər məqsəd hasarlanmışsa harda,
Açılmaq da, açar da vardır orda.
O dəmlər ki, tapar bir dad könüllər,
Dua üçün bitər dillərdə güllər.
Kimin varsa dilində güc və qüvvət,
Edər haqqa duaya daim adət,
Dualar dil quşu etsə, o anlar,
Necə etsin dua dilsiz olanlar?
Hüzurunda dualar söylənirkən,
Bilir çıxsa nə dilsizlər dilindən.
O gördü gəldi sübhün kimiyası
Dayandı civə yağdırmaq ədası.
Xoruz gördü o yarın səbri vardır,
Dedi: - Səbrin xilas üçün açardır.
Süpürdü yerləri Ay tək üz ilə,
Xudaya üz çevirdi xoş söz ilə:
– Ulu tanrı! Gecəm qoy gündüz olsun!
Uğur ver işlərim axır düz olsun.
Ümidim sübhə yox, zülmət gecəm var,
Üzü ağ et məni gün misli nolar.
Qəmim var ki, ölər şirlər bu qəmdən,
Sevincim tək qəmə qoy dov gəlim mən.
Bu çox dar kürəyə yox məndə taqət,
Məni bir ləl tək daşdan xilas et.
Edərsə kimsə fəryad, yarı sənsən!
Yetiş fəryadıma, dad eylərəm mən.
Yetim hər körpənin göz yaşlarına!
O məzlum qəlbinin atəşlərinə!

Qəriblər baş qoyan torpağa, allah!
Quyularda yatan dustağa, allah!
"Aman allah!"ına etsə kim ah-zar!
"Aman yarəbb"ə ki, söylər günahkar!
O höccət ki, ona bir quldur insan,
O ayət ki, olur ondan diri can!
O pak ayinli din, iman ərinə!
O sirlər sahibi peyğəmbərinə!
Yaralı canlara ki, hər yanı qan!
O möhtaca ki, o, gen qaçdı xalqdan!
Uzaq düşmüşlərə hər xanümandan!
Geri qalmışlara hər karivandan!
O virdə ki, edər ilk öyrənənlər!
Haman odlara ki, qəlbi kül eylər.
O reyhana ki, bitmiş gözdə yaşdan!
O qurbana ki, vermişlər obaşdan!
O nura ki, o, gizlin hər yetəndən!
O bəxşişə ki, saysızdır, bilirsən!
O məqbul kəslərə ki, tutdu xəlvət!
O məsum kəslərə ki, saxlar ismət!
O hər taətə ki, səncə savabdır,
O hər dəvətə ki, o müstəcabdır!
O son aha ki, göylərdən qabaqdır!
O ali ada ki, şərhdən uzaqdır!
Səni and verirəm, rəhm eylə, ol yar!
Məni qəmlər selindən nola qurtar!
Başımda hər tüküm olsaydı bir dil,
Dua eylər sənə onlar açıb dil.
Hələ dilsizliyimdən yatmışam mən,
Biri söylənmədi yüz-yüz şükürdən.
O varsan ki, sənə kimsən deməzlər,
O var sənsən, qalan var söyləməzlər.
O vəhdət pərdəsində sən nihansan,
Dedin sən göylərə: - Sən qəhrəmansan.
Xudalıqda sənə əvvəl, nə son var,
O əvvəl, axırı bilməz adamlar.
O dərgaha ümid, qorxuyla varmaq
Olar təslim yoluyla mümkün ancaq.
Göyü sən bağladın, dövranı açdın,
Cahan, həm can verib, sən ruzi saçdın.
Sən istər ruzi ver, istərsə al can,
Bilən sənsən, nə iş tutsan, o, asan!
Kömək verdin ayaqda qalmışam mən,
Kömək üstdən nolar bir yardım etsən?!
Gətirsən bir qəza birdən cahanda,
Elə et ki, qalım razı mən onda.
Sən etsən bir qəza, yox burda sorğu,
Ölümdür, ya həyatdır, bəllidir bu.
Budur mən xəstədə yox tab-taqət,
Gücümdən çox mənə sən vermə zəhmət.
Elə bir vacib iş gəlmir bu məndən,
Əgər gəlmirsə, gəlsin barı səndən.
Məni ənam ilə sən bir sevindir,
Çox ənam görmüşəm səndən, deyil sirr.

Necə səndən bu sirri gizlədim mən,
Nə gizlin var, onu sən həm bilirsən.
Təmiz qəlb ilə etdi çox diləklər,
Yerə göz yaşı tək düşdü o dilbər.
O tutqun könlünə rəhm etdi yəzdan,
Dəmir tapdı açar üçün o, daşdan.
Deyildikcə ürəkdən yalvarışlar,
O şahın qəlbi alt-üst oldu, tar-mar.

## XOSROVUN OVA GETMƏSİ VƏ ORADAN QƏSRİ-ŞİRİNƏ DOĞRU AT ÇAPMASI

Qızıl bayrağı ta qaldırdı aləm,
Dağıldı ordusuyla birgə dərd, qəm.
Ova könlündə şahın qalxdı rəğbət,
Çəkildi bəxti üstündən o töhmət.
Açıldı gülləri bir dəxi bəxtin,
Acı dərddən yaxa qurtardı Şirin.
O Şirin hüsnü tək xoş fallı bir gün
Çölə üz tutdu şahənşah ov üçün.
Təbil, şeypur haray saldıqca bərk-bərk,
Yerindən oynadı yer asiman tək.
Hər ordu başçısı qaldırdı bayraq,
Çölə çəkdi köçü ərlər haman vaxt.
Göründü atlılar şahı cahandar,
Yanındaydı piyada tacidarlar.
Bu yanda çinli fəğfur əl yəhərdə,
O yanda rumlu sərkərdə nəzərdə.
Kəmər bağlı, açılmış qaş-qabağı,
Başında Keyqubad misli papağı,
Yəhəriyçün götürmüşdü Günəş çul,
Üzəngiylə Ayı etmişdi bir qul.
Ay üstündə duran dəstə bulud tək,
Ucalmış Gavənin bayrağı yüksək.
Kəmərlər, həm qılınclar zərnigardı,
Başı üçün qızıldan bir hasardı.
Düzəlmişdi meşə oxdan, qılıncdan,
Buğa birdən böyürdü, əsdi aslan-
Gülüb söylər haçadil nizə: - Bərk vur!
Deyirdi göylərə gendən: - Uzaq dur!
Çətir tutmuş başı üstdə qızılquş,
Hasar mişkindi, o, zər bürcü olmuş,
Haray saldıqca çavuşlar: - Kənar dur!
Yaman göz bu cahandan qeyb olubdur.
Buludlardan bir iynə düşsə nagah,
Tutar məskən qılınc ağzında ancaq.
Tutub dörd yanını şahın qılınclar,
Ora hər hansı yandan sanma yol var.
Daşa, torpağa hey dəydikcə dırnaq,
Ayaq altda hamarlanmışdı torpaq.
Dəmir yükdən yerin qəddi əyilmiş,
Bu get-getdən hava, yer təngə gəlmiş.
Yedəkçiydi cavan xidmətçilər çox,
Gedirlər yüz-yüz onlar, say-hesab yox.

Fil üstündə haray salmış təbillər,
O səslərlə dolu dağlar və çöllər.
O parlaq hulqumu əsdikcə zənglər,
Saçır altun buxurdanlardan ənbər.
Qoşunda həm də yüz səksən suçu var,
Gulab ilə yuyur yolları onlar.
Yüz əlli şəxs isə manqal tutardı,
Oda onlar buxurlardan atardı.
Yenə bellərdə minlərlə kəmər zər,
Qızıl düymə qınılmışdı sərasər.
O üzdən ki, atı çapsa hara şah,
Hər addımda düşə bir sikkə nagah.
Qərib bir kimsə birdən keçsə ordan,
Bilərdi şah keçibdir onda burdan.
Bu qaydayla şəhərdən şah çıxarkən,
Zaman pişvazına gəlmişdi erkən.
Qoşun sərdarına gəldi cahan dar,
Hara getmək xəyal eylər cahandar.
Belə bildirdi dünyanı tutan Gün:
Ov etmək istərəm indi beş-on gün.
Laçınlarçün təbilcik dindi birdən,
Haman ov quşları tez qalxdı yerdən.
İti sürət laçınlar qalxdılar dik,
Nə qaldı bir göyərçin, həm nə kəklik.
O, çöldə, dağda bir həftə tutub quş,
Bir an dincəlmədi ovda qızılquş,
Ov eylərdi o şah, dövran sürürdü,
Bir ayrı ov gəzir, tədbir görürdü.
Bir ovlaqda köçü salmırdı onlar
Ov eylər, orda heç qalmırdı onlar.
Axır yerdən də əvvəllər olan tək,
O, Şirin qəsri səmtə getdi bərk-bərk.
Qalırkən bircə fərsəng qəsrə amma,
Atından düşdü, mey nuş etdi orda.
Gecə örtdü cahana ənbər örpək,
Qış idi, sərt külək əsməkdə çox bərk.
Yerin qəlbi soyuqdan odlanırkən,
Qılınc eylərdi hər su örpəyindən.
Bir azca isti də olsa o yerlər,
Soyuqla oynamaz dünyada ərlər.
Buyurdu şah, qalansın orda odlar,
Yaxılsın tayla mişk, xırmanla udlar.
Qumari ud ətir saçdı havadan,
Yağırdı hər yana kafur səmadan.
Bir az dincəldi, qəlbi tapdı qüvvət,
Gedib ta sübh olunca yatdı rahət.
Günəş ləli çölə çıxdıqda kandan,
O gündüz eşqinə verdi gecə can.
Yüyürməkdən fələk məst idi fil tək,
Göyərtmişdi gecə şaxta onu bərk.
Həkimlər bir qapı açdı şəfəqdən,
Qara rəngi götürdü al fələkdən.
Yataqdan durdu Xosrov şad, xürrəm,
Yenə başlandı eyş-işrət haman dəm.





O aldı saqidən, içdi bir az mey.
Yox idi burda şadlıqdan kənar şey.
Şərabın istisi saldıqda qovğa,
Yenə qaldırdı baş könlündə sevda.
Çıxıb Şəbdizə mindi məst ikən şah,
O Qəsri-Şirinə yollandı nagah.
Könül məst olduğundan rəqs edirdi,
Onunla xas neçə həmdəm gedirdi.
Kənizlərdən xəbər tutdu o rəna:
Budur Xosrov gəlir, dəstə yox amma.
Gələr qorxdu ada, namusa nöqsan,
Belə vaxtsız gəlişdən qorxdu candan.
Qapı əmr etdi bağlansın hasarda,
Kənizlərdən beş-on kəs dursun orda.
Dayansın zər dolu əllərdə xonça,
Qızıl səpsinlər onlar şah çatınca.
Yolu üstündə bir meydan bəzəndi,
Ora hər növ palaz, xalça döşəndi.
Bütün yol xəznələr tək al boyandı,
Gülab səpdi, özü ud misli yandı.
Bir Ay tək çıxdı Qəsr üstə o rəna,
Qulaq qalmış qapıda, gözsə yolda.
Düzəltmiş nizə hər kirpik ucundan
Gözətçi hər biri tökmək üçün qan!
O yoldan qalxdı bir toz tutiya rəng,
Gözü nur tapdı o daşda bulaq tək.
O tozlardan göründü sübh birdən,
Deyərdin, çıxdı çəmurdan o gülşən.
O məşəl qoymadı nur bir çıraqda,
Çırağın barmağı qaldı dodaqda.
Xədəngdəndi yəhər, üstdə xədəng şad,
Suya döndü o qəddi gördü şümşad.
Asılmış çiyni üstdən zərli qurşaq,
Gözü üstdə papaq şahanə ancaq.
Üzü sanki təzə açmış qızılgül,
Edib xətti ona mişkin həmayil.
Əlində tutmuş o, bir dəstə nərgiz,
O nərgizlər kimi məst idi Pərviz.
Tər altında üzü olmuşdu qəvvas,
Gül altında turac olmuşdu rəqqas.
Yanındaydı kəmər beldə olanlar,
Hərə bir dəstə gül tutmuşdu onlar
O Şirin Xosrovu sərxoş görürkən,
Ayaqdan düşdü, birdən getdi əldən.
İtirdi huşunu, qaldı xəbərsiz,
Gəlib huşa bu işdə qaldı aciz:
"Buraxmazsam evə indi əgər mən,
Gücüm yox qurtarım hicran qəmindən.
Bu bərklikdən keçib olsam əgər ram,
Mən ollam Visə tək dünyada bədnam.
Gərək cəhd eyləyim, səhv etməyim mən,
Bacarmazsam, gələn buymuş əlimdən."
Yüyürdü şah gələrkən gözləyənlər,
İpək atlaz döşəndi, saçdılar zər.

Əkər çox kəndli yüz xırman yer, amma
O yüz xırmandan almaz heç yüz arpa.
Nə çoxdur əkməmiş nemət tapanlar,
Əcaib işlər işlər dövr, ruzgar.
Gəlib şah orda gülrəng fərşi gördü,
Atı birbaş o yerdən qəsrə sürdü.
Dəmirdən bir qapı gördü o, bağlı,
Ürəkdən sındı, heyran qaldı ağlı,
Nə o üz var dönüb ordan gedə şah,
Nə o fikri, qıfıl qırsın o, nagah.
Kənizlərdən çağırdı bir nəfər kəs:
"Bizi Şirin neçin çöldə qoyur bəs?
Axı məndən nə pislik gördü Şirin?
Qapı bağlar məni gördükdə neyçin?
Yeri söylə, qulam gəlmiş, nə bir şah,
Gətirmiş xoş xəbər, istər ol agah.
Gəlibdir xidmət üçün, bil ki, mehman,
Gəlim, ya gəlməyim, versin o, fərman.
Dodağında sənin bir duzluluq var,
Qonaq ilə nədir axır bu rəftar?!
Qapı aç sən mənə, mən padişaham,
Özüm təşrif gətirdim, üzrxaham.
Sənin barəndə, sən yaxşı bilirsən,
Yaman bir fikrə bir dəm düşmədim mən.
Mənə dost olmağın lazımdır ancaq,
Səni mən görməmiş, olmaz qayıtmaq.
Sən istərsənsə burda az durum mən,
Səni barı atüstü bir görüm mən."
Bu cür qəmlər dolu sözlər dedi şah,
Eşitdi baldodaq, çəkdi o, bərk ah.
O Ay göndərdi bir aqil kəniz həm,
Dedi: - Get xidmət eylə şaha bir dəm.
O altı tağlı tirməni apar, dur,
Bu eyvan qarşısında bir çadır qur.
Təmizlə ortanı daşdan, tikandan,
Ətir saç mişk ilə sən zəfərandan.
Cəvahirlər saçan bir süfrə aç, dur,
Apar altıayaq zər kürsünü qur.
Çadırda qarşı yan qalxsın yuxarı,
Ora sən dəvət eylə hökmdarı.
Xəbər göndərdi şah üçün kənizdən:
"Nə türkəm, de, bu evdə bir qulam mən
Qonağımsansa gəl naz etmə burda,
Desəm harda otur, əyləş sən orda.
Bu oldu məsləhət ki, şah buyursun,
Bu bir günlük haman yerdə otursun.
Durub eyvana gəlləm xidmət üçün,
Edib səcdə dayannam, ta ki, görsün.
Edək birlikdə nə lazımsa söhbət,
Dediksə, eyləyək varkən bu fürsət."
Kəniz bərk işləyəndi, durdu, getdi,
Necə Şirin buyurmuşdu, o etdi,
Nə lazımsa düzəldildi o qayda,
Düşürdü Xosrovu atdan o, sonra,





Xəcalətdən yaman tər tökdü Şirin,
O şah üçün necə məclis düzəlsin.
Qızıl saçmaq işi axır bitincə,
Gülab, şirin yeməklər gəldi öncə.
Var idi dad bilən Ay tək bir afət,
Onunla şaha göndərdi o, şərbət.
Bəzəndi ay camalı, ziynət aldı,
Niqab örtdü, Gün üstə kölgə saldı.
İpək bir don geyindi nargülü rəng,
Olub hər zülfü üstdə bir ilan tək.
Kəmənd çiynində həlqə-həlqə olmuş,
Cahan görmüş onu, bir bəndə olmuş.
O al rəngli ipək üstdən o aqil,
Asıb xalis qızıldan bir həmayil.
Alıb gövhərlə süslənmiş bir örpək,
Başı örtmüş o dilbər çinlilər tək.
Yenə ənbər saçan bir örpəyi həm,
Tutub asmışdı ay üzdən o həmdəm.
Bu tavus cilvəli dilbər huma tək,
Süzüb getdi turac tək nazlı, göyçək.
Durub qəlb ovlanmaqçün etdi pərvaz,
O gördü yalvaran var, etdi bir naz.
Divar səmtinə üz tutdu o, qəsrin,
Görüncə şahı etdi səcdə Şirin.
Qulağından açıb bir xeyli daş-qaş,
O, oddan Şəbdizə nal verdi birbaş.
Yenə yüz xoş sulu mirvarilərdən,
Başından Xosrovun səpdi ürəkdən.

## XOSROVLA ŞİRİNİN BİR-BİRİ İLƏ SÖHBƏT ETMƏSİ

Çadırlar ayını görcək cahandar,
O sərvə qəlbini etdi çəmənzar.
Oturmuş qəsrdə gördü behişt tək,
Qapı bağlı behişt tək xalqa bərk-bərk.
O yar eşqiylə ki, dilbərdi aləm,
Yıxılsın kürsüdən az qaldı bir dəm.
Görüncə öz yerindən tezcə durdu,
Öpüb özcə əlindən, cəld oturdu.
Həlim bir üzrxahlıqla dil açdı,
Hal-əhval sordu, şəkkərlər o saçdı.
Dedi: - Ol tər-təzə, ey sərvi-azad!
Başı göy, ay üzü al, qəlbi ol şad!
Cahan gülsün səhərlər sən gülərkən,
Göyün üstündə olsun sərv kölgən.
Könül şad oldu lütfün, ehsanından,
Bu hörmətdən xəcil oldum, peşiman.
Nə xəznə, gövhər, atlaz, xəz döşənmiş,
Bütün yol mənzilin tək xoş bəzənmiş.
Qulağından asılmış sırğalardan,
O Şəbdiz nalı aldı lal, mərcan.
Mənim yollarıma səpdikcə gövhər,
Xəcalətdən üzüm lal oldu yeksər.

Budur kuyunda töhfə, həm budur dad!
Üzünlə şadam, olsun qoy üzün şad!
Bir oldun burda mənlə südlə bal tək,
Bu işdə mümkün olmaz səhv görmək.
Mənə neyçün qapı bağlandı, ey yar!?
Qələt gördüm bunu, yoxsa xəta var?!
Məni tutdun, yerə neyçün, de, vurdun?
Fələk tək sənsə yüksəkdə oturdun?
Dilim gəlməz deyəm ki, yüksəyəm mən,
Bu sözdə incəliklər var, bilirsən.
Sənin mehmanınam, gəldikdə mehman
Qapı bağlarmı dünyada bir insan?!
Qonaqla əyləşən comərd adamlar,
Daha çox göstərərlər ehtiramlar.

## ŞİRİNİN XOSROVA CAVAB VERMƏSİ

Cavab verdi ona o lalə üz yar:
"Ola dövlət həmişə şah ilə yar!
Qılıncınla fələk bir bəndən olsun!
Sənin şir şövkətin, fil gövdən olsun!
O baş ki, dairəndən çıxmaq istər,
Qala dünyada zülm ilə bərabər.
Gəl etmə tənə, yüksəkdə qurub taxt,
Kənizin olmalı yüksəkdə hər vaxt.
Sənin eşqinlə bayraq olmuşam mən,
Durar başdan uca bayraq, bilirsən.
Düşün, mən bir tozam, qalxdım yolundan,
Tozun qalxıbsa yüksək, var nə nöqsan?
Özün sən taxta layiq tacidarsan,
Oturdun taxta, qadir hökmdarsan.
Mən əfğan eylərəm eşqinlə hər dəm,
Gözətçi hinduluq damda vəzifəm.
Yanında şahların çox türklər var,
Bax onlar da gözətçi hindu saxlar.
Qara gözlü o türkəm damda qəmgin,
Adım ağ hindu olmuşdur səninçin.
Otursam mən gedib Aydan da yüksək,
Kiçik bir bəndəyəm şaha, bu, gerçək.
Dedin bir də nəcabətli bir insan,
Qapı heç bağlayarmı gəlsə mehman?
O şahinsən, deyilsən mehman əsla,
Keçir dağ kəkliyi könlündən amma
Qonaqsansa, budur yer, bax, bu hörmət!
Kəniztək eylərəm qarşında xidmət.
Qəbul da etsələr, rədd etsələr də
Füzulluq eyləməz mehman bu yerdə.
Qapı mən bağladımsa, oldu doğru,
Bura sən məst gəldin, səhvdir bu.
Təkəm mən burda, sən sərxoş gəlibsən,
Nə töhmətlər deyərlər, bir düşün sən.
Gərək sən burda bir tədbir görəydin,
Beş-üç ağsaqqal aqil göndərəydin.
Məni burdan alaydın şah sayağı,

Mənimlə süslənəydi şah otağı.
Belə şirin bir atlı ta nə istər,
Şəkər tək bir kəbin istər bu dilbər.
Düşündün hiylə gəlməklə məni sən,
O məstlər tək məzə eylər, yeyərsən.
Edərsən əldə qafil məst görüb bərk,
Dərib iylər, atarsan sonra gül tək.
Yaraşmaz şahlar üçün pərdə yırtmaq,
Nə etdin İsfahanda bəsdir ancaq.
Şəkərlə oynayarsan böylə orda,
Nə Şirinlə, Şəkər olmaz o zorda.
Şəkər saçmaq Şəkərlə bitdi dərhal,
Bal olmuşdur bu Şirin, həm də xam bal.
İki qol vardı, birləşdi bir oldu,
Tovuzda bir qanad birdən vuruldu.
İki dilbər o bir qəlbdə yer almaz,
İki qəlbi olan aqil sayılmaz.
Ütariddir iki bürclü, olar bu,
Günəşsən sən, sənə bir bürc doğru.[139]
Çıxart Şirin adı getsin dilindən,
Olar ağzın yara şirin yesən sən.
Mənə, həm eşqimə möhtac deyilsən,
Edirsən eşqbazlıq mənlə, bil, sən.
O sultan ol ki, oynar bircə topla,
O hindu on top ilə oynar amma.
O on toplu gedər on səmtə doğru,
Gedər bir səmtə ancaq bircə toplu.
Mənim tək bircə qibləm, o üzün var!
Sənin məndən kənar, bir bax, yüzün var!
Gedibsə bir gözəl üzlün yanından,
Odur var on minin, əla çox ondan.
Nə çoxdur mişkin o qəsrində ceyran,
Buraxma üstümə it, qoyma nalan.
Uzaq düşdüm saraydan mən ki naçar,
Bu məbəddə əcəb zindan quyum var.
O qəmli mənzilə dönnəm bu yerdən,
O gövhər misli paklıq gözlərəm mən.
O gil ki, baş yuyarlar, oldu çox pak,
Çəkilmişdir başa daim o torpaq.
Gecə dinclik tapar daim balıq, quş,
Mənim yox dincliyim, fikrin nə olmuş?!
Tora düşmüş , tutulmuş bir quşam mən,
Qapım bağlı, bu dama qonmuşam mən.
O tuti tək dəmir zəncir ayaqda,
Keçirrəm gün o ənqa misli tənha.
Sənə qəsrin, mənə daş-dost yoldaş!
Sənə ruzi olub cənnət, mənə daş.
Tikanlıqdır yerim, saysız yaram var,
Nə lazım, olmasın mərhəm, nə gülzar.
İki gündür ömür, olsun qara, ağ,
Keçirsən hər necə, qalmaz çox ancaq.
Keçib getmək gərəkdirsə bu yoldan,
Saraydan, yoxsa daşdan qopmaq asan?!
Həmail bağladı çərxə bu əndam,

Onu sən sözlə eylərsən nə cür ram?!
Bu cismim bir həmail taxdı qul tək,
Ona bağlar həmail hansı sərhəng?
Bir ahuyla alar kim şiri məndən,
O ağzı süd uşaq yox, Şirinəm mən.
O tifləm ki, şirin sözlərlə asan,
Verib bir xurma, nə istər, alarsan?
Bu xurmanın məzəmmətdir əzabı,
Bir arpanın bir illikdir hesabı.
O Zöhrə ərğənunu ilə, dinsəm,
Səni incitsə də, oxşar bu həmdəm.
Mən əvvəl tüstülü olsam da çox bərk,
Yanıb axırda ollam pak o od tək,
Fələklər od saçar, sonra verər su,
Özün bax təşnəyə, anla nədir bu?
O məbuda ki, xurma verdi xarla,
Tikansız məndə görməz kimsə xurma.
Nə tam, dad xurmada yoxdursa çərdək?
Gecəsiz Ayda nur mümkünmü görmək?!
Bu yollarda çox içdin mey sən, ey şah!
Acı olmuşsa, mən Şirinəm ancaq.
Bu aləmdə sənin çox həmdəmin var,
Sümükdürlər, ilik gəldim mən, ey yar.
Mənim eşqimlə sən dövlət, calaldan
Nə gördün? Şahlıq aldın, hökmransan.
Məni sən bir saat etdinmi heç yad?!
Məni sən hansı gün etdin bir an şad?!
Məni yad eyləyib cırdınmı paltar?!
Mənim dərdimlə heç çəkdinmi ahlar?!
Salam sən hansı qasidlə veribsən?!
Olubmu bir gecə söz göndəribsən?!
Qədəh qaldırmısan dostlarla sən şad,
Qələm Şapur çalırdı, tişə Fərhad.

## XOSROVUN ŞİRİNƏ CAVABI

Cahandar bir də mehr ilə tutub üz
Dedi gülüzlüyə: - Ey yasəmən üz!
Ola sərvin o innab ilə cüt var!
O innabın ola qəndinlə dost, yar.
Nəsibi olmasın qeyrin dodağın,
Nə qeyrin başına zəncir buxağın.
Məzəmmətlər dedin, xalis zəhərdir,
Əsası amma şirin çeşmələrdir.
Soruşdummu neçün çıxdın yuxarı?
Çıxıbsan, gəl bəla göstərmə barı.
O sərvin tək uca bir qamətin var,
Ola bundan uca, sevməz adamlar.
Səninçün incilər saçsam bu gözdən,
Ora nə mancanaqla qaldırım mən.
O bir milcə ucalmış qəsrin, ey yar!
Ona saçdı gözüm fil boyda yaşlar.
O Qarun xəznəsi saçdın sən amma,
Qoyursan yerdə Qarun misli sonra.





Ürək burda, qapı hardan açım mən?
Bədən burda, hara burdan qaçım mən?
Qapı halqən kimi olsam qapında,
Öpərdim mən qapı halqəndən onda.
Olum çiynindəki zəncirə halqə,
Xəta etdim, olum bir bəndə bəlkə.
Cəfa etmə mənə dünyada əsla,
Vəfadır, bir günahım varsa amma.
Günahım varsa da, rəhm eylə, ey yar!
Qədimdən etmiş insanlar günahlar.
Belə tünd olma, yumşal, tap bir aram,
Hamlıqdan daşın, ta olmuşam ram.
Çobanlıq yaxşıdır, qurd olma, əl çək!
Böyükbaşlarla davranma böyük tək?
Yaman xasiyyətin ardınca getmə!
Böyüklə düz dolan, hörmətsiz etmə!
Məni torpaqtək atdın astananda,
Desən nolar atılmış torpaq onda.
Yolumdan qalx demə bir fitnə tək sən,
Əgər qalxsam, betər fitnə görərsən.
Belə etmə, görərsən zülm sən həm,
Əgər mən etməsəm də, eylər aləm.
Nə hər nemət gələ qarşı yeyərlər,
Nə hər iş gəlsə əldən, eyləyərlər.
Nə hər əl ki, qılınc saxlar o zağlı,
Olar qan tökməyə dünyada haqlı.
Bu xar olmaq özümdəndir, nə səndən,
Günah bəxtimdədir, burda nə sən, mən.
Mənim vaxtsız haray qaldırdı zəngim,
Xoruz vaxtsız təbil dindirdi, mən kim?
Görərdi yoxsa kim yanram sazaqda,
Yaman günlər görüb qaldım qıraqda.
Yanıldım, sevgidir, şahlıq deyil bu,
Hanı, ah-naləsiz də eşq olurmu?!
Mənə naz et necə istərsən, amma
Qovulmuşlar kimi qışqırma sonra.
Əgər naz eyləsən sultan kimi sən,
Budur qəbzim: sənə ancaq qulam mən.
Qulağımdan tutub satsan bazarda,
Susub ollam itaətkar qul orda.
Çıxartsan bir gözü məndən oyub sən,
İkinci bir gözü verrəm o dəm mən.
Kəmər qan tökməyə gördüm taxıbsan,
Nolar halım papaq qoysan sən, ey can?
Qılınc çək başıma, dönməz o, bir dəm,
Dolannam başına, səndənsə dönməm.
Həyatım da, canım da, bil ki, sənsən!
Əgər bilmirsə bir kəs, sən bilirsən.
Ayıq, sərxoş, həmişə vaxt, bivaxt
Xəyalın cilvələnmiş gözdə ancaq.
Kim içsə məndən özgə böylə şərbət,
İşi rusvalıq olmuşdur nəhayət.
Qəmindən mən cırıb xəlvətdə paltar,
Yeni paltar kəsirdim bir də təkrar.
Niyə? Döndərməsin üz ordu məndən,

Pozuqluq görməsin şahlıq kökündən.
Nə eşqinlə sənin divanə rindəm,
Gələm kuyuna tənburla dəmadəm.
Mənəm iş sahibi, dünyada sərvər,
Bu şahlıqla bu eşq olmaz bərabər.
O zülfündən soraq aldıqda bir vaxt,
Mən aldım bir qoxu, verdimsə tac, taxt.
Bədən olmuşdu qane başqasıyla,
Əsir idi sənə can, qəlb amma.
Bir əyri fitva ilə içmədim su,
Nə iş gördümsə, gördüm düz və doğru.
Qədəm basdımsa kam almağa, ey yar!
Cavan idim, belə olmuş cavanlar.

## ŞİRİNİN XOSROVA CAVABI

Yenə bir də tovuz sima o dilbər
O ləlin mücrüsündən saçdı şəkkər.
Əqiqiylə naxışlar vurdu parlaq,
İpəkdən də gözəl sözlərdi, yumşaq:
"Fələk dövr eyləyib durduqca dünya,
Gecə, gündüz, bu yer, göy var olunca,
Cahanın şahına mülk olsun aləm!
Zaman olsun onun hökmündə hər dəm!
Ola fərraşı ulduzlar yanında!
Ola sərkərdə tale meydanında!
Mənim könlümdə şahdan yüz əzab var,
O şahlıq bir yana, ayrı hesab var.
Hələ dövlət deyib sən naz edirsən,
Hələ zor, güc yolu ilə gedirsən.
Hələ xahiş deyil, səndə qürur var,
Qürur eylər, təəssüf, eşqi inkar.
Kim aşiqsə, rica eylər o hər vaxt,
Bu eşq eylər qəbul möhtacı ancaq.
Bu aşiqliklə dikbaşlıq düz olmaz,
Uyuşmaz eşqbaz ilə oyunbaz.
Sərin bir yel gərək isti bu yerdə,
Ürək nəymiş, bələd olmazsa dərdə.
O quşdum mən, yerimdi güllər üstü,
Nə yay gördüm, nə də bir bürkü, isti.
O Səqlab banusuydum, qönçə güldüm,
Gülab tək şüşəyə indi töküldüm.
Yudum mən ağzı südlə, qarla ot tək,
Boy atdım çeşmələrdə gül kimi tək.
Bu torpaq qəbr ilə daş qəsrə, bir bax!
Ümid etdim sənə, səbr etdim ancaq.
Qızıl tək istidən yandım, əridim,
Soyuqdan buz kimi dondum, kiridim.
Nə bir əl var, onunla zəng çalım mən,
Nə bir qəmxar ki, bir söhbət salım mən.
Həmişə mən səni zənn eylədim yar,
Səni hər yerdə sandım bir vəfadar.
Sənin heç könlünə bir düşmədim mən,
Mənimlə dost kimi davranmadın sən.

Bu ölməkdən mənim artıq nə dərdim?!
Qılınc çəkdin, ona mən canı verdim.
Əyilsin qoy yerə mizan bu başdan,
Hesabı düz bilir torpaq o daşdan.
Ağıl olsa, durardım bir kənar mən,
Nə olmuşsa mənə, olmuş özümdən.
Əlimdən heç bir iş gəlmirsə ancaq,
Olar bir haqq-hesab burdan aparmaq.
Zamandan bir dəli fəryad qoparram,
Nişan allam, hədəf var, doğru vurram.
Neçin qalsın mənim tək sərvi-azad,
Sənin eşqinlə daim qəmli, naşad?!
Hələ könlüm gözəlliklərlə oynar,
Başımda şuxluğun hay-küyləri var.
Hələ hindularım atəşpərəstdir,
Gözüm türklər kimi bir gör nə məstdir!
Hələ bərk açmamış qönçə güləm mən,
Hələ dürrüm bütövdür, sən bilirsən.
Hələ abi-həyatdır bu dodaqlar,
Suyum, gör, gənclik arxında nə çağlar?!
Tərazda hər gözəl bildi məni baş,
Kənizimdir qürurum, naz yoldaş.
Nəsimimdən ətirlər tapdı güllər,
Bu nadir dürrümə varis o şəkkər.
Çıraq nurum üçün pərvanə olmuş,
Yeni ay hüsnümə divanə olmuş.
Əqiq ləlim əlindən çox yeyib daş,
Üzüm güllərdən almış rəngi birbaş.
Turuncdur, bax, buxağım, etsə bir yad,
Edər narıncı Bağdadın nə fəryad?!
Üzüm alma, onu bir şaha versəm,
Sifahan alması açmaz səbət həm.
Əgər bir dür verəm bu diş, dodaqdan,
Mən allam bir könül, verrəm də yüz can.
Pələnglər şax dayandı, düşsə kölgəm
Oyun öyrəndi məndən ahu hər dəm.
Marallar bu gözə həsrət və heyran,
Zəhərlər tökdü kirpikdən, nə dərman.
Baxarsa bir dəfə mən səmtə ahu,
Qalar boynum xəracı altda boynu.
Tutub allam o bir nazımla Rumu,
Bir ətrimlə Xutən gözlər hücumu.
Gözəllikdə bahar qaldırsa barmaq,
Onuntək məndə var yüz barmaq ancaq.
Var isə Ayda hər dəm nur, təravət,
Ələ su tökməyə etməz o, cürət.
Bu yaqutum şərab alsa ələ, xam,
Verib rüşvət şəkərlə qaldırar cam.
O türkəm, qəmzə ilə qəlbi çallam,
Verib bir busə, oxşar, razı sallam.
Necə mən gözlərə gör verməşəm nur,
Bu dargözlük daha türklərdə yoxdur.
Bu darlıqdan gözüm bir kimsə görməz,
Bu dar göz kəslərə rast olmasın kəs.

Aya mən mişkdən zəncir düzəltsəm,
Tutub çox şirlər ovlardım haman dəm.
Bu ləlim başlasa şəkkərlə dava,
Kişi göstər, tutar namərdi onda.
Dişimlə qənd bacı olmuş binadan,
Vəfa əhdimlə həmyerli bir insan.
Bir aləm naz, yüz dünya həya, ar,
Bu bir nazım, həyamda yüz qapım var.
Dodağım ləl, saçmaqda o, şəkkər,
Ətək çəkməkdədir zülfüm sərasər.
Məzə dadlı, şərab mən cama töksəm,
Şəkər saçmaq qalır badama hər dəm.
Gümüş nar tək bu almam qaldırıb baş,
Ölər aşiq görüb, aqil qalar çaş.
Üzüm qərq eyləsə nura cahanı,
Satar bir zirnixə o, ərğəvanı.
Bu hüsn ilə, gözəlliklə bu nərgiz,
Bulaşdırmaz əli hər qana hərgiz.
Başımda gör necə qovğalar oynar,
Mən öldürdüm nə çox miskini naçar.
Sənin mən tökmədən qanını çıx, get,
Belə qan çox qalıb boynumda, fikr et.
Sağ əldən bir yara sən almamış qalx,
Bunu eylər sol əllə eşqim ancaq.
Sən oldun daş ürək, mənsə dəmir can,
Elə qəlbə belə bir can yarar, qan!

XOSROVUN ŞİRİNƏ CAVABI

Dedi şah bir də: - Sən ey qəlbimə nur!
Gedir söhbətlə bizdən gün, bir az dur.
Gözəllikdən mənimlə vurma çox dəm,
Sən artıqsan sözündən, şahid aləm.
Görürsən hüsnünü sən tutsan ayna,
Gözümdə yüz qat artıqsan sən amma.
Ağız açsam, "dilaram" söyləsəm mən,
Dolar ağzım adından qəndlə birdən.
Günəşsən söyləsəm, varsan o qayda,
Fələkdə qoymadın bir rövnəq Ayda.
Nə vaxt yaqutun oldu daşdan aşkar,
O vaxtdan şəkkərin qəlbi olub dar.
Gümüş narın bitəndən narvəndə,
Əyildi qaməti sərvin çəməndə.
O xurma ləblərin bitcək ağacı,
Qınılmaq oldu xurmanın əlacı.
Açar gəlmiş İrəm bağa camalın,
İrəm mişli ələ gəlməz vüsalın.
Ay olmuş hüsnünə heyran sərasər,
Olub qullar qulu qarşında şəkkər.
Gülün şəkkərlə birgə tapsa uyğu,
Nabat gördükdə ağzından axar su.
O bal ləblərlə sən bir süfrə açsan,
O mum surətlərə birdən gələr can.
Ağız açsa sədəf qarşında bir dəm





Dilər dürr adlı dişdən durrü borc həm.
Əgər satsan yarım tük bir tükündən,
Bir iqlim qiymət et, allam yenə mən.
Həsəd eylər o Ay, nəymiş bu hüsn, üz,
Sənə sən baxma ki, səndən dəyər göz.
Kimin olsa gözü hüsnünə heyran,
Dəyər göz, hüsnü qurtarmaz ziyandan.
Gəl incitmə mənim tək padişahı,
Nahaq qan tökmə, yoxdur bir günahı.
Əgər şahsan, hanı bəs səndə gövhər?
O Şirinsən, hanı bəs səndə şəkkər?
Qəzəbdən keç, yetər sülhə bir aç yol,
Nifaq bəsdir, bir az da üzrxah ol!
Nə pis bir söz dedim, yoxdur bu məndə,
Dedimsə, min əvəz qaytar, de sən də.
Olur, düzdür, gözəllər tünd xislət,
Gözəllərdə olur həm yaxşı adət.
Böyüklər, doğrudur, tündlük edərlər,
Bir az insaf yoluyla həm gedərlər.
Qədim bir yara sən zülm etmə, ey yar!
Əgər olsan da tünd, rəhmin daxi var.
Odumdan yel kimi qaçma, dayan sən,
Sənin torpağınam, tökmə su üzdən.
Sənə olsam da layiq burda artıq,
Deyil qismət mənə heç mehribanlıq.
Verən hər kimsəyə olmuş bu məlum:
Qalır möhtac olan hər yerdə məhrum.
Bu qəlb olduqca dilbər təkcə sənsən!
Bu candan keç, özün can bəxş edənsən.
Sənin bəndindən olsam da mən azad,
Bu qəlbimdən xilas ollammı, heyhat!
Yetər, zülm atını mindin, yol aldın,
Məni gah torpağa, gah qana saldın.
Tanıdın dadlı, həm şirin şəhərdə,
Sözün tək acılıq yoxdur zəhərdə.
Çətin gəlməz mənə gördüm tikanlar,
Mübarəkdir, nadir bildim olanlar.
Edər bəzən əsası uçma möhkəm,
Olar şadlığa bais vaxt olar qəm.
Bu zülm etmək, inan, olmaz mübarək,
Bir il yox, bir gecə zülmündən əl çək!
Sevindir qəlbimi, qəmxar gəldim,
Səni sevdim, sənə mən yar gəldim.
Dayannam, dönmərəm mən də o şam tək
Ki, şirin axtaran çoxdur, nə mən tək.
O şamın gözləri, bax, yaşla dolmuş,
O da şirin dodağından gen olmuş.
Düyün dadlı neyin qəlbində qalmış,
Onu yoxsa o şirin bəndə salmış.
Nədən xurma ağacında tikan var?
Olubdur yoxsa Şirinə o bir yar?
Əgər süd olmasa şirin əzəldən,
Necə rahat olardı xalq uşaqkən.
Gedir şirin deyib üç-beş bu miskin,
Özün Şirin, yenə onlar da şirin.

ŞİRİNİN XOSROVA CAVABI

Qəsəb geymiş o Ay dilləndi birdən,
Düzəltdi Xosrova sırğa şəkərdən.
O gövhər mücrüsündən açdı ta bənd,
O, qəndə ruzi verdi, xurmaya qənd.
Aya atlanmaq üçün verdi fərman,
Buyurdu mişk ola örtükdə pünhan.
Nədir öyrətdi sərvə seyrə getmək,
İti bir qönçə oldu, güldü gül tək.
Damın küncündən öpdü həm o dilbər,
Olur bişdikdə kərpiclər xam anbar.
Yetişdi bir də növbə xidmət üçün,
Çadır qurdu o, qəlbi qarət üçün.
Dedi əvvəlcə: - Ey dünyaya tək şah!
Olub bayrağına aləm qərargah.
Adın Çindən Ruma dillərdə əzbər,
Qədərxan bəndə, bir quldur o qeysər.
O Çin xaqanı torpağınmı tənha?
Sənə torpaq olan çoxdur cahanda.
Sarı rəng olsa paludə, deyərlər,
O, yağlı, şirin olduqda yeyərlər.
Elə paludəyəm ki, onda yox yağ,
Adım qalmış o şirinlikdən ancaq.
O gündən ki, cahanda olmuşam xar,
Ürəkdən, candan oldum mən sənə yar.
Nə bir yol bir kəsin ardınca getdim,
Nə bir başqa üzə mən səcdə etdim.
Özündən görmədim bir mehribanlıq,
Təkəbbür gördüm ancaq, hökmranlıq.
Tək öz istəkləri fikrində olmaq,
Gələ kim qapıya biganə qalmaq.
Nə eşq oldu bu, boş şəhvətdir ancaq,
Özün, de, sən hara, ya aşiq olmaq?
Mənə fil ver, onu bəndə salım mən,
Piyada neyləyər bir şah ikən sən?
Haçan olmuş qonaq ceyrana aslan?
Doyar qartal o bir sərçəylə hardan?
Əgər sən sərvənsə, bir çöpəm mən,
O bir torpaqdanıq ancaq, bilirsən.
O manqalda üzərlik, ud birdir,
O ud amma ki, manqalda ətirdir.
Sənə duzlu kabab lazımdır, amma
Fil əzmiş milçəyi, ondan nə fayda!
Çıxır odlu gözəl sözlər dilindən,
Qazan qoy yanmasın, gözlə bir az sən.
Hovuzdaykən balıq, gəldin o seltək,
Murada istədin könlüncə yetmək.
Bu tufan vaxtı pəhriz saxlaram mən,
Otur qal burda, istərsənsə get sən.
Ayın qələsinə atma kəmənd çox,
Nə lazım, göylərə yol tapmağın yox!

Tutulmaz göy gecə olsan oyunbaz,
Ayı əfsunla tərk et tutmaq olmaz.
Bütöv bir dürrü istərsənsə deşmək,
Gedib dərya ilə lazım genəşmək.
İrəm bağını örtmüşdür budaqlar,
Yox, aşkardır qapı, çoxlu oyun var.
Adım abi-həyat, üzdə suyam mən,
Cavanlıq adlı atəşsən fəqət sən.
Nə lazımdır bu od, su birgə olsun!
Ki, bunlardan cahanda fitnə dolsun!
Budur ən yaxşısı, olduqca mən sağ,
Qaçım məndən qaçan kəsdən mən ancaq.
Buyur get sən o Şəkkərlə ov eylə,
İşin yoxdur sənin Şirin balıyla.
Bu inci dişlərimdən başqa heç kəs
Bu şəkkər ləblərimdən busə görməz.
Hanı bir busə Şirin busəsi tək,
Ləbindən, bax ki, şirinlik yağır bərk.
Bu Şirindən, Şəkərdən tökmə çox dil,
Qəsəbbaf ilə qəssab bir deyil, bil!
İki cür mancanaq var, elm söylər,
Atar daşlar biri, qeyri ipəklər.
Şəkərlə kimsədən şirinlik itməz,
Bu şirin ləb şəkərlə bəhsə getməz.
Sən əvvəllər acı anlar görübsən,
Şəkərdən gülşəkər də istədin sən.
Şəkər daddın, dilərsən indi Şirin,
Ay ovla, ya balıq tut, gör nə xeyrin.
Bu Şirin qəsri üçün başda sevda,
Bilirsən hardadır Şəkkər də amma.
Cigərdən mən sıxıb tökməkdəyəm qan,
Qaşımaqçün başı məndə yox imkan.
Əlimdən xidmət etmək daxi gəlməz,
Sən indi bir çevik xidmətçi tap, gəz.
Məni yad eylədin, çıxsın yadından,
Əgər sınmazsa rud, əla çalırsan.
Əsirlərlə yetər tünd-tünd danışmaq,
De, yazsınlar nə var katiblər ancaq.
Sənin ki, qəm yeməz qəlbin, canın var,
Verirsən yel, başında yellər oynar.
Qədəhlə qan içim sənlə neçin bəs?!
Arıq düşmüş qoyun sözlə kökəlməz.
Səninlə taleyim bəd gəldi naçar,
Görər həm yaxşı işlər də, xuda var.
Bu viran vadidə tənha oturram,
Həmişə mən çəkib car, nalə durram
Ki, Şirinlə tutur Pərviz nə işlər,
Sevən burda, hara saçmış o, şəkkər?
Yetər, düşdüm tora bir yol çox asan!
Qədir-qiymətdən oldum, getdi ad-san.
Adım adlar içində sındı, bitməz,
Qapın bağlansın, ey arsız olan kəs!
Qapı bağlandısa, qurtardı düşmən,
Xəzinə bağlı xoşdur, sən bilirsən.

Bu qəndimdən cahan çox gördü bəhrə,
Səmərqəndi qapı qoydum bu qəsrə.
Qapı açmaq üçün yoxdursa imkan,
Sənə ip sallaram mən saçlarımdan.
Səni mey tək töküm lazımsa cama,
İp eylər zülfü, qaldırram bu dama.
Ayağından ipi açmış yel amma,
Deyilsən sən də kəndirbaz, nə fayda?!
Budur yaxşı, mənə çox çəkmisən dağ,
Çırağında sənin yandırmayım yağ.
Qanım coşdu, nə dərdim var, dedim mən,
Gecən xoş, gündüzün xoş! Ta gedim mən.
Deyib bir sərv tək qalxdı o, birbaş,
Düyünləndi alın, düz durdu həm baş.
İpək paltarda yelləndi ətəklər,
Qəliblərlə cahanı tutdu şəkkər.
Gözəllərdə olan adət sayağı,
O, zülfü bağlayıb, açdı buxağı.
Xəz altından camalı nur saçırdı,
O, örtmək istəyir, amma açırdı.
Qəsəb örtürdü bəzən üzdə nəsrin,
Qulaq səmtə salırdı lalə meylin.
Dolaşmaqla başında zülfü bəzən,
Düyünlə mişk üzə sürtürdü hərdən.
Yox idi ziynət üçün əldə bir vaxt,
Ayaq qalmış qılınc ağzında ancaq.
Düşüncə sahmana zəncirlə xalxal,
Olurdu boynu zəncirli yaman hal.
O, zülfündən düzəldirdi kəmər, tac,
Kəmərlə taca şah olmuşdu möhtac.
Ayın boynuna bağlar lalə hər dəm,
Salırdı boynuna şahın kəmər həm.
Odu çəkdi o tər halvada, amma,
Ocaq gur yansa, yanmazmı, de, halva?!
Gözəllikdə var isə yeddi qayda,
Gözəlliklə o dilbər etdi icra.
Çevirdi arxa şaha, şuxluq etdi,
Günəş qeyb oldu göydən, sanki getdi.
Dönəndə zülfü oynar, qıvrılarkən,
Axırdı civə sanki dizlərindən.
Bir ip tək zülfü oynar dalda bərk-bərk,
Çalardı hər kəsi görsə ilan tək.
Düzəldir halqa billur boynu hər dəm,
O mişkin iplə oynardı o həmdəm.
O billur gərdən eşqindən verən can
O ip boynunda qalmışdı pərişan.
Damın bir güşəsindən şux dilaram,
Gedincə qalmadı heç şahda aram.
Çox and içdi şah öz canına amma,
Axır döndü geri bir də o rəna.
Oturdu, ləl axıtdı nərgizindən,
O suyla vurdu od dünyaya birdən.
Ürək, can qarət etməkçün o dildar
Nə əfsun, hiylə var işlətdi naçar.





Edərsə aşiqi süst hansı işlər,
Əcəbdir çox, onu məşuqə işlər.

## XOSROVUN ŞİRİNƏ CAVABI

Necə naz eyləyir şah gördü canan,
Qılınclar oynayırkən atdı qalxan.
Şikayətdən durub şirincə qaçdı,
Şikayət şirin insandan kim açdı?
Dedi Şirinə: - Ey nurum, çırağım!
Mənim gülşən hümam tavus və bağım!
Başımçün tac, və tacımüçün olan taxt,
Yıxırsan, qaldırırsan vaxt-bivaxt.
Mənə sən dilbər oldun, həm də dildar,
Səninlə sərxoşam, həm sənlə huşyar.
Kimim sənsən, hara burdan gedim mən?
Nə səndən başqa tacım, bəs nedim mən?
Tutaq ki, çəkmisən məndən əziyyət,
Neçin qan tökməyə etdin sən adət?
Əla sən ki, belə çox gec gəlirsən,
Gəl öldürmə belə tezliklə, dur sən.
Demiş kəndli nə düz Nəmruda bir yol:
Əgər biçsən gecik, əkməkdə cəld ol!
Budur üzrüm, budur can, sən bilirsən!
Budur bayram, bu qurban, sən bilirsən!
Elə naz etmə, ondan fayda olmaz,
Bir az da mehriban ol ki, yetər naz!
Ümidsizliklə qırma qəlbi, bəsdir!
Ürək qırmaq o zülfün tək əbəsdir!
Qəm aşdı həddini, qəmxar olan yox,
Sənin könlündə qəmxarlıq, filan yox.
Bir ağlar qəlbə yol tapsa kədər, qəm,
Deyər bir tay-tuşa, ya olsa həmdəm.
Demək hər qayğısız qəlbə söz olmaz,
O saz saz ilə xaric nəğmə çalmaz.
Yük üstündən bu zəngi aç haman sən,
Nəfəs çək barı rahatca bir an sən.
Bu mən, sən tək görüb çox kəslər aləm,
Olub onlarla düz, bizlə olar həm!
Bu yer, göy qurdu darvaza, deyir: - Keç.
Oxu, gör ki, deyir gəldin neçün gec.
Yetər aldatmağın qəlb, ey nigarım!
Yetər şuxluq! Bitib səbrim, qərarım.
Bir əncam et işə, ey yar, vaxtdır!
Bu məstlikdən məni qurtar, vaxtdır!
Yetər, bəsdir açılsın qaş-qabağın!
Neçin qalsın bu cür yalqız qonağın?!
De, Fəğfura qapı bağlarmı Fərxar?!
Uçurdun Mulianda körpü, ey yar.[144]
Götürdün üstünə dünya qəmi sən,
Bu qəmdən vaz keçib də bir sevinsən.
Buludlu gündə mümkündür, çəkək qəm,
Sevin, çıxmış Günəş, gülməkdə aləm.
Bu məğlub olmuşa bəsdir bu həmlə!

Tutulmuş bir əsirlə bu oyun nə?
Kimin ağlı, kamalı varsa hərgah,
Girişməz davaya bir sülh olan vaxt.
Dava açsa əgər aqil bir insan,
Barışmaqçün də saxlar bir yer, imkan.
Bu davada bir az da sülhə meyl et,
Yetər tündlük, yeni bir yol götür, get.
Gözəl məclis düzəlt sən dostlar üçün,
İşıq gəlsin gözə, keçsin gözəl gün.
Bu bağdan gəlmişəm meyvə dərəm mən,
Elə etmə tikan, çör-çöp görəm mən.
Sənin bağında qoy gözdən, dodaqdan
Badam dərsin könül, şəkkər yesin can.
Bu bağdan sən mənə de qalx dərhal
Buxaqdan dər türünc, nardan narınc al!
Yetər tənə, qəzəb, bu ox, bu nizə,
Yetər dava, yetər bu hərb, həmlə.
A ceyran sağrılı, davadan əl çək,
Pələnglik eyləmə sən vəhşilər tək.
Təkəbbürdən, bu nazdan nolar ensən,
Vurub saldın yerə, atma, yetər sən!
Gözəlsə kəkliyin, bundan ol agah!
Dayanmış pusquda şahin, nə bir şah.
Düşüb bir gün qucağımda olarsan,
Ələ bir gün keçərsən axır, ey can.
Necə oynar gecə mənlə xəyalın,
Əlimdə oynaram zülfünlə xalın.
Nə olmuş ki, düşüb burda bu minval,
Durub qalmış qapında sanki iqbal.
Nə var sinəndə az da olsa şəfqət,
Nə keçmiş dostluğa var səndə hörmət.
Suya düşsə çulu nagah hər insan,
Çıxardar, sən tələsmə axır ordan.
Səni gördüm ki, dostluqdan uzaqsan,
Geri dönmək zamanı gəldi burdan.
Əgər könlün dilər, zülmə aman ver,
Yaxından da yaxın bir yol nişan ver.
Açılsın qoy hilal qaşlar düyündən,
Evi boş qoy, göhər yığ xəznəyə sən.
Buraxmırsan evə, olsun mübarək!
Gedim burdan gərək mən gəldiyim tək.
Necə gəldim, geri indi yol allam,
Sazı əvvəlki tək mən bir də çallam.
Tapıb dərman, səni yaddan çıxarram,
Bir ayrı saqidən allam ələ cam.
Bir ayrı şərbət eylər könlümü şad,
Bir ayrı halvadan ağzım tapar dad.
O Şirin sevgisindən əl götürrəm,
Ələ mən dadlı bir şəkkər gətirrəm.
Onunla bu acı meydən içib mən,
Qulaq kar eylərəm Şirin qəmindən.
Könül istər daha burdan qayıtmaq,
Sözüm bitdi, uzaqdır mənzil ancaq.

## ŞİRİNİN XOSROVA CAVABI

O Xəlilüx bütləri üçün Günəş həm
Yer öpdü, söylədi şaha haman dəm:
"Cahanda hər nə arzun var, ona yet,
Bu dövlətlə, bu iqbal il ömr et.
Bu yeddi iqlim alsın nuru səndən,
Yaman gözlər gen olsun dövlətindən.
Bu şahlıqdan başa varsın min arzun!?
Min illər şahlığın, həm ömrün olsun!
Səni yad eyləyib qaldırsa kim cam,
Sənin qoynunda olsun lap mən olsam!
Şəkər rəngli zəhərlər saçma, bəsdir!
Tutub əfsun, bu əfsanə əbəsdir.
Yetər əfsun qarışmış dürlü söhbət!
Bu yellər qaldıran hər cür hekayət!
Ov olmuş bu qızıl çətrinlə niyyət,
Bu Şirin qəsrinə sən qoyma minnət.
Yaraşmaz padişah üçün bu cür fənd
Ki, etsin dərdli möhtaca o, rişxənd.
Bir ayrı it seçibsən sən ov üçün,
Onunla ahu ovlarsan düşündün.
Mənəm bir xəznə, sındırmaz bu torpaq,
Ələ tez gəlmərəm dünyada heç vaxt.
Belə dürlü oyunlar çox bilirsən,
Belə hiylə, kələklər çox gəlirsən.
Budur tərsi, məni tutmaz bu əsla!
Söyüd də gül verər, bar verməz amma
O çaysan, bilmirəm mən son yerin nə!
O dəryasan, bilinmir sirlərin nə!
Göləm, aşkar nə su varsa gölümdə!
Nə var qəlbimdə, o vardır dilimdə.
Dişi qarnındasa hər kəs sədəf tək,
Onun kini olar dərya qədər bərk.
Düşündün, bir hərifdir yağlı, şirin,
Sənə təslim olar asanca Şirin.
Özüm burda şəkər, həm bal satırkən,
Nə çıxsın dadlı sözlər dinləməkdən.
İti bir dil varındır, ayrı şey yox!
Yox isə yanmağın, yandırmağın çox!
Danışdın taxt, tacından, yetər sən!
Sözü ölçüb de, sərt sözlər deyirsən.
Acı sözlər acı fikrin balası!
Ağızda hər kəsin var əjdahası!
Sənə hər kəlməni ölçüb dedim mən,
Məni incitmə, ölç hər nə desən sən.
Götürsən sən qılınc, alsam mən ayna,
Düzəlməkdən uzaqdır işlər onda.
Yaman, həm yaxşı sözlərdə çox üz var,
Olar bir tük qədər bir fərq, sən axtar.
Bu karvanda o insan şad olar çox,
Görər qarğada əvvəl göz, qanad yox.
Bu arsızlıqla ad daş ilə bir baş,
Çəkin vurma haman şüşəyə sən daş.
Yetər, baş ilə əldən çox dedin boş,
Özün də, sözlərin də məst, sərxoş!
Bir aqil başdan olsa bir söz amma,
Olar yüksək, yerin altdan da çıxsa.
Özündə olmasa heç kim deməz söz,
Yaman da söyləsə, pis söyləməz söz.
Sözü ölçüylə lazımdır danışmaq!
Çox olsa, eşşəyə yükdür o, ancaq.
Qula sən bir gecə yüz söz deyirsən,
Deməz bir orduya mütrüb də, gör sən.
Məni fikrində varsa qəmgin etmək,
Danış bir-bir buyur, məndən eşitmək.
Gərəksə, olsa bir gizlin sifariş,
Düşərdi qaydaya yüz-yüz belə iş.
Mənim tək bir gözəl qalmış hasarda,
Gəzirsən ayrı bir yar orda-burda.
Geyib göz yaşı, mirvarim, bax amma,
Dayan, mirvari sırğamla az oyna.
Bu ənbər ahımı qəm, qüssə almış,
Bax ənbər zəncirim qəmlərdə qalmış,
Dodağım nardənə, xırda, əcəb bu,
Aparmışdır bu bağdan narı oğru,
Bu fındıq dımağa daş vur, bu, mümkün,
Qapı dardır bu innab ləblər üçün.
Mübarəkdir üzüm, örtmüşdür örpək,
Bu pəhriz saxlamaq olsun mübarək!
Bu gözlərdən, yetər dikbaşlığın, qorx!
Ki, var hər qəmzədə xəncərlərim çox.
Mənim zülfümdəki hər teldə, zinhar,
Qara qır rəng neçə yatmış ilan var.
Mənimlə dostluğun bir fayda verməz.
O buz qəndil, nə etsən, od götürməz.
O ipçün düşmərəm yolda quyu var,
O ovçün çıxmaram yoldan mən, ey yar!
Sənin könlün çıxır yoldan çox, ey şah!
Ona nolardı zəng olsa fəğan, ah!
Özün bir bax, olarkən yolda karvan,
Çəkər hər dəm keşik zəng, eylər əfğan.
Səhər qalxmazsa karvandan bir avaz,
Boğazından xoruz bir zəng asmaz.
Yalan sözdür, demə mütləq yaranı,
Alanı vurdum istərkən qaranı.
Çapırdın atı Hindistana doğru,
Yenə Babildə qaldın, yanlış oldu.
O dərya səmtə getdin, çayda qaldın,
Gül istərkən ələ sən lalə aldın.
Edirkən Şirini sən cana dava,
Oruc açdın gedib Şəkkərlə amma.
Mənəm yarın, tapıbsan ayrı bir yar,
İşin var, dəxi mənlə nə işin var?!
Bu dərdlər görmüşü xar etmə sən gəl!
Çox ağlatdın onu sən bundan əvvəl.
Unut kənddən qovulmuş şəxsi, çıx get!
Bu yoldan qalmışı bir kənddə tərk et!





Ata-ana nədir bilməz bir övlad,
Yetim tək bir tikə tapsa, olub şad,
Mən oldum qulyabani burda tənha,
Bu yerdən keçməz ayda bir qarışqa.
Bir an kam almadım səndən cahanda,
Tuş oldum tənəyə hər dəm zamanda.
Məni tərk et bu daşda dərdli, məhzun,
Gətir bir daş da qoy ta qəbrim olsun.
Həm altdan, həm də üstdən olsa bir daş,
Nə eyb olsa, o örtər, eyləməz faş.
Elə mərdlik, məni qurtar bu yükdən,
Götür yoldan tikanı, saçma gül sən.
Bu gül saçmaq, bu toz qaldırmağın nə?
Yemək duz, duz qabı bəs qırmağın nə?
Yetər, sevdim səni, biçarə oldum,
Evimdən gen düşüb avarə oldum,
Sən o Şahrudda Şirini atanda,
Sevinc, şadlıq məni tərk etdi onda.
Mədain nə, kiməm dağda yazıq mən,
Nə etmək, taleyim buymuş əzəldən.
Düşünnəm, qəlbimi ey yandıranım,
O ilk gün yıxdı Şəbdiz, çıxdı canım.
Sənə bir yar gərək sən misli yüksək,
Nə çıxsın dərdli möhtacdan mənimtək.
O yerdə qaz quyu, çıxsın su ordan,
Sən ordan çərt daman ta çıxar qan.
Gedibdir yellərə dostluq binası,
Yeni qoymaqmı istərsən əsası?
Kilimində sənin bir istilik yox,
O köhnəlsə verərmi istilik çox.
Ağac qalxarsa da əyri cavankən,
Qocaldıqda düz olmaz, sən bilirsən.
Qədəm basdın bura, çəkdin əziyyət,
Kərəm göstərdin, etdin xeyli hörmət.
Düzəlməz bu gecə burda iş ancaq,
Ümid etmə olar xəlvət yer almaq.
Hələ çiydir qazanda zirə-şorba,
Çatışmır çox şeyi, bişməz bu halva.
Bu axşam dön geri hökm eyləməkdən,
Qonaq etmək yararmı məst ikən sən.
Gələr vaxtı bu iş bir gün olar dağ,
Olar onda səni mehman çağırmaq.
Cahanda hər şeyin bir vaxtı vardır,
Haman hər xəznəyə bir vaxt açardır.
Xoruz banlarsa vaxtsız, çox görübsən,
Qanad yox, başı ayrılmış bədəndən.

## XOSROVUN ŞİRİNƏ CAVABI

Yaqin etdi bunu Xosrov o canan
Çıxarmaq istəmir heç nazı başdan.
Dedi xahişlə əfsun, xeyri olsun,
Nə fayda Babilə sən göndər əfsun?!
O yalvardı, dedi: - Ey cana aram!
Gözüm nuru olan, ruhuma bir şam!
Başımın bəxti, bəxtimçün cavanlıq!
Sən oldun qəlbimə can, candan artıq,
Fələk tək qəlbim ilə açma dava,
Başım qarşında, boş bəstiylə yağla.
Nolar bu aşiqi isvənlə et şad,
Mübarək öldü, nolar etsən azad.
Öz eybindən danış, tündxasiyyətsən,
Yetər, eyb axtarırsan məndə hey sən!
O kor ki, görmür o, kordur onun tək,
Deməkdən qeyrin eybindən gəl əl çək.
Daş atma ləlin ilə, cana qıyma,
Salıbsan torpağa, gəl qanda qoyma.
Məni dərdinlə öldürdün sən, ey can!
Xuda yarın! Əcəb dərdə qalansan!
Gecə düşmüş, yağır qar civə tək bərk,
Bu buz sevdadan üz döndər sən od tək.
Elə etmə tapım qardan mən uyğu,
O gündən qorx, olar bir gün bu qar su.
Qapından bu gecə nolar girim mən,
Öpüm göytək qapından ta ürəkdən.
Diz üstə əyləşim qarşında mən bərk,
Yumub göz, mən görüm ancaq səni tək.
Tapar yol qəsrinə ancaq o insan
Yumar göz, baxmaz o, harda sən olsan.
Elə bir dostu bil dünyada düşmən,
Çəkilməz gözləri heç pəncərəndən.
Halal olsun o şəxsə olsa dostun
Ki, istər mal ilə mülkün çox olsun.
Sənə qarşı paxılsa dost olan kəs
Burax getsin, o heç torpağa dəyməz.
Mənə gəl qanlar uddurma sən, ey can!
Qapında həlqə tək qoyma pərişan.
Verirsən çox əzab, olmaz bu, doğru,
Cəhənnəm bilmə, cənnət yurdudur bu.
O cənnət meyvəsi var səndə parlaq,
Onu cənnətdə görmüş hər kəs ancaq.
Bu cənnət qəsrinə aç qapı, ey yar!
Ağacda meyvələr zay olmasınlar.
Qapı aç, kinli olmaqdan sən əl çək,
Bir az xidmətdə dur əvvəl olan tək.
Qapı açmağa yoxdursa bir imkan,
Bir axşam bir qərib olmazsa mehman,
O Cəm mehrabı üstdən örpəyi çək,
Nə hacət var Günəş, de, örtsün örpək?!
Dəli oldum, sən aldın ağlı məndən,
Məni qurtar, oda sən salmısan, sən!
Sən eylərsən mənə dünyada məlhəm,
Varındır yaqut ilə ənbərin həm.
Uzaqdır məndən o baltək dodaqlar,
Arı tək sancmağa neştər dilin var.
Bu naziklikə sərtlik etmə bir dəm
Ki, sincab eyləməz, bax, kirpilik həm.
Elə et ki, dönüm mən razı səndən,

Bu görməkdən səni şadlıq duyum mən.
Ayaq-başım toza batmışsa, heyhat!
Gözüm səndən qoy olsun barı bir şad,
Düzəlmirsə mənimlə qəlbin amma,
Olar müşkül bir iş bu üzr sonra.
Bu Xosrov başına daş tökmə, boşla,
Onu öldürmə Fərhad misli daşla.
Kim atsa göylərə bir daş, özün bax,
Bu işdən ağrıdı öz başı ancaq.
Yara vursan başa, cismə axar qan,
Odur dikbaşlar olmuş başlarından.
Bir az qəlb oxşayam ol, kindən əl çək,
Mənimlə oynama bir möhrəbaz tək.
Nə hər aşiq ki, gördüm, məst olmaz,
Nə hər əldən çıxan aşiq sayılmaz.
Mənimlə gah savaş, gah sulh edirsən,
Xuda rəhm eyləsin, nə iki rəngsən!
Ağ olsun, ya qara seç bir olanı,
Nə balıq, nə ilandır su ilanı.
Bu dəd xislət, bu kin hardandır amma,
Gözəllərdə beləymiş qayda yoxsa?!
Məni bərk incidirsən ki, susum mən,
Coşur qəlb amma dərya tək sözündən.
Sənə hər dəm yaxın gəl söyləyirkən,
Qaçırsan iphörən şagirdi tək gen.
Yara vurma bu dərdli qəlbə, dur bir,
Ürəkdir bu, polad, ya daş deyildir.
Olursan düşmənin kamınca ancaq,
Yamandır düşmənin kamınca olmaq.
Mənə bir vədə ver doğru sözüm tək,
Düz iş var, ayrılik qatmaqdan əl çək.
Məni oxşa acıqla, düşməni yax,
Özün yan gizli, aşkar mehriban bax!
Dava üçün, yetər işlətmə çox zor,
Acı olmazmı şirin olsa bəs şor?!
Bu şirinlik varındır, yağlı ol həm,
Müvafiq düşdü yağ şirinlə hər dəm.
Buludda Ay kimi gəzdim səni bərk,
Axır tapdım susuz qalmış buludtək.
Cahana nur saçan parlaq çıraqdın,
Ələ ta gəldin, indi canı yaxdın.
Uzaqdan bir qızıl gül gördüm əlvan,
Yaxın gəldikdə gördüm ki, bir odsan,
Məzəmmət həddini keçsə, savaşdır,
Əgər bərk olsa torpaq, bil ki, daşdır.
Bacarmaz hər qılınc bərk yara vurmaq,
Bir əldə bir deyildir onca barmaq.
Durub burdan gedə billəm mən asan,
Tapa billəm də səndən yaxşı canan.
Yadımdan çıxmır ancaq köhnə xidmət,
Gözümdən getmir o dostluq, o ülfət.

## ŞİRİNİN XOSROVA CAVABI

İcazə verdi Şirin ta dodağa,
O Şirin xurmanı verdi qabağa.
Əqiqi ləli üstündən o açdı,
Düzüb gövhər, təmiz mirvari saçdı.
Dedi əvvəlcə: - Ey şah, ol cavan baxt!
Səninlə ziynət alsın tac ilə taxt!
Gücünlə düşmənindən dur qabaqda!
Qılıncı əldə ol, bayraq ayaqda!
Olubdur bəxt paltarı boyunca,
Əlində çərx yayı boşdur amma.
Daha artıq ola yarın sənin baxt!
Özünsən arxalar arxası hər vaxt!
Yanar bir dağ kimi tünd oldu nagah,
Dedi: - Dikbaşlığa ey meyl edən şah!
Axı şahsan, şaha sevda yaraşmaz,
Məcazi eşqdən heç bir kar aşmaz.
Əgər istərsə kim bir aşiq olmaq,
Gərək məşuqu da olsun bir ancaq.
Mənə sən tənə etmə kimdi Fərhad,
Qərib ölmüş, onu xoş sözlə et yad.
Mənimlə mehriban istərdi olmaq,
Mənə bir axirət qardaşdı ancaq.
Mənə bir dəm o, əyri gözlə baxmaz,
O, Şirindən eşitmiş ancaq avaz.
Acı etdi onunçün ömrü Şirin,
Acı ud tək necə gör yandı Şirin.
Həya gördüm yanan qəlbində dünya!
Salam da görmədim səndən mən amma.
Mənə üstündə gül bitmiş tikan da,
O barsız sərvdən xoşdur cahanda.
Başın altda ola yastıq dəmirdən,
O, xoşdur qan baham altun kəmərdən.
Nə xoşdur qolda qolbağ olsa misdən,
Əlimdə od saçan xalis gümüşdən.
Gecə saçsa çıraq nurlar mənimçün,
Nəyim var yandıran şamdan çox üstün,
O dərya misli aşiq daş qucaqlar,
Mənimsə dağ kimi başımda daş var,
Mənə daşlar dəmir tək oldu zindan,
Uzaq düşdüm sevincdən, dostlarımdan.
Əliboş qalmaya bir kimsə darda,
Dəli məst olsa, iş müşküldür orda.
Dəli-divanəyəm mən, həm də məstəm,
Dəli, həm məst olandan, de, nə həmdəm?!
Mənə əl vermək üstdən çək qələm sən!
Əlimdən tutmağa həm dəymərəm mən.
Elə zənn et ki, yel tufan qopardı,
O bir yarpağı bağdan sübh apardı.
Məni möhnət seli tutdu yaman bərk,
Yığışdır hər nəyin var, et məni tərk!
Haçandır qalmışam odlarda bax, mən,
Bax, ibrətlər götür, tez qaç bu yerdən.





Fələk kafur kimi göydən tökür qar,
Soyuqluq var odur həm bizdə naçar.
Bulud duz yağdırır, tale dönüb bərk,
Yetər qovğalı Şirindən sən əl çək.
Hava dardır, gecə oynar yarasa,
Sən isə şahin ol, gündüz gəz, ovla.
Eşitdin dadlı söhbətlər, o getdi,
Görürdün mehr-ülfətlər, o getdi.
"Şuar"dan bir "şəir"də yoxdur əsla
Ərəbcə bilməsən, yəni yox arpa.
Nə o türkəm, ərəbcə bilməyim mən,
Gələr həm işvə, naz etmək əlimdən.
Fələklər bax mənim kuyumda oynar,
Saçım tək qıvrılan ayrı nə şey var?!
Əgər könlün ola lap quş, o uçmaz,
Nəfəs lap sübh ola, qəlbi o açmaz.
O Yusif misli yozsan yüz yuxu bərk,
Həmansan sən, haman İsa və eşşək.
O vaxt vurdun bulud tək bircə zərbə,
Vurursan sən qılınc indi cüt əllə.
O vaxt bir deyləm idin, sən şah oldun,
Satıbsan baltanı, bir nizə buldun.
Uzaq dur, könlümə girməzsən əsla,
Tük olsan da, yerin yox tükcə orda.
Güc işlət, hiylə gəl, et kəsbkarlıq,
Yeməz heç kəs yaqin qismətdən artıq.
Əziyyət çəkmə, qışqırma, deyinmə,
Ədəb gözlə sözündə, yəni dinmə.
Halal ye ovçu tərlan tək müdam sən,
Çəkin quzğun kimi murdar yeməkdən.
Mənə hər kəs o üzdən dedi Şirin,
Əlimdən çox oyunlar gəldi şirin.
Acı mey tək biri ağlar əlimdən,
Sevinc bəxş eylərəm bir qeyr üçün mən.
Gülabam mən, acı olsam nə qorxu?!
Acılıqla gülab qiymətli oldu.
Əcəb qafil meyəm, əldən burax sən,
Sən illərlə olarsan məst iyimdən.
Adım şirinlik ilə tapdı şöhrət,
Acı olsa sözüm, olmaz qəbahət.
İki şirin, de bir yerdə olarmı?!
Qabıqsız qoz, o tumsuz xurma varmı?!
Kobudluq etmədim mən kirpilikdən,
O yumşaq altda sərtlik var, bilirsən,
O gövhər daşdadır, xurma tikanda,
Olur həm xəznələr viran məkanda.
Dözümdən, səbrdən əl çəkmə hərgiz,
Elə yox ki, yük altında qal aciz,
Bu acizlik ötərsə həddi ancaq,
Cuhudluqdur bu, heç mümkünmü olmaq.
Dözümlükdən qulaq sallar ulaqlar,
Onu dartıb minər hər dəm uşaqlar.
Əgər şahin uçuşdan qalsa bir dəm,
Yeyər daim təpik bir sərçədən həm.

Qatardan bir dəvə ayrı düşəntək,
Çəkər ovsarını sussa siçan tək.
Çıxarsa hərbə aslanla bir insan,
Yetər bir dəfə diş göstərsə aslan.
O itlər də boğuşsa, tünd olarlar,
Cumub diş göstərib də ayrılarlar.
Dil açdı, bir də and içdi o, sonra
Ki, and olsun o zirək huşa, cana!
O mavi günbədə and olsun, ey şah!
O nurlar çeşməsinə and, ol agah!
O hər bir nəqşə ki, cənnətdə vardır,
Yer üstündə nə söz ki, aşikardır.
O ölməz kimsəyə ki, ölməz əsla,
Oyaq bir zata, yatmaq bilməz əsla!
Ona ki, fitrətə yem verdi nemət,
O verdi ağla can, həm cana qüvvət!
Kəbinsiz şah da olsan, yaxşı anla,
Muradın hasil olmaz məndən əsla.
Dedi sərtliklə, şahdan üz çevirdi,
Tapılmış xəznəni əldən o verdi.

## XOSROVUN QƏSRİ-ŞİRİNDƏN ÜMİDSİZ GERİ DÖNMƏSİ

Xütəndə ahu axşam seyrə getdi,
Tutub mişkin göbəkdən ip düzəltdi.
Ağız südlü haman min körpə ahu,
Yaşıllıqda gəlib rahatca durdu.
Yara almış göbəkdən ahu tək şah,
Eşitdi ahugözdən tənə nagah.
Yağırdı hər tərəfdən hey yağış, qar,
Bahardı sanki, ağlardı buludlar.
Əridir dağı torpaq tək o heybət,
Qalay tökməkdə qəlbə qarda şiddət.
Dirəm saçmaqda qar, at üstdə Pərviz,
Gümüş bir örpək örtmüş sanki Şəbdiz.
Dilində bitdi tük, heç cür bax amma,
Yola gəlmirdi mişkin zülf o rəna.
O çox yalvardı, bəlkə rəhm edər yar,
O yara etmədi heç nalələr kar.
Onun ah-nalsi etdikcə şiddət,
Cavab da sərtləşir, artırdı hiddət.
Gecə zülmət keçirdi, vaxt ötürdü,
Dayanmaqdan daha şah əl götürdü.
Atı ordan sürürdü xəstələr tək,
At üstdə qanlı yaşlar tökdü çox bərk.
Gözü dalda, ürəkdə ağrı, dərd, qəm,
Gedirdi, neyləyir bilmirdi bir dəm.
Nə vardı o ayaq, sürsün atı bərk,
Nə o əl, Şəbdizi etsin o dəm tərk
Yola azuqə olmuşdu axan yaş,
Gülə mirvari bağlardı o, birbaş.
Bu idi arzusu yollarda ancaq,
Quyu kaş rast ola, nola ya bir dağ.

Ola bəlkə bəhanə, ləngiyəm mən,
Bu yerlərdə tutam daimi məskən.
Vururdu əl-ələ bərk-bərk o gah-gah,
Silir dəsmal ilə gah yaşını şah.
Gəlib ta ordugaha çatdı Pərviz,
Günəştək qəlbi yanmaqda ümidsiz.
Yarıldı mavi gülşəndə buludlar,
Səmada nurlu Ay görsəndi aşkar.
Ucaltdı bir çadır şah ərşə doğru,
Onun dörd yanına örtük vuruldu.
Ürəkdən baxmayır dünyaya əsla.
Cırır paltarını qəlbində sevda.
Yox idi fikri olsun bircə rahət,
Dizi üstündə baş qoymuşdu həsrət.
Nədim, hacib, keşikçi, bir də dəstur,
Hamı yatdı, oyaqdı şahla Şapur.
Hünərlər göstərirdi hər dəm ustad,
Sevinclər bəxş edib, söylərdi, ol şad.
Səpirdi odlar üstə bir sərin su,
Gülürdü, bəlkə şaha xeyri oldu.
Təsəlli verdi, Şirin mehribandır,
Acılıq dildədir, sərtlik yalandır.
Görərkən şah yenə Şapurla təkdir,
Dil açdı, dərdini ərz etdi bir-bir.
Bu gün gör başıma dedi nə gəlmiş,
O aləm yandıran gördü necə iş!
Xudadan qorxmadı, keçdi həyadan,
Qadındır, heç nədən qorxmur o insan.
Papaq qoydum önündə narvən tək,
Durub üzr istədim bir sərv tək bərk.
O vurdu narvəni baltayla bol-bol,
O dəhrə sərvdən kəsdi budaq-qol.
Nəvazişlər önündə qaldı buz tək,
Nə yumşaldı ürək, qaldı üzü bərk.
Dili başdan-başa baltaydı, oxdu,
Günahı hər dəm üzründən də çoxdu.
Edər tündlük, bu düzdür, yar ilə yar,
Nə ancaq bir belə sancar tikanlar.
Yəqin həm məndə tündlükdən nişan var,
Mənim də bu bədən mülkümdə can var.
Əgər Babilli Harutsa camalı,
O hindli cadugərsə üzdə xalı,
Buz oldum çox soyuqluq gördüyümdən,
Buza yazdım o iki cadunu mən.
Dözümdən artıq olmuş mən çəkən qəm,
Bu qəm nəymiş, onu mən yaxşı billəm.
Bilər hər pis uşağı dayə doğru,
Bilər pis qonşunu hər nəysə qonşu.
Mənə bir düşmən olmuşdur o, gizlin,
O, üzdən mehriban, gizli edər kin.
Nə xahişlər dünən etdim mən ondan,
Dedi "yox", huşumu aldı başımdan.
Nə xoş sözlər dedim hər qayda, yolla,
Dedim illə, qulaq asmadı ayla.

Gecə gəldi, nə bir nur gördüm ondan,
Məni sındırdı, nə bəxş etdi dərman.
Deyilsə vəsldə duzsuz bu Şirin,
Fələk altda yox ondan dadlı, şirin.
Vüsalı dəyməz olsun xar insan,
Yemək duz heç dəyərmi ta udum qan.
Əgər qalsan da fil tapdağı altda,
Əl açma bir xəsis görsən sən əsla.
Gəzincə bir kömək sən qurbağadan,
Suda xoşdur balıqlar tək boğulsan.
Taparlar pak sudan saf dürr ancaq,
Haman torpaq gəzənlər tapdı torpaq.
Neçin bir xırda daşda mən qazım kan?
Neçin yağsız çıraq üçün verim can?
Elə bir şuxa can verdim, edər naz,
Görüb ancaq kəsək, qarğası qonmaz.
Mənə mən tək gərək namuslu həmdəm,
Olar həmdəm tovuz üçün tovuz həm.
Yeri öpdü o dəm əvvəlcə Şapur,
O sonra atəş üstə səpdi kafur.
Bu tündlükdə nə lazım həddi aşmaq?
Böyüklükdür güzəşt ilə yanaşmaq.
Olar bir şimşək aşiqlərdə qovğa,
Kobudluq naz ilə olmaz bir amma.
Qızışmışdırsa Şirin, üzrü çoxdur,
Şirinlik istiliksiz, bil ki, yoxdur.
Nə tək Şirin, olan hər ağzı xurma,
Deyil bir loğma da çərdəksiz əsla.
Başın hərlənsə Şirin səfrəsindən,
Uzaq dur Şirinin sən halvasından.
Məgər oldu bu səfradan xəbərdar,
Şəkər altında Şirin sirkə saxlar.
Var isə turşuluq, şirinlik amma,
Yoxundursa, burax, sevda və səfra.
Doyantək aslan aslandan, it itdən,
Gözəllər doysa tez, bilmə əcəb sən.
Gözəl zülm etsə, ondan dönmək olmaz,
Edər məşuqələr, bir qaydadır naz.
Olur bədxasiyyət cümlə gözəllər,
Qoxu, ya rəngsiz olmaz bircə dilbər.
Tikansız hansı gül, ya bir çiçək var?
Hanı bir xətt, yara vurmazsa pərgar?
Gözəl dikbaşlığı bir köhnə qayda,
Vurarsa su ilanı, qorxma əsla.
Xilas olmaq diləsən qəm selindən,
Ayaq bir yerdə saxla dağ kimi sən.
Söyüd tək hər küləkdən dalğalansan,
Deyilsən bir samanca dağ da olsan
Olar xoş kama nakamanlıqla yetmək,
Gələr ənbər xam olsa, xoş ətir bərk.
Hücum etmək o Aya olmaz əsla,
Əl atmaq Aya mümkünmü, bir anla.
Qadındır, gəl qapı bağla, dayan bərk,
Düşər bir gün bacandan, gördün Ay tək.





Qadınla. Ayda adətdir haçandan,
Qapı bağla, gələr onda bacandan.
Düşünmə o, bu dərdlərdən uzaqdır,
Dözür ancaq, demə qəmdən iraqdır.
Cəfa dağı başından düşsə bir daş,
Sənin kölgən sınar, ondan gedər baş.
Bu vəhşətdən tikanlar versə dövran,
Keçər səndə ətəkdən, onda candan.
Sən ancaq bir gecə səbr ilə ol yar,
İki canlı gecə gör neylər aşkar.
Bu tale daim olmaz eyni qayda,
Su axmaz eyni yerdən eyni çayda.
Bütün il kama yetməkçün yox imkan,
Olarsan gah əziz, gah xar olarsan.
Edərsə dövlətə bu bəxt bir naz,
O dövlət əhlini incitmək olmaz.
Nə səmtə fırlanıb dövr etsə pərgar,
Gələr ilkin məqama bir də təkrar.
Xam ürgə öyrədən kəs işlər usta,
Onunla davranar səbr ilə asta.
Elə eylər onun səbri həyatda,
Oturdar hər kimi istər o atda.
Olar bənddən xilas səbr ilə adəm,
Açardır səbr hər müşküldə hər dəm.
Açılmışdır çətin olduqca bağlar,
Gülər şam, harda görsən ki, mum ağlar.
Ümidim var, keçər qalmaz bu möhnət,
Yetər tezliklə şah kama nəhayət.
Bu vədəylə o etdi şahı çox °ad,
Pozulmuş könlü şahın oldu abad.
Üzündə qoydu şahın bəxtdən xal,
Keçirdi ulduz, o açdı xeyir fal.

## XOSROVUN ARXASINCA ŞİRİNİN ONUN DÜŞƏRGƏSİNƏ GETMƏSİ

O sözlər sahibi, dünya görən ər,
Vəziyyətdən bu cür söylər xəbərlər.
O şahsız Şirini dərd aldı möhkəm,
Durub daş qəlbinə daş basdı bir dəm.
O məst nərgizlərə kirpiklə vurdu,
Əliylə başına hey döydü, durdu,
Bir ah çəkdi, havanın bağrı yandı.
O ağlar gözlərindən yer sulandı.
Tökürdü kirpiyi gözdən onun qan,
Axırdı qanlı yaş olduqca nalan.
Yarımcan quş kimi hey səndələrdi,
Səmən sarı o nərgiz dürr ələrdi.
Nə bir qəm çəkməyə qəlbində taqət,
Nə toxtaq verməyə qəlbə o qüvvət.
Bu cür taqətsiz o şura gəlirkən,
Utandı tutduğu dikbaş əməldən.
Çəkib tez tapqırını Gülgünün təng,
Həm at Gülgündü, həm gözlərdi gül rəng.

O atla çıxdı qəlbində bir arzu,
Oturmuş ataş üstdə sanki bir su.
Əcəb nazikdi yol sanki o qaşlar,
Qaranlıqdı gecə sanki o saçlar.
O, dar yolla at üstündə gedirdi,
Qaranlıqda o, haqqı yad edirdi.
O dünya ölçən at aləm gəzərkən,
Girov qapmışdı göy çərxin əlindən.
Qulamlar qaydası yol tutdu, getdi,
İz aldı, Şəbdizi o, təqib etdi.
O gəldi harda şah salmış düşərgə,
Atı şah çadırına sürdü o, öncə.
Keşikdə gördü dillər bağlı qalmış,
Nə sərhəng var, həmaillər açılmış.
O mahtabmı verib əfyun bayaqdan,
Olub məst uyğudan, düşmüş ayaqdan.
Onu yordu baxıb nəzzarə etmək,
Bu yerdə bilmədi bir çarə etmək.
Baxıb şah çadırından gördü Şapur,
Gəlir gendən bir atlı xeyli məğrur.
O parlaq aylı axşamda haman dəm,
Yatırtmış Xosrovu əfsunla möhkəm.
Çıxıb Şirin sarı getdi sənətkar,
Qulamlar olmadı bundan xəbərdar.
- Nə insansan – dedi – ey şux pəri sən,
Deyilsənsə pəri, bəs nə gəzirsən?!
Bura şir gəlsə, qalmaz taqət onda,
İlan gəlsə, olar burda qarışqa.
Baxıb gördü bu, Şapurdur o dilbər,
Düşüb Gülgündən o, gəldi bərabər.
Təəccüb qaldı Şapur burda bir dəm,
Yaxın getdi görə kimdir bu adəm.
Görüb Şapur o hüsnü qaldı çaşbaş,
Göyə atdı papaq, əydi yerə baş.
- Nə olmuşdur – dedi – ey nazənin kəs,
Bizə torpağın olsa tutiya bəs!
Pərisima ona göstərdi hörmət,
Qadınlar qaydası ərz etdi diqqət.
Əlindən tutdu, bir səmtə apardı,
Dedi öz sərgüzəştindən – nə vardı,
Danışdı şuxluğu, nadanlığından,
Xəcalət çəkməyi, peşmanlığından.
Deyib əfsanələr, tərs anlamaqdan,
Xoruz tək orda vaxtsız banlamaqdan.
Dedi sonra: - O şah ta çapdı, getdi,
Könül qəmlərdə qaldı, nalə etdi.
Bu işlərdə elə biçarə qaldım.
Səbirdən gen düşüb, avarə qaldım.
Qalıb biçarə, göstərdim mən ərlik.
Zərurət düşsə, eylər ahu şirlik.
Özün bir bəxtə bax: haqq, təqdirindən,
Yaman bir kimsəyə rast olmadım mən.
Bu istəklər düzəldi istəyimcə,
Bu bir düz hökm ilə düz gəldi, məncə.

Səninlə qorxudan çıxdım tamam mən,
Tapar səndən uğur işlər təmamən.
Mənim səndən iki arzum var ancaq,
Rəvadırmı məni biçarə qoymaq?!
Biri məclis qurub şah eyş edəndə,
O "nuş olsun!" səsi ərşə gedəndə,
Məni bir guşədə tənha oturt sən,
Bu sirri bir kəsə amma deməzsən.
Görüm mən Xosrovu keyf eyləyən dəm,
O canlar bəsləyən hüsnə baxım həm.
İkinci xahişimdən həm ol agah,
Kəbinsiz baxmasın mən səmtə heç sah.
Əgər varsa bir iş görmək xəyalın,
Qaranlıqkən giriş ta var macalın.
Əgər yoxdur durub burdan gedim mən,
Dönüm öz qəsrimə artıq bu yerdən.
Nə istər bildi Şapur Şirin ondan,
Yüz and içdi, qəbul etdi o, fərman.
Düşür axura Gülgün sanki Şəbdiz,
Çıxır eyvana Şirin sanki Pərviz.
İki qəsri var idi şahın orda,
Tutulmuş gövhərə sanki Süreyya.
Biri aşkardı mey nuş etmək üçün,
Biri gizlindi gözdən, yatmaq üçün.
Pəriüz dilbəri bir parça nur tək,
Apardı gizli, çadır səmtə tez, tək.
Əlindən tutdu, əyləşdirdi məhrəm,
O gərdəkdə qapı bağlandı möhkəm.
Gəlib şah yanına durdu sevincək,
Dayandı xidmət üçün bir qulam tək,
Gəzib gülşəndə seyr eylərdi bəzən,
Durub şam yandırırdı gah da birdən.
Oyandı uyğudan şah nagahandan,
Deyərdin saçdı Ay nur asimandan.
O öydü Şapuru: - Mən yuxlayarkən,
Oyaq qaldın tamam bəxtin sayaq sən.
Sənin bəxtinlə gördüm xoş bir uyğu,
Uçurdum göydə şadlıqdan, nədir bu!?
Baxıb gördüm böyük bir bağdayam mən,
İşıqlı bir çıraq tapdım o yerdən.
Çıraq nurlar saçırdı sanki bir şam,
Buyur yoz, bir görüm nəymiş bu röyam!
Dil açdı yozmağa röyanı Şapur,
Dedi: - Ondan gözün bir gün tapar nur.
Olar zülmət gecən bir nurlu gündüz,
Dodaq bal sevgilin qarşı gələr düz.
Bu müjdəylə olar xoş mey səfası,
Yeri örtsün o ləlin kimiyası.
Sabah tezdən quraq şahanə məclis,
Çoxillik bir şərab olsun və nərgiz.
Saçarkən tezcə Məşriqdən günəş nur,
Dənizdən toz kimi qalxanda kafur.
Süzək kafur ətir mey cama hər dəm,
Bu dəryadan qaçaq cam ilə biz həm.

Sevincdən şah açıldı lalələr tək,
Yatıb göz yumdu bir nərgiz kimi bərk.
Səhər tezdən Günəş, dövr eyləyərkən,
Cahan Cəmşid libası geydi birdən.
Gəlib məşuq tərəfdən oğru xəlvət,
O, sübhün dilbərindən çaldı ziynət.
Görüb quşlar bu haldan hürkdü dərhal,
Deyərdin oynadırlar sanki xalxal.
Oyandı uyğudan Xosrov haman dəm,
O, axşamkı yuxuyla şaddı möhkəm.
Buyurdu bir də bir çadır qurulsun,
Uca dağlar yanında bir çöp olsun.
Təbillərdən səda ərşə ucaldı,
Yaman göz xəznə tək gizlində qaldı.
Uzun, en altmış-altmış düzəlmiş,
Camaat əl-əlüstə seyrə gəlmiş.
O sərhənglər taxıb şahlıq həmail,
Qapı, dərgah alıb zərrin şəmail.
Papaq bayraqda tellər tək əyilmiş,
Durub səf-səf o deyləmlər düzəlmiş.
Qara qullar tutub dəhlizdə məskən,
Sipahan bağlı qalmışdı həbəşdən.
Həbəş qullar qara, ağ çinli türklər
Gecəylə Ay durub sanki bərabər.
Çəkik gözlər yolu kəsmiş qılıncla,
Səba yol tapmaz ordan keçsə əsla.
Çəkilmiş növbə kəndirlərlə mil-mil,
Çəkirdi növbə bağlanmış filə fil.
O gərdəklər qurulmuş dövrə-dövrə,
Günəşlə Ay üçün bağlıydı çevrə.
Bu gərdəkdə o Çin şahı oturmuş,
O gərdəkdə bu Şirin qəmli durmuş.
Döşənmiş zər xalı şahanə, əlvan,
Alardı xəznə bir yel keçsə ordan.
Alırdı torpağından xəznə hər yel,
Bu imiş "Yel gətirmiş xəznə", düz bil.
Ora yığmışdı carçı kimsə məhrəm,
Edib naməhrəmi ordan kənar həm.
Hüzurunda o şahın yoxdu yad kəs,
Saray əhli, qulamlardı qalan bəs.
Ədəbli bir neçə aqil nədim həm
Oturmuş kürsü üstdə şaha məhrəm.
Qoyulmuş orda qablar çoxlu əlvan,
Bu, zümrüddən, o, yaqutdan noğuldan.
Tutubdur bir xəzinə əldə hər kəs,
Tutulmuş daş-qaşa ənbər, turunc bəs.
Qızılla doldurub ovcu odur şah,
Axır ordan qızıl, sıxdıqda nagah.
Dayanmır əldə cam, saqi süzür mey,
Müğənni dalbadal nəğmə deyir hey!
Oturmuş Barbəd, almışdı bərbət,
Fələk dünya üçün çəkmiş məgər xətt.
Boşaldır cibləri sehr ilə hər dəm,
Səfa bəxş eyləyir qəlbə bir aləm.





Düyün vurmaqda idi qəlb odundan,
O, udla Davudu səslərdi hər an.
Ürək xoş nəğmədən əldən gedirdi,
Nəfəs İsa kimi can bəxş edirdi.
Danışdıqca, haray saldıqca bərk ud
Ürək manqaldı sanki, yandırır ud.
O, sehr ilə saçır əldən şəkərlər,
Gecəquşlar yatır ondan sərasər.
Qulaqburma görüb odlandı bərbət,
Burulmaqdan tutub od, yandı bərbət.
İpək tellərlə mizrab tam bir ecaz,
Götürdü aləmi aləm bir avaz.
Nikisa adlı bir çəngçi var idi,
Əmir, munis nədim, bəxti yar idi.
Bu çəngbel, ərğənun icad edən kəs,
O şirinlikdə avaz görməyib bəs.
Çıxarmış ölçülü avaz o ruddan
Qoyubdur nəğmədə təqti o insan.
Elə şirin çalar çəngi o hər dəm
Ki, quş görsə, salar qəmdən qanad həm.
Havalarda o gözlər ölçü, ahəng,
Görüb Zöhrə durub oynar həmahəng.
Özün həm Zöhrədən artıq tutardı,
Onunla bəhsə cürət kimdə vardı?
O məclisdə od aldı eyş-işrət,
Bu yanda çəng inildər, orda bərbət.
Ötür bərbətlə bir cüt quş kimi çəng,
Qovuşmuş sanki bir tellə o bir rəng.
Tərənnümlər alır başdan xumarı,
Deyir bu döz, alır digər qərarı.
O ahlardan ürəklər parçalandı,
Qulamlar şah ilə dikbaş dolandı.
Buyurdu şah, qulamlar getsin ordan
Çıxır kəklik kimi onlar hüzurdan.
Qalan şah idi, Şapurdu, çalanlar,
Saraydan getdilər artıq qalanlar.
Setarla Barbəd ərz etdi dastan,
O sərxoşlar havası çaldı qəsdən.
Nikisa çəngini dilləndirirdi,
O mizrab ərğənunu dindirirdi.
Edirdi canı şah onlara qurban,
Qapı açmışdı xəznəylə ürək, can.
Bu göy çadırdan olduqda kənar şah,
Çadırlar dilbəri Ay gəldi nagah.
Oturmuş orda bir çadırda bir nur,
Dönürdü başına pərvanə – Şapur.
Dedi bir pərdə küncündən o canan:
- Gətir bir mütrübü, vardırsa imkan.
Bu dərgahda otursun əldə bir çəng,
Mənim hər yanğıma tutsun o, ahəng.
Mənim halım nədir, olsun xəbərdar,
Nəyi mən söyləsəm, etsin o, təkrar.
Nikisanı apardı Şapur onda,
Oturtdu gendə Şirinin yanında.

"Bu məhrəm çadıra baxma – dedi – sən,
Sən ondan şaha layiq nəğmə öyrən!
Bu çadırdan gələn tərzə dürüst qal,
Nə əmr eylərsə sən, ancaq onu çal.
Bu yanda Barbəd bülbül kimi məst,
Nikisa əldə çəng durmuşdu sərbəst.
Yanır ənbərli şamlar nurlu, parlaq,
Bu oddan, tüstüdən cənnət kimi bağ.
Maraqdaydı bu dəm şah ki, çalanlar,
Nə tərz ilə deyərlər dastanlar.
İpək tellər saz üstdə avaz almış,
Qulağından o, çəngin halqa salmış.
Odur bir nəğmə qalxır, pərdələr zil,
Qəzəl çəngin yanında zülfə mail.
Nikisaya deyir Şirin ürəkdən:
"Qəmimdən de, çəkinmə heç nədən sən."

### ŞİRİNİN DİLİNDƏN NİKİSANIN QƏZƏL DEMƏSİ

O Şirin söyləyn qayda Nikisa
Tez etdi bir qəzəl rast üstdə ifa.
"Bir an dur, yatma, ey bəxtin gözü sən,
Görərsən bəlkə də bir bəxt üzü sən.
Ey ümmid sübhü, çıx səbrin dağından,
Könül gün tək işıqlansın qoy ondan.
Beş-üç gün yarım ol, ey bəxt, amandır!
Açar tap, məndən aç bəndi, zamandır!
Bu yerdən qaldır, ey tale, yetər, baş!
Bu gücsüzlük nədir, ondan uzaqlaş!
Hünər, himmətlə əl qaldır, haray sal,
Qoşun çəkmiş kədər, qəm, vur, zəfər çal!
Ciyər yanmaqdadır, qəlbim tamam qan,
Əgər rəhmin var isə, cəld davran!
Nə məntək bir yıxılmış var, zəif var,
Nə mən tək bir hərif vardır fədakar.
Ələ qalxıb su tökmək bilməsəm də,
Bişirrəm mən kabab atəş sinəmdə.
Yararlı olmasam şərbət verim mən,
Gələr açmaq şərab ağzı əlimdən.
Gen olsam da naxış tikməkdən axır,
Üzərrik yandıra billəm mən axır.
Əlimdən gəlməsə bir çin vurum mən,
Bacarram ki, tozu çırpım ətəkdən.
Məni atma yerə sən kölgələr tək,
Yıxıldım yerlərə qəmdən özüm bərk.
Sənin Pərvinin olsun evdə hər dəm,
O, çəksin dərdini bir Zöhrə tək həm.
Sarayında nə xidmət istəsən sən,
Nə şahlıq, bir kənizlik eylərəm mən.
Soruşdun halım arzunla necəymiş,
Bilib, qalxıb soruşmaq daxi nəymiş?
Qərib halı nolar, qəmlərdə qalsa,
O, işdən düşsə, həm min dərdə qalsa!?

O gül tək eşq ilə cırdımsa pərdə,
Bir aləm görməmiş qaldım bu dərdə.
Bu torpaq tək oxa oldum hədəf mən,
Qocaldım lalələr misli cavankən.
Ümidlə aləmi mən badə verdim,
Xəyal ilə əcəb günlər keçirdim.
Nə arxam var, görüm ondan xeyir mən,
Nə bəxtim var, həya etsin qəribdən.
Dedi bir heç nəsizcə qərq olan kəs:
"Ölən hər kəsdə bəxt olsun gərək bəs!"
Murada yetmədim, tapdım tək aram,
Nə etmək, böylədir səndə olan kam.
Mənim kamım düzəlmirsə cahanda,
Budur cəhdim ki, kam al sən zamanda!
Bu yanmaqdan mənə var xeyli fayda,
Kasıblar xeyri tüstüymüş bu qayda.
Sənə hökm eyləmək fikrim yox əsla,
Məni bundan əziz tutsan, nə əmma?

XOSROVUN DİLİNDƏN
BARBƏDİN QƏZƏL DEMƏSİ

Qəzəl bitdi, Nikisa susdu, həm çəng,
Setarla Barbəd oldu həmahəng.
Var idi məst aşiqlik səsində,
Qəzəl başlandı üşşaq pərdəsində.
"Səhər vaxtı içib mey, məst düşdüm,
Bu cür məstanə bir bağa yetişdim.
O bağda bir bahar gördüm al-əlvan,
Qalıbdır qarğa cəngində, tökür qan.
O yüz yarpaq gül üstdə yüz də xar var,
Düşübdür xəznə zindana, hasar var!
Qapı bağlı, hasar içrə o dilbər,
Qıfıl qırmağa can cürətmi eylər?
Pərisima idi, doğmuşdu candan,
Ağacda meyvələr növ-növ, al-əlvan.
Təzə-tər meyvələr gördüm ağacda,
Xumarlıq qaldı seyrindən bu başda.
Pəriüzlü uca bir qəsrə getdi,
Pəri tək qəlbimi divanə etdi.
Ayıqlıqda xəyalımda kədər, qəm,
Pəri olmuş müdam fikrim, düşüncəm.
Əgər yatsam, içim əfsanə söylər,
Pərilərtək məni divanə eylər.
Pəri gəzmək qalıb divanələrdən,
Nə şenlikdən, gəzər viranələrdən.
Pəriüzlü füsunkar xəznələr tək,
Bu viran mülkə bənd olmuş yaman bərk.
Çıxarsam xəznəni viranədən mən,
Edərdim tac üçün bir dürr onu mən.
Qəsəm cadu xumar nərgizə hər dəm,
Olar lal qəmzəsindən cadular həm.
Qəsəm bir zülfə, qalxar tüstülər tək
Yaxar bir tüstü tək odda məni bərk.
Qəsəm qalxan səsə dindikcə xalxal,
Qoca zahiddə qoymaz, görsə bir hal.
Qəsəm mirvari zinətli o məhdə!
Qəsəm mirvari dişlərdə o şəhdə!
O tac üstündə ənbər sürtməsinə!
Saçın şirmayıdə dövr etməsinə!
Qəsəm bac verməyən işvəylə naza!
O nazdan xoş gələn üzrə, niyaza!
Hilal qaş tağına! Xoşdur o surət,
Çəkilmiş sanki fərmanda iki xətt.
Qəsəm ox kirpiyə, birdən toxunsa,
Olar Harut ürəyi parça-parça.
O gözlər ki, məni eylər məzəmmət,
Vurur göz, söyləyir getmə o saət.
O üz ki, yaş tökər gözdən, qəsəmlər!
Tutar nöqsan, ayı görməz o üz tər.
O saçlar ki, uzundur qamətin tək,
Kəmənd olmuş qalançün, eylədim dərk.
İlan zülfə, omuzlarda o hala!
O qıvrımda, qulaqda qılü qala!
O nərgizlər girov nərgizdən almış,
O sünbül sünbülü min dərdə salmış.
Otuz iki o tər lələ qəsəmlər,
Onu yaqut qıfıl cürətlə gözlər.
Qəsəm xidmətdə badamda o sehrə!
O innabın saçan hər lütfə, mehrə!
Ay üstündə quyu olmuş zənəxdan,
Su içmişdir könül daim quyundan.
Buxaq halqana and olsun ürəkdən,
Asılmış bir su zənn et ki, günəşdən.
Qəsəm qoynunda bir cüt cana hər dəm,
O narıncdan alıbdır girdəlik həm.
Gümüş barmaqda fındıq görmüşəm mən,
Tutub qaqumu öldürdü həsəddən.
O ağ, billur biləklər dadlı, göyçək,
Durubdur civə üstündə gümüş tək.
O nazik bel, şüşə əndamı gör sən,
Şüşə yox, yoğrulubdur saf gümüşdən.
Gümüş baldırlarından söz danışsam,
Yuxum gəlməz gecə, qəlb olmaz aram.
Ayaq torpağı artıqdır gözümdən,
Ona and olsun, artıqdır özümdən.
Əlim yetsə, mənə bəxt olsa həmdəm,
Ona mən yer verərdim canda hər dəm.
Əlimdən qoymaram olduqca mən sağ,
Cahana şah, ona ollam qul ancaq."

ŞİRİNİN DİLİNDƏN
NİKİSANIN QƏZƏL DEMƏSİ

Bitirdi Barbəd rudla havanı,
Nikisa çəngi dindirdi nəvanı.
Hisari adlanan bir pərdə vardı,
O, ondan bakirə səslər çıxardı.





"Könül, ey sərv, torpaq oldu, bir sən
Bu torpaq üstə nolar kölgə sərsən?!
Boyun çəkdin nədən mişkin bu ipdən,
Hanı bir boynu bağlı məntək eynən?!
Əgər dikbaşlıq etdimsə əmir tək,
Yenə boynumda bağ gəlləm əsir tək.
Mənim sığmaz evimdə asiman həm,
Bu viranda sığarmı iki aləm?!
Qarışqa evi nə, nə fil ayağı?
Hanı milçəkdə güc simurğ sayağı?!
Quyu görsə, ora enməz səmalar,
Behişt hardan sığar otda, yuvalar?!
O baş ki, dəyməyir olsun o, dərban,
Nisar olsun ona şah taxtı hardan?!
Dünən, baxma, səni cana yetirdim,
Budur bax, başda göz bir can gətirdim.
Yanında xahişə yox məndə cürət,
Kərəm səndən gələ, eylər şəfaət.
Necə üzr istəyim, məndə günah çox,
Bu üzr üçün bəhanə yox, səbəb yox.
Edərdim səcdələr qarşında min yol,
Dinərdi əfv olunmaq təbli bol-bol.
Didərdim torpağı min yol üzümlə,
Silərdim abrı torpaqdan dözümlə.
Üzümlə yumşalar görsən büsatı,
Verər bəxtin bağışlanmaq bəratı.
O şah tale kitabında bu söz var:
O peykin bəxtinə bil Ayı sərdar.
Mən ay tale olan eynən o peykəm,
Ayağım yollar ölçür burda hər dəm.
Coşan qəlbimdə, ey sevdalı dildar,
Sənə ərz etməyə gizlin sözüm var.
Xəbərlər bildirən bir qasidəm mən,
Verim qoy xəznən üçün borc, götür sən.
Dilim xırdaçılıqla etdi bir naz,
Gətirdim tənbeh üçün, keçmək olmaz.
Dilim odlar saçıb ötmüşsə dil-dil,
İki ləl üstünə qoydum, özün bil.
Gözüm türklükdən olmuşsa əgər dar,
O comərd hindli tək üzr istər, ey yar.
Bir ox qoymuş qaşım yayı, çəkib bərk,
Yayın vardır sənin də, ox qoyub çək.
Qaçırmışsa boyun zülfüm əmirdən,
Səbəb vardı, cəza aldı o birdən.
Olub sərxoş bir ox atmışsa qəmzəm,
Ayıqkən torpağın olmuş o sürməm.
Qəmindən zülfümü gördüm pərişan,
Onu zəncirə çəkdim mən peşiman.
Başı məşəl kimi qoydum qapında
Canı bir şam kimi yandırdım onda.
Əgər qurşansa xəttin qana burda,
O tapmaz nöqtə də xətdən kənarda.
Xəyalın görsə hər yöndən məni kəm,
Ətəyindən tutar göz yaşlarım həm.
Əqiqin bundan artıq içsə, bil, qan,
Bu cür dişlər didər onları asan.
O bağım meyvəmi yoxdur dərən kəs,
Qapı peyda, görünməzdir qıfıl bəs.
Əl atsa narıma kim səndən özgə,
Onu məst eyləyər məndən bir işvə.
Sənin şəkkər dodağından savayı,
Bu badamdan alar kim daxi payı?!
Sanıb fındıq bu başa daş da çalsan,
Bu innabım sənindir, hər kim olsan.
Dilərsə püstə hər kəs şəkkərimdən,
Ona güləm o püstə ağzı tək mən.
Turuncumdan kim istər bəhrə görmək,
Tikan üstdə gəzər hər dəm turunc tək.
Kim istər xurma dərsin bu ağacdan,
Görər məndən tikan ancaq o insan.
Əgər məndən umarsa hər kim alma,
Uşaq tək aldadıb verrəm mum alma.
Günəş gəlsin, o Ay gəlsin deyil qəm,
Olar bir tək sənə qismət bu meyvəm."

XOSROVUN DİLİNDƏN
BARBƏDİN QƏZƏL DEMƏSİ

Dedi qissə Nikisa dindirib saz,
Setarla Barbəd qaldırdı avaz.
İraqi bir hava ötdü fələkdən,
Bu pərdəylə dedi, çaldı ürəkdən.
"Duyur yar ətrini, yarəb, dimağım,
Xəyal bir xəznə görmüşdür çırağım.
Axar hansı bir arx ilə bu cür su?!
Nə yeldən bu ətir gəldi, nədir bu?!
(Səhər burdan bir ahu keçdi yoxsa?
Çadırdan nafə asdı, qoydu orda?
Məgər qış çəkdi ondan bir təravət?
Zühür etdi cəhənnəmdən bu cənnət?
Gecə hind oldu, göylər yoxsa Qeysur,
O göylərdən yağan qar oldu kafur?
O Şirin bağına Xosrovmu gəldi?
Təzə bir yaz gəlib yerlərmi güldü?
Məgər Şirində şirinlik boy atdı?
O, Xosrovda təlatümlər oyatdı.
Şəkərlər saçdı Şirində o innab,
O, Xosrov tuti oldu, qaldı bitab.)
Məgər qaldırdı baş bir sərv bağda,
Ucalmaq hökmü tez durdu ayaqda.
Batan vaxtı tovuz rəngli o al Gün
Qanadmı tökdü Cəm gülzarı üçün?
Bacamdan Aymı düşdü yoxsa birdən,
İşıqlandı gecə həm yerbəyerdən?
Məgər cənnət nəsimi əsdi burdan,
Bu şadlıqlar, sevinclər yoxsa hardan?!
Qola qonmuş bir ağ tərlanmı yoxsa,
Gecə gülzarını atmışmı qarğa?

Bizə abi-həyat olmuşmu qismət,
Diriltmiş qəlbi gizlincə, nəhayət?
Məgər bəxtin çırağı yandı möhkəm,
Qanad yandırdı bir pərvanə tək qəm?
O Şirin yoxsa bal saçdı dodaqdan,
Ucaldı qılıqlar hər bucaqdan?
De, ey tale, o dildara ki, ey yar,
O xoş bəxti bizə sən bir də qaytar.
Uzaqdır yaxşılıqdan səndə xislət,
Sözü düz söyləmək-mərdlikdə zinyət!
Əkirkən arpa, biçdim buğda sonda,
Yeritdim arpa, göstərdimsə buğda.
Açıqlandım sənə dikbaşlığımdan.
Budur ram olmuşam, nəymiş gör insan.
Əlin kəsməzlər, olsa oğru hindu,
O, comərddir, əgər olsa həm oğru.
Bu şahlıqda mənim könlüm yox əsla,
Könül dərdim mənim çox-çoxdur amma.
Ürək qəmdən, tökər qan ağlamazmı?
O zalım da məgər qan ağlamazmı?
Bədən qorxur bu hicrandan, nə etsin?
Nə kafir qorxmayır ondan, nə etsin?
Qəm altında bu ruhum oldu tapdaq,
Təpik vurdu nəyim var bəxt-alçaq.
O zülfünsüz ürək getdi əlimdən,
O zülfə bağladım qəlbi nədən mən?
Dodağınla mənim xəlvət işim çox,
Mənim bundan da vacib bir işim yox!
Məni görmək xəyalın varsa xəlvət,
Saqın, gül ver, tikan göstərmə, əlbət!
O mücründə sənin mərhəm var ancaq,
O, qurtarmaz bizə pay versən azcaq.
Pis olmaz öylə bir abi-həyatdan
Zəkat alsa, bu yağma görmüş insan.

ŞİRİNİN DİLİNDƏN
NİKİSANIN QƏZƏL DEMƏSİ

Bu qayda Barbəd çaldı havanı,
Nikisa ərşə qaldırdı nəvanı,
Açıb novruz gülü tək bir gözəl rəng,
Qəzəl söylərdi novruzda tutub çəng.
"Gözüm nur tapdı səndən, ey gül, əhsən!
Olub kuyun mənimçün güllü gülşən.
Xəyalın ruhuma hər yerdə sarvan,
Tozun göz dərdim üçün oldu dərman.
Alır mişk ətrini səndən dımağım,
İşıq tapdı səninlə sübh çırağım.
Gözümsən sən, gözümçün bir çıraqsan,
Çıraq ilə o şəmə nurlu bağsan.
Nə içdin mey, üzün sanki bahardır,
O meydən daim iç ki, xeyri vardır.
Cavanlıq tək camalın oxşayır can,
Cavanlıqla can oynarmı bir insan?

Əgər sən də ələ bir ayna alsan,
Öz eşqindən olarsan məst asan.
O Çin aynasını tulla əlindən,
Nə xüdbinsən, fəqət görsən səni sən,
Neçün ayna tutur əldə hər adəm?
Yeni bir əksə maildir o hər dəm?
Sənə ayna deyildirmi bu göz bəs?
Görünməz səndən özgə onda bir kəs.
Ulu allaha and olsun! Sərasər
Ömür sənsiz acı bir zəhrə bənzər.
Acı olmuş vücudum, hiss edib sən,
Dodaq çeynərsən ud tək yandırarkən.
Ürəksiz bir kəsi qəlbin atıbdır,
Min əhsən rəhminə, rəhmə çatıbdır.
Zəhərlənmiş mənəm, səndə o dərman,
O sən xoşgünlü, mən hər gün nigaran.
Güman etdim əgər bir dərdə düşsəm,
Əlimdən sən tutarsan, çəkmərəm qəm.
Yıxıldım, məst, zaif düşdüm bu gün mən,
Ayağı bəndə saldın, tutdun əldən.
Edib sən dostları xar, öldürürsən,
Bu, comərdlik deyil, yar öldürürsən.
Vurursan köksümə hər dəm tikanlar,
Məni vurma, vurursan, oxşa nolar!
Bu dilsizlər sözü olsun dilində,
Gətir meydana qurşaq var belində.
Yoxumdur heç nə, köç saldım qapında,
Olur bərk üz kişi pis gün tapanda.
Kiməm mən ki, poladdan bir hasardan,
Çıxardım bir çıraq tufanda asan.
Uca əldən sənə heç yetməsəm mən,
Əlaltı bir kəsəm, əmr eyləsən sən.
Əlaltındır bu büt, gəl tökmə sən qan,
Taparmı bütpərəstdən Kəbə nöqsan?!
Camalından uzaq düşdüm bu yolda,
Burax barı edim gendən tamaşa.
Səni mən yad edib ömrü keçirrəm,
Sayıb günlər ümidlər qəlbə verrəm.
Nə xoş gündür, qucaqlarsan məni bərk,
Mənə sən mey verərsən, inləyər çəng.
Gecə naz ilə zülfündən tutam bir,
O sübhün şəmi tək birdən yatam bir.
Gecə mey rəngli ləlindən olam məst,
Yatam tək bir yan üstdə ta qiyamət!
Bu mən, bir də o qarşında baş əymək!
Gücüm yox ayrılıq paltarı geymək.
Daha verdim sənə hər ixtiyarı,
Özün bil, oxşa, ya məhv eylə barı.
Düşüb qarşında ölsəm mən, deyil qəm,
Onu sənsiz həyatdan yaxşı billəm."





XOSROVUN DİLİNDƏN
BARBƏDİN QƏZƏL DEMƏSİ

Dedi nəğmə Nikisa dindirib çəng,
Setarla Barbəd qaldırdı ahəng,
Həzin bir səslə, sanki üzr istər,
Silafanda qəzəl səsləndi əzbər.
"Mənə kuyunda, ey hüsnün çırağı,
Basırmışdır fələk keçi ayağı.
Qoyun tək başımı kəssən əgər sən,
Qaçım qoy kuyuna it tək haman mən.
Aparsan könlümü, xoşdur bu, ey yar!
Ürəksizlikdən artıq nə sənət var.
Bədən dözmürsə dünyada bu dərdə,
Başa yük olmasın qoy qəm bu yerdə,
Əgər çəkmirsə xidmətdən əziyyət,
Nə lazım qəlb əgər etmirsə xidmət.
Çalışdım ki, alım mən qəlbi səndən,
Səninlə getmir iş düz, neyləyim mən?
Nə səndən qəlbi almağa var imkan,
Nə qəlbimdən gedər dərdin çox asan.
O canınçün, yetər, qaldım əlində,
Bu canım qərq olub qanlar selində.
O ceyran ovlayan gözlər, nə gözlər?
O ahundan gözüm hər dəm qəm izlər.
Günəş səmtə gedən bir zərrə tək mən
Ümidsiz haldayam, sən gen düşübsən.
Yanından ayrı düşdüm xəstə, tənha,
Düşüb ayrı balıqla sanki dərya.
Yetər Ay tək buludda vermisən yer,
Bu baş məndən, qılınc çək, ya ki tac ver.
Yeni bir rəy yarandı hüsn elində,
Qoy olsun mərhəmət hökmü əlində.
Bu ömr əlli və ya altmışdır ancaq,
Nədir yüz-yüz düyünlər cana vurmaq?
Bir ömr oldu, gözümdə tutdun aram,
Mən öpdüm torpağından tək bir axşam.
Yəqin bil ki, üzüm gülmüşsə səndən,
Diriltdin bir ölən şəxsi o gün sən.
Yetiş bir donmuşu nurunla parlat,
Dirilt bir ölmüşü busənlə, əl qat.
Nə xoş gündür o gül rüxsarı görmək!
O avazı eşitmək nə mübarək!
İşin tərsi odur gözdən nihansan,
Olur abi-həyat gizlin yamandan.
O allah ki, bu cür xilqət yaratmış,
Bədən, can sahibi surət yaratmış,
Ümidim var, elə etsin üzündən
Gecəm bir gündüz olsun, şad olum mən."
Məharət gördü Şirin Barbəddə,
Çatıb eşqin sözü gördü nə həddə.
Ürəkdən bir hava qaldırdı birdən,
Dedi: - Ey çəng çalan gəl çal bu cür sən:
Elə çal ki, bu şah ayrı yol alsın,

Çəkinsin iddiadan, söz qısalsın.

ŞİRİNİN DİLİNDƏN
NİKİSANIN QƏZƏL DEMƏSİ

Tərənnümdə Nikisa cadu etdi,
Qəzəl də rahəvi üstündə getdi.
"Gəl, ey dilbər, mənə yar ol bu gündə!
Keçib getdi dünən, qalmaz bu gün də!
Gəl aç müşkülləri, biganə qalma!
Ömür-gün tez gedir, astagəl olma!
Yetər hökm eylə yar tək, ta ki şahsan,
Bünövrə daimi qoymur bu dövran.
Bu beş günlük bina, bil, çox da qalmaz,
Bu bərklikdən yapışmaq yaxşı olmaz.
Çox asmışlar qazan, odsuz o qaldı,
Çox aşlar bişdi, itlər qapdı aldı.
Mey içsək yaxşıdır, durma, bu axşam,
Sabah olsa aman, bir də alaq kam.
Ümid vermir sabah üçün bu dövran,
Bu axşam tapsın işlər barı sahman.
Oyunlar çox gecə qurmuş bu dünya,
Nədir sən bilmədin dünya, nə fayda.
Bahanı var bu gün bir bəhrə al sən,
Deyildir hər fəsil novruz, bilirsən.
O gül ki, qoxlamaz görsə bir insan,
Xəzan vaxtı olar yellərlə talan.
O güllərdən gülab istər çəkərlər,
Gülab vaxtı ötər, güllər tökərlər.
Qızıl bir saxsı olsa bir nəzərdə,
Nə qiymətdə mən ollam bəs o yerdə?
O dərya sahibi, sonra bu damla!
Günəş burda, gecə qurdu həm orda.
Gözəllikdə iti bazarsan, ey can!
Pis olmaz, yoxsula, azca yağ atsan.
Bacarsan burda al həm də kasad mal,
Yarar bir gün işə, etmə sən ehmal.
Təmiz mal müştəri toplar, bilirsən,
Olur lazım sınıq-saxlaq da bəzən.
Möhürlənmiş zər üstündür əyarda,
Deyil bir heç o yonqarlar da burda.
Qulaqda eşq halqam var, gəl atma,
Bu eyb ilə məni aldınsa, satma.
Bu ömr ilə cavanlıqla təmənnam:
Həyatdan çox budur, səndən tapım kam.
Desən bir xoş xəbər, bundan sevinnəm,
Çox üz vursan, çıxar əldən olan həm.
Sənin eşqinlə əldən getmişəm mən,
İçib xəlvətdə məst oldum bu üzdən.
Uca, alçaq, əcəb bir kölgəyəm tək,
Ayağından başı yoxdur götürmək.
Başım getsin, bu yoldan dönməyim yox,
Ölüb getsəm də, bir əylənməyim yox!
Yetər həmsöhbətim olmuş xəyalın,

Yetər həsrət məni qoymuş camalın.
Cəfa etdin mənə hər dəm, dedin çək,
Həmişə pərdədəydim nəğmələr tək.
Gətir bir qanlı pərdə ta düşüm mən,
Çıxım şimşək kimi qoy pərdələrdən
Əgər yağdanda yağ bir qaynamazsa,
Çıraq gözdən üzü göstərməz əsla.
Ayaq tozların olmuş gözdə sürməm,
Mən allam busə səndən, həm də dərd, qəm.
İçib mən mey səni durram, yatırram,
Olar xoş məst olum, sən yat, tap aram.
Saçımla zülfünü mən bağlaram bərk,
Sənin eşqinlə gülləm, ağlaram bərk.
Üzük qaşın gəzər köksümdə hər dəm,
Qolunda dəstəyin tutmaz xəbər həm.
Basarsam bağrıma birdən səni mən,
Xəbər tutmaz ipək köynək bu işdən.
Oyunbaz getdi etsin sirri pünhan,
Qalım mən pərdədə neyçün nigaran.
Əlimdən gəlməyən gördün nə iş var,
Çıxar hər bir tikanımdan da gülzar.
İlahi, eylə et qalib çıxım mən,
Mənə bir yaxşı gün qarşı gətir sən."
Bu dilbər beyti ta Xosrov eşitdi,
Cırıb paltarını, ah-nalə etdi.
Dedi fəryad ilə: - Ey Barbəd, dur,
Gedir can, qüvvə ver, güc ver, oyun qur.

## XOSROVUN DİLİNDƏN BABƏDİN QƏZƏL DEMƏSİ

Nikisa yaxdı şahı intizarla,
Su səpdi Barbəd üstə setarla.
Elə xoş bir hava çaldı o ustad,
Nikisa çəngi aciz qaldı, naşad.
Baxıb şahın içindən getdi hər qəm,
Dedi zirəfkən üstdə bir qəzəl həm.
"Bağışla, ey sənəm, bu üzrxahı,
Yüz üzr istər, əgər varsa günahı.
O hökmündən sənin çıxdımsa bir dəm,
Zəhər daddım peşimanlıqla möhkəm.
Nə qəmlər dadmışam, oldum peşiman,
Nə ki, üzr istərəm, keçmiş, o başdan.
Tutaq ki, hər nə etdimsə günahdır,
Gözüm yaşı, görürsən, üzrxahdır.
Günahım varsa, üstündən keç, əfv et,
Oyaq qalmaqlarım istər şəfaət.
Ayağından sənin baş çəkmərəm mən,
Üzüm qalxmaz qapın torpağı üstdən.
Sənə yer verrəm, ey büt, bir gözümdə,
Öpər torpağını digər gözüm də.
Deməzsəm mən sənə candan əgər can,
İtəm, itdən betər, səndən nə pünhan.
Mənə qismət bütün dünyada səndən
Salam idi, onu həm kəsmisən sən.
Salamından qulağımda xəbər yox,
Adın düşmür dilimdən, bir nəzər yox.
Bu hal ilə səsi çıxmır fəğanın,
Soruşsan halımı, olmaz ziyanın.
Sorarsan halımı, müşkül bir arzu,
Gətirdim xatirə, barı yetər bu.
Sənin könlündə yox bir rəhmə gəlmək,
Lap olsun, bilməyir bəxtim düzəlmək.
Səninlə bir günüm yoxdur deyirlər,
Yetər xoş gündəsən sən, bu, bəs eylər.
Sən olsan razı, olsun qəlb viran,
Savabdır dost deyən olsun, var imkan.
"Qəmindən qəmliyəm" göstərdin, ey can,
Demirsən bəs nə imiş dərdin, ey can!
Mənəm aşiq, çəkər aşiq mudam qəm,
Nədir məşuq olanda dərd, qəm həm.
Bacardıqca mənə naz et doyunca,
Çəkim qoy nazını ömrüm boyunca.
Mənə naz et və ya etmə, buyam mən,
Bacardıqca sənin yannam qəmindən.
Sənin eşqinlə mən versəm əgər can,
Yaşa daim, murad al sən həyatdan.
Camalından mənə yox bircə qismət,
O hüsnündən özün yet kama rahət.
Deyil söz daimi, sən qal cahanda,
Qalım mən, qalmayım, qorxum yox onda.
Mənim ömrüm gedib yellərdə gündün,
Sənə gün-gündən olsun yaxşı hər gün!"
Vurub dindirdi rudu Barbəd həm,
Təzə-tər bir hava çaldı, sevinc, qəm.
Sevindi Şirinin qəlbi bu dəm bərk,
Çırağı ağlının od tutdu yağ tək.
Elə ah etdi birdən sərvi-azad,
O fəryad ilə həm şah etdi fəryad.
Yetişdi şaha Şirindən bir avaz,
Ona hay verdi Şirin, oldu dəmsaz.
Necə Şirin düzəltmiş pərdə, ahəng,
Ona uydurdu Xosrov həm hava, rəng.
Necə bir söz deyə dağ ilə bir kəs,
O dağdan həm dönər eynən haman səs,
O yandan sərv nəğmə qaldırırdı,
Bu yandan şah isə köynək cırırdı.
İki aşiq çəkirkən qəmli nalə,
O mütrüblər susub baxdı bu halə.
Dedi Şapura Şirin: - Eylə imdad!
Çadırda şahdan özgə qalmasın yad.
Çadırdan ta ki, səs-küylər eşitdi,
Səbirsiz şah ora üz tutdu, getdi.
Haman dəm gəldi o hüşyar Şapur,
Əlindən tutdu, bildirdi bir az dur.
Lap əldən getsə də, Xosrov susurdu,
Tutan var gördü əldən, cəld oturdu.
Dedi: - Bir söylə bu səslər nə səsdir?





Bu sirri aç mənə, yandım, de, bəsdir.

## ŞİRİNİN ÇADIRDAN ÇIXMASI

Edirkən burda söhbət şah, Şapur,
Görürlər aləmi birdən tutub nur.
Çadırdan tək pərisima çıxanda
Bir Ay çıxdı buluddan sanki onda.
O, məst əyyar kimi göstərdi ülfət,
Edir təzim önündə şahın afət.
Görüb məşuqunu olmuş o, bəndə,
Edir səcdə o da dildar önündə.
Sevincdən şah ona yer verdi başda,
Haman tacı yenə xoş gördü başda.
Ona yar etdisə bir lütf, inayət,
Birə on şah əvəz verdi həqiqət.
Ayaq öpmək işindən qurtarantək,
Dodaqdan istədi şah sonra öpmək.
Onun qəlbi bu istəkdən yanırkən,
Üzü turşutdu Şirin, gördü, birdən.
Əcəb heyrətdə qaldı şah, o, gülrəng,
Nədən şad oldu əvvəl, sonra diltəng.
Pıçıltıyla ona bildirdi Şapur,
Tutulmuşdursa Ay, olmuş o, məzur.
Onunçün ki, o Ay hər dəm, əyandır,
Ömür sürmüş təmiz adla haçandır.
Uzun etsə əli şahım bu minval,
Xəcalətdən qoyar Ay üzdə bir xal.
Bu barlı toxm dərk etdi o sərdar:
Ona peyvəndsiz verməz yəqin bar.
Çox and içdi, könüldən etdi həm əhd,
Kəbinsiz eyləməz vaslə bir an cəhd.
Yığılsınlar böyüklər qoy cahandan,
Kəbin kəsdirsin o, şad olsun ondan.
Fəqət qoy cama mey süzsün o gülgəz,
Bu əldən çünki indi fayda gəlməz.
Olaq biz bir gecə birlikdə qoy şən,
Baxaq dünyaya bir dəm yar üzündən.
Necə əhd etdi Xosrov, gördü Şirin,
Kənar oldu Ay üzdən, getdi Pərvin.
Dodaq dürr ilə qalxıb oldu qəvvas,
O zülfün hər teli olmuşdu rəqqas.
Onun əynində ziynət gəldi rəqsə,
Nə mütrüb dözdü, nə saqi bu bəhsə.
Dodaq mey tək qədəh tutdu dəmadəm,
Baxıb məst oldu ondan saqilər həm.
O Ay mütrüb, Günəş olduqda saqi,
Sevincdən bəs qalar onda nə baqi?
Xumarlıq bilməyirdi ölçü, sərhəd,
Uzaq düşdü ürəkdən əsl məqsəd.
Damaq daddıqca hər cür dadlı ləzzət,
Tamam çıxmışdı yaddan burda şəhvət.
Gözəl surət, ətirlər xoş bir aləm,
Nə səbr etsin sevincdən qəlb bir dəm.
Haman dadlı oyunlar tez sovuşdu,
İki od, su, o su odla qovuşdu.
O sonsuz cazibə, odlu o sevda,
Dəmir maqnitlə cəzb oldu bu qayda.
Yerindəydi fəqət əhd ilə peyman,
Çəkindi, dönmədi onlar vəfadan.
Gətirmişdi ələ dost qəlbini şah,
Sevincdən gül kimi açdı o, gah-gah.
Ovutdu qəlbi göz yaşıyla şam tək.
Düzəltdi Ay üçün Pərvindən örpək.
Gözü kirpiklə tikdi Aya onda,
Məgər yandırdı ud Ay manqalında?!
O sürtür nərgizi bəzən rübəndə,
Salırdı sünbülü bəzən kəməndə.
Gümüş nar üstə əl qoydu o, bəzən,
Əsirdi civə tək gah qəmzələrdən.
Açır qıvrımları bəzən saçından,
Gecə bəzən saçır mişk Aya asan.
Başından gah açırdı qalxıb örpək,
Papaq bəzən qoyurdu bir qulam tək.
Kəmər bağlardı zülfündən o, yarın
Olur ağzında qənd ləli nigarın.
Əliylə oxşayır bəzən dodağı,
Tuturdu alma tək bəzən buxağı.
Biləzik gah çıxardardı qolundan,
Alardı qolbağı bəzən də ondan.
Çıxardırdı ayaqdan gahi xalxal,
Edirdi boynuna halqa o, dərhal.
Yanar bir şam qoyub bəzən qabaqda,
Baxır, min fikr edir öz halı haqda.
Deyir bəzən bədəndə can, o sənsən!
Mənəm bu, söyləyir, dərman, o sənsən!
Yaman bənd etsə də qəlbi dilaram,
Gözəllikdən o, zövq aldı o axşam.
Sevinclər duydular coşduqca şəhvət,
İki məst aslan idilər həqiqət.
Keşikçiydi sədəf bax dürrə hər vaxt,
Ona ta dəyməsin almaz nagah.
O nuş olsun səsindən, bol nişatdan,
O axşam ərğənun çıxmışdı yaddan.
Döhül ta dillənib avaz edirdi,
Bu yalvarmaqda, o, hey naz edirdi.
Bu cür bir həftə onlar oldu dəmsaz,
Biri üzr istədi, etdi biri naz.
Günüz başlardı işrət iki həmdəm,
Sevincsiz, nəşəsiz keçməzdi bir dəm.
Gecə oynar qənaət nərdi onlar,
Zər atmaqla öpüşlər dərdi onlar.
O yeddinci gecə yox daxi taqət,
Dilək divanə, sərməst oldu şəhvət.
Belə əmr etdi şah: - Getsin gecəykən,
O Ay öz bürcünə artıq bu yerdən.
Otursun təmtəraq ilə o dildar,
Kəcavəylə gətirsinlər qoy onlar.





Qoşun verdi, say ulduzlar qədərdi,
Neçəydi say, onu allah bilərdi.
Gümüş sima dönüb daşlarda qaldı,
Gümüşdən sanki bir dünya boşaldı.
Durub Xosrov o yerlərdən köç etdi,
Yenə paytaxta üz tutdu, o getdi.
Gəlib paytaxta, başlatdı o, işrət
O dincəldi, mey içməkdən yox, əlbət.
Nə feyz idi o qaşlar, ya o həmdəm?!
O bəxşişlərlə ziynət tapdı aləm.
Səxavətli olar insan gəlirdən,
Yağışsız kim götürmüş bəhrə yerdən.
Dəniz bəxş etməsə, yağmaz buludlar,
Yağış yoxsa, dəniz hardan olur var?!
Əli boş kimsədən kimsə bac almaz,
Xərac almaq da hər virandan olmaz.
Dedi şah: - Qoy münəccimlər var imkan,
Düşünsünlər, çətin olsun, ya asan,
Qaranlıq bir gecə göz gəzdirib bərk,
Gözəl bir gün desinlər qoy mübarək.
Könül nuru o Ay gəlsin haman gün,
Günəş bürcündə məskən salmaq üçün.
Münəccimlərlə bu müşkül açıldı,
Toy üçün ən gözəl bir gün seçildi.

### XOSROVUN ŞİRİNİ QƏSRDƏN MƏDAİNƏ GƏTİRMƏSİ

O sübhün dilbəri yar oldu bəxtə,
Gəlib əyləşdi şad firuzə təxtə.
Boşaldı köhnə cırmaqdan bu aləm.
Qarı aləm çəkir əl çarədən həm.
Gəlin üçün düzəltdi şah ziynət,
Günəş gördü onu, çəkdi xəcalət.
Qaragöz min dəvə, göyçək, cavan nər,
Sarı xalxal, qızılyunlu sərasər.
Bəzənmiş büsbütün minlərlə köhlən,
Qızıldandır cilov, nallar dəmirdən.
Min ulduzgöz qatır, qıvraq, gecə rəng,
Fələk dövranı onlardan yavaş, ləng.
Yenə min nar məmə dilbər, güləndam,
Üzü hər bütpərəst üçün yanar şam.
Qəba geymiş durur min büt qabaqda,
Qulaqda halqə var, dür var papaqda.
Neçə sandıq xəzinə, çoxlu xalvar,
Yığılmış daş kimi çox ləl, şahvar.
O məfrəşlərdə atlas, zər-nə yoxdu
Sayı be° yüz idi, ondan da çoxdu!
Bəzənmi° on kəcavə bir tovuz tək,
Götürmüş hər biri bir kəklik-ürkək.
Düzəlmiş bir kəcavə zərdən orda,
Ona məxsus düzəlmişdi o, burda.
Gedir Gərrayacan səf Bisütundan,
Qotazlı, tuğlu atlar sanki ümman.
Yerin səthi olurdu nizədən dar,
Yeni rəng aldı bayraqdan səmalar.
At üstündə gözəl türklər, cavanlar,
Qatarla yol gedir təxti-rəvanlar.
Yol üstündə gözəllər qənd saçırdı,
Ay üzdən bal kimi örpək açırdı,
Pəriüz bütlər eylərdi ürək bənd,
Dodaq, xal göstərirlər mişk ilə qənd.
Başın dörd yanına hər sərv bərk-bərk,
İraq tərzində örtmüşdür bir örpək.
At üstündə oturmuş qaziyanə,
Saçı etmişdi mişkin taziyanə.
Düzülmüşdü saça zövq ilə zər, ləl,
O zər ləl üstünə qonmuşdu tər ləl.
Bu qaydayla, cəlal ilə, bu həşmət,
Uzaq olsun yaman gözdən bu şövkət!
Sevinclə, naz ilə yol getdi onlar,
Gözəl Şirini pişvaz etdi onlar.
Səpib yollarda gövhər, xəznə hər dəm,
Gəlirdi naz il axır o həmdəm.
Gəlib çıxdı Mədainə o karvan.
Xəzinəylə yeri şad etdi dövran.
Hər addım ki, atırdı ilk bahar tək,
Şabaş səpdi, dedi Xosrov mübarək.
Dirəmlər səpdi şah, etdi kərəmlər,
Balıq üstdə bitir ondan dirəmlər.
Gəlib Cəm mülkünə çatdı o həmdəm.
Günəş tutdu Həməl bürcündə yer həm.
Deyin mobidlərə gəlsin – dedi şah,
Bəs onlardır bütün işlərdən agah.
O, Şirindən dedi növ-növ hekayət,
Hamı candan ona etdi itaət.
Dedi: - oldum ona candan mən aşiq,
Nə etsəm yaxşılıq, olmuş o, layiq.
Mənimlə mehribandır, tər-təmizdir.
Təmiz ömr eyləyib, candan əzizdir.
O olsa arvadım, olmaz bu yersiz,
Onunla fəxr edim mən, siz nə dersiz?!
O mey xoşdur ki, bir güllə tutar cam,
Tapar hər bir quş öz tayıyla aram.
Öküz olmazsa cüt, qalxıb yer əkməz,
Daşı hardan deşər tək bir öküz bəs?!
Alınlardan qırışlar getdi birdən,
Deyildi afərinlər yerbəyerdən.
Əlindən tutdu Şirinin şah onda,
Çağırdı, mobid əyləşdi yanında.
Qarışdı söz o dinin faydasıyla,
Kəbin kəsdi o mobid qaydasıyla.
Ona xas gəldi məclisdə o canan,
Hərəm səmtə onu göndərdi ordan.

## XOSROVLA ŞİRİNİN EVLƏNMƏSİ

Əgər başlarsa bax bir gül səadət,
Verər bar bir kəs istər o, nəhayət.
Tikərsə bir papaq əvvəlcə iqbal,
Gələr vaxtı, geyər bir şah dərhal.
Tapar bir dür, dalıb dəryaya qəvvas,
O az müddətdə taclara olar xas.
O şərbətdən də şirin oldu Şirin,
Xəbər göndərdi: - Xosrov dəxi gəlsin.
Bu şirin camı al, nuş olsun, iç sən,
Nə var Şirindən özgə, dəxi keç sən.
O, xəlvətcə həya ilə açıb dil,
Xəbər göndərdi, həm bildirdi nisgil:
Bu axşam badə qalsın camda baqi,
Məni həm badə eylə, həm də saqi!
Sevirsən Şirini, get, camı tulla,
İki sərxoşluq olmaz bir noğulla.
Kişi sərxoş, başı tüstüylə dolsa,
Nə ətdəndir kabab bilməz, nə olsa.
Yenə bir gün murad əl versə birdən,
Durub sərxoş deyər ki, məst idim mən.
Əgər sərxoş ala yüz bikrdən kam,
Ayıldıqda deyər hüşyar içib cam.
Olub çox məst, açıb öz qıfılını şad,
Ayılmış, oğrudan etmiş o, fəryad.
Əcəm şahı bu sözlərdən sevindi,
Dedi: - Fərman səninndir, ey büt, indi.
Şərab içmək günüydü onda ancaq,
Xoş olmazdı qəm ilə ortaq olmaq.
Nikisa, Barbəd, xoş nəğmə, xoş səs,
Necə Zöhrə o göydən səcdə etməz?!
Deyirdi nəğmə ilə rud: - Saqi,
Gətir camı, qoy olsun eyş baqi!
Deyir cam içrə mey: - Ey Barbəd, çal!
Bu il gülsün bizə xoş tale, iqbal!
O şah Şirinin eşqiylə içir mey,
Qədəh düşmürdü ağzından onun hey.
O, şad idi, piyaləylə mey içdi,
Bu qaydayla gecə ta gəldi, keçdi.
Zaman gəldi, ola asudə, həm şad,
Gedib yar ilə yar olsun o damad.
Elə məst oldu, huşu başdan oldu,
Çiyinlərdə daşındı, sanki çuldu.
Görür Şirin ki, Xosrov sərxoş olmuş,
Elə sərxoş ki, onda qalmayıb huş.
O, şahdan onda gizlətdi camalı,
Ona tay eylədi bir mahcamalı.
Zərafət eylədi Xosrovla dildar,
Edərlər sərxoş ilə böylə rəftar.
Ana söylərdi, şux bir qarı vardı,
Anasından ona bir yadigardı.
Qoca qurd idi, bilməz qorxu-ülkü,
Cavan qurd yox, qocalmış yaşlı tülkü.
İki əmcək suyu axmış tuluqdu,
Bədəndə, dizdə taqət, tabı yoxdu.
Əyilmişdi beli əyri kaman tək,
Çiyin, sinə olub bir gön kimi bərk.
İki üz hind qozu olmuş qınşdan,
Hər üz bir şişə zəhr idi pərişan.
Büzüşmüşdür dodaq, ağzı, nə sirdir,
O, genlikdə deyərdin bir qəbirdir.
Dodaqda qaş tükü məskən salıbdır,
Ağız ondan əziyyətdə qalıbdır.
Burun yox, üzdə bir çadır qurulmuş,
Dişi zirnix idi sanki qırılmış.
Bərəlmiş göz, tamam kirpik tökülmüş,
Qalıb işlərdən əl, dişlər sökülmüş.
O Ay qəsdən ona vermişdi ziynət,
Gəlin tək şaha göndərmişdi rahət.
Edirdi imtahan məsti o canan,
Seçirmi ayı görsün o, buluddan.
Qarı ta pərdədən çıxdı göründü,
İlan misli ov ardınca süründü.
Demə candan ki, onda can yox idi,
Demə dişdən, nişan ondan yox idi.
Elə məst idi, yox idrak nişanı,
Göründü asiman tək risimanı.
Əgər olsaydı huşu fərq edərdi,
Bahar kəkliyi bundan xoş gedərdi.
Kaman qaşa kiriş saldı o asan,
Elə zənn etdi yıxmış yağlı ceyran.
Bir ov yıxmışdı, olmazdı o çöp həm,
Bu cür yüz qurd olar bir tülküdən kəm.
Əvəz etmişdi bir qarğa humanı,
Ayın taxtında gördü əjdahanı.
Dedi qəlbində : - Nə əjdər pərəstəm,
Xəyaldır bu, yuxu, yoxsa ki, məstəm.
Deyil Şirin bu donqar bel zəhər, düz,
Nə Şirini, məni öldürdü turş üz.
Xumarlıq divi üstün gəldi sonra,
Güman etdi qarı Şirindir onda.
Xumarlıqdan ona birdən əl atdı,
O cam düşdü, şüşə səs-küy qopartdı.
Haray saldı, yaman cəhd etdi arvad,
Mən öldüm, gəl, anan canı, bir imdad!
Haray çəkdi, bunu Şirin eşitdi,
Gedib fəryada yetsin, qət etdi.
O yeddi pərdədən olduqda aşkar,
Göründü cilvələnmiş nazlı dildar.
Deyimmi bir şəkər, yox, yox, nə şəkkər!
Nabat olmuş qulaqda halqa çakər.
Qəsəb örtsəydi Ay, zənn eylə Aydır,
Ola sərvin balı, sərv ilə taydır.
Ola Ay, Gün o hüsnə tay hardan?!
O güldür ki, yüz artıqdır bahardan.
O bir bütdü, ona səcdə halaldı,
O nəğd cənnət idi, gül camaldı.





Cahana nur saçan dilbər, nə dilbər!
O, xərmənlərlə gül, xalvarla şəkkər!
Çiçəklənmiş ağaclar bir bahardır,
Ona həmdən kim olsa, bəxtiyardır.
Üzündən Müştəri qalmış xəcalət,
Qədəm basdıqca kəklik qaldı həsrət.
O xalından görüb göz getdi haldan,
Görüb xoş nəqşini getmişdi faldan.
O mişkin xalları çəkdikcə arpa,
O mizan çəkdi daş, gah arpa orda.
Dodaq, diş eşqdənmi xəlq edilmiş,
Nə diş görmüş dodaq, həm nə dodaq diş.
Üzü yüngül nəfəs bağdan nəsimdi,
Həm ağzı nöqteyi-mövhumda mimdi.
Qulaq, boynunda oynar ləl, mərcan,
Sənə cövhər satan, rəhmət xudadan!
Əqiqi "mimə" bənzər əldə daş var.
Desə bir söz deyir barmaq qoyarlar.
Nəsimi qiyməti canla bərabər,
Odur zülfü olub mizan sərasər.
Çəkib mişkin kəmənd Ay çevrəsinə,
Çıraq tutmuş üzərlik tüstüsünə,
Çalıb Türküstanın qəlbini nazı,
Ləbi Xuzistanın dəxlini azı.
Üzü tər-təzə güllər tək alır can,
Gülab tər tökdü gördükdə həyadan.
Bədən qaqum kimi incə, zərif, ağ,
O qaqum quyruğuydu sanki barmaq.
Qarışmış süd, şəkər nazik bədəndə,
Təbaşir, süd kimi ağdı bədən də.
Təravətdən bədən qalxıb gedirdi,
O zülflər quş kimi pərvaz edirdi.
Qaşın tağıyla birləşmiş qulağı,
Çəkilmiş boynuna sarı buxağı.
Boyun, sinə vurub talan edər can,
Xumar gözlər buraxmaz bircə karvan.
O, xatirdən qəmi meytək qovar, həm
Müfərrəh tək edər şad qəlbi hər dəm.
O, gül, şəkkər! Nə imiş gül, nə şəkkər?!
O bənzər bir ona, allahü əkbər.
Görüb dildarı Xosrov yandı, yandı,
Yeni Ay gördü, div görmüş oyandı.
Yeni Ay onda heyrətlər oyatdı.
O məstliklə pərisimayla yatdı.
Səhər vaxtı durarkən şah yerdən,
Tikansız gülləri gördü o, birdən.
Gözəl bir büt görüb oldu o, həmdəm,
Hazırdı təndiri, yapdı çörək həm.
Acı mey bir də oldu dostu, yarı,
O Şirin busəsi pozdu xumarı.
Şərab içməkdə idi al qədəhdən,
Açılmışdı yanında güllü xərmən.
Sarılmış boynuna mişkin hörüklər,
Gümüş nar durmuş almayla bərabər.

Bənövşə, lalə eylərdi münacat,
Şəkər söylər: - Gecikmək nə bu, heyhat!
Üzündən o Ayın qalxdı buludlar,
De, bundan sonra şahda nə səbir var!
Gözəl üz görsə, əql eylərmi tabı
Qoyar Manini məst türkün şərabı.
Gəlib Xuzistana bir xacə sərxoş,
Nabat qapdı, o həm qənd qırdı xoş-xoş.
Gəlib burda o, əvvəl dərdi güllər,
O güldən güldü güllərlə bərabər.
Bir azdan eşqin avazı ucaldı,
Təzə-tər meyvələrdən dəvət aldı.
Noğul etdi səməndən, almalardan.
Oyun başlandı o nərgizlə nardan.
Uçub getdi o ağ tərlan əlindən,
Oturdu qırqovul köksündə bəzən.
Sevinclər göylərə gah yüksəlirdi,
Göyərçin şahinə üstün gəlirdi.
Dişi ceyran savaş eylərdi şirlə,
Ona şir gəldi qalib bir səbirlə.
Əcəbdir, xəznədar bəs harda qaldı?
O, yaqutla əqiqdən möhrü aldı.
Hasar gördü o, üstündə qıfıl var,
Odur abi-həyat başı möhürdar.
Nə məzlumdan ayaq səsi eşitmiş,
Nə bir zalım əli bir zülm etmiş.
Qovuşmuş qönçə ilə oxda peykan,
Deşirdi ləli peykanla o tərlan.
Gecəylə şah məgər Xızr idi, zülmət,
Balıq abi-həyatdan tapdı qüvvət.
O, dost tək əl çalır, şadlıq qururdu,
Dəbir tək birlə altı on vururdu.
Deməzdim ki, hədəfdə oldu bir ox,
Gəzirdi xurma süddə, bir sümük yox.
Dolanmış bel-belə olmuşdu çənbər,
Tamam can cana çatmışdır sərasər.
Damırdı gül suyu bir cam içində,
Ərinmişdir şəkər badam içində.
Sədəf mərcan budaqda yurd qurdu,
Su, ataş əhd edib bir yerdə durdu.
Su, ataş birləşib bir rəng oldu,
Yataq civəylə, al rəng ilə doldu.
O gün yatmaq işindən keçdi onlar,
Tutub mirvari, yaqut deşdi onlar.
Yatırlar özgə gün hüşsuz yataqda,
Bənövşə qolda, o nərgiz qucaqda.
Yatır bir yerdə onlar cüt tovuz tək,
Olur yatmış tovuz, əlhəqq, göyçək.
Durarkən uyğudan onlar obaşdan,
Xuda üçün dua başlandı başdan.
Su ilə cismi pak etmək arandı,
İbadətxanada sahman yarandı.
Bir ay düz getmədi əldən hənə, rəng,
Bir ay çəkdi o toyla bağlı ahəng.





Humeyla, həm Səməntürk, həm Humayun
Hənə qoymuş əli etmişdi gülgün.
Gəlib xəlvətdə bir gün şah oturdu,
Gözəllərlə yeni məclis o qurdu.
Verib şah onlara layiq bəzəklər,
San zər verdi, həm al rəngli gövhər.
Humayun Şapur üçün oldu sovqat,
Yemişdi xurma, bal gördü mükafat.
Səməntürkü edirkən Barbəd yar,
Humeylanı Nikisa etdi dildar.
(Xütənxatunda vardı əql, hikmət,
Büzürgümmid üçün oldu o, övrət.)
Bir az sonra yazıb fərman gətirdi,
Şəmira mülkünü Şapura verdi.
Olanda Şapura qismət o dövlət,
O tikdirdi o yerdə çox imarət.
Dezaqna, yaxşı bax, hər dəm saçır nur,
Deyirlər ki, onu tikdirdi Şapur.
O gündən sonra Xosrov xürrəm idi,
Onun kamıyla tale həmdəm idi.
Cavandı, kamrandı, hökmdardı,
Bu üçdən qeyri istənsə nə vardı?!
Bütün gün musiqi, mey, eyşü işrət,
Yeyir dünyanı, çəkmirdi o, həsrət.
Hamı istər ona xoş keçsin aləm,
Nə lazım aləm üçün biz çəkək qəm!?
O, dünya bəxş edir, dünya yeyirdi,
Çox illər eyşini xərc eyləyirdi.
Bir az sonra onu tərk etdi qəflət,
Hədər keçmişlərə çəkdi xəcalət.
Gözətçi qoydu ta ki üzdə saqqal,
Cavanlıq durdu gözdən getdi dərhal,
Ədəmdən varlığa tükcə ümid var,
O ağ tüklər səni eylər xəbərdar.
Qara saçlarda ağ tüklər görünsə,
Ümidsizlik gəlir, hər nə bürünsə.
Yuxu yatdıqca hər dəm yasəmənlər,
Bənövşə zülfə verdi xeyli ziyvər.
İşıqlar saçmasa parlaq səhərlər,
Gecə ancaq qaranlıqlar görərlər.
Əgər ceyran tutan bir tazı olsa,
Tutar ceyran onu birdən qocalsa.
Çəkilməz xoş hava bir xeyli bağdan,
Yaşıllıq ta xəcalət çəkməz ağdan.
Yaşıllıq üstünə qar səpsə kafur,
Soyuq yeldən olar həm bağ məzur.
Əgər türkün oxu gen düşsə yaydan,
Qoca mütrüblə köhnəlmiş o dəf san.
Əgər ağ rəng alarsa sarı buğda,
Bir il qalsa acı tam etdi peyda.
Yuyulmaqla ağarsa təzə paltar,
Onu qayçıyla durmaz, dərzi doğrar.
Buxar qalxıb aşıb-daşsa qazandan,
Dolar mətbəx kül ilə mütləq ondan.

Qara rəng aldısa mətbəxdə bir kəs,
Dəyirman var də qarşında odur bəs.
Əgər mətbəxdə adlandınsa ənbər,
Dəyirman tez səni bax kafur eylər.
Dəyirmanda bir az qalsan, toz olsan,
Ətək çırpsan, gedər tozlar çox asan.
Kimə toz qondurarsa bu dəyirman,
Onu pak eyləməz yüzlərlə ümman.
Nədir, söylə, cavanlıq? Başda sevda!
O sevdadan olur hasil təmənna.
Qocalmaq mülkə hakim gəlsə birdən,
Gedər sevda başından yerbəyerdən.
Dedi bir gənc bir pirə: - Nə tədbir
Ki, yarım qaçmasın olduqda mən pir?
Cavab verdi qoca, fikr etdi izhar,
Qocalsan, sən qaçarsan yardan, ey yar.
Başa yağdırsa göylər civə hər dəm,
Qaçar bütlərdən o, bir civə tək həm.
Qara saçlar qovar dərdi cavandan,
Qara insanda göz qəm gördü hardan?
Görüb zənci o qəm döndərdi bayraq,
Nədir qəm bilməyir bir zənci heç vaxt.
Göz üçün tutiya olmuş qara rəng,
O, Hindistan yolunda gözlər ahəng.
Qocalmaq gəldi başdan, yatma, ey baş!
Gəlib sübh ordusu yerləşdi birbaş.
Kəfən geymiş o pambıqdan qulaqlar,
Çıxarmaqçün onu ordan nə güc var!?
Bənövşə içrə tapdı yasəmən şah
Tutur yas mən qoca üçün cavan, ah!
Gözəl əhd olmağa etmişdi adət,
Cahan bədəhd idi, eylərdi xiffət.
O, nərd oynardı, altında qızıl taxt,
Minib Şəbdizi çöllər gəzdi çox vaxt.
O, qənd, bal daddı bəzən Barbəddən,
Oturdu qol-boyun Şirinlə bəzən.
O taxt, həm Barbəd, Şirin və Şəbdiz
Bu dörd ilə olurdu şad Pərviz.
Haman röyanı etdi dəxi bir yad,
O abad könlünü etdi o, bərbad.
Bu torpaqdan, sudan qalxan nə varsa,
Olar viran, bilirdi Xosrov əla!
Yeni Ay nur saçar bədr olsa hər dəm,
O bədr olsa, dönər nöqsan tapar həm.
Ağacda meyvə kal olduqca artar,
Yetişdikdə düşər torpağa hər bar.

## ŞİRİNİN XOSROVU ELMƏ RƏĞBƏTLƏNDİRMƏSİ

Yenə Şirinlə şah qurmuşdu işrət,
Ədalətdən, bilikdən düşdü söhbət.
Dedi təzim edib Şirin ki, ey şah,
Keç işrətdən, bilikdən də ol agah.

Sevinclərlə sürübsən xeyli dövran,
Pis olmaz bir könül kamınca olsan.
Edibsən aləmi nemətlə abad,
Rəvamı zülm ilə olsun o, bərbad.
Sən əvvəl süd verib sağmal inəktək,
Yararmı bir təpiklə sonra tökmək?!
Çəkin ondan ki, xəlvətdən bir insan
Desin bir bəd dua həm nagahandan.
Qocalmış bir qarı tər bir nəfəslə,
Bir ox vursun sənə qəmli o səslə.
Xeyir verməz o vaxt bir nalə, fəryad,
Olar nifrinlə mülkün dəxi bərbad.
Nə çoxdur aynalar şahlar əlində!
Qaralmışdır haman nifrin yelində.
Əgər döndərsə üz tale bu yolda,
Nə iş görsən, xeyir verməz, nə fayda!?
O yarpaq bağda qüvvətdən düşüncə,
Payız yellər xəbərlər bilmiş öncə.
İraq bizdən, sönərkən bir çıraq həm,
Basarlar dağ gözü üstdən haman dəm.
Haçan sellər tökər ərşin qaşından,
Çəkər nərə bulud dağlar başından.
Dolu döysə, yatar kişmişliləklər,
Dolar keşniş qoxusuyla fələklər.
Ağac yerdən çıxarsa əvvəl ayri,
Düzəlməz yanmasa odda, nə xeyri?!
Yetər dünyanı zülm ilə bu yaxmaq!
Nəvazişlə nə xoşdur xalqa baxmaq!
Budur qorxum, düz olsun bu məsəl bəs,
Desin kim ki, onu sevmirdi bir kəs.
Uzun müddət qalarsa köhnə dövlət,
Onun fikrində olmaz heç rəiyyət.
Görər yoxdur ona bir tay, bərabər,
Bilər dünyanı öz mülkü sərasər.
Qürurdan beyninə hər dəm dolar naz,
Rəiyyət qayğısı fikrində olmaz.
Gələr nagah yeni bir bəxtli birdən,
Alar xalqı o zalım bixəbərdən.
Olar xalq ilə rəftarı xeyirxah,
Tamam xalqa olar istəkli bir şah.
Bu ağlın, şahlığın vardır sənin də,
Səninlə ağ, qara durmuş yerində.
Axır gün var, nicata çarə axtar,
Bu yerdən getmək üçün ol xəbərdar.
Qarışdırsa qızılla dürrü hər kəs,
Qiyamət tədbiri hardan görər bəs?!
Haman səndən qabaq şahlar ki, vardı,
Bilirsənmi bu mülkdən nə apardı?!
Malın qalsa, gələr bədxahlıq ondan,
Olar bəxş eyləsən yollarda darğan.
Oxu Dara ilə Cəmşid nə oldu,
Günəş qurdu oyun, onlar yoruldu.
Bu doqquz pərdədə səy et, dürüst çal,
Bu gizli sirləri dərk eylə, dərs al.

Görür Xosrov ki, istər mehriban yar,
Biliklə yaxşı ad tapsın o sərdar.
Büzürgümmidi etdi şah dəvət,
Oturtdu qarşısında, etdi hörmət.
Dedi: - Ey xalqa ümmid, kamil ustad,
Məni ümmidə çatdır, eylə bir şad.
Düşüncəm qarmaşıq, könlüm pərişan,
Yığılmır bir yerə fikrim, nigaran.
Düşüncəmdə mənim bir çox fikir var,
Əzizdirlər bilənlər üçün onlar.
(Mənə məlum deyildir burda çox sir,
O gizlinlər mənə məlum deyildir.
Cavab verdi ona sözlə o ustad,
Nə bilsəm söylərəm, ol sən könül şad.
Cahan şahı soruşdu ondan əvvəl,
Bu sirri kəşf elə öncə görüm gəl.)
Nədir ilk tərpəniş, ondan danış bir,
Bilən insan yanında bu əzizdir.
Büzürgümmid dedi: - Kənddən qovulduq,
O ilkin pərdədən biz xaric olduq.
O ilkin nəysə ilkin bilmiş ancaq,
Qalanlardan nədir doğru söz almaq.
Soruşdu bir daha ondan cahandar
Ki, beynimdə əcaib çox fikir var.
Nədir əvvəl fələklər bir xəbər ver,
İçi canlı, kənarda kim tutub yer?
Cavab verdi: - Xəyal ardınca getmə,
Uzaqlardan bacardıqca söz etmə.
Bu günbəddən kənar hər nə hesab var,
Bir allahdır olan ondan xəbərdar.
Bu yerdə hər nə daim get-gəl eylər,
Onun haqqında insan fikr söylər.
Görünmürsə gözə bir dürlü surət,
Kim ondan söhbətə eylər cəsarət.
Deyər çox sirri asta aqil insan,
Edərlər bağlı söhbət asimandan.
Qapı açmaz fələk insana əsla,
Bir aqil nəql edir sanki müəmma.
Dedi bir də: - Bu ulduz cirmi, söylə,
Nə üstündə dayanmış, agah eylə.
Eşitdim mən, hər ulduz bir cahandır,
Özü bir ayrı yerdir, asimandır.
Cavab verdi: - Bunu biz də eşitdik,
Onu düz görmədik biz, şübhə etdik.
Araşdırdıq görək düzmü xəyaldır,
Rəsəd göstərdi bu mənə mahaldır.
Dedi: - Neyçün bura gəldik, danış sən,
Hara üz tutmuşuq, gəldik nə yerdən?
Cavab verdi: -Açılmazdır bu əsrar,
Qoy olsun pərdədə burda nə sir var.
Uzaqdır yol bu yerdən, yox nişan, iz,
Nə bilik mənzili yol getməmiş biz.
Bu yol kəsmişləri rədd et, çalış sən,
Bilərsən onda hardansan və kimsən.





Dedi: - Sən bilməyən yoxdur bir əsrar,
Hər işdən burda bir sənsən xəbərdar.
Yatıb dostlar, çıxarmır səs-səmirlər,
Nə görmüş uyğuda qalxıb demirlər.
Deyirlər ki, nəyin var tez götür gəl
Demir bir kəs bu cür getdik, bu cür gəl.
Cavab verdi o gizlinlər bilən kəs:
- O aləm nəqdidir bu aləmin bəs.
Uyuşmaz heç bu nəğməylə haman saz,
Müxalif səslənir qaldırsan avaz.
Üfürsən bir odu sən, güclənər od,
Odu bassan suya, tezcə sönər od.
O xoş taleli şah meyl etdi çox bərk,
Əcaib bir sual bildirdi zirək:
- Yeyirsə bir qəlib tək canı dünya,
Bizi hardan tapır can, gəlsə roya?
Can ayrıldı bədəndən, qaldı burda,
Məkan tutmuş bu canlar indi harda?
Cavab verdi: - Bu, müşkül bir sualdır,
Cəsədsiz can xəyal etmək mahaldır.
Bədənsiz candan olmaz söz danışmaq,
Olar hər tərpəniş pərgarla ancaq.
Bədən pərgarını tərk etsə canlar,
Fələk dövranına olmuş o, pərgar.
Dedi bir də: - Həyatdan cansa hasil,
Olursa can-bədən birlikdə batil,
O nəqşə bəs nədir röya zamanı?
O nəqşin kimdir, anlat, saxlayanı?
Cavab verdi: -Buna vardır şəhadət,
Xəyal olmuş var ondan səndə maddət.
Yuxu ilə fikir olsa xiridar,
Olar canlar haman maddətdə aşkar.
Dedi bir də: - Həyat qurtarsa sonra,
Gələrmi xatirə bir də bu dünya?
Cavab verdi o, ustadlar sayağı,
Dedi: - Ey aləmin parlaq çırağı,
O nursan dostun olmazdan bu torpaq,
Fələk damında tutmuşdun yer ancaq.
Soruşsaq bir nişan söylə o yerdən,
Sənin yox xatirində heç nə, bax sən.
Bu qəmlər yurdunu həm tərk edəndə,
Yadında heç nə qalmaz sən gedəndə.
Nə olmuşdur dünən, yad etmir insan,
Bu axşamı çıxardar həm də yaddan.
Soruşdu bir də: - Ey xoş tale ustad,
Təfəkkür nəymiş insanda, bir anlat?
Cavab verdi əcaib sanki bir dür:
- Soruşdun nəymiş insanda təfəkkür?
Təfəkkür tanrı üçün bir münacat,
Odur bir yalvarış, vardırsa hacat.
Dedi Xosrov: - De çərxin gərdişindən,
Bu torpaqla havanın, de, işindən.
Cavab verdi: - Eşit məndən nəsihət,
Nədir yerdən, havadan, burda söhbət?

Hava yeldir, əsər yeldən o, hər dəm,
Bu yer torpaq, o dəyməz torpağa həm.
Cahanın ilk olub övladı yer həm,
Yer üçün son beşik olmuşdur Adəm.
Dedi Xosrov: - Ağıl mülkündə ey tək!
Mənə sən bir nəsihət ver həkim tək!
Cavab verdi: - Özün incə görənsən,
Canın dünyası, xilqət canısan sən.
Tamam bir sözdə gizlənmiş təbabət,
Xuda xalqa demiş nəymiş bu hikmət.
Bu dünyada nə istərsən ye, iç sən,
Ziyan eylər yesən az, çox, həm içsən.
Çalış çoxdan, həm azdan keç, əbəsdir,
Həmişə orta həd gözlə, o, bəsdir.
İki zirək eşitdim bir diyarda,
Çatır bir çeşməyə bir vaxt orda.
Biri az içdi ki, cana ziyandır,
Biri çox içdi ki, sanki o, candır.
Ədalət həddinə yol varkən asan,
Bu, azlıqdan, o, çoxluqdan verir can.
Dedi Xosrov yenə:- Canlar bu halla
Yuvasından uçur, anlat nə yolla?
Cavab verdi: - Nə gördüm yol, nə getdim,
Deyim ancaq sənə hər nə eşitdim.
Eşitdim, dörd mobid varmış aqil,
Onun hər dördü candan bağlı, kamil,
Bu müşküldə qalırlar qilü qalla;
Bədəndən can gedir burda nə yolla?
Biri söylər ki, sanki yatmış insan,
Düşür dəryaya gördükdə burulğan.
Sulardan çıxmaq istər, cəhd eylər,
Fəqət bir fayda vermir burda səylər.
Oyanmış narahat bir halda qorxaq,
O, zənn eylər qara basmışdır ancaq.
İkinci bənzədir bir qəsrə, birdən
Çəkir ərşə onu tanrı bu yerdən.
Düşür qəsrin kənarından bir insan,
Tutur tez qüllədən can qorxusundan.
Atır əl-qol belə çəkdikcə zillət,
Yıxılsa anlayır çoxdur müsibət.
Necə süst olsa əl, eylər nə var dərk,
Yapışmış qüllədən dörd əlli bərk-bərk.
Gəlir axırda gücsüzlük bu qayda,
Düşür həm qüllə, həm Adəm, nə fayda!?
Üçüncü söyləyir bir qeyri dastan,
Haman qurddan, sürü ilə çobandan.
Qapır qurd bir qoyun bir gün yavaşdan,
Çoban dönmür o qurd ilə savaşdan.
Çəkir bir səmtə qurd, istər aparsın,
Çoban dartır, onu qurddan qoparsın.
O qurd güclüydü iş bilməkdə ondan,
Çobansa xirqə qoy tapsın zamandan.
Deyir dördüncü mobid ayrı dastan:
- Dayanmış naz otağında bir insan.

Qucağında bir ay tək nazlı yar var,
Fəqət divanədir gördü o dildar.
Nə güc var hüsnünü yaddan çıxarsın,
Nə imkan var dəli ilə bacarsın.
Axır divanəlik şiddət edirkən,
Kişi ceyran kimi qaçdı o şirdən.
Bu qayğıyla edildi xeyli söhbət,
Vərəqsiz söz deyildi, oldu qeybət.
Dedi onlar ölərkən burda, heyhat,
Oyundan gör necə gen düşdü şahmat.
Öləndən hər yetən əfsanə söylər,
Öləndən ölməyən kimsə nə söylər.
Əmin kəslər əgər peyğəmbər isə,
Deməz naməhrəmə onlar nə görsə.
Gəlib məsumlara çatdı hekayət,
Dedi şah: - Sən rəsuldan eylə söhbət.
Ərəbdə o rəsul kimdir, danış bir,
Bizim din nə, onun dini nə dindir?
Dedi:- Haqdan gələn sözlər ki, vardır,
Qara, ağ – hər nə var ondan kənardır.
Edir göy günbədə bu tayfa üsyan,
Ötüb şöhrətdə günbəddən o insan.
Nə ulduzdur sözü, nə çərx birbaş,
Naxış- bunlar, bu, şagirddir, o, nəqqaş.
Bu doqquz pərdə üstündə o, seyran,
Nə bilsin sirri, orda yoxsa insan?
Ərəb diniylə, ey şah, oynama sən,
O, haqq dindir, oyun keçməz bilirsən.
Od üstündə yanan yağlı kababtək,
O şahın cismi qıvrıldı yaman bərk.
Görür Şirin ki, ustad xəznə açdı,
Söz ilə şaha inci, xəznə saçdı.
Dedi: - Alqışlar olsun, ey yeganə!
Sənin tək bir nəfər görməz zamanə!
Sən açdın Xosrova min xəznə, min kan,
Bizə həm bəxş elə bir pay, bacarsan.
Açarlıq göstər, olma burda zəncir,
"Kəlilə-Dimnə"dən, nolar danış bir.

BÜZÜRGÜMMİDİN
"KƏLİLƏ VƏ DİMNƏ"DƏN
QIRX FİKİR SÖYLƏMƏSİ

Büzürgümmid açıldı gül tək, amma
Danışdı qırx nağıldan qırx məna.
Dedi əvvəl:- Özündən gəl qorun sən,
Xilas oldu öküz gör nəylə şirdən.
Sən öldür nəfsini, olmaz o, dost, yar
Ki, meymun dülgər olmaz, çox sübut var.
Nə dadmış tülkü bir yırtıq təbildən,
Onu ancaq yeyərsən hiylədən sən.
Xəsisilik eylədi zahid riya həm,
Onu etmə, səni üzsün kədər, qəm.
Yemə bir qeyr evində bir şey əsla,
İlanla neylədi, bir gör ki, qarğa.
Kələk gəlsən, görərsən bir cavab sən,
Balıqxor gördü nə xərçəng əlindən.
Sələmdən qaç, halal ömr eylə, davran,
Nə etmiş gör sələmxor şirlə dövşan.
Keçib candan bu zindandan xilas ol,
Balıq tordan xilas oldu, bu bir yol!
Dəvə zülm etdi, qurd, çaqqal və qarğa,
Bir olmaqla xilas oldu bu qayda.
O düşmənlə olar bir çarə etmək,
Necə qurtardı tufandan, bax, ördək!
Düşübdür torpağa çox baş dilindən,
Nə oldu tısbağa ördəklə, gör sən!
Görərsən qanmayanlardan o dərdi,
Onu bir sadə quş meymunla gördü.
Yeyilməz özgə mal hiyləylə, düz bil,
O nadandan nə aldı tacir aqil.
Əgər bir aqil üçün hiylə qursan,
İlanla qurbağa misli olarsan.
Siçan hardan dəmir çeynər, inanma,
Uşaq çalsın, aparsın qırğı, sanma.
Uzaq dur, hiyləyə heç meyl salma,
Çadırlar yandıran bir nəqqaş olma.
Hər aqildən bədən sağlıq görər, bil,
Əgər dərman verə nadan, zəhər bil.
Bədən dərddən olar əql ilə azad,
Pis ərdən gör necə qurtardı arvad.
Zamandan əql ilə qurtar çox asan,
O əlvan quş necə qurtardı tordan.
Siçan düşmüş tora, bax, qarğa dinməz,
Vəfa öyrən sən onlardan, vəfa gəz.
Bir arpa alma, göstərmə zülüm, şər,
Siçan bir arpa aldıqda verir zər.
O yaylı qurd kimi davranma məğrur,
Vurar qəlbindən ox yayla fələk, dur!
Tamahdan keç, o, yol getməz ağılla,
O bayquş, qarğa dost olsun nə yolla?!
Ol aqil, düşməni zənn etmə xırda,
Nə etdi fillərə dovşan axırda?
Riya ilə tamahdan keç ürəkdən,
Oruc tutmuş pişik tək ruzi tap sən.
Kiminlə bu pişik olmuşsa həmdəm,
Qoyun görsə, vurar it damğası həm.
Vəfa göstər, kələklərdən ol azad,
Ərə gör neylədi qorxub o arvad?!
Savaş salsa iki düşmən, deyil dərd,
O divdən, oğrudan qurtardı bir mərd.
Nələr var gördü arvadda o dülgər,
Onun tək yumma göz, aqil deməzlər.
Deyilsən pis, pisə dost olma, əl çək,
Haman insan yeyən məlum siçan tək.
Əgər dönsən bu yoldan, qurtararsan,
Belə qurtardı meymun tısbağadan.
Nadir qafil bir eşşək tək bu getmək?!





Yem oldu tülküyə qəflətlə eşşək.
Çevir dal zahidə, dönmüş o, haqdan,
O, düz rasunu öldürdü nahaqdan.
Gəl əyri nisyəyə diqqət yetirmə,
Olan halvanı dərviştək itirmə.
Ayıqlıqla xilas ol sən bu dardan,
Siçan kəsdi, pişik qurtardı tordan.
Uçub qurtar bu zəncirdən, yetər, sən,
Uçan tək qübbərə göy qübbələrdən.
Qılıncdan qurtarar düzlüklə insan,
Nə cür qurtardı şirdən çaqqal asan.
Qılınc qurşanma qanlar tökmək üçün,
Qalarsan pəncəsiz şir tək ha bir gün.
Sən ol yaxşı, demə düşmən də var: ah!
İlandan bax bu cür qurtardı səyyah.
Ola şahzadə, ya tacir bir oğlan,
Alır qədrincə bir ruzi hər insan.
Bu sözlərdən dedi, çox saçdı gövhər,
O şah qəlbində yer tutdu o sözlər.
Peşiman etdi şahı zülm, bidət,
Saray qurdu yeni, rüknü ədalət.

NƏSİHƏT VƏ HİKMƏT

Könül, bir şəm yandır, vaxt ötürmə!
O şamdan odpərəst olmaq götürmə!
Könül atəşpərəstdir, uyma çox, keç,
Qoy atəşgahı qəlbin sönməsin heç.
Bu mehrab içrə bir heç torpağam mən,
Qulaq burram yenə hikmətdə dibdən.
Bu qəlbimdə sözüm çox, dürlü hikmət!
Ətəkdən bir tutan yoxdur, nə söhbət!
Bu pərgar içrə öyrəndim nə var mən,
Cahan əsrarını bildim kökündən.
Fələklər zicini cədvəlbəcədvəl,
Fikir üstürlabıyla eylədim həll.
Fələklər sirrini kim sordu məndən,
Onu bir-bir deyib, şərh etmədim mən.
Qulaq ver, söyləyim aydınca bir-bir,
Bu xoş gülşən nə hikmətdir, nə sirdir.
Var idi nöqtə, xətlər müxtəlifdi,
O ilk tərpənmə ki, oldu əlifdi.
O xəttə bağladı bir xətt pərgar,
Bax, onlardan bəsit səth oldu aşkar.
Bu vaxt üç xətdən oldu bir mühit həm,
Bəsit çevrildi bir cismə haman dəm.
Budur xətt oldu, səth oldu, cisim həm,
Buna üç ölçü ad vermişdir aləm.
Bu cür dünyanı dərk üçün var imkan,
Bilər başdan-başa, istərsə insan.
Çatırsa ağla bu aydın nümunə,
Qaçar başdan sona, anlar nədir nə.
O allahdır ki, həd bilməz o zahir,
Vücudundan kənardır əvvəl-axır.
Tanı allahı-aqillər gözündə,
Zərifdir xilqətin pərdə üzündə.
Tanı sən zatını, məna üzündən,
Bilərsən tanrını bilsən səni sən.
Yaxınlıqda durur qarşında ayna,
Uzaq göylərlə bəhs açma, az oyna.
O nursan, çərx teştin, sənsə bir şəm,
İki aləm vücudunda olub cəm.
Nizami, bundan artıq gizli sirdən,
Demə, qalma hekayətdən, yetər, sən!

ŞİRUYƏNİN SİFƏTİ VƏ
XOSROVUN İŞİNİN SONU

Nə var şah bildi hikmət taxtasında,
Cahan taxtaya bağlanmışdı onda.
Bir oğlu vardı Məryəmdən bir az kal,
Adı Şiruyə, şirtək iyli, naqqal.
Beyin xərçəng dolu nadan bir eşşək,
Onu görməkdən aləm dəxi diltəng.
Ala, göy göz, sifətdən xeyli tutqun,
Haman palçıq küpə layiq o məlun.
Eşitdim ki, haman alçaq o qatil,
Yaşı on olmamış bir tifl o batil,
Haman Xosrovla Şirin evlənərkən,
Deyirmiş: - Kaş olum Şirinə ər mən.
Deyimmi eşqi nəydi, ya ki, kini?
Nə idi bəxti, elmi, ya ki dini?
Saray tüstüylə lap dolmuşdu ondan,
Əlindən Xosrov olmuşdu nigaran.
Büzürgümmidə şah dedi : - Ey aqil,
Könül incik bu övladdan, o, qafil.
Uğursuz bəxti vardır, qorxuram mən,
Fəsad əskik deyildir taleyindən.
Başı dolmuş yaman işlərlə möhkəm,
Ana ilə deyil qurd tək o, məhrəm.
Bu alçaqdan görünməz yaxşı xisiət,
Odun övladı da küldür, nəhayət.
O, xalqa xoş gələn bir söz deməz heç,
Ona xoş gəlməyən söz söyləməz heç.
Nə bir fər gördüm onda, nə fərasət,
Qaçar fərdən, fərasətdən o afət.
Ucalmış mən çatan oddan o tüstü,
Olub məndən, qaçan məndən əlüstü.
Başım başlardan almış tac, nə fayda?!
Xələf çox naxələf çıxdı bu qayda.
Nə Şirinlə, nə mənlə mehribandır,
Bacılarıyla dildən çox yamandır.
Baxır Şirinə bir gözlə o, divtək,
Deyirsən bir palançı görmüş eşşək.
Tutaq mən heç, mənəm bir xallı gürzə,
İlan zənn et məni olmuş o, möhrə.
Hər arvad arvad olmaz, hər kəs övlad,
Nə hər gül meyvəsi eylər könül şad.

Nə çox biganə var, onda vəfa var,
Qohumdan çox sədaqət var, səfa var.
Çox övlad var ata qətl eyləmişdir.
Nə çox daş var, dəmirdən qəm yemişdir.
Büzürgümmid dedi: - Ey haq görən şah,
Olub yaxşı-yamandan qəlbin agah.
Tutaq bir dərdi-sər gəlmiş bu övlad,
Sənin pak gövhərindəndir o, heyhat!
Bu oğlunla nə lazım düşmən olmaq!
Ciyərparəndən ayrılmaq, gen olmaq!
Təpik vurmaz, ağac nardırsa bir kəs,
Başa tac eylər övladı o nar bəs.
Döyəclər tutları insan ayağı,
O, saxlar körpəni başı aşağı.
Özün sən yaxşısan, övlad bəd olmaz,
Tərə öz toxmuna bənzər, yad olmaz.
Qızıl paltarda vurduqda naxışlar
Qalan zərlər yenə zinət bağışlar.
Harındırsa, zərər yoxdur bu övlad,
Zaman ram eyləyər, ömr eylə sən şad.
Cavanlıqdandır, olmuş odlu, qaynar,
Çıxar yaddan qocaldıqda bu hallar.

## XOSROVUN ATƏŞGAHDA OTURMASI

Dedi Xosrov bu işdən sonra qəlbən:
Mənə atəşgah olsun dəxi məskən.
O gündən Xosrov atəşgaha getdi,
O şir Şiruyə taxtı qəsb etdi.
Əlindən düşməyir bir dəm şərab, cam,
Güdürdü şahı gendən çox o bədnam.
Bir az sonra onu zəncirə saldı,
Onu bir küncə atdı, razı qaldı.
Edərkən Xosrovu Şiruyə dustaq,
Ona həmdəm gözəl Şirindi ancaq.
Olur Şirinlə Xosrov hər zaman şad,
Olub zindanda zənn eylərdi azad.
Deyərdi Şirinə: - Qəm çəkmə, ey yar!
Bu cür bir gün hamı üçün yəqin var.
O bir yel ki, salar başdan papaq çox,
O sərv ondan əzab gördü, hər ot yox.
Bax, ovlardan olarsa hansı qıvraq,
Onu asanca ovlar ovçu ancaq.
Qopunca zəlzələ dağlar yanılmış,
Yıxılmaqdan böyüklər dərdə qalmış.
Olursa bir quzu dişdən böyük, sən
Düşübdür arxasınca qurd, görərsən.
Qızıl dilli alov qalxarsa harda,
Gedər tüstü gözəllər səmtə orda.
Gedibsə dövlət əldən, sən ki varsan,
Bu sən varsansa, hər dövlət taparsan.
Ona Şirin də çox diqqət verirdi,
Ürək vermişdi, xidmət göstərirdi
Ki, dövlətdə çox olmuşdur bu işlər,

Olub şadlıq görüblər, qəm yemişlər.
Düyün düşmüşsə işlər, bilmə asan,
Ölər matəmdə əyləşsə hər insan.
Yaşa gəl bir qədər alnı açıq sən,
Nədir başla, ayaq zəncirdə birdən.
Nə lazım dərdə hey güc versin insan,
Nə çox xəstə dönüb qəbrin yanından.
Demə bir xəstəlik tapmaz o sağlam,
Ölər zənn etmə hər xəstə, var əncam.
Açarsız bildiyin bir çox qıfıl var,
Qıfıl yox, bir açardır, baxsan onlar,
Ağıla qəlbini sil qalmasın qəm.
Çəkər hər qəm qəmi, sanki o qum nəm.
Əgər taxtında əyləşmişsə bədxah,
Müqənnə ay düzəldər dəxi, ey şah.
Quyu Nəxşəbdə suyla dolsa birdən,
Cahan hardan tapar nuru dəmirdən?[152]
Bu dövlətdə qaralmışdır fikir, söz,
Olub kafur qara, kor göz görən göz.
Hər əksiklikIə əksilmək gərəkdir,
İnək saqqalısa, gülmək gərəkdir.
Savaş eylər, həya bilməz bu ruzgar,
Uzaq dur daim ondan ta həyan var.
Həya vermiş iki şəxsə bu aləm,
Biri getmiş, biri heç gəlməmiş həm.
Günəş tək od vurub yandır bu deyri,
O, İsa yox, bir eşşəkdir, nə xeyri?!
Bu beş günlük cahanda kimsə qalmaz,
Özün də qalmasan, qəm çəkmək olmaz.
Bu dünya daim olsaydı bu halla,
Çatardı hər kəsə şahlıq nə yolla?!
Fələk bir məmləkət versəydi daim,
Verərdi Xosrova Key taxtını kim?
Bu gülzara könül hər kim ki, bağlar,
O, gülməkdən də çox güllər tək ağlar.
Səninlə qalmasa dünya , sevin sən,
Düşün, çiynindəki yük getdi səndən.
Bu mal səndən qalar, ya sən qalarsan,
Olar yaxşı, o, yox, ta sən qalarsan.
Əgər bərbət kimi şadlıq sevənsən,
Görərsən dərd əlindən zərbələr sən.
Nə mülkdür bu, o Zöhhak tək bu xunxar!
Öz arxandan ilan dartıb çıxardar.[153]
Saçıb şəhvətlə sən bir damla beldən,
Əziyyət gördü, arxan getdi əldən.
Bu torpaqda ağır yük çəkmə bunca
Belin yox, istə sən qamın tutunca.
Odur ər görməyən, evlənməyən kəs,
Qarın, bel yükləməz, oldu xilas bəs.
Bu bağlardan uzaq dur varsa ağlın,
Nəyin var, qane ol, sən yarsa ağlın.
Nə var qaneçiliktək rahat aləm!
Nə var asudəlik tək ləzzət aləm!
Varındırsa çörək, su, cəld ayaq çək,





Hanı xoş mülk o azad təbillik tək.
Ucalt baş, qane olmaqla xilas ol,
Çəkərsən qayğı, gəlməzmi bəla bol?!
Olubdur zahidə məskən odur ğar,
Onuntək qane olsun hardan əğyar?!
Odur rahib gedib qeyb oldu dağda,
Qənaətlə yaşar eldən uzaqda.
Cahan qıvrılmış əfi bir ilandır,
Əli boş saxla ondan ki, çalandır.
Sənin görsən bir iş gəlmir əlindən,
İlan tut başqa bir əllə, çalış sən.
Əgər bir bəndə düşsən, qane ol, dur,
Olar hər xəznə bənd içrə, bu, məşhur.
Quyu olsa yerin, olma pərişan,
O xoşbəxt Yusifi yad eylə, şadlan.
Bu dərya sahili hər yan zəhərdir,
Təkindən dür tapanlar bəxtəvərdir.
Ucalmaq fikrin olsa, en, ol alçaq,
Şir ağzından o quyruq xoşdur ancaq.
Yerin qədrindən alçaqdırsa, gül sən,
Aləm bil, kim uca olmuşsa səndən.
Düşündün, səndə azdır qədr, qiymət,
İki aləmdə sən başsan – həqiqət.
Cahanın qəlbi sənsən, bilmə xırda,
Alarsan top fələkdən gücdə, zorda.
Yaranmışdan səni seçmişdir allah,
Bu aləm səndən ötrü xas dərgah.
Bu fikr ilə əgər olsan könül şad,
Olarsan tac-taxt qeydindən azad.
Əgər olsan bu taxta, taca möhtac,
Yeri bir taxt elə, olsun günəş tac.
Bu sözlərlə onu təskin edirdi,
Bu əfsanəylə günlər xoş gedirdi.
Axır gəldi gecə, o sərv qamət,
Könüldən şaha çox göstərdi şəfqət.

## XOSROVUN ÖLDÜRÜLMƏSİ

Gecə ay nurunu dartıb aparmış,
O, çərxi div kimi yoldan qoparmış.
Dedi dünya, gəlib bir zənci qəddar,
Dodaq tikdi qaranlıq əldə mismar.
Zaman min-min əl ilə qaldı zordan,
Fələk yüz min göz ilə oldu nurdan.
Uzanmış şah qızıl zəncir ayaqda,
Gümüş baldır o Şirinlə yataqda.
Gümüş əllərlə zəncir saç o dilbər,
Bəzər muncuqla zənciri sərasər.
Qıçın sürtürdü şahın bağlı zəncir,
Ovur onları, dincəlsin deyir bir.
Deyirdi sevgidən şirin hekayət,
Səda altında yatmaq, ah, nə ləzzət!
Qatırdı hər sözə balla şəkər həm,
O dinlərdi nə söylər şah hər dəm.

Haçan şah yatdı, qeyb oldu səs ondan,
Yuxu həm tutdu Şirini bu yandan.
İki aşiq tapırkən şirin uyğu,
Fələklər yatmamış, qurmuşdu qurğu.
Odur, bax, pəncərə! Bir div xislət,
Girir ordan, yox onda zərrə şəfqət.
O, bir qəssab idi, qatil, amansız,
Saçır Nəffat tək odlar o qansız.[154]
Evi bir oğru tək gəzdi, dolaşdı,
Axır şah harda yatmışdır, ulaşdı.
Gəlib Xosrov yatan taxta o bədnam,
Dağıtdı köksünü, söndü yanan şam.
O, xəncər vurdu, köksündən qan axdı,
Buludmu oynadı, şimşəkmi çaxdı?!
Salıb ayrı günəşdən ayı dərhal,
Uçub getdi tez ordan vəhşi qartal.
Yatarkən şah onun böyrü cırılmış,
Durub gördü, həyat bağı qırılmış.
Axan qandan yataq tufan götürmüş,
Ürək təşnəydi, əl candan götürmüş.
Dedi: - Qoy səslənim, Şirin oyansın,
Su versin bir içim, yanğım dayansın.
Bir az sonra dedi könlündə pünhan:
- Doyunca yatmayıb bir dəm o canan.
Məni gördükdə zülm ilə bu cür xar,
O yatmaz bir daha, şivən qopardar,
Budur ən yaxışısı, qalsın bu söhbət,
Ölüm mən yanğıdan, yatsın o afət.
Vəfa əhliydi, zillətlə verib can,
Dedi qoy durmasın, yatsın o canan.
Günəş tək bir gül açmış, yaxşı bax sən,
Ümid verdi bu dünyaya sevincdən.
Qəfildən bir bulud qalxar, gələr məst,
Qılınc əldə edər çox güllərə qəsd.
Yağar birdən dolu şaqqıldayaraq,
O güllükdən nə kol qalmaz, nə yarpaq.
Duranda uyğudan yatmış o bağban,
Nə gül gördü yerində, nə gülüstan.
Nə dersən, ağlamazmı gül qəmindən?!
Tökülmüş gül, gülab çəkməzmisən sən?!
Axır qan şah cismindən sular tək,
Oyatdı Şirini xoş yatsa da bərk.
Olubdur çox gecə bəxti onun yar,
Oyanmış neylə, nayla çox o dildar.
Soyuqluq göstəribdir indi dövran,
Oyandı isti qan ilə o canan.
Pərişan oldu oddan qıvrılan quş,
Bu işlər uyğudan həm bəlli olmuş.
Yataqdan örtüyü qaldırdı nagah,
O, qandan bir dəniz gördü, dedi: - Ah!
Gecə qoynunda axtardı günəş, nur,
Görür axtardığı viran olubdur.
O, taxt üstündə gördü qalmayıb tac,
Çırağından ediblər nuru tarac.





Qapı sınmış, olubdur xəznə talan,
Qoşun getmiş, olub sərkərdə candan.
Gecə yaş tökdü Şirin, qurdu matəm,
O, xeyli ağladı, sonra durub həm,
Qatıb mişki gülab, ənbərlə ancaq
Qan olmuş cismi etdi pak, parlaq.
Yudu şahı gülab ilə o kafur,
Təmizlikdən saçırdı o, işıq, nur.
Haman şahanə məclis qurdu dilbər,
Kim ondan yaxşı bir məclis düzəldər.
Nə lazımsa şah üçün etdi sonra
Yudu əndamını kafur, gülabla.
Durub verdi özüyçün bir də zinət,
Bu görkəmlə alır yüz can o afət.

### ŞİRUYƏNİN ŞİRİNƏ SİFARİŞ GÖNDƏRMƏSİ

Haman Şiruyənin qəlbində Şirin
Bir az müşküldü izharı bu fikrin.
Saraydan bir adam göndərdi pünhan,
Dedi: "Bir həftə döz, olma nigaran.
Keçər bir həftə ondördgünlük ay həm
Açar bağında bir gül tək, bitər qəm.
Tapar hər dəstə üstündə o, hörmət,
Görər Xosrovdan artıq şan və şövkət.
Qızılla örtərəm bir xəznətək mən,
Olar onda açarlar xəznələrdən."
Bu söhbətlər gəlib Şirinə yetcək,
Yaman tünd oldu, coşdu şirələr tək.
Onu aldatdı Şirin, döz, dedi sən,
İnandı ölməli, şad oldu qəlbən.
Və bundan sonra Xosrovdan qalan var,
Təzə, ya köhnə olsun, dürlü paltar.
Tamam paylandı harda vardı möhtac,
Olundu şahın eşqiylə o, tarac.
"Ona xoş dillə göndərdi o, peyğam,
Əgər vəslimdən istərsən şirin kam,
Desəm mən hər nə icra et görüm sən,
Səninlə vəslə meylim var, bilirsən.
Fikir versən, görərsən çox zamandır,
Mənim qəlbimdə sevgin var haçandır.
Bu sevdadan xəbərdaram, bu, məlum,
Desəm hər nə, onu eylə, bu, arzum.
Əgər zahirdə vardır bir çəkinmək,
Bu gizlinlik nədir, dərk eylə gerçək.
Qovuşsaq bir zaman hərgah səninlə,
Tələsdirmə, sözüm var, onda dinlə.
De, əvvəlcə sökülsün tağlı eyvan,
Ucalmış tağlar olsun yerlə yeksan.
Uçurmaqçün qızıl qəsri əlac et,
Yenə qır taxtını, sən qəcdi-tac et!
Qınılsın qoy qanad dövlət quşundan,
Yaxılsın bir də Şadərvan, zər eyvan.
Tökülsün incilər Cəmşid camından,
Günəş tək parlamaqlar getsin ondan.
Deyildirsə əgər taxtında Pərviz,
Ayaqdan əmr elə olsun o Şəbdiz.
Bu mətləblər tamam tapdıqda ancam,
Verilsin başqa işlərçün sərəncam.
Müfərrih olsun o şətrəncdə yaqut,
Ürəkdən qəm gedər ondan yəqin tut.
Vurub sındır haman firuzə camı,
O cam olsun gərək qeyrin haramı.
Qoy ülfət görməsin heç Barbəd həm,
Onu rəd et ki, düşməndir o, möhkəm.
Xilas etsən məni əndişələrdən,
O gündən xidmətində hazıram mən.
Sənə candan yetirrəm mehr, ülfət,
Haman sirri bilərsən sonra, əlbət.
Alıb Şiruyə Şirindən xəbərlər,
Gələn günlərlə şad oldu nəzərlər.
Nə arzu etdisə Şirin, o etdi,
Nə əmr etmişdisə, sürdü, yeritdi.
Bitirdi işləri, verdi xəbər həm,
Tamam tərk etdi Şirini kədər, qəm."

### XOSROVUN SƏRDABƏSİNDƏ ŞİRİNİN CAN VERMƏSİ

Şirin röyada idi, sübh oyandı,
O, Şirindən can almaqçün dayandı.
Qara rəng kafuru aldı həbəşdən,
O kafur qabı yolda sındı birdən.
O qələ üstdə zənci ayı gördü,
O ay qələyə girdi, o gülürdü.
Gözəl tabut düzəlsin – dedi Şirin.
Kəyanlar qaydasınca süslü, zəngin.
Haman tabut qoy örtülsün zər ilə,
Bəzənsin inci, mərcan, gövhər ilə.
Necə etmişsə pars şahlar, o qayda,
Qoyulsun Xosrov o tabuta orda.
Qoyub tabuta şahlar çiyni üstə,
Onu dəfn etməyə üz qoydu dəstə.
Dayanmışdı piyada hökmranlar,
Alırdı dövrəyə tabutu onlar.
Qələm etmişdi dəxi Barbəd tərk,
Kasib barmağı etmişdi qələm tək.
Büzürgümmid ümid olmuşdu xırda,
Söyüd yarpağı tək titrərdi orda.
Zəif bir səslə eylərdi o, əfğan:
"Bu ölməklə bizi şah etdi candan.
Əcəm şahlarına arxa necoldu?
Qılınc-bayraqlı bir dünya necoldu?
Hamı dünyaya Xosrov, harda dünya?
O gah Pərviz tanındı, gah Kəsra.
Bu köç tərpəndi, düşmüşdür qova-qov,
Nədir Pərviz, nədir Kəsra, nə Xosrov ?!



Gedir qullar, kənizlər dərdli, nalan,
Gedir bir sərv tək Şirin xuraman.
Çəkilmiş sürmə, nərgizlər xumardır,
Hənalanmış gəlintək şövqü vardır.
O, gövhər sırğa asmışdır qulaqdan,
Gəzir çiynində zülf oynar bayaqdan.
O, Nahid tək sarı örpək qoyubdur,[220]
Günəştək qırmızı atlas geyibdir.
O, sərxoş tabut ardınca gedirdi,
Bu fitnə hər kəsi heyran edirdi.
Ayaq açmışdı əhdin meydanında,
Edirdi rəqs tabutun yanında.
Güman eylərdi hər kəs əsla Şirin,
Bu ölməkdən deyil bir zərrə qəmgin.
Guman eylərdi Şiruyə həmandır
Ki, Şirin bərk onunla mehribandır.
Ayaq döydü o Ay daim o yolda,
Gəlib ta günbədə çatdı bu halda.
O şah tabutu günbəddə qoyuldu,
Böyüklər üzbəüz durdu, səf oldu.
O Ay mobid yanında taxtı qurşaq,
Vidaya, günbədə üz tutdu oynaq.
Qapı bağlandı, yadlar görməsinlər,
Yanaşdı tabuta əldə o, xəncər.
Götürdü örtüyü tapdı yaranı,
Əyildi bir dəfə öpdü yaranı.
Yara hardandır, öyrəndi o dilbər,
O yerdən köksünə vurdu o, xəncər.
Yataq bir də yuyuldu isti qanla,
Bax örtüldü yaranın üstü qanla.
Baxıb sonra onu sıxdı qucaqda,
Döş üstdə döş, dodaqlar da dodaqda.
Uca bir səslə hay saldı o dildar,
Tamam xalq oldu halından xəbərdar.
Bədənlə bir bədən, can ilə bir can,
Bədən, can görməz oldu dəxi hicran.
O Xosrov məclisində nurlu şam tək,
Yatan Şirinə bu yatmaq mübarək!
O dost üçün ola əfv olma qismət,
Bura gəlsə dua eylər o, əlbət.
İlahi, lütfə yar et bu məkanı,
Özün əfv et bu bir cüt mehribanı!
Sənə ey Şirin əhsən, bəh, bu ölmək!
Yenə bəh! Bəh! Bu cür can vermək, almaq.
Budur eşq ilə can vermək nişanı!
Bu cür vermək gərək canana canı!
Olar hər bir qadın zənn etmə namərd,
Qadındır, bir kişi bilmirsə bir dərd.
Nə çox rəna qadın, mərdlikdə bir şir!
İpək paltarda şirlər gizlənibdir!
Odur zülmün yolundan qalxdı tozlar,
Yetirdi sərvə, şümşada çox azar.
Bulud gəldi qəmin dəryası üstdən,
Yağışlar yağdı dağlar boyda, gör sən.
Çöl üstündən həm əsdi sərt küləklər,
Səma ilə bu yer oldu bərabər.
Böyüklər də olub işdən xəbərdar,
Ürəkdən çəkdilər onlar da ahlar.
Sənə əhsənlər olsun, ey zaman, yer,
Nolar damad üçün böylə gəlin ver!
Ola bu zənci, rus mütrüb əgər sən,
Bu cür bir toy-büsat hardan görərsən.
İki tac sahibi oldu və bir taxt,
Qapı bağlandı günbəddə həman vaxt.
Camaat döndü ordan üzdə min qəm,
Yazıldı torpaq üstdə bu məsəl həm:
"Bu dünyada gözəl Şirindən özgə
Hələ can verməyibdir qeyrə kimsə."
Bu dünyaya könül vermə, bu nakəs
Vəfa bir kimsəyə, anla, o, etməz.
Nə bəxş etsə kimə alçaq bu dövran,
Alar bir-bir bu yerdə axır ondan.
Verər yüz növbədən sonra o bir can,
Alar bir növbədə axır o asan.
Ayaq üstündəsən bir sirli tilsim,
Yıxıldınsa, sınıb oldun o heç kim.
Səni dustaq edib möhkəm bu çənbər,
Kəməndsiz bir boyun vardırsa, göstər.
Bu çənbərdən deyil mümkün bir uçmaq,
Deyil mümkün həm ondan bəndi açmaq.
Bu çənbərdən necə bəndi açaq bəs?
Açılmaz, açmamış bu bəndi bir kəs.
Bu qorxunc torpaq üstdə bircə yol var,
Dözək zülmə, qalaq yerlərdə təkrar.
Nolar bir yol bizimçün ağlayaq zar,
Bizimçün biz kimi sonra kim ağlar?!
Eşitdim mən ki, Əflatun da dün-gün
Gözündən yaş tökərmiş qəmli, üzgün.
Bu yaş tökmək neçündür-sordu bir kəs,
Dedi: - Bihudə ağlarmı məgər şəxs?!
Onunçün ağlaram dün-gün, bədən, can
Yaman həmdəmlik eylər məndə çoxdan.
Gələr bir gün bitər ünsiyyət, ülfət,
Bədən, can ayrılar onda nəhayət.
Gözün heç görməyən kənd var gedirsən,
Uzaqdır yol, götür azuqə bir sən.
Gedərsən göylərə, olsa ayaq can,
Nədir torpaqda torpaqdan bu zindan!?
Demə arş üstə çıxmaqçün yox imkan,
Özündən xaric olsa, mümkün, insan.
Cəsur ağlından olmazmı soruşmaq.
Bu qəsrin damına mümkünmü çıxmaq?
Ağıldan burda bir fitva eşitsən,
Götür bayraq, kəyani qəsrə get sən.
Ağıldır burda şeyxin, bəs nə etmək!
Soruşsan hər nəyi ondan soruş tək.
Ağıldan gəlməyən bir söz xəyaldır,
Qoca aqillər anlar bu vəbaldır.





Ağıldır bir ayaq, təbinsə zəncir,
Nəfəs-suhan, yonar bəndi o bir-bir.
Qızıldan bir hasarın var, igidsən,
Dəmir zənciri sən səndən yox etsən.
Bu xırmandan yemə bir dan dən sən,
Əs üstündə, nolar bir qorx özündən.
Ey İsa, eşşəyi burdan kənar et!
Öküz tapdağı et xırmanı sən get!
Olub bir çox susuz düşmüş xəyala,
Şoranlıq aldadıb vermiş zavala.
Dəvə üstdən yıxılmış çoxlu hacı,
O bilmirdi nə turş imiş, nə acı.
Haman insan yeyən doqquz öküzlə
Öküz yüklə bu yer tək, vaxt gözlə.
Öküz üstündə yüksən, Zöhrə olsan,
Bu torpaqda öküz mindin çox asan.
Hasar qurmuş fələk zindansəradır,
Kəmər beldə gəzən bir əjdahadır.
Səninlə əjdaha bir həmnəfəsdir,
Zəhər dadmaqçün eyşin tək bu bəsdir.
Yığış Bəhmən kimi bəsdir bu yerdən,
Yetər, gəl əjdahadan gen dolan sən.
Bu ayrılmaqda varmı xeyr, ararsan,
O yeddi əjdahadan qurtararsan.
Bu bir mülkə nə qalmışsan maraqda,
Minib hal boynuna zəncir ayaqda.
Nədir sevmək sən ölsən burda bir gün,
O şeylər ki, qalır ən düşmən üçün.
Sel ağzında bu deyrə eylə diqqət,
O eşşək şillə, İsa gördü hörmət.
Sən incitmə, salamatlıq dilərsən,
Əvəz çox gözləmir, etsən, bilərsən.
O tərpənmə nabat üçün nicatdır,
Ağaclar, quşlar üçün bir həyatdır.
Ağac hər kim kəsər, ömrü olar kəm,
Düşər yoxsulluğa ovçu olan həm.
Gəl at bayrağı, aləm dar bir ovlaq,
Yüyəndən çək, atındır çoxdan axsaq.
Səninlə qəbrə getməz, bil, bu dövlət,
Qadın, övlad, o mal, mülk ilə qüdrət.
Gedərlər qəbrəcən arxanca hər kəs
Səninlə torpağa bir kimsə girməz.
O dostlar daim olmaz sən deyəndən,
Dönərlər hər biri bir yolla səndən.
Ölü, sağ, uyğulu, məst ol, ey insan,
Özünsən tək özünlə harda olsan.
Bu iş məskənlərində ziddiyyət var,
Müxalifdir görərsən ki, saraylar.
Yüyən vermə, xəyal karvan vurandır,
Götür bayrağı sanc ərşə zamandır.
Bu düşmənlər səni yarından eylər,
Tutub işdən qoyar, varından eylər.
Nəfəs çək dar boğaz neydən, uzaq qaç.
Ayaq qalmış topal, var onda bənd, aç.
Tapar yoxluq bu varlıq, ayrı yox yol,
Bu var-yoxla bacarsan sən də şad ol.
Dayanma, ey könül, dostlar gedirlər,
Tez ol qavqar yükü, can tərk edirlər.
Səníndir bu gəmi, çox durma onda,
Yükü dəryaya at, durma bir an da.
Bu dərya içrə baş qaldırma, çək qəm,
Nəfəs var səndə, səs ta ərşə qalxar,
Göbəkdən dodağa meydanı var dar.
Bu hüsn ilə, ey insan, anla bir sən,
Əgər lap göydə də olsan, yerinsən.
Səni daş sındırar, torpaq əzər həm,
Bu dar məskəndə qalmaz bircə həmdəm.
Bu viranda nədir div ilə getmək?
Ayaq qaldır bu fərşdən bir mələk tək.
Cavan mərdlər çəkər, qorxmaz, əziyyət,
Verib canı taparlar can nəhayət.
Kim ölməkdən qabaq ölmək bacarsa,
O, can vermək əzabı görməz əsla.
Qalarsanmı, ona öyrənmiş olsan,
Qalarsan sən özün səndən can alsan.
Deyirlər, çox bədən varmış dəmirdən,
Gedibdir, indi səslənməz o, yerdən.
Yerin əndamını yarsan əgər sən,
Onu başdan-başa insan görərsən.
Hanı Cəmşid, Firidun, ya ki Zöhhak?
Hamı torpağa getmiş, bəh, bu torpaq!
Cigər qanilə olmuş yer tamam qan,
Nə ölməkdir bu, yarəb, sonsuz ümman.
Bura kim gəlmədi fillə, təbillə,
Bir axşam getmədi axır o yellə?!
Əgər torpaq olur torpaq, nə qəmdir.
Vücudun axın axır ədəmdir,
Nə gəlmişdir zamandan ki, dəyişməz,
Nə qalxmışdır bu yerdən ki, o, düşməz?!
Bu dünya gör necə asan edər məst!
Bu göylər gör necə şən-şən edər qəsd!
Nizami, keç bu söhbətdən, yetər, sus!
Nə söylərsən, eşitmir aləm, əfsus!
Yetər, dünyadan etdin çox şikayət!
Gülüb, göz yaşını gülməklə gizlət.
Bu gün tər bir ağac görsən kökündən
Olar çarmıx, quru olduqda, gör sən.
Görərsən bir bahar ellər bəzər də!
Əsər yellər, o novrağı pozar da.
Verər də o, alar da, yoxdur an.
Alıb-verməkdən ayrı yox qəran.
Bu doqquz şüşə eylər çox cinayət,
Onu qoy şüşəyə, vur, qır, nəhayət.
Bu dövr etdikcə qızğın, kinli dövran,
Sınar bəlkə bu mavi şüşə ondan.
Burax dünyanı ki, onda xeyir yox,
Bu çərx, anla, səni həm fırladır çox.
Özündən keç, bu dörd bağ ilə asan,

Nə cür yeddi dəmir bənddən çıxarsan?
Tamam daşdır və palçıqdır bu mənzil,
Ayaq palçıqda, dolmuş qəlbə çox yel.
Bu daş-palçıqda hər kəs olsa aqil,
Nə daş üstə qoyar daş, nə gilə gil.
Oxu ibrətlə, dərk eylə nədir bu:
Nə zənn etdin, məgər əfsanədir bu?!
Bu dastanı oxu, yaş tök gözündən,
Gülab səp Şirin üçün bir özün sən.
Onunçün ki, kəmömr oldu o dilbər,
Onu gül tək cavankən aldı yellər.
Qədəm yüngüldü o, qıpçaq bütüm tək,
Güman etdim, o, Afaq idi gerçək.
Gözəl sima, şirindil, sanki qönçə,
O Dərbənd sahibi etmişdi töhfə.
Dəmirdən bir zireh əynində paltar,
O, don geymişdi köynəkdən bir az dar.
Qulaqburma görüb ondan böyüklər,
Balış qoydu, mənimlə oldu həmsər,
O, türklər tək köçə olduqda möhtac,
Edib türklük, nəyim var, etdi tarac.
Əgər türküm çadırdan getdi birdən,
Ey allah, türk balam var, sən bilirsən!

## NİZAMİNİN OĞLU MƏHƏMMƏDƏ NƏSİHƏTİ

Eşit, ey yeddi yaşlım, gözdə nurum!
Uca göylər yerindir, ey qürurum!
O allah verdi ruzi bəslədim mən,
Mənim yox, kaş ola haqq adı kölgən!
Hilal dövründə gül, ömr eylə qəmsiz,
Gülüb şad olmuşuq həm bir zaman biz
Dönüb bədr oldusa axır hilalın,
Bir ulduz tək yanar onda camalın.
Çalış elm əldə et, dünya verərlər,
Oxu əsma nədir, məna verərlər.
Qələm çək boş söz üstündən, kənar ol,
İlahi elmi öyrən, bəxtiyar ol.
Elə ömr et, desinlər hər görərkən:
"Nizami, aqil oğlun var, min əhsən!"

## XOSROVUN YUXU GÖRMƏSİ

Gecə göz yummayıb sözlər deyən kəs
Dedi tapmış nədən Pərviz ziyan bəs!
Çox aydın bir gecə yatmışdı Kəsra,
Görür peyğəmbər ilə bağlı röya.
Gedir altında yorğa bir ərəb at,
Qulac saçlar kəmənd olmuşdu qat-qat.
Dedi çox mehriban: - Ey qəhrəman sən,
Tut islam yolunu, gəl dön küfrdən.
Dedi: - Ayrılmayıb ta baş bədəndən,
Nədir dönmək bu ayindən, bu dindən?

O tünd atlı tez ordan çıxdı, getdi,
Ona bir qamçı çəkdi, gör nə etdi.
Oyandı uyğudan şah, durdu baxdı,
İçi od tutdu, başdan tüstü qalxdı.
Üç ay düz xəstə oldu, qorxdu möhkəm,
Gecə yatmazdı qəmlərdən o bir dəm.
Xumarlıqdan ayıldıqda o məğrur,
Dedi xəlvətcə Şirinə: - Gedək dur.
Gedək bir dəm cəvahir xəznəsinə,
Baxaq, bir zövq duysun qəlb, sinə.
Ətirlər, həm cəvahirlər, ipəklər,
Nə çoxdur, seyr edək, gülsün ürəklər.
Verək yoxsullara bir bəhrə ondan,
Bu işdən zinət alsın qoy bədən, can.
Yol aldı xəznəyə onlar bərabər,
Cəvahirdən yox idi boş qalan yer.
Dolu zəncirli sandıqlarla hər yan;
O, Xosrovdan, bu Keydən tapmış ünvan.
Var idi qırx otaqlı bir xəzinə,
Biri aşkar, onu gizlin dəfinə.
Baxıb hər xəznədən onlar keçirdi,
Nə var zahirdə onlar baxdı, gördü.
Bilib dəftərdə qeyd olmuş qalanlar,
Açar, həm xəznədar axtardı onlar.
Açar əldə edildi, həm də dəftər,
O gövhərlər yükündən yerlər inlər.
O gizlin xəznəni seyr eylədi şah,
Qıfıldan, xəznədən oldu tam agah.
Açarlar içrə gördü bir açar var,
Qızıldandır, bir aydır sanki, parlar.
Xəbərlər sordu Xosrov xəznədardan,
Qıfıldan, xəznədən, altun açardan.
Haman xəznə olan yer göstərildi,
Qazılmaqçün o yer buyruq verildi.
Yeri qazdıqda ordan çıxdı daşdan
Əcəb bir tağ göründü, nadir eyvan.
Haman bir bağlı sandıq vardı mərmər,
Qıfıl vardı o daş sandıqda tam zər.
Buyurdu şah, o daş sandıq açıldı,
Nə vardı gördülər, nurlar saçıldı.
Qoyulmuş saf gümüşdən tilsim əla,
Var üstündə qızıl bir lövhə amma.
Haman zər lövhə üstündə qazılmış,
Gümüş zərlə qarışmış, söz yazılmış,
Oxunmaqçün qoca bir kəs tapıldı,
Oxunduqca o şahı heyrət aldı.
Oxunduqda, arandıqda o lövhə,
Onu şərh eyləyən bildirdi böylə:
"Olan vaxt Ərdəşiri- Babəkan şah
Zirəklər şahı idi, qəlbi agah.
Bilir dünyadan, ulduzdan xəbərlər,
Fələklər hökmünə dikmiş nəzərlər.
Edibdir yeddi ulduzdan o, aşkar,
Çox az müddətdə, olduqca qəranlar,





Bu surətdə görər mütləq bu dövran
Ərəb mülkündə mərd qalib bir insan.
İgid, natiq, dürüst söz, yaxşı surət,
Odur əhdində möhkəm, əhli-qeyrət.
Cəza görmüşdür ulduz möcüzündən,
O, son peyğəmbər olmuş haqq üzündən.
Edər hər yerdə şahları o, qalib,
Onun dini olar hər xalqa sahib.
Kim aqildir, ona iman gətirmiş,
Onunla hərb edən ancaq itirmiş.
Baxırkən şah onu cəlb etdi surət,
Ürək, can duydu qorxu, etdi heyrət.
Deyərdin, bu haman surətdir eynən,
Gecə röyada görmüşdüm həmən mən.
Qəlib olmuş bədəndə coşdu qanı
Lap az qalmışdı, tərk etsin o, canı.
Cahan qasidlərindən sordu sözlər,
Bu kimdir, heç onu görmüşmü gözlər?
Hamı səsləndi: - Bir kəsdir bu, məşhur,
Odur qəlbin gözü, həm gözdə bir nur.
O pak peyğəmbərə bənzər bu surət,
Tapıbdır Məkkə ondan ətr, ziynət.
Məhəmmədir, ona haq lütfü vardır,
Bu dünya qıflına nitqi açardır.
Çıxıb şah xəznədən qalmışdı çaşbaş,
O gövhərdən ona dəymişdi bir daş.
Görür etmiş onu surət cigərqan,
Baxb Şirin də olmuşdu pərişan.
Bu görkəmlə dedi layiqsən, ey şah,
Odur var Keyqubad taxtın, ol agah!
Haman şəkli qoyubdur bizdən əvvəl,
Deməzlər boş söz onlar, anla sən gəl!
Neçə illər olub bizdən qabaq bu,
Baxıblar göylərə, gəlmiş bu doğru.
Gələr bir gün rəsul, sahib vilayət,
Var imiş həm ilahi onda höccət.
Bu cür bir qayda-qanun boş sayılmaz,
Onunla dikbaş olmaq yaxşı olmaz.
Onun dininə şah eylərsə rəğbət,
Yolu üstündə çör-çöpdə nə fürsət?
Olar haqqın bəlasından o, azad,
Gülər bəxt üstünə, daim olar şad.
Adından ayrı düşməz xeyrxahlıq,
Qalar nəslində daim padişahlıq.
Dedi Şirinə Xosrov: - Düz deyirsən,
Nə təsirlər gəlir, hiss eylərəm mən.
Yaratmışdır bizi yəzdan zamandır,
Nə millətdəndir əcdadım, əyandır.
Necə dönnəm mən əcdadın dinindən?
O şahlardan utannam, dönmərəm mən.
Ürək meyl eyləyir, bəxtim deyil yar,
Yeni ayin seçər bəxti olanlar.
Hanı bəxt ilə yar idi o dəmlər,
O, Şərqdən Qərbəcən olmuş o, sərvər.

Məhəmməd gəldi höccətlərlə qahir,
Onun dini cahanda oldu zahir.
Ay üçün gah düzəldərdi o, xirqə,
O gah oynatdı xirqə ayla birgə.
O gah qart daşlara sirlər deyərdi,
O daşlar gah hekayət söyləyərdi.
Yerindən oynadır dağı o şövkət,
Qazır gah torpağı yel tək o siqlət.
Hüzuru xəznəni eylər tamam heç,
Nəsimi xəznə bəxş eylər, buyur seç.
O, hər xalqa verir cam dəvət ilə,
O, səslər hər kəsi xoş niyyət ilə.
Vəfadan bir ətir əmr etdi olsun!
Hər insan adına bir hirz qoyulsun!
Həbəs xəttindən almışdır camalı,
Əcəm bir nöqtə ilə qoydu xalı.
Nəcaşi işləri düşcək nizama,
O, Xosrov Pərviz üçün yazdı namə.

## PEYĞƏMBƏRİN MƏKTUBU

O şah adıyla məktubdur, fikir ver,
Məkansızdır, yox onsuz bir məkan, yer.
Qədimdir, əvvəli bir mətlə bilməz,
Böyükdür, axın bir məqtə bilməz.
O, sahibdir, vücudu xəlq edəndir,
Səxavət kanı, bilməzlər nədəndir.
Sifətindən deyən dillər qalar lal,
Ağıl dəm vursa ondan, yandı dərhal.
Əgər bir zahidi yaxsa cəhənnəm,
Bu hökm ondan gəlir dünyada hər dəm.
Əgər bir asi qəmlər çəksə doğru,
Ona cənnətdə yer versə, nə sorğu?
O, sahibdir, ona illət, səbəb yox!
Əgər versin, əgər alsın, əcəb yox!
Yıxar bir taclı fili bircə milçək,
Qarışqa bir rəsulu məhv edər tək.
Alar caynağını simürgün ondan,
Edər pərvanəni qalib komandan.
İtaət göstər, anlarsan itaət,
Onu dərk et, tanı, olsun kifayət.
Onu yad etməsən, açma dodaq sən,
Əgər məzhəb o olmaz, dur iraq sən!
Nə dava et, odur ancaq ilahın!
Nə məna istəyirsən, padişahın!
Demə qüdrət sözü, qüdrət qəzada,
Sən əmr icra edən, fərman xudada.
Necə allahlıq eylər bir pərəstar?
Edər allahlığı allah, bu, aşkar.
Adın Xosrovdur, acizsən özün tam,
Əgər Keyxosrov olsan əldə yüz cam,
Ölərsən, çünki məxluqsan, ey insan!
Ölümdən qurtararsan sən nə cür can?!
Ölümsüz şahlıq olsaydı, bax onda

Çoxu allahlıq eylərdi cahanda.
Bilər kim bir ovuc torpaq – bu məhbus
Nə məkr ilə yaşar, eylər nə namus.
Səni gördün sən ancaq, bu, bəsərmi?
Gör allahı özün görmək hünərmi?!
Özündən keç ki, qanun var, hesab var,
Yaranmışlarda yoxdur say, nə miqdar.
Yaranmışlarda bir tozdur bizim yer,
Onun dörddən biri məskun, fikir ver.
İraq həm dörddə birdən bir bəhərdir,
Mədain bu bəhərdən bir şəhərdir.
Fikir ver, orda hər növdə var insan,
Sən onlardan biri, həm də yatırsan.
Tutuşdur, gör nə məxluqsan həyatda,
Nadir gör qiymətin bir kainatda.
Böyükdür tanrı, aydındır bu məfhum,
Yaranmışlar önündə məhvə məhkum.
Bu aləm məhv olur bir bax nə qayda,
Sən allahlıq dilərsən, varmı fayda?!
Dəlil göstər, xudadandır bu aləm,
Nə yer möhtacıdır, yoxdur yeri həm.
O allah ki, bir insanı ucaltdı,
Məni insana peyğəmbər yaratdı.
Təbi ataşpərəstlikdən kənar et!
Cəhənnəmdən uzaq! Cənnət şüar et!
Tovuzlar tək bu bağı et tamaşa,
Yanan pərvanə olma odda əsla.
Dolar tüstüylə məbəd, nə o məbud?
Kim od yandırsa, olmazmı o, Nəmrud?
Qalıbsan odda, yaxşı iş deyil heç,
Müsəlman ol, od-ataşdən buyur keç.
Yazan ta məktubu başa gətirdi,
Məhəmməd adı ünvanı bitirdi.
Tapıb yüngül, çevik bir qasid insan,
Onu göndərdilər Pərvizə ordan.
O qasid naməni şaha yetirdi,
Fikirlər Xosrovu qeyzə gətirdi.
Oxunduqca birər hər kəlmə, hər söz,
O sözlərdən o şah od tutdu göz-göz.
Qəzəbdən hər tük oldu başda bir ox,
Damarlar od saçır, ondan xəbər yox.
O şah ünvanı, həm məktubu gördü
Deyərdin it tutan döndü su gördü.
Nə xətt idi, nə heybətli düzüm bu,
Məhəmməddən gəlib Pərvizə doğru.
Qürur etdi onu yoldan nəhayət,
Dedi: - Hardan olur şahla bu cürət?
Nə cürətlə görərkən bu vüqan,
O yazsın adını məndən yuxarı?!
Qızarmaqdan üzü ataşgah oldu,
Qəzəbdən bəd düşündü bədxah oldu.
Boyunlar sındıran məktub cırıldı,
Nə məktub, bəlkə öz boynu qırıldı.
Görüncə qasid eylər hirs cövlan,
Geri dönməkçün o qalxdı tez ordan.
Nə od, boş tüstü verdi od çanağı,
Xəbər tutdu o agahlar çırağı.
O yüksəlmiş çıraq qızdı eşitcək,
Uçurdu bir dua pərvanələr tək.
Dua güc gəldi, qıtlıq çəkdi İran,
Papaq gen düşdü Kəsranın başından.
Məhəmməd dininin möcüzələrindən
Qarışdı, oynadı şahlıq yerindən.
Fələklər taxtını oynatdı yerdən,
Qılınc qaldırdı şaha oğlu birdən.
Fələkdən bir gurultu qopdu taq-taq,
Yıxıldı, düşdü şah qəsrində bir tağ.
Dəmirdən Dəclə üstdə körpü vardı,
Gəlib sel körpünü qırdı, apardı.
Səmum odlar saçıb əsdikcə hədsiz,
Nə Gülgün qaldı axurda, nə Şəbdiz.
Haman Ziqarda məğlub düşdü ordu,
Göyərçin şahini dimdiklə vurdu.
O vaxt gəldi çubuq tutmuş bir insan,
Tutub qırdı onu hirslə çox asan.
Dedi: - Bir bax, poladdan bərk əlim var,
Qırıb etdim bu qayda dinini xar.
O dövlətdə nəbinin möcüzündən
Görüb çoxlar çox ibrətlər özündən.
Nəzər sal, qəlbi daşlar gördülər çox,
Bu haqq yolla durub getməkləri yox.
Əgər din şamı vermir tüstü əsla,
Gözün kordur, sənə şamdan nə fayda?!
Böyük peyğəmbərə əhsanlər olsun!
Onun hökmündədir Cəmşid, Firidun.
O qadir şaha əhsən, hökmü, tacı
Alar hər kimsədən qul tək xəracı.
O türk əhsən! O yeddi xalqa hakim!
Balıqdan Ayacan möhtacı daim.[162]
O torpaqda yatan bədrə min əhsən!
Alıbdır yer, səma nuru üzündən.
Min əhsən, sirlərə olmuş o, hakim!
Onundur həşrəcən bax söz də daim.
O şaha afərin, hər xəlq olan kəs
Gözə torpağını tuğra edər bəs!
Yerə beş növbə vurdu həm obaşdan,
Göyə vurdu gecə dörd balış asan.

## RƏSULLARIN AĞASININ MERACI

Bu fani deyri atmışkən bir axşam,
Tapırkən Ümmi-Haniylə o, aram,[163]
O abad qəsrdən Cəbrail endi,
O nurdan bir Buraq almışdı indi.
O, görkəmdə gözəldi sanki bir bağ,
Nə baş görmüş yüyən, görmüş nə bud dağ.
Buluddan çox saçırdı inci, mərcan,
Küləkdən çox yayırdı ətr hər an.





Yəhər taxmışdı dərya tək göhərdən,
Qayıq zənn et, xəyal ayləşməmiş sən.
Ağır nallı, mətinbelli, gedən bərk,
İti görməkdə tək, gözdən itən bərk.
Bu yeddi çadırın dargöz vaşağı,
Bu atla şahın olmuşdu qonağı.
O, Yəsribdən uçub quş misli getdi,
O, son məqsəd kimi əqsayə yetdi.
Rəsullara özünü etdi qiblə,
İmamlıqda onu baş bildi cümlə.
Nəbilərçün o bir oncüllük etdi,
O haq dərgahına üz tutdu, getdi.
Yaşıl geymişlərin göy xeyməsindən
İti huşlu xəyal tək çıxdı birdən.
Bu girdabdan dönüb cənnət yelinə,
Gəmi çəkdi o, Qütbün sahilinə.
Göyün bağrını Əqrəbdə o yarmış,
Şirin alnına həm bərk əl aparmış.
Buraqıyçün saman çəkdi Məcərra,
Onun eşqindən oldu Xuşə arpa.
Sümük tullar xəzinə üstə Qövsdən,
Edib Mizanı bir xoşbəxtlik ölçən.
Dedi dörd qan rəhmi bağlı qalsın,
O Nəşin qızları heyzi azalsın.
Ucalıq tacı verdi Müştəriyçün,
Üzük saldı, itirdi ondan al gün.
O, şeytanları dəf üçün haman dəm,
Verib Cövzaya Cəbədən bir ox həm.
O, Yusif tək içib Dəlv içrə şərbət,
O, Yunis tək götürdü Hutda möhlət.
Yanında qaldı heyrətdə Sürəyya,
Həmail taxdı sərhəng oldu amma.
Tökür tük Nəsri-tair bəxşiş üçün,
O, Nəsri-vaqe tək daldaydı özgün.[164]
Onu güllərlə cəlb eylər deyib bağ,
Möhür vurmuş gözə burda o, "mazağ".[165]
Çıxan dəm bu yaşıl dəhlizdən amma,
Cilov tullandı, getdi xeyli səhra.
O sürətdən yaşıl geymiş mələklər
Qanad tökmüşdü, şahiddir fələklər.
O Cəbrayıl dönən vaxtı yanından,
O dəm keçdi Mikayıldan da asan.
Qanad sərdi Sirafil, o, oturdu,
Onu Rəfrəf saray üçün götürdü[166]
O, Tuba üstünə sancdı ələm həm,
O, Sidrə üstünə qoydu qədəm həm.
Oxundu hər naxış hər bir vərəqdən,
O çöllərdə gedib çox çapdı köhlən.
Dolaşdı göyləri, gəzdi o, fərş-fərş,
Baş əydi qarşısında bir zaman ərş.
At oynatdı, bu varlıqdan o çıxdı,
O bayraq Qabi-Qövseyn üstə taxdı.
Cəhətlər zülfü alnında qırıldı,
Məkan rüxsarına örpək verildi.
Qədim bir bürqəni atdı üzündən,
Götürdü örtüyü varlıq özündən.
Məhəmməd bu məkansız bir məkanda!
Zühur oldu nişansızlıq nişanda.
Eşitdi haq kəlamı olmadan söz
Cəhətsiz gördü allahı, budur göz!
Hər üzvü rəqsə gəldi, bir söz açdı,
Ürək hər bir tükündən bir göz açdı.
O görməkdən doğub heyrət fələkdə,
Ürək gözdəydi, göz qalmış ürəkdə.
Xitab oldu: - Sən ey dərgaha məqsəd!
Çəkinmə, istə, istərsən nə hacət.
Xəsislik bilməz aləmdir fəzilət,
O, dərhal istədi bir xəznə – rəhmət!
Günahkar ümmətə etdi dua həm,
Nə istərdi, xuda gördü rəva həm.
Kəramət xələti geydi əcəb xas,
Böyük bir xəznə aldı, adı ixlas.
Hilal idi o, getdi, bədr gəldi,
Gül oldu, sərvi üçün qədr gəldi.
Gətirdi xalq üçün şadlıq bəratı,
Cəhənnəmdən bir azadlıq bəratı.
Sənin canın üçün, ey nazlı gövhər!
Ola bizdən sənə hey afərinlər!

## NƏSİHƏT VƏ KİTABIN SONU

Nizami, yaxşı bax, olduqca sən sağ,
Mən istərdim həmişə alçal ancaq.
O dərya bəsləyən dürrə fikir ver,
O, alçalmaqla başlarda tutur yer.
O bir dən düşdü, torpaqda ucaldı,
O sünbül qalxdı, ondan gör nə qaldı!
Çalış düz, çərx olubdur tünd xislət,
Ayaqdan kütdür ömrün, eylə himmət.
Zəhərlənmiş hava, tozlarla yol get,
Tapılmazdır dava, dərdi qəbul et.
Təbib əfsun satır, nəymiş bu ruzgar?!
Riyakardır, geyir on rəngli paltar.
Edər neştərlə guya cana məlhəm,
Edər turşuyla səfraya dəva həm.
Qulaq çartməklə eylər başa dərman,
Səyavuş qanı-qardaş qanı hər an.
Bu məlhəmlə yara bitməz, sağalmaz,
Bu dərmanla bu dərdə çarə olmaz.
Beşikdən çıxma, barmaq sor uşaq tək,
Qanınla gəl düzəlt süd, bal, nə etmək!
Get əncirdən həmən şad olmaq öyrən.
Həm əmcək, həm uşaqdır, süddür eynən.
Bu atlas taxtanı zənn eylə şahmat,
İki topla o oynar, eyləyər mat.
Təəssüf ki, bu çox qorxunc oyunda
Gəlirsən üzbəüz torpaqla sonda.
Bu çadırda ayaq bağlı nə gəzmək?

Sənin boynunda bağlar var, nə dözmək?!
Çıxar dar çəkmədən tez gəl ayağı,
Edər dar çəkmə mütləq şil ayağı.
Qədəm bas bir yola, getsən, yetərsən,
Düşün ki, görmədin bu kəndi heç sən.
Əgər bir şadlıq olsa, yüz də qəm var,
Əgər bir gül bitər, var onda yüz xar.
Cavanlıq turş, acı dad ilə bitdi,
Ömür səfra və sevda ilə getdi.
Həyat vaxtında olduq xəstə halda,
Haman vəhşi o qurdlarla çuvalda.
Ölüm vaxtında yüz qəm, yüz kədər, dağ!
Bu qurdlardan qaçıb qurda yem olmaq!
Bizim köç yurdumuz olmuş vilayət,
Vilayət yox, o, zindandır həqiqət.
Tapıb qızdırma az qızmarla, bax, can,
Sərinlik bağrımızda qar suyundan.
Qanad tökdük yağan tək tük qədər qar,
Hamı heyvan tükündən geydi paltar.
Ayaq buymuş, hara mümkün, de, qaçmaq?
Qanad buymuş, hara mümkün, de, uçmaq?
Bu halla doymuruq zülm eyləməkdən,
Zəif zalımlarıq bir çəngə, əhsən!
Görüb tək bir qarışqa, zülm edən kəs
İlandan bir gün almazmı əvəz bəs?!
Özüm gördüm, gedirdim yolla, bir quş
Qarışqa ovlamaqçün pusqu qurmuş.
Qarışqa dimdiyindəykən haman dəm
Bir ayrı quş gəlib tutdu onu həm.
Pis iş tutsan, bəladan olma qafil,
Təbiətdə əvəz vardır müqabil.
Ədalət güzgüsüymüş sanki göylər,
O, səndən hər nə görmüş, zahir eylər.
Pis iş tutdun, düşər dünyaya bir səs,
Edir öz canına pislik edən kəs.
Eşitmirsənmi söylər daim aləm,
Qazıb hər kəs quyu, düşmüş özü həm.
Bu varlıq mülkünü zənn etmə boş sən,
Bu yer-göy boş deyil bir hökm edəndən.
Nə daş vardırsa dəryada, ya kanda,
Nihan bir dür və ya yaqut var onda.
Bu ibrətdir, görən göz korsa bizdə,
Nə bilik gül və ya ot bitdi düzdə.
O İsa misli tapsan tutiya sən,
Edərsən ot kökündən bir dəva sən.
Tutaq gəldin vücud üçün sən əttar,
Yaxar olsan da ud axır bu odlar.
Sən elminlə o Calimus da olsan,
Gedərsən Calinus tək burdan asan.
Ölürsə hər kəs axırda görüb dərd,
Nə bir yunanlı Əflatun, nə bir kürd?!
Nəsihət dinləyək, söhbət budur bax!
Bu ölməkdən qabaq ölmək bacarmaq!
Xilas ol göz yumub qəmlə, məlalla,

Qəfəsdən tuti qurtardı bu yolla.
Qaba paltar bu qurd ilə əgər sən,
O Yusif tək yüz andla dostluq etsən,
Elə bağlar o ləbbadə öküzlə,
Bu gözlə gülsən, ağlarsan o gözlə!
Nə bilmişsən, belə bir həftxandan
Nə qurtulmuş sümükdən, ya ki qandan?
Bu şüşəylə nə çox sən su çilərsən?
Bu xəlbirlə nə çox torpaq ələrsən?
Bu doqquz mətbəx içrə, qansan az-maz,
Bu dörd ev həm yəqin daimi qalmaz.
Gələr bir vaxt, olar həm vaxt axir,
Nə gizlin var, edərlər onda zahir.
Fələkən toz da görməzsən sən onda,
Görərsən bir qəlib var həm sən onda.
Götür ruzi, demə orda ələf var,
O dürrü burda tap, orda sədəf var.
Bu mişkin rəng sədəflər içrə pünhan,
Nə çox dürlər! Sən axtarsan, taparsan.
Görərsən bir yeni ayinli pərdə
Nəvazişlər, nəvalar pərdələrdə.
Qədimlər çox təmiz sözlər demişlər,
Nə söz? Mirvari deşmiş, bal yemişlər.
Qonan tozlar və dövr etdikcə ruzgar
Haman mirvarini sürtər, saraldar.
Bəzənmiş bir qarıysa köhnə sözlər,
Qızıl Zal bəs bu ənqadan nə gözlər?[170]
Deməzdim təzə nə, köhnə nə əslə,
Dedin Dəğanuş – o, olmaz bir arpa.[171]
Bu beş yüz yetmiş altı ildə hər hal
Gözəllər görmədi xətdə bu cür xal.
Məni bildim ki, hər yerdə sevən var,
Yanında hər kəsin bir gülbədən var.
Qırıb tilsimləri atdım haman mən,
Tutub hər beytə bərkitdim nişan mən.
Məni görmək diləsə, istədim, kim,
Görünsün ta ona surətdə məğzim.
Can örtünmüş, bədən, neynək, budur bu!
Mənəm Yusif, həmən köynək budur bu!
Bu dilbər məhv olub getməz, eşitsən,
Əgər gözdən gedər, getməz ürəkdən.
Nə gizlin var, bizimçün oldu zahir,
Desən Xızr ordadır, həm Xızr hazir.
Nizami həm oxunduqda bu dastan
Görərsən orda hazırdır o, pünhan.
Sənə hər beyti bir sirr anladan kəs,
Nə cür səndən qalar gizlin desən bəs!?
Yüz il sonra soruşsan hardadır o,
Deyər hər beyti ki, bax burdadır o!
Bu işdə bir ipək qurdu olurkən,
Yedim bir yarpaq, ərz etdim ipək mən.
Haram olsun su içsəm, bişməmiş, xam,
Mən ağzımdan dinib çiy söz çıxarsam.
Gecə bir xəznə tapmazsam, nə yatmaq!





Qıfılsızdır xəzinəm, qalx özün bax!
Əsil bir torpağam zəhmət çəkərkən,
Bir arpayla yaratdım xəznələr mən.
Əgər dəndən yesəm əvvəl bir az həm,
Biçin vaxtı dəni xərmənlə verrəm.
O torpağa ola minlərlə əhsən!
Verər bir xəznə, alsa bir ovuc dən.
Nizamiylə paxıllıq etsə hər kəs,
Görər ahsız nəfəs, yaşsız da göz bəs.
Buyur bax, hər gecə kan qazmağım var,
Nə kan qazmaq, haman can qazmağım var.
Mən ağzımdan çıxan hər bir söz üçün
Döyüşdüm döş-döşə qəlbimlə hər gün.
Yüz od-ataşla yandırram damağı,
Gətirrəm hasilə bir şəbçırağı.
Və göndərrəm ki, şahın xəznədarı
Verə arpa, deyə əfv eylə barı.
İlahi! Pusqu qurmuş söz qapanlar,
Hasar çək, qoy xəbərsiz qalsın onlar,
Olar söz yaxşı da, bəzən yaman da,
Hamı olmaz ha istər xoş gümanda.
Kimə mənə nadir bir pay nəsibdir,
Bilər nadirdir, üslubum qəribdir.
Əgər şirsən, qərib yıxma, dayan sən,
Olar itlər qərib insanla düşmən.
Bu torpaqdan, sudan qorxum yox, aşkar,
Ki, əynimdə qızıl gündən zireh var.
Qılınc əldə gəlib inkar edən çox,
Onun şəmi sönüb ancaq mənim yox.
Məni kim gördü, söz qaldı dodaqda,
Uzunluq dildə yox, bitdi qulaqda.
Dizi üstdə oturdu sanki İsa,
Bir eşşək əldə etdi burdan amma.
Hər ulduz yaxdı şam sayəmdə asan,
Günəşlik məndən öyrənmir bir insan.
Yolum üstündə bir zərrə görüb mən,
Ucaltdım bayrağını ərşə yerdən.
Mənim canıma vursa bir ağız daş,
Dönər dürrə bu almaz ilə birbaş.
Dağam mən, bax su alsa kimsə məndən,
Səpərkən üstümə içdim onu mən.
Bu dəryadan bulud tək süs tapırlar,
Satır qarşımda, gizlincə qapırlar.
Nə səbrim var ki, hindumu görürkən,
Yuyən tutdum ona türklər kimi mən.[173]
O, çaldı pərdəsiz, gördüm xoş ayin,
Bu bir sərçə, dedim buymuş ki, şahin!
Görüb qarğanı, axtardım göz ancaq,
Ədəbsiz gördü məndən xoş söz ancaq.
Yeyirkən bir qulağım acı bir söz,
Susur digər qulağım, söyləyir döz!
Bu tufan dövrü ustadlar sayağı,
Küləkdən gözlədim daim çırağı.
Yanarsa bir çıraq hansı diyarda,

Ona bir yağ verər hər aqil orda.
Əgər burda bir ənbər şam saçar nur,
Səpər hər kəs soyuq yellərlə kafur.
Alarsan zəhrimar, versən şəkər sən,
Söyüşlər gözlə, göstərsən hünər sən.
O dəryatək ətəkdən dürr verdim,
Yaxam doldu mənim daşlarla gördüm.
Bu torpaq üstdə bir yol qoymayan daş
Atır yaş kərpicəm guya hər an daş.
Olub şirin elin ağzı dilimlə,
Yedim qatil zəhərlər öz əlimlə.
Dəyirman işlədən yüyrək öküzkən,
Töküb yollarda dən, gəzdim özüm dən.
O şimşək tək gülüşlər səpmişəm xoş,
Məni qərq etdi su, yandırdı ataş.
Nə nalə, xəznə könlüm, hər ilandan?
İlansız bir xəzinə görməz insan.
Tovuzlar çıxsa cənnətdən o anlar,
Olar bir həlqə tək dərban ilanlar.
Tovuz xallı, ilan xallı, xəbərdir
Ki, onlar bir ağa üçün nökərdir.
Bu munis nəqşə iqdiş bir nigardır,
Ata hindu, ana türk aşikardır.
O, misdir, örtüyü bir kimiyadır,
Yanıldım: xəznəilə əjdahadır.
O, bir dürdür, yeri dəryalar olmuş,
Çıraqdır nurlu, xaç üstə qoyulmuş.
Götür dürrü, o dəryanı burax sən,
Xaçı rəd eylə, varkən bir çıraq sən!
Demə ataşgaha yol göstərir bu!
De, qanla yoğrulan sözdür, bu, doğru!
O, bakir bir gəlin, var taxt ilə tac!
Durub əvvəldə tovhid, sonda merac.
Ey allah, hər xəta üz verdi məndən,
Özün əfv eylə, sən əfv eyləyənsən.

## QIZIL ARSLANIN NİZAMİNİ GÖRÜŞƏ DƏVƏT ETMƏSİ

Mənim cadu kamalım dadə yetdi,
Bu dilbərdən məni asudə etdi.
"Mübarəkdir!" eşitdim hər kamaldan,
Keçir "ağlın yolu birdir" xəyaldan.
Mən etdim bəxtdən bir növ gileylər,
Qolum güclü, yolum haq, bəxt neylər?!
Kamandan bir zaman çoxlu ox atdım,
Hədəf ram olmadı, durdum çox atdım,
Bilirdim birdən oynarsa şikayət,
Tapar gövhərsatan qiymət nəhayət.
Bu gərdəkə niqab altında ay var,
Keç aydan, söz günəşdəndir, o, parlar.
Nə təriflərlə məndən aldı onlar,
Ucaldıb göylərə, səs saldı onlar.
Alıb vəd etdilər çox mülk, çox mal,

İnanmaq çox çətin gəldi bu minval.
Kəsilmək görməmiş çini ipəklər,
Havadan görmüş ancaq mişk, ənbər.
Haman şahlara layiq yorğa köhlən,
Kəyani tuğ, cilov xaliscə zərdən.
Verilsin bir xəzinə, getdi söhbət.
Qulam beş cüt, kəniz həm beş, nəhayət!
Bəyənməklər, özün bax, harda qaldı,
At axsaq düşdü, yük yollarda qaldı.
O insan ki, bəyəndi getdi burdan,
Əkilmiş tarlanı biçsin o, hardan!?
Dedim çox-çox təəssüflər bu sözdən.
Qılınc çaldım bu cana şam kimi mən.
Bu vaxt qasidlə bir məktub yetişdi,
Salam verdi, oturdu, dürr deşdi.
"Otuz günlük səfər var, qalx, ol agah,
Otuz fərsəng olar gəlmiş yaxın şah.
Səni şah istəyir görsün beş-üç gün,
Qıfıl qalsın səninçün bağlı neyçün?!
Bu şahdandır deyib verdi o, fərman.
Bu yolda tilsimindir, həm də darğan.
Tutub fərmanı başımda haman dəm.
Öpüb üç yerdən, açdım məktubu həm.
Baxıb mən hali olduqda əmirdən,
Açar tapdım ki, çıxmışdır dəmirdən.
Haman dəm xidmət üçün tezcə durdum,
Minib bir köhlən at, üstdə oturdum,
Şəhərdən tez çıxıb getdim soraqda,
At oynatdım o günlər düzdə, dağda.
Marallar qaldı arxamda qaçışda,
Baxıb quşlar xəcil qaldı uçuşda.
At oynatdım, təbim bilmirdi doymaq,
Mənim altımda köhlən məndən oynaq.
Edirdim yolboyu səcdə qələm tək,
Gedirdim, getdiyim yollar mübarək.
Keçib hər getdiyim yerdə adamlar
Dua ilə haman şahı salamlar.
Düşüb hər çeşmədən içdikdə mən su
Duayla şaha mən ömr etdim arzu.
O çaydan, dağdan əsməkdəydi yellər,
Verirdi şah lütfündən xəbərlər.
Onun mişk ətri ilə yolda hər dəm,
Ətir saçdı xam ənbər misli yer həm.
Əziyyət bitdi, mən məqsudə yetdim,
O şah dərgahına hey səcdə etdim.
Gedib qasid o dəm bildirdi: - Ey şah!
Gəlib dəryaya yetmiş çeşmə nagah.
O sultan durdu cövhər xanəsindən,
İşıqlar tapdı şam pərvanəsindən.
O: - Şəmsəddin Məhəmməd, tez – dedi – qalx!
Gətir, durma, mübarək zahidi, qalx!
Çıxıb gəldi saraydan hacibi – xas,
O dəryadan çox inci gördü qəvvas.
Məni şah məclisinə etdi varid,

Gedib Ay bürcünə düşdü Ütarid.
Oturmuş şah günəş tək həm yerində,
Qürurla Keyqubadla Cəm yerində.
Ona baş əyməyə həsrət fələklər,
O sərhəngdən Ayın köksündə xəncər.
Onun tacında sonsuz bir cəlal var,
Alıbdır Qeyrəvandan qırda paltar.
Onun sərhəddi Səqsinlə Səmərqənd,
Ayıq sərhədçilər durmuş kəmər bənd.
Açılmışdır qapı burda yük üçün,
Qalanmış yük-yük üstə burda hər gün,
Səxasından görüb hər kəs bəhər həm,
Kim almış bir şəhər mal, kim şəhər həm.
Çəkik gözlər hasar çəkmiş qılıncdan,
Keçər müşkül gələ ordan Qədərxan.
Dənizdir dalğalı, gör mavi rəngi,
Onun həm dürrü vardır, həm nəhəngi.
Qızıl şah əyləşib taxta, odur təxt.
Tutubdur başda dövlət tacı həm bəxt.
O şahlıq məclisi cənnət bir aləm,
Hovuzlar mey dolu, hər yan gəmi həm.
İnild ərğənun, nalə edər çəng,
Ucalmış Zöhrəyə xoş nəğmə, ahəng.
Tutur mütrüb ipək tellərdə ahəng.,
İpək köynəklilər cırmaqda köynək
Müğənni nəğmə söylər tellər üstə,
Rud istər bir yeni ahəng, bəstə.
Nəvalar müxtəlifdi pərdələrdə,
Nəvaziş müttəfiq məlhəmdi dərdə.
Odur çəngin sədasıyla gözəllər
Deyirlərdi Nizamidən qəzəllər.
Qədəhlər təngə gəlmiş saqilərdən,
İçən şah idi, məst olmuşdu düşmən.
Xəbər verdikdə gəlmişdir Nizami,
Çoxaldı, artdı şadlıq ehtişamı!
O dəm əmr etdi, getsin ortadan mey,
Məni etməkçün etdi razı hər şey.
Olundu şaqilər xidmətdən azad,
Çalanlar səcdə etdi, oldular şad.
Bu cür əmr oldu ki, getsin şərab, cam,
Nizamiylə olaq hər gün, hər axşam.
Onun nəzmi gözəldir rud səsindən,
Onun nitqi müğənni nəğməsindən.
Xızır gəlmiş, nə lazım mey büsatı,
Xızırla qoy tapaq abi-həyatı.
Gəlib xas hacib ərz etdi: - Dayanma,
Sən ey hər elmə hakim, dur, yubanma.
Gedirdim mən söyüd tək canda lərzə
Günəş səmtə gedirdi sanki zərrə.
Başım, boynum əyilmiş halda getdim,
Dedim, bəlkə önündə təzim etdim.
Çox istərdim ayağından öpüm mən,
O qalxdı asiman tək tez yerindən.
Məni ağuşa çəkdi tezcə candan,





Qarışqayla oyun qurdu Süleyman.
O təmkini görüb coşdum dəniz tək,
Qucaqlaşdım iki aləmlə bərk-bərk.
Ayaq üstündə mən xidmətdə durdum,
Onun iqbalı əmr etdi, oturdum.
Sınıq mücrüm qapı açmışdı nagah.
Sözümdə düzlüyü artırdı allah.
Dedim sözlər ki, tale verdi fürsət,
O sözlər ki, bəyənmiş taxt, dövlət.
Dedim şahlara layiq çox nəsihət,
Çətin müşküllər açmaqçün vəsiyyət.
Zərafətlər dedim, xoşlardı Rizvan,
Gülər dinlərsə onları hər insan.
Ona paludə verdim çox şirin mən,
Şirin gülməklər üçün gizli qəsdən.
Onu mən bəzən ağlatdım bulud tək,
Dönüb gül tək də güldürdüm yaman bərk.
Elə sözlər dedim, şah dindi: - Əhsən!
Ağıl durdu, cəhalət yatdı bərkdən.
Apardı saqilərdən huşu nəğməm,
Unutdu mətnini xanəndələr həm.
Gəlib ravi, ağızdan saçdı dürlər,
Sana ərz etdi, zinət, tapdı yerlər.
Ayaq üstündə durdum azca müddət,
O, and içdi, oturdum, bəh nə hörmət!
O gündən harda oldumsa o qayda,
Oturdum fəxr ilə daim mən orda.
Sözüm xoş gəldi şaha, oldu xoşhal,
Şirinlikdə o, etdi ağzını bal.
Gəlib şirinliyə yetdi hekayət,
O "Xosrov-Şirin"üstə gəldi söhbət.
O sultan çiynimə əl qoydu asta,
O təhsinlər mənimçün oldu sırğa.
Şəkər dillər töküb göstərdi rəğbət,
Dedi Xosrovla Şirindən hekayət
Ki, gövhərlərlə qoydun bir təməl sən,
Dedin sənətdə sözlər çox gözəl sən.
Dedin çoxlu hekayələr, nə qaldı?
Bizim tarix yeni bir surət aldı.
Nə bir güldə bu cür tər bir hava var,
Nə bülbüldə belə tər bir nəva var.
Açıb hər beyti etsən sən qiraət,
Olar zeytundan iflic sanki rahət.
İpəkdir odda yanmaz təlqə düşmüş,
Nə buzdan donmuş o, nə odda bişmiş.
Nə halvadır bişirdin qaynadıb sən.
Deyər hər kim yesə, mütləq min əhsən!
Məzən süddən də şirindir, verir can,
O şirinlikdə yoxdur bircə nöqsan.
Elə şirindir atlanmış o dilbər,
Gözəllikdə duvaq örtmüş sərasər.
Onu etdin bu dişlərçün halal bəs,
Nə diş muzdu alar o zülf, o xal bəs?!
Maaş kəssək səninçün qardaşım, mən,

Anandan əmdiyin süddür, düşün sən.
O qardaş ki, cahana hökmrandı,
Cahan üçün o, şah, həm pəhləvandı.
O dastan ki, çəkib illərlə zəhmət,
Yazıbsan sən, nə verdi, muzd sərvət?
Eşitdim qürə atmış şah bir gün
O, mülkündən iki kənd vermək üçün.
Nə dersən, kəndi hə, yox, verdilərmi?
Sənə fərmanını göndərdilərmi?
Bilirdim, vermək istər feyz dərya,
Götürsün bəhrə tacir, buydu mənə.
Olar viranə torpaq bir də abad,
Bu möhnətdən olar bir kimsə azad.
Dua etdim onun bəxti üçün mən,
Bəzəndi taxtı gövhərlə sözümdən.
Dua etdim mən əvvəl, dinlədi şah,
Onu etdim işindən çərxin agah.
Bu daş-qaşlı taca yaqutu öndən
Baha üçün, demə, bənd etmişəm mən.
Saray gördüm ki, Keyvana ucalmış,
Misilsizdir, cahan heyrətdə qalmış.
Naxış vurdum, cahan ta var bu sənət,
Desin bəh, bəh, kim eylərsə qiraət.
Mənim fikrimdə bu şirin fəsanə
Dua üçün olub şaha bəhanə.
Dil açdım ki, o şaha şükr edim mən,
Nə lazım yoxsa söz Şirin, Şəkərdən.
Bu bir sözdür adı: "Kərpic və bənna",
Çörək yoxkən edər turşu təmənna.
Çörək yox, kərpic aldıqda zamandan,
O, turşu almadı, əl çəkdi candan.
O xoşbəxt şah özü xas nemətindən
Qəbul etdi o cür ki, söylədin sən.
Ömür dəryasını atdı cahandar,
Nə tənha mən, cahan gördü ziyanlar.
Sənin tək şah əgər varsa yerində,
Haman şahzadələr həm qənşərində.
O bəxşişlərdən artar şeirə rəğbət,
Tapar bazarım ondan xeyli vüsət.
O kəndlərdən əgər şah versə bir kənd,
Açar şahzadələr qeyri düyün, bənd.
Xəzinə bəxş edən şah güldü sözdən,
Açıldı sübh tək bir də bu üzdən.
Bəyəndi şah mənim həmdü sənamı,
Səmimiydi nə ərz etdim məramı.
Mənim həmdü sənamla tutdu ülfət,
O, Həmdünyanı bəxş etdi, nəhayət.
Mənimçün mülk verdi, yazdı fərman,
Qızıl şah möhrü üstündə nümayan.
"Verilmişdir ona bu kənd təmamı,
Ona sahib nəsillərlə Nizami.
Onundur mülk, ona çatmış əvəzsiz,
Onundur ta qiyamət haq, bilin siz.
Bu haqqa kim inanmaz, narəvadır,

Ona mən düşmənəm, şahid xudadır.
Ona tən etsə dövrün bir xəsisi,
Onun vəhşətlər olsun qoy ənisi!
Zaman ta var ona min lənət olsun!
Onun nəslinə lənət qismət olsun."
Bir işdən düşmüş üçün iş düzəldi,
Açıldı həm xəzinə, lütf gəldi.
İçim güldü ilahi mərhəmətlə,
Çölüm süsləndi şahanə xələtlə.
Yetişdim mən hüzura, verdi fərman,
İzin verdi. Geri döndüm yanından.
Gedib gördüm onu, məsuddu baxtim,
Geri döndüm, necə Mahmuddu baxtim.
O cür getdim ki, getmiş həccə hüccac,
Qayıtdım sanki Əhməd etdi merac.
Eşitdim, sən bilənlərdən bir oğru,
Paxıl, sözbaz, rəzil, guya ki, doğru,
Doğub bir qurd sifət Yusif, nə tədbir?!
O, halvayla verib almaz yedirdir.
Ki, dünya qədrini ey bilməyən kəs,
Neçindir bir belə alqış, dua bəs?!
Ayağından fələk öpmüş gəlinçün
Viran bir kənd olub üzgörmə neyçün?!
Nə kənd, dar bir kürə, ondan deyil gen,
Yarım fərsəng olar onda uzun, en.
Nə daxl ondan, nə xərc, eh, torba dolmaz.
Yarımhaqqa əkər gəlsə hər abxaz.
Baxımsızdır, pozulmuş göz nə görsə,
Yeyir kafir, müsəlman nə bişirsə.
Paxıl şəxsə bu cür verdim cavab mən,
Mənəm nemət yeyən, gen dur sözündən.
Ayaq altı qazırsan, bundan əl çək,
Xarab bir kəndə düşmə sən bir ay tək.
Nədir həmdim, nədir Həmdünyan gör!
Bu həmd ondan on artıqdır əyan gör.
Əkin varsa həman kəndin düzündə,
Nə sənət var mənim gör hər sözümdə.
O bir dəndən verirsə çoxlu sünbül,
Mənim çox dürlərim açmış qızılgül.
Meşə, vardırsa onda çoxlu möhkəm,
Mənim vardır qəmari ud meşəm həm.
Fəratın feyzidir, varsa su onda
Verər abi-həyat nitqim hər anda.
Bir ölkə qiymətində mən xəzinə,
Dəyər versən, həman torpaq sözü nə?
Bu yerdə amma qüdsi bir səbəbdən
O haqqın rəhminə şükr eylərəm mən.
Səbəb şükr etməyə zənn etmə maldır,
O üzdəndir nə aldımsa, halaldır.
Nə bir xalvar sədəf, mərcan gözəldir,
Bir az saf su o tufandan gözəldir.
Şahın fikrində kənd vermək deyil söz,
On artıq bəxş edərdi, versə baxt üz.
Məni sultan baxıb çox qane gördü,
Uman şəxsə uyar bir mülk verdi.
O kənddən bircə bu bəsdir mənimçün,
Cəhad əzmindəyəm mən burda hər gün.
Bu xalq olduqca öncüllə axıncı,
Çəkib mən hər gecə himmət qılıncı,
Həman qayda qılıncla oynayarkən,
O kafir boynu vurram qazi tək mən.
Əgər mən qaneəm, bəxşiş verən şad,
Füzulluqdan kənar dur, eylə imdad...
Deyirdim mən nələr, köç harda qaldı,
Gedirdim yol, atım yollarda qaldı,
Gəlib beş növbə çaldırdı o sultan,
Yuyuldu fitnə bir yolluq cahandan.
Calalı ərşə beş növbə yetirmiş,
Nüfuzundan cahan həcmi itirmiş.
İki aylıq yola təbli salıb səs,
O, hazırdır köçə, bilməzdi bir kəs.
O təblin nərəsi millər gedərdi,
Bu bir köç təblidir, kim zənn edərdi.
O, taxt üstündə şahlıq çox az etdi,
Çaxıb şimşək kimi tez söndü, getdi.
Nə bar gördü o gənc bağdan-bağatdan,
Nə Zülqərneyn tək abi-həyatdan.
Şəhid oldu yaman əllərlə canı,
Ola bundan gözəl digər cahanı!
Uçuq mülkü atıb qeyri yol aldı,
Keçib torpaq, sudan ərşə ucaldı.
O dərya getdi, dürlər var yerində,
Açar çoxdur, qapı təkrar yerində.
O gövhər əsli səmtə getdi çox bərk,
Bu varis gövhərə, dünya mübarək!
Onunçün verdi rəhmət feyzi saqi,
Cahan olsun bu varis şaha baqi!
Bu torpaq taxtabənd etdi o şahı,
Bəlalardan iraq olsun bu şahı!
O, tacdan oldusa, olsun riza tac!
Bu şahlar şahına olsun bəqa tac!
Xüsusən, şahların mülkündə varis,
Xeyir sözlü dua söylənsə bais,
Xudadan yardım almış Nüsrətəddin,
Adından varlıq almış nur min-min.
O şahlar arxası Əzəm Atabək
Firidun tək bu dünyaya mübarək!
Əbubəkri Məhəmməd göstərib dad,
Məhəmmədlə Əbubəkri edir şad.
Qalıb ağlına heyran yeddi ulduz,
Olub doqquz fələk bir qul qüsursuz.
O, taclar bəxş edən bir tacidardır,
O dövlət şahlarından yadigardır,
Ucalmış taxti ulduzla bərabər,
Atı dımaq qoyar ərşə sərasər.
Onun taxtında ulduzlar ayaqdır.
Səməndi dımağı göydən uzaqdır.
Onun taxtı səbəbkar olsun allah!





O olsun ölkələr fəth eyləyən şah!
Cahan durduqca şah olsun cahana!
Nələr istərsə qoy versin zamana,
Yetib kama, səadət yarı olsun!
Səadətlə keçən ruzgarı olsun!

Səadətlə sözü burda bitirdim,
Sözüm bitdi, onu bükdüm, götürdüm.
Nizami, kim deyər rəhmət səninçün,
Sevinsin, şadlıq etsin ruhu il, gün!

# LEYLİ VƏ MƏCNUN

## İNSAN DÜHASININ ƏLÇATMAZLIQ NÜMUNƏSİ

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi dünya ədəbiyyatının nadir ədəbi simalarından biridir. Onun poeziyasında hər bir mövzu və hadisə mütəfəkkir şair qəlbindən keçərək, dərin ictimai və fəlsəfi məzmun almışdır. "Sirlər xəzinəsi", "Xosrov və Şirin" poemalarından sonra "Leyli və Məcnun" mövzusunda əsər yazan şair bu mövzudan istifadə edərək, insan və zaman, təbiət və cəmiyyət hadisələri ətrafında rəngarəng düşüncələrini əks etdirmişdir. Belə bir mövzuda əsər yazmağı ondan Şirvan şahı Axsitan xahiş etmişsə də, Nizami heç də ancaq dövrün şahlarını təmin edəcək əsər yaratmamış, daha çox öz narahat düşüncələrini qələmə almışdır.

Nizami Gəncəvi 1188-ci ildə dörd ay müddətinə yazıb başa çatdırdığı "Leyli və Məcnun" poemasını işləyərkən bu mövzu ətrafında ciddi axtarışlar aparmış, mənbələrlə tanış olmuşdur. Axsitan ondan bu "gəlini" fars və ərəb bəzəyi ilə bəzəməyi tələb edərkən də məhz Leyli və Məcnun mövzusu ilə əlaqədar farslar, ərəblər arasında geniş yayılan əfsanə və rəvayətləri nəzərdə tutmuşdur. Əfsanələr, rəvayətlər isə hər hansı bir hadisə, fakt əsasında yaradılmış bədii sözdür.

Nizami Axsitanı düzgün başa düşərək, mənbələri diqqətlə öyrənir. Öyrəndiklərini sədaqətlə ümumi poetik axına yönəldir, yeni qəlibə, yeni formaya salır. Şair "o farsdan doğulan əfsanə yaradan ərəbin halından belə xəbər verir" və başqa bu kimi qeydlərlə Axsitanın "ərəb və fars bəzəyi" tələbinə riayət etdiyini nəzərə çatdırır. Burada ərəblərə və farslara məxsus naxışlar, görüşlər, poetik zövq, şairanə deyimlər də nəzərə alına bilərdi. Nizaminin "fars və ərəb bəzəyi" anlayışını məhz göstərilən mənada anladığını onun poeması və ərəb mənbələrinin bu əfsanə ilə əlaqədar qeydlərinin müqayisəsi də təsdiq edir.

İbn Küteybə, Əbülfərəc İsfahani, Əl-Valibi kimi müəlliflərin əsərləri ilə Nizami poemasını müqayisə edən alimlər bu qənaətdədirlər ki, Nizami bu ölməz əsərini yazarkən həmin müəlliflərin əsərlərindən faydalanmışdır. Şair İran və Azərbaycanda da geniş yayılan əfsanələrdən bəhrələnməmiş deyildir. XI əsr Azərbaycan şairi Qətran Təbrizinin tez-tez sadiq, nakam sevgililər kimi Leyli və Məcnunu xatırlaması göstərir ki, Leyli və Məcnun haqqındakı əfsanə ədəbi dairələrdə Nizami əsəri yazılandan çox-çox əvvəl məlum və məşhur idi. Qətranın özünün də Məcnun haqqında ərəb mənbələrindən məlumat alması mümkündür. Onun bu məsələdə sərbəst hərəkət etməsi, oxucuya məlum, məşhur hadisə kimi Leyli və Məcnunu xatırlaması isə əfsanənin ərəb mənbələrindən əlavə ədəbi ictimaiyyət arasında da geniş yayıldığını təsdiq edir. XI əsr İran şair və nasiri Nasir Xosrov da bu əfsanənin maraqlı olduğunu qeyd edir, lakin onu daha çox bədəvi ərəblərin mühiti ilə əlaqələndirir, Taifdə Leylinin yaşadığı qəsrin xərabələrini göstərdiklərini, maraqlı hekayələr danışdıqlarını yazır.

Nizaminin poemasında mövzunun bəlli, məşhur olması dəqiq göstərilir. Onu Axsitan da, Nizaminin oğlu Məhəmməd də yaxşı bilir, anlayırlar. Axsitan Məcnunun böyük eşqini, bu mövzunun bütün sözlərin şahı olduğunu yazır. Şairin oğlu 14 yaşlı Məhəmmədin qeydi daha maraqlıdır. Onun fikrincə, "bu gözəl mövzuda böyük sənət var". Nizami özü isə onu "aləmə bəlli bir ayə" sayır, başqa sözlə, əfsanənin yazılı və şifahi şəkildə çox geniş yayıldığını etiraf edir. Nizami gah oğlu Məhəmmədin dililə, gah öz sözləri ilə bu məşhur əfsanənin bədii əsər kimi işlənmədiyini, çılpaq qaldığını da yazır:

Harda ki eşq əli bir süfrə açar,
Bu gözəl hekayə ona duz saçar.
Bu qədər nazəndə, incə bir dilbər,
Nədən çılpaq qalsın bu vaxta qədər?
Onu bəzəməmiş arif əlləri,
Odur ki, çılpaqdır o gözəl pəri.

Maraqlıdır ki, həm Axsitan, həm də şairin oğlu Məhəmməd bu mövzunu Nizaminin hünərinə layiq, ona məhrəm hesab edirlər. Belə çıxır ki, Axsitanın bu mövzuda Nizamidən əsər xahiş etməsi özü də Nizami yaradıcılığına bələd olmağından, dahi şairin ruhən bu mövzuya yaxınlığından irəli gəlir. Sözün sərrafı olan Axsitan Nizami irsi ilə "Leyli və Məcnun" mövzusu arasında yaxınlıq, doğmalıq hiss etdiyindən ondan məhz bu mövzuda əsər yazmağı istəyir. Anlaşılır ki, poema sifarişlə yazılsa da, onun məşhurluğu və məhz Nizami dühasına yaxınlığı belə bir əsərin meydana çıxmasına səbəb olmuşdur.

Nizaminin bu mövzunu işlərkən yerli folklor mənbələrdən başqa, yazılı qaynaqlardan da geniş istifadə etməsi əsər boyu özünü aydın hiss etdirir. Poemanı ərəb mənbələri ilə müqayisə etdikdə görürük ki, Nizami Leyli və Məcnun haqqındakı xırda və pərakəndə, quru və bədii cəhətdən sönük olan müxtəlif rəvayətləri





böyük ustalıqla birləşdirmiş, demək olar ki, heç nəyi atmamış, lakin sənətin sərt qanunu əsasında onu sistemə salıb, kədərli və əzəmətli bir söz abidəsi yaratmışdır. Böyük söz ustası mövzunun imkanlarından istifadə edərək həyat, insanlar, onların əxlaqı, rəftarı, əməlləri barədə narahat düşüncələrini qələmə almışdır.

Nizami insan və zaman probleminə, bu problemin ayrı-ayrı cəhətlərinə poemada dönə-dönə toxunur. Dahi şair doğru qeyd edir ki, insanda hələ nöqsanlar vardır. Bununla bərabər, o, insanı yaxşılığa, gözəlliyə səsləyir. Yaxşı sözü yaman sözdən üstün tutan şair zamanın eyiblərini də çəkinmədən romantik bir pafosla dilə gətirir.

Bir çox sifətlər var insanda hələ,
Almasan yaxşıdır onları dilə.
Pis sözü ağzına alınca insan,
Qarnında öldürsə yaxşıdır, inan.
Bu dünya dolanıb döndükcə ruzgar,
Qoy səndən yaxşı söz qalsın yadigar.

Nizaminin poeması bu həqiqəti sübut edir ki, zaman insana ziddir. Lakin insan zamana qalib gələcək. Qurbanlar, faciələr hesabına olsa da, insan dünyanı insanilləşdirəcək, zamanı dəyişdirəcək, zaman özü də dəyişəcəkdir. Həyatın və təbiətin öz dialektikası var; xərabə olan abad olacaq, pis olan yaxşılaşacaq.

Daim xaraba da olsa bir diyar,
Bil ki, abadlıqdan onda nişan var.
İstər xarab olsun, istərsə abad,
Daimi bünövrə qoymamış həyat.

Bu dialektik düşüncələr göstərir ki, Nizami insanın zaman üzərində qələbəsinə, indi ağa olanın sabah məhv olacağına, bu gün faciə qurbanı olanın sabah vüsala və sevincə yetişəcəyinə inanmışdır.

"Leyli və Məcnun" poeması insan və zaman mövzusu ətrafında şairin düşüncələrindən ibarət möhtəşəm bir poeziya ümmanıdır. Nizaminin "Leyli və Məcnun" poeması ancaq nakam bir eşq macərasının nəzmə çəkilməsi deyil, bəlkə daha çox bu mövzudan istifadə edərək dünya və insan haqqında yaradılmış bədii - fəlsəfi bir əsərdir. İnsan düşünə bilər ki, bütün bu söhbətlərin "Leyli və Məcnun" mövzusu ilə nə əlaqəsi var. Ancaq şairin əsərini diqqətlə oxusaq, anlayarıq ki, bu rəngarəng düşüncələr birbaşa "Leyli və Məcnun" mövzusu ilə bağlıdır. Şair əsərin həm əvvəlində, həm də əsər boyu müxtəlif yerlərdə müxtəlif üsullarla həyat, dünya, dövrün insanları, onların amalları, səviyyələri, əməlləri haqqında söhbət açır, bu söhbətləri də mövzuya yad, kənar bilmir.

Ey varlıq nəqşinin naziri olan,
Qaldır əngəlləri idrak yolundan.
Boş təbli döyərək hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.
Bir toz görünsə də hər zərrə əgər,
Dünya pərdəsində o da iş görər.

İdrak yolundakı əngəllər deyilmi Leylinin, Məcnunun faciəsinin səbəbi? Dünya pərdəsində hər zərrənin bir iş gördüyünə biganəlik deyilmi bu faciəni törədən? Şair bu fikirdədir ki, qəflət, nadanlıq, biganəlik, insanın öz vəzifəsini bilməməsi onun həyatını zəhərləyir, onu düzgün hərəkət etməyə qoymur. Nizamiyə görə, insan dünyaya dünyanın mahiyyətini anlamaq, öyrənmək üçün gəlmişdir.

Qısa söz: dünyada nə sən, nə də mən
Oyuncaq deyilik xilqətimizdən.
Nə şəhvət, nə yuxu, nə də ki yemək
Həyatın mənası olmasın gərək.
Yatmağı, yeməyi bu aləmdə sən
Eşşək, öküzdə də görə bilərsən.
Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi.

Nizami insandan ayıq olmağı, öz insanlıq vəzifəsini yaxşı başa düşməyi, yerlərin, göylərin sirlərini öyrənməyi tələb edir; İnsan dünyaya nə üçün gəlmişdir? Onun burada vəzifəsi nədən ibarətdir? Peyğəmbərə müraciətlə deyilən aşağıdakı iki misra bəlkə də poemada qaldırılan mətləblərin ana xəttini təşkil edir:

Biz kimik, neçiyik, aç göstər artıq,
Büt qayıranmıyıq, büt qıranmıyıq.

Allaha yalvarışlarında da şair dünya və insan haqqındakı düşüncələrindən ayrıla bilmir. Dövründən, bu dövrün mətləblərindən danışan zaman alov püskürür.

İlahi, dar gündə sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim,
Söylə nə vaxtadək bir tikə üçün
Şaha və gədaya yalvarım hər gün...
Vəfasız yaranmış bütün qapılar,
Bir sənin qapında vəfa tapılar.

Bu sətirlər təkcə Allaha məhəbbətin ifadəsi deyil, həmçinin də şairin dövrü, onu əhatə edən mühit, insanlar haqqında narazılıq dolu narahat düşüncələridir. Məcnunu, Leylini, onları əhatə edən adamları da bədbəxt edən, kədər və göz yaşları ilə üzləşdirən məhz həmin mühit və insanlardır. Həyat elə qurulmuşdur ki, insanların içi dərdlə, kədərlə doludur. Burda isə həm də bir ixtiyarsızlıq vardır. Məcnunun atasına verdiyi cavablardan aşağıdakı misralara diqqət edək:

Daşları əridər çəkdiyim kədər,
Kim öz ürəyinə sıxıntı istər?!
Məni pis taleyim təqib edir, bil,
Heç kəs bədbəxtlikdən qurtaran deyil.
Yaxud:
Məzlum mən deyiləm yalnız bu yerdə,
Yüzləri düşmüşdür mən düşən dərdə.
Filin vücudundan milçəyə qədər,
Bu zülmü çəkməyən varmıdır məgər?

"Leyli və Məcnun" poemasında Nizami əsərdəki hadisələrlə bağlı iki müstəqil hekayə də vermişdir ki, bu hekayələr poemanın əsas ideyası ilə birbaşa bağlıdır. Bunlardan ən məşhuru "İt saxlayan padşah" hekayəsidir. Çox vaxt bu hekayə əsərin əsas mövzusu ilə o qədər də bağlı olmayan bir əlavə kimi şərh olunur. Əslində isə həmin hekayə əsərin ideyası ilə birbaşa əlaqəlidir və ancaq dövrün şahlarının zülmkarlığını tənqid etmək üçün qələmə alınmış bir hekayə deyil; on il şaha sədaqətlə xidmət edən, ancaq sonra şah tərəfindən quduz və yırtıcı itlərə atılan gənc əslində Məcnundur. Çöldə Məcnunla dost olan, ona toxunmayan, əksinə, onu qoruyan vəhşilər isə həmin quduz itlərdir.

Nizami bu fikirdədir ki, mövcud cəmiyyət, onun insanları həmin yırtıcı itlər saxlayan və xoşu gəlməyən adamları o itlərə atıb parçaladan padşaha bənzəyir, nəinki bənzəyir, elə onun özüdür. Bu baxımdan hekayənin sonunda Nizaminin dediyi aşağıdakı sözlər təsadüfi deyildir:

Bunu söyləməkdə bir məqsədim var,
Səxavət qəladir, o, can qoruyar.
Məcnun bəslədikcə o heyvanları,
Çəkdi dövrəsinə bir can hasarı.
Hasar ətrafında gəzən hər heyvan
Məcnunun işinə yaradı hər an.
Məcnuna bənzəsən insanlıqda sən,
Dünyada nə qüssə, nə qəm çəkərsən.

Nizaminin təsvirində zülmkar şahın yırtıcı itlərə atdığı gəncə nisbətən Məcnun daha yüksək insani sifət-





lərə malik olduğu kimi onu dəli, Məcnun adlandırıb çöllərə salan, məhvinə səbəb olan cəmiyyət də həmin zalım padşahdan daha zalım, daha eybəcərdir. Quduz itlər saxlayan padşah tərəfindən itlərə atılan gənc şahın xasiyyətini bildiyinə görə itlərə baxanla dost olur, çünki şahın bir gün onu da itlərə atacağına şübhə etmir.

Ancaq Məcnunun heyvanlara qayğı göstərməsində, onlara yem verməsində, ya da ahu və maralı ovçuların torundan xilas etməsində heç bir təmənna və məqsəd yoxdur. Onun bu hərəkətləri böyük sevginin, insanlığın təzahürüdür. Nofəlin Leylini almaq üçün apardığı müharibə uğursuzluqla qurtarandan sonra yenə çöllərə üz tutan Məcnun ovçuların toruna düşən ahu və maralı azad edəyir, onlarla dərdləşir:

Ata öz oğlunu əzizləyən tək
Məcnun da maralı əzizləyərək,
Tutub sığalladı o dildarını,
Bağladı heyvanın yaralarını...
Dedi: "Həsrət çəkən dağlar maralı,
Sən də mi yarından düşdün aralı?
Ey çöl qoşununun gözəl sarbanı,
Dağlar döşündəki çadırın hanı?
Xoş ətrin canandan gətirir xəbər,
Gözün sevgilimin gözünə bənzər.

Nizami Məcnundakı insanlığın, idrakın, sevginin nə qədər güclü, fədakar, təmənnasız olduğunu, onun "idrak yolundakı əngəlləri" necə qətiyyət və cəsarətlə qaldırıb kənara atdığını öz ecazkar sənətinin əlvan boyalarıyla açıb göstərir.

Orta əsrlər şəraitində qadınların oyanması, insanlığını dərk etməsi və faciəsi Leyli surətində əks etdirilmişdir. Məcnun kimi sevən, yanan, duyan, onun kimi şəhid olan Leyli Məcnunun qadın tayıdır. Leylinin də faciəsi köhnəliyin öz yerini yeniliyə könüllü verməK istəməməsi üzündən, onun yeniliyə qarşı qəddar və amansız olmasından yaranır. Orta əsr feodalının mütləq hakimiyyətinin hələ güclü olduğu, lakin sarsılmağa başladığı bir dövrdə Leylinin faciəsi təbii idi. Zaman onun insanlığını, hisslərini, mənəvi sərbəstliyini hələ qəbul etmir, bu barədə eşitmək belə istəmirdi: hələ ona əşya kimi baxır, onu bazara çıxarır, kim çox qızıl versə, ona da satırdı. Zaman belə qanun qoymuşdu ki, qadının düşünməyə, duymağa, sevməyə, seçməyə ixtiyarı yoxdur, əgər o, müstəqil düşüncəyə malik olsa, namussuz hesab edilər, başı kəsilib itə atılardı, ancaq qanundan kənar istəyinə çatmağa imkan verilməzdi. O, əbədi dustaq - əbədi zindanda kədər və göz yaşları içində boğulan, dərdlərindən danışmağa, hisslərini söyləməyə ixtiyarı olmayan bir kölə idi. Leyli zahirən zəmanəsinin tələblərinə baş əyən, əslində isə ona məğrur bir sükutla meydan oxuyan, onun istədiyi, dediyi kimi olmayan, şərin zülmət gecəsində günəş kimi parlayan, içində insanlığın əbədi məşəlini gəzdirən bir insan kimi yaşayır. Hamıdan, hər kəsdən eşqini gizlətməyə çalışan Leyli hisslərin güclü tufanını özündən gizlətməyə, onu tamam susdurmağa, öldürməyə qadir deyildi və bunu Leyli özü də istəmirdi. Leyli istəmirdi ki, kölə vəziyyəti ilə barışan başqa qadınlar kimi olsun, düşmən dünyanın oyuncağına çevrilsin. O, zahirən belə yolla getsə də, həqiqətdə əsrinin qadınlarından seçilir.

Əgər Məcnun mühitlə barışmadığını bildirərək çöllərə düşür, heyvanlar arasında yaşayırsa, düşməndən Məcnun, divanə adı almaqdan çəkinmirsə, Leyli də İbn Səlama həqiqi arvad olmamaqla, öz eşqinə sədaqətini qorumaqla özünü təsdiq edir. Poemanın ilk səhifələrindən başlamış ölümünə qədər Leyli sonsuz bir həsrətlə Məcnunu axtarır, onu görmək, onun şeirlərini eşitmək istəyir. Dərya-dərya qəmli göz yaşları tökən Leylinin daim gözü yollarda, qulağı səsdədir. Dam üstə çıxıb oğrun-oğrun yollara baxması, düşmən tənəsindən qorxub gecələr odlu ahlar çəkməsi, şam kimi yanması, acı-acı ağlaması, tüstüsüz ocaq kimi alovlanması onun məhəbbətinin güclü olmasından xəbər verir. Məcnunla bərabər Leylinin də adı dillərə düşür, bazardan gələn uşaqlar belə Leyli ilə Məcnunun məhəbbət qəzəllərini oxuyur, onların şeirlərini bir-birinə çatdırırlar.

Leyli şeir yazmaqda, odlu, səmimi duyğularını sənətkarlıqla ifadə etməkdə də Məcnundan geri qalmır. Leyli Məcnunu ölənə qədər bir an belə unutmur. Yaz vaxtı qızlarla gəzməyə çıxan Leyli bir küncə çəkilib Məcnun üçün göz yaşı tökür. Leyli Məcnuna nisbətən eşqini dəlicəsinə, coşğun büruzə vermir, o bəzən özünü Məcnundan daha artıq Məcnun adlandırsa, qadın olduğunu da etiraf edir. O, dərdlərini ürəkdə çəkməyi, zahirdə isə özünü başqa qadınlar kimi aparmağı bacarır.

Məcnun başqa qızla evlənmək təklifini qəbul eləmir, bu təklifi edənlərə acığı, qəzəbi tutur. Lakin Leyli

belə deyil. O özünü o dərəcədə toxtaq, təmkinli aparır ki, başqasını sevdiyini ata-anasına demir, onu İbn Səlama ərə verəndə etiraz etmir. Leylinin arxasınca bir çox adamlar düşüb var-dövlət hesabına onu satın almağa can atırdılar. Nizami Leylini bu şəkildə almağa çalışanları dəllal adlandırır. Belə dəllallardan biri də qızılı qum kimi səpən İbn Səlam idi. Leyli İbn Səlama getməyə ona görə etiraz etmir ki, qadın ismətini, adını qoruya bilsin. Qadına münasibət orta əsrlərdə o qədər ciddi, sərt, o qədər ağır idi ki, Məcnuna layiq bir qız olmaq üçün də Leylinin əsas çıxış yolu bu idi. Leyli özünü Məcnundan artıq divanə saysa da, zaman onun qanadlarını daha qısa kəsmişdir:

Bəxtinin ulduzu batan aşiqdən
Min dəfə şiddətli divanəyəm mən.
O hədəf oldusa bu dərdə, yasa,
Bir qadın deyildir o heç olmasa.
Sevda yollarında göstərir hünər,
Kimsədən nə qorxar, nə də çəkinər.
Zavallı mənəm ki, ürəyimdə qəm,
Dərdimi heç kəsə aça bilmirəm.
Qorxuram əhvalım pərişan ola,
Yaxşı adım belə çox yaman ola.

Bu parçada Leylinin eşqi də, faciəsi də çox dəqiq şərh edilmişdir. Qadın olmaq, qorxub çəkinmək, yaman ad qeydinə qalmaq, dərdi heç kəsə aça bilməmək onu Məcnunla ayaqlaşmağa qoymur.

Bəzən Leyli qadını min illərdir köləyə, hüquqsuz əşyaya çevirən qanunlar zəncirini qırıb parçalamaq, daha azad nəfəs almaq haqqında düşünürsə, bunlar ilk düşüncələr olaraq qalır. Ata və ər qorxusu onu qanad açmağa qoymur.

Eşq ürək verir ki, sən də qanad aç,
Bu qarğa-quzğundan kəklik kimi qaç.
Ad ilə namussa: "tərpənmə"- deyər,
Tək uçan kəkliyi qızılquş yeyər.
Bir qadın nə qədər cəsur olsa da,
Yenə də qadındır adı dünyada.

Leyli üçün bu ilk düşüncələrin özü də böyük nailiyyətdir. Leyli düşdüyü vəziyyətlə barışıb qəmlərə boyun əysə belə, düşmənə təslim olmur.

Nizami bu poemada yaratdığı surətlər, təsvir və təhlil etdiyi hadisələr, mətləblər vasitəsilə dövrünün zəngin mənəviyyatlı insan obrazını, fikir, düşüncə və əxlaq mənzərəsini yaratmışdır. Hətta hər bir zərrənin müəyyən bir iş gördüyünü söyləyən ölməz sənətkarın bu əsərində də ən epizodik surət belə mühüm ideya yükü daşıyır, dövrün insan xarakterlərini daha dolğun göstərməyə xidmət edir. Şairin əvvəlki əsərləri kimi bu poema da həyatın özündən gələn zəngin fikir xəzinəsidir.

Dahi şairin "Leyli və Məcnun" poemasını böyük sənətkarımız Səməd Vurğun tərcümə etmişdir. Bu tərcümə haqlı olaraq Nizami əsərlərinin tərcümələri arasında ən yaxşılarından biri, bəlkə də birincisi sayılır. Tərcümənin dilindəki təbiilik, yüksək bədiilik və axıcılıq onu oxuculara sevdirən əsas keyfiyyətlərdir. Nizami əsərindəki ən rəngarəng poetik fikirlər Vurğun tərəfindən o qədər məharətlə tərcümə olunmuşdur ki, oxucu bir tərcümə əsəri oxuduğunu əsla hiss etmir.

Xəlil Yusifli

Ey adı ən gözəl başlanğıc olan,
Adınla başlanır yazdığım dastan.
Sən, ey xatirəsi könlümə həmdəm,
Adın düşməmişdir dilimdən bir dəm.
Bütün varlıqları özün yaratdın,
Bağlı qapılara açardır adın.
Adının qərarı olmadan əvvəl
Qələm tutmamışdır dünyada bir əl.
Ey bütün varlığın həyat təməli,
Yetməz dərgahına bir insan əli.
Sənin tərifindir "təbarəkallah"[1]
Alqış cəlalına, feyzinə, allah!
Yeddi qız, doqquz taxt qapında sənin
Olmuşdur daima pərdə çəkənin[2].
Ey öz varlığı da bilinməz hekmət,
Zahirə, batinə bir sənsən bələd.
Bütün bu canlılar, cansızlar ki, var,
"Yaran" deməyinlə yarandı onlar.
Hökmünlə ruh alır, əql alır bədən,
Yaradan da sənsən, öldürən də sən.
Ey sirr aləminin ulu məhrəmi,
Dolduran, boşaldan sənsən aləmi.
Sənin sifətində öz tərifin var,
Yox sözün yox olur, var sözün də var.
Əmri mütləq olan, ey böyük hünər,
Kainat əmrinlə iki bölünər.
Sən, ey möhtacların ürək dirəyi,
Böyük vicdanların sənsən diləyi.
Ən iti gözlərə sən sürmə çəkdin,
Bağlı qapılara özün baş çəkdin.
Ey ustad, göstərir yazdığın əsər,
Zamanı əvvəldən axıra qədər.
Ağasan, qulundur hər şey dünyada,
Sultan sən özünsən, başqası gəda.
Yolun, işığıdır əbədiyyətin,
Şəriksiz yaranmış bütün niyyətin.
Saysız yaratdığın nemətlər durur,
Bu sirri tapmağa acizdir şüur.
Lütfünlə hər şeyin qeydinə qaldın,
Dünyanı ən yarar bir şəklə saldın.
Axşamın qapqara, səhərin ala,
Atına göyləri yaratdın tovla[3].
Yeddi düyüm vurdun göylərə, birdən
Yetmişi açıldı, bu qüdrətindən[4].
Bir kül qaldıraraq torpaqdan həmən,
Onunla yüz ayna təmizlədin sən.
Hansı bir varağı yazdınsa əgər,
İkicə hərf ilə dedin müxtəsər.
Bir dağ çapmadısa bu kaf ilə nun,
Göy adlı bir böyük Bisütun qurdun[5].
Hardasa dünyanın dövləti, varı,
Bu iki hərfdir onun açarı.
Yanlış bir hərf də yazmadın yenə,
Qoydun hər nöqtəni sən öz yerinə.

Sənin sənətinlə yarandı aləm,
Yoxdur bu sənətdə başqa bir qələm.
Lütf etmən yazığa, sığındım sənə,
Bir söz xəzinəsi bağışla mənə.
Xəzinən bu payla heç də azalmaz,
Başqa xəzinədə bu kərəm olmaz.
Şahlığın, qulluğun öz qismətindən
Hər kəsə bir dövlət, nemət verirsən.
Hər zülmün alovu, məzlumun ahı.
Bir sənə məlumdur, böyük ilahi!
Hələ yazılmamış kitabları sən
Oxuyub aləmə xəbər verirsən.
Əql büdrəmədə, kuyinsə-zülmət,
Yol da ki, tük kimi nazikdir, heyhat!
Köməyim olmasan, ya pərvərdigar,
Bu düyüm əql ilə necə açılar?
Əql işıq alır sənin qapından,
Yanar dərgahına girdiyi zaman...
Ey mənim əqlimə mənalar verən,
Mən axtarışçıyam, sən yol göstərən.
Yollarım qorxulu olsa da bu dəm,
Sən ki, rəhbərimsən qorxan deyiləm.
Yüküm çox ağırdır düşmüşəm gücdən,
Tükənmiş taqətim, de, neyləyim mən,
Nə qorxu, yoxsa da canımda qüdrət,
Sənin köməyinlə işlərəm, əlbət.
Lütfün ki, qəhrindən ayrı deyildir,
Yanında şərbət də, zəhər də birdir.
Əsirəm, şübhəsiz, hüzurunda mən,
Lütfünlə yaşaram, ölləm qəhrindən.
Qoy, içim mərhəmət şərbətlərindən,
Qəzəb badəsini mənə vermə sən.
Qəzəbin layiqsə əzəldən bizə,
Rəhmin də düşmüşdür qismətimizə.
Nə qədər nəfəsim çıxmamış candan,
Əlim ətəyində gəzirəm hər an.
Bir gün can evimdən çıxsa nəfəsim,
Dualar deyəcək adına səsim.
Ölüm səfərinə qoyarsam ayaq,
Adın vücuduma hünut olacaq[6].
Tozlara dönsə də bu aciz bədən,
Hər yerdə, hər zaman məbədim sənsən.
İlahi, nə qədər dünyada sağam,
Sənin xatirənlə yaşayacağam.
Böyük dərgahına girdiyim zaman,
Neylər bu dərgahdan qovulmuş şeytan.
Boynuma asdımsa tilsimini mən,
Qorxmuram divlərin böyüklüyündən.
Mənəm dərgahında bir dilsiz ehram,
Sənin sorağında ləbbeyk vuraram[7].
Ehram sındıranlar çoxdur dünyada,
Bu şərdən məni gəl saxla, ey xuda!
Bəlalar gizlidir, bikəsəm, allah!
Varmı səndən özgə mənə bir pənah?!





Bir sənsən dünyada əlimdən tutan,
Nə versən qailəm, böyük yaradan.
O saf cövhərindən alsa bədənim,
Misim qızıl olar dünyada mənim.
Lütfündən bir işıq göstərsən, əgər,
Torpaq qızıl olar, su dürrə dönər.
Bir gövhər də olsam, bir saxsı da mən,
Hüsnüm bəzənmişdir sənin hüsnündən.
Libasım ətrinlə qoquyar müdam,
Buyam ya "dirəmnə" ya da "ud" olsam[8].
Qarşında nə dinim, nə taatim var,
Qapında boş əlim şəfaət umar.
Qəmim qərq olmamış qanlı sularda,
Rəhm et, əlimdən tut, qalmayım darda.
Qaldır yıxılmışı bu qara yerdən,
Məni cahi atından özün düşür sən.
İlahi, dar gündə sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim.
Aç mənim üzümə nur xəzinəni,
Zülmətlər içindən xilas et məni.
Qorxuyla, umudla baxıb dünyaya,
Bir pərvanə olum günəşə, aya.
Söylə, nə vaxtadək bir tikə üçün
Şaha və gədaya yalvarım hər gün.
Süfrəndən nemətli bir şey olarmı?
Səndən səxavətli dünyada varmı?
Öz xırmanından ver zəkatımı sən,
Qəbzinlə gəzməyim qapı-qapı mən.
Bir əkin yeriyəm hər yanı bərbad,
Bu, suyla, torpaqla olacaq abad.
Mənə öz qapından ver torpaqla su,
Axıtsın yolumda olan kol-kosu.
Məni mənliyimdən ayıran zaman
Sən öz cövhərini alma canımdan.
Məni qaytaranda özümə, dərhal,
Mərhəmət kölgəni gəl, üstümə sal.
Bu sayən olmasın çıraqdan uzaq,
Gün kimi parlasın işığ saçaraq.
Taki işığına həmdəm olum mən,
Nur kimi kənarda durum kölgədən.
Başqa həmdəmləri almayım dilə,
Unudum nə varsa bu gündən belə.
Vəfasız yaranmış bütün qapılar,
Bir sənin qapında vəfa tapılar.
Ancaq həyatdadır vəfa, etibar,
Ölümlə dağılıb məhv olur onlar.
Yalnız sənin əhdin əbədi qalır,
Ölüm də, dirim də səndən əhd alır.
Qiyamət gününü görmədikcə mən
Ayrılan deyiləm sənin əhdindən.
Bir səni çağırır cahanda səsim,
Xatirən olmasa batar nəfəsim.
Əzəl yer üzünə mən gəlməmişdən,
Qurduğun nizamı görməmişdim mən.

Torpaqdan yaratdın mayəmi mənim,
Torpaqdan yem aldı bütün bədənim.
Tanrı! Varlığıyın gözəlliyindən
Bütün kainata zinət vermisən.
Lütfün ki, olmuşdur mənə müyəssər,
Varlığım çürüyüb gedənə, qədər -
Harda otur desən, oturacağam,
Qarşında qul kimi lal duracağam.
Gördüyün bu yoldan çox keçmişəm mən,
Gah quyu dibindən, gah taxt üstündən.
İstər qoca olum, istərsə cavan,
Yollar müxtəlifdir, mən isə haman.
Bir haldan bir hala keçsəm də dəm-dəm,
Yenə ilk şəklimlə hərəkətdəyəm.
Möhtac yaratmadın sən məni əzəl,
Dünyada heç məni mətəl qoyma gəl.
Zərrəcə qorxmuram gələn əcəldən,
Bu yol dərgahına gedir əzəldən.
Bağ, bostan yoludur ölümün izi,
Dostlar sarayına aparır bizi.
Ölüm ki, səndəndir nə qüssə, nə qəm,
Qoy ölüm, ölümdən mən dad çəkmərəm.
Hərçəndi dünyada ölüm gerçəkdir,
Ölüm, ölmək deyil, yer dəyişməkdir.
O, yemək yerindən yataq yerinə,
Ordan şah yanına bir yoldur yenə.
Sənin məclisinə gedən bu yoldan,
Əbədi yuxudan qaçmaram, inan.
Sənin şövqin ki, var, mən bəxtiyaram,
Şad yatıb, hər zaman şad da qalxaram.
Əgər dərd üzündən qulun Nizami
Sənə yalvardısa, tut ilticamı.
Dəryandan yüksələn bulut bil məni,
Yağsam da, boşaltma bu xəzinəni.
Yüz lüğət yaradıb, yazsa yüz əsər,
Hər sözün başında səni təriflər.
O, yüz min üzr ilə qapında durar,
Bilir ki, boynunda min günahı var.
O, bütün dərdini danışmaz ki, sən
Lalların dilini yaxşı bilənsən.
Xəmirəm qarasa, sən yoğurmusan,
Xəttim qarışıqsa, özün qurmusan.
Sən öz xətlərinin hamsını yusan,
Ömürlük bağlaram ağzımı, inan.
Bir daha versən də mənə ixtiyar,
Hakimlər hakimi, ixtiyarın var.
Ölüm pəncəsiylə döyüşməmiş mən,
Ruzgarın cilovu çıxmamış əldən,
Sən mənə rəhm edib, yol göstər yenə,
Peyğəmbər qəbrinin ziyarətinə.

## SONUNCU PEYĞƏMBƏRİN TƏRİFİ

Ey varlıq mülkünə böyük şahsüvar,
Əqlin sultanısan, zəkavətin var.
Sonusan o mürsəl peyğəmbərlərin
Sonun halvasısan, duzu əvvəlin.
Varlıq bağçasının ilk gülü sənsən,
Zamanın sonuncu sərkərdəsisən.
Kifayət mülkünə sənsən hökmüdar,
Vilayət hökmüdür verdiyin qərar.
Hər kəs lovğalıqla çıxsa qarşına,
Bir ədəb qılıncı enər başına.
Gözlər işıq alır ayaq tozundan,
Aləm işıqlanır daima ondan.
Səndən işığını almayan bir şam
Sönər öz yeliylə, qaralar müdam.
Ey qəbilələrlə aydın dil tapan
Vazeh dəlillərlə zərbə vuransan
Allahın höccəti bütün səndədir,
Səhərin sirri də o sinəndədir.
Ey iki dünyanın saray ağası,
O qabe-qövseynin mahir ustası[9],
Ey sonsuz göyləri gəzib bac alan,
Yetmiş min pərdənin üstə ucalan,
Ey əqlin və canın fövqində duran,
Sənə səcdə qılır yerlə asiman.
Yer göyə dönmüşdür dininlə, gerçək,
Yox-yox, döşəməndir bu sonsuz fələk.
Ey altı cəhəti heyrətləndirən,
Atını çapırsan yeddi göyə sən.
Altı-yeddi min il keçir o andan
Ki, bu dəbdəbəni eşitmiş cahan[10].
Hər əqlə süfrəndə bir nemətin var
Qapında qul kimi dayanar ruhlar.
Ağıl sənsiz olsa, nə çıxar ondan?
Sənsiz yaşayarsa ölüdür hər can.
Öz adın oğluyun adıyla birdir.
Aləm "Əbülqasım Məhəmməd" deyir.
Ağıl ki, görünməz bir xəlifədir,
Qüvvəti, qüdrəti sözlərindədir.
Məhəmməd eşqiylə yanmasa ürək,
Eşqin çəmənində açılmaz çiçək.
Tanrı dostlarına sənsən şahsüvar,
Yeddi göy üstündə bir məclisin var.
Səxavət mülkünün sənsən ağası,
Dünya məqsədisən, məqsəd dünyası.
Mənalar mülkünün ilk qaynağısan,
Dirilik suyunun baş bulağısan.
Sənin torpağınla bəzəndi Adəm,
Nurinlə parladı hər iki aləm.
Sən ki, öz "atını" sürdün dövrana,
O, yeddi atıyla çatmadı sana.
Günəş can atırdı səcdənə, gerçək,
Ona bəhanəydi məğribə getmək.
Ulduzlar başına dolanır dəm-dəm,
Yalnız bu arzuyla fırlanır aləm.
Varlıq büsatında varmı bir insan,
Qarşında olmasın yer ilə yeksan?
Sənin iksirinlə rəngləndi torpaq,
Bu dünya səninçin yaranmış ancaq.
Böyüksən, qarşında kiçikdir hamı,
Bütün möhtacların sənsən ilhamı.
Kainat taxtının padişahısan,
Həyat ölkəsinin şahlar şahısan.
Yaşıl göy səninçin bir ordugahdır,
Qəmzən bir fərmandır, hörüyün çadır.
Bu beş vaxt namazdır əsli tövbənin,
Beş növbə təblidir qapında sənin[11].
Quruldu diniyin beş binövrəsi,
Yüz min zülm evinin kəsildi səsi.
Bu evə yeddi səqf yaratdın yenə,
Tapşırdın onu da dörd xəlifənə[12].
Siddiq sədaqətə olmuşdur rəhbər,
Faruqi fərq-dən uzaq bildilər[13].
O, allahdan qorxan həyalı qoca[14],
Tanrının şiriylə həmdərs olunca,
Dördü də bir yolun sarbanı oldu,
Dördü də bir ləkin reyhanı oldu.
Bu dörd xəlifəylə güldü məmləkət,
Hər ev dörd divarla qurular, əlbət.
Bu dördlük birləşdi qoca dünyada,
Bu dördbucaq evi gətirdi dada.
Sən, dinin evinə dörd dirək vurdun,
Ona bu qaydayla dörd çatma qurdun.
Sənin qaşın kimi haman dörd nəfər
Gah ayrı düşdülər, gah birləşdilər.
Yerin əl bağlayan bu halqasından
Bircə sıçrayışla ərşə qalxırsan.

## PEYĞƏMBƏRİN MERACI

Sən, ey mənaların meracı olan,
Sənin meracındır sonsuz asiman.
Yeddi xəzinəni açaraq bir dəm,
Dörd gövhər üstünə basmısan qədəm[15].
Sığmadın zamanın dar sinəsinə,
Ucaldın göylərin son zirvəsinə.
Gecə qara bayraq tutduğu zaman
Oldu qara atın mənzilə rəvan.
O vaxt qanad açdı sənin ayağın,
Göyün xəlvət yeri oldu dayağın.
Bu fani dünyadan sən yüksələndə,
Sən, Ümmi-Haniyə qonaq gələndə[16],
Cəbrayıl gətirdi sənə şad xəbər,
Dedi: - Qulluğuna hazırdır göylər,
Göylərdə mələklər səf-səf düzəlmiş,
Bütün göy aləmi seyrinə gəlmiş.
Oyan, yuxu vaxtı deyildir, haray,





Sənin tək günəşə müntəzirdir ay.
Yerini Ütarid bilməyəcəkdir[17],
Sənin düşərgahın daha yüksəkdir.
Şabaş sinisini qaldırmış Zöhrə[18],
Deyir: "Şərq batacaq al şəfəqlərə".
Günəş də incəlib olmuşdur hilal.
Yolundan çəkilmiş sanki bir xəyal.
Mərrix qulluqçudur yataq evinə[19],
Üzəngidən tutan uşaqdır sənə.
Müştəri yoluna doğandan bəri[20]
Yanıb qamaşdırır yaman gözləri.
Keyvan qulağına halqa taxaraq[21],
Qul kimi qaldırmış bir qara bayraq.
Bu cürə qulların köməyilə sən
Getdiyin yolları xoş keçəcəksən.
Qədr gecəsidir bu gecə, tələs[22]
Onun qədrini bil, gecikmə əbəs.
Bu gecə hüsnüdür əbədiyyətin,
Merac gecəsidir bu Məhəmmədin.
O gecə nə qədər xoşbəxtdi, bilsən,
Gündüz tək parladı ilk qədəmindən.
Bu qara torpağa qoyub da pərgar,
Gəzdin göy üzünü sən diyar-diyar.
İldırım "Buraq"ı, mindin dünyada[23],
Sənin gedişindən yumşaldı o da.
O bakir yaranan taxt üstündə sən
Bir səadət kimi açmışdın yelkən.
Minib bu tək ata göylərdə çaxdın,
Cüt atlı ruzgarı dalda buraxdın.
Fələklər bağına girən zaman sən,
Ağlı, qırmızılı xoş meyvələrdən
Qapına minlərcə salxım yolladı,
Sənin gözündəydi eşqin son andı.
Qalxanda göylərin yeddi qatına,
Nə pərçəm, nə də bir tac qurdun ona[24].
Yırtıldı göylərin bulut qabağı,
Sınıb parçalandı ayın tabağı.
Tovus qanadlılar çıxıb göylərdən,
Qarşında qol-qanad tökdülər birdən.
Cəbrayıl səninlə gedə bilmədi[25],
Allaha tapşırıb, yaxşı yol, dedi.
Mikayıl yer verdi sənə başında[26],
İsrafil qul kimi durub qarşında[27],
Özünü kölgə tək ayağa saldı,
O da yarı yolda yorulub qaldı.
Bir "Rəfrəf" səninlə mənzilə vardı[28],
O, "Sidrə" taxtına səni apardı[29],
"Sidrə"nin üstündən keçən zaman sən
Hədis dəftərini yazdın əlinlən.
Yeddi qat göylərdən keçib yüksəldin,
Yüksəlib ən uca zirvəyə gəldin.
"Sübbuh" söyləyərək göy sakinləri[30],
Kölgəyin nurində çimdi min pəri.
Ərşin çadırından uçdun yenə sən,
Üzünü göstərdin yetmiş pərdədən,
Çıxdın tərəflərin zülmətlərindən,
Yüksəyin, alçağın zəhmətlərindən.
Qurtardın paltarın ağırlığından,
Tacı da, taxtı da atdın o zaman;
Xeyməni götürüb iki aləmdən,
Tanrı gərdəyini eylədin vətən.
Həm böyük allahı ziyarət etdin,
Həm də haqq sözünün sirrinə yetdin.
Sənin eşitməyin, bir də görməyin
Ağıldan, idrakdan uzaqdır, yəqin.
Açdın ürəyini sən sərin-sərin,
Adına layiqdir istədiklərin.
Verdi istəyini böyük yaradan,
Sən razı qayıtdın tanrı yanından.
Alnın nar gülü tək açıldı yenə,
Kərəm fərmanını aldın əlinə.
Sənin xatirinə o böyük tanrı
Əfv etdi biz kimi günahkarları.
Şahımız, kölgəndə tutmuşuq qərar,
Bizim bu dünyada nə dərdimiz var!
Sən bizə ruh verən günəşsən artıq,
Daima parlasan, biz də solmarıq.
Vicdanın mürüvvət dənizidir, bil,
Nübüvvət göyləri sənin yerindir[31].
Sənsiz mürüvvət də, göylər hakimi,
Xalqa görünməzdi nübüvvət kimi.
Səndən uzaq düşən hər kəs, hər nəfər
Səadət üstündən bir qələm çəkər.
Vəfa kəmərini belə bağlayan
Düşməz əbədiyyət taxtından bir an.
Baxıb İrəm bağı bu vüqarına,
Ətir xərac verir ruzigarına.
Göylər baratını yazıb göylərə,
Bir xəzinə kimi qayıtdın yerə.
Göyləri keçdiyin o sürətlə sən,
Nolar, Nizamiyə bir söz söyləsən.
Çoxmu qalacaqsan sən bu niqabda?
Çoxmu yatacaqsan o rəxti-xabda?
Bir oyan, üzündən bu örtünü at,
Şahını şahmatın taxtında oynat.
O yük dalındakı süfrəni göstər,
Xəyalım aləmi pərdəsiz istər.
İki ağ-qaranın rəngini sil sən,
Qaldır ziddiyyəti dörd təbiətdən.
İki vəfasızın əhdini bir et,
Bu dörd ayaqlını özün əlbir et[32].
Həyatı kamalə verəndən bəri
Həll etdin aləmdə çətinlikləri.
Nəfəsdən küləyə bir ətir versən[33],
Bizə də pay düşər bu nemətindən.
Əzəl lövhəsini bilirsən əzbər,
Ondan bir ayə də bizimçin göndər.
Zəhmətsiz tapdığın elmdən bir az

Bizim də dəftərə öz əlinlə yaz.
Biz kimik, naçiyik, aç göstər artıq,
Büt qayıranmıyıq, büt qıranmıyıq[34].
Ey mənim işimi düzəldən qüdrət,
Sənsən Nizaminin qəlbinə qüvvət.
Könül, gəl bununla qənaət elə!
O böyük tanrıdan şəfaət dilə!
Taki bu pərdəni almasın bizdən,
Bu pərdə qalxmasın heç üzümüzdən.

## HİKMƏT VƏ MOİZƏ HAQQINDA

Ellik məclisinə verəndə ehsan,
Şəhərdə badəsiz qalmasın insan.
Səxavət buludu yağsın aləmə,
Bütün vücudları gətirsin dəmə.
Mey kimi tökülsün müzayiqəsiz,
Gül kimi açılıb gülsün pərdəsiz.
Parlasın aləmdə bir günəş qədər,
Ondan işıq alsın sonsuz üfüqlər.
Hər şeyi elliyə bağışla, gerçək,
El borclu qalsa da, bu borcdan əl çək.
Bütün insanlara sual ver bu dəm:
Nə yolla yarandı boşluqdan aləm?
Bir söz lazımdır ki, bağlı sirrlər
Açılsın qönçə tək, şadlansın səhər.
Baxın əlimdəki şirin şəkərə,
Onu paylayıram nazəninlərə.
Dünyaya səpirəm bu şirnini mən,
Oğlum qulaq assın buna ürəkdən.
Mən bütün bədənə yem verən zaman
Öz ciyər param da pay alar ondan[35].
Ey varlıq nəqşinin naziri olan,
Qaldır əngəlləri idrak yolundan.
Yolunda nə qədər canlılar vardır,
Sənin varlığına pərəstişkardır.
Boş təbli döyərək, hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.
Bir toz görünsə də hər zərrə əgər,
Dünya pərdəsində o da iş görər.
Göylərə yüksələn bu yeddi hasar
Zarafat deyildir, öz mənası var.
Pərdə altındakı bu yeddi rəvaq
Lovğalıq deyildir, hikmətə bir bax.
Qısa söz, dünyada nə sən, nə də mən
Oyuncaq deyilik xilqətimizdən.
Nə şəhvət, nə yuxu, nə də ki, yemək
Həyatın mənası olmasın gərək.
Yatmağı, yeməyi bu aləmdə sən,
Eşşək, öküzdə də görə bilərsən.
Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi.
Anlayıb, düşünək hər şeyi gərək,
Hər sirri açmaqla hünər göstərək.

Yerləri, göyləri öyrənək bir-bir,
Qalmasın bizimçin açılmamış sirr.
Görək, kim yaratmış bu təbiəti,
O kimdir, işinin nədir hikməti?
Bu varaq üstündə çəkilən hər xətt
Sənətkar əliylə yaranmış, əlbət.
Qurğusu düz olan bu şeylər bir-bir
Mahir bir ustada canlı şahiddir.
Səni, öz adıyla düz yol göstərən
O böyük allaha and verirəm mən,
De, görüm, dünyada bir aynamı var
Ki, seyqəl verməsin ona sənətkar?
Seyqəlsiz bir ayna olmaz dünyada,
Hər sənət bir ustad gətirir yada.
Həqiqət gözüylə xəyala varsan,
Hər şeydə qüdrətdən nişan taparsan.
Baxma ki, nə yolla yaranmış onlar,
Sənin gözlərində bu qüdrətmi var?!
Hər şey öz-özünə necə düzəldi,
Bax, nə cür kainat əmələ gəldi?
Qoy, sənə şübhəsiz olsun aşikar,
Onun başqasına ehtiyacı var.
Rəsm işi rəssama düşdüyü zaman
Mən qaxıncdan çıxdım, sən avamlıqdan.
Dünyada gördüyün hər incə sənət
Allah əsəridir, ondadır qüdrət.
Bax, bu ipək rəngli yeddi pərdədən
Üzsən ayağını, daş yeyəcəksən.
Bu pərdə dalında o sirrlər ki, var,
Zənn etmə, çalışsan məlumun olar.
Xilqətin sirrini az ara, az gəz,
O, adi gözlərlə görünə bilməz.
Elə toxunmamış bu ip əzəldən
Ki, onun ucunu tapa biləsən.
Tanrı qüdrətiylə düyüm bağlayan
Bu ipi açmamış, açammaz insan.
Bu tanrı dastanı necə dastandır?
Ağıl sahibləri ona heyrandır.
Xilqətin sirrini bilsə bir nəfər,
Bu qoca dünyanı o da xəlq edər.
Acizik aləmi yaratmağa biz,
Onun əslini də tapmaz əqlimiz.
Göyün sirr pərdəsi ki, bərqərardır,
Gözə görünməyən bir sirri vardır.
Nə qədər oraya at çapsam da mən,
Bir xəbər öyrənmək gəlmir əlimdən.
Göyün lövhəsində yanır rəqəmlər,
O saf ulduzları mən birər-birər
Nə qədər oxuyub öyrəndim, heyhat,
Yenə də qəlbimi görmədim rahat.
Bilirəm, yaranmış hər böyük əsər
Onun qüdrətiylə açıla bilər.
O şey ki, bizlərə lap aşikardır,
Orda da gizli bir xəzinə vardır.





Çalış, xəzinənin böyük açarı
Şüşə yox, poladdan qayrılsın barı,
Taki xəzinəyə çatdığın zaman
Sən orda zəhər yox, şərbət tapasan.
Bilirsən, harda ki, bir xəzinə var,
Qoynunda zəhər də, dərman da saxlar.
Musa gövhər tapdı xəzinələrdə,
Qarun da boğuldu ləli-gövhərdə[36].
Arada ixtilaf, dava oldusa,
Yenə Qarun öldü, qazandı Musa.
Varlıq cədvəlini quran sənətkar
Bilinməz şeylərə çəkmişdir hasar.
Ən uca nöqtəni aşarsa bir xətt,
Öz əski halına meyl edər fəqət.
Fikir nə zaman ki, son xəttə çatar,
Dayana bilməyib geri qayıdar.
Pərgar dolansa da öz dövrəsinə,
Birinci nöqtəyə qayıdar yenə.
Dünya dövrəsində bu həlqə ki var,
Onu bu məqsədlə bağlamışdırlar.
Ki, hər kəs başını çıxartsa ondan,
Qapı həlqəsi tək qala sərgərdan,
Əl vurma fələyin bu zəncirinə,
Bil ki, bu zəncirin sonu var yenə.
Baxma ki, nə hökm vermiş təbiət,
Onun da bir sonu olacaq, əlbət.
Bundan xaricdə də bir dərgah durur,
Ağlayıb sızlamaq onun yoludur.
Elə bir pərdədən nəfəs al ki, sən,
Hər şey düz qurulmuş haman pərdədən.
Bu yeddi fələyə nəzər yetir bir,
Xəyalın rəqsinə pərdə düzəldir.
Olmaz o pərdəylə səsləşmək bir az,
Onu öz-özünə tanımaq olmaz.
Sən haman pərdəni axtarsan əgər,
Bil ki, öz pərdən də yadından gedər.
Çalıb oxumaqda Barbüd olsan da[37],
Pərdəsiz bu saza toxunma əsla
Pərdəsi yırtılmış xudbinlə yəqin,
Dalında durma sən heç bir pərdənin.
Sən də Nizami tək bir pərdə axtar,
O vaxt yaxşılıqla şöhrətin artar.
Yenəmi alçalaq biz torpaq kimi,
Ruzgara baş əyək bir yarpaq kimi?
Yenəmi yel olub torpaq sovuraq,
Xəzəllə, tikanla oynayıb duraq?
Torpaqdan nə qədər xərc alsa ruzgar,
Aldığı torpaqla çuxur doldurar.
Bundan aldığını ona verərək,
Aldığı mayanı qaytarır külək.
Bu qat-qat yerlərə diqqətlə bir bax,
Torpaqdan qurulmuş bu yerlər ancaq,
Gah zəlzələ qopar, gah sellər axar,
Torpaq tuta bilməz bir yerdə qərar.

Zəlzələ batırar, su yuyar onu,
Sonra düzəngaha çevrilər sonu.
O vadi, zamanın hökümləriylə
Dönüb qışlaq olur obaya, elə.
Bu fani torpaqdan hər arxı bir su,
Bir də külək qazmış, sözün doğrusu.
Yerin hüdudundan o tərəfdə də
Buludlar, fələklər qaçışır yenə.
Onlar bir-birinə sarılmış bərk-bərk,
Hamsı top kimidir, gəzir kürə tək.
Bu kürə şəklində yalnız yer deyil,
Hər xətt ki, hərlənir yuvarlaqdır, bil.
Tüstü bu dərədən qalxar yuxarı,
İki-üç cidalıq gəzər ruzgarı,
Sonra əyilərək, geriyə dönər,
Bu yer kürəsinin başına enər.
Pərgar xətti kimi dolanan fələk
Yalnız bu qaydayla dövr edir, gerçək.
Səhradan bir bulut qalxarsa əgər,
Ucalar müəyyən nöqtəyə qədər.
Uçar ucalığın son zirvəsinə,
Lakin o sərhəddi aşammaz yenə.
O da dairədə dolanıb qalar,
O da bir dairə şəklini alar.
Çadır tək çataraq bulut qaşını,
Yerin üfüqünə qoymuş başını.
Onun qoşununa yetirsən nəzər,
Dairə olmağa o da meyl edər.
Hər sadə damcının əsil cövhəri
Dəryaya meyl edir əzəldən bəri[38].
Bax, yeddi dalğalı bu çərxi-fələk
Getdikcə yüksəlir, hey yüksələrək.
Üfüqdə də olsa, göydə də olsa,
Həmişə yüksəlmək adətdir ona.
Onun bu uçuşu bənzər xəyala,
O da ucaldıqca yetər kamala.
Fələkdən yuxarı dolaşma artıq,
Ondan da yuxarı yoxdur ucalıq.
Hələ açılmamış elm ilə göylər,
Lakin hər elm də gülür bir səhər.
Bir qara pul olsun, bir arpa əgər,
Onda dörd gövhərdən tapılar əsər[39].
Toxum göyərsə də torpaqdan, sudan,
Bu sirri axtarıb tapmamış insan.
Toxumu bəsləyən torpaqdır ancaq,
Ona şəkil də mi verir bu torpaq?
Nizamsız olsaydı yeraltı bir an,
Salxım olardımı, deyin, toxumdan?
Tutaq, salxım olur bir dənin sonu,
Şəkil qalıbına kim salır onu?
Fikri dolaşdıran bu pərdə də bir,
Halları dəyişən səbəb gizlənir.
O səbəb nədirsə sənin yanında,
Aç, söylə, gizləmə onu canında.

Bir səbəb gördükdə arif olanlar
Anlar ki, yaratmış onu səbəbkar.
Nizami, uzaqlaş bu fikirlərdən,
Düşmə bu dünyanın tələsinə sən.

### KİTABIN YAZILMASININ SƏBƏBİ

Bir gün nəşəliydim, aləm şad kimi,
Dəmlər içindəydim Keyqubad kimi[40].
Qaşlarım açıqdı, sanki bir kaman,
Qarşımda dururdu yazdığım divan.
Üzümə tutmuşdu güzgüsünü baxt,
Səadət saçımı darardı, o vaxt,
Dəstə bağlamışdı güllərdən səhər,
Səhəri oxşardı yaqut şəfəqlər.
Könül pərvanəsi əlində çıraq,
Mən bülbül olmuşdum, məst olmuşdu bağ.
Bayraq qaldırmışdım söz zirvəsinə,
Hünər lövhəsini yazırdım yenə.
Qələm dimdik olub deşirdi ləli,
Turaca dönmüşdü təbimin dili.
Qəlbim deyirdi ki, söz əməyimdir,
Səadət yoldaşım, bəxt köməyimdir.
Yenəmi dünyada boş nəfəs alım?
Yenəmi aləmdən kənarda qalım?
Dövran şadlıq bəzmi qurandan bəri
Qovdu məclisindən boş gəzənləri.
Mədəsi ac olan işsiz bir köpək
Boş-boş oturmaqla taparmı çörək?
Bu dünya səsiylə səsləşənindir,
Dövranla düz gəlsən, dövran sənindir.
Başını yuxarı tutmaq istəsən,
Hava tək hamıyla sazişə gir sən.
Güzgü tək hər yerə qoyulsa əgər,
Yalandan özündə bir şey göstərər.
Sənətin ziddinə söz danışanlar
Əyri pərdə kimi yanlış çalarlar[41]
Sən ey padşahım, böyüksən əgər,
İltimas edərsən məndən bir hünər.
Bu fala mən qürrə atdığım anda
Ulduzlar keçirmiş eyni zamanda[42].
Hər zəhmət sonunda bir səadət var,
Bəxti olanlar da xəzinə tapar.
Bu zaman bir elçi gəldi eyvana,
Şahın məktubunu gətirdi mana
On-on beş sətirdi şahın bu sözü
Gözəl xətti ilə yazmışdı özü.
Hər hərfi bağ kimi güllər açmışdı,
Bir şəbçıraq kimi şəfəq saçmışdı:
"Ey söz dünyasına hakim Nizami,
Qulluğa məhrəmsən tut ilticamı.
Səhər yuxusunun pərdəsini at,
Yenə söz oynadıb bir sehir yarat.
Əqli heyran qoyan söz meydanında
Min şirinlik göstər hər dastanında.
İstərəm Məcnunun böyük eşqinə
Bir söz xəzinəsi açasan yenə.
Bakirə Leyli tək, ey böyük ustad!
Şerdə iki-üç bakir söz yarat.
Deyim, bu şəkərdir, deyildir acı,
Deyim ki, bu sözdür başımın tacı.
Min eşq kitabından yüksək və təzə,
Sən öz qələminlə bir dastan bəzə.
Bu mövzu şahıdır bütün sözlərin,
Layiqdir bu sözə sənin hünərin.
Bu təzə gəlinə, çəkəndə zəhmət,
Fars, ərəb diliylə vur ona zinət.
Sözün sərrafıyam, sən ki, bilirsən,
Təzəni köhnədən tez seçərəm mən.
Qüdrətin böyükdür ona-on yarat,
Onda beş verməyi bir dəfəlik at!
Kamal cövhərinin xəzinəsindən
Gör, kimin sapına inci düzürsən.
Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə.
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz".
Qulluq halqasına düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım.
Nə cürətim vardı ki, evdən qaçam,
Nə də gözüm vardı, xəzinə açam.
Ömrüm viran oldu, solub saraldım,
Bu əmrin önündə cavabsız qaldım.
Sirrimi deməyə bir məhrəm hanı?
Ona söyləyəydim bu macəranı.
Qəlbimdə can kimi əzizim olan
Məhəmməd Nizami oğlum bu zaman
Bu gözəl mövzuya könül verərək,
Oturdu yanımda o bir kölgə tək.
Öpdü ayağımı xeyli mehriban.
Dedi: "Ey göylərə meydan oxuyan,
"Xosrovi-Şirini" yazıb yaratdın,
Hər duyan könüldə bir zövq oyatdın.
Leyli-Məcnundan da yarat bir əsər,
Cüt olsun yazdığın qiymətli gövhər.
Bu gözəl mövzuda böyük sənət var,
Xoşdur qoşa gəzsə cavan tovuzlar.
Bir də ki, Şirvanşah, o baş hökmüdar
Şirvana, İrana olmuş şəhriyar.
O rütbə verəndir, nemət verəndir,
Şerə, sənətə də qiymət verəndir.
O səndən bir əsər edir iltimas,
Sən də hünər göstər o əsəri yaz".
Dedim: "Aynaüzlüm, sözündə möhkəm,
Sözün yerindədir, haqlısan bu dəm.
Lakin, iki səmtə əsir bu ruzgar,
Fikir çox genişdir, könül mülkü dar.
Əfsanə dəhlizi dar olsa əgər,





Sənətin sözü də yolda ləngiyər.
Gərək söz meydanı gen olsun müdam,
Atını dörd nala səyirtsin ilham.
Bu ayə olsa da aləmə bəlli,
Qəlbə gətirməyir şadlıq, təsəlli.
Şadlıqdır, eyhamdır sözün arğacı,
Bunlarla düzəlir söz ehtiyacı.
Kədərlə, zəncirlə bağlansa dastan,
Sözlər çılpaq olar, can sıxar, inan.
Onu həddən artıq bəzəsən əgər,
Dastanın üzünə ləkələr düşər.
Yoxsa çıxış yolu bu vəziyyətdən,
Mütləq bir neçə söz deməliyəm mən.
Bu dastanda nə bağ, nə ucalıq var,
Nə çalğı, nə şərab, nə xoşbaxtlıq var.
Qumsala, daşlığa ilham gedərmi?
Getsə də, torpağa təsir edərmi?
Hər şer şadlıqla gəlsə nəfəsə,
Beyit hadisəylə başlayar rəqsə,
Odur ki, dünyada əzəl zamandan
Kədərdən, qüssədən qaçmışdır insan.
Dərd yazan şairlər qanad salmışdır,
"Leyli və Məcnun"sa sözsüz qalmışdır...
İndi şah dil tökür bu təmtəraqla,
Deyir: "Bu kitabı adıma bağla".
Mənzil dar olsa da, bu gündən belə
Mən Leyli-Məcnunu incəliyilə
Bəzəyib bir zinət vurum ki, ona,
Gövhərlər səpilsin şahın yoluna.
Oxucu pərişan olsa da bundan,
Qoy eşqə can versin onda varsa can.
Yenə də öz oğlum dinlədi məni,
O açdı üzümə bu xəzinəni,
Ömrümün ilk gülü o təkcə balam,
O ağız ləzzətim, o son piyalam
Dedi: "Ey kəlamı ekizim ata[44],
Əsəri qardaşım, əzizim ata.
Yarat bu dastanı rəngli, boyalı,
Qoyma ki, süstləşə nəzmin xəyalı.
Harda ki, eşq əli bir süfrə açar,
Bu gözəl hekayə ona duz saçar.
Bütövsə, parçasa hələ bu duzlar,
Süfrədə bişməmiş çiy kabab da var.
Sənin qüdrətinlə duz əziləcək,
Kabab da səyinlə bişə biləcək.
Bu qədər nazəndə, incə bir dilbər
Nədən çılpaq qalsın bu vaxta qədər.
Onu bəzəməmiş arif əlləri,
Odur ki, çılpaqdır o gözəl pəri.
O, candır, can üçün çalışmayanlar
Həmişə borc geyər əyninə paltar.
Can bəzənməlidir can bəzəyilə,
Canından keçməmiş bir insan hələ.
Nəfəsin can verir xalqa cahanda,
Sənin məhrəmindir bu gözəl can da.
Səndən söz yaratmaq gözlənsin gərək,
Məndən dua etmək, bəxtdən də kömək",
Danışıb qurtardı o ciyərparam,
Onun xatirinə söz aldı ilham.
Gövhər axtarmağa başladım yenə,
Kimyalar açaraq girdim mədənə.
Təbim də ən qısa bir yol axtardı,
Yol uzunluğundan qorxum da vardı.
Nə bundan qısaca yol var hələlik,
Nə də bundan qıvraq, iti bir minik.
Bəhrin suyu yüngül, özü axardır,
Canlı, nəfəs alan balığı vardır[45].
Çox bu şirinlikdə söz deyən olar,
Sanma ki, onlarda bu təzəlik var.
Hələ üzücülər qəlb dənizindən
Belə saf bir inci tapmamış, bilsən.
Hər beyti, sapdakı incilər kimi,
Parlayır eybsiz bir hünər kimi.
Mən bu inciləri gəzəndə bir-bir,
Ayağım tük qədər sürüşməmişdir.
Qəlb cavab- verirdi mənə ürəkdən,
Bulaq su verirdi yer qazdıqca mən.
Əqildən aldığım bu gəlir, dövlət
Yalnız əsərimə vururdu zinət.
Dörd min beytdən də çoxdur bu dastan,
Dörd aydan az vaxta yazmışam, inan!
Əgər başqa işlər olsaydı haram,
Bu, on dörd gecəyə olardı tamam.
Bu azad gəlini görən şad olsun,
Ona abad deyən, qoy abad olsun.
S. F. D. ili idi rəcəbin sonu[46],
Çox gözəl şəkildə bəzədim onu.
Əgər tarixini söyləsəm əyan,
Dörd il keçmiş idi beş yüz həştaddan.
Sənətin əlilə tutdum bəzəyə,
Gətirib oturtdum bu kəcavəyə.
Şahımın mübarək gözündən başqa,
Kimsənin nəzəri dəyməsin ona.

### AXSİTANIN TƏRİFİ

Sən şahlıq taxtının şahsüvarısan,
Qaranın və ağın hökmdarısan.
Tac sahiblərinin başçısısan sən,
Şahlar ordusunun sərkərdəsisən.
Ey şahlar içində mütləq olan şah!
Ey dünya xaqanı, böyük padişah!
Şöhrətin tutmuşdur bütün mahalı,
Dinin və dövlətin sənsən calalı.
Şahlığın taxtını sənsən saxlayan,
Hökmünə baş əyir bu yer, bu ümman.
Şahların tacısan, Əbülmüzəffər,
Yeddi məmləkətə sən oldun zivər.

Kölgən bir günəşdir, sən alov kimi.
Keyqubad rütbəli Keyxosrov kimi.
Adın Axsitandır, özün söz bilən,
Göydəki günəşin ağasısan sən.
Sən ki, padişahsan, açıq, aşikar,
Gizli xəlifəsən, böyük hökmüdar.
Bu Bəhram nəsəbli, ülkər üzlü sən[47],
Məlik Manuçehrin sədəf dürrüsən.
Bu tayfa şahlığı nəsildən-nəslə,
Gəlib keçə-keçə oldu silsilə.
Onun şah əcdadı aransa əgər,
Şahdan-şaha gedir Adəmə qədər,
İstərəm, bu böyük şahda daima,
Qılınc uzun olsun, qələmsə qısa.
Daimi bir taxtda o bərqərardır.
Ağıl tək nöqsansız bir hökmüdardır.
O, yeddi göylərə boyun əyməyən
Yeddi ərənlərə qiblədir, bilsən.
Ruzi verən deyil, ruzi göyüdür,
Dünyanın sərdarı, həm böyüyüdür,
Mənalar çeşməsi gözündə qaynar,
Qəlbində göylərin gizli sirri var.
On iki elmin də sirrləri bütün
Əlində mum kimi yumşalır hər gün.
Bu yeddi örtüklü, altı barmaqlı,
Bir gözlü, dörd əlli, doqquz ayaqlı[48],
Onun çəmbərindən çıxmasın deyə,
Qalıb çəmbərində dönmüş halqəyə.
Adı şirin sulu bir kainatdır,
Varlığı aləmə abi-həyatdır.
Dağılmış mədənlər onun əliylə,
Artmış kərəmindən dənizlər belə.
Bir yandan dünyanı tutur zəfəri,
Bir yandan əfv edir kərəm əlləri.
Cövhərli qılıncdan tutaraq çapar,
Yaxından ötəni vurar, qamçılar.
Bəxtinin burnunda kövsər suyu var,
Onun toppuzundan alovlar qalxar.
O, dünya mülkünə böyük işıqdır,
Məclisə, meydana bir yaraşıqdır.
Mərrixdə bir qılınc, Zöhrədə bir cam,
Sağında, solunda durmuşlar müdam.
Zöhrə şərab verir cam ilə ona,
Mərrix silah alıb düşür ardına.
Qılıncı qaldırır bir ləl dağı,
Camından tökülür ləl bulağı.
Bu iki qan rəngli lələ baxanda,
Ləlin rəngindədir şərab da, qan da.
Sübhün saqisidir onun kərəmi,
Lütfü çox yaşasın, tutsun aləmi.
Düşməni qəhr edən zərbələri var,
Ondan uzaq olsun yaman baxışlar.
Lütfü-səhər yeli, əsər hər yerə,
Əsər, nəfəs verər ağciyərlərə.

Elə bil zərbəsi odlu şimşəkdir,
Toxunsa hər kəsə qəhr edəcəkdir.
Sabah yeli kimi lütfü can verər,
Hicran axşamı tək zərbi öldürər.
Gəlsə hərəkətə şahlıq sancağı,
Deşər polad kimi döşündən dağı.
Bayraq qotazları titrəsə əgər,
Zəlzələ görünər bir arpa qədər.
Belə bir qanun da vardır dünyada:
Od yüksəkdə durur, su aşağıda.
Atı oda bənzər, özü suya, bax,
Bulut od üstündə qərar tutaraq.
Onun qapısında mehtərdir Qeysər,
Fəğfur o qapıda gəlib dilənər[49].
Nə qədər parlasa günəşin üzü,
Şahın məclisində sönükdür, düzü.
Ay ki, bədirlənib, nura bürünər,
O da qapısında solğun görünər.
Uçarmış Araşin oxu deyirlər,
Ad qəbiləsinin nizəsi qədər[50]
O, ox şahımızla yarışsa əgər,
Kamandan çıxmamış torpağa düşər
Deyirlər, Pərvizin hüsnü, camalı
Baxdıqca oxşarmış qəlbi, xəyalı,
Atının tozuyla tutuşsa Pərviz,
Qalmaz camalından zərrə qədər iz.
Kimə şah qılıncı dəydisə bir əl,
Qurtuluş yolunu bağladı əcəl.
Hansı bir zirehə dəydi nizəsi,
Parça-parça oldu bütün halqəsi.
Atdığı zubinin hər nişanından[51]
İkiyə bölündü bu iki cahan.
Lütfü parlaq olan bir günəş kimi,
Qəhr edər tufan tək qəzəbi, kini.
Qılığı bir səhər yelidir, gerçək,
Qəzəbi şir tutur göydə günəş tək.
Altı hərfi olan adıyla bilsən,
Dünyanı bağlamış altı tərəfdən[52].
Bu altı hərf ki, şeş atdı yenə,
Düşdü nərd oyunu şahın xeyrinə.
Düşməni milçək tək qaynasa belə,
Tab etməz qəhrindən əsən bir yelə.
Günəşin ordusu boy versə əgər,
Xəlvətə çəkilər qaçar kölgələr.
Atının dımağı dəyən yerlərdə
Pələnglər, aslanlar görünməz bir də.
Ölümün baratı yağsa oxundan,
Həyat naməsini olmaz oxuyan.
Qınından qılıncı çıxarsa bir əl,
Daşların bağrında qana dönər ləl.
Ağzını açarsa qılıncı bir an,
On-on baş itirər önündə düşman.
Düşmən qarşısında Əfrasiyabdır,
Təkbətək döyüşdə günəşə babdır.





Qoşun kəmərini bağlamamışdan,
Düşməni məhv edər bu mərd Axsitan.
Qoşunu arxadan gələnə qədər
Düşmən ordusundan qoymaz bir nəfər.
Onun rikabında yüz Rüstəm durar,
Yenər qarşısında böyük ordular.
Şahlıq məclisini açıb quranda,
İlk bahar bulutu görünər onda.
Nə qədər çox olsa orda simü-zər,
Bağışlar hamsını sonuna qədər.
Bir günlük xərcinə qoyduğu maya
Uzun illər boyu alınmaz saya.
Bu şah çanaq-çanaq pullar bağışlar,
Bir də dəstə-dəstə qullar bağışlar.
O camdan ki, Cəmşid qıymaz özünə,
Baxş edər qullardan hər gün yüzünə.
Hələ yer üzündə yoxdur bir insan
Onun xələtindən geyməsin nişan.
O, müşgü qır kimi paylar hər yana,
Çini bir hədiyyə verər mərdana.
O, bircə fərmanla bir qala alar,
Bircə qəsidəyə ölkə bağışlar.
Hesabsız, ölçüsüz nemətləri var,
Dərya qucağına sığışmaz onlar.
Qəlbi çox genişdir, ora nəzər qıl,
Çınqıllar kimidir əlində qızıl.
Kimin xəzinəsi artsa dünyada,
Şirvanşah puluyla çoxalır o da.
Milçəyi doydursa bizim hökmüdar,
Mahmudun filindən qüvvətli olar[53].
Fil boyda taxtının sayəsində, bil,
İçilən qədəhi götürməz bir fil.
Şahımız dənizdir, Fəratdır, lakin,
Dəryası axandır, Fəratı sakin.
O gün ki, bar verər böyük hökmüdar,
Ən böyük bir novruz bayramı olar.
Səyindən, bəxtindən yazdım görmədən,
Nə yazım taxtdakı əzəmətindən?
O, dağ arxasından çıxan bir aydır,
Yanında ulduzlar alay-alaydır.
Günəş çeşməsidir böyük hökmüdar,
Onunla canlanır bizim çəmənzar.
Göyün yerə enmiş bir səhəridir,
Allahın mərhəmət şəfəqləridir.
Hər göz ki, o nuru görər cahanda,
O yaman gözlərdən olar amanda.
Yarəb mən ki, Üveys adını aldım,
Məhəmməd eşqinə mən sadiq qaldım[54].
Məhəmməd sifətli o şah həzrəti
Versin xəyalımda olan neməti.

## PADŞAHA XİTAB

Sən, ey can aləmi, ey aləmə can!
Ey insan qəlbini güldürən insan!
Günəşin taxtından tacın ucadır,
Cəmşidin taxtından taxtın qocadır.
Sənin idrakınla dünya abaddır,
Sənə qul olmaqla insan azaddır.
Sənin fərmanınla bütün ölkələr
Azad nəfəs alır, düzdür bu xəbər.
Bir sən əzizlədin bütün dünyanı,
Sənindir dünyanın hökmü, fərmanı,
İslamın bəzəyi olmuşdur xütbən,
Xəlifə puludur sənin bu sikkən.
Biz sənin duanla öpsək torpağı,
Qızıl güllər açar qanqal yarpağı.
Bir sənin sikkəni vursalar daşa,
Qızıl-gümüş olar yer başdan-başa.
Nədir o səndəki şanlı əzəmət?
Keşikçin olmuşdur sənin səadət.
Mehtərin olmuşdur fələk, hər zaman,
Arpa-saman alır o anbarından.
Nədir, mən dediyim bu arpa-saman?
Bu arpa-sünbüldür, saman-kəhkəşan.
Sən səhər yelinin ətrini çaldın,
Bu xoş təbiəti havadan aldın.
Həyat çeşməsidir bu səxavətin,
Dünyanı doydurur sənin dövlətin.
Bu əlvan çiçəkli nazənin bahar
Sənin ayağını öpmək arzular.
Məşriqi, məğribi alan könüllər
Sənin hüzurunda qul olmaq dilər.
Zəfər əli kimi tac bağışlarsan,
Günahı, tanrı tək, sən bağışlarsan
Bu dünya səninlə olmuş bərqərar,
Sənə bütün aləm keşikçi durar.
Sən qabaqda getsən, yol çırağısan,
Arxada qalanda el dayağısan.
İşıqsan yollara məşəllər kimi,
Şəfəqin aydındır son səhər kimi.
Səndədir işlərin hökmü, divanı,
Hökmün dolandırır bütün dünyanı.
Kimsə bu dünyada ən baş hökmüran
Özünü qul sayır qarşında, inan.
Ağlın, iradənin gücü var səndə,
Onlar iş aparır sənin ölkəndə.
Məqsəd nişanəsi yaranmışsa vaxt,
Bir sənə inanıb, sığınır hər vaxt.
Qələbəm düşməni qaçıra bilir,
Bu, sənin sayəndə əldə edilir.
Səndəki göz nuru sayılan sancaq
Dövlətdən, nüsrətdən yaranmış ancaq
Hər kimlə döyüşsən, onu dağlarsan,
Min igid belinə qurşaq bağlarsan.

Onun vücudundan tökülməmiş qan,
Başını qarşında yerə salarsan.
Cahanda hər kimə yetirsən nəzər,
Səadət taxtında gəlib, əyləşər.
Onun taleini sən şad edərsən.
Xarab ölkəsini abad edərsən.
Böyüklük, ucalıq səndədir deyə,
Xoşbəxtlik gətirdin bu Nizamiyə.
O da sarayının keşikçisidir,
Sayəndə özünü bəxtiyar bilir.
Gör, hüma quşunun gülür varlığı,
Sonsuzdur bu quşun bəxtiyarlığı.
Bu quş ki, eşqinlə qidalanır, bil,
Sənin kölgəndədir, pərişan deyil.
Səba quşları ki, ötür hər səhər,
Şahın duasıdır dilində əzbər.
Böyükdür cahanda şöhrətin, namın,
Zəfərdir, fəthdir yalnız məqamın.
Ucalsın calalın, ağ olsun baxtın,
Zəfərlə bəzənsin sarayın, taxtın.
İl boyu şadlanır sayəndə aləm,
Aləm ayrılmasın sayəndən bir dəm.
Səadət daima sənə yar olsun,
Səninlə bir yerdə o da var olsun.
Verirəm dostlara şad xəbəri mən,
Şahın, şahzadənin mərhəmətindən.

## ŞAHZADƏNİN TƏRİFİ VƏ OĞLUMUN ONA TAPŞIRILMASI

Səhərin qırmızı gövhəri erkən
Zülmətdən bir işıq zahir edərkən,
Mənim xəzinəmin gövhəri olan,
O belimdən gələn, qəlbimə sultan
Öz ata tacına gövhərlər saçdı,
Şirvanşah oğlundan mənə söz açdı,
Dedi: - Adamsızam, qınımaz bağla
Məni şah oğlunun lütfünə bağla.
Qoy onun əhdinə bağlanım bu dəm,
O gənc bir ustaddır, mən öyrənənəm.
Kərəmi kamala yetişən zaman
Dərs alsın o sənin kəlamlarından.
O az yaşlıdırsa, bir hökmüdardır,
Onda yenilməyən iradə vardır.
Vətən göylərinin ulduzudur bu,
Şahın vücududur-ölkənin ruhu.
Yerlərin, göylərin Yusifidir tək,
Zaman vəliəhdi bir odur, gerçək.
Məclisi, büsatı, sevdası yeni,
Padşah Mənuçehrin, bəlkə də, eyni.
Bu iki dünyanın o can sirdaşı,
Ağılda, idrakda şahların başı.
Bu yeddi ölkəyə varis qəhrəman,
Bu dörd gövhərin də sirrini açan.
Böyük insanların gözlərinə nur,
Şahlar namazının qibləsi odur.
O, taca fəxrdir, taxta da zinət,
Üzünə möhtacdır onun səadət.
Şahzadə, güldükcə şərəfin, şanın,
Açıldı gövhəri şah Axsitanın.
Sübhün iki çalan rəngidir rəngin,
Səndə şah qanı var iki ölkənin.
Şahlığın bağında əkilən budur,
Keyqubad nəslinin bir toxumudur.
Şirvan bəzənmişdir əzəmətinlə,
Xozan abadlaşmış ədalətinlə.
Yeddi dairənin mərkəzində tək,
Durub əyləşirsən, sən bir nöqtə tək
Tanrı sayəsində yaşayırsan sən.
O səni saxlasın yaman gözlərdən.
Mənim ümidim var böyük allaha,
Öz zehnin, ağlınla səni bir daha
Göylərə qaldırsın o gülə-gülə,
Çatasan dünyada hər təkamülə.
Şah kitablarını öyrən dərindən,
Dərs al aqillərin dediklərindən.
Sandıqda gizlənmiş xəzinəni sən
Göydə on dörd günlük ay tək görəsən
Bil ki, bu gəlinə yoxdur bir əvəz,
Bu canı heç bir əhd yarada bilməz.
Onun atasını görə bilməsən,
Barı qardaşına hörmət saxla sən[55].
Min bir nəvazişlə gətir yadına,
Əbədi bir hörmət bəslə adına.
Qoy oğlum heç kəsə möhtac olmasın,
Heç kəsin əlində gözü qalmasın.
Bununla qurtardım bu hekayəti,
Olsun səadətin şahın dövləti.
O göz, bu işıqla parlasın ancaq,
Bu sərv o çəməndən düşməsin uzaq.
Şaha arxalanmış sənin surətin,
Düşmənin belini qırmış qüvvətin.
Həyat bulağıyla Xızır yaşadı,
Səninlə yaşasın şahlığın adı.
Göydə nə qədər ki, səyyarələr var,
Bu iki vücuddan işıq alsınlar.

## MƏNİ İNKAR EDƏNLƏRDƏN ŞİKAYƏT

Coşmaq zamanıdır, coş, ey könül, sən,
Dünyaya dil verən dinməyir nədən?
Gəldi söz meydanı, mənəm sənətkar,
Bu gün məndən gözəl söz deyənmi var?
Əlimin muzduyla dolanıram mən,
Cəlalım yaranır söz xəzinəmdən.
Bu səhər sehrini yaradan zaman,
Bütün yeddi fəsli dedim qurandan.
Bu halal, bu açıq sehrə baxın siz,





Günahdır bu sehri danmaq, şübhəsiz.
Bu söz sənətində elə kamiləm
Ki, qeyb ayinəsi adımdır bu dəm.
Mənim dil qılıncım iti füsunkar,
İsa möcüzündən onda nişan var.
Nəzmimdə nə qədər mənim əsər var
Lal gər eşidərsə onu, dil açar.
Alışar göz kimi sözüm qızanda,
Barmaq toxundurma, alov var onda.
Arxımdan su içdi şerlə sənət,
Mənlə şöhrət tapdı sözdəki qüvvət.
Bu qanrı otaran duzsuz şairlər
Sayəmdə dünyanı basıb yedilər.
Şikarı tutmağa aslan gərəkdir,
Tülkünün işi də müftə yeməkdir.
Mənim öz nəfsimə yeməyimdənsə,
Qoy məndən yesinlər, verib səs-səsə.
Paxıl! Göz yumaraq açıq nemətə,
Saqqız çeynəyirsən, girib xəlvətə.
Ey mənim yazımın oğrusu insan,
Qarşımda kölgə tək çox alçalırsan.
Mən qəzəl deməyi edəndə peşə,
O da zurnasını çalar həmişə.
Mən hər gün düzəndə xoş qəsidələr,
O da quraşdırır boş qəlidələr.
Hədərən-pədərən dilinə bax bir,
Yenə də nəzm ilə hekayə deyir.
Mən yaxşı qəlibdə sikkə vururam,
O da, döyəşdəyir, qəlp çıxır müdam.
Meymun da yamsılar, bu deyil hünər,
Bulanlıq suda da ulduz görünər.
Gözlər işıqlanır hər əsərimdən,
Lakin o incikdir kölgələrimdən.
Bəllidir, insanı kölgə yamsılar,
Kölgədən də betər kölgələrim var.
Yamsılar, yamsılar utanmaz bir az,
Çünki gözü görməz, üzü utanmaz.
Kölgəsi olmayan peyğəmbər belə
Təqib edilmişdir bu kölgələrlə.
Mühit dənizində pakdırsa sular,
İtin seliyindən nə qorxusu var.
Sarı qulaqları düşündükcə mən
Coşub qızıramsa bəzən hirsimdən,
Sahili yusam da, sanki bir dəniz,
Bunu acığımdan zənn etməyiniz.
Çıraq tək aldığım sərt bir zərbədən
Şam tək gülümsəyib sönürəm bəzən,
Mən ki, ayna kimi dəmir deyiləm[56],
Ürəyi daşlara olmaram həmdəm.
Xəzinə qazsam da, bir kişiyəm mən.
Düşmən can çəkişir mənim dərdimdən.
Sənətimi danan bir də sağalmaz,
Çərşənbə cinlisi ağıllı olmaz[57].
Qapımın oğrusu haqq əvəzinə
Mənim qeybətimi danışır yenə.
Evin sahibini görən oğrular
Haray qopardaraq deyir: "Oğru var".
Malım doyursa da ac oğruları,
Pis söz deməsinlər haqqımda barı.
Hünəri görsə də etiraf etməz,
Pis yolu buraxıb yaxşıya getməz.
O, gözsüz yaşasın gözsüzsə əgər,
Korsa açılmasın bir də o gözlər.
Oğurlayan odur, utanansa mən,
Oğurluq şöhrətdir ona əzəldən.
Yox, yox, alçaqlığa qurşandı murdar,
Qapını aç ona de ki: "Gəl, apar".
Onun ki, qazancı oğurluqdur tək,
Neylərdim, olsaydım mən də onun tək.
Bu iki aləmin xəznəsi məndə,
Nolar bir müflisə bir pay verəndə;
Borcumdur gədaya sadağa vermək,
Açıq almayanda, o çalsın gərək.
Xəzinəm yer altı, dürrümsə ümman,
Nə üçün inciyim lağım atandan?
Xəzinə sandıqda saxlana bilər,
Gözəl üzərliklə bəslənib güllər[58].
Mənə anam verdi bu xəzinəni,
Üzərlik üstündə mərd doğdu məni.
Baxsan Nizaminin çizgisinə sən,
Min bir ad sayını orda görərsən.
İlyasın "əlf"ini, "lam"ından kəssən,
Yenə doxsan doqquz tamı görərsən[59].
Dayanmış dövrəmdə bu minbir hasar,
Yüzdən də bir əskik qaravulçum var.
Zəhmətə düşməkdən azadam hər an,
Qorxmayır xəzinəm heç bir oğrudan.
Bir xəzinənin ki, bu hasarı var,
Ona neyləyəcək lağım atanlar?
Lakin, xəzinələr olmaz ilansız,
Yoxdur bu dünyada bir gül tikansız.
Kim ki, ad qoymuşdur qoca dünyada,
Onu öz dostları vermişdir bada.
Ay üzlü Yusifi yad edin barı,
Ona quyu qazdı öz qardaşları.
İsa ki, insanlıq elmində təkdi,
Hər bir yəhudidən cəfalar çəkdi.
Əhməd ki, rəhbəri oldu ərəbin
Gördü cəfasını Əbüləhəbin[60]
Əzəldən dünyanın bir qaydası var:
Bal tutan barmağı anlar sancar.

## ŞİKAYƏTİN ÜZRÜ

Mən, mən olan gündən, şahiddir aləm,
Bir qarışqanı da incitməmişəm.
Dürrümü çəkmədim özgə suyuna[61],
Pislik yaratmadım, düşmənəm buna.

Təmizdir vicdanım, ucadır adım,
İtin də haqqında pis danışmadım.
Şir kimi qızdırsa məni köpəklər,
"Eyb etməz" deyərəm, basılmaz hünər.
Yaxşıydı hirsimi gizləsəydim mən,
Bu dediklərimi deməsəydim mən.
Lakin, ariflərin zəndinə bax bir,
Dilsizlik, dünyada qeyrətsizlikdir.
Bir insan şəhərdən olsa xəbərdar,
Bilər ki, hardandır bizim mətahlar.
Kim ki, mənə qarşı bir əl qaldırar,
Onun məndən başqa düşməni də var.
Ey könül! Bu kəskin sözlərdən əl çək,
Qəm piyaləsini öz başına çək!
Gül kimi, köçməyin təblini vur sən,
Kim qoparsa səni, öp əllərindən.
Qanını çörəynə yavanlıq elə,
Papağı dik saxla, baş getsə belə.
Zülmə döz, incitmə heç də özgəni,
Ellər qəm çəkincə, dərd alsın səni.

## OĞLUM MƏHƏMMƏDƏ NƏSİHƏT

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddi yaşar oldun o zaman ki, sən,
Açıldın gül kimi, güləndə çəmən.
İndi ki, çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki, böyüdün, beladir qayda,
Atanın adından sənə nə fayda?
Sən, aslanlar kimi, keç cəbhələrdən
Yalnız hünərinin balası ol sən!
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Başına əfsanə düşdüyü zaman
Allah qorxusunu unutma bir an.
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.
Görürəm, şöhrətdə ləyaqətin var,
Şerdə, sənətdə məharətin var.
Şairlik eləmə! Dövrə bax ki, bir,
Tərif əvəzinə pislənir şer.
Şerdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.

Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elim axtar.
Bu əyri çizgilər cədvəlində sən
Özünü şərh edib, özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.
Elmlər elmidir demiş peyğəmbər
Din elmi, təbabət elmi müxtəsər.
Göbəkdəki ətri bu iki elmin
Fəqihlə təbibdir bunu bil yəqin.
Fəqih olsan əgər itaətkar ol,
Hiylədən, riyadan daim kənar ol.
İsa mərifətli həkim ol, amma,
İnsanı öldürən bir həkim olma.
Həm həkim, həm fəqih olsan sən, əgər,
Hamının yanında adın yüksələr.
Həyat da, ölüm də qul olar sana,
Səadət və şöhrət düşər payına.
Bir elim öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

## AZ DANIŞMAĞIN GÖZƏLLİYİ

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da.
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün inci tək mənası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz.
Əsli təmiz olan saf mirvarılar
Suya və torpağa min bəzək vurar.
Mədənlə dolsa da hər bir xəzinə,
Hər kiçik zərrəsi dərmandır yenə.
Ürəyi oxşayan bir dəstə çiçək
Yüz xırman otundan yaxşıdır gerçək!
Yüz ulduz yansa da göylərdə, inan,
Bir günə baş əymək xoşdur onlardan.
Göydə parlasa da nə qədər ıldız,
Günəşdir nur verən aləmə yalnız.

## ÖLƏN QOHUMLARIMDAN XATİRƏLƏR

Saqi, harda qaldın? Mən meypərəstəm!
Doldur piyaləni, onsuz da məstəm!
O, göz yaşım kimi saf olan şərab
Aşiq məzhəbində sayılır səvab!
Onu bu umudla içirəm ki, mən,
Qurtara könlümü dərddən, ələmdən.





Yolumun üstündə duran şirə bax,
O şir-qəm şiridir, onu azdıraq.
Əzəllər həmdəmim olardı şadlıq,
O adam deyiləm, deyiləm artıq.
Bu gün də əlimdən çıxsa o dildar,
Daha da pis günlər qismətim olar.
Saqi, ver şərabı, dərdimə bir qal!
Söz mənim oduma nal atmışdır, nal[62]!
Ver o şərabı ki, açardır, işə,
Ruh ilə ruh kimi girir sazişə!

## ATAMIN XATİRƏSİ

Atam Yusif ibni Zəki Müəyyid
Babam tək dünyanı tərk edib getdi.
Dövranın işidir nə etməliyəm
Nə üçün ağlayım, deyildir sitəm.
Atalar yolunu çox gördüyümdən,
Öz ata qəlbimi qopardım ki, mən,
Ölüm tikanından süzülən zəhər
Canıma yerisin, ərisin qəmlər.
Saqi! Şərab ver ki, şirindir candan,
Xıltı təmizləsin, çıxarsın qandan.
Bir şərab gətir ki, onu içsə lal,
O da nitqə gəlsin, dil açsın dərhal.

## ANAM RƏİSƏNİN XATİRƏSİ

Kürd qızı anam da bizi tərk etdi,
Bir ana qəlbiylə dünyadan getdi.
Nə qədər ağlayıb, yansa da ürək,
Anama dil verən varmıdır, görək?
Çəkməklə qurtarmaz bu dərdi insan,
Bu girdab dərindir insan boyundan.
Daşmışdır aləmin, qəmin kasası,
Bu qəm min nəfəsə içilər, azı.
Bu ucsuz, bucaqsız dərd ölkəsinə
Dərdi unutmaqdır bir əlac yenə.
Saqi! Şərab ver ki, mənzil uzaqdır,
Xəyalım bu yolda yorulacaqdır.
Bir şərab gətir ki, başa şur gəlsin,
Hər addım başında min baş yüksəlsin.

## DAYIM XACƏ ÖMƏRİN XATİRƏSİ

Xacə Ömər dayım ölüb gedəndə,
Düşdüm müsibətə, bəlaya mən də.
Bu acı tikanin acılığından
Ahım boğazımda qurudu, inan.
Ağlamam, fələkdən qorxum var, deyə,
Qorxuram, dayımın ruhu inciyə.
Saqi! Meyxananın şərab küpündən
Nargilə rəngində şərab ver ki, sən,
Onda dəniz boyda səxavət olsun,

Behişt şərbəti tək bir şərbət olsun.

## KEÇMİŞ MÜSAHİBLƏRİN XATİRƏSİ VƏ BAŞQALARI İLƏ MÜSAHİBLİK

Yetməzmi dostlardan vurduğum dəmlər?
Hanı o mən deyən dostlar, həmdəmlər?
Xurmanın şirəylə şadlanmağı var,
Xurma yoldaşlıqla şirə yaradar[63].
Bir də ipək taclı barama qurdu
Tacını yoldaşlıq əliylə qurdu.
Qarışqa birliklə göstərər hünər,
Özündən çox böyük şeylər sürüyər.
Dostluqda hər kimlə səsləşə bilsən,
Onun pərdəsində nəğməni çal sən.
Bu dar nəğməciyin öz pərdəsi var,
Ahəngi bilməsən, dolaşıq çalar.
Yalnız ipək deyil Çində toxunan,
Gah qumaş, gah həsir toxuyur insan.
İşə kömək etsə təmkinlik, əgər,
Sonunda daima işlər düzələr.
Bir çalğı tutmasa nəğməyə ahəng,
Nəğmə çalınsa da tez kəsiləcək.
Saqi! Ətir iyli şərab gətir sən,
Gəl aç bu zənciri mən çarəsizdən.
Bir şərab gətir ki, can şirəsidir,
Gənclik küzəsinin yetirməsidir.

## VÜCUDU UNUTMAQ

Torpaqla örtülən bir ev üçün sən
Çoxmu qan udaraq, ah çəkəcəksən?
Hörümçək torudur o açıq-aşkar,
Gah yara bağlayar, gah da qanadar[64].
Bəzən bir milçəyin yolunu kəsər,
Bəzən də bir əlin qanını kəsər.
Bağlasan bu evi baramalar tək,
Rahatca yatarsan yatağında tək.
Günahla doludur bu can evi, bil,
Onun da dövranı çox sürən deyil...
Saqi! Nə şərabdan, nə kefdən əl çək!
Bu acı şərabla şirin kef çəkək!
Bir şərab gətir ki, içəndə dərhal
Bilinsin kimdədir idrakla kamal!

## ŞÖHRƏTİ UNUTMAQ

İlan tək dikbaşlı gəzmə, ey insan!
Aşacaq dünyanın seli başından.
Yeddi başın olsa, əjdahalar tək,
Onun yeddisi də yerə düşəcək.
Çox da yüksəkliyə ucalma ki, sən
Torpağa düşəndə inciməyəsən.
Nə qədər alçaqdan yıxılsa adam,

O qədər ağrısı az olur müdam.
Dünyada yer kimi ağır dolansan,
Üç gövhər arxanda qalacaq, inan!
Bütün gövhərlərin rəngi parlaqdır,
Hamsından xoş gələn yenə torpaqdır,
Torpaqda gizlidir o üç yoldaş da,
Yenə də torpaq var o üç yoldaşda.
Saqi, lalə rəngli bir şərab yetir!
Qarşıma çəng ilə bir badə gətir!
Onunla sabahın üzü şad olur,
Onunla ruh evi tez abad olur.

### KEÇƏN ÖMRÜ UNUTMAQ

Yenəmi dərd çəkim sabahki qəmdən?
Görüb bildiyimi danışmayım mən?
Keçən günlərin də adını az tut,
Yaxşısı budur ki, bir dəfə unut!
Bir qəlyanaltıydı keçən ömürlər,
İndi o keçmişdən qalmamış əsər.
Onları köhnə bir səhifə düşün,
Dünən yazılmışlar yazılmaz bu gün.
Tutaq ki, yeddi göy, yeddi yeri sən
Yeddi min il qalıb, bildin əzbərdən;
Axıra çatsa da bu yeddi min il,
Dünyanın axırı görünən deyil.
Uzun da, qısa da olsa qəddimiz,
Yenə də ölməyə yaranmışıq biz.
Saqi, piyaləni ver səhər-səhər!
İçməmiş məst olum, mən üzügülər.
O şərab gün kimi şölələr salsın,
Qurumuş çeşmələr ondan su alsın.

### ALÇAQLIĞI VƏ YALTAQLIĞI RƏDD ETMƏK

Buz kimi donmaqdan gəl götür sən əl,
Ölü siçan kimi suda axma gəl.
Gül kimi yumşaqlıq göstərmə, gerçək,
Olma ikiüzlü, bənəfşələr tək.
Tikan olmağın da öz məqamı var,
Yerli dəlilik də işə yarayar.
Bir kürdün eşşəyi Kəbədə itdi,
Kürd haray qoparıb bir sual etdi:
"Bura ki, insansız boş səhralardır,
Eşşək yoxa çıxdı, nə hikmət vardır?"
Deyib, arxasına baxdığı zaman
Gördü eşşəyini, güldü şadlıqdan.
Dedi: "Ortalıqda itmişdi eşşək,
Mənim hay-küyümdən tapıldı bişək!"
Kürd qoparmasaydı hay-haray, əgər,
Nə eşşək qalardı, nə yükdən əsər.
Hussuzlar qalası dünyaya bax bir,
Daima zalıma mükafat verir.
Ömrü başa vurar şir ürəklilər,

Öküz ürəklidə olmaz bir hünər.
Saqi, şərabı ver, sən ol köməyim!
Bir su tök, od tutub yansın ürəyim!
Ver o şərabı ki, yuduqca daşı
Parladıb eyləsin bir yaqut qaşı.

### ZÜLMƏ QATLAŞMAMAQ

Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan?
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!
Sən də süsən kimi ipəkdən olsan,
Səni saf torpaq da yaralar, inan!
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu olar xar.
Tikan tək çiynində tut yarağını,
O vaxt qucaqlarsan gül budağını.
İnsanı sarsıdar göz yaşı, nalə,
Ah çəkib, of deyən yetməz kamalə!
Saqi, zaman keçir, durma, qardaşım!
Şərab ver, doludur fikirlə başım!
O, bir çıraq olsun yolçu keçəndə,
Gəncləşsin qocalar onu içəndə.

### PADŞAHLARIN QULLUĞUNU TƏRK ETMƏK

Bir-iki rind ilə get müsahib ol,
Axtar bu dünyada qürursuz bir yol.
Zərrəylə dur otur, gün işığı tək,
Cəmşid sarayının fikrindən əl çək!
Padişah puluna tikmə gözünü,
Qanun kəməndinə salma özünü!
Şahlar məclisindən kənar ol, kənar!
Pambıq od görəndə alışıb yanar.
O od doludursa işıqla əgər,
Ondan uzaq olan asudə gəzər.
İşıq alırdısa pərvanə şamdan,
Yandı məclisinə düşdüyü zaman.
Saqi! Şərab gətir, könüldə qəm var,
Şərabla qəmləri dağıtmaq olar.
Ver o şərabı ki, safdır gümüş tək,
Onunla qəmlərdən qurtarır ürək.

### İNSANLARIN İŞİNƏ VƏ RUZİSİNƏ ƏL UZATMAMAQ

Razı qal cahanda öz qismətindən,
Özgənin haqqını çeynəmə gəl sən.
Bir də ayağını öz yorğanından
Artıq uzadanlar bədbəxtdir, inan.
Bir quş ki, həddindən artıq ucalar,





Özünü fəlakət yoluna salar.
İlan düz getməsə yoluyla əgər,
Özünə sarılıb, dolaşıq düşər.
Silaha sarılsa bir zahid axmaq,
Onun qazandığı sillə olacaq.
Aslanla döyüşə çıxsa tülkülər,
Bilinər kimdədir qılıncla hünər.
Saqi! Baş qızdıran şərab ver görək,
Piyalən hər zövqü oxşasın gərək!
Bir şərab gətir ki, qəlb açsın yenə,
Can versin Keyqubad xəzinəsinə.

### ŞADLIQ VƏ QƏNAƏT

Şadlığı bir yaşat təbiətinlə,
Şad ol öz qismətin, öz nemətinlə.
İnsanlardan başqa bütün canlılar
Qənaət evində tutmuşdur qərar.
Ruzi arxasınca onlar da qoşar,
Nə tapsa, onunla keçinib yaşar.
Ruzi olmasa da kifayət qədər,
Nə küsər, nə də ki, şikayət edər.
Yalnız insan oğlu doymayan zaman
Şikayət sədası ucalar ondan.
Əlindən tikəsi itsə bir kərə,
Naləsi, fəryadı çıxar göylərə.
Düşəndə damına bir damcı yağış,
Buludu töhmətlər, dilində qarğış.
İnsan daşa tutar günəşi yerdən,
Ona arpa boyda daş dəysə birdən.
Çalış, işıq kimi apağ olasan!
Pisdən və yaxşıdan uzaq olasan!
Su kimi aləmə həyat ver, can ver,
Hər rəngə uyğunlaş, dərdə dərman ver!
Saqi! Bəhanəni ortadan götür,
Zərdüştü, şərabı məclisə gətir.
O mey ki, məclisə işrət bəxş edər,
Döyüşdə silaha qüvvət bəxş edər.

### ŞADLIQLA XALQA XİDMƏT ETMƏK

Bir daş deyilsənsə, donub qalma sən,
Çolaq deyilsənsə, diribaş tərpən!
Keçənin üstünə vur ayağını,
Təmizlə keçənin toz-torpağını.
Daş-kəsək olsa da, keçdiyin bu yol,
Rəqsində oynağan fələk kimi ol!
Bağışla atını, sən get piyada,
Sillələr yesən də, mərd ol dünyada.
Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.
Saqi, tünd qırmızı şərabdan gətir!

Mənə həyat verib, murada yetir!
Bir şərab gətir ki, canıma sinsin,
Ömür təzələnsin, könül bəzənsin!

### TƏVAZÖKAR OL!

Şikayət torundan çıx bundan belə,
Öz acizliyini etiraf elə!
Çıxılmaz bir dağdır - yoldakı əngəl,
Çox da öz gücünə arxalanma gəl!
Qalxanı deşilmiş bir gül ilə sən
Çoxmu bülbül kimi öyünəcəksən?
Yol qanad qırandır, neyləsin qanad?
Qılınc qüvvəlidir, qalxanını at,
Taki yüklü atın uçsun gülək tək,
Qoy sənin payını artırsın fələk.
Yaxşısı budur ki, atı da tərk et,
Doğru bir yol tapıb, o yol ilə get.
Bax ki, ay hilala döndüyü zaman
Canını qurtarır parçalanmaqdan.
Saqi, can boğaza dayandı, tez çat!
Şərab qətrəsiylə ağzımı islat!
Bir şərab gətir ki, içməmiş candır,
İçəndən sonrasa, cana dərmandır.

### XƏLVƏTƏ ÇƏKİLİB SÖZ YARATMAQ

Arxayın oturma, köç vaxtıdır, qalx!
Sən bu çaş gözünlə özünə az bax!
Mənzilin çətindir, ayağın qabar,
Bəs bu iş nə olsun, de, ey sənətkar!
Ya çıx bir dəfəlik söz meydanından,
Ya bağla qapını, gəlməsin zaman!
Söhbət ki, qılıncı qınında saxlar,
Sən də xəlvətcə tut qınında qərar.
Boş səhifələrmi oldu həmdəmin?
Çoxmu susuz yerdə üzəcək gəmin?
Nizami, bu yolda Xızır kimi dur!
Hər bulaq başında bir söz çadırı qur!
Məcnun sövdasının sər çeşməsindən
İç, doy sədəfdəki inci kimi sən.

### DASTANIN BAŞLANĞICI

Bu söz incisini düzən zaman mən,
Böylə danışmışdı bu nəqli deyən:
Ərəb torpağında bir kişi varmış,
Şöhrəti, hörməti aşıb daşarmış.
O imiş başçısı Amirilərin,
Abadmış torpağı olduğu yerin.
Yel kimi əsdikcə şöhrəti, sanı,
Ətirlə yuyarmış Ərəbistanı.
İnsanlıq elmində bolmuş hünəri,





Heyrətə salarmış o, dünyaləri.
Ondaymış ərəbin hər ixtiyarı.
Qaruna bənzərmiş dövləti, varı.
Fəqirlər, qonaqlar razıydı ondan,
Bəxti çıxmamışdı öz qabığından.
O, bir xəlifə tək məşhur olsa da,
Övladsız, işıqsız bir şamdı o da.
Sədəfdən daha çox oğul arardı,
Dənsiz sünbül kimi dən arzulardı.
Deyərdi, bəxt gəlib imdada çatsın,
Onun da ağacı bir budaq atsın.
Özü sərv kimi qopsa kökündən,
Başqa sərv boy atsın onun mülkündən.
Laçın qanad çalıb, gəlsə çəmənə,
O sərvin yerində sərv görsün yenə.
Köhnə olmasa da, qoy sevə-sevə
Otursun bu təzə, kölgəli sərvə.
İnsan bu dünyada daimi yaşar,
Yurdunda bir övlad qalsa yadigar.
Məcnunun atası bu xoş diləklə
Aclar doydurardı min bir köməklə.
Nəzirlə bir oğul istərdi tez-gec,
Əkdiyi yasəmən göyərməzdi heç.
Gəzdiyi incidən tapmazdı əsər,
Yenə yaşadırdı onu ümidlər.
Bilməzdi bu nədir, bu nə hekmətdir?
Bu gec yaranmaq da bir məsləhətdir.
Cahanda məqsədə nail olmasan,
Bunda da sirr var, məna var, inan!
Qarşıya çıxsa da hər yaxşı, hər pis,
İşin xeyrinədir, diqqət etsəniz.
Tapmaq istədiyin çox şeylər də var,
Onları tapmasan, daha xoş olar!
Ürəkdən arzular keçsə də bir-bir,
Çoxunu gizləmək daha gözəldir.
"Olsun!", "olsun!" deyir dünyada hər kəs,
Yoxdur məsləhəti bilən bir nəfəs.
Bu sirrin nə ilki, nə sonu vardır,
Qıfıl zənn etdiyin özü açardır.
Bədbəxt yaratmışdır insanı fələk,
Onu torpaq kimi sovurar külək.
Belə bir aləmi şadlıqla yaşat,
Ömrün arzusunu torpaqlara qat!
Övlad arzusuyla yanırdı qəlbi,
Ləl üçün sıxılan bir mədən kimi.
Onun naləsini eşitdi allah,
Ona da bir oğul verdi bir sabah.
O, nar kimi gülər, çiçək kimi şən,
Min dəfə gözəldi nardan və güldən.
Onda gövhər üzlü bir sifət vardı,
Gecə, o sifətdən gündüz olardı.
Ata baxan kimi oğlun üzünə,
Açdı xəzinəni ellər üzünə.
Belindən gələni görüb dünyada,
Gül kimi xəzinə payladı o da[65].
Bir müddət dayələr göz oldu buna,
Süd verdi ərəbin bu ilk oğluna.
Zamana, mehriban dayələr kimi,
Məhəbbət südüylə onu bəslədi.
Onun dodağına hər damla süddən
Bir vəfa kəlməsi yazıldı bilsən!
Verilən mayədən körpəcik doydu,
Köksünə bir dostluq ürəyi qoydu.
Üzünə nil alıb çəkdikdə onun,
Oxundu ona bir könüldən əfsun.
Lalə tək ağzını südlə islatdı,
Səmən yarpağı tək südlə boy atdı.
O, süd içindəki bala dönürdü,
Sanasan beşikdə ay görünürdü.
Boy atıb, ikicə həftəyə doldu,
Lap on dörd gecəlik ay kimi oldu.
Bilindi ondakı hünərlə vüqar,
Adını hünərli Qeys qoydular.
Güldü bir yaşında gözəl camalı,
Camala can verdi onun kamalı.
Suvardı körpəni eşqin əlləri,
Üzündə parladı sövda gövhəri.
Şadlıqla iki-üç yaşına çatdı,
Öz könül bağında azad boy atdı.
O, yetişən kimi yeddi yaşına,
Düzüldü bənəfşə, lalə başına[66].
Böyüyüb on yaşa çatandan bəri
Oldu gözəlliyi dillər əzbəri.
Kim onun üzünü görsə uzaqdan,
Ona can sağlığı dilərdi haqdan.
Atası gördükdə, gülüb sevindi,
Məktəbə yolladı oğlunu indi.
Bilikli alimdən istədi kömək
Ona gecə-gündüz sərf etsin əmək.
Ona yoldaş oldu bir bölük uşaq,
Sən bir onlardakı səadətə bax!
Hər uşaqda qorxu və ümid vardı,
Dərsinə, elminə can yandırardı.
Xırda oğlanlarla, qızlar-yanaşı
Hamısı olmuşdu sıra yoldaşı.
Hərəsi bir yerdən, bir qəbilədən,
Bu ədəb evində, öyrənirdi fənn.
Qeysin elm işində vardı hünəri,
Dodağı saçardı söz inciləri.
Orada bakirə bir inci vardı,
Sırada Qeys ilə bir oturardı.
Hələ saf qalmışdı o gözəl dilbər,
Kamalı olmuşdu dillərdə əzbər.
Camalı ay kimi, süd işıqlıydı,
Boyu, sərv kimi, yaraşıqlıydı.
Qəmzə xəncərini çəksəydi əgər,
Min sinə deşərdi o nazlı dilbər.
Ahu gözlərini süzsəydi bir an,

Yanıb məhv olardı bütün bir cahan.
Ərəb ayı kimi sifəti vardı,
Əcəm türkü kimi könül ovlardı.
Saçları gecəydi, camalı bir bağ.
Sanki qara qarğa tutmuşdu çırağ[67].
Lələ bəzənmişdi püstəcik ağzı,
Şəkər dodaqlıydı o ellər qızı.
Nə qədər istəsən şəkər qırardı,
Yalnız şəkər deyil, ləşkər qırardı.
Qoynunda bəslərdi qızı gözəllər,
Sevərdi, oxşardı onu ağ əllər.
Dünyanın həyalı bir dilbəriydi,
Gənclik dastanının şah əsəriydi.
Onun mirvarisi-alın təriydi,
Boyun həmaili-hörükləriydi.
Ənliyi anadan gəlmə qırmızı,
Sürməni neylərdi o ellər qızı?
Öpərdi xalını qara telləri,
Zülfünə bağlıydı camal gövhəri.
Bir ona düşmüşdü hamının meyli,
Zülfü də "leyl" idi, adı da Leyli[68].
Qeys onu gördükdə heyrətdə qaldı,
Ona könül verdi, könlünü aldı.
Qeysin bu sevgisi qızı oyatdı,
Könüldən-könülə sevgi boy atdı.
İçdilər ilk eşqin piyaləsini,
İki can bir qəlbin duydu səsini.
Birinci bədənin yaman zəhmi var,
İlk dəfə yıxılan çox bərk yıxılar.
Onları məst etdi ilk eşqin dadı,
Onları bir yerə sövda bağladı.
Bu ona can verib meylini saldı,
Qəlbini ovladı, can isə qaldı.
O bunun üzünə nəzər salaraq,
Quruca könlünü vermişdi ancaq.
Yoldaşlar elm alıb, dərs oxuyurdu,
Onlar da eşq adlı elmi duyurdu.
Yoldaşlar lüğətdən söz axtarardı,
Onların başqa bir lüğəti vardı.
Yoldaşlar deyirdi addan, sifətdən,
Onlar da eşq adlı bir sərgüzəştdən.
Yoldaşlar elm üçün kitab açardı,
Onlar da eşqdən söhbət açardı.
Hesab öyrəndikcə hər oğlan, hər qız,
Onlar özlərini sayırdı yalnız.

## LEYLİ İLƏ MƏCNUNUN SEVİŞMƏSİ

Hər gün parladıqca sübhün güzgüsü,
Doğardı şərqin də Yusif üzlüsü[69].
Öz reyhan köksünə turuncu fələk
Qızıl bir turuncla verirdi bəzək.
Leyli də bəhs edib turunc fələklə,
Turunc çənəsini alardı ələ.
Turunclu gördükcə xalq o nigarı,
Açıldı eşqinin yetişmiş narı.
O təzə turunca baxdığı zaman
Turunc tək, əlini kəsərdi insan.
Qeys onun turunca bənzər üzündən
Saralıb narınca dönmüşdü bilsən.
Narıncla turuncun ətri dünyada
Dostlar damağını gətirdi dada.
Böyləcə bir müddət gəlib dolandı,
Bu iki nazənin odlara yandı.
Çəkib qılıncını zalım məhəbbət.
Bu gənc ürəkləri eylədi qarət.
Ürək əvəzində qəm verdi yalnız,
Ürəklə səbri də apardı vaxtsız.
Onlar bir-birinə könül verdilər,
Tezcə dildən-dilə düşdü bu xəbər.
Hər yandan yırtıldı bu gizli pərdə,
Bu sirr əzbər oldu bütün dillərdə.
Bu qəmli dastanın sərgüzəştindən
Hər ağız bir parça deyirdi bəzən.
Aşiqlər çalışıb, çox əlləşdilər
Ki, aləm tutmasın bu sirrdən xəbər.
Lakin, bağlansa da ətir şüşəsi,
Yenə duyulacaq xoş rayihəsi.
Eşqə məhrəm olan ruzgar, qəflətən
Götürdü pərdəni eşqin üzündən.
Xeyli səy elədi oğlan da, qız da,
Bu sirr dolaşmasın dildə, ağızda.
Bu səyin olmadı faydası bir az.
Günəşi palçıqla qapamaq olmaz.
Göz qəmzə oxunu atsa, aşikar,
Bu sirri pərdəylə örtməkmi olar?
Zülfü min halqalı zəncirsə, əgər
Könül vurulmaqdan başqa nə edər?
Sonra, gələcəkçin sözləşirdilər,
Bəzən oğrun-oğrun gözləşirdilər.
Aşiqlik olalı Qeysin murazı,
Eşqin kəməndinə keçdi boğazı.
Bir qəlb ovçusuydu Qeysin nigarı,
Uçub dağılmışdı səbri, qərarı.
Bəzən, ortalıqda olsa da söhbət,
Yaxırdı qəlbini yenə də möhnət.
Bir gün dərd əlindən yoruldu ürək,
Tüluqlar yırtıldı, yıxıldı eşşək[70].
Eşqdən xəbərsiz adamlar ki, var,
Onu "Məcnun" deyə çağırırdılar.
Biçarə Qeys də əlacsız qaldı,
Bu "Məcnun" sözünü üstünə aldı.
O qədər artdı ki, tənə yarası,
Gizləndi dəlidən o ay parası.
O qədər it kimi hürdü avamlar,
Çəməndən ayrıldı o ahu nigar.
Hicrana dözmədi Leylinin qəlbi,
Axdı göz yaşları incilər kimi.





Məcnun görmədikdə Leylini bəzən,
Bir sel axıdardı hər kirpiyindən.
Gözündə qəm yaşı, ürəyində qəm,
Küçəni, bazarı gəzərdi sərsəm.
Ürək parçalardı onun nəğməsi,
Aşiqlər səsiydi Məcnunun səsi.
Gəzəndə, ardınca bağırardılar,
-Məcnun! Məcnun! - deyə çağırardılar.
O da bu tənədən qəmlər yeyərək,
Pərişan gəzərdi divanələr tək.
O, eşşək sürürdü zəif boyunla,
Eşşəyi də getdi, ip də onunla.
Öz qəlbini bölüb, bənzətdi nara
Ki, Leyli söyləsin "Ey qəlbi para".
Çalışdı, sirrini bilməsin ellər,
Lakin, qəlb oduna kim döz bilər?
Beyninə sıçradı qəlbinin qanı,
Aşiqin dərdini üzündən tanı.
O, yar dərdindəydi, ondan yar uzaq,
O, qəm içindəydi, qəmküsar uzaq.
Gözünə şam kimi yuxu gəlməzdi,
Gecə də, gündüz də o dincəlməzdi.
Üzürdü canını bu bəla, bu qəm,
Nə bir can dərmanı, nə də bir məlhəm!
Umudla qəsd edir o öz canına,
Başını çırpardı yar eyvanına.
Səhər ayaqyalın, baş açıq, yalnız,
Çöllərə qaçardı o vaxtlı-vaxtsız.
O yarın quluydu, yarsa zindanda,
Bir qəlb döyünürdü o iki canda.
Dilində hər gecə hicran qəzəli,
Pünhan axtarardı nazlı gözəli.
Onun qapısını öpüb hər gecə,
Yenə qayıdardı ordan gizlicə.
Gedəndə yel kimi əsərdi o, bil,
Geri qayıtması çəkərdi bir il.
Gedən baş, quşu da vurub ötərdi,
Gələn baş, yolunda tikan bitərdi.
Gedən baş, sellərə bənzəri vardı.
Gələn baş, yolları çuxur olardı.
Gəzərdi cananı ayağı qabar,
Elə bil altında yorğa bir at var.
Evinə dönəndə deyirdi ürək:
-Qarşımda quyu var, arxamda külək,
Bəxt əl uzatsaydı ona bir yerdə,
O öz yuvasına dönməzdi bir də.

## MƏCNUNUN EŞQİ HAQQINDA

Yuxusuz gözlərin taxtına sultan,
Matəm ordusuna sərkərdə olan,
Sövda yollarının o yalnız səsi,
Aşiqlər mülkünün qəm divanəsi,
Fəryada, naləyə, bəlayə məftun,
Bağdad ellərinin qanunu, Məcnun[71],
O qəm dovulunun təbil sahibi,
Hicran kilsəsinin sövda rahibi,
O aşkar gəzən div, o gizli cadu,
Şeyda aşiqlərin şeyda Harutu,
Bir Keyxosrov olan o tacsız-taxtsız,
O yuz min bədbaxti düşünən baxtsız,
Qarışqa selinə köməkçi duran,
Taxtını ahular belində quran,
Sirrli qalaları fəth edən hünər,
Sahibsiz yerlərə o keşikçi ər,
Qəlbi dəniz kimi daima daşqın,
O məcnun könüllü, sövdalı şaşqın
İki-üç aşiqə olmuşdu həmdəm,
Onların qəlbində bir bəla, bir qəm,
Sövda yuxusundan qalxıb hər səhər
Leylini görməyə bir gedərdilər.
Məcnunun dilində əzbərdi Leyli,
Başqa heç bir sözə düşməzdi meyli.
Yanında özgə bir ad çəkən olsa,
Onu dinləməzdi, dinməzdi əsla.
Gedib Leyligilin qəbiləsinə
Yurd olan Nəcd adlı dağ sinəsinə,
Məcnun ah çəkərdi, ağlardı zar-zar,
O dağda tutardı daima qərar.
Yıxılıb durardı, sərxoşlar kimi,
Əl çalıb oynardı, dərdi var kimi.
Ürək yandırardı zəngulələri,
Qaçardı gah geri, gah da irəli.
Birdən, ağlar gözdə coşardı dərdi,
O, səba yelinə xitab edərdi:
-Oyan, tezdən oyan, səba yeli, sən!
Get, asıl Leylinin ipək telindən!
Söylə ki: "Eşqindən məhv olan yazıq
Sənin yollarına döşənmiş artıq.
Alır sorağını səba yelindən,
O, daşa torpağa dərd açır bəzən,
Qoy əssin qapından bir elçi ruzgar,
Bir ovuc torpaq ver, ona yadigar.
Səninçin, yel kimi, əsməyən bir kəs,
İnan ki, bir ovuc torpağa dəyməz.
Kim ki, əsirgədi canını səndən,
Can versə yaxşıdır dərddən, qüssədən.
Sənin eşq oduna düşməsəydi can,
Məni apardı qəm seli çoxdan.
Bir də, gözlərimdən axmasaydı sel,
Qəlbim qəm odundan yanardı tel-tel.
Dünyalar gözəli günəş də, inan,
Alışıb odlanır mənim ahımdan.
Qəlbimin şamısan! Bir düşün məni,
Yaxma eşq oduna öz pərvanəni.
Dağıtmış yuxumu sehirli gözün
Ki, yansın ciyərim, kababa dönsün.
Dərdindən, qəmindən zövq alıram mən,

Bil ki, dərmanım da, dərdim də sənsən!
Qənddir dodaqların, bacarsan əgər,
Ondan aşiqə də bir az pay göndər.
Qoyma ki, ürəyim pərişan olsun,
O qənd dərdlərimə bir dərman olsun!
Gözmü dəydi bizə? Nə oldu ki, mən
Düşdüm birdən-birə sənin gözündən?
Yəqin yaman gözə gəlmişəm ki, mən,
Çıxdı sənin kimi qismət əlimdən
Dünyada çox leziz, şirin meyvələr
Pis gözə oğrasa torpağa düşər.
Zəmanə barmaqla göstərdi bizi,
Bu yara öldürər hər ikimizi.
Yadlardan yetməsin deyə bədnəzər,
Üzün dövrəsinə nil də çəkərlər[72].
Küsufun gözündən günəş qorxaraq,
Üzünə salmışdır qara bir duvaq.
Xəzinə üstünü örtməsə əgər
Onu bu insanlar tez qarət edər"[73].

## MƏCNUNUN LEYLİNİN TAMAŞASINA GETMƏSİ

İpək paltarını geydi asiman,
Göy öz sırğasını taxdığı zaman.
Ulduzlar civə tək səpələndilər,
Şəfəqdə qalmadı onlardan əsər.
Qəlbi civə kimi dağınıq Məcnun
İki-üç dostuyla yaralı, məhzun,
Şərqilər deyərək, yola düzəldi,
Qaçaraq Leylinin yurduna gəldi.
Səbir kömləyini parçalayaraq,
Canan yollarında inlədi ancaq.
Könül xırmanını dolaşıb yalnız,
Təsəlli gəzirdi o Məcnun baxtsız.
Oxuya-oxuya o, sərxoşlar tək,
Döyürdü başına, üzünə bərk-bərk.
Qüvvədən düşmüşdü o talei kəm,
Yarın çadırına yetişdi sərsəm...
Ərəb adətiylə oturub o qız,
Çadırda yollara baxırdı yalnız.
Leyli bir ah çəkdi, görüb Məcnunu,
Məcnun da fəryadla səslədi onu.
Leyli ulduz kimi çadırda təkdi,
Məcnun sanki pərdə tutan fələkdi.
Leyli duvağını üzündən açdı,
Məcnun gileylənib, dərddən söz açdı,
Leyli çəng tutmuşdu bağrı başında,
Məcnun rübab kimi əli başında[74].
Leyli səhər kimi işıqlanırdı,
Məcnun da şam kimi qəmdən yanırdı.
Leyli bağ içində gözəl bir bağdı,
Məcnun dağ üstündə böyük bir dağdı.
Leyli yaranmışdı ay kimi parlaq,
Məcnun ipək kimi qaraydı ancaq.
Leyli gül saçırdı ağaclara, bax,
Məcnun dürr səpirdi şabaş olaraq[75].
Leylini sormayın, pəriydi o can,
Məcnun bir od idi, nə deyim ondan?
Leyli-qış görməmiş yasəmən kimi,
Məcnun-xəzan vurmuş bir çəmən kimi.
Leyli parlayırdı sübhün qızı tək,
Məcnun da sönürdü dan ulduzu tək.
Leyli dağıtmışdı saçını nazla,
Məcnun qul olmuşdu min iltimasla.
Leyli can bəsləyən şərbət içirdi,
Məcnun yaxa yırtıb, candan keçirdi.
Leyli toxuyurdu qəlbində ipək,
Məcnun alışırdı bir üzərlik tək,
Leyli boy atırdı qızıl gül kimi,
Məcnun ağlayırdı bir bülbül kimi.
Leyli keçirdikcə zülfü şanədən,
Məcnunun göz yaşı axırdı dən-dən.
Leylinin əlində müşkin piyalə,
Məcnun mey ətriylə dalmış xəyalə.
Bunu əyləndirir canan səfası,
Ona xoş gəlirdi aşiq vəfası.
Onları görməsin, deyərək, əğyar,
Qərib tək uzaqdan baxışırdılar.
Bunu da çox gördü onlara zaman,
Quru bir baxış da çıxdı ortadan.

## MƏCNUNUN ATASININ LEYLİYƏ ELÇİ GETMƏSİ

Elə ki, yar yolu bağlandı bir gün,
Arxın körpüsünü kəsdilər bütün.
Məcnun ağlayırdı qəlbində hicran.
Gözünü yummazdı gecələr bir an.
Başından aşdıqca ayrılıq dərdi,
Dilində nəğmələr Nəcdə gedərdi.
Dalınca qaçardı iki-üç nəfər,
Baş açıq gəzərdi o divanələr.
Sövda xəstəsiydi bu aşiq artıq,
Dillər dastanıydı bu rüsvayçılıq.
Şikayət eylərdi qohumlar ondan,
Atası qalmışdı bu dərdə heyran.
Nəsihət verdilər, əməl etmədi,
Əfsanə dedilər, o eşitmədi.
Nəsihət versə də çoxlu mənfəət,
Eşqin meydanında nədir nəsihət?
Zavallı atası gətirməyib tab,
Oğlunun dərdiylə çəkirdi əzab.
Bütün nazlar ilə oynardı, yenə
Bir çarə tapmazdı onun dərdinə.
Bu sirri dostlardan o aldı xəbər,
Dostlar bu mətləbi şərh eylədilər,
"Bir qız həsrətidir bu dərd, bu nəva,





Eşqidən gəlmişdir başına hava".
Ata bu sözlərdən çıxardı qərar,
Dedi: "Gül üzündən silinsin qübar.
O dünya gözəli, dürrü gətirək,
Başımın tacına nəqş edəm gərək.
O gözəl zinəti yüz calalla mən
Alım öz oğluma o qəbilədən".
Bütün ağsaqqallar danışdı bir-bir,
Bu oldu məsləhət, bu oldu tədbir:
"O gözəl tayfanın incisini biz
Bizim bu gövhərə tay etməliyiz".
Bu oldu tayfanın verdiyi qərar,
Səfər paltarında yola çıxsınlar.
Razılıq əliylə kəsilsin kəbin,
Bəlkə bu divanə o aya yetsin.
Elə ki, səsləndi bu şadlıq zəngi,
Açıldı gül kimi atanın rəngi,
Ata dinlədikcə bu məsləhəti,
Dağıldı qəlbindən qəmi, möhnəti.
Böyük bir dəstəylə qalxıb o zaman
Səfər tədarükü gördü hər yandan.
Tamam hazırlaşıb, düzəlişdilər,
Böyük bir calalla yola düşdülər.
Çatdı Leyligilə gedən elçilər,
Böyükdən kiçiyə yetdi bu xəbər.
Hər elin, obanın öz adəti var,
Qonaq gəlir deyə, yola çıxdılar.
Hörmət ayağında durdular möhkəm,
Bütün hədiyyələr verildi o dəm.
Baxıb başçısına amirilərin,
Dedilər: "Gəlməkdən nədir məqsədin?
Danış istəyini, hazırıq biz də
Can-başla dayanaq xidmətinizdə!"
Dedi ki: "Məqsədim-qohum olmaqdır,
İki gənc gözünə işıq salmaqdır.
- Qızın atasına üz döndərərək,
Qoy birləşsin, - dedi, - bu iki ürək.
Bil ki, məhəbbətlə, kəbinlə səndən
Qızını oğluma istəyirəm mən.
Qumlarda doğulmuş, ciyəri teşnə
Gözünü tikmişdir sənin çeşmənə.
Sərin bulaqlardan kim içsə bir az,
Bir də susuzluqdan ürəyi yanmaz.
Qapına gəlmişəm bu məqsədlə mən,
Xəcalət çəkmirəm dediklərimdən.
Sən özün bilirsən, bilir bu aləm,
Zamanın ən məşhur adamı mənəm.
Mənim xəzinəm də, calalım da var,
Dosta, düşmənə də qüdrətim çatar.
Ağlın başındasa, mətaini sat!
Almağa gəlmişəm, sən də əl uzat!
Nə qədər olsa da onun qiyməti,
Almağa hazıram mən o zinəti.
Sən onu satmağa vergilən qərar,
Dünyada hər şeyin öz bazarı var".
Dinləyib-dinləyib bu iltiması,
Böylə cavab verdi qızın atası:
"Baş tutan deyildir sənin diləyin,
Başqadır qərarı, hökmü fələyin.
Şirin bir dil ilə danışsan da sən,
Əyləşə bilmərəm o atəşlə mən.
Bir dostluq olsa da bu xeyir işdə,
Min ədavət olar bu tərpənişdə.
Nə yaman ərköyün böyümüş oğlun,
Özbaşına gəzir, muğayat olun.
Dalınca "divanə" söyləyir hər kəs,
Bizə divanələr tay ola bilməz.
Əvvəl dua et ki, gəlsin ağıla,
Sonra məhəbbətdən başla nağıla.
Hələ düzəlməmiş sizin o gövhər,
Bu sövda söhbəti verməz bir səmər.
İllətli gövhəri almaz ki, heç kəs,
Eyibli gövhərlər sapa düzülməz.
Gözdən kirpik çəkir bizim ərəblər,
Gülərlər üstümə, dil versəm əgər.
Bir də bu mətləbdən gəl danışma heç,
Söhbəti qurtaraq, bu işdən vaz keç".
Onu amirilər sakit dinlədi,
Atanın qəlbində kaman inlədi...
Qayıtmaqdan başqa bir əlacmı var!
Pərişan olaraq çəkildi onlar.
O yol yorğunları, dil inciklərі
Dərdin dəryasına batandan bəri,
"Bu dərdə bir dərman axtaraq" deyə,
Əlac gətirdilər o divanəyə.
Nəsihət dilinə keçdi hər nəfər
Ancaq od üstünə tikan səpdilər.
"O ruh ovçusundan daha da xumar,
Burda ruh bəsləyən gözəlimiz var.
Bax, yaqut dodaqlı, inci buxaqlı,
Ruha ətir saçan, lalə yanaqlı
Gözəllər, aydan da çox işıqlıdır,
Onlar ilk bahardan yaraşıqlıdır.
Qarşında yüz tanış ola-ola, sən
Nədən yad qızına könül verirsən?
Gəl, bu gözəllərə, cananlara bax,
Səninçin nazəndə bir sənəm alaq.
Oxşasın könlünü o nazlı nigar,
Şəkərə süd kimi uyuşsun o yar.
Canından deyildir, unut Leylini,
Bir də o dilbərə salma meylini".

## LEYLİNİN EŞQİ İLƏ MƏCNUNUN AĞLAYIB SIZLAMASI

Məcnun qohumların yalvarışından
İnciyib daha da oldu pərişan.
Cırdı köynəyini, lüt qaldı bədən,
Dedi ki: "Ölmüşə nə lazım kəfən?
Bu iki aləmə sığmayan bir kəs
Bir can köynəyinə yerləşə bilməz".
Əzraçün Vamiq tək düşmüşdü dərdə,
Gah dağda yaşardı, gah da çöllərdə.
O evdən türk kimi çıxaraq yenə,
Düşdü köçərilik düşərgəsinə.
Geymini yırtaraq, tikdi bir kəfən,
Qırıb zəncirini, çıxdı məhbəsdən.
Döşədək cırılmış halda ətəyi,
Uzaqda gəzirdi qəriblər kimi.
Canına qəsd etmək xəyalı vardı,
O, yalnız oturub, yalnız durardı.
Dəli tək hər evə yaxın gedərdi,
Leyli! Leyli! deyib xitab edərdi.
Ah! O ayaq yalın, bir də baş açıq,
Məlamət yurduna düşmüşdü yazıq.
İstər pislik olsun, istər yaxşılıq
Yamanı yaxşıdan seçməzdi artıq.
Yəmən ulduzunun xəyalilə tək,
Nəğmələr deyərdi, inildəyərək.
Beyitlər axdıqca onun dilindən,
Yadında saxlardı hər gəlib gedən.
Hamı bu matəmə olmuşdu heyran,
Görənlər ağlardı bu hala candan.
O da xəbərsizdi görən gözlərdən,
Dalınca söylənən acı sözlərdən.
Həyat dəftərindən silmişdi eybi,
Yaşardı nə ölü, nə diri kimi.
Qəlbinin başında bir sövda daşı,
Olmuşdu xar kimi daşın sirdaşı.
Altı daş, üstü daş, o əzilərək,
Bədəni bir xılta dönmüşdü, gerçək.
Şam kimi keçinib, o qaralmışdı,
Quş kimi tayından ayrı qalmışdı.
Qəlbinin başında çal-çarpaz dağlar,
Üzünü örtmüşdü tozlar, torpaqlar.
Ələmi, qüssəsi başdan aşaraq,
İnsan məclisindən uzaqlaşaraq,
Ah çəkib, ağladı: "Əlacım nədir?-
Dedi, - könül mülkü bir viranədir.
Avara düşmüşəm xanımanımdan,
Məskənim olmuşdur mənim biyaban.
Nə öz qapımıza gedir bu yollar,
Nə də yar yurduna bir cığırım var.
Həyamın şüşəsi, adımın camı
Sındı daş üstündə, eşitdi hamı.
Ah, səadət təblim gedəli bada,
Köç təbli çalıram artıq dünyada.
Gah mənə "bir sərxoş" deyir bu yerlər,
Gah da "bir bütpərəst aşiq" deyirlər.
Öylə zənn etmə ki, bir bütpərəstəm,
Mən torpaqla deyil, gül ilə məstəm.
Olmuşam o türkə çolaq bir şikar.
Oxuna hədəfəm açıq, aşikar.
O yarın quludur bütün varlığım,
Ona can verməkdir bəxtiyarlığım.
Mənə sərxoş desə, neyləməliyəm?
Dəli də söyləsə, yəqin, dəliyəm!
Madam ki, dəliyəm, sərxoşluğum var,
Dəlidən, sərxoşdan ağıl ummazlar.
Elə bir divanə deyiləm ki, mən
Bir də azad olam zəncirlərimdən?
Suyum bərk bulanmış, bir də durulmaz,
Mənim viran könlüm heç abad olmaz.
Kaşki dəli bir yel əssin bir kərə,
Sovursun kül kimi məni göylərə.
Yaxud da şiddətlə ildırım çaxsın,
Evimi, canımı yandırıb, yaxsın.
Odlara salsaydı məni bir insan,
Yanan varlığımdan qalmazdı nişan.
Bir nəhəng ağzına atılsaydım mən,
Dünya qurtarardı xəcalətimdən.
Bəd övlad yaratdı məni zəmanə,
Evdə div oluram, çöldə divanə.
Baxdıqca xar olur qohum-qardaşlar,
Adımdan utanır yaxın yoldaşlar.
Xəstəyəm, qanımı tökən o cəllad
Öz keyfində gəzir qisasdan azad.
Of! Salamat qalın can sirdaşlarım!
Məclis yoldaşlarım, söz yoldaşlarım!
O şərab şüşəsi əlimdən düşdü,
Sınıb parçalandı, yadlar gülüşdü.
Yolumda şüşələr qırılsa da, bax,
Onları, göz yaşım sel tək coşaraq,
Yudu ki, o şüşə qırıntıları
Dostlar ayağına batmasın barı.
Ey mənim dərdimi anlamayanlar
Yolumdan çəkilin, nə işiniz var?
Özümdə deyiləm... məni anmayın,
İtkin bir insanam, mənə yanmayın.
Bəsdir bu zülmünüz, halıma baxın,
Məni öz dərdimlə azad buraxın!
Qovmayın məni siz ana vətəndən,
Onsuz da, qaçmağa atlanmışam mən.
Taqətdən düşmüşəm, əlacım nədir?
Canan! Əlimdən tut, can viranədir!
Sənə könül verən xəstəyəm, ey yar!
Uğrunda ölməyim daha xoş olar.
Bir salam lütf elə, durult suyumu,
Bircə sifarişlə oxşa ruhumu.
Divanə bir mənəm, gizli deyildir,
Bəs sənin boynunda nədir o zəncir?[76]
Canan! O zənciri salma boynuna,
Qoy mən zəncirlənim, layiqəm buna.
Uçurdu könlümü zülfüyün bağı,
Kim öyrətdi sənə bu ev yıxmağı?
Könül ovçusudur o qara saçlar,

Oğrudur saçların, kordur ruzigar...
Ey mənim diləyim, ağzımda dilim!
Əl ver, bu quyudan çıxım, sevgilim!
Ya əlimdən yapış, sevimli canan!
Ya da ki, qoy öpüm ayaqlarından.
Bir kömək əli ver, işsiz oturma!
Əllərin qoynunda bir küncdə durma!
Nədən mənə qarşı mərhəmətsizsən?
Bəs "İrhəm-türhəm"i oxumadın sən?[77]
Dərdlərdən, qəmlərdən azad bir ürək
Özgənin dərdini hardan biləcək?
Toxun ac olandan nə xəbəri var?
Verdiyi çörəyi xırdaca doğrar!
Əlini vurmasa oda bir nəfər,
Odun istisini necə hiss edər?
Sevgilim! İnsanıq ikimiz də, bax:
Mən tikan koluyam, sən şümşad budaq.
Qızılı zırnıxdan seçərək, tanı,
Onun bir misqalı, bunun batmanı.
Hardasan, ey mənim dərdimə dərman?
Nə üçün can almaq xəyalındasan?
Şikəstə könlümün nədir pənahı?
Səni sevməkmidir onun günahı?
Nolar bir gecəlik bizə gələndə?
Bir dəfə yanılıb, səvab et sən də.
Gəl inad eyləmə, boyun ol buna,
Bu işin babalı mənim boynuma.
Bu dərdli aşiqin günahı çoxdur,
Sənin ki, lütfün var, qorxusu yoxdur.
Qəzəbin yandırır, qəlbi, ciyəri,
Yoxmu iltifatın, ey gözəl pəri?
Sənin qəzəb odun yandığı zaman
Ona göz yaşımdan su çilə, canan!
Ayımdır, günümdür səndəki camal,
Onunçun seyr edir aləmi xəyal.
Yaxşı ki, görmürəm səndən nəvaziş,
Dəli təzə ayla bağlamaz saziş.
Səni kölgəmdən də sormuram, ey yar,
Çünki kölgəmə də yoxdur etibar.
Mən ki, öz kölgəmdə görürəm səni.
Başımdan kəsirsən sən öz kölgəni.
Apardın könlümü, aldın canımı,
Zalım cəllad olub, tökdün qanımı.
Eşqindən aldığım bu şöhrət, bu ad
Elədi ömrümü, eşqimi bərbad.
Sənin visalına yetməyir ünüm,
Lakin ümidinlə keçir hər günüm.
Evdə susuz qalıb yatsa bir uşaq,
Görsə yuxusunda sulu bir bardaq,
O şirin yuxudan qalxdığı zaman
Sorar barmağını susuzluğundan.
Qatlandı dizlərim qoşa, "lam" kimi,
"Yey" kimi bükmüşəm öz əllərimi[78].
Ah, adın məni də adın tək edir,
O da, bax, iki "lam", iki də "yey"dir.
Eşqin çıxan deyil candan, ürəkdən,
Nə çıxar aləmə sirr söyləməkdən.
Süd ilə gəlmişdir canıma bu sirr,
Canımdan ölüncə çıxan deyildir".
Bunu söyləyərək, yıxıldı yerə,
Çökdü qəm buludu baxan gözlərə.
Mərhəmət üzündən kömək etdilər,
Onu evlərinə alıb getdilər.
Məhəbbət daimi olmasa əgər,
Gəncliyin bir şəhvət oyununa dönər.
Məhəbbət odur ki, odu sönməsin,
İnsan yaşadıqca, üzü dönməsin.
Həqiqi məhəbbət bir məhəbbətdir,
İlki də, sonu da əbədiyyətdir.
Məcnun məhəbbətlə yetdi kamala,
Yayıldı şöhrəti bütün mahala.
Məhəbbət yükünü çəkən o ürək
Sövda nəsimiylə açıldı gül tək.
İndi onun gülü olmuşdur xarab,
Ondan xatirələr bir damcı gülab.
O gözəl gülabın xoş ətirindən
Arxımın suyunu durulduram mən.

## ATASININ MƏCNUNU KƏBƏYƏ APARMASI

O sövda bayrağı qalxandan bəri
Leylinin hüsnü tək tutdu göyləri.
Aləmdə Məcnunu bu rüsvay etdi,
Onun dəliliyi kamala yetdi.
Başa divanəlik gəlsə hicrandan,
Bütün zəncirlərdən qurtarır insan.
Talein ürəyi yanmırdı ona,
Atası baxdıqca yazıq oğluna,
Dua edirdi ki, günəş görünsün,
O qaranlıq gecə gündüzə dönsün.
Duasız bir qapı, bir pir qoymadı,
Yazıq yalvarmaqdan cana doymadı.
Bütün qohumlar da pirə gedərdi,
Atayla birlikdə dua edərdi.
Gördülər bir əlac yoxdur bu dərdə,
Bir xeyir verməyir ziyarətlər də;
Bu oldu dostların verdiyi qərar:
Bu dərdə Kəbədən qapı açılar.
Bütün yer üzünün o pənahıdır,
Yerin də, göyün də qibləgahıdır.
Dedilər: "Həcc vaxtı gələndə yenə,
Gedərik Məkkənin ziyarətinə..."
Ata bu səfərə çıxdığı gündə,
Kəcavə bəzədi dəvə üstündə.
Oğluna yalvardı: "Gəl əyləş", deyə,
Oturtdu ay kimi onu beşiyə.
Çatınca Kəbəyə o dərd atası
Taxdı qulağına qulluq sırğası.





Gövhəri qızıla qatıb yüz kərə,
Qum kimi səpdi o qum rənglilərə.
O qədər xəzinə payladı ki, tək
Qaldı xəzinəsi boş bir daxma tək.
Kəbənin üzünü görüncə ata
İstədi mətləbi yetsin murada.
Öpüb, qucaqladı yazıq oğlunu,
Kəbə kölgəsində saxladı onu.
Dedi: "Oyun yeri deyil bu, oğlum,
Əlacə gəlmişik, qurbanın olum.
Kəbə zəncirindən yapışsan bu an,
Qəmlər zəncirindən azad olarsan.
De ki: - Böyük tanrı, bu hərzəlikdən
Canımı bir dəfə azad eylə sən.
Rəhm elə, məni öz himayənə al,
Gəl bu divanəni doğru yola sal.
Bu dərdi canımdan irağa göndər,
Bir də bu eşqdən qəlbimi döndər.
Mən eşq əsiriyəm, bir məni yad et,
Eşqin bəlasından məni azad et".
Məcnun eşq sözünü eşidən zaman
Əvvəlcə ağlayıb, güldü sonradan,
İlan tək qıvrılıb, sıçradı yerdən,
Kəbə halqasına əl atdı birdən,
Halqanı öpərək, dedi: "Ey allah!
Mən də bir qapının halqasıyam, ah!
Eşqin halqasında inildəsin can,
Bir gün də düşməsin o qulağımdan.
Mənə deyirlər ki: - Gəl eşqi burax, -
Bu, dost məsləhəti deyildir ancaq.
Eşq ilə yaşayır aləmdə səsim,
Eşqsiz aləmdə batar nəfəsim.
Eşqdən yoğrulmuş ruhum, bədənim,
Eşqsiz bir günüm olmasın mənim.
Eşqsiz bir ürək heçliyə varsın,
Onu qəm selləri yuyub aparsın.
İlahi, birliyin xatirəsinə,
Yenə yalvarıram ürəkdən sənə.
Qoy eşqim ucalıb, namidar olsun,
Mən özüm ölsəm də, eşqim var olsun.
Eşqin günəşindən ayırma məni,
Silmə gözlərimdən sən bu sürməni.
Könül bu sövdadan sərxoş olsa da,
Qoy bundan da betər olum dünyada.
Deyirlər: - Eşqi tut özündən kənar,
Leylini sevməyi qəlbindən çıxar.
İlahi, sən saxla mənim Leylimi,
Çoxalt hər dəqiqə ona meylimi!
İlahi, ömrümdən kəs indən belə
Leylinin ömrünə cala əlinlə!
Mən tükə dönsəm də onun qəmindən,
Başından bir tük də əskik etmə sən.
Qoyma ki, boş qala qulağım bir an,
Yarın öyüd verən o halqasından.
Cananın meyliylə dolsun piyaləm,
Sikkəsi düşməsin adımdan bir dəm.
Qoy alsın canımı yarın camalı,
Qanımı içsə də olsun halalı.
Qəmindən şam kimi yansa bədənim,
Bir günüm olmasın o qəmsiz mənim.
Bu eşq aləmində ürək düz olsun,
Eşqim yaşadıqca, birə yüz olsun".
Ata dinlədikcə oğlunu, yenə
Dərin bir susqunluq çökdü qəlbinə.
O indi bildi ki, nadir məhəbbət,
Dərmansız, davasız yaranmış bu dərd.
Baş alıb qayıtdı öz evlərinə,
Bütün qohumlarla görüşdü yenə.
Dedi: "Bu zənciri qırılmış bədbəxt
Kəbə halqasına əl atdığı vaxt
Qulağım titrədi zəmzəməsindən,
Mən də Zəmzəm kimi coşdum səsindən[80].
Deyirdim, əl açar oğlum Kəbəyə,
Leylinin dərdindən qurtarsın, deyə.
Osa öz canına qarğadı yalnız,
Dualar etdi ki, yaşasın o qız".

## MƏCNUNUN ATASININ LEYLİ QƏBİLƏSİNİN QƏSDİNDƏN XƏBƏR TUTMASI

Yayıldı aləmə bu acı xəbər,
Bu sirri yadlar da açıq bildilər.
Dedilər: "Can alan bir eşq ucundan
Divanə olmuşdur gözəl bir cavan".
Ondan danışdıqca hər oba, hər kənd,
Gah təəssüf etdi, gah da məzəmmət.
Leyliyə güldükcə istehzaçılar,
Girdi qəm evinə o dərdli nigar.
Leyligil tərəfdən bir-iki nəfər
Qəbilə şahına belə dedilər:
"Filan biyabandan çıxan bir sərsəq
Bizim qəbiləni rüsvay edir, bax.
Yanında it kimi bir sürü adam,
Baş açıq buraya gəlir o müdam.
Gəzir sızıltıyla bizim yerləri,
Gah atılıb düşür, gah öpür yeri.
Yaxşı şer deyir, şeri gözəldir,
Dəqiqə başına qəzəl düzəldir.
Onun qəzəlləri oxunan yerdə
Yırtılıb dağılar yüzlərcə pərdə.
Bütün sözlərini el deyir əzbər,
Bizi də, səni də rüsvay edirlər.
Leyli də olmuşdur sinəsi dağ-dağ,
O yeldən sönəcək bizim bu çırağ.
Bir qulaq burması göstər ona sən,
Bizim ay qurtarsın onun şərrindən".
Oğru yorğun idi, darğa qan tökən
İşdən xəbər tutub qopdu yerindən.

Qılıncı çəkərək, dedi, müxtəsər:
"Onun cavabını bu qılınc verər".
O yerdə bir nəfər amiri vardı,
Öz qəbiləsinə xəbər apardı.
Dedi atasına Məcnunun dərhal:
"Gözlənən bəlanın qarşısını al.
Yoxdur o darğanın qəlbi, duyğusu.
Alovlu bir oddur, sürətli bir su.
Məcnun xəbərsizdir, qorxuram ki, mən,
Bilsin, ayrılanda başı bədəndən.
Onun qarşısında boş bir quyu var,
Quyuya düşməmiş edək xəbərdar".
Sən yazıq atanın taleinə bax!
Atalıq eşqiylə qəlbi yanaraq,
Dostlara əmr edib, buyurdu qoca:
Yel kimi düşsünlər onun dalınca,
Nəsihət diliylə onu bir təhər
Təsəlli tapmağa dəvət etsinlər.
Axtarıb gəzdilər onu hər yandan,
Nə bir iz tapdılar, nə də bir nişan.
Dedilər: "Bəlkə də əcəl yetmişdir,
Vəhşilər əlində ölüb getmişdir".
Hər dost ürəyindən qopdu bir nalə,
Qaranlıq çökmüşdü hissə, xəyalə.
Ondan nə iz vardı, nə də yadigar,
Bütün ailəsi qalmışdı ağlar.
Eşqin halqasını qulağa taxan,
Dünyanın işinə biganə baxan,
Bir xəzinə kimi küncdə qalaraq,
Nə səs eşidirdi, nə də ki, soraq.
Belə bir ovlaqda o Məcnun yazıq
Yolun tozuna da qanedi artıq.
Şir gücü olsa da tox bir canavar,
Ondan qoçaq olar ovda çaqqallar.
Aclığı olmasa şahinin bir az,
Turacın üstünə uçub şığımaz.
Ac üçün kəpək də yağlı çörəkdir,
Tox üçün yağ-çörək sanki kəpəkdir.
İştah qızışanda baş alıb gedər,
Çovdar çörəyini mum tək əridər.
Halva çox şirindir, şəkər kimidir,
Kəkliyi azmışa zəhər kimidir.
Məcnun dolaşdıqca o baldan kənar,
Yediyi olmuşdu tamam zəhrimar.
Başından aşdıqca aşiqin dərdi,
Kasad mətaına rəvac verərdi.
Yox, yox, əridəcək bu sövda onu,
Yoxdur bu qüssənin, bu dərdin sonu.
Məcnuna üz verən hər ölçüsüz qəm
Olmuşdu dərdini dağıdan həmdəm.
Bir yol tapmasa da o xəzinəyə,
Axtarıb gəzərdi, xəzinə deyə.
Bəni-Səd adlanan yad bir tayfadan
Bir nəfər Məcnuna rast gəldi bu an.

O gördü aşiqi xərabəzarda,
Əhvalı pozğundur, xəyalı darda.
Qalmış öz beyti tək tənha, giriftar,
Mənası genişdir, qafiyəsi dar,
Yəni ki, məhrumam yardan, yoldaşdan,
Qafiyəsiz şerdir, kimsəsiz insan.
Öz talei kimi dönmüş kamana,
Vəfada ox kimi durur mərdana.
Onun duruşunda məna gəzərdi,
Kamanla birləşmiş oxa bənzərdi.
Bir nalədən başqa yoxdu həmdəmi,
Yalnız kölgəsiydi onun məhrəmi.
O yolçu ordaca gördü Məcnunu,
Nəcib bir insana bənzətdi onu.
Sonra əhval tutub, nə soruşdusa,
Məcnun cavab verib dinmədi əsla.
Umudu kəsildi, onu tərk etdi,
Yolçu öz yoluna düzəlib getdi.
Gəldi Məcnungilin qəbiləsinə,
Qəbilə toplaşdı onun səsinə.
Dedi: "Filan yerdə, xərabəzarda
Məcnun ilan kimi qıvrılır darda.
Divanə dərdlidir, yorğundur, bilin,
Div kimi qaçmışdır gözündən elin.
Hər yetən tənədən bir yara almış,
Əriyib bir dəri, bir sümük qalmış".
Atası oğlundan xəbər tutunca,
Eldən üz döndərdi zavallı qoca.
Oğul sorağıyla o ixtiyar da
Dolaşdı div kimi mağaralarda.
O gəlib yetişdi bir viranəyə,
Daş üstə rast gəldi o divanəyə.
Məcnun sinəsindən söz bağlayırdı
Gah oxşatma deyir, gah ağlayırdı.
Ciyərinin qanı gözdən axırdı,
Bəxti tək gah düşüb, gah da qalxırdı.
Elə məst etmişdi onu bu hicran,
Nə dünya bilirdi, nə də ki, insan
Ata salam verdi yazıq oğluna,
Şirin bir dil ilə yalvardı ona.
Məcnun atasının şəklini görcək,
Onun ayağına düşdü kölgə tək:
"Ey başımın tacı, könlümün taxtı,
Üzrüm var, gəl dinlə sən bu bədbaxtı,
Soruşma halımı, üzümə bir bax,
Gəl qəzaya tapşır məni sən ancaq.
Arzu etməzdim ki, belə bir halda
Gözlərin görəydi məni, ey ata!
Doğrudur, qaradır yanında üzüm.
Ah, üzr istəməyə varmıdır sözüm.
Mənim ki, dərdimi özün bilirsən,
Çıxmış ipin ucu əllərimizdən..."





## ATASININ MƏCNUNA NƏSİHƏTİ

Ata eşitdikcə onun səsini,
Alıb yerə vurdu əmmaməsini.
Bir səhər quşu tək sızladı qəlbən,
Gündüzü gecə tək qaraldı birdən.
Dedi: "Ey gözümün qarası, ağı,
Dağılmaz bir gülün solğun varağı,
Xəyalın yenəmi bir divanədir?
Yanıb külə döndü, bu halın nədir?
Kimin gözü dəydi gül camalına?
De, kimlər qarğadı sənin halına?
Kimlər öz qanını boynuna atdı?
De, kimin tikanı ətəynə batdı?
Sənə nə oldu ki, qaldın işindən?
Düşdü gözlərinə, de, hansı tikən?
Heç aşiq sən kimi bədbəxt olmamış,
Bu qədər dərd çəkib darda qalmamış.
Neçin yorulmadın, usanmadın sən,
Düşmən tənəsindən, qəm qəfəsindən?
Qəlbin doymadımı bu məzəmmətdən?
Neçin dirilmədin bu qiyamətdən?
Oğul, bu sövdanı bir dəfə unut,
Özünə rəhm elə, hörmətimi tut.
Nədir bir eşq üçün bu rüsvayçılıq?
Aləmə göstərmə bu eybi açıq.
Çox gözəl olsa da eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək.
Bu dostluq aynası göstərir ki, sən
Özündən bu eybi kənar edəsən.
Aynanın nə pisi, nə yaxşısı var,
Bu cür xasiyyətlər insanda olar.
Bu dərdi qəlbindən çıxar bir kərə,
Soyuq bir dəmiri döymə boş yerə.
Tutaq ki, ağırdır canan həsrəti,
Qalmamış könlüyün səbri, taqəti
Bari bu həsrəti arabir unut,
Gəl biz tərəfin də əhvalını tut.
Xəyal havasına at çapan olar,
Qaçmaq ayağında piyada qalar.
Bəsdir bu şərabsız, içgisiz məstlik,
Bəsdir bu arzusuz arzupərəstlik.
Oğul, sən xırmanı yelə vermisən,
Bu zalım düşmənə kam olmuşam mən.
Sən adlı, sikkəli istərsən məni,
Boşla dəliliyi, bu pis sikkəni.
Sən sazı döyürsən, mən də dizimi,
Sən paltar cırırsan, mən də üzümü.
Eşqin odlarına yansan belə sən,
Mənim ciyərimdir küllərə dönən.
Umuddan əl üzmə, gəl çarə qılaq,
Göyərmək deyildir danədən uzaq.
Umudsuz bir işdən, səbr etsən əgər,
Bir umud işığı parlaya bilər.

Hər umudsuz işdə bir çox umud var,
Qaranlıq gecədən ağ səhər doğar.
Oğul, səadətin qapısını aç,
Ayağı sürüşkən taleindən qaç.
Çalış, əllərindən çıxmasın dövlət,
Dövlətlə yaranır bütün səadət.
Dövlət, düyümləri açandır bir-bir,
Şahlıq üzüyünün firuzəsidir.
Dünya qapısının açan hər an
Dövlətin cibində saxlanır, inan.
Sən də səbr eləsən, dayansan əgər,
Tale yavaş-yavaş əlinə gələr.
Dərinlik, sonsuzluq varsa dəryada,
Arxların suyundan yaranmış o da.
Başında buludlar oynayan hər dağ
Torpaq zərrəsindən qurulmuş ancaq.
Sənin də səbrində qoy olsun qərar,
Gövhəri səbr ilə qazanmaq olar.
İradəsiz olma, iradəsizlər,
Ayaqsız qurd kimi yerdə sürünər
Tülkü canavarı edirsə məğbun,
Ondan iradəsi böyükdür bunun.
Səni illər boyu yad etməyənə
Nə üçün könlünü verirsən yenə?
O, şaddır, gül kimi, sən gözü yaşlı,
O, daş ürəklidir, sən başı daşlı.
Kim ki, söhbət açır o qızdan sana,
Səni rüsvay edir, bir ayılsana.
Əqrəb çalmışlara verilsə gərfəs[81],
Zəhərlə məhv olub kəsilər nəfəs.
Can oğul, başqa bir iş ucundan tut,
Bu sövda işini bilmərrə unut.
Hindli fil başına döyər hər yerdə
Ki, fil Hindistanı anmasın bir də.
Canımsan, canımdan daha əzizsən,
Evə dön, evimin işığısan sən.
Bu dağda yurd salıb otursan, əgər,
Yalnız üzümüzün suyu tökülər
Bu yolda daşlıq var, quyu var ancaq,
Bir aç gözlərini, ona yaxşı bax.
Darğa pusqudadır, inad olma bir,
Zəncirə əl vurma o dəmirdəndir.
Sən yol uşağısan, fitnə yolkəsən,
Qılıncdır başının üstündə əsən.
Sən şadlan, kor olsun buna düşmənin,
Gəlsin məclisinə dostların sənin"

## MƏCNUNUN ATASINA CAVABI

O şəkərdilini Məcnun eşitcək,
Ağzından söz tökdü o da şəkər tək:
"Sən, ey böyüklüyü göylər calallı,
Uca göylərdən də uca xəyallı,
Virana yerlərə sənsən şəhriyar,

Ərəblər üzündə, ənbər xalın var.
Sənin dərgahındır ilk qibləgahım,
Canım canındandır, sənsən pənahım.
Ömrün uzun olsun, daima yaşa,
Səninlə bir vuraq dünyanı başa.
Böyük xəzinədir bu nəsihətin,
Yaramı bağladı mehrin, ülfətin.
Ancaq, neyləyim ki, mən bəxti qara
Xoşla düşməmişəm vəhşi dağlara.
Doğrudur, dağılmış səbrim, qərarım,
Özümdə deyildir öz ixtiyarım.
Bağlanıb qalmışam, zəncirim dəmir,
Görünür mənim də bəxtim belədir.
Zənciri açmağa gücsüzəm bu dəm,
Bu yükü üstümdən ata bilmərəm.
Dedim ki, dönməsin ciyərin qana,
Xəyal pərişandır, könül virana.
Başımda partlayan bu ildırımdan
Minlərcə xırmanlar yanmışdır, inan.
Məzlum mən deyiləm yalnız bu yerdə,
Yüzləri düşmüşdür mən düşən dərdə.
Kölgə özbaşına düşməz quyuya,
Göydə dayanmamış ay duya-duya[83].
Filin vücudundan milçəyə qədər,
Bu zülmü çəkməyən varmıdır məgər?
Xalqın istəyincə olsaydı hər iş,
Bir iş qalardımı xalq istəməmiş.
Daşları əridir çəkdiyim kədər,
Kim öz ürəyinə sıxıntı istər.
Məni pis taleim təqib edir, bil,
Heç kəs bədbəxtlikdən qurtaran deyil.
Neyləyim, olsaydı əlimdən tutan,
Ya günəş, ya da ay olardım, inan.
Bizdən ixtiyarsız yaranmış hər iş,
İnsan iradəsi ona dəyməmiş.
Başım bəlalıdır, ürəyim xal-xal,
Dünyada varmıdır bir nəfər xoşhal.
Vətən tozu kimi mənəm sərgərdan,
Axır gözlərimdən yaş yerinə qan.
Bükdüm ildırım tək dodağımı mən,
Qorxub gülmədim ki, od tutar bədən.
Deyirlər, nə üçün gülməyirəm bir?
Ağlamaq qəmginlik əlamətidir.
Ömrümdə şadlanıb gülsəm bircə gün,
Qorxuram ağzımdan alov püskürsün.
Kəklik qarışqanı dimdikləyərək,
Onu dimdiyində sıxırdı bərk-bərk.
Qarışqa kəkliyə gülərək bu an,
Dedi ki: "Sən gülmək bacarmayırsan"
Yazıq qarışqaya baxaraq dik-dik;
"Bu mənim peşəmdir" söylədi kəklik.
Sonra qəhqəhəylə o güldü birdən,
Saldı qarışqanı öz dimdiyindən.
Hər kim bu dünyada gülərsə artıq,
Ondan uzaqlaşar məncə xoşbaxtlıq.
Yersiz bir gülüşün nə mənası var?
Yerində ağlamaq daha xoş olar.
Mənim ki, nəsibim oldu əziyyət,
Hansı bir günümlə mən olum rahət?
Belində yük olan qoca bir eşşək
Nə qədər ömrü var əzab çəkəcək,
Rahat olmayacaq o əziyyətdən,
Bir ölüm qurtarar onu bu dərddən.
Demə məhəbbətə qılıncdan iti,
Ürəkdir yaradan bu məhəbbəti.
Qılınc oyunundan kim qaçsa, gerçək,
Başı bir qılıncla vurulsun gərək.
Eşqin qılıncından qorxmaz ki, heç kəs,
Aşiqin başından qılınc əksilməz.
Aşiq olan kimsə canından qorxmaz
Cananını sevən cahandan qorxmaz.
Girdi buludlara o ay sirdaşım,
Qoy qılınc altına qoyulsun başım.
Bir baş verilməsə canana qurban,
Qılınca və teştə layiqdir, inan.
Bu odlara düşən canım naxoşdur,
Bu naxoş canımın yanması xoşdur.
Mən ki, söz olmuşam ağıza, dilə,
Sən də unut məni bu gündən belə".
Ata dinlədikcə yazıq oğlunu,
Ağladı, ağladı, yaş boğdu onu.
Bir yanda atası dayanmış giryan,
Bir yanda balası yıxılmış üryan.
Sonra evlərinə onu apardı,
Təsəlli verərək öpdü, yalvardı.
O sinəsi dağlı, o bəxti qara
Qəfəsdə quş kimi düşmüşdü dara.
Evdə iki-üç gün qara bağladı
Bu acı səhnəni görən ağladı.
O pərdəni yırtıb, ah çəkdi yenə,
Baş alıb yollandı çölün düzünə.
Əzab içindəydi həyatı ancaq,
Ölümdən pis idi ona yaşamaq.
Məhəbbət coşdurdu onun ruhunu,
Yenə Nəcd dağına apardı onu.
Əli daş kimiydi, ayağı dəmir,
Dağı dolaşırdı o havalı şir.
Orda gurladıqca Məcnunun səsi,
Bir qəzəl deyirdi hər zümzüməsi.
Ellər, obalar da yığışıb səf-səf
Gəlirdi heyrətlə o dağa tərəf.
Eşitdikdə ondan nadir bir inci,
Xatirə qələmə tutub birinci,
Töhfə apardılar diyarbədiyar,
Aşiqlər nəğmədən varlanırdılar.





## LEYLİNİN ƏHVALI HAQQINDA

Murad dastanının ilk səhifəsi,
Gözəllik mülkünün baş sərkərdəsi,
Yeddi ulduz kimi gözəl camallı,
O göylər duruşlu, göylər calallı,
Gözəl camalına ay həsəd çəkən,
Hüsnüylə sərvin də bağrını sökən,
Umudu, qorxunu mars qoyan hünər,
O aydan, günəşdən irs alan dilbər,
O, bütpərəstlərin səcdə mehrabı,
O, saray qəndili, gülşən gülabı,
Eşqin yatağına, nazına bir yar,
Həm xəzinə olan, həm xəzinədar,
Hüsnün, gözəlliyin zinət mayəsi,
Şəkər dililərin naz sərmayəsi,
Özünə min aşiq qəlbi bağlayan,
Min Məcnun zənciri qırıb ağlayan
Leyli parladıqca min təmtəraqla,
Aləm göstərirdi onu barmaqla.
Daradı saçını o təzə sünbül,
Yırtdı qönçəsini o növrəstə gül.
Boyu sərv kimi qalxıb, ucaldı,
Yaqut dodaqları nə canlar aldı!
O, könül bağında boy atan pəri,
Qəmzə oxlarına tutdu elləri.
Ah, o baxışları nə sehirkardı!
Yüz könül mülkünü birdən talardı.
Qəmzəsi ox kimi süzüb gedərdi,
Ərəb, türk yurduna hücum edərdi.
Atdığı kəməndin bir sirri vardı,
Qəmzəsi ov tutar, zülfü bağlardı.
Sonra da atardı damın üstündən,
Müşgə bənzəyirdi ahu gözləri,
Ahular ovlardı o gözəl pəri.
Şikar zamanında şirləri belə
Tutub zəncirlərdi hörüklərilə.
Üzü gül, dodağı baldan da şirin,
Şəkər görüb onu, dedi afərin,
O gül yanaqlara, bal dodaqlara
Min nazənin baxıb, düşmüşdü tora.
Saçı öpüş üçün yol təmizlərdi,
Kirpiyi "qoy allah versin" deyərdi.
Zülfü kəmənd olub, aşiq ovlardı,
Kirpiyi ox kimi onu qovlardı.
Aydan gözəl olan o iki yanaq
Güldən iki addım düşmüşdü qabaq.
Bir sərv boyluydu o qızın özü,
Sərv üstə qırqovul kimiydi üzü.
Dodağı şəkərdən şirə çəkmişdi,
Xurmanın üstünə qələm çəkmişdi.
Öpüş yaraşırdı o gül dodağa,
Şəkərin tüngünü qoymuşdu lağa.
Açıq quyu kimi zənəxdanına
Yüz könül düşmüşdü, aldanıb ona.
Zülfünü ip kimi atmışdı canan,
Bəlkə, aşiqləri çəksin quyudan.
Aşiqlər halına o yana-yana,
Özünün qəlbi də dönmüşdü qana.
O, dustaq qalmışdı bir pərdədə tək,
Ürəyi sınmışdı onun pərdə tək.
Bəzən oğrun-oğrun dam üstündə qız
Səhərdən axşama baxardı yalnız.
Bəlkə də, Məcnunu görə bir təhər,
Barı, bir dəqiqə deyib gülələr.
Harda tapsın onu bu gözəl sona,
Dərdini, sirrini bir açsın ona?
Ah, rəqib hədəsi, ah, düşmən dərdi!
Qız gecə yarısı min ah çəkərdi.
Şam kimi dəlicə gülməyi vardı,
O, şirin gülsə də, acı ağlardı.
Göz yaşı gülünü islatdıqca hey,
Məcnun görünürdü gözünə hər şey.
Aynılıq oduna yanırdı pünhan,
Nə işıq, nə tüstü çıxırdı ondan.
Üzdə külək kimi coşsa da hər vaxt,
İçərdə qəlbini yeyirdi bədbaxt.
Öz dərd aynasına baxaraq yalnız,
Orda xəyalıyla danışırdı qız.
Yalnız kölgəsiydi onun sirdaşı,
Bir də həmdəmiydi eşqin göz yaşı
Kölgəyə dərdini açdıqca dilbər,
Qonşusu yatmırdı onun gecələr.
Odla su arası olmuşdu yeri,
Bir pəri üzlüydü o gözəl pəri.
Qadının nəğməsi cəhrə səsidir,
Ox isə şahların ov həvəsidir.
Leyli iki başlı iyi ataraq,
Bir başlı ox aldı, ah çəkdi ancaq.
Sarsınıb atdığı bir başlı oxdan,
İki başlı iy də oldu sərgərdan
Dərya-dərya yığıb dərd ilə qəmi,
Gözündən tökürdü o, gəmi-kəmi.
O, pərdə dalında qəmlər yedikcə,
Qəmlər əridirdi qəlbini təkcə.
Qulağa bir qızıl halqa taxaraq,
Halqa tək qapıya asırdı qulaq.
Eşqin halqasını öz qulağından
Başqa bir insana verməzdi bir an.
O, ay çeşməsinə baxıb dalardı,
Gözləri çeşmə tək yolda qalardı.
Bəlkə bir sifariş gələ Məcnundan,
Ya quru bir salam eşidə ondan.
Arabir əsdikcə Nəcdin küləyi,
Bir vəfa duyurdu qızın ürəyi.
O yandan bir bulut gəlsə bu yana,
Umud damlaları verirdi ona.
Evin hər yerindən, hər bucağından

Yarın qəzəlini duyurdu canan.
Leyliyə bazardan gələn hər uşaq
Baxırdı, Məcnundan söz oxuyaraq.
Damının altından keçdikcə hər kəs,
Qəzəl söyləyərdi ona bir nəfəs.
O dünya camallı nazəndə dilbər
Qəlbindən qoşardı gözəl şerlər.
O bakirə gözəl, bir sənətkardı,
Özü tək bakirə sözləri vardı.
Məcnunun dilindən söz düzəldərək,
Cavab da yazırdı o gözəl mələk.
Məcnunun şeriylə yandıqca pəri,
Ona su səpərdi öz şerləri.
Kağızı gizlində isladıb qanla,
Ona söz yazardı min həyəcanla.
Salam göndərərdi sərvə yasəmən.
Kimə rast gəlsəydi o məktub, inan,
Oxuyub oynardı o, şadlığından.
Aparıb Məcnuna verərdi ki, bir
Desin cavabında o gözəl bir şer.
O da canan yazan söz əvəzinə,
Axıcı bir qəzəl deyərdi yenə.
Demək, bu həsbhal qəlbin səsiydi.
İki sevgilinin deyişməsiydi.
O aşiq bülbüllər ötəndən bəri,
Qırıldı dünyanın bütün qəmləri.
Dinib danışdıqca o qoşa sazlar,
Qopdu simlərindən gözəl avazlar.
Rudla çəng çalsa da iki nəğməkar,
Bir qəlbin səsini verirdi onlar.
Onlar ki, hər dərdi şerə salardı,
Başqası çəngdə, neydə çalardı.
Nəğmə düzəltdikcə iki nəğməkar,
Çalıb oynayardı evdə uşaqlar.
Tənə qapısını açıb yenidən,
Böhtan uydurardı onlara düşmən.
Ağlamaq tutardı axır onları,
Göz yaşı yuyardı o böhtanları.
Tamam bir il keçdi bu münval ilə,
Onlar dolanırdı bir xəyal ilə.

## BAHARIN TƏRİFİ VƏ LEYLİNİN XURMALIQ TAMAŞASINA GETMƏSİ

Sərdi xalısını səhraya min gül,
Bəzədi torpağı susənlə sünbül.
Ağacda qonçalar baxdı göz-gözə,
Bənzədi qayğısız, güllər bir üzə.
Qırmızı lalədən sarı çiçəkdən
Təbiət bir bayraq qaldırdı bilsən.
Baxıb bostandakı, bağdakı hüsnə,
Bülbül rübabını basdı köksünə.
Üstünə şeh düşmüş yaşıllıqlar da
Zümrüdə bənzərdi o ilk baharda.
Çəmənlər başına bürümüşdü şal,
Lalənin yarpağı olmuşdu xal-xal.
Hələ, nəzər yetir bənəfşələrə,
Zülfünü darayıb tökmüşdü yerə.
Qonça, kəmərini bağlayıb bərk-bərk,
Tikandan ox tutub atırdı, gerçək.
Güllər ipək geyib bəzənən zaman
Külək yapışmışdı sırğalarından.
Gül rəngli günəşdən açıb neylufər,
Suyun qarşısında atmışdı süpər
Şümşad tellərinə çəkib şanəni
Nar gülü yığırdı nara danəni.
Ətrinin ağzını açdıqca sünbül,
Baxıb əl verirdi ona qızılgül.
Od tutub alışan nərgiz də bu an
Qızdırmalı kimi qalxdı yuxudan.
Şərab qətrələri qaynayıb haman.
Yavaşca axıtdı damarında qan
Axıtdı yasəmən can bulağını,
Nəstərən yıxadı gül yanağını.
Qızıl gül qorxaraq açdı gözünü,
Nazlandı misilsiz görcək özünü.
Beldəki qılınca bənzərdi süsən,
Yox, o sıyırmaydı, səhv elədim mən.
Quşlar dil açmışdı bağda hər yandan,
Baş açmaq olmazdı hərzə-hədyandan.
Turac ürəyindən kabab bişirir,
Qumru sinəsindən ona duz verir.
Çinar başındakı göyərçin səsi
Deyirdi aləmə yar zümzüməsi.
Ağacda bülbül də qan yaş tökərdi,
O da Məcnun kimi nalə çəkərdi.
Gül də Leylidəki o vüqar kimi,
Çadırdan çıxmışdı tacidar kimi.
Baxıb gül fəslinin çəmənlərinə,
Leyli qədəm basdı onun seyrinə.
Sonra saçlarını hörərək yenə,
Su səpdi gülünün yaqut rənginə[84]
Haman qəbilənin gözəl qızları
Aldı ortalığa bizim dildarı.
Ərəb torpağında türk idi onlar,
Xoşdur ərəbboylu türk olan nigar.
Sənəmlər içində gedir xuraman,
Yaman göz dəyməsin ona heç zaman.
Bağda bitkilərin seyrinə dalsın,
Gülün kölgəsində dincini alsın.
Piyala uzatsın ona nərgizlər,
Lalədən öyrənsin təzə bir xəbər.
Bənəfşə zülfündən aldıqca işıq,
Camalı güllərə olsun yaraşıq.
Boy atmaq öyrətsin sərvə özündən,
Utansın yasəmən onun üzündən.
Qönçənin ətrindən min bac istəsin,
Çəmənlər mülkündən xərac istəsin.





Boyu kölgə salsın çəmən üzünə
Gülsün o sərv ilə səmən üzünə.
Yox, yox onun qəsdi bu deyil, bilsən,
Nə güldür, nə sərvdir, nə də nəstərən.
Onun məqsədi də, eşqi də təkdir,
Bir bucaq axtarıb, min ah çəkməkdir.
Bülbülə sirrini açmaq istərdi,
Bəlkə təzələnə yenidən dərdi.
Bəlkə gülüstanda əsən küləklər
O qərib aşiqdən verə bir xəbər.
Bəlkə də açıla qəlbinin bağı,
Qalxa sinəsindən ayrılıq dağı.
O yerdə bir gözəl xurmalıq vardı,
Çin nəqqaşlarından bir yadigardı.
Onun cərgə-cərgə xurmalıqları
Sanki yol salmışdı behiştə sarı.
Bu xoş seyrangaha - başdan, binadan
Ayaq basmamışdı canlı bir insan.
Leylinin yanında bir bölük nigar
Gəlib o çəmənə yetişdi onlar.
Leyli yaşıllıqda oturdu gül tək,
Otlardan belinə kəmər çəkərək,
Hayana dəydisə onun nəfəsi,
Açıldı süsənin, gülün qönçəsi.
Hansı çəmənə ki, əli çatardı,
Şümşad göyərərdi, sərv boy atardı.
O sərv boylular, o gül üzlülər
Şadlanıb güldülər orda bir qədər.
Bir an qoşuldusa şadlığa Leyli,
Çox da bağlanmadı məclisə meyli.
Tutu quşu kimi o sövdalı qız
Bir sərvin altına oturdu yalnız.
Gizlicə sızladı mehribanlıqla,
Sonra dilə gəldi bir xoş qılıqla:
"Sən ey eşqə layiq, əziz dildarım,
Sən mənə layiqsən, mən sənə, yarım.
Ey sərv qamətli, coşqun həvəsli,
Ey ataş ürəkli, sərin nəfəsli,
Nolar ki, görəsən sən də bu bağı!
Gəlib qaldırasan sinəmdən dağı.
Nolar, bir tapasan bu bağda məni!
Sən sərvi görərsən, mən də narvəni.
Tutaq ki, dözmürsən məni görməyə,
Mənim bu bağçamdan qaçırsan niyə?
Söylə, sifarişin gəlməyir nədən?
Layiq deyiləmmi bu vəfaya mən?"
Söz sona çatmamış eşitdi bir səs,
Elə bil bir anlıq kəsildi nəfəs.
Qəzəl oxuyurdu yolda bir nəfər,
Məcnunun şeriydi o gözəl əsər:
"Ey mənim pərdəmi açan cananım,
Qoy olsun umudun pərdə tutanım.
Məcnunu boğmuşdu qan dalğaları,
Leyli o yazığı anırmı barı?

Məcnunun bağrını yandırır ələm,
Leyli hansı qəlbə su səpir bu dəm?
Məcnunun qəlbini dəlmiş ox, tikən,
Leyli nə naz ilə yatır, görəsən?
Məcnun min ah çəkib ağlayır burda,
Leyli necə şadlıq axtarır orda?
Məcnun dərd içində, dağ içindədir,
Leyli hansı bahar, bağ içindədir?
Məcnun qəm zənciri vurmuş özünə,
Leyli gülümsəyir kimin üzünə?
Məcnunun ürəyi ürkmüş hicrandan,
Leylinin xəyalı nədir bu zaman?"
Bunu dinlədikcə, qızın göz yaşı -
Töküldü, yumşaltdı torpağı, daşı.
Bağdakı qızlardan birisi bu an
Leyliyə baxaraq gözünün altdan,
Gördü ki, dərd çəkir o gözəl pəri,
Eşqə mehribandır onun gözləri.
Sonra evlərinə qayıtdı qızlar,
Sədəfə dürr kimi girdi o nigar[85].
O qızın qəlbində qalmadı bu sirr,
Gedib anasına söylədi bir-bir.
Məqsədi buydu ki, anası yenə
Bir çarə axtarsın onun dərdinə.
Bu nakam gözəlin anasına bax,
Qəfəsdə quş kimi o çırpınaraq,
Dedi: "Özbaşına qalsa bu nigar,
O, Məcnun olmuşdur, bu da məst olar.
Onu səbr etməyə çağırsam əgər,
Qorxuram məhv olub əlimdən gedər".
Onun həsrətiylə hey yana-yana
Səbr edib dözürdü yenə də ana.
Leyli dörd divarda bir xəzinə tək,
Ay kimi çadırda yaşayırdı tək.
Bulutdan tutqundu çəkdiyi ahlar,
Qında qılınc kimi olmuşdu qəmxar.
Əzab içindəydi o nazlı mələk
Varmı məhəbbətlə şad olan ürək?

## İBN-SƏLAMIN LEYLİNİ İSTƏMƏSİ

Bağın calalını yaradan usta
Böylə nəql edirdi dastan xüsusda:
O gün ki, o bağa girdi aypara,
Yaydı şəfəqini asimanlara.
Gül sərvin başında dəstə bağladı,
Gülün və gülabın alçaldı adı.
Zəncir halqası tək biri-birinə
Keçmişdi Leylinin saçları yenə.
Yolda Bəni-Əsəd qəbiləsindən
Bir nəfər, Leyliyə rast gəldi birdən.
Böyükdü ondakı vüqar və hünər,
Ehtiram saxlardı ona ərəblər.
Çoxdu qəbiləsi və qohumları,





Hörmətlə keçərdi bütün ruzgarı.
Xalq da baş əyərdi o gəncə müdam,
Ona ad vermişdi bəxt-İbn-Səlam.
Gümüşlə, arxaydı ondakı hünər,
Onu barmaq ilə göstərərdilər.
O parlaq çırağı-Leylini görcək,
Bir çarə tapmağa əsdi külək tək.
Lakin o baxmadı heç də gərdişə
Ki, çıraq küləklə gəlməz sazişə.
Vətənə qayıdıb, cumdu xəyala,
Qəlbi can atırdı onun visala.
Ayı qucaqlaya bilməmiş heç kəs,
Bəlkə xəbərsizdi bu işdən o şəxs.
Başında gəzirdi visalın dərdi,
O pəri qızına elçi göndərdi.
İstəyi buydu ki, getsin elçilər,
Versin öz könlünü ona bu dilbər.
Hiylələr düzəldib düşdü ayağa,
Qızılı gül kimi tökdü torpağa.
Min xəzinə yığıb göstərdi elə,
Sürüsü, ilxısı səs saldı çölə.
Könül ovçusuydu o gözəl mələk,
Onun arxasınca elçi gedərək,
Ələ gətirməkçin haman gəlini,
Ata, anasının öpdü əlini.
Ata da, ana da cüt əyləşdilər,
Onlara xoş gəldi bu xeyir xəbər.
Dedilər: "Başqa bir məsləhət olmaz,
Ancaq ki, gözləmək lazımdır bir az.
Çünki pərişandır bizim novbahar,
Leylinin azacıq xəstəliyi var.
Qoyun yaxşılaşsın, şadlanaq biz də,
Kəbin kəsərsiniz o zaman siz də.
Bu kəbin, qəlbaçan bu xeyir xəbər
Allahın iznilə tez başa gələr.
Hələlik dayanıb bir az səbr edin,
Hələlik vədəylə şadlanıb gedin.
Taki gül qonçası açsın bu taqda,
Tikanlar çürüsün bu gözəl bağda.
Qızıl boyunbağı taxıb boynuna,
Verərik, sizinki olar bu sona".
Bunu İbn-Səlam eşidən zaman
Bilmədi neyləsin o şadlığından.
Çapdı öz yurduna atını o dəm,
Silindi könlündən qüssə ilə qəm.

## NOFƏLİN MƏCNUNLA TANIŞ OLMASI

Leyli çadırdaydı, o gizlənmiş ay
Pərdədə qalmaqdan olmuşdu rüsvay.
Açılmışdı onun abır pərdəsi,
"Leyli" çağırırdı hər neyin səsi.
O, ağıza, dilə dastan olmuşdu,
Ətir çəkənlərə reyhan olmuşdu.

Aşiqlər zikriydi o gözəl dilbər,
Dəfində çalırdı onu mütrüblər.
Qıvrılıb qalmışdı öz zülfü kimi,
Nə yuxusu vardı, nə də həmdəmi.
Didərgin Məcnun da atıb elləri,
Sərgərdan gəzirdi vəhşi çölləri.
Vəhşilər yanınca yazıq qoşaraq,
Gəzərdi çölləri qayəsiz, çılpaq.
Güclə tərpənirdi zəif bədəni,
Min dərdlə oxurdu o bir nəğməni.
Vüqarı qılmadı yerlərə səcdə,
Yenə baş götürüb yollandı Nəcdə.
Eşqin tikanına ayaq döyərdi,
Torpaq sovurardı ah olmuş dərdi.
Aşiqlər görəndə onun yasını,
Didib parçalardı öz libasını.
O yerdə mehriban, olduqca qoçaq,
Dəmir kimi möhkəm, mum kimi yumşaq,
Nofəl adlanılan bir igid vardı,
Ərəblər önündə boyun burardı.
Qılıncla ordular basardı o ər,
Lütfü bir maraldı, hirsi şiri-nər.
Ordu sahibiydi, əzəmətliydi,
O çox xəzinəli, çox dövlətliydi.
Bir gün güvənərək öz qüvvətinə,
Şikara çıxmışdı o yerdə yenə.
Qorxunc mağaralar arasında tək,
Nofəl dolaşırdı şikar gəzərək.
Ayağı qabarlı bir dərdli gördü,
Onun hər tükündən qəm tökülürdü.
O möhnət dustağı, o zəif çıraq
Düşmənə kam idi, dostlardan uzaq.
İnsandan qaçmışdı o taleyi kəm,
Vəhşilər olmuşdu Məcnuna həmdəm.
Əqli uçurardı hər bir nəğməsi,
Qəlbi parçalardı pərişan səsi.
Məcnunun halından o tutdu xəbər,
Başından keçəni tamam dedilər.
Dedilər: "Bir qızın divanəsidir,
Bir sövda şamının pərvanəsidir.
Beytlər, nəğmələr deyir ürəkdən,
Canan qoqusunu alır küləkdən.
Yarın sorağını gətirəndə yel,
Yüz qəzəl oxuyur ürəyi tel-tel.
O yandan süzülüb gələn buluda
Baxıb sinəsindən söz deyir bu da.
Hər yerdən səfərə gəlib gedənlər
Bu məzlum aşiqə baxıb bir qədər,
Taam da, şərab da verirlər buna,
Deyirlər bir işıq düşsün ruhuna.
Min cəhddən sonra bir təhər keçir,
Yarın sağlığına bircə cam içir.
Bir budur dünyada fikri, diləyi,
Leyliyə bağlıdır onun ürəyi".

Məcnunun dərdini Nofəl eşitcək,
Dedi: "Bu məqamda kişilik gərək!
Əlimdən gələni göstərməliyəm,
Yetsin muradına bu taleyi kəm.
Mən ov arxasınca gəzirdim, ancaq,
Bəh, bəh, rast gəldiyim şikara bir bax".
Bu sözlər çıxınca onun dilindən,
Düşdü yel qanadlı atın belindən.
Sonra öz yanına çağırdı onu,
Süfrəyə oturtdu eşqin oğlunu.
Şirin əfsanələr danışıb əvvəl,
Məcnunu mum kimi yumşaltdı Nofəl.
Dostdan danışmayan bir söz dünyada
Onca mənasızdı hikmət olsa da...
Lakin, o gördü ki, bu cavan mərddir,
Canansız yediyi, içdiyi dərddir.
Nə cürə söhbətlər olsaydı, inan,
Leyliydi aşiqin dilində hər an.
O yolsuz divanə, o qırılmış saz
Nofəli dinləyib yumşaldı bir az.
Azacıq şadlanıb, qüssəsi keçdi.
Onunla əyləndi, yedi və içdi.
Xoşsifət görüncə müsahibini,
Söhbətə girişib açdı qəlbini.
Beyni tək qəlbi də qızışıb coşdu,
Qənd kimi dadlı bir qəsidə qoşdu.
Hər sözü, gülüşü canlı şerdi,
Od kimi bədihə, qəzəl deyirdi.
Nofəl o aşiqi çox şad eylədi,
Xərabə könlünü abad eylədi.
Dedi: "O çırağın həsrətiylə sən
Şam kimi əriyib sönməyəcəksən.
Qızıl qüvvətinə, qol qüvvətinə
Səni çatdıraram öz niyyətinə.
Quş olub havaya uçsa da o qız,
Əlim boğazından tutacaq yalnız.
Daşlar gizləsə də o qığılcımı,
Daşlara çarparam bu qılıncımı.
Sənə yar olmamış ay üzlü sənəm,
Ondan kəməndimi çəkməyəcəyəm".
Umudla açıldı Məcnunun üzü,
Nofəlin önündə büküldü dizi.
Dedi: "Könül açan bu vədəni siz
Uydurub yalandan deməyirsiniz.
Mən bir divanəyəm, o ev sonası,
Onu divanəyə verməz anası.
Küləyə verməzlər qızıl gülü, bil,
Bir div balasına ay layiq deyil.
O bizim tərəfə endirib gəlməz,
O ay divanəylə dost ola bilməz.
Nə qədər yudular bizim köməyi,
Yenə də olmadı suyun köməyi.
Nə qədər ağ gümüş səpildi, ancaq,
Bizim qara kilim ağarmadı, bax.
Xeyir iş gəlsə də sənin əlindən,
Qismətim deyildir, talesizəm mən.
Bir qorxum budur ki, sən də doyasan,
Sən də yarı yolda məni qoyasan.
Bu şikar hədəfə gəlməzdən əvvəl
Qorxuram, məni sən atasan, Nofəl!
Qorxuram verdiyin böyük vədlər
Axırda verməsin kiçik bir səmər.
Sözünün üstündə dursan mərdana,
Allah əvəzini yetirsin sana.
Yalan deyirsənsə bu sözləri sən,
Məni özbaşıma burax indidən,
Taki öz peşəmi izləyim yenə,
Özüm öz dərdimi gözləyim yenə".
Nofəl bu nalədən pozuldu o dəm,
Dedi: "Yox... köməyi tez etməliyəm".
Gördü ki, o gəncdir, özü də qərib,
Xəyalı azaddır, qəlbi müztərib.
Məcnuna bir yoldaş, bir qardaş oldu,
Hal bilib, hal duyan bir sirdaş oldu.
Əhd edib, əl açdı Nofəl dərgaha,
Ən əvvəl and içdi böyük allaha,
Sonra da and içdi peyğəmbərlərə,
Əqli, iradəsi dedi bir kərə:
"Bu vəfa yolunda qılınc çəkərək,
Qurd deyil, aslan tək döyüşəm gərək.
Bacarıb çatmasam bu xoş murada,
Rahət gün görməyim bir də dünyada.
Lakin xahişim var, bu sözümü tut,
Divanə qalma, gəl bu dərdi unut.
Azacıq sakit ol, döymə köksünə,
Özünü toxtaq tut iki-üç günə.
Gəl, odlu qəlbini kənara qoy sən,
O dəmir qapını tez açaram mən".
İçdi bu şərbəti bizim zavallı,
Qurtuluş gözlədi sövda xəyallı.
O artıq qaçmadı insandan bir də,
And içib, əhd etdi durduğu yerdə.
Səbr ilə bağlandı onun ayağı,
Sanki su səpildi, söndü ocağı.
Sığındı dostunun bu pənahına,
Gedib ayaq basdı qərargahına.
Hamama gedərək, paltar dəyişdi,
Artıq aram olub şərab da içdi.
Ərəb qaydasınca əmmamə qoydu,
Musiqi dinlədi, şərabla doydu.
Yarın camalını saldı yadına,
Dediyi qəzəllər yetdi dadına.
Dostuna yandıqca Nofəlin qəlbi,
Başına dürr səpdi buludlar kimi.
O yedi, dincəldi, əynində libas,
Artıq gözəlləşdi siması bir az.
Saralmış rənginə qızartı gəldi,
Yay kimi bükülmüş qəddi düzəldi.





Yenə şəvə kimi qərarmış xətti
Onun ay üzünə bir dövrə çəkdi.
O ətirli güldən şirə çəkərək,
Nə aparmışdısa, qaytardı külək.
Güldü dodaqları bir səhər kimi,
Parladı dişləri incilər kimi.
Artıq ağıllandı çöl divanəsi,
Kəsildi zəncirin pərişan səsi.
Yenə bağ içində boy atdı lalə,
Qızıl gül əlinə aldı piyalə.
İndi Məcnundakı əzəmət, vüqar
Hikmət məclisinə oldu hökmüdar...
O qonaqcıl Nofəl, o böyük adam
Məcnunu yüz nazla bəslərdi müdam.
Məclisi, şadlığı onsuz keçməzdi,
Üzünü görməsə bir mey içməzdi.
Onlar iki-üç ay şən keçirdilər,
Mehriban oturub şərab içdilər.

## MƏCNUNUN NOFƏLƏ ACIQLANMASI

Bir gün ikilikdə oturmuşdular,
Yenə məclis açıb keyf qurmuşdular.
Məcnun zəmanəyə nifrət deyirdi,
Şerlər qoşaraq qəmlər yeyirdi:
"Ey mənim ahımdan xəbərsiz duran,
Aldadıb külümü göyə sovuran,
Yüz dostluq vədəsi verdinsə də sən,
Yarım dostluğa da vəfa etmirsən.
Gəl öz başındakı xəyalı unut,
Sən mənim sözümü, iltıcamı tut.
Məni ağ yalanlar felinə verdin,
Yenə kimsəsizlik əlinə verdin.
Söz verdik dostluğa, səmimiyyətə,
İndi göz yumursan sən bu niyyətə.
Səndən mən eşitdim yüz dil yarası,
Görmədim bir dərman, bir dərd çarası.
Səbrim tükənmişdir, şaşqınam bu dəm,
Dadıma yetməsən əldən gedərəm.
Əvvəl bir yazığın dərdinə qalmaq,
Sonra öz sözünün ziddinə olmaq
Bil ki, böyüklükdən uzaqdır, məncə,
Dostluğun vəfası budurmu, səncə?
Vəfasız bir vədi vermə insana,
Layiq görməyirəm mən bunu sana.
Köməksiz, arxasız, qərib bir quşam,
Dirilik suyundan uzaq uçmuşam.
Xərabə bir kəndə xəzinə vermək,
Susuza su vermək şərt olsun gərək.
Bil ki, müşkülümü tez düzəltməsən,
Yenidən divanə olacağam mən.
Gəlməsə sevgilim-bəxtiyarlığım,
Bil ki, məhv olacaq bütün varlığım".

## LEYLİNİN QƏBİLƏSİ İLƏ NOFƏLİN MÜHARİBƏ ETMƏSİ

Nofəl bu xoş olan umu-küsüdən
Odlarda mum kimi yumşaldı, bilsən.
Qalxıb hazırlaşdı yol səfərinə,
Havada parladı qılıncı yenə.
Atlandı quş kimi o böyük hünər,
Toplandı başına sadiq igidlər.
Atının nalından odlar qoparaq,
Meydana şir kimi girdi çaparaq.
Elə ki, yetişdi o qəbiləyə,
Bir elçi çağırdı, sözüm var, deyə.
Nofəl ismarladı: "Öz ordumla mən
Od kimi keçərəm üzərinizdən.
Bu saat Leylini gətirin mana,
Qılınc girəcəkdir yoxsa meydana.
Göstərin Leylini, hardadır o qız?
O öz aşiqinə yetişsin yalnız.
Qoy, susuz can verən bir suya çatsın,
Ona su verən də savaba batsın".
Çatdı qəbiləyə Nofəlin səsi,
Sındı ortalıqda eşqin şüşəsi.
Cavab verdilər ki: "Bu mümkün olmaz,
Leyli ayparadır, düşünün bir az.
Ona əl yetişməz, aydır o dilbər,
Heç kəsin əlindən gəlməz bu hünər.
Qılınca qılıncla qisas alarıq,
Qarurə atsan da daşa çalarıq".
Qasid baş götürüb qayıtdı geri,
Nofələ söylədi haman sözləri.
Nofəl acıqlanıb, dedi qasidə:
"Bu saat piyada qayıdıb yenə,
De: - Dadmamışsınız qılıncımı siz,
Bu köhlən atımdan xəbərsizsiniz.
Dəniz dalğasıyam, qaçın qarşımdan,
Yoxsa tufan qopar hər bir daşımdan.
Qasid yenə gedib cavab gətirdi,
Nofələ nalayiq sözlər yetirdi.
Nofəl acıqlandı qəzəblənərək,
Köksündə od tutub alışdı ürək.
Sonra qılıncını çəkdi dörd yana,
Qoşunla şir kimi girdi meydana.
Onlar da qabağa ordu tökdülər,
Dağ kimi tərpənib nərə çəkdilər.
Nofəlgil tərəfə at oynatdılar,
Şirin qarşısına qılınc atdılar.
Coşdu dəniz kimi, qızışdı meydan,
Havadan od yağdı, gölə döndü qan.
Qılıncın əlində qan piyaləsi,
Torpağı məst etdi bu qan laləsi.
Aslanlar gəldikcə pəncə-pəncəyə,
Toqquşdu nizələr, intiqam, deyə.
O tökülən qanlar çatdıqca dizə,





Oxlar quzğun kimi töküldü düzə,
Qılınclar beyinlə şirələndikcə,
Bədəndən ayrılan başlar əndikcə,
Qızmış ərəblərin o nərəsindən
Göylərin qulağı kar oldu bilsən.
Əcəl ildırımı şığıyan zaman
Alov püskürürdü daşın ağzından.
Deyləmi tükünün ucları kimi
Qəhr edən zubinin ucu itiydi.
Günəş on ciqqalı bayrağa bənzər,
Sanki qızarmışdı yenə ilk səhər.
Daşlar deşik-deşik Süreyya kimi,
Yer qana dönmüşdü bir dərya kimi.
Hər şirin baxışı alov saçmışdı,
Qara ilan kimi ağız açmışdı.
Yırtıb dağıtdıqca o qara şirlər,
Ağ atlar div kimi əlləşirdilər.
Hər kəs bu döyüşə atlanan zaman
Məcnun can verirdi ruhu pərişan.
Hamı at çapdıqca müharibəyə,
O dua edirdi barışıq deyə.
Hər kəs çıxardıqca düşmən gözünü,
O həlak edirdi dərddən özünü.
Açıb öz qəlbində dua yelkəni,
Sülhə çağırırdı müharibəni.
O utanmasaydı, qalxıb durardı,
Bulud tək özünə qılınc vurardı.
El qınamasaydı bu dəmdə onu,
Qırıb qurtarardı öz qoşununu.
Olmasa düşmənin tənəsi əngəl,
Dostların başını kəsərdi əvvəl.
Təqdir kamanına çatsaydı əli,
Ox atıb dostları qırardı, bəli.
Onun dediyini desəydi ürək,
Öz yoldaşlarını qırardı, gerçək.
Bu qoşun içində coşurdu Məcnun,
İstərdi ki, bassın o biri qoşun.
Burda axtarışa at səyirdərdi,
Ordakı qoşuna dua edərdi.
Öz tərəflərindən ölsə bir nəfər,
Onu öldürənin əlindən öpər.
Leyligil tərəfdən məhv olanlara
Göz yaşı tökərdi bu bəxti qara.
Bu yandan o yana nizə tutardı,
Düşmən nizəsinə duası vardı.
Bəzən öz qoşunu gələndə üstün
Atardı kamanı, oxu büsbütün.
Elə ki, yar tərəf qalib gələrdi
Şir kimi nərəsi dağlar dələrdi.
Bir nəfər soruşdu: "Niyə, ey cavan,
Döyüşdən çarx kimi kənar qaçırsan.
Biz sənin uğrunda can qoyuruq bil,
Düşmənlə dostluğun heç insaf deyil".
Dedi: "Sevgilimdir dediyin əğyar,
Mənim qılınclarla nə işim aşar.
Düşməni qanına qərq etmək olar,
Dostla vuruşmağın mənasımı var?
Döyüşdən su kimi qanlar çağlayır,
Canansa o tayda yara bağlayır.
Məşuqə verdikcə aşiqə nəfəs,
Aşiq də verməli ona bir əvəz.
Yar sürmə göndərir ayaq tozundan,
Mən ona daş atsam, qıyarmı vicdan?
Mənə bal vədəsi vermişdir o yar,
Mən sirkə göndərsəm layiqmi olar?
Yarın əli varsa o yanda əgər,
Kim canan tərəfi zəlil istəyər?
Ordadır istəyim, qəlbim, həvəsim,
Qəlbim hardadırsa orda nəfəsim.
Canana can vermək xoşdur əzəldən,
Canmı əsirgəyim mən o gözəldən?
Mən ki, öz canımdan keçmişəm belə,
Yazığım gələrmi sizlərə, söylə! "
Soruşan bir ona, bir yerə baxdı,
Göz yaşı torpağa sel kimi axdı.
Məcnunsa döyüşdən uzaq düşərək,
Tozların içində oynayırdı tək.
Nofəl qılıncını çəkib dörd yana,
Bir sərxoş fil kimi girib meydana,
Hər oxda bir nəfəs, bir can alardı,
Hər bir həmləsində cahan alardı.
Qan arxı çəkirdi gəzdiyi yerdə,
Qan yeyib-içməkdən doymuşdu yer də.
Qılınc oynadırdı şöhrət qazanlar,
Axşam qaranlığı çökənə qədər.
Canan zülfü kimi qaraldı göylər,
Gündüzün üzünə töküldü ənbər.
Siyah tellərini düzdükcə gürcü,
Qaraldı get-gedə göylərin bürcü.
Bu zaman ayrıldı düşmən qoşunlar,
Döyüş meydanında yatışdı onlar.
Elə ki, o qara ilan büküldü,
Ağ nəfəsli Zöhhak-günəş də güldü.
Qalxdı hər pəhlivan, hər igid əsgər,
Zöhhak ilanına döndü nizələr,
Qoşunla dolmuşdu Leylinin yurdu,
O yerdə dağ kimi ordu dururdu.
Düşməni qarşıdan, arxadan səf-səf
Oxlara tutmuşdu Leyligil tərəf.
Nofəli qorxutdu o daşğın ordu,
O artıq, sülh üçün dayanıb durdu.
Öz adamlarından tapıb bir nəfər,
Tapşırdı: "Sülh üçün bir tədbir göstər.
De ki, qan tökməyə gəlməmişik biz,
Yalnız bir könüldür istədiyimiz.
Divanə bir gəncə söz vermişəm mən,
Yalnız bir gözəldir istəyim sizdən.
Öz dövlətimdən də keçirəm bu dəm,

Sizə xalvar-xalvar qızıl verirəm.
Məsləhət görsəniz bu sövdanı siz,
Qəlb açan bir cavab verməlisiniz.
Şəkər satmasanız bu yerdə bizə,
Sirkə də tökməyin istəyimizə.
Yaxşılıq gəlməsə əllərinizdən,
İntiqam almayın qılıncla bizdən..."
Elçi bu sözləri verincə xəbər,
Qızmış orduları geri çəkdilər.
Hamıya xoş gəldi bu gözəl dilək,
Ordular döyüşdən geri dönərək,
Barışıq nəğməsi çaldıqca, çənglər,
O qanlı döyüşdən qalmadı əsər.

### MƏCNUNUN NOFƏLƏ ACIQLANMASI

Sülhün qoqusunu duyunca Məcnun
Kinlə qəzəbləndi ürəyi onun.
O igid Nofələ acıqlanaraq,
Rişxəndlə dedi ki: "Qəhrəmana bax!
Sən, ey qucaq-qucaq vədlər verən,
Yaman başa vurdun öz vədini sən.
Buydumu sözündə möhkəm durmağın?
Bir də at oynadıb qılınc vurmağın?
Danış, qəribliyə salma sorğumu,
Vəhşini ram edən əfsunun bumu?
Buydumu meydanda at oynatmağın?
Havada ox tutub kəmənd atmağın?
Zidmiş iradəmə sənin iradən,
Nə yaxşı bir hünər göstərmisən sən?!
Salam düşməniydi o canan mənə,
İndi sən döndərdin tamam düşmənə.
Vəfaya açılmış o qapıya sən
Min qıfıl vuraraq bağladın nədən?
Ey dost, köməyindən əlim üzüldü,
İşimi korladın, belim büküldü.
Bu dostluq telləri qırıldı nədən?
Çox şahlar yıxılmış bir süvaridən.
Qurda ox atdısa dağlarda çoban,
Gedib itə dəydi aldığı nişan.
Hünərin aləmə səs salan zaman
Əfsus ki, əhdini ayaqlayırsan.
Bu acı sövdaya düşməmişkən mən
Sənə bel bağlardım bəlkə ürəkdən.
Bu yazıq aşiqdən niyə vaz keçdin?
Əkmədiyin yeri nə üçün biçdin?
Sən ki, başlamışdın bu böyük işi,
Hünəri yarımçıq qoyarmı kişi?
Qaranlıq könlümə işıq verənsən,
Bu xəstə ömrümün dərmanı sənsən."
Döyüş qalxanını ataraq, əvvəl
Şirin dilə tutdu Məcnunu Nofəl;
Dedi: "Qoşunsuzam, köməksizlikdən
Siyasət işlədib sülhə girdim mən.
Qayıdıb yurdumdan qüvvət alaram,
Yenə qılıncımı işə salaram.
Qoşun toplayaraq qəbilələrdən,
Daşdan keçirərəm poladımı mən.
Qılıncla basmasam o qudurğanı",
Kor olsun Nofəlin qəlbi, vicdanı".
Sonra Mədinədən Bağdada qədər
Qoşun toplamağa getdi elçilər.
Nofəl hiddətindən yandı bir zaman,
Qoşun tələb etdi bir çox diyardan.
Nəhayət, topladı böyük bir ordu,
Dağlara döş gərib üz-üzə durdu.
Birinci hücumda sərhəddi aşdı,
Düşmənlər kor olub qorxudan çaşdı.

### NOFƏLİN İKİNCİ MÜHARİBƏSİ

Bu söz gövhərini tapıb kəşf edən
Dastan qapısını açır sinədən:
Nofəlin başına toplaşan ordu
Heyrətə salmışdı böyük bir yurdu.
Nərədən torpağın bağrı söküldü,
Buqəbis zirvəsi yerə töküldü.
Onun nərəsindən titrəyən düşmən
Döyüş meydanında səf çəkdi həmən.
Qəbilə başçısı donuxub qaldı,
Nofəl ordusunun seyrinə daldı.
Gördü ki, nizələr almış hər yeri,
Ordu bulud kimi tutmuş göyləri
Təbil nərələri gəldikcə bəzən
Ölünün qəlbi də qopur yerindən.
Nofəl ordusunu görəndə düşmən,
Nə hərbə meyl etdi, nə qaçdı hərbdən.
Hücuma girişdi "bəxtə-bəxt" deyə,
Atını səyirtdi müharibəyə.
Ordular gəldikcə orda baş-başa,
Endi şimşək kimi qılınclar başa.
Qumları sel kimi apardıqca qan,
Əqiq göyərirdi sarı qumlardan.
Ürəklər yoruldu ciyər yarmaqdan.
Qılınclar utandı baş qoparmaqdan.
Nofəl qılınc çəkib qalxan tutaraq,
Hər hücum başında yıxırdı bir dağ.
Əjdahalar kimi qızıb meydanda,
Bir nəfəs kəsirdi o hər bir anda.
Şir kimi getdikcə Nofəl irəli,
Oxlara dönmüşdü sərt kirpikləri.
Hirsdən çatıldıqca qəzəbli qaşlar,
Toppuz zərbəsindən uçurdu başlar.
Gürzlü çomağını endirən zaman
Elburs dağı da uçardı, inan.
Hər kəsə bir qılınc vursaydı Nofəl,
Onu varaq kimi doğrardı əl-əl.
Məcnun da həvəslə hərbə gedirdi,





O həlak olmağa çox səy edirdi.
Döyüş meydanları qızışdığı vaxt
Tabut taxtasına dönmüşdü hər taxt.
Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar.
O gün nofəlçilər qalib gəldilər,
Onların bəxtinə açıldı səhər.
Düşmən cəbhəsini yarıb sökdülər,
Baş-başa, leş-leşə vurub tökdülər.
Can verib öldükcə yaralananlar,
Ah çəkib sönürdü darda qalanlar.
Əsib kükrədikcə ölüm ruzgarı,
Leyligil tərəfin ağsaqqalları
Aman istədilər igid Nofəldən,
Yalvarıb dedilər: "Düşmüşük əldən.
Çəkmə qılıncını gəl indən belə,
Hamını ölmüş bil, əsir zənn elə.
Bizi qırmağından bir fayda varmı?
İgid basdığını boğazlayarmı?
İki-üç nəfərik, olmuşu unut,
Əlinə ox alma, əlimizdən tut.
Gəl bu qiyaməti əlindən burax,
Qiyamət günü var... o dünyaya bax.
Düşmən silahlansa qarşında əgər,
Sən də qılınc vurub qüvvəni göstər.
Lakin, silah töksə qarşında düşmən,
O miskin düşmənlə gəl vuruşma sən.
Artıq tutmayınq üzünə qalxan,
Gəl bağışla bizi sən, ey qəhrəman!
Qılıncla, nizəylə dindirmə bizi,
Görürsən qalxansız əllərimizi".
Nofəl bu naləni dinləyib o dəm,
Keçmiş günahlara çəkdi bir qələm.
Əmr etdi: "Gəlini gətirin ki, mən
Xoşluqla əl çəkim bu qəbilədən".
Leylinin atası, ürəyi qəmli,
Torpağa üz qoydu gözləri nəmli.
Yalvardı Nofələ: "Ey böyük insan,
Güvənir tacına bu Ərəbistan.
Dərdli bir qocayam, ürəyimdə qəm,
Səndən uzaq olsun, yaman gündəyəm.
Qorxaraq ərəbin tənələrindən,
Əcəm ləqəbini gəzdirirəm mən.
Başımın dərdinə, sövdasına bax,
Bəxtimdən görürəm mən bunu ancaq.
Xəcalət çəkirəm bu günahımdan,
Civə tək ərimək istərdim, inan.
Qızımı qarşına gətirsəm də, bil,
Quluna versəm də, əskiklik deyil.
Yenə fəxr edərəm, gəl inan ki, sən,
Boyun qaçırmaram sənin hökmündən.
Çöldə od yandırıb ocaq da çatsan,
Qızımı ud kimi oda da atsan,
Ya quyu dibinə tullasan onu,
Ya da qılınc çəkib vursan boynunu,
Bil ki, ağ olmaram üzünə yenə,
Can-başla hazıram hər bir əmrinə.
Baharda bir təzə gül olsam da mən,
Boyun qaçırmaram sənin əmrindən.
Ancaq, o dəliyə layiq deyil qız,
Dəliyə bir zəncir yaraşır yalnız.
Ay üzlü bir qıza sərsəm yararmı?
Çör-çöpün yanında od qalanarmı?
O, gicdir, mərd deyil, yoxdur sənəti,
Nə dünyası vardır, nə axirəti.
Dağları, daşları gəzir o sərsəm,
İnan, divanədir, dəlidir desəm.
Pis-pis adamlarla oturub durur,
Mənim adıma da min ləkə vurur.
Mərdə təmiz bir ad candan əfzəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir.
Ərəb torpağında küləklər belə
Qızımı salmışdır ağıza, dilə.
Leylinin adını o, dilə saldı,
Balam bu dünyadan min töhmət aldı.
Məcnuna tapşırsan cilovumu sən,
Mənə güləcəkdir hər yoldan ötən.
Bir nəhəng ağzında qəhr olub ölmək
Alçaq bir ömürdən xoş olsun gərək.
Bədnam olmağımı qoyma, amandır!
Qiyamət günü var... o, imtahandır.
İndi bu naləmə, dərdimə çatsan,
Dünyada xoşbəxt ol, sevin hər zaman.
Yoxsa, and içirəm bir allaha mən,
Əlimi çəkərəm ətəklərindən,
Ay üzlü balamın vurub boynunu,
İtin qabağına ataram onu.
Taki bu qeyrəti çəkməyim bir də,
Ölüb, öldürməyim durduğum yerdə.
Qoy mənə yer üzü lənətlər desin,
Qızımı divdənsə köpəklər yesin.
İnsanı dinləsə azğın bir quduz,
Onun məlhəmi var, keçər, qorxusuz.
Lakin dil yarası ürəkdən getməz,
Ona min məlhəm də bir əsər etməz".
Nofəl dinlədikcə rəngi saraldı,
Söz tapa bilməyib cavabsız qaldı.
Qoca danışdıqca açıq, mərdanə,
Nofəl yumşalaraq: "Qalx-dedi ona.
Bu gün bir sərkərdə olsam belə mən
Xoşluqla istərdim qızını səndən.
İndi ki, vermirsən, canın sağ olsun,
Mən zalım deyiləm, üzün ağ olsun.
Quru bir çörəklə, şor bir halvadan
Pisdir zorla gələn bir arvad, inan.
Dualar ardınca dolaşıram mən,

Belə cəfalardan bezaram, bilsən".
Nofələ dil açdı yaxın adamlar,
Dedilər: "Qocanın nə günahı var?
Məcnun xoş gəlməsin gözünə sənin,
Mənliyi alçaqdır o divanənin.
Bir qadın doğrudan sevsə də onu,
Fəlakət törədər bu eşqin sonu.
Havalı yaşayan sərsəm bir insan.
Nə xeyrə, nə şərə yarayar, inan.
Ona neyləsən də ağıla gəlməz,
Yoxdur iradəsi, durub dincəlməz.
Dünən biz onunçun döyüşən zaman
Qələbə istərdi düşmənə hər an.
Oxlara gərmişdik biz sinəmizi,
O da oxlayırdı bir yandan bizi.
Bu iş ağıllının işi deyildir,
Ona ağlamaq da, gülmək də birdir.
Bu gün yetirsək də canana onu,
Açıq görünür ki, matəmdir sonu.
Düz ölçüb biçməsən bu işi, ey mərd,
Biz zərər çəkirik, siz də xəcalət.
Adımız, sanımız bizə əfzəldir,
Bu işdən əl çəkmək daha gözəldir".
Nofəlin qəzəbi soyuyub söndü,
Qoşuna əmr edib, geriyə döndü.
Məcnun yaralandı bu bəd xəbərdən,
Min tikan sancıldı qəlbinə birdən.
"Ah, - dedi, - çatmışdı visal üçün vaxt,
Öldü, oyanmadı, oyanmadı baxt.
Bəxtimin vəfası olsaydı mana,
Özüm tək olardı dostum mərdana".
Gözündə yaş seli, qəlbində vulkan,
Nofəlin yanına gəldi pərişan.
Dedi: "Ey dostluğa qadirəm deyən,
Söz verib, sonradan sözünü yeyən,
Mənim ki, üzümə gülürdü səhər,
Rəvamı qəlbimdə sönsün ümidlər.
Nə üçün buraxdın ovumu əldən,
Biz ki, əl vermişdik, unutdunmu sən?
Susuzdum, apardın sən "Fərat" deyə,
İçməmiş odlara tapşırdın niyə?
Şəkərdən bir şirin şərbət qayırdın,
Ondan da içməmiş məni ayırdın.
Qarşıma açdınsa şirin süfrəni,
Sonra milçək kimi qovladın məni.
İpin ki, ucunda bu düyün vardı,
Ona dəyməsəydin yaxşı olardı".
Deyib bu sözləri getdi çaparaq,
Atının nalından odlar qoparaq.
Ona çox dedilər, çox yalvardılar
Ki: "Sənə bundan da yaxşı bir nigar -
Hörmətli, hünərli, dövlətli, mallı,
Bir gümüş sinəli; günəş camallı,
İşinə yarayan bir qız taparıq,
Bu yeri axtarıb soraqlaşarıq,
Ta işin onunla tamam düzəlsin,
Dövlət də qapına qayıdıb gəlsin".
Çox umud verdilər aşiqə bir-bir,
Könlünün düyümü açılmadı bir.
O çıxdı ortadan iz azdıraraq,
Qəlbi bulud kimi tutuldu ancaq.
Göz yaşı tökürdü o qəlbi xəstə,
O tiryək səpirdi zəhərin üstə..
Artıq öz mülkünə qayıtdı Nofəl,
Yetişcək yurduna hər şeydən əvvəl
Çağırtdı o cəfa görmüş Məcnunu
Ki, ürək verərək dincəltsin onu.
Axtaran çox oldu, tapan olmadı,
Artıq siyahidən silindi adı.
Bildilər, nə imiş bu səssiz gediş,
Onun tənəsinə səbəb nə imiş...

## MƏCNUNUN AHULARI AZAD ETMƏSİ

Dinləyin bu ötən, sədəfli sazı,
Görün nələr deyir onun avazı:
Murada çatmamış o yaralı quş,
Qəlbi intizara, dərdə tutulmuş,
Nofəldən ayrılıb çapdı atını,
At açdı çöllərdə yel qanadını.
Nofəl, o əhdinə çıxdı vəfasız,
Məcnun oxuyurdu səhrada yalqız.
Hər kiçik təpəyə üz tutub bəzən,
Şikayət eylərdi öz taleindən.
Göz yaşı tökərək o yürüyürdü,
Uzaqdan qurulu bir tələ gördü.
Tələyə düşmüşdü bir-neçə ceyran,
Yazıqlar bağlıydı əldən ayaqdan.
Qəsdinə durmuşdu ovçu onların,
Qanını tökməyə o ceyranların.
Məcnun səyirtdi ki, yetsin köməyə,
Ovçu da dayandı: "Gələn var" deyə.
Dedi: "Tələ üstə çıxmışam birdən,
Adət qonağıyam, özün bilirsən.
Ahular başından götür tələni,
Onları azad et, sevindir məni.
Yazıq heyvanlara nə qəsdin vardır?
Onlar həyat üçün yaranmışlardır.
Gözləri göyçəkdir, baxışları şad.
Onlar da əzəldən yaranmış azad.
Necə qıyırsan ki, bir həmlədə sən
İki-üç qan töküb nəfəs kəsəsən.
Qurd olsa bir adam zatında əgər,
Bu qurd o ceyranın qanını tökər.
Yar gözü kimidir ahunun gözü,
İlk bahar gününə bənzəyir üzü.
Yar gözü eşqinə rəhm et ceyrana,
Bahar xatirinə gəl qıyma ona.





Boynunu vurma gəl, bivəfa deyil,
O şümal gərdənə ip rəva deyil.
O xallı boynundan gəl indi vaz keç,
Ona polad qılınc yaraşırmı heç?
O qara gözlərin sürməsi də var,
Rəvamı torpaqla örtülə onlar?
Gümüş həsəd çəkir o saf sinəyə,
Yanıb kabab olsun, kül olsun niyə?
Nazla bəslənmişdir şümal sağrılar,
Danış, layiqmidir ona ağrılar?
Ahu göbəyindən mişk alınar, bil,
Qanını tökməyin insafdan deyil.
O zərif ayaqlar bir xeyzərandır,
Onları incitmə, qıyma, amandır!
Yükə qatlaşmamış o incə kürək,
Yerə vursan onu o inciyəcək".
Ovçu bu öyüdü dinləyib daldı,
Donaraq barmağı ağzında qaldı.
Dedi: "Yoxsulluğa düşməsəydim mən,
Boyun qaçırmazdım bu sözlərindən.
İki ay içində şikarım budur,
Külfətim bir buna göz tikib durur.
Ehtiyac içində qalan bir ovçu
Ovunu öldürsə olarmı suçu?
İstəsən, onların gəl qeydinə qal,
Onların canını məndən satın al".
Məcnun dinləyərək yoxsul ovçunu,
Atından tez düşüb çağırdı onu.
Ovçuya verərkən ceyran atını,
Açdı ceyranların qol-qanadını.
Ovçu tez minərək atı yol aldı,
Məcnun ceyranlarla səhrada qaldı.
Mərhəmətlə deyil, sevgiylə qəlbən
Öpdü ceyranların qara gözündən.
Bu yar gözü deyil, ona oxşardı,
O qara gözlərdən bir yadigardı.
Onlara mərhəmət diləyib haqdan,
Açıb xilas etdi qanlı duzaqdan.
Özü də çöllərdə fəryad çəkərək,
Ahular dalınca yüyürürdü tək.
Düşməni yoxsa da, silahı vardı,
Gül tək silahından yara alardı.
O isti qumların odlu qoynunda
Qazan tək qaynayıb coşurdu o da.
Havalar qızırdı çəkdiyi ahdan,
Əynini cırırdı çöldə hər tikan.
Gecənin üzünə zülmət gələndə,
Ayın pərdəsində gün gizlənəndə
Məcnun nalələrdən cana gəlmişdi,
İpək teli kimi çox incəlmişdi.
Yarın saçları tək qaraydı gecə,
Yol aşiq canı tək olmuşdu incə.
Məcnun ilan vurmuş kərtənkələ tək,
Yanıb qovrulurdu mağarada tək.
Yerdə qıvrılırdı bir ilan kimi,
Odlara qalanmış bir tikan kimi.
Sübhə dək gözləri yuxusuz qaldı,
Ömrü gecə kimi ahla qaraldı.

## MƏCNUNUN MARALI AZAD ETMƏSİ

Çəkdi bayrağını gülüzlü səhər,
Yenə al şəfəqə boyandı göylər.
Bax, Çinin aynası parladı Çindən,
Həbəşin qaşları çatıldı birdən[88].
Paslı ayna kimi ürəyi tutqun,
Xəyal aynasını gəzdirən Məcnun
Oddan tüstü kimi qalxdı bu zaman,
Ənbər saçılırdı gül varlığından.
O, aşiq qəlbiylə dalıb xəyalə,
Gedirdi dilində şerlə nalə.
Pərişan gözləri yol süpürürdü,
Könlündən keçəni allah görürdü...
O birdən yetişdi şikar yerinə,
Qurulmuş tələyə rast gəldi yenə.
Gördü ki, tələyə düşmüş bir maral,
Boynunda zəncir var, alnında zaval.
Ovçu o gülüzlü maralı görcək,
Ona hücum çəkir qızmış aslan tək.
İstədi axıtsın günahsız bir qan,
Nə çıxar günahsız tökülən qandan?
Məcnun tez ovçunun yanına qaçdı,
Ona neştər kimi dilini açdı:
"Ey zalım iti tək yazığı tutan,
Aç qurduğun toru, zülmündən utan.
Qoy, bu tora düşmüş zavallı əsir
Gəzib, bir-iki gün şad yaşasın bir.
Gəl onu sən salma tor havasına,
Getsin öz tayıyla öz yuvasına.
Onu sevgilisi tapmasa əgər,
Bu gecə arxanca nə sözlər deyər?
Deyər: - Səni məndən alan ovçular
Ayrılıq dərdinə olsunlar düçar.
Qoy səni ovlayan mən günə düşsün,
O da yar gözündən sürgünə düşsün. -
Dərd duya bilirsə səndəki ürək,
Öz tamah dişini bu ovdan gəl çək.
Neylərdin qəfəsdə özün qalsaydın,
Maral ovçu olub, sən ov olsaydın?
Söylə taleinə şükr edirmisən
Ki, ov maral olmuş, ovçusu da sən?"
Ovçu nəsihəti dinləyib bu dəm
Dedi ki: "Bu qandan mən əl çəkirəm,
Vurmaram maralın buruq boynunu,
Ancaq, havayı da verməzəm onu.
Bu ovla dolanıb yaşayıram mən,
Satın al maralı məndən istəsən".
Alıb silahını, sazını Məcnun

Ovçuya uzadıb dedi: - Buyurun.
Ovçu silahı da, sazı da aldı,
Maral azad oldu, salamat qaldı.
Ata öz oğlunu əzizləyən tək,
Məcnun da maralı əzizləyərək,
Tutub sığalladı o dildarını,
Bağladı heyvanın yaralarını.
Onun gövdəsini çox tumarladı,
Maraldan daha tez özü ağladı.
Dedi: "Həsrət çəkən dağlar maralı,
Səndəmi tayından düşdün aralı?
Ey çöl qoşununun gözəl sarbanı,
Dağlar döşündəki çadırın hanı?
Xoş ətrin canandan gətirir xəbər,
Gözün sevgilimin gözünə bənzər.
Bu tordan ayağın qoy azad olsun,
Yetiş öz tayına, o da şad olsun.
Səndən iraq olsun düşmənin fəndi,
Boynuna keçməsin şahlar kəməndi.
Dişlərin keçməsin qızıl qapağa,
Yaraşır səndəki sədəf dodağa.
Oxların yayına yarıyan dərin
Öz paltarın olsa yaxşıdır sənin.
Zəhri əritsə də isti göz yaşın,
Axmasın üstünə torpağın, daşın.
Sən ey mərd sinəli, ucaboy maral,
Mən qəlbi yanmışın halına bir qal.
Bilirəm genişdir gəzdiyin hasar,
Hasardakı aydan bir xəbərin var.
Otladığın zaman o tərəfdə sən
Yara əhvalımı açıb deyərsən:
Düşmən qaxıncına qurban olan yar,
Əmrinə hazıram, nə istəyin var?
Biz ayrı düşəli əziyyətdəsən,
Sən də mənim kimi bu möhnətdəsən.
Bir qoca dost da yox imdada yetsin,
Bir ox da yoxdur ki, hədəfə getsin.
Ah! Sənin qoqunu verməsə külək,
Onun da adını çəkməyir ürək.
Xəyal da anmasa, duymasa səni,
Yoxdur varlığımda onun məskəni".
Məcnun ağlayaraq bu qəribliyə,
Dərdini bir deyil, yüz deyə-deyə,
Yazıq maralcığın açdı torunu,
Gözlərindən öpüb buraxdı onu.
Qaçdı səhralara tor görmüş maral,
Məcnun öz yoluna başladı dərhal.
Gecənin yolçusu yetişdi haman
Bir Yusif camalı aldı quyudan[89].
Ulduzlar içində o parladı tək,
Göy Misri Nil kimi coşmuşdu, gerçək.[90]
Gözü dağlı çölü mil-mil gəzərdi,
Nil rəngində axan Nilə bənzərdi.
Nə suya quş kimi dimdik vurardı,
Nə də ilan kimi dil çıxarardı.
Qıvrılıb qəlbindən vurulmuş kimi,
Ötməzdi qanadı sınmış quş kimi.
Alışıb yanardı beyni, damağı,
Sanki əriyirdi bir piltə yağı.
Şam kimi sönsə də o birdən-birə,
Yenə də qoymazdı yanını yerə.

## MƏCNUNUN QARĞA İLƏ SÖHBƏTİ

Açdı gözlərini yuxudan səhər,
Sarı köynək geydi o mavi göylər.
Güldü o sarı gül, o göylər qızı,
Dünya başdan-başa geydi qırmızı.
Məcnun xəzan görmüş gül kimiydi, ah!
Gözündə ağlardı gülüzlü sabah.
Bu sonsuz sulara od düşən zaman
O da gəmisini çəkirdi sudan.
Günəşdə yandıqca əli, ayağı,
Nəfəsdən düşmüşdü günorta çağı.
Çılpaq qaldığından o, kölgələr tək
Oturdu bir ağac kölgəsində tək.
O hündür ağacın kölgəsində, bax,
Sular axışırdı şırıldayaraq.
Göy kimi, girdə bir hovuz ki, vardı,
Suyu kövsər kimi parıldayardı.
Onun dövrəsini almışdı otlar,
Yaşıl geyinmişdi o yerdə bahar.
Ciyəri istidən kababa dönən
O sudan doyunca içərək həmən,
Kar kimi, lal kimi dinib danışmaz,
Ayaq saxlayaraq dincəldi bir az.
O yaşıl çəmənə heyran qalmışdı,
O gözəl ağacı seyrə dalmışdı.
Budaqda qaraca bir qarğa vardı,
Gözü çıraq kimi işıq salardı;
Gözəllər saçı tək qaraydı rəngi,
Baxdıqca oxşardı qəlbi, ürəyi.
Saleh bir quş idi o yazıq qarğa,
Salehilər kimi geymişdi qara[91]
Sakitcə durmuşdu budaqda o quş,
Sanki mina üstə şəvə oturmuş.
Məcnun fikrə getdi görəndə onu,
Duydu qəlblərinin bir olduğunu.
"Sən, ey yas libaslı, aç, söylə barı,
Nədir əynindəki bu yas paltarı?
Nədəndir, gecənin rəngi var səndə?
Qara günlərəmi düşmüsən sən də?
Qəmə mən yanıram, alışansa sən,
Mənim əvəzimdə qara geymisən.
Ürəyin yanıqlı deyilsə bu dəm
Nədən qaralmısan, ey dərdli həmdəm?
Sinən yanmamışsa, zavallı qarğa,
Sinəsi dağlıdan qaçma uzağa.





Zənci rəngi yağır sənin rəngindən,
Bəlkə də, soyğunçu hindu kimisən.
Bəlkə də, mən şaham, sən mənə çətir,
De, nədən qarasan? Açıq söylə bir.
Canana rast gəlsən, ərz elə ki, mən
Onun həsrətiylə düşmüşəm əldən.
Mənim dadıma çat, yetiş amandır,
Dadıma yetməsən halım yamandır.
Demişdin, əlindən tutaram bir dəm,
Qorxuram bu həsrət gözümdə öləm.
Bir göz kor olarsa, ey nazlı nigar,
Tutiya verməyin nə mənası var.
Canavar quzunu aparsa əgər,
Çobanın hay-küyü nə fayda verər.
Sel ki, bir binanı dibdən uçurar,
Poladdan olsa da neyləsin divar.
Bir əkin yerini vursa quraqlıq,
Yağışın mənası qalarmı artıq?
Məcnun dil oxunu atır uzağa,
Budaqdan-budağa uçurdu qarğa.
Məcnun danışdıqca coşub daşırdı,
Qarğa da uçmağa hazırlaşırdı.
O söhbət açdısa əfsanələrdən,
Qarğa dərdlə uçdu durduğu yerdən.
Gecə qarğa kimi geyindi qara,
Yarasa göz açdı qaranlıqlara.
Göydə çıraq kimi yandı ulduzlar,
Qarğa gözü kimi parladı par-par.
Məcnun çıraq kimi söndü, qaraldı,
Sanki gözlərini qarğa apardı.
Yanan bir şam-kimi o sinə dəftər
Göz yaşı tökürdü səhərə qədər.

## QARININ MƏCNUNU LEYLİNİN QAPISINA APARMASI

O göylər pərisi günəş yananda,
Səhər pərdəsindən baş qaldıranda
Hər baxış bəzənib durdu bağ kimi,
Hər göz də parladı, bir çıraq kimi.
Məcnun da qaçırdı qarğa kimi tək,
Bir şam axtarırdı pərvanələr tək.
Basıb köç yolunda tikanlıqları,
Qaçırdı cananın yurduna sarı...
Canan qoqusunu havadan duydu,
Bir anlıq əlini köksünə qoydu.
Elə bil, canlandı ölmüş bir bədən,
Dayanmış bir ürək çarpdı yenidən.
Uzaqdan bir qarı göründü bu dəm,
Yanınca gəlirdi bir talei kəm.
Zəncir vurulmuşdu o divanəyə,
O da şadlanırdı, xoşbəxtəm deyə...
Qarı çox sürətlə addım atırdı,
Boynu zəncirlini çəkib dartırdı.
Məcnun o əsiri gördüyü zaman
Qarıya and verib dedi: "Bir dayan,
Kimdir yanındakı bu zəncirli kəs?
Neçin zəncirlidir bu divanə şəxs?"
Qadın cavab verdi: "Düzünü desəm,
Divanə deyildir, bu talei kəm,
Mən dulam, bu da bir kasıb insandır,
Bunun da, mənim də günümüz qandır.
Ah, bizi salmışdır yoxsulluq əldən,
Bunu zəncirlərə bağladım ki, mən
Əsir sifətində gəzdirim barı,
Gəzib dolandırım bu obaları,
Gəzək şəhər-şəhər, həm ölkə-ölkə,
Bir ovuc yem tapam evimə, bəlkə.
Bundan əlimizə düşənləri biz
İkicə hissəyə bölək tər-təmiz.
Bir toz da qalmasın haman ruzidən,
Nə tapsaq, bölüşək biz onları tən".
Məcnun, qol-qanadı sınmışlar kimi,
Yıxıldı qarının ayağına ki:
"Aç onun boynundan o zənciri sən,
Gəl mənim boynuma bağla əlinlən.
O divanə deyil, divanə mənəm,
Çünki mən layiqəm zəncirə bu dəm.
Hayana istəsən, al apar məni,
Üzü qaralıqla gəzdir ölkəni.
Bu işdən əlinə nə düşsə hər gün,
Yalnız sənin olsun onlar büsbütün".
Qadın bu şikarı görüncə həmən,
Nə qədər şad oldu bu təsadüfdən.
Atıb yoldaşını, çox razı qaldı,
Zənciri Məcnunun boynuna saldı.
Qadın zəncirlədi yazıq Məcnunu,
Boynuna ip salıb apardı onu.
Gəzdirdi aşiqi o diyar-diyar,
Bir yerdə dayanıb tutmadı qərar.
El yazıq aşiqi görüncə darda,
Gülənlər də oldu, ağlayanlar da.
Qafillər Məcnuna baxıb gülürdü,
Aqillər gözündən yaş tökülürdü.
Ayağında buxov, boynunda zəncir
Məcnun tənələrə dözürdü bir-bir.
Bir çadır yanına yetişdi birdən,
Od, alov parladı nəğmələrindən.
O "Leyli" dedikcə, daşlar yeyirdi,
Daş altda rəqs edib canan deyirdi.
Qadın yedəyində çəkdi Məcnunu,
Leyli qapısına gətirdi onu.
Çəmənin nəsimi ona dəyəndə
Dayandı sərv tək yaşıl çəməndə.
Aşiq o çəməndə ağladı zar-zar,
Sanki ilk baharda yağdı buludlar.
O, yerə baş döyüb deyirdi: "Canan,
Özündən ayrıyam, dərdinlə həmcan.





Zəncirdən, quyudan qaçdığım üçün
Yanında təqsirkar olmuşam bu gün.
İndisə zəncirdə sızlayır bədən,
Verdiyin cəzaya şadam ürəkdən.
Yanında çox oldu mənim günahım,
Üzürsüz gəlmişəm, ey qibləgahım.
Bil ki, hakimimsən, məhkumam sənə,
Öz bildiyin kimi cəza ver mənə.
Qılınc vurmağıma baxma, ey sənəm,
Sənin hüzurunda yenə əsirəm.
Atımı sürdümsə siz tərəfə mən,
Min yara almışam mən öz zərbəmdən.
Ayağım etdisə dünən bir günah,
Bu gün baş qoymuşam ayağına, ah!
Sizə ox atdısa bu sınmış əlim,
İndi zəncirlidir o da, gözəlim.
O zaman bir günah etdimsə əgər,
Bəsdir bu çəkdiyim ağır cəzalər.
Qıyma ki, bu cürə zəlil olum mən,
Bir dəfə canımı çıxar bədəndən.
Səndən özgəsinə meyl etsə ürək,
Gəl, məni xaç kimi çarmıxlara çək.
Ey vəfasızlığı vəfadan parlaq,
Xətadır yanında xətasız olmaq.
Qarşında xətasız dayanıb bu dəm,
Özümü xətaya düçar edirəm.
Bəlkə vəfa görəm bu yolla səndən,
Ya da atdığın ox keçə sinəmdən.
Nə qədər ki sağam salamımı sən
Alıb bir başıma əl çəkməyirsən.
Razıyam, gəl öldür məni, ey mələk,
Öldür ki, başıma əlin dəyəcək.
Bir qılınc endir ki, başıma, canan
Mən olum qapında kəsilən qurban.
Mən İsmayıl kimi saxlaram ədəb,
İncisəm, qoy olum İsmayılməzhəb[92].
Şam kimi alışıb yanır bədənim,
Qorxmaram başımı qoparsan mənim.
Bir şamın başını qoparanda biz,
O, baş ağrısından xoş olar şəksiz.
Ayağın altında can verib ölsəm,
Sənsiz yaşamaqdan bu xoşdur, nə qəm.
Madam ki bağlıdır yanına yolum,
İşim ah olacaq, qurbanın olum!
Başım ayrılmayır qəmdən, qüssədən,
Səninsə başını ağrıtmayım mən.
İstəsən başından dərd uzaq olsun,
Dərd mənəm, qoy ölüm, başın sağ olsun".
Deyərək, ox kimi qalxdı yerindən,
Tutub parçaladı zənciri birdən.
Qəmlərdən şadlanan o bəxti qara
Dağ vəhşisi kimi qaçdı dağlara.
Nəcdə çatan kimi inləyib durdu,
Özünə ox kimi sillələr vurdu.

Ondan soraq alıb getdi qohumlar
Görünməmiş bir hal gördülər onlar.
Atası, anası ağlayıb qəlbən,
Artıq əl üzdülər o divanədən.
Heç kəsə yovuşmaz görüb Məcnunu,
Yalnız özbaşına qoydular onu.
Gördülər yamandır onun bu halı,
Leylini axtarır dərgın xəyalı.
Yanında başqa bir söz danışsalar,
Özünü döyərək tutmazdı qərar...

İBN-SƏLAMIN DASTANI

Məna dənizinin qəvvası insan
Səpmiş bu şəkəri dodaqlarından:
Nofəlin qələbə çaldığı gündə
Şadlandı Leylinin qəlbi köksündə.
Qəlbə işıq saçan o gözəl nigar
Dedi: "Sevin, Leyli, qalib çıxdı yar..."
Bu zaman atası gəldi vüqarla,
Güldü bığ altından o, iftixarla,
Öz əmmaməsini kəc qoyub haman,
Dil açıb dəm vurdu dilbazlığından:
"Bu gün hiylə töküb tor quraraq mən
Qurtardım yaxamı o divanədən.
Verdim cavabını dönməz bir üzlə,
Onu suya verdim quruca sözlə.
Bu tanrı vergisi dilimə görə
O allah qarğamış Nofəl bilmərrə
Əl çəkdi fikrindən, o xam xəyaldan,
Öz tamah dişini çəkdi visaldan.
Allaha şükür ki, qurtardıq ondan,
Onun da payını versin yaradan".
Leyli eşitdikcə bu hekayəti
Gözündə çağladı can şikayəti...
Çadırda gizləndi o dərdli pəri,
Qan sıxıb, qan tökdü ağlar gözləri.
Gözlərindən axan o qanlı yaşlar
Keçdiyi yollarda qoymadı qubar.
Bilincə itmişdir yenə o baxtsız,
Əlini, qolunu dişləyirdi qız.
Saf qan axıdırdı gözündən mələk,
Bu sudan özünə zinət verərək.
Nərgislə suvardı qız ərğəvanı[93],
Hovuza batırdı o, xeyzəranı.
Onun nə hal duyan bir kəsi vardı,
Nə bir dost dərdinə çarə tapardı.
Qapını, bacanı bağlayıb möhkəm,
Dustaq ilan kimi yaşardı sənəm.
Yalnız, qapısından əsən küləklər
Ətrindən hər yana verirdi xəbər.
Adlı adamlar da evlənək deyə,
Elçi göndərirdi hər gün Leyliyə.
Hamısı dəm vurub öz dövlətindən,

Ər olmaq istərdi ona hər yetən.
O dürrün dalınca hey mahal-mahal
Düşmüşdü ortaya minlərlə dəllal.
Birinin o bala iştahı vardı,
Başqası o taxta əl uzadardı.
Atası qızını tutub ürəkdə,
Onu inci kimi saxlardı bərkdə.
Kamala yetişmiş o gümüşbədən
Şüşəni gözlərdi daşdan, küləkdən.
Yüz min ehtiyatla yeyirdi dildar,
Qəlbini gizlincə, şərabı aşkar.
Şam kimi gülərək, qızarsa da qız,
Bu gülüş altında yanardı yalnız
Gül kimi iki lay kəmərli müdam
Ayağında nizə, əllərində şam.
Bütün möhnətlərə o dözə-dözə,
Çəkdiyi ağrını vurmazdı üzə.
Ulduzlar içində bir ay durmuşdu,
Çadrına yüz Zöhrə halqa vurmuşdu.

## LEYLİNİN İBN-SƏLAMA VERİLMƏSİ

Bir xəbər tutunca tez İbn-Səlam
Tələsdi vədəyə versin sərəncam.
Şahlıq cəlalilə, dəbdəbəsilə
Keçirmək istədi Leylini ələ.
Çoxlu xəzinəylə elçi gəldilər.
Xalvarla qənd gəldi, batmanla ənbər.
Nafə müşkü ilə mədən lə'ləri
Bəzədi büsbütün qumlu çölləri.
Geyinsin, bəzənsin deyə o dilbər,
İpəklə yükləndi gələn dəvələr.
Atlardan "ərəbi", "bəxti", "təkavər"[94]
Gətirdi ağıla sığmayan qədər
İnsan döyüşdürən qızıllar ki, var,
Qum kimi dağıdıb səpirdi onlar.
Qızılı qum kimi səpdikcə yenə,
Sanki qum tökürdü düşmən gözünə.
Nəydi o səxavət, nəydi o rəftar!
O böyük calala heyran qaldılar.
İki gün dincəldi o yol yorğunu,
Elçini çağırıb öyrətdi onu.
Elçinin cadulu bir dili vardı,
Daşı xəcalətdən yumuşaldardı.
Sözü İsa kimi can təzələrdi,
Ölülər yenidən dilə gələrdi.
Alıb Rum elindən, Çindən, Məkkədən,
Peşkəşlər gətirdi nadir şeylərdən.
Elçi xəzinəylə düşdü yollara,
Hamsını çatdırdı xəzinədara.
Öz şirin dilinin açarı ilə
Gizlin xəzinəni o açdı belə:
- Aslan ürəklidir bizim qəhrəman,
Ərəbin fəxridir, şanıdır, inan.
Nəsəb sahibidir, adlı-sanlıdır,
Böyükdür, nəcibdir o çox şanlıdır.
Siz qan istəsəniz, qum kimi tökər.
Davadan-dalaşdan azad olaraq,
Onunla səadət taparsan ancaq.
Elçi bu sözləri dediyi zaman
Qızcığın atası qalmışdı heyran.
Sonra, məsələnin əslinə yetdi,
Qəbul etdiyini etiraf etdi.
Bu işi qızına o rəva gördü
Ayı əjdahanın ağzına verdi.
Sabah günəş doğub şölə salanda,
Cəmşidin camını ələ alanda
Bəylik xələtini rus oğlu aldı,
Ərəb damadının çiyninə saldı
Gəlinin atası çıxdı eşiyə,
Çadın bəzədi, bayramdır deyə.
O, qonaq çağırdı İbn-Səlamı,
Şadlıq məclisində əyləşdi hamı.
O, keyf məclisini sevinclə qurdu,
Ona layiq olan bir zinət vurdu.
Ərəb qaydasınca onlar bir yerdə
Öncə sınan əhdi bağladı bir də.
Göylərə sovurdu pul tufanını
Süd haqqına girov dedi canını.
Qızın otağında onlar bu səhər
Tünglərə nə qədər şəkər tökdülər.
O kiçik ağızlı, qaragün sənəm
Ətir yandırırdı ud kimi o dəm.
Ətir dağıdırdı ah çəkən qəlbi,
Göz yaşı tökürdü gülablar kimi.
Ləli od verirdi, bulağı da su,[95]
O, ənlik qayırır, gülab yayır bu.
Yarı çatmışdısa bu gün murada,
Muradsız qalmışdı özü dünyada.
Ağıza çatarkən düşüb sındı cam,
Qoğalı bişmişkən dönüb oldu xam.
Qaydadır, ayağa batar hər tikan,
Od ağız yandırar ağıza qoysan.
Kim ki, müxalifət göstərə bir az,
Heç kimin əmrinə o qulaq asmaz.
Öz qəbiləsinə asi olan şəxs
Onunla bir yerdə yaşaya bilməz.
Barmağın birini çalarsa ilan,
Barmaq kəsilməsə zəhərlənər can.
Təbə can dərmanı olmuş məhəbbət,
Ölümə səbəbdir hər müxalifət.
Ruhu şənləndirən Leyli ki, vardı,
İxtilaf üzündən canlar alardı.
Şahlıq çırağından alışıb yanan,
Çıraqla gəzirdi onu hər zaman.





## LEYLİNİN İBN-SƏLAMIN EVİNƏ KÖÇMƏSİ

Günəş səhər-səhər yuxudan durdu,
Çadırını göy rəngli gülşəndə qurdu.
Gecə səyyarəsi alışıb yandı,
Nil rəngli Dəcləyə tərəf yollandı.
Sevincək yerindən sıçradı damad,
Kəcavə bəzədi ürəyi çox şad.
Elə ki, əyləşdi kəcavədə qız,
Onu çox hörmətlə apardı yalnız.
Taxtını, tacını tapşırdı ona,
Dedi, hakim olsun bu gözəl sona.
Keçdi iki-üç gün, həya üzündən
O mumu səbr ilə yumşaltdı, bilsən.
Xurma ağacına bir gün əl atdı,
Xurmalı budağa o əl uzatdı.
Lakin, o, Leylidən bir zərbə aldı,
Ağrıdan sustalıb yerində qaldı.
Qızın silləsindən o birdən-birə,
Cansız ölü kimi sərildi yerə.
Qız dedi: "Bir daha belə iş görsən,
Təqsiri məndə yox, özündə gör sən.
Mənim surətimi qurub bəzəyən
Böyük sənətkara and içirəm mən,
Qanımı töksə də sənin inadın,
Hasil olmayacaq məndən muradın".
Bu and təsir etdi İbn-Səlama,
O da razılaşdı quru salama.
Bildi ki, sevməyir onu bu nigar,
Qəlbinin bambaşqa bir çırağı var.
Lakin o məğrurluq üzündən yenə,
Yox deyə bilmirdi öz ürəyinə.
On dörd günlük o ay, o nazik bədən
Bunu da salmışdı eşqiylə əldən.
Dedi: "Mən ki, düşdüm onun eşqinə,
Uzaqdan da görsəm, bu bəsdir mənə.
Quru bir baxışla şadlansam da mən,
Bu xoşdur, ömürlük yad düşməyimdən.
Dedi ki: - Qarşında çoxdur günahım,
Keç bu təqsirimdən, ey qibləgahım.
Quru tamaşana razıyam, inan,
Namərdəm çəkilsəm bu iqrarımdan".
O da ömr elədi, dözdü bu dərdə,
Başqa təmənnası olmadı bir də.
Həsrət içindəydi o bağ bəzəyi,
Yollarda qalmışdı gözü, ürəyi.
Bəlkə, xoş xəbərlə əsən bir külək
Məcnundan ona bir toz gətirəcək.
Ağlaya-ağlaya döyüb köksünə,
Çadırdan çıxardı yollar üstünə.
Bülbüldən yaralı bir səsi vardı,
O, sərxoşlar kimi addım atardı.
"Aşiqim hardadır" söylədikcə qız,
Öz incik ruhuyla yaşardı yalnız.
Nə səbri qalmışdı, nə də qərarı,
Dərddən axıtdıqca o göz yaşları,
Onun gizli sirri düşdü dillərə,
Eşqi günəş kimi güldü ellərə.
Üzülməz qəmlərin sarsıntısından
Ər, ata qorxusu qalxmış ortadan.
Sövda ki, soxulur insan ruhuna,
Ər, ata qorxusu neyləyər ona?

## LEYLİNİN ƏRƏ GETMƏSİNDƏN MƏCNUNUN XƏBƏR TUTMASI

Bağdad ellərinin söz yaradanı
Belə nəql eyləyir bizim dastanı:
Boyun zəncirini qırmış o dəli,
Yenicə ay görmüş başı zədəli[96],
Bağrı kabab olmuş, sərxoş xəyallı,
O xaraba kəndli, viran mahallı
Gəzirdi çölləri gözlərində qəm,
Dərd idi, ah idi qəlbinə həmdəm.
Yanından bir qoqu gətirsəydi yel,
Gülərdi yaz kimi ürəyi tel-tel.
Cananın can verən xoş qoqusundan
Ənbərə çalardı rəngi hər zaman.
Ruhu əyləndirən o xoş ənbərdən
Zövq alıb təsəlli tapardı hərdən.
Müğilan dibində o bəxti qara
Zəlil tək düşmüşdü yaş torpaqlara.
Xəyalı çaşaraq düşmüşdü əldən,
O seçə bilmirdi tikanı güldən.
Bu vaxt dəvə üstə bir nəfər insan
Keçdi gürzə kimi onun yanından.
O bədbəxt əsiri görüncə yolçu,
Dəvəni saxladı, dedi: "Nədir bu?"
Bağırdı bu zaman o bir nər kimi,
Səsləndi ətrafa qafillər kimi:
"Sən, ey bu varlıqdan xəbərsiz olan,
Bütpərəstlər kimi yaşayan insan,
Yazıqsan, o bütdən daha üz döndər,
Bütlərdə tapmazsan vəfadan əsər.
Bu yolda bir işıq yanmayacaqdır,
Yox bil o yarı ki, gözdən uzaqdır.
Bu işdən işsizlik özü əfzəldir,
O yardan yarsızlıq daha gözəldir.
Ona öz könlünü tapşıranda sən
Bilməzdin olacaq o sənə düşmən.
Düşmən sevgilindir, çıxdı vəfasız,
Dostluq peymanını sındırdı o qız.
Səni xırman kimi o verdi yelə,
Səni yad, etməyir bir zərrə belə.
Onu bir cavana ərə verdilər,
İndi gəlin oldu sən sevən dilbər.
Bir də öz ərini o rədd etmədi,
Ondan baş götürüb uzaq getmədi.

O indi keyf çəkir nəşə bağında,
Hər gecə dəmlənir ər qucağında.
Öpüşmək olmuşdur peşəsi artıq,
Sən onun dərdini çəkirsən, yazıq.
O, gözdən uzaqdır, könüldən iraq,
Sənəyi daşa çırp, o qızı burax.
O səni salmayır illərcə yada,
Gəl onu bir dəfə unut dünyada.
Qadın bir deyildir, minlər ilə var,
Lakin öz əhdini tez pozur onlar.
Əhdi-vəfa sözü yazıldığı dəm
Qadınlar adına çəkildi qələm.
Qadın, doğrudan da, səni çox sevər
Səndən yaxşısını tapana qədər.
Başqa birisinə olunca həmdəm,
Səni görmək belə istəməz bir dəm.
Qadında kişidən çoxdur ehtiras,
Ölsə də dünyada muradsız qalmaz.
Qadın düz oynamaz heç bir oyunu,
Çətindir hiylədən ayırmaq onu.
Qadınlar dərdini çox çəkdi insan,
Vəfa görünmədi heç bir qadından.
Bir kişi qadına bağlansa, inan,
Vəfasız bir qadın yaxşıdır ondan.
Qadın əyləncədir, saxtadır, qardaş,
Zahiri sülh olur, batini savaş.
Aləmə bəladır düşmən olsa o,
Ölümdür qan üçün onun dostluğu.
Bir işi gör, desən, əlini vurmaz,
Onu görmə, desən, kənarda durmaz.
Sən dərdlənən zaman sevinib gülər,
Sən şadlanan zaman o dərddən ölər.
Qadınların işi belədir, aşkar,
Pis arvadın uzun macərası var".
Bəd heybət ərəbin lağ-lağ sözündən
Məcnunun sinəsi od tutdu həmən.
Yenə ahlar çəkdi o birdən-birə,
Düşdü üzü qoylu quş kimi yerə.
O qədər döydü ki, başını daşa,
Qızardı gül kimi daş başdan-başa.
Libas parçalanmış, can parçalanmış,
Yıxıldı daşlığa o bağrı yanmış.
O əfsun oxuyan şaşırdı birdən,
Peşiman olmuşdu dediklərindən.
Dağdan çox uzağa getməmiş, yolçu
Gördü ki, təzədən huşa gəldi bu.
Dönüb min üzr ilə gəldi iləri,
Dedi: "Nahaq dedim mən bu sözləri.
Bir sözdü, uydurub dedim yalandan,
Gəl məni əfv elə, yanılar insan.
Bir zarafatımla incitdim səni,
Canımı verərəm, əfv etsən məni.
Pərdə dalındadır o canan indi,
Qırıqdır sən kimi onun da qəlbi.

Onunla öz tayı, öz əri belə,
Bir gecə baş-başa yatmamış hələ.
O qıza başqası kəsmişsə nigah,
Səndən üzməmişdir öz əlini, ah.
Yoxdur səndən özgə muradı, kamı,
Bir sənsən dünyada onun adamı.
Dəqiqə başına o gözəl canan
Səni xatırlayır, yad edir, inan.
Bir ildən artıqdır gəlin gedəli,
Möhrünü saxlayır vəfalı əli.
Min il keçsə belə, yenə də sənsiz
O qızdan bar yemək çətindir, şəksiz".
Yalançı yalanı dedikcə gerçək,
O iki üzlünü Məcnun görərək,
Azaldı qüssəsi, dərdi bir qədər,
Dözdü ağrılara canı bir təhər.
Başına vurduğu zərbədən yazıq
Qanadsız quş kimi olmuşdu artıq.
Ləl axırdı onun yaşlı gözündən,
Vəfa axtarırdı hər beyti, bilsən
İşinin nə sehri, nə sonu vardı,
Nə yarı bu dərddən xəbər tutardı.

## LEYLİNİN XƏYALINA MƏCNUN ŞİKAYƏT ETMƏSİ

Belə bəzənmişdi o, nazik bədən,
Bu bəzəklə çıxdı o, kəcavədən:
Hörmətcil kişinin evindəki yar,
Min nəqqaş gözünü kor qoyan nigar
Ərinə bağlanıb qalsa da üzdən,
Dost deyib ağlardı könüldən, gözdən.
Məcnun bu işlərdən tutunca xəbər,
Dağıtdı qəlbini yeni qüssələr.
Pak düşüncələri artdıqca onun,
Birə min olmuşdu dərdi Məcnunun.
Qanadsız quş kimi sürünürdü, bax,
Quruca nəfəsi qalmışdı ancaq.
Axtarırdı yazıq, həyat suyunu,
Daima dörd gözlə gəzirdi onu.
O, canan yurduna üz tutub gəldi,
Həsrətdən tük kimi canı incəldi.
Küləklə söylədi dərdini ona:
"Sən, ey öz əriylə keyf çəkən sona,
Hanı o əhd edib oturduğumuz,
Bir deyib, bir gülüb, bir durduğumuz?
Hanı vəd etdiyin o şirin visal?
Sinəmə baş qoyan səndin, ya xəyal?
Hanı bu dostluqda vəfa görməyin?
Nə oldu vəfaya umud verməyin?
Bütün peymanları tərk edərək sən
Günahsız üzünü gizlədin məndən.
Tutaq, könül yoxdur vəfaya səndə,
Bəs noldu dostluğa verdiyin vədə?





Mən sənin yolunda keçərkən candan,
Sən quru vədələr verirsən, canan.
Eşqiyin yolunda can qoymuşam mən,
Özgənin eşqinə söz vermisən sən.
Bu qədər əhdini basarmı insan?
Qaçarmı dostunu xatırlamaqdan?
Görünür çox şadsan sən təzə yardan,
Köhnəni yadına salmırsan bir an.
Özgənin boynuna sarılsan belə,
Bari axtar bizi quru dil ilə.
Sənin bağın üçün gəncliyim getdi,
Hayıf ki, bağbanlıq əməyim itdi.
Bağda əmək qoydu göyərçin, ey yar,
Meyvə yetişəndə yedi qarğalar.
Ah, o lətif xurman, o şirin xurman
Məndən özgəsinə tikandır, tikan.
Ahım dağlar yıxan bir sərt küləkdir,
Barını yadlara verməyəcəkdir.
Əvvəlcə yar dedin sən mənə, ey qız,
Sonra zəlil kimi buraxdın yalnız.
Mən sənə yar deyib, könül verirkən,
Bilməzdim vəfasız olduğunu mən.
And içib, əhd edib məni aldatdın,
Dedin, sevgilinəm, unudub atdın,
Anda bax, nə qədər düz imiş andın!
Əhdə bax, sən özün o əhdi dandın.
Qeyrə könül verib həmdəm oldun sən,
Neçin utanmadın mənim gözümdən.
Yaşayan bir sənlə mən deyilik tək,
Zülmü ədalətə bərabər edək.
Başqa ariflər də yaşayır, bilsən,
Onlar gözəl seçir yaxşını pisdən.
Bilirlər nə qədər dərdim, qəmim var,
Mən sənə neylədim, sən mənə, ey yar?
Tutaq ki, bağlanmış gözlərim bir an,
Səni ki, başqası görür kənardan.
Əhd üçün bir vəfa gəzsələr əgər,
Sənə bir vəfasız ad verəcəklər.
Əhdini sındıran yaxşı adlanmaz,
Sən əhdi qırmaqdan gəl saqın bir az.
Gülzarın əhdini gül qırdı, canan,
Tikanla doldurdu bağrını zaman.
Şərab xalq üzündə həya qoymadı,
Onunçun həyasız söyləndi adı.
Gecə qırmasaydı ayın camını,
Qaranlıq almazdı onun damını.
Sənə nə ürəklə umud bağlayım,
Nə üzlə arxanca gülüb ağlayım?
Mən ömrü əhdimlə vermişəm başa,
Sənsə vurub çarpdın əhdini daşa.
Sən açmasan belə, könlümü birdən,
Mən səni unudan, atan deyiləm.
Əzabın başımdan aşsa da, gülüm,
İncisəm, gözümü qapasın ölüm.

Qəlbimə o qədər qəm verdin ki, sən,
Şüur da, həya da çıxır bədəndən.
Sənə dost deməyə məndə nə üz var,
Nə dilim vəfasız sözünə qıyar.
Acizəm o sənin xam sifətindən,
Bir də nə ad verim o surətə mən.
Verdiyin hər zülmə dözsə də bədən,
Canımın, ruhumun qidası sənsən.
Bu zülmün ömrümü alsa da dərhal,
Üzr istər səndəki o gözəl camal.
O camal qırsa da eli, obanı,
Halaldır o hüsnə hamının qanı.
Sən günəş üzlüsən, mənsə bir çıraq,
Qarşında sönməyim şərəf olacaq.
Ay şəkər olsa da, sən elə mahsan,
Vəzirin ikidir, bir özün şahsan.
İpəkdə bir gülsən, xəzdə laləsən,
Üzüm şirəsindən çox ləzzətlisən.
Hüsnünə odun da rəqabəti var,
Baxdıqca onun da ağzı sulanar.
Gül, çiçək məsgəni olsa da hər bağ,
Camalın olmuşdur gülşənə çıraq.
Şahlığın geyimi atlassa əgər,
Yanağın yanında samana bənzər.
Qaşların incədir, oxşar xəyala,
Bayram axşamında bənzər hilala.
O qızıl gülüyün yanında, ey yar,
Ud, səndəl ağacı söyüdə oxşar.
Üzüyün müşk rəngli gözəl sultanı
Tutmuş Çin eliylə Həbəşistanı.
Nə olar, özün də o cəmala bax,
Nə qədər çətindir ondan ayrılmaq.
Canımı başına qurban demişəm,
Başqa bir tədbirim yoxdur, ey sənəm.
Cəfanı, zülmünü bunca çəkərək,
Vəfa umuduyla yaşayır ürək.
Səbr etməliyəm ki, bir görüm sonra
Ömür cilovunu çəkəcək hara..."

## ATASININ MƏCNUNUN GÖRÜŞÜNƏ GETMƏSİ

Fars nəslindən olan şirin dil dehqan
Belə xəbər verir ərəb halından:
Oğlunu itirmiş o yəqub qoca
Gözəl Yusifindən ayrı qalınca,
Məcnunun halını gördü pərişan,
Kəsdi umudunu ondan bir zaman.
Ah çəkib gözüylə odlar görürdü,
Yenə də umudla ömür sürürdü.
Onun gəzmədiyi çarə qalmadı,
Zənci yuyunmaqla çinli olmadı.[98]
Nə qədər dağıtdı yenə simü zər,
Baxtı yetirmədi ona bir nəzər.

Kəsdi umudunu dərdli oğlundan,
Bir də gözləmədi sağalmaq ondan.
Bir küncə qısılıb qaldı o baxtsız,
Bircə dörd künclünü gözlədi yalnız.
Qocalıq, zəiflik, bir də bədbaxtlıq,
Ona köç yolunu göstərdi artıq.
Dünyanın dərdindən o gəldi təngə,
Sıxılmış boğazı bənzədi çəngə.
Qorxdu ki, öldürsün bu əcəl onu,
Gəlib yadlar alsın onun yurdunu.
Xəstə tək əlinə bir əsa aldı,
İki nəfər cavan yanına saldı.
Allah işıqladar, deyib, yolunu,
Yenə də gəzməyə çıxdı oğlunu.
Dağ ilə səhranı gəzib bir zaman,
Çölləri, qumları saldı ayaqdan.
Umudla əl açıb xeyli gəzdilər,
Heç yerdə tapmadı oğlundan əsər.
Nəhayət bir nəfər xəbər verdi ki,
Əzab evindədir sizin o itgi.
O bir yerdədir ki, xərabəzardır,
Baxdıqca qorxuncdur, sanki məzardır.
Qara bulud kimi o çirkin diyar
Neft kimi alışıb, tutuşub yanar.
Yenə yola düşdü zavallı qoca,
Bütün günü gəzdi yollar boyunca.
O bəxtsiz oğlunu görəndə birdən,
Oynadı qocanın qəlbi yerindən.
Məcnunda yox idi həyatdan əsər,
Varlığı dəriydi, bir də sümüklər.
Varlıq dünyasından düşmüşdü qaçaq,
Sövda yolundan da gəzirdi uzaq.
Xəyaldan asılmış çöpə bənzərdi,
Ölümdən qurtarmış bir tük qədərdi.
Yer üstdə it kimi çabalasa da,
Yer altdakindən də heçdi dünyada.
Qaynaqdan düşmüşdü həyat qazanı,
Ayaqdan düşmüşdü, huşsuzdu canı.
Yanımış başından düşmüşdü papaq,
Yerdə ilan kimi hey qıvrılaraq,
Əl boyda dərini o tərki-vətən
Fitə tək tutmuşdu öz göbəyindən.
Ata sığalladı onun başını,
Saxlaya bilmədi öz göz yaşını.
Axıtdı sel kimi ciyər qanını,
Uçurdu könlünün xanımanını...
Açıldı Məcnunun bu dəm gözləri,
Qəlbə munis gördü o bir nəfəri.
Baxdı atasına o bəxti qara,
Lakin tanımayıb qaçdı kənara.
Bir adam özünü unutsa əgər,
Başqa bir insanı tanıyar məgər?
Dedi: "Sən nəçisən, de görüm kimsən?
Gəldiyin yollara qurban olum mən".

"Mən sənin atanam, ey ciyər param,
Nə vaxtdır, bir səni mən axtarıram".
Məcnun atasını tanıdı bu an.
Düşüb ayağına ağladı al qan.
Ata qucaqladı yazıq oğlunu,
O bunu öpürdü, bu isə onu.
Ah, tuta bilməyib bir yerdə qərar,
Min novhə çəkərək çox ağlaşdılar.
Atanın göz yaşı çay kimi axdı,
Sonra boy uzunu oğluna baxdı.
Gördü, ölü kimi o çıl-çılpaqdır,
Başı papaqsızdır, yalın ayaqdır.
Bir xələt götürüb öz heybəsindən,
Geydirdi oğluna, örtüldü bədən.
Başmaq da, papaq da verdi, müxtəsər,
Bəzədi təpədən dırnağa qədər.
Sonra da atalıq nəsihətiylə,
Ona öyüd verdi öz adətiylə.
Dedi ki: "Ey ruhum, bu yuxudan qalx,
Cüt atlı zəmanə tələsir, bir bax.
Bu yolun hər otu qılıncdır, oğlum,
Gəl, çəkin bu yoldan, qurbanın olum.
Yediyin zərbələr çox asan deyil,
Tutaq ki, sən dözdün bir ay, ya bir il.
Yenə ox atacaq rəhmsiz fələk,
O, sənin qanını açıq tökəcək.
Tutaq bir neçə gün yenə dözdün sən,
Lakin bu yerlərdə can verib ölsən,
Canavardan tutmuş pələngə qədər
Sənin bədəninlə doyar vəhşilər.
Qürbətdə ölmə gəl, nə varmış bunda?
İt olmaq yaxşıdır ana yurdunda.
Baş götürüb qaçdın vəhşi çöllərə,
Qocaldın, çatmadı əlin bir yerə.
Əzablar çəkməyin mənası varmı?
Daima zillətə dözmək olarmı?
O sular yatağı çaylağa bir bax,
Seldən xarab olmuş gördüyün çaylaq.
O sellər axıdan dağa qıl nəzər,
Onu da zəlzələ dağıdıb tökər.
Bu zillət, bu əzab pəncəsində sən
Dəmirdən də olsan çürüyəcəksən.
Getdi ömrüm-günüm sənin dərdinlə,
Ram olub bir zaman atanı dinlə.
Baş getdi, cilovun bərkdir, ey insan,
Alışdı ürəyim, sən yenə xamsan.
Çöldə ləhləməkdən bir dəfə əl çək,
Vəhşilər yanında kim at sürəcək?
Divlər yatağına gəl olma məhrəm,
Qaçma zəmanədən, ey talei kəm.
Başından bir dağıt bu qayğıları,
Özünü xəyalla gəl aldat, barı.
Bir arzuyla yaşa, o, puç olsa da,
Arzuyla şadlanar aqil dünyada.





Yalan da, doğru da olsa hər dilək,
Bari, bir nəfəsə bəzəkdir, bəzək.
Əvvəl sən rahatca nəfəs al ki, bir,
Sonrakı nəfəsin gör necə gəlir.
Səadət qapını açmasa bu gün,
Kəsmə umudunu ondan büsbütün.
Çoxları buğdanı saxlanc etdilər,
Qazanc görmədilər bir arpa qədər.
Ömrün ixtiyarı öz əlindəykən,
İşini gör, qurtar hamıdan erkən.
Sabah cilovunu tutanda əcəl
Bir də üzr istəmə bu dünyadan gəl.
Dediyin şərbəti verməzlər sana,
Bil ki, yaratdığın düşər payına.
Qadın nə toxusa əyninə keçər,
Kişi əkdiyini toplayıb biçər.
Bu gün bir üzərlik yandır ki, sən də
Duyasan iyini bəlkə öləndə.
Ölüm dəhşətini qabaqca sına,
Axırda dözəsən hər ağrısına.
Ölümü kim duysa ölümdən qabaq,
Ölüm pəncəsindən xilas olacaq.
Baş vaxtından əvvəl ucalsa əgər,
Özü təpəsinə sillə endirər.
Səfər xəyalilə gülən bir dodaq
Öz bişirdiyindən pay aparacaq.
Adamsız qalmışdır meydanın, bir dur,
Yetər divanəlik gəl sakit otur.
Hər kəsin bir könül həmdəmi olar,
Hər çəkilən dərdin bir sonu da var.
Söz yox ki, ucadır insanlıq səndə,
Lakin it də yaşar, ölər vətəndə.
Əgər insansansa, insanlığı sev.
Bir div olsan belə, anla ki, hər dev
Bir insan şəklində görünmək istər,
Divdənsə dərs alıb adamlıq göstər.
Ah, oğul, insansan, şərəflisən sən,
Özünü divlərə taymı edirsən?
Azdır yoldaşlığım bu yolda sənə.
Canım yedəyindən gen qaçma yenə.
Gəl mənə yoldaş ol, həmcinsin mənəm,
Bari, təsəlli ver qəlbimə bir dəm.
Bu gecə sən məndən üz döndərsən, ah!
Bil ki, gec olacaq axtarsan sabah.
Sözlərim gəlirsə qəlbinə ağır,
Bu da, bil, fələyin qəzasındandır.
Qaçma, yaxına gəl, iş gör əlinlə,
Zamanın hökmünü bir yaxşı dinlə.
Mən ömrü bitirdim, sən şad ol yazıq,
Şərabı sən iç ki, mən məstəm artıq.
Ölürəm, ömrümü çatdırdım başa,
Qəm öldürdü məni, sənsə şad yaşa.
İnan ki, göylərə sovruldu külüm,
Günəşim saralır, yaxındır ölüm.

Günəş axşam oldu, hardasan səhər
Oğlum, mən ölürəm, bir kömək göstər.
Oğul, gəl, atayın pis gününə çat,
Gəl, canı çıxmamış ona əl uzat.
Mən əldən, ayaqdan düşməzdən əvvəl
Sönmüş ocağımı qızdırmağa gəl.
Yerimdən qoparsa məni ruzigar,
Gəl mənim yerimdə özün tut qərar.
Qoy ölüm əmrilə canımı alsın,
Bari, bir oğulsa yurdumda qalsın.
Ölüm səfərinə çıxsa bədənim,
Bilim ki, yerimdə adam var mənim.
Ölüm yasdığımda baxmasan mənə,
Nə dosta xoş gələr, nə də düşmənə.
Kənardan-kənara çıxar bir nəfər,
Mənim yığdığımı qapıb qəsb edər.
Rəvamı dünyada mən talei kəm,
Oğlum ola-ola kimsəsiz öləm?
Artıq çalınmışdır köç təblim, inan,
İndi köç yoluna hazırlaşır can.
Qorxuram, köçməyə tələsiyəm mən,
Köçümü tərpədəm sən gəlməmişkən.
Məzarım üstünə sən baş qoyasan,
O vaxt ağlayasan, bərk ağlayasan.
Tüstüyə dönsə də o gün nəfəsin,
Mənə nə faydası o ağlar səsin?
Qəmindən dünyalar yansa da, düzü,
Bir də gülməyəcək bəxtimin üzü".

## MƏCNUNUN ATASINA CAVABI

Oğul atasına çox qulaq asdı,
Onun hər sözünü qəlbinə yazdı.
İstədi iki gün səbr edib dözsün,
Bu sövda yolundan o ayaq üzsün.
Eşqə tövbə demək istədi, fəqət,
Tövbə qulağını çəkdi məhəbbət.
Məhəbbət fili də qoyar piyada,
Ona diz çökənlər mərddir dünyada.
Bu, keçə şiridir, o, meşə şiri,
Bu, həmişə tikər, yırtar o biri.
Eşqin kamanından ox atsa bəşər,
Onun öz əlini o, şil-küt eylər.
Məcnun toplayaraq öz qüvvətini,
Dinləyib atanın nəsihətini,
Dedi: "Ey nəfəsi ruhuma qüvvət,
Sənsən müşgülümü düzəldən, əlbət.
Sözün, nəsihətin dimağımdadır,
Bax, qulluq halqan da qulağımdadır.
Gözəl nəsihətin qəlbə çıraqdır,
Kim boyun qaçırsa, bəxtdən uzaqdır.
Mən qulaq asardım bu sözlərinə,
Neyləyim, əlimdən gəlməyir yenə.
Mənə ağıl dərsi oxumaqla sən





Nə üçün eşqimin üstə gülürsən,
Məhəbbət oylağı könlümçün, inan,
Bir qara pula da dəyməz bu cahan!
Tale puç eyləmiş məni dünyada,
Eşidib bildiyim düşməyir yada.
Bütün hafizəmi sovurub yellər,
Yoxdur xatirimdə nə səs, nə xəbər.
Bu gün soruşma ki, nə yedim dünən,
Bu sual da çıxar puç hafizəmdən,
Bu saat gördüyüm işi də sorma,
Cavabsız qalarsan, özünü yorma.
Bilirəm, oğlunam, sən də atamsan,
Adın da qalmamış yadımda, inan.
Bir atam çıxmamış yadımdan bu gün,
Huşumun özü də itmiş büsbütün.
Öz adım da çıxmış yadımdan bu dəm,
Bilmirəm məşuqəm, yoxsa aşiqəm.
Bir ildırım kimi qəlbim odlandı,
Qəlbimin odundan, canım da yandı.
Ayrıldım dünyanın nemətlərindən,
Çöllərin otuyla keçinirəm mən.
Zəmanə adlanan bu boş dəyirman
Boşalmış deyirəm, dən ilə sudan.
Mən öz vəhşətimdən itgin düşmüşəm.
Vəhşilər insana olarmı həmdəm?
Vəhşiylə dost olsa insan dünyada,
Vəhşi adətincə ömr edər o da.
Mən milçək toxunmuş qovun kimiyəm,
Kəs məni, at gedim, saxlama bir dəm.
Yoxsa bir toz qopsa üstümdən əgər,
O tozum bostanı xəstələndirər,
Çiçəyi kənarda tutun uşaqdan,
Yoxsa zəhərlənər uşaqdakı qan.
Yalnız xərabəyə meylim var mənim,
Qoy xərabə olsun yerim, məskənim.
Zənn et ki, zəmində bitmədi bir kol,
Atdığın bir toxum puç oldu bir yol.
Bildiyin bir sözü oxumamış bil,
Zənn et ki, əkdiyin heç oğul deyil.
Gəl bir məzar düzəlt, sözümü dinlə,
Ölmüş bir aşiqi dəfn et əlinlə,
Ağlının üstünə qələm çəkilən
Divanə bir gəncdən əlini üz sən.
Deyirsən yaxındır sənin köç yolun,
Köçünü bağlamış bu bədbəxt oğlun.
Xəzanım çatacaq sən ölənədək,
Bil ki, səndən qabaq köçüm gedəcək.
Sən ölsən üstündə dirilər ağlar,
Mən çoxdan ölmüşəm, əlimdə nə var?"

## ATASININ MƏCNUNLA VİDALAŞMASI

Atası görüncə dərdli oğlunu,
Eşqin girdabında boğulduğunu,
Kəsdi umudunu ondan büsbütün;
O qızdırma sapı düşmüşdü düyün...
Dedi: "Ey ciyərim, ciyər neştərim,
Ey boyun zəncirim, ey taci-sərim,
Əlacsız dərdini duydum ürəkdən,
Səndən də əl üzdüm, özümdən də mən.
Atan əldən düşdü, insafa gəl sən,
Gəl tut məhəbbətlə onun əlindən,
Qalx, sanı boynumdan, qurbanın olum,
Üzüm göz yaşınla islansın, oğlum.
Səfər qüslüm olsun o göz yaşları,
Səfər beşiyində dinc yatım, barı.
Ayrılıq dəmidir, halıma yan bir,
Gözümə sürmə yox, mil çəkilmişdir.
Naz vaxtı deyildir, qucaqlaşaq gəl,
Səndən tuşə alım səfərdən əvvəl.[100]
Köçümü yığmışam dünyadan bu dəm,
Başqa bir aləmə köçüb düşmüşəm.
Sənin fikrindən də deyiləm uzaq,
Ölürəm, dərdinlə ölürəm, ancaq
Çox əziz olsan da gözüm kimi sən,
Atanı bir daha görməyəcəksən.
Əlvida, səfərə hazıram artıq,
Gedər-gəlməzədir bu son ayrılıq.
Əlvida, ayrılıq zamanı yetdi,
Biz gecikib qaldıq, karvansa getdi".
Qurtardı atanın vida sözləri,
Oğluyla görüşüb qayıtdı geri.
Pərişan atanın üzündə kədər,
Ölümcül, evinə gəldi bir təhər.
Zəiflik üzündən o iki-üç gün
Qüssəylə keçindi vücudu ölgün.
Birdən baş qaldırdı pusqudan əcəl,
O öldü murada çatmazdan əvvəl.
Onun səma quşu çıxdı qəfəsdən,
Sidqin budağında o tutdu məskən
Göylərdən törəyən göylərə yetdi,
Torpaqdan olan da torpağa getdi.
Asudə odur ki, ay tək hər zaman
Bu yandan çıxaraq, batsın o yandan.
Bağlanıb qalmasın qüssə evinə,
Şimşək tək parlayıb o sönsün yenə.
Beş günlük dünyanın mənzilində sən
Çox rahatlanma ki, zillət çəkəsən.
Qoy bilsin bu kənddə mənzil tikənlər
Yoxdur bu aləmdə dinclikdən əsər.
Ölməz can qurtaran bu daş hasardan
Onunçün ölmüşdür bu dünya, inan.
Mələk surətində bir divdir aləm.
Səni məhv etməyə çalışır hər dəm
Dolmuşdur dünyanın kasası qandan,
O qan da süzülür öz bağrımızdan.
Dünyada həmdəmin olsa da hər kəs,
Ömründə şad olub sifəti gülməz.

Bu divlər yatağı yer deyil, inan,
Sel yolu tutmuşdur, qalx bu yataqdan.
Dünyanın ağzı bir xurmaya oxşar,
Əfsus, öpüşündə acı tikan var.
Sərvini bitirmə bu çəməndə sən
Suyu duz, otu da qılıncdır, bilsən.
Bəsdir bu dünyadan yediyimiz qəm,
Çoxmu qamçısını vuracaq aləm?
Aləmi şad keçir, bil, aləm budur,
Çəkmə dünya qəmi, əsil qəm budur.
Əliuzun olsa bir oğru əgər,
Girib xəzinədən gövhərlər çəkər.
Xəzinəni atıb, kim yesə torpaq,
O, ağıllı deyil, ilandır, ancaq[101].
Yaşa ki, dünyaya işıq verəsən,
Torpağa göz tikmə ilan kimi sən.
Ömürdən bərk yapış, ömürdür məqsəd,
Ömürsüz dünya da boş qalır, əlbət.
Yaxşı-yaman gündə gümüş çox yarar,
Min gəmi ləngəri onunla sınar.
Əlində saxlama, quyu tək, varı,
Dəyirman daşı tək üyüd onları.
Aldığın hər şeyi payla dünyada,
Belə abad olub bizim dünya da
Hərdən bir əl iyi qayırsan da sən,
Ox da yon hazırla, dünyada bəzən.
Yüksüz bir adamdan alınarmı bac?
Xaraba bir yerdən alınmaz xərac.
Boş-bikar oturma heç yerdə bir an,
Bari əl-qolunu oynat yalandan.
Heç yerdə qəflətlə gəl tutma qərar,
Hərdən bir bağırıb hay-küy də qopar.
Əli boş insanlar qəm çəkər, bişək,
Beldən şikəst olsun gücsüz bir eşşək.
Səninlə cıdıra çıxanlara bax,
Yarı yolda qalan bir sənsən ancaq.
O Kəyan şahları, o peyğəmbərlər
Dünyanı qullara qoyub getdilər.
Gör bu qövm kimdir, kim idi onlar,
Gör kimin yerində kim tutdu qərar.
Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.
Yaxşılıq eyləyib, qorx yamanlıqdan,
Yaxşılıq gətirər yaxşılıq hər an.
Sənə pislik edən özündən küssün,
Çünki öz canına qıymış o düşgün.
Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil.
Hər yaxşı-yamana qoca dünyada
Gələr fələklərdən bir əksi-səda.
Kim dağa sirrini söyləsə əgər,
Dağ eşitdiyini geriyə verər.
Qalxıb ucalsan da sonsuz göylərə,
Ağlı başında ol, düşün bir kərə.

Heç kəs bu fələkdən baş çıxarmamış,
Heç kəs bu kitabı sona varmamış.
Araba, mancanaq daşını heç kəs
Fələk divarına söykəyə bilməz,
Çünki o torpaqdan, yerdən uzaqdır,
Yerin tənəsindən pak duracaqdır.
Dünya karxanadır, xor baxma barı,
Bu dibsiz quyuya düşdü çoxları.
Dərindir, çuxurdur dediyim quyu,
Sən oyuncaq yeri zənn etmə bunu.
Bil ki, bu quyudan çəkilməsən sən,
İpin buraxılsa daima əldən,
Bu sallaxanadan qurtulmaq olmaz,
Bari bu hikməti dərk elə bir az.
Harda bir abadlıq görsən bərqərar,
İlki də, sonu da xaraba olar.
Daim xaraba da olsa bir diyar,
Bil ki, abadlıqdan onda nişan var.
İstər xarab olsun, istərsə abad,
Daimi binövrə qoymamış ustad.

### ATASININ ÖLÜMÜNDƏN MƏCNUNUN XƏBƏR TUTMASI

Bir gün, təsadüfən, doğanda səhər
Şikara gedirdi çölə bir nəfər.
Məcnun Nəcd dağına çıxıb durmuşdu,
Tacda inci kimi tək oturmuşdu.
Yolçu yol üstündə şirə göz atdı,
Qılınc tək dilini ona uzatdı.
Yasa batmış kimi soruşdu ondan:
"Ey evdən, eşikdən didərgin insan,
Leylidir gəzdiyin dünyada ancaq,
Bir öz ətrafından almırsan soraq.
Yadından çıxmışdır atayla ana.
Həyasız adamsan, eyb olsun sana.
Sənin tək bir oğul girsin yerlərə.
Naxələf olmaqdan əl çək bir kərə.
Tutaq ki, ömrünün cavan vaxtı sən
Qaçdın öz atandan, o kimsəsizdən
İndi ki, ölmüşdür o yazıq atan.
Nolar xatırlasan, onu bir zaman.
Olmazmı, gedəsən ziyarətinə,
O ata haqqının son möhnətinə?
Sığınıb qəbrinin pənahına sən,
O incik ruhundan üzr istəyəsən?"
Məcnun, xəbərçinin bu sözlərindən
Sızlayıb çəng kimi büküldü birdən,
Dərdlənib, yerlərə çırpdı özünü,
Dönüb sillələdi o, üz-gözünü.
Kəsildi büsbütün səbri, qərarı,
Qaçdı atasının qəbrinə sarı.
Qəbrin şüşəsinə bir nəzər atdı,
Elə bil bağrına almazlar batdı.





Huşsuz, o türbəyə yıxıldı birdən,
Basdı öz bağrına onu dörd yerdən.
Onun pak ruhuna ağladı zar-zar,
Axan göz yaşıyla islandı məzar.
Gah qəbri qucayıb huşsuz durardı,
Gah dərddən başına qum sovurardı.
Gündüzki dustağın çatdı gecəsi,
Çoxaldı xəstənin can isitməsi.
Bütün ömrü boyu o naxoş bədən
Qəmlər əsiriydi ilk nəfəsindən.
Qorxunun əsiri olsa bir nəfər,
Halı yetimlikdə nə ola bilər.
Ah! O yetim ürək, o dərdli dustaq
Köməksiz, arxasız, yetim qalaraq,
Qıvrılıb torpağa düşdü bir zaman,
Öz müsahibindən axtardı nişan.
Lakin, tapmayınca öz qəmxarını,
Kəsmədi ömrünün qəm ruzgarını.
Ağladı, gözündən qan axıdaraq,
Tamam qızıl qana bulandı torpaq.
Dedi: "Yazıq atam, de hardasan sən?
Oğluna tacını göstərməyirsən.
Ey mənim qəmimə, yasıma həmdəm,
Bu dərdi mən kimə şərh edim bu dəm.
Üzünü torpaqda sən gizlədərək,
Oğulsuz qalmağı istədin, demək.
Mən ki, atasızlıq bilməzdim bir dəm,
Sınadım, nə qədər acıymış bu qəm.
Of!. Könlüm naləsiz, sakit durarmı?
Bir də səndən özgə köməyim varmı?
Yarım da sən idin, yavərim də sən,
Könlüm güc alardı daima səndən.
Oğluna daima yollar açaraq,
Bir səndin dərdimə yananım ancaq.
Sənsiz ki, zillətdə yaşayacağam,
Əfsus, səndən sonra yenə də sağam!
Uzaq düşməyimi başıma qaxma,
Çoxdur xəcalətim, olmuşa baxma.
Hər nəsihətini eylədikcə yad,
Ruhumdan ucalır ah ilə fəryad.
Mənim xoş yerişli atlım şən ikən,
Dönmüşdüm başı bərk ayğırına mən.
Qızıl bir sırğaydın qulağımda sən,
Qapı halqası tək uzaqdım səndən.
Sən mülayim idin, mən dəliqanlı,
Mən soyuqqanlıydım, sən isti qanlı.
Sözlə oxşamadım qəlbini bir an,
Yanında bir gecə yatmadım, aman!
Sən mənim ucumdan dözdün yüz dərdə,
Mənsə xəyal kimi gəzdim çöllərdə.
Mənim yatağımı çırpardın hərdən,
Mənsə ayrılmazdım yenə çöllərdən.
Sən şadlıq büsatı qurardın mana,
Mənsə yıxılardım daşlar qoynuna.

Sən dua elədin, təsir etmədi,
Mən də ağac əkdim, meyvə bitmədi.
Can dostum sənsənmiş, andıqca, inan,
Bil ki, dərd əlindən bağrım olur qan.
Axır libasıma göz qaram hər dəm,[102]
Bu yolla kor olub, qara geyirəm.
Ah, ata, peşmanam tutduqlarımdan,
Bir dərdim min oldu, beləymiş dövran.
Yersiz incitmişəm, atacan, səni
Əhvalım çox pisdir, bağışla məni.
Səni incitmişəm bu dünyada, ah!
Bizdən sorulmasın bu ağır günah.
Sən, ey ulduzumu işıqlandıran,
Sənin əlindədir əlacım inan!
Sən razı qalmasan oğlundan əgər,
Allah da oğluna cəzalar verər.
"Ciyərim" deyərdin mənə bir zaman,
İndi o ciyərə sən ox vurursan.
Doğrudan ciyərin yarandımsa mən,
Gəl kabab bişirmə öz ciyərindən.
Bir də ciyərindən axırsa bu qan,
Sən niyə torpağın qucağındasan.
Ciyərim qanını axıdaraq sən
Yenə də: "Ciyərim sənsən" deyirsən.
Səni yandırdımsa, ey taci-sərim,
Alışıb od tutdu öz ciyərlərim.
Əgər sənə qarşı günahkar oldum
Özüm öz cəzama giriftar oldum.
Qulaq asmadımsa sözlərinə mən,
Qulağım buruldu sənin zərbəndən".
Məcnun ah çəkərdi aşdıqca dərdi,
Gününü gecə tək qara edərdi.
Gecə sallayardı qara bir bayraq,
Ağlamaq təbili susmazdı ancaq.
Sədəf tək arxası qaralmış gecə
Ayla və balıqla pəncələşincə,
Balıq sədəfindən qızışdı haman,
Bütün dürrləri tökdü ağzından.
Məcnun sədəf rəngli iki gözündən
Ətrafa incilər səpirdi, bilsən.
O qəbrin üstündə səhərə qədər,
Oxudu qəlbyaxan, acı novhələr.
Türbəylə birləşdi o da türbə tək,
Bu iki mənzildə vurdu bir ürək.
Qəbrə üz sürtürdü o yanıqciyər,
Bu zaman gün çıxdı, açıldı səhər.
Səhərin carçısı səslənən zaman
Şəfəq bayrağını qaldırdı dağdan.
Kimyagər - səhərin böyük iksiri,
Qızıla döndərdi nəfəslə yeri.
Torpaqda sürünən o yazıq insan
Qalxıb Nəcdə getdi yenə pərişan.
Yenə ağlayırdı gözlərində qəm,
Onun varlığını sarmışdı matəm.

Əzabla qatlanıb tale deyənə,
Yüz min çətinliklə yaşardı yenə.
Bir könül şamını gəzirdi təkcə...
Gecəsi gündüzdü, gündüzü gecə.

## MƏCNUN VƏHŞİLƏR ARASINDA

Əfsanə yaradan bir sahib hünər
Bu qəmli dastanı belə nəql edər:
O yatağı səhra, o balıncı dağ,
Bu saxsı evdəki o solğun zanbaq
Ata matəmini çatdırıb başa,
Yenə də üz tutub, qaçdı dağ-daşa.
O, vəhşi çölləri bir gün tərk etdi,
Yarının yurduna üz tutub getdi.
Gördü ki, vəfanın çəkdiyi qələm
Leylini Məcnunla yazmışdır bahəm.
Eşdi dırnağıyla yerin layını,
Özünü saxlayıb pozdu tayın.
Görənlər dedi ki: "Bu necə işdir?
O iki rəqəmdən biri getmişdir".
Dedi ki: "Birini pozsa da qədər,
Bir ad ikimizə kifayət edər.
Aşiqi axtarıb gəzsə bir insan,
Onun yarını da qoy tapsın ondan".
Bu vaxt soruşdular, dedilər: "Nədən
O itmiş ortadan, itməmisən sən?"
Dedi: "Yaxşı düşməz mənimçin artıq,
Mən özüm məğz olam, o isə qabıq.
Mən dostun örtüsü olsam da ancaq,
Xoşdur o məğz üstdə bir qabıq olmaq".
Deyib, o yerlərdə tutmadı qərar,
Gah yolla gedirdi, gah yoldan kənar.
O, aşiqlər kimi dilində qəzəl
Gəzirdi bir təbib, bir mehriban əl.
İnsan adətindən əl götürərək,
İpini qırmışdı o, vəhşilər tək.
Çöl vəhşisi kimi o, zaman-zaman
Yeyib yaşayırdı yaşıl otlardan.
O, tordan, vəhşidən qorxmurdu bir dəm,
Vəhşilər olmuşdu Məcnuna həmdəm:
Ona yetişməsin deyə bir zaval,
Keşikdə durardı şir ilə maral.
Çöldə nə qədər ki, vəhşilər vardı,
Onun qulluğunda hazır durardı.
Aslanı, maralı, tülkünü, qurdu
Yığıb yol üstündə ordugah qurdu.
Hamsı qulluğunda durmuşdu sayaq,
O da şah olmuşdu Süleyman sayaq.
Şahin qanadından günlüyü vardı,
Nəşinə qaraquş kölgə salardı.
O qədər böyükdü ondakı şahlıq,
Vəhşilər vəhşətdən çıxmışdı artıq.
Qoyun qurd belinə yatıb qalırdı,
Maral şir üstünə ayaq alırdı.
Düzəlmişdi itlə dovşan arası,
Şir südü əmirdi ahu balası.
Məcnun yol gedirdi əlində canı,
Vəhşiylə dolmuşdu onun dörd yanı.
Yatacağı yeri tülkü görərdi,
Ona quyruğuyla yer süpürərdi.
Ahu sığallardı yanaqlarını,
Qoynuna alardı ayaqlarını.
Onun cüyür kimi həmdəmi vardı,
Maral sağrısına o, baş qoyardı.
Başının üstündə şir diz çökərək,
Keşikçi durmuşdu qılınc çəkərək.
Canavar olmuşdu ona pasiban,
Canını edərdi yolunda qurban.
Vəhşidən doğulmuş yırtıcı pələng
Öz təbiətini eyləmişdi tərk.
Çöl heyvanlarından iki-üç qatar
Onun ətrafında tutmuşdu qərar.
Vəhşilər içində tək oturmuşdu.
Elə bil, qoşunlu bir şah durmuşdu.
Qorxaraq ordakı yırtıcılardan,
Onun yaxınına gəlməzdi insan.
İzinsiz gəlsəydi ora bir nəfər,
Didib parçalardı onu vəhşilər.
İzinlə gəlsəydi yanına hər kəs,
Vəhşi heyvanlardan çıxmazdı bir səs.
İstər qohum olsun, istərsə tanış
Yaxına gəlməzdi izin almamış.
Gedirdi vəhşilər yanınca hər an,
Sanki sürüsüylə gedirdi çoban.
Vəhşilər mülkündə tutmuşdu qərar,
Vəhşiylə dost olan, vəhşi də olar.
Yanına ahular çox toplanardı,
Qəribə, çox şıltaq bir ahu vardı:
Oynağan və zirək bir ahuydu bu,
Sağrısı çox hamvar, ucaydı boynu.
O çox xoş gələrdi bizim Məcnuna,
Ayrıca bir qayğı bəslərdi ona.
Yanına çəkərək o yoldaşını,
Tutub sığallardı onun başını.
Hər gün o gözləri öpməyi vardı,
O gözlər Leylini xatırladardı.
Camaat qalmışdı bu işə heyran,
Onun vəhşilərlə dost olmağından.
Kimin ki, sövdası, eşqi solmazdı,
Məcnunu görməmiş sakit olmazdı.
Hər gün bir diyardan gələn yolçular
Onun ətrafında tutardı qərar.
Tutduğu orucu sındırsın, deyə,
Yeməklər gələrdi ona hədiyyə.
Xeyməgah quraraq şir dərisindən,
İgidlər qəlbini üzərdi bilsən.
Yemi vəhşilərə paylardı bütün,





Özüsə bir tikə yeyərdi hər gün.
Vəhşi heyvanlara o, il uzunu
O qədər verdi ki, öz ruzusunu,
Ruzi verən bilib onu hər heyvan,
Səcdəyə durardı gördüyü zaman.
Ondan ayrılmazdı bir dəm vəhşilər,
Gəlib yem alardı hər axşam, səhər.
Bir eli aldadar verilən ehsan,
Ehsana qul olar hər azad insan.

## HEKAYƏ

Qədimdə belə bir rəvayət varmış
Ki, Mərv ölkəsində bir şah yaşarmış.
Bir neçə köpəyi zəncirləyərək,
Bəndlərdə saxlardı onları div tək.
İtlərdə əjdaha qüvvəti vardı,
Dəvənin boynunu qoparardı.
Acıqlanan zaman şah bir nəfərə,
Atarmış yazığı quduz itlərə.
Şahın qəzəbinə düşsəydi hər kəs,
Köpəklər dağıdıb yeyərdi dinməz.
Şahın yaxın olan adamlarından
Ağıllı, kamallı bir nəfər cavan
Qorxdu ki, dostları qıran bu cəllad
Günlərin birində olsun ona yad,
Onun ahusunu öz vərdişiylə
Sınaqdan keçirsin köpək dişiylə.
İtlərdən qorxaraq, min həyəcanla
O gedib dostlaşdı it saxlayanla.
İtlərin yanına gələcək hər kərə,
Bir qoyun atardı vəhşi itlərə.
Bu yolda bəslandi, saxlandı itlər,
O gəncdə qalmadı qorxudan əsər.
O açıq əllini görən hər köpək
Ona qul olmuşdu, boyun bükərək.
Bir gün, acıqlandı şah o cavana,
Üzünü, gözünü turşutdu ona.
Cəllada əmr etdi haman zülümkar:
"Bu gənci bu saat itlərə apar!"
O itməcazlılar itlik etdilər,
İt pay qapan kimi alıb getdilər.
Gəncin əl-qolunu bağlayıb haman,
İtlərə atdılar onu kənardan.
O dəmirpəncəli, o pələng itlər
Əvvəlcə cavana hücum etdilər.
Ancaq, tanıyınca baxıb durdular,
Quyruq bulayaraq boyun burdular.
Hamsı yerə yatdı üzləri üstə,
Yatdılar baş qoyub dizləri üstə.
Gəncə dayə kimi oldular, bilsən.
Bir gün gəlib keçdi bunun üstündən,
Üzünü göstərdi ağ səhər yenə,
Boyandı üfüqlər qızıl rənginə.
Şah peşiman oldu öz tutduğundan,
Yaxın nədimlərə söylədi bu an
"Dünən o günahsız ahucuğu mən
Səhv edib itlərə verdim əlimdən.
Bir baxın, görün ki, o quduz itlər
Gəncin vücudundan qoydumu əsər?"
İtləri saxlayan gəldi çaparaq,
Dedi ki: "Ey şahım, sən sirrə bir bax,
Bu gənc - insan deyil, mələkdir, mələk.
Onu sayəsində saxlayır fələk.
Qalx, gəl, bir ondakı işığa bax sən,
Tanrı sənətini bəlkə görəsən.
İtlərin ağzında sağ oturmuşdur,
Onların ağzına möhür vurmuşdur.
O əjdahaüzlü canavar itlər
Onun tükünə də verməmiş zərər".
Şah əmr eylədi ki: "Dayanmaq olmaz,
O əldən getmişi tez edin xilas".
İtlərin yanından, yol məmurları
Gənci gətirdilər saraya sarı.
Şah heyran qaldı ki, o igid cavan
Necə can qorumuş o quduzlardan.
Ağlaya-ağlaya göz yaşı tökdü,
Ondan üzr istəyib, diz üstə çökdü.
Dedi ki: "Aç, söylə sən, ey qəhrəman,
Necə can qurtardın o quduzlardan".
Gənc dedi: "Əvvəlcə çəkinib səndən,
Tikələr atmışdım o itlərə mən.
Etdiyim yaxşılıq getmədi hədər,
İtlər öz ağzını möhürlədilər.
Lakin qulluq etdim düz on il sənə,
Axırda bu cürə haq verdin mənə.
Sən məni itlərə atdınsa əgər,
Yaxşı ki, dost yeyən deyilmiş itlər.
Dostluğu səndə yox, itdə gördüm mən,
İt bilən hörməti ayaqladın sən.
İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban".
Şah heyran qaldı ki, bu nə hekmətdir,
Bildi ki, səadət - insaniyyətdir.
Qəflət yuxusundan ayıldı birdən,
Əl çəkdi itlikdən, itpərəstlikdən.
Bunu söyləməkdən bir məqsədim var:
Səxavət qələdir, o, can qoruyar.
Məcnun bəslədikcə o heyvanları,
Çəkdi dövrəsinə bir can hasarı.
Hasar ətrafında gəzən hər heyvan
Məcnunun işinə yarardı hər an.
Bir yerdə dursa da, qalxsa da əgər,
Yanından getməzdi dostu vəhşilər.
Məcnuna bənzəsən insanlıqda sən,
Dünyada nə qüssə, nə dərd çəkərsən.
Xəlifə də yesə süfrəndə nemət,
Yeməyi səndənsə, qulundur, əlbət.

## MƏCNUNUN ULDUZLARA ŞİKAYƏTİ

Gecə parlayırdı bir gündüz kimi,
Göylər tər-təzəydi yaşıl düz kimi.
Qızıl həmailin şəddələrindən
Qızıl geyinmişdi göy üzü, bilsən.
Səyyarə ədəblə əl bağlayaraq,
Üfüqün fərşinə döyürdü ayaq.
Uzaqdan lahövlə vəla deyərək,[103]
Divə qılıncını çəkmişdi şimşək.
Gecənin nəfəsi fələkdə yandı,
Ayın gövhərindən yer işıqlandı.
Göydə parladıqca nafəylə gövhər,
Ətirlə, bəzəklə doldu üfüqlər.
Fələk çarx üstündə tutmuşdu qərar,
Qütbün qaləsinə çəkmişdi hasar.
Fərqəd öz atını çapırdı yenə,[104]
Gəmisi çatmışdı Şatt sahilinə.
Fələk hər addımda büsat açırdı
Gecəyə yüz cürə ulduz saçırdı.
Pərvin al və sarı ipək tutaraq,[105]
Qızıl sancağına çəkirdi bayraq.
Ay sarı ipəkdən tutmuşdu halə,
Rübəndi bənzərdi onun xəyalə.
Ulduzlar girmişdi başqa sifətə,
Min bir yaraşığa, min bir zinətə.
Elə bil ki, şahın öz kamanından
Möhrə atılmışdı aya bu zaman.
Ütarid süzərək göydə gəzərdi,
Fəzaya sancılmış oxa bənzərdi.
Yəhərinin qaşı Zöhrəydi, gerçək.
Gözəl görünürdü onun alnı tək.
Onun qılıncı tək günəş də parlaq,
Gecə örtülüydü, gündüzsə çılpaq.
Mərrix də gözündən qəzəb tökərdi,
Düşmənin gözünə millər çəkərdi.
Onun üzüyünü Bürcis saxlardı,
Onda dünyaların talei vardı.
Onun qılıncını itilər Keyvan,
Belindən bir bilöv asmışdı əlan.
Şahın bu cəlalı heç də solmasın,
Dünya camalından məhrum olmasın.
Bu şah qapısında tapdın məqamı,
Şənin nə yüksəkdir sənin, Nizami!
Bürclər, mənzillər dairəsindən
Fələk zəlzələyə düşmüşdü, bilsən.
Həməl bürcü ayın dodaqlarından
Haşiyə tikmişdi göyə bu zaman.
Dərya öküzü tək, o öküz bürcü
Gövhər boğazlıydı, dişləri inci.
Kəmər bağlamışdı Cevza iki qat,
Qoşa payalıydı əyləşdiyi taxt.
Həqə gəlin kimi girib duvağa,
Durmuşdu Hənəylə qulaq-qulağa.

Qayçı dımağını uzadıb Xərçəng,
Vəhşi dımağını tuturdu, gerçək.
Nəsrə bir tərəfdə səpirdi gövhər,
Tərfə də bir yanda dağıdırdı zər.
Cəbhə budaqları yanırdı düm ağ,
Şölə saçmadaydı ondan yüz çırağ.
Qəlbüləsəd belə Əsəd bürcündən
Ud alovu kimi yanırdı, bilsən.
Əzra kənar durmaz gözəl Sərfədən,
Sünbülə atmırdı sərfəsiz bir dən.
Əvva güvənərək beş qılıncına,
İtini qovurdu şirlə yan-yana.
"Yetim süfrəsinə" xeyirxahlar tək,
Qüfr, tullamışdı altı pay çörək.[106]
Mizan öz dilindən alov saçmışdı,
Çox bilmişlər kimi o, dil açmışdı.
Əklil bağışlamış Qəlbəyə bir tac,
Əqrəb də kamana vermişdi xərac.
Nəayim xərcini öyrənsin deyə,
Bəldə çalışırdı iki-üç əllə.
Cədi baş kəsməyin sirrin bilərək,
Başını kəsmişdi keçi başı tək.
Ağzını yumuşdu Zabeh qorxaraq,
Səd cilovlamışdı Əxbiyəni, bax.
Yemək iştahında olmasaydı Bəl,
Duaya açmazdı səhər vaxtı əl.
Dəlv də günəşin gileylərindən
Ağzına su alıb susmuşdu birdən,
Altına qızıldan iki xət salmış
Ki, bu qabaqdadır, o dalda qalmış.
Bir qatar dəvəylə o Rəşa, Xatun
Kəcavə etmişdi bətnini Hutun.
Bürcləri dolduran göy cisimləri
Ulduzlar yoluyla gedir iləri.
Bax Bətnülhəməlin dörd ayağına,
Bağlanmış havanın üç bucağına.
Əyyuqun zoruna, gücünə bax bir,
Tay-tuşdan tac qapıb, bir baş yüksəlir.
Sacayaq adlanan ulduz da bu an
Göyün qazanına pay verir haman.
Şeri yəmənli tək nədənsə, bilməm,
Şersiz rəqs edir yerində bu dəm.
Məbsutə çıraq tək yaxmış özünü,
Məqbuzə çıxarmış qarğa gözünü.
Səyyaf duman rəngli qılıncla durmuş,
Qılıncı Aslanın boynunu vurmuş.
Yalqız adam kimi Fərd adlı ildız
Cənubun üstündə parlayır yalqız.
Sərir üç ulduzla bir məclis qurmuş,
Dördüncü fələyin altında durmuş.
Simak ulduzları cərgəylə köçür,
Ramehdən Əzələ karvanla keçir.
Qoşa qanad açmış uçucu Nəsrin,
Uçurdu üstündə göy adlı qəsrin.





Atını Naş ilə çapırdı Qan,
Qanının Naşsiz gəlməz qərarı.
Suha ulduzu da görərdi uzaq,
Bütün qonşuları geri qoyaraq.
Səhər çağının da Qurd nəfəsi var,[107]
Yusif tək quyunun dibində parlar,
Fələkdə rəqs edən o səyyarələr
Naş qızlarına salmışdı nəzər...
Məcnunun qəlbində gizli bir maraq,
Oyunbaz fələyi seyrə dalaraq,
Zöhrə ulduzuna dil açdı qəlbən:
"Ey sənə taleim etimad edən,
Gecənin alnında işıq yandıran,
Səadət bəxtini işıqlandıran,
Xoşbəxtlik yolunun sənsən məşəli,
Sənsən aşiqlərin sövda əməli.
Hər əməl açan səndədir, yəqin,
Şərbəti səndədir hər piyalənin.
Şahlıq üzüyünün bir qaşısan sən,
Murad sarayının gözəli sənsən.
Səndən yaranmışdır incə hisslər,
Gözəl təbiətin yaranmış ənbər.
Var olan lütfündən ehsan ver bizə,
Bir umud qapısı aç üzümüzə.
Canıma dərmandır sevdiyim dilbər,
Sən yetir canandan mənə bir xəbər".
Üfüqdən göründü yenə Müştəri,
Bu oldu Məcnunun ona sözləri:
"Sən ey səadətin ulduzu sənəm,
Vədəsi, iqrarı daima möhkəm,
Sən ey baxışları bizə ruh verən,
Dünyanı adınla fəth elədin sən.
Ey umud məktubu yazan Müştəri,
Səndəndir ölkənin fəthi, zəfəri.
Bu aləm sayəndə tutmuşdur qərar,
Dünyanı yaşadan bir qüdrətin var.
Sən, ey taleimin şəni-şöhrəti,
Səndədir qəlbimin bütün qüvvəti.
Gəl vəfa gözüylə üzümə bir bax,
Mənim bu dərdimə çarə taparaq,
Gəl mərdlik əlini mənə də yetir,
Bu qara talei üstümdən götür.
Ah! Bir xəbər yetir mənə dostumdan,
Bir gül itirmişdir, fərz et, gülüstan".
Gördü ki, buxardan olan ulduzlar,
Qaçışıb tutmayır fələkdə qərar.
Bildi ki, xəyalın səfası çoxdur.
Amma ki, dərdinə dəvası yoxdur.
Üz tutub yalvardı aşiq bir daha,
Hər dərdin çarəsi böyük allaha.
Dedi: "Ey qapısı son sığınacaq,
Sənsən umud yerim dünyada ancaq.
Zöhrə, Müştəri tək sənin qulun var,
Adınla başlanır aləmdə adlar.

Hamıdan ucadır elmin, hikmətin,
Axar çeşməsisən sən səxavətin.
Sən, ey hər müşkülün açan olan,
Səxavət ağası, dərdlərə dərman,
Səninlə yüksəlir hər böyük dilək,
Acizə, məzluma bir sənsən kömək.
Qarşında qul kimi bəndələrik biz,
Yoxdur səndən özgə ağamız, şəksiz.
Sən ey yeddi göyü yaradan qüdrət,
Hamımız bir sənin bəndənik, əlbət.
Kainat adlanır qurduğun əsər,
Sənin əlaltındır altı cəhətlər.
Sən o varlıqsan ki, kəc baxsa insan,
Bir dəmdə kor olar gözləri, inan.
Qulundur gövhəri pak olan bəşər,
Sənsiz olan başa torpaq səpilər.
Sən, ey torpağıma su verən allah,
Mənim bu halıma nəzər yetir, ah!
Mərhəmət sayəni kəsmə üstümdən,
Bil ki, bir acizəm, bir qəribəm mən.
Tanrılıq lütfündən mənə də göndər,
Qaranlıq gecəmi gündüzə döndər.
Günümü vəfayla mübarək elə,
Bəxtim kor olmasın bu gündən belə".
Məcnun mətləbini dedikcə göyə,
Yatdı bu sözləri o deyə-deyə.
Onun gözlərinə bir yuxu gəldi,
Bəxtinin ağacı göyə yüksəldi.
O yaşıl budaqdan bir quş uçaraq,
Məcnunun yanına gəldi qaçaraq,
Tacının üstündə düşərək haman,
Gövhər səpələdi o quş ağzından.
Elə ki, röyadan Məcnun oyandı,
Gün çıxdı, üfüqlər ala boyandı.
Aşiqin üzünə güldükcə səhər,
Oxşadı ruhunu gülgün şəfəqlər.
Məcnun o quş kimi qanad açmışdı,
Röya xəyalına şəfəq saçmışdı.
Aşiqin üzünə gülməsə visal,
Ona təsəllidir yuxuyla xəyal...

## LEYLİNİN MƏKTUBUNUN MƏCNUNA YETİŞMƏSİ

Parladı aləmə günəşin üzü,
Ondan aydın olsun hamının gözü.
Behiştdən doğmuşdu o gözəl səhər,
İsa nəfəsliydi əsən küləklər...
İşi düz gətirən hər məsud insan,
Sağ əli üstündə qalxdı yuxudan.
Tale usanmışdı acıqdan o vaxt,
Qayıdıb gəlmişdi gec olsa da vaxt...
Öz qəlbini əkib, diyəmi biçən,
Min bir məşəqqətin suyundan içən

Məcnun vəhşilərlə dağda durmuşdu
Onların içində tək oturmuşdu.
Səhradan kənarda, nəzərdən uzaq
Qalxdı dağa tərəf tünd bir tozanaq.
O toz pərdəsinin ardınca gələn
Bir atlı üzünü göstərdi birdən.
Bir nur parçasıydı o gələn insan,
Bir az yaxınlaşıb düşdü atından.
Məcnun duydu onun dost olduğunu,
Nəcib bir insana oxşatdı onu.
Baxıb yanındakı o vəhşilərə,
İşarə etdi ki, yatsınlar yerə.
Özüsə atlının yanına qoşdu,
Mehriban bir dillə belə soruşdu:
"Ey Yəmən ulduzu, bu nə gəlişdir?
Mən hara, sən hara, nə xeyir işdir?
Nə qədər olsa da siman mehriban,
Bu çöl vəhşiləri uzaqdır ondan.
Çatıdan qorxuram, ilan sancmış tək.
Əjdaha sancmışdır canımı, gerçək.
Bayaq hərzə-hərzə yalan danışan
Sinəmin üstünə sancdı bir tikan.
O dəmir tikandan çox ağrıdım mən,
Hələ mismar qalxır mənim sinəmdən.
Mətaın beləsə, yolunla düz keç,
Yaxşısı budur ki, ağız açma heç".
Yolçu mehribandı, qəlbi də kövrək,
Onun ayağına düşdü kölgə tək.
Dedi: "Ey dünyanın əşrəfi insan,
Vəhşilər dizinə baş qoyub yatan,
Ahular qəlbini vermişdir sana,
Aslanlar yolunda durur mərdana.
Bir qərib aşiqə sevgilisindən
Xoş xəbər gətirən bir insanam mən.
Sənə deyiləsi sözlərim vardır,
Gizli saxladığım bir yadigardır.
Açıb söyləyərəm, icazən olsa,
Yoxsa ağzımı da açmaram əsla".
Aşiq bu sözlərdən ürəklənərək,
Dedi: "Nəyin varsa, aç söylə görək"
Yolçu söylədi ki: - Tək qalan aşiq,
Bəxtinin tünd atı ram olan aşiq,
Dünən bir obadan keçirdim yalqız,
Yol üstdə durmuşdu ayüzlü bir qız.
Ay nədir, gün kimi üzü parlardı,
Qara bir ipəkdən niqabı vardı...
O, bağ sərvi kimi deyildi barsız,
Qapısız bir behişt bağıydı o qız.
Dinəndə bal dilli o gözəl nigar,
Lal olub yuxuya gedərdi sular,
Ahu gözləriylə baxsa o canan,
Dovşan yuxusuna gedərdi aslan...
Boyu "əlif" kimi, ağzı "mim" kimi,
Qıvrılmışdı saçı onun "cim" kimi.

Deyirdi: - Adımdır mənim də bu "cam"[108],
Dünyanı göstərir özündə bu cam.
Qoşa nərgiz kimi gözləri xumar,
Sanki bir bulaqda bitmişdi onlar.
Qaşları çatmaydı, həm də tamaşa,
Təkəm söyləyirdi, olsa da qoşa.
Könül ovlamağa bir sehr açardı,
Reyhan nəfəsindən ətir saçardı.
Xülasə, nə deyim, o gözəl bədən
Doğulmuş nəfəsdən, yaranmış gözdən.
Lakin, məhəbbətin üzündən bir az
Saralıb solmuşdu haman sərvinaz.
Kamana dönmüşdü o gözəl pəri,
Solğun yanağında yaş inciləri...
Xeyzaran biləyi bir neyə bənzər,
Ərqəvan yanağı xeyriyə bənzər.
Xeyri sarı deyil, bəlkə də zərdir,
O ney qamış deyil, bir ney-şəkərdir.
O göz qələsinin üstündə fələk
Kəmənd oynadırdı rəqsə gələrək.
Sultan ilə Ayaz müttəfiq olmuş,
Keşikçi məst idi, sərkərdə bihuş.
Dostuna can-başla umud bağlardı,
Ərindən qorxaraq pünhan ağlardı.
Gülab süzüldükcə kirpiklərindən,
Ay işıq səpirdi günəşə, bilsən.
Oxşatma dedikcə, daima ağlar,
Duydum ki, qəlbində bir məqsədi var.
Dedim ki: "Nə üçün ağlayırsan sən,
De, kimin həsrəti keçir qəlbindən.
Acı bir gülüşlə o bal dodaqlar
Dedi: "Ey yarama duz səpən dildar,
Bir zaman Leyliydim, indisə nakam,
Məcnundan min dəfə artıq məcnunam.
Bəxtinin ulduzu batan aşiqdən
Min dəfə şiddətli divanəyəm mən.
O hədəf oldusa bu dərdə, yasa,
Bir qadın deyildir o, heç olmasa.
Sövda yollarında göstərir hünər,
Kimsədən nə qorxar, nə də çəkinər.
O deyil mən kimi zillət dustağı.
İstədiyi yeri gəzir ayağı...
Zavallı mənəm ki, ürəyimdə qəm,
Dərdimi heç kəsə aça bilmirəm.
Qorxuram, əhvalım pərişan ola,
Yaxşı adım belə çox yaman ola.
Zəhəri bal kimi içirəm bu dəm,
Cəhənnəm odunu otla örtürəm.
Bir yandan əlimdən itirdiyim yar,
Bir yandan üstümə tökülən əğyar,
Bu iki dəstənin əlindən, inan,
Bəlalər çəkirəm hər zaman, hər an.
Ərlə vuruşmağa yox cəsarətim,
Atamdan keçməyə yoxdur qüdrətim.





Eşq ürək verir ki, sən də qanad aç,
Bu qarğa-quzğundan kəklik kimi qaç.
Ad ilə namussa: "tərpənmə"- deyər,
Tək uçan kəkliyi qızıl quş eyər...
Bir qadın nə qədər cəsur olsa da,
Yenə də qadındır adı dünyada.
Cəsarət olsa da qadın qəlbində,
O, aslan olsa da qadındır yenə.
Qurtara bilmədim bu qüssələrdən,
Yenə qəm çəkməyə boyun əydim mən.
Lakin, ciyərim qan, vaxtım gecədir,
Kim bilir, yarımın halı necədir?
Kimin kitabını oxuyur mənsiz?
Ömrü necə keçir yurdsuz, vətənsiz?
Kim bilir, baş alıb hara qaçmışdır?
O, hansı sarayda süfrə açmışdır?
Hansı bir insana olmuş o həmdəm?
Kimlərə yar deyib, əylənir bu dəm?
Yolçu, bir az dayan mümkün olarsa,
Ondan bir xəbər ver, xəbərin varsa"
Qızdan eşitdikcə mən bu sözləri,
Barəndə bildiyim hər bir xəbəri
Hər sözü, qəlbimə nəqş edib, durdum,
Elə bil ki, muma bir möhür vurdum.
Dedim: "o divanə qərib bir quşdur,
Tayından, tuşundan uzaq uçmuşdur.
Maraldır, cüyürdür indi dostları,
Bir də səhraların başsız ruzgarı.
Eşqin o yazığın ağlını aldı,
Ata ölümü də nəfəsdən saldı.
Tikan, tikan üstdən batır qəlbinə,
İşdən işə düşüb dərd çəkir yenə.
Gah sənin dərdindən hekayət eylər,
Gah da göz yaşından şikayət eylər.
Bəzən atasına mərsiyə başlar,
Səsindən dil açıb danışır daşlar".
Sonra da o ayın hüzurunda mən,
Səndən eşitdiyim qəsidələrdən
İki-üç beytini dedim avazla,
Leyli də ah çəkdi min bir niyazla.
Yerində titrəyib, ağardı düm ağ,
Dedim qız öləcək, gözündən iraq.
Sonrasa başını qaldırdı yenə,
Ah çəkdi, sanlıq çökdü rənginə.
Hönkürüb fəryadla ağladı yalqız,
Atanı novhəylə xatırladı qız.
Sənin bu dərdindən deyib o mələk
Yanırdı ürəyi od püskürərək.
Ağladı, sızladı o vəfalı yar
Sonra da and verdi mənə o nigar:
"Sən, ey qəlbi təmiz xeyirxah insan,
Mən bir yıxılmışam, yapış qolumdan.
Ömür keçirdiyim bu düşərgəhdən
Yolun düşən zaman zəhmət çək də sən

Mənim o xeyməmə yaxın gəl bir an,
(Göstərdi xeyməni mənə uzaqdan).
Bəlkə öz halımdan mən yana-yana
Bir məktub düzəldib tapşıram sana.
Bəlkə, o məktubu sən götürəsən
Mənim can dostuma tez yetirəsən",
Deyib bu sözləri, getdi o sənəm,
Mən də öz yoluma düzəldim o dəm.
Verdiyi nişanla mən dünən getdim,
O vəfa evini ziyarət etdim.
Gördüm qara paltar geyinmiş o yar,
Məktubu öpərək verdi o nigar.
Qəm möhrü vurmuşdu məktubuna qız,
Kitabın mənası sondadır yalnız.
Yolçu ehtiramla öpdü məktubu,
Sonra da Məcnuna tapşırdı onu.
Məcnun o məktuba baxıb hıçqırdı,
Başqa nə varsa da hamsını cırdı.
Qıvrıldı, ruhuna dünya dar kimi,
Yüz dəfə fırlandı o pərgar kimi.
Sərxoş tək torpağa yıxıldı birdən,
O məktub əlində düşmüşdü əldən...
Elə ki, ayılıb gəldi qüvvətə,
Qəlbindən yol verdi o şikayətə.

## LEYLİNİN MƏKTUBUNU MƏCNUNUN OXUMASI

Məcnun o məktuba tez əl apardı,
Məktubun başında bu sözlər vardı:
"Əqlə dayaq olan, ömrə can verən
Bir şahın adıyla başlayıram mən.
Ondan dərs almayan kamal qalmamış,
Odur dilsizlərin dililə tanış.
Ondan ruzi tapır quşlar, balıqlar,
İşığı, zülməti bölən sənətkar
Göyü ulduzlarla işıqlandırmış,
Yerdə insan adlı günəş yandırmış.
O - calal sahibi əzəliyyətdir,
O - ölmək bilməyən əbədiyyətdir.
Ondan həyat alır bütün canlılar,
Həyatdan qiymətli xəzinəmi var?
Ağlın işığıyla bəzədi canı,
Bunlar da bəzədi bütün dünyanı.
Su kimi gövhərlər saçdı əlləri,
Sövdadan söz açdı onun dilləri.
Bu ipək məktubu oxu, gör nədir?
Bir qəm düşgünündən, dərd əhlindəndir.
Yəni bu hasarda həbs olan məndən
Sənədir ki, uçdun qınq qəfəsdən
Necəsən, ey əhdi qədim olan yar?
Ey yeddi beşikdə yuva salan yar,
Ey dostluq mülkünə bir xəzinədar,
Məhəbbət işığı səndən alır, yar.

Sən, ey əqiq kimi daşda oturan,
Dağları qanıyla boyayıb duran,
Ey zülmətdə qalan Xızır suyu, sən
İlk səhər şəminin pərvanəsisən.
Sən, ey vəhşilərin qəlbinə həmdəm,
Pərişan şurinlə dolmuş bu aləm.
Ey mənim tənəmə hədəf olan yar,
Sənlə qiyamətə bir yolumuz var.
Mən verdim könlümü sənin eşqinə,
Sən də sevgimizə sadiqsən yenə.
Bildir, işin nədir, de, nə haldasan?
De, kimi sevirsən, nə xəyaldasan?
Sənin bəxtin kimi uzağam səndən,
Biz ayrı olsaq da, səninkiyəm mən.
Aldanmış ərimi sevmirəm, haşa,
Bir gecə yatmamış mənlə baş-başa.
Dürrüm deşilməmiş, ərisəm də mən,
Bir almas dəyməmiş o dürrə həmən.
Qapısı möhürlü durur xəzinəm,
Bağ qönçəsi kimi bağlıdır bu dəm.
Doğrudur, ərimin calalı vardır,
Sənsiz olan calal xərabəzardır.
Süsənə oxşayıb dursa da bir az,
Sarımsaq yarpağı ələ alınmaz.
Xiyar da saralıb turunca dönər,
Onun şəkli belə turunc görünər,
Dadı da turş olar, turunc dadı tək,
Lakin, turunc dadı verəmməz bişək.
İstərdim, dünyada sağ başım olsun,
Sən kimi bir yuva yoldaşım olsun.
Yolundan kim qaçsa çöl eşşəyi tək,
Meydini belində gətirsin eşşək.
Hicrana düşdüksə bu dünyada, ah!
Söylə ey sevgilim, məndə nə günah!
Ah, səni duymayan soyuq bir ürək
Bəlalar içində ağlasın gərək.
Hər kim ox qaldırıb qıysa canına,
Sağ əli quruyub düşsün yanına.
Bir tükün gözümdə dünyaya dəyər,
Xoşdur hər tikanın gülüstan qədər.
Xızır ətəyidir qaldığın məskən,
Xızır suyu kimi dərmanım ol sən.
Mən ayam, sən də bir günəşsən, inan,
Mən səndən alıram işığı hər an.
Səndən geri qaldım, əfv et məni gəl,
Bilirsən nə idi yolumda əngəl.
Atayın vəfatı incitdi məni,
Ölmüş vücudumdan cırdım kəfəni.
Elə zənn etdim ki, atamdır ölən,
Didib parçaladım üzümü birdən.
Gözümə gül kimi millər çəkərək,
Göy etdim donumu bənəfşələr tək.
Eşqinə sadiqəm, yolunda dustaq,
Dərdinə şərikəm, qəminə ortaq.

Yanına gəlməyim olmadı mümkün,
Başqa şərtlərisə görmüşəm bütün:
Vücudum ayrısa sənin yanından,
Ruhum ayrılmamış yanından bir an.
Dərdindən, qəmindən mən xəbərdaram;
Çarə axtarıram onlara müdam.
İkicə günlükdür bu düşərgəmiz,
Yola getməliyik zəmanəylə biz.
Sənə camal verən, rəng verən bu ev
Darısqal olsa da, gəl onu sən sev.
Günlərin yenəmi boş keçəcəkdir?
Bir az sakit ol ki, ömür gödəkdir.
Dünyada səbr elə hər şeydən əvvəl
İradə mülkünün hakimi ol gəl.
Bəsdir, az dərd çəkib şikayət eylə,
Cəfaya dözməyi gəl adət eylə.
Mən də sən gündəyəm, ey talei kəm,
Lakin qədəmimi tutmuşam möhkəm.
Gözünü bağlasa yaxşıdır insan -
Onun göz yaşına gülürsə düşman.
Düşməni şad edib güldürürsə qəm,
Ağıllı dərd çəkib, olarmı dilqəm?
Nə olur, bir az da sevinib şad ol,
Bu dərddən, qüssədən, qəmdən azad ol.
Bu dünya dəyişib dönür əzəldən,
O, alt-üst olsa da, gəl darıxma sən.
Kəndlinin dənini udsa da torpaq,
Yenidən göyərir, sən buna gəl bax.
Xurma ağacında bu gün tikan var,
Sabah yetişəcək şirin xurmalar.
Qönçə tikanlıqda olsa da əgər,
Açılacaq güldən bir müjdə verər.
Qəlbini sıxma ki, sən kimsəsizsən,
Mən kiməm, adamın deyilmiyəm mən?
Heç kəs köməksizəm, deməsin gərək,
Köməksiz olana allahdır kömək.
Yanma şimşək kimi atəsizlıqdan,
Bulutlu gözündə qopmasın tufan.
Ata ölmüşsə də, oğul çağ olsun,
Mədən qırılmışsa, gövhər sağ olsun".
Məcnun bu məktubu oxuyan zaman
Çıxdı qönçə kimi öz qabığından...
"Ay allah"dan başqa dinmədi artıq,
Bir anlıq özünə gəlmədi yazıq.
Sonra huşa gələcək öz adətilə
Bir neçə saatlıq ağladı yenə.
Qasidi ordaca saxlayıb bir an,
Gah əlindən öpdü, gah ayağından.
Dedi: "Nə kağızım, nə qələmim var,
Cavab gözləyəcək məndən o nigar".
Açdı heybəsini qasid belindən,
Heybənin içini tökərək birdən,
Yazı şeylərini göstərdi ona,
Sonra qaydasınca verdi Məcnuna.





Məcnun ki, qələmi aldı əlinə,
Min bir nüktə vurub, nəqş açdı yenə.
Qəlbində gizlənmiş hər dərdi, qəmi
Söz boyunbağına düzdü qələmi
Məktubun başını bağladı sonra,
Qasidə tapşırıb "Qaç" dedi ona.
Qasid də məktubu alıb apardı,
Yel kimi Leylinin yanına vardı.
Məktubu açaraq oxuyanda qız,
Onun göz yaşıyla islandı kağız.

## MƏCNUNUN MƏKTUBUNU LEYLİNİN OXUMASI

Məktub başlanmışdı böyük allahla
Misilsiz, əvəzsiz o padişahla.
Batinə, zahirə bələd qüdrətlə,
Sərt daşa gövhərlər verən hikmətlə.
Göydə ulduzları qoruyub güdən,
Ulduz karvanına başçılıq edən,
Hər qəlbi dostluqla işıqlandıran,
Gecənin qəlbində işıq yandıran,
Baharı su ilə doyuzduranla,
Bütün möhtaclara kömək duranla.
Sonra, öz dərdini açıb dərindən:
Deyirdi kül olmuş ciyərlərindən:
"Bu məktub sənədir, ey üzü mahım,
Sənsən bu dünyada son qərargahım...
Yox-yox, bu, qanına qərq olan məndən
Öz qanını satan sənədir, bilsən.
Daşlar arasında qalmış bir açar
Sən tək xəzinəyə necə yol açar.
Canan, ayağıyın torpağıyam mən,
Bəs kimin suyusan bu saflıqla sən?
Mən ki, alçalıram qədəmlərinə,
Kimin ətəyindən tutursan yenə?
Mən sənin dərdini gizli çəkirəm,
Bəs kimin qəmidir sən çəkdiyin qəm?
Çiynimdə çəkdiyim bu yük sənindir,
Kimin sırğasını taxmısan, de bir?
Sən, ey astanası mehrabım sənəm,
Camalın olmuşdur cahanda Kəbəm.
Ey yüz min sinəyə mərhəm afitab,
Sərabda incisən, şüşədə şərab.
Ey könlüm evini qarət edən yar,
Sən tacsan, rəqibim oldu tacidar.
Ey yadlar əlinə düşmüş xəzinə,
Səndən ilan çatar dostlar əlinə.
Ey cənnət bağı tək açarsız olan,
Fələk behişti tək gizli gülüstan,
Sən, ey müşkülümü açan xilaskar,
Sövdamı güldürən bir sənsən, ey yar.
Bu ud meşəndəndir, onu qırma, dur,
O sənin baltanla həlak olmuşdur.

Görürsən torpağam, gəl məni bəslə,
Gönlümün tozunu gəl sil həvəslə.
Bahara dönərəm bəsləsən məni,
Pis baxsan, dərdlərə salaram səni.
Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən gül verər, zülm etsən tikan.
Düşdüm ayağına başımda vüqar.
Gəl məni sərgərdan buraxma, ey yar.
Elə yol demə ki, inciyim səndən,
Elə su vermə ki, yerə töküm mən.
Üzdə hesabın da öz mənası var,
Onsuz həyalılar həyasızlaşar.
Qulun tanınmışam dünyada, dilbər,
Düşmənin olaram, rədd etsən əgər.
İtə qurd silahı verilsə, artıq,
Başını qaldırıb edər aslanlıq.
Xəzinə tapşırsan hər gədaya sən,
Bir dünya xətalar çıxar əlindən.
Bu qulluq yolunda yük çəkir belim,
Ağalıq rütbəni saxla, sevgilim!
Bil ki, sayılıram sənə mən süpər,
Əgər yerə atsan, olaram xəncər.
Gəl, öz silahını sən daşa vurma,
Bir də öz ordunla üz-üzə durma.
Vursan öz əlinlə canına neştər,
Bil ki sağlam canın azara düşər.
Dostluq, mehribanlıq göstərsən, ey yar,
Gəlib qulun olar azad adamlar.
İncitmə aldığın qulu özündən,
Qoy sürmə qapmasın sənin gözündən.
Ağada olmasa belə bir tədbir,
Bil ki, öz quluna sahib deyildir.
Başqa bir insanda olsa bu hünər,
Çoxunu özünə pulsuz qul eylər.
Gəl mənim beynimi alovlandırma.
Heç kəsin başında alov yandırma.
Hər canda bir qəzəb saxlanır, inan,
Bir div aşinası olur hər insan.
Bil ki, sənin divin çıxarsa yerdən,
Başqa div qarşıya atılar birdən.
Mən tikan dərirəm, gülünü sən dər,
Sən də gəl birlikdə olaq bəxtəvər.
Yenəmi əyləncən olacağam mən?
Nədən, bir gün məni şad etməyirsən?
Soyuq nəfəsimlə çəkdiyim ahdan
Havanın beynində toz donar, inan.
Sən, ey yad qoltuğa sığınan dilbər,
Qəlbinə çox yatır o seçdiyin ər...
Sən buz lövhəsinə yazdın adımı,
Qırıb yerə tökdün qol-qanadımı.
Dediyin sözləri yaxşı düşün bir,
Yox, onlar heç deyil, heçdən də heçdir.
Sən bağışlamadın atıma bir nal,
Ancaq yüz nal atdın oduma dərhal.

Sən etdin günümü gecə tək qara,
Acıdın sonra da bu yaralara.
Səninçin qəlbimi mən vurdum daşa,
Sənsə öz vəfanı vurmadın başa.
Ey gönül ovçusu, vermədin aman,
Can gedir, nə zaman dost olacaqsan?
Budur, bax, vurduğun dil yaraları,
Mən yanıb qurtardım, sənsə coş barı.
Yox, yox, uzundilli istəsə əgər,
Yaranı canından tərk edə bilər.
Süsən uzundilli olmaq üzündən
Qılıncın başına sancıldı, bilsən.
Doğrudan qeydimə qalırsa bir yar,
Eşqi sifətindən aşikar olar.
Mənim bu günümdə söylə, görüm sən:
Mənə nə yaxşılıq gəlmiş əlindən?
Yoxsa, budurmu ki, əhdi unutdun,
Bir yadın qoynunda sən qərar tutdun.
Mənlə dil oyunu oynayan nigar,
Eşqinin gülünü dərir ki, əğyar.
Söylə, aşiqsənsə ahın hanı bəs?
Mənə uyğundurmu səndəki nəfəs?
Yox-yox, eşqimizə sən gəlmədin tuş,
Səndəki eşq yox, sültanlıq olmuş.
Sən, sənin dərdinə alıcı olan
Bu yazıq aşiqi unutdun, canan.
Mənsə göz tikmişəm üzünə müdam,
Sənin astanana mən baş qoymuşam.
Qürələr ataraq sizin məhləyə,
Fal açdım, üzünü bir görüm deyə.
Üzünü görənlər xoşbəxt oldu, bil,
Onlar mənim kimi pis gündə deyil.
Kimin ki, sən kimi gövhəri vardır,
Dərddən azad olan bir bəxtiyardır.
Bülbüllər olsa da bağın zinəti,
Əncirlər olmuşdur qarğa qisməti.
Bağban ürəyindən su içsə də nar,
Axırda xəstələr qisməti olar.
Əzəldən bu dünya belədir, göz aç,
Xəznə yer altında, sən isə möhtac...
Bilmirəm, gül rəngli ləl nə zaman
Eşiyə çıxacaq daşın bağrından.
Nə zaman o qəmər durub qaçacaq,
Əjdaha ağzından uzaqlaşacaq.
Artıq arı uçub, balı qalmışdır,
Ay gedib, beşiyi lap boşalmışdır.
Xəzinə açılıb, hər xəzinədar
Çəkilib qalmışdır hasardan kənar.
Çünki xəsis dehqan bağdan getmişdir,
Bülbül də qarğanı həmdəm etmişdir.
Bağda ipəyini tökmüşdür güllər,
Zəncilər qoymayır xurmadan əsər.
Cövhər bəhrəsizdir toz aynasından,
Xəzinə qalmışdır, ölmüşdür ilan.

O qələ xatunu çıxmış qələdən,
Lakin o qələdən uzaqdayam mən.
Sənin çırağından düşdümsə uzaq,
Pərvanən qalmasın işıqdan iraq.
Mən dərddən ölsəm də, rəqib sağ olsun,
Qoy İbn-Səlamın kefi çağ olsun...
Halımın səndədir yaxşı-yamanı,
Bu verdiyin dərdin sənsən dərmanı.
Düzdür, dəmirdəndir hasarın sənin,
Sədəf içindədir mirvarın sənin.
O qıvrım saçların zəncirdir, nədir?
Xəzinən əjdaha ətəyindədir.
Özün də aşiqsən, bilirsən, ey yar,
Sevən ürəklərdə qısqanclıq olar.
Sənin üzərinə qonsa bir milçək,
Canımda yüz həvəs oynayır, gerçək.
Yer üstə bir milçək qonarsa əgər,
Həqiqi aşiqə qartal görünər.
Bir qarışqa kimi can atıram mən,
Milçəyi qovmağa şəkər üstündən.
Ah, mənim günümdə bir kişi vardı,
Mayası olmadan qazanc sayardı:
Dərilməmiş gülə həsrət çəkərdi,
Alınmamış dürrə keşik çəkərdi.
Oyunbazlıq deyil, eşqdir bunlar,
Mənim də başımda bu xəyallar var.
Necə ağlamayım dərdindən bəzən,
Bu yaman günümdən sən xəbərsizsən.
Qəlbimdən daş kimi asıldı dərd, qəm,
Bildiyindən artıq bir divanəyəm.
Eşqinlə mənliyim oldu tarimar,
Bu yolu mənliksiz qurtarmaq olar,
Qəlb belə tutmasa ilk məhəbbəti,
Dəyməz bir arpaya onun qiyməti.
Umudum qalmamış, ey nazlı canan,
Bir öpüş almağa gül dodağından.
Zülfündən ənbərlər saçdığın zaman,
Ağzını nafə tək açdığın zaman
Səhər nəsimindən ətir göndərsən,
İşlərim düzələr, ey nazik bədən.
Camalın bağından, ey gözəl sənəm,
Röyada bir xurma dərmək istərəm.
Bədəni içməyə, ey nazlı nigar,
Könlümdə sönməyən bir ehtiras var.
Verdiyin al şərab ruh verər cana,
Mənə bu neməti qıysa zamana.
Sən əlində şərab mənlə durmusan,
Sənin şərabından sərxoşam inan.
O gül dodağından, əlindən müdam,
Gah şərab, gah da ki, öpüş alıram,
O incə dodaqlar, yolsuz dodaqlar
Tutarmı başqa bir məclisdə qərar?
Onda əqiq rəngli, bal şəhdi vardır,
Ah, onu əmən şəxs nə bəxtiyardır!





Bəzən şəhd əmirəm dodaqlarından,
Bəzən gül dərirəm yanaqlarından.
Gah sığallayıram gözəl çənəni,
Gah ləbin şəkəri dirildir məni.
Bütün bu sözlərim, bil, əfsanədir;
Sənlə danışmağa bir bəhanədir.
İnan ki, bunlardan mən çox uzağam,
Safdır arzularım nə qədər sağam.
Tamah ayağına zəncir vurmuşam,
Sənin xəyalınla yalnız dilxoşam.
Yanında min gecə otursam əgər,
Gözüm görməsə də səndən bir əsər,
Eşqin ki, daima bir yadigardır,
Sənin camalınla nə işim vardır?
Uğrunda çəkdiyim hər əzab xoşdur,
Əzabın eşqimə həmdəm olmuşdur.
Tək eşqin göstərsə mənə üzünü,
Görməsəm də olar sənin üzünü.
Qoy eşqin sirrimçin dönsün əğyara.
Könlümə şəfadır vurduğun yara.
Qoy heç tapılmasın yarama məlhəm,
Sən salamat qalsan, nə qüssə, nə qəm!
Qoy, məni zillətə salsa da hicran,
Sən ondan uzaq ol, sevimli canan!
Düşsə də eşşəyim mənim ayaqdan,
Sənin ərəb atın var olsun, canan!
Pis tale gizlədi üzünü məndən,
Daima xoşbəxt ol bu dünyada sən!
Bir baş əyilməsə əmrinə bir gün,
Görüm ayağının altına düşsün!"

## MƏCNUNUN DAYISI SƏLİM AMİRİNİN MƏCNUNU GÖRMƏYƏ GƏLMƏSİ

Bəli, söz sərrafı o vaxtdan bəri
Düzmüş söz sapına bu inciləri:
Məcnunun aqil bir dayısı vardı,
Aşiqin halını yaxşı duyardı.
Hünər sahibiydi o halalzada,
Dadmışdı yaxşını, pisi dünyada.
Ona deyirdilər Səlim Amiri,
Samiri kimiydi ağlı, tədbiri.
Yaralı Məcnunun oydu məlhəmi,
Başından getməzdi aşiqin qəmi.
Hər ay əl tutardı yazıq Məcnuna,
Yemək də, paltar da verərdi ona.
Bir gün o qəribin dalınca yenə
Düşdü səhraların dərinliyinə.
Qovdu çöldən-çölə öz dəvəsini,
Dağ-daşı dolandı dəli div kimi.
Gördü ki, tayfadan, zəncirdən kənar,
Bir dağın dibində o tutmuş qərar.
İki-üç vəhşi də bürümüş onu,
Gəlib gedənlərin kəsmiş yolunu.

Qorxdu vəhşilərdən yorğun müsafir,
Uzaqdan-uzağa salam verdi bir.
Məcnun o salamı eşidən zaman:
"De, kimsən, nəçisən?" soruşdu ondan.
O sa cavab verdi: "Amiriyəm mən,
Yumruqlar yemişəm pis zəmanədən.
Sənin öz dayınam, dərk elə, bala,
Üzün möhtac deyil qara bir xala.
Sən də həbəşilər kimisən bu gün,
Üzün xal olmuşdur sənin büsbütün".
Məcnun tanıyaraq, dedi: "Yaxın gəl".
Onunla diz-dizə oturub, əvvəl
Olandan, keçəndən xəbərlər tutdu,
Söhbət şirin keçdi, dərdi unutdu.
Səlim qəbristanda kəfənsiz qalan
O çılpaq aşiqi gördüyü zaman
Bir əyin paltarı aldı yükündən,
Məcnuna verərək söylədi: "Bil sən,
Bu paltar halaldır, gey indən belə,
Halalzadə kimi davran mənimlə".
"Yox, mənim canımdan paltar uzaqdır,
Geyinsəm bədənim od tutacaqdır.
Zənn et ki, libasa mən meyil saldım,
Sonrasa cıraraq, yenə lüt qaldım".
Səlim çox əlləşdi orda, müxtəsər,
Paltarı geydirdi ona bir təhər.
Sonra heybəsini açıb tökərək,
Gətirdi Məcnuna ət ilə çörək.
Nə qədər dil töküb yalvardısa da,
Məcnun bir tikə də yemədi əsla.
Yeməzdi, içməzdi Məcnun bir kərə,
Nə tapsa verərdi o vəhşilərə.
Səlim soruşdu ki: "Ey bağrı qan, sən
Danış, gecə-gündüz bəs nə yeyirsən?
Adam ki, yeməklə, içməklə yaşar,
Danış, adamsansa, nə xörəyin var?"
Dedi ki: "Ey adı qəlbim tək Səlim,
Hər sözü, söhbəti, salamı həlim,
Könlümü doyuran yeməklər deyil,
Səhər çağlarının nəsimidir bil.
Budur, ac qalmaqdan canım sönmüşdür,
Yemək qüdrətim də heçə dönmüşdür.
Yarın qoqusunu gətirən külək
Mənə həm su olur, həm də ki, çörək.
Hər gecə daşların üzərindəyəm,
Ağ gün görməmişəm bu yerdə bir dəm.
Aclıqdan saralıb lap keçinirkən,
Ağacdan kitirgə qoparıram mən,
Gah da göz tikirəm ota, ələfə,
O da həftədə yox, ayda bir dəfə.
Yeməkdən əlimi üzmüşəm müdam,
Yemək qayğısından tamam azadam.
Boğazdan getməyir yediyim mənim,
Udanda, inciyir bütün bədənim.

Bu anq canımla keçinirəm ac,
Canımda yeməyə yoxdur ehtiyac...
Lakin, buraxmaram ruzini əldən,
Yeyənlər tapılar, yeməsəm də mən.
Bir nemət yeyəndə aslanla maral,
Onlar çeynədikcə doyuram dərhal".
Səlim anladı ki, o mərd, o qoçaq
Çörəksiz, ot ilə dolanır ancaq.
Gülmədi aşiqin o xörəyinə,
Dəyib toxunmadı onun qəlbinə.
Dedi ki: - Dünyada yemək üzündən
Çox quşlar tələyə düşmüşdür, bilsən.
Nə qədər dən dərdi çəksə bir insan,
Onunçün o qədər dərd verər zaman.
Kim qənaət etsə ota, sənin tək,
O öz aləminin şahıdır, gerçək.

## HEKAYƏ

Bir gün adlı-sanlı şahlardan biri
Gəzib dolaşırdı uzaq bir yeri.
Bir zahid evinə yetmişdi o şah,
Zahid o dünyaya tutmuşdu pənah...
Şah heyrət etdi ki, nə üçün, nədən
Xərabə olmuşdur zahidə məskən?
Şah sual etdi ki: "Deyin mənə bir,
Bu kişi yol üstdə durub neyləyir?
Nə yeyir, nə içir, sənəti nədir?
Kimdir, haralıdır, şöhrəti nədir?
Dedilər: "Bir məşhur zahiddir, ancaq,
Ömr edir yuxudan, eməkdən uzaq
Qatlaşır zillətə, zəhmətə bir-bir
Bütün insanlardan uzaq çəkilir"
Şah, onun halından olcaq xəbərdar,
Zahidin yanına at çapırtdılar
Qapıçı getdi ki, xəbər yetirsin,
Şahın hüzuruna onu gətirsin.
Dedi: "Ey dünyadan əlini üzən
Niçin xoşlanırsan bu xərabədən?
Burda nə yoldaşın, nə yeməyin var
Niçin mağarada tutmusan qərar?"
Ceyran ovlağından dərilib gələn
Bir çəngə quru ot götürüb həmən,
Zahid cavab verdi: "Budur xörəyim,
Bundan qüvvət alır mənim ürəyim".
Qapıçı şah kimi süzdü gözünü:
"Bəlaya salmısan - dedi, - özünü.
Yazıq, bizim şaha xidmət eyləsən,
Bir də ot yeməzsən bu çöllərdə sən".
Zahid cavab verdi: "Sözün əbəsdir,
Bu ot bir gülqənddir, mənə bu bəsdir.
Bu otun sirrini bilsən, ey insan,
Şahın qulluğundan azad olarsan".
Onu dinlədikcə şah, birdən-birə

Qızışıb atından sıçradı yerə.
Döşəndi zahidin önünə xaqan,
Öpdü o müqəddəs ayaqlarından.
"Azadlıq əzizdir, - dedi, - daima,
Budur sözlərində gizlənən məna".
Məcnun bu nağıldan sevinib durdu,
Açıq bir ürəklə şadkam oturdu.
Azacıq dostlara könül verərək,
Hamının halını soruşdu tək-tək.
Aşiqi ağlamaq tutdu o zaman,
Sorub əhval tutdu öz anasından:
"Necədir qanadı qırılmış o quş?
O da mı ayrılıq dustağı olmuş?
Yanında qaradır üzüm əzəldən,
Qara bir quluyam öz anamın mən.
Söylə, o, sağdırmı, necədir bu dəm?
Üzünü görməyi arzu edirəm".
Səlim hiss etdi ki, o qəlbi qırıq,
Ana həsrətilə can verir artıq.
Onun gövhərini boyadı qana,
Evdən anasını gətirdi ona.
Ana öz oğluna boylandı bir az,
Elə bil qəlbini doğradı almaz.
Gördü ki, qızıl gül solub saralmış,
Aynanın üzünü sarı pas almış.
Bir vaxt əlif kimi duran qaməti
Nun kimi bükmüşdür eşqin möhnəti.
Onu görən kimi titrədi həmən,
Dondu əl-ayağı onun qəmindən.
Gah göz yaşlarıyla yudu üzünü,
Gah yolub saçını, döydü özünü.
Sonra sığalladı onun canını,
Öpüb qucaqladı can dərmanını.
Canına əl çəkib, yazıq ağladı,
Oğul yarasını ana bağladı.
Tozlanmış başını yuyub islatdı,
Yorğun ayağından tikan çıxartdı.
Məhəbbət üzündən zavallı ana
Əlindən gələni göstərdi ona.
Dedi ki: "Can bala, bu nədir, de bir?
Oyunsa, oyunun yeri deyildir.
Əcəl qılıncını çəkdiyi anda
Yenə də sərxoşsan sən biyabanda.
Atan şikayətli getdi əlindən,
Məni də ölmüş bil yaxınlarda sən...
Qalx, evinə qayıt, bir anla bunu,
Sahibsiz buraxma gəl öz yurdunu.
Hətta bu gördüyün quşlar, vəhşilər
Çıxır yuvasından axşama qədər.
Elə ki, axşamın üzü görünür,
Hər quş yuvasına üz tutub dönür.
Xalqdan nə vaxtadək gizlənəcəksən?
Çöllərdə yuxusuz ömr edəcəksən?
Uzat ayağını öz evində gəl,





Bir-iki gün sonra gələcək əcəl.
Yetər, çöldə qalıb, dünyanı atmaq,
Qarışqa, ilanla baş-başa yatmaq.
Fərz et ki, canını ilanlar çalmış,
Qarışqa başında yurd-yuva salmış.
Can çıngıl deyildir, bir ayağa dur,
Canına qəsd etmə, gəl sakit otur.
Qəm yeyib, qəlbini çox incitmə bir,
Ürəyin daş deyil, canın da dəmir".
Məcnun anasının nalələrindən
Yandı alov kimi qızışdı birdən.
"Başımın tacıdır ayağın sənin,
İncimi bəsləmiş sənin sədəfin.
Sənin toxumunun məğziyəm, ana,
Ayaq torpağın da cənnətdir mana.
Min möhnət çəkmişəm bu sövdada mən,
Bu dəfə keçmişdir işim çarədən.
Ağlıma nə yol var, nə də çarə var,
Bil ki, mən deyiləm burda günahkar.
İşim bəd gətirdi, yesəm də min qəm,
İnan ki, baisi özüm deyiləm.
Bu bəlalı sövda, bəlalı hicran
Özümdən asılı deyildir, inan.
Ana, olacağın çarəsi varmı?
Peşiman olmaqdan fayda olarmı?
Ah, ana, can atıb deyirəm ki, mən.
Mənim bu can quşum çıxsın qəfəsdən.
Gəl bir də danışma bu məsələni,
İkinci qəfəsə salarsan məni.
Evə getməyimdən gəl danışma, ah,
Evdə ölməyim də olar bir günah.
De, kimə lazımdır evdə ölməyim?
Xoşdur bu səhrada ömür sürməyim.
Vəhşilər yanında nəğmələr demək,
Evdə qəm yeməkdən xoş olsun gərək.
Fərz et ki, mən kimi zəif bir bədən
Evə qayıtmış da, getmiş yenidən...
Deyirsən xanəni tərk etmək olmaz,
Yox, mənim bu nərdim xanəyə sığmaz.
Evə özün qayıt, sözlərimə bax,
Məni öz dərdimlə gəl rahat burax".
Deyib, kölgə kimi sərildi nalan,
Öpdü anasının ayaqlarından.
Yerə saldığından ana sözünü,
Onun ayağına sürtdü üzünü.
Məcnun vidalaşıb qaldı çöllərdə,
Anası qayıtdı, dözmədi dərdə.
Ömrünü tapşırdı o, ruzigara,
O da üz döndərdi soyuq məzara.
Köçür bu dünyadan nə qədər canlar,
Budurmu dünyadan bizə etibar?
Yoxdur bu dünyanın vəfası inan,
Heç kəsə dost deyil başdan binadan.
Vəfasız ruzigar bilməm nədəndir,

Əkinçilər kimi toxum səpəndir?
Əvvəl səpər yerə can toxumunu,
Əkin yetişdimi, tez biçər onu.
Hər gecə yandırar yeni bir çırağ,
Çəkər sinəsinə tüstüdən bir dağ.
Sonra da yel üflər ona hər səhər,
Özü yaqdığını özü söndürər.
Qəlbə dağlar çəkən tilsimli fələk
Bizlə çıraq kimi oynayır, gerçək.
Fələk düyünləsə hər bir ayağı,
Hayana getsə də açılmaz bağı.
Dörd atdan piyada qalsan sən, əgər,
Bu düyün o zaman açıla bilər[109].
Ol canın sapı tək düyünsüz, amma,
Qızdırma sapı tək düyünlü olma.
"Ud" düyün vurmaqda məşhur olsa da,
Sən düyün açmaqda müşk ol dünyada.

## ANASININ ÖLÜMÜNDƏN MƏCNUNUN XƏBƏR TUTMASI

Çərxin şəhsüvarı atlandı birdən,
Meydanı zəbt etdi hərifl ərindən.
Günəş ki, dünyadan bir qorxu duydu,
Şərab şüşəsini tağ üstə qoydu.
Sübhün üsyanından göylər söküldü,
Şüşə parçalandı şərab töküldü.
Məcnun dil verərək qəsidəsinə,
Yalnızlıq təblini çalırdı yenə.
Gecəli-gündüzlü nə vaxtdan bəri,
Dilindən düşməzdi qəsidələri.
Xəbəri yoxdu ki, anası yazıq,
Dünyadan yığışıb köçmüşdür artıq.
Səlimin qəlbindən ahlar yüksəldi,
O, qəmgin aşiqin yanına gəldi.
Paltar, yemək verdi çox ehtiyatla,
Sonra da dil açdı ona fəryadla:
"O bəlalər görmüş zavallı qarı
Ölüb tərk elədi bu ruzigarı.
O da öz köçünü sürdü dünyadan,
Öldü atan kimi səndən nigaran".
Məcnun bu matəmi eşidib durdu,
Ah çəkib, of deyib, başına vurdu.
Səhər çəngi kimi inlədi səsi,
Qırıldı daşlarda könül şüşəsi.
Ata-anasını anaraq yenə,
Üz tutdu onların qoşa qəbrinə.
Fəryadlar qoparıb diz üstə çökdü,
Hər iki məzara göz yaşı tökdü.
Gah buna, gah ona üz sürtdü, ancaq,
Ölmüşə dərmandan kar olmayacaq.
Qohumlar tutunca səsindən xəbər,
Qaçıb qəbilədən bir-bir gəldilər.
Məcnunu torpağa düşmüş gördülər,

Canında az idi həyatdan əsər.
Onun ayağına yığılıb həmən,
Qanlı yaş tökdülər onlar gözündən.
Ayılsın, deyərək, Məcnun bir təhər,
Ona gülab suyu çilərdi gözlər.
O hissiz aşiqsə ayılan zaman
Dualar etdilər ona hər yandan.
Evə aparmağa çox çalışdılar,
Dedilər, vətəndə tutsun o qərar.
Lakin, bir ah çəkdi o bəxti qara,
Yenə öz köçünü sürdü dağlara.
Ürəyi - dərd evi, ciyərləri - qan,
Çöllərdə gəzirdi yenə pərişan.
Ardınca düşmüşdü vəhşi heyvanlar,
Həmdəm olmamışdı ona insanlar.
Şərrində bir xeyir görmədiyindən,
Öz canamazını atdı kilsədən...
Ömür yol gedirdi, sanki bir şimşək,
Məcnun əl üzürdü ondan bulut tək.
Madam ki bu həyat baqi deyildir,
Min il də, bir an da yaşasan birdir.
Həyatda ölümün nişanəsi var,
Onun işvəsinə insanmı uyar?
Ey ölüm sirrindən qafil dolanan,
Ey bu həqiqətdən xəbərsiz insan,
Ölüm səfərinə yığışmadan sən
Çoxmu öz ömrünə güvənəcəksən?
Məgər dərk etməyir zəif düşüncən
Ki, sən bu dünyada nəçisən, nəsən?
Bu yer kütləsində zərrələr ki, var,
Müəyyən ölçüyə sahibdir onlar.
Ancaq, Qaf gövdəli dağ önündə, bil,
Onların qiymәti əlif də deyil.
Bu geniş tarlada, ey məğrur insan,
Sən kiçik bir budaq, yarpaq boydasan.
Başıyın üstəki fələyə bax sən,
Gör nə görünürsən ona nisbətən.
Bu geniş aləmə açsan gözünü,
Heç kimi görərsən burda özünü.
Sənin düşüncəndə bir həqiqət var,
Müəyyən ölçüdə tutmusan qərar.
Lakin bu dünyanın qarşısında, bil,
Sənin en-uzunun zərrə də deyil.
Alçaqlıq həddini aşdığın yerdə
Dünyada "mən varam" deməzsən bir də.
Torpağın qoynuna gəl sığın ancaq,
Qoy örtsün eybini o qara torpaq.
İki-üç pas atmış mıxın var, bir bax,
Onu da zəkatla yığmısan ancaq.
Bir neçə qızıla güvənib dəm-dəm,
Deyirsən: "Dünyanın ağası mənəm".
Nə qədər möhtacsan dünya əhlinə,
İşin ahüvayla keçəcək yenə.
Ucalar dünyada başın, ey insan,
Qurtarsan dünyanın ehtiyacından!
Hələ də dünyada xalq minnətindən
Yaxanı qurtara bilməmisən sən.
Gəl, yad süfrəsindən it kimi əl çək,
Özgə süfrəsinə baxma pişik tək.
Məşəl tək əliyin müzdüylə dolan,
Şam kimi, sən də öz xəzinənlə yan.
Sən də Nizami tək aləmə tanın,
Sən də ağası ol şahın, sultanın.

## LEYLİNİN MƏCNUNA SİFARİŞİ

Leyli qəfəsdəki o gözəl deyil,
Tikilən qələlər xanımıdır, bil.
Məcnundan gəldikcə acı xəbərlər,
Yeyirdi qəlbini min qəm, min kədər.
O da aşiqi tək olmuşdu diltəng,
Məhbəsdə qalmışdı can çəkişərək.
Düyünlü bir sapın halqasında qız
Zəncirsiz dustağa düşmüşdü yalqız.
Onun dörd yanında gözətçi vardı,
Dürrün ətəyini almaz qırardı.
Taki o bir gecə qaçmasın yenə
Bütpərəst əhlinin büt məbədinə.
Əri canfişanlıq edib Leyliyə,
Xoş üz göstərərdi, şad olsun deyə.
Leylinin qəlbisə tutqun, pərişan,
Soyuq qarşılardı onu hər zaman.
Süfrədə yox idi milçəkdən bir iz,
Gecə qərarmışdı, ev gözətçisiz.
Leyli aşiqini anıb ürəkdən,
Qapıdan eşiyə sıçradı birdən.
Düşmənlər yolundan bir ağac kənar
Bir yol üzərində oturdu ağlar.
İstərdi bu yoldan keçən bir nəfər
Ona aşiqindən versin bir xəbər.
Bu dəmdə dərdlərə çarə göstərən
Bir ağ saçlı qoca göründü birdən.
Qoca Xızır kimi iti gedərdi,
Yol axtaranlara yol göstərərdi,
Soruşdu qocadan o dustaq nigar:
"Fələyin işindən nə xəbərin var?
O vəhşət çölündə vəhşiyə həmdəm
Kimin xəyaliyla yaşayır bu dəm?"
Qoca söylədi ki: "Ayüzlüm, inan,
Sənsiz quyudadır Yusif hər zaman.
O tufanlı dəniz qoparmış haray,
Uca zirvəsini itirmiş o ay.
Car çəkir hicrana düşəndən bəri,
Səhralar qoynunda keçir günləri.
Hər iki addımda: "Leyli can" deyir,
Hər yerdə: "Leyli gəl, gəl aman" deyir.
Ürəyi hicranla sitəmlə dolu,
Bir Leyli yoludur Məcnunun yolu..."





Leyli dinlədikcə bu sədaqəti,
Nalədən nal oldu sərv qaməti.
Qoşa nərgizləri ağladı birdən,
Əqiqlə sulandı o ağ yasəmən.
Leyli söylədi ki: "Günahkar mənəm,
Bil, mənim qəmimdir o çəkdiyi qəm.
Mən də bu qüssədən deyiləm kənar,
Ancaq, dərd çəkməkdə bir fərqimiz var:
Məcnun dağ başında ah çəkir bu dəm,
Mən quyu dibində nalə çəkirəm".
Sonra, qulağından bir neçə gövhər
Alaraq, qocaya verdi o dilbər.
Dedi: "Bunları al, qayıt təzədən
Onunla yenə də həmnəfəs ol sən.
Onu uzaq yoldan yanıma gətir,
Doyunca seyr edim o aşiqi bir.
Sən onu götürüb gəldiyin zaman
Filan nişanəli yerdə saxlarsan.
Sonra da gəl mənə xəbər ver bunu,
Gizlincə seyr edəm, bəlkə, Məcnunu.
Görüm nə soyu var, nə rəngi vardır?
Görüm ki, nə qədər o vəfadardır?
Bəlkə də, söz qoşub dediklərindən
İki-üç beytinə qulaq asam mən.
Bəlkə, düyünümü aça nəfəsi,
Bəlkə, şəfa verə dərdimə səsi".
Qoca, dürrləri götürüb həmən,
Ayrıldı saf qalmış həman dürrdən.
Bir dəst paltar alıb yoluna vardı,
O çılpaq qalmışa libas apardı.
Əsdi külək kimi o dağdan-dağa,
Baxdı abadlığa, xarabalığa.
Yenə də tapmadı aşiqdən əsər,
Ondan iki-üç gün tutmadı xəbər.
Sonra, dağ dibində taparaq onu,
Torpağa yıxılmış gördü Məcnunu.
Onun dövrəsində vəhşi heyvanlar,
Dayanıb olmuşdu bir xəzinədar.
Qocanı gördükdə Məcnun uzaqdan,
Südə uşaq kimi meyl etdi bu an.
Sonra, acıqlandı yırtıcılara,
Baş uzatmasınlar ona bir daha.
Yanından gedincə o yırtıcılar,
Təşəkkür elədi ona ixtiyar.
Əvvəl öz başını torpağa vurdu,
Sonra üzr istəyib, belə buyurdu:
"Səninlə olmuşdur eşq mülkü qaim,
Nə qədər eşq var, sən də ol daim.
Günəş çeşməsindən Xızır kimi iç,
İsgəndər kimi də üfüqləri keç.
O Leyli - o dünya gözəli dilbər
Sənin dostluğunda candan da keçər.
Bil, salam göndərir sənə o nigar,
Adını duayla anıb xatırlar.
Çoxdandır görməmiş sənin üzünü,
Bir də eşitməmiş şirin sözünü.
Səndən nigarandır güllüzlü sənəm,
Görüşmək istəyir səninlə bir dəm.
Sən də sevgilinlə görüşsən bir an,
Hicran qəfəsindən azad olarsan.
Bir-iki nəşəli qəzəl deyərsən,
O sövda bazarı qızar yenidən.
Meşə tək dolaşıq bir xurmalıq var,
Ordakı xoş rəngli gözəl ağaclar
Göyün zirvəsinə qalxıb baş vurur,
Onların altında göy çəmən durur,
Baharın o yerə dönüb gələcək,
İşiyin açarı ordadır, gerçək".
Sonra da paltarı o qoca əllər
And verib geydirdi ona bir təhər.
Razılıq kəməri bağlayıb həmən,
Məcnun xilas oldu müxalifətdən.
Qocanın izilə tərpəndi artıq,
Dirilik suyunu tapmışdı yazıq.
Fəratdan qaçarmı susuz bir ürək?
Davaya çıxarmı ətirlə külək?
Vəhşi heyvanlar da cərgələnərək,
Düşdü arxasınca şah ordusu tək.
İqbal itaətdə, bəxt də fərmanda,
Görüşmək yerinə gəldi o anda.
Bir xurma altında o tutdu qərar,
Dayandı vəhşilər azacıq kənar.
Qoca da Leyliyə gətirdi xəbər,
Gördüyü işləri dedi müxtəsər.
Çadırda əyləşmiş o gözəl pəri
Açdı mələk kimi uçuş şəhpəri.
Məcnundan on addım durub aralı,
Yeriyə bilmədi o dağ maralı.
Qocaya dedi ki, "Ey nəcib insan,
Getməyə qalmadı qüvvətim, inan.
Mən ki, yandırmışam ürəyimdə şam,
Yenə yaxınlaşsam, tamam yanaram.
Mənim ərim vardır, yatsa da bu dəm,
Allahın gözündən uzaq deyiləm.
Doğrudur, sevmirəm onu ürəkdən,
Lakin haramzadə deyiləm ki, mən.
Yenə yaxınlaşsam, bu ölüm olar,
Sövda məzhəbində günah sayılar.
Ayıblı sözlərin yazılmasından
Yaxşıdır, bir dəftər ağ qalsa, inan.
İdrakla üz-üzə gələrsəm əgər,
Məni qızartmasın tutduğum işlər.
Kamal bir aşiqdir, ilqarı tamdır,
Bundan çox istəmək ona haramdır.
Qoy şerlə desin o şirindillim,
Şerlə oxşasın məni sevgilim.
O şəkərdillidən rica ediniz:
Bir qəzəl söyləsin, qulaq asaq biz".

Qoca bu baharın yanından qalxdı,
O biri baharın halına baxdı.
Gördü ki, sərilmiş o yenə yerə,
Huş başdan dağılıb, uçmuş göylərə.
Ürəkdən ah çəkib "Heyf olsun" dedi,
Ona göz yaşından su da çilədi.
Məcnun huşa gəlib ayılan zaman
Bir az xoşlanaraq sordu qocadan:
"Söylə, bir ey qoca, nə bahardır bu?
Saçdı üstümüzə ənbər qoqusu.
Bu qoqu novbahar qoqusu deyil,
Canan saçlarının qoqusudur, bil.
Qəlbə layla çalır bu qoqu, inan,
Bu gözəl qoquya canım da qurban!"
Qoca bir imtahan açmaq istədi:
"Kənardan boylanmaq günahdır, - dedi. -
Söylə, çağırılmamış gələrmi o yar?
Gəlib qucağına girərmi nigar?
Cananı görməmiş bu haldasan sən,
Nə hala düşərsən üzünü görsən?"
Məcnun cavab verdi: "Mehriban qoca,
Gəl bu hadisəni düşünmə bunca.
Şərabın ətrindən sərxoşam bu dəm,
Şərabı əlimdə tuta bilmərəm".
Sonrasa bir şirin, bir xoş nəfəslə
Bir neçə beyt dedi qəmli bir səslə.

## MƏCNUNUN QƏZƏL OXUMAĞI

"Canan, hardayıq biz, de hardasan sən?
Biz ki, səninkiyik, sən kiminkisən?
Yoxsulluq mülkünün yolçusuyuq biz,
Buyurun, dost olaq, layiq görsəniz.
Bizik can sataraq yoxsulluq alan,
Xəzləri dağıdıb palasda qalan.
Zamanın qeydindən azadıq, azad,
Qəm bizimlə şaddır, biz qəm ilə şad.
Ciyərimiz susuz, suya qərq olan
Şəbkoruq, günəşə yoldaşıq, inan.
Azdıq yolumuzu, qismətdir bu da,
Kənddən qovulsaq da, bizik kəndxuda.
Möhrəsiz və gözsüz oyun çıxardar,
Ayaqsız, miniksiz çapmağımız var[110].
Bir sənin qəminlə yüklənirik biz,
Qəm ki, səninkidir, yoxdur qəmimiz.
Olsaq da aləmdə süst tərpənənlər,
Buradan keçməkdə bizdədir hünər.
Deyirsən, qəmindən xar olub ölüm,
Hələ qəm yeməklə məşğulam, gülüm!
Çox çəkməz, sevgilim, vaxtı gələndə,
Öz köçmək təblimi çalaram mən də.
Sən, ey hər işində əyyar olan yar,
Aşiqin olmuşdur səndən də əyyar.
Əyyar boğazını sıxırsa əgər,

Özünü düşməndən əvvəl öldürər,
Bir kəs ki, özünün qanından qorxmaz,
Öldürər nə yaxşı, nə pisə baxmaz.
Sürüdən qorxarsa əgər canavar,
O üstündə keçə, palas da saxlar.
Gəlməmiş getməyin, de, nə adətdir?
Əkməmiş biçməyin nə qiyamətdir?
Mənə: "Gecən xeyir" söyləmə, canan,
Sənsiz xoş keçərmi gecəmiz bir an?
Uyuşmaz qədəmin canımla mənim,
İki can saxlaya bilməz bədənim.
Əlinlə canımı almadıqca sən,
Qurtara bilməzsən bu bəhanədən.
Min minnət yükünü çəkir bu bədən,
Sənsə azad eylə onu bu işdən.
Bundan daha yaxşı bir can ver mana,
Uğurlu bir işə ayaq bassana!
Sənin dodağından gəlməyən bir can
Canımda yerləşməz, çıxar dodaqdan.
Dodağın olarsa can xəzinəsi,
Kəsilməz dünyadan o canın səsi.
Bilirəm, qarşında çox qulların var,
Heç biri mən kimi baş əyməz, ey yar.
Sənin varlığınla mən də azadam,
Daima xoşbəxtəm, daima şadam.
Camalın düşərsə könlümdən uzaq,
Könlüm viran olar gözündən iraq.
Bu gündən mən sənəm, sən isə mənsən,
Bir könül yurdudur bu iki bədən.
O da sənin könlün qoy olsun, dilbər,
Yoxdur öz könlümdə həyatdan əsər.
Bir könlüm, yüz canım olmasa əgər,
Səninlə yaşamaq olmaz, ey səhər.
Sap birdir, səni öz sapıma düzsəm,
Bir can olmalıyıq ikimiz hər dəm.
Bil ki, vahid olsa bizim sikkəmiz,
İkilik nəqşini qaralarıq biz.
Gözəl sikkəli hər badamın bil ki,
Bədəni bir olur, məğzisə iki.
Mən sənəm, başqa şey nə varsa, canan,
Bir başmaq tayıdır düşmüş ayaqdan.
Səndən işıq alır bütün varlığım,
Yoxdur səndən özgə bəxtiyarlığım.
Söylə, bu məqamda nəçidir bədən?
Adını sikkənə nəqş eyləyəsən.
Sənə qurbanlığa baş layiq deyil,
Bayrağın altına sığınmaz o, bil.
Arada tərpənən quru bir candır,
O da mənim deyil, sənə mehmandır.
Sən məndən azadsan, ey pərizadə,
Sərvdən daha çox ol sən azadə.
Mən bir kimsəsizəm, hər xidmətinə
Kəmər bağlamışam gül kimi yenə
Məhləyin küləyi əsdikcə səhər,





Can verib, könlümün pasını silər.
Mumya arasında əzgin bir bədən
Dincəldiyi kimi, dincəlirəm mən.
İtüzlü olsa da gözətçin müdam,
Sən olan küçənin yol torpağıyam.
İt saxlamağını çox bəyənirəm,
Odur ki, onlara olmuşam həmdəm;
Yəni yanımdakı bu yırtıcılar
İtdir, hamısının it dırnağı var.
Mən yoxsul olsam da, varlısan, ey yar,
Mən tamam xaliyəm, sənin xalın var.
Sən qızıl içində olursan hər dəm,
Xalxalın qızıldır, xalın da dirəm.
Dirəmə bənzəyən xalını görcək,
Aldım xalxalını dirəmlə, gerçək.
Bir növbahar üçün bulut ağladı,
Məcnun da ağlayıb qara bağladı.
Hindli qaraulda dayanıb, gəzər,
Məcnun da yanında hinduya bənzər.
Çarx gözəllik alar ayın üzündən,
Məcnun da fal açar üzünlə bəzən
Bülbül gül eşqiylə dolanar bağı,
Məcnun da olmuşdur hicran dustağı.
El, oba ləl üçün mədənə gedir,
Məcnun da səninçin cana qəsd edir.
Sən meyil göstərsən mənə, ey nigar,
Bir allah bilir ki, bu çox xoş olar.
Aydınlıq gecədə səninlə qoşa
Duraydıq gülşəndə, verib baş-başa.
Səninlə yanaşı əyləşəydim mən,
Qədəh qaldıraydıq qədəh üstündən
Basaydım bağrıma saz kimi səni,
Olaydı qucağım ləlin mədəni.
Nərgiz gözlərindən olaydım xumar,
Məst olub saçını hörəydim, ey yar.
Kaman qaşlarını qulağa qədər
Əlimlə çəkəydim, ey nazlı dilbər.
Döşündəki nara sığınaydım mən,
Əlimlə tutaydım alma çənəndən.
Gah bir alma kimi əzib narını,
Gah da dişləyəydim alma barını.
Dağıdıb döşünə saçlarını mən
O qulaq sırğanı çəkəydim, bəzən.
Gah varaqlanaydı əynində paltar,
Bədihə deyəydim xurmana, ey yar.
Bənəfşə düzəydim gül üzünə mən,
Gah da gül dərəydim o bənəfşədən.
Gah səni qoynumda yerləşdirəydim,
Gah qəm məktubunu sənə verəydim.
İlahi, qalmazdı möhnətdən əsər,
Həqiqət olsaydı bu düşüncələr.
Qulağa xoş gəlir çaldığım hava,
Lakin ortalıqda tel qırılmasa.
Başımı qovğaya salma bu qədər,

İnan ki, varlığım məhv olub gedər.
Sən olduğun yerə çağırma məni,
Xoşdur bu seçdiyim sövda məskəni.
Burda nə düşmən var, nə də əğyar var,
Bizim işimizə qarışmaz onlar.
Burda əyləşsək də, qalsaq da əgər,
Bizə irad tutmaz bunu bir nəfər.
Yanımda iki-üç dilsiz heyvan var,
Yaxşını, yamanı unutmuş onlar.
Quyunun dibində tək olsaq da biz,
Yalnızlıq özü də gözəldir, şəksiz.
Əlindən tutanın olmasa bir az,
Ayağından tutub çəkən də olmaz.
Burda olmasa da bir dostun sənin,
Arxanca sallanıb gəlməz düşmənin.
Nə var can qorxusu olan o yerdə?
O yaman üzlərə sən baxma bir də.
Burdadır abadlıq, şadlıq hasarı.
Sən də gəl bu yerdə bir şadlan barı.
Nə qədər ki, sağam, yaxın gəl, ey yar,
Hər vaxtın işi var, işin vaxtı var.
Çeşməni gün kimi göstərmə, aman,
Sərab tək aldatma məni uzaqdan.
Hüsnündən su içmək istərkən ürək,
Oldum parça-parça sənin xalın tək.
Xızırın çeşməsi səndədir, dilbər,
O həyat suyundan mənə də göndər.
Təsəlli vermədən arpa boyda sən,
Mənə xalvar-xalvar qan içdirirsən.
Sənsiz qəm yesəm də, ey nazlı sənəm,
Səninlə şərab da içə bilərəm.
Yəqin, yadındadır, bir məsəl də var:
Dovşan yügürdüyü qədər də yatar.
Nə olar, sevgilim, şərab gətirsən,
Yenə mi qanlı su içməliyəm mən?
Şərab məclisində nuş olur cana,
Halaldır behiştdə şərab insana.
Saqi, dəryanı da əlindən içsəm
Ondan bir udum da qoymaram bu dəm.
İçsəm sağlığına, getmərəm huşdan,
O zəhər olsa da, nuş olar, inan.
Qoy sərxoşun olsun aşiqin indi,
Sən də qədəh qaldır sərxoşlar kimi.
Şərabı içməzlər xumar olmadan,
Səhər şərabı da içilməz pünhan.
Bağ tacı axtaran o sultan belə,
Gəzir xəzinəni şəbçıraq ilə.
Qaranlıq gecədə xəzinə gəzən
Əziyyət çəksə də, oğrudur, bilsək.
Çıraqsız bir evi soruşsan: nədir?
O bir bağ da olsa həbsxanədir.
Sənin qəm nərdində uduzdu könlüm
Bir əl də atıram, qurbanın olum.
Xoşdur, sərxoş olub, ey nazlı dilbər,

Qıvrım saçlarını öpsəydim əgər
Ya sərxoş halımda tutub telindən
Yavaşca məclisə gətirəydim mən
Bir nalə çəkəydim hər addım başı,
Bir təpik vuraydı mənə hər naşı
Yarəb, o dünyanı yaxan gözəllə
Mənə belə bir gün sən qismət eylə!"
Məcnun bu sözləri deyərək əlan,
Çöllərə üz qoydu ürəyində qan
Pərişan ürəyi qəmlərlə dolu
Qayıtdı çadıra o sərv boylu

## BAĞDADLI SƏLAMIN MƏCNUNUN GÖRÜŞÜNƏ GETMƏSİ

Deyir söz ustası, onu dinlə sən:
Bağdad şəhərinin əhalisindən
Vardı səxavətli, gözəl bir insan,
Camal sahibiydi o aşiq oğlan.
Bəlalər seylinə düşüb dünyada,
Eşqin silləsini dadmışdı o da.
Başından aşsa da məhəbbət dərdi,
Hər dərdə qatlaşıb qəmə dözərdi.
Dünya söyləyirdi adına Səlam,
Bəxt isə vermişdi o gəncə səlam.
O, eşq aləmində mərd dayanardı,
Şer oxumağa çox eşqi vardı.
Qeysin inci saçan o şerləri
Aləmə yayılıb düşəndən bəri
"Dərd əhli" deyirdi ona insanlar,
Onun pak təbinə heyran olanlar.
Dərdlilər eşitcək onun səsini,
Sürərdi yanına öz dəvəsini.
Ad qoydu Məcnunun eşqi dünyada,
Şəhərlər dolaşıb çatdı Bağdada.
Onun hər şerini gözəllər belə,
Deyirdi səs-səsə aşiqlər ilə.
Səlam düşündü ki, Bağdaddan getsin,
O qəmgin aşiqi ziyarət etsin.
Dəvəni yükləyib yola düzəldi,
Çaparaq bir ucsuz səhraya gəldi.
Qovdu dəvəsini bir neçə ağac,
Axtardı aşiqi o yamac-yamac.
Səlam yol uzunu soraq alaraq,
Məcnunu bir yerdə tapdı çıl-çılpaq.
Yenə dörd yanında vəhşi durmuşdu,
Boyunbağı kimi halqa vurmuşdu,
Şövq ilə inləyən o zaifbədən
Əsirlik duyurdu həman halqədən.
Məcnun hiss etdi ki, o gözəl cavan
Yanına gəlmişdir uzaq bir yoldan,
Verdi vəhşilərə belə bir qərar:
Bütün qılıncları qına qoysunlar.
Səlam da aşiqi gördüyü zaman
Ona salam verdi ürəkdən, candan.
Xoş gəldi salamı onun Məcnuna,
Ürəkdən yaxınlıq göstərdi ona.
Onu cavabıyla xoşhal eylədi,
Hardan gəldiyini sual eylədi.
Gənc dedi: "Səninçin dolaşıram mən,
Çölə düşməyimin səbəbi sənsən.
Bağdad şəhərindən bura gəlmişəm,
Ta görüb üzünü şadlanım bir dəm.
Bağdadda rahətcə yaşardım, düzü,
Heç vaxt görməmişdim mən səfər üzü.
Gözəl sözlərinə çox həvəsim var,
Onunçün qürbəti etdim ixtiyar.
Dünya işıq alır camalından, ah,
Səni görməyimə yol verdi allah.
Bu qalan ömrümü, ey qərib həmdəm,
Səndən başqasıyla sürməyəcəyəm.
Ayaq torpağını öpə-öpə mən
Boyun qaçırmaram heç bir əmrindən.
Sənsiz çıxmayacaq mənim nəfəsim,
Yanından gələcək daima səsim.
Yazdığın hər şeri oxuyub müdam,
Əzbərdən öyrənib yadda saxlaram.
Gözəl sözlərini dedikcə əzbər,
Könlümün qəmləri dağılıb gedər.
Mən də çəkinmərəm heç bir bəladən,
Məni öz könlünlə tanış eylə sən,
Oxu sözlərindən, dinləyim hərdən,
Hesab et məni də bu vəhşilərdən.
Mən kimi bir gəncin qul olmağından
Sənə heç bir zərər toxunmaz, inan.
Sövda qəfəsində dustaq bir quşam,
Eşqin ağrısını mən də duymuşam".
Gülüb hilal kimi onun üzünə,
Məcnun cavab verdi onun sözünə:
"Ey nazla, nemətlə bəslənmiş insan,
Bu yol qorxuludur, qayıt bu yoldan.
Kişi olsan belə, tayım deyilsən,
Yüzdə bir qəmimi yeməmisən sən.
Yalnız vəhşilərdir könlümə həmdəm,
Mən öz qeydimə də qalan deyiləm.
Bəsdir bu səhrada düşdüyüm dara,
Yaramın üstündən gəl vurma yara.
Bil ki, bambaşqadır bizim dərdimiz,
Uyuşa bilmərik səninlə hərgiz.
Sənə söhbətimin nə faydası var?
Mənim söhbətimdən divlər də qaçar.
Hər gün bir mənzildə yatıb qalıram,
Hər gecə bir yerdə mən yurd salıram.
Mən artıq vəhşiyəm, sən isə insan,
Xoşdur öz cinsini gəzib tapasan.
Bil ki, dəmir kimi olsan da möhkəm,
Səni də əridər ahımdakı qəm.
Su kimi canımı oxşasan da sən,





Yanğıma bir gecə dözə bilməzsən.
Görürsən əliboş müflisəm bu dəm,
Qonaq qalmağını rəva görmürəm.
Yazıqlıq səsidir cahanda səsim,
Bir mənəm, bir də ki, sövda nəfəsim.
Olmazsan mənimlə bu yerdə həmdəm,
Sən sevdiyin cana mən qəsd edirəm.
Öz paltar bəndimi boşaltdıqca mən,
Sən öz kəmərini düzəltməkdəsən.
Şələmi çiynimdən atıram bu an,
Sənsə başqasıyla qucaqlaşırsan.
Mənə dost olmaqdan ümidini kəs,
Mən büt sındıranam, sənsə bütpərəst.
Get, mənim məskənim xarabalıqdır,
Məndən dost nəfəsi ummaq artıqdır.
Bilirəm, yol gəlib zəhmət çəkmisən,
Sənin qulun olum, zillət çəkmisən.
İndi ki, sən məni gördün pərişan,
Allaha tapşırıb qayıt bu başdan.
Xoşluqla getməsən bu yerdən əgər,
Zorla qaçırdacaq səni zillətlər".
O sözlər etmədi Səlama əsər,
Qəbula keçmədi o nəsihətlər.
Dedi: "Yalvarıram, halıma bir yan,
Gəl suyu gizlətmə susuz qalandan.
İzin ver, qiblənə baş əyim bir az,
Məhəbbət adlansın qıldığım namaz.
Yolum səhv olarsa səcdədə bir dəm,
Yenə səcdə qılıb üzür istərəm".
Səlam çox yalvarıb yaxardı yenə,
Məcnun razılaşdı onun əhdinə.
Səlam süfrəsini açıb tökərək,
Çıxardı qarşıya halvayla çörək.
Dedi ki: "Dostluğa göstərək həvəs,
Gəl mehriban olaq çörəyimi kəs.
Qəlb açan olsa da bu yeməməyin,
Bu bir-iki loqmə lazımdır yəqin.
Hərçəndi kişinin kişiliyi var,
Canının qüvvəti yeməklə olar".
Məcnun cavab verdi: "Öz bədənimdən
Yemək yeyənləri öldürmüşəm mən.
Kim ki, öz canının qeydinə qalır,
Çörəklə halvadan o, qüvvət alır.
Mən öz varlığımdan düşmüşəm uzaq,
Məni öldürəmməz bu ac yaşamaq".
Səlam anladı ki, o talei kəm
Yeməksiz, yuxusuz dolaşıb hər dəm,
Hər yana üz tutub gəzir fərari,
Bir yerdə durmayır səbri, qərarı.
Qəlbi inciməsin, sınmasın deyə,
Dedi: "Sür ömrünü qəm yeyə-yeyə.
Fələyin dövranı bir yerdə qalmaz,
Ürəyin daima pərişan olmaz.
Hər anda bir varaq açıb bükərək,
Çox iti fırlanır bu çərxi-fələk.
Cahanda göz yumub açana qədər
Yuz nəcat qapısı açıla bilər.
Heç də qəmgin olma çəkdiyin qəmdən,
Taki yer tapdağı olmayasan sən.
İndiki dərdinin sonu xoş olar,
Bir gün ağlamağın gülməyi də var.
Mən də sənin kimi ürəyim dağlı,
Könüldən xəstəydim, ayaqdan bağlı,
Allahın köməyi sayəsində mən
Qurtardım canımı o dərddən, qəmdən.
Nəhayət bir sükut qaplayar səni,
Sən də unudarsan bu vaqiəni.
Bu sövda şöləsi nə mehribandır,
Gənclik atəşinin alovundandır.
Kişidən cavanlıq gəlib keçəcək,
Bu odlu kürənin odu sönəcək".
Məcnun o aqili dinləyib qəlbən,
Yerdən durmadısa, oynadı yerdən.
Dedi: "Zənn etmə ki, mən bir sərxoşam,
Ya hava-həvəsə məftun olmuşam.
Eşqin şahənşahı mənəm cahanda,
Xəcalət çəkmirəm bundan bir an da.
Qüsl ilə canımı təmizlədim mən,
Torpağın, şəhvətin bəhanəsindən.
Nəfsin çirkabından can qurtararaq,
Həvəs bazarını dağıtmışam, bax.
Ömrümün mənası eşqdir müdam,
Məhəbbət bir oddur, mənsə bir "ud"am.
Məhəbbət evimi tutduğu zaman
Mən də öz köçümü çəkdim ortadan.
Ömrümü hesaba alanmı vardır!
Mən yoxam, var olan yalnız o yardır.
Nə vaxt ki, göylərdən ulduz azalar,
Mənim də eşqimin qəmi az olar.
Çöllərin qumları sayılsa əgər,
Mənim də könlümün eşqi silinər.
İndi ki, həmsöhbət oldun mənimlə,
Gəl, ayıb sözünü gətirmə dilə.
Boyuna, halına nəzər sal da sən,
Gəl əl çək vurduğun bu tənələrdən.
Çəkdi o sərkərdə yaxşı bir məsəl:
Saxla öz işinin ölçüsünü gəl.
Bil ki, qızışaram soyuqluq etsən,
Yalnız qisas alıb yumşalaram mən.
Sən məni dilinlə incitsən əgər
Getməz dostluğumuz axıra qədər.
Könül qəzəbindən qızışan zaman
Həya da, ismət də qalxar ortadan".
Məcnun, bu sözləri ədəblə dedi.
Hərifə astaca tənbeh eylədi.
Hərif də Məcnunu tanıdı əlan
Xəta çıxarmadı bir də ağzından.
Heç kəslə qaydasız danışma ki, sən,

Axırda utanıb üzr istəyəsən.
Kamanın boşsa da, bərksə də əgər,
Ehtiyatsız çəksən bəla gətirər.
Boş olsa məlamət gətirər kaman,
Bərk olsa xəcalət gətirər kaman.
Bağlı bir qıfılı açmaq istəsən,
Əvvəlcə sınaqdan keçir onu sən.
Harda quyu varsa, ipsiz iş olmaz,
Ayaqsız bir yol da başa vurulmaz.
Məcnun ilə Səlam bağlayıb ilqar,
Bir neçə günlüyə yoldaş oldular,
Şirin qəzəllərin axırdı səsi -
Məcnunun qonağa buydu töhfəsi.
Məcnun şerləri dedikcə bənd-bənd,
Onları döşünə yığırdı o mərd.
Çox zəif düşmüşdü Məcnun bu zaman,
Büsbütün qalmışdı yeyib yatmaqdan.
Səlamsa bunlara heç dözməyirdi,
Yeməkdən yatmaqdan əl üzməyirdi.
Elə ki, buxçası boşaldı, yenə
Qayıtmaq istədi o öz evinə.
Axır vidalaşıb atdı Məcnunu,
Vəhşilər içində tək qoydu onu.
Bağdada üz tutub yola düzəldi,
Yadında bir neçə qəsidə gəldi.
Harda bir qəsidə çıxsa ağzından,
Bütün dinləyənlər olurdu heyran.

## MƏCNUNUN ƏZƏMƏTİ HAQQINDA

Məcnunu sərsəri zənn etmə ki, sən.
Deyildi gördüyün divanələrdən.
Oruclu, namazlı, nurlu bir çıraq,
Əqlə yad deyildi, ədəbdən uzaq.
Vaxtının ən böyük bir alimiydi,
Aləmi şərh edən Loqman kimiydi.
Gizli mənalara o yol açardı,
Qəlbində göylərin min sirri vardı.
Qızıl sikkəsi tək hər sözü gözəl,
Lələ bənzəyərdi dediyi qəzəl.
Dəlinin ağlına bələddir hər kəs,
Ondan bu incilər saçıla bilməz.
Dünyanın qeydini tamam ataraq,
Qeydsiz bir həyat sürürdü ancaq.
Onda ölüm fikri aşıb daşırdı,
Köç tədarükünə hazırlaşırdı.
Deyirdi: "Can evim alışır dərddən,
Ölüm qurtaracaq məni möhnətdən".
Kim ki, düz gəlməsə dünyayla, inan,
Çətin can qurtarar bu dar dünyadan.
Dünyanı dörd əllə tutsa bir nəfər,
Çətinliklə köçüb dünyadan gedər.
Məcnun yol yoldaşı gəzmədən bir an,
Açırdı zənciri öz varlığından.

Taki can ovuna çıxsa yaradan,
"Gətir" dediyi vaxt, desin: "Budur can".
Ömür gəmisində can qorxusu var,
Bu qorxu ucundan geyməzdi paltar.
Xörəyi olmuşdu acı tikələr,
Yeməzdi dünyada o heç bir bəhər.
Dünyadan əl üzüb, düşmüşdü uzaq,
Leyli bəhanəydi bu yolda ancaq.
Nə vaxt ki, arzusu bir yol vurardı,
Dünyadan qaçacaq yeri də vardı.
Onun da qəlbində yaşardı dilək,
Qında saxlayırdı onu qılınc tək.
Visal gəzməyirdi bizim pərizad,
Taki... eşqin evi yaşasın abad.
Bir alim ustaddan soruşdum ki, mən:
Aşiqin halını şərh et bizə sən.
Onu ki, visalə çağırırdı yar,
Möhlət verməyinin nə mənası var?
Neçin muradına yetmədi o da?
Ömründən otuz il o verdi bada?
Dedi ki: - Yetsəydi murada bir an,
Əbədi çıxardı nəşə canından.
Uymadı bir anlıq kefə dünyada,
Otuz il nəşəni vermədi bada.
Bir qədəh alsaydım o şərabdan mən,
Təmənnam qalmazdı iki aləmdən.

## ZEYDLƏ ZEYNƏBİN SEVGİSİ HAQQINDA

Başqa bir aşiq da o zaman varmış,
O da bu dərd ilə zəncir qırarmış.
Dağ kimi durmuşdu ürəyində dərd,
Yazığı dağlara salmışdı möhnət.
Onu qurtarmışdı dəlilik, bilsən,
Bu divdən törəmiş cinsi-bəşərdən.
Təmiz bir gənc idi, vardı hünəri,
Dürrə bənzəyirdi xoş qəzəlləri.
Eşqin acısını dadıb dünyada,
Başını qoymuşdu bu yolda o da.
Öz adı Zeyd idi, sövda gəzərdi,
Xisləti Əmr ilə Zeydə bənzərdi.
Könül yuvasını zülmət sarmışdı,
Onun var-yoxunu eşq aparmışdı.
Əmisi qızına o vurulmuşdu,
Qız da bu oğlana aşiq olmuşdu.
Onların qəlbi də, fikri də birdi,
Onlar bir-birini candan sevirdi.
O gözəl camallı, o qəşəng nigar,
O divanə üçün tutmazdı qərar.
Oğlan da sevərdi öz cananını,
Bir tükdən asılı qalmışdı canı.
Qız ay camallıydı özü də xoşram,
Təmiz xilqətliydi o nazik əndam.
Şümşad nəfəsliydi, rəngi ərğəvan,





Baldırı civə tək, qəddi xeyzəran.
O bütdə hamının nəzəri vardı,
Dünyaya qiyamət şuru salardı.
Şən idi, şux idi, həm də füsunkar,
Gözəllər gözəli, o nazlı nigar.
Min səfra başını gicəlləndirən,
Min sövda səfrası qırardı hərfdən
Tük kimi incəydi beldən o dilbər,
Ağzı xırdacaydı qanşqa qədər
Şəki alması tək çənəsi vardı
Məkkə qumundan da çox yandırardı.
Öpüşü bal kimi, hüsnü bəxtəvər,
Dadına çatmazdı nə qənd, nə şəkər.
Dodağı nabatla şəkərdən şirin
Nabat-meyvəsiydi öpüşlərinin.
Hər kəs camalında bir su görərdi,
O dirilik suyu, həyat verərdi.
Uca bir sərv idi onun vüqarı,
Gülabla şəkərdi bu sərvin barı.
Camalı günəşlə bir asimanda,
Ətri də ənbərlə bir karivanda.
Hüsnünün şövqiylə əsirdi ruzgar,
Zeynəb adlanırdı o gözəl nigar
O nazənin qızın qəmiylə yanan
Zeyid axtarırdı bu dərdə dərman.
Neyləsin, hayandan bir çarə bilsin
Ki, ləli qart daşdan qopara bilsin.
Zeydin qohumluqda bir aybı vardı
Ki, dünya malından kasıb yaşardı.
Varlı əmisini yoxsul Zeyiddən
Bircə dövlət idi yaxşı göstərən.
Zeyd öz əmisindən dövlət görmədi,
Ondan qız istədi, qız da vermədi.
Hər işdən soyudub xəyala daldı,
Əmisi yad oldu, o yazıq qaldı.
Canan arzusuyla o axşam, səhər
Natəvan gəzirdi qəlbində kədər.
Ağlar nəğmələri bir dəfə gülməz,
Deyirdi: "Mən günə düşməsin heç kəs"
Əmi gizlədərdi qızını ondan,
Pərdələr dalında saxlardı pünhan
Zeydə öz qızını verməmək üçün
Dövlətli bir kişi gəzirdi hər gün.
Nəhayət, məqsədə yetişdim, deyə,
Verdi öz qızını bir dövlətliyə.
Yazıq Zeyd o gündən düşdü həsrətə
Sövdası qərq oldu qəmə, möhnətə.
Yeməkdən, yatmaqdan qaldı sərbəsər,
Tutdu sövdasından yer üzü xəbər.
O da Məcnun kimi çəkdi göz dağı,
Zəncirə bağlandı əli, ayağı.
Hünərsiz, vəfasız yoldaşlara bax.
Ondan ayrıldılar uzaqlaşaraq.
Bir özü, bir könlü qaldı dünyada

O da ki, daima yanırdı oda.
Qığılcım saçırdı ondakı ciyər,
Leyli də tutmuşdu bu dərddən xəbər.
Ara bir yanına çağırıb onu,
Oxşar, əzizlərdi eşqin oğlunu.
Ondan hal tutardı o gözəl nigar
Dərdinə qoşulub ağlardı zar-zar.
Zeydin vəfasını xoşladığından,
Ona öz sirrini açdı o canan.
Zeyd isə mehriban, gözəl Leylidən
Xəbər aparırdı Məcnuna bəzən.
Məcnun ki, canandan xəbər bilərdi,
Onun qarşısında rəqsə gələrdi.
Zeyd idi Məcnunun eşqinə həmdəm,
Xəbər gətirərdi yarından hər dəm.
Ona xoş xəbərlər dedikcə gündə,
Məcnun qul olmuşdu onun önündə.
Zeydi çox görmüşdü vəhşi heyvanlar,
Vəhşilik hissindən qalmışdı onlar.
Məcnun ayrılığa düşəndən bəri
Ayüzlü Leyliyə dediyi şeri
Zeyd öz əlləriylə yazıb kağıza,
Aparıb verərdi o gözəl qıza.
Dostlar arasında o, yol salardı,
Məktub apardıqca, məktub alardı.
Bir axşam Məcnunun, novhə yerindən
Dürrlər axdıqca şerlərindən,
Zeyd ona üz tutub dedi töhmətlə:
"İncilər səpirkən sən bu sənətlə,
Nə üçün dəlilik yolu tutaraq,
Ağlın şöləsindən gəzirsən uzaq.
Sən söz ustasısan, ey böyük insan.
Nə üçün bu yazıq günə qalmısan
Zahirdə çox rüsva görünsən də sən,
Sövdada Zeyiddən artıq deyilsən.
Mən də ağlayaraq, qəmlər içirdim.
Səndən də pərişan günlər keçirdim.
Nəhayət, səbr edib yaşayaq dedim.
Sonra su da içdim, çörək də yedim.
Gəl vurğun könlünü unudub dincəl,
Adına bir Məcnun deməsinlər gəl".
Şəhvəti öldürüb bəniiyi atan,
Dünya görmüş Məcnun qızıb bu zaman,
Zeydin töhmətindən alışıb yandı,
Vurğun deməsinə çox acıqlandı.
Zeydə söylədi ki: "Bu üz ilə sən
Uzun danışansan çəkil gözümdən.
Mənə bir sifariş gətirdin əgər,
Söylə artıq-əskik danışma hədər
Uzun danışanın pis olur səsi,
Danışma Zeyd ilə Əmr əfsanəsi.
Mənə dəli dedin, nə haqqın vardır?
Dəli təkəbbürlü dolananlardır.
Mən div bağlayanam, bir div deyiləm,

Huri, mələk kimi azadam bu dəm.
Div xisləti deyil, xoşdur xislətim,
Dünya şahındandır bu təbiətim,
Mənim xasiyyətim xoş olduğundan,
Yanımda ram olur bu qədər heyvan.
Günaha batsa da mənə baxanlar,
Lətif xasiyyətli bir xilqətim var.
Düzlük axtarmaqdır mənim adətim,
Onunçün əyridir bu gün qamətim.
İki düz alətin nəğməsimi var?
Bərbət əyri olar, mizrab düz olar.
Əyri qaynılmasa tutulan kaman,
Düz nişan gözləmə atılan oxdan.
Üzərlik yerinə yanan naləmdən
Əziyyət paltarı toxuyuram mən.
Mən yaman gözləri yaxşı bilirəm,
Onunçün gözümdən qorxuram bu dəm,
Pisdir öz gözünə gələrsə insan,
Uğrasın nəzərə bir başqasından.
Dəli o şəxsdir ki, dünya varını
Çox sevib, bərkidir ev hasarını.
Mən özüm kamala yetəndən bəri
Açdım boynumdakı ağır bəndləri.
Rişəsi dörd olan bu ağacın mən
Dörd mıxlı kökünü kəsirəm, bilsən.
Qurtuluş qəbzidir məndə yadigar.
Nə paltarlığım var, nə paltarım var.
Sınıq bir gəmidir aparan məni,
Varsın da olmasın onun yelkəni.
Gəmim dəryalarda batmazdan qabaq
Yükümü ataraq qalıram çılpaq.
Mənim o dünyaya məhəbbətim var,
Nə minnət çəkənəm, nə minnətim var.
Çarmıxa çəkilmiş bir bədən yəqin,
Köç vaxtı can versə çox olar çətin.
Səndən can istəyən o yar gözəldir,
Sənin can verməyin hökmi-əzəldir.
Sevgi meydanında yalnız dayanmaq
Canana can vermək şərtdəndir ancaq.
Demə ki, bu torda dolaşdıqca mən,
Bir dən arzusudur keçən qəlbimdən.
Torun gözlərində inan ki, hər gün
Əl-ayaq çalıram batmamaq üçün.
Tikanlı dünyadan istərəm müdam,
Murdar kimi deyil, mərd kimi çıxam.
Dünya ikilaylı qapıya oxşar,
Odur ki, tutmaram bir yerdə qərar.
Bu layın birini açanda insan,
O biri başına dəymiş hər zaman.
Quyuda yerləşmiş aciz bədənin,
Zəncirə möhtacdır həyatın sənin.
Yol ayrıcındakı bu bədbəxt bəşər,
Quyudan zəncirsiz çıxamı bilər!
Gözəllər zülfüdür dediyim zəncir,
O da ki, rəqibin əllərindədir.
Quyudan qurtarmaq mümkün olsa da,
Özgənin əliylə olacaq o da.
Özünün qəmindən at sürən adam
Özgənin qəmindən azaddır müdam.
İnsan öz bütünü sındırsa əgər,
Başqa bütə necə pərəstiş edər?
Dəvəmi bir bütə tərəf sürərsəm,
Canım öz bütümdən qurtarar o dəm.
Qırmızı şərabı içsə bir nəfər,
Öz zəhmətlərindən çox yüngülləşər.
Məqbuldur belə iş, mənfəətlidir,
Qafillər gözündə çox dəhşətlidir.
Şikayət etmirəm mən bu halımdan.
Yoxdur bundan rahat başqa bir cahan,
Bu fındıq şəklində səmaya bir bax.
Başıma daş yağır göylərdən ancaq.
Canın məğzi olan öz başını sən,
Bir sümük zirehlə hifz edəməzsən,
İydətək qırmızı olsam belə mən,
Çılpaq olduğum vaxt ağarar bədən.
Badam ki, deyiləm mən çılpaq olam,
Zənci tək qap-qara balalar doğam.
Allahdan gəlmişdir mənə bu qismət,
Xoşdur bu çəkdiyim bəlalı möhnət.
Qoltuqda turş qora gəzdirib satan
Meyvəçi bir misal çəkmiş bir zaman:
Qardaş, əncir satan bir adam üçün
Əncirі satmaqdır hər şeydən üstün.
Hər kəs sənətindən yapışsa əgər,
Dünyada nə əksə onu da biçər.
Oxumu hədəfə düz tutmuşam mən,
Kaman boşluğudur ziyan gətirən.
Xəzinə bəndini açardım, ancaq
Açar şüşədəndir bəlkə sınacaq.
Hər qorxu içində bir umud da var,
Umud zamanında qorxu da olar.
Yox bu xərabatda mənə bir həmdəm,
Bütün qohumlardan uzaq düşmüşəm.
Qeybət eyləmərəm, hiylə bilmərəm,
Qafil yaşamaram, dərdə gülmərəm.
Əcəl pəncəsinə düşməmiş bədən,
Köç səsi, "Köçməyə yığış" deməden
Bu möhnət evindən qalxaraq bu dəm,
Bu gordan o gora mən getmədəyəm.
Başqa bir dəlilik görmürəm məndə,
Dəlilik budursa, dəliyəm mən də".
Kamal dəryasını bir az da açdı,
O, polad diliylə gövhərlər saçdı.
Bu cana yayılan xoş cavablardan
Zeyd artıq utanıb, dinmədi bir an.
Bildi o budağın qönçəsi təkdir,
İkinci bir qönçə verməyəcəkdir.
Ədəb dərsi aldı haman vəfadan,





Ağzını min mıxla mıxladı birdən.
Sadiq yoldaş olub yenə Məcnuna,
Xəbər gətirirdi Leylidən ona.
Məcnun da nə desə, savabdır, deyə,
Tamam çatdırardı gözəl Leyliyə.
Ay ilə günəşin arasında tək,
Qasidlik edərdi o da Zöhrə tək.

## İBN-SƏLAMIN ÖLÜMÜ

Bütün nöqtələrdə iş nişanı var,
Zərurət üzündən baş verir onlar.
Bütün varlıqların hərəkətində
Məqsud yazısından bir xətt var yenə.
Kağızın, bax, iki üzü var həmən,
Odur hədəf olar o iki üzdən.
Bu üzdə tədbirin sayıdır ancaq,
O üzdə təqdirin hesabına bax.
Bu iki hesabda bir ziddiyyət var.
Bunu yaxşı bilər arif hesabdar.
Sən gül saydığın gül sancdığı zaman
Tikan olduğunu bilərsən haman.
Bir çox qara olan salxımlar da var,
Yoxlarkən bilərsən, üzümdür onlar.
İnsanı süst edən aclıq da bəzən,
Həzmə kömək olur, saflaşır bədən.
Sənsə bu dünyanın ziddiyyətinə,
Dava etməkdənsə, təslim ol yenə.
Müxtəsər, dünya ki, yaranmış belə,
Sən də turş sirkəni, bal hesab elə.
Gözəllər çırağı o Leyli nəydi,
Dərdi başqasına bir xəzinəydi.
İlan halqasından çəkilmiş hasar
İçrə, xəzinəydi o gözəl nigar.
Məşəqqət içində dustaq yaşardı,
Sanki daş bağrında bir ləl vardı.
Əjdaha ağzında ay kimi yalnız,
Bir ağır qiymətli gövhərdi o qız.
Ərisə daima qəmlər yeyirdi,
Ona keşik çəkib, şükür deyirdi.
O pəri qızının söhbəti üçün
Polad qeydindəydi hər gecə, hər gün.
Hünərlə səbr edib, qəmlə gəzərdi,
Özünü aldadıb, dərdə dözərdi.
Təklikdə ağlardı o gözəl pəri,
Silərdi gözünü gələndə əri.
Təklikdə inlərdi o ahugözlü,
Əri olan yerdə ağlardı gizli.
Ah çəkib, of deyən o dərdli sənəm
Ağlaya bilməzdi aşkara bir dəm.
Gizlində çəkilsə bir ağrı, bir dərd
İnsanın ömrünü çürüdər möhnət.
Ərin, qohumların xəcalətindən,
Zülfü tək pərişan gəzirdi bilsən.
Yoldan bir yad adam keçdiyi zaman
Dalınca həsrətlə baxıb çadırdan,
Ağlardı, ağlardı yanıb qəmlərə
Sonra üzü üstə düşərdi yerə.
Daldan ayaq səsi gəlsəydi bir an,
Zorla əl çəkərdi ağlamağından.
Şam kimi yandıqca könlünün bağı,
Gülüşlə sınardı hər ağlamağı.
Lakin, əl çəkməzdi pislikdən fələk,
Leyli ah çəkərdi qəmlər yeyərək.
Gəldi bir zaman ki, qansız ruzigar
Dolanıb, hökmünü verdi aşikar:
O qədər visalsız keçdi günləri,
Qəmdən xəstə düşdü Leylinin əri.
Pozuldu bədəni qəmlə möhnətdən,
Artıq İbn-Səlam düşdü qüvvətdən.
Qızdırma qoymadı canından əsər,
Qalxdı hərarəti beyninə qədər.
Onun bədənindən köçdü rahatlıq,
Sağlamlıq şüşəsi qırıldı artıq.
Qarurə tanıyan baxdı nəbzinə,
İstədi səhhəti düzəlsin yenə.
Qaydayla, hörmətlə zəhmət çəkərək,
Deyirdi, xəstəlik sağalsın gərək.
Nəhayət, dincəldi o zəif bədən,
Göründü səhhətin yolu yenidən
Bir az yaxşılaşdı o zəif ürək
Anq vicudunu kökələn görcək,
Zərərli şeylərdən pəhriz etmədi,
Təbibin dediyi yolla getmədi
Yalnız sancı deyil pəhrizlə gedən
Onunla dincəlir zəhmətdən bədən
Rahatlıq vaxtında cana xeyri var,
Əzab zamanında nəcat tapılar.
Gülün zillətindən min dərman törər,
Dürr xəznəsindən dəvə yüklənər.
Xəstə qurtarınca tünd qızdırmadan,
Yenə pəhrizini pozduğu zaman
Qızdırma bir daha gəldi bədənə,
Əvvəlki xəstəlik qayıtdı yenə,
Birinci yarayla zəif düşən can
İkinci yarayla köçdü dünyadan.
Birinci su ilə islanan torpaq
İkinci su ilə oldu bir sıvaq.
Əvvəl bir zəlzələ qopardı ruzgar
Sağa da, sola da çatladı divar.
İkinci zəlzələ qopduğu zaman
O çatlamış divar uçdu binadan.
Xəstə iki-üç gün darda qalaraq,
Nəfəs vurmadaydı səhhətdən uzaq.
Elə ki, təngidi köksündə ürək,
Çırpdı şüşəsini daşlara külək.
Yel kimi dünyaya əl edib həmən,
Qurtardı dünyanın işkəncəsindən.

O getdi, bu haldan bizimçün də var,
Dünya öz borcunu geriyə alar.
Dünyanın borcundan qorxmalısan sən,
Bir çöp olsa belə alacaq səndən.
Bu borcu verməyə çalış, ey insan,
Çalış ki, qurtarsın minnətdən yaxan.
Bu borcun üstündə sən tutsan qərar,
Əndama mıx olar, bədənə mismar.
Öz cövhərin üçün bu sandığı qır,
Göyərçinlər kimi göylərə hayqır.
Dördköklü yeddi qat bir ağac, inan,
Min yerdən mıxlanmış bu doqquz qalxan,
Ölümlə üz-üzə durduğu yerdə
Elə düşərlər ki, qalxmazlar bir də.
Bu gözəl günbəzdən doğanda səhər,
Dünya xırmanına düşən ataşlar,
Hər axşam çağında fələyə qədər
Bu palçıqlı küpdən qalxan tüstülər,
Deyir ki: - Dünyaya nəzər yetir bir,
Dünya bir tüstülü ataşgədədir;
Gecə də, gündüz də ciyərlərinə,
Od vurduğu halda sən şadsan yenə.
Çoxdan həyasızdır bu iki quş, bax,
Sənin xurcununu deşirlər ancaq.
Bir dan xırmanı olsa da ömrün,
Bu quşlar onu da yeyəcək bir gün.
Sanma ki, dünyada can qalacaqdır,
Nə varsa, bir zaman məhv olacaqdır;
Ömrün çətinliklə yüz yaşa yetər,
Yüz deyil, min il də yaşasan əgər,
Ölümün dəhşəti pusquda durur,
Özünü getmiş bil, doğru söz budur.
Nakam İbn-Səlam öldüyü zaman
Leyli ceyran kimi sıçradı tordan.
Bu ölüm Leyliyə xeyir olsa da,
Ölən öz əriydi, incidi o da.
Zahirdə ərinə matəm saxlardı,
Batində Məcnunu anıb, ağlardı.
Saçını yolardı, anıb Məcnunu,
Guyaki əriçün eyləyir bunu.
Ərinin üstündə etdiyi şivən
Məcnunu oxşardı yalnız ürəkdən.
Zahirdə ərinin xatiri vardı,
Batində dostunu, duyub anardı,
Bir bəhanə tutub ölmüş ərini,
Ağlayıb sökərdi can dəftərini.
Ərinin üstündə dediyi dillər
Dostunun halından verirdi xəbər.
Sözlərin qabığı əriydi yalnız,
Məğzində dostunu oxşardı o qız.
Ərəb qaydasınca, əri ölən şəxs
Matəm saxlayaraq gözə görünməz.
İki il qapalı evdə əyləşər,
Qadının üzünü görməz bir bəşər.

Bacardığı kimi oxşayıb ağlar,
Şerlər deyərək, qəlbini dağlar.
Bu bəhanə ilə fürsət taparaq,
Çadrını xəlvətə çəkdi Leyli, bax.
Ərinə el dəbi yas tutmaq üçün,
Qəm ilə üz-üzə oturdu hər gün
Artıq, fürsət tapdı o ağlamağa,
Səbrini ellərə verdi sadağa.
Yas bəhanəsiylə yüksəldi səsi,
Yeddinci fələyə qalxdı naləsi.
Qəlbində hicranın tükənməz dərdi,
Üzünü, gözünü sillələyərdi.
Artıq nə qorxusu, nə qeydi vardı,
İstədiyi kimi nəfəs alardı.

## ZEYDİN İBN-SƏLAMIN ÖLÜM XƏBƏRİNİ GƏTİRMƏSİ

Bu gözəl dastanı bizə nəql edən,
O iliyə qədər çürümüş bədən
Dedi ki: canandan uzaq düşən Zeyd,
Qəlbinin başında min ağrı, min qeyd,
Səbr ilə udardı bu ağır dərdi,
Yazıq su yerinə qanlar içərdi.
Onun bu sirrinə bələd qohumlar
Bir çarə tapmağı vermişdi qərar.
Zorla alınmışdı o sevdiyi yar,
Zeydə yoldaşları kömək durdular.
Səbriylə gəldi Zeyd o dərdə üstün,
İşinin düyümü açıldı bir gün.
Aşkar olmasa da, gizli, bir təhər
Zeyd ilə o Zeynəb görüşürdülər.
O, canan yanına getdikcə az-az,
Qəlbin aynasından silinirdi pas.
O təzə qönçəylə görüşən zaman
Açıb söyləyirdi dərdini pünhan.
Mehribanlıq dolu şirin dodaqlar
Gizli nəvazişlər elərdi izhar.
Elin qaydasına uyğunlaşaraq,
Quruca hal-əhval sorardı ancaq.
Könüllər pak idi, saflıq duyardı,
Ortada həyalı baxışlar vardı.
Çarə tapmışdısa Zeyd öz dərdinə,
Məcnunun qeydinə qalırdı yenə.
Məcnunun dərdinə qalıb ürəklə,
Çarə axtarardı min bir diləklə.
Öz dərdi başından aşıb daşardı,
Lakin Məcnun üçün çox çalışardı.
Elə iş gördü ki, durduqca cahan,
Afərin söyləyər hər xatırlayan.
Səndən də yaxşılıq qalsa yadigar,
O camal sənin də üzündə parlar.
Bir çox sifətlər var insanda hələ,
Almasan yaxşıdır onları dilə.





Pis sözü ağzına alınca insan,
Qarnında öldürsə yaxşıdır, inan.
Bu dünya dolanıb, döndükcə ruzgar,
Qoy səndən yaxşı söz qalsın yadigar.
Səndən də, məndən də nə qalsa ancaq,
Bil ki, kəndxudaya qismət olacaq.
Köçdü İbn-Səlam, getdi dünyadan.
O quş bu qəfəsdən qurtaran zaman
Zeyd baş götürüb, yola çıxdı tək,
Məcnunun yanına gəldi sevincək.
Ölümün verdiyi acı qədəhdən
Məcnuna tez xəbər yetirdi həmən
"Arzu karvanıyın o yol vuranı
Sənin sağlığına tapşırdı canı.
Artıq ölüb getdi bil İbn-Səlam,
Ömrə sən layiqsən, sən yaşa müdam"
Məcnun bu löqməni ağzına aldı,
Fələyin dövrünə bir nəzər saldı
Bir fəryad qopardı, nərə çəkərək
Çəkdiyi nərədən titrədi fələk.
Gah rəqsə gətirdi onu həyəcan,
Gah da öz şəklini gördü məzardan.
Sevindi bu işə o bir cəhətdən
Gülün ətəyindən kəsildi tikən.
O biri cəhətdən duyurdu ürək:
Rəqibi öldüsə, o da öləcək
Odur ki, gülməyib, ağladı dərhal,
Ağlamaq əmr etdi bu dəmdə kamal.
Ağlayıb, ağlayıb, ağrılar uddu,
Sonra Zeydə baxıb, acığı tutdu:
"Sən, ey ürəyində bir nalə, min qəm,
Baş ağrımı çəkmiş vəfalı həmdəm!
Könüldə bir mətləb ummuşam səndən,
Qulaq as, bu sirri açıq deyim mən:
Bu günki varağı sən açıq, aydın
Oxuyub, ortada xəta buraxdın.
Dedin ki: filankəs dünyadan getdi,
Sənə öz canını sadağa etdi.
Sevsəydin dostluğun düz peymanını,
Deyərdin "Leyliyə verdi canını".
Ona qismət olan bir tikə, inan,
Mənim boğazımdan keçməz heç zaman".
Zeyd ona dedi ki: "Ay canım, burax;
Leylini sevmisən sən ondan qabaq.
O bərabər olan iki nəqşdən,
Birini əksiltdin öz əlinlə sən.
Aradakı fərqi sildin ortadan,
Varağın birindən qoymadın nişan.
Madam ki, nə mənlik, nə də sənlik var,
İkilik rəqəmi mənasız olar.
Mən də qaydalara aldanıb bu dəm,
Mənə yaraşmayan bir söz demişəm.
Yaxşı düşmədisə söhbətim, sözüm,
Mən gedə bilərəm, incimə, gözüm!"

Məcnun bu cavaba asdıqca qulaq,
Zeydi qucaqlayıb dedi: - Sözə bax!
Dedi: "Ey müsahib, dilinə əhsən!
Ən xoş nəsimlərin ən gözəlisən!
Nə gözəl danışdın, nə xoş söylədin,
Mənə layiq oldu cavabın sənin.
Nə gözəl, nə dürüst cavabların var,
Bax belə danışar həmdərd olanlar!
Cahanda hal əhli olsa bir nəfər,
Onunla danışmaq dünyaya dəyər.
Mən əhd etmişəm ki, nə qədər sağam,
Səninlə daima dost olacağam.
Nə qədər ömrüm var, səninlə varam,
Neyləsən yolundan baş qaçırmaram.
Daima dərs alıb dediklərindən,
Səndən sirr saxlasam, kafir olum mən".
Məcnunun qəlbində ayrılıq dərdi,
Əmr tək Zeyd ilə ömür sürərdi.
Aradan bir həftə gəlib ötüşdü
Bir gün ayrılığa bəhanə düşdü.
Məcnun yuvasına yollandı yenə,
Zeyd də qayıdıb getdi evinə.

## LEYLİNİN ALLAHA YALVARMASI

Vaxtın buxağından, qulaqlarından
Gecə, incisini asdığı zaman
Leyli göy üzündə Sürəyya kimi,
Gözündən dənizə səpirdi inci.
Bir oydu, bir gecə, bir dərd, bir də dağ,
Onun həmdəmiydi yalnız bir çıraq.
Gecələr yatmazdı, pərvanələr tək,
Gecədən çırağa gileylənərək.
Deyirdi: "Nə zaman qurtaracaqdır,
Bu gecə fələyin alnında dağdır.
Mənə qismət olan gecəyə bax bir,
Bütün varlığımı o, həlak edir.
Bu uzun qaranlıq gecəyə, inan,
Bir əlac tapmıram əlacsızlıqdan.
Qəlbində qalmamış onun hərarət,
Qorxuram səhəri olsun qiyamət.
Gülmədim bu gecə gələndən bəri,
Bari, xoş olaydı onun səhəri.
Ev uçmuş, çıraq da sönmüşdür bu dəm,
Bağı talan olmuş bağban kimiyəm.
Tutaq ki, xoruzun boynu vurulmuş
Sübhün nəfəsinə, deyin, nə olmuş?
Tutaq ki, qarının xoruzu öldü,
Məhlə azançısı yerə gömüldü,
Səhər növbətçisi getmişdir hara?
Yadından çıxdımı onun nağara?
İlahi! Məni sən canana yetir!
Oduna yandığım o şəmi gətir!
Mənə işıq verər o sevdalı yar.

Bu zülmət gecəni o işıqladar"
Dilindən düşmədi səhərə qədər
Bu duaya oxşar dərdli nəğmələr

LEYLİ İLƏ MƏCNUNUN GÖRÜŞMƏSİ

Tezdən duran xosrov səhər vaxtında,
Sevinclə əyləşdi şahlıq taxtında.
Günəş ki, eşq ilə öpdü gündüzü,
O eşqə baş əydi bütün yer üzü.
Gözlərə nur verən bu işıqlı gün
Novruz bayramından xoş idi o gün.
Arzu kəmərini bağlamışdı baxt,
Qüssə dağılmışdı dünyadan o vaxt.
Leylinin ayağı zəncirdən azad,
Aləmi ay kimi gəzirdi dilşad.
Heç kəsdən çəkinib qorxmayan o qız
Aşkara dərd çəkib, ağlardı yalqız.
Canı qurtarmışdı ər qayğısından,
Artıq güdməyirdi onu bir insan.
Qəlbində alovlar, yanıb ağlardı,
Nə ata, nə ana qorxusu vardı.
O, evdə, sarayda, məhəllədə tək
Gəzirdi, üzünü əllə örtərək.
Hər dəmdə bir könül axtardığından,
Hər qəlbə peyam da verirdi pünhan.
O hər bir fələyə işıq açardı,
Hər bir nəfəsə də ənbər saçardı.
O kimi axtarıb yanırdı oda?
Bircə dostu vardı onun dünyada.
Ərinin yasını qurtardı, yenə
Çəkdi qəm evini ata evinə.
Səbrə qatlaşmağı buraxıb artıq,
Eşqin pərdəsini atdı apaçıq.
Şərab şüşəsini sındırıb bütün,
Suya qalxan tutdu gül kimi o gün.
Qıfılla bağlanmış o durr, o canan
Qapını qıfılsız gördüyü zaman
Çarə axtarmaqda tərpənib zirək,
Səhhət axtarırdı, çarə gəzərək.
Hicrədə əyləşib fikir eylədi,
Zeydi çağırtdırıb, belə söylədi:
"Bu gün ki, intizar günü deyildir?
Bu visal günüdür, get yara bildir.
Dünya nə gözəldir, bir oyan, az yat,
Get şəkəri gətir, qızıl gülə qat!
Sərvin qucağında yatır çəməni,
Lalənin sapına düz yasəməni!
O gözəl ahunu tapıb tora sal,
O müşk nəfəsini indi ələ al.
Onun tikanından ipək tutaq biz,
Tozundan qayrılsın qoy ənbərimiz.
Qoy alım onunla könüldən nəfəs,
Həmnəfəslərimdən qalmamış heç kəs.
Pusquya gəlməmiş insafsız əcəl,
Bir onu görsəydim əcəldən əvvəl".
Leyli xəznədəki xəzlə ipəkdən
Bir paltar çıxartdı o nazik bədən.
Ona layiq olan bir neçə şey də
Şah kimi götürüb tapşırdı Zeydə.
Zeyd isə şadlanıb bu hədiyyədən,
Ucaldı dağ kimi, qalxaraq həmən,
Bütün paltarları çölə gətirdi,
Qanadsız hümaya müjdə yetirdi.
Bütün paltarları verdi Məcnuna,
Xoş xəbər danışdı Leylidən ona.
Məcnun bu xəbərdən şadlanıb o dəm,
Atlanıb düşürdü o talei kəm.
Dönüb fələk kimi hər bir tərəfə,
Yerində fırlandı o, yeddi dəfə.
Onun yeddi dəfə bu hərlənməyi,
Keçib yeddi çərxi ötdü fələyi.
Sonra da üzüylə yer süpürərək,
Şükür səcdəsinə o baş qoydu tək.
Öpüb o paltarı, yad etdi yarı,
Sonra da əyninə geydi paltarı.
Dostluq bulağında aldı dəstəmaz,
Hicran zillətindən qurtardı bir az.
Ay kimi parlayan üzünə bax sən.
Ənbər qoquyurdu xoş nəfəsindən.
Şer deyə-deyə üz qoyub yola,
Şəkər dağıdırdı o sağa-sola.
Dişili, erkəkli bütün vəhşilər
Onun arxasınca yola düşdülər.
Məcnunla bir yerdə hamsı durardı,
Onun ətrafında halqa vurardı.
Canan qapısına yetişib durdu,
Ordusu da vardı, amma nə ordu?
Elə bir ordu ki, döyüş zamanı
Pəncələr olardı qılınc, qalxanı.
Zeyd xəbər yetirdi o Zübeydəyə,
Bu qoca xəlifə yumşalmış, deyə.
Məcnun ki, çəkdiyin qəmə sirdaşdır,
O bu gün qapında torpaqdır, daşdır.
Səcdənə düşmüşdür, rəhm et Məcnuna,
İçəri gəlməyə izin ver ona.
Leyli bu müjdəni eşidən zaman
Xarabəyə döndü bu abadlıqdan.
Çadır dirəyi tək qalxaraq əvvəl,
İp kimi sərildi sonra o gözəl.
Huşsuz vəhşilərdən tamam bixəbər,
Çadır dirəyi tək qalxaraq əvvəl,
Şümşad ayağına düşən bir od tək,
Qonaq ayağına düşdü o mələk.
Məcnun seyr elədi dərdli cananı,
Ayaq pərdəsində görüncə canı.
Naləsi titrətmə saldı göylərə,
O da huşdan olub yıxıldı yerə,





Cansız bir dirəkdi o nazik bədən,
Məcnun da canlı bir ölüydü bilsən.
Dünyanın səsindən tamam bixəbər,
Huşsuz uzanmışdı o sevgililər,
Məcnunla yol gəlmiş çöl heyvanları
Bu vaxt ortalığa alıb onları,
İki sevgiliyə keşik durdular,
Dağ çənbəri kimi halqa vurdular.
O qədər çoxdu ki, orda vəhşilər,
Yol tapa bilmirdi onlara nəzər.
Oraya gəlmişdi iki-üç insan,
Onları vəhşilər dağıtdı haman,
Ortadan çıxaraq yerdə qalanlar,
Hərəsi bir küncdə gizləndi onlar,
Orda huşu getmiş o sevgililər
Qaldılar günorta olana qədər.
Zeyd gəlib gülabla ənbər yetirdi,
O qoşa baharı cana gətirdi.
Elə ki, huşları qayıtdı yenə
Dinməzcə baxdılar biri-birinə,
Leyli utanaraq, qızardı gül tək,
Torpaq qəribinə yaxın gələrək,
Əlindən yapışıb çəkdi iləri,
Çadrına apardı o gözəl pəri.
Onu çadırında oxşadı nazla,
Ovutdu qəlbini min bir avazla.
Zeyd məhrəm kişiydi, həm də mehriban,
Əmr-As olmağı atıb ortadan,
Qapının ağzında o da halqa tək,
Haman vəhşilərlə əyləşmişdi tək.
Hərəmi dörd yerdən tutan heyvanlar
Onun ətrafında çəkmişdi hasar.
Havada milçək də uçsaydı əgər,
Tutub parçalardı onu vəhşilər.
Orda vəhşiləri görən bir insan
Yaxına gəlməzdi can qorxusundan.
O bağlı qapını görüb bu saat,
Heyrətə düşmüşdü bütün camaat.
Həqiqi eşqdir, - deyirdi hər kəs, -
Ona bulaşmamış şəhvətlə qərəz.
Bu həqiqi sövda düşəcək dilə,
Ona ram olmuşdur vəhşilər belə.
Ona vəhşilərdən dəymayir zərər,
Yoxdur xilqətində vəhşətdən əsər.
Qəlbində vəhşəti boğduğu üçün,
Durmuş xidmətində vəhşilər bütün.
Bu torpaq nəslinin sövdası, aşkar,
Paklıqla yaranıb tutmuşdur qərar.
Bu gün naləsini eşitdiyimiz
Hər iki aşiqə nəzər salaq biz.
Əldə içilməmiş qədəhlərindən
Bu xarab, o biri sərxoşdur, bilsən!
"Artıq qucaqlaşın" deyirkən zaman,
Bu əldən getmişdi, o biri huşdan.

Bu eşq dəlilikdən törənməmişdir,
Dünyaya dərs olan nadir bir işdir.
Kim ki, hal əhliydi, dadmışdı dərdi,
Evində onlardan söhbət edərdi.
O bağlı xəzinə, ətrafı hasar,
Durmuşdu yanında gənc xəzinədar.
O əziz qonağın eşqiylə durdu,
Onu bəzəndirib min ziynət vurdu.
Öz gözəl saçının həlqələrindən,
Ona çalma hördü o nazik bədən.
Diyləmi sakitcə görüncə o yar,
Qıvrım saçlarından geydirdi paltar.
Onu qəlb evinə eylədi sultan,
Həmail qolunu saldı boynundan.
Sonra da bərk basdı bağrına birdən.
İki gül cücərdi bircə qönçədən.
Onu kökləmədən, mizrabsız çaldı,
Şərabsız, öpüşsüz ağlını aldı...
Zəncirdən açıldı əlif ilə lam,
Üzdən bir-birinə yapışdı tamam,
İki əyilmiş xətt, artıq öpüşdü,
Bütöv bir dairə şəklinə düşdü.
Ədlin tərəzisi bərabər olcaq
Quş qanad gətirdi, uçmadı ancaq.
İki şam bir teştdə yıxıldı, bilsən,
Ruhları bir idi, birləşdi bədən.
İki sap bir tovda eşilmiş oldu,
İki sürahi də bir sudan doldu.
İki lay vuruldu bir qapıya tən,
İki göz yarandı bir baş üstündən.
Birləşdi bu zaman uzaq qütblər,
Bir nurla parladı o iki səhər.
Könülləri yanmış o iki dildar
Bir gecə bir gündüz belə qaldılar,
Nə onun, nə bunun qalmışdı huşu,
Ortadan uçmuşdu ehtiras quşu.
Onlar özlərinə gəldiyi zaman
Şahin uçmuş idi, şah da arxadan.
Çadırdan bayıra çıxmışdı canan,
Onun keşiyində dururdu soltan.
Yığışıb köçmüşdü sarayından şah,
Tacı da, taxtı da boş qalmışdı, ah!
Məhəllə əğyardan boşalmışdı, bax!
Orda sevgililər qalmışdı ancaq.
Məcnun o cananı hazır görərək,
Evi danışıqdan boşaltdı, gerçək.
Özü də halqa tək qapıda durdu,
Məcnunun gözüydü Leylinin yurdu.
Elə ki, qəlbində yer verdi ona,
Qapıçı olmağı aldı boynuna.
O iki qazanın isti dodağı
Kasa tək lal idi bu visal çağı
Əsincə behiştdən sərin bir külək
O iki alovu söndürdü şam tək.





Eşq gəlib, üzərlik yandırdı dərhal,
Ağızlar bağlandı dillər oldu lal.
İki divardakı iki naxış tək,
Onlar hərəkətsiz dururdu, gerçək.
Ürək sözlə dolu, bağlıydı dillər,
Sanki ağzı bağlı bir kuzəydilər.
Onların eşqiylə dolmuşdu cahan,
Nitqi açılmazdı heç kəsin bir an.
Nə qədər vardısa qəmi-intizar,
Gecələr şam kimi dil açardılar.
Elə ki, visalla açıldı səhər,
Kəsildi şam kimi danışan dillər.
Dilin bəlasıdır uzunçu olmaq,
Ariflər işidir sükuta dalmaq.
Xəzinə qızıldan olduqca kənar,
Qapısı daima qıfılsız olar.
Onu qızıl ilə doldursa insan,
Xəzinə qapısı bağlanar hər an.
Qəmzələr diliylə o nazlı dilbər
Deyirdi qəlb açan xoş bədihələr:
"Ey on dilli süsən, sənə nə olmuş?
Mənim dərdimdənmi dilin tutulmuş?
Sinədən söz deyən bir şeyda bülbül
Dinməz il uzunu, açılmasa gül.
Lakin, gül üzünü gördüyü zaman
Bir deyil, oxuyar min yeni dastan.
Sən dünya bağında şeyda bülbülsən,
Visala can atan gül kimiyəm mən.
Bu visal günündə hanı həvəsin?
Ağzın qıfıllıdır çıxmayır səsin".
Qanlı göz yaşında boğulub gedən
Məcnun alovlu bir dil açdı birdən:
"Ey sənəm, qənd kimi dodağın vardır,
Deyilimi bağlayan o dodaqlardır...
Düşün ki, ağzımda dil yoxdur, canan!
Dil deyil, bir tükdür bu dilim, inan.
Camalın şövqunda qəm çəkə-çəkə,
Tüküm dilə döndü, dilim də tükə[112].
Qapında bir tükün dil olmasından,
Dilin tük olmağı yaxşıdır, inan.
Səninlə tük kimi danışmaq üçün,
Qoy dilim tük kimi incəlsin hər gün.
Sənə can satmaqda mahirəm, ey yar,
Sənə dil satmasam, daha xoş olar.
Qoy sinə məlhəmi çox olduğundan
İşdə dil yarası olmasın, canan.
Axtaran bir hərif uzundil olar,
Tapınca nə dili, nə sözü qalar.
Mənim də tapdığım sənsən, ey sənəm,
Sənin də quyuya saldığın mənəm.
Mənimçin sən varsan özümdən əvvəl,
Çünki mənim deyil, sənindir bu əl.
Nəçiyəm, de kiməm mən talei kəm?
Dünya şahiddir ki, sənin kölgənəm.

Özümü hər sayda heç bilirəm mən,
Heçə bənzəyirəm bu heçkəslikdən...
Səndən əsər çatdı mənə, ey dilbər,
İnan ki, ondandır məndəki əsər.
Bir qızıl quş kimi ucaldıqca mən,
Bir nişan görmədim dağ kəkliyindən.
Sındı qızıl quşun qanadı bu gün,
Uçdu dağ kəkliyi, uçdu onunçün.
Bizim milçəyimiz gəlməmiş cana,
Tovusun gəlmədi sənin meydana.
Şahın ov köpəyi edəndə şikar
Ahu balası da şaha ox vurar.
Visal umudunla güldüyüm vaxtla
Mənə dad verərdi o xoş intizar.
Elə ki, sevgilim əlimə keçdi,
İşim bənliyimdən uzağa köçdü...
Sənə könül verən aşiqə, canan,
Əldən düşdüyü vaxt əl uzadırsan.
Can sənə peşkəşdir, nə qədər sağam.
Sənə ömrüm boyu baş qoşacağam,
Baş sənsiz olarsa, ayrılsın təndən,
Can sənsiz olarsa, çıxsın bədəndən.
Hər gün ayağına baş qoyam gərək,
Məndən can verməkdir, səndən istəmək.
Nə qədər ki, sağam, sənsən nigarım,
Sənsən öləndə də pərəstişkarım.
Canın ki canımdan cida deyildir,
Sənsiz yaşamağım rəva deyildir.
Məni odlarına yandırsan da sən,
Balıq tək suyundan ayrılmaram mən.
Səninlə gözlərim dünyaya baxar,
Kim görən gözünü kor istər, ey yar.
Bu yolu mən sənsiz gedərəmmi ah?
Səndən ayrılmaram, nəuzibillah!
Aşiq məzhəbində ayrılıq nədir?
Mən sözü, sən sözü - bir əfsanədir.
İki parça olan bir zirehik biz,
Bir can parçasıyıq, bil ki, ikimiz.
Mən yoxam, dünyada sənsən var olan,
Bu xəyali surət özünsən, inan!
Madam ki, mən sənəm, ikilik nədir?
Birliyi qırmağa nə bəhanədir?
Heykəl ikidirsə, binövrə birdir,
"Lam əlifla" ki, ayrı deyildir[113].
Orda ki, mən varam, sən nigar da var,
Orda ki, sən varsan, bu qubar da var.
Yox, yox, yanılıram can birdir, canan,
İkilik qovğası çıxmış ortadan.
Necə birləşirsə bir bəm ilə zil,
Birləşən canımız ayrılan deyil.
Zillə bəm olmasa, çəng çalan bir kəs
O çəngdən sədalar çıxara bilməz.
Bir xəzinədəndir ürəyimiz bax,
Arada ikicə sifət var ancaq.

Xoş olar bir hərəm seçsək ikimiz,
Xoşdur bir addımda qərar tutsaq biz.
Cüt ağız qılıncın qını bir olar,
Badam cüt məğzli, bir qabığı var.
Yumurta sarısı cüt olsa, belə,
Sərmayəsi birdir, bir hesab elə.
İki həmcins hərf düşsə bir yerə,
Onlar bir yazılar səhifələrə.
Nişanımız birdir, cinsimiz də bir,
Yuvamız ikidir, gəl də birləşdir.
Gəl iki hərf yaz bir adda, ey yar,
İki damla tutsun bir camda qərar.
İncəsən, ikiyə vurma biri sən,
Gəl təki-təkə vur, əgər hərifsən".
Məcnunun göz yaşı tufanlar açdı,
Min belə dürrlər, incilər saçdı.
Leyli can yandırıb ülfətlə, nazla,
Məcnunu oxşadı minbir niyazla.
Hoqqanı doldurdu o ixtilatla,
Dodaqlarındakı abi-həyatla...
Xətər saçılırdı qara saçından,
Ağzı da zərifdi ətir qabından.
Qızın ay üzündə o incə dodaq
Şəkər paylayırdı ətir saçaraq.
Məcnunun başına xalvarla şəkər,
Batmanla ənbərlər saçdı o dilbər.
Xəyali Misirdən min bac istədi,
Hümməti həbəşdən xərac istədi.
Kim ki, bu dünyada sükuta dalar,
Öz ətri gül kimi ağzında qalar.
Onun söz yaradan bir ağzı vardı,
Bunun da çənəsi sözlə oynardı.
Mənim düşüncəmə, zənnimə görə,
O ağız layiqdı belə sözlərə.
Dünyadan bir qismət alır hər bəşər,
Biri ciyər yeyir, o biri şəkər.
Sövdalı adamlar uyuşmaz ayla,
Şəkər saziş etməz çoxlu səfrayla.
Qızıl gül ətrindən doysa bir nəfər,
Ona haram olur başqa ətirlər.
Məcnun seyr etdikcə gözəl yarını,
Cırmağa başladı öz paltarını.
Hissizlik şərabı çox təsir etdi,
Ayaqdan düşərək, əldən də getdi.
Könlünü üzrlə eləsə də pak,
Taqətsizlik onu etmişdi həlak.
Gördü ki, sümüyə dayanmış bıçaq,
Aldığı zərbədən həlak olacaq.
Qılıncı başından, başını teştdən
Götürüb çöllərə yollandı birdən.
Onun kəsilmişdi səbri, qərarı,
Sızlardı yanında çöl heyvanları.
O öz aynasını verərək yara,
Başqa bir ayinlə, çıxmış yollara.

Yarının zülfünü qucaqlayaraq,
O öz varlığından düşmüşdü uzaq.
Özünü öz yarı sayaraq, bəzən,
Özünə müştəri olurdu səhvən.
O öz varlığını unutmuşdu, bax,
Varlığı, mənliyi Leyliydi ancaq.
O, gülər bahar görəndən bəri
Birə min olmuşdu eşqin qəmləri.
Xəyal aləmində xoşbaxtlığından
Bir visal dastanı deyildi hər an.
Gah dost vəfasından söhbəti vardı,
Gah da bir qabıqdan məğz çıxarardı.
Zeyd o beytləri dinləyib hər an,
Asıb sırğa kimi qulaqlarından,
Ona pak ruh ilə deyirdi əhsən,
Deyirdi: "İnsanlıq elmində təksən!
Müqəddəs bir eşqi verməsdin bada,
Sənə səcdə qılmaq borcdur dünyada.
Əgər məhəbbətdə olmasa ismət,
O şəhvət hissidir, deyil məhəbbət!
Saf eşqin nurlu bir güzgüsü vardır.
Eşqin hesabından şəhvət kənardır.
Qərəzli bir sövda yaşamaz, inan!
Eşq ilə qərəzi bir tutmaz insan.
Düz gəlməz eşq ilə qərəz, müxtəsər,
Qərəz olan yerdən eşq qalxıb gedər.
Düzü, səndən başqa aşiqlər tamam
Qərəzə sitayiş edirlər müdam.
Saf eşq səninkidir, başqası nədir?
Onlar eşq adına bir bəhanədir".
Bir eşq doğruluqda tutarsa qərar,
Dostun yaxşılığı birə on olar.
Sevgi bu kəmala çatarsa bir an,
Yaxşı ad qazanar özünə insan.
Nizami, nə gözəl bir dövlətin var,
Hər zaman, hər yerdə o rəvac tapar.

## PAYIZIN YETİŞMƏSİ VƏ LEYLİNİN ÖLMƏSİ

Qaydadır yarpaqlar tökülən zaman
Qanlı sular axar o yarpaqlardan.
Hər bir budağın ki, içində qan var,
Axır, deşiklərdən süzüb damcılar.
Suyun şüşəsi də soyuyub donar,
Bağların üzünə sarılıq qonar.
Ölüm zərbəsilə qabarar budaq,
Torpağa pay olar hər qızıl yarpaq.
Nərgiz öz köçünü dəvəyə çatar,
Şümşad taxtdan düşüb, tacını atar.
Yasəmən siması saralar yenə.
Gül də qan məktubu alar əlinə.
Zöhhak ilanı tək hey qıvrılaraq,
Çəmənin başına sarılar torpaq.
Qaydadır acı bir külək əsəndə,





Tökülər yarpaq da, solar çəmən də.
Dəniz tufanına düşən adamlar
Qorxudan saxlamaz əynində paltar.
Solar yaşıl otlar, bənzəyər yenə
Sarılıq tozundan xeyri gülünə.
Tülkü əldən düşüb yolda dolaşar,
Tülkü tükü kimi qana bulaşar,
Ciyəri naziklər bağda naxoşlar,
Meyvə gözəlləri nazlanmaq xoşlar.
Bağa bağban olan hindli bir nəfər
Zənci balasının başını kəsər.
O kəsik başları götürüb bağban
Budaqlar üstündə asar eyvandan.
O gözəl çənəli almaya bax bir,
Nardan soruşar ki: "Kefin necədir?"
Parça-parça olan ciyərindən nar
Yaralı qəlbinə qan damızdırar.
Püstənin ağzı da yırtılan zaman
İnnab dodaq büzər ona uzaqdan.
Narıncı üzünün də girdəliyi var,
Turuncdakı ətri çəkib aparar.
Muğan şərabının küpündən dehqan
İçib, sərxoş olar, düşər ayaqdan.
Payız bu tufanı qurduğu anda
Qəlbən yaralandı bir gülüstanda...
Ucalıq taxtından Leyli düşərək,
Bir dərd quyusuna endi o mələk.
Sızladı bağının baharı tel-tel,
Onun çırağına sillə vurdu yel.
Başına bağlarkən qızıl çalmalar,
Başqa bir çalmaya düşdü o nigar...
Zərli ipək geyən o nazik bədən
Qamış teli kimi inceldi birdən.
Bədirlənmiş ayı döndü hilala,
Sərv qaməti də döndü xəyala.
Könlünün sövdası başına keçdi,
Başının ağrısı könlünə köçdü.
Təmuzun istisi şehi apardı,
Lalə yarpağını yellər qopardı.
Yardan ayrılalı yanıb sönmüşdü,
Sərvi də incəlib çöpə dönmüşdü.
Qabaqlar da vardı bu dərd, bu möhnət,
Birə yüz olmuşdu indi məhəbbət.
Leyli aşiqini görüncə darda,
Gördü öz könlünü min intizarda.
Elə ki, ayrılıq zamanı çatdı,
O köhnə sövdası birə on artdı.
İş gəlib o yerə çatdı ki, birdən
Düşüb xəstələndi o nazik bədən.
Qara qızdırmaya düşdü o canan,
Dodaqlar qaysıdı bu qızdırmadan.
O sərvin balınca həvəsi düşdü,
Onun qırqovulu sərvdən düşdü.
Sünbüldən torpağa danə düşən tək,

İpək örpəyini üzə çəkərək,
Anaya sirrini açdı balası,
Dedi ki: "Başımın çoxdur bəlası.
Ana! Mən ahuya əlacın varmı?
Südlə zəhər içdim, dərman olarmı?
Köçüm yığışmışdır... neyləyim bu dəm?
Məni bərk tutma ki, köç üstündəyəm.
Mən ki, qan yeyirəm, nə mehribanlıq!
Mən ki, can üstəyəm, nə zindəganlıq!
Gizlində nə qanlar uddum, anacan!
İndi ürək dərdim aşır ağzımdan.
Canım dodağımdan çıxırsa bu dəm
Nə olar sirrimi açıb söyləsəm?
Sirrin pərdəsini götürdüyümdən,
Mən gedəsi oldum, salamat qal sən!
Qucaqla boynumu, ey mehribanım!
Amandır, boynuna düşməsin qanım!
Bədəndən ayrılıb çıxanda bu can,
Yarın hicranından öldüyüm zaman
Xoşdur niyazından nilimi çəksən!
Sürməmi dostumun-tozundan çək sən!
Başım göz yaşıyla islansın gərək!
Ciyər şamamamdan gəl ətrimi çək.
Bağla hunutumu o sarı güldən,
Ahından səpgilən kafurumu sən!
Şəhidəm, qan rəngli olsun kəfənim,
Qoy, belə bəzənsin bayramım mənim.
Məni gəlin kimi bəzəyib, yarat,
Pərdəmi saxlayan bu torpağa at!
Eşqindən didərgin düşən o bədbəxt
Ölüb getməyimi eşitdiyi vaxt
Sənə başsağlığı yetirmək üçün
Bizim bu çadıra gələcək bir gün.
Qəbrimin üstündə əyləşərək tək
O, ay axtaracaq, torpaq görəcək.
Qəbrimin üstündə əl bağlayaraq,
Göz yaşı tökəcək o yanan çıraq.
Ən əziz, ən gözəl bir dostdur mənə,
Bir yadigar qalır o məndən sənə.
Sən allah, çıxmasın sözüm yadından,
Ona alçaq gözlə baxmayın bir an.
İtirdiyin könlü onda tap, ana!
Bildiyim nağılı söylərsən ona,
Mən onu tutmuşam canımdan əziz,
Onu məndən sonra əzizləyin siz.
De ki: - Bu can çıxan köhnə saraydan
Leyli zəncirini qırdığı zaman
Eşqinlə torpağa gömdü canını,
Uçurdu ömrünün xanımanını.
O, eşqin yolunda mərdana getdi,
Aşiqlik yolunda can qurban etdi.
Sorsa: - Nə cür etdi həyata vida?.
De: - Sənin eşqinlə o getdi bada.
Nə qədər dünyada nəfəsi vardı,

Sənin qəmlərini canda saxlardı,
Sənin dərdinlə də o məhv olaraq,
O dərdi azuqə apardı ancaq.
De, - Torpaq olsa da bu gün niqabı,
Yalnız səni çalır onun rübabı.
O intizar çəkən adamlar kimi,
Sənin yolundadır gözüylə qəlbi.
İstəyir arxadan çatasan ona,
Odur ki, göz tikib sənin yoluna.
Tez gəl, intizardan Leylini qurtar!
Gəl, onun qoynunda tutgilən qərar!
Ana, bu sözləri ona yetir sən:
"Ey mənə can verən, məni öldürən!
Dünyada heç kəsdən gözləmə kömək
Bir allahdan başqa hamıdan əl çək.
Özün kimisinə göz tikdiyindən,
Yolunu azaraq uzaq düşdün sən.
Ağlın nə qədər ki, kamala doldu,
Adın zamanənin Məcnunu oldu".
Bu sözlə Leylinin doldu gözləri,
Başqa bir aləmə köçdü o pəri.
Öz gizli sirrini danışdığından,
Sövdaya can verdi dilində canan.
Qızını o halda görüncə ana
Elə bil qiyamət göründü ona.
Ağarmış başından götürüb örpək,
Saçını küləyə verdi samən tək.
Anıb övladının qara gözünü,
Yolub saçlarını, cırdı üzünü.
Nə oxşama varsa dedi əzbərdən,
Nə saçı vardısa yoldu o birdən.
Ağladı, baxdıqca qızın boyuna,
Gözündən qan tökdü həyat suyuna.
Gah qızın üstündə sıxdı gözünü,
Gah onun alnına qoyub üzünü,
Gözünün yaşını tökdü fəğanla,
Yudu o çeşməni bu axan qanla.
Ananın naləsi göyə yüksəldi,
Fələk bu naladən naləyə gəldi.
Andıqca gül rəngli əqiqi, bilsən,
Daşlar qana döndü novhələrindən.
Aya ulduzlardan zəncir bağladı,
Ciyər sandığında onu saxladı.
Onu novhələrlə bəzədi dili,
Gülabla ənbərə buladı gülü.
Torpağa tapşırdı Leylini bir bax,
Torpaqdan törəyən torpaq olacaq.
Qız yeni hasara düşdüyü zaman
Qəm də xilas oldu xəzinədardan[115].
Onun da həyatı qurtarıb bitdi,
Alıb baratını dünyadan getdi.
Aldığın atmayan bir insan varmı,
Dolub boşalmayan bir şey olarmı,
Dünyanın bazarı iti olsa da,
Kasadlıq çəkəcək onda piyada.
Dünya mələk donlu şeytana bənzər,
Əlində təsbeh var, belində xəncər.
İnan, bu dünyada yoxdur bir mələk
Ki, dünya açmasın başına kələk.
Çalış aldatmasın səni bu qarı,
Belini əyməsin onun rüzgarı.
Bir quyu olmamış altındakı taxt,
Burdan köçünü sür, gecikməmiş vaxt.
Bu yaşıl kamanlı çərxə qıl nəzər,
Sən üz döndərməsən, o üz döndərər.
Hələ bitirməmiş, inan ki, torpaq
Doludan bir zərər görməmiş yarpaq.
Bu ada mühiti-dərin bir quyu
Torpağı qaradır, tutğundur suyu.
Gəmini ortadan sahilə çək sən,
Bəlkə öz şəhrinə çata biləsən.
Bu torpaq can alan bir nəhəngdir, bil!
Sümüklərindən də əl çəkən deyil.
Bu sandıqca kimi fırlanan torpaq
İnsanın qanına qərq olmuş ancaq.
Ağzı olmasa da qan içir hər an.
Özünə can tapır aldığı candan.
Hamını qumlayır onun ac gözü.
Ölülərdən qalmış bir qumdur özü.
Bax, bu dairədə olan naxışlar
İnsan cəsədindən şəkil almışlar.
Qəlbi açıq adam fani dünyada
Yaxşılıq uğrunda can etsə fəda
Talein gözüylə o baxdığı vaxt
Tikəni gül görür, quyunu da taxt.
Yorğunluq üzündən, kədər üzündən
Ona adi gözlə baxarsa, bəzən
Varlığı qərəzlə kinə bürünər,
Ona gözəlliklər çirkin görünər.
Xüdpəsənd olmayan təmiz bir insan
Qorxmaz nə yaxşıdan, nə də yamandan.
Yalnız bu quyudan çıxmaq fikri var,
Behiştin qəsrinə yollar axtarar.
İstər ki, zəncirdən çıxsın ayağı,
Yetişsin onun da azadlıq çağı.
Qısalt hekayəni, gecə keçmişdir,
Bir iki olmasın, olsun iki bir.
O Xosrov, Keyqubad, o Cəmşid hanı?
Onlar gedən yolu gedəcək hamı.
Hiyləylə qurtarmaz quyudan heç kəs,
Bu qapı davayla bağlana bilməz.
Qocalar düşündü, çalışdı gənclər,
Olmadı düyünü açan bir nəfər.
Dünyaya yel kimi gəlib gedənlər
Fələyin işinə neyləyə bilər?
Sən açıq bir gözlə baxsan aləmə,
Özünə şəbə de, Şəbdiz söyləmə[116].
Bundan da irəli uzansa əlin,





Bil ki, unudarsan aləmi yəqin.
Nə qədər acizik bu dünyada biz,
Fələyin sirrini açmaz fikrimiz.
Rəngi gömgöy olan bu axar suyu
Qoy su aparsın ki, çay suyudur bu.
Bir damcı verməyib o öz suyundan,
Öldürdü gəlini susuzluğundan.
Leyli ki, torpağı eylədi məskən,
Xəzinə divarı oldu dəmirdən.
Ərəblər bu dərddən bağrı qan oldu,
Onun zülfü kimi pərişan oldu.
Qızın həsrətini çəkən adamlar
Ah çəkib, of deyib, ağladı zar-zar.
Dostların behişti - Leylinin qəbri,
Cənnət qoquyurdu ilk bahar kimi.
O müqəddəs qəbri öpərdi yellər,
Onu ziyarətə gələrdi ellər.

## LEYLİNİN ÖLÜMÜNDƏN MƏCNUNUN XƏBƏR TUTMASI

Bu məşhur dastanı yaradıb yazan
Yazmış səhifəyə belə bir fərman:
Ay batdı, dolanıb keçdikcə günlər,
Qəlbi qırıq Zeydə çatdı bu xəbər.
Ağlayıb könlünü açdı fəryada,
Deyin, ağlamayan varmı dünyada?
O, qara geyindi yası var kimi,
Ədalət axtaran adamlar kimi.
O qəbrin yanına yetişdi bir, bax,
Bahar buludu tək yaş axıdaraq,
Onun qan dalğalı qəbrinin üstə
Sorma nə haldaydı o qəlbi xəstə,
Sellər axıtdıqca o didəsindən,
İnsanlar baş alıb qaçdı səsindən.
Ah çəkib, aləmə vəlvələ saldı,
Qəmindən fələyin üzü qaraldı.
O parlaq çıraqlı, gözəl məzarı,
Tərk edib üz qoydu çöllərə sarı.
O çırağı sönmüş qaranlıq gecə
O yoldan azmışı taparaq təkcə,
Onun qarşısında zar-zar ağladı,
O dağlanmış qəlbi yenə dağladı.
Cırıb üz-gözünü o birdən-birə,
Ah çəkib, başını vururdu yerə.
Məcnun öz dostunun baxıb rənginə,
Gördü bulud kimi tutulmuş yenə.
Dedi ki: "Qardaşım, nə olmuş, nə var?
Nədir nəfəsindən çıxan alovlar?
Nədən üz-gözünü dağıtmısan sən?
Nədən paltarını qara geymisən?"
Zeyd dedi: "Baxtimiz gəlmişdir qara,
İşimiz çox yaman düşmüşdür dara.
Torpağın bağrından qara su çıxdı,
Ölüm qapımızın əlini sıxdı.
Dolu bağımızı döydüyü zaman
Töküldü yarpaqlar əsən ruzgardan.
O gözəllik ayı düşdü fələkdən,
Sərvimiz yıxıldı, boş qaldı çəmən.
Leyli, gözəl Leyli yerə gömüldü,
O sənin dərdinlə yaşayıb öldü".
Bu sözdən Məcnunun büküldü beli,
Sanki zəlzələdən tutuldu dili.
İldırım vurmuş tək qaraldı haman,
Həm düşdü, həm yandı bu ildırımdan.
Taqətsiz yerində dayandı bir an,
Fələyə üz tutub dedi: "Ey dövran!
Nədir bu verdiyin insafsız qərar?
Bir zəifə qarşı bu qanunmu var?
Ota da ildırım yağdırarlarmı,
Bir qarışqa üçün bu zülm olarmı?!
Nə lazım ardınca min bir cəhənnəm,
Onu bir qığılcım yandırar bu dəm.
Sən cama görə də göz yaşı göndər,
Hər arzuya görə verilər sağər.
Mən bağrı yanmışın tutduğu çıraq
Bir yel silləsiylə qaralar ancaq.
Bu qılınc çəkməyin nə mənası var?
Məgər ağcaqanad əjdaha olar?"
Bütün fələklərə nifrət deyərək,
Qaçdı səhralara o vəhşilər tək.
Cırdı paltarını o min dəhşətlə,
Vəhşilər baxırdı ona heyrətlə.
Onun sellər kimi göz yaşı vardı,
Ona baxanlar da belə ağlardı.
Dalınca sürünüb Zeyd kölgə tək,
Onun kölgəsindən dilərdi kömək.
Qəlbində sızıltı, gözləri giryan.
Dağları daşları saldı ayaqdan.
Tab edə bilməyib bu intizara,
İstədi baş çəksin o dost məzara.
Zeydə: "O məzarı nişan ver" dedi.
Sonra yar qəbrində bitdi ot kimi.
O, sərxoşlar kimi başı havalı,
Özündə deyildi fikri, xəyalı.
Özü qəm yolçusu, yoldaşı ah-vay,
Rüsvaylar içində hamıdan rüsvay,
Saçları pərişan, başı dumanlı.
Yoldu saçlarını o qəm nişanlı.
O beli qırılmış şikəstə-qamət
Gecəsi bir məhşər günü qiyamət.
Uzaqdan o qərib məzarı görcək,
Düşdü torpaqlara nurdan kölgə tək.
O yerdə qıvrılıb bir ilan kimi,
Tikana sancılmış soğulcan kimi.
Xəzinə üstündə yatmış ilan tək,
O qərib türbəyə sarıldı bərk-bərk.
Gözündən lalə tək göz yaşı getdi.

Ondan ot üstündə lalələr bitdi.
Şam kimi əridib ciyər qanını,
Açdı alovlanmış qəm lisanını:
"Neyləyim, bir çarə tapmayıram mən,
Yanıb əriyirəm şam kimi dərddən.
Mənim Deyləm taclı sevgilim vardı,
Dünyada var-yoxum yalnız o yardı.
Bu Deyləm ayinli qoca şahənşah
Mizraqla yarımı apardı, eyvah!
Əlimdə tər-təzə bir gülüm vardı,
Onu da əcəlin yeli apardı.
Azadca bir sərvim vardı çəməndə,
Yıxıldı əcəlin yeli əsəndə.
Ağacda çiçəyim açıldığı vaxt
Saxlaya bilmədi o nemati baxt.
Ah, onun eşqiylə bir kiçik dəstə
Bənəfşə bitmişdi qəlbimin üstə.
Onu da bir zalım qaparaq keçdi,
Mən əkib becərdim, özgəsi biçdi.
O reyhan üzlümün xəyaliylə mən
Qaçardım dünyanın hər nemətindən.
Bir oğru pusqudan ona əl atdı,
Qırıb reyhanımı, yol üstə atdı.
O qələ gözəlim belə bir yardı,
Mənim də qulluğum belə qurtardı".
Sonra yar qəbrinə qoyub başını,
Ah deyib, axıtdı o, göz yaşını.
"Sən, ey xəzan görmüş körpəcə gülüm!
Dünyanı görməmiş ölən sevgilim!
Ey xərabə qalan bağı-gülüstan,
Bar verib, barını yeməyən canan!
Torpağın zülmünə dözürsənmi sən?
Bu dərə dibində söylə necəsən?
O qara xallardan varmı bir əsər?
Söylə, nə haldadır o ahu gözlər?
Necədir yaquta bənzər dodaqlar?
Ətirli saçların necədir, ey yar?
Nəqşini çəkirlər, de, hansı rəngdən.
Şamın hansı dərdlə əriyir, de sən!
Kimin gözlərinə gülürsən, canan?
De, kimin başına ətir saçırsan?
Sərvin hansı bağda tutmuşdur qərar?
Məclisin olmuşdur hansı laləzar?
Tikanlar içində necədir halın?
Necə mağarada keçir əhvalın?
İlan məskənidir bu mağaralar,
Sən aysan! De burda nə məqsədin var?
Qəbriyin üstündə yanıram, canan[117]!
Sənsə mağaraya həmdəm olmusan.
Sən bir xəzinəydin, uddu torpaqlar,
Xəzinə olmasan, udmazdı, ey yar,
Hansı mağarada xəzinə ki, var,
Üstündə bir ilan qıvrılıb yatar.
Mən də ilan kimi küsüb yuvamdan,
Məzarın üstündə oldum pasiban.
Qum kimi tapdandım bir zaman gerçək,
İndi sakit oldum quyuda su tək.
Qismətin ay kimi qəribliksə, bil,
Ayın qəribliyi qəribə deyil.
Sən gizli olsan da zahirdə məndən,
Canın canımdadır, ayrılmaz səndən.
Uzaq düşdünsə də gözümdən, inan,
Könlümdən uzaqda deyilsən bir an.
Ortadan qalxdısa nəqşin, suratin,
Öz yerində qalmış qəmin, möhnətin.
Səninçin könlümü yelə verdim mən,
Xatirən çıxarmı heç xatirimdən!
Qəmin yolumdadır, toz-torpaq atmış,
İstəsən oyaq ol, istəsən yatmış.
Gedir sənin rəxşin məndən irəli[118],
Çünki mən çolağam, ey gözəl pəri.
Behişt məclisinə qonaq düşübsən,
Canını qurtardın bu xərabədən.
Mən də çarə tapsam həman düyünə,
Yanına gələrəm bir neçə günə.
Qəbriyin başına dolandığımdan,
Əhdə vəfadaram hələ də, canan!
Nə zaman yanına düşsə bədənim,
Kəfənin batmasın qapıma mənim.
Yerin behişt olsun daima sənin.
Qoy allah hərəmi olsun məskənin.
Ruhiyin qəndili axıcılıqdan,
Ətrafa şölələr salsın hər zaman".
Deyib yığışdırdı əl-ayağını,
Hərlənib sındırdı öz qolbağını.
Başında bir dəstə heyvanlar yenə,
Üz qoydu öz doğma vilayətinə,
Sürüb dəvəsini yollar boyunca.
Hicran şerləri dedi doyunca...
Ayrılıq vəsfini alaraq dilə.
Vəfadan qoymadı bir kəlmə belə.
Boyadı qumları o göz yaşına,
Çırpdı öz başını çölün daşına.
Qığılcım saçmamış öz naləsindən,
Qoymadı yol üstə qalsın bir tikən.
Yollarda gördüyü bütün daşları
Boyadı al qana o göz yaşları.
Başından aşdıqca sövdalı dərdi,
Cananın qəbrini arzu edərdi.
Dağlardan sel kimi axıb gələrək,
Leylinin qəbrinə döşənərdi tək.
Başını məzara qoyub qalardı,
Torpaqdan minlərcə öpüş alardı.
Anıb o vəfalı can həmdəmini,
Məzara söylərdi könül qəmini.
O möhnət bağında tutduqca qərar,
Yanından getməzdi vəhşi heyvanlar.
Axan göz yaşları olduqca Zəmzəm,





Vəhşilər çəkmişdi ona bir hərəm.
Gözündən getməzdi onun heyvanlar,
Adam buraxmazdı yanına onlar.
Qorxaraq o vəhşi yırtıcılardan,
O yoldan keçməzdi bir nəfər insan.
Məcnun dost qəbrindən getməmiş hələ,
Məzara gəlməzdi qarınca belə.
Gündüzü bu sayaq olurdu gecə,
Ömrünü həvəslə verirdi heçə.
Neçə gün yaşadı vəhşilərlə tək,
Bu həyat ölümdən pis idi gerçək.
Gah canan qəbrinə səcdə edərdi,
Gah ceyran ardınca çölə gedərdi.
Qarışqa gözündə məskəni vardı
Qəbirdən-qəbirə addımlayardı.
Bu hicran qüvvədən saldı Məcnunu.
Nəhayət oxudu köç məktubunu...

## BAĞDADLI SƏLAMIN İKİNCİ DƏFƏ MƏCNUNUN GÖRÜŞÜNƏ GƏLMƏSİ

Verir bu tarixi yazan bir nəfər
Ərəb məxəzindən belə bir xəbər;
Səlam o aşiqin ziyarətinə
Gəlmək xəyalinə düşmüşdü yenə.
Qalxıb yol getməyə üz qoydu Səlam,
Bir ay dağı, daşı dolaşdı tamam
Atını hər yana sürdü bir zaman,
Axtarıb tapmadı ondan bir nişan.
Axır bir dərədə rast gəldi ona
Daşdan ayaqları qabar Məcnuna.
Halı dəyişmişdi onun büsbütün,
Tamam qol-qanadı sınmışdı o gün,
Bir neştər olduqca hər ötən tikən,
Könül yarasıyla dolmuşdu bədən.
Zavallı, Səlamı gördüyü zaman
Sordu: "Ey cavanmərd, söylə, hardansan?"
Səlam: "Mənəm - dadi, gəlmişəm xəstə,
Səninçin qalmışdır gözüm yol üstə"
Məcnun bu sözlərə qulaq verərək,
Səlamı tanıyıb qucaqladı bərk
Qovdu vəhşiləri onun yolundan,
Suyu oddan çəkdi, kölgəni nurdan...
Dedi ki: "Yenəmi zəhmət çəkmisən?
Səni ki, əvvəldə incitmişdim mən.
Mən qəm xəstəsiyəm, sənsə nazənin,
Nə məqsəd daşıyır belə gəlməyin?
Əvvəl ki, baxmadım mən sən deyənə,
Mənə söz deməkmi fikrin var yenə?
İndi ki, gəlmisən sən, ey mərd ürək!
Ayıbdır gələnə "dur qayıt" demək.
Arzunu aç, de ki, mən əməl edim,
Məqsədin nədirsə, o yolla gedim".
Səlam salamını yetirib ona,
Təşəkkür bildirib, dedi Məcnuna:
"Sənin nemətinlə dolanıram mən,
İnan ki, səcdəyə, şükrə layiqsən.
Qabaq göstərdiyin gözəl lütflər,
Mənə dövlət idi xəzinə qədər.
Çünki sinəndəki gözəl təbindən
Mənə bir xəzinə bağışladın sən.
İnci qəsidələr dediyin zaman
Əlim də, ağzım da dolardı, inan.
Yenə də gəlmişəm sən olan bağa.
Gəlmişəm bağından meyvə yığmağa.
Əgər zəhmət çəksən, qəbul edərəm,
Olmasa, yenə də razı gedərəm.
Bu dəfə nə üçün düşdün həvəsdən?
Təəccüb edirəm bu halına mən.
Söylə dərdinmi var, bunun sirri nə?
Bu il bənzəmirsən keçən ilkinə.
Görürəm, sınmışdır şadlıq qanadın,
Azalmış əvvəlki şurun, fəryadın.
Danış, öz işlərin necə haldadır?
Sevgilin necədir, nə xəyaldadır?"
Dost suallarını dinləyib həmən,
Yenə işdən düşdü incəldi bədən.
Yenə xatirinə düşdü o sənəm
Məcnun çox ağladı gözlərində nəm,
Soyuq bir ah çəkib bəlalər yedi.
"Ah, dərddən ciyərim alışdı" dedi.
Dostum! Nə deyirsən? Başqadır zaman,
Məndən sevgilimi xəbər alırsan?
Torpaq altındadır indi sevgilim,
Yox, yox, bu yalandır, qurusun dilim.
Vəfadan yoğrulmuş o gözəl mələk
Behişt qapısıdır qapısı, demək
Sevgilim öldüsə, yanır çırağı,
Mənisə öldürmüş onun bu dağı..."
Bu varaq üstünə nə sözlər saçdı
Hər söz üstündə də varaqlar açdı.
Səlamın əlindən tutub apardı,
Yenə də Leylinin qəbrinə vardı.
Dedi ki: "Bax, budur dediyim pəri,
Canımdan əl çəkdim ondan ötəri".
Səlam çox dinlədin bu nalələri.
Məcnun sevgilisiz qalandan bəri.
Novhəsi, fəryadı sinə dağladı,
Səlam da bir yanda durub ağladı.
Qanlı sular tökdü gözündən, bilsən!
Axdı qan bulağı hər kirpiyindən.
Sonra üz tutaraq xəstə Məcnuna,
Qəm yeyib, təsəlli verirdi ona:
"O behişt gülüdür mənim də qəmim.
Könül dəryasında qərq oldu gəmim.
Canım dərdə düşdü səndən ötəri,
Çünki bu ildırım çaxandan bəri
Bir üzün yandısa sənin bu oddan,

Vallah, tamam yandı məndəki bu can!"
Bu cür fəsahətlə o təmiz ürək
Aşiq yarasına duzlar səpərək,
Tamam iki-üç ay yanında qaldı,
Qəlbini oxşayıb, dərdini aldı.
Tanış olduqları on ildən bəri
Onun söylədiyi bütün beytləri:
Qitədir, qissədir, şerdir deyə,
Köçürdü hamsını bir dəftərçəyə.
Yazdı o sözləri çox sevə-sevə,
Sonra izin alıb qayıtdı evə.
Ondan aldığını nəqş edib yada,
Bir töhfə gətirib, gəldi Bağdada.

## LEYLİNİN QƏBRİ ÜZƏRİNDƏ MƏCNUNUN ÖLMƏSİ

Məşhur söz ustası, o söz Loqmanı
Böylə tamamlayır bizim dastanı:
O xırmanı yanmış alışıb söndü,
Göz yaşından olan xırmana döndü.
İnsafsız fələyin əl dəyirmanı
Üyüdüb apardı haman xırmanı.
Çünki, zəif düşdü get-gedə bədən,
Daha gücsüz oldu o əvvəlkindən.
Canı ayağından dodağa çatdı,
Günü axşam olub zülmətə batdı.
Sızlayıb ahları göyə yüksəldi,
Torpaq gəlininin yanına gəldi.
O hasarlı qəbrə üz qoyub yatdı,
Gəmisi bulanıq bir suya batdı.
Xəstə qarınca tək başı fırlandı,
Yaralı ilan tək qıvrılıb yandı.
İki-üç beyt dedi qəmlə, möhnətlə,
İki-üç göz yaşı, tökdü həsrətlə.
Sonra da göylərə tutub üzünü,
Əl açıb o zaman yumdu gözünü:
"Ey bütün aləmi qurub xəlq edən!
Səni əzizinə and verirəm mən,
Al dərdli canımı ya pərvərdigar!
Məni sevgilimin yanına apar!
Bu canı bərklikdən özün azad et,
Apar o dünyaya könlümü şad et".
Deyib bu sözləri, baş qoydu yerə,
Qəbri qucaqladı o birdən-birə.
Cananın qəbrini öpdükdən sonra,
Dost! - deyib, canını tapşırdı ona.
Keçdi bu körpüdən axır ki, o da,
Bu yoldan keçməyən varmı dünyada?
Elə bir yoldur ki son başı ədəm,
Onun bəlasına düşəcək aləm...
Belə uçurumu olan ruzgarda,
De, kimin həyatı qalmayır darda?
Deyin, tüstülənib yandıqca ruzgar,
Onda qovrulmayan bir yaramı var?
Hər yara üstündə qəm damğası var,
Zülmün dırnağıyla didilir onlar.
Ey çolaq eşşəyi bu dəyirmanın,
Üzün kəhrəbadan sarıdır sənin.
Uzaqlaş fırlanan bu dəyirmandan,
Çıxmaz azadlığa onunla insan.
Bir evdə olduqca sel təhlükəsi,
Qalx ki, yaxınlaşır o selin səsi.
Hələ sındırmamış körpünü fələk,
Dəvəni körpüdən kənara tez çək!
Dünyanın göbəyi yellə doludur,
Yel də ki, bir heçdir, heçlik yoludur.
Yelə bağlı olan bu diriliyə
Çox da bel bağlama dirilik deyə.
Tələs ki, rahatlıq getdi dünyadan,
Çox yavaş sürmə ki, getmişdir karvan.
Qan içən bu yeddi başlı əjdaha
Dövrəndə ilandır, açılmaz daha.
Özünə bir diqqət yetirsən əgər,
Bürümüş dövrəni bu əjdahalar.
Bu qoca dünyanı zənn etmə fağır,
Qarı görünsə də, bir əjdahadır.
Bu dünya oğrudur, köçünü tez çək,
Bu cığal oyunçu daş gizlədəcək.
Gəl əyri vurma ki, sən mümkün qədər,
Əyri zərbələrin özünə dəyər.
Qorxma öz könlünü elə abadan,
Yaqut ye, zərrəcə qorxma vəbadan.
Ağalıq atından aşağıya en,
Bir zəiflik göstər acizliyindən.
Taki əcəl şiri can alsa yenə,
Baxıb rəhmi gəlsin acizliyinə.
Təkəbbürlü gəzmə, bu işdən əl çək,
Bil ki, sənin yemin deyil bu çörək.
Torpaqdan məhəbbət kəsmək gəzirsən,
Deyəcəyəm deyib, heç dinməyirsən,
Sinə düyünləyən bu qıfıl ki, var,
Qızılı xəznənin qarnında saxlar,
Qıtlıqdan istərsən ölsün bu qan
Taki sənə qalsın ev qızılları.
Gözə görünməmiş o bir hümadır,
Gözə göründümü, bir əjdahadır.
Düşəndə məhbəsə aqil bir adam
Baxıb yol axtarar qaçmağa müdam.
Dünya məhbəsində tutmusan qərar,
Sən ki, yol bilənsən, durma, yol axtar!
Bu işin dərmanı tapılar, şəksiz,
Bu yükün cövrünü çəkməliyik biz.
Gözündə işıq var, qəlbində qüvvət,
Boş ki, yaratmamış səni təbiət.
Özünü zənn etmə zəif bir çıraq,
Bil ki, zinət alır səndən yeddi bağ.
Fələyin üstündə vilayətin var,





Himayən altında durur varlıqlar,
Səcdə edənlərin Səlcuqisən sən[119],
Bir də son vücudun mirası sənsən.
Fələk kimi olan boyuna bir bax,
Saxla qiymətini, vüqar qalacaq.
Sanma torpağa, o, tozdur, inan!
Uyma təbiətə, od çıxır ondan,
Sən öz mərtəbəndə otursan əgər,
Bil, ucalar başın göylərə qədər.
Dağ kimi, qaçırma başını seldən,
Sillə yesən belə, üz döndərmə sən.
O nalını salan daşı al ələ,
Qaldır, öp: "Nə gözəl lalsən" söylə.
Səninlə qaynayan sirkəni su tək,
Gözünü yumaraq içəsən gərək!
Bu yol, bir vəfayla başa vurular,
Ondan vəfa ilə qurtarmaq olar.
Çox içən adamlar bədxumar olar,
Yaxşı içənlər də xoşgüvar olar.
Axar sular kimi sən də sakit ax,
Axdığın yerlərdə xoşlansın torpaq.
Bil ki, su nohurdan içilsə əgər,
Sərin ola bilməz axar su qədər.
Varlıq dünyasıdır torpağın, gerçək,
Dünyaya pərəstiş etmə torpaq tək.
Dünya gedərgidir, dalınca getmə!
Qalmayacaq şeyə sitayiş etmə!
Məcnun ki, dünyadan heçliyə vardı,
Dünya töhmətindən canı qurtardı.
Gəlin beşiyinə qoydu özünü,
O yuxuya gedib yumdu gözünü.
Bu fani dünyada öldü möhnətdən,
Köçüb o dünyaya, qurtardı dərddən.
Torpaqlar onu da qoynuna aldı,
Bir ay, bəlkə bir il o halda qaldı.
Qəbrin dövrəsində bir böyük dəstə
Vəhşi dayanmışdı gözü yol üstə.
Şah kimi yatmışdı sarayında tək,
Vəhşilər baxırdı keşik çəkərək
O hasarlı səhni bürüyüb onlar,
Yuva düzəltmişdi orda heyvanlar.
Baxıb vəhşilərə, can qorxusundan
O qəbrin yanına gəlməzdi insan.
Uzaqdan baxanlar görərdilər ki,
Vəhşilər qaynaşır anlar təki.
Zənn edirdilər ki, o qərib xəstə
Yenə də əyləşmiş o qəbrin üstə.
Qılınc vuranlar da hər axşam, səhər
Şahın sarayına keşik çəkirlər,
Bilməyirdilər ki, şah qəbrə varmış,
Tacla kəmərini külək aparmış.
Məcnun - o canını eşqə xərc edən,
Dürrünü torpağa basdırıb gedən
Məhv oldu fələyin zəlzələsindən,
Çürüyüb torpağa qarışdı bədən,
Onun canındakı nişanələrdən
Quruca bir sümük qalmışdı, bilsən!
Vəhşi heyvanlar da gəlib bir kərə,
Yaxın durmazdılar o sümüklərə.
Nə qədər hərami güddü vəhşilər,
Ayaq da basmadı ora bir nəfər,
Ölünü insanlar anıb, yad edər,
Yoxdur vəhşilərdə belə bir hünər.
Bir il bu qaydayla keçdi, əlqərəz,
Dağıldı vəhşilər istər-istəməz.
Bəzisi iy alıb, üz qoydu dağa,
Bəzisi də ölüb getdi torpağa.
Xəznə tilsimini qapanda dövran,
Xəznə qıfılı da çürüdü pasdan.
Bu halı görüncə yol adamları,
Qeyidsiz gəldilər hərəmə sarı,
Gördülər ki, yatır orda bir insan,
Sümüklər qalmışdır onun canından.
Bir vəfa gözüylə seyr edib onu,
Tezcə tanıdılar kim olduğunu.
O zaman yayıldı bu səs hər yana,
Yayıldı bu xəbər Ərəbistana.
Toplaşdı qohumlar, qəlbi yananlar,
Başına dərd gəlmiş qəmgin insanlar.
Baxdıqca meyidə, nalə çəkdilər,
Şivən qopardaraq, qan yaş tökdülər.
Gövhərini saçmış o qalib-bədən
Bir ağ sədəf kimi düşmüşdü, bilsən!
Qızılla sildilər sədəf tozunu,
Yenə də sürtdülər ənbərlə onu.
Onun mişk kimi saçları vardı,
O öz nəfəsindən ətir saçardı.
Bu məzar ağlatdı hər yaslı qəlbi,
Axdı göz yaşları yağışlar kimi.
Bu göz yaşlarıyla yuyub Məcnunu,
Torpaqdan torpağa qoydular onu.
Daxmanın yanını açıb, müxtəsər,
Leylinin yanında dəfn eylədilər.
Şahı apardılar bir meyxanəyə,
Saqiyə verdilər, sərxoşdur, deyə.
Qiyamətə qədər yatdılar rahət,
Qalxdı yollarından dərdlə məlamət.
Sağkən vermişdilər bir əhdə qərar;
Ölüb bir beşikdə qoşa yatdılar...
Zaman dolaşdıqca hər iki qəbrə
Tikdilər ordaca bir daş məqbərə.
Hüsnünə bağ-bostan həsəd aparan
O türbə səcdəgah oldu çox zaman.
Bütün xəstələrə şəfa verərdi,
Cəfadan qurtarıb səfa verərdi.
İstəyi yerinə çatmasa əgər,
Geri qayıtmazdı ordan bir nəfər
Ey allah! Aləmdən o iki insan

İsmətlə, paklıqla uçduqlarından,
Kəsmə sən onlardan öz ülfətini,
Bağışla onlara öz rəhmətini!
Bizim də növbəmiz yetişən zaman
Sən özün bilərsən, böyük yaradan!

ZEYDİN LEYLİ VƏ MƏCNUNU YUXUDA GÖRMƏSİ

Bütün ömrü boyu dərd əhli olan
Zeydə rəhmət olsun, görüm hər zaman.
O, nur çeşmələrin məqbərəsindən
Bir an da uzağa getməzdi, bilsən!
Leyliylə Məcnunun nə vaxtdan bəri
Eşq üçün dediyi xoş qəzəlləri
Bəsirət gözüylə hafizəsindən
Arayıb, axtarıb, toplayıb bəzən,
Gəlib gedənlərə verərdi xəbər,
Afərin deyirdi qulaq verənlər.
O iki aşiqdən qalan yadigar,
Aləmə Zeyd ilə oldu aşikar.
Bir gün dostlarını anaraq yenə
Ağlayıb onların bu taleinə,
Dedi: "Nakam ölən, yazıq aşiqlər
İndi bir-birindən tuturmu xəbər?
Bəlkə yer altında kərpiç olmuşlar,
Ya behişt taxtında tutmuşlar qərar.
Nafənin başını qaşıyan gecə
Gündüzün üstünə ənbər səpincə
Zeydin yuxusuna girdi bir mələk,
Bir behişt göründü şəfəqlənərək.
Onun həyatında böylu sərvlər
Şad idi bəxtiyar könüllər qədər,
Hər gülün, çiçəyin ətəyində bağ,
Hər gül yarpağında yanar bir çıraq.
Hər çəmən qoynunda bir behişt vardı,
Yanar gözlər kimi işıqlanardı.
Zümrüdə bənzərdi o yer, dedikcə,
Parlaq görünürdü göz işlədikcə.
Əlində cam tutmuş hər növrəstə gül.
Baxıb dil açmışdı sövdalı bülbül.
İrmaqlar sim üstdə tutmuşdu qərar,
Quşlar orda min bir nəğmə oxuyar.
Güllər kölgəsində güldükcə səhər,
Bir taxt qurulmuşdu günəşə bənzər.
O taxt bəzənmişdi bir behişt qədər,
Onu bəzəmişdi ipək xalçələr.
Orda iki mələk qoşa durmuşdu,
Nəcat dərgahında cüt oturmuşdu.
Onlar nur içində hurilər qədər
Başdan ayağadək bəzənmişdilər.
Əldə şərab vardı, könüldə bahar,
Sövdadan danışıb, deyirdi onlar.
Gah şərab edirdi onlara əsər,
Gah dodaq-dodağa öpüşürdülər.
Gah keçən sövdanı anırdı onlar,
Gah da qoşa yatıb kam alırdılar
O taxta bir qoca baş söykəyərək,
Durmuşdu onların qulluğunda tək.
Qoca, aşiqlərin başına hər an
Şabaş dağıdırdı asimanlardan.
Zeyd bu yuxunu gördüyü zaman
Soruşdu gizlicə göy qocasından:
Əlləri qədəhli bu iki nəfər,
Bu behişt bağında, de, nəçidilər?
O can mənzilində havalanmışlar,
Hardan bu məqamda tutmuşlar qərar?"
O, dilsiz qoca da ona bir təhər
Eyhamla fikrini dedi, müxtəsər:
Dedi ki: "Dost olmuş bu iki vicdan
Yoldaş yaranmışdır başdan, binadan.
Biri doğruluqda dünya şahıdır,
O biri qəlb alan qızlar mahıdır.
O dediyim ayın adı Leylidir,
Yanındakı şaha Məcnun deyilir.
Səfa sandığında bu iki nəfər
Eşq ilə yaşamış saf lələdirlər.
Rahatlıq görməyib fani dünyada,
İndi yetişmişlər yalnız murada.
Burda görməyirlər dərd-qəmdən əsər,
Daima şadlıqla ömür sürürlər.
Kim ki, o dünyada bəhrəsiz qalar,
Onun bu dunyada başı ucalar.
Kim ki, o dünyada acı qəm içər,
Ömrü bu dünyada şadlıqla keçər".
Sübhün işığıyla yanan asiman
Gecə xırmanında od vuran zaman
Zeyd öz yuxusundan ayıldı birdən,
Hamıya söz açdı bu sirrlərdən,
Kim ki, o dünyadan istəyir bir bar,
Bu dünya keyfinə o ayaq basar.
Bu aləm fanidir, quru torpaqdır,
O aləm daimi, özü də pakdır.
Doğrudur, əbədi, təmiz bir aləm
Fani bir torpaqdan yaxşıdır, desəm!
Amandır, ağlını unutma ki, sən
Gülünü tikana dəyişməyəsən!
Özün çıxarmasan mədəndən gövhər,
Gövhər axtarma ki, müftə verməzlər.
Eşqin hərəminə can ver, ey insan!
Bəlkə özlüyündən can qurtarasan.
Eşqin aləmində ox kimi süz sən,
Uzaq düşməyəsən o nişanədən.
Ox düz getdiyindən öz nişanına,
Bil ki, layiq olmuş şah kamanına.
Varlığın açan eşq ilə insan
Qürur girdabından qurtarar, inan!
Əgər qəm şərbəti olsa da zəhər,





Eşqin əlləriylə şirin içilər.
Baxma bu şərbətin acısı çoxdur,
Saqisi eşq isə, qorxusu yoxdur.
Dözülməz olsa da bu qəm, bu zillət,
Xoşdur! Yaratmışsa onu məhəbbət.
Artıq söz dəryası axıra yetdi,
Ayıq ol ki, gəmi ədəmə getdi,
Nizami! Allaha şükür edək biz,
Mükəmməl qurtardı bu hekayəmiz.
Bağlılar açan olsun bu dastan,
Oxuyub ağ günə çatsın hər insan.
Əsər səadətlə yetişdi sona
Uğurlu aqibət diləyək ona.

KİTABIN SONU

Ey şah, bu dünyaya özün pənahsan,
Sən bir şah deyilsən, bəlkə min şahsan.
İkinci Cəmşidsən taxt almaqda sən,
Birinci günəşsən misilsizlikdən.
Keyqubad görkəmli Şahi-Şirvansan,
Əbülmüzəffərsən, böyük xaqansan.
Yalnız Şirvan deyil, dünya şahısan,
İkinci Keyxosrov, ey şah Axsitan.
Sən, ey padişahlıq bürcünün sonu,
Dünya çox görməsin şah olduğunu.
İnsanlıq fəxr edir adınla hər dəm,
Səndən abad olmuş bu iki aləm.
Dəniz çeşməsisən, calalın vardır,
Sənin böyüklüyün - apaşikardır.
Mübarək başını, ey fəxri-cahan,
Fələkdən yuxarı tutduğun zaman,
Şadlıqla, nəşəylə xəyalata get,
Bu gözəl dastanı mütaliə et!
Bu fikir qızının gözəlliyindən
Xəzinə aparıb, murada yet sən.
Kaş ki, bəyənəydin bu gözəl yarı,
Əhsənin olaydı ipək paltarı.
Belə bir səxavət səndən istərəm,
Məndən təvəkküldür, səndən də kərəm.
Səndəki pak könül bir də qalib baxt,
Sənə nəsihətçi olsa da hər vaxt,
Bu allah vergisi nəsihətçidən
İki-üç söz eşit səhər çağı sən.
Gör, dünya nə qədər baş yola saldı,
Gör hansı şahlardan bu vaxta qaldı.
Dünyanı abad et sən, ey hökmüdar,
Adın bu dünyada qalsın yadigar.
Sən ki, iş bilməkdə ayıq bir şahsan,
Daha da ayıq ol, nə qədər sağsan.
Sonsuz ədalətin, səxavətin var,
Daha da çox olsa, zərərmi olar?
Bir iş dövlətinə gətirsə cəlal,
Sən həyata keçir o işi dərhal.
Şahlıq zinətinə diqqətlə baş çak,
Tük qədər bir ləkə qonmasın gərək.
Sənin bayrağına layiq bir torpaq
İdarən altında yaşayır ancaq.
Səndən uzaq olan yerləri də sən
Öz torpağın bilib, şad ol ürəkdən.
Kim ki, sevir səni, boynunu burma,
Hər bir günah üçün qılınc da vurma.
Səndən üzr istəsə hiyləgər düşmən,
Onu qov qapından, heç aldanma sən.
Qüdrətli, təmkinli, həm də sayıq ol,
Şərab içsən belə yenə ayıq ol!
Qolların iş görən olsa da hər an,
Yenə kömək istə böyük allahdan.
Öz fikrin nə qədər ayıq olsa da,
Xor baxma sən başqa fikrə dünyada.
Heç iki ürəklə girişmə hərbə,
Taki qəlp çıxmasın vurduğun zərbə.
Gah yumşaq, gah da tünd olsa bir adam,
Onun söhbətindən pəhriz tut müdam.
Kimin ki, içində iki qapı var,
O heç yaşamasa daha xoş olar.
İrəliyə addım atdığın zaman
Geri dönməyi də unutma bir an.
İş, doqquz addımla atılsa sən bil,
On addım atmağın məsləhət deyil.
Ədalət axtaran insanlara sən
Doğru cavab göndər doğru dillərdən.
İşində sadiq ol, sözündə möhkəm,
Kim aman istəsə, olsun xatircəm.
Hər kəsi sınaqdan keçirib düz bax,
Sınaqsız olmasın o sənə küstax[121].
Heç kəsin əhdinə bel bağlama gəl,
Onun iç üzünə atmayınca əl.
Kiçik görünməsin gözünə düşman,
Böylə təmizlənir yollardan tikan.
İncisən bir sirrin açılmağından,
Danışma bilməsin onu bir insan.
Vurduğun bir şeyi çıxart kökündən,
Hörmət etdiyini gözdən salma sən.
Gecəni, gündüzü çox vermə bada
Yaxşı ad uğrunda çalış dünyada.
Şərab halalsa da mindirmə başa,
O haramzadədən uzaqda yaşa.
Meyi qaydasınca nuş edə bilsən,
Sən şərab içərsən, keflənər düşmən.
Həddini aşırıb, çox içsən əgər,
Sənə bütpərəstlik ləkəsi dəyər.
O gün ki, xoşhalsan, xeyli dayan, dur,
Pis gözlərə qarşı üzərlik yandır
Təbin şad olduğu gecələr belə
Özünə bir dua nəfəsi üflə.
Kef vaxtı özünü nəşəli saxla,
Qoy məclis qızışsın daha maraqla.

Dünyada şir kimi sən göstər vüqar,
Taki igidlikdən dəm vurmasınlar.
Bir xərabə görsən, qurmağa tələs,
Məsləhət belədir, əməyin itməz.
Gətir bu dünyanı ağlın önünə,
Tələsmə heç kəsin ölüm gününə.
Diləyin baxma ki, uzaqda qalar,
Öz bəxtin qapıdan içəri salar.
Bu sözlər, bəlkə də, bir əfsanədir,
Sənlə danışmağa bir bəhanədir.
Yoxsa, ey dünyaya sahib hökmüdar,
Səndə nəsihətə ehtiyacmı var?
Nə qədər ki, sənsən, özünsən rəhbər,
Əlindən daima yaxşılıq törər.
Yaxşı kişilərin duasına bax,
Sənə çərx altında o sədd olacaq.
Nə qədər şadlıqdır, kefdir, həvəsdir,
Sənə Nizaminin hümməti bəsdir.
Ey allah, bu şahın gül camalından
Zilləti, zəhməti gizli tut hər an!
Qapını çalarsa, fəryadına yet,
Hər yerə gedərsə, ona kömək et!
Bütün sərkərdəsi zəfərə çatsın,
Düşməni basılıb yaslara batsın!
Onun əlindəki o şahanə cam
Həyat şərbətiylə qoy dolsun müdam.
Mənə də bir qətrə versin o camdan,
Yazmışam adına bir belə dastan.
Adıyla adlansın bu dastan hər dəm,
Şahın dövlətinə olsun xoşqədəm.

# YEDDİ GÖZƏL

## NAĞILLAR ALƏMİ VƏ HƏYAT HƏQİQƏTLƏRİ

Azərbaycan ədəbiyyatı böyük Nizamiyə qədər mürəkkəb və şərəfli bir yol keçmişdir. Bir tərəfdən Qətran Təbrizi, Əbül-Üla Gəncəvi, Qivami Gəncəvi, Şihabəddin Söhrəverdi, Məhsəti Gəncəvi, Eynəlquzat Həmədani, Xaqani Şirvani kimi adlarla, digər tərəfdən "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidə ilə təmsil olunan söz sənətinin ən layiqli varisi olaraq meydana çıxan Nizami Gəncəvi özünəqədərki mədəniyyəti əlçatmaz zirvəyə qaldırmışdır.

O zamana qədər Firdovsi, Faxri Gürgani, Ömər Xəyyam, Yusif Xas Hacib, Sənai Qəznəvi, Xaqani Şirvani kimi böyük humanistlər yazıb yaratsalar da, Nizami öz əsərləri ilə poeziyanı o vaxtadək görünməmiş bir yüksəkliyə çatdıraraq ona yeni istiqamət vermişdir. Nizami poeziyası fikir və düşüncə baxımından zəngin bir ümmandır. Mayası elm və ürfan, qayəsi insana və dünyaya məhəbbət olan bu poeziyada insan yerlərin və göylərin sirlərini öyrənməyə, dərk etməyə, həyatını öyrəndiklərinə uyğun qurmağa çalışan fəal bir şəxsiyyətdir.

Öz yaradıcılığı ilə şerə yeni ruh verib, onu sarayların mənganəsindən qurtararaq, ümumxalq sərvətinə çevirmiş dahi Azərbaycan şairi və mütəfəkkiri Nizaminin sonralar "Xəmsə" adlandırılan beş poemasından dördüncüsü "Yeddi gözəl" poemasıdır. Orijinalda adlanan poema "Həft peykər", məzmunu nəzərə alınaraq məcazi mənada "Yeddi gözəl" adı ilə tərcümə edilir. Nizami poemanı 1197-ci il iyul ayının 31-də bitirmiş və onu Marağa hakimi Əlaəddin Körpə Arslana (1174-1208) ithaf etmişdir. Poemanın mövzusu Sasani hökmdarı olan V Bəhramın həyatı ilə bağlıdır. Ancaq şair onun həyatını əks etdirmək adı altında və onun vasitəsilə öz dövrü haqqında kəskin tənqidi fikirlər, romantik düşüncələr dolu bir əsər yaratmışdır. "Yeddi gözəl" həyat və insan, tarix və müasir dövr, padşah və cəmiyyət və s. mövzular ətrafında dahi sənətkarın zəngin, rəngarəng düşüncə, baxış və qənaətləri xəzinəsidir.

Əsərin mövzusu Sasani hökmdarı V Bəhramın həyatı ilə bağlı olsa da, şair Nizami Bəhramın həyatını, fəaliyyətini nəzmə çəkmək, onun başına gələnləri büsbütün əks etdirmək istəməmişdir. Nizaminin məqsədi Bəhram haqqındakı əfsanə və rəvayətləri, tarixi mənbələrdə onun barəsində yazılanları toplayıb nəzmə çəkmək olmamışdır. Böyük şairin istəyi Sasani hökmdarının simasında yeni insan idealını əks etdirmək, zaman və insan anlayışı ətrafındakı dərin düşüncələrini ifadə etmək olmuş, fikirlərinin dəlili-sübutlu olması üçün mənbələrə biganə qalmamışdır. Məsələyə nə qədər ciddi yanaşdığını, uzun müddət mövzu ilə bağlı nə qədər axtarışlar apardığını şair aydın dillə dəqiq şəkildə özü də qeyd edir, istifadə etdiyi mənbələrdən bəzilərinin adlarını çəkir:

Dünyada nə qədər kitab var belə
Çalışıb əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə, yeri düşərkən
Buxari, Təbəri əsərlərindən,
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.
Əlimə yetişən hər bir varaqdan
Nüsxələr bağladım mən zaman-zaman.
Onda ki fikrimi saldım sahmana,
Dedim ki, qoy onu düzüm dastana.
Oxuyan bəyənib afərin desin,
Ariflər, alimlər mənə gülməsin.

Bu kiçik parça Nizaminin poema yazılmağa başlayana qədər necə dərin araşdırmalar apardığını, necə gərgin zəhmət dolu yaradıcılıq prosesi keçdiyini aydın əks etdirilir. Şairin hər əsəri başlarkən işə necə məsuliyyətlə yanaşdığını aydın təsəvvür etmək baxımından qiymətli olan bu parçada Buxari və Təbəri kimi çox mühüm mənbələr xatırlanır. Halbuki Nizami "Siyasətnamə", "Qabusnamə", "Min bir gecə" və başqa əsərlərdən də çox ciddi şəkildə faydalanmışdır. Nizaminin mövzu mənbələrindən biri də, heç şübhəsiz ki, Firdovsinin "Şahnamə"si olmuşdur. Lakin Nizami sələfini təkrar etmək, ondan nə isə götürmək, nədəsə ona bənzəmək, onun Bəhram haqqında yazdıqlarına oxşar bir şey yaratmaq istəməmişdir. Mahiyyət etibarilə seçilən, fərqli bir əsər meydana gətirən şair özünün Firdovsidən fərqli, yeni keyfiyyətli sənətkar olduğunu nəzərə çarpdırmaq üçün işlədiyi bəzi epizodların yeni poetik həllini vermişdir. Bu baxımdan Fitnə epizodu Azadənin təkrarı yox, Firdovsinin yaradıcılıq prinsipləri ilə mübahisədir. Süjetin qurulması, hadi-





sələrin vahid xətt üzrə birləşdirilməsi baxımından həmin əsərlər arasında oxşarlıq tapmaq çətindir. Nizami sələfinin işlədiyi mövzularda, akademik Məmməd Arifin dediyi kimi, "həmişə deyilməmiş sözlər, tamamlanmamış fikirlər, hələ tamamilə deşilməmiş gövhərlər" tapır. Şair Firdovsiyə, onun əsərinə münasibətini müqəddimədə izah edərək yazır:

Şahların çox uzun tarixi vardı,
Birindən bir əsər yazmaq olardı.
Bir dərin fikirli varmış ki, o tək
Yazmış bu şeyləri nəzmə çəkərək.
Yerdə qırıntılar qalmış lələdən,
Onu da çoxları buraxmaz ələdən.

Nizami daha çox Firdovsinin qələmindən kənarda qalanlara diqqət yetirmiş, yeni tipli bir əsər yaratmışdır. Böyük şair şahların uzun-uzadı tarixini, onların hər birindən bir əsər yazmağın mümkün olduğunu təsadüfi xatırlatmır. Nizaminin poeması həmin hökmdarlardan məhz birinə həsr edilmişdir. Şairə görə Bəhram haqqında Firdovsinin yazdıqları "yarı deşilməmiş gövhər"dir. Bu gövhəri deşmək, işlənmiş mövzunun vasitəsilə deyilməsi mümkün olan yeni fikirləri irəli sürmək çətin və məsuliyyətli bir iş idi. Belə çətin və məsul işə girişən sənətkar çox işləməli olmuş, lakin özünün istədiyi yeni tipli poemasını yarada bilmişdir.

Bakir söz demişəm, çox əlləşmişəm,
Yarı deşilmiş bir gövhər deşmişəm.
Doğru saydığımı yerinə qoydum,
Hər şeyin qədrini haqqıyla duydum,
Dedim ki, bir əsər yaradım gərək,
İncə naxışlara kəsilsin bəzək.

"Yeddi gözəl" poeması ədalətli hökmdar surəti yaratmaq, şairin ideal şah arzusunu ifadə etmək üçün yaradılmış əsər deyil, insana yeni İntibah dövrünün münasibətini əks etdirən bir poemadır. İnsan necədir və necə olmalıdır fikrini geniş planda əks etdirmək Nizaminin daha çox bu əsərdə əsas poetik qayəsi olmuşdur. Müxtəlif insan surətlərini rəngarəng hadisələr axarında təbii və inandırıcı şəkildə göstərməklə Nizami istədiyinə nail olmuş, insana yeni münasibət ifadə etmişdir.

Böyük söz ustası keçmişə, bu günə və sabaha humanist İntibah ziyalısının gözü ilə baxa bilmişdir.

Şair əsas hadisələrə keçməzdən əvvəl poemanın müqəddiməsində onun insana yeni şəkildə yanaşdığını göstərən bütöv bir konsepsiya irəli sürür. Əgər müqəddimədə insan necədir və necə olmalıdır sualı lirik şəkildə, düşüncələr, çağırışlar və ittihamlar tərzində ifadə olunursa, əsas hissədə bunlar ayrı-ayrı insan surətləri və həyati hadisələr vasitəsilə təsdiq edilir.

Nizami lap əvvəldən insanın özünü dərk etməsi tələbini irəli sürür. İntibah dövrünün "təbiətin və insanın kəşfi" kimi qiymətləndirildiyini nəzərə alsaq, Nizaminin bu mülahizəsi bizə daha aydın olar. İnsanın özünü dərk etməsi onun həyatda və cəmiyyətdə yerini bilməsi, xeyirlə şəri ayırd etməsi, mürəkkəb və ziddiyyətli hadisələr axarında düzgün yol seçməyi bacarması deməkdir. Nizami insanı özünü dərk etmək baxımından iki yerə ayırır, dərk edənləri əbədi yaşayanlar, dərk etməyənləri bir qapıdan girib digərindən çıxanlar adlandırır. Bu baxımdan şair silsilə fikirlər irəli sürərək yazır:

Kim ki, öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur, o ölməz haşa.
Nəqşini bilməyən fanidir, fani,
Baqi say bu nəqşi bilən insanı.
Tanısan özünü, keçsən cahandan,
Yenə bu dünyada yaşayacaqsan.
Özündən hər kim ki deyil xəbərdar,
Bir qapıdan girər, birindən çıxar.
Qapı tüstüsüzdür, pəncərə tozsuz,
Günəşə bir baxan tapılmaz əfsus.

Nizami əsrini günəş mərtəbəsində olan insanı dərk etmək qabiliyyətində olmadığına görə məzəmmət

edir. Şairin insana yeni münasibəti baxımından insanın özünü dərk etməsi fikri xüsusi əhəmiyyətə malikdir. Bütün qalan fikirlər məhz bu müddəanın ətrafında hərlənir və onunla bağlanır. "Yeddi gözəl" əsərinin süjetindəki bir sıra mühüm hadisələr də bununla izah olunur. Neman özünü dərk etdikdə şahlıqdan əl çəkib yoxa çıxır. Özünü dərk etməyən Bəhram uzun müddət yeddi gözəl adlı eyş-işrət aləmində yaşayır, özünü dərk etdikdə isə yeddi gözəldən, yeddi günbəzli qəsrdən əl çəkir.

Nizami Bəhramı əsər boyu özünüdərketmə prosesində əks etdirmişdir. Müqəddimədə Nizami mövcud gerçəkliyə qarşı çıxır, insanın qarşısına İntibah baxımından mühüm ictimai vəzifələr qoyur. "Sözün tərifi və hikmət haqqında", "Oğlum Məhəmmədə nəsihət" adlı bəhslərdə şairin yeni insan idealı ifadə olunmuşdur. Poemanın əsl müqəddiməsi də həmin bəhslərdir. Həmin bəhslərdə özünü dərk edənlər və dərk etməyənlər qarşılaşdırılır, hər iki tərəfin əməlləri xatırlanır, ikincilər insan kimi inkar edilirlər. Özünü dərk edə bilməyənlər var-dövlət arxasınca qaçır, işi tədbirlə, ağılla görmür, həyatın mənasını yeyib yatmaqda görür, özünə bəzək-düzək vurur, başqalarında eyib axtarır.

İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən-zirək...
Çalış insanların işinə yara,
Geysin əməlindən dünya zərxara...

Nizami özünü dərk etmiş insanın əsas məziyyətini yem dalınca qaçmaqda yox, zirəklikdə, xalqın işinə yaramaqda, əməlləri ilə dünyanı zərxaraya bürüməkdə görür. İnsana belə münasibət İntibahın ən yüksək nöqtəyə çatdığını sübut edir. Humanizm nə Nizamidən əvvəl, nə də sonralar insana belə bir münasibət zirvəsinə yetməmişdir. Nizami istəyir ki, insan dünya ilə cığallıq etməsin.

Çalış dünya ilə cığallıq etmə,
Əjdaha ağzında çadıra getmə.

Nizaminin insandan tələbi böyükdür. Dünyanın hiylələrinə, hücumlarına qarşı şiri-nər kimi vuruşaraq özünü heç olmaqdan, udulmaqdan qoruması üçün bu insanın birinci növbədə özü özünü dərk etməsi lazımdır. İnsan həyatda ancaq açıq düşmənlə yox, həm də gizlin, zahirdə ona gülüb özünü dost göstərən, cilddən-cildə düşənlərlə qarşılaşır. Nizami əsrinin adamlarını zamanın əxlaqına, baxışlarına, meyllərinə qarşı döyüşə çağırır, insanın vəzifəsini də bunda görür:

Qalx əzək başını bu fitnənin biz,
Məhv eyləyək tamam, bu vəzifəmiz.
Bəs deyil baş əydin pula, qızıla,
Saldın dörd düyünə, yeddi qıfıla?
Yel qızıldan ötrü, yaxşı nəzər sal,
Gör necə eylədi laləni pamal.

Var-dövlətə aludəlik, qızıl toplamaq ehtirası zamanın ən böyük bəlası, insanda insanlığı öldürən bir keyfiyyət kimi rədd olunur. Şair bu fitnə-fəsadın başını əzməyi insanın əsas vəzifəsi sayır. Bu isə özünü dərketmənin nəticəsində ola bilərdi. Nizami feodal orta əsrinin əsas şər mənbəyini doğru müəyyənləşdirir. İnsanın vəzifəsini isə həmin şər qüvvənin doğurduğu, əsaslandığı ideologiyaya qarşı vuruşmaqda, onu büsbütün əzməkdə görür. Bu, əlbəttə, asketizm, tərki-dünyalıq deyil, dünyanı və dünyada insanın yerini, mövqeyini dərk etməyin nəticəsidir. Bir cəmiyyətdə ki var-dövlət insanı və insanlığı öldürür, heçə çevirir, o yerdə Nizami var-dövlətin düşmənidir.

Nizami günəş adlandırdığı insanın adına ləkə gətirən əsas şər mənbəyi kimi var-dövləti rədd edir. Lakin bu o demək deyil ki, Nizami var-dövlətin, firavan, şən, gen-bol yaşamağın əleyhinədir. Nizaminin var-dövlət, xüsusən qızıl əleyhinə yönəlmiş fikirlərini bu şəkildə qəbul etmək onu anlamamaq, təhrif etmək deməkdir. İntibah dövrünün ən böyük humanistlərindən biri kimi Nizami hər şeyi insanla, insanlıqla ölçür, insanda insanlığa xələl gətirən hər şeyi rədd edir. İnsana, insanlığa xidmət edən hər şey Nizami üçün əzizdir, doğmadır. Nizaminin yüksək İntibah şairi kimi qənaəti budur ki, insan yemək, yatmaq, eyş-işrət dalınca qaçmaq üçün yaranmamışdır. Bu, insanın özünü inkarıdır. İnsan hər şeydən əvvəl xalqın, dünyanın gözəlləşməsinə çalışmalıdır. İnsan öz insanlıq borcunu bəşərə, insanlığa xidmət etməkdə görməlidir. Bu, feodal





fərdiyyətçiliyinin və insana baxışının inkarıdır.

Nizaminin yaşadığı dövr böyük elmi kəşflər, ağıl və idrak dövrü idi. Orta əsrlərin dini ehkamına, mövhumatına İntibah ağıl-kamalı qarşı qoyurdu. Nizami də İntibahın ən böyük nümayəndələrindən biri kimi ağıl məsələsinə xüsusi diqqət yetirir, insanın özünü dərk etməsində onun rolunu, ağlın insana arxa olduğunu yazır. Ağıllı adamı mələk adlandırır, ağıllı insanda yerlə göyün birləşdiyi fikrini irəli sürür.

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki yetişmədi ağıldan bara,
Oxşar insan sifət əjdahalara.
Zirək adam, insan mələkdir, mələk.
Zirəklik gözəldir, əcəbdir, gerçək.

Nizami Allah vergisi olan ağıldan yox, insanın səyi nəticəsində əldə edilən bilik və ağıldan danışır. İnsan cəhd sayəsində mələyə çevrilir, öyrənməklə daşdan gövhər çıxardır deyən şair bizə mövhumatçı, tərki-dünya görünmür. Onun fikirlərində həyata, insanlığa, elmə çağıran güclü bir hayqırış vardır.

Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan da gövhər çıxardar.
Ancaq öyrənməyi ar bilən insan
Məhrumdur dünyada bilik almaqdan.
Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular,
Təlimə həvəskar çox korazehin
İqlimlər qazisi olmadı? Deyin.
Təlimdir düzəldən itləri sap tək,
Olmazmı cəhd etsə bir insan mələk?

İnsanın ancaq səy göstərib öyrənmək, cəhd nəticəsində dəyişə bildiyini, vəhşilikdən qurtarıb mələyə çevrildiyini, yerdən göyə yüksəldiyini şair inamla qeyd edir. Nizami ətalətə, tənbəlliyə, tərki-dünyalığa düşmən kimi cəhdi, səyi əsas götürür. Cəhd olmasa, iti zehin yatır, çalışan, səy göstərən insan isə hörmət, izzət sahibi olur, ona görə ki, səy insanı ucaldır, dəyişdirir, ən qiymətli sərvətə çevirir. Nizami orta əsrin sərt həyatı, qorxunc qanunları qarşısında insandan daha çox ayıq-sayıqlıq tələb edir.

Baxma ki, oynaqlar atın, ayıq ol,
Çətindir nə qədər bax getdiyin yol.
Bu yolda oxşasan bir ağ şahinə,
Yollara gün kimi nəzər sal yenə.
Elə bir yola ki, ovlaq yoludur,
Göylər kamanlıdır, göylər oxludur.

Nizaminin insana yeni münasibəti, ona İntibah idealları baxımından yanaşması şairin bütün fikirlərində özünü aydın büruzə verir. Zaman, əsrin insanları və bu insanların əxlaqı, oğlu Məhəmmədin taleyi, şairin özünün həyat təcrübəsi, həyatda gördüyü ağrı-acılar yeni insan idealının ifadəsi üçün vasitəyə, dəlil və sübuta çevrilir.

"Yeddi gözəl" obrazların təqdimi baxımından da diqqəti cəlb edir. Şair surətlərə ancaq müəyyən ideyanı, fikri təcəssüm etdirən, hadisələri bir-birinə bağlayan mexaniki, zahiri vasitə kimi baxmır; onlar hər şeydən əvvəl hər hansı cəhətdən biri digərinə bənzəməyən, müəyyən vərdişləri, qayğıları, keyfiyyətləri olan canlı, səciyyəvi adamlar kimi təqdim olunurlar. Nizami surətləri birtərəfli əks etdirməyin əleyhinədir. İdealı ancaq ideal, şəri də ancaq şər olaraq göstərmək Nizami poeziyasına yaddır. Mürəkkəb və çətin həyat yolunda idealın özündə nöqsanlar, büdrəmələr olduğu və ola biləcəyi fikrini şair rədd etmir. Bu, ideal surəti ideallıqdan çıxarmır, lakin onu həyatiləşdirir, inandırıcı, müəyyən mənada real şəklə salır. Əgər Bəhramın nöqsanları olmasaydı və Nizami onu saf ideal şəklində təqdim etsəydi, obraz bu qədər uğurlu alınmazdı. Hökmdar kimi Bəhram məhz səhvləri, büdrəmələri ilə daha güclü və inandırıcıdır.

Nizaminin İntibah şairi kimi ən səciyyəvi cəhətlərindən biri onun demokratizmidir. Şairin yaratdığı bütün surətlərdə bu cəhət özünü aydın göstərir. Şair əsərlərində hakim feodal-zadəgan təbəqələri içərisindən seçdiyi qəhrəmanları xalq nümayəndələri ilə qarşılaşdırır. İdeal qəhrəman o vaxt özünü insan kimi təsdiq edir ki, xalqdan öyrənir, xalq içərisindən çıxmış insanların həyat təcrübəsindən, müdrikliyindən ibrət alır. Xalqa arxa çevirən, ona yuxarıdan baxan, zülm edən qəhrəman isə istər-istəməz şər rəmzi kimi təqdim olunur.

"Yeddi gözəl"də bütün surətlər eyni dərəcədə geniş və çoxplanlı şəkildə təsvir edilməmiş, əsas diqqət isə Bəhram Gur surəti üzərində cəmlənmişdir. Bütün qalan surətlər hökmdarın həyat yolunda bu və ya başqa şəkildə onunla əlaqələnir, onu daha aydın və ətraflı səciyyələndirməyə kömək edir. Yəzdgürd, Neman, Fitnə, çoban, Rastü-Rövşən, Çin xaqanı, Mənzər, Şidə, Simnar və başqa surətlər ilk növbədə ideal surət kimi yaradılan Bəhram Guru daha yaxşı başa düşməyə imkan verir. Bu surətlər Bəhram Gur üçün mühit, həyat fon təşkil etməklə bərabər həm də ayrıca əhəmiyyətə malikdirlər. Bəhram Gur həmin surətlər aləmində hərəkət etməklə onlardan fərqlənir. Onlar özləri də biri digərinə oxşamır.

Şair hakim feodal-zadəgan nümayəndələrinin təsvirinə daha geniş yer vermişdir. Poemanın mənfi surətləri də bu təbəqə içərisində göstərilmişdir. Xalq içərisindən seçdiyi qəhrəmanları şair həmişə işıqlı boyalarla vermiş, açıq-aydın onların müdrikliyinə, cəsarətinə, insaniliyinə heyranlığını bildirmişdir. Çobanın, Fitnənin, məhbusların simasında şairin insan idealı və əsas tendensiyası əks olunmuşdur. "Yeddi gözəl"də mərkəzi surət Bəhram Gurdur. O, Nizaminin yeni insan axtarışlarının təzahürüdür. "Xosrov və Şirin" poemasındakı Xosrov surətində şair eşqin təsirilə onun dəyişməsini, təkmilləşməsini göstərirsə, burada qəhrəmanın mürəkkəb həyat hadisələri nəticəsində dəyişməsini, inkişafını qələmə almışdır. Nizami yenə də ədalətli şah surəti yaratmağa cəhd etməmiş, bəlkə xalq ədəbiyyatında, Firdovsi "Şahnamə"sində ədalətli şah kimi təqdim edilən Bəhram Gurun səhvlərini, büdrəmələrini və bu yolla özünü təsdiqini göstərmişdir. Nizami Bəhram Gurun daha çox öz-özünü axtarmağı üzərində dayanmışdır. İnsan və hökmdar kimi inkişafın son həddinə çatan Bəhramı təsvir eləmək fikrindən Nizami yan keçir.

Bəhramı Nizami əvvəlcə Yəməndə göstərir. Onun Yəmən həyatı sonrakı həyatına uyğun verilmişdir. Bəhram burada ictimai həyatdan kənardadır. Ov edir, əylənir. Onun xatirinə Xəvərnəq tikilir. Mahir ovçu kimi Bəhram cəsarətli və ədalətli işlər görür. Əjdahanı öldürüb ahunun intiqamını alır və əvəzində böyük xəzinə tapır. Boş vaxtlarında Xəvərnəqdəki otağa gəlir, gözəllərin şəklinə baxıb xəyallara dalır. Burada Bəhramın yeddi gözəlin eşqi ilə xəyala dalmağı onun başqa işlərinə mane olmur. Onsuz da onun heç bir işi yoxdur. Bəhram bu hərəkəti ilə cinayət işləmir. Lakin bununla Bəhramın xarakterindəki bir qüsura işarə edilir. Oxucu ayıq salınır. Ətrafında baş verənlərə laqeyd olan, gününü ovda, Xəvərnəqdə xəyala dalmaqla keçirən Bəhramın bu həyatı uzun sürmür. Atasının ölümü onun həyatında yeni bir mərhələnin başlanmasına səbəb olur. Atasının taxt-tacına sahib olmaq üçün böyük cəsarət və mərdlik göstərir. O, Xosrov kimi qorxudan ölkəsini qoyub qaçmır. Əksinə, qanuni taxt-tacı almaq üçün İrana qayıdır.

Bəhramın onu istəməyən İran əyanlarına münasibəti, atasının əksinə ədalətli olacağı haqqında verdiyi vədlər, qanunsuz şahla rəftarı, iki şir arasından tac götürməsi - bunlar hamısı ədalətli, cəsarətli, ideal insan və şah kimi onu sevdirir. Bəhramın iki şir arasından tac götürməsi rəmzi məna daşıyır, taxt-tacı əldə saxlamağa qadir olduğunu bildirir, onu ən qorxulu düşmənlərlə mübarizədə qoruya biləcəyi mənasını ifadə edir. Halbuki Bəhramın atasının taxtına qanunsuz olaraq oturmuş şah iki şir arasından tac götürmək şərtini eşidən kimi qorxusundan sürüşüb taxtdan düşmək istəyir. Bu hadisə göstərir ki, həmin şəxs gələcəkdə də taxt-tacı, başqa sözlə, ölkəni təhlükələrdən qoruya bilməyəcəkdir. Onda belə qüdrət və cəsarət yoxdur. Deməli, onun şah olmağa heç bir qabiliyyəti, ləyaqəti və ixtiyarı da yoxdur.

Bəhram iki şir arasından tac götürərkən əyanların və xalqın sevinməsi, onu alqışlaması ondan irəli gəlir ki, həmin adamlar Bəhramın ölkəni təmsil edən tac uğrunda heç bir təhlükədən çəkinmədiyini, ən qorxulu düşməndən belə qoxmadığını görür, ondakı qüdrət, ləyaqət və cəsarətin şahidi olurlar. Onlar Bəhramın simasında arzuladıqları bir hökmdarı görürlər. Bəhram Gur bunu sonralar da dönə-dönə təsdiq edir.

İnsan və hökmdar kimi özünü təsdiq edən Bəhram Gur quraqlıq və aclıq illərində dövlət xəzinəsinin hesabına əhalini çörəklə təmin edir. Tək bir nəfərin acından ölməsində özünü günahkar sayır, qara geyinir. Həmin aclıq dövründə o, hətta heyvanların, quşların da qayğısına qalır. Bolluq illərində isə insanların günlərini şad, şən keçirməsi üçün tədbirlər görür.

Bunun nəticəsidir ki, neçə il bolluq olur. Adamlar tənbəlləşir, silahları satıb çalğı aləti alırlar. Ona görə də Çin xaqanı qəfildən hücum edəndə onunla vuruşmaq üçün özlərində güc tapa bilmirlər.

Bəhram Gurun bir hökmdar kimi ilk səhvlərindən biri bu idi ki, insanın vəzifəsini yeyib yatmaqda görürdü. Halbuki Nizaminin qənaəti budur ki, insan gərək yem dalınca qaçmasın. Düzdür, Bəhram Gur ağıllı bir tədbirlə ölkəni təhlükədən qurtara bilir. Ölkə yenidən abadlaşır, hamı şadlıq içindədir. Bəhram elə düşünür ki, bütün





problemlər həll olunmuşdur. İndi o, özü ilə də məşğul ola bilər. Şidə Bəhram üçün yeddi günbəzli, yeddi rəngli bir qəsr tikir. Bəhram yeddi iqlimdən gətirilmiş yeddi şahzadə qızla bu qəsrə çəkilir, eyş-işrət və nağıllar aləmində yaşayır. Ölkəni idarə etməyi vəziri Rastü-Rövşənə adlı vəzirinə etibar edir.

Nizami dövrünün hökmdarları üçün adi hal olan bu hal onu yenə çətin vəziyyətdə qoyur. Çin xaqanı yenidən ölkəni müharibə ilə təhdid edir. Xəzinə boş, ölkə dağılıb, əhali şaha düşmən kimi baxır. Bəhram nə edəcəyini bilmir. Xalq nümayəndəsi olan çobanla söhbətləri onu qəflət yuxusundan ayıldır. Bundan sonra o, məhbusları dindirir. Zərbənin haradan dəydiyi ona aydın olur. Rastü-Rövşən edam olunur. Şah yeddi günbəzli qəsrdən əl çəkir. Ölkəni indi həqiqi mənada iki şir arasından xilas edir, bununla vədlərinə və ideala uyğun şah olduğunu sonuncu dəfə təsdiq edir.

Bəhram Gurun sonrakı həyatını təsvir etməyi şair lazım bilmir, çünki əks etdirmək istədiklərini əks etdirmiş, demək istədiklərini demişdir. Ona görə də Bəhram Gur növbəti dəfə gur ovuna gedərkən mağarada qeyb olur. Nizami Bəhram Gurun simasında insan və şah necə olmalıdır sualına cavab verməklə, insanın özünü axtarışı və təsdiqini açıb göstərmişdir.

"Yeddi gözəl" poeması məzmun və forma baxımından ecazkar bir əsərdir. Poema ifadə etdiyi fikirlərin, boyaların əlvanlığı baxımından da diqqəti cəlb edir. Şairin ilk poeması kimi bu əsər də rəngarəng düşüncə və zəngin fikir xəzinəsidir.

"Yeddi gözəl" əsərinin müasir Azərbaycan dilində iki tərcüməsi vardır. Həm Məmməd Rahim, həm də Balaş Azəroğlu Nizaminin bu poemasını gözəl bir dillə tərcümə etmişlər. Orijinala yaxınlıq, şairin fikirlərini Azərbaycan dilində yüksək bədii səviyyədə ifadə edə bilməsi baxımından hər iki tərcüməni qarşılaşdırarkən, biz Məmməd Rahimin tərcüməsini yeni nəşr üçün daha münasib bildik.

Xəlil Yusifli

## BAŞLANĞIC[1]

Ey bu kainatın açan gözünü,
Yoxdur səndən qabaq duyan özünü,
Hər bir başlanğıcın ibtidasısan,
Sonların sonusan, intəhasısan.
Ey uca fələyi qurub qaldıran,
Ulduzlardan gözəl bir məclis quran,
Səxa xəznəsini icad eyləyən,
Varlığı yaradan, abad eyləyən,
Hər şeysən, ruh verdin sən bu cahana,
Səninlə işimiz düşər səhmana.
Varsan, yoxdur sənin mislin dünyada,
Özgə şey gətirməz aqillər yada.
Ağıl sahibləri önündə hər an
Surət bəzəməklə olursan əyan[2].
Bütün varlıqları yaşadır həyat,
Həyat da səninlə açır qol-qanad.
Sən ey bu varlığı yoxdan xəlq edən,
Nəva bəxş eyləyən, çalan, səslədən,
Adın - əvvəlidir hər bir şöhrətin,
Sonudur hər işin, hər nəhayətin.
Sayın əvvəlisən sən bu gedişdə,
Sonların sonusan hər axır işdə.
Səndən yaradılış kamala yetir,
Sənə qovuşmağa, zavala yetir.
Sənə yetişməyə acizdir xəyal,
Qapına qonmamış nə toz, nə zaval.
Doğulan sən deyil, aciz bəndədir,
Heçdir özgələri, qüdrət səndədir.
Xəyala yol verən, işıq saçansan,
Bir işarə ilə min yol açansan.
Sənə baş əymədi kim qafil oldu,
Dərhal qapısına qıfıl vuruldu[3].
Sübhün çırağını yalnız sən verdin,
Səhərə quş verdin, quşa dən verdin[4].
Bu qara pərdəni, ağ pərdəni sən
Tapşırdın Günəşə, Aya əzəldən.
Yolunu izləyən: gecə və gündüz
Sarayında qoşa qulundur, sözsüz.
İşləməzlər, şənin bilməsə layıq,
Nə Günəş, nə də Ay yaxşı, yamanlıq.
Yandırdın beyində ağıldan çıraq,
Elə bir çıraq ki, günəşdən parlaq.
Günəştək parlayan bu ağlın özü
Görə bilməz səni, kor olar gözü.
Bir yerdə ki ağıl ayaqdan düşə,
Xəyal nə iş görər, çox da əlləşə[5],
can ki, cövhərdəndir, tənimizdədir,
Biz onu görmürük, o ki bizdədir.
Sən ki nə cövhərsən, nə də yerin var,
Xəyalmı dərk üçün səni qalxışar?
Biz deyil, sən bizə yol göstərənsən,
Heç yanda yox yerin, hər yanda sənsən!

Biz yeddi fələkdən çüzük bu darda,
Yeddi bayırdan da qaldıq kənarda[6].
Əqli-külli əmrində yol tapdı sənə,
cürəti olmadı baxa üzünə[7].
Gündüzdən qaranlıq gecələrədək -
Hər şey rəhmətinə möhtacdır gerçək.
Sənsən dəyişdirən hər vəziyyəti,
Kimsənin bu işə çatmaz qüdrəti.
Sənsiz yaxşı yoxdur, olmaz yaman da,
Sənsiz yaşayarmı bir şey cahanda?
Lalin atəşini, od rəngli lalı
Alıb daşa verdi qüdrətin əli[8].
Bu dünya, dünyanı hərlədən fələk
Hay çəkər qapında hər zaman qultək[9].
Pərdənin nəqşini hamı əks edər,
Əsil iş sənindir, bunlar bəhs edər.
Ulduz nə yaxşılıq, nə qan eyləyər,
Onları da işin heyran eyləyər.
Əgər eyləsəydi ulduz ömrü şad,
Onda hər münəccim olub Keyqubad,
Səadət içində sürərdi dövran,
Kim var ulduzları tanıyanlardan
Qiyasla xəznənə yol tapıb vara?
Verdin öz əlinlə nemət onlara,
O adamlara ki, beşcə ülkəri
Yeddidən ayıra bilməz hünəri.
İzlədim yolunu səyyarələrin,
Nə ki elmlər var, gizli və dərin
Oxudum, xəbərdar oldum da, vardım,
Varlıqlar sirrini yer-yer axtardım,
Səni tapan kimi yumdum kitabı[10],
Hamının sənədir gördüm xitabı.
Sənsən, hər varlığın içində sənsən,
Bütün canlılara həyat verənsən.
Yetişir sayəndə çörəyə insan,
Sən ucalt başımı, böyük Yaradan!
Məni bir gün belə sən ac eyləmə,
Özgə qapısına möhtac eyləmə.
Ruzidən ödəyən sənsən xilqəti,
Ancaq özün yetir mənə neməti.
Ağlım şey kəsəli mən səhv etmədim,
Sənin dərgahından kənar getmədim,
Qapıma yolladın nemətimi sən,
İstəməmiş verdin qismətimi sən.
Qocalmışam sənin öz astananda,
Yetiş imdadıma qorxunc zamanda.
Bu sözlər xətadır, bu nadir, aman,
Sən mənimsən, demək, mənimdir cahan.
Sərgərdan qoymuşdur bu dünya məni,
Sən xilas edənsən, qurtar bəndəni.
Kimin qapısında töküm göz yaşı,
Hamının sayəndə ucalır başı.
Nə qədər örtülü sirlər vardır,
Səndən gizli deyil, bu, aşikardır.





İnsanın məqsədi məlumdur sənə,
Yetir arzusunu sən də yerinə.
Çatdırmasan məni bu arzuma sən,
Səndən də qərəzsiz yaşayaram mən.
Səndə axtardığım istək yaxşıdır,
Sənə könül açıb demək yaxşıdır.
Sirri desəm yada, eylər xar məni,
Səninlə danışmaq ucaldar məni.
Sən, ey Nizamini bəsləyən Allah,
Qovma ki, qapına gətirmiş pənah.
Ucaltsın başını ilahi qüdrət,
Şadlıq tacı geysin ondakı himmət.
İşləri nizama düşsün, var olsun,
O, dərvişdirsə də, tacidar olsun[11].

## PEYĞƏMBƏRİN MƏDHİ

İlk pərgar xəttinin mərkəz nöqtəsi,
Varlığın axırı, ən son töhfəsi[12],
Yeddi çarx bağının gözəl nobarı,
Ağıl tacında dürr, sözdə mirvarı,
Əhmədi-Mürsəldən başqası məgər
Varmıdır, Tanrıya ola peyğəmbər[13].
Nəbilərdən üstün qılıncı, tacı,
Şəriət qılıncı, tac da meracı.
Varlıq bu ümmidən mayə almışdır,
Yerə nur, göylərə kölgə salmışdır[14].
Şərin beş təbilini hər an vurandır,
Bütün Yer üzündə şahlıq qurandır[15].
O - məqsəd, biz ondan umanq dilək,
Onun nəbiliyi sevilmiş demək.
Adəm palçığının gövhəri odur,
Başqalar xıltıdır, cövhəri odur.
Vurarkən sonuncu dövrünü fələk
Onu son peyğəmbər elan edəcək.
Əmri də, nəhyi də düzgündür, inan,
Əmri bəyənilmiş, nəhyi qadağan[16].
Zəhməti əziyyət saymayan adam,
Yoxsul olmasıyla fəxr etsin müdam,
Belə bir xəznəylə, yaxşı düşün, bil,
Yoxsul adlanarsa, əfsanə deyil.
Kölgənin üzünü ağardan insan
Günəşdir, kölgədən nə bəhs açırsan?[17]
Onu vəkil etdi göylər Allahı,
Şahmatda mat qoydu hər bir padşahı.
Baş qaldıranlara verməzdi aman,
Düşgünlərə kömək edərdi haman.
Yaxşı insanlara rəğbəti vardı,
Yaman adamlara nifrət saçardı.
Qılıncı axıdar qəhr ilə al qan,
Bir yandan da qoyar yaraya dərman.
Xəstə könüllərə o məlhəm yaxar,
Daşürəkliləri zəncirə taxar.
Ona qarşı çıxıb at yəhərləyən,

Beldə kin kəməri, hazıram deyən,
Keçər bir neçə il, ona baş əyər,
Şanlı qüdrətinə afərin deyər.
Adına yaradıb bir böyük cahan,
Seçilmiş etdisə onu yaradan,
Gözlərini tutan "möhrü-mazağ"dır,
Bağlanıb durduğu sanma bu bağdır[18].
Yeddi min il sonra gəldi cahana[19],
Dünya tabe olar sonadək ona.
Tünd-abı geyinmiş uca asiman
Onun xidmətində durmuş hər zaman.
Şərin əsli ilə fəri ki vardır,
Dörd xəlifə ona möhkəm divardır[20].
Odur işıq verən bu təbiətə,
Afərin, afərin belə xilqətə.
Yerlərdə, göylərdə hər nə cisim var
Ondan hər nəfəsdə bir kömək alar[21].
Hər şeyin həyatı təkcə ondandır,
Biz taxtik hamımız, o Süleymandır.
Nəfəsi havaya saçdıqca ənbər,
Qurumuş ağaclar oldu taza-tər.
Həmən qaldıraraq baş, xurma verdi,
Tikan ağac oldu, yaş xurma verdi.
Xurma yetirsə də quru tikandan,
Bu xurma düşmənə tikandır, inan!
Ayın almasını iki parçaya
Bölüb, yetirdisə o, xətər aya[22],
Nurla doldu gözü sitarələrin,
Tanrı bu hünərə dedi: - Afərin!
O ki hər bir işi ölçüb-biçəndir,
Məhəmməd seçilən, Allah seçəndir[23].
Yerdən göyə qədər duam var olsun,
Seçib-seçilənə salamlar olsun.

## PEYĞƏMBƏRİN MERACI

Onun sığışmadı cahana tacı,
Taxtını ərş üstə qurdu meracı.
Cəbrayıl gətirdi Büraq: - Qalx, - deyə,
Bu alçaq torpaqdan o yüksək göyə.
Dedi: "Min küləyə, yer oğlu, atlan,
Göylər adamına çevril, qanadlan.
Keşik çəkmək üçün bütün gecəni
Seçdilər bu gecə yataqdar səni[24].
İldırım yerişli Büraq sənindir,
Otur ki, bu gecə yataq sənindir.
Mən sənə gətirdim yataq qisməti,
Min ki, yel kimidir atın sürəti.
Taxtını göyə çək, özünsən hilal,
Şahsan, ulduzlara tələsib yol al.
Altı cəhəti üz yeddi kökündən,
O doqquz fələyi çarmıxa çək sən[25].
Səmakdan atını çaparaq, ucal,
Bakir mələkləri tut, kəməndə sal.

Göyün ulduzları izləyir səni,
Yaşıl geyimlilər gözləyir səni[26].
Göylərin o misri nazəninləri,
Yusifin aşiqi o dilbər pəri,
Züleyxa kimi, bax, vurulmuş sənə,
Olmuş eşqə dustaq, vurulmuş sənə.
Səni görmək üçün, gəl, göyə yüksəl,
Doğrasınlar turunc, doğrasınlar əl[27].
Ayağın altına al asimanı,
Bəzənsin nurunla göyün eyvanı.
Parla qönçə verən yaşıl bağ kimi,
İşıq sal göylərə çılçıraq kimi.
Dua zamanıdır, sənindir gecə,
İstəyin olacaq öz diləyincə.
Mələklər yurdunun fərşini bəzə,
Göylərin fövqündə çadır qur təzə.
Nur saç ki, parlasın ərşin gözləri,
Parçala zülməti, aydınlat yeri.
Tac sənə layiqdir, alginən tacı,
Başçısan, göylərə eylə meracı.
Ucalt öz başını, bu himmətinlə!
Hər iki aləmi bəxtiyar eylə.
Yolunu təmizlə, qoyma toz ola,
Tanrı dərgahına yönəl, düş yola.
Alsın öz haqqını ayağın sənin,
Ucalsın hər yerdə bayrağın sənin!"
Açantək bu sirri Cəbrayıl ona,
Məhəmməd bu sözdən gəldi həycana.
Huşunu itirib ətrafa baxdı,
Qulluq sırğasını qulağa taxdı.
Peyğəmbər əmindir, Cəbrayıl əmin,
Onları qorxutmaz nə şeytan, nə cin[28].
Tanrı kəl amını o nazil edər,
Bu, sözdə, dəlildə aqil, mötəbər.
O dedi Allahın hər peyğamını,
Bu duydu elçinin sirr-kəl amını.
Qaranlıq gecədə o parlaq çıraq
Alınca Tanrının əmrindən soraq,
Olmadı halqalı kəməndə yağı;
Tapılmaz belə bir zər boyunbağı.
Minib də Büraqa ildırımvarı,
O cumdu göylərə əldə tatarı.
Şahin qanadıyla basınca ayaq
Sıçradı yerindən o, kəkliksayaq.
Qəşəng ayaqları hilal vururdu,
Başında Keykavus taxtı qururdu[29].
Uçurdu, çox iti sürəti vardı,
Dörd şahin dalınca qanad salardı[30].
Hər şey dalda qaldı, öndə o təkdi,
Gecə təpik yedi, ay cilov çəkdi.
Gördünmü xəyalı yeriyən zaman,
Şimşəyi parlayıb çıxanda qından
Dünya gəzən ağlın sürətini sən,
Gənclikdə həyəcan qüvvətini sən?

Hamısı axsadı, yolda ləng oldu,
Geniş addımları döndü təng oldu.
O çapdıqca belə göy üzündə at,
Qaldı cənub qütbü, şimal qütbü mat.
Yolda göstərirdi Səmak cədvəli
Ona gah Ramehi, gah da Əzəli.
Onun Büraqının oynaq ayağı
Yazıb bitirincə bu göy varağı,
Açdı cahan ona darvaza, getdi,
Göylərin dövrünə pərvaza getdi.
Uçduqca yüksəldi, keçdi fələklər,
Baş yolda mələktək açmışdı şəhpər.
Onun xoş sifəti, gözəl camalı
Nura qərq eylədi göydə hilalı.
Parlaq Ütaridi o zərgər aldı,
Gümüş kürəsinin rənginə saldı[31].
Dön, məhtab rəngində sən də ol, - deyə,
Gümüş pərdə çəkdi parlaq Zöhrəyə.
Yolunun tozundan, edərkən merac,
Günəşin başına qoydu zərli tac.
Yaşıl geydiyiçin xəlifəyi - şam[32]
Geyinsin söylədi qırmızı, Bəhram.
Müştəri xəstədir gördü, əlbəəl
Çəkdi bədəninə naxoşun səndəl[33].
Keyvan ayaq öpdü qapanıb yerə,
Çevrildi bayrağı dərhal ənbərə.
Köhləni elə bil zəncirli şirdi,
O, səhər yelitək çapıb gedirdi.
Başa çatdırmayıb bu çataçatı
Yoruldu yoldaşı, yoruldu atı,
O gəlib çatınca uzaq mənzilə,
Gördü bağlanmışdır yol Cəbrailə.
Keçdi Mikayılın taxtından haman.
Suri-İsrafilin rəsədgahından
Ötdü daha əngin yüksəkliklərə,
Qaldı öz yerində Rəfrəflə Sidrə.
Yol yoldaşlarını qoyaraq dala,
Ruhani aləmə o düşdü yola.
Keçdi qətrə-qətrə həmin dəryanı,
Öyrəndi hər şeyi, hər bir mənanı.
Ərşin zirvəsinə elə ki yetdi,
Niyaz kəməndini nərdivan etdi.
Nurlu ərşi ötüb keçdi dərinə,
İlahi sirlərin qorxunc yerinə.
Çatınca, bürüdü qəlbini heyrət,
Gəlib cilovunu saxladı rəhmət.
Sıxılmış kəmanı açıldı dərhal,
Ayrılıq qurtardı, üz verdi vüsal.
Nurdan pərdələri yırtarkən özü,
Pərdəsiz bir nura sataşdı gözü.
Keçdi varlığından bir az o yana,
Rast gəldi o zaman vahid rəhmana.
Elə ki gözüylə gördü məbudu,
Hər nə görmüşdüsə, tamam unutdu.





Gözləri tutmadı bir yerdə məqam,
Çünki hər tərəfdən eşitdi salam.
Aşağı-yuxarı, dal-qabaq, sol-sağ -
Altı cəhət oldu bir cəhət ancaq.
Bir yerdən ki qaça cəhətlə cahan,
Orda altı cəhət taparmı meydan?
Cəhətsizin işi cəhətsiz aşar,
Odur ki, cəhətsiz oldu o pərgar.
Çəkməyincə gözü cəhətə pərdə,
Qəlbi düşdü qəmə, qorxuya, dərdə.
Bir yerdə ki, gözdən gizlənər cəhət,
Cəhətsizi görmək mümkündür, əlbət.
Nəbidən qalmışdı ancaq bir nəfəs,
Təkcə Allah idi, yoxdu başqa kəs.
Hər şeyi əhatə edən aləmi
Cəhət əhatəyə cürət edərmi?
İxlas badəsindən içərək şərbət,
Haqdan bərat aldı, geyindi xələt.
Səadət - bir qədəh, mərifət - saqi[34],
İçdi, bir qətrə də qoymadı baqi.
Yüz minlərlə salam ötürdü onu,
Asimandan yerə gətirdi onu.
O nələr almışsa hey vara-vara,
Verdi dostlarına - günahkarlara.
Ey Nizami, bəsdir, dünyadan çək əl,
Alçaldığın yetər, göylərə yüksəl.
Çalış axirətdə qur öz yurdunu,
Məhəmməd dinində taparsan onu.
Ağlına əqidən olsa pasiban,
Şəriət nuruyla xoşbəxt olarsan.

## KİTABI YAZMAĞIMIN SƏBƏBİ

Şahlıq dərgahından gizli işarə
Dəyincə gözümə, mən birdən-birə
Döndüm qanadları gərilmiş quşa,
Mülki-Süleymana uçum birbaşa.
İşarə deyirdi: "Qələmə əl at,
Bayram gecəsindən bir hilal yarat.
Qoy salsın əsərin gen dünyaya səs,
Bu qara pərdədən baxarsa hər kəs,
Görünməsin incə hilalın sənin,
Bir əsər versin ki, xəyalın sənin,
Kəlam cadugəri sənə vurulsun,
Sehrinin əsiri, dustağın olsun.
Bu məqsədlə oda sən istiot sal,
Ataşda partlayıb salsın qalmaqal.
İsit donmuş mumu, yupyumşaq elə,
Könüllər sayəndə yumşalsın belə.
Dar yoldan taxtını çıxar qırağa,
Ayaq döymə minib axsaq ulağa.
Asqırt nafə açan qələmi, şair,
Səhər yeli alsın ondan xoş ətir.
Müşk ilə oynasın, - əmr et küləyə,
Xoş ənbər çiləsin yaşıl ipəyə.
İnan, vaxtındadır çəkdiyin əmək,
Bu vərəq saymaqla belə söz demək.
Şah xəzinəsidir, bir belə zəhmət
Salacaq yolunu xəznəyə əlbət.
Bir gün bar götürər ağac əkənlər,
Xəzinə aparar əmək çəkənlər.
Tənək ağlamasa vaxtında zar-zar
Yetirməz axırda sevinclərlə bar.
Varmıdır sümüksüz ilik ya beyin,
Arısız şan balı olarmı, deyin?
Susuz bulud olmaq bəsdir, çarə tap,
Təndir qızışıbdır, közdür, çörək yap!
Durma, çək pərdəni, durma, hünər saç,
Pərdəli qızların üzlərini aç".
Qasid belə tələb eylədi, durdu,
Bu dəm qəm yerində şadlıq oturdu.
O zaman aradım, tarixə keçdim,
İncə ürək açan dastanlar seçdim.
Şahların çox uzun tarixi vardı,
Birindən bir əsər yazmaq olardı.
Bir dərin fikirli varmış ki, o tək
Yazmış bu şeyləri nəzmə çəkərək[35].
Yerdə qırıntılar qalmış ləldən,
Onu da çoxları buraxmaz əldən.
Gövhər ustadıtək mən də yaratdım,
Belə xəzinəni ortaya atdım.
Əsil şey axtaran aqil insanlar
Əziz tutar bunu, qədrini anlar.
Bakir söz demişəm, çox əlləşmişəm,
Yan deşilmiş bir gövhər deşmişəm.
Doğru saydığımı yerinə qoydum,
Hər şeyin qədrini haqqıyla duydum.
Dedim ki, bir əsər yaradım gərək,
İncə naxışlara kəsilsin bəzək.
Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ,
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən[36].
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.
Əlimə yetişən hər bir varaqdan
Nüsxələr bağladım mən zaman-zaman.
Onda ki fikrimi saldım səhmana,
Dedim ki, qoy onu düzüm dastana.
Oxuyan bəyənib afərin desin,
Ariflər, alimlər mənə gülməsin.
Deməsin yaşadım quru səs kimi;
Mən onun deyrini "Zənd-Avəst" kimi
Bəzədim yeddicə dilbər gəlinlə[37],
Göyün hər gəlini bir dəfə belə
Mənim gəlinimə baxarsa əgər,
Olar hər gözələ aşiq bir ülkər.
Nə zaman yeddi xətt uyar, yar olar,

Səadət nöqtəsi aşikar olar.
On naxış vursa da, bir nəqqaş əgər,
Əsas bir cizgidən sanma əl çəkər.
Bir cizgi naxışdan çıxarsa kənar,
Başqa cizgilər də bütün pozular.
Kimsə bu xətt üzrə doğru getməmiş,
Ancaq ki, doğruluq hələ itməmiş.
Mən ki incə xətlər ölçən rəssamam,
Kənara çıxmaram, sanmayın xamam.
Bircə qat telə çox gövhər düzmüşəm,
Qorxuram qırılsın, xətər sezmişəm.
Gərək min su üzüb, varıb keçəsən,
Axırda bir şirin sudan içəsən.
Qabil yerdə sudan insan da bitər,
Belə yer olmasa su qalmaz, itər.
Sudan sədəf kimi inci yaratdım,
Çörək, su tapmadım, yenə ac yatdım.
Hər sözüm dadırkən bal ilə şərbət
Neçin dinləməsin məni səxavət.
Sözdən, səxavətdən gərək vaz keçəm,
İş ki, taledədir, mən isə heçəm.
Sultan Mahmud ilə şair Firdovsi
Andırır nisbətdə Əqrəblə Qövsi[38].
Əsədi, Əbu-Düləf bəxtiyar oldu,
Çünki taleləri güldü, yar oldu[39].
Nələr danışıram, bax, ey könül, mən,
Suyum buluddandır, dürrüm Ədəndən.
Görərsə buluddan sədəf səxavət,
Bulud da sədəfdən görər məhəbbət.
Bulud nə səpərsə göylərdən yerə,
Sədəf də onları çevirər dürrə.
Bu cəbrayıl təbim cin qələmimlə
Çəkər səhifəyə cizgilər belə[40].
Onun cin öyrədən füsunu vardır,
Dəyiş paltarını, fəsli-bahardır.
Bu yolda cəhd elə, bu yolda səy et,
Divlərin əlindən, gəl, onu gizlət.
Süleymandan özgə olmasın görən,
Məni onda ara zaman-zaman sən.
Beynidir şairin hər şah əsəri,
Mən kiməm, ortada qalmış bir dəri.
Balsız, arısız bir mumam tərtəmiz,
Üzüyün qaşından uzaqdayıq biz.
Şahın möhrü ilə bu əsər ancaq
Əsil qiymətini tapıb alacaq.
Üzümü qara, ya al görən hamı
Bilər möhürdardır onun rəssamı.
Mənsə çalışmışam hər an, yaxşı bil,
Xalis qızıl verim, onda beş deyil[41].
Heç kəs almasa da ətrimi əgər,
İpəyimin müşkü hər şeyə dəyər.
Ustalar çox şirin sözə əl atdı,
Lakin yarı yolda yıxıldı yatdı.
Dünya dahiləri verdi nəsihət,

O dəstədən aldı daima ücrət.
Dilcə şeirimizdə olsa da kəsir,
Mənaca böyükdür ondakı təsir.
Çox gördük, çox yuxu kimi,
İçsiz qabıq gördük, çox yuxu kimi,
Qabıqsız iç verdik, təmiz su kimi.
Yazdığımız sözlər nadir olsa da,
Yenə köhnələri salınq yada.
Dürr saçdıq, görmədik lakin bir kömək,
Sanki piyaləylə ölçdük biz külək.
Varmı bir cəvahir, mən qoca sərraf
Qədrini bilməyim, eyləyin insaf!
Mən ki çox seçilmiş xəznələr açdım,
Çox gövhər yaradıb, incilər saçdım.
Xilas açarını tapmadı hünər;
Göyün nemətinə bənzər yeməklər
Hazırladım, indi eyləyirəm ah,
Tövbə, yenə tövbə, əstəğfürullah!
Nizami, İsandır sənin nəfəsin,
Məryəm ağacındır düşüncən, hissin.
Xurma ağacından vermisən çox bar,
Hər zaman görəydim səni bəxtiyar.

## ƏLAƏDDİN KÖRPƏ ARSLAN ŞAHA SƏNA[42]

Ey könül, bu xəyal yaratmaqla sən
Oynamayırsanmı xəyalla, desən?
Bir yol bu xəyaldan çəkməliyəm əl,
Ondan uzaqlaşmaq gözəldir, gözəl.
Qəsdim yaratmaqdır bu pərgarla, bil,
Baharın fəslindən gözəl dörd fəsil.
Birində Allaha həmdü sənam var,
Onun fəzli ilə yaranmış yaşar,
Sonra nəbiyədir bizim xütbəmiz,
Ondan təzələndi köhnə sikkəmiz.
Üçüncü fəsildə şaha duam var,
Ağzından bu dua gövhər, dürr saçar.
Nəsihət eyləyər şaha son fəsil,
Qoy onun fəthinə bu olsun dəlil.
O padşah ki ona yeddicə iqlim
Etmiş dövlətini, varını təslim,
Qanundur ölkəyə sözüylə qəhri,
Alıb öz əlinə bütün bu dəhri.
Özgəni şah edər, bəzər saraylar,
Xəznələr bəxş edər, xəznələr paylar.
O şahın ləqəbi Əlaəddindir,
Qoruyub durduğu: zaman, zəmindir.
Ölkələr fatehi Körpə Arslan şah
Alp Arslandan yüksək, olduqca gümrah.
Ondan Ağsunqurun nəsli güc aldı,
Əcdadı kamala yetdi, ucaldı.
Mehdidir, günəşdir şah bu dünyada,
Dövləti qalacaq eldə, obada.
Rüstəmdir, mindiyi Rəxşi fələkdir,
Böyükdür, böyüklük verməkdə təkdir.





O, göylə yoldaşdır, buludla birdir,
Qüvvətdə şir kimi, adı da şirdir[43].
Varlıq qıfılına açar çatanda
Yarandı cövhərdən aləm o anda.
Şah bir aləmdir ki, ovcuyla, inan,
Min cövhər çıxarar ortaya hər an.
Şərhindən vərəqdir onun asiman,
Feyzindən qətrədir hər sonsuz ümman.
Dərya, çöl - verdiyi əmri dinləyər,
Afərin oxuyar, əhsənlər deyər.
O qədər ucadır, o qədər yüksək,
Kiçilir önündə düşüncə, dilək.
Böyüklük mülkündə mələk yoldaşı,
Ucalıq yurdunda fələk yoldaşı.
Qılıncı şimşəkdən od alar çaxar,
Gizli düşmənləri yandırar, yaxar.
Önündə qələbə torpağa yatdı,
Fitnə, qılıncının suyunda batdı.
Efirdən qopmuş bir atəşdi suyu[44],
Ənbər saçar elə torpağıyla o.
Onun meydanında şir əsər zağ-zağ,
Düşməninin atı gedər baş-ayaq.
Səhər qədəhinə tökən zaman mey
Buz bağlamış sudan od yağdırar hey.
Mizraq itiləsə əgər bir kərə
Adi gün çevrilər dönər məhşərə.
Səxa dərgahını nə zaman açar
Günahlar bağışlar, xəznələr saçar.
Şah dəniz kimidir, deyil hiyləgər,
Qamçı-qılıncında cəzri, məddi var[45].
Nə alsa zor ilə güclü şəmşiri,
Qamçısının ucu qaytarar geri.
Müştəritək atı ucalar, qazar,
Keyvana dırnaqla bir dərin məzar.
Əgər görmədinsə əjdər minən şir,
Günəşi, əl atıb çəkəndə şəmşir,
Onda vuruşlarda, ovda bax şaha,
Sanki şir belinə minib əjdaha.
Əjdəri bayrağın altında nizə,
Zərbəylə əjdəri çökdürər dizə.
Dar etsə kamanı şah birdən-birə,
Geniş qəbir qazar ox atıb şirə.
Qılıncı ayını oyundan saxlar,
Şiri oynamağa eyləyər vadar.
"Sərxoşdur" deməyin, şir boğan şaha,
Boğur, çünki odur qorxmaz əjdaha.
Gəzərkən o çıxıb Səhənd dağını
Üzər oxla qurdun əl-ayağını.
Qurdu bu halında görüb ta bayaq
Ölər şir qorxudan, çalıb əl-ayaq.
Qurd, pələng o qədər şah şikar eylər,
Maral dımağına çölü dar eylər.
Gah pələng dərisi, qurd dərisi gah
Geyərdi dağ, dərə, qanlı düzəngah[46].

İti qılıncını endirən zaman
Üz qoyar qaçmağa zərbədən qaban.
Güc gəlsə ovlaqda əgər kamana
Gönünü gor edər gura, ceyrana[47].
Girəndə meydana igid savaşda,
Əqiq rəngi alır torpaq da, daş da[48].
Zəhərli qılıncı yaxar hər yeri,
Tüstülər bürüyər, tutar göyləri.
Qılıncla can alar, axıdar qanı,
cam ilə can verər işrət zamanı.
Nursuz gözlərinə bu qara torpaq
Onun dostluğundan nur aldı ancaq.
Xülqünün nəfəsi nəqqaş əlitək,
Müşk ilə, ləl ilə dolu cib, ətək[49].
Ləlindən məmləkət bəxtəvər oldu,
Müşkündən el bütün müəttər oldu.
Belə tacidarın əzəmət donu
Yerdən çox ucadır, göydədir sonu.
Kamanı önündə, yaxşı sal nəzər,
Doqquz qəbzəli göy bir oxa bənzər.
Qüdrəti əliylə dörd gövhəri şah
Əzəmət taxtına etmiş qərargah[50].
Düşməni kökündən kəsik ağacdır,
Çarmıxdan asılır kim ona qacdır.
calalının günü bizə nur saçır,
Üzümüz - qızıl ay, düşmən qaradır,
Qızıl nallı günəş qalxar, baş verər,
Mədənə ləl verər, dağa daş verər.
Xəznəsi gövhərlə, daşla doludur,
Gövhərin mədəni onun quludur.
Damcısı can verdi dağa, dənizə,
Dağlar yaqut saçar, dəniz dürr bizə.
Hər iki aləmdə o pasibandır,
Hökmünə Tanrının xalqın həyandır.
Feyzi qəbul edər öz Tanrısından,
Sonra bəndələrə yetirər haman.
O verdi cahana bəxti, işrəti,
Görüm bəxtiyarlıq olsun neməti.
Səadət ömründən heç əskilməsin,
Şahlığı dünyada zaval bilməsin.
Görüm övladının nəsilbənəsil
Səadət ulduzu gülsün müttəsil.
İki gözəl sübhün nuruyla par-par
Gün kimi parlasın ulu tacidar.
Uca taxt sahibi o şahzadələr
Biri cahangirdir, biri cahandar.
Biri Firiduntək bilikdə dərin,
Biri Keyxosrovtək at çapar yeyin.
Taxtından adına ellər agahdır,
Nüsrətəddin Məlik Məhəmməd şahdır.
Rasidlər deyir ki, qeyd etmiş fələk,
Fələkəddin Əhməd adlansın gərək[51].
Birinin açan nüsrətdən çatdı,
Birini zəfərdən fələk yaratdı.

Birinə tərbiyə nüsrət veribdir,
Fələk o birinə qüdrət veribdir.
Biri xoşbəxt oldu nüsrətdən gerçək,
Birinə dörd payə taxt oldu fələk[52].
Mina çarx altında şahın gözləri
O iki işıqla parlatsın yeri.
O qoşa qütb ilə yetsin calala,
Saçsın hey intizam cənub, şimala.
Şikarıdır dövlət, qoy yağlı olsun,
Gündüzü, gecəsi maraqlı olsun.
Məhəmməd nəslindən dilbər hərəmi
Olsun həyatının gözəl həmdəmi.
Gülsün qoy Süleyman mülkündə bəxti,
Nurlansın Bilqeysin uğurlu taxtı[53].
Şahdır səxavətin yeddi qardaşı,
Qadını varlıqda analar başı[54].
Bu Xızrın payidar olsun şöhrəti,
Onun abi-həyat tapsın xisləti[55].
Şahın kölgəsi ki, çeşmədir parlaq,
Bu güldən, bu bağdan olmasın uzaq[56].
Odur Yer üzünə əzəldən pənah,
Bu dünya durduqca yaşasın o şah.

## TƏZİM XİTABI

Dünyanı yaşadan, ey sahibi-təxt,
Sənə bel bağlamış xidmət üçün bəxt.
Gecə keşikçindir, hindlitək sayıq,
Aydan zəng belində, durmuşdur oyaq[57].
Sübh asıb həmail yürüməz əbəs,
Sənin rikabında alar xoş nəfəs[58].
Gecə sənin qulun, Deyləm çətirli
Qapında yetişdi, oldu ətirli.
Ağ rumlu sərdarı: - Kənar ol, - deyə,
Qovsan dərgahından dönər zənciyə[59].
Geniş süfrəsinə göyün yaxşı bax,
İkicə çörəkdir var-yoxu ancaq[60].
Hər kim səndən əgər yetsə maaşa,
Çatar bir tikəsi yeddi qardaşa.
"Səninlə xətm olur dünyanın şahı"
Deyə vurulmuşdur möhri-ilahi[61].
Göy ki günəş kimi əsəri vardır,
Kəmərin olmağa yaqin ki, dardır.
Qızıl taxt qurub ay eylər tamaşa,
Taxtınla istəyər verə baş-başa.
Yağış suyu pakdır, ey şahi-cahan,
Torpağa layiqdir qarşında hər an.
Saxsı rəng eylədi ləli şəmşirin,
Dağı yüngül daşa döndərdi mehrin.
Nə qədər şah gəlmiş ölkəyə, elə,
Bir səxa buludu keçirmiş ələ.
Sənin buludunla yaranır bahar,
Payız bulududur özgə buludlar.
Şahlar süfrə açmaz, içməsələr qan,
Çörəyi verərlər can alan zaman.
Kimin üstə salsan kölgəni, ey şah,
Tez oxşarsan, gec də eyləsən agah.
Kimdir hünər əhli, nədədir hünər,
Yalnız hünərnamə oxuyan bilər.
Ayıbla hünəri ayırmayanlar
Hünərlinin necə qədrini anlar.
Vücudun ölkəyə şərəfdir, şandır,
Alqışlayan səni külli-cahandır.
Səxa ölkəsini gözləyən insan,
Dövlətin, dünyaya oldu pasiban!
Bir rövnəq verdin ki, dinə, dövlətə,
Bağ yetməz neysandan bu təravətə.
Kəyan padşahları xoş tale ilə
Almış on iki rüx, həftxan ələ[62].
Yeddi göy, on iki bürc ilə ancaq,
Sənin həftxanın, rüxün olacaq.
İran bir ürəkdir, bu aləm bədən,
Olmaz xəcalətli belə söz deyən.
Çünki ürəyidir bu yerin İran,
Ürək yaxşı olar bədəndən, inan!
Şahlar diyarından xoşdur o diyar
Ki, orda toplanıb yaxşı adamlar.
Bir sənədir dəxli dediyim sözün,
Ölkələr ürəyi yurdundur; özün
Xızır, İskəndərsən olduqca məşhur,
Elmin, ədalətin verir yurda nur.
Dəmirdən İskəndər ayna tapdısa,
Dirilik suyun Xızır çapdısa[63],
Gövhərdən qayrılma aynadır sinən,
Şüşənə doldurdun həyat suyu sən.
Bir ölkənin ki var sən kimi şahı,
Qorusun o yurdu qadir ilahi.
Ey xoşbəxt, dilində budur hər kimin:
Sənsən sevgilisi yeddi iqlimin.
Beşinci ölkəni sən etdin abad,
Altı yurd işindən oldu xeyli şad[64].
Gördükcə ölkələr mehriban səni,
Yurduna diləyər hökmüran səni.
Dörd şah - ələ edib dörd bahalı şey,
Beşincisən, ömrün uzun olsun hey[65].
İskəndər dövründə Ərəstu vardı,
Qeysər o alimdən bilik alardı.
Nuşirəvan bəzmi bəzədi yeri,
Çünki vəziriydi Büzürgimehri.
Pərvizin Barbədi yüz nəva deyil,
Yüz min rəng çalardı, bunu, yaxşı bil.
Məlik şahın vardı, eşidib hamı,
Dinpərvər vəziri Xacə Nizamı.
Şahım, onlardan da ucadır yerin,
Çünki Nizamidir sənin şairin.
Ey yetirən məni şöhrətə, şana,
Səninlə işlərim düşdü sahmana.
Şahlar səxavətdən deyib durdular,





Saxta mədənlərdən hey dəm vurdular.
Lakin şoranlığa toxum əkdilər,
Onlar kor gözlərə sürmə çəkdilər.
Hər kim toxum əksə şoranlıq çölə,
Bircə peşmançılıq gətirər ələ.
Ağac əkilməli münbit bir yerə,
Ta behişt barıtək meyvələr verə.
Şərabı torpağa verərsə saqi
Bağbanın adını kim eylər baqi.
Varmı ədlin kimi şah ədaləti,
Yerində göstərən hər səxavəti?
Yoxlamışam, deyin, varmıdır, hanı
Elm əhlinin sən tək bir pasibanı?
Sevmədin hiyləgər kimyagərləri,
Yalan satanları əzəldən bəri.
Bir əsər yazdım ki, daim qalacaq,
Adına bağladım nəqşini ancaq.
O kasə deyərəm daim bəxtiyar,
Səpdiyi toxumdan görsün elə bar
Ki, dünya durduqca heç pozulmasın,
Vərəqini açsın adıyla şahın.
Eləsini yox ki, əsrlər keçər,
Silər şöhrətini uca fələklər.
Yeddi min il keçdi, sərf edib əmək,
Yeddi ədəvalı gözəl bir yemək
Bişirdim, ləzzətlə ye, nemətindir,
Nuş olsun, yaxşı ye, öz qismətindir.
Bu əsər ki, sənə edirəm nisar,
Onda ürəyim var, ətim, qanım var.
Səninlə ucaldı fələk dünyada,
Ey fələk yetirən, ey fələkzada!
Torpağam, mən necə uçum fələkə?
İnsanam, nə sayaq çatım mələkə?
Neyşəkər bir qələm işlətdim ki, tər
Torpağım yetirib versin neyşəkər.
Yığım şəkərləri çatım başabaş,
Şahın hüzurunda paylayım şabaş.
Şabaşa yoxsa da əlimdə imkan,
Hər gecə olmuşam şaha pasiban.
Şah günəşdir, nuru əyandır, budur,
Gözüm şüasını əks edən sudur.
Günəşi mümkünsə sulara vurmaq,
Suyu vurmaq olmaz günəşə ancaq.
Günə nəzər salmaq olsa da mahal,
Ondan ayrılmayır bir ləhzə xəyal.
Şahın xəzinəsində, bilir dünyalar,
Tək bu əsər yoxdur, başqa hər nə var.
Dımağıyla rəxşin ucaltsın onu,
Şöhrət rütbəsinin olmasın sonu.
Buluddan su içən dağ ətəkləri
Sevməz quyu suyu əzəldən bəri.
Əlindən su içim, bu oldu arzum,
Başqa sular üçün bağlandı ağzım.
Acizəm bu dürrə qoymaqda baha,
Qoy təslim eyləyim qiymətcin şaha.
Zöhrəmin sazını dinləsin əgər,
Xalq təzə ay kimi məni göstərər.
Buna boş naxıştək durub baxma gəl,
Çox belə gülləri el etmiş xəzəl...
Çox yaşa, dinin var, ədalətin var,
Versin istəyini tək pərvərdigar.
Yetirir arzunu daim dövlətin,
Olsun bəyəndiyin hər şey qismətin.
Düşsə bir şey uzaq inayətindən,
Görüm kənar olsun vilayətindən.
Günəş parladıqca boşluqda par-par,
Sevinsin dostları, gülsün bəxtiyar.
Düşmənin hər zaman zəlil, xar olsun,
Gen dünya başına dardan dar olsun.
Götürüb daşları başına çalsın,
Başını daşların daşına çalsın.
Başsan, bilikdə də baş ol, keç başa,
Dünyada hamıdan sən artıq yaşa.
Sənin torpağına məlal gəlməsin,
Xətər toxunmasın, zaval gəlməsin.

## SÖZÜN TƏRİFİ VƏ HİKMƏT HAQQINDA

Sözdür həm təzə şey, həm də köhnə şey,
Sözdən bəhs edilir zaman-zaman hey.
Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan.
Ruh kimi təmiz söz oldu gövhəri
Hatif xəznəsinin əzəldən bəri.
Söz verər bakirə hekayətləri,
Təzə namələri, rəvayətləri.
Tanrı yaratmışsa hər nə, yaxşı bax,
Sözdən başqa bir şey yaşamayacaq.
İnsanın qalacaq sözü yadigar,
Yeldir yerdə qalan başqa hər nə var.
Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini, daşı, heyvanı.
Qalacaq əbədi nə şey dünyada
Öyrən günlərini vermədən bada.
Kim ki öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur, o ölməz haşa.
Nəqşini bilməyən fanidir, fani,
Baqi say bu nəqşi bilən insanı.
Tanısan özünü, köçsən cahandan,
Yenə bu dünyada yaşayacaqsan.
Özündən hər kim ki, deyil xəbərdar,
Bir qapıdan girər, birindən çıxar.
Qapı tüstüsüzdür, pəncərə tozsuz,
Günəşə bir baxan tapılmaz əfsus.
Heç kəs öz könlünə tutmayır irad,
Odur, varlığını eləməz abad.
Bəhanəyçin baxar hər kəs yanına,

Heç kəs turş söyləməz öz ayranına.
O kəs ki ömrünü həsr etmiş elmə,
Baş əyməz heç zaman cəzri-əsəmmə [66].
Bilikli adamlar uzağı görər,
cahilin zəhməti hədərdir, hədər.
Bilici tacirlər çıxarkən yola
Qorucu götürər, salar sağ-sola [67].
Nafə yükləyəndə hər çinli əttar
Çəkər yapışqandan ona bir hasar [68].
Şinəbub olarsa düçar qartala
Uçmaqda quşları tez qoyar dala.
Adlı-sanlılara bəla üz verər,
Yetməz xətərsizə əsla bir xətər.
Zirək quş yem üçün atılar-düşər,
Nəhayət ayağı tora ilişər.
Gözü torpaq kimi ac olan gərək
Bilsin yeyər ancaq bir qarın çörək.
Nə qədər yesələr yer anbarından,
Əskilməz bir arpa onun varından.
Arpa-arpa ondan yığan, ey insan,
Yenə də dünyaya qaytaracaqsan.
Şam kimi xoşlarsan gər qızıl tacı,
Gülsən də ağlarsan hey acı-acı [69].
Müfərrihdəki var yaqut ilə dürr [70],
Dolu ağlayışdır, az bir gülüşdür.
Hamının yoldaşı, gizli yarı var,
Dostu var, bir yaxın havadarı var.
İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki yetişmədi ağıldan bara,
Oxşar insansifət əjdahalara.
İnan, zirək adam mələkdir, mələk,
Zirəklik gözəldir, əcəbdir gerçək.
Yazılmış alnına hər şey əzəldən,
cəhd eyləsən belə, nə gələr əldən?
Hər halda sən çalış, həyat əməkdir,
cənnət kahıllığı nəyə gərəkdir?
Kim qayğı bəsləsə öz əməyinə,
Özgəyə pis baxsa, o pisdir yenə.
Hər kim beləsiylə aşna, yar olar,
Özgələrə qarşı bədəfkar olar.
Kimin ki, qəlbində vardır hümməti,
Onun da yaxşılıq olur neməti.
Çalış, ayağına tikan batsa da,
Tənə bəhanəsi olmasın yada.
Bu deməsin: ömrün yetibdir başa,
O gülməsin: başın dəyibdir daşa.
Əl tutmasa belə, kömək etməsə,
Gülməsin zavallı halına kimsə.
Yaxşıdır qəminə güləndən, barı
Yadında saxlayan yaxşılıqları.
Acgözün yanında yemə gəl çörək,
Yesən, çağırasan süfrənə gərək.
Müflisin önündə əl atma zərə,

Sarınar xəznənə, dönər əjdərə.
Yaz yeli olsa da ürəyə dayaq,
Sönər, qarşısında yandırma çıraq.
İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən zirək.
Köpək eləsindən yaxşıdır, düzü,
Ki, hey eşşək kimi otdadır gözü.
Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara.
Xoş ətirlər saçmaq istəyən adam
Gültək xoşxasiyyət olmalı müdam.
O aqil nə deyib bilmirsən məgər:
"Rahat yatan yaxşı yuxular görər".
Bədxislət doğulub hər kim anadan,
Ölər o xislətdə, gedər binadan.
Kim gəlsə dünyaya xoşxislət, xoşhal,
Tərk edər dünyanı yenə o minval.
Tutma bir çörəkçün möhkəm cahanı,
Öldürmüş sən kimi o çox insanı.
Torpaq vücuduna vurma min bəzək,
İnsana qum kimi sadəlik gərək.
Kim desə pak duyğu insandan doğar,
İnsan da torpaqdan hər zaman doğar.
De ona: "Gül ki var, yeri tikandır,
Möhrənin məkanı şahmar ilandır [71]",
Çarpış dünya ilə şiri-nər kimi [72],
Yoxsa udar səni o, əjdər kimi.
İnsan əjdahadan dostluq gözləyər?
O, yalnız adamı parçalar, yeyər.
Köpək girsə belə dərviş cildinə,
Köpəkdir, köpəkdir, köpəkdir yenə.
Bir dost ki, dost ilə hey nifaq eylər,
O, demək, düşmənlə ittifaq eylər.
Milçək ki hər yana qonur uçaraq
Ağı qara eylər, zil qaranı ağ [73].
Bu quldur tayfadan çəkil kənara,
Doğra bu dörd bəndi, et para-para [74].
Bir yerdə ki, düşə hörmətdən dindar,
Zahid sərxoş olur, Yusif canavar.
can qurtarmağa var indi iki yol:
Ya pisliyi bəyən, ya pis adam ol.
Ancaq görməz rəva, həqiqi bəndə
Ki, düşsün ayağı belə kəməndə.
cəhənnəm qalamaz belə bəndələr,
Neft arayıb təlqi tökməzlər hədər [75].
Qalx, əzək başını bu fitnənin biz,
Məhv eyləyək tamam, bu - vəzifəmiz.
Bəs deyil baş əydin pula, qızıla -
Saldın dörd düyünə, yeddi qıfıla [76]?
Yel, qızıldan ötrü, yaxşı nəzər sal,
Gör necə eylədi laləni pamal [77],
Çayır ki yoxsuldur, ona dəyməyir,
Onu məhv etməyir, əsla əyməyir.
Gəzmə ağ buludtək başında xəznən,





Ayaqla xəznəni günəş təki sən.
Torpaq ki buluddan rütubət çəkər,
Öpsə ayağını, dönüb olar zər.
Eylə qızılları günəşə şabaş,
Uyma, gün lalinin başına vur daş.
Qızılı saymaqda, bil ki, səhvin var,
Dünyanın gözünü ağıl parladar.
Zər birləşməz iki hərfdir, gerçək,
Birləşsinlər deyə nədir bu əmək? [78]
Qızılla doldurma könlü yer kimi,
Yoxsa dağılarsan sən də zər kimi.
Sanlıq azan tutsa bir gözəl,
Lacivərdi köynək geyər əlbəəl [79].
Bir tərəzi çəksə qızıl cağbacağ,
Minlərlə qapıdan olar daş-qalaq.
Hay-küydən qoparıb guya, et xəyal,
Yığdın az-çox qızıl, haram, ya halal,
Bir qayğısız gəlib xəlvəti çalmış,
Qızıl yığan ölmüş, oğrusa qalmış.
Qızıl xərclənəndə işrət gətirər,
Saxlansa əziyyət, heybət gətirər.
Kim qızıldan ötrü ölür boş yerə,
Demək, o sitayiş eyləyir zərə.
Bax bir əbləhlərə, vurulub qaşa,
Dost dostla gör necə girir savaşa.
Bir xəznə ki, ancaq cəfa naxşıdır,
Ondan üz çevirmək daha yaxşıdır.
Çoxmu hambal olub bu dünyaya sən
Yerdə qızıl yükü gizlədəcəksən?
Üç işlək qəhrəman, qoç hambalın var,
Dördüsə evini eylər tarü-mar [80].
Səninlə zidd olan torpaqla külək
Əlifsiz yazılan xak və bad demək [81].
Xurma ağacına tac olan tikan
Aynısa, fərqi yox onun maşadan [82].
Tutar qarınqulu çox əziz hər an
Xingal yarpağını gül yarpağından.
Öz tamah dişini çıxart, at yerə,
Ta ki, oxşayasan əziz gövhərə.
Daraq olmasaydı mindişli, bəli,
Xalqın saqqalında gəzməzdi əli,
Bir can dərmanına çatmaqçün, əlbət,
İçilər min kərə zəhərli şərbət.
Qəssab dükanının ağzında hanı
Pay alan, içmədən bir ciyər qanı [83]?
Yüz ciyər doğranır parçalanaraq,
Ta ki, bir böyürdə qat bağlasın yağ,
Bir girdəbudlunun şişsin peysəri
Deyə, yüz min boyun qarınlır geri.
Bu - xəznə başına qoymuşdur ayaq,
O - bir zərrə qızıl tapmaz heç sayaq.
Kimin muradınca olur bu işlər?
Muradsız yaşamaq hər şeyə dəyər.
Kim tapsa gec murad, onu sal başa,

Müjdə ver, de ki, o dolacaq yaşa.
Çox yaşar murada gec yetən adam,
Murada yetincə ömr olur tamam.
Ləl çox gec doğur, ömrü çox olur,
Lalə tez göyərir, tez də yox olur.
Məclis nurlandırdın şam kimi yetər,
Yandırma özünü, satma cilvələr.
Bu şəhvət bəndindən ayağını çək,
Başını bu küpdən çıxart, bir görək [84].
Başdan yeddi kökü kəsib atmalı,
Ayağından çıxart dörd mıxlı nalı [85].
Həşəmlə örtülü quyu üstündən
Həsir ya daş kimi ölü keçmə sən [86].
Şimşəktək diriykən öl ki, güləsən,
candır əsil həyat, nə lazım bədən?
Çəkilsən qabağa bir mürid, deyə,
Elə get olasan mürşüd dəstəyə.
Bəzi müridlər tək olma bimurad,
Bəslə təvəkkülə daim etiqad.
Hər zaman yarardım müşküldə, darda,
Mən kəndxuda qaldım kənddən kənarda [87].
Çıxıb qarşılayan qərib mehmanı,
Süfrə açan hanı, su verən hanı?
Ağıl, nə deyirəm anlayar məni,
Nələr axtarıram, o duyar məni.
Mənim şikayətim yoxluqdan deyil,
Ondandır, ondandır, bunu sən də bil.
Almaz türklüyümü həbəş ölkəsi,
Olmuş xoş dovğadan məhrum cümləsi [88].
Bir zaman vardı ki, qoraydım, kaldım,
Onda sevilirdim, elə bil baldım.
Məni budağımdan ayırardılar,
Suyumdan tutiya qayırardılar.
Onda ki, üzümtək kamala doldum,
Arı neştərinə nişanə oldum.
Şərabı torpağa töksələr hədər,
Üzümün qiyməti puç olar gedər.
Nə sayaq sürdülər, yeridim, elə
Yatmış su - ad qoyub, saldılar dilə.
Deyirlər, məsəldir xalq içində bu,
Qızıl çeşməsidir yatsa əgər su.
Yatmış su gümüşdür, demə zər ona,
Buz belə şahidlik eyləyir buna.
Gümüşü buz ilə qızılın, zərin
Ayla günəş qədər fərqi var dərin.
Simi "yey" siz əgər qoysan baş-ayaq,
Çevrilər mis olar o gümüş ancaq [89].
Sözləri zər kimi işlədim hər an,
Gümüş qiymətinə olmadı alan.
Özgələr dəmiri satır gümüşə,
Qızıla bürünüb gəzir həmişə.
Vay o zərgərə ki, tapmaz müştəri,
Gümüş qiymətinə getməyir zəri.
Bu cinayət mənə çox eyləyir kar,

Hünərlə yox, baxtla qazanılır var.
Sərraf ki, hər şeyə qiymət verəndir,
Yoxdur bir arpası bu gün nədəndir?
Pambıqla katanı ayırd etməyən,
Asimana çaşıb risman deyən[90]
Doldurur sandığa qızıl, xəz, xara,
Katan, qumaş vurur hər gün anbara.
Belədir gövhərin, gümüşün işi,
Onları tərk eylə, burax keçmişi.
Gəldikmi dərd çəkək xarabaya biz,
Günəşi hey çəkək aftafaya biz[91]?!
Çoxlarının səsi məzardan gələr,
Bizim də sədamız bir gün yüksələr.
Çoxları mənimtək şikayət etmiş,
Qüssəsi bitmədən yatıb da getmiş.
Nə qədər çökməyib yuxu gözümə,
Əməyi eyləyim sənət özümə.
Yolçu yemək alar, çıxar səfərə,
Tez keçər rast gəlsə qorxunc yerlərə.
Eşşəyim gəlməyir, mənsə gedirəm,
Belə getməyimə şübhə edirəm[92].
Yuvam bu dünyadan düşdükdə kənar[93],
Eylər gedişindən məni xəbərdar.
Xəbərsiz danışan olma bu çağda,
Gözlərini yumub yatma qucaqda.
İnsan gözlərindən çəkil, iraq get,
Sirrə məhrəm olub, dinmə, sükut et!
Hali ol, ey gözüm, birdəfəlik bil,
Öyrənib tutduğun əsla düz deyil.
Qüruru tərk eylə, burax bu fili,
Yolda xəndək atıb zamanın seli.
Fələk çox bu sayaq işlər yaratmış,
Fili sərt torpaqda xəndəklər atmış[94].
Bu fildən duymursan qorxu əsəri?
Keçdiyin yollara boylan, bax, geri!
Gör nə gətirmişdin, indi nəyin var!
Bu qoşa fillər ki, belə çarpışar[95],
Onların içindən yaxşı bil ki, sən
Gəldiyin kimi də geri dönərsən.
Dənizdən və dağdan borc alıb taxan
Fələklə oynaya bilməz heç zaman[96].
Çalış borcunu ver getsən hər yana,
Ta ki, oxşayasan yüksüz heyvana.
Dünyanın yükünü üzərindən at,
İstədiyin yerə sonra çal qanad.
Taxtü-tacdan ayrı düşməzdən əvvəl
Üstündən yerə sal ağır yükü gəl.
Paxıllıq tozuyla elə gün olar
Günahsız qönçələr saralar, solar.
Gül kimi silahı tökdüm torpağa,
Həsəd dükanından qaçdım uzağa.
Əynimə geydiyim dərviş paltarı
Paxıllıq odundan qorusun barı.
Bu dəhşət yurdunda dolduqca yaşa,
Ömür ancaq belə vurular başa.
Bu köhnə saraydan edərkən rihlət,
Fələkə söylə ki, nə bilirsən et!
Yetər, ey Nizami, düşdün zindana,
Qalx, uca səsinlə səslən hər yana.
Tapşır öz canını pərvərdigara,
Əbədi səadət tap, yetiş vara.

## OĞLUM MƏHƏMMƏDƏ NƏSİHƏT

Kim ki, ibrət dərsi alıb dünyadan
Sözün lövhəsini öyrənən zaman
Eləmiş sənəti elmə xəznədar,
Dünyanın müşkülü belə açılar.
Hər alim evini süpürdü, atdı,
Yuxusu gələndə yıxıldı yatdı.
Ey oğul, sənədir sözüm, yaxşı bax,
Çünki mən yatıram; sənsə qal oyaq.
Adın xoş gülüdür əbədiyyətin,
Məhəmməd isminin möhrüsən mətin.
Şöhrətin Məhəmməd, taleyin xoşdur,
Mahmud təbiltək gurla gurhagur[97].
Adına yaxşılıq sikkəsini çal,
Böyük şöhrət qazan, göylərə ucal!
Nə qədər ki, varam mən bu dustaqda,
Yüksəl ki, yüksəlsin başın bu çağda.
Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.
Xoş ətirli bir dost yaxşıdır, inan,
Hərzə-hərzə durub danışanlardan.
Bir dostun da olsa eyibli əgər,
Yüzünün adına ləkə yetirər.
Ehtiyatsız bir quş düşərsə tora,
Başqa yüz quşu da sürüklər ora.
Məkkənin yolunda uddu biri zər,
Oğrular yüz qarın yırtdı sərasər.
Yatma, qoca kimi bu yolda, aman,
Zalımdan özünü qoru hər zaman.
Tərsinə çevrilmiş bu eyvana sən
Qadıntək aldanma, əgər kişisən.
Baxma ki, oynaqlar atın, ayıq ol,
Çətindir nə qədər, bax, getdiyin yol.
Bu yolda oxşasan bir ağ şahinə,
Yollara gün kimi nəzər sal yenə.
Elə bir yola ki, ovlaq yoludur,
Göylər kamanlıdır, göylər oxludur.
Dəmirin çox da ki, incədir, başdır,
Getdiyin yol ki var, maqnitli daşdır.
Gücü çatan qədər yüklə heyvanı,
Qayalıqda tələf olmasın canı.
İki rəng cahanın zülmünü unut,
Könlünü daraltma, daim geniş tut.
Bir çox düyün var ki, açardır, açar,
Bir çox çətinlik var, asanlıq saçar.





Qorxulu yuxular var ki, hər biri
Şadlığa çatdırar, yozsan təbiri.
Ciyər yırtansa da qəmin peykanı,
Bununçun yaranmış səbrin qalxanı.
Bağla öz əhdini pərvərdigara,
Başqa duyğulardan çəkil kənara.
Tanrının əmrinə sən əməl eylə,
Bil, üstün gələrsən hər bir müşkülə.
Nə qır yaxşı dürrü, nə boş yerə saç,
Bədgövhər olanla yaxınlaşma, qaç.
Sanma bədgövhərin vardır vəfası,
Xata işləməkdə olmaz xatası.
Zatı pis uzatsa yaxşılıq əli,
"İtirməz əslini kimsə" məsəli.
Yadından çıxmasın: görsən bədgövhər
Əqrəbi öldür ki, yetirər zərər.
Hünər ardınca qoş, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç.
Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan da gövhər çıxardar.
Ancaq, öyrənməyi ar bilən insan
Məhrumdur dünyada bilik almaqdan.
Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular.
Təlimə həvəskar çox korazehin
İqlimlər qazısı olmadı? Deyin.
Tazının ağzına düşən hər şikar,
Təlim gördüyüçün halal sayılar[98].
Təlimdar düzəldən itləri saptək,
Olmazmı cəhd etsə bir insan mələk?
Tanı Xızır kimi özünü gəl sən,
Dirilik suyundan bəlkə içəsən.
Düşünmə ki, bu su abi-heyvandır[99],
can ilə ağıldır, ağılla candır.
Onları bəxş edib bizə yaradan,
Əbədi yaşarlar ağıl ilə can.
İkinin hasili bir olur ancaq,
Səndəki o iki Birə varacaq[100].
Bu ikiylə birə çatmadan, demə,
Adam olduğunu açıb heç kimə.
Birə çat, ikidən əl üz, sonra dur,
Bu iki aləmi təpikləyib vur.
Üçə dəlil yoxdur, onu sevmə heç,
Müşrük olma, uzaş, ikidən də keç.
Bir sapın ucundan tut kişilərtək,
İkini at, üçü bir etmək gərək,
Üçdən əl çəkməsən, atmasan onu[101],
Qaldırmazsan göyə vəhdət topunu.
İkidən qurtulsan, əfsanə gəzmə,
Biri tapsan, artıq bəhanə gəzmə.
Yetsən bu payəyə, həll olar müşkül,
Özgə şey nə ki var, yalnız həvəs bil.
Varkən sağlıq əldə, cavanlıq əldə
Sənindir hər murad, hər xoş əməl də.
O sərv qamətin sınsa nagəhan,
Bir nəticə çıxmaz mumyaçılıqdan.
Dünyada keçməsin boş cavan çağın,
Yol get ki, gücüdür indi ayağın.
Ney kimi bel bağla din yolunda gəl,
Uca sərvə dönüb göylərə yüksəl.
Bax, mənim söyüdüm, quru budaqdır,
Laləm sapsarıdır, bənövşəm ağdır,
Qocaldım, papağa əlim varmayır,
Kəmər barlamağa belim varmayır.
Mən ki iş görərdim kişilər sayaq,
İndi bax, duşmüşəm, hər işdən qaçaq.
Ruzgar məni tutub, eylədi əsir,
Zamanın adəti daim belədir.
Sındırdım düşmədən pərü balımı,
İndi ki, duşmüşəm, sorma halımı.
Üzdən çox gözəldi bizim Əhmədək,
Üstəlik də vurub çıxartdı çiçək.
Təbim kölgələrdən görsə də xətər,
Salır kölgəsini üstümə hünər[102],
Sanma qocalarda həvəs yoxalır,
Adam yaşadıqca arzu çoxalır.
Sanma ki, tək bizdə bu sikkə vardır,
Hamı bu bəlayə çoxdan duçardır.
Ey xəstə könlümə eyləyən əlac,
Etmə həyatını yetənə möhtac.
Yetər zülmətdəyəm! Aydınlıq hanı?
Şikəst eləmisən, yetir mumyanı.
Qəlbimi doğrayan möhnəti hər an
Mənə asan etmək sənincin asan.
Boynum azad ikən, ey qadir qəni,
Xəsisin yüküylə əzmə gəl məni.
Mənəm öz danəmə qənaət edən,
Sədəftək evimin ağasıyam mən.
Ağalıq layiqdir mənə dünyada,
Baş əyə bilmərəm mən əsla yada...
Yaltaq zəncirini şir qırdı, atdı,
Odur böyüklüyə dünyada çatdı.
Xəsis halvasını yeməkdənsə mən
Yaxşıdır paylasam öz çörəyimdən.
Kəskin qılıncını siyirib səhər,
Nizami, qalx, oyan, yatdığın yetər!
Zəhmətdən incimə, yeni mədən aç!
Bu dünya əhlinə xəzinələr saç!

## DASTANIN BAŞLANĞICI
## BƏHRAMIN ANADAN OLMASI

Sirlər xəznədarı xəznəni açdı,
Saçdı ətrafına gövhər, nə saçdı.
Asılmış tərəzi göyün üzündə,
Gövhər bir gözündə, daş bir gözündə.
İki rəngli olan bu dünya ki var,
Ondan gah daş alar, gah gövhər alar.

Şahların nəsli də beladir, belə,
Uşaq daş, ya gövhər gələr əmələ.
Elə vaxt olar ki, gövhər daş doğar,
Kəhraba rənglidən yaqut qaş doğar.
Gövhərlə daşdakı nisbətə misal
Olmuş Yəzdigirdlə Bəhramdakı hal[103].
O vurar, bu oxşar; nə üçün? Sorma!
Daşda yaqut olar, tikanda xurma.
O şikəst etsəydi kimi nə zaman,
Bundan yetişərdi xəstəyə dərman.
O gün ki, Bəhramın sübhü açıldı,
Qaranlıq gecəyə işıq saçıldı[104].
Kimya kürəsini göyün yandıran,
Günəşdən, qəmərdən daim dəm vuran
Münəccimlər düşdü dərin heyrətə
Baxdıqca göyləri ölçən alətə,
Qəlp gümüş yerinə qızıl gördülər,
Dənizdən dürr çıxdı, daşdan da gövhər[105].
Yəqin etdilər ki, təzə doğulan
Olacaq hünərli, şöhrətli insan.
Taleyi Hut idi, Müştəri Hutda[106],
Zöhrə bir ləl idi sanki yaqutda.
Ay Surda, cövzada Tir tutmuş qərar,
Mərrix də Əsəddə oldu aşikar.
Möhkəm iradəylə Dəlv dən Zühəl
Düşmənə həd verib qovdu əlbəəl.
Qalib Zühəlinə Zənəb yanaşdı,
Günəş Həməlinə yaxın dolaşdı.
Bir Müştəri kimi hər parlaq ülkər
O xoşbəxtdir deyib verdi xoş xəbər.
Bəhramın taleyi belə düzəldi,
Xoş bir iqbal ilə dünyaya gəldi.
Görüb taleyini, öz iqbalını
Atası tərk etdi xam xəyalını.
Bildi bişirdiyi çiydir ya boyat,
Zülmün toxumundan göyərməz nabat.
İyirmi ildi ki, onun övladı
Olantək ölərmiş, qalarmış adı.
Münəccimlər baxıb gecə göylərə,
Gəldilər qərara belə bir kərə.
Dedilər: - Şahzadə gərək İrana
Vida edib getsin Ərəbistana.
Səadət bəxş edər ömrünə bəlkə
Ərəb məmləkəti, o qədim ölkə.
Hər kəsə bir diyar şərafət verər,
Bəlkə o yurd ona mal, dövlət verər.
Hərçənd el içində belə məsəl var:
"Ölkə şah əlindən var-dövlət tapar".
Ata öz övladı yaşasın deyə,
Razı oldu getsin başqa ölkəyə.
O zaman ki, Süheyl ulduzu durdu,
Yəmən ölkəsində taxtını qurdu,
Şah xəbər yolladı dərhal Nemana,
Laləni tapşırdı bağa, bostana.

Neman güllər səpsin, daim keyfi çağ,
Laləyi-Nemanı olsun o yarpaq[107].
Xosrov qaydasını ona öyrətsin,
Şahlıq ədəbini qoy təlim etsin.
Neman şahzadəni apardı, getdi,
Aya öz qoynunu kəcavə etdi.
Dənizlərdən məşhur çeşməni, bilsən,
Saxladı çox əziz iki gözündən.
Dolandı dörd bahar, ötdü dörd xəzan,
Bəhram dönüb oldu bir gur, bir aslan.
Dedi ürəyini Neman bir kərə,
Sevib xoşladığı oğlu Mənzərə:
- Bəhramın yolunda ürəyim dustaq,
Bu torpaq istidir, bu hava quraq,
Nazikdir, incədir bizim şahzadə,
Bir elə yer gərək ona dünyada,
Ucalsın göylərə başı, qəlbi şad,
Açsın asimanda ta ki qol-qanad,
Şimal nəsimindən pərvəriş alsın,
Bir lətif havada yerləşib qalsın.
Rahatlıq içində yaşasın hər an,
Nə quru torpaqdan, nə də buxardan
Qoy fitrət gövhəri zərər görməsin,
Daim təmiz qalsın, xətər görməsin.

## SİMNARIN TƏRİFİ VƏ XƏVƏRNƏQ QƏSRİNİN TİKİLMƏSİ

Dolanıb ətrafı hey qarış-qarış,
Mənzərlə atası etdi axtarış.
Axırda səfalı bir yer tapdılar,
İstilikdən uzaq, kədərdən kənar.
Elə bir yerdi ki, bütün ölkədə
Yoxdu bərabəri onun bəlkə də.
Sarayı tikməyə gəzib vardılar,
Mahir bir ustanı çox axtardılar.
Hər gələn duruxdu, döndü bir daşa,
Vurula bilmədi imarət başa.
Nəhayət yetişdi xəbər Nemana:
"Dolanma dərbədər, düşüb dörd yana,
Sənin axtardığın qadir sənətkar
Olsa, ola bilər Sam oğlu Simnar,
Zirəkdir, od kimi iti əllidir,
Dünyaya hünəri, işi bəllidir.
Çox binalar tikib Misirdə, Şamda,
Yaşayır hər biri bir ehtişamda.
Olmuş sənətinin qulu rumlular,
Çini tişəsinin tozunu yığar.
O bənna olsa da, məşhurdur adı,
Odur min nəqqaşın böyük ustadı.
Onuntək qiyaslı sənətkarmı var?
Ucalıqlar ölçər, rəsəd qaldırar.
Fələkə üstürlab ənkəbutunun
Telindən tor hörmüş nəzəri onun[108].





Rumlu Bəlinastək hünərlər saçar,
Rəsədxana tikər, tilsimlər açar.
Vaqifdir göylərin hər bir sirrinə,
Ayın şəbxununa, günün şərrinə.
Bu işin tək odur mahir bənnası,
O, yalnız toxuyar belə libası.
Palçıqdan tikdiyi bəzəkli tağı
Ulduzun gözündən qapar çırağı".
Onun tərifini eşitdi Neman,
Simnarın oduna qızışdı haman.
Tez adam yolladı o Ruma sarı,
Qızıla aldatdı usta Simnarı.
O gün ki Nemanın yanına gəldi
Simnar nə istədi, dərhal düzəldi.
Çoxaldı arzusu işə Simnarın,
Hümmət Nemanınkı, peşə Simnarın.
Qəsrə lazım olan hər şeyi Neman
Dərhal layiqincə eylədi sahman.
Dəmirölçən oldu Simnarın əli,
Binada işlədi tamam beş ili.
O qızılbarmaqlı usta nəhayət
Tikdi daşla gəcdən gümüş imarət...
Toxundu göylərə uca qübbəsi,
Ağın, həm qaranın oldu qibləsi[109].
Qızıl bəzəkləri atəş saçardı,
Simnar naxışlıydı, könül açardı.
Sanki bardaş quran bir fələkdi tək,
Uçurdu başında düz doqquz fələk.
Gözəllik qütbüydü cənub-şimalın,
Təngülüşasıydı yüz min xəyalın[110].
Yorğun yuxu tapdı baxışlarından,
Susuz sirab oldu naxışlarından.
Düşsəydi üstünə günəşin nuru,
Yumardı gözünü cənnətdə huru[111].
Bayın bəzəkli bir göy aləmi,
İçərisi rahat bir behişt kimi.
Südlə, sirişümlə edilmiş suvaq[112],
Baxanı əks edir güzgülər sayaq.
Bəzənib-düzənən gəlinə bənzər,
Üç rəngə boyanar hər axşam, səhər.
Üç rəng ona gözəl bəzək verərdi:
Göy, sarı, bir də ağ rəngə girərdi.
Səhər asimandan göy rəng alardı,
Çiyninə mavi bir örtü salardı.
Günəş baş verəndə üfüqdən yenə,
Saray da dönərdi günəş rənginə.
Bulud baş vuranda günə əlbəəl
Olardı buludtək ağ, lətif, gözəl.
Havayla yekrənglik həvəsi vardı,
O gah qaralardı, gah ağarardı.
Simnar nə zaman ki, ruh verib daşa,
Gözəl imarəti yetirdi başa,
Calalı, şöhrəti aşdı göyləri,
Gün ondan nur içdi o gündən bəri.

Simnar xələt aldı, deyim əslini,
Gözlədiyi haqqın iki mislini.
Çuvalı mirvari, müşk ilə dolu,
Tutdu qızıl yüklü dəvələr yolu.
Saysız zər verildi o sənətkara,
Lazım olsa yenə o gəlsin kara.
Oddan əsirgəsən kömürü əgər,
Sanma ki, çəkdiyin kabablar bişər.
Səxi əl versə də qızıla ziyan
Bəxşiş dərgahına olur pasiban.
Bu mehribanlığı görüncə Simnar
Duyub səxavəti, dedi: "Xəbərdar
Olsaydım verilən bu nemətlərdən,
Bilsəydim əvvəlcə, inanın ki, mən
Bu yolda başlayıb özgə bir əməl,
Bir bina tikərdim gözəldən gözəl.
Bəlkə daha artıq zəhmət çəkərdim,
Bundan xeyli gözəl saray tikərdim.
Şah artıq verərdi mənə nəməti,
Dünyanı tutardı qəsrin şöhrəti".
Neman dedi: "Çoxlu pul versəm, de, sən
Daha yaxşısını tikə bilərsən?"
Simnar dedi: "Bəli, istəsən əgər,
Bir saray tikərəm, bu heçə dönər.
Bu üç rəngsə əgər, o yüz rəng olar,
Hər daşı yaqutla həmahəng olar.
Görürsən, var bunun bircə günbədi,
Onun göytək olar qübbəsi yeddi".
Bu söz alışdırdı, yaxdı Nemanı,
Yandı mehribanlıq, mərdlik xırmanı.
Yanar bir atəşdir hər hakim, hər şah,
Ondan uzaq olan çəkməz aman, ah.
Şahın odu güldür, gövhərlər saçan,
Qarşıda gül olur, qucaqda tikan.
Şah dediyin ki var, tənəkdir, tənək,
Kim uzaqsa ona ilişməyəcək.
Yüz dostluqla kimə sarılsa, inan,
Kökləri, meyvəsi görər yüz ziyan.
Neman dedi: "Onu buraxsam, əlbət,
Tikər özgəsinə gözəl imarət".
Dərhal əmr eylədi yaxın kəslərə:
"Simnarı tullayın qaladan yerə!"
Yazıq sənətkarı qan içən torpaq
Gör necə endirdi yerə, bircə bax!
Bir saray qaldırdı uzun zamanda,
Yıxıldı torpağa ondan bir anda.
Bir tonqal qaladı, oduna düşdü,
Dama gec çıxdısa, çox tez sürüşdü.
Xəbərsizdi özü yıxılmasından,
Yüz gəz ucalıqda qaldırdı eyvan.
Bilsəydi belədir ömrünün sonu
Üç qarış elərdi tikərkən onu.
Taxtın payəsini o qədər yüksəlt
Yıxıldığın zaman çəkmə əziyyət.

Bu yüksək binadan Nemanın adı
Göydəki ay kimi qalxıb parladı.
cadugər çağırdı adını torpaq,
Xəvərnəq Allahı saydı onu xalq.

## XƏVƏRNƏQİN TƏRİFİ VƏ NEMANIN GÖZDƏN İTMƏSİ

Bəhramın hünəri saçınca şəfəq
Döndü bir bəzəkli bağa Xəvərnəq.
Göy dedi: "Qiblədir bu xoş imarət".
"Yox, cin bihandır" - dedi təbiət[113].
Yüz minlərlə adam yaxın və uzaq
Gəldi seyr etməyə eyləyib soraq.
Görənlər hüsnünə söylədi əhsən,
Sildi kandarını ətəklə həmən.
Şairlər Xəvərnəq, Sədeyr hüsnünə
Qəzəllər yazdılar hey dönə-dönə.
Yəmənə Süheyli saçarkən atəş
Heyran qaldı buna həm Ay, həm Günəş.
Dürr, gövhər, saçmaqda Ədənə döndü,
Süheyl ilə dolu Yəmənə döndü.
Xəvərnəqlə Yəmən şöhrətli oldu,
İrəm bağçasıtək əziz tutuldu;
"Bəhram ömür sürür məndə" deyərək,
Bəzədi dünyanı Həməl bürcütək.
Sevinclə qaldırdı Zöhrə qızıl cam
Xəvərnəq üstündə gəzəndə Bəhram.
O gördü bu zaman bir gözəl saray,
İçində günəş var, bayırında ay.
Günəşlə bəzənib içində tağı,
Hilaldır çölündə nurlu çırağı.
Başında oynardı hər zaman külək,
Ona xəzan yeli dəyməsin gərək
Daldı dörd küncünə qəsrin baxaraq,
Gördü behişt kimi bir səfalı bağ.
Orda Fərat axır çəmənzar boyu,
Axır elə bil ki, dirilik suyu.
Göylərə ucalan Sədeyrin yanı
Abad bir kənd idi, sud-yağ meydanı.
Qabağında səhra, dalında çəmən
Küləklər alırdı nəfəs nafədən.
Kəyana yaraşan bu damda Neman
Bəhramla oturmuş, behiştdir hər yan.
Lalə qızartmışdı sanki hər yeri,
Şuştəri döşənmiş geniş çölləri
Bildirçin ovlağı, kəklik ovlağı
Süzüb o çəməni, o bağça-bağı:
Belə yer tapılmaz heç, - Neman dedi,
Burda şad olmalı yaşayan, - dedi.
Onun ədalətli vəziri vardı,
İsanın dininə pərəstişkardı.
O dedi: "Allahı duyub tanımaq
Sənin dövlətindən yaxşıdır ancaq,
Sən o mərifəti duysan mükəmməl,
Bu bəzək-düzəkdən götürərdin əl".
Vəzir bir od yaxdı, bir şölə saldı,
Sərt qəlbi Nemanın xeyli yumşaldı.
Bu dünya görəli yeddi hasar, tağ,
Belə işləməmiş heç bir mancanaq.
Neman bu eyvandan enərək yerə,
Üz qoydu şir kimi geniş çöllərə,
Unutdu hər şeyi, bütün varını,
Tərk etdi şahlığı, öz diyarını,
Çünki düz gəlməz heç dünya din ilə,
Süleyman cəlallı taxtından belə
Əl çəkib yaşadı pərilər kimi,
El ondan yaşadı bixəbər kimi.
Bir də qayıtmadı öz xanəsinə,
Keyxosrov kəsildi zəmanəsinə[114].
Münzir hey çalışdı, hey etdi xitab,
Bəxtinin hatifi vermədi cavab.
Münzirin qəlbini həsrət, qəm aldı,
Neçə gün yas tutdu, dərdi çoxaldı.
Taxtü-tac sahibi qaldı naəlac,
Taxta çıxıb, yenə başa qoydu tac.
Son verdi ellərin ahü-zarına,
Ölkəni keçirdi ixtiyarına.
Qoşuna, ölkəyə başçılıq etdi,
Şah xələt göndərdi, razılıq etdi.
Bəhrama atadan daha mehriban
Kəsilib tutardı əziz canından.
Onun Neman adlı bir oğlu vardı,
Şahzadə Bəhramla yaşıd olardı.
Bəhrama, Münzirin oğlu Nemana
Bir dayə süd verib, olmuşdu ana.
Bəhram çox sevərdi süd qardaşını,
Bir an buraxmazdı öz yoldaşını.
Onlar bir lövhədən dərs keçərdilər,
Birgə səpərdilər məclisdə gövhər.
Birisi günəşdi, birisi nurdu,
Onlar bir dolanıb, bir otururdu.
Bir neçə ildi ki, uca qalada
Bəslənib dururdu bizim şahzadə.
Dərsə baş qoşardı getsə hər yana,
Ağlı yönəldirdi onu ürfana.
Bəhram öyrənmişdi ərəb, fars, yunan
Dilini məktəbdə öz ustadından.
Münzirdə var idi başqa əlamət,
Ulduzlar elmində kəskin məharət.
On iki bürc ilə o, yeddi ülkər
Qabağında açıq sandığa bənzər.
Həndəsə xəttinə əməl edərdi,
Minlərlə Məcisti o həll edərdi[115].
Ölçdüyü göy, fələk, asiman oldu,
Onlara göz oldu, pasiban oldu.
Dərin-dərin fikir nə qədər ki var,
Könlünü onlardan etdi xəbərdar.





Gördü şahzadədə ağıl, kəramət,
Duydu var biliyə onda fərasət
Gətirdi lövhəni, mili meydana,
Göyün sirlərini öyrətdi ona,
Öyrətdi nə qədər gizli, aşikar
Göylərin, yerlərin rümuzları var.
Nə varsa birbəbir öyrətdi, Bəhram
Öyrəndi dərs alıb hər səhər-axşam.
Elmin dəryasında tapdı pərvəriş,
Üstürlabdan, zicdan alıb göstəriş[116],
Sirlərin üzündən pərdələr açdı,
Dərsini bilməkdə möcüzə saçdı.
Bəhram da lövhəyə, milə yanaşdı,
Fələkin işindən düyünlər açdı.
Kamala yetdikdə elmi, əməli
Silahdan yapışdı qüvvətli əli.
At sürdü, aləmə vəlvələ saldı,
Çövkənbaz fələyin topunu aldı[117].
Onda ki, şöhrəti aləmi sardı,
Tutub canavarın boynunu qardı.
Qırdı pəncəsini, öldürdü şiri,
Ona təslim oldu sübhün şəmşiri.
Ox atıb, qart daşı tikərdi daşa,
Elə bil tikilmiş ipək qumaşa.
Gözünü çevirib atsa hər yana,
Nişana üstündən vurar nişana.
Qılıncına hədəf olsaydı qaya
Əriyib dönərdi od rəngli suya.
Saplayar nizəni darıya birdən,
Halqa alar kimi götürər yerdən.
O, düzgün vurardı uzaq nişanı,
Tük ilə oynardı onun peykanı,
İşığa, kölgəyə ox atsa əgər,
Yan getməz, hədəfə hər zaman dəyər.
Onda ki, taleyi arxa durardı
Gözündən qaçanı atıb vurardı.
Şir ürəkli mərdlər söhbət qurdular,
Onun şirliyindən deyib durdular.
O bəzən pələngə hücum edərdi,
Yarışıb şir üstə bəzən gedərdi.
Deyib danışanda Yəmənin əhli
Ona ad verərdi: Yəmən Süheyli.

## BƏHRAMIN OVA ÇIXMASI VƏ GURLARI DAĞLAMASI

Onda ki, Bəhramın üzü nur saldı,
Yəmən dərisindən xamlığı aldı,
Könüldən şad etdi bu iş Münziri,
Neçə ki, Süheyldən parlayar dəri[118].
Yəməndə Nemanı, bir də Münziri
Ata-qardaş etdi ona hünəri.
Atalıq-qardaşlıq qalsın bir yana,
Biri rəhbər idi, biri qul ona.
Bilik təlim etdi Münzir hər zaman,
Yoldaşı kəsildi məclisdə Neman.
Münzir onu bilik sahibi etdi,
Neman ox atmağı ona öyrətdi.
O belə boy atıb namidar oldu,
Şöhrəti göydə də aşikar oldu,
O, meydan zövq alar, büsat sevərdi,
Bir ovu xoşlardı, bir at sevərdi.
Ölərdi gur üçün düşsə ovlağa,
Ölü, gordan qaçar necə irağa?
Nə zaman yay çəkib nişan alardı,
Oxu gur gözündə qəbir salardı.
Onun yel yerişli bir atı vardı,
Bu atın elə bil qanadı vardı.
Qaçışı rahatdı, qədəmi düzgün,
Əzərdi, tökərdi ovları bütün.
Qapardı sürətlə yol gedən zaman
O, topu Günəşdən, qürsü də Aydan[119]
Qohumluq etmişdi fələk bu atla,
Yarışa bilməzdi külək bu atla.
Yüz ilan qıvrımı quyruğu vardı,
Dırnaqla yüz gura gor qazıyardı.
Ova eyləyəndə Bəhram şah səfər
Heç başqa atlara salmazdı nəzər.
O gur dırnağını yəhərləyərdi,
Gurlar görən zaman, əhsən deyərdi.
Yel kimi uçardı bütün ovlağı,
Guru parçalardı iti dırnağı.
Nə zaman ki, işdən bezərdi Bəhram,
Minib o pələngi gəzərdi Bəhram.
O dırnaq basanda şikarstana
Yer çönüb dönərdi nigarstana.
Çəkidə daşlardan çox ağır olan
Təpələr salardı maraldan, gurdan.
Səhranın nə qədər çuxurları var,
Ovlanan gurlarla edərdi hamar.
Tozunu fələk də görməz bu atla,
Şah ova çıxanda min çata-çatla
Əlini atsaydı əgər kəməndə
Min guru dipdiri salardı bəndə.
Onları görəndə kəmənd atardı,
Ya da ki, sadəcə əllə tutardı.
Yıxsaydı yüz guru əgər yan-yana
Qıymazdı dörd yaşı qurtarmayana.
Onun bir beləcə adəti vardı:
Gənc gurun qanını haram sayardı.
Hər tutduğu gura vurardı damğa,
"Sərdar ol, - deyərdi, - bütün ovlağa".
Minindən birini kim tutsa əgər,
Şahın damğasını görərkən öpər.
Yaxşılıq keçərdi yadından ancaq,
Açardı bəndini, buraxardı sağ.
Şahın damğasıdır yaşadan bizi,
Düz sürək qoy ömür köhlənimizi.





O gurlar ovlayan Bəhram çağında
Gurlara qurtuluş vardı dağında.
Qolu gücülərdən ölkəmizdə, bax,
Qarışqalar belə olmuş sinədağ.

## BƏHRAMIN BİR OXLA GURU VƏ ŞİRİ ÖLDÜRMƏSİ

Yəmən ovlağında günlərin biri
O gözəl ölkənin qoç igidləri
Önündə Bəhram şah çölə səs saldı,
Mərrixdən, fələkdən qapdı, kos aldı.
Bəhram söhbət açdı ovdan, ovlaqdan,
Münzir bir az öndə, arxada Neman,
Baxdıqca onlara saçırdı heyrət
Bəhram görkəmindən yağan əzəmət,
Uzaqdan ucaldı toz birdən-birə,
Göy yerə qovuşdu, yer də göylərə.
Bəhram şah at çapdı şəhriyar kimi,
cumdu toz üstünə bir ruzgar kimi.
Nə gördü: yem olub yazıq gur şirə,
Oturub belinə şir, yıxır yerə,
Tacidar durmadı, bir kaman aldı,
İti uclu oxu oxdandan aldı.
Əldə kaman girdi pusquya Bəhram,
Oxu qoyub çəkdi girişi tamam.
Dəldi şirlə guru ox birdən-birə,
Deşib çiyinləri işlədi yerə.
İşlədi torpağa qəzəbli peykan,
Ona tab gətirməz zirehlə qalxan.
Şir ilə gur belə öldülər, demək,
İşlədi ox yerə qanadınadək.
O, mahir əlilə atıb peykanı,
Baxdı boylanaraq əldə kamanı.
Hünərli vuruşu görən ərəblər:
- Əcəm şahı, sənə əhsən - dedilər.
Kimin ki, sataşdı gözü şikara,
Əl öpdü, baş əydi o şəhriyara.
Dedilər: canında aslan gücü var,
Odur ki, Bəhram Gür adlandırdılar.
Döndülər şəhərə, artdı söhbəti,
Yayıldı gur ilə şir hekayəti.
Öz xadimlərinə əmr etdi Münzir:
- Qoy gəlsin ustalar, zər hünərlilər,
Hər kimin vardısa, gücü, qüdrəti
Pərgarla bəzəsin gözəl surəti.
Xəvərnəq içində çəksin divarda:
Şir dalayır guru, gur qalıb darda.
Çəksin: şah ox atır gur ilə şirə,
Ox keçib onları işləyir yerə.
Bu şəkli olduqca mahir əl çəkdi,
Qızılla işlədi, çox gözəl çəkdi.
Görən canlı bildi, "afərin" dedi,
"Əhsən olsun şaha birə min" dedi.

## BƏHRAMIN ƏJDAHANI ÖLDÜRMƏSİ VƏ XƏZİNƏ TAPMASI

Şah bir gün bağçanın gözəl yerində
Sürdü qəmisini mey üzərində.
Çəkərək başına şirin ayağı,
Keflənincə həmən tərk etdi bağı,
Ovlağa çatınca kəmənd açaraq,
Gura gor qazıyıb, hünər saçaraq,
Vəlvələ qopardı, qovhaqov saldı,
Hər addım başında vurdu, ov saldı.
Sonra bir dişi gur gəldi, nə gəldi,
Naləsi dünyanın bağrını dəldi.
Vücudu ruhani xəyaldı sanki,
O bir ay baxışlı maraldı sanki.
Beli başdan-başa elə bil zərdi,
Qarnının altı da südlə şəkərdi.
Qara xətt belindən çəkirdi nişan,
Sağrısı xal-xaldı dımağınacan.
Boynuna saldığı sanma zünnardı,
Üzündə gül rəngli duvağı vardı[120].
O başqa gurlardan, sağrısı ondan
Gözəllik topunu almışdı, inan[121].
O atəşdi, otla qohum misaldı,
Dərviş paltarında bir mahcamaldı[122].
Baldırları igid oxuna bənzər,
Qulağı - sıyrılı alması xəncər.
Gərdəni çəkikdi, çiyni hamardı,
Qısıb qulağını süzgün baxardı.
Belində qaralan o dəri qaytan
Bağlamış cidovu hər iki yandan[123].
Gözəldi tismədən onun görkəmi[124],
Qara xətt işlənmiş bir gümüş kimi.
Boynu qanla dolu, böyrü piy və yağ,
Bu əqiq kimi al, o dürr kimi ağ.
Hörmüş bədəninə al xəz, qızıl qan,
Gözəllik almışdı qandan o heyvan.
Verib qan damarı ona min bəzək,
Oynardı tisməli hoqqabazlartək[125].
Quyruğu belindən ayrılmazdı heç,
Boynu dımağıyla kəsilmişdi ləc[126].
Gur görüb Bəhramı atıldı birdən,
Cumdu Bəhram dəxi durduğu yerdən.
Cavan gur yerindən qoparaq getdi,
Bəhram şirə döndü, çaparaq getdi.
Gur qaçdı, durmadı, qaş qaralınca,
Şir dəxi düşmüşdü onun dalınca.
Padşah çevirmədi atını gurdan,
Necə qaçmaq olar, siz deyin, gordan.
Gurxan hey çapırdı, guru qovurdu[127],
Çapan Bəhram idi, qaçan da gurdu.
Çöldə bir kahaya yetişdi Bəhram,
Basmayıb bu yerə qədəm bir adam.
Çatınca ovuna, gördü şiri-nər

Mağara ağzında yatır bir əjdər.
Qıvrılmış bədəni qırdan tökmə dağ.
Gözlədiyi şikar qurtarmazdı sağ.
Şah baxıb yolunda yatan xətərə,
Görüb əjdahanı, döndü əjdərə.
Unutdurdu guru gor dərdi dərhal,
Əl qoyub buduna eylədi xəyal,
Təəccüblə dedi: "Bu nə şikardır?
Bura gəlməyimin səbəbi vardır.
Yaqin zavallı gur amana gəlmiş,
Əjdaha zülmündən cəzana gəlmiş,
İntiqam alsın qoy ədalətli şah
Deyə dərgahıma gətirmiş pənah.
Qorxudarsa əgər bu əjdər məni,
Gurun xəcaləti öldürər məni.
Mən onun dadına yetişəm gərək,
Nə olur, qoy olsun, qorxu nə deməki?!"
Şah iki şaxəli iti oxlardan
Seçdi qayçı kimi açılmış peykan.
Oxu ağ kirişli kamana qoydu,
Qara əjdahanı nişana qoydu,
Göz açıb suzəndə əjdər düşməni,
Uçdu igid şahın haça peykanı.
Batdı ox əjdərin bir cüt gözünə,
Onu həsrət qoydu dünya üzünə.
Dəldi gözlərini qara əjdərin
Oxlar yer eyləyib dərindən-dərin.
Onda ki, əjdərə meydan oldu təng,
Yeridi üstünə Bəhram - o nəhəng.
Əjdərə sapladı nizə cürətlə,
Gura pəncəsini şir vurar belə.
Səkkiz yumruq boyda altıpər mızraq
Əjdər boğazında açdı yüz zolaq.
Səslənib əjdaha çəkdi bir nərə,
Ağac sütun kimi sərildi yerə.
Şah bu nəriltidən qorxmadı, sübut -
Dağın zirvəsindən qorxarmı bulud?
Kəsdi Əhrimənin başını xəncər,
İnsana düşməni əzmək dad verər.
Dərhal əjdahanın qarnını yardı,
Orada bir gurun balası vardı.
Şaha aydın oldu gurdakı məram,
Əjdərdən istərmiş alsın intiqam.
Allaha səcdəyçin qapandı yerə,
Çünki o gəlmişdi üstün əjdərə.
Bəhram üzəngiyə basdı ayağı,
Gedib seyr eyləsin yenə ovlağı.
Gur şahı tələsən görüncə haman,
Gəlib mağaraya girdi uzaqdan
Bəhram şah tutmağa haman heyvanı
Soxulub kahaya girdi yan-yanı.
Keçdi əziyyətlə içəri birdən
Xəzinə kəşf etdi girdiyi yerdən.
Şahlar küp qoyaraq burda getmişlər,
Şux pərilər kimi gözdən itmişlər.
O gurdan küplərə yetmişdi Gurxan,
Gursa qaçıb oldu gözlərdən nihan.
Xəznə açarını tapıb tacidar,
Etdi mağaradan əjdəri kənar.
Çıxdı həmən saat kahadan düzə,
Nəzər saldı yola o gəzə-gəzə.
Bir saat olar ki, gəzib hər yeri,
Şahı axtarırdı sərkərdələri.
Onu görən təki gəlib durdular,
Şahın ətrafında dövrə vurdular.
Bu zaman qoşuna şah verdi fərman:
"Ayrılsın ordudan beş-on qəhrəman,
Yol açıb yerisin qoy mağaraya,
Xəznəni bölsünlər yüzlərlə taya".
Üç yüz cavan dəvə, böyük bir karvan
Yüklənib düzəldi yola bir azdan.
Bir şah ki, hamilik eyləyər gura,
Əjdahanı salar dərin bir gora,
Çəkdiyi əməyin bandır, əlbət,
Tapdı cəvahirat, qaldı salamət.
Gəlib Xəvərnəqə, şən imarətə,
Şah yenə başladı eyşü işrətə.
Yüklətdi on dəvə bol cəvahirat,
Ata hüzuruna yolladı sovqat.
"Münzirlə Nemana layiqdir" - deyə,
On yük zərif əşya etdi hədiyyə.
Hər kimə istəsə qalan varından
Payladı qorxmayıb hesabdarından.
Bəhram bir çox belə xəznələr açdı,
İzzətlə toplayıb, ölçüsüz saçdı.
Münzir: "Gəlsin, - dedi, - cahan nəqqaşı,
Yeni bir naxışla güldürsün daşı".
Əlində fırçası, boyası, zəri,
Nəqqaş gəlib çəkdi şahı, əjdəri.
Bəhramın hər belə işi, qüdrəti
Tapdı Xəvərnəqdə əksi, surəti.

### BƏHRAMIN XƏVƏRNƏQDƏ YEDDİ QIZIN ŞƏKLİNİ GÖRMƏSİ

Səfərdən qayıdıb bir yol bizim şah,
Xəvərnəq içində nəşəli, gümrah
Gəzirdi, gördü ki, xeyli maraqlı
Bir hücrə var, qalıb qapısı bağlı.
Olmamış orada, sözümün düzü,
Nə yad, nə xəznədar, nə Bəhram özü.
Soruşdu: "Bağlamış kim bu xananı,
Bunun qapıçısı, açarı hanı?"
Açarçı tez gəlib gətirdi açar,
Şah açdı qapını, gördü büsat var.
Gördü xəzinədir ev başdan-başa,
Sənətkar gözüylə etdi tamaşa,
Nə çəkmiş divarda, gör ki, ustanı,





Çinin o yüz gözəl nigar nigarıstanı[128],
Çatmazdı heç buna, əldəki qüdrət
İşlədib divarda bir incə sənət,
Rəsm etmişdi gözəl yeddi şux pəri,
Hər biri bir elin parlaq ülkəri:[129]
Hind şahının qızı sevimli Furək,
On dördlük ay kimi dilbər bir mələk.
Çinin xaqanının qızı Yağmanaz[130],
Gözəllər afəti, misli tapılmaz.
Bir kəklik yürüşlü, şux, solmaz pəri,
Xarəzm şahzadəsi gözəl Nazpəri.
Slavyan şahının rumi geyimli
Gözəl Nəsrinnuşu, türktək sevimli.
Məğrib padşahının Azəryun qızı,
Nurə qərq eləyən günü, ulduzu.
Şanlı qeysər qızı, şöhrəti Humay,
Humayun gözəli, surəti humay.
Keykavus nəslindən dilli, diləkli,
Kəsranın Dürsəti tavus bəzəkli.
Bir həmail üstə çəkmişdi ustad,
Yeddi şux gözəldi, yeddi pərizad.
Hər incə təsvirdə min gözəllik var,
Gövhərtək hər biri gözə nur saçar.
Ortada çəkilmiş sevimli bir can,
Gözəllər qabıqdır, içdir o cavan.
Dürlə nişanlıdır gözəl kəməri,
Müşki xətdən almış, zinət qəməri[131].
O, baş ucaltmışdı sərvtək hündür.
Gümüş tac, kəmərdə parlayırdı dürr.
Sənəmlər göz dikib gül surətinə,
Könül vermişdilər məhəbbətinə
Baxdıqca onlara şirin gülümsər,
Pərəstiş eylərdi ona gözəllər.
Başının üstündə yazmışdı rəssam:
Bu cavanın adı Bəhramdır, Bəhram.
Belə hökm eyləmiş o Yeddi qardaş:[132]
"Bu dünya fatehi qaldıranda baş
Yeddi iqlim gəzib bitirəcəkdir,
Özüylə yeddi qız gətirəcəkdir.
Zənn etmə, tum əkib, yoldan azmışıq,
Ulduzlar deyəni bizlər yazmışıq.
Əqlin dediyini eylədik əyan,
Söz bizdən, düzəltmək işi Tanrıdan".
Bəhram bu yazıya daldıqca daldı,
Fələk füsununa heyrətdə qaldı.
O gözəl surəti şux sənəmlərin
Şahın ürəyində yer saldı dərin.
Qızğın ayğır ola, bir dəstə madyan,
Yeddi gəlin dura, şir kimi oğlan,
Baxdıqca artmazmı könüldə istək?
İstəməzmi kama çatmağı ürək?
Kəsdisə Bəhramın yolunu yazı,
Ancaq ürəyinin güldü al yazı.
O sözlər ömrünə bir dayaq oldu,
Murada yetməkçün ümidlə doldu.
İnsan arzusunda pərvəriş tapar,
Mətləbinə yetər, olsa ümidvar.
Qapını açarla bağlayaraq şah,
Dedi qapıçıya: "Yaxşı ol agah,
Həmən bu qıfılı xəlvət bir nəfər
Açaraq otağa girərsə əgər,
Alaram bir anda şirin canını,
Bu evdə tökərəm qızıl qanını".
O gündən baxmadı otağa san
Xəvərnəqdə olan kişi, qız, qarı.
Xumarlansa idi gözü nə zaman
Gedərdi otağa ulu hökmüran,
Açardı, baxardı gözəl cənnətə,
Hər şəkil önündə gəlib heyrətə,
Suyu seyr eləyib susuz qalardı,
Onun arzusuyla mürgü çalardı.

### BƏHRAMIN ATASININ ÖLÜMÜNDƏN XƏBƏR TUTMASI

Bir gün Yəzdigirdi eyləyib agah,
Dedilər ki: "Oğlun igid Bəhram şah
Bir qorxu bilməyən şir tutan olmuş,
Köhnə qurda dönmüş, gənc aslan olmuş.
Şir dönür önündə aciz köpəyə,
Əjdərin tozunu verir küləyə,
Kəməndlə div tutur gəlsə üz-üzə,
Atını çapanda dağ dönür düzə.
Almazı, dəmirdən hazırlar ipək,
Dəmiri, yumşaldar daşı xəmirtək".
Atası oğlunun gənclik odundan
Qorxub saydı onu ömrünə düşmən.
Aslan qorxan kimi oddan, o birdən
Qorxdu öz oğlundan - alovlu şirdən.
Sayılsa da nursuz bir nəzər nöqsan,
Onu uzaq tutdu nəzərgahından.
Bəhram könül verdi ova, büsata,
Gah badə nuş etdi, gah mindi ata.
İçkiyə, şikara o bağladı bel,
Elə bil parlardı Yəməndə Süheyl,
Sevərdi Yəmənin şahı Bəhramı,
Onun hər hökmünə çəkib əncamı,
Yüksək qiymət verib məharətinə,
Hakim qıldı onu vilayətinə.
Qılınc, gövhər verdi, inanın, hələ
Keçərdi yolunda canından belə.
Saysızdı Bəhramın hər cür daş-qaşı,
Kədərdən uzaqdı ağrımaz başı.
Gördü yad ölkədə bu məhəbbəti,
Düşmədi yadına öz vilayəti.
Bir neçə gün belə dövr etdi fələk,
Nəhayət, o qurdu yeni bir kələk.
Yəzdigirdin əli taxtdan sürüşdü,

Onun uca işi alçağa düşdü.
Atalardan ona keçən taxtü-tac
Əcdadıtək oldu onunla da qaç.
Şahsız qalan taxta hökmüdar tapmaq
Qəsdilə el, qoşun qurub yığıncaq,
Qulluq etməməyi aldı qərara
Yəzdigird nəslinə, qara şahmara.
Əgərçi Bəhramın qüdrəti vardı,
Ağlı, qılıncı var, cürəti vardı.
Görmüş Yəzdigirddən ölkə əziyyət,
Odur alınmadı saya bu cürət.
Dedilər: Bəhrama yaxın getməyək,
Ölümdən xəbərdar onu etməyək.
Ərəblər olmuşdur ona pərəstar,
İran torpağına olsa hökmüdar,
Ərəblərə xəznə, səltənət verər,
Farsa əzab verər, əziyyət verər.
Padşah seçmədisə onu bir insan,
Tanrı istəyilə oldu tac qoyan.
Yığıncaq ayırdı bir aqil qoca:
- Sən şah ol, - dedilər, - layiqsən taca.
Şahların nəslindən deyildi nəsli,
Bu nəslə yaxındı ancaq ki, əsli.
Belinə bağlayıb yeddi göz kəmər,
Taxtü-tac verdilər, təzim etdilər.
Belə bir tədbiri eşitdi Bəhram,
Asiman dövrünü eyləmiş tamam,
Dövran təzələnmiş, rövnəqi sönmüş,
İşlər keçmişlərin tərsinə dönmüş.
Atası dünyadan köçüb bir zaman
Olmayıb tacına sahib tapılan.
Bir yadın ayağı girmiş meydana,
Vermiş qarğaşalıq üz bu cahana,
Əvvəlcə yas tutub, matəmə daldı,
Əqiqə firuzə naxşını saldı[133].
Sonra fikr eylədi: çevrilsin şirə,
Döyüşsün, əl atsın iti şəmşirə,
Çalıb qılıncını nərələr saçsın,
Döyüş qapısını qəzəblə açsın.
Lakin, düşünərək dedi özünə:
Ağıllı dolansam, yaxşıdır yenə,
Çıxartdı iranlı qəlbindən bizi,
Unutdu bilmərrə hörmətimizi.
Mənsə qoy olmayım amansız, qəddar,
Yumşaqlıq hər şeyə açardır, açar!
Bu itqılıqların ovçusuyam mən,
Mənimdir qoyunlar, mənimdir çəmən.
Yunları olsa da onlara döşək,
Öz pambıq tarlamda yatırlar, bişək.
Nankor olmaları yaxşıdır, əlbət,
Gün gələr ki, onlar çəkər xəcalət.
Xəyanət üzündən xəcil olar mərd,
Yaxşı deyil, ona sən də vermə dərd,
Xəcalət çəkəni etməzlər zəlil,
Bu zülmkarlıqdır, ədalət deyil.
Yolundan azdısa iranlılar, mən
Eylərəm onları yenə şahsevən.
Ovçu səbirsizlik göstərsə əgər,
Oxu nişanəyə dəyməz, yan gedər.

### BƏHRAMIN İRAN TORPAĞINA QOŞUN ÇƏKMƏSİ

Ey söz düyümləyən cadugər, yetər,
Bu keçmiş sözlərdən gəl vermə xəbər!
Gül kimi ağzından özün al nəfəs,
Ondan ətirlənsin səndəki həvəs.
Bilin, bağlamışam mən əhdü-iqrar
Kimlə? O kəslə ki, əhdində durar.
O şey ki, başqalar demiş, yaratmış,
Biz şərab içirik, onlarsa yatmış.
Öz malım etməyim keçirib ələ,
Pis olar eyləsəm mən hərgah belə.
Uymayım köhnəni tikmək felinə,
Cəhd edib oxşayım novruz yelinə.
Doğrudur, şərt qoydum: dürr saçmaqda mən
Olmayım deyilmiş sözləri deyən,
Ancaq o xəznəyə sahmanımız bir,
Oxumuz cütsə də, nişanımız bir.
Etməli olsam da bir sözü təkrar,
Hünərim palazdan ipək yaradar.
Sözün kimyasıyla iki nəqş açan
Köhnə nəqşi təzə elədi çoxdan.
Misi xas gümüşə döndərmiş biri,
Bu isə gümüşdən alar saf zəri.
Misi saf gümüşə döndərən sənət
Gümüşdən zər alar, eyləmə heyrət!
Uca taxta incə bəzəklər verən
Belə bəzək vurdu taxta yenidən.
Xəbər tutdu Bəhram, igid şahzada
Ki, tac qismət olub yad oğlu yada.
Kəyanın tacını tələb etməkçin
Bağladı belini ürəyində kin.
Bəhram ölkəsinə şah olsun deyə,
Münzər də, Neman da qalxdı köməyə.
Verdilər bol xəznə, hesabsız daş-qaş,
Saysız ordusuyla o qaldırdı baş.
Düşmənlik alışdı coşdu sərasər
Yəməndən başlamış Ədənə qədər.
Atlanıb yürüdü yüz min süvari,
Hamının poladdan möhkəm paltarı,
Hamı div bağlayan, qələ açandı,
Nərəsi bir şirdi, hünər saçandı.
Hər biri ölkəyə bir istinadgah,
Belə bir orduyla yürüş etdi şah.
Nəm gedib balığa, toz aya çatdı,
Şeypurların səsi od parçalatdı.
Zərbələr yağdırdı sinc-təbil çalan,





Gurultu ucaldı - nağaralardan.
Düşdü sinc-təbilin səsi dağ-daşa,
Göyləri, yerləri gətirdi çoşa.
Sayda qarışqadan artıqdı ləşgər,
Yandı intiqamla ordu sərasər.
"Bəhramın olmalı öz tacı, yurdu"
Deyə, yürüş etdi Yəməndən ordu.

### İRANLILARIN BƏHRAMA MƏKTUB YAZMASI

Taxtı qəsb edənə yetişdi xəbər
Ki, açmış ağzını bir cavan əjdər.
Göy yerə enməyə göstərməkdə meyl.
Başını qaldırmış Yəməndən Süheyl[134]
Açmış pəncəsini o cavan aslan
Eləsin düşməni qanına qəltan.
Taxta çıxıb tacı əlinə alsın,
Yatsın fitnə tozu, tamam yoxalsın.
Şahın sarayına ölkə rəhbəri:
Möbidlər, ordunun sərkərdələri
Toplanıb rəy üçün hey yığın-yığın,
Kəsdilər kökünü dikbaşlılığın[135].
Nəhayət o məclis yetdi əncama,
Dedilər ki, məktub yazaq Bəhrama.
Hərə bir söz dedi, söhbət açdılar,
Qabıqlı-qabıqlı toxum saçdılar.
Verdi sözlərinə katib min sığal,
Açdı bu məktubda uzun şərhi-hal.
Məktubu bükdülər, iş başa gəldi,
Elçilər kaqızla yola düzəldi.
Elə ki, yetişib endilər atdan,
Yeni şaha salam göndərdi dövran.
Şahın xadimləri alıb da rüsxət,
Etdilər onlara olmazın hörmət.
Bəhram hüzuruna icazə verdi,
Dərban bu uğurda xəbər gətirdi.
Min qorxuyla gəlib şah hüzuruna,
Səcdəyə düşərək etdilər səna.
Ən ağıllı qasid irəli getdi,
Məktubu öpərək, o təqdim etdi.
Katib möhrü qırıb açdı kağızı,
Oxundu padşaha yazılan yazı:
Məktubun başlanğıc sözü bismillah,
Ağzına fəziləylə rəhbərdir Allah.
Göydə də, yerdə də pərvərdigardır,
Yoxluq dedikləri onunla vardır.
Aləmdən başlayıb canlı nə ki var,
O yüksək fələklər, bu uca dağlar
Səxa nəqqaşından almışlar surət,
Bütün varlıqlara o vermiş qüvvət.
Heç bir şeydə onun təmənnası yox,
Dəhrin ondan başqa bir xudası yox.
Açdığı düyünlə həyat qurulmuş,
Adına sitayiş möhrü vurulmuş.
Onun hökmündədir zəminlə zaman,
Onu da, bunu da odur saxlayan.
Belə tərif yazıb uca Allaha,
Salamlar yollayır sonra da şaha,
Yazır ki: "Ey başı uca dünyada!
Həmi şövkətli şah, həmi şahzada!
Kişilik, insanlıq yağan işindən,
Kəsranın adını daşıyıram mən,
Cəsarətdən salmaz, bil, xamlar məni,
Gücum var, görməyib dünya xar məni.
Bəyənmiş adımı sonsuz kainat,
Nəvaziş göstərir bəxtim hər saat.
Tacım, hünərim var mənim cahanda,
Hünərsizlər handa, səltənət handa!
Hünərli dünyada taxtü-tac alar,
Alçalmaz heç zaman başı ucalar.
Şah olsam da əgər bütün yerə mən,
İnsan övladına, mələklərə mən,
Könül sanma bundan çox razı haldır,
Şahlıq dedikləri zəhərli baldır.
Mülküm, malım vardı, hökmüm rəvandı,
Bu üzdən hər zaman bəxtim cavandı.
Belə qalsa idim uzaqdım şərdən,
Ucalıq deyildir xali xətərdən.
Neyləyim ki, məni bu əhli-İran
Gücla dilə tutdu, etdi hökmüran.
"Gəl, şah ol" dedilər, etdilər vadar
Ki, taxta əyləşim, olum tacidar.
O gündən ölkəyə mən həyan oldum,
Buna şahlıq demə, pasiban oldum.
Bu məsəl gözəldir, aydın əyandır:
"Dünyanı sevənlə arzu düşməndir.
Belə bir aləmdən yox səndə xəbər,
Səni cəlb eyləyir başqa aləmlər.
Sənə gur kababı xoş gələr, əlbət,
Nəyinə gərəkdir dadsız əzəmət.
Bir rud çalğısıyla içilən meyin
Zövqünü verərmi bu dünya, deyin?
Keçir ovda, keyfdə günlərin belə,
Başını ağrıtma dünya işiylə.
Sənindir dünyanın eyşi, işrəti,
Çünki çəkməyirsən ölkə xiffəti.
Ovda gün sürürsən, içir, yatırsan,
Gecəli-gündüzlü kama çatırsan.
Mənsə dərd çəkirəm, daim dalıram,
Xalqın qayğısına hər an qalıram.
Gah olur dost qəmi çəkmək sənətim,
Gah olur yağıdan qorxmaq qismətim.
Tac uğrunda qılınc qaldırıb sənə
Vuruşmaq ən kiçik bir dərddir mənə.
Xoşbəxtsən, həyatın keçir firavan,
Uzaqdır fitnələr, fellər başından,
Olaydı sənətim o peşə, ey kaş,

Asudə olardı o zaman bu baş.
Keçərdi dövranım işrət içində,
Şərabla, çalğıyla, ülfət içində.
Demirəm şahlıqdan biliyin yoxdur,
Dünyadan, dövlətdən xəbərin çoxdur.
Sənsən bu ölkəyə həqiqi varis,
Şahdan bu məmləkət sənə qalmış irs.
Xam iş gördü atan, neyləyim ancaq,
Tacın kölgəsindən sən oldun uzaq.
Onun hər əməli əziyyət oldu,
Xalqın elədiyi şikayət oldu.
El onun zülmündən heyrətdə qaldı,
Bu üzdən zülümkar adını aldı.
Qəzəblənib tökmüş məmləkətdə qan,
Gah azğın olmuşdur, gah da qudurğan.
Kimsə bu toxuma afərin deyə,
İnan, səpməyəcək bizi zəmiyə,
Kimsə istəməyib tacidar səni;
Yaxşıdır, tərk eylə, gəl, bu qayəni
Oda rast gələrsən coşsan, əgər sən,
Çalışsan, soyuq bir dəmir döyərsən.
Ehtiyacın varsa açıb xəznəni,
Qızıldan eyləyim, gəl, təmin səni.
Özünə bab şeyi xərcləsən əgər,
Daha faydalıdır, hər şeyə dəyər".

### BƏHRAM-GURUN İRANLILARA CAVABI

Məktubu oxuyan eylədi tamam,
coşdu, ildırımtək, od saçdı Bəhram.
Yüz qüvvəylə verdi özünə toxtaq,
Səbr etdi yenə də zirəklər sayaq.
Qızışmış olsa da etmədi şitab,
Ətraflı düşünüb, o verdi cavab:
"Oxundu qarşımda katiblər yazan,
Qulaq asdım bütün, əyandır, əyan.
Qabil olmasa da katibin əli,
Nəsihət edənin, bunu bilməli,
Vardır bir ölçüsü; ağıl üzündən
Deyilən sözləri xoşlamışam mən.
Nə torpaq, və gümüş, nə gövhər, nə qaş
Mənə aydirmədi bu cahana baş.
Taca varis edib atalar məni,
Öldürər, bilirəm, ayıb, ar məni,
Qismət olarsa bu mirasım yada,
Tanrılıq etmişsə atam dünyada,
Allahı, kamalı dost tutmuşam mən.
Tanrılıq eyləyən, Tanrını sevən
Başqa-başqadırlar, bu aşikardır,
Damarca, dəricə fərqləri vardır.
Mən ki günahsızam, tutmayın nöqsan,
Uzağam atamın günahlarından.
Atamla xilqətən sanma birəm mən,
O daşdırsa əgər, cəvahirəm mən.

Qaranlıq gecədən sabah baş verər,
Saf ləli dünyaya doğar, daş verər.
Atama bir daha tutmayın irad,
Tanrı ondan sizi eyləmiş azad.
O, pislik etsə də, tapdı xoş məzar,
Ölünün dalınca pis danışmazlar.
Tapılmaz dünyada pis söz danışan,
Olmasa pisliyə bir qulaq asan.
Kimin ki, olarsa əsli bədgövhər
Pis sözlər danışar, pis sözü dinlər.
Vaz keçin atamın cinayətindən,
Xəbərsiz olmuşam bu xislətindən.
Üzr istərəm keçmiş günahçın, əgər
Yolumu kəsməsə mənim bədnəzər.
Yatdım qafil kimi bundan qabaq mən,
Ayıldım yuxudan indicə, bax, mən.
Bir xoşbəxtə əgər baxtı olsa yar,
İş vaxtına kimi ancaq o yatar.
Nə lazım yuxuyla qalxıb savaşmaq,
Gərəkdir gec yatıb, erkən göz açmaq.
Yuxum bərk olsa da, bəxtim oyaqdır,
Bu xoş bəxtim mənə möhkəm dayaqdır.
Yar oldu ömrümə ayıq taleyim,
Oyandırdı məni sayıq taleyim.
Üzüm yaxşılığa sandır indi,
Ürəyim qəflətdən andır indi.
Mən öz xeyrim üçün bir iş görmədim,
Püxtəyəm, xamlara könül vermədim.
Yaxşı adamlara olaram dayaq,
Məsləhətə daim asaram qulaq.
Kim xəta işləsə gözə almaram,
cana da, mala da tamah salmaram.
Keçmiş günahlara hər zaman yadam,
Zaman nə göstərsə, razıyam, şadam.
Sizlə layiqincə dolanaram mən,
Nə gərəksə, onu istərəm sizdən.
Dostlar xəznəsinə salmaram rəxnə,
Düşmənin malından toplaram xəznə.
Xeyirxahlar olmaz yanımdan uzaq,
Pisləri eylərəm canımdan uzaq.
Yaxşılardan qeyrə nəzər salmaram,
Yaman adətlidən bilik almaram.
Şahlıqdan hiyləni tutmuşam uzaq,
Tanrı duyğusudur qəlbimə dayaq.
Sürünü gözləyən çobandan artıq
Rəiyyət qeydini çəkərəm sayıq.
Mənə özgə malı olmamış gərək,
Bəlkə artıraram çörəyə çörək.
Arzu divi məni azdıran deyil,
Arzum günahımın girovudur, bil.
Nəyi bəyənməsə böyük Yaradan
Baş verməz o əməl məndən heç zaman".
Beləcə, rəylərə şah bəzək vurdu,
Ən qoca bir möbid ayağa durdu.





Söylədi: "Ey padşah, böyüksən bizə,
Ağlın işıq saçdı kor beynimizə.
Yaxşı söz insanın batar başına,
Ağıl yazar onu ürək qaşına.
Böyüksən, şahlığa sən yaraşarsan,
Layiqdir olasan sürüyə çoban,
Zatına biçilmiş tacidar olmaq,
Tac bizimlədirsə səndədir ancaq.
Gəştasib zəndini oxuyan sənsən,
Kimdir səndən qeyri Kəyan nəslindən?
Daradan, Bəhməndən tum sən qalmısan,
Varlıq aləminə bəzək salmısan,
Səyaməkin təzə, tər bir barısan,
Ərdəşir Babəkan yadigarısan.
Şah olmuş əcdadın Kəyumərsədək,
Şahlığa nisbətin yüksəkdir, yüksək.
Könüllü olmamış sənin məmləkət,
Yoxdur bərabərin dünyada, əlbət.
Təzə, köhnə möbid, bil, həmfikirdir,
Hamının sözü bir, ürəyi birdir.
Sənə qul olsaq da, ürəkdən ancaq
And içib olmuşuq bir əhdə dustaq.
O taxtda əyləşən yeni şah ilə
Əhdimiz, şərtimiz belədir, belə:
Taxtü-tac olmasın qoy uzaq ondan,
Əsla götürməyək üz qapısından.
İndi bizə möhkəm bir sübut gərək,
Verdiyimiz əhdi sındıra bilək.
Ta xəcil olmayaq işimizdə biz,
Çəkməsin mənəvi əzab qəlbimiz..."
Qocanın sözünü Bəhram dinlədi,
Verib ləyaqətli bir cavab, dedi:
"Sizə üzr istəmək yaraşmaz əsla,
Aqil o kəsdir ki, vəfadar ola.
Taxtınızı tutan yaramaza bax,
O sizcə qocadır, məncə bir uşaq.
Onun mən tacını alaram elə
Ki, dəyməz başında ziyan bir telə.
Şahlığım heç şeyin deyil möhtacı,
Üzrə, müdaraya yox ehtiyacı.
Cəmşid nəslindənəm, ulu bir şaham,
Qara, ağ nə varsa, mənimdir tamam.
Əsil tacidarlıq özgə halətdir,
Taxtü-tac şahlığa yalnız alətdir.
Kimin ki, padşahlıq haqqı, baxtıdır,
Göylər onun tacı, yerlər taxtıdır.
Firidun taxtından, cəmşid tacından
Görülməmiş daim bəhrələr alan.
Hər baş qaldıran ki, ləyaqəti var,
Qazanıb şahlığı olur tacidar.
Mənim səltənətə açıqdır yolum,
Qılıncla alaram, gücüdür qolum.
O qəddar yerimi gəlib tutsa da,
Hörümçək tor hörmüş məncə kahada.

İstəsə kahaya əjdər yol sala,
Gərək hörümçəkdən icazə ala?
Həmcinsmi qarışqa, de, cəbrailə?
Ağcaqanad hərif olarmı filə?
Kəsilər gurların gurlayan səsi
Ucalanda göyə aslan nərəsi.
O gün ki Həmələ gün qalxıb gedər
Yüz belə çırağa kim rəğbət edər?
Mən yadlar evində əziyyət çəkim,
Olsun talançılar evimə hakim?!
Düşmənin qisməti şəkərim olsun,
Mənimsə yediyim ciyərim olsun?
Xoşdur qılınc, bıçaq ciyər yeməkdən,
Burax para-para doğransın bədən.
Xəznələr mənimkən mülki-İranda,
Alləm qalmışdır Ərəbistanda.
Yeməyimi verər arabir Münzər,
Gah da Neman mənə can fəda eylər.
Çörək verənlərim belə sərafraz,
Malımı yeyənlər alçaq, yaramaz.
Mən ki cavan şirəm, ölkələr alan,
Qoca tülkü sürsün yerimdə dövran?
Key mənəm, düşməndən Kəyan tac alar!
Keyzadədən qeyri kim xərac alar?
Kəyana layiqdir Kəyanın yeri,
Onu qəsb etməsin özgənin biri.
Başqalar torpaqdır, şahıq, uluyuq,
Onların içi boş, bizlər doluyuq.
Ordu düzəltməli şanlı hökmüdar,
Bir atlıdan göyə çoxmu toz qalxar?
Muğan qocasından qalan piyalə
Muğan cavanına gərək verilə.
Yaxşı bilməlidir məni dinləyən,
Doğruluq gözlərəm hər bir işdə mən.
Şahlıq azğınlığı məndən uzaqdır,
Doğruluq işimə möhkəm dayaqdır.
Sizin arzunuzca olar əməlim,
Arar rizanızı hər zaman əlim.
O bağlı düyünü açmaq üçün siz
Qüvvətli bir dəlil istəyirsiniz.
Dəlil budur sizə, hünəri olan
Qoy tac alsın iki şir arasından.
Səhər çağı gəlsin şirban meydana,
Səf çəkib ordular dursun yan-yana.
İki şir gətirsin yırtıcı, qanlı,
Nəfəsi od saçan, ağzı dumanlı,
Bir şərt də odur ki, şirlər olsun ac,
Qoyulsun onların arasında tac.
Tacı şücaətlə alıb da yerdən,
Salamat qurtarsa kim iki şirdən
Onu şah çağırsın bütün bu cahan".
Mehribanlıq dolu, ürəyə yatan,
Könüllər aldadan o şirin sözlər
Deyilib yazıldı cümlə sərasər.

Şah bu məktuba öz möhrünü vurdu,
Üstəlik məna da verərək, durdu:
- Necə ki, lazımdır aparın, - deyə,
Pərəstişkarlara etdi tövsiyə.
Gördü şah sevənlər şahdan xoş rəftar,
Gözəl söz eşidib fərəh tapdılar.
Bəhram xəyalıyla döndülər geri,
Gözləri önündə şahlıq təsviri.
Onun qüdrətindən, onun halından,
Şaha layiq olan bu kamalından
Heyran danışdılar, valeh oldular:
- Bəhramdır, - dedilər, - əsil hökmüdar.
Kamillər belə bir şaha ağ olmaz,
Günəşi palçıqla suvamaq olmaz!
O şah xislətlidir, o şah adlıdır,
Acıqlı aslandır, igid atlıdır.
Bir ox atsa əgər, əjdaha ölər,
Açarsa şir kimi pəncə bir nəfər,
Ona tab gətirib durmaz önündə,
Taxtü-taclar alar dava günündə.
Heyvan ayağına şahlar saldırar,
Onu cırnatmayaq, tufan qaldırar,
Gəlin od vurmayaq ədavətinə,
Dayana bilmərik hərarətinə.
İstəsə keçirər əlinə tacı,
Şir hekayətinə yox ehtiyacı.
Ancaq tanınmağa tülkü ilə qurd,
Bizimçün bu gözəl sübutdur, sübut.
Hamı saray deyə yollandı daha,
Şahın şərtlərini dedilər şaha.
Məktubu açdılar, gəldilər dilə,
Üstünə qoymayıb bircə söz belə,
Ərz etdilər şaha ucadan-uca.
Taleyi sınanmış tacpərəst qoca
Taxtından enərək, oturdu yana,
Söylədi: "Gəlmişəm şahlıqdan cana.
Yaxşıdır taxta yox, oturum yerə,
canımı verməyim qurban şirlərə.
Enməyim yaxşıdır bu taxtdan diri,
Şirin pəncəsindən tikəni biri
Keçirib əlinə yeyərmi rahat?
Əzəldən belədir qoca kainat.
Yaraşır şahlığa haqqıyla Bəhram,
O varisdir buna, qılınc ilə cam
Ondan ayrılmasın heç zaman gərək,
Ölkə varisinə taxtını verək.
Qoca taclardan cavan şah gözəl,
Mən öz şahlığımdan çəkdim artıq əl,
Hökmüdar deyiləm, şah sevənəm mən".
Başçılar da ona söylədi həmən:
"Vaxtıyla səninlə şərt bağladıq biz,
Ağıldan başqa şey deyil şərtimiz.
Biz səni hökmüdar etdiksə, ancaq
Taxtdan düşməyin də bizdən olacaq.
Vuruşmaq istəyir Bəhram şir ilə,
Qoy hünər göstərsin bu tədbir ilə.
Oyuncaq deyildir şirdən tac almaq,
Kor gecə gör necə oyun açacaq.
Bağlayaraq şiri, şərti gözləyək,
Qızıl tac meydana qoyulsun gərək.
Taxt sənindir, əgər şah qorxu bilsə,
Tac sənindir yenə, gənc Bəhram ölsə.
Şir olub şirlərdən götürərsə tac,
Məmləkətdən ona yetişər xərac.
Sitayişə, taxta layiq olacaq,
Baş tutarmı belə bir tədbir ancaq?"
Qurtardılar sözü belə nəhayət
Ki, şərtə tez əməl edilsin, əlbət.
Sabah gün çıxanda, güləndə hava,
Şiri ovlamağa şah çıxsın ova.

## BƏHRAMIN İKİ ŞİR ARASINDAN TAC GÖTÜRMƏSİ

Səhər qızıl taclı, sabah xeyli şən,
Bir taxt yaratmışdı fil sümüyündən,
Rəy deyən, iş görən qolu güclülər,
Amirlər, hakimlər, kimdə var hünər,
Ərəblər, əcəmlər hey atlandılar,
Şirlər meydanına qanadlandılar.
Şirbanlar gətirdi şirləri gəldi,
Açıb buraxdılar, meydan düzəldi.
Qızğın həmlə etdi şir üstünə şir,
Qazılırdı sanki Bəhrama qəbir.
Şirlər arasına o şir saxlayan
Gətirib tac qoydu tamam qızıldan;
Arasında o tac qara şirlərin
Bir aydı ağzında iki əjdərin[136].
Teştin səsiylə ay buluddan çıxar,
Boş deyil, bu teştin qılıncı da var.
Kinli şirlər dönüb qızğın əjdərə,
Döyüb quyruğunu qəzəblə yerə,
Sanki deyirdilər: "Kim qərət eylər,
Əjdərdən tac alar, şücaət eylər?"
Dəmir ciyərlidən yox xəbərləri
Ki, şiri ovlayar, vurar əjdəri.
İki ox mənzili cürət etmədi,
Kimsə o şirlərə yaxın getmədi.
Dedilər: "Edilsin bu şərtə əməl,
Şirlərə yönəlsin Bəhram ilk əvvəl.
Şirdən alsa tacı, şah olsun Bəhram,
Onundur səltənət, bir də qızıl cam.
Güvənməsə əgər Bəhram baxtına,
Əlvida eyləsin İran taxtına".
Sanma şah qərardan imtina etdi,
Şirlərin üstünə yönəldi, getdi.
Bəhramın əliylə hər dağ, hər dərə
Məzar kəsilmişdi azğın şirlərə.





Bitirib iyirmi iki yaşını,
Yüz şirin bədəndən üzmüş başını.
Belə qalib çıxan yüz-yüz aslana
İki şir əlində batarmı qana?
Bəhram ətəyini sancdı belinə,
Həmlə etdi dönüb sabah yelinə.
Nərəsi şirlərə vəlvələ saldı,
Onların əlindən tac vurub aldı.
Şirlər gördü şahın məharətini,
Onun şirliyini, cəsarətini.
O bıçaq pəncəli, qızğın aslanlar,
Dişləri qılıncdan, qoç pəhləvanlar
Vəhşi hücum çəkdi o taclara,
Dünya fatehini salmaqçın dara.
Bəhramdan aslanlar yaxşı dərs aldı,
Baş-başa çırparaq ayağa saldı.
Pəncələr qırdı şah, diş əzdi tamam,
Tacını, başını qurtardı Bəhram.
Qoydu öz başına tacı bəxtiyar,
Oldu, görün, ona necə bəxti yar.
O qalib çıxdı o azğın şirlərə
Saldı tülküləri taxtından yerə.

## BƏHRAMIN PADŞAHLIĞI BƏHRAMIN TAXTA ƏYLƏŞMƏSİ

Bəhram sevdiyindən xeyirxahlığı
Uğurlu, mübarək oldu şahlığı.
Münəccim rəsəddə açıb min düyün,
Taxta oturmağa ayırmışdı gün.
Əsəddə qurmuşdu taleyi taxtı,
Sabitdi, möhkəmdi olduqca baxtı[137].
Ən uca nöqtədə o bir günəşdi,
Ütarid ülkəri ona bir eşdi[138].
Zöhrə Surə keçdi, Müştəri Qovsə,
Bu ev ziynətlənib, döndü Firdovsə[139],
Hilal onda idi, altda Bəhram[140],
Məclisi bəzədi qılınc ilə cam.
Uzadıb əlini Zühəl Mizana,
Toplamışdı xəznə yerdən Keyvana[141].
Belə bir mübarək gün idi durdu,
Gözəl xislətli şah taxta oturdu.
Bol mirvari səpdi, ləl etdi şabaş,
Baxtının gəmisi doldu başabaş.
Xəznə saxlayanlar bol xəznə açdı,
Saçdı ətrafına qaş-daş, nə saçdı!
Əvvəl şah taxtında əyləşən insan,
O beytlər görən eldən, qoşundan,
Bəhramın görüncə səltənətini,
Taxta, taca olan layaqətini,
Adlı-sanlılardan, şöhrətlilərdən
İlkin o yeriyib irəli: - Sənsən
Geniş üfüqlərə bir soltan - dedi,
Möbidlər: - Dünyaya hökmüran, - dedi.
- Şahlar şahı, - dedi xosrovlar ona,
Hamı gizli ona, aşikar ona
Afərin üstündən afərin dedi:
- Əhsən olsun sənə birə min, - dedi.
O qədər yüksəldi, Bəhram yüksəldi
Ki, başı ən uca göyləri dəldi.
Ədl xütbəsini adil hökmüran
Oxuyub, mirvari saçdı yaqutdan.
Dedi: "Tacı mənə Allahdır verən,
Tanrı vergisini şad elərəm mən.
Ona şükrüm mənim birə min olsun,
Allahı duyana afərin olsun.
Tanrı kərəminə dal çevirmərəm,
Ondan yetdi mənə bu nemət, kərəm!
Şirdən tac götürmək sanma asandır,
Qılıncdan deyildir, bu Tanrıdandır.
İndi ki, taxtü-tac verilmiş mənə,
Elə işlərəm ki, Tanrı bəyənə.
Allah qoysa, gərək çalışam elə
Məndən inciməsin bir insan belə.
Mənim dərgahımın xas olan qulu
Mənim kimi gərək düz getsin yolu.
Doğruluq yaxşıdır, uymayın yada,
Bircə düzlükdədir nicat dünyada.
Sağ qulaq düzlükdən eyləsə həzər,
Bir çox sol qulaqlar çəkəcək zərər.
Keçər bir neçə gün, mən istirahət
Eyləyib saçaram elə ədalət.
Vəzifəm, sənətim bu olsun gərək,
Zülmkara zülüm, adilə kömək.
Durduqca asiman, fələk, təbiət
Yerdə yatanlara olsun min rəhmət...
Qaradan, ağdan çox, nə ki yaşayan
Var, məndən görəcək ədalət, aman[142].
Ədalət olacaq işim hər zaman,
Şad olmasın bundan dilşad olmayan".
Elə ki, xütbəsi şahın qurtardı,
Eşidən şükr ilə səcdəyə vardı.
Bir saat oturdu şah səltənətə,
Çəkildi, sonra da getdi xəlvətə.
İnsaflı olmağa fərman verdi şah,
Ondan razı qaldı rəiyyət, Allah.
Yığdı böyükləri, yığıncaq etdi,
Dövlətin hər işi kamala yetdi.

## BƏHRAM-GURUN ƏDALƏT VƏ SƏXAVƏTİ

Elə ki, bəzəndi tac Bəhram Gurdan,
Cəlal rövnəq aldı o təzə nurdan.
Yeddigöz kəməri bağlayaraq şah
Yeddipillə taxta oturdu gümrah.
Başda Çin papağı, tərlan döşütək
Rumi paltar verdi əyninə bəzək.
Rumdan gözəllikdə o bac alandı,

Yaxşılıqda Çindən xərac alandı.
Qurdu cəmşid kimi taxtı dörd guşə,
Qaldırdı beş növbə tacı günəşə,
İnsafı gətirdi o bizim yerə,
Qalxdı ədalətin başı göylərə.
Dəydi insaflıya köməyi hər an,
Zülümkar olana vermədi aman.
O, qəm qıfılına bir açar oldu,
Səadət onunla aşikar oldu.
Təzədən başladı toyu dünyanın,
Geniş nəfəs aldı qəlbi insanın.
Qısır inəklər də törədi, doğdu,
Artdı arxlar boyu çağıldayan su.
Çatdı bar yetirən ağaclar bara,
Dirəmdə sikkələr mindi qərara[143].
Onunla düzəldi işi varlığın,
Yıxıldı özülü riyakarlığın.
Şahlar, şahzadələr, hər yan, hər tərəf
Onun cəlalından tapdılar şərəf.
Ölkənin bilici iş adamları
Onun dərgahına axıtdı varı.
Qala qoruyanlar xəznə apardı,
Verdilər, xəznədə hər nə ki vardı.
Yeni fərman yazdı fərman yazanlar,
Şahın imzasıyla qurtardı canlar.
Ölkə işlərinə eylədi əncam,
Hər kəsi oxşadı qədrincə Bəhram.
can verib diriltdi rövnəqsizləri,
Qaçqını qaytardı ölkəyə - geri.
Qoyunun hayfını qurdlardan aldı,
Şahin göyərçinlə dost qanad çaldı.
Məstliyi çıxartdı fitnə başından.
Təcavüz edənə vermədi aman.
Düşmənin canına saldı zəlzələ,
Dostlarla dünyada verdi əl-ələ.
Mərd oldu şahlıqda böyük hökmüran,
Mərd adam yaxşıdır mərdüməzardan.
Nə zaman versəydi cəza düşmana,
cəfalar vermədən qıyardı cana.
Əlindən əziyyət çəkincə insan
Öldür, birdəfəlik köçsün dünyadan.
Gördü ki, bu torpaq damlardan ancaq
İnsana qüssələr, qəmlər qalacaq,
Özünü işvəylə o şad saxladı,
Gün sürüb, keyf çəkib, azad saxladı.
Dünyaya etibar yoxdur, qanırdı,
Eşqə, məhəbbətə arxalanırdı.
Həftədə çalışdı şah kimi bir gün,
Altı günü keçdi işrətdə bütün.
Kimin ki, eşqdən nişanı yoxdur,
Demək, ruhu yoxdur və canı yoxdur.
Məhəbbət sikkəsi vurdu aşikar,
Yaxın adamları oldu aşıqlar.
Bürüdü, cəlalı tutdu hər yanı,
Keçirdi hökmünə bütün dünyanı.
Güldü gül üzünə fərəhli həyat,
Səxavət göstərib, dolanırdı şad.
Axdı xəznəsinə dünyanın varı,
Arada olmadı qılınc, tatarı.
Ölkəsi münbitdi, təzəydi, tərdi,
Qəlbi günəş kimi bolluq sevərdi.
Ellər güvənərdi məhsuldarlığa
Varlığı düşməzdi əsla darlığa.
Bir gün xalq unutdu şükrü dünyada,
Mehribanlıq belə düşmədi yada.
Kim şükür etməsə nemətə hərgah,
Küsər o bəndəyə yaradan Allah.
Kəsilər başına bu gen dünya dar,
Çalışan ruzunu daşdan çıxardar.

## QURAQLIQ İLİ VƏ BƏHRAMIN RƏİYYƏTƏ MƏRHƏMƏTİ

Bir il getdi bütün əməklər bada,
Qəhətlik başladı geniş dünyada.
Qıtlıq yeyintinin yolunu kəsdi,
İnsan ot otladı, titrədi, əsdi.
Dünya bu qıtlıqdan bezikdi, gerçək,
Gövhər qiymətinə satıldı çörək.
Bəhrama verdilər bu haldan xəbər
Ki, qıtlıq keçirir cahan sərasər.
Aclıqdan kəsilib vəhşi canavar,
Gah adam yeyirdi, gah leş insanlar.
Dənin qiymətindən olunca agah,
Anbarı açmağa fərman verdi şah.
Harda azuqə var, şah xəbər tutub,
Hakimlər adına göndərdi məktub:
"Yığılsın bir yerə əmin adamlar,
Açılsın anbarlar, dən dolu damlar.
Varlılarla həmən razılıq olsun,
Yoxsulun torbası havayı dolsun.
Dəndən ödənəndə o pay alanlar,
Tökülsün quşlara yerdə qalanlar.
Acından ölməsin dövründə bir fərd!"
Eşq olsun Bəhrama, odur cavanmərd.
Səxavətli şahın dən anbarından
Bol buğda apardı hər gələn insan.
Şahın karvanları yad ölkələrdən
Daşıyıb gətirdi təzə-təzə dən.
Xəznənin pulları dönmüşdü suya,
Bəhram şah qalırdı qeydə, qayğıya.
Müxtəsər, bitmədi əkinlər dörd il,
Xalq oldu xəznədən ruziyə nail.
Çatdı böyüklüyə şah bu işiylə,
Yetdi padşahlığa nəvazişiylə.
Ellər can qurtarıb bəxtəvər oldu,
Aclığından ölən bir nəfər oldu.
Bu xəbər yetişdi ölkə şahına,





Üzünü çevirib haqq dərgahına,
Üzrxahlıq edib, çəkdi dərin ah,
Dedi: "Ruzi verən, ey böyük Allah!
Sənin oxşarın yox başqalarına,
Güvənib Tanrının iqtidarına,
Hər işi dünyada saz eyləyirsən,
Azı çox, çoxu da az eyləyirsən.
Nə qədər çalışsam, gəlməz əlimdən
Çöldə bir ceyranı doyuzduram mən.
Qalibiyyət, qüdrət sahibi sənsən,
Xalqa birər-birər ruzi verənsən.
Öldüsə yurdumda aclıqdan biri,
Mənə aid deyil bunun təqsiri.
Onun həyatından mən bixəbərdim,
Öldü, bu ölümlə çoxaldı dərdim".
Durub yalvararkən Tanrısına şah,
Qəlbindən səs gəldi: Yaradan Allah
Sənin xəbərdardır xoş niyyətindən,
Götürdü aclığı məmləkətindən".
Öldüsə bəndəsi əgər acından,
Sən ki, şad olmadın, gülmədin bundan.
Belə əmr eylədi o qadir hakim:
Elindən ölməsin dörd ildə heç kim.
Dörd il, var xəbərim, düşmədi dərdə,
Ölkədə ölmədi heç bir nəfər də.
Xoşbəxt o şahdır ki, nemətlə, nazla
Ölümü ölkədən qovdu niyazla.
Doğulan yaşadı, bara yetişdi,
Ellər bir çıxarsız vara yetişdi.
Artdı insan nəsli, çoxaldı ellər,
Döndü şəhər oldu dağlarla çöllər.
İsfahan qarışdı Reyə birbaşa,
Ev evə söykəndi, nə xoş tamaşa!
Bir kor istəsəydi, dam üstü, əgər,
Reydən İsfahana edərdi səfər[144].
Şübhə etsən, demə, günah səndədir,
Günah məndə deyil, nəql edəndədir.
Nemət yeyəndənsə boldu məmləkət,
Nemət yeyənlər artıqdı nemət.
cavan olsa xurma ağacı, barı
Daha bol gətirər güclü şaxları.
İnsan az olduqca ruzi olar dar,
İnsan çoxaldıqca gəlir də artar.
camaat arxayın çölə gedirdi,
Dağda, çəmənlikdə keyf-naz edirdi.
Əldə incə bərbət, rübab, çənglə dəf
Çalıb oynayanlar oturdu səf-səf.
Hər çay kənarında bir hovuz çaxır,
Hər tərəfdə işrət, məclis, çal-çağır.
Çoxları mey alıb, qılıncı satdı,
Zərxara geyinib zirehi atdı.
Camaat silaha, iti xəncərə
Əlvida eyləyib, qoymuşdu yerə.
Kimin keyf etməyə vardı imkanı,
Nemətlə, naz ilə keçdi zamanı.
Yoxsula yol açdı; razıydı hər an
Tacidar bəxtindən, camaat ondan.
Hərəyə verdirdi layiq bir peşə,
Onlar üçün imkan yaratdı eyşə.
Əmr etdi bölsünlər günü ikiyə,
Biri kəsbə məxsus, biri içkiyə.
Bac nədir bilmədi, yeddi il aləm,
Kökündən qazıldı yetmiş illik qəm.
Altı min sənətkar, dastan söyləyən,
Çalğıçı, oynayan, məzhəkə deyən,
Çağırıb topladı həmən bir yerə,
Ayırıb göndərdi tez hər şəhərə,
Dedi: - Hansı yana getsəniz əgər,
Çalıb çağırın ki, sevinsin ellər.
Sur bəxti tapmışdı onda zamana;
Zöhrə sahib idi onda dövrana[145].
Dövrün kəndxudası Zöhrə olanda,
O zamana handa, kədər, qəm handa?

## BƏHRAMIN ÖZ KƏNİZİ İLƏ MACƏRASI

Bəhram şah bir səhər çıxdı şikara,
Üz qoydu çöllərə, uca dağlara.
Öz kəhər atıyla qovhaqov saldı,
Şur çəkdi, gur vurdu, atdı, ov saldı.
Qövsdə yerləşir parlaq Müştəri,
Müştəridir onun qövsünün yeri[146].
Səhrada atlılar bağlayıb dəstə,
Gurları qovdular Bəhramın üstə.
Gur dırnaqlı kəhər - altında oynaq,
Durmuşdu pusquda şah aslansayaq.
Dürr saçan əlinin hünəri vardı,
Kirişi boşaldıb ox doldurardı.
Oxları torpağa saçardı alov,
Həm də hey vururdu, salırdı bol ov.
Gur budu olanda kabab gərəkdir,
Demək, od gərəkdir, şərab gərəkdir.
Şahın o gur vuran iti peykanı,
Odur ki, döndərdi oda hər yanı.
Oxu yağdırırdı uçarkən alov,
Bişirdi o saat hər vurulan ov.
Qarşıya çıxandan əsər qoymazdı,
Seylərdi, teylərdi, yenə doymazdı.
İzləyirdi ovu, gəzirdi dağ-daş,
Yanında ay kimi gözəl qaravaş.
Soruşsanız onun siz: nədir adı?
Bu şən fitnəkarın Fitnədir adı.
Baxışı məxmurdu, gözləri durğun,
Şah ona vurğundu, o şaha vurğun.
cənnət bahantək üzü təzə, şən,
Yerişi taxılın üstündən əsən.
Üzləri oxşayan yelə oxşardı,
Duruşunda başqa incəlik vardı.





Paludədən şirin, dadlı, yumşaqdı,
Sanki bal qatılan kərəydi, yağdı.
O bütün hüsnüylə bir nağməzəndi,
Dilbər rəqqasəydi, mahir süzəndi.
Etsəydi səsini kamançaya tuş,
Vurulub düşərdi göydən uçan quş.
Şah onu dinlərdi ovda, işrətdə,
Keçərdi dəmləri istirahətdə.
Fitnə çəng çalardı, şah gur vurardı,
Bu ovlar, o isə büsat qurardı...
Ansızın büründü toza düzəngah,
Sıçratdı atını ov üstünə şah.
Özünü gurların səmtinə saldı,
Qızğın şirlər kimi ox-kaman aldı.
Oxunu tuşlayıb, qoydu tez yaya,
Uçurdu yel kimi sonra səhraya.
Gurun sağrısını ox birdən-birə
Dəldi, ağzı üstə düşdü ov yerə.
Bir an bu ovlaqda şikara durdu,
Bəzən canlı tutdu, bəzən də vurdu.
Qaravaş - hiyləgər, ədalı Fitnə
Göz yumdu padşahın şücaətinə.
Hökmüdar bir saat səbr etdi, baxdı,
Ta uzaqdan bir gur qaçmağa qalxdı.
Şah dedi: "Söylə bir, tatargözlü, sən,
Almayırsan ovu gözünə nədən?
Belə bir ovçuluq sığışmaz sözə,
Girməz, əlbəttə ki, elə dar gözə,
Bax, o gur çaparaq gəlir uzaqdan,
Harasından vurum, başdan, dırnaqdan?"
Şəkər dodaqlıda çoxdu kibrü-naz,
Qadındı, qadınlar olur boşboğaz,
Dedi: "İnanaram qüdrətinə mən,
Onun dırnağını başına tiksən".
Şah gördü naz edir inadkar gözəl,
Onun istəyinə eylədi əməl.
Əvvəlcə istədi küruhə - kaman,
İçinə girdə daş qoyaraq haman,
Atdı, qulağına saldı şikarın,
Elə bil canını aldı şikarın.
Yazıq gur qaldırdı tez ayağını,
Qurtarsın xətərdən öz qulağını.
Şahın ildırıma döndü peykanı,
Nura qərq eylədi bütün dünyanı,
Dırnağından keçib, başını dəldi,
Dırnağı başında gur yerə gəldi.
Şah çinli kənizdən eylədi sual:
"Necədir hünərim?" O pəricamal
Söylədi: "Şah buna etmişdir adət,
Sayılmaz heç yerdə adət məharət.
İnsan etsə əgər bir işə vərdiş,
Çətin olsa belə, görülər bu iş.
Zənn etmə əməlin şücaətdəndir,
Gücdülükdən deyil, bu adətdəndir".

Şaha ağır gəldi sözü Fitnənin,
Balta yer eylədi ağacda dərin.
O füsunkar aya dəyişdi rəftar,
Şah öz qəzəbini eylədi aşkar.
Şahlar intiqama başlarsa əgər,
Hirsi yatsın deyə qızar, qan tökər.
Marala acığı tutarsa hərgah,
Qırar üzəngini at qovaraq şah.
İtə hirslənərsə, əgər hirsindən
Məhrum eylər iti öz dərisindən.
Şah dedi: "Sağ qoysam, ləcdir, xətərdir,
Öldürmək hesabı daha bədtərdir.
Bilirəm, dişiyə qıymaz ər kişi,
Tay deyil, arvada şiri-nər kişi".
Bir sərhəng vardı ki, nəsli çox ulu,
Şir kimi acıqlı, qurdtək qorxulu.
Şah onu çağırdı yanına xəlvət,
Dedi ki: "Fitnəni apar və məhv et.
Dövlət sarayında o bir fitnədir,
Fitnə ölməlidir, ağıl hökm edir".
Kənizlə bərabər yola düzəldi,
Ədalətli sərhəng evinə gəldi.
Şam kimi başını o gözəl qızın
Ayırmaq istədi, sərhəng ansızın.
Dilbər gözündə yaş dedi: "Bu əməl
Fayda verməz sənə, ondan götür əl.
Gəl bir günahsıza zərbələr çalma!
Nahaq qan tökməyi boynuna alma!
Şaha munis mənəm, həmsöhbət mənəm,
Kənizlər içində xoşsifət mənəm.
Mənəm yoldaş ona, hər yana getsə,
Ya məclis düzəltsə, ya şikar etsə.
Məni ərköyünlük çıxartdı yoldan,
Deyim doğrusunu, azdırdı şeytan.
Şah öldür söyləmiş, göstərib səbat,
Bir qədər səbr eylə, sən onu aldat.
Söylə ki, Fitnəni öldürdüm. Hərgah
Verilən xəbərdən sevinərsə şah,
Öldür, qanım sənə qoy olsun halal.
Yox, şahı bürüsə bir dərin məlal,
Onda qaldığımçın mən sağ-salamat,
Şahın qəzəbindən taparsan nicat.
Rəvamı azad sərv yıxılsın yerə?
Heç nə olmasam da, yenə bir kərə
Bir əvəz verərəm", - deyib əlbəəl,
Qoydu qarşısına yeddi parça ləl.
Hər biri bir böyük ölkənin varı,
Gəlirdə keçməzdi ümman onları.
Qızın tədbirinə xoş üzlə baxan
Sərhəng öldürməyib keçdi qanından.
Söylədi: "Amandır, bu sirri saçma,
Adam olan yerdə şahdan söz açma.
Soruşsalar de ki, xidmətçiyəm mən,
Düzələr dalısı, arxayın ol sən.

Taleyin yar olsa, bil, budur sözüm:
Bütün çarələri taparam özüm".
Belə bir əhd ilə sözləri bitdi,
Bunun zülmü, onun zülməti getdi.
Bir gün sərhəng şahın imarətinə
Getdi. Şah sordu ki: "Nə oldu Fitnə?"
Söylədi ki: "Ayı uddu əjdaha,
Etdim göz yaşını ona qanbaha".
Doldu tacidarın gözləri yaşdan,
Qurtardı sərhəngin canı təlaşdan.
Bir kənd vardı, elin gözündən uzaq,
Sərhəng eyləmişdi oranı yaylaq.
Göyə baş qaldırmış bir köşkü vardı,
Orda göy dəniztək dalğalanardı.
Orada, fələyin asimanında,
O altmışpilləli öz eyvanında
Fitnəyə yer verdi, aldı otağa;
Əziz yer verilər əziz qonağa.
İki gün keçməmiş bir gözəl inək
Gətirdi dünyaya bir buzov - qəşəng.
Alardı buzovu o gündən bəri
Hər gün ağuşuna o göyçək pəri.
Ayağını sıxıb döşünə sarı,
Çıxardı pilləni tək-tək yuxarı,
Günəş Surda olar bahar zamanı,
Suru dolandıran ay varmı, hanı[147]?
O ceyran yerişli, o gümüş bədən,
Qaldırardı dama, buzovu yerdən.
Dönmədi bir gün də öz qərarından,
Hər işi bacarar işlək bir insan.
Buzov iriləşib yaşına doldu,
Gəldi altı illik bir öküz oldu.
Hər gün sənət oldu o güləndama
Çıxarmaq öküzü tövlədən dama.
Eylədi belədə bu işdə adət,
Yükündən görmədi zərrə əziyyət.
Böyüyən öküzün artdıqca əti,
Qızın da artırdı gücü, qüvvəti.
Bir gün oturmuşdu dargöz Fitnə tək,
Ürəyində qüssə, önündə sərhəng.
Hurisifət gözəl, o nazlı canan
cavahir daşıyan qulaqlarından
Dörd gövhər açaraq dedi: "Bu saat
Durma, get bazara, bunları tez sat.
Buxur al, qoyun al, təzə gülab al,
Nə qədər istəsən noğul, şərab al!
Məclis düzəlt gözəl behişt bağından,
Şah qayıdan zaman öz ovlağından
Zəfərtək əl üzmə üzəngisindən,
Yalvarıb-yaxarıb onu saxla sən.
Bəhramın çox gözəl xasiyyəti var,
İncədən incə bir təbiəti var.
Ürəyi yumşalar bu yalvarışdan,
Ucaldar başını böyük hökmüran.

Ulduza taxt olan bu gözəl evdə
Şahı qonaq edək şərbətə, südə.
Bu faydalı işə eyləsək əlac,
Tapacaq o zaman işimiz rəvac..."
Sərhəng götürmədi o yaqutları,
Vardı aşıb-daşan dövləti, varı.
Gizlin xəznəsindən pul aldı, getdi,
Nə lazım məclisə, tədarük etdi:
Şaha layiq yemək, quzu, quş, balıq,
Hər cür içkilərlə doldu ortalıq.
Məclis yaraşığı ətir, mey, məzə
Gəldi ortalığa; xoş gələn gözə
Noğul, çiçək hazır eyləyib tamam,
Gözlədilər çıxsın şikara Bəhram.

## BƏHRAMIN OVLAQDAN SƏRHƏNGƏ QONAQ GETMƏSİ

Taxtından enərək bir gözəl sabah
Mindi öz atına ovlaq deyib şah.
Ovladı, ovladı, gəzdi, dolandı,
Ancaq gör bir necə özü ovlandı.
Şah ov xəyalıyla düşərkən yola,
Gördü qarşısında uca bir qala,
Ətrafı yamyaşıl, güldü, çiçəkdi,
Kölgəli, bitkili, gözəl-göyçəkdi.
Soruşdu: "Kimindir bu gözəl diyar?
Kimdir bu eyvana sahib-ixtiyar?"
Şahın yanındaydı sərhəngin özü,
Xosrovdan eşidib belə bir sözü,
Yer öpdü, Bəhrama təzim eylədi:
- Sən qullar bəsləyən şahsan, - söylədi, -
Hədiyyə etdiyin bu kənd mənimdir,
Ona piyaləndən saçılmış ətir.
O yeri xoşlasa, bəyənsə hərgah,
Bu alçaq qulunu ucaldacaq şah.
Özütək sadədil xasiyyətiylə,
Səadət baxş edən xoş niyyətiylə
Girsə şah qapımdan, ucalar başım,
Qalxıb fələklərdən öc alar başım.
Siz mənə etdiniz ali iltifat,
Bir eyvan verdiniz ömrümə sovqat.
Toxunur təpəsi Aya, göylərə,
Dövrəsi bağçadır baxsan hər yerə.
Qoynu ətirsaçan çiçək doludur,
Rövzə şagirdidir, cənnət quludur.
Nuş etsə orada şahım mey əgər,
Qapımı öpəcək min nurlu ülkər.
Tozu ətir saçar evimə, dərhal
Öküzüm süd verər, milçəyim də bal.
Gördü sərhəngdəki sədaqəti şah,
Qəbul etdi haman bu dəvəti şah.
Söylədi: "Razıyam, yeri, hazırlaş!
Ovdan qayıdaram buraya birbaş".





Sərhəng öpdü yeri və təzim etdi,
Evi səliqəyə salmağa getdi.
Bəzədi fərşlərlə eyvanı sərhəng,
cənnətə döndərib verdi min ahəng.
Elə ki, Bəhram şah geriyə döndü,
Çətrinin şahini göydə göründü,
Sərhəng ipəklərin kəsib başından,
Rum parçalarından, Çin qumaşından
Döşədi atının keçdiyi yerə,
Gövhər saçılmışdı ipək fərşlərə.
Şah altmışpilləli uca eyvana
Yetişib çıxaraq baxdı hər yana.
Gördü eyvan göyə doğru getmişdir,
Xavərnəqin hüsnü burda bitmişdir.
Hər halı göylərə olmuş yaraşıq,
Alır camalından fələklər işıq...
Sərhəng ortalığa gülab gətirdi,
Hər cür xörək verdi, şərab gətirdi.
Gözəl yeməklərdən Bəhram yedi hey,
keyf etdi, şadlıqla içdi gözəl mey.
Elə ki, bir neçə piyalə sundu,
Alın güllərinə incə şeh qondu,
Söylədi: "Ey qızıl eyvanlı, sənin
Otağın gözəldir, xoşdur çəmənin,
Ucadır bu altmışpilləli eyvan,
Yaqin ki, başına onun asiman
Kəmənd atıb çıxar, belə bir uca
Eyvana, altmışı keçən ay qoca,
Necə dırmanırsan? Et məni agah".
O dedi: "Qarısın dünyamızca şah,
Abi-kövsər olsun nuş etdiyi mey,
Sunsun badəsini xoş hurilər hey,
Mən kişiyəm, buna nə lazım heyrət,
Məni yormamışdır yüksək imarət.
Bir ay parçasıtək qız var ki, lətif,
Şahın əynindəki xəz kimi zərif,
Dağ kimi öküzü alıb gətirir,
Burada, bu damda ona yem verir.
Bu altmışpilləli uca eyvanı
Bimənfəsə çıxır, yorulmur canı.
Öküz, öküz deyil, bir fildir, düzü,
Bircə mil də çəkməz piyini özü,
And olsun Allaha, belə yekə, saz
Öküzü qaldıran əsgər tapılmaz.
Təəccüb deyilmi ki, onu bir qız
Bu uca eyvana qaldırır yalnız?"
Sərhəng sözlərini axıra vurdu,
Şah öz barmağını dişlədi, durdu.
Dedi: "Mümkün olan bir iş deyil bu,
Olsa ya sehirdir, ya da ki cadu,
Qabaqca görməsə əgər öz gözüm,
İnana bilmərəm, budur son sözüm".
Əlavə etdi ki: "Sözlərini tut,
Elə düzlüyünü bu işin sübut!"

Sərhəng qulaq asıb şirə, tez getdi,
Öküz daşıyanı xəbərdar etdi.
Gümüş bədənli qız gördü məqamdır,
Hər işi sərrastdır, hər işi tamdır,
Bəzəndi, düzəndi, döndü gəlinə,
Nərgiz xumarlığı verdi gülünə,
Aya təzə müşkü haşiyə etdi,
Sehri qəmzəsinə yaman öyrətdi,
Şətarət sürməsi çəkdi gözünə,
Nazdan pərdə saldı kinli üzünə.
Sərvi döndü qızıl bir piyaləyə,
Xizran boyu verdi gözəl laləyə[148].
Düzdü gümüş sərvə, dürlər qəşəng,
Ayına bağladı Pərvindən çələng.
Öz yaqut ağzını bu şux gülbədən
Aşiq almasıtək dürlə böldü tən.
Çiynində saçları saçırdı ənbər,
Buxağı altına düzdü incilər.
Filin sümüyütək incə və gözəl,
Bir taxtın sahibi ondan çəkməz əl.
Zənci saçlar qara, hindu xal təzə,
Sanki vuruşmağa durub üz-üzə.
Əqiq dodaqlarda qara xal durmuş,
Zənci öz möhrünü xurmaya vurmuş.
Daş-qaşlı bir örtük başında, guya
Ulduzlardan niqab çəkilmiş aya.
Nurlu sırğaları parlar sanki tac,
Aşiq bazarını eyləmiş rəvac.
Bürünüb aysifət kafur rəng tülə,
Bənzərdi yasəmən içində gülə.
İkihəftəlik ay, o nazlı mələk
Verdi vücuduna yeddi rəng bəzək[149].
Getdi öküz tərəf bədirlənmiş ay,
Sur bürcüdür verən aya qiymət, say.
Baş əyib qaldırdı göyə onu düz,
Əcəb gövhər tapdı, bir baxın, öküz.
Qalxdı pillələri o bir-bir dama,
Gəlib taxt önündə baxdı Bəhrama.
Öküzü qoymadı qız üzərindən,
Şir görüb öküzü qalxdı yerindən.
Təəccüb eyləyib, heyran qaldı şah,
Qız öz kəniziydi, olmadı agah.
Ay, öküzü qoyub boynundan yerə,
Dedi nazlanaraq qəhrəman şirə:
"Öküzü qarşına yalnız gətirdim,
Öz gücümcə sənə peşkəş yetirdim.
Dünyada bir nəfər olarmı varsın
Öküzü aşağı alsın, aparsın?"
Şah dedi: "Gücündən deyil bu, əlbət,
Əvvəldən etmisən bu işə adət.
Vərdiş eyləmisən hər il başabaş,
Öyrənmisən buna sən yavaş-yavaş.
Ölçüb çıxarmısan belə sınaqdan,
Odur ki, olmursan əldən-ayaqdan".





Gümüşbədən Fitnə baş əydi şaha,
Layiqincə ona eylədi dua,
Ədəblə söylədi: "Qəribədir çox!
Öküz adətlədir, gur vurmaqsa yox?
Adətlə iş görür, öküz qaldıran,
Bu başqa şey deyil, sadə bir idman.
Səbəb nədir kiçik gur vuranda sən
Olmasın bir nəfər "adətdir" deyən?"
Şah bildi Fitnədir onu danlayan,
Hinditək üstünə atıldı haman[150].
Yanaşıb üzündən yaşmağı açdı,
Aya göz yaşından mirvari saçdı.
Üzr istəyib, qucdu o şümşad boyu,
Qız qoşa nərgizdən tökdü gül suyu.
Yadlardan etdilər otağı xəlvət,
Başlanıldı giley, uzun şikayət.
Şah dedi: "Ev olmuş bir zindan sənə,
Yalvarıram indi peşiman sənə.
Azğınlıqdan bir od yandırdımsa da,
Sən öz halındasan, mən yandım oda".
Xəlvət olcaq ara fitnəkarlardan,
Oturtdu yanında Fitnəni haman.
Kəniz dil açaraq dedi: "Tacidar,
Fitnəni bağlayan gözəl şəhriyar!
Ey öz hicranıyla məni öldürən,
Şirin vüsalıyla sonra güldürən,
Qəmin ürəyimdə əridib yağı,
Yerindən oynadar qəm, kədər dağı.
Eşqim az qaldı ki, ala canımı,
Yanar atəşlərə sala canımı,
O gün ov zamanı, şah, kaman çəkdin,
Gurun dırnağını başına tikdin.
Belə hünər üçün verib əl-ələ
Yer deyil, əlindən öpdü göy belə.
Tərif eyləmədim bu hünəri mən,
Qovdum beləliklə bədnəzəri mən.
Çünki bəyənilən şeyə göz dəyər,
Pis gözdən insana ziyan tez dəyər.
Fələyin əjdəri ortaya ancaq
Məhəbbət yerinə saldı bir nifaq".
Şahı tutdu bu söz yaman yerində,
Saxladı bu sözü şah can yerində.
Söylədi: "Səndədir düzlük, sədaqət,
Vəfana çox şeydir dəlil, şəhadət.
Sənsən mehribanlıq eyləyən əvvəl,
İndi üzr istəyən xoşsifət gözəl.
Olsun o gövhərə min afərinlər
Ki, var xilqətində belə bir hünər.
Sərhəng olmasaydı əgər pasiban,
Daşla qınlardı bu gövhər inan".
Çağırıb sərhəngi o, xoşdil etdi,
Qolunu boynuna həmail etdi.
Verdi böyüklərə yaraşan peşkəş,
Bir dürr əvəzinə min dürr etdi bəxş.
Olsun töhfə deyib, xeyli şey verdi,
Şərəflə, izzətlə mülki-Rey verdi.
Şəhərə qayıtdı, başladı büsat,
Məclislər quruldu, verildi sovqat.
Möbidlər çağrılıb gəldi saraya,
Şah kəbin kəsdirdi o dilbər aya.
Nəşəli işrətə başladı onlar,
Keçdi bu tövrlə uzun zamanlar.

### ÇİN XAQANININ QOŞUN ÇƏKMƏSİ VƏ BƏHRAM-GURUN ZƏFƏR QAZANMASI

Bəhramın şöhrəti düşdü dünyaya,
Balıqdan başlayıb yetişdi aya[151].
Böyüklərin qəlbi qüvvətə mindi,
Adlılar ucaldı, şöhrətə mindi.
Künc-bucaqda öldü sarıqulaqlar,
Onları qara su, bax, belə udar[152].
Nərsi adlı qoca hamıya başdı,
Şahın qardaşıyla o bir adaşdı.
Bilirdi hər işin nəhayətini,
Tanıtmış ağlını, kəramətini,
Daranın nəslinə nisbəti vardı,
Əsli, nəcabəti çox aşikardı.
Şah daim onunla olur, gəzirdi,
O şaha yoldaşdı, həm də vəzirdi.
Ona olmuş idi qismət üç övlad,
Hərəsi bir zəka sahibi, ustad.
Böyük oğlu gözəl bir fərzənd idi,
El bilir adını - Zəravənd idi.
Şah ona verərək birə yüz qiymət,
Baş möbid etmişdi göstərib hümmət.
İncə düşünəndi, yol tanıyandı,
Nəfsini saxlayan, kamil insandı.
İkinci, ellərdə məşhur bir əyan,
Yollardan o idi vergi, bac alan.
Şah baxıb ondakı düzgün qələmə,
Hakim qıldı onu mülki-Əcəmə.
Üçüncü, qoşunla məşğul olardı,
Şahın nayibiydi, hörməti vardı.
Tapşırdı işləri onlara Bəhram,
Onlar çəkirdilər işlərə əncam.
Bəhram keyf edərdi gəlib tüğyana,
Məmurlar salırdı işi sahmana.
İşlər dövr edirdi dəyirmanvarı,
Paylanırdı tamam topladıqları.
Yayıldı aləmə bir gün bu xəbər,
Düşdü yonmaq üçün işə kərkilər.
Hamı: - Sərxoş olmuş, - dedi Bəhrama,
- Dini meyə satıb, şəmşiri cama.
Əyyaş hərriflərlə olmuş həmməslək,
İçdiyi şərabdır, məhsulu külək.
Qıcıdı dişini yerindən duran
Ki, olsun dünyaya sahib, hökmüran.

Məğlub eyləməyə bu hökmüranı
Çindən yola düşdü Çinin xaqanı.
Aldı öz yanına üç yüz min nəfər
Ox atan, hər biri bir qızmış əjdər.
Keçdi Xorasana ceyhun çayından,
Qopardı bir yaman vəlvələ, tufan.
Bu çalıb-çapmaqdan xəbər tutan şah
Güvənə bilmədi, qoşuna, eyvah!
Nazla bəslənəli, nazla gəzəli
Hamının davadan soyumuş əli.
Gördü sərkərdələr sözlə bir deyil,
Şaha sədaqətdə həmfikir deyil.
Hər biri xəyanət eyləyib ona,
Verirlər işindən xəbər xaqana.
Pis niyyət bəsləyib padşahlarına,
Həyan olmuş hərə mülku varına.
Demişlər xaqana: "Səninlə varıq,
Keçdiyin yollara torpaq olarıq.
Sənsən dünya şahı, xaqan, buyur, gəl,
Bəhramdan şah olmaz, zərbəni vur, gəl.
İstəsən, can verər əlimizdə şah,
Əsir edək onu, istəsən hərgah".
Belə məktubları yazan katiblər
Gizlincə Bəhrama verdilər xəbər.
Şah bilcək onların bu niyyətini,
Verdi nayiblərə məmləkətini.
Bu silahla vuruş gücdür, dərk etdi,
Gözdən nihan oldu, xəlvətə getdi.
Dünya bu tədbirdən həmən söz açdı,
Dedilər: "Bəhram Gur gizləndi, qaçdı.
Olmadı xaqanla hərbə cürəti,
Qaçırtdı Bəhramı onun qüvvəti".
Xaqanı eylədi bir qasid agah
Ki, taxtü-tacından əl üzmüş padşah.
Taxta, həm kəmərə səndə yüz baxt var,
Gəl, səni gözləyən tac ilə taxt var.
Tutdu xəbər həmən bu işdən xaqan
Ki, didərgin olub Bəhram dünyadan.
Nə qılınc qaldırdı, nə qılınc vurdu,
Şərab məclisinə gəldi, oturdu.
Düşməni saymadı, meyə əl atdı,
Bir vaxt etmədiyi şeyə əl atdı.
Xoşuna gəlməyən işləri xaqan
İndi özü tutdu, sevindi düşmən.
Bəhram gecə-gündüz ayaqda oldu,
Sayıq adamları soraqda oldu.
Çinin xaqanından tuturdu xəbər,
Məlumat gətirdi şaha bir nəfər
Ki, səndən arxayın o çinli xaqan,
Keyf ilə, naz ilə sürməkdə dövran.
Bəhramın açıldı ağ günə baxtı,
Baxdı dövrəsinə, qoşuna baxdı.
Yalnız üç yüz nəfər əsgəri vardı,
Hər biri sınanmış qoç davakardı.

Bunlar suda timsah, yerdə əjdərdi,
Bir nar danəsinə hamı bənzərdi.
Üç yüz olsalar da igidlər, ancaq
Onları yaşadan bir hiss, bir otaq[153].
Yatmış düşmən ilə oyuna girdi,
Şah gizləyib zəri, başladı nərdi.
Od istəyən düşmən tüstüyə çatdı,
Aldatdı yağını Bəhram, aldatdı.
Yaxşı yaraşdırdı oxa nişanı,
Çünki tanıyırdı qanlı düşmanı.
Bir gecə xaqana zərbələr vurdu,
Tozunu yeddinci göyə sovurdu.
Seçdi bir gecə ki, qaradan qara,
Düşmənin gözündə döndü şahmara.
Sanki götürülüb ortadan çıraq,
Qarğa qanadından qaraydı çöl, dağ.
Sanki yüz min sərxoş zənci hər yana
Qılınc çəkib çapır, düşüb həycana.
Basqından qorxanlar yaman çaşdılar,
Bir şey görmədilər, hey göz açdılar.
Qəlbi işıq, əyni zil qara ipək,
Qır suvanmış küpə bənzərdi fələk.
Gecə sanki qara bir ənbərdi xam,
Xaqanla Bəhramtək vuruşdu Bəhram[154]
Etdi çinlilərə hücum igid şah,
Gah qılınc işlətdi, ox yağdırdı gah.
Hər kimi dəldisə şahın peykanı,
Oxdan azad oldu dəyənin canı[155].
Şahın qart daş dələn iti oxundan
Gözləri yumulur, yatırdı düşman.
Yarasını oxsuz, oxu yarasız
Görənlər qaldılar çöldə çarasız.
Dedilər: "Əcəba, bu necə işdir?
Hələ bu dünyada görünməmişdir,
Nə yarasız bir ox, nə oxsuz yara".
Bir ağaclıq yoldan o tacidara
Yanaşa bilməyən vahimə sezdi,
Bəhram bulud kimi hər yanı gəzdi.
Dağı çöl, qaldırıb çölü etdi dağ,
Tökülən qanlardan yumşaldı torpaq.
Hər kimə ox vurdu, o vurulmuşu
Dərhal tərk eylədi əziz can quşu.
Günəş çəkən zaman yalın şəmşiri
Qanlı teşt qızartdı sübh çağı yeri.
Deyin teştlə qılınc qansızmı olar?
Qan var o yerdə ki, teşt var, qılınc var?
Meyitlər doldurdu tamam dağ-daşı,
Üzdü qan arxında qanlının başı.
O qədər doğradı, o qədər vurdu,
Qorxudan ödünü Zöhrə qusurdu[156].
Nizə öz dilini verdi şəmşirə,
Biçib əjdahanı o sərsin yerə.
Atılan ilandı meydana hər ox,
Atılan ilanlar dəhşətlidir çox.





Bəhram şah ortada hədəf seçirdi,
Atdığı ox tükü yarıb keçirdi.
Qılınc endirsəydi o, süvariya,
Xiyartək bölərdi onu yarıya.
Əgər işlətsəydi qılıncı yandan,
Belindən bölünüb düşərdi düşman.
Qılıncı beləydi, peykanı belə,
Darmadağın oldu düşmanı belə.
Çıxalı qılınclar ağır qınından,
Şahın nərəsindən və basqınından
O türk ordusunun artdı dəhşəti,
Qılıncdan küt oldu, ayaqdan iti.
Bəhram qılıncını çaldı, çaldı hey,
Türklər ruhdan düşdü, bihal qaldı hey.
Zəfərdən əlamət görüncə padşah
Gah qılınc oynatdı, ox yağdırdı gah.
Qılıncı düşməni etdi tarümar,
Düşmən bulud oldu, şah isə ruzgar.
Orduya səs saldı hünərli Bəhram,
Dedi: "Üstün gələk, məqamdır, məqam.
Düşmana baş vuraq, gəlin, dərindən,
Oynasın sarsılıb mərkəz yerindən".
Altlarında aslan, əllərdə əjdər[157],
Alıcı quş kimi həmlə etdilər.
Sağ cinah çəkildi, sol cinah qaçdı,
Ordu mərkəzinə Bəhram yol açdı.
Zəfərdən ruhlanıb əzdi xaqanı,
Mərkəzi dağıdıb, qırdı düşmanı.
Torpağın sayından çoxsa da ordu,
Öz-özünü qırıb həlak olurdu,
O qara şirlərin pəncəsi gəzdi,
Küt qılıncların beynini əzdi.
Zöhhak ilanına ox dönüb getdi,
Süvari yıxıldı, at gözdən itdi.
Girincə meydana sıyrıldı xəncər,
Düşmən toz qaldırdı ceyhuna qədər.
Şah o qədər tutdu, qənimət aldı,
Sayanlar yoruldu, tavansız qaldı.
Dost oldu qələbə o şiri-nərə,
Asayiş yaratdı; dönüb şəhərə,
Tacidar təzədən taxta oturdu,
Dünyanı eylədi səadət yurdu.
Gəlib səcdəsinə hamı əydi baş,
Qalibə afərin etdilər şabaş.
Gəldi xanəndələr xoş ahəng ilə,
Pəhləvi oxudu gözəl çəng ilə.
Ərəb şairləri gəlib coşdular,
Rübab səsləndirib, şeir qoşdular,
Şeirə qiymət verən baxş etdi sovqat,
Verdi xəznəsindən bol cavahirat,
Min dəvə yükünü ataşgədəyə
Saldırdı tez yola, vəqfdir deyə.
Ataşgahın bütün möbidlərinə
Qızıl, dürr payladı, doymadı yenə.

Verdi xəznəsindən saysız gümüş, zər,
Qalmadı ölkədə yoxsul bir nəfər.

### BƏHRAMIN ORDU ƏMİRLƏRİNƏ AÇIQLANMASI

Günlərin birində mübarək baxtı
Sayəsində Bəhram bəzədi taxtı.
Ölkə başçıları, şahlar, soltanlar,
Taxtü-tac bəxş edən, hər nə qədər var,
Gəlib taxt önündə səf-səf durdular,
Ayla ulduz kimi məclis qurdular.
Şah qılınctək kəskin sözlər söylədi:
- Ey əmirlər, - deyə, xitab eylədi, -
- Ordu çıxmalıdır sülhdən, savaşdan,
Bunlarsız nə fərqi bir quru daşdan?
Hansınız qorxusuz girdi meydana,
Vuruşdu qoç kimi mərdi-mərdana?
Mən ki bəyənmişəm sizi dunyada,
Deyin, göründünüz hansı davada?
Sizin aranızda cəsur ər hanı?
İş görən qəhrəman, şiri-nər hanı?
Hanı döyüş günü coşub, çağlayan?
Qılınc qüvvətiylə yollar bağlayan?
Gim var meydan gəzib, nərələr saçsın,
Bir düşmən bağlayıb, bir ölkə açsın?
"İrəc nəsəbliyəm" söyləyir biri,
"Araşi güclüyəm" deyir digəri.
Biri: "Rüstəm mənəm" söyləyib durur,
Qalxıb bir başqası Givdən dəm vurur[158]
Birisi deyir ki: "Qoca şir mənəm",
Birisi söyləyir: "Ləc babir mənəm".
Görmədim sizlərdən elə bir kişi,
Döyüşkən, yerində görən hər işi.
Qəribə budur ki, hər yetən avam
Söyləyir: "Heyf ola, yatıbdır Bəhram.
Mey içir, dünyanı yadına salmaz,
Belə şahdan adam heç razı qalmaz".
O qədər içmərəm meyi dünyada,
Unudam cahanı, salmayam yada.
Bir hovuz mey içsəm yenə də, ancaq
Qılıncımdan deyil qan arxı uzaq.
Buludam, yağdırram şimşək xıncaxınc,
Bir əlimdə şərab, birində qılınc,
Mey günü məclisə yaraşıq mənəm,
Lazım olan dəmdə qılınc çəkənəm.
Gözləri yumulu gördün dovşanı?
O, yatmış olsa da görər düşmanı!
Gülüşüm, məstliyim dəhşətlidir, bil!
Gülümsəyən şirəm, sərxoş filəm, fil!
Şirlər gülən zaman axıdar al-qan,
Filin sərxoşundan kimdir qaçmayan?
Əbləhlər içərkən olar bixəbər,
Huşyar olan meyi başqa cür içər.

O kəs ki, ağılca deyildir alçaq,
Nə qədər içsə də, məst olmaz ancaq.
Qeysərin tacını şərab içərkən
Ayaqlar altına saldıraram mən.
Badədən özümə bülöv çəkərəm,
Düşmənin başına qətrə tökərəm.
Nə düşünür məni istəyən dostlar,
Göyün ulduzları durmuşdur bekar?
Mən sərxoş yatsam da, olmasam ayıq,
Bəxtimin ulduzu sayıqdır, sayıq.
Məst olub yuxuya getdimsə də mən,
Xaqan yuxusunu aldım əlindən.
Mən ki, belə əyri bir yolla getdim,
Qulduru gör necə tarümar etdim.
O köpəkdir, gecə qorxudan ular,
Yatmaz sübhə kimi, narahat olar.
Əjdaha kahada yatarsa şirin,
Dəyməz qapısına ayağı şirin..."
Şah gözəl dastanı qurtardı belə,
Döndü kişilərin üzü al gülə.
Səcdəyə düşməyi lazım gördülər,
Şaha acizanə cavab verdilər:
"Hər kəlmən bizimçin güldür, çiçəkdir,
Ağlı olanlara bərdir-bəzəkdir.
Olmuş canımıza tilsim sözlərin,
Asılmış qulaqdan bir sırğa təkin.
Tacı şah başına qoyar Yaradan,
Xalqın çalışması hədərdir, inan,
Çoxları başçılıq gəlib etdilər,
Sənin mərtəbənə sanma yetdilər.
Hamı başdan oldu, başçı olmadı,
Yalnız sənə qaldı şəhriyar adı,
Şahdan biz görəni, bu məlum işdir,
Nə ağ görmüş, nə də qara görmüşdür[159]
Sən div bağlayaraq, əjdəri yaxdın,
Fil vurdun, kərgədan nizəyə taxdın.
Şahdır şirlər əzən, gurlar ovlayan,
Divlə qulyabanı - oxuna nişan.
Nə zaman çıxarsa öz ovlağına,
Alar gur boynunu şah qucağına.
Gah vurar xalından qızmış pələngi,
Dişini çıxardar, yıxar nəhəngi.
Gah çəkər əlindən hindlilər min ah,
Hindi qılınc çəkər çinlilərə gah.
Gah gedib fəğfurdan Bəhram bac alar,
Gah da Rum şahından bol xərac alar.
Çoxları yıxmışlar pələngi, şiri,
Şir beyni çıxarmış qızıb hər biri.
Üç yüz əsgəriylə bu qoç şiri-nər
Üç yüz min düşmənə vurdu zərbələr.
Nə qədər dünyaya şah gəlib, gedib,
Bəllidir, necə kin, məhəbbət edib.
Onlardan hansı şah qazanmışsa ad,
Qoşuna, möhlətə etmiş istinad.

Bir neçə nəfərlə bu qızğın işi
Görər Bəhram kimi hansı bir kişi?
Vurulsa hesabı tac geyənlərin,
Bir saydır Bəhrama layiq, birə min!
Tapılar hər kəsdə yalnız bir nişan,
Bəhramdan əlamət bu geniş cahan.
Düşmənin üstünə cumsa şiri-nər,
Lay qapılar kimi onu tən bölər.
Oxunu sancarsa əgər sərt daşa,
Daş dönər torpağa, dönər xaşxaşa.
Zəhər saçan oxu ölkəyə dərman,
Əjdər cilovuyla tutar min ilan,
Hər kim zidd gedərsə ulu Bəhrama,
Zəmanə çevirər əriyən şama.
Onunla qorxmasa hər kim savaşdan,
Deməк, qan qoxusu gəlir o başdan.
Şahın sərxoşluğu oyaqlıq demək,
Yatışı yuxu yox, sayıqlıq demək.
Şərabla keçərsə əgər zamanı,
Özü yox, keflənər yalnız düşmanı.
Hamıdan kamildir, əhli-ürfandır,
Yaxşını, yamanı şah bacarandır.
Mahir iş biləndir geniş dünyada,
Möhtac deyil əsla özgəyə, yada.
Göylərin altında durduqca cahan
Hökmünə baş əysin sonsuz asiman.
Sarayına zinət ədalət olsun,
Tacında yurd salan səadət olsun.
Torpağa pənahdır onun sayəsi,
Taxtının ucadır göydən payəsi".
Kamal sahibləri belə söz açdı,
Yaqut qarşısında kəhrəba saçdı.
Qalxıb içlərindən şahzadə Neman
Məclisə təriflər eylədi bəyan.
Dedi: "Şahın taxtı çatdığı bir yer
Balıq belə olsa aya yetişər.[160]
Şah başında tacı əyri, düz sayan,
Göstərin, varmıdır elə bir insan?
Sənin ki, başına tac qoymuş Allah,
Görüm olsun tacın əbədi, ey şah!
Bizlər ki, qapında müti qullarıq,
Şahlıq rütbəsini sayəndə tapdıq.
Var-yoxumuz sənin, başımız sənin,
Qurumuz sənindir, yaşımız sənin.
Əcəm, ərəb durur əmrində hər an,
Bir işarə versən keçər başından.
Vardır məharətim, uzun bir müddət
Şahın qapısında eylərəm xidmət.
Sənin dərgahında şöhrətə yetdim,
Nemətə yetişdim, dövlətə yetdim.
Üzrüm qəbul olsa yanında hərgah,
Dönərəm evimə, izn versə şah.
Bir az dincələrəm yol zəhmətindən,
Yenə əmr eyləsə qayıdaram mən.





Yox, razı olmasa nə qədər varam,
Şahın nökəriyəm, itaətkaram".
Şah dedi: "Xəznəni xəznədar açsın,
Bacardıqca əli cavahir saçsın.
Misir, Məğrib, Ümman məhsulu - nə var,
Durmasın, gətirsin, gəlsin xəznədar".
Yükçülər gətirdi tökdü ortaya,
Yük yükün üstündən vuruldu taya;
Xalvar-xalvar qızıl, müşkü müşk üstə,
Qullar, qaravaşlar dəstəbədəstə;
Tərifə sığmayan şahanə mallar,
Bahalı paltarlar, ipəklər, şallar;
Aşan dənizləri, uca qatları,
İranda bəslənən ərəb atları,
Qılınc - Hindustani, geyim - Davudi,
Saxa gəmisinə yer oldu cudi[161].
Olsa da hünərli sərrafın əli,
Saya bilməz idi bu dürrü, ləli.
Bir tac ki, gövhərdən almışdı zinət,
Şüştər gəlirindən üstün bir xələt[162],
Baxdı bu sovqata, sevindi Neman,
Yəmən, Ədən oldu ona ərməğan,
Bəhram şah o qədər verdi ona pay,
Elə bil Zöhrəni yola saldı ay.
Döyüşdən, vuruşdan gələrək cana,
Yenə də işrəti çəkdi meydana.
Hamının işinə eylədi əncam,
Sonra öz işinə başladı Bəhram.

## YEDDİ GÜNBƏDİN TİKİLMƏSİ BƏHRAMIN YEDDİ İQLİMİN QIZINI İSTƏMƏSİ

Əyləndi, başladı keyfə asudə,
Ayağında düşmən, əlində badə.
Usta hekayəti düşdü yadına,
Təriflər yazmışdıq əvvəldən ona.
Saray ki, yurduydu o yeddi yarın,
Sanki Ərtəngiydi yeddi diyarın.
Şahın ürəyinə saldı məhəbbət
Ustanın çəkdiyi o yeddi surət.
Qaynadı yeddi yol, qəlbi duruldu,
Ta ki, yeddi kimya özünün oldu.
Kəyan nəslindəndi o birinci qız,
Atası ölmüşdü, yalnızdı, yalnız!
Min xəznə yolladı o pərizada,
Tapdı gövhərtək gövhər dünyada.
Sonra da xaqana elçi göndərdi,
Bir az qorxu gəldi, ümid də verdi.
Xaqandan qız, xəznə və tac istədi,
Bir də yeddi illik xərac istədi.
O, qızıyla birgə çoxlu şey verdi,
Bol mirvari verdi, gövhər hey verdi.
Bəhram sonra Ruma yönəldi, axdı,
O yurdu ordusu yandırdı-yaxdı.

Qorxub nəfəsini çəkmədi Qeysər,
Üzr ilə qız verdi, üstəlik də zər.
Məğrib padşahına göndərib adam,
Çoxlu xəznə aldı, tac aldı Bəhram.
Onun da qızını aldı, götürdü,
Cəsarətə bax ki, necə iş gördü.
Aldı o sərvi də girib bostana,
Oradan yeridi tez Hindistana.
Racənin gözəli qəlbinə yatdı,
Ağılla, tədbirlə murada çatdı.
Oradan qasidi Xarəzmə keçdi,
Şah üçün gülüzlü bir pəri seçdi.
Slavyan şahına yazdı kağızı,
İstədi ondan da o dilbər qızı.
Yeddi el şahından bu qayda ilə
Bəhram sahib oldu yeddi gözələ.
Daldı işrətlərə, könlü oldu şad,
Həyatdan gəncliyi aldı nəşə, dad.

## BƏHRAMIN QIŞ MƏCLİSİNİN TƏRİFİ VƏ YEDDİ GÜNBƏD TİKDİRİLMƏSİ

Bir gün zəfər çaldı sübhün nur çağı,
Açıqdı, aydındı günün qabağı,
Nura qərq olmuşdu o səhər cahan,
Ah, o gün çıxmasın yaddan heç zaman.
Şah gözəl bir üzə bənzər ziyafət
Verib, aqilləri eylədi dəvət.
Qışın ilk günüydü o səhər, o çağ,
İşə ev yarardı, deyil baxça-bağ.
Bağların sönmüşdü şamı, çırağı,
Tərk edib getmişdi bağbanlar bağı.
Qarğa oğurlayıb bülbül səsini,
Oxurdu "oğru var" nəşidəsini[163].
O hindu cinslidir, bunu yaxşı bil,
Hindlidə oğurluq təəccüb deyil[164].
Səhər nəsiminin mahir nəqqaşı
Suda halqa çəkir hər addım başı.
Sərt soyuq atəşi tabdan salırdı,
Su qılınc, qılınc su şəkli alırdı[165].
Əlində suvanmış ox tutan boran
Olmuşdu göz deşən, çeşmə bağlayan.
Süd ocaq üstündə dönür pendirə,
Şaxta vurur, donur qan birdən-birə.
Həvasil qanadı taxmışdı torpaq,
Fələk sincab, qaqum bürünmüşdü dağ[166].
Girərək pusquya vəhşi heyvanlar
Hər yerdə mal-qara edirdi şikar.
Bitkilər başını çəkib torpağa,
Boyatma qüvvəsi düşüb duzağa[167].
Öz kimyası ilə iki rəng cahan
Daşda od ləlini eyləmiş nihan[168].
Qızılgül kürəni etmişdi otaq,
Hikmət palçığından çəkmişdi suvaq[169]

Büllur bulaqları döydükcə şaxta,
Olur gümüş kimi su laxta-laxta.
Şahın tabxanası belə bir zaman[170],
Dörd fəsli andırır; qalxır otaqdan
Ətirlər bürüyür, basır hər yanı,
Mötədil eyləyir qarlı havanı.
Meyvələr, şərablar edildikcə nuş,
Daim xumarlanır, könül olur xoş.
Səndəl, ud atəşi ucalır göyə,
Tüstüsü hinditək durur səcdəyə.
Alovdur nəşənin, keyfin dayağı,
Zərdüştün qırmızı kükürd ocağı[171],
O, qandır, od kimi gəlir meydana,
Ya da bir ipəkdir batmış al qana.
Fındığa innabı rəngini verir,
civəsini onun ala döndərir.
Qəlbi qopanlmış bir almaydı san,
İçinə dolmuşdu gilələr nardan.
Ya qırla rənglənən xoş kəhrəbaydı,
Ənbər yaşmaqlı bir günəşə taydı.
Bir zülmətdi, sanki nurdan boğulur,
Ya lalə bitirmiş saçlarında hur.
Bir türkdü, rumluydu əsil-nəsəbi,
Hindlilər göz nuru vermiş ləqəbi[172],
Yunisin məşəli, kəlim çırağı,
İsanın bəzmidir, İbrahim bağı[173].
Töküldükcə kömür parçası oda,
Bənzərdi ləkəyə parlaq aynada.
O qara rəng idi, bu əqiqtəhər,
Zülmət içindəki yaquta bənzər.
Nəzər sal gövhəri qızaran közə,
Al, sarı, göy rəngli nur verir gözə[174].
Qığılcımdan qızıl bəzəkləri var,
Qara həmailli gəlinə oxşar.
Zərlə işlənilib gəlin otağı,
Bir tağı ud rəngli, gülnar bir tağı.
Xəzəlin tüstüsü sarı şölələr
İlan altındakı xəznəyə bənzər.
Odun vətənidir, cəhənnəm, cənnət
Ondan işıq alıb, bundan hərarət[175].
O bir cəhənnəmdir atəşpərəstə,
Günahsızlar üçün yoldur behiştə[176].
Zərdüşt "Zəndi" ona nəğmələr saçar,
Muğlar pərvanətək xirqələr açar[177].
Od buzu su eylər, iqtidarı var,
Niyə atəş deyir ona adamlar?
Alabaxta xasdı, hörməti vardı,
Oynar od üstündə, qanad çalardı.
İpək od üstündə verib əl-ələ
Turac ilə kəklik qurmuşdu halə.
Ev nəşəli, sərvin kölgəsi misal,
Şərab qırqovulun qanından da al.
Alabaxta rəngli olan asiman
Tökmüşdü qan yerə alabaxtadan.

Qırmızı şərabla dolu büllur cam
Quru su içində yaş oddu tamam[178].
Yeyir gurgözlülər, içirdi şərab[179],
Çəkilir şişlərə gur budu kabab.
Bəhram Gur öz yaxın dostlarıyla hey
Şahlar qaydasınca nuş edirdi mey.
Şən söhbət, mey-məzə, ürək sevən yar,
Hamı mey içəndi, hamı qəmküsar.
Al şərab, gül şəkər cülüşlər incə,
O məclis qızındı, bişdi deyincə.
Dimaqlar nəğmədən coşdu, çağ oldu,
Könüllər mum kimi yupyumşaq oldu.
Hünər sahibləri söhbət açıb hey,
Danışdı özünə yararlı bir şey.
Söz-sözə bağlandı cavahirmisal,
Belə nitqə gəldi bir sahib kamal:
"Nura qərq eyləyər şahımız yeri,
Əks edər bu qədər incəlikləri.
Çox dünya şahını var görüb gedən,
Olmamış belə bir calal seyr edən.
Mübarək qədəmi, tacı, izzəti
Vermiş ömrümüzə bütün neməti.
cansağlığı da var, əmniyyət də var,
Biz genişlikdəyik, düşmən qəlbi dar.
Bolluq, cansağlığı, bir də əmniyyət;
Başqa hər nə varsa, boş sözdür əlbət.
Mədə dolu olsa, geyim mükəmməl,
Dürr nəyə lazımdır, nəyə gərək ləl?
Bizə ki, sən oldun ulu tacidar,
Demək, hər şeyimiz, hər şeyimiz var.
Dünyada olaydı kaş çarə, dərman,
Dəyməyəydi bizə nəzər heç zaman.
Gərdişi ulduzun, dövrü sipehrin[180],
Kaş hər zaman belə, xoş üz göstərsin.
Çıxmasın şadlığın taleyi izdən,
Bizi ayırmasın bu eyşimizdən.
Olaydı şahımız şad ildən-ilə,
Verilməsin işrət xırmanı yelə.
Şadlıqla dolanıb gəzsin hər yanı,
Layiqdir biz olaq onun qurbanı".
Natiq öz nitqini yetirdi sona,
Sözləri yağ kimi yayıldı cana.
Qışı unutdurdu bu isti sözlər,
Bəyəndi ürəklər, parladı gözlər.
Məclisdə bir kişi vardı azadə,
Alicənab idi, o əsilzadə
Gün kimi parlaqdı, Şidə şöhrəti[181],
Vurardı qaraya, ağa zinəti.
Rəssamdı, mötəbər bir sənətkardı,
Mühəndisdi, böyük hünəri vardı.
Tibb elmi, həndəsə, asiman, nücum,
Şidənin əlində sanki mumdu, mum.
İncə memar idi, bəzək vurandı,
Nəqşlər çəkərək, surət qurandı.





Tişəylə, qələmlə çəkərsə əmək,
Manidən can alar, Fərhaddan ürək.
Ağın şagirdiydi Şidə hər zaman,
O təlim almışdı usta Simnardan.
Simnar Xəvəməqdə çəkəndə əmək,
Şidə eyləmişdi ona çox kömək.
Elə ki, məclisdə şahı gördü şən,
Saçır su dilindən, od ürəyindən,
Yer öpdü, Bəhrama həmən əydi baş,
Oturdu, sözünə başladı yavaş.
Dedi ki: "Qovaram pis gözü, hərgah
Lütf edib icazə versə mənə şah.
Göy ölçmək işində çox pərgaram mən,
Ulduzlar elmindən xəbərdaram mən.
Memaram, bəzərəm bütün dünyanı,
Rəssamam, sənətin məndədir canı,
Göylərdən alaram bir elə nisbət
Ki, dəyməz padşaha xətər, əziyyət.
Torpaq nigarxana durduqca hər an
Qorxu hiss eyləməz kəhkəşanlardan.
Saxlar bina səni əziz can kimi,
Yerə hökm eyləyər asiman kimi.
İş belə göstərir, əmək çəkərəm,
Yeddi ülkər kimi günbəd tikərəm.
Hər günbəd bir rənglə həmahəng olar,
O, yüz bütxanadan gözəl rəng olar.
Şahın gətirdiyi yeddi nazənin
Bayrağını açar yeddi ölkənin.
Hər ölkə göydəki səyyarə sayaq
Nizama, əsasa malik olacaq.
Bəllidir, həftənin nə ki günü var,
Hər ulduza biri aşikar olar.
Yaşasın dünyada, gülsün ömrü çağ,
Hər gün olsun yeri, görüm, bir otaq.
Ev rəngində geysin paltar şahanə,
Evin gözəliylə sunsun peymanə.
Söylədiyim kimi edərsə hərgah,
Böyük şöhrətlərə yetər bizim şah.
Yaşasa beləcə əgər dünyada,
Çatar ömrü boyu hər bir murada".
Şah dedi: "Tutaq ki, etdim belə mən,
Evim zərdən oldu, qapım dəmirdən,
İnsan dedikləri gəlib-gedəndir,
Bu qədər əziyyət, əzab nədəndir?
Deyirsən günbədə bəzək vuraram,
Səyyarə misalı, bir ev quraram.
Havadır, həvəsdir bunlar, bəs hanı
Evlər yaradanın evi, eyvanı?
Hər şeyə deyirəm afərin, əhsən,
Harada axtarım yaradanı mən?
- Yox, - dedi, - səhv dedim mən bu sözləri,
Ulu Tanrımızın bilinməz yeri.
O görünməz gözə heç bir məkanda,
Sitayiş edilir ona hər yanda".

Deyib bu sözləri sakit oldu şah,
coşdu bu arzuyla o qəlbi gümrah.
Gözünün önündə durdu əlbəəl
Simnarın çəkdiyi yeddi şux gözəl.
Qalırdı orada o yeddi pəri,
Hər biri bir elin dürrü, gövhəri.
Şidənin sözündən fikrə getdi şah,
Gizlin hesablardan agahdı, agah.
Ustanın sözünü ancaq kəsmədi,
cavab vermək üçün o tələsmədi.
Keçdi bu söhbətdən bir xeyli müddət,
Bir gün eyləyərək Şidəni dəvət,
Sözünün işini istədi Bəhram,
İşlərə birbəbir eylədi əncam.
Nə gərəksə bütün verdi Şidəyə,
Çalış, xəznə apar, əmək çək deyə.
Günlərin birində böyük sənətkar
Bəhramın əlindən aldı şirin bar[182].
O, ulduz tanıyan, bəxt görən kişi
Vaxt seçdi başlasın mübarək işi.
Seçdi, səadətli bir tale seçdi,
O, yeddi günbədi tikməyə keçdi.
İki il çalışdı, işlətdi sənət,
Bir saray tikdi ki, cənnətdi, cənnət.
Çalışdı, çarpışdı, göstərib hünər,
Yeddi günbəd tikdi - hər yanı gövhər.
Taleyi, görkəmi hər bir günbədin
Parlaq şahidiydi kəsilmiş şərtin.
Günbədi Bəhram şah gəlib gəzərək,
Bağladı binaya məhəbbət, ürək.
Gördü ki, nə edib Neman Simnara
Bir əfsanə kimi düşüb diyara.
Acıyır eşidən, qaralır qanı,
Nifrətlə yad edir zalım Nemanı.
Bəhram, razı qalsın qoy Şidə, deyə,
Amül şəhərini verdi hədiyyə.
Dedi ki: "Səhv etdi əgərçi Neman,
Əziyyət gördüsə sənətkar ondan,
Ədlim üzrxahdır edilmiş zülmə,
Onu həsəd, bunu səxavət bilmə".
Dünyanın belədir hər işi, əlbət,
Biri zərər görər, biri mənfəət,
Bir dost susuz ölər, qəlbi xar gedər,
Başqa bir dost suda boğular gedər.
Hərə öz işinə qalmış xeyli mat,
Susmuş, çarə nədir, belədir həyat.

## YEDDİ GÜNBƏDİN TƏRİFİ VƏ BƏHRAMIN ORADA İŞRƏTƏ DALMASI

Nə zaman Keyqubad taclı, cəsur şah
Keyxosrovluq tacı qaldırdı, nagah
Yerdən bir Bisütun ucaldı göyə,
Fərhadın etdiyi döndü kölgəyə.





O yeddi sütunlu bir Bisütundan
Yeddi günbəd tikdi, sanki asiman.
Göylərlə birləşən imarətdə şah
Gördü ki, fələyi ötmüş bu dərgah.
Şah baxdı hasara, yeddi qülləyə,
Hər qüllə oxşardı bir səyyarəyə.
Ulduzlar tanıyan sənətkar Şidə
Ulduz rəngi vermiş hər bir günbədə.
Keyvan taleyində günbəd ki, vardı,
Qaraya bürünmüş müşkə oxşardı.
O ki, Müştəriylə həmahəng idi,
Bəzəyi, düzəyi, səndəl rəng idi.
O günbəd ki, Mərrix adını aldı,
İncə naxışlıydı, sərasər aldı.
O bürc ki, Günəşdən verirdi xəbər,
Saraltmışdı onu üstündəki zər,
Onu ki, şux etmiş göyün Zöhrəsi,
Ağdı Zöhrə kimi onun çöhrəsi.
Ona ki, Ütarid vermişdi nemət,
Firuzə rəngindən yetmişdi zinət.
O günbəd ki, ona ay yol salardı,
Şahın taleyindən yaşıl çalardı.
Dediyim bəzəkdə qalxdı göylərə,
Oxşayıb yeddisi yeddi ülkərə.
Yeddi el almışdı öz öhdəsinə,
Yeddi şah qızına açmışdı sinə.
Hər qız maraq saldı ev ahənginə,
Əşyanı döndərdi günbəd rənginə,
Belə gündən-günə xoşbəxt olan şah
Hər gündə bir evi etdi qərargah.
Gündə bir gözəllə söhbət edərdi,
Gündə bir günbədə varıb gedərdi.
Gündə bir otaqda o sahibkamal
Məclis düzəldərək qurdu cah-calal.
Harada keyf edib, içib yeyərdi,
Haman ev rəngində paltar geyərdi.
Otağın xanımı vuraraq bəzək,
Bəhramın önündə oturardı tək
Ki, füsun eyləsin şahın könlünə,
Yesin halvasını şah dönə-dönə,
Eylərdi məhəbbət açan söhbəti,
İstərdi qızdıra qızğın şəhvəti.
Belə hasar çəkdi adil hökmüran,
Əcəlsə əlini çəkmədi ondan.
Tərk et, ey Nizami, gəl bu cənnəti
Ki, gülü tikandır, tikanı iti.
Beşgünlük dünyada, gəl düşün bunu,
Gör necə oldu bir Bəhramın sonu.

## YEDDİ GÖZƏLİN YEDDİ HEKAYƏ SÖYLƏMƏSİ BƏHRAMIN ŞƏNBƏ GÜNÜ QARA GÜNBƏDƏ GETMƏSİ VƏ BİRİNCİ İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Elə ki, büsatla coşdu, çağladı,
Yeddi nazəninə könül bağladı,
Şəmmas məbədindən çıxıb kənara,
Abbasilər kimi geyinib qara[183],
Müşki günbəd - deyə yönəldi Bəhram
Ki, hind banusuna yetirsin salam.
Keçirdi gününü orda keyf ilə,
Ud yandırıb ətir gətirdi ələ.
Şahlar qaydasınca, qalxaraq gecə,
Ağ ipək üzünə müşkü səpincə,
Kəşmir biharından, Bəhram Gur - o şir
İstədi nəsimi andıran ətir:
Gövhər sandığından qıfıl açılsın,
İncələrə məxsus inci saçılsın,
Desin bir nağıl ki, sulansın ağız,
Sərxoşu yuxuya aparsın o qız.
O türk gözlü, hindu nəsilli ceyran
Açdı xəznəsini müşkünün haman:
"Şahın beş növbəti, - söylədi gəlin, -
Dörd balışı üstdə ayın səslənsin[184].
Bu dünya durduqca canı sağ olsun,
Başlar kandarında bir torpaq olsun.
Könlündən nə qədər keçsə arzu, kam,
Uğurlu taleyi yetirsin müdam".
Qapandı səcdəyə sevimli birdən,
Sonra ud ləzzəti saçdı şəkərdən.

### HEKAYƏ

Həyadan dikildi yerə gözləri,
Saçdı deyilməmiş bakir sözləri:
- Uşaqdım, kamallı, incə düşünən
Qohumlarımızdan eşitdim ki, mən,
Behişt sarayının xanımlarından
Varmış bir zahidə, lətif bir insan.
O hər ay gələrmiş bizim saraya
Başdan-ayağadək girib qaraya.
Ondan soruşublar: ey gümüş heykəl,
Bu qara geyməyin sirrini aç, gəl.
Kədərmi, qorxumu əzir ruhunu?
Bizə yardım eylə, öyrənək bunu.
Qoy ağarsın qara, gəl, imdada yet,
Ey xeyirxah qadın, bizə yardım et!
Bu qara geydiyin əbəs deyildir,
Aç bu əlaməti, sən bizə bildir.
Qadın doğruluğun minib atını,
Danışdı qaranın əhvalatını,
Dedi ki: - Dinməsəm əl çəkməzsiniz,
Deyim, sözlərimə inansanız siz.

Mən bir kənizəm ki, padşahım filan,
O ölübsə də, mən razıyam ondan.
Bəxtiyar yaşardı şahım cahanda,
Qoyunu saxlardı qurddan amanda.
Çalışıb, qatlaşıb o əzablara,
Zülmlər əlindən geymişdi qara.
Fələk taleyini görüb də bərbad,
Qara geyənlərin şahı vermiş ad.
Onun vardı əvvəl bəzək paltarı,
Bəzən al geyərdi, bəzən də sarı.
Bağ qönçəsi kimi qonaq sevəndi,
Yanağı gül kimi gülürdü, şəndi.
Vardı işrət üçün mehman otağı,
Göydə Süreyyaya dəyərdi tağı.
Süfrələr salmışdı, döşənmiş yerə,
Ədəb öyrətmişdi xidmətçilərə.
Gəlsəydi bir nəfər uzaqdan əgər,
cilov tutub, qonaq eyləyərdilər.
Süfrə salardılar otağa layiq,
Yemək verərdilər qonağa layiq.
Sorardı şah onun hekayətini,
Buraxıb gəldiyi vilayətini.
Qonaq bildiyindən edərdi agah,
Söylədikcə onu dinləyərdi şah.
Ömrü beləliklə keçərdi gözəl,
Əsla götürməzdi əməlindən əl,
Günlərin birində o qaçdı bizdən,
Simürğ quşu kimi yox oldu gözdən.
Xeyli zaman keçdi bu hadisədən,
Ondan tapılmadı bir xəbər verən.
Kömək oldu ona taleyi nagah,
Qayıtdı taxtına yenə bizim şah.
Baxsaydı əynində hər kim paltara
Başdan ayağadək qaraydı, qara.
Şahlıq eylədikcə göstərdi hünər,
Qaralar geyindi duymadan kədər.
Yaşardı zülmətdə həyat suyutək,
Sormadılar: "Nədir bu qara geymək?"
Bir gecə sərf edib mən öz şahıma,
Qulluq eyləyirdim qibləgahıma.
Dizimin üstünə o qoyub ayaq,
Göydən şikayətlə dedi: "Nə sayaq,
Gör, taladı məni uca fələklər,
Başımda oynadı necə kələklər.
İrəm diyarından aldırdı məni,
Qələm qarasına saldırdı məni.
Sormadı bir kimsə: bu zülmət nədir?
Gümüş üzərində qara xətt nədir?"
Düşündüm, demədən şaha sözümü,
Sürtdüm ayağına dərhal üzümü,
Dedim: - Ey dərdlilər halına qalan,
Ey adil şahların yaxşısı olan,
Kimin qüdrəti var külüngü alsın,
Yerdə dura-dura göylərə çalsın,

Gizli sirlərdən özünsən agah,
Bizi xəbərdar et özün də, ey şah.
Məni şad görüncə şahım əlbəəl
Açdı düyünləri, düzdü gövhər, ləl.
Dedi: - Şahlığımda eyləyib adət,
Qonaq saxlamaqdan alardım ləzzət.
Hər kəsi görəndə bundan, gah ondan
Hal-əhval tutardım yaxşı-yamandan.
Bir səhər evimə gəldi bir qərib,
Paltarı qapqara, özü müztərib.
Yeməklər verdirib sordum halını,
Dəvətlə artırdım cah-calalını.
- Ey qərib, - söylədim - de, niyə, nədən
Başdan-ayağadək qara geymisən?
Dedi: - Bu sirdir, soruşma, vaz keç,
Simürğdən olmamış xəbər verən heç.
Söylədim: - Bəhanə gətirmə, danış,
Qaranın sirriylə məni et tanış!185
O dedi: - Gəl, məni üzürlü tut sən,
Deyilməz, bu sirri sorma, unut sən.
Tapılmaz dünyada onu deyənlər,
Ondan xəbər tutar, yalnız geyənlər.
Gizli çox yalvardım, dinmədi mehman,
Mən İraqdan oldum, o Xorasandan.
Yalvardım, yaxardım, yola gəlmədi,
Pərdə açılmadı, iş düzəlmədi.
Arzum yatağını uçurdu, daşdı,
Qonağım utandı, sirrini açdı.
Söylədi: - Çində bir köhnə şəhər var,
Oxşayır behiştə o qədim diyar.
"Bihuşlar şəhri"dir adı o yerin,
Yas evidir qara geyinənlərin.
O yerlilər üzdən qəmərə bənzər,
Bürünmüş qaraya sanki bir qəmər.
Kim o məmləkətə bir gedim deyər,
Gedib çatan kimi qaralar geyər,
Oranın bir belə əlaməti var,
Oxunmamış, qərib hekayəti var.
Ey şahım, başımı vurdursan da sən,
Sirrin dalısını söyləmərəm mən.
Deyib sular kimi çağladı, getdi,
Arzu qapısını bağladı, getdi.
Xəyal dağlarını hey fikrim aşdı,
Bu zaman qonağım tez uzaqlaşdı.
Sirr qaldı sirr kimi, mehman yoxaldı,
Dəlilik qorxusu könlümü aldı.
Nə qədər oldumsa bu işdən agah,
Hər yana piyada sürdümsə də, ah,
Fərzin yolu kəsdi, düşdüm bəlaya,
Kəmənd də çıxartmaz oldu qalaya.
Səbrə, təsəlliyə apardım pənah,
Sakit olmayırdı ürəyim də, ah.
Sordum gizli, aşkar nə qədər, yenə
Tapılmadı verən bir xəbər mənə.





Axırda tərk edib məmləkətimi,
Verdim qohumuma səltənətimi.
Azacıq, sanma ki, bol var götürdüm,
cavahir götürdüm, paltar götürdüm.
Soruşdum, o şəhrin bildim adını,
Getdim, könül tapdı öz muradını.
Şəhər gözəllikdə bir bağı-İrəm,
Adamları çəkmiş müşkidən ələm[186].
Süd kimiydi hamı, elə bil aydı,
Əyin paltarları qırdan qaraydı.
Bir evdə düşərək, yığıb varımı,
Üst-üstə cəmlədim pal-paltarımı.
Gəzib bütün bir il, tutdum hal-əhval,
Sirri açmadılar, hey verdim sual.
Qapılar gəzdiyim gəlməz hesaba,
Rast gəldim axırda mən bir qəssaba.
O çox mehribandı, çox həlimdi, bil,
Böhtana, qeybətə bağlamışdı dil.
Çox yaxşı adamdı, coşdum, çağladım,
Onunla dostluğa könül bağladım.
Tez onu özümə həmsöhbət etdim,
Varlı olmağına min hümmət etdim.
Ona pullar verdim bol, təzə-təzə
Mal verdim, bilmədim nədir əndazə.
Sayını artırdım hər gün bir qədər,
Suvadım qızılla, dəmir oldu zər.
Bəzən ipək ilə, bəzən pul ilə
Onu ovlayaraq gətirdim ələ.
Səpdim qızıl-gümüş, sevmədim hesab,
Qurbanlıq öküzə çevrildi qəssab.
Qızılla gətirdim elə haləte
Ki, düşdü xəznədən yazıq zəhmətə.
Bir gün öz evinə apardı məni,
Məclis qurub, açdı gözəl süfrəni.
Yeməklər gətirdi, söhbət eylədi,
Mənə layiqincə xidmət eylədi.
Vardı süfrəsində hər nazü-nemət,
Yalnız istəyimdən yoxdu əlamət.
Onda ki, yeməklər yetişdi sona,
Söz saldıq bir yandan, keçdi bir yana.
Elə ki, qonaqçı yığdı süfrəni,
Saysız töhfələrə qərq etdi məni.
Verdiklərimi də onlara qatdı,
Qarşımda əyləşib üzrə əl atdı.
Söylədi: - Verdiyin gövhəri, ləli
Ölçməmiş heç zaman sərrafın əli.
Mən ki az faydaya qənaətkaram,
Söylə, nədir bunca peşkəşdən məram?
Bu şahanə lütfə əvəz nə, söylə?
Hazıram əmrinə, buyur, hökm eylə!
Mənim bir canım var, olsa min canım
Sənin qurbanındır, əziz mehmanım.
Söylədim: - Ey ağa, qulamlıq nədən?
Qarşıma bişmiş çıx, bu xamlıq nədən?

Düşünən kəslərin tərəzisində
Bunların çəkisi, söylə, nədir, nə?
Evdə böyütdüyüm qullarıma mən
Göz ucuyla verdim işarə həmən,
Əmrimi yerinə tez yetirdilər,
Sandığımdan xalis zər gətirdilər.
O nəqd ki, qiymətdə gəlməz ölçüyə,
Yenidən qəssaba etdim hədiyyə.
Arzumu bilməyən, xəbərsiz kişi
Sıxıldı görüncə bu nəvazişi.
Dedi: - Ey əzizim, hələ sənin mən
Əvəzlə çıxmadım xəcalətindən,
Nədir bu töhfələr - verdin dübarə?
Utanmaq yeridir, ancaq nə çarə.
Qaytarmadım sənə bu nemətləri
Ki, öz sahibinə qayıtsın geri.
Qaytardım, bilirəm, çünki bu dövlət
Əvəzsiz, əməksiz tapılmaz əlbət.
Artırdın xəznəyə bir də xəznəni,
Sən şadsan, öldürür xəcalət məni.
Məndən bir istəyin varsa, bəyan et,
Yoxsa, al bunları, vermə xəcalət.
Gördüm eyləyəcək o kömək mənə,
Verdi bu hal yaman güc, ürək mənə.
Söylədim tez ona əhvalatımı,
Niyə bu şəhərə sürdüm atımı,
Dağları, daşları quş kimi süzdüm,
Şahlığa göz yumdum, əlimi üzdüm?
Gəldim, xəbər tutum, öyrənim, bəlkə,
Şadlıqdan əl çəkib nədən bu ölkə?
Səbəbsiz nə qəmdir çökmüş diyara?
Başdan-ayağadək geyinmiş qara?
Eşitcək bu sözü qəssab qonaqdan,
Sanki quzu ürkdü bir yalquzaqdan.
Qəlbi qopan kimi daldı bir saat,
Xəcalətli kimi hey baxdı mat-mat.
Dedi: - Yerli deyil etdiyin sual,
Soruşdun, ətraflı, doğru cavab al.
Gecə saçan kimi kafura ənbər,
Göz-gözü görmədi, qaraldı şəhər.
O mənə söylədi: - Zamandır, oyan,
İstəyə çatmağa, amandır, oyan.
Qalx, sənə göstərim gizli surəti,
Açım istədiyin sirri, hikməti.
Çıxdı haman saat otaqdan çölə,
O öndə, mən dalda - yol getdik belə.
O getdi, mən getdim, ətraf qaranlıq,
Bir məndim, bir oydu, yoxdu xəlayıq.
Getdi, insanlardan uzağa vardı,
Məni xarabaya çəkdi, apardı.
Xəlvəti mənzilə yetişən zaman
Pəritək pərdədə biz olduq nihan.
Bağlı bir səbəti götürüb yavaş
Mənim qabağıma gətirdi birbaş.

Dedi: - Gir səbətə, bir an orda qal,
Yerlərə, göylərə yaxşı nəzər sal.
Onda bilərsən ki, xamuş olanlar
Nə üçün geymişdir qapqara paltar.
Sənə gizli olan hər yaxşı-yaman
Aşikar olacaq səbətdən, inan.
Qəssabın sözündə duydum sədaqət,
Yerim oldu dərhal əsrarlı səbət.
Bu qəribə səbət döndü bir quşa,
Fırlanan tilsimlə uçdum birbaşa,
Aşdım halqasını göy asimanın,
Sehriylə o çəkdi ipi, inanın,
Oynadım kəndirdə yaman mən yazıq,
Şam kimi boynuma ip keçdi artıq,
Boynum nazik idi, ip möhkəmdi, bax,
Düşdüm əsir kimi bəxtimdən uzaq.
Qatlaşmalı oldum min əziyyətə;
İp necə boynumu saldı zəhmətə!
Qırdı noxtasını bəxtin ulağı,
O kəndir çəksə də mənə gözdağı,
Demədim: bu cəfa, bu zülüm nədir?
canımın riştəsi o kəndirdədir.
Bir minarə vardı, göyü deşərdi,
Baxanın başından papaq düşərdi,
Səbət minarəyə gəlib çatınca,
İpin düyününü bəndə atınca,
Dərhal uzaqlaşdı məni qaldıran;
Bir fayda vermədi etdiyim əfqan.
Dünya hayandadır, mən hayandayam?
Yerdən uzaqdayam, asimandayam.
Əfsun oxuyurdu fələyin tağı,
Asıldım göy kimi başı aşağı.
Ömrümün bağını duman, qar aldı,
Ödüm parçalandı, gözüm qaraldı.
Nə göyə qalxmağa qüvvətim vardı,
Nə yerə baxmağa cürətim vardı.
Qorxudan qapadım, yumdum gözümü;
Etdim acizliyə təslim özümü.
Könül tutduğuna peşiman oldu,
Ev, qohum həsrəti, qəlbimə doldu.
Çağırdım qorxudan: "Pərvərdigara",
Peşiman olmağım gəlmədi kara,
Ah, güman aparım bilmədim nəyə,
Belə bir zamanda o minarəyə
Dağ kimi quş gəldi qondu, oturdu,
Ürəyim qorxudan döyündü, vurdu.
O qədər böyükdü, deyirdim bu an
Uçacaq minarə ağırlığından.
Qanadı bir ağac budağı kimi,
Ayaqları taxtın ayağı kimi.
Elə bil dimdiyi uca sütundur,
Ortasında kaha, bir Bisütundur.
Hərdən qaşınırdı gəlib həycana,
Silkinib baxırdı o yan - bu yana.

Onda ki qaşınıb qanad açırdı,
Sədəflər dolusu inci saçırdı.
Lələk qaldıranda dağ gövdəli quş
Ətirdən olurdu yer üzü bihuş.
Başımın üstündə yatırdı guya,
Varlığım qərq olub batırdı suya.
Dedim öz-özümə: bu quşun əgər
Tutsam ayağını, məni məhv edər.
Səbr edib dayansam, min dəhşəti var,
Yıxılaram yerə, möhnətim artar.
Qəssab nədən etdi min cəfa mənə?
Oldu bietibar, bivəfa mənə?
Əziyyət verməkdə nə qəsdi vardı?
Pəncəmi sındırdı, qolumu qardı.
Mal verdim, odur ki, yolundan azdı,
Əcəl fərmanını ömrümə yazdı.
Quşun ayağından yapışaraq, mən
Qurtarım, yaxşısı budur, xətərdən.
Onda ki, banladı xoruz, güldü dan,
Oyandı heyvanlar, quşlar yuxudan,
O quşun da qəlbi düşdü həycana,
Ucalmaq istədi göy asimana.
Allah ümidiylə qəlbi ovutdum,
Quşun ayağından möhkəmcə tutdum,
Quş tez qanadlandı, yığıb da ayaq,
Çəkdi torpaqlını göyə yel sayaq.
Günortaya kimi uçduq səhərdən,
Mən yolçuydum, o da yolçunu didən.
Günəş qızışanda, yananda güney,
Fırlandı başımız üzərində göy.
Oturmaq istədi quş bir kölgəyə,
Yavaşca üz qoydu yerə enməyə.
O hey aşağıya endi, alçaldı,
Arada bir nizə məsafə qaldı.
Gülab çilənmişdi, gördüm hər yerə,
Çəmən bürünmüşdü müşkü ənbərə.
Yaşıl otlaq idi yer başdan-başa,
Mən etdim yüz dua ucağan quşa.
Haman ayağını əldən buraxdım,
İldırımlar kimi yerlərə çaxdım.
Düşdüm çiçəkliyə, uçub getdi quş,
Tərk etdi bir saat məni sanki huş.
Ürəyimdə yaman fikirlər etdim,
Özümə gəlincə şükürlər etdim.
Bir də nəzər salıb baxdım hər yana,
Gördüm, bələd oldum o gülüstana.
Bir bağça gördüm ki, cənnət bucağı,
Dəyməmiş içinə insan ayağı.
Yüz min ətir saçan çiçəyi vardı,
Səbzələr oyaqdı, su yuxlayardı.
Gül vardı hər çeşid, gül vardı hər rəng,
Ətri yayılardı hey fərsəng-fərsəng.
Sünbülün saçları salıb kəməndə
Qucur qərənfili yaşıl çəməndə,





Gülün dodağını dişlər yasəmən,
Kəsib ərğəvanın dilini çəmən[187].
Tozu kafur idi, torpağı ənbər,
Qumu qızıldandı, daşları gövhər.
Büllur çeşmələri gülabdı guya,
Əqiq səpilmişdi elə bil suya.
Bir çeşmə axardı o barlı bağdan,
Almışdı rəngini göy o bulaqdan,
Çeşmənin suyunda üzən balıqlar
Civədəki gümüş dirhəmə oxşar.
O bağın dövrəsi zümrüd rəngli dağ,
Sərv, qayın, çinardı yaxın və uzaq.
Yaquta bənzəyən al-əlvan daşı
Al etmiş çinarı hər addımbaşı.
Hər yanda ud ilə səndəl durardı,
Külək ud yandırıb səndəl vurardı.
Sanki başlanğıcdan çəkib əməklər,
Bəzəmişdi bağı incə mələklər.
Xəraclar yollayır cənnət adına,
İrəm "Arami-dil" söyləyir ona[188].
Mina göylər daxi "Minu" qoymuş ad[189],
Mən ora çatınca könül oldu şad.
Sanki tapmış idim bol cavahirat,
Hüsnü o yerlərin məni etdi mat.
Sənalar eylədim süzüb o bağı,
Dolandım hündürü, gəzdim alçağı.
Dadlı meyvələri dərib yeyirdim,
Sevinib nemətə şükür deyirdim.
Sanıb mənliyimi bir sərvi-azad,
Uzandım ağacın kölgəsində şad.
Uzandım orada axşama qədər,
Durmazdım min işim olsaydı əgər.
Yedim, yatdım, sanma fikir eylədim,
Halımdan şad qalıb şükür eylədim.
Gecənin çoxaldı cahü-cəlalı,
Sürməni topladı, buraxdı alı.
Bu zaman başladı bir yel əsməyə,
Qubarın əhdini yoldan kəsməyə.
Neysan buludutək gəldi bir bulud,
Otların üstünə səpdi dürr, bulud.
Yol ki, sulanaraq tərtəmiz oldu,
Sənəmxana kimi sənəmlə doldu.
Göründü uzaqdan minlərcə pəri,
Aldı qərarımı xoş qədəmləri.
Rahi-reyhan idi hər şux novrəsta[190],
Yaxlaşıb gəldilər dəstəbədəstə.
Hər gözəl bir təzə ilk bahar kimi,
Əllərində bəzək tutmuşlar kimi.
Laləydi dodağı hər bir nigarın,
Dəyər Xuzistana ləli onların[191].
Mina işlənmişdi qolbaqlarında,
Mirvari sırğalar qulaqlarında.
Hər gözəl tuturdu şahanə bir şam,
Pərvanə, his, qayçı yoxdu o axşam,

Gəlirdilər belə xoş, yaraşıqlı,
Sinələr süd kimi, üzlər işıqlı,
Taxt ilə fərş tutmuş başda hər pəri,
Cənnət matahına bənzər yükləri.
Fərşi döşədilər, taxtı qurdular,
Səbrimin yolunu yaman vurdular,
Az keçdi, tərk edib Ay da göy tağı,
Elə bil alçaldı, endi aşağı.
Uzaqdan bir günəş oldu nümayan,
Nurunda qərq olub itdi asiman.
Gəlirdi beləcə o gözəl pəri,
Dövrəsində yüz min səhər ülkəri.
O - sərv, kənizləri göy çəməndilər,
O - gül, başqaları yasəməndilər.
Şam tuturdu hər şux, hər şəkərəndam,
Qiyamət eyləyər şəkər ilə şam.
Uca boy sərv ilə doldu yaşıl bağ,
Gəzdi hər şəbçıraq əlində çıraq.
O gözəl xanımın baxtı açıqdı,
Gəldi gəlin kimi taxtına çıxdı.
Dünya çevrilərək bir cənnət oldu,
Yar oturdu, qiyam-qiyamət oldu.
Süzdü bəzən solu, bəzən də sağı,
Çıxarıb başmağı, açdı yaşmağı.
Çıxdı eyvanından o bir şah kimi,
Ordusu iki rəng bir sabah kimi.
Rum, zənci qoşunu qabaqda, dalda,
Bir özgə fikirdə, özgə xəyalda[192].
Zənci məclis qurar, rumi cəng eylər,
Şux gözü bilməsin nədir bədnəzər.
Torpaqdan yaradan bu gözəlləri,
cilvələnsin demiş nurdan o pəri.
Gül kimi əydi o başını bir an,
Xumar duruşundan odlandı cahan.
Başını qaldırdı keçmədən bir az,
Kənizə üz tutub dedi: - Sərvinaz,
Görünür burada insan oğlu var,
O qərib yolçunu dur, dolan, axtar.
Dur, bu dairənin ətrafını gəz,
Rast gəlsən hər kimə, gətir bura tez.
Həmən pərizadə qalxdı ayağa,
Uçdu pəri kimi sola, həm sağa,
O şux gördü məni, heyrətlə daldı,
Əlimi şəfqətlə əlinə aldı.
Söylədi: - Tüstütək gedək, yatma, dur,
Xanımlar xanımı belə buyurur.
Bir şey artırmadım sözünə, əlbət,
Çoxdan bu sözlərə çəkirdim həsrət.
Tovusun yanında qarğaya döndüm,
Gəlin hüzuruna gəldim, göründüm.
Yeridim cürətlə dərhal qabağa,
Öpdüm torpağını düşüb torpağa.
Dedi: - Bu nə işdir? Dur, qalx ayağa,
Sən kölə deyilsən, ağasan, ağa!

Mən əziz tutmuşam daim mehmanı,
Yuxarı başdadır onun məkanı,
Hələ o qonaq ki, parlar hünəri,
Gözəldir görkəmi, xoşdur nəzəri,
Taxta çıx, yanımda otur cəlalla,
Bir yerdə olmalı ülkər hilalla.
Dedim: - Mələkməcaz, aysifət gözəl,
Mən kimi bir qula belə demə gəl.
De, Bilqeys taxtı hara, mən hara?
Səltənət yaraşar Süleymanlara!
Dedi: - Yaxşı danış, bəhanə demə!
Əfsun oxuyana əfsanə demə!
Fərman səninkidir, sənin hər bucaq,
Gözümdən iraqda oturma ancaq.
Öyrən, ürəyimdə gör bir nələr var,
Mehribanlıq eylə, bəhrələr apar.
Dedim ki: - Ey gözəl, kölgən yanındır,
Tacım sənin ayaq torpaqlarındır.
canına and içib, dedi o gözəl:
- Sənə yar olaram bir gün, yaxın gəl.
Sən mənim hörmətli bir mehmanımsan,
Əziz tutulmalı daima mehman.
O deyən olacaq, bu sirri qandım,
Önündə qul kimi durdum, dayandım,
Naz ilə bir kəniz əlimi tutdu,
Gətirib taxt üstə dərhal oturtdu.
Əyləşdim o taxta, duydum sevdayı,
Tutdum kəmənd ilə o parlaq ayı.
Sözümə cavabı yalnız "can" oldu,
Nə qədər bilsəniz mehriban oldu.
- Gəlsin, - o söylədi, - qoy ləziz yemək.
Vəsfə sığmayanı çətindir demək.
cənnət gözəlləri süfrə gətirdi,
Yeməklər ənbərli, hər şey ətirdi.
Süfrə firuzədən, yaqutdan kasa,
Könül zövq alarmı büsat olmasa?
Hər nə ki xəyala, gümana gəldi,
Dərhal ortalığa, meydana gəldi.
İsti yemək yedik, mey içdik sərin,
Çatdı nəhayəti bu yeməklərin,
Saqidən yetişdi mütrübə növbət,
Bəhanə kəsildi, başlandı işrət.
Hər dürdanə gözəl bir dürr deşincə,
Məclis xoş avazla gözəlləşincə,
Rəqs üçün düzəldi bir meydan gözəl,
Ayaq qanad açdı, cuşa gəldi əl.
Şamı başlarına alıb düzdülər,
Şam kimi ayağa durub süzdülər.
Elə ki, oynayıb onlar doydular,
Şərab nuş etməyə meyl qoydular,
Saqi şərab verdi, köpürdü, daşdı,
Həya keşikçisi durmadı, qaçdı
Sevgidən güc aldım, meydən bəhanə,
Vurğun sərxoş kimi düşdüm meydana

Mehribanlıq edib o şəkər dodaq
İrad tutmayırdı buna heç sayaq.
Gördüm o bağbandır eşqin bağına,
Düşdüm saçlarıtək gül ayağına,
Əlini tutarkən etdi naz, öpdüm,
"Az öp" söylədikcə sanma az öpdüm.
Tutdu ümid quşu budaqda qərar,
Açıldı söhbətə geniş bir diyar.
Busə bol, sevgi bol, könülsə birdi,
Ancaq bir könüldən min can gedirdi.
Dedim: - Ey sevgilim, muradın nədir?
Şöhrətin, şanın var, de, adın nədir?
Dedi: - Bir türkəm ki, mənə tay olmaz,
Nazənin bədənəm, adım Türkünaz.
Söylədim: - Könüllər bir olsa əgər,
Qohumtək ad daxi ada bənzəyər.
Xeyli qəribədir, qoy deyim sənə,
Türkütaz ləqəbi verilib mənə.
At çapar, turk kimi geniş səhrada,
Ataq hinduları qızğın bir oda,
Oturaq üz-üzə qoşa yar kimi,
Mey içək, hey içək aşiqlər kimi.
Madam ki, tünd şərab, şirin məzə var,
Qaçırmaz fürsəti arif olanlar.
Duydum, naz etdikcə deyir o mələk:
Aradan yoxalsın uzaqlıq gərək.
Deyir qəmzələri: hənək çağıdır,
Tale iş düzəldir, dilək çağıdır.
Gülüşü - məqamdır, keyfə dal - deyir, -
Yarın naz çəkəndir, öpüş al, - deyir.
Busə xəznəsinə yol verdi canan,
Mən çox az istədim, bol verdi canan.
Elə məst eylədi nazlı yar məni,
Yar əldə, tərk etdi ixtiyar məni,
coşdu sular kimi çağlayan qanım,
Qan səsini duydu ayüzlü xanım.
Dedi: - Bu gecə ol qane öpüşlə,
Yonma göy rəngini sən bu gedişlə.
cızıqdan çıxmağın məsləhət deyil,
Vəfasız olmayan dost yaxşıdır, bil!
Nə qədər bacarsan özünü saxla,
Öpüş al, saç oynat, dişlə, qucaqla,
Şəhvətin əlində aciz qalıb sən
Onun cilovunu çəkə bilməsən,
Hər kənizim gözəl, şux bir pəridir,
Aşiq gecəsinin xoş səhəridir.
Yatarsa ruhuna hansı incəbel,
Arzuna çatmağa ona bağla bel.
Haman əmr edərəm: sözü məzəli,
Dilbər gözəllərin ən şux gözəli
Sənə xidmət üçün otağa gəlsin,
O yumşaq yastıqlı yatağa gəlsin.
Olsun o gülüzlü nazlı yar sənə,
Hal bilən, dil bilən pərəstar sənə,





Söndürsün odunu, sözün doğrusu,
Bizim arx üçün də qalsın bir az su.
Sabah özgə kəniz istəsən hərgah,
Bu arzun üçün də ol qüdrətli şah!
Hər gecə verərəm bir gövhər sənə,
Yenə lazım olsa, verərəm yenə.
Elə ki, qurtardı gözəlin sözü
İlkin mehribanlıq eyləyib özü,
Sonra kənizlərə baxdı xəlvəti,
Çağırıb yanına şux bir xilqəti,
Nazla dedi: "Yetiş istəyinə sən".
O bağışlanmış ay tutdu əlimdən.
Mən heyran qalmışdım o mahcamala,
Sığmaz təzəliyi fikrə, xəyala.
Pərəstişə layiq nazlı bir yardı,
Çəkib arxasınca məni apardı.
Xalına bir quldum, zülfünə bəndə,
Çatdıq bir saraya kəniz də, mən də.
Mənə "buyur" dedi, saldı qabağa,
Girdik onunla bir xəlvət otağa.
Zil kimi, bəm kimi uyuşduq həmən,
İpək yorğan-döşək gördüm hazır mən.
Şamların işığı könül açandı,
Yaqut yağdırandı, ənbər saçandı.
Yorğanı qaldırıb girdik yatağa,
Qucaqlaşıb verdik dodaq-dodağa.
O, söyüdlər içrə bir gül dəməti,
Yumşaq, nazik, ağ, qırmızı, isti.
Gülündə qapalı bir sədəf gördüm,
Gövhərindən alıb möhrü götürdüm.
Qaldı qucağımda gecə sübhədək,
Ənbər, kafur saçdı yorğanla döşək.
Səhər bəxtim kimi durunca getdi,
Hamam şeylərini tədarük etdi.
Teşt verdi qüsl üçün o könül yarı,
Yaqutdan qırmızı, qızıldan sarı.
Gülabla özümü tərtəmiz etdim,
Paltarın içində gül kimi bitdim.
Yeridim şadlığın qəsrindən çölə,
Göydə görünürdü ulduzlar hələ.
Çəkildim xəlvəti sakit bir yerə,
Allaha şükr etdim dalıb göylərə.
Getdilər sarayın şux gəlinləri,
Yerində qalmadı bir dilbər pəri.
Çeşidə açılan sarı bir gültək
O xoş çəmənlikdə mən qalınca tək,
Şərab xumarıyam olduqca, duydum,
Tər saçımı quru torpağa qoydum.
Yatdım, axşamadək yatdım bu sayaq:
Xacə yatırdısa, taleyi oyaq.
Gecənin ceyranı açınca göbək,
Döndü müşkü yayan sədəfə fələk.
Oyandım axşamın mən bu çağında,
Göyərdim ot kimi su qırağında.

Yenə gəldi bulud, el əsdi, gəldi,
Ənbər, dürr saçanlar tələsdi, gəldi,
Yenə başladılar dünənki işə
O yasəmən əkdi, bu da bənövşə.
Güllər ətir yaydı çəmənzar boyu,
Çağladı arxlarda gülab kimi su.
Gəldilər pərilər, söhbətli-sazlı,
Oyuna başladı göy nazlı-nazlı.
Bir taxt gətirdilər ortaya zərdən,
Üstünün örtüyü parlaq gövhərdən.
Qurulan uca taxt gözəldi, şəndi,
Üstünə ipəklər dərhal döşəndi.
Məclis yaratdılar şahlara yarar,
Hər şey parlayırdı gün kimi par-par.
Dünya coşdu, sanki axdı şur gəldi,
Qızlar hər tərəfdən gurhagur gəldi.
Gəldi içlərində meyli, məzəli,
Aşiqə zülm edən Yəğma gözəli.
Elə ki, taxtına yeridi, qalxdı,
Bahar təravəti bürüdü taxtı,
Fərman verdi haman, gəzib çəməni,
Axtardılar məni, tapdılar məni.
Görüncə səsləndi: - Yaxın gəl, - dedi,
Mənə məhrəm otur, - o gözəl dedi.
Məclis qurdu yenə, coşdu diləklər,
Gəldi ortalığa ləziz yeməklər.
Süfrənin bəzəyi şərablar, məzə
Nəşə gətirirdi könülə, gözə.
Artırdı qatbaqat coşğunluq, həvəs;
Yedi istəyincə elə ki, hər kəs,
Mey, çalğı məclisi, dərhal düzəldi,
Çəngi kökləndilər, rud dilə gəldi.
Saqi "nuş" dedikcə, ruha sindi cam,
Eşqin bazarında coşdu izdiham.
Sərxoşluq yeriyib başlara doldu,
Bu zaman eşq ilə mey əlbir oldu.
Gözəlim aşkara göstərdi şəfqət,
Oxşadı qulunu o mələksifət.
Hörmətlər eylədi cananım cana,
Saldı işlərimi yenə sahmana.
Nazla kənizlərə verdi işarə,
Onlar çəkildilər dərhal kənarə.
Bir məndim, bir o yar, xəlvətdi hər yan,
Qəlbimin alovu eylədi tüğyan.
Saç kimi, belinə atdım əlimi,
Çəkdim qucağıma bir aşiq kimi.
Dedi: - Tələsməyin zərəri var, bil!
Əhdi sındırmağın zamanı deyil.
Qənaət eylə sən qəndə, noğula,
Öpüş al, çimdiklə, dişlə, qucaqla.
Hər kim qənaətlə əgər şad olar,
O hörmətli olar, sərazad olar.
Arzu həvəsinə əməl edənin
Yoxsuldur axırı, olsa da zəngin.

- Allah xatirinə, - dedim, - dada yet!
Batıram dəryada, gəl, imdada yet!
Siyah zülfün ki var aşiqə bağdır,
Sənin Məcnununam, könül dustaqdır.
Dayanma, gəl, məni sən zəncirə çək
Divanə olmadan zəncirlilərtək.
Səhər ulduzunu gördü gözümüz,
Lakin qurtarmadı əsla sözümüz.
Öldür, istəyirsən, bu can sənindir,
Bu qılınc, bu başım, fərman sənindir,
Belə baş qaçırmaq nədəndir, nədən?
Bulud ağlamasa, güləmi çəmən?
Sən arx olsan əgər, mən arxın suyu,
Torpaq olsan, suyam, əllərini yu![193]
Boğazım qurumuş, gəl, su ver mənə,
Mən də əvəzini verərəm sənə.
Su verməsən belə, canın sağ olsun,
Həyatım yolunda qoy torpaq olsun.
Su torpaq oğlunu qoynunda boğdu,
Susuzu öldürdü bu çağlayan su.
Dayanma, qətrəni susuz qoyma, dur!
Bir qətrə su verib yananı doydur.
Elə bil ki, südə bir xurma düşdü,
İpək parçasını bir iynə deşdi.
Başqa fikir varsa, sənindir hökum,
Arzunun gözünə torpaqlar töküm.
Elə bil qondu quş, açdı balü pər,
Nə motal yırtıldı, nə yıxıldı xər.
Qız dedi: - Bu gecə qayğın azalsın,
Şəbdizin nalı qoy alovda qalsın[194].
Daşın niyyətindən bu axşam, daşın,
Nur olar daima yarın, yoldaşın.
Satma bir çeşməni, gəl, bir qətrəyə,
Kim ki neştər görər, gərək bal yeyə,
Bir arzu üzünə sən qapı bağla!
Sevin illər boyu, su kimi çağla!
Saç oynat, qucaqla, şirin öpüş vur,
Gedib kənizlərlə nərd oyunu qur.
Bağın var, qarğaya məhəbbət etmə,
Quşun var, quş südü ardınca getmə.
Ürəkdə arzun var, çatarsan əlbət,
Qoyma ki, qarışsın işə xəyanət.
Bu gecə səbr eylə, ağır otur gəl,
Eylə dünənkinə bu gün də əməl.
Nə zaman enərsəm bu mərtəbədən,
Gələrəm əlinə gec də olsa mən.
Hovuzdan balığı dərhal tutarsan,
Ay ələ edilməz tezliklə, inan.
Gördüm ki, oyunda ağır davranar,
Mən də yavaşladım, pozulmasın yar.
Oruc açmaq günü çatmamış, deyə,
Könül verdim ancaq şəkər busəyə.
Bax, yenə qızdırma tutdu xəstəni,
Şərablar, öpüşlər coşdurdu məni.

Görüncə sevgili, o nazəndə yar,
Qövr edir qəlbimdə odlar, alovlar,
Dedi yanındakı bir şuxa: - Dur, get,
Söndür atəşini onu təskin et.
O, gözəldi, könül yaxşı yar istər,
Hər şeyi mötədil arzular, istər.
Xoş ona ki, gözəl bir yan ola,
Olsa, gərək belə nigarı ola.
Yenə adət üzrə getdim bu gecə,
Arzuma daha çox yetdim bu gecə.
Şəkər yeyə-yeyə açdım səhəri,
Mənimlə qol-boyun oldu o pəri.
Gündüz ki paltarı yudu, ağartdı,
Gecə boyaqçıtək küpünü atdı.
Tamam göz aldadan rənglər yoxaldı,
Zinətlər bilmədim hayanda qaldı.
Arzulardım gecə tez gəlsin ələ,
Çin, Təraz şuxuyla vuraq piyalə.
Bir gözəl sacından dolayım kəmər,
Yatsın ağuşumda sevimli dilbər.
Gah bir bal dodaqdan arzu, kam alım,
Gah bir gülüzlüylə ələ cam alım,
Gecəylə, arzum da yerinə gəldi,
Taxtım Süreyyatək göyə yüksəldi.
Keçdi gecələrim min calal ilə,
İşrətlə, keyf ilə, çalhaçal ilə.
Axşam eyləyirdim nura tamaşa,
Gecə dost olurdum bir qələmqaşa.
Gündüz yerim bağdı, gecələr cənnət,
Torpağı müşk olan qızıl imarət.
Şahlıq eyləyirdim belə bir halla,
Gündüz günəşləydim, gecə hilalla.
Arzum yandırdı hər zaman məni,
Taleyim eylərdi kamiran məni.
Çünki şükr etmədim mən o nemətə,
Başladı nemətin haqqı şiddətə.
Vərəqdən əlimlə silindi şadlıq,
Çünki artıqlıqdan istərdim artıq.
Nə zaman ay gəlib otuza çatdı,
Dünyanı ulduzçun gecə qaraltdı.
Ətirli saçları uca sarayın
Nəvazişlə çəkdi telini ayın.
Gəldi hər zamankı bulud, küləklər,
Daha təravətli, daha təzə-tər,
Doldu bir şurişlə bu cahan yenə,
Oynadı səslərlə asiman yenə.
Gəldi qaravaşlar hey qatar-qatar,
Əllərində alma, döşlərində nar.
Uca taxt ortada yenə göründü,
Nəğmə səslərinə ətraf büründü.
Sallana-sallana müşkün telləri
Gəldi gün nişanlı, ayüzlü pəri.
Dalda, qabaqda şam yanırdı par-par,
Arxaya baxma, şam qabaqda olar,





O min bəzək ilə, o min naz ilə
Başa keçdi neçə şux tənnaz ilə.
Xanəndələr coşub avaza gəldi,
Çalğıçı qadınlar pərvaza gəldi,
Saqilər mey verib, coşub daşdılar,
Gözəl musiqiylə ayaqlaşdılar.
Söylədi baldodaq qızların şahı:
- O hərifçin gəzin bu seyrəngahı.
Gözəllər naz ilə gəzdilər yenə,
Yetirdilər məni böyüklərinə.
Görərkən o məni ayağa durdu:
- Sağ yanımda otur, - deyə buyurdu.
Mən tazim eylədim, tazim aldı yar,
Oyandı qəlbimdə keçən arzular.
Açıldı süfrələr yenə çiçəklə,
Yenə keçdi dəmim ləziz yeməklə.
Sonra nur saçmağa gəldi piyalə,
Mey sunan saqilər döndü hilalə.
Dərya ovçuları hey gəzə-gəzə
Dürr səpdilər sədəf camlarla bizə.
Mən yenə xumardım, yenə heyrandım,
Zülfünü ip kimi tutub dayandım.
Divlərim ip qırdı, baxın onlara,
Tutub mən yazığı saldılar dara.
Hörümçək eylədi əyləncə məni,
Canbaza döndərdi o gecə məni.
Döndüm arpa görən uzunqulağa,
Aygörən səritək durdum donmağa.
Xəznə düşən kimi oğru əlinə,
Titrək əllərimi atdım belinə.
Əlimi sürtdüyüm saya gümüşdü,
Özüm bilməyirdim bu necə işdi?
Mən hey yumşaldıqca o döndü daşa;
Ay üzlü mehriban düşərək başa,
Uzatdı əlimə şümşad əlini,
Öpdü əllərimi göylər gəlini,
Çəkim bəlkə onun xəznəsindən əl;
- Bağlı bir xəznəyə, - dedi, - o gözəl -
Əl uzatmaqdan sən, gəl, çəkin bir az,
Əli uzun olan murada çatmaz.
Alınmaz mədəndir möhrüm, yaxşı bil,
Möhrü açmaq sənin qüdrətin deyil!
Səbr eyləyib, gözlə, sənindir xurma,
Ona çatmaq üçün tələsən olma!
Sən hələ şərab iç, kabab yetişər,
Günəş çıxanacan aya sal nəzər.
Dedim: - Səndən alır işıq gülşənim,
Ey gözümün nuru, günəşim mənim!
Üzün sübhü bənzər gül açmış bağa,
Mən necə sönməyim dönüb çırağa.
Göstərib susuza sən şirin çeşmə,
Sonra da deyirsən, amandır, içmə!
Üzündə cilvələr oynayan zaman
Pəri görmüş kimi huş getdi başdan.

Parladıqca sırğan qulaqlarında
Nalım yandı ataş ocaqlarında.
Ayın şəbxunuyla olarmı cidal,
Günəşi zərrəylə bürümək mahal!
Necə əl götürüm ki, əlimdəsən,
Sənin hüzurunda qəm çəkim nədən?
Sən torpaqdan olsan, mən torpaqdanam,
Sən pərisən əgər, mən də insanam.
Yedim dodağımı bu qədər, yetər,
Bəs deyil dişimi sorduğum məgər?
Əlac et, qəlbimə qəm salıb ləkə,
Yetişim arzuma bu gecə bəlkə.
Baxtımə köməyin ancaq yar olar,
İnsan taleyilə bəxtiyar olar.
Deyirsən: qəm yemə, canan sənindir,
Çalış, işində ol, bu can sənindir.
Yüküm ağır oldu, ayaq sürüşdü,
Qurtar, qurtar, işim əngələ düşdü.
Ahu sağrılısan, ey saçı ənbər,
Dovşan yuxusuna verməyin yetər,
Qorxuram çox yaman bu qurd fələkdən,
Tülkülük etməyə başlaya birdən.
Qorxuram üstümə cuma şir kimi,
Didə pələng kimi, ləc bəbir kimi.
Arzuma çatmağa inayət eylə!
Məni kama yetir, ədalət eylə!
Arzu dərgahını bağlasan üzə,
Çıxmaram gecədən nurlu gündüzə.
Çək mənim nazımı, ey nazlı dilbər,
Qonağın nazını şahlar çəkərlər.
Gördü səbrim gedib, qərarsızam mən,
- Razıyam, əl götür, - dedi, - gülbədən, -
Nazını çəkərəm, naz çəkmək peşəm,
Sən Xəllux əhlisən, mənsə həbəşəm[195].
Qarşında, ey qonaq, ey sevimli yar,
Belə süfrələrin nə qiyməti var?
O murad ki, səni yandırır belə,
Onu tez axtarsan, gec gələr ələ.
Tikanlıq dönərsə əgər cənnətə,
Mən də meyl eylərəm belə sənətə.
Söyüd ud qoxusu yaysa dağ-daşa,
Məndən də belə bir iş gələr başa.
İstə məqsudunu, gözüm üstə, al,
Ancaq o istəyin xəyaldır, xəyal!
Üz sənin, döş sənin, dodaq sənindir,
Bir dürrü verməm, hər haqq sənindir.
Belə bir gecəylə etsən ixtilat,
Qabaqda var hələ min belə büsat.
Könül al şərabdan odlanan zaman,
Sənə bağışlaram ayüzlü canan.
Ondan arzunu al, nişanı tuşla,
Mənim ətəyimi ancaq ki boşla!
Məni azdırdığı yolla getmədim,
Qulaq asdımsa da, əməl etmədim.

Çalışdım ki, olum həyalı, həlim,
Qızğındı, kəskindi odum, dəmirim.
Baxtım söylədi: "Ey fərsiz, dərdmənd,
Abadandan uzaq tapılmaz bir kənd.
Mənisə aldatdı tamah, etdi xam,
Paydan məğmun olur çox uman adam".
Dedim: "Ey işimi dolaşıq salan,
Qəranımı vurub könlümdən çalan,
Yüz minlər yönəldi xəznəyə sarı,
Aqibət bu yolda tapdı məzarı.
Ayağım xəznələr içində ikən,
Düşsəm də zillətə, əl çəkmərəm mən.
Əsla danışmaram belə əməldən,
Ölsəm də, vermərəm zülfünü əldən.
Taxtında şamımı yandır, ey mələk,
Ya da taxtın kimi, dur, çarmıxa çək!
Ya bu fərşdə oyna, ya al canımı,
Qum səp, fərş üstünə, axıt qanımı[196].
Gözümün nurusan, bir özgə cansan,
Hicri dözülməyən sərvi-rəvansan.
Səntək bir huridən məqsədə yetsəm,
Müftədir, canımı qurban da etsəm.
Müftə bir xəznəni kimdir almayan?
canını bu yolda oda salmayan?
Gəl, parlat bu gecə məni şam kimi,
Çıraqtək yandırır qəmin qəlbimi.
Yansam çıraq kimi, canım sağ qalar,
Sönərsəm sinəmdə, bil ki, dağ qalar.
Günəş yandırmasa bizi odlara,
Ruzimiz az olar, günümüz qara.
Bir arzu deyildir istəyim səndən,
Sadə bir yuxudur, söyləyirəm mən.
Dimağım bir dərin yuxuya batmış,
Ölüdən seçilməz, inan ki, yatmış.
Görsəydi gözlərim səni dunyada,
Görməzdim üzünü şirin röyada.
Əgər can almaqsa xəyalın sənin,
Öldür, olsun qanım halalın sənin".
Deyib bu sözləri coşduqca coşdum,
O gözəl çiçəyin üstünə qoşdum.
Xəznə qapısını gətirdim ələ,
İstədim yetirəm əqiqi lələ.
Görmədən arzumdan hələ bir səmər,
Yalvardı, yaxardı, etmədi əsər.
O: - Səbr eylə, - dedi, hörmət istədi,
Vüsala yetməyə möhlət istədi:
"Sənindir xəzinə, xam xəyalı at,
Sakit ol bu gecə, sabah kama çat.
Başqa fikirlərə qapılma hələ,
Sabah gecə xəznə alarsan ələ.
Birgəcəlik dözüm çətin deyildir,
Axı bir gecə ki, bir il deyildir".
Çox dedi, baxmadım, döndüm xəncərə,
Əlimi kor kimi atdım kəmərə.

Xahişi, niyazı artdıqca onun,
Həvəsim birə yüz olurdu əfzun.
İş gəldi elə bir məqama çatdı,
Səyim haman bağlı bəndi boşaltdı.
İnadkar görüncə nazlı yar məni,
Əsəbi, səbirsiz, biqərar məni,
Dedi: "Yum gözünü, nə danış, nə din,
Açım qapısını qənd xəznəsinin.
Aman ver, qoy açım sən istəyəni,
Gözlərini açıb, qucarsan məni.
Aldanıb şəkərli bəhanəsinə,
Yumdum gözlərimi bal xəznəsinə.
Bir dəqiqə onu sakit buraxdım,
Sonra, "Aç gözünü", deyincə baxdım
Ki, vurum caynağa yağlı şikarı,
Alım qucağıma o gözəl yarı.
Çevirincə ona dərhal üzümü,
Səbətin içində gördüm özümü.
Nə bir kişi vardı, nə qadın, eyvah,
Munisim soyuq yel, dostum qızğın ah.
Kölgəydim, işığın yolundan azdım,
Türkünazdan iraq bir Türkütazdım.
Dəhşətlə sarsıldı qəlbim dərindən,
Bu zaman səbətim qopdu yerindən.
Köhnə dostum gəlib eylədi imdad,
Etdi səbətimi iplərdən azad.
Taleyim çıxınca hər bir oyundan,
Səbətim aşağı gəldi sütundan.
Bir zaman o məni tərk edib qaçan,
Oldu üzr istəyən, hörmətlər saçan,
Dedi: "Söyləsəydim əgər mən yüz il,
Deyərdin ki, bu iş həqiqət deyil.
O şey ki, gizlindi gördün göz ilə,
Bu sirr deyilməzdi əsla söz ilə.
Onunla dönmüşəm mən də qaynara,
Zülmlər görmüşəm, geymişəm qara".
Dedim ki: "Ey başı bəlalar çəkən,
Rəyini olduqca bəyənmişəm mən.
Çəkdim o qədər ki, qəmdən ahü-zar,
Qismətim kəsildi bu qara paltar.
Qara ipək gətir". O, durdu, getdi,
Qaranlıq gecədə tədarük etdi.
O qara paltarı alıb geyincə,
Hazırlıq görərək mən haman gecə
Məmləkətim deyə yola düzəldim,
Qaralar içində evimə gəldim.
Qara geyənlərə şaham, sərdaram,
Qara bulud kimi coşub gurlaram.
Püxtə arzu-kamdan gəldim tüğyana,
Ömrü xam arzular saldı hicrana.
Elə ki, sahibim bu hekayəni
Danışıb eylədi xəbərdar məni,
Şahımın yanında kənizdim, heçdim,
Onun seçdiyini mən daxi seçdim.





Yetmək məqsədilə abi-həyata
İskəndərlə birgə getdim zülmata.
Zülmat gecə ayı çırağban eylər,
Soltanlar çətrini qaradan eylər.
Rənglərin yaxşısı qaradır, qara,
Balıq beli hara, sümüyü hara?[197]
Qara tükdür verən gənclikdən nişan,
Qaranlıq göstərər ağ üzü cavan.
Göz qarası ilə görər cahanı,
Kim görmüş ləkələr örtsün qaranı?
Gecə örtməsəydi qara ipəklər
Ayın beşiyinə yarardı məgər?
Yeddi rəng tanıyır geniş asiman,
Qaradır rənglərə üstün hər zaman.
Nə zaman ki, hindin gözəl xilqəti
Söyləyib qurtardı bu hekayəti,
Şah "afərin!" deyib baş-başa çatdı,
Alıb qucağına gözəli, yatdı...

## BƏHRAMIN YEKŞƏNBƏ GÜNÜ SARI GÜNBƏDƏ GETMƏSİ VƏ İKİNCİ İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Dan yeri ağarıb şəfəq sökəndə,
Sübhün tərəzisi qızıl tökəndə,
Yekşənbə günü şah, dünya çırağı,
Qızıldan özünə verib novrağı,
Aldı cəmşid kimi qızıl cam ələ,
Tacı günəş kimi nur saçdı elə.
Üzüyü sarı bir gültək qəşəngdi,
İşıldayan qaşı kəhrəba rəngdi.
Yollara zər səpib, günbədə getdi,
Könül şadlığını birə yüz etdi.
Büsatla otağa şah etdi dəmsaz,
Nəşə, mey içində eylədi pərvaz.
Gecə ev çevrildi naz otağına,
Aşiqlər büründü sirr duvağına.
Şah o şəkər saçan şama söylədi:
"Sevişdir bir yerdə ləl ilə qəndi.
Oxu, nəşə duyum oxumağından,
Xoş səsin eyləsin günbədi heyran".
Şahın fərmanına qarşı durulmaz,
Qəbulə keçməzdi bəhanəylə naz.
Dil açdı söhbəti, sözü məzəli,
Dedi Çin bəzəkli o Rum gözəli:
"Ey Tərazın, Rumun, Çinin padşahı,
Soltanlar ümidi, şahlar pənahı,
Hakimlər izzəti, ağasan, ağa,
Çoxları can atar qulun olmağa.
Hər kim eyləyərsə başqa bir xəyal,
Görər öz başını yerlərdə dərhal!"
Elə ki duası axıra yetdi,
Ağzını ətirli bir məcmər etdi.

## KƏNİZ SATAN PADŞAHIN HEKAYƏSİ

Dedi ki: "İraqda bir şəhər vardı,
Orada şöhrətli bir şah yaşardı.
Nura qərq edərdi günəştək yeri,
İlk bahar gününə vardı bənzəri.
Hünəri daş çapar, dağlar dələrdi,
Əlindən nə desən onun gələrdi.
Bunca məharətlə, bunca qüdrətlə,
Keçərdi günləri eyşü-işrətlə.
Bəxtini ulduzla etmiş-imtahan,
Bəla çəkəcəkdir o, qadınlardan.
Odur ki, qorxudan almazdı arvad,
Ta ki, bu qayğıdan olsun sərazad.
Belə bir üsulu şah sevib seçdi,
Odur ki, həyatı tək-tənha keçdi.
İş gəldi bir yerə çatdı nəhayət,
O axtarıb durdu bir incə xilqət.
Gözəl kənizləri pul verdi, aldı,
Ləyaqət görmədi, heyrətdə qaldı.
Çünki hər aldığı çəkmədi bir az,
Aşdı öz həddini, oldu yaramaz.
- Mən xanımam, xanım, - deyib söylədi,
Qarun xəznəsini tələb eylədi.
O sarayda qozbel bir qarı vardı,
Əbləhdi, əbləhlər tora salardı.
Şah alsaydı satın bir saçı sünbül,
Aldadardı qarı töküb yağlı dil,
O: - Rumun xanımı, Təraz gözəli -
Deyə, tərifləri hər incə beli.
Alınan kənizlər belə hörməti
Görüb, unudardı rəsmi xidməti.
Özünü dost tutan lağlağılar var,
Onlar kənizlərdə qürur doğurar.
O dost ki, hər işi yalnız duzaqdır,
Bəzəkli-düzəkli bir mancanaqdır.
Şah nə qədər həlim, mehriban oldu,
Kənizlər o qədər qudurğan oldu.
Kimə mehribanlıq paltarı tikdi,
Namehriban görüb əlini çəkdi.
Şah çox kəniz aldı, çox kəniz satdı,
Bu yolda bir böyük şöhrətə çatdı.
Zahirdə hərə bir böhtan deyərdi,
Batində anlayan yoxdu bu dərdi.
Məqsədə çatmadı kimə vuruldu,
Dolandı, axtardı, axır yoruldu.
"Talesizəm" deyib almazdı əyal,
Yaxşı kəniz tapmaq olmuşdu mahal.
Üzdü saf olmayan qadınlardan əl,
Gəzib arayırdı sadə bir gözəl.
Bir gün cariyələr satan bir nəfər
Kəniz alan şaha yetirdi xəbər:
"Bir xacə Çindəki nigarxanədən
Yığıb gətirmişdir min gümüş bədən.

Onun gətirdiyi qul yox, pəridir,
Xətanın, Xəlluxun gözəlləridir.
Üzləri dünyanı işıqlandırar,
Mehribanlıq edər, aşiq yandırar.
İçlərində gözəl, bir şux pəri var,
Səhər ulduzunun nurunu alar.
Deşilməmiş dürrə bənzər o kəniz,
Dürr satan yanında o candan əziz.
Mərcan dodaqları mirvari bənddir,
cavabı acıdır, gülüşü qənddir.
Şirin təbəssümlə saçarkən şəkər,
Uzun illər boyu yer şəkər yeyər.
Əgərçi şəkəri nemət olubdur,
Xalqa ciyər yemək qismət olubdur.
Özüm ki, çoxdandır kəniz satanam,
Bu üzə, bu xala, saça heyranam.
Padşah əgər ona bir nəzər sala,
Vurular yəqin ki, o mahcamala".
Şah fərman verdi ki: "Ey dəllal, yeri,
Gətir hüzuruma o kənizləri!"
Qoca, kənizləri gedib gətirdi,
Padşah dürr uğrunda sövdaya girdi.
Əgərçi hər biri aya oxşardı,
Lakin çox şahanə birisi vardı.
Ondan etmişdilər padşahı agah,
Bəyənərək sevdi görən kimi şah.
Dedi sövdəgərə: "Söylə, görüm sən
Bu kəniz qızcığın xasiyyətindən.
Əgər xoşlayarsam ürəkdən onu,
Artıq pul verərəm, yaxşı bil bunu".
Açdı öz dilini Çin sövdəgəri,
Dedi: "Şəkərdodaq bu dilbər pəri
İncədir, sevimli, şux, əhli-haldır,
Bütün yaxşılığa canlı misaldır.
Bircə şakəri var ancaq, bu gözəl
Kişi arzusuna eyləmir əməl.
Yüz minnətlə onu kim alsa hərgah,
Qaytarar geriyə gətirib sabah.
Arzu çağında o baxmaz insana,
Arzu sahibini gətirər cana.
Verilərsə ona çox tələb əgər,
Həmən öz canına qəsd etmək istər.
Hər şeyi bəyənməz, eşitmişəm mən,
Sən də onun kimi müşkülpəsəndsən,
Hökmüdar, qaravaş belədir, belə,
Yola getməyiniz çətin məsələ.
Tutaq aldın onu minnətlə, inan,
Sabah yenə geri qaytaracaqsan.
Məsləhətim budur: ondan əl götür,
Özünə, seç, özgə bir gözəl götür.
Ürəyin yapışsa hansı canana,
Göndərim havayı hərəmxanana".
Süzdü kənizləri bizim müştəri,
Xoşuna gəlmədi ancaq heç biri.

Yalnız o dilbərə könlünü verdi,
Qəlbində tək onun mehri göyərdi.
Ancaq heyran qaldı, necə qaynasın,
Nərdi xam həriflə necə oynasın.
Nə atıb kənizi çıxıb getmədi,
Nə də ki almağa cürət etmədi.
Axırda sevgisi hey yığın-yığın
Qum səpdi gözünə tacidarlığın.
Qızın ayağını gümüşə saldı,
O gümüş günbədi gümüşlə aldı.
Arzu qapısını örtməyə durdu,
Əjdərdən qurtardı, ilanı vurdu[198].
Onda ki, hərəmə çəkildi canan,
Hərəm əhli gördü bol hörmət ondan.
Açıldı gül kimi mehriban nigar,
Dostluğu nihandı, sərtliyi aşkar.
Şəhvət qapısını bağladı möhkəm,
Başqa xidmətlərə hazırdı sənəm.
Saraydan etimad görməkçin, gözəl
Evdarlıq işinə edirdi əməl.
Şah onu etdikcə sərvtək ali,
O düşdü ayağa kölgə misali.
Qarı: "Yenə əfsun eyləyim" deyə,
Gəldi xam xaməni tutub əyməyə.
Qız dedi: "Ey qarı, söylə, görüm sən
Mənə kəniz adı verirsən nədən?"
Belə etirazı eşidincə şah,
Oldu kənizlərin sirrindən agah,
Qarıya dedi: "Çıx, gəlmə saraya!"
Nə əfsun oxudu gör əfsunçuya.
Kənizsə çox əziz bir adam oldu,
Sevdiyindən ona şah qulam oldu.
Hiylələr görsə də şah bu gözəldən,
Yenə səbr etməyi vermədi əldən.
Bir gecə boşluqda şamlar yanınca,
Eşqi aşiqlərin alovlanınca,
Qız açdı padşaha öz qucağını,
Uzatdı qoynuna şah ayağını.
Qızın qalasına su oldu hasar,
Şahın mancanağı atəşlər saçar.
O gülab qoxuyan nazənin gülə
Alışıb yanan şah söylədi belə:
"Ey yetişmiş xurmam, dinlə bu sözü,
Ey gözümün canı, canımın gözü.
Sərv qabağında qara tikandır,
Ay sənə baş əyər xeyli zamandır.
Bir xahişim vardır, ey üzü gündüz,
Sorğu-sualıma cavab qaytar düz.
Sən belə eyləsən, düşün, ey nigar,
Sənin qəddin kimi, işim düz olar".
Qızın ürəyini almaqçın ələ,
Şəkər səpələdi o təzə gülə[199],
Dedi: "Təsdis idi Zöhrəyə məkan,
Evdə oturmuşdu Bilqeys, Süleyman[200]





Onların var idi bir oğulları,
İflicdi qıçları, həm də qolları.
Bilqeys sual etdi: - Ey rəsul, ey şah,
Bizim hər ikimiz gümrahıq, gümrah,
Xəstədir balamız, söylə, bəs nədən?
Neçin sağalmayır bizim gülbədən?
Bu sirri öyrənib, bilib yetməli,
Tapıb dərmanını, əlac etməli.
Yanına cəbrayıl yenə gələndə,
De, ona dərdini, gizləmə sən də.
Qayıdıb gedərkən o boşluqlara,
Sirlər lövhəsində axtarsın çara,
Bəlkə bu körpəyə tədbir eyləsin,
Onun əlacını sənə söyləsin.
Bəlkə xəstəlikdən o tapsın nicat,
Sağlam bir bədənlə o sürsün həyat.
Şahın sevincindən gözləri doldu,
Hər gün cəbrayıla müntəzir oldu.
Elə ki cəbrayıl gəldi yanına,
Süleyman dərdini söylədi ona.
Qayıtdı cəbrayıl, tərk etdi yeri
Təzədən dönərək xəbərlə geri.
Dedi ki: "Bu dərdə iki çarə var,
Dünyada can kimi əzizdir onlar.
cananla nə zaman dursan üz-üzə,
Doğru cavab verin sorulan sözə.
Etsəniz bu işdə sədaqət izhar,
Uşağın canından çıxacaq azar".
Bilqeys də sevindi, qəlbi oldu şad,
Dedi: - Ev olacaq, deməli, abad.
Sonra: - Soruş, - dedi o Süleymana, -
Doğru cavab verər canan canana.
Soruşdu yarından varlıq çırağı,
Dedi: - Ey gözümün qarası, ağı!
Söylə görüm mənə, bu dünyada sən
Məndən özgəsinə rəğbət etmisən?
Bilqeys cavab verdi: - Ölsün bədnəzər,
Sən nur çeşməsisən, anlayan sezər.
Səndə gözəllik də, cavanlıq da var,
Şahlıq rütbəsində sənə kim çatar?
Özün xoş, sözün xoş, gözəldir üzün,
cənnət məclisinə rizvansan özün.
Nə varsa sənindir, aşikar, nihan,
Nəbilik möhründən nur alar cahan.
Gördükcə bu hüsnü, bu cavanlığı,
Səndəki şahlığı, kamiranlığı,
Rast gəlsəm özgəyə yenə çaşıram,
Yaxşı təmənnadan uzaqlaşıram.
Eşidincə bunu o xəstə uşaq
Uzadıb əlini dedi: - Ana, bax,
Gör necə sağaldı əlim! Şadam mən,
Gül kimi qurtardım yadlar əlindən[201].
Elə ki, baxaraq o gözəl pəri
Gördü övladının sağdır əlləri,

Dedi: - Ey div ilə pəri pişvası[202],
Ey hünərtək gözəl, ağıl dəryası,
Uşağın üstündə bir nüktə aç, bax, -
Mən əl verdim ona, sən də ver ayaq.
İncimə, gəl, sənə verim bir sual.
Bu qədər ki vardır səndə xəznə, mal,
Bunlarla bərabər heç olmuşmu sən
Özgə dövlətinə meyil edəsən?
Allahpərəst nəbi dedi ki: - Ey yar,
Dünyada hər şeyə mümkünatım var.
Bu şahlıq, bu gəlir, bu mal, bu dövlət,
Balıqdan ayadak mənimdir əlbət[203].
Məndə var xəznələr, məndə var gəlir,
Hamı hüzuruma salama gəlir.
Əllərə baxıram gizlicə yenə,
Görüm, kim gətirir bir sovqat mənə.
Şah qurtaran kimi sözünü, uşaq
Durdu yeriməyə, cumdu ta bayaq,
Dedi: - Şəfa tapdı ayağım, ata!
Rəyin etdi məni bəzək həyata.
Tanrı hüzurunda doğru danışmaq,
Əlsiz-ayaqsıza şəfa verir, bax!
Gəl, biz də düzlükdə yetək ilqara,
Tuşlayaq, düz ataq oxu şikara.
De görüm, nə üçün, ey nazlı dilbər,
Soyuqsan insana qarşı bu qədər?
Mən öz ciyərimi, tutaq, yeyirəm,
Uzaqdan hüsnünü seyr eyləyirəm.
Belə gözəlliklə, de, nə üçün sən
Soyuqqanlılığa adət etmisən?
Çeşmə qabağında o sərvi rəvan
Ancaq doğruluğa gətirdi iman.
Dedi: - Bəyənilib çoxdan əslimiz,
Çıxarıb sınaqdan bunu nəslimiz:
Bizdən ərə gedən zənn etmə gülər,
Uşaq doğan kimi sağ qalmaz, ölər.
Bu yolda vermişik tələf çox mələk,
Rəvamı dünyadan tez köçüb ölmək?
"Keç arzu yolunda candan", deyilməz,
Zəhər qatışıqlı bal ki, yeyilməz.
can mənə əzizdir hər vaxt, həmişə,
Söylə, necə girim qorxulu işə?
Mən cananı deyil, sevmişəm canı,
Sənə söyləyirəm sirri-nihanı.
Süfrəmdən sərpuşum alınmış, heyhat,
İstər məni saxla, istər məni sat.
Bil, ancaq sirrimi pünhan etmədim,
Dedim hamısını, heç gizlətmədim.
Ümidvaram ki, bu dunyalara, şah
Bizi öz sirrindən eyləyər agah.
Söylər gözəllərdən doyur tez nədən?
Könül xoşlayanı o sevməz nədən?
Vurmaz kimsə ilə bircə ay başa,
Çıraq nuru verər hər qələm qaşa.

Şam kimi başını kəsər dübara,
Qaldırar əvvəlcə ucalıqlara,
Sonrasa qəzəblə torpağa çırpar?
Qızın cavabını verdi hökmüdar:
"Mənimlə almayıb mehriban nəfəs,
Qalır öz işinin qeydinə hər kəs.
Hamı öz işinə pasiban olur,
Əvvəl mələk, sonra bir şeytan olur.
Hamının rahatlıq oldu adəti,
Unutdular şaha rəsmi xidməti.
Boya görə olar atılan qədəm,
İsti çörək olmaz hər mədəyə yem.
Dəmir bərkliyində bir mədə hanı,
Yesə, dayanmasın can dəyirmanı?
Şux kişi görəndə su kimi axar,
Qadın gah özünə, gah ona baxar.
Hər qadın bir saman çöpünə bənzər:
Hər yana istəsə, çəkər küləklər.
Oxşar tərəziyə hər şux qələmqaş:
Bir arpa qədəri zərə əyər baş.
Mirvarıyla dolu gülöyşə bir nar
Yetişmiş düşəndə dönər ləl olar.
Qadın dedikləri küdü misaldır:
Kalı dəymiş olur, dəymişi kaldır.
Ərin zinətidir qadın isməti,
Gecə, ay tapanda boğar zülməti.
Qaravaşlarıma mən baxdıqca hey,
Bəzənməkdən başqa görmədim bir şey.
Bir səni görmüşəm sözündə duran,
Hər gün xidmətini daha artıran.
Müxtəsər, nə əlim çatır murada,
Nə sənsiz yaşamaq mümkün dünyada".
Nə qədər dedisə şah bu sözləri,
Lakin heç olmadı zərrə əsəri.
Gətirdi müttəsil o şux bəhanə,
Dəymədi atılan oxlar nişana.
Diltənglik yükünə dözüb dururdu,
O daşlıq yoxuşu başa vururdu.
Şah suyun önündə susuz qalaraq,
Səbr etdi; tələsdi zəmanə ancaq.
cadugər qarı ki, bir qədər əvvəl
Qovlatmışdı onu xoş qədəm gözəl,
Oldu tacidarın səbrindən agah,
Bildi arzusuna yetişməyib şah.
Gördü ki, hökmdar aciz qalıbdır,
Kəniz taqətini əldən alıbdır.
Düşündü: zamandır, min dona girim,
Pərinin başına oyun gətirim.
Günün beşliyinə rəxnə salım qoy,
Ayın qələsini tutum, alım qoy.
Kimsə bundan sonra qoy ox atmasın,
Qarının yayına atsa çatmasın[204].
Tutdu tacidan o xəlvət dilə,
Onu ələ alıb, işlətdi hiylə.

Dünya nurladana bir əvəz deyə,
Başladı əfsunu təkrar etməyə.
Dedi: - İstəyirsən xam atın əgər
Dalına minməyə qoyasan yəhər,
Ram olmuş dayçanı iki yol, üç yol
Yəhərlə, önündə tumarla bol-bol.
Soruş atçılardan tərs atı, xamı,
Belə ram eyləyər, öyrədər hamı.
Belə bir hiyləyə şah məhəl qoydu,
Kərpici belə bir qalıba uydu[205].
Baldodaq, alyanaq bir kəniz aldı,
O, möhrə oynadan şux mahcamaldı.
Gözəl dərs almışdı əsir satandan,
Mülayim xilqətdi əslən o canan.
Şahla nə zaman ki, qarşı durardı,
Yüz mayallaq vurub oyun qurardı.
Şah ürəksiz getdi onunla yola,
Könlü istəmədən yetdi vusala.
Keyfdə həmdəmiydi birinci gözəl,
Ehtiyac zamanı buna atdı əl.
Orada ciyəri qəmdən şişərdi,
Burada mirvari gəlib deşərdi.
Gördü bu yatmağı, coşdu hiddəti,
Qızın durr deşməyə artdı rəğbəti.
Şahın toxundusa ona rəftarı,
Qondusa üzünə qeyrət qubarı,
Ancaq əməlindən o gözəl pəri
Bir tük qədər belə dönmədi geri.
Duydu səbəb nədir belə tufana,
Qarının təndiri baisdir buna.[206]
Dinməyib səbr etmək oldu qaydası,
Səbrin eşq əhlinə yoxdur faydası.
Axırda mehriban gözəl, bir gecə
Münasib fürsəti əldə edincə,
Dedi ki: "Ey mələk ədalı padşah,
Yurdun ədalətə, dinədir pənah.
Doğru danışansan, doğru görənsən,
Dönmə bu halından mənimlə də sən.
Ay, Günəş ki, süzər bu göydə mudam,
Əvvəli gündüzdür, axırı axşam.
Gündüzün tapmasın görüm heç zaval,
Yetirsin ömrünə hər gecə vüsal.
Sabah kimi şərbət verirdin mənə,
Sirkə satmağına şamtək səbəb nə?
Tutaq ki, yeməmiş doydun məni sən,
Atdın şir ağzına, söylə, bəs nədən?
Dərdə salıb məni o gündən bəri,
Önümdə saxladın qorxunc əjdəri.
Məni öldürməyə nədir bu şahmar?
Özün kəs başımı, ixtiyarın var.
Kim sənə bu işdə yollar göstərib?
Söylə, kim öyrədib, kim təlim verib?
Deyiləm özümdə, mənə ver xəbər,
can quşu uçmağa açmış bəlü pər.





And olsun Allaha, and olsun sənə,
Ürək sirlərini söyləsən mənə,
Gövhər xəznəsini mən də açaram,
Alar istəyincə şahım arzu, kam".
Tacidar sevirdi gözəl cananı,
Ondakı qəsəmi, əhdi, peymanı
Görüncə sirrini açdı hər nə var,
Birbəbir söylədi, etdi aşikar.
Dedi: "Vüsalınçın düşdüm odlara,
Alışdım, köz oldum mən bəxtiqara.
Dərdə yataq oldu səbirsiz canım,
Əridi, qalmadı tabım, tavanım.
O qarı yetişib dada bu zaman,
Qarılartək etdi dərdimə dərman.
Mənə müzəvviri göstərdi tədbir,
Yemədən xeyir etdi mənə müzəvvir[207].
Od yaxdıq, olasan, dedik, od gərək,
Səni yumşaltmaqçın işlətdik kələk.
Yalnız od üstündə qızar soyuq su,
Dəmiri yumşaldar ataş, doğrusu.
Haqqında bu rəydə olmaq çətindir,
Ən gözəl dərmanım məhəbbətindir.
Eşqin ürəyimə saldı odları,
Gətirdi ortaya əfsunu qarı.
Düz oldun mənimlə şamtək, ey nigar,
İndi nə qarı var, nə əfsunu var.
Həməl bürcü etdi günəşimi şad,
Bərdi-əcuzi, de, necə edim yad?"[208]
Şah söylədikcə bu şirin sözləri,
Naz ilə dinlədi o gözəl pəri.
Görüncə işləri belə, mahcamal
Süsən iyli sərvə yol verdi dərhal.
Qönçənin taxtına oturdu bülbül,
Məst oldu, önündə açılınca gül.
Bir tuti süfrədə gördü bol şəkər,
Şəkərəfşanlığa başladı yeksər.
O sanki balığı hovuza saldı,
Xurması tez südün içinə daldı.
İncəydi, şirindi o nazlı pəri,
Xurmaya artırdı dadı, şəkəri.
O, naxşın tülünü çəkib də haman,
Zər qıfılı açdı qənd sandığından.
Qızıl ləyaqətli bir xəznə gördü,
Dövrəsinə zərli bəzəklər hördü.
Ürək açan olur sarı hər zaman,
Halvaya təm verər ancaq zəfəran.
Zəfəran sarıdır, aldırma, burax,
Onu yeyənlərin şadlığına bax![209]
Sarı bir örtüyün dalından axşam,
Yaxşı işıq verər yaxılanda şam.
Sarıydı Musanın danası, əlbət,
Çox verdilər ona, odur ki, qiymət[210],
Sarıdır, şənliyin mayasıdır zər,
Sarı gil ən baha qiymətə gedər[211].

Nə zaman bu nağılı padşah eşitdi,
Qucaqlayıb qızı kamına yetdi.

## BƏHRAMIN DÜŞƏNBƏ GÜNÜ YAŞIL GÜNBƏDƏ GETMƏSİ VƏ ÜÇÜNCÜ İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Elə ki, düşənbə gəldi ortaya,
Şahın yaşıl çətri yüksəldi aya,
Yaşıl çıraq kimi parlaq göründü,
Cənnət mələyi tək yaşıl büründü[212].
Yaşıl günbəd deyə yönəldi, getdi,
Qəlbini şadlığa bir məskən etdi.
Saçınca göylərin ulduzlu bağı
Zümrüd yaşıllığa bahar yarpağı,
Yaşıl sərvə dedi böyük hökmran:
"Gəl götür darlığı gül dodağından!"
Şaha təzim edib əl üstündə əl,
Açdı sirri belə o dilbər gözəl,
Dedi: "Ey şad edən bizi dünyada,
Bütün canlar sənə qoy olsun fəda.
Sarayın dövlətə uğurlu baxtdır,
Astanan ölkəyə tac ilə taxtdır.
Başın bəzəyidir tacın hər zaman,
Taxt ucalıq alır sənin qapından.
Zatın məmləkətə əbədi tacdır,
Sənin dərgahına dünya möhtacdır".
Əvvəl uca taxta dualar saçdı,
Sonra qənd çeşməsi əqiqdən açdı.

## BİŞRİN HEKAYƏSİ VƏ ONUN AŞİQ OLMASI

Dedi: "Rumda əziz birisi vardı,
Mumdakı bal kimi rahat yaşardı.
Hünərlər sahibi bu qabil kişi
Görərdi hər zaman yaxşılıq işi.
O kamallı cavan, o xoş xasiyyət
Təmiz ələqəyə bəslərdi hörmət.
Xalq bilir ismini, düşməzdi dildən,
Almışdı pəhrizkar Bişr adı eldən.
Naz ilə evindən o çıxdı bir yol,
Gedirdi, nə eniş, nə yoxuşdu yol.
Eşq onun yolunu kəsdi əlbəəl,
Fitnə kamalına əl uzatdı, əl.
Gördü bir gözəl ki, çadrası ipək,
Sanki gizlənmişdi buludda aytək.
Gedirdi görmədən Bişri şux nigar,
Açdı duvağını üzündən ruzgar.
Fitnəyə yol verdi yel bilə-bilə,
Qara buludlardan çıxdı ay çölə.
Bir süstlük üz verdi olduqca Bişrə,
Tikildi bir oxla ayağı yerə.
Surət gördü, oynar məst gözündə naz.

Yenidən can verər ona şirin su.
Sanma ki, nəsihət ona kar etdi,
Öz bəd əməlini aşikar etdi.
Soyunub, paltarı yığdı bir yerə,
Atıldı sulara o birdən-birə.
Bu küp deyildi, bir quyuydu, quyu,
Bitib tükənməzdi içinin suyu.
Əcəl zirəkliklə yola getmədi,
can atdı nə qədər, təsir etmədi.
Su doldu ağzına, əcəli çatdı,
Nəhayət quyunun içində batdı.
Bişr sudan ötrü yandı dərindən,
Tökdü su üstündə su gözlərindən.
Dedi: - Haramzada, bu xam oğlu, xam,
Salamını mənə eylədi haram.
Qorxuram bu çirkin xasiyyətilə
Küpün saf suyunu döndərsin ilə.
Suyu çirki ilə bulandırar o,
Daş alıb saxsını birdən qırar o!
Belə bir düşüncə pislərdən törər,
Nainki ağıllı kəslərdən törər.
Kimsənin olmasın belə yoldaşı,
Batsın eləsinin görüm ki, başı.
Dalınca deyindi onun bir qədər,
Gözlədi, görmədi kişidən əsər.
Durub axtarmağa yönəldi onu,
Bilmirdi xacənin qərq olduğunu.
Batmış gördü suda öz yoldaşını,
Küpün qırağına əymiş başını.
Təəccüb eylədi suya baxaraq,
O yüksək ağacdan kəsdi bir budaq,
Ya bir nizə qədər, ya bir az uzun,
Yondu qabığını həmən çubuğun.
Dəniz ölçən kimi ağacı aldı,
Tez götürüb küpün içinə saldı.
Küp demə, küp demə, quyudur, quyu,
Kərpic divarlara qalxmışdı suyu.
Zay etməsin suyu gələn heyvanlar
Deyə quyu üstə yarım saxsı var.
Çıxartdı quyudan bədbəxt oğlunu,
Torpaq quyusuna gətirdi onu[215].
Doldurdu qəbrini torpaqla, daşla,
Durdu baş ucunda dedi, təlaşla:
"Hanı zirəkliyin, fikrin, xəyalın?
Düyünləri açan ağlın, kamalın?
İnsanlar, pərilər düşərkən dara
Hanı öyündüyün, bildiyin çara?
Nədir o, deyirdin: yeddi fələkdən
Qeybi kəmənd ilə çəkən mənəm, mən!
Nə kişi, nə qadın olan, de, sənin
Nə oldu hünərin, on iki fənnin?
Əvvəldən bilirdin hər olacağı,
Zirəkdin, görürdün dalı, qabağı.
Uzaqgörücüydün, niyə görmədin?
Bu açıq quyudan xəbər vermədin?
Az eyləmədik biz bu sudan söhbət,
Gəldi ortalığa hər cür hekayət.
Çox uzatdıqsa da biz küp fəslini,
Söyləyə bilmədik işin əslini.
O küpün suyuna biz nələr atdıq,
Demək küpümüzdə tonqal qalatdıq.
O kargahın başqa bir naxşı vardır,[216]
Bizim haqq-hesabdan xeyli kənardır.
Fələk bu kəndiri düyün edəli
Çatmayır ucuna kimsənin əli.
Bu yolda hər nə ki, dedik, neylədik,
Səhv etdik hamını, yanlış eylədik.
Sən qərq oldun suda, mən tapdım nicat,
Şükür edənləri bəsləyir həyat.
Sən ona tor dedin, uzağa düşdün,
Özün heyvan kimi duzağa düşdün.
Mənim yaxşı getdi ona gümanım,
Fikrim yaxşı oldu, qurtardı canım".
Söyləyib bunları qalxdı ayağa,
Gah sola baş vurdu, gah baxdı sağa.
Misri paltarını bu yanda gördü,
Onu, əmmaməni alıb götürdü.
Açınca bağlını dərhal sürüşdü,
Torpağın üstünə bir kisə düşdü.
Nə görsə yaxşıdır, köhnə pullardı,
Kisədə min Misir qızılı vardı.
Yumdu gözlərini qızıl mehrinə,
Möhürləyib zəri qoydu yerinə.
Dedi: "Yaxşısı ki, paltarlarını,
İpək əmmaməni, bütün varını
Toplayım bir yerə, yığım, bağlayım,
Gəzim, qohumunu qoy soraqlayım.
Soruşub evini onu biləndən,
Verim əyalına əmanəti mən.
Köməyim dəymədi ona, qoy yenə
Xəyanət etməyim əmanətinə.
Tutsam əgər mən də o tutan işi,
Yeyərəm demək, o yeyən bişmişi".
Belə düşünərək yola düzəldi,
Bürkülü səhradan şəhərə gəldi.
Getdi öz evinə əvvəl birbaşa,
Sonra da baş çəkdi qohum-qardaşa.
Şəhərdə iki gün asudə oldu,
Dadlı xörəklərlə keyfi duruldu.
Alıb əmmaməni düzəldi yola,
Hamıdan soruşdu: "Bunun kim ola
Sahibi?" Bir kişi söylədi ki: "Sən
Hələ bir qədər də yol getməlisən.
Məhəlləsi filan, döngəsi filan,
Yeddinci ev üstə şahanə eyvan,
Onun binasıdır həmən imarət,
Yeri, döy qapını, arxayın ol get".
Alıb bağlamanı hərəkət etdi,





Deyilən binanın üstünə getdi,
Döyüncə qapını, dodaqları bal
Tez gəlib açaraq eylədi sual:
- Söylə, bir naçisən, de, nədir adın?
De, əməl eyləyək, nədir muradın?
Bişr söylədi ki: - Əmanətim var,
Hər kimsə bu evə sahib-ixtiyar,
Ona veriləcək, əgər özümü
Buraxsa, deyərəm gəlib sözümü.
Asiman hünərli Məlixanın, ah,
Nə gəlib başına, eylərəm agah.
Qadın izn verdi, dedi: - Buyur, gəl.
Ədəblə yer verdi ona ilk əvvəl.
Bürüyüb üzünü gizli yaşmağa:
- Mən hazıram, - dedi, - qulaq asmağa.
Bişr əhvalatı açdı hər nə var,
Etdi ayüzlünü işdən xəbərdar.
Dedi: - Məlixayla biz həmsöhbətdik,
Onun hünərindən çox söz eşitdik.
O bədməstlər kimi tez qızışardı,
Hər sözə bir yekə dastan qoşardı.
Hər şeydən, hər işdən çox bədgümandı,
Yaxşı ilə pisi qarışdırandı.
Qazıdı özgəyə quyu, sürüşdü
Özü, bu qazdığı quyuya düşdü.
Coşdu mühit kimi, eylədi tüğyan,
Axır ağzında su, düşdü natəvan.
Bişr nə görmüşsə o bivəfadan
Söyləyib, sözünü qurtaran zaman,
Əlavə eylədi: - İllər vur başa,
O torpaqda yatsın, sən evdə yaşa.
Tərtəmiz yumuşdu Məlixanı su,
Torpaq xəznəsinə tapşırdım onu.
Əlimlə yığıldı səhradan van,
Budur qızılları, budur paltarı.
Deyib əmanəti tez yerə qoydu,
Bişrin düzlüyünü mahcamal duydu.
Hər işə vaqifdi o dilbər gözəl,
Vərəqi oxudu, bildi əlbəəl.
Bir saat kədərli, pərişan oldu,
Axdı göz yaşları, bağrı qan oldu.
Dedi: - Ey müqəddəs fikirli insan,
Sən ki bəndələrin ən yaxşısısan.
Afərinlər sənə, ey halalzada,
Üzü ağ olmusan bu gen dünyada.
Kimsə bu mərdliyi eyləməz ki, sən
Adamsız olana qarşı edirsən.
Mərdə layiq sifət deyildir, inan
Ki, bal oğurlasın bal arısından.
Gərək cavanmərdi pul aldatmasın,
İşinə zərrəcə xələl qatmasın.
Məlixa bir layiq məkana getdi,
Özünü torpağa o təslim etdi.
Deyirsən olduqca fikri yamandı,
Doğrudur, hər şeyə pislik umandı.
Zalımdı, hər zaman min zülmü vardı,
Əhdə vəfası yox, mərdüməzardı.
Kişiyə, arvada uddurardı qan,
Çəkdi cəzasını o zalım insan.
cuhud məzhəbsə də, sevərdi şəri,
Sehir ilanıydı, məbəd əjdəri.
Ondan illər boyu cəfa çəkirdim,
Təkcə pislik deyil, bəla çəkirdim.
Mənimlə baş qoyar, birgə yatardı,
Sonra yalan deyər, böhtan atardı.
Mən müti bir bulud, o sərt bir külək,
Qılınc qaldırardı o dəli şimşək.
Tanrı dəf eylədi onu başımdan,
Oldu möhnətlər də qapımdan nihan.
Yaxşıydı, yamandı, köçdü dünyadan,
Ölünün dalınca danışmaz insan.
Çəkildi aləmdən onun ayağı,
Nəsib etdi bizə bu qovuşmağı.
Görünürsən, inan, çox xoştər mənə,
Layiqsən olmağa gözəl ər mənə.
Var məndə gözəllik, ismət, xəznə, mal,
Tapılmaz mənimtək halal bir əyal.
Tanrımız buyuran bir nikah ilə
Düzəlt işimizi, get sahman eylə.
Cavanmərd, görüncə bəyəndim səni,
Mənə layiq ərsən, sevindir məni.
Qəlbin bildirərsə eşqi, hörməti,
Başlayaram sənə mən də xidməti.
Bəli, arzum budur, xəyalım budur,
Var-dövlətim budur, camalım budur.
Deyib ay üzündən örtüyü saldı,
Yaş əqiqdən quru möhürü aldı.
Bişr günəş kimi o mahcamalı,
O fitnəli gözü, sehirli xalı
Görüncə, tanıdı nurlar saçanı,
Yolda rast gəldiyi nazlı cananı.
Bir ah çəkdi, getdi başından huşu,
Oldu sırğalının həlqəbəguşu[217].
Şirin dodaqlını həyəcan aldı,
Ətir saçıb Bişrin halına qaldı.
Çalışdı, aşiqi durdu, ayıldı,
Həyadan canına bir od yayıldı.
Dedi: - Tərk eylədi ixtiyar məni,
Qoy dəli saymasın gözəl yar məni,
Gedərsə özündən əgər cin görən,
Pəri görmüşəm, ey pərizadə, mən.
Sanma ki, bu yeni bir məhəbbətdir,
Çoxdankı yanğıdır, köhnə həsrətdir.
Günlərin birində, ey nazlı mələk,
Aldı örpəyini üzündən külək.
Camalın əlimdən aldı taqəti,
Məst oldum içməmiş vüsal şərbəti.
Yandım həsrətinlə düşüb odlara,

Eşqin varlığımı verdi ruzgara.
Çəkdin öz dalınca sən xəyalımı,
Kimsəyə demədim mən bu halımı.
Gəldim nə zaman ki, mən təngə, zara,
Sığındım yeganə pərvərdigara.
Mənə öz fəzliylə o səxa kanı
Yetirdi hər zaman lazım olanı.
Heç vaxt göz dikmədim özgə malına,
Ağlına, işinə, xoşbəxt halına.
Verdi o düz yolla səadət mənə,
Gözəl camal mənə, var-dövlət mənə.
Elə ki bilindi Bişrin ürəyi,
Arvadın çoxaldı meyli, diləyi.
Bişr o hurinin nəvazişini
Görüb də səhmana saldı işini.
Tez kəbin kəsdirdi, ona yar oldu,
Tapıb nemətini bəxtiyar oldu.
O, pəri üzlüdən alıb arzu, kam,
Oxudu bədnəzər duası müdam.
Gözəli xəbisdən qurtardı cavan,
Ayı xilas etdi küsufdan, dərdan[218].
İpək paltarından yudu torpağı,
Qalxdı şənbəliddən süsən yarpağı[219].
Sevdi o gözəli pərilər kimi,
Yaşıl paltar geydi hurilər kimi.
Sarını atıb, gey yaşıl libası,
Sərvi bəyəndirir yaşıl olması.
Əkinə rövnəqdir yalnız yaşıl rəng,
Odur mələklərə verən min bəzək.
Yaşıllıq hər şeyin təravətidir,
Yaşıl rəng gözləri işıqlı edir.
Bitki yaşıllıqla həmahəng olar,
cavanlıq hər zaman yaşıl rəng olar.
Qurtardı nağılı məclis çırağı,
Şah aldı qoynuna o gül yanağı.

BƏHRAMIN ÇƏRŞƏNBƏ GÜNÜ
QIRMIZI GÜNBƏDƏ GETMƏSİ VƏ
DÖRDÜNCÜ İQLİM PADŞAHI QIZININ
HEKAYƏ SÖYLƏMƏSİ

Dey ayında günlər gödəkdir, gödək,
Bir gün çox qısaydı Tir gecəsitək[220].
Günlərdən çərşənbə günü yaxşıdır,
Həftənin ortası, həftə naxşıdır.
Bəhram günü Bəhram rənginə yoldaş,
Bəhram şah da oldu onlarla adaş.
O gün al rəngini bəzədi ala,
Qırmızı günbədə düzəldi yola.
Sudan lətafətli, oddan qırmızı,
Səqlab ölkəsinin slavyan qızı
Bağladı Bəhramın hüzurunda əl,
Günə səcdə edən ay olar gözəl.
Gecə çəkdi göyə öz bayrağını,

Yırtdı gün tağının nur duvağını,
Şah dedi: "Baldodaq, almayanaq, gəl,
Bizi bir nağıla eylə qonaq, gəl".
Gözəl bu arzudan qaçırmadı baş,
Əqiqdən dürr etdi hüzura şabaş[221].
Dedi: "Ey evinin kandan fələk,
Günəş çadırının qapısı, gərək
Deşilə biləcək hər bir gövhərdən
Daha xoş hekayə deyim sənə mən.
Kimsə şahım qədər qoy ucalmasın,
Səni sevməyənlər ölsün, qalmasın".
Belə bir duanı yetirib başa,
Tapşırdı ləlini parlaq daş-qaşa.

RUS QIZININ BƏHRAMA
HEKAYƏ SÖYLƏMƏSİ

Dedi: - Rus elində vardı qabaqlar,
Dilbər gəlin kimi gözəl bir diyar.
Orda saray qurub, bir şah yaşardı,
Nazla bəslənilmiş bir qızı vardı.
Qəmzəsi cadugər, könül ovlayan,
Üzü gül, qaməti bir sərvi-rəvan.
Bənizi qəşəngdi onun qəmərdən,
Dodağı şirindi qənddən, şəkərdən.
Zöhrəydi, aşiqi parlaq Müştəri,
Hüsnü batil etdi şamı, şəkəri.
Qənd həsəd aparıb şirin dilinə,
Təng olub dönmüşdü incə belinə[222].
Müşk, saçı yanında hey bağrı qandı,
Reyhanı önündə gül bir tikandı.
Təravətli üzü bahardan lətif,
Şəkildən gözəldi, şəkildən zərif.
Gözünün xumarı nərgiz yuxulu,
Nəsrinin qəmzəsi alınma qulu,
Qəddi bağ sərvitək xeyli ucaydı,
Çırağa bənzəyən çöhrəsi aydı.
Gülab baş əyərdi adamlarına,
Gül xidmət eylərdi qulamlarına.
Şəkər gülüşlüydü, günəş camallı,
Həmi hünərliydi, həmi kamallı.
Oxuyub hər dərsi bilik yığaraq,
Yazmışdı hər elmə dair bir varaq.
Çox tilsim kitabı vurmuşdu başa,
Sehrlər məlumdu o qələmqaşa.
Saçları yaşmaqdı gül surətinə,
Boyun əyməmişdi ər minnətinə.
Oydu zamanının gözəl dilbəri,
Neylərdi yoldaşı, neylərdi əri.
Yayıldı nəhayət xəbər hər yana:
Cənnətdən bir huri gəlib cahana.
Ayla gündən doğub o şux dilfərib[223],
Zöhrə, Ütariddən ona süd verib.
Coşdu eşidənlər - uzaq və yaxın,





Yeridi elçilər hey axın-axın.
Biri zor göstərdi, biri zər, yalnız
Zoruyla qorudu zərini o qız.
Atası olmuşdu hər işdən bezar,
Çünki hesabsızdı gələn aşiqlər.
Döndü bir acizə nəhayət o mərd,
Necə oynayaydı yüz hərifiə nərd.
Xəlvətdə əyləşən saray gözəli
Gördü elçilərin uzundur əli.
Olum sədəmədən göy kimi uzaq
Deyərək, axtardı ən uca bir dağ.
Əmr etdi bir yüksək qala tikdilər,
Dağ başından göyə bir dağ çəkdilər.
Yalvarıb atadan izn istədi:
- Səfər tədarükü hazır et, - dedi.
Ayrılıq nə qədər acı olsa da,
Ata izn verdi o pərizada.
Evdən getsə əgər o şirin nigar,
Qapıdan, bacadan girməz anlar,
Qarada saxlansa xəzinə, əlbət,
Keşikçi oğrudan çəkməz əziyyət.
Bəzən o naz ilə seyrə çıxardı,
Tikilən qalanı gəzib baxardı.
Nə zaman təpərli bir qala qurdu,
Gedib xəzinətək orda oturdu.
Bu uca qalaya tənha köçəli
Adını qoydular: qala gözəli.
Orda işləməzdi oğrunun başı,
Çünki Ruyindizdi onun hər daşı[224].
Qız yaşayıb qaldı möhkəm qalada,
Heç görən olmadı onu röyada.
Quldurlar o qızın gücünü sezdi,
O çox aşiqlərin qəlbini əzdi.
Hər işdə işlədi ağlı, kamalı,
Çarələr eylədi fikri, xəyalı.
Səmadan, ulduzdan verərdi nişan,
Önündə təbiət əyandı, əyan.
Hər şey məlum idi o şux gözələ,
Ruhani sirləri almışdı ələ.
Vaqif idi quru, yaş hikmətinə,
Suların sirrinə, od qüvvətinə.
Bilirdi nə ilə insan insandır,
Ulduzlar məclisə nələr saçandır.
Elmə gərək olan dünyada nə var?
Bəşər nəslı nədən təravət tapar?
Bilik toplamaqdı hər zaman işi,
Bu qadın elə bil kişiydi, kişi!
O gündən ki, o quş qalaya süzdü,
İnsan övladından əlini üzdü.
Qalanın yolunda tərpənib zirək,
Əlilə birbəbir özü düzərək,
Daşlardan, dəmirdən tilsimlər qurdu,
Hər tilsim elə bil xəncər tuturdu.
Qalaya keçməyə hər kim gələrdi,

O kəsi qılınclar iki bölərdi.
Gələnlər olurdu aciz-avara,
Təkcə keşikçiydi bələd yollara.
O da tilsimləri daim sayardı,
Atdığı addımı hesablayardı.
Əgər hesabında olsaydı naşı,
Kəsilib torpağa düşərdi başı.
Bir zərbə olardı qılıncdan payı,
Girərdi buluda ömrünün ayı.
Göyün qapısına bənzərdi, inan,
Qalanın qapısı nihandı, nihan,
Eyləsə mühəndis bir ay yüz əməl,
Onun qapısına uzatmazdı əl.
Nəqqaşdı orada oturan pəri,
Sanki Çində tikmiş bəzək evləri.
Əlində rəsm olur incə duyğular,
Suya sədəf kimi düyünlər vurar[225].
Huri saçlarına qələmi oxşar,
Vurar kölgələrə nurdan naxışlar.
Qalada şahlığa çatdı gözəl ay,
Aldı camalından o yerlər də pay.
Günlərin birində soyunub tamam
Çəkdi öz əksini bizim güləndam.
Başının üstündə yazdı ən gözəl
Bir xətlə ipəkdə gəzdirərək əl:
"Bu uca qalada tutmuşam qərar,
Gəlsin hüzuruma aşiq olanlar.
Nura tamaşaya pərvanə gəlsin,
Uzaqda durmasın, meydana gəlsin.
Belə bir qalaya girər mərd kişi,
Bura girmək deyil namərdlər işi.
Hər kim arzulayır belə cananı,
Bir yox, gərək olsun onun min canı.
Durmasın, tələsik yola düzəlsin,
Dörd şərti gözləyib hüzura gəlsin.
Belədir birinci şərtimiz: ad, san,
Gözəllik, igidlik, bir də şərəf, şan.
İkinci: kamalı möcüzlər saçsın,
Yolun tilsimini əqliylə açsın.
Üçüncü: tilsimi açdımı, dərhal
Çatsın imdadına düşüncə, xəyal.
Qala qapısını tez nişan versin,
Damdan yox, yanıma qapıdan girsin.
Dördüncü: qurtarsa bir-bir şərtləri,
Durmasın, şəhərə qayıtsın geri.
Atam sarayında yenə bu minval
Ondan eyləyərəm bir neçə sual.
Versə ləyaqətli cavablar əgər,
Olar mənim üçün, demək, can-ciyər.
Şərtimi yerinə hər kim yetirər,
Olacaqdır mənə bir sevimli ər.
Yox, əgər qırarsa şərti, peymanı,
Düşsün öz boynuna özünün qanı.
Kim ki, bu şərtlərə eyləsə əməl,

Onundur səadət hər şeydən əvvəl.
Sözünü tutmayan hər an alçalar,
Zaman şöhrətinə gülər, əl çalar".
Yetirildi vərəq belə tamama,
Qız uzatdı onu yaxın adama.
Dedi: "Dur ayağa, al bu vərəqi,
Çıxart bu pərdədən üzə təbəqi.
Şəhər qapısında bir uca yer gəz,
Bu şəkli, yazını as oradan tez.
Qərib ya şəhərli, təfavütü yox,
Mən kimi gözələ kim vurulsa çox,
Tutub şərtlərimi düzəlsin yola,
Ya ölsün, ya onun olsun bu qala".
Qızın sözlərinə qul əməl etdi,
Şəkli götürərək durmadı, getdi.
Asdı surəti ki, o qələmqaşa
Baxsın aşiqləri, etsin tamaşa.
Kimin meyli tutsa belə gözələ,
Töksün öz qanını onda öz əli.
Bu xəbər bürüdü hər vilayəti,
Şahlar da eşitdi bu hekayəti,
Gəzdi ağızları, dillərə düşdü,
Aşiqlər sel kimi çöllərə düşdü,
Çoxları qırılıb öldü qalada,
Verdi həyatını nahaqdan bada.
Ona üz çevirib gələn hər adam
Vurular, düşməni alar arzu, kam.
Çoxları işlətdi ağıl, nə çara,
Ağıl da gəlmədi bu işdə kara.
Tədbirlə gəldisə yaxın hər biri,
Vurub puç edirdi əfsun tədbiri.
Açırdı bir neçə tilsim qüdrəti,
Yenə çaş qalırdı gücü, qüvvəti.
Acizlik üzündən düşüb pərişan,
Olurdu bu yolda rüsvayi-cahan.
Çoxlarının axdı nakam göz yaşı,
Sevginin yolunda kəsildi başı.
Çoxları o yolda oldular tələf,
Bulanmışdı qana hər yan, hər tərəf
Asılmış başlarla hər tərəf doldu,
Şəhərin qapısı görünməz oldu.
Dünyada hayana baxsanız əgər
Möhkəm qalalarla bəzənər şəhər,
O pəri qızışıb zülümlər etdi,
Şəhri hasarla yox, başla bəzətdi.
Hələ bir görmədən o qələmqaşı
Çoxunun bədəndən ayrıldı başı.
Vardı bir qəhrəman, igid şahzadə,
Nəsilli, əsilli, gözəl, azadə.
Dillərə düşmüşdü ağlı, kamalı,
Qılıncla ovlardı şiri, maralı.
Bir gün bu şahzadə at qova-qova
Çıxmışdı çöllərə şəhərdən ova.
Gördü ki, qaladan asılmış yazı,
Yanında min şüşə zəhər var azı.
İpək parçasında çəkilmiş gözəl,
Bir şəkil, söyləyir elə bil: - Gəl, gəl!
O, surət deyildi, bir mahcamaldı,
Səbrü-qərarını oğlanın aldı.
Gənc dedi: - Afərin o sənətkara
Ki, bu şəkli çəkib asıb divara.
Rəsmin ətrafında gördü daş üstə
Qalayıb yığıblar başı baş üstə.
- Nəhəng ağzındakı, - dedi, - gövhəri
Qoyub qaçım? Deyil qaçmağın yeri.
Bu eşq lövhəsindən əgər çəksəm əl,
Hicran varlığıma yetirər xələl.
Könül bu həvəsdən imtina etməz,
Baş gedər, bu həvəs başımdan getməz.
İpəkdəki surət sevimli, canlı,
Xəzinə ilanlı, xurma tikanlı.
Bu yolda kəsilmiş gör nə qədər baş,
Bu iş nəhayətə yetəydi, ey kaş.
Tutaq başım düşən yarpağa döndü,
Torpaqdan yaranan torpağa döndü.
Nə fayda? Çəkməsəm ipdən əgər əl,
Keçər başım ona özümün əvvəl.
"Yox" desəm, yar üçün candan keçilər,
Sanma ki, ondan da asan keçilər.
Üstəlik söylədi: - Bu şəkli pəri
Çəkmiş ki, toplasın saysız müştəri.
Pəri əfsununa əfsun etməli,
Fitnəkar üstünə fellə getməli.
Əgər bağlamasan onun dilini,
Geri dur, bu işə vurma əlini!
Gərəkdir axtaram elə bir çara
Ki, qurdun ağzından qoyun qurtara.
Hər kəs zor göstərsə işində əgər,
İşinin nizamı pozular gedər.
Əməlində çəkin xırdaçılıqdan,
Qarşına çıxmasın böyük bir ziyan.
Sazına dünyanın ahəngini qat,
Aram ilə yapış, möhkəmliklə at.
Könlüm düşüncəmdən daha xarabdır,
Ürəyimdən artıq ciyər kababdır.
Belə bir ürəklə necə olum şad,
Belə düşüncəylə nə eyləyim yad.
Deyib bu sözləri qəmləndi, nagah,
Çəkdi yanıq-yanıq, çox soyuq bir ah.
Baxdı, gözlərindən axdı ılıq yaş,
Gördü döşənəcək qılınc, təşt və baş.
Könül arzusunu pünhan saxladı,
Fikrini açmadı oğlan, saxladı.
Şəhər qapısına hər səhər çağı,
Gələrkən gülməzdi qaşı-qabağı.
Baxdıqca surətə hey dərin-dərin,
Yadına düşərdi Fərhadla Şirin.
Tilsimi açmağa yüz min açara





Əl atdı, tapmadı yenə bir çara.
Yüz min baş asılı ip gördü ancaq,
Almadı bu ipin ucundan soraq.
Gah qabağa çapdı, gah dala çapdı,
Zənn etmə ancaq ki, düyünü tapdı.
Buraxdı qüruru, kibri kənara,
Tədbir tapmaq üçün düşdü diyara.
Aradı hər yanda işə çarəsaz,
Onu sıxan bəndi boşaltsın bir az.
Vardı bir ağıllı, hünərli insan,
Mələkələr tutan, divlər bağlayan,
Tutub cilovlardı hər şıltaq atı,
Bilikdən var idi çox ehtiyatı.
Ustaddı, çoxluca şagirdi vardı,
Qapılar üzünə açıq olardı.
Mötəbər qocalar gəncə birtəhər
Bu hünər kanını verdilər xəbər.
O Simurğ eşqilə sevinci daşdı,
Qanadlı quş kimi dağları aşdı.
Gülşəntək gülümsər tapdı qocanı,
Uçuq mağaraydı onun məkanı.
Atdı süsən kimi əl kəmərinə,
Gültək bel bağladı hər bir əmrinə.
Səadət üzündən igid, qəhrəman
Aldı bu Xızırdan xeylicə ürfan.
O gözəl çeşmədən götürdü çox pay,
Açdı öz qəlbini salmadan haray.
Dedi o pəridən, yüksək hasardan,
Xalqa yetirdiyi azar-bezardan.
Söylədi yollara nələr düzür qız,
Xanələr dağıdır, başlar üzür qız.
Qoca filosofa dedi hər nə var,
Gizlin mətləbini eylədi aşkar.
Filosof tökərək ağıllı tədbir,
Gizli hesabları söylədi bir-bir.
cavan ki, öyrəndi o tədbirləri,
Min təşəkkür edib, qayıtdı geri.
Rahatlıq eylədi o bir neçə gün,
Düşündü nə yolla açılsın düyün.
- Düşməyim daşlıqda dara, əngələ, -
Deyə, nə lazımsa gətirdi ələ.
Ulduzlardan saat xoşladı cavan,
Ta ki, çətin yolu eyləsin asan.
Tilsimlər dağıdan hər cürə tədbir
Əliylə düzəldi, yarandı bir-bir.
Kəramət əhlinin yanına getdi,
Kömək arzuladı, məqsədə yetdi.
Al geydi, al qana ələmətdi bu,
Zamana zülmündən şikayətdi bu.
Elə ki yeridi qanla ümmana,
Geyimi gözütək boyandı qana.
Buraxdı özünün arzu-kamını,
Alsın ölənlərin intiqamını.
- Özümçün deyildir bu zəhmət, - dedi.
- Qısasçın çəkirəm əziyyət, - dedi.
- Ya açıb tökərəm bu çənbərləri,
Ya ölləm, dönmərəm salamat geri.
Batınca bu yolda libası qana,
Alıb qılıncını çıxdı meydana.
Elə ki, bu işdən tutdular xəbər:
İntiqam almağa gedir şiri-nər,
Uzatdılar ona kömək əlini
Ki, gətirsin ələ öz əməlini.
Ona el hümməti, fikri yar oldu,
Əynində poladdan bir paltar oldu.
Sonra şah yanına həmən gedərək,
İcazə istədi, rica edərək.
- Durma, gəldim, - dedi, - ey gözəl pəri!
Saldı bir-bir işə o, tədbirləri.
Bir əfsun oxudu, üflədi, saçdı,
Qırdı tilsimləri, azad yol açdı.
Hasardan götürdü tez duzaqları,
Sökdü peyvəndləri, sirli bağları.
Gizli çənbərləri götürdü, aldı,
Birbəbir tulladı, quyuya saldı.
Qırdı tilsimləri, hər gizli şəmşir
Çıxdı əllərində yoxa birbəbir.
Hasarın önünə tez gəldi, durdu,
Qaldırıb ağacı təbilə vurdu.
Qala çevrəsində səsi gəzincə,
Zirzəmi qazıyıb dəlik sezincə,
Bu səs zirzəmiyə bir açar oldu,
Göründü darvaza, aşikar oldu.
Onun bu işindən xəbər tutaraq,
Elçilər yolladı gözəl ayqabaq.
Dedi: - Ey sökükdən yol tapan oğlan,
Tale məqsədinə olsun pasiban.
Nə ki tilsim vardı, sən kənar etdin,
Xəznə qapısına gəlib də yetdin.
Axar sular kimi yönəl, şəhrə get!
Bacarsan iki gün tələsmə, səbr et!
Atam sarayına mən də gələrəm,
Hünərini bir də sınaq eylərəm.
Dörd gizli sirdən eylərəm sual,
Versən cavabımı, desən, budur, al,
Onda dostluğumuz gələr meydana,
Gülər vüsalımız, ölər bəhana.
Qəhrəman gördü iş düşür əncama,
Getdi söz demədən o güləndama.
Şəhər qapısına elə ki, çatdı,
Uzadıb əlini şəkli qopartdı.
İpəyi bükərək tapşırdı qula,
Yaxşılıq dirildi, məhv oldu bəla.
Dolanıb ətrafı, qanlı daşları,
İplərdən endirdi bütün başları.
Hamı "əhsən!" dedi o gənc qoçağa,
Ölənlər gömüldü soyuq torpağa.
Min şükürlə evə eylədi övdət.

Gəldi çalğıçılar, başlandı işrət.
Başına atdılar varlılar şabaş.
Zərif töhfələrlə bəzəndi dam-daş.
Bir-bir and içdilər dedilər: "Hərgah.
Razılıq verməsə bu vüsala şah,
Məhv eləyək onu, salaq torpağa,
Qoy bu olsun bizə hökmdar, ağa.
O, kəsdi zülm ilə hey başımızı,
Bu qoymadı axa göz yaşımızı".
Gülüzlü dilbərsə coşub çağladı,
Oğlanın eşqinə əməl bağladı.
Gecə çevrilərək çinli əttara
Ayın dövrəsinə muşk çəkdi qara.
Qızsa kəcavəyə əyləşdi, təkdi,
Ay qaravaş kimi kəcavə çəkdi.
Gəldi barigaha dağdan enərək,
O gəlincə saray açdı gül-çiçək.
Şah görüncə onu döndü bir gülə,
Qız açdı sirrini gələrək dilə.
Dedi hər gördüyü yaxşı-yamanı,
Halından danışdı şaha dastanı:
- Hər kim ki, yıxıldı köhlən atından,
Quyu qazdı, oldu öz həyatından.
O mənim adımı çəkən pələnglər
Baş qoyub bu yolda oldular hədər.
Ən axırda gəldi bir gənc şahzada,
Yalnız o cəlb etdi məni dünyada.
Gəldi cəsarətlə, gəldi dağ kimi,
Qırdı tilsimləri çürük bağ kimi.
Başa yetirincə şanlı səfəri,
Pozmadı qoyduğum bütün şərtləri.
Dörd şərtdən üçünə eylədi əməl,
Görək dördüncünü edəcəkmi həll?
- Dördüncü şərt nədir? - Sual etdi şah, -
O şərtindən elə bizləri agah,
İyirmi yox qoyar bir şərt hər gözəl.
Şirin dodaqlı qız dedi əlbəəl:
- Mənə yar olarsa bu işdə iqbal,
Verərəm igidə dörd çətin sual.
Bu çətin suala eylərsə əlac,
Qoyulsun başına layaqətli tac.
Yorulub bu yolda qalsa ulağı,
Qursun istədiyi yerdə çardağı.
Sonra təklif etdi: - Olunca sabah,
Yerlyib əyləşsin taxtında padşah,
cavan şahzadəni eyləsin dəvət,
Mən də gizlənərəm pərdədə xəlvət.
Örtülü suallar soraram ondan,
Cavab versin mənə bacarsa cavan.
Şah dedi: - Razıyam, mehriban balam,
Sənin işlərindən xeyli xoşhalam.
Bu sözə əlavə sanma etdilər,
Qalxaraq yatmağa dərhal getdilər.
Mina rəngli tağ ki üzünü açdı,

Səhər yaqut tozu daşlara saçdı.
Kəyan qaydasıyla məclis qurdu şah,
Bəxti əl bağlayıb dayandı gümrah,
Gəldi sözü, özü doğru qonaqlar,
Şanlı qəhrəmanlar, dönməz qoçaqlar.
Göründü şahzadə, dillər açıldı,
Başına gövhərlər şabaş saçıldı.
Bəzəkli süfrələr saldırınca şah,
Min bir yeyintidən doldu barigah,
Nə deyim məclisin bu növrağına,
Çevrildi süfrələr arzu bağına.
Xörəkdi hər yanda, yeməkdi sol-sağ,
Yedi istəyincə, yedi hər qonaq.
Elə ki qarınlar dolduqca doldu,
Gözlərdə kainat tərtəzə oldu.
- Bu xas məclisimdə, - şah dedi, - gərək
Saf zəri məhəklə imtahan edək.
Taxta əyləşdirdi cavan qonağı,
Durub tərk eylədi sonra otağı,
Oturdu qızıyla özü üz-üzə,
Görsün necə başlar oğlanla sözə.
Tərəz gözəlləri dərs almış ondan,
Oyuna başladı pərdə dalından.
İki lö-lö üçün uzadaraq əl[226],
Tanasından alıb verdi o gözəl.
Dedi xəznədara: - Qonağa yetir,
Verilən suala cavab al, gətir.
Xəznədar qonağın yanına getdi,
Ona verilmişi tez təqdim etdi.
Alaraq əlinə cavan qəhrəman
Götür-qoy eylədi, baxdı bir zaman.
Özü gətirdiyi cavahirlərdən
Qoydu üstlərinə üçünü birdən.
Uzadıb əlbəəl dürrü verənə,
Gözəlin özünə göndərdi yenə.
Lö-löü beş dənə görüb qələmqaş
Çəkdi tərəzidə qoyub gözə daş.
Artıq-əskik görüb, mənanı sezdi,
Daş alıb toz kimi onları əzdi.
Üstünə bir ovuc şəkər ataraq,
Sonra da onları alıb qataraq,
Verdi ki, qonağa elçi yetirsin,
Belə bir suala cavab gətirsin.
- Mənə süd veriniz, - gənc dərhal dedi,
Qatıb südlə tozu verib, - al, - dedi.
Xidmətçi xanımın yanına getdi,
Verilən sovqatı tez təqdim etdi.
Göndərilən südü qız içib durdu,
Dibində qalanı xəmir yoğurdu.
Tərəzidə çəkdi, keyfi saz oldu,
Əvvəlkindən nə çox, nə də az oldu.
Bu dəfə götürüb o pəricamal
Bir üzük yollayıb, eylədi sual.
Oğlan alan kimi baxıb yoxladı,





Taxdı barmağına, əziz saxladı.
Dürr verdi dünyanı işıqlandıran,
Nurlu səhər kimi çıraq yandıran.
Hurinəsil kəniz dönərək yenə
Yetirdi tək dürrü nadir lalinə.
Onu yoxlayaraq möhtəşəm pəri
Açdı saxladığı düyünçələri.
Bu dürrün tayını axtardı, gəzdi,
Var bir şəbçırağı çox nurlu, sezdi.
Götürüb onları çəkdi bir telə,
Belə bənzəyişi görən yox hələ.
Elçi verdi dürrü öz dəryasına,
Yetirdi günəşi Süreyyasına.
Ağıllı gənc baxdı nə qədər, düzü,
Ayıra bilmədi fərq edən gözü.
Baxdı, istəyincə suluydu onlar,
Rövnəqlə, şəfəqlə doluydu onlar.
Qulamlara dedi: - Göy muncuq verin!
Bu muncuq deyildi tayı dürlərin.
Onların üstünə muncuğu qoydu,
Sonra: - Apar, - dedi, cavabı buydu.
Qız dürrü, muncuğu alıb görüncə,
Öpdü o muncuğu və güldü incə.
Dürr ilə möhrəni götürdü, baxdı,
Saldı qulağına, qoluna taxdı.
Dedi: - İşə başla, ata, taxta çıx,
Yetər naz etdiyim baxtımə artıq.
İqbalımdır ancaq havadar mənə,
Qismət oldu belə igid yar mənə.
Mən seçdim özümə belə bir əri,
Tapılmaz ölkədə heç bərabəri.
Biz bilik sevənik, bu ki, əyandır,
Mən ürfan gölüyəm, o, bir ümmandır.
Şah çox maraqlanıb bu hekayətdən,
Dedi: - Ey mələyim, heyrətdəyəm mən,
Sizdən eşitdiyim bu sual-cavab
Xeyli pərdəlidir, eylə gəl savab,
Gizli oyunları, durma, hünər saç,
Ata qarşısında bircə-bircə aç!
O qız bəslənmişdi razü niyazla,
Açdı düyünləri söylədi nazla.
Dedi: - İtilədim huşumu əvvəl,
Sonra da sırğama dərhal atdım əl.
Açıb yollayaraq belə dedim mən:
"Həyat iki gündür, vermə əlindən!"
Üç də üstə gəlib dedi: "Azdır, az,
Həyat beş də olsa, yenə də çatmaz".
Mən şəkər artırıb həmən dürlərə,
Əzib qarışdırdım dərhal bir yerə.
"Şöhrətlə birləşmiş, - dedim, - bu ömür,
Necə ki, qarışmış şəkər ilə dürr.
Kimya və əfsunla kimdə var hünər,
İş görsün, aynısın dürlərdən şəkər".
O südü gətirib araya saldı,

Şəkər tez əridi, dürr isə qaldı.
Dedi ki: "Qarışan dürr ilə şəkər
Ayrılar, bir damcı süd olsa əgər".
İçərək südünü piyaləsindən,
Dedim: "Südəmərəm qabağında mən.
Bir üzük yollayıb dedim bəyənsən,
Mənim xoşladığım ər elə sənsən".
Bir gövhər yolladı, dedi: "Gözəl ay,
Bu gövhərtək mənə tapılmaz heç tay".
Açdın düyünçəni, bir gövhər aldım,
Onun sovqatına bərabər aldım.
Yolladım tayını, aradı, gəzdi,
Yoxdur üçüncüsü dünyada sezdi.
Göy muncuq gətirib o cavan ələ,
Göz dəyməsin deyə qoşdu o lələ.
Möhrəni yanımda saxlamaqla mən
Möhrünə razılıq verdim ürəkdən.
Sevgisinin möhrü sinəmdə yaşar,
O möhürdür gizli sinəmə açar.
Elə ki beş sirri mən işə saldım,
Sanki şah önündə beş növbə çaldım.
Şah gördü harın at olmuş xeyli ram,
Xam qamçı üzündən artıq deyil xam.
Toy etdi, gözləyib dəbi, adəti,
Yaxşı büsat qurdu, pozmadı şərti.
Şah toy məclisində saçırdı şəkər,
Zöhrəylə Süheylə kəbin kəsdilər[227].
Bir məclis yarandı cənnətdən gözəl,
Bürüdü hər yanı ətri əlbəəl.
Şah toy məclisinə min bəzək vurdu,
Sərvi gül yanında qoyub da durdu.
Oldu bir-birinə onlar mühəvvəl[228],
Şah getdi, olmadı məclisə əngəl.
Ləl arayan yetdi lələ, mərcana,
can alan qız çatdı gözəl bir cana.
cavan öpdü qızın gül dodağını,
Gah əmdi narını, gah buxağını.
Axırda almazı dürrə toxundu,
Laçını kəkliyin üstünə qondu.
Gördü taxmış qola muncuğunu yar,
Sərxoş gözlərində məhəbbət oynar.
Əyləndirdi onu gözəl şah qızı,
Paltarı üzütək oldu qırmızı.
Al geyimlə yetdi kama o cavan,
Al rəng oldu ona xeyirdən nişan.
Al geyib zülmətdən, çıxdı bu minval,
Bu gündən bəzəyi onun oldu al.
Geyindi qırmızı, yaşadı gümrah,
Ona ad verdilər: Al geyimli şah.
Al təzə bəzəkdir qəlbə, əziz tut,
Hər zaman bahadır qırmızı yaqut.
Zər qırmızı kükürd adını aldı,
Qırmızı geyməklə adı ucaldı.
Qan ki ruhumuza qarışıb yaşar,

canın bu lütfündə qırmızılıq var.
Ey insan oğlunda yaxşılıq gəzən,
Əsl yaxşılığı al rəngdə bil sən.
Qızılgül olmasa qırmızı hərgah,
Güllərin içində sayılmazdı şah.
Qızın hekayəti yetişdi sona,
Qızılgül ətrini saçdı hər yana.
Onda ki, qızılgül ətrafı sardı,
Bəhramın mey kimi üzü qızardı.
Tez o qızılgülə əlini atdı,
Alıb qucağına naz ilə yatdı.

### BƏHRAMIN ÇƏRŞƏNBƏ GÜNÜ FİRUZƏ RƏNGLİ GÜNBƏDƏ GETMƏSİ VƏ BEŞİNCİ İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Çərşənbə günündə qönçə açdı gün
Firuzə rənginə döndü göy bütün.
cahan firuzədən nur alan kimi,
Firuzərəng oldu şahın geyimi,
Firuzə günbədə eylədi pərvaz,
Hekayə çox uzun, günün ömrü az.
Gecənin yaşmağı göyləri sardı,
Əyanlar əlindən Bəhram qurtardı.
İstədi, əfsanə söyləyən gözəl,
Xanımlıq rəsminə eyləsin əməl.
Eşq ilə coşan o sevimli canan
Başlasın ürəklər oxşayan dastan.
Açdı qönçəsini ucaboy ərər,
Gülün yarpağına səpdi, qənd, şəkər.
Dedi: - Ey hökmünə göylər qul olan,
Səadət ulduzu qeydinə qalan,
Öpüb kandanını olmuşdur əziz
Mən və mənim kimi min gözəl kəniz.
Orda ki bal axar, tutar dörd yanı,
Xoş düşməz açılsın sirkə dükanı.
Şahın buyurduğu bir fərman demək,
Yorucu olsa da söyləyim gərək.

### MAHANIN HEKAYƏSİ

Misir ölkəsində bir şəxs yaşardı,
Onun aydan gözəl bir üzü vardı.
Misrin Yusifinə bənzər camalı,
Min qarət eylərdi hər gözəl xalı.
Mahandın şöhrəti, əziz dostları
Gəzərdi onunla xoş çəmənzarı.
Onlar göy altında süfrə sərərdi,
Çalğıya, nəğməyə könül verərdi.
Kimi ev bəzərdi, kimi bağça-bağ,
Deyərdi: - Ey Mahan, ol mənə qonaq.
Xeyli adlı-sanlı biri bir dəfə
Apardı Mahanı bağına keyfə.

Bağ nə qədər şirin, lətif çəməndi,
Dostlar ondan daha lətifdi, şəndi.
Orda gecəyədək gün keçirdilər,
Meyvə yeyirdilər, mey içirdilər.
Hər yanda qurulub bir şadlıq, büsat,
Yeməklər gəlirdi saatbasaat.
Gecə müşkdən bir ələm çəkəndə,
Qır alıb gümüşə qələm çəkəndə[220],
Onlar keyf edirdi səfalı bağda,
Piyalələr, əldə, nəğmə dodaqda.
Vurulub baxçaya, sözə, söhbətə,
Könül bağladılar eyşü-işrətə.
Boyadı göyləri ayın işığı,
Belə gecələrin gündüz aşiği.
Mahanın qızışdı şərabdan başı
Gördü axan suyu, ayı, dağ-daşı.
Bağın dövrəsini dolandı getdi,
Sonra xurmalığa boylandı getdi.
Gördü ki, bir nəfər gəlir uzaqdan,
Ona çox tanışdı bu gələn insan.
Bir az diqqət edib tanıdı, bildi,
Gələn şərikiydi, özgə deyildi.
Dedi: "Bəs bu zaman nə üçün, nədən
Özünlə qul, nökər gətirməmisən?"
O dedi: "Uzaqdan indi gəlmişəm
Sənsiz nə səbrim var, nə dincəlmişəm.
Hədsiz bir qazancla qayıtmışam mən,
Yeri var təşəkkür əgər edəsən.
Gecikdim, bağlandı şəhrin qalası,
Gecəni düzlərdə oldum qalası.
Bildim qonaq edib dostun siziləri,
Gəldim, çətin deyil qayıtmaq geri.
Pis olmaz mənimlə sən getsən əgər,
Ağa kənddə olsa, işlər düz gedər.
Xeyrin bir payını bu zülmət gecə
Asanca vergidən sallıq gizlicə".
Mahan bu xəbərdən ləzzət alınca,
Düşdü yoldaşının dərhal dalınca.
Doqqazı açdılar, xəlvət keçdilər,
Görmədi onları əsla bir nəfər.
Gecə lal getdilər dərin sel kimi,
Yürüdülər qoşa - əsən yel kimi.
Şəriki qabaqda çapır durmadan,
Toz kimi ardınca sürünür Mahan.
Yolun uzunluğu hesabdan keçdi,
Düşüncənin oxu nişandan keçdi.
Mahan dedi: - Bizdən uzaq olsa Nil,
Çox deyil, zənnimcə, olar bircə mil.
Biz dörd mil getmişik, bəlkə çaşmışıq,
Dairə xəttini keçib aşmışıq.
Sonra fikr elədi: sərxoşam, düzü,
Bəzən əyri görər keyflinin gözü.
Lakin bu yoldaşım qazdan ayıqdır,
Həm yola bələddir, həm də sayıqdır.





Belə gedirdilər o iki yoldaş,
Birisi sürətli, birisi yavaş.
Dalda gedən yoldaş qaldıqca geri,
Deyirdi öndəki: - Yeyin ol, yeri!
Getdilər, getdilər, oturmadılar,
Dan yeri ağardı, bir durmadılar.
Xoruz qanad çaldı ağarınca dan,
Gecənin dimağı qaldı xəyaldan.
Boş-boş xəyallara qapılan adam
Bir anda xəyaldan ayrıldı tamam.
Mahanın yoldaşı itdi gözündən,
O çaş-baş az qaldı getsin özündən.
Sərxoşluq, yorğunluq beynini qatdı,
Davam gətirmədi, yıxıldı yatdı.
Axdı göz yaşları yanan şamsayaq,
Gün yarıya gəldi, oyanmadı, bax.
Günorta yandırdı günün atəşi,
diyarından bədtər odlandı başı.
Gözünü açınca tez yola baxdı,
Gah sağa boylandı, gah sola baxdı.
Gül gəzdi, nə bir gül, nə də bağ gördü,
Qəlbinə çəkilmiş min bir dağ gördü.
Ona mənzil oldu mağara, inan,
Bir əjdaha idi orda hər ilan.
Yoxdu ayağında gücü, qüvvəti,
Lakin getmək idi fikri, niyyəti.
Getdi, ayağına qüvvət verən yox,
Bələdçilik edən, yol göstərən yox.
Gecə şahı, çadır qurana qədər[230],
Mahan kölgəsindən duydu yüz xətər.
Axşam saçdı göyə qara telləri,
Bürüdü dünyada zülmət elləri.
Bir kaha ağzında yıxıldı Mahan,
Hər ot gözlərində oldu bir ilan.
Huşsuz uzanırdı o qucub yeri,
Gəldi qulağına ayaq səsləri.
Gördü iki nəfər yollanıb gedir,
Birisi arvaddır, biri kişidir.
Hərənin dalında bir ağır şələ,
Yavaş addımlarla gedirlər çölə.
Kişi yol üstündə görüncə onu,
Gəldi soruşmağa kim olduğunu.
Dedi: - Kimsən, nədən yerdədir başın?
Kimdir həmnəfəsin, kimdir yoldaşın?
O dedi: - Nabələd, qərib insanam,
Adımı el bilir, huşyar Mahanam.
Dedi: - Söylə görüm, sən, ey biçara,
Necə düşdün belə xarabazara?
Divlərin yeridir bu dağ, bu dərə,
Aman verilməyir burda şirlərə.
Mahan dedi ona: - Kişi, sən tan,
Mərdlik eyləyib ol can xilaskarı.
Xoşluqla düşmədim buraya mən, bil,
İnsanam mən, divin heç yeri deyil.

Dünən keyf edirdim, damağı çağdım,
İrəm bağçasında əziz qonaqdım.
Gəlib yaxınlaşdı mənə bir adam,
Dedi şərikinəm, dostlarındanam.
Məni o cənnətdən buraya saldı,
Günəş çıxan zaman gözdən yoxaldı.
Göstərdi yoldaşım, əlbəttə, qəflət,
Ya səhv eləmişdir, ya da xəyanət.
Yaradan eşqinə, sən adamlıq et,
Yol göstərib mənə, imdadıma yet!
Kişi söylədi ki: - Ey gözəl cavan,
Şükr et ki, ölümdən xilas olmusan!
O, divmiş, insantək görünmüş sana,
"Çöllərin hayili" deyilir ona.
Şərikinəm demiş o sənə qəsdən,
İstəmiş canını alsın əlindən.
O çox insanları yoldan azdırmış,
Çox sənin kimiyə qəbir qazdırmış.
İnsanıq, atmarıq çöldə biz səni,
Saxlarıq bu gecə ikimiz səni.
Gəl, gir ortalığa, unut qəmini,
Bizimlə bərabər at qədəmini.
Bələdçilər yanda, ortada Mahan,
Mil-mil yol getdilər, bir xeyli zaman.
Sübh açıldı yenə, gedirdilər lal,
Bəli, gedirdilər onlar bu minval.
Xoruz nağaratək səs-səsə qatdı,
Səhər zər təbili dərəyə çatdı[231].
Açarsız zindana döndü o dostlar,
Gözdən işıq kimi söndü o dostlar[232].
Mahanın qalmadı güc dizlərində,
Yorulmuşlar kimi qaldı yerində.
Gündüz işığını göylərdə yaxdı,
Gecənin al qanı torpağa axdı.
Çıxdı qarşısına silsilə dağlar,
Bu yerdə pələnglər tutmuşdu qərar.
Zərrə qalmamışdı tabı, tavanı,
Əfsus, ah olmuşdu yağlı-yavanı.
Otlardan, köklərdən nə tapsa Mahan
Çarəsiz qalaraq yedi acından.
Onun dayanmağa yoxdu təhəri,
Yeridi, qalmadı yolundan geri.
Gün batdı, ay doğdu, o dağlar aşdı,
canından, dünyadan o təng dolaşdı.
Zülmət bürüyüncə bu ağ dünyanı,
Yenə də yolçunun ağrıdı canı.
Girib mağaraya yuxuya getdi,
İnsandan özünü orda gizlətdi.
Səs duydu, dedi ki: "Bu səs nə ola?"
Çıxdı mağaradan, göz dikdi yola.
Gördü ki, bir atlı tufan qoparır,
Yedəkləyib sürür, bir at aparır.
O gəlib Mahana etdi tamaşa,
Gördü ki, bir nəfər qısılıb daşa.

Atları sürətlə sürən o adam
Dayanıb, etmədi yoluna davam.
Dedi: - Ey fitnələr, fellər yoldaşı,
Kimsən, nə gəzirsən belə dağ-daşı?
Sirrindən etməsən xəbərdar məni,
Bu saat qanına boyaram səni!
Mahan saralaraq oldu zər kimi,
Durdu tum səpməyə kəndlilər kimi[233].
Dedi ki: - Yel kimi yol gedən igid,
Gör nələr çəkmişəm, qulaq as, eşit.
Dedi o yolçuya, dedi hər nə var,
Nələr bilirdisə gizli, aşikar.
Axırda qurtardı qəmli əhvalat,
Əlini dişləyib çapar qaldı mat.
Dedi: - Lahövl oxu, özünə bir an[234]
Ölümdən, dəhşətdən ey nicat tapan!
cindir söylədiyin o arvad, kişi,
İnsan azdırmaqdır onların işi.
Tökərlər kahada adam qanını,
Qaçarlar eşidib xoruz banını.
Dişisi Niladır, kişisi Kila,
İşləri pislikdir, işləri bəla.
Şükr et, qurtarmısan əllərindən sağ,
Qorxma, hünərli ol, ata min, qaçaq.
Atları, fürsət tapaq zalim zamandan,
Dilini qısa et yaxşı-yamandan.
Ardımca bu atı sür dönüb yelə,
Gətir ürəyində Allahı dilə.
Mahan ki, küsmüşdü ömrə, həyata,
Sustalıb qalmışdı, tez mindi ata.
Keçdi at çaparaq geniş çölləri,
Qoydu arxasında əsən yelləri.
Bir qədər getdilər, dırmanıb yala,
Qorxulu yerləri qoydular dala.
Durub bir təpədə baxdılar düzə,
Göründü göy çəmən oradan gözə.
Qalxırdı göylərə xanəndə səsi,
Bərbətin naləsi, rudun naləsi.
Buradan "Gəl" deyib çağırırdılar,
Oradan "Nuş olsun" bağırırdılar.
Səbzə, gül yerinə bu çöl, bu dərə
Olmuşdu hay-küylü məskən cinlərə.
Divlərin əlindən gələrək zara,
Dağ çölə sığınıb, çöllər dağlara.
Minlərlə div minib divin dalına,
Çöl matdır onların qeylü-qalına.
Torpaq sovururlar dönüb tufana,
Oxşarlar zəliyə, qara ilana.
İş gəlib yetişdi elə bir yerə
Ki, hay-küy sədası qalxdı göylərə.
Hamı çəpik çaldı, gəzdi, oynadı,
Hay-küydən başlarda beyin qaynadı.
Çığırtı hər yeri bürüdü, aldı,
Getdikcə ucaldı, daha çoxaldı.

Bir qədər keçmədi, çölü əlbəəl
Bürüdü minlərlə alovlu məşəl.
Sonra da dəstələr gəldi bədheybət,
Kənardan baxanı alırdı dəhşət.
Gəldi zəncir kimi sallaqdodaqlar,
Qətrandan geyimlər, qırdan papaqlar.
Xortumlu, buynuzlu bir yox, beş deyil,
Sanki birləşmişdi öküz ilə fil.
Zəbanilər kimi sərxoşdu hamı[235],
Əlləri məşəlli, çirkin əndamı.
Saçır ağızları alov dörd yana,
Hamı beyt oxuyur, vurur şax-şana[236].
Elə bir çalhaçal işə salırlar
Ki, bütün dünyanı ələ alırlar.
Oynayır Mahanın altında at da,
Belə vurhavurda, belə büsatda.
Mahan göz dikdi ki, baxıb görsün at
Nə üçün altında açıb qol-qanad?
Gördü altındakı dərddir, xətərdir,
Mindiyi at deyil, qızğın əjdərdir.
Dörd ayağı vardı, iki qanadı,
Yeddi başı görcək ağlı oynadı.
Halqa kimi bizi bürüyən fələk
Yeddi baş əjdərdir, heyrət nə demək?[237]
cəhənnəm əjdəri belində Mahan,
Möhkəm sanılmışdı ona qorxudan.
Qəribə bir oyun oynayırdı div,
Min hala düşürdü, qaynayırdı div.
Döyür ayağını kinlə torpağa,
Açılır, bükülür, dönür yumağa.
Qüzeydə bəslənən bir çöpdü Mahan,
Qatıb qabağına sel onu dağdan
Çapırdı, çırparaq o yan, bu yana,
Əziyyət verirdi əzgin insana.
Qaçıb sərxoş kimi o baş, bu başa
Vururdu xəstəni torpağa, daşa.
Qalxırdı yerindən bəzən dağ kimi,
Oynadırdı onu oyuncaq kimi.
Sübh açılıb xoruz banlayanadək
Mahanın başına açdı min kələk.
Səhər şir ağzında nəfəs alınca,
Əjdaha Mahanı yerə salınca,
O vurhavur gəlib axıra çatdı,
Qara qazanların qaynarı yatdı.
Elə ki əjdaha itdi gözündən,
Cin vurmuşlar kimi getdi özündən.
Düşdü yol üstündə soyuq torpağa,
Döndü ölüb gedən sarı yarpağa.
Günəş qalxmayınca göyün üzünə,
Gəlmədi xəstəmiz əsla özünə.
Elə ki beyninə isti yayıldı,
Ovub gözlərini xəstə ayıldı.
Başını qaldırıb tez baxdı düzdən,
Keçirdi ətrafı yaxşıca gözdən.





Gah solu seyr etdi, gah süzdü sağı,
Bir çöl gördü, yoxdur ucu-bucağı.
Əlvan torpağının mənzərəsi var,
Rəngi qıpqırmızı, özü od saçar.
Bir başı qılıncla vursalar əgər
Fərş salıb üstünə torpaq tökərlər.
Çöl bayraq qaldırmış: tökülsün al qan,
Odur qum səpdirmiş, fərş salmış əlvan.
Mahan çox çəkmişdi gecə zilləti,
Gəlincə yerinə huşu, qüvvəti,
Vəhşətlər əlindən qalxıb qaçaraq,
Qəmlilər yurduna qanad açaraq,
Zəhərli havadan o qorxa-qorxa
Dönüb tüstülərə, çıxırdı yoxa.
Elə gedirdi ki, hər atılan ox
Geridə qalardı, buna şübhə yox.
Axşam qaranlığı sinərkən qaşa,
Dolaşmışdı çölü o, başdan-başa.
Birdən axar sulu yer gördü Mahan,
Oldu qoca qəlbi bəxtəvər, cavan.
İçdi şirin sudan, yuyub üzünü,
Yatmaqçın bir yana verdi özünü.
Dedi: - Yaxşı olar bu gecə yatım,
Gecələr qanşır çünki ovqatım.
Məzacımda mənim sevda var, gerçək,
Havalar qupquru, yol kimsəsiz, tək[238],
Olmazmı bu yerdə qorxunc xəyallar?
Öldürməzmi məni vəhməli hallar?
Qoy yatım, verməyim yol xəyallara,
Bu gecə qoy məni basmasın qara.
Sonra yer gəzməyə durdu, tələsdi,
Rahat yataq üçün ürəyi əsdi.
Bir mağara gördü xeyli dərin, gen,
Bir lağım keçirdi onun içindən.
Lağımda min pillə dərin quyu var,
Kölgədən başqa kim ora yol salar?
Düşdü Yusif kimi quyuya dərhal,
Üzüldü qalmayıb varlığında hal,
Axır dəydi quma ayaqları tuş,
Çatdı yuvasına elə bil ki, quş.
Bu yeri qorxudan uzaqdı, duydu,
Əlini başının altına qoydu.
Ayıldı yuxudan olunca rahat,
İstədi yerini düzəltsin babat.
Quyu ətrafını gəzdi baxışı,
Zil qara ipəyə vurdu naxışı[239].
Dirəm boyda işıq o görən kimi,
Söyüd kölgəsində yasəmən kimi,
İşıq gələn yeri axtardı, gəzdi,
İşıq mənbəyindən bir nişan sezdi.
Gördü göy quyuda bir dəlik açmış,
Ay da o dəlikdən nurunu saçmış.
Bildi ki, göylərdə üzür ay, üzür,
Dəlikdən nurunu süzür ay, süzür.

Bir an dayanmayıb yaxına gəldi,
Qazdı dırnağıyla, deşik genəldi.
Böyüdüb deşiyi, söküb daşını,
Çıxarıb kənara Mahan başını,
Baxıb dövrəsinə gördü lətif bağ,
Hər tərəf gözəllik, hər tərəf parlaq.
Yenə də qazıdı, işlətdi hiylə,
Quyudan özünü çıxardı çölə.
cənnət qədər gözəl bir bağa gəldi,
İrəm bağından da bu bağ gözəldi.
O çəmən qoynunda var yüz mənzərə,
Baxdı şümşadlığa, sərvliklərə.
Meyvəylə doluydu o qədər ki, bağ,
Əyilmişdi yerə hər yaşıl budaq.
Hər tərəf meyvəydi, hər tərəf bardı,
can bağdan, bağ candan tazalanardı.
Al şərab camıydı sanki almalar,
Əqiq sandığına oxşayırdı nar.
Xoş ətir yayırdı heyva budaqdan,
Püstənin fərqi yox gülən dodaqdan.
Mən hələ demirəm bir yanı sarı,
Bir yanı qırmızı şaftalıları.
"Xəlifə lüqməsi" xəlvətə saldı[240],
canan dodağından üç öpüş aldı.
Armud şipşirindi, sanki şəkərdi,
İnnabın salxımı bənd-bənd gövhərdi.
İncir şirəsiylə badamın məğzi
Şirin halva ilə doldurub ağzı.
Görüb fərmanında qaranı, ağı,
Yanakı qoymuşdu tənək papağı[241].
Alov rəngli nardan, üzüm suyundan
Demiş ki, axmasın elə bil ki, qan.
Turuncun şaxları, narınc budağı
Başqa ağaclarla basmışdı bağı.
Bostan oxşayırdı bir oyunbaza,
Əlində hoqqalar rəngbərəng, taza[242].
Belə bir cənnəti görüncə Mahan
Dünənki cəhənnəm çıxdı yadından.
Əlini uzadıb qopardı hərdən,
Yedi istəyincə şirin bəhərdən.
İçdikcə içdi hey meyvə şirəsi,
Gəldi qulağına marçıltı səsi.
Mahan mat qalmışdı o meyvələrə,
Bəzən yeyir, bəzən atırdı yerə.
Qəflətən səs gəldi xeyli uzaqdan:
"Tez tutun oğrunu, qaçmasın bağdan!"
Özündən qəzəblə çıxmış bir qoca,
Əlində bir ağac xeyli canlıca,
Dedi: "Oğurlayıb, a meyvə dərən,
Gecə vaxtı bura gəlmisən, nədən?
Əlimlə göyərib çoxdandır bu bağ,
Gecə oğrusundan görməmişəm dağ.
Kimsən, əslin nədir? Muradın nədir?
Elin, nəcabətin, ya adın nədir?"

Belə sordu bağın qoca bağbanı,
Mahanın qurudu bədəndə qanı,
Dedi: "Mən, qəribə qurulub duzaq,
Zülm ilə düşmüşəm evimdən uzaq.
Sən ol qəriblərin istinadgahı,
Fələk desin sənə, qərib pənahı".
Görüb yalvarmağı, bu üzrü bağban,
Ona zülm etməyib, oldu mehriban.
Qoydu çomağını əlindən yerə,
Dedi: "Nədən düşdün müsibətlərə?
Nələr çəkdi başın, aç, bir-bir danış,
Elə macəranla bizi, gəl, tanış.
De, kim etdi zülüm, əziyyət sənə?
Pislik etdi hansı bədxislət sənə?"
Mahan gördü qoca ürək alandır,
Çox yumşaq adamdır, qeydə qalandır.
Nələr çəkdiyini söylədi bir-bir,
Açdı öz dərdini dinlədikcə pir,
Dedi: "Möhnətdəyəm, bil, gündən-günə,
Hər gecə bir əzab verirlər mənə.
Ümidim bağını qarlar alıbdır,
Baxtım gah ağarıb, gah qaralıbdır".
Quyudan, uğurlu çıraqdan dedi,
O zülmətdən sonra, bu bağdan dedi,
Başına gələni dedi, hər nə var,
Gizli macəradan etdi xəbərdar.
Mahan söylədikcə dərdli sözləri,
Heyrətlə açıldı onun gözləri,
Dedi: "Şükr eyləmək vacibdir bizə,
Zülüm dəryasından çıxmısan düzə".
Mahan sevdi onu bir yoldaş kimi,
Qayğılar bəsləyən bir qardaş kimi,
Soruşdu: "Haradır o mənhus diyar?
Kimlərdir oraya sahib-ixtiyar?
Dünən gördü başım qiyam-qiyamət,
Görməmişdim hələ bu cür fəlakət.
Beynimdən qopardı bir tüstü, ataş,
Bu od qığılcımdan verdi, bil ki, baş.
Div gördüm, unutdum özümü dərhal,
Məgər div görəndə qalar taqət, hal?
Düşmüşdüm onların yığıncağına,
Yüz mini çıxırdı göz qabağına.
Vururlar, yıxırlar yazıq insanı,
canavarın, divin yaxşısı hanı?
Zülmətin açan işıqdır ancaq,
Çox gözəl görünər qaranlıqdan ağ.
Mən qara üstündən min qara gördüm,
Gözüm qarasından yanıldı ödüm.
Avara qalmışdım, artıq, nə bilim,
Gözlərim yaşardı, qurudu dilim.
Gözümün əlindən ağlayırdım mən,
Bəzən gözlərimi bağlayırdım mən.
"Bismillah" deyirdim, bəzən "la hövlə"
Baxıb yan-yörəmə, düşürdüm yola.

Axırda yetişib çatdım nicata,
Zülmət təslim oldu abi-həyata.
Bir bağ tapdım - gözəl İrəm bağından,
Bağbanımın yağır nur qabağından.
Dünən kim verirdi fəlakət mənə,
Bu gün kim yetirdi səadət mənə".
Qoca söylədi ki: "Ey düşən oda,
Yenə də qovuşan, çatan nicata.
O gördüyün çöllər xeyli quraqdır,
Qorxulu divlərə qədim yataqdır.
Bu zənci sifətli çöllülər ki var,
İnsan yeyən divdir, insana oxşar.
Orada insanla əvvəl gəzərlər,
Aldadar, qorxudar, sonra əzərlər.
Doğru oxuyarlar, əyri çalarlar,
Əl tutar, quyuya sonra salarlar.
Divlərdə yol açar kinə məhəbbət,
Belədir onlarda əzəldən adət.
Bəzi divxasiyyət insanlar da var,
Adəm övladını yoldan çıxardar.
Dünyada bir neçə əbləh var, düzü,
Gülər əbləhlərə əbləhkən özü.
Yalana doğrudan pərdə tutarlar,
Bəzən də ki bala zəhər qatarlar.
Sönükdür hər zaman yalan xəyallar,
Yalnız həqiqətdə ölməz qüvvə var.
Həqiqət açarı əbədiyyətdir,
Onunla seçilir möcüzdən sehir.
Sadədil olmusan görünür, əslən,
Belə oyunlara tutulmusan sən.
Düşdün acınacaq fitnə-fellərə,
Belə dağ çəkilər sadədillərə.
Qorxaqlığın səni xəyala saldı,
Xəyal hücum edib bu hala saldı.
Zillətə düşməzdi başın, bu aydın,
Qorxacaqlıq edib yol azmasaydın.
Arxayın olsaydın, gəl, inan mənə,
Üz verməzdi belə xəyanət sənə.
Qurtardın canını div mənzilindən,
Dürd243 içdiyin yetər, saf şərab iç sən.
Bu gecə doğuldun sanki, qəm yemə,
Qaytardı Yaradan səni aləmə.
Başı barla dolu hər yaşıl budaq,
Qəlbimin qanıyla bəslənən bu bağ
Əlimlə yaranıb, çəkmişəm əmək,
Etiraf eyləyər bunu hər çiçək.
Əzəldən sevdiyim əməkdir, işdir,
Hər ağac bir bağdan gətirilmişdir.
Nə qədər versə də bağım az bəhər,
Varıyla yaranar yenə bir şəhər.
Üstəlik dopdolu anbarlarım var,
Qızılım, gövhərim, dərya varım var.
Ancaq hayıflar ki, yoxdur bir balam,
Hər ona baxanda min fərəh alam.





Görüb kamalını coşdum, çağladım,
Sənə könül verdim, ümid bağladım.
Razı olsan əgər qədanı allam,
Bu varı, dövləti adına sallam.
Yaşarsan burada eyşü-işrətlə,
Günlər gəlib keçər nazü nemətlə.
Ürəyin istəsə bir gəlin əgər,
Alaram səninçin nazəndə dilbər.
Yaşaram qəlbimi bağlayıb sizə,
Əməl eyləyərəm istəyinizə.
Deyilən sözlərə meylin əgər var,
Əl ver, bu əhd üçün bağlayaq ilqar".
"Bu nə sözdür, - dedi ona tez Mahan,
Sərvə layiqmidir tay olsun tikan.
Dedin övladım ol, odur ki, mən də
Bu Tanrı lütfünə oluram bəndə.
Sevindirdin məni, yaşa sən də şad,
Ev-eşiyim oldu sayəndə abad".
Əl öpdü sevinclə gəlib həycana,
Əlini uzatdı qoca bağbana.
Möhkəm əl sıxdılar qocayla Mahan,
Əhd ilə, and ilə bağlandı peyman.
Dedi: "Ayağa qalx" əziz qonağa,
Alıb soldan onu, apardı sağa.
Bir saray göstərdi ucadan-uca,
Döşətmişdi yerə ipəklər qoca.
Eyvan bəzəyirdi bu yaşıl bağı,
Dəlirdi göyləri ucalan tağı.
Bəzəkli-düzəkli divan, daşı,
Gümüşlər işlədib sanki nəqqaşı.
Sahəsi genişdi, yuxarısı dar,
Qol-budaq atmışdı sərv, söyüd, çinar.
Qapının elə bir dəsgahı vardı,
Göy belindən öpüb heyran baxardı[244].
Kəyani eyvanın meydanında bir
Şax-budaqlı səndəl göyləri dəlir.
Budaq bəzək salıb budaq üstünə,
Yaraşıq əks edir torpaq üstünə.
Orada qiymətli taxtadan qoca
Qurmuşdu bir taxt ki, möhtəşəm, uca:
Fərşi pambıqdan da yupyumşaq kimi,
Gözəl ətir saçan göy yarpaq kimi.
Pir dedi: "Ağaca dırman olsan ac,
Yeməyə, içməyə duysan ehtiyac,
Asılmış budaqda sərin su, çörək,
İstədiyin qədər götür, al yemək.
Səninçin hazırlıq görməyə gedim,
Yaxşı bir otaqda sənə yer edim.
Gec gələrsəm əgər, yolumu gözlə,
Aşağıya enmə, gözlə dörd gözlə.
Kimdir ağacdakı soruşsa hər kəs,
Əsla vermə cavab, heç çıxarma səs.
Mən də gəlsəm əgər yoxla, yaxşı bax,
Tanıdıqdan sonra yaxına burax.

Baş tutsa əhdimiz bu yolda, əlbət,
Süd ilə bal kimi qovuşsa söhbət,
Bu ev öz evindir, bu bağ sənindir,
Yuvam səninkidir, öz məskənindir.
Bu gecə pis gözdən qorunsan əgər,
Rahatca yatarsan başqa gecələr".
Qoca etdi ona öyüd, nəsihət,
And verdi çıxmasın sözündən əlbət.
Qayışdan bir uca nərdivan vardı,
Səndəl ağacına bağlı durardı.
Pir dedi: "Qayışa cila çəkincə,
Qayışbaldırlıq et, gəl, sən bu gecə.
Qaldır nərdivanı, yerdə qoyma, çək,
Başına açmasın bir nəfər kələk[245].
Belinə dolasan bu axşam ilan,
Səhər xəzinəylə oynarsan, inan.
Gecə yetişdisə halvamız əgər,
Baxma zəfəranı görünər səhər.
Gecə armud yesən boğazın göynər,
Gülərüzlü nara yetərsən səhər".
Qoca deyib bunu hərəkət etdi,
Qonağına bir yer seçməyə getdi.
Dırmaşdı ağaca Mahan da birdən,
Uca nərdivanı qaldırdı yerdən.
Oturub ağacda ətrafa daldı,
Zirvələr ayağı altında qaldı.
Ənbərlərlə dolu köşkündə Mahan
Şimal nəsimitək saçırdı reyhan.
Açıb süfrəsini o yavaş-yavaş
Yedi sarı çörək, yedi ağ lavaş.
Şimalın yeliylə bəslənən sudan
Qaldırıb başına çəkərək, Mahan
Rumibəzək taxta oturub qaldı,
Çini döşəkçədə rahatlıq aldı.
Basdıqca oranı kafur qoxusu,
Ondan uzaqlaşdı sevda qorxusu.
Dirsəklənib baxdı, gözəldi axşam,
Gözünə göründü tez iyirmi şam.
Hər pəri əlində tutmuş bir işıq,
Mahan gəlinlərə kəsildi aşiq.
Bunlar pəri deyil, on yeddi soltan,
On yeddi oyunu çalmışlar aydan[246].
Özünə vermişdi bərbəzək hərə,
Bürünmüşdü gülə, şirin şəkərə.
Əllərində şamlar çatdılar bağa,
Üzləri bənzərdi nurlu çırağa.
Məclis düzəltdilər gözəl, şahana,
Süfrələr saldılar geniş meydana.
Şam şamın yanında, məclis gözəldi
Şahlıq sevinc ilə üz-üzə gəldi.
Onların başçısı bir gözəl pəri,
Qızıl taclarının parlaq gövhəri
Tez gəlib oturdu öz məkanında,
Gözəllər əyləşdi onun yanında.

Quş kimi ötdülər, şur salıb bağa,
Quşlar səslərinə endi torpağa.
Mahan da məst oldu, süzüb onları,
Ayın da qalmadı səbri, qərarı,
Mizrab vurmadaydı sanki ayaqlar,
Əl çalan əllər də xaniman talar.
Yel əsdi, düzəldi dastan əlüstü,
Turunc məmələrin açıldı üstü.
Sevda vurmuş gecə səpirdi şəkər,
Səndəli turunca qatırdı yeksər.
O şən turuncların qəmiylə Mahan
Səndəl sürtmədəydi baxıb uzaqdan.
Yüz tədbir tökdü ki, etsin bir çara,
Özünü yetirsin bəlkə onlara.
Huri saçlarını istədi hörsün,
Qiyamət görmədən cənnəti görsün.
Düşdü xatirinə nə demişsə pir,
Çəkdi çılğınlığın bağını bir-bir.
Gözəllərsə yenə süzür, süzürdü,
Hər oynayan pəri bir can üzürdü.
Belə şadlıq edib, deyib çaldılar,
Sonra məclis qurub, süfrə saldılar.
Ləl ilə dürr idi tamam o süfrə,
Dürr lələ qarışmış, ləl isə dürrə.
Su və od görməmiş dadlı yeməklər,
Müşkdən, gülabdan saçırdı ənbər.
Üstü zəfəranlı xoş zirə aşı[247],
Narplov, aş demə, aşların başı.
Tər bulğar quzusu, toyuq, yaş balıq[248],
Ləziz yeməklərlə doldu ortalıq.
Çörəklər, lavaşlar kafurdan da ağ,
Huri sinəsitək zərif, yupyumşaq.
Düzülmüş süfrədə halva yan-yana,
Nə mümkün bunları saymaq insana.
Hələ o külçələr, o yağlı fətir,
Onlardan ətrafa yayılan ətir.
Yoxdu bu məclisin əsla nöqsanı,
Yığıb gəlmişdilər bütün dünyanı...
Baş gözəl birinə dedi: "Əzizim!
Tezmi cüt olacaq təkimiz bizim?
Ud qoxusu gəlir, eylə hərəkət,
O xam səndəldəki uda tərəf get.
Uda bürünmüşdür o ud ətirli,
Səndəldən asılıb olmuş səndəli.
Qara udla sarı səndəldən gecə
Bir ud bəxş eyləmiş bizə gizlicə.
Onun xoş ətrindən məst oluruq biz,
Xoş xasiyyət olsa daha da əziz!
Görünür ağacda aşina bir kəs,
Bəsləyir qəlbində arzuyla həvəs.
Çağır ki, uyuşa cəlalımızla,
Ta gəlib oynasın xəyalımızla.
Gəlməsə, de, gəlsin, hazırdır süfrə,
Qoy o sevgimizi salmasın yerə.
Söylə ki, gözləyib qonağı, gözəl
Uzatmayacaqdır yeməklərə əl.
Gəlsin vüsalımdan olsun bəhrəmənd,
Açıq süfrəmizi eyləməsin bənd".
Səndəl budağına yönəldi pəri,
Dedi inci kimi bakir sözləri.
Dil açdı salamla xoş bülbül kimi,
Ağacdan qopardı onu gül kimi.
Yer gözəl, yar gözəl, cənnət kimi bağ,
Oynaya-oynaya gedirdi qonaq,
Elçinin dalınca yeyin bağ içi,
Bu işçin gəzirdi belə bir elçi.
Qızdı cavan qanı, qızdı gözləri,
Yadına düşmədi pirin sözləri.
Bir gəncin ürəyi coşsa dünyada,
Düşməz nəsihəti pirlərin yada.
Nə zaman ki, sevgi həyanı dəldi,
Mahan o gözəlin yanına gəldi:
- Ah, qonaq nə qədər gözəldir, - deyə,
Taxtından duraraq düşdü səcdəyə.
Apardı Mahanı xas yerə dilbər,
O, gülab çilədi, bu səpdi şəkər.
Qonaqlıq rəsminə eyləyib əməl,
Süfrədə onunla bir yedi gözəl.
Belə əmr edirdi ixlas, sədaqət,
Hər dəqiqə ona edilsin hörmət,
Elə ki doydurdu onları təam,
Ruha qida oldu yaqut rəngli cam.
Sərxoşluq əl atıb yırtdı həyanı,
Məhəbbətin odu yaxdı Mahanı.
Elə bil ay onun, o da ayındı,
Ayüzlü utanıb ondan yayındı.
Aldı qucağına Çin gözəlini,
Öpdü gümüş rəngli sərvin əlini.
İçdi şərabını, sanma ki, doydu,
Öz yaqut möhrünü əqiqə qoydu[249].
Elə ki diqqətlə baxdı işığa,
O gözlərdə olan yar-yaraşığa,
Gördü vurulduğu bu nazəndə, bir
Qəzəbdən yaranma qart ifritədir.
Vəhşi qaban dişli heyvandır, heyvan,
Belə bir əjdaha görməmiş insan.
Yox, əjdaha deyil o, əhrimədir,
Ağzı göylər qədər, bəlkə də gendir.
Üzü qırış-qırış, halı yamandır,
Elə bil ki beli əyri kamandır.
Özü qozbel, üzü xərçəngdən bədtər,
Ağzından çıxan iy min ağac gedər.
Kərpic kürəsinə bənzər burnu var,
Ağzı boyaqçının küpünə oxşar.
Timsahı andırır açıq dodağı,
Basıb qucağına yazıq qonağı,
Öpüşlər götürür, doymur gözləri,
Ağzından bu olur çıxan sözləri:



- Ey, başı pəncəmə ilişən cavan,
Bədəni dişimdə çeynənən insan!
Mənə diş yetirib əl atdın ki, sən
Üzümü, çənəmi bəlkə öpəsən.
Qılıncdır, nizədir bu diş, bu dırnaq,
Diş, dırnaq bu sayaq olar, yaxşı bax.
Əvvəl nədən mənə göstərdin həvəs?
İndi neçin belə sustalmısan bəs?
Öpüş al, bu dodaq haman dodaqdır,
Üz o üzdür, yanaq haman yanaqdır.
Hiyləgər saqidən piyalə alma,
Başını qovğaya, bəlaya salma!
Dargası yol kəsən küçəyə getmə,
Ev tutma orada, kirayə etmə!
Sənə belə rəftar layiqdir əlbət,
Edəcəyəm sənə zülüm, əziyyət.
Görməsəm adıma layiq işləri,
Olaram əvvəlki nazənin pəri[250].
Belə söyləyərək onu didirdi,
Odlu nərələrlə tənə edirdi.
Tabdan düşdü Mahan baxantək aya,
Gördü ki, ay dönüb bir əjdahaya.
Gümüşbaldır deyil, donuzdırnaqdır,
Öküzgözlü deyil, öküzayaqdır[251].
Qır kimi əjdəri görüb, doğrusu,
Qorxusundan Mahan boşaldırdı su.
Qorxaq uşaq kimi haray çağırdı,
Doğan arvad kimi bar-bar bağırdı.
Söyüdə, div kimi o qara qaban
Öpüşlər yağdırır od dodağından.
Dünyanın sabahı gözünü açdı,
Xoruzlar banladı, div qoyub qaçdı.
Güldü şəfəqlərdə üzərək həyat,
Yoxaldı, qalmadı xəyal, xəyalat.
O lələ bənzəyən saxsılar idi,
Qalan heç olmadı, hamısı getdi.
Hələ günəş tamam yayılmamışdı,
O bihuş yatırdı, ayılmamışdı.
Ətrini saçınca günün reyhanı,
Gətirdi özünə yazıq Mahanı.
Olduqca yaramaz bir aləm gördü,
cənnət əvəzində cəhənnəm gördü.
Ney gedib, qalmışdı nalələr ancaq,
Xəyalın gözünə dolmuşdu torpaq.
O bina dediyin bir xəyal imiş,
Xəyaldan yaranan qərib hal imiş.
Bağın çiçəkləri çevrilmiş xara,
Eyvan dedikləri dönmüş buxara[252].
Sərvlər, şümşadlar qara bir tikan,
Meyvələr qarınca, ağaclar ilan.
Toyuğun, keçinin döşü, can əti
Yayır ortalığa leş üfunəti,
Heyvan sümüyüymüş ney, rübab və çəng,
Görünmüş Mahana qəşəngdən qəşəng.

O gövhər səpili qiymətli fərşlər
Dabbağlanmış çirkli gön idi yeksər.
Hovuzlar ki vardı, suyu göz yaşı,
Üfunətli göldü hər addım başı.
Süfrədə yarımçıq qalmış hər nə var,
Saqi badəsində qalan şərablar,
Sanma can mülkünü rahət eylərdi,
Bunlar irindən də murdar şeylərdi.
Xoş ətirli reyhan, içilən şərab
Sən demə, əslində çirkabmış, çirkab.
Bu işə mat qalan Mahan çəkdi ah,
Öz-özünə dedi: "Əstəğfürullah".
Nə ayağı vardı düzəlsin yola,
Nə əli vardı ki, bu yerdə qala.
Fikirləşib dedi: "Qəribə işdir,
Bu şəkildə naxış görünməmişdir.
Dünən oldu yerim gözəl bağça-bağ,
Bu gün möhnətxana çəkdi mənə dağ.
Gül nədən gözümə görünür tikan,
Nədir hasil olan ömür bağından?
Xəbərimiz yox ki, nəyimiz varmış,
Ayın arxasında əjdər yaşarmış.
Bilərsən pərdəni götürsən əgər,
Əbləhlər nə ilə sevdaya düşər.
Bu Çini bəzəkli, bu rumisurət
Dəyişərək olmuş, bax, zəncisifət.
Qan üstə çəkilmiş o dəri ki var,
Zahiri ətirdir, batini murdar.
Varlıq hamamından dəri çəkilsə,
Tapılmaz külxanı sevən bir kimsə.
Çoxları səbətdə möhrə gəzdilər,
İlan olduğunu baxıb sezdilər[253].
Bu quru heybədə qafil insanlar
Çör-çöp tapıb onu müşkə oxşadar".
Bədxahlardan azad olunca Mahan,
Mən də xilas oldum onun nağlından.
Yaxşı iş görməyi fikir eylədi,
"Tövbə, tövbə" deyib, nəzir eylədi.
O, Tanrıya tərəf birbaş gedirdi,
Gözlərindən töküb qan, yaş gedirdi.
Yetişdi bir duru axar bulağa,
Yuyub üz-gözünü düşdü torpağa,
Qapandı səcdəyə, süpürdü yeri,
Dedi: "Ey qoruyan kimsəsizləri!
Aç mənim işimi, yol göstər mənə,
İnsan ümidini bağlayır sənə.
Özgə yol göstərən varmıdır, hanı?
Yalnız sən açırsan bağlı olanı.
Gözlərə nur verən yeganə sənsən,
Hər zaman, hər yerdə yol göstərənsən".
Ağladı, yalvardı pərvərdigara,
Sürtdü üz-gözünü toza, qumlara.
Nəhayət başını qaldırdı yerdən,
Gördü qabağında bir insan birdən.





Yaşıl geyinmişdi asiman kimi,
Üzü qırmızıydı aydın dan kimi.
Mahan: - Kimsən? - dedi. - Niyyətin nədir?
Qiymətli gövhərsən, şöhrətin nədir?
- Xilaskarın Xızram, - dedi, - mən sənin,
Gəlmişəm tutmağa əlindən sənin.
Niyyətin meyvələr bitirəcəkdir,
Səni öz evinə yetirəcəkdir.
Əlini ver mənə, durma hünər saç,
Əvvəl yum gözünü, yenə sonra aç.
Xızrın salamını Mahan eşitdi,
Dirilik suyuna guya ki, yetdi.
Verib tez əlini onun əlinə,
Haman könül verdi Xızr əməlinə.
Bir an çəkmədi ki, açdı gözünü,
Div azdıran yerdə gördü özünü.
Tez açıb qapını bağa yönəldi,
Xaraba ölkədən Misirə gəldi.
Gördü sakit duran yoldaşlarını,
Qəmdən göy geyinən sirdaşlarını.
Nalər çəkdiyini bir-bir danışdı,
Qulaq asan dostdu, yaxın tanışdı,
Bildi yoldaşları, yaxın dostları
Ondan ötrü geymiş bu göy paltarı.
O da geyinmədi nə al, nə qara,
Özünü oxşatdı yalnız dostlara.
Göylərin rənginə uyaraq Mahan,
Bağlandı göy rəngə ürəkdən, candan.
Göyə ən xoş gəldi, göy rəng göründü,
Başqa rəng tapmadı, göyə büründü.
Hər kim ki, əyninə göy paltar geyər,
Günəşi özünə çörək eyləyər.
Əzraq gülü ki var, göy əlbisəli,
Bu üzdən olmuşdur günəş qürsəli[254].
Günəş hər tərəfə dolandırsa baş,
Ona üz döndərər gül yavaş-yavaş.
Hər gün ki, göy rəngdir eşit, müxtəsər,
Ona günəşpərəst hindu deyərlər.
Ayüzlü qurtardı bu hekayəti,
Şah qucub, bağrına basdı afəti.

## BƏHRAMIN PƏNCŞƏNBƏ GÜNÜ SƏNDƏL RƏNGLİ GÜNBƏDƏ GETMƏSİ VƏ ALTINCI İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Pəncşənbə - günlərdə yaxşı bir gündür,
Xoşbəxt Müştəritək bəxti üstündür.
Nafə göbəyini sübh açdı parlaq,
Udu səndəl kimi yandırdı torpaq[255].
Səndəl tozu kimi, hər şeydən əvvəl
Şah öz paltarını boyadı səndəl.
Göy eyvandan çıxdı bir baş yönəldi
Səndəl rəngindəki günbədə gəldi.

Olunca saqisi o çinli pəri,
Çəkdi öz başına şirin kövsəri.
Mey alıb içirdi bu şux gəlindən,
Gecəyədək içib oldu xeyli şən.
Sürməyi mühitin sədəfi gecə
Sədəfin ağzına dürlər səpincə[256],
Şah o xumar gözlü Çin gözəlinə
Söylədi: "Könlümdən tozu silsənə!"
Açıldı gül kimi sevimli, dərhal
Xurmanın içindən axıb süzdü bal.
Dedi: - Ey dünyanın istinadgahı,
Kainatın canı, şahların şahı.
Ömrün uzun olsun şiş dağlar qədər,
Göy dənizlər qədər, torpaqlar qədər.
Olsun həyatına səadətin yar,
Ondan sən hər zaman bəhrələr apar.
Sən bu Yer üzünə işıq saçansan,
Şahlıq bəxş eləyən, könül açansan.
Yox deyil dünyada ömür nisgilim,
Qorxuram, bağlıdır, zəifdir dilim.
Reyhan qabağında, de, yararmı bu,
Mən də güləm deyib saçım pis qoxu?
Zəfəran istəyir şahım, neyləyim,
Gərək arzusuna əməl eyləyim.
Şahıma bir nağıl söyləyim mən də,
Gülümsəsin ta ki, yeri gələndə.
Başladı sözünü o Çin gəlini,
İlkin tacidarın öpdü əlini.

### XEYİR İLƏ ŞƏR HEKAYƏSİ

Çin qızı söylədi: - İki növcavan
Başqa bir şəhərə oldular rəvan.
Yeməyə azuqə götürüb hərə
Qoyub heybəsinə, çıxdı səfərə.
Gəncin biri Xeyir, birisi Şərdi,
Onlar adlarıtək işlər görərdi.
Bir-iki gün gedib, mənzil aşdılar,
Yanlarında olan azuqə ki, var,
Şər saxlayır, Xeyir yeyib-içirdi,
O əkir, bu isə buğda biçirdi.
Gedirdi yanaşı cavanlar belə,
Birdən yetişdilər isti bir çölə.
Bu çöl təndir kimi bir odlu yerdi,
Dəmiri yumşaldıb mum eyləyirdi.
Ölkəyə quraqlıq atmış əlini,
Döndərmiş səmuma şimal yelini.
Şər yaxşı bilirdi, yolu uzaqdır,
Susuz xarabadır, xeyli quraqdır.
Xəlvəti məşkinə su doldurub Şər[257],
Dürr kimi gizlədi, vermədən xəbər.
Xeyir: - Yəqin, yolda su var - deyirdi,
Hər tərəf susuzdu, o bilməyirdi.
Beləcə bürküdə xeyli getdilər.

Yorub özlərini həlak etdilər.
Yeddi gün getdilər qızğın çöl boyu,
Qurtardı zavallı Xeyirin suyu.
Sudan yoldaşına vermədi xəbər,
Bir kəlmə dinmədi, danışmadı Şər.
Xeyir bədgövhərdən oldu xəbərdar,
Gördü ki, məşkinin içində su var,
Arabir xəlvəti öz yoldaşından,
Reyhan şərabıtək suyun başından
İçirdi Şər, susuz yanıb da, ancaq,
Xeyir dinməyirdi, tikmişdi dodaq.
O susuz sulunun görüb işini,
Sordu yol boyunca qəmdən dişini.
Nəhayət ciyəri qurudu, yandı,
Endi kirpikləri, gözü qapandı.
Günorta çatanda pozuldu halı,
Suzundan yanmazmı dağlar maralı?
Yanında od rəngli cüt ləli vardı,
Suyu daşda idi, sanma axardı[258].
Damırdı gizlicə onlardan su çox,
Damırdı göz üçün, ağız üçün yox.
Açdı sulu ləli göstərib Şərə,
Qoydu qabağında əlbəəl yerə,
Dedi ki: "Yanğıdan öldüm, kömək et,
Söndür atəşimi, yandım, mərhəmət!
Bir içim saf su ver, imdadıma çat,
Ya mərdlik ucundan bağışla, ya sat.
Bu qoşa gövhəri öz suyuna sal,
Su ver, gövhərimin bir qeydinə qal".
Tanrı qəzəbinə gəlmiş zalım Şər
Gördü adı kimi yaramaz işlər.
"Bu daşdan, - dedi ki: - Yonma gəl bulaq [259],
Mümkünmü dünyada məni tovlamaq?
Viranədə gövhər verirsən mənə
Ki, abad şəhərdə alasan yenə?
Belə kələklərə uyarmı heç Şər?
Mən ki, hiyləgərəm, divdən hiyləgər.
Nə zaman axtarsam əgər mən çara,
Gəlməz hiylələrin sənin, bil, kara.
Yaxamdan əl götür, hiylədən əl çək,
Yüz min işləmişəm mən belə kələk,
Qoymaram başıma çəkəsən suyu,
Abrımı tökəsən bir şəhər boyu.
Mən necə gizlində alım gövhəri,
Şəhərə çatınca alasan geri.
İstəyirəm elə bir gövhər səndən,
Ala bilməyəsən geriyə məndən".
Xeyir dedi: "Nədir o söylə görək?
İstədiyin dürrü tapıb da verək".
Şər dedi: "O gövhər ikicə gözdür,
Bu ondan, o bundan daha əzizdir.
Gözünü satmasan, bunu yaxşı bil,
Bu sudan içməyin heç mümkün deyil".
Xeyir söylədi ki: "Qorxmayırsan sən,
Od alıb yerinə boş su verirsən.
Tutaq ki, bu çeşmən oldu güvara,
Göz çıxarmaq səni yetirməz vara[260].
Qalarsam gözümə həsrət əgər mən,
Nə xeyir rastıma gələn çeşmədən?
Mümkün ikən qızıl almaq su üçün,
Şirin su yerinə göz almaq neçün?
Ləlim, nəyim varsa, al, eylə mədəd,
Yerdə qalanına verərəm sənəd.
And olsun o böyük pərvərdigara,
Bundan şad olaram, gəlmərəm zara.
Ancaq insaf eylə, gözümə dəymə,
Bir soyuq su üçün dostluğu əymə".
Şər cavab verdi ki: "Bu əfsanədir,
Ürəyi yanançın bir bəhanədir".
Xeyir bu rəftara qaldı xeyli mat,
Su üçün göz suyu axıtdı, heyhat,
Gördü ki, öləcək, əldən gedir can,
Xilas olmayacaq can yanğısından.
Qəlbini aldatdı soyuq su ilə,
Sudan qaçmamışdır, bir susuz belə.
Dedi: "Bıçaq gətir, xəncər gətir, gəl,
Su ver içim, ömrə qıymadan əcəl.
Odlanıb alışan, alovlanan bu
Qızğın atəşimi söndür, səpib su".
Zənn etdi bu əzab, bu qorxu keçər,
O saat bir udum su alıb içər.
Bu halı görüncə siyirib xəncər,
Quş kimi şığıdı Xeyrin üstə Şər.
Xəncəri çırağa çaldı, qanmadı,
Çırağı söndürdü, qəlbi yanmadı.
Nərgizi eylədi gül rəngində al,
cüt gövhər qopardı tacdan o dərhal.
Ömrünü yazığın salıb zavala,
Su daxi verməyib düzəldi yola.
Bütün şeylərini, ləlini soydu,
Koru təkbaşına səhrada qoydu.
Uzaqlaşıb getdi nə zaman ki, Şər,
Xeyir öz halından tutmadı xəbər.
Torpaqda çırpındı, qan basdı düzü,
Yaxşı ki, görmürdü halını özü...
Bir kürd vardı mallı, pullu, keyfi çağ,
Qurdun balasından sürüsü uzaq.
Onun qapısında çoxlu mal-qara,
Kimsə çatmamışdı bu qədər vara.
Səkkiz qohumunu o saxlayardı,
Onlar yoxsul, bunun dövləti vardı.
Köçəri bir kürddü, deyil oturaq,
Hər zaman ölçərdi səhra, çəmən, dağ.
Ot-ələf dalınca düşərək çölə,
Sürü otarırdı hər zaman belə.
Harda ki ot vardı, axar su vardı,
İki həftə həmən yerdə qalardı.
Otlağın otları yetincə sona,





Sürünü çəkərdi başqa bir yana.
Qəzadan, iki gün vardı o yerə
Pəncə uzatmışdı, bənzəyib şirə,
Onun türk baxışlı, xoş hindu xallı
Bir qızı vardı ki, xeyli kamallı.
Sərvi su içmişdi ciyərdən, qandan,
Nazla bəslənmişdi nazənin canan.
Saçının hörüyü ətəyindəndi,
Boynunda çəkmişdi aya kəməndi[261].
Bənövşə qıvrımlı hər gözəl teli
Qarğa qanadından qaraydı, bəli.
Qəmzəsi sehrdən badələr içmiş,
Taleyi önündə qəza bir heçmiş.
Babil tilsiminə bağlamışdı bel,
Sehrinə bənd olmuş, vurulmuşdu el.
Xalından olmuşdu gecələr qara,
Ondan nur almışdı göydə aypara.
O şəkər sındıran, püstə dodaqlı,
Öpüşün yolunu etmişdi bağlı.
Evdə bəslənilib çatmışdı boya;
Balıqtək meyl etdi o gözəl suya.
Yolun kənarında, bir çeşmə vardı,
Soyuqdu, el suyu ordan alardı.
Qız o şirin sudan gəlib doldurdu,
Sonra evlərinə getməyə durdu.
Birdən qulağına gəldi uzaqdan
Yaralı xəstədən qopan ah-fəğan.
Eşidib o yana qız tez yüyürdü,
Gəlib qan içində bir gənci gördü.
Bir yaralı çalır hey əl-ayaq, ah,
Dilində yalvarış, bir də ki, Allah.
Uçdu nazəninin başından huşu,
Tez gedib dindirdi o vurulmuşu.
Dedi: "Vay halına, söylə görüm sən,
Qanlar içindəsən nə üçün, nədən?
Ey cavan, bu zülmü sənə kim etdi,
Halına yanmadı, buraxdı getdi?"
O dedi: "Ey mələk, de görüm ki, sən
Pərizadəmisən, ya mələkmisən?
İşim çox qəribə oyundur, heyhat,
Uzundur başıma gələn əhvalat,
Susuz, bil, ürəyim oldu tar-mar,
Gəl bu yanğılını cəhd eylə, qurtar.
Su, yoxsa ölərəm, dayanma çıx get,
Varsa ver, qoy içim, ömrü xilas et".
O nicat açan, saqi, baldodaq,
Abı-həyat kimi sudan alaraq
Verincə, xəstənin keçdi yanğısı,
İçdi bacardıqca, içdi sərin su.
Can gəldi o solmuş cana əlbəəl,
Ürəkdən şad oldu çıraqban gözəl.
Qoydu öz yerinə Xeyrin gözünü,
Şükr edib söylədi Allah sözünü.
Çıxmışdısa əgər kamanından ox,
Gözün giləleri salamatdı çox.
Bütün qüvvətini işlətdi o qız
Ki, yerdən xəstəni qaldıra yalqız.
Gözünü sarıyıb bağladı həmən,
Yapışdı mərdanə tutdu əlindən,
Çalışdı, qaldırdı, sonra da vardı
Ona rəhbər olub, evə apardı.
Gəldi atasının birbaş yerinə,
Gətirdi gözsüzü binələrinə.
Çıxınca önünə kəniz, qaravaş,
Dedi: "Apar evə, bunu çox yavaş".
Özü anasının yanına getdi,
Gördüyü vəqəni tez bəyan etdi.
Anası dedi ki: "Söylə görüm sən
Gəldin, gətirmədin bəs onu nədən?
Edərdik bəlkə də yazığa çara,
Bir az dincələrdi, o bəxtiqara".
Qız dedi: "Gətirib gəlmişəm, ana,
Nə kömək bacarsan, et o insana".
Qaravaş xəstəni evə gətirdi,
Yatağın yanına dərhal yetirdi.
Tez yer düzəltdilər, süfrə sərdilər,
Şorba içirdilər, kabab verdilər.
Zülüm görmüş Xeyir ah çəkdi yavaş,
Az yeyib, inlədi, dərdə qoydu baş.
Kürd evə gələrək tez axşamüstü,
Səfra sındırmağa cumdu əlüstü,[262]
Nə gördü, adətdən xeyli kənar şey,
Səfrası şiddətlə qaynayırdı hey.
Gördü bir huşsuzun yamandır halı,
Ölümcül uzanıb yatır yaralı.
"Kimdir bu şəxs, - dedi gələrək dilə,
- Nə üçün xəstədir, gücsüzdür belə?"
Kimsə şərh etmədi dürüst halını,
Başına gələni, bu zavallını.
Ancaq deyə bildi bunu şux pəri:
"Dəlinmiş almazla onun dürləri".
Kürd gördü xəstə kor sayır özünü,
Qəlbi parçalanıb, yumur gözünü,
Dedi ki: "O yüksək ağacdan varın,
Gedin, tez bir neçə yarpaq qoparın!
Suyu çıxanadək əzin yarpağı,
Sürtün yarasına, sözümün sağı,
Bu əlac olunsa, xəstənin yenə
Fər gələr, nur gələr kor gözlərinə.
Yaman olursa da əgər göz dağı,
Şəfadır dediyim ağac yarpağı".
Ağacın yerini verərək nişan:
"Bizim o çeşməylə, - dedi, - yanbayan
Bir qoca ağac var, ətirlər səpər,
İnsanın beynini edər təzə-tər.
Gövdəsindən çıxır onun iki şax,
Onlar fərq olunur aralanaraq.
Bir şaxın yarpağı huri ipəyi,

Odur kor gözlərin nuru, köməyi.
O birinin yaşıl yarpağı ki, var
Ondan da sərilər şəfa taparlar".
Elə ki, kürd qızı bunu eşitdi,
Deyilən əlacın fikrini etdi.
Dil açdı, başladı yalvar-yaxara,
Eylasin atası xəstəyə çara.
Kürd eşidincə bu yalvarışları,
Durub tez yönəldi ağaca sarı.
Tez yarpaq qopardı həmin ağacdan,
O yarpaq verirdi cansızlara can.
Gətirdi, kürd qızı yarpağı aldı,
O qədər döydü ki, pucalı qaldı.
Süzdü qalmayınca xıltın nişanı,
Xəstənin gözünə tökdü dərmanı.
Bağladı dərmanla Xeyrin gözünü,
Bir saat bilmədi xəstə özünü.
Sonra xilaskara bir nəzər saldı,
Balışa baş qoydu, uzanıb qaldı.
Beş gün o xəstəyə vurulmadı əl,
Dərman gözlərində qaldı mükəmməl.
Axırda qurtardı yazığın canı,
Gözündən açdılar dava-dərmanı.
Gəldi gözlərinin fəri yerinə
Oldu əvvəlki tək o, gözlü yenə.
Saldı ətrafına Xeyir xoş nəzər
Qoşa nərgiz belə açılar səhər.
Uğurlu iş gördü, şükr etdi cavan,
Dəyirman öküzü qurtardı tordan[263].
Getdi ev əhlindən kədər nə ki var,
Örtüb üzlərini, könül açdılar.
Ürəkdən xoşladı, sevdi yalqızı
Kürdün gülcamallı mehriban qızı.
Elə ki, nərgizlə o sərv oldu şad,
Demək, gövhər oldu sandıqdan azad.
Gördü gül üzünü gəncin o pəri,
Ürəkdən bağlandı, xoşladı Xeyri.
Duyaraq hissini, inayətini,
Saldı Xeyir ona məhəbbətini.
Qızın görmürdüsə üzünü əgər,
Nazlı yerişinə salırdı nəzər.
O çox dinləmişdi şirin gözəli,
Dəymişdi əlinə mehriban əli.
Bu vermişdi ona ürəkdən könül,
Bağlanmışdı buna sidq ilə o gül.
Xeyir qoca ilə hər səhər ertə
Əl atardı işə, şirin zəhmətə,
Dəvə otarardı, sürü güdərdi,
Hər işi düşünüb, ölçüb edərdi.
Qoyundan qovardı canavarları,
Qoruyardı belə dövləti, varı.
Kürd ki ömrü boyu gəzmiş otlağı,
Gördü Xeyirdəki can yandırmağı.
Dedi: "Ey əzizim, bu dövlət, bu var,

Sənindir, ol ona sahib-ixtiyar".
Xeyir məhrəm olub kürdgildə qaldı,
Hər şeyə artaraq maraq çoxaldı.
Sordular, kim sənin gözünə qıymış,
Necə rəhmsizmiş, necə zalımmış.
Şərin işlərini o gizlətmədi,
Nə olub söylədi, uzaq getmədi.
Dedi: "Suya əvəz vardı gövhərim,
Susuz lap yanırdı mənim ciyərim.
Ömrə bir nanəcib zərər yetirdi,
Bu zülmü başıma o Şər yetirdi.
Aldı gövhərləri, gözümü dəldi,
Su da verməyərək, yola düzəldi".
Kürd belə dastanı eşitdi, durdu,
Rahibtək özünü torpağa vurdu.
Sevindi: "Əssə də, - dedi, - sərt külək,
Xələl görməyibdir bu gözəl çiçək".
O mələk xislətin oldular agah,
Şər nələr başına gətirmişdir, ah.
cəndan əziz tutdu onu bu külfət,
Bəsləyib verdilər min nazü-nemət.
Özü baxdı ona o qənddodaqlı,
Durdu qulluğunda üzü yaşmaqlı.
Su verib Xeyirə özü yanırdı,
Eşqindən ürəyi, gözü yanırdı.
Xeyir də bağlandı, yara verdi can,
Könül əsirgəməz aşiq canandan.
Dürrün xatirinə çölə getdi hey,
Öküzə, dəvəyə xidmət etdi hey.
Dedi öz-özünə: "O canan ki var,
Mən kimi yoxsula olmaz nazlı yar.
Onun kamalı var, xoş camalı var,
Olacaq qisməti, kimin malı var.
Onlardandır bu gün dolanacağım,
Mümkünmü üstəlik qohum olmağım.
Yaxşı olar belə qorxulu yerdən
Zirəklik eyləyib köçüm gedim mən".
Keçmişdi bu işdən bir həftə tamam,
Xeyir evə döndü çöldən bir axşam.
Çırpındı qəfəsdə olan quş kimi,
Xəznə üstə kasıb oturmuş kimi.
Təşnəydi, önündə dirilik suyu,
Sanki hiss edirdi keçən yanquyu.
O gecə ağrıdı qəlbinin başı,
Yerdə gül bitirdi gözünün yaşı.
Kürdə söylədi: "Ey qərib bəsləyən,
Çəkdin kimsəsizin çox nazını sən.
Gördü sayəndə bu cahan mənə,
Verdin ürək mənə, təzə can mənə.
Evində bəslənib izzət görmüşəm,
Süfrəndən yemişəm, nemət görmüşəm.
Damğanın yeridir alnımda dərin,
Dediyimdən çoxdur sənin hörmətin.
Bil, ətrin yaşayır şirin canımda,





Süfrənin yağıdır, qaynar qanımda.
Süfrənin önündə bir acizəm mən,
canımı verərəm əgər istəsən.
Yetər ki, bu qədər qonağın oldum,
Bəsdir əzab çəkdim, artıq yoruldum.
Süfrəndən bu çörək yediyim qədər
Sənə şükr eyləyə bilsəydim əgər,
Haqqını verməyə yaradan tarı
Mənə kömək əli verəydi barı.
Ayrılıq gəlsə də çox ağır mənə,
İcazə ver artıq, gedim, vətənə.
Çoxdandır vətəndən düşmüşəm uzaq,
Elimdən, köçümdən irağam, iraq.
İstəyirəm səhər olduqca erkən
Düzəlim yoluma evə doğru mən.
Getsəm də əməyin itməyəcəkdir,
Qapından hümmətim getməyəcəkdir.
Sən nur çeşməsisən, işığın əyan,
Arzum budur məni unutmayasan.
Yetir köməyinlə pərü bal mənə,
Verdiyin çörəyi et halal mənə".
Xeyir öz sözünü qurtardı, durdu,
Sanki var-yoxuna kürdün od vurdu.
Tökdü göz yaşını kürd neysan kimi,
Qopdu hay-küy həzin bir fəğan kimi.
Beyinlər qurudu, gözlər ağladı,
Qızın ağzındakı sözlər ağladı.
Ağlayıb, ağlayıb durdular guya,
Axar su çevrildi donan bir suya.
Aqil kürd qaldırdı sonra başını,
Evi xəlvət edib çatdı qaşını.
Xeyrə söylədi ki: "Sən, ey mehriban,
Ağıllı, cürətli, mötəbər oğlan,
Tutaq ki, getmisən doğma şəhərə,
Tikan batıracaq sənə, bil, hərə.
Nemət buradadır, naz bu məkanda,
Nə var, əlindədir - yaxşı, yaman da.
Yaxşılar cilovu verməzlər pisə,
Satmazlar dostları yada, nakəsə.
Bollu dövlətim var, ağım, qaram var,
Bir də ki, çox əziz ciyərparam var.
Zəhmət sevəndir o mehriban çiçək,
Çirkinlikdir ona yaxşı deməmək.
Müşk əgər olarsa nafədə nihan,
Onun xoş ətrini duyar bu cahan.
Ürəyin xoşlasa o dilbəri, biz
Canımızdan səni saxlarıq əziz.
Belə bir qıza ki, yetişmiş azad,
Öz əlimlə səni seçirəm damad.
Dəvədən, qoyundan, maldan nəyim var,
Verərəm, çoxalar, sərmayən artar.
Mən də aranızda nazla, nemətlə,
Əcəl gələnədək yaşaram belə".
Kürddən görən zaman belə şəfqəti,

Ona şükür etdi, qalxdı hörməti,
Söhbətə şadlıq da qatdılar onlar,
Nazla, sevinc ilə yatdılar onlar.
Harun üzlü səhər bağlayanda bel,
Zəng kimi səsləndi xoruz, durdu el[264];
Uğurlu talelə süzüb dörd yanı,
Çıxdı öz taxtına məşriq soltanı.
Kürd vida eylədi şirin yuxuya,
Oyandı görməyə tədarük toya.
Nikah ki, birliyin əsas şərtidir,
Onunla nəsillər inkişaf edir.
Verdi Xeyrə qızı, yaşayın, deyə
Qoşdu Ütaridi parlaq Zöhrəyə.
Həyat çeşməsini tapdı bir ölü,
Günəş nurlandırdı o tutqun gülü.
O baldodaq saqi, susamış Xeyrə
Bir şərbət verdi ki, dəyər kövsərə.
Ona çeşmə suyu verdisə əvvəl,
İndi həyat suyu bəxş etdi gözəl.
Yaşadılar belə sevincək, qoşa,
Yoxdu həsrətləri bir şeydən, haşa!
Əhdi gətirdikcə bu cütlər yada,
Çox şad yeyirdilər vardan dünyada.
Kürdün nə qədər ki, mayası vardı,
Verdi bu bir cütə, verdi qurtardı;
Bütün sürüləri, dövləti, varı
Axdı Xeyrə tərəf, kürəkən sarı...
Bir gün sulu yerdən, ağaclı yerdən,
Başladı köç geniş səhraya birdən.
Xeyir, can dərmanı, olduqca uca,
O səndəl qoxulu yaşıl ağaca
Yanaşıb, dərdikcə dərdi şaxlardan,
İnsanın əlacı göy yarpaqlardan.
Əlacdır sevdaya bir şax yarpağı,
Digərindən tapır şəfa göz dağı.
Yığdı bir çuvala basdı mala-mal,
Dəvənin üstünə yükləndi çuval.
Yarpağın sirrini saxladı pünhan,
Yadından hamının çıxdı o dərman.
Düşdü bir şəhərə onların rızı,
Bu şəhrin şahının gözəl bir qızı
Tutulmuş sevdaya, bəd bir azara,
Nə qədər əlləşib etmişlər çara.
Sağalmamış; yanıb "hayıf" demişlər.
Bilikli həkimlər, məşhur təbiblər
Gəlirdi soruşub həmən şəhəri
Ki, div bəlasından o gözəl pəri
Sağalsın, qalmasın zərrəcə dərdi.
Padşah gələnlərlə bir şərt kəsərdi:
"Sevdadan qızımı kim etsə azad,
Mən də eyləyərəm onu xeyli şad.
Olar kürəkənim. Hər kim çarəni
Etməyib, görərsə o məhparəni,
Qəzəb eyləyərəm, qılınc alaram,

Bədəndən başını vurub salaram".
Aciz qaldığından bu əlacda, ah,
Nə qədər təbibi öldürtdürdü şah.
Min qərib şəhərli olunca naşı,
Padşah əmr eylədi, kəsildi başı.
Bu şərt gündən-günə elə yayıldı:
Hər kim pul görəndə hayıl-mayıldı,
Eşidib bu sözü o, baş itirdi,
Özü öz əliylə qanına girdi.
Xeyir də eşidib həmin xəbəri:
- Çarəmlə sağalar, - dedi, - şux pəri.
Şaha yetirdi ki: "Ey səxa kanı,
Yoldan götürərəm mən bu tikanı,
Ondan xəstəliyi eylərəm uzaq,
Sağaldaram qızı, şərtim var ancaq -
Heç şeydə yox gözüm qoca dünyada,
Mənim verəcəyim dərman, dava da
Allah rizasına veriləcəkdir.
Nə zaman ki, gücü görüləcəkdir,
Məni məqsədimə çatdırsın Allah".
Xeyrin bu sözündən xəbər tutdu şah,
Dedi: "Söyləyin ki, gəlsin, öpsün əl".
Xeyir təzim etdi gəlib əlbəəl.
Şah dedi: "Ey yaxşı adam, söylə bir,
Sənin adın nədir?" Dedi: "Xeyirdir!
Səadət bəxş etmiş mənə ülkərim,
Uyğundur adıma sözüm, işlərim".
Şah onun adını bilib yaxşı fal,
Dedi: "Çarə eylə, aman, qeydə qal,
Bunun nəticəsi yaxşıdır", - dedi,
"Adın bu əməlin naxşıdır", - dedi.
Sonra bir məhrəmə tapşırdı, varsın
Qızının yanına Xeyri aparsın.
Xeyir gəldi gördü, gün kimi gözəl,
Xəstəlik sərvinə yetirmiş xələl.
Şirtək həyəcanlı, bərəlmiş gözü,
Nə yatmış gecəni, nə də gündüzü.
Səndəl yarpağı ki yanında vardı,
Açıb düyünçədən dərhal çıxardı,
Döyüb hazırladı buz kimi şərbət.
Qıza xoş gələrdi bu dava, əlbət.
Uzatdı xəstəyə, alıb nuş etdi,
Silinib beyninin tozları getdi.
Qız bu vəlvələdən nicata çatdı,
Şərbət içən kimi yıxıldı yatdı.
Xeyir gördü yatır o gözəl bahar,
Duydu ki, silinib üzündən qubar.
Çıxdı ayqabağın evindən çölə,
Gəldi öz evinə şad, gülə-gülə.
Yatdı pəriüzlü, üç gün yumdu göz,
Şaha öz halından demədi bir söz.
Durdu üçüncü gün o dilbər mələk,
Yedi yavaş-yavaş yüngül bir yemək.
Belə şad xəbərdən olunca agah,

Qaçdı ayaqyalın saraya padşah.
Gördü taxt üstündə ağıllı, huşlu,
Oturmuşdur qızı şahin duruşlu.
Yıxılıb önündə o mahcamalın:
- Həmdəmin olacaq, - dedi, - kamalın.
Fitnə uzaq olsun, qızım, yanından,
Xəstəlik çıxdımı, söylə canından?
Şahın hörmətini gözləyərək qız,
Təşəkkür eylədi ataya yalnız.
Hökmdar sevinib oldu xeyli şad,
Getdi tək qalaraq o sərvi-azad,
Çağırıb yanına məhrəm bir adam,
Sifariş yolladı şaha güləndam:
"Qüdrət dəftərində yazılmış belə,
Şahlar sadiq olar hər vaxt əhd ilə,
Onda ki kəsildi xəncərlə başlar,
Gözlədi qoyduğu şərti hökmdar.
Tac layaqətlidən mən gördüm şəfa,
Şah gərək əhdinə eyləsin vəfa.
Qılınc eyləyərsə əlac iqrara,
Tac gərək sustalıb düşməsin dara.
Minlərlə baş qoydu qılınc təlaşda,
Ucalsın tac ilə qoyun bir baş da.
Qurtardı canımı onun dərmanı,
O açıb qıfılı; belə insanı
Unutmaq bizlərə yararmı məgər?
Tapılmaz, bil, mənə ondan başqa ər,
Yetirək yerinə əhdi, peymanı,
Bu yükdən qurtaraq tezliklə canı".
Əhdi doğrultmağa şahı ansızın
Gözəl məsləhəti oyatdı qızın.
Şah Xeyri istədi, atlı çapdılar,
Bir yolun üstündə gəlib tapdılar.
Alıb yanlarına nadir gövhəri,
Şahın hüzuruna döndülər geri.
"Ey cahan böyüyü, - dedi - şah, nədən
İqbalından yana üz çevirirsən?"
Əynindən çıxarıb sonra xəlvəti,
Bir ölkə olardı onun qiyməti,
Bağışladı ona, bol gövhər verdi.
Afərinlər dedi, zər kəmər verdi.
Çəkildi saraya naxışlı pərdə,
Şəhəri bəzədi şəhərlilər də,
Qız dam guşəsindən yetirib nəzər,
Gördü sevgilisi tam aya bənzər.
O, gözəl üzlü bir sərvi-rəvandı,
Xətti şəvə kimi, zirək cavandı.
Həm şah razı oldu, həm də o dilbər,
Xeyir damad oldu, kor olsun qoy Şər.
Xəznə qapısına əl atdı soltan
Qırdı dürüst möhrü, oldu kamiran.
Sürdü, istəyincə səfalar sürdü,
Gözəllik, şən həyat taxtını gördü.
Şahın bir vüqarlı vəziri vardı,





O, xalqın əlindən hər an tutardı,
Bir qızı vardı ki, dəyərdi cana,
Üzü bənzər qarda qarğa qanına.
Toxunmuş zərəri çiçəyin aya,
Puç olub gözləri çıxmışdı zaya.
Şahdan izn istəyib o vəzir deyir:
"Qızımın gözünə nur versin Xeyir".
Vəzir şah şərtinə eylədi əməl,
Dərman təsir etdi olduqca gözəl.
Oldu bu qızın da sevimli əri,
Bir gövhər cəzb etdi neçə gövhəri.
Ona qismət oldu üç gözəl tavus,
Kəsranın tacıyla taxti-Keykavus.
Gah vəzir qızını dilə gətirdi,
Bütün istəyini ələ gətirdi.
Gözünə nur verdi şah qızı bəzən,
Bu sanki günəşdi, o bir aydı - şən.
Gah da kürd qızıyla şadlıq eylərdi,
Üç nərdlə oyunda üstün gələrdi.
Ömrünə yar oldu beləcə baxtı,
Əlinə keçirdi o tacı, taxtı.
Keçdi hesabına o gözəl diyar,
Tutdu tacidarlıq Xeyirdə qərar.
Günlərin birində o, bağa gəldi,
Bir könül açanla keyfə yönəldi.
Şər ki, yoldaşıydı onun səfərdə,
Düşdü öz əliylə öz başı dərdə.
Gördü o cühudla söhbət eyləyir,
Dedi yəhudiyə o saat Xeyir:
"Bir asudə vaxtda sal qabağına,
Gətirib gəl bunu şahlıq bağına".
Sonra gedib bağa, keyfə oturdu,
Kürd əli qılınclı önündə durdu.
Gəldi əynіaçıq pərakəndə Şər,
Öpdü torpağını ondan bixəbər.
Xeyir ona dedi: "Adını söylə!
Başın salacaqdır səni əngələ".
Səyyah: - "Mübəşşirdir, - dedi, - şöhrətim [265],
Görünür hər işdə gücüm, qüdrətim".
Xeyir dedi: "Söylə sözün düzünü,
Təmizlə, qanınla yu öz-özünü".
O dedi ki: "Adım belədir ancaq,
İstəyirsən öldür, istəsən burax".
Xeyir dedi: "İşin daim zavaldır,
Alçaqsan, hamıya qanın halaldır.
Adın Şər, özün də xalq üçün şərsən,
Xisləti adından pis bir bəşərsən.
Sən o deyilsənmi bir cana qıydın,
Çöldə bir susuzun gözünü oydun.
Hələ bu bəs deyil, gör nələr etdin,
Ona su verməyib, çıxdın da getdin.
Aldın göz gövhəri, kəmər gövhəri,
Apardın onları, yandı ciyəri.
Bil ki, gövhərləri gedən mənəm, mən!

Sənin bəxtin öldü, mənimkidir şən.
Hər kimin olarsa Allah pənahı,
Odur xoşbəxtliyin əbədi şahı.
Mənim taleyimə Allah oldu yar,
İqbalım eylədi məni tacidar.
Kəsildi bəxtimin Tanrı pənahı,
İndi bu yerlərin şahıyam, şahı!
Vay sənin halına, yamandır zatın,
Qurtarmaz əlimdən artıq həyatın".
Şər Xeyri tanıdı və birdən-birə
Özünü götürüb çırparaq yerə,
Söylədi: "Gördüyüm işlər yamandır,
Pis əməllərimə baxma, amandır.
Başımız üstündə dönən fələklər,
Sənə Xeyir demiş, mənə isə Şər.
Nələr eylədimsə o zaman sənə,
Bütün eylədiyim yaraşır mənə.
Nələr bacarırsan, mənə durma et,
Et ancaq özünə, adına nisbət".
Xeyir bu nöqtəni eyləyincə yad,
Tez onu ölümdən eylədi azad.
Elə ki qılıncdan Şər azad oldu,
Uçdu yol uzunu, qəlbi şad oldu.
Qəzəbli kürd isə dalınca getdi,
Vurdu qılınc ilə tez həlak etdi.
"Xeyir düşündüsə xeyirli işlər,
Şərsən, - dedi, - çıxar qabağına şər".
Sonra üst-başını axtardı, gəzdi,
İki dürr gizlədib kəmərdə, sezdi.
Gətirdi Xeyr üçün, qoydu tez yerə,
Dedi: "Çatdı yenə gövhər gövhərə".
Öpdü gövhərləri o, kürdə verdi,
Nəcibi gövhərlə o sevindirdi.
Əlini gözünün üstünə qoydu,
Dedi: "Şər bunları xəncərlə oydu.
Verdim gövhərləri sənə mən özüm,
Çünki əllərinlə nurlanıb gözüm".
Xeyirin əməli qəlbinə yatdı,
camaat da ondan arzuya çatdı.
Səadət taxtına çıxınca, demək,
Dəmir gümüş oldu, palaz da ipək.
Hər kimin ki baxtı, xoş taleyi var,
Tikan ona xurma, daş da zər olar.
Qurdu çox təpərli ədalətini,
Qüvvətə mindirdi məmləkətini.
Bir zaman yönəlib yarpaq dərdiyi,
Ağır xəstələrə şəfa verdiyi
Ağacın üstünə tez-tez gedərdi,
Ağır naxoşlara əlac edərdi.
Keçirərdi orda gününü tamam,
Ürəkdən o yerə verərdi salam.
Ona xoş gəlmişdi səndəl havası,
Səndəl rəng olmuşdu onun libası.
Bağlardı hər zaman səndələ əməl,

Edərdi əynini daima səndəl.
Səndəl asayişin ruhu, qanıdır,
Ətri hər bir zaman can nişanıdır.
Tozu yox eyləyər hər dərdi-səri,
Qurtarar yanğıdan odlu ciyəri.
Bitirdi nağılı o Çin gözəli,
Etdi öz dilini şirin, məzəli.
Şah onun yerini canında etdi,
Yəni bədnəzərdən aldı, gizlətdi.

### BƏHRAMIN CÜMƏ GÜNÜ AĞ GÜNBƏDƏ GETMƏSİ VƏ YEDDİNCİ İQLİM PADŞAHI QIZININ HEKAYƏ SÖYLƏMƏSİ

Cümə günü səhər bu yamyaşıl tağ
Evini günəşdən etdi ağappaq.
Şah da ağ geyinib yola düzəldi,
Həmən ağ günbədin üstünə gəldi.
Yurd idi Zöhrəyə beşinci iqlim,
Beş növbə çaldırıb oldu o təslim.
Zəncilər Xötənə qoşun çəkmədən
Şənlik meydanını şah etmişdi gen[266].
Ayın, ulduzların, qalxaraq gecə,
Əl atıb gözünə sürmə çəkincə,
Şah rica eylədi o dildadədən,
Gecə həmdəmindən, səhərzadədən,
Uysun günbədinin xoş ahənginə,
Ərğənun rəngini qatsın rənginə.
Qız sənə söylədi şahın baxtına,
Bir də ki, o gözəl tacü-taxtına,
Dualar oxudu, afərin dedi,
Bu dövlət artıran bir dua idi.

### HEKAYƏ

Dedi: - Şah istəyir gözəl hekayət,
Dilim bacaranı deyərəm əlbət.
Bir anam vardı ki, evin duzuydu,
Qanlar qurd olar, o bir quzuydu.
Nağıl edirdi ki, tanış bir nəfər
Qonaq eyləmişdi məni bir səfər,
Bəzəkli-düzəkli süfrə düzəldi,
Az-çox nəyi varsa ortaya gəldi:
Quzular, toyuqlar, plov mala-mal,
Çörəklər, yuxalar, cürbəcür qoğal,
Muxtəlif halvalar könül istədən,
Bəzisi badamdan, bəzi püstədən,
Ürək aldadıcı lətif meyvələr:
İsfahan alması, Rey üzümü tər,
Çoxlu nar, hamısı meyxoş, yeməli,
Vardı o məclisdə çox narməməli.
Əvvəlcə başladıq nahar yeməyə,
Sonra meyl eylədik ruh açan meyə.

Qarışdıq, uyuşduq üzügülər, şən
Mən kimi bir neçə xoş nağıl deyən.
Dedi öz dərdini hər gözəl pəri,
Təkdən-tükdən oldu bütün sözləri.
Açdı gül ağzını bir şux mahcamal,
Elə bil əridi süd içində bal.
Onun ürək açan bir səsi vardı,
Sözündən balıqlar, quşlar yatardı.
Əqiqindənləziz çeşməni açdı,
coşdu, aşiq kimi kükrədi, daşdı.
Dedi: - Bir gənc vardı şirin danışan,
Şəkər qamışına oxşar bir cavan.
İsaya bənzərdi əqli, kamalı,
Yusifdi məclisdə yalnız misalı.
Elmi dərya kimi, cürəti vardı,
Bir də ki o cavan çox pəhrizkardı.
İrəm bağı kimi vardı bir bağı,
Bağ deyil, bağların nurlu çırağı.
Ətirlə yoğrulub sanki hər yeri,
cənnət meyvəsinə oxşar bəhəri.
Ürəklə doluydu nar içi sayaq,
Tikansız güllərdi başdan-başa bağ.
Varsa da güllərin əgər tikanı,
Qorumaq üçündür yalnız bostanı.
Sərvlər altında sular axardı,
Hər tərəf yaşıldı, axar-baxardı.
Tutmuşdu hər yanı quşların səsi,
Ərğəvan bağlarda göyün qübbəsi.
Sərvlər dibini basmış gül-çiçək,
Ruhlular mahnıya vermişdi ürək.
Pərgar işləmişdi baxsan hər yerə,
Dörd qalın divara çəkmiş dörd möhrə[267].
Eyvan ucalmışdı ulduza, aya,
Bədnəzərin yolu yoxdu oraya.
Çəkib varlılara o səfalı bağ
Əzəl gündən bəri çalın-çarpaz dağ.
O kişi hər həftə bağa gedərdi,
Zövq alar, qəlbini rahat edərdi.
Sərvi bəzəyərdi, səmən əkərdi,
Müşk səpər hər yana, ənbər çəkərdi.
Nərgizə əliylə verər təzə cam,
Yollar bənövşədən səbzəyə salam.
Dolanaraq bağı başlardı seyrə,
Sonra da yollanıb gedərdi şəhrə.
Günlərin birində, o səhərçağı
Getmişdi gəzməyə bu gülzar bağı.
Gördü ki, qapılar bağlıdır yaman,
Musiqi səsinə yatmışdı bağban.
Çulğalayır bağı xoş səs, xoş avaz,
Orda can bəsləyən olmuşdur canbaz.
Birər rəqqasədir yaşıl ağaclar,
Yarpaq həyat verir, canlar alır bar.
O gözəl səsləri xacə eşitdi,
canı uzaqdaydı, yaxanı diddi.





Nə baş çevirməyə qaran vardı,
Nə qapı açmağa açan vardı.
Döydü, cavab almaq müşküldü, müşkül!
Sərvlər oynayır, yuxlayırdı gül.
Bağın ətrafını dolandı, gəzdi,
Sanma ki, girməyə bir qapı sezdi,
Yol tapa bilmədi, durub döyükdü,
Sonra hasarının dibini sökdü.
Tamaşa etməyə girdi içəri,
Sərvtək pay almaq oldu şəkəri[268].
Bir bəhanə olsun ondan ötrü bağ,
Asırın - könül verib - çalğıya qulaq,
Görsün kim qoparıb bağda tufanı,
Bağça nə haldadır, hanı bağbanı?
Bostanı parladan qızıl güllərdən,
Bağçada keyf edən incəbellərdən,
İki gümüş baldır, döşləri səmən
Dayanıb qapıda keşik çəkir şən.
O huribədənli qızlara, düzü,
Dəyməsin bir nəfər naməhrəm gözü.
Xacə eyləyincə dəlikdən güzər,
- Ədəbsiz, - deyərək onu döydülər.
Kənizlər qoydular ömrünü darda,
Oğru güman edib bağladılar da.
Xacə qəbul etdi zülmü, təhqiri,
Nə üçün? Var idi çünki təqsiri.
Yumruqla vurdular durub qəsdinə,
Sonra çığırdılar bərk-bərk üstünə:
- Gəlmisən ki, bağa vurasan zərər,
Heyiflər ki, bağban tutmamış xəbər.
Oğrunu bağında tutarsa bağban,
Əl atar kötəyə, döyər bu zaman.
Biz ki bu kötəklə səni dağladıq,
Demək ki, layiqsən, tutub bağladıq.
Bir də çəpər boyu gizli dolaşma,
Darvaza yerinə divardan aşma.
Kişi söylədi ki: "Bu bağ mənimdir,
Bu tüstülər yayan çıraq mənimdir.
Qapım şir ağzına bənzər xeyli gen,
Girdim tülkü kimi nədən dəlikdən.
Kim belə girərsə əgər mülkünə,
Keçər mülkü onun yerin təkinə".
Kənizlər bu zaman donub durdular,
Bağın nişanını ondan sordular.
Gördülər, doğrudur bütün şəhadət,
coşdu məhəbbətlər, söndü ədavət.
Bağın ağasıdır, onlar inandı,
Eşqiylə canları yandı, nə yandı,
O çox şirindildi, gözəldən gözəl,
Gözəl kişi görən arvaddan üz əl!
Gördülər var onun xoş təbiəti,
Barışıb etdilər ona hörməti.
Qurtardılar onu zülmün bağından,
Açdılar, öpdülər əl-ayağından.

Üzr ilə dedilər: "Əfv et bizi sən".
Hər ikisi uydu ona könüldən.
Əgər dost olarsa üzr ilə düşman
Bağdakı rəxnədən qalmaz bir nişan.
Bağın uçuğunu gedib hördülər,
Xacəni dostluğa rəva gördülər.
Əyləşdilər nazla önündə sonra,
Nəql etdilər ona uzun macəra:
- Bahar kimi açan gözəl bağçada,
Çatsın söylədilər xacə murada.
Kim ki, ürəkalan almayanaqdır,
Bu gün bu bağçada əziz qonaqdır.
Gəzsən qarış-qarış bütün şəhəri,
Gözlərə nur verən hər gözəl pəri,
Görərsən yığılıb bağa bu axşam
Damğasız bir naxış, tüstüsüz bir şam[269].
Söylədilər: "Sənə əl uzatdıq biz,
Öz su qabımıza torpaq atdıq biz;
Dur bizimlə gəziş, dolan bir saat,
Hər kimi istəsən muradına çat,
Çəkil bir guşəyə, çəkil bir yana,
Şadlıq nəzəriylə bax gülüstana,
Hansı gözəl əgər qəlbinə yatsa,
Sevib xoşladığın hansı nabatsa,
Sən olan otağa gələr o canan,
Olar fərmanında hər saat, hər an".
Xacə eşidincə belə söhbəti,
Həmən cuşa gəldi yatmış şəhvəti.
Əgər ki, xilqətən o pəhrizkardı,
Lakin şəhvətlə də dostluğu vardı.
Kişiydi, çoxaldı eşqi, həvəsi,
Aldı qərarını qadın nəfəsi.
Yasəmən sinəli gözəl qızlarla,
Ürəyində ümid, düzəldi yola.
İş gəldi nəhayət bir yerə çatdı
Ki, ürək dözməyi kənara atdı.
Bağın ortasında vardı bir eyvan,
Görünürdü gözə oradan hər yan.
Xacə gedib ora cəftəni çəkdi,
Qızlar döndü geri, xacəmiz təkdi.
Haman bu eyvanda bir dəlik vardı,
Oradan aşiyan işıqlanardı.
Yönəlib dəliyə baxdı, doğrusu,
Nə gördü, dar çeşmə, dərya qədər su.
Gördü ki, ətrafda gül səpib güllər
Gümüş baldırlılar, nar məməlilər.
Hamısı çıraqtək par-par yanardı,
Hamısı yetişmiş, ləzzətli bardı.
Hər gözəl bir ürək etmək üçün bənd
Alıb öz gülünə səpələrdi qənd.
Hər xəznə üstündə bir əjdər yatmış,
Narınc turunc olub, kamala çatmış[270].
Gördü nar məmələr, alma tək çənə,
Adları yazılmış buzlar üstünə[271].

Bağbanlar olmasa əgər zülümkar,
O bağda yetişər bollu alma, nar.
O bağın güllüyü sərindi, sərin,
Çəmənlikdi yanı sərviliklərin.
Orada mərmərdən hovuz doluydu,
Abi-kövsər belə onun quluydu.
Hovuza gözyaşı sular süzürdü,
İçində balıqlar sərbəst üzürdü.
Onun dörd bir yanı gözəl bir çəmən,
Ətrafında bitir nərgiz, yasəmən.
Pərdə gözəlləri gəldilər, sərin
Bir hovuz gördülər dərindən-dərin[272].
Günəş eyləmişdi onları bitab,
Su onları gülşən eylədi hesab.
Qızlar yaxın gəldi işvə-naz saçıb,
Bütün düymələri birbəbir açıb,
Sinələr meydanda, özləri çılpaq,
Dürr kimi hovuza daxil olaraq,
Murad gümüşünü suya saldılar[273],
Ləpələr altında gizli qaldılar.
Ay balıqla qoşa suda gəzirdi[274],
Hilal tabdan düşür, bunu sezirdi.
Nə zamankı suya ay dirəm atar,
Gələr hərəkətə balıq harda var.
Bu aylar o qədər şəndi, gözəldi,
Xacənin balığı həycana gəldi.
Bir saat süzdülər verib əl-ələ,
Oynatdılar bağda səməni belə.
Gah qucaqlaşdılar, gah da durdular,
Nardan, narınclardan qayıq qurdular.
Saçını oynadır ilandır deyə,
Salır yoldaşını biri ürküyə.
Bisütunlar sütun qaldırmışdılar,
Fərhadı baltayla öldürmüşdülər.
Şirinin qəsrində süd arxı ki var,
Belə hovuzlardan yollanıb axar.
Xacənin qalmadı səbrə imkanı,
Yoxdu bir köməyi, tabı, tavanı.
Su önündə əli çıxarkən boşa,
Döndü bir yanğılı ağır sərxoşa.
Durub əyləşirdi, düşüb sevdaya,
Vurğundu elə bil təzə bir aya.
Gördü hər tərəfdə bir sərvi-qamət,
Sərvi-qamət deyil, özgə əlamət.
coşdu damarları, qan coşa gəldi,
Bütün üzvləri xüruşa gəldi.
Durdu oğru kimi, özgə cür deyil,
Duyub düşündüyün bir şəkildə, bil.
İstədi, atılsın ortaya bir an:
İlanı dəlikdən, quşu yuvadan.
Sanma ki, ilanı bunu bacardı,
Nədən? Dəlik yolu olduqca dardı.
O gözəllər suda tez çimən kimi,
İpəkdə bitdilər yasəmən kimi.

Büründülər tülə, göy kimi taza,
Başladılar ayla işvəyə, naza.
Vardı içlərində bir şux qəşəngi,
O - rumi, önündə başqalar zəngi.
Günəşdi elə bil hilal buxağı,
Dişlənməmiş xurma, püstə dodağı.
Qəmzəylə ətrafı süzüşü vardı,
Qənddən xeyli şirin gülüşü vardı.
Sərvi yetirmişdi o dilbərin bar,
Həyadan qoynunda sulanmışdı nar.
Min hiylə işlətmiş, min ürək almış,
Hər kim görmüş onu yerində qalmış.
Dastan söyləməyə başlarsa dərhal,
Sevgi huşyar olar, məst olar kamal.
Xacə baxıb ona guya ki, dondu,
Elə bil vurulub atəşə hindu.
Hər qıza aypara deyilsə hərgah,
İçlərində yalnız o idi padşah.
Zahid öz yolundan çıxdı azaraq,
Müsəlman adında kafirə bir bax.
Bir saat keçmədi, oldular əyan
Tükləri od saçan o qoşa ceyran.
Xötən ölkəsində maral ürküdən,
Pələngə ceyranı göstərib gedən
Gözəllər qənd saçıb gəldi meydana,
Salsınlar işini onun sahmana.
Xacəni otaqda görüb durdular,
Qapıçılar kimi gendən sordular:
"Aşiqsən söylə bir, bizi sal başa,
Hansı hurisifət şux qələmqaşa?"
Xacə bəyəndiyi o incə naxşı
Bu qoşa rəssama göstərdi yaxşı.
Eşidincə bunu işə girdilər,
Onlar ceyran deyil, keyfli şirdilər.
Gətirildi yola fənd ilə pəri,
Coşub yüksəlincə çalğı səsləri.
Bir yolla gəldilər, gəlməz gümana,
Dargalar qıyardı sirri duyana.
Gətirib saldılar qızı içəri,
Bağlayıb qapını döndülər geri.
Xacə bilməyirdi əhli-haldı yar,
Yarı əhl olanın işi səhl olar.
Otağa salınan o çəngi gözəl
Xacənin işinə uydu əlbəəl.
Onu nazəninlər salmışdı başa
Ki, xacə vurulub sən qələmqaşa.
Bəyənilmiş pəri, o nazlı göyçək,
Görmədən xacəyə vermişdi ürək.
Gördü bildiyindən xacə xoştərdir,
Dəmiri gümüşdür, gümüşü zərdir[275].
Tükəndi, qalmadı xacənin tabı,
Başladı sərv ilə sual-cavabı:
Dedi: - Adın nədir? Dedi ki: - Baxtdır.
Dedi ki: - Bəs yerin? Dedi ki: - Taxtdır.





Dedi: - Əslin nədir? Dedi: - Nur, çıraq.
Dedi: - Bəs bədnəzər? Dedi ki: - Uzaq.
Dedi: - Pərdən nədir? Dedi ki: - Saz, saz.
Dedi: - Şivən nədir? Dedi ki: - Naz, naz.
Dedi: - Bir busə ver! Dedi ki: - Bol, bol.
Dedi: - Vaxtın yoxdur? Dedi ki: - Tez ol.
Dedi: - Ram olarsan? Dedi ki: - Asan.
Dedi: - Bəs diləyim? Dedi: - Çatmısan.
Xacənin bədəni oynadı, əlbət,
Qalxdı ortalıqdan həya və ismət.
Tutdu tellərini çəng tutar kimi,
Basdı sinəsinə şirin bar kimi.
Bir öpdü, on öpdü, yenə işlədi,
Sordu şəkərləri, qəndi dişlədi.
Ürəyi oynadı yerində, bu hal
Verdi sevişməyə özgə bir calal.
Xacə istədi ki, qalxıb, nagəhan
Götürsün möhürü abi-həyatdan.
Qara şir yürüdü, cumdu marala,
Zorla istədi ki, altına ala.
Dözmədi bu zaman eyvan, söküldü,
Kərpic-kərpic üstdən uçdu töküldü.
Bilir bu hikməti hər arif kişi,
Pis nəticə verməz yaxşının işi.
Qurtarıb xətərdən, batmadan qana
Atıldı hövlnak hərə bir yana.
Görməsinlər deyə yoldan aşdılar,
Həman imarətdən uzaqlaşdılar.
Alıb dərd yükünü xacə gəlincə,
Getdi qəm yeməyə, çəkildi küncə.
Kəniz gəlib tapdı yoldaşlarını,
Çatdı qəmli kimi öz qaşlarını.
Çəng alıb əlinə o dilbər pəri,
Söylədi çəkdiyi əziyyətləri.
Yayıldı çəng səsi, düşdü hər yana,
Nalə aşiqləri etdi divana.
Dedi: - Mənim çalğım gərək car olsun,
Eşqin xəstəsinə salamlar olsun.
Aşiqlər mənimtək hey xəstə gərək,
Sağlam ikən canı şikəstə gərək.
Eşqi nə vaxtadək saxlayım nihan,
car çəkirəm: mənəm aşiqi-dövran.
Eşqin sərxoşuyam, yox ixtiyarım,
Əlimdən alınmış səbrim, qərarım.
Əgər ki, aşiqin nəsibi ahdır,
Tövbə eşq əhlinə böyük günahdır.
Eşq tövbə ilə aşina deyil,
Tövbə eşq əhlinə heç rəva deyil,
Aşiq yar yolunda versin can gərək,
Qorxusu olmasın qılıncdan gərək.
Elə ki dürr səpdi laldən çəngi,
Halını bildirdi o xoş ahəngi.
O qoşa gözəllər əhli-haldılar,
Çalğıdan zövq alıb, fikrə daldılar.

Dedilər ki: "O cüt çırağa, demək,
Zərərlər yetirib sərt əsən külək".
Gəzdilər Yusifi, çıxmışdı yoxa,
Tapıb ətəkləyib misli-Züleyxa,
Soruşdular işin həqiqətini,
Xacə nəql eylədi fəlakətini.
Halına acıyan bu cüt aypara
İşinə axtardı onun bir çara.
Dedilər: "Bu gecə bağda qalarıq,
Sənin məsələnlə məşğul olarıq.
Verməriк bu gecə yol bəhanəyə,
Qoymarıq bir nəfər getsin xanəyə.
Girər ağuşuna o gözəl hilal,
Bu axşam kamını ondan istə, al.
Yırtar pərdələri işıqlı gündüz,
Gecə pərdə tutar hər zaman, bu düz!"
Onlar sözlərini deyib getdilər,
Qoşulub qızlara söhbət etdilər.
Qara səmur ilə qaranlıq gecə
Burtas pərdəsini örtdü gizlicə[276].
Günəşin bir mıxlı qılıncı söndü,
Min mıxlı zirehə gecə büründü[277].
Xacənin yanına salıb pərdəni,
Sənəmlər tutdular öz sözlərini.
Gözəl, parlaq günəş yetişdi aya,
Qəlbi yanğılı sərv çatdı bol suya.
Bir xəlvət yer ola, bir də nazlı yar,
Söylə, belə yerdə kimdə səbr olar?
Xacənin qızışdı yeddi əndamı[278],
Coşub arzuladı bu zaman kamı.
Heç kəsi etmədim sözümdən agah,
Bir sənə deyirəm, şahiddir Allah,
O, dürrü ləl ilə deşmək istədi:
- Tuğumuz tağ ilə birləşsin, - dedi.
Ağacda vəhşi bir pişik bu zaman,
Yuvada bir quşu görcək, nagəhan
Atıldı üstünə, yıxıldı yerə,
Dəydi bundan zərər sevgililərə.
Çulğadı onları vahimə, heybət,
Könüldə həyəcan, ayaqda sürət.
Ayrıldılar belə, yetişməmiş kam,
Çiy oldu gör necə bişmiş bir təam.
Gözəllər yanına gözəl gedincə,
Aldı çəng qucağa o yarı gecə.
Çalaraq oxudu, oldu bağrı qan:
"Bahar yetişincə açar ərğəvan.
Xiyabanlar boyu sərv oldu büлənd,
Açdı hoqqasını, güllər saçdı qənd.
Qondu şax budağa sapsarı bülbül,
Dedi: - Gendir keyfin bazarı - bülbül!
Süpürüb, suladı bağban o bağı,
Şah gördü ki, gəlib nəşənin çağı.
Şərab qədəhini əlinə aldı,
Bir daş həmən camı sındırdı, saldı.

Varımı-yoxumu, ey qarət edən,
Sənsiz neyləyirəm bu dünyanı mən.
Əgər ki yanında xəcalətim var,
Könül arzulayar, səni axtarar".
Duyub sirdaşları xoş avazını,
Bildilər qəlbinin gizli razını.
Ürəyi dərdlənir, bunu sezdilər,
Gedib o xacəni yenə gəzdilər.
Xacə elə bil ki, yağ oğurlayıb,
Gizlənib düşünür: ayıbdır, ayıb.
Şümşad ilə söyüd, sərv, çəng, qovaq
Altındakı arxda tapmışdı sığnaq.
Heyrətlər edirdi, nədir bu kələk?
Açmışdı süsəni xeyritək çiçək[279].
Onlar soruşdular, xacə inlədi,
Dil açdı, gözəllər baxıb dinlədi.
O sirrə məhrəmlər, dərdə yananlar
Dedilər: - Qovuşsun gərək cananlar.
Dönüb yol açdılar, iş görüb belə,
Yetirdilər həmən gülabı gülə.
Xacənin əlindən yapışan gəldi,
O mehriban üçün mehriban gəldi.
Xacə uzadaraq yara atdı əl,
Dedi: "Layiq yerə gedək, ay gözəl".
Bir ağac var idi, taxt qursun, deyə,
Qalxmışdı şaxları möhtəşəm göyə.
O şahlıq taxtının altına yetdi,
Burada əliylə bir yer düzəltdi.
Sənəmi mehr ilə çəkdi qarşıya,
Bağrında yer verdi o gözəl aya.
Nazənin yerişli sərvi-xuraman
Samani xalıda yasəməndi san[280].
Qıza meyl etdikcə könlü oldu şən,
Sərv ilə çiçəkdi belə birləşən.
Xacə qucaqladı ayı, əlbəəl
Ayaq gücdən düşdü, işə girdi əl.
Xanalar alırdı xacənin daşı,
Yol tapa bilmədi qaçsın yoldaşı.
Qələnin düşüncə xacə qəsdinə
İstədi su tökə odun üstünə.
Demə, çöl siçanı baxıb uzaqdan,
Neçə kudu görmüş asılı tağdan.
Qalxdı, qanadlandı quş kimi yerdən,
Dişlədi kudunun bəndini birdən
Hər kudu təbilə döndü, sürüşdü,
Sapından üzülüb torpağa düşdü.
Səsləndi kudular, səs getdi mil-mil,
Elə bil köçməyə çalındı təbil.
Büründü səslərə hər tərəf, hər yan,
Aslan pəncəsindən qurtardı ceyran.
Xacə elə bildi, gəlir təlaşla,
Darğa nağarayla, möhtəsib daşla[281],
Qoydu başmağını, düzəldi yola,
Qaçdı çevrilərək baxmayıb dala.

Min qorxuyla pəri yenə düzəldi,
Gözəl dostlarının yanına gəldi.
İlkin nəfəs dərdi, o dilbər gözəl,
Sonra pərdə açdı, atdı çəngə əl.
Dedi ki: "Aşiqlər deyər, bir kərə
Yar gəlmiş baş çəkə incə dilbərə.
Görüncə gözəli aşiq uzaqdan,
İstəmiş barını dərsin budaqdan.
Qucuşmaq arzusu coşmuş canında,
Gül qiyamət eylər sərvin yanında.
Sinə bostanında bilmiş barı var,
İstəmiş qoparıb yesin armud, nar;
Gövhər xəznəsinə uzadaraq əl,
Atsın o xəznəyə ayaq ilk əvvəl.
Axıtsın nabata şəkər bilətsin,
Söyüdlə lalədən al qan çilətsin.
Qəfildən başlamış fitnə qovğaya,
Bütün arzuları çıxmışdır zaya.
Pərvanə işıqdan qalmışdır iraq,
Susuz düşmüş həyat suyundan uzaq.
Sən, ey pərdələri gec vuran, dur, al,
Çəngə düz pərdə vur, rəngi doğru çal.
Mənə pərdə verdin olduqca əyri,
Səninlə dönmərəm düzlükdən geri".
Söylətdikcə qəzəl dərdli nigarı,
Xəbər tutdu yenə can sirdaşları.
Xacəni gəzdilər, yenə çapdılar,
Gəlib bir tərəfdə yorğun tapdılar.
Ürəyi dönmüşdü əsən yarpağa,
Vermişdi yanını quru torpağa.
Oxşayıb durdular sınıq ruhunu,
Çəkib çıxardılar xarlıqdan onu.
Ürəkdən acıyıb, tutdular əhval,
Xacə ahlar çəkib etdi ərzi-hal.
Ona çarə gəzdi iki ayqabaq,
Yaman xəyallardan etdilər uzaq.
Açıb ürəyini o bir cüt çiçək
Vədələr verdilər, aldılar ürək.
Dedilər: "Bu işdə möhkəm insan ol,
Mehribandan daha çox mehriban ol.
İş üçün elə bir yuva təmir et,
Qoy uça bilməsin oraya afət.
Uzaqdan baxarıq, gözləyərik biz,
Olarıq işgüzar bir gözətçiniz".
Deyib bu sözləri tez yönəldilər,
Durub ayağına sərvin gəldilər;
Elə ki xacəni tapdı o canan,
Oldu ürək alan, əziz, mehriban.
Gözəl deyilənə edincə əməl,
Xacə xacəliyi atdı əlbəəl.
Tutdu sərxoş kimi gül saçlarından
Apardı, yer gəzdi bağçada pünhan.
Bağın kənarında vardı bir bucaq,
Bir xərmənlik yerdi, nurlu tağdı, tağ.





Orada ağaclar bənzər hasara,
Üstü meşəlikdi, altı mağara.
Xacə gəzib, gəzib orada durdu,
Bu xoş çəmənlikdə yerini qurdu.
Kəsib yasəməni atdı kənara:
- Gedək ora, - dedi nazlı dildara.
Həya üz çevirib qaçdı, gizləndi,
Açdı, necə deyim, o gizli bəndi.
Çəkdi qucağına tər güləndamı,
Şəkər arasında gördü badamı.
Hələ sürmədana getmədən mili,
Yeni oyun açdı fələyin əli.
Mağara içində olan tülkülər
Qismətin üstündə qopardılar şər.
Haman tülküləri görüb canavar
İstədi eyləsin onları kənar.
Qorxdular tülkülər bu yalquzaqdan,
Zağ-zağ titrədilər əsib uzaqdan.
Baxaraq çöllərin bu heyvanına,
Qaçdılar xacənin birbaş yanına.
Qabaqda tülkülər, dalda canavar,
Aşiqlər üstündən keçib qaçdılar.
Bir ordu salmışdı sanki çataçat,
Pozuldu xacənin qurduğu büsat.
Nə vardı, bilmədi, xəyalı çaşdı,
Toz-torpaq içində yüyürdü, qaçdı.
Əridi, qan oldu bağrının yağı,
Çalışdı tərk edə qorxulu bağı.
Şümşadlar ki, vermiş nərgiz, nar ona
Gördülər xacəni qaçır bir yana.
Gedib dilbərini tapdılar yalqız,
cüt nəhəng içində dürr oldu o qız.
Səsləndilər: "Nə var, nə olub, anlat!
Bu nə şeytanlıqdır, bu nə xəyalat?
Niyə puç edirsən bu cavanlığı,
Niyə öldürürsən mehribanlığı?
Mehriban olduğun bu qəriblə sən,
Belə bir oyunu kim oynar, desən?
Neçə yol bu gecə tərk etdin onu,
Fitnə-fellər qurub, əzdin ruhunu".
Gözəl yalvararaq içdi and-aman,
Lakin inanmadı o qoşa canan.
Xacə gəlib çatdı bu zaman dada,
Qızlar sanki qayçı, şam da ortada.
Danlaqdan çəkinib utanıb, durur,
Qızlar da hey ona sərzəniş vurur.
Dedi: - Siz əl çəkin bu qızdan, barı,
Bir də incitməyin incimiş yarı.
Pis bir iş tutmamış əsla o gözəl,
Gərəkdir başqa yol, başqa bir əməl.
Əgər xəyanətdə varsa bir xətər,
Sizi döymək lazım, sizsiniz rəhbər.
Məsumdur nə qədər onun gövhəri,
Təqsirkar sayınız ancaq bu yeri.

Dünya zirəklərin karvan yoludur,
Düzlər təmizlərin sadiq quludur.
Pislikdən qurtardı yaradan bizi,
Qoymadı bizlərdə bir xəta izi.
O əngəllər bizdə qoymadısa can,
Afəti afətlə yudu Yaradan.
Bəxtimiz olalı pasibanımız,
Pis işdən qurtardı şirin canımız.
Aldada bilməsə hər kimi şeytan,
İnan ki, baş verməz pis əməl ondan.
Hər kim istəsə ki, işləsin haram,
Haramzada olar yalnız o adam.
Bu pəri camallı, şux güləndamı
Mehriban sayacaq hər zaman hamı.
Mərdliyi sevdirər belə cavanı,
Belə sadə xislət bir mehribanı.
Yolun üzərində olanda ismət
Günahın üstünə qonmaz hərəkət.
Dəysə bir ağaca əgər bədnəzər,
Onun meyvəsini dərib yeməzlər.
Yüz heyvan göz dikib gözlərimizə,
Odur ki, üz vermir yaxşılıq bizə.
Artıq unudulsun olub-keçənlər,
Bizlər varımızdan çəkmərik zərər.
Etdim gizli-aşkar tövbə mən, hərgah
Qəbul etsə mənim tövbəmi Allah.
Əcəl aman versə sözüm budur, bax,
Razılıq verərsə bu şəkərdodaq,
Eyləyərək onu özümə övrət,
Çəkərəm nazını, edərəm xidmət".
Qızlar gördülər ki, o nəcib insan
Allah bəndəsidir, qorxur Tanrıdan.
Önündə səcdəyə düşdülər yerə,
Afərin belə pak əqidələrə
Ki, onda yaxşılıq, saflıq toxmu var,
Qorusun qoy onu tək pərvərdigar.
İnsana üz verər əziyyət, cəfa,
Olar nəticəsi rahatlıq, səfa.
Bəzən üz verəndə mərəz insana,
Bu mərəz çevrilir yaxşı dərmana.
Gözəllər naz ilə döndülər geri,
Çoxaldı fələkə təəccübləri.
Qalxdı nur çeşməsi dağlar başından,
Qovdu bədnəzəri üfüqdən yaman.
Səhər üstürlabın ənkəbututək
Yerin sütununa tor qurdu, gerçək.
Bürüdü çıraqlı bir yel hər yanı,
Apardı şəhərə bağdan bağbanı.
Xacə, padşahlığa bayraq vurdu, şad,
Köləlikdən etdi özünü azad.
Dünən eşqə düşüb gəzdi, dolandı,
Bu gün qazan kimi qaynadı, yandı.
Dönərək şəhərə o əhli-vəfa
Dedi: istəyimdən görüm bir səfa.

Aldı beşiyinə gözəl hilalı,
Kəbinlə eylədi öz halal malı.
Bütöv ləli dəldi mərcanla, daddı,
Quşlar ayılanda balıq da yatdı.
Balıqdan quşadək canlılar, hər kəs
Yaşayır, göstərir buna meyl, həvəs.
Yetirdi saf suya onu cah-cəlal,
İçdi o şeydən ki, sayılır halal[282].
Səmən saflığında, gümüş qədər ağ,
Günəş kimi təmiz, gün kimi parlaq,
Gündüzün işığı ağlığındadır,
Ayın yaraşığı ağlığındadır.
Rənglər çox sünidir, dünyada bir ağ
Bilməyir sünilik, bilməyir boyaq.
Nə zaman eyləsən haqqa ibadət,
Ağ libas geyməkdir yaxşı əlamət.
Qurtardı sözünü yasəmən, nagah
Çəkib qucağına onu, aldı şah.
Haman bu qaydayla gəlincə axşam,
Qurdu günbədlərdə əyləncə Bəhram.
O günbəd quran göy bir hünər saçdı,
Şah üçün yeddicə darvaza açdı.

## BAHARIN TƏRİFİ

Müştəriylə Zühəl qovuşan zaman
Günəş daxil oldu Həmələ Hutdan[283].
Otlar Xızır kimi bütün çöl boyu
Tapdı hər tərəfdə dirilik suyu.
Çeşmələr göbəyi oldu axar Nil,
Yolların üstündə coşdu səlsəbil.
Yer müşk ilə doldu, ud geydi hər yan,
Nafə satan külək oldu müşk alan[284].
Novruz havasında olan etidal,
Aləmə bəxş etdi nurani bir hal.
Novruzun nəsimi yeni əhd ilə
Qatdı öz canını çiçəyə, gülə.
Göründü otların baş qaldırması,
Silindi aynadan günəşin pası[285].
Əfir ətəyində şəbnəm oturdu,
Hərarət şaxtaya bir zərbə vurdu.
Dağlardan əriyən kafuri qarlar
Çaya göz yaşıyla verirdi vüqar.
Səbzəyə baxdıqca nurlandı gözlər,
Hər şey cavanlaşdı, oldu təzə-tər.
Nərgiz gözlərini süzəndən bəri
Yuxusuz eylədi bütün gözləri.
Saçdı nəfəsini sabahın yeli,
Səpdi bənövşəyə ətirlər əli.
Sərv kölgəlikdə yelkən quraraq
Şümşadın saçına çəkirdi daraq.
Neylüfər qalınca həsrət yuxuya
Özünü yetirdi əlbəəl suya[286].
Çiçəkli şaxlarda qönçə açıldı,

Lalə yarpağıtək lö-lö saçıldı.
Nərgizin bu sərxoş gəlhagəlində
Süsən zər çubuğu tutdu əlində[287].
Təzə qönçələrlə o gözəl bahar
Etdi qiyamətsiz ulduzlar nisar.
Şənbəlid gözündən yaşlar töküldü[288],
Zəfəran yeyərək təzədən güldü.
Göy gülə bəxş etdi abi-həyatı,
Şəqayiqə yazdı qanlı beratı[289].
Nəsrinin gövhərə sinmiş yarpağı,
Tutiya əzirdi süsən budağı[290].
Siçanqulağı da saçını aldı,
Hörüb deyləmli tək çiyninə saldı[291].
Yarpaq, ot göyərib, qalxıb artalı,
Həm qayçı kəsildi, həm oldu xalı.
Sünbül müşk vurub salxıma bənd-bənd,
Etdi qərənfilə acıqla rişxənd.
Xeyrigül əhd ilə gəldi çəmənə;
- Vəliəhdsən, - dedi, - o, yasəmənə.
Süsənbərin iyi göylərə qalxdı,
Çarxın əqrəbini yandırdı, yaxdı[292].
Qönçə inəkgözə eyləməkdə naz,
Filqulaq sirr söylər quşa keyfi saz[293].
Kafur gülü, səhər əsəndə yellər
Qızların taxdığı sırğaya bənzər.
Ud nişanlı müşki söyüd ki, vardı,
Gah kafur yığardı, gah müşk yığardı.
Ərğəvan, yasəmən bitib qalxaraq,
Bayraq ucaldırdı göyə al və ağ.
Xəzan oxlarından görmüşdü dağı,
Əlini dişlərdi söyüd budağı.
Qızılgül qalxaraq tacidar oldu,
Yel də, qum da ona tərəfdar oldu.
Bütün bir gecəni budaqda bülbül
Xoruz banınadək döyürdü təbil.
Meydan yamyaşıldı, gül isə aldı,
Beş növbə təbili o çaldı, çaldı.
Sərv üstə faxtəyə edilsə nəzər,
Səsi rud səsinə olduqca bənzər.
Səhər naləsiylə qumru ötüşü
Kəkliyin əlindən aldı gülüşü.
Turaclar əkində ötüb gedirdi,
Cənnət beytləri təqti edirdi[294].
Zəndibaf, behiştin "Zənd" kitabından
Gecə bir neçə hərf oxudu pünhan.
İti nəvasıyla əndəlib gəldi,
Ahəngdar telitək çəngin incəldi.
Yazı lövhü kimi naxışlandı bağ,
Quş, balıq şadlandı, oldu keyfi çağ.





## XAQANIN BƏHRAM ÜZƏRİNƏ QOŞUN ÇƏKMƏSİ VƏ BƏHRAMIN ÖZ QOŞUNUNDAKI QARIŞIQLIQDAN XƏBƏR TUTMASI

Belə bir zamanda Bəhram şahənşah
Öz keyf məclisini düzəltdi gümrah.
Yeddi günbədindən möhtəşəm, yüksək
Bir günbəd qurdu ki, heyrandı fələk.
Bir qasid aradı uca məkanı,
Sordu yeddi günbəd, altı tağ hanı?
Cənnət eyvanına o gələn kimi,
Ruhu, düşüncəsi yüksələn kimi
Xosrova söylədi sənalar, əhsən,
Sonra da səcdəyə düşüb o gələn
Dedi: "Qalxıb Çindən ordu yürüyür,
Alıb hər tərəfi, basır, bürüyür.
Verdiyi peymana edib xəyanət,
Fəğfur göstərmədi əhdə sədaqət.
Tapılmaz Çinlidə vəfadan misal,
İçləri zəhərdir, bayırları bal.
Çəkib qılıncını bir coşğun ordu,
Yetişib ceyhuna düşərgə qurdu.
Çölləri bürüdü sel, ey ulu şah!
Bir ümmandır onda hər dəli timsah.
Bir tədbir görməsə padşah, doğrusu,
İçər qanımızı Çinli sanki su".
Şah yaxşı bildi ki, iş nə haldadır,
Gördü səlamətin başı qaldadır.
Öz başını tora salmazdan əvvəl
O, meyi buraxdı, camdan üzdü əl.
Belə qərar verdi: varkən imkanı
Tədbirlə eyləsin məğlub düşmanı.
Pənah bir orduda, xəzinədədir,
Bunlar da olmasa, ad, zəfər nədir?
Bilincə Bəhram ki, xəznə boşalmış,
Nə dava sursatı, nə ordu qalmış,
Döndü dişsiz şirə, sıxıldı yaman,
Oldu gözlərində ölkəsi zindan.
Eşitmişəm şahın, üzlərdən iraq,
Bir vəziri vardı Allahdan uzaq.
Rastü-Rövşən qoymuş adını, düzü,
Bu addan uzaqdı olduqca özü.
Düzlükdən yuxaydı, nazikdi qat-qat,
Düzlüyü əyrilik, işığı zülmət.
Padşaha adıyla qurmuşdu duzaq,
Özü yaxşılıqdan uzaqdı, uzaq.
Nə qədər ölkəyə Nərsi vəzirdi,
Allahın xovfunu yaxşı sezirdi.
Rastü-Rövşən keçdi vəzirliyə, bil,
Oldu doğruluqla aydınlıq zəlil.
Şah könül verdikcə naza, işrətə,
Vəzir də əl atdı zülmə, zillətə.
Yaxıb məsləhəti, fitnəni tutdu,

Ölkənin varını xul kimi uddu.
Şahın naibini hər yerə çatdı,
Qızılla, şübhəylə yaman aldatdı.
Dedi ki: "El bütün tələbkar olub,
Ərköyün, ədəbsiz, tamahkar olub.
Bizdən gördükləri bu nazü nemət
Onlara veribdir hər işdə cürət.
Verməsən tədbirlə bir cəza əgər,
Dartar qulağını yurdun bədnəzər.
Pisdir həm zatları, həm də özləri,
İçləri canavar, Yusif üzləri.
Qurdu dustaq edib tez çəkək dara,
Nə zamana qədər etmək müdara?
Torpaqdan yaranan hər qanmaz, alçaq,
İnsan suratində heyvandır ancaq.
Heyvandan umulmaz vəfa insana,
Qılıncla baş əyər onlar fərmana.
İbrət kitabına baxanlar bilər,
Səyavuş bunlardan çəkmişdir nələr.
Cəmşid cəlalını xar etdi onlar,
Daraya dünyanı dar etdi onlar.
Rəiyyətin malı hovuz suyudur,
Bir yerdə qaldıqca yaman qoxuyur.
Torpaqdan bulanıq olsa əgər su,
Yenə də torpaqla edilər duru.
Şah sərxoşsa əgər, düşmən sayıqdır,
Darğa yatıbdırsa, oğru oyaqdır.
İşlətməzsə əgər şah siyasəti
Puç olar şahlığı, həm rəyasəti.
Siyasət işlətsə bir şah, hər zaman
Ondan qorxub qaçar div ilə düşman.
Divdən fərqli deyil küstax rəiyyət,
Boşlasan, addımı gen qoyar, əlbət.
Çalış siyasətdə elə axıt tər,
Ağalıq görməsin ondan bir xətər,
Aldatmasın səni dostluq imkanı,
Bir özünü, bir də qılıncı tanı.
Keyf edib güvənir bizə tacidar,
Səndə yalın qılınc, məndə qələm var.
Səndən qəhr eyləmək, məndənsə tədbir,
Kimi tut söyləsəm, onu et əsir.
Varlıdan sərvət al, qoy qalsın çılpaq,
Yoxsula qanıyla cəza ver ancaq.
Yaxşı-pis, yolunda halaldır, halal,
Pislərdən can çıxar, yaxşılardan mal.
Al malı, rütbəni, xalqı xar eylə,
Əziz ol hər zaman davranıb belə.
Elə ki, rəiyyət zəif, xar olar,
Səltənət yerində bərqərar olar".
Naibi məst etdi qürur, mükəmməl,
Vəzirlə o daxi atdı zülmə əl.
Aldanıb edilən hər məsləhətə,
Zülümlər eylədi o rəiyyətə.
Xarlığı bir yerə yetirdilər ki,

Ölkədə başladı bir hərki-hərki.
Zülmün atəşinə canlar qalandı,
Ocaqlar talandı, evlər talandı.
Yüksəlib ellərə şeypur saldı səs,
Hər yanda hökm etdi: tut, qoyma, bas, kəs.
Yaman bir məqama çatdı əhali,
Qalmadı kimsənin dövləti, malı.
Ellər həsrət qaldı dövlətə, vara,
Rastü-Rövşən aldı rüşvət aşkara.
Qızıl, gövhər, kəniz, bollu qulam, qul,
"Malım var" deməmdi eldə bir oğul,
Çoxluq deyil, etdi yoxluq çox əsər,
Ölkədə qalmadı varlı bir nəfər.
Evlilər soyğundan gələrək zara,
Buraxıb evini verdi yadlara.
canından əhali bezdikcə bezdi,
Baş alıb avara dağlarda gəzdi.
Əkinin, öküzün kökü qazıldı,
Gəlir qan bahası deyə yazıldı.
Məmləkət döndükcə xarabazara,
Xəznə həsrət qaldı gəlirə, vara.
Vəzirinsə evi xəzanə oldu,
Aləm başdan-başa viranə oldu.
Dava tədarükü görməliydi şah,
Baxdı nə qoşun var, nə xəznə, eyvah,
Dedi qulamlara: "Bilməliyəm mən:
Dönüb xarabaya məmləkət nədən?"
Zülümkar vəzirdən qorxaraq heç kəs
Olub bitən işdən çıxarmadı səs.
Gətirdi hərəsi bir cür bəhana:
- Bu iflas elədi, o qaçdı yana.
Torpaqda mədaxil, məhsul qalmadı,
Odur ki, xəznə də bir şey almadı.
Gəlir yox ödənməz oldu vergilər,
Günləri xoş keçən yoxdu bir nəfər.
Şahımız göstərsə şəfqət, mərhəmət,
Kəsbkarlıq yenə qızışar, əlbət.
Şahı bəhanələr qane etmədi,
Vaxtsız döyüşə də lakin getmədi.
cəfakeş dünyanı düşündü, daldı,
Onun da həmdəmi yalnız xəyaldı.
İşini sahmana sala bilmədi,
Nəticəsiz qaldı qeyrəti, cəhdi.

### BƏHRAMIN QOCA ÇOBANIN EVİNƏ YETİŞMƏSİ

Arabir də gedib ova oldu şad,
Edildi qüssədən bu yolda azad.
Bir gün cilovladı dərdi-sər onu,
Ovutmaq istədi o da ruhunu.
Təkbaşına çıxdı ova, ovlağa,
Qəlbinin qanını qanla yumağa.
Ovladı, ovladı, vurub dağladı,
Qəmin ayağını möhkəm bağladı.
Vurdu pələngləri, vurdu şirləri,
Atının başını çevirdi geri.
O qədər sürətlə qovub çapdı at,
Əridi istidən beyni də qat-qat.
Gəzdi o yerləri, dolandı gəzdi,
İçməyə bir damcı su yoxdu, sezdi.
Gördü, əjdər kimi ayı tutmağa,
Bir zil qara tüstü qalxıb ayağa,
Burulurdu sanki dağ üstündə dağ
Göylərə qəsd üçün sanki qalxacaq.
Söylədi: - Doğsa da oddan bu tüstü,
Gedim su istəyim ordan əlüstü.
O tüstüyə tərəf çapdı, yönəldi,
Uca bir çadırın yanına gəldi.
Gördü ki, sürüdür gəzib otlayan,
Günəşin altında alışır hər yan.
Ağacdan asılıb bir it aşağı,
Bağlanıb daş kimi əli, ayağı.
Atını çadırın yanına sürdü,
Olduqca mehriban bir qoca gördü.
Qonağı görüncə, hər şeydən əvvəl
Qoca təzim etdi, əl üstündə əl.
İlk əvvəl salamdan verdi sovqatı,
Qonağı düşürdü tutaraq atı.
Sonra da çadıra doğru düzəldi,
Nəyi var hüzura gətirdi, gəldi.
Söylədi qonağa: "Gizlədim niyə,
Layiq deyilsiniz belə süfrəyə.
Buralar abadlıq deyildir, düzü,
Süfrə yoxsul isə, məzur tut bizi".
Görüb çörəyini o çobanın şah,
Bir içim su içdi, əl çəkdi nagah.
Dedi: "O vaxt çörək yeyərəm ki, sən
Nə sorsam, düzünü açıb deyəsən.
De görüm, bu itin nədir təqsiri?
Nə üçün bağlanıb bu evin şiri?"
Qoca söylədi ki: "Ey gözəl cavan,
Deyərəm nə olub, dinlə, gəl, cavan,
Bu it keşikçimdi çöldə, çəməndə,
Tapşırmışdım ona sürünü mən də.
O xeyli əmindi, vəfası vardı,
Onunla dostluqdan can xoşlanardı.
Gəzərdi hər zaman sürümdən uzaq
Bir qoyun oğrusu, bir də yalquzaq.
O, arxam, dayağım, pasibanımdı,
Əsla itim deyil, bil, çobanımdı.
Düşmən, pəncəsinə keçsə didərdi,
Dəmir biləyimdi, həlak edərdi.
Çöldən şəhərlərə getdiyim zaman
Sürüyə olardı bu köpək həyan.
Şəhərdən dönsəydim əgər gec dala,
Verərdi sürünü tək bu it yola.
Oldu yataqdarım neçə il belə,





Düz oldu, uymadı fitnəyə, felə.
Bir gün mən sürünün yolunu kəsdim,
Qoyunun sayını bilməkdi qəsdim.
Gördüm əskik gəlir heyvan yeddi baş,
Dedim: səhv edirəm, etmədim tələş.
Bir həftə keçmişdi saydım dübara,
Az gəldi qoyunum, qan oldu qara.
Sığındım kamala, əsla yatmayıb,
Gördüm xətaya əl insan atmayıb.
Gözüm keşik çəkdi, heç dincəlmədi,
Bir gecə də olsun hərif gəlmədi.
Demə, bu it yaman ayıqmış məndən,
Min yol tədbirində sayıqmış məndən.
Yenə də eylədim sürüyə diqqət,
Saydım yenə elə az gəldi, əlbət.
Azaldıqca sürü çoxaldı dərdim,
Özümü qüssənin əlinə verdim.
Malım azalırdı daima beş-beş,
Sanki əridirdi buzu al günəş.
Hər gün azalırdı bu dövlət, bu var,
Yerdə qalanı da zəkat aldılar[295].
O zamandan bəri bağrı qan oldum,
Ağaydım, çevrildim bir çoban oldum.
Acı qəm odlara, bil, atdı məni,
ciyərə işləyib ağlatdı məni.
Dedim: pozğunluğu salır bədnəzər,
Yırtıcılar edir evimə güzər.
İtim it deyildi, sanırdım şirdi,
Kim onunla belə dostluğa girdi?
Yatırdım bir dəfə su qırağında,
Ayıldım havanın xoş bir çağında.
Balış hesab edib öz çomağımı,
Uzatdım səssizcə əl-ayağımı.
Bir dişi canavar gördüm ki, gəldi,
İt onun önündə süst-süst çöməldi.
O, it lisanıyla çağırdı iti,
Köpək qarşıladı bu məhəbbəti.
Gəzdi dövrəsini, saldı tozanaq,
Gah quyruq tərpətdi, gah da ki, qulaq.
Axırda əyləşdi qurdun belinə,
Aldı istəyini dərhal əlinə.
Gəlib yatdı, sanki keyfi duruldu,
Ağzına sükutun möhrü vuruldu[296].
Qurd əvvəlcə verdi bir rüşvət itə,
Qələm haqqı gəzdi belə rüşvətə.
Sürüdə çox yağlı bir qoyun vardı,
Köklükdən ayağı qabar-qabardı.
Aşırdı qoyunu tapıb da fürsət,
İtdən çox almışdı o belə rüşvət.
İt uyub şəhvətin bu əməlinə,
Vermişdi sürünü qurdun əlinə.
Eşqindən başını itirmişdi o,
Sürünün işini bitirmişdi o.
Bir vaxt öz başına onu buraxdım,
Xəta işlədikcə dinmədim, baxdım,
Nəhayət onları tutdum bir kərə,
Başladım olmazın işgəncələrə.
Cəza günahkara verilir belə,
Dedim ki, köləlik eyləsin kölə.
İt kəsir yolumu, bu nə deməkdir,
Sürümün qəssabı demək köpəkdir.
Xəyanət işləmiş o, əmanətə,
Satır əminliyi min xəyanətə.
Bu işin üstündə asıb ağacdan,
Dedim ki, açmaram verməyincə can.
Günahkarla belə rəftar etməsən
Kimsə deməz sənə: afərin, əhsən".
Çobanın sözündə var idi hikmət,
Bu arif qocadan şah aldı ibrət.
Sözlər işarətdi - anladı, duydu,
Bir az yeyən kimi şəhrə üz qoydu.
Dedi ki: "Bu işə olmuşam heyran,
Şahlığı öyrətdi mənə bir çoban.
Bu hekayə mənim hekayətimdir,
Mən çobanam, sürü rəiyyətimdir.
Düz olmasa işdə qurduğun təməl,
İnandığım adam işlər pis əməl.
Vəzir inandığım gözüm, canımdır,
Hər zaman sürünü qoruyanımdır.
Desin: ölkə niyə bir viranədir?
Belə bərbadlığın əsası nədir?"
Elə ki, şəhərə qayıtdı geri,
Gətirtdi zindandan siyahıləri.
Baxdı vərəqəyə birbəbir özü,
Qaraldı namətək aydın gündüzü.
Bir dünya zavallı gördü yaralı,
Yazılmış hamının birbəbir halı.
Gördü hər vərəqdə belə yazı var:
Padşah ölüm kəsir, vəzir bağışlar".
Hər yerdə pislənir - olundu agah,
Vəzir yaxşı çıxır, ləkələnir şah.
Bu necə şivədir, oldu xəbərdar,
Oğrunun talana gördü qəsdi var.
Qurda sürü verən it kimi o da
Gördü məmləkəti vermişdir bada.
İtlər itliyində qalsalar belə,
coşub çox xüruşa gələrlər hələ.
Şah məsləhət gördü, hər şeydən qabaq
On gün vəzirini eyləsin dustaq.
Dedi: "Qulluğunda saxlasam əgər,
Çalmaz əleyhinə qələm bir nəfər.
Etsəm qapısını həşmətdən uzaq,
Qaranlıq gecədə nur verər çıraq".

## BƏHRAMIN VƏZİRDƏN HESAB İSTƏMƏSİ

Sabah Yer üzünə işıq səpincə
Yığdı öz fərşini qaranlıq gecə.
Səhər cüt qılıncla bir zərbə vurdu,
Qalxıb öz qanıyla ayı doyurdu.
Yüksəltdi fələyə Bəhram sarayı,
Əmr etdi: gəlsin el, saldı harayı.
coşdu axın kimi, gəldi hər tərəf,
Hamı öz yerində oturdu səf-səf.
Rastü-Rövşən dəxi hərəkət etdi,
Yuxarı başdakı yerinə getdi.
Qəzəblə çığırdı Bəhram vəzirə,
Qorxudan az qaldı o girsin yerə:
- El xaraba olub, səbəbi sənsən!
Yurd bəzəksiz qalıb, viran edənsən,
Qoydun quru yerdə, talayıb məni,
Gövhərlə doldurdun öz xəzinəni.
Qoşunun rizqini aldın əlindən[297],
Ordu tələf oldu bu əməlindən.
Soydun rəiyyəti, talan var kimi,
Susadın canına canavar kimi.
Eldən almalıykən vergi, ya xərac,
Gah kəmər almısan, gah almısan tac.
Unutdun haqqını gözəl nemətin,
Məndən utanmadın, yoxmuş qeyrətin.
İman bəslər buna, hamı hər zaman,
Nemət küfrü pisdir dinsiz olmaqdan[298].
Neməti tanımaq hörmət artırar,
Kim onu gözləsə, nemət artırar.
Nə rast, nə rövşənsən, aydınlıq itdi,
Getdi işıqlıq da, düzlük də getdi.
Səndən qoşun, xəznə əziyyət almış,
Nə ordu, nə xəznə yerində qalmış.
Elə sanırsan ki, şərab zamanı
Könül qafilanə atar dunyanı.
Əlini kəsərsən bizimkilərin,
Quyu qazıyarsan dərindən-dərin.
Torpaq olsun yeri qaldıranda cam
Unutsa bir dəfə qılıncı Bəhram.
İçəndə özümü unutsam da, bil,
Anla ki, fələkdən olmadım qafil".
Sözü çənbər edib, şah bir-bir aldı,
Vəzirin boynuna götürdü saldı.
Sonra bir cəllada dedi: "Onu al,
cənnətdən sürüyüb cəhənnəmə sal!"
Əmmamədən ona qayırıb kəmənd,
Aparıb zindanda eylədilər bənd.
Ayağı kündəli, zəncirli əli,
Belə bir vəziri belə görməli.
Bu şiddətli hökmü verib tacidar,
Əmr etdi: "Ucadan şəhrə çəkin car.
Məzlumlar olunsun bu cardan agah,
Alsın qisasını qoy onların şah".

Eşitdi camaat, eşitdi ordu,
Gəlib Bəhram şahın önündə durdu.
Açıldı vəzirin yaman işləri,
İlanla deşdilər köhnə əjdəri.
Xəbərdar etdirdi şah dustaqları,
Məhbəslərdə yatan qəlbi dağları.
Hamı təqsirini desin, hər nə var,
Bəndini açmağa göstərsin açar.
Dustaqdan qurtaran cumdu, yönəldi,
Şahın hüzuruna axışdı, gəldi.
Şah yeddi nəfəri ayırdı dərhal,
Etdi dərdlərini onlardan sual:
"Bir söylə, nə üçün ömrün dardadır?
Haralısan, evin, yurdun hardadır?"

## BİRİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Söylədi Bəhrama birinci adam:
"Sənin düşmənindən düşmən alsın kam.
Tökdü Rastü-Rövşən gözdən yaşımı,
Əzabla öldürdü can qardaşımı.
Mal-qara az, ya çox, nəyi ki, vardı -
Üstə izzəti də alıb apardı.
Gözəldi qardaşım, xeyli cavandı,
Hər kim eşitdisə halıma yandı.
Mən şivən qoparıb, saldım qalmaqal,
Saldırdı zindana o məni dərhal.
- Düşmənə var - dedi - yaman rəğbəti,
Gətirdi başıma bu müsibəti.
Kinli bir qurluya verdi işarət299,
Etdilər evimi talan və qarət.
Bağlatdırdı məni, göstərib də zor,
Sarayı gözümdə dönüb oldu gor.
Getdi min zülm ilə, öldü o qardaş,
Bu qardaş ölümcül axıtdı qan-yaş.
Onun dustağıyam bir ildir, düzü.
Mənimçin mübarək faldır şah üzü".
O məzlum dərdini söylədikcə, şah
Oldu vəzirinin zülmündən agah.
Vəzir qarətini qan bahasılə
Qaytarıb tapşırdı o məzlum ələ.
Dedi: "Get işinə, azadsan, azad!"
Elədi məzlumu bəlalıkla şad.

## İKİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

İkinci dayandı, əl üstündə əl,
Şaha dua etdi hər şeydən əvvəl;
Dedi: "Kənarlarda vardı bir bağım
Yaşıllıq yurduydu şaxım, budağım.
Hər küncünün vardı behişt cəlalı,
Əyərdi meyvələr hər yaşıl dalı.
Məndən ötrü xəzan təzə bahardı,
Atamdan bu bağça bir yadigardı.





Gəldi haman bağa bir gün o yağı,
Oldu gülzarımın əziz qonağı.
Gətirdim ortaya meyvə, mey, şərbət,
Layiqincə ona eylədim hörmət.
Evdə, bağda nəyə gəldi gümanım,
Gətirdim ortaya, gülsün mehmanım.
Yedi, rahat oldu, sevindi, yatdı,
Meydən istəyincə murada çatdı.
Sonra durub gəzdi, etdi tamaşa,
Haman bağ eşqilə döndü sərxoşa.
Söylədi: - Gəl, mənə sat bu bağını,
Pul verim, nurladım qoy çırağını.
Mən dedim: - canımdır, bil, bu bağ mənim,
Onsuz günüm qara olacaq mənim.
Hər kəsin bir şeyə qızğın eşqi var,
Mən yazığı isə bağım yaşadar.
Elə zənn eylə ki, bu bağ sənindir,
Bağbanınam burda, otaq sənindir.
Nə zaman güzarın düşərsə bizə,
Sular kənarında, mey iç, al məzə.
Nəyə malikəmsə mətbəximdə mən
Gətirsin önünə bir gümüşbədən.
Dedi: - Bundan daşın, bəhanəni at,
Yığış, get buradan, bağı mənə sat!
Çalışdım, inlədim, atmadım bağı,
Nə zora, nə zərə satmadım bağı.
Nə zaman keyfləndi o asi mehman,
Atdı üzərimə bir quru böhtan.
Başımı zülm ilə cəfaya saldı,
Tutub mən yazığın bağımı aldı.
O gündən qismətim oldu soyuq ah,
Deyirəm dərdimi bilsin şahənşah.
İki ildir məni gətirib cana,
Çəkib əziyyətlə salıb zindana".
Şah qaytardı ona tarlanı, bağı,
Bağdada dönmüşdü bağı, otağı.

## ÜÇÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ

Üçüncü dedi ki: "Böyük tacidar,
Hər yana istəsən bəxtin yol açar.
Mən dəniz yoluyla edib ticarət,
Tapardım özümə bir parça nemət.
Çıxardım səfərə beləcə bol-bol,
Gəlirim artardı hər səfər, hər yol.
Dürrü tanımaqda artdı qiymətim,
Bürüdü hər yanı adım, şöhrətim.
Sabaha nur verən yar-yaraşıqlı,
Çıraqdan daha çox aydın, işıqlı
Bir neçə mirvari ələ gətirdim,
Sevinib özümü şəhrə yetirdim.
Onları satmaqdı arzum, istəyim,
Dedim: yaxşı geyim, həm yaxşı yeyim.
Çatdı vəzirinə onun sorağı,
Bildi ki, məndə var bir boyunbağı.
Çağırtdırıb aldı, odlara yandım,
Qiymət söyləməyə yaman utandım.
Sövdələşmək çağı gəldi meydana,
Gətirdi ortaya yüz min bəhana.
Dedim qiymətini, dərdü qəmlə mən,
Yenə əl çəkmədi o bəhanədən.
O, qaradan, ağdan tutmuş neçə gün,
Qəlbimi ümidlə doldurdu bütün.
Nəhayət çağırıb məni gizlicə,
canitək zindana saldı bir gecə.
Pulumu vermədi namərd, aman, ah,
Dedi: - İşləmisən cinayət, günah.
Getdi halal malım, dürr boyunbağım,
Bağlandı üstəlik əlim, ayağım.
O məndən gövhəri beləcə aldı,
Varlığım daş kimi zillətdə qaldı.
Dürrü papağına eylədi bəzək,
Atıldım quyuya, qaldım sədəftək".
Xəznəsindən alıb bədvəzirin, şah
Onu daş-qaşlarla eylədi gümrah.

## DÖRDÜNCÜ MƏZLUMUN ŞİKAYƏTİ

Dördüncü şəxs çəkib, qorxusundan ah,
Dedi: "Ey tərifə layiq olan şah.
Gənc, qərib aşiqəm, ilham alardım,
Axar sular kimi bərbət çalardım.
Bir sevgilim vardı, olmazdı misli,
Qəmlər təsəllisi, çiniydi əsli.
Hilaldan nur almış parlaq məhpara,
Gündüz qarşısında gecədan qara.
O, heçin adını qoymuşdu ağız,[300]
Qatıb gülüşünə qənd, şəkər bu qız.
Bahardan gözəldi bu dilbər cavan,
Aşkara çalmışdı rövnəqi bağdan.
Satın aldımsa da mən o afəti,
Gözümün bir oydu vəli-neməti.
Məndən öyrənmişdi sazda çalmağı,
Vardı ruh bəsləyən könül almağı.
Üzbəüz oturub məclis qurardıq,
Şamla pərvanətək söhbət vurardıq.
Mən bir gecə idim, o nurlu çıraq,
Yar sevimli çiçək, könül bağça-bağ.
Vəzir məndən aldı o güləndamı,
Elə bil ayırdı nurundan şamı.
Alıb öz evini işıqlandırdı,
Yazıq pərvanəni oda yandırdı.
Mən yar həsrətiylə divanə oldum,
Ona yol axtardım, getdikcə soldum.
Vəzirin saldırdı məni zindana,
Dedi: - Zəncirlənər dəli-divana.
Aldı o yarımı hiylə, naz ilə,
can qaldı zindanda min niyaz ilə.

Dörd ildir ki, belə, ah, o zülümkar
Məni bu zindanda etmiş zəlil, xar".
Şah gözəl kənizi, bollu varidat
Gətirdib, oğlana verdi o saat.
Üstəlik gəlinə verdi bol cehiz,
Zindandan qurtardı məhbusla kəniz.

## BEŞİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Beşinci söylədi: "Ulu tacidar,
Ey evi fələyə olan barabar.
Rəisiyəm filan rəsədgahın mən,
Müti bir quluyam şahənşahın mən.
Məşğələm verməkdir ölkəyə zinət,
Qulağım halqalı, işim itaət.
Şahın dövlətindən, yaradan Allah
Mənə dövlət vermiş, bir də calal, cah.
Məşriq şahı daim yaşasın deyə,
Qərq etdim üfüqü tamam şənliyə.
Duan rizqim idi mənim hər zaman,
Səndən ötrü gördüm yaxşı iş, inan.
Şəhər, kənd sayəmdə oldu təzə, şad,
Alimlər etdilər mənə etimad.
Əlimlə parladı bütün məmləkət,
Yetişdi sayəmdə hər kəsə nemət.
Yoxsulluq əlimlə qaçdı, yox oldu,
Səyimlə dulların qarnı tox oldu.
Qızıl umanlara eylədim kömək,
Darda qalanlara yetirdim yemək.
Qoymadım kimsəni qalmağa mətəl,
Əziyyət çəkənə tez uzatdım əl.
Nə gəlirim olsa əkinçilikdən,
Onu sərf eylədim qonaqlığa mən.
Salmışdım qaydaya gəlir-çıxarı,
Məndən razı idi rəiyyət, Tanrı.
Bu adım, bu sanım vəzirə çatdı,
Zülüm qazanını o tez qaynatdı.
Aldı mənsəbimi, cah-calalımı,
Dağıtdı, qoymadı mülkü malımı.
Dedi: - Qazanmadın əməklə var sən,
Bəxşiş də görməyib kimsə əlindən.
Var iksir kürəsi səndə, ehtimal,
Ya ki, tapılmadır bu xəznə, bu mal.
Ayır layiqincə bir qismət mənə,
Yoxsa, yetirərəm əziyyət sənə.
Qulunun başına gətirdi nələr,
İşlətdi min cürə xam bəhanələr.
Ən axırda məni dərdimənd etdi.
Özüm öz qulumdum, tutub bənd etdi.
İndi beş ildir ki, evdən uzağam,
Körpələrə həsrət nakam dustağam".
Şah verdirdi ona min nazü nemət,
Dedi ki: - Azadsan, öz evinə get!

## ALTINCI MƏZLUMUN ŞİKAYƏTİ

Altıncı məzluma növbət ki, çatdı,
Öz xumar bəxtini o da oyatdı.
Şaha dua etdi əvvəlcə, əlbət,
Dedi: "Ey əxlaqı ölkəyə nemət,
Əslim kürd, özüm də mərd bir əsgərəm,
Nəslimin mirası, xalis gövhərəm.
Qoşun əfradına mənsubam mən də[301],
Atam da padşaha bəndəydi, bəndə.
İxlasla şahıma qulluq edirdim,
Atamın getdiyi yolla gedirdim.
Şahın düşməninə qılınc çəkərəm,
Hazıram canımdan keçməyə hər dəm.
Şah öz nemətindən azacıq çörək
Vermişdi, biz də bir güzəran görək.
Asudə neməti mən də yeyirdim,
- Bəndəyəm hər zaman şaha, - deyirdim.
Aldı mənsəbimi vəzir kələkbaz,
Zülmün, yamanlığın axırı olmaz.
Vardı əkin yerim, əhli-əyalım,
Yoxdu bundan özgə dövlətim, malım.
Neçə yol yanına vardım onun mən,
Yalvardım, yaxardım tutsun əlimdən.
Bəlkə də ədalət yoluyla getsin,
Yazıq ailəmə bir insaf etsin.
Təqaüd kəsdirsin mənə o insan,
Ruzimi yetirsin ali divandan.
Üstümə səsləndi, dedi: - Sakit ol!
Gedib xədənginlə öz ruzini yol[302].
Yoxdur meyli şahın, bunu düş başa
Ki, dava törətsin, girsin savaşa.
Qorxuda deyildir başının tacı,
Davaya, qoşuna yox ehtiyacı.
Tənbəllik eyləmə, peşə tap, peşə,
Palçıqçılıq eylə, giriş bir işə.
Yeməyin yoxsa da, qapında var at,
Onu, yəhərini, silahını sat!
Dedim: - Bu xislətdən, bu rəydən əl çək,
Tanrıdan qorxaraq, gəl, eylə kömək.
Həsrət qoyma məni pula, paltara,
Mən dara düşmüşü gəl salma dara.
Sən uzatdın nazla əl-ayağını
Mən qılınc götürüb qovdum yağını.
Sən məmləkət üçün vurursan qələm,
Mən qılınc götürüb, atıram qədəm.
Qələm batırırsan sən qara qana,
Mən hücum edirəm qanlı düşmana.
Şahın verdiyini alma əlimdən,
Pənah apararam, yoxsa, ona mən.
Qızıb bu sözlərdən göstərdi inad,
O mən qələmsizə çəkdi bir dəvat[303].
Dedi ki: - Ey qanmaz, bunu yaxşı qan,
Xam kərpic deyiləm ki, qorxum sudan.





Gah dilə tutursan işlədib hiylə,
Gah da qorxudursan məni şah ilə.
Verdim taxtü-tacı mən tacidara,
Mən olmasam, olmaz nə ağ, nə qara.
Saymaram olsa min şah sərəncamı,
Yaşar mənim üçün padşahlar hamı.
Yola getməsəydi mənimlə hərgah,
Qurd-quşa olardı qismət, bil ki, şah.
Söyləyib dəvatı başıma çaldı,
Atı, silahımı əlimdən aldı.
Zülm edib əlini batırdı qana,
O gün mən yazığı saldı zindana.
Dustağam indi mən düz altı ildir,
Ürəyim qəmlidir, bəxtim zəlildir".
Şah oxşayıb onu, tutdu qaş-daşa,
Ey bəndə bəsləyən hökmüdar, yaşa!
Şahın ki, lütf ilə güldü dodağı,
İki dəfə artdı kürdün torpağı.

## YEDDİNCİ MƏZLUMUN ŞİKAYƏTİ

Yeddinci məzlumun növbəti yetdi,
Ürəkdən o şaha dualar etdi.
Dedi: "Mən dünyadan götürmüşdüm əl,
Allaha bağlayar zahidlər əməl.
Gözütox yoxsulam, yandım şam kimi,
El üçün çalışan bir adam kimi.
Aqibətdən xəbər tutaraq əvvəl,
Üzdüm bu dünyanın işlərindən əl.
Demə ki, yemişəm, demə yatmışam,
Bol namaz qılmışam, oruc tutmuşam.
Gündüz yoxdu yeyim çörəyim, suyum,
Gecə yoxdu yerim yatım, yuxlayım.
Allaha eylədim hər an ibadət,
Ancaq ibadətə eylədim adət.
Hamıya bir riza gəzdim dünyada,
Duayla hər kəsi gətirdim yada.
Vəzir məndən ötrü yollayıb soraq,
Çağırdı, gedincə oturdub uzaq,
Dedi ki: - Haqqında pis gümanım var,
Yeri vardır sənə versəm əzablar.
Dedim ki: - Ey ağa, gümanın nədir?
Yaşaram arzunca, imanın nədir?
Dedi: - Bəd duandan qorxuram ancaq,
Diləyirəm sənə ölüm versin haqq.
Mənimlə çoxdandır sənin iddian,
Ucalır haqqımda gecə bəd duan.
Bəd dua oxu ki, atırsan müdam,
Dəyər bu hədəfə bir gün qorxuram.
Nifrinin canımı hədəf etməmiş,
Qarğışların hələ cana yetməmiş,
Əlini, boynunu tutub bağlaram,
Mən də bu şəkildə səni dağlaram.
Qorxmayıb, ömrümü o saldı bəndə,
Zərrəcə yanmadı mən dərdimənde.
Dustağam əlində düz yeddi ildir,
Ayaqlarım torda, bəxtim zəlildir.
Mənim əllərimi saldısa bəndə,
Fələklərdən kömək istədim mən də.
Duadan ayırdı əlimi əgər,
Sanma bir də əli nemətə dəyər.
O saldı qalaya, mənə gəldi fən,
Dağıtdım evini qarğışımla mən.
Yetirdim əlimi mən də padşaha,
Qalmadı bir əngəl, şad olum daha".
Qalxıb qucaqladı Bəhram zahidi,
O kafir öldürən şir mücahidi.
"Duadan qorxuram - sözündən qeyri,
- Dedi - hər nə demiş, hamısı əyri.
"Duan yerdə qalar" deyənlər hanı?
Quldur hökmü deyil, zahid fərmanı.
Vəzir ki, görməyib öz yerində iş,
Deməli, özünə qarğış eyləmiş.
Gəldi bəd duanın nəhayət sonu,
Başını kəsdirib məhv edər onu.
Vəzirin nəyi var: qaş-daş, mülkü mal,
Götür, zahid baba, sənin olsun, al!"
Verilən şeylərdən üz döndərərək,
Zahid dövrə vurdu misali-fələk.
Sonra: - Bu nəqdlərdən azadam, - dedi,
O yaxşı vermişdi, yaxşı istədi.
Çalğısız başladı birdən o rəqsə,
Getdi, görünmədi artıq heç kəsə.
Onlar bu qaydayla qədəm atdılar,
Yerdən asimana baş ucaltdılar.
İnsan adlansa da yerdə qalan, bil,
cümləsi divlərdir, başqa şey deyil.
Qədəhdə püxtə kim tapmaq istəyər,
Min-min xam qoraya salmalı nəzər.
Püxtə o kəslərə layiqdir demək
Ki, qoruyar xamdan həm cib, həm ətək.

## BƏHRAMIN ZALIM VƏZİRİ ÖLDÜRTMƏSİ

Tozlu kilimini yer qalxıb aldı,
Palçıq kölgəsini günəşə saldı.
Bu torpaq kürədə qəm yedi, Bəhram
Döndü yaş kərpicə; pozuldu tamam.
Tədbirlər aradı o canü dildən
Ki, seçib tikanı ayıra güldən.
Dünyanın zülmündən olunca agah
Ədalət yoluna qədəm qoydu şah.
Vəzirin felini edərkən xəyal,
Atdı kicgahına əlini dərhal.
Bürüdü sübhədək xəcalət onu,
Yatmağa qoymadı bu halət onu.
Günəşin çeşməsi saxsı güldanda
Reyhanlar yetirib açan zamanda[304],

Bəhram yağış görmüş təzə reyhana
Dönərək, dürr səpdi qəlbi yanana.
Fərman verdi: - Taxtım qurulsun gərək,
Yerə dar ağacı vurulsun gərək.
İzn alıb, axdı el barigah sarı,
Durdu əldə qılınc xas adamları.
Oturdu ölkənin məşhur ərləri,
Süründü yoxuşa ədalət nəri.
camaat yığıldı, coşdu yığıncaq,
Gələnlər yaratdı əzəmətli dağ.
Vəzir ki, zülmündə ölkədə təkdi,
Gör onu şah necə zəncirə çəkdi.
Diriykən asıldı dardan o alçaq,
Öldü xəcalətdən oğrular sayaq.
Şah dedi: - Kim qalxsa bu cür göylərə,
Ruzgar yıxar onu bu minval yerə.
Xəyanətkar olar ellər bədnamı,
Pislərin pislikdir hər sərəncamı.
Zülm eyləyib əgər şur qaldırsa, bil,
Göndərər məzara onu hər adil.
Sanma ki, dayağı yox ədalətin,
Yer, göy qulluğunda durmuşdur mətin.
Kim salsa dünyada zülüm bağını
Deməli bağlar öz əl-ayağını.
Bəhram ədalətdə aldı yaxşı ad,
Etdi qurdla iti, çobanı tez yad.
Dəvətlə taxtü-tac verdi çobana,
Səadət, asayiş bəxş etdi ona.
Götürdü ölkədən bütün əngəli,
Kökündən qopardı zoru öz əli.
İşlətdi bu sayaq tədbirlər, demək,
Dəmiri zər oldu, palazı ipək.
Dənizləri keçən, dağları aşan
Qoşun, xəznə yığdı adil hökmüran.

### ÇİN XAQANININ BƏHRAMDAN ÜZR İSTƏMƏSİ

Xaqan eşidincə belə xəbəri,
Çəkib ordusunu qayıtdı geri.
Bəhramdan iznsiz nəfəs almadı,
Üzr diləməkdən geri qalmadı:
"Vəzirin ulduzu yerində axdı,
Çünki o, fitnəyə möhkəm dayaqdı.
Məktublar göndərib çağırdı bizi,
Tutdu yağlı sözə ürəyimizi.
O, hiylə işlətdi, anlamadım mən,
Səbrü qərarımı aldı əlimdən.
- Yol xalidir - dedi, - qızıl isə bol,
Zər istəyirsənsə, dayanma, tez ol.
keyfiidir şahımız, yoxdur onda hal,
Üzünə səpməyə su, tapmaz macal.
Hazıram, durma, gəl, tərəddüdü at,
Mən başlar kəsərəm, sən qılınc uzat.

Şahın işlərindən tutdum xəbər mən,
Gördüm doğru deyil vəzir söyləyən.
Asayiş zamanı, vuruş vaxtı şah
Çatır muradına istəsə hərgah.
Halqa gəzdirənəm, - dedim mən yenə,
Özümə çiniliyəm, həbəşəm sənə[305].
Qızım kənizindir, nə qədər sağdır,
Tacım kəndarında quru torpaqdır".
Nə qədər işlədib vəzir xəyanət,
Bəhramdan yazmışdı gizli şikayət.
Yığıb hamısını verdi elçiyə,
Apar Bəhram şaha tez yetir deyə.
Gələn məktublardan olunca agah,
Katib qələmitək itiləşdi şah.
Dedi: - Öldürüldü, olsun şükürlər!
Sonra işlərini tutdu mötəbər.
Ədlin heykəlini Bəhram ki gördü,
Ağdan və qaradan ibrət götürdü.
Padşah ədaləti süzəndən bəri
Qurban verdi ona yeddi peykəri[306].
Başqa xəyalları qazdı kökündən,
Verdi ədalətə könül, oldu şən.

### BƏHRAMIN SON GÜNLƏRİ VƏ MAĞARADA YOX OLMASI

Dürlər peyvənd edən lalin bağına[307],
Gövhərlər düzəndə yer qulağına,
Yeddi tağ içində səsləndi mey, cam,
Əksi-səda duydu aqibət Bəhram.
Dimaq günbədində onu, kamalı
Fələyin dövründən eylədi halı:
Bu torpaq günbədin sənəmlərindən
Uzaq gəz, olarsan, yoxsa, həlak sən.
Beyninin günbədi alışdı yenə,
Göz yumdu əfsanə, nağıl sehrinə.
Gördü ki, işrətə yol verməyən tağ,
Hamı günbədlərdən toz qaldıracaq[308].
Yeddi günbədini atıb, unutdu,
Başqa bir günbədin yolunu tutdu.[309]
Bir tağ ki, fənadan heç tapmaz xələl,
Ona həşrə kimi yetişməz bir əl.
Yeddi möbid oğlu eylədi dəvət,
Verdi hər birinə bir uca günbəd.
Tağlara od vurdu, alışdırdı şah,
Yəni hər birini etdi ataşgah.
Olardı bu zaman altmış yaşı,
Yasəmən bitirdi bənövşə başı[310].
Ürəkdən sığındı uca Allaha,
Etmədi özünə pərəstiş daha.
Tərk etdi sarayı bir axşamçağı,
Bürüdü dəstəsi bütün ovlağı.
Ov qovlayan zaman şah aydın-aşkar
Özünü eylədi necə gör şikar.





Ordusu bürüyüb aldı hər yeri,
Gur, ceyran yığırdı gəzib çölləri.
Qoşun ovlaq boyu gur axtarırdı,
Şah isə özünə gor axtarırdı.
Qoşun arayırdı çölün gurunu,
Bəhram arayırdı təklik gorunu.
Ətrafı gəzdikcə, o çəmən-çəmən,
Ovladı ahunu öz bədənindən[311],
Gur gəzmə orda ki, torpağı şordur,
Ceyranı bəladır, guruysa kordur.
Bəhram Gur çöllərdə ov gəzən zaman
Gəldi bir gur keçdi onun yanından.
Şah bildi çağırır onu cənnətə,
Dərhal könül verdi belə dəvətə.
İzləyərək guru, qovdu, çapdı at,
İldırım sürətlə saldı çathaçat.
Sürdü çöllər boyu, cumdu, tələsdi,
Xarabə yerlərdə yel kimi əsdi.
Köhləni açmışdı elə bil qanad,
Sürdü iki nəfər arxasınca at.
Yayları buz kimi sərindən sərin
Bir mağara vardı olduqca dərin.
Raxnəydi hər yanı, xeyli qorxulu,
Kimsənin oraya düşməmiş yolu.
Gur, igidlər kimi içəri girdi,
Şah da arxasınca; o sanki şirdi.
Sürdü öz atını birbaş oraya,
Keyxosrov xəznəsi bir mağaraya[312]
Girdi; bu yer ona pərdədar oldu,
Mağara padşaha sanki yar oldu.
cavan qulamlar da gəlib yetdilər,
Mağara ağzını məskən etdilər.
Nə girə bildilər zorla içəri,
Nə dönə bildilər ov üçün geri.
Qoşun tutanadək o düzəngahı,
Yağdırdılar çölə buz kimi ahı.
Həmən hadisədən keçdi bir qədər,
Qoşunlar hər yandan axıb gəldilər.
Şahı yox, kahanı onlar görüncə,
Ağzında möhrə bir şahmar görüncə,
cavanlar orduya gəldi yanaşdı,
Dünya padşahından söz-söhbət açdı:
"Çapdı öz atını eyləsin şikar,
Gəlib dar dəhlizə girdi tacidar".
İnana bilmədi bir nəfər buna,
İnana bilmədi düz olduğuna.
Dedilər ki: "Bu söz pis bir xəyaldır,
Belə danışanlar naqiskamaldır.
Allaha and olsun, fil kimi bir şah
Girə bilməz bura, istəsə hərgah".
Bilmədilər, edib vida bostana,
Yönəlib gedibdir fil Hindistana[313],
Oldu filgücünün zəncir hasili,
Kim açar zəmanə bağlayan fili?

Padşahın yerini versinlər nişan
Deyə, cavanları döydülər yaman.
Uşaqlar qopardı yanıq-yanıq ah,
Qalxdı mağaradan bir tüstü nagah.
Səs gəldi: "Burdadır sizin tacidar,
Qayıdınız geri, şahın işi var".
Şahın adamları bunu sezdilər,
Girib mağaraya onu gəzdilər.
Yoxdu mağarada hətta bir milçək,
Qurmuşdu torunu yalnız hörümçək.
Aradılar onu yüz dəfə, yüz yol,
Tökdülər yolunda göz yaşı bol-bol.
Şahı tapmayınca, gəlib durdular,
Mağara ağzında cərgə vurdular.
Ağlayıb durdular gözləri yaşlı,
Anaya gedincə xəbər, tələşlı
Gəldi, necə gəldi, bilmədi yolu,
Əlindən getmişdi dağ kimi oğlu.
O başqası kimi gəzə bilməzdi,
Onlar gözlə gəzdi, o, canla gəzdi.
Gül gəzdi, meyvəsiz xara yetişdi,
Oğlunu axtardı, hara yetişdi?
Dağ kimi zər tökdü, o, günlər boyu,
Qazısın adamlar orada quyu.
Qazıtdı, üzünə xəznə gülmədi,
Quyudan Yusifi tapa bilmədi.
Həmin mağarada o gündən bəri
Qalır indiyədək xəndək yerləri.
Ellər zaman-zaman gəlib edir yad,
Bəhram mağarası ona vermiş ad.
Qırx gün qazıdılar yeri durmadan,
Belə gor qazıyan çox görmüş cahan!
Əmək sərf etdilər, qazdılar əbəs,
Onu yuxuda da görmədi bir kəs.
Hər kimin olarsa asiman yeri,
Saxlamaq çətindir bu səfərbəri.
Yerdə sümük qalar, sanma ruh qalar,
Göyə mənsub olan qalxar, ucalar.
İki analıdır hər bir yaranan,
Bir ana torpaqdır, birisi də qan.
Bəslər qan anası naz ilə onu,
Açar yer anası ona qoynunu.
Bəhramın anası qoşaydı, eyvah,
Daha əziz oldu yer anaya şah.
Aldı, qaytarmadı bir də dübarə,
Çarə arayana vermədi çarə.
Yer ana zülmündən o qan anası
Balalar oduna oldu yanası.
Nə zaman ki, coşdu qızğın dimağı,
Hatifdən eşitdi bir səs qulağı:
"Ey divtək özünü hər yana vuran,
Qeybin əsrarını axtarıb duran,
Tanrı bir əmanət vermişdi sənə,
Zaman çatdı, geri istəyir yenə.

Əmanət üstündə qafil olmayaq.
Özünü nə öldür, nə odlara yax.
Zəhmətdən əlini çək, qayıt geri,
Sal öz qaydasına bütün işləri".
Hatifdən yetincə bu xəbər ona,
Ana ağlamadı itən oğluna.
Hicranla çırpınan qəlbini, getdi,
Övlad işləriylə o məşğul etdi.
Verdi varislərə taxtı, tacı da,
Vərəsə sahibi ölməz dünyada.
Sən, ey xəbər verən o Bəhram Gurdan,
Tapıb məzarını uzaqlaş burdan.
Görən yox bizimlə heç Bəhram Guru,
Yoxdur xəbər verən hardadır goru.
Hünər göstərərdi, bir zaman vardı,
Adını dağ ilə gura vurardı.
Baxma bu gurlara vurulan dağa,
Nəzər qıl son dağa, getmə uzağa.
Min gur ayağını qırdı o insan,
Axır qurtarmadı gur tapdağından.
Dünyanın var iki darvazası gen,
Birindən boşalar, dolar birindən.
Uzunun üç, enin bir arşın torpaq,
Boyaq dükanında dörd küpsən ancaq[314]
Mədə hər tikəni yeməyə durdu,
Xılt alıb ona öz rəngini vurdu.
Brovuz geyinib o, başdan-başa,
Dörd xıltdan alaraq, eylə tamaşa.
Neylərsən, de görüm, belə rəngləri,
Bir gün qaytarmalı olasan geri?
Onlar ki getdilər, atıb dünyanı,
Qurtardı rənglərdən, iylərdən canı.
Qalxmaz, həşrə kimi yumar gözünü,
Bu bağlı pərdədən açmaz üzünü.
Yol ağır, gecəmiz qorxunc haldadır,
Darğa yuxudadır, oğru yoldadır.
Torpaqpərəstləri doydurar torpaq,
Enər alçaqlığa daima alçaq.
Ey yuxarı əldən sayılan insan,
Nəyə bu şeylərçin qan ağlayırsan?
Göy, sənin tabein olmaq istəsən,
Yollan səmalara, yüksəl bu yerdən.
Arxana baxmadan yürü göylərə,
Ta yıxılmayasan bir də bu yerə.
Sənin həmailin ulduz, asiman,
Olmuşdur vəsilən bunlar hər zaman.
Səndən bütün varlıq tapmada macal,
Təngiluşa sanar səni bu xəyal.
Götürür işindən hər biri timsal,
Açırsan nə qədər sən onlara fal.
Səndən nur alıb da olmuşlar parlaq,
Onlara uyandan uzaq ol, uzaq!
Nöqtəni başlayan bir xətdən qeyri,
Dəftərindir bütün hərflərin yeri.

Sənsən yaradılış pasibanı, bil,
Ey mələk, sən ona dəlilsən, dəlil!
Yaxşısan, pis işə əsla qoşulma,
Vəhşilik eyləyib, gəl, vəhşi olma.
Pis-yaxşı nəyin var, deməli, malındır,
Lakin sənə vacib öz kamalındır.
Ya aclıq bilməyən bir qapını çal,
Ya da xislətinlə xalqa ol misal.
Nura qarşı hicab çəkilsə əgər
Səmadan, fələkdən göz uzaq düşər.
Göyləri tanıyıb duyan bu yerdir,
Mələyi saxlayan ancaq bəşərdir.
Nə qədər bu torpaq, yel, ataş, su var,
Ol qəm aləmindən hər zaman kənar.
Bu dörd pəncərəli hücrə ki vardır,
Dardır ürək üçün, bu, aşikardır.
Oğru qapısıtək qoşadır, qoşa,
Vurmuş əyyar kimi dörd bənd hər başa.
Kənddən qovulmamış zorla uzağa,
Yüklə paltarını öküz, ulağa.
Ağırsan, yolunu canü-dillə get,
Miniyin itidir, yükü yüngül et.
İnsan kainata vida edəndə
canın meyli qalar yenə bədəndə.
canın əgər bilsən qədrini hədsiz,
Onda yaşayacaq ruhun cəsədsiz.
Ey bəhanə quran, zənn etmə, guya,
Nə var buradadır, heçdir o dünya.
Çoxdur uzunumuz, enimiz, ancaq,
Getməz xəyalımız dünyadan uzaq.
Çox yaranmış da var uzaqlarda, bil,
İşıqdan, zülmətdən xəbərdar deyil.
Sonsuzdur dünyada yaradılış, çox,
Yaradan vahiddir, buna şübhə yox.
Bu yeddi lövhəli dörd nəqşə bir əl
Yazdı bir qələmlə hər şeydən əvvəl:
Əgər, deyil yeddi, olarsa dörd yüz,
Bircə iradəyə tabedir, sözsüz.
Əvvəlinci nöqtə, sonuncu pərgar
Birdir, birliyindən sanma qayıdar.
Qoşaya baxma gəl vüsal zamanı,
Onlar əslən birdir, sən biri tanı.
Hər cütü birlikdir əvvəl yaradan,
Bir qalar çıxanda cütlük aradan.
Hər kim ki, cumulub saraya gələr,
Geri dönəcəkdir, yola düzələr.
Orada asta get, iti görəndir,
Gec tutansa əgər, tez öldürəndir.
O aciz öldürən bir hakim deyil,
Çıxmaz xatirindən onun kimsə, bil.
Yüz min hiylə qursan, işlətsən kələk,
Payındır yenə də bir qarın yemək.
Malikdir asiman donmuş hovuza,
Yetməzmi bu qədər güvəndin buza?





Aləmi çarx kimi hərlənən insan
Tərk edib hər şeyi köçdü dünyadan.
Fani aləm onu ölümə sürdü,
Çarx onu çarx kimi büküb öldürdü.
Dünya nemətini daim yada sal,
Ondan sağlığında mənfəətlər al,
Ta ki, can alanda qılıncla peykan,
Asudə gedəsən fərsiz dünyadan.
Özün bu dünyadan köçmədən əvvəl,
Xilas olmaq üçün üz canından əl,
Azacıq yeyərək, evini xar et,
Dünyadan canını belə apar, get.
cahanda yaxşıdır iki şey ancaq:
Az yemək, bir də ki, çox bağışlamaq.
Böyüklüyə çatan hər kamil insan
Ancaq bəlalıkla çıxarar ad-san.
Yıxılmaz az yeyən ucadan, haşa!
Çıxmaz tamahkar da ucaya, başa.
Darğa qamçısı ki, qəlbə vurar dağ,
Az dovğa paylayan üçündür ancaq.
Bu kənddə hər kimin əgər ağlı var,
Zərdən yaxşılığı o yüksək tutar.
Xas ilə, avamla doludur həyat,
Ancaq heç kimsənin deyil kainat.
Necə bel bağlanar belə bir işə,
Yox etməkdir səni qəsdi həmişə.
Göy altında evlər, diqqət eylə, bax,
Torpaqdır, başına tök sən də torpaq.
Fələyin torundan qaç yana, çəkin,
Dar ağacı olmuş sənə minbərin.
Dara getmək diri, əgər həvəsdir,
Bir Məsih yürüdü bu yolda, bəsdir.
Bir torpaq çatarsa əgər göy tağa,
Torpaqlar enəcək yenə torpağa.
Qaldırsa göylərə hər kim tacını,
Alar yeddi elin o xəracını.
Yenə də başını yerə əyincə,
Yumar gözlərini, ölər bir gecə.
Basar ağuşuna torpaq səni, bil,
Bu yerin xəznəsi ilansız deyil.
Bir xurma göstər ki, olsun tikansız,
Varmıdır aləmdə möhrə ilansız.
Dünyada yaxşı-pis hər nə görünər,
Şəkərdə zəhərdir, zəhərdə şəkər.
Söylə, kimdir yeyən o şirin balı?
Ardınca görməyə neştər zavalı?
Dünya nuşunuşi anya bənzər,
Ağzı bal səpələr, quyruğu zəhər.
Zülmət, nur pərdəsi altda heç zaman
Uzaq olmaz eşşək mehri-İsadan[315].
O kimdir bir zaman taxt qurdu yerdə,
Axırda məzara salmadı yer də?
Asan şey ver mənə, ey qadir qəni!
Sən peşiman etmə aciz bəndəni.

Kərəm qapısını Nizamiyə aç,
Yer ver himayəndə, ona şəfəq saç.
Əvvəldə vermisən ona yaxşı ad,
Eylə axırda da yaxşılıqla yad.

## ŞAHA SƏNA VƏ KİTABIN XƏTMİ

Tam əks-əyarlı nəqdi Gəncədən
Rumi çeşnisiylə parladınca mən[316],
Ona şah adını bəxş etdi dilim,
Naxşından istədim sulansın əlim.
Çini libaslı şah qoydu qızıl tac,
Çin və Rum şahları ona verdi bac.
Üsul, firu ilə oldu aşina
Bəxtiyşu rəyinə, İyşu baxtına[317].
Yerini öpməyə göylər qalxışar,
Onun cəlalıyla yaranmış yaşar.
Şahadır hər zaman göyün xidməti,
İkicə çörəkdir onun ücrəti[318].
Bu mərdlik ətirli bir müşkə bənzər,
Quru torpaq kimi paylayar gövhər.
Xılt ilə köpükdür torpaq, asiman,
Şərəf mayasıdır, safdır hər zaman.
Sallə zər verər, bərabəri yox,
Məkkənin qumundan onun zəri çox.
Sərt daşa qılıncı bir oyun açar,
Elə bil, gur odda alışır çinar.
Tük yaran oxunu sürətlə aldı,
Dağın nəfəsini göbəkdən saldı[319].
Zirehinin nuru o yerə çatdı
Ki, subh nizəsini əlindən atdı.
Nizə oynadarkən böyük cahandar,
Ayın zirehindən həlqə qopardar.
Geyiminə zireh altı cəhətdir,
Göylər kəmərinə düyün nisbətdir.
Sənə bel bağlayır, bil ki, Nizami,
Səndədir dövranın nəzmi, nizamı.
Deyim ki, yer səni asiman sanır,
Göy səni adıyla hər zaman anır.
Suda göy əksitək yaxınsan, uzaq,
Aynada günəştək yaxın və parlaq.
Sənsən bu dünyanın qüdrətli şahı,
Dünyamız gözləməz özgə pənahı[320].
Nadirsən hər zaman mələklər kimi,
Ucasan hamıdan fələklər kimi.
Həməl hədiyyəndir, qalxıb ucalsın,
Qoy səndən aləmdə şan-şöhrət alsın.
Adına bağlandı o qaş-daşdı tac,
Qorxdum cavahiri edilə tarac.
Xoşlasan əsərim ad alacaqdır,
Qalxıb taxtın kimi ucalacaqdır.
Tikanın üstünə töksən bal əgər,
Tərəngəbin deyər ona zirəklər[321].
Könül bağçasının bandır bu, al.

Sanki başlanılib süd içində bal,
Bir incir zövqü var hər danəsində,
Durur badam içi miyanəsində.
Zahir əhli üçün bir nöqsanı yox,
Batil əhli üçün mənalıdır çox.
Gövhər ilə dolu sandıqçası var,
Gözəl ibarələr o möhrü açar.
Kim aça bilərsə ibarələri,
Ağıl riştəsinə düzər gövhəri.
Vurduğum bu yaxşı və bu yaman fal
Rəmzü işarədir, yaradır kamal.
Sanma nağıllanm boş əfsanədir,
Hər biri dopdolu bir xəzanədir,
Hansı bir gözəlin qısaydı donu,
Mən öz nəzmim ilə uzatdım onu,
Uzun geyimlini götürdüm, aldım,
Dedim sənətimlə kəsim, qısaldım.
Verdim bu töhfəni sənə yadigar,
Yağlı bir sümükdür, şirin məğzi var.
Ancaq sən hüsnünə salasan nəzər,
Ona cilvə verib işlətdim hünər.
Çox gəlir gətirir, sərf edir az xərc,
Olmuş hər sətrində bir sandıqca dərc.
Hər biri qəlb alan nazlı, incədir,
İpək altındakı bakir qönçədir.
Bir misrası dürdür, bir misrası zər,
Mənayla doludur bütün beytlər.
Qoy bütün dünyada çəkilsin adım,
İki hərflə gələr başa muradım[322].
Yeddi xəznəsi var əsrarın, demək,
Vurdum uzun, geniş naxışlı bəzək.
Oxunan zaman bu əsərim sizə,
Rahatlıq gətirib nur versin gözə,
Genişdir büsatı, gözəl növrağı;
Məftun etdim yaman, gözü, qulağı.
Mənə gözəllərim baisdir buna,
Onlar dargözlüyü atmış bir yana.
Bağlı bir xəznədir hər gözəl pəri,
Xəznə açarını gizlər telləri.
Mədənimi açan tapacaqdır zər,
Qapımı kim tapsa toplayar gövhər.
Neyşəkər qələmli sənət tacıyam,
Dərgahın şirin bir göy ağacıyam.
Qarğım hünərimin əkin yerindən
Sünbülü qaldırıb Ütaridə tən.
Nağılçı sevməzsə nağıl deyəni,
Sünbülə çox sevər bu sünbüləni.
Çünki qənaətin tunc qələsindən
Padşaha xəznələr yetirmişəm mən.
Bəxşiş qızılını verməkdə, yenə
Yaman borclu qaldı Ruyindiz mənə.
Buna səbəb olan yoxsulluq deyil,
Ruyin qələsinin varı boldur, bil.
Bu möhkəm qələnin iti dəmiri
Ləl, almaz eylədi yüz ağac yeri.
Ləli dost əlində saysız dəyərdir,
Almazı düşmənə iti kəsərdir.
Qələ yox, Kəbədir, anlayır hər kəs,
Ruhani gözündə odur müqəddəs.
Yerin mərkəzidir, qızıl məhvərdir,
Ruyindizdir, demək, çox mötəbərdir.
Qafdan Qafa qədər keçirmiş ələ,
Dağların canına salmış vəlvələ.
Onun qapısıdır, bil, Rəhmə dağı,
Bağlar Buqubeysdən kəmər papağı.[323]
Bu pərgarın xətti daim var olsun,
Nöqtəsi günəşdən bərqərar olsun.
Hər kim sığınarsa qala içinə,
Məktubu bağlarlar bir göyərçinə.
Göyərçin aparar kağızları şad,
O şəxsə ki ondan gözlənir imdad.
Keçir öz ölkəmdə mənim hər günüm,
Qaçmaram, bağlıdır arxamla önüm.
Məktubu bağladım, bax, göyərçinə
Ki, şaha çatdırsın, yar olsun mənə.
Göy sənin qapında bir quldur, əhsən,
Xətayi geyinib, xəta örtənsən[324].
Dövlətin şairin dadına yetdi,
Qələmim gör necə sehrlər etdi.
Beş yüz doxsan üçdə qalxıb ər kimi,
Yazdım bu əsəri igidlər kimi.
Ramazan ayının on dördü vardı,
Gün dörd saat qalxıb batmış olardı[325].
Taxtın olsun görüm daima yüksək,
Göndərdiyim əsər sənə mübarək.
Şerimdən həyatın suyunu iç, al,
Sən də Xızr kimi daim diri qal,
Mülkündə əbədi yaşa sən azad,
Mülkünlə, ömrünlə, taxtınla ol şad.
Məzur tut nöqtəmdən incisən hərgah,
Sənə incə nöqtə söylərəm, ey şah!
Bəzmində varsa da əzəmət, calal,
Bu bir bəzmdir ki, cənnətdən misal.
Xəznəndə cəvahir, qaş-daş, hər nə var,
Tamam əziyyətdir, bu nəşə saçar.
Vursalar yüz deyil, beş yüz il başa,
Puç olub dağlar, sən uzun yaşa!
Saraya aiddir verdiyim xəznə,
Əbədi bir yoldaş olacaq sənə.
Ağlın yetirdiyi bu xəznəyə bax,
Duan ilə ona son vurulacaq.
Dövlətin hər yerdə görüm baş olsun!
Fələk rikabında bir fərraş olsun!
Dövlətin yayılmış, ey şah, hər yana,
İşlər səadətlə yetişsin sona!

# İSKƏNDƏRNAMƏ

## ŞƏRƏFNAMƏ

## QƏHRƏMANLIQ DASTANI

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bütün dünyada şöhrət tapmış ölməz "Xəmsə"si "İskəndərnamə" poeması ilə bitir. Bu son əsərində böyük söz ustasının məfkurəsi, bədii qayəsi, şair təxəyyülü özünün ən yüksək zirvəsinə çatmışdır.

Nizami bu əsəri yazmağa başlayarkən altmış yaşını ötmüş, sözün ən geniş mənasında, hərtərəfli və dərin həyat təcrübəsi əldə etmişdi. Şair keçdiyi yaradıcılıq yoluna nəzər salaraq hiss edirdi ki, "İskəndərnamə" onun əvvəlki əsərlərində söylədiyi fikirlərin, əks etdirdiyi ümidlərin yekunu olmalıdır. Bunu biz "Şərəfnamə"nin giriş fəsillərində aşkar duyuruq. Doğrudan da, Nizami mütərəqqi ideallarını və müqəddəs arzularını məhz bu son poeması ilə bağlayır və deyir:

Dastanı sevənlər, şeri duyanlar
Nəğmələr dinləməz bir çox zaman var.
Yazmalı elə bir uğurlu dastan,
Onda bir incəlik duysun oxuyan.
Bildim bu naxışı bəyənər dostlar,
Verdim bu dastanı yazmağa qərar.

Nizaminin sonuncu poemasının əsas mövzusunu bir sıra Şərq xalqlarının yazılı və şifahi ədəbiyyatında geniş yayılmış Makedoniyalı İskəndər (Aleksandr) dastanı təşkil edir. Onu da qeyd etmək lazımdır ki, qədim İran ədəbi ənənələrində bir amansız fateh, Əhəmənilər sülaləsinin qatı düşməni kimi təcəssüm olunan İskəndər surəti Nizami dövründə bir çox yazılı abidələrdə ədalətli hakim, elmə, biliyə yüksək qiymət verən, ümumiyyətlə, müsbət qəhrəman kimi təsvir olunurdu. Mənbələrdə İskəndərin səciyyəsinin belə dəyişməsinin bir səbəbini də islam dini kitablarında onun peyğəmbər dərəcəsinə qaldırılması olmuşdur.

Dahi şair həmişə olduğu kimi, "İskəndərnamə" poeması üzərində işləyərkən bir sıra tarixi mənbələri ciddi surətdə öyrənmiş, onların içindən özünün ideya, bədii qayəsinə uyğun olan məlumatları seçmiş və ustad qələmi ilə nəzmə çəkmişdir.

Üzərində işlədiyi mənbələr haqqında şair özü belə söyləyir:

İskəndər haqqında heç bir əsərdə
Məlumat görmədim yığcam bir yerdə.
Sözlərlə dolmuşdu xəzinə içi,
Ancaq hər nüsxədə dağınıq inci.
Hər köhnə nüsxədən əsas alaraq,
Onu öz şerimlə bəzədim ancaq.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri əlimə saldım,
Qabığı ataraq, məğzini aldım.
Müxtəlif dillərdən yazdığım sözlər,
Bunlardan doğuldu yığdığım əsər.
Saydığım dilləri ətraflı bilən
Saxlar öz dilini mənə töhmətdən.

Göründüyü kimi, şair ərəb və fars dilində olan mənbələrlə yanaşı, yəhudi, nəsrani (xristian) və pəhləvi mənbələrini araşdırdığını xatırladır. Doğrudan da, İskəndər əhvalatı barəsində bu mənbələrdə çoxlu məlumat olduğu bu gün elm aləminə bəllidir. Məsələn, "İskəndərnamə"də təsvir olunan bəzi hadisələrin əksini biz talmud rəvayətlərində və qədim yəhudi (ibrani) dilində olan ayrı-ayrı İskəndər haqqında anonim kitablarda görə bilirik.

Nəsrani mənbələri dedikdə, Nizami, şübhəsiz, yunan dilində olan tarix kitablarını, ilk növbədə, "Saxta Kallisfen"i nəzərdə tuturdu. Məlum olduğu üzrə, yunan dilində Makedoniyalı İskəndər haqqında olan ilk roman uzun illər onun şəxsi həkimi Kallisfenin adına yazılırdı. Lakin əsərin eramızın birinci əsrində meydana gətirildiyi məlum olduqda həmin roman "Saxta Kallisfen" adını aldı. Məhz bu əsər XV əsrə qədər siryani, yəhudi, pəhləvi dillərinə tərcümə edilmişdir ki, Nizami də bu tərcümələrin bəzilərindən istifadə edə bilərdi.





Nizaminin istifadə etdiyi mənbələrdən biri də pəhləvi dilində yazılmış, sonralar isə ərəb istilası (VIII-IX əsrlər) vaxtı məhv edilmiş "Xvatak-namak"lar ("Xudayamə") olmuşdu. Bu salnamələrin epik xarakter daşıyan hissələri ərəb dilinə çevrilmiş, tarixə və xüsusilə "ədəb" janrına mənsub olan ərəb dilli kitablarda özünə yer tapmışdır. "Yeni tarix abidələri" dedikdə şair, heç şübhəsiz, bu növ əsərləri nəzərdə tuturdu.

Doğrudan da, bu gün biz pəhləvi mənbələri - "Karnatnoki-Arrakşiri-Papakan", "Namaki-Tansar", "Artak-Viraz-namak" ilə yanaşı, İskəndər Urmik (ər-Rumi) haqqında geniş məlumatları Həmzə İsfahani, əd-Dinəvəri ət-Təbəri və başqa ərəb tarixçilərinin məşhur əsərlərində müşahidə edirik.

Ət-Təbəri özünün iri həcmli "Tarix" əsərində İskəndər haqqında rəvayətlərə daha geniş yer verir və tez-tez özündən əvvəlki mənbələrə, xüsusilə Hişam ibn Məhəmmədə istinad edir ki, bu da İskəndər haqqında rəsmi məlumatlarla yanaşı, "Qərb və Şərq fatehi"ni xoşagələn tərzdə təsvir edən rəvayətlərin də yayılmasına dəlalət edir.

Nizaminin "İskəndərnamə"sində təsvir olunmuş hadisələrin çox qısa məzmununu bir sıra incəlikləri ilə bərabər biz ət-Təbərinin salnaməsində görürük. Lakin bu, heç də o demək deyildir ki, Nizami öz poemasını yazarkən bir çox epizodları ət-Təbəri salnaməsindən olduğu kimi iqtibas etmişdir. Əksinə, Nizami özü əsərin fəsillərin giriş hissəsində dəfələrlə qeyd edir ki, onun məqsədi daha çox deyilməyənləri ehya etməkdir. Bunu biz Nizaminin fars-tacik şeirinin böyük nümayəndəsi Firdovsiyə olan münasibətində daha aydın hiss edirik. "İskəndərnamə"də oxuyuruq:

Köhnə söz ustası, o Tuslu şair
Söz gəlinlərini bəzədi bir-bir.
Düzdü dastanlara çox inci, gövhər,
Yenə də qaldı çox bakirə sözlər.
Yazsaydı tarixdə bütün olanı,
Çox uzun sürərdi onun dastanı.

Ümumbəşəri mütərəqqi ideyalar tərənnümçüsü Nizami "Şuubilik" (İran və Orta Asiya xalqları arasında IX-X əsrlərdə yayılmış, ərəb hakimiyyətinə qarşı mübarizə bayrağına çevrilmiş cərəyan) tərəfdarı və aludəçisi olan "Şahnamə" müəllifinin İskəndər haqqındakı rəvayətlərə olan qərəzli münasibətini duymaya bilməzdi. Məhz buna görə, Nizami yuxarıda gətirdiyimiz beytlərdən sonra bilavasitə Firdovsinin bu qərəzli münasibətinə işarə edərək:

Sevmədiklərinə etmədi hörmət,
Bəyəndiklərinə göstərdi rəğbət, -

yazır və həmin fəsli aşağıdakı fikirlərlə tamamlayır:

Nizami bu sapa düzərkən gövhər
Qələmdən silindi qələm görənlər.
Hansı bir incini keçirdi ələ,
Onları çəkdi öz söz çəkisiylə.
Uğurla ucaltdı "Şərəfnamə"ni,
Köhnəni bununla eylədi yeni.

Nizami Firdovsinin əsəri ilə yaxından tanış idi və bunu şair özü dəfələrlə "Xosrov və Şirin", "Yeddi gözəl" və "İskəndərnamə"də xatırladır, ona öz ehtiramını xüsusilə qeyd edir. Bununla yanaşı, Azərbaycan şairi "özündən əvvəlkiləri təkrar etmək onun yaradıcılığına xas olan cəhət deyildir" söyləyərək, özünün bu sahədə novator olduğunu qeyd edir.

Bunu da xatırlatmaq lazımdır ki, Nizaminin novatorluğu heç də mənbələr üzərində işləməklə, onların içindən tez ideya - bədii qayəsinə uyğun məlumatlar çıxarması ilə məhdudlaşmır. Şair öz əsərinin yüksək sənət nümunəsi olduğunu bilir və səmimi hisslərlə (fəxr xatirinə yox!) "İskəndərnamə" nin gizli sirlərlə dolu olduğunu bəyan edir:

Belə bir dəyərli gövhərlə, dostlar,
Bir gövhər sevənə ehtiyacım var.

İstərəm eylə bir kamil dinləyən,
Şairlik sirrini öyrənsin məndən!

Şairin bu əsərdə izlədiyi ən mühüm qayə həqiqətdir - insan həqiqəti. Doğruluq, həqiqət müəllifə görə "İskəndərnamə"nin səciyyəvi cəhətidir. O, deyir:

Doğrular yanında varmıdır bundan
Daha xoş simalı, sevimli dastan?
Başqa dastanları arasan bir az,
Millətlər yanında doğru sayılmaz.

Doğrudan da, insan həqiqəti, daha geniş mənada deyilərsə, bəşər həqiqəti "İskəndərnamə" müəllifinin diqqət mərkəzində dayanır. Böyük şair və mütəfəkkir faydalandığı tarixə və eləcə də digər mənbələrə bu baxımdan yanaşmışdır.

"İskəndərnamə" poemasının yazılma tarixinin dəqiq müəyyənlik qazanmaması bir sıra çətinliklər törədir. Məsələ burasındadır ki, şairin özü də "Xəmsə"yə daxil olan əvvəlki əsərlərindən fərqli olaraq, "İskəndərnamə"nin yazılma tarixini göstərməmişdir. Əsərin iri həcmi (iyirmi min misradan çox) və mürəkkəb quruluşu bizi şairin poema üzərində uzun müddət işləməsi qənaətinə gətirir. Hər halda "İskəndərnamə" 1197-ci ildən ("Xəmsə"nin dördüncü hissəsi olan "Yeddi gözəl" poemasının yazılış tarixidir) sonra yazılmışdır. Nizami "Şərəfnamə"nin giriş hissəsində əvvəlki dörd əsərini sadalayır və deyir ki:

İndi söz mülkündə büsat qururam, İskəndər dövründən təbil vururam.

"Şərəfnamə" əsəri Nüsrətəddin Əbu Bəkr Bişkinə (1191-1210) həsr olunmuşdur. "İskəndərnamə"nin ikinci hissəsində ("İqbalnamə") isə Məlik İzzəddinin adı çəkilir. Əgər I İzzəddin Məsud nəzərdə tutulursa o, 1180-1193-cü illərdə hökmranlıq etmişdir. Deməli, həmin İzzəddin əsərin yazılmasından dörd il əvvəl ölmüşdür. Söhbət II İzzəddin Məsuddan gedirsə, o da 1211-ci ildə, yəni Nizaminin qəbul olunmuş ölüm tarixindən iki il sonra hakimiyyətə gəlmişdir.

Bu xronoloji qarma-qarışıqlıq "İqbalnamə"nin son hissələrinin guya şairin ölümündən sonra başqaları tərəfindən tamamlanması barəsində fikrin meydana gəlməsinə səbəb olmuşdur. Bu fikir bizə görə əsassızdır.

Bir növ təəccüb doğuran ikinci məsələ əsərin quruluşu ilə bağlıdır; məlumdur ki, "İskəndərnamə" iki hissədən ibarətdir. Bunu əsərin bizim dövrə gəlib çatmış əlyazmaları aydın göstərir. Lakin Nizami "Şərəfnamə"nin giriş hissəsində İskəndəri üç cəhətdən, yəni fateh, hakim və peyğəmbər kimi səciyyələndirəcəyini iqrar edir:

Öncə söz açaram padşahlığından,
Cahangirliyini edərəm elan.
Hikmətlə bəzəkli söz yazaram mən,
Köhnə tarixləri təzələrəm mən.
Döyərəm qapını peyğəmbərliyə,

Tanrı da bəyənmiş, peyğəmbər, - deyə.
Sonra Nizami əsərin üç hissədən ibarət olduğunu aydın şəkildə söyləyir:

Üç qapı tikdim, üç xəzinə demək,
Çəkdim hər qapıda ayrıca əmək.
Üç qapı ya bu üç inciylə yenə
Tökərəm dünyaya ağır xəzinə.

Burada qapı (dər) ərəbcə "bab"ın (qapı, fəsil) tərcüməsidir. Bəzi ədəbi mənbələrdə əsərin ikinci hissəsinə "Xirədnamə" (əql, hikmət kitabı) adı da verildiyinə təsadüf edirik (Məsələn, 1852-ci il "Biblioteka İndika" silsiləsindən çap olunan ikinci hissə məhz belə adlandırılmışdır).

Bu mübhəm məsələnin dəqiq həlli üçün əlimizdə olan faktlar heç də kafi deyildir. Ona görə də hər cür fərziyyədən imtina etməyə məcburuq. Hər halda əsərin bu gün əlimizdə olan mətnində İskəndər surəti fateh, hakim, fəlsəfə və imanla qarışıq din carçısı kimi öz səciyyəsini tapmışdır. Yaxın Şərq, o cümlədən Azərbaycan ədəbiyyatında geniş yayılmış janr ənənələrinə riayət edərək, Nizami əsərin baş qəhrəmanı olan





İskəndəri anadan olduğu gündən təsvirə başlayır. Məlumdur ki, İskəndərin milli mənşəyi barədə iki rəvayət var.

Bu adi rəvayətlərin birində İskəndərin sadəcə bir tərki-dünya oğlu olması və Makedoniya hakimi Feyləqus (Filipp) tərəfindən oğulluğa götürülməsi, digərində isə onun İran şahı Daranın oğlu olması təsdiq edilir. Nizami hər iki rəvayət haqqında məlumat verir, lakin o, təsdiq edir ki, İskəndər Feyləqusun oğludur.

Beləliklə, İskəndərin İran taxtının varisi olması məqsədilə quraşdırılan rəvayəti Azərbaycan şairi rədd edir. Əslində Nizami İskəndərin rumlu olduğunu tarixi həqiqətə sadiq qalmaq naminə təsvir edir; İskəndər Nizaminin sevdiyi, onun arzu və amallarını ifadə edən bir bədii surət, ədəbi qəhrəmandır.

Bütün yaradıcılığı boyu onu daim düşündürmüş ictimai həyat həqiqətlərini aramış olan böyük mütəfəkkir şair insan və cəmiyyət münasibətlərini öz fəlsəfi konsepsiyası əsasında aydınlaşdırmağa cəhd etmiş, bu ictimai problemlərlə bağlı olan suallara isə İskəndər vasitəsilə cavab tapmaq istəmişdir.

Hələ ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi"ndən başlayaraq, Nizami feodal cəmiyyətində müşahidə etdiyi ictimai və mənəvi nöqsanları ifşa edərək, onları hansı yollarla aradan qaldırmaq mümkün olacağı haqqında düşünmüşdür. Dövrünə görədir ki, Nizami həmişə öz əsərlərinin bədii qüdrəti və ideya məzmunu ilə feodal hakimlərə təsir göstərmək və onları ədalətə çağırmaq, bir sözlə, onları "yaxşılaşdırmaq" istəmişdir. "Xosrov və Şirin", "Yeddi gözəl" poemalarında da ideya istiqamətinin məhz bu hədəfə yönəldiyini biz asanlıqla görür və duyuruq.

Bu baxımdan İskəndər bir müsbət qəhrəman kimi şairin yaratdığı bu tipli surətlərdən çox yuxarıda durur. Nizami bir fateh olan qəhrəmanının müsbət cəhətlərini daha bariz şəkildə verməyə çalışmışdır.

Əsərin "Şərəfnamə" hissəsində görürük ki, İskəndərin müharibələr aparmaqda məqsədi hər yerdə ədaləti bərpa etməklə yanaşı, bu ölkələrdə yayılmış biliklərə sahib olmaqdır. Məsələn, İran şahənşahlığı məğlubiyyətə uğrayandan sonra İskəndər atəşpərəstlərin hikmətlə dolu kitablarını yunan dilinə çevirməyə fərman verir. İskəndəri biz bu yürüşlər ərzində həmişə məşhur yunan alimləri arasında görürük. O, Dərbənd qalasını yolkəsən quldurlardan xilas etdikdən sonra Dağıstanda yerləşən, vaxtilə İran şahlarının yay istirahət sarayı olan Sərir qalasına gedir, Keyxosrovun məqbərəsinin sirlərini öyrənmək istəyir.

Doğrudur, Makedoniyalı İskəndər haqqında yaranmış tarixi və əsatiri mənbələrdə (məsələn, yəhudi dilində olan romanda) onu qədim padşahlardan olan Altinüsün məqbərəsində görürük. Nizami İskəndəri o vaxtkı oxuculara daha yaxın və tanış olan Keyxosrov məqbərəsinə getməyə məcbur edir. Şair öz qəhrəmanına bilici Bəlinasın dili ilə başa salır ki, dünyada taxt-tac, şöhrət və dövlət hamısı müvəqqətidir, yaxşı ad isə daimidir. İnsan çalışmalıdır ki, özündən sonra yaxşı ad qoyub getsin, buna isə ancaq yaxşı əməllərlə nail olmaq mümkündür. Padşahlar taxtına gəlincə:

Faydasız olan bu taxt nəyə gərək?
Üstündə başqası ömür sürəcək
Faydasız bu taxta uyma, saxtadır,
Yerimiz taxt deyil, quru taxtadır.
Bu qızıl baxt deyil, versəniz fikir,
Ayağa vurulmuş ağır kündədir.
Bir taxt ki əbədi yer deyil sana,
Onu ta dirisən parçalasana!

Bu beytlər şairin bütün ömrü boyu inam bəslədiyi "ədalətli şah", "ideal hökmdar" konsepsiyasında dönüş əmələ gəldiyinə dəlalət edir.

Humanist sənətkar tədricən "ədalətli" hakimlərin də bəşər cəmiyyətinə insanların həmişə arzulamış olduğu səadəti gətirə biləcəyi fikrindən əl çəkməyə başlayır və əsərin ikinci hissəsini təşkil edən "İqbalnamə"də İskəndəri azad cəmiyyət münasibətlərinin hökm sürdüyü xoşbəxtlər ölkəsinə gətirir və bununla da təsdiq edir ki, bəşər cəmiyyətinin səadət dolu gələcəyi ədalətli şah konsepsiyası ilə deyil, ancaq maddi və mənəvi azadlıq ideyaları ilə bağlıdır.

Şairin bu "sosial utopiyası", onun təsvir etdiyi azad cəmiyyət haqqında görüşləri o zamankı dünya ədəbiyyatında misilsiz bir hadisə idi.

"İskəndərnamə" əsərində şairin yüksək vətənpərvərlik hissləri də öz əksini tapmışdır. Bu vətənpərvərlik ideyalarının ən bariz təmsilçisi şairin dərin sevgi duyğuları ilə yaratdığı Bərdə hakimi Nüşabə surətidir. Nüşabə "Xosrov və Şirin" poemasında rast gəldiyimiz Məhinbanu surətinin davamıdır. Maraqlı burasıdır ki, Nizami İskəndəri öz doğma yurdu Azərbaycana gətirmək üçün biləərəkdən tarixi anaxronizmə yol verir.

Bərdə hakimi Nüşabə eyni zamanda şairin "ədalətli hökmdar" haqqında görüşlərinin də ifadəçisidir. Nüşabənin müdrik bir hakim olmasını eşidən fateh özü adi elçi sifətilə Bərdə hakiminin sarayına gedir. Lakin İskəndərin adi elçi qayda-qanunları xilafına etdiyi hərəkətlər Nüşabənin nəzərindən yayınmır. Onu artıq tanımışlar. İskəndərin fütuhatının şöhrətini eşitmiş olan ağıllı qadın onun rəsmini öz xəzinəsində saxlayırdı. Amansız fateh insan əqlinin gücü qarşısında aciz qalır və Nüşabənin ölkəsi fəth olunmur.

Nüşabə İskəndərin qarşısında süfrə açır və onu cavahiratla doldurur. İskəndər əlbəttə anlayır ki, var-dövlət uğrunda çalışmaq faydasız işdir. O, deyir:

Sənin xonçandakı bu daş-qaş daşır,
Bu danlaq, bu töhmət kimə yaraşır?
Süfrəyə cavahir saçmaq nə gərək?!
Gövhərdən qaçmağı mənə öyrətmək?!
Eşq olsun bu fikri sağlam qadına,
Mərdliyin yolunu öyrədir mana.
Ey uzaqgörən qız, gəl məni dinlə,
Qızıl sikkəsini nəsihətinlə;
Ataram bir kərə torpaqlara mən,
Qızıla torpaqdır təbii mədən.

Nizaminin vətənpərvərlik duyğularını doğma Azərbaycanın təbiət lövhələrinin təsvirində, xüsusilə Bərdəyə həsr olunmuş parçada hiss edirik. Şair qeyd edir ki, Bərdə vaxtilə qədim mədəniyyət və elm ocağı olmuş, öz təbiətinin gözəllikləri ilə bütün Yaxın Şərqdə tanınmışdır. Həmin hissləri o, öz doğma diyarı olan qədim Gəncə haqqında da söyləyir, özünün qırılmaz tellərlə Gəncəyə bağlılığını bildirir. Nizami böyük iftixar hissi ilə deyir ki, onun müqəddəs sirlərlə dolu şeirləri aşkar olaraq Buxaraya aparılarsa da, Gəncə torpağından olduğunu zövq əhli bilir. Böyük humanist şair olan Nizaminin dərin vətənpərvərlik duyğuları onun beynəlmiləlçi görüşləri ilə sıx bağlıdır. Nizami xalqlar dostluğu və sülh ideyalarının carçısıdır. Onun əsərlərində, eləcə də "Şərəfnamə"sində yunanlıların və ərəblərin, gürcülərin, rusların, çinlilərin və hindilərin, Dağıstan və İran xalqlarının həyatından, adət və ənənələrindən hörmətlə danışılır. Şairin məqsədi öz həmvətənlərinin həmin xalqların tarixi keçmişi və yaxud ona müasir olan həyat tərzi ilə yaxından tanış etmək olmuşdur. Bu nəcib vəzifənin öhdəsindən dahi şairimiz böyük ustalıqla gələ bilmişdir.

"Şərəfnamə" qəhrəmanlıq dastanıdır. Təbiidir ki, biz bu əsərdə çoxlu döyüş səhnələrinə təsadüf edirik. Şairin müharibələrə olan münasibəti onun beynəlmiləlçilik görüşləri ilə üzvi surətdə bağlıdır. Nizami müharibələri insan cəmiyyəti üçün fəlakət sayırdı. Böyük mütəfəkkir şair ədalətli və ədalətsiz müharibələri bir-birindən seçməyi bacarmışdır. O, "bir ovuc torpaq" üstündə insanları qırğına verən feodal hökmdarları öz bədii söz sənətinin gücüylə ifşa edirdi.

"Şərəfnamə"də müharibələri təsvir edərkən Nizami ilk növbədə dövrün feodal hakimlərinin ölkələri viranlığa döndərən ədalətsiz, mənasız döyüşlərini nəzərdə tuturdu. Məhz buna görədir ki, şair "İskəndərnamə"nin giriş hissəsində dəfələrlə işarə vurur ki, bu əsərə uzaq keçmişdən bəhs edən sadəcə əfsanə kimi baxılmamalıdır.

Nizami öz dövrünün qabaqcıl fikir sahiblərini həyəcana gətirən bir sıra mühüm və aktual problemləri bu son əsərində əks etdirməyi öz qarşısına qoymuş və həmin istəyinə də yüksək bədii səviyyədə nail ola bilmişdir.

Nəhayət, bir neçə kəlmə də hazırda əsərin oxuculara təqdim olunan Azərbaycan dilinə tərcüməsi haqqında qeyd etmək istərdik. Böyük şairimizin başqa əsərlərindən fərqli olaraq "Şərəfnamə" görkəmli Azərbaycan şairi və ədibi Abdulla Şaiq tərəfindən bilavasitə orijinaldan tərcümə olunmuşdur. Şübhəsiz, müəyyən bədii xüsusiyyətləri ilə yanaşı Abdulla Şaiqin tərcüməsi orijinal mətnə məna və obrazlar baxımından öz uyğunluğu ilə yüksək dərəcədə fərqlənir.

Qəzənfər Əliyev

Ey tanrı, dünyaya sənsən padşah,
Biz kiçik bəndəyik, sən böyük allah.
Tək sənə sığınır hər yüksək, alçaq,
Hər varlıq yoxluqdur, sən varsan ancaq.
Yuxarı, aşağı - hər gözə çarpan
Nə varsa, onları sənsən yaradan.
Sənsən hər biliyi bizə öyrədən,
Torpağın köksündə qələm işlədən.
Sənin varlığına tapınca bürhan,
Ağıl ilk inandı sənə, yaradan.
Sən ağlın gözünü işıqlandırdın,
Sən doğru yollarda çıraq yandırdın.
Göyləri sən qurdun, ucaltdın, allah,
Ona yer üzünü etdin güzərgah[1].
Sənsən bu aləmdə bir damcı sudan
Günəşdən işıqlı gövhər yaradan[2].
Gövhəri lütfünlə etdin aşikar,
Sərrafın əlinə sən verdin açar.
Daşların bağrına düzdün gövhəri,
Rənglərlə boyadın hər bir cövhəri.
Buludlar yağdırmaz, sən deməsən: "Yağ!"
Sən "bitir!" deməsən, bitirməz torpaq.
Özün də kimsədən kömək almadan
Yaratdın nə gözəl, səfalı cahan.
İstidən, soyuqdan, qurudan, yaşdan
Yoğurub yaratdın gözəl bir cahan.
Nə gözəl naxışlar vurdun xilqətə,
Ağıllar heyrandır bu məharətə.
Bu sirri mühəndis axtarır hər an,
Bilməyir ən əvvəl başladın hardan.
Uca sənətini seyr edirik biz,
Yeməkdir, yatmaqdır yalnız işimiz.
Hər nəyi bəzədin, var etdin yoxdan
Onlara ehtiyac duymadın bir an.
Sən elə qurdun ki, yerin işini,
Göyün, ulduzların bu gərdişini,
Göyə ucalsa da düşüncə, fikir,
Bu kəmənddən başı çıxa bilməyir.
Sən vardın varlıqlar olmayan zaman,
Onlar yox olacaq, sən qalacaqsan.
Sən düzdün göylərə şux ulduzları,
İnsanla bəzədin hər bir diyarı.
Fələyi uca bir hasara aldın,
O yerdə idrakı kəməndə saldın[3].
Elə bir tağ vurdun daşsız, diréksiz,
Düşüncə o yerə yol tapmaz, şəksiz.
Zatına düşüncə, ağıl əl atmaz,
Böyük qüdrətinə qüdrəti çatmaz.
Sənin varlığındır o laməkandan
İdrak elçisini hər an daşlayan[4].
Dağınıq deyilsən ki, birləşəsən,
Artıq da deyilsən, əskiləsən sən.
Xəyal da, nəzər də yolunda məhrum,
Nə qədər axtarsa deyilsən məlum.

Ey tanrı, sən hansı başı ucaltsan,
Əyə bilməyəcək onu bir insan.
Qəhrinlə hər kimin əysən boynunu,
Kimsənin köməyi dikəltməz onu.
Biz sənə bəndəyik, sənindir fərman,
Hər kömək səndədir, sənsən əl tutan.
Fildə, qarışqada zəiflik, qüvvət
Sənin əmrindədir, ey ulu qüdrət.
Sənin qüdrətindən qüvvət alınca
İlahi məhv edər zəif qarınca.
Yollardan tüstünü qaldırsan əgər,
Bir çibin Nəmrudun beynini yeyər[5].
İstəsən əzilsin düşmənin beli,
Quşlarla qırarsan əshabi-fili[6].
Gah kiçik nütfəyə qoydun qızıl tac,
Gah xırda çərdəkdən yaratdın ağac[7].
Gah Xəlil alırsan bütxanələrdən,
Gah dost yaradırsan biganələrdən[8].
Qiymətli cəvahir doğan bir evdən
Əbutalibi də çıxaran sənsən[9].
Kimdə var cəsarət, qorxundan sənin
Təslimdən başqa bir kəlam söyləsin?
Yanına yol tapmaz məxluqun əli,
Gizlin bir xəzinə sevməz məşəli.
Əsrarın hər zaman qalmaqçın gizlin
Bağlarsan dilini əsrar bilənin.
Sən məni yaratdın qara torpaqdan,
Sən verdin işıqlı ürək, təmiz can.
Aludə olsam da məndə yox təqsir,
Torpağın peşəsi aludəlikdir.
Günahdan qaçsaydı bu üzüqara,
Bəs kim yol tapardı bağışlanmağa?
Olmasaydı mənim günahım hərgah,
Sənə kim deyərdi: "Ey qəfur allah!"
Gecələr, gündüzlər, hər axşam, səhər
Qəlbimdə, dilimdə bir sənsən əzbər.
Yuxuya getməzdən əvvəl, hər gecə
Mübarək adını çəkərəm öncə.
Gecələr yuxudan qalxınca başım,
Anaram səni, hey axar göz yaşım.
Sənə üz çevirrəm hər səhər erkən,
Gecə də, gündüz də pənahım sənsən.
Hər zaman köməyə çağırram səni,
Qapından ümidsiz qaytarma məni.
Ey tanrı, dərdimə sən eylə əlac,
Bu möhtac kəslərə olmayım möhtac.
Hər zaman bəndəlik yoluyla gedən,
Zatına könüldən pərəstiş edən
Olsun bu dünyada xəzinənlə şad,
Qiyamət günündə əzabdan azad.
İnsanı dünyaya sənsən gətirən,
Öldürən də sənsən, dirildən də sən.
Əldə nə hesabım, nə kitabım var,
Yalnız sən bilirsən nə hesabım var.





Yaxşının, yamanın açarı sənsən,
Yaxşılıq səndəndir, yamanlıq məndən.
Bağışla bir suçum varsa, ey allah,
Məndəndir yamanlıq, məndəndir günah.
Nə ki ilk naxışın sərgüzəşti var
Səndəndir, son söz də sənə qayıdar.
Kasərli ayəni öyrətmək səndən,
Şeytanın gözünü tikməksə məndən[10].
Adın mehribanlıq etsə bir qədər,
Mənimlə oynaya bilərmi divlər?[11]
Yararmı söz açmaq səninlə məndən.
"Sən" demək, sonra da söyləmək ki, "mən".
Ya qayğı içində, ya sakit, aram,
Nə cür yaratdınsa, o cür yaşaram.
Ey tanrı, ümidim bunadır ancaq,
Bu köhnə dəzgahdan düşərsəm uzaq,[12]
Elə ki, pozular tərkibim mənim,
Dəyişər qurduğun tərtibim mənim.
Əsdikcə tozumu dağıdar yellər,
Pak olan canımı görməz bir nəfər,
Halımı arayıb, edəndə heyrət,
Varıma yox deyə, edərkən töhmət,
Sən yoxdan əlinə ver elə açar,
Bilsin ki, bu yatan ölməmiş, yaşar.
Sənin varlığına bu gücsüz əlil
Göstərmiş nə qədər tutarlı dəlil.
Ölürsəm, bunu sən hamıya bildir:
"Bədəni yatmışsa, canı diridir".
Elə bir mətanət qızışdır məndə,
Şad ürəklə gəlim sənə gələndə.
Mənimlə qapıya qədərdir dostlar,
Məzara girdimmi, düşməndir onlar.
Tərk edər məni bu gözüm, qulağım,
Bədəndən ayrılar əlim, ayağım.
Ey tanrı, mənimlə yalnız sən varsan,
Əliboş qaytarma məni qapından.
Qapında üzümü sürtərəm yerə,
Bir tacla əvəz ver bu səcdələrə.
Bu başı qapından əsirgəmədim,
Sən ona qılınc yox, tac ver, ey rəbbim.
Əzəldən verdiyin hökmlər sönməz,
Yazdığın silinməz, qələmin dönməz.
Hökmündə hazıram canla-başla mən,
Təsəlli tapıram yalvarışla mən.
Sən dedin: dar gündə köməkçi mənəm,
Hər dilək istəsən, qəbul edənəm,
Sənsən acizlərə hər zaman pənah,
Mən də bir acizəm, kömək ol, allah.
Tək sənin işindir bəndəpərvərlik,
Mənim vəzifəmdir etmək bəndəlik.
Qırdı varlığımı, əzdi bu fələk,
Bütün şənliyimi sovurdu külək.
Tək sənsən qurtaran bu sınıqlıqdan,
Qırsan da yenə sən verirsən dərman.

Zülmətin qəlbindən üzümə yol aç,
Fəzilət ayından yoluma nur saç.
Məni yol kəsəndən sən özün qurtar,
Elə et, üstümə gülməsin əğyar.
Əvvəl şükrə çatdır, sonra dövlətə,
Əvvəl səbrə çatdır, sonra zillətə.
Səbrimi tükədən bəlaları sən
Uzaq et, ey tanrı, sən ki adilsən.
Məni hər bəlaya etsən mübtəla,
Əvvəlcə səbr ver, sonradan bəla.
Qırsan da, salamat qoysan da, ancaq
Tələbin bir ovuc tozdur, ya torpaq.
Çürüyüb toz kimi dağılsa bədən,
Yenə əl çəkmərəm bəndəliyimdən.
Düşsəm hər bucağa səni anaram,
Səni mən hər yerdə tanrı sanaram.
Bütün varlıqların heçlikdir sonu,
Tək sənə biçilmiş varlığın donu.
Kim səni, arasa əlində açar,
Əli boşa çıxar, dolanar naçar.
Kim sənə gözünlə baxarsa əgər
Ömrü vərəq kimi yellərə verər.
Səni tapmaq olur səninlə ancaq,
Boşdur hər qapıda yüyən parlatmaq.
Mənzili göz tanır buraya qədər,
Buradan keçdikdə taparsan xətər.
Varımı, yoxumu tapşırdım sənə,
Hesabım aydındır o xəlq edənə.

## MİNACAT

Kimsəm yox, ey bizə böyüklük verən,
Pənahım da sənsən, köməyim də sən.
Çıl-çılpaq gəlmişəm, ey pərvərdigar,
Hər şeyim sənindir, mənim nəyim var?
Sən verdin mənə bir işıqlı çıraq,
Onu hər küləkdən özün et iraq.
Əkməyə sən verdin sağlam bir qüvvət,
Mənə əkdiyimdən ayır bir qismət.
Təpələr ucadır, sellər çağlayan,
Çevirmə yüyəni bəxtin yolundan.
Məni bu sellərdən sən elə qurtar,
Körpünü qırmasın bu daşqın çaylar.
Gəlmişəm qapına, üzümdür qara,
Bağışla, ey tanrı, yaxma odlara.
Üzümü ağ elə sən, ey yaradan,
Ümidsiz qaytarma uca qapından.
Torpaqdan yoğurub yaratdın məni,
Təmiz, natəmizdən etdin bədəni.
Tiynətcə yaxşıyam, yamanamsa mən,
Bu nəqşi sən mənə vurdun əzəldən.
Biz aciz bəndəyik, sənsən yaradan,
Sənin qüvvətinlə yaşayır insan.
Yaranmış hər bir şey baxıb görənə

Yaradandan verir xəbəri yenə.
Mən sənə ağlımla salıram nəzər.
Yolunu görməmək olarmı məgər.
Hər bir yaranmışın sənsən mənası,
O ancaq məxluqdur, sənsən ustası.
Ağıl nəzərindən keçən hər surət
Deyilmi nəqqaşı göstərən höccət?
Arada məsafə olduqca uzaq,
Səni tək səninlə mümkündür tapmaq.
Yerlərdə, göylərdə qoyulan əsas
Ağıl ölçüsündən kənara çıxmaz.
Bələdçi olmağa cəhd edər xəyal,
Əndazədən kənar yol tapmaz hər hal.
Yaramaz payədən kənara çıxmaq,
Hədsizin sonuna qoyulmaz ayaq.
Kainat hüdudu başa yetincə,
O səmtə yol tapmaz aciz düşüncə.
Düşüncə bu qədər yol tapar ancaq,
Sən başqa bir şeysən, hüduddan uzaq.
Ey tanrım, umuram, öz hikmətinlə
İşıq yol açarsan məsləhətinlə.
Qarşıma elə bir yol çıxar, bunlan
Mən nicat tapım ki, razı qalasan.
Başqa bir çarəm yox, təsliməm ancaq,
Qəzadan olurmu boyun qaçırmaq?
Etdiyim duadan yazaram bir xətt,
Üstündə möhrünü qoysun Məhəmməd.
Həm də dörd xəlifə şəhadətiylə,
Yüzlərcə eşq olsun dördünə belə.
Qanlını qurtaran xətt sənəd kimi,
Qolumda qalar bir bazubənd kimi.
Başlarkən qılınctək kəsən məhkəmən,
Məhşərlə qiyamət qarşı gəlirkən,
Hər kəsin boynunda nameyi-əmal,
Mən də bu naməni çıxarram dərhal,
Göstərrəm, insafla hökm verənsən,
Bununla hökm ver, çün hakim sənsən.
Ümidim sənədir, ey ulu tanrı,
Qapından ümidsiz qaytarma barı.
Atımı həddimdən uzaq salmışam,
Yolunda mən yarı yolda qalmışam.
Taxtımı qapında düşür, yaradan,
Məni azdırma öz doğru yolundan.
Səndən yol göstərmək, məndən aramaq,
Mən cana gəlmişəm, sən can ver ancaq.
Sevdiyin ayinlə, ey pərvərdigar,
Sən mənsiz bəzədin mənə bir bazar.
Bu zinət naxşını salma rövnəqdən,
Mənə öz xəznəndən bir pay ayır sən.
Bu zəif varlıqdan nədir istəyin?
Elə bil əvvəldən yoxmuş bu miskin.
Sən əziz tutmusan, yandırma məni,
Nəzərin məndəykən qovma bəndəni.
Sən verdin mənə bu uca rütbəni,
Sən də bu zindandan gəl qurtar məni.
İndi ki vermişsən böyüklük, ad-san,
Kömək ol mənə, ey adil yaradan.
Hər kimin başına qoydunsa külah,
Salma toz-torpağa, əziz tut, allah.
Qapının sirdaşı olan bir qəlbi
Qoyma hər qapıda dilənsin, rəbbi.
Sən mənim işimi alma nəzərə,
İşimə əncam çək ədlinə görə.
Nizami bu uca dərgahda ancaq
Ulu Mustafanı şəfi tutacaq.

## SONUNCU PEYĞƏMBƏRİN TƏRİFİ

Seçilmiş elçidir ulu tanrıdan,
Möhkəm hökmləri xalqa çatdıran,
Qiymətli tacıdır azadələrin,
Ən dəyərlisidir bütün başərin.
Əzəldən əbədi bütün yaranmış,
Məhəmməd adından almışdır naxış.
Əqlin qanadına tək odur çıraq,
Varlığa işığı o verir ancaq.
Zamindir qaraya, ağa bu rəhbər[13],
Şəfaət edəndir qopunca məhşər.
Kölgəli ağaclar din saçan bağda
Budağı göydədir, kökü torpaqda.
Ziyarətgahıdır peyğəmbərlərin,
Nemət verənidir bütün başərin.
Bu yanar çırağa verməndən işıq
Dünyada bir işıq yox idi artıq.
Xalını qaraldır Əbbasilərin,
Gözünə nur saçır şəmmasilərin[14].
Dodağı İsadan daha möcüzkar[15],
Zülmətin suyutək geyinmiş paltar[16].
Göy - ona dünyada dörd tağı quran,
Yer - ona fələkdə beş növbət vuran[17].
Odur öz ağlına eləyən təkyə,
Ayı barmağıyla bölən ikiyə[18].
Ona bac verəndir bütün Rum və Rey,
Xərac göndərəndir Kəsra ilə Key.
Yağdıran buluddur o səmapeykər,
Bir əlində qılınc, birində gövhər.
Gövhərlə dünyaya vurmuşdur bəzək,
Qılıncı din üçün çağırmış kömək.
Padşahlar qılıncı çəkdiyi zaman
Baş bədəndən düşər, tac isə başdan.
Bu isə əzməyə verərsə qərar,
Qılıncı çəkmədən tökülər başlar.
Hər iki dünyadan bir don tikərək,
Onlardan düzəltmiş yeganə bəzək.
O donu geyərkən pak vücuduna,
Bir qarış az gəldi uca boyuna[19].
Tanrı xəlq etdiyi qamətə gərək
Vurulsun tanrının qurduğu bəzək.





Bağlı qapıların odur açanı,
Onun adı aşmış hər bir həsanı.
Dəvətə genişlik o vermiş yenə,
Daşlar da şahiddir möcüzəsinə[20].
Əli boş, bu dərviş geyimli soltan
Qulamlıq alandır, şahlığı satan.
O gecə meraca at səyirdərək
Fələyin donuna vurdu min bəzək.
Gecə - meracının çətrindən sayə,
Göy - o nərdivandan kiçik bir payə.

## PEYĞƏMBƏRİN MERACI

Göy gecə məclisi qızışdırmışdı,
İşıqdan gecənin gözü qamaşdı[21].
O yeddi fələyə o yeddi ülkər
Çin ipəklərinə düzmüş dürr, gövhər[22].
Cənnət keşikçisi huri, pərilər
Hər köşkə vurmuşdu yaraşıq, zivər.
Bu taxtın soltanı olan Məhəmməd,
Keçən elçilərdən odur vəliəhd.
Müşkünü saçaraq "Beytiəqsayə"
Məkkədən ucaldı ərşi-əlayə.
Cismini qurtardı dünya bəndindən,
Etdi ərş əhlinin qəlbində məskən.
Yetmiş yollu yurddan köçünü vurdu,
Çadın yeddinci fələkdə qurdu[23].
Doqquz hücrəsini bir an buraxdı,
Göyün doqquzuncu tağına qalxdı[24].
Yeddinci əflakə çapdığı zaman
Dişarı atıldı dördkünc daxmadan[25].
Altında şimşəktək şığıyan Büraq,
Günəşə qərq olmuş yəhərlə yaraq.
Ərəb səmasında bir Süheyl çapdı,
Yəmən gönü ondan yeni rəng tapdı[26].
Dırnağı inciydi, quyruğu ipək,
İpəyin üstündə oynar incitək.
Göbəyi müşk, ceyran deyildi, bişəkk,
Bir düzüm inciydi ceyran dişitək.
Yüyəni xəyalə gələndən yumşaq,
Yürüşü oxdan da kəskin və qıvraq.
Ən kəskin, ən mətin xəyal şəhpəri
Ondan yetmiş addım qalırdı geri.
Aləmlər aşmaqda bir firiştəsən,
Aləmlər çəkirsən öz arxanda sən.
Gecə otlağından, sərxoş olaraq
Ay kimi gəlmişdi əldə şəbçıraq[27].
Elə bir sür ətli addımlar atar;
Hərəkət edincə mənzilə çatar.
Ən kəskin nəzərlə uçar yan-yana,
Nəzəri alırdı ayaq altına.
Məhəmməd peyğəmbər atı çapırdı,
O səyyar dənizdən toz qoparırdı[28].
Özü yol biləndi, atı yeriyən,
Bu ata, o şaha olsun yüz əhsən.
Evindən qapıya qalxdığı zaman
Əlindən təzə don geydi asiman.
Onunla qaranlıq göy oldu gülzar,
Ondan nur alırdı sönük ulduzlar.
Pak olan bu təmiz pərdədə gərək
Vücuddan cismani tozları silmək.
Çatdı hər dənizə yeddi ülkərdə,
Yeddi yol yuyundu o dənizlərdə[29].
Cismindən verdi hər ulduza maya,
Yuxu beşiyini buraxdı aya.
Ütarid ulduza verdi qələmi,
Əlinə qələmi alarmı ümmi?[30]
Cismani şəhvəti Nahidə verdi,
Şükr üçün kükəni Xurşidə verdi.
Mərrixə buraxdı qəzəb və acıq,
Acıq burda getməz irəli artıq.
Müştəri ulduza kibri buraxdı,
Üzüyə ən parlaq yeni qaş taxdı.
Ünsürü Keyvana tərəf ataraq,
Özüylə pak gövhər götürdü ancaq.
Hər mənzil başında bəxşiş verərək
Qaldı varlığından yalnız bir ürək.
Nəbilər hörmətlə baş əydi ona,
Əl çəkdi yəhərin saf qunçuğuna.
At sürdü yollardan, dağlardan keçdi.
Bir sıra təpəni bir anda biçdi.
Yanında qasiddi Xızr ilə Musa,
Atının önündə gedirdi İsa.
Bir nəfəs alınca, kirpik vurunca,
Yaxud bir göz açıb dərhal yumunca
Göyün günbədini aşdı arada,
Yerləri, göyləri qoydu arxada.
Elə bir sür ətlə parlatdı yüyən,
Ətrafdan olmadı tozunu görən.
Onun bu yürüşdə atdığı oxdan
Fələk neçə ox da geriydi çoxdan.
O uzaq göylərdə nurani adı
Ruhani kəslərə nur bağışladı.
Cığırsız bir yola, artıq yol saldı,
Həm atı yoruldu, həm yükü qaldı.
O yolda qol-qanad tökdü Cəbrail,
Qorxudan durmayıb qaçdı İsrafil.
Rəfrəfdən keçərək bir neçə fərsəng
Gördü o pərdədə müxtəlif ahəng.
Sidrədən ərşin pak səqfinə qədər
İsmətdən bir kilim döşədi dilbər.
Ərş divangahını sürətlə keçdi,
Dərcin də yolunu bir anda biçdi[31].
Çatdı son nöqtəyə cəhət diyan,
Bitdi o nöqtədə dövran pərgan.
Yer oğlu göylərdə hey at oynatdı,
Yerləri, göyləri arxaya atdı.
Mücərrəd dolanmaq çatdı bir yerə,

Cismani varlığı itdi bilmərrə.
Yoxluq yollarında edərkən cövlan
Büsbütün ayrıldı öz varlığından.
Ruhani dairə gərdişlərində
Başıyla ayağı düşdü bir bəndə.
Çatdı altı, üstü olmayan yerə,
Çünki altı, üstü bilməz dairə.
Siyasət pərdəsi atıldı birdən,
Hücrə təmizləndi biganələrdən.
O yerdə ki, idrak tapmayır məkan,
Salam Məhəmməddən, qəbul tanrıdan
Ağızdan çıxmayan səsi eşitdi,
Görünməz simanı ziyarət etdi[32].
Elə pak göründü o sahibcəlal,
Nə cəhət nəzərə çarpdı, nə xəyal.
Vücudu nərgiztək bir gözə döndü,
Bir kirpik qırpımdan tanrıya çöndü.
Yoxsa bu bağdakı sırf nərgiz olan
Gözünə bir sürmə çəkmiş "mazağ"dan.
Keçdi bir dost kimi süfrə səmtinə,
Yedi, pay ayırdı öz ümmətinə.
Ürəyi allahın nuriylə doldu,
Bir yetim, bax, necə padişah oldu.
Dünyaya qayıtdı çöhrəsi parlaq,
Hər elmə, hikmətə vaqif olaraq.
O yolu tez getdi, tez döndü yenə,
Bu sür ət heç kəsin sığmaz fikrinə.
Şimşəktək şığıdı eylə sür ətlə,
Dönərkən yatağı istiydi hələ.
O gecə adi bir gecə deyildi,
O bir gecəydimi, yaxud bir ildi?
Bəs bizim ruhumuz məgər bir anda
Dolaşa bilmirmi bu asimanda?
Ruhumuzdan zərif olan bu insan
Bir anda aləmi seyr etdi, inan.
Gözəldir, səpərək can gövhərini,
Tərifə başlasam dörd yavərini.
Dörd gövhər satan var, dörd gövhər alan[33],
Artıq-əskiyinə qarışmaz satan.
Əlinin eşqində sabitqədəməm,
Ömər sevgisindən uzaq deyiləm.
Hər iki nur ilə nurlanır dimaq:
Əbubəkr bir şamdır, Osman bir çıraq.
Bu dərviş sifətli dörd böyük soltan,
Dünyaya olmuş dörd təkbir oxuyan[34].
Nəbilər önündə gedənə alqış,
Üzrləri qəbul edənə alqış.
Sənsən yaranışda birinci xilqət,
Dövranın sonunda sonuncu ayət.
Hər iki aləmə mübarək sənsən,
Sənə bir tay varsa, o da tək sənsən.
Sənsən xəzinələr qıfılna açar,
Yaxşını, yamanı edən aşikar.
Ən gözəl günündə "ümmətim" deyə,
Şəfaət edirsən suçlu bəndəyə.
Bir ovuc torpağam mən dərgahında,
Artıq bir şikaram şikargahında.
Nizami tutmuşdur Gəncədə məkan,
O, məhrum olmasın salamlarından.

## ŞƏRƏFNAMƏNİ YAZMAQ HAQQINDA

Gecə gündüz kimi bəzək vurmuşdu,
Səhər duasına erkən durmuşdu.
Yer üzü məhtabdan açmışdı çətir,
Sanki yer nafından səpirdi ətir.
Bazarlar olmuşdu səs-küydən uzaq,
Zınqırov səsindən dincəlmiş qulaq[35].
Keşikçi dalmışdı şirin yuxuya,
Dan yeri başını salmışdı suya[36].
Dünyanın işindən çəkib əl-ayaq,
Fikir zəncirində olmuşdum dustaq.
Gözlərim örtülü, könlüm ayıqdı,
Aramaq işində zehnim sayıqdı.
Deyirdim ki, qurum eylə bir tələ,
Ən gözəl bir şikar keçirim ələ.
Baş qoydum dəlitək qəm boğa-boğa
Maral sağrısından yumşaq yastığa.
Gah başım dizimin üstündə dalğın,
Yer - başım altında, göy - ayağımın[37].
Dayanmaz varlığım rəqs edər bütün,
Başım kürsü olmuş ayağım üçün.
Düşüncəm yol ölçüb etsə də cövlan,
Cismim böyrü üstə tozlara qəltan.
Tənimi bir yana buraxdım artıq,
Canı can çölünə götürdüm azıq.
Gah gizlin lövhədən ibrətlər aldım,
Gah keçmiş sühüfdən hikmətlər aldım.
Şam kimi od düşmüş mənim bağıma,
Bağım döndü mənim odlu dağıma.
Günəş qarşısında əriyəntək mum,
O mumla gözümdən çəkildi yuxum[38].
Cadugər məndənmi öyrənmiş, nədir,
Gözlərdən yuxunu mum ilə çəkir.
O müdhiş keçidlər başında bu an
Pak olan əqlim də uçdu başımdan.
Daldım xoş yuxuya coşarkən damaq,
Gözümdə canlandı səfalı bir bağ.
O rəngin bağçadan dərirdim xurma,
Verirdim kim çıxsa mənim qarşıma.
O xurmadərən ki durdu yuxudan,
Dimağı atəşdi, ağzı bir ümman.
Müəzzin başlarkən birinci qunut
Ki: "Sübhanə həyyəlləzi layəmut"[39],
Məndən də ucaldı bir acı nalə,
Özümü unutdum, daldım xəyalə.
Uğurlu bir səhər doğunca fələk,
Yenidən canlandım səhər yelitək.





Gecələr nur saçan şamı yaxaraq,
Fikrimdən şam kimi yanırdım ancaq.
Başladı ürək, dil: "Şer yaz" deyə,
Harut, Zöhrə kimi cadugərliyə[40].
Yetişər, bu qədər işsiz qalmayım,
Şerə ən yeni bir üsul arayım.
Yeni nəğmələrlə başlayım kəlam,
Keçmişlər ruhuna göndərim salam.
Bir çıraq yandırım bir pərvanədən,
Bir ağac bəzəyim kiçik danədən.
Bu barlı ağacdan kim meyvə dərsə,
Söyləsin xoşbəxtdir bu bağdan kimsə[41].
Ancaq bir şərtim var: bir para dəcəl
Qonşunun malına uzatmasın əl[42].
Tutaq ki, huşyarlar padişahıyam,
Dürr, gövhər satanlar şahənşahıyam.
Xalq başaq yığandır, mən əkinçiyəm,
Kirəçi deyiləm, ev sahibiyəm.
Bu bazarda necə büsat açım mən,
Arxayın deyiləm yol kəsənlərdən.
Varmı bu bazarda bir dükan açan,
Varına dörd yandan dəyməsin ziyan?
Damcı oğrusundan qorxarmı dəniz?
Buludum yağdırar ondan çox, şəksiz[43].
Ay işığı qədər olsa yüz çıraq,
Yenə günəş ona vuracaqdır dağ[44].

## HEKAYƏT

Eşitdim, bir yoxsul ciyər qaniylə
Köhnə bir əşrəfi keçirdi ələ.
Ona söyləmişdi varlı kimsələr:
"Zəri - zər, xəzinə - xəzinə çəkər".
Sürətlə üz qoydu bazar səmtinə,
Köhnə əşrəfiylə tapsın xəzinə.
Bir sərraf dükanı gördü çox geniş,
Bir yerdə bu qədər qızıl görməmiş.
Bir yığın qızıl var günəşdən parlaq,
Hər yan əşrəfidir bir neçə qalaq.
Xəzinə xülyası beyninə batdı,
Qızılı xəzinə üstünə atdı.
Əlindən uçunca dəyərli varı,
Yüyürdü qalanmış qızıla sarı.
Qızılı atmaqdan oldu peşiman,
Birə yüz almağa tapmadı imkan.
Qızılı atınca qəm çökdü gözə,
Nə üçün bir qızıl qarışdı yüzə?
Fəryada başladı "qızılım" deyə,
Yalvardı cəvahir satan kişiyə:
- Bu ömrüm uzunu hey çalışaraq,
Əlimə bir qızıl keçirdim ancaq.
Mənə söyləmişdi axmaq bir nəfər:
"Zəri - zər, xəzinə - xəzinə çəkər".
Həmin bu qızıllı dükana çatdım,
Qızılı qızılın üstünə atdım.
Atdım ki, əşrəfi çəksin xəzinə,
Çox qızıl onu da çəkdi özünə.
Gülərək o sərraf, o azad insan,
Söz açdı qızılın qarışmasından:
- Çox gedə bilərmi azın üstünə?
Yüz getməz, bir gedər yüzün üstünə.
Kim ki sərvətimi çapmaq istəyir,
Yolumda bu məsəl bir keşikçidir:
Dəyirman bu qədər hay-küy qoparır,
Muzdurdur, ununu divan aparır.
Oğrudan alımüzdüm budur nəhayət:
"Oğrudur" deməyə etməz cəsarət.
Baxsana, yol kəsər quldur-qaralar,
Dünyanı ki, qara rəng ilə boyar.
Gündüzlər: "Göz gözdən utanır" deyə,
Talanı, qarəti qoyar gecəyə.
Ancaq söz quldurу şəfəq sökərkən,
Qələmi yontaraq müşkin söyüddən
Fikrimi qapırlar, könlüm əmindir,
Buxaraya getsə o, Gəncənindir.
Gizlində mətaha çıxmaz müştəri,
Oğurluq bir malın olmaz dəyəri.
Ayıblar açığa çıxdığı zaman
Əlin də, qəlbin də dərdlənir bundan.
Oğurluq maldan səs çıxmazsa, bişəkk,
O malı dərğalar aparmış demək.
Göz yumdum bu işə, çünki ruzigar
Hər yaxşı-yamanı edər aşikar.
Dövranın çəkisi çəkər hər işi,
Çəkiyə girməmiş qalmaz bir kişi.

## ÖZ HALINA VƏ ZƏMANƏNİN GEDİŞİNƏ DAİR

O gülgün şərabdan, saqi, ver nişan,
Ver mənə sərxoşlar içən dərmandan.
O acı dərmanla məst olum bu gün,
Özümü unudum bəlkə büsbütün.
Nizami, yetər bu şöhrət qazanmaq,
Qocaldın, gəncliyi daha gəl burax.
Qızmış aslan kimi pəncə aç, artıq
Özünə tülkütək vermə yaraşıq...
Eşitdim, rəng sevən bir rus tülküsü
Özünə verərmiş bir gəlin süsü.
Qopunca toz, külək, yağış, burağan,
Tükünü çıxarmaz o gün yuvadan.
Qucaqlar deşiyin bir bucağını,
Acından yalar öz əl-ayağını.
Sorar öz qanını dəri altından,
O dəri becərər, başqa kəslər can.
Elə ki, əcəli yetişər birdən,
Dərisi canına kəsilər düşmən.
Dərinin eşqinə edərlər şikar,

Bəslənmiş dərisi başından çıxar.
Dünyada bir büsat qurmaq nə mümkün,
Bu yurddan çarəsiz köçərsən bir gün.
Özünə yaraşıq verməyən heyvan
Təmahkar kəslərdən görməz bir ziyan.
Yeddi rəng pərdədən qurtul birtəhər,
Güzgü pas altında çirkin görünər.
Qurduğun cadular yetişər, burax,
Kimsəyə cadutək tor atma nahaq.
Al kükürd deyilsən, ağ lal deyilsən,
Arayan ümidsiz qayıtsın səndən.
İnsansan, insana qatış hər zaman,
İnsanla yaşayar hər zaman insan.
Əlçatmaz xəzinə olsan da, ancaq
Çox belə xəzinə gizləmiş torpaq.
Ağacdan uzaqsa meyvə qoparan,
Fərqi yox, o xurma versin ya tikan.
Həyat yox, gəncliyi alınca xəzan,
Gənclik qalmayınca qalmasın cahan.
Gənclikdir insana gözəllik verən,
Gözəllik sönərsə qəlb olurmu şən?
Sümüyün çürüyüb, süst olsa arxan,
Mərdlikdən, hünərdən qurma bir dastan.
O gün ki, gəncliyin qüruru sönər,
İş görməz daha bu cəsarət, hünər.
Bağ, bağça gözəldir, şəndir gülüstan
Sərv ilə lalələr güldüyü zaman.
Elə ki, bağlara boz xəzan girər,
Bülbül öz yerini qarğaya verər.
Bağbanlar qəlbini dərdü qəm yaxar,
Uca budaqlardan düşər yarpaqlar.
Bostanlar pozular, reyhanlar qalmaz,
Bağın açanını soruşan olmaz.
Durma, gəl naləyə, ey qoca bülbül,
Al güllər saraldı, tutuldu könül.
Ucaboy sərvlər oldu ikiqat,
Bağban da kölgədən çəkildi heyhat.
Əlliyə çatınca dəyişir əhval,
Dəyişir yaşayış, dəyişir hər hal.
Baş, ağır yüklərdən daşa vuruldu,
Bu dar keçidlərdə dəvəm yoruldu.
Qollarım titrəyir qədəh tutarkən,
Ayağım büdrəyir qalxıb durarkən.
Vücudum laciverd rəng aldı artıq,
Qırmızı güllərim saraldı artıq.
Yollarda qaldı bu yürüyən atım,
Baş düşdü yastığa, söndü həyatım.
Çövkanlar atdığım yel ayaqlı at
Yüz çövkan vursan da tərpənməz,
heyhat. İtdi meyxanada şənlik açan[45],
Tövbələr çulğadı bu ruzigarı.
Dağlara buludlar ağ kafur saçdı,
Ac torpaq ağzını kafurçün açdı.
Gah könül köçməyə tərpəniş edir,
Gah başım yuxuya pərəstiş edir.
Qulağım eşitmir gəlin qəmzəsi,
Qədəh boş, kəsildi saqinin səsi.
Qulaq eşitməkdən, baş kefdən qaldı,
Köç vaxtı yaxındır, ömrüm azaldı.
Bu zaman bir bucaq xoşdur saraydan,
Oyuncaq əlini uzadar dövran[46].
Gecə şam nə qədər şən-şən gülümsər,
Pərvanə seyri də o qədər sürər.
Otaq boş qalınca işıqlı şamdan
Qalmaz pərvanədən daha bir nişan.
Uşaqlıq və gənclik dövrü çatınca,
Özümü göstərdim düşgün bir qoca.
İndi bu dərd ilə göstərsəm şənlik,
Qocaya uyarmı bu gənclik, mənlik?
Düşmüşəm bir çürük çöp kimi bağda,
Gecələr şam kimi parlar bucaqda.
Atəşli böcəklər gecələr parlar,
Qaranlıq gecədə nurdan dəm vurar.
Özümdə görsəydim qüvvət və dayaq,
Tapardım sevimli, sakit bir bucaq.
Yenidən rahət bir ömür sürərdim,
Dünyanı şadlığa girov verərdim.
Yetişdi başa bu gənclik günləri.
Məşriqdən ağardı daha dan yeri[47].
Dincəlmək fikriylə nə tədbir töküm,
Azalsın bir qədər zəhmətim, yüküm?
Başına tac ilə kim vursa bəzək,
Əmgəyi ağ deyil, müşk olsun gərək[48].
Yeddi göy pərgarı etmədən cövlan,
Ömrümün xəttini parçalamadan
Vursun barmaqlarım mizrabıma dəm,
Öz varlıq səsimi saxlayım möhkəm.
Hər incə sözə bir füsun bağlayım,
Qoyduğum əsərə bir gün ağlayım.
Keçərsə körpüdən bu gilan atım,
İnanma Gilana bir də qayıdım[49].
Bu yerdə mən kimi yatanlar çoxdur,
Onları xatirə salan ki, yoxdur.
Təzə kəklik, yad et məni ürəkdən
Məzarım yanından ötüb keçərkən,
Üstümdə görərsən göyərmiş otlar,
Baş daşım uçulmuş, çökmüşdür məzar.
Qəbrimin tozunu sovurmuş yellər,
Dostlardan anan yox məni bir nəfər.
Qəbrim şüşəsinə əl qoyan zaman
O pak gövhərimi heç olmasa an[50].
Uzaqdan sən mənə göz yaşı töksən,
Mən sənə parlaq nur saçaram göydən.
Duadan bir dilək istəsən əgər,
Mən amin deyərəm, qəbulə keçər.
Salam ver, hörmətlə məndən salam al,
Gəl qəbrim üstünə, edim istiqbal.
Hər zaman diriyəm sənin kimi mən,





Mən cana gələrəm sən cana gəlsən.
Bu yerdə sanma yar-yoldaşsız məni,
Məni görməsən də, görürəm səni.
Bu ölənlər ilə, gəl, danış barı,
Unutma, yada sal bu yatanları.
Qəbrimə gələrkən qədəhi doldur,
Nizami yatdığı yerə qədəh vur.
Ey uğurlu Xızır, sanma ki, mənim
Bu meydən içilən meydir məqsədim.
O meydə özümü unudum dedim,
Özümü unudub məclis bəzədim.
Mey dalğınlıqdandır, səbuh xumardan,
Mənə pak şərabı və d etmiş yazdan.
O böyük tanrıya aydındır bu iş,
Ömrümdə dilimə şərab dəyməmiş.
Bu dilim, dodağım görmüş isə cam,
Olsun Nizamiyə hər halal-haram.

## ÖZ NƏFSİNƏ ÖYÜD VƏ NƏSİHƏT

Ey saqi, yuxumu başımdan uçur,
Aşiqəm, camı saf mey ilə doldur.
Bir mey ki, suyu saf, axan gümüşdür,
Onu hər dörd məzhəb halal görmüşdür[51].
Ey könül, böyüklük almadan ələ
Böyüklər yerində oturma hələ.
Dünyada böyüklük tapmaq istəsən,
Al ələ qələmi, yaz böyüklərdən.
Dindirən olmasa danışma hədər,
Kəsəri yavaş vur, sınmasın gövhər.
Sormadan kim sözə başlasa, bişəkk,
Sözünü küləyə sovurmuş, demək.
Gözsüzə yaramaz göstərmək çıraq,
Görməyən bir gözə nə piltə, nə yağ?
Söyləmək o zaman verər mənfəət
Aləmə səs sala, qazana şöhrət.
Sözünə almasan layiqli cavab,
Dəyərli sözləri eləmə xarab.
Boş söz söyləməkdən saxla özünü,
Ağzına qıfıl vur, yandır sözünü.
Sən ki zövq alırsan yemək, yatmaqdan,
Nə deyim sənə, ey qulaqsız insan.
Bu gözəl sənətim məlumun deyil,
Nə də ki, qapımda vurulan təbil.
Ən ağır qiymətli mətahlarım var,
İstəyən olmasa, etməm aşikar.
İnciyə sədəftək göz yummuş alan,
Bu kasad bazara çıxarmı satan.
Belə bir dəyərli gövhərlə, dostlar,
Bir gövhər sevənə ehtiyacım var.
Müəllimim mənə açan sirləri
İstərəm danışım, dinləsin biri.
Ondakı almazla qazım mədəni,
Canına bağlayım can gövhərini.
Belə alver geniş dünyada çox var,
Biri inci alar, o biri satar.
O hansı könüldür kədər almasın?
O hansı kəmənddir qarşılanmasın?
Xəzinə üstündə yatmışdır ilan,
Gözətçilik deyil məqsədi, inan.
Xurmanın ağacı olmazsa uca,
Uşaqlar çox ziyan verər ağaca.
Yolu gözətçiylə olar qorumaq,
Odsa gül içində saxlanar ancaq.
Tinətim olduqca yumşaqdır, bundan
Tarlama hər yandan yetişər ziyan.
Sərt təbiətlə başqa adamlar
Özünü əyridən, oğrudan saxlar.
Uşağı yolundan qaçırmaq üçün
Üzü zənci kimi qaraltmaq neçin?
Hansı bir səfərə görsəm hazırlıq,
Xoş təbiətimi alaram azıq.
Bəzənmiş ruhun bu təbiətimlə,
Mən belə yaşadım, ölərəm belə.
Hər kəsi mədhlə etdim sərəfraz,
İndi də özümdən söyləyim bir az.
Nə qədər şair var, söz var, şer var,
Dünyada onlardan mənəm yadigar.
Mənimlə canlandı, söz tapdı qüvvət,
Yenə də mənimlə edər qiyamət.
Mən söz gülşəninin sərv ağacıyam,
Sərv ağacı kimi xidmətdə varam.
Həsudun əlçatmaz fələyi mənəm,
Başçıyam hamıya, ayaq öpənəm.
Kim mənə kin etsə düşmən olaraq,
Bərcistək oxum var, atmaram ancaq[52].
Zöhrətək çəkiyə qoyaram dirhəm[53].
Bəxşişə nə çəki, səltək tökərəm.
Dərdliyə gülmərəm şimşək kimi mən,
Canıma od düşər öz şimşəyimdən.
Tikana gül kimi saçaram ətir,
Hər yara ney kimi məni inlədir.
Ürəyim odmudur, nədir ki, yanır,
Tikanı yedikcə hey alovlanır.
Mənəm dərya kimi hər eybi yuyan,
Deyiləm güzgütək göstərən nöqsan.
Elə mal verərəm istəyən şəxsə,
Zəhmətə düşməyim geri verərsə.
Arpanı göstərsəm buğda verərəm,
Arpanı buğdatək satan deyiləm.
Günəşəm, ön, arxam birdir, fərqi yox,
Azdır aldatmağım, işığımsa çox.
Kimsənin dalınca demərəm yaman,
Utanım üz-üzə gəldiyim zaman.
Yamanlar sözünü almaram dilə,
Peşiman edərəm mükafat ilə.
Düşmənə kinli söz demərəm, inan,
O sözlə özümə olaram düşman.

Pisdən yaxşılıqla qorunmaq mümkün.
Dünyada yaxşılıq hər şeyə üstün.
Yaxşılığım üçün hər bir diyardan
Salamdır hey gəlir namidarlardan.
Yaxşılıqla atsam mən bu dəzgahı,
Olaram yaxşılar ziyarətgahı.
Bir dirhəm verənə inci ataram,
Dikbaşlıq edənə qürur sataram.
Bucağa girmədim hünərsizlikdən,
Dünya yeldir, narınc qorxar küləkdən.
Dünya şahlarından, bax, hansı biri
Tapmışdır mən kimi incə şairi?
Bağçada, söyləyin, hansı qızılgül
Görmüşdür mən kimi xoş səsli bülbül?
Mənəm hər bilikdə dəftər bəzəyən,
Hər incə nüktədə qələm işlədən.
Bilikdən dünyada nur alaram mən,
Mənəm hər bilikdə başlıca bir fənn.
İstəsəm, hər kəsi mən güldürərəm,
Bəzən də gözlərdən gülab çəkərəm.
Hər kimi buludtək ağlatsam, yəqin,
Günəştək güldürrəm, qoymaram qəmgin.
Şer dövlətindən əldə var kəsər,
O, bəzən ağladar, bəzən güldürər.
İstəsəm, mümkündür bu zöhdü atmaq,
Hər bir yığıncaqda məclis parlatmaq.
Neyləyim, ağacım bitmişdir yandan,
Tərpətsəm kökünə yetişər ziyan.
Hər çillə qırx gündür, xəlvəti mindir,
Bu yerdən məclisə girmək çətindir[54].
Daşqın sel gəlirkən ağıllı kəslər
Reydən Buxaraya eyləməz səfər.
Bu kəskin küləkdən budur məsləhət,
Gül kimi pərdədə eyləyə xəlvət.
Az bələdçilik et xalqa, dur kənar,
Humay az görünsə humayun olar.
Yatmaqdan, çapmaqdan başım dönərkən,
Başqa bir çarəm yox, gərəkdir ki, mən
Hər sözdən yaradım incə bir çiçək,
O gülə ağlayım dərdli bülbültək.
Görsəydim özümdən gözəl bir gülşən,
Al, sarı gülünü dərməzdimmi mən?
Hazıram budumdan kabab yeməyə,
Günəştək getməyim dilənçiliyə[55].
Simurğtək çəkilim xəlvət bucağa,
Şerimdən nəşələr verim qulağa.
Məndən bu dünyanı aldı qəm, kədər,
Mənimçün rahətdir xəlvət guşələr.
Göy kimi qapıma qıfıl vuraraq,
Oldum xalqdan uzaq, dünyadan uzaq.
Bilmirəm nə sayaq keçir bu cahan,
Dünyada nə vardır yaxşı-yamandan?
Mən ölü olsam da, ən mərd kəsəm,
Karvanda gedərəm, karvansız şəxsəm[56].

Min könül dərdilə nəfəs alıram,
Yatmayım deyə hey zəngi çalıram.
Elə dost varmıdır, qızğın ürəklə
Əziz tutsun məni canından belə?
Vəfasız kəslərdən çəkərək ayaq,
Öz kimsəm özümü gördüm mən ancaq.
Aşiqlər yanında olsa da yaman,
Özümü sevməyim yaxşıdır ondan.
Ruzi gəlməyirsə yadlar eşqindən,
Ruzini o böyük tanrıdır verən.
Daha ehtiyacım qalmasın xalqa,
Məni incitməsin qapıçı, darğa.
Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə.
Tilsimli torpaqda qandan qorxaraq,
Cızıqdan qırağa qoymaram ayaq.
Elə bir tilsimdə yaşarmı insan,
Olsun qanlı cızıq ona bir zindan.
Xalq ilə söhbəti, ülfəti atdım,
Dünyada dincliklə dövlət yaratdım.
Nəfsin noxtasını bərk tutdum qırx gün,
Qırx günün içində hazır olur gön[57].
Çünki dörd balışda görmədim səbat,
Dörd divar içində keçirdim həyat[58].
Hər arpa ki, atdım bu dəyirmana,
Bir inci yaratdım gövhər alana.
Eşq olsun, söz düzən böyük şairlər
Kiçik bir arpadan yaradır gövhər.
Saralmış çöhrəmdə quruyan yaşdan
Çəkdim divarıma palçıqlı saman.
Vücudum burada arpayla yaşar,
Ürəyim orada xəzinə saçar.
Dünyada boşuna keçmədi ömrüm,
Yeməkdən, içməkdən başqa iş gördüm.
Hər gecə biliyə qapı açmadan
Başımı yasdığa qoymadım bir an.
Qəlbim qadın deyil, çaxmaqdır, çaxmaq,
Məryəmtək boyludur, bakirdir ancaq.
Kişiyə getməyə nə ehtiyac var,
Onun öz daşından öz odu çıxar[59].
Bu bakir sözləri düşüncə ilə
Olduqca çətindir gətirmək ələ.
Bakir söz tapınca yontulur ürək.
Hər kəsin işimi incə söz demək?
Çoxları saxsını incitək dələr,
Hamamda özünə səsi xoş gələr.
Sən lakin bir geniş səhranı düşün
Ki, səsdən yırtılır boğaz büsbütün.
Şahlar sikkəsinə qızıl vururkən,
Elə vur, qınılsa qınımayasan
Yəhudi misləri qəlp qızıl etdi,
Bu işdən dükanı qarətə getdi.
Hər meyvə yeyilməz əncir adına,
Zübeydə deyilməz hər dul qadına.





İki hindli görsə hind ölkəsindən,
Biri darğa olar, biri yolkəsən.
Mən təmizlədim bu gümüş suyunu,
Ayırdım torpağın tozundan onu.
Xurmatək dəyməzsə, onu bil yəqin,
Açmaram üzünü söz gəlininin.
Dəyməmiş bir meyvə gördüyün zaman
Ağacı tərpətsən, deyərlər kalsan.
Kal əncir əzməklə əldə yumşalır,
Yedikdə boğazı dərhal qan alır.
Budaqda vaxtında güləsə çiçək,
Ağacın meyvəsi bol olur, bişəkk.
Çınqıllıq, kol-kosluq olursa torpaq,
Yaramaz onda şən bir bina qurmaq.
Vüqarla vuraram başa bu işi,
Vüqarsız bir işi görərmi kişi?
Taxıldan bir fayda gəlirsə ələ,
Əkinçi əkinə başlar həvəslə.
Taxılın azalsa qədri, qiyməti,
Əkinçi buraxar işi, zəhməti.
Dastanı sevənlər, şeri duyanlar
Nəğmələr dinləmir bir çox zaman var.
Yazmalı elə bir uğurlu dastan,
Onda bir incəlik duysun oxuyan.
Bildim ki, bu naxşı bəyənər dostlar,
Verdim bu dastanı yazmağa qərar.
Doğrular yanında varmıdır bundan
Daha xoş simalı, sevimli dastan?
Başqa dastanları arasan bir az,
Millətlər yanında doğru sayılmaz.
Kəskin qələmlərlə ciddi yazılan
Bu dastanda yoxdur azacıq yalan.
Kəskin qələmlərin gücüylə bu gün
Başqa dastanlara olmuşdur üstün.
Şahanə şərabla dolmuş badəsi,
Aldanmış "Şahların Şərəfnaməsi".
Köhnə söz ustası, o tuslu şair
Söz gəlinlərini bəzədi bir-bir.
Düzdü dastanlara çox inci, gövhər,
Yenə də qaldı çox bakirə sözlər.
Yazsaydı tarixdə bütün olanı,
Çox uzun sürərdi onun dastanı.
Sevmədiklərinə etmədi hörmət,
Bəyəndiklərinə göstərdi rəğbət.
Dostlara o paydan ayırdı bir az,
Halvanı təklikdə yemək yaramaz.
Nizami bu sapa düzərkən gövhər,
Qələmdən silindi qələm görənlər[60].
Hansı bir incini keçirdi ələ,
Onları çəkdi öz söz çəkisiylə.
Uğurla ucaltdı "Şərəfnamə"ni,
Köhnəni bununla eylədi yeni.

## XIZRIN NİZAMİYƏ TƏLİMİ

Ey saqi, amandır, ver gülgün şərab,
Eylə mən sərxoşu o meylə xərab!
O xərabəlikdə qopanın fəğan,
Xərabat əhlini səsləyim burdan.
Cismani qulaqla duya bilməyən
Bir sirri mənə Xızr öyrətdi dünən.
Ey tədbirlərimə xas bəndə olan,
Söz qədəhlərimdən dadımlıq alan,
Süsəntək bəndəlik ilini atan,
Dirilik suyundan rütubət tutan,
Eşitdim şahları nəzmə çəkərək,
Sözlər yaradırsan axıcı sutək.
Dəyərsiz sözlərdən uzaq ol bir az,
Əyri pərdələrdə çalğı çalınmaz.
Ən incə sözlər tap, olasan dilbər,
Görüncə bəyənsin söz bəyənənlər.
Şübhəsiz xoşdur hər sınaqlı şəxsə:
Ən çirkin bir üzü görməkdən isə
Əjdahalar hücum etsinlər ona,
Ya müdhiş bir nəhəng çəksin kamına.
Keçmişlər deyəni eləmə təkrar,
İnciyə, bax, iki dəlik açmazlar.
Ancaq sözü sözə bağlamaq üçün,
Bəzən, nə eybi var, təkrar da mümkün.
Ən yeni ustasan sən bu sənətdə,
Köhnələr izində getmə, əlbəttə.
Səndə ki bakir söz xəzinəsi var,
Dul sözə əl atmaq nəyinə yarar?
Danılma: "Bu ovu vurmadım" deyə,
Vaxtında ona da tək sənsən yiyə.
Asan yaradılmaz daşda cəvahir,
Onu daşdan almaq asan deyildir.
Hər şey parça-parça olunca belə,
Bərk yerdən çıxar çox çətinlik ilə.
Cəvahir asudə tapılmaz, bişəkk,
Hər gümüş butada saflansın gərək.
Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət[61].
Gümüş küp, ya qızıl bir teşt istəsən,
İraq torpağından uzaq getmə sən[62].
Reydən Cənd, Dehistan, Xarəzmə qədər
Yoxdur sel izindən başqa bir əsər.
Buxaralı, gilək, kürd və xəzərli
Bir parça çörəyi tutmuş dörd əlli.
Başqa ot göyərməz Mazandaranda,
Tikanlı qanqallar göyərir onda.
Tək iki şey çıxar Mazandarandan:
Biri div, o biri divqılıq insan.
Yaşasın qəlb açan sevimli İraq,
Ondan şerin səsi ucalmış ancaq.
Ətirli çiçəklər atınca Hicab,
O güldən İraqda çəkilir gülab.

Ey sənət qasidi, məsləhət budur,
Dünyanı yel kimi dolaşma, otur.
Cavahir yonmağa al kəskin kəsər,
Söz gəlinlərinə saç noğul, şəkər.
Gövhər qaz İskəndər mədənlərindən,
Gövhəri İskəndər alacaq səndən.
Gövhərə müştəri çıxar cahandar,
Dünyada tezliklə diləyin parlar.
Qapına qiymətlə gəlsə müştəri,
Buraxma, sat ona, qaytarma geri.
Dənizlər soltanı alsa bir gövhər,
Hər daşa bir gəmi cavahir verər.
Xəzinə gizlətmə belə dənizdən,
Ondan dürr alaraq, cavahir ver sən.
Ol doğru miyançı, düzəlsin hər iş,
Ortada nə kabab yansın, nə də şiş.
Xızrın sözlərini eşidincə mən,
Beynimdə bir xəyal doğdu yenidən.
Qəlbimdə yer tutdu, qəbuldur, deyə,
Ürəkdən doğan söz yatar ürəyə.
Mənə bu saf öyüd əsər edincə,
İnciyə dil açdım incədən-incə.
Yaratmaq fikriylə yeni "Şahnamə",
Açdım hər şivədən böyük həngamə.
O heyrət verici əfsanələrdən
Şahların adına qitə çəkirkən
Zehnimdə hər güzgü parlatdımsa mən
İskəndər xəyalı keçdi önümdən.
Boş baxma sən buna, uca şəhriyar
Həm qılınc vurandır, həm də tacidar.
Xalq ona taxt-tac sahibi deyir,
Ölkələr fəth böyük cahangir.
Vəziri həkim bir şəxs olduğundan
Ona da hikmətdən yazıldı fərman.
Baxanlar görüncə onu dinpərvər,
Ona da peyğəmbər adı verdilər.
Bilənlər əkdiyi üç toxumdan mən
Bir ağac əkərəm həm uca, həm şan[63].
Öncə söz açaram padşahlığından,
Cahangirliyini edərəm elan.
Hikmətlə bəzəkli söz yazaram mən,
Köhnə tarixləri təzələrəm mən.
Döyərəm qapını peyğəmbərliyə,
Tanrı da bəyənmiş "peyğəmbər" deyə.
Üç qapı tikdim, üç xəzinə demək,
Çəkdim hər qapıda ayrıca əmək[64].
Üç qapı, ya bu üç inciylə yenə
Tökərəm dünyaya ağır xəzinə.
Vuraram elə rəng, elə bir zivər,
Bütün ölkələrdən işığı gələr.
Dəftərlər topladım incidən parlaq,
Hayıfdır üstünə çöksün toz, torpaq.
Bir dövlət sarayı göstərin barı,
Vurum divanına bu naxışları.

Bu naxışlarımla durduqca dövran,
Qurtarın onu bu dünya tozundan.
Şerimlə yaradım elə bir dastan,
Əbədi həyata yaratsın imkan.
Adını naməmlə edərəm uca,
Adıyla yaşayım dünya durunca.
Bu taxtdan sazlayım elə oturaq,
Onunçun olsun bir əbədi otaq.
Adına bağlayım elə naxışlar,
Dövran dövr etdikcə qalsın bərqərar.
Zehnindən silməsin onu bu fələk,
Yumasın, pozmasın yağış və külək.
Bu şərtlə dünyada tutunca aram,
Başımı günəşə, aya ucaltsam,
Mənə də qurulsun elə bir dəsgah,
Başım ölçüsündə verilsin külah.
İşığı günəşdən mümkündür almaq,
Bu işdən kölgənin yolu çox uzaq.
Qarğaya göyərçin olarmı şikar,
Bu ovu padşahın əl quşu ovlar.
Nizami işidir incə söz düzmək,
İncilər yaratmaq ona yarar tək.
Vurar bu naməyə elə naxışlar,
Bu naxış hər qəlbə işıq bağışlar.
Dostların qəlbinə nur damar ondan,
Düşmənin gözündən qaçsın hər zaman.
Bülbültək ötsə də düşmənin səsi,
Qəlbini dələn bir oxdur tənəsi.
Mən bu dastanıma vurarkən bəzək,
Öz ulu tanrımdan istədim kömək.
Versin dastanıma əzizlik, şöhrət,
Əziz tutanlara göstərim şəfqət.
Açsın bu naməmə elə qol-qanad,
O faldan doğsun ən uğurlu həyat.
Ürəkdən sevinsin hər bir oxuyan,
Zövq alsın fikrimi dərindən duyan.
Hər qəlbi qırığa yeni can olsun,
Hər ağır dərdliyə əl tutan olsun.
Hər xəstə ürəyə göstərsin şəfqət,
Hər bağlı qapını açsın bu sənət.
Oxumaq istərsə aciz bir nəfər,
Haqq olsun ona bu diləkdə rəhbər.
Əlinə alsa hər ümidsiz kimsə,
Hər dilək, hər ümid gülsün o şəxsə.
Hər dilək istədim, verdi, çox şükür,
Öz uca tanrıma etdim təşəkkür.
Bu namə mübarək olacaq, bişəkk.
Şahın məclisində olsa mübarək[65].

## NÜSRƏTƏDDİN ƏBUBƏKR PADŞAHIN TƏRİFİ

Yaquta bənzəyən suyu, saqi, dur,
Bu yaqut yağdıran qədəhə doldur.
Bu saxsı cama mey həyat axıdır,





Onun reyhanının öz torpağıdır[66].
Ey uca günəş, dur, bayrağını aç,
Ey xuraman bulud, müşkin ətir saç.
Gurla, ey ildırım, şahın təblitək,
Dan dodağı kimi gül, gül, ey şimşək.
Sən də saf qətrəni yağdır, ey bulud,
Ey sədəf, qətrəni qucağında tut.
Ey inci, üzə çıx söz dənizindən,
Sultanın tacında get elə məskən[67].
Şah ki, yüksəlməni eyləyir arzu,
Sənə şanlı tacdır yolunun tozu.
İskəndər qurduğu dövlət, əzəmət,
Ona verilmişdir indi o şövkət.
Yerlərə, göylərə odur can verən,
Böyük cahangirdir, düşmən devirən.
Məğribdə mərdlikdə hökmü rəvandır,
Məşriqdə hünərlə o qədərxandır.
Cahan pəhləvandır, Nüsrətəddindir,
Hökmü düşmənlərə qılınc təkindir.
Düşmən son düşünən, ürəyində kin,
İstiqbal görəndir, ləqəbi Bişkin[68].
Qılınc sahibidir, tac verən şahdır,
Üç növbət vurandır, beşə pənahdır[69].
Atını Rüstəmlər üstünə sürər,
Həm taxtı bəzəyər, həm də tac verər.
Adətdir, dünyanın ulu şahları
Xəznəyə dəmirdən vurar açarı.
Bunun tək qılıncdan xəzinəsi var,
Dəmirdir xəznəsi, qızıldır açar.
Fərattək səmimi bir dostluğu var,
Nil kimi düşməni gizlində boğar[70].
Günəşə salsa o öz kölgəsini,
Suyuyla söndürər od çeşməsini.
Bir nəzər salsa o yeni hilalə,
Bədirlənib o da yetər kəmalə.
Onun bəxşişini sayan bir nəfər
Nə qədər ömrü var ona şükr edər.
Ona şükr etməklə neməti artar,
Belə nemət verən, söylə, harda var?
Fələktək hər kəslə girsə meydana,
Atar qalxanını torpaqtək suya[71].
Döyüşdə buluddur, elə ki, kükrər
Dağların başını qılıncla sökər.
Meydanda açdığı hünərlər ki, var,
Nə Rüstəm göstərmiş, nə İsfəndiyar.
Bəxtiyar bir həyat başladı yerdə
Bu günəş anadan doğan səhərdə.
Altında ağ atı keçsə hər yerdən,
Ayağı dəydiyi yer olur gülşən.
Hansı bir qələdə parlatmış yüyən,
Düyümü açmışdır pərgar xəttindən.
Hər şəhrə hünərlə qələbə çalmış,
Qarun sərvətini əlinə almış[72].
Bayrağı qələyə sancdığı zaman

Bəyinin başını asmış qaladan.
Hamıda insanlıq bir təbiətdir,
Bu başqa insandır, başqa xilqətdir.
Bildiyim ən adlı, sanlı kimsələr
Bu insanlığına təşəkkür edər.
Geniş ehsanı var, uca şövkəti,
Aldanmış dünyanın vəlinəməti.
Dirilsə bir ölü, qalxsa məzardan,
Şəhəri, bəzən tutar həyəcan.
Min: ölü dirilsə ədalətilə,
Düşmənin ürəyi düzəlməz hələ.
İsatək nə qədər ölü diriltdi,
Bu gözəl əxlaqla xalqı qul etdi.
Gövhər mədənitək dağılan dünya
Bu günəşlə tapdı həyat və ziya.
Yer cəhənnəm idi - nə iş, nə tarla,
Bir cənnət olmuşdu bu gənc baharla.
Hər yeni nemətdən dağıdır xalqa,
Neməti çay kimi axıdır xalqa.
Yaxşılıq ardınca getsə hər zaman
Yaxşının adını unutmaz cahan.
Demirəm dənizdir uca şövkətin,
Bir mədən qədər var ağır qiymətin.
Şahın da sarayı günəş kimidir,
Məşriqdən məğribə uzatmış kəndir.
Cənnəti tutmuşsa tuba ağacı,
Hər budaq olmuşsa bir qəsrin tacı,
Ehsanı Şərq ilə Qərbə kök salmış,
Hər ev süfrəsindən bir nemət almış.
Adı Keyxosrovla olmuş bərabər,
Nəsəbi ucadır Keyqubad qədər.
Atını hansı bir səhraya çapmış,
Hər qanqal ətəyi əşrəfi tapmış.
Yer, xəzinəsindən bir çuval tikmiş,
Xeyri zər toplamış, yasəmən gümüş[73].
Hansı xəzinəni açıb axtarsan,
Onun sikkəsindən tapılar nişan.
Tac ilə başını ucaltmış fələk,
Başında bu tacı olsun mübarək.
Dünyanın Xızrısan, İskəndərisən,
Həm mülkün, həm həyat suyun var,
əhsən. Fəth etdin İskəndər kimi dünyanı,
Xızrtək doğrultdun yoldan azanı.
Hər şeyin ucadır uca adıntək,
Yalnız bir şeyin yox - tayın yox demək.
Aslanlar ovuna çıxdığın zaman
Bir oxla edərsən iki ov nişan.
Fillərlə döyüşdə atınca kəmənd,
Qənnucun şahını edərsən filbənd[74].
Şir gur ovlayanda sən olsan orda,
Nə ki şir, ovlarsan Bəhram Guru da.
Kim əymaz başını, əmr etsən: "Əyil!"
Hansı dövlətdir ki, əlində deyil?
Sən at oynadarkən, məğrur boyunlar -

Yəhər qayışıtək yumşalar onlar.
İki şəxs əmindir, sən qəhr edərkən:
Bir sənə qul olan, bir boyun əyən.
Düşmən üzr istəsə sən bağışlarsan,
Bu mətin əhdinə qul olmuş dövran.
Dünyanın başına döndü ruzigar,
Altı şahdan qalmış altı yadigar.
Kəyümərs padşahdan tacıdır nişan,
Cəmşiddən bir qılınc, taxt Firidundan,
Camı Keyxosrovdan qalmış yadigar,
Ulduzlar sirrini edər aşikar.
Ən parlaq bir güzgü, şəffaf bir gövhər
Quraraq, yadigar qoymuş İskəndər.
Laldən düzülən o parlaq üzük,
Süleyman möhrüylə çil-çıraq üzük.
Saydığım altı şey məxsusdur sana,
Adında altı hərf şahiddir buna[75].
Səndə bundan başqa altı xislət var,
Bunlarla olarsan daim bəxtiyar:
Birinci - açıqdır xəzinən hər an,
İstəməsələr də edərsən ehsan.
İkinci - kəramin hesaba gəlməz,
Haqqını biləndən almazsan əvəz.
Üçüncü - şəfqətlə alarsan ürək,
Hər zaman məzluma edərsən kömək.
Dördüncü - taxmısan göylərə bayraq,
Bir ordu yenərsən təklikdə ancaq.
Beşinci - günahkar olsa peşiman,
Suçundan keçərsən onun hər zaman.
Altıncı - mətindir verdiyin qərar,
Unudan deyilsən, gözəl vəfan var.
Bəzəyindir sənin bu altı cəhət,
Səndən ayrılmasın bu altı xislət.
İki tərlan gərək ölkə qurmaqda,
Xəzinə yığmaqda, şikar vurmaqda.
İki ilan gərək sənə, onlardan:
Biri dövlət, biri xəznə qoruyan.

## PADŞAHA XİTAB

Yeddi göy altında, ey dünya şahı,
Beşinci ölkənin sənsən pənahı[76].
Əmrində bu qədər ölkə, şəhər var,
Qapında sütundur saraylı şahlar.
Hər gecə göylərdə dolanar qəmər,
Sənin çırağına gəlib yağ tökər.
Günəş də başında tacı, hər səhər
Taxtının önündə köləlik edər.
Sənə bu şahlığı bəxş edən kimsə
Vermişdir ürəyin nə istəmişsə.
Şahlıq et, verilmiş sənə ölkələr,
Kömək ol, xalqlara ədalət göstər.
Çibin qanadını qırmasın tərlan,
Fil də qarışqaya verməsin ziyan.

Allaha min şükür, min şükür, əlbət,
Şahda yazdığımdan çoxdur ədalət.
Şahdan bir diləyim var mənim ancaq,
Mənim dastanıma nəzər salaraq,
Sönük bir əfsanə verərsə artıq,
Üstünə nə kölgə salsın, nə işıq.
Rast gəlsə dalğalı incə, gövhərə,
Başımı ucaltsın uca göylərə.
Bu "Şərəfnamə"də dünya sirrindən
Çox xəznə açarı gizlətmişəm mən.
Hər kimin əlində olsa bu açar,
Bir çox xəzinələr, tilsimlər açar.
O gizli xəznəni aça bilməsə,
Verər qızıl açar şənlik o şəxsə[77].
Bilirsən, bu yarım yonulmuş gövhər
Qoynunda gizlətmiş nə xəzinələr?
Bu gövhər yonmağım səninlə şəndir,
Afərin deməyim sənə səndəndir.
Ağıl ki, göyləri endirər yerə,
Afərin söylər bu afərinlərə.
Şahdan alınmışdır belə bir əmr:
"Adıma bir naxış bağla, ey şair!"
Şahın sözlərindən ilham alaraq,
Ağıla, şüura bərk sarılaraq,
Vurum bu gəlinə elə yaraşıq,
Şahın məclisini bürüsün işıq!
Ona bu şux gəlin olsun bir kəniz,
Məclisdə, dünyada tutulsun əziz.
Dünyanı parladan çıraq nə qədər
Yaxını, uzağı nurilə bəzər.
Dünyanı parlatsın şahın gül bağı,
Gündüz məşəl olsun, gecə çırağı.
Ağzı qarğa kimi cırılsın gərək,
Yansın düşmən dili çıraq dilitək.
Uca dövlət kimi qonsun eyvana,
Nizami afərin oxusun sana.

## DASTANIN XÜLASƏSİ VƏ İSKƏNDƏRİN CAHANGİRLİK TARİXİ

Saqi, gəl ruhumu şənlədən mey ver!
Xuman atmağa səhərkən hey ver!
Bu səhər şərabı kövsərə dəyər,
Halaldır içsəm o məhşərə qədər.
Yaxşıyla, yamanla dolmuş ruzigar,
O yaxşı-yamandan boynunda çox var.
Hər gecə, gündüz bu niligun pərdə
Min fitnə, min oyun açar hər yerdə.
Məndən də bir oyun baş versə, inan,
Onu da doğurmuş bu köhnə dövran.
Xəyaltək incəldim çarx hiyləsindən.
Necə oynamayım xəyal ilə mən?
İstəyim: pərdəni bütün boşaltmaq,
Bir cadu xəyalı işlətmək ancaq.





Bir xəyal yaradım bu naxışdan mən,
Gəlməsin cadugər, canbaz əlindən.
Mən elə başladım bu şux dastanı,
Coşdurar sazımın səsi dünyanı.
Ən doğru sözlər ki, oyadır maraq,
Tarixdən onları bir-bir alaraq
Düzdüm dastanıma, əsər yaratdım,
Ağla sığmayanı büsbütün atdım.
Seçdim hər düzümdən bir inci, gövhər,
Vurdum bu gərdəyə yaraşıq, zivər.
Bərk təməl üstündə qurdum bir bina
Ki, ziyan dəyməsin divarlarına.
Təqdimi, təxiri tutmayın nöqsan,
Nöqsanə məcburdur hər tarix yazan.
Bu Çin ipəyinin naxış evində
Maninin fırçası düşmüşdür bəndə[78].
Dastanı düzərkən fikrim açıqdı,
Söz səlis olsa da, yol dolaşıqdı.
İskəndər haqqında heç bir əsərdə
Məlumat görmədim yığcam bir yerdə.
Sözlərlə dolmuşdu xəzinə içi,
Ancaq hər nüsxə bir dağınıq inci.
Hər köhnə nüsxədən əsas alaraq,
Onu öz şerimlə bəzədim ancaq.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri əlimə saldım,
Qabığı ataraq, məğzini aldım.
Müxtəlif dillərdən yığdım çox sözlər,
Bunlardan düzüldü yazdığım əsər.
Saydığım dilləri ətraflı bilən
Saxlar öz dilini mənə töhmətdən.
Hansı bir pərdədə doğru söz gördüm,
O sözün telini şerimlə hördüm.
Bu işdə həqiqət arasan bir az,
Nəzmdə həqiqət aramaq olmaz.
Şerimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən.
Dünyanı dolaşan böyük İskəndər
Yorulmaq bilmədən edirdi səfər.
Dünyanı dolaşıb dörd yanı gəzdi,
Bilmədiyi mülkü fəth eyləməzdi.
Hansı bir dövlətə verdi nəhayət,
Kəyan adətinə göstərdi hörmət.
Yalnız zərdüştlüyü qəbul etməmiş.
Başqa adətlərə etdi pərəstiş.
Dünyada ilk əvvəl o zinət qurdu,
Yunanda sikkəni qızıldan vurdu.
İskəndər əmrilə vermiş hər zərgər,
Qızılın suyuyla gümüşə zivər.
Farscadan hər əsər keçmiş əlinə,
Tərcümə etdirmiş yunan dilinə.

Qapıda üç növbət təbil vurdurmaq
İskəndər dövründən qalmışdır ancaq.
Ulduz güzgüsüylə o böyük qeysər
Qaranlıq içindən çıxardı gövhər[79].
Sildi şurişləri köhnə dünyadan.
Taxt aldı, tac aldı qoca Daradan.
Hindin sövdasını, rus səfrasını
Silərək parlatdı şən dünyasını.
Rayi bir güzgüdür çinlilər üçün.
Odur Keyxosrovun taxtına üstün.
Ömründən keçirkən tam iyirmi il
Şahlığa ucadan vurdurdu təbil.
İyirmi yeddiyə çatınca yaşı
Peyğəmbər olaraq, ucaldı başı.
İskəndər o gün ki peyğəmbər oldu,
Onun tarixinə naxış vuruldu.
Dinə yol göstərən bir hikmət oldu,
Dünyada mübarək bir dövlət oldu.
Din üçün etdi çox dəlillər icad,
Bu dünya üzünü elədi abad.
Dünyanı gəzərkən döndü hər yana,
Elədi çox böyük şəhərlər bina.
Hinddən başlayaraq Yunana qədər -
Hər yerdə tikdirdi böyük şəhərlər.
Səmərqənd şəhrinə o verdi zivər,
Cəndi də tikdirmiş böyük İskəndər.
Həri də yadigar qalmışdır ondan,
Varmıdır belə bir məmləkət quran?
Dərbəndi deyirlər İskəndər qurdu,
Əqliylə o şəhrə böyük səd vurdu.
Bulqar şəhrini o etdi bərqərar,
O şəhrin adıdır əslində Bün-qar[80].
Bağlayıb dağları biri-birinə,
Yəcuc həsarını o çəkdi yenə.
Çox bina salmışdır bunlardan başqa,
Onları saymaqla çatmaz ki, başa.
Pak olan o vücud, ulu tacidar
Yerləri təqsimə verincə qərar,
Dünyaya gəlmədən əvvəl xaçpərəst,
Çəkdi bu dünyada xaç kimi bir xətt[81].
Həmin bu dördbucaq ətləsi xətlə
Həndəsi ölçünü keçirdi ələ[82].
Dörd bucaq üstünə bir də artırdı,
Bu doqquz fələyə, beş növbət vurdu[83]
Bir mıxı uzanmış Şimali qütbə,
Bir kökü uzanıb getmiş Cənubə.
İpinin bir ucu Məşriqə çatmış,
O biri Məğribə qol-qanad atmış.
Dünyada bu endə, uzunda böylə,
Uca bir barigah kimdə var, söylə.
O gün ki, istədi gəzsin dünyanı,
Ölçməyə başladı əvvəl hər yanı.
Hər bir məsahətdən, mərhələlərdən
Qalmadı bir qarış yer ölçülməyən.

Bu işdə hesabsız yerölçən vardı,
Yüzlərcə katiblər ölçüb yazardı.
Uzun iplər ilə ölçüldü çöllər,
Hesaba alındı bütün mənzillər.
Aldığı quruda o saray qurdu,
Mənzil-mənzil yolu ölçüyə vurdu.
Mavi dənizdən də edərkən səfər,
Onu da ölçüyə vurdu İskəndər.
Dənizdə yol ölçən iki gəmi var,
Uzun bir ip ilə bağlanmış onlar.
Birisi yerində salardıləngər,
O biri ip boyu irəli gedər.
Sonra yol gedənə ləngər salaraq
Ləngərli gəmiyə taxardı ayaq.
Gah onu, gah bunu belə sürürdü,
Qorxmadan dənizi yarıb ölçürdü.
Belə bir yol ilə bu mühəndislər
Ölçürdü sahildən sahilə qədər
Dünyadan kədəri şah silə-silə
Ölçüyə aldı bu həndəsə ilə.
Yerləri, yolları bu İskəndərin
Öz tədbir ölçüsü etmişdir təyin.
O, rübi-məskunu etdi aşikar[84],
Yoxsa bu yerlərə başqa kim çatar?
İskəndər hər yerə atını çapdı,
O yerlər şənləndi, səadət tapdı.
Dağlara, çöllərə tapdı min çarə,
Ölümün əlində qaldı biçarə.
Tarixdə nə varsa İskəndər şahdan,-
Yalnız bunlar oldu işə yarayan.
Artıq mən nə yazsam bu şən dastanda,
Az-çox, artıq-əskik olacaq onda.
Hər tarix şer ilə alsa yaraşıq,
Şübhəsiz, olacaq bir az dolaşıq.
Çünki incəlikdir işim, sənətim,
Haqlıyam, bu işdə çıxsa qələtim.
Doğru görmədiyim sözlərdən qaçdım,
Ondan üz çevirib başqa yol açdım.
Düzdüm bu tarixdən elə bir dastan,
Könlündə bir sevinc duysun oxuyan.
Çox incəlik gəzsən, axtarsan, yəni
Yalana aparar sözün yüyəni.
Yazdığım sözlərə verməsəm zivər,
Yenilik verməz o köhnə nəğmələr,
Qələmə gərəkdir elə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.
Parlaq inci kimi düzülən sözlər
Ağıla sığmazsa yalana bənzər.
Doğruya azacıq bənzəyən yalan
Yaxşıdır yalana bənzər doğrudan.
Nizami, yubanma, yoldaşlar getdi,
Sən qaldın, qəm qaldı, sirdaşlar getdi.
Yeddi ölkə şahı - getdi İskəndər,
İskəndər qalmadı, qalmaz bir nəfər.

Bu çayın başında tək içmə şərab,
Köhnə dostlarını sən axtarıb tap.
Gəlsələr, nuş olsun, əldə qədəh tut,
Nizami, yoxsa bu hesabı unut.

## BU ƏSƏRİN YAZILMASININ SƏBƏBİ

Aç dehqan küpünü, sən ey saqi, dur,
Badəmə şəkərdən şirin mey doldur.
Vermə o meydan ki, din etmiş haram,
Bir mey ver ki, ondan din olmuş tamam.
Ey bağban, şənlik qur, qəm-qüssədən qaç,
Bağına gül gəldi, dur qapını aç.
Nizami şəhərdən gəlmişdir bağa,
İpəkdən bəzək vur bostana, tağa.
Bənövşə zülfündən bükümləri at,
O sərxoş nərgizi yuxudan oyat.
Qönçənin dodağı hələ süd qoxur,
Qızılgül ağzından ona ətir vur.
Qoy sərvin qaməti göyə yüksəlsin,
Qumruya xəbər ver, bahardır, gəlsin.
Müjdə ver, nəğməyə başlasın bülbül,
Beşiyində gəldi meyxanayə gül.
Sula çöl-çəməni, uçsun toz, qubar,
Lacivərd rəngini yuduqca parlar.
Lalənin qəlbində coşan qan artır,
Torpaqla ört onu, qanını yatır.
Nəstərən saçından ağ tükləri at,
Bidmişk kölgəsilə telini qaralt.
Gülnar dodağını bulaşdır meyə,
Xeyri gül torpağı zərlə bəzəyə.
Səmənə salam ver ərğəvan güldən,
Suvar bağ-çəməni, canlansın gülşən.
O körpə güllərə göstər məhəbbət,
Nazını çəkərək eyləmə qəflət.
Mən kimi sövdası aşıb-daşandan
Salam ver gülzara girdiyin zaman.
Hava çox ılıqdır, gözəldir bostan,
Dostların qəlbi də xoşlanır bundan.
Vermişdir ağaclar bağa yüz bəzək,
Parlaq bir çıraqdır hər gül, hər çiçək.
Ey bağban, xəbər ver o susan quşa:
Ötərək başlasın yeni uçuşa.
Bahardır, bir daha nalə etsin çəng,
Gətirsin qəlbimi rəqsə o ahəng.
O dilbər zülfündən bir zəncir yarat,
Zənciri yenidən, gəl, boynuma at.
Gözəl dəstələr tut yaşıl reyhandan,
Saç sərvin başına, şənlənsin hər an.
Bahar çiçəyindən dağıt arxlara,
Gümüşə bənzəyir ağ çiçəkpara.
Hər gölün, çeşmənin ətəklərinə
Süsəndən ipək bir xalça sal yenə.





Şahanə məclisdə sən, ey saqi, dur,
Şahanə bir meylə badəmi doldur.
Dur, saqi, alışdım şərab içməyə,
Atəşdən yanıram, ver bu təşnəyə.
O köhnə dostları yad edim bu gün.
Qalmamış bir nəfər, köçmüşdür bütün.
Bu dövran da gedər, qalmaz o bizə,
Gələnlər içərlər xatirəmizə.
Bostanın belə bir gözəl çağında
Oturdum uca bir sərv ayağında.
Çinar kölgəsindən, gül qoxusundan
İlham aldı bülbül, başladı dastan.
Bir gəlin gül üçün sallandı bağa,
Gül üzü bənzərdi işıq - çırağa.
Saçları tökülmüş topuğa qədər,
Üzü gül səpərdi, dodağı şəkər.
Şehli gül üzündən kam verdi mənə,
İçi meylə dolu cam verdi mənə.
Dedi: "Al, qəlbində nə varsa unut,
Padişah eşqinə əldə qədəh tut."
Oturdum sınanmış kəslərlə hər an,
Böyüklər adından yazdım bir dastan.
Beynimin, qanımın çeşmələrindən
Bu qədər incə söz sıxıb süzdüm mən.
Doymadım, ilhamım yenə də qaynar,
Qılıncım kəskindir, hələ gücüm var.
Nə qədər dəyərli xəzinə qurdum,
Hər birində yeni nüktələr vurdum.
Yorulmaq bilmədən gündüz və gecə
"Məxzənül əsrar"ı yazdım əvvəlcə.
İncəlik, şirinlik yığaraq ondan,
"Xosrov və Şirin"çin düzdüm bir dastan.
Sonra başqa yerdə çadırı vurdum,
"Leyli və Məcnun"un eşqini qurdum.
Bitirdim dastanı, bir nəş ə tapdım,
Atımı "Həft peykər" üstünə çapdım.
İndi söz mülkündə büsat quraram,
İskəndər dövründən təbil vuraram.
Yazaram mən onun şan-şövkətindən,
Taxtının, tacının əzəmətindən.
Ölüb getmişsə də, dirildim onu,
Verim axtardığı həyat suyunu.
İskəndər bir böyük yol təqib etdi,
Dirilik suyunun dalınca getdi.
Əbədi qalmaqçın həyat suyundan,
Çox gəzdi, dolaşdı heç yorulmadan.
Dirilik suyunun olmadı sonu,
Ancaq indi tapdı həyat suyunu[85].
Sözlər padşahının bir məsəli var:
Nə gözəl söyləmiş: "Axtaran tapar."
Nizami, içərkən mey İskəndərlə,
Baxtiyar olmaqçın ədəbi gözlə!
Xızır bu süfrəndə olmuş həmsüfrən,
Yetmiş yeddi suda ağzını yu sən![86]

## DASTANIN BAŞLANĞICI

Saqi, dur, gətir o həyat suyunu!
İskəndər şövkətli şaha ver onu.
Şahın dövlətini öpsün o badən,
Odur İskəndərin irsini yeyən.
Şahnamə yazanlar saçaraq bilik,
Vermiş söz nəzminə belə yenilik:
Yunan ölkəsinin padşahlarından
Vardı bir gənc dövlət, böyük hökmüran,
Şöhrətli şah idi, adı Feyləqus,
İtaət edərdi ona rum və rus.
Yunanıstan idi onun məskəni,
Makedoniyaydı doğma vətəni.
Qanunlar qoyardı yeni və parlaq,
Ulu babasıydı Eys ibn-İshaq.
Ədalət o qədər yaxınmış ona,
Qurdları bağlarmış qoyun buduna.
Zülmün boğazını elə sıxmışdı,
Dara həsədindən rəqib çıxmışdı.
Üstün olmaq üçün qılıncı, tacı,
Bir elçi göndərdi, alsın xəracı.
Ağıl sahibiydi rumlu hökmüran,
Xəracı göndərdi, olmadı düşman.
Taleyi yar olan məsud kimsəyə
Kim cəsarət edər, düşmənəm deyə?
Bəxşişlər göndərdi böyük dərbara,
Düşmənlik yolundan əl çəkdi Dara-
Rum şahı oldu bu bəxşişdən çox şən,
Mumunu qorudu yanar atəşdən[87].
İskəndər başlarkən fəthə hər yeri,
Döndü birdən-birə çərxin işləri.
Daraya nə dövlət qoydu, nə dövran,
Süngüsü keçirdi çaxmaq daşından.
Bu dastan haqqında rəvayət çoxdur,
Hər kəsi dinlərəm, inadım yoxdur.
Belə nəql edir bu vəqəni rumlar:
Bir qadın var imiş çox yoxsul, dindar,
İkicanlı idi, tapmadı çarə,
Yurdundan, ərindən düşdü avarə.
Doğmağın zamanı yetişdi artıq,
Kəsdi taqətini ikicanlılıq.
Doğarkən can verdi bir xərabədə,
Ölürkən körpəni andı yenə də:
"Məndən sonra səni kim bəsləyəcək?
Hansı bir canavar səni yeyəcək?"
O zənn etməyirdi ki, pərvərdigar
Bir zaman edəcək onu tacidar.
Nə qədər xəzinə güləcək ona,
İqbal qonacaqdır şan qucağına.
Həsrətlər içində qadın verdi can,
Köməksiz uşağa yar oldu yəzdan.
Şüurla, hünərlə işlətdi qafa.
Dünyanı fəth etdi o Qafdan-Qafa.





Feyləqus çıxarkən ov üçün düzə,
Qadın ölən yerlə gəldi üz-üzə,
Gördü bir qadındır yurdsuz, yuvasız,
Başının üstündə bir körpə yalqız.
Sorur barmağını o körpə uşaq,
Ana həsrətiylə dişləyir barmaq.
Nökərlərə əmr verdi tacidar;
Qadının dəfninə məşğul oldular.
Kimsəsiz körpəni götürdü yoldan.
Daldı bu heyrətli işə bir zaman,
Böyütdü, bəslədi, verdi tərbiyə,
Vəliəhd eylədi "Oğlumdur" deyə.
Zərdüştilərdə var başqa rəvayət.
Verir İskəndəri Daraya nisbət.
Vurdum tarixləri mən bir-birinə,
Baxdım Firdovsinin öz əsərinə.
Hər iki rəvayət məncə pozuqdur,
Uydurma sözlərdir, həqiqət yoxdur.
Doğrusu budur ki, bilir hər diyar,
Feyləqus oğludur böyük tacidar.
Bunlarda həqiqət görmədim bir az,
Tarixçi bunları qələmə almaz.
Ən yaxşı bir qoca rəvayət edir,
O köhnə şahlardan hekayət edir:
Feyləqus qəsrində bir gözəl varmış,
Bəzəkli gəlintək azad yaşarmış.
Baxışı can alan, qaməti büland,
Qaşları kamandı, saçları kəmənd.
Sanki bir sərv imiş, yetirmiş çəmən,
Telləri bənövşə, çöhrəsi səmən.
Camalı parlaq bir günəşdən təmiz,
O süzgün gözləri qəmzəli nərgiz!
Qıvrıcıq saçları qara bir ənbər,
Saray bu dilbərlə olmuş müəttər.
Rum şahı vurulmuş ayüzlü qıza,
Dilinin əzbəri parlaq ulduza.
Bir gecə bağrına basdı hökmüran,
Şahın xurmasından bar verdi fidan.
Neysan buludundan sədəf tutdu bar,
Ən parlaq bir inci oldu aşikar.
Keçdi bu vəqədən doqquz ay ancaq,
Ananın bətnində tərpəndi uşaq.
Padşah əmr etdi ki, münəccimlər
Baxıb ulduzlara versinlər xəbər.
Bir xəbər versinlər bu gizlin işdən,
Rahatlıq versinlər bu tərpənişdən.
Bilikli münəccim başladı işə,
Baxdılar fələkdə olan gərdişə.
Göyləri seyr üçün məclis düzəltdi,
Ulduz tərəzisi ortaya gəldi,
Taleyi göründü Əsəd bürcündən[88],
Düşmənlər kor oldu onun gücündən.
Günəş yaxınlaşdı o gün Həmələ,
Gedirdi elmdən çatsın əmələ[89].

Ütarid və Covza qonmuş bir yerə,
Sovrda məskən etmiş Ay ilə Zöhrə.
Qövsi də Müştəri bəzəmiş gözəl,
Mizanın bürcündə oynardı Zühəl.
Altıncı xanəni tutmuşdu Bəhram,
Xidmət göstərməyə olmuşdu qulam.
Taleyi göründü nurdan da parlaq,
Nə deyim, o yaman gözlərdən iraq.
Belə xoş fal ilə dünyaya gəldi,
O bağda belə bir fidan yüksəldi.
Təqvimdən bəxtini təyin etdilər,
Qoyuldu uşağın adı İskəndər.
Bu yeddi ölkərdən oldu aşikar,
Açarı verəcək ona ruzigar.
Münəccim tale dən verincə xəbər,
Feyləqus şükr etdi, silindi kədər.
Bəxtiyar çocuğa etdi məhəbbət,
Taxtına oturdu, payladı xələt.
Artıq yol vermədi qəmə, kədərə,
Cəvahir payladı istəyənlərə.
O müşk ətirlinin güləndə baxtı
Meyi də, müşkü də seltək axıtdı.
O sərvin budağı bəsləndi nazla,
Turactək səkərək səsləndi nazla.
Meydan axtarırdı beşikdə ikən,
Yəhərə atıldı öz beşiyindən.
Dayədən istədi ox ilə kaman,
Kağızı, ipəyi hey aldı nişan.
Böyüdü, öyrəndi qılınc vurmağı,
Qızmış aslanlara qarşı durmağı.
At minmək zövqündən ləzzət alınca
Düşdü şəhriyarlıq, şahlıq dalınca.

## İSKƏNDƏRİN TƏLİM ALMASI

Ey saqi, reyhandan çəkilmiş mey ver,
Cənnəti yad etdim, dur, peyapey ver!
Abad olsun gəmim o badələrdən,
Cənnətə düşərəm qərq olsam da mən.
Nə qədər məsuddur şən həyat quran,
Tamah süfrəsindən az bir şey uman,
Malı olsa belə, kifayət qədər,
Yenə iş adamı çalışar, işlər.
Naz-nemət içində rahatlıq tapar,
Tələsməz, atını astadan çapar.
Nə həddindən artıq paylar malını,
Nə də xəsisliklə pozar halını.
Çətinlik çox xəsis olmaqdan doğar,
Qapını qırsanız həddsiz odun var.
Çox yaşa, ömürdən faydalan özün,
Çalış özgəyə də ziyan dəyməsin.
Tarixin yığılmış tumarlığından
Keçmişi belə nəql edir bir dehqan:
Elə ki, Feyləqus təzə gəlintək

Vurdu bu dünyanın mülkünə bəzək.
Ağıllı övladla ata fəxr edər,
Çünki mübarəkdir seçilmiş gövhər.
Dünyada ataya varmıdır, gerçək,
Ağıllı oğuldan başqa bir istək.
Oturtdu öyrənsin ədəblə hünər,
Günəş eylər daşı qiymətli gövhər.
Niqumaş alimdi, biliklə dolu,
Alimin oğluydu həkim Ərəstu.
Təlim işlərində çəkdi çox əmək,
Hikmətlər öyrətdi ona sevərək.
Şahanə tərbiyə, hünər, nəzakət
Ağıla nur verir, ürəyə qüvvət.
Hər əqlə sığışan hünər, bilikdən
Bir məna çıxarır mənanı bilən.
Ulduzlar bəzəyən kimi göyləri
Bəzədi pak olan yeni gövhəri.
Çatdırdı onu hər gizlin biliyə,
Hansı bir gənc almış belə tərbiyə?
Şahzadə illərlə çox çalışdı, çox,
Qulağı elm aldı, başqa heç nə yox.
Öz ağlı, zəkası olunca rəhbər,
Tapırdı ən incə, mənalı sözlər.
Hər incə mənanı edərkən bəyan,
Sözləri su kimi olurdu rəvan.
Həmdərsi Ərəstu, bir qardaş deyə,
Ürəkdən bağlıydı bu şahzadəyə.
Ərəstu aldıqca bilik atadan,
Ona öyrədirdi hər an, hər zaman.
Yaqindi bilikli həkim ustadə
Tacidar olacaq bir gün şahzadə.
Onun təliminə verdi çox diqqət,
Kişini şad edər qorunsa sərvət.
Bəxtini oxudu parlaq alnından,
Verdi oğluna da ondan bir ünvan[90].
Tale xidmətində duran zamanda,
Söz qaşı möhrünü vuran zamanda
Oğlunu tapşırdı gənc şahzadəyə,
And verdi, söz aldı: "Peyman ver, - deyir,
Məktəbdən meydana sən at sürərkən,
Şahanə başını göydə görərkən,
Başını əyərkən köhnə dünyanın,
Hər səmtə gedərkən hökmün, fərmanın,
Taxtını tacınla məsud edərsən,
Xərac göndərərlər yeddi kişvərdən.
Dünyaya şövkətlə verərsən fərman,
Padişah olarsan uzun bir zaman.
Bu dərsi, təlimi tut xatirində,
Qızıla, gümüşə çox olma bəndə!
O zaman oğlumdan götürmə nəzər,
Haqqıma, sözümə bir hörmət göstər.
Onunla et çətin işdə məşvərət,
Qılıncdan kəskindir gözəl məsləhət.
Səndə dövlət vardır, onda da hünər,
Hünərlə dövlət bir çəkiyə girər.
Hər yerdə hünərə verilmiş qiymət,
O yerdə gün-gündən ucalmış dövlət.
Hər yerdə şərəfli bir dövlət vardır,
Ucalar fikrindən ucalanlardır.
Ayda öz taxtını qurmaq istəyən,
Gərəkdir yüksəlsin bu pillələrdən".
Şahzadə söz verdi öz ustadına:
"Hər əmrin qəbuldur, - söylədi ona, -
Taxtımla, tacımla olsam padişah,
Ərəstu vəzirim olacaq, billah!
Sözündən, fikrindən dönməz İskəndər,
Onun hər əmrinə bağlaram kəmər."
Elə ki, taleyi oldu ona yar,
İskəndər sözündə qaldı bərqərar.
Ustadı bilirdi: bir gün bu uşaq
Dünya şahlarına fərman yazacaq.
Bir şəkil çəkdi o, həndəsi hərfdən,
Qalibi, məğlubu etdi müəyyən.
Dedi: "Al, bir qəza üz versə sana,
Hərfi say, həm düşmən, həm öz adına.
Adın dairədə qalsa müzəffər,
Əmin ol bəxtinə, sənindir zəfər.
Bu sayda üstünlük göstərsə düşman,
O qalib kişidən çəkin hər zaman."
İskəndər qocadan o şəkli aldı,
Bu faydalı işdən sevincə daldı.
Yazanda həndəsi hərfi İskəndər,
Hər zaman zəfərdən tutardı xəbər.
Əqliylə bəxtiyar yaşardı hər an,
Onun hər elmindən qaynardı qazan.
Tədbirli, bilici olmaqla yenə
Baş əydi bilici şəxsin fikrinə.
Alimlər sözünü tutaraq getdi,
Əqliylə özünü bəxtiyar etdi.
Ustadın oğlu da alim bir kəsdi,
Onunla həm yaşıd, həm də həmdərsdi.
Şahzadə daima ona mehriban,
O da şahzadədən ayrılmaz bir an.
Ərəstu razılıq verməzsə işə,
İskəndər bir quş da taxmazdı şişə.
O tədbir verməzdən tutmazdı bir iş,
Hər işdə alardı ondan göstəriş.
Bu çarxın pərgarı döndü çox zaman,
Dünya çox seyr etdi dağdan, səhradan.
Feyləqus dünyanı tərk etdi daha,
Taxtını tapşırdı gənc padişaha.
Gəl, qorx bu dünyanın fitnə, felindən,
Qurtar öz canını onun əlindən.
Ağacdır, dörd kökü, altı böyrü var,
Çoxunu boğmuşdur bu qorxulu dar[92].
Şiddətli küləklər qopduğu zaman
Düşər yarpağımız bir-bir ağacdan.
Bu bağda əbədi yaşamaz bir kəs,





Hər gələn burada çəkər bir nəfəs,
Yetişər bu bağda hər gün bir nobər,
Birisi gəlirkən o biri gedər.
Dünyadan gedərsən istər-istəməz,
Bu tədbir, bu təlaş bir şeyə dəyməz.
Bu dünya mülkündə yox belə bazar
Varını özilə alsın tamahkar.
Dünya salmış tora, çünki borclusan,
Borcunu tez ol ver, qurtul bu tordan.
Nalbəndlə palançı eşşəyə bir gün:
- Nal, palan pulunu ver,- dedi,- bütün,
Topal ayağından, yağır dalından
Nalını, palanı atdı o heyvan.
Eşşək öz borcundan olunca azad,
Olduqca dincəldi, qəlbi oldu şad.
Sən də, ey tozlara bulaşmış insan,
Borcunu ver, qurtul bu toz-torpaqdan.

## İSKƏNDƏRİN TAXTA ÇIXMASI

Ey saqi, dur məni qurtar mənlikdən,
İşıqlı badəndən işıqlanım mən.
Bir mey ki, dağıdar qəmi, kədəri,
Sağaldar mumyatək bu xəstələri.
Əlində tərəzi mahir söz ölçən
Saxta əşrəfini saldı rövnəqdən[93].
Saxta olduğunu artıq bilincə,
Elə bir sikkəni vermədim xərcə.
Hər hərfin üstünə barmaq bassam mən,
Tapılmaz üstündə qələm işlədən[94].
Elə ki, gücləndi arxam və adım,
Kimsənin hərfinə barmaq basmadım.
Yamanlıq görmədi məndən bir insan,
Mənim də düşmənim vardır hər zaman.
Tutduğum yol deyil, zəhər içməkdir,
Hünər aramaqdır, eybi örtməkdir.
Düzlükdə əvvəldən göstərdim hünər,
Qələmi düz atdım sonuna qədər.
Elə bir dabbaqlıq etdim bu gönə,
Mətanət göstərsin hər ağır günə[95].
O böyük tanrıdan budur diləyim:
Bir an da bu doğru yoldan dönməyim.
Sizə nəql etdiyim həmin rəvayət
Usta bir nəqqaşın işidir əlbət.
Elə ki, Rum şahı taxta oturdu,
Dünyaya mum kimi bir naxış vurdu,
Bütün ölkələrə ədli səs-saldı,
Rum taxtı onunla yeni rəng aldı.
Atadan gördüyü rəsmi, ayini
Seçərək saxladı bəyəndiyini.
Köhnə adətləri möhkəm saxladı,
Keçmiş qanunları bərk qucaqladı.
Daraya xəracı verirdi yenə,
Ölkədə hakimdi köhnə ən ənə.
Feyləqus əmrində olan hər diyar
Onun da əmrinə boyun qoydular.
Dostluqda atadan daha da mətin,
Düşmənin məhvində qılıncı kəskin.
İgidlər qorxardı: "Güclüdür", deyə,
Onunla girməzdi bir tərəziyə.
Onda ki, qolunun gücün yoxlardı,
Aslan qulağına düyün vurardı.
Əlində nə qədər süst olsa kaman,
Bir oxa bir nəfər edərdi qurban.
Maral, ceyran ovlar həddindən kənar,
Ovlaqda aslanı edərdi şikar.
Hər mərdə, igidə o üstün gəldi,
Bilici kəslərdən daha yüksəldi.
Xətti, gül üzünə xoş qələm vurdu,
Rəna bir müşkdən xoş cədvəl qurdu.
O müşkin cədvəli xəttinə fələk
Həbəş səvadından vurmuşdu bəzək.
Gördü ki, əlində acizdir cahan,
Cahangir olmağa oxudu meydan.
Ağılı, qüvvəti güldü baxtına,
Bunlarla oturdu şahlıq taxtına.
Hər işdə istərkən qazansın şöhrət,
Fələk də qoluna verərdi qüvvət.
O yaşıl sərv ilə Rumun torpağı
Reyhantək bəzədi, şənləndi bağı[96].
Hər evdə bir surət çəkildi ondan,
Hər ölkə adına düzdü bir dastan.
Gah açdı sirrini əncümənlərdə,
Gah ulduz sirrindən götürdü pərdə.
Gizlində bilənlər yoluyla getdi,
Zahirdə gənclərlə içib keyf etdi.
İnsanın fikrinə sığmayan qədər
Hamıya yaxşılıq etdi İskəndər.
Kimsənin qəlbini o incitməzdi,
Ədalət xəttindən uzaq getməzdi.
Bütün tacirlərdən o, bac almadı,
Ölkədə kimsədən xərac almadı.
Dehqan vergisinə çəkərək qələm,
Sərmayəsizlərdən almadı dirhəm.
Zər saçdı hər yeri abad edərək,
Qırdı tikanları, əkdi gül-çiçək.
Ələnə keçirdi bütün dünyanı,
Ətri tutdu Misri, Həbəşistanı.
İki açıq əli günəşə bənzər.
Biri qılınc vurar, biri tac verər.
İki gözlü gərək bütün çəkilər,
Birində daş olar, birində gövhər.
Hər işdə taleyə rəğbət göstərir,
Qızılla qızıldır, dəmirlə dəmir.
Ədli, səxavəti cahanı sardı,
Hər kəs Rum mülkünə həsəd apardı.
Ərəstu vəzirdi uca dərgaha,
Hər yaxşı-yamanda məhrəmdi şaha.

Tökdü İskəndərə hər işdə tədbir,
Az zaman keçmədən oldu cahangir.
Elə padşahla, belə vəzirlə
Bu dünya intizam almazmı belə?
Dünyanı fəth etdi bacarıq, hikmət,
Vəzirin rəyindən qazandı şövkət.
Məlikşah da, Mahmud da Nuşirəvan,
Dünya şahlarından bac-xərac alan,
Öz vəzirlərindən öyüd aldılar,
Onunla dünyaya zəfər çaldılar.
Bizim şahımız da düşmənə bu gün
Vəzirin rəyilə olmuşdur üstün.
Bizim ayağımız süst olsa hərgah,
Zərər yox, ancaq ki, süst olmasın şah.
Padşahın ayağı sürüşsə artıq,
Çıxar məmləkətdə bir qarışıqlıq.
Yaman göz şah ilə başlarsa oyun
Divlər fitnə ilə olar qolboyun.
Dünya bir məzlumdur, şah dada çatan,
Məzlum bir adilə möhtacdır hər an.
Dünyaya sultandır, işıqlı çıraq,
Yaman nəzərlərdən olsun o uzaq.

## ZƏNCİ QOŞUNUNUN GƏLMƏSİNDƏN İSKƏNDƏRİN XƏBƏRDAR OLMASI

Ey saqi, ver könül açan bir şərbət,
Dərdim var, getdikcə etmədə şiddət.
Olsun bu ürəyim o şərbətlə şad,
Məni dərd-qəmdən eyləsin azad.
Gəldi qurd ağzından sübhün nəfəsi,
Keşikçi itinin kəsildi səsi[97].
Xoruzlar çırpındı, çaldı qol-qanad,
Təbillər səsindən canlandı həyat.
O dadlı yuxudan oyandım yenə,
Sanldım cavahir düzmək fikrinə.
Cavahir istəyən qazar mədəni,
Gövhər ümidilə sökər bədəni.
Birləli zəhmətlə gətirər ələ,
Çarpışar daşların daş ürəyilə.
Nə sandın, ey asan eşidən insan,
Dinlənilməz zəngin kəlmələr asan.
Bağda çox olsaydı əncir yeyən quş,
Ağaclar əncirdən qalardı bomboş.
Bu ipək pərdəni nəqş edən insan
Belə nəql etmişdir öz ustadından:
Elə ki, fələyin çırağı səhər
Dünyanı nuriylə etdi münəvvər,
Günəş əlvan şəfəq saçdı hər yana,
Gəlintək oturdu qızıl taxtına.
İskəndər qədimki ayində durdu,
Eyvanda şövkətli bir məclis qurdu.
Qol-qola tutaraq gözəl qulamlar
Taxtının yanında tutdular qərar.

Gah Kəyan adına qaldırır qədəh,
Gah gövhər saçaraq edirdi fərəh.
Bir nur çeşməsiydi, oturmuşdu şən,
Aman səsi gəldi uzaq ellərdən.
Məclisdə padşaha etdilər məlum:
"Amana gəlmişdir bir yığın məzlum.
Kömək istəyirlər Rum sultanından,
Deyirlər: Misrə çox dar oldu cahan.
Zəncilər axınla gəlmiş bu səfər,
Dolaşmaq çətindir, tutmayır çöllər.
Ordularla dolmuş bu böyük cahan,
Çöllərdə hakimdir qorxu, həyəcan.
Hamısı çöllüdür, qətrandan qara,
Çöllərin otu da çatmaz onlara.
Uşaq təbiətli hər yaşlı kosa
Şən həyat keçirir çirkin də olsa.
Nə bir utancaq üzləri vardır,
Nə də sevgi saçan gözləri vardır.
Bunlar insan yeyər, ilantək sancar,
Misrin buna qarşı nə qüvvəti var?
Köməyə çatmazsa böyük tacidar,
Qarətə gedəcək o zəngin diyar.
Misir, Rum, Əfrəncə olar tarmar,
Mum kimi əriyər o odlu dağlar.
Bu haqsız axından pərakəndəyik,
Şah, fərman sizindir, bizlər bəndəyik."
O dinin pənahı, adil hökmdar
Bildi ki, Zəncidə hədsiz qoşun var.
O hədsiz ordudan qorxdu hökmüran,
Qorxusuz olurmu ağıllı insan?
İskəndər vəziri tez dəvət etdi,
Onunla ətraflı məsləhət etdi.
Ağıllı, bilikli, hünərli vəzir
Müzəffər olmağa tökdü bir tədbir:
"Qalx, - dedi, - bəxtini sına, zamandır,
Belə əjdahanı məhv etmək şandır.
Zəfərlər yaratsa ordunun əli,
Daha möhkəm olur şahlıq təməli.
Misir də, Zənci də olur sənə ram,
Mərdlikdə alarsan yenilməz bir nam.
Ölkədən silinsə azğın düşmənlər,
Xainlər kor olar, dostların gülər."
Rəhbərin əmriylə o gənc hökmüran
Bayrağı ucaltdı Makedoniyadan.
Topladı süngülü, qılınclı əsgər,
Qılınc şəfəq atdı buluda qədər.
Dənizdən quruya çıxınca ordu,
Tərpəndi, bir daha Misirdə durdu.
Misir xalqı ilə silahlı əskər
Bu işi uğurlu bir fal bildilər.
Padişah əmr etdi, Nil sahilindən
Keçərək, çöllərdə tutsunlar məskən.
Yedəkli at ilə axsın meydana,
Döyüşdə verməsin aman düşmana.





İgidlər düzüldü yola hər nə var,
Zəncinin kininə bel bağladılar.
O coşğun ordunu görüncə zənci,
Gözündə qaraldı dünya sevinci.
Ordular çıxınca qarşı-qarşıya,
Üzlərdən büsbütün silindi Həya.
O polad misrah atlar nalından
Kökündən titrədi o köhnə cahan.
Meydandan o qədər ucaldı nərə,
Sanki göy saraldı, töküldü yerə.
Coşdu toppuz, yağdı mancanaq daşı,
Əyildi öküzün, balığın başı[98].
İnsanlar bağırır, kişnəyir atlar,
Dünyanın gözü kor, qulaqları kar.
Bu səs-küy elə bir qiyamət açdı,
Vəhşilər qorxaraq çöllərdən qaçdı.
Döyüşə başlarkən hər iki əsgər,
Divləri sarsıtdı ucadan səslər.
Elə yerdə idi bu döyüş, inan,
Qubar gətirirdi adam yanğından.
Kükürdün tozutək qupquru çöllər
Cəhənnəm kimiydi, yanırdı ciyər.
Sərin su yox idi ağudan başqa,
Bir də günəşdəki yanğıdan başqa.
Baxırdı əjdaha kimi hər mağar,
O yerdə hər fitnə açmışdı bazar.
Orda ki, yaşayır qulyabanılar,
Yaşayıb, hər yerə soxulur onlar.
Ləli yer öküzü udduğu zaman
Pusqudan sıçradı qapqara aslan[99].
Gecənin zülməti dünyanı sardı,
Aslanın dişitək ulduz ağardı.
Gecənin göbəyi yayırdı ətir,
İşıqdan dünyaya açmışdı çətir.
Düşməni tanıyan növbətçi əskər
Yollara çıxaraq keşik çəkdilər.
Ulduzlar yer-yerdən doğmuşdu parlaq,
Xalq oldu zəhmətdən, kədərdən uzaq.
Qaranlıq çökünсə Rum və Zəngibar
Vuruşdan yorulub axşamladılar.

## İSKƏNDƏRİN ZƏNGİBAR ŞAHINA XƏBƏR GÖNDƏRMƏSİ

Ver, saqi, Rum üzlü, gülgün şərabdan,
Təbim zənci kimi şəndir bu zaman.
Mənimlə bu qorxu bilməyən pələng
Olmasın Rum, zənci kimi iki rəng[100].
Aldadan yol oldu bu uzaq yollar,
Yeddinci fələkdə ancaq işıq var[101].
Bu yolda mələk də azar yolunu
Çünki bir div gedər, qayıdar onu.
Bu çarsubazarda qapan işlədən
Bir arpa almasa çəkməz iki dən.

Çalışar, hər yandan oğurlar bir az,
Ondan da qaparlar işi olsa saz.
Dönə-dönə alar qoca dehqandan,
Divana göndərər o batman-batman.
Məndən uzaq olsun bu cürə dostlar,
El məni bu sözdə üzürlü tutar.
Əxlaqca yabançı bu dostları, bil,
İkiüzlülərdə arama bir dil.
Tülkünün deşiyi ikidir əlbət,
Birisi tamahdır, birisi şəhvət.
Bir əqrəb kimidir, olsa da huşyar,
Nə qulaq, nə də göz deşikləri var.
Bu gizlin əsran təsvir edənlər,
Dehqan tarixindən vermişdir xəbər.
Çin şahı atına qoyarkən yəhər
Zəncinin nalına od vurdu göylər[102].
Günəşi pusqudan fələk sıçratdı,
Ulduzlar üzüyü əlindən atdı[103].
Bu dünya ordular yıxan ərlərdən
Bir məclis bəzədi ulduz kimi şən.
Dəvəni zəngindən, fil güzgüsündən
Sədəf şəvə doğdu inci doğurkən[104].
Fil təpiklərindən yer öküzünün
Sümüyü qırılıb məhv oldu bütün.
Şah Kəyan rəsmini edərək yeni,
Doldurdu təbilinin səsi ölkəni.
Qurdu Rum rəsmiylə elə bir ordu,
Sanki möhrü muma bir naxış vurdu.
Bir rumlu var idi olduqca insan,
Natiqdi, bir neçə dildə danışan.
Alimdi hər fikri, sözü qurmaqda,
Mahirdi ox atıb, qılınc vurmaqda.
Söhbəti tutini kəməndə salmış,
Özü Tutiyanuş adını almış.
O qədər kəskindi sözü, hünəri,
Özünə çəkərdi dinləyənləri.
Sarayda nədimdi, həm də arabir
Ay, günəş sirrindən söhbətlər edir.
Yanına çağırdı onu İskəndər,
Elçilik edərək aparsın xəbər.
Əmr etdi, hərəkət etsin durmadan,
Zənci sərdarına yetirsin fərman.
Kəskin qılıncını anlatsın ona,
Qayıtsın bəlkə öz doğru yoluna.
Zəncicə anlatsın, göstərsin tədbir,
Ataşi gördükcə yumşalar dəmir.
Gül üzlü, o şümşad boylu hünərvər
Rumludan zənciyə apardı xəbər:
"Taxtı var, tacı var bəxtitək parlaq,
Qılıncın gücüylə ucaltmış sancaq.
Şövkətli, qüvvətli, həm də sərkəşdir,
Bəzən də acığı yanar atəşdir.
Maral buynuzuna göndən zeh çəkər,
Qarışqa başını dımağa tikər.

Onunla müdara eylə, ey salar,
Ağlayıb üzr istə, get ona yalvar.
İnan ki, bu ataş olsa şölavər,
Sönməz, üzərinə dəniz töksələr.
Dostluqla yaxınlaş, kinindən çəkil.
Onunla düşmənlik faydalı deyil.
Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyr almış, kinindən ziyan".
Bu fikri qaralar şahı eşitcək
Dəhşətdən qıvrıldı qara ilantək.
Kininin ataşi beynini yaxdı,
Şimşəkli buludtək gurladı, çaxdı.
Acıqlı əmr etdi: Tutiyanuşu
Kəssinlər, bədəndən ayrılsın huşu.
Div kimi qapdılar o pəhləvanı,
Necə ki, kəhrəba qapar samanı.
Qızıl teşt içində kəsildi başı,
Al qana bulaşdı şahın sirdaşı.
Qızıl teşt qan ilə dolduğu zaman
Zənci şah su kimi içdi o qandan.
Onunla gedənlər gözlərində yaş
İskəndər yanına qayıtdı birbaş.
Həsrətlə döndülər şahın yanına,
Bu qanlı xəbəri verdilər ona.
O gözəl rumlunun zənci şahından
Gördüyü dəhşəti etdilər bəyan.
İskəndər o şümşad rəngli sərv üçün
Atəşdə ox kimi yandı ki, neçin
Elə bir suçsuzun töküldü qanı?
And içdi məhv etsin azğın düşmanı.
Çatınca qoşuna bu dəhşətli iş,
Rumlular qorxaraq etdilər təşviş.
Bu işdən zəncinin dişi ağardı,
Rumlunun qəlbini bir qorxu sardı.
Gecənin dişləri örtülməlidir,
Ancaq ölən zaman o gülməlidir.
İskəndər susaraq üç gün, üç gecə,
Kinini söndürdü parlaq düşüncə.
Dağların üstünü alınca duman,
Quşlar bu ahəngə düzdü bir dastan.
Göylərin Harunu keşik çəkərək,
Belinə asmışdı saysız qızıl zəng[106].
Keşikçi zəng çalıb səsləndi birdən:
"Yaşasın tacidar, qəhr olsun düşmən!"
Dişarı çıxaraq kəşfiyyat qolu,
Növbətlə qarovul güdərdi yolu.
Ertəsi günü bu səbirsiz dövran
Göstərdi günəşi dağ arxasından.
Nay, təbil gurladı şah qapısından,
Zənglərin səsindən titrədi cahan.
Təbilçi sür ətlə qalın xam göndən
Gecənin ağzına vurdu bir yüyən.
Coşaraq inləyir neyin nəfəsi,
Nağara əl çalır, yüksəlir səsi[107].

Ordunun çəkisi elədikcə meyl,
Bu gözdən o gözə axıdırdı sel.
Süngülər kaftanı dələrək hər an
Çıxırdı göbəyin tam ortasından.
Qılınc, ox yağarkən şaraqhaşaraq
Parça-parça oldu geyim və qalpaq.
Qılıncın dəhşətlə çalhaçalından
Buludun qəlbində su olurdu qan.
Üz-üzə gəlincə hər iki ordu
Elə bil iki qoç üz-üzə durdu.
İgidlər döyüşdü uzun bir zaman,
Meydana sel kimi axıtdılar qan.
Rumları zəncilər əzdiyi zaman
Sanki bir maralı ovlardı aslan.
Rumlara zəncilər verdi tələfat,
Hər yeri bürüdü dəhşətli heyhat.
Zəncinin etdiyi Tutiyanuşa
Rumları salmışdı böyük təşvişə.
Kasaya doldurmuş günahsız qanı,
Su kimi başına çəkmiş kasanı.
Zəncilər oynayan qorxunc oyundan
Qorxaraq, rumlara daraldı meydan.
İskəndər bildi rum, zəncidən ürkmüş,
Əskərin qəlbinə bir qorxu çökmüş.
Meydanda əskərə üz versə qorxu,
Cəza bir iş verməz, dağılar ordu.
Çağırdı bilikli böyük vəziri,
Gizlincə anlatdı ona bu sirri:
"Müzəffər ordumuz olmuş pərişan,
Bir qılınc yemədən doymuş savaşdan.
Döyüşə qəhrəman bir ordu gərək,
Bir atlı od olsa, verməz bir kömək.
Elçinin qanını içərkən düşman
Əskərim məhv olur can qorxusundan.
Orduda apardın qorxu izi var,
Qorxaq kimsələrdən, söylə, nə çıxar?
Meydanda düşməndən qorxarsa ordu,
Su gətir, zəfərdən əllərini yu.
Zəncilər hər yanda meydan sulayır,
Qızmış fillər kimi hey baş bulayır.
Yaratmaq gərəkdir elə bir dastan,
Zəncinin ordusu məhv olsun ondan.
Ortaya elə bir sağlam fikir at,
Bizə bu qorxudan versin bir nicat".
Sınanmış, ağıllı, hünərli vəzir
Azacıq düşündü, tökdü bir tədbir:
"Sərvərim, kamalın olsun sənə yar,
Zəfər dostun olsun, düşmənlərin xar.
Üzünü çevirsən dağ-daşa belə,
Fələkdən səadət alasan ələ.
Dünyanın pənahı ulu yaradan
Pənahın olsun, ey böyük hökmüran.
Qaralar zəhərli ilandır, ilan,
Bir divdir, şeytandır, deyil bir insan.





Yeri var rumlular etsə qorxaqlıq,
Zəncilər nəhəngdir, rumlular balıq.
Qan içmək olduqca qorxulu bir iş,
İnsanı yeməksə ondan da müdhiş.
Onlardan bir həya gözləsən, inan,
Bizə söyləməzlər ağıllı insan.
Meydanı düşmənə versək bu sayaq,
Zəncilər göylərə sovurar torpaq.
Rumlardan qorxsaydı vəhşi zəncilər
Elçinin sözləri edərdi əsər.
Elçi nə edəydi o vəhşilərə,
Elçi yeyən desək yetər bir kərə.
Düşünmək gərəkdir elə bir fikir,
İnsanı yeməkçin olsun bir tədbir.
Yollardan bir neçə zənci tutaraq
Onları dərgahda eylədi dustaq.
Sən otur yerində acıq, təmkinlə,
Onları torpağa yıxsınlar kinlə.
Birinin başını dərhal üzsünlər,
"Yemək bişsin" deyə mətbəxə göndər.
Zəncilər dililə hökm et durmadan:
"Bu başı al, bişir, yesin hökmüran!"
Gizlində aşpaza başqa tövr anlat:
"Bu başı güm yerə, torpaqlara qat!"
Qara qoyun başın bişirsin bir az,
Sümüksüz hüzura gətirsin aşpaz.
Bişməmiş dərini hiddətlə, kinlə
Tez götür, parçala, çeynə dişinlə:
Çağır ki: "Beynini gətirin görək,
Olmazmış belə bir ləzzətli yemək.
Bilsəydim ki, zənci ətindən təam
Edərmiş vücudlu belə sapsağlam,
Rum əsirlərini bəsləməzdim mən,
Hər zaman yeyərdim zənci ətindən.
Bilsin o adamcıl, müdhiş canavar,
Ondan iti dişli insan yeyən var."
Bununla sönər o kin saçan ocaq,
Dəmiri dəmirlə olar yumşaltmaq.
Həyata keçirsək bu tədbiri biz,
O güclü qolları yenərik şəksiz.
Qurdluqda mümkündür qurtulmaq qurddan,
Cəhlə qarşı verər cəhalət ziyan."
İskəndər əmr etdi: rum əsgərləri
Gizlində dolaşsın düşmən yerləri.
Yollardan keçərkən məğrur zəncilər
Əsir götürsünlər bir neçə nəfər.
Əmrinə igidlər baş əydi bir-bir,
Zəncidən aldılar bir neçə əsir.
Döndülər şah olan xeyməyə sarı,
Təslim eylədilər o düşmənləri.
Əsirlər hüzura gəldiyi zaman
Üzləri qaraydı, başları al qan.
Padişah yerindən tez kükrəyərək
Şikar arxasınca düşən aslantək

Əmr etdi, birini dərhal qapdılar,
Başını dağ kimi vurub çapdılar.
Verdilər mətbəxə ki, al bu başı,
Padşaha hazırla bir zənci aşı.
Aşpaza başqa tövr anlatdı bunu,
Nə sayaq oynasın müdhiş oyunu.
O biri zəncilər qorxaraq durmuş,
Bu qanlı adətdən boynunu burmuş.
Padişah əmr etdi: açılsın süfrə,
Hər çeşid yeməkdən düzülsün yerə.
Qoyunun pörtülmüş ətindən aşpaz
Süfrəyə düzdükcə keyfi oldu saz.
Ceyran dərisini yırtantək aslan
Dişiylə didərək başı hökmüran,
Başını oynadıb ləzzətlə yedi,
"Ox, belə bir yemək yemədim - dedi.
Nə qədər dadlıymış zəncinin əti,
Verməz başqa ətlər böylə ləzzəti.
Zəncinin ətindən kabab yaxşıdır,
Yanında qırmızı şərab yaxşıdır.
Tək zənci budundan yeyərəm kabab,
Dadlıdır, duzludur, xoş gəlir şərab".
Zəncilər önündə qoyun başından
Zənci başı deyib yedi hökmüran.
Müdhiş əjdahanı görüncə belə
O qara ilanlar dağıldı çölə.
Ordunun içinə döndü zəncilər,
O qara günlərdən verdilər xəbər:
- Əjdaha yeyənmiş bu insanxəyal.
Nəhəngdir, bizlərə verdi çox zaval.
Elə bir ləzzətlə yeyir zəncini,
Sanki zənci yeyir badam içini.
Bir zənci başını keçirsə ələ,
Qoyunun başıtək yeyir ləzzətlə.
Zəncinin qəlbinə çökmüşdü qorxu,
"Biz ipək sanırdıq, cod palazmış bu!.."[108]
Alovlu şölələr get-gedə söndü,
Qızğın ataşlara soyuq göründü.
Ertəsi günü quş qanad açınca,
Fələyin başından duman uçunca,
Gecəyə bağırdı xoruz hiddətlə,
Təbillər gurladı, coşdu şiddətlə.
Şeypurlar kin ilə gurlar, elə bil
Məhşərdir, surunu çalır İsrafil.
O öküzquyruğu şeypurlar ötdü,
Göydəki Öküzün partladı ödü.
Coşdu qurd gönündən olan nağara,
Dünyanın beynini gətirdi zara.
İgidlər köksündə çırpınan ürək
Dərindən inlədi türkün nayıtək.
Yer dimağındakı odlu zərbələr
Çırağın beynində şöləyə bənzər.
"Çəkil, çəkil" deyə o polad oxlar
Fillərin belində tuturdu qərar.

Hər polad qılıncdan parladı şimşək
Buludlu gecədə axan ulduztək.
Qalxaraq yerindən hər iki ordu
Başqa bir təhrdə yenə səf qurdu.
Sanki iki bulud baş-başa qoşdu,
İki od dənizi köpürdü, coşdu.
Rumlarla zəncilər hərbə girərək
Qarışdı iki rəng alan qabantək.
Quş kimi atların polad nalından
Yer oldu igidlər qanıyla əlvan.
Qol qıran oxların vıyıltısından
Kimsədə nə bədən qalmışdı, nə can.
Qılınc güzgüsündən şəfəqlər axdı,
Bu şəfəq günəşdən daha parlaqdı.
Rumlular elə bir bayraq ucaltdı,
Yerə ox, göylərə kəməndlər atdı.
Cəbhənin qəlbində durmuş İskəndər,
Sağ-solu bəzəkli bir alay əsgər.
Qarşıda zəncilər kin ilə durdu,
Çıxardı Bisütun kimi bir ordu.
Qocaman fillərin ağır səfləri
Elə bil uzanır bir dağ kəməri.
Əqiq kimi gözlər, süngü kirpiklər.
Dəmirdi xortumdan quyruğa qədər.
Hər filin belinə taxt qoyulmuş ac,
Üstündə bir zənci, başında bir tac[109].
Meydanda bir nərə vuranda filə
Ataşi canına salır vəlvələ.
O qədər fil gəldi, dolaraq meydan
Hər tərəf qaraldı fil ayağından.
Fillərin yanınca gedən piyada
Hər yerdə yüz fili salırdı bəndə[110].
Meydanın ayini bitincə, artıq
Ürəkdən silindi sevgi, insanlıq.
Zəracə adlı bir qara pəhləvan
Ortaya atıldı, oxudu meydan.
Fil kimi kükrədi toppuz əlində,
Bir tutar qoymadı fillər belində.
Bir qara ilandı qurddan füsunkar,
Qabarıq, şişkin bir böyük başı var.
Geniş ağzı sanki qara bir qazan,
Baxanın ağarır gözü qorxudan.
Dəmir cövhərindən küpdür bu qaya,
İçinə tökülmüş qapqara boya.
Sinəsi bir polad qalxandan qurma,
O div gövdəsini hələ heç sorma.
Gördünmü başında qotaz bir bayraq?
Bu zənci bayrağın eyniydi ancaq.
Mahcası bənzərsə çevrilmiş tasa,
Gözləriydi içi qan dolu kasa.
Zənci çox öyündü: "Mən bir sərkəşəm,
Tüstünün altında yanan ataşəm.
Polad çeynəyən fil, Zəracə mənəm,
Fillərin belində şərab içənəm.
Qədəhi vurunca sərxoş olaraq
Filləri zərbəmlə edərəm çolaq.
Meydanda əl atsam kəskin qılınca
Dağları edərəm mən parça-parça.
Qarşıma çıxarsa qızmış bir aslan,
Şimşəkli buludam, qoparram tufan.
Coşarsam, atından salaram Nili,
Bu rüxüm piyada buraxar fili[111].
Silahım göyərmiş aslan canından,
Mənim öz vücudum silahdır, inan.
Ürəyim almazdır, vücudum dəmir,
Bu almaz, bu dəmir mənimçün nədir?
Başımı qürurla qaldırsam əgər,
Etmərəm ataşdan, dənizdən həzər.
Yırtaram böyrünü hər pəhləvanın,
Bağrını çeynədim kinli düşmanın.
Qan tökmək peşəmdir, əjdər bədənəm.
Tək qatil deyiləm, adamyeyənəm.
Dünyada kimsədən utanmaram mən,
Utanmaq nə gərək hərbə girərkən?
İgidi hünərdən qoyar utanmaq,
Eşşəyi ram edən palandır ancaq.
Hər zənci mən kimi güldüyü zaman
Gülər almaz dişli qara bir aslan".
Rəcəzi bitincə tərpəndi duman,
Xəznədə qıvrıldı sanki bir ilan[112].
Rumlardan bir igid girişdi işə,
Özünü birinci atdı ataşə.
Ürəyi çırpındı od söndürməyə,
Döndü ataş görən bir pərvanəyə.
O sınaqlı zənci bir hərbə ilə
Başını qopardı zərbə ilə.
Başqa bir pəhləvan çıxdı savaşa,
Bu dövran onu da vurdu bir daşa.
Beləcə rumlardan yetmiş pəhləvan
Zəracə əlində keçdi qılıncdan.
Kimsədə qalmadı cəsarət, hünər,
O qızmış zənciyə olsun bərabər,
Yerindən oynayıb dərdə düşdü Rum,
Sanki qızğın kürə əridirdi mum.
Ordunu əzincə qara pəhləvan
Rumlardan olmadı qarşıya çıxan.
O fələk şövkətli, igidlər yenən
Mərkəzdən ox kimi atıldı birdən.
Döyüşçün vücudu yarağa batdı,
Zənci öldürməyə süngü oynatdı.
Belində gövhərlə bəzənmiş kəmər,
Başında polad bir qalxan - cilvəgər.
Əynində zirehi mavi, qıvrıq,
Düyümü zəncinin saçından artıq.
Yəməni qılınca içirmiş zəhər,
Boynundan sallanmış belinə qədər.
Kəməndi tamğacı qaşına bənzər,
Çaçların qurduğu yay kimi çənbər[113].





İpək bir çul salmış kəhər atına,
O, fil gövdəsiylə çapdı meydana.
Cilovu sürətlə atdı yəhərə,
Hücuma keçirkən çəkdi bir nərə.
Necə bir kəkliyə şığıyar tərlan,
Dünyaya al günəş doğar ucadan,
Elə bir sürətlə sərkəş, filbədən
Düşmənin üstünə atıldı birdən
Bağırdı: "Ey qara qarğa, ol sayıq,
Qarşında şahindir, sakit ol artıq.
Noxtanı çəkməsən yoldan kənara,
Dünyanı edərəm üzündən qara.
Üz-gözün onunçün qaradır, inan,
Qarşımda qaçarsan kəskin qılıncdan.
Gəl, getmə, qızardım qara üzünü,
Saçından qıvırcıq edim özünü.
Güzgütək parlayan qılınc pas tutur,
Güzgüyəm, məndən hər zənci yas tutur.
"Ağlıq" ağlıq alır xəstə gözlərdən,
Qılıncın qızartı alar üzlərdən.
"Mən divəm - deyirdin, - xörəyim adam", -
Məni ye ki, divdən lətif adamam.
Qılınc oynatmağı sizdə yox bilən,
İndi gəl, qüvvətli qolumdan öyrən!
Yerindən tərpənmə, çox gəlmə yaxın,
Yoxsa ki, başını öpər ayağın.
Mən ərəb huşlu bir Rum sərvəriyəm,
Zənci öldürən bir sübhün nuriyəm[114].
Fil kəskin qolumdan bir qılınc yesə,
Filban Nil küpünə atar əlbəsə[115].
Daşlar oxlarımdan halqa geyəndə
Qulağına halqa taxarsan sən də".
Sözləri bitincə qalxdı yəhərə,
Cilovu buraxdı, çəkdi bir nərə.
Sərxoş aslan kimi elədi həmlə,
Aslanca bir toppuz almışdı ələ.
Toppuzu vurdu şah elə qüvvətlə,
Elburus dağına düşdü zəlzələ.
Poladın açdığı dərin yaradan
Qalmadı abinus ağacında can[116].
Qol, boyun, ayaq və köks, gövdə, baş
Girdi bir-birinə, oldu xurdü xaş.
Zəracə həyatdan olunca rahət,
Meydana atıldı başqa bir heybət.
Xurma ağacından uca pəhləvan,
Elə bir ağacdan qorxardı bağban.
Hücuma keçincə o kinli qara,
Padşaha buraxdı odlu bir yara.
Zirehə təsiri olmadı, zənci
Buludtək bağırdı, uçdu sevinci.
O qara buluda qızdı hökmüran,
Çəkdi ağ nəhəngi qara qınından[117].
Hücum eləyəntək aslan ceyrana
Bir zərbə endirdi o pəhləvana.
Xurma ağacının uçdu kəlləsi,
Ağacdan düşdü bir zənci gövdəsi.
Çıxdı bir başqası "Aslanam" deyə,
Özünü o zənci durdu öymaya:
"Bir qara buludam, zənci dağından,
Qılıncım yağdırır əjdaha, aslan.
Bu ağır dağların çəkisi mənəm,
Qapqara zənciyəm, bir filbədənəm.
Başından biçərəm qocaman fili,
İçimə çəkərəm o daşqın Nili.
Zəhərli dəmirim kimi dişləsə
Qaradan biçərəm ona əlbəsə.
İskəndər gördü bu hədyan danışan
Nafini müşk ilə yoğurdu qandan.
Qılıncı qaldırdı uca boyuna,
Başından bir zərbə endirdi ona.
Ondan da müdhiş bir qara hiddətlə
Atıldı qarşıya çox cəsarətlə.
Padşahın qılıncı çıxdı birinci.
Toz, torpaq içində fırlandı zənci.
Meydana atıldı başqa bir qara,
Onun da gözünü yumdu bir yara.
Qorxaq zəncilərdən heç bircə nəfər
Döyüşə çıxmadı axşama qədər.
Şan, zəfər olunca şahın yoldaşı
Döndü ordugaha, ucaldı başı.
Günəşin gül rəngli donu dönərkən
Mavi bir rəng aldı Nilin küpündən.
Alaca göylərə keşik çəkənlər
Alamtıl gecəyə aydınlıq ələr.
Keşikçi adəti üzrə ayıqdı,
Ulduzu sayandan daha sayıqdı.
Zənci qarovulu, Rum qarovulu
Keşikdə dayanıb güdərdi yolu.
Günəş, dan sökərkən gülümsəyərək
Neylufər günbədə vurunca bəzək,
Zəmişan xeymədən çıxdı İskəndər,
Hərb üçün meydana çıxardı əskər.
Bir məhmiz vurdu o sərkəş tərlana,
O, suyu od kimi sürdü meydana.
Mərkəzi aldı öz əlinə, sonra
Cinahı tapşırdı pəhləvanlara.
Sağ-sola dəm dəmirdən çəkdi bir hasar,
Möhkəm bir təməldə düzüldü dağlar.
Zəncilər, həbəşlər hey ordu-ordu
Əlində qılınc, ox meydanda durdu.
Cəbhənin qəlbində durmuş zəncilər,
Sağında həbəşlər, solunda bərbər.
Boru gurlayınca şah qapısından,
Zəncilər zəng çaldı, qızışdı meydan.
Qaramtıl bir bulud gurlayıb çıxdı,
Qılıncın şimşəyə göylərə axdı.
Ordular qopardı elə bir nərə
Dəhşətli bir qorxu çökdü divlərə.

Toz, torpaq boğurdu saf boğazları,
Qorxudan bənizlər oldu sapsarı.
Qılıncdan, toppuzdan, süngüdən, oxdan
Sülh aradan çıxıb getmişdi çoxdan.
Polad qalxanların toqquşmasından
Göylərə çökmüşdü qorxu, həyəcan.
Torpağın beynini yerdən oynatdı,
Yer dağın məğzini başından atdı.
Nağara gurlayır ildırım kimi,
Qalalar uçulur sıldırım kimi.
Uzağa səs salır naylar, elə bil
Məhşərdir, çalınır suri-İsrafil.
Yer zindan olunca gürzə, əmuda,
Köhüldən toz kimi uçdu buluda.
O polad dimdikli uçan oxlardan
Daşların bağrına düyümlədi qan.
Kirpikdən ox atır əyriqaş kaman,
Zireh məməsindən süd sağır hər an.
Kəməndlər qıvrılır düyümlənərək,
Sarılır boyuna qara ilantək.
Hindli bir oyunçu kimi qılınclar
Havada oynayıb mayallaq vurar.
Süngülərdən çıxan o mövzun səsə
Atlar da uyaraq gəlmişdi rəqsə.
Arı nəştəritək dəmir oxlardan
Daşların üzündən axırdı al qan.
Yerlər xəstələndi yaralılardan,
Yorğun ahlar saçdı göylərə duman.
Laciverd rəngində olan bir dağtək
Şah verdi cəbhənin qəlbinə bəzək.
O qılınc oynadan sərt qulaq zəngi
Bağırdı, elə bil zəncinin zəngi.
Kin dodaqlarında köpüklənərək
Ağzını açmışdı bağa tasıtək.
Canlanan mərkəzlər qalxdı ayağa,
Durdular meydanda at oynatmağa.
Hünər göstərməyə coşarkən mənlik
Baş verdi zirəklik, dəlilik, şənlik.
Rumları yarışda yendi zəncilər,
Bunlar çox müdhişdi, onlar çox dilbər.
İskəndər danıldı bu qorxunc işə,
"İncələr yaramaz qızğın döyüşə".
Düşündü: "Mən özüm olaram aslan,
Ayırram özümü bu qorxaqlardan.
İndi ki, qorxmuşdur qoşunun qəlbi,
Mən özüm aparam gərək bu hərbi".
Dan yeri ağardı, şəfəq söküncə
Sürətlə çəkildi qaranlıq gecə.
Şahın zərbəsiylə bir neçə qara
İt kimi gəbərdi alınca yara.
Şahın hünərini belə görənlər
Kəskin qılıncından etdilər həzər.
Meydanda özünü şah yalqız gördü,
Atını düşmənin qəlbinə sürdü.

Bu dünya Pələngər şaha oldu təng,
Düşündü: "Dənizdən çıxmış bu nəhəng".
Öz adamlarına dedi: "Bu şikar
Toruma düşərsə, qurtuluşmu var?"
Şahanə bir silah tərtib elədi,
Qılıncla qalxanı tərkib elədi.
Kərgədan gönündən geyindi köynək,
Qızıldan vurulmuş ona çox bəzək.
Güzgü, ya xam gümüş kimi parladı,
Başında poladdan dəbilqə vardı.
Qılıncı maralın gözütək parlar,
Qarınca qanadı kimi cövhərdar.
Atıldı, cür ətlə girdi meydana,
Ürəklə kim hücum edər aslana?
Bağırdı: "Ey şikar arayan aslan,
Özünə güvənmə, oxuma meydan.
Getmə, gəl vuruşaq, görək kim kimi
Meydanda basacaq bir aslan kimi?
Görərsən kimdədir ucalıq, zəfər,
Kimə yar olacaq səadət, hünər?.."
Zəncinin sözündən coşdu İskəndər,
Qan vurdu başına; qovruldu ciyər.
Qarşıda kin ilə coşarkən düşman
Rəqibin qəlbində cuşə gəldi qan.
İskəndər bağırdı: "Güvənmə boş-boş,
İgidlər önündə öyünmə, sərxoş!
Söz açma mənə bu qəhrəmanlıqdan,
Kölgəsindən qorxan, ey sərsəm, nadan!
Qorx aslan yenəndən aslansan əgər,
İgidlər yenənə göstərmə hünər.
Tərpədə bilməsən ağır gövdəni,
Məhvinə çalışmaq məhv edər səni!
Aslanın böyrünə əl çəkmək üçün
Üstün olmalıdır aslana gücün.
Şahinlik göstərən, ey zəif sərçə,
Özünü məhv üçün işlətmə pəncə!
Xoşdur, gəl dolaşaq, məhəkdir meydan,
Kimdədir üstünlük, edək imtahan!
İgidlər yenənə bu tənə əbəs,
Yenilər hər zaman tənə vuran kəs."
Padşahın sözündən o kükrəyərək
Yerindən tərpəndi qara tüstütək.
Şahın üzərinə qılıncı çəkdi,
Buluda ildırım nə edəcəkdi?
Padşahın tükləri qılınca döndü,
O çirkin simadan qəlbi döyündü.
Acıqla bir qılınc vurdu İskəndər,
O polad qalxana etmədi əsər.
Çox süngü oynatdı şah ilə qara,
Süngüdən heç biri almadı yara.
Qaranlıq çöküncə, çəkilincə gün
Döyüşdə heç biri olmadı üstün.
Zənci bu döyüşdən danıldı ona,
Dedi: "Gün çəkildi dağın ardına,





Davanı tərk edək, gecədir daha,
Bu qanlı vədəmiz qalsın sabaha.
Elə ki, ağarar qaranlıq gecə,
Dan atıb günəşli səhər gəlincə,
Oxuyum sənə mən elə bir meydan,
İlan yuvasını satın alasan.
Bu şərtlə: ordunu çəkərkən səhər
Qarşımda ol səhər kimi cilvəgər."
Bu sözlər bitincə döndü cəbhədən,
Şah dedi: "Razıyam bu şərtlərə mən."
Razılıq verincə qısa möhlətə,
Meydandan döndülər istirahətə.

### İSKƏNDƏRİN ZƏNGİBAR ŞAHINI MƏĞLUB ETMƏSİ

Elə ki, dan atdı, o parlaq günəş
Dənizin suyundan qaldırdı atəş.
Meydanda rum, zənci təbil döyərək,
Ağ, qara qarışdı şətrənc zəritək.
Qırqovul rumlular, qarğa zəncilər
Tərlanın iki rəng köksünə bənzər.
Zəncilər gecəydi, rumlular çıraq,
Rumlular qarğanın gözüydü ancaq[118].
Bir qara buluda büründü cahan,
Gözündən axıtdı dənizlərə qan.
Başlardan aşan bir daşqın sel oldu,
Biri susuz qaldı, biri boğuldu.
İskəndər meydanda bir at oynatdı,
Ox kimi düşmənin gözünə batdı.
Qızışdı cəbhədə döyüş bazarı,
Qalxdı asimana yerin tozları.
Geydi xam ipəkdən dar gözlü kaftan,
Özünü qorudu oxdan, qılıncdan.
Ən parlaq bir zireh geyindi göz-göz,
Çeşmətək qamaşır ona baxan göz.
Bir süngü götürdü düz otuz qulac,
Varlığı ciyərin qanına möhtac.
Boynundan həmayıl bir qılınc taxdı,
Şəfəqi günəşdən daha parlaqdı.
Başında dəbilqə Çin poladından,
Gövhərlər ondakı gövhərə heyran.
Belinə asdı bir zəhərli kəsər,
İlantək sancaraq tökərdi zəhər.
Bir ata oturdu, nə at, bir dağtək,
Görüşü sevimli, yerişi qəşəng.
Atını çaparaq hərbə yüyürdü,
Düşmən söz verdiyi yerə at sürdü.
Qarşıya çıxmadı miskin pələnglər,
Fikir dənizinə salmışdı lənğər.
Hiyləylə göndərdi başqa iyrənci,
Şah gövhərlərini qapsın o zənci.
Şah böldü xəncərlə onu tən yarı,
Zəncinin qırıldı həyat damarı.

Dağ kimi bir qara div oynatdı at,
Baxanın gözündən çəkildi həyat.
Bu div də o zənci yeyəndən yedi,
Çoxunun başını torpaq çeynədi.
Müdhiş bir qara div ona yönəldi,
Qıvrılmış ilantək cünbüşə gəldi.
O divə Rum şahı vurdu bir xəncər,
Tüstüsü ucaldı göylərə qədər.
Atıldı ondan da müdhiş həbəşi,
Qan içən aslandan o daha vəhşi.
Ona da içirdi ölüm suyunu,
Zəmanə oynadı keçmiş oyunu.
O qızmış aslandan hamı qorxaraq
Heç biri meydana basmadı ayaq.
Rum şahı at sürdü, kinlə bağırdı,
O qaçan düşməni hərbə çağırdı.
Pələngər görüncə bu cəsarəti
Bir yara almadan söndü qüvvəti.
Atını oynatdı istər-istəməz,
Meydana atıldı dinməz-söyləməz.
At sürdü o igid şahlığa doğru,
Bəxt onu çəkirdi xarlığa doğru.
Çox qılınc endirdi girincə hərbə,
Qeysərə bir əsər etmədi zərbə.
Aslan qüvvətiylə coşdu hökmüran,
Sanki bir ceyrana sarıldı aslan.
Dünyanın pənahı tanrını andı,
Şanlı bir zəfərə artıq inandı.
Dəhşətlə hücuma keçdi şəhriyar,
Mərkəzi nöqtədə sıxıldı pərgar.
Atəşli kin ilə hey vurdu ata,
Güldü şimşək kimi qara buluda.
On düyüm mızrağı elə bərk çaxdı,
Qan onun döşündən su kimi axdı.
Düşmənin gəmisi dağıldı yeksər,
Pələngər məhv oldu, qaldı tək ləbər.
Atından əmr etdi igid hökmüran:
Əskərlər hücuma keçsin durmadan.
Ordu hər tərəfdən bürüdü düzü,
Qatdı bir-birinə gecə-gündüzü.
Oxların inləyən qorxunc səsindən
İpəkli geyimlər kəsildi kəfən.
Qılıncın, qalxanın şaqqıltısından
Aya baş vururdu buxarla duman.
Qızdıqca günəşdən qalxırdı şölə,
Təndirtək yaxırdı öz atəşilə.
Döyüş dəhşətindən sərsəmdi başlar,
İşıqdan dünya da qaçırdı naçar.
Baxdıqca zəncidir düşmüş yollara,
Olmuş göy yanında yer üzü qara.
Əqiqlər şəvədən qalamış ocaq,
Zəncilər od tutub, kül qalmış ancaq[119].
Şəvə yüngül oldu, ağırdı gövhər,
Gövhərə sərraf da çox qiymət verər.





Yasəmən bidmişkə etmişdi təsir,
Qarğalar ağ şahin əlində əsir[120].
Heyrət baxışlara, ürəyə axmış,
Əqlin mərkəzini bombaş buraxmış.
Çovuşlar verdikcə ürək arxadan
Ceyranlar qorxmadan ovladı aslan.
Yer-göy titrəyirdi hay-küy səsindən.
Göylər də "ho" deyə səslər fələkdən.
Getdikcə coşurdu hər iki yağı,
Yazıldı birinə ölüm yarpağı.
Biləyi güclüyə zəfər oldu yar,
Zənclər məcburən məğlub oldular.
Hər yana at çapdı müzəffər əskər,
Zənci öldürməyə bağladı kəmər.
Qılınc oynatdıqca böyük şəhriyar
Zəncinin bazarı oldu tarimar.
Zənclər çalınca təslim borusu
Şənliyə başladı zəfər ordusu.
Göylərə ucaldı şahın bayrağı,
Yollardan büsbütün çəkildi yağı.
Mərhəmət buludu qopardı tufan,
Zəncinin pasını sildi qılıncdan.
Bayrağın altında durmuş hökmdar
Əynində bənövşə rəngində paltar,
Boynunda bir noxta, ayaqda zəncir,
Hər aslan çəkirdi bir nəhəng əsir.
Bayrağın altına yığdılar nə var,
İskəndər əmr etdi kəsilsin başlar.
Bir zənci qalmadı, boşaldı çöl, dağ,
Qalanlar quzğunlar yemiydi ancaq.
Barama qurdutək divbədən fillər
Qarınca ayağı altında inlər.
İnsanın yükünü çəkən hər hammal
Ya çıraq daşıyır, yaxud ipək mal[121].
Zillətə düşüncə amansız düşman,
Həbəşlər padşahdan dilədi aman.
Həbəşə nisbəti olanlar o gün
Padşahın əmriylə qurtuldu bütün.
Zəhərli qılıncdan tapdılar aman,
Şah bağışlayaraq vermədi ziyan,
Əmr etdi həbəşə vuruldu damğa,
O gündən həbəşlər quldur bu dağa.
O qızğın damğadan nurlandı həbəş,
Dağ ilə çırağı parladar ataş.
Padşaha o qədər verdilər qarət,
Hüzura sığmadı böyük qənimət.
Şah gördü verilən qarət hədsizdir,
Səhraya gövhərdən axan dənizdir.
Gövhərli cam, qızıl, toppuz bir yana,
Xalvarla müşk, ənbər axır meydana.
Saf mədən qızıldan, incidən nə var
Dolmuşdu meşindən iri çuvallar.
Sığmayır o gümüş, kafur çöllərə,
O kafur gümüşdən doldu dağ, dərə.

Yüklənmiş fillərdi - qaya gövdəli,
Cins ərəb atları - tovuz cilvəli,
Bərbərdən, nobidən gözəl əsirlər
Önündə Müştəri və Ay diz çökər.
Daş-qaşla işlənmiş qumaşlar, çullar,
Zürafə gönündən hədsiz xalı var.
Səhrada doluydu hər cürə sərvət,
Xəznəyə gövhərdən vurmuşdu zinət.
Şah şanlı zəfərlə dolğun qarətdən
Şənlənib qurtuldu qəmdən, zillətdən.
Bir dünya cəmdəyə ibrətlə baxdı,
Güldüsə, qəlbindən gizlin qan axdı
Ki, neçin döyüşdə bu qədər insan
Məhv oldu zəhərli oxdan, qılıncdan?
Yanlışdır hər suçu bunlarda görmək,
Özümdə görmək də xətadır, gerçək.
Fələyin işi baş vurmaqdır ancaq,
Qəzadan olurmu boyun qaçırmaq?
Laciverd örtülü günəş kimi sən
Başını qaçırma laciverd göydən.
Göy üzü geyərkən laciverd paltar,
Hər kəsə laciverd paltar hazırlar[122].
Bu pozuq pərdədə oxuma nəğmə,
Bu duzlu torpaqdan arama çeşmə.
Kim bilir, yığıntı, bu torpaq belə
Yoğrulmuş nə qədər ürək qanilə?
Görən göz yoxdur, yox, hər yan bir məzar,
Ya maral, ya ceyran gönüdür onlar.

## İSKƏNDƏRİN MİSİRDƏN RUMA QAYITMASI

Dur, saqi, şərab ver ki, sərxoş olum!
Noğul ver, şərabla bir az xoş olum!
Elə bir şərab ver, könlümü açsın,
Girsəm cəhənnəmə od məndən qaçsın.
O meyvəli ağac olsun baxtiyar,
Sərin kölgəsində dincəlmək olar.
Həm cana rahatlıq verər kölgəsi,
Həm bəzər süfrəni dadlı meyvəsi.
Dolğun bar vermişkən elə bir nihal
Daim qalsın cavan, tapmasın zaval.
Bar verən belə bir ağacı gerçək
Rəvamı baltanın ağzına vermək?
Qış getdi, yenə də ilk bahar gəldi,
Çaylar sahilindən otlar yüksəldi.
Yenidən yamyaşıl geydi hər budaq,
Bənövşə hər müşkə ənbər qataraq,
Nərgiz də yığmaqçın haman ətirdən
Kafurtək başını qaldırdı yerdən.
Xəzinə qapısın açaraq mən də
Bir bayraq ucaltdım yaşıl çəməndə.
Yaşıllıq hatifi o gizli dilbər,
Şairlər ona şer ilhamı deyər.

Sehirli səs ilə bağırdı: Oyan!
Yaz xəzinə saçan xatirətindən!
Nə yerdə zəncini əzmiş İskəndər,
Nə yerdə atına qoymuşdur yəhər?
Bu köhnə dastanı nəql edən dehqan
Keçmişi bu sayaq etmişdir bəyan:
Şaha yar olunca o böyük zəfər,
Güldü nar gülütək, açıldı güllər.
Xəzinə ağzını açdı hökmüdar,
Payladı, varlandı bütün qoşunlar.
Vuruşma yerində bir həftə qaldı,
Şərabdan çöhrələr qızıl rəng aldı.
Külək fərraş kimi, yağış səqqatək
Yolları süpürüb suvardı qəşəng.
Yollardan silindi bütün toz-torpaq,
Yol tozsuz olanda bəzənir ancaq.
Toz-torpaq yollarda yatınca yenə,
İskəndər atıldı yəhər üstünə.
"Yol verin!" deyərək coşdu təbillər,
Bayraqlar ucaldı Pərvinə qədər.
Əfrəncə dənizi, Nil sahilləri
Köç təbli səsindən oldu sərsəri.
Coşduqca dəvələr zənginin səsi
Doldu boş səslərlə beyin kürəsi.
Yollarda qumrullar səs-küy salaraq,
Cıngıraq səsindən tutuldu qulaq.
Çöllərdə axırdı o qədər əskər,
Yox idi sayını bilən bir nəfər.
Kəkliktək oynayan atı İskəndər
Minərək, dalınca tərpəndi əskər.
Bir qədər yol getdi, ordu, şəhriyar,
Ovadan geniş bir çölə çıxdılar.
Al-sarı bayraqlar vardı o qədər,
Diş-diş şəklə düşdü laciverd göylər.
Çöllərdən dağ kimi keçir qənimət,
Yüklənmiş dəvələr çəkirdi zəhmət.
Qədərsiz cavahir yüklənmiş filə,
Yüz yerdən körpülər salınmış Nilə.
Güldü hökmüranın üzü, göz-qaşı,
Fərəhdən göylərə ucaldı başı.
Xalqa hörmət etdi girərkən Misrə,
Şəhrə nizam verdi adəti üzrə.
Dəniz sahilində endi oradan,
O yerdə şövkətlə qaldı bir zaman.
Bayrağı nə yerə sancdı tacidar,
O yerdə abadlıq oldu bərqərar.
Sərvətlə, fərmanla uzun bir müddət
Saldı Rum rəsmilə bir çox imarət.
Qumlara qum kimi sərvət səpərək
Abadlıq yolunda çəkdi bir əmək.
Dəniz sahilində böyük İskəndər
Təzə bahar kimi qurdu bir şəhər.
Bir cənnət kimiydi - işıqlı, abad,
Hər yerdə bazarı, bağçası gülşad.

Şəhəri İskəndər tikibdir deyə
Adını qoydular "İskəndəriyyə".
Şah bina etdiyi bu gözəl şəhər
Bağdada bərabər, Misrə bərabər.
Yunana dönməyə artıq əzm etdi.
Gəldiyi yollardan dönərək getdi.
Dənizdən keçincə Ruma dönərək,
Dünyalar əlində olmuşdu mumtək.
Hər zaman o muma etdikdə rəğbət,
Hər nə istəsəydi edərdi əlbət.
Yunanlar "afərin" dedilər ona,
Cavahir saçdılar gövhər saçına.
Padşahda görüncə böyüklük, mənlik,
Şəhərlər bəzəndi, quruldu şənlik.
Mütrüblər oxudu, qızıl saçıldı,
Xəyalə gəlməyən məclis açıldı.
Düşməni yenən şah güvəndi baxta,
Şahanə baxtıyla oturdu taxta.
Bəxtiyar dövlətin uca baxtından
Ən gözəl şənliklər qurdu hökmüran.
Zəncidən aldığı sərvətdən, maldan
Çəkisiz hədiyyə alırdı hər yan.
Dövran Rum şahına verincə dövlət,
Hər şaha göndərdi o maldan qismət.
Elə ki, Daraya yetişdi növbət,
Dəvə karvanına yükləndi sərvət.
Yoldakı yüklərin çoxu qızıldı,
Buxaraya qədər karvan düzüldü.
Mərdliklə iş gördü, tədbirlər etdi,
Köhnə ənənələr yoluyla getdi.
Dəyərli mallardan saçdı bir qədər,
Dünyada görməmiş onu bir nəfər.
Hər cür gözəl şeylər, cavahiratlar,
Növbənöv ətirlər, ipəklər, atlar..
Saf qızıldan başqa, xalis mötəbər,
Bir xalvar müşk ilə bir sandıq ənbər,
Bir xırman ərinmiş saf gümüş lay-lay
Bir otaq saf kafur, düzülmüş tay-tay,
Ud yüklü dəvələr ucaldı dağdan,
Hər yükün təxminən vəzni yüz batman.
Bir çox gözəl qılınc, cəvahirnigar,
Zürafə dərisi kimi xalılar,
Xidmətə yarayan vücudu sağlam,
Gülçöhrə kənizlər, həm igid qulam.
Fil sümüklərindən naxışlı taxtlar,
Gövhərlə işlənmiş qədərsiz tac var.
Uca fil gövdəli bir alay əsir,
Qolunda, boynunda düyümlü zəncir.
Bir çox dəvə yükü, kəsik qulaqlar,
Saman təpilmiş baş bir neçə xalvar.
Yüzlərcə döyüşən, dağ heykəlli fil,
Çarpışma zamanı ən coşğun bir Nil.
Bu əntiq şeylərlə uca İskəndər
Bir elçi göndərdi mətin, mötəbər.





Daraya gətirdi qasid naməni,
Çəkdi hüzuruna o xəzinəni.
Dara bu bəxşişdən olmadı dilşad,
Qorxdu, həsəd etdi qəlbini bərbad.
Bu qədər xəzinə, bu qədər sərvət
Heyrət doğururdu, etmirdi rahət.
Bir cavab göndərdi yersiz olaraq,
İçində kin odu alovlanaraq.
Cavabı götürüb elçilər getdi,
İskəndəri bundan xəbərdar etdi.
Bu işdən danıldı ona İskəndər,
Qəlbinə yükləndi gizlin bir kədər.
Çaldığı zəfərdən alaraq təmkin
Daraya yenə də bəsləmədi kin.
Rumların Zənciyə çaldığı zəfər,-
Dünyaya yayıldı bu şanlı xəbər.
Qasidlər gəlirdi hər padişahdan,
Təbrik edirdi bu zəfəri cahan.
Tənənin qapısı bağlandı artıq,
Rumların qəlbini sardı bir şadlıq.
Acizlərə dövran olsa mehriban
Qarınca oxuyar ilana meydan.
Çox danə görərsən bu dəyirmanda,
Növbətlə üyüdür unu hər bəndə[123].

## İSKƏNDƏRİN OVDA XOŞ FAL VURMASI

Ey saqi, mübarək şərabdan doldur,
Mənə ver, igidlər dərmanı odur!
O mey bir halvadır dərdlilər üçün,
Onu ataş deyil, bəsləmişdir gün.
Dünyada axtaran adamlar hədsiz,
Biri inci arar, birisi dəniz.
Dünyada görmürəm elə bir nəfər
Öyrədən insana o salsın nəzər.
Mən kimi bülbülə gərəkdir ancaq
Qulaq tutanlardan çəkilsin uzaq.
Oxuyum nəğməmi, saz çalım həzin,
Dincəlim dərdindən çayın, dənizin.
Arabir çıxarkən bağdan dışarı,
Əlimdə çıraqtək narınc sapsarı,
Orda görməyirəm elə bir ayıq,
Mən kimə verim bu narıncı artıq?
Qaçıram dostlardan yenə bir yana,
Qaçıram yenidən haman bostana.
Seyr edim könlümü açan bağçanı,
Onunla şənlənsin könlümün canı.
Sözün dəsgahına şəkər səpənlər
Keçmiş möbidlərdən belə nəql edər:
Zənci döyüşündən olunca azad
Dincəldi tacidar, qəlbi oldu şad.
Meyl etdi bir zaman istirahətə,
Əlinə mey aldı, daldı işrətə.
Vaxtını keyfə sərf elədi bütün,

Nəş əli çalğılar dinlədi hər gün.
Xanəndə, gülgün mey, saqi, kamança
Ondan ayrılmadı gecə yatınca.
Dünyadan kam almaq onun muradı,
Heç kəs ondan gözəl həyat qurmadı.
Dünyanı şənlədən böyük İskəndər
Gecəni şənliklə edərdi səhər.
Filosoflar ilə edər məsləhət,
Dünyaya ədlindən verərdi qismət.
Ərəstu qədəhə, Əflatun cama
Təzə mey töküdü qan dama-dama.
Şanlı bir zəfərlə dönmüşdü qeysər,
Xanəndə oxuyur yeni nəğmələr:
"Ey dövlət pənahı, gənc olsun baxtın!
Əbədi yaşasın bu tacın, taxtın!
Həyatın olduqca əlinə cam al,
Qədəhi al ələ, şərab iç, kam al!
Ərğəvan şərabdan bir büsat başla!
Şənlik qur, gəncliyə murad bağışla!
Gənclik var olduqca, iqbalın kömək,
Çalğı, mey məclisi qurasan gərək!
Qılınc meydanını qoydun bir yola,
Cam üsuliylə də məclis hazırla!
Taxtınla, tacınla get dünyanı al,
Fələk də bəndəndir, sənə yox zaval!
Qaranı tutdun da, qalmasın ağlıq,
Alaca görünmək verər yaraşıq.
Bayrağı göyə vur, cahan sənindir!
Dövlətə sani ki, hər yan sənindir!"
Misrin köməyindən, zənci hərbindən
Şahın qolu güclü, çöhrəsi də şən.
Zəfəri çox asan sanıb dururdu,
Xorasan mülkündən xərac umurdu.
Çıxmadı Şam ilə Rumdan bir nəfər,
Onunla çəkidə olsun bərabər.
Daraya bir daha verməmdi xərac,
Əmr etdi qayıtsın göndərdiyi bac.
Coşurdu gəncliyin qızğın günləri,
Fəth etmək istərdi bütün kişvəri.
Xoş baxdı İranın igidlərinə,
Hazırlıq başladı İran fəthinə.
Adətdir, ağac boy atdığı zaman
Başqa ağaclara yetirər ziyan.
Gözəl gün seçərək şikara qoşdu,
Həm nəşəsi xoşdu, həm də gün xoşdu.
Çöllərdən keçərkən uca hökmüdar
Dağlarda, düzlərdə edirdi şikar.
Fələyi andırır möhtəşəm başı,
Gah çölü gəzirdi, gah da dağ-daşı.
Bir dağa təsadüf etdi şəhriyar,
O dağda var idi hər çeşid şikar.
Gördü iki kəklik qonmuş bir daşa,
Kəklik kəklik ilə girmiş savaşa.
Bu onun başını deşər, dimdiklər,





O bunun döşünü caynaqla dələr.
İskəndər at sürdü onlara sarı,
Nəzərdən keçirtdi iki şikarı.
Bir hesab götürdü bu çarpışmadan,
Onlardan gözünü almadı bir an.
Kəkliklər çarpışır elə hiddətlə,
Qorxmayır padşahı görərkən belə.
Şah düşüb heyrətə, aradı tədbir:
"Quşların başında bu sövda nədir?"
Birini fal vurdu uca adına,
Bəxtinin falını bağladı ona.
O biri kəkliyə ad qoydu Dara,
Nəticə almaqçın baxdı onlara.
Quşların vuruşu elədi şiddət,
Kin ilə çarpışdı uzun bir müddət.
İskəndər falını daşıyan kəklik
Daranı enərək göstərdi mərdlik.
İskəndər görüncə belə şən halı,
Zəfərə yozdu bu uğurlu falı.
Qalib kəklik qanad çaldı xuraman,
Əzilən kəkliyin uçdu yanından,
Qayaya qonmağa tapmamış macal
Kəkliyin üstünü aldı bir qartal.
Üzərək başını öldürdü quşu,
Pərişan oldu şah, dağıldı huşu.
Fal olan kəkliyin şən uçmasından
Qəlbindən silindi qorxu və duman.
Bildi ki, taleyi ona yar olar,
Daranı əzərək bəxtiyar olar.
Lakin bəxtəvərlik çox uzun sürməz,
O da bu dövrandan bir vəfa görməz.
Eşitdim, o yerdə uca dağ vardı,
Onda göy şövkətli qövsi tağ vardı.
O dağdan hər kimsə bir dilək istər,
Sirrindən haman dağ verərdi xəbər.
O sirli qayadan ucalar bir səs,
Sanki öz bəxtilə görüşər hər kəs.
Bilici bir kəsə dedi hökmüran:
Bir xəbər soruşsan o uca dağdan.
Nə qədər qan axar - soruşsun onu,
Nə olur padşahın bəxtinin sonu.
O dağdan soruşdu fal üçün gedən:
"Nə olur nəticə, bir xəbər ver sən
Dünyanı alacaq böyük İskəndər?
Daranı əzərək çalacaq zəfər?"
Səsləndi əsrarlı qaya aşikar,
Söylənən sözləri eylədi təkrar.
O faldan qeysərin coşdu ürəyi,
Fal onun dağ kimi oldu köməyi.
Kədəri silindi, çox şən göründü,
O dağdan, təpədən saraya döndü.
Çəmən ortasında uca sərvtək
Oturdu məclisdə tədbir tökərək.
Gələcək işindən söz açdı qeysər,
Sülhmü ya savaşmı çox fayda verər?
"Dünyalar pənahı olsa pənahım
Fələyə ucalar qızıl külahım.
Bu sələm yeyənə xəracmı vermək?
Alçaqlıq deyilmi bu iş, nə demək!
Daraya nə üçün getsin xəracım?
Ovdan əskikmidir, xəzinəm, tacım?
Onda tac, məndə də kəskin qılınc var,
Qılıncla alınır bütün bu taclar.
Üstümə gətirsə qoşun hər yandan,
Mənə də köməkdir o böyük yəzdan.
Tanrının köməyi mənə təsəlli,
Ordumsa həmrəydir, hər kəsə bəlli.
Birlikdən yaranıb zəfər döyüşdə,
Dostların birliyi gərək bu işdə.
İki qəlb bir olsa dağı parçalar,
Böyük bir kütləni edər tarmar.
Bəxtimin gücüylə qərar verdim mən,
Taxt alım, tac alım zalim düşməndən.
Daraya əlaltı olmaq nə demək?
Nə üçün Daraya xərac göndərmək?
İgidlər, söyləyin, fikriniz nədir?
Bu döyüş haqqında göstərin tədbir.
Daramı haqlıdır, söyləyin, artıq?
Şərh edin, vardırsa burda qaranlıq!"
Bu işin sonunu duyan hər nəfər
Yenidən baş əyib şaha dedilər:
"Nə qədər seyr edir ulduzlar, göylər,
Onlarla həmahəng olur dörd gövhər,
Vücudun dünyaya olsun bir çıraq,
Olsun şahın üzü aydan da parlaq.
Səndədir biliyin qüvvəti, səndə,
Xilqətin bəxtiyar şövkəti səndə.
Hara sahib olsan sən, ey tacidar,
Saçdığın toxumlar versin gözəl bar.
İndi ki, istərsən bizdən məsləhət,
Biz yeri gəldikcə verərik əlbət.
Şübhəsiz, çarpışma olacaq tez-gec,
Ancaq bu döyüşdə tələsmə sən heç.
Sən otur, qoy Dara hərb açsın sana,
Qılıncın o zaman qalxsın düşmana.
Sənə ancaq qılınc oynatmaq yetər,
Düşmənin qılıncı və başı gedər.
Bir maral aslanla çıxdı meydana,
Özü yer təmizlər zəif qurbana.
İşrətdir Daranın işi, oyunu,
Üstünə gəlməkdə qan çəkir onu.
Ordu bəsləməkdə artıqsan ondan,
Zəifdən alınır xərac hər zaman.
Sənin şəbxununu zəncilər bilir,
Onun seyrəngahı hərəmxanədir.
O bir kin bəsləyir, sən din bəslərsən,
Sən bir firiştəsən, o bir Əhrimən.
Sən qılınc vuransan, o qədəh tutan,

O taxt üstündədir, sən bir atlısan.
Sən qüvvət ölçənsən, o qızıl çəkən.
Sən adil, o isə zalım, qan tökən.
O şaşqın sərxoşdur, sən isə ayıq,
O yamanlıq edər, sən hey yaxşılıq.
Arasan ölkəni, bütün ordunu,
Bir nəfər tapılmaz ki, sevsin onu.
Etdiyi zülümlər hey yana-yana
Bir qıtlıq salacaq öz bazarına.
Səndəki nəvaziş, uca tərbiyə
Adını ucaldar yeddinci göyə.
Haqsızlıq haqq ilə olursa düşman,
Haqq tutar yerini, haqsız peşiman.
Hər zaman öz ayıq baxtından yapış,
Vuruşlarda yüksəl, taxtından yapış.
Bağlanma bu fikrə, düşünmə belə,
Dövlət mülk ilədir, nüsrət mal ilə.
İnsana baş olmaq insanlıq istər,
Yoxsa hər bir adam insandır - bəşər.
Böyüklük eyləsək hər kəsə asan,
Ancaq baş olacaq şəfqətli insan.
Heyvanlar onunçun sevir aslanı,
O, qonaq sevəndir şikar zamanı.
Qıfılı zəncirlə saxlanan vardan,
Onu yəqin et ki, xoşlanmaz cahan.
Səadət o zaman yar olar sana,
Ondan aldığını verəsən buna.
İnsanla yaşayan mərddir, kişidir,
Kimsəni sevməmək namərd işidir.
Xəmiri yoğrulmuş olan kimsəyə
Bir çörək kim verməz "borc olsun" deyə?
Rəhmin var, igidlik yaraşar sana,
Xəzinə, əjdaha qalsın düşmana.
Düşmən çox gurultu, sən şimşək rəftar,
Sən gövhər saçansan, o xəzinədar.
Aslandan güclüydü rəhmətlik atan,
Lakin qılıncını çəkməzdi qından.
Sən elə aslansan çarpışan zaman
Qılıncından olar daşın bağrı qan.
Gördünmü zəncilər nə sayaq coşdu,
Kinli divlər kimi üstünə qoşdu.
Sənin qılıncına etdi sərgəşlik,
Başını çeynədi qılınc və təpik.
O seldən dağ kimi üz çevirmədin,
Səni bu damcı da qorxutmaz yəqin.
Filləri budayan qızmış bir aslan
Qorxarmı ən aciz körpə ceyrandan?
Qızmış bir aslana neylər bir maral?
Qarışqa ilana verərmi zaval?
İti caynaq qartal edərkən şikar
Körpə quşlar ilə kef üçün oynar.
Ulduzlar bəxtinlə dostdur, bu bəlli,
Yolunun tozudur bu torpaq əhli.
Dünyanı fəth etmək qismətdir sana.
Hər fayda sənədir, ziyan düşmana.
Sənə məxsus olan bu mübarək fal
Düşmənə verməzmi böyük bir zaval?
Ulduzlarla fallar göstərir bütün,
Bu qanlı döyüşdə olarsan üstün.
Həndəsi hərflər, cizgili xətlər
Bildirir sənindir şanlı bir zəfər.
Zənci padşahı Pələngər, şəksiz,
Güclü pəhləvandı, coşğun bir dəniz.
Qaliblə məğluba bir fal vurarkən
O məğlub göründü, qalib idin sən.
İndi ki, uğurlu çıxmışdır falın,
Bundan da doğacaq mübarək halın."
Hər yerdən görüncə həmiyyət, zəfər[124],
Fatehlik fikrinə düşdü İskəndər.
Əlinə alırkən qılınc, ya qədəh:
"Uğurdur" deyərək tapırdı fərəh.
Hər işdə xeyrə yaz falı, ey filan,
Mübarək fal olur xeyrə yozulan.
Yaman fal vurma ki, doğar yaman hal,
Bir kimsə vurmasın əsla yaman fal...

## İSKƏNDƏRİN GÜZGÜ QAYIRMASI

Dur, saqi, əl uzat süzülmüş lələ!
Könlümdən bulanlıq dərdi təmizlə!
O parlaq lələdən ki, reyhanlı bağ
Asar qəndilindən işıqlı çıraq.
Mübarək olursa səhərdən günün
Fikrində yaxşılıq olacaq üstün.
Onunla dəyərli ayinlər qurar,
Dövlətçin yaranır gözəl yadigar.
Öz məsud bəxtiylə yaşar qol-qola,
Ulduza fal vurar bəxtiyarlıqla.
Ümidin sönməsin dünya olsa dar,
Hər qara buluddan ağ yağış yağar.
İmdad qapısını daim qoy açıq
Ki, şirinlik alsın bir çox acılıq.
Ömrünü ümidsiz keçirmə bir an,
Qurtuluş verəndir böyük yaradan.
Ümidsiz qaş çatma, aç bir gözünü.
Zəfər güzgüsündə gör öz üzünü.
Bu rum qumaşına bəzək çəkənlər
Bu dastan başına müşk, ənbər səpər.
İskəndər dünyaya olunca açar
Qılıncından güzgü oldu aşikar.
Bəzənmək istərkən dünya gəlini
Güzgüyə uzatdı dilək əlini.
Keçmişdə güzgüdən yox idi əsər,
Güzgünü yaratdı böyük İskəndər.
Başlanınca güzgü qayırmaq işi
Qalıba tökdülər qızıl, gümüşü.
Nə əməl etdilər vermədi səmər,
Onda üzlərini düz görmədilər.





Sonra əl atdılar hər cür gövhərə,
Hər biri göstərdi başqa mənzərə.
Elə ki, təcrübə dəmirə çatdı,
Gövhər üzərində naxış yaratdı.
Dəmirçi sənətkar rəssam olaraq
Seyqəllə dəmiri elədi parlaq.
Düzdüyü gövhərdə o rəssam artıq
Gördü hər surəti təbii, açıq.
Öncə bir şəkildə onu qurdular,.
Olmadı düzgün bir surət aşikar.
Güzgü enli olsa enlənir surət,
Uzun olsa, surət uzanır əlbət.
Dördbucaq göstərir qarışıq xəyal,
Müsəddəs göstərir bambaşqa bir hal.
Elə ki, dəyirmi düzəldi, inan,
Əsla seçilmədi xəyalla insan.
Hansı bir tərəfə çevrilsə güzgü
Göstərdi necə var, eynilə, düzgün.
Həndəsi yol ilə qara dəmirdən
Güzgünü İskəndər parlatdı birdən.
Sən də bu güzgüyə baxdığın zaman
İskəndər dövründən xəbər alarsan.
Gördüyü seyqəldən rəngini atdı,
Qapqara bir dəmir şəfəq yaratdı.
İlk dəfə güzgüyə baxdı İskəndər,
Bir əzəmət aldı gövhərdən gövhər.
Güzgüdə görüncə qeysər özünü
Güzgünün şadlıqdan öpdü üzünü.
Gəlinlər bu rəsmə ehtiram üçün
Güzgünü öpərlər baxarkən hər gün.

## DARA ELÇİSİNİN İSKƏNDƏRİN YANINA GƏLMƏSİ

Dur, saqi, o güzgü camı ver yenə,
Əlimdə tutum bir qədəh yerinə!
Keyxosrov ayinli olum o camdan,
Onunla gözümdə parlasın cahan.
Çəkinək sitəmdən, gəl zülmü ataq,
Ədl ilə mümkündür bundan qurtulmaq.
Dünyaya bağlama könül, yağıdır,
Həm quldur, həm qorxunc div yatağıdır.
Dünya damcı versə, bir qədəh çalır,
Öz köhnə borcunu bir yerdə alır.
Yağış damcı-damcı buluddan yağar,
Böyük çay olunca dənizə axar.
Nəyin var şən-şən ye, sevin bu günə,
Qoyma bir dirhəmi dirhəm üstünə.
Elə bil bir nəhəng bizə yan almış,
Yemədiklərini əlinə salmış.
Qarun da yığmışdı böyük bir sərvət,
Bax, necə torpağa girdi nəhayət.
Qızıldan bir saray tikdirdi Şəddad,
Ölərkən almadı qəsrindən murad.
Bu bağda bir ağac bitməmiş rahət
Ki, balta dəyməyib, qalsın səlamət.
Şahların taxtına bəzək verənlər
Belə nəql edir ki, böyük İskəndər
Bir gün dincəlirdi ürəyi çox şən,
Uzaqdı dünyanın həvəslərindən.
Saf, duru şərabla şahlıq camını
Doldurur, boşaldır, alır kamını.
Hikmət sahibləri gəlmiş yanına,
Ağıl da, tədbir də köməkdi ona.
Yüz nəğmə başladı çox sədalı çəng,
Hər nazik nöqtədən söz aldı ahəng.
Şah içdiyi camın hər damcısından
Mühəndis əkirdi gözəl bir fidan[125].
Parlayan saf şərab şimşəkdən nişan.
Qədəh şəkər saçan, şərab qəlbaçan.
Çalğıdan, şərabdan, incə nəğmədən
Yarım sərxoş idi içən, dinləyən.
Qədəhin göz yaşı, çalğının səsi
Axıdır pərdədən bir qan çeşməsi.
O şirin mizrabın hər yarasından -
Quru pərdələrdən axır seltək qan.
O məclis cənnətdən daha bəzəkli,
Mayısdan daha şux, daha çiçəkli.
Məclisin başında böyük İskəndər
Göydə bədirlənmiş bir aya bənzər.
Daradan bir elçi gəldi bu zaman,
Ürəkli, daşqınlı, dilli, qəhrəman.
Şahpərəstlər kimi göstərdi hörmət, ,
Onu və Daranı öydü nəhayət.
Adlı qəhrəmana etdi çox səna,
Daranın əmrini yetirdi ona.
Öncə öz şahından salam yetirdi,
Köhnəlmiş xəracı dilə gətirdi:
"Neçin şah əsirgər gövhəri, tacı,
Çoxdandır verməyir bizim xəracı?
Məndə bir acizlik görmüşmü? Nədən
Başını qaçırmış pərgar xəttindən?
Köhnə adətləri atsa boynundan,
Sərkəşlik edərsə, çəkəcək ziyan".
İskəndər alovlu şimşəktək çaxdı,
Qəlbinin atəşi dilini yaxdı.
Əyildi qaşının kaman guşəsi.
Qorxudan elçinin söndü nəfəsi.
Elə ki, eşitdi bu kinli sözü,
Dimağı odlandı, parladı gözü.
Acığı dilinə edincə əsər,
Söylədi qasidə yaramaz sözlər.
Şahın gözlərindən qəzəb yağırdı,
Qasidə dediyi sözlər ağırdı.
Düşüncəsi, ağlı sağlam olan kəs
Lüzumsuz sözləri söyləməz əbəs.
Qızışanda dili səbr etsə bir az
Tutduğu işindən peşiman olmaz.



Min-min sərrast sözə tapsa da zəfər,
Susmaq söyləməkdən çox fayda verər.
Nə gözəl söyləmiş qoca bir ərən:
"Dil ətdən yaranmış, qılınc dəmirdən".
Sözünün mülkünə olmaz hökmüran
Dilinə gələni söyləyən insan.
Kəyana mənsub ən qoca bir nəfər
Həmin hadisəni belə nəğl edər:
Qiymətli qılıncdan, gövhərdən, tacdan
Daranın xəracı getdiyi zaman,
Dəyərli gövhərlər içində, hətta,
Varmış bir təbil, qızıl yumurta.
O incə naxışlı şahanə büsat
Verərdi görənə təzə bir nişat.
Dilini o qasid edincə polad,
Köhnəlmiş xəracı eləyincə yad,
Bağırdı: "Möhkəmdir başımdakı tac,
Qızmış bir aslandan alınmaz xərac.
Başqa bir ayinə girmişdir cahan,
Qalmamış o qızıl yumurta doğan.
O köhnə büsatı bu dövran sildi,
Keçmiş ayinlərə qələm çəkildi.
Hər zaman cəvahir çıxarmı daşdan?
Dünya gah sülh istər, gah vuruş, gah qan.
Bu qədər qürurla çəkmə boş nəfəs,
Qılıncla cavab ver, danışma əbəs.
Yetməzmi qılıncım qan dama-dama
Taxtını çəkməmiş mənim altıma?
Mənim də var ikən qılıncım, taxtım,
Lakin bu dünyanı sənə buraxdım.
O qədər səndə var cəlal, təmtəraq,
Mənə də belə bir guşəni burax.
O yerə yetirmə "gücüm var" deyə,
Səninlə çarpışım pəncə-pəncəyə.
Ataraq hörməti, rəsmi, həyanı
Kinimlə coşdurum qəlbimdə qanı.
Şah eşitmədimi edərkən savaş
Qopardım zəncidən mən nə qədər baş?
Bir at çapmağımla getdim mən hara,
Atdım dikbaşları toz-torpaqlara.
Bir şah ki, şahlara verir taxt və tac
Miskinlər kimi heç verirmi xərac?
Məndən Misri istə, istəmə gövhər,
Misir qızılıtək sözə ver zivər.
Bax, sərvət, dövlətim qalxmış nə yerə,
Tələb et məndən öz rütbəmə görə.
Qaldırma fitnəni, coşdurma kini,
Gəl, viran eləmə İran mülkünü!
Çatmışdır əlinə böyük məmləkət,
Şükr elə, yetməzmi bu qədər dövlət?
Zamanın meylini gəl dolandırma,
Bu fikrə qələm çək, su bulandırma.
İstəmə verilməz şeyi, padişah!
Rəftar et, necə ki, edir iki şah".

Qasid eşidincə bu sərt xəbəri
Zehnindən silindi bütün sözləri,
Dərgaha üz qoydu dərdlə, möhnətlə,
Atəşli şimşəkdən daha sürətlə.
Elə ki, açıldı qasidin dili,
İkiqat büküldü o sərvin beli.
Bu ağır cavabı eşitdi Dara,
Bağrını dəldi ən kinli bir yara.
"Kimdir o sikkəsiz, cəsarət etsin,
Dara sikkəsilə rəqabət etsin?"
Kinindən o andı bir neçə dastan,
Saraldı eşidən kəslər qorxudan.
Zəhərli gülüşlə dolaraq kinə,
Dedi: "Bax bu azğın çərxin işinə,
Bu zülüm deyilmi edir fələklər?
Daraya kükrəyir miskin İskəndər.
Qaf dağı olsa da, gözünü silsin,
O kimdir mənimlə çarpışa bilsin?
Bir tərlan yanında bir çibin nədir?
Coşqun bir dənizdən kiçik qətrədir."
Başqa bir qasidi göndərdi Dara,
Kin ilə gözünü dikdi yollara.
Qasidə tapşırdı bir top, bir çövkan,
Bir çuval küncüd də verdi ərməğan[126].
Hədiyyə sirrini öyrətdi ona,
Sevindi qurduğu incə oyuna.
Daranın verdiyi tapşırıqları
Bilərək, üz qoydu Yunana sarı.
İskəndər qəsrinə basınca ayaq
Atəşdə mum kimi şölə saçaraq,
Ədəblə qeysərə baş əydi öncə.
Pərəstiş və ayin başa gəlincə
Söz düyümlərini sürətlə üzdü,
Söylənən sözlərdən bir inci düzdü:
"Canlara hakimdir fərman verənlər,
Buyruq qullarıdır göndərilənlər.
Şövkətli padişah versə hər əmr,
İtaət eyləmək bir vəzifədir".
İskəndər bildi ki, bu üzr istəyən
Ağır bir fərmanla gəlmiş yerindən.
Acıqlı gülərək dedi: "Ərz qıl!"
Qasidin dilindən açıldı qıfıl.
Qasidin Daradan gətirdiyi mal
İskəndər önündə qoyuldu dərhal.
Elə ki, mətahı ortaya saçdı,
Daranın əmrindən qasid söz açdı.
Başladı çövkandan, topdan əvvəlcə:
"Uşaqsan, sənə top olsun əyləncə,
İstəyin mənimlə çarpışmaq olsa,
Qəlbinə boş yerə sıxıntı dolsa, -
Küncüdü saraya səpərək durdu, -
Qarşına çıxarram bundan çox ordu".
Dünyanı sarsıdan böyük İskəndər
Gördü bu fallarda şanlı bir zəfər.

Bir məsəl çəkdi ki, qaçdığı zaman
Hər şeyi qarşıma çəkər bu çövkan.
Onunçun göndərmiş Dara çövkanı
Özümə çəkim bu köhnə dünyanı.
Yuvarlaq bu topu hər heyətşünas
Yerin kürəsiylə eyləmiş qiyas.
Şəhriyar onunçun göndərmiş bunu,
Çövkanla qazanım onun topunu.
Daranın fikrini bilincə salar
Kinini küncüddə etdi aşikar.
Küncüdü dağıtdı evə, eşiyə,
Quşları səslədi, dənləsin deyə.
Darıya daraşdı saray quşları,
Qalmadı bu yerdə bir dənə darı.
Bu cavabda elə qəti məna var,
Küncüdün yağını sıxıb çıxarar.
Küncüddən çox olsa Dara qoşunu,
Mənim də quşlarım dənləyər onu.
Üzərlik doldurdu kiçik çuvala,
Qasidə verincə dedi: "Çıx yola[127].
Dara küncüd qədər çıxarsa ordu,
Mənim də ordumun qədəri, bax, bu!"
Qasid İskəndərdən eşidib bunu,
Yüklədi ulağa ağır yükünü-
Daraya Yunandan gətirdi cavab,
Bu ağır cavaba kim gətirər tab?
Daranın cavabdan qızardı gözü,
Çünki çox güclüydü düşmənin sözü.
Ədavət bağladı hiddətlənərək,
İranın xalqından istədi kömək:
Çin, Xorəzm, Ğəzneyn, Qur mahallarından,
Yer dəmir kəsildi heyvan nalından.
Bir ordu düzəltdi Qaf dağı qədər,
Hamısı daş, dəmir çeynəyən əjdər.
Bu böyük orduya san verən zaman,
San verən qalmışdı bu işdə heyran.
Döyüşkən ərlər ki, at oynadırdı,
Təxminən doqquz yüz minə çatırdı.
Böyük şəhriyarın böyük ordusu
Bir coşğun dənizdi, yoxdu qorxusu.
Kin ilə Yunana doğru yol açdı,
Keçdiyi yerlərdə bayquş ulaşdı.
Axdı dəniz kimi Ermənistana,
Gülək də çatmadı onun tozuna.
Ölkələr aşırdı Yunana qədər,
Qurular titrədi, coşdu dənizlər.
O dikbaş atların polad nalından
Çöllərdə otlardan qalmadı nişan.
Günəş də düşsəydi şahın ardına
Qalardı gəzdiyi yerlər virana.

## DARANIN İSKƏNDƏRLƏ MÜHARİBƏYƏ QOŞUN ÇIXARMASI

Ver, saqi, ruh verən parlaq şərabdan,
Ondan işıqlansın qəlbim hər zaman.
Mən onu içərsəm verər səadət,
O məni yeyərsə doğar fəlakət[128].
Ayıqlıq nə böyük dövlətmiş, bilsən.
Əliboş olmamaq dünya nəqdindən.
Dünyada o şəxsin ucalar başı
Çox sayıq davranır hər işə qarşı,
Şüurla ölçər bu həyat yolunu,
Oğrudan qoruyar öz var-yoxunu.
Bir şey ki, işini edəcək asan
Yükündən götürüb atma heç zaman.
Əskiklik versə də atma kürkünü,
Səni qar, soyuqdan saxlar qış günü.
Gədikdə bir eşşək öldü soyuqdan,
Çulsuz çıxmış idi o tənbəl heyvan.
Keçən padşahları öyrənmiş bir pir
Soruşan kimsəyə belə nəql edir:
Dara ordu çəkdi Ermənistana,
Sanki bir qiyamət çökdü hər yana.
İskəndər bu işdən tutmadı xəbər,
Qarşıya çıxarsın qızğın bir məhşər.
Məzlumlar axaraq gəldi hər yandan,
Dedilər: "Coşğun sel qoparır tufan".
Daranın ordusu edərkən səfər
Polad geyimlərdən qaraldı yerlər.
Bir casus söylədi: "Düşmən sərxoşdur,
Durduğu yerlərdə qafil olmuşdur.
İskəndər bir basqın etsə qəflətən
Bir anda çıxarar onu mülkündən".
İskəndər gülərək söylədi cavab:
"Gizlində qalmağı sevməz afitab.
Yararmı döyüşdə böyük İskəndər
Adi quldur kimi qazana zəfər?"
Başqa bir casus da belə dəm vurdu:
"Düşmənin gətirir hədsiz bir ordu.
Qoşun işlərini mükəmməl bilən
Ancaq saya bilər onu təxminən".
Ən qısa bir cavab verdi İskəndər:
"Bir qılınc yüz öküz bağrını dələr.
Acıqlı canavar - o kinli heyvan
Qorxarmı qoyunun çox olmasından?"
Uca şəhriyarın mətin sözləri
İnandırdı buna hər bir əskəri.
Get-gedə böyüdü bu qızğın xəbər,
Ölkəyə yaxındır o qorxunc əjdər.
İskəndər bildi ki, o bir buludtək
Gələcək, qılıncı saçacaq şimşək.
Bütün ölkələrə göndərdi xəbər:
"Durmadan dərgaha yığılsın əskər!"
Rumdan, Əfrəncədən, Misirdən, Rusdan





Bir ordu bəzədi gəlindən rəqsan.
Ordu toplanınca uca İskəndər
Əmr etdi sayından verilsin xəbər.
Sayçılar məlumat verdi padşaha:
Altı yüz min əskər gəlmiş dərgaha.
Hər yandan yığışıb gəlincə ordu
Çalğısız, içkisiz bir məclis qurdu.
Aqillər yığılıb uca dərgaha
Verdilər diqqətlə qulaq padşaha.
İskəndər söz açdı bütün işlərdən,
Daranın açdığı o döyüşlərdən:
"Şübhə yox,- dedi,- o, adlı tacidar
Bizimlə döyüşə vermişdir qərar.
Hərb üçün, sülh üçün fikriniz nədir?
Düşmən çox yaxındır, göstərin tədbir.
Çıxmasa bu kəskin qılınc qınından.
Bizə kişi deməz bir nəfər insan.
Tac-taxt alarsam qoca Daradan
Zalım adlanaram bununla da mən.
Qıymaram çıxsın öz mülkündən Dara,
Yamanlıq etmərəm mən Kəyanlara.
Çünki qorxuram bu əməlim bu gün
Düşməni çıxarsın bizlərə üstün.
Bu yolda düzgün bir tədbir göstərin,
Sonunda işimiz olmasın çətin.
Düşünüb söyləyin sağlam bir fikir,
Bu döyüş haqqında fikriniz nədir?
Bilikli, şüurlu, ayıq, hünərvər
Başçılar diqqətlə çox dinlədilər.
Hörmətlə hamısı dil tökdü ona,
Padşaha etdilər çox dua, səna:
"Uğurlar doğsun bu yaşıl ağaca,
Kökləri möhkəmdir, adısa uca.
Taxtınla, tacınla dünya qurulsun,
Qapında düşmənin başı tac olsun.
Doğrudur tamamən şah buyuranlar,
Bir də biz onları edəkmi təkrar?
Əmrindən dönmərik, sözün fərmandır,
Padşahın yolunda canlar qurbandır.
İndi ki, sorursan, ey dana, zəki,
Bizim fikrimizə belə gəlir ki,
Kinli bir ürəyə kin dolan zaman
Keçdiyi yollarda göyərər tikan.
Sən də kin odunu eylə şöləvər,
Kin yaxan bir ataş tikan təmizlər.
O, qoca söyüddür, sən gənc sənubər,
Söyüdlə sənubər olmaz bərabər.
yenidən abad et bu köhnə bağı.
Torpaqdan təmizlə köhnə alağı.
Bu təzə dövlətin al qumaşından
Gəlintək bəzənsin o köhnə cahan.
Şübhəsiz zalımdır amansız düşmən,
Xalq boyun qaçırır onun zülmündən.
Elə bir düşməndən niyə qorxursan,
Evinin içi də özünə düşman.
Zülmün ayininə birdən çək qələm,
Xalqının qəlbindən silinsin ələm.
Düşməndən məmləkət doymuşdur cana,
Atıl üzərinə mərdi-mərdana.
İsti təndir artıq çörək istər, dur,
Atının başına odlu yüyən vur.
Baş qoyanq hara sən ayaq qoysan,
Bizdə yox əmrindən boyun qaçıran,
Sənin istəyini kim poza bilər?
Əmrindən çıxmağa kimdə var hünər?"
Sözləri bununla bitirdi: "Ancaq
Sən bu qan tökməyə qoyma ilk ayaq.
Kəyanın taxtına göstər sən hörmət,
Öncə qan tökməyə gəl etmə cürət"
Hamının fikrini şah öyrənərək,
Bildi sərkərdələr edəcək kömək.
Doğrular sözünü tutaraq getdi,
Ordu yetirməyə o gün əmr etdi.
Dövr edən günlərdən seçərək bir gün,
Uğurlu taleyi olurkən üstün
Mübarək fal ilə andı səfəri,
Orduya verildi hərəkət əmri.
Kəməri belində kin ilə sıxdı,
Parlayan yüyəni aydan işıqdı.
Qızmış aslan kimi etdi tacidar
Qılıncı dünyanın fəthinə açar.
Neştərli arıydı qaynaşan ordu,
Arı pöhrəsindən artıq idi bu.
Firidun padşahdan yadigar qalan
O uca Dirəfşi tanırdı çoxdan.
O uğurlu bayraq düzələn zaman
Nazlardı dostunu bu qoca dövran.
Bayrağı "Dirəfşi-Gavə"dən yüksək
Çəkdi mahlıcına göy rəngli ipək.
Tam əlli arşındı uca sütunu.
Zinət öz qoynunda bəsləmiş onu.
İpəyin üstündə müdhiş əjdaha,
Baxanlar qorxudan baxmaz bir daha.
Qıvrıcıq qara bir qotaz başında,
Sanki bir buluddur dağın qaşında.
Bir qara qartaldı, qanadı nurdan,
Görürdü onu hər uzaqdan baxan.
Tərpəndi əjdaha heybət əskərlər,
Başında əjdaha peykər İskəndər.
Dünya bu şurişdən dəhşət alaraq,
Nə üçün? - Bir ovuc torpaqçün ancaq!
Hiyləgər dünyaya aldanma, burax,
Qurdu aslanlıqla olur bağlamaq.
Qapaqlı xonça bil köhnə dünyanı,
Gah halva yedirir, gah ciyər qanı.
Yer çuxur, göy isə uca və parlaq,
Biri qan teştidir, o biri torpaq.
Hər teştin üstündə yazılmış çoxdan

Siyavuş qanıtək bir çoxlu dastan.
Bir məhsul verər bu dünyanın bağı,
Al qana batırır bütün torpağı.
Bu teştə kimsənin girməz naləsi,
Köməyə buraxmaz bu yol heç kəsi,
İndi ki, fəryada yetişməz bir kəs,
Kömək istəyənlər çıxarmasın səs.
Səsinə pərdənlə çək mətin hasar,
Sakit bir yaşayış eylə ixtiyar.

### DARANIN SƏRKƏRDƏLƏRİ İLƏ MƏSLƏHƏTİ

Dur, tövbə yandıran odu al, saqi,
Başıma o meylə ataş sal, saqi!
Xoşdur bu məclisdə parlasın günəş,
Şam kimi başımda yansın bu ataş.
Aqillər kam alır yaxşılıqlardan,
Tanrı köməyinə sığınır hər an.
Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə.
İnsana bu ağıl gözəl qonşudur,
Heyif ki, pislərlə oturur, durur.
Ağılsız kəslərlə oturub duran
Ağıldan, şüurdan deməsin dastan.
Koxanın əlindən olanlar azad
Bu kənddə ev tikib düzəldər abad.
Sən də bu yükünü boynundan atsan
Qorxmazsan hər alçaq boyun vurandan.
Ancaq öz varınla ol coşğun ümman,
Götür öz faydanı öz varlığından.
Özünə ölüncə özün ol qonaq,
Ağac ol, özündən doğur qol-budaq.
Yedi özgə malın barama qurdu,
Nazildi barmaqtək, yediyin qusdu.
Ən qoca bir möbid rəvayət edir,
Ağıllı kəslərə hekayət edir:
Rum şahı gedirdi böyük şövkətlə,
Qılıncla, qoşunla, varla, dövlətlə.
Hər yerə yayıldı bu qızğın xəbər:
Rum elindən gəlir qorxunc bir əjdər.
Daranın məhvinə hazırlanaraq
Hər çeşid silahla qaldırmış bayraq.
Bu xəbər bayramtək sardı hər yanı,
Çünki yaxmış idi Dara dünyanı.
Bir sözlə, məmləkət, əhali, ölkə
Zalimin əlindən gəlmişdi təngə.
Daraya hər ölkə bəslərdi nifrət,
İskəndərə isə məhəbbət, hörmət.
Bu işdən Daraya verdilər xəbər,
Dənizdən dalğatək keçdi İskəndər.
Sınaqlı kəsləri çağırdı Dara,
Ağıllı başlardan istədi çara.
Nə sayaq girişsin düşmənlə hərbə,
Düşmənə nə sayaq çalsın qələbə?
Nə tədbir göstərir qoca rəhbərlər?
Döyüşdə basılsın rumlu İskəndər.
Görmüşdür enərkən düşmən ordunu,
Döyüşün taleyi qorxutdu onu.
Dərdinə bir çarə demədi bir kəs,
Kimsədən çıxmadı bu barədə səs.
O məclis bilirdi: Dara sərkəşdir,
Yaxmaqda amansız, qızğın ataşdır.
Kimsənin sözünü tutmaz, dinləməz,
Onunçun durmuşdur dinməz-söyləməz.
Məclisdə vardı bir adlı pəhləvan,
Həsəbi, nəsəbi, Zəngə-Şaviran,
Adı Fəribərzdi, gövdəsi bir dağ,
Vücudu poladdı, qolu bir çomaq.
Məclisə çağrılmış bu igid kişi
Gözəlcə bilirdi bütün keçmişi.
Daranın taxtına etdi çox səna:
"Uğurlu məclisin yar olsun sana,
Dünyada hər zaman anılsın adın,
Fələk dövr etdikcə gülsün muradın.
Keçmişdə eşitdim ulu babamdan,
Nəsihət yolunda etmişdi bəyan.
Keyxosrov dünyadan edərkən səfər
Cavahir camından vermişdi xəbər[129].
Yaxın bir zamanda dövlətin taxtı
Alçalar və sönər ulduzu, baxtı,
Rum elindən çıxar müdhiş bir sərkəş,
Hər ataşgədəyə vurar bir ataş.
Bu İran büsbütün mal olar ona,
Qürurla oturar Kəyan taxtına.
Durmaz bir ölkədə, cahan fəth edər,
Bir zaman özü də məhv olub gedər.
Həmən şəxs olmasın rumlu İskəndər?
Bu düşmən olursa, ondan et həzər.
Adını buza yaz, bizim torpağa
Qoyma bu düşməni ayaq basmağa.
Ondan bu ölkəmiz görməsin ziyan,
Xəzinə yolunda yoxsul verər can.
Bir hiylə qurmalı, itaət etsin,
Yalnız Rum mülkünə qənaət etsin.
Xoş hiylə acıqdan xoşdur hər zaman,
Su səpmək yaxşıdır ataş yaxmaqdan.
Hər zaman qolunun gücünü yoxla,
Tərəzi gözünü bərabər saxla.
Elə iş görmə ki, doğsun sənə kin,
Dəmirə tez təsir etsin sükahin[130].
Aslanlıq heybəti getsə aslandan
Başını bir qatır əzər o zaman.
Dünyanı namusla olur saxlamaq,
Onunla ucalır dövlət və bayraq.
Baş qoşma onunla, iş keçər, gedər,
Dara rütbəsilə böyüklük edər.
Qızıl öz vəzninn versə arpaya





Qızıl qiymətiylə çıxar ortaya[131].
Çox zaman yırtıcı qızğın bir aslan
Torpağa sərilir incə tikandan.
Əqrəblə bağlasan düşmən kimi kin,
Baxma çox ucadan, olma çox əmin.
Neştərli çibindən gəl qorun sən də,
Nəmruda əmr etdi: "Mənə ol bəndə!"
O şəxsə ram olmuş dünya əzəldən,
Döyüşdə mərdliyi verməmiş əldən.
Tox ilə ac kabab yesə bir yerdə,
Tox adam kababdan düşəcək dərdə[132].
Hətta öz qadının, övladın olsa,
Parçalar, ortaqlı paltarın varsa.
Oğlunun boyuna gəlsə paltarın,
Məhəbbət gözləmə, gedəcək varın.
Olduqca boy atsa yeni bir fidan,
Sərv ondan, şübhəsiz, görəcək ziyan.
Yaramaz böyüklər sözündən qaçmaq,
Ağıllı sözlərə çevirmə yarpaq!
Dünyanı təcrübə etdikcə bir-bir,
Söylənən bu sözlər bilərsən nədir!
Nəsihət eşitsə çarə arayan
Dərdinə bir açar tapar hər zaman".
Daranın ağıllı pirin sözündən
Heyrətli şimşəklər çaxdı gözündən.
Ancaq söndürmədi o, qızğın kini,
Çox alçaq göründü sülhün ayini.
Qocanın sözündən sarsıldı bir an,
Torpaqda qıvrıldı sanki bir ilan.
Qaşları çatıldı, heyrətə gəldi,
Qəlbində kin coşdu, gözü bərəldi.
Aslan kimi baxdı qocaya birbaş,
Qorxudan vəznini itirərdi daş:
"Kövrək bir dəmirçi gördün məndə sən?
Ondakı poladı bəyəndin nədən?
Qüvvətli söz açma hey nədir bu Rum!
Odlu dağ yolunu bağlamaz bu mum.
Şahinlər güllənsə, kəkliklər coşsa,
Şahinlər şahini batmazmı yasa?
O kimdir hərb üçün bağlayım kəmər,
Min kəmərbəstəm var ondan mötəbər.
O miskin qorxağın gördüyü hünər
Aslana naz edən ceyrana bənzər.
Şahların tacında qızıl tacam mən,
Namərdəm, qorxsam bir rumlu miskindən!
O, qafil yuxudan ayılan zaman
Şişə çəkmiş olar ətini aslan.
Yumurta ağırdır, bərklik var onda,
Ancaq tab gətirməz çəkic altında.
Bunu kim bilərdi, dünənki uşaq
Böyüklə bəd rəftar edən olacaq?
Birinci qədəhdə qanar o dəni
Mənim şövkətimi, həm öz səhvini.
Mənə ar deyilmi belə sürünmək,
Miskinlər yanında aciz görünmək?
Zəhərlər içinə qərq olsam, inan,
Nəhəng qurbağadan dilənməz aman.
Harada görünmüş aciz bir yunan
Belə bir gəmini çıxarsın sudan?[133]
Günəşin taxtını çevirə bilməz,
Cəmşidin yerini o verə bilməz.
İranı yıxmağa ucaltsın bayraq,
Keyxosrov taxtını bacarmaz çalmaq.
Kəyan şövkətini gərəkdir bilsin,
Qədəminə görə irəliləsin.
Nə itdir o qorxaq tülkü, saymadan
Qızmış bir aslana yetirsin ziyan?!
Aslan artığını tülküdür yeyən,
Bulud ağlamasa gülərmi çəmən?
Əliboş adamlar olarmı maldar?
Hansı bir ayaqla qaçar çolaqlar?
Məndədir, bilirsən, həm şövkət, həm şan,
Kim deyər acizəm rumlu uşaqdan?
Sərxoş qulamlara döydürrəm onu,
Çobanlarım qırar onun qolunu.
Bir aslan köpəkdən qorxarsa, bişəkk,
Ona şıllaq atar qoca bir eşşək.
Qartal bir çibini sansa əjdaha
Qalxmasın düşdüyü yerdən bir daha.
Qoca bir tülküdən qorxarsa aslan,
Beynini oxla, dəl, heç vermə aman!
Yaxında gücümü bildirrəm ona,
Ataram başını ayaq altına.
Kimdir bu bac verən rumlu İskəndər,
Uca tacidarla olsun bərabər?
Kəyan taxtı olmuş mənə müyəssər,
Başımda tacım var, belimdə kəmər.
Heç kəsdə hünər yox eyləsin cür ət-,
Babamın yurdunu almağa niyyət.
Kəyanın külahı Kəyana yarar,
Bu xəzin içinə sığarmı rumlar?
Bəhmən nəslindənəm, Keyxosrov babam,
Namərdəm arxasız rumludan qorxsam.
Bir babam Ruyintən İsfəndiyardır,
Bu taxt ondan mənə bir yadigardır.
Dönməzsə fikrindən keçmiş yoluna
Qaranlıq olar bu işıq - gün ona.
Girsə dənizimə gəmisi əgər,
Başını ayağım altında görər.
Cavabım acıdır, acı dənizdən
Ataram torpaqdan dənizlərə mən.
Elə sel axıdım qanlı buluddan,
Əli də günəşə çatmasın bir an.
Kin, inad edən bir kəndlidən, ancaq
Sülhlə yox, ölümlə xoşdur qurtulmaq!
Eşşəyə yəhər yox, yaraşır palan,
Yükünü onunla daşıyar aslan.
Mən ucaltmışam bu ovun boynunu.

Yenə mən salaram kəməndə onu.
Ey başı çürümüş qoca pəhləvan,
Daraya belə xor baxışdan utan.
Olmaz söz atını belə oynatmaq,
Qocaman bir dağı kəməndlə tutmaq.
Səhrada çırağı yaxmaq nə gərək,
Sınanmış fələyə şahlıq öyrətmək?
Gövşəmə, çıxma öz həddindən kənar,
Hər çeşid gövhərin başqa yeri var.
Hər kəsin əyninə uymasa donu,
Demək, özgələrdən almışdır onu.
Qocalıq yerindən oynatmış səni,
Çürütmüş fikrini, yemiş beynini,
Arxana yorğunluq çökmüşdür, ey pir,
Nizə yox, sənə bir əsa gərəkdir.
Qocalanda ağıl olar pərişan,
Bütün biliklərı çıxar yadından.
Qocaya yalnız bu iki şey yarar:
Birisi ibadət, birisi məzar.
Dünyanı burax bu igid gənclərə,
Qocaldın, ortadan çəkil bir kərə!
Bir zəif-qocadan umulmaz pənah,
Nə kömək edəcək qırıq bir silah?
Orduya igidlik yaraşır. Qoca
Sülhə bir yol arar döyüş qızınca.
Hər söz öz-yerində olur çox gözəl,
Çünki nar bar verməz vaxtından əvvəl.
Hər vaxtsız banlayan xoruzun gərək
Durmadan başını bıçaqla kəsmək.
Dilini bağla ki, əldə qalsın baş,
Dil quru olarsa, boğaz olmaz yaş[134].
Qan ilə islanmış dilsiz bir başdan,
Şübhə yox, yaxşıdır başsız bir insan[135].
Dilini ağzında saxla daima,
Yersiz heç bir zaman nəfəs çıxarma.
Dil dimaq evində otursun gərək,
Bəxtiyar yaşasın, gülsün hər dilək.
Düzlükdə ad almış çəkinin dili,
Milindən bir yana əyilməz beli.
Milindən azacıq aşağı ensə,
Enər baş aşağı bir az tərpənsə.
Elə söz vardır ki, yaramaz demək,
Başqa bir dil ilə söyləmək gərək.
Onu incə-incə söylərkən bir-bir
Ondan hər eşidən alar bir təsir.
Xüsusən şahlara sözü yonaraq,
Ölçərək deməli, həm də çox yumşaq".
Daranın acığı edincə tüğyan,
Qoca üzr istədi, oldu peşiman.
Padşahlar işində qaynaşır qorxu,
Kimsənin şahlarla tutmaz dostluğu.
Kini cuşa gəlsə, acıqlansa şah,
Rəhm etməz, oğlu da olsa o hərgah.
Padşahın tinəti ataşdir, ancaq
Yanğına yaxşıdır uzaqdan baxmaq.
Padşaha o zaman öyüd bar verər,
Yolunu qürurdan, kindən təmizlər.
Padşaha nəsihət verən bir insan,
Toxumu şor yerdə səpmiş o nadan.
Daraya dəyərli nəsihət verən
Bildi ki, şah qızmış nəsihətindən.
Sözünə başqa bir cərəyan verdi,
Dadlı bir dil ilə şahı dindirdi:
"Şübhə yox, dünyada bir sənsən Dara,
Düşmənin nəyi var, səndədir dara!
İskəndər kimdir ki, atını çapsın,
Daranın başından külahı qapsın?
Sənə bu külahı tikmiş yaradan,
Ulduzdur sənə bu çırağı yaxan.
Dağın qapısına çıxarsa kəsək
Daş ilə əzilər quru torpaqtək.
Atsa qabaq kolu uca qol-qanad,
Çinara tay ola bilərmi, heyhat!
Qabaq suyu içib doyduğu zaman
Kəndirlə aşağı enər ağacdan.
O da bir qabaqdır başı ucalmış,
Boynuna otlardan bir kəndir salmış.
Otlardan toxunmuş ip də qırılar,
Dolçası qırılıb quyuda qalar.
Günəş məşəlindən işıqlansa bağ
Pərvanə yerinə can verər çıraq.
Aciz, topal tülkü döyüş günündə
Nə iş görə bilər aslan önündə?
Qaşında düyümü iki yana vur,
Kamanın düyümü yanlardan xoşdur.
Dünyanı tədbirlə əlinə gətir,
Bu işdə tələsmək nəyə gərəkdir?
Bir çıraq salmazsa qızğın alovlar,
Nə özü, nə də ki, pərvanə yanar.
Od təndir içində, xəmirsə gəlmiş,
Çörəkdən ağıza çox yol deyilmiş.
Hər bəndin açan səbrdir, inan,
Səbrli kimsələr olmaz peşiman.
Ziyandır uduzmaq belə şahmatı,
Çapdırmaq nə gərək "fil" ilə "atı".
Mizraba barmaqlar hələ yatmadan,
Çox çalğı qırılmış ağır yaradan.
Sən şahsan, səndədir şövkət, təmtəraq,
Belə bir hesabı kimdən aramaq?
Daraya hörmətçin qoca pəhləvan
Söylədi bir neçə dəyərli dastan.
Daranın ürəyi, beyni ataşdi,
Bu dadlı söhbətlər gözündə heçdi.
Acığı, ataşi sönmədi yenə,
Od vurmaq istədi sözün məğzinə.
Dara katibinə əmr etdi belə:
"Müşk ilə ipəyi, durma, al ələ".
Katibi sür ətlə qələm götürdü,





Dara deyənləri yazıb bitirdi.
O, şəvə qələmi oynatdı şən-şən,
Manini, "Ərjəng"i saldı qiymətdən.
Bir məktub yazdı ki, olduqca dilbər,
Məzmunu cənnətin bağçası qədər.
Sözləri polad bir qılıncdan kəskin,
Lisanı, üslubu incə və mətin.
Katib o qiymətli məktubu yazdı,
Dara imza atdı, möhrünü basdı.
Daradan şahlara məktub aparan
Oldu İskəndərin yanına rəvan.
Məktubu verincə, açdı sür ətlə,
Katibə oxutdu başqa diqqətlə.

## DARANIN İSKƏNDƏRƏ MƏKTUBU

"İnsanı biliklə daim ucaldan
Ən adil, ən böyük tanrı adından.
Elə bir tanrı ki, əl tutar, bəslər,
Tək ona sığınar çarəsiz kəslər.
İşıqlı ulduzu göydə parladır,
Bu qara torpaqdan insan yaradır.
Hər işdə bilikli, güclü, bacaran,
Müstəhəqq olanın keçir suçundan.
Hər ruha ondadır hərarət, işıq,
Hər əqlə o verir qüvvət, yaraşıq.
Birinə dövranı tutur elə təng,
Təknədə tapmayır bir parça çörək.
Birinə dağ kimi xəzinə verər,
Çəkidə dağ olmaz ona bərabər.
Nə yoxsul suçundan çəkmiş bir ziyan,
Nə hünər göstərmiş xəzinə tapan.
Nə istərsə onun əlindən gəlir,
Yaratmaq, öldürmək onunçun birdir.
Hökmündən olurmu qurtarmaq yaxa?
Bir hakim tapılmaz ona tay çıxa.
Olsun haqq salamı elə bəndəyə
Acizlik göstərir aciz kimsəyə.
Nə fayda nakəsə demək afərin,
Sanar afərini böyük bir nifrin.
Düşmənin olsa qan içən zülmkar,
Nəzakət göstərsən acizlik sanar.
Xoş məsəl vurmuşdur igid bir kimsə:
"Əlaltı olma bir əlaltı şəxsə."
Sən, ey xam fikirli, sınaqsız uşaq,
Aslanla çarpışma, inadı burax,
Mənimlə döyüşdə zor pəncən hanı?
Köməyin, qoşunun, sərkərdən hanı?
Səndə əqrəb, ilan xasiyyəti var,
Nəhənglə döyüşə yoxsa kim çıxar?
Əjdaha qılıncım məhv edər səni,
Gəl burax bu ilan təbiətini!
Üstünə qılıncla kükrəsəm, yəqin,
Ya ölüm, ya qaçmaq olar qismətin.
And olsun ataşə, "Avest"ə, "Zənd"ə,
And olsun günəşə, göy çəmbərində,
And olsun yəzdana, uca behiştə,
Əhrimən düşməni olan Zərdüştə.
Rumdan və Yunandan qoymaram əsər,
Başına yağdırram ataş, müxtəsər.
Rumlular sərasər geysə də dəmir,
Ataşgədəmizdə mum, dəmir birdir,
Nə çıxar rumludan, rum əsgərindən,
Atların nalında məhv olar ölkən.
Əgər Rum üstünə çəksəm ordular,
Tozundan günəşin gözü kor olar.
Ey Rumun ağası, budur məsləhət:
Daraya edəsən zəncitək xidmət.
Xalvarla çıxarsan geyimlə qalpaq,
Bir oxa dayanmaz, inadı burax.
Qarətçi ordumun oxundan məgər
Yemədin, üstümə çəkirsən ləşgər?
Varmıdır Daraya verəcək başın?
Mənimlə keçin, bu fikrindən daşın.
Yayı qır, oxundan çıxar yeləyi,
Zirehi qatla, gey zərif ipəyi.
Yoxsa qulağını buran zaman mən,
Bilirsən ki, heçsən, heçdən də heçsən!
Qorx ürək çeynəyən oxumdan mənim!
Sevinmə bu dovşan yuxumdan mənim!
Hər yatan dovşana xor baxma, zinhar!
Tərpənsə yerindən ox kimi uçar.
Bacarram səninlə edim xoş rəftar,
Həddini aşanı döyməmək olar.
Lakin bir məsəl var: "Şah olsa zəlil,
Quyudur məskəni, yer üzü deyil".
Vergi ver, kini sil, qoy işə qədəm,
Köhnə ayinlərə, gəl, çəkmə qələm.
Hər il nə gərəkdir yeni kürk tikmək,
Noxtayla bir yerdə satılır eşşək.
Köhnə xanədana rəxnə vurma gəl,
Bununla açarsan başına əngəl!
Məcbur etmə məni qalxım yerimdən,
Mən böyük bir filəm, sən bir çibinsən!
Sevin ki, haq sənə vermiş dövlət, var,
Aslan pəncəsindən alınmaz şikar!
Bir qarğa kəkliktək səkdi bir zaman,
Öz yerişi belə çıxdı yadından.
Məclis qur, ulduzlar nur verdi yerə,
Firiştə qapını açmış göylərə[136].
Keyxosrovun tacı səadət arar,
Bilmirəm kim kimin başından qapar?
Bu köhnə zəmanə kimə olar yar?
Ulduzlar kim ilə olar vəfadar?
Bu göyə atdığın tozdan, torpaqdan
Mənə yox, özünə yetişər ziyan.
Baş mənəm, başqalar mənə əl-ayaq,
Nə gərək başını boş yerə qırmaq?

Öz sillən toxunar öz yanağına,
Baltanı vurarsan öz ayağına.
Gənclik qüruruyla şaşmaq əbəsdir,
Qəmənlə boynunu qaşıma, bəsdir!
Qılıncım tək sənə açmamış oyun,
Saysız dik başlardan qoparmış boyun.
Mənimlə munisdir şahların baxtı,
Cəmşidin əklili, Kavusun taxtı.
Bərkliyi çəkməklə dəmir, poladam,
Ruyintəndir mənim şöhrətli babam.
Yağışdan qorxarmı qocaman qurdlar?
Onların ipək yox, dəri kürkü var.
Bəxtiyar kimsənin alınmaz baxtı,
Satın almaq olmaz tac ilə taxtın.
İsfəndiyar köçmüş dünyadan əgər,
Nəsəbin yetişər Bəhmənə qədər.
Bəhmən də şahlığı atdığı zaman
Dünyaya mən oldum böyük hökmüran.
Məndədir Bəhmənin aslan ürəyi,
Həm İsfəndiyarın polad biləyi.
Onlardan yadigar bu gün mənəm, mən!
Zorda İsfəndiyar, ürəkdə Bəhmən!
Kəyan nəslindənəm, mən yenilmərəm.
Başqalar əlaltı, tək əsil mənəm!
Böyük səhv etmisən məni ölçərkən,
Bəhmən qüvvətiylə ölçməmişsən sən.
Babamın mülkünün sahibiyəm mən,
Gəl öz sahibinə üsyan etmə sən.
Tutduğun işlərdən tez ol peşiman,
Düşün ki, bir fayda verməz sonradan!
Çox igid olsan da, qızışma ancaq.
Aslanın izinə, gəl basma ayaq!
Gəl etmə qabalıt, həlim ol, yumşal!
Oynatma yerimdən, öz yerində qal!
Yurdunu talaram, kini tərpətsən,
Ölkələr verərəm bir rica etsən.
Dağ kimi ağıram, mətanətliyəm,
Hökmümdə amansız, həm də qətiyəm.
Sən məni-tərpətmə, tərpənər dünya,
Bir kərə demişəm, dedim bir daha!"
Dara məktubunu şaha oxuyan
Kəskin sözlərini edincə bəyan,
İskəndər əmr etdi: "Oynasın əlin!
Ona bir cavab yaz bundan da kəskin."
Katibi qələmlə göstərdi hünər,
Məktubu bəzədi hər çeşid gövhər.
Yazdı bu məktubu elə sənətlə,
Fələklər əlini öpdü hörmətlə.
Dəyərli məktubun başı qapandı,
Naməni alaraq qasid yollandı.
Daranın katibi məktubu açdı,
Hər rəngin nüktədən yüz gövhər saçdı.
Oxuyub gördü ki, gövhərdir hər söz,
Düzdüyü dürlərdən ayrılmayır göz.

### DARANIN MƏKTUBUNA İSKƏNDƏRİN CAVABI

"Anaram tanrını, haqq qüdrətini,
Torpaqdan yaradır hər göyərtini,
Bu uca göylərə ülviyyət saçan,
Ağıllı kimsənin gözünü açan,
Dünyanı yaradan hər şeydən qəni,
Kimsəsiz kimsənin kömək edəni,
Dünyaya insanla verdi yaraşıq,
Göyləri yerlərə bağladı artıq.
Suyun qılıncına yer oldu qılaf,
Günəş çeşməsitək parlatdı şəffaf.
Bəndəlikdən uzaq o pərvərdigar,
Onda nə pozulmaq, nə qocalmaq var.
Ona şahiddir hər gözə görünən,
Varlıqlar hissədir onun mülkündən.
Hər varlıq isbata möhkəm bir dəlil,
Dünyada bir şeyə o möhtac deyil.
Bir şeyi yaratmaq istərsən, əlbət,
Sənə də, mənə də gərəkdir alət.
O hər şey yaradır, lakin alətsiz,
İdraka bu ağlın gücü yox hərgiz.
Hər ağıl tanrıdan öyrənir bilik,
Ürəklər tilsimdir, edər bəndəlik.
Hökmü, hikmətiylə doludur cahan,
Hökmdə aşkardır, hikmətdə nihan.
Bu sadə səhradan uçuşan ruhlar
Ondan gəlmiş, yenə ona qayıdar.
Hər qəlbə, hər gözə ondandır işıq,
Mənə də, sənə də o verdi şahlıq.
Hər varlıq, hər yoxluq onun hökmündə,
O ulu tanrıdır, bir kiçik bəndə.
Bəxşişi bol olan bu pərvərdigar
Əcəbmi məni də etsə tacidar?
Söylə, ey şəhriyar, ey bəxti uca,
Anandan çatdınmı bu taxta, taca?
Sənə də şahlığı vermiş yaradan,
Hər verən şeylərə baxma ucadan,
Nemətə xor baxmaq olmaz, tacidar!
Xor baxan bəndəni sevməz bir dindar.
Dünyada sərxoş da, huşyar da olsan,
Əmrindən boynunu qaçırma bir an.
Pənahım olursa o pərvərdigar,
Əcəbmi məni də etsə tacidar?
Böyüklük etməyi bacararam mən də,
Qılınc oynadaram aslan önündə.
Qılıncla taxtü tac ala bilərəm,
Ayı da kəməndə sala bilərəm.
Cəmşid tarixini oxu bir daha,
O ayı gör necə uddu əjdaha[137].
Haman əjdahaya sonra Firidun
Əjdaha gücüylə açdı nə oyun?![138]
And olsun yer-göyü quran tanrıya





Ki, ondan bu yer-göy almışdır maya.
Tanrıdan bir kimsə tutmasa xəbər,
Demək, yox başında şüurdan əsər.
And olsun keçmişin rəhbərlərinə,
Bizim dinimizin peyğəmbərinə,
And olsun İbrahim qoyan sühüfə,
O dinçin tanrıya şükür min dəfə.
O İran xalqına əl taparsam mən,
Silərəm Zərdüştün dinini yerdən.
Nə ataş qoyaram, nə ataşgədə,
Odlar da şölədən yanar bu dərdə.
Bu közəl mərasim, bu ayin, bu yol
Ulu babalardan qalmış, əmin ol!
Bu müşkün qoxusu duyulmamaqçın
Onu çör-çöp ilə gizlətmək neçin?
Xurma ağacına kəməndi atan,
Əlbəttə, yeyəcək xurmanı asan.
O külün bostanda başı yüksəlir
Ki, gözəl rəngi var, həm saçır ətir.
Bilsə ki, mərdiliyi, qol qüvvəti var,
O zaman başını maral dik tutar.
Aslanlar içində odur ən vəhşi:
Pəncəsi itidir, kəskindir dişi.
Bir maral budu var, iki ac aslan.
Kababı kim yeyər? Ən gücü olan!
İki fil xortumu çarpışır, demək,
Bunlardan ən gücü üstün gələcək.
Mən meydan əriyəm, sən də bir kişi,
Meydanda seçilir hər mərdin işi.
Bu yoldan o zaman çəkərəm yüyən,
Ya külah qaparam, ya ölərəm mən.
Sandın səndən başqa yoxdur bir nəfər,
Ancaq bir sənsənmiş dünyada sərvər?!
Hər yarpaq altında tələş edən var,
Hər mənzil başına bir yol gedən var.
Bu müdhiş ilanla şətrənc oynama.
Qarşı çıx, hiyləylə bunca qaynama!
Öz mülkümdəm mənə iqta göstərmə.
Süheylə baratı Yəməndən vermə![139]
Qoyuna verilməz dələmə suyu,
Onda öz qanı var, görəcək bunu.
Qürurla bu qədər olma gərdənkəş,
Torpaqdan yarandın, deyilsən ataş.
Gəl burax bu kini, islaha yanaş,
Qalaydan pozulur almaz kimi daş.
Bir qab şərabın var, saxla can-başla.
Sındırarsan onu, çarpışma daşla.
Unutma, neft ilə doludur cahan,
Söyüdü qoru bu odlu tufandan.
Xoş keçdi, ələ al nuş ilə eyşi,
Xəracla cahanda şəxsin nə işi!
Biri yoxsuldan bağ əsirgəməmiş,
O biri verməmiş bağından yemiş.
Get, elə bir ov tap zəifdir məndən.

Yağ çıxmaz sənə bu aslan böyründən.
Heç mümkün deyilsə meyvəni dərmək,
Budaqdan asılmaq nəyinə gərək.
O zaman arzuna yetişərsən sən,
Körpü sala bilsən böyük dənizdən.
Bir düşün, bu qədər qürur nə gərək!
Başlayırsan əbəs baş tutmaz dilək.
Bax, gənclik nə yola çəkdi Bəhməni,
Qorx bu əjdahadan ki, dişlər səni!
Yolunu div vurar İsfəndiyartək,
Rüstəmlə döyüşə çıxasan gərək!
Divlərlə oturub dursa Süleyman,
Qalmaz barmağında üzüyü, inan![140]
Çalış bu dünyada səhv eyləmə sən,
Çox bizim kimilər yanmış səhvindən.
Özünə verdiyin hesab düz deyil,
Bu yanlış oyunu uduzdun, çəkil!
Nədir bu xam xəyal, bu xam tərpəniş?
Simurqu toruna kim sala bilmiş?
Zəncidən deyilsən daha adamcıl,
Bərbərdən igidmi çıxdın sən, ayıl!
Kin ilə döyüşə başlayınca mən
Nə qədər qan tökdüm zənci, bərbərdən.
Qayıt bu kinindən artıq, yetişər.
İnsanı incitməz azad kişilər.
Öncə sən bağladın kin mənə qarşı,
İlk səndən göründü ilanın başı.
Ordunu sazladın qan içsin deyə.
Üstümə gəlirsən basqın etməyə.
Ölkəmə salırsan min fitnə, min kin,
Atamın mülkünü almaqdır fikrin.
Mənə də gərəkdir yığaraq əsgər
Belimə bağlayım hərb üçün kəmər,
Ordumla bu dərin dənizdən aşmaq,
Qılıncımla bir qan dənizi açmaq.
Sanma mən sərxoşam, sən ayıq, huşyar,
Mənim də başımda ağlım, huşum var.
Taleyin gününü edibsə parlaq,
Mən də xoşbəxtlikdən deyiləm uzaq.
Sənə iş vermişsə köhnə ruzigar,
O işdə mənim də məharətim var.
Sənə tacın yardır, mənə qılınc yar,
Səndə tac vardırsa, məndə qılınc var!
Güvənmə taxtına sən, ey tacidar!
Hər taxtın önündə bir də tabut var.
Güvənmə ki, dağlar çəkmiş daş hasar,
Elə zənn etmə ki, qırılmaz daşlar.
Döyüş zamanında işlərkən əllər
Dağlardan toz qopar, titrər təməllər.
Bu dünya mülkünün gəlincə sonu
Asanca mənimsər axtaran onu.
Çıxarkən bir sənlik, mənlik ortaya.
Ah, necə doymasın cana bu dünya?![141]
Bilirəm, bax, budur fikrinin canı:

Tutmaz bir tərəzi iki batmanı[142].
Məni öz daşınla gəl çəkmə daha,
Bəhməni bununçun vurdu əjdaha[143].
Cavabda daş, dəniz atsan ortaya,
Dağ kimi daşımı ataram suya[144].
Mən də zirehpuşam, qılınc oynatsan,
Sülhə də razıyam, sülhə əl atsan.
Gövhərdən, qılıncdan, nəyin var, çıxar,
Mənim də bunlarda məharətim var."
Elə ki, məktubu Dara dinlədi,
Dimağı alışdı, kinlə inlədi.
Durmadan topladı qədərsiz əskər,
Daradan qalmadı geri İskəndər.
Ortaya çıxardı güclü bir ordu,
Silahdan onlara yaraşıq vurdu.
Dara anladı ki, qızmış əjdaha
Aslanın izini buraxmaz daha.
Elə bir şövkətlə qalxdı yerindən,
Dağlar da sarsıldı öz təməlindən.
Nəhayət, gəldilər qarşı-qarşıya,
Kinin qapısını açmışdı dünya.
Cəzirə ki, Musil adlı ölkədir,
Səfalı bir yerdir, xoş düşərgədir, -
Bu yerdə toqquşdu iki tacidar,
Dəhşətdən, vəhşətdən titrədi dağlar.
Çarpışan şahlardan əsər axtarsan,
İndi də o yerdə sümük taparsan.

## DARANIN İSKƏNDƏRLƏ MÜHARİBƏSİ

Ey saqi, şərabın ağzını dur aç,
Vaxtı boş keçirmə, qədəhə mey saç!
Xüsusi mey ilə xərab et bir an,
Qurtarım canımı bu xərabatdan.
Bu mavi göylər ki, daim seyr edər,
Bu günəş, bu ay ki, dolaşıb gedər,
Bunları sanma bir oyun-oyuncaq,
Sərsəri deyildir bu geniş afaq.
Pərdədə hər telin vəzifəsi var,
Bizə bu hikmətlər deyil aşikar.
Kim bilir ki, sabah nələr olacaq?
Kim sönüb gedəcək, kim sağ qalacaq?
Kimin paltarını atarlar çölə,
Kim qoyar başına tac gülə-gülə.
Yaxşıdan, yamandan xəbər verənlər
Pak, təmiz şahlardan belə nəql edər:
Çin şahı səhərə nəfəs verərkən
Ulduzu günəşə dəyişdi Ədən[145].
Toqquşma yerinə yetişdi ordu,
Qaf kimi düz iki pərgarda durdu.
Yollara töküldü dəmirdən tikan[146],
Şeypurlar coşduqca qopdu həyəcan,
Üz-üzə gəlirdi hər iki ordu,
Nə ürəkdə dinclik, nə gözdə uyğu.
Hər iki tərəfdə ordu qaynaşır,
Qaynaşma ayağa, ələ dolaşır.
Üz-üzə durdular döyüş yerində,
Döyüşə cəsarət yox heç birində.
Hamı düşünürdü bəlkə sülh olsun,
Qılınclar qınında sakit otursun.
Gənclikdən, qürurdan hər iki sərkəş
Birisi su idi, birisi atəş.
Nəhayət, şəfqətdən kin etdi zühur,
Yandı hər ürəkdə kinli bir qürur.
Elə ki, qaynadı kinli bir hiddət,
Ürəkdən büsbütün silindi şəfqət.
Davullar gurlarkən dəhşət verərək,
Təblin dodağından öpürdü fələk[147].
Sərxoş fillər ilə qızışdı meydan,
Güzgü sınıb düşdü filin alnından.
Şeypurlar qoparır aslan nərəsi,
Dimağı doyurur nayın nəfəsi.
Türk payı qopardı elə bir şivən
İgidlər coşaraq qopdu yerindən.
Zinclərin sədası elə müdhişdi,
Bəzəkli günbədi dəlib keçmişdi.
Meydanı bürüdü qanlı vurhavur,
Döyüşdən igidlər getdikcə coşur.
Sanki bir məhşərdir, yer, göy dağılır,
İsrafil şiddətlə surunu çalır.
Göylərin yolunu tutdu toz, torpaq,
Sağlığın yüyəni əllərdən uzaq.
O qədər toz qonmuş tərkə, yəHərə,
Yer göyə dönmüşdü, göy isə yerə[148].
Ciyəri yandırır atəşli səda,
Boğulur kəməndin halqaları da.
Nəfəslər göydə bir buluddur guya,
Qılınc şöləsindən yanırdı dünya.
Qılınc oynadırdı torpaqla, qanla,
Havanın dimağı dolurdu canla.
İran tacidarı səhərdən durdu,
Sazladı olduqca mükəmməl ordu.
Öncə sağ qanada bəzəklər saçdı,
Əjdaha qılınclar ağzını açdı.
Sonra da sol qolu nizama saldı,
Cəbhəyə poladdan bir dağ ucaldı.
Bir mərkəz dikəltdi cinahın gözü,
Qapandı günəşin və ayın üzü.
Bu mərkəz poladdan tökülmüş bir dağ,
Sığınan kəslərə dəmir bir sığnaq.
O yanda Rum şahı qurdu ordunu,
Sanki bal arısı şan etdi mumu.
Silah istəyənə payladı silah,
Kömək istəyənə payladı pənah.
Sağ-solu bəzədi qılınc və qalxan,
Necə ki, canlanır çəmən buluddan.
Dağtək möhkəmlətdi önü, arxanı,





Göydə səyyarətək qurdu meydanı.
Elə ki, hər tərəf sazladı ordu,
İgidlər döyüşə çox hazır durdu.
Qılınclar boyunla oynarkən artıq,
Dünyanın gözündən çəkildi işıq.
Çuxurlar qan ilə dolub daşaraq,
Qırmızı kükürdtək qızardı torpaq.
Əyri qılıncların əjdahasından
Əjdaha yuvası olmuşdu meydan.
Oxların nəhəngi yay pusqusundan
Bir yerdə durmayır, sığıyır hər an.
Qıvrım kəmənd olmuş bir ilan yenə,
Ağzını açmışdır tutsun xəzinə.
Coşduqca fillərin sərxoş nərəsi,
Tıxandı ərlərin kəskin nəfəsi.
Qılınclar o qədər boyun üzdülər,
Qalmadı boynunu dik tutan bir ər.
Ata öz oğluna bəslər ədavət,
Oğul da ataya etməz məhəbbət.
Az qaldı bayrağı qərq eyləsin qan,
Nicat çadırını yığdı dünyadan.
Yaylarda o qədər dartıldı oxlar,
Yay çəkən əllərdə kəsildi qabar.
Döyüşdən o qədər qızışdı meydan,
Qığılcım sıçradı at nallarından.
Ordu mərkəzində Daranın qəlbi
Danıdı bir aslan ürəyi kimi.
Kükrəyir, dağıdır sağ və solunu,
Hər yana işlədir Bəhmən qolunu.
Sarsılmaz qolunu atsa hər yana,
Düşür düşmən başı ayaq altına.
Hər cana çatırsa verməyir aman,
Hər başa vurursa qoparır haman.
Rumların qədərsiz töküldü qanı,
Torpağa sərildi min pəhləvanı.
Bu yanda qılıncla igid İskəndər
Qaldırdı dünyada qanlı bir məhşər.
İki əl qan tökər, çalışır, durmaz,
Hər əldə bir qılınc - kəsərli almaz.
İki əl qılıncı elə əridir
Düşmən öz canına hayıf deməyir.
Bir qılınc vurunca hər fil başına,
Salardı başını ayaq altına.
Kinini dənizə töksəydi, şəksiz,
Hər yana atəşlər saçardı dəniz.
Ağzından sanki bir aslan od saçır,
Aslan qarşısından madyanlar qaçır.
Daraya dedilər: "Bu qızmış aslan
Çox adlı igidi saldı atından.
Padşahın qəlbinə kin dolsun gərək,
Belə filgövdədən qurtulsun gərək.
Orduya əmr ver, dolaraq kinə
Hər yandan yürüşlə axsın üstünə".
Bu fikri Dara da gördü məsləhət,
Ordular dəniztək etsin hərəkət,
Hamısı sel kimi bir səmtə axsın,
İskəndər üstünə cilov buraxsın.
Daranın əmriylə ordu yer-yerdən
Qaynayıb irəli atıldı birdən.
Cilovlar parladı edərkən həmlə,
Qılınca sarıldı iki əliylə.
İskəndər görüncə elə divanı
Atdı düşmən kimi şərmi, həyanı,
Əmr etdi yerindən tərpənsin dəniz,
Hər kəs öz canını tutmasın əziz.
Düşmənin yolunu tutsun hər yandan,
Keçirsin qılıncdan, verməsin aman.
Qarınca, çibintək qaynadı meydan,
Girdi bir-birinə hər iki cahan.
O qədər ki, qılınc, ox yağdırdı qol,
Qarınca tapmadı keçməyə bir yol.
Gilə arısıtək çəkdilər neştər,
Göylərdə oxlan oxa tikdilər.
İskəndərsə haman qorxulu anda
Bir kötüktək möhkəm durdu meydanda.
Bir igid yanaşdı o filpeykərə,
Əl atdı Əhrimən kimi xəncərə,
Dərindən bir yara açdı pəhləvan,
O gənc sərv titrədi müdhiş yaradan.
Zirehi dələrək kaftandan keçdi,
İşə bax, ipəyi polad nə biçdi.
Parlayan günəşin qolu dönmədi,
O qüvvət altında bir an inlədi,
Ağrıdan azacıq dincəldi canı,
Qılıncla torpağa sərdi düşmanı.
Düşmənin gücünü ölçmək istərkən
Bundan təkan yedi qorxusuz düşmən.
Düşündü meydandan çəksin yüyəni,
Nizədən dincəlsin yorğun bədəni.
yenidən bəxt ilə olaraq həmdəm,
Durdu öz yerində möhkəmdən möhkəm.
Bu falda bir zəfər, səadət gördü,
Qolunda düşməndən çox qüvvət gördü.
Bütün qüvvətini alaraq ələ
Döyüşə qalxdı öz həmçəkisilə.
Həmlədən-həmləyə keçirdi ordu,
Su deyil, sanki qan içirdi ordu.
Döyüşdə sınanmış iranlı birdən
Rumların yolunu kəsdi hər yerdən.
Meydanda zəiflik göstərdi rumlar,
Onları edirdi əcəl giriftar.
Yenidən mərdliklə namusa doldu,
Dağ kimi yerindən tərpənməz oldu.
Himmətlə tutdular əldə bayrağı,
Qənimət almasın amansız yağı.
Zənci öz tacına düzüncə gövhər
Çin şahı taxtından düşdü dərbədər[149].
Gecənin köksündən ay doğdu parlaq

Şəfəqli güzgütək işıq saçaraq,
Bir çöldə yığıldı hər iki ordu,
Hər iki cəbhəni düşmənlik yordu.
Döyüşdən əl çəkib döndülər geri,
Yudular yaranı; tozu, qan-təri.
Hamını almışdı kədər, düşüncə
Nə zühur edəcək şəfəq sönüncə?
Saf, təmiz portağal o səhər erkən
Bir dəstə gül kimi güldü üfüqdən
Üz-üzə dayandı hər iki ordu.
Pəhləvanlar qalxıb şikargah qurdu
Qılınc, ox, kamanla uzun bir zaman
Qol gücü göstərdi uca asiman.
Yorulan ordunun saraldı rəngi.
Əl cilov itirdi, ayaq üzəngi,
Daranın iki baş sərdarı vardı.
Üzdə dost, ürəkdən çox kin tutardı.
Daranın kinindən yorulmuşdular.
Ortada bir ürək incikliyi var.
Şahı öldürməkçin oldular əlbir,
Kin ilə oturub tökdülər tədbir.
Bəzəmək istərkən qanlı bir bazar.
Gedib İskəndərə sığındı onlar:
"Daranın bizə çox etimadı var.
Tək bizə inanır qoca tacidar.
Zülmündən yanaraq etmişik tədbir,
Öldürmək fikrində olmuşuq əlbir.
Biz sabah bir həmlə edərik, bəlkə
Zülmdən qurtulsun bu məzlum ölkə.
Yerində möhkəm dur, dayan bu gecə,
Düşmənin bu səhər dönəcək heçə.
Bu səhər bayraqla çıxarkən hərbə
Qılıncdan yeyəcək böyrü bir zərbə.
Ancaq sən doğru qal bu şərtimizə,
Xəzinə ağzını geniş aç bizə!
Hər birimizi sən varlandırasan,
Qulluğumuz üçün qızıl saçasan."
Bu iki xainə rumlu hökmüran
Söz verdi, onlarla bağladı peyman.
Lakin inanmadı buna İskəndər:
Daranı öldürə bilsin xainlər.
Ancaq düşmənindən qurtulmaq üçün
Hər kəs üçün çarə aramaq mümkün.
Bu zülmü ədalət gördü hökmüran,
Gəldi xatirinə köhnə bir dastan:
"Dovşanını hər bir yerin, - məsəl var,-
Yenə də o yerin tazısı tutar."
Şahını öldürmək istəyən kəslər
Ağıllı kimsədən alınca xəbər,
İskəndərdən gücü pul almaq üçün,
Həm də ki, Daradan qurtulmaq üçün,
Şahın nemətini unutdu onlar,
Onu öldürməyə verdilər qərar.
Günəş yaqutunu oğru çalınca
Bu dünya düşmüşdü yaqut dalınca.
Məhtabı tutaraq dedilər: "Oğru,
Günəşdən gövhəri oğurlamış bu."[150]
İki dağ kimi səf çəkmişdi ordu,
Çarpışma hər iki cəbhəni yordu.
Döndülər o künü vurunca başa,
Hazırlıq görüldü gələn savaşa.

## DARANIN SƏRKƏRDƏLƏRİ TƏRƏFİNDƏN ÖLDÜRÜLMƏSİ

Ey saqi, dur, məndən bu mənliyi at!
Gəl, üzüm suyundan cahanı parlat!
Bir şərab ver, məni mənzilə salsın,
Çox könül alan var, o, kədər alsın.
Qalana cənnətdir dünyanın halı,
Tələsən adamın oddadır nalı.
Bu bəzəkli bağda iki qapı var,
Yoxdur heç birində qıfıl, bənd, açar.
Birindən gir, bağı görüncə dolaş,
O biri qapıdan çıxıb uzaqlaş.
Ağlın var, gül ilə olma həmnişin,
Çünki qalmağından deyilsən əmin.
Bu anı xoş keçir, hər şeydən vaz keç,
Gələcək və keçmiş çünki heçdir, heç.
Dünyaya gəlmədik zövqə, işrətə,
İşimiz qatlanmaq ağır zəhmətə.
Eşşəyi toylara kimdir çağıran,
Çağrılır su, odun bitdiyi zaman.
Bu gözəl dastanı yazan ravilər
Doğrular dilindən belə nəql edər:
Elə ki, gündüzün atəşi söndü,
Fələklər tüstüdən dona büründü.
Ay doğub yaraşıq verdi gecəyə,
Gözəldir aydınlıq düşsə kölgəyə.
Hər iki ordunun sabaha qədər
Kəşfiyyat qolları keşik çəkdilər.
Onların səsindən bir dəyirmantək
Bilməzdi burclar nədir dincəlmək.
"Cəbhədə dincəlim" deyə yatanlar
Fillər nərəsindən diksinib qalxar.
Vücudu zəhmətdən yorulmuş insan
Gözünü açardı yatdığı zaman.
Yalvarır, yaxarır hər iki əsgər:
Bitməsin bu gecə, olmasın səhər,
Bir qədər geciksin, uzansın zaman.
Bəlkə gec açılsın döyüşə meydan.
Unudub kinini iki tacidar
Bəlkə sübh etməyə versinlər qərar.
Al günəş tacını qoyduğu zaman,
Elə ki, ayrıldı qaralıq ağdan,
İskəndər və Dara gəldi meydana.
Ürəklə düşsünlər dostluq ardına.
Şəfqətlə, hörmətlə edib barışıq,





Xeyirli işə qol qoysunlar artıq.
Bu işdə istədi tədbir və çara,
Kimsədən düz cavab almadı Dara.
Sülh üçün bir nəfər olmadı rəhbər,
Dedilər: bu işi qılınc həll edər.
İranlı rumludan acizdir məgər?
Onlar bu savaşda qazanmaz zəfər.
Səhərki döyüşlə qızışar meydan,
Rumludan salamat qoymarıq bir can".
Daranı aldatdı belə sözlərlə,
Birisi hiyləylə, biri hünərlə.
Daranın düşməni iki sərkərdə
Buna səy edirdi hər an, hər yerdə.
İskəndər düşündü nə tədbir qursun
Ki, Dara önündə dağ kimi dursun.
O iki sərdarı tutdu nəzərdə,
Əz igidliyinə güvəndi bir də.
Rum əsgərlərinə dedi İskəndər:
"Bu qatı mərkəzdə olunca səhər
Ər kimi çalışmaq, çarpışmaq gərək,
Canı dişə yığıb igidlik etmək.
Bu dünya bizimdir çalsaq qələbə,
Daranın olacaq yeyərsək zərbə.
Deyirlər insana gizlidir məhşər,
O məhşər görünər bizə bu səhər".
Hər iki ordu bu düşüncələrlə
Gecəni keçirdi dərin kədərlə.
Dünyaya pəncərə açınca ziya
Bambaşqa bir oyun başladı dünya.
Bir ovuc qığılcım oldu bir ataş,
Bir komac kimiydi parlayan günəş.
Dağ kimi tərpəndi hər iki ordu,
Dünyanın ürəyi titrəyib durdu.
Firidun və Bəhmən nəvəsi əjdər
Yuxudan səhərlə qalxdı bərabər.
Ordunu sazladı, düzəltdi meydan,
Parladı ox, kaman, qılınc və qalxan.
Yüzlərcə polad dağ dikəltdi onda,
Xəzinə dayandı onun altında.
Sağ qolun işləri bitdikdən sonra
Sol qolu çevirdi polad hasara.
Cinahlar kök atdı yerə havadan,
Yer kimi çarmıxa çəkildi meydan.
Mərkəzdə durmuşdu cahan günəşi,
Başının üstündə Kəyan dirəfşi.
Dünyanı yandıran qılıncı məgər
Bu günçün saxlardı böyük İskəndər!
Yağdıran buludtək meydan dopdolu,
Yaydan ox yağırdı, qılıncdan dolu.
Ordunun qolları göyə dayandı,
Atların dırnağı qana boyandı.
Ən seçmə igidlər ordudan bir-bir
Sağ-sola keçməyə alırdı əmr.
Əmrlə inamsız kəslər hər yerdən
Tərpənib, sol qolda tutdular məskən.
Kimin ki, əmindi sədaqətində
Saxladı mərkəzdə - öz xidmətində.
Onları ordunun qəlbinə aldı,
Tökmə bir dağ kimi göyə ucaldı.
Qopunca nərələr iki ordudan,
Qiyamət qopmuş zənn etdi asiman.
Təbillər gurlayıb verdi səs-səsə,
Qanlı əjdahalar başladı rəqsə.
Kərənay səsindən tutuldu qulaq,
Qorxudan titrədi bütün əl-əyaq.
Filə minənlərin bağırtısından
Nildəki nəhənglər qopardı fəğan.
Şeypurun səsindən qopdu ürəklər,
Bağırlar yarıldı, düşdü göbəklər.
İçi boş təbillər coşduqca coşar,
Zülmətlər içindən atılır oxlar,
Düşmənin köksünə nizələr sancar,
Zirehdə, geyimdə pəncərə açar.
O qədər yaylım ox yağdı hər yandan
Bulud yağmurunu atdı başından.
İndi o yaylım ox düşsə zəminə
Bulud qan yağdırar yağış yerinə,
Naylardan qopan o müdhiş gurultu
Eşidən kimsəyə verirdi qorxu.
Qarışıq səslərlə hayqırdıqca can
Çaxmaq daşından da çıxarırdı qan.
İki qan dənizi çalxandı birdən,
Ataş dalğaları yüksəldi yerdən.
Bürüdü hər yeri tufan ataşi,
Ucalan toz-torpaq tutdu günəşi.
Yayların bir daha qaşı çatıldı,
Oxlar ilan kimi coşub atıldı.
Civətək parlayan polad qılıncdan
Civətək qaçırdı hər yerdə insan.
Gövdələr əridən polad ox ilə
Dağların gövdəsi titrədi belə.
Nizələr ucundan dövr edən fələk
Seyrindən qalaraq oldu topaltək.
Toppuzlar o qədər çaxmışdı təpik
Yerin çəmdəyində qalmadı gəmik.
O qədər sancılmış boğazlara ox,
Artıq boğazlarda nəfəs yolu yox.
Ox oxun içinə girmiş tikantək,
Qalxandan bəzənib yer gülüstantək.
Qaçanlar üzünə qiyamət qopmuş,
Nə yol var qaçmağa, nə də qurtuluş.
Atılar ataraq sonuncu oxu,
Atmışdır kamanı, oxu, oxluğu.
Bir sallaxxanadır qanlı bucaqlar,
Çəmdəklə yan-yana ucalmış dağlar.
Yalnız öz canının hayında hər kəs,
Ölən yoldaşını yada gətirməz.
Meydanda yox idi matəm saxlayan,





Nə bir qara geyən, nə bir ağlayan.
Hər sözü ustası gözəl toxuyur:
"El ilə qara gün bayramdır, toydur".
Əcəl pəncəsində ölsə bir nəfər
Gözündən yaş tökər ona bir şəhər.
Bütün bir şəhərçin saxlayaraq yas
Ondan uzaqlara kimsə ağlamaz.
İnsan cəmdəyilə dolmuşdur sağ-sol,
Döyüşçülər üçün qapanmışdı yol.
O qan Dəcləsini günəş almışdı,
Suya neylufərtək qayıq salmışdı.
Həmin vuruşmada böyük İskəndər
Günəş çeşməsində saçmışdı zəfər.
Daranın qılıncı saldıqca şölə
Qızırdı daşların ürəyi belə.
Elə ki soxuldu ordu orduya
Məhşəri gözüylə gördü bu dünya.
Dava meydanına yayıldı əsgər,
Daranın canına var idi xətər.
Ordular döyüşə girdiyi zaman
Olduqca genəldi darısqal meydan.
Yanında kimsə yox, yalnızdı Dara,
Onunla etməyir kimsə müdara.
İki sərxoş sərdar fil kimi coşdu,
Filbədən Daranın üstünə qoşdu, -
Böyründən bir yara vurdular ona,
Laləzar oldu yer, boyandı qana.
Tacidar yıxıldı dərin yaradan,
Sanki bir qiyamət kəsildi cahan.
Bir ağac yıxıldı Kəyan bağından
Yaralı bədəni qanına qəltan.
Dərdə tab gətirməz incə olanlar,
Yel ilə çırağın nə dostluğu var?
O iki qantökən, o iki xain
Qaçdılar yanına tez İskəndərin.
Dedilər: "Ataşə yaxdıq düşmanı,
Taleyin uğrunda töküldü qanı.
İşini bitirdik, vurduq bir yara,
Gözündə cahanı eylədik qara.
İstərsən gözünlə gəl gör bu halı,
Qanıyla boyansın atının nalı.
Hünərlə öldürdük sizin düşməni,
İndi sən yerinə yetir və dəni.
Bizə vəd etmişdin ağır xəzinə,
Doğru qal, vəfa et indi əhdinə."
İskəndər bildi ki, bu iki sərdar
Şah qanı tökməyə olmuş həvəskar.
Verdiyi peymana oldu peşiman
Həyadan bir şölə çıxdı canından.
Adamın yaşıdı ölən zamanda
Həyat ümidindən iz qalmaz onda.
Dedi: "Harda batmış qana tacidar,
Kəyan dövlətini bəzəyən sərdar?"
Hər iki qantökən düşərək önə,
Yol göstərdilər öz azğın zülmünə.
Daranın düşdüyü yerə gəldilər,
Yanında dostlardan yoxdu bir nəfər.
Vücudu bulaşmış torpağa, qana,
O Kəyan külahı düşmüş bir yana.
Olmuş qarıncaya Süleyman əsir,
Tikanlı bir arı bir fili yeyir.
Bəhmənin qoluna sarılmış ilan,
Düşmüş İsfəndiyar tunc çardağından[151].
Firidun baharı, Cəmin bağçası
Xəzana uğramış, başlanmış yası.
Keyqubad nəslinin vücudunu, bax,
Gör necə dağıdır yel yarpaq-yarpaq.
İskəndər tələsik endi atından,
Daranın önündə durdu pərişan.
Əmr etdi o xain sərkərdələri,
Xaricə meyl edən iki rəhbəri
Möhkəm saxlasınlar, sonra İskəndər
Yerindən tərpəndi üzündə kədər.
Sürətlə yanaşdı xəstəyə sarı,
Kəyan geyimindən açdı bağları.
Başını şahanə dizinə qoydu,
Gecəni işıqlı gündüzə qoydu.
Yuxudan gözünü açdığı zaman
Dedi: "Qalx bu qara qanlı torpaqdan!
Burax ki, solmada qurtuluş bağım.
Qaralmaq üzrədir işıq - çırağım.
Böyrümü, bax, necə yırtmış bu dövran!
Bağrımın altında böyrümdür pünhan.
Pəhləvan, ey başım üstünə gələn!
Qoru öz böyrünü mənim böyrümdən.
Bu böyrüm buludtək sökülsə belə,
Qılıncın acısı getməmiş hələ.
Padşahlar başını burax, qaldırma,
Bu dövran qırmışdır məni, sən qırma!
O hansı əldir ki, uzanır mənə,
Kəyanın tacıyla oynayır yenə.
Əl saxla, qarşında Daradır duran,
Günəşdən aydındır bu, deyil pünhan.
Günəşim saralıb düşüncə dərdə,
Üzümə çəkərsən lacivərd pərdə,
Sərvi başaşağı görmə şərməndə,
Elə bir padişah, belə bir bəndə!
Xəstəyəm, zəhmətdən qıl məni azad,
Haqqın rəhmətiylə məni eylə yad.
Dünyanın taxtında mənəm tacidar,
Yerimdən tərpətsən məni, yer sarsar.
Dadlı bir yuxum var, toxunma, burax,
Odumu göy alsın, suyumu torpaq!
Taxtından çevirmə yatan bir başı,
İnlətmə, bu dünya tökər göz yaşı!
Əcəlim yetişmək üzrədir, dayan!
Məni öz halıma burax bir zaman!
Fikrin tac çalmaqsa mənim başımdan,





Azacıq aman ver, qoy çıxsın bu can!
Bu dünya mülkündən açınca kəmər
Başım da, tacım da getsə, yox zərər".
İskəndər ağladı: "Aman, tacidar,
Nökərin İskəndər mənəm, şəhriyar!
İstəməzdim görüm torpaqda səni,
Öz qanına qəltan olan bədəni.
Nə etmək, bir işdir olmuş dünyada
Təəssüf verərmi bu işdə fayda?
Başını yenidən qaldırsan əgər,
Kiçiklik edərdi sənə İskəndər.
Heyhat, mən qocaman dənizlər aşdım,
Köksümə qədər al qana bulaşdım.
Təəssüf, azmadım bu yollarda mən,
Atımın dırnağı qopmadı nədən?
Bu ağır günləri görməyəydim mən,
Ah, eşitməyəydim Dara inlərkən.
And olsun hər qəlbi bilən sərrafa.
Daraya ürəkdən istərəm şəfa.
Bir şüşə daş ilə qırılsa naçar,
Çarə qapısına tapılmaz açar.
Əfsus, İsfəndiyar nəslindən sənsiz
Mülkün yadigarı sən idin yalnız.
Nə olur, mənə də ölüm qoşaydı,
İskəndər və Dara qucaqlaşaydı.
Nə etmək, istəklə gəlməyir əcəl,
Məzara girilməz ölümdən əvvəl.
Padşahın bir tükü gözümdə, inan,
Daha qiymətlidir yüzlərcə tacdan.
Bu dərin yaraya bilsəydim çara,
Edərdim, sağalsın deyə bu yara.
Nəyə lazım bu taxt, bu tac, bu şöhrət,
Darasız qaldı bu möhtəşəm dövlət.
Mən bu taxta, taca ağlayaram qan,
Ayırmış Daranı taxtü tacından.
Yox olsun dünyadan elə gülüstan,
Bağbanı xəstədir, acı tikandan.
Daranı öldürən dünyaya nifrət,
Gündüzkən öldürür, verməyir fürsət.
Bir çarə etməyə imkan yox məndə,
Bu gənc sərvə gərək ağlayam mən də.
Anlat ki, istəyin, tədbirin nədir?
Qorxunuz kimdəndir, ümid kimdədir?
Söylə ki, hər sözün mənə bir fərman.
İtaət etməyə bağlaram peyman".
Dara hiss edincə bu dost nəfəsi,
Açdı gözlərini, şahanə səsi
Şəfqətlə ucaldı: "Ey uca baxtım,
Tək sənə yaraşır bu tacım, taxtım.
Sorma bir ölüyə mən indi nəyəm?
Xəzanə tutulmuş ölgün çiçəyəm!
Hər kəsin şərbəti buzla duruldu,
Mənim şərbətimsə yalnız buz oldu.
Varlığım qərq olmuş qan dənizinə,
İçərim susuzdan alışır yenə.
Buluddan şığıyan bir şimşəyəm mən,
Dodağım qurudur, sudadır bədən.
Bu kuzə yanından sınıqsa bir az,
Mumla, yapışqanla sağaltmaq olmaz.
Bu dünya eyləyir qarət hər yeri,
Birisi gətirir, alır o biri.
Nə bu gün yaşayan bu gün əmindir
Nə köçüb qurtulan, heyhat, çətindir!
Gör mənim günümü, haqqa doğru qal,
Qorx belə bir gündən, məndən ibrət al!
Sözlərimi anıb dinləsən məni,
Mənim kimi etməz bu fələk səni.
Bəhməndən mən igid deyiləm daha,
Bir aman vermədi ona əjdaha.
Ya da igidəmmi İsfəndiyardan?
Dünya zərbəsindən qurtarmadı can.
Nəslimə əzəldən ölümdür qismət,
Öldürən bu əmrə verir şəhadət.
Olsun yeni taxtın qoy səninçin xoş,
Mənimsə balıncım qalacaqdır boş.
Mənimçin ağlamaq lazım gəlirkən
Sorursan qəlbimin istəyini sən.
Könlümdə sevimli üç istəyim var:
Üçü də şahanə bəxtinə yarar:
Birinci - günahsız ölümə görə
Rəftar etməlisən ədalət üzrə.
İkinci - sən Kəyan taxtını alsan
Ona heç bir zaman yetirmə ziyan.
Bu kinin toxmunu İranda əkmə,
Kəyanın nəslinə xətimə çəkmə!
Üçüncü - toxunma hərəmxanəmə,
Saxla hörmətini, təhqir eyləmə!
Rövşənək qızımdır, olduqca göyçək,
Əlimdə bəslənmiş bu gözəl mələk.
Öz süfrə yoldaşın etməklə ucalt,
Süfrəyə incilər verir şən həyat,
Könlünü çevirmə Rövşənəyimdən,
Təbii, işıqla günəş olur şən"[153].
İskəndər söz verdi, Dara qaş çatdı,
Söz verən qalxarkən söyləyən yatdı.
Gecənin gözünə qaranlıq axdı,
Bağdadı Kaxsız və Kərxsiz buraxdı[154].
Kəyanın ağacı düşdü meyvədən,
Oldu İsfəndiyar zirehi kəfən.
Dünyadan al günəş qanad çəkincə
Yaqut içdi, şəvə daldı sevincə[155].
Böyük Dara üçün böyük İskəndər
Ağladı axşamdan sabaha qədər.
Özünə ağlardı görürkən onu,
Bilirdi belə bir ölümdür sonu.
Əblaq atlı səhər gəlib üfüqdən
Axuru çəməndə yerləşdirirkən
İskəndər əmr etdi: Daranı artıq,





Daxmaya qoymaqçın olsun hazırlıq!
Günbədi daş qala, taxtı qızıldan
Qaynıdı ona bir müəyyən məkan.
Türbəsi bitincə bitdi hər zəhmət,
Dara zəhmətindən oldular rahət.
Bədən qəfəsində nə qədər can var,
Elə bir igidə hörmət var, şan var,
Bədəndən çıxınca dəyərli cövhər,
Ona öz qadını arxa çevirər.
Qorxunc bir küləkdən sönərsə çıraq,
Nə fərqi, köşk olsun yeri, ya torpaq.
Göydə ol, yerdə ol, fərqi yox bunun,
Torpaqsan, yenə də torpaqdır sonun.
Şor sudan torpağa düşərsə balıq,
Ölüncə qarınca yemidir artıq.
Dünya keçidinin qaydası budur,
Gəldinsə dayanma, köçmək doğrudur.
Birini ucaldar, atar ortaya,
Birinə "məclisdən qalx" deyər dünya.
Göy günbəz altında gəl qurma büsat,
Kəhrəba qələdə yaramaz nişat![157]
Üzünü kəhrəba kimi saraldar,
Əlbəsən lacivərd bir rəngə çalar[158].
Aslanlar şəhrinə düşən bir ceyran
Qorxunc bir ölümü gözlər hər zaman.
Köçməyə quş kimi qanad aç göyə,
Şərabla məst olma "şən yerdir" deyə.
İldırımtək şığı, bu dünyanı yax,
Ancaq bu dünyada durma, ol uzaq!
Pərvanə, səməndər "od" deyə gedər,
Birisi yorğalar, biri iməklər.
Arpanın yerinə çöp yedi eşşək,
Öldü sahibi də eşşək öləntək.
Bir dövlət şahıdır, ya şah dövləti,
Bir zəhmət yoludur və yol zəhməti.
Kim bilir bu köhnə, bu qoca dünya
Nələr gizlətmişdir mağarasında.
Köhnə bir çuvaldır bu qat-qat torpaq,
Xəzinə sevməyir səs-küy qoparmaq.
Hər yeni kisədə qızıl səs verər,
Yeni küp dolduqca xoş nəfəs verər.
Kim bilir bu divlər yurduna dövran
Nə tarix yazmışdır yaxşı, yamandan?
Nə aqil kəslərlə oynamış oyun?
Nə dikbaş kəslərdən qoparmış boyun?
Bu fələk səninlə deyildir canbir,
Tikdiyi libaslar iki rənglidir.
Gah səni firiştə kimi yüksəldir,
Gah bağlar qolunu divlərlə əlbir.
Səni bir çörəklə anmaz gecələr,
Bir qoğal bağışlar göyə hər səhər.
Bu yeddi dəyirman başında neçin
Boynunu bükürsən bir arpa üçün?
Xızrtək belə bir ruzini gəl at.

Süd, xurma nə gərək, var abi-həyat!
Bu vəhşi, yırtıcı, divxislət insan
Səmimi dost deyil, uzaq ol ondan!
Hər maral ovçunun zülmündən qaçar,
Yırtıcı vəhşidir hələ insanlar.
Çöldə şux bir ceyran düşməyir ələ,
İnsandan sığınır dağa, köhülə.
Aslan ki, ormanda etmişdir məskən,
Qorxaraq gizlənmiş insan şərindən.
İnsanda insanlıq öləndən bəri
İtmiş insanlığın parlaq gövhəri.
İnsanlıq nəqşini oxusan bir-bir,
Bilərsən bugünkü insanlıq nadir.
Bəbəyin qapağı neçin qaradır?
İnsanlıq ölmüşdür, matəm saxlayır.
Nizami, susmağa adət et, ancaq,
Deyilməz sözləri danışma, burax!
Sən də kəs səsini, danışma daha,
Yat, ya da pambıqla qulağın tıxa!
Lacivərd fələkdən ibrət al barı.
Al ilə aldır bu, sarıyla sarı.
Yüz rəngə boyanar gecələr baxsan,
Bahartək gündüzə qurar gülüstan.
Günəşdən bir çeşmə doğunca səhər,
O da bir çeşmənin rənginə girər.

## İSKƏNDƏRİN İRAN BAŞÇILARI İLƏ ƏHD-PEYMAN BAĞLAMASI

O meynə qanını, ey saqi, tez dur,
Od almış xəz kimi beynimə doldur!
Etsin mey özümü unudan kimi,
İki məğz yaratsın mənə dan kimi[159].
Ey dövlət, hardasan, məni sevindir,
Mehdi qapısında taxtını endir[160].
Mehdi hüzuruna endiyin zaman
Bir salam gətir o, uca dərgahdan.
Bu dövlət onunçun sənə vermiş baxt
Ki, təndən yaraşıq tapsın tacü taxt.
Səninlə insanın üzü parıldar,
Bu dünya tikməmiş sən kimi paltar.
Tanrının adıyla doğan peykərsən,
Gövhərlər içində vahid gövhərsən.
Əlinə cilovu tapşırmaq olur,
Bizdəndir hər zəfər, sən mərdanə dur!
Göstər ki, hardadır qapın, bazarın
Ki, olum hər zaman mən tələbkarın.
Bilirəm, ey dövlət, tutmuşam soraq,
Qapındır şəhriyar qapısı ancaq.
Hər yerdə olsan da edərəm xidmət,
Hər zaman bəslərəm səmimi hörmət.
Odur ki, söyləyir ağıllı bir ər:
- Bu gövhər satana dövlətdir gövhər.
Doğrudur, belə bir gövhəri ələ

Keçirmək mümkündür yalnız dövlətlə.
İskəndərdə vardı ağıl və tədbir,
Dövlətin gücüylə oldu cahangir.
Ona olmasaydı rəhbər dövlət, baxt,
Olmazdı düşmənə qalib heç bir vaxt.
Dövlətə pərəstiş edən bir nəfər
Dövlət pərgarını belə nəqş edər:
Yaranın ulduzu olunca nihan
İskəndərə qaldı bütün bu cahan.
Daraya mal olan təzə və köhnə,
Heç saya gəlməyən dolğun xəzinə.
Taparaq onları araşdırdılar,
Dənizdən dənizə quraşdırdılar.
O qədər tacü taxt və çadır vardı,
Onlara ölçülər, çəkilər dardı.
O qədər gövhər var, hesabdar belə
Nə barmaqla sayar, nə də ürəklə.
Tabaqlar, sinilər, büllurlu, zərrin,
Nalları söküldü yük çəkənlərin.
Cins ərəb atları - yəhəri qızıl,
Xəta qulamları - kəməri qızıl.
Qədərsiz şahanə paltar və qumaş,
Minlərcə lök dəvə, yükləri daş-qaş.
Paltarın, silahın sayı yox, sayan
Hesaba vurmağa tapmadı imkan.
Misalı olmayan əntiq-bahalı
Şeylər var xüsusi xəzinə malı.
Xəznədə nə qədər qızıl-gümüş var,
İskəndər adına sikkə vurdular.
O qədər xəzinə keçdi əlinə,
Oldu gövhər kimi yanan xəzinə.
Gövhərlə parladı qara ürəklər,
Şəbçıraq kəlməsi bundanmış məgər?!
İşıqdan xəzinə xoşlanmaz deyə,
Zülmətdə gedilir hər xəzinəyə.
Neçin bəs xəzinə tapanın üzü
Günəştək parlaqdır şadlıqdan gözü?
Torpaqsan, gərəkdir olsun xəzinən.
Sərvətsiz torpağı olarmı sevən?
Kişiyə sərvətdir verən yüksəliş,
Dünyada onunla doğrulur hər iş.
Qızıl bir meyvədir, zəfəran saçar,
Zəfəran kimi də qəlbini açar.
Məğribdə yaşayan hər qara zənci
O sarı qızıldan tapmış sevinci.
İskəndər gördü ki, bunca xəzinə
Zəhmətsiz olaraq keçdi əlinə.
Dərgaha ən sadiq hər bir nəfərə, -
Böyüyə, kiçiyə, yoxsul kəslərə
Var-dövlət verərək bəxtiyar etdi, .
Dünyaya özünü hökmdar etdi.
İrana qasidlər edərək rəvan,
Dedi ki, dönməsin kimsə qapımdan.
İstəsən ki, başın qalsın səlamət,
Qapımda baş əyib elə itaət.
Bəxşişə, şəfqətə hüdud olmayan
Bu yerdə hər kişi tapar dövlət, şan.
İran başçıları axdı hər yerdən
Bu xeyirli işdən ürəkləri şən.
Şəhriyar qəlbindən tutdular xəbər,
Sözündə mətindir böyük İskəndər.
Elliklə yollara çıxdılar daha,
Sevinclə axdılar uca dərgaha.
Bu gəliş xoş gəldi şaha, onlara,
Ordunun pənahı pəhləvanlara.
Peymanlar bağlandı, söz verdi gerçək:
Kimsənin rütbəsi əksilməyəcək.
Xəzinə açıldı xalqın üzünə,
Verdi hər birinə gövhər, xəzinə.
Hər kimin nə qədər vardı sərvəti,
İkiqat çoxaldı varı, dövləti.
Hər şəxsin işini aşikar etdi,
Yatanı oyatdı, bəxtiyar etdi.
İranlı o açıq əli görüncə
İtaət edərək daldı sevincə.
Alnını sürtərək torpağa, yerə,
Külahı ucaltdı uca göylərə.
Dedilər: "Eşq olsun, şəhriyar, sənə,
Hər zaman yar olsun ruzigar sənə!
Haqqındır Cəmşidin taxtı, xəracı,
Öpər ayağını şahların tacı.
Yeni şahımızsan, getdi o gedən,
Şah nədir? Bizlərə Keyxosrov sənsən!
Kim boyun qaçırar sənin əmrindən?
Çəkmənin altıdır bu baş, bu bədən."
Şah gördü bir neçə xoş tədbir daha,
İranlı itaət elədi şaha.
O ulduz şövkətli bəzmə hər yerdən,
Yığıncaq toplandı yeddi kişvərdən.
Əmr etdi: qılınc, təşt gəlsin meydana!
Qanlılar çəkilsin taxt ayağına!
Başını dik tutan iki sərvəri,
Boynuna həmayil keçirənləri
Qəhr ilə boyayıb al-əlvan qana,
Kəndirdən həmayil vursun boynuna.
Onlara verilən böyük və dələr,
Qızıl, gümüş, inci, cavahir, gövhər
Məclisə töküldü xəzinəsindən,
Şah baş qaçırmadı öz vədəsindən.
Sonra da ölümlə eylədi təhqir.
Tez dara çəkdirdi boynunda kəndir.
Ordunun içində carçı çəkdi car:
"Daranın qatili bunlardır, bunlar!
Hər xain işlərsə belə xəyanət
İşinin cəzası budur nəhayət.
Ağanı öldürən bəndəni, zinhar,
Hansı bir ağıllı kimsə bağışlar?"
Bu halı görüncə şəhərli, ordu





İskəndər ədlinə təhsin oxudu.
Adil olduğunu yəqin etdilər.
Əmrinə yer-göydən bağlandı kəmər.
Yığıldı məclisə ağıllı kəslər,
Ordan uzaq olsun bəd, yaman gözlər.
Üz-üzə səf çəkdi hər iki ordu,
Oturan kimsələr ayağa durdu.
Sıx kəmər bağlamış kəmərbəstələr,
Kəmərlər sanki bir halqadan keçər.
Padişah yürütdü elə siyasət,
Hər candan qaldı bir qurumuş surət.
Sanki bir surətdən bəzənmiş divar,
Ruh uçmuş, yalnız bir quru cəsəd var.
İranı, Daranı yenən İskəndər
Məclisdə şam kimi oldu cilvəgər.
Dəyərli kəslərə hər gün yanaşdı,
Hər kəsin ağlınca bir söhbət açdı.
İgid Fəribərzi tez dəvət etdi,
Çox hörmət göstərdi, məhəbbət etdi.
"Ey qoca pəhləvan, - söylədi ona, -
Başın kölgə salmış öz ayağına[161].
Dünyada illərcə ömür sürdün sən,
Bixəbər deyilsən dünya işindən.
Gördün ki, zülmdür Dara ayini,
Mən kimi suçsuzla bağlarkən kini.
Dünyanın sirrini bilirkən, neçin
Daradan öyüdü sən əsirgədin?
Gənclik hər kişini coşduran zaman
Qocanın susması deyilmi nöqsan?"
Şahın hiddətini görüb dinləyən
Yağlı bir dil ilə söz açdı birdən.
Təzimdən belini əydi kamantək,
Saralıb sifəti lap zəfərantək.
Sözlə silahlandı, yayı açaraq,
Qutudan oxları bir bir saçaraq,
Öncə İskəndəri çox öydü belə:
"Qol-boyun olsun şah öz diləyilə!
Dünyanın sərvəri olsun kamikar,
Ömründən kam alsın uca şəhriyar!
Gənc başın sevinclə ucalsın hər an,
Çəkmənin altında sürünsün düşman.
Bu qoca nəsihət etdi nə qədər,
O kinli qəlbinə etmədi əsər.
Ona çox göstərdi işıqlı çıraq,
Bunlar da vermədi bir fayda ancaq.
Tacü taxt verdiyi zaman İskəndər
Tədbirsiz bir Dara nə edə bilər?
Bir başı ucaltmaq istərsə dövran
Kəməndə düşəcək boyun ucaldan.
Bir qoca eşşəkdən yıxıldı hinddə,
Ölənin oğluysa varlandı Çində.
Sel gəlib bir arxı pozarsa əgər,
Su axıb başqa bir çaya tökülər.
Sənə xəzinələr verərkən dövran
İncimə düşmənin yoxsulluğundan.
Azadə bir şəhsan, hələ gənc ikən
Çalğını, qədəhi buraxma əldən.
İstəyə gənclikla mümkündür çatmaq.
Qocalıq gəldimi, axtar bir bucaq.
Qocalıq çağında çərxin inadı
Cəmşidə, Zöhhaka nələr qurmadı?
Padşaha qocalıq gəldimi, bişəkk,
Pərəstiş edənlər üz döndərəcək.
Əsran duyandır, seçər hər zaman
Yaxşını yamandan, dostu düşmandan.
Görüncə insanı tanıyandır bu,
Hər kəsin qəlbinə çökəcək qorxu.
Yıxmağa birlikdə edərlər tədbir,
Deyərlər mənfəət verən deyildir.
Alət olmaq üçün istəklərinə
Gənc bir şah qoyarlar onun yerinə.
Onunçun Keyxosrov, həm də Keyqubad
Şahlığı etmədi qocalıqda yad.
Şahlığı başqa bir şaha tərk etdi.
Əlbürzün yolunu tutaraq getdi.
Yeməkdən, içməkdən nəşə aldılar,
Zəhərli qılıncı salim qaldılar".
Şah gördü Kəyandan yadigar olan
Yaxşını, yamanı seçir hər zaman.
Yaxşını, yamanı seçir, ayıqdır,
Döyüşdə sınanmış, sözü açıqdır.
İskəndər bir daha sordu o pirdən:
"Düşməni döyüşdə nə şeydir yenən?
Nə şeydir ordunu mətin saxlayan?
Nə şeydir ordunu qorxuya salan?"
Davada sınanmış qoca namidar
Dedi: "O pəhləvan olur bəxtiyar
Ki, səntək padşahın ordusundadır,
Səninlə özünü bir ordu sanır.
Uca fərmanınla bu zəif torpaq
Səninçin bir möhkəm qələ quracaq.
Eşitdim bir keçmiş döyüşçüdən mən:
Ürək qüvvətlidir can qüvvətindən.
Şahım, ordu çəkmək cəsarət istər,
Heç aciz qalarmı igid hünərvər?
Ordunu meydana çəkərkən gərək
Padişah ummasın ondan bir kömək.
Mətanət sənindir, kömək tanrıdan,
Bunlardır ordunu mətin saxlayan.
Düşməni yenərkən unutma bunu:
Bağlama düşmənin qaçmaq yolunu..
Ümidin qırılsa, ürəkdən çalış,
Mərdin qulağını buran olmamış.
Uğurlu zamanda zəfər gözləyən
Düşmən qorxusunu silsin könüldən.
Zal oğlu söyləmiş mərd Fəramərzə:
- Könlünü qırma, sal Əlbürzə lərzə.
Bəhmənə söyləmiş həm İsfəndiyar:

- Qəlbini qırmayan bir ordu qırar.
Çünki öz qəlbini qırmışdı Dara.
Qanını qorxaqlıq tökdü daşlara.
Qorxulu ürəklə meydana girdi,
Lakin qorxusunu o gizlədirdi.
Qəlbinə bir işıq salmadı dövlət,
Oldu bu döyüşdə torpağa qismət."
İskəndər yenidən soruşdu ondan:
"Ey illər yaşamış qoca pəhləvan,
Eşitdim, Zal oğlu atın belində
Tək həmlə edərmiş dava çölündə.
Özünü orduya vurduğu zaman
Qaçardı ordular qarşı durmadan.
Səbəb nə, kəskin bir qılıncdan belə
Qorxaraq bir ordu dağılır çölə?"
Gözəlcə bir cavab verdi pəhləvan:
"Söylərkən dilimiz dönər çox zaman[162],
Doğrudur, Rüstəmin qurduğu tədbir
Ən igid ərləri dənlərdi bir-bir,
Başçılar düşüncə qara torpağa
Ordu da qorxaraq başlar qaçmağa.
Kim ki təkbaşına bir ordu yenər,
Belə bir tədbirlə qazanar zəfər.
Doğrusu inanmaz buna bir insan,
Böyük ordu qaçsın tək bir atlıdan."
İskəndər yenə də soruşdu ondan:
"Bu sirri aç mənə, qoca pəhləvan,
Neçin Fəramərzi öldürdü Bəhmən?
Qanına boyadı o mərdi nədən?
Etməsin deyə bu ocağa zərər,
Nəsihət vermədi neçin möbidlər?"
Belə cavab verdi sınaqlı kişi:
"Bəhmən əjdahatək gördü bu işi.
Azdırdı yolundan fələk Bəhməni,
Əjdahanın ağzı oldu vətəni.
Ağaca baltanı vurdu pəhləvan,
Ayrıldı tacından, qızıl taxtından.
Ayağı batmışdı bu qədər qana.
Səadət gülməzdi belə insana".
Necə ki, küləkdən bir yarpaq titrər,
Bu sözdən titrədi, əsdi İskəndər.
"Bu körpü asanca keçilməz" dedi.
Daranın qanından dəhşətə gəldi.
Gövhər xəznəsindən qoca pəhləvan
İstədi bəndləri açsın durmadan.
Anlatsın dünyanın bu gedişindən.
Cahangirə layiq hər bir işindən.
Padşahı bir qədər öydükdən sonra,
Pəhləvan ərz etdi o tacidara:
"Bu dünyanın mülkü bənzər bir bağa,
Əlini bərk vurma kövrək budağa.
Bu təzə tarixdən köhnəyə qədər
Kim qalmışdır versin doğru bir xəbər?
Hanı Rüstəmi-Zal, Simurq ilə Sam,
Firiduni-Fərhəng, o Cəmşid və cam?
Yer yedi, keçmədi çox zaman belə,
Yeməkdən qarnı, bax, doymamış hələ.
Köçdülər, bu növbət yetəcək bizə,
Zəncirtək bağlıyıq bir-birimizə.
Dörd tağ altında beş növbət nə gərək?
Şeşdərsiz olurmu bu doqquz fələk?[163]
Bu dünya sənindir, ol ona dayaq,
Düşmənlər yatarkən oyaq ol, oyaq!
Başını qorxusuz dünyadan qoru,
Çəkin o kəsdən ki, bilməyir qorxu,
Uzaq ol bir yol ki, ziyan gətirir,
Bulaşıq bir yola güman gətirir.
Diləkçin kim köynək geysə tərsinə,
Duayla avanda çevirər yenə[164].
Səni də tərs olan hər əyri yoldan,
Dua et, düz yola qaytarsın yəzdan.
Qəlbini çalmasın bu mal, bu dövlət,
Azı bir zillətdir, çoxu fəlakət.
Ağıllı kimsə yol göstərmiş sana,
Malını bənzətmiş candakı qana.
Zəiflik çoxalar qan olanda az,
Qan çox olan zaman tutular boğaz.
Hər yerdə ki, dövlət, sərvət artmışdır,
Üstündə qara bir ilan yatmışdır.
Bəzəkli göylərin tağına bax sən,
Sütunları boşdur vardan, dövlətdən.
Bir tağın altında yaşayıb, anla,
Cüft olmaq gərəkmi qara ilanla?
Bihudə bəndləri qır qəlbdən, yetər,
Sitəmkar deyilsən, ədalət göstər.
Daranın zülmünü gəl sil zehnindən,
Çünki o Daraydı, sən İskəndərsən.
Bax, nə məhsul verdi Daraya cahan,
Elə etmə, sən də görərsən ondan.
Nə etdi ki, sənə ram oldu cahan,
Taleyin ondadır, ayrılma ondan!"
Qocanın sözündən şah çiçəkləndi,
"Uğurlu bir faldır" deyə şənləndi.
Qocanın sözünü saydı bir xidmət,
Ona bağışladı çox böyük sərvət.
İran başçıları xidmətdə durdu[165],
Onun daşlarıyla tərəzi qurdu.
Uzaqdan gələnlər şən dərgahına,
Şahanə məclisə etdilər səna.
Bu dərgahda əgər söndü bir çıraq,
Yerində bir günəş doğdu ən parlaq.
Gün gəldi, bir gecə getdisə bizdən,
Bir çiçək soldusa, güldü bir gülşən.
Birisi arpaca qızıl itirdi,
Ararkən xəzinə ələ gətirdi.
Geniş bir qəlb ilə dəniz şövkətli
Hamıya göründü çox mərhəmətli.
Padşahı görüncə rəiyyətpərvər,





Daranın zülmündən nə demədilər.
İstidə, soyuqda Dara dövründə
Bir ağ gün görmədi kimsə ömründə.
Birliyi ölkədən elə ayırdı,
"İt də yiyəsini tanımayırdı".
Yaxşılar qəlbində doğdu qorxu, kin,
Kimsə öz canından olmadı əmin.
Zülümdən qurtaran dedi hər yanda:
"Mürüvvət rumlarda, mərdlik Yunanda".
Bu qədər ordunun içində ancaq
İki sərkərdəyə şah inanaraq,
Zalım olanlara verdi güc, qüvvət,
Nəhayət, qolunu qırdı təbiət.
Böyüklük verdi kim kiçiksə ona,
Özü də büründü alçaq bir dona.
Padişah sayılmaz elə bir kimsə
Tanrının xalqına əziyyət versə.
Fəlakət verir hər dəyərli şəxsə,
Böyüklük, riyasət verir nakəsə.
Alçaqlıq becərən şahmı sayılır?
Alçaqlıq başqadır, şahlıq başqadır.
Ölkədə qalmadı bəxşiş, səxavət,
Şəhərlər bir gün də olmadı rahət.
Xəzinə qıfılından asıldı ismət,
Yaralar qəlbi kin, zülüm, ədavət
Ölkədə tərk oldu sənət, sənətkar.
Heyhat, bundan böyük fəlakətmi var?
Sənətkar əl çəkmiş öz sənətindən,
Başqa bir sənətə yapışmış cəbrən.
Pəhləvanlıq edər çöldən gələnlər,
Çöldə şahzadələr qarovul çəkər.
Əkinçi əl qatmış ordu işinə
Əsgərlər başlamış əkin-biçinə.
Hər kəs sənətində olmasa azad,
Dünya bu gedişlə olurmu abad?
Çünki bundan əvvəl yatmışdı Dara,
Dünyanın ulduzu geymişdi qara.
Bu gün ən bəxtiyar padşahımız var,
Bu zülüm nə qədər, nə qədər yaşar?
Bu sözdən həyəcan aldı tacidar,
Xalqa belə xəbər verdi carçılar:
"Sənətkar getməsə öz sənətinə,
Yaxşı iş görsə də suçludur yenə.
Əkinçi öküzdən kömək istəsən,
Tarladan, kotandan dilək istəsin.
Ordu işlərinə qayıtsın əskər,
Şəhər işlərinə getməli şəhər.
Yalnız öz işinə getsin hər kişi.
Bərk tutsun əvvəldən bildiyi işi."
Çağırdı hər sənət atan kişini,
Tapşırdı onlara köhnə işini.
Hər kəsin işini çıxardı üzə,
Bir dünya parlatdı, gəlməsin gözə!
Qurtardı dünyanı xarabəlikdən,
Dövründə bu dünya oldu bir gülşən.
Onun hökmü ilə dövr etdi cahan,
Dünyanı saxlayar ağıllı insan.

## İSKƏNDƏRİN İRAN ATƏŞKƏDƏLƏRİNİ DAĞITMASI

Nəşədən, bu coşğun şənlikdən, saqi,
Dur, şərbət hazırla aşiqsayağı!
Füsunlu şərbəti susuza ver sən,
Susuzlar dönərmi meydən, şərbətdən?
Şahanə məclisdə, ey sınaqlı pir,
Odda yandırmağa üzərlik gətir!
Bəd nəzərlər baxır, işlə məşğulam,
Yaman gözlərdən də yaman qorxuram.
Könlüm üzərliktək yanarsa əgər,
Üstümə düşərmi, söylə, bəd nəzər?
Yolkəsən qorxusu Həddən ziyada,
Xoşbəxtdir bilməyən bunu dünyada.
Bu necə həyatdır, hər yanı qorxu,
Hər tərəf fəlakət, hər tərəf cadu.
Ayaq bu pillədən uzaq qoyulsun,
Bu qanlı qazana qapaq qoyulsun.
Köhnə dastanları rəvayət edən
Belə nəql eləyir uzaq keçmişdən:
Diniylə atəşə çöküncə dehqan,
Həm atəş söndü, həm ona inanan[166].
İrana əmr etdi böyük İskəndər:
Atəşpərəstlikdən etsinlər həzər,
Üz çevirsinlər qoy köhnə ayinə,
Pərəstiş etsinlər Xosrov dininə.
Muğların paltarı oda qalansın,
Bu atəşkədələr atəşdə yansın.
İranda adətdir keçmişdən bəri:
Atəşkədə idi alimlər yeri.
Orda saxlanardı sərvət, xəzinə,
Düşməsin başqa bir şəxsin əlinə.
Hər sonsuz varlı da, "savabdır" deyə,
Malını qoyardı atəşkədəyə.
Ölkələr düşmüşkən dərmansız dərdə,
Bir xəzinə idi hər atəşkədə.
Onları kökündən yıxdı İskəndər.
Xəzinə axıtdı bir dəniz qədər.
Hər atəşkədənin keçsə yanından,
Yıxaraq xəzinə yığırdı ondan.
Muğlarda belə bir azar da vardı,
Hər ilin başında bir qız alardı
Novruz ilə Sədə bayramlarında[167]
Ayinlər yenidən olurdu bərpa.
Ər üzü görməmiş gəlinlər, qızlar
Evindən sevinclə dişarı çıxar.
Əllər al xınalı, üzlər bəzəkli
Hər yandan gəlirdi coşğun ürəkli.
Önündə al şərab hər üzü lalə

Muğlarla üz-üzə vurar piyalə.
Atəşdən, möbidin əfsunlarından,
Tüstüdən don geyər uca asiman.
İşləri keyə, işrət, şux dilbər idi,
Ölkə başdan-başa əfsunkar idi.
Sehirdən başqa bir çıraq yandırmaz,
Əfsanədən başqa bir bilik qanmaz.
Hər bir qıvrım saçlı, gəlişi gözəl
Ayaq yerə döyər, şappıldadar əl.
Əlində sərv kimi güldən bir dəstə,
Sərvi də bənzərdi çiçəkpərəstə.
Hər il qızlar bu gün axır hər yandan,
Verirlər bu geniş işrətə meydan.
Hər kəs ayrı-ayrı məclis qururdu,
Hər məclis olurdu yüz fitnə yurdu.
Sözündə çox möhkəm durdu İskəndər,
Dünyadan silindi belə fitnələr.
Bircə padişahdan taxt alır şövkət,
Çox olsa pozulur möhkəm bir dövlət.
Yüz şah olmaqdansa xoşdur bir nəfər,
Yağış çox yağarsa ziyanlıq verər.
Ağıllı İskəndər vermişdi fərman:
Muğların ayini qalxsın ortadan.
İsmətli, örtülü hər gəlin, hər qız
Üzünü ərinə göstərsin yalnız.
Fitnəni, hiyləni qovdu hər yerdən,
Muğları dağıtdı meyxanələrdən.
Dünyadan sildi hər bulanıq dini,
Saxladı ən doğru dini-ayini.
İranda əmriylə söndü hər yerdə
Həm köhnə zərdüştlük, həm atəşkədə.
Dövlətli məcuslar "adətdir" deyə,
Xəzinə vermədi atəşkədəyə.
Üzü nur çiçəyi, hər nazlı gözəl
Atəş gülşənindən artıq çəkdi əl.
Atəş ayinini qaldırınca şah,
Hər atəşpərəstdən göyə çıxdı ah.
İskəndər əmr etdi: - Bu ölkə - torpaq
Tanrıya pərəstiş eyləsin ancaq.
Sığınsın hamısı ulu tanrıya,
Çevirsin arxa bu günəşə, aya.
Elə ki, İranı ovcunda gördü,
O geniş meydanda atını sürdü.
Zəfərlə qol-boyun oldu tacidar,
Nə gözəl söyləmiş incə sənətkar:
Sən yeni bir qanun hökmüncə məndən
Başqa rəmz eşitmək arizu etsən,
Qulağından çıxar köhnə pambığı,
Aç yeni qumaşla dolu sandığı.
Ağıllı kəslərdən bilsən nə qədər
Bu yolda eşitdim dəyərli sözlər.
Əlimə hər çeşid tarix topladım,
Gözümdən hərfi də mən buraxmadım.
Hər yırtıq vərəqdən toz silə-silə,
O dağnıq xəznəni topladım belə.
Bu gizli əsrarlı kimiyalərdən
Yaratdım ən incə, gözəl bir məxzən.
O farsca söyləyən bilikli qoca
Belə nəql eləyir tarix boyunca: -
Daranın taxtını alınca ələ
Musildən tərpəndi öz ordusiylə.
Zöhrətək Babildən parladı öncə,
Haruti kəsləri təmizləyincə[168],
Əmr etdi möbidlər yandıran odu
Durmadan hünərlə söndürsün ordu.
Zəndin əfsunları atılsın suya,
Alınsın yaxud bir dəftərxanaya.
İbrahim dinini doğru yol bildi,
Atəş tüstüsünü dillərdən sildi.
Aqillər məsləhət gördülər ona:
Oradan tərpənsin Azərbaycana.
Gəlirkən hər yerdə ki, atəş gördü,
Zəndi məhv eylədi, odu söndürdü.
O yerdə ki, alov çıxırdı daşdan,
Məcuslar deyirdi "Özündən yanan."
Yüzlərlə xidmətçi taxmış zər, zivər,
Pərəstiş etməyə bağlamış kəmər.
Əmr etdi, o köhnə atəşlər sönsün,
Bir anda kömürə və külə dönsün.
Hirbüdün oduna soyuq su tökdü,
Çox hirbüd belini ikiqat bükdü[169].
Elə ki, o yerdə atəşlər söndü,
İsfahana tərəf İskəndər döndü.
O gözəl, ruh verən abad şəhərdə,
Ürəyi sevinclər saçan o yerdə
İskəndər oldu bir çiçəkli gülşən,
Düşdü kam ardına ürəyi çox şən.
Orda bir saray var incə naxışlı,
Bahar bağçasından nazlı baxışlı,
Məcuslar rəsmiylə Zərdüşt ayini
Ora toplamışdı bir çox gəlini.
Hər gözə bir afət, hər qəlbə düşmən,
İnsan heyran qalır onu görərkən.
O cadunun adı Azər Humayun,
Sam nəslindən idi nəsəbi onun.
Bir əfsun edincə o gözəl afət
Ürəkdən səbr alır, bədəndən taqət.
Haruttək Zöhrənin canını alar,
Yüzlərcə Harutun qəlbini ovlar.
İskəndər əmr etdi təxir etməmək,
Bu ev də kökündən dağılsın gərək.
Cadu qız sür ətlə qalxdı yerindən,
Qurdu bir əjdaha öz peykərindən.
Odlu əjdahanı yaxından görən
Qorudu özünü yanan atəşdən.
Qorxudan yıxılıb duran kimsələr
Çaparaq, padşaha verdilər xəbər:
"Atəşdə qorxunc bir əjdaha vardır,





Fişəngtək ağzından atəş savırır.
Hər igid keçirsə onun yanından,
Öldürür ya udur, verməyir aman."
Bu gizlin sirridən şah fikrə daldı,
Vəzirdən belə bir məsləhət aldı:
- Bu gizli əsrarı Bəlinas bilir,
Tilsimə tanışdır, tökər bir tədbir.
Bəlinası tapdı, sordu İskəndər:
"Bu cadu nə ilə əslinə dönər?"
Dedi: "Əjdahanı, böyük tacidar,
Yalnız bir əfsunçu edər aşikar.
Bu sirri açmağa olsa buyruğun
Başını kəməndə salaram onun".
Dedi: "Hiyləgərdir bu qəlbi qara.
Mümkünsə, durma, et bu işə çara."
Bəlinas getdi tez atəşkədəyə,
Gördü bir əjdaha baş çəkmiş göyə.
Əjdaha görüncə gəlir Bəlinas,
Bildi ki, şüşəni qıracaq almas[170].
Min oyun çıxardı o sahir cadu,
Yüz insan aldadan Hiylələr qurdu.
Onların təsiri olmadı, yenə
Çarəsiz qayıtdı köhnə sehrinə.
Cadunun əfsunu etməsə əsər,
Əfsunçu yenə öz sehrinə dönər.
Bəlinas hünərlər göstərdi o gün,
Cadunun sehrini bağladı bütün.
İnsana taleyi güldüyü zaman
Cadugər də yaxa qurtarmaz ondan.
Atdı əjdahanın üstünə "əsdab"
Su önündə atəş gətirərmi tab?
Bağladı qolunu bir hiylə ilə,
Başa çıxdı qızın qurduğu hiylə.
Qız gördü Bəlinas hünərlər saçdı,
Cadu hiyləsindən düyümü açdı.
Torpağa düşərək qopardı fəğan,
Padşahın ədlindən dilədi aman.
Bəlinas görüncə o ay üzünü,
Bir sevda xülyası tutdu gözünü.
Gözəl cadugərə o verdi aman,
Xilas etdi onu ovsunçulardan.
Əmr elədi, dərhal od yandırdılar,
Atəşkədə yandı - oldu tarü mar.
O pəri üzlünü götürdü şaha,
Dedi: "Bax, bu aydır qara əjdaha.
Ağıllı qadınlar biliklər qurmuş,
Çarxın qulağını əfsunla burmuş.
Quyunu çıxarır yerin təkindən,
Ayı yerə salar öz fələyindən.
Zühəlin üzündən qaranı atar,
Hər qara telindən çəkər bir hasar.
Sevimli gözəldir, yox ona bədəl,
Pəri də doğmamış belə bir gözəl.
Müşk ilə saçının ucunu burmuş,
Günəşin boynunu kəməndə vurmuş.
Sənin taleyinlə kəsdim yolunu,
Ayırdım şöhrətdən, hörmətdən onu.
Qız qaldı çarəsiz, dilədi aman,
Məni, padişahım, ayırma bundan.
Şaha xoş gəlirsə bu göyərçinim,
Olsun həm xanımım, həm bacım mənim."
Sevimli üzünü gördü İskəndər,
Bəzəkli bir aydır, o pəri dilbər.
Söylədi: "Bu sənin haqqındır, yalnız
Sənin qədəhindən mey içsin bu qız.
Sevsən də rənginə aldanma əlbət,
Onun hiyləsindən eləmə qəflət.
Kəhrəba olsa da əqrəb quyruğu,
Yenə də əqrəbdir, zəhərlidir bu."
Bəlinas təşəkkür edərək ona,
Üzünü sürtərək yolun tozuna,
"Qadınımdır" deyə, evinə aldı.
O gözəl çoxunun qəlbini çaldı.
O qızdan çox cadu öyrənmişdi bu,
Onunçun deyildi "Bəlinas-cadu".
Əfsunçu, münəccim, kim olursan ol,
Ölümə bağlaya bilərsənmi yol?

## İSKƏNDƏRİN İSFAHANDA DARANIN QIZI RÖVŞƏNƏYİ ALMASI

O cənnət suyundan, ey saqi, tez dur,
Atəşlə yoğrulmuş qədəhi doldur!
Əlimi çıxarma o sudan, oddan,
O su və atəşlə mənəm islanan.
Boranlı qışlarda odur bəxtiyar,
Qarşıda manqalı, quşu, meyi var,
Elə bir nar məmə keçirə ələ,
Bağçada narlara salır vəlvələ.
Bahara çatınca nar fidanından
Nar suyu axtarar, nar alar ondan.
Bir zaman dərindən nəzər salınca,
Görər hər budaqda gülür yüz qonça.
Cənnətdən bir guşə kəsilmiş cahan,
Nəşələr, sevinclər saçmada hər yan.
Əlində gözəlin saçları yenə
Sallana-sallana çıxar çəmənə.
Şəkər çeşməsini çiçəklə bəzər,
Dünyada bir zaman şadlıqla gəzər.
Şahlar dəftərini yazan ustalar
Tarix beşiyini belə yırğalar:
İsfahan şəhrində sakin oldu şah,
Başından göylərə ucaldı külah.
İki gün nəşəyə daldı İskəndər,
Dara mişkusundan tutunca xəbər[171],
Kəyan ayiniylə xələtlər saçdı,
Düz yeddi xəzinə ağzını açdı.
Rumun, Misrin, Çinin qumaşlarından





Dəyərli zinətlər yığdı hökmüran,
Şahlara yaraşan dəyərli paltar
Vücudu təzələr, ürəyi oxşar.
Zər ilə işlənmiş qumaşlar, xəzlər
Geyənə istilik, məhəbbət verər.
Çox boyun bağları - xalis gövhərdən,
Bundan başqa hədsiz zərdən, zivərdən,
Möhrü açılmamış müşk ilə ənbər,
Ən incə dəridən nəfis geyimlər, -
Şahın mişkusuna göndərdi dərhal,
Matəm paltarları dönüb oldu al.
Firuzəni mərcanl rənginə saldı,
Matəm laciverdi qızıl rəng aldı.
Vurdu qara daşa qızıldan zivər,
Məhəkdə qızılı sınamaq istər.
Dara şəbistanı matəmi atdı.
Bənövşə yerinə al gül yaratdı.
O bağa nəşəli yaraşıq verdi,
Sevimli çöhrəyə bir işıq verdi.
Üç, dörd gün səbr ilə oldu çox dəmsaz,
O bahar qönçəsi açılsın bir az.
Gəlinlər bəzəyə alışıb dursun.
Başına ən incə bəzəklər vursun.
Sevgini ürəkdən alsın dimağa.
Üzünü çevirsin işıq - çırağa.
Bildi ki, matəmdən qalmamışdır iz,
Yengini matəmdən elədi təmiz.
Ağıllı vəzirə dedi: "Durma, get,
Addımı, dilini, bacar, geniş et!
Mişkuya gedərək məndən ver xəbər,
Gəlmiş bir iş üçün bura İskəndər.
O Dara nəsəbli, ayüzlünü mən
Görməklə şadlanım, qəlbim olsun şən.
Şux şəbistanına çəkərəm hasar.
Əmrimlə ucalar kənizlər, qızlar.
Qızıldan şahanə bir taxti-rəvan,
Bəzəyi firuzə, inci və mərcan,
Götür o nazənin müşkin dilbərə.
Göy xuraman olub ensin yerlərə.
Yel qanadlı atlar, zəmişan yəhər
Apar, minsin onu qəlbən sevənlər".
Bilici vəzirə şaH verdi tədbir,
O əmri yerinə yetirdi vəzir.
Daranın xüsusi evinə getdi,
Evdə olanlarla xoş rəftar etdi.
Dara sarayına getdiyi zaman
Sanki bulaq axır cənnət bağından.
Huriylə dopdolu bir cənnət gördü,
Aldandı, aldadan yüz afət gördü.
Alma üzlü qızla oynayar, gülər.
Sanki alma ilə oynar bir nəfər.
Padşahdan öncə bir salam söylədi.
Yaşınan kəslərə pəyam söylədi:
"Şahənə müşkuya şahdan nur axsın.
Ortadan ikilik büsbütün qalxsın.
Bir xəta işlədi azğın zamana,
Uzatdı əlini bu xanimana.
Ortada böyük bir itki var, bəli,
Bu işdə olmamış padşahın əli.
Nəhayət, məndə bir belə arzu var
Ki, ümidsiz ondan olsun ümidvar.
Bu evdə xoşbəxtlik quracaqdır şah,
Öz böyüklüyündə duracaqdır şah.
Daranın fərmanı öz zəkasilə,
Gəlibdir qohumluq təmənnasilə.
Şövkətli padşahın istəyi budur:
İsmət pərdəsində parlayan o nur
Olsun şəhriyarın işıq ülkəri,
Tacının Rövşənək olsun gövhəri.
Gözləri nurlansın bu işıq üzdən,
Köşkünü bu güldən etsin bir gülşən.
Bu işə Darayla bağlamış peyman,
Ay üçün göndərmiş bir taxti-rəvan.
Yalnız bu məqsədlə uca tacidar
At çapmış, bu yerdə tutmuşdur qərar.
Bir qıfıl vurmuş hər söyləyən dilə,
Şah özü gəlmişdir bu məqsəd ilə.
Mindirin taxta o pəri peykəri,
İşi tez bitirin, durmayın geri!"
Elçiyə tərcüman belə söylədi:
"Şahın kölgəsində yaşa əbədi!
Bu evə uca şah nəslindən yarar,
Yel ilə gələni yel də sovurar.
Qızıldan yazılsın gərək bu sözlər:
"Çarvadar əkəni dəvəçi biçər."[172]
Taxtının guşəsi bir tacdır bizə,
Taxtının ayağı meracdır bizə.
Kəniztək alsa da, alsın, biz nəyik,
Qadın edəcəksə, etsin, bəndəyik.
Əmrindən boynunu qaçıran kimdir?
Hər əmri bir qızıl açar kimidir.
Bu işi edərsə uca tacidar,
Rövşənək başını göyə ucaldar.
Padşaha varmağa qəlbimizdir şən,
Dünyaya gəlmişik şahlar nəslindən.
Hər zaman istəsə böyük şəhriyar,
Birləşmək istəyi tutunca qərar,
Ayini yerinə yetirib daha,
Şadlıqla gələrik uca dərgaha."
Saraya döndü bu xəbərlə vəzir,
Qərarı padşaha anlatdı bir-bir.
Şahın sevincindən parladı üzü,
İnsanı ovlarmış insanın sözü.
Hər cavab qulaqda qoparsa qubar,
Dinləyən ürəkdə kədər doğurar.
Taleyi ona yar olan zamanda,
Baxışlar vüsala dolan zamanda
Atalar rəsmiylə uca tacidar

Eylədi özünə Rövşənəyi yar.
Kəyan rəsminə də riayət etdi,
Ürəkdən çox hörmət, məhəbbət etdi,
Şənlənsin deyə bu ömrünün bağı
Kəbinə yazıldı İran torpağı.
Əmr etdi: çırmənsin iş bacaranlar.
Bəzənsin, düzənsin hər küçə, bazar
Rum ilə Xarəzmin ipəkləriylə,
Ölkələr bəzənsin bəzəkləriylə.
Padşahın istəyi kimi İsfahan
İpəklə, gövhərlə bəzəndi əlvan.
Qapılar, bacalar, damlar, küçələr
Gözəl xalçalardan aldılar zivər.
Bayraqlar dikəldi uca göylərə,
Bu dünya aldı bir başqa mənzərə.
Hər küçə başında çadır quruldu,
İşlərin gedişi başqa tövr oldu.
Hər çarsu başında mütrüblər oynar,
Oturmuş xanəndə, çalğı çalanlar.
Çalğıdan hərarət gəlincə uca,
Düşməni ud kimi salırdı oda.
Zindərud nəhrindən Xuzanə qədər
Çalğının səsindən canlandı yerlər.
Şərab bir çay kimi axıb gedirdi,
Mamişan dodağı onu dişlərdi.
İsfahan gülləri ətir saçırdı,
Tərazın müşki də ağız açırdı.
Toya al çiçəklər səpirdi şəfəq,
Şəkərdən ay, günəş doldurmuş təbəq.
Sanki bir saraydır tikmiş şəkərdən,
Bir günbəd ucaltmış al çiçəklərdən.
Dəbdəbə, şövkətdən coşmuşdu hər yan,
Ətrafa can verir çalan, oxuyan.
Qaraltı incə bir qumaş geyincə
Müşk ilə, ay ilə bəzəndi gecə.
Göydə ay parlaq bir sədəfə bənzər,
Kərx əttarı ona səpərdi ənbər.
O müşkin saçlı ay şaha ərmağan
Qənd, badam düzəltdi gözdən, dodaqdan.
Onları göndərdi şah mişkusuna,
Layiqdir müşk ilə mah mişkusuna.
Al günəş o səhər şəfəq sökərkən
Çıxdı bir gəlintək incə ipəkdən.
Çırpındı şah qəlbi gəlin eşqiylə,
Sanki rus zəngidir salmış vəlvələ.
Çalğıdan, şərabdan qurdu bir işrət,
Utandı, qibtədən tər tökdü cənnət.
Dostlarla içərkən artır fərəhi,
Şərabdan dönürdü başı, qədəhi.
O qədər xəzinə bəxş etdi o gün,
Yer onu çəkməkdən olurdu düşgün.
Gecə al günəşdən düyümü dəldi,
Şəfəqin əlinə bir əqiq gəldi.
Onu da uddu Busəhaq firuzə,

Busəhaqlara bax, ilişdi sözə[173].
Vüsala yetişmək üçün İskəndər
O müşkin mişkuya göndərdi xəbər,
Rövşənək olsun bir işıqlı çıraq,
Gəlsin, qədəmindən zinət alsın bağ.
Dedi Rövşənəyə sevimli ana:
"Gedirsən İskəndər şahın yanına.
Qiymətli yaqutsan İskəndər üçün,
Bir inci gövhərlə birləşsin bu gün.
Bu dövlət əqdinə bir arxa verək,
Yenə də ölkədə padşahlıq sürək.
Əmrindən yaramaz boyun qaçırmaq,
Sənə bu Rum şahı layiqdir ancaq.
Saçından xidmətə bağlarsan kəmər,
Taleyi sənə də səadət verər.
Ondan başqa hər kəs adını çəkər.
Saçıntək başları kəmərə dəyər[174].
Qulağında qızıl halqa daşısan,
Qapı halqasıdır onsuz bu halqan.
Rəftar et ki, odur bu gündə Dara,
Daratək bizimlə edər müdara".
Ananı dinlərkən o sevimli qız
Həyadan tər tökdü, baş əydi yalnız.
Saraya hərəkət əzmiylə durdu,
Ay kimi qızıldan taxta oturdu.
Aldılar padşaha məxsus gərdəyə,
Hər tərəf sarıldı ipək pərdəyə.
İskəndər səxavət əlini açdı,
Məclisin gözünə bir heyrət saçdı.
Şahdan hədyə aldı xidmətçi, dayə,
Qızıldan gövhərdən verdi hədiyyə.
Yabançı kəslərdən boşaldı saray,
Bir yerə toplandı günəş ilə ay.
Mehriban anası gəldi irəli,
Dənizə tapşırdı incə gövhəri:
"O uca padşahlar nəslindən nişan
Yalnız bu boy atmış sərvdir qalan.
Mən ona demirəm qiymətli gövhər,
Ya da ki, ərinə adlı-sanlı ər.
Atasız qalmışdır, dərdə salınmış,
Yetimdir, əlindən mülkü alınmış.
Əmanət tapşırdım sənə bir çiçək,
Bir sən bil, bir əqlin, bir də gələcək".
Şah qəbul edərək yanaşdı ona,
Yoldaşlıq tacını qoydu başına.
Şümşada tay oldu bəzəkli süsən,
Sevimli bir sərvə yurd oldu çəmən.
O gövhər ləlindən uca İskəndər
Başladı almağa dəyərli gövhər.
Gördü bir pəridir sevimli dilbər,
Pərəstiş etmədə ona pərilər.
Canlı bir sərv idi, xurmadır barı,
Şəkərə dadımlıq verir göftarı.
Füsunkar gözləri kəskin, can alan,





Hər dərdə şəfadır, xəstəyə dərman.
Dirsəyi qısadır, saç, gərdən uzun,
Dodağı şəkərdir, xalı da uyğun.
Çənəsi sadədir, sallanmış buxaq,
Qaynar gözlərində gülabdan bulaq.
Bəslənmiş qırmızı qanla ciyərtək,
Sanki göz içində parlayır bəbək.
Duz səpsə sağalar xəstə ürəklər,
Dodağı dünyaya saçar çiçəklər.
Hər gülən dodağı şəkər saçardı,
Gülüşü gülüşə bir yol açardı.
Gözündən gül üzə gülablar axmış,
Beli incə idi, sinəsi qalxmış.
Qıvrıcıq saçları müşkə çalırdı,
Günəş çeşməsinə kölgə salırdı.
Çeşməni, kölgəni görüb şəhriyar
Mənzilə yetişdi, oldu bəxtiyar.
Vəfalı gözləri xoş gəldi ona,
Ürəyi çırpındı, basdı bağrına.
Sıxıb qollarını boynuna saldı,
Kam aldı, kamından kami-dil aldı.
Rövşənək işıqlı çıraqtək yandı,
Eyvanı cənnəttək nura boyandı.
"Cahanbanu" deyə, yeni ad taxdı,
Bütün ixtiyarı ona buraxdı.
Olduqca ayıqdı, dinc və həyalı,
Söylənməz sözlərdən ağzı qapalı.
Şahlığın açarın ona tapşırdı,
Başının tacını göyə qaldırdı.
Onu görməsəydi dözməzdi bir an,
Ayrılmazdı onun bir an yanından.
O behişt ölkədə şad bir ürəklə
Yaşadı cənnətdən gələn mələklə.
Səhər çöhrəsindən pərdə atarkən
Həbəşə bac üçün dağ çəkdi Xütən[175].
Getdikcə köpürür xoruzlu bardaq,
"Nuş olsun, iç" deyir xoruz coşaraq.
O tovuz dodaqlı kuzə ağzından,
Küplərdən camlara tökərdi al qan.
O məclis, o şərab, o çalğı, o çəng
Dünyanın üzünə verdi başqa rəng..
Yeddi ölkə şahı Kəyan rəsmiylə
Yeddi çeşmə kəmər bağlamış belə.
Günəştək taxtına oturdu səhər,
Fələk xidmətinə bağladı kəmər.
Yenidən bir içki məclisi qurdu,
Görənin başından ağlı uçurdu.
Məclisə düzüldü yararlı kəslər,
Hər gələn yer tutdu hünəri qədər.
Mütrüblər, çalğılar saçardı fərəh,
Saqi ruh verirdi əlində qədəh.
Coşduqca kamança və sazın səsi,
Çay kimi silirdi başqa həvəsi.
İskəndər yenidən açdı xəzinə,

Öz səxavətinə başladı yenə.
Çox hədiyyə aldı İran əsgəri,
Başını parlatdı öz ətəkləri.
Hər kəsə payladı şahanə xələt,
Verdi bu dünyaya başqa bir zinət.
Uca bir günəştək verərkən ziya
Nurundan çox fayda alırdı dünya.
Günəş xəzinəsi daima axar,
Şimşək nuru isə bir kərə çaxar.
Səxavətli olsun gərək cahandır,
Şahlığın xisləti, bax, belə yaşar!

### İSKƏNDƏRİN İSTƏXRDƏ TAXTA OTURMASI

Muğlar çırağını, saqi durmadan
Mənə ver, qəlbimdən qoparma fəğan!
Gözlərə aydınlıq verər bu çıraq,
Qəlbimin çırağı ondan alır yağ.
Söylə, ey söz, nədir sənin kimiyan?
Kimdir bu sikkənə kimiya vuran?
Səndən ki alınır bu qədər bəzək,
Hələ əskilməmiş bir hərfin gerçək.
Evimdən çıxdınsa, üz qoydun hara?
Qapımdan uzaşdın hansı diyara?
Bizdən baş verərkən bizdən uzaqsan.
Naxışlar vururkən gözdən uzaqsan.
Qəlbimin iş evi fərmanındadır.
Dil xidmətçi kimi divanındadır.
Bilmirəm nə quşsan, gözəlsən, şənsən,
Bizdən ən dəyərli yadigar sənsən.
Söz ki var, ucadır hər bir ucadan.
Mətahın qıtlığa düşməsin bir an.
Dəyərli bir mətah olurmu kəsad?
Olursa, həsəddən doğar bu fəsad.
Ey sözün ustası, durma, söz gətir,
Şerin büsatını yerinə yetir.
Ad-sanla kim yatıb - onlardan söz aç,
Heyrət edənlərə söylə, əfsun saç.
Keçmişi nəql edən ravilər belə
İncə bir düşüncə, doğru rəy ilə
Nəql edir: Elə ki, uca şəhriyar
İsfahan şəhrində oldu bəxtiyar,
Firuzə fələyin səadətindən
İsfahan şəhrində etmədi məskən.
Tac qoymaq üçün o, İstəxrə köçdü,
Kəyumərs, Keyqubad yerinə keçdi.
Onunla böyüdü, bəzəndi İran,
İgidlər arxası bərkidi ondan.
Başçılar dedi: "Eşq olsun, tacidar!"
O böyük baş ilə ucaldı başlar.
Töhfələr verdilər taxtına layiq,
Padşahın oyanan baxtına layiq.
Nilin mənbəindən ta Kəngə qədər,

Çin dənizlərindən ta Zəngə qədər
Elçilər axışdı xərac verməyə,
Taxtına, tacına alqışlar deyə.
Taxtına basınca ayaq şəhriyar
Söz xəzinəsindən açdı tunc hasar:
"Eşq olsun, eşq olsun, ulu yaradan
Xalqını yaratmış haqqa inanan.
Torpaqdan başını bir mən kiminin
Ucaltdı, ulduzla etdi həmnişin.
İrana gətirdi Rumdan çəkərək,
Əmriylə daşları yumşaltdı mumtək.
Başımı o qədər ucaltdı zaman,
Yüklü gəcavəmi daşıyır dövran.
Öyrəndim o adil, ulu tanrıdan,
Ədalət yolundan dönmərəm bir an.
Yoxsula, məzluma olaram kömək,
Qaranlıq gecəyə parlayan şimşək.
Ağlımla düşüncəm olmuş mənə yar,
Bu dünya himayəm altında yaşar.
Doğru bir yol ilə bu gün getməli,
Sabahkı günümsə bəllidir, bəlli.
Qorxaram bəhanə tapmaq günündən,
Pəhrizə çalışdım varlığımla mən.
Nə aciz qarınca, nə də gücIü fil
Əlimdən bir zərər görməz, onu bil.
Ovcumun içində olsa da, yenə
Dikmərəm gözümü özgə mülkünə.
Xalq mənə versə də əziyyət, kədər,
Qıymaram incisin məndən bir nəfər.
Kənd ocaqlarından alıram xərac,
Şəhərdən nə vergi istərəm, nə bac.
Əlimə keçsə bir xəzinə, sərvət,
Hər kəsə verərəm, layiq bir qismət.
Məndən sənət alar hər bir sənətkar.
Əlinə dövlətdən verərəm açar.
Qaldırram hər kimin varsa hünəri,
Zəncirə çəkərəm divanələri.
Düşkünlər, dilsizlər tapacaq aman,
Qurtulmaz əlimdən boş yeyib yatan.
Vücudu sağlamlar bunu bilməli,
Sənətdən gərək boş qalmasın əli.
Görsəm ki, bir nəfər çəkir çox zəhmət,
Qazancı xərcini ödəmir əlbət,
Elə möhtaclara, söz verirəm mən,
Köməklik edərəm öz xəzinəmdən.
Din ilə, ağılla tutaram işi,
Yoluna qoyaram alış-verişi.
Bir işdə kimsədən qorxum yox mənim,
Qorxanlar önündə titrər bədənim.
Dəyirman yemidir fayda verməyən,
Əfvə layiqləri bağışlaram mən.
Dünyaya bəxşişlə vurmuşam bəzək,
Əlacıq kimsəyə edərəm kömək.
İskəndər kimsəyə verməz əziyyət,
Zalımı qəhr edər, məzluma hörmət.
Hər bir yaxşılığa bu şah yüz verər,
Bir yamanlıq edən bir cəza görər.
Kim günah işləsə cəzaya çatar,
Peşiman olursa, ədlim bağışlar.
Əlimdə məhv olur başı dik düşmən,
Peşiman olursa, bağışlaram mən.
Mənəm yaxşılığı öncə başlayan,
Yamanlıq başlayan düşməndir, düşman.
Mən ələk kimiyəm, ələrəm torpaq,
Dəyərsiz qalığı ataram ancaq.
Bir dolam, quyudan suyu çəkərəm,
Bu başdan alıb o başa tökərəm.
Qılıncla hər nə ki, keçirsəm ələ,
Paylaram yenə də qamçı ucuyla.
Bu taxtın başına keçmək, haq bilir,
Düşkünə əl tutmaq məqsədimdir.
Vücudum olmuş həm bulud, həm günəş,
Bir əlimdə su var, birində atəş.
Önümə daş çıxsa dönər bir muma,
Əkini suvarram çıxsa qarşıma.
İrana mən özüm gəlmədim Rumdan,
Bu mülkə göndərmiş böyük yaradan.
Haqqı və batili ayırd edim mən,
Alır bağlı qıfıl açarı məndən,
Din daşıyan başlar qalxsın əflakə,
Dinsiz başları da tullayam xakə.
Ehtiyac adını qaldırdım artıq,
El ilə çırağa verim barışıq.
Hər evdə firiştə doğurum divdən,
Bir bina ucaldım hər uçuq evdən.
Harda ədalətim olsa hökmüran,
Qırqovul zərrəcə qorxmaz tərlandan.
Sürüdə qoyuna qurd olar çoban,
Marala, ceyrana toxunmaz aslan.
Yamanı edərəm yaxşılıqla ram,
Yaxşılar yamanlıq etsə qoymaram.
Hər başı göylərə qaldırsam, bir də
O başı bir daha görməzlər yerdə.
Mənə tay olandan qopardım ciyər,
Qoymadım dağıtsın başqa vəhşilər.
Kimsəni yaxmadım gizlin zəhərlə,
Aşkara bağrını dəldim xəncərlə.
Nə dünya üstündə alovtək axdım,
Nə də ki, səbəbsiz bir xırman yaxdım.
Kimsənin qəlbini haqsız qırmaram,
Qırsam da, varımdır əldə mumiyam.
Birinin gözünü ağrıtsam əgər,
Əz əlimdən darı tökmək də gələr.
Bu işdə mənə yar olsun yaradan,
Bu yaman gözlərdən qorusun hər an."
Bunları söylərkən bir-bir İskəndər,
Göylərə ucaldı dinləyən əllər.
Məclisdə var idi adam hər yandan,





Birisi elədi şahı imtahan,
Natiqlik düşkünü, hədsiz söyləyən,
Divanə xislətli hikmət öyrədən,
Bir casus vardı, tez öpdü dərgahı,
Sınamaq istədi İskəndər şahı:
"Şahım, bir dinara ehtiyacım var,
Versəniz, dünyaya dəyər bu dinar."
Gülərək söylədi ona İskəndər:
"Şahdan bəxşiş istə rütbəsi qədər."
O casus söylədi: "Səxavətli şah,
Bir dinar verməkdən utansan hərgah,
Dünyanı bağışla mənə bir kərə,
Qaldır bu başımı uca göylərə."
Şah dedi: "Ey şaşqın, bu dəfə yenə
İstəyin müvafiq deyil ölçünə.
Çox yersiz iki şey istədin məndən,
Biri məndən kiçik, digərindən sən,
Hər sözün xüsusi bir ölçüsü var,
Ölçüsüz söylənən söz qulaq yırtar.
Bir söz ki, daşlara düyün vuracaq,
Gözəl söz olsa da söyləmə, burax."
Padşahdan soruşdu bir igid oğlan:
"Xalq neçin alçaqda, sən ucadasan?
Deyirsən hamı bir yoldaşlıq, ancaq
Nədir bu aşağı, yuxarı? Burax."
Dedi: "Mən başçıyam, xalq isə ümmət,
Baş yerə enərsə pozular şövkət.
Onlara yaraşar başını əymək,
İnsanın başıysa ucada gərək.
Padşahın mövqeyi olmalı uca,
Görənlər nur alsın ondan doyunca."
Başqa bir dilavər dedi: "Şəhriyar,
Ağıllı kimsəyə bəzək nə yarar?
Qəlbində var sənin tanrı sifəti,
O palçıq vücuda vurma zinəti."
Şah dedi: "Şahanə dəbdəbə, şövkət
Gözlərə bəxş edər yenilik, əlbət.
Onunçun edirəm özümü gülşən,
Gözümüz nurlansın, ürək olsun şən.
Görmürsən, atlaz don geyincə bahar,
Nə qədər zövq alır ondan ruzigar?"
İnandı ağıllı kəslər bu sözə,
Qulaqdan asdılar yaqut, firuzə.
Oldular yenidən şaha sənaxan,
Hamısı ürəkdən bağladı peyman.
Xalq onu səbirli görüb oldu şən,
Əmrinə baş əydi hamı yer-yerdən.
Cəmşidin rəsmiylə böyük İskəndər
Taxtının başına keçdi bir səhər.
Daima göründü xalqa mehriban.
Böyüklər rəsmini tutdu hər zaman.
Məktublar göndərdi hər bir diyara,
Hər hüdud bəyinə, hər bir sərdara.
Ədliylə o bütün qəlbə girmişdi,
Basqından hər kəsə aman vermişdi.
Dünyanı özünə etmişdi o, ram,
Ram etmək yolunda tutmadı aram.

## İSKƏNDƏRİN DARANIN QIZI RÖVŞƏNƏYİ RUMA GÖNDƏRMƏSİ

O yaqut qədəhi, saqi, birbaşa
Mənə ver, ayağım toxunmuş daşa.
Bir çarə arayım, daşlıqdır hər yan,
Yaquttək özümü qoruyum daşdan.
Fələk dəvəsini sür ətlə sürür,
Ondandır ki, gündə bir oyun doğur[176].
Peşəsi sülhdür, döyüşdür hər an,
Keçirir gündə bir rəng xəyalından.
Keçmişi bir kərə alsan nəzərə,
Görərsən bənzəmir bu günkülərə.
Tanrının verdiyi pərvərişlərlə
Hər gözəl girmişdir başqa bir şəklə.
Sanma biz yatarsaq yatar ruzigar,
Bu ev heç bir zaman olmaz tarümar.
Çoxları köçmüşdür köhnə dünyadan,
Bu dünya yenə də həmandır, haman.
Dəyərli kişilər keçib getdilər,
Dostlar da onları təqib etdilər.
Yoluna azuqə hazır et bir az,
Dost olan dostundan geridə qalmaz.
Nə qədər yolu pis getsə də, bişəkk,
Axura düz gedir hər çolaq eşşək.
Nəql edir köhnədən tarix yazanlar:
Olmamış şahların taxtı zülmkar.
İskəndər dünyanı tutduğu zaman
Şəxsi istəyinə uymadı bir an.
Çalışdı dünyanı islah etməyə,
Onunçun yetmişdi bu böyüklüyə.
Şahlıqda bir örnək al İskəndəri,
Sən də gör İskəndər görən işləri.
Bu dünya mülküylə oldu bəxtiyar,
Onun istəyinə uydu ruzigar.
Həbəş və Xorasan, Qurdan da Çinə,
Qol gücü görmədən keçdi əmrinə.
Elçilər, qasidlər getdi hər yana,
Sikkələr vuruldu onun adına.
Bir aslan ürəyi çarparkən onda,
Dünyanı tutmuşdu qılınc altında.
İrana inana bilmədi sərdar,
Rumlu öz yurdunda salamat yaşar.
Bir gecə uyaraq göylər baxtına,
Doğru bir məsləhət verdi taxtına.
Vəziri çağırdı, ona söz açdı,
Bu gizli fikrini ortaya saçdı:
"Madam ki, əlimə keçmişdir İran,
Bu yerdə bağlanıb qalmaqdır ziyan.
Daima dolanır bu yeddi fələk.

Dünya seyrinə var məndə də istək.
Görüm bu dünyada yeni nələr var,
Varmıdır məndən də güclü tacidar?
İşıqlı fikrimcə budur məsləhət:
Dünyanı gəzməyə çıxarkən, əlbət,
Xəzinə, dövləti Ruma göndərmək,
Oraya etimad bağlamaq gərək.
Hər işdə lazımdır ayıqlıq, diqqət,
Hər kuzə çeşmədən çıxmaz salamət.
Taxtımın başını tutar bir düşmən,
Taxtımdan, tacımdan ayrılmaram mən.
Dünyanın çəkilməz bəlaları var,
Bu yolun qorxusu, cəfaları var.
Ruma dön, orada məskən elə, qal,
Mənim də fikrimə uyğundur bu hal.
Fitnədən o mülkü qoruyursan sən,
Çünki ay nayibdir işıq günəşdən.
Rövşənək xatunu götür bərabər,
Onunla ölkənin işi düzələr.
Bir fikir doğunca günəş ağıla,
Hər yaxşı-yamana bir ölçü saxla.
Nayibsən, işi gör, dinlə ədl ilə,
Məni yaxşılıqla gətir sən dilə.
Onunçun bəyəndim səni hər kəsdən,
Böyüklük gözüylə sənə baxdım mən".
Sözə başlayaraq hünərli vəzir,
O buyruq verənə göstərdi tədbir:
"Padşaha layiqdir hər buyruq, fərman,
Əmriylə iş görür hər iş bacaran.
Getdikcə şövkətin kəmalə dolsun,
Qərəzlə istəyin qol-boyun olsun,
O uca rəyiniz göstərdi tədbir,
Qarşını görməkdən ziyanmı gəlir?
Şahın göstərdiyi uğurlu işə
Mən boyun qoyaram, düşmə təşvişə.
İşində, gücündə, ancaq, hər zaman
Ayıq olmalıdır uca hökmüran.
Bu mübarək səfər çatınca sona,
Dönüncə yenə öz doğma yurduna,
Ağır iş deyildir böyük sərvərə
Dünyanı tapşırmaq iş bilənlərə.
Dövləti saxlamaz yalnız bir nəfər,
Dünyanı özünə bağlamaz bir ər.
Dünyada var saysız ölkə və dövlət,
Bu dövran hər kəsə ayırmış qismət.
Ram etsən özünə tanrı verəni,
Qismətin ondadır, o tutar səni.
Hər padşah əmrinə boyun əyincə,
Hər ölkə, hər tərəf sənindir məncə.
Olsa düşman evi sənin torpağın,
Cilovu başına buraxma, saqın.
Başqalar mülkündə durmaq nə yarar,
Vurma ayağına onunla cidar.
Yad mülkü nə əldə saxlamaq olur,

Nə də varına bel bağlamaq olur.
Sanma bu dünyada çarpışma yoxdur,
Hər kəs bir ağadır, göz dikən çoxdur
Riyasət fikriylə burda, ey salar,
Rumlardan kimsəni etməzsən sərdar.
Kəyan ovlağıdır əcəm torpağı,
Orda bir vəhşidir yadlar ayağı.
Nə qədər xatadan uzaqdır həyat,
Dünyada padşahlıq adını ucalt.
Ölkənə dönərkən uzaq səfərdən,
Qısaltmış olarsan uzun işi sən.
Sən güldür üzünü şahzadələrin,
Silinsin qəlbindən qəmin, kədərin.
Hər şahı layiq bir ölkəyə göndər,
Nə yeri istərsə o yerə göndər.
Hər biri bir səmtə tərəfdar olsun,
Hər tərəf bir şaha giriftar olsun.
Qorxuram əcəmlər qalxsın yenidən,
Daranın qanını almaq istərkən,
Yunana və Ruma çıxarsın ordu,
Dağıtsın ölkəni, nəyə gərək bu?
Hər biri padşahlıq edərsə tək-tək,
Ortada düşmənlik artacaq, bişəkk.
Hər kəsi mülkünün qayğısı alır,
Ölkəmiz düşməndən salamət qalır.
Düşmənlər talana başlarsa ancaq,
Yolunu bununla olur bağlamaq.
Bir də ölkələrdə kin toxmu saçma,
Yurduna düşmənin yolunu açma.
Qoyma qanla yusun şahlar dünyanı,
Qoy alovlanmasın düşmənin qanı.
Sanma dik başların tökdüyü qandan
Səyavuş qanıtək qalmaz bir nişan.
Yersiz qan tökməkdən daim dur geri,
Qanlıdır səninlə çarxın xəncəri.
Ərənlər söyləmiş nə gözəl məsəl:
"Dəyməz dəyməyənə ziyanlı bir əl."
Yetməsin kimsəyə səndən qəm, kədər,
Az ziyan verənlər az ziyan çəkər.
Xor baxma, alçalmaq sığmaz hər başa,
Kimsəni öldürmə, əbədi yaşa."
Vəzir yol göstərdi, tökdü çox tədbir,
Sözləri padşaha eylədi təsir.
Dövran gümüş teştin ağzını açdı,
Qara qarğa qızıl yumurta saçdı[178].
Qoca möbidlərsə tarix boyunca
Yumurta və teştdən demiş doyunca[179].
İskəndər ağlıyla tökdü bir tədbir,
Əmr etdi: tez gəlsin, atlansın vəzir.
Orda kitabxana varsa nə qədər,
İşarə elədi, tez gətirsinlər.
Hər çeşid elmdən dəyərli sözlər,
Hər incə hikmətdən açdı bir dəftər.
Yunana göndərdi tərcüman ilə





Çevirsin bir dildən başqa bir dilə.
Padşahın əmriylə gəldi Ərəstu,
Durmadan at çapsın Yunana doğru.
Rövşənək xanımı alsın bərabər,
Götürsün xəzinə, kitab və dəftər.
İranı tərk etdi şahın əmriylə
Yunanın yolunu keçirdi ələ.
Rövşənək padşahdan hamilə olmuş,
Sədəfin qoynuna inci qoyulmuş.
Yunana yetişdi dəbdəbə, əskər,
Yükdən inləyirdi o nazlı gövhər.
Doqquz ay olunca, gövhər mədəni
Dünyaya bəxş etdi öz gövhərini.
Beşiyi öpərək oldular dilşad,
Uşağa qoydular İskəndərüs ad.
Ərəstu vəkildi şahdan, həm vəzir
Padşahlıq işində tökürdü tədbir.
Yeməkdə, içməkdə o şahzadəyə
Verirdi can kimi gözəl tərbiyə.
Cismini bəslərdi nazla, nemətlə,
Körpə qəlbini də şüur, hikmətlə.
Yüzlərcə gəlmişdir belə gözəllər,
Onu torpaq yemiş, qalmamış əsər.

### İSKƏNDƏRİN ƏRƏBİSTANA GETMƏSİ VƏ KƏBƏNİ ZİYARƏT ETMƏSİ

Ey saqi, əl uzat qəm qovan meyə,
Durma, ver mən kimi qəlbi dərdliyə.
Rahatlıq ətriylə dirçəlsin bu can,
Qurtulum kədərdən, qəmdən bir zaman.
Yaxşıdır hər falı xeyr işə yormaq,
"Rux"u yox, oyunda "şahrux"u vurmaq[180].
Alçalırkən belə uca görünmək,
Sarsılıb durarkən yenə öyünmək,
Şam kimi bağrının içindən yanmaq,
Zahirdə sevinclə nura boyanmaq.
Hər işdə bir miskin aciz qalınca,
Qaçar acizlikdən falçı dalınca.
Əlinə keçirir daş, qumdan açar,
Daş, qumdan çox zaman dəmir də çıxar.
Bir qapı qeybdən yox olsa hərgah,
Kimsə aça bilməz, açar bir allah.
Xeyrə vur falını, faydan ondadır,
Çünki xoş fal vurmaq uğur yaradır.
İnləmə "xəstəyəm" deyə, ey filan,
Desən ki: "sağlamam" sağlam olarsan.
Hər işdə bizdən bir qürə atmaqdır,
İşləri sazlayan yalnız o haqdır.
İnsaf bu pərdədə bizə məhəkdir.
Tərs pərdə çıxarmaq nəyə gərəkdir.
Könül, pərdə dardır, sən mənə yar ol!
Pərdə yırtanlardan sən pərdədar ol!
Bu parlaq beytləri hekayət edən,

Mənim ziynətimə yaraşıq verən
Nəql edir: dünyada olunca yiyə,
İskəndər xeyməni vurunca göyə,
Şahın fərmanıyla hər nə dövlət var,
Yunana daşıdı mətin adamlar.
Dünya hiyləsindən olunca iraq,
Dolaşmaq fikrinə sanıldı qıvraq.
Ədlindən müjdələr alınca dövran,
Bir qətrə içmədi onu anmadan.
İskəndər uğurlu şah olduğundan
İşində ayıqdı hər an, hər zaman.
Dünyanın sazını əlinə aldı,
Ancaq şəfqət deyə xoş hava çaldı.
Kəməndi altına girincə dünya,
Uymadı ürəyə yatmaz havaya.
Böyük kimsələrə vermədi ziyan,
Asayiş altında yaşadı hər yan.
Dikbaşlıq edəni öldürürdüsə,
Yerinə qoyurdu ən yaxşı kimsə.
Ölkədə bir şəhər yıxsaydı əgər,
Qurardı ondan da gözəl bir şəhər.
Bu dünya belədir, bu vaxta qədər
Birini yıxarsa, birini tikər.
İskəndər başladı abad etməyə,
Oldu hardan-hara İskəndəriyyə.
Çindən Qeyruvana yol var nə qədər
Uca dərgahına axdı qasidlər.
Hər padşah vəsiqə alırdı ondan,
Ölkələr sığındı ona hər yandan.
Dəyərli töhfələr gəldi hər yerdən,
Adına yaraşan zərdən, zivərdən.
İskəndər əmr etdi, cavab olaraq
Məktublar müşk ilə yazılsın ancaq[181].
Bir zaman ötmüşdü bu qərar üzrə,
Göylər dəfələrlə baş vurdu yerə.
Padişah dünyanı gəzməkçin yenə,
Hazırlıqla düşdü səfər qəsdinə.
Oxumuş ərəbdən gələn məktubu,
İllərcə qəlbində qalmış arizu.
İstədi büsatı İranda qursun,
Ərəb də bu yolda ona baş vursun[182].
Kəbəni ziyarət etsin bir zaman,
Sevinsin mübarək fallı naxışdan.
Hökmüran olunca bütün İrana,
Xeyməni köçürdü Ərəbistana.
Xəzinə topladı bir neçə xalvar,
Biyaban yolunu tutdu şəhriyar.
Ərəb başlarını onun baxşışı
Əydirdi büsbütün əmrinə qarşı.
Görüncə əmrinə ram olmuş zəfər,
Hökmünə baş əydi dikbaş ərəblər.
Yel kimi at sürdü Ərəbistana,
Ərəblər düşmədi ondan ziyana.
Hər yerdə atını edincə rahət,

Həm bəxşiş saçdılar, həm hədsiz nemət,
Hər çeşid lüzumlu yeməkdən başqa,
Bəslənmiş sürülər verməkdən başqa,
Gücləri çatdıqca şahın önünə
Hər yerdən çəkdilər ağır xəzinə.
Səhralar dolaşan görkəmli atlar,
Zəhərdən su içmiş parlaq qılınc var.
Boyu otuz ərəş, üstü çox parlaq,
Nizələr, qan ilə bəslənmiş mizraq.
Yüyənsiz dəvələr, löklər hər yandan,
Toz, torpaq içində yel kimi uçan.
Bunlardan başqa çox bəxşişlər daşdı,
Yüklənən gön, dəri, nəfis daş-qaşdı.
Ona hörmət üçün hey zaman-zaman
Hər yerdən çəkildi yüklənmiş karvan.
İskəndər xəzinə ağzını açdı,
Qızılı, zinəti xalvarla saçdı.
Atlazdan səhraya fərşlər açaraq,
Yaqutlar altında gizləndi torpaq.
Yanaşdı Kəbəyə şən bir üz ilə,
Həccin əməlini öyrəndi belə.
Dünyanın nafinə basmışdı ayaq
Aləmin nafindən ənbər açaraq.
Çarxın pərgartək mərkəz nöqtəni
Dolaşdı, ziyarət etdi Kəbəni.
Təvafı olduğu kimi bitirdi,
Kəbə halqasını ələ gətirdi.
Öpərkən Kəbənin qapılarını
Ürəkdən andı o, böyük tanrını.
Başını mübarək qapıya vurdu,
Xəzinə saçaraq yoxsul doyurdu.
Qızılı su kimi edərdi rəvan,
Dəvə bağışladı o karvan-karvan.
Doğrular evində tutunca qərar
Tanrıya pərəstiş etdi tacidar.
Kəbəni xəzinə-gövhərə tutdu,
Damları müşk ilə ənbərə tutdu.
Təvaf işlərindən azad olaraq,
Basaraq Yəmənin gönünə ayaq[183],
Parlatdı Yəməni ordunun tozu,
Gönü parladantək Süheyl ulduzu,
Oradan atını İraqa sürdü,
Yunana dönməkçün hazırlıq gördü.
Böyük Azərbaycan hökmüdarından
Bir elçi gələrək dedi: Hökmüran,
Nə üçün ram etdin bütün dünyanı?
Sildin ruzigardan zülmü, tüğyanı?
Verdin hər ölkəyə qurtuluş, aman,
Ermənistan nədən çıxdı xatırdan?
Doğduğun şəhərə bu yaxın ölkə
Nə üçün bürünsün qaranlıq kölgə?
Ermənistan oda ibadət edər,
Başqa padişaha itaət edər.
Orda Ad nəslindən bir pəhləvan var,

Qüvvəti Rüstəmin gücünə çatar.
Adı Dəvalidir, hər bağrı yanır,
Aslan dərisindən yosun qoparır.
Ermənistandakı bütün igidlər
Yalnız bu padşaha boynunu əyər.
Hər kəs badə içər onun adına,
Yaxın ölkələrdən bac gəlir ona.
Ordunla bu səmtə hücum etməsən,
Ölkəni şübhəsiz alacaq bizdən."
Hünərdən, gücdən söz açınca ona,
Babildən at saldı Ermənistana.
Ölkədən yuyaraq fitnəni, qanı,
Rum şahı xoşladı Ermənistanı.
Silindi ortadan hər bir köhnə iş,
Möbidə ibadət, oda pərəstiş.
Ordan da tez hücum etdi Abxaza,
Açdı abxazlara kindən darvaza.
Səs saldı gurlayan təbil hər yerə,
Süngülər sirrini açdı göylərə.
Hansı bir qələyə göndərdi xəbər
Açarı durmadan təslim etdilər.
Dəvali Abxazda şahlıq edərkən
Eşitdi Rum şahı gəlmiş səfərdən.
Bağladı vəfaya gön kəmərini,
İşıqlı qəlbindən ataraq kini
Atlandı, yüyəni aldı tez ələ,
İskəndər əlini öpmək qəsdilə.
Xəzinə götürdü o şəhriyara,
Çatınca tapşırdı xəzinədara.
Dərgaha gəlincə öpdü torpağı,
Kinini yenərək olmadı yağı.
Dünyanı zəfərlə ölçən İskəndər
Gördü mərdlikdə yox ona bərabər.
Nəvaziş göstərdi o qəhrəmana,
Taxtının yanında yer verdi ona.
Sordu əhvalını şəfqətli səslə,
Qəlbini qızdırdı qızğın nəfəslə.
Əmr etdi xəznədar şəxsə İskəndər:
Versin Dəvaliyə xəzinə, gövhər.
Gətirsin adına layiq bir xələt,
Sırğa və həmayil, cəvahir, zinət.
Həm qılınc, həm qədəh, cavahir, ipək,
Verilsin padşaha layiq bir bəzək.
Hər nə əmr etmişdi uca şəhriyar
Yerinə yetirdi o xəzinədar.
Ucaldı Dəvali, qəlbi oldu şən,
Geyindi İskəndər ipəklərindən.
Tovq asdı, tac qoydu, cavahimişan,
Sayıldı başını dik tutanlardan.
Təşəkkür dilini açaraq ona:
"Padşahım, yaradan yar olsun sana!"
Qüruru yenərək, kiçildi deyə,
Kiçilmiş başını qaldırdı göyə.
O gündən xidmətə sıxdı kəməri,





Padşaha xidmətdən durmadı geri.
O, şahpərəstlikdə elə ad aldı,
Şaha xas olanlar geridə qaldı.
O yerlər göründü şaha bağ kimi,
Gözünü parlatdı bir çıraq kimi.
O gözəl torpaqda enib dincəldi,
Sevincin, istəyin barını dərdi.
Ən qoca bir dehqan vermişdir xəbər:
Tiflisi ilk abad etmiş İskəndər.
O cənnət bəzəkli gözəl torpağı
Yaxşılıq toxmuyla etdi gül bağı.
O yerdə İskəndər belə əmr etdi,
Rumun ayiniylə hər bir iş getdi.
Keçdi o torpağı seyr edə-edə,
Ov üçün at sürdü çöldə, dərədə.
On beş gün dağlarda, çöldə yürüdü,
Həm şikar edirdi, həm yol ölçürdü.
Ovla gəzişərkən gözəl ölkəni,
Can atdı görməyə şah Nüşabəni.
Eşitdi qadının vardır şövkəti,
Dəyərli ölkəsi, malı, dövləti.
Gördüyü çəməndən, sudan şənləndi,
Gəldi bir çəmənə, atından endi.

## İSKƏNDƏRİN BƏRDƏYƏ GƏLMƏSİ VƏ NÜŞABƏ İLƏ GÖRÜŞMƏSİ

Canpərvər şərabı dur gətir, saqi,
O susuzlar üçün çeşmədir, saqi!
Yanıram, təşnəlik salmış bir dərdə,
Mənə ver, şərabə oldum aludə.
Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz, nemət bürümüş onu.
Yem üçün gələr quş bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan,
Elə bil hər yanda bitmiş zəfəran.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.
İndi o dərgahın taxtı alçalmış,
İpəyi, quması küləklər çalmış.
Təzə nar gülləri tökülüb solmuş:

O narlar, nərgizlər dönüb toz olmuş.
İndisə yerində bu gözəl yurdun,
Bar sel yumuş dərə, qurumuş odun.
Yenə də bol olan o göyərtilər,
Ədalət toxmundan göyərsə əgər,
Yenidən gözəlcə bəslənsə diyar,
Get-gedə yaşıllıq, gözəllik artar.
Padşahın əlinə keçərsə fürsət,
O taxta yenidən verərdi zinət.
Hərum adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə.
Bu mərdlər, gözəllər yurdunda, inan,
Çox saysız xəzinə gizləmiş zaman.
Belə şux, sevimli gülşən harda var?
Harda var xəzinə saçan bu diyar?
Belə nəql edir söz xəzinədarı,
Köhnə xəzinənin adlı salan:
Hakim qadın varmış, adı Nüşabə,
Uymuş il uzunu keyfə, şərabə.
Erkəksiz yaşayan bu dişi ceyran
Gözəldi, göyçəkdi erkək tovuzdan.
Xoşsöhbət, ürəyi saf, mətanətli,
Bir pəri əndamlı, xoş təbiətli.
Önündə minlərcə gözəl qız varmış,
Xidmətə ay kimi kəmər bağlarmış.
Bunlardan başqa, var igid, qəhrəman
Otuz min qulamı - qılınc oynadan.
Dərgaha yaxın da olsa, yenə də
Evinə girməzdi erkək bir bəndə.
Qadınla aşardı onun hər işi,
Tapşırıq almamış ondan bir kişi.
Sarayda iş bilən qadınları var,
Yalnız kətxudasız iş görər onlar.
Qulları bir yurdda salmışdı məskən,
Yaxın bir obanı etmişdi vətən.
Qəhrindən, kinindən onun qorxaraq
Şəhrinə bir kişi basmamış ayaq.
Biyara getməyə versəydi fərman
Yolunda kişilər keçirdi candan.
İskəndər səhraya çəkincə ordu
Çadırlar başını əflakə vurdu.
Gördü bir şənliklə yoğrulmuş cənnət,
Etdi əkinlərə, çaylara heyrət.
Sordu: "Bu şən ölkə kimindir, kimin?
Kim burda padşahlıq edir, söyləyin."
Dedilər: "Gördüyün bu var, bu yatır,
Bu gözəl torpaqlar bir qadınındır.
Qadındır, erkəkdən ürəkli, qoçaq,
Dəniz incisindən təmiz və parlaq.
Tayı yox şüurda, adda və sanda,
Rəiyyət becərir çətin zamanda.
Mərdliklə belinə bağlamış kəmər,
"Kəyan nəslindənəm" deyə fəxr edər.
Külahsız qadındır, ancaq tacı var,





Bir əskər üzünü görməz bu sərdar,
Hesabsız qəhrəman qulamları var,
Önündə üzünü görməmiş onlar.
Köksü gül, ağ bilək qız, gəlin ancaq
Hər işdə onunla edər ittifaq.
Boyları ox kimi, döş nara bənzər,
Sanki hər məmədən süd əmmiş şəkər.
Ən incə ipəklər, ən parlaq tüllər
O lətif əndamdan utanıb titrər.
Firiştə onlara baxmaz cürətlə,
Baxsa göydən enər bir fəlakətlə.
Bağın eyvanında parıldar tək-tək
Gündüz şən bir günəş, gecə çıraqtək.
O ağ bənizlərə etsən tamaşa
Az qalır şəfəqdən gözlər qamaşa.
Şaqraq səslərini eşitsə hər kəs
Can qurban etməyə göstərər həvəs.
Qulaqda, boyunda incilər gülür,
Dodaqlar yaqutdur, dişlər isə dürr.
Bilmirəm nə füsun oxumuş bunlar
Ki, şəhvət toruna olmamış şikar?
Bu mavi səmanın altında ancaq
İşləri şərabdır, çalıb çağırmaq.
Nəsilcə uca, pak hökmüdar qadın
Onları qoymazdı şəhvətə yaxın.
Sənəmxanası var saraylar qədər,
Azad girib gəzər orda afətlər.
Pərdə arxasında keçirir həyat,
Doğma ölkəsinə verir qol-qanad.
Möhtəşəm şahanə bir sarayı var,
Bir büsat açmış ki, şahlara yarar.
Büllurdan taxtı var, göyə vurur baş,
Üstünə xalvarla tökmüşdür qaş-daş.
O büllur taxtı bir qəndildən parlaq,
Gecələr aydan da işıqlı çıraq.
Oturur o büllur taxta hər səhər,
Uca tanrısını hər gün yad edər.
Gəlintək taxtında əyləşir yalnız,
Xidmətçin ayaqda durur gəlin, qız.
Mavi çərx altında sazla, qədəhlə
Dünyanı keçirir daşğın fərəhlə.
Tanrıya səcdədən durmazlar geri,
Yox yemək, içməkdən başqa işləri.
Şahanə sarayla, böyük dövlətlə
Riyazət çəkərdi bir ibadətlə.
O qədər dindardır bu nazlı dilbər,
Əz cənnət köşkündə yatmaz gecələr.
Başqa bir köşkü var mərmər daşından,
Ay kimi hər gecə süzülür pünhan.
Köşkündə o günəş, o nazlı qönçə
Başlar ibadətə şəfəq sökükcə.
Bir sona suya baş vurduğu qədər
Yasdığa baş qoyub yatar o dilbər.
O pəri əndamlı qızlarla yenə
Mey ilə, çalğıyla başlar keyfinə.
Gecəni, gündüzü keçirir belə,
Gündüzü belədir, gecəsi elə.
Nə gündüz əl çəkir can bəsləməkdən,
Nə gecə tanrıya səcdə etməkdən.
Vardır qapısında çox xidmətçilər,
Özünün, işinin qeydini çəkər."
İskəndər bu işdən şənləndi, ancaq
O naxşı görməyə göstərdi maraq.
Yaşılıq içində gördü bu dünya,
Gövhərdən qiymətli olan kimiya.
O yerdə başladı istirahətə,
Bir neçə gün daldı eyşə, işrətə.
Hökmüdar qadına verdilər xəbər,
Mübarək fal ilə gəlmiş İskəndər.
Pərəstiş etməyə gördü hazırlıq,
Göndərdi padşahın adına layiq
Hər çeşid yararlı, ləziz yeməklər,
Ürəkdən xidmətə bağladı kəmər.
Ayırdı mətbəxə, miniyə yarar
Gözəlcə bəslənmiş canlı heyvanlar.
Müşk, ənbər qoxuyan dadlı yeməklər,
Əlini yumağa müşk ilə ənbər.
Hər çeşid yeməli, dadlı meyvə var,
Müşk ilə şəkərdən bir neçə xalvar.
Mey, noğul, bostanın bəzəyi reyhan
Neçə gün daşındı şaha durmadan.
Həm də mehtərlərə ayrı olaraq
Hər gün göndərirdi müəyyən ərzaq.
O qədər mərdlik üz verdi qadından
Tə"rifi dillərdə oldu bir dastan.
Padşahın könlündə açdı bahartək
Onunla görüşmək arzusu çiçək.
Qadını öyrətmək istədi o şah,
Olsun bu ölkənin sirrindən agah.
Bilsin sərhəddini bu məmləkətin,
Varmıdır əsli bu sözün, söhbətin?
Şəbdizə vurunca gündüz qızıl nal,
O dünya günəşi atlandı dərhal184.
Hazırlıq görüncə ucaldı göyə,
Yol aldı saraya "Elçiyəm" deyə.
Elə ki, saraya çox yaxın gəldi,
Yolun zəhmətindən bir az dincəldi.
Göylərə baş vuran bir saray gördü,
Onu yerlər öpür, göylər öpürdü.
Xidmətçi qadınlar onu gördülər,
Qaçıb Nüşabəyə verdilər xəbər:
"Rum tacidarının şən dərgahından
Ölkəmiz alıbdır şənlikdən nişan.
Ağıllı bir elçi gəlmişdir bizə,
Rum şahından xəbər gətirmiş sizə.
Ağıl mədənidir başdan-ayağa,
Bənzəyir tanrıdan yanan çırağa."
Nüşabə sarayı bəzədi artıq.

Dəmirli yollara vurdu yaraşıq.
Nazənin qızlara vuruldu bəzək.
Düzüldü sıraya yüz əlvan çiçək.
Müşkin kəməndlərə düzüldü gövhər.
Daş-qaşa büründü ipək geyimlər.
Bir bağça tovuzu kimi səkərək
Parlayıb, gülümsər işıq çıraqtək
Padşahlıq taxtına oturdu xoşhal.
Əlində ətirli, gözəl portağal.
Əmr etdi, padşahlar ayini üzrə
İskəndər elçisi gəlsin hüzurə.
O uca sarayın baş vəkilləri
Əmrini icradan durmadı geri.
Elçi çox sür"ətlə girdi qapıdan,
Qondu taxt üstünə o qorxmaz aslan.
Belindən nə qılınc açdı, nə kəmər,
Elçitək etmədi səcdə İskəndər.
O gözəl sarayda bir hikmət gördü,
Sevimli bir saray, bir cənnət gördü.
Hər yanda qaynaşır huri və pəri,
Müşk ilə, ənbərlə yoğrulmuş yeri.
Daş-qaşa batmışdı gəlinlər, qızlar,
Baxanın gözündə parlar ulduzlar.
Elçiyə daş-qaşın parıltısından
Bir alov göründü durduğu məkan.
Sanki birləşmişdir mədənlə dərya,
Bütün gövhərləri tökmüş buraya.
Elçinin tutduğu uğursuz işə
Nüşabə pərt olub, düşdü təşvişə:
"Bu zirək kişiyə indi nə demək,
Qoyulan ayinə əməl etməmək?
Həddini tanıtmaq gərəkdir ona:
Bu elçi saymayır bizi, baxsana."
Nüşabə baxınca düşərək şəkkə
O bişmiş qızılı vurdu məhəkə.
Diqqətlə baxınca tanıdı birdən,
Taxtında yer verdi, qəlbi oldu şən.
Bildi İskəndərdir, dolaşır ona,
Taxtında oturmaq yaraşır ona.
Yeddi mavi göyün səadətilə
Onun tərifini gətirdi dilə.
Endirdi həyadan göz qapağını,
Utandı, tər yudu al yanağını.
Sezdiyi bu işi açmadı ona,
Açarın var, deyə bağlı qıfılna.
İskəndər bir elçi kimi davrandı,
Özünü olduqca o sərbəst sandı.
Çox salam yetirdi hey dönə-dönə,
Təkmil bir elçilik etdi özünə.
Salamlar bitincə dedi: - Ey sərdar
Şöhrətli, şövkətli, adil tacidar
Deyir: "Ey şöhrəti dünyanı tutan,
Ən adlı kəslərə meydan oxuyan,
Nə üçün çevirdin bizdən yüyəni?
Hüzura gəlmədin, anmadın məni?
Nə zülüm etdim ki, düşmən kəsildin?
Ey hanın at, bizi acizmi bildin?
Bundan da kəskin bir qılınc kimdə var?
Kimin oxu belə qızğın od saçar
Ki, ona sığınmaq yararlı ola,
Səninçin məsləhət budur, gəl yola.
Uca dərgahından çəkinmə, gəl, get,
Coşduğum gündə qorx, ondan həzər et.
Bu gözəl ölkənə mən ki yol aldım,
Öz dövlət kölgəmi üstünə saldım.
Qapıma neçin baş vurmadın bir an,
Neçin üz çevirdin mənim yolumdan?
Könlümü alırsan meyvə, şərabla,
Aldadırsan noğul, reyhan, kababla.
Etdiyin bu işlər qəbuldur, ancaq
Doğru fikirlərdən gəl olma uzaq.
Səni bu idrakla görməyim, inan.
Bəxtiyar görünür hümay quşundan.
Qəbul başlanırkən səhər, çox erkən
Şahın dərgahına sən də gələrsən."
Elə ki, yetirdi özündən xəbər
Başını aşağı dikdi İskəndər.
Nüşabə cavabçın lalə sayağı
Gül açıb, tərpətdi yaqut dodağı:
"Ey cəsur padişah, eşq olsun sənə,
Elçilik edirsən özün özünə.
Mənə saf ürəyim söyləyir belə,
Bu başla, şahanə, uca sayənlə
Bir elçi deyilsən, hökmveransən,
Göndərilmiş deyil, sən göndərənsən.
Peyğəmın qılıncdır, qoparır başlar.
Səndən başqa bunu mənə kim vurar?
Ancaq şah qılıncla oynarsa artıq,
Qılıncı göstərər başıucalıq.
Söz açma İskəndər qılıncından sən,
Özünə çarə tap, İskəndər sənsən.
Məni çağırarkən toruma düşdün,
Gözünü yaxşı aç, çıysən, bir düşün.
Taleyim gətirmiş səni bu taxta,
Eşq olsun dövləti düşünən baxta."
İskəndər dedi: "Ey bu taxta layiq,
Arama baxtının hökmündən artıq.
İskəndər dənizdir, mən çayam, ancaq
Günəşlə kölgəni olmaz bir tutmaq.
Bir kəsə tay tutma məni, ey huşyar,
Mən kimi minlərcə gözətçisi var.
Bu fikri qəlbindən sən sil büsbütün,
Padşahı bundan da çox uca düşün.
Yoxsa İskəndəri sandın kimsəsiz,
Özünə elçilik edən bir aciz?
Uca dərgahına sığmaz igidlər
Özümü zəhmətlə elçilik edər?"
Ağıllı Nüşabə yenə dürr saçdı,





O gül dodağından qıfılı açdı:
"Qəlbimi bu qədər aldatmaq nədən?
Yalan atını gəl minib çapma sən.
Əl çək bu tərslikdən, yetər inadın.
Mərdliklə şan, şöhrət qazanmış adın.
Böyükdür pəyamın, adın da, sən də
Aslanı gizləmə qurd dərisində.
Elçidə olurmu belə cəsarət?
Hüzurda göstərsin bu qədər hiddət?
Qəhr ilə buyruqdan nə əl çəkirsən,
Nə də qarşımızda boyun əyirsən.
Bizimlə hökm ilə edirsən rəftar,
Belə rəftar yalnız padşahda olar.
Var bundan başqa çox nişanlar, hələ
Ondan da çox əsrar gələcək ələ".
Tez verdi belə bir cavab İskəndər:
"Bir tülkü aslandan gətirməz xəbər!
Gözündə olsam da cəsur, qəhrəman,
İskəndər deyiləm, elçiyəm ondan.
Xəbəri böyüklər göndərmiş belə,
Hökmünü dəyişmək yararmı? Söylə!
Sözümdə varsa kin, acıq, kükrəyiş,
Bu sənin və onun bildiyi bir iş.
Ürəkli olmama səbəb onu bil,
Göndərən aslandır, bir tülkü deyil!
Belədir şahların rəsmi, elçilər
Amanda olurlar, görməzlər zərər.
Dediyim sözləri demiş tacidar,
Dilin qıfılına göstərmə açar.
Doğru bir cavab ver mənə bir kərə,
Yenə də dönüm öz gəldiyim yerə."
Nüşabə qızdı o aslan ürəyə:
"Günəşi palçıqla suvadın" deyə.
Zərrəcə qorxmadı, gətirmədi tab,
Verdi qılınc kimi kəskin bir cavab:
"Yersizdir,- dedi,- bu çalışıb durmaq,
Günəşə palçıqdan vurursan suvaq."
Kənizə əmr etdi: "Ver, baxsın" deyə,
Padşahlar rəsmini öpən ipəyə.
İpəkdə göstərdi ona bir bucaq,
Söylədi: Əlində tut, diqqətlə bax.
Bu surət, bu sima kimindir, kimin?
Sarayda hörmətlə saxlanır neçin?
İnad etməyinin qalırmı yeri?
Örtmə öz qaşınla uca göyləri."[185]
İskəndər dinlədi onu hörmətlə,
Yazılı ipəyi açdı sürətlə.
Rəsmini tanıdı baxınca şəklə,
Gördü almış düşmən ölkəni ələ.
Bu işdə kin, hiddət göründü yersiz,
Bir cavab verməkdən qalaraq aciz,
Qorxudan saraldı bir saman kimi,
Sığındı allaha tutulan kimi.
Nüşabə gördü ki, o qızğın aslan
Pozuldu, alçalıb düşdü ucadan.
Dedi: "Ey uğurlu, böyük tacidar!
Zəmanə başlara çox oyun açar.
Düşünmə, hörmətim çoxdur, bunu bil,
Bu ev öz evindir, başqa yer deyil!
Pərəstiş edərəm sənə hər zaman,
Ya orda, ya burda bəndəyəm, inan!
Bu rəsmi onunçun göstərdim ki, sən
Mənim də şəklimi aydın görəsən.
Erkək tinətliyəm olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.
Qara bulud kimi gurlasam kinlə,
Qılınc tüstüsündən yanar su belə.
Aslanlar buduna basaram mən dağ,
Nəhənglər yağından yaxaram çıraq.
Məni düşmənliyə çəkmə sevgidən,
Vurğunun olana tənə vurma sən!
Kim tikan əkərsə, tikan dərəcək,
Kim nicat verərsə, nicat görəcək.
Əgər sən üstünlük edərsən mana,
Qələbə çalarsan bir dul qadına.
Mən qalib gəlsəm, kin coşduğu zaman
Ataram gizlənən şahı ortadan[186].
Tülküylə qurd kimi biz etsək savaş,
Sən kiçik olarsan, mənəm böyük baş.
Sınaqlı qocalar söyləmiş belə:
"Güləşmə ən fəqir, yoxsul bir kəslə,
Səndən şey qoparmaq fikrini izlər,
Ürəkdən çalışar, üstünlük edər."
Vücudum şəhərdə etsə də məskən,
Qəlbim qafil deyil şahlar işindən.
Hindistan mülkündən Yunana qədər
Virandan, abaddan tutmuşam xəbər.
Göndərdim hər yerə bilikli adam,
Ağıllı, sınaqlı, mahir bir rəssam.
Böyük fatehləri öyrənim deyə,
Rəsmini aldırdım incə ipəyə.
Adlı padşahların rəsmini çəkən
Hər rəsmi gətirib mənə verərkən,
Sanıram dünyanı verdilər mana,
Öz incə rəyimlə baxaram ona.
O rəsmi doğurdan tanıyım deyə,
Göstərrəm başqa bir görən kimsəyə.
Desələr ki, filan tacidardır bu,
O zaman təsviri sanaram doğru.
Sonra da təpədən dırnağa qədər
Hər rəsmə salaram dərin bir nəzər,
Yaşlıdan və gəncdən öz qədərincə
Bir ölçü götürrəm incədən incə.
Yaxşını, yamanı tanır xəyalım,
Bar zəka tanıyan şüur, kamalım.
Boşuna keçməyir gecə, gündüzüm.

Özümlə oynayan deyiləm özüm.
Bu himmət tərəzim durmadan işlər,
Şahlarda ağırı, yüngülü ölçər.
İpəkdə gördüyün surətlər ki, var,
Tək sənin xəyalın könlümə yatar.
Çünki surətinlə tanışam çoxdan,
Bu nəqşin dostluqdan göstərmiş nişan."
Sözünü ürəklə dedi, şənləndi,
Öz büllur taxtından aşağı endi.
"Taxtımda, - dedi, - sən otur namidar,
Bir taxta yaramaz iki tacidar.
Bilirsən şahmatın iki şahı var,
Hər qəlbə yeni qəm gətirir onlar."
Taxtından enincə o pərisurət
Durdu hüzurunda, göstərdi xidmət.
Gəlintək oturdu qızıl kürsüyə,
"Padşaha kiçik bir bəndəyəm" deyə.
O nəhəng balıqdan şahın görkəmi
Rəng verdi, rəng aldı zürafə kimi.
Düşündü: "Qadın da olsa bu salar,
Ürəyi bir erkək ağlıyla parlar.
Bax, belə işləri görən qadına,
Pərilər afərin söylər adına!
Qadınlar olmasın gərək çox cəsur,
Dişi aslanlarda kin kəskin olur.
Yüngüldür çəkidə qadının daşı,
Kişi ölçüsüylə durmaz yanaşı.
Qadınlar pərdəylə örtülsə xoşdur,
Pərdəsiz musiqi ahəngi boşdur.
Bax, Cəmşid nə gözəl söyləmiş gerçək,
"Qadın ya pərdə, ya məzarda gərək!"
Qadını, saleh də olsa, buxovla,
Oğru dost olsa da, eşşəyi bağla!"
Düşündü: "Nədir bu acı həqarət?
Bu yerdə kim edər sənə mərhəmət?
Fikrini bişir də, qəlbini xoş tut,
Yıxıldın, artıq öz canını unut.
Gözəldir, bal qatmış gül ləblərinə,
Belə bir sevimli dilbər yerinə
Olsaydı amansız, kinli bir düşman,
Artıq əl çəkəydim gərək başımdan.
Bu yerdən çıxarsam ağır yükümü,
Hər işdə saxlaram düzgün ölçümü.
Şaşqınlar yolunu tutmaram bir də.
Örtmərəm üzümü gərəksiz yerdə.
Açaram bəndi bu bağlı qəlbimdən,
Düyünü düyünə necə vurum mən?
Qarınca düşərsə parlaq bir tasa,
Bir çarə düşün, güc iş görməz yoxsa[187].
Səbr edim, çox çətin olsa da bu hal,
Bu işlər yuxudur, yaxud bir xəyal?
Eşitdim çox şadmış bir gənc müqəssir,
Dara çəkilirkən boynunda zəncir.
Dostlardan birisi verdi bir sual:
"Az qalır ömründən, hey, nədir bu hal?"
Dedi: "Son nəfəsdir, ömrüm qalır az,
Az ömrü kədərlə keçirmək olmaz."
Qurtardı yaradan onu zillətdən,
İşığa çıxartdı qatı zülmətdən.
Qıfıla çox zaman tapılmaz açar,
Bir açan tapılar, nəhayət açar."
Özünə çox bu cür sözlər söylədi,
Çarəsiz canını təslim eylədi.
Yalnız çapğın etsə hər bir pəhləvan,
Düşər div əlinə pəhləvan, inan.
Xanəndə bəstəsiz şərqi söyləsə,
Söz ilə kamança gülər o səsə.
Bir zaman çox dərin fikrə getdi,
Öz təbiətini məzəmmət etdi.
Səbr etdi, bu ağır dərdə, kədərə,
Təslimlə dik başı əyildi yerə.
Nüşabə xidmətə bağladı kəmər,
Əmr etdi: durmayıb gözəl pərilər
Şahlara yaraşan bir süfrə açsın,
Ortaya hər çeşid yeməkdən saçsın.
Kənizlər şam kimi qalxdı ayağa,
Şahanə bir süfrə hazırlamağa.
Hər çeşid yeməklər axdı hər yandan,
Yeməklər bişmişdi qoçdan, toğludan.
Uzun və yuvarlaq incə çörəklər
Saraydan başlamış qapıya qədər,
Kökələr yoğrulmuş yağla, şəkərlə,
Şəkərli küncüddə dada bax hələ.
Ənbərlə yoğrulmuş dadlı yeməklər
Cənnət yeməyindən verirdi xəbər.
Dağ kimi qalanmış öküz və balıq,
Çəkdi yer öküzü bundan ağırlıq.
Süfrədə quzular coşqun sevincdən
Quş kimi qol-qanad açmışdı şən-şən.
Ən dadlı mürəbbə, limonlu şərbət,
Püstədə, badamda var başqa ləzzət.
Bar hədsiz paludə - ənbər qoxuyan,
Çox məğzi paludə sağalar ondan.
Tər halva və badam halvası daşır,
O qədər çoxdur ki, qablardan aşır.
Gülabla çəkilmiş şərbət, gülşəkər,
Saçdığı şirənin nəfəsi ənbər.
Bunlardan başqa o taxtın üstündə
Qızıl büsat qurdu şahın önündə.
Bir xonça qoyuldu günəşdən parlaq,
İçində dörd büllur kasa qoyaraq.
Biri ləl, o biri qızıldan dolmuş,
Biri dürr, birinə yaqut qoyulmuş.
Elə ki, uzandı əllər süfrəyə,
Ağızlar açıldı təam yeməyə,
Nüşabə dedi: "Ey böyük hökmüran,
Yeyiniz, ən dadlı bu xuruşlardan."
İskəndər söylədi: "Ey sadə dilbər,





Ölçüsüz söyləmə, tökməyəsən tər.
Düzmüsən süfrəmə almaz, yaqut, dürr,
Daş-qaş yeyilərmi, bu nə deməkdir?
Daşı da yeyərmi ağıllı insan?
Bu rəngi təbiət həzm etməz, inan!
Eylə bir yemək ver mədəmiz dolsun,
Rəğbətlə ona əl uzatmaq olsun."
Nüşabə gülərək söylədi şaha:
"Daşın ki, boğaza yolu yox daha,
Faydasız, yaramaz belə daş üçün
Bu qədər vuruşmaq, çarpışmaq neçin?
İndi ki, yeməyə yaramaz bu daş,
Dünyada onunla ucalarmı baş?
Dəyərsiz bir daş ki, olmayır yemək,
Onunçun bu qədər zəhmət nə gərək?
Yollardan daşları almaq lazımkən,
Daşı daş üstünə qoyursan nədən?
Bu daşdan doyunca hər kəs ki, aldı,
Yemədi, daş yenə yerində qaldı.
Deyilsənsə daşa pərəstiş edən,
Daşını yüngül et, yerində qal sən."
O incə qadının bu söhbətindən
Yeməkdən əl çəkdi o polad bədən.
Dedi: "Ey xanımlar xanımı qadın,
Qüvvətdə erkəkdən ucadır adın.
Doğru söylədin ki, belə gövhərlə
Hər sərraf ancaq bir daş alar ələ.
O zaman dəyərli olardı sözün,
Öncə bu qaş-daşdan qaçaydın özün.
Tacımda cavahir parlar, doğrudur,
Padşahlar tacında cavahir olur.
Sənin xonçandakı bu qaş-daş daşır,
Bu danlaq, bu töhmət kimə yaraşır?
Süfrəyə cavahir saçmaq nə gərək?
Gövhərdən qaçmağı mənə öyrətmək?
Sərrafın gözünə toz atmaqdır bu,
İskəndər yaqutu hər evdə dolu.
Bununla bərabər diqqət edincə
Sözlərin yerlidir, doğrudur, məncə.
Eşq olsun bu fikri sağlam qadına,
Mərdliyin yolunu göstərir mana.
Ey uzaq görən qız, gəl məni dinlə,
Qızıl sikkəsini nəsihətinlə
Ataram bir kərə torpaqlara mən,
Qızıla torpaqdır təbil mədən".
Sonra Nüşabənin yaqut dodağı
Yaqutla bəzədi bütün torpağı.
Əmr etdi xonçaya qoyuldu yemək,
Qızıl noğuldanlar, əntiq və qəşəng.
Hər yeməkden özü dadırdı öncə,
Çox heyrət etdi şah bunu görüncə.
Şah rahat deyildi belə xidmətdən,
Ayağa qalxdı tez yemək bitərkən.
Gedərkən Nüşabə bağladı peyman,
İskəndər verməsin mülkünə ziyan.
Vəsiqə yazmağa şah verdi fərman,
O cənnətdən çıxıb getdi hökmüran.
İskəndər şəhərdən çıxınca gerçək,
Fələkdən kin gördü, Tanrıdan kömək.
Düşmüşdü qurtulmaq üçün qayğıya,
Şükr etdi qurtaran böyük Tanrıya.
Gündüzdən günəşi qapınca gecə,
Bir çıraq parlatdı bir şam sönüncə.
Al Günəş göyünün uca səqfinə
Haləli ulduzlar düzüldü yenə.
Padşah da yuxuya tez hazırlandı,
Dörd ünsür də yatdı, qapı bağlandı[188].
Dan yeri sökünсə dincəldi artıq,
Qaranlıq içində söküldü ağlıq.
Şəfəqlər içində qalxdı yuxudan,
Səhərtək bir məclis qurdu hökmüran.
Günəşin əlində bir narınc vardı,
Fələk narıncının başını yardı189.
O mələk əndamlı Nüşabə şən-şən
Uğurlu fal ilə çıxdı şəhərdən.
Elə bil qaranlıq çökünсə lay-lay,
Göründü məşriqdən bədirlənmiş Ay.
Pərvintək kənizlər yanında gedər,
İncidir başından dırnağa qədər.
Gözəllər dolaşır dörd bir yanında,
Yüz Zöhrə qaş kimi bir barmağında.
Şahlara yaraşan bir dərgah gördü,
Dünyaca bir ordu, barigah gördü.
O qədər ipəkli bayraq ucaldı,
Hava gül, torpaq göy rənginə çaldı.
Çadırlar gövhərdən olmuşdu nişan,
Dərgahın yolunu kəsmiş hər yandan.
Aradı, öyrəndi, gəldi saraya,
Gördü bir xeymədir ucalmış Aya.
İpləri ipəkdən möhkəm hörülmüş,
Sütunu qızıldır, mismarı gümüş.
Atından endi yol tapsın hüzurə,
Üz sürtsün dünyanın öpdüyü yerə.
Növbətçi hörmətlə verincə izn,
Zərmişan çadıra girdi nazənin.
Gördü ki, dünyanın şahları gəlmiş,
Bir tac kölgəsində başlar əyilmiş.
İskəndər önündə kəmər-kəmərə
Padşahlar oturmuş, göz dikmiş yerə,
O parlaq büsatdan düşdü qorxuya,
Görənin ürəyi dönərdi suya.
Hamısı divarda surətə bənzər,
Danışıb gülməyə kimdə var hünər?
Həsən görüncə həsarlı gəlin
Titrədi, bu qəbul göründü gərgin.
Yer öpdü Nüşabə, afərin aldı,
O aslan ürəklər buna mat qaldı.
Kənizlər hakimin əmrini alcaq

Bir kürsü qoydular günəşdən parlaq,
Yanında oturdu dünya gəlini,
Aldı qız-gəlinlər dörd dövrəsini.
Halını soruşdu, göstərdi hörmət,
Coşdu o gəlişlə məclisdə işrət.
Bir az toxtayınca yeni oturan,
İşarət edildi uca padşahdan:
Tez süfrə ağası gətirsin xörək,
Ortaya düzülsün hər çeşid yemək.
Öncə gətirildi ətirli şərbət,
Sanki yerə sərdi hovzunu cənnət.
Gülab kimi axan bu arxı, yəqin
Yuxuda nə Xosrov görmüş, nə Şirin.
O qədər xonçalar düzüldü ora,
Ənbərdən ucaldı toz buludlara.
Ən ləziz yeməklər bol-bol axaraq
Hər yanda dağ kimi vurmuşdu qalaq.
İkiqat ələnmiş yağ qatlamalar
Ən parlaq aydınlıq kimi parıldar.
Ələnmiş ağ undan, bişmiş yuvarlaq,
Ay kimi qoğallar xəzdən də yumşaq.
Qoyuldu xonçaya yüz çeşid yemək,
Yeməklər xonçaya verirdi bəzək.
Yox idi elə bir yemək dünyada
Bir mövqe tutmasın qızıl xonçada.
Dadlıdır, yeməklər gəlincə xoşa,
Dopdolu qədəhlər çəkildi başa.
Göyün ortasına gəlincə günəş,
İçdilər mey qəlbə salınca atəş.
Hamının çatılmış qaşı açıldı,
Sərxoşlar üzünə nəşə saçıldı.
O pəri bədənli nazlı dilbərlər
Çalğını dinlədi axşama qədər.
Zülmətdən gecə bir ordu çəkərkən,
Təbiət gözündən mürgü tökərkən
Cahandar söylədi o pərilərə:
"Bu gecə basmayın ayaq şəhərə!
Buyruğum belədir, səhər gərək mən
Bir məclis düzəldəm yerdən göyəcən.
Firidun və Kəyan rəsmiylə şən-şən,
Dolğun kam alaraq çalğıdan, meydən,
Qoy şərab bir yanğın salsın könülə,
Bişsin hər işimiz bu qan çayilə!
Ayrılaq bir zaman dünya işindən,
Pərvərdə mərcanla bəslənsin bədən.
Mey ilə gül kimi parlayaq belə,
Güllərdən rəng alaq bu kürə ilə.
Saçaq qətrələrdən torpağa ənbər,
Çimsin bu şərabdan güllər, olsun tər."
Pərilər hörmətlə öpdü torpağı,
Şənləndi, ismətdən yandı yanağı.
Məclisdə Nüşabə, o nazlı dilbər,
Sanki dan sökərkən doğmuş bir ülkər.
Ənbərdən gecə şən büsat qurunca
Yayıldı o müşkin saçlar boyunca.
O müşkin saçlardan böyük İskəndər
Bir kəmənd düzəltdi, saçırdı ənbər.
Ayı, Müştərini kəməndlə birdən
Yerlərə endirdi uca göylərdən.
Şənlik gecəsiydi o şanlı gecə,
Pərilər dalmışdı nazlı sevincə.
İskəndər qəlbini çalmaq fikrilə
İstərdi atəşdən parlatmaq şölə.
Padişah əmr etdi: "Tez od qalansın,
Muğların rəsmiylə gündür, müşk yansın."
Meydən bir od yaxdı ki, şöləsində
İçənlər yandı öz əlbəsəsində.
Çalğı nəşəsiylə yeyib içdilər,
Gecəni şənliklə etdilər səhər.
Laciverdə şəncərf vurunca dövran
Samur sarı tülkü doğdu o zaman.
Yenidən canlandı şənlik və həyat,
Quruldu sevimli, şahanə büsat.
Çəmənlər yenidən nəşəyə gəldi,
Kəklik və qırqovul cilvəyə gəldi.
Nəğməyə başladı pəriüzlülər,
Günəş mehreganda daha xoş gələr.
O gülgun meydən ki, yaquta bənzər,
Gündüzün üzünə səpdilər gövhər.

## İSKƏNDƏRİN NÜŞABƏ İLƏ MƏCLİSDƏ OTURMASI

Dur, saqi, şərabdan bir qədəh gətir!
O qızıl çiçəkdən bir fərəh gətir!
Üzümün rəngini şərabla bir tut,
Yaquta bənzətmə, qıl tam bir yaqut!
Firidun şənliyi, Cəmin novruzu
Üzlərdən silmişdi kədəri, tozu.
İskəndər şövkətli taxta oturdu,
Önündə padşahlar boynunu burdu.
Oxuyub çalanlar, şərab və qədəh
O gözəl məclisə verirdi fərəh.
Nüşabə naz ilə hey qədəh alar,
Ortada gəlinlər qol-qola oynar.
Məclisdə Feyləqus oğlu İskəndər
O pəri qızlara salmadı nəzər.
Birinci, nəfsini oda salmazdı.
İkinci, hərəmdə ov ovlamazdı.
Başçılar məclisdə ağır oturdu,
Padşaha hörmətçin mərd kimi durdu.
Göy soyuq, günəşin xeyməsi ocaq,
Yer quru, Cəmşidin yastığı yumşaq[192]
Günəş Dəlv bürcündən çıxdı qırağa,
Girdi Hut bürcünə balıq tutmağa[193].
Pul-puldur dağların ətəyi, qəlbi
Buzlanmış balığın arxası kimi.
Qurd gözlü qasırğa kəsir nəfəsi,





Kürkçünün zəhmətə artmış həvəsi.
Maralın kök budu buzdan qorxaraq,
Aslan sağrısını etmişdi sığnaq.
Buzlamış ceyranın kabablıq budu
Suların bağrına hey duz vururdu[194].
Buludlar o qədər sıx kafur saçmış,
Çinarın qolları ağ çiçək açmış[195].
Bənövşə qönçəsi tumurcuq ikən
Bahar yarpağıtək qar gəlir göydən.
Olmuş gül ağacı yeldən hamilə,
Qamını doldurmuş çiçəklər ilə.
Ağzını açmadan buzlu nəhrlər,
Otların dodağı süd ətri verər.
Yadlardan gül üzə pərdə çəkəli,
Bülbülün təblini yırtmış dan yeli.
Bülbültək bardaqlar gəlmiş fərəhə,
Kəkliktək ağzından düşməz qəhqəhə.
İçənlərin üzü meydən alıb rəng
Qızarmış, tərləmiş gül yarpağıtək.
İskəndər əmr etdi: "Şənlik eşqinə
Məclisdə bir alov parlasın yenə."
Yenidən yaraşıq, bəzək vuruldu,
Cənnətə bənzər bir məclis quruldu.
Məclisdə gül kimi bir atəş yanır,
Qibtədən güllərin qəlbi dağlanır.
Odlu tikan tutmuş əldə sarı gül,
Bu, Zərdüşt odunun tikanı deyil.
O müşkin kömürdən axan şölələr
Daşlara əks edən gövhərə bənzər.
Qara rəng kömürlər ki, alovlanır
Xəzinə üstündə yatan ilandır.
Ya qoca insafsız, rəhmsiz məcus
Əmr etmiş həbəşi qarət etsin rus[196].
Hindistandan gəlmiş bir nəfər cadu
Xırmana vurar bir arpadan odu.
Muğ arpa yerinə əkmiş ərğəvan,
Bənövşə düşürmüş biçdiyi zaman[197].
Həbəş müşk aparmış Mazandarana,
Yerinə saf qızıl vermişdir ona.
Ev hindli qadından qana bürünmüş,
Abinus qırmızı söyüdə dönmüş.
Saqlablı atını çapmışdır Çinə,
Bərtasdan bir samur kükrəmiş yenə.
"Bilal"da çıxarmış gözəl bir səda,
Həbəşdə yaşarkən səs verir Rumda.
Onun şən səsinə qara zəncilər
Qəlbindən qan tökür, gözündən zəhər.
Qara qamışlıqdan çıxmış bir aslan,
Uzun barmaqları alovlu oxdan.
Katibin dalından göyərmiş qələm,
Barmağında müşkin qələmlər möhkəm[198].
Bir atlaz satandır, oturmuş çox şən,
Geyimi qoca bir qadın külündən.
Bir çox ip əyirmiş toxunsun palaz,
Palazın yerinə tapmışdır atlaz.
Kimyagərdir bu, kürəsi yanar,
Dəmiri ataraq saf qızıl alar.
Alovlar qızıldan qurmuş bir iksir,
Öz ətəklərinə saf qızıl səpir.
Alovu bürüyən sıx-sıx tüstülər
Neylufər gülünün zülfünə bənzər.
Reyhanla bəzənmiş saxsı güldandır,
Ancaq bu, meşədən çıxan reyhandır[199].
Od deyil, Cəmşiddən qalma bostandır,
Günəş xonçasında kökə yapandır.
Ağ-qara cövhəri parladandır bu,
Muğların yoldaşı - hirbüdün dostu!
Yeni bir qönçədir, yediyi tikan,
Cövhəri qədimdir, görüşdə cavan.
Qış vaxtı yoxsula şən nəğmə söylər,
Qonşuya qazandan elçilik elər.
Sazının telləri edər zümzümə,
Zərdüştün Zəndindən xoşdur bu nəğmə!
Zənd ilə Zərdüştü yaxan atəşi
Yaxmışdır dünyanın böyük günəşi.
Al gül yarpağıdır sərv budağında,
Ötər kəklik, turac sol və sağında.
Qırmızı mərcandan ucalmış çinar,
Başında "ququ"tək kəkliklər ağlar:
Ördəyə başında yer versə çinar,
Köksündən acı bir sızıltı qopar.
Ördəyin vücudu suyun düşgünü,
Atəşə girərsə qaralar günü.
Bu bağda coşaraq ötüşər quşlar,
Hər quşda başqa səs, başqa ahəng var.
Setarla çalınır sanki hər nəğmə,
Şərqidən yüz kərə gözəl zümzümə.
Ciyər duz yedikcə hey qanı damır,
Duzun da həsrətdən bağrı qavrılır.
Dişlərə sirr açır şəkərburalar,
Yedikcə insanın həvəsi artar.
Qan daman kababın qoxusu ənbər,
Müşkiylə bəslənmiş aşlar, yeməklər.
Hər çeşid mürəbbə, turşu, meyvə var,
Limon və portağal, narınc ilə nar.
Çalanın Zöhrətək oynayır qəlbi,
Kuzələr parıldar Müştəri kimi.
O gülgün şərab ki, dilbərdən dilbər,
Dünyadan dünyaca qaldırmış kədər.
Hamının keyfi saz, səsləri yumşaq,
Yalnız saz kəskindir ötsə də şaqraq.
Orda bişmiş idi yoldaşlar tamam,
Bircə şərab idi, ortalıqda xam.
Yarım sərxoş idi böyük hökmdar,
Çənginin əlində çəng sutək axar.
Çəng səsi, mey, reyhan, qızarmış quşlar,
Dar gözlü sənəmlər, sıxı ağuşlar.
Kimdir həyatından belə kam alan?

İskəndərə məxsus bu şərəf, bu şan.
İskəndər eşqinə müştəri üzlər
Küpləri boşaltdı gündüzə qədər.
Elə ki, gündüzün yarısı keçdi..
Fələk də kürənin nisfini biçdi.
İskəndər əmr etdi xəzinədara:
"Xoş gəldin edilsin bu qonaqlara!
Xalvarla gətirsin qızıl və bəzək.
Dəvələr yüküylə atlaz və ipək.
Bir alay həbəşi şux xidmətçilər.
Boyları sərv kimi, görüşü dilbər.
Nə müşkə çəki, nə tirməyə daş var,
Baxdıqca insanın gözü qamaşar.
Dəyərli üzüklər, zümrüd, firuzə,
Brilyant, daş-qaşlar gülümsər üzə.
Qızıldan parlaq tac - zümrüd naxışlı,.
Gövhərlə işlənmiş naxışlı, daşlı.
Ətəyi kafurla dolu bir qumaş,
Üstündə parlayır dəyərli daş-qaş.
Kəcavə qatırda zərdi, zivərdi,
Kəcavə çəkənlər qızıl kəmərdi.
Bu qədər zər, zivər, dövlət, yatır var,
Verdi Nüşabəyə xəzinədarlar.
Nüşabə geyindi şahanə xələt,
Necə ki, günəşdən ay alır zinət.
Yenidən əmr etdi böyük İskəndər:
"Hədiyyə alsın hər pəriüz dilbər!"
Verildi adına görə hədiyyə,
Burda geysin deyə, aparsın deyə.
O qədər yükləndi hər gözəl pəri
Çəkə bilməyirdi zəri, zivəri.
Təşəkkür edərək öpdülər yeri,
Sevinclər içində döndülər geri.
Gövhər toplayınca uca mədəndən,
Axıcı xəznətək döndülər şən-şən.

### İSKƏNDƏRİN ƏLBÜRZ DAĞINA GETMƏSİ

Ey saqi, qırmızı süddən ver ki, hər
Civəyə əks etsə, ona can verər.
Ver mənə, dönmüşdür qanım civəyə,
Söz düzüm dırnaqdan keçən riştəyə[200].
Ey şəfəq sökmədən oyanan himmət,
Yenə söz saçmağa etmişəm niyyət.
Bu qızıl sözlərlə bir gövhər qurum,
Əlaltı başları daşlara vurum.
Qızılda varmıdır o güc, parıltı.
Mən kimi dindan etsin əlaltı?
Bəzəkçün yaranmış bu qızıl, gövhər
Bənd olsun, zəncirdir, qəm, kədər verər.
Qorxaraq əyridən, quldur, oğrudan
Varlılar qızılı gömər hər zaman.
Yoxsul ki, hər zaman qızıl düşünər,
Bu istək ona da xəzinə verər.
İndi ki, qızıldan ucadır istək.
Ən yoxsul, ən zəngin kimsədir, demək.
Bu dünya olmuşdur yoxsul dünyası,
Həm özü məsuddur, həm əqrabası.
Qorxusuz və rahat yaşar hər zaman,
Çəkinməz quldurdan, qorxmaz oğrudan.
Düşüncə, kədərdir çox sərvət, çox var,
Dünyası az olan olur bəxtiyar.
Tarixə dəyərli gövhər düzənlər
Gövhərli xəznədən belə nəql elər:
O Cəmşid idraklı aldıqca fərəh
Nüşabə eşqinə qaldırdı qədəh.
Gül ilə, mey ilə verdi əl-ələ,
Neçə gün keçirdi sərkərdələrlə.
İş görmək fikriylə bir gün oturdu,
Bahardan bəzəkli bir məclis qurdu.
Çəkdi o məclisə elə bir hasar
Bürcündə görünməz oldu ulduzlar.
Baş sərkərdələri eylədi dəvət,
Hörmətli yer verdi, göstərdi şəfqət.
Şən məclis qurdu bu sınanmış ərlər,
Padşahın ağlından aldılar bəhər.
Fikrini açmaqdan durmadı geri,
Bütün istəyini sürdü irəli:
"Könlümə qonmuşdur belə bir həvəs,
Sizdən başqasıyla almayım nəfəs.
Sizin rəyinizlə istərəm ancaq
Dünyanı mən qarış-qarış dolaşmaq.
Ruma dönmək idi fikrim, nə etmək,
Atın cilovunu çevirdi fələk.
Əzm etdim ki, Ruma çevirməyim üz,
Ölkələr dolaşım gecə və gündüz.
Şən, uçuq yerlərdə gəzim hər yanı.
Əlimə keçirim bütün dünyanı.
"Səncab" ölkəsinin başında durum,
"Səqlab" gümüşünə sikkəmi vurum.
Ölkələr, torpaqlar dolaşmaqla mən
Öyrənim xalqlardan hansıdır çox şən.
Alım bu şənlikdən faydalı bəhrə,
Çünki təsir edir dəmir dəmirə.
Birinci yürüşdə istəyim ancaq
O qoca Əlbürzə kəsmə yol açmaq.
Dağları, çölləri aşıb keçərək,
Sonra da dənizə səyahət etmək.
Xəzər dənizinə durum baxım mən,
Damlalar çiləyim suya qədəhdən.
Ordumla sahilə çıxınca artıq
Bir həftə ovlayım quş ilə balıq.
Sonra da baxaram əzmim nəyədir,
Zəmanə o zaman bir yol göstərir.
Bu işlər olurmu fikrinizlə saz?
Dövlət doğrulardan boyun qaçırmaz."
Başçılar yer öpdü: "Sizindir əmr,





Bizim fikrimizdir şah tökən tədbir.
Baş qoyarıq, hara qoysanız ayaq,
Əmriniz hər başa bir tacdır parlaq.
Suda, ya atəşdə yer varsa, yenə
Fikrimiz baş əyər hər bir əmrinə.
Atsanız yerə ən uca dağlardan,
Qorxusuz düşərik yerə hər zaman.
Şahdan bir yol seçmək, bizdənsə ancaq
Padşahın əmrinə boyun qatlamaq".
Bu sözdən ürəyi olunca rahat,
İskəndər onlara etdi çox hörmət.
Yola çıxmaq üçün gördü hazırlıq,
Açdı xəznələrin ağzını artıq,
Ordunu gövhərlə elə doyurdu,
Onları cəvahir daşımaq yordu.
Öz kəskin ağlıyla qabağı görən
Qorxaraq çəkindi yaman gözlərdən.
Xəzinə yükləndi, yol aldı, ancaq
Yollarda çətindi onu daşımaq.
Dağlara qaldırmaq çətin olurdu,-
Xəzinə çəkirdi göylərə ordu.
Belə bir fikirə gəldi İsgəndər,
O köhnə top üçün düzəltsin çənbər.
Yerləri öyrənsin o, mənzil-mənzil.
Quru nə qədərdir, dəniz neçə mil.
Bilsin yer üzündə uca, alçağı,
Enə və uzuna ölçsün torpağı.
Ədldən, zülümdən tutaraq xəbər
Hər yoldan azana olsun bir rəhbər.
Hər zülmü ədlilə yusun dövrandan.
Qurtarsın hər azad xalqı bu qandan.
Hər qorxulu yerə çəksin bir hasar,
Hər yerdə bir hünər eyləsin izhar.
"Yollar çox uzaqdır" deyə düşündü,
Yollarda təhlükə, qorxu göründü.
Hədərə getməsin çəkdiyi zəhmət,
Xəzinə olmasın düşmənə qismət.
Gördü ki, talandan varlanmış əskər,
Varlandıqlarından qorxdu İskəndər.
Birinci, çalışmaz varı olanlar,
Əlindən var-yoxu getməkdən qorxar.
İkinci, qarşıya çıxsa ac, bəlli,
Qılıncı endirər o iki əlli.
Sınaqlı kəslərdən böyük İskəndər
Özüylə almışdı yüz on üç nəfər.
Hamısı şahanə məclisin qəlbi,
Hər işdə ağıl və tədbir sahibi.
Sınaqdan Bəlinas hamıdan yaşlı,
Hamıdan bilikli, hamıdan başlı.
Ən çətin işlərə onu çəkərdi,
O da ən ağıllı tədbir tökərdi.
Xəzinə və yolun çətinliyindən
Söz açdı ona hər uzağı görən.
Bəlinas söylədi hey düşünərək:
"Xəzinə torpağa gömülsün gərək!
Ordu da padşahı təqlid eləsin,
Bir xarabalıqda malı gizləsin.
Bilinsin xəzinə gizlənən məkan,
Hər kəs öz varını qoysun bir nişan.
O uzaq yollardan qayıdan zaman
Hər kəs qoyduğundan tapsın bir nişan.
Tanısın qoyduğu nişanı hər kəs,
Etsin öz malını almağa həvəs."
Bu fikri İskəndər irəli sürdü.
Ordunun xeyrini bu işdə gördü.
Torpağa gömdü öz xəzinəsini,
Nişanla bərkitdi dörd dövrəsini.
Əmr etdi, basdırsın sərvəti olan,
Qəlbindən silinsin qorxu və duman.
Dağlarda, daşlarda hamı yer-yerdən
Daş-qaşı gömərək döndülər şən-şən.
Hər kim ki, xəzinə və sərvət qoydu,
Üstündə bir nişan və surət qoydu.
Beləydi ruzgarın fəndi, oyunu,
Başqa bir xəyala çevirdi onu.
Ayrı bir tərəfdən Ruma yol aldı,
Xəzinə o yerdə gömülmüş qaldı.
O qədər saz idi ordunun halı
Ehtiyac görmədi alsın o malı.
Açıqda o qədər tapdılar dövlət,
Gizlənən sərvətə olmadı rəğbət.
Səfərdən Yunana basarkən ayaq,
Dünya işlərindən oldular uzaq.
Tikdilər məbədçin ən yüksək bina,
Oldu hər kəs üçün ibadətxana.
Deyrə vəqf edildi gömülən sərvət,
Hər kişi verdi baş rahibə bir xətt,
O xətlə tanrıya, dinə inanan
Axtarıb tapsın hər sərvətdən nişan.
O monastırlarda indiyə qədər
Gömülən sərvətdən qalır sənədlər.
Bunu dini bir borc bilənlər, əlbət,
Məbədə ürəkdən göstərir xidmət.
Sənəddən birisi verilir ona,
Düşür o sərvəti tapmaq yoluna.
Xəzinə açanın gəlsə müjdəsi.
Alar hər xəznədən ayaq kirəsi.
Mənə bəxtim ayaq kirəsi vermiş,
Ayağım xəzinə-içinə girmiş.

### İSKƏNDƏRİN DƏRBƏND QALASINI ALMASI

Dur, saqi, mey gətir, versin mənə naz,
Gəncliyi qaytarar, insan qocalmaz.
Əlimdən çıxmışdır bu iki dövlət.
Edirəm küpdəki qana qənaət.
Kim istər yaxşı ad keçirsin elə

Gərək bu qapıda olsun bir kölə.
Qoysun yaxşılıqda elə təmiz ad,
Bununla sonunu eləsin abad.
Vücuda geyinsin belə bir köynək,
Saxlasın beladan onu zirehtək.
Hər kim öz sonundan yaxşılıq umar,
Gözəl addan başqa gözəl admı var?
Durma, sən ey uca ad-san bəyənən,
Dünyada yaxşı ad almaq istəsən,
Geyin, yaxşılıqla bir donu parlat,
Başqa əlbəsəni yaxşılıqla sat.
Görməyirsənmi bu müşkü hər zaman
Qara bir ipəkdə saxlayır satan?
Bu yeni xəyala bəzək vuranlar
Ən gözəl adlardan daim dəm vurar:
Gözəl ad çıxardı böyük İskəndər.
Ondan fayda gördü, dərdi çox bəhər.
Yaxşılarla durdu, oturdu hər an,
Yanına yol tapa bilməzdi yaman.
Şahlardan ziyadə böyük İskəndər
Məzluma daha çox salırdı nəzər.
Hər yerdə bir zahid görsəydi, xəlvət
Çapardı yanına, edərdi hörmət.
Hər yerdə çətin-bir döyüş başlardı,
Zahidlərdən kömək, himmət umardı.
İskəndər onunçun üstün gəlirdi,
Daşı firuzədən seçə bilirdi.
Onunla bərabər çarpışan ordu
Bu işdən incidi, üzünə durdu
Dedilər ona: "Ey dünya sarsıdan,
Sən dövlət işinə çalış hər zaman.
Ordudur qazanan uğurlu zəfər,
Sən ancaq zahidə salırsan nəzər.
Dünyanın açan qılıncdır, əlbət,
Bu zahid kəslərlə nədir bu ülfət?
Zəfərə silahsa zöhd ilə himmət.
Bu nöqsanımızı bizə də öyrət.
Döyüşçün çaparkən bu meydanlara
Biz də zahidlərdən istəyək çara?"
İskəndər dinlərkən əskər sözünü,
Dinmədi, saxladı bundan özünü.
Faydalı görünməz tez cavab vermək,
Hər cavab vaxtında verilsin gərək.
Elə ki, Əlbürzə yol aldı ordu,
Hər yerdə şahdan bir nayib oturdu.
Bu çətin yollarda heç yorulmadan
Ovçu aslan kimi keçdi Şirvandan
Açaraq öz istək qol-qanadını
Oradan Dərbəndə sürdü atını.
O zaman çox abad deyildi şəhər.
Üstündə bir qala vardı mötəbər.
Qalada kök salmış azğın quldurlar,
O yoldan kim keçsə yolunu burar.
Elə ki, İskəndər çadırı qurdu,
Quldurlar çadırı yuxarı vurdu[201].
Qala qapısını bağladı düşman,
Qorxmadı qılıncdan, qılınc vurandan.
Hüzura gəlməkdən baş qaçırdılar,
İtaət ipini bütün qırdılar.
Şah çağırsa belə uca dərgaha,
Heç biri itaət etməzdi şaha.
Onlara dostluqla uzansa qolu
Yenə də gedərkən kəsərdi yolu.
Çarəsiz qalınca çox kədərləndi,
Əzm etdi ortadan qaldırsın bəndi.
Əmr etdi ki, yüz min silahlı əskər
Hasarlı qalaya doğru gəlsinlər.
Yıxsınlar mancanaq, sapan, daş ilə,
Köpürən qan ilə versinlər selə.
Qırx gün o hasarda çalışıb durdu,
Kərpic də qopara bilmədi ordu.
O yüksək qaladan ox qanad salmış,
Nə kəmənd yetişər ona, nə qayış.
Belə sərt görüncə sapın atanlar
Gəlintək qaladan çox utandılar.
Nə hasar araba ona yol tapır,
Nə də mancanaqdan qorxusu vardır.
Yorulub qalınca bu çalışmaqdan,
Bu günbəd üstünə boş qoz atmaqdan.
Sınaqlı İskəndər bir məclis qurdu,
Başçılar gəlincə belə buyurdu:
"Bu qala haqqında nədir fikriniz?
Yorulduq düşünüb-daşınmaqdan biz.
Ölkələr fəth edən dikbaş igidlər
Ədəblə baş əyib dua etdilər:
"Bəndəyik, əmrinə bağladıq kəmər,
Dincəlmək bilmədik bu günə qədər.
Qırx gündür yuxusuz, yorğun yeməksiz
Buludla, günəşlə çarpışırıq biz.
Buludun başına, bilirsən, yol yox,
Nə qılınc vurular, nə nizə, nə ox.
Hər işə div kimi tapdıq bir çara,
Bu divlər evində gəldik zinhara,
Bu uğursuz yoldan gəl dönək geri,
Çeynəyək daşları, dik təpələri".
İskəndər duydu ki, igid başçılar
Acizdir bu işdən, olmuşdur naçar.
Sürmədən günəş mil çəkdi gözünə
Batdı bir al gövhər Nil dənizinə[202].
Sahildə səpərək xəzinə, gövhər,
Bir məclis bəzədi bahara bənzər.
Hamı bu məclisə gəldikdən sonra
Söylədi döyüşkən uca başlara:
"Yaxında varmıdır bir zahid dindar,
Dünya işlərindən çəkilən kənar?"
Bir nəfər söylədi: "Uca tacidar,
Bu yaxın köhüldə qoca zahid var,
Kimsənin üzünü görməz bu adam,





Bir çəngə ot ilə keçinir müdam."
Yerindən ox kimi qopdu hökmüran,
Ayrıldı məclisdə olan dostlardan.
Xas adamlardan da qoşuldu ona,
Aradı, iz tapdı köhül yoluna.
Gecə, yol düşmənin günündən qara,
Fənər tuturdular o şəhriyara.
At sürdü, köhülə gəlincə yaxın,
Aydınlıq köhülə edincə axın,
İşığı görüncə zahid uzaqdan
Dişarı sıçradı o qaranlıqdan.
Gördü bir mələkdir günəştək parlar,
İqbalı olmuşdur yuxudan bidar.
Qoca tez padşahın yanına keçdi,
Şahlığın nuruyla padşahı seçdi,
Söylədi: "Görürəm, bir gövhərsiniz,
Zənnimcə cahangir İskəndərsiniz.
İskəndər şəfqətlə ona əl verdi,
Onunla bərabər köhülə girdi.
Soruşdu: "Bu yerdə dostun kim, ey pir?
Bu çöldə yeməyin, geyimin nədir?
Bir də anlat mənə, dar köhüldə sən
Nə bildin cahangir İskəndərəm mən?
Söylədi: "Həmişə qəlbin olsun şad,
Hər zülmün bəndindən olasan azad.
Ulduzun bəxtində versin əl-ələ,
Taleyin ucalsın səadət ilə.
Görüncə səni mən tanıdım ondan:
Ayı qaranlıqda tanıyar insan.
Dünyada sanma tək sənin güzgün var.
Mənim də ürəyim güzgüdür, parlar.
Yüz ildir parladır onu riyazət,
Bir surət göstərə bilir, nəhayət.
Ey uca fikirli, sordunuz məndən:
Necə ömr edirsən dar göhüldə sən?
Olmuşam sayəndə sağlam bir insan,
Əvvəlkindən daha sağlamam, inan.
Qəlbimdə kimsəyə yox məhəbbət, kin,
Azadə, bəxtiyar yox mənim təkin.
Dünyada bir vəfa görmədim, gerçək,
Vəfasız kimsədən umulmaz kömək.
Hər işi fikrimlə çox ölçüb biçdim,
Özümə yararlı bu yeri seçdim.
Hesabı, kitabı kəsdim dostlardan,
Yalnız bir dostum var - böyük yaradan.
Doyunca yeməyə etmədim adət,
Mədəni doldurmaq zəhmətdir, zəhmət.
Yediyim köy otdur, geydiyim həsir,
Daşları, bax, bunlar kimiya edir.
Bu illər uzunu tacidarlardan,
Səndən başqasını görmədim, inan.
Səbəb nə, göylərdə sönmüşkən çıraq
Uğurla köhülə basdınız ayaq?
Sənə bu köhüldə, ey böyük insan,
Xidmətçin əskiyəm bir qara quldan."
İskəndər dedi: "Ey sınaqlı qoca,
Çarəm yox, gəlmişəm, fikrimdir uca
Tanrı bir dəmiri böldü ikiyə,
Bizlərə tapşırdı "sahib ol" deyə.
Onlardan qılınc və açar bəzərkən
Açan sən aldın, qılıncı da mən.
Bu dəmir qılıncla işıqlı gündə
Mən haqqa köməyəm ədlin önündə.
Sən də, gəl, gecəykən göstər kəramət,
Ədalət yolunda bir açar tərpət.
Mənim bu qılıncım, sənin açarın
Açsın qapısını xalqın, diyarın.
Bu dik dağ başında var uca hasar,
O yerdə yurd salmış azğın quldurlar.
Gecə də, gündüz də çalırlar karvan,
Sənə də qəsd edir bu azğın düşman.
İstəyim bu işlək yolu açmaqdır,
Ədl ilə, biliklə bəzək saçmaqdır.
Sən öz himmətinlə göstər bir hünər,
Tale də bu yolda köməklik edər.
Əyridən, oğrudan təmizlənər yol,
Yolçunun ərzağı artar, olar bol."
Elə ki, anladı o qoca dindar.
Qalada hökm edir azğın quldurlar,
Ahından açınca odlu bir sapan,
Göylərin qapağı açıldı haman.
Dağa o sapanı elə fırlatdı,
O dağ öz içində dənizə batdı.
Padşaha söylədi: "Qayıt indi sən,
Uca dağ oynayıb qopdu yerindən."
Məclisə dönüncə uca şəhriyar,
Məclisdə olanlar qarşı çıxdılar.
Ən gözəl bir məclis qurdu yenidən,
Ortaya mey gəldi, üzlər oldu şən.
Xidmətçi gəldi ki, qalabəyidir,
Hüzura gəlməyə izn istəyir.
Əmr etdi, hüzura aldılar onu,
Girincə yer öpdü, əydi boynunu.
Alqışlar yağdırdı uca dərgaha,
Açan ədəblə verdi padşaha.
Söylədi: "Bu gecə qopdu bir bəla,
İsgəndər gücüylə dağıldı qala.
İki bürc hasardan birdən qoparaq
Uçuldu padşahın bürcündən iraq.
Tanrının qəhrindən qopdu bir sapan,
Hasara düşüncə dağıldı hər yan.
Səninsə sapanın çatmaz bu yerə,
Günəşi yandırmaz kiçik bir zərrə.
Bilirəm, xarablıq deyil ordudan,
Başqa bir qapıdan gəlir bu sapan.
İndi ki, göyün də hökmü səndədir,
O qala, o da sən, sənindir əmr."
Baxdı başçılara, dedi İskəndər:



"Duaya bundan xoş kim dəlil istər?
Qırx gündür daş, qılınc yeyir bu hasar,
Sınaqlı igidlər hey çarpışırlar.
Bu qədər qılıncın almaz gücüylə
Qopmadı o dağdan bir kəsək belə.
Yoxsul bir zahidin çəkdiyi ahdan
Dağıldı bir hasar, bürc oldu viran.
Cizcə bu qalaya kim oldu üstün?
Bu dünya zahidsiz olmasın bir gün."
Başçılar bu işə çox heyran oldu,
Öz dediklərindən peşiman oldu.
Yer öpüb dedilər: "Sən ey hökmüran,
Taxtından, tacından ayrılmayasan.
Ölkədə qolların qüvvətə dolsun,
Çəkiyin daşları əbədi olsun.
Belə nüktələri sənsən tanıyan,
Səni öz kölgəsi etmiş yaradan.
Bu sirri, hikməti biz də anladıq,
O yanlış yollardan çəkildik artıq."
Yenidən bürüdü qoşun hasarı,
Yollardan qaldırdı yol vuranları.
Qalanın yerinə ərazi verdi,
Onları verdiyi mülkə göndərdi.
Göylərlə öpüşən qalanın bir-bir
Uçulmuş yerləri edildi təmir,
Elə ki, dağıntı, uçuqlar bitdi,
Zülmün qalasını ədl evi etdi.
O dağda əhali doymuşdu cana,
Şikayət etdilər o hökmürana:
"Bu qıpçaq xalqı bir dəhşətdir, dəhşət...
Əkin əkməyə də bizdə yox cür'ət.
Axına başlarkən açıq dağlardan
Əkindən, biçindən qoymazlar nişan.
Axından ölkəmiz çox ziyan edir,
Malımız, canımız məhv olub gedir.
Rahatlıq versəydin bu ölkəmizə,
Böyük bir mərhəmət edərdin bizə.
Bu açıq və uçuq yerləri bir-bir
Daş ilə dağ kimi eyləsən təmir,
Onda çöl xalqının axınlarından
Rahatlıq içində dincələr xəzran"[203].
Əmr etdi: nə qədər açıq, uçuq var,
Çəksin bu xəzranın xalqı bir hasar.
Gecə də, gündüz də qara daşlarla
Olduqca böyük səd çəkilsin yola.
İş bilən, sınanmış daş yonanlardan,
Dağlarda açığı sədlə bağlayan
Bilikli ustalar göndərdi ora,
Keçidlər alındı möhkəm hasara.
Hasar işlərindən azad olaraq
Hərəkət qəsdilə ucaltdı bayraq.
Gurlayan təbillər açırdı yara,
Ağaclar abnustək olurdu qara.
İskəndər xeyməni çıxardı çölə,
Yollarda mənzili qatdı mənzilə.
Ata ülkər kimi verdi hərəkət,
Hər bürcə çatınca saçdı səadət,
Gecənin saçları müşkin həlqədən
Neylufər günbədə saçarkən səmən,
Yolun zəhmətindən padişah, ordu
Azacıq dincəldi, bir məclis qurdu.
"Əfsanə söyləsin" deyə, İskəndər
Çağırdı o yerdən bir neçə nəfər.
Verdi bir çox sual o yerə dair,
Bütün vəqələri öyrəndi bir-bir.
Söz sözü çəkərkən hər yerdən onlar
Açdılar şaha çox maraqlı əsrar:
"Burda bir qala var ki, cənub yeli
Əssə də, o yerə uzanmaz əli.
Minadan bir daşdır, saçar müşk, ənbər,
Həm gözəl, həm şəndir bir cənnət qədər.
Sərir adlanır o mübarək məzar,
Orda Keyxosrovun taxtı, camı var.
Keyxosrov mülkündən köçüb gedərkən,
Taxtına, tacına bu yerdir məskən.
Məzarı odlu bir köhüldür ancaq,
O yerə olmayıb ayaq da basmaq.
Həm də o məkanda padşahlıq edən
Bir məlikzadə var onun nəslindən,
O şahın yerinə pərəstiş edər.
Taxtını, tacını düşməndən güdər."
O dünya dolaşan uca hökmüran
Gül kimi açıldı bu xoş dastandan.
Harda macəralı bir qala alsa,
Yenilən qüvvətli, ya aciz olsa,
Girərdi qalaya Keyxosrov sayaq
Apaçıq, ya da ki, gizli olaraq.
Qalanı dolaşıb dönərdi yenə,
Bəxşişlər verərdi keşikçisinə.
Hər şeyi görməyə marağı vardı,
Hər işin üstündən odtək çapardı.
Elə ki, eşitdi bu keyfiyyəti,
Qalanı görməyə artdı rəğbəti.
Qoca Keyxosrovun köhnə canından
Dövlət məclisinə versin yeni can.

## İSKƏNDƏRİN SƏRİR QALASINA GETMƏSİ VƏ KEYXOSROVUN QƏBRİNİ ZİYARƏT ETMƏSİ

Saqi, dur şərabla könlümü güldür.
Bu işdə səbrinə bir ölçü götür.
Könül çırağının tükənmiş yağı,
Mey ilə parlat bu sönük çırağı.
Gündüz qarğa rəngli qara gecədən
Çıxmış Zəngibardan kafur kimi şən[204]
Uğurlu cənnəttək işıqlı gündüz
Şəfəqlər içində parladırdı üz.
Havada toz, duman yox zərrə qədər.

Lacivərd rənginə boyanmış göylər.
Guşəyə çəkilmiş küləkli xəzan.
Baharın dan yeli əsir hər yandan.
İşıqdır dağ, çəmən, bütün yer üzü,
Parlar al çıraqla dünyanın gözü.
Kainat bir cənnət bağına bənzər,
Hər yanda qoxuyar müşk ilə ənbər.
Bəxtiyar İskəndər uğurla yenə
Taxtından oturdu təxti-rəvanə.
Göylərə söykəndi tacının başı,
Ucaldı bayrağı, açıldı qaşı.
Yer yorulmuş idi at nallarından.
Dağların başına düşdü həyəcan.
Ordunu Səririn şəhrinə çəkdi,
Keyxosrov taxtını görmək istərdi.
Sərirli eşitdi İskəndər gəlir,
Keyxosrov taxtını görmək istəyir.
İşindən, ağlından tutmuşdu xəbər,
Adildir cahangir böyük İskəndər.
Kəyanın nəslinə verməmiş ziyan,
Doğruya köməkdir, arxadır hər an.
Çoxunun başına qoymuş qızıl tac.
Bəxşişlər vermişdir, almamış xərac.
Şahı qarşıladı iki mənzildən,
Xalılar döşədi, yollar oldu şən.
Dəyərli bəxşişlər saçdı o qədər,
Sayını olmadı bilən bir nəfər.
Gül kimi tərtəzə hər çeşid dəri,
Götürmüş həddindən çox bu şeyləri.
Zil qara samur, al tülkü dərisi..
Qaqum, qunduz, vaşak ki, hər birisi
Baharda ilk açan yarpağa bənzər,
Üstünə səpilmiş bənövşə, ənbər.
Başını dik tutan boyları çinar,
Döyüşdən qorxmayan igid qulamlar,
Cilovda yeriyən qullar hər biri
Görüşdə ən təzə, xidmətdə diri.
Hüzura göndərdi belə bir baxşış,
Başqa töhfələri həddini aşmış.
Saraya axınca bu var, bu dəniz,
Nazirlər saymaqdan qaldılar aciz.
Sərirli hüzura gəldi, baş vurdu,
Belini ikiqat bükərək durdu.
İskəndər şəfqətlə oturtdu onu,
Hörmətlə yüksəltdi uca boynunu.
Məclisdə bitincə görüş ayini,
Soruşdu taxt ilə cam qissəsini:
"Anlat ki, tilsimli cam, Kəyan taxtı
Necədir, sönmüşdü onun da baxtı?"
Sərirli dedi: "Ey dünyanın şahı,
Şərəfli şahların ey şahənşahı!
Keyumərs ordundan kiçik bəndədir,
Firidun mülkünün fərmanındədir.
Ulduzlar yayına ox olsun sənin,
Göy kimi dünyanı tutsun kəməndin.
Keyxosrov camıdır hər şeyə açar,
Sənin də əlində açan güzgü var.
Fərq budur, dünyada qazandı ad-san
İskəndər güzgüdən, Keyxosrov camdan.
Taleyi oyanmış padşahlar getdi,
Bu taxtı, bu tacı sənə tərk etdi.
Taxtınla dünyaya saçılsın işıq,
Başından tac əskik olmasın artıq.
Dünya tacidarı əzm etmiş, desək
Köhnəlmiş bu tağa vursun yeni rəng.
Onunçun atını sürmüş bu yerə,
Ucalsın daxmamız uca göylərə."
İskəndər dedi: "Ey böyük namidar,
Kəyandan bu taxta, taca yadigar.
Çünki mən Kavusun taxtına keçdim,
Cəmşidin camından gülgün mey içdim.
Bu uca taxt ilə cam üçün, gerçək,
Oynamış yerindən, çırpınır ürək.
Bilmək istəyirəm, uca tacidar
Dar köhüldə necə tutmuşdur qərar?
Keyxosrov sirrini arar İskəndər,
Sən otur, o yerə yalnız yol göstər!
Yiyəsiz taxtına ağlayım bir an,
Öpüm gülgün camın dodaqlarından.
Bu taxt ki, Xosrovdan qalmış yadigar,
Şahın ölümündən açarmı əsrar?
Eşidim o cansız camdan bir salam,
Vücudum canlansın, yaşayım xoşkam.
Canımın güzgüsü paslıdır, gərək
O pasla güzgünün tozunu silmək.
Görməklə qəlbimə düşsün bir təşviş,
Asan olsun mənə hər bir çətin iş."
İskəndər sözünü salmadı yerə,
Sərirli itaət etdi bu əmrə.
Tez qalabəyinə göndərdi xəbər:
Qarşıya çıxarsın böyük töhfələr.
Çeviklik göstərsin hər bir xidmətdə,
Həm qonaq sevməkdə, həm nəzakətdə.
Tapşırıq verdi: taxt keşikçiləri
Padşaha xidmətdən durmasın geri.
Yol versin, Keyxosrov taxtına keçsə,
Qədəhi doldursun gülgün mey içsə. .
Keyxosrov taxtına əyləşdirsinlər,
Töksünlər başına inci və gövhər.
Şərabla doldurub firuzə camı
Versinlər padşaha, qalmasın kamı.
Versin xoşladığı yeməkdən ona,
Durmayın geri baş əyməkdən ona.
Elə ki, bitirdi tapşırıqları,
Dedi: "Şah buyursun qalaya sarı.
İzninlə burada qalmalıyam mən,
Sizi qarşılayım ordan dönərkən."
Getməkçin tərpəndi böyük İskəndər,





Balinas onunla getdi bərabər.
Məhəkə vurulmuş beş-altı qul da
Ona yoldaş oldu bu çətin yolda.
Mağara yolunu durmadan biçdi,
O qədər ucaldı, göyləri keçdi.
Dırmandı rahatlıq etmədən belə
Çarx kimi burulan yoxuş, keçidlə.
Gördü bir qaladır, alçalar göylər,
Adını davada çəkməmiş bir ər.
Gəlinlər tez şərbət hazır etdilər,
Qatdılar dodaqdan ona gül, şəkər.
Açıldı şahanə gözəl bir süfrə,
Yeməkdən düzüldü adına görə.
Sarayın qızları bənzərdi aya,
Hər yandan padşahı aldı araya.
Dəbdəbə, şövkətə daldı İskəndər,
Dövlətin siması qəlbi cəzb edər.
Şah xörəkdən yedi, şərbətdən içdi,
Qalxınca Keyxosrov taxtına keçdi.
Taxtın ayağına gəldiyi zaman
Hörmətçin tacını aldı başından.
Elə bil səsləndi hər qapı, divar:
"Yuxudan oyandı yatan tacidar."
Sərirli vermişdi belə bir fərman:
"Keyxosrov taxtına çıxsın hökmüran."
O böyük tacidar keçincə taxta,
Bir simürğ oturdu sanki budaqda.
O qızıl sütunlu taxtı güdənlər
Söz xəzinəsindən saçdılar gövhər:
"Padşahın çıxması şahanə taxta
Hər zaman uğurlu yol açar baxta.
Yaqutu ölçən bu gövhər cam ki, var,
Çox saysız sərvətə olmuşdur açar.
Bu dövlət becərən cam və taxt ilə
Çox taxtı və camı alarsan ələ."
O biri dedi: "Ey uca şəHriyar!
Bir ölkə görməmiş səntək tacidar.
Keyxosrov taxtına sən ki oturdun,
Başını fələyin taxtına vurdun."
İncə bir dil açdı başqa bir nəfər:
"Keyxosrov, Keyqubad nə vaxta qədər,
Qolun ki, bu taxtla gücləndi artıq,
Edərsən Keyxosrov və Keyqubadlıq."
Şah bu taxt önündə bəxtiyarlıqla
Gözəl fal vuruldu namidarlıqla.
Padişah bu taxta bəzək, şan verdi,
Ölən Keyxosrova yeni can verdi.
Şah taxtın üstündə oturdu çox az,
Tez taxtı öpərək endi keyfi saz.
Şah taxta o qədər xəzinə saçdı,
Xəznədar gözünü heyrətlə açdı.
Əmr etdi: bir qızıl kürsü qoyulsun,
Xosrovun camı da yanında olsun.
Kürsüyə oturdu adlı tacidar,
Keyxosrov camını ələ aldılar,
Saqi tapşırığı görüncə belə,
Parlatdı o camı qızıl mey ilə.
Verdi İskəndərə qəlbində sevinc:
"Keyxosrov eşqinə bu şərabı iç!
Bəxtinin ulduzu sənə yar olsun,
Qolların bu camla bəxtiyar olsun!"
Şah camı görüncə ayağa qalxdı,
Bir kərrə içərək camı buraxdı.
Cama qolbağından saldı bir gövhər,
Oturdu, önünə qoydu İskəndər.
Yiyəsiz o taxta kədərlə baxdı.
Gözündən şərabsız cama yaş axdı.
Padşahsız, şərabsız, yetimtək duran
Boş taxta, boş cama çəkdi bir dastan:
- Qalmasın qızıl taxt yiyəsiz, yalnız,
Bu cam da olmasın qızıl şərabsız.
Hər qədəh işığı alır şərabdan,
Hər taxta qiyməti verir hökmüran.
Tacidar getdimi, durma, taxtı qır!
Şərabı tökülsə, camı yerə vur!
Padişah taxtında olar sərəfraz,
Cənnətin taxtında naz ilə yatmaz.
Dünyadan cənnətə keçən bir insan,
Bax, belə bir taxtı sanacaq zindan.
Bir quş gülşənindən ayrı düşərkən
Qəfəsi "ac"dandır, toru ipəkdən.
Budaqdan yaşıl tac qoyduğu zaman
Sədəfi, ipəyi çıxarır yaddan.
Biz tac düşgünüyük neçin bu qədər,
Ölüm basqınından tutan yox xəbər?
Xəzan qılıncını görmədiyindən
Qol-budaq ataraq bahar olur şən
Maral sağrısını şişirdən zaman
Bilmir ki, bu yerdən keçəcək aslan.
Cüyürlər çöllərdə oynur, şənlənir.
O qorxunc aslanlar yatmışmı, nədir?
Ahunun göbəyi dolmuş müşk ilə,
Bəbirlərin dişi sınmamış hələ.
Belə bir qəflətlə keçir günümüz,
Bir zaman yanğından qopar ünümüz.
Faydasız olan bu taxt nəyə gərək?
Üstündə başqası ömür sürəcək.
Biz başqa kəslərə yer qızdırırıq,
Bu yerdən utanmaq gərəkdir artıq.
Faydasız bu taxta uyma, saxtadır,
Yerimiz taxt deyil, quru taxtadır.
Bu qızıl taxt deyil, versəniz fikir,
Ayağa vurulmuş ağır kündədir.
Bir taxt ki, əbədi yer deyil sənə,
Onu ölməmişkən parçalasana!
Keyxosrov camında qalmamışsa su,
Yerinə mey tökmə, qoy qalsın quru.

### İSKƏNDƏRİN KEYXOSROV MƏQBƏRƏSİNƏ GETMƏSİ

Ey saqi, Keyxosrov camını doldur,
Bir cam ki, hər gözə verir işıq, nur.
Dur, ağzına qədər mey doldur ona,
Hörmətlə ver əsrin Keyxosrovuna.
Ey uca şövkətli adil padişah,
Müştəri simalı, asiman pənah!
Keyxosrov qurduğu məclislər hanı?
Taxtında oturan İskəndər hanı?
Onlar öz bürcünü ataraq getdi,
Şövkəti, dövləti sənə tərk etdi.
Dünyada İskəndərtək etsən rəftar,
Sənindir hər buyruq, sənsən tacidar.
Bu dünya adına vurmuşsa sikkə,
Səninlə şənlənmiş olsa da ölkə,
Könül vermə könül aldadanlara,
Dünya üz verməmiş mehribanlara.
Onu kim sevdisə, dostun önünə,
Bax, nələr çıxarmış o dönə-dönə.
Bir taxtı hiyləylə qurdu, bax, sonra
Nə oyun açdı o, taxt quranlara.
O cam ki, bir nəfər məsti şad etdi,
Bax, cam sahibinə nə bidad etdi.
Bu yeddi kişvərdə Keyxosrov sənsən,
İskəndər mülkünə fərman verənsən.
Bu şahdan güzgü al, o şahdan cam al,
Düz göstərdikləri yolla get, nam al!
Hər işə bir qərar verərkən bu gün,
Sabaha ondan bir səmər var, düşün.
Şahlara tac verən tacidar sənsən!
Atanın taxtında yadigar sənsən!
Şən yaşa, getdi o şən yaşayanlar,
Köçdü tacidarlar, sənsən tacidar!
Bu bağda turacın qanadlarıtək
Nə çinar qalacaq, nə də bir çiçək.
Əxistan ömrünü vurdusa başa,
Bu yaşıl gülşəndə sən var ol, yaşa!
O məni ucaltdı nazla, nemətlə,
Göylərə qaldırdı yerdən hörmətlə.
Sən məni ucaltdın ondan da artıq,
Bağının qapısı üzümə açıq.
Yerlərə naxışlar vurduqca dövran
Üzünə şənliklər gülsün hər zaman.
Zamanın ələçıq hatəmlərindən
Yalnız sən qalmışsan, yaşa daim sən!
Nədən söyləyirdim, harada qaldım,
Atımı sürərək, hara yol aldım!
İskəndər o taxtda, o camda, heyhat
Görmədi rahatlıq, görmədi səbat.
Göylərin əbədi taxtı olmayan
Hər bir taxt deyilmi həyata zindan?
Bəlinas həkimi dəvət elədi,
Oturdu o cama yaxın, söylədi:
"Camdakı ayinə sən də qıl diqqət,
Ondakı əsrarı ara, tap əlbət!"
Bəlinas o cama edincə nəzər,
Qolayca oxundu bütün rəqəmlər.
O yerdən ki, haman cam asılmışdı,
Sırayla bir neçə xətt yazılmışdı.
O xəttə dərindən saldılar nəzər,
Gizli bir hesabı dərhal seçdilər.
Padişah, Bəlinas öz kamalilə
Xətlərin sayını gətirdi ələ.
Sonralar padişah bu torpaqlardan
Öz vilayətinə keçdiyi zaman
Camdakı ayini tapdı Bəlinas,
Üstürlab düzəltdi o ayinə xas.
Elə ki, İskəndər yol tapdı cama,
O yerdə dincəldi, yetişdi kama.
Dedi Bəlinasa: "Səndəndir kömək,
Bu taxta başqası qonmasın gərək!"
Bir tilsim düzdü o ağıllı həkim,
O taxtın üstündə otursa hər kim,
Az keçər, bu taxt da tərpənər birdən,
Onu bu yaqut taxt atar üstündən.
Eşitdim o cünbüş indi də vardır,
Qızıl taxt üstündə o bərqərardır.
Xosrov ayinini təqlid edərək
Gəldi darvazaya şah Keyxosrovtək.
Camdan, taxtdan gəldi məqsədi ələ,
Üz qoydu Keyxosrov yatan köhülə.
Şahı qələbəyə böyük zəhmətlə,
Apardı köhülə yüz əziyyətlə.
Elə ki, köhülə şah yaxın oldu,
O daşlıq yollarda atlar yoruldu.
Getmək çox çətindi, nə yol, nə iz var,
Hər yanı bürümüş tikan və buxar.
Bələdçi söylədi: "Padşahım, dur,
Keyxosrov yatdığı köhül, bax, budur.
Yolları şimşəkli ildırım vurmuş,
Qayalıq qayalıq üstündə durmuş.
Köhülün sirrini öyrənmək üçün,
Padşahım, bu yolda bir qədər düşün.
Diş-dırnaq tökülür qorxunc yollarda,
Keyxosrovtək özün yatarsan orda.
Əsrar pərdəsinə olma çox yaxın
İşi çox uzanar arayanların.
Yüyəni geriyə çevirin daha!..
Bu köhül içində yatmış əjdaha."
İskəndər üzünü çevirdi ondan,
Köhülə piyada getdi hökmüran.
Bəlinas arxada, önündə rəHbər,
Sınanmış iki qul, bir də İskəndər.
Keçdilər zəhmətlə, bitdi qayalıq,
Köhül dəhlizinə çatdılar artıq.
Köhül xəzinəsi gəlincə ələ





İskəndər qəlbinə düşdü vəlvələ.
Gördü daş köksündə köhnə bir yanq.
Ensiz bir yolu var, dar və qaranlıq.
Köhül sahibindən tapmaqçın nişan
Köhülə zəhmətlə girdi hökmüran.
Bir qədər keçmədi, od qalxdı birdən,
Alışıb yanırdı içəri girən.
Soruşdu: "Bəlinas, nədir bu odlar?
Darısqal köhüldə hardandır buxar?"
Bəlinas diqqətlə baxdı bir zaman,
Bilsin ki, neçin od fışqırır daşdan.
Gördü bir parlayan dərin quyu var,
İçində qaynaşır əlvan işıqlar.
Kimsə o işıqdan tutmamış xəbər,
Arayan tapmamış ondan bir əsər.
İşığa nə qədər aradı yol, iz,
Bir işıq tapmadı, qaldı səmərsiz.
O igid belinə bağladı kəndir,
Bilsin ki, quyuda bu ataş nədir?
Parlayan günəşdən tapdı bir nişan,
Anladı od necə çıxır quyudan.
Toplu bir alovdu, deyil dağınıq,
Gördü ki, kükürddür bu yanan işıq.
İşarət verincə çıxdı quyudan,
Dualar edərək dedi: "Hökmüran,
Tələsmək lazımdır, göstərin tədbir,
Su deyil, quyudan çıxan ataşdır.
Kükürd mədənidir bu, alovlanır,
Kükürddən dörd yanı alışıb yanır.
Bu sirri bilirmiş köhüldə yatan,
Özünü kükürdlə məhv etmiş, inan."
Padşaha, köhülə etdi çox dua,
Çıxarkən üzərlik səpdi alova.
Köhüldən çıxınca axtardı yolu,
Tapmadı, qəlb oldu kədərlə dolu.
Eşitdim, dənizdən bulud qalxaraq
Şiddətli qar səpdi, doldu hər bucaq.
Dünyanı sarsıtdı qarlı bir tufan,
Dərələr, təpələr doldu o qardan.
O qarda sərgərdan qaldı İskəndər,
Qarlı kipriyindən axdı qətrələr.
Qala xalqı xəbər tutunca bundan
Köməkçin axdılar ora hər yandan.
Təpiklə, kürəklə yolu açdılar,
Çox zəhmət çəkdilər, hiylə saçdılar.
Şah yolu tapmaqçın ətrafa baxdı,
Köhülün küncündən zirvəyə qalxdı.
Yaşıl donlu tovuz humay quşundan
Ağ, parlaq sümüyü qapdığı zaman[205]
Səriri taxtına səadət verən
Sərir qalasından enincə şən-şən,
Döndü öz çadırı qurulan yerə,
Yenidən yar oldu bəxt İskəndərə.
Dincəldi dəhşətli zəhmət çəkməkdən.
Mağara yolunu gedib, gəlməkdən,
Düşdü sıxıntıya, düşdü qorxuya,
Özünü ovdurub, daldı yuxuya.
Yatdı, vücuduna rahatlıq çökdü,
Dan yeri ağardı, al şəfəq sökdü.
Yenidən baş vurdu səhər göylərə,
Şəfəq mey camını vurunca yerə.
Bu saxsı torpağa laciverd fələk
Sarı reyhanlarla vurunca bəzək,
Əmr etdi, şahanə məclis bəzəndi,
Noğulla, şərabla süfrə şənləndi.
Səririn şahını dəvət elədi,
Hörmətlə oturtdu, şəfqət elədi.
Onunla qədəhi aldılar ələ,
Hamı sərxoş oldu o gülgün meylə.
O bəxşiş əlləri açıldı yenə,
Xəzinə axıtdı ev sahibinə.
Həmayil, təxtü tac verdi hökmüran,
Taxtı fil sümüyü, tacı qızıldan.
İpəkdən don verdi, üstü zər, gövhər,
Sanki bir pərvindir, cavahir çəkər.
İçinə yanımca portağal sığan
Portağal biçimli firuzə fincan.
Yarısı tutulmuş qızıla, lələ,
Nar kimi dolmuş nar dənələrilə.
Zümrüddən nərd verdi - üstü əl-əlvan,
Bəzəyi qırmızı, sarı yaqutdan.
Büllurdan bir xonça, günəş kimi şən,
Sanki göy budaqda açmış yasəmən.
Yorğa at, başında qızıldan yüyən.
Yüyənin bəzəyi əlvan gövhərdən.
Ağır yük altında tərləmiş yüz lök,
Tükləri tər-təmiz, həm sağlam, həm kök-
Yük vurmuş o bağlı şeylərdən hələ,
Cavahir batmanla, qızıl xərmənlə.
Rütbəyə münasib verdi hər kəsə
Hər çeşid qəba və zərli əlbəsə.
Verildi o qədər xələt və sərvət,
Səririli taxtını parlatdı zinət.
Öpdü şah əlini o dönə-dönə,
Sevinclər içində döndü evinə.
İskəndər oradan köç təbli çaldı.
Bayraqlar işıqlı göyə ucaldı.
Səhraya endi o dağlıq yerlərdən,
Dəniz sahilində eylədi məskən.
O çöldə bir həftə ov etdi, artıq
Köçmək məqsədilə gördü hazırlıq.

### İSKƏNDƏRİN REY VƏ XORASANA GETMƏSİ

Dur, saqi, o qızıl camı qoyma boş
Ki, Cəmşid, Firidun yadigar qoymuş.
Ver bu saf aşiqə o saf şərabdan.

Məstliklə keçsin bu rəyalı dövran.
Ey könül, nədir bu oyunun hələ?
Hər dəfə çıxırsan yeni bir rənglə.
Nəfsinin ağacı yamyaşıl durur,
Başını burmadan, başını sən bur![206]
Şərabı içməmiş, gözüm, məst olma!
İçsən də, dönərək bütpərəst olma!
İndi ki, zəfəran yemədən şadsan,
Yemə zəfəranı, ölərsən, inan![207]
Olma şahlar kimi yemək düşgünü,
Qorx, səni yaxalar fəlakət günü.
Bu ev ki, qızğın od fışqırır hər an,
Tək laqeyd olanlar qurtulur ondan.
Bərkliklə hər bərklik bir muma dönmüş,
Neft ilə, kükürdlə hansı od sönmüş?
Keçmişi nəql edən o qoca sərvər
Vurur öz nəqşinə belə bir zivər:
Keyxosrov taxtından Xosrov dönüncə
Ordunun içinə getdi ilk öncə.
Bir gün öz taxtında oturdu artıq,
Köçməyə tökürdü tədbir, hazırlıq.
Bir qasid ay kimi girdi içəri,
Qasid adətilə öpərək yeri
Uca şəhriyara açdı çox əsrar,
Anlatdı nə varsa gizlin, aşikar.
"Üzümü qapına sürtmək üçün mən,
Bura at çapmışam İstəxr şəhrindən.
Nayibin var qızğın salamı sizə,
İxlasla ərz edir xidmətinizə:
- Şərtlər ki, qoymuşdur nayib tikirkən,
O şərtlə yerimdə nayib oldum mən.
O gündən ölkəni almışam ələ,
İnciyən olmamış bir nəfər belə.
Əməl etdim şahın dediklərinə,
Şərtləri yetirdim bütün yerinə.
Şükr olsun, alçaqdan və ya ucadan
Ölkəyə tük qədər dəyməmiş ziyan.
Dönükdür üzü bu namərd fələyin,
Gah şəfqət göstərir, gah həsədlə kin.
Çərx ikicanlıdır yaxşı-yamandan,
Ulduz gah dost olur, gah qatı düşman.
Əkilməmiş ağac göyərmiş Reydən,
Söyləyir: Keykavus nəslindənəm mən!
Yırtıcı bir divdir, dəhşət yaradır,
Ölümə əjdaha kimi can atır.
O ceyran otaran çobanlar belə
Çomağın yerinə ox almış ələ[208].
Bel ilə işləyən götürmüş kaman,
Belçilər olmuşdur silah daşıyan.
Bu azğın özünü sanır Əhrimən,
Hər yerə çatırsa qoparır şivən.
Söyləyir: mənimdir bu tac, bu ölkə,
Namusa rəng ilə vurur bir ləkə.
Başında yığıntı saysız əsgər var,
Dənizin suyundan toz çıxarırlar.
Bəxtinə güvənib, olmuş qəhrəman,
Meydanda bir nəfər yox qarşı çıxan.
Özünü kim tutsa şaha bərabər,
Başıyla sərvəti əlindən gedər.
Ona yüyən çəkir Xorasan xalqı,
Döyüşə aparır bu üsyan xalqı!
Bəlx ilə Nişabur boyu hər yerdə
İştirak edirlər bu şurişlərdə.
Bu fitnə başçısı hazırlıq görür,
Taxtının durduğu yerə yürüyür.
Kini qızğın olan belə fitnəyə
Baxma çox yüksəkdən, alçaqdır, deyə.
Kiçikdən ən böyük bir fitnə doğur.
Hər qurdun sümüyü ayağa oxdur[209].
Bu fitnə yaşasa uzun bir zaman,
Padşahlıq işinə əl atar, inan.
Buludtək ayının almasan üstün,
Taxtını qılıncla alacaq bir gün.
Bir tərlan qayışı açsa ayaqdan,
Kəklik qol-qanaddan düşər o zaman.
Qüvvətli ordum yox ki, dava günü
Çıxarım düşmənin xain gözünü.
Ölkədə qalmamış adlı igidlər,
Hamı şah yanında bəndəlik edər.
Odur ki, artdıqca tamahı, öcü,
Qolu qüvvətlənir. Yox olsun gücü!
Yalnız şəhriyarın yel kimi qopan
Ordusu götürər bu tozu yoldan!"
Qasid öz sözündə hünər yaratdı,
Məktubda olanı sözlə anlatdı.
Ən gizlin əsrardan, yaxşı, yamandan
Məktubda nə varsa, elədi bəyan.
O aslan ürəkli, o fil gövdəli
Çəkdi öz-özünə bu xoş məsəli:
"Burda Keyxosrovun taxtı altımda,
Orda bir başqası mənim taxtımda.
Bənzər o dastana bu tac, taxt, ordu:
"Hindudən sərvəti çalar bir hindu[210].
Bu yerdə dayanmaq yaramaz daha,
Gecikmək düşməni edər ə əjdaha."
Padşahın ordusu göymüdür, nədir?
Durmadan hər zaman hərəkət edir.
O karvanbaşıdır, dünya bir karvan,
Artırdı karvanın yükü hər yandan.
Yük ilə dolmuşdu hər yer, hər guşə,
O yerdə qarışmış bu iş o işə.
Yalnızca edərdi hər işə çara,
Böyük bir arxaydı sığınanlara.
Hər kimi öz bəxti etsə cahangir,
Elə bir ayağa yaramaz zəncir.
Şəhriyar yerindən hərəkət etdi,
Sahillər boyunca yol alıb getdi.
Aydan da yuxarı ucaldı bayraq,





Bisütun kimi bir sütun vuraraq.
Həm gözəl ov vardı, həm gözəl ovlaq.
Getdi yol uzunu ov ovlayaraq.
Salxımlar əyilmiş ağırlığından.
Köklükdən tərpənə bilməyir ceyran.
O qədər sel axdı çayın gözündən,
Silindi toz, torpaq dünya üzündən.
Coşmuşdu şimşəkli neysan buludu,
İldırım salmışdı müdhiş gurultu.
Göyərti kök salmış qara torpağa,
Rəqs üçün baş əyir yarpaq yarpağa.
Kəskin naləsiylə yırtdı bülbüllər
Gülün köynəyini göbəyə qədər.
Sədbərgin üstündə duran qızıl gül
Yaqut nallı ata minmiş elə bil.
Tut ilə yarpağı, bu iki novbər
Halvadan, inəkdən verirdi səmər.
Yer sarı, sular göy geyinmiş, demək,
Yarı göy, yarısı sarı bir ipək.
Çöldə çöl xalqına şeyda bülbüllər
Sazdan da incə, xoş bir şərqi söylər.
Hər arpa bir düyün vurmuş kəmərə,
Biçin salamı var əkinçilərə.
Qarnını böyüdür dağda ceyranlar,
Qurdlarsa dişini etmişdir mişar.
Budunu doldurmuş ətli marallar,
Çöldə dağ öküzü dağlara qalxar.
Yenicə doğan şux ceyranlar belə
Çölləri doldurmuş öz balasıyla.
Şah ovla, çalğıyla, qədəhlə yekdil
Yolları biçirdi hey mənzil-mənzil.
Ay yeni doğmuşdu gülpic şəklində.
Getdikcə xalxaltək olunca girdə,
Halqa pərgarından çıxdı İskəndər.
O yerə indi "Zər-xalxal" deyirlər.
Buludtək Gilana atıldı ordan,
Sanki bir meşəyə girdi bir aslan.
Önünə çıxarkən bir atəşkədə,
Ondan buz yaratdı atəşpərəstə[211].
Elə ki, hirbüdün qırdı belini,
Ortadan silindi Zərdüşt ayini.
Əzm etdi düşmənə yolu kəsməyə,
Gilandan birbaşa tərpəndi Reyə.
Hər atəşpərəstə verdi çox cəza,
Qalın tüstülərlə doldu göy, fəza.
Eşitdi: gəlmişdir o qızmış aslan,
Tülkütək oldu bir deşikdə pünhan.
Qaçaraq Xorasan səmtinə getdi,
Rey padşahının gözündən itdi.
Padişah eşitdi: o azğın düşman
Aslandan qorxaraq qaçmış meydandan.
At saldı, düşmənin ardınca getdi,
Yolunu bağladı, tez basqın etdi.
Üstünü alaraq, kin boğa-boğa
Başını bir anda saldı torpağa.
Elə ki, düşməni torpağa atdı,
Qaçqınlar içində qorxu yaratdı.
Düşmənin başını saldığı yerdə
Bir təpə vardı o yaşıl çöllərdə.
Müzəffər və sağlam dövlət adına
Təpənin başında saldı bir bina.
Qızıldan vurdurdu şux bəzəkləri,
Ona pəhləvicə ad qoydu "Həri".
Binanın işləri bitdikdən sonra
Ordunu yeritdi şah Nişabura.
Gördü ki, ikilik çıxmış meydana:
Şəhərin yarısı dost idi ona,
Yarısı Daraya təbil vururdu,
Dostluqdan açıqca boyun bururdu.
Bir bayraq var idi Daradan nişan,
Sanırlar Daradır altında duran.
Bu uca bayrağı "namusdur" deyə,
Daranın adından ucaltmış göyə.
Nə qədər kin ilə coşdu İskəndər,
Daranın eşqindən əl çəkmədilər.
Bu kinə tapmışdı yalnız bir çara:
Köməklik göstərsin doğru dostlara.
Ordundan sınaqlı, igid kəslər də
Bir bayraq dikəltsin bu kinli yerdə.
Padşahın məqsədi bu idi ancaq,
Kin ilə çarpışsın bu iki bayraq.
Bilirdi, Daranı sevir bu şəhər,
Bu yolda çalışmaq verməz bir səmər.
Bu nifaq, düşmənlik sürəcək həşrə.
Səmimi bir dostluq girməz o şəhrə.
Torpağa girmişsə o qatı düşman,
Hələ kin sönməmiş kinli torpaqdan.
Kəkliyi saldırdı qırqovullara,
Mərvə tərpənərək düşdü yollara.
Söndü əmri ilə hər atəşkədə,
Yaxdı pərvanəni qızğın atəşdə.
Bəlxə yetişərkən, Zərdüşti odu
Qılınclar zərbindən dönüb su oldu.
Orada bir bahar vardı qəlb açan,
Güllərin dimağı acıydı ondan[212].
İçində qədərsiz gözəl, şux dilbər,
Çiçəkli bahartək sənəmxanələr.
Saysızdı xəzinə bu şən ocaqda,
Zəhmətsiz qoyulmuş hər bir bucaqda.
Qızıldan nal vurmuş möbidin atı,
"Azərgüşəsb" idi o yerin adı.
Elə ki, əl tapdı ora hökmüran,
Müğləri məst gördü müğlər camından.
Hurini cənnətdən atdı dişarı,
Qovdu cəhənnəmə dost olanları[213].
Köhnə xəzinəyə olunca məhrəm,
Ondan çox sinəyə parladı mərhəm.
Xorasan səmtinə etdi hərəkət,

Qaldı hər şəhərdə bir neçə müddət.
Xorasan beynindən çıxardı duman.
Onlara çox caza verdi hökmüran.
Hər səmtə axırdı müzəffər ordu.
Ona gənc taleyi kömək olurdu.
Kirmanı, Qəzneyni, Quru cahangir
Atların naliylə ölçürdü bir-bir.
Hər hansı şəhərə gəlsə tacidar,
Qapısı üzünə dərhal açılar.
Ölkələr dolaşmaq olsa da çətin,
Yollarda sayı yox xəzinələrin.
İskəndər hər yerə bassaydı ayaq,
Xəzinə yüküylə ağırlaşaraq,
Yeri doldurarkən xəzinə, sərvət,
Torpağa basdırıb, etdi hərəkət.
Qızıl ki, insanı edəcək qorxaq,
Ya ataş udsun, ya bu qara torpaq.
Qızılı torpağa gömən hər qafil
Ağzına dəmirdən vurur bir qıfıl.
Madam ki, torpağı sovurur külək,
Ona bir dəmirdən qıfıl nə gərək?

### İSKƏNDƏRİN HİNDİSTANA GETMƏSİ

Saqi, ver ərinmiş o saf qızıldan,
Qırmızı kükürdü odur doğuran[214].
Mənə ver, dərmantək tutiya edim,
Misimi onunla kimiya edim[215].
Həvəslə sür atı, xoşdur bu çöllər,
Cilovu çəkmə ki, atındır dilbər.
Gözəl bir ad ilə çirkin dünyadan
Köçərək tut cənnət bağında məkan.
Bağlanma torpağa, gəl həzər eylə,
Qarunu udmuş öz xəzinəsiylə.
Dinclikdir qurtuluş, gəl, olma sərkəş.
Dağıntı olmaqla yığcamdır günəş.
Qorxulu, zəhmətli olduqca yollar
Ticarət əhlinin qazancı artar.
Yollar quldurlardan olsa salamət
Bazar əsnafına olmaz mənfəət.
Qaydadır, hər yerdə xəzinə vardır,
Yolunda qorxunc bir əjdaha yatır.
Sözə yağ, bal qatan o dehqan yenə
Belə yağ, bal qatır işin məğzinə:
Padişah Qəzneyndən Bəlxə aşınca,
O acı dənizdən uzaqlaşınca,
O qədər sərvərlər ona baş vurdu.
Hindistan səfəri qarşıda durdu.
Ağıllı kəslərlə etdi məsləhət:
"Bax, ayaqlarımdan öpür bu dövlət,
İranın torpağı ovcum içində,
Atımı çevirmək istərəm Hində.
Öncə Keyd üstünə ordu tökərəm,
Kin ilə hiylədən mən əl çəkərəm.
Başqa kəslər kimi baş əysə mana,
Köməkdən başqa şey etmərəm ona.
Mənimlə başlasa qızğın savaşı,
Qılıncımla düşər o şəxsin başı.
Bu yandan o yana çevirrəm, bir də
Çökdürrəm onu mən bildiyim yerdə.
Ordumu çəkərəm uzaq səfərə,
Bir qılınc vuraram Fovrə bir kərə.
Qaparam tacını, mal olar yurdu.
Çin, Xəta üstünə çəkərəm ordu.
Oradan gedərəm Təraza, Çaça,
Dünyanı gəzərəm at çapa-çapa."
İgidlər, sərdarlar hamı yer-yerdən
Çox məmnun qaldılar bu xoş xəbərdən.
Ulduzu ona yar olduğu gündə,
Dövləti kamala dolduğu gündə[216],
İskəndər başını göylərə vurdu,
Parlayan günəştək tərpəndi ordu.
Qəzneyndən atıldı tez Hindistana,
Yollar şövkətindən döndü bostana.
İstədi başlarda yaxsın tüstünü,
Durmadan alsın tez Keydin üstünü.
Buludtək oynadı talan fikrilə,
Mülkünü qılıncla keçirsin ələ.
Görmədən ağıllı kəslər məsləhət
Etmədi azğınlar kimi hərəkət.
Yelayaq qasidlə o gün İskəndər
O Keydə göndərdi belə bir xəbər:
"Çarpışmaq istərsən, durma, ordu çək!
Ha, indi yetişdim qara buludtək.
Baş əyib əmrə bel bağlamış olsan,
Qurtuldun, demək, bu kəskin qılıncdan.
Yuxudan o zaman nərgiz oyanar,
Üstündə yağmurlu bir bulud oynar.
Günəşin dimağı olduqca azar,
Bağları, daşları çiçəklə bəzər.
Dəhşətlə kükrəsəm inlər bu dünya,
Tərpənsəm, yerindən oynar dağ, qaya.
Alçaqda atarmı ovçu bir şahin,
Altına coşqun sel, ya ki, su keçsin?
Bir tükün kinlə baş qaldırsa orda,
Yüz başı bir tükdən asaram burda.
Dağ-daşın qılınctək olsa da kəskin
Qılıncım köhülə çevirər, çəkin.
Qızılçın gəlmədim hind ölkəsinə,
Məğribdə azmıdır gövhər, xəzinə?
Gözəllər ardınca çapmaq nahaqdır,
Xarəzmin günəşi daha parlaqdır.
Əldə Hind qılıncı gəldim "Hind" deyə,
Sərxoş fil ətindən kabab yeməyə.
Yemə Hind xəracı məni anmadan,
Ürəyim hindli bir poladdır, inan!
Başını sevirsən, gəl mənə ver bac,
İskəndər yoxsa nə baş qoyar, nə tac!"





Keyd ilə gəlincə qasid üz-üzə
Tor kimi sözünü caladı sözə.
Ona çox kəsərli sözlər söylədi,
Hər sözü tutuşan bir ataş idi.
O kəskin sözləri Keyd eşidincə,
Qorunmaq fikrilə çəkindi öncə.
O gecə görmüşdü qarışıq yuxu,
Yozmaqdan canına düşmüşdü qorxu.
Bilirdi: İskəndər olmuş cahangir,
Fələkdir hər işdə onunla əlbir.
Düşmənlik neylədi, bax, o Daraya,
Nə etdi Həbəşə, Rey, Buxaraya.
Məsləhət görmədi üz çevirməyi,
Onun meydanına kinlə girməyi.
Bilmədi, üstünə gəlmişkən düşman,
O necə qurtulsun bu vuruşmadan?
Qorxudan başladı rica etməyə,,
Şahı çox yad etdi "afərin" deyə:
"Bilirəm: zəkidir, həm də çox ayıq,
Tək ona yaraşır bu cahandarlıq.
Taxtının rütbəsi alçaldır ayı,
Böyüklük haqqıdır, yox onun tayı.
Hörmətdən başqa mən nə etdim ona?
Nə üçün çağırır məni meydana?
Xəzinə istərsə, hamısı qurban,
Əmr etsə, ataram tacı başımdan.
Canıma qəsd etsə, xoşdur, nə deyim,
Dişimlə edərəm hüzura təqdim.
Yoldan da bir bəndə göndərsə mana,
Taxtımı, tacımı tapşırram ona.
Kiçiklik həddini əsla keçmərəm,
İskəndər ağadır, mən bir nökərəm.
O mənə naz etsə yalvararam mən,
Narazı qalmasın öz bəndəsindən.
Mənimlə döyüşü o lazım görsə,
Atını kin ilə üstümə sürsə,
Axaram o coşğun Nil ayağına,
Ataram canımı fil ayağına.
Başımı qaçırsam kinli döyüşdən
Qınlar inadı, əzmi bu işdən.
Məqsədi mülkümdən salmaqsa itkin,
Minnətlə razıyam, nə gərək bu kin?
Kükrəyib qoşunla çıxsa qarşıya,
Qaçaram, dar deyil başıma dünya.
Əvvəldən mənimlə bağlasa peyman,
Söz versə, sözündə dursa hər zaman,
Talandan əl çəksə, dost olsa mana,
Qapımdan kinini atsa bir yana,
Verərəm dörd şey ki, beşincisi yox,
İşığı, dəyəri ulduzdan da çox.
Birinci, qızımı göndərrəm şaha,
Nə qız, bir günəşdir, aydır dərgaha.
İkinci, yaqutdan bir camdır, qış-yaz
İçdikcə o camdan şərab azalmaz.
Üçüncü, filosof, gizlini görən,
Göylərin sirrini bilən, göstərən.
Dördüncü, təbibdir, hər dərdi bilir,
Ondan hər xəstəyə bir şəfa gəlir.
Hədiyyə verərəm edərsə qəbul,
Təşəkkür edərək deyərəm: sağ ol!"
Elçi baş əyərək dedi: "Bu şeylər
Hədiyyə gedərsə, böyük İskəndər
Mülkündə başını göyə ucaldar,
Qohum olduğundan hörmətin tutar.
Adını adlılar içində çəkər,
Hər bir istəyinə rəğbət göstərər."
Hind şahı gördü var ağlı, anlağı,
Möhkəmdir, büdrəyən deyil ayağı.
Söylənən sözləri - şərti tutaraq,
Sözə bir qədər də yağ, bal qataraq,
Bir qoca hindlini bu işə görə
Elçiylə göndərdi uca hüzurə.
Şahın dərgahına gələrək onlar
Oldular bağçada gül saçan bahar.
Görüncə hindli o sərapərdəni,
Ayparası aydan uca xeyməni,
Torpağa baş vurub içəri girdi,
Əvvəlcə salamı şaha yetirdi.
Rüsumat bitincə o hindu birdən
Söz açdı qəbulə keçən şeylərdən.
Dörd şeydən danışıb söylədi: "Ey şah!
Heç kəsdə tapılmaz belə bir dəsgah".
Bu istək coşdurdu onun qəlbini,
Göz görmək istədi eşitdiyini.
Töhfəni tez ələ almaq fikriylə
Bir an da olsa səbr etmədi belə.
Şirindil hindliylə uca hökmüran
Söylənən şərtlərlə bağladı peyman.
Bəlinas və başqa kəslərlə yenə
Göndərdi örtülü, ağır xəzinə.
Göndərdi alması mum edən məktub,
Bütün Hindistanı ram edən məktub.
Yazıldı Keydə bu bir hökmürandan,
Qızğın əjdahaya müdhiş aslandan.
Bu məktub hər katib işinə yarar,
İçində nə qədər gözəlliklər var.
Ürək qızğınlığı üz verdi şaha,
Dostluq şərtlərini artırdı daha.
Qələmi o katib alınca ələ,
Məktubu yoğurdu müşkü ənbərlə.
Bəlinas, bir neçə rumlu birlikdə,
Məktubu aldılar hind şahı Keydə.
Bəlinas at çapdı bir an durmadan.
Hind qərargahına çatdığı zaman
Keydin saf qəlbini şən, parlaq gördü,
Hindu hiyləsindən çox uzaq gördü.
Baş əydi, çünki o, bir tacidardır,
Hörmətli taxtı, həm qurşağı vardır.

İrəli gedərək öpdü naməni,
Hinduya tapşırdı o xəzinəni.
Məktubu o katib oxudu əzbər,
Qorxudan yerlərə əyildi göylər.

## İSKƏNDƏRİN HİNDLİ KEYDƏ MƏKTUBU

İskəndər məktubu yazmışdı belə,
Daşı mum edirdi şəfəqqətilə.
Ay, günəş yaradan adından sonra,
Düşüncə və ağlın yolu yox ora,
Odur hökmüranlıq və hökm verən,
Bütün peyğəmbərə vəhy göndərən.
Laciverd göylərin altından sonra
Salamlar söylərəm namdarlara!
Məktubda yazmış: "Ey böyük pəhləvan,
Taleyin gənc olsun, güclənsin arxan!
Fikrim və iradəm bu idi ancaq,
Fil ilə, toppuzla möhkəm çarpışmaq.
Bir qüvvət göstərim titrəsin cavan,
Dağlar parçalansın bu toppuzumdan.
Bu Hində elə bir od vurum, ondan
Qalmasın bir nəfər boyun ucaldan.
Uca fil başına kəmənd atım mən,
Qandan bixi-ruyən çıxarım nildən[217].
Hindin torpağını qana bələyim,
Suların başına torpaq ələyim.
Sülh üçün təlaşı görüncə səndə,
Bu işdən cilovu çəkmədim mən də.
Can verən bu dadlı sözlərinlə mən
Qul oldum sənə bir tacidar ikən.
Möhkəm bir kirişlə bağlandı könlüm,
Öz cadu dilində vurdun bir düyüm.
Elə bir iş et ki, bu közəl peyman
Nəslimiz içində qalsın hər zaman.
Dörd adlı göyhəri göndərsən mənə,
Mən daxi belə söz verirəm sənə:
Bir ordu kəsilsə bu yeddi kişvər,
Mülkünə bir tükcə yetişməz zərər.
Hər yaxşı, yamanda kömək verərəm,
Bu dediklərimdə duraram möhkəm."
Qasid bu məktubu oxudu Keydə,
Yetirdi salamı, baş vurdu bir də.
Bu sevimli sözlər bir füsun saçdı,
Üzünə sehirli qapılar açdı.
Hiyləgər cadunun etdiyi əfsun
Etdi cadugəri özünə məftun.
"Bilirəm ki, Hinddə çoxdur cadugər,
Bilməzdim var Hində cadu edənlər."
Bir qədər danışdı durduğu yerdə,
Verilən töhfəni tapşırdı Keydə.
Yerindən oynadı Keydin ürəyi,
Qaynadı padşaha qarşı bir sevgi.
Söylədi: "Afərin sənə, hökmüran,
Bu dünya padşahsız qalmasın bir an!"
Bilikli elçiyə göstərdi hörmət,
Aldı hazırlığa bir həftə möhlət.
Elə ki, bir həftə keçdi vədədən,
Hazırlıq işləri başa gəlirkən,
Padşahın əmrinə edərək səcdə,
Şeyləri hörmətlə verdi qasidə.
Qoşdu dörd peykərə hər çeşid zivər,
Göndərdi dəyərli, sevimli şeylər.
Cavahir, ləl, inci, yaqut, xəzinə,
Fillərin üstündə ağır gəncinə.
Saysız Hind poladı, bağlanmış yüklər,
Xalvarla tökülmüş ud ilə ənbər.
Yürüyən dağ kimi sarsılmaz qırx fil,
Göbəyinə çatmaz coşqun, dərin Nil.
Üç ağ fil göndərdi qızıl taxtına,
Bir qaranlıq çökdü düşmən baxtına.
Bəlinasa bəxşiş verdi hökmüran,
Həm bişkin müşkdən, həm də xam uddan.
Pəriduxt uddan bir taxta oturdu,
Göylərin beşiyi ona baş vurdu.
Qoşdu çox xəzinə pərisurətə,
Hər biri mal olmuş min bir zəhmətə.
Götürdü Bəlinas o zər-zivəri,
Bir kişvər xəracı onun hər biri.
Tapşırdı şövkətli İskəndərinə,
Dövləti haqq belə ucaltdı yenə.
Görüncə dəyərli o xəzinəni,
Tanrının verdiyi dörd hədiyyəni,
O qədər şənlətdi bu İskəndəri,
Unutdu Rumdakı xəzinələri.
Şah o dörd peykərə bir sınaq saldı,
Görüncə doğrudur, çox məmnun qaldı.
Elə ki, parlaq cam su ilə doldu,
Onun şərbətindən xalq məmnun oldu.
Filosofla söhbət etdiyi zaman
Hikmətlər öyrəndi köhnə dünyadan.
Rəf oldu, o təbib salınca nəfəs
Bədəndən xəstəlik, ürəkdən həvəs.
Örtülü sərvətə növbət gəlincə,
Hinddə Çin çinisi göründü incə[218].
Gözəllik ölçüsü tutan kəslərin
Tutduğu ölçüdən daha nazənin.
Gördü toz görməmiş təzə bir çiçək,
Bahardır, dəyməmiş soyuq bir külək.
Büt kimi bəzənmiş incə bir dilbər,
Hindu bütü kimi pəriyə bənzər.
Baş yumru, qaş geniş, ağız dar - göyçək,
Yaşıl bir budaqda üzü al çiçək,
Şəkərdən çox dadlı təzə bir qönçə,
Çiçəkdən həm lətif, həm daha incə.
Saçları tor kimi, hər tərəf çin-çin,
Çin-çin tellərinə quldur bütün Çin.
Qara müşk bəsləyən ceyrandı Çində,





Qərənfil yemişdi doğarkən Hinddə.
Saç deyil, müşkdən hörülmüş zəncir,
Günəşdən sallanmış bulud kimidir.
O müşkin buluddan al gül saçaraq,
"Sünbülə" bürcündən asmışdı başaq.
Sevimli, buğdayı rəngi, şux, dilbər,
Qara, müşkin xalı bir arpa qədər.
Baş vermiş arpadır müşkin buğdadan,
Deyil buğda deyə, boz arpa satan[219].
Türk simalı idi o hindli afət,
Şaha Hind elindən vermişdi cənnət[220].
Yox, hindu deyildi o türk dilbəri,
Hindutək çalırdı bu könülləri.
O Rumi üzüylə, hindu diliylə
Etmiş Rum şahını özünə kölə[221].
Bir şəkərxəndə, bir dümdüz neyşəkər,
Sevimli, ən incə qönçə bir dilbər.
Olduqca gözəl, həm nazlı bir pəri,
Həm sudur, həm oddur parlaq gövhəri.
Onundu bu gəlin, bu dilbər qönçə
Qarşıya çıxdı şah onu görüncə.
İshaqın rəsmində böyük hökmüran
Ki, ağlın gözünə ondadır dərman,
Əqd etdi, başladı qızın toyuna,
Sonra qolun saldı onun boynuna.
Töhfələr sazladı hindu şahına,
Bir büsat başladı başlıq adına.
Verdi top-top ipək, xalvarla gövhər,
Qumaşdan bir çadır, qızıl taxt-zivər,
Zümrüd cam, əqiqdən gözəl bir sini,
Yaquta qərq etmiş hər birisini.
Yaqutdan, ləldən düzülmüş bir tac,
Polad nallı atlar - görməmiş qırmanc.
Qulağı halqalı qullar və dilbər,
Zərxara geyinmiş rumlu kənizlər.
İnsanın ağlına gələndən artıq
Göndərdi Keyd üçün qatarla sandıq.
Cahandar İskəndər kamına yetdi,
Ayüzlü gəlinin toyunu etdi.
İncəlik o qızda olmuşdur tamam,
Əndamı bir parça soyulmuş badam.
Lətif paludəyə barmaq vurunca
Barmağı bulaşdı ona boyunca.
Yonulmamış bir dürr, açmamış bir gül,
Humay da o gülə vurğun bir bülbül.
Yontuldu bu inci, açıldı qönçə,
Pərdəli sözə bax, nə qədər incə.
İskəndər istəklə olunca dəmsaz
Dövlət işlərindən dincəldi bir az.
İstəxrə sınanmış qasid göndərdi,
Dövlət işlərindən məlumat verdi.
Yazdırdı qəlbinə yatan sözlərdən,
O müşkin ölkədə şanlı zəfərdən:
"Hindistan səfərim olmuşdur belə,
Necə ki, dost istər, baş tutdu elə.
Keydə kin etməyə vermədim qərar,
Dost oldu, dost kimi elədim rəftar.
"Qənvuc"a gedirəm "Fur" üstə ələn,
Bu yolda köməkdir ulu yaradan.
Görüm orda nələr qarşıma çıxar,
Bəlkə də iş bitər, mən deyən olar.
Yunan dənizindən, Çin dənizindən
Tutaraq, hər yerdə nayibim sənsən.
Durma, yay dünyaya səadət səsi,
Hər kəsə ver bizdən şənlik müjdəsi.
Əskərlər, qocalar, pirlər, cavanlar -
Nə qədər ölkəmdə var yaşayanlar,
Hamını sevindir, bizdən ver xəbər,
Xeyir ver, bilik ver, ədalət göstər".
Belə məktub yazdı bütün kişvərə,
Qasidlə göndərdi bütün ellərə.
Səfər tədarükü gördü gəlinə,
Hörmətlə göndərdi Yunan elinə.
Ona qoşun verdi inanmışlardan,
Yanına qoşdu şah böyük bir karvan.
O zinətli taxtın yanınca yenə
Göndərdi Yunana ağır xəzinə.
Torpağa gömüldü yerində qalan,
O yerə qoydu bir bələdçi, nişan.
Ağıllı vəzirə bir məktub yazdı,
Ədalət işindən heç ayrılmazdı.
Bildirdi ona hər yaxşı, yamandan,
Dostlara üz verən bəxtiyar andan.
İskəndər azacıq dincəlib durdu,
Furun torpağında xeyməni qurdu,
Şahların rəsmini tutdu həvəslə,
Hindistan mülkünü doldurdu səslə.
Başladı bəxşişlər verməyə hər gün,
Dünyaya bununla olmuşdu üstün.
Badələr qaldırdı Keyin adına,
İndi badə qalxır onun yadına.

## İSKƏNDƏRİN HİNDİSTANDAN ÇİNƏ GETMƏSİ

Saqi, ver mənə o qırmızı sudan
Ki, ondan qocalar gəncləşir hər an.
Ver, ondan parlasın gənclik ulduzu,
Bu sarı gülləri edim qırmızı.
Ox, yenə üz verdi şənlik, səadət,
Çalğıçı çalğıya göstərdi rəğbət.
Yazılan şerdən xəbər tutdu yar,
Şairin ölməyən ümidləri var.
Ey tarix söyləyən, dimağı parlat!
Bu incə şerimi, durma, aydınlat!
Söylə, döyüşlərdə böyük İskəndər
Furların başına gətirdi nələr?
Məqsədə uyğun nəql edən əhli-hal,
Pərdədən göstərir belə bir xəyal:

Keyd ilə girincə sülhə hökmüdar,
Gah gülgün mey içər, gah edər şikar.
Furu talan üçün göndərdi ordu,
Bəxtiyar ömrünə son zərbə vurdu.
Qılıncı çəkincə qından tacidar,
Düşmənin kəlləsi oldu tar-mar.
Mülkünü büsbütün eylədi tarac,
Qoydu qılıncından başına bir tac.
Düşməni düşüncə qədəmlərinə
Ölkəni tapşırdı başqa birinə.
Oradan tərpəndi, ucaldı bayraq,
Atlara etmədi saziş bu torpaq.
Üç şey üç ölkədə fələkət alır,
Hər üçü məhv olur, ömrü azalır:
İranda fil, Çində pişik, Hinddə at
Məhv olur, açmayır əsla qol-qanad.
İskəndər gördü ki, o abü hava
Yelayaq atlara etməyir vəfa.
Tibetə tərpəndi tez Hindistandan,
Oradan tez Çinə keçdi hökmüran.
Tibetin dağına çatınca ordu
Səbəbsiz sürəkli qəhqəhə vurdu.
"Belə qəhqəhəyə, - sordu, - səbəb nə?
Burda insan ancaq ağlar özünə."
Dedilər: "Zəfəran rəngli bu torpaq
İnsanı səbəbsiz güldürür ancaq."
Padşaha maraqlı göründü bu iş,
Neçin bu qəhqəhə, neçin bu reviş?
Dənizi, qurunu, çətin çölləri
Keçərkən hey mənzil-mənzil irəli,
Yolu ov qanından qupquru gördü,
Çölləri müşk ilə dopdolu gördü.
Ceyranı görüncə çöldə nafədar,
Əmr etdi gözəl bir ceyran vurdular.
Hər yerdən sel kimi ordu axardı,
Çöllərdən xalvarla nafə yığardı.
Çin səhralarından keçdi bir zaman,
Abadlığa çatdı böyük hökmüran.
Bir çayır göründü cənnətdən də şən,
Başını behiştə dayamış gülşən.
Hər tərəf yamyaşıl, gözəl gülzardı,
Hər dörd-beş addımda çeşmə axardı.
Xoş iqlim, xoş hava, sıx, geniş orman,
Yamyaşıl, meyvəli ağacdı hər yan.
Saf çaylar, çeşmələr axır hər yerdə,
Gümüştək parıldar mavi peykər də.
Şeh düşmüş, ən lətif, ən təzə otlar
Bir düzüm incidir sanki parıldar.
Çeşmənin başında ceyran izi var,
Yamyaşıl çəmənlər müşk ilə dolar.
Maral dırnağını çəmənə çalmış,
Yaşıllıq üstünə müşkin xət salmış.
Tapılmaz boz bir yer, hər tərəf otlaq,
Varsa da boz təpə - daşlıqdır ancaq.

İskəndər görüncə o gözəl yeri,
Hindistan şövqündən çəkildi geri.
Atları, əmr etdi uca tacidar,
O sulu otlağa boş buraxdılar.
Bir həftə şən həyat sürdü vüqarla,
O yerdə dincəldi pəhləvanlarla.
O biri həftədə gözəl gün seçdi,
Elə ki, uğurlu gün ələ keçdi,
Köç təbli çaldırdı uca tacidar,
O yerdən sürətlə Çinə çapdılar.
Təbilçi dolduqca acığa, qəhrə,
Təbildən qopurdu bağırtı, nərə.
Çinin al güzgüsü şəfəq saçarkən,
Ordunu Çin səmtə çəkdi hökmüran.
O polad və zireh geyimli ordu -
Hər biri yelqanad ata oturdu.
Hava saf, gözəldir, yollar tikansız,
Varsa da tikanlar, ballı, ziyansız,
Dağların, çöllərin dadlı otundan
Şəkərli süd əmər hər körpə ceyran.
Ovlaqdan keçərkən şanlı İskəndər
Tozundan çöllərə yayıldı ənbər.
Şahın damğasını daşıyan ceyran
Göbək salmış müşkin ağırlığından.
Oxundan torpağa üz qoyan ceyran
Gözündə tiryəktək görünür cahan[222].
Kükrəyən aslandı ulu cahandar,
Sıçrayan qaplandı altında şikar.
O qədər ov etdi rumlu İskəndər,
Ceyrandan, maraldan boşaldı çöllər.
Atlar dırnağından ipək çöl, çəmən
"Ceyrangöz" olmuşdu ceyran gözündən [223].
Qabırğa deşən ox çəkirdi nərə,
Ceyran da, müşk də düşürdü yerə.
Başdan dırnağadək hər maral, ceyran
Mədənə dönmüşdü qızıl oxlardan.
Padşahın kamanı pusquda durur,
Hər oxa bir maral, bir ceyran vurur.
Oxların etdiyi incə nəqqaşlıq,
Çöllərin rəngini silmişdi artıq.
Ovlaqda ona ov oldu əyləncə,
Vaxtını keçirdi bir gün, bir gecə.
Dünyanın gəlini, dilbər gözəli,
Hasara düşüncə göylər gözəli,
Eşqindən gecə bir hindu qadıntək,
Sehr etdi fəzaya, saçdı min bəzək.
Öz köhlən atından İskəndər endi,
Ordu da onunla bərabər endi.
Rahatlıq etməyə qərar verdilər,
Quş da tərpənmədi səhərə qədər.
Sübhün gözəli zər xalxalı ilə
Göyün xeyməsinə saçarkən şölə[224],
Dünya hindu kimi tüstü yayardı,
Yəğma və Xüllaxtək cahan ağardı.





Gurultu qopunca şahın təblindən,
Yəğmaya, Xüllaxə yayıldı şivən.
Dünyanı dolaşmaq fikri daşıyan
İskəndər qoşuna verdi bir fərman:
Qoşunu bu yerdə düşərgə salsın,
Bir ayı başa-baş dincini alsın.
Tövlədən, axurdan doldu hər tərəf,
Yaşıl çəmənlərdə biçildi ələf.
Xaqana dedilər: bezdi çöl, orman
Zirehli atların polad nalından.
İrandan kükrəyib axan bu selin
Əlindən qurtular nə xaqan, nə Çin.
Bu bir seldir, tutar bütün dünyanı,
Kölgədə buraxar keçmiş tufanı.
Yağmuru xərabə edər hər yeri,
Dənizdə məhv edər zor nəhəngləri.
Qara əjdahadır, kükrəmiş Rumdan,
Ölkələr görməmiş bir belə aslan.
Həbəşin üzünə o damğa vurdu,
Zənci qara geydi, bir matəm qurdu,
Daranı büsbütün etmişdir tarac,
Hindin şahlarından qapmış qızıl tac.
Furların talanı bitincə, demək,
Məqsədi Fəğfuru yağma eyləmək.
Yerindən qoparsa bu coşqun dəniz,
Dağlar da kökündən uçar tərtəmiz.
Qorxudan tez məclis çağırdı xaqan,
Qorxmaqla haqlıydı elə aslandan.
Qan ilə yazdı hər hüduda bir xətt:
"Ölkəmiz qan ilə yoğruldu, dəHşət!"
Bir məclis bəzədi, gəldi qasidlər,
Göndərdi Xətadan Xütənə qədər
Fərqanə, Pəncabı qoruyan, güdən
Hüdudun sınanmış igidlərindən.
Xərxiz ilə Çaçdan, böyük Kaşğardan
Çağırdı hesabsız igid pəhləvan.
Hər yerdən toplanıb gəlincə ordu,
Xaqanın ürəyi sakitcə vurdu.
Yürüyən bir dağın üstünə mindi,
Bir polad dağ kimi yerdən tərpəndi.
Şaha iki mənzil qalırkən ordu
Tövlələr bağladı, çadırı qurdu.
Tez-tez o padşahdan tuturdu xəbər,
Ona nə yol ilə yetirsin zəfər,
Gizlicə arayıb tapdı xəfiyyə,
Düşmənin halını öyrənsin deyə,
Nəhayət, xəfiyyə gətirdi xəbər:
"Şanlı tacidardır rumlu İskəndər.
Səxada, kərəmdə qazanmış ad-san,
Gözəl bir mələkdir, deyildir insan.
Şüurlu ağıllı və açıq gözlü,
Zəhmətdə sakitdir, xəlvətdə sözlü.
Hər zaman mətindir, yaşar vüqarla,
Kimsənin qanına susamaz əsla.

Ədl ondan bir fayda görər, şər - ziyan,
Xalq məmnun, tanrı da razıdır ondan.
Hamıya yaxşılıq istər, kin bilməz,
Kimsənin dərdinə sevinməz, gülməz.
Görmədim ona bir üstün pəhləvan,
Yoxdur pəncəsindən onun qurtulan.
Oxu məgər Anş oxluğundandır
Ki, daşlarda dərin yara ondandır.
Şimşəkdir, qılıncı alsa əlinə,
Ələ mey aldıqda, saçar xəzinə.
Ağıl ölçüsüylə hər şeyi ölçər, ,
Hikmət qayçısıyla hər işi biçər.
Saf, doğru olmayan sözə inanmaz,
Mətindir, verdiyi sözünü danmaz.
Hər işin üstünə düşsə, yaradır.
Məclisdə, şikarda o bambaşqadır.
Yalnız ov zamanı yox onda səbir,
Döyüşdə, vuruşda çox səbirlidir.
Vəhşəti dünyadan əqlilə qovmuş,
Özü də padşahlar nəslindən doğmuş.
İgidlər şahıdır, qızınca meydan,
Sərxoşkən ayıqdır çox ayıqlardan.
O işə girər ki, xəyaltək gəlir,
Məclisdə hənayi çox ətirlidir.
Sözü az, özü çox səbirli, yumşaq,
Doğruluqda doğru, düzlükdə qovaq.
Minsə kin atına, qəhri guruldar,
Yendiyi düşmənə mərhəməti var.
Dalğalı tufandır sözdə dodağı,
Alimdən dərs alır məsləhət çağı.
Qocalar fikriylə girişir işə,
O ancaq gəncləri alır döyüşə.
Allaha sığınır o hər bir zaman,
Yaman gün görərmi tanrı tanıyan?
Sərvtək yəhərə qalxdığı zaman
Atından fillərin bağrı olar qan.
Qarşıya çıxarsa qocaman bir fil,
Sanki fil qətrədir, o daşqın bir Nil.
Azacıq haranlıq etsə at ona,
Qamçıyla batırar onu al qana.
Qıvrılmış ilantək sağ, sola qaçar,
Şölətək arxaya, önə od saçar.
Dünyanı sarsıdan padşahlar bütün
İgidlər gücüylə oldular üstün.
Orduda tək odur zor qılınc vuran,
Həm ordu qırandır, həm ordu quran.
Düşməndən nə qorxu, nə ürküsü var,
Tək əlsiz, ayaqsız kəslərdən qorxar.
Xeymədə büsatı çox geniş dilər,
O yalnız əyləncə zamanı gülər.
İstəməz baş əysin ona bir nəfər,
Baş əyən kimsəyə çox hörmət edər.
Bəxşişi xəzinə - budur həyatı,
Tövləylə bağışlar qatırı, atı.

Əl açan kəslərə kim gövhər verər,
Bu, gövhər yerinə bir kişvər verər.
Qəlbinə gətirsə nə kimi dilək,
Tezliklə göyərdir onu bu fələk."
Xaqan bu işlərdən tutunca xəbər,
Haq verən şövkətdən eylədi həzər.
Şah ilə sülh üçün qəlbi yumşaldı,
Uzaqdan-uzağa məhəbbət saldı.
Döyüşmək fikrindən daşındı artıq.
Yol axtarırdı ki, etsin barışıq.
Dünyanın şahına verdilər xəbər,
Çin, Xəta türkləri hərbə gəldilər.
Bir məsəl çəkdi şah ki: "Nəşəsi var,
Ayağıyla gəlsə tora xam şikar."
Mənimlə çarpışmaq istərsə əgər,
Namərdlik deyil bu, çox mərdlik edər.
Arizu yolları qısaldı sizə,
Uzun yol həm də çox azaldı bizə.
Onlara çin ilə çataram qaşı,
Çin üçün qan ağlar Çinin dağ-daşı.
Ağarırkən fəza, laciverd göydən
Günəş İskəndərə salam verirkən,
Oturtdu katibi bir Ütaridtək,
Müştəriyə vursun Zöhrədən bəzək.
Bir məktub istədi olduqca parlaq,
Kamil bir ay kimi aydın, yuvarlaq:
Yazarkən ikiyə ayırdı sözü,
Ümid bir gözüydü, qorxu bir gözü.

### İSKƏNDƏRİN XAQANA MƏKTUBU

Qələmi alınca o qələmvuran,
İlk sözü başladı ulu tanrıdan.
Anıldı bu yeri, göyü yaradan:
Bir varlıq var olmaz onu anmadan.
Ondandır hər ümid, rahatlıq, kömək,
Arayan hər qəlbə ondandır dilək.
Ən çətin günlərdə odur əl tutan,
Tək odur qoruyan atəşdən, sudan.
Xəzinə göstərir bəxşiş zamanı,
Zəhmətdən qurtarır onun ehsanı.
Bu dünya əzəldən olmazdı çox şən,
Əmriylə oldu bir bəzəkli gülşən.
Hökmünə uyanlar ən şərəflidir,
Eşq olsun, kim ona afərin deyir.
Namənin başını o bitirirkən
Bir dastan bəzədi şahın dilindən:
"Bu məktub yenilməz İskəndər şahdan
İskəndər dostuna ki, odur xaqan.
Göylər tanrısının əmriylə müdam
Xaqana bizdən çox hörmət və salam.
Çox gözəl anlayır o himmətli zat,
Sizin bu ölkəyə sürərkən biz at,
İrandan hərb üçün gəlmədim, ancaq
Çinin xaqanına gəlmişəm qonaq.
Pərəstiş yoluyla etsin itaət,
Göstərsin qonağa lazımi hörmət.
Sizin bu şəhərdə uca günəş var,
Atını Məşriqdən Məğribə çapar.
O günəş, bax, mənəm, gəlib çatmışam,
Ordunu Məğribdən Şərqə atmışam.
Tutdum ağ, qaranı qılınc gücüylə,
İstəyən kimsəyə payladım belə.
Həbəş ölkəsindən atıldım Çinə[225],
At çapdım Məğribdən Məşriq zəminə.
İşıqlı günəşin batdığı yerdən
Günəş qaynağına at sürmüşəm mən.
Qara müşk ağacı əkmişəm Hinddə,
Fikrim ağ yasəmən tikməkdir Çində.
Sürdüyüm dövrandan var isə qorxun,
Əmrimin xəttindən qaçırma boyun,
Hökmümdən azacıq boyun qaçırsan,
Bərk qulaqburması verər bu dövran.
Aslanı o yerə gətirmə, saqın,
Şikara acıqla eyləsin axın.
Qaytar, qoyma girsin bostana aslan,
Fillərin yadına salma Hindistan.
Başına açar bir böyük fələkət,
Sərxoşluq adına qurar bir işrət.
Gördünmü, qılıncım çarpışma günü
Etdi qan dənizi zənci çölünü?
Söndürdüm Darada olan qüruru,
Nə qədər kiçiltdim, bax, coşqun Furu.
Başqa padşahları taxtından saldım,
Başından bir anda tacını aldım.
Firidun hərbimə gəlirsə bu gün,
Əsirim olacaq, deyildir mümkün.
Atım hər ölkəyə çapdığı zaman,
Boşaltdım o evi azğın düşməndən.
Mənə bir azacıq yaxşılıq edən,
Dünyada yamanlıq görməmiş məndən.
Hər kəsə söz verdim, bağladım iiqar,
Sözümdən dönmədim, iqrarım - iqrar.
Hər əhdə, peymana söz verdi dilim,
Əhdimdən dönməyə varmadı əlim.
Məqsədim, Yəğmaya, Çinə çapmaqdan
Yəğma, Çin gözəli deyildir, inan.
Özümün qiymətli incilərim var,
Çinli qulamların, bir çox pərim var.
İrandan Çinə at sürmək bir kərə
Mənimçin göylərdən düşməkdir yerə.
Çin türkü, beynində nə varsa, burax,
Bu kəskin küləkdə yandırma çıraq.
Xəzinə və bəxşiş vermək yerinə
Neçin bu aslanla başladın kinə?
Neçin yol ağzına toplanmış ordun?
Yolumda İskəndər səddini qurdun?
Bizimlə döyüşə etdinsə niyyət,





Buxuru atəşə tökmüşsən əlbət.
Baxtimi pişvaza gəldinsə, nədən
Önümdə baş əyib üzr istəmirsən?
Xəbər ver, hesabdan qalmayım geri,
Səbətdə ilandır, ya sümükləri?[226]
Ordu səbr etməkdən doymuşdur cana,
Mənim bu səbrimdən gəlmiş həycana.
Çinin ceyranını görmüş şirlərim,
Az görmüş belə kök ceyran əskərim.
Zəncirini qırmış qızmış aslanlar,
Susamışdır qana qoç pəhləvanlar.
Oxların dimdiyi oxluğu dəlir,
Döyüşmək eşqiylə həycana gəlir.
Nizənin yoldadır gözü, ey düşmən,
Gürzüm yüz batmandır, səninki batman.
Əlinə yay alsa nişançı türklər
Atdığı hər oxla bir ordu yenər.
Ox atanlara da padişah olsan,
Kamanı tutanlar alacaq nişan.
Tüstümə düşərsə hər bir dudman,
Çin naxşı olsa da olacaq duman.
Alçaq bir insanam, sülh etməsən sən.
Su içmək qədər də səbr eyləsəm mən.
Nizəmdə məhv edər bu əjdahanı,
Necə od tufanı yeyər samanı.
Pəhləvan köksünə oxum yan alır,
Aslanlar böyrünü hey nişan alır.
Dənizin dibi də çarpışsa, bəzən
Qılınc toz qaldırar göyə dənizdən.
Qarşıma dağ çıxsa dayanmaz bir an,
Bir dağ dikəldərəm dəmir oxlardan.
Fil pəncə atarsa ayaqlaram mən,
Filgövdə padşaham - filləri yenən.
Ceyranı belindən, ovu budundan
Çeynəmək şir üçün olduqca asan.
Dənizlər laçını çıxsa şikara,
Quşlardan yem verər o, balıqlara,
Siz əlsiz, ayaqsız bir balıqsınız.
Ağzında əjdaha nəhəngəm yalnız.
İtlər ki, çox yaman sümük çeynəyir,
O xəncər dişiylə çörək də yeyir.
Qüvvətim hər yerə dirəmiş ayaq,
O yerdə zəfərdir mənə bir dayaq.
Kinlə qarşılaram kin yolu getsən,
Məhəbbət edərəm, məhəbbət etsən.
Cavahir, ya nəhəng istəsən əgər,
Dənizim həm nəhəng, həm gövhər verər.
Görmədin, qılıncım başlarkən döyüş,
Nəhəngdir, üstünə gövhər tökülmüş?
Mənəm o xəzinə əjdaha peykər,
Canımda zəhər var, həm də pazəhər.
Məndə gövhər də var, əjdaha da var,
De, görüm, hankısı işinə yarar?
İpəyə tutaram, hüzura gəlsən,
Kəməndə salaram, inad eyləsən.
Səninlə həm yumşaq tərpəndim, həm sərt,
Hər iki sınaqla sınadım, əlbət.
Qapıma sülh ilə qədəm qoysan sən,
Günəştək çəkilib gedərəm Çindən.
Yoxsa ki, düşərəm bu kin izinə,
Çini tökdürərəm Çin dənizinə.
Məktubu oxuyub salma təxirə,
Barışıq, ya döyüş: göstər bir kərə.
Sel tökən buludlar cuşa gəlirkən,
Ayıq ol, dəhşətlə kükrəyən seldən."
Çağırdı dil bilən kamil bir insan,
Ömründə kimsədən qorxu duymayan.
Yazılan məktubu tapşırdı ona,
İskəndər möhrüylə verdi xaqana.
Elə ki, məktubu oxudu xaqan
Az qaldı yıxılsın uca taxtından.
Məktubdan qəlbinə düşdü həyəcan,
O həm zirək idi, həm zirək anan.
Bu iki xəyala sarıldı ancaq:
Sülh ilə yanaşmaq, yoxsa çarpışmaq?
Fikrə əzab verər ikilik hər an,
Yatağa baş qoyar çarə axtaran.

### XAQANIN İSKƏNDƏRƏ CAVABI

Ey saqi, gülabtək şərabı bir an
Üstümə sən mənim, qalxım yuxudan
Bu gülgün gülabdan ciyər su alır.
Hər bir başağrısı ondan azalır.
Keşikçi, qapını, durma, tez bağla!
Sonra get, sən də öz dərdinə ağla!
Qəlbimi sıxıntı, qəmdən et uzaq,
Məni öz düşüncə, dərdimə burax!
Kimsəylə danışmaq həvəsim yoxdur,
Özümlə etməli söhbətim çoxdur.
Uzaq bir ölkədən müştəri kimsə
Gövhər mədənini görməyə gəlsə,
Baxarsa Nizami xəzinəsinə,
Düşsə söz bəzminin şən nəşəsinə,
Söylə: "Ev sahibi evində yoxdur,
Olsa da, yadlara qarşı soyuqdur."
Yox, xəta söylədim, düşün, ey rəqib,
Qəribə düşmənlik olmazmı qərib?
Qapımı bağlama, get, açıq burax,
Uğurlu sayılmaz qapı bağlamaq.
Madam ki, söz mənə dəniz ad vermiş,
Qapımı dəniztək açın siz geniş.
Qapını aç, sula, durma bu yerdə,
Ay kimi çadır qur xərabələrdə.
Qoy gəlsin arayan kəslər, nəhayət,
Bu söz sultanını etsin ziyarət.
Üzümə sabah bir pərdə çəkirkən
Gilədən Gilana tələsərəm mən.

Müştərilər gəlir mənə hər yandan,
Məni görmək üçün tapmazlar imkan.
Rəssam fırçasından tək bir mənzərə
Çəkilmiş görərlər bəyaz dəftərə.
Sözümdən, bax, necə kənara çıxdım,
Hardaydım, gör, gəlib bir hara çıxdım?
Bu parlaq xəznənin baş surətgəri
Saçdı sərvətindən bu gövhərləri:
Əfrasiyab mülkünün varisi erkən
Başını günəştək ucaltdı Çindən[227],
Tutmuşdu xəbər ki, Rumdan bir müdhiş,
Kükrəyən əjdaha ölkəyə gəlmiş.
Məktubu oxuyub dalmışdı xaqan,
Dəhşətlər içində qalmışdı xaqan.
Təmiz bir düşüncə, sağlam fikirlə
İşin hikmətini keçirdi ələ.
Əvvəlcə istədi sülh üçün xaqan
Bir məktub göndərsin ona durmadan.
Əmr etdi: otursun o çinli katib,
Kağıza, qələmə versin bir tərtib.
Şahlara yaraşan bir qələm çalsın,
Hər sözə rütbəni nəzərə alsın.
Qələmin nafindən tökdü katiblər
Çinli ağ ipəyə müşk ilə ənbər.
Şux, bişmiş sözlər ki, qəlb alır hər an,
İnsanın beynində yer tutub qalan,
Ümidlər bəsləyən, qurtuluş verən,
Sülh ilə çırpınan, hiddət göstərən,
Çarpışmaq yolunu bağlayan əfsun,
Daşları yumşaldan sehirli oyun.
Tikici ox kimi dili bağlayan,
Həm kinə, həm sülhə bir qapı açan.
Naməyə oldu baş zinət, baş naxış
Bir ad ki, bu adlar ondan yaranmış.
Hamıya köməkdir kömək görmədən,
Özündən diridir dirilik verən.
Dünyanı yaradan o ulu qüdrət
Güc verər zəifə, göstərər şəfqət.
Göydəki işığa bayraq tikəndir,
O qara divlərə qələm çəkəndir.
Dolanan pərgara hərəkət verən,
Mərkəzi nöqtəyə sükunət verən,
Hər bir şey onunla etmədə zühur.
Hər şey ki, verilir, verəni odur.
Hər susan, söyləyən, ayıq, sərxoşdan
Sirrinə yol tapmaz onun bir insan.
İnsanlar acizdir bəndə olaraq,
İqtidar, böyüklük onundur ancaq.
Böyüklük o ulu tanrı ki, ondan
Vücuda gəlmişdir zəmin, asiman.
Söz açdı, padşahdan çox üzr istədi,
Tanrıdan ona yüz afərin dedi:
"Dünyada yaşayan tacidarlardan
Açarı tək sənə vermiş yaradan.

Dənizdən dənizə atıldın: sənin
İrana, Turana uzandı əlin.
Məğribdə döyüşdən-azad olaraq,
Məşriqin xəttinə qaldırdın bayraq.
Dünyanı büsbütün keçirdin ələ,
Ürəyin döyüşdən doymamış hələ.
Yolda əjdaha var, cilovu gəl çək,
Əfsanə uzundur, gecələr gödək.
İran, Rum padşahı İskəndər sənsən,
Mən də bu ölkədə fərman yeridən.
Mən kimi qulların varsa bir yığın,
Mən başqa bir şeyəm, olma çox qızğın.
Sən də, mən də torpaq, yerlər də torpaq,
İnsan torpaq qədər olmalı yumşaq.
Ağalıq torpağa girincədir şən.
Torpaqda seçilməz kimsə kimsədən.
Qətrəni dənizə atsalar əgər,
Başqa qətrələrdən kim onu seçər?
Bu daşlıq yerə ki, şah kölgə saldı,
Ölkəmin neməti artıq çoxaldı.
Verilən nemətin, haqqa inanan
Şükrünü artırsın gərək hər zaman.
Allah mənim üçün artırdı nemət,
Təşəkkür edirəm tanrıya əlbət.
Nə qədər canım var şükr edərəm hey,
Dünyada varmıdır bundan gözəl şey?
Eşitdim bir necə bilən kimsədən,
Ordunu hər yerə çəkmək istərkən,
Harda ki, bazar var, nemətlə dolu,
Göndərərsən ora bir neçə rumlu.
Ərzaqdan nə varsa, olub müştəri
Alsınlar qarşıya çıxan şeyləri.
Yandırıb quyuya tökürsən nemət,
Haqq verən nemətə etmirsən hörmət.
Şəhərdə bitincə bütün zəxirə[228],
Çapırsan əjdaha kimi o yerə.
Aclıqla ölkəyə sahib durursan,
Mum əriyən kimi qızarmış oddan.
Onunçun tərpəndim mən öz yerimdən.
Qıtlığı qaldırmış öz şəhərimdən.
Bu yerdə hiylə və füsun iş görməz,
Çin sizə zəxirə və ərzaq verməz.
Döyüşdən yaxşıdır barışıq, şəfqət,
Biri dərd gətirir, biri səadət.
Çinli tarlasını etmə tar-mar,
Sənin də tarlanı bir gün sel basar.
Qüvvətli olsan da, qəlbi yumşaq ol,
Şahlıqdan yaxşıdır tanrı qoyan yol.
Yaramaz heç zaman ağıllı insan
Özündən güclüyə oxusun meydan.
Dünyaya yarayan böyük ağılsan,
Hökmünə bağlıdır hər yaxşı, yaman.
Bir şəxsin olmasa şəxsə imdadı
Say vaxtı heç saya alınmaz adı.





Sənə məxsusdur bu padşahlıq, dövlət,
Sənədir tanrıdan fərman və şövkət.
Hər bir şey təməldən möhkəm qurulur,
Təməlsiz binalar çox tez də uçur.
Gümüşü zər etmək, əqiqi billur,
Meyvəni zorakı yetirmək olur.
Satıcı almanı evdə yetirir,
Odur ki, yeyərkən dadı itirir.
Ədl üçün yaratmış səni yaradan,
Zülüm baş verərmi adil padşahdan?
Dünyada zalıma eləmə kömək
Ki, bir gün bu işdən sorulur, bişəkk,
Pozsa öz rəyini rəyi xoş insan
Öz abad mülkünü etməzmi viran?
Təbii halından bu dönük dövran
İstiyə, soyuğa uyduğu zaman,
O isti, soyuqda arama səhhət,
Dəyişmiş ondakı sağlam təbiət.
İlin hər fəslinin var əlaməti,
Gərəkdir göstərsin o təbiəti.
Hər bahar göstərsin baharlığını,
Hər bir yay göstərsin öz varlığını.
Hər şey öz əlindən döndüyü zaman
Dönənlərə qarşı dönər bu dövran.
İskəndər insafla ad almış ərdir,
Yoxsa hər bir igid bir İskəndərdir.
Sanma ki, acizəm qızğın döyüşdə,
Dağdan toz qoparram bir tərpənişdə.
Fillərin belinə taxt qoysam əgər,
Hindistan mülkündən xəracım gələr.
Alaram altıma qızmış aslanı,
Belinə qoyaram hürgüc palanı.
Səninlə, dövlətlə, şövkətlə, əlbət,
Kin alışdırmağa etmədim niyyət.
Bu yerə onunçun açdınsa qanad,
Qarşında bəndətək əyilmiş qat-qat.
Başımı qanında sürtüm torpağa,
Tək mən yox, baş əyər Çində hər ağa.
Zehninə nə gəlsə, ona gedərəm,
Böyük bir minnətlə qəbul edərəm.
Bu işdə yox mənə əskiklik, töhmət,
Qonaqsan, qonağa vacibdir hörmət."
Qəlb açan cavabı qasidə verdi,
Məktubu durmadan şaha yetirdi.
Oxudu o qızmış aslan məktubu,
Maralın ovuna müntəzir durdu.
Çin şahı qorxurdu gecə basqından,
O gecə sübhədək yatmadı xaqan.
Günlərin birində parladı dünya,
Günəş nur saçarkən torpağa, suya,
Xaqan öz ağlının yoluyla getdi,
Sınanmış kəslərlə məsləhət etdi.
Bir vəziri vardı ağıllı, bilən,
Dünya nur alırdı tədbirlərindən.

Ortaya hər hesab atsaydı xaqan
Vəzir həll edərdi onu hər zaman.
Ondan öz fikrini sordu bu işdə,
Fikri sağlam idi hər bir gedişdə.
"Bu kinin önündə nə sayaq durum?
Çarxın qulağını mən necə burum?
Madam ki, qaşını çatmışdır bu Çin,
Nə atsın ilk zərim - məhəbbət, ya kin?
Çarpışsam, düşmənim güclüdür, əzər,
Başını Keyxosrov tacları bəzər.
Onunla keçinmək istərəm gerçək,
Xalq məni aciz bir xaqan biləcək.
Bilmirəm bu şahın nədir istəyi?
Ölkəyə gəlməkdən nədir diləyi?
Xaqana söylədi ağıllı vəzir:
"Çətindir göstərmək sənə bir tədbir.
Əzmin çox kəskindir, qorxuram, yəqin,
Əmrin də əzmintək olacaq kəskin.
Barına, orduna məğrur olaraq,
Yenilmək görünür sənə çox uzaq.
Belə bir şəhriyar gəlmiş qapına,
Dostluq qapısını bağlama ona.
Fəth etmiş, hər yerə basarkən ayaq,
Bu işə olarmı heç soyuq baxmaq?
Oyunmu sanırsan bunu, tacidar?
Bu işdə yararlı incə nöktə var.
Bu işlər tanrının işidir, bişəkk,
Düşməklik - tanrını sınamaq demək.
Günəşi qılıncla sarsıtmaq olmaz,
Qocaman Əlbürzü dağıtmaq olmaz.
Qəbul et, yoxsa bu qocaman fələk
Dövlət sahibinə ziyan verəcək.
Nə bəxti atmağa yarar, ey xaqan,
Nə də bəxtiyara kəsilmək düşman.
Xoşbəxtə taxılma, olsan da mətin,
Onunla çarpışmaq çətindir, çətin.
Bəxtiyar əzm etsə, başmağı cütlə,
Ən kəskin neştərə vurulmaz şillə.
Onunla bircə ay get keçin bir az,
Bu yerdə yad olan çox uzun qalmaz.
Şişəyə öncə sən vurma daş, kəsək,
Qırılsa çətindir onu düzəltmək.
Yaralar sağalıb taparsa səhhət,
Yaranın yeri tük çıxarmaz, əlbət.
Çalış ki, bu qara əjdaha bədən
Hörmətlə sovuşsun bizim ölkədən.
O gün daş atıldı Sinin tasına,
Gəldi bu əjdaha Çin qapısına.
Düşünmə, laciverd boyalı paltar
Hər şəxsə göylərdən gəlir, ey salar![229]
Ahəngsiz səs ilə inləyir cahan,
Qüsur pərdədədir, suçsuzdur çalan.
Pərdəyə istəsən xoş ahəng vermək
Həmahəng pərdəyə get elə kömək."

Düşmənlik etməkdə Çin tərəfdarı,
Görmədi fələkdən kömək asan.
Düşündü bu işə uyğun bir çara,
İtaət etməyi aldı qərara.
Əzm etdi sülh ilə yola gəlməyə,
Dərgaha üz qoysun "elçiyəm" deyə.
Nəzərdən keçirsin o cahandarı,
Başını dik tutan o başçıları.
Şahlıq şövkətini görərək bir bir,
Sonra da bu işə töksün bir tədbir.
Günəş qayıqçısı o gün səhərkən,
Qayığı salırkən suya sahildən,
Xütən şəhriyarı, Çin tacidarı
Tədbirlə geyindi elçi paltarı.
Aşina olmadan kimsə bu sirrə,
Çapdı İskəndərin düşdüyü yerə.
Şahın dərgahına gəldiyi zaman
Bu işdən tez xəbər tutdu hökmüran:
Hüzura bir elçi göndərmiş xaqan,
Görüşdə mübarək, sözdə pəhləvan.
Padişah əmr etdi: "Gəlsin hüzurə,
Buyursun elçilər oturan yerə."
Möhtəşəm elçi tez girdi dərgaha,
Pərəstiş yoluyla baş əydi şaha.
Əmr etdi, otursun aşağı yandan,
Xaqanın əmrini eyləsin bəyan.
Padşahın əmriylə elçi oturdu,
Oturdan kimsəyə bir də baş vurdu.
Bir zaman oturdu qırpmayaraq göz,
Yaxşıdan, yamandan açmadı bir söz.
Gördüyü büsata qalaraq məhbut,
Etdi o dövrədə nöqtətək sükut.
Elçiyə işarə etdi İskəndər:
"Xaqandan gətirdin, söylə, nə xəbər?"
Bulud arxasında gizlənən o ay
Qılınctək dil açdı, dür saçdı lay-lay:
"İran, Rum şahının bu gəlməsindən
Səadət taparaq, ölkə oldu şən.
Bu yerlər, ölkələr, Çindən Maçinə
Böyük tacidarın keçsin əmrinə.
Dünyada yaşasın uca dərgahı,
Olsun tacü taxtın böyük pənahı.
Gizli sözlərim var sənə, tacidar,
Qorxuram bu yerdə etməyə izhar.
Belə əmr etmişdir məni göndərən:
"Xəlvət et, olmasın eşidən, görən.
Qalmasın xaslardan gərək bir nəfər,
Bir sən ol o yerdə, bir də İskəndər.
Açıqda, gizlində qalsa bir kimsə,
Sirrimi açma sən, düşməsin səsə."
İskəndər çəkindi yersiz istəkdən,
Ehtiyat eylədi xəlvət etməkdən.
Əmr etdi durmadan böyük tacidar:
O sərvə vursunlar qızıldan cidar.

Qızıl bir kəmərlə çəkib qolunu,
Bir zəncir altına aldılar onu.
Çəkildi büsbütün saraydakılar,
Qapıya yönəldi xaslar, hər kim var.
İskəndər tək qaldı, çəkindi ancaq,
Yanına bir almas qılınc qoyaraq.
Söylədi: "Kimsə yox, bir mənəm, bir sən.
Durma, aç düyünü qapalı sözdən."
Padşahın əmrilə əsrarlı kişi
Düyünü qıraraq, anlatdı işi.
Əsrarın üzündən pərdəni açdı,
Duaya başladı, inci, dür saçdı:
"Necə ki, yaşıla bürünüb hər bağ,
Hər qızıl gül olur yanar bir çıraq,
Gül kimi parlasın üzün hər zaman,
Tək səndən yaşıllıq alsın bu cahan.
Qazılsın dünyanın möhrü adına,
Çatasan dövlətə, öz muradına.
Zənnimcə tanıyır məni şəhriyar,
Daha yalvarmağa nə ehtiyac var?
Sirrimdən əgər o tutmamış xəbər,
Bilirəm, İskəndər doğruluq sevər.
Sənə öz yanımdan elçi gəldim mən,
Əsirin olmuşam, əsir etmədən.
Mənəm Çin xaqanı, qoşun sərvəri,
Sənin xidmətində öpürəm yeri."
Pozuldu bu cəsur işdən tacidar,
Xoşuna gəlmədi belə bir rəftar.
Acıqlı bağırdı ona hökmüran:
"Seçilir qumaşın üzü astardan.
Tərlandan seçirəm aciz sərçəni,
Bağrından tanıram müşkü, nafəni.
Ancaq saxlayıram həya və hicab,
Örtülü kəslərdən açmaram niqab.
Anlat ki, nə məcbur eyləmiş səni,
Gizlində qalmadın, yırtdın pərdəni?
İndi Rum şahından heç qorxmayaraq,
Poladı mum kimi sandınmı yumşaq?
Sarsılmaz qolumdan qorxmadınmı sən?
Mənim tərəzimə torpaq tökürsən![230]
Gənc maral nə qədər olsa da cəsur,
Cilovu aslandan çəkməsi xoşdur.
Bir cavab olaraq söylədi xaqan:
Yüz min afərinə ey layiq olan,
Bilirəm amansız deyil padişah,
Dərgaha onunçun gətirdim pənah.
Başımı hansı düşmənim kəsər?
Dişini uzaqdan göstərsə qaban
Kin ilə döyüşər o qara aslan.
Dişini çıxanb, əysə boynunu,
Aslan da toxunmaz, bağışlar onu.
Məndən ki, görməmiş sultan namərdlik,
O igid aslandan uzaqmı mərdlik?
Qarşına qılıncla gəldiyim zaman





Qorxardım səndəki kəskin qılıncdan.
Mən ki göstərmədim sənə xəyanət,
Daha üz verərmi mənə həqarət?
Ölkəmə at saldın, göstərdin şəfqət,
Sənə kin bəsləmək olur cinayət.
Qəlbimdə qalmadı kin, qərəz əsla,
Dərgaha gəlmişəm belə inamla.
Mən şəfqət göstərsəm, bağlamasam kin,
Kim kəsər başını şəfqət edənin?
Tutaq ki, günahım həddən artıqdır,
Qəriblik bir böyük üzürxahlıqdır.
İskəndər insaflı, mərhəmətlidir,
Suçsuza hər zaman şəfqət göstərir.
Kim ona sığınsa, qanından keçər,
Kim aman istəsə, görməz bir zərər.
Mən ki bu dərgaha öncə yönəldim,
Səndəki ədalət izilə gəldim.
Adildir cahangir, böyük İskəndər,
Ona hər bir zaman haqq yardım edər."
Yağlı bir dil ilə nöktələr saçdı,
Padşahın qəlbindən düyünü açdı.
İskəndər söylədi: "Xoş gəldin, şad ol,
Belə düşkünlükdən artıq azad ol!
Ancaq bu gəlişdən nə imiş fikrin,
Bu necə sirrdir, aydın göstərin?"
Sığınan dedi: "Ey dünyaya sığnaq,
Bu sirri yararmı səndən saxlamaq?
Bu uca dərgaha onunçun gəldim,
Fikrini, yolunu bilib öyrəndim.
Gəlməkdən məqsəd nə? Anladım bunu,
Nədir bu gəlişin əvvəli, sonu?
Əl tutsa mənə bu dönük ruzigar,
Padşahı kin ilə edim bəxtiyar.
Bu dilək əlimdən gəlməsə ancaq,
Dəstimdən çıxan ox düşərsə uzaq,
Məqsədim hörmətlə öpməkdən yeri.
İskəndər kinindən çəkilsin geri.
Mən əsirgəmədim canımı şaha,
Qılınca əl atmaq nə gərək daha.
Cəvahir əlinə gəlirsə asan,
Nə çıxar zəhmətlə daşı yonmaqdan?
Madam ki, sülh ilə göyərər dilək,
Döyüşə at çapmaq daha nə gərək?
Çin, Turan taxtını məndən istəsən,
Boynumu çəkmərəm bu itaətdən.
Dostluğu ataraq kəsilsən düşman,
Atamın yurdunu bağışlamasan,
Adının möhrünü edərəm qəbul,
Olaram mən satın alınmamış qul
Nə olur, padşahın geniş mülkündə
Çoxalsın get-gedə dost olan bəndə.
Vuruşa qəsd etmə, kinindən çəkil,
Bütün Çin donunun bir çini deyil.
Dəyərli qulların çin-çin saçından

Bir çin də mənə ver, sənindir fərman.
Ayın saf üzünə yaraşmaz bu çin,
Qaşının tağından çəkilsin bu kin."
İskəndər söylədi: "Ey fikri gözəl,
Verdiyin sorğuya eləyim əməl:
Düşmənin başını öpsün toz, torpaq,
Olsun yad kimsələr dünyadan uzaq.
Əmrinə baş əyən hər bir kişvərdə
Nayiblər tikilsin məndən hər yerdə.
İndi ki, mən sənə qılınc çəkmədən
Başını əyərək təslim oldun sən,
Taxtınla başını uca eylərəm,
Tacını başında saxlarsan möhkəm.
Nə mülkün, nə tacın gərək. Ol əmin,
Qoymaram ki, olsun işlərin çətin.
Yalnız bir şərtim var, bütün mülkündən
Mənə yeddi illik xərac verəsən.
Yeddi il vergisi verilsə mənə,
O başqa vergilər halaldır sənə."
Dinləyən ağlına aydınlıq saçdı,
Ağzını incə bir cavabla açdı:
"Tacidar nə haqla istəyir hələ
Yeddi illik xərac bu az ömürlə.
Ömrümü edərsən təmin yeddi il,
Yeddi il xərc verməx çox çətin deyil."
Bu sözü bəyəndi uca hökmüran,
Qızınca beyni bu incə cavabdan.
Söylədi: "Altı il nə versə diyar,
Ayaq müzdü verdim sənə, ey huşyar.
Görürəm şüurun, ağlın incədir,
Qəbuldur mənə tək bir illik gəlir."
Türklərin xaqanı dünya şahından
Daşqın bir sevinclə oldu kamiran.
Dərgahın tozunu kirpik ucuyla
Süpürə-süpürə söylədi belə:
"Bilirəm: mətindir verdiyi peyman,
Gücünü artırsın ulu yaradan!
Madam ki, tacidar söz verir buna,
Əz əliylə bir xətt gərəkdir mana.
Bir illik xəracı verdiyim zaman
Məni öz yerimdə qoysun hökmüran.
O xəttin qolumda olsun bir qolbaq,
O xətti başımçın saxlayım ancaq.
Başımla mən də söz verirəm, inan,
Bu dostluq yolundan çıxmaram bir an."
Söz getdi arada, bağlandı peyman:
Qaçsın hər ikisi vəfasızlıqdan.
Düşmənlik silinsin, dostluq var olsun,
Bu dünya durduqca bərqərar olsun.
Nəhayət, bir fərman verdi hökmüdar:
Xaqanın qolundan açılsın bağlar.
O qızıl zəncirdən ucalsın başı,
Tacının cəvahir olsun daş-qaşı.
İskəndərlə bitdi bu əhdü peyman.

Öz ordugahına qayıtdı xaqan.
Gecənin sultanı açınca çətir,
Qaranlıq müşk kimi saçırdı ətir.
Ulduzlar o qədər qızıl səpirdi.
Yer öküzü qızıl altına girdi.
Şah meylə təskinlik verdi dimağa,
Axıtdı şərabı yaqut dodağa.
Axşamdan sübhəcən oturdu yenə,
İçdi Cəm camını Cəmin eşqinə.
Yuxunun yoluna səpmişdi tikan,
Zəhməti, kədəri unutmuş bir an.
Nə düşmən işindən kədər çəkərdi,
Nə keşikçi səsi, nə döyüş dərdi.
Sübhəcən şahanə qədəh sonaraq,
Gecəni keyf ilə keçirdi oyaq.
Təbil yaqutu yontunca zaman,
Yaqutlu tac ilə cüft oldu cahan[232].
Qapıdan girdi tez keşikçi əskər:
"Neçin qəflət etmiş uca İskəndər?
Budur, Çin xaqanı qoşunla gəlir,
Ayağı altında yer, göy titrəyir.
Qaynaşan ordusu dünya doldurur,
Göylərə səs salmış təbil və şeypur.
O qədər fil var ki, incinir yollar,
Günəşə, aya baş qaldırmış qubar.
O qədər qoşun var, çıxmış hesabdan,
Heç bir kəs görməmiş o qədər insan.
Ordusu daşıyır hər çeşid yaraq,
Poladdan dənizdir, hər dalğası dağ.
Xaqan da oturmuş qocaman filə,
Arada iki mil vardır fasilə."
Bu heyrətli işdən tutunca xəbər,
Padşahlıq taxtından endi İskəndər.
Yol ölçən bir köhlən ata oturdu,
Hərb üçün sazladı müntəzəm ordu.
Xaqanla döyüşə tez hazırlandı.
Onun peymanını bir hiylə sandı.
Əmr etdi, təbillər gurlasın kinlə,
Düz qaşlar çatılsın düyünlü çinlə.
Uca bir dağ kimi ordu çəkərək.
Vurdu ox, yay, qılınc, qalxandan bəzək.
Kəşfiyyat qoluna verdi çox yaraq,
Dənizdən buluda ucaltdı bir dağ
Bu işdən xaqana verildi xəbər.
Onunla döyüşə çıxmış İskəndər.
Ordunun qəlbində at sürdü xaqan.
Səs ilə bağırdı: "Kimdir hökmüran?
Söyləyin atını bu səmtə çəksin,
Üzünü üzümdən gizləyir neçin?"
O çinli səsindən İskəndər durdu,
Donunu çinləyib belinə vurdu.
Fil yıxan atını səyirtdi hamam.
At saldı öndəki filə durmadan.
Dil açdı, türklərə eylədi qarğış:
"Fitnəsiz anadan bir türk doğmamış.
Çinlidən gözləmə çin qəsdən başqa,
Verdiyi peymana çevirir arxa.
Nə doğru söyləmiş keçən qocalar:
"Çinlidən umulmaz vəfa, etibar."
Hamı dargözlüyə bəsləmiş rəğbət,
Başqanın gözündə görürlər vüsət.
Əvvəlcə sülh üçün niyə söz verdin?
Sonra düşmənlikdə nə fayda gördün?
Peymanım, qəlbim bir, tutmuşam bir yol,
Sözüm az, doğruluq, sədaqət bol-bol.
Demək ki, sizlərdə məhəbbət kindir,
Çindəki türklərin qəlbi çin-çindir.
Bu çinli türklərdə olsaydı vəfa
Donunun çinində yaşardı dünya.
Qəlbimi bağladın öz peymanına,
Ey dönük, indi səs vurursan mana.
Poladdan bir dağa dönsə vücudun,
Yəcucdan, Məcucdan olsa da ordun,
İskəndər, İskəndər səddităk, inan,
Tərpənməz o polad əzən Yəcucdan.
Turacın əcəli çatdığı zaman
Şahin ovlağına qonar havadan.
Çəyirtkə al qanad açınca, əlbət,
Al qanla verəcək sərçəyə bir xətt.
Tacını alaram dikbaşlıq etsən,
Suçundan keçərəm dostluğu güdsən.
Tinətim yaralar, həm də sağaldar,
Arıtək həm balım, həm də iynəm var."
Dedi Çin xaqanı: "Mən, ey şəhriyar,
Sözümdən dönmədim, möhkəmdir iqrar.
Sənə dost demişəm, dostam hər zaman,
Sözümdə doğruyam, möhkəmdir peyman.
Hökmünə baş əydim, artıq dönmərəm,
Verdiyim əhdimdə sabitqədəməm.
Yanına onunçun gəlmişəm, inan,
Manqalın ətr alsın mənim udumdan.
Biləsən məndə də var qüvvət, hünər,
Ulduzlar göyünə çəkərəm əskər.
O qədər hünərsiz deyiləm ki, mən
Yenmədən qayıdam hər bir döyüşdən,
Görürsən, dağ kimi var mətin ordum,
Coşqun bir dənizdən belə yox qorxum.
Yalnız arxa duran tale var səndə,
Yer sənə kölədir, göy sənə bəndə.
Kin, inad göstərən bir bəxtiyara,
Çəkir öz başını ağacda dara.
Sənin arxandadır bu göy, bu dövran,
Dövranla döyüşmək olurmu asan?"
Endi fil belindən, durdu fil kimi,
Çağladı Firona doğru Nil kimi.
İskəndər gördü ki, üzr ilə xaqan
Ona üz çevirmiş, gəlir hərasan.
Önünə at çəkdi, misli yox Çində,
Başdan quyruğacan qızıl içində.
Endi bu at ilə onu kamiran,
Yanında yer tutdu böyük pəhləvan.
Bu atdan başqa çox şey verdi ona,
Bir illik xəracı keçdi xaqana.
Dost olandan sonra şah ilə xaqan
Düşmənlik kəsildi xanədanlardan.
O yerdə birləşdi hər iki ordu,
Hər iki padşahın qəlbi bir vurdu.
Silahı, acığı tökdülər yerə,
Töhfələrlə onlar keçdi alverə.
Çinin süpəhdarı Çin diyarından
Azuqə göndərdi şaha hər zaman.
Sarayın xalqına bu yeyintilər
Kifayət edirdi axşam və səhər.
Çalğı məclisində qədəh vurardı,
Birlikdə oturar, birgə durardı.
Məclisdən ovlağa çaparkən onlar,
İkisi bir yerdə edərdi şikar.
Heç biri təklikdə içməzdi badə,
Hər biri hər işdə yaşar azadə.

## RUM VƏ ÇİN NƏQQAŞLARININ YARIŞI

Saqi, can bəsləyən bir mey ver mana,
Bir mey ki, can kimi gərəkdir cana.
Solmuş çiçəyimə təravət versin,
Soyumuş qanıma hərarət versin.
Çiçəkli bahartək bir gülşən gündə,
Ruzgardan seçilmiş gözəl, şən gündə
Şaha Çin xaqanı gəlmişdi qonaq,
İki parlaq günəş bir oturaraq,
Zəncidən, Yunandan, Çindən, İrandan
Qonaqlar səf çəkmiş hər iki yandan.
Məclisin üz-gözü mey ilə şəndi,
Dünyanın çöhrəsi tozsuz gülşəndi.
İçki şənliyində gövhərdən dalğa,
Cöyləyən dodaqdan axır qulağa.
İş bilən kəslərdən açıldı söhbət:
Dünyada bilikcə kim tapmış şöhrət?
Dəyərli şey çıxar hansı torpaqdan?
Sənətcə dünyada kim almış ad-san?
Birisi söylədi: "Cadu və hiylə
Hindlidən baş verir, baxsan diqqətlə."
O biri söylədi: "Bəxti yatanlar
Hər sayaq cadunu Babildən alar."
Başqası söylədi: "Verir ən şaqraq
Xanəndə Xorasan, çalğıçı İraq."
Birisi söylədi: "Yüksəkdir, əlbət,
Ərəbin dilində olan fəsahət."
Birisi dedi: "Rum nəqqaşı, əlbət,
Dünyada qazanmış böyük bir şöhrət."
O biri söylədi: "Görmədin, nədir,
Çin naxşı dillərdə bir əfsanədir."
Deyişmə coşdurdu Rum ilə Çini,
Yenməyə başladı biri-birini.
Hər biri fikrini isbat edərək
Naxış pərgarından göstərdi örnək.
Deyişmə sonunda verildi qərar,
İki qaş tağıtək bir tağ qursunlar!
Bu tağa hər iki qaş arasından
Bir örtü çəkilsin müəyyən zaman.
Rumlu bir guşədə sən ətə dursun,
Çinli bir bucaqda naxışlar vursun.
Müəyyən saatlar gəlməmiş başa
Baxmasın heç biri digər naxışa.
Yalnız bu iş sona vardığı zaman
Qalxsın bu asılı pərdə ortadan.
Görsünlər bu iki incə naxışdan
Hansıdır ən təzə, incəlik saçan!
Ustalar oturdu bir nəqqaş kimi,
İki tağ altında iki qaş kimi.
Axıra yetincə müəyyən zaman
Örtüyü çəkdilər iki naxışdan.
Hər iki "Ərjəng"in birdi peykəri,
Vurduğu naxışı, rəngin, zivəri.
Onlara baxınca heyrətlə qaldı,
Hər iki surətdən bir ibrət aldı.
Nə sayaq çəkmişlər iki peykəri,
Surətcə birindən seçilməz biri.
Oturdu şah iki tağ arasına,
Heyrətlə bir ona baxdı, bir buna.
Seçmədi onları biri-birindən,
Tutmadı bir xəbər gizli sirindən.
Nə qədər diqqətlə eylədi nəzər,
İşin iç-üzündən tutmadı xəbər.
Arada incə bir fərq vardı: biri
Surəti göstərir, alır o biri.
Bəlinas baxdıqda iki surətə
Əsrarlı sənətdən düşdü heyrətə.
Çalışdı, ortaya çıxsın həqiqət,
Naxışdan keçirdi ələ bir hikmət.
Əmr etdi, durmadan əsrar öyrənən
Ortaya bir pərdə çəksin yenidən.
Elə ki, ortadan asıldı pərdə
Biri zövqə daldı, o biri dərdə.
Rumlunun lövhəsi parladı yenə,
Pas düşdü çinlinin saf güzgüsünə.
Naxışsız qalınca çinlinin tağı,
Padşahın gül kimi açdı yanağı.
Pərdəni aradan bir də çəkdilər,
Göründü hər iki tağda bir peykər.
Bildi ki, o parlaq naxışlı tağa
Hər naxış əks edir başdan ayağa.
Yan-yana işlərkən iki sənətkar
Arada pərdədən çəkmişdi hasar.
Rumlu bir lövhəni çəkirmiş gözəl,
Çinli də lövhəyə verirmiş siqal.

Parlarkən çinlinin vurduğu naxış
Rumlunun şəklindən əksi alırmış.
Yarışın sonunda qərar verdilər:
Hər iki sənətkar göstərmiş hünər.
Rumluya çatmaz bu, naxış tökməkdə,
Çinli də üstündür siqəl çəkməkdə.
Eşitdim, olmaqçın Çinə peyğəmbər,
Reydən Çinə getdi Mani surətgər.
Elə ki, bu xəbər yayıldı Çinə,
Axdılar o gələn yolun səmtinə.
Yolunda axar su hovzuna bənzər,
İşıqlı büllurdan hovuz çəkdilər.
Rəssamın fırçası vurdu yaraşıq,
Üstündən dalğalar oynadı sıx-sıx.
Hərəkət verirdi sanki ruzigar,
Sahili öpürdü coşğun dalğalar.
Hovuz ətrafına naxışlar vuran
Çəkdi çay yanında bitən otlardai.
Mani çox uzaq bir eldən gəlirkən
Yolçunu susuzluq salmışdı əldən.
O hovzu görüncə səbirsiz qaçdı,
Boş, quru kuzənin ağzını açdı.
Doldurmaq fikrilə vurdu daş hövzə,
Əlində qırıldı o saxsı kuzə!
Bildi ki, çinlilər bu yolda aşkar
Hovuzla ona bir quyu qazmışlar.
Çıxardı naxışlar açan bir qələm,
Aldadan hovuza vurdu bir rəqəm.
Baş əyən qələmlə əl işlədərək
Çəkdi hovuz üstə ölü bir köpək.
Cəmdəyə hər yandan daraşmış qurdlar,
Görüncə susuzun ürəyi çatlar.
Hovuza susuzlar edərkən axın,
Ölü it görüncə getməsin yaxın.
Sürətlə yayıldı Çinə bu xəbər,
"Uzaqlaş" naxşını vurdu surətgər.
Gördülər mahirdir, onda sehr var,
Maniyə, "Ərjəng"ə sığındı onlar.
Bax, yenə səyirtdim ikinci kərə,
Çəkdim söz başını baxın nə yerə!
Neçə gün bir yerdə İskəndər, xaqan
Zövq aldı qədəhdən, meydən, çalğıdan.
Get-gedə məhəbbət artırdı, gerçək,
Onu da, bunu da öyürdü fələk.
Bir gün şah söylədi ona: "Ruzigar
Bir əngəl açmasa, səfər fikrim var.
İradəm dönməkdir yenə yurduma,
Mən Çindən tərpənmək istərəm Ruma."
Ona hörmət ilə söylədi xaqan:
"Sənindir bu dünya, sənindir dövran!
Hər yerə üz qoysan bu taleyinlə,
Ayaq basdığın yer hər kəsə qiblə.
Atını hər yerə çapsa hökmüran
Borcumuz qulluqdur ona hər zaman."

Çox heyrət etdi şah bu ayıqlığa,
Ondakı vəfaya və sayıqlığa.
İskəndər məclisi xaqana hər an
İşıqlı göründü günəşdən, aydan.
Ürəklə xidmətə başladı xaqan.
Şahın xidmətində durdu hər zaman.
Şah üçün dəyərli bəxşiş gətirdi,
Bununla başını aya yetirdi.
Hörmətlə tutduqca onu hökmüran,
Dostluğu daha da artırdı xaqan.
Hər kəsə padişah böyüklük versə,
Dikbaş olmamalı elə bir kimsə.
Hər zaman kiçiklik yoluyla getsin,
Özündən ucaya alçaqlıq etsin.
Neysandan nə şərəf almışsa sədəf,
Çinə də şah verdi elə bir şərəf[233].
Bağdadda və Rumda nəfis görünən,
Hər çeşid qiymətli o geyimlərdən,
Verdi Çin şahına elə bir dəsgah,
Onu görməmişdi heç bir padişah.
Şahanə bəxşişlər doyurdu Çini,
Çinlinin alnından açıldı çini.
Qalmadı o böyük Çində bir nəfər
Geyməsin xəz, atlaz, zərif geyimlər.
Etdi İskəndərin gördüyü bu iş
O dargözlülərin qaşını geniş.
Şahın kip qaşıtək dostluq bərkişdi,
İskəndər başına hamı and içdi.

## XAQANIN İSKƏNDƏRİ QONAQ ETMƏSİ

Gəl məni azad et, saqi, "yox demə!
Qədəhdən göz yaşı tök ətəyimə.
Bir mey ver ki, olsun saf şirə kimi.
Yusun hər çirkabdan bu ətəyimi.
Çapqınlıq etmə, ey Çin üzlü gözəl.
Bir saat qaşına çin gətirmə, gəl!
Qeydimə qal mənim, qəlbimi şad et,
Qüssədən bir günlük məni azad et!
Xaqanın gəliri keçsə də ələ.
Sel kimi axıtma, yağıştək xərclə.
Malından bir az ye, bir az ver, ancaq
Başqalar üçün də azacıq burax.
Yemə var-yoxunu, çox yaşayarsan,
Yoxsulluq yamandır qocalan zaman.
Xərclə, ye, bərk tutma köhnə dünyanı,
Xəsislik, ac qalmaq məhv edər canı.
Dağıtma əlində var isə sərvət.
Bihudə yeməkdən çəkərsən zəhmət.
Xərclərkən ölçüdən gəl götürmə əl.
Nə artıq nə əskik - ortadır gözəl,
Sapım yoğun olsa incə İynədən.
Çox İynə gözünü kor edəcəksən.
Yazdığım tarixin nəqqaşı yenə





Bu naxşı vurmuşdur Çin ipəyinə:
Hər yerdə səs çıxdı: böyük İskəndər
Çin ətəklərinə səpdi dürr, gövhər.
Bu idi xaqanın fikri, həvəsi.
Versin İskəndərə ayaq kirəsi.
Açsın bir şahanə ziyafət ona,
Zər töksün atının ayaqlarına.
Özünün adına, sanına görə.
Şahına hədiyyə çəksin hüzurə.
Şahın bəxti kimi olduqca parlaq,
Bir gözəl gün seçdi, qurdu təmtəraq.
Bir məclis bəzədi cənnətdən də şən.
Şirəni axıtdı aslan dişindən.
Meyvədən, meydən, həm balıqdan,
quşdan Elə bir qonaqlıq düzəltdi xaqan,
Dünyada nə qədər gözəl nemət var,
Basmışdı bağrına qızıl xonçalar.
Çin xuruşlarından başqa, al-əlvan,
Mislini cənnətdə görməmiş bağban.
Ləzzətli halvalar hazır olmuşdu,
İçi qənd, badamla doldurulmuşdu.
Elə qablar vardı, gəzib arayan
Dünyada birini tapmazdı ondan.
O qədər cavahir gəlmiş ortaya
Ki, sərraf bir ilə almazdı saya.
Həşəmətli şahın ziyafətinə
Sərf oldu böyük bir dolu xəzinə.
Türk şahı xaslarla yola çıxaraq,
Getdi İskəndəri çağırsın qonaq.
Torpağı öpdülər ayinə görə,
Dəydi yer öpməkdən başı göylərə.
Söylədi: "Bu uca bəxtin, ey sərvər!
Taxtımın başına yol tapsa əgər,
Tacıyla taxtını əziz edərdi,
Məni bu şərəflə çox böyüdərdi."
Səmimi dəvəti şah qəbul etdi,
Xaqana şərəfli hörmətçün getdi.
Ordu, şah birlikdə haman dəvətə
Baş əyib atlandı o ziyafətə.
Xəzinə ağzından açıldı yerlər,
"Yol açın!" səsindən titrədi göylər.
İskəndər çatınca süfrə boyuna,
Elə bil çatdı Xızr həyat suyuna.
Qızıl bir taxt gördü, günəşdi, gerçək.
Onda dürr çeşməsi dəniz suyutək.
Qızıl taxt üstündə oturdu şən-şən
Əlində bir turunc kafur, ənbərdən.
Sağ əldə dünyanı yoxlayan fəğfur[234],
Xidmətə baş əymiş, hüzurda durur.
Şah onu çağırdı, hörmətdir deyə,
Oturdu şah kimi qızıl kürsüyə.
Başqa tacidarlar hörmətə görə
İskəndər yanında diz çökdü yerə.
Xaqan əmr eylədi: "Yeməklər gəlsin,
Qızıl xonçalarda xörəklər gəlsin!"
Hər yandan töküldü şahanə yarpaq,
Meynə yarpağıtək tökdü hər budaq[235].
Fərxarə bənzəyən istək evindən
Tez hazır olurdu hər istənilən[236].
Elə bil cənnətdir, arayan kimsə
Xonçada tapırdı hər nə istəsə.
İştahla yedilər o xuruşlardan,
Hücumla şəraba açdılar meydan.
Qırmızı şərablar verdi qol-qanad,
Qırmızı rənglərdən qurdular büsat.
Çalmağa oturdu, bütün dünyadan
Seçilmiş ən məşhur oxuyan, çalan.
Ən incə oxucu səslər ucalır,
Ozanlar rəsmiylə oxuyur, çalır.
Çalanlar başladı süğdi nəğməsi,
Göylərə ucaldı sazların səsi.
Vardı pəhləvicə o qədər çalan
Nəğməyə yenilik verirdi hər an.
Rəqs edən kəşmirli gözəllər durur,
Oynarkən yel kimi mayallaq vurur.
Elə çalğıçılar gəlmiş Yunandan,
Ağlını itirir eşidən insan.
Rum və Çin xidmətə bel bağlayaraq,
Bəzədi Rumdan və Çindən bir bayraq.
Xəzinə ağzını açınca xaqan,
Qarun xəznəsində yer oldu pünhan[237].
Əvvəlcə saçdı çox cavahir, gövhər,
Daş-qaşa tutulmuş gözəl geyimlər,
Büllurdan büsatı günəşdən parlaq,
İncəlikdə sudan təmiz və yumşaq.
Çin ipəklərindən bir neçə xalvar,
Müşk ilə, ənbərlə dolu bir ambar.
Kafurlu təbəqdən ətr almış hər yan,
Quru ud artıqdı təzə kafurdan.
Çaçı kamanlarla çini ipəklər,
Bir neçə qılınc da ona bərabər.
Bir ilxı yorğa at, görkəmli, oynaq,
Yel kimi yeriyən, gövdəsi parlaq,
Göylərdə durnanı, sarı ovlayan
Laçınla qızıl quş, böyük bir karvan.
Qırx fil öz taxtıyla, uca, qüvvətli,
Sümükləri möhkəm, vücudu ətli.
Bir dəstə qara qul - cəbhələr yenən,
Ayüzlü kənizlər - ölü dirildən.
Çəkdi bu şeyləri şah hüzurinə,
Bunlardan başqa çox şey verdi yenə.
yenidən başqa bir xəzinə açdı,
Ondan da dəyərli bəxşişlər saçdı.
Verdi o, quyruğu qara bir köhlən,
Səhər küləyindən iti yeriyən.
Yürüyən, şahanə bir təxti-rəvan,
Üstündə tərpənməz əsla oturan,
Qaçmaqda ceyrandan iti, həm oynaq,





Atəşdən qızğındı, sudan da yumşaq,
Çölün quşlarından çox yüngül uçan,
Dənizdə balıqdan iti oynayan,
Qaçarkən qorxunc div sanırdı görən,
Elə bil doğulmuş divlər nəslindən,
Qalmaz tərpənişdə göylərdən geri,
Olmaz dan yeri də bu meydan əri.
Meydanda elə bir cövlanı vardı,
Xəyalı o yan yolda qoyardı.
"Fərəsi" "Rüx" ilə ayaqdan salır,
"Fərəs"lə "Fili" də cəbhədən alır[238].
Bir qorxu saçardı onun sürəti,
Yerişi ən incə xəyaldan iti.
Qorxmazdı səməndər kimi atəşdən,
Səməndər demirəm, İskəndər çəkən.
Bir ovçu quş verdi fitnəylə dolu,
Röyalı gecədən daha qorxulu.
Çərx kimi dolanır açarkən şəhbal,
Gəzişi cənubdu, çıxışı şimal[239].
Polad yay keçirmiş tunc dırnaqlara,
Əzmindən qartallar geyinmiş qara.
Boynunda çox qan var, hər quşa- yağı,
O qartal ovlayan yaylı caynağı
Görüncə simürğün bağrı sızıldar.
Çöllərdə kərgədən edərdi şikar,
Acıqlı, qaniçən, qorxu bilməyən.
Haqq onu yaratmış zülümdən, kindən,
Toğruldur quşların şahı bu Toğan,
O da Toğrul kimi ölkəyə sultan.
Qaragöz bir kəniz ənbər qoxulu,
Gülüzlü, dodağı şəkərlə dolu.
Cənnətdə bəzənmiş bir sənəmdir bu,
Edər o fitnəni könül arizu.
Yürüyən bir aydır o sərv ağacı,
Müşkin bir kəmənddir cüt qara saçı.
Su kimi lətifdir o çənə, buxaq,
Atəşdə suyu kim görmüş baş-ayaq?
Üzü bənövşəyə qızıl gül atır,
Gül üzdə bənövşə keşikçi yatır[241].
Uca sərv möhtacdır onun boyuna.
Şəkər bir bəndədir, bal dostdur ona.
Müşk onun zülfünə bağlamış kəmər,
Zülfü də günəşə köləlik edər.
Bir şəkərparədir, şirin söhbətdir,
Dodağı şəkərçin bir fəlakətdir.
Arxası sincabdır, bədəni büllur.
İncə barmaqları xəz quyruğudur.
Ağ, lətif çənəsi gümüşdən nişan,
Ona bir tuğ asmış gül buxağından.
Çənəyə, buxağa vermiş yaraşıq,
Günəşdən top qapmış, aydansa işıq.
Qəmzədən ox çəkmiş, qaşından kaman,
Bu ox, bu kamanla ovlamış yüz can.
Boğazı o qədər ağ, lətifdir ki,
İçərkən görünür şərabın rəngi.
Dünyada sağ olsun elə bir dayə,
Bir gözəl bəsləmiş tən edir aya.
Dar gözü kimsəyə salmaz bir nəzər,
Ağzı dar gözündən daha dar, dilbər.
Elə bil ağız yox, yaranmış yoxdan.
Ona "Taysız gözəl" demiş ad qoyan.
Dəyərli töhfələr təqdim eləyən
Fəxr ilə öyməyə başladı şən-şən:
"Budur at, ovçu quş və gözəl kəniz,
Əzizdir, bunları sən də tut əziz.
Nə kimsə belə at minmişdir hələ,
Nə belə bir quşu keçirmiş ələ.
Deməyə nə hacət, bir zaman gələr,
Hər biri göstərər böyük bir hünər.
Gülüzlü kənizdir belə bir gözəl,
Gözəllikdə yoxdur özünə bədəl.
Anadangəlmədir onda üç xislət,
Onun dördüncüsü tapılmaz, əlbət,
Birinci, gözəldir, bərabəri yox,
Can alır, cənnətdə belə pəri yox.
İkinci, güclüdür, həm də döyüşkən!
Qaçmaz döyüş günü mərd kişilərdən.
Üçüncü, yox səsdə ona bir bədəl,
Şən, şaqraq nəğməsi Zöhrədən gözəl.
Gözəl səs dalınca pəstdən, ucadan,
Nəğməsindən yatar həm quş, həm ilan".
İskəndər bəyəndi, haqq verdi ona,
Xoş səsi, gül üzü gəldi xoşuna.
Qadında mərdliyə verməzdi qiymət,
Bu işdə azacıq düşündü, əlbət.
Tikanlar bərk olur, çiçəklər incə,
Qadında igidlik az olur məncə.
Vücudu geyinsə kəskin poladı,
Mərdlikdə payı yox, qadındır adı.
Çaxmaq daşı olsa suda balıqlar,
Dənizdə nəhəngə olacaq şikar.
Yararmı kağızdan qayrılsın qalxan,
Atılsın dənizə, suya sonradan.
Padşahı bu fikir etmədi təmin,
Qadını mərdlikdə görmədi mətin.
Özünə qul etdi qəbul etməklə,
Sonradan adını unutdu belə.
Gözəl bəxşişləri alaraq ondan
Yatağa çəkildi İskəndər xaqan.
Məşriqin tovuzu o səhər erkən
Başını ucaltdı firuzə göydən,
Yenidən qədəhi padişah aldı,
Yenidən dərgaha çalğı səs saldı.
İki gün işrətlə baxdı keyfinə,
Yerişə başladı yel atı yenə.
Qayıtmaq üçün şah verincə qərar,
Dolanışı kəskin, iti ruzigar,
Xaqanın verdiyi türküzlü kəniz

Padşahın yanında olmadı əziz.
Nədənsə xoşuna gəlmədi bu qız.
Kölgətək pərdədə buraxdı yalqız.
Parladı günəştək o toxtamış ay,
Gözündən gül üzə axıtdı bir çay.
Kənizlər evində şam kimi söndü,
Bir quyu içində kölgəyə döndü.
Çövkana pərəstiş edən bu dövran
Ələ top keçirdi gecə oynundan.
Şahlardan top qapan böyük hökmüran
Cilovu çövkana buraxdı bir an.
Qalxdı dağlar yaran gəmiyə birdən.
Fil atın üstünə mindi filbədən.
Ucaltdı bayrağı boyun çəkənlər,
Qiyamət başladı, göründü məhşər.
Ordunun olurdu eni bir ağac,
Ceyranla dolmuşdu bütün çöl, yamac.
Çindən Cəndə qədər hey başdan-başa
Yer-göy bürünmüşdü ipək qumaşa.
Ordunun sayına çatdı hökmüran,
Var idi beş yüz min adlı pəhləvan.
Qabaqda, arxada tovuzrəng türklər,
Sağ, solda poladqol aslanlar gedər.
Ordunun qəlbində durmuş hökmüdar.
Sahildə dağ kimi dəmir külahlar.
O dəmir külahlı ərlərdən başqa
Qırx filə söykənmiş həm ön, həm arxa.
Qarşıda ucalmış şahın sancağı,
Min igid əlində tutmuş bayrağı.
Xas qullar belində qızıldan kəmər,
Ərinmiş saf qızıl çubuğa bənzər.
Gözəl, gənc igidlər coşurdu seltək,
Hər yandan çəkirdi minlərcə yedək.
Yolun zəhmətini qat-qat azaldan
Nədimlər bürümüş onu hər yandan.
Şövkətlə tərpəndi Rum şəhriyarı,
Yanınca gedirdi Çin hökmüdarı.
Elə ki, yolları ölçdü bir qədər,
Xaqana işarə etdi İskəndər.
Durmayıb mülkünə qayıtsın yenə,
Cilovu çevirsin türk ölkəsinə.
Şah ilə görüşdü, ayrıldı xaqan,
Üzünü islatdı kirpik suyundan.
O dünya dolaşan atını sürdü,
Qoşunla Ceyhuna doğru yürüdü.
Elə ki, yetişdi o dərin çaya,
Dincəlmək əmrini verdi orduya.
O yerdə sevimli bir çəmən gördü,
Enməkçin münasib bir məskən gördü.
Kəndirlər çəkildi, çadır quruldu,
Mərkəzin sütunu qüvvətə doldu.
Gövhərlə işlənmiş o çadırlardan
Ceyhunun sahili oldu gülüstan.
Mavəraünnəhri görüncə guya,
Bir şəhər demirəm, gördü bir dünya.
Nə qədər var-dövlət almışdı Çindən
Qaldığı yerlərdə dağıtdı şan-şan.
Şənləndi o yerdə virana yerlər,
Yenidən saldırdı bir neçə şəhər.
Səmərqənd ki, dünya sevinir ona,
Deyirlər, İskəndər etmişdir bina.
Rumda, Xorasanda yayıldı xəbər:
Getdiyi yerlərdən döndü İskəndər.
Padişah zəfərlə gəlmişdir deyə,
Xalq çıxdı yollarda şənlik etməyə.
Toy-bayram başlandı, ucaldı bayraq,
Hər yerdə, hər evdə şənlik quraraq
Varlılar səpdilər varı, dövləti,
Göndərdi padşaha ayaq zəhməti.

### İSKƏNDƏRİN RUS QOŞUNUNUN HÜCUMUNDAN XƏBƏR TUTMASI

Saqi, dur bu gecə mənə ver şərab,
Bu başağrısına vacibdir gülab.
Bir mey ver, suyu da eləsin huşyar.
Verməsin başlara ağırlıq, xumar.
Xoş gəlir dünyanı ölçən ərlərə
Calasın səfəri başqa səfərə.
Görsün hər ölkədə yeni bir adət,
Olsun hər mənzildə azacıq rahət.
Hər yeni geyimə bir nəzər salsın,
Gördüyü şeylərdən bir sınaq alsın.
Azacıq düşünsən, bir nüktə vardır:
Hər kəs öz şəhrində bir şəhriyardır.
Öz şəhrində olsan ən alçaq insan
Yaxşıdır qürbətdə sultan olmaqdan.
İskəndər hər yerdə qələbə çaldı,
Lakin vətən eşqi qəlbini aldı.
Hökmündə olsa da saysız vilayət,
Əz doğma yurduna çəkərdi həsrət.
O gecə qət etdi, səhər qalxaraq
Atına küləkdən taxsın bir ayaq.
Qəlbində söndürsün vətən odunu,
Xorasan havası şənlətsin onu.
Əcəm torpağına at salsın yenə,
Oradan yol açsın İstəxr mülkünə.
Dünyanın rəngi də uysun baxtına,
Şöhrətlər qazansın uca taxtına.
Keçsin Nuşafərin mülkündən bir də,
Yaxşını, yamanı görsün o yerdə.
Yeni don geydirsin köhnə işlərə,
Önündə bir dünya diz çöksün yerə.
Hər kəsə yenidən versin var, dövlət,
Töhfələr paylasın, göstərsin şəfqət.
Baxşişlər ayırsın istəyənlərə,
Yenidən yaşayış versin hər yerə.
Gedərkən bunları düşünür dərin,





Başqa cür düşünməz hökmüran, yəqin.
Abxaz hökmüdarı olan Dəvalı
Ucalmış, padşaha yaxın olalı,
İskəndər hökmünə bağlarkən kəmər
Dünyaları ölçər, ölkələr gəzər.
Padşahın yanına gəlincə, birdən
Təbiltək inləyib qopardı şivən:
"Padşahın, rusların zülmü çox dərin,
Abxaz gərdəyindən qaçırır gəlin.
O gözəl ölkədən gəlmiş bir tanış,
Deyir: o var-yoxdan çöp də qalmamış.
Alan, Ərk rusları edərək axın
Yağmurtək ölkəyə etmişdir basqın.
Dərbəndə, ətrafa fitnələr saçmış,
Gəmiyə doluşub, dənizə qaçmış.
Qədərsiz basqınlar etmişdir yenə,
Yenidən yol vermiş o köhnə kinə.
Qəflətən talamış hər yerdə nə var,
Bir də yol tapmasın o şum ayaqlar.
Deyirlər, qədərdən çox ölən varmış,
Həm qırıb dağıtmış, həm də aparmış.
Heç bir şey qalmamış dolu anbarda,
Xəzinə boşalmış, yoxdur dinar da.
Xəzinə geyimdən boşalmış, gerçək,
Sandıqdan dür çalmış, taxtımdan ipək.
Gördüyün o Bərdə olmuşdur viran,
O zəngin şəhərdən qalmamış nişan.
Gözəl Nüşabəni almışlar əsir,
İşrət qədəhini qırmışlar bir-bir.
Sarayda görmüşdün o qədər gəlin,
Onlardan qalmamış heç bir nazənin.
Vurmuş bir-birinə kəndi, şəhəri,
Atəşdə yandırmış şən ölkələri.
O qızğın döyüşdə məhv olsaydım mən
Asudə olardım bu dirilikdən.
Sənin xidmətində oldum bəxtiyar,
Orada əsirdir gəlinlər, qızlar.
Düşməndən intiqam almazsa padşah,
İmdada yetişsin o böyük allah.
Çox keçməz ki, ruslar girər hər yana,
Dağ çəkər Rum ilə Ermənistana.
Elə ki, keçirər ələ xəzinə,
Durmayıb tələsik qaçarlar yenə.
Şəhərlər alaraq, talar hər yanı,
Bəlkə də tutarlar bütün dünyanı.
Onlarda aslanla qurd ürəyi var,
Qana mərd, süfrəyə aciz olurlar.
Mərhəmət umulmaz düşməndən bir an,
Yalnız surətindən görünər insan!
Eşşəyin cəvahir olsa da yükü,
Yenə də eşşəkdir, parıldar tükü.
Madam ki, yol tapmış bunlar xəznəyə,
Ziyanlıq verəcək bir çox ölkəyə.
Zülümlə açacaq yeni qol-qanad,
Karvanlar soyacaq, sönəcək həyat.
Ölkəyə dərindən ziyan vuracaq,
Ruma, Xorasana əl uzadacaq."
Açıqlandı padşah bunu dinlərkən,
Onun övladına olan sitəmdən.
Nüşabə üçün də qəmləndi hədsiz,
Çünki o ölkəni tuturdu əziz.
Acıqlı başını dikdi köksünə,
Başını kədərlə qaldırdı yenə.
Dedi: "Ey Dəvalı, verirəm fərman,
Qəlbimdə çırpındı canında olan.
Vəğəni anlatdın, sən dur bir yana,
Bu işi büsbütün gəl tapşır mana.
Görərsən nə səhman verrəm işlərə,
Kəməndim nə qədər baş tökər yerə.
Alaram ağılı, huşu başlardan,
Aslanlar qanına sallam həyəcan.
Aslanla oynamaq deyildir asan,
İtləri salaram kinli qürurdan.
Qoymaram Bərtasdan, ruslardan nişan.
Başları qurtarmaz ayaq altından.
Ruslar, Misr olsa da, tökərəm Nilə,
Şüuru azınca əzdirrəm filə.
Taxtımı qaldırram dağından yüksək,
Daşları dəhşətdən ərisin gərək.
Nə əjdər qoyaram bu köhüllərdə,
Nə də ot ki, dərman olsun bir dərdə
Ruslardan bu öcü almayıb getsəm,
Feyləqusun oğlu deyiləm, itəm.
Bərtasın qurdunu tora salmasam,
Bərtas tülküsündən daha alçağam.
Dövranın gərdişi verərsə imkan,
Alaram öcümü kinli düşmandan.
Qaytarar nə ki şey aparmış bizdən,
Düşər ayağıma o qarət edən.
Nüşabə qurtarar zəncir altından,
Mən şəkər alaram qamışdan, inan!
O gümüş, daşlarda gizlənsə belə,
Xamırdan tük kimi çəkərəm çölə.
Tədbirlə açılar bu çətin işlər,
Ağacda zamanla açar çiçəklər
Hər işdə tədbirdən əl götürməmək.
Zamandan-zamana dolanır fələk.
Bu yola varımdır ərzaq, hazırlıq.
Murada çatınca dözərəm, artıq.
Qocaman dağlardan dənizə qədər
Üsullu-üsullu iş axıb gedər.
Fikrim at sürməkdi əcəm mülkünə,
O yerdə əylənmək istədim yenə.
İndi ki, üz vermiş belə bir dastan.
Taxtımdan ayrılmaq yaxşıdır bundan.
Qoşunum əzm etdi tərpənsin, ancaq
Bu yolda yəhərim taxtım olacaq.
Düşməndən intiqam almayınca mən

Qaçaram yatmaqdan, istirahətdən."
Dəvalı o halı gördüyü zaman
Azaldı qəlbində kinli həyəcan.
Dodağı doldurdu yeri ənbərlə,
Üz sürtdü, torpağı suvardı zərlə.

### İSKƏNDƏRİN QIPÇAQ ÇÖLÜNƏ ÇATMASI

Dur, saqi, qədəhi al ələ, doldur!
Kimsəyə içməkdən başqa yol yoxdur.
Günəş parçasıdır, badə deyil bu,
Gövhərində vardır həm atəş, həm su.
İki pərvanədir bağlanmış bura,
Birinin üzü ağ, birinin qara[243].
Kimsənin şamına deyil pərvanə,
Dinləməz kimsəni, baxmaz fərmanə[244]
Çıraqdan işıq ver, ev işıqlansın,
Hər iki pərvanə atəşdə yansın.
Bu yaşıl baxçaya verən yaraşıq
Çıraqdan parladır belə bir işıq.
Feyləqusun oğlu böyük İskəndər
Rusun talanından alınca xəbər,
Gecəni yatmadı, əzm etdi kinə,
Hər sayaq düşündü, daşındı yenə.
Neyləsin, bu işə necə don biçsin,
Üstündən atlayıb qolayca keçsin.
Dan yeri yaqutdan şəfəq saçanda,
Şəbdizin belindən təngi açanda[245],
İskəndər yenə də ata minərək
Yel kimi tərpəndi, oldu bir şimşək. ,
Ceyhun sahiliylə atını saldı,
Oradan Xarəzmə doğru yol aldı.
Arxada ordusu dəniztək axır,
Çöllərin hesabı barmağındadır.
Xarəzmin çölünü ölçərək biçdi,
Ceyhuna gələrək, Amildən keçdi.
Aləmi qurtarmaq fikriylə rusdan
Suda və quruda durmadı bir an.
Yeməyib, yatmayıb, hey sürürdü at,
Səqlab çöllərinə açınca qanad,
Qıpçaqla qaynaşan boz çöllər gördü,
Baldırı ağappaq gözəllər gördü.
Üzü od, yanağı su kimi oynaq,
Günəşdən və aydan daha şux, parlaq.
Hamı kiçik gözlü, könül ovlayan,
Bir pəri səbrini əlindən alan.
Nə örtü, nə yaşmaq bilirdi onlar,
Nə də qardaşından, ərindən qorxar.
Darlıqda keçinən subay əskərlər,
Görüncə örtüsüz bir dəstə dilbər,
Dözməyib, qaynadı gəncliyin qanı,
Dinləməz oldular əmri, fərmanı.
Padşahın qorxusu çökdü əskərə,
Əl ata bilmədi o gözəllərə.

İskəndər görüncə o afətləri,
Xoşuna gəlmədi bu adətləri.
Ağ bədənlər gördü, gümüş vücudlu,
Ordu bütün susuz, onlar sərin su.
Ordunun halına yandı, nə demək,
Hər qadın qadındır, erkək də erkək!
Bu işə sərf etdi öz hünərini,
Çağırdı qıpçağın böyüklərini.
İskəndər onlara etdi çox hörmət,
Ucaldı başları, göstərdi şəfqət,
Örtülü dedi çöl qıpçaqlarına:
"Üzünü gizləmək xoşdur qadına.
Qadın ki, yadlara açar üzünü,
Nə əri düşünər, nə də özünü.
Bərklikdə ansa da daşı, poladı,
Yenə də qadının qadındır adı.
O azğın çöl xalqı, o köçərilər
Padşahı dinləyib durdu bir qədər.
Bu əmrə əymədi boyun heç biri,
Ən doğru sandılar bu ayinləri.
"Bəndəyik biz, deyə, təslim oldular,
İtaət edərik sənə, tacidar!
Üz örtmək doğru yol deyildir, ancaq,
İtaət etməz bu ayinə qıpçaq.
Üz örtmək ayini qoy olsun sənin,
Bizə də göz örtmək olmuşdur ayin.
Baxmamaq gərəkdir naməhrəm üzə,
Nə suçu var üzün, cəza ver gözə.
Bu sözlər gəlirsə padşaha ağır,
Nə üçün bəs üzə, arxaya baxır,
Bu hasar deyilmi qıza, gəlinə?
Heç biri girməmiş yad gərdəyinə.
Bizim qız-gəlinə yetər bu örük,
Yadlar gərdəyindən tutmamışdır yük.
Örtü salmaqdansa xalqın üzünə,
Özün bir örtü çək baxan gözünə.
Gözünə pərdəni asan bir nəfər,
Şübhəsiz, nə günəş, nə də ay görər.
Bu işdə cahandar əmr edir bizə,
İstəsən hər qıpçaq can verər sizə.
Edərik hər əmrin olsa, itaət,
Öz ayinimizdən dönmərik, əlbət."
Qıpçağın dilini uzun görüncə,
Susaraq, aldı bir acı düşüncə.
Padşaha apaydın oldu həqiqət,
Bu xalqa bir fayda verməz nəsihət.
Tutarlı bir tədbir göstərsin, deyə,
Söylədi bu sirri o fərzanəyə:
"Bu kəmənd saçlılar gözəldir, dilbər,
Hayıf ki, yadlardan üz örtməyirlər.
Pərvanə atəşdə yandığı qədər,
Yadlara bəladır bu qara gözlər.
Nə yolla qıpçağı bəs yumşaldım mən,
Gizləsin üzünü naməhrəmlərdən?!"





Bəlinas dil açdı ona hörmətlə:
"İtaət edərəm böyük minnətlə,
Mən elə bir tilsim qurum bu yerdə,
Dastanlara düşüb qalsın dillərdə.
Tilsimi hər qadın gördüyü zaman,
Üz-gözünü örtüb keçər yanından.
Bu şərtlə: padişah qalsın mənimlə,
İstədiyim şeyi gətirsən ələ."
Gərəkli şeyləri yaxşı-yamandan,
Güc ilə, qızılla tapdı hökmüran.
Bəlinas güvəndi bəxtiyarlığa,
Tədbirlə başladı sənətkarlığa.
Qara daşdan qurdu gözəl nazənin,
Dikəltdi bir yeni ayinli gəlin.
Ağ mərmər çadrası heykəl daşında,
Səmən yarpağıydı bidmişk başında.
Hər qadın keçirkən gördüyü zaman
Utanıb üzünü gizlədi ondan.
Üzünü, gözünü örtdü hər göyçək,
Utanıb üzünə çəkdi bürüncək.
O gün ki, çarşablı heykəl quruldu,
Qıpçağa üz örtmək bir adət oldu.
Sənətkar kişidən sordu İskəndər:
"Nə üçün bu xalqa daş etdi əsər,
Etmədi verdiyim əmrə itaət,
Bu cansız Heykəldən aldılar ibrət?"
Bəxtiyar bilici dedi: "Hökmüran,
Qıpçağın ürəyi qatıdır daşdan!
Bu gümüşbədənlər daşürəklidir
Daşürəkliləri onunçun sevir.
Hər biri elə ki, daşa yan alır
Qatı ürəkləri ondan yumşalır.
Üz-gözü bərk daşdan yaranmış dilbər
Utanıb, üzünü yadlardan örtər.
Bizə də gərəkdir belə bir örtük,
Ərlərə hörmətdir, yadlara örük.
Bir də ki, göylərə aid bir sirr var.
Etmərəm o gizlin sirri aşikar."
O tilsim kök saldı durduğu yerdə,
Üzlərə oldu bir ismətli pərdə.
Tilsimli o heykəl yenə ucalır,
Uçmamış, o çöldə indi də qalır.
Çevrəsi oxlardan dönmüş ormana,
Çay boyunca bitən ota, tikana.
Ətəkdə qartallar salan oxlardan
Daha çox görünür qartal və tərlan.
O yerdən keçərkən daim qıpçaqlar,
Pir deyib, başını səcdəyə qoyar.
Hər atlı, piyada o yoldan gedir,
Heykələ pir deyə, pərəstiş edir.
Atını sürərkən daşa, pir deyə,
Edir oxluğundan bir ox hədiyyə.
Çobanlar sürüylə keçərkən ordan
Verər o heykələ bir qoyun qurban.

Qartallar ucadan edərkən pərvaz
Qoyundan o yerdə bir tük də qoymaz.
Qorxaraq, o polad pəncə qartaldan
Heykəlin səmtinə gəlməz bir insan.
Bax, bilici necə bir heykəl qurdu,
O sənəm gah açdı, gah düyün vurdu.

### İSKƏNDƏRİN RUS ÖLKƏSİNƏ ÇATMASI VƏ MÜHARİBƏSİ

Saqi, dur, örtülü bakirəni sən
Mənə ver, qorxursa ərə getməkdən.
Əlimi yuyum hər kirdən, murdardan,
Təmiz olmalıdır bikrə əl vuran!
Yenidən bu bülbül girmişdir bağa,
Bu pəri yan almış işıq - çırağa.
Fikrimə can verir bu pəricamal,
Pəriyə döndərmiş məni bir xəyal.
Bu qara Əhrimən mədənindən mən
Bir gövhər alım ki, çıraqdan rövşən.
Minlərcə eşq olsun, zəkalı ərlər
Zülmətdən çıxarır işıqlı gövhər.
Keçmişi gözəlcə bilib tanıyan
Tarixdən nəql edir belə bir dastan:
Rum sənətkarına şah verdi fərman,
Tədbirlər tökərək mum alsın daşdan.
O tələb edilən uğurlu heykəl
Firuzə naxşıtək bəzəndi gözəl.
Heykələ vurmuşdu elə bir bəzək,
Türklərin nəqşinə bağladı ipək.
Heykəli dikəltdi mahir sənətkar,
Önündən şövkətlə keçdi hökmüdar.
Keçirkən saçırdı, cəvahir, dövlət,
Dincəlmək fikriylə çəkirdi zəhmət.
Həftədə bir neçə mənzil gedirdi,
Mənzildə həftədən çox dincəlirdi.
Düşmənə olunca yaxın, coşdu kin,
Əjdərlər pəncəni etdilər kəskin.
Qarşıda göründü geniş bir sahil,
Gecəykən o yerdə etdilər mənzil.
O yaşıl çəməndə ordu, tacidar
Yolun zəhmətindən rahat oldular.
Ulduztək bəzədi baş ordugahı,
Göylərə ucaltdı onda dərgahı.
Hər tərəf bayraqla döndü tovusa,
Ordunun ağzını çevirdi rusa.
Bu qorxulu xəbər çatdı ruslara:
Əskərlə yetişdi o rumlu Dara,
O qədər əskər heç gəlməz xəyalə,
Dağlar da dayanmaz etsə bir həmlə,
Zor igidləri var qılınc oynadan,
İnsanı qıvrılmış ilantək sancan.
Qızmış bir aslandır kəmənd quranlar,
Fillərin başını yerə buranlar.

Çinli qulları var, hərbə girincə
Bir teldən ox atar yüzlər, minlərcə.
İskəndər deyil tək acıqlı aslan,
Bəladır dünya o qan qusduran.
Ardınca dağ kimi bir ordu gəlir,
Yer, göy titrəyərək tozlar yüksəlir.
İki yüz fili var üstü poladdan,
Torpağın canına salır həyəcan.
Çölləri tutmayır igidlər, fillər,
Ordusu ordular yaran bir əjdər.
Eşitdi rusların sərdarı Qıntal
Ki, dövran doğurmuş başqa bir əhval,
Yeddi rus soyundan tərpətdi ordu[246],
Hər qövmə uyan bir yaraşıq vurdu.
Bərtasdan, Alandan, Xəzrandan hədsiz
Sanasan sel kimi axdı dağ, dəniz.
İsudan Qıpçağın çölünə qədər
Hər yeri doldurdu ox, geyim, xəncər.
Hesaba gəlməyən qədər əskər var,
Sayından acizdi böyük hesabdar.
Qarşıda olanı saydı bir bilən,
Ziyadə göründü doqquz yüz mindən.
Rusa iki ağac qaldığı zaman,
Atlardan enərək tutdular məkan.
Rus Qıntal söylədi: "Mərdləri yenən
Döyüşdə qorxarmı qızdan, gəlindən?
Heç zəhmət görməmiş belə bir əskər,
Xəzinə karvanı, üstü zər, zivər.
Belə bir namuslu nazlı utancaq
Ruslarla döyüşdə tutarmı ayaq?
Cilovu, yəhəri qızıldır, gövhər,
Saf büllur təbəqlər, yaqut qədəhlər.
İşləri içməkdir, kefdir hər zaman,
Bir kərə keçməmiş hərbin yanından.
Gecələr alır xoş qoxudan fərəh,
Gündüzlər içkiylə qaldırır qədəh.
Biz ruslar ciyəri yeyərik bol-bol.
Qızlara yaraşır bu şərab, noğul.
Rumlular, çinlilər döyüşə girməz,
Geyinər qırmızı diba, sarı xəz.
Haqq bizi nemətlə etmiş sərəfraz,
Haqq verən bəxşişin önü alınmaz.
Yuxuda görsəydim bu qəniməti
Axardı ağzımın dadlı şərbəti.
Bir deyil, hədsizdir taclar, bəzəklər,
Dənizdə tapmarıq bu qədər gövhər.
Bu zəngin dövləti keçirsək ələ
Bütün ölkələrə düşər vəlvələ.
Padşahlıq edərək dünyanı alaq,
Əsrlər boyunca tacidar olaq."
Atını oynatdı dağın başına,
Bir neçə nəfər də qoşuldu ona.
Əliylə uzağı göstərdi: "Baxın,
Hurilər dünyaya etmişdir axın!

Dərgahı büsbütün gövhər, xəzinə,
İncilər saçılmış silah yerinə.
Yəhərlər büsbütün yaqutla dolu,
İncidir, gövhərdir atların çulu.
Ulduzlu külahlar ucalmış göyə,
Uzun don az qalır ayağa dəyə.
Tirmələr, ipəklər, fərşlər, xalçalar,
Nə əldə nizə, və oxluqda ox var.
Xalxalı qızıldan taxmış ayağa,
Zülfünün ucunu burmuş qulağa.
Hamısı şahanə zinətlə dolu,
Yox gedən ayağı, yox gücü qolu.
Bu əlsiz, ayaqsız nəfərlər neylər?
İskəndər bunlarla ordumu yenər?
Onlara bir iynə batırsan, bişəkk,
Ağızlar açılar bir pəncərətək.
Tarixlə, təqvimlə hərbə gedirlər,
Həsabda bir ayı taxir edirlər[247].
Bu ordu ən qızğın döyüşdə bir az
Əzilmiş kəsəkdən toz da qoparmaz.
Birlikdə hücuma keçsək üz-üzə,
Bu ordu dayanmaz bir həmləmizə."
Zəhmətlə keçinən sadəlövh ruslar
Hiyləyə aldanıb dedilər: "Sərdar!
Nə qədər ki, can var - əmrində varıq,
Bu əhdə, peymana baş, can qoyarıq.
Hər işdə, hünərdə olarıq nəhəng,
Qoymarıq qalsın bu gülşəndən bir rəng.
Bir basqın edərik azğın düşmana
Nizəmiz daşları boyar al qana.
Nizədən qılınca əl atan zaman
Başını keçirər kəməndə düşman."
Rus ordu qəlbini bir ocaq gördü,
Gücündən dağları yupyumşaq gördü.
Döndü ordugaha diləyi zəfər,
Qılıncdan pas sildi, qəlbindən kədər.
O biri tərəfdən şah da oturdu,
Başçı igidlərlə bir məclis qurdu.
Padşahı igidlər almış ortaya,
Bənzərdi dörd yanı ulduzlu aya.
Qədər xan Xətadan, Qur xan Xütəndən,
Dəbis Mədayindən, Vəlid Yəməndən,
Dəvalı Abxazdan, Hindi də Reydən,
Qubad İstəxrdən, Nəsəbi Keydən,
Gilanlı Zərivənd Mazandarandan,
Xavər ölkəsindən Niyal pəhləvan,
Sipənd Xorasandan, Fum da İraqdan,
Bərişad Ərməndən, bu ittifaqdan,
Rumdan, Əfrəncədən, Misirdən, Şamdan
Hesaba gəlməyən bir çox pəhləvan.
Padişah onları qurtardı qəmdən,
Ümidlər verməklə etdi qəlbi şən.
Dedi: "Düşmənimiz dava görməmiş,
Aslanla döyüşə etməmiş vərdiş.





Quldurluq, oğurluq, bir də yol vurmaq,
Düşmənin mərdliyi, bax, budur ancaq!
Qılıncı görməmiş hər iki əldə,
Bıçağı, nizəni köküsdə, beldə.
Bunlarda tapılmaz kəskin bir yaraq,
Yaraqsız döyüşdə neylər bir qoçaq?
Qarşıya çıxsa bu çılpaq nəfərlər
Biçərik başından göbəyə qədər.
Meydanda başlasam qılınc oyunu
Bağlaram Əlbürzün uca qolunu.
Mənəm əl gəzdirən o uzaqlara,
Can almaq istərkən can verdi Dara.
Kəməndi hiyləylə atdı Keyd mana,
Saldım o kəməndi öz ayağına.
Furun qoşunuyla döyüşə girdim,
Mərdliyimdən ona kafur yedirdim.
Yayım ki, qaşına bir düyün aldı,
Xaqanın yayında giriş boşaldı.
Ruslarla döyüşdən indi qorxmaram,
Onlar bir sel isə, mən də bir dağam.
Xəzər dağından Çin suyuna qədər
Türklərlə doludur bütün bu yerlər.
Bilirəm Rumları sevməyir bir türk,
Rumlara kinləri rusdan da böyük.
Türklərin oxuyla yenə bu zaman
Qabar əskik olmaz rus ayağından.
Zəhər ki, vücuda salır zəlzələ,
Sağalır yenə də başqa zəhərlə[248].
Eşitdim: bir tülkü yırtıcı qurddan
Köpək səsləriylə tapmışdır aman.
Durmayıb iki qurd kin ilə coşdu,
O qoca tülkünün dalınca qoşdu.
Çox zorba itləri vardı bu yurdun,
Qanına susardı tülkünün, qurdun.
Qorxudan tülkücük qopardı fəğan,
İtlərin bəndini açdı ağzından.
İt səsi bürüdü kəndin üstünü,
Canavar sandılar qoca tülkünü.
İtlərin səsindən hürkərkən qurdlar,
Qurtuldu o tülkü, olmadı şikar.
Sınaqlı düşmən də hər işdə belə
Qurtulur düşməndən düşmən əlilə.
Mənim ki, dəbdəbəm ucalır göyə,
Varmı ehtiyacım başqa köməyə?
Hər bağlı qapını açardır açan,
Çarə tapılmazsa, danış qılıncdan."
Başçılar bağırdı baş endirərək:
"Yolunda qanımız tökülsün gərək!
Hər zaman hünərlə işə yaradıq,
İndi biz olarıq ondan da artıq.
Həm hünər göstərmək, həm də mal üçün
Çalışmaq bir borcdur istiqbal üçün!"
Orduya verdi çox padişah ürək,
Ürəksiz bir nəfər olmasın gərək!

Düşündü, daşındı axşama qədər,
Cam ilə qılıncdan neyləsin səhər?!
Üzünü gizlərkən gündüz gecədən,
Keşikçi növbətdə, casus yatırkən,
Hesaba gəlməyən növbətçi əskər
Keçidli yollarda keşik çəkdilər.
Keşiksiz qalmadı qaranlıq gecə,
Keşikdə qaldılar şəfəq söküncə.

### İSKƏNDƏRİN RUSLARLA VURUŞMASI

Ey saqi, durma, gəl, sevindir məni!
Şəngərflə yoğurmuş odlu civəni
Ver mənə, bəzəyim uca eyvanı,
İşlədim ərinmiş o saf boyanı.
Ey sınaqlı dehqan, dünya görmüş pir,
Ürəyə yatımlı sözləri gətir!
Şah Çindən Rus üstə gələndən sonra
Onu çərxin atı götürdü hara?
Çərx ona nə oyun başladı təkrar?
Nə hiylə işlətdi ona ruzigar?
Tarixin sərrafı, o gövhər satan
Sözləri gövhərlə asdı qulaqdan.
İskəndər elə ki, coşğun rus gördü,
Dünyanı qanadsız bir tovus gördü.
Böyrünü vermədi gecə yatağa,
Durdu bəxt ararkən ulduz saymağa.
Öz ipək fərşini yığınca yerlər,
Təşt ilə, qılıncla oynadı səhər,
O təştdə parlayan qılınc günəşin
Başını kəsərək, gördü öz işin.
Qara örtüsündən qaldırınca baş
Şimşəkli qılınca büründü dağ, daş.
İki ordu deyil, iki dəniz qan,
Qədərcə çox idi dəniz suyundan.
Çapdılar o meydan boyu "qan" deyə,
Qılınclar, bayraqlar ucaldı göyə.
İki meydan boyu polad ayaqlar,
Sıx yerdə dağ kimi tutdular qərar.
Sançıya əmr etdi böyük İskəndər.
Qoşuna san verdi, düzüldü səflər.
O polad geyimdən, almas qılıncdan
İşıqlı günəşə ucaltdı duman.
Hər qövmün başında özündən sərdar,
Çəkdilər meydanda dağ kimi hasar.
Dəvali və İran pəhləvanları
Sağ qolda yerləşdi, coşdu qanları.
Qədər xan fəğfurlu igidlər ilə
Cəbhənin solunu götürdü ələ.
Cinahda ox atan xas qulamlardı,
Dönüş yollarına qanad salardı.
O polad geyimli fil ən ortada,
Kükrəyən igidlər durmuş arxada.
Filgövdə padişah minbir ümidlə





Minmişdi dağ kimi qızmış ağ filə.
Qarşıda bənizi qırmızı ruslar
Məcusun atəşi kimi parıldar.
Sağ qolu bəzəmiş Xəzran dəstəsi,
Soldan da ucalır Bərtasın səsi.
Alani arxadan, İsuvi qoldan,
Əzm etmiş baş, boyun qoparsın hər an.
Cəbhənin qəlbində rus kinə dolmuş,
Köksündən İskəndər eşqini yolmuş.
Hər iki tərəfdə səf çəkdi əskər,
Laciverd göy kimi ucalmış yerlər.
Rusların təblindən doğru həyəcan,
Xəstə bir hinditək qopardı fəğan.
Göyləri sarsıdan təbil və boru
Yerlərin qamına salırdı buru.
Zorba türk borusu etdikcə şiddət
Türklərin qoluna gəlirdi qüvvət.
Coşduqca yer yaran at kişnəməsi
Balığa çatırdı yerin naləsi.
Həftğuş əmudların təpiklərindən
Fələyin öküzü qopardı şivən.
Dəldikcə qılınc hər gümüş peykəri
Gümüşdən çıxarır qan danələri.
Dəmirdən keçdikcə üçpərli oxlar[249]
Sanki çəmənlikdən ötürdü quşlar.
Nizədən qamışlıq olmuş yer üzü,
Dağ çökür çuxura yedikcə gürzü.
Tüklərin ucuyla nizə ucalır,
Düşmən öz qanıyla dəstəmaz alır.
Qurd gönündən olan müdhiş təbildən
Qızışır döyüşlər, coşur döyüşkən.
Daşlarda nizə qan çeşməsi açar,
Bir orman göyərdir yay ilə oxlar.
Oxların meyvəsi al güldən nişan,
Güllərin qan damar hər tikanından.
Qalxanı ərīdən polad nəhənglər
Başını uzatmış, sərkəşlik edər.
Dağlara deşiklər açırdı buxar,
Yerlərin canında bir titrəyiş var.
Rus döyüşməsindən dəhşət çökürdü;
Aslanlar altında atlar ürkürdü.
Əflatun, Fəlatus xalqıtək nadan
O yerdə əskikdi bir aciz rusdan.
Rumlular fələyə ucaltdı bayraq,
Qılıncdan suya bir atəş olaraq,
Havanın boğazı sanki tıxandı,
Dünyanın nəfəsi artıq dayandı.
Nə yerdə yer tapır yeriyən ayaq,
Nə uçan havada tapırdı bucaq.
Ruslardan bir nəfər açdı meydanı,
Bir tülkü papaqlı Bərtas aslanı
Küləyə minmişdi yeriyən dağtək.
Dağ külək belində durarmış demək!
Döyüşmək istədi, suladı meydan,
Özünü öyərək, oxudu dastan:
"Xam dəri geyinən hər bir Bərtası,
Mənim varlığımla qızar arxası.
Pələnglər yırtaram dağlar qaşında,
Nəhənglər yeyərəm sular başında.
Aslantək alışdım sağrı yırtmağa,
Tülkütək baxmaram yağlı quyruğa[250].
Pəncədə kəskinəm, qüvvətdə mətin,
Maral böyrü yırtmaq deyildir çətin.
İçdiyim, tökdüyüm daima al qan,
Geyimim xam dəri olmuş hər zaman.
Nizəm daldan dəysə çıxar göbəkdən,
Sınamaq istəsən, bu meydan, bu sən!
Bir ordu kükrəsə Çin ilə Rumdan
Atəşin alovu ucalar mumdan.
Mənə qandan başqa töhfə gətirən,
Yox olsun elə bir yolçu, döyüşkən.
Kim mənə qaş çatsa qürur edərək,
Zivər yox, al kəfən geyinsin gərək!"
Onun qarşısına şah ordusundan
Çıxdı bir nizəli igid pəhləvan.
Meydanda kin ilə açdılar pəncə,
Çarpışma uzandı hey döyüşdükcə.
Acıqlı Bərtasın son qılıncından
Torpağa sərildi rumlu pəhləvan.
İkinci rumlu da ölüm, kin gördü,
Bərtasın bəxtini çox mətin gördü.
Hindi adlı igid şahzadə vardı.
Hindli qılıncıyla çox baş vurardı.
Qızmış aslan kimi qopardı fəryad,
Cumdu qurd üstünə əlində polad.
Qol kimi sınandı, oldu çox həmlə
Kimsənin taleyi gülmədi hələ.
Acığa dolunca şahzadə Hindi,
Qılıncı düşmənin çiynindən endi.
Başını biçdi o kəsici almas,
Atın dımağında çırpındı Bərtas.
Ruslardan başqa bir qılınc oynadan
Boynunu ucaltdı əlində qalxan.
Öyünə-öyünə girdi meydana,
Susamışdı sanki düşmən qanına.
Hindi qılıncını endirdi ona,
Ehtiyac qalmadı rus qalxanına.
Çıxdı bir başqa rus qılınc vurmağa,
Göz-gözə gəlincə düşdü torpağa.
Çox igid öldürdü, oldu gün yarı,
Tazitək qovurdu o, ceyranları.
Rusların nəfəsi tıxandı ondan,
Olmadı daha bir qarşıya çıxan.
Vücudu al qana batmışdı daha,
Yüyəni çevirdi tez ordugaha.
Görüncə İskəndər göstərdi hörmət,
Verdi ən dəyərli, yararlı xələt.
Hər iki tərəfdən enərək ordu

Keçidli yollarda keşikçi durdu.
Dan yeri sökərkən saqi qalxdı şən,
Şərabdan torpağa yaqut səpərkən,
Od saçan dəniztək hər iki əskər
Pusquda yenə də kaman çəkdilər.
O qanlı meydana çaparaq təkrar
Aslan yıxmaq üçün ova çıxdılar.
Gurlayan şeypurlar çaldıqca çalır,
Başlardan ağıl, huş, üzdən rəng alır.
Qurd gönlü təbillər etdikcə fəryad,
Ürək yox, yumşalır ən qatı polad.
Səs-küydən titrədi yerin damanı,
Göy atdı nalını, günəş mismarı,
Dikbaş bir eylaqlı susadı qana,
Atını od kimi sürdü meydana.
Vücudu gizlənmiş polad içində,
Ürəyi dünyadan bərk idi kində.
Döyüşmək istədi qızmış filbədən,
Gələn qurtulmadı dəmir gürzündən.
Qorxdu dəhşətindən hər bir namidar,
O aslan pəncədən baş qaçırdılar.
Bir saat sonra bir acıqlı aslan
Meydana at çapdı öz ordusundan.
Buxara atında qızmış fil kimi,
Atıldı irəli daşqın Nil kimi.
İgid eylaqlıya bağırdı gələn:
"İşıqlı, al günəş çıxdı pərdədən,
Əlində saqitək cam olan mənəm!
Eylaqlı qanından şərab içənəm."
Atı məhmizlədi bitincə sözü,
Yuxarı qaldırdı o, polad gürzü.
Qızmış fil vurduğu kəskin mizraqdan
Fil vücudun başı gəldi ayaqdan.
Eylaqlı toppuzdan oldu sərsəri,
Onun qan tufanı məst etdi yeri.
Onlardan bir atlı çıxdı meydana.
Dağ kimi yanaşdı o dağ yarana.
Aldığı zərbədən oldu yerlə bir,
Əlində çox igid can verdi bir-bir.
Belə baş qoparmaq nəticəsində
Bir qürur göründü hər şivəsində.
Bir çox polad geyim, almaz qılınclar
Qarşıya çıxınca oldular şikar.
Səhərdən ikindi çağına qədər
Olmadı qarşıya çıxan bir nəfər.
Burdu qulağından qəzanın qədər,
Yenidən qanlarla qaynadı ciyər.
Ruslardan at çapdı bir gövdəsi fil,
Üzü qıpqırmızı, gözləri bir Nil.
Rumlardan pəhləvan istəyib durdu,
Çox mərdlik göstərdi, mərd başlar vurdu.
Qanını axıtdı kimə yan aldı,
Bir neçə bədəndən şirin can aldı.
Sınaqlı igidin bu bas-kəsindən

Olmadı rumlardan meydana gələn.
Ruma əl tapınca rus aldı meydan,
Filləri süst gördü öz çomağından.
Oynatdı qılıncı, coşdurdu kini,
Öldürdü bir neçə rumlu, çinlini,
Nizəylə boynunu bir az uzatdı,
Qürurla meydanda nizə oynatdı.
Rum qərargahının yaxın böyründən
Atını çapdı bir adlı döyüşkən.
At deyil, bir şahin oynatdı qəşəng,
Yox, qılınc deyildi, asmışdı nəhəng.
Əynində ipəkdən bir çuqalı var,
Başını bir polad dəbilqə oxşar.
Sərxoş ifrit kimi soxuldu hərbə,
Əlində dörd başlı bir kəskin zərbə.
Nizəni qaldırdı rusa baxaraq,
Dedi: "İstəmirsən torpaqda yatmaq,
Bil, mazandaranlı Zərivənd mənəm!
Döyüşdə divlərlə mən əylənənəm.
Ondakı heybətdən rus bir şey qandı,
Səfrası qarışdı, başı fırlandı.
Meydanı daraldı - anladı o kəs,
Bu başqa hərifdir, ona bənzəməz.
Atı oynatmadı, çəkildi geri,
Bildi ki, mərdlikdə yox bərabəri-
Cilovu çevirdi tez ordugaha,
Yel kimi sovuşdu, durmadı daha.
Aslana çevirdi arxa, arxadan
Zərbəni endirdi ona pəhləvan.
Qaçanın belini zərbəsi yardı,
Köksündən dördbaşlı nizə çıxardı.
Uçan at yel kimi keçdi meydanı,
Ruslara yetirdi o əzgin canı.
Tanış, yad qaçaraq tutdular xəbər,
Səlibə dönmüş bir ölü gördülər.
Bildilər döyüşkən, qızmış əjdaha
İgidlər belinə xaç vurdu daha.
Çəkildi arxada, öndə yüyənlər,
Çıxmadı Bərtasdan, rusdan bir nəfər.
Qoşunun nəhayət səbri tükəndi,
Bir rus pəhləvanı dağtək tərpəndi.
Qıntala qohumdu, adı da Kupal,
Fil canlı pəhləvan yanaşdı, dərhal
Girdi bir-birinə iki çarpışan,
Qılınclar oynadı hər iki yandan.
Zərivənd nəhayət bir qılınc çaldı,
Kupal pəhləvanın canını aldı.
Belə bir hünərlə dikbaş ruslardan
Yetmiş nəfərini qırdı pəhləvan.
Acıqlı aslandan qıvrıldı Qıntal,
Ordunu döyüşdə görüncə topal,
Pəhləvan atlandı zireh geyərək
Budağı qılıncdan olan sərvtək.
Atıldı əjdaha yəhər qaşına,





Yüyəni buraxdı meydan başına.
Zərivənd görüncə bu əjdahanı
Kükrəyən buludtək oynadı qanı.
İki iti qılınc çıxdı qınından,
Göy kimi istidən qızışdı meydan.
Pərgar pərləritək mərkəzi ölçən,
Biri gec, birisi sürətlə keçən,
Çatıb bir-birinə, girdilər hərbə,
Yaralar açaraq, vurdular zərbə.
Qazana bilmədi heç biri zəfər,
Çarpışma uzandı gecəyə qədər.
Nəhayət, bir qılınc endirdi Qıntal,
O gəlin bəzəkli igidi dərhal
Torpağa düşürdü qızıl yəhərdən,
Aslan pəncəsində öldü filbədən.
Öldürən girincə düşmən qanına,
Sevincək döndü öz ordugahına.
Bu işdən sıxıldı böyük tacidar,
Torpağa sərildi gilanlı salar.
Əmr etdi igidi etsinlər rahət,
Adına münasib edilsin xidmət.
O sultan şövkətli şəfəq sökərkən,
Dağa dalğa vurdu Çin dənizindən.
"Qan" deyə, susadı hər iki əskər,
Bisitun dağıtək bayraq çəkdilər.
Dənizdən kükrədi bir bulud peykər,
Hər meşə içindən çıxdı bir əjdər,
Nəhənglər nərəsi ucaldı dağa,
Hər yandan axırdı qan dalğa-dalğa.
Filgövdə bir rumlu toppuz əlində,
Qılıncı əlində, oxluq belində,
Döyüşə çağırdı versin imtahan,
Çıxdı sarı kaftan geymiş pəhləvan.
Toppuzu başından vurunca birdən
Rusda nə baş qaldı, nə qol, nə bədən.
Başqası kükrədi, onu da yardı,
Qarşıya çıxandan beyin qopardı.
Qılıncda, qədəhdə, şöhrətli, şanlı,
Fərincə adında, özü alanlı,
Toppuzu çiynində atı oynatdı,
İnsanın başından huşunu atdı.
Bu qapdı toppuzu dolaraq kinə,
O da tez gürzünü atdı çiyninə.
Toppuzlar oynadı göydə yan-yana,
Şiddətlə sarıldı düşman düşmana.
Alanlı döyüşə girdiyi zaman,
Bildi ki, acizdir talesiz düşman.
Toppuzu başından elə endirdi,
Baş, beyin dağıldı, qamına girdi.
Düşmənin başını salınca yerə,
Qürurla boynunu çəkdi göylərə.
Acıqlı bir aslan Ermənistandan -
Vurub öldürməkdə cəsur pəhləvan.
Adı Şərvə, özü döyüşdə kamil,

Nə aslan tay idi ona, nə də fil.
Hər əldə bir qılınc - nəhəngdən nişan,
Çox nəhəng başını qoparmış aslan.
Alanlı üstünə at səyirdərək
Parlayan qılıncdan oynatdı şimşək.
Fərincə görüncə adlı igidi,
Qalxanı qanadtək çiyninə tikdi.
Şərvə bir qılıncla saldı nəfəsdən,
Çırpındı, can quşu uçdu qəfəsdən.
Eysudan bir məğrur susadı qana,
Atını od kimi çapdı meydana.
Mərdliklə çalışdı, göstərdi hünər,
Şərvəyə aslanlıq nə fayda verər?
Düşmənin heybəti qorxutdu onu,
Bir ağır zərbəyə verdi boynunu.
Cərəm adlı bir dağ Ləzgi dağından,
Əlindən zinhara gəlmiş bu cahan.
İgidin poladdan külahı vardı,
Üzündən, gözündən döyüş yağardı.
Əynində dəmirdən bir geyimi var,
Saf gümüştək yanar, civətək parlar.
Şərvəyə yanaşdı o qızmış aslan,
Gözünü açmağa vermədi aman.
Bir qılınc endirdi aslan Şərvəyə,
İgidin tozunu sovurdu göyə,
Düşməni torpaqda görüncə belə,
Beynini dağıtdı at təpiyiylə.
Boynunu çəkən çox adlı pəhləvan
Oturdu buza o soyuqqanlıdan.
Dəvalı görüncə elə bir gərdən,
Gərdən yox, meydanda gərdənlər yeyən.
İlantək qıvrıldı, istədi yaraq
Düşməni yıxmağa hazır olaraq.
Başına dəbilqə qoyaraq o şir,
Özü Çin poladı, üzü xas dəmir,
Zəhərli qılıncı boynuna saldı,
Saç kimi hörülmüş kəməndi aldı
Atını sardı bir dəmir örtüyə,
Dağ kimi atıldı tez üzəngiyə.
Düşmənin üstünə çapdı gülərək,
Məktəbdən evinə dönən çocuqtək.
Cərəm görən kimi o pəhləvanı,
Qorxdu bu döyüşdən, titrədi canı.
Çətindi o yerdən geri qayıtmaq,
Çarəsiz ölümə boyun qoyaraq,
Dəvalı səmtinə çapdı sürətlə.
Aslanla döyüşdə başladı hiylə.
Dəvalı düşmənin qıvrılmasından
Özünə örkəntək sarıldı yaman.
Ortada çox sözlər keçdi, müxtəsər,
Xeyirçün bir söz də söyləmədilər.
Dəvalı coşunca kinin selindən
Qılıncı endirdi düşmən belindən.
Şığıdı, zəhmətsiz ortadan keçdi.

O ağır qayanı ikiyə biçdi.
Bir sərxoş fil kimi qardaşı vardı,
Qanını almaqçın meydana vardı.
Aldı Dəvalıdan sağalmaz yara,
Çəkildi qardaşı yatan çadıra.
Güldü bəxt o polad arxalı dağa,
Çox ordu qıranı sərdi torpağa.
Codrə adlı bir rus oxudu meydan,
Südəmər ceyrandı ona hər aslan,
Qocaman gövdəli, güclü, döyüşkən,
Meydanda təklikdə bir ordu yenən.
Boynundan asmış çox igid qanını,
Çox boyun çəkənin almış canını,
Qurşaqda düyünü çox möhkəm vurdu,
At sürüb Dəvalı önündə durdu.
Qılınclar oynadı kin ilə dolu,
Bağlandı ayağın qaçacaq yolu.
Sınanmış igidlər çox döyüşdülər,
Burulan qılınclar etmədi əsər.
Rus kəskin qılıncı qaldırdı sağa,
Burdu birdən-birə o polad dağa.
Yardı dəbilqəni, keçdi gözünə,
Vücudu qərq oldu qan dənizinə.
Aldığı yaradan çox süst göründü,
Cilovu qaparaq geriyə döndü.
Başını bağladı, boşaldı yəhər,
O baş sınmasından sındı İskəndər.
Həkimə əmr etdi çatsın haraya,
Sağaldan bir dərman qoysun yaraya.
Çox şəfqət göstərsin köməyə gedən,
Dəvalı sağalsın o xəstəlikdən.
Gecə öz başına örtük çəkəndə
Ay başından düşdü müşkin kəməndə.
Hər iki tərəfdə durdu qaravul,
Orduya milçək də tapmadı bir yol.
Elə ki, ucaltdı günəş boynunu,
Zülmətdən yudu bu çərxin donunu,
Bir daha səsləndi qızmış aslanlar,
Çölü ceyranlara etdilər məzar.
Ətrafa səs saldı zəng, boru, cərəs,
Qan coşur kərənay aldıqca nəfəs.
Fəryada gəldikcə şeypur ilə kus,
Açılır qırmızı güldən Səndərus.
Yenidən meydana çıxdı o Codrə,
Özündə görmədi süstlük bir zərrə.
Qara aslan kimi atını təkrar
Meydanda oynatdı Hindi namidar.
Codrəyə üstünlük göstərdi hər an,
Dəyərsiz yaralar vermədi ziyan,
Nəhayət, qaşına bir düyün aldı,
Codrənin başını yəhərə saldı.
Kam aldı vurmaqla düşmən boynunu,
Atının nalına tapşırdı onu.
Meydanda dolaşdı o igid aslan,
Bir çox pəhləvandan boşaldı meydan.
Vardı bir pəhləvan, adı da Tartus,
Mərdliklə tanırdı onu hər bir rus.
Sanki qıvrılırdı qırmızı ilan,
Qarşıya kim çıxsa alar ondan can.
Hindiyə kükrədi kəskin yel kimi,
Dağlardan tökülən coşqun sel kimi.
Düşmənlə o qanlı toqquşmalarda
Mərdliklə heç biri qalmadı darda.
Nəhayət, rus birdən keçdi həmləyə,
Hindinin tozunu sovurdu göyə.
Qanını canından çəkdi birbaşa,
Axıtdı mey, camı çaldı bir daşa.
Atdı dəbilqəni, bağırdı: "Mənəm
Qorxunc bir əjdaha, aslan yenənəm!
Kim mənə qaş çatsa qürur edərək,
Geyim yox, kəfənə bürünsün gərək.
Mənə Tartus adı vermişdir anam.
Rusların Rüstəmi sayılır bu nam.
Ordunu ayaqdan salmasam, inan,
Dönmərəm geri bu qanlı meydandan."
Hindinin ölümü şaha dəyərək,
Qıvrıldı özünə gəlin zülfütək.
Atını meydana çapmaqdı fikri,
Yenə də əzmindən tez döndü geri.
Mənalı nəzərlə süzdü sağ-solu.
Kim açar ordudan intiqam qolu?
Meydana at saldı igid bir nəfər,
Çinli qılıncından çaxdı şimşəklər.
Coşğun aslan kimi bir uca atlı,
Hünərli, ürəkli, şərəfli, adlı,
Dəmirə batmışdı başdan-ayağa,
Tək ağzı görünür nəfəs almağa.
Dolaşır meydanı baş ucaldaraq,
Oynayan qılıncı şimşəktək parlaq.
Ondakı cəldliyi düşmən görəli
Qaşının üstündə qurudu əli.
Ruslardan meydana səyirtdi bir at,
Qılınc oynatmağa açdı qol-qanad.
O kəskin qılıncla elə bərk vurdu,
Düşmənin kəlləsi ətəkdə durdu.
Ondan ürəkli bir atlı pəhləvan
Erkək aslan kimi oxudu meydan,
Onun da başını yedi bir yara,
Bir bəla kəsildi bir çox başlara.
Qırx nəfər o qaya arxalı rusdan
Asanca öldürdü döyüşçü aslan.
Hər səmtə dönürdü atı ahəstə,
Rusdan yüzü ölər, yüzü də xəstə.
Hər yana edirdi həmlə bir kərə,
Ruslardan bir ordu sərirdi yerə.
Gördülər nizəsi susamış qana,
Qorxudan çıxmadı kimsə meydana.
Zəfərli bir həmlə edərək axdı,





Yüyəni yelcilov ata buraxdı.
Dağ kimi hər səmtə düşürdü gözü,
Yüzü yara alır, öldürdü yüzü,
İskəndər heyrətlə öydü igidi:
"Bu qola, qılınca eşq olsun!" dedi.
Hünərlə döyüşür, düşməyir dara,
Alov yağdırırdı o tikanlara.
Müşk, ənbər səpincə yerə qaranlıq
O igid meydandan qayıtdı artıq.
Günəşi örtüncə dağların qaşı,
Yuxuya gedərkən gündüzün başı,
Qara əjdahatək qaranlıq gecə
Başını balıqdan aya çəkincə,
Zülmətlər yolçunun yolunu tutdu,
O qara əjdaha ayı da uddu.
Atlı əl çəkmədi çalıb çapmaqdan,
Rahatlıqçın döndü geri pəhləvan.
Qaranlıq içində oldu tez nəhan,
Olmadı onu bir görən, tanıyan.
İskəndər o atlı, qoçaq igidi
Bir aslan ürəkli aslan zənn etdi.
Deyirdi: "Doğrudan bu ər oğlu ər
Döyüşdə mərdliklə göstərdi hünər.
Görsəydim üzünü, igidliyinə
Verərdim yüz başı bağlı xəzinə.
Bir bəla kəsildi bu düşmən xalqa,
Mənə öz qolumtək oldu bir arxa.
Coşğun bir aslandı, deyildi insan,
O igid aslana eşq olsun hər an!"
Firuzə rəngli tağ ertəsi günü
Dağ-daşdan ucaltdı yaqut güzgünü.
Alanlı bir atlı döndü aslana,
Qara əjdahatək girdi meydana.
Əlində yetmiş zor igidin gürzü,
Kökündən ayırır qoca Əlbürzü.
Mərd kimi dolaşıb başlar yanırdı,
Fələyin qəlbindən toz qoparırdı.
İran, Rum və Çinin igidlərindən
Çox kişi öldürdü o nər döyüşkən.
Yenə o rus qıran adlı pəhləvan,
At çapdı meydana o qızmış aslan.
Yayına xam göndən bir giriş vurdu,
Ox aldı əlinə, yayını qurdu.
Yay tutan qolunun gücüylə oxdan
Alanlı pəhləvan təslim etdi can.
Sanki bir məkikdir hind qamışından,
İçindən ox dəyib keçmiş bir zaman.
Bir pişik gözlü rus alnında qırış,
Acığı aslantək qaşına yığmış.
Döyüşdə tanışdı ona hər yaraq,
Zirehə yüz yerdən vurmuşdu yamaq.
Durdu həm qılınc, həm at oynatmağa.
Polada batmışdı başdan-ayağa.
Meydanda döyüşü sanırdı asan,
Atını yüklədi hər bir silahdan.
Ürəyi daşdan da möhkəmdi, əlbət,
Bilmədi döyüşdə var necə dəhşət.
Silaha təklikdə alışmışdı bu,
Düşmən qılıncından duymamış qorxu.
Əjdaha ürəkli salınca nəfəs,
Aciz bir ov gördü, çıxarmadı səs.
Gördü ki, üstündə çox yarağı var,
Özündən, atından xoşdur çul, paltar.
Başını qılıncla oynatdı yerdə,
Çulundan üzünə çəkdi bir pərdə.
Başqa rus kin ilə at oynatdıqca,
Torpağa sərildi qılınc atdıqca.
Başqa rus yanaşdı kəskin polada,
Onlara dəyəndən dəydi buna da.
Yayından şığıyan hər kəskin oxdan
Yan verdi yerə bir igid pəhləvan.
O atlı qəhrəman düz on ox atdı,
On igid qəhrəman torpaqda yatdı.
Yenə də görünməz oldu gözlərə,
Qayıtdı igidlər oturan yerə.
Neçə gün o igid hərbə yanaşdı,
Örtülü çıxaraq, açıq savaşdı.
Qalmadı kimsədə cəsarət, hünər,
Döyüşdə onunla dursun bərabər.
Can, qılınc qorxusu çatdı bir yerə,
Az qaldı dağılsın onlar çöllərə.
Namusa dalaraq etdilər səbir,
Hiyləyə uyaraq tökdülər tədbir.
Bir gün bu qoca çərx dövran edərkən,
Bir gövhər çıxardı qır dənizindən.
Meydan bəzənərək səflər düzəldi,
Hər yandan bir igid nərəsi gəldi.
Gurladı çanlar rus ordugahından,
Qalxdı qışqırıqlar göyə hər yandan.
Mərkəzdə ruslar da ordu çəkərək
Səfləri bəzədi gözəl gəlintək.
Atıldı bir köhnə kürklü döyüşkən,
Sanki bir nəhəngdir çıxdı dənizdən.
Piyada, bir parça dağdı gövdəsi,
Beş yüz atlıdan da çoxdu hərbəsi.
Qocaman, qüvvətli pəncəsi vardı,
Almazı sıxsaydı tez yumşalardı.
Div kimi qan iyi duymuş, qaniçən,
Fırlanmış cəhənnəm dəhlizlərindən.
Ayağında onun boyuna uyar
Həm qalın, həm uzun bir zənciri var.
Sanasan kükrəmiş vəhşi bir aslan,
Kəskin səs-küy ilə dolmuşdu meydan.
O güclü ayağı hər yerə vurur,
Zərbindən açılır dərin bir çuxur.
Dəmirdən əyribaş toppuzu vardı,
Dağların başını dağa dayardı.
Hər yana cumdu bu dəmir toppuzla,

Çox igid öldürdü, sərdi sağ-sola.
O qalın bədənin kobudluğundan
Canı kir bağlamış, qartmaqdır hər yan.
Döyüşmək qəsdiylə girsə meydana
Nə qılınc, nə toppuz kar edər ona.
Belə bir əjdaha atıldı birdən.
Firiştə öldürən, o insan yeyən.
Sanki bir qarınca tutur görüncə,
Qoparır başını o aslanpəncə.
Başqa bir işi yox başlarkən savaş.
Bədəndən gah ayaq qoparır, gah baş.
Tutunca qarşıya çıxan yağını
Qırır gah belini, gah ayağını.
Qocaman gövdəli cəsur bir atlı,
Döyüşdə sınanmış bir yel qanadlı
At sürdü, meydanda ucaltsın boyun,
O qızğın atəşlə oynasın oyun.
Görüncə bu nəhəng onu uzaqdan.
Tutmaqla yırtmağı çəkmədi bir an.
Meydana başqa bir pəhləvan çıxdı,
Bir anda onu da atından yıxdı.
Böyləcə əl atar-atmaz çomağa
Bir neçə igidi sərdi torpağa.
Çox ürək yardı o yırtıcı aslan,
Ən cəsur mərdlərin bağrı oldu qan.
Hər ağıl sahibi edərdi heyrət:
Nə insan, nə divdi o zorba xilqət!
Gündüzə səs vurdu qaranlıq gecə
Al günəş başını yerə dikincə.
İskəndər bu işə çox heyrət etdi,
Məclisdə qapalı məsləhət etdi:
"Bəladır bu insan öldürən qoçaq,
Onunla döyüşə acizdir bu xalq.
Silahsız bu adam qarşı gəlirkən,
Silahlı igidlər qaçır önündən.
Nəsilcə, şübhəsiz, bu insan deyil,
Olsa da, bu abad torpaqdan deyil,
Virana yerdəndir, vəhşi xilqəti,
İnsana bənzəyir yalnız surəti."
Orduda tapıldı onu tanıyan,
Baş əydi, təmkinlə dedi: "Hökmüran!
Madam ki, əmr edir adil padişah,
Şahı o vəhşidən eyləyim agah.
Bir dağ var, zülmətə yaxındır qolu,
Tük kimi incədir gedilən yolu.
O yerdə yaşar bu xilqətdə insan,
Tərkibi torpaqdan, gücü poladdan.
Onların əslini doğru bilən yox,
Əslindən, irqindən xəbər verən yox.
Hamısı göygözdür, qırmızıyanaq,
Aslandan da qorxmaz bu acıqlı xalq.
Çox dayanıqlıdır, güclüdür onlar,
Meydanda biri bir ordu dağıdar.
Erkəyi, dişisi dolsa hiddətə,

Dünyanı çevirir bir qiyamətə.
Silahda, döyüşdə sınaqlan var,
Savaşdan başqa şey tanımaz bunlar.
Görməmiş onlardan ölən, bir nəfər,
Arabir görünür yalnız dirilər.
Bunların sərvəti qoyundur ancaq,
Hər zaman qoyunla keçinir bu xalq.
Yunladır bunların ticarətləri,
Yoxdur bundan başqa bir sərvətləri.
Kimsədə tapılmaz xəzinə, sərvət,
Bunların var-yoxu samurdur, əlbət.
Ən incə, dəyərli, qara samurlar
Ancaq bu ölkədən, bu yerdən çıxar.
Hər qadın, erkəyin alnında geniş
Kərgədan kimi bir buynuz göyərmiş.
Bunların buynuzu olmasa, inan,
Surətcə seçilməz bu çirkin rusdan.
Baş, sima, təbiət, biçimsiz peykər,
Baxdıqca ən çirkin xoruza bənzər.
Kim yatmaq istərsə - gənc olsun, qoca,
Qonar şahin kimi uca ağaca.
Buynuzu bənd edər qalın budağa,
Div kimi tərpənməz, başlar yatmağa.
Yaxından budağa baxdığın zaman
Asılmış əjdaha görərsən ordan.
Yorğun da olsalar yatmazlar əsla,
Çünki yatmaq ziyan verər ağıla.
O yerə arabir gəlirkən ruslar
Ağacdan asılmış o divə baxar.
Bu yığnaq özünü o divdən gizlər,
Ona yanaşmağın yolunu izlər.
Onu bir kəndirlə salarlar bəndə,
Boynunu çəkərlər dəmir kəməndə.
Möhkəm bağlayınca zənciri, bağı,
Onu əlli nəfər çəkər aşağı.
Əsir olduğundan tutunca xəbər,
Dönər ildırıma, nərildər, kükrər.
Dartınıb qırarsa zənciri, bağı,
Əlindən qurtulmaz onun bir yağı.
Bir ziyan verməsə möhkəm bağına,
Gətirərlər onu rus torpağına.
Açılmaz o qalın zəncir boynundan,
Gəzdirib çox qazanc alırlar ondan.
Onu gəzdirərlər kəndlərdə ev-ev,
Onlara çox sərvət qazanır bu dev.
Ruslarla bir dava düşdüyü zaman
Bu canlı fil ilə qızışar meydan.
Zəncirə çəkilər güclü əjdaha,
Boynundan zənciri açmazlar daha.
Belə od meydana çıxsa, qorxudan
Üzlərdə rəng qalmaz, bədənlərdə can.
İskəndər o bəla haqqında daldı,
Bu dastan beyninə bir atəş saldı.
Dedi: "Bu iş məni qorxudan deyil,





Ox çubuqları bir ormandan deyil.
Bu uca taleyim mənə olsa yar,
O divin başı da nizəmdə oynar."
Şəfəq gün doğandan çıxarınca baş
Qaranlıq Məğribdə gizləndi yavaş.
Şərq şahı orduya verdi yaraşıq,
Ancaq div haqqında fikri qarışıq.
Sağ qolda dayandı rumlu, bərbəri,
Tutmuş Yəcuc kimi sədd-İskəndəri.
Dar gözlü çinlilər solu almışdı,
Onların gücündən yer daralmışdı.
Ordunun qəlbində igid İskəndər,
Atı da altında bir dağa bənzər.
O yanda rus ilə Bərtas və Alan
Hanı atlar kimi coşurdu hər an.
Təbillər zənglərlə olmuş həmahəng,
Borular gurlayır məhşər surutək.
Dağ yaran nağara etdikcə fəryad,
Simurğ Qaf dağında salırdı qanad.
Coşduqca şeypurun, neyin naləsi
Tanrıya ucaldı sığıntı səsi.
Çarpışan ordular deyirdi: - Görək
Kimə öz taleyi olacaq kömək?
Yenə də divüzlü, o qızmış aslan
Fil kimi kükrədi, oxudu meydan.
Bir neçə igidi öldürdü yenə,
Bir kimsə çıxmadı onun önünə.
Yenə o zirehli, igid döyüşkən
Şah qərargahının bir tərəfindən
Qılınc oynadaraq hərbə yanaşdı,
Günəşin çeşməsi ondan qamaşdı.
İskəndər tanıdı o mərd igidi:
"Keçən gün vuruşan aslandır" dedi.
İgidin haqqında düşdü təşvişə,
O, əjdaha ilə çıxmış döyüşə.
Dedi: "Çox heyf olsun, belə qəhrəman
Bir divin əlində düşsün ayaqdan."
O igid adlı, o kəskin cilovlu,
O odlara girmiş qəlbi alovlu
Göy yerin başına dolandığıtək
Divin ətrafında dolandı fələk.
Birinci tədbirdə o mətin qaya
Kəskin ox yağdırdı qəlbiqaraya.
Gördü div oxlardan duymayır qorxu,
Oxatan oxundan acığa doldu.
Bir almaz biçimli polad kərpici
Çarpdı o nəhəngə, çatdıqca gücü.
Kərpici dəvəyə çarpsaydı, inan,
Çalatı çıxardı o biri yandan.
Canını sıxdı div öz kürəyilə,
Kərpici əzdi o bərk cəmdəyilə.
Bir polad kərpic də atdı yenidən.
Onu da rədd etdi o qalın bədən.
Üçüncü kərpic də qırıldı belə,

Alınmaz çayların önü kərpiclə.
Bildi ki, dəmirdən yoğrulmuş insan
Qorxmayır kərpicdən, qorxmayır oxdan.
Alovlu nəhəngi çəkdi qınından,
Əjdaha üstünə cumdu pəhləvan.
Çiynindən vurunca sarsıtdı onu,
Zənn etdi zalımın yetişdi sonu
Çıxdı tez altından yenə Əhrimən.
Davaya sarıldı iki döyüşkən.
Açıldı, kəsdi div bəxtin yolunu,
Haçabaş dəmirlə bərk tutdu onu,
Yəhərdən qaldırdı o qızmış aslan,
Dəbilqə torpağa düşdü başından.
Niqabın altından doğdu bir bahar,
Lalə yarpağından incə, gülruxsar.
O gözəl başını kəsmək istərkən,
Görüb gül üzünü utandı düşmən.
Gördü ətəyinə düşmüş hörüklər,
Saçını boynuna sardı o dilbər.
Hind oğrusu kimi çaldı xəzinə,
Rumdan çalıb verdi rusun əlinə.
O div əl tapınca pəri dilbərə,
Rusun divlərindən qopdu bir nərə.
Çünki rast gəlmişdi gözəl ceyrana,
Yenə də başladı ceyran ovuna.
Sıxıldı kədərli işdən İskəndər,
İlantək qıvrıldı qəlbində kədər.
Şah dedi: "O qara fili filiban
Coşdursun, kin ilə qızışsın meydan!"
Filban nərə vurdu o qara filə,
Sürdü div üstünə, döndərdi Nilə.
O filayaqlıya vurdu çox zərbə,
O odlu qarura girişdi hərbə,
Nə dağa qarurə edirdi əsər,
Nə nizə dənizə verirdi xətər.
Görüncə o sərxoş fili əjdaha,
Əlini uzatdı filə bir daha,
Bilirdi: döyüşdə sınanmış fillər
Ancaq xortumundan tutsan yenilər.
Xortumu elə bərk tutdu div insan,
Filə bu şən dünya kəsildi zindan.
Xortumu kökündən qoparıb atdı,
Uca fil dağ kimi palçığa batdı.
Bu qorxunc oyundan qorxdu İskəndər,
Qorxdu ki, bu işdən məhv olsun əskər.
Dedi fərzanəyə gözündə hiddət:
"Məndən üz çevirdi bu bəxt, bu dövlət!
Bəxtim üz döndərmiş, bax bu gedişə,
Bilsəydim girməzdim qorxulu işə.
Ucalar göylərin uğursuz əli,
Nazdan məhrum edər bir çox gözəli.
Şah gətir-götürü sürər az zaman,
Hər ildə bir kərə qızışar aslan.
Dinclik yox, çapmaqdan yoruldu atım,

Beləcə keçəcək bütün həyatım...
Vaziri tədbirlə verdi çox ürək,
Dedi: "Ey şəhriyar, səbr etmək gərək!
Zəfərlə olarsan yenə bəxtiyar,
Sənin həm tədbirin, həm qılıncın var.
Çarəmiz bağlansa qara daşlara,
O daşdan qılıncla taparıq çara.
Elə ki, taleyin qucaqlar səni,
Salarsan bəndə yüz belə fitnəni.
Sənin bir tükünün, şanlı hökmüran,
Dəyəri artıqdır bütün ordudan.
Belədir ulduzlar göstərən əsrar:
Elə ki, düşmənlə şah hərbə başlar,
Bəxtinin gücüylə bu gücü insan
Şiddətlə torpağa verəcəkdir yan.
Doğrudur, bu qaya gövdəli yağı
Vücudca qabadır, bərkdir ayağı.
Gövdəsi tunc kimi olsa da qatı,
Sarsıtmaq olur bu canlı poladı.
Ona kar etməyən qılıncı unut!
Dəmirlə dağılmaz göydəki bulud.
Hünərlə başını gətir kəməndə,
Sal kəmənd altında zəncirlə bəndə.
Ona ox və qılınc etməyirsə kar,
Çünki bərk arxası, qalın gönü var,
O divi zəncirlə edərsən əsir,
Yoxsa bu qılınc, ox etməz bir təsir."
Bu böyük müjdədən uca padişah
Şükr etdi, tanrıya apardı pənah.
Tanrıdan görüncə səadət, kömək,
Atıldı atına, oldu bir şimşək.
Onu Çin xaqanı vermişdi Çində,
Doğmuş böyük Çinin göy tövləsində.
Bir kəmənd istədi, atının başı
Çevrildi o qaraürəyə qarşı.
Saldırdı o qorxunc divə İskəndər,
Necə ki, dağlara bir bulud çökər.
O nəhəng yerindən qımıldanmadı,
Qolunu bağladı İskəndər adı.
Düşməni bağlayan kəməndi birdən,
Çarxi-çənbəritək atdı filibədən.
Boynundan salınca bəndə yağını,
Yer öpdü padşahın mərd ayağını,
Boynundan kəməndə keçincə düşmən,
Div tutan İskəndər vermədi aman.
Kəməndlə aşağı çəkdi boynunu,
Ordugaha doğru sürüdü onu.
O div ceyran kimi yerdə süründü,
Tazı qarşısında ceyrana döndü.
Elə ki, qüvvətli o vəhşi maral
Düşməkdən, qalxmaqdan əzildi, dərhal
Padşahın ordusu qopardı nərə,
Yüksəldi səsləri uca göylərə.
Təbillər gurladı, o coşğun səsə,

Uyaraq, yer-göy də başladı rəqsə:
Elə ki, İskəndər bəxtin gücüylə
Divqılıq insanı gətirdi ələ,
Oturtdu düşmənlər oturan yerə,
Qoşdu zindanında yatan divlərə,
O igid padşahın bu qüvvətindən
Ürkərək, qorxuya düşmüşdü düşmən.
Rus şahı Qıntal bir yumşaq mum oldu,
Rum şahı İskəndər nəşəyə doldu.
Yenidən başlandı məclis çalğısı,
Açıldı dünyaya şənlik qapısı.
Dinlərkən çalğını o məclis boyu,
Qədəhdə qaldırdı gül rəngli suyu.
Andıqca talein səadətindən
O gülgün şərabı içirdi şən-şən.
Gecə göy qıfılı xəznəyə vurdu,
Müşkü kafur çəkən tərəzi qurdu.
O müşkin badəni içir hökmüran,
Mütrüb o pərdədən çalardı hər an.
İçirdi ərinmiş ləli qədəhlə,
Dinlərdi o yeni ləli fərəhlə.
İçdikcə ürəkdən silindi kədər,
İstəyən kimsəyə saçardı gövhər.
Məclisdə hər yandan qissə dinlərkən
Bir çox şey soruşdu hər bir qissədən.
Yenidən söz açdı ulu hökmüran
Atı yel qanadlı qılınc vurandan:
"Bilmirəm, onu bu div gövdəli şir
Öldürdü, yoxsa ki, götürdü əsir.-
Qalırsa, bəndini tez qırmaq gərək,
Nizənin gücüylə qurtarmaq gərək!
Getmişsə, getmişi olmaz unutmaq,
Onu bir qədəhlə gəl xatırlayaq!"
İçkidən beynində qan alovlandı,
O zindan xalqına ürəyi yandı.
Əmr etdi o dilsiz əsiri yenə
Alsınlar padşahın şən məclisinə.
Padşahın əmriylə o bağlı nəhəng
Məclisdə dikəldi uca bir dağtək.
İskəndər gücüylə vücudu əzgin
Məclisdə göründü solğun və qəmgin.
O dilsiz ağrıdan yaman inlədi,
Əz dilsiz tövrüylə şəfa dilədi.
O vəhşi divgövdə inləyincə zar
Dilsizə acıdı uca tacidar.
Yerindən əmr etdi o divlər yenən
Zənciri açdılar divin əlindən.
Buraxdı başına onu hökmüran,
Bu azad etməkdən görmədi ziyan.
Əz böyüklüyüylə onu oturtdu,
Yedirtdi, içirtdi, hörmətli tutdu.
Bir neçə qədəhlə onu yar etdi,
Meylə öz qəlbini aşikar etdi.
Kəlləsi qızınca sərxoş çağında,





Kölgətək süründü taxt ayağında.
Kimsəyə isinməz vəhşi qəbilə
Ona dost olanı tanıdı belə.
Tələsik dişarı çıxdı məclisdən,
Gücünün olmadı tozunu görən.
İskəndər heyrətlə düşdü təşvişə,
Hər kəsdən bir fikir sordu bu işə.
Şərabdan olunca bunun könlü xoş.
Nə üçün məclisdən çıxdı bu sərxoş?!
Dövlət böyükləri qaldılar heyran,
Hər biri bir fikir eylədi bəyan.
Birisi dedi: "Bu vəhşidir hələ,
Zənciri açınca üz qoydu çölə."
O biri dedi: "Mey edincə əsər,
Buradan çıxınca evinə gedər."
İskəndər məclisdə gizlin, ya açıq
Söylənən sözlərə dinmədi artıq.
Düşündü, fələyə əyərək boyun,
Gecə pərdəsindən doğar nə oyun?
O qədər keçmədi, o fil gövdəli
Girdi əllərində bir gəlin beli.
Şahın qarşısında qoydu şəfqətlə.
Diz çökdü, torpağı öpdü hörmətlə.
Gətirdi belə bir gözəl şikarı.
Yenə də məclisdən çıxdı dişarı.
Bu işdən heyrətə düşdü hökmüran,
Gördü yar belinə sanılmış ilan.
Padşahdan utandı o nazlı mələk,
Çəkdi ətəyini üzə duvaqtək.
Görüncə o parlaq ayı padişah,
Əmr etdi: yadlardan boşalsın dərgah.
İskəndər çadırı xəlvət edərkən,
Əliylə niqabı çəkdi üzündən.
Gördü bir afətdir xəyaldan uzaq,
Bir nur qaynağıdır günəşdən parlaq.
Bir pərləndamdır olduqca incə,
Pəritək əlinə keçmiş bu gecə.
Cəhənnəm görmüş bir əndamı gümüş,
Malikdən qaçaraq cənnətə düşmüş.
Sərvtək yaşıldır başı hər zaman.
Qızılgül rəngini borc almış ondan.
Atdıqca o qəmzə oxunu təkrar,
Bir neçə ruhları edirdi şikar.
Dodağı bazara salır fitnələr,
Üstünə tökülmüş xalvarla şəkər.
Açılmış səməndir onun qucağı,
Güllərə örnəkdi dilbər yanağı.
İskəndər elə bir ayı gördükdə,
Önündə canlandı sanki bütkədə.
O azad qamətli kəniz önündə
Özünü gördü ən aciz bir bəndə.
Kəniz ki, ağalar qul olur ona,
Bax, necə ürəklər düşər toruna!
Bildi Çin hasarlı bu gözəl şikar

Xaqandan verilmiş ona yadigar.
Meydanda mərdliklər görmüşdü ondan,
İgidlər demişdi: Bu qızdır aslan!
Acındı əlindən çıxan gəlinə,
Sonra bu nə sayaq düşmüş əlinə?
- Halını aç, - dedi, - ey şəkərpara!
Dediyin dastanla könlümü ara!..
O gözəl, pərəstiş edən, sevimli,
Padşaha baş əydi, açıldı dili.
Duaya başladı: "Ucalsın baxtın,
Bar olsun dünyada bu tacın, taxtın!
Dünyaları açan cahangir sənsən,
Haqq səni yaratmış ədl ilə dindən.
Şövkətin gündüzdən daha aşikar,
Dövlətdən ürəyin daha xoşrəftar.
Səndəndir qurtuluş ümid gününə,
Günəşin işığı səndəndir yenə.
Ordular dağıdan hökmüdarlar var,
Biri qılınc vuran, biri tacidar.
Günəşsən, tək doğmuş səni ruzigar.
Həm kəskin qılıncın, həm də tacın var.
Məclisdə dünyanın hökmüranısan,
Döyüşdə zamanın pəhləvanısan!
Mən kimi torpaqda varmı o qüdrət,
Həyatın suyilə olsun həmsöhbət?
Kimdə var cəsarət dinsin hüzurda,
Zöhrə də həyadan əriyər burda.
Uğursuz qəziyyəm şərhə yaramaz,
Madam ki, deyirsən, söyləyim bir az:
Mən haman kənizəm, ey şahım, inan,
Bakirə qızlardan seçmişdir xaqan.
Dərgaha verərkən dedi: - Ey sərvər,
Bu sandıqda vardır gizlin incilər!
O sözü çox ağır göründü sənə,
Acıqlı nəzərlə baxdı şah mənə.
Pərdənin ardında oturdu səssiz,
Anmadı bir dəfə, unutdu təmiz.
Olduqca sıxıldım, padşahdan uzaq,
Davaya cəlb etdi məni sıxılmaq.
Padşahın baxtıyla o ilk döyüşdə
Hünərlər göstərdim tək bir dönüşdə.
İkinci gün yenə qopardım nərə,
Bir bələ kəsildim düşmən əsgərə.
Taleyim olmadı üçüncü gün yar,
Döyüşdə düşmənə oldum giriftar.
Nə düşmən? Kin ilə kükrəyən nəhəng!
Surətdə tanrının qəhrindən örnək.
O zalım əjdaha keçdi qanımdan,
Orduya götürdü o qorxunc insan.
İnsafsız ruslara tapşırdı məni,
Söylədi: "Gizlədin bu xəzinəni."
Yenə də durmadan meydana qaçdı,
Filləri yıxmağa kəskin qol açdı.
Elə ki, taleyin səni ucaltdı,





O divi fil kimi torpağa atdı.
Taleyin çəkincə səni zəfərə,
O gücdən ucaldı başım göylərə.
Gördüm ki, div çəkir qıvrımlı bəndin,
Bəlanı özünə çəkir kəməndin.
Sağ qılınca yenə o müdhiş əjdər,
Qıvrıldım, qəlbimi sıxdı bir kədər.
Lakin kəməndinə bu div düşərkən
Gül kimi açıldım, qurtuldum qəmdən.
Rusların dərdləndi şən könülləri,
Xeyritək saraldı qızıl gülləri.
O gecə vəhşilər başlarkən işə,
Hər yoldan keçəni saldı təşvişə.
Kəndirlə bağlandı əlim, ayağım,
Qaranlıq yer oldu mənim otağım.
Ahəngi, söhbəti xoşa gəlməyən,
Mənə bir orduydu qarovul çəkən.
Gecədən bir qədər keçdiyi zaman
Qarışıq bir səs-küy qopdu bayırdan.
İçəri bir bulud girdi qapqara,
Göydən daş yağdırdı qarovullara.
Rəqiblər o gecə çəkirkən keşik
Qorxudan hər biri aradı deşik...
Hey başdı, qoparıb çırpırdı daşa,
Yainki vurardı başqa bir başa.
Bədəndən o qədər qoparmışdı baş,
Başlardan qurmuşdu uca bir dağ, daş.
Yerimdən quş kimi qaldırdı haman,
Açdı zəncirləri əl-ayağımdan.
Taxtının yanında qoyuldum yerə,
Başımı qaldırdı yerdən göylərə.
Zindanda dustaqdım bir xəzinətək,
Bu gündən gərəkdir şən həyat sürmək.
Bəzəklə gözəldir qadın ayağı,
Qadına yaraşmaz zindan otağı.
Bax, belə düşünür coşğun ürəyim,
Yuxumda görünür bu şən diləyim."
Pəri qız halını şaha söylərkən
Padişah gül kimi açıldı birdən.
Bir öpüş aldı o gül dodağından.
Qul kimi söylədi ona hökmüran:
"Ey tozsuz, şən çiçək, ey gözəl dilbər!
Tanrı sevgisinə bürünmüş peykər!
Eşqinə əzm etdim səni görəli,
Ey məclis bəzəyi, meydan gözəli!
Meydanda səni bir can alan gördüm,
Ürəkli, güclü bir pəhləvan gördüm.
Səsin də gözəldir sənin özüntək,
Bu iki hünərdə tək yarandın, tək!
Qalx, mənəm hərifin, çal, ey canlı saz.
Könlümü sazınla şənləndir bir az!"
Sazını zövq ilə çaldı o pəri,
Mizrabla oynatdı incə telləri.
Ən yeni bir mahnı başladı şən-şən.

Oxudu pəhləvan nəğmələrindən:
"Padşahım, sərvərim, tacım, şövkətim!
Ey ağıl mədəni, ağıl dövlətim!
Gənc başın olsun hər töhmətdən uzaq,
Saf qəlbin görünsün çeşmədən parlaq.
Taleyin gənc olsun, fikrin bəxtiyar,
Dünyanı fəth edən güclü tacidar!
Vücudun dinciyə əzm etsin sənin,
Pak olsun çirkabdan, kirdən ətəyin!
Hər yerə üz tutsan yaxşı-yamandan,
Arxan ağlın olsun, kömək yaradan!
Elə ol, ulduzun kamınca dönsün,
Adına baş əysin dünya büsbütün!"
Sonra öz sirrini açmağa durdu,
Sazında ona bir işarə vurdu:
"Ən gözəl bir ağac girdi bir bağa,
Çöhrəsi döndü bir işıq - çırağa.
Bostanda açmamış qönçə bir çiçək,
Çəməndə yuxulu nərgiztək qəşəng.
Qədəhlə al meydir, kimsə içməmiş,
Təzə bir incidir, ələ keçməmiş.
Umardı şikardan dönər tacidar,
O qönçə çiçəyi edər bəxtiyar.
Ağ bahar qırmızı, təzə gül dərər,
Gah bidmüşk, gah qızıl bir lalə görər.
Girməyə şah fürsət tapmadı bağa,
Bir nəzər salmadı işıq - çırağa.
Ah, neçin belə gül, belə şən bahar
Gülməsin, soldursun onu xəzanlar?
Qorxuram, bu xəzan girsə bu bağa,
Belə bir baharı sərsin torpağa!"
Yar səsi duyunca o poladbədən
Bir aşiq naləsi qopdu qəlbindən.
Çalğısı, xoş səsi edərkən əsər,
Onun gül üzündən verirdi xəbər:
"Qızıl üz, incə söz, nə dilbərdir bu?
Haramın olmasın belə arizu!"
Nüktəni duyunca şanlı döyüşkən
Oldu o istəkdən dilək istəyən.
Düşməni yenməyi aldı nəzərə,
İstəkdən əl çəkdi, sığındı səbrə.
Mey tələb etməyi münasib gördü.
Mənzilə bununla azıq götürdü.
Qədəhi mey ilə doldurdu yenə,
İçdi o gülüzlü qızın eşqinə.
Bir cam da xoş içim yaqutla silə,
"İç" deyə, verdi o dodağı gülə.
Qədəhi dodağa götürdü mələk.
Öpərək qaytardı, aldı öpərək.
Bir əli qədəhdə dilbər görəli,
Zülfüylə oynardı o biri əli.
Gah öpüş vurardı cam dodağına,
Gah dişlək o gülün xam dodağına.
Nəşəli məclis ki, kədərdən boşdur,

Acı mey və şirin noğulla xoşdur.
Aldılar badəni gülgün dodağa.
Girdilər nəhayət isti yatağa.
"O diləк evindən uzaq ol, uzaq!"
Deyərək, öpüşə uydular ancaq!

## İSKƏNDƏRİN RUSLARI MƏĞLUB ETMƏSİ

Saqi, ver o müşkin şərabdan bir an,
Qandan rəng vermişdir o meyə dehqan.
Mənə ver, əlimə düşəndə çünki
Mənə də rəng verir şərabın rəngi.
Səhərin ordusu ələm çəkincə,
Gecənin hərfinə qələm çəkincə,
Dünyanı parladan günəş nurundan
Sövda qucağında ayıldı cahan.
Bağırdı dan quşu kəskin ötərək,
Sərsəm nur, dəli div, şeytan görəntək.
Şah qalxdı yuxudan azacıq küskün,
Könlünün qəmini sildi büsbütün.
İbadət evində düşdü səcdəyə,
Şükr etdi, yalvardı: "Ey tanrı!" deyə.
Uca pənahından dilək istədi,
Ondan gah qüdrət, gah kömək istədi.
Üzünü torpağa sürtdü bir qədər,
Zirehi çirmədi, bağladı kəmər.
Taxtı fil üstündə oldu bərqərar,
Parladı fərsaxlar boyu qılınclar.
Keçən günlər kimi yenə İskəndər
Ordunu bəzədi, düzüldü əsgər.
O geniş çöllərdə böyük tacidar
Ordudan dağ kimi çəkdi bir hasar.
Bərkitdi hasarın sağ-sol qolunu,
Poladla tozun da kəsdi yolunu.
Qürurla ruslar da o biri yandan
Ordunu sazladı, bəzəndi meydan.
Rusların canları kinlə gurlayır,
İntiqam odundan beyin qaynayır.
Nizənin, qılıncın şimşəklərindən,
Başdan ağıl çıxır, əllərdən yüyən.
Dağların beynini süpürmüş yaylar,
Ordular üstündə oxlar vıyıldar.
Baş, boyun qoparan polad toppuzdan
Beyinlər tökülür qanlı ağızdan.
Fil yıxan mızraqlar dolunca kinə
Donunu çərx atdı Nilin küpünə.
O çibin qanadlı incə qılınclar
Qartal qanadını qüvvətdən salar.
Çevrilmiş tas kimi iti süngülər
Qotazın üstünə bir tas qan tökər.
Atların dımağı əqiqdi qandan,
Yəhəraltılar da qandan al-əlvan.
Nizələr qalxana ulduzlar düzər,
Qalxandan qalxana düşər kölgələr.
Dəmir, kərpic qırmış o qədər insan,
Yer üzü kəsilmiş bir məzarıstan.
Baş üzən, leş, cəmdək yeyən qılınclar
Çölləri qan ilə etmiş laləzar.
Nizələr döşləri tikmiş iynətək,
Oxlardan öyrənmiş qayçı işlətmək.
Hər qılınc əjdaha kimi başını
Qınından çıxarıb, çatır qaşını.
Yollarda o qədər tökülmüşdü can,
Məhşər bazarına dönmüşdü meydan.
Ruslar hər tərəfdə göstərir hiddət,
Rumların başına açır qiyamət.
Soxulmuş rum ilə rus bir birinə,
Bənzər ağ, qırmızı donlu gəlinə.
İskəndər meydanda qızmış aslandı,
O əli silahlı bir pəhləvandı.
Meydanda bağırır necə bir aslan,
Zirehli fil necə oxuyur meydan.
Şah haman fil ilə aslana bənzər,
Filin də, şirin də yolunu kəsər.
Hər qılınc tutana vurunca nərə,
Başını qılıncla salırdı yerə.
Əbbasi çətritək örtərək qara,
Bərtasın tasını vurdu daşlara.
Üzəngi və qılınc gücüylə hər an
Saysız baş qopardı sağdan və soldan
Nə özü tərpənir yerdən, nə əsgər,
Vuruşur taleyi gülənə qədər.
Bəlinas parlayan üstürlab ilə
Çalışır xoş tale keçirsin ələ.
Olunca uğurlu iqbal aşikar,
Şah qılıncı oldu dünyaya açar.
Dedi: "Dur, taleyin sənədir kömək,
Bu qanlı meydanda sənindi dilək!"
Nil kimi axdı şah öz sol-sağına,
Başları fırlatdı fil ayağına.
Ağzını açaraq odlu əjdaha,
Ruslara şah basqın etdi bir daha.
Padşaha üz verdi səadət, zəfər,
Əzdilər Qıntalı, üstün gəldilər.
Bu son şanlı zəfər gəlincə ələ
Düşməni oynatdı bir həmlə ilə.
Qaçmağa başladı basılan yağı,
Dünya İskəndərə verdi şahlığı.
Filbədən əl atdı uzun kəməndə,
Qıntalın başını keçirdi bəndə.
Ruslardan kin ilə tökdülər çox qan,
Çox oldu tutulan, ölən, asılan.
Çox can, baş itirən qırmızı ruslar
Qırmızı rəngini itirdi naçar.
Ruslardan, Bərtasın aslanlarından
Əsir düşdü yüz min qılınc oynadan.
Qalanlar yem oldu ac qılınclara.





Fitnəyə ölümdən başqa yox çara.
Soyulmuş, talanmış azca bir miqdar
Salamat qurtarıb geri qaçdılar.
O qədər qənimət aldı İskəndər,
Olmadı sayını bilən bir nəfər.
Həddsiz qızıl, gümüş, xəz, inci, gövhər,
Tövlələr dolusu canlı dəvələr.
İskəndər düşmənə çalınca zəfər,
İşləri oldu şux lövhədən dilbər.
Endi öz atından "zəfərdir" deyə,
Bildi ki, qovuşmuş bütün diləyə.
Üz sürtdü torpağa, dedi: Ey rəhbər!
Mən qara torpağam, səndəndir zəfər!"
Dedi: "Haqq vermiş bu böyük zəfəri",
Yoxsula payladı xəzinələri.
Dünya boşalınca kinli düşmandan,
Dincəlmək fikrinə düşdü hökmüran.

## NÜŞABƏNİN XİLAS EDİLMƏSİ

Qalx, saqi, saf gövhər saçan camından
Mənim tərkibimə gövhər saç bir an!
Onunla islansın quru can tası,
Gövhərlə silinsin gövhərin pası.
Elə ki, Feyləqus oğlu İskəndər
Dincəldi, üzünə gülüncə zəfər,
O yerdə aradı eylə bir məkan,
Oturan kəslərə verməsin ziyan.
Ağacı tubadan olsun sevimli,
Süsəndən sərt olsun otunun dili.
Axan saf çeşmələr versin səs-səsə,
İçimi mey kimi, mey halal isə.
Ətəyi yamyaşıl, ox ormanlığı,
Hər yandan bürümüş budaq budağı.
Bu suda, havada pərvəriş edən
Hər ağac uzundu əlli arşından.
Belə yer keçincə ələ, tacidar
Tutdu bu mübarək bucaqda qərar.
Qurdu Rum büsatı şən əməllərlə,
Şənliyə başladı şux gözəllərlə.
Məclisdə şahlarla doldu dörd yanı,
Nəşəylə qaynadı məclisin canı.
Əmr etdi: "Qənimət saxlayan ərlər
Qarətin sayından versinlər xəbər!
Rus, Bərtas və başqa xalqdan alınan
Silsilə dağ kimi xəzinə, saman.
Katiblər hesaba etsinlər diqqət,
Öyrənsin nə qədər vardır qənimət".
Qənimət çəkənlər durmadı daha,
Qədərsiz qənimət çəkdi dərgaha.
Açıldı hər başı bağlı xəzinə,
Baxdıqca fərəhdən çırpındı sinə.
Yüklərdə o qədər daş, gövhər vardı,
Sayı yox, sayanlar hey yanılardı.
Saf mədən qızılı, civə gümüşü,
Məhtabı işıqdan salır görüşü.
Batmanla zəbərcəd, xalvarla gövhər,
Qızıl qalxan, nəhəng donlu zirehlər.
Xüsusi toxunmuş mitqal və kətan,
Silsilə dağ kimi qalanmış hər yan.
Zər ilə işlənmiş qədərsiz paltar,
Ulduztək parlayan saysız qalxanlar.
Qılınc, tülkü dəri dağ kimi durur,
Saya gəlməyirdi zil qara samur.
Saf qaqum o qədər yüklənmiş, görcək,
Nə saymaq mümkündür, nə də söyləmək.
Al tülkü dərisi, sincablar parlaq,
Hələ nal görməmiş bir ilxı daylaq.
Saf vaşaq dəridən məclis olur şən,
Gündüzə xal düşmüş qara gecədən.
Bunlardan başqa çox xəzinə, saman,
Ürək sıxılırdı onu saymaqdan.
Padişah baxınca o dərilərə
Bir cənnət baharı gəldi nəzərə.
Onları tanıdı bir-bir hökmüdar,
Hər mətah nə kimi işə yarayar.
Gördü parça-parça sincabla samur,
Eləcə üst-üstə tökülmüş durur.
Ən başda asılmış bir köhnə dəri,
O qədər köhnədir getmiş tükləri.
Nəzərdən keçirdi o dəriləri,
Bilmədi nədir o asılmış dəri.
Sordu ki: "Bu köhnə dərilər nədir?
Nə kimi bəzəyə bunlar əl verir?"
Çox incə bir cavab verdi rus ona:
"Gördüyün mətahlar borcludur buna!
Dəriyə xor baxma, "köhnədir" deyə,
Dəyərli sərvətdir bizim ölkəyə.
Zahirdə çirkinsə bu köhnə dəri,
Bizcə hər dəridən çoxdur dəyəri.
Hər bir dəri yığan çıxsa bazara,
Bazarda bu tüksüz dəridir para.
Sabit deyilsə də bu sim ilə zər,
Çünki dövran onu tez-tez dəyişər.
Bizim sikkəmizdir bu köhnə dəri.
Tük qədər əksilməz bunun dəyəri".
Bu işə çox heyrət etdi tacidar,
Bu əmrə, bax, necə boyun qoydular.
Vəzirə söylədi: "Hər bir dövlətin
Qolunu siyasət etmişdir mətin.
Bax, nələr yaradır xalq siyasəti.
Dəriyə verir bir qızıl qiyməti.
Bu yerdə gördüyüm bütün şeylərdən
Yalnız mən bu işə deyərəm əhsən.
Bu xalqda olmasa belə bir gövhər.
Bu yerdə bir şəxsə kim boyun əyər?
Hər kim etməmişsə bir hünər izhar,
Yalnız bu hünərlə rus şahlıq qurar."

Vurulunca başa qənimət günü
Yerinə yetirdi haqqın şükrünü.
Tanrının şükrünü edincə tamam,
Məclisi bəzədi, ələ aldı cam.
Xoş nəğmə, dadlı mey edincə əsər
O bahar buludu yağdırdı gövhər.
Ordunun çalışan böyüklərinə
Xalvarla dağıtdı ipək, xəzinə.
Qızıl paylamaqdan daşdı var, dövlət,
Hamıya yenidən payladı xələt.
Orduda qalmadı kəcavə çəkən
Məfrəşi olmasın xaradan, zərdən.
İstədi o dili bağlı kişini,
Zənciri açılmış çöllü vəhşini.
O dağ, daş dolanan çöllü yetişdi,
Şahın qarşısında səcdəyə düşdü.
Heyrətlə süzdü şah başdan-ayağa,
Başını oynatdı o mətin dağa.
Verdi çox hədiyyə o canavara,
Dəyərli çox daş-qaş, gümüş, zər, xara.
Rədd etdi ki, belə sərvət, xəzinə,
Ey şahim, nə gərək bu çöl əhlinə?
Bir qoyun başını atdı oduntək,
Göstərdi ki, mənə bu qoyun gərək!
Padişah əmr etdi: yeməli olan,
Çöllərdə bəslənmiş kök qoyunlardan
Bir sürü verdilər, aldı o kişi,
Padşaha təşəkkür edərək vəhşi
O böyük sürünü önünə saldı,
Sevinclər içində evə yol aldı.
Qəlbaçan, quşların oynağı olan
Bu yeri bəyəndi böyük hökmüran.
Dünyada alırdı çalğı, meylə kam,
Çərx ona baş əyib verirdi salam.
Şərabdan o sərxoş olduğu zaman
Üzü rəng alırdı gül rəngli sudan.
Rusların şahını çağırtdı bir də,
Oturtdu onu ən layiqli yerdə.
Zənciri açdırdı o uca şövkət,
Verdi saf qızıldan toxunmuş xələt.
Ürəkdən bir bəndə oldu padşaha,
Öz keçmiş kinini unutdu daha.
Zindandan buraxdı bütün əsiri,
Xələtlə ucaltdı, açdı zənciri.
Ruslara əmr etdi: "Gəlsin Nüşabə!"
Onsuz əl vurmadı gülgün şərabə.
Padşahın əmrinə tələsdi ruslar,
Günəşin yanında ay tutdu qərar.
Gəldilər zülümdən solmuş gözəllər,
Bəyənmiş olduğu bir dəstə dilbər.
Nüşabə bəzəndi şux geyimlərlə,
Döndü ilk baharda açılan gülə.
İskəndər talandan saçdı xəzinə,
Təzədən bir gəlin bəzədi yenə.

Kamınca mey içdi bir neçə gecə,
Bəxtiyarlıq günü sona yetincə,
Verdi Dəvalıya qızın əlini,
Nigahla bağladı ona gəlini.
Bu mübarək ayin yetincə başa
Verdi çox xəzinə, tutdu daş-qaşa.
Şövkətlə göndərdi yenə Bərdəyə,
O gözəl ölkəni ucaltsın deyə.
Ölkəni təmirə sərvət, mal verdi,
Yol xərci bir yana, çox cəlal verdi.
Elə ki, işlərə verdi intizam,
Etdi igidlərə böyük ehtiram.
Verdi rus şahına yenidən tuğ, tac,
Ancaq əmr eylədi: göndərsin xərac.
Öz doğma yurduna dönüncə ruslar,
Qıntal öz taxtında oldu bəxtiyar.
Bir daha çıxmadı onun əmrindən,
Hər zaman yad etdi şərab içərkən,
O yaşıl çəməndə hər gün tacidar
Gah şənlik qurur, gah edirdi şikar.
Uca sərv altında çalğı səsiylə,
Qədəh qaldırırdı ney naləsilə.
Könlü şad olduqca çox şənlənirdi,
O coşğun ürəyi fərəhlənirdi.
Padşahlıq, şən tale, ömür, qönçə gül,
Neçin şad olmasın belə bir könül?!

## İSKƏNDƏRİN ÇİNLİ KƏNİZLƏ ŞƏNLİK ETMƏSİ

Saqi, ol xəyallı şərab ilə dur,
Kəhrəba rəngli bu saxsını doldur!
Bu qara torpaqdan süzülən gövhər
Şənlətsin qəlbimi, qalmasın kədər!
Gündüzdən daha şux, parlaq bir gecə!
Günəşdən aydındı, işıq və incə!
Bu yaşıl künbədin şənliklərindən
Şən, zümrüd körpələr doğurur çəmən.
Əsrarlı ulduzlar dönmüş çırağa,
Ağ gümüşdən rəqəm yazmış torpağa.
Bu qorxunc hərfləri bilən, oxuyan,
Tutarmı bu sonsuz köhüldə məkan?
Dünyada çalışmaq boş şeydir, ancaq
Ruzini səy ilə olmaz artırmaq.
Kədərə dəyməz bu dünya, şən keçin!
Kim deyər bu saray tikildi qəmçin?
Şənlikçin yaranmış dünya, bunu bil!
O zillət, fəlakət ocağı deyil!
Bu zəhmətli yerdə çox tutma qərar,
Bu dibsiz quyudan yükünü çıxar.
Ver şənlik meyini, can qurban ona!
İçək, həm də verək başqalarına.
Gün keçdi, sabah da gəlməmiş ələ,
Yalnız bu gecəni şən keçir hələ.





Bu gecə keyf ilə ömür sürərik,
Sabahın işini sabah görərik.
Hələ qəm çəkilməz xəzəl gəlməmiş,
Məzara girilməz əcəl gəlməmiş.
Yalnız şənlik gərək, nuş edərkən mey,
Şərab məclisində yox başqa bir şey!
Özünü zillətdə tutmaq nə gərək!
İl boyu qəm, kədər udmaq nə gərək!
Girmə bu dünyanın kəc qapısından,
Heçlikdən bir fayda görərmi insan?
Fil ayaq altına bizi almadan
Dur köçək bu yurddan, yeriyir karvan!
Gəl yeyək var-yoxu özgə yemədən!
Zövq alaq başqası qarət etmədən.
Elə bir qazanclı maya al ələ,
Köçürkən keçmişlər almış özüylə.
Qorx sən bu bac alan, yol vuranlardan,
Yolda var-yoxunu edərlər talan.
Yoxsula ver nəyin varsa, çox, ya az,
Yoxsul daxmasını kimsə aramaz.
Görmürsən, bac verən bu dövlətlilər
Yoxsul dəhlizindən qaparaq verər.
Eşq olsun ən doğru düşünən mərdə,
Varına yer verdi xərabələrdə!
Bir günlük tarixi vardır bu çərxin,
Yüz illik xəznəni gizlətmək neçin?
Gəl, otur üz-üzə, edək şadlıq biz.
Edək bir gecəlik Keyqubadlıq biz!
Gəl, otur, ömürdən bu gün kam alaq.
Dünəni, sabahı xatırlamayaq!
Çəkinək faydası olmayan şeydən,
Bu işdən heç məmnun deyil düşüncən.
Əlində nə qədər var isə imkan,
Çalış ki, şən keçsin hər nəfəs, hər an.
Qəlbimiz hər zaman şən olmalıdır,
Kin, təmah bədənə ataş nalıdır.
Ömrə sərmayədir aldığın nəfəs,
Kədərə tapşırmaq əbəsdir, əbəs!
Şənliklə səslənsin çıxan nəfəslər!
Şən nəfəs almasan, sərmayən gedər.
Barı ver, könlünü şənləndir ancaq,
Ucuzdur bir heçə bir könül almaq.
Sərvətçin kar olma, dönmə sərt daşa!
Sərvətin olmasın, ancaq sən yaşa!
Bərk tutma dünyanı, etsən bir nəzər,
Bərk tutmaq ölümə çətinlik verər.
Bu dünya malına uyma çox, zinhar,
Hər sadə keçinən asudə yaşar.
Sevimli bir saat, uğurlu gecə,
Onda şən keçirmək olur könülcə.
İskəndər dövrünün yaqutlarından
Belə nəql eləyir tarixi yazan:
Tacidar o gecə qəlbində fərəh
Gül dodaq eşqinə doldurdu qədəh.

O camı qaldırdı gül dodağına,
Cam da bir qul kimi baş əydi ona.
Oturmuş bir cavan sərv ağacıtək,
Gah lalə tökür, gah ərğəvan çiçək.
Müşkin gül üstünə yazılmış bir xətt.
Gülə gül suyuyla çərx vermiş zinət.
Həm düşmən fəthindən könül çox şəndi,
Həm də dostlarıyla evi gülşəndi.
Çağırtdı gül üzlü o dilaramı,
O mələk simalı nazik əndamı.
Bir saz, bir oxuyub çalandı həmdəm.
Çadırda qalmadı daha naməhrəm.
Min bir istək ilə istənmiş diləк,
Başına, üzünə vurmuş yüz bəzək.
Al nar danəsindən dodağı dilbər,
Dili al nabatdan daha şirin, tər.
Gözləri gül, ağzı o qədər dardı,
Biri saz, o biri könül çalardı.
Araqçın altından o müşkin tellər
Kəmənddir asılmış ətəyə qədər.
Məclisə yaraşıq verən, oxuyan,
Şahın əlindədir çalan hər zaman.
İskəndər əmriylə aldı sazını,
Gövhər xəznəsinin açdı ağzını:
"Bu gecə dünyamız yenidir, şəndir,
Hər şənlik İskəndər dövlətindəndir.
Xoş olur gül, çiçək çağı ruzigar,
Hər tərəf gülümsər gülərkən bahar.
Qalxdıqca al günəş od kimi yanır,
İşıqlı dünyadan nur dalğalanır.
Toxuyur, əsərkən səhər küləyi,
Yer rumi, göy isə Şüştər ipəyi.
Al qızıl güllərlə şənlənincə bağ
Yanar hər qönçədən bağda yüz çıraq.
Şah qoymuş dünyaya zəfərlə təməl,
Güzgü pas altında görünməz gözəl.
Keyxosrov əldə cam tutduğu zaman
Taxtınız qalmasın boş belə camdan!
İskəndər Cəmşiddən olmuşsa yüksək,
Gül üzüm günəşə üstündür gerçək.
Şah qızıl çəkməli Firidunsa, mən
"Gavə bayrağıyam", onu fəth edən.
Taclı Keyqubadsa uca İskəndər,
Mənim tacım isə müşküdür, ənbər!
Firuzə taclısan, Keykavus isən,
Məndən taxt tələb et fil sümüyündən.
Şah Süleyman kimi div salsa bəndə,
Çox Məcnun çöllərə salmışam mən də.
İskəndər ki, bütün dünyanı tutdu,
Könlümsə o dünya tutanı tutdu.
Şahın dünya tutan uca kəməndi
Ay, Günəş boynuna salırsa bəndi,
Zülfümdən bir kəmənd eşərəm ona,
Qorxmadan ataram şahın boynuna.

Padşahın aytutan bir kəməndi var,
Mənim də kəməndim şahları tutar.
Kəskin ox atırsa uca hökmüdar,
Məndə də ox atan min naz, qəmzə var.
Qılıncla gülgün qan tökürsə salar,
Mənim gül üzümdən al qan damcılar.
Qılınc oynatmağa şah versə qərar,
Mənim də qılıncdan kəskin dilim var.
Şah toppuz qaldırsa qulaq ucuna,
İki zülfüm də bir toppuzdur mana.
Atından tək bir tuğ asmış hökmüran,
Mən on tuğ asmışam ağ buxağımdan.
Şahda bir qutu var, içi ləldir,
Mənim də qutumda var ləl ilə dürr.
İskəndər yaqutu mədəndir ancaq,
Al, canlı yaqutdur məndəki dodaq.
Əflakə münəccim olmuş İskəndər,
Mənim keşiyimi ulduzlar çəkər.
O başı üstündə ucaltmış sancaq,
Qapımda yüksəlmiş yüz elə bayraq.
Aləmə şah isə o sərvərliklə,
Gözəllər şahıyam canpərvərliklə.
Üzümdən örtümü atdığım zaman
Yalnız bir telimə dəyməz bu cahan.
Ay üzdə yer versəm müşkin tellərə,
Ayı bir telimlə çəkərəm yerə.
Bu əqiq dodaqdan şəkər tökərkən,
Rəhiq mey çəkərəm incə püstədən.
Rəhiqim suyu da rəqsə gətirər,
Əqiqim yuxuya bir nəşə verər.
Göydən tuğ istəsən, buxağımdan al!
Şəkərdən duz umsan, dodağımdan al!
Dodağım şəkərdir, gülüşü şəkər,
Bu gülgün yaqutun öpüşü şəkər.
Öpüşün qapısı bununla belə,
Bağlanmış Səmərqənd çubuqlarıyla[253].
Tutaq ki, kimiya daşı zər edir,
Nəfəsim torpağı müşk, ənbər edir.
Süheyl edən kimi gönlərə əsər,
Nəfəsim nəsimə o ətri verər.
Bir gözlə edərəm könülləri qan,
O biri gözümlə alaram yüz can.
Bu yandan ovlaram gəlsəm üz-üzə,
O yandan ataram daşqın dənizə.
Qəmzəmlə aldadıb salaram dərdə,
Tayım yox, mahirəm belə işlərdə.
Üzümü rahiblər görsə, nur deyə,
Dindar hirbüd kimi düşər səcdəyə.
Zahidin ürəyi qara daş isə,
Sazımın səsiylə gətirrəm rəqsə
Bu gümüş əndamla gümüş saçaraq
Xəzinə qıfılını açmaram ancaq.
Baxçamın qapısı deyil aşikar,
Ancaq bağban bilir hardadır açar.

Tər-təzə yetişmiş xurmalarım var,
Tək quru tikanı görər başqalar.
Elə bir gülabam, kədər verərəm,
Məndən duz umana ciyər verərəm.
Gecə türk üzümü görmüşmü, nədir?
Xalımtək mənə bir hindli bəndədir.
Yeni ay bir hilal kimi doğaraq,
Vüsalım fikriylə boşaltmış otaq.
Tellərim, başlasa rəqsə, yox çara,
Kəkliyin ayağı düşəcək tora.
Üzüm zülf altından olsa aşikar,
Çəməndə güllərin ağzı sulanar.
Birçəyim qıvrılsa bu çəmən boyu,
Kəməndə salaram o parlaq suyu.
Lətif bədənimi etsəm aşikar,
Ağ badam içinin budları sınar.
Ağ gümüş biləyim görünən zaman
Yasəmən tər tökər utandığından.
Dodağım şəkərə dadımlıq verər,
Qulaqda halqalı bir quldur gövhər!
Ağzım ki, çəkişdi Müştəri ilə,
Üzüyü qazanan keçirdi ələ.
Mənimlə bir cınaq çəksə gül, çiçək,
"Apardım" sözünü unutsun gərək[254].
Gözümdən Babilə bir əfsun çatdı,
Ondan, bax, nə qədər cadu yaratdı!
Çinə bircə telim getdi ərməğan,
Müşk oldu ahunun göbəyində qan.
Zülfü qulağımda edərsəm çənbər,
Üst-üstə tökülür bayğın könüllər.
Bu sərxoş gözlərin naz, qəmzəsilə
Yüz əldən getmişi gətirrəm ələ.
Çox qaçqın könüllər ovladım hər an.
Onlara quyudur, bax, bu zənəxdan.
Aşiqə bir tellə verərəm tuğ tac.
Ətrimlə Xülləxdən alaram xərac.
Möhrümü vuraram Çin xaqanına,
Beş növbət salaram Rumu talana.
Bu müşkin xalımla çinli bağrıyam,
Falca Rum qəlbinin şən çırağıyam[255].
Yuxulu çağımda verərəm məzə,
Qanını tökərəm edərkən qəmzə.
Dodağım rəng verir hər gülgün lələ,
Üzümün xəyalı oynar günəşlə.
Müğ mənə "sənəmdir" deyə yalmanır,
Cənnətin bir sənəmxanəsi sanır.
Mənim nar döşlərim görünən zaman
Narların ürəyi soyudu bağdan.
Döşlərim dikəlmiş təzə narınctək,
Hansı bir bəxtiyar onu dərəcək?
Uğurlu ağacam, iki narım var,
Bir güləm, pərdədə gözəl barım var.
Tufanla qopsa da dünya təməldən,
Bəxtiyar şah olsun, bir mey, bir də mən!





Bir dastan işlətmək istərəm ona,
Almaq öz sazımtək öz qucağıma.
Bir öpüş vurum gah məst gözlərinə,
Gah qara zülfümü verim əlinə.
Bu şərtlə canımda eyləsin məkan,
Başımı çəkməyim ayaqlarından.
O günəş eşqindən sərxoş olaraq,
Məhşərdə yuxudan ayılım ancaq.
O hansı çeşmədir ömrü uzadan?
O hansı kölgədir gənclik oyadan?
Vəslimdir şən, uzun bir həyat verən,
Mən gənclik verərəm qəmzə edərkən.
İskəndər dirilik suyuçun gedir,
Mən varkən zülmətə o neçin gedir?
Axtarmaq istəsən zülmət yolunu,
Qara zülfüm sənə göstərir onu.
Yaqut rəngli sudan istəsən içmək,
Dirilik suyunu ələ keçirmək.
Parlaq bir yaqutdur bu gül dodaqlar,
Həyat suyu kimi yüz çeşməsi var.
Şahım, ram ol mənə, çox sərkəş olma!
Bu həyat suyuna, gəl, ataş olma!
Pəriyəm, ipəklər içində gizlin,
Qapını bağlama sevirsə qəlbin!
Üzünə açıqdır qapım hər zaman!
Məni sındırsan da, sınmasın peyman!
Ürəkdən daş asmaq bitməzmi daha?
Gözələ xor baxmaq yetməzmi daha?!
Olma daş ürəkli, sevirəm səni!
Kölən bil, gözəl bil, qulun bil məni!
Mən fələk olmaqla sənin yarınam,
Çindənəm, sənin mən, bil, qəmxarınam.
Deyiləm kölgədə yetişən bir gül.
Günəşi kölgədə saxlamaq müşkül!
Mən kimi meyvəni qapatma evə,
Dad verməz kölgədə yetişən meyvə.
Mənəm ən ətirli, sevimli reyhan,
Reyhan olmalıdır evdə hər zaman.
Burax bu kəkliyi ovlasın tərlan!
Gəl, çəkin ov güdən bu qartallardan!
Ağacın xurması yetişmiş ikən
Başqası yeyəcək onu, dərməsən.
Mən kimi kim sənin dərdini çəkər?
Dərdini çəkərək səpərəm şəkər.
Ürəklər qan oldu qan içməyimdən,
Boynumda nə qədər qan qalmış, bilsən?
Çox şəkər dodağa oxudum meydan,
Dodağım şirindir şəkərburadan.
Həm səsim, həm özüm əzəldən gözəl,
O gözəl, bu gözəl, gözəldən gözəl.
Saqisi mən olsam, mey olmaz haram,
Canım işrət saçar bir mütrüb olsam.
Çalğımla hər kəsi sərxoş edərəm,
Sonra hər sərxoşu öldürər qəmzəm.

Uzaqdan edərəm şux dilbərliklər,
Qucaqda edərəm canpərvərliklər.
Qarşımdan gözlərə sevinc salanam,
Qucağa çəkdikcə könül çalanam.
Mən olam, saz ola, bir də köhnə mey,
Aşiqin taqəti qalırmı? Hey, hey!..
Sən kimi şəhriyar olsa mənə yar,
Bu könül şənlikdən başqa nə arar?
Dövrandan kim almış mənim kimi kam?
"Dünyada tapılmaz" olmuş mənə nam!.."
Elə ki, sazına vurdu son mizrab,
Təsnifi bitirdi dodağı ənnab.
Şahın məhəbbəti o sözdən coşdu,
Sanki tərlan fərə üstünə qoşdu.
O bahar turacı naz ilə, şən-şən.
Turunctək soyuldu qızıl beşikdən.
Könül getdi əldən, sərapərdə boş,
Sevimli məşuqə sevdadan sərxoş,
Xəlvət bir gecədə elə bir mələk,
Mümkünmüdür ona könül verməmək?!
Gənc, gözəl maralı yıxdı nər aslan,
Qarət məclisində başladı talan.
Sığındı o laçın sona ovuna,
Günəşsə getdi ay qonaqlığına.
Şəkərtək əmirdi hey dodağını,
Sorurdu şəkərli ney dodağını.
Bağrına basdı o gül köküslünü,
Xəzinə ağzından açdı möhrünü.
Bakirə şərabı laləzar gördü,
Qapalı bağçada alma, nar gördü.
Əqiq möhr üstünü basmamışdı pas,
Saf üzük qaşını deşməmiş almas[256].
Bir qönçə güldür, yox üstündə tikan,
Görməmiş bağbandan başqa bir insan.
O qızğın atəşin artıqlığından
Damardan fışqırmaq istəyirdi qan.
Şəkərli dil ilə söhbət açdılar,
Yağ, bala dönərək qucaqlaşdılar.
Sanıdı iki sərv, iki gülpeykər,
Qatdılar badama, yağa qənd, şəkər,
Əyildi "əlif-lam" kimi cift ayaq.
İki hərf kimi bir cinsdən olaraq,
Elə ki, almaz o gövhəri dəldi,
Həm almaz yatdı, həm gövhər dincəldi.
Həyat çeşməsində məsud İskəndər
Şənliklə keçirdi bəxtiyar günlər.
İşrətlə keçirdi bir neçə gecə,
Çıxmadı o yerdən, daldı sevincə.

### İSKƏNDƏRİN DİRİLİK SUYU AXTARMASI

Saqi, gəl, qədəhi doldur mey ilə,
Al ələ nəğməylə, çalğı, ney ilə!
Bir mey ki, içənlər fikrincə, demək,

Xəstəyə şəfadır, dərdliyə kömək.
Ucalırkən səhər xoruzun səsi,
Qarovul zənginin susdu naləsi.
Təbilçi təblinin səsi ucaldı,
Quşların nəğməsi ətrafı aldı.
İbadət edənlər qalxdı yuxudan,
Pərəstiş etməyə düzüldü hər yan.
O səhər yuxudan qalxdı tacidar,
İbadət etməyə verərək qərar,
Ona şəfqət edən haqqı etdi yad.
Etdi bu hikmətlə dünyanı abad.
Nəhayət verincə ibadətinə,
Şərab məclisini bəzədi yenə.
Mey ilə, çalğıyla gah olurdu şad,
Vəfalı dostları gah edirdi yad.
Gülabdan saf olan gül rəngli şərab
Hər başdan dərd alır, hər beyindən tab.
Onunla bir məclis qurdu şəndən şən,
Uzaqdı düşməndən, qanlı döyüşdən
Elə ki açıldı, uzandı söhbət,
Danışdı hərə bir gözəl rəvayət.
Biri söhbət açdı Xorasan, Qurdan,
Ordakı qızıldan, qüvvətdən, zordan,
Birisi danışdı Rey, İsfahandan,
Firidun dövləti çıxan məkandan.
Çindən, Xarəzmdən söz açdı biri:
"Var gözəl ipəyi, müşkü, ənbəri".
Birisi söylədi: "Gözəldir Qeysur,
Bu yerdən çıxar hər səndəl və kafur".
"Hindistan gözəldir, - dedi, - bir nəfər,
Odunu ud olur, palçığı ənbər".
Məclisdə var idi bir nəfər qoca
Danışmaq növbəti ona çatınca
Maraqla başladı qoca sözünü,
Baş əyib, torpağa qoydu üzünü:
"Dünyada zülmata çatmaz bir diyar,
O gözəl torpaqda suyu var.
Ömrünü artırmaz xəzinə, cəlal,
Torpaqda çox yatır xəzinə, xam mal.
Yaşamaq istəsən dünya uzunu,
Get, keçir əlinə həyat suyunu!"
Bu sözdən utandı məclis, qaldı mat,
Qaranlıq bir yerdə olurmu həyat?
Şah dedi: "Yoxsa var başqa bir hikmət?
Həyat çeşməsində olan bu zülmət.
Yazılmış hərflər qarasıdır bu,
Mənəvi həyata can verir suyu.
Kim görmüş yoxsa bu həyat suyunu,
Zülmətdə ölümdən qurtarsın onu!"
O qoca dedi: "Ey uca tacidar!
Bu sudan uzaqdır dediyin əsrar.
Var Şimal qütbündə qaranlıq bucaq,
Ağ, gümüş çeşməsi hər sudan parlaq.
Bu qaranlıq yerə deyirlər zülmat,
O zülmət içində var abi-həyat".

O suyu kim içsə olur qəlbi şən,
Qurtulur ölümdən və xəstəlikdən.
Sözümdə azacıq olsa şübhəniz,
Soruşun sınaqlı qocalardan siz!"
İskəndər bu sözə heyrət etdikcə,
Aramaq marağı artdı getdikcə.
Sordu ki: "Bu zülmat harda?" Göstərən
Göstərdi padşaha: "Bax, bu sağ əldən
Qaranlıq ölkəyə qısa yol gedir.
Gəldiyin bu yolun onda biridir."
Eşidincə bunu şah dedi: "Ancaq
Zülmətdə mümkündür işığı tapmaq."
Zülmata çevirdi şah öz yolunu,
Gedərkən nəzərə aldı ordunu.
Sürətlə bir neçə mənzil at sürdü.
Əsgərin bir çoxu xəstədir, gördü.
Ardınca axırdı bir dünya ordu.
Xaslar da yanında alay vururdu.
Ordu bazarını görən bir insan
Seçməzdi məhşərin bazarlarından.
O yerdə quş südü arayan belə,
Ordu bazarında gətirdi ələ.
Hər quraq bir yerə çatdı İskəndər.
Yağışdan yaşıla büründü çöllər.
Xızır iz salmışdı sanki bu yola,
Yainki gedirdi şahla qol-qola.
Ordu çoxluğundan şah getdi fikrə,
Belə yol getməkdə sığındı səbrə.
O çöldə vardı bir böyük mağara,
Padşahın ordusu çatınca ora.
Ordunun yanında nə qədər yük var,
Mağara yanında yerə qoydular.
O geniş çöllərdə saldılar məskən,
Şənlikdən viranə çöllər oldu şən.
Çölbəyi o yerə ad verdi: Bünğar,
Get-gedə o şəhər adlandı Bulğar.
Bu gün o ölkədə rəyasət sürən
Yerləşib qalandır şah səfərindən.
İskəndər görüncə o saysız ordu
Yol və iz bilməyir, bir tədbir qurdu.
Ordudan ayrıldı bir neçə əyyar,
İstidən, soyuqdan, çıxmış oxçular,
Ürəkli, sümüyü bərk, dəliqanlı,
Səbirli, qüvvətli, gənc, polad canlı.
Əmr etdi qocaya və xəstələrə:
Əskərlə çıxmasın ağır səfərə!
Qocalar, xəstələr bu qorxunc yerdə,
Dolaşıq yollarda düşməsin dərdə.
O yola - qocasız etdilər səfər,
Qocalar oturdu, yol aldı gənclər.
Bir nəfər o yerin ayıqlarından
Hüzura istədi ulu hökmüran.
Yox idi ordunun sayı, miqdarı,
Hər mənzil başında qoydu onları.
Şor, şirin hər azıq çarpsa nəzərə,





Yüklətdi qüvvətli, gənc dəvələrə.
Qoşunla at çapdı qaranlıq suya.
Bir naib tikdi o qalan orduya.
Onlara nəsihət elədi bir az:
"Bu yerdə qəflətlə göz yummaq olmaz!"
Atını Şimala doğru çaparaq,
Günəş gərdişindən şah düşdü uzaq.
Fələyin qütbündən doğunca işıq,
Azacıq keçmədən sönürdü artıq.
Üfüqə baş qoydu xətti-üstüva,
Qütb isə kənardan keçdi ortaya.
Bir yerə çatdılar parlaq günəşdən
Yalnız bir xəyaldı gözlə görünən.
Sürdülər kölgəlik deyilən yerə,
Saçdılar bayrağı kölgəliklərə.
Havadan işığı yer qapmış artıq,
Hər yerə hakimdi dərin qaranlıq.
Bu yandan ətrafı qaranlıq tutmuş,
O yandan yol-izi bir dəniz udmuş.
Ağlıyla bu yolu tutaraq rəhbər,
Xətti-üstüvayə qarşı getdilər.
Get-gedə pərgardan olduqca uzaq,
Günəşdən, işıqdan düşdülər iraq.
Gedərkən bir yerə çatdılar o gün,
Gözlərdən aydınlıq itdi büsbütün.
Hər yandan yolları bürüdü zülmət,
Bu dünya qaralsa verərmi ləzzət?
İskəndər şaşırdı, aradı tədbir:
"Bu yolda doğru iz göstərən kimdir?"
Bilənlər söylədi ki: "Bu qaranlıq
Pərdədir, iç-üzü görünməz artıq.
Mümkündür irəli getmək yol ilə,
Dönərkən çətindir gətirmək ələ".
Çox çarə aradı hər tədbir verən,
Olmadı buna bir tədbir göstərən.
Gecəydi o yerdə, qaranlıq diyar,
Müşkü ud yerinə etdi ixtiyar[257].
Kinindən olmuş göy dəli, zəncirli,
Zəncinin yerinə keçdi kəşmirli[258].
Getdikcə yol oldu tükdən də incə,
Zülmətdən qurulmuş qaranlıq gecə.
Hər kişi qayıtdı öz mənzilinə,
Bu işə bir tədbir düşündü yenə.
Bir igid gənc vardı, ağılca ulu,
Saf, işıq ürəyi şəfqətlə dolu.
Atası qocaydı, doxsan yaşı var,
Bədən ağrısından sızlayıb ağlar.
O gün-ki, padişah vermişdi əmr:
"Çıxmasın bu yola xəstə ilə pir!"
Gənc oğlu vurğundu xəstə ataya,
Necə ki, bir xəstə göynər almaya,
Qocanı özüylə aldı bərabər,
Necə ki, başqalar yaqutu gizlər,
Azıq sandığında gizlətdi onu,
Onunla dolaşdı zülmət yolunu.

Taleyin qoşundan küsdüyü gecə
O gənci aldı bir dərin düşüncə.
Gecəykən sandığı açdı o cavan,
Etdi atasına o sirri bəyan:
"Padişah səfərdən oldu peşiman,
Çətinlik çəkməkdən qınılmış peyman.
Qəlbinə bir qorxu salmış qaranlıq,
Bir tədbir düşünə bilməyir artıq.
Bələdçi olmadan gedir irəli,
Bilməyir nə sayaq dönəcək geri".
Oğluna baxaraq dedi ixtiyar:
"Bu qara pərdədə gizli bir sirr var.
Padişah getməyə başlarkən ora,
Zülmətdən dönməyə vardır bir çara:
Padşaha gərəkdir ilk dəfə doğan,
Vücudu sapsağlam boğaz bir madyan.
Anadan olunca o körpə daylaq
Başını bir yerdə kəssinlər, ancaq
Örtməyib qoysunlar yerdə cəmdəyi,
Anası görüncə, yansın ürəyi,
İçində qopsun bir həyəcan, hiddət,
Durmasın padişah, etsin hərəkət.
O yoldan geriyə döndüyü zaman
Ordunun önündə gedəcək madyan
Çaparaq sevimli daylağa san,
O yoldan beləcə çıxar dışarı.
O yolda bələdçi olmadan belə,
Dişarı çıxarlar bu tədbir ilə."
Qocanın sözünə o gənc uyaraq,
Kələfin başını tapdı bu sayaq.
Göylərin o müşkin ipəyi səhər
Olunca ud rəngli dibayə bənzər.
İskəndər məclislə yenə oturdu,
Getməyə hər biri bir tədbir qurdu.
O məclis nə qədər göstərdi tədbir,
Bu əsrar haqqında söylədi fikir,
Xoşuna gəlmədi ulu padşahın,
Tədbirlər kimsəyə deyildi aydın.
Öz zəif fikriylə o gənc yanaşdı,
Bələdçi haqqında şaha söz açdı.
Atası söyləyən sözləri bir-bir
Padşaha anlatdı ki, budur tədbir!
Xoş gəldi bu sözlər, yatdı könlünə,
Beynində yer etdi o dönə-dönə.
Dedi: "Ey mərd oğul, belə fikri sən
Nə sayaq oldu ki, qurdun özündən?
Bu bilgi özündən gəlməmiş ələ,
Sən kimdən öyrəndin, gəl, doğru söylə.
Bar, sərvət verərəm doğru söyləsən,
Zillətə düşərsən düz deməməkdən".
Gənc dedi: "Padşahım, mənə ver aman,
Boşalsın kəcavə bu yüklü atdan,
O gün ki, əmr etdi ulu hökmüdar,
Çıxmasın yola bir xəstə, ixtiyar,
Bir qoca atam var, bu qoca insan

Çox qulaqburması görmüş dövrandan.
Ürəyim çox yandı qoca atama,
Əmrə itaəti unutdum tamam.
Özümlə gizlincə gətirdim onu,
Pis gətirdimsə, pis olmadı sonu.
Dünən yol haqqında olan sözləri
Atama açmaqdan durmadım geri.
Onun təlimini dinlədim bir an,
Söylənən tədbiri öyrəndim ondan."
Çox incə bir nüktə söylədi, deyə,
Şah onun sözündən ucaldı göyə:
"Bilənlər padşahı olsa da yenə,
Bu gənclər möhtacdır qoca fikrinə.
Gənc budaqlarıyla oynarsa qabaq,
Başını ucaldar bir köhnə budaq.
Bilikdə birinci olsa cavanlar,
Qocalar fikrinə ehtiyacı var".
Dünya padşahı söhbətdə ikən
Qapıdan div gövdə o vəhşi birdən
İçəri girincə yanaşdı məğrur,
Padşaha göstərdi bir şələ samur.
Hər biri parlaq bir qunduzdan artıq,
Bir-birindən alır bəzək, yaraşıq.
Malına xiridar çıxdı hökmüran,
Yenə birdən-birə yox oldu ordan.
Qaranlıq içində yox oldu vəhşi,
Padşahı heyrətə saldı bu işi.
İşıqlıq göstərdi, fikri eşitdi,
Zülmətə getməyə padşah əmr etdi.
Əmr etdi: "Yelayaq bir boğaz madyan
Alsınlar, o heyvan doğduğu zaman,
Kişinin sözünə tamam uyaraq,
Alınsın, kəsilsin o körpə daylaq".
Padişahın fərmanı həyata keçdi,
O işıq çeşməyə doğru yol seçdi.

## İSKƏNDƏRİN ZÜLMƏTƏ GETMƏSİ

Saqi, bu zülmata bənzər torpağı
Araşdır, ver mənə həyat bulağı!
O parlaq su ilə mənə sal-nəzər,
Bu həyatdan daha canlı həyat ver!
Bu bahar fəslində yeni və köhnə
Tarixdən başlaram gözəl tərana.
Rəvayət eyləmiş sınaqlı dehqan:
Yazın ilk gecəsi ulu hökmüran
Zülmata getməyə əzm etdi artıq,
Fikri təskin edər hər bir qaranlıq.
Günəşi qıfıla vurunca göylər,
Qaranlıq içində doğar min gövhər.
Bu həyat suyunda kim etsə məskən,
Gərəkdir bir pərdə çəksin önündən.
Çimənlər bu duru, saf çeşmələrdə
Gərəkdir üzünə çəksin bir pərdə.
İskəndər zülmata edərkən səfər,
Söylədi: "Artıqdır bu mühüm şeylər!"
Cilovu buraxdı "zülmat" deyərək,
Əjdər quyruğunda gizləndi Aytək[259]
Söylədi o zaman böyük İskəndər,
Ona rəhbər olsun Xızır peyğəmbər.
Atı Xızra verdi böyük tacidar,
Bilirdi onda bir aslan qəlbi var.
Verdi ki, bu yolda səyirtsin onu,
Onunla tapsın bu həyat suyunu,
Çuxurlar parladan bir gövhər verdi,
Çeşmələr arayan bir rəhbər verdi.
Dedi ki: "Bu yolun hər tərəfinə
Həqiqi bir rəhbər özünsən yenə!
Cilovu hər yana istərsən burax,
Aç ağıl gözünü, ayıq ol ancaq!
O çeşmə nə yerdə olsa aşikar,
Aldatmaz səni bu gövhər, parıldar.
Uğurla iç haman uğurlu sudan,
Mənə də göstər ki, yeyəsən ehsan".
Göy gərdişli Xızır haman fərmanla
Ahəngi pozmadan üz qoydu yola.
Ordudan ayrıldı, irəli getdi,
Hər yana himmətlə bir nəzər etdi.
Su üçün dolandı bütün bucağı,
Çatmadı suya o susuz dodağı.
Əlində parladı parlayan gövhər,
Tapıldı nəhayət aranan gövhər.
Gümüş rəngli çeşmə axırdı şən-şən
Süzülən gümüştək daş göbəyindən.
Bu çeşmə tərifdən uzaqdı, uzaq.
Bir nur çeşməsiydi bu qaynar bulaq.
Bir ulduz nə sayaq olursa səhər,
O parlaq çeşmə də olur o təhər.
Hələ bədr olmadan nura dolsa ay,
Eləydi bir az da böyük olsa ay.
Qaynayır, durmayır öz mənzilində,
Sanki bir civədir iflic əlində.
O qədər parlaqdır bu lətif cövhər,
Dünyada yox ona bənzəyən gövhər.
Yox başqa gövhərdə bu nur, bu günəş,
Ona həm su demək olur, həm atəş.
Xızr həyat suyunu tapınca artıq,
Hər iki gözünə doldu bir işıq.
Aşağı enərək dərhal soyundu,
Doyunca həm çimdi, həm də yuyundu.
Doyunca içdi o həyat suyundan,
Əbədi həyata çatdı arayan.
Atına içirdi, çimdirdi onu,
Tökdü ağ qədəhə həyat suyunu.
Atının yanında oturdu bir an,
Göz götürməz oldu o aydın sudan.
İstədi gəlincə yoldan İskəndər,
Desin: "Həyat suyu budur, qıl nəzər!"
Bir daha çeşməyə göz gəzdirərkən,
Dirilik çeşməsi yox oldu gözdən.





Dərhal bu iş oldu Xızr üçün məlum,
İskəndər o sudan qalacaq məhrum.
Qorxmadı, utandı o İskəndərdən,
Xızr da su kimi itdi gözlərdən.
Söylənən sözləri rumlu ravilər
Başqa bir şəkildə rəvayət edər:
Bu yolda İlyasla Xızır yoldaşdı.
Çeşməyə gedərkən dostlar yanaşdı.
Görüşdü hər iki sevimli rəhbər,
Çeşməyə çatınca atdan endilər.
O bulaq başında açdılar süfrə,
Bulaq başı verir dad yeməklərə.
Süfrədə çörəkdən ətir qalxardı,
Duzlanmış qupquru bir balıq vardı.
Birisi əyildi su içsin deyə,
Əlindən o balıq düşdü çeşməyə.
Cumdu o firuzə rəngli bulağa,
Əl atmaq istədi üzən balığa.
Tutunca gördü ki, diridir balıq,
Uğurlu bir fala sevindi artıq.
Bildi ki, can verən bu parlaq bulaq
Aranan dirilik suyudur ancaq.
Həyat çeşməsindən içdi doyduqca.
Bir həyat qazandı dünya durduqca.
Dostuna tez xəbər verdi bu zaman.
İçdi bu əbədi həyat suyundan.
Təəccüb etmə o gümüş bulağa,
Yenidən can verdi ölü bulağa.
Təəccüb bundadır: bir ölü balıq
Dirilik suyuna yol açdı artıq.
Bu quru balıqdan, həyat suyundan
Ərəblər nəql edir başqa bir dastan:
Başqa bir yerdəymiş həyat çeşməsi,
Yol azmış məcusun, Rumun dəstəsi.
Tutaq ki, zülmatda həyat suyu var,
Yol açan içməzsə kimdir günahkar?
Xızr, İlyas kam aldı həyat suyundan,
Ancaq vermədilər özgəyə nişan.
Biri kam alaraq döndü səhraya,
Biri də içərək cumdu dəryaya.
Dənləri bir sudan içib boy atdı,
Ancaq onu iki dəyirman dartdı.
Çeşməni keçirmək fikriylə ələ
İskəndər at çapdı min zəhmət ilə.
Dirilik verən bir çeşmə dilərkən,
Çeşmədən göyərdi sulu bir çəmən.
Çeşməni ararkən qırx gün at saldı,
Onu tapmayaraq kölgədə qaldı.
Atəşmi düşmüşdü şah ürəyinə,
Uymuşdu çeşmənin xoş ahənginə.
Çeşmədən kölgə yox, gümüş nur çıxar,
Ancaq çox az olur kölgəsiz sular.
Çeşməyə lazımsa onun kölgəsi,
Neçin kölgəsizdir günəş çeşməsi?
İçməli olursa çeşmə günəşdən,
Kölgədə qalmışdır o çeşmə nədən?
Çeşmədə kölgəlik yaxşıdır tozdan,
Bunda sərinlik var, onda həyəcan.
Şah o kölgəlikdə tapmadı çara,
Gündüzü olmuşdur kölgədən qara.
Əbədi həyata ümid bəslərkən,
İndi can qayğısı çəkir hər yetən.
Padşahın ümidi söndüyü zaman
Qayıtmaq istədi gəldiyi yoldan.
Düşündü, nə tədbir eləsin ban,
Qaranlıq kölgədən çıxsın dışarı.
O yolda qarşıya çıxdı bir mələk,
Padşahın əlinə o əl çəkərək,
Dedi: "Bu dünyanı keçirdin ələ,
Belə çiy xülyadan doymadın hələ?"
Ovcuna buraxdı pul qədər bir daş,
Dedi: "Tut bu daşı canından da baş!
Bu daşlıq dünyada çalış, tök tədbir,
Bu ağırlıqda daş əlinə keçir!
Qəlbində minlərlə olsa da dilək,
Bu daşın tayıyla doyarsan, bişəkk.."
O daşı İskəndər aldı mələkdən,
Gözündə yox oldu ona daş verən.
O zülmət içində çapdı İskəndər,
Gözündə bir zülmət, könüldə kədər.
Bir hatif səsləndi ona qeybdən:
"Qisməti hər kəsə yazıdır verən!
İskəndər zülmətə doğru at çapar,
Xızır isə çeşməni işıqda tapar.
Ararkən tapmadı çeşmə İskəndər,
Xızra qismət oldu, gördü çox səmər.
Yüzü halva üçün yandırar ocaq,
Halva şirin eylər bir ağzı ancaq."
Başqa bir səs gəldi ki: "Ey əhli-Rum!
Bu gözəl ölkədə var parlayan qum.
Peşiman olacaq onu götürən,
Dizinə vuracaq heç götürməyən."
Keçirkən parlayan qumdan hər nəfər
Götürdü bəxtinə görə bir qədər.
O yerdə şah gördü çox hikmət, çox raz
Ki, ondan birini söyləmək olmaz!
İsrafildən, Surdan bir bəhs açaraq,
Demədim, məqsəddən düşməyim uzaq.
Açmış bu mədəni başqa bir şair[260],
Yenidən bir əsas qurmaq çətindir.
Əli çatmayınca həyat suyuna,
Qayıtdı şah işıq çeşmə yoluna.
İskəndər orduya verincə fərman,
İşığa döndülər zülmət yolundan.
O yeni cığırla gəldiyi yoldan
Bələdçi olmuşdur o dərdli madyan.
Qırx gün yol getdikdən sonra qaranlıq
Getdikcə çəkildi, göründü işıq.
Al günəş buluddan çıxdığı zaman
Qan-tərə batmışdı o susuzluqdan.

Qismətsiz bir şeyə göstərdi həvəs,
Qismətin deyilsə çalışma əbəs!
Ruzi arxasınca qaçmaq nə gərək!
Sən otur, ruzinin özü gələcək.
Biri toxum səpər, o biri biçər,
Bəxtiyar odur ki, bu sözü dinlər.
Hər şeyi özünçün əkmək nə yarar?
Dünyada hesabsız ruzi yeyən var!
Keçənlər zəhmətlə əkdiyi bağdan
Gələnlər meyvəni dərmiş hər zaman.
Keçənlər bir çox şey əkmişdir bizə
Biz də əkməliyik gənc nəslimizə.
Dünya bir tarladır, diqqətlə baxsaq,
Hamı bir-birinə cütçüdür ancaq.

İSKƏNDƏRİN ZÜLMƏTDƏN
ÇIXMASI

Saqi, ver ürəyə yatımlı meydən!
Ver ki, meyxoş gəlir ömür gənc ikən!
O meylə ağzımı isladım bir an,
Bəxtimi daha gənc eləyim ondan.
Oyanıq taleyi olunca rəhbər,
Zülmətdən dişarı çıxdı İskəndər.
Çox gözəl rəhbərlik eylədi madyan,
Bir az da azmadı getdiyi yoldan.
İlk gündə keçdiyi zülmət xəttinə
Pərgartək yenidən qayıtdı yenə.
Padşaha taleyi elədi kömək,
İşıqlı dünyaya çıxdı sevincək.
Cilovu parlatdı ordu səmtinə,
Ancaq çatmamışdı öz diləyinə.
Bu işdən ürəyi sınmadı ancaq,
Ruzini qismətlə mümkündür tapmaq.
Heyvan tapmadısa, kədər yox bunda,
Heyvantək ölmədi heyvan yolunda[261].
Darılma sənə üz verdikdə kədər,
Ondan da böyük bir dərddən qıl həzər!
Hər gün bu çöllərdə gəzmək çıl-çılpaq
Yaxşıdır, ya dəniz dibinə batmaq?
Doğrudur, ağrıdan hər baş incinər,
İncıməz qılınc, gürz yarası qədər.
Dünyada hər işdən çətin bir iş var,
Ürəyi möhkəmə olur zəfər yar.
Qumluqdan aldığı şeyləri ordu
Töhfədir deyərək qarşıya qoydu.
Daşların hamısı qırmızı yaqut,
Gözlərə nur verir, ürəklərə qut.
Daşdan az götürən düşmüşdü dərdə,
Heç götürməyənlər ahda, kədərdə.
Peşiman olmuşdu az götürənlər,
Odlara yanırdı götürməyənlər.
Şah oldu iki gün səfərdən aram,
Yuxudan, yeməkdən aldı intiqam.
Bir zaman padşahın əyildi başı,
Yad etdi mələyin verdiyi daşı.
Tərəzi istədi daşı çəkməyə,
Ağır daş qoydular "ölçüdür" deyə.
Batmanlardan keçdi o bir misqal daş,
Nə qədər daş qoydu misqal çıxdı baş.
Yüz kişi bir qapan çəkdi o düzə,
Girdi daş bir gözə, daşlar bir gözə.
Daş ağır gəlirdi yüz parça dağa,
Çəkənlər danıdı bu ağırlığa.
Deyirlər uzaqdan demiş Xızr: "Ancaq
Bu daşın vəznidir bir ovuc torpaq."
Bir gözə bir ovuc torpaq tökdülər,
Çəkinin gözləri oldu bərabər.
Bu incə nüktədən bildi tacidar:
Torpaqdır, onu bu torpaq doyurar[261].
Bir gün şah xaslarla taparaq fürsət,
Bir məclis bəzədi - sanasan cənnət.
Zərkəmər qulamlar taxtın ucunda,
Qızıl bir ağactək gümüş sütunda.
Dünyanın şahları bir səf çəkərək
Qarşıda diz çökmüş hamı kölgətək.
Dünya işlərindən açıldı söhbət,
Söylənən hər şivə qəlb üçün rahət.
Hər biri zülmətli çeşməni andı,
Söz sözü çəkərək, söhbət uzandı.
Qaranlıq altında su varsa, nədən,
Nə üçün tapmayır arayan, gəzən?
Zülmətdə yox isə belə bir cadu,
Nə üçün dillərdə əzbərlənmiş bu?
Bu yolda deyildi çox incə sözlər,
İşıqlandı başlar, nurlandı gözlər.
Haman məmləkətin qocalarından
Söylədi: "Bu sirri bilsin hökmüran,
Cahangir İskəndər dünya dolaşdı,
Göy kimi durmadan ölkələr aşdı,
Ümidlə aradı həyat suyunu
Ki, qorxunc ölümdən qurtarsın onu.
Bir şəhər vardır, bu ölkədə çox şən,
O abad şəhərdə tapılmaz ölən.
O şəhri uca bir dağ salmış bəndə,
Şəhr əhli o dağda düşmüş kəməndə.
O dağdan səs gəlir hey zaman-zaman,
Heyrətə düşür hər eşidən, duyan.
Oradan birini adıyla səslər:
Ey filan, yuxarı səmtə et səfər!
O səsi, fərmanı eşidən adam
Yerində bir an da tutmayır aram.
Sürətlə dağlara dırmanır dərhal.
Gedəndən nə sorsan olur dilsiz, lal.
Dağların ardında yox olur gözdən,
Yoxdur bu hikməti açan, öyrənən.
Məqsədin qurtulmaq isə ölümdən,
Ölümsüz şəhərdə eyləyin məskən!"
Bilici söyləyən sözdən İskəndər
Sarsıldı, üzünü sardı bir kədər.





Bu işçin ürəyi vurdu riqqətlə;
Fikri qət etməkçin uçdu sürətlə.
Əmr etdi, ordudan bir neçə kişi
O şəhrə gedərək, öyrənsin işi.
Qalsınlar söylənən yerdə bir qədər,
Bu işdən versinlər doğru bir xəbər.
Onlara tapşırdı: "Dağdakı səsə
Yerindən qalxmasın sizdən bir kimsə!
Lap adla, nişanla çağırsa necə
Siz bu səs-sədanı almayın vecə.
Cavabı uzatmaq yoluyla barı,
Açılsın pərdənin gizlin əsrarı".
Nəsihət alanlar baş əydi əmrə,
Gizlin bir yol ilə girdilər şəhrə.
Şəhərdə uğurla atı çapdılar,
Ən gözəl bir yerdə mənzil tapdılar.
Şəhərin haqqında bildilər xəbər,
Düz çıxdı qocanın dediyi sözlər.
Şəhərdə birinin adına dağdan
Apaçıq səs gəlir hey zaman-zaman.
Adını eşidər-eşitməz hər kəs
O dağa çıxmağa göstərir həvəs.
O qədər səbirsiz gedir yolunu,
Qılıncla qaytarmaq olmayır onu.
Gələnlər göstərdi yüz tədbir, hünər,
Pərdənin sirrini öyrənmədilər.
Seyr etdi dolanan fələk bir zaman,
Bir neçə mənzili dolaşdı dövran.
Şah adamlarıyla çərx kinə düşdü,
Birini aparmaq fikrinə düşdü.
Qeybdən gələn səs, əsrar arayan
Kişidən birini çağırdı dağdan.
Adını eşidən durmadı bir an,
Səs gələn tərəfə qaçdı durmadan.
Gedəni dostları tutdu yer-yerdən,
Dedilər: "Tələsmə, dayan, ey gedən!
Bir yolçu sövdalı olmasın gərək,
Pərdənin sirrini bəlkə öyrənək".
Gedənə o sözlər etməyir əsər,
Bağırır, dartınır, qurtulmaq istər.
Bir söz də deməyir yarasın işə,
Çərx kimi çalışır çıxsın gərdişə.
Güc ilə qurtuldu gedən sevincək,
Onlardan uzaşdı uçan çibintək.
Dostları bu işdən etdi çox heyrət,
Gedəndən hər biri aldı bir ibrət.
Bizdən ən ağıllı, həm iş bacaran,
Bax, necə ayrıldı bir sirr açmadan!
Az zaman keçincə bu hadisədən
Al günəş parladı, güldü çöl, çəmən.
O biri yoldaşa yetişdi növbət,
O da bu dağlarda yox oldu xəlvət.
Get-gedə azaldı əsrar arayan,
Olmadı o hərfi bilən bir insan.
Qorxudan şiddətlə çırpındı ürək,
Göylər də kimsəyə etmədi kömək.
Əsrardan heç biri tutmadı xəbər,
Kədərlə padşaha tərəf döndülər.
Şikayətləndilər: "Bir çoxu bizdən
Dağlara dırmandı, olmadı dönən.
Nə dağa çıxarkən bir az durardı,
Nə geri dönməyə bir ümid vardı.
Bilmədik pərdədə nəyin səsidir,
Hansı bir çalanın şən pərdəsidir.
Pərdənin yolunu bilmədik, artıq
Çarəsiz şəhərdən geri qayıtdıq.
Bizdən də apardı bir neçə insan,
Daha səs gəlmədi bir də o dağdan.
Olunca onların yolu dağ, gədik,
Biz də çöl yolunu tutaraq gəldik.
Bu çərxin işləri belədir, belə,
Biri düşmüş dağa, o biri çölə".
Söylənən əsrarı eşitdi bir-bir,
Bildi, bu yol "gedər-gəlməzə" gedir.
Dönsəydi o dağa gedənin biri,
O zaman gözəldi bu dağ səfəri.
İskəndər bu işdən eylədi heyrət:
"Öyrənən yox, nədir bu gizli hikmət?"
Bildi ki, dırmanan o dağa, daşa
Dünyada ömrünü vurmuşdur başa.
Bir məsəl çəkdi ki: "Ölər hər doğan,
Əcəl pəncəsindən kim qurtarmış can?"
Bir ov ki, bacarmaz ovçular ilə,
Məzara gedər o öz ayağıyla.
Yediyi bir oxdan hər ovçu tərlan
Düşər yer üzünə öz qanadından.

İSKƏNDƏRİN
RUMA QAYITMASI

Ey saqi, dayanma, qədəhi gətir!
Qədəhsiz şənlənmək mümkün deyildir.
Ver, bir qurtum içim, gətir kuzəni,
Əcəl pəncəsindən, gəl, qurtar məni.
Bir kirpik vurunca bu acı dövran,
Hər yerdə törədir yüz yaxşı-yaman.
Birinin başını bağlayır yerə,
Birini qaldırır uca göylərə.
Birini günbəddən salır quyuya,
Birini balıqdan ucaldır Aya.[263]
Hər anda başlayır canbaz oyunu,
Bu dünya bir heçdir, həm heçdir sonu.
Dikbaşlıq yaramaz, uyuşmaq gərək,
Dikbaş at hər zaman qırmanc yeyəcək.
Dikbaşlıq edərsə ən gözəl bir at
Misir eşşəyindən əskikdir qat-qat.
Bu dünya dünyaca görmüşdür adam,
Ürkərək kimsəyə olmamışdır ram.
Elə kimsənindir belə ruzigar,
Anlayan kəslərin işini anlar.

Rəvayət edənlər belə anladır:
Mağara yanında qurunca çadır,
Təmirə xəzinə tökdü tacidar,
Saldığı o şəhər adlandı: Bulğar.
Bulğardan keçərək ruslar elinə,
Döndərdi o mülkü şən bir gəlinə.
Oradan qayıtdı Rum dənizinə,
Yelkənlərlə çıxdı öz ölkəsinə.
Bir xəbər tutunca Rum başçıları
Axışdı müzəffər bayrağa sarı.
Hər kəs öz şahını qalib görüncə,
Şükürlər edərək daldı sevincə.
Şahın gəlməsiylə Yunan ölkəsi
Ay kimi nur saçdı, güldü çöhrəsi.
İskəndər gətirən zülmətdaşından
Yaqut rəngi aldı cəvahir satan.
Aldı o sərvətdən şəhərlər zinət,
Yerlər xəzinədən tutdu bərəkət.
Axdı hər qəsrdən cənnət sevinci,
Yerlərə tökdülər qızıl, ləl, inci.
Xəzinə ağzından qınıldı qıfıl,
Zillət qapısına vuruldu qıfıl.
Ay kimi gəldi öz bürcünə o şah,
Başında günəştək çinli bir külah.
Şah Rumdan gedərkən bənzərdi yerə,
Dönərkən sığmadı uca göylərə.
Bulud ki, göylərə su ilə gedər,
Dönərkən dənizə saf inci səpər.
Şah yunan taxtına oturdu şən-şən,
Dincəldi yolların zəhmətlərindən.
Şah yeddi ölkənin fikrindən doydu,
Hər bir məmləkətdə bir nayib qoydu.
Şahlıqlar baş əydi hər fərmanına,
Sədaqət göstərdi hər peymanına.
Şahın gəlməsiylə ucaldı onlar,
Hər kəs öz mülkünə döndü bəxtiyar.
Hər biri təklikdə şahlıq edərdi,
Başını dik tutub, asıb-kəsərdi.
Boynunu əymədi kimsə kimsəyə,
Hər biri başını ucaltdı göyə.
İskəndər adına qədəh qaldırır,
İçərkən hər biri tək onu anır.
Şah Yunan taxtına oturdu yenə,
Bəxtin açarını aldı əlinə.
Dünyaya elmlər, biliklər saçdı,
Tanrı hikmətindən qapılar açdı.
Getdi haqq əmriylə peyğəmbərliyə,
Hörmətlə baş əydi "fərmandır" deyə.
Yenidən başladı şah hazırlığa,
Dünyanı dolaşdı başdan-ayağa.
İki dəfə səfər etdi İskəndər,
Birində çöl gəzdi, birində şəhər.
Birində dolaşdı abad yerləri,
Yenə Ruma döndü Rumun sərvəri.

Birində yolsuz hər çölü, hər dağı
Keçdi ay, günəştək onun bayrağı.
Birinci məclisi bitirdim artıq,
İkinci məclisə vurdum yaraşıq.
Bu "Şərəfnamə"nin məclisində mən
Saçmışam ən incə, bakir sözlərdən.
Ona bağladığım incə incilər,
Hər dastan başında saçdığım gövhər,
Bir yerdə bir telə düzülsə bunlar,
O tel ən parlayan inciylə dolar.
Hər dastan başında mənalı sözlər,
Hikmətə dair bir başlıca dəftər,
Tarixə ən tanış o saqiləri,
Aldım iş başına hər bir rəhbəri.
Oturan göz oldu bu biliklərə,
Xəznədə keşikçi oldu gövhərə.
Belə incə nəqşi kim qura bilər?
Bu gözəl rəngləri kim vura bilər?
Sazına bağladım elə incə tel,
Olmuş hər nəğməsi Zöhrədən gözəl.
Hər yerdə bir yanlış gördüm, silərək
Toxudum ona ən doğru bir bəzək.
Doğruluq yolunu tutmayan sözlər
Aya ucalsa da qiymətdən düşər.
Hər yerdə o qoca, o sənət əri
Yanlış söyləmişdi doğru sözləri,
Yanlışa yenidən vurdum bir bəzək
O qoca şairdən üzr istəyərək[264].
Çatınca sona bu binanın nisfi,
Verildi mənə bu dünyanın nisfi.
O biri nisfini, zaman olsa yar,
Təbimlə bəzərəm elə bil gülzar.
Oxucu yuxudan qalxar bu səsə,
Balığı dənizdə gətirər rəqsə.
Zəmanə azacıq verərsə aman,
Şüurum söz verir mənə, var güman.
Bu Rumi qılıqlı, naxışlı bağda
Al güllər göyərdim sarı torpaqda.
Ən parlaq firuzə və incilərdən
Xəzinə doldurum, şaşırsın görən.
Hər bağdan bir çiçək alaraq bəhrə,
Hər güldən bir gülab axıdım nəhrə.
Padşahın taleyi edərsə kömək,
Sözlərim düzülər incə incitək.

## NÜSRƏTƏDDİN ATABƏYİN SİTAYİŞİNƏ DAİR

Saqi, ay işıqlı camı ver mana!
Padşahın taxtını öpmək adına,
Taxtımı ucaldım uca Pərvinə,
Qədəhi boşaldım şah şərəfinə.
Ölkələr fəth edən, dünya pənahlı,
Firidun kəmərli, xaqan külahlı,
Sultan Nüsrətəddin ədalətindən





Bu dünya xatırlar şərab içərkən.
Bir göydür ki, ulduz ona nur verir,
Dənizdir ki, tacı öz gövhəridir.
Dünyanı yumuş bu üçüncü dəniz,
Nəsara dinindən etmiş tərtəmiz[265].
Uca, dik başını Müştəri öpər,
Onun bir nəzəri min işıq səpər.
Təslis və tərbiə cəvahir saçan,
Nəsara dinindən etmiş tərtəmiz[266].
Mübarək bəxtindən dünya kam almış,
O köhnə şahlardan yadigar qalmış.
Ulduz baş çəksə də uca göylərə,
"Bəndənəm" deyərək baş qoyar yerə.
Dünyanı padşahlıq gücüylə hər an
Doldurmuş biliklə, silmiş qubardan.
Məclisin başında parlaq günəşdir,
Döyüşdə əjdaha yaxan atəşdir.
O qədər durudur qəlbinin gözü,
Onunla nurlanır günəşin üzü.
Qılıncı qana qəsd etdiyi zaman
Su, atəş çıxarır qara daşlardan.
Yayından buraxsa nişan oxunu,
Yerlərə bağlar o, göyün boyunu.
Firənglə Fələstin, Rum keşişləri
Verdiyi buyruqdan durmazlar geri.
Gördüm ki, güvənmiş işıqlı baxta,
Oturmuş şahanə mübarək taxta.
Əlimdə yox elə böyük hədiyyə,
Şahım, o şahanə taxta səpməyə!
İskəndər getdiyi çeşmədən də saf
Bir gövhər düzdüm ki, ondan da şəffaf.
Bitincə gövhəri aldım hüzurə,
Gövhəri hədiyyə verdim gövhərə[267].
Verdim bu gövhərin üzüyünü mən
Yeni İskəndərə o İskəndərdən.
Yaşasın padişah uca baxtıyla!
Var olsun həmişə tacü taxtıyla!
Bağçanda ötən bu-şeyda bülbülün
Səsiylə şənlənsin mübarək ömrün.
Elə tacidarsan, göylərin tacı

Tacının ucunu öpmək möhtacı.
Bu taxta tək səni bəyəndi dövlət,
Dünyada bəxtiyar bir sənsən, əlbət.
Dünyada olmamış mümkün kimsəyə
Göndərsin padşaha layiq hədiyyə.
Böyük bir dəryaya saxsı kuzədən
Bir damcı su damsa, olurmu görən?
Qara daşdan sızan damcılar, əlbət,
Dənizə yetişməz, bu bir həqiqət!
Nizami ki, quldur, bəndədir sana,
Yazdı bu naməni sənin adına.
Qarışqa, Süleyman taxtıdır, deyə,
Bir çibin qanadı verdi hədiyyə.
Tovuzun qanadı olsa da rəngin,
Baxsana səsinə - pişikdən çirkin.
Bax, kiçik bir bülbül cəh-cəh edərkən
Quşları aşağı endirər göydən.
Mən haman bülbüləm, uçdum cənnətdən,
Sənin gül bağçanda eylədim məskən.
Dövründə oxuyum elə təranə,
İllərcə yayılsın adın cahanə.
Onunçun adına yazdım bir dastan,
Qələmim qızıla batsın naxışdan.
Qəsdim fil tiynətli zər almaq deyil,
Məhmudun filinə bənzəməz bu fil.
Kimsə istəmədən sərvət verərsən,
Qədərsiz xəzinə, xələt verərsən.
Yazmaqdan olsaydı qəsdim gövhər, dürr,
Dürr, gövhər yonmaqla keçərdi ömür.
Bu işə eşqim var əzəldən, başdan,
Qızılda gözüm yox, eşqimdir cahan.
Söz demək sirrini mənə verdi haqq,
Sənə də düşüncə, qüvvət və anlaq.
Xəyala nə gəlsə artıqsan ondan,
Məmləkət alan ol, dünyanı tutan!
Bu uca fələkdən hey zaman-zaman
Başqa bir zəfərlə səadət qazan!
Dünya gənc ömrünə dadımlıq olsun,
Qismətin dünyadan qoy artıq olsun!

# İSKƏNDƏRNAMƏ

## İQBALNAMƏ

## KAMİLLİK ZİRVƏSİ

Dünya mədəniyyət tarixinin zənginliyi sonsuz bir ümmanı xatırladır. Bu sonsuz ümman insan zəkasının bəhrəsi olan nadir elm, fəlsəfə və sənət inciləri ilə dolu zəngin xəzinədir. İnsanlığın dərin ehtiram və məhəbbətlə qoruyub saxladığı və yaşatdığı bu mənəvi mədəniyyət xəzinəsində orta əsr Azərbaycan fəlsəfi poeziyasının ən görkəmli nümayəndəsi, Şərqi və Qərbi əsrlər boyu məftun etmiş Nizami Gəncəvinin insanpərvər yaradıcılığı xüsusi yer tutur.

Fəlsəfənin müxtəlif müddəalarını fövqəladə gözəl ədəbi formalarda ifadə etməkdə Şərq mədəniyyətinin bəşəriyyət qarşısında böyük xidməti var. Dahi İbn Sina Aristotelin "Poetika" əsərinə yazdığı şərhdə yunan mədəniyyətindən fərqli olaraq Şərq üçün mahiyyətcə insani olan fəlsəfi poeziyanın səciyyəviliyindən bəhs edir. Bu poeziyanın yüksək inkişaf zirvələrinə çatması Şərq mədəniyyətinin çiçəklənmə dövrünə - orta əsr Şərq intibahı dövrünə düşür. Nizami də daxil olmaqla bu dövrün dahi alim, mütəfəkkir və sənətkarları öz yaradıcılıqlarını yüksək kamala yetmiş, nəcib əxlaqi sifətlər, əql və gözəllik daşıyıcısı İnsana həsr etmişlər. "İqbalnamə"nin də əsas qəhrəmanı adı böyük hərflə yazılan İnsan obrazıdır. Bəlkə məhz buna görə Nizami belə bir qəhrəmanı sərkərdə, hökmdar və elm havadarı kimi şöhrət tapmış Makedoniyalı İskəndərin surətində verir. Poemanın əsas məqsədi isə insanın səadətinə xidmət, bu səadəti təminetmə yollarını arayıb tapmaqdır.

"İqbalnamə"də bir-biri ilə üzvi surətdə bağlı üç istiqamət, üç məqsəd izlənir: İnsan ağlının, zəkasının və bununla əlaqədar elmin, fəlsəfənin tərənnümü və təbliği; insanın yüksək əxlaqi keyfiyyətlərinin tərənnümü və təbliği; insan xoşbəxtliyini təmin edən, zülmə və bədxahlığa son qoyan ədalətin, azad, bərabər və dost insanların cəmiyyətinin tərənnümü və təbliği.

Nizami "Xəmsə"sinin özəyini təşkil edən bu üç ayrılmaz xətt "İqbalnamə"də özünün ən yüksək fəlsəfi-bədii ifadəsini tapır və poemanın müxtəlif hekayələrinin əsas məzmununu təşkil edir.

Böyük mütəfəkkirin dünyagörüşünü heç cür dövrün hakim ortodoksal dini dünyagörüşü çərçivəsilə məhdudlaşdıra bilmərik. Filosof şair dinlə əlaqədar məsələləri islam ruhaniləri mövqeyindən yox, ruhanilər tərəfindən çox vaxt kafir damğası vurulmuş məşhur Şərq filosofları Fərabi, İbn Sina, Bəhmənyar mövqeyindən işıqlandırır.

"İqbalnamə" XII əsrdə yazılıb və bu dövrdə yazılan bütün başqa əsərlər kimi o da bir sıra ithaflarla Allahın, peyğəmbərin, dövrün hökmdarlarının şəninə yazılmış mədhiyyələrlə başlayır. Lakin Nizaminin ənənə üzrə yazdığı mədhiyyələri hər şeydən əvvəl böyük mütəfəkkirin humanizmi və özünəməxsus bir səciyyə daşıyan rasionalizmi ilə fərqlənir. Məsələn, minacat (Allahı mədh) əslində ağlın mədhinə çevrilir:

Ağıl bir yerdə ki, xəzinə tapar
Allahın adını eyləyər açar,
Allah ağıllıya nəvazişkardır,
Ağılsızlara da əlacı vardır.

Şairin dövründə hökm sürən mürtəce ruhanilərin kor-koranə inamı ağla qarşı qoyaraq, elmi, fəlsəfəni və xüsusən məntiqi küfrlə eyniləşdirmələrini və bu yolun yolçularını amansız təqib etmələrini nəzərə alsaq, ağlı və elmi bu şəkildə tərənnüm edən Nizaminin bir vətəndaş kimi qorxmazlığı, mərdliyi daha çox nəzərə çarpar və onun orta əsr şəraitində təbliğ etdiyi rasionalizmin əhəmiyyətini müasirlərimiz daha düzgün qiymətləndirə bilərlər.

Nizami yaradıcılığı yüksək inkişaf pilləsinə qalxmış orta əsr Şərq və Azərbaycan mədəni intibahının məhsulu idi. Lakin nəzərə almalıyıq ki, bu İntibah kəskin, amansız siyasi və ideoloji mübarizədə qələbə çalır, onun nümayəndələri isə çox vaxt canlarından belə keçərək əqidələrini müdafiə və təbliğ edirdilər. Yeri gəlmişkən, poemanın girişində şaha ithafa nəzər salaq. Şair şahla öz bərabəri kimi danışır, şaha özünü necə aparmaq barədə məsləhət verir. Burada şahlara nəinki itaət görünmür, əksinə, onlar tənqid atəşinə tutulur:

Boşdur çox şahların ancaq başları, ...
Zəlitək qan sorub ləzzət alarlar.

Nizaminin ənənə üzrə yazdığı mədhiyyələr öz ideya məzmununa görə daha çox nəsihətnamə adlana bilər. Bunlarda şair itaətkar kimi yox, mərifət öyrədən müəllim kimi çıxış edir. Nizaminin şahlara itaətkarlığı ilə bağlı ədəbiyyatşünaslıqda ara-sıra rast gəlinən fikirləri isə səhv hesab edirik.





"İqbalnamə" orta əsr fəlsəfi poeziyasına məxsus tərzdə qurulub. Yüksək bədii formada yazılmış hekayələr bir-birilə əvəz olunur və əsərin süjetini açaraq oxucunu heyran edir. Burada mütəfəkkirin fəlsəfi konsepsiyasının məğzini insanın əxlaqi və intellektual kamilliyinin cəmiyyətin sosial kamilliyi ilə tamamlanması ideyası təşkil edir.

Ayrı-ayrı hekayələrdə bu ümumi konsepsiya ilə yanaşı, biz filosof şairin dünyagörüşünün müxtəlif cəhətlərini açan, nisbətən konkret məsələlərin qoyuluşunu və şərhini də tapırıq. Məsələn, Arşimed ilə çinli kənizin, Qibtli Mariyənin hekayələrində əsas məqsəd elmin, ağlın təbliğidir. Eyni zamanda birinci hekayədə şəhvət pislənir, həqiqi insani sevgiyə isə bəraət qazandırılır.

Yoxsul çörəkçinin hekayəsi və onun varlanması haqda danışarkən, Nizami taledən söhbət açır, taleyi maddi aləmin, ulduzların qanunauyğun hərəkətilə bağlayır və ulduzların sirrini açmağı poemada Valisə (qədim yunan filosofu Falesə) həvalə edir.

Orta əsr dünyagörüşünə müvafiq olaraq Nizami tale və qəzavü-qədəri insan üzərində hökmran hesab edir. Qəzavü-qədərlə mübarizədə insan gücsüzdür. Məhz buradan da Nizami qəhrəmanının fələyə qarşı, bəlkə də özü tərəfindən tamamilə dərk olunmamış, etirazı irəli gəlir. Məcnunun səhraya qaçması, İskəndərusun şahlıqdan imtinası fələyin zülmünə etiraz deyilmi?

Poemada fələk "qəddar", "oyunbaz", "qaniçən", "təlxək" və başqa təşbehlərlə xarakterizə edilir. Fələyə qarşı ən güclü etirazı İskəndərin vaxtsız ölümü doğurur. Nizami öz qəhrəmanı ilə birlikdə yer üzərində həyatın çox qısa olduğundan şikayətlənir. İskəndərin ölümü səhnəsində oxucu qarşısında iki əzabkeş dayanır: İskəndər və Nizami özü.

Şərq, eləcə də dünya ədəbiyyatında Allah və fələyin bir-birinə münasibəti problemi öz daxili ziddiyyətlərinə görə ən maraqlı probemlərdən biridir. Fələyi adətən bütün şərlərin törədilməsində günahlandırır, onu hətta çox vaxt şərlə eyniləşdirirlər. Allah isə pak təsəvvür edilir.

"Alimlərin Hürmüzü inkar etmələri və həlak olmalarının hekayəsin"də həsəd, alçaqlıq, yalan kimi mənfi sifətlər pislənir. Eyni ideyalar sonrakı "Əflatunun çalğı aləti qayırması" hekayəsində də təbliğ edilir. Burada da həsəd, özündən bədgümanlıq pislənir. Lakin bu hekayədə Ərəstu sonra öz səhvini başa düşdüyü üçün əfv edilir. Hekayə böyük insan hünərinin mədhinə həsr edilmişdir. Sokrat İskəndərə deyir:

Kim qane olarsa bir ovuc dənə
Dönməz dəyirmantək sənin dövrənə?
Arpa çörəyinə edib qənaət,
Buğda çörəyinə çəkmərəm minnət.

Yəni dünya nemətlərindən əl çəkmək insana zülm və zalımlıq hökm sürən dünyada öz mənliyini, insani ləyaqətini qorumaq üçün lazımdır. Nizami qəhrəmanlarında tərki-dünyalığa meyl də buradan doğur. Nizami qəhrəmanları tərki-dünyalığa behişt naminə yox, bu dünyada insani ləyaqəti qorumaq, insan qürurunu itirməmək naminə meyl edir, aza qane olurlar. Eyni zamanda, hekayədə əxlaqi paklıq, təmizlik, nəcabət ideyaları da Sokratın dili ilə təbliğ və tərənnüm edilir.

İskəndərə mənəvi, əxlaqi paklıq öyrədən Sokratın hekayəsindən sonra, Nizami öz qəhrəmanını və onunla bərabər saysız-hesabsız oxucusunu yenə də əqlin qulluğuna dəvət edir. İskəndərlə hind aliminin görüşü zamanı Nizami mahiranə bir şəkildə, sual-cavab yolu ilə, dövrü üçün bir sıra mühüm fəlsəfi və elmi məsələlər qoyur. Məsələn, din öyrədirdi ki, Allahın varlığı ağılla dərkedilməzdir. Hindli alim isə şahdan Allahın varlığı, mahiyyəti və yeri haqda ağıllı dəlillərlə əsaslandırılmış sübut tələb edir, bizim kainatdan başqa bir kainatın olması, o dünya, insanın canı, röya, bədnəzər haqda suallar verir. İskəndər hindliyə dini qane edəcək cavablar verir, bir tərəfdən "əqildə görünməz şeyə yer yoxdur" deyirsə, digər tərəfdən din tərəfindən qəbul edilmiş təsəvvürlərdən kənar çıxanı qılınc və teşt, yəni edam gözləməsini də onun və başqalarının nəzərinə çatdırır. İskəndərin hindliyə cavabları Nizami dövründəki Şərq elminin və bu elmə əsaslanan fəlsəfənin səviyyəsini əks etdirir.

Qədim yunan elminin Ərəstu, Bəlinas, Sokrat, Əflatun, Valis, Fərfuriyus kimi nümayəndələrini bir yerə toplayan böyük mütəfəkkir onları orta əsr fəlsəfə və elminin ən ümdə və mühüm məsələləri haqda fikir söyləməyə, qoca kainatın tarixindən danışmağa məcbur edir. Maraqlı burasıdır ki, Nizami qəhrəmanları - filosofları dilləndirərək, onların fikrini çox vaxt olduğu kimi yox, Şərq fəlsəfəsi cərəyanlarına uyğun şəkildə verir. Orta əsr ərəbdilli filosoflar, məlum olduğu kimi, qədim yunan fəlsəfəsinə dair əsərləri tərcümə və təfsir edərək, bu fəlsəfəni qədim və orta əsr Şərq fəlsəfi fikriylə birləşdirib, yeni orijinal keyfiyyətli təlim yaratmışlar. Nizami poemasındakı məclisdə də yunan alim və filosoflarının adından söylənən fikirlər, orta

əsr klassik ərəb dilli fəlsəfə süzgəcindən keçirilən və böyük mütəfəkkiri bu və ya digər şəkildə xüsusilə maraqlandıran fikirlərdir. Nizami qəhrəmanların dili ilə müxtəlif müddəaları sadalayıb qarşı-qarşıya qoyarkən, açıq və dolayı yollarla oxucusunu öz dünyagörüşünə bələd edir, ona feodal cəmiyyətində hökm sürən, ehkam kimi qəbul edilmiş fikirlərə qarşı öz şübhələrini, inamsızlığını aşılamağa çalışır.

Poemada qoyulmuş məsələlər, onların izahı, aydın və örtülü şəkildə, Nizami azadfikirliliyini, onun elmi-fəlsəfi görüşlərinin, xüsusən dinə münasibətinin tarixən mütərəqqi olduğunu açıq nümayiş etdirir. Əgər hindli alim ilə söhbətdə şah "haqqı düşüncədə olmaz axtarmaq" və onu sirriaçılmaz pərdə hesab edirdisə, yeni məclisdə fələyin "sirrini" ortaya qoyur və onu açmağa cəhd göstərir: "Yaradılış necə olub? İlk tərkib nədir? Dünyadakı dəyişkənlik necə baş verib?" Yeni məclisdə söhbət bu məsələlər ətrafında gedir.

İlk xilqət haqqında birinci Ərəstu söz açır. O, yaradılışın başlanğıcını və əsasını hərəkətdə görür. Alim hərəkətdən odun yaranmasını, oddan havanın, havadan suyun, suyun xıltından isə torpağın yaranmasını, bunların qarışmasından da nəbatat və heyvanatın əmələ gəlməsini söyləyir. Valis hər şeyin əsasında olan ilk cövhəri suda görür, su və hərəkət dörd ünsürü və dünyanı yaradır. Bəlinas əvvəl yerin yaranması və sonra onda hərəkət vasitəsilə dörd ünsürün əmələ gəlməsini qəbul edir. Əgər Ərəstu, Valis və Bəlinas ilk yaradılışdan danışarkən hərəkət və dörd ünsürü əsas götürür, Yaradandan söhbət açmırlarsa, Sokrat bunların içində birinci olaraq Yaradandan danışır. Yaradanın heybətindən bir bulud qalxmış, ondan göy və yer əmələ gəlmişdir söyləyir. Sokratın ardınca Fərfuriyus da Yaradandan və onun yaratdığı cövhərin suya, suyun isə göyə və yerə çevrilməsindən söhbət açır.

Hürmüz Yaradanın varlığını iqrar edir, lakin ilk xilqətin nə sayaq əmələ gəlməsini bilmədiyini söyləyir. Əflatun dünyanın Yaradan tərəfindən mayesiz yarandığını qəbul edir.

İskəndər bu məclisi tamamlayaraq Yaradanın varlığını qəbul edir, lakin yaradılışın necə olduğunu dərkedilməz sayır. Nizami məclisə yekun vuraraq öz fəlsəfi qayəsini burada işıqlandırır. Nizaminin fikrincə, Yaradan hər şeydən əvvəl əqli yaratdı və ona ilk yaradılışın sirrindən başqa dünyanın bütün sirlərini açdı. Nizami bu məclisi tamamlayarkən Xızrın özünə müraciətlə dediyi:

Bu gizli sözləri, fikirləri sən
Neçin lal dillərə isnad edirsən?

beyti yeddi alim məclisində söylənilən müddəa, iqrar və inkarların, əslində şairi düşündürən fəlsəfi fikirlər olduğuna bizi inandırır, onun bu yolda inamı, tərəddüdü və şübhələri haqda aydın təsəvvür yaradır. Təsadüfi deyil ki, Xızrın verdiyi suala cavab kimi aşağıdakı beyt səslənir:

Dövrün kişiləri nakişidirlər,
Elmə yox, nücuma həvəs edirlər.

Ancaq əsərin orta əsr oxucusu üçün yazıldığını nəzərə aldıqda, onun hakim dünyagörüşünə nə cür zərbə vurduğunu dərk etmək olar. Poemanın bu fəsli ardınca gələn "İskəndərin peyğəmbərliyə yetişməsi" fəsli də söylənilənləri bir daha sübut edir. Həmin fəsildə İskəndər daha yaradılışdan söz açmayıb Yaradanı axtarır. Əgər əvvəllər İskəndər yaradılış sirri və Yaradanı dərkedilməz hesab edirdisə, indi:

İstədi çalışıb sirləri örtən
Yeddi qat sürməni silsin tamamən.

Maraqlıdır ki, şah ilahi qəzəbə gəlmir, əksinə, mərhəmətli Allah alim və rəhmdil şahın bu axtarışı qarşısında ona peyğəmbərlik bəxş edir. Allah peyğəmbər kimi səfərə çıxan İskəndərdə yenə də dünyəvi biliklərə ehtiyac hissi oyadır. Peyğəmbərlik səfərinə çıxan İskəndər dünyəvi ağla möhtacdır.

Nizami rasionalizmi və azadfikirliliyi gələcək hadisələrin izahında xüsusilə gözə çarpır. Şah yola dini kitabları yox, Ərəstu, Əflatun və Sokratın yazdığı nəsihətnamələri götürür. Nəsihətnamələri oxuduqca onların arxasında qədim yunan mütəfəkkirlərindən çox Nizami dühasını, Nizami məntiqi və Nizami insansevərliyini görürük; mütəfəkkirin siyasi və etik görüşləri burada geniş planda verilmişdir. Nizami humanizmi və müdrikliyi İskəndərin səfərə çıxarkən anasına etdiyi vəsiyyətdə də özünü göstərir.

Poemanın belə səhnələri İskəndərin bir şah və sərkərdə kimi müdrikliyini nümayiş etdirir, onun yüksək insani keyfiyyətlərini açır və onu bir nümunə kimi dünya şahlarına və hər şeydən əvvəl, şairlə həmdövr olan şahlara göstərir. İskəndər ədalət səsini aləmə yayaraq, zülm, nadanlıq və bədxahlıqla mübarizəyə





qalxır. Ölkələri fəth edərək, xalqları haqqa və ədalətə tabe edərək, şah bu üç qüvvədən özünü də, insanları da xilas etməyə çalışır. Onun müharibələri sülhə xidmət edir; o, dağıtmaqdan çox qorxur. Əmin-amanlığın bərpası İskəndərin əsas qayəsidir. Poemada Nizami özünəməxsus sənətkarlıqla İskəndərin tikintilərinin füsunkar gözəlliyindən bəhs edir.

İskəndərin səfərinin təsvirində mütəfəkkir həyati səhnələrlə yanaşı, alleqoriyadan da geniş istifadə edir. Məsələn, səfər vaxtı İskəndərin əsgərləri iti daşlarla dolu yolu keçərək, yüksək dağın zirvəsinə qalxıb oradan özlərini sevinclə o biri tərəfə atırlar. Şah alimlərin məsləhətilə bu qəribə görünən hərəkətin səbəbini öyrənə bilir. Demə, insanlar qorxunc, düşgünlük və ehtiraslarla dolu, əzablı həyat yolunu keçib zirvəyə (zirvə burada kamillik, paklıq rəmzidir) qalxdıqda azad dünyaya çatırlar ki, bu da yaşadığımız dünyanın tərki deməkdir.

Lakin hadisədən xəbərdar olan şah bu sirri gizli saxlayır, qoşununu tez o yerlərdən çəkir və yenə də insanlara din öyrədə-öyrədə səfərini davam etdirir. Burada biz bir daha İskəndərin tərki-dünyalıqdan uzaq, bu dünya ilə bağlı olduğunu görürük.

Nizami alleqoriya və realist təsvirləri üzvi surətdə birləşdirərək İskəndərin mənəvi yüksəlişini insanların ağlı və mənəvi kamilliyi uğrunda apardığı mübarizə fonunda verir. Əsəri oxuduqca bu iki məqsədi güdən müvazi xətt unudulmamalı və poemanın insanın dünyəvi səadətinə xidməti Nizami oxucularının diqqət mərkəzində olmalıdır.

Kamilliyin zirvəsi ictimai bərabərlik, azad və xoşbəxt insanlar şəhəridir. Bu şəhər nizamişünaslıqda Nizami utopiyası kimi məlumdur. Bu şəhərə çatana qədər şah çox ölkə və möcüzələrə rast gəlir, çox zülmə və nadanlıqlara son qoyur, xeyir və mərifət yayır. İskəndərin susuz səhra əhlilə görüşü, onlara etdiyi xeyirxahlıq, xaqana din qəbul etdirməsi, dənizin dəhşət doğuran səsindən sahildə yaşayan əhalini xilas etməsi, Yəcuc səddini bağlaması sanki şahı pillə-pillə ideal şəhərə yaxınlaşdırır.

Şəhər İskəndərin səfərinin sonu və axtarışlarının zirvəsidir. Nizaminin ideal cəmiyyət haqqında təlimi ədəbiyyatşünaslıqda və xüsusən nizamişünaslıqda ən geniş işlənmiş problemlərdən biridir. İdeal şəhər və cəmiyyət haqda həm qədim dövr, həm də orta əsr Şərqinin abidələrində müxtəlif təsəvvürlərə təsadüf edirik. Yaxın və Orta Şərqdə böyük şöhrət tapmış IX əsr alim və filosofu Fərabinin "Xeyirxah şəhər" əsərində hətta ideal şəhərlərin müəyyən təsnifatı belə verilir. Bu dövr ədəbiyyatında rastlaşdığımız ideal şəhərlər haqqında yazılar adətən real və eyni zamanda alleqorik məna daşıyır. Həmin şəhərlər həm həqiqətən ictimai zülmü dəf etmiş insanlar, həm də çirkin mənəvi ehtiraslarına qalib gəlmiş pakların cəmiyyəti kimi düşünülür.

Orta əsr Şərq humanizminin məhsulu olan ideal utopik cəmiyyətlər adətən bu iki funksiyanın ifaçısı kimi çıxış edir. Tarixdən məlumdur ki, kəskin sinfi mübarizə nəticəsində xalq kütlələrinin gücünə əsaslanaraq, Şərqdə ideal dövlətləri bu və ya digər dərəcədə xatırladan demokratik qərmətilər, ismaililər dövlətləri mövcud olub, bunlar və xüsusən Beyləqanda, XI əsrdə kəskin sinfi mübarizə nəticəsində müvəqqəti də olsa yaranan xalq hakimiyyəti, sözsüz ki, Nizaminin ideal cəmiyyət nəzəriyyəsini qidalandıran real zəmin idi.

Nizaminin kamil cəmiyyət nəzəriyyəsi fantastik uzaqgörənliyin məhsulu, şair dühasının qeyri-adi tapıntısı deyil. Bu nəzəriyyə Şərq və dünya ictimai-fəlsəfi fikir tarixinin ideal cəmiyyət haqqındakı nəzəriyyələr zəncirində bir halqadır - XII əsrə qədər tarixən mövcud olan bu və ya digər dərəcədə utopik ideala yaxınlaşan, müvəqqəti də olsa ömür sürmüş demokratik dövlətlərin qanunauyğun davamıdır.

Deyilənlər mütəfəkkir şairin "Xəmsə"də inkişaf etdirdiyi və "İqbalnamə"də tamamladığı görüşlərin tarixi əhəmiyyətini əsla aşağı salmır, əksinə, ümumdünya mədəni inkişafının mütərəqqi axarında Nizaminin iştirakını göstərir.

Nizamiyə görə insanın mənəvi kamilləşməsi cəmiyyətin mənəvi kamilləşməsinin rəhnidir, lakin birinci yalnız ikincinin kamilliyi zamanı özünə tam imkan tapır. Əsil insanların cəmiyyəti üçün ictimai bərabərsizlik, zorakılıq, tamahkarlıq, qanlı müharibələr, kin, qorxaqlıq, yaltaqlıq, sevincdə və qəmdə qardaş həmrəyliyinin olmaması, sonsuz mənəvi və ictimai fitnələr qəbuledilməzdir.

"İqbalnamə" "Xəmsə"ni tamamlayır, başa çatdırırsa, ideal cəmiyyət təlimi də "İqbalnamə"dəki axtarışların, istəklərin son zirvəsidir. "Sirlər xəzinəsi"ndən başlamış "İskəndərnamə"yədək Nizami hər bir poemasında zorakılığı, nəcib zəhmətkeş xalqa zülm edilməsini, əyri yollarla var-dövlət yığmağı, tamahkarlığı, qəddarlığı, vicdan alverini, rüşvəti dəfələrlə kəskin tənqid etmiş, adil hakimlər silsiləsi yaratmışdır.

Nizaminin ictimai rifah haqqındakı son təsviri yürüşlərdə əldən düşmüş ordunun və İskəndərin qarşısında canlanan, Günəş şüalarına qərq olmuş, gözəl ab-havaya malik, çəpərsiz bağları, çobansız sürüləri ilə təəccüb oyadan hakimsiz bərabərlik və dostluq diyarı olan şəhərdir. Bu şəhəri qoruyan sirli qüvvələr oğruları və zorakıları cəzalandırırlar. Şəhərdə ürək istəyən hər şey varsa da, nə qala divarları, nə şəhər darvazaları nəzərə çarpır. Zəngin dükanlar qıfılsızdır.

Bu şəhərin əhalisi həm də qonaqpərvərdir. İskəndərin "Siz nə üçün belə cəsursunuz?" sualına onlar "Biz zəifik, ancaq dindarıq, doğruçuluq, ayrılıkla işimiz yoxdur" deyə, cavab verirlər. O insanlar İskəndərə öz sosial-etik qayələrini izah etdikcə, sanki qarşımızda din və etiqad haqqında Nizami təliminin mahiyyəti canlanır. Başa düşürük ki, mütəfəkkirə görə, "din" bərabərlik və ədalətdir.

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana heç kimsə gülməz...
Birini qəzəbli, acıqlı görsək,
Ona məsləhətlə eylərik kömək.
Qızıla, gümüşə aldanmaz heç kəs,
Onlar bizim yerdə bir şeyə dəymaz.
Xəsislik bilmərik dünyada bizlər,
Zorla şey almarıq bir arpa qədər.

Gördüyümüz kimi, bu adamların etiqadı həqiqətə əsaslanan ümumi ahəngdarlıqdan başqa bir şey deyildir. Xeyir və ədalətin rəmzi olan bu həqiqət mütəfəkkirin dövründə dillərində "ənəlhəqq", əllərində silah Yer üzərində ədalətin təntənəsi üçün mübarizə aparanlara xüsusən yaxın və vacib idi.

Diqqətəlayiq cəhətdir ki, bir çox xalqları öz dininə gətirmiş peyğəmbər İskəndər bu məkana yetdikdə öz peyğəmbərliyini unudur. Onun dini burada heç kimə lazım deyildir. Əksinə, o özü bu insanların əqidəsinin əsil mənasını başa düşür ki, bu mənanı da bircə insanlıq sözü ilə ifadə etmək olar. Ömrü boyu uğrunda mübarizə apardığı kamillik artıq İskəndərin qarşısındadır. Şəhəri görərkən İskəndər yolunun sona çatdığını anlayır və Ruma qayıtmağı qərara alır.

Bu şəhərin təsvirini verməklə Nizami öz dünyagörüşünün izahında da son nöqtəni qoyur, çünki bərabərlik şəhəri mübariz humanist Nizaminin də, dövrün zülmlə daim mübarizə aparan zəhmətkeş xalqının da istək və arzusunda son zirvəydi.

Nizaminin ədalətli cəmiyyət konsepsiyasını uydurma, həyata keçməyəcək arzu, boş fantaziya hesab etmək olmaz. Bir qədər fantastik olsa da, o, gerçək ola biləcək arzunun ifadəsidir və mövcud quruluşla, mövcud siyasi və əxlaqi münasibətlərlə barışmayanlar üçün bələdçi rolu oynayır. O, öz insani ləyaqətini başa düşərək, zorakılığın və qızılın yox, insanlar arasında xeyirin, dostluğun, məhəbbətin hökm sürməsi uğrunda mübarizə aparanların arzusunu ifadə edir. O, insan ləyaqətinin mənəvi təmizliklə, başqasına təmənnasız kömək etmək, başqasının kədərinə və sevincinə şərik olmaqla ölçüldüyü cəmiyyət uğrunda mübarizə aparanların arzusunu ifadə edir.

Nizaminin başqa əsərlərində öz əksini tapmış sosial-etik görüşləri ilə birlikdə götürülərsə, "İqbalnamə"dəki kamil cəmiyyət təlimi oxucunu ədalət uğrunda daha fəal mübarizəyə çağırır. Nizami idealının bütün dövrlərin insanlarına yaxınlığı və doğmalığının səbəbi də buradadır. Şairin öz sözü ilə desək, "İqbalnamə" dürr yox, dəryadır. "İqbalnamə"nin təkraredilməz bədii gözəlliyini yalnız onu dəfələrlə, sevə-sevə oxuyanlar dərk edə bilərlər.

Zümrüd Quluzadə

Harda ki, ağıl bir xəzinə tapar,
Allahın adını eyləyər açar.
Allah ağıllıya nəvazişkardır,
Ağılsızlara da əlacı vardır.
O, sözün sirrini ayan eyləyər,
O verər zəlilə, acizə hünər.
Zahirdən, batindən aşikar, nihan,
Əqlə yol göstərən odur hər zaman.
O, bu imarətin səqfini tikmiş,
O, bu karxananın nəqşini çəkmiş.
Qəlbə də xoş gəlir ondakı qüdrət,
Əqlə də vacibdir ona itaət.
Bütün varlıqların fövqündə durur,
Varlığı hər şeyi yaradıb qurur.
Hikməti gizlindir, hökmü aşikar,
Onun tərifinə dil aciz qalar.
Əsli pak, zatı pak, təkdir vücudu,
Nə oddur, nə torpaq, nə yel, nə də su.
Varlıqlar hamısı onun möhtacı,
Onunsa heç kəsə yox ehtiyacı.
Yeddi qat içində nə var binadan,
Min alqış ona ki, odur yaradan[1].
Ona qovuşmağa yol yoxdur fəqət,
Əqlə, düşüncəyə sığmaz bu hikmət.
Desək ki, göydədir o pərvərdigar,
Ona təzim edən yer tənha qalar.
Yox, əgər yerdədir, söyləsək, allah,
Şənini alçaltmaq olmazmı günah?!
Məbudun zatından danışan zaman
Axtarma nə göydə, nə yerdə məkan.
Əgər qüdrətindən deyib-danışsaq,
Hökmünə tabedir bu göy, bu torpaq.
Hər bir kəraminə, qəzəbinə sən
Naşükür olmayıb, baş əyməlisən.
Birinin könlündə yandırar çıraq,
Birinin könlünə çəkər dərdlə dağ.
Birinə saraylar verər fələkdən,
Birini quyuya salar yüksəkdən.
Birdir hüzurunda onun çox, ya az,
Böyüyü, kiçiyi əsla ayırmaz.
Onun qarşısında çöp kimidir dağ,
Hökmünə bağlıdır ölmək, yaşamaq.
Heç bir kəs torpağa dil verə bilməz,
Nəqş vura bilməz suya da heç kəs[2].
Təkcə o yaradar torpaqdan insan,
Tək odur suya da naxışlar vuran.
Azanın yoluna nur saçan odur,
Bağlı qapıları ilk açan odur.
Sakin, mütəhərrik, - nə var dünyada;
Varlığı bağlıdır o böyük ada.
Hökmüylə yaranmış bütün kainat,
Bütün canlılara o verir həyat.
Ondan ad almışdır bu varlıq tamam,
O, tamdır, qalanlar nə var - natamam.

## MİNACAT

Bəndəyə əl tutan sənsən, ilahi,
Yoxdur səndən başqa onun pənahı.
Olmuş-olacağı sənsən yaradan,
Sənin kəraminə möhtacdır insan.
Lütf elə, əlini mənə də uzat,
Mənə öz qovğamdan özün ver nicat.
Sənsən, pərvərdigar, hər bir muradım,
Səndən hasil olar hər bir muradım.
Mərhəmət görərsə səndən bir insan,
Nə göydən qorxar o, nə də ulduzdan.
Sən varkən ehtiyac yoxdur göylərə.
Asiman var ikən kim baxar yerə.
Varkən bu dünyada hər cürə büsat,
Behiştdə nə üçün axtaraq həyat?
İnanma ki, cənnət burdan şən olsun,
Deyirsən yaxşıdır, sən deyən olsun.
Bizə də behiştdə bir yer ayır sən,
Sil pis naxışları düşüncəmizdən.
Biz öz çarəmizi bilmirik əsla.
Hansı yol yaxşıdır apar o yola.
Səni ümid ilə hey axtarmaqda
Kimisi qarada, kimisi ağda[3].
Bir meyvə dərməkçin sənin bağından,
Hərə bir qapıda eyləyir fəğan.
Məndə cəsarət yox sənə söz deyim,
- Onu ver,- deyərək bir şey istəyim.
Diləyim yerinə yetsə hər kəsdən.
Görürəm o deyil, sənsən lütf edən.
Sənin mövcudata yox ehtiyacın,
Onların hamısı sənin möhtacın.
Sən ki, dostluq ilə çıxdın qarşıma,
Biganəlik külü tökmə başıma.
Feyzindən işıq ver gözlərimə sən,
Qoy olum asudə özgə gözlərdən. .
Pərvanə olmuşam şəbçırağına.
Bir quşam, qonmuşam sənin bağına.
Bu kiçik bəndəni salma gözündən.
Böyüksən, kömək et böyüklüklə sən.
Mən nəyəm, bir zərrə - gözlə görünməz,
Səndən nur almışdır o zərrə - sönməz.
Sənin qüdrətinlə aşkar olmuşam,
Hər bir xəzinəyə açar olmuşam.
Köhnə hekayəti çatdırdım sona,
Başlasın təzə söz indi cövlana[4].
Saldın ilk sözümü sən dildən-dilə,
Bu son addımı da yetir mənzilə[5].
Ziya saç, qoy qəlbim işıqla dolsun,
İncə mətləblərə o, güzgü olsun.
Bu çətin yollarda budur məqsədim:
Sənin bəyəndiyin bir yolla gedim.
Elə kömək et ki, işlərimə sən.
Özün şad olasan dediklərimdən.





Mən öz xoşum ilə gəlim önünə,
İtaət eyləyim peyğəmbərinə

## SONUNCU PEYĞƏMBƏRİN TƏRİFİ

Nə bir taxt istədi Məhəmməd, nə tac,
Qılıncla çox aldı şahlardan xərac.
Yox, yox, səhv elədim, o böyük nəbi
Həm taxt sahibiydi, həm tac sahibi.
Onun taxtı idi bütün bu əflak,
Başının müqəddəs tacıydı "lövlak"[6].
Mələk simalıydı, allahtanıyan,
Bizə də allahı o verdi nişan.
Bizləri cənnətə odur aparan,
Cəhənnəm odundan odur qurtaran.
Parlayıb nur saçdı bu kainatda,
Bənzərdi Zülmatda abi-həyata[7].
Uca qalxmasaydı ərşin tağından,
Kimdi kainatın sirrini açan?[8]
Mənəvi bir töhfə o verib bizə,
Ərşin sovqatını göndərib bizə.
Yolunun torpağı olan başımız
Dəyməz başındakı bir tükə yalnız.
Bizim halımıza qəlbdən yanaraq
Gündüz günəş oldu, gecələr çıraq.
Hər sınıq ürəyin odur pənahı,
Odur bağışladan hər bir günahı.
Dahidir, böyükdür o dahilərdən,
Üstündür, yüksəkdir hər peyğəmbərdən.
Cənnətdən torpağa gəldisə edəm,
O qoydu torpaqdan cənnətə qədəm[9].
Aytək çıxdı Yusif quyudan əgər,
Nur saçdı quyudan o, aya qədər[10].
Xızra abi-həyat oldusa qismət,
Həyat çeşməsindən keçdi Məhəmməd[11].
Yunisi uddusa balıq bir zaman,
Ona səcdə etdi balıqla ilan[12].
Davuddan yadigar tək bir zireh var,
Məhəmməd yüz zireh qoyub yadigar[13].
Süleymanın taxtı getdisə bada,
Məhəmməd əbədi qaldı dünyada.
İsanın beşiyi göyə qovuşdu,
Məhəmmədsə özü göylərə uçdu[14].
Tur dağı Musaya oldusa eyvan,
Məhəmmədin qəsri yarandı nurdan[15].
Şəminin önündə durub çıraqlar,
Səndən işıq istər, səndən pay umar.
Şəffaf bir çeşməsən, təmiz bir bulaq
Özünü suyunla yuyub bu torpaq.
Bu quru torpağın sədası sənsən,
Bu xəstə dünyanın şəfası sənsən.
Həkimsən, aydındır düşüncən, zəkan,
Əlində allahın hökmü bir dərman.
Məxluqun gözünə sən işıq verdin,
Göydə mələklərə yaraşıq verdin.
Adın möhür kimi sözə ziynətdir,
Camından hər qətrə əbədiyyətdir.
Ondan bircə udum içərsə hər kəs,
Dünyada dərd bilməz, əziyyət bilməz.
Elə et ki, olsun o dadlı şərbət
Bu yazıq bəndəyə - mənə də qismət.

## KİTABİN YAZILMASININ SƏBƏBİ

Dolanıb döndükcə qoca ruzigar,
Özünə bir yeni müəllim arar.
Köhnə havaları dəyişər tamam,
O yeni nəğmələr bəstələr müdam.
Dövran oyunbaztək oynar bir müddət,
Çıxarar pərdədən bir təzə surət.
Edib füsunkarlıq bu surət ilə,
Xalqı əyləndirər bir zaman belə.
Onu da qocaldıb dövran itirər,
Səhnəyə yeni bir surət gətirər.
Təzə şairlər də təzə xətt ilə
Köhnə tarixləri təzələr belə.
Hər dövrün olar bir usta bağbanı,
Bəsləyib böyüdər körpə fidanı.
Bir gövhər hüsnünü itirsə əgər,
Daşdan baş qaldırar başqa bir gövhər.
Gəlinimdə olan şuxluq, təravət
Peykərşünaslara eylər kifayət[16].
Təzə olmasaydı bu əsər, yəqin
Təzə bir söz demək olardı çətin.
Bir harın at idim bir zaman mən də,
Zəhmətlə, zillətlə düşdüm kəməndə.
Hər bir xəzinədə var məndən nişan,
Ancaq, heyf olsun ki, deyiləm cavan!
Gənclik - təzə nallı, harın, köhlən at,
Qocaldın - nal qızır, düşür əldən at.
Kürədən çıxanda güzgü bərq vurar,
Fəqət sınan zaman zirehə yarar[17].
Söz, sənət eşqilə çırpınan ürək
Alır sirdaş kimi ilhamdan kömək.
Düşüncəm beynimin qızıl qanından
İncitək incə söz alardı hər an.
Çünki gizlində bir ilhamçım vardı,
Mənimlə örtülü söz danışardı.
Susmuşdur sirdaşım xeyli zamandır,
Mən də söz tapmıram, halım yamandır.
Bir də ki, sözümü dinləyib duyan
Bizi tərk eləyib, gedib dünyadan.
Şah Arslan torpaqda, qəbirdə ikən,
Necə söz söyləyim, şer yazım mən?
Şah əgər lütf ilə etsə mərhəmət,
Yeni söz deməyə eylərəm cür'ət.
Bu dar keçidlərdə dərd məni aldı,
Bədənim sustaldı, rəngim saraldı.

Yolumu tufantək tutdu fikirlər,
Gözümdə qalmadı yuxudan əsər.
Gecə, dar qəlblərdən qara bir gecə,
Yollar baş tükündən daha da incə!
Belə bir gecədə mümkünmü səfər?
Heç belə bir yolda quyu seçilər?
Zülmətə bürünmüş keşikçixana,
Həmlə eləmişdir fil pasibana[18].
Bir ahu balası doğmuşdur çəmən,
Müşk-ənbər saçmada öz göbəyindən[19].
Nə pərvanə şamdan uzaq dayanır,
Nə də ki, şam ondan uzaqda yanır.
Bir belə gecədə oturmuşam tək,
Kağızda yazılar qara gecətək.
Dürr üçün qəvvastək suya batırdım,
Gah seçib götürür, gah da atırdım...[20]
Gecədən bir qədər keçmiş olardı,
Hələ qaranlıqda, sübhə çox vardı,
Fələyin köhləni olub təngnəfəs[21],
Xoruzlar banlamır, gəlməyir bir səs.
Daxmada gecənin hörüklərindən
Yeddi rəng ipəklər toxuyuram mən[22].
Bu laciverd küpdən mən də İsatək
İplər çıxarıram hər an rəngbərəng[23].
Əvvəldən bəsləyib tərbiyə verən
Bir nəcib insandır məni yetirən:
Mötəbər bir şəxsdir o Xoylu İmad;
Qalxmaq istəyənə o edər imdad.
Səxası dünyanı salmış heyrətə,
Dürlə bəzək vurmuş o, səxavətə.
Bu qoca dünyada ona tay hanı
Ki, sözü, səxası tutsun cahanı?
Onda Müştərini görərək hər an,
Vurar üzüyünə Ütarid nişan[24].
Əfsus ki, bəxtimin sərkəşliyindən,
Gizləyir bu dünya o zatı məndən.
İşlərim düyünlü, nəsibim dərd-qəm,
Nə yaxın bir dost var, nə də bir həmdəm.
Məgər necə uşaq tutar bir mama?
Bir ağac nə qədər yetirər xurma[25]?
Yuxusuz, ac-susuz qalıb o gecə,
Bu mavi dəryada üzürdüm təkcə[26].
Gecə gecə deyil, dibsiz bir quyu,
Ayı da, günü də udmuşdu suyu[27].
Gecənin bağrını yarmışdı zülmət,
Kölgə eləyirdi işığa töhmət.
Atdığım kəməndlə, şahın bəxtindən,
Əmlik ceyranları ovlamışam mən[28].
Əngin dənizlərə mən tor atmışam,
Bu torla növbənöv balıq tutmuşam[29].
Xoş görüb bəxtini şahın rəsəddə,
Mən sözə başladım xoş bir saatdə.
Vuruşur önümdə Çin ilə Həbəş[30],
Şaha edəcəyəm onları peşkəş.

O qorxunc gecədə süstləşərdim mən,
Tutmasaydı şahın bəxti əlimdən.
Çatdı mədəninə gövhər axtaran,
Könül azad oldu qəmdən, qubardan.
Qızıl çadırını günəş ucaltdı.
İpləri dağların başına atdı.
Gecəki əzabı unutmaq üçün
Bir məclis bəzədim mən də həmin gün.
Ariflər bəyənən bir yer seçərək,
Orda bir taxt qurdum mən sultanlartək.
Yeni bir üsulla büsat quruldu,
Düşüncəm məclisə xidmətçi oldu.
Şərabım, reyhanım, məzəm, həmdəmim
Sözümdü, fikrimdi, qəlbimdi mənim
Qızışıb coşduqca beynim şərabdan.
Gəldi səxavətə söz də bu zaman[31].
İlham buludlarım çəkdi nərələr,
Gövhərşünaslara yağdırdı gövhər[32].
İki şey cəsarət istər insandan:
Biri od, biri də yırtıcı aslan.
Sanki həmcins imiş odla aslan da,
Nə düşsə məhv edər bunlar bir anda.
Taleyim açıldı, oldum bəxtəvər,
Zöhrə dəf göndərdi, Müştəri dəftər[33].
Lütfdən gah bəzək yaradıram mən,
Gah hikmət saçıram söz xəzinəmdən.
Saçdığım gövhərlə bəzəndi cahan,
Çünki var şah kimi bir gövhər alan.
Yenidən mədənə mən əl uzatdım,
Gedib xəzinənin məğzinə çatdım[34].
Heç yaxşı iş deyil yalan danışmaq,
Bu qızıl, bu da od, ərit, yoxla, bax!
Necə vaxt ağ rəngə laciverd qatdım,
Bitdi "Şərəfnamə", murada çatdım.
Coşdu Çin naxışlı şerim, sənətim,
Gör hara qalxacaq mənim şöhrətim!
Gör əvvəl nə əkdim, gör bitdi nələr,
Sınığı bu sayaq bitişdirərlər[35].
Necə il olar ki, gövhər sevənlər
Axtarıb tapmayıb bir belə gövhər.
Axır ki, tapıldı bir gövhər satan,
Yaxşı mal alınar satıcısından.
Padişah əmr etdi: bəzənsin bir bağ,
Sərvlər çəmənə gətirsin növraq.
Qəlbi nurlu şahın şərəfinə mən
Güc alıb idrakın şəfəqlərindən,
Bir sərv bəzədim ki, məclis şad olsun,
Onun şərəfinə badələr dolsun.
Şer yox, mənasız nəzm yazanlar
Çətinlik çəkməzlər, onlara nə var?
Daşlardan cəvahir çıxaran ancaq
Bilir ki, çətindir gözəl söz tapmaq.
Bu incə xəyallar məni coşdurdu,
Könlümün atəşi beynimə vurdu.





Öz tüstüm başıma qalxdıqca mənim,
Quruyub qaxaca döndü bədənim.
Gəlincə bu gözəl gəlin hasilə
Məndə səbr gərək, şahda hövsələ.
Sözə bax, baş alıb hara ucalır,
Mən nələr deyirəm, o nələr çalır?
Bilmirəm bu qədər füsunkar sözlər
Babil quyusundan çıxır nə təhər?[36]
Zöhrəyə o "Zənd"i kimlər öyrətdi,
Oxuyub Harutu tamam bənd etdi?[37]
Sehirli nəğməmdən Zərdüşt xar oldu.
Söndü çox "Zənd"lərin alovu, odu[38].
Dəryaya dürr saçsın qətrə buradan,
Qoy xurma daşısın Bəsrə buradan[39].
Bu altıkünc tağda bir buludam mən,
Səpərəm hər yana su ciyərimdən[40].
Bitkitək pay alır hamı suyumdan.
Yağışım sərvlər yetirir hər an[41].
Kölgətək işıqdan kim çəksə zərər,
Əlbəttə, həmişə ondan çəkinər.
Çeşməmdən feyziyab olsa da çoxu,
Getmir gözlərinə həsəddən yuxu[42].
Mənim meyxanamdan içərlər şərab[43],
Mənim sözlərimdən bağlarlar kitab.
Bu feyzi onunçün qazandım ki, mən
Əsla su içmədim yad bir çeşmədən[44].
Xəlvətdə poladdan sildim ki, pası,
Yaqut rəngi alsın onun aynası[45].
Silib bu aynanı parlatdım par-par,
Yerdən toz-torpağı külək aparar.
O Çin üzlü nigar, bilmirsən məgər
Rumun qalasını necə fəth edər?
Xəzinə kəşf etmək istəsə biri,
Gərək unutmasın çətinlikləri!
Xəzinə kəşf etmək istəsən əgər,
Hər bir çətinliyə tab et, sinə gər!
Məsəl var, deyərlər, eşit, qulaq as:
"Viranə ocaqdan heç tüstü çıxmaz!"
Yuxu var, əvvəlcə çox qorxunc olur,
Gün doğur, ürəyin fərəhlə dolur.
Qəlbə qorxu salan çox şeylər üçün
İnsan şükr eləyir axırda bir gün.
Nə çoxdur şairlik iddia edən, -
Qorxuram meydanda qan tökülməkdən.
Yayın ortasında çox yağsa yağış,
Elə soyuq düşər, sanki dönüb qış.
Havaya yağışdan nəm çöksə əgər,
Günəş o çirkləri silib məhv edər.
Payız yetişdikdə, bilir ki, hər kəs,
Daha lətif külək, incə meh əsməz.
Artıq rütubətdən törəyər vəba,
Tənəffüs çətindir belə havada.
Bundan qurtarmaqçün qalayarlar od,
Tökərlər bu oda səndəl, gül və ud.

Təbimlə şaha ud yandıraram mən,
Daha başqa bir iş gəlməz əlimdən.
Allah məni ona bəndə xəlq etmiş,
İtaətdən başqa bilmərəm bir iş.
Dünyagörmüş adam, - yaxşı ya yaman,-
Şikayət eyləməz öz ruzgarından.
Bu dünya heç kəslə deyil həmavaz,
Sazəndələr kimi bir hava çalmaz
O, sazda görərsə ipək bir teli,
Qırıb atmaq üçün uzanar əli.
İpək yetirməkdə iki cür qurd var,
Ziddir odla sutək həmişə onlar.
Biri baramanı toxuyur bir-bir,
O biri karvanla ipək məhv edir.
Pətəkdə iki cür arı var müdam,
Necə ki, aldadar pərvanəni şam,-
Biri yem daşıyar hey axşam-səhər,
O biri gizlincə o yemdən yeyər.
Bal verən arının bircəsi, yəqin,
Yüzündən yaxşıdır bal yeyənlərin.
Hələ can almamış əcəl, turactək:
"Dad, məni tutdular!" - çığırıb dad çək[46].
Tamahkar dünyadan nə ummaq olar.
Ya səni yandırar, ya da çiy saxlar,
Qaynayıb coşarsan, yanarsan dərddən,
Qaynayıb coşmasan, çiy qalarsan sən.
Fələk - yeddibaşlı qorxunc əjdaha,
Bircə zərbə vursa, məhv oldun daha[47].
Xəlbirə bənzəyən teştdir asiman,
Sən bir xəlbir torpaq, o da bir teşt qan[48].
O, teştdən su töksə başına nahaq,
Sən elə xəlbirtək üstünə torpaq.
Torpaq da, çeşmə də olan bir yerdə
Lazımdır, əlbət ki, teşt də, xəlbir də.
Bu göy rəngli küpün çox hiyləsi var,
İçindən görərsən yüz cür rəng çıxar[49].
Küpə bir cadugər minər, deyərlər,
Bu küpə minmişdir yüz min cadugər[50].
Fələk hesabını gəl etmə nahaq,
Alçağı yüksəkdir, yüksəyi alçaq.
O gah altda olur, gah üstdə olur,
Ona alt-üst demək daha doğrudur.
Əbəsdir fələklə bəhsə girişmək,
Heç kəslə həmahəng olmayıb fələk.
Atdığı hər addım fənddir, kələkdir,
İşləri büsbütün oyundur, rəngdir!
Birini göylərə ucaldır bəzən,
Bəzən də qul edir onu görürsən.
Tülkütək geydirər qırmızı papaq,
Sonra qara itə yedirdər ancaq.
Nadir dörd yol üstə məskən düzəltmək?[52]
Nadir qarın güdmək dördayaqlıtək?
Dörd balış qeydindən qurtaranda biz,
Asudə yatarıq səssiz-səmirsiz[53].

Yolüstü mənzildir bu köhnə torpaq,
İkicə qapısı var onun ancaq:
Giriş qapısından girərsə hər kəs,
Çıxış qapısından çıxmaya bilməz.
Bədbəxtdir bu dərin quyuda qalan,
Qar kimi düşərək donub buz olan.
Xoşbəxtdir şimşəktək yalnız bir anda
Parlayıb sönənlər fani cahanda.
Nə lazım dünyada fərsiz bir şamtək
Gecələr uzunu can verib sönmək?
Etibar etməyən öz gəmisinə
Gərək əvvəlcədən üzmək öyrənə.
Tələsən adama köhlən at gərək,
Yabıyla nə qədər o yol gedəcək?
Hiylədən pozulub, korlanıb dünya,
Nə qəlbdə qan qoymuş, nə üzdə həya.
Fələk o fələkdir: dağ çəkib hədər,
Bizi gah saraldar, gah da göyərdər.
Hər pərdədə yalnız o adam çalar
Ki, ola pərdədən yaxşı xəbərdar[54].
Düz yolu yaxşı bir rəhbər göstərər,
Mən yola çıxıram, bəs hanı rəhbər?
Elə bir pis vaxtda gələcək ölüm
Ki, bezmiş olacaq dünyadan könlüm.
Qəflət qoşun çəkib gələcək birdən,
Yatağa baş qoyub yatacağam mən.
Xəyal dünyasına edib tamaşa
Ömrü yuxu kimi vururam başa.
Belə qol-qanadla olarmı uçmaq?
Hara çatdıracaq belə əl-ayaq?
Belə dörd müxalif yol a ayrıcından
Çıxmaram, ya qoca olum, ya cavan[55].
Qocalıq ədası göstərsəm əgər,
Məndən bu cavanlar üz döndərərlər.
Cavanlıq eləsəm bu bədənlə mən
Gərək başqasından borc alam bədən.
Yaxşısı budur ki, olam hər zaman
Qoca ilə qoca, cavanla cavan.
Açam bu düyünü bəlkə birtəhər,
Məndən dost-aşnalar inciməyələr.

## SÖZÜN TƏRİFİ VƏ PADŞAHLARA NƏSİHƏT

Dəniz dalğalanıb gələrsə feyzə,
Sədəfdən dürr alıb çıxardar üzə[56].
Yenidən dövlətim başımdan aşdı.
Dövlətli ürəyim sözlə dostlaşdı.
Qaranlıq çəkildi, doğdu gözəl gün,
Şux səhər açıldı şux bülbül üçün.
Oyandı yenidən, bəxtim oldu yar,
Gör indi şad könlüm nələr yaradar?
Tale birisinə verərsə açar,
O, qara daşdan da gövhər çıxarar.
Hər günə ruzigar dedik əzəldən.
Birində cələ var, o birində dən.
Varlıq pərgarının ulu rəhbəri
Mənə söz mülkünü verəndən bəri,
Xeyli düşündüm ki, bu ölkəni mən
Bəs kimə tapşırım özüm gedərkən?
Bir şəhər yaratsam, baxtım olsa yar,
Kim olsun bəs ona sonra şəhriyar?[57]
Əqlim söylədi ki: - Belə şəxs gərək
Tanınsın dünyada məruf insantək.
Elə lütfkar əl ola ki, onda,
Misli tapılmaya bütün cahanda.
Gərək qarışqaya azca yem verə,
Filə də fil payı seçib göndərə.
Olmaya sərsəri, xam adamlartək
Əlindən gəlməyə qələm də çartmək.
Qarışqa yemiylə fili yemləyə,
Cəbrayıl rütbəsi verə milçəyə.
Bütün bəxti dönmüş şahların, əlbət,
Ölçü bilməzlikdən olub bəxti bəd.
Baş ilə ayağı pis fərq etmişlər,
Məst olub, tacı da qoyub getmişlər.
Kiçik çox pay almış, böyük az almış,
Böyüyün qiyməti belə azalmış!
Mənasız səxavət göstərsə hər kəs,
Yırtıq təbil kimi çıxaracaq səs.
Ölçü-biçi bilsən hər bir işdə sən,
Böyük hesabları düz həll edərsən-
Mətahı böləndə sən elə böl ki,
Aparanın ağır olmasın yükü.
Qoyma qoca şaha gənc üstün gələ,
Şiruyə Pərvizi öldürdü belə[58].
Qocaman ağaca mişar çəkmə sən.
Zöhhak bunun üçün düşdü taxtından[59].
Hökmdar ölçüylə bəxş edə gərək
Odu da, suyu da, - güntək, buludtək.
Əliylə dürr saça o, dənizlərə,
Dağlarda torpağı lalə döndərə.
Harda bayrağını ucaltsa göyə
Kisədən paylaya bol-bol hədiyyə.
İdrak sahibidir, şükür allaha,
Naz da, nəvaziş də yaraşır şaha.
Dağlardan ta saman çöpünə qədər
Hər şeyin hər zaman qədrini bilər.
Hər kəsdə nə qədər varsa ləyaqət,
O qədər göstərər ona səxavət.
Odur ki, çox-çoxdur mədh edənləri,
Dünyada yox misli, yox bərabəri.
Çoxları istədi "İqbalnamə"ni,
Tək ona həsr etdim mən bu naməni[60].
Çünki tanıdığım bütün şahlardan
Tək odur əməyə düz qiymət qoyan.
Boşdur çox şahların ancaq başları,
Nahaq çox kəsdirmiş onlar başları.





Hay-küy çox, heç bir şey yoxdur süfrədə,
Dönüb bədənləri quru cəsədə.
Onlarda bir tacir təbiəti var,
Zəlitək qan sorub ləzzət alarlar.
Dənizək düşüncəm, dürrtək sözlərim,
Ləl ilə doludur mənim əsərim.
Şah özü sərrafdır, qədrini bilər,
Sözümün rütbəsi qat-qat yüksələr.

## PADŞAHIN TƏRİFİ

Deyirlər: göylərdə bir ağ xoruz var,
O, ərşin altında tutubdur qərar.
Deyirlər: o xoruz banlar hər səhər,
Yerdəki xoruzlar ona səs verər[61].
Bilin ki, göylərin o quşu mənəm,
Hər səhər oyadar quşları nəğməm.
Şəhərin quşları ötər hər səhər,
"Dünyanı dindirən odur" deyərlər.
Nizami, durma, gəl, xəzinəni aç,
Bəsdir bu Gəncədə qalıbsan möhtac.
Bir ov vurubsansa, çıxar meydana[62],
Bir xəzinən varsa, göstər cahana!
Belə xəzinəni bəxt verər ancaq,
Xəzinən dünyanı nurlandıracaq.
Vurubsan qızıla şah sikkəsini[63],
Xütbə de, vüqarla ucalt səsini.
O, elə şahdır ki, dövründə nə var,
Onun şöhrətiylə edər iftixar.
Ucadır, igiddir hər hökmdardan
Məlik Nüsrətəddin, o şanlı sultan.
Zəkada o, Mosul hökmranıdır,
Mərdlikdə şahların Qədərxanıdır.
Şövkətdə, zəkada Mahmud kimidir,
Polad yumşaltmaqda Davud kimidir.
Almış fərmanını Mahmudilərdən,
Həsəbi, nəsəbi Davudilərdən[64].
Meyvəli bahardır, sinəsində gül.
Söz qoşur şəninə qumru və bülbül.
Məclislər içində təzə bahartək
Dürr, dirhəm paylayar o, ətək-ətək.
Tünd şərab qədəhə tökülsə əgər,
Ləl laciverdə şəbxun eyləyər[65].
Suya qılınc vurub, od saçan zaman
Buludlar günəşi qoruyar ondan.
Tərlanı ov üçün qalxarsa, yəqin
Tərlanı dad çəkər göydə fələyin.
Fəzada uçarsa əgər üqabı[66],
Ya Ayı ovlayar, ya afitabı.
Hanı bu dövranda elə bir insan,
Oğurlaya bilsin bir sifət ondan?
Ayın şüasını ip bilən naşı
Oğrunun, əlbət ki, əzilər başı.
Göl ilə sərabı tanımayanlar
Yolda susuzluqdan taqətsiz qalar.
Ayı göydə fətir eyləyib güman
Çoxları quyuya düşüblər, inan[67].
Mələyə bənzəyər divlər kənardan,
Div zülmətdən törər, mələksə nurdan[68].
Allahtanıyandır bizim hökmdar,
Mehr, vəfa ilə dolu qəlbi var.
Tək məni salmayıb müşkülə bu iş,
Kim ona layiqli mədhiyyə demiş?
Neçün Bişgin demiş ona bu dövran?
O ki mehribandır bütün şahlardan.
Bişgin kəlməsini dürüst yazsalar,
Ona layiq bir ad Keypişin olar[69].
Keypişin desələr, layiqdir, əlbət,
Həm Key nişanıdır, həm Keyxasiyyət.
O, abad eləmiş dünya yurdunu,
Xeyrini görənlər bilirlər bunu.
Qopdu bir zəlzələ, göyü oynatdı,
Şəhərlər dağılıb yerlərə batdı[70].
Dağ-daş sarsılaraq, qopub uçanda
Fələk toz altında qaldı bir anda.
Ruzgarın etdiyi oyunbazlıqdan
Sanki alt-üst oldu torpaq, asiman. .
Surun gur səsindən balıq qorxaraq
Atıldı öküzdən bir xeyli uzaq[71].
Fələk zəncirinin halqələritək
Yerin də bəndləri ayrıldı tək-tək.
Azdı yollarını gur axan sular.
Dağlar çarpışmaqdan bitab oldular.
Yusiflər gözünə sanki batdı mil,
Sanki aşıb-daşıb Misri basdı Nil[72].
Heç bir göz salamat qalmadı, inan,
Matəm sürməsinə qərq oldu cahan.
Nə qədər xəzinə batdı o gecə,
O şənbə gecəsi yox oldu Gəncə.
Hamı: kişi, qadın, qoca ya cavan
Qopardı dəhşətli fəryadla fəğan.
Bircə sap gövhəri sağ gördü səhər,
O düzdü yenidən saplara gövhər[73].
Bu gövhər kanının baxtı yar oldu,
O bəla ölkədən tez kənar oldu.
Az zaman içində bu viran ölkə
Keçdi abadlıqda Rumu da bəlkə.
Baxmayın zəlzələ qoparıb tufan,
Ölkəni bir anda elədi viran,-
Görün ki, nə sayaq qadir hökmdar
Pozulmuş cəlalı etdi bərqərar!
Palçıq barıları tamam sökdürdü,
Yerində qızıldan divar hördürdü.
Xəzinə sərf edib, verdi təmtəraq.
Səyilə ölkədən dərd oldu uzaq.
Bağçalar salındı, evlər dikəldi,
Hər evdən yüz çıraq işığı gəldi.
O ki, bu torpağı eylədi abad,

Dərgahı heç zaman olmasın bərbad.

## TƏZİM XİTABƏSİ

Nə gözəl günəşsən, ta uzaqlardan
Edirsən bizimçin hər şeyi əyan.
İşıq cinsindəndir hərçənd ki, çıraq,
İşıqsız çıraq da görünməz ancaq.
Əsil tacidarlıq, düşün, yaxşı bil,
Yüzlərcə tac yığıb saxlamaq deyil.
Hökmüdar odur ki, hər başa müdam
Mərhəmət göstərib, tac edə ənam.
İnsanı azdıran xəyalları sən
Başlardan qılıncla rədd eləmisən.
Ucalsa bir şahın fikri, bayrağı,
Şad olar ordusu, yurdu, torpağı.
Sənin bayrağına bəzəkdir zəfər,
Gücünlə yox oldu dərdlər, sitəmlər.
Kəyanlar köçüblər indi dünyadan,
Yerləri boş deyil, sənsən hökmüran.
Ölkədə bu xalqa rəhbər oldun sən,
Fitrətin gözəldir sənin əzəldən.
İndi bu dünyada sənsən tacidar,
Əlinlə tac qoyar başına şahlar.
Çatmaz ədalətdə sənə Pişdad,
Keyxosrov, Keykavus, nə də Keyqubad!
Yeddi firuzəli bu qəsrdə sən
Haqqa, ədalətə vüsət vermisən[74].
Bir qədəh mey verir sənə Nizami,
Gərək nuş edəsən Keykavus kimi.
Bu tusi qədəhlə Mahmuda bildir
"Şahnamə"nin qədri-qiyməti nədir![75]
İki xəzinənin varisi, hökmən,
Səxavətdə sənsən, söz deməkdə mən[76].
Borc əgər vaxtında ödənilməsə,
Qaydadır: varisdən çatar varisə[77].
Mən elə söz dedim - deməmiş heç kəs,
Bir iş gör - olmasın ona heç əvəz.
Mənə əqlim çatıb bu işdə dada,
Müvəffəq olasan sən oxumaqda.
yar etsək bu iki gözəl niyyəti,
Birə on artacaq sözün qiyməti!
Bağımda reyhandır mənim bu əsər,
Sənin eyvanını qəndiltək bəzər.
Məclis qur, bu meylə doldur kasanı,
Şöləsi, nəşəsi durultsun qanı.
Sən mey iç, gətirmə heç bir bəhanə,
Ağzım möhürlüdür üz vurma mənə.
Damağın çağ olsun, bəxtin də cavan,
Cahanda olasan Cahan pəhləvan.
Bu dünya, bu dövran sənə yar olsun,
Ruzgarın həmişə xoş ruzgar olsun!
Göylər ülviyyətdən düşməz heç zaman,
Sən də göylər kimi uca olasan.
Qılıncın kəskindir gün şöləsindən,
Göyü də yer kimi sən ram edibsən.
Parlaq qılıncından məhv olsun yağı,
Səndən qüdrət alsın Kəyan bayrağı.
Böyük bir iş üçün, bil, ey hökmüdar,
Göndərdim, doğrudur, mən bir yadigar,
Sən özün əbədi bir yadigar qal,
Dediyim bu sözü daim yada sal!

## KİTABIN BAŞLANMASI

Yunanlı filosof, zəkada nadir,
Çıxartdı mədəndən belə cəvahir:
Bir dəfə dünyanı səyahət edən
İskəndər keçərək neçə ölkədən,
Gəlib öz yerinə, yurduna çatdı,
Doğma vətənini nurla parlatdı.
Ağıl hər bir sirrə yol tapsın deyə,
O verdi fikrini elmə, biliyə,
Xəyalı göyləri gəzdi, dolaşdı,
Bağlı qapıların sirrini açdı.
Bəyəndi pəhləvi, yunan və dəri
Dilində yazılmış bir çox əsəri.
Bir də fars dilində şahənə dəftər
Olmuşdu dilində su kimi əzbər,
İstər Rum elində, istər Yunanda,
Dünya dillərində nə var cahanda.
Buyurdu tərcümə edilsin bütün
Bilik xəznəsini doldurmaq üçün.
Dürr yığdı elm üçün bir-bir hər yandan,
Bunlardan yaratdı böyük bir ümman.
Onun yaratdığı birinci əsər
Dünyaşünaslıqdan verirdi xəbər,
O biri - ruhani sirlərə açar,
Onunla yunanlar əbədi yaşar,
Bir də "İskəndərin qeydləri"dir,
Mum kimi yumşalar bununla dəmir,
Kin, qəzəb, mərhəmət nədir - bilərlər,
Fələyin sirrindən tutarlar xəbər.
O gövhər kanını yox edib ruzgar,
Bircə "İntiyaxis" qalıb yadigar[78].
Neçə əql övladı nur yaya yaya,
O şahın rəyilə gəldi dünyaya.
O böyük, ağıllı, ayıq hökmüdar
Öz şahlıq taxtında tutarkən qərar,
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! - Başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçilir biri -
Hamıdan ucadır alimin yeri!"
Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmiylə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət.





Çünki elmə təşviq edirdi dövlət.
Elmə qiymət qoydu böyük hökmüran,
Elm ilə ucaldı dünyada Yunan.
Onun tacü taxtı indi yoxsa da,
Elm ilə məşhurdur bütün dünyada.
Qəsrinin bürcləri göyə dəyərdi,
Haqqın cəlalına o, baş əyərdi.
Hücrəsi ziynətsiz, bərsiz-bəzəksiz,
Bir dəri üstündə o, çökərdi diz.
Söyüddən qurulmuş sadə bir otaq,
Yerliyi ağappaq, tərtəmiz torpaq.
Könlü bu dünyadan doyduğu zaman
İbadətxanaya olardı rəvan.
Tacını götürüb, bir xeyli müddət
Elərdi ürəkdən haqqa ibadət.
Üzünü sürtərək təmiz torpağa
Başlardı tanrıya o yalvarmağa.
Keçmiş günlər üçün şükr eləyərək,
Gələcək işlərə dilərdi kömək.
Bütün qazandığı qalibiyyəti
Sanardı allahın bir inayəti.
Allaha şahanə dua edərdi,
Özü də duaya layiq bir ərdi.
Könüldən gəlməyən dua, yaxşı bil,
Mənasız bir işdir, ibadət deyil.
Sidq ilə ibadət eləsə insan
Naümid qayıtmaz haqq dərgahından.
İskəndər belə bir düz yolla getdi,
Odur ki, cahanı tamam fəth etdi.
Qafil şahlar kimi keyfə dalaraq,
Yaxşını, yamanı gözündən iraq
Qoymazdı... O, zülmə verməzdi imkan,
Saxlardı dünyada daim bir mizan.
Qocalar, cavanlar, uşaqlar üçün
Açıqdı qapısı onun bütün gün.
Özünə düzlüyü eləyib şüar,
O, yeddi ölkəyə oldu hökmüdar.
Tədbir soruşardı iş bilənlərdən.
Odur ki, olmuşdu özü işbilən.
Yoxsa rum papaqlı bir türk nə sayaq
Çinə, Hindistana basardı ayaq?[79]
Deyirlər, getsəydi o bir yer üstə,
Yanında hazırdı bu altı dəstə:
Minlərcə ən möhkəm, mərd qılıncvuran
Durardı əmrində onun hər zaman,
Əfsunda Harutu vurub keçənlər,
Neçə əfsun quran, neçə cadugər[80],
Elə nitqlər ki, dilləri ataş,
Heyrandı onlara səmada günəş.
Alim, uzaqgörən hikmətşünaslar,
Saysız, hesabsızdı qiymətşünaslar,
Qoca zahidlər də vardı bir qədər,
Dua elərdilər onlar gecələr.
Peyğəmbərlərə də gətirib pənah.
Almışdı orduya onlardan da şah.
Bir işi düyünə düşsə, hər zaman
Kömək istəyərdi daim bunlardan.
Bu altı dəstədən məclis qurardı,
Onlardan iş üçün tədbir sorardı.
Hər kəs bildiyini açıb deyərək,
Ona öz işində edərdi kömək.
Bu qədər köməkçi edib məsləhət,
Düyünü açardı onlar, nəhayət.
Yaşlı kişilərin məsləhətilə,
Xoştale ulduzun hərəkətilə
Gördüyü tədbirlər düz çıxan zaman,
Çatardı məqsədə qadir hökmüran.
Ona rast gələndə bir qatı düşmən,
Vuruşda işləri bərkə düşərkən,
Qızılı salardı işə ən əvvəl,
Qızıltək eylərdi işi təmiz həll.
Qızıl iş görməsə, iş olsa mahal,
Qılınca atardı əlini dərhal
Qılınc etməsəydi bu işə çara,
İşi tapşırardı əfsunçulara.
Bir iş görməsəydi onlar da əgər,
Köməyə gələrdi onda natiqlər.
Söz də etməsəydi düşmənə təsir,
Alimlər yığışıb görərdi tədbir.
Onlar da qalsaydı tədbirdə naçar,
Zahidlər allaha yalvarardılar.
Bu da verməsəydi əgər səmərə,
Həvalə edərdi peyğəmbərlərə.
İşə gəlməsəydi heç biri hərgah,
Haqqa gətirərdi axırda pənah.
Bəxti yar olardı o şaha müdam,
İşinə verərdi xeyr ilə əncam.
Keçdiyi yollara edərdi diqqət,
Gördüyü şeylərdən alardı ibrət.
Kefdən, əyləncədən ovçuluğadək
Heç şeyə baxmazdı bir oyuncaqtək..
Şah içki məclisi düzəltdi bir gün,
Şadlığa qərq etdi dünyanı bütün.
Müğənnilər gəldi, çalanlar gəldi,
Ucsuz-bucaqsız bir məclis düzəldi.
Məclisdə bir gözəl oxuyan vardı,
Şah ona daima nəzər salardı:
Libası yeddi rəng zərif ipəkdən,
Ərişi, arğacı güldən, çiçəkdən,
O qəşəng paltara edib tamaşa,
Heyran qalmış idi xanəndəyə şah.
Paltar günəş kimi par-par yanırdı,
Ancaq ki, xam bezdən astarı vardı.
O paltar sahibi bir xeyli müddət
Ömr etdi, hər yanda qazandı şöhrət.
Soldurdu, toz-torpaq verмədi aman.
O zərif paltarı köhnəltdi zaman.
Tikişlər söküldü, bəndlər boşaldı,

Xanəndə oxuyub çalmaqdan qaldı.
Gördü çox köhnədir əynində paltar.
Astarı üz etdi, üzü də astar.
Bu bədrəng paltarı şah görən zaman
Ona acıqlanıb dedi: "Anadan,
Atıb qızılgülün ləçəklərini,
Bəzədin tikanla ətəklərini,
Niyə palaz oldu geydiyin ipək?
Gövhərşünaslara şəvə nə gərək?"
Xanəndə baş əyib təzim eylədi,
Başına, canına and içib dedi:
"Haman o libasdır bu, ey hökmüdar,
Diqqətlə nəzər sal, özüdür ki, var.
Dəyişməyib ovda, inan ki, heç nə,
Astarı çevrilib ancaq üzünə.
Üzü köhnəlmişdi, gizlətdim mən də,
Çünki utanardım şahım görəndə..."
Bu sözlər o şaha eylədi əsər.
Heyrətlə dayanıb baxdı bir qədər.
Şaha xoş göründü ondakı xislət,
Ona bəxş elədi hədiyyə-xələt.
Söylədi, təsirdən qəhərlənərək:
"Sirrimiz gizlində saxlansın gərək!
Bizim iç-üzümüz açılsa əgər,
Dünyanı üfunət basar, bürüyər!
Madam ki, o rumi ipək bir rəngmiş,
İçdən belə çirkin, üzdən qəşəngmiş,
Gümüş məcməidə gərək biz nahaq
Bir qara ud kimi coşub daşmayaq[81].
Ud, söyüd külüylə yoxsa gözəllər
Dişini ağardıb bizə gülərlər..."[82].

### İSKƏNDƏRİN BAŞQIRXAN QUL İLƏ ƏHVALATI

Ey müğənni, çal bir könül nəğməsi,
Titrətsin göyləri ərğənun səsi.
Elə bir hava ki, ürəyi açsın,
Qaranlıq gecəyə şəfəqlər saçsın!
Gözəl söz nəqqaşı məharət ilə
İskəndər adını nəqş etmiş belə:
"İki qərn sahibi" qoymuş namını,
Çünki Şərqdən, Qərbdən almış kamını[83].
Deyirlər ki, qoşa hörüyü varmış,
Onu kürəyinə daim atarmış[84].
Deyirlər, görübmüş bir belə röya,
Gündən iki qərni alıbmış guya[85].
Başqa rəvayətdə deyirlər yenə:
İskəndər yaşamış iki qərinə[86].
Dünya filosofu Əbu Məşər də
"Uluf" ad qoyduğu məşhur əsərdə
Yazır ki: "İskəndər öldüyü zaman.
Bu böyük itkidən çox qəmgin olan
Yunanlar onu çox sevdiklərindən,
Çəkdilər kağıza şəklini həmən.
Onun surətini nəqş edən rəssam
Şəkli layiqiylə eyləyib tamam,
Çəkibmiş yanında bir cüt də heykəl.
Sağ yanda bir gözəl, solda bir gözəl.
Heykəlin başında bir cüt də qəşəng
Buynuzlar çəkibmiş rəssam rəngbərəng.
Bunları görərək bir heyətşünas,
Bir cüt mələk ilə edibmiş qiyas.
Vücud xəlq edəndə çünki allah da
Mələklər oturdar iki yanında.
Ay üzlü İskəndər gözəlmiş əslən,
Daha gözəlləşmiş bu şəkillərdən.
Paylanmış bu şəkil bütün ellərə,
Onun şöhrətini yaymış hər yerə.
Bu şəkli seyr edən hər el, hər diyar
Rumlu ustadları alqışlamışlar.
Ərəblər bu şəkli seyr eləyərkən
Dəyişik salmışlar onları səhvən.
İskəndər bilmişlər o gündən bəri
Buynuzlu çəkilmiş mələkələri.
Odur ki, şübhəyə düşmüş ərəblər,
"Zülqərneyn" ləqəbi almış İskəndər"[87].
Başqa bir bilici deyir ki, onun
Qulaqları varmış həddindən uzun.
Dürdən taca bənzər qınları varmış.
İki qulağına o qın taxarmış[88].
Onları xəzinə kimi güdərək,
Möhkəm gizlədərmiş bir xəzinətək.
Başını qırxan bir qulundan qeyri
Kimsənin bu sirdən yoxmuş xəbəri.
Ancaq ki, həmin qul öldüyü zaman
İskəndər tapdı bir özgə başqırxan.
Şahın hüzurunda təzim edərək,
Başladı saçını qırxmağa dəllək.
Xəlvətdə saçını qırxıb qurtarcaq,
Şah ona yavaşdan dedi: "Bura bax.
Bilsəm, qulaqların sirrini əgər
Eşidib dünyada səndən bir nəfər,
Bir qulaqburması gələrəm sənə,
Daha sirr açmazsan bir özgəsinə".
Bunu qulağında o sırğa etdi,
Yaxın dostlardan da sirri gizlətdi.
Bu sözü kimsəyə əsla açmadan,
Saxladı küfrtək könlündə pünhan.
Bu sirrin dərdindən saraldı ancaq,
Çünki çox çətindir sirri saxlamaq.
Bir gün bərk darıxdı, çölə üz qoydu,
Gördü ki, çöldə var dərin bir quyu.
Dərdini quyuya eylədi izhar:
"İskəndərin uzun qulaqları var!"
Qəlbinin o yanar atəşi söndü,
Ürəyi dincəldi, evinə döndü.
Yenə də sirrini saxladı möhkəm,





Ağzının möhrünü açmadı bir dəm.
Bu işdən keçmədi o qədər zaman,
Bir qamış göyərdi həmin quyudan.
Bu qamış böyüdü, xeyli boy atdı,
Əlini o gizlin sirrə uzatdı.
Bir gün də bir çoban ordan keçəndə,
Gördü o qamışı quyu içində.
Əyilib qamışı kəsərək çoban,
Doğrayıb bir tütək qayırdı ondan.
Qəm-qüssə bilmədən onu çalırdı,
Tütəyi çaldıqca ləzzət alırdı.
Bir gün o səhraya çıxdı padişah,
Uzaqda bir çoban göründü nagah.
Çobanın çaldığı neyi eşitdi,
Çölləri üstünə qalxmış zənn etdi.
Çünki neyin səsi deyirdi aşkar:
"İskəndərin uzun qulaqları var!.."
O, neyin səsindən od tutub yandı,
Muma döndərərdi hirsi poladı.
Toxtayıb yerində durdu bir qədər,
Sonra səsə sarı getdi İskəndər.
Çağırıb çobanı soruşdu ondan,
Tütəyin sirrini danışdı çoban:
"Gördüm ki, bitib bu qamış quyuda,
Şəkər qamışıtək, şirin bir suda.
Mən kasıb doğradım öz əlim ilə,
Kəsilməsəydi o, gəlməzdi dilə.
Cansızdır, onunla qızır bədənim.
Dilsizdir, ancaq ki, dilimdir mənim..."
Şahı çox heyrətə saldı bu dastan,
Dönüb vətəninə qayıtdı ordan.
Xəlvətdə oturub o, fərman verdi,
Dəlləyin dalınca adam göndərdi.
Söylədi ona ki: "Tez elə bəyan,
De görüm, bu sirri kimə açıbsan?
De görüm, nə cürə eləyib hünər
Bu sirri özgəyə veribsən xəbər?
Səni bağışlaram düzünü desən,
Boynunu vurdurram yalan söyləsən!.."
Şahın sözlərini eşidib dəllək,
Gördü ki, düzünü söyləsin gərək.
Əvvəl yeri öpüb səcdə eylədi,
Sonra padişaha belə söylədi:
"Doğrudur, şah mənə vermişdi fərman,
Saxlayım hamıdan bu sirri pünhan.
Ancaq davam edə bilmədiyimdən.
Təkcə bir quyuya açdım sirri mən.
Başqa heç kimsəyə demədim, ey şah.
Yalansa, qənimim olsun qoy allah!.."
Şah gördü ki, dəllək doğru söz dedi.
O düzlük istədi, bu da düz dedi.
Qullardan birinə buyurdu bu an,
Bir qamış gətirtdi həmin quyudan.
Təzə tütəyə də dəyəndə nəfəs,
Şahın qulağına gəldi həmin səs.
Bildi ki, heç sirri saxlamaz nihan,
Hamının sirrini açar bu cahan!
Allahı xeyr ilə eyləyərək yad
Dəlləyi qılıncdan elədi azad.
Üzünü örtməsin qönçə, nahaqdır,
Gec-tez ləl yanağı açılacaqdır.
Qara daş içində gizlənən buxar
Axır ki, olacaq bir gün aşikar.

### İSKƏNDƏR İLƏ ÇOBAN DASTANI

Müğənni, dayanma, sübh açılarkən,
Püxtə bir mizrab vur o xam ruda sən.
Könlümə ruh versin gözəl nəğməsi,
Bu qafil sevdanı oyatsın səsi.
Həkimlər içində misilsiz olan
Bir qoca bu sayaq eyləyir bəyan:
O, rumi kəmərli, o Çin taclı şah
Taxtda oturmuşdu yenə bir sabah,
Qaşını çatmışdı onun qüssə, qəm.
Gözündə deyildi əsla cami-Cəm.
Yarının çöhrəsi günəşdi, aydı,
O qızı qızdırma yandırmadaydı.
Qəlbində qalmışdı arzusu, kamı,
Əfsus ki, müşküldü onun əncamı.
Şahın da köksündə sevdalı ürək
Qəmli, qüssəliydi həmin xəstətək.
Əmr etdi, nə qədər Rumda həkim var,
Hansı bir ölkədə, harda olsalar
Gəlsinlər, etsinlər çarə birtəhər.
Şahın ürəyindən silinsin kədər.
İşdən başı çıxan həkimlər gəldi.
Sarayda məşvərət - məclis düzəldi.
Min cür çarə etdi hərə bir yandan,
Ancaq o gözələ olmadı dərman.
Yanırdı almatək qızın yanağı,
Şahın açılmırdı qaşı, qabağı.
Ona vermiş idi şah öz könlümü,
Qəmlə keçirirdi bütün gününü.
Qüssə gətirmişdi o şahı cana,
Taxtından enərək çıxdı eyvana,
Eyvanda dayanıb qəmgin, mükəddər,
Ordan çölə, dağa salırdı nəzər.
Padişah çölləri seyr edən zaman
Göründü gözünə onun bir çoban.
Müdrik bir qocaydı, nurlu, zəkalı,
Kafurtək ağ idi saçı, saqqalı.
Sürü yayıldıqca çəmənə, çölə
Ürəyi fərəhdən gəlirdi dilə.
Şah bir az sevindi onu görərkən,
Çünki nur yağırdı gülər üzündən.
Tez adam göndərdi onun yanına,
Çağırtdı çobanı öz eyvanına.





Qulamlar baş əyib hökmünə yenə,
Piri gətirdilər şahın qəsrinə.
Çoban daxil olub uca saraya,
Bir qəsr gördü ki, ucalmış Aya.
Bilirdi, belə sədd İskəndərin var,
Xoşbəxtdir bu qəsrə daxil olanlar.
Ədəblə yer öpdü, çünki bir müddət
Başqa şahlara da etmişdi xidmət.
Şah onu yanına dəvət elədi,
Onunla söhbətə başlayıb dedi:
"Ay kişi, gəl, mənə dağdan, dərədən
Gözəl bir sərgüzəşt danış görüm sən.
Ürəyim kədərdən çəkilib dara,
Bəlkə söhbətinlə edəsən çara..."
Çoban söylədi ki: "Ey tacidar, sən
Özünsən aləmi abad eyləyən.
Taxtın işıq salsın ölkəyə hər an,
Pis göz uzaq olsun təxtü tacından.
Əvvəl söylə görüm, sən, ey hökmüdar,
Nə üçün tutmuşdur könlünü qubar?
Söylə ki, müsahib o yolla getsin,
Sözləri dərdinə bir çarə etsin."
Çobanın sözünü şah çox bəyəndi,
Gördü ki, söz bilən və iş biləndi.
Ağıllı danışır dinpərvər kimi,
Mənasız söz demir çöllülər kimi.
Şah onu dərdindən etdi xəbərdar...
Bu sirri biləndə çoban da təkrar
Torpağı öpərək yenə də şaha
Sidqlə, ürəkdən elədi dua.
Dedi: "Gəncliyimin xoş zamanında
Mən xidmət etmişəm şahlar yanında.
O xidmət etdiyim şahlar içində
Biri var, yadımdan çıxmaz bu gün də:
O bir şahzadəydi, Mərvdə yaşardı.
Uca qəd-qaməti, gül üzü vardı.
Boyuna sərvlər min həsrət çəkər,
Üzünün rəngindən sərxoşdu güllər.
Vardı bir gəlini - gözəl, mehriban,
Saray nur alardı ay kimi ondan.
Göz dəydi o qıza, üz verdi əzab,
Qızdırma əlindən oldu o, bitab.
Canını yandıran bu bəd azara,
Nə qədər etdilər, olmadı çara.
Uca sərv incəlib söyüdtək əsdi,
Hamı o gözəldən ümidi kəsdi.
Şahzadə ölümlə pəncə-pəncəyə
Görəndə gözəli: - Sağalmaz, - deyə.
Hələ o dilbəri almamış əcəl,
Biçarə gözəldən tamam üzdü əl.
Naümid olaraq, o birdən-birə
Dünyadan əl çəkib düşdü çöllərə.
Vardı həmin yerdə ucsuz-bucaqsız,
Qupquru bir səhra - meşəsiz, dağsız,
Hər tərəf xaraba mağaralardı,
İçində pələnglər, şirlər yatardı.
Nə bir ot, nə yarpaq - hər tərəf ölü,
Xalq ona deyirdi: Ölümlər çölü".
Hər kəs əl çəksəydi dünyada candan,
O möhnət çölündə olardı nihan.
Heç görən, eşidən yoxdu: bir nəfər
Ordan sağ qayıdıb gətirə xəbər.
Şahzadə dözülməz qəmdən, qüssədən
O çölü etmişdi özünə məskən.
Bir dostu vardı ki, o şahzadənin
Yolunda canından keçərdi yəqin.
Bildi ki, bu çöldə cavan şahzadə
Ömrünü verəcək boş yerə badə.
Quldurtək niqablı, əlində yaraq,
Getdi arxasınca, ona çataraq
Tanınmaz bir səslə qopardı nərə,
Tutub şahzadəni o sərdi yerə.
Şahzadə sərvtək yerə yıxılcaq,
Tez onun gözünü bağladı qoçaq.
Tərk etdi durmadan o qorxunc yeri,
Onu gözübağlı qaytardı geri.
Cavanın vardı bir gizlin otağı,
Aparıb oturtdu orda qonağı.
Yanında qoydu bir keşikçi - məhrəm,
Sirri şahzadədən saxladı möhkəm.
Çörəyə, suya da edib qənaət,
Başqa şey verməyə vermədi rüxsət.
O dustaq şahzadə, sinəsi dağlı,
Qəlbi, könlü tutqun, gözləri bağlı,
Özü öz işinə qalmışdı heyran:
Bu bəla hardandır, nədir bu zindan?
Dostusa, durmayıb cəhd edir yenə,
Çarə axtarırdı onun dərdinə.
Çalışıb gəlini sağaltdı əvvəl.
Yüz cürə şərbətlə dəf oldu əcəl.
Dərdbilən bir təbib elədi dəvət,
Saxladı yanında onu bir müddət.
Qurtardı gözəli verdiyi dərman,
Tərtəmiz sağaldı o, qızdırmadan.
Əvvəlki gözəllik gəldi yerinə,
Başladı şənliyə, çəmən seyrinə.
Dərmandan tapınca o gözəl şəfa,
Durdu axtarmağa könlünə dəva.
Cavansa, gözəli görəndə belə,
Duydu ki, ürəyi vurur eşq ilə.
Evində şahanə bir məclis açdı,
Udun xoş ətrini hər yana saçdı,
Düzdü hər tərəfə gülü, sünbülü,
Oturtdu bir yanda o qızıl gülü.
Sonra da gətirib gəldi içəri
Əjdaha ağzından çıxan qəməri.
Üzündən pərdəni açıb, nəhayət,
Elədi min cürə nəvaziş, hörmət.

Şahzadə nə gördü? Məclis düzəlib,
Sevgili yarı da məclisə gəlib...
Qorxunc cəhənnəmdən, dərdən qurtuldu,
Həm cənnət, həm huri sahibi oldu.
Nə deyim, nə qədər sevindi o şah!
Daha nə şərh edim, artıqdır izah..."
İskəndər dinlədi dedikcə çoban,
Elə bil ayıldı pis bir yuxudan.
Dincəldi, yox oldu çəkdiyi əzab,
O yetkin qocadan aldı xam şərab.
Şah burda çobanla söhbət edərkən:
"Sağaldı!...Sağaldı!.." - Eşitdi birdən.
Padşah da sevindi, oldu bəxtiyar,
Bircə asqırmaqla sağalmışdı yar...
Çobanı görərək belə xeyirxah,
Onunla şahanə rəftar etdi şah.
Hər kəsin zatı pak olarsa əgər,
Ondan çox yazılar belə əsərlər.
Ay daim nur saçar, Müştəri parlar,
Hünərli şəxsin də hünəri parlar.
İtirmiş olmasa əqlini sərraf,
Tez seçib ayırar, deməz qəlpə saf.
Səninlə biri xoş danışsa əgər,
Könüldən dinlə ki, bir xeyri dəyər.
Nalayiq söz ilə etsələr xitab,
Sən gərək sükutla verəsən cavab.

### ARŞİMİDES İLƏ ÇİNLİ KƏNİZİN HEKAYƏSİ

Müğənni, yubanma, götür rudu sən,
Dumanlar çulğayıb beynimi qəmdən.
Elə nağmə de ki, sənin xoş səsin
Beynimi başımda sakin eyləsin!
Yenə də o yurdun qocalarından
Rumlu bir filosof elədi bəyan:
"Vardı Arşimides adlı bir həkim,
Padşaha ən yaxın olan bu nədim
Kübar nəslindəndi Yunanıstanda,
Mərdlikdə heç misli yoxdu cahanda.
Yaxşılıq edəndi, varı da çoxdu,
Ondan yaxşı adam Yunanda yoxdu.
Əqli, düşüncəsi, idrakı vardı,
Təlimə diqqətlə qulaq asardı.
Ərəstu da ona atalıq etdi,
Təlim vermək üçün bir ev düzəltdi.
İskəndər divanı tapşırdı ona,
Əmindi məzluma yar olduğuna.
Ruslarla vuruşdan qayıdan xaqan
Bir kəniz vermişdi şaha ərməğan.
Alimin qəlbini oxşasın deyə,
Şah ona bu qızı etdi hədiyyə.
Elə bil ovçuya çatdı bir ceyran,
Doymadı o şirin, əmlik quzudan.
Sevdi çinli türkü, könlü şad oldu,
Qəmlər hindusundan o, azad oldu[89].
Onunla söhbətə-işrətə daldı,
Belə ki, bir müddət dərsdən də qaldı.
Dərs verən ustadı aldı əndişə,
Onun bu halından düşdü təşvişə.
Onu dərsdən qoyan nədir görəsən?
O saf düşüncəsi pozuldu nədən?
Yüz nəfər şagirdə dərs öyrədirdi,
Yaxşını, yamanı təlim edirdi.
Ancaq Arşimides olmasa dərsdə,
Qalan doxsan doqquz şagird gəlsə də,
Dərs deyə bilməzdi həvəslə ustad,
Çünki vardı onda böyük istedad.
Ancaq o təkcə də gəlsə, müəllim
Həvəslə edərdi dərsini təlim.
Əlbəttə, ağıllı bir qulaq asan
Yaxşıdır həmişə yüz şüursuzdan.
Ustad bir gün sordu Arşimidesdən:
"Nə olub, bizləri unutmusan sən"
Nə işdir, de, səni dərsindən qoyan?
Elmsiz yaşaya bilərmi insan?"
Arşimides dedi: "Bir təşnə əgər
Bir bulaq taparsa, söylə, neyləyər?
Şah mənə göstərib xeyli nəvaziş,
Gözəl bir çinli qız hədiyyə etmiş.
Özün gənc olasan, yanında gözəl,
Mümkünmü çəkəsən məhəbbətdən əl?
Bununçün mən dərsdən soyudum, əfv et,
Mümkünmü bir qəlbdə iki məhəbbət?"
Müəllim gördü ki, Arşimidesi
Yaman çulğamışdır şəhvət həvəsi,
Dedi ki: "Çox yaxşı, mümkünsə əgər,
O gülü bir mənim yanıma göndər...
Bir görüm neyləyib sənə o gözəl
Ki, dərsə, biliyə qoymursan məhəl?"
Baş əyib ustadın bu fərmanına,
O bütü göndərdi pirin yanına.
Ərəstu tapmışdı bir yeni dərman,
Xıltı ayırırdı onunla qandan.
O xılt ki, bədənə faydası vardı,
Qanı saflaşdırar və artırardı.
Bu dərman gözəllik məğzini aldı,
Dik sərvi əyərək taqətdən saldı[90].
Ustad o gözəldən aldığı xıltı
Bir təştin içinə yığıb saxladı.
Təşt onun tökdüyü xılt ilə doldu,
Gözəl çirkinləşdi, saraldı, soldu.
Söndü üzündə nur, dəyişdi halı,
Soldu, xəzəl oldu o gül camalı.
Çağırıb şagirdi bir gün müəllim,
Ona öz yarını eylədi təqdim,
Dedi: "Al, bu sənin çox sevdiyin yar,
Nazlayıb sevinclə evinə apar!"





Gənc baxıb sənəmə, sordu ustaddan:
"Kimdir bu eybəcər qadın, ay aman!
Bəs mənim o gözəl gövhərim hanı?
Ürəkdən sevdiyim dilbərim hanı?"
Onun cavabında alim əmr etdi,
O ağzı örtülü təşti gətirtdi.
Təştin qapağını açdığı zaman,
Dünyanı eylədi bu işə heyran.
Dedi: "Bəyəndiyin bu idi ancaq,
Ləzzət aldığına indi buyur, bax.
O gözəl bədəndə yalnız bu çirkin
Xılt idi, əzizim, sənin sevdiyin.
Mən həmin bu xıltı çıxartdığımdan,
Sən onu eybəcər adlandırırsan.
Qandan xılt çıxarsa, bax, belə olar.
Xıltlı qan sevməyin nə mənası var?
Gəl, tökmə üzünün suyunu nahaq,
İnsan bu su ilə canlanar ancaq.
Üzdən bir damcı su getməzsə, inan,
Üzünün suyuyla şad yaşar insan.
Əl çək hər kənizə könül verməkdən,
Bunlarla ömrünü bada vermə sən.
Sənə bircə dilbər edər kifayət,
Tək qalar çox arvad alan, nəhayət.
Ruzgar ona görə dəyişir hər an:
Törəyib dörd ana yeddi atadan[91].
Oğlunu bir rəngdə görmək istəsən,
Ürəktək bir ata-analı ol sən".
Arşimides rumlu alimin mumdan
Balı çəkdiyini gördüyü zaman[92]
Ondan üzr istədi, gəldi həvəsə,
Əvvəlki şövq ilə başladı dərsə.
Ancaq kənizdəydi ürəyi yenə,
Çünki məftun idi gözəlliyinə.
Uca sərv bir daha yarpaq açaraq
Dikəldi, yenə də atdı qol-budaq[93].
Bənövşə yenidən ətirlər saçdı,
Nərgiz xumar-xumar gözünü açdı.
Çinli türk gözəli açıldı gültək,
Meyxana yolunu süpürdü külək.
Yenə Arşimides gələrək cuşa,
Bənzədi gül görmüş uçan bir quşa.
Tərk etdi yolunu elm ilə dərsin,
Açdı qapısını eyşin, həvəsin.
O pəri qızıyla yaşadı pünhan,
Xoşbəxtdir pərilə xəlvətdə olan.
Görərək eşqində belə bir səbat,
Onu danlamaqdan əl çəkdi ustad.
Keçdi bir-iki il o gündən bəri,
Soldu Çin qızının ahu gözləri.
Torpağa səpildi solğun qızıl gül,
Yox oldu bağçadan o şeyda bülbül.
Necə ki, pərilər içər badəni,
Torpaq da uddu o pərizadəni.
Mənimlə xoş rəftar edərkən fələk
Vermişdi ondan da gözəl bir mələk.
O da sevimliydi, əziz canandı,
Ağıllı qadındı, iş bacarandı.
Rüxü qoymuş idi Ayı piyada,
"Atı" mat qoymuşdu "şahı" dünyada[94].
Qanımla bəslənmiş bir güldü, göyçək,
O da təkcə məni sevirdi cantək.
Gözümə nur idi mənim o mələk,
Yaman göz ayırdı rəhm etməyərək.
Fələk ayrı saldı o şux gözəldən,
yox imiş dünyada sanki əzəldən.
Nə qədər razıydım mən ondan, eyvah!..
Ondan razı olsun, görüm ki, allah!
Bir qüdrət bəxş edib taleyim sözdən
Köhnə dastanları təzələyəm mən,
Qənd-şəkər paylanar bayram gələndə,
Dedim ki, bir gəlin bəzəyim mən də.
"Şirin"in halvasın qurtaranda mən
Bir halvaçalanım getdi evimdən[95].
"Leyli" xəznəsinə çəkərkən hasar,
Orda da bir Gövhər eylədim nisar.
Bu toyu çatdırıb mən nəhayətə,
Təzə bir gəlin də verdim cənnətə[96].
Necə gözəl dərdi sinəmdə ikən,
Rum-rus dastanını necə yazım mən?[97]
O qəmli çağları niyə yad edim?
Bu xoş dastanımla könlü şad edim.

### QİBTLİ MARİYƏNİN HEKAYƏSİ VƏ ONUN KİMYAGƏRLİYİ

Müğənni, gəl, qədim dövrü yada sal,
Müğlartək müğani xoş bir hava çal!
Yazığam, əzizlə, dərdimi dinlə,
Qızışdır canımı nəğmələrinlə!
Qoca bir filosof üzündən sözün
Pərdəni açaraq, nəql etdi bir gün:
"Mariyə adlı bir qibtli vardı,
Bir əmir qızıydı, Şamda yaşardı.
Bir çox qalaları varmış ki, düşmən
Alıbmış onları bir-bir əlindən.
Yağı dadanmışdı onun yurduna,
Şikəstlik vermişdi bu dünya ona.
Düşmənin zülmündən təngə gələrək
Gedib İskəndərdən istədi kömək.
Əgər eləsəydi şah ona imdad,
Öz abad yurduna qayıdardı şad.
Şahın vəzirinə pənah apardı,
Kömək almaq üçün ona yalvardı.
Gördü ki, ağıllı, kamallı vəzir
Əyləşib bir dəstə gəncə dərs verir.
Əl çəkdi əvvəlki iddiasından,
Ona elm oxumaq göründü asan.

Gördü ki, dava bir cəncəlli işdi,
Həvəslə, səy ilə elmə girişdi.
Alimə ürəkdən eyləyib xidmət,
Onun hüzurunda göstərdi hörmət.
Kənizlər içində alimə məhrəm
Yoxdu ondan başqa yaxın bir həmdəm.
Ustadın pak, təmiz xisləti vardı,
Qız üzün açanda, o, göz yumardı.
Zərif əllərilə su tökəndə qız
O, tökülən suya baxardı yalnız.
Qadın ustadını öz ağ kafurtək
Gözəl bədəninə meylsiz görcək,
O da kişilərə olan həvəsdən
Çəkinib, özünü saxladı qəsdən.
Təkcə təlim oldu fikri, məqsədi,
Məqsədə biliklə çatmaq istədi.
Alim Ərəstu da o gözəl üçün
Bilik xəzinəsi açdı büsbütün.
O saf-təmiz dürrə çox dürlər saçdı,
Ona deyilməmiş çox sirlər açdı.
Elmin sirlərini açdı qadına,
Bir-bir təlim edib öyrətdi ona.
Hər elmin önündə qız səcdə qıldı,
Sinə lövhəsinə nələr yazıldı?!
İstədi vətənə qayıdıb ordan
Əz baba yurdunda olsun hökmüran.
Yox idi qüdrəti, varı, dövləti,
Dirildə yenidən o səltənəti.
Ərəstu bu-işdən olub xəbərdar,
Düşündü: xəznəsiz olmaz şəhriyar,
Qızıl iksirini ona öyrətdi,
Qadını elmiylə iksirçi etdi.
Mariyə ucaldı o kimiyadan,
İksir alimitək qazandı ad-san.
Ərəstu öz bilik xəzinəsindən
Ona sirr öyrədib etdi işbilən.
Şahın izni ilə ordu, xəzinə
Verib, yola saldı öz ölkəsinə.
Mariyə yetişcək doğma yurduna
Davasız, qovğasız şah oldu ona.
O qədər varlandı qazancdan, bacdan
Ki, azad elədi yurdu xəracdan.
Sehirli kimyada olub işbilən,
Qızıl qayırırdı o xam gümüşdən.
Nəhayət qızılla doldu xəzinə,
Açdı xəzinəni elin üzünə.
Ölçüsüz bol qızıl qazansa hər kəs
Ona daş, ya qızıl, təfavüt etməz.
Qoşunda nə qədər süvari vardı,
Atının nalları qızıl nallardı.
Çoxu bu sarayda yeyib gəzərdi,
Hətta eşşəyin də palanı zərdi.
Qızıl bəzəklərin yox idi həddi,
İtin də zənciri qızıldan idi.

Elm-fənn aşiqi bir dəstə insan
Fəqirdi, yoxsuldu, dərdaydı yaman.
Onlar xəzinədən tutdular xəbər,
Şahın hüzuruna gəlib, birtəhər,
O dövlət kanına etdilər minnət,
Dedilər: "Yoxsuluq, çəkirik zillət.
Başqa adamlartək yoxdur peşəmiz,
Yalnız düşünməklə ömr edirik biz
Çünki güdməmişik dünyada qazanc,
Bir günlük çörəyə qalmışıq möhtac.
Rəhmdil məlikə edib mərhəmət,
Açar xəzinəni bizə də, əlbət.
Yəqin ki, mərhəmət edərsə əgər,
İksirdən bizə də bir şey öyrədər.
Gövhər xəznəsiylə zəngindir dünya,
Nə qədər paylansa çatar hamıya.
Nə olar, bizlər də bir parça çörək
Qazanıb, heç kəsdən minnət çəkməyək?!...
İşbilən, saf qəlbli, kamallı gözəl
Onların sözünə eylədi əməl.
Ölkədə bir guşə şux laləzardı,
"Səngi-əzəm" adlı bir qaya vardı.
Mariyə oraya çıxdı, qəmərtək
Başında buluddan qara bir örpək,
Müşkin zülflərinə nərgizə bənzər
Parlaq gövhərlərdən düzüb bir qədər,
Qara saçlarını kəmənd etmişdi,
Hörüb xaç şəklində o bənd etmişdi.
Dedi alimlərə: "Gəlin bir yaxın,
Qaşımın tağında bu bəndə baxın.
O gizlin iksiri, diqqət etsəniz,
Səhərtək alnımda görərsiniz siz".
Bunu eşidəndə, düşünüb hərə
Bir cür məna verdi həmin sözlərə.
Biri söylədi ki, Zöhrətək parlaq
Alnına işarə etdi o, ancaq.
Saçlarda aradı sirri bir nəfər,
Saçlar içindəydi çünki o gövhər.
Hərə bir yol tapdı həmin sənətə,
Düşdü hər birisi bir cür niyyətə,
Hərə o qissədən aldı bir hissə,
Alimin sirrini tapmadı kimsə.
Bir gün də yığışıb gəldilər onlar,
Dedilər: şərh etsin bu sirri təkrar.
Qoyub aşağıda o gələnləri,
Çıxdı eyvanına vüqarla pəri.
Həmin xəzinədən söhbət edərək,
Sehirli sözlərə vurdu min bəzək:
"O laləzar dağlar, sirli nəbatat,
O sehirli sözlər, o rəmz, o büsat,
O qızıl mədəni - o "Səngi-əzəm" -
Nağıldır... Kimyasa başqa bir aləm!.."
Hökmdar sirli bir xəznə göstərdi,
Dəmir qıfıl vurdu, zər açar verdi.





Ariflər bu sözdən tapdı xəzinə,
Nadanlar dərd, əzab çəkdilər yenə.
Bitkidə kimyanın varsa əsəri,
Qələmdir əslində onun cövhəri!
Bu qədər var ikən elmdə imkan,
Əfsus, pay almamış hamı kimyadan.
Kim əsil kimyaya verərsə ürək,
O, saxta kimyaya uymasın gərək!"
Deyirlər: Bağdada etmişdi səfər
Zirək xorasanlı, kasıb bir nəfər.
O, xeyli dolanıb çəkdi əziyyət,
Özünə bir peşə tapdı nəhayət.
Hamıya məlumdur, əhli-Xorasan
Bağdadda fənd ilə yaşayar asan[98].
Min misri qızılı vardı onun, saf,
Rumda da tapmazdı bunları sərraf.
Qızılı yeyəylə ovub sürtərək,
Sarı palçıq qatıb, etdi xəmirtək.
Bundan neçə möhrə qayırdı qoçaq,
İndi gəl qurduğu oyuna bir bax!
Gəlib bir əttarın yanında sayıb,
Bir-bir möhürləyib, əmanət qoyub
Söylədi: "Bunları saxla sən bir az.
(Əcəb möhrələrdir, əcəb möhrəbaz!)
Satıram bunları bir dinara mən,
Çox pul qazanarsan sən bu alverdən.
Vaxt olar, qayıdıb bu möhrələri
Birə on qiymətə alaram geri."
Əttar soruşdu ki: "Bunlar nədir bəs?"
Dedi: "Təbərrikdir, bilməsin heç kəs!"
Əttarın yanından dönüb geriyə,
Başladı əfsunla kimyagərliyə.
Darülxilafətə[99] yaydı bir xəbər
Ki, gəlib bir nəfər usta kimyagər,
Deyir ki: "Kimyada baş ustayam mən,
Yoxdur mənim kimi bu sirri bilən.
İstəsəm iksirlə edərəm, yəqin,
Biri - on, onu - yüz, yüzü də ki - min.
Yüz dinar pul verin siz əvvəlcədən,
Min dinar eləyim yüz dinarı mən.
Qoyun üstümdə də mənim bir nəfər
İşbilən, yetirsin işimə nəzər.
Əgər hünərimi təsdiq eləsə,
Daha söz deməsin mənə bir kimsə.
Yox, əgər görsəniz yalançıyam mən,
Baş məndən, təşt ilə qılınc da sizdən"[100].
Xəlifə eşidib, bərk tamahlandı,
Guya qızıl verib, qızıl qazandı.
Qurd özün bir tülkü cildinə saldı,
Xam şərab içirib, saf qızıl aldı.
Vur-tut on qızılı qalanda onun,
Düşünüb o, qurdu başqa bir oyun:
Zərgər qaydasıyla bir kürə qurdu,
Bir qaba cürbəcür dərman doldurdu.

Şəhərdə hər yana adam salaraq,
Təbərrik axtardı, tapmadı ancaq.
Müştərilər gəzib dükan-bazarı,
Axır ki, tapdılar həmin əttarı.
O qızıllı gilə verib zər dinar,
Gətirib ustaya çatdırdı onlar.
Mahir xorasanlı göstərib tədbir,
Həmin möhrələri doğradı bir-bir,
Sonra da alovlu kürəyə saldı,
Gil yanıb töküldü, saf qızıl qaldı.
Ərimiş qızılı qalıba tökdü,
Dibinə yaquttək saf qızıl çökdü.
Xəlifə tez xəbər tutdu bu işdən:
Təzə qızıl verir o köhnə mədən.
Gördü ki, qızılı o mahir ustad
Sehrlə, əfsunla artırır on qat.
Gövhər xəzinəsi qazansın deyə,
Hədsiz hörmət etdi həmin kişiyə.
Aldanıb hərifin bu oyununa,
On min misri qızıl göndərdi ona.
Tapşırdı: "Bunları tez işə sal sən,
Ey usta, çıxaram xəcalətindən.
Daha gözətçilər səndən əl çəkər,
Məlumdur səndəki sədaqət, hünər.
Düz çıxdın işinlə sən bu sınaqdan,
Təmiz olduğunu göstərdi mizan".
Alıb qızılları naz eyləyərək,
Qurdu hindu kimi yenə bir kələk.
Tədbirlə iş görüb xəlvət, gizlicə
İçdi qafillərlə bir neçə gecə.
Hamısı məst olub düşdü torpağa.-
Zirək xorasanlı qalxdı ayağa,
Bir neçə qul tapdı o,dayanmadan,
Atları yükləyib çıxdı aradan.
Gizlin bir yol ilə ordan birtəhər
Əkildi, görmədi onu bir nəfər.
Xəlifə bu işdən xəbər tutanda,
Onun qaçdığını bilcək, bir anda
Təbərrik söhbəti düşdü yadına,
O biri söhbətlər puç gəldi ona.
Danışdı sirləri təbərrik satan,
Güldü bu hiyləni eşidən zaman.
Bir təbərrik yazıb versə kim sənə,
Aç, oxu, məna tap, uyma cildinə.
Bir əfsun eşitsən bir əfsungərdən,
Ayıq ol, əfsuna düşməyəsən sən.
Dünyada görmədim elə kimyagər
Kimya oyunundan çəkməsin zərər.
İskəndər bir xəbər aldı Yunandan:
Olub xəzinəyə Mariyə ilan[101].
Şaha dedilər ki: "O dişi aslan
Bir şikar fikrinə düşəcək, inan!
İşbilən qadındır, dünyada heç kəs
Onun dövlətinin sayını bilməz.

Xəzinə sirrindən olub xəbərdar,
Onun dünya qədər xəzinəsi var.
Əfsunla daşları saf qızıl eylər,
Sədəfdən çıxarar zərif incilər.
O qədər qızıl var, dövlət var onda,
Qarunun dövləti heçdir yanında.
Şah onun başını kəsməsə əgər,
Çox çəkməz, dünyanı o əldə edər.
Düşmənə qoşundur verən əziyyət,
Qoşun da qızılla düzələr, əlbət."
Şah yandı qəzəbdən odlu günəştək,
Düşündü: Mən onu məhv edəm gərək.
Onu yox etməkçin bu pak torpaqdan,
Tədbir görülməli vermədən aman."
Artdı, alovlandı şahın qəzəbi,
Müdrik vəziri də bildi mətləbi.
Şahın hüzurunda baş əyib vəzir,
Ona ehtiramla göstərdi tədbir.
Dedi ki: "Gövhərtək safdır o qadın,
Kiçik bir kənizdir yanında şahın.
Şamda hökmüdara eyləyir xidmət,
Kənizin olmağa çəkir o minnət.
Bir müddət olmuşdur mənə xidmətkar,
Yaxşı fərasəti, yaxşı elmi var.
Onu elmə, fənnə məftun etmişəm,
Mən ona gizli bir sirr öyrətmişəm:
Qazanar nə qədər dövlət istəsə,
Dünyada o möhtac olmaz heç kəsə.
Bacarıq sahibi görərək onu
Öyrətdim xəzinə tapmaq yolunu.
O sənət yoluyla heç kəs dünyada
Əldə edə bilməz bircə arpa da.
Xoşbəxt Mariyədən başqa bir insan
Belə xəzinəyə olmadı ilan.
Kifayət qədər pul yığdı əlinə,
Gedib hakim oldu doğma elinə."
Vəzirin rəyini eşidən zaman
Əl çəkdi İskəndər həmin qovğadan.
Padşahın könlündən tozu siləntək,
Vəzir Mariyəyə xəbər verərək,
Dedi ki, padşahdan üzr istəməkçin
Tez onun yanına qasid göndərsin.
İşbilən Mariyə alıb xəbəri,
Açdı qızıl dolu xəzinələri.
Qasidə hazırlıq əmrini verdi,
Şaha misilsiz bir xəznə göndərdi.
Xəzinə görənlər hələ bu qədər
Bir yerdə xəzinə görməmişdilər.
Bəxşişlə rəf oldu - getdi nəhayət
Mariyədən kədər, şahdan ədavət.
Bəxşişlə ədavət, kin sönüb gedər,
Kini, küdurəti bəxşiş məhv edər!

## FAĞIR ÇÖRƏKÇİNİN HEKAYƏSİ VƏ ONUN VARLANMASI

Müğənni, öt yenə, o lətif səsin
Bülbülün səsini batil eyləsin.
Nəvalar nəvası olsun bu nəva,
Dərdlərin dəvası olsun bu nəva.
Belə deyirlər ki, Ruma bir zaman
Bir yoxsul gəlibmiş başqa diyardan.
Az vaxtda qazanmış o çoxlu dövlət,
Yığmış karvan-karvan xəzinə, sərvət.
Ancaq bilən yoxmuş dərya xəzinə
Dağdan, ya dənizdən çıxıb bəxtinə?
Kimisi deyirdi: mədən tapıbdır,
Kimisi deyirdi: yox, ev çapıbdır.
Əlqərəz, yazıqdan əl çəkmədilər,
Axır ki, padşaha verdilər xəbər.
Dedilər: "Yad eldən bura bir adam
Gəlmişdi, əvvəllər yoxsuldu tamam.
Keçməmiş aradan bircə il müddət,
O qədər qazanmış qızıl, mal, sərvət
Ki, padşah on katib ayırsa əgər,
Onun dövlətini saya bilməzlər.
O bir çörəkçiydi əvvəl, yoxsul, ac,
Quru çörəyə də, suya da möhtac.
İndi alıb-satır ləl ilə gövhər,
Ağıl bu barədə heç susa bilər?
Peşə yox, alver yox, əkin də əkməz,
Bu qədər dövləti hardan tapıb bəs?"
Yığılıb gördülər belə məsləhət:
Şah ondan bu sirri soruşsun xəlvət.
Əmr etdi padşah ki, o kişi bir gün
Üstündən şübhəni götürmək üçün
Xəlvəti padşahın yanına getsin,
Bu sirri xoşluqla ona nəql etsin.
Varlanmış çörəkçi gedib bargaha,
Ədəblə baş əydi ulu padşaha.
Diz çökdü, bir daha təzim eylədi,
Torpağa düşərək səna söylədi.
Şah onu görəndə bəxtəvər, xoşbəxt,
Təxtinin yanına eylədi dəvət.
Gahdan hədələdi, gah xoş danışdı,
Sonra xəzinədən söz-söhbət açdı.
Dedi ki: "Sən xoşbəxt adamsan, yəqin.
Fələk də xoş baxmış üzünə sənin.
Eşitdim buraya köçüb gələndə
Bir günlük azuqə yox imiş səndə.
İndisə, deyirlər, çox sərvətin var,
Acizdir çəkməyə onu karvanlar.
Dövlət qazanmaqçın çəkərlər zəhmət,
Padşaha yetişər tapılma dövlət.
Bu işin sirrini doğru söyləsən,
Canından, malından arxayın ol sən.
Yox, əgər sözündə duysam bir yalan





Əmrimlə ən ağır cəza alarsan!.."
Çörəkçi gördü ki, qəzəblənib şah,
Bildi ki, düzlüyə qalıbdır pənah.
Təzim eləyərək şaha yenidən,
Söylədi: "Ey padşah, eşitmişəm mən,
Zülmünü görməyib kimsə dünyada,
Yaxşılıq yaraşır səndəki ada.
Xoş rəftar edibsən sən rəiyyətlə,
Yolunda can qoyar hamı minnətlə.
Sənin torpağında qazandım nemət,
Sənin sayəndədir məndəki dövlət.
Əgər qəbul edib buyuruq versən,
Tamam əl çəkərəm var-dövlətimdən.
Ən axmaq quluna bəxş edib, elan,
Torpağı öpərək gedim qapından.
Əgər soruşursan, budur doğrusu,
Nəql edim nə cürə gəldi arxa su:
Ey şahım, mən bura gəldiyim zaman
Əliboş bir quldum, yoxsul bir insan.
Möhnət içindəydi ömrüm, həyatım,
Dedim, çörək satıb, çörəyə çatım.
Peşəmdən dərdimə olmadı dəva,
Doğrusu, bundan da görmədim səfa.
Şahı səxavətli bir məmləkətdə
Çörəkçi varlana bilməz, əlbəttə.
Karıxıb hər yerə baş vururdum mən,
Təsəlli tapırdım bu əlləşmədən.
Mənim bir arvadım vardır, çox zirək,
O, hamilə idi... qaldıq neyləyək?...
Çox çətin vururduq başa hər günü,
Günəş də kəsmişdi bizdən lütfünü.
Müşkün ətrindən də safdı o mələk,
Yeyirdik onunla biz yavan çörək.
Yetişdi arvadın doğum möhləti,
Məndən bir az isti quymaq istədi.
Evdə yemək üçün - ürək qanından
Başqa heç şey yoxdu, ey şahım, inan!
Evdə ikimizdik - bir mən, bir arvad,
Dedi ki: "Ay kişi, bir dadıma çat,
Ölürəm, bir azca şorba düzəltsən
Ölümdən canımı qurtararsan sən.
Yoxsa ki, ölmüş bil məni, həmdəmim,
Əcəl küləyindən batacaq gəmim."
Bu halda görəndə əziz yan mən
Ağlaya-ağlaya tez çıxdım evdən.
Ona bir yeməli şey tapmaq üçün
Gəzdim küçə-küçə şəhəri bütün.
Bağlıydı üzümə qapılar - hər yan,
Bədlik bərk tutmuşdu mənim yaxamdan.
Baş alıb şəhərdən çıxdım kənara,
Rast gəldim köhnə bir xarabazara.
Gəzdim dönə-dönə o xarabanı,
Bir acgöz div kimi eşdim hər yanı.
Kim bilir nə vaxtdan qalıb bu saray,
Basıb qapısını toz-torpaq lay-lay...
Burda da bir zaman məşəllər yanmış,
Ətirli udlarla nura boyanmış.
Bir zənci gördüm ki: - atəşpərəstdi.
Əlində bir kuzə, özü də məstdi.
Asmışdı ocağa dolu bir qazan,
Basmışdı hər yanı orda buğ, duman.
Zənci dik atıldı yad adam görcək,
Burula-burula qalxdı tüstütək.
Üstümə çığırdı: "Ey div oğlu, sən
Üstümə cumaraq nə istəyirsən?
Sən də oğrusansa mənimtək əgər,
De, oğru oğrudan oğurluq edər?"
Onun qorxusundan onun hövlündən
Özümü itirib mat qalmışdım mən.
Zənci adətilə tutaraq dilə,
Könlünü birtəhər gətirdim ələ:
"Mən kiməm? Bir kasıb, bir fağır adam,
Gəldim ki, sayəndə mən də dolanam.
Hamı söyləyir ki, sən aslanbasan
Səxavət əhlisən, mərd bir adamsan.
Odur ki, dəvətsiz qonaq gəlmişəm,
Səni mən özümə pənah bilmişəm.
Bəlkə köməyinlə işim düzələ,
Əlimə bir qədər var-dövlət gələ..."
O məndə belə bir şirin dil görcək,
Acığı soyudu, yumşaldı mumtək.
Odur ki, əl çəkdi bəhs eləməkdən,
Çünki yağlı dilə aldanar düşmən.
"İçən, çalansanmı?" deyə soruşdu.
"Bəli!" Cavab verdim, gətirdi rudu,
Mən də həmin rudu alaraq ələ,
Qorxumdan kökləyib gətirdim dilə.
Mizrabı tellərdə oynadıb bu an
Bir nəğmə başladım ona yalandan.
Qaynar qazan kimi o coşdu, daşdı,
Başladı hay-küyə, həddini aşdı.
Gah şərab içirdi o gülə-gülə,
Gah da rəqs edirdi qazanc eşqiylə.
Zəncini aldadan bir hava çaldım,
Onun damarını əlimə aldım.
Mənimlə həriftək elədi rəftar,
Məst olub sirrini danışdı aşkar.
Dedi: "Gözləyirəm burda gizlicə,
Varlanmaq qəsdim var mənim bu gecə.
Var mənim özümtək bir yoldaşım da,
Mənsiz şərab içməz əsla dünyada.
Gizli bir xəzinə keçibdir ələ,
Üstündə əjdaha yatmayıb hələ.
Yalnız ikimizik ona əjdaha,
Odur ki, quldurluq etmirik daha.
Bir ilə yaxındır o xəzinədən
Yeyib kef çəkirik dərd-qəm bilmədən.
Tükənib xəzinə, xeyli azalıb,

Yerində sonuncu bağlama qalıb.
Dostum gedibdir ki, gətirsin onu,
Mən də gözləyirəm-burda yolunu.
Bu gecə sən bizə gəlibsən qonaq,
Odur ki, biz gərək qulluqda duraq.
Ancaq bir şərtim var: o qayıdanda.
Xəzinə gətirib gələn zamanda
Bir küncdə qısılıb durasan gərək,
Səs-səmir çıxmasın səndən ölütək.
Mənim fikrim budur: bu əjdahanı
Bu gecə öldürüm, qoy çıxsın canı.
Bütün xəzinəyə mən olub yiyə,
Çəkilib sığınım dinc bir guşəyə.
Sənə də, əzizim, ondan bir qədər
Qoy könlün şad olsun, verərəm səhər..".
Zənciylə mən şirin söhbətdə ikən
Ayaq tappıltısı eşitdik birdən.
Mən qalxıb gizləndim dərhal bir küncdə,
Fikrim gah tikanda, gah da türüncdə[102].
Qapqara bir adam girdi o anda,
Həmin bağlama da onun dalında.
Yükü çətinliklə endirdi yerə,
Yaman qüvvətliydi, bənzərdi şirə.
Hələ bağlı yükü töküb açmadan
Bir qədər yedi o, hazır şorbadan.
Yoldaşı yatmışdı. Getdi yanına,
Onun dediyini bu etdi ona:
Polad qılıncını ona endərdi,
Bir anda leşini torpağa sərdi.
Qorxudan canıma düşdü vəlvələ,
Özümü birtəhər tez aldım ələ.
O kasib başını, qalxdı ayağa,
Durdu bədənini şaqqalamağa.
Bir şaqqa götürüb çıxdı o yerdən,
Bu zaman huşumu itirmişdim mən.
Aradan keçincə bir xeyli müddət,
Gördüm ki, qayıdıb gəldi, nəhayət.
O biri şaqqanı alıb bu səfər,
Düzəldi yoluna yenə o təhər,
Bildim ki, o uzaq bir yerə gedir,
Gecə də qaranlıq, tutqun gecədir.
Qartaltək yerimdən şığıdım o an.
Cumdum xəzinəyə sarı durmadan.
Zənci o meyidi alıb gedəndə
Aldım xəzinəni çiynimə mən də.
Bir kasa doldurub hazır şorbadan,
Oldum evə sarı yoluma rəvan.
Mən elə gəldim ki, bəxtimdən qeyri
Kimsənin olmadı bundan xəbəri.
Bəxtim kömək oldu, evimə çatdım,
Yükümlə dərdi də çiynimdən atdım.
Gəldi qulağıma bir çağa səsi,
Artdı şad könlümün qat-qat nəşəsi.
Verdim, alıb yedi şorbanı arvad,
Təşəkkür elədi, könlü oldu şad...
Arvada dedim ki: "Bəxtim oğlandır,
Oğlan, doğrudan da, baş ucaldandır!"
Həmin bağlamanı o saat açdım,
Bu xəstə könlümə nəşələr saçdım.
Gördüm ki, xəzinə dolu bir mədən,
Tamam yaqut, qızıl, - boldu nə desən.
Döndüm bir mədənə o xəzinədən,
Dənizək varlandım bir gecədə mən[103].
Oğlumun bəxtindən könlüm şad oldu,
Çünki xəzinəylə birgə doğuldu.
Oldum o gecədən varlı, bəxtiyar,
Çünki həm xəzinə tapdım, həm açar"
Bütün sərgüzəşti burada bitdi,
Sözünü qurtarıb o, sükut etdi.
Şah sordu: "Hansı gün doğulub oğlan?
Arvadın hamilə olub nə zaman?"
Çörəkçi tez gedib evinə dəydi,
Gətirdi padşaha etdiyi qeydi.
Həmin vərəqəni alıb şah isə
Göndərib tapşırdı alim Valisə:
"Uşağın bəxtini ulduzlardan sən,
Çalış, tədqiq elə, tezliklə öyrən.
Onun yaxşı-yaman bəxtini axtar.
Öyrəndikdən sonra de mənə aşkar."
Valis bu fərmanı alıb, bir müddət
Göydə ulduzlara eylədi diqqət.
Görüb ulduzların göydə seyrini,
Gizlin əhvalatın bildi sirrini.
Yazdı İskəndərə öz gördüyünü.
Qulaq deyəni yox, göz gördüyünü.
Valisdən məktubu aldığı zaman
Yazdığı şeylərə şah qaldı heyran.
Pərdə ardındakı o nəqşələrdən
Belə danışırdı tale göstərən:
"Bu, bir çörəkçidən olmuş uşaqdır
Ki, dövlət nuruyla parlayacaqdır.
O körpə anadan lüt doğulsa da,
Var-dövlət sahibi olmuş dünyada.
Atası oğlunun xoşbəxtliyindən
Varlanıb dövlətli olacaq birdən.
Taleyi belədir, uşaq doğulcaq
Xəzinə üstünə basacaq ayaq.."
Şahı sarsıtmışdı bu söz, bu söhbət,
O gövhər satana etdi mərhəmət[104].
Onu əzizləyib elə o gündən.
Elədi ən yaxın nədimlərimdən.

### ALİMLƏRİN HÜRMÜZÜ İNKAR ETMƏLƏRİ VƏ HƏLAK OLMALARININ HEKAYƏTİ

Müğənni, sazını ələ alsana,
Xoşahəng nəğməndən bizə çalsana!
Dar pərdə dinləmək istəmirik biz,





Genişdir, yüksəkdir öz ahəngimiz.
Rumlu filosoflar sözləşib hərdən,
Yığılıb gələrdi hərə bir yerdən.
Onlar hər elmdən söhbət açardı,
Hikmətli sözləri şəfəq saçardı.
Kim yaxşı etsəydi sözünü isbat,
Başlılar başçısı olardı o zat.
Hürmüz adlı alim haqq danışmaqda
Gedərdi hamıdan daim qabaqda.
Çox möhkəm olardı onun dəlili,
Qane eləyərdi hamını dili.
Bir çox ruhanini faş etdiyindən,
Oldu yunanlılar onunla düşmən.
Bir gün yetmiş alim çıxardı qərar,
Onun hər sözünü etsinlər inkar:
"Hürmüz nə söyləsə, razı olmayaq,
Doğru sözlərinə asmayaq qulaq.
Onu yerli-dibli eyləyək inkar..."
İnkarla haqq sözü danmaqmı olar?
Hamısı söz qoyub əhd elədilər,
Hürmüz çıxardıqca mədəndən gövhər,
Qiymətdən salsınlar söz dənizini,
Torpaqla örtsünlər xəzinəsini.
Hər doğru sözünə yalan desinlər,
Onun haqq sözünü eşitməsinlər...
Hürmüz söz bəhrindən gövhər saçanda,
Elmi-ilahidən söhbət açanda,
Hər sözə dəlillər gətirib ustad,
Hər şeyi aydınca etdikcə isbat,
Gördü ki, onlara heç etmir bu kar,
Hər şeyi hay-küylə edirlər inkar.
Başqa bir xəzinə çıxartdı üzə,
Yeni dəlillərlə başladı sözə.
Gətirdiyi dəlil, dediyi fikir
Qəlbə yox, daşa da edərdi təsir.
Yenə də sözünü təsirsiz görcək,
Bildi ki, burda var yaqin, bir kələk.
Üçüncü dəfə də müşküllər açan
Diliylə haqq sözü eylədi bəyan.
Qəlbə fərəh verən gözəl sözlərdən
Onlara söylədi nə qədər desən.
Bu qədər çaldığı zəngin səsinə
Heç biri etina etmədi yenə.
Daha danışmaqdan taqətsiz oldu,
Boğazı qurudu, dili tutuldu.
Bildi ki, həriflər tərs davranırlar.
Aydın dəlilləri qəsdən danırlar.
Görməyib onlarda heç bir hərəkət,
Üzünü döndərib elədi nifrət.
Qışqırdı onlara hiddətlənərək:
"Qalın yerinizdə qiyamətədək!"
Bir anın içində o yetmiş nəfər
Qalıb hərəkətdən buza döndülər.
Başları su kimi ayağa düşdü,
Donmuş bədənləri torpağa düşdü.
Düz pərdədə əyri çaldıqlarından
Pərdənin dalında oldular nihan[105].
Həmin əhvalatdan tutanda xəbər
Ulduztək parladı orda İskəndər.
O sərv meşəsində gördü ki, ancaq
Yetmişi quruyub, biri qalıb sağ[106].
Hürmüzdən soruşdu, o etdi bəyan:
"Hümmətim kəşf etdi, - dedi, - asiman!
İskəndər "afərin" söyləyib ona,
Ordan tez qayıtdı öz dərgahına.,
Hər kəsə, xəlvətdə, düşəndə fürsət,
Ona bu dastandan edərdi söhbət:
"Yetmişlər başladı tufan salmağa,
Özləri çöp oldu, Hürmüzsə dağa."
Haqqı eşitməsə hər kəs dünyada
Ömrünü kül edib verəcək bada.
Ustadın dərsini kim etsə inkar,
Onlartək kəfənə tutacaq ruzgar.
Dəlili qüvvətli olan bir sözü
Qanmaq istəməyən bədbəxtdir özü.
Taca layiq dürrü yerlərə vuran
İdraksız, şüursuz nadandır, nadan!
Hünərə göz yummaq deyildir hünər.
Hansı bir ağıllı tülə bez deyər?
Alimlə xoş rəftar etsən əgər sən,
Özün öz elmini aşkar edərsən.

### ƏFLATUNUN ÇALĞI ALƏTİ QAYIRMASI

Müğənni, ucalsın o incə səsin,
Qızdırsın qoy bizi odlu nəfəsin.
Qızışsın işlərim, gəl, dadıma çat,
Kömək ol, bazarım olmasın kasad!
Təblini çaldıqca təbilçi yeyin
Qızışdı havası soyuq gecənin.
Naümid olanda o qara qarğa
Ağ xoruz başladı xoş dil açmağa.
Çıxdı Rum taxtına İskəndər erkən,
Dili od, dimağı mumdu deyəsən[107].
Gəlib filosoflar səf vurmuşdular,
Taxtın qarşısında oturmuşdular.
Hərə bir elmdən bildiyi qədər
Danışır, deyişir, bəhs edirdilər.
Biri danışırdı təbiiyyatdan,
O biri dəm vurur ilahiyyatdan.
Kimi riyaziyyat bəhsinə girmiş,
Kimi həndəsəyə fikrini vermiş.
Birisi namusdan, ədəb-ərkandan.
Biri də hiylədən açmışdı dastan.
Hərəsi bir fənlə edir iftixar,
Hərənin özünün bir aləmi var...
Şaha arxalanıb bircə Ərəstu

Özünü hamıdan yuxarı tutdu:
"Mənəm hər alimə çarə eyləyən,
Yoxdur ehtiyacım heç bir alimdən.
Hikmət xəzinəsi məndədir bütün,
Mən oldum hikmətdə hamıdan üstün.
Filan elmi təsis eləmişəm mən,
Filankəs filan şey öyrənib məndən!"
Yalandan öymürəm burda özümü,
Sübutla deyirəm hər bir sözümü..."
Şah ilə arası saz olduğundan,
Hamı çəkinirdi, qorxurdu ondan.
Xoşuna gəlmədi bu, Əflatunun,
Hamıdan biliyi artıqdı onun.
Nə qədər vardısa orada alim,
Hamıya olmuşdu o ilk müəllim.
Əflatun onlardan üz döndərərək
Yox oldu saraydan Ənqa quşutək.
Gecəli-gündüzlü düşündü ustad,
Gizlində o, bir saz elədi icad.
Bir küpün içində gizləndi bir gün,
Axtardı səsini bu yeddi küpün[108]
Yaxşı olmasa da birinin səsi,
Küpdə xoş səslənər onun nəğməsi.
Bu qanun üzrə də o sahibhünər
Küpdə düzəldirdi , yeni nəğmələr.
O, rəsəd sahibi küpə girərək
Çərxi, ulduzları seyr etdi tək-tək.
Eşidib burada o, nalə, fəryad,
Etdi bu ahənglə bir nəğmə icad.
Rudda bu ahəngi münasib yerdə
Quru bağırsaqdan bağladı pərdə,
İçi boş qabağa çəkərək dəri,
Düzəltdi, bağladı o, pərdələri.
Ceyran dərisinə çəkdi qara rəng,
Quru ud səslənib oldu xoşahəng.
Bir xeyli cəhd edib fikrinə uyğun,
Düzəltdi, nəhayət, o bir ərğənun.
Telləri yaxşıca köklənmiş bu saz
Başladı verməyə ahəngdar avaz.
Zil və bəm nəğmələr hasil edərək,
Mizrabı gah yavaş vururdu, gah bərk.
Səslər çıxarırdı, bərkdən, yavaşdan,
Sanki nərə çəkir öküz, ya aslan.
Səslərdə o qədər məlahət vardı
Ki, heyvan eşitcək donub qalardı.
İnsan səslərindən heyvana qədər -
Sazdan çıxardırdı hər cürə səslər.
Belə ki, çaldığı o havalardan
Şadlanıb oynamaq istərdi insan.
Bütün heyvanları yatırdıb sazla,
Sonra ayıldardı xoş bir avazla.
Hər bir səsə uyğun səslər çıxardan
Bir saz düzəltdi ki, başqa bir insan
Onun sirlərini əsla bilməzdi,
O sazda bir hava çala bilməzdi.
Ustad həmin sazı çaldığı zaman
Edərdi xəstənin dərdinə dərman.
Çalğıda elə bir cəhət də vardı
Ki, həkim onunla dərdi tapardı.
Həmin sazdan çıxan səs əsasında
Təşxis olunardı illət bir anda.
Ərğənun təkmilə yetdiyi zaman
Süni ud çox yaxşı oldu xam uddan[109].
Alim sazı alıb, səhraya getdi,
Hər bir nisbət üçün onu kök etdi.
Dördbucaq xətt çəkib öz dövrəsinə,
Başladı çalmağa sazını yenə.
Çöldəki, dağdakı bütün heyvanlar -
Yüyürdü yanına onun hər nə var.
Yığılıb hamısı sazın səsinə,
Düzüldülər onun dörd dövrəsinə.
Hamısı bir anda huşdan gedərək
Sərildi torpağa bir-bir ölütək.
Nə bir qurd orda bir quzuya dəydi,
Nə bir şir gur tutmaq həvəsindəydi.
Sonra başqa cürə kökləyib yenə
Alim saz çalanda, onun səsinə,
O yatmış heyvanlar, çəkmədi bir an,
Ayıldı hamısı şirin yuxudan,
Yayıldı hamısı çöllərə həmən...
Heç belə sərgüzəşt varmı eşidən?
Bu xəbər bürüdü bütün cahanı
Ki, yaqut paylayır o yaqut kanı[110].
Əflatun yaradıb bir elə pərdə
Ki, onu bir bilən yoxdur heç yerdə.
Onun qurduğu saz elə səslənir
Ki, fələk o səsə yerlərə enir.
Müəyyən pərdədə bir hava çalır
Ki, bütün heyvanlar yuxuya dalır.
Başqa bir pərdədə çaldığı zaman
Yatanlar hamısı durur yuxudan.
Şahın sarayına çatdı bu xəbər
Ki, Zöhrə Harutla bəhsə giriblər[111].
Ərəstu bildi ki, o böyük ustad
Qəribə bir alət eləyib icad.
Xəcalət çəkəntək düşməndən düşmən
Utandı alimin bu hünərindən.
Sarayda bir küncdə xəyala daldı,
Onun dar qəlbini bərk həsəd aldı.
O zərif sənətin, o xəzinənin
Sirrini bilməkçin düşündü dərin.
Xəyala gedərək bir xeyli müddət,
Gecəli-gündüzlü çəkdi əziyyət.
Axır, əzab çəkib aylar uzunu,
Bu sirli kələfin tapdı ucunu.
Öz iti əqlinin köməyi ilə
Bildi ki, saz necə gəlirmiş dilə.
O səslər qulağa nə sayaq çatır





Ki, bəzən yatırdır, bəzən oyadır.
Bildi ki, o sazda necədir nisbət,
Düzəltdi belə saz o da, nəhayət,
Səhraya gedərək sazını aldı,
Bihuşluq gətirən havanı çaldı,
Heyvanlar eşidib, getdilər huşdan.
O, başqa bir hava çaldı bu zaman,
Bu dəfə olmadı ona bəxti yar,
Huşsuzlar yuxudan oyanmadılar.
Nə qədər çaldısa, bəlkə birtəhər
Yatmışlar ayılıb huşa gəlsinlər,
Olmadı...Kökləti sazı hər sayaq,
Özü də bu işə mat qaldı ancaq..
Aciz qaldığını özü görəndə
Axtardı əlacı müəllimində.
Gedib özü oldu ustada təslim,
Başladı almağa həvəslə təlim.
Soruşdu: "Huşsuzu huşa gətirən
O hansı havadır, bilməyirəm mən.
Hansı pərdələrdən çıxır o avaz?
Nə cürə köklənsin onda gərək saz?"
Əflatun gördü ki, o böyük insan
Yalvarıb öyrənmək istəyir ondan.
Çöldə bir xətt çəkib, sazını aldı,
Kökləyib, bildiyi havanı çaldı.
Nə qədər şir və gur var biyabanda
Yığılıb gəldilər səsə bir anda.
Birinci havanı çalanda, yenə
Baş qoyub yatdılar Məndəl xəttinə[112].
Başqa bir hava da çaldı o ustad.
Ərəstu özü də yatdı o saat.
Əflatun bir hava çaldı bu zaman,
Heyvanlar ayıldı yenə yuxudan.
Başqa bir hava da çaldı yenidən.
Ərəstu sıçrayıb qalxdı yerindən.
Mat-məbhut yerində durub dayandı,
Bilmədi heyvanlar necə oyandı.
Nə oldu onları huşa gətirən,
Nə oldu onlara hərəkət verən?
Bildi ki, o alim, o sahibhünər
Sirri gizlətmişdir ondan bu təhər.
Ondan üzr istəyib, çox dua etdi,
O da gizlin-sirri buna öyrətdi.
Öyrənib bunları yazdı Ərəstu,
Özü yazdığını dəftərdən pozdu.
Ustadın hünərin eləyib iqrar,
Ehtiram göstərdi ona o ki var.
Şah bildi kimdəymiş əsil istedad,
Rumda Əflatundur elmə baş ustad.
O da rütbəsini artırdı onun,
Sarayda uca yer tutdu Əflatun.

## ƏFLATUNUN KEÇMİŞDƏN HEKAYƏ SÖYLƏMƏSİ

Müğənni, çəngini yenə saz elə,
Xoş sözçün səsini xoşavaz elə.
Könlünü şad elə sən o çəng ilə,
Gəl nəvaziş eylə xoş ahəng ilə!
Güldü ertəsi gün üfüq zəfərlə,
Gecə vidalaşdı qızıl səhərlə.
Səma çəmənində günəş gül açdı,
Ay da balıq kimi sulara qaçdı.
Öz qızıl taxtına çıxdı İskəndər
Belində gövhərlə bəzəkli kəmər.
Yenə alimlərdən bir məclis qurdu,
Əflatun hamıdan başda oturdu.
Əsrarlı sazına şah qalıb heyran,
Təəccüb içində soruşdu ondan:
"Ey hikmətli qoca, ey nurani pir,
Sizin əqlinizə əyandır hər sirr.
Bilik qıfılına sizsiniz açar,
Bilik sayənizdə olubdur aşkar.
Keçmiş alimlərdən verin bir xəbər,
Olubmu sizdən çox bilən bir nəfər?
Sizdən əvvəlkilər elə bir xəyal
Edibmi ki, ola sizinçün mahal?"
Əflatun padşaha dua edərək,
Dedi ki: "Firuzə rəngli bu fələk
Cürbəcür əfsunlar edib ixtira
Ki, bizim əqlimiz yetməz onlara.
Keçmişdə alimlər görüb çox işlər,
Çox əfsun, çox hiylə icad etmişlər.
Doğrusu, onların indiki zaman
yüzdə birini də yoxdur anlayan!
Şah izn verərsə, o sirlərin mən
Deyərəm onda yox, yüzdə birindən."
Bu işə razılıq verdi İskəndər,
Danışsın onlardan alim bir qədər.
Əflatun söylədi: "Var ol, hökmüdar,
Sənin elmə, fənnə məhəbbətin var...
Deyirlər buxarla alov əl-ələ
Verib bu dünyaya saldı zəlzələ,
Bu qüvvət yerlərin bağrını yardı,
Bir düzdə tilsimli bir daş çıxardı-
Mis ilə qalaydan xilqətin əli
Sanki yaratmışdı bir at heykəli.
Heykəlin böyründə bir oyuq vardı,
Suların açdığı yerə oxşardı.
Günəş bu oyuqdan nur saçan zaman
Bir sehir görərdi orda hər baxan.
Bir çoban keçəndə bu geniş düzü
O sadə yarğana sataşdı gözü.
Orda panitılı tilsimi görcək
Endi tez çuxura bir anda zirək
O misdən yaranmış at heykəlinin

Böyründə bir oyuq göründü, dərin.
Gün işıq salmışdı həmin oyuqdan.
Seyr etdi heykəli diqqətlə çoban.
Orda çox köhnə bir meyid gördü ki,
Heç əskik deyildi onun bir tükü.
Onun barmağında bir üzük vardı,
Qaşı Müştəritək par-par yanardı.
Çoban tez əlini uzatdı ona,
Çıxarıb üzüyü aldı ovcuna.
Üzüyü ovcunda çevirdi, baxdı,
Sonra barmağına sevinclə taxdı.
Ayrı şey tapmadı baxdısa hara,
Daha ləngiməyib çıxdı bayıra.
Sürdü sürüsünü, getdi sevincək,
Səhəri gözlədi səbr eyləyərək.
Səmanın möhtəşəm göy bayrağında
İşıq saçan muncuq parıldayanda,
Çoban sürüsünü dağda tərk etdi,
Sürü sahibinin yanına getdi.
Ora getməyindən bu idi məqsəd:
Üzüyü göstərib, öyrənsin qiymət.
Çobanı önündə görəndə ağa
Başladı onunla xoş danışmağa.
Hal-əhval soruşdu qoyun-quzudan,
Aydın cavab verdi hər sözə çoban.
Çoban ağa ilə söhbət edərkən
Arabir yox olub itirdi gözdən
Bir də görünəndə çoban, tez ağa
Başladı heyrətlə acıqlanmağa:
"Bu nədir, arabir itirsən gözdən,
Yenə də gözümə görünürsən sən?
Əfsunçu olubsan durduğun yerdə,
Hardandır tapdığın bu sirli pərdə?"
Çoban bu sözlərə heyrət edərək,
Bu işə əqlindən istədi kömək.
Çoban ağasıyla söhbət edəndə;
Üzüklü əlini o tərpədəndə,
Üzüklə qaşı da hey burulurdu,
Gah altda, gah üstdə gəlib dururdu.
Qaş üstə çevrilib durduğu zaman
Görürdü çobanı ona hər baxan.
Qaş ovcun içində olanda isə
Onu görməyirdi artıq heç kimsə.
Elə yaratmışdı üzük yaradan
Gözə görünməzdi taxsa hər insan.
Çoban başa düşüb sirli oyunu,
Gedib dağda, daşda sınadı onu.
Qayıdıb üzüklə qurdu min kələk,
Necə ki, ulduzla oynayır fələk[113].
Gözə görünməmək istəyən zaman
Qaşı çıxarmazdı əsla ovcundan.
Nə zaman istəsə görünsün, yenə
Qaşı çevirirdi o öz yerinə.
Bu yolla şəhərdə qurub oyunu,
Yetirdi yerinə hər arzusunu.
Bir gün də bu sirrə qızışdı başı,
Ovcunun içinə alaraq qaşı,
Əldə hindli qılınc, saraya keçdi,
Şahın düz önündə gizli əyləşdi.
Dağılıb gedəntək ordan adamlar,
Şahın gözlərinə göründü aşkar.
Bu haldan ürəyi qorxuyla doldu,
Çarəsiz qalaraq şah təslim oldu.
Təlaşla soruşdu: "Aç mətləbini,
De, kimdir göndərən buraya səni?"
Çoban cavab verdi: "Mən peyğəmbərəm,
İman gətir, səni xoşbəxt eylərəm.
İstəsəm heç görməz məni bir adam,
Mənim möcüzəm də budur, vəssalam!"
Ona beyət etdi şah qorxusundan,
Bütün əhali də gətirdi iman.
Çobanın hörməti artdı, ucaldı,
Axırda şahlığı əlinə aldı.
Gör varmış o qaşda nə böyük hikmət
Ki, çoban peyğəmbər oldu, nəhayət!
Bir bax qaş qayıran o alimlərə,
Gör hikmət çatıbmış onda nə yerə!
Sehir gərək belə edilsin icad.
Bizimtək alimlər qalsın ona mat.
Nə qədər düşünüb daşındımsa mən.
Gəlmədi bu sirri açmaq əlimdən."
Şah bunu eşidib, elədi səna
Həm o icadkara, həm Əflatuna.
Həmin o məclisdə iştirak edən
Hamı ibrət aldı o hekayətdən.

## İSKƏNDƏRLƏ SOKRATIN ƏHVALATI

Müğənni, o könül açan saz ilə
Mənim də könlümü bir aç, saz elə!
Bəlkə ilham alıb sazın telindən,
Ruma ipək həşyə nəqş eləyim mən[114].
Kainat-işindən xəbərdar olan
Bir alim deyir ki: "Bir zaman yunan
Əhli baş qoşmayıb əsla bir işə,
Hamı zahidliyi etmişdi peşə;
Dünyada göz yumub istirahətə,
Onlar xor baxırdı zövqə, şəhvətə,
Çox bilmək, az yemək yolu tutaraq,
Hamı riyazətlə məşğuldu ancaq.
Hətta varlılar da min əzab çəkər.
Dünya ləzzətindən elərdi həzər.
Guya ki, bilikli, ağıllı olan
Bu dünya zövqünə uymaz heç zaman.
Qadından, şərabdan çəkmişdilər əl,
Guya bunlar əqlə gətirər xələl.
O yerə çatdı ki, belə bir adət
Onların nəslini kəsdi nəhayət. -





Qadından uzaqda yaşamaq üçün
Qurudan dənizə köçdülər bütün.
Ayırdı qadını kişidən onlar,
Ayrı bir gəmidə qaldı qadınlar.
Kişilər qan alıb damarlarından
Uzaq yaşadılar daim qadından.
Bu qayda düzgün bir qayda deyildi,
Odur ki, onların nəsli kəsildi."
Şahın əmri ilə yenə bir səhər
Toplaşıb məclisə gəldi alimlər.
Saray ağasına şah verdi fərman:
"Heç kəsi yanıma bu gün qoymazsan!
Bir də ki, xəbər ver qoy gəlsin Sokrat,
Tərkibdə, ixlatda o böyük ustad!"[115].
Xidmətçi fərmana əməl eylədi,
Sokratı taparaq ona söylədi:
"Dəyiş paltarını, bəzəkli geyin,
Şahın hüzuruna gəl gedək, yeyin!"
Dünyagörmüş alim buna uymadı,
Onun təklifinə məhəl qoymadı.
Dedi: "İskəndərə get eylə bəyan:
Bir şey tapmayacaq əsla bu yoldan.
Çünki indi başqa aləmdəyəm mən,
Yalnız xəyalımdır burda görünən.
Haqsevər adamsa məni axtaran,
Tapa bilər ancaq haqq dərgahından..."
Qasid qulaq asdı həmin sözlərə
Gəlib xəbər verdi tez İskəndərə.
Şaha günəş kimi oldu aşikar,
Sokrat bir şamdır ki, xəlvətdə yanar.
Aytək gecə oyaq olmasa hər kəs
Axtarıb o şama yol tapa bilməz.
İskəndər hərçənd ki, sahib-tac idi,
Biliyə, hikmətə çox möhtac idi.
Ən gözəl gövhəri seçib hər zaman
Aqillər yollardı şaha ərməğan.
Ona alimlərdən hər bəxşişindən -
Kəlamı, söhbəti, hər bir işindən
Daha xoş gələrdi Sokratın sözü,
Fikri aydın idi, açıqdı gözü.
Şahın bilik sevən könlü o gün də
İstədi Sokratı görsün önündə.
Dedilər: "Xəlvətə çəkilib daim,
Xalq ilə get-gəli kəsib o alim.
Elə üz döndərib dünya işindən.
Gorda dürr tapıbdır qoca, deyəsən.
Qohumdan, qardaşdan üz döndərərək
Yaşayır kənarda, bir bucaqda tək.
Candan xidmət etsə bu cahan ona,
O yenə üz tutmaz əsla cahana.
Tərgidib tamamən o, ət yeməyi,
Palaza bürünüb, atıb ipəyi.
O hər cür yeməyə edir qənaət,
Bir az qovut eylər ona kifayət.
İbadət eləyir tənha, kimsəsiz,
Tapmayır yanına bir kimsə yol, iz.
Əql ilə dost olub Nizami təkin,
Ondan dərs alıbdır Nizami yəqin..."
Şaha təsir etdi verilən xəbər,
Sokratı daha çox sevdi İskəndər.
İnsanın belə bir xasiyyəti var:
İraq gəzənləri çox yada salar.
İnsandan qaçana, - belədir adət,-
İnsan daha da çox göstərər rəğbət.
Sokrat da eldən üz döndərdiyindən
Hamı onu görmək istərdi hökmən.
Şah onu nə qədər dəvət etdisə,
O məhəl qoymadı əsla məclisə.
Çox rica elədi ondan hökmüdar,
Onun ürəyinə etmədi bu kar.
Alimin gözəltək naz etməsinə
Naz çəkən hökmüdar dözürdü yenə.
Özünə ən məhrəm olan bir nəfər
Çağırdı yanına bir gün İskəndər,
Göndərib alimin tək hüzuruna,
Dedi ki, gizlicə söyləsin ona:
"Səni dəfələrlə mən dəvət etdim,
Var idi səninlə məhrəm söhbətim.
Bilmirəm nə üçün rədd elədin sən,
Hörmətin qədrini niyə bilmirsən?
Mənim dərgahımdan nədir bu həzər?
Buyur gəl, ya da ki, bir səbəb göstər.
Üzrünü isbat et ya açıq-aşkar,
Ya söylə, başqa bir məramınmı var?"
Qasid bu fərmana əməl eylədi,
Şahın sözlərini Sokrata dedi.
Dünyagörmüş alim, o alicənab
Qasidə söylədi belə bir cavab:
"Doğrudur, çağırıb məni hökmüdar,
Mənim də, pis-yaxşı, öz düşüncəm var.
Düşüncəm getməyi görmür məsləhət,
Çünki şahda yoxdur mənə məhəbbət.
Getməmək üçün də vardır çox dəlil,
Hara oynamağa gedib Cəbrail?[117]
Saraya getməyə edərdim rəğbət,
Görsəydim dəvətdə bir səmimiyyət.
Bilinər nafə müşk bağlasa əgər,
Çünki o bu zaman xoş qoxu verər.
Dostluq iddiası edən bir ürək
Sözdən başqa çox şey bildirə gərək.
Bir könül məhəbbət elərsə izhar,
Çox şeylə seçilər ondakı rəftar.
Şahın məclisinin o məhrəmləri,
Onun həmsöhbəti və həmdəmləri
Yolumu bataqlıq ediblər mənim,
De, necə oradan keçsin köhlənim.
Yəqin ki, məclisdə söhbət edərkən
İskəndər yaxşı söz deməyib məndən.

Odur ki, padşahın yaxın dostları
Dostluqla baxmırlar heç mənə sarı.
Şahın ürəyini adamtanıyan
Qiyas ilə bilər adamlarından:
Şahın adamları danışsa yumşaq,
Onda olar şaha ümid bağlamaq.
Kobud danışsalar səninlə yaqin,
Bil ki, şah bəsləyir sənə qarşı kin.
Səhnənin günbəzi düz olsa əgər,
Köklənməmiş tel də gözəl səslənər[118].
Günbəzin bir yeri olarsa xarab,
Xoş səsli adam da alar pis cavab.
Evdən çıxan pislik, yaxşılıq, yəqin,
Əslini göstərər ev yiyəsinin.
Doğrudur, sən özün "Gəl, gəl!" deyirsən,
Dostlarından "Get, get!" eşidirəm mən.
Onlar coşub-daşır coşğun dənizək,
Belə vurhavurda mümkünmü gəlmək?
Bu ona bənzər ki, dərin bir dərya:
"Məndə dürr-gövhər var!" deyə, çağıra.
Ancaq ağzı açıq dura nəhənglər,
Ora dürr dalınca, söylə, kim gedər"
Qapında: "Uzaq ol!" deyənlər varkən,
Orada nə cürə şəfəq saçım mən?
Məni şah yanında pis göstərənlər
Mənə yox, özünə yamanlıq eylər.
Tək olan tanrıya pənah gətirən
Bir qul heç qorxarmı dünya əhlindən?
Mən bu qulluğumla ağayam sənə,
Gəlsəm hüzuruna, qul ollam yenə!
Baxsan bu məqama ağlın gözüylə
Bilərsən nə üçün ucadır belə."
Şahın xidmətçisi qayıdıb geri,
Ərz etdi hüzura bütün sözləri.
O, dürr süfrəsindən örtüyü açdı,
Şahın ətəyinə dürr-gövhər saçdı[119].
Gövhər baxş etməkdən bezmədi mədən,
Şah isə yoruldu gövhər seçməkdən.
Düzdür, sərt olsa da Sokratın sözü,
Bəyəndi onları İskəndər özü.
Bildi, onu ancaq xəlvətdə görər,
Piyada yollandı ora İskəndər.
Gördü ki, yaşayır çox pərişan, tək,
Xərabə guşədə bir xəzinətək.
Dünya gərdişinə yumub gözünü,
Hücrəyə çəkmişdi Sokrat özünü.
Şahın ürəyini bu hal qanatdı,
Tərpədib ayaqla onu oyatdı.
Dedi: "Qalx ayağa, mənə qulaq as,
Eyləyim dünyada səni biniyaz."
Alim gülüb dedi: "Bu qüdrətin var,
Məni yox, get, başqa bir adam axtar.
Kim qane olarsa bir ovuc dənə,
Dönməz dəyirmantək sənin dövranə!
Arpa çörəyinə edib qənaət,
Buğda çörəyinə çəkmərəm minnət.
Evdə bir arpası olmayan bir kəs
Yarım arpa qədər minnət götürməz.
Bir saman çöpündən yoruluram mən,
Dağ boyda yük alım çiynimə nədən?"
Şah dedi dübarə: "Ey nəcib insan,
Mal-dövlət, nə desən, eylərəm ehsan!"
Alim verdi şaha qürurla cavab:
"Gəl, məntək adama vermə sən əzab,
Mən qat-qat varlıyam hümmətdə səndən,
Mən bir azyeyənəm, sənsə çoxyeyən.
Bu geniş dünyaya maliksən özün,
Ancaq bu süfrədən doymayır gözün[120].
Mənsə, qorxmasaydım isti-soyuqdan,
Bax, bu şəltəni də atardım çoxdan.
Bu qədər ağır yük altındaykən sən,
Mənim tələbimi necə ödərsən?"
Hökmüdar söylədi: "Ver görüm cavab,
Sən kimsən, məni kim edirsən hesab?"
Belə cavab aldı padşah qocadan:
"Mən fərman verənəm, sən fərman alan!"
Şaha acıq gəldi, söylədi ona:
"Bu örtülü sözdən de, nədir məna?"
Yenə cavab verdi ağıllı Sokrat:
"Dinlə, mənasını deyim bu saat:
Mənim həvəs adlı bir nökərim var,
O daim önümdə fərmanla durar.
Həmin on nökərin nökərisən sən,
Mənə qul olana qulluq edənsən!"
Padşah bu sözlərdən dərsini aldı,
Utanıb, başını aşağı saldı.
Şah ona dedi ki: "Üzümdəki nur
Mənim pak fikrimə aydın sübutdur.
Sən paksan, paklardan düşmə uzağa,
Diriykən boş yerə girmə torpağa!"
Sokrat verdi ona gümüştək cavab:
Dedi ki: "Qulağa tökülməz simab![121]
Səndə ki pak olmaq iddiası var,
Bəs niyə heyvantək edirsən rəftar?
Əlbəttə, tələsən bir heyvan ancaq
Oyadar insanı təpik vuraraq.
Mən yatmış, sən oyaq olan zamanda,
Təpik niyə vurdun bəs oyadanda?
Oyatdın hirslənib çox yatmağımdan,
Halbuki sən özün çoxdan yatıbsan!
Yatıb dovşan kimi, coşub pələngtək,
Gəl, ayıq aslanla qovğadan əl çək.
Özünə ov axtar, get, dolan bir az,
Mənimtək aslandan sənə ov olmaz!"
Bu qızğın danışıq təsir edərək
Şahın ürəyini yumşaltdı mumtək.
Sonra o, alimə eləyib minnət,
İstədi bir qədər öyüd-nəsihət.





Pərhizkar qocanın hiddəti getdi,
Şirin bir dil ilə o söhbət etdi.
Şahı nəsihətlə qane eylədi,
Ona öyüd verib belə söylədi:
"Əlində yumşalsa dəmir, bunu bil,
Tədbirlə yumşalar, hiddətlə deyil!
Qəlbi də, istəsən, bu sayaqla sən
Parladıb aynatək edə bilərsən.
Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından[122].
O qədər saf qəlbli, pak vicdanlı ol,
Mənəvi sirləri edəsən qəbul.
Pis olan şəxslərə vur qara damğa,
Çalış öz qəlbini saflaşdırmağa.
Qəlbiqara kəsin dili düz deyil.
Olmaz hər zəncidən bir Xacə Müqbil[123]
Zəncinin zahiri qaradır, ancaq,
Sən ağzından çıxan saf sözlərə bax.
Qara olsan əgər, söyüd kimi yan,
Zəncinin dişini odur ağardan[124].
Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qaradırsa, ürəyi ağdır!
Dirilik suyunu Zülmatda sanan
Alimlər o hökmü çıxarıb burdan[125].
Xıltdan ayrılmağı öyrən gümüşdən,
Çalış, gümüş kimi saf, təmiz ol sən!
Bir idrak nurani olarsa əgər,
Bu tutqun günbəzə qalxıb yüksələr[126].
Ləkəsiz, tərtəmiz saf səhər çağı
Allah sirlərinin olar ocağı.
Açsan pəncərədən sən pərdələri,
Onda işıq salar günəş içəri.
Günəşə göz yumub, yandırsan çıraq,
Külək söndürəcək onu, bil ancaq.
Günəşin nuruna yedəkçi ol sən,
Səni tərk etsə də, düşmə ümiddən[127].
Süpürüb təmizlə qapı-bacanı,
Heç qonaq çağırma sonra sultanı.
Ova gedən zaman sataşar gözü
Qapına-bacana, tez gələr özü.
O gəlsə yanına qonaq qalmağa,
Bizdən salam söylə sən o qonağa.
Bu qapıya gəldin, məğrur olma sən,
Əl çək boş, mənasız mənsəb güdməkdən.
O xas məclisini qəbul et candan,
Yoxsa qoymaz səni içəri dərban.
Palçıqlı başmaqla o təxtə sarı
Getmə, yolda çıxar sən başmaqları.
Şah ilə həmsüfrə olmaq istəsən,
Dırnaqlarını tut, əlini yu sən.
Şir-nər olsa da, heç kimsə, əlbət,
Taxt üstə çıxmağa etməz cəsarət.
Taxtə naqş edilmiş o bir cüt aslan
Dönmüşdür taxtaya taxt qorxusundan.
Sənin dərgahına gələn bir nəfər
Yolunu azarsa, bol sillə yeyər.
İndi sən bir düşün nə dərgahdasan
Gör necə, hansı bir seyrəngahdasan?[128]
Bu qapı önündə olmalısan qul,
Yolun bura düşsə, gəl, ədəbli ol!
Özünü sayırsan əgər hökmüdar,
İtlə, gözətçiylə, de, nə işin var?
Düzdür, tünd danışdım səninlə, amma
Budur xasiyyətim, məni qınama!
Bu yanar ürəyim o zaman göyə
Getmişdi, seyr edib sirr öyrənməyə.
İndi qayıtmışdır, gətirdiyi sirr
Bunlardır, söylədim mən sənə bir-bir.."
Qoca bu saf, təmiz sözləri dedi,
Bu sözlər şaha çox əsər elədi.
Üzü günəş kimi işıqlı, parlaq,
Tələsdi saraya ordan çıxaraq.
Əmr etdi katibə, o da diqqətlə
Yazdı bu sözləri zərli bir xətlə.

## HİNDLİ HƏKİMİN İSKƏNDƏRLƏ SÖHBƏTİ

Müğənni, çal, oxu, dilə gəlsin saz!
Bülbüllər bağlarda sakit dayanmaz.
Qızışsın ürəyim sənin nəğmənlə,
Mənim də lal könlüm qoy gəlsin dilə!
Həmin dünyagörmüş filosof dedi:
"Bu hikmət şaha çox təsir elədi.
Şadlığı mənasız görüb dünyada,
O, meyi, məzəni salmadı yada.
Açıldı səhərin zərrin pərdəsi,
Göründü günəşin gülər çöhrəsi.
Bilik ayinilə İskəndər yenə
Çıxdı öz möhtəşəm şahlıq taxtına[129].
Bir xadim təzimlə gətirdi xəbər
Ki, gəlib hüzura Hinddən bir nəfər.
"Şaha deyilməli sözüm var", deyir,
Şahın hüzuruna izin istəyir.
Eşitcək, buyurdu ona İskəndər
Ki, muğu Günəşə tez yetirsinlər[130].
Şahın əmri ilə göstərib hörmət,
Elçini saraya etdilər dəvət.
Ədəblə, ərkanla, o muğ əyildi,
Atəşin önünə təzimlə gəldi[131].
O parlaq günəşi taxt üstə görcək
Ona səcdə etdi atəşpərəsttək:
Şahın fərmanıyla xidmətçilər də
Onu oturtdular layiqli yerdə.
Məclisdə yerdən ta göylərə qədər
Hər şeydən çox şirin söhbət etdilər.
Hər kəs bacardıqca ürək sözünü
Deyib göstərirdi orda özünü.

Növbə o hindliyə yetişən vaxtda
Təzə gül açıldı köhnə budaqda[132].
Elə sirli sözlər dedi məclisə
Ki, məlum deyildi onlar heç kəsə.
Nurdan bəzək vurdu fələk bağına,
Dürdən sırğa asdı yer qulağına[133].
Elə sənə etdi o müğ padşaha,
Sanki işıq saçdı bütün bargaha.
Hindli sənasını tamam elədi,
Sözün pərdəsini açaraq dedi:
"Pərvanə zülmətdə yanan çırağa
Uçantək, gəlmişəm mən də bu bağa[134].
Bəlkə çıraq mənə dostluq göstərə,
Bu tutqun könlümə bir işıq verə.
Mənəm hindlilərə rəhbər, pasiban,
Bədəncə qocayam, fikircə cavan.
Mənim başıbağlı çox sözlərim var,
Onları şərh edən az-az tapılar.
Deyirlər: dünyada hər elmi bilən,
Bilik dövranının başçısı sənsən.
Bir sapa düzülmüş gövhərdir əqlin,
Müşkül düyünlərə açardır dilin.
Həm taxt sahibisən, ucadır taxtın,
Həm bilik vermişdir sənə öz baxtın.
Sorğuma düz cavab alarsam səndən,
Günə sitayişdən əl çəkərəm mən.
Yox, cavab almasam suallarıma,
yollanıb gedərəm öz diyarıma.
Bircə şərtim vardır, ərz edim sizə,
Heç kəs qarışmasın söhbətimizə.
Mən bir-bir soruşum, sən də ver cavab,
Ancaq ki, xoşluqla etgilən xitab".
Şah dedi: "Bəhanə axtarma nahaq,
Aç sirri, sual ver, biz qulaq asaq!"
Hindli təzim ilə yeri öpərək,
Sıyırdı dilini hind qılıncıtək.
Şahı layiqincə tərif elədi,
Dünya işlərindən söz açıb dedi:
"De, nə cür ayrılsın ruh bədənimdən,
Qovuşum allaha hansı yolla mən?
Bilirəm, yaradan birdir dünyanı,
Harda tapmaq olar bəs yaradanı?
Özü gizlindədir, nişanı aşkar[135],
O bağlı qapını mənə kim açar?
Mənalar sahibi olan o vücud
Hardadır, yerdəmi, göydəmi mövcud?
Təsəvvür etməkmi, görməkmi olar?
Hardadır, nə deyim, əgər sorsalar?
Yerdəmi, göydəmi, hardadır, deyin.
Onun varlığını isbat eyləyin!"
Şah dedi: "Cavabı belədir bunun:
Bu söz həm qısadır, həm də çox uzun.
Özündən üzünü çevirən zaman
Allahın yolunu tapmış olarsan!

Ona yer axtarmaq doğru sayılmaz,
Yeri yaradanın öz yeri olmaz.
Heç kəs açə bilməz onun sirrini,
Tapmaz düşüncə də əsla yerini.
Düşüncə göz ilə görülə bilən
Şeylərə yol tapar, belədir əslən!
Allahı xəyalda olmaz axtarmaq,
Xəyaldan doğan şey divlərdir ancaq[136].
Bir şeyin əslinə çatarsa xəyal,
Onun yaranması deyildir mahal.
O şey ki, sığmayır insan ağlına,
Dünyanı yaradan deyirik ona.
Bu yolu qəflətlə getmək yaramaz,
Bulud örtər Ayı, göz yumsan bir az.
Haqqı tanımaqçın bəsdir bir nişan.
Bura yetişdinmi, daha dur, dayan![137]
Haqqı tanımaqçın bunlar deyil az,
Allahı tanıyan bu həddi aşmaz.
Bu sirli pərdəyə nə lazım daha
Axtarmaq ibtida və ya intəha?"
Şahın cavabını hindli dinlədi,
Yenidən suallar verərək dedi:
"Bu yerdə, bu göydə nə varsa, əlbət,
Bütün mövcudata var bir nəhayət.
Bəs bu kainatdan, de görüm, kənar
Başqa bir aləmə gedən yolmu var?
Var isə, nə üçün bilmir heç bir kəs?
Yox isə yoxluğa heç bir yol getməz."
Şah dedi: "Köhnədir bu məsələlər.
Təzə bir söz söylə, varınsa əgər.
Bu yerdən, bu göydən kənar çıxma sən,
Yoxsa sərriştəni lap itirərsən[138].
Bizə yeddi hüdud çəkmişdir fələk,
Onlardan kənara çıxmayaq gərək[139].
Bundan çıxma kənar, həddini tanı,
Qılınc, teşt gözləyir kənar çıxanı[140].
Bu uca barigah - uca bir hasar,
İçində əsirdir bütün xəyallar[141].
Aşa bilməz ikən onu fikirlər,
O yandan nə cürə gətirər xəbər?
Bunu həll etməkçin var bircə düstur:
Əqildə görünməz şeyə yer yoxdur!
Görünməz bir şeyi düşünsən əgər.
Hər səyin, zəhmətin gedəcək hədər.
Bir çox adamları gözlə görmədən
Təsəvvür elədim xəyalımda mən.
Ancaq həqiqətdə rastlaşan zaman
Gördüm ki, başqadır tamam o insan.
Üstüörtülü bir başqa cahan var,
Orda mümkün olar bu axtarışlar."
Hindli yenə sordu o hökmdardan:
"Nə üçün ikiyə bölünmüş cahan?
Bu cürə bəzəkli bir dünya varkən,
Bir də başqa dünya axtarmaq nədən?





Yaşamaq olursa burada mümkün,
Başqa bir dünyaya köçmək nə üçün?
Əgər orda isə bizim yerimiz,
Əvvəlcə bəs bura neçün gəldik biz?"
Əqilli şah dedi: "Bil, ey sadədil,
Öyrən, könlündəki o tozları sil!
Düzdür, iki dünya yaratmış xuda.
Xəzinə ordadır, açarı burda.
Çalışıb nə əksən bu dünyada sən,
Onun məhsulunu orda biçərsən.
Burda bütün şeylər dəyişir hər an.
Orda əbədidir hər şey, hər zaman.
Yaradan çəkmişdir iki cür pərgar:
Burda zəhmət çəkən orda əcr alar.
Bura bir körpüdür, keçmək gərəkdir,
Sel axıb dənizə töküləcəkdir.
Dağlardan süzülüb axan hər bulaq
Dənizə qovuşar axırda ancaq."
Qoca hindli yenə soruşdu ondan:
"Nədir bu bədənə həyat verən can?
Onu atəş kimi zənn edirəm mən,
Oddan bir şərarə almış hər bədən.
Can da ölüb gedir, sönür atəştək,
Buna şəkk-şübhə olmaya gərək?"
Bu sözdən od tutdu sanki İskəndər,
Saldı o hindliyə odlu bir nəzər,
Dedi: "Əhrimənlik sənin şanındır,
Oddan törənən can sənin canındır.
Yoxsa bilmirsənmi, can etsə səfər,
O yenə gəldiyi məkana dönər?
Atəşdən olsaydı insanın canı.
Cəhənnəm olardı onun məkanı.
Deyirsən: can daxi çıraqtək sönər.
Qələtdir tamamən dediyin sözlər.
Uca bir aləmdən gəlmiş bizə can,
Yenə ora dönər, ölməz heç zaman!
Canını tapşıran adam üçün, bil,
"Can verdi" deyərlər, "can öldü" deyil.
Əlbəttə, bu sözdə vardır həqiqət,
"Verməklə" "ölməyin" fərqi var, əlbət.
Keç ondan, o qüdsi bir işıqdır, pak.
Allahın nurudur, nə sudur, nə xak!"
Hindli bir söz atdı yenə ortaya,
Soruşdu ondan ki: "Bəs nədir röya?
İnsan yatan zaman yuxu görərkən
Nədir xəyalına qol-qanad verən?
Dağları, daşları gəzir röyada,
Min cür sərgüzəştlər görür dünyada.
Əgər orda isə röya görən kəs,
Yerində sərilib yatan kimdir bəs?"
Açıqla söylədi ona hökmdar:
"Röya bir xəyaldır, bədəndən doğar.
Bütün röyaların kökü bədəndir,
Yad deyil, hamısı bu bədəndəndir.

Yuxuda gördüyün canlı, ya cansız,
Sənin öz şamının odudur yalnız[142].
Sənə öz düşüncən göstərir yuxu,
Sənin öz arzundur onların çoxu.
Bilmək istəsən ki, neçin arzular
Yatmış bir adama görünür aşkar?
Hər qeyddən asudə olanda xəyal,
Ona gizlin qalmaz artıq heç bir hal.
Riyazət çəkənlər, bilmirsən məgər,
Ayıqkən ən gizlin sirləri bilər.
O sirr ki, başqası görər röyada
Onlar ayıq ikən görər dünyada."
Hindli yenə şahdan sual elədi,
Gövhəri almazla deşərək dedi:[143]
"Pis gözdən sən uzaq olasan, ey şah,
Gəl elə bir məni pis gözdən agah.
Necə bir qüvvədir, söylə, bəd nəzər
Ki, öz sevdiyini gözə gətirər?
Təcrübə sahibi, müdrik bir insan
Ondan daha pis şey görməyib, inan!
Bəyənilən şeyi görsə xoşnəzər,
Ona gözəl şeylər əlavə edər.
Hər şeyi bəyənsə bədnəzər, ancaq
Onu tələf edər, qoymaz qala sağ.
Biz hansı peşəni etdiksə tədqiq.
Görmədik bir sözü, əməli dəqiq.
Bircə o bəd nəzər oxunu atan
Dümdüz nişanəyə vurur hər zaman.
De görək bir, nədir ondakı qüvvət,
Neçin üzərriklə dəf olur afət?
Nə bilim, birinə rast gəlsəm əgər,
O qəlbitəmizdir, yoxsa bədnəzər?"
Şah dedi: "Düşünüb alimlər incə.
Bundan çıxarıblar belə nəticə:
Şübhəsiz, hər şeyə düşərsə nəzər,
Havadan keçərək eləyər əsər.
Bu zaman havayla birləşir, yəqin,
Odur ki, təsiri artır nəzərin.
Dəydiyi nöqtəyə göz salar bir iz.
Hava da o yerə bir yol tapar tez.
Əgər sağlam olsa hava bu zaman,
Dəydiyi şeylərə yetirməz ziyan.
Yox, əgər olarsa havada zəhər,
Dəydiyi hər şeyi yəqin məhv edər.
Göz, dəyən hər şeyə tək özü deyil,
Havayla birlikdə zərər verir, bil.
Zənnimcə, burda bir başqa sirr də var.
O hələ bizlərə deyildir aşkar:
Bədnəzər tək özü eləməz təsir,
Səbəbkar - qarşıda cilvələnəndir.
Bədnəzər, önündə gözəl şey görcək,
Ona nəzər salıb cəza verəcək.
Gözəl şey olmalı ondan uzaqda,
Yolundan gözündən daim iraqda.

Gözünə görünsə bir gözəl surət,
Əz çirkin işinə başlar o əlbət.
Hər kim xoş görünsə gözünə onun
Tez tələf edər ki, olmasın məftun.
Birinə bəd nəzər dəyərsə əgər,
Dəyişər əhvalı, tez-tez əsnəyər.
Bədnəzər olarsa əgər bir insan
Alnı hərarətdən tərlər çox zaman.
Bu iki əlamət aydın göstərər:
Kimdir gözə gələn, kimdir bədnəzər.
Üzərlik yaxarlar göz dəyən üçün,
Od yaxıb-yandırar dərdi büsbütün.
Başqa alim isə belə şərh edir:
Üzərrik yananda tüstüsü gedir,
Qara pərdə kimi tutur havanı,
Qaytarır, rəf edir gələn bəlanı."
Rumipərəst hindli doymaq bilmədi.
Öz hind qılıncını çəkərək dedi:[144]
"Yaxşını, yamanı, deyin, nə təhər
Verir qabaqcadan münəccim xəbər?
Bir əməl ki, üzə çıxmayıb hələ,
Xoşluğu, bədliyi gələrmi dilə?"
Diqqətlə yetirib hindliyə nəzər
İlahi kəlamla dedi İskəndər:
"Dünyada nə varsa - yaman və yaxşı,
Göylərin tağına çəkilib naxşı.
Münəccim rəmlini atdığı zaman,
Taleyin naxşını oxuyur ordan.
Zəmiyə səpilmiş toxumun bir-bir
Necə bitməsini bilir, bildirir.
Bizə üz verəndə bir gün ehtiyac,
Eldir dərdimizə yaradan əlac.
Baxıb arzumuza, istəyimizə,
Açır qədərincə sirləri bizə,
Göndərir bir mələk, əlində açar,
Edir gizli sirri bizlərə aşkar."
Hindli bu şərabdan məst olub qaldı[145],
Nəhayət, qılıncı əlindən saldı.
Sordu ki: "Zənciylə çinli nə sayaq
Biri qara olmuş, o birisi ağ?
Bu küpdə olan rəng yalnız bircədir[146],
Bəs bu ikiliyin səbəbi nədir?"
Şah dedi: "Hərlənən bu kürə, əslən
Özü ikirəngdir, birrəng bilmə sən.
Güzgütək iki üz vardır günəşdə,
Bir üzü Çindədir, biri Həbəşdə.
Bir üzü eləyər üzü aypara,
Bir üzü eləyər kömürtək qara!"
Hindli sualların cavablarından
Qalmışdı şahdakı biliyə heyran.
Ona təslim olub diz çökdü yerə,
Şahın da ucaldı başı göylərə.
Çox şükür eləyib böyük allaha,
- Afərin! - dedilər alimlər şaha.

## İSKƏNDƏRİN YEDDİ ALİM İLƏ XƏLVƏTƏ ÇƏKİLMƏSİ

Müğənni, çal yenə qədim havanı,
Kömək et, bitirim mən bu dastanı!
Dünya dastanından bəlkə birtəhər
Canımı qurtarım, bitsin bu əsər...
Biri nəql edirdi filosoflardan:
"Şaha xoş göründü bu qoca dövran.
Mübarək bəxtindən gəlib hümmətə,
Bol dövlət payladı el-camaata.
Bəxşişin hüdudu, həddi olmadı,
Rumda bir nəfər də yoxsul qalmadı.
Şahlar baş əydilər ona cahanda,
Durdular hamısı qultək fərmanda.
O xoşbəxt padişah bir səhər yenə
Çıxaraq firuzə rəngli taxtına,
Söhbətə başladı insafdan, dindən,
Dürr, gövhər saçdı söz xəzinəsindən
Padişah son qoydu şirin söhbətə,
Meyl edib çəkildi yenə xəlvətə.
Kimsənin qəlbinə heç toxunmadan
Yeddi filosofu seçdi bu zaman:
Ərəstu - tədbirli bir vəzir idi,
Bəlinas - cavanmərd, Sokrat - pir idi.
Valislə Əflatun, bir də Fərfuryus -
Heyrandı bunlara o rühulqüdüs[147].
Yeddinci Hürmüzdü, bilir ki, hamı
Yeddinci göydədir onun məqamı.
Yığışdı dövrəyə bu yeddi pərgar,
Nöqtətək mərkəzdə şah tutdu qərar.
Gözəl bir məclisdi, fikirlər parlaq,
Quru təkəbbürdən, badədən uzaq.
Bu məhrəm məclisdə alnıaçıq şah
Fikrindən onları eylədi agah.
Dedi alimlərə sirri açaraq:
"Sirrimiz nə qədər gizlin qalacaq?
Çox gecə keçirdik biz kef edərək,
Gəlin, bir günü də elmə sərf edək!
Bircə gün baxaraq Günəşə, Aya,
Fələyin sirrini qoyaq ortaya.
Bilək ki, bu öküz belitək çadır
Bu möhkəm yer üstdə necə dayanır?
Əvvəli necəymiş bu göyün, yerin,
Bu haqda fikrini hamı söyləsin!
Ağıla, idraka bir vəzifədir,
Bilsin ki, dünyada ilk tərkib nədir.
Bu yeni əskiltmə və artırmalar
Yoxluqdan nə cürə olmuş aşikar?
Əzəldən nə olmuş xilqətə bais?
Bunu ulduzlardan tədqiq edək biz.
Belə elmi məclis yığılar az-az,
Daha bir də belə məclis yığılmaz.
Görək bu yollarda kim yeyin gedər?



Görək xəzinəni kim tez kəşf edər?
Hərə öz fikrini atsın ortaya,
Necə yaranmışdır, desin, bu dünya?
Onda ki, hökm etmiş uca yaradan,
Əvvəl yer yaranmış, yoxsa asiman?
Qoy açsın bu sirri ağlın açarı:
Necə çiçəklənmiş yerin baharı?[148]
Necə qoyulmuşdur bina əzəldən?
Necə səslənmişdir ilk mahnı teldən?"
Padişah beləcə dürrlər saçdı,
Bağlı xəzinənin ağzını açdı[149].
Sonra da buyurdu: "Cəsarət edən
Danışsın varlığın ilk tarixindən."
Sarsıtdı onları şahın sualı,
Dedilər: "Cavabı layiq olmalı."
Bir səslə dedilər qərar verərək:
"İlk sözə Ərəstu başlasın gərək!"

## ƏRƏSTUNUN DEDİKLƏRİ

Aydın düşüncəli alim Ərəstu,
Böyük tacidara səna oxudu,
Dedi ki: "Elm axtar həmişə, ey şah,
Örtülü sirlərdən ol daim agah.
Haqqın köməyilə şad keçsin ömrün,
Olmasın səninçin açılmaz düyün.
Padşahın əmrinə əməl eləyim,
İlk xilqət haqqında fikrimi deyim:
Əvvəl vardı ancaq tək bir hərəkət,
Onu iki yerə ayırdı sür'ət.
Bu iki hərəkət gəlib bir yerə,
Yeni bir hərəkət doğurdu hərə.
Əvvəlki hərəkət ayrıldı yenə,
Bu üçü qoşuldu biri-birinə.
Üç xətt zahir oldu üç hərəkətdən,
Üç dövrə yarandı ondakı xətdən.
Mərkəzdən ayrıldı həmin dövrələr,
Yaranıb ortaya çıxdı bir cövhər.
Cövhər keşməkeşdən doğub parladı,
"Hərəkət eləyən cism" oldu adı.
Həmin cism qərar tutmayıb bir an
Dönür, hərlənirdi əsla durmadan.
Bu cismin parlayan saf parçaları
Həmişə qaçırdı mərkəzə sarı
Yüksəyə uçanlar etdi hərəkət,
Aşağı enənlər tapdı sükunət.
Parlaq cism hərəkət etdikcə belə,
Ondan parlaq göylər gəldi əmələ,
Göydə meyl edərək öz mərkəzinə
Onun ətrafında hərləndi yenə.
Əvvəlki meylinə bağlı qalaraq,
O, daim hərəkət etdi bu sayaq.
İlk pərgar hərlənib dövr edən zaman
Bu uca göylər də yarandı ondan.

Göyün gərdişindən od oldu aşkar,
Od hərəkət edən qüvvədən doğar.
Odun qüvvəsindən hava yarandı,
Hava istilikdən od kimi yandı.
Havada rütubət bol idi əslən,
Rütubət hərəkət etmədiyindən,
Onun zərrələri çöküb su oldu,
Bu cürə yarandı təmiz, şirin su.
Xılt saldı su daim sakit duraraq,
O xıltdan törədi gördüyün torpaq.
Dörd ünsür yaratdı o pərvərdigar,
Hərə öz yerində oldu bərqərar.
Qatdı bir-birinə onları həyat,
Yaratdı bunlardan bitki, nəbatat.
Bitki də başqa cür artdı, dirçəldi,
Cürbəcür heyvanlar vücuda gəldi.
Bu qədər dərk edir ağıl hikməti,
Uzağa getməyə yoxdur qüdrəti!"

## VALİSİN DEDİKLƏRİ

Alim Valis dedi: "Padşah hər zaman
Bu qoca dünyada yaşasın cavan!
Bilik təlimində bəxti yar olsun,
Elm yollarında daim var olsun!
Şahlar şahı özü verdi ki, fərman:
Hər kəs bildiyini eyləsin bəyan,
Mən də ərz eləyim: dünyaya təməl,
Məncə, su olmuşdur hər şeydən əvvəl.
Qızğın hərəkətdən və çaxnaşmadan
O yerə çatdı ki, od oldu əyan.
İldırım buxardan ayırdı odu,
Bundan rütubətli hava doğuldu.
Suyun qatılığı getdikcə artdı,
Həmin qatılıq da yeri yaratdı.
Cövhərlər yerbəyer olduğu zaman,
Təbiət qoynunda yarandı cahan,
Ən saf və ən lətif cüzündən onun
Yaranıb hərəkət elədi gərdun.
"Sudan bu kainat yarana bilməz".
Deyə inkar etmək istəsə hər kəs,
Nütfəni bir anlıq qoy salsın yada,
Sözümə sübutdur, dəlildir o da!"

## BƏLİNASIN DEDİKLƏRİ

Bilici Bəlinas təzim elədi,
Torpağı öpərək hörmətlə dedi:
"Ey şahım, görüm ki, dünya durduqca
Allahın yanında olasan uca!
Yar olsun əqlinə hər bilik, hər sirr,
Gözü nur, nuru göz ziynətləndirir.
Şah gizli sirləri soruşdu bizdən,
Fikrimi hüzura ərz eləyim mən:





İlkin tilsim kimi yaranmış torpaq,
Qalan tərkiblər də ondandır ancaq.
Hərəkət qüvvəsi ona etdi kar,
Ataşi söndükcə yarandı buxar.
Onun da ən parlaq zərrələrindən
Ulduzlar yaranmış, - fikrindəyəm mən.
Buxarda vəzncə ağır olanlar
Hərə bir mərkəzdə tuturdu qərar.
Onlardan birinci - işıqlı oddur,
Dünyanın ən yüksək tağı da odur.
İkinci - havadır, hərəkətdədir,
Hərəkət etməzsə, bilinməz nədir.
Üçüncü - sudur ki, təravət verər,
Hər şeyə təzəlik, lətafət verər.
Dördüncü - torpaqdır, tapdayır əyyam,
Tapdanan köksündən toz qalxır müdam."

## SOKRATIN DEDİKLƏRİ

Sokratın növbəti yetişən zaman
Sanki xurma yağdı yerə ağacdan,
Dedi ki: "Padişah, şadlıqla ömr et,
Din-bilik yolunda daim öndə get!
Sənə şikar olsun bütün arzular,
Sirlər qarşısında daim aşikar.
Şahın soruduğunu kim deyə bilər?
Çünki çox gizlindir sorduğu sirlər!
Kim necə bacarır fikir söyləsin,
Varını hüzura təqdim eyləsin.
Xilqət səhifəsi açılmamışdan
Bircə vücud varmış, o da yaradan.
Bir bulud yaratmış əzmi, cəlalı,
Şimşəyi, yağışı olmuş faydalı
Onun yağışından yaranmış göylər,
İldırımından da günəş, ay, ülkər.
Maddələr çökdürüb ondakı buxar,
Bu yeri yaradıb etmiş bərqərar!"
Bələdçi getmədi bundan o yana,
Artıq danışmaqda görmədi məna.

## FƏRFURYUSUN DEDİKLƏRİ

Alim Fərfuryus da təzim eylədi,
Torpağı öpərək belə söylədi:
"Ey şah, ömr edəsən durduqca dövran,
Bütün dövranların şahı olasan!
Dünya boş qalmasın ədalətindən,
Çünki zülmü, qəhri qəhr eləyənsən.
Haqsevən padşaha cavab olaraq,
Ərz edim fikrimi mən də bu sayaq:
Hələ bu dünyalar yaranmamışdan
Bir cövhər yaratdı böyük yaradan.
Tanrının feyziylə yetirdiyi bu,
Cövhər bir müddətdən dönüb oldu su.

İkiyə bölündü sonra bu su da,
Yarı üzdə qaldı, yarısı altda,
Bunlar andırırdı müşkü, kafuru,
Yarısı mayedi, yarısı quru[150].
Maye olan hissə etdi hərəkət,
Quru olan isə tapdı sükunət.
Hərəkət eləyən - göy oldu, parlaq,
Sükunətdə qalan - bu yer, bu torpaq.
Mənim də bildiyim bunlardır ki, var,
Düşüncəm çıxmayır bu həddən kənar."

## HÜRMÜZÜN DEDİKLƏRİ

Hürmüz də əl atdı qıfıla sarı[151],
Zənciri çeynədi əqlin açarı.
Düyünü açmadan əvvəl sidq ilə
Şaha dua edib başladı belə:
"Açıla biləcək hər düyünə sən,
Görüm ki, əql ilə üstün gələsən!
Fələk istəyincə eləsin rəftar,
Şadlığın əbədi olsun payidar!
Padşah hər budağın söz bəhərindən
Lütf edib bir meyvə istəyirsə, mən,
Əlbəttə, çıxmaram belə fərmandan,
Mən də öz fikrimi eləyim bəyan:
Düşüncə yoluna düşəndən bəri
Seyr etdim firuzə rəngli göyləri.
Zənnimcə, bu dərya şövkətli göylər
Dağ başına çökən tüstüyə bənzər.
Bu qorxunc tüstünün üstündə ancaq
Bir elə nur var ki, pak, təmiz, parlaq.
Örtmüşdür o nuru tüstü pərdəsi,
Şan-şan görünmədə tutqun çöhrəsi.
Pərdəyə naqş olan pəncərələrdən
İşıqlar süzülür cahana hərdən.
Bizim gördüyümüz Gün, Ay, ulduzlar
Həmin işıqdandır bütün hər nə var.
Vardır bu xilqəti yaradan, fəqət,
Bilmirəm nə sayaq olmuş ilk xilqət.."

## ƏFLATUNUN DEDİKLƏRİ

Əflatun, o ustad, qəlbini açdı,
Dənizdək gövhərlər, dürrlər saçdı:
"Aydın düşüncəli dünya şahından
Dünyada heç bir sirr qalmasın nihan.
Bəxti hər bir işdə ona yar olsun,
Qurtuluş yolunda daim var olsun!
Şahın sorduğunu deyərik şəksiz,
Amma idrakından çəkinirik biz.
Heç yoxdur qorxumuz yanlış sözlərdən,
Çünki bəhs edirik naməlum yerdən.
Düşünüb mən belə verirəm qərar
Ki, yoxdan yaranmış bütün varlıqlar!

Vardan yaratsaydı varı yaradan,
Əbədi qalardı maya hər zaman.
Mayadan doğurmaq - yaratmaq deyil.
Kəndxuda başqadır, xuda başqa, bil!
Bir kəs ki, əql ona ad verib: Qadir,
Özü bildiyini özü xəlq edir[152].
Ayrıca yaradıb o, hər gövhəri,
Vasitə olmayıb burda digəri.
Hər gövhər bəzənib kəmala yetdi,
Ortadan ixtilaf, ziddiyyət getdi.
Bu zidd qüvvələri bir yerə qatdı,
Ağıllı, hünərli insan yaratdı[153].
Bircə qarışqanın qanadında sən
Tanrı qüdrətini görə bilərsən!"

İSKƏNDƏRİN DEDİKLƏRİ

Məclisi xətm etmək məqamı çatdı,
Şah sözün qədrini Aya ucaltdı.
Aləmə günəşdir böyük İskəndər,
Sinəsi nur dolu bir bağa bənzər.
Dövrəyə alaraq şah İskəndəri,
İşığa gəlmişdi nur aşiqləri,
Müdrik olar isə, əlbət, hökmüdar,
Onun ölkəsində müdrik çox olar.
Alimlər deyəni bir-bir eşitdi,
Hər camı ayrıca alıb nuş etdi[154].
Həmin alimlərə əvvəl İskəndər
Allahdan dilədi çox afərinlər,
Sonra söylədi ki: "Ey alimlər, mən
Kainat sirrini xeyli dərindən
Düşündüm, boş, əbəs deyil bu surət,
Əzəldən onu bir çəkən var, əlbət!
Bilirəm, gizli bir rəssam var, ancaq
Bilmirəm bunları çəkmiş nə sayaq?
Bilsəydim bunları necə xəlq etmiş,
Mənim də əlimdən gələrdi bu iş.
Düşüncə qavrasa bir şeyi əgər,
Şübhəsiz, özü də onu düzəldər.
Xilqətin sirrini kəşf etməmiş biz
Tədqiqə çatarmı heç qüdrətimiz?
Göylərə: yazılı vərəq dediniz,
Ayrı cür oxudu fəqət həreniz.
Dünyanın nəqşini bir nəqş edən var,
Bundan artıq demək mənasız olar!"

NİZAMİNİN DEDİKLƏRİ

Nizami, bu qapı açar götürməz,
İlk nəqş bağlananda görməyib heç kəs[155]
Böyük yaradıcı, nə olsa, ancaq,
Hər nə yaratdısa hündür ya alçaq,
Ən əvvəl, şübhəsiz, əqli yaratdı,
Onu öz nuruyla o, aydınlatdı.

Hər nəqşə çəkdisə qadir yaradan,
Əqlin nəzərindən etmədi nihan!
Yalnız ilk nəqşəni gizli nəqş etdi,
Əqlin gözündən də onu gizlətdi.
İlk xilqət nəqşini qurtarıb, qəsdən
Açdı o pərdəni əqlin gözündən.
Sonra nə xəzinə oldusa aşkar,
Açmaqçın bəxş etdi əqlə bir açar.
Yalnız o ilk hesab qaldı gizlində,
Onda pərdə vardı əqlin gözündə,
Əqlə aşkar oldu başqa hər nə var,
Nə zaman istəsə, ora yol tapar.
Əqlə bağlı olan o yoldan amma
Danışma, əqildən o yolu sorma.
Əql ancaq elə bir-yerə yol tapar
Ki, bilsin nə qədər məsafəsi var.
Qeyb yolu əqldən hədsiz uzaqdır,
Əql ora nə sayaq yol tapacaqdır?
Əqilli adamdır dünyada o kəs -
Gözü görməyəni qəbul eləməz!
Sənət sənətkarı nişan verəndə,
Bağlama sən ona başqa bir pərdə.
Sözə bax, mindiyi çolaq heyvanla
Uçrumdan, gör, necə çıxıbdır yola.
Yalçın qayaları dağıdıb əzən,
Lacivərd göylərin qoynunda süzən
Xızr adlı o hatif birdən səsləndi,
Salam verib göydən yanıma endi.
Mülayim bir səslə söhbət eylədi,
Beynimə sözlərlə nur saçıb dedi:
"Bu gizli sözləri, fikirləri sən
Neçin lal dillərə isnad edirsən?[156]
Sən neçün bu sərvi becərib belə,
O filosoflara verirsən, söylə?
Bu incə sözlərin sahibi sənsən,
Quru sümüklərə verirsən nədən?
Yemə çörəyini yad süfrələrdə,
Öz süfrən üstünə gəl çəkmə pərdə"[157].
Dövrün kişiləri nakişidirlər,
Elmə yox, nücuma həvəs edirlər.
Mərhəmət umarlar qara torpaqdan,
Torpaqdan yaxşıdır ancaq sağ insan[158].
Hoqqabaz torpaqda sehirbazlıq var,
Həm möhrə oğurlar, həm də oynadar[159].
Ovcunda gizlədər möhrəni, birdən,
Sonra da ağzından çıxar görərsən.
Zəmixi, görərsən, udar sapsarı,
Göy-yaşıl rəngində çıxar dişarı.
Qupquru ud yeyər torpaq xəzanda,
Ətirli müşk verər bahar olanda.
İnsan bədənini udanda ancaq,
Bilmirəm nə sayaq o qaytaracaq?
Torpaqda çürüyən bədənlərimiz
Dağıdır, dəyişir, yox olmur təmiz.





Yerində qalarsa o dağıntılar
Bir yerə yığanda yenə canlanar.
Torpağa tökülən şeylər tamamən
Torpaqdan dirçəlib qalxar yenidən.
Qızıl toz halına gələrsə əgər,
Civəylə onları cəm edər zərgər.
Dağınıq qızılı mahir sənətkar,
Madam ki, civəylə bir yerə yığar,
Bizim də əczamız dağılsa bir gün,
Onu da cəm etmək mümkündür, mümkün!

İSKƏNDƏRİN
PEYĞƏMBƏRLİYƏ YETİŞMƏSİ

Müğənni, çal rudu, çal səhər erkən,
Mərdlik nəğməsini gətir yada sən!
Oyandır məndə də nəğmə həvəsi,
Duymayım bihudə, bimənə səsi.
Yenə bir filosof dərinə getdi,
Rumun tarixindən belə nəql etdi:
O dünya padşahı - böyük İskəndər,
Uca ulduzlara o uca rəhbər
Elmdə o qədər oldu ki, pərgar
Əqli hər müşkülə saldı bir açar.
Bir çox viranənin örtdü üstünü,
Açdı neçə-neçə bağlı düyünü.
Sirli elmləri İskəndər qədər
Yoxdu bu dünyada bilən bir nəfər.
O, Rumun, Yunanın alimlərindən
Hər elmi öyrəndi möhkəm, dərindən.
Daha ulduzları göydə güdmədi,
Tamam başqalaşdı onun məqsədi.
Başından lovğalıq tacını atdı,
Öz başı allahın tacına çatdı.
Bir də yaranışı araşdırmadan,
Axtardı, bilsin ki, kimdir yaradan.
İstədi çalışıb sirləri örtən
Yeddi qat sürməni silsin tamamən[160].
Onu olduğutək görmək istədi,
Əlçatmaz arzuya irmək istədi.
Gecəli-gündüzlü bir xeyli müddət
Düşündü, parladı bəxti nəhayət.
Bir mələk göndərib bir gecə allah
Etdi o bihuşu özündən agah.
Ətrafa nur saçan parlaq günəştək
Yalan vəsvəsədən uzaq bir mələk
Parlaq gövhər saçdı şah hüzuruna,
Allahın vəhyini yetirdi ona:
"Bu saysız dağlarcan, coşğun çaylarcan
Alqışlar göndərdi sənə yaradan!
O səni dünyada şahlıqla birgə
Ləyaqətli bildi peyğəmbərliyə.
Sən allah əmriylə şah olduğundan,
İndi də belədir allahdan fərman:

Haqqın dərgahına baş əyim, deyə,
Söylə ki, son qoydum asudəliyə.
Fələktək dünyanın başına hərlən,
Azğını, vəhşini əhliləşdir sən.
Xalqı pis yollardan et haqqa dəvət,
Onlar da allaha etsin itaət.
Təzələ kökündən köhnə binanı,
Təmizlə qəflətdən bütün dünyanı.
Cahanı divlərin zülmündən qurtar,
Dünyalar şahına ol itaətkar!
Bütün yatmışları yuxudan oyat,
Əqlin üzündəki o niqabı at!
Allah tərəfindən yoxsullara sən
Verilmiş mərhəmət xəzinəsisən.
Dünya pərgarını gəz diyar-diyar,
Səndən xeyir görsün bütün insanlar.
Bu dünya mülkünə özünsən ağa,
Çalış o dünyanı ələ almağa.
Bu yolda zəhməti qəbul edərək,
Allah rizası güd, xeyrindən əl çək!
Nə hörmətin varsa canlıya göstər,
Cansızçın vaxtını eyləmə hədər,
Canlıdan dəyərsə sənə bir ziyan,
Zəncirlə, məhv elə, heç vermə aman!"
İskəndər mələyə xitab eylədi:
"Ey müdrik ilhamçı, ey mələk, - dedi, -
Dinləyib o böyük pərvərdigarı,
Gərək tərk eləyəm mən bu diyarı,
Məşriqdən məğribə hücum çəkərək
Xalqları yuxudan oyadam gərək!
Ellərin dilini əsla bilmədən,
Onlarla nə cürə danışım bəs mən?
Nə sayaq bilim ki, nə deyir onlar?
Qarşımda hələ çox manilələr var...
Birisi budur ki, bu çətin səfər
Orduda vahimə törədə bilər.
Bir də ki, qoşunla səfər edərkən
Dağları, çölləri necə keçim mən?
Bu qədər zillətə edərlərmi tab?
Nə cürə onlara mən verim əzab?
O korlar ardımca gəlməsə əgər,
Kar olub sözümü eşitməsələr,
Mən yad ölkələrdə o kar-korlara
Nə əlac eləyim, varmı bir çara?
Əgər peyğəmbərlik fikrinə düşsəm,
Xalqı cəlb etməkçin hanı möcüzəm?
Hanı bir möcüzə, eləsin kömək,
Mənə inansınlar onu görərək?
Əvvəl yerimæyi öyrədib mənə,
Sonra da getməyi tələb etsənə.
Elmi dərya kimi çox insanların,
Zəkayla, biliklə tox insanların
Sarsıtmaq mümkünmü heç vüqarını?
yox etmək olarmı iqtidarını?"

O vəhyi gətirən xeyirxah mələk
Dedi, İskəndərə xitab edərək:
"Rəvandır hər əmrin, hökmün cahana,
Həm gizli, həm aşkar, bil ki, hər yana.
Qərbdə bir tayfa var, özü köçəri,
Nasikdir adları, yoxdur dinləri.
Şərqdə bir tayfa var, xislətdə mələk,
Onlara layiqdir Mənsək ad vermək[161].
Dəryatək cənubda bir tayfa yaşar,
Habildən törəyib qalmışdır onlar.
Şimalda bir tayfa salmışdır məskən,
Mütilik onlara qalmış Qabildən.
Başlayan zamanda uzaq səfərin,
Düşəcək qaraya, ağa güzərin.
Nasikdən Mənsəkə çək qoşunları,
Keç sonra Habildən Qabilə sarı[162].
Hamısı hökmünə, yəqin, baş əyər,
Başından keçərlər baş əyməyənlər.
Hər başçı ayağın heç ola bilməz,
Səni əvəz etməz dünyada heç kəs!
Aytək, Müştəritək gecə nur saçan
Parlaq bəxtinlə sən bir şəbçıraqsan.
Ucadan düşəndə işığın sənin
Açılar qapısı hər xəzinənin.
Yola çıxanda ol hər şeydən agah,
Səni hifz edənə apar sən pənah.
Hansı bir niyyətlə minsən atına,
Köməklər köməyi çatsın dadına!
Dünyada özünə, orduna əsla
Nə bir zərər dəysin, nə də bir bəla.
Nabələd yollarda öndən, arxadan
Keşikçin olmalı sənin hər zaman.
Səni hara çəksə işıqlı niyyət,
Əmrində duracaq nur ilə zülmət.
Qaranlıq arxanda, nur önündə - sən
Özün görünməzsən, ancaq görərsən.
Kim sənə xoşluqla itaət etsə,
İşıq bəxş edərsən sən də o şəxsə[163].
Hər kim lovğalıqla çıxsa qarşına,
Sən də qaranlıqdan bir pay ver ona[164].
Qoy bir kölgə kimi zülmətdə qalsın!
Qorxuda, dəhşətdə, zillətdə qalsın!
Bir də ki, atını cilovlayaraq
Nə zaman istəsən bir ölkə almaq,
Qarşına yad tayfa çıxarsa əgər,
Səninlə yad dildə söhbət etsələr,
Qadir köməkçinin ilhamıyla sən
Hər qövmün dilində cavab verərsən.
Dilbilən olarsan hər bir ölkədə,
Sənə gizlin qalmaz tək bir kəlmə də.
Sən də Rum dilində hər nə danışsan,
Anlar tərcümansız orda hər insan.
Allah bu möcüzü bəxş etmiş sənə,
Qalibsən bununla sən hər düşmənə!"

Şah gördü bu sözdə böyük bir məna,
Söylədi: "Baş əyər bəndə fərmana!"
Qasiddən peyğamı qəbul eylədi:
"Allaha biz müti bəndəyik" dedi.
O gündən hazırlıq gördü səfərə,
Əsla baş qoşmadı başqa işlərə.
Kənar məşğələdən uzaq olaraq,
Səfərə tədarük görürdü ancaq.
Mələk gətirmişdi ona xoş xəbər,
Əlavə olaraq, yenə İskəndər
Tədbirlər öyrəndi hər bir alimdən,
Çatar məqsədinə çox tədbir bilən!
Səfərdə həmişə faydalı olan
Mənalı kəlamlar yığdı durmadan.
Allah tərəfindən gəlmiş mükəmməl
O "Sifri-əzəm"dən başqa üç gözəl
Nəsihətnamə də keçirdi ələ,
Yazdırdı ipəyə qara müşk ilə.
Ərəstu oldu ilk naməni yazan,
O xəbər verirdi yaxşı-yamandan.
İkinci naməni bildiklərindən
Əflatun yazmışdı duyub dərindən.
Üçüncü xəzinə Sokratdan idi,
Qiymətli gövhərlə doluydu içi.
Sözlər bir-birinə rəbt edilərək,
Üç nəsihətnamə tamama yetcək,
Padşah möhürlədi bunları o dəm,
Səhmanla bağlayıb saxladı möhkəm.
Tədbirə ehtiyac duyduğu zaman
Açıb oxuyardı bir-bir onlardan.
O gövhərlə dolu xəzinələrdə
Dərman axtarardı düşdüyü dərdə.
Görsəydi çətindir bir qərar vermək,
Allahın feyzindən istərdi kömək.
O bir gün çıxaraq öz ac-təxtinə[166],
Firuzə rəngli tac qoyaraq yenə, -
Aqil vəzirinə buyurdu belə:
Müti qələmini alaraq ələ,
Elm ilə zəkaya edib riayət,
Yazsın bir faydalı, gözəl nəsihət.
Elə nəsihət ki, dinləsə onu,
Dost bilsin özünə qurd da qoyunu,
Fərmanı dinləyib vəzir hörmətlə,
Təzim edib şaha çıxdı rüxsətlə,
Mədəndən gövhərlər çıxarmaq üçün[167]
Fikrini başına yığaraq bütün,
Diltək itiləyib qələmi, yenə
Qamışdan qənd səpdi kağız üstünə[168].

## ƏRƏSTUNUN NƏSİHƏTNAMƏSİ

Allahın mədhini edib ifadə,
Ərəstu yazmışdı rəhbərnamədə:
"Ey şah, elmə, fənnə sən daim yar ol,





Nadandan, cahildən daim kənar ol!
Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan.
Əgər sahib olsan dövlətə, vara,
Şükr elə bununçün pərvərdigara.
Zəfərlər çalanda, yetəndə kama
Allahın xovfunu yaddan çıxarma.
Allahdan qorxana bəxti yar olar,
Ondan qorxmayanlar daim xar olar.
Səlamət yaşamaq istəsən əgər,
Oda üzərrik at hər gün, hər səhər.
Pis gözə inanma, ondan gəz kənar,
Heç öz gözünə də etmə etibar.
Demiş müdrik qoca belə bir məsəl:
"Gərək yaman gözdən qorunsun gözəl!"
Bir ağac çox uca qalxmasa, inan,
Şiddətli küləkdən görməz bir ziyan.
Ovlaqda ovçular ox atsa əgər,
Dikbaş təkələrə daha çox dəyər.
Hər kəsi ötməkçün çıxanda yola,
Tələsmə, həsədə yol vermə əsla!
Həsəd dərdə salar daim insanı,
İnsana yad edər dostu, aşnanı.
Heç kəsi qaldırma kinlə yerindən.
Qaldırdın, yerə sər arxasını sən!
Biriylə köhnədən olarsa kinin,
Kökünü qazıma onun nəslinin.
Ata intiqamın alma oğuldan,
Çalışıb onunla dost ol hər zaman.
Günəşlə kölgədə çox azdır ara,
Biri işıqlıdır, biri qapqara.
Tikan xurma ilə bir yerdə bitər,
Biri zəhərlidir, biri qənd-şəkər.
Naqqaya qonşudur sədəf dəryada,
Qılınc yox, dürr verir şaha dünyada[169].
Qardaşın qanını alma qardaşdan,
Tamam ayrı şeydir çünki südlə qan[170].
Bir kəsçün özgəni incitmək olmaz,
Qoyunu qoyunun ayağından as!
İstəsən allahdan mərhəmət, kömək,
Pisliyi kökündən atasan gərək!
Pislərlə fələk də elər pis rəftar,
Yaxşılıq görərlər daim yaxşılar.
Həmişə dünyada yaxşılıq axtar,
Yaxşı ad almaqda əbədiyyət var!
Yaxşı adlananla yaxşı ol müdam,
Yoxsa sən özün də olarsan bədnam.
Zatı pis olana üz göstərmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən.
Bədgövhər adamla heç addım atma,
Öz təmiz kimyanı küllərə qatma.
Bədəsil olarsa əgər bir adam
Qırmızı gövhəri saraldar tamam.
Ağıllı adamla dost olsan əgər,

Elmi, mərifəti sənə də keçər.
Çox pul qazanmağı eləsən niyyət,
Pulsuz adamlarla etmə məsləhət.
Ciddiyyət gözləmək yüngül adamdan -
Gövhər istəməkdir arpa satandan.
Gur, öküz, ya pələng, - bütün heyvanlar
Ancaq həmcinsiylə gəzər, dolanar.
Nacins olar isə əgər bir nəfər,
Ondan görəcəkdir çoxları zərər.
İki saf güzgünü qoysan üz-üzə,
Onlarda bir ləkə görünməz gözə.
Qorxma acizlərə zülm edənlərdən,
Yoxsa qəm-qüssəyə batarsan hökmən.
İnsana ram olsa aslanlar əgər,
Bunu insafdan yox, qorxudan edər.
Həyasız adama qarşı sərt rəftar
Yumşaq davranmaqdan faydalı olar,
İşini bərk tutan düşməni yoxla.
Yumşaq-yumşaq çağır, tutdun, bərk saxla!
Başı fitnə dolu olarsa hər kəs,
Şirinliklə çağır, itiliklə kəs.
İki xam bədxahın birsə qəran,
Fənd ilə, tədbirlə ayır onları!
Qurd ilə pələngi sal bir-birinə,
Sənin istədiyin yetsin yerinə.
Şah və ya əkinçi,- gözləmə nəsəb,
Özünə görə ver hər kəsə mənsəb.
Güclünün yanına güclünü göndər,
Alimin üzünü alimə döndər.
Göndərdiyin adam işbilən olsa,
Heç öyüd-nəsihət istəməz əsla!
Paslanıb kəsməsə qılıncın əgər,
Qızıl ver, daşları dəmirə döndər[171].
Xəzinə qızılı yığmaq üçündür,
Qızıl da düşməni yıxmaq üçündür.
Quyruqla mümkündür tülkünü tutmaq.
Şirniyə aldanar həmişə uşaq.
Xalqın məclisində mütrübtək şad ol,
Sərvsən, kibrdən, çalış, azad ol[172].
Dünyanı sübH kimi nurunla bəzə,
Camalın səhərtək görünsün gözə.
Bəzəmə özünü sən reyhansayaq,
Özgənin əlində ol nurlu çıraq[173].
Səninçün bir yükdür daim xəzinə,
Dincəlmək istəsən, ver özgəsinə.
Zər ataş deyil ki, daim yığılsın,
Qığılcım kimidir, gərək dağılsın.
Qızıl ya sahibi xoşdur? - Sorma sən,
Düyün bənddən pisdir, bənd dədüyündən[174]
Bir gün atəşpərəst soruşdu oddan:
"Söylə, mən yaxşıyam, ya sən yaxşısan?"
O dedi: "İstəsən düzünü bilmək,
Mənə yanmaq gərək, sənə də ölmək!"
Geniş ətəkli ol, çünki meyvələr

Geniş ətəklərə daha çox düşər[175].
Çox yemə, süfrədə hər şey çox da var,
Artıq bir qətrədən qədəh də daşar.
Bir müflis xəzinə tapmışdı həmən
Yıxılıb ölmüşdü sevindiyindən.
Necə susuz olsan, istiyə düşsən,
Tələsik soyuq su əsla içmə sən.
Bir yeri talayıb dağıtmış olsan,
Orda mənzil salıb yatma heç zaman!
Əsla içməyəsən yoxlanmamış su,
İçirt başqasına, yoxla bir onu.
Qəribə görünən meyvəni yemə,
Özünü dərd-qəmə düçar eləmə!
Olarsa birisi yeməkdə loğman,
Saxlar öz nəfsini yad loxmalardan.
Heç kəs getmədiyi naməlum yolla,
Yoldaş çox olsa da, getmə sən əsla!
Çox yaxın olsa da, qorxulu yoldan
Qorxusuz uzaq yol yaxşıdır, inan!
Çox yığıb, yükünü ağır etmə sən,
Qoşunun içində dilə düşərsən.
Əlinə keçərsə əgər qənimət,
Ondan yoxsula da qoy çatsın qismət.
Bir pay ver xəlvəti pay istəyənə,
Allahın rizası bəs edər sənə.
Gizlincə verilən bir bəxşiş, inan,
Hifz edər insanı dərddən, bəladan.
Orduya nə versən, rütbəylə payla,
Yol xərcindən artıq pul vermə əsla.
Qarınqulu adam olsa da qoçaq,
Qarnı doyan kimi tənbəl olacaq.
Nə o qədər ver ki, sərxoş olsunlar,
Nə də elə et ki, lap ac qalsınlar.
Nə çox bərk, nə çox boş et rəftarını,
Orduda itirmə etibarını.
Gündə iki dəfə qurub ziyafət,
Bütün başçıları sən eylə dəvət.
Heç bir yad ölkədə şərab içmə sən,
Heç yerdə əylənmə Ruma dönmədən.
Nurani adama tapşır əmanət,
Olmaz duru suda toz, ya üfunət.
Günəş hər bir şeydən pak olduğundan
Dağ, dəniz sirrini gizlətmir ondan.
Xoşbəxtlik istəsən, xoşbəxti tanı,
Xoşbəxt xoşbəxt edər çünki insanı!
Bədbəxt adamlardan ol daim kənar
Ki, üzüm üzümə baxıb qaralar.
Doğma xislətindir vəfalı olmaq,
Çalış ki, əslini itirmə ancaq.
Biri adətini dəyişsə əgər,
Yığdığı dövlət də onu tərk edər.
Köhnə xasiyyətdən dönmə heç zaman.
Xasiyyət dəyişmək deyildir asan.
Aqil ol, əl çəkmə xasiyyətindən,

Özgə xasiyyətə uyma qətiyyən!
Həmişə düz gedən piyada əsgər
Vəzir olan kimi əyri yol gedər[176].
Taleyi xoş olan xoşbəxt adamla
Aranı xoş elə, çəkişmə əsla.
Hər bir hadisədən ötrü fələklə
Bəhs etmə, onunla xoş rəftar elə.
Ruzigar nə versə qəbul eylə sən,
Çalış, ustadının çıxma sözündən.
İncimə dövlətin etdiyi nazdan,
Dövlətin nazında dövlət taparsan.
Vaxtı yetişəndə sənin də, əlbət,
Çəkəcək nazını bir gün o dövlət.
Sədəfin qabığı xeyli bərk olur,
Odur ki, içi də dürlə doludur.
Bərk daşlar içində gizlənər gövhər,
Gövhər çətinliklə əldə edilər.
Bəd gündə ulduzdan olma bədgüman[177],
İşlər yaxşılaşar, əlbət, bir zaman.
Göy rəngli günbəzdən olma mükəddər,
Aqibət xeyr olar, düzələr işlər.
İş bərkə düşəndə, məyus olma sən,
Könlünə qüvvət ver, bəxtinə güvən.
Göyə atılan daş yerə tez düşər,
Bu qısa müddətdə işlər dəyişər[178].
Zülmü birdəfəlik yadından çıxar,
Çünki zülmkarlıq ömrü azaldar.
Padşah ədaləti çıxartsa yaddan
Ölkəsi tez olar zülm ilə viran.
Allah ədalətçün yaradıb səni,
Zülm etmə, ədl ilə saxla ölkəni!
Pis fikrə düşərsə yaxşı bir insan,
Özünə yamanlıq eləyər, inan!
Dünya yarananda belədir qanun,
Dəyişir istisi, soyuğu onun.
Havada olanda belə ziddiyyət,
Onda heç axtarma, heç umma səhhət.
Yaxşısı budur ki, ildə hər fəsil
Öz qaydası ilə keçsin müttəsil.
Gərək bahar fəsli keçə bahartək,
Yay da yaylığını göstərə gərək.
Bir şey qaydasından çıxarsa kənar,
Ondan üz döndərər, əlbət ki, ruzgar.
Əgər pislik etsə bir nəfər sənə,
Sən yaxşılıq etsən bir özgəsinə,
Onu da, bunu da yad etmə əsla,
Xalqa bədguluqdan dilini saxla.
Çalış ki, kirpiyin olsun almaztək[179],
Ayıq ol, ölkənin keşiyini çək.
Belə məsəl çəkmiş aqil bir insan:
"Qurd girməz sürüyə, yatmasa çoban!"
Canın möhkəm olsa, döşünə döymə,
Gülüb, yersiz-yersiz özünü öymə.
Acizlik üz versə, qəm çəkmə yenə,





Bunu da bildirmə özgələrinə.
Özünü şad göstər, heç olma qəmgin.
Gizlin dərdin olsa, zahirdə sevin.
Qarşına bir döyüş, qovğa çıxarsa,
Döyüş adamına ehtiyac varsa,
Başqa bir ordudan qaçıb gələni
Əsla qəbul etmə, aldadar səni!
Qaçmağa öyrənmiş adam qaçacaq,
Sənin də ordunu xarablar ancaq!
Döyüşdə qələbə çalmaq istəsən,
Müzəffər sərkərdə seç özünə sən.
Qələbə qazanmış xoşbəxt atlılar
Səni hər səfərdə edər bəxtiyar.
Yaxşı, pis,- nə etsən, həmişə bil sən.
Yaxşını allahdan, pisi özündən."
Bu məşhur naməni qurtarıb ustad,
Şaha təqdim etdi, o da oldu şad.

## ƏFLATUNUN NƏSİHƏTNAMƏSİ

Oyanıb qalxanda günəş yuxudan
Müşkə kufur səpdi sanki asiman[180].
Şad xəbər göndərib dedi: "Əflatun
Qələmlə ipəyə nəqşələr vursun.
Elə gözəl namə yazsın o gərək,
Hər bir oxuyana eləsin kömək!"
Şahın buyruğuyla əzəmətli pir
Mədəndən gövhərlər çıxardı bir-bir.
Müti qələmindən saçıldı gövhər,
Beləydi dəftərə yazdığı sözlər:
"Bizdən yaradana min-min ehtiram,
Yerdən də, göydən də ziyadə salam!"
Allaha şükr elə mədəni açdı,
Sonra söz bəzminə gövhərlər saçdı:
"Şahımız ucadır bütün aləmdən,
O, parlaq gövhərdir, bu aləm - mədən.
Əsildir, yüksəkdir o da gövhərtək,
Özünü həmişə qorusun gərək[181].
Hər kəs, yaxşı-yaman, - nə qoysa əsər,
Bununla zatını büruzə verər.
Oğru ovlağıdır bizim bu cahan,
Onu özbaşına qoyma heç zaman!
Keşikçi olmasa həmişə ayıq,
Deyildir dünyanı güdməyə layiq.
Hər kim bu dünyanı istəsə tutmaq,
Qılıncla, tədbirlə fəth edər ancaq.
Mərdlərin qan tökən qılıncı, bəli,
Alim tədbirilə olar kəsərli!
Şahın məclisi də gərək hər zaman
Ola alimlərə şərəfli məkan.
Şah yeyib-yatmağa meyl etməyərək,
Bilik toplamağa çalışa gərək!
Şaha yoldaş olam iki bəla var,
Yoxsuldan uzaqdır həmin bəlalar:

Biri aşpazdır ki, yağlı yeməklər
Bişirib, padşahı ona cəlb edər,
Biri də cilvəli şux məşuqəsi
Ki, ona bağlanar könlü, həvəsi.
Bunlar xeyir verməz: biri doldurar
Qarnını, o biri şirəni sorar.
Nə çox əylənən ol, nə də çox yeyən
Bunlardan süstləşər, keyiyər bədən!
Qırmızı və sarı gördüyün cahan
Bir rəngin büsatdır - adam aldadan.
Məşuqə adlanan bir əjdəhadır,
Bu dünya kam vermir, ancaq can alır.
Dünya yurdumuzdur, candan əzizdir,
Bizim həm yerlimiz, həm yerimizdir.
Dünyanı dördəlli tutmayaq gərək,
Nədən can-ciyərlə süfrə bəzəyək?
Qanla qidalanıb yaşayır bədən,
Ciyərsiz bu qanı alanq nədən?
Dörd tərkib birləşib ahəngdar olmuş,
Dörd cövhər birləşib, həyat var olmuş.
Yığmasaq onların ipini əgər,
Hərəsi bir yana baş alıb gedər.
Su dönsə torpaqda çiçək ətrinə,
Qayıdar əslinə o bir gün yenə.
Tuluğu dağıdıb qaçdı bir eşşək,
Sahibi qəmləndi bu halı görcək.
Dünya tikanlıdır, kirpiyik biz də,
İynə var, tikan var xislətimizdə[182].
İki qan qızın başladı bəhsi,
Dünyanı götürdü onların səsi[183].
Bu dedi: "Üzünün çirkinliyindən
Ərə getməmisən bu vaxtacan sən!"
O dedi: "Üzün çox göyçəkdir sənin,
Bununçün almırlar səni də yəqin!"
Bu qədər nə üçün yataq dünyada?
Yuxu da ölümə bənzər mənada.
Bir də duracaqmı həmin yuxudan?
Bunu doğru, dürüst bilməyən insan
Yuxudan ölümtək etməli həzər,
Çünki bir-birinə bunlar çox bənzər!
Dovşan yuxusutək pis yuxu olmaz,
Yatanla öləndə hiss, duyğu olmaz!
Yuxu igidlərə hiylə quranda
Gözlər yumulmaya kaş bircə an da!
Hər bir gizli sirri o, baxıb görə,
Yaxşıya, yamana düz qiymət verə.
İnsan əl çəkəydi boş xəyallardan,
Yersiz qovğalardan, qalmaqallardan.
Niyə bircə qarın çörəkçin yalnız
Çəkişək, vuruşaq belə amansız?
Neçün biz dağlara, daşlara düşək?
Bunların səbəbi - bir parça çörək!
Səfərə başlayan müdrik insanlar
Yolda yox, mənzildə rahatlıq umar.

Keçərlər dünyanı tapdalayaraq,
Rahatlıq fikrinə düşməzlər ancaq.
Hamı yol gedənlər, uzaq görənlər
Mənzilə çatana afərin deyər.
Dinclik - asudələr ölkəsindədir,
Bundan başqa nə var - bir əfsanədir.
Yeddi qat yanar od içrə, nəhayət,
Kabablıq ət üçün nədir bu zəhmət?[184]
Neçindir bu zillət, əziyyət bütün?
Hamısı yeməklə geyinmək üçün.
Bizim əmrimizdə olanda bunlar,
Hələ başqa-başqa hesablar da var.
Əzaba qatlaşıb canından keçən
Dənizdən dürr tapar, dağlardan mədən.
Kimsə ruzusunu atlayıb keçməz,
Əndazəylə yeyər ruzunu hər kəs.
Fəqət var dünyada elə insan da
Zəri yerdə saxlar, həsədi canda.
Qızılı torpaqda basdırsan əgər,
Taleyin başına sənin kül ələr.
Yesə çörəyini dostlarla insan,
Onundur var-dövlət, onundur cahan.
Açıb kisəsini rəhmə gələrək,
Bir neçə yoxsula o edər kömək.
Arpaca olsa da vəzndə gövhər,
Ona "Çox samballı daşdır" deyərlər.
Əllərimiz boşdur, yol isə uzaq,
Yoxdur mənzildən də hələ bir soraq.
O qədər xəbərsiz yatma ki, haşa,
Yatmışkən sel gəlib başından aşa.
Yuxusuz, yeməksiz qalma ki, bədən
Süstləşib, yorulub düşər qüvvədən.
Yola çıxan yolçu cövlan edərək,
Çapmasın hər yana gərək dəlitək.
Keşikçi düzdürsün yolları uzunu.
Getsin təhlükəsiz ta ki, yolunu.
Olsun gecə-gündüz işində oyaq,
Yatanı oğrutək ruzgar soyacaq.
Arxaya, qabağa zillənsin gözü,
Onu aldatmasın yadların sözü.
Yola bələd olsa rəhbərlik edən,
Ordu qorxu bilməz çətinliklərdən.
Yollar dağa-daşa salsa da onu,
Dağılmaz başından əsla qoşunu.
Qoşunla yeriyər yağıştək, qartək,
Əyləşər heybətlə o, dəryalartək.
Çatdığı ölkədən bir neçə nəfər
Yedirdib, içirdib ələ gətirər.
Sirr alıb, ənamlar verər o kəsə,
Toxum göyərərmi su verilməsə?
İşini düzəldər bu sayaq asan,
Gərək çətinlikdən bezməsin insan.
Sülh əgər bir başla olsa bərqərar,
Artıq baş kəsməyin nə mənası var?

Yolda qoluzorlu rast gəlsə əgər,
Üstünə yerimək bəla gətirər.
Mümkün deyildirsə qələbə çalmaq,
Nahaqdır qoşunu çətinə salmaq.
İşin düyün düşsə, aça bilməsən,
Səbr elə, özünü nahaq yorma sən.
Hər çətin düyünün bir əlacı var,
Səbrlə, tədriclə açılar onlar.
Adətdir, işlərdə az olmur düyün.
Fəqət öz-özünə açılır bir gün.
Nə qədər yerində söyləsəm sözü,
Məndən artıq bilir, əlbət, şah özü,
Niyyətlə at sürsə şah hansı yana.
Öz əqli rəhbərdir həmişə ona.
Bir kəsə köməkçi olarsa allah,
Heç kəsə ehtiyac duymaz o əsla.
Salamlar gətirsə bir qəlbə mələk,
Onun insan fikri nəyinə gərək?
Padşahın əmrinə eləyib əməl
Yazdımsa bilənlər kimi bir məsəl,
Yalnız ixlasımı elədim izhar,
Onun öz bəxtitək bir rəhbəri var.
Heç kəsim möhtacı deyildir padşah,
Ona köməkçidir əqlilə allah!
Əqli kömək olsun hər işdə ona,
Allah hər işini salsın yoluna!"
Naməni qurtarıb o qoca alim,
Təzimlə elədi padşaha təqdim.
Qəlbi bu namədən şahın şad oldu,
Qüssədən, kədərdən o, azad oldu.

## SOKRATIN NƏSİHƏTNAMƏSİ

Üç gün ötüb keçdi, yenə asiman
Rum-zənci oyunu oynayan zaman
İskəndər buyurdu qoca Sokrata
Vursun üzüyündən muma möhr o da[185],
Yazsın bir qiymətli nəsihətnamə,
Mənası nur saçsın bütün aləmə.
Alim əməl etdi uca fərmana,
Dürlər çıxarmaqçün daldı ümmana[186].
Gümüştək kağıza qara xətt ilə
Zəkanın hökmünü nəqş etdi belə:
"Nəqqaş hansı nəqşə başlasa, gərək
Allahın adına vursun ilk bəzək.
Hamıya köməkdir böyük yaradan,
Onun möhtacıdır bütün bu cahan."
Allahın mədhini yetirib sona,
Bağladı sözünü şahın adına:
"Ey şah, bu örtülü quyuya, gəl, sən
Girmə əqlin, huşun əmr verməkdən.
Sən ki, bol gövhərdən yoğurulubsan,
Həyat oyuncaqtək gəlməsin asan!
Bu başdan edirəm səni xəbərdar,





Gücünə güvənmə, yolda pələng var!
Döyüşdə, şənlikdə, - hər yerdə olsan,
Heç zaman ayrılma yaxşı dostlardan.
Əyləncə, eyş-işrət bəzminə düşsən,
İsvəli bir dilbər seç özünə sən.
Məclisdə qüssədən, qəmdən uzaq ol,
Həmişə kefi kök, damağı çağ ol.
Siyasət məclisi qurulsa fəqət,
Orda hər yetənə sən vermə fürsət.
Yanında hərzə söz danışmasınlar,
Səni də hörmətdən salmasın onlar.
Yeməyi heç yemə dəniz kimi tək,
Yediyin olmasın acı, dəniztək[187].
Bulaq ol, çox olsun gəlib içənin,
Dursun quluğunda kuzələr sənin!
Xörəyi evində gizlətsən, əlbət,
Ondan yetmiş evi basar üfunət.
Vaxtında evindən çıxarsan əgər,
Qapına müşktək ətir səpilər[188].
Nə qədər açmayıb hələ bənövşə,
Qönçəsi pis qoxu verər həmişə.
Saçları açılıb dağılan zaman
Müşk-ənbər qoxusu yayılar ondan.
Acgöz olma, sənin deyil bu saray,
Yalnız bir çörəkdir alacağın pay.
Tək bircə fətirə gəl qane ol sən,
Düşün, günəşdən ki, artıq deyilsən[189].
Allahlıq edərsən nəfsi saxlasan,
Acgözdür öküzlə eşşək hər zaman.
Kimin kim, yeməkdə heyvan nəfsi var.
Heyvan sifətində qəbirdən çıxar.
Qiyamət gələndə, əldə tərəzi,
Öküztək, eşşəktək baxar hərəsi.
İnsan sağlam olar az-az yeməkdən,
Uzun ömr eləməz əsla çoxyeyən.
Həddindən ziyadə yesə bir insan,
Gəyirər, pis qoxu gələr ağzından.
Aslantək sən də az yeməyə alış,
Çünki qorxaq olar çox yeyən camış.
Dartıb sürüyərlər tənbəl eşşəyi,
Çünki ölçüsüzdür yeyib içməyi.
Buludtək damcıyla su al dənizdən,
Verəndə bol-bol ver, səxavətlə sən.
Suçu tuluğundan tez-tez su paylar,
Tuluq gah boşalar, gah da ki, dolar.
Yağlıdan, yavandan elə ye ki, sən
Onu asanlıqla həzmə verəsən.
Saxla əndazəni qədərlə, sayla,
Bir az ye, bir az yığ, bir az da payla!
Bu cür yeyib, yığıb paylasan əgər,
Sənə bu dünyada xoşbəxt deyərlər.
Yeməkdə əsasdır cana nuş olmaq,
Onun dadına yox, faydasına bax!
Sirkəni yeyəndə süddən et həzər,

Sirkəylə süd içmək azar törədər.
Uyma eyş-işrətə həddindən artıq,
Yola tədarük gör, bir səfərə çıx!..
Bu nə tənbəllikdir? Giriş bir işə,
Bekarlıq insanı sıxar həmişə!
Özgənin əliylə qazdırma mədən,
Özün bir əl tərpət, əgər dirisən.
Əl-ayaq qulundur, işlətsən, yəqin,
Çıxmazlar heç zaman əmrindən sənin.
Minlərlə xidmətçin olsa da, hökmən,
Özün əl-qolunu heç qoyma işdən.
Sənin əl-ayağın salamatdırsa,
Onların işini xadimlər görsə,
Bunlar da əlindən çıxsa bir zaman,
Sən əlsiz, ayaqsız qalmış olarsan!
Şirinsə birinin dili, söhbəti,
Başqa şey istəmə, bəsdir ülfəti!
Köməyi dəyməyən şirindil insan
Yaxşıdır acıdil əltutanlardan.
Daim şirin dillə yaxşılıq elə,
Nə fayda eləsən acı dil ilə?
Həyalı söz danış, öyrənib səndən
Həyalı danışsın səni dinləyən.
Ağıllı bir işdir yumşaq danışmaq,
Kobudluq axmağa yaraşar ancaq!
Söz özü nə qədər gözəl olsa da,
Onu gözəllikdən salar pis ədа!
Sükut çox yaxşıdır pis danışmaqdan,
Sükutdan olmayıb heç kəs peşiman.
Hər kim qol qoyarsa nalayiq işə,
Dünyada xar olar özü həmişə.
Bir şeyi tapmasan, çalış, səbr elə,
Aldat sən özünü bir ümid ilə!
Yeməkdən yaxşıdır ümid min kərə,
Ümidlə, vədəylə bəslənər zirə.
Quraqlıq olanda, bilmirsən bunu,
Zirəyə verərlər zirə suyunu?[190]
Zirə öz suyuyla yaşayar ancaq,
Dolan qismətinlə sən də o sayaq.
Bulud çiskinindən yatarsa güllər,
Yağış şiddətlənsə, aparar sellər.
Zalimə heç zaman eləmə kömək,
Bir gün sorğu-sual günü gələcək!
Çox da qoşun çəkib susama qana,
Bu, bir kündə olar öz ayağına.
Bu qədər baş kəsib atmaqdan usan,
Bu topla nə qədər oynayacaqsan?
Sənin buludunda çox göz yaşı var,
Daim qılıncından nahaq qan axar.
Qorx ki, boyun vuran qılıncın bir gün
Vurar öz boynunu nahaq qan üçün.
Elə sür kəcavə çəkən dəvəni,
Filin ayağına salmasın səni[191].
Bir gör nə qədər qan tökübsən hədər,

Başlar kəsdiribsən nahaq, nə qədər,
Nə qədər ölkələr edibsən xərab,
Sorsalar, nolacaq verdiyin cavab?
Güllərə dağ çəkmək olmasın peşən,
Yetirməz onları bir də bu gülşən.
Bu harın göy atdan daim et həzər,
O bir əjdahadır, gəlinə bənzər[192].
Qəlbi ülfətsizdir, köksü boşluqdur,
Özünün özündən xəbəri yoxdur.
Bağla torpaq kimi dinclik kəməri[193].
Qoy fələk tələssin, sən asta yeri!
Şahsan, şahin kimi iti uçma sən,
Şiri-pər kimi ol, vüqarlı tərpən!
İti düşüncənin cilovunu çək,
Meşə yollarında çoxdur daş-kəsək.
Dərdə əlac etmək istəsən əgər,
Ləngiyib vaxtını eyləmə hədər.
Günahsızla dava fikrinə düşsən,
Səbr elə, bu işdə tələsmə heç sən.
Canini, oğrunu bağışlama heç,
Başqa təqsirlərdən, günahlardan keç!
Çəkin aşnalıqdan hər bir alçaqla,
Onları özündən uzaqda saxla,
Şah əgər xalq ilə etsə ədavət,
Ağ olar üzünə xalq da, nəhayət!
Etmə tabeənlə çox yumşaq rəftar,
Məlumdur almazı qalay sındırar.
Heç salma altına özgə kilimi,
Öz dərin üstündə yat aslan kimi!
Özündən özünə baramaqurdu
Həm kəfən toxudu, həm də ev qurdu.
Məhrəm olmayandan gözlə özünü,
Dinləmə onların əsla sözünü.
Ömrünü ah-vayla vermə sən bada,
Acizlər ah-vayla yaşar dünyada.
Bu cürə sözlərim çoxdur, ancaq mən,
Demirəm: tapılmaz məndən çox bilən,
Sən özün göylərdən ilham alansan,
Bundan çox söyləsəm, gətirər ziyan.
Sözlərim itisə mənim qılınctək,
İncimə, adətdir qılıncda kəsmək.
Əlində bu iti qılınc ilə şah
Hara qoşun çəksə, basar inşallah!"
Dürlə dolub sandıq tamamə yetdi,
Bunu da bəyənib şah qəbul etdi.

## İSKƏNDƏRİN PEYĞƏMBƏRLİK SƏFƏRİNƏ ÇIXMASI

Yuxudan duraraq bir səhər erkən,
Üzümü günəştək alışdırdım mən.
Sözümün taxtini göyə ucaltdım,
Qəlbimdən atəşə üzərrik atdım.
Mən "Xosrovnamə"ni yazmaqçün rəvan[194],
Bu qoca sərvimi elədim cavan.
Qaldırdım möhrü söz xəzinəsindən,
Orda deşilməmiş dürr qoymadım mən.
Qələmim o qədər saçdı ki, gövhər,
Heç gövhər qalmadı, boşaldı göylər.
Bu zaman bir gözəl içəri girdi,
Qılınc kimi parlaq bir güzgü verdi.
Dedi: "Bu güzgüdə bir bax üzünə,
Çox da məftun olma özün özünə."
Bu parlaq güzgüyə dikdim gözümü,
Gördüm surətimi, gördüm özümü:
Baxanda güzgüdə - o yaşıl bağda
Ağqanad bir qarğa gördüm budaqda.
Yuxudan məhrumdu o nərgiz gözlər,
Sərvimdə görmədim gənclikdən əsər.
Bənövşə üstünü basmış yasəmən,
Əz qızıl gülümü solğun gördüm mən[195]
Sikkəni bu qədər sürtülmüş görcək[196],
Süstləşdim, heyrətdən çırpındı ürək.
Hanı o ayaq ki, quş edə məni,
Hanı əl, dəyişə köhnə nəqşəni.
Xəcalət çəkərək solğun rəngimdən,
Başladım nəvaya öz ahəngimdən.
Qorxdum vaxtsız əcəl üstümü ala,
Çəkdiyim bu naxış natamam qala.
Yuxu göz mülkünü tutana qədər
Dedim ki, bu evi tikim birtəhər.
Bəlkə bir yatağa yetişə əlim,
Ola son mənzilim, axır mənzilim...
Dövrandan baxəbər bir alim yenə
Başladı keçmişin bu cür şərhinə:
"Allahın hökmüylə böyük İskəndər
Vəhy alıb, elə ki, oldu peyğəmbər,
Dövlət divanından pozdu adını,
Zəhmət divanına yazdı adını[197].
Əmr etdi bacını Rum ilə Rusun
Yazsınlar adına İskəndərusun.
Getmədən tərk etdi taxti oğluna,
Tapşırdı anası göz olsun ona!
Vəsiyyət etməkçün gələrək dilə,
Əziz anasına söylədi belə:
"Gedirəm, bu xalqla et yaxşı rəftar,
Qoy səndən həmişə razı qalsınlar.
Ata tək bu xalqı himayənə al,
Anasan, anatək dərdlərinə qal.
Amandır, dindar ol, göstər ədalət,
Allahın əmrinə elə riayət,
Əmrə əməl edib xeyirə çat sən,
Bu, qat-qat yaxşıdır əmr eləməkdən.
Mən yola çıxmağa duydum zərurət,
Qalır təxtim, tacım sənə əmanət.
Yollarım uzundur, mənzillərim çox,
Bilməm dönəcəyəm geriyə, ya yox.
Elə et qayıtsam əgər səfərdən,





Xəcalət çəkməyək nə mən, nə də sən.
Yox, əgər dönməyim olmasa qismət,
Huşyar ol, xoş gəlsin ta ki, aqibət.
Elə et ki, haqqın məhkəməsindən
Dilin tutulmasın, xəcil olma sən."
Bütün sözlərini deyib İskəndər,
Qoyub təxti, tacı, elədi səfər.
Əmr etdi bir anda bütün Rum və Şam
Qoşunu önündə cəm olsun tamam.
Fərmanında olan bütün qoşundan
Yol üçün ayırdı yüz min pəhləvan.
Bunlar hər ölkədən seçmə mərdlərdi,
Hərə bir orduya dəyən əsgərdi.
Dörd min yük daşıyan dəvə götürdü,
Onları nizamla yola düzdürdü.
Bisrək cinsindəndi onun min başı[198],
Keçərdi yel kimi o dağı, daşı.
Mini də büxtiydi, nərdi hər biri[199],
Dadlı yeməklərdi bütün yükləri.
Üçüncü mini də cəld naqələrdi[200],
Bəzəyi qızıldı, zərdi, zivərdi.
Dördüncü min isə, nəcib dəvələr,
Hər biri ceyrantək iti yol gedər.
Vardı hər peşədən, hər bir sənətdən
Yanında yüzlərcə mahir işbilən.
Belə tədarüklə qurub növrağı,
Qaldırdı balıqdan Aya bayrağı[201].
O, Məqduniyyədən yola düşərək
İskəndəriyyəyə gəlib çatantək,
Orda o möhtəşəm təxti ucaldı,
Neçə gün şadlıqla orada qaldı.
Fateh Keyxosrovtək görüb baxtını,
Gedib düz Sərirdə qurdu taxtını.
Əmr edib o uca bir mil düzəltdi.
Başına bir parlaq güzgü bənd etdi.
Güzgüdə bir-aylıq bir məsafədən
Görünür dənizdə hər gəlib, gedən.
Təxti düşmənlərdən qorumaq üçün
Keşikçi dururdu orda bütün gün.
Güzgü əyan etsə bir sirri əgər,
Gəlib hökmdara bildirərdilər.
Düşmənlər çal-çapa gəlsələr, işdir,
Saray adamları görərdi tədbir.
Olub paytaxtından arxayın, yenə
Şah mindi vüqarla öz köhləninə.
İlk əvvəl yolunu Məğribə saldı.
Misrə gəlib, orda iki gün qaldı.
Sonra çıxıb ordan, qəlbində dilək,
Allahın əmrinə əməl edərək,
Bir xeyli yol gedib, dərələr keçdi.
Ötüb zəmiləri, çölə yetişdi.
Məqdəsdən dəstəylə bir neçə adam
Hakimin zülmünə etməyib davam,
Yolda düzüldülər, o qadir şahdan
Belə dilədilər mərhəmət, aman:
"Pak etdin dünyanı, sən, ey hökmüdar,
Gəl, bu pak evi də paklığa çıxar.
Ucalt bayrağını şəhərimizdə,
Yox et bədxahları, dincələk biz də.
O paklar yurdunda var bir əhrimən,
Allah dostlarıyla düşməndir, düşmən.
Müqəddəs binada itaətkarlar
Olub o zalimin zülmündən bezar.
Tərk edib sitayiş yolunu hakim,
Bütün din əhlinə zülm edir daim.
Başını dik tutub, tökür nahaq qan,
Çoxunun başını kəsib nahaqdan.
Hamımız qorxuruq o əhrimtəndən,
Divlər qənimisən, dadə yetiş sən!"
İskəndər onları belə görəntək,
O göz yaşlarına rəhm eləyərək,
Əsla incimədi fəryadlarından.
Çatdı məzlumların dadına o an.
Dinləyib onların ah-fəryadını,
Beytülmüqəddəsə sürdü atını.
Dünyanı hasardan qurtarsın deyə,
Beytülmüqəddəsdən başladı səyə.
Orda qoymamaqçün fitnədən əsər
Rumdan düz Məqdəsə gəldi İskəndər.
Bu vaxt hər tərəfdən - dağdan, dərədən
Ədalət səsini eşidib düşmən,
Tədarük görərək döyüşə çıxdı,
Bilmirdi ki, şahın bəxti açıqdı.
İskəndər vuraraq ona şəbxunu,
Yolkəsən ağzının kəsdi yolunu.
Onu zalim görüb, qanını tökdü,
Qüdsün qapısında çarmıxa çəkdi.
Carçılar bir neçə müddət çəkib car,
Elədiyi zülmü bir-bir saydılar,
Dedilər: "Bu evə zülm etsə hər kəs,
Belə aqibətdən qurtara bilməz!"
Pak evi napakdan azad eylədi,
Şadlıq sevənləri o şad eylədi.
O dinclik məkanı asudə oldu,
Nakəsin torpağı göyə sovruldu.
Zalimin zülmünü şah məhv elədi,
Müti olanlara verdi məbədi.
Beytülmüqəddəsi nizama saldı,
Sonra da Məğribə tərəf yol aldı.
Çəkdi Əfrəncəyə qoşunu ordan,
Sonra Əndülüsə oldu o rəvan.
Həm dəvət edərkən, həm hökm edərkən
Əql ilə, ədl ilə iş gördüyündən,
Müdrik bir hökmdar görərək onu,
Hamı qəbul etdi doğru yolunu.
Hamını düz dinə elədi dəvət,
Tikdirdi hər yerdə bir yeni məbəd,
Yenidən qoşunla yola çıxaraq

Dünyanı tutmaqçün ucaltdı bayraq.
Sürətlə keçirdi dağdan, dərədən,
Çəmənlik görəndə salırdı məskən.
Dincəlib bir qədər, oldumu aram,
Yenidən edirdi yoluna davam.
O keçdi çölləri sahilə qədər.
Yetişib dənizə saldı gəmilər.
Üç ay gecə-gündüz üzdü dənizlə,
Ancaq dənizdə ov keçmədi ələ.
Sürətlə gedirdi Məğribə sarı
Yanında qoşunu və yoldaşları.
Keçirdi bir yerdən o başqa yerə,
İnsan yaşamayan cəzirələrə.
Çıxdı qarşısına minlərcə insan,
Cürbəcür canlılar, cürbəcür heyvan,
Ancaq heç yaxın da gəlməyib ona,
Qaçıb dağıldılar hərə bir yana.
Bir xeyli yol gedib İskəndər yenə,
Enişdən qalxdı bir geniş düzənə.
Bu çölün sapsarı qumları vardı,
Yerindən sarı gil tozu qalxardı.
O qumun üstündə atlar çaparkən
Həmişə od-alov qopurdu yerdən.
Başqaymış torpağın tərkibi yaqin,
İçində kükürd də varmış o yerin.
Bir ay o çöllərdə etdilər səfər,
Nəhayət, ordan da ötüb keçdilər.
Çöllər qurtaranda, gördü uzaqdan
İskəndər önündə əngin bir ümman.
Yunanlar Okyanos deyərdi ona[202],
Qəribə gəlirdi dəniz insana.
Dəhşətlə döyürdü ətrafı dalğa,
Yol yoxdu keçməyə burdan uzağa.
Günəş batan zaman bütün dünyada,
Yenə görünürdü həmin dəryada.
Atəşpərəst kimi güdürdü odu,
Odu heç gözündən iraq qoymurdu.
Fələk də heç gecə-gündüz bilmədən
Ona nur saçırdı odlu çeşmədən.
Qürubu dəryada seyr edən zaman
Sanırıq çeşmədə gün olur nihan.
Sanki odlu çeşmə axır dənizə,
Şəfəqli yol kimi görünür bizə.
Axıb çuxurları doldursa sular,
Böyüyə-böyüyə bir dərya olar.
Müəyyəb adlanar çuxura dolsa,
Müəlləq deyilər yer üstə olsa[203].
Baxsaq Mühit adlı böyük dənizə,
Suları müəlləq görünər bizə.
Su qalxıb oyanar günəş batanda,
Günəş də boylanar sular yatanda.
Ucalan günəş də ordan keçərək
Dəniz rənglərindən bürünər ipək.
Günəş endirərsə zirvədən bayraq,
Dalğalar ardında görünər ancaq.
Örtüyə bürünər bir az gedərək,
Çünki yer altından keçsə o gərək[204].
Bilik belə verir bunu nəzərə,
Başqa rəhbər də var yol bilənlərə.
Şah isti görəndə dəniz suyunu,
Çox dərin bir heyrət götürdü onu.
Alimdən soruşdu: "Deyin, bu nədir?
Kimdir gözətçisi, bu nə çeşmədir?"
Alim cavab verdi: "Həmin isti su
Çoxunun abrını tökmüş, doğrusu[205].
Çox olub bu sirri açmağa həvəs.
Kələfin ucunu tapmayıb heç kəs.
Çoxundan bu sirri soruşmuşam mən.
Olmayıb bir doğru cavab söyləyən.
Günəşin seyrini, hərə birtəhər,
Mərkəzdə, ya yerin altında bilər.
Kim bilir, günəş, Ay bu cilvəgahdan
Keçib sonra harda sürürlər dövran?.."
İskəndər kənarda bir az dincəldi,
Sonra yavaş-yavaş sahilə gəldi.
Civətək ağırdı o dənizdə su,
Kəsmişdi yolları bulud ordusu.
Gəmi belə suda üzməzdi asan,
Müşküldür yol getmək rəhbər olmadan.
Soruşdu şah sirri bələdçilərdən:
"Bu yola nə tədbir görməliyəm mən?
Salaq biz gəmini suya nə sayaq?
Yüklə o sahilə mümkünmü çıxmaq?"
Məsləhət görmədi o yolbilənlər,
Dedilər: "Yaramaz bu yerdən səfər.
Olsa yüz bələdçi, yenə də heç kəs
Gəmini bu sudan çıxara bilməz.
Vardır civə rəngli bu qorxunc suda
Qəssasə deyilən bir əjdaha da[206].
Mağaradan çıxan qara tüstütək
Görünər heybətlə hərdən o nəhəng.
Elə dəhşət saçar o qorxunc heyvan,
Uzaqdan görərsə əgər bir insan,
Vahimə içində quruyub ölər...
Kim olar bu qorxunc yollara rəhbər?
Hələ bundan betər: burdan baxanda
İşıqlı bir sahil vardır o yanda.
Rəngbərəng daşlarla doludur hər yan:
Qapqara, sapsarı, gömgöy, al-əlvan!
Hərəsi bir-iki batman qədərdir,
Qızıl sürmə daşlar sanki gövhərdir.
O əlvan daşları görəndə insan
Sevinər fərəhdən, gülər şadlıqdan.
Qəhqəhə çəkərək güldükcə gülər,
O qədər gülər ki, gülməkdən ölər.
Misqaldan az olsa daşın çəkisi,
Oyatmaz insanda o, gülüş hissi!"
Bunları dinləyib şah fikrə getdi,





Adamlar göndərib təcrübə etdi.
Qocanın sözləri düz-doğru çıxdı,
Daşlar çoxlarını torpağa yıxdı.
İskəndər əmr etdi, bir miqdar əsgər
Minib dəvələrə ora getsinlər,
Sarınsın gözləri yetişən zaman,
Yığıb gətirsinlər həmin daşlardan.
Nə qədər bacarsa toplayıb hərə,
Çatsınlar daşları tez dəvələrə.
Bez ilə bürüyüb bərk sarısınlar,
Üstdən də çox qalın şeylər salsınlar.
Daşlarla yükləyib o dəvələri,
Daşlıqda qalmayıb dönsünlər geri.
Şahın adamları dinləyib bunu,
İcra elədilər buyurduğunu.
Ölüm qorxusundan şah ilə ordu
Yel kimi tərk etdi o qorxunc yurdu.
Dəvə sürənlərə padşah əmr etdi,
Yüz dəvə o sarı qumdan yüklətdi.
İmarət tikməyə yararlı olan
Sulu bir çəmənə çatdığı zaman,
Buyurdu, daşları yerə tökdülər,
Onlardan bir böyük bina tikdilər.
Parçaya sarınmış həmin daşlardan
Eləcə sarılı qoyub, açmadan,
Onları qaydayla düzüb yığdılar,
Tikdilər qapısız uca bir hasar.
Daşbadam sayağı gözəl qəsrlər,
Hərəsinin hüsnü bir özgə təhər.
O sarı torpaqdan palçıq tutaraq,
Bayırdan çəkdilər hasara suvaq.
Hasar içəridən çılpaq divardı,
Çünki bu pərdədə gizli sirr vardı.
Alimlər bu cürə edir rəvayət:
Aradan keçincə bir xeyli müddət,
Çürüyüb sarğılar töküldü yerə,
Yeddi rəng gövhərlər çıxdı zahirə.
Binalar xaricdən vermirdi ziyan,
Çünki suvaq vardı sarı palçıqdan.
Geyimi soyundu daxildən hasar,
Öldürdü oraya ayaq basanlar.
Ora yetişəndə hər yoldan ötən,
Hasarı içindən görmək istərkən,
Bir qapı axtardı, tapmadı ancaq,
Hasara dırmaşdı kəmənd ataraq.
O hasar daşları bir adam görcək,
Alırdı canını ahənrübatək.
Batmanı adamı öldürsə əgər,
Gör dağtək qalansa nələr törədər?
Deyirlər: qürurlu şahlardan biri
Əfsanə sayaraq belə sözləri,
Bir adam göndərmiş, təcrübə etmiş,
Eşitdiyi sözlər sübuta yetmiş.
Binanı qurtarıb, sonra İskəndər
Dəryadan səhraya elədi səfər,
Altı ay yol getdi sonsuz çöllərdən,
Qoşun təngə gəldi axır səfərdən.
O, fil ayağıyla səhralar keçdi,
Nilin sahilinə gəlib yetişdi.
Çayın mənbəyini istədi görə,
Çıxan olmamışdı o yüksəklərə.
İskəndər çox iti bir hərəkətlə,
Böyük mətanətlə, böyük cürətlə
Dördnala çapırdı çayla yanaşı,
Aşırdı sel kimi o, dağı-daşı.
Dağları, çölləri keçərək getdi,
Nəhayət, dağ-dərə axıra yetdi.
Quru qumluqları keçib ötürdü,
Axırda yamyaşıl bir təpə gördü.
Təpənin ətrafı uca dağlardı,
Minatək yamyaşıl daşları vardı,
Bu daşlar kəsmişdi çıxacaq yolu,
Yol gedən azardı orda sağ-solu.
Minalı dağlardan büllur sütuntək
Şəlalə axırdı yolu kəsərək.
İti daşlar ilə doluydu hər yan,
Yol tapa bilməzdi təpəyə insan.
Bənzərdi tikanlı təpə kirpiyə.
Zillətlə qalxsaydı biri zirvəyə,
Orda unudardı əziyyətləri,
Keçərdi o üzə, dönməzdi geri.
Birisi, ya mini çıxsaydı bura,
Burdan da uçardı o çəmənzara.
Ora neçə nəfər oldusa rəvan,
Olmadı bir nəfər geri qayıdan.
Gedənlər nədənsə salırdı məskən,
Taxtü tac tapırdı orda deyəsən.
Qoşunu etmirdi onlar bir də yad,
Qalırdı onlardan quruca bir ad.
Yığdı alimləri yenə İskəndər,
Bu işə bəlkə bir çarə etsinlər.
Dedilər: "Yaramaz təklikdə getmək,
Oraya çıxanlar cüt olsun gərək.
Birbaşa çıxmaq da ora çətindir,
Yolda dincəlsinlər on addımda bir.
Təpəyə yetişib dayansın onlar,
Sonra tədbirləri işə salsınlar.
Heyrətə düşməsin deyə gözləri,
O üzə tədriclə baxsın hər biri."
Nəticə vermədi bu son tədbir də,
Yığdı alimləri İskəndər bir də.
Düşünüb verdilər belə bir qərar:
"Hünərli, vicdanlı bir şəxs tapsınlar,
Dünyagörmüş olsun, yazmaq bacarsın,
Gedəndə qələmlə kağız aparsın.
Götürsün yanınca əziz oğlunu,
Dərd-qəmdən qorusun övladı onu.
O dağı çıxdıqda oğlu da hər an

Gərək təqib etsin onu arxadan.
O çıxsın, ətəkdə qoysun oğlanı,
Balası zəncirtək saxlar aslanı[207].
Qayıda bilməsə o kişi əgər,
Ordan övladına eləsin xəbər.
İşdir, heyrətindən dili tutulsa,
Danışa bilməsə, qəfil lal olsa,
Yazar, gördüyünü verər oğluna,
Çünki varlığıyla bağlıdır ona."
Həmin sifətlərə malik, cəld, qıvraq
Bir qoca tapdılar soraqlaşaraq.
Yollandı dağlara qocayla cavan,
Sanki balasıyla getdi bir aslan.
O günün sabahı, günorta çağı
Gənc igid qayıdıb gəldi aşağı.
Bükülü naməni möhkəm tutaraq,
Baş əydi padşaha rəngi ağappaq.
Şah alıb oxudu, beləydi yazı:
"Məni bezdirmişdi yolların tozu,
Lap cana gəlmişdim, qorxurdum yaman,
Sanki cəhənnəmdi bu yolda hər yan.
Elə bil həyatın asılır tükdən,
Canından əl üzər bu yolu gedən.
Bu yollar çətindir, incədir tüktək,
Burdan mümkün deyil geriyə dönmək.
Sarp qaya üstünə gəlib çatarkən
Darısqal yollardan təngə gəldim mən.
Baxdıqca keçdiyim qorxunc yollara,
Qəlbim sıxıntıdan gəldi zinhara.
Bu tayın yolları düzdür, hamardır,
Hər yana baxırsan yaşıl bağlardır,
Boldur gül-çiçəyi, suyu, meyvəsi,
Gəlir hər tərəfdən quşların səsi,
Havası tərtəmiz, qəşəngdir hər yan,
Belə yurd arzular allahdan insan.
Havası tərtəmiz, ətir qoxulu,
Gözəl torpaqları çeşməli, sulu,
Çeşmələr, bulaqlar verib əl-ələ,
Bunlardan böyük çay gəlib əmələ.
Bu yanda bəzəkli gözəl bir həyat,
O yanda azğınlıq, düşgünlük, fəryad..
O tərəf - cəhənnəm, bu tərəf - gülşən,
Dönməz cəhənnəmə heç kəs behiştdən.
Bir də ki, gəlmişik gör hardan-hara,
Baxıram keçdiyim qorxunc yollara,
Belə gözəl yerdən kim dönər geri,
Keçər o dəhşətli qorxunc yerləri?
Mən getdim, salamət olsun görüm şah,
Mən şadam, sizi də şad etsin allah!"
Şah gizli sirlərdən oldu xəbərdar,
Qoşunu tez etdi o yerdən kənar.
Heç kəsə demədi oxuduğunu,
Qorxdu ki, hamısı tərk edər onu.
Şah razı olmadı orda qalmağa,

Əmr etdi, qoşunu çəkdilər sağa.
Durub dincəlmədən düzəldi yola,
Daha düşünmürdü heç bir şey əsla!
Qum kimi sərf edib bollu xəzinə,
Səhradan əzabla qayıtdı yenə.
Yol - qumluq, dərdi də - hədsizdi qumtək,
Gedirdi qüssədən ahlar çəkərək.
Səf çəkib tutmuşdu düşmənlər yolu,
Doluydu vəhşiylə yolun sağ-solu.
Ancaq şaha sarı onlar cumanda
Qaranlıq basırdı yolu bir anda.
Şah rüxsət vermədən, bir qədəm onlar
Çıxa bilməzdilər zülmətdən kənar.
Birisi çıxsaydı əgər fərmandan,
Olardı durduğu yer ona zindan.
Dilini bilirdi rast gəlsəydi kim,
Heç lazım deyildi ona mütərcim.
Onların dilində eləyib xitab,
Verirdi hərəyə layiqli cavab.
O, tozlu yollarla səfər edirdi,
Zamanı arxada qoyub gedirdi.
Bu yolda heç nəyə meyl etməyərək,
Qəlblərdən tozları silirdi yeltək.
Dostların könlünü o şad edirdi,
Yadlara həqiqi din öyrədirdi.
Qorxunc səhralardan tufantək keçdi,
Bir div ovlağına gəlib yetişdi.
Sanki od düşmüşdü bu yerdə çölə,
Səhra danışırdı alov diliylə:
Bol qızıl veribdir bura yaradan,
Ağacdan, otdansa yoxdu bir nişan.
Qızıl mədənini İskəndər görçək,
Sevindi bir qızıl tapan uşaqtək.
Bir qədər yol gedib, atını çapdı,
Cənnəttək bir gözəl düşərgə tapdı.
Ağacları qızıl bir bağdı abad,
Burda taca, taxtə çatmışdı Şəddad.
Ölkələr fatehi girdi içəri,
Qızıldan sapsarı gördü hər yeri.
Meyvəylə doluydu bütün ağaclar,
Ləl idi, dürr idi verdikləri bar.
Alma, nar doluydu hər tərəf, hər yan,
Hamısı qızıldan, parlaq yaqutdan.
Gümüşü narınclar, qızıl türünclər,
Adam inanmırdı saldıqca nəzər.
Baharı cəvahir, yeri kimyatək,
Zümrüddü, mərcandı hər ot, hər çiçək.
Büsat içindəydi o zinətli bağ,
Burda gövhərdəndi yanan hər çıraq.
İnsan biçimində qalxıb ucalan
İki heykəl vardı orda qızıldan.
Qızıl olduğunu bilməsə əgər,
Onlardan qorxardı yaxın görənlər.
Orda saf büllurdan vardı bir hovuz,





Xalis gümüşdəndi içindəki buz.
Orda saf əqiqdən balıqlar vardı,
Seyrinə dalanlar heyran qalardı.
Uca bir saraya malikdi gülşən,
Bir daşı qızıldan, biri gümüşdən.
Şah ayaq basanda həmin saraya
Bir cənnət qəsdinə yetişdi guya.
Şah qəsrin içini seyr eləyərkən
Ətəyi yırtıldı yağan gövhərdən.
Əqiqdən bir köşk də ziynətdi bağa,
Gövhər içindəydi başdan ayağa.
Onun qızıldan bir günbəzi vardı,
Günəştək bərq vurub par-par yanardı,
Üstündə müşk ilə ənbər tozundan
Başqa heç bir tozdan yox idi nişan.
Göyün günbəzinə girən mələktək,
İskəndər o köşkə girdi sevincək.
Gördü əqiqdən bir parlaq məqbərə
Ki, kafur qoxusu saçır hər yerə.
Mina naxışlıdır orda dər-divar,
Mina yazılı bir yaqut lövhə var.
Üstündə həkk olmuş: "Ey bura girən
Qüdrətli qəhrəman, oxu, bil ki, sən:
Şəddaddır bu qəbrin içində yatan,
Bu bağı, bağçanı odur yaradan.
Həyalı, ədəbli ol burda ancaq,
Fikrindən keçməsin niqabı açmaq.
Çalış, gizli qalsın bizim sirrimiz.
Kimsənin sirrini açmamışıq biz.
Gəl, bizim şərəfə hörmət elə sən,
Bu torpaq sənə də olacaq məskən.
Qəbrin günbəzini bu yerdə yatan
Hərçənd tikmişsə də sərt, qara daşdan,
Nəhayət, sürətlə dolanan fələk
Tozlara çevirib yelə verəcək.
Bədəni qarışqa yemi olacaq,
Başı da at nalı altında torpaq.
Doğrudur, çalışıb hərə birtəhər
Öz qəbri üstündə sütun tikdirər,
Ancaq belə gəlib hər şeyin sonu,
Yel göyə sovurar onun tozunu.
Şəddadın cəsədi, kim bilir, haçaq
Hansı at nalına tapdaq olacaq?
Bu məzar içindən dağıtma tozu,
Torpaqda yaxşıdır torpaq, doğrusu.
Bədəni axtarma, toz etdi ruzgar,
Təkcə bu günbəzdir ondan yadigar.
Gəl, toxunma bizə, baxıb ibrət al.
Bax, öz bu gününü sən də yada sal!
Özünə güvənmə ki, bəxtiyarsan,
Kim olsan, düşün ki, insansan, insan!
Bu xəzinə, saray sənindir yalnız,
Sənin əmrindədir başla tacımız.
Açıqdır üzünə bütün xəzinə,

Bu, yetər ordunun yol zəhmətinə.
Apar, sənin olsun xəzinə, amma
Bizim qəbrimizə əsla toxunma!.."
İskəndər mənalı lövhəni görcək,
Heyrətdən donaraq qaldı lövhətək.
Xətləri su kimi rəvan oxudu,
Ağlayıb gözündən tökdü xeyli su.
Məzarın önündə duran hökmüdar
Axıtdı gözündən sel kimi yaşlar.
Dəymədi orada bircə gövhərə,
Çıxıb hazırlaşdı yenə səfərə.
Getdi qılıncına baş əyən bağdan,
Dərməyib bir meyvə heç bir budaqdan.
Baxdı, o, bağdakı bu cah-cəlala,
Bildi ki, illəri salıbdır yola.
Xəzinə gördünsə dünyalar qədər,
Nə özü götürdü, nə də bir nəfər.
Sərvətlə doluydu o keçdiyi yol,
Saf qızıl-gümüşdü hər tərəf bol-bol.
Yenə də yadına düşdü öz yurdu,
Yenə səfər üçün çölə üz qoydu.
Yolun yarısına çatıb İskəndər,
Vəhşilər gördü ki, insana bənzər.
Bunlar çöl əhliydi, qırdan da qara.
Yaşayış yerləri kaha, mağara.
Onlardan soruşdu: "Bu çöllərdən siz
Sərgüzəşt, əfsanə nə bilirsiniz?
Deyin, sizdən başqa varmı yaşayan
Bu çöldə ya əhli, ya vəhşi heyvan?"
Onların cavabı şaha bu oldu:
"Az olur bu çölün suyu, buludu;
Bu susuz səhrada yaşayırıq biz.
Səhranın ovudur yediklərimiz.
Yalnız ovçuluğu etmişik peşə,
Ömrümüz heyvantək keçir həmişə.
Yeyərik nə etsək bu çöldə şikar,
Tüklərdən, dəridən geyərik paltar.
Burada nə ataş, nə də ki, su var,
Odu günəş verir, suyu buludlar.
İşıqlı gündüzlər göyün günəşi
Bizə əvəz edər odu, ataşi.
Şeh düşüb havanı nəm edən zaman
Nəfəslə alırıq suyu havadan.
Bu çöldə belədir məişətimiz,
Belədir işimiz, vəziyyətimiz.
Bir də soruşdunuz, deyək bir qədər
Bu çöldə kimlər var, necə ömr edər?
Bu odlu səhralar dəhşətdir, dəhşət,
Bir quş da uçmağa etməz cəsarət.
Dəstə dəstə vəhşi adamlar yaşar,
Heç kəslə ünsiyyət bağlamaz onlar.
Bir gündə onların getdiyi qədər
Biz getsək, inan ki, iki ay çəkər.
Onlardan birisi düşmüşdü ələ,

Soruşub birtəhər gətirdik dilə:
"Necə edirsiniz susuzluğa tab?"
O bizə nifrətlə vermişdi cavab:
"Su bizə zəhərdir, su içməz heç kəs,
Bizə suyu hava eləyər əvəz.
İlantək heç kəsə yovuşmarıq biz,
Kərtənkələlərdir yediklərimiz.
Sizdən ki, bir fayda yoxdur bizlərə,
Neçin boyun əyək sizə boş yerə?"
Yemək, yatmaq vaxtı yenə birtəhər
Onlardan gizlincə almışdıq xəbər:
"Bu sonsuz səhranı, susuz çölləri
Gəzib görübsünüz siz çoxdan bəri;
Söyləyin, kim görüb başqa zihəyat?[208]
Varmı bu çöllərdə başqa məxluqat?"
Onlar cavab verib: "Bu çölü, dağı
Axtarıb gəzmişik yaxın-uzağı.
Ahutək biz qaçdıq illər uzunu,
Tapmadıq səhranın ancaq sonunu.
Bizə rast gəlmişdir başqa çöllülər,
Onlardan soruşub tutmuşuq xəbər:
"Görəsən bizlərdən başqa, yaradan
Burda yaratmışmı başqa bir insan?"
Onlar deyiblər ki: "Çox uzaqlarda,
Günəş ziyasına həsrət diyarda
Müşk meşəsi kimi bircə şəhər var,
Orda ağ bədənli insanlar yaşar.
Gözəl, xoşxasiyyət, üzləri gülər,
Onlar beş yüz ildən artıq ömr edər.
Beş yüz yox, lap min il yaşasalar da,
Qocalıq əsəri olmaz onlarda.
O diyar haqqında bunlardan qeyri
Heç kəsin heç şeydən yoxdur xəbəri.
Bizim bu torpaqda hələ də çox var
Heç ayaq dəyməmiş səhralar, dağlar.
Orda göyərtidən, sudan əsər yox,
İsti bərk istidir, soyuq bərk soyuq.
Bir yerdə göyərti bitməsə əgər,
Orda canlı məxluq necə ömr edər?"
Bunlardır eşidib bildiklərimiz,
Yoxdur başqa daha bir xəbərimiz."
Onların halına yanıb İskəndər,
Cürbəcür nemətdən verdi bir qədər.
Qayda-qanun qoydu, ayin öyrətdi,
Onları haqq dinə hidayət etdi.
Düzgün nişanlarla bilməkçin yəqin
Yolunu soruşdu məchul yerlərin
Gördülər İskəndər çox şəfqətlidir,
İnsaflı, qayğıkeş, mərhəmətlidir,
Eyləyir onlara ürəkdən kömək.
Dedilər: biz də bir xidmət göstərək,
Torpağı od, ataş, küləyi zəhər
Səhradan çıxmağa yol göstərdilər.
İskəndər vaxt-bivaxt, baxmadan yola,

Oradan atını çapdı dördnala.
Qurtardı axır ki, çöllər, səhralar,
Dübarə sahilə çatdı hökmdar.
Dərya kənarında bulaqlar vardı,
Büllurtək suları şırşır axardı,
Bulaqlar başında bir aya qədər
Əzabı dincliklə əvəz etdilər.
Yenidən gəmilər qayırdı onlar,
Mindi gəmilərə bütün qoşunlar.
Bir ayda yol gedib onlar dənizlə,
Gəlib yetişdilər axır mənzilə.
Ulduzlu gecənin od tutub canı,
Sanki əqrəb çalıb xallı ilanı[209].
Cənubdan bir nəsim əsdi bu yerə,
Şadlıq, fərəh verdi yol gedənlərə.
Çeşməli, kölgəli bir yer gördülər,
Bir həftə qalmağa qərar verdilər.
Yolun əzabına tapdılar dərman,
Çıxdı yavaş-yavaş ağrılar candan.

### İSKƏNDƏRİN BAŞA SİTAYIŞ EDƏNLƏR KƏNDİNƏ YETİŞMƏSİ

Müğənni, könlümdə taqət yox səbrə,
Bu gecə nəğmənlə qıl mənə çarə!
Elə bir nəğmə ki, kama yetirsin,
Məni huşsuzluqdan huşa gətirsin!
O gövhər paylayan öz mücrüsündən -
Belə gövhər saçır söz mücrüsündən:
Şah dönüb Məşriqdən mənzilə yetdi,
Atını Cənuba tərəf yönəltdi.
Havanın ən lətif, ən xoş bir çağı,
Oxşayıb sevəndə ruzgar torpağı,
Narıncı ətr ilə sübh oyananda,
Türüncü rənglərlə su boyananda,
Yenə köç yerindən çıxıb səfərə,
Sürdülər atları başqa bir yerə.
Şaha bələdçilər verdilər xəbər
Ki, burdan çıxaraq edərkən səfər,
Yolda behişttək bir kəndə çatacaq,
Hər yanı çəmənlik, hər yanı bulaq.
Orda yaşayanlar haqqı danırlar,
Bütü özlərinə allah sanırlar.
Bəlkə şah onlara edə mərhəmət,
Edə onları da haqq yola dəvət.
Gecənin camına gün axıb doldu,
Yetişib o kəndə şah, aram oldu[210].
Günəş tovuz kimi açdı balü pər,
Laciverd hilalın üstə səpdi zər.
Qalxdı o cahangir atın belinə,
Zəfər cilovunu aldı əlinə.
Qürurla atını sürdü qabağa,
Sanki Bəhram getdi gur ovlamağa.





Açıldı önündə nurlu bir cahan,
Çiçəkli, çeşməli bağ idi hər yan...
Hər yanı yamyaşıl gözəl bir kənddi,
Kənd demə, elə bil əsil cənnətdi.
Şah gəlib o kəndə çatdığı zaman,
Görmədi pişvaza çıxan bir insan.
Çox idi o kənddə allahlıq edən,
Hamısı uzaqdı dindən, əqildən.
Palçıq bir küp qoyub evinə hərə,
Küncüd yağı töküb həmin küplərə,
Yağla dolu küpə insafsızlıqdan
Onlar salardılar bir nəfər insan.
Üstündən otuz gün, qırx gün keçərkən
Kəsib alardılar başı o küpdən.
Baş dönüb qupquru kəllə olardı,
Bədənsə necə var elə qalardı.
Bu quru kəlləni sanaraq rəhbər,
Ondan alardılar hər şeyi xəbər.
Quru, boş kəlləni çubuqlayaraq,
Hərdən sorardılar ondan bu sayaq:
"Yaxşımı keçəcək bizim gecəmiz?
Nələr görəcəyik sabahkı gün biz?"
Guya bu kəllədə gizlin sirr varmış,
Ondan danışıqtək bir səs çıxarmış,
Deyərmiş sabahkı müqəddəratdan:
Hansı yollar ilə gedəcək cahan.
Baxıb o söyləyən sözə, təbirə,
Yozardı bəxtini hərə bir cürə.
Görüb bu adəti müdrik xilaskar
Dedi ki, bu sirdə bir div əli var.
Əmr etdi, kəllələr bütün qırılsın,
Yağla dolu küplər tez sındırılsın.
Ağıllı dəlillər ilə hökmdar
Batil fikirləri etdi tarmar.
Onları təlqinlə dinpərvər etdi,
Allah və peyğəmbər yolu öyrətdi.
Bir təmiz qəlbini böyük İskəndər
Burada onlara eylədi rəhbər.
Ölkənin işini qaydaya saldı,
Yenə də gethaget səsi ucaldı.
Fərəhlə eləyib ordan hərəkət,
Bir mənzil yol getdi o, sağ-səlamət.
Hökmdar atına vermədi aman,
Axıb ulduz kimi keçdi yollardan.
Yollar buruq-buruq, yollar dumanlı,
Uçurum, darısqal, daşlı, tikanlı.
Göründü zirvəsi qılınctək bir dağ,
Əzab-əziyyətdi o dağı aşmaq.
Şah onu seyr etdi başdan-ayağa,
Yol gəzdi birtəhər ora çıxmağa.
Çəkdi ordusunu o dağa sarı,
Hədsiz əziyyətlər yordu onları.
O qədər sərtdi ki, daşlar, həmin gün
Dırnaqdan oldular heyvanlar bütün.

Şah gördü bu daşlar bərkdir poladtək,
Heyvanlar yorulub əldən düşəcək,
Əmr etdi xam gönlə, dəriylə bərk-bərk
Onların dırnağı sarınsın gərək.
Dırnaqlar daşlara dəyməsin deyə,
Möhkəm sarısınlar qalın keçəyə.
Yolda yeriməyə əngəl törədən
Daşları yığsınlar bütün o yerdən.
Yığdılar yollarda nə qədər daş var,
Çala-çuxurları hamarladılar.
Gəlib neçə fərraş şahın yanına,
Ədəblə, hörmətlə baş əydi ona.
Bir ovuc daş verib dedilər: "Bir bax,
Bu daşlar minikdə qoymayıb dırnaq.
Nallardan əzabla çıxarmışıq biz.
Bunlardan dad çəkib miniklərimiz.
Polad çəkiclərlə döydük o ki, var,
Polad sındı, amma sınmadı daşlar.
Şah daşa zəhm ilə bir qılınc çaldı,
Qılınc parçalandı, daş bütöv qaldı.
Hansı bir maddəylə onu sürtdülər,
Qalaydan başqa şey etmədi əsər.
Doğrudan bu daşlar bərkdi, itiydi.
Odur ki, bunlara şah "almaz" dedi.
Toplayıb hamını dedi hökmdar:
"Tanıyın, qiymətli daşlardır bunlar.
Bunlar kara gələr, yəqin ki, bir gün,
Yığın, təmizləyin yolları bütün!".
Daşları tanıyıb yığsınlar deyə,
Nümunə verirdi hər döyüşçüyə.
Əsgərlər bu sözü eşidən zaman
Düşüb axtardılar həmin daşlardan.
Aşağı yuxarı, çox axtardılar,
Ancaq gördülər ki, bu daşdan az var,
Dənіztək vüsətli bir dərə vardı,
Dağı dörd tərəfdən o qucaqlardı,
Almazla doluydu o dərin dərə,
Gəlirdi tasdakı sutək nəzərə.
Dərə dəniz kimi gövhər saçardı,
Ancaq ki, balığı onun ilandı.
Qaynaşır ilanlar min-min hər yanda,
Kim görüb ilanı gövhər satanda?
İlanlar onunçün dolub bu yola
Ki, xəznə bir yerdə olur ilanla.
Yolu xəzinənin çətindi yaman,
Yox idi bir nəfər ora yol tapan.
Şah gördü çox-çoxdur mədəndə almaz,
Almazın üstüylə yol getmək olmaz,
Həm də ki, yollarda doludur ilan,
Bir əsgər getməyir ora qorxudan.
Düşündü, axtardı buna bir çara,
Diqqətlə baxanda qayalıqlara,
Gördü ki, qayalar üstünə qonmuş
Caynaqlarında ov çoxlu qaraquş.

Uçuşan quşları görəndə orda,
Öz fikir quşunu uçurtdu o da.
Əmr etdi: kök, anq, nə olur olsun,
Yığıb gətirsinlər düz min baş qoyun.
Həmin qoyunları kəssinlər onlar,
Ətini doğrayıb parçalasınlar.
Atsınlar o mədən sayılan yerə,
Ət ilə qalanıb dolsun o dərə.
Şahın əmri ilə görüldü tədbir,
Qoyunlar kəsilib soyuldu bir-bir.
Almazlar mədəni sayılan yeri
Ətlə doldurdular atıb leşləri.
Ətə almaz duztək yapışan zaman
Quşlar da uçuşub gəldi hər yandan:
Kababla "duzu" da aldılar onlar,
Qaldı o dərədə yalnız ilanlar.
Qayalar üstünə qonub yedilər,
Hər quşun dalınca getdi on nəfər.
Tökülən almazı onlar yığaraq,
Şahın hüzuruna döndülər qıvraq.
Şah yığdı bir yerə o almazları,
Pislər gömgöy idi, yaxşılar sarı.
Şah ordan aşağı dönüb gələrək
Endi dağdan axan qüdrətli seltək.
Onlar çox sür ətlə endilər dağdan,
Yox idi bir nəfər bələdçi-filan.
Atların nalından odlar yağırdı,
Döşündən tər deyil, qanlar axırdı.
Bir ay yol getdilər onlar bu sayaq,
Qalmadı minikdə salamat dırnaq.
Axır xoşbəxtliklə qurtardı birdən
Qoşun şikayətdən, şah əziyyətdən:
Qoşunu şah daşlıq yerdən çıxartdı,
Həm abad, həm geniş bir yerə çatdı.
O münbit torpaqda yağışdan, qardan
Gömgöy əkinlərlə doluydu hər yan.
Yamyaşıl, şən, göyçək görüb o yurdu,
Qəlbi həsrət ilə ora uçurdu.
Atlar ac, burasa göy otla dolu...
Başları qarışdı, azdılar yolu.
Bir gənc, - əlində bel, ayağı yalın
Durmuşdu zəmidə şir kimi dalğın.
İgiddi, tərifə yox ehtiyacı,
Başına layiqdi Kəyanlar tacı.
Bel sanki əlində qızıl açardı,
Üzündə iş-gücün nişanı vardı.
Beli gah qaldırır, gah endirirdi,
Suyu gah kəsirdi, gah da verirdi.
Şah dəvət eləyib soruşdu ondan:
"Nədəndir torpağa meylin, ey cavan?
Bir gözəl oğlansan, düşüncən də var,
Gözəl iş görməli gözəl insanlar.
Sənə layiq deyil bu çöldə qultək
Əlinə bel alıb rəncbərlik etmək.
Belə gözəl, parlaq gövhərə əsla
Yaraşmaz torpağa qaxılıb qala.
Lap şahlıq verərəm istəsən sənə,
Əl çək bu torpaqdan, qulaq as mənə.."
Ağıllı əkinçi eyləyib xitab,
Verdi padişaha ədəblə cavab:
"Ey dünya alimi, adil hökmüdar,
Sənə ram olmuşdur xamlar, hanlar.
Bir elə iş ver ki, hər peşəkara,
Qoymasın işindən onu avara.
Başqa iş bilmərəm, əkinçiyəm mən,
Padşahlıq eləmək gəlməz əlimdən.
Rəncbərin yatağı daim bərk olar,
Biz yumşaq yataqda olanq donqar.
Bərkliyə öyrənib vücudum mənim,
Çox yumşaq yatağa dözməz bədənim.
Zəriflik eləsə kobud bədənlər,
Elə bil yapışqan bal olmaq istər!.."
Bu cavab padşahın gəldi xoşuna,
Ürəkdən "Afərin!" söylədi ona.
Sonra da etməkçün onu imtahan
Soruşdu: "Allahın kimdir, ey cavan?
Səni kim qoruyur dünyada şərdən?
De, nəyə etiqad eləyirsən sən?
Kimə qul bilirsən, söylə, özünü?
Tikibsən hansı bir yola gözünü?"
Gənc dedi: "Ey haqdan xəbərlər verən,
Peyğəmbərlik edib düz yol göstərən!
Səninlə bir yolun yolçusuyam mən,
Mənim də qibləmdir sənin öz qiblən.
Dağları, daşları, çağlayanları,
Göyləri bəzəyən kəhkəşanları
Yaradan allaha mən gecə-gündüz
Səcdəylə sürtürəm bu torpağa üz.
Bu qaşı, bu gözü odur naqş edən,
Özümdən xəbərsiz mənə bəxş edən.
Daha neçə nemət mənə göndərmiş,
Onun yüzdə biri min fayda vermiş.
Mənim də borcumdur ona şükr etmək,
Allahı tanıyan şükr edə gərək.
Sən bir peyğəmbərsən, mən allaha qul,
Odur ki, edirəm dinini qəbul.
Mən səni əvvəldən görüb yuxuda,
Sayəndə dirildim balıqtək suda.
İndi, sən qarşımda zühur edəndə,
Əmrinə həmişə hazıram mən də.
Dünya yetirməmiş səninтək insan,
Səni tək yaratmış böyük yaradan.
Aləmdə şadlığın mayəsi sənsən,
Dünyanı hifz etdin öz səddinlə sən!"
Şahların başçısı olan İskəndər
Həmin xoşxasiyyət gəncə bir qədər
"Afərin!" söyləyib öpdü alnından,
Allahın adını eylədi bəyan.





Ona bağışladı şahanə xələt,
Allahın dinilə tapdı o qüdrət.
Bu güllü, çiçəkli gülşən ölkədə,
Çəmənli, bulaqlı bu şən ölkədə
Qoşunla birlikdə şah bir gün qaldı,
Hamı rahatlanıb dincini aldı.
Bu yeddi xalvarlıq təbli çaldıran
Xoruza əmr edib verdirəndə ban[211],
Yola hazırlaşdı yenə İskəndər,
Tədarük gördülər, başlandı səfər.
Xeyli uzaqlaşıb həmin ölkədən,
Başqa bir mənzildə saldılar məskən.
Bu ölkə cənnəttək gözəl bir yerdi,
Torpağı əkinsiz məhsul verərdi.
Ağaclı, çiçəkli gözəl diyardı,
Hər yanda şahanə saraylar vardı.
Ancaq torpağını basmışdı sular,
Çürüyüb solmuşdu orda hər nə var.
Şah sordu: "Bu yerdə kimlər hakimdir?
Bu hansı ölkədir? Sahibi kimdir?
Bunun əkinçisi, öküzü hanı?
Hanı xış sürəni, cilov tutanı?"
Yerlilərdən biri təzim eylədi,
Şaha əhvalatı belə söylədi:
"Qəlbə fərəh verir bu gözəl diyar.
Onun bərəkətli zəmiləri var.
Burda əkin əksən vaxtında əgər,
Məhsulu ən azı birə min verər.
Ancaq zülm əlindən gəlib zavala,
Düşüb bu faydasız, bəhrəsiz hala.
Adil olsa idi burda hökmüran,
Kənd abad olardı, kənddə də - insan.
Bu yer ədalətə görə verər bar,
Zülmdən zavala gəlib məhv olar.
Bir yerdə insafdan olmasa nişan,
Quruyar istidən, çürüyər sudan.
Bu yerdə zülm olsa bir arpa qədər,
Arpanı, buğdanı yel, sel məhv edər.
Bu yerin çox incə tərəzisi var,
Bircə arpa onu əyərək pozar."
İskəndər bildi ki, bu su, bu torpaq
Zülmdən xaraba qalıb bu sayaq,
Ədli bərpa etdi, kənd oldu abad,
Qoydu adını da: İskəndərabad.
Bir qanun qoydu ki, o kənddə heç kəs
Muzdurun haqqını verməyə bilməz.
Hər kəs verməlidir malına zəkat,
Ora xərac üçün gəlməsin barat.
Heç bir tövcü yığan ora gəlməsin...
Belə hökmüdara yüz min afərin!

## İSKƏNDƏRİN QƏNDƏHAR BÜTXANƏSİNƏ YETİŞMƏSİ

Müğənni, mizrab vur, gəlsin dilə saz,
Çünki bu işimiz sazsız saz olmaz!
Bu saz yar olarsa əgər bir kəsə,
Gələr onun qəlbi eşqə, həvəsə.
Səfalı bir gündə, ilk bahar çağı
Seyr etmək nə xoşdur bağçanı, bağı.
Bənövşə gətirə bahardan soraq,
Nərgiz əllərində qaldıra çıraq,
Quşların qanları gəldikcə cuşa,
Qəlbləri naləylə gələ xuruşa.
Sərv altda qırqovul quşuna bənzər
Düzülə rəngarəng qızıl qədəhlər,
Çöllərdə ceyranlar başlaya rəqsə,
Ceyran quzuları verə səs-səsə.
Güllər büsat qura çay sahilində,
Şirindil bülbüllər ola sazəndə;
Qumrunun səsilə gülün nəsimi
Uyuşa ülfətlə iki dost kimi...
Belə bir fəsildə ən sevimli şey
Rudun ahəngidir, bir də gülgün mey...
Çala badam gözlü bir türk nəğməkar,
Simlərin üstünə töküla saçlar.
O simlər dəyəndə nazlı əllərə,
Qınlıb qarışa ipək tellərə.
Sən nəğmə qoşasan oynaq rəng ilə,
O da cavab verə sənə çəng ilə.
Ondan öpüş ola, səndən qəzəllər,
Biri innab kimi, digəri şəkər...
Tutiyə dönübsən, ey şad könül, sən,
Yadına Hindistan düşüb deyəsən!..[212]
Dağların döşünü bəzədi reyhan,
Otlar yamyaşıldır, güllər al-əlvan.
Marallar gül-çiçək içinə batdı,
Səsləri dağ-daşı, çölü oyatdı.
Tikanlar yerini verdi güllərə,
Qarışdı bənövşə müşkə, ənbərə.
Ənbər almaq üçün o xumar nərgiz
Başını qaldırdı yerdən çarəsiz...
Rum ilə İranın böyük sərdarı
Abad bir ölkəyə saldı güzarı.
Hindistan mülkünə yetişdi yenə,
Elə bil xoş nəsim əsdi gülşənə.
Ordan da Məşriqə qaldırdı bayraq,
Bir ay dağdan, daşdan aşdı çaparaq.
Yolları cəhənnəm istisi sardı,
Gündən balığın da beli qızardı[213].
Yaşıllıq içində gördü bir şəhər,
Ona Fərruxbehişt deyirlər türklər
Gördü orda gözəl bir bütxana var,
Qoymuşlar adını onun Qəndəhar.
Yığılıb bütüzlü gözəl sənəmlər,





Hərəsi bir bütə sitayiş eylər.
Qızıldan bütlərdir baxsan hər yana,
Xəznəyə çevrilib sanki bütxana.
Nəzər sal heykəlin başında taca,
Ucalıb sarayın tağı boyunca.
Gövhərdir bütlərin parlaq gözləri.
Şamtək şöləlenib yanır hər biri.
O qədər gövhərlə bəzənib bu bağ,
Sanki yanır orda gecə min çıraq.
Şah dedi: "Heykəlin tozu tökülsün,
Qızılı, gövhəri, nə var sökülsün."
Bütə bu fərmandan gəlsə də ziyan,
Xalqın xeyrinəydi, əlbəttə, fərman.
Orda bir canlı büt vardı, gözəldi,
İşvəylə o şahın yanına gəldi.
Əyilib süpürdü saçıyla yeri
Şahı alqışlayıb düzdü sözləri:
"Ey Şərqdən Qərbədək bütün dünyanı
Fəth edən ən adil dünya sultanı!
Dünyaya nur saçar, ucadır tacın,
Qızıla, gövhərə yox ehtiyacın.
Belə nəql edirlər düzdanışanlar:
Bu bütün qəribə bir dastanı var.
Şah əgər icazə versə, könüldən
O köhnə dastanı danışaram mən."
Padişah buyurdu: o gözəl dilbər
Yaqut sandığından saçsın saf gövhər[214]
Qaraxal gözəlin dodağı qaçdı,
Sanki büllur çeşmə sərin su saçdı,
Dualar söyləyib eylədi bəyan:
"Bu yaşıl budaqlı, bu zərli eyvan
Bir zaman deyildi hələ bütxana,
Bir günbəzi vardı yarımvirana.
Səhradan buraya uçdu iki quş,
Hərə dimdiyində bir gövhər tutmuş,
Səadət gətirən humay quşutək
Qondular üstünə günbəzi görcək.
Şəhər əhli buna təəccüb etdi.
Quşları tədbirlə tutmağa getdi.
Tədbir baş tutmadı, keçdi bir qədər,
Quşlar gövhərləri atıb getdilər.
Şəhər böyükləri düşdülər işə,
Gövhərlər onları saldı təşvişə.
Fikir, mübahisə artdı, çoxaldı,
Ağıllı məsləhət qələbə çaldı.
Qət etdi şəhərin başbilənləri:
Məbədə versinlər o cüt gövhəri.
Bir büt düzəltdilər, bədəni zərdən,
Hər iki gözü də parlaq gövhərdən.
Quşların bəxşişi - o gövhərləri
Gərək şah da bizdən almasın geri!
Nur alır gözümüz gündən, gündüzdən,
Rəvamı gözləri gün ala bizdən?[215]
Korları şad edən bir şamı əbəs
Gözü işıqlılar əsla söndürməz.
Qəlbinə dağ çəkmə dul qadınların,
Söndürmə şamını sən də onların."
O şirin dilli büt belə söylədi.
Şah da dilsiz bütü azad eylədi.
Yazıldı o bütün üstə bu sözlər:
"Bura öz möhrünü vurmuş İskəndər."
Qız gördü qoruyur padşah bütləri,
Bundan xoşhal olub o gözəl pəri,
Şaha bir xəzinə göstərdi pünhan.
Onu kim görsəydi qalardı heyran.
Xəznə açarını şah ondan aldı,
Bir qədər payladı, bir qədər qaldı.
Sonra o cənnətdən çıxıb İskəndər
Yenə qoşunuyla eylədi səfər.
Keçərək şoranlıq, daşlıq yerlərdən
Çöllərdə, dağlarda salırdı məskən.
Yollarda təsadüf etdikcə insan,
Başlardı söhbətə o hər bir yandan.
Danışıb onlara allahdan, dindən,
Tutiya verərdi din hikmətindən.
Getmişdi bütün Şərq ölkələrinə,
Yenidən bir daha yönəldi Çinə.
Onun gəlişini eşidən zaman
Layiqli bir büsat bəzədi xaqan.
Şahı dəbdəbəylə etdi istiqbal,
Bürüdü dünyanı dövlət, cah-cəlal.
Təzimlə çıxdı o, şah hüzuruna,
Şah da mehribanlıq göstərdi ona.
Göy küpdə batan gün, sapsarı ipək
Rəngini dəyişib, alanda göy rəng.
Üz-üzə əyləşib iki hökmüdar
Hər yerdən, hər şeydən söhbət açdılar.
Xeyli uzun çəkdi xoş söhbətləri,
Onlar təzələdi köhnə əhdləri.
Padşahın dinini bəyəndi xaqan.
Qanunlar, qaydalar öyrəndi ondan.
Sabah öz möhrünü göstərən zaman
Atəşpərəst oldu hindli Qaraxan[216].
Burdan köç edəydi gərək İskəndər,
Bunu o xaqana elədi xəbər:
Burda xoş keçsə də mənimçün, yenə
Böyük həvəsim var dəniz seyrinə.
Səyahət eləyib yenə dəryanı,
Görüm orda olan yaxşı-yamanı.
Dərin dənizlərdə bir görüm nə var,
Nə sirlər söyləyir qorxunc dalğalar?
Səfərdə yoldaş ol, dayaq ol mənə,
Yoluma nur saçan çıraq ol mənə".
Xaqan bu təklifi qəbul elədi:
"Belə səyahətə çox şadam!" dedi.
Sonra qərar verdi iki hökmüdar:
Əvvəl bir bələdçi yola salsınlar.
Uğurlu talelə üfüq gülüncə





Səhərin başına tac qoydu gecə,
Belə qərar verdi böyük tacidar,
Dostlarla bir yerdə yola çıxsınlar.
Seçdi ordusundan düz on min nəfər
Hər biri şahlığa layiq bir əsgər.
Sonra ehtiyaca nəzər yetirdi,
Nə qədər lazımsa sursat götürdü.
Qoşundan, xəznədən bir hissə qaldı,
Özüsə dəstəylə köç təbli çaldı.
O xanlar xanı da bir bələdçitək
Şaha xidmət etmək, yoldaşlıq etmək
Fikriylə, azuqə alıb bir qədər
Götürdü ox, qılınc və başqa şeylər.
Yanında on min də əsgəri vardı,
Onlar həm ağıllı, həm işgüzardı.
Başlandı bu sayaq Məşriqə səfər,
Yolda saf qızıllar sərf edirdilər.
Sonrasa Cənuba dönüb yenə də,
Çoxlu ov etdilər yol gedə-gedə.
Belə yol getdilər onlar düz qırx gün,
Bir yer tapmadılar dincəlmək üçün.
Göy su kənarına çatdıqda onlar,
Enərək sahildə tutdular qərar.
Ordaca yığılıb məclis quraraq,
Yenə ucaltdılar göylərə bayraq.
Orda eşitdilər bir xoş hekayət.
O sahil haqqında xoş bir rəvayət:
"Günüzlü, ayüzlü pərilər gecə
Çıxırlar dəstəylə ora gizlicə,
Ucadan oxuyub dadlı nəğmələr,
Çalıb oynayırlar səhərə qədər.
O qədər lətifdir, incədir o səs,
Huşunu itirər eşitsə hər kəs.
Beytlər yayılır bəhrdən çölə,
Heç kəs bu bəhrdə yazmayıb hələ[217].
Dağın ətəyində bir neçə saat
Hər gecə qururlar pərilər büsat.
Sübhün nəfəsini onlar duyanda
Batırlar qapqara suya bir anda..."
Şah bunu eşidib belə buyurdu,
İki mil uzağa çəkilsin ordu.
Müşktək ətirli bir gecə, göydən
Ulduzlar gövhərtək nur səpələrkən
Şahın əmri ilə bir gəmi gəldi,
Şah burdan qoşunsuz yola düzəldi.
Sahildə bir xeymə qurdu o sultan,
Gövhər nur saçmağa başladı sudan.
Göründü pərilər, elə bu zaman
Gün bayraq qaldırdı sanki dəryadan.
Saçlar ağ əndama səpələnibdir,
Sanki gümüş üstə müşk ələnibdir.
Tərana oxuyur şövq ilə onlar,
Hər səsdə, nəğmədə başqa ahəng var.
İskəndər eşidib o xoş səsləri,
Qanı cuşə gəldi, yandı ciyəri.
Bu həzin nəvadan ağladı bir az,
Sonra gülüb dedi: ağlamaq olmaz.
Bir səsdən gülə, həm ağlaya insan,
Onun qüdrətinə olmazmı heyran?
Şah bütün bunları seyr edib, yenə
Sahildən qayıtdı öz məskəninə.
Bəzədi göyləri ağ Çin ipəyi,
Yer açdı üzündən qara örpəyi[218].
Dedi gəmiçiyə böyük hökmüdar:
"Tez ol, bu dənizə bir gəmi çıxar.
Dalğalı suları seyr eləyim bir,
Var bu pərdələrdə ilahi bir sirr.
Bu iş qorxuludur, anlayıram mən,
Ancaq əl çəkmərəm öz niyyətimdən.
Bunu bir aqildən soruşsan əgər,
Fələk sövq eləyib bu işə, - deyər."
Gəmiçi dinlədi şahın əmrini,
Sahildən dənizə saldı gəmini.
Şah minib gəmiyə gedəndə ordan
Sahildə müntəzir dayandı xaqan.
Ona tapşırdı ki: "Mən qayıtmamış
Tərpənmə yerindən əsla bir qarış!
Geri döndərmərəm əsla yelkəni,
Bəlkə də əcəldir aparan məni...
Sağ dönsəm, çıxaram xəcalətindən,
Dönməsəm, işlərə əncam çəkərsən!"
Deyib, göz yaşını axıtdı seltək,
Yerdə qalanlara vida edərək,
Sürdü gəmisini Çin dənizinə.
Kim görüb ki, dəniz gəmiyə minə![219]
Yoldaşlarından da bir neçə nəfər
Götürdü, birlikdə etdilər səfər.
O İsa nəfəsli ustadlardan da
Bircə Bəlinasdı onun yanında...
Çəkildi sahildən ənginliklərə
Sahil görünməyən uzaq bir yerə.
Dəniz dünyasında bir dünya getdi[220],
Hünəri, şöhrəti dünyaya yetdi.
Bir xeyli yol getdi dənizdə gəmi,
Axıntı başladı birdən sel kimi.
Axırdı Mühitə dəniz bu yerdən,
Axırdı, axırdı geri dönmədən.
Mahir dənizçilər düşüb heyrətə,
Bu qorxunc sularda gəlib dəhşətə,
Axır rəhnümədən öyrənib sirri,
Gördülər ki, gərək dönsünlər geri.
Bu zaman uzaqda nurtək parlayan
Kiçik bir cəzirə göründü əyan.
Mühitin selindən qorxaraq onlar
Həmin cəzirədə tutdular qərar.
Bir qoca gəmiçi gələrək dilə
Müdrik padişaha söylədi belə:
"Çatmışıq ən qorxunc, çətin bir yerə,

Bura son mənzildir rəhnüma üzrə.
Gəl, inad eləmə, dəniz suları
Burdan axıb gedir Mühitə sarı.
Əgər bir mənzil də o yana getsək.
Daha mümkün olmaz geriyə dönmək!.."
İskəndər bunları eşidən zaman
Gördü qorxuludur bu yer, doğrudan.
Əmr etdi, burda bir tilsim düzəlsin,
Əliylə işarə eyləyə bilsin.
Görənlər bilsin ki, yol yoxdur burdan,
O yana keçməyib hələ bir insan.
O yerdə misdən bir tilsim tökərək.
Onu qaldırdılar adada yüksək.
Gəmilər gələndə bura uzaqdan,
Tilsim suyu verib əliylə nişan,
Bildirsin ki, burdan keçməyib heç kəs.
Kimsə cəhd etməsin o yana əbəs!
Şahın buyruğundan olub xəbərdar,
Bu yoldan geriyə qayıtsın onlar.
Tilsimə bir daha nəzər saldı şah,
Duydu ki, bu sirri buyurmuş allah.
Alimə dedi ki: "Çəkilən zəhmət
Bu işin xatiri üçünmüş, əlbət!
Bu tilsim üstündə, buna sal nəzər,
Məni bu dənizin Xızrı etdilər."
Allahın əmrilə qadir hökmüran
Salamat qayıtdı o gur axından.
Dənizdə on gün də etdilər səfər,
Yol azdıqlarını sonra bildilər.
Uca bir dağ gördü onlar uzaqdan,
Önündə yol kəsən qorxunc burulğan.
Bir gəmi girdaba düşsəydi əgər,
Hərlənib qalardı hey uzun illər.
Sınıb dağılardı orda, nəhayət,
Ordan çıxmamışdı kimsə salamət.
O mahir gəmiçi ora yetişcək
Xətt çəkdi gəmiylə suda pərgartək.
Bir dağ ətəyində saldı lövbəri,
Çıxardı sahilə sərnişinləri.
Baxıb burulğana, xəyala daldı,
Arvad-uşağını yadına saldı.
Şah sordu: "Nə var ki, qəmgin durubsan?
Üzübsən əlini sanki dünyadan."
Gəmiçi bilirdi iş nə yerdədir,
Bunları şaha da danışdı bir-bir:
"Gəmini bu yerə sürərsə hər kəs
Bu qorxunc girdabdan qurtara bilməz!
"Şir ağzı" deyərlər bu burulğana,
Çünki şir ağzıtək hərisdir qana.
Doğrudur, çox qorxu çəkdik biz müdam,
Ancaq bu təhlükə başqadır tamam.
Bu ona bənzər ki, qızdıra xəstə,
Bir yara da çıxa yaranın üstə.
Qorxuyla keçdiksə o yolu əgər,
Öndəydi təhlükə, öndəydi xətər.
Ölüm ayağıdır indisə bura,
Yağışdan qurtarıb düşdük yağmura.
Bu dağ qılıncından xilas olaq biz,
Quruyla getməkdir ancaq çarəmiz.
O yanda Qeysura gedən bir yol var.
Ordan Çinə sarı uzanır yollar,
Quru yol olsa da nə qədər uzaq,
Dənizlə getməkdən yaxşıdır ancaq."
Söylədi İskəndər orda bir məsəl:
"Uzaqlıq eyb etməz, sağ-salamat gəl!"
Sonra tələb etdi o, alimdən də:
"Müdrik bir insansan, fikir de sən də,
Qüdrətli əqlindən işıq saçılsın,
Gəmiyə qurtuluş yolu açılsın!"
Alim söylədi ki: "Bu yolda müdam
Mən şahın bəxtini rəhbər tutmuşam.
Şah əgər qalarsa burda bir qədər,
Mən qaya üstündə tilsim düzəldər,
Sonra da bir günbəz tikərəm ona,
Bir təbil asaram onun boynuna.
Günbəzin içində durub bir nəfər
Təbili şiddətlə döyərsə əgər,
Gəmi burulğandan çıxar salamət,
Əvvəlki qaydayla yol gedər rahət!"
Şaha çox qəribə gəldi bu oyun,
İstədi fikrini öyrənsin onun.
Alimə buyurdu fikrində nə var,
Yerinə yetirib eləsin aşkar.
Hər nə lazım isə həmin iş üçün
Verildi alimə o şeylər bütün.
Hünərli alim də durmadan bir dəm
O çətin iş üçün çalışdı möhkəm.
Sarp daşdan bir günbəz tikdi çox yüksək.
Ona əfsunlarla vurdu min bəzək.
Misdən bir tilsim də elədi bina,
Asdı bir mis təbil onun boynuna.
Şaha söylədi ki: "Günbəz hazırdır,
Onun tilsimi də, təbli də vardır!
İndi burulğana gəmini salsan,
Salamat çıxacaq o təbli çalsan!"
Mahir gəmiçiyə şah verdi fərman,
Sürsün gəmisini ora qorxmadan.
Gəmi burulğana daxil olantək,
Coşaraq hərləndi bir burulğantək.
Təbil ağacını şah alıb ələ,
Yoxlamaq istəyib, endirdi təblə.
Elə bir dəhşətlə guruladı təbil,
Sanki qanad çaldı göydə Cəbrail.
Gəmi də girdabda qalmayıb bir an,
Tez çıxıb qurtuldu o burulğandan.
Bu sirli hikmətə çox sevinərək,
Şahın üzü güldü yaz günəşitək.
Xilaskar alimə, şad olsun deyə,





Çoxlu mal-xəzinə etdi hədiyyə.
Başqa bir katib də xəritələrdən
Yoxlayıb, danışır həmin o yerdən:
"Babil tərəfdədir həmin burulğan..."
Çətindir iki rəy söylənən zaman.
İki çay bir yerə tökülsə əgər,
Səsi nəğmə kimi qulağa gələr.
Bunu bir alimdən sual elədim:
"Bu təblin səsində nə sirr var?" dedim.
Heyətşünas alim öz biliyilə
Dəlillər gətirib, şərh etdi belə:
"Gəmi burulğana çatdığı zaman
Heybətli bir balıq suyun altından
Bir dairə üzrə daim dövr edir,
Ağır gəmiləri suda hərlədir.
Gəmilər hərlənir dağılanadək,
Qərq olub batanı udur o nəhəng.
Gurlayanda təbil - o qurd dərisi,
Yetişir balığa sehirli səsi.
Balığı sarsıdır bu müdhiş nərə,
Baş vurub o qaçır dərinliklərə.
O balıq qaçanda suları yarır,
Ardınca gəmini çəkib aparır.
Çıxır burulğandan gəmi bu sayaq,
Allah özü bilir düzünü ancaq!"
Tilsimin sirrini bilib hökmüdar,
Dənizə çıxmağa verdi tez qərar.
O dağda dayanmaq istəməyərək,
Tələsik sahilə gəldi sevincək.
Gecənin hindusu bu göy çadırdan
Yeddi rud boyunca ip çəkən zaman[221]
O qorxunc sahildə xof etməyərək,
İp üstə oynadı şah bir hindlitək[222].
Ancaq bilmirdi ki, o təbli çalan
Adamı nə sayaq götürsün ordan.
Yenə kömək oldu bu işdə allah,
Heç kəsi qoymadı qalsın orda şah.
Özgənin gözünə dərman eyləyən
Özünə istərmi dərman özgədən?
Kafur həbbi atar çox qızdırmalı,
Bunsuz yaxşılaşar təbibin halı.
Başqa dərdililərə kim etsə dərman
Özü sağ-salamat olar hər zaman.
Hünərli gəmiçi cəld tərpənərək,
Atıldı gəmiyə sanki bir nəhəng.
Yelkənin ipini açdı bəndlərdən,
Dora altdan-üstdən bənd idi yelkən.
Yelkəni qaydayla açıb yüksəltdi,
Gəldiyi yollarla qayıdıb getdi.
Qara su üstüylə gəmiylə keçdi,
Əvvəlki sahilə gəlib yetişdi.
Hamı əqlə gəlməz bir sevinc ilə
Çıxdı sağ-salamət həmin sahilə.
İskəndər dəhşətlə dolu o yoldan
Qayıdıb sahilə çıxdığı zaman
Çəkdiyi əzabdan artıq dincəldi,
Dərd-qəmi unudub özünə gəldi.
O, xeyli qul, dustaq eylədi azad,
Allaha şükr etdi, qəlbi oldu şad.
Çatanda bu xəbər Çin xaqanına
Gəldi gülər üzlə şahın yanına.
Allaha sidq ilə şükr edib yenə,
Səpdi ayağına bol-bol xəzinə.
Onu nəvazişlə qucaqladı şah,
Başına gələndən elədi agah.
Danışdı dəhşətli dəniz selindən,
Qurduğu tilsimin nicat əlindən.
Dənizdə yolunu azdığı zaman
Dəstənin düşdüyü o burulğandan.
Qaçdıqları dağdan, xilas təblindən...
Nəql etdi hər şeyi ona tamamən.
Bütün əhvalatı xaqan dinlədi,
Şahın iqbalına mədhlər dedi:
"Şahların şahına tanrı yar oldu,
Bu xanlar xanı da bəxtiyar oldu.
Buraya gəlməkdə sirr varmış yəqin,
Fələk qüdrətini bilirmiş sənin!
Qarşına yaxşı da çıxsa, yaman da,
Yaxşı bax, bir məqsəd gizlənib onda...
Bu üstüörtülü sirləri isə
Görməz huş sahibi olmayan kimsə.
Ora getməsəydi hökmüdar əgər,
Necə düzələrdi bütün bu işlər?
Əlimə müşküllər açır bu cahan,
Cahanda əbədi qərar tutasan!"
İskəndər dincəlib orda yeddi gün
Yolun əzabını unutdu bütün.
Dünya səfərini yad edib yenə
Keçmişi almadı əsla vecinə.
Ucaldı o gecə yenə köç səsi,
Yollandı qoşunun öncü dəstəsi.
Qlavuz birinci düşdü qabağa[223],
Nallar naxış vurdu daşa, torpağa.
Gövhərlə bəzənmiş əlvan bayraqlar
Çölləri bahartək etdi lalazar.
Qılınclar bəzəkli, qalxanlar qəşəng,
Bəzədi çölləri gültək, çiçəktək.
Sıçradı o dünya şahı yəhərə,
Dünyanın tozunu saçdı göylərə.
Üz qoydu səhraya, gəlib çatantək
Payladı qoşuna mal-dövlət, yemək.
Dünya səfərinə qızışdığından
Qızışmış çöllərlə çapdı durmadan.
On gün biyabanla çapıb getdilər,
Göründü əkinli, abad bir şəhər.
Ağ rəngdə gördülər onlar şəhəri,
Sanki kafurdandı bütün evləri.
Şah sordu: "Kimindir, xaqan, bu şəhər?





Bura xəritədə nə ad vermişlər?"
Bilici bu cürə elədi bəyan:
"Məhrumdur bu şəhər məhsuldan, bardan.
Burda hökm eləyir elə bir padşah
Ki, onu qüdrətdə sanırlar allah.
Qəriblər çəkinir bu məmləkətdən,
Ürəyi nurlular qaçar zülmətdən.
Ancaq qızıl-gümüş burda bol olar,
Başqa şeylərdənsə kasaddır bazar.
Günəş dan yerinə sancanda bayraq
Başlanır dənizdə taraqqataraq.
O dəhşətli nərə, o gurultular
İnsanın qəlbinə vahimə salar.
Dəhşətə gəlməsin deyə, bu yerdə
Körpələr saxlanır zirzəmilərdə.
Səsdən qulağını tutar böyüklər,
Yoxsa onların da ürəyi gedər!"
Bu sözlər şaha çox elədi təsir,
Soruşdu alimdən buna bir tədbir.
Alim cavabında dedi ki: "Ey şah,
Əmr elə, gözünü açanda sabah,
Xoruz banlamamış, qoy səhər erkən
Təbillər vurulsun düşərgələrdən.
Təbil çala-çala təbil oyunu
Oynayıb boğsunlar o gurultunu.
Bu sayaq gün doğub qalxana qədər
Təbil səslərini əksiltməsinlər.
Bu halda dənizdən qopan qorxunc səs
Heç kəsə vahimə, dəhşət gətirməz!"
Şah dedi alimə: "Bu səslər nədən
Eşidənl edir başdan, beyindən.
Ondakı fəryadın nədir səbəbi?
Külək də dinləyir... Aç bu mətləbi!"
Alim cavab verdi: "Bir xatirəm var,
Ustadımdan qalıb mənə yadigar.
Sular qızaranda səhər günəşdən,
Dalğalar od alır sanki atəşdən.
Döş-döşə gələndə dağtək dalğalar
Dənizdə dəhşətli nərələr qopar.
Dərya təndir kimi zəbanə çəkər,
Gurlayıb ətrafa qığılcım tökər!
Başqa bir alim də deyir ki, guya
Civə qarışmışdır həmin o suya.
Günəş suya düşüb qızdıran zaman
hərarət civəni qaldırır sudan.
Günəş ki, axşamlar batıb yox olar,
Dincələr o coşğun civəli sular.
Çırpınan dənizdə, qarışanda şər
Qopar dalğalardan qorxulu səslər!.."
Dünyanın hakimi belə buyurdu:
Şəhərə çatmamış dayansın ordu.
Düşüb dincəlməyə o, qərar verdi,
Burdan da yoluna tədarük gördü.
Şəhər əhalisi tutanda xəbər,
Alver etmək üçün axıb gəldilər.
Burda şəhər üçün hər cür mətah var,
Acıdan, şirindən baxıb aldılar.
Oldu bu alverdən bütün şəhər şad,
Artdı əhalinin qazancı qat-qat.
Şah da öz malından hər müştəriyə
Əvəzsiz, minnətsiz etdi hədiyyə.
Bir az da ayırıb puldan, qızıldan
Başçıya göndərdi sovqat, ərməğan.
Şəhərin başçısı bunu görəntək
Şahın ənamından vəcdə gələrək,
Göndərdi şövqlə o da hər cürə
Xuruşlarla dolu zəngin bir süfrə.
Bişmişdi xuruşlar balıqdan, ətdən.
Vardı o süfrədə hər bir nemətdən.
Gəlib üzr istədi: "Əfv elə bizi.
Verə bilmədik yol azuqənizi.
Azuqə tapılmaz bizim çöllərdə.
İsti havalar var ancaq bu yerdə.
Şah ona şərh etdi öz ayinini,
Zəngin biliyini, doğru dinini.
O da qəbul edib oldu minnətdar,
Haqqı nişan verdi ona hökmüdar.
Şah da bu əməldən çox razı qaldı.
Ona xələt verdi, şad yola saldı...
Qırmızı pərdəni göy yığan zaman
Düşdü qızıl teşti uca damından[224].
Şah öz yoldaşları ilə bərabər
Yatıb dincəldilər səhərə qədər.
Ətirlər saçanda sübhün reyhanı
Yüksəldi dənizin yenə fəğanı.
Sanki dünən düşən teştdir bu təhər
Belə guruldayır indi bu səhər.
Bu qorxunc səsdən şah hövlə gələrək,
Dilləndi gurlayan döyüş təblitək.
Əmr etdi: hərəkət eləsin ordu,
Hər yandan təbillər saldı gurultu.
Onların səsləri dəhşətlər saçdı,
Xoruzun boynundan zəngləri açdı[225].
Bu səslər bürüdü səmanı, yeri,
Bu səslər batırdı başqa səsləri.
Təbillər dünyaya hay-küy salaraq
Gurladı nahara qədər bu sayaq.
Səsdən bütün şəhər cuşa gələrək
Dəydi bir-birinə məhşər günütək.
Axışdı buraya həm pir, həm cavan,
Dəccalın təbliydi sanki çalınan[226].
Dənizin səsini batırdı bu səs,
Buna çox təəccüb elədi hər kəs.
Gün qalxıb olanda günorta çağı,
Şah yenə qaldırdı səfər bayrağı.
Şaha tazim edən ərlər, qadınlar
Ona dedilər ki: "Bir arzumuz var:
Bəlkə qorxunc səsli bu təbildən sən

Birini burada qoyub gedəsən?
Ta ki, ucaldıqca onun gur səsi
Boğula dənizin qorxunc nərəsi!"
Vida eyləyəndə böyük hökmüdar,
Bəxş etdi bir neçə təbil yadigar.
O gündən şəhərdə, tezdən hər səhər,
Təbil çaldırmağı adət etdilər.
Şah da bu adəti etdirib davam
Təbil çaldırardı sübh çağı müdam.
Onlar yol getdilər bir aya qədər,
Abad Çin mülkünə gəlib yetdilər.
Gəlib ordugaha çatdı hökmüdar,
Fələyi görəndə yenə xoşrəftar,
Çəkildi düz bir ay istirahətə,
Başladı ləzzətlə eyşə, işrətə...

## İSKƏNDƏRİN ŞİMALA ÇATMASI VƏ YƏCUC SƏDDİNİ BAĞLAMASI

Müğənni, ürəyim düşübdür dara,
Bu dərdə sazınla sən eylə çara!
Könlüm cuşə gəlib qəmdən, qüssədən,
Sazının telilə ram et onu sən!
Günəş öz evinə edəndə şitab
İstidən aslanlar oldular kabab[227].
Gücü, hərarəti artdı anbaan,
Çirki, rütubəti sildi havadan.
Qarsıldı bitkinin yaşıl yarpağı,
Saraldı lalənin qızıl yarpağı.
Bürkü səhralara od-alov saldı,
Meyvələrin ağzı açıla qaldı.
Bülbül çöldən dağa eylədi səfər,
Səsləndi qürbətdə qərib nəğmələr.
Qızdı yay gününün isti nəfəsi,
Çalı quşlarının kəsildi səsi.
Günəşi göylərdə dolanan zaman
Sancıb saraltmadı əqrəbtək xəzan.
Tüstülənən bir teşt vardı əlində,
Gəzib od saçırdı o, Zəngdə, Çində.
Yırtırdı aslantək iti caynağı
Gah öküz sağrısı, gah gur dırnağı[228].
Yayın ən şiddətli, isti çağında,
Daş muma dönəndə gün qabağında
İskəndər gözündən qovub yuxunu,
İstədi Xırxıza çəksin qoşunu.
Şah vida eylədi Çin xaqanına,
Xəzinə, var-dövlət bəxş etdi ona.
Yola rəvan oldu, Çini tərk etdi,
Qoşunu səhraya doğru yönəltdi.
Bəxtinin təblini çaldırıb yenə,
Yetişdi Məşriqdən Şimal həddinə.
Keçdi o, çöllərdən, axan qumlardan,
Nə uçan quş gördü, nə də bir insan.
Qarşıda parlayan düzənlik vardı,
Qumları nur saçar, par-par yanardı.
Bələdçi dedi ki: "Burda gördüyün
Qumlar başdan-başa gümüşdür bütün.
Burdan sən o qədər götür xəzinə,
Qoşunu salmasın yolda çətinə.
Qoşundan bilməsin bunu bir nəfər,
Ağır yük götürüb əldən düşərlər."
Şahınsa çox idi saf qızılları,
Odur ki, baxmadı gümüşə sarı.
Ancaq ki neyləsin, güc gəldi tamah,
Bir neçə dəvəni yüklətdi padşah.
Yel kimi keçsə də yolu çaparaq,
Qalxmırdı havaya nə toz, nə torpaq.
Bir həftə qonmadı toz paltarlara,
Çünki başdan-başa gümüşdü ora.
Deyərdin bu yerlər iki hissəydi:
Torpağı gümüşdü, suyu civəydi.
Nə gümüş üstündə dincəlmək olar,
Nə civə su kimi içməyə yarar.
O yer tutulmuşdu belə bir dərdə,
Çökmüşdü torpağa qara bir pərdə.
Harda ki, içməli bir çeşmə vardı,
İçində su ilə civə qaynardı.
Su civə üstündə tutmuşdu qərar,
Ordan cürətlə su içirdi onlar.
Çalxalanmasaydı əgər çeşmələr
Civədən görməzdi heç kimsə zərər.
Çeşmələr bulanıb qaynaşan zaman
Heç kimsə əyilib içməzdi ondan.
Bilməyib içsəydi bir adam əgər,
Onu öldürərdi sudakı zəhər.
Şah bunu biləndə, tez verdi fərman:
Hamı ayıq olsun su içən zaman!
Hər kim axar sudan istəsə içmək
Onu ehtiyatla durultsun gərək.
Bir ay yol getdilər onlar bu sayaq,
Öldü susuzluqdan bir çoxu ancaq.
Gümüşlü çöllərdən keçərək yenə
Gəlib yetişdilər vətənlərinə.
Düşdülər torpağa yorğun, natəvan,
Torpaqda dincələr torpaqdan olan.
Gördülər qarşıda bir düşərgə var,
Zülmətdə günəştək par-par parıldar.
Qabaq-qarşı duran dağda bir qala
Tutmuşdu başını göyə vüqarla.
Qala arxasında bir dağ da vardı,
Belində kəməri sarp qayalardı.
Orda peyğəmbərə etməyib beyət,
Bir tayfa yaşardı sakit, səlamət.
Onlar ilham alıb böyük tanrıdan,
Özləri olmuşdu allahtanıyan.
Onlar İskəndəri pak sifət görcək
Qəbul elədilər bir peyğəmbərtək.
Bilikli, adil bir hökmdar kimi





Qəlbləri bəzədi onun təlimi.
İskəndər onlara haqqı göstərdi,
Din, bilik, mərifət, - çox şeylər verdi.
Şahı mərhəmətli, qayğıkeş görcək
Açıb dərdlərini umdular kömək:
"Ey qəlbi şəfqətli aqil hökmüran,
Müti qulların, gəl, ol pasiban!
Bu dağdan o yana vardır bir diyar,
Sonsuz bir səhradır, sərt qayalıqlar.
Oranı yəcuclar etmişlər məskən,
İnsana bənzərlər, divdirlər əslən!
Şırtək almazcaynaq, sərt, dəmirürək.
Hamısı xaindir yırtıcı qurdtək.
Təpədən dırnağa tükləri biz-biz,
Yoxdur üzlərində burundan bir iz.
Boyları bir qarış, yeməkləri çox,
İstidən, soyuqdan qorxuları yox;
Dişdən, dırnaqdan da - yırtıcı heyvan.
Qana hərisdirlər onlar hər zaman.
Yeyinlikdə üstün gələrlər yelə,
Poladı deşərlər dırnaqlar ilə.
Yeməkdə, içməkdə naşükürdürlər,
Allahı tanımaz orda bir nəfər.
Dünyada bu qədər yeməli şey var,
Ancaq ki, ot-ələf yeyərlər-onlar.
Yeyərlər, yatarlar, iş-güc bilməzlər,
Mini doğulanda bircəsi ölər.
Onların yerində bir cür ot bitər,
Verər istiottək çox tünd danələr.
Hər gecə-gündüzdə ondan bir azca
Yeyərək yatarlar elə ordaca.
Bir xırman başqa ot versən də əgər,
Yeyərlər, yenə də doymaq bilməzlər.
Ayla Gün səmada üz-üzə gəlcək
Onlar qaynaşarlar xırda qurdlartək.
Nə düşsə, qorxusuz tutub yeyərlər
Bu sayaq, Ay yarı olana qədər.
Göydə Ay kiçilib olanda yarı
Azalar bir qədər iştahaları.
Qara buludlardan ildə bir kərə
Böyük bir əjdaha düşər o yerə;
Yaman yekə olur həmin o heyvan.
Yəcuclar doyunca yeyərlər ondan.
Yıxılıb qalarlar, bir aya qədər
Sərxoştək yatarlar, heç nə yeməzlər.
Köklə otdan başqa bilməzlər yemək.
Xəstəlik görməzlər ölən günədək.
Bir nəfər ölərsə onlardan əgər,
Hamısı yığışıb ölünü yeyər.
Şoran torpaqlarda nə murdar qalar,
Nə də ölülərə qazılar məzar.
Yaxşı cəhəti də budur: o torpaq
Məzardan xalidir, murdardan uzaq!
Ərəbir hücumla talayıb bizi,
Xaraba qoyarlar evlərimizi,
Qoyun-quzumuzu aparıb onlar.
Yeyərlər nə qədər azuqəmiz var.
Bu itsifətlərdən qorxduğu qədər
Canavardan qorxmaz bizim sürülər.
Bizləri qırmaqçın edərlər qovğa,
Didərgin salarlar yurddan uzağa.
Biz uca dağlara qaçıb qorxudan
Quştək ağaclarda salarıq məkan.
Ancaq ayaqları süstdür bir qədər,
Ardımızca dağa çıxa bilməzlər.
Bu böyük bəlanı bizdən əgər sən
Dəf etsən, çox böyük savab edərsən!"
İskəndər bildi ki, zordur yəcuclar,
Yəqin hər birində bir fil gücü var.
Bir sədd ucaltdı ki, orda poladdan,
Olmaz həşrə qədər onu dağıdan.
Ona uca bəxti köməklik etdi.
Tikilib qurtardı İskəndər səddi.
Dönüb bir şəhərə gəldi şah ordan,
Axtarıb tapmadı orda bir insan.
Yenə səfərinə davam etdi şah,
Köçməyə başladı ordan qərargah.
Bu işdən keçəndə bir xeyli müddət,
Bir ay dağlar, çöllər aşıb, nəhayət,
Gözəl bir mənzildə məskən saldılar,
Bu yerdən hamısı məmnun qaldılar.
Bir yol töhfəsitək böyük hökmüran
Göstərdi qoşuna şəhri uzaqdan.
Başqa cürə idi burda təbiət,
Su ilə, əkinlə tapmışdı ziynət.
Hasarsız, divarsız bağlardı hər yan,
Bol-bol sürü vardı, yoxdu bir çoban.
Qoşundan birisi tər meyvələrə
Əlini uzadıb istədi dərə,
Həmin meyvələrdən birini dərcək
Bədəni qıc olub qaldı kamantək.
Başqa bir atlı da qoyun tutanda
Onu bərk qızdırma tutdu bir anda.
İskəndər: "Bax, bunlar ibrətdir", deyə,
Əlini vurmadı orda heç nəyə.
Qoşuna əmr edib şah dedi: "Heç kəs
Özgənin bağına toxuna bilməz!"
Tələsik gedərək ordan bir qədər,
O axar-baxarlı yerdən keçdilər,
Cənnəttək, neməti bol-bol, firavan
Bir şəhər gördülər onlar uzaqdan.
Gəlib darvazaya çatdı İskəndər,
Gördü ki, qapıdan yoxdur bir əsər.
Müdrik qocalarla girdi şəhərə,
Baş vurdu onlarla burda hər yerə,
Gördü çox bəzəkli, dolu dükanlar,
Ancaq nə qapısı, nə qıfılı var.
Nəcib şəhər əhli onu görəntək

Çıxdı qarşısına təzim edərək.
Gətirdilər qəsrə bir mehman kimi,
Saray ziynətliydi asiman kimi.
Süfrə bəzədilər, büsat qurdular,
Özləri xidmətdə hazır durdular.
Pərəstiş etdilər o mehmanlara,
Əhsən qonaqsevən bu insanlara!
Süfrəni bəyəndi böyük hökmüdar,
Onlar fərəhlənib çox şad oldular.
İskəndər soruşdu: "Nə üçün sizlər
Qorxu bilməzsiniz heç zərrə qədər?
Neçün burda belə arxayınlıq var?
Neçün qıfılsızdır burda qapılar?
Yoxdur heç bir bağda keşikçi, bağban,
Neçin sürünüzü güdməz bir çoban?
Çobansız sürülər nadir bir belə,
Baxdıqca yayılıb düzənə, çölə?
Belə arxayınlıq, laqeydlik nədir?
Sizin inamınız, deyin, kimədir?"
Ədalət yurdunun ağsaqqalları
Bir də mədh eləyib o hökmüdarı
Dedilər: "Başına tac qoyan allah
Ömrünü payidar eləsin, ey şah!
İşində haqq sənə havadar olsun,
Şöhrətli adına hünər yar olsun!
Bizim güzəranı sordu hökmüran,
Buyurub dinləsin, biz edək bəyan:
Doğrusu budur ki, bizlər qədimdən
Bu dağı, bu çölü etmişik məskən.
Fağır bir tayfayıq, həm də dinpərvər,
Düzlükdən keçmərik əsla tük qədər.
Əyri dolanmaqla yoxdur işimiz,
Düzlükdən başqa yol tanımırıq biz.
Əyrilik yoluna çəkmişik hasar,
Düzlüklə olmuşuq əzabdan kənar.
Yalan gətirmərik biz dilimizə,
Əyri yuxular da görünməz bizə.
Faydasız etmərik heç sorğu-sual,
Çünki allaha da xoş getməz bu hal.
Allahdan nə gəlsə, edərik şükür,
Çünki narazılıq naşükürlükdür.
Biz razı qalanq nə gəlsə haqdan,
Düşmənlik edərmi pərəstiş edən?
Acizin dərdinə edərik çara,
Xilas eyləyərik düşərsə dara.
Bizim aramızda, bilsək ki, əgər,
Birinə bir işdə yetişib zərər,
Biz öz kisəmizdən onu ödərik,
Verib mayasını təmin edərik.
Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana heç kimsə gülməz.
Oğrudan qorxmanq, biz nə şəhərdə
Keşikçi qoyanq, nə də çöllərdə.
Oğurluq eləməz bizdə bir nəfər,
Oğurlaya bilməz bizdən özgələr.
Nə zəncir, nə qıfıl görər qapılar,
Gözətçisiz otlar bizim mal-davar.
Bizim uşaqları böyüdər allah,
Naxıra şir, pələng toxunmaz əsla.
Bizim bir qoyuna dəysə canavar,
Ordaca gəbərib yerində qalar.
Kim dərsə bir sünbül bizim əkindən,
Qəfil bir ox dəyər düz ürəyindən.
Biz əkin zamanı səpərək dəni,
Haqqa tapşıranq sonra əkini.
Altı ay olanq əkindən uzaq,
Bir də biçin vaxtı gələrik ancaq.
Bizim bərəkətli münbit zəmilər
Düz birə yeddi yüz məhsul yetirər.
Bir, yaxud yüz belə işi bacarsaq,
Allaha təvəkkül elərik ancaq.
Bizi hifz eləyən allahdır, allah,
Biz yalnız allaha gətirrik pənah
Xəbərçilik bilməz bir nəfərimiz,
Özgənin eyvana göz yumanq biz.
Birini qəzəbli, acıqlı görsək,
Ona məsləhətlə elərik kömək.
Heç kəsi pis yola əsla çəkmərik,
Fitnə axtarmanq, qan da tökmərik.
Dərdlinin dərdinə olanq şərik,
Şad olsa, onunla şadlıq eylərik.
Qızıla, gümüşə aldanmaz heç kəs,
Bunlar bizim yerdə bir şeyə dəyməz.
Xəsislik bilmərik dünyada bizlər,
Zorla şey almanq bir arpa qədər.
Bizdən qaçmaz əsla vəhşi heyvanlar,
Vermərik onlara əziyyət, azar.
Ehtiyac olanda gur, cüyür, ceyran
Özləri axışıb girər qapıdan.
Ovlamaq istəsək onlardan əgər,
Ovlanq ehtiyac duyulan qədər.
Lazım olmayanı biz nahaq yerə
Qırmanq, ziynətdir onlar çöllərə.
Nə öküz, nə eşşək kimi yeyərik,
Nə də ağzımızı möhürləyərik.
Süfrəyə hər cürə nemət düzsələr,
Yeyərik, gözümüz qalana qədər.
Bizdə cavanlardan ölüm uzaqdır,
Ölüm çox yaşamış qocaya haqdır.
Ölüyə biz əsla saxlamanq yas,
Bilirik bu, dərdə bir çarə olmaz.
Üzə deyilməyən bir sözü heç kəs,
Bizlərdə qaydadır, daldada deməz.
Kim nə cür dolanır, danışmanq biz,
Kimsənin işinə qarışmanq biz.
Naşükür deyilik qismətimizə,





Razıyıq qəzadan nə gəlsə bizə,
Allahın lütf edib verdiyi şeyə
Deməzik: "Bu hardan? Bu belə niyə?"
Bizimlə birlikdə o adam yaşar
Ki, ola bizimtək təmiz, pəhrizkar.
Tutduğumuz yoldan çıxsa bir insan,
Kim olsa, qovanq öz aramızdan..."
İskəndər bu qayda-qanunu görcək
Duruxub dayandı divanələrtək.
Çünki belə şeyi nə görmüş, nə də
Oxumuş idi bir xosrovnamədə...
Öz-özünə dedi: "Arifsən əgər,
Qoy sənə bir ibrət olsun bu sirlər.
Dünyanı gəzmərəm mən, daha bəsdir,
Hər ovlaqda bir tor qurmaq əbəsdir.
Bütün bildiklərim qalsın bir yana,
Bunların söhbəti bəs elər mana.
Elə bil dünyanı o pərvərdigar
Bu mərd insanlarçün etmiş bərqərar.
Bunlar şövkət vermiş aləmə, yəqin
Sütunu bunlardır bütün aləmin.
Düz yaşayış yolu budursa əgər,
İnsan bunlardırsa, bəs nəyik bizlər?
Bizi haqq göndərib çölə, dənizə,
Qəsdi göstərməkmiş bunları bizə.
Vəhşi adətlərə eyləyib nifrət,
Öyrənək bunlardan ayin, mərifət.
Bunları əvvəldən görsəydim əgər,
Dünyanı bu qədər gəzməzdim hədər.
Tapardım özümə dağda bir kaha,
İbadət eylərdim orda allaha.
Bunlartək asudə ömr edərdim mən,
Dinim də olardı həmin bu dindən!.."
İskəndər görəndə onları dindar,
Peyğəmbərliyini etmədi izhar.
Görəndə onları əməlisaleh,
Xəzinə bəxş etdi o böyük fateh.
Qayıtdı geriyə ordan fərəhlə,
Qoşunu dənizətək yönəltdi çölə.
Bayraqlar qaldırdı rum ipəyindən,
Al6 xara geyindi sanki çöl-çəmən!
Tutdu qarışqatək qoşun hər yanı -
Dərəni, təpəni, düzü, ormanı...
Hara iz saldısa atının nalı
Sildi o yerlərdən dərdi, məlalı.

## İSKƏNDƏRİN RUMA QAYITMASI

Müğənni, şövqlə ucalt səsini,
Aç yenə gövhərlər xəzinəsini!
Bu bağlı qapıya kim salsa açar,
Gizlin xəzinədə dürr, gövhər tapar.
Meyvənin xoş ətri basanda bağı
Kəndlilər unudar evi, otağı.
Meyvələr çoxalar, bağlar varlanar,
Belə bir bolluqdan yer vüqarlanar.
Fərəhdən sevinib güləndə püstə
Xurma baxıb ondan bir busə istər.
Ləl ilə bəzənmiş bir tac kimi nar,
Uzaqdan çıraqtək alışıb yanar.
Göz vurub qızarmış alma edər naz,
Çəkər gərdənin turunc işvəbaz.
Tənəklər şərabdan nəşələnərək
Sarmaşar almaya, nara sərxoştək.
Bürüyüb bağları var ağacları,
Cüt məmələr kimi görünür barı.
Əncir yeyən quşlar oğrutək pünhan
Asılar ağacın budaqlarından.
Badam sevən torpaq yağ almaq üçün
Soyar qabığını badamın bütün.
İstəyər, innab da gəlib həvəsə,
O dilsiz-ağızsız fındıqdan busə.
Ağaclar şənliklə qaldıraraq baş
İnnabdan, fındıqdan verərlər şabaş.
Qarapapaq üzüm sərxoşluğundan
Dolar barmağına saçını nihan.
Qabaqlar sazlarlar şadlıqçün rudu,
Heyva boğazından tutar armudu.
Daşınar şərabçın dolu səbətlər,
Səbət daşıyanın üzü-gözü tər.
Salxımlar sıxılar bağda başabaş,
Axışar küplərə şirəsi birbaş.
Südəmər körpələr necə qığıldar,
Küplər də dolduqca elə uğuldar.
Toy-bayram edirkən dünya bu zaman
İskəndər uzaqdı bu toy-bayramdan.
Qatıb bir-birinə gecə-gündüzü,
Üzürdü dənizi, keçirdi düzü.
O, bir çox ölkəni xoşluqla, zorla
Dardan çıxarmışdı geniş bir yola.
Ömrün piyaləsi artıq dolmuşdu,
Onun özünə də yol dar olmuşdu.
Dünyada hamıya iki qapı var,
Birindən girənlər birindən çıxar.
Bu yeddi budaqlı, altı cəhətli,
Dövrəsi, meydanı, yeri vüsətli
Sərvdən ucaldı bir qiyabi səs:
"Daha fatehlikdən əl çək, bəsdir, bəs![229]
Bəsdir, bu dünyanı gəzməkdən əl çək.
Daha ilk mənzilə dönəsən gərək!
İskəndər sözünü yazanda katib
Yalnız beşcə hərflə ifadə edib.
Beş hərfə müvafiq etdin beş səfər[230],
Suları, dağları keçdiyin yetər!
Pəncəni bu dünya işlərindən çək.
Qayıt öz evinə, get, beş ayadək
Yunan torpağına dönməlisən sən!"
Ayıldı İskəndər sanki məstlikdən.

Qorxuyla, dəhşətlə dinlədi bunu,
Çəkdi öz atının tez cilovunu.
Məhrəm dostlarına açıb bu sirri,
Ordan Ruma sarı qayıtdı geri.
Dərədən, təpədən, dənizdən, dağdan
Keçərək, yol getdi daha durmadan.
Yerin o başından Kirmana yetdi,
Ordan Kirmanşaha yol aldı getdi.
Sonra da Babilə gəlib, İskəndər
Ordan Ruma tərəf elədi səfər.
Yolda Zur şəhrinə gəlib çatanda
Pozuldu səhhəti şahın bir anda.
Onun can köhləni daha yoruldu,
Taqətdən düşərək yolgetməz oldu.
Ruma çatmaq üçün xeyli can atdı,
Əl-ayaq süstləşdi, qalmadı imkan.
Sandı ki, içibdir zəhərlənmiş su,
Həmin o zəhərin təsiridir bu.
Onu əldən saldı qorxu, vahimə,
Əlacsız dərd imiş bu dərd, sən demə!
Vəzirin yanına - Yunanıstana
Bir qasid göndərdi, söyləsin ona:
"Çaparaq yanıma gəlsən əgər sən
Son dəfə üzümü görə bilərsən.
Yaxşı işbacaran alimlərdən də
Yüz ya əlli nəfər gətir gələndə!"
O qasid yetişib dedi vəzirə,
Vəzir əl atsa da hər bir tədbirə,
Çarələr heç bir kara gəlmədi,
Bir ümid işığı görə bilmədi.
Yığıb alimləri Rumdan, Yunandan
Oldu hökmüdarın yanına rəvan.
Birbaşa o, şahın yanına gəldi,
Bu görüş heç də xoş görüş deyildi.
Gördü: şah taqətsiz uzanıb yerdə,
Əlac mümkün deyil düşdüyü dərdə.
Diz çökdü, üzündə qüssə, duman, çən,
Yoxladı nəbzini öpüb əlindən.
Nəbzin vurmasına elədi diqqət,
Tapdı xəstəlikdən neçə əlamət.
Buyurdu: nə qədər vardısa imkan
Axtarıb tapsınlar bu dərdə dərman.
Dərmanın olsa da lap abi-həyat,
Əcəlin çatanda yoxdur bir nicat!
Artıq hökmüdarın işi bitmişdi,
Əbədi dincəlmək vaxtı yetmişdi.
Əmanət aldığı mayəni yenə
Gərək qaytaraydı tələb edənə.
Onu əridirdi indi bu cahan
Ki, zəri ayırsın qara torpaqdan.
Daha can köhləni asta gedirdi,
Gedər-gəlməz yola səfər edirdi.
Şamtək tərk edirdi nurlu aləmi
Suda qənd, odda mum əriyən kimi.

Bir külək söndürdü yanan çırağı,
Bağda ağaclardan tökdü yarpağı,
Sərvdə yaşıl bir budaq qoymadı,
Sındı qırqovulun qolu, qanadı.
Müşk ətirli olan əlvan gül-çiçək
Solub səpələndi yerə xəzəltək.
Ayı yəhərləyən həmin İskəndər
Ölüm yatağına baş qoyub inlər...[232]

## İSKƏNDƏRİN VƏSİYYƏTİ

Müğənni, bir quşsan - vaxtı düz bilən,
De görək: nə qədər keçmiş gecədən?
Nədənsə gecikib quşların səsi,
Çal, suğdi quşunun gəlsin naləsi[233].
Əsdi xəzan yeli, payız yetişdi,
Bağların əhvalı tamam dəyişdi.
Küləklər taladı bağçanı, bağı,
Söndü al güllərin yanar çırağı.
Arxlar kənarında otlar sapsarı,
Töküldü reyhanın şux yarpaqları.
Sanki ağaclıqda odlar qalandı,
Əlvan yarpaqları alışdı, yandı.
Gördü bazarını kəndli pərişan,
Bağın qapısını bağladı bağban.
Şahlar hovuzuna axan saf sular
Soyuqdan, ayazdan tamam dondular.
Çeşməsiz, çiçəksiz bağ şad olarmı?
Hasarsız, barısız abad olarmı?
Hanı saqi, badə, o məclis hanı?
Bura vəhşilərin olmuş məkanı!
Kəsilmiş nəğməsi ötən quşların,
Dolaşır qıçına xəzəl ruzgarın.
Seyrə gələnlər də bağı tərk etmiş,
Müğlər də çəməndən ayrılıb getmiş.
Yeyəylə sürtülmüş günəşin tacı,
Yeyətək dən-dəndir suların saçı.
Bağı tərk eləyib getmiş gözəllər,
Nə bülbül səsi var, nə güldən əsər...
Tikanlar dağ çəkib gülün köksünə,
Bəzəksiz, cəh-cəhsiz qalıb bağ yenə.
Belə sərt bir xəzan çökəndə bağa
Başladı o Kəyan sərvi solmağa...
Şahlıqın şah sərvi-İskəndəri də
Axır saldı dövran sağalmaz dərdə.
Çovğuntək soyutdu şahın nəfəsi,
Çoxdu bu dünyada qəmi, qüssəsi.
Özülü çökərsə bəxtin, dövlətin,
Səhhətə zəiflik üz verər yəqin!
İllərlə dünyanı uçub seyr edən
Quşun qol-qanadı qırıldı birdən.
Uca sərv yıxıldı, şux lalə soldu,
Qırqovul şahinin şikarı oldu.
Ordu həkimləri, şəhər ə yanı





Aldılar araya o hökmüranı,
Bəlkə də bir əlac tapalar ona;
Şərbətlər qatıldı dava-dərmana.
Nəbzi, qarurəsi olundu təhlil[234],
Nə çarə, gedən can qayıdan deyil!
Əlac eləsə də təbib nə qədər,
Ömür tükənibsə, nə fayda verər?
Çox səy göstərdilər çarə etməkçün,
Gedəni qaytarmaq olmadı mümkün.
Tədbirlə gəlmədi o gövhər ələ,
Necə sədd çəkəsən əsən bir yelə?
Əcəl yetişəndə tapıb bəhanə
İnsana min əzab verər zəmanə.
Ruzgardan o qədər inciyər insan
Özü ölümünü istər allahdan.
Əl atmadıqları tədbir qalmadı,
Rəylərdən bir fayda hasil olmadı.
Çırağın əcəli çatıbsa əgər,
Ona öz yağı da yetirər zərər.
Çürümüş bir meyvə ağacda durmaz,
Düşəcək, tərpənsə budaqda bir az.
Ən mahir, ən ustad təbib heç zaman
Tapa bilməmişdir ölümə dərman.
Göyün hesabına bələd olanlar
Saldılar hesaba göydə hər nə var.
Onun taleyini gördülər nursuz,
Ondan uzaqdaydı bəxt açan ulduz.
Heç elə bir ulduz yoxdu ki, onun
Göstərmiş olaydı ömrünü uzun.
Taleyi səmada bəd görən zaman
Münəccim özü də əsdi qorxudan.
Önündə aynaya baxdı İskəndər.
Baxdı, vücuduna yetirdi nəzər,
Gördü ki, bədəni tüktək incəlib,
Qaçmaq istəyən can dodağa gəlib.
Nə qəlbdə qüvvə var, nə canda taqət,
Əyilmiş əvvəlki o sərv qamət.
O öz ölümünü gözüylə görcək,
Özü öz halına ağladı şamtək.
Yaxın dostlarını dəvət elədi,
Ürək sözlərini onlara dedi:
"Qəmim dar girdaba düşdü, a dostlar,
Ölüm ağzı açıq nəhəngtək durar.
Köçmək vaxtı gəldi bu düşərgədən,
Başqa bir ovlağa getməliyəm mən.
Bu fələk mənimlə xoşrəftar oldu,
Dağda, daşda mənə pərəstar oldu.
İndi düşmən oldu o haqq-sayda,
Dəyişdi rəftarı Günəş də, Ay da.
Ruzgar gözlərimdə çənə bürünür,
Bu dardan çıxmağım müşkül görünür.
Nə çarə qılım ki, oldum dərdmənd,
Bu fələk tacıma atıbdır kəmənd.
Hardadır, çatdırın xəzinədara,

Bəlkə rüşvət verib məni qurtara.
Mənim od qılıncı qoşunum hanı?
Qovsun canımdakı bu qızdırmanı.
Ən qorxunc divləri tutub ram edən,
Təxti-tac sahibi İskəndərəm mən!
Qılınca qurşandım, kəmər bağladım,
Bütün qulaqlara çatmışdır adım.
Zəhərli qılıncla tufan edib mən
Tozlar qaldırmışam Bəhri-Qülzümdən[235].
Böyüdüb çoxunu etdim hökmüran,
Çox qoyun almışam qurdlar ağzından.
Çox-çox sınıqları mən calamışam,
Çox-çox bütövləri parçalamışam.
Zülmü ədalətlə eyləyib əvəz,
Müşküllər həll edim hesaba gəlməz.
Qünnücdən Qülzümə oldum hökmüran,
Şimşək qılıncımı gördü Qiyrəvan[236].
O qılınc dönübdür indi zəncirə,
Ömrümü tor kimi salıbdır girə.
Çox dağlar, dənizlər keçmişəm, heç kəs
Dünyanı mənimtək seyr edə bilməz.
Hökmüdar Daraya qarşı çıxıb mən
Başını torpağa sərdim bəxtimdən.
Mən o qatil Furun boynunu vurdum,
Çipalın yerində Çində oturdum.
Qabildən, Habildən alıb intiqam,
Nasikdən Mənsəkə yollar açmışam.
Yudum məcusluğu dünya üzündən,
Rus dənizində də od qaladım mən[237].
Cəmşidtək təxtlərə çıxdım - ucaldım,
Firidun xəzinə yığdı, mən aldım.
Yıxdım daxmasını - evini Adın,
Qəsrini hünərlə açdım Şəddadın.
Hətta Sərəndibə gedib çıxaraq,
Adəmin izinə basdım mən ayaq[238].
Rüstəmin bəxtindən mən soraq verdim,
Keyxosrov təxtindən xəbər gətirdim.
Məşriqdən Məğribə at səyirdərək
Yəcuclar səddini ucaltdım dağtək.
Adəmtək Qüdsüdə elədim məskən,
Kəbə həlqəsinə əl yetirdim mən.
Bir məşəl ucaltdım qatı zülmətdən.
Zülmün qapısını taxtalatdım mən!
Aldığım adları nahaq almadım,
Atmadım qəflətdə tək bircə addım.
Mən hansı bir yerə etdimsə səfər
Ədalətlə bilik qazandı ellər.
Sərp daşı əridən isti havalar
Sağlam bədənimlə etdi xoş rəftar.
İndisə bu pərqu yataqda bitab
Yatıram, xəstəlik verir min əzab.
Balınca baş qoydum zəifliyimdən,
Yatağa düşərmi sağlam bir bədən?
Dünyanı qapqara gördüm gəzərək -

Qara qumdan tutmuş qara suyadək.
"Nə gördün?" deyərək sorsalar əgər,
Deyərəm: sanki heç etmədim səfər.
Dünyanı görmədən torpağa girən
Birgünlük körpəyə bənzəyirəm mən.
Dünyanı başabaş gəzmişəm özüm,
Hələ ki, dünyadan doymayıb gözüm...
Otuz altı deyil, lap otuz min il
Yaşasam, cavabım bu olardı, bil!
Mənə sirlərini açdı asiman,
Çox şeylər söylədim Günəşdən, Aydan.
Qədr-qiymət qoydum müdrik insana,
Şükürlər eylədim mən yaradana.
Ömrümü qəflətlə vurmadım başa,
Ağılla, hünərlə mən doldum yaşa.
Bütün biliklərdən dərsimi aldım,
Ölümün əlində, heyf aciz qaldım.
Çox azğın zalimi çəksəm də dara,
Bu namərd ölümə tapmadım çara.
Bir ölümdən başqa hər bir müşkülə
Mümkündür birtəhər çarə edilə.
Hanı yollarına qızıl səpdiyim
Dərin düşüncəli yüzlərcə həkim?
Torpağı qızıla çevirin yenə,
Gəlin, əlac edin şahın dərdinə.
Hardadır Ərəstu - tapa bir dərman,
Məni biliyilə qurtara dardan?
Hanı əfsun bilən həkim Bəlinas?
Gəlib İskəndəri eləyə xilas.
Hanı bəs Əflatun, o təmiz insan?
Mənim bu dərdimə eləyə dərman.
Hardadır o böyük bilici Valis?
Desin bu mərəzə nə oldu bais.
Çağırın Sokratı, bəlkə əql ilə
Bu bağlı qapını o aça bilə.
Hürmüzə göndərin durmadan xəbər,
Bəlkə ürək verə şaha birtəhər.
Gedin, Fərfuryusu edin xəbərdar,
Bəlkə bu dərdimə o əlac tapar.
Bu sözü bir daha eylədi təkrar:
"Etsə, əlac edər tək pərvərdigar!
Bəlkə rəhm eləyib qurtara məni,
Qurtara bu dərdli, yazıq bədəni.
Əlimdən tutan yox, yox salan yada,
Heç kəs tək qalmasın məntək dünyada!
Mənə belə cəza verərkən fələk,
Nə lazım səs salıb fəryad eləmək?
İçindən çıxdığım torpağın yenə
Axtarıb baş qoyum pak sinəsinə.
Ölüm girdabına düşməmiş, gərək
Suya qalxan tutam ləngiməyərək[239].
Çılpaq doğulmuşam çünki anadan,
Məni soyundurun dəfn edən zaman.
Yüküm yüngül idi doğulanda mən,
Yenə yüngül gedim burdan gedərkən.
Bir quş dağa qonub qalxarsa əgər,
Dağa nə artırıb-əksildə bilər?
Mən də bir quş idim, ölkəmsə - bir dağ.
Gedərsəm, bu dünya yasa batacaq?
Məntək çoxun doğub öldürmüş dünya.
Nifrətə layiqdir bu qozbel dayə[240].
Çoxuna mərhəmət, lütf eyləmişəm,
Görən də olubdur əlimdən sitəm.
Zalim olmuşamsa, əfv edin məni,
Mən də öldürmüşəm çox zülm edəni!
Tabutum torpağa olanda təslim,
Pak ruhum paklara qovuşar mənim.
Başa kül sovurmaq əvəzində siz
Mənimçün allaha dua ediniz!.."
Bunları söyləyib, almadı cavab,
Yenə yatağına sərildi bitab...

## İSKƏNDƏRİN ANASINA MƏKTUB YAZMASI

Müğənni, rudunu bir dindir barı,
Yada sal nəğmənlə o yatmışları!
Mənim dərdimə qal, sazımı sazla,
Bəlkə rahat yatım o xoş avazla!..
Gülə hücum etsə payız ruzgarı
Körpəykən quruyar tər budaqları.
Ölüm bir bəladır, çarə edilməz,
Onun çarəsini tapmayıb heç kəs.
Əcəl qızdırması yetişən zaman
Qalar həkimdən də əlacı pünhan.
Gecə köçüb getdi, ağladı şəbnəm,
Günəş şəfəq saçıb güləndə aləm
Artdı İskəndərin ahü naləsi,
Ucaldı çalınan zənglərin səsi.
Hər dərdə yüz çarə bilən Ərəstu
Bu dərdin önündə çarəsiz durdu.
Şahın sağaltmağa tapmayıb əlac,
Özünü görərək əlaca möhtac,
Şaha söylədi ki: "Ey şəfəqli şam,
Şahlar nur alıbdır şöləndən müdam!
Qalıbdır dərdinə həkimlər naçar,
Üzünü allaha çevirib yalvar.
Hələ haqlamamış coşğun sel bizi,
Niyə dəyişmədik öz yerimizi?
Bu şərab qədəhdən aşıb daşmadan,
Nə üçün ölmədim, çıxmadı bu can?
Dilərəm: bir tükün əsməsin sənin,
Bir tükün əskilsə ölərəm, yəqin!
Ancaq bir şərbətdir bu ölüm, gərək
Qoca da, cavan da, - hamımız içək!
Nə deyə bilərəm: iç bu badəni!
Çünki bihuş edər içəndə səni;
Nə də almaq olar qədəhi səndən,





Çünki şah bəzmində ədəbliyəm mən!
Əfsuslar olsun ki, bu nurlu çıraq,-
Qurtarıbdır yağı, - xamuş olacaq.
Ancaq yağsızlığın qalma dərdinə,
Bəlkə yağ yetişdi, oyandı yenə..."
İskəndər dedi ki: "Bu sözdən əl çək,
Əcəli yetəndə insan öləcək!
Əmrimdə deyildir dövr edən göylər,
Əlimdə deyildir Günəş, Ay, Ülkər...
Bir ovuc torpaqla bir qətrə suyam,
Bunlardan yoğrulub əzəldən mayam.
Haqqın sayəsində böyüdüm, artdım,
Nəhayət, elə bir rütbəyə çatdım
Ki, Şərqdən Qərbədək gəzdim hər yanı,
Keçirdim əlimə bütün dünyanı.
O zaman cahana bir şah idim mən,
Canımda can vardı, sağlamdı bədən.
İndi ki, zəiflik üz verdi cana,
Gərək səfər edəm başqa cahana.
Məğrurluq meylinə uyma ki, heyhat,
Dolmaz bu quyuya o abi-həyat!
Susuza eyləməz cəhənnəm əlac,
Sən o dörd çeşməli behiştdən söz aç[241].
Yalvarıb allaha, eylə ibadət,
Bəlkə o eyləyə mənə mərhəmət..."
Günəş köçüb getdi, qaraldı dünya,
O şahlar şahı da getdi yuxuya.
Qorxunc əjdahatək gecə qapqara,
Qatı bir qaranlıq çökdü yollara.
Daş qəlbli bir gecə, dəhşətli zülmət,
Zülmətdə kim görmüş şəfqət, mərhəmət?
İşləri düyünə salan ulduzlar
Sanki dodağına vurmuşdu mismar.
Bu oğru fələk də, oğrular tutan
Ay da qır küpünə düşmüşdü çoxdan.
Qapqara tüstüyə bürünmüş dünya,
Tüklə cəhənnəmdən asılmış guya.
Sanki ərimişdi şah səhərədək
İyirmi yeddinci gecəki aytək[242].
Anası yadına düşdü, İskəndər
Sarsıldı, ürəkdən oldu mükəddər.
Buyurdu, hüzura ağıllı, zirək
Rumlu katiblərdən biri gələrək,
Qələmi qapqara hislə doldurub,
Əziz anasına yazsın bir məktub.
Ana dili kimi şirin dil ilə
Ona and verərək başlasın belə:
"Anacan, sən məni eyləyəndə yad
Sıxma ürəyini, qoparma fəryad!"
Hər kim oxusaydı bu yazıları
Qapqara görərdi bütün dünyanı.
Katib qələmini çərtdi qurtardı,
Ucuyla fələyin bağrını yardı.
Vərəqə əbiri yaydıqca qəşəng,
Kağız dönüb oldu müşkin bir ipək[243].
Yazanda o zərif mənalı sözü
Katibin heyrətdən qaraldı gözü
İnsanın gözünə işıq bəxş edən
Tanrının adına o yazdı əhsən:
"Bir olan allaha hamı möhtacdır,
Hamının dərdinə tək o əlacdır!"
Böyük yaradanı gətirib dilə
Katib məktubunu başladı belə:
"Məndən - İskəndərdən bu namə getsin,
Dörd yox, bircə olan anama yetsin[244].
Anacan, qətrəyə döndüsə çeşmə,
Su qabı suda da sınar, qəm çəkmə!
Ağacdan düşdüsə bir qızıl alma,
Narınctək rövnəqdən düşüb saralma!
Soldu, sarı-gülün getdi növrağı,
Qalsın qızıl gülün yaşıl budağı.
Anacan, bu sözə inanmıram mən:
Məhəbbət könüldə çox olur dildən.
Eşidib od tutar sinəndə ürək
Ki, şahlar gülünü aparıb külək.
Yanma, bəslədiyin balan qayıtmaz,
Əlini o yanan ürəyinə bas!
Zaman etsin səni bu oddan kənar,
Sənə səbir versin o pərvərdigar!
Səni and verirəm əmdiyim südə,
O şirin laylaya, o ilk öyüdə,
Dünyadan gənc getmiş bir övladına,
Ağlayan ananın o fəryadına,
Dinə əməl edən pak insanlara,
Dünyanı yaradan pərvərdigara,
Qanun-qayda qoyan hər peyğəmbərə,
Cənnətdə əbədi ömr edənlərə,
Torpağın altında həbs olanlara,
Behişt gülzarından zövq alanlara.
Bütün canlılara can verən cana,
Qəmdən nicat verən, can qurtarana,
Səxa dənizinin coşğunluğuna,
Vücudu yaradan haqq buyruğuna,
Adların fövqündə dayanan ada,
O nəqşə ki, ziynət verir vücuda,
Yeddi qat ucalan göy pərgarına,
Yeddi ulduzun da pak adlarına,
Allahı sevənin mərifətinə,
Şüur sahibinin fərasətinə,
Elmdən nurlanıb yanan hər şama,
Mərhəmət sahibi fazil adama,
Elə bir başa ki, bəxtə nur saçıb,
Elə ayağa ki, düz yollar açıb,
Pakizə fikirli, o saf ərənə,
Müşküllər açana, nicat verənə,
Darda qalanların pak niyyətinə,
Azad insanların xoş adətinə,
Yoxsulları sevən comərd sultana,

Sultantək gözü tox, yoxsul insana,
Sübhün gül-çiçəklə gülüşməsinə,
Gözlənməz taamın xoş düşməsinə,
Bidanın munisi səhər çağına,
Ağlar qəriblərin pak torpağına,
Yazıq məhbusların dərdi-dilinə,
Müqəddəs mehrabın nur qəndilinə,
Təşnə bir tiflin süd həsrətinə,
Naümid qocanın zəlalətinə,
Xəstə qəriblərin intizarına,
Döyülmüş yetimin göz yaşlarına,
Dərd-qəmdən guşəyə çəkilənlərə,
Şaxtadan dırnağı tökülənlərə,
Dərdlinin çarəsiz oyaqlığına,
Çarəsiz qalanın yazıqlığına,
Əzabdan sonrakı asudəliyə,
Pak, təmiz sevgiyə - aludəliyə,
Əqlin zəfərinə, ülviyyətinə,
Gizli ibadətin qüdsiyyətinə,
Şüura yol açan sözə, dastana,
Başər karvanını çəkən sarvana,
İnsanı içindən yeyən dərdlərə,
Qəddini pünhanı əyən dərdlərə,
Dözümsüz adamda səbrə, qüdrətə,
Gözəlin üzündə həya, ismətə,
Ümidsiz çəkilən son fəqanlara,
Dadına heç kimsə çatmayanlara,
Dinpərvər adamda olan inama,
Peyğəmbərə gələn vəhyə, ilhama,
Bütün insanların o son yoluna,
Hamıya əl tutub kömək olana,
İnsanı son yola salan qapıya,
Bizi ağuşuna alan qapıya,
Üzünü axtaran baxışlarıma,
Səsini eşitmək intizarıma,
Mənə bəslədiyin sonsuz həsrətə,
Düşdüyüm bu dərdə, bu fəlakətə,
Həmişə, hər yerdə dada çatana,
Can verib can alan o yaradana...
Anacan, bu məktub gəlib çatarkən
Çatıb qaşlarını kədərlənmə sən!
Bu dünya fanidir, əbəs ağlama,
Mənimçün yas tutma, qara bağlama!
Dünyanın əzəldən axırı budur,
Əyilmə aləmdən, mətanətlə dur!
Dünya bir kimsəyə qalmışsa əgər,
Səni də qoy üzsün bu dərd, bu kədər.
Ancaq bu dünyanı fani görəndə
Başqaları kimi toxtaq ol sən də!
Yox, əgər bunlara baxmayaraq sən
Mənimçün yasxana qurmaq istəsən,
Əvvəlcə şahanə bir məclis düzəlt,
Gözəl yeməklərdən bir süfrə bəzət,
Çağır qonaqlığa xalqı hər nə var,

Bütün gələnləri elə xəbərdar:
Təbrdə adamı yoxsa hər kəsin,
Buyursun süfrəyə, doyunca yesin!..
Əgər yemiş olsa onlardan biri,
Sən də ye dünyada acı qəmləri.
Heç kim o süfrəyə əl uzatmasa,
Sən də unut qəmi, heç batma yasa!
- Oğlum ölüb, - deyə çəkmə heç məlal.
Gəl, öz işlərinin qeydinəcə qal.
İkiqat uzun da olsaydı ömrüm,
Axır yenə bir gün vardı bu ölüm.
Ən uzun ömür də kifayət deyil,
Nə fərqi, yaşadın otuz, ya yüz il?
Behiştə getməkdən qorxarmı insan,
Minlərlə açar var, yol da çırağban.
Əbədi bir təxtə yiyələnərkən
Nə üçün razılıq eləməyim mən?
Yerində toz yoxdur, göyündə duman,
Niyə at sürməsin oraya insan?
Əlimdə qalmadı bu saxta saray,
Siz də səbr eləyin, salmayın haray!
Şəbdizim sıçradı çaydan o taya,
Məndən salam olsun dosta, aşnaya[245].
Bizi azad etdi zindandan fələk,
Hamı azad olsun görüm bizimtək!.."
Məktubu yazdırıb o, yola saldı,
Özü də cənnətə sarı yol aldı.
Gecəni sübh etdi dərdlə, əzabla,
Keçdi bütün günü min iztirabla.
Gecə öz təxtini yüklədi filə,
Yer saldı donunu göylərtək nilə[246].
Gün tutdu üzünü qüruba sarı,
Qaraldı üfüqdə qızıl saçları.
Aciz ulduzların əli büküldü,
Gümüş dırnaqları bir bir töküldü.
Şahın ağır-ağır yumuldu gözü,
Cırmaq-cırmaq oldu qəmərin üzü.
Bir örpək toxuyub gecə saçından,
Torpağın başına örtdü asiman.
Zənəbin ağzından alaraq zəhər,
Ayın boğazına onu tökdülər[247].
Başının üstündə görcək əcəli,
Şahın öz canından üzüldü əli.
Əsəbdən sıxıldı damarda qanı,
Bir anda sustaldı bədəni, canı.
Ölüm gözündəki qaranı aldı,
Səhərtək ağ üzü soldu, saraldı.
Candan bizar olub, canından keçdi.
Canını tapşırmaq vaxtı yetişdi.
Quş elə tez uçdu öz yuvasına
Sürətdə baxış da çatmadı ona.
Dünyada nə qədər bilicilər var,
Bu gizli işlərdən deyil xəbərdar.
Bunun çarəsini bir bilən varsa,





Özünə bir çarə edər bacarsa.
Köçüb bu dünyadan getdi İskəndər,
Ona ən yüksəkdə taxt düzəltdilər.
Dünyada min cürə yaxşılıq etdi,
Özüsə dünyadan incimiş getdi.
Həyat səhnəsində o düşdü dərdə,
Nəhayət, üzünə çəkildi pərdə.
Dolanıb görmüşdü o bir çox yeri,
Başqa bir yerəydi indi səfəri.
Hayana getsəydi böyük İskəndər,
Oradan verərdi hamıya xəbər.
Soraq gətirən yox bu son yolundan,
Nə üçün bir xəbər gəlmədi ondan?
Yoxsa, elə yerdir o yer ki, hər kəs
Getsə, qayıtmağa yol tapa bilməz?
Bunun da hikməti açılsaydı bir,
Pərdənin dalında qalmazdı heç sirr..
İskəndər bənzərdi yaşıl yarpağa,
Kəyan ağacından düşdü torpağa.
Açıldı belindən qızıl kəməri,
Zərrin bir beşikdə düzəldi yeri.
Tabutun içinə kafur səpdilər,
Çölünə düzüldü cəvahir, gövhər.
O qədər yayıldı ətrin səfası,
Çatdı Cudi dağa səxa dalğası[248].
Qərq edib kəfəni müşk ilə uda,
Qoydular nəşini qızıl tabuta.
Bir bədən gümüştək ağarıb solsa,
Nə fayda tabutu qızıldan olsa?
Şahın öz rəyincə verildi qərar,
Qoyuldu bir əli tabutdan kənar.
Ovcuna torpaq da töküb bir qədər,
Sonra hər tərəfə car çəkdirdilər:
"Görün yeddi ölkə hakimi olan
İskəndər dünyadan köçdüyü zaman
O saysız-hesabsız xəzinələrdən
Bir ovuc torpaqdır əlində gedən!
Sizin də dünyadan gedərkən ancaq
Payınız bir ovuc torpaq olacaq!..."
Şəhri Zurdan Misrə yola saldılar,
Hiylədən uzaqdır çünki o diyar.
İskəndəriyyəni etdilər vətən,
Onu taxta üstə atdılar taxtdan.
Kimə dağ çəkməmiş vəfasız cahan?
Kimdir bu kitabı bütün oxuyan?
Bu dəfə dəyişdi sarayda bəxti,
Torpağın altında quruldu təxti.
Dünyada olmamış əzəldən bəri
Əsla mehribanlıq, dostluq əsəri!
Aldı öz qoynuna o şahı məzar,
Daxmanı bağlayıb döndü adamlar.
Bu dünya çoxuna məqam bəxş edər,
Saxlamaz o yerdə axıra qədər.
Ömrü sona çatdı saysız insanın,

Hesabı bitmədi yenə dünyanın.
Nə bir qurtaran var ipdən boynunu,
Nə də bir tapan var ipin ucunu.
Əbəsdir, bu sirrə sərf etmə ömür,
Susmaqdan başqa bir əlac görünmür.
Dünyaya dərindən yetirsən nəzər,
Görərsən insanlar çəkibdir nələr!..
Dünyanın ki sonu əbəsmiş, əbəs,
Bu qədər sitəmə, əzaba dəyməz!
Bu laciverd tağda nə gördük axır?
Onun sütunundan qan seli axır.
Bu sütunun odu Günəşdir, Aydır,
Gəl, o qəndilləri daş atıb sındır.
Ondakı qızılı rəngə aldanma,
Oddan qızarmışdır, sən qızıl sanma!
Bizimlə uyuşmaz əsla göy saray,
Bizim qəsdimizdə durmuş Günəş, Ay.
Bizimlə dost olmaz saxta cadugər,
Üzdə gülər bizə, dalda öldürər.
Guya məlhəm qoyar sağalsın yaran,
Ancaq yara vurar sənə arxadan.
Balıqtək dünyadan sən uzaq olsan,
Qurtarar zirehin səni qılıncdan!
Tufan başlayarsa almağa qisas
Balıqtək üzənlər əsla qərq olmaz.
İpək karxanası bil bu dünyanı,
Bir yanı sudursa, oddur bir yanı[249].
Orada hərlənən çox tağalaq var,
Biri boşalanda o biri dolar.
Dünyanın sirrini boşdur axtarmaq,
Üstü tüstü-duman, altı toz-torpaq.
Bu tozdan, tüstüdən görünür hər an
Çarpışır, vuruşur yerlə asiman!
Sazişə gəlsəydi göylə yer əgər,
Bizi yer üzündən süpürməzdilər...
Nizami, gəl qurtar axır sözünü,
Qorxutma özgəni, nə də özünü.
Sultanın bəzminə gedəndə mehman
Yolun yarısında olma peşiman.
Eşit sözlərini huşu-guş ilə,
Acı badəsini alıb nuş elə!
İskəndər bu camdan murada çatıb,
İçib o badəni, əbədi yatıb.
Sultan sağlığına kim içsə şərab,
Nuş olsun, içənlər olsun feyziyab!

İSKƏNDƏRİN MƏKTUBUNUN
ANASINA ÇATMASI

Müğənni, bu gecə çəngini saz et,
Məni bu dar yolda qəmdən xilas et!
Bəlkə genişlənsin, açılsın yolum,
Köçüm bu daşlıqdan, asudə olum...
Fəsillər içində qış gələn zaman

Narın yağış səpər yerə buluddan
Tozdan xəstələnmiş dünyaya fələk
Sanki dərman verər rəhmə gələrək!
Geniş səmaların sərin şəbnəmi
Qurtarar istidən bütün aləmi.
Susamış otlara bağçada, bağda
Xırdaca buzlardan pay verər şaxta.
Hamıya bəxşişlər paylayan bağlar
Tamam müflis olub möhnətdə qalar.
Dünən reyhan suyu satanlar bütün
Şərab doldurarlar küplərə bu gün.
Qaynayır kəndlinin evində küplər,
Kəndlilər kətan yox, yun paltar geyər.
Ceyran göbəyindən müşk saçılar,
Kabablı, noğullu süfrə açılar.
Şahlar kef məclisi qurub bu zaman
İçərlər İskəndər üçün şərabdan.
Gör, qəlbdə nə vardı, dilim nə dedi,
Bu çərxi-fələyin oyunu nədi?
Ruma gəlib çatdı bu qara xəbər:
"Getdi bu dünyadan böyük İskəndər".
Tayfa başçıları yığılıb dedi:
Cahan sahibsizdir, başsızdır indi.
Hər kim barigaha töhfə yollasa,
Gərək təqdim etsin İskəndərusa.
Örtdü qara qanad Rumu sərasər,
Bürüdü ölkəni sanki zəncilər[250].
Çatanda hamını batırdı qəmə,
Şahın anasına yazdığı namə.
Oxuyub məktubu ana ağladı,
Matəmə büründü, qara bağladı,
Baxdıqca oğlunun bu məktubuna,
Tumartək qıvrılıb açıldı ana[251].
Qəlbi yas tutsa da bu möhnətindən,
Çıxmadı o şahın vəsiyyətindən;
"Oğlumun qoy ruhu şad olsun!" dedi,
Onun andlarına əməl elədi...
Bir an kəsilmədi ahı, fəryadı,
Tez getdi dünyadan, o da qalmadı!
Qara taleyinə əlvida etdi,
Onun da həyatı bu cürə bitdi.

### ATASININ VƏFATINDA İSKƏNDƏRUSUN NALƏ ETMƏSİ

Müğənni, qəlb açan o sazın ilə
Bu odlu dərdimə bir əlac eylə!
O nurlu nəğmənlə könlümü bəzə,
Bu qəmli gecədən çıxar gündüzə!..
İskəndərdən sonra İskəndərus da
Qovğa eləmədi taxtü-tac üstə.
Şahların içində heç onun qədər
Yoxdu şah olmağa layiq bir nəfər.
Beş günlük dünyaya tamah salmadı,
O uca mənsəbə mayil olmadı.
Güldən ayrı düşmüş şeyda bülbültək
Ahü zar eylədi gecə sübhədək.
Sanki anasını bir bala ceyran
Kabab olmuş gördü oyanan zaman.
Ordu böyükləri çox etdilər cəhd,
Bəlkə qəbul etsin tacı vəliəhd.
Açsınlar önündə xəzinələri,
Tutsun atasının tutduğu yeri.
Yoxdu şahzadənin şahlıq məqsədi,
O, ancaq ibadət etmək istədi.
Üzr ilə onlara dedi ki: "Gedin,
Təxti başqasına həvalə edin.
Atamın yerində məclis qurmaram,
Badəni etmişəm özümə haram.
Dünya işlərindən əl çəkmişəm mən,
Yoxdur bu kələfin ucunu görən.
İnana bilməzdim, böyük hökmüran
Belə gənc yaşında gedə dünyadan,
Tərk edib sarayı, keçə təxtindən,
Darısqal daxmanı eyləyə məskən.
Bu dünya əhlini tərk edib daha
Mən üz tutacağam yalnız allaha.
Sütunu sarsılmış titrək körpünün
Üstündə bərk durmaq olarmı mümkün?
Atamdan artıq ki, olmayacağam,
Ölüb-getmədimi elə bir adam?
Onuntək tədbirli ola bilmərəm,
Cahanı fəth edib ala bilmərəm.
Atama nə verdi o güc, o qüdrət
Ki, ola məndə də mənsəbə rəğbət?
Bu yeddi qatlı çərx tüğyan eylədi,
Atamın təxtini viran eylədi.
Mən də təxtü tacı ataraq oda,
Kəyanlar təxtini qoydum tabuta!
Sadə adamları azad görüncə,
Çəkildim özüm də azad bir küncə.
Çoxunu aldatmış gümüş həvəsi,
Axırda yırtılıb zərdən kisəsi!
Dolmuş bir qədəhi doldursan yenə,
İçəndə dağılar o, üz-gözünə.
Bir yer ki, deyildir əbədi məskən,
Gərək "Get!" deməmiş özün gedəsən.
Şahlıq arzusundan uzaqdır könlüm,
Çünki qarşımdadır amansız ölüm.
Bu dar mağarada hörümçəklərtək
Nə qədər ovlayım qarışqa, milçək?
Qayalar içində məbəd taparam,
Orda keçirərəm ömrümü müdam.
Dünyanın çirkini təmizlərəm mən
Gözümün yaşıilə öz ürəyimdən.
Dünya işlərindən əl çəkib bütün,
Tədarük görərəm axirət üçün.
Quşlartək az dənə edib qənaət,





Edərəm allaha dağda ibadət.
Köçməyin növbəsi yetişən zaman
Div girsən pərinin qoy qapısından!
Axirət xovfundan qorxum var məgər?
Asan ömr eləyən çətin can verər.
Atamtək məni də məzara atın,
Bir ovuc torpağı torpağa qatın!
Düşünsən əcəlin nə olduğunu
Daha cəsarətlə gözlərsən onu.
Ölüm əzabını dərk eləməsən
Çox çətin açarsan o qapını sən..."
Gedib bir kahada o tutdu məqam,
Dünya işlərini unutdu tamam.
Yalnız eyləyirdi haqqa ibadət,
Ölümə yaxındı bu yol, bu adət.
Bundan ibrət götür sən də, ey cavan,
Məbada çıxasan ata yolundan!
Çünki bu dünyada hiyləgər fələk
Çox işlər görür ki, çətindir demək,
Quyuya nahaqdan çox Yusif salmış,
Çox mənəm deyəndən intiqam almış!

### ƏRƏSTUNUN RUZGARININ SONU

Müğənni, yorubdur bəm səslər məni,
Zil üstə qaldır sən indi naləni!
Bəlkə o zil səsin ucalan zaman
Qurtara ürəyim bu ahü zardan.
Açdı ayağından İskəndər bəndi,
Göylər qalasına atdı kəməndi.
Onun sarayının filosofları
Üz tutdu o gedən mənzilə sarı.
Ərəstu görəndə batıb afitab,
Bağladı üzünə buluddan niqab,
Qaralar geyindi, matəm saxladı,
Səfər boxçasını o da bağladı.
Onun uca sərvi soldu, saraldı,
Başının üstünü xəstəlik aldı.
Eşidib ustadlı, şagirdli - kim var,
Yığıldı başına o yunanlılar.
Gördülər ki, yolu yaxşı tanıyan
Ərəstu yoluna tək olur rəvan.
O huş sahibinə sual verdilər,
Göyün sirlərindən tutdular xəbər:
"De, nədən yaranıb uca asiman
Ki, bəşər xəyalı uzaqdır ondan?"
Səfərə tələsən xəstə Ərəstu:
"Allah yaxşı bilir, - söylədi - bunu.
Şərh edib bir xeyli zamandan bəri,
Sanırdım, bilirəm mən bu sirləri.
İndi acizliklə burdan köçərkən
Gördüm ki, heç bir şey bilmirmişəm mən.
Dünya filosofu adlandıraraq,
Məni rəsədbilən sayırlar nahaq.
Yazdım bildiyimi "Cahanmədxəl"ə[252],
Bəzədim, süslədim onu elm ilə,
Göyün, ulduzların sirri haqqında
Çox şeylər kəşf edib göstərdim onda.
İndi, doğrusunu söyləsəm əgər,
Boş şeydir o köhnə rəsədnamələr.
And olsun allaha, mən də bilmərrə
Bilmirəm doludur, boşdur bu süfrə!"
Ərəstu bu qədər söyləyə bildi,
Söz bura çatanda nitqi kəsildi.
Yağ tamam qurtardı yanar çırağdan,
Əmr etdi bir alma dərsinlər bağdan.
O gözəl almanı qoxlar-qoxlamaz
Canı rahatlandı, dincəldi bir az.
Fələyin hökmüylə gəlib zamanı,
Nəfəsi tutulub çıxanda canı,
Gülərək dedi ki: "Siz olun agah,
Köçürəm, qarşımda açılır sabah.
Bu canı pak allah vermişdi mənə,
Pak olan allaha qaytardım yenə..."
Bunu deyib susdu bir ah çəkərək,
Onun da tozunu sovurdu fələk.
Atdı o almanı yoldaşlarına,
Göz yumdu bu əzab, qəm dəryasına...

### HÜRMÜZÜN RUZGARININ SONU

Müğənni, ruh verən sazını bir al,
Bizə ürək açan xoş bir hava çal!
Bülbültək naləndən sərxoş olaraq,
Bəlkə bu nalədən, qəmdən qurtaraq!..
Hürmüz də bu dərin dəryaya çatdı,
Ovun da gəmisi ümmanda batdı.
Dənizə qərq olcaq fəryad elədi:
"Yükü yüngül olan xoşbəxtdir,- dedi, -
Gəmidə artıq yük nəyə gərəkdir?
O ki, bir gün suya töküləcəkdir!
Bu dünya əzəldən vəhşətxanədir,
Göyərən hər otun işi nalədir.
Dağların damını örtüb qalın qar,
Dəniz quyusuna dolub yağışlar.
Yarandı ceyranlar ovlayan insan.
Qulanlar, ceyranlar qaçdılar ondan.
Mən də bir ahuyam, düşmüşəm bu gün
Amansız toruna zalım ölümün.
Bu yolda köməkçim olacaq allah,
Yoxdur ondan başqa heç kimə pənah!
Bu fani dünyadan köçən zaman siz,
Ancaq bir allaha üz döndəriniz".
Deyərək bir şirin yuxuya getdi,
Sözü nə uzadaq, o, vəfat etdi...

## ƏFLATUNUN RUZGARININ SONU

Müğənni bir şirin nəğmə söylə sən,
Bu ki, ilk ricamız deyildir səndən!
Sübh çağı dinləyib sənin səsini,
Unudaq dünyanın ah-naləsini!
Əflatun söylədi köçüb gedərkən:
"Olacaq hamıya torpaq son məskən.
Deyirlər: mən uzun ömür sürmüşəm.
Rumda ən yaşlı bir dünya görmüşəm.
Ölüm pərdəsinə mən yol tapanda
Başqa pərdələrdən döndüm cahanda.
Bir körpə uşağa bənzərəm mən də
Ki, qaçar beşiyə yuxu gələndə.
Vücudu yatmağa sövq edər onu,
Yuxu necə-gəlir, heç bilməz bunu.
Su ilə torpaqdan, od ilə yeldən.
Bu zidd ünsürlərdən əmələ gələn
Dünyada düzlükdən olarmı nişan,
Belə kəc bir yerdə qalarmı insan?
Bünövrəsi əyri qoyulan evin
Bir gün dörd divarı uçacaq, yəqin!
Yaşım yüz on üçü keçmişsə əgər,
Halım on yaşlı bir uşağa bənzər.
Qocayam, ancaq ki, o gənc yaşımda
Olan arzularım oynar başımda..."
Bu xoş arzulardan bir az keçəntək
Onun da fərşini yığdırdı fələk...

## VALİSİN RUZGARININ SONU

Müğənni, bir nəğmə de, qəşəng olsun,
Mənim fəryadımla həmahəng olsun!
Bəlkə də ruhlanıb sənin nəğməndən
Yeddi çay üstündən keçə bilim mən...
Valisin gözünü yuxu tutanda
Ömrünün gəmisi qaldı tufanda.
Dostları eşidib gəldi haraya,
Fələktək aldılar onu araya.
Xəstəlik getdikcə elədi şiddət,
Zəiflik qoymadı bədəndə taqət.
Bəxtini göylərdə yoxlayan zaman
Gördü bəxt ulduzu uzaqdır ondan.
Ulduz ədalətdən çıxmışdı kənar.
Ona zülm etməyə vermişdi qərar.
Ordakı dostlara eyləyib xitab,
O da öz ömründən verdi haqq-hesab:
"Xatircəm olmayın, - deyirəm ki, mən -
Qara zınqırovlu yeddi hindlidən[253],
Bizə xoş bəxt verən bu ulduzlardır,
Ancaq pislikdə də əlləri vardır.
Nəhs dövrə başlasa ulduzlar əgər,
Bu dövrə zalimlik dövrü gətirər.
Zülmün zəmanəsi olmamış tamam
Dünyada yetişməz adil bir adam.
Qayıtsa yenidən o yeddi ülkər.
Şad olar o zaman yenə xoşbəxtlər.
Dönüş nöqtəsinə gedib çatmadan
Yazdı yazımızı amansız zaman..."
Allahın adıyla bitirdi sözü,
Yumuldu dodağı, yumuldu gözü...

## BƏLİNASIN RUZGARININ SONU

Müğənni, bu köhnə pərdədə yekə
Hüzünlü, qəmli bir hava çal mənə!
Qəlbim də səs versin o nalələrə,
Şəbnəmtək göz yaşım çilənsin yerə!
Dövrü Bəlinasın axıra yetdi,
O da ariflərə belə ərz etdi:
"Vaxt çatıb, köçümü mən çatım gərək.
Başqa bir aləmi arzular ürək.
Bu palçıq daxmada yaşardım əvvəl,
Mən getdim, yerimdə qaldı bir heykəl.
Yeddi heykəlinə bu fələyin mən
Əsla baş əymərəm səmimi qəlbdən!
Mən göydən də uca bir hökmüdaram,
İstəsəm hər evə girib-çıxaram.
Budaqda gül olub açaram bəzən,
İstəsəm tovuztək uçaram bəzən.
Pəritək kimsəyə olmadan əyan,
İstəsəm uçaram hər yerə nihan.
Mənim uçuşlarım sığmaz zamana,
Öpərəm mən onu getsəm hər yana.
İstəsəm göyləri ayaqlaram mən,
Daşın içini də eylərəm məskən.
Səhralar, dənizlər qarşımı almaz,
Çöldə Xızr olaram, dənizdə İlyas.
Gəlib mənzilimə əgər baxsanız,
Hər şey yerindədir, mən yoxam yalnız.
Uçaram göylərə - o son məskənə,
Yerdə nə qalarsa dəxli yox mənə!..."
Bunları astaca tərənnüm etdi,
O da gedənlərin ardınca getdi.
Son qoydu dünyanın əzablarına,
Dostlarla bir ölmək xoşdur insana...

## FƏRFURİYUSUN RUZGARININ SONU

Müğənni, çal, sənə heyran olum mən,
Ayılım bu vaxtsız mürgüləməkdən!
Bəlkə nəğmələrin ola mənə yar,
Nə yatam, nə görəm qorxunc röyalar!
Fərfuriyus köçmək əmrini aldı,
Dəvəni yükləyib, təblini çaldı.
Dedi dostlarına: "Bu bəzəkli bağ
Reyhan ətirlidir, gözəldir, ancaq





Fanidir, o bir gün gedəcək bada.
Cəhənnəm olsa da, behişt olsa da!
Bizə bilikdəndir hər qorxu, bəla,
Yolbilən arxayın düzəlməz yola!
Qozbel olar bütün yay qayıranlar,
Dərzinin paltarı yamaqlı olar!
Yağ satanın qabı yağlı görünər,
Evində yağ olmaz bir zərrə qədər!
Xəzinə yükünü çəkərsə hər kəs,
Ömründə dərd-qəmdən dincələ bilməz!"
Pərgarı nəqşədən üzüldü, bu dəm
Onun da ömrünə çəkildi qələm...[254]

## SOKRATIN RUZGARININ SONU

Müğənni, çal rudu, gəl, dadıma çat,
Məni bu amansız yuxudan oyat!
Bəlkə rudun səsi axar çay kimi
Soyutsun susamış yanar qəlbimi!
Vaxt çatdı, Sokrat da düzəldi yola,
Əcəlin önünə çapdı dördnala.
Deyirlər: gizlicə düzəldib zəhər,
Özündən xəbərsiz ona verdilər.
Bundan xəstələnib səfər edərkən
Bir şadlıq nərəsi çəkdi ürəkdən,
Dedi ki: "Çatarsa vaxtı ölümün,
Ona çarə etmək deyildir mümkün!
Bu solğun balışa dünyada bir-bir
Hamı baş qoyaraq, dincələcəkdir!"
Yüksəklik aşiqi o quş durmadan,
Gördülər, uçacaq indi bu tordan.
Dedilər Sokrata: "Canın bədəndən
Çıxanda, ey alim, bilirsən ki, sən
Gedəcək əlindən hər iqtidarın,
De, harda qazılsın sənin məzarın?"
Gülərək söylədi onlara ustad:
"Burdan gedənləri etməyin heç yad.
Mənimçün nə fərqi burdakı yerin?
Harda istəsəniz orda yer verin,
Ona da bir yuxu tufanı çatdı,
Bəxtinin yelkəni sularda batdı.
Ordakı zirəklər bildi o saat
Nə dedi onlara o böyük ustad.

## NİZAMİNİN RUZGARININ SONU

Müğənni, çal görək bir "Ramişi-can"[255],
Açılsın ürəyim o xoş havadan!
Xosrov məclisində Barbət çalantək
Çal bir-bir nəğməni, birdən yüzədək!
Bu dastan yazılıb qurtaran kimi
Köçmək xəyalına düşdü Nizami.
Çox çəkməz, o çatar öz arzusuna,
Ömrünün kitabı yetişər sona.
Altmış üç yaşından altı ay qədər
Keçmişkən, istədi eləsin səfər.
Keçmiş alimlərdən danışdı bütün,
O da onlar kimi yatacaq bir gün.
Yığdı dostlarını edərkən səfər,
Verdi köçəcəyi yollardan xəbər.
Gülərək söylədi ki: "Ümidim var,
Keçər günahımdan o pərvərdigar!
Bizimçün çəkməyin boş yerə zəhmət,
Siz qalın, bizləri gözləyir cənnət!
Belə danışarkən getdi yuxuya,
Heç oyaq deyilmiş dünyada guya.

## MƏLİK İZZƏDDİNİN MƏDHİ

Müğənni, o "Ramiş" havasını çal,
Şadlıq məqamıdır, qurtardı məlal!
Rudunla bir dəsgah çalasan gərək,
Çaldıqca uzana şahın ömrütək!
Aqil adamları aldı ruzigar,
Qaldı şahımıza ağıl yadigar.
Şaha kömək olsun həmişə xoş bəxt,
Onunla bəzənsin daim tacü təxt!
Məlik İzəddinə bu çərxi-dövran
Qüdrət kəməndini bəxş etmiş çoxdan.
Odur yeddi ulduz sirrini açan,
Odur səkkizinci qərana sultan[256],
Kəsra-Key bəzmində o tutub qərar,
Olub Firiduntək xoşbəxt hökmüdar!
Dodağı dünyanın həyat şərbəti,
Ondandır göylərin rəngi, ziynəti.
O qədər şirindir söz bulaqları,
Səsinin quludur öz qulaqları.
Hər səhər bəzəkli bir məclis qurar,
Orada Keyqubad kimi oturar.
Gələr ölkələrin bir çox alimi
Arılar pətəyə yığışan kimi.
Çox bilən alimlər göstərib hünər,
Biliyi azların dərsini verər.
Vardır hər guşədə gövhər tapanlar,
Oddan su almağı bacarar onlar.
Mələk xislətlidir şahın vəziri,
Behiştə açardır hər bir tədbiri.
Şah - Məlik şah kimi səxavətlidir,
Vəziri nizamtək ləyaqətlidir.
O, hökmran şahdır indi dövrana,
Vəzir də ikinci Nizamdır ona.
Alimlər gətirmiş hər bir diyardan,
Yaratmış onlara hər cürə imkan.
Şərabı içərlər şən, güllər kimi,
Məstkən ayıqdırlar bülbüllər kimi.
Hamı yarımhuşyar, şah yarımayıq,
Hamı dildən iti, şah əliaçıq!
Kimdə var bu məclis padişahlardan?

O həm şahdır, həm də Cahanpəhləvan.
Bu bir məclisdir ki, qovqadan uzaq.
Ona layiq olar bu naməm ancaq.
Bununla seyr etsin şah göyü, yeri,
Dağları, daşları, göy dənizləri!
Hərdən at oynadıb çıxsın meydana,
Gah da hücum çəksin Həbəşistana.
Heç yerə getmədən aqil hökmüdar,
Görər öz gözüylə dünyada nə var.
İstəsə şah üçün bu kitab yəqin
Açar qapısını yeddi ölkənin.
Onunla məclisi şahın şad olar.
Onda bu dünyanın təsvirləri var.
Keyxosrov bəzminin varisi sənsən,
Təxtü tac dayağı zoruna əhsən!
Cahanı göstərən bu cama baxsan,
Könlündən keçəni verəcək nişan.
Xəlvətdə yazılmış belə bir əsər
Şaha şahzadəlik müjdəsi verər.
Elə bir qapını açdı bu açar
Ki, ora dəniztək gövhərlər saçar.
Səhər ağ təxtinə çıxandan bəri
Heç bir tac görməyib belə gövhəri.
Mən ki, söz açmışam əvvəl beşikdən,
Körpəni görəndə heyrət etmə sən.
Bu şadlıq günündə sən bir məclis qur,
Yerin dövrəsinə göytək kəmər vur.
Nolaydı, bəxtim yol verəydi mənə,
Gələydim şahın o cənnət bəzminə.
Bəlkə o məclisin mərhəmətindən
Açaydım işimdən düyünləri mən.
Qolumda, qıçımda qalmamış taqət
Ki, gəlib behişti edəm ziyarət.
Müqəddəs behiştə can getsin gərək,
Cəsədi oraya niyə göndərək?
Dəryamdan iki dürr olubdur əyan[257],
Onlardır üzümü mənim ağardan:
Biri Məryəm kimi ismətli pəri,
İsanın nurilə parlar o biri.
Birinin çöhrəsi Aytək münəvvər,
Birinin ürəyi güntək nur çilər.
Müqbil, İqbal adlı iki hindli qul
Göndərdim hüzura, olaydı məqbul[258].
Gəldi hər ikisi şah xidmətinə,
Məsəldir, yaqutu saxlar xəzinə.
Qızını mehrlə köçürər ana,
Qardaş duvaq salar onun başına[259].
Hüzura göndərdim bu gəlini mən,
Qardaşı tutmuşdur onun əlindən[260].
Canımı yollayıb bir peşkəş kimi,
Qoşmuşam mən ona ciyərparəmi[261],
Onu sən geriyə qaytaran zaman
Lütfün artıq olsun umduğumuzdan!
Sözümü burada çatdırdım sona,
Nə qiymət lazımdır, özün ver ona!..

### KİTABIN SONU

Gövhərlər olanda mədəndə aşkar
Dünyanı bürüdü gövhər alanlar.
Gövhərə olsa da hamı müştəri,
Gövhər tanıyanlar alar gövhəri.
Daşın göbəyindən çıxardım gövhər,
Əlimdə tərəzi dursam da əgər,
Sanma ki, düşmüşəm dövlət eşqinə,
Mənə gərək deyil əsla xəzinə!
İstəyim budur ki, o sahibdövlət
Versin əməyimə layiq bir qiymət.
Məni düşündürmür azla çox fikri,
Çünki qohum deyil Ayla Müştəri.
Gəzirəm elə bir sərraf insanı
Ki, məğmun etməsin gövhər satanı.
Div kimi dağların köksünü yarmaq,
Vəhşi heyvan kimi nərə qoparmaq,
Açmaq xəzinəyə axan selləri,
Dənizə tullamaq dürrü, gövhəri
Min dəfə yaxşıdır, asandır, inan,
Nadan adamlara şer oxumaqdan!..
Söz hər şeydən əvvəl dinləyən istər,
Alıcı olmasa, tanınmaz gövhər.
Mənim gövhərşünas bir müştərim var,
Həm gövhərşünasdır, həm də lütfkar.
Ancaq, xəbər tutub daş hərisləri
Saldılar dalımca neçə nəfəri.
Bu parlaq ləlimi almaqçün ələ
Mənə daş yağdırıb deyirlər belə:
"O parlaq gövhəri, gəl, bizə ver sən,
Verməsən, bu bağdan köç etməlisən!"
Hirsləndim onların bu rəftarından,
Bu cürə qarışıq, pis bazarından.
Dedim: "Gövhər üçün edərlərmi cəng?
Nəğmə gözəl olar olsa həmahəng[262].
Dərya sevdasıdır, keç öz dürründən,
Gücün nəyə çatır onu söylə sən.
Dənizlə alverə çıxarsa biri,
Gərək dərya qədər ola gövhəri.
Dəryayla alverin dərya nəfi var,
Dəryanı dəryayla satın alarlar.
Bir səsin dünyanı tutsa şöhrəti,
Gərək dünya qədər ola vüsəti.
Pozğunluq olarsa ahəngdə əgər,
O səs hara çatar, necə yüksələr?
Bir söz ki, rəng verir gülə, gülşənə,
Hikmətli cavabdır başa düşənə.
Yaxşı tanıyıram mən hər yetəni,
Kəmər oğrusuyla tac bəxş edəni...
Bunları deməkdən qəsdim, yaxşı bil,
Əsla yoxsulluqdan şikayət deyil!





Deməirəm pis keçir günüm, həyatım,
Ancaq yorulmuşdur azacıq atım.
Süfrəmdə bir parça çörək tapılar,
Amma səhhətimdən şikayətim var.
İnsanın bədəni olmasa möhkəm,
Yazarkən süstləşər əlində qələm.
Saz olsa qarğanın əgər bədəni,
O, Bəsti ənciri bilər hər dəni[263].
Düzdür, yaşım ötüb, əsir dizlərim,
Rövnəqdən düşməmiş ancaq sözlərim.
Hələ çox solmayıb göy sərvim mənim,
Hələ diribaşdır bu ağ köhlənim.
Hələ haqq gözləyən, qədirbilənlər
Əllicə beytimə yüz qızıl verər.
Bəxtimdən, zəmanə eyləyir kömək,
Kisəmə dürr verir, taxtıma ipək.
Ancaq bir arzu da keçir qəlbimdən,
Aslanlar ovuna kəmənd atım mən,
Şir kimi doyaram qanıyla ovun,
Leşini qoy yesin tülkülər onun.
Əti apararsa pişik qazandan,
Nə çıxar, qarı hey qoparsın fəğan!
Fələyin zərləri əyri atması,
Dünyanın oyuna xələl qatması
Altmışa çatdırdı yaşımı mənim,
Düşməmiş qüvvədən ancaq bədənim.
Sanıram yenə də on yaşındayam,
Hələ də divlərin savaşındayam.
Keçənlər keçibdir çöllərdə yeltək,
Qalanlar da belə gəlib keçəcək.
Ömrün hesabını düşünsən əgər,
Quyuya sallamış dolçaya bənzər.
Bir dolça quyudan su çıxarmasa,
Nə xeyri, uzunmuş ipi, ya qısa?
Getdim, bu dastanda qoyub qəlbimi,
Gərək oxunmasın əyləncə kimi.
Dinləyən halını duysun dərindən,
O da getməlidir bu köç yerindən!
Bizi nə düşünsün, nə yada salsın,
Özünün, dostların qeydinə qalsın.
Mən də oturmuşdum bir gün, dünyada
Olub keçənləri salırdım yada.
Ölənlərin qəmi qəlbimə doldu,
Gözlərimin yaşı dönüb sel oldu.
Suda batanlardan bir nəfər gecə
Yuxuma girərək dedi gizlicə:
"Sən özün bizimlə bir yerdə ikən
Bizim dərdimizi nahaq çəkirsən.
İndi ki, gedirsən bu karvan ilə,
Sən öz dərdini çək, fikrini elə!"
Bu dünya mənasız göründü mənə,
Düşdüm o gecədən səfər fikrinə.
Çünki təşviş etməz ayıq bir insan
Bu çıraqsöndürən dəli ruzgardan.
Mən şərab küpünə düşərsəm, nə qəm,
Meylə al boyanmış libas geyərəm!
Tapa bilməsəm də qulan kababı,
Çəkmirəm toxluq ya aclıq əzabı.
Yoxsa da içməyə dadlı bir şərbət,
Şirin xəyallardan alaram ləzzət!
Qurtarıb tükənsə yağdanda yağım,
Nə olar, qoy sönsün bu can çırağım.
Səsim çıxmasa da təbiltək əgər,
Dözərəm təbiltək yağsa zərbələr.
Sındırsa sərvimi zamanın yeli,
Sağaldar yaramı şahın öz əli.
Xudaya, sən özün bu saf gövhəri,
Bu, hünər bağında yetmiş bəhəri,
Yetimdir, dünyada qoru hər zaman,
Gecəli-gündüzlü dərddən, bəladan.
Bu dəri dastanım yetişdi sona,
Yaxşı fal, xoş tale yar oldu ona.
Şahın adı kimi o Məsud olsun,
Şah da bu dastanla qoy Mahmud olsun[264].
İlk dəfə bu dürrü mən sapa düzdüm,
Tale ümmanında fərəhlə üzdüm,
İqbalı xoşlara yazdığım əsər,
Təəccüb etməyin məqbulsa əgər.
Nəzər salan zaman şah bu dastana
Qoy əqli, zəkası yar olsun ona!
Ucalsın adıyla onun bu kitab,
O da bu kitabdan olsun feyziyab!
Nizami aləmə bir də səs salsın,
Adı bu əsərlə əbədi qalsın!
Bunun adı kimi olsun bəxtəvər,
Dolandıqca dövran, keçdikcə illər!

# İZAHLAR

## SİRLƏR XƏZİNƏSİ

B.1. Bu beytdəki hakim sözü müxtəlif tərzlərdə izah olunur. Bizə görə, hakim sözü burada bütün hikmətlərin sahibi olan Allahın adı kimi işlənmiş, "Bismillah irrəhman irrəhim" kəlamı onun hikmətlər xəzinəsinin açarı olduğu bildirilmişdir.

B.15. Bu qoca və daimi aləmdə allahdan başqa kim "limənül-mülk" deyə bilər: "Limənül-mülk" - "mülk kimindir" deməkdir. Quranın 40-cı surəsinin 16-cı ayəsindən alınmışdır.

B.36. Yerin zülfü sözləri Yer kürəsinin konus şəklində olan kölgəsinə işarədir. "Əsa" - asi olmaq, itaət etməmək deməkdir. Quranın 20-ci surəsinin 121-ci ayəsinə işarədir. "Adəm tanrının əmrindən çıxdı, mətləbinə yetmədi".

B.57. Kürən köhlən – gecə və cündüz. "Ənəl-həqq" - "tanrı mənəm".

B.69. Zülmətilər – Günəşə və oda sitayiş edən atəşpərəstlər. Cövhərilər, cövhəri əsas sayanlar – antropomorfistlər. Allahı cism təsəvvür edənlər. Cövhər – materiya, substansiya, əsas, ərəz – zahiri əlamət, forma, aksidensiya.

B.73. Gecənin tozu – gecə qaranlığı. Cəbhə – dörd parlaq ulduzdan ibarətdir və ayın onuncu mənzilidir. Cəbhə sözünün lüğəti mənası alın deməkdir. Əxbiyə – ayın 25-ci mənzilində olan ulduzlardan biridir.

B.100. "Mən ərəfallah" - "Allahı tanıyanın dili süst olar" hədisinə işarədir.

B.120. Məhəmməd peyğəmbər "ümmi" - "savadsız" adlanmışdır. "Ümmi" sözü isə ərəbcə "əlif" və "mim" hərfləri ilə yazılır. Bunlardan biri Məzih sözünün, biri isə Adəm sözünün ilk hərfidir. Bu üsulla Nizami "Ümmi"nin, yəni Məhəmməd peyğəmbərin Adəm və Məsihdən daha yüksək olduğunu bildirir.

B.158. "Ma zağə" - Quranın "ən-Nəcm" surəsinin on yeddinci ayəsindən götürülmüşdür. "O, yana baxmadı" deməkdir. Merac zamanı peyğəmbər göydəki gülüstandan keçərkən Allahdan əmr gəlir: "Sən yana baxma, qoy diqqətin yayınmasın". Peyğəmbər bu sözləri gözləri üstünə qoydu və bu kəlam sürmə kimi onun gözlərinə dərman oldu. Burada peyğəmbərin gözü nərgizə bənzədilir.

B.224. "Ruhi fidak!" - "Ruhum sənə fəda olsun" deməkdir. İnsanların bədəni müxtəlif istəklərlə təmizliyini itirmiş sayılır. Ancaq Nizami peyğəmbərin bədəninin də ruh kimi pak olduğunu bildirir.

B.225. "Zəhmət" sözü ərəb əlifbası ilə yazılarkən ze hərfinin nöqtəsini götürsən, "rəhmət" sözü qalır. Yəni, peyğəmbər insanlara zəhmət, əziyyət yox, rəhmət bəxş edir.

B.240. Müsəlmanlığın rüknü dörd ələm (bayraq) dedikdə namaz, oruc, zəkat və həcc nəzərdə tutulur. Əslində islamın rüknü beşdir və bunlardan birincisi şəhadətdir. Xatırlanan dörd rükn şəhadətdən törəmə olduğu üçün o dörd rüknlə birlikdə xatırlanmır. Beş namaz isə sultanların qapısında beş dəfə təbil vurulmasına bənzədilir və bu, peyğəmbərin sultanlıq məqamının əlaməti, ifadəsi kimi qiymətləndirilir.

B.252. "Fəqr" - yoxsulluq deməkdir. Peyğəmbər "Fəqr mənim fəxrimdir və mən onunla fəxr edirəm" demişdir. Burada həmin sözə işarə olunur və peyğəmbərin vücudu xəzinəyə, onun yoxsulluğu isə viranəyə bənzədilir. Digər tərəfdən peyğəmbərin kölgəsi olmamışdır. Pərvanə şamın başına dolanıb yandığı kimi, peyğəmbərin kölgəsinin də onun günəş vücudunun ətrafında dolanaraq yandığı bildirilir.

B.257. Məhəmməd peyğəmbərin Məkkədə anadan olub, Mədinədə dəfn olunduğuna işarədir.

B.270. Həzrət Əli Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkənidir. 656-661-ci illərdə xəlifə olmuşdur. İgidliyi ilə məşhurdur. Ömər 634-644-cü illərdə xəlifə olmuşdur. Rəvayətə görə, o, haradan keçsə, şeytan üç gün o yerə ayaq basa bilməzdi.

B.273. Peyğəmbərə müraciətlə söylənilən bu tarix "Sirlər xəzinəsi"nin əlyazmalarında 550, 570, 559, 580 və s. şəkillərdə göstərilir. Bizə görə, bu rəqəm poemanın hicri qəməri 570-ci ildə yazıldığını bildirir və bu, miladi təqvimin 1174-1175-ci illərinin ortalarına düşür.

B. 302. Musa peyğəmbər qəbul camını ala bilmədi. Tur dağında şüşəni dağa çırpıb qırdı. O, Allaha yalvarıb "Özünü mənə göstər" deyən zaman "Ləntərani", yəni "sən məni heç vaxt görə bilməzsən" kəlamını eşitmişdir.

B. 338-39. Fəxrəddin Bəhram şahın atasının adı Davud, babasının adı İshaq olmuşdur. Eyni zamanda Süleyman peyğəmbərin də atasının adı Davud olmuşdur. Bu uyğunluqdan istifadə edən şair Bəhramşahın Süleyman şərəfinə malik olmasından danışır. Simaili-İsmaili o dövrdə terrorçu bir təşkilat olmuşdur, Qızıl Aslanın onların əli ilə öldürüldüyü məlumdur.

B. 368. Firidun əfsanəvi İran şahlarındandır. Zöhhak onun atasını öldürmüş, onu anası gizlədərək böyütmüşdür. Zöhhak iblisin təhriki ilə atasını öldürür və yenə iblisin fitnəsi nəticəsində çiynindən iki ilan çıxıb ona əziyyət verir. İblis bu ilanlara insan beyni yedirməklə əzablardan xilas olmağın mümkün olduğunu bildirir. Bu ilanlara hər





gün iki gəncin beyni yeyilmək üçün verilirmiş. Dəmirçi Gavənin başçılığı ilə xalq üsyan edir, onu taxtdan salır. Firudin taxta əyləşib hökmdar olur və Zöhhakı Dəmavənddə zindana saldırır. Nizami bu əhvalata işarə edir.

B.498. "Şair əmirdir kəlama" sözü peyğəmbərin hədislərindən biri sayılır. Nizami bu kəlamı "Əş-şuərau ümara-ül kəlam" şəklində ərəbcə işlədir. "Şairlər sözün əmirləridir" deməkdir.

B.518. Harut və Marut müti və itaətkar mələklər imişlər. Allah onlara insan sifəti və şəhvət verib Babil şəhərinə göndərir. Allah onlara zina etməməyi, şərab içməməyi, nahaq qan tökməməyi, donuz əti yeməməyi, zülmdən çəkinməyi tapşırır. Onlar gəlib xalq arasında yaşayırlar. Bir gün yanlarına gözəl bir qadın gəlir, onlar həmin qadına aşiq olur, ondan murad istəyirlər. Qadın bildirir ki, bütpərəst olsanız, şərab içsəniz, qan töksəniz, muradınıza çatarsınız. Mələklər həmin qadının vüsalına qovuşmaq xatirinə axırda şərab içməyə razı olurlar, muradlarına çatırlar, sirləri açılmasın deyə adam öldürürlər. Tanrı o qadını göyə aparıb ulduz surətinə salır. Həmin ulduzun adı Zöhrə olur. Harut və Marut isə Babildə quyuda başaşağı vəziyyətdə asılırlar. Onlar burada Babil əhalisinə sehrkarlıq öyrədirlər. Ancaq Nizaminin fikrincə, onun şeirdə göstərdiyi sehrkarlıq Harutun sehrkarlığından daha yüksəkdir və bu sehrkarlıqdan xəbər tutan Harut Babil quyusunda həsəddən, qısqanclıqdan yanır. Nizami eyni zamanda könlünün, şairlik təbinin ulduzlara işıq saçan bir Zöhrə (Venera) ulduzu olduğunu bəyan edir.

B.645. Lalə bağrının qaralığına görə hindliyə, səmən ağlığına görə türkə bənzədilir, başqa yöndən biri ərəb Səhlə, digəri Yəməndə daha parlaq görünən Süheyl ulduzuna oxşadılır. Səhl sözü həm də qara qarğa kimi tərcümə edilir.

B.672. Orta əsrlərdə yəhudilər müsəlmanlardan fərqlənmək üçün ya sarı paltar geyər, ya da paltarlarının üzərinə sarı rəngli parça tikərdilər. "Ağ əl" - "Yədi beyza" sözləri Musa peyğəmbərin möcüzələrindən birinə işarədir. Su üzərindən doğan günəş Musa peyğəmbərin möcüzə göstərən "ağ əlinə" oxşadılır.

B.752. Burada söhbət İbrahim Xəlilullah peyğəmbərdən və onun öz oğlu İsmayılı Allahın əmri ilə qurban verməsi əhvalatından gedir. Burada zülf, saç İbrahim peyğəmbərə, od saçan üz İbrahimi yandırmaq üçün qalanan tonqala, kiprik İsmayılı qurban kimi kəsmək üçün lazım olan xəncərə, göz isə İsmayıla bənzədilmişdir.

B.815. "Əlləmə Adəm" Quranın "əl-Bəqərə" surəsinin 31-ci ayəsinə işarədir: "Allah Adəmə bütün şeylərin adlarını öyrətdi". İkinci misradakı "Xəmmərə tinə" Quranın "İmran" surəsinin 59-cu ayəsindən iqtibas edilmişdir: "O, Adəmi torpaqdan yaratdı, sonra ona dedi "ol!".

B.850. Adəm cənnətdən çıxarılandan sonra Sərəndibə, yəni Seylona gəlib, orada günahlarını yumaqla məşğul olmuşdur.

B.1159. Ağac qızları dedikdə ağacın çiçəkləri nəzərdə tutulur, əvvəlcə libasları zərif, sonra cod olur.

B.1263. "Ruzini haqdır verən" sözləri Quranın 11-ci surəsinin 6-cı ayəsindən iqtibasdır. "Ər-rizqu əl-əllah" - "Ruzi Allahdandır".

B.1880. "Asqırar Adəm kimi İsa fəqət" misrasını şərh edərək Mircəlal Zəkiyev yazır: "Bəlxinin şərhində deyilir: "Elə ki, ruh Adəm Əleyhissəlamın pak qəlbinə daxil oldu, qalxıb oturdu, asqırdı və həmd etdi. Bu vaxt Cəbrayıl Əleyhissəlama əmr olundu, həmin asqırtını (ətsə) götürüb Zəkəriyya peyğəmbərin zamanına qədər ovcunun içində saxladı. Sonra asqırtını Məryəmin paltarının qoluna üfürdü. Məryəm hamilə oldu və İsa (ə) dünyaya gəldi". Buna görə də Nizami belə hesab edir ki, Adəm kimi ancaq İsa asqıra bilər.

B.1997. Əgər zahidlər şah xələti geysələr, bu zənbil və Süleyman əhvalatı olar. Süleyman peyğəmbər varlı, möhtəşəm olmasına baxmayaraq öz əli ilə toxuduğu zənbilləri satıb onun gəliri ilə dolanarmış.

B.2186. Yəni bir ağızdan şirin bir söz eşitsələr, razılıq bildirmək əvəzinə irad tutarlar. R.Əliyev qeyd edir ki, şirinə, təşəkkür, minnətdarlıq məqsədilə verilən hədiyyə, şirinlik deməkdir. Burada isə həmin söz əks mənada işlənmişdir.

B.2244-2247. Bu beytlər "Sirlər xəzinəsi"nin hər hansı bir əlyazmasının köçürülmə tarixini bildirir. Bir çox əlyazmalarında olduğu üçün tərcümə etdik.

## XOSROV VƏ ŞİRİN

1. Din tarixində Davud gözəl səsi olan bir peyğəmbər kimi tanınır. Orta əsrlərdə Davud nəğməsi, Davud səsi ifadələri ən gözəl səs mənasında işlənmişdir. Onun adı ilə bağlı olan dini kitabın adı "Zəbur"dur. Nizami arzu edir ki, o, sənətdə bir Davud, "Xosrov və Şirin" əsəri isə "Zəbur" kimi şöhrətli bir əsər olsun.
2. Xəllüx Orta Asiyada, başqa sözlə Turanda gözəlləri və gözəl mişk ətri alınan ceyranları ilə məşhur bir şəhər olmuşdur. Nizami arzu edir ki, Xəllüx mişki insanlara zövq verdiyi kimi, onun əsəri də könülləri oxşasın.
3. Nizami belə hesab edir ki, Allah göy cismlərini və Yeri yaratdıqdan sonra Yerə tərpənməz şəkildə dayanmaq, göydəki ulduzlara isə hərəkət etmək əmri vermişdir. Bundan sonra Yer hərəkətsiz dayanmış, ulduzlar isə müəyyən qanun əsasında hərəkət etməyə başlamışlar.
4. Altı yaxa dedikdə altı cəhət, dörd gövhər dedikdə dörd ünsür (su, od, torpaq, külək) nəzərdə tutulur.
5. Ulduzların Yerin ətrafında fırlanması həccə gedənlərin Kəbənin ətrafına fırlanması ilə müqayisə olunmuşdur.
6. İbrahimxəlil peyğəmbər büt sındıran, atası Azər bütyonan olmuşdur. Nizami İbrahim peyğəmbər kimi bir allahı sevib də, bütxanəni bütlərdən təmizləməyi məsləhət görür, yəni tək allahı sevməyi, əzizləməyi daha doğru yol bilir.
7. Bir qarı cəhrə ilə yun əyirirmiş. Ondan soruşurlar ki, allahın varlığına hansı dəlilə əsasən inanmaq olar. O, əlini cəhrədən çəkir və cəhrə dayanır. Qarı deyir: - Bax buna əsasən. Nə qədər ki, əlim cəhrədə idi, o fırlanırdı, elə ki, əlimi çəkdim o dayandı. Madam ki, çərxi-fələk fırlanır, onu da bir fırladan var. Bu məsələni Peyğəmbərə danışırlar. Peyğəmbər buyurur: "Qarı arvadların dinini möhkəm tutun". Nizami beytdə buna işarə edir.
8. Keçir hey Kəbəni görmək könüldən,
Əgər yollarda ölsəm, neyləyim mən?
Nizami bir çox əsərlərində Kəbəni görmək arzusunu dilə gətirmişdir. Burada da həmin arzu bildirilir.
9. Dini inama görə, Məhəmməd peyğəmbərin torpağı əzəl vaxtı, yəni yaradılışın başlanğıc dövründə yoğrulmuşdur. Nizami "Yeddi gözəl"də bu fikri bir az da dəqiqləşdirir və bildirir ki, Məhəmməd peyğəmbərin nuru, yəni zatı Adəmin yaranmasından yeddi yüz min il əvvəl yaranmış, özü isə Adəmdən yeddi min il sonra dünyaya gəlmişdir.
10. Yetimlərçün o, şirin bir nəsimdir,
Odur hər kəs deyir: "Dürri-yetimdir"
Nizami Məhəmməd peyğəmbəri ona görə "dürri-yetim" - "yetim dürr" adlandırır ki, o, hələ anadan olmamış atasını itirmiş, altı yaşında olanda isə anası vəfat etmişdir. Məkkə camaatı ona "Yetim Məhəmməd" deyirdi. İkinci tərəfdən "yetim dürr" ifadəsi məcazi mənada nadir, tək, bənzərsiz dürr deməkdir. Belə ki, bir qayda olaraq molyuskun mədəsində çox dürr-inci olduqda onlar xırda olurlar. Molyuskun içində tək bircə inci olduqda o, çox iri və qiymətli olur. Həmin tək olan inciyə "yetim dürr" deyirlər. Başqa sözlə, Nizami Məhəmməd peyğəmbərin həm yetimliyinə işarə edir, həm də onun böyüklüyünü nəzərə çatdırır.
11. O, xaslardan seçilmiş xas Ayazdır,
O, Məsuddan keçib, Mahmuda xasdır. Ayaz Qəznə hökmdarı Sultan Mahmudun nədimi olmuşdur. Onların dostluğu haqqında "Mahmud və Ayaz" adlı poema yazılmışdır. "Koroğlu" dastanındakı Eyvaz surətinin yaranmasında da həmin Sultan Mahmud və Ayaz münasibətlərinin izləri vardır. Sultan Məsud Sultan Mahmudun oğludur Məsud xoşbəxt, Mahmud isə şərəfli, şanlı, təriflənən deməkdir. Nizami burada Peyğəmbəri seçilmiş xaslar, yəni peyğəmbərlər içərisindən seçilmiş xas bir peyğəmbər kimi, peyğəmbərlərin başçısı məqamına çatan bir şəxs kimi tərifləyir.
12. Dörd yar dedikdə, ilk dörd xəlifə – Əbubəkr, Ömər, Osman və Əli nəzərdə tutulur. Orta əsrlərdə şahların sarayı qarşısında gündə beş dəfə təbil çalınarmış. Beş növbə ona işarədir.
13. Xəlil dedikdə İbrahim Xəlil peyğəmbər, Məsih dedikdə İsa nəzərdə tutulur. Nizami belə hesab edir ki, İbrahim Xəlil peyğəmbər Məhəmməd peyğəmbərin ordusunun ancaq bir əsgəri, İsa isə kiçik bir çavuşdur.
14. Döyüşlərin birində düşmənlərdən biri daşla vurub peyğəmbərin dişini sındırır. Beytdə buna işarə olunur.
15. Yəni səhərin işığı gecənin qaranlığını yox etdi.
16. Günəş Cəmşid camına bənzədilir. Bununla günəşin sultan kimi taxta çıxması və gecənin hakimiyyətinə son qoymasına işarə olunur. Cəmşid, Cəm əfsanəvi İran hökmdarı olmuşdur. "Avesta"ya görə, 900 il hökmdarlıq etmişdir. Onun vaxtında heç bir şər olmamışdır. O, lovğalıq etdiyinə görə öldürülmüş və o vaxtdan xeyirlə bərabər şər də meydana gəlmişdir. Cəmşidin sehirli bir camı olmuşdur. O istədiyi vaxt dünyanın hər hansı bir yerində nə baş verdiyini bu cam vasitəsi ilə görürmüş.
17. Bu mülkə söz Tuğan şahı müzəffər,
Qələm tutmuş Qaraxan aldı xəncər.





Tuğan şah və Qara xan türk hökmdarlarının adlarıdır. Tuğan şahin deməkdir, Qara xan isə böyük xan mənasındadır. Bəzən qaranlıq gecə qara xan adlandırılır. Şair demək istəyir ki, sözün şahini sözün Qara xanına, yəni Nizamiyə qılınc kimi iti qələm verdi.

18. "Bu yeddi şahlı göylər" dedikdə yeddi səyyarə-planet olan səma nəzərdə tutulur.
19. Qələm sən qoymadın çalsın Ütarid,
Tikan tək batdı, atlas geysə Nahid.
Ütarid-Merkuri planeti yazı işlərini himayə edən səyyarə kimi tanınır. Nahid-Zöhrə-Venera isə qadınlıq və gözəllik ilahəsidir. Yəni sən əlinə qələm alandan Merkuri-Ütarid əlinə qələm almaqdan əl çəkib, sənin söz ipəyini görəndə Zöhrənin atlas paltarı ona tikan kimi göründü və bədəninə batmağa başladı.
20. Üzük tap, sal ona firuzə qaş sən,
Süleyman bəxşişi bizdən görəsən.
Yəni elə mövzu seç, onun əsasında elə bir əsər yaz ki, biz də sənə Süleyman peyğəmbərin səxavətinə bənzər bir səxavət göstərib böyük bəxşiş verərik. Beytdə həm də Süleyman peyğəmbərin üzüyünə işarə edilir. Şairdən Süleyman peyğəmbərin sehrli üzüyünə bənzər bir əsər yaratmaq sifariş edilir.
21. Əgər bir dəm sənə biganə qalsaq,
Səni Firdovsi tək narazı salsaq.
Böyük türk hökmdarı Sultan Mahmud Qəznəvi Əbulqasim Firdovsiyə şahlar haqqında bir əsər yazmağı sifariş edir və onun yazacağı əsərin hər beytinə bir qızıl verəcəyini bildirir. 30 il müddətinə yazılan 60 min beytlik "Şahnamə" yazılıb qurtarandan sonra Sultan Mahmud Firdovsiyə 60 min dinar əvəzinə 60 min dirhəm-gümüş pul göndərir. Görünür, əsərin açıq antitürk ruhu Sultan Mahmudu razı salmır. Firdovsi isə Sultan Mahmudun hərəkətindən narazı qalıb onu həcv edən bir şeir yazıb, qorxudan yaşadığı yerdən qaçır. Burada həmin hadisəyə işarə edilir.
22. Həman bu xəznəni açdım o vaxt mən,
Bu qəsrə bir özül qoydum o gündən.
Bu beytdə və bundan əvvəl gələn beş beytdə ifadə olunan fikir bundan ibarətdir ki, Nizami "Xosrov və Şirin" poemasını Sultan III Toğrul rəsmi şəkildə sultanlıq taxtına çıxan zaman yazmağa başlamışdır. Bu isə 1177-ci ilin iyun –iyul ayında baş vermişdir.
23. Həbəş zülfü o qoy Tamğaca vursun,
O Şüştər zinətini Çaça vursun.
Tamğac qədim türk şəhərlərindəndir. Çaç Daşkəndin adlarından biri olmuşdur. Həbəş qaralıq, Şüştər zinəti dedikdə zərif və əlvan parçalar nəzərdə tutulur. Şair demək istəyir ki, hökmdarın qara saçı ağ üzünə yaraşıq versin, ölkəsi Şüştər parçaları kimi əlvan və zərif olsun.
24. Ona Çindən gətirsin vergi xaqan,
Müdam Qeysər yetirsin cizyə Rumdan.
Nizami əsərlərində Çin sözü Türküstan, Turan mənasında işlənir. Rum dedikdə Bizans nəzərdə tutulur və onlar qeyri-müsəlman olduqlarına görə tabe olduqları ölkəyə cizyə verməli olurlar. Yəni Səlcuqilər dövləti o qədər güclü olsun ki, Türküstan xaqanı ona vergi, Bizans qeysəri isə cizyə verməyə məcbur olsun.
25. Qələm türklərinə salmaz o, tarac,
Verər bir "mim" kəmər, bir "mim" verər tac.
Məhəmməd sözü ərəb əlifbası ilə yazılanda onda iki "mim" hərfi olur. Şair bundan istifadə edərək bildirir ki, hökmdar qələm türklərini qarətə, yoxsulluğa düşməyə qoymur, adındakı bir "mim" hərfi ilə kəmər, o biri "mim" hərfi ilə tac verir, yəni həm maddi cəhətdən kömək edir, həm də mənəvi cəhətdən ucaldır.
26. Əgər bəxşişə əl qatsa, nə olmaz?
Batar bəxşiş selində Cudi, qalmaz.
Cudi Ağrı dağının qədim adıdır. Əfsanəyə görə, Nuh peyğəmbər dünyanı su basarkən Cudi dağına pənah aparmışdır. Şair bildirir ki, əgər Atabəy Məhəmməd Cahan Pəhlivan bəxşiş verməyə başlasa, Cudi dağı onun bəxşiş tufanının altında qalar.
27. Cəhət çiyninə altı tağ o saldı,
Göy ondan daxi doqquz sırğa aldı.
Altı tağ dedikdə altı cəhət (doğu, batı, güney, quzey, aşağı, yuxarı), doqquz sırğa dedikdə doqquz qat göy nəzərdə tutulur.
28. İkinci bir Firidun, həm də Cəmşid,
Dedim yanlış, Firidun nə, nə Cəmşid!
Cəmşid və Firidun əfsanəvi İran hökmdarları sayılır. Yəni Cahan Pəhlivan Cəmşid və Firidundan çox-çox yüksək

hökmdardır.

29. Fıridun süd əmən bir tifl inəkdən,
Sən aslansan, ötüb baxtin fələkdən.
Qaynaqlara görə, Cəmşid dikbaşlıq edərək allahlıq iddiasına düşür. Ad oğlu Şəddadın qardaşı Zöhhak İrana hücum edir, Cəmşid öldürülür. Zöhhak hakimiyyəti ələ alır. Onun çiynində bitən iki ilan insan beyni yeməklə qidalanır. Zöhhak öyrənir ki, onu Fıridun öldürəcək. Zöhhak onun atasını öldürür, özü anası ilə Elbrus dağında yaşayır və inək südü ilə qidalanır. Nizami buna işarə edir.

30. Boğubdur Cəmşidi Zöhhak ilanı,
Sənə göy əjdəri vermiş bu canı.
Burada Cəmşidin hər çiynində bir ilan bitmiş Zöhhak tərəfindən öldürülməsinə işarə edilir.

31. Nə gördünsə zamandan, görməz əsla
Nə İskəndər, nə Cəmşid ayna, camda.
Makedoniyalı İskəndərin güzgüsü, Cəmşidin camı olmuşdur. Onlar nə istəsələr, həmin güzgü və camda görərmişlər. Nizami demək istəyir ki, Cahan Pəhlivan öz dövründə onlardan daha çox şeylər görmüşdür.

32. Mənəm yol qasidi burda əzəldən,
O şahın zəngçalan Harutuyam mən.
Harut və Marut allahın mələklərindən olmuşlar. Allah onları imtahan üçün insan cildində, biraz da insani hiss verərək Babilə göndərir. Onlar bir müddət özlərini düz aparsalar da, bir dəfə Zöhrə adlı gözəl bir qadını görüb ona aşiq olur və bu eşqin təsiri ilə səhvlər edirlər. Allah onları cəzalandıraraq Babil quyusuna atır ki, onlar qiyamətə qədər orada qalacaqlar. Ancaq onlar orada insanlara sehrkarlıq sənəti öyrədirlər. Harut sehri ən yüksək sehrkarlıq sayılır. Nizami çox vaxt özünü bənzərsiz, sehirkar poeziyasına görə Haruta bənzədir. Nizami eyni zamanda özünü bu sehirkarlıqla bərabər şahın bir zəng çalanı adlandırır.

33. Qarışqanı kəsər kim, harda qurban?!
Çəyirtkə töhfə et, almaz Süleyman.
Rəvayətə görə, qarışqa çəyirtkənin qıçını Süleyman peyğəmbərə hədiyyə aparır, Süleyman da onu qəbul edir. Bu, həm də Süleyman peyğəmbərin hətta qarışqalardan da vergi aldığını təsdiqləyən bir rəvayətdir. Nizami burada özünü təvazökarlıqla qarışqaya, əsərini çəyirtkə qıçına, əsəri həsr etdiyi hökmdarı isə Süleyman peyğəmbərə bənzətmişdir.

34. Uyuşdum təkliyə simurğ tək mən.
Simurğ əfsanəvi quşdur. Qaf dağında tək yaşayır. İran pəhləvanı Rüstəmin atası Zalı dağda Simurğ götürüb öz balaları ilə böyüdür.

35. Nə yaxşı söyləyib ustad, min əhsən!
Ki, gec gəl, amma düz gəl, ey cavan sən!
Ustad deyəndə Nizami Firdovsini nəzərdə tutmuşdur. "Gec gəl, amma düz gəl" sözləri onun "Şahnamə"sindən götürülmüşdür. Bu sözləri Rüstəm İsfəndiyara deyir.

36. Kömür düşmənlər ahından olur ud,
Olur Mərrix Zənəbdə olsa məsud.
Yəni düşmənin yanıb kömürə dönməsi ud ətri kimi adama xoş gəlir. Mərrix (Mars) də Zənəbdə olanda nəhslik, uğursuzluq ötüb keçir və Mərrix öz nəhsliyini itirir. Səyyarələrin hərəkət müstəvisi Ekliptika (yəni Günəşin hərəkət müstəvisi) ilə müxtəlif bucaqlar təşkil edir. Ona görə hər səyyarənin (planetin) orbiti Ekliptika ilə iki nöqtədə kəsişir. Bu nöqtələrin birinə Rəs (yəni baş), o birinə Zənəb (yəni quyruq) deyilir.

37. Kamalından Ütarid yığdı sünbül
Bu üzdən qəsri də adlandı Sünbül.
Burada sünbül cinas kimi işlənmişdir. Biri dən tutan taxılın sünbülü, o biri isə Ütaridin keçdiyi sünbülə, bürcünün adıdır. Adətən taxıl əllə biçilib qurtarandan sonra yerə tökülənləri yığırlar. Buna sünbül yığmaq deyilir. Şair bununla demək istəyir ki, ağıl-kamal, müdriklik səyyarəsi sayılan Ütarid (Merkuri) onun kamalının qırıq-quruğunu yığır. Guya buna görə də onun qəsri, yəni Ütaridin keçdiyi bürc sünbül (yaxud Sünbülə) adlandı.

38. Onun dərgahına yetsə qarışqa,
Süleyman növbə gözlər qarşısında.
Süleyman peyğəmbər hətta qarışqalara da hakim idi və onlardan da vergi alırdı. Ancaq buna baxmayaraq qarışqa məmduhun sarayına gedib çıxsa, Süleyman həmin qarışqanın qəbuluna düşmək üçün növbə gözləməlidir. Burada mübaliğə olsa da, məcazi mənada müəyyən həyat həqiqəti də öz əksini tapmışdır.

39. Yolundan qalxsa bir milçək də, əlbət,
Olar qəsrində Nəmrud başı zinət.





Nəmrud e.ə. Musa peyğəmbərin zamanında yaşamış hökmdardır. Babil şəhərinin tikilməsi onun adı ilə bağlıdır. Allahlıq iddiasına düşdüyü üçün yaradanın qəzəbinə gəlmişdir. Axırda bir milçək onun burnuna girərək ölümünə səbəb olmuşdur. Nizami eyni beytdə milçək və Nəmrud sözləri işlədərək bu hadisəyə işarə etmişdir.

40. Həyatı var Məsih ilə bərabər,
Səbuhu həşrəcən vardır sərasər.
Məsih-İsa peyğəmbər guya göyə apanlmış və ölməmişdir. Şair demək istəyir ki, hökmdar İsa kimi qiyamətə qədər yaşayacaq. Səbuh sübh vaxtı təşkil edilən içki məclisinə deyilir. Nizami burada Qızıl Arslanın içki içən olduğunu nəzərə çatdırır.

41. Külək tufanı qorxuncdur, bu, doğru,
Süleyman var belə, burda nə qorxu?!
Nizami bir yandan Qızıl Arslanı hökmdar və peyğəmbər Süleymanla müqayisə edir, o biri yandan o vaxt adamları təşvişə salan bir əhvalata işarə edir. Belə ki, Sultan Səncər sarayının adlı-sanlı şairi Əli Əvhədəddin Ənvəri belə bir xəbərdarlıq etmişdi ki, 1186-cı ilin sentyabr ayının 16-da planetlərin Tərəzi bürcündə qaranıyaxınlaşması nəticəsində böyük bir külək tufanı olacaq və insanlar fəlakətlə üzləşəcəklər. Həm də bu xəbərdarlığı Ənvəri 1186-cı ildən 30 il əvvəl etmişdi. Nizami "Xosrov və Şirin" əsərini yazarkən bu hadisənin baş verməsinə az vaxt qalırdı. Nizami bu xəbərə inanmadığını dönə-dönə bildirmişdir. Ancaq göstərilən gün heç adi bir külək də əsməmişdir. Həmin vaxt sözü yalan çıxan Ənvəri qeyb olmuşdur.

42. Əgər Zöhhak ilanı sancsa neştər,
Fıridun dəstəsində çəkmə qəmlər.
Zöhhak – İranın əfsanəvi tarixində Pişdadilər sülaləsinin beşinci hökmdarıdır. Cəmşiddən sonra min il hökmdarlıq etmişdir. Bəzi mənbələrə görə Yəməndə hakim olmuş, Babildə cadugərlik öyrənmiş və əjdahaya çevrilmişdir. Şər ruhun öyrətməsi ilə atasını öldürmüş, hökmdar olmuşdur. Hər çiynində bir ilan bitir. O ilanlar insan beyni ilə qidalanırmış. Dəmirçi Gavə önlüyünü bayraq edərək üsyan qaldırmışdır. Fıridun Zöhhakı zəncirləmiş və Dəmavənddə mağarada asmışdır. Fıridun ədalətli bir şah olmuşdur.

43. Bu bağda görsə bir gül də o ancaq
Üfüqlər şahı adıyla vurar dağ!
Qızıl Arslanı ikinci Cəmşid kimi qiymətləndirən Nizami belə bir fikri vurğulayır ki, "Xosrov və Şirin" əsərinin Cahan Pəhlivanın adına yazılması onun da ürəyincədir. Üstəlik bu əsəri şair Qızıl Arslanın adına yazmış olsaydı, o buna sevinməzdi. Əsərin qardaşının adına yazılması ona daha xoş gəlir. Beytdəki "o" sözü Qızıl Arslana, "Üfüqlər şahı" sözləri Cahan Pəhlivana işarədir.

44. Ola Çin türkləri qarşında bəndən,
Nə alnında çin olsun çinlilərdən!
Burada Çin türkləri dedikdə Orta Asiya türkləri nəzərdə tutulur.

45. Yetər, sönməz çırağım, üfləmə çox,
Yəqin bil, Musada İsa dəmi yox!
İsa dəmi, yəni İsa nəfəsi ölüləri diriltdirmiş. Nizami dostunun nəsihətlərini faydasız hesab etdiyi üçün onları qəbul etmir.

46. Fələk baxtimdə şirlik göstəribdir,
Nə fayda, amma yun şirlik veribdir.
Bu beytlərdə Y.E.Bertels Nizaminin Günəş Şir bürcündə olarkən doğulmasına işarə olduğunu ehtimal etmiş, R.Əliyev isə bunu Nizaminin Şir bürcündə doğulmasına dəqiq işarə kimi qəbul edir. Biz isə burada daha çox "Xosrov və Şirin" əsərinin Günəş Şir bürcündə olarkən yazılmağa başlanılmasına işarə olduğunu düşünürük.

47. Yamanlıq Ağ div olsun lap önündə.
"Şahnamə" də Rüstəmin Ağ divlə vuruşması və Keykavusu azad etməsi epizoduna işarədir.

48. Zühəl pərgarı ilə Yer təkində
Nə var öyrəndi göylər məsləkində.
Zühəl – Şatum orta əsrlərin ulduzşünaslığında sonuncu planetdir. Nizami demək istəyir ki, Xosrov göyün ən son nöqtəsi ilə Yerin təki arasında hər nə var idisə, hamısını öyrəndi.

49. Qara qarğa gedərkən yorta-yorta,
Uzatdı tutiyə zər bir yumurta.
Qara qarğa burada qaranlıq gecəyə, tuti gündüzə, qızıl yumurta günəşə işarədir.

50. Bu Yusif baxma qurd oldu, günahkar,
Yaşı azdır, əgər onda gunah var!
Burada Yusif əfsanəsinə işarə olunur. Belə ki, "Yusif və Züleyxa" əfsanəsində qardaşları paxıllıq edərək Yusifi

quyuya atır, atalar Yaquba xəbər verirlər ki, guya Yusifi qurd yemişdir.

51. Onun nəqşi vurardı Manidən dəm,
Açardı "İqlidis" rəssam kimi həm.
Mani (215-276) görkəmli rəssam, şair və din xadimi olmuşdur. O öz dini görüşlərini yaymaq üçün "Ərjəng" və ya "Ərtəng" adlı yüksək sənətkarlıqla işlənmiş rəsm əsərləri toplusu yaratmışdır. Nizami əsərlərində daha çox mahir rəssam kimi xatırlanır. Evklid – İqlidis (e.ə. 306-283) məşhur yunan riyaziyatçısıdır. "İqlidis" dedikdə onun həndəsəyə dair əsəri nəzərdə tutulur. Bu əsər orta əsrlərdə çox məşhur olmuş, dərs kitabı kimi istifadə edilmişdir. H.Məmmədzadə qeyd edir ki, Nəsirəddin Tusi bu kitaba şərh yazmışdır.

52. Hekayət bitdi, gəl saçma şəkər sən,
Dedin, Xuzistana eylə səfər sən.
Xuzistan İranın cənub-qərbində bir vilayətdir. Nizami dövründə Xuzistan xurma və şəkəri ilə məşhur imiş.

53. O mehrab ki, o, rüknüydü İraqın,
Belindəydi kəmərtək İnhiraqın.
İnhəraq – yanar dağ deməkdir. Görünür Kəpəz bir müddət belə adlanmışdır.

54. Hər il düz Rəmgilə çöldən, o yoldan
Gəlir döl tutmağa bir güclü maydan.
Rəmgilə şeirdən də göründüyü kimi çöl adıdır.

55. Bu qırx ildə bir az çox, ya az isə,
O cür dağla bu işlər baş verirsə,
Biz belə düşünürük ki, Nizami burada 1139-cu ilin sentyabr ayında Gəncədə baş verən zəlzələdən, Kəpəzin dağılıb Göygölün əmələ gəlməsindən keçən qırx ildən danışır. Bu isə Nizaminin təvəllüd tarixi haqqında da düşünməyə imkan verir

56. Haman dəm abinus nərtaxta altda
Yox oldu kəhrəba zərlər busatda.
Qara rəngli nərtaxta dedikdə qaranlıq gecə, kəhrəba zərlər dedikdə ulduzlar nəzərdə tutulur. Səhərin açılması ilə ulduzların görünməz olması belə obrazlı şəkildə qələmə alınır.

57. Gəlir həm Müştəri, əldəydi fərman,
Çıxır sah bənddən, Şapur bəladan.
Yəni səhərin açılması ilə Muştəri-Yupiter fərman gətirir ki, Xosrov qayğıdan, Şapur isə bəladan, görəcəyi çətin işdən qurtaracaqdır.

58. Günəş Elbursun üstündən çıxanda
O Cəm ayini başlandı cahanda.
Buradan belə anlaşılır ki, Nizami Elburs dedikdə Böyük Qafqaz sıra dağlarını nəzərdə tutur. Cəm ayini dedikdə isə gündüzün gəlməyi ilə şadlıq, sevinc məclislərinin qurulmasına işarə edilir.

59. O yerdən ta Pərisuz deyrinədək
Uçub getdi pərilər bir pəritək.
Pərisuz pəriyandıran deməkdir. Görünür, Nizami dövründə, yaxud onda olan qaynaqlarda belə bir kilsə, yaxud məbəd olmuşdur.

60. Gümüş bir dağ yerindən durdu dərhal,
Dağa səs düşdü tərpəndikcə xalxal.
Gümüş dağ dedikdə Şirin nəzərdə tutulur. Xalxal isə ayağa taxılan və qolbağa bənzər bir ziynət əşyasıdır. Yeriyəndə dənələri bir-birinə dəyib səs salır.

61. Aparmış qəlbini gördüm o hindu,
O türklər tək gəzir mal hindudan bu.
Hindu sözü həm hindli, həm də oğru mənasında işlənir. O hindu dedikdə Xosrovun şəklini göstərən Şapur nəzərdə tutulur. Şirin isə türklər oğrudan mal axtaran kimi şəkillə bağlı nəsə öyrənmək istəyir.

62. Buyurdu onda Şirin ta gözəllər
Dağılsınlar Bənatünnəşə bənzər.
Bənatünnəş nəş qızları deməkdir. Bu astronomiyada Böyük Ayı bürcü kimi tanınır. Bu ulduzlar ədəbiyyatda pərakəndəlik rəmzi kimi işlənir. Şirinin burada öz rəfiqələrinə Bənatunnəş kimi dağılmalarına işarə etməsindən söhbət gedir.

63. Bu yerlərdə o, Cəmşiddən qalıbdır.
Bu misra ilə Xosrovun İran şahları nəslindən olduğu bildirilir.

64. Verib rəng pərdədə sözlər deyirdi,
Çıxınca ləl daşdan, can yeyirdi.
Yəni Şirin eyhamlı sözlərlə nəsə öyrənməyə çalışırdı və Şapurun ağzından ona lazım olan sözlər çıxana qədər ürəyini yeyirdi.

65. Vurar yığlıqla qartal olsa harda.
Yığlıq Nizaminin işlətdiyi türk sözlərindəndir. Oxun yeləyi deməkdir.

66. Yəhər qoysa ata, Rustəm deyərsən,
Mey içsə, Kequbad zənn eyləyərsən.
Yəni Xosrov at minməkdə, igidlik göstərməkdə əfsanəvi İran qəhrəmanı Rüstəmə, məclisdə şərab içməkdə Keyqubada bənzəyir.

67. O şahın qəsri vardır sanki Fərxar.
Fərxar qəsri Tibetdə böyük bir bütxana və qəsr imiş. Qədim səyyahlar bu bütxananın gözəlliyi və əzəmətinə heyran qalmışlar.

68. Qaçıb gəldi o qızlar, gördü Şirin,
Bənatün-nəş dönüb olmuşdu Pərvin.
Yəni Nəş qızları kimi ətrafa dağılmış qızlar Ülkər topasına bənzər ulduzlar kimi yığılıb onun başına toplanmışdılar.

69. Səhər Çin xəznədən zər qıfılla
O gövhər mücrünü örtdü calalla.
Çin xəznədən dedikdə Günəş nəzərdə tutulur ki, o çıxmaqla gövhər mücrüsünə bənzədilən ulduzlu gecə örtülür, yox olur.

70. Odur minlərlə nərgiz göydə soldu,
Açıldı bir sarı gül, gör nə oldu!
Nərgiz dedikdə ulduzlar, sarı gül dedikdə günəş nəzərdə tutulur.

71. Süheyl orda şəkər dondan çıxanda
Fəğan etdi o Şera asimanda.
Süheyl-Kanop Arqogəmisi ulduzları topasının ən iri ulduzudur. Bu ulduz ilin ancaq müəyyən vaxtında görünür. O ulduz Yəməndə daha artıq müşahidə olunur və onun görünməsi məhsul yığımının başlanğıcı sayılır. Burada Nizami Şirini Süheylə bənzətməklə onun parlaq gözəlliyinə işarə edir. Şera isə Böyük Köpək bürcünün alfa-ulduzudur. İndi ona Siriyus deyirlər. Bu ulduz ulduzların ən parlağıdır. Türk astronomları onu Quruq adlandırırlar. Yayın yarı olmasını xalq arasında bu ulduzun doğması ilə təyin edirlər. Xalq arasındakı "quyruq doğub" ifadəsi həmin Quruq-Siriyus ulduzunun doğması ilə bağlıdır. Bu ulduz, doğrudan da, yay yarı olanda sübh vaxtı Günəşin çıxmasından əvvəl görünməyə başlayır. Ulduzlar içində parlaqlığına görə Şera birinci, Süheyl ikincidir. Ancaq Süheyl öz gözəlliyi ilə başqa ulduzlardan fərqlənir. Onun haqqında bir çox əfsanələr vardır.
Nizami bu beytdə demək istəyir ki, Şirin öz gözəlliyi ilə Süheylə bənzəyən bədənini paltardan çıxaranda, Şera Süheyldən parlaq olmasına baxmayaraq, fəryad qopardı. Şera ulduzu çox parlaq olduğuna görə tüklü bir kürəyə oxşayır. Ona görə də o Şirinin Süheyl kimi parlaq və hamar bədənini görəndə paxıllıqdan fəryad qoparır. (Ə.Əhmədov).

72. O, Naxşəb ayı tək parlaq və rəna.
Naxşəb Buxara yaxınlığında bir yerin adı olmuşdur. Müqənnə ləqəbi ilə tanınan həkim ibn Əta civə və başqa filizlərdən bir ay düzəldib Naxşəb qalasının başına bərkidibmiş. Bu ay çox uzaqlara qədər işıq saçarmış. Şirinin ağlıq və parlaqlığının da Naxşəb ayı kimi hər yana işıq saçdığı bildirilir.

73. Qanadlandı qara qartal haman dəm,
Öküz nal səsləri duydu, Balıq həm.
Qara qartal dedikdə Şəbdiz nəzərdə tutulur. Şair demək istəyir ki, Şəbdiz elə bərk hərəkət etdi ki, onun nalının səsini Yeri üstündə saxlayan Balıq və Öküz də duydu.

74. Cigərdən çəkdi od-atəşli ahlar
Yana ta mən kimi mərdümgiyahlar.
Mərdümgiyah – adamotu. Müasir dildə "jenşen" adlanır. Şair demək istəyir ki, Xosrov ürəkdən ah çəkdi və bildirdi ki, kaş mənim kimi mərdümgiyahlar od tutub yansınlar.

75. Adım əvvəl gərək olsun Süleyman,
Olar sonra pəri ram etmək asan.
Çeşmədə Şirinin çimdiyini və sonra birdən "yoxa çıxdığını" görən Xosrov fikirləşir ki, o yəqin pəri idi. Mən pərini ələ gətirə bilmərəm. Bunun üçün mən də gərək Süleyman peyğəmbər olam. Rəvayətə görə, Süleyman peyğəmbər pəriləri və divləri də özünə tabe edibmiş.

76. Dedilər: - Cadugərdir, nadir insan,

Gəlibdir indi Babil dağlarından.
Əfsanəyə görə, Babil cadugərlər vətəni olmuşdur. Harut kimi bir mələk orada insanlara sehrkarlıq öyrətmişdir.

77. Qulamlar Yağmadan gəlmişdi, munis.
Yağma Xütən, Xəllux, Taraz şəhərləri kimi, Türküstanda gözəlləri ilə məşhur bir şəhər imiş.

78. Gethaget düşdü Ağ bağ səmtə doğru.
Ağ bağ Bərdə yaxınlığında bir yer imiş. Kiçik meşəlik, kiçik bağ mənasında imiş. Qara bağ isə böyük meşəlik, böyük bağ mənasındadır.

79. Çıxarmaqdan Muqənnə tək Ay axşam.
Müqənnə ərəbcə üzü örtülü deməkdir. Həkim ibn Əta adlı bir şəxsin ləqəbidir. O, xəlifə əl-Mehdi əleyhinə üsyan qaldırmış, 785-ci ildə məğlub olmuşdur. Nəxşəb qalasında quyudan ay çıxarıb, uzaq məsafələrə qədər işıq salarmış. Burada Şapurun şəkil göstərməsinə işarə olunur.

80. Asılmış hər telindən ayrı İsa.
Yəni bənd olanları çox idi. Saçının hər telində bir İsa kimi ayrı bir insan asılmışdı.

81. Dedi Xosrov yemək vaxtı gələn dəm:
"Buyursun mobəd əvvəl bacübərsəm".
Bac pəhləvi dilində söz deməkdir. Bərsəm isə nar ağacı çöplərindən ibarətdir ki, yemək vaxtı süfrə başına qoyarmışlar. Zərdüştilər yemək üçün süfrə açanda dua oxuyurdular. Buna bacübərsəm mərasimi deyirlərmiş.

82. Ona Gülgün kimi köhlən verim mən,
Olub Şəbdizlə bir döldən o köhlən.
Poemada göstərilir ki, Şəbdiz və Gülgün dəniz atının Ən həraq (Kəpəz) dağı ətəyində yerləşən bir məbəd içindəki qara daşa sürtünməsindən əmələ gəlmişdir. Şəbdiz və Gülgün əslində "Koroğlu" dastanındakı Qırat və Durat, "Kitabi-Dədə Qorqud"-dakı Arıq at və Turuq atı xatırladır.

83. Dözüm yox bildi bu dövranda bərkə,
Bəqəm nil ilə saxlar, balla sirkə.
Bəqəm ağac adıdır. Onun nil ilə qarışması nilin keyfiyyətini aşağı salır. Yəni Xosrov anlayır ki, dövran təmiz bir şey vermir. Onun nili bəqəmlə, balı sirkə ilə qarışıq olur. Başqa sözlə, acılıq göstərmədən şirinlik vermir.

84. O ki, hər məzlum üçün dada yetdi,
O Kəsra ədli yaddan çıxdı, getdi.
Yəni şah məzlumlara qarşı o qədər ədalətli işlər gördü ki, Kəsra Ənuşirəvanın ədaləti yaddan çıxdı. Yəni Xosrov Nuşirəvandan daha çox ədalət göstərdi.

85. Şapurun Şirini yenidən Ərmənə gətirməsi
"Xosrov və Şirin" əsərində Ərmən Bərdəyə tabe olan bir Azərbaycan torpağı kimi təqdim olunur. Özünü Əfrasiyab, başqa sözlə türk adlandıran Şirin ilin bir fəslini ona məxsus olan Muğanda, bir fəslini Abxazda, bir fəslini Ərməndə, bir fəslini isə Bərdədə keçirir. Ərmən sözü özü də alban sözünün başqa bir variantından başqa bir şey deyildir.

86. Dedi üç-dörd qarışqa burda punhan
Ki, bu, Bilqeys olub, digər Süleyman.
Sevgi və mehribanlıqlarına görə Şirinlə Xosrov Bilqeyslə Süleymana bənzədilir. Bilqeys Süleymanın arvadıdır.

87. Yetirdi Xosrovu bir qəsrə, əla!
O bağdan bir budaq idi o Tuba.
Tuba cənnətdə olan bir ağacdır. Yəni Məhinbanu Xosrovu elə bir qəsrə gətirdi ki, cənnətdəki Tuba ağacı onun ağacının ancaq bir budağı olardı.

88. O, Aydırsa əgər, biz Afitabıq!
O, Keyxosrovsa, biz Əfrasiyabıq!
Buradakı istiarə və qarşılaşdırmalarla Nizami Məhinbanu və Şirinin türk olduğunu göstərməklə, özünün də bir türk olduğunu bildirmiş olur. Şair Məhinbanunun dili ilə bəyan edir ki, əgər İranlı şahzadə Xosrov bir aydırsa, biz günəşik, əgər o, Keyxosrovdursa, biz Əfrasiyabıq. Beytdə fikir elə ifadə olunur ki, türk Əfrasiyab İran hökmdarı Keyxosrovdan üstün göstərilir. "Şahnamə"yə görə, Keyxosrov Səyavuşun oğlu Əfrasiyabın nəvəsidir. Ancaq bu nəvə Keyxosrov öz babasını öldürmüşdür. Əfrasiyab "Şahnamə" və Nizaminin əsərlərində türklüyün təcəssümü, Turanın sahibi kimi göstərilir. Ancaq "Şahnamə"də və digər İran müəlliflərinin əsərlərində Alp Ər Tunqa–Əfrasiyabı aşağılamaq meylləri var. Firdovsi bu surət vasitəsi ilə türkə mənfi münasibətini əks etdirirsə, Nizami türk olduğundan ideal qəhrəmanlarını Əfrasiyab adlandırır və bu adı qürurla çəkir.

89. Qoşun çəkdi Günəş, bir kəşfiyyatçı
Durub Bərcisə, Nahidə ox atdı.





Bərcis-Müştəri-Yupiter və Zöhrə-Venera Günəş sisteminə daxil olan iri planetlərdir. Şair demək istəyir ki, Günəş şəfəqləri, şüaları ilə gələrkən onun şüalarının təsiri altında Bərcis və Nahid görünməz oldu.

90. Hərə mərdlikdə bir İsfəndiyardı,
Oxu Rüstəm kimi çox bərk atardı.
İsfəndiyar və Rüstəm İran tarixinin əfsanəvi qəhrəmanlarıdır. İsfəndiyar möhkəm bədənli, ox batmayan, qılınc kəsməyən vücuda malik bir insandır. Rüstəmlə döyüşərkən Rüstəm onu ancaq Simurq quşunun köməyi ilə gözündən vuraraq öldürür. İsfəndiyar sözünün mənası "müqəddəs məxluq" deməkdir. "Şahnamə"də o, Ruintən, yəni tuncbədən adlandırılır. Rüstəm sözünün mənası isə uca, yüksək anlamındadır.

91. Söyüdlük oldu yol çövkanla birdən,
Aya sürtürdü səndəl Yer söyüddən!
Səndəl Hindistanda bitən ətirli bir ağacdır. Başağrısı zamanı ağrı götürən vasitə kimi işlənir. Nizami demək istəyir ki, qızlar çövkan oynayanda əllərindəki çövkanlarla yol söyüdlüyə döndü. Qızların hay-küyündən başı ağrıyan Ayın baş ağrısını Yer səndəl ağacının gedib Aya qədər çatan səndəl tozları ilə aradan götürürdü. (H. Məmmədzadə)

92. O al rəngli tovuz bağdan qaçanda
Bağa gül yığmağa üz tutdu qarğa.
Alrəngli tovuz dedikdə Günəş, qarğa dedikdə gecə, gül dedikdə ulduzlar nəzərdə tutulur.

93. Nəsimiylə müfərrəh dost, həmdəm,
Dəvaalmişk qaçar duysa qoxu həm.
Müfərrəh fərəhləndirci dərman, dəvaəlmişk mişkdən hazırlanan dərman deməkdir. Yəni onun nəsimi ilə, ətri ilə fərəh dərmanı dost idi, hər ikisi sevinc, fərəh gətirirdi. Mişk dərmanı onun ətrini alanda göyə uçurdu, qaçırdı.

94. Dolub İsa yeli ilə damağı,
Nə o yel ki, qaraldar hər çırağı.
Əfsanəyə görə İsa peyğəmbərin nəfəsi, ağzından çıxan yel ölünü dirildər, həyat bəxş edərmiş.

95. Baharın ətri tutmuşdu cahanı,
Qəmari ud tutub ətrə havanı.
Qəmari ud udun növlərindən biridir. Əldə edildiyi yerə görə belə adlanır.

96. Durub Şapur önündə Xosrovun tək,
Keşikdə "Yel gətirmiş xəznə"yə bərk.
"Gənce-badavərd" - "Yel gətirmiş xəzinə"Xosrova məxsus səkkiz xəzinədən biridir. "Yel gətirən xəzinə" həm də musiqi havasının adıdır. Xosrov hakimiyyətdə güclənəndən sonra Ruma qarşı hücuma hazırlaşır. Rum qeysəri xəzinəsini bir gəmiyə yükləndib aradan çıxarır ki, düşmən əlinə keçməsin. Ancaq bir tufan qalxır və külək həmin xəzinə yüklənmiş gəmini Xosrovun qoşunu olan yerə gətirir. Xosrov vuruşsuz xəzinə sahibi olur. "Yel gətirən xəzinə" budur.

97. Qovuşdu, tapdı Zöhrə Müştərini.
Zöhrə (Venera) dedikdə Şirin, Müştəri (Yupiter) dedikdə Xosrov nəzərdə tutulur.

98. Quyudan qalx, get Əyyuqda çadır qur.
Əyyuq səmanın şimal yarımkürəsində yüksək dairədə yerləşən parlaq və gözəl bir ulduzdur. Nizami bəzən onun öz qolunun gücü ilə başqa tacİlardan ucalığı aldığını söyləyir. Burada Şirinin dili ilə Xosrovun gedib taxt-tacını ələ alması çağırışı, bu yolla ucalığa çatması bildirilir. Əyyuqda çadır qurmaq ucalığa, şahlığa çatmaq mənasında işlənir.

99. Sən oynat fili, şahrux vur, apardın.
Burada Nizami şahmat oyunu qaydalarından istifadə etmişdir. Filləri işə salmaqla düşməni məğlub etmək olar fikri ifadə olunur.

100. Zənəb Mərrixi tutmuşdu oraqda,
Zühəl rəs ilə yatmış bir yataqda.
Mərrix Mars planeti, Zühəl isə Saturndur. Bu beyti izah edərək Əhmədağa Əhmədov yazır: "Məlumdur ki, səyyarələrin hərəkət müstəviləri ekliptika müstəvisi üzərinə düşmürlər, ondan bir qədər dönmüş vəziyyətdədirlər. Odur ki, səyyarələrin orbitləri ekliptika müstəvisi ilə iki nöqtədə kəsişirlər. Qədim astronomlar bu nöqtələrin birinə "zənəb", o birinə "rəs" deyirlər. "Zənəb" ərəbcə "quyruq", "rəs" "baş" deməkdir. Nizami bu beytdə şirin bir ifadə ilə deyir ki, haman xoşbəxt gündə "Zənəb Mərrixi öz orağına salmışdı". Zühəl isə rəs ilə bir yataqda yatmışdı. Yəni bədbəxtlik rəmzi olan iri nəhsin biri – Mərrix, Zənəbin əsiri idi, o birini, Zühəli rəs yuxuya vermişdi. Bu isə xoşbəxtlik əlaməti sayılır."

101. Həmişə bu ala at get-gəl eylər,

Düşər bundan, minər ondan əl eylər.
Ala at dedikdə gecə-gündüz nəzərdə tutulur.

102. Xəbər bildi, olub şah Müştəri bəxt.
Nücum elminə görə, Müştəri oğlandır. Bu planet uğurlu sayılır. Yəni Xosrov Müştəri bəxt olmuşsa, işləri uğurlu olmuşdur.

103. Narıncı əldə Yusif açdı dava,
Turuncu sanki sındırdı Züleyxa.
Burada səma Yusif, onun əlində tutduğu narınc isə Günəşdir. Ay isə burada turunca bənzədilir.

104. Sarayı Sidrəyə qalxıb ucalmış.
Sidrə bir növ kainatın son nöqtəsi sayılır. Nizami Peyğəmbərin meracından danışarkən göstərir ki, Buraq Peyğəmbəri kainatın dərinliklərinə aparır. Cəbrayıl yorulub yolda qalır. Bir müddət onu Mikayıl müşayət edir. O da Peyğəmbəri Mikayıla təhvil verir. Mikayıl onu Buraqdan düşürüb Rəfrəfə mindirir. Bu at onu Tuba ağacından keçirib Sidrəyə çatdırır. Buradan o yana mələklər və Rəfrəf gedə bilmir, getmir. Peyğəmbər bundan sonra tək-tənha yolunu davam etdirir. Ancaq bu gediş vaxtı ayaq zəhməti çəkmir. Sidrə sözü şanagülü deməkdir. Dənizdə bitən bir güldür.

105. Çubuqdan gör nə tabut tapdı Bəhram.
Yəni Bəhram öldü. Bəhram Çubin adındakı "çubin" sözü çubuq deməkdir. Nizami ona görə də taxta tabut əvəzinə çubuq tabut ifadəsini işlədir. Çubuq Bəhram çubuq tabuta düşdü deyərək fikrə bədii gözəllik verir.

106. Haçan ki, "Gənci-qav" meydan açardı,
Öküzlə Yer durub xəznə saçardı.
"Gənci-qav" Barbədin ifa etdiyi musiqi havasının adıdır. "Öküz (yaxud inək) xəzinəsi" deməkdir. Nizami bu musiqi havasındakı öküz sözündən çıxış edərək Yerin öküz üzərində dayanması fikrindən bəhrələnir və bu hava çalınanda Yerin və Öküzün xəzinə saçmasından söhbət açır. Yəni bu havanı Barbəd o qədər gözəl ifa edir ki, nəinki ayrı-ayrı insanlar, hətta bütün Yer və Öküz də bu çalğıya görə şabaş olaraq xəzinə saçır. Barbədin ifa etdiyi otuz musiqi havasının hər birinin adı farsça verilir və onların adından çıxış edərək Nizami münasib bədii lövhələr yaradır.

107. O kürdəm ki, tikəm axur köçərkən.
Nizami burada kürdlərin əsasən maldarlıqla məşğul olduğunu nəzərə çatdırır. Həm də onların bəzilərinin lazım olan işi vaxtında deyil, artıq lazım olmayanda gördüklərini xatırladır. Köçən vaxtı axur tikmək lazımsız bir işlə məşğul olmaqdır.

108. O inci mücrünü ta qəndə vurdu,
O innabla nabat qalxıb buyurdu.
İnci mücrüsü dedikdə ağız, innab dedikdə dodaq, nabat dedikdə dil nəzərdə tutulur.

109. Desə qoysam üzü üstə üzü mən,
De ki, ruxla haçan olmuş o şah tən?!
Burada ikinci misradakı rüx sözü həm üz, həm də şahmat oyunundakı top mənasında işlənir. Şirin şahmat oyununda topla şahın bərabər olmadığını deməklə incə şəkildə Xosrovun təklifini rədd edir.

110. Desə: - Nola verə bir top zənəxdan,
De: - Zülfümdən yeyərsən onda çovkan.
Bu beytdəki obrazlar çovkan oyunundan götürülmüşdür. Zənəxdandan, yəni buxaqdan bir top versə deyərkən buxaq çovkan oyunundakı topa, zülf isə çovkana bənzədilir.

111. Baş əydi hindli görcək bir pərini,
Ütarid tərif etdi Müştərini.
Ütarid – Merkuri, Müştəri – Yupiterdir. Yəni Şapur pəri görmüş hindli kimi Şirinin qarşısında baş əydi və Ütarid Müştərini təriflədi.

112. Gələndə həndəsə ibrət saçandır,
"Məcəsti" anlar, "İqlidis" açandır.
"Məcəsti"-"Almagest" Ptolomeyin (Bətlimusun) astronomiyaya aid əsəridir. İqlidis sözü Evklid sözünün ərəblərdə deyiliş formasıdır. Yunanca Evklidis olmuşdur ki, ərəblər onun əsərini tərcümə edərkən "İqlidis" şəklinə salmışlar. Nizami Evklid və Ptolomeyin adını çox vaxt bir yerdə xatırlayır və onlara böyük hörmətlə yanaşır.

113. Günün güzgüsünü açdıqda gündüz,
O yüz gözlü gecə tez yumdu yüz göz.
Yəni gündüz Günəş göründükdə ulduzlu gecə gözlərini yumdu, ulduzlar görünməz oldu.





114. Arardı öz Süheylin gözdə candan.
Yəni Şirinin gözləri öz Süheylini axtarırdı. Süheyl ən parlaq və gözəl ulduzlardan biridir. Ə.Əhmədov yazır ki, bu ulduzu şimal dairəsindən 37 dərəcə cənubda olan ölkələrdə görmək olar. Bu ulduzla bağlı çoxlu əfsanələr də mövcuddur. Deyilənə görə, Yəməndə müxtəlif dəriləri bu ulduzun şuaları altında qoyub emal edərkən o daha gözəl olur.

115. Bax o Pərviz, bax o Şirin, o Fərhad.
Hamı beş hərfik ancaq, ey pərizad!
Ərəb əlifbası ilə Pərviz, Şirin və Fərhad adlarının hər üçü beş hərflə yazılır.

116. Onun Gün tək üzü əksiylə asan
Olurdu lələdən daşlar Bədəxşan.
Yəni Şirinin üzünün şüasından dağlardakı daşlar lələ dönür və o yerlər Bədəxşana çevrilirdi. Bədəxşan indi bir hissəsi Tacikistan, bir hissəsi Əfqanıstanda olan və ləli ilə məşhur bir ərazidir. İndinin özündə də oradan ləl çıxardılır.

117. Dəmavənd boyda könlündə kədər, qəm.
Dəmavənd Tehrandan şimalda dəniz səviyyəsindən 5500 metr yüksəklikdə həmişə başı qarla örtülü bir dağdır.

118. Şikəst oldu, yıxıldı xəznə altda.
Xəzinə dedikdə Şirin nəzərdə tutulur.

119. Sütunsuz eyləyər tez Bisütunu.
Bisütun sözü indiki formada sütunsuz, sütunu olmayan deməkdir. Əslində isə qədim adı Baqestan (Allahlar məkanı) olmuşdur. İranın şimal qərbində Həmədan-Kirmanşah yolunun üstündə bir qayadır. E.ə. V əsrdə İran şahı I Dara bu qaya üzərində mixi yazılar yazdırmışdır. Orada həmçinin təsvirlər vardır. Əfsanələrdə bunlar Fərhadın işi kimi təqdim olunur. Əhəməni sülaləsinin sarayının izləri də bu ərazidə qalmaqdadır və Qəsri-Şirin adı ilə tanınır.

120. Üzü qan-qan deyir qəssablar tək,
Bığı Nəffat tək odlar saçır bərk.
Nəffat sözü neft sözündəndir. Qədim dövrlərdə müharibə zamanı içində yanan maddə, o cümlədən neft olan silahlardan istifadə edirmişlər. Bu silaha və onu işlədənlərə nəffat deyirlər.

121. Xilas olmaz bu teştdən bir Səyavuş.
İranın əfsanəvi qəhrəmanlarındandır. O, Turan hökmdarı Əfrasiyabın – Alp Ər Tunqanın qızı ilə evlənmiş, bu izdivacdan olan Keyxosrov Kəyan sülaləsinin ən adlı-sanlı hökmdarı olmuşdur. Burada Səyavuş günahsız olaraq məhv edilən bir insan surəti kimi xatırlanır. Teşt dedikdə fələk nəzərdə tutulur. Nizamiyə görə, bu teştə bənzər fələyin altında çox günahsız Səyavuşlar ölümdən xilas olmaqdan acizdirlər.

122. Bu yeldən baş verən məlum xüsufdan
Talaq əmri verər torpağa dövran.
Xusuf Ay tutulması deməkdir. XII əsrin tanınmış şairi Ənvəri Əbiverdi həm də münəccim olmuşdur. O, 30 il qabaqcadan xəbər verir ki, 1186-cı ilin sentyabr ayının 16-da tərəzi bürcündə planetlər yaxınlaşacaqlar. Qəran adlanan bu hadisə zamanı küləkli bir tufan olacaq, böyük fəlakətlər törənəcək. Ancaq Ənvərinin dediyi gün planetlərin qəranı yəni yaxınlaşması baş versə də, heç azacıq külək belə əsməmişdir. Həmin vaxt Ənvəri qeyb olmuşdur. Nizami bu hadisədən istifadə edərək "kəsilmiş bir barmağa torpaq tökməyə belə imkan verməyən" zəmanəyə qarşı şikayətlərini qələmə alır.

123. Bu doqquz kal turuncdan hər nə görsən,
Türünc görməz kükürdün tüstüsündən.
Doqquz turunc dedikdə doqquz qat fələk nəzərdə tutulur. Kükürd tüstüsü narıncı qurudur. Nizami isə belə hesab edir ki, bu doqquz qat göylər insanlara kükürdün narınca etdiyindən daha çox əzab verir. İnsanlar narıncın kükürddən gördüyündən daha çox zülm görür.

124. AYusif, bu turuncdan burda əl çək!
Səni doğrar Züleyxa bir narınc tək.
Burada turunc yenə də doqquz qat göylərə və ümumiyyətlə dünyaya işarədir. "Yusif və Züleyxa" əfsanəsində belə bir məqam var. Rəfiqələri Züleyxanı məzəmmət edirlər ki, bir qula aşiq olub özünü hörmətdən salır. Züleyxa bir gün həmin kubar xanımları qonaq çağırır. Onların qarşısına boşqablarda narınc və bıçaq qoydurur. Buyurur ki, həmin narınclardan kəsib yesinlər. Onlar bu işlə məşğul olarkən Yusif içəri daxil olur. Qadınlar Yusifi görərkən onun gözəlliyinə elə heyran olurlar ki, narınc əvəzinə əllərini kəsirlər. Yəni bu dünyaya aludəlik də insanın narınc kimi doğranmasına bais olar və olur.

125. Özül qoydu sözə qabil bir ustad,

Öləndə Şirinin eşqiylə Fərhad,...
Buradan belə anlaşılır ki, Nizami Fərhad əfsanəsini işləyərkən, onu "Xosrov və Şirin" mövzusu ilə bağlayarkan indi bizə məlum olmayan qaynaqlardan bəhrələnmişdir. Bu qaynaq yazılı və ya şifahi ola bilərdi.

126. Əyər baş Nəsri-tair asimandan.
Nəsri-tair Qartal bürcünün alfa ulduzudur. Ona müasir ədəbiyyatda Əl-tair və ya Ətair deyirlər. Bu ulduz göyün şimal yarımkürəsində ilin bütün vaxtlarında görünür. Yəni gülüstandan bir quş uçub getdisə, Fərhad öldüsə, göydən sənə Nəsri-tair baş əyər, Xosrov sənin qarşında dayanar.

127. Düzü gəzsən, zəhərdən salma söhbət.
Onu öldürdü Şirində o himmət.
Firdovsi "Şahnamə"sində Məryəmin Şirin tərəfindən zəhərlənib öldürülməsindən söhbət gedir. Nizami bu fikri rədd edir.

128. Zahı Məryəm otuyla qurtaran tək,
Şahı qurtardı Məryəmdən bu iş bərk.
Məryəm otu-çəngi-Məryəm tibdə işlənən bir otdur. Zahı qadınlarda doğuşu asanlaşdırmaq üçün istifadə olunur. Orijinalda çəngi-Məryəm sözü iki mənada işlənir. Biri Məryəm otu deməkdirsə, o biri Məryəmin əli mənasındadır. Yəni zahı bir qadın çəngi-Məryəm otu ilə çətinlikdən qurtardığı kimi, Xosrov da Məryəmin ölməsi ilə onun əlindən qurtardı.

129. Nə gördü Qarun ondan , bu, həqiqət.
Qarun e.ə. yaşamış varlı və xəsis bir adam olmuşdur. Musa onu lənətləmiş və Qarun bütün var-dövləti ilə yerə batmışdır.

130. Dedi bir qeyri: - Ərmən yurdu dilbər,
Var, orda çox pəri surət gözəllər.
Nizami Ərmən dedikdə, qədim alban torpağının tabeliyində olan əhalisi isə türk olan bir ərazidən danışır.

131. Düşündü Şirin üstə çapsın atla,
Ki, etsin türkü türklüklə o, yağma.
Burada türk sözü iki mənada işlənir. Birinci türk sözü gözəl, ikinci türk (daha doğrusu türklük) sözü igidlik, qəhrəmanlıq mənasındadır. Ancaq eyni zamanda birinci türk sözü həm də Şirinin türklüyünə işarədir. Özü türk olmayan Xosrov türklük etməklə türk gözəli Şirini qarət etmək üçün at çapır.

132. O, fitnə busələrlə sanki Visə,
Şirin dillər töküdrü sanki dayə.
Burada Visə və dayə sözləri ilə Fəxri Gürganinin "Vis və Ramin" əsərinə işarə olunur. İsfahanlı Şəkərin şirin söhbətləri, aldadıcı busələri onu Vis və dayə ilə birgə xatırlamağa imkan verir. Nizaminin "Vis və Ramin" əsərinə mənfi münasibəti bir daha burada özünü göstərir.

133. Ürək versən, gəzər kürd tək o sinə,
Sən ev versən, hanı söylər xəzinə.
Bu beytdə kürdlər oğru və qarətçi kimi verilir. Bu cür məqamlar Nizaminin anasının kürd olması fikrini qəti şəkildə rədd edir.

134. Olubdur bir ovuc arpa o Ülkər,
Tutub bir hindli qarı məşq eylər.
Hindli qarı dedikdə qaranlıq gecə nəzərdə tutulur. Ülkər topasına daxil olan ulduzlar isə bir ovuc arpaya bənzədilir. Onların sayrışması, titrək görünüşü isə ona bənzəyir ki, sanki qaranlıq gecə ovcunda tutub onlarla oynayır.

135. Qəmari ud ətir saçdı havadan,
Yağırdı hər yana kafur səmadan.
Qəmari ud Hindistanda Qəmar adlı bir yerdə bitən uddur. Bu ağac yandırıldıqda ətrafa xoş ətir yayılır. Kafur isə ağ rəngli ətir maddəsidir. Ancaq burada qarın yağmasına işarə edilir.

136. Mən ollam Visə tək dünyada bədnam.
Nizami "Vis və Ramin" əsərindəki əxlaqı rədd edir. İnsanı bədnam edən sevgini pisləyir.

137. Nə türkəm, de, bu evdə bir qulam mən,
Nizami türkü ağa, böyük kimi təqdim edir.

138. Alıb gövhərlə süslənmiş bir örpək,
Başı örtmüş o dilbər çinlilər tək.
Nizami əsərində Çin türklərin vətəni, çinli isə türk kimi təqdim olunur. Şirinin də çinlilər kimi gövhərlə bəzənmiş örpək örtməsini deməklə Nizami onun da bir daha bir türk olduğunu bildirmiş olur.





139. Ütariddir iki bürclü, olar bu,
Günəşsən sən, sənə bir bürc doğru!
Yəni Günəş olan Xosrov bir sevgi arxasınca düşsün, iki bürclü olan Ütarid kimi iki sevgi dalınca getməsin.

140. Ola sərvin o innab ilə cüt var!
O innabın ola qəndinlə dost, yar.
Burada sərv-boy, innab-dodaq, qənd dil-ağız mənasında işlənmişir.

141. O Qarun xəznəsi saçdın sən, amma
Qoyursan yerdə Qarun misli sonra.
Qarun varlı və xəsis bir adam olmuşdur. Musa peyğəmbərin duası ilə xəzinəsi ilə birlikdə torpağa batmışdır.

142. O səqlab banusuydum, qönçə güldüm,
Səqlab sözü slavyanlara və onlara yaxın ərazilərdə yaşayan türklərə verilən addır.

143. Adın Çindən Ruma dillərdə əzbər.
Qədər xan bəndə, bir quldur o Qeysər.
Çin və Rum, dedikdə Turan, Türküstan və Bizans nəzərdə tutulur. Sonrakı misradakı Qədər xan və qeysər sözləri də bunu təsdiq edir. Qədər xan əfsanəvi türk hökmdarının adı, Qeysər isə Bizans hökmdarının rütbə adını bildirən sözdür.

144. De, Fəğfura qapı bağlarmı Fərxar?
Uçurdun Muliyanda körpü, ey yar!
Fərxar Tibetdə şəhər olmuşdur. Fəğfur sözü Turan hökmdarlarının padşahlıq rütbəsini bildirən sözdür. Muliyan Buxara yaxınlığında çay adı olmuşdur. Beytin mənası budur ki, gözəllər şəhəri olan Fərxar hökmdara qapı bağlamaz, Buxaraya gedən yolda olan Muliyan çayı üzərindəki körpünü uçurmaz. Sən belə etməklə bizim bir-birimizə qovuşmaq yolumuzu bağladın.

145. Yalan sözdür, demə mütləq yaranı,
Alanı vurdun istərkən qaranı.
Yəni Şirinlə evlənmək istədiyin halda gedib Şəkərlə evləndin.

146. Şüardan bir şair də yoxdur əsla,
Ərəbcə bilməsən, yəni yox arpa.
Burada şüar sözü ilə şair sözü qarşılaşdırılır. Yəni sözünlə əməlin arasında bir arpa qədər də yaxınlıq yoxdur.

147. O Yusiftək yuxu yozsanda sən bərk,
Hamansan sən, haman İsa və eşşək.
İsanın eşşəyi haqqında belə bir məsəl demişlər ki, İsanın eşşəyi Məkkəyə getsə də, haman eşşəkdir. Yəni Xosrov dil töksə də, dəyişməmişdir.

148. Havalarda o gözlər ölçü, ahəng,
Görüb Zöhrə durub oynar həmahəng.
Zöhrə (Venera) planeti gözəllik və sevgi ilahəsi olmaqla bərabər göylərin mütrübü-çalğıçısı hesab olunur. Yəni Nikisa o qədər gözəl havalar çalırdı ki, həm də çalğı və musiqi ilahəsi kimi tanınan Zöhrə durub bu havaya oynayırdı.

149. Galib Cəm mülkünə çatdı o həmdəm,
Həməl bürcündə yer tutdu Günəş həm.
Buradakı birinci misrada Xosrovun taxta əyləşməsindən söhbət gedir. Günəşin Həməl, yəni Quzu bürcündə yer tutması isə ona işarədir ki, bu hadisə yazın əvvəlində, yəni novruz bayramı günündə baş vermişdir.

150. Bu doqquz pərdədə səy et, durust çal.
Doqquz pərdə dedikdə doqquz qat fələk nəzərdə tutulur. Nizami bu doqquz fələki insanın başı üzərində qurulmuş doqquz pərdə kimi təqdim edir.

151. Fələklər zicini cədvəlbəcədvəl
Fikir üstürlabıyla eylədim həll.
Zic-səma cisimlərinin hərəkətini və onların zamandan asılı olan vəziyyətlərini təyin edən astronomik cədvəllərdir ki, müasir ədəbiyyatda efemerid adlanır. Üstürlab isə bucaq ölçən cihazdır: onun vasitəsilə səma cisimlərinin vəziyyətini (koordinatlarını) tapırlar. Müasir ədəbiyyatda ona astrolyabiya deyirlər. Nizami üstürlabın quruluşunu, hissələrini, işləmə prinsipini yaxşı bilmişdir (Ə.Əhmədov).

152. Əgər taxtında əyləşmişsə bədxah,
Müqənnə Ay düzəldər dəxi, ey şah.
Quyu Nəxşəbdə suyla dolsa birdən,
Cahan hardan tapar nuru dəmirdən?

Müqənnə adı ilə məşhur olan həkim ibn Əta Nəxsəbdə quyudan suni bir Ay çıxarıb gecə uzaq məsafələrə qədər işıq salırmış. Şirin Xosrova təsəlli verir ki, birdən quyuya su dolsa, Nəxşəb Ayı işıq salmaz. Yəni bu işlər uzun müddət belə davam etməz.

153. Nə mülkdür bu, o Zöhhak tək, bu xunxar!
Öz arxandan ilan dartıb çıxardar.
Zöhhak əfsanəvi İran şahlarından biridir. Onun çiyinlərindən iki ilan çıxmışdır ki, onlar insan beyni yeyirdilər. Burada Xosrovun oğlu Şiruyə Zöhhakın çiynindən çıxan ilanlara bənzədilir.

154. Nəffat. Neft sözündəndir. Qədim zamanlarda müharibə zamanı düşmən üzərinə od yağdıran alətlərə və onları işlədənlərə nəffat deyirdilər.

155. Doqquz öküz dedikdə doqquz qat fələk nəzərdə tutulur. Öküz yüklə bu Yer tək dedikdə Yerin öküz üzərində durması fikrinə işarə olunur.

156. Bəhmən "Şahnamə" qəhrəmanlarındandır. Kəştasbın nəvəsi İsfəndiyarın oğludur. Şahlıq taxtına əyləşəndən sonra atasını öldürən Rüstəmdən intiqam alır. Tarixçilərin fikrinə görə, o, ədalətli, doğruçu, namuslu olduğu üçün ona Bəhmən demişlər. Əsl adı isə Ərdəşirdir.

157. Cavanmərdlər çəkər, qorxmaz əziyyət,
Verib canı taparlar can, nəhayət.
Burada söhbət əxilərdən gedir.

158. Eşit, ey yeddi yaşlım, ey cüt gözüm sən,
Uca göylər yerindir, gör ki, kimsən!
Orijinalın dəqiq sətri tərcüməsi belədir: "Ey yeddi yaşlım, göz bəbəyim, yerini Qabi-Qövseyndə gör." Qabi-Qövseyn iki yay arası məsafə deməkdir. Qədim zamanlarda ərəblərdə belə bir adət varmış. İki ərəb rastlaşarkən dostluq əlaməti olaraq yaylarını ağız-ağıza yaxın tutarmışlar. Bununla iki yay arasında olan məsafə qədər yaxın olduqlarını bildirərmişlər. Merac zamanı Məhəmməd peyğəmbərlə Allah arasında da ancaq bu qədər məsafə qalıbmış. Nizami burada Qabi-Qövseyn sözləri ilə həmin hadisəyə işarə edir. Nizami bununla oğlu Məhəmmədin yerinin də uca göylər olduğunu deyir.

159. Edibdir yeddi ulduzdan o, aşkar,
Çox az müddətdə, olduqca qəranlar.
Yəni yeddi planetin hərəkətindən, onların yaxınlaşmasından, yəni qəranından öyrənmişdir ki, ərəb mülkündə qalib bir insan meydana gələcəkdir.

160. Nəcaşi – Həbəs hökmdarı. Yəni gecəyə aid işlər qurtarandan sonra.

161. Qədimdir, əvvəli bir mətlə bilməz,
Böyükdür, axırı bir məqtə bilməz.
Yəni Allaha başlanğıc və son yoxdur.

162. O türk, əhsən ! O, yeddi xalqa hakim!
Balıqdan ta Aya möhtacı daim.
O türk deyərək Nizami peyğəmbəri türk adlandırır. Əlbəttə, burada türk sözü etnik mənada deyil, məcazi mənada işlənir. Məhəmməd peyğəmbərin böyüklüyü, ucalığı türklük kimi dəyərləndirilir. Bu isə özlüyündə Nizaminin türklüyünün, sonsuz türk sevgisinin bir təsdiqi kimi qiymətləndirilməlidir.

163. Taparkən Ummi-Haniylə o aram.
"Ümmi-Hani – Peyğəmbərin əmisi Əbu Talibin qızı, Əlinin (ə) bacısıdır. Ümmi-Hani onun künyəsidir. Hanının anası deməkdir. Onun əsil adı Faxtə (çöl göyərçini) idi. O, bir dul qadın idi, yetim uşaqları var idi. Əbu Talib peyğəmbəri (s) uşaq vaxtı öz himayəsinə aldığı kimi, indi o da öz əmisi qızı Ümmi-Hanini öz himayəsinə götürmüş və özünə nikah etmişdir. Merac gecəsi Peyğəmbər (s) onun evində imiş (Ə.Əhmədov). maraqlıdır ki, Nizami onu həm də bu yeddi çadırın dargöz vaşağı" adlandıraraq ona türklərə məxsus çəkikgözlülük sifəti verir.

164. Tökür tük Nəsri-tair bəxşiş üçün,
O, Nəsri-vaqe tək daldaydı üzgün.
"Nəsri-tair Qartal bürcünün alfa ulduzudur. Müasir ədəbiyyatda ona Əl-Tair və ya Ətair deyirlər. Səmanın şimal yarımkürəsində olan bu ulduzu ilin hər fəslində müşahidə etmək olar.Nəsre-vaqe isə Şelyaq (və ya Sira) bürcünün alfa ulduzudur. Müasir kitablarda onu Veqa yazırlar.
Göy qubbəsində bu ulduzların mövqeyini nəzərə alaraq, Nizami deyir ki, Nəsri-tair peyğəmbərdən (s) Nəsri-Vaqe kimi geri qalırdı. Nəsri-Vaqe, doğrudan da Nəsri-tairdən geridədir, yəni ondan qərbə tərəf yerləşir". (Ə.Əhmədov).

165. Onu güllərlə cəlb eylər deyib bağ,
Möhür vurmuş gözə burda o "mazağ".





Əhmədağa Əhmədov "Nizami elmişünas" kitabında bu beyti izah edərək yazır: "Quranın 53-cü (Nəcm) surəsinin 17-ci ayəsində deyilir ki, Peyğəmbər merac gecəsi asimanları seyr etdi, cənnətin bağlarının və rəngarəng güllərinin yanından keçdi, lakin Allah ilə mulaqat etmək şövqü onu o qədər məşğul etmişdi ki, onun gözləri bu gözəllikləri görməyə "meyl etmədi", "Mazağ" meyl etmədi deməkdir.

166. Qanad sərdi Sirafil, o , oturdu,
Onu Rəfrəf saray üçün götürdü.
Sirafil-İsrafil Peyğəmbəri merac zamanı muşaiyət edən üçüncü mələkdir. Rəfrəf isə bu yolda Peyğəmbərin Buraqdan sonra mindiyi ikinci atdır.

167. Qulaq çərtməklə eylər başa dərman.
"Səyavuş-qanı" adlı bitki dərmanının ərəbcə adı "dəmülixveyn"dir. Tərcümədə "dəmülixveyn" qardaş qanı şəklində tərcümə olunmuşdur. Yəni zəmanə qulaq çərtməklə dərman edir. Onun ən yaxşı dərmanı da "dəmülixveyn", başqa sözlə Səyavuş qanıdır.

168. Sən elminlə o Calinus da olsan,
Gedərsən Calinustək hər nə qılsan.
Calinus deyərkən antik dövrün məşhur təbabət alimi Klavdi Qalen (129-201) nəzərdə tutulur. Hippokratdan sonra o, antik dövrün ən böyük tibb alimi sayılır. O, meyityarma və heyvanlar üzərində apardığı təcrübələr əsasında anatomiya və fiziologiya elmlərini öyrənmişdir. Nizami onun əsərləri ilə görünür tərcümələr və müsəlman tibb alimlərinin əsərləri vasitəsilə tanış olmuşdur.

169. Nə bilmişsən, belə bir həftxandan
Nə qurtulmuş sümükdən, ya ki qandan.
Həftxan "Şahnamə"də təsvir edilən yeddi tilsimə işarədir. Zal oğlu Rüstəmin bu tilsimlərlə döyüşü və qələbəsi təsvir edilmişdir. Nizami həftxan dedikdə bu dünyanı, zamanın real həyatdakı tilsimlərini nəzərdə tutur.

170. Bəzənmiş bir qarıysa köhnə sözlər,
Qızıl Zal bəs bu Ənqadan nə gözlər.
Köhnə, deyilmiş sözlər dedikdə dönə-dönə işlənmiş mövzular nəzərdə tutulur. Qızıl Zal dedikdə "Şahnamə" qəhrəmanı Rüstəmin atası Zal nəzərdə tutulur. O, anadan olanda saçları ağ rəngdə olur. Yəni albinos olur. O, utandığından uşağı aparıb Qaf dağının başına atır. Uşağı Simurğ quşu, ona Ənqa da deyirlər, bəsləyir. Zala adətən saçına görə Zali-Zər, Qızıl Zal deyirlər. Nizami bunlara işarə edir.

171. Deməzdim təzə nə, köhnə nə əsla,
Dedin Dəqyanus – o olmaz dır arpa.
Dini qaynaqlara görə, Dəqyanus zalım bir şah olmuşdur. Bir qrup adam onun zülmündən qaçıb bir mağarada gizlənir. "Əshabi-Kəhf" adlanan bu mağara indi Naxçıvandadır. Allahın əmri ilə onlar bir neçə yüz il həmin mağarada qalıb yatırlar. Ayılanda ciblərindəki pulları xərcləmək istəyirlər. Camaat bu pulun Dəqyanus dövründən qaldığını deyib gülüşür və onların heç bir qiyməti olmadığını deyirlər. Nizami öz əsərləri ilə köhnə əsərləri müqayisə edib onları Dəqyanus puluna bənzədir.

172. Bu beş yüz yetmiş altı ildə hər hal
Gözəllər görmədi xətdə bu cür xal.
Bu beytdə "Xosrov və Şirin" poemasının 576-cı ildə, miladi ilə 1180-81-ci ildə tamamlandığı bildirilir. Poemanın əvvəlindəki "Bu nəzmin tarixi və başlanğıcı" bəhsində isə əsərin 1177-ci ilin yayında yazılmağa başladığı dəqiq şəkildə qeyd olunmuşdur.

173. Nə səbrim var ki, hindumu görürkən,
Yuyən tutdum ona türklər kimi mən.
Yəni əsərimi oğurlayanları görəndə haray salmadım, üzə vurmadım, hətta türklər qaydası ilə oğrunun yüyənindən tutub, məndən oğurladıqlarını öz halal malı kimi aparmasına yardım etdim. Yəni mən türkəm ki, belə etdim.

## LEYLİ VƏ MƏCNUN

1 Sənin tərifindir "təbarəkallah"...
Təbarəkallah - Nə gözəl! Nə yaxşı! Nə əcəb! Allah mübarək etsin! -deməkdir.
2 Yeddi qız, doqquz taxt qapında sənin
Olmuşdur daima pərdə çəkənin.
Yeddi qız - yeddi planetə, doqquz taxt isə doqquz fələyə (göyə) işarədir. Yəni: yeddi planet və doqquz göy həmişə sənin qapında qul kimi pərdə tutur. Qədim astrologiyada göylərin yeddi qat olması iddia olunurdu. Ərş və kürsi deyilən iki məqamı da buna əlavə edib, doqquz göy, doqquz fələk yazmışdır.
3 Axşamın qapqara, səhərin ala
Atma göyləri yaratdın tovla.
Yəni sən axşamın qara atına və səhərin ala atına fələkləri tövlə yaratdın ki, bir-birini əvəz edən gecə və gündüz dincəlmək üçün atlarını göylərdə bağlasınlar.
4 Yeddi düyün vurdun göylərə, birdən
Yetmişi açıldı Osanlar talelərinin ulduzlara bağlı olduğuna inanır və öz səadətləri üçün planetlərin bürclər arasında hərəkətini izləyirdilər. Buna görə də Nizami: göylərdə yaratdığın yeddi düyün - yeddi planet ilə yetmiş düyün açdın, - deyir.
5 Bir dağ çapmadısa bu "kaf" ilə "nun",
Göy adlı bir böyük Bisütun qurdun.
"Kaf" və "nun"un birləşməsmdən ərəbcə "kon" (ol!) gəlməsi əmələ gelir. Beytin mənası belədir: Sən (Allah) bir dəfə "ol!" deməklə dağ çapmadan fələk kimi bir Bisütun qurdun. Bisütun burada iki məna verir:
1. Göylərin sütunsuz dayanması. 2. Bisütun dağı.
6 Hənut - ətirli bir göyərtidir, meyitlərin üzərinə səpirlər ki, qoxumasın.
7 Mənəm dərgahında bir dilsiz ehranı,
Sənin sorağında lobbeyk vuraram.
Hacılar Kəbə ziyarətinə gedərkən qurban kəsməzdən əvvəl soyunaraq, ehram adlanan ağ bürüncəyə bürünür və qum üzərində qaçıb "Ləbbeyk" (hazıram!) deyə qışqırırlar.
8 Libasım ətrinlə süslənər müdam,
Buyam ya dirəmnə, ya da ud olsam.
Dirəmnə pis qoxulu, ud isə yandırılarkən gözəl ətir verən bir bitkidir. Şair Allaha xatırladır ki, insanın yaxşı və pisliyinə məsul Allah özüdür. Dirəmnə və ya uda qoxu verən də odur.
9 Qabü qövseyn - 1. Yayın ortası ilə uclarından birinin arasındakı məsafə.2. Dini rəvayətə görə, Məhəmməd peyğəmbərin merac zamanı Allaha guya yayın ortası ilə uclarından biri arasındakı məsafə qədər yaxın olması.
10 Altı-yeddi min il keçir o andan
Ki, bu dəbdəboni eşitmiş çahan.
Dini əfsanələrə görə, Məhəmməd bəşərin ilk xilqət günündə, hətta Adəmdən belə qabaq yaranmışdır. Adəm onun nurundan ruhlanmışdır. Beytdə də bu əfsanəyə işarə edilir.
11 Bu beş vaxt namazdır əsli tovbənin,
Beş növbə təblidir qapında sənin.
Adət üzrə padşahların sarayında gündə beş dəfə təbil vurulardı; islam dinində isə hər bir müsəlmanın gündə beş dəfə üzünü Kəbəyə tutub namaz qılması vacibdir. Şair Məhəmmədi padşaha və beş vaxt namazı oyun sarayında vurulan beş növbə təbilə oxşadır.
12 Bu evə yeddi səqf yaratdın yenə,
Tapşırdın onu da dörd xəlifənə.
Dörd xəlifə - Əbu Bəkr, Ömər, Osman və Əliyə işarədir.
13 Siddiq sədaqətə olmuşdur rəhbər,
Faruqi fərqdən uzaq bildilər.
Siddiq - birinci islam xəlifəsi Əbu Bəkrin ləqəbidir.Faruq- ikinci islam xəlifəsi Ömərə işarədir ki, o Haqqı batildən fərqləndirməmişdir.
14 O, Allahdan qorxan həyalı qoca...
Məhəmmədin canişinlərindən olan III xəlifə Osman ibn Əffan nəzərdə tutulur.
15 Yeddi xəzinəni açaraq bir dəm,
Dörd gövhər üstünə basmısan qədəm.
Yeddi xəzinə - yeddi göyə işarədir. Dörd gövhər - dörd ünsür: su, torpaq, od və hava deməkdir.





16 Ümmi-Hani - Faxtə Əbutalib qızı dördüncü xəlifə Əlinin bacısıdır. Merac əfsanəsini uyduranlar Məhəmmədin Ümmi Haninin evindən göylər səyahətinə apardığını rəvayət edirlər.
17 Ütarid - Merkuri planeti.
18 Zöhrə - Venera planeti, qədim poeziyada fəza çalğıçısı timsalıdır.
19 Mərrix - Mars planeti.
20 Müştəri - Yupiter planeti.
21 Keyvan - Zühəl planeti.
22 Qədr gecəsidir bu gecə, tələs...
Qədr gecəsi - oruclug ayı olan Ramazanın 21, 23 və 27-ci gecələri dualarını Allah dərgahında müstəcəb (qəbul) olacağı gecələrdir. Bunlar, eyni zamanda əhya (dirilmə) gecələri adlanır.
23 Buraq - Məhəmməd peyğəmbərin merac gecəsi mindiyi, başı insana oxşayıb qanadları olan atdır.
24 Qalxanda göylərin yeddi qatına,
Nə pərçəm, nə də bir tac qurdun ona.
Yəni göylərin yeddi qatına qalxarkən həm fələyin pərçəmini (bayrağını - Günəşi), həm də onun tacını (Ayı) qurdun.
25 Cəbrayıl - dini rəvayətə görə, mələklərdən biri. Allahın qasidi kimi təsvir olunur."
26 Mikayıl - Allaha yaxın olan mələklərdən biri. Ona ruzu mələyi də deyirlər.
27 İsrafil - dini əfsanələrdə adları çəkilən dörd mələkdən biridir. Guya onun vəzifəsi həyatın yaranması və məhv olması barədə şeypur çalmaqla dünyanı xəbərdar etməkdir.
28 Rəfrəf - Məhəmmədin göylərə merac etməsi əfsanəsində onun mindiyi ikinci xəyali atdır. Bəziləri onu bulud, nur saçağı və sair təsəvvür edir.
29 Sidrə (Sidrətül-müntəha) - göylərin yeddinci qatında olan əfsanəvi ağac adıdır.
30 Sübbuh - yüksək tərif və sitayişə layiq olan. 31 Nübüvvət - peyğəmbərlik.
32 İki vəfasızın əhdini bir et,
Bu dörd ayaqlını özün əlbir et.
İki vəfasız - gecə-gündüz, dörd ayaqlı isə - dord ünsürə işarədir.
33 Nafə - xüsusi cinsdən olan ahunun göbəyindəki müşk vəzisi.
34 Biz kimik, nəçiyik, aç göstər artıq,
Büt qayıranmıyıq, büt qıranmıyıq?
İslam dininin dünya və insan haqqındakı ehkamıyla kifayətlənməyən şair, Məhəmmədə müraciətlə, insanları varlığın gizli sirləri ilə tanış etməsini tələb edir ki, bəlkə hər insan nə üçün yarandığını, niyə yaşadığını başa düşsün. Öz işlərinin əsl mahiyyətini, büt qayırdığını, yoxsa büt qırdığını bilsin.
35 Mən bütün bədənə yem verən zaman,
Öz ciyərparam da pay alar ondan.
Yəni mən öz sözlərimi bütün xalqa deyirəm, qoy oğlum da ondan özünə bir pay götürsün.
36 Musa gövhər tapdı xəzinələrdə,
Qarun da boğuldu ləli-gövhərdə.
Musa - Yəhudilərin peyğəmbəri. Guya Allah tərəfindən ilk müqəddəs kitab - Tövrat ona nazil olmuşdur. Qarun - dini əfsanələrə görə, Musa peyğəmbərin zamanında yaşayan çox varlı və xəsis bir adam olmuşdur. Musanın qarğışı nəticəsində öz xəzinələrilə birlikdə yerə batmışdır.
37 Barbad - Sasani hökmdarlarından Xosrov-Pərvizin sarayında məşhur müğənni və çalğıçı olmuşdur. Nizami "Xosrov və Şirin" poemasında Barbaddən və onun sənətindən geniş bəhs etmişdir.
38 Hər sadə damcının əsli cövhəri
Dəryaya meyl edir əzəldən bəri.
Yəni gördüyünüz hər zərrə küllün, hər sadə mürəkkəbin uzvüdür. Qətrə ilə dəniz arasında maddi bir vəhdət vardır ki, onu pozmaq mümkün deyildir. Çünki hər qətrə böyük dənizlərin cüzidir. Ona görə də hər qətrə dənizə, hər cüz küllə qovuşmağa meyl edir.
39 Bir qara pul olsun, bir arpa əgər,
Onda dörd gövhərdən tapılar əsər.
Yəni hər bir kiçik maddənin tərkibi dörd ünsürün (torpaq, od, su, hava) birləşməsindən əmələ gəlmişdir.
40 Keyqubad - İran tarixində Kəyan sülaləsinin qüdrətli padşahı hesab edilir.
41 Sənətin ziddinə söz danışanlar
Əyri pərdə kimi yanlış çalarlar.

Yəni həqiqəti, insanların əsl arzularını tərənnüm etməyi bacarmayan hər şair pərdəsi düz olmayan sazlar kimi havanı pozar və ahənglərdə baş-ayaq vurar.

42 Bu fala mən qürə atdığım anda,
Ulduzlar keçirmiş eyni zamanda.
Qürə - baxt yoxlamaq, bir şeyi ürəkdə tutmaq; ulduzların keçməsi isə taleyin arzuya uyğun gəlməsinə işarədir. Yəni mən bu arzuda olarkən (bu falı tutarkən) tale ulduzu da ona müvafiq gəldi. Qədim Şərq astrologiyasına görə, guya hər insanın taleyi ulduzlardan birinə bağlı imiş və bu planetlərin bürclər arasında hərəkətilə insanların həyatında yeni-yeni hadisələr baş verirmiş.

43 Qüdrətin böyükdür, ona-on yarat,
Onda beş verməyi birdəfəlik at!
Ona on-saf qızıl, onda beş isə qatışıq qızıl mənasındadır. Yəni yazdıqların saf qızıl kimi bakir və qiymətli olsun, zəif misralar yazma!

44 Dedi: "Ey kəlamı əkizim ala..."
Şairin oğlu Məhəmməd atasının yaratdığı əsəri özünə qardaş bilir, öz əkizi adlandırır.

45 Bəhrin suyu yüngül, özü axardır,
Canlı, nəfəs alan balığı vardır.
Şair birinci misrada bəhr kəlməsini iki mənada işlətmişdir. Birinci mənada poemasının vəzni, ikinci mənada dəniz nəzərdə tutulur.
Yəni poemanın vəzni bəhri-xəfif həm yüngül, həm də axıcıdır. Bəhrin (dənizin, əsərin) balığı olan sözlər isə diridir, canlıdır.

46 S. F. D. ili idi, rəcəbin sonu.
Ərəblərdəki say sistemində (əbcəd hesabı) uç nöqtəli S hərfi - 500, F hərfi - 80, D hərfi isə 4-ə bərabərdir. Nizami "SDF" hərfləri ilə "Leyli və Məcnun" poemasının yazıldığı tarixi göstərmişdir ki, bu da hicri 584-cü ilə, miladi 1188-ci ilə təsadüf edir.

47 Bu Bəhram nəsəbli, ülkər üzlü sən...
Burada Bəhram sözü həm Marsın farsca adıdır, həm də Sasani şahları sülaləsinin on dördüncü padşahı Bəhram Gura işarədir.

48 Bu yeddi örtüklü, altı barmaqlı,
Bir gözlü, dörd əlli, doqquz ayaqlı.
Bu beytdə kainatın təsviri verilir: yeddi örtük - yeddi fələk, altı barmaq - altı tərəf: şərq, qərb, şimal, cənub, aşağı və yuxarı, bir göz - Günəş, dörd əl - dörd ünsür: od, su, torpaq və hava, doqquz ayaq - doqquz göy mənasında verilmişdir.

49 Onun qapısında mehtərdir Qeysər,
Fəğfur o qapıda gəlib dilənor.
Qeysər - qədim Rum padşalılarının, Fəğfur isə qədim Çin padşahlarının ləqəbidir.

50 Uçarmış Araşin oxu, deyirlər,
Ad qəbiləsinin nizəsi qədər.
Araş - İranın məşhur mifik pəhləvanlarından biridir. Əfsanələrə görə, Araşin atdığı ox qırx mənzil yol gedərmiş. Adilər - Ad qovmu - ərəb qəbilələrindəıı olub, öz başçıları İbn Hövs adı ilə adlanmışlar.

51 Zubin - nizəyə oxşar bir silahdır.

52 Altı hərfi olan adıyla, bilsən,
Dünyanı bağlamış altı tərəfdən.
Yəni Axsitanın altı hərfdən ibarət olan adı dünyanın altı tərəfini nərdtaxtanın altı xanəsi kimi bağlamışdır.

53 Mahmudun filindən qüvvətli olar.
Mahmudun (Sultan Mahmud) fili öz böyüklüyü və gücü ilə Şərq əfsanələrində məşhurdur. Yəni: sənin ehsanın milçəyi böyük qüvvət sahibi edər.

54 Yarəb, mən ki Üveys adını aldım,
Məhəmməd adına mən sadiq qaldım.
Üveys sözünün bir mənası bəxşiş verən, ikinci mənası canavar (qurd) deməkdir. Beytin mənası: mən nə cür adlansam da Məhəmmədə sadiqəm.

55 Onun atasını görə bilməsən,
Ban qardaşına hörmət saxla sən.
Yəni: əsərin atası, müəllifi olan Nizamini görməsən, onun (əsərin) qardaşına - Nizaminin oğlu Məhəmmədə hörmət et!





56 Mən ki ayna kimi dəmir deyiləm.
Qədim zamanlarda dəmirə seyqəl verməklə ayna düzəldərdilər.

57 Çərşənbə cinlisi ağıllı olmaz.
Çərşənbə cinlisi ağıllanmaz məsəli Şərqdə məşhurdur. Dini əfsanələrdə çərşənbə cinlər günü adlandığından, o gün dəli olanların sağalması qeyri-mümkün hesab olunur.

58 Gözəl üzərliklə bəslənib güllər.
Üzərlik çöl bitkilərindən biridir. Əfsanəyə görə, üzərlik insanı bədnəzərdən saxlayır. Ona görə də qadınlar öz uşaqlarını həmişə üzərlik tüstüsünə verirlər ki, bədnəzər onlara təsir etməsin və həmişə gözəl qalsınlar.

59 İlyasmi "əlif"ini "lam"mdan kəssən,
Yenə doxsan doqquz tamı görərsən.
Yəni: İlyas adının "əlif" hərflərini alsan və onun "l" (l) hərfindən də bir "əlif" yəni, bir rəqəmi çıxsan, iyirmi doqquz rəqəmi alınar. Xüsusi say sistemi olan əbcəd hesabına görə "l" hərfi 30-dur, birini çıxanda 29 qalar, "y" hərfi 10 və "s" hərfi 60-dır. Cəmi 29+10+60=99.

60 Əbməd ki rəhbəri oldu ərəbi,
Gördü cəfasını Əbüləhəbin.
Əhməd - Məhəmməd peyğəmbər, Əbüləhəb - onun peyğəmbərliyini qəbul etməyən, onun ziddinə gedən ərəbdir.

61 Dürrümü çəkmədim özgə suyuna...
Yəni incimi başqasının suyunda yumadım, heç kəsin pisliyini istəmədim.

62 Söz mənim oduma nal atmışdır, nal!
Oda nal salmaq bir adamın gəlməsini arzulamağın falıdır. Hər kəs öz müsafirinin tez qayıtmasını istəsəydi oda nal atardı. Söz mənim oduma nal atmış, yəni: şeir məni öz tərəfinə çağırır.

63 Xurma yoldaşlıqla şirə yaradar.
Yəni: tək xurma ağacı bar verməz, yalnız bir neçə ağac bir yerdə olarsa onlardan məhsul almaq olar. Nizaminin bu fikrini müasir elm təsdiq edir. Bir ağacın bar verməsi üçün ondakı dişi çiçəklərin başqa ağacdakı erkək çiçəklərin tozu ilə mayalanması mütləq lazımdır. Həm də burada məcazi məna vardır.

64 Hörümçək torudur o, açıq-aşkar,
Gah yara bağlayar, gah da qanadar.
Hörümçək torunun qan axıtması məlumdur; milçəklər və başqa kiçik heyvanlar ona ilişib qalar və hörümçək onların qanını sorar, yenə hörümçək torunu qanı axan yaranın üstünə basmaqla yaranın qanını kəsər. Beləliklə, hörümçək toru həm qan axıdan, həm də qanı saxlayandır.

65 Gül kimi xəzinə payladı o da.
Qızılgül solanda ləçəkləri pul kimi səpələnər. Şair Məcnunun atasının xəzinə paylamasını qızılgülün xəzan olmasına oxşadır.

66 Düzüldü bənövşə, lalə başına...
Yəni onun bənövşə rəngli teli lalə yanaqlarının ətrafına düzüldü.

67 Sanki qara qarğa tutmuşdu çıraq.
Leylinin qara saçları ilə əhatə olunmuş üzünə işarədir.

68 Zülfü də "leyl" idi, adı da Leyli.
"Leyl" ərəbcə gecə (qara) mənası verir. Yəni: zülfü gecə kimi qara, adı da Leyli idi.

69 Doğardı Şərqin də Yusif üzlüsü.
Yəni Şərqin Yusifi (gözəli) - Günəş doğardı.

70 Tuluqlar yırtıldı, yıxıldı eşşək.
Eşşək yıxıldı, tuluq yırtıldı məsəli məşhurdur. Yəni sirr açıldı, aləm bildi.

71 Bağdad ellərinin qanunu - Məcnun.
Yəni Məcnun Bağdad çalğıçılarının qanunu (çalğı alətidir) kimi daima səslənməkdə, sızıldamaqdadır.

72 Yadlardan yetməsin deyə bədnəzər,
Üzüm dövrəsinə nil da çəkərlər.
Keçmişdə kiçik yaşlı uşaqları bədnəzərdən qorumaq üçün boyaqxana küpünün dövrəsinə dolandırar, üzlərinə nil (qara rəng) çəkərdilər.

73 Küsufun gözündən günəş qorxaraq,
Üzünə salmışdır qara bir duvaq.
Xəzinə üstünü örtməsə əgər,
Onu bu insanlar tez qarət edər.

Küsuf- Güneşin tutulmasıdır.
Yəni onun saçı və saqqalı uzanaraq, üzünün ətrafını tutmuş və Gün kimi camalını qara bir dairə içərisinə almışdı.

74 Leyli çəng tutmuşdu bağrı başında,
Məcnun rübab kimi əli qaşında.
Yəni Leyli saçlarını çəng (çalğı alətidir) kimi bağrına basmışdı, Məcnun isə rübab (yenə çalğı alətidir) kimi ikiqat olub əlini alnına qoymuşdu. Burada hər iki çalğı alətinin quruluşu nəzərdə tutulur.

75 Leyli gül saçırdı ağaclara, bax,
Məcnun dürr səpirdi şabaş olaraq.
Yəni Leyli ağacların arasından boylanır və onun üzü gül kimi ağacların budağını bazəyirdi, Məcnun isə inciyə oxşar göz yaşını şabaş edirdi.

76 Divamə bir mənəm, gizli deyildir,
Bos sənin boynunda nədir o zəncir?
Yəni divanə mənəm, zəncirlənməli mənəm, zəncir kimi hörüklərin nə üçün sənin boynundan asılmışdır? Sən o zənciri-zülfünü mənim boynuma şal!

77 İrhəm-türhəm (ərhəm-türhəm) - ərəbcə "rəhm et, sənə də rəhm etsinlər" deməkdir. Yəni, sən aciz insanların əlindən yapış ki, çətin gündə başqaları da sənə əl tutsunlar.
Qatlandı dizlorim qoşa, "lam" kimi,
"Yey" kimi bukmüşəm öz əllərimi.

78 Ərəb əlifbasında "ü " (1) çəngəl şəklində yazılır və "lam" adlanır, "^" (y) hərfi isə qarmaq şəklində yazılır, "yey" adlanır.
Məcnun deyir ki, mən dərd əlindən dizlərimi iki "lanv' kimi qatlamışam, qollarımı isə iki "yey" kimi bükmüşəm və bunların birləşməsindən sevgilimin adı, yəni "Leyli" əmələ gəlmişdir.

79 Qum kimi səpdi o qum rənglilərə.
Qum rənglilər sozündə ərəblər nəzərdə tutulur.

80 Zəmzəm - Məkkədə bir su quyusuna verilən addır. Əfsanələrə görə, İbrahimxəlil peyğəmbər zamanında, yəni eramızdan təqribən 2800 il qabaqqazılmışdır.

81 Əqrəb çalmışlara verilsə gərfəs...
Gərfəz, gərəvüz - səbziyat qismindəndir. El arasında kərəvüzün əqrəb çalmış adama verilməsi zərərli sayılır.

82 Hindli fil başına döyər hər yerdə
Ki, fil Hindistanı anmasın bir də.
Adət üzrə filbanlar fili sürərkən toppuzla onun başına vurarlar. Nizami bunu belə izah edir ki, filbanlar filin başına onun yeriməsi üçün deyil, onu gicəllətmək üçün döyurlər ki, meşələrə qaçmasın.

83 Kölgə özbaşına düşməz quyuya,
Göydə dayanmamış Ay duya-duya.
Yəni həyal və kainatın xüsusi bir qanunu vardır, heç şey öz başına hərəkət etmir.

84 Su səpdi gülunün yaqut rənginə.
Yəni o ağlayaraq, alışıb-yanan yaqut rongli yanaqlarının oduna göz yaşları ilə su çilədi.

85 Sədəfə dürr kimi girdi o nigar.
Yəni inci sədəfdə gizlənən kimi Leyli də çadırda gizləndi.

86 Qarurə - şüşə, sənək.

87 Xəyzəran - bambuq ağacı.

88 Bax, Çinin aynası parladı Çindən,
Həbəşin qaşları çatıldı birdən.
Yəni Çinin aynası (Günəş) Çindən (Şərqdən) baş qadırarkən Həbəşin (qaranlığın) qaşları çatıldı. Günəş parladı, qaranlıq çəkildi.

89 Gecənin yolçusu yetişdi haman
Bir Yusif camalı aldı quyudan.
Yəni gecənin yolçusu olan ulduzlar quyunun başına çataraq, oradan bir Yusif camallı gözəli (Ayı) çıxarıb öz sıralarına qatdı. Əfsanəyə görə, Yusifi qardaşları quyuya saldıqdan sonra bir karvan oraya yetişib quyudan su çıxarmaq istədikdə Yusifi tapmış və özlərilə bərabər Misrə aparıb orada qul adına satmışlar. Beytdə ulduzlar yolçuya, Ay Yusifə, qaranlıq üfüq isə quyuya təşbih olunur.

90 Ulduzlar içində o parladı tək,
Göy Misri Nil kimi coşmuşdu, gerçək.
Yəni Ay ulduzların içində parlayarkən göy Misrinin bazan Nil çayı kimi coşdu. Yəni misirlilər Yusifin camalından





vəcdə gəlib onu almağa cəhd etdiyi kimi, ulduzlar da Ayı araya almaq uçün Nil çayı kimi coşub həyəcana gəldi.

91 Saleh bir quş idi o yazıq qarğa,
Salehilər kimi geymişdi qara.
Saleh - peyğəmbərlərdən birinin adı və ərəbcə xeyirxah mənasındadır. Əfsanələrə görə, Salehin bir dəvəsi var imiş ki, peyğəmbərin bütun gücü də ondaymış. Düşmənləri bu dəvəni öldürdükdən sonra Salehin tərəfdarları qara geyinib matəm saxlamışdı. Şair qarğanı xeyirxahlıqda Salehə, sakitlikdə onun dəvəsinə və qaranlıqda matəm libası geymiş salehçilərə oxşadır.

92 Mən İsmayıl kimi saxlaram ədəb,
İncisəm, qoy olum İsmayılməzhəb.
İsmayıl İbrahim peyğəmbərin oğlu idi, dini əfsanələrə görə, atası onu qurban kəsmək istədikdə, o, bu təklifi razılıqla qəbul etmişdi. Məcnun daxi sevgilisinə deyir ki, sən mənim başımı kəssən də (İsmayıl kimi), ədəb gözləyib etiraz etmərəm. Əgər belə etməyib səndən incisəm İsmayılməzhəb olum. İsmayılməzhəb VIII əsrdən başlayaraq, müsəlman şərqində geniş surətdə yayılmış İsmaililər təriqətinə mənsub olanlara deyilirdi. Sonralar İsmaililərin həşşatilər, əsasiyyun, Fatimiyyun adlanan qolları əmələ gəlmiş, bir sıra gizli sui-qəsd qruplar təşkil edib İran-Səlcuq hökmdarlarına qarşı mübarizə aparmışlar. Başçıları iflas etmiş zadəganlardan ibarət olan bu təriqət, yoxsul kəndli və sənətkar kütlələrindən öz məqsədləri üçün geniş istifadə etmiş və bərabərlik şüarını öz siyasi görüşlərində irəli sürmüşlər.

93 Nərgizlə suvardı qız ərğəvanı.
Yəni Qızın nərgiz (çiçək adıdır) gözündən axan yaşı onun ərğəvan (qırmızı) yanaqlarını islatdı.

94 Atlardan "ərəbi", "bəxti", "təkavər"...
"Bəxti", "ərəbi", "təkavər" - hər üçü at cinsləridir.

95 Ləli od verirdi, bulağı da su.
Yəni dodaqlarından od qalxırdı, gözlərindən isə yaş axırdi;

96 Yenicə Ay görmüş başı zədəli.
Yəni yeni Ay görmüş dəli. Dəlinin Ay gördükdə coşması məşhur bir misaldır.

97 Müğilan - dəvətikanı.

98 Zənci yuyunmaqla çinli olmadı.
Yəni qara yuyunmaqla ağarmadı.

99 Bir küncə qısılıb qaldı o baxtsız,
Bircə dörd künclünu gözlədi yalnız.
Yəni bir küncə qısılıb dörd künclü qəbrin (ölümün) yolunu gözlədi.

100 Tuşə- azuqə.

101 Xəzinəni atıb, kim yesə torpaq,
O, ağıllı deyil, ilandır ancaq.
Yeni: xəzinənİ saxlayıb torpaq yeyənlər ağıllı adam olmayıb, ilandırlar. Əfsanəyə gorə, ilan xəzinə üzərində yatır, gündə bir toz qədər torpaq yeyir.

102 Axır libasıma göz qaram hər dəm.
Yeni gözümün qarası hər an göz yaşımla birlikdə libasıma axır.

103 Lahövlə vəla (qüvvətə illa billah) - Allahdan başqa heç kəsdə qüdrət yoxdur.

104 Fərqəd - Şimal qütbünə yaxın olan iki kiçik və parlaq ulduzdan biridir.

105 Pərvin (yaxud Sürəyya) - səmada boyunbağıya oxşar ulduz toplusu. Sonrakı beytlərdə də bürclərin və ulduzların vəziyyəti göstərilir.

106 "Yetim süfrəsinə" xeyirxahlartək
Qüfr tullamışdı altı pay çörək.
Yəni Qüfr (Ay mənzillərindəndir) səxavəti adamlar kimi "yetimlər süfrəsi"nə altı çörək salmışdı. "Yetimlər süfrəsi" ulduzlar qrupudur ki, onda altı ulduz vardır. Şair bu ulduzları kökəyə (qoğala) oxşadır.

107 Səhər çağının da Qurd nəfəsi var.
Yəni səhərin soyuq nəfəsi, nəsimi vardır. Qurd nəfəsi eyni zamanda səhər görünən ulduz adıdır.

108 Boyu "əlif kimi: ağzı "mim" kimi,
Qıvrılmışdı saçı onun "cim" kimi.
Deyirdi: - Adımdır mənim də bu "cam",
Dünyanı göstərir özündə bu cam.
"Əlif (İ) hərfi ərəb əlifbasında düz, şaquli, "raim" ağzı düyməli, "cim" isə qıvrım yazılır. Şair gözəlin

saçım "cim"ə, qəddini "əlif"ə, ağzım "mim"ə oxşadır və onların birləşməsindən "cam" (? ) əraələ gəldiyini söyləyir.

109 Dörd atdan piyada qalsan sən əgər,
Bu düyün o zaman açıla bilər.
Dörd at sözünə iki məna vermək olar, birinci dörd ünsür, (su, torpaq, od, hava), ikinci isə dörd həyati zövq (yemək, içmək, ehtirası təmin, yuxu). Beytin məzmunu ikinci mənaya daha yaxındır. Yəni əgər sən dünyanın əsas ləzzətlərindən əl çəksən, bütün düyünləri aça bilərsən.

110 Möhrəsiz və gözsüz oyun çıxardar,
Ayaqsız, miniksiz çapmağımız var.
Yəni aşıqsız vo taxtasız nərd və şahmat oynayır, ayağı və atı olmadan minib çapırıq.

111 Əmr-As (Əmr İbn As) - Böyük xəlifələr zamanı dördüncü xəlifə Əlinin əleyhinə olub, Müaviyəni xəlifəliyə layiq bilən hiyləgər diplomat.

112 Tüküm dilə dondü, dilim də tükə.
Yəni tüklərim dilə gəldi, dilləndi, dilim isə tük kimi inceldi.

113 "Lam əlifla" ki, bax, ayrı deyildir.
"Lam əlifla" ərəbcə iki hərfin "l" və "a" hərflərinin birləşməsindən əmələ gəlir və lüğəvi mənası "yox" deməkdir. Misranın mənası odur ki, mən "la" kimi "yox" olsam da, bu yoxluq "lam" ilə "əlif"in, yeni səninlə mənim birləşməyimin nəticəsidir.

114 Təmuz - iyul ayı.

115 Qəm də xilas oldu xəzinədardan.
Yəni qəm onu öz ürəyində həbs edən, onun xəzinədən olandan xilas oldu. Yəni Leyli vəfat etdi və qəm də onun sinəsindən uçub getdi.

116 Özünə şəbə de, Şəbdiz söyləmə.
Yeni qara olsan da Şəbdiz (qara at, Şirinin məşhur atının adı) deyilsən, kiçik bir şəbəsən (qara muncuqsan).

117 Qismətin Ay kimi qəribliksə, bil.
Qədim astrologiyada Ayın hər ayda bir bürcdən və hər gün bürcün bir dişciyindən çıxması rəvayət olunurdu. Beləliklə də, iki gün bir yerdə dayanmayan Ay qəriblik timsalı kimi tərənnüm edilmişdir.

118 Gedir sənin Raxşin məndən irəli.
Yəni sənin atın məndsn qabaqda gedir, sən tez öldün, vüsal mənzilinə məndən tez çatdın. Raxş - məşhur Rüstəm Zalın atının adıdır.

119 Səcdə edənlərin Səlcuqisən sən.
Səlcuq - səlcuqilər sülaləsinin banisidir. Burada səcdə edənlərin pənahı, pərəstişgahı mənasında işlənmişdir.

120 O nalını salan daşı al ələ,
Qaldır öp, "Nə gözəl ləlsən" söylə.
Yəni ayağına toxunan daşı öp, gözünün üstünə qoy və gözəl ləl adlandır. Pisliyə qarşı yaxşılıq et.

121 Küstax - kobud, dikbaş, qorxmaz, ədəbsiz.





## YEDDİ GÖZƏL

1 Gözəl sözü ilə tərcümə edilmiş peykər məfhumu daha geniş və çox çalarlıdır. Peykər sözünün əsl mənası cisim, bədən, can, surət, səmavi cisim deməkdir. Peykəri gözəl mənasında yalnız məcazi şəkildə işlətmək olar. Nizami əsərin özündə heç bir yerdə onun adını "Həft peykər" ("Yeddi gözəl") qoyduğuna işarə etmir. Əlyazmalarının əksəriyyətində, daş basmalarında əsərin adı "Bəhramnamə" getmişdir. Şair başqa poemalarının adını da əsas qəhrəmanların adı ilə bağlamışdır: "Xosrov və Şirin", "Leyli və Məcnun", "İskəndərnamə". "Həft peykər" adını şair yalnız bircə yerdə - "İskəndərnamə" poemasında işlətmişdir:
Vazin qesse çon baz-pərdaxtəm,
Soye "Həft peykər" fərəs taxtəm.
Bu dastanı ("Leyli və Məcnun" nəzərdə tutulur) bitirdikdən sonra "Həft peykər" tərəfə atımı çapdım.
Bu beytdən aydınca görünür ki, şair atını yeddi gözələ tərəf deyil, səmalarda yerləşmiş yeddi səyyarəyə tərəf çapmışdır. Təsadüfi deyildir ki, Nizaminin xələfləri də peykər sözünü səyyarə, planet mənasında işlətmişlər. Böyük özbək şairi Əlişir Navai "Həft peykər"ə cavabən yazdığı əsərin adını "Yeddi səyyarə" qoymuşdur. Beləliklə, əsərin əsil adı "Bəhramnamə", ləqəbi isə "Yeddi səyyarə"dir. Bununla bərabər, "Yeddi gözəl" vətəndaşlıq hüququ qazandığı üçün həmin adı saxlamağı məqsədə uyğun bildik.

2 Ağıl sahibləri önündə hər an
Surət bəzəməklə olursan əyan.
Sənin varlığını görmək qabiliyyətinə malik olanların qarşısında aydındır. Həmin bəsirət sahibləri sənin surətini yaratdığın, məxluq "etdiyin varlığın vasitəsi ilə görürlər, dərk edirlər".

3 Sənə baş əymədi kim qafil oldu,
Dərhal qapısına qıfıl vuruldu.
Dini rəvayətə görə, bəşər cinsinin banisi Adəm bütün mələklərdən üstün yaradılmışdır. O, dünyaya gələrkən bütün mələklər ona səcdə etmiş, lakin iblis (şeytan) bu əməldən boyun qaçırmışdır; Allah onu cəzalandıraraq tövbə qapısını, yəni əfvedilmə qapısını onun üzünə həmişəlik bağlamışdır.

4 Sübhün çırağını yalnız sən verdin,
Səhərə quş verdin, quşa dən verdin.
Səhərin quşu - Günəş, günəşin ruzisi - onun işığı. Başqa sözlə: sən gündüzə günəş bəxş edirsən, günəşə isə işıq.

5 Bir yerdə ki ağıl ayaqdan düşə,
Xəyal nə iş görər, çox da əlləşə.
Yəni ağıl Allahın zatını, vücudunun sirrini dərk etmək qabiliyyətinə malik deyildir.

6 Biz yeddi fələkdən çüzük bu darda,
Yeddi bayırdan da qaldıq kənarda.
Yeddi fələk - ilahiyyətin xarici mühitini təşkil edir, insanlar isə bu xarici mühitdən kənardadırlar.

7 Əqli-küll əmrində yol tapdı sənə,
Cürəti olmadı baxa üzünə.
Əqli-küll - aşyanı, təbiəti və varlığı dərk etmək qüdrətinə malik olan ağıl.Beytin mənası: əqli-küllə səni dərk etmək qabiliyyəti bəxş etmisən, o, səni arayıb axtarır, lakin sənə yetişəndə sənin əzəmətinin heybətindən gözünü aça bilmir, o da səni dərk etməyə acizdir.

8 Ləlin atəşini, od rəngli ləli
Alıb daşa verdi qüdrətin əli.
Ləl qırmızı olduğu üçün odla, atəşlə müqayisə olunmuşdur. Daşların qəlbində həm ləl, həm də qığılcım yerləşdiyinə işarədir.
Beytin mənası: Sən daşın qəlbinə ləl rəngli qığılcım, atəş və atəş rəngli ləl bəxş etmisən.

9 Bu dünya, dünyanı hərlənən fələk
Hay çəkər qapında hər zaman qultək.
Bütün göylər, kainat, səyyarələr sənin dərgahının önündə səcdə etmək üçün bir-birini itələyib, özlərinə yer axtarırlar.

10 Səni tapan kimi yumdum kitabı...
Yəni sirrini dərk etdiyim bütün ulduzlardan və elmlərdən əl çəkdim.

11 İşləri nizama düşsün, var olsun,
O, dərvişdirsə də, tacidar olsun.
Onun yüksək niyyət və ülvi mənəviyyatının başına azacıq ruzi ilə kifayətlənmək tacını qoy ki, qiyamət günü insan bu dünyada gördüyü əməllərə hesabat verərkən o, öz yoxsul, dərvişanə, təvazökar keçirdiyi ömrünün

hesabına padşahlıq rütbəsinə layiq görülsün.
12 İlk pərgar xəttinin mərkəz nöqtəsi,
Varlığın axırı, ən son töhfəsi...
Beytin mənası: göylərdə saxlanan müqəddəs lövhədə (lövhi-məhfuz) Allah öz pərgarı ilə yaratmaq istədiyi varlığın cizgisini çəkərkən, Məhəmməddən başlamış və varlığın ən axırıncı yaradılanı Adəm cinsi olduğu üçün həmin cizgini Məhəmmədlə də bitirmişdir. Burada həm də Məhəmmədin peyğəmbərlərin xətmi olduğuna işarə var.
13 Əhmədi-Mürsəldən başqası məgər
Varmıdır, Tanrıya ola peyğəmbər.
Əhmədi-Mürsəl - Məhəmməd peyğəmbərin ləqəbi, titulu. Əhməd və Məhəmməd adları bir kökdən (Həmədə) olub, hər ikisi şərəfli, şanlı deməkdir. Mürsəl - göndərilmiş elçi. Əhmədi-Mürsəl - şərəfli, şanlı elçi.
14 Varlıq bu ümmidən mayə almışdır,
Yerə nur, göylərə kölgə salmışdır.
Ümmi (ərəbcə ümm - ana, ümmi - anadangəlmə) - dərs almamış, yazı-pozu bilməyən, savadsız, avam. Məlum olduğu kimi, Məhəmməd peyğəmbər yetim olduğu üçün məktəbə gedə bilməmiş, yazmaq, oxumaq öyrənməmişdir. Odur ki, fəaliyyətə başlayanda düşmənləri onu avamlıqda, cəhalətdə təqsirləndirmişlər.
Beytin mənası: Məhəmməd peyğəmbər dərs oxumadığına baxmayaraq bütün varlığın mayası olmaq dərəcəsinə nail oldu.
15 Şərin beş təblini hər an vurandır,
Bütün Yer üzündə şahlıq qurandır.
Beş təbl (növbə) - orta əsrlərdə sultan və şahların saraylarının qabağında xüsusi meydançada gündə beş dəfə (növbə) nağara və şeypur çalaraq, saray sahibinin əzəmətini faş edərlərmiş.
Şərin (yəni şəriətin) beş təbli - İslam dinini beş rüknü, dayağı, sütunu (tovhid, səlat, soun, zəkat və hac.) İkinci misra orijinalda belədir: "Yer vilayətinin dörd balış qoyanı". Dörd balış - burada taxt mənasında işlənmişdir. Keçmiş zamanlarda şah və sultanların taxtlarının üstünə dörd balış qoyurlarmış. Burada dörd cəhət (şimal, cənub, şərq, qərb) nəzərdə tutulur və bununla da Məhəmməd peyğəmbərin Yer üzünün hakimi-mütləqi olduğu iddia edilir. Bəzi şərhçilərin fikrincə burada Məhəmməddən sonra gələn dörd xəlifə (Əbu Bəkr, Ömər, Osman və Əli) nəzərdə tutulur.
16 Əmri də, nəhyi də düzgündür, inan,
Əmri bəyənilmiş, nəhyi qadağan.
Əmr - buyuruq, nəhy - yasaq, qadağan etmək;
Beytin mənası: Məhəmmədin buyruqları və yasaqları ədalət və insaf üzərində qurulmuş, çünki o, buyurarkən savab, xeyirxah işlər buyurur, qadağan edərkən isə bəd əməlləri qadağan edir.
17 Kölgənin üzünü ağardan insan
Günəşdir, kölgədən nə bəhs açırsan?
Rəvayətə görə, Məhəmmədin kölgəsi olmamışdır. Onun üzü ağ kölgəli olmuş, belə də olmalı imiş, çünki günəş (Məhəmməd) olan yerdə kölgə olmaz.
18 Gözlərini tutan "möhrü-məzağ"dır,
Bağlanıb durduğu sanma bu bağdır.
"Ma-zaqə" - Quranın "ən-Nəcm" (XXI) surəsinin 17-ci ayəsinə işarədir; tərcüməsi: "O, yana baxmadı". Məhəmməd peyğəmbər öz meracı zamanı göylərdəki gülüstandan keçərkən Allahdan əmr gəldi: "Sən ətrafa baxma ki, diqqətin dağılmasın". Məhəmməd bu kəlamı gözləri üstünə qoydu və o kəlam sürmə kimi onun gözlərinə dərman oldu... İkinci sətirdə bağ Yer üzündəki dünyanın, gülüstan isə göylərdə yerləşmiş müqəddəs sidr ağacının rəmzi kimi işlənmişdir. Həmin sidr ağacı Quranın "ən-Nəcm" surəsində sidrət əl-müntəha - ən axırıncı sidr adı ilə təsvir olunmuş, ərşin - Allah taxtının yanında yerləşmiş ilahi ağac. Bu ağaca mələklər belə baxa bilmirlər. Məhəmməd öz meracı zamanı sidri yaxından müşahidə etmişdir.
19 Yeddi min il sonra gəldi cahana...
Dini rəvayətə görə, dünyanın yarandığı gündən qiyamət gününə qədər yetmiş min il keçəcək. Məhəmməd isə dünya yaranandan yeddi min il sonra anadan olmuşdur.
20 Şərin əsli ilə fəri ki, vardır,
Dörd xəlifə ona möhkəm divardır.
Dörd xəlifə - Əbu Bəkr (632-634), Ömər (634-644), Osman (644 - 656) və Əli (656-661);
Şərin əsli - İslam dininin üsulu: Quran, hədis, icma və qiyas. Fər (füru) - həmin üsulun sahələri.
21 Yerlərdə, göylərdə hər nə cisim var





Ondan hər nəfəsdə bir kömək olar.
Yəni Məhəmməd cismani aləmin canıdır və aləm onun sayəsində yaşayır.
22 Ayın almasını iki parçaya
Bölüb, yetirdisə o, xətər aya.
Əfsanəyə görə, Məhəmməd ayı barmağı ilə iki yerə bölməyə qadir imiş. Nizami bu əfsanəyə şairanə bəraət qazandıraraq, Ayı "göyün gözlərinin" - ulduzların itdirsəyisi adlandırır. İtdirsəyini isə kəsib atmaq gözlərin sağalmasına səbəb olur.
23 Məhəmməd seçilən, Allah seçəndir.
Seçilən - Mustafa sözünün hərfi tərcüməsidir, Mustafa (seçilmiş) isə Məhəmmədin məşhur adlarından biridir.
24 Keşik çəkmək üçün bütün gecəni
Seçdilər bu gecə yataqdar səni.
Yəni İlahi sarayının bu gecə keşiyində durmaq səadətini və bir göz qırpımında oraya çatmaq üçün şimşəyə bənzər Büraqı (yarı at, yarı qatır olan əfsanəvi minik) sənə gətirmişəm, tələs, onu göylərə çap.
25 Altı cəhəti üz yeddi kökündən,
O doqquz fələyi çarmıxa çək sən.
Altı cəhət - sağ, sol, ön, arxa, yuxarı və aşağı.
26 Yaşıl geyimlilər gözləyir səni.
Yaşıl geyimlilər - mələklər.
27 Doğrasınlar turunc, doğrasınlar əl.
Yusif və Züleyxa macərasına işarədir. Misirlilər Züleyxanın Yusifə aşiq olduğuna istehza edərək, onu əxlaqsızlıqda ittihamlandırdıqda, Züleyxa əyan və əşrafın xanımlarını öz evinə dəvət edir və onların qarşısına boşqabda turunc və yanına isə bıçaq qoyur. Sonra o, qəflətən Yusifi otağa gətirir. Xanımlar Yusifin gözəlliyinə heyran olub hər şeyi unudurlar və bıçaqla turunc soymaq əvəzinə, barmaqlarını soymağa - kəsməyə başlayırlar...
Nizaminin əsərlərində tez-tez işlənmiş həmin ifadə (turunc yerinə barmaq kəsmək) mat, məbhut, heyran olmaq deməkdir.
28 Peyğəmbər əmindir, cəbrayıl əmin,
Onları qorxutmaz nə şeytan, nə cin.
Əmin - əmanəti saxlayan, mühafizə edən. Şair burada cəbrayıl ilə Məhəmmədi Allahın əmini adlandırır, çünki o, öz kəlamı olan Quranı onlara əmanət vermişdi. Dini rəvayətə görə, Quranı Allah tərəfindən Məhəmmədə cəbrayıl gətirmişdi.
29 Qəşəng ayaqları hilal vururdu,
Başında Keykavus taxtı qururdu.
Keykavus - qədim İranın əfsanəvi şahı, Keyqubadın oğlu, Firdovsinin əsas qəhrəmanlarından biri. Nizami həmin beytdə "Şahnamə"də təsvir olunmuş bir epizoda işarə edir. Div və pərilərin vəsvəsəsi nəticəsində Keykavus göylərə qalxmaq ehtirasına mübtəla olur. Onun əmri ilə xüsusi kəcavə düzəldib hər küncünə bir ac şahin bağlayırlar və onların başının üstündə uzun nizələrin ucunda ət asırlar. Şahinlər əti qapmaq niyyətilə qanad çalaraq kəcavəni göyə qaldırırlar və bir müddətdən sonra qüvvətdən düşərək kəcavəni uzaq meşələrdən birinin üstünə atırlar.
30 Dörd şahin dalınca qanad salardı.
Dörd şahin - dörd ünsür (od, su, hava, torpaq). Yəni Büraq elə surətlə uçdu ki, dörd ünsürdən ibarət olan bu aləmdən uzaqlaşdı.
31 Parlaq Ütaridi o zərgər aldı,
Gümüş kürəsinin rənginə saldı.
Bu beytdən başlayaraq şair, qədim astronomiyaya əsasən, hər planetə xas olan rəngləri təsvir edir və isbat etmək istəyir ki, həmin rəngləri səyyarələrə Məhəmməd peyğəmbər vermişdir.
32 Xəlifəyi-şam - gecənin xəlifəsi - Ay.
33 Müştəri xəstədir gördü, əlbəəl
Çəkdi bədəninə naxoşun səndəl.
Keçmişdə səndəl başağrısı dərmanı kimi işlənirdi. Həm də səndəl rənginin Müştəri planetinin rəmzi olduğuna işarə edilir.
34 Səadət - bir qədəh, mərifət - saqi...
Mərifət burada teosofik mənada işlənmişdir, yəni Məhəmməd Allahı bütün varlığı ilə dərk etdi.
35 Bir dərin fikirli varmış ki, o, tək
Yazmış bu şeyləri nəzmə çəkərək.

Firdovsiyə və onun "Şahnamə" epopeyasına işarə edilir.

36 Buxari, Təbəri əsərlərindən...

Buxari - Əbu-Əbdullah Məhəmməd ibn İsmail ibn İbrahim Səmərqəndi (810-870) məşhur alim, hədis toplayan, "Səhih əl-Buxari" və "ət-Tarix" əsərlərinin müəllifidir. Təbəri - Əbu-cəfər ibn cərir (855-942) məşhur tarixçi alim, fəqih, hədisçi. Nizami Təbərinin "Tarixi-Təbəri" adı ilə məşhurlaşmış "Tarix ar-Rüsul vəl-mülük" ("Peyğəmbərlərin və şahların tarixi") əsərinə işarə edir.

37 Mən onun deyrini "Zənd-Avəst" kimi
Bəzədim yeddicə dilbər gəlinlə...

Deyr - monastır, məsihilərin və atəşpərəstlərin məbədi, dərviş və abidlərin, sufi və cahidlərin hücrəsi. "Zənd-Avesta" - zərdüştilərin müqəddəs kitabı. Kitabın əsil adı "Avesta" olub. "Zənd" isə sonralar pəhləvi dilində "Avesta"ya yazılmış şərhdir; Nizaminin dövründə kitab "Zənd-Avesta" adı ilə məşhur idi.

38 Soltan Mahmud ilə şair Firdovsi
Andırır nisbətdə Əqrəblə Qövsi.

Mahmud - Sultan Mahmud Qəznəvi (999-1030) rəvayətə görə Firdovsiyə "Şahnamə"ni yazmaq üçün çoxlu qızıl pul vəd etmişdi. Lakin şair əsəri bitirəndən sonra simic sultan qızıl əvəzinə gümüş yollamış və şair də həmin gümüş pulları hamamçıya bəxş etmişdi. Nizami həmin əfsanəyə işarə edir. Astrologiya elminə görə Əqrəb və Qövs bürcləri həmişə biri-biri ilə vuruşurlar, odur ki, Nizami sultanları əqrəbə, şairləri isə Qövsə (göy qurşağına) bənzədir.

39 Əsədi, Əbu-Düləf bəxtiyar oldu,
Çünki taleləri güldü, yar oldu.

Əsədi - Əbu-Nəsr Əli ibn Əhməd Tusi (XI) məşhur fars-tacik şairi. Ömrünün mühüm hissəsini Azərbaycanda (Naxçıvanda və Gəncədə) keçirmişdir. O, əsərlərinin çoxunu Naxçıvan hakimi Əbu-Düləfə həsr etmişdir. Əbu-Düləfin Əsədiyə səxavəti isə dillər əzbəri olmuşdur. Nizami Əbu-Düləfin Əsədiyə göstərdiyi qayğıya işarə edir.

40 Bu cəbrayıl təbim cin qələmimlə
Çəkər səhifəyə cizgilər belə.

Qədim ərəb şairləri ən zərif və gözəl şeirlərini, nadir bədii obrazlarını cinlərin müdaxiləsinə mənsub edərdilər. Ən nəfis şeirə cinyazan şeir deyərdilər. Həmin təsəvvürü Nizami burada şairanə qələmə almışdır.

41 Xalis qızıl verim, onda beş deyil.

Yəni xalis, təmiz, yüzdə-yüz əyarlı qızıl verim. Əsərimin keyfiyyəti yüksək olsun.

42 Körpə Arslan - Marağanın hakimi (1174-1208) Azərbaycan atabəylərinin qohumu və vassalı.

43 O, göylə yoldaşdır, buludla birdir,
Qüvvətdə şir kimi, adı da şirdir.

Yəni o, bulud kimi səxavətlidir və hər tərəfə qızıl yağdırır; ikinci sətirdə şair Arslan (Aslan) sözünün həm fars dilinə tərcüməsini (şir) verir, həm də həmin sözün lüğəvi mənasından məmduhun (tərif edilənin) təsviri üçün şairanə istifadə edir.

44 Efirdən qopmuş bir atəşdi suyu...

Efir - kürreyi-əsir - troposfer, göyün üst qatında yerləşmiş od kürəsi. Şair beytdə alogizm və ya oksimoron deyilən poetik fiquru çox mürəkkəb şəkildə işlətmişdir. Beytin mənası: Körpə Arslanın qılıncının suyu (yəni bərkimiş, möhkəm, polad qılıncı) atəş kürəsindən od qaldırır.

45 Şah dəniz kimidir, deyil hiyləgər,
Qamçı - qılıncında cəzri, məddi var.

Cəzr və mədd - dənizdə suyun qabarma və çəkilməsi. Qamçı və qılıncın qabarması, yəni onun səxavətinin qabarması, çəkilməsi, qeyzə gəlib düşməni və istəmədiyi adamı hər şeydən məhrum etməsi.

46 Gah pələng dərisi, qurd dərisi gah
Geyərdi dağ, dərə, qanlı düzəngah.

Yəni o, ovlaqda o qədər şikar edir ki, vurulan heyvanların qanından səhra qan dənizinə dönür və gah da ovlanmış canavar və pələngin dəriləri ilə örtülür.

47 Güc gəlsə ovlaqda əgər kamana
Gönünü gor edər gura, ceyrana.

Orijinalda "ceyran" deyil, "maral" yazılmışdır. Kamanın kirişini (yayını) adətən maral gönündən düzəldirlər. Yəni Körpə Arslan kamanın maral gönündən olan yayını çəkib oxu atan kimi maral o saniyə ölürdü və onun dərisi ona qəbir olurdu.

48 Girəndə meydana igid savaşda





Əqiq rəngi alır torpaq da, daş da.

Əqiqin qırmızı rənginə işarə edilir. Yəni o, öz qılıncı ilə canları ala bilir və öz şərab camı ilə insanlara yenidən həyat bəxş edir.

49 Xülqünün nafəsi nəqqaş əlitək,
Müşk ilə, ləl ilə dolu cib, ətək.

Nafə - göbək, müşkün sinonimi. Müşkü ahunun nafəsində - göbəyində yerləşmiş vəzilərdən istehsal edirlər. Beytin mənası: Körpə Arslanın xasiyyəti müşk ahusunun nafəsi kimi xoş və gözəldir. Rəssamların qələmi müşk kimi qara və ləl kimi al-qırmızı naxışlar saçır. O da ətrafına həm müşk, həm də daş-qaş, ləl və inci səpir. Onun saçdığı müşk və ənbərdən, səpələdiyi inci və ləldən ölkə ətir və boyunbağı ilə dolubdur.

50 Qüdrətli əliylə dörd gövhəri şah
Əzəmət taxtına etmiş qərargah.

Dörd gövhər - varlığı təşkil edən dörd ünsür (su, od, hava, torpaq)

51 Rasidlər deyir ki, qeyd etmiş fələk,
Fələkəddin Əhməd adlansın gərək.

Rasid - münəccim. Görünür ki, Körpə Arslanın ikinci oğlu ləqəbi Fələkəddin olan Əhməd astronomiya ilə məşğul olurmuş. Əhməd və Məhəmməd hər ikisi bir kökdən (həmədə) olub bir mənaya malikdir və hər ikisi peyğəmbərin adıdır. Körpə Arslanın oğlanlarının adları Əhməd və Məhəmməd olduğu üçün şair Əhmədi və Məhəmmədi deyərək onların peyğəmbərə sadiq olduqlarını qeyd etmək istəyir.

52 Birinin açarı nüsrətdən çatdı,
Birini zəfərdən fələk yaratdı.
Birinə tərbiyə nüsrət veribdir,
Fələk o birinə qüdrət veribdir.
Biri xoşbəxt oldu nüsrətdən, gerçək,
Birinə dörd payə taxt oldu fələk.

Burada şair Körpə Arslanın oğlanlarının ləqəblərinin lüğəvi mənalarını oynadır. Nüsrətəddinin birinci hissəsi - Nüsrət qələbə deməkdir, Fələkəddinin isə birinci hissəsi fələk, göy deməkdir. Orijinalda Nüsrətəddinə üç ayaq bəxt verildiyinə işarə olunur. Üçayaq bəxt - yəni döyüşdə o (Nüsrətəddin) üç dəfə qalib gəlib, Fələkəddin isə dördayaqlı - dördcəhətli (şimal, cənub, şərq, qərb) fələyi (göyü) özünə taxt edib.

53 Gülsün qoy Suleyman mülkündə bəxti, Nurlansın Bilqeysin uğurlu taxtı.

Bilqeys - Səba mələkəsi, Süleyman peyğəmbərin sevimli gözəl zövcəsi. Süleyman və Bilqeysin məhəbbəti haqqında Şərqdə çoxlu əfsanələr vardır. Beytin məzmunundan belə aydın olur ki, Körpə Arslanın zövcəsinin adı Bilqeys olmuşdur.

54 Şahdır səxavətin yeddi qardaşı,
Qadını varlıqda analar başı.

Yeddi qardaş - yeddi planet; vücudun anaları - dörd ünsür. Beytin mənası: qoy Körpə Arslan yeddi səyyarə kimi səxavətli, onun zövcəsi Bilqeys isə bütün varlığın anaları olan dörd ünsür kimi bütün xalqın anası olsun.

55 Bu Xızrın payidar olsun şöhrəti,
Onun abi-həyat tapsın xisləti.

Xızr - yaşıl geyinmiş əsrarəngiz bir qeyri-rəsmi peyğəmbər. O, zülmətdə yerləşən dirilik suyunu tapıb, ondan içmiş və gözəgörünməz şəkildə əbədi yaşayır. Xızr biyabanda azmışları, tufana qərq olmuşları ölümdən xilas edir. Xızr şairlərin məsləhətçisi, köməkçisi və ilham mənbəyidir.

Beytin mənası: Qoy Körpə Arslan Xızr kimi həmişə yaşasın və onun zövcəsi dirilik suyu kimi onun əbədiyyət mənbəyi olsun!

56 Bu güldən, bu bağdan olmasın uzaq.

Gül - Körpə Arslanın oğlanları, bağ - onun zövcəsi.

57 Gecə keşikçindir, hindlitək sayıq,
Aydan zəng belində, durmuşdur ayıq.

Keçmişdə hindlilər adətən yaxın və Orta Şərq ölkələrində keşikçilik edərdilər. Keşikçilər adətən bellərinə zınqrov bağlayırdılar ki, oğrular, əyrilər onların ayıq olmağından xəbərdar olsunlar.

58 Sübh asıb həmail yürüməz əbəs,
Sənin rikabında olar xoş nəfəs.

Gecə ulduzlar və səyyarələrlə yol gedir, sübh isə belinə günəşin nurundan həmail bağlayıb tək-tənha səni müşayiət edir.

59 Ağ rumlu sərdarı: - Kənar ol, - deyə,

Qovsan dərgahından dönər zənciyə.

Rum - Kiçik Asiya, türklərin yaşadığı ərazi. Türk məfhumu Nizami üçün müxtəlif müsbət keyfiyyətlər (ağlıq, gözəllik, cəngavərlik, müdriklik, səxavətlilik, əzəmət, ürək genişliyi və i.a.) simvoludur. Burada Rum ağlıq rəmzidir. Yəni əgər sən zamanın alay başçısı olan gündüzü zabitlikdən azad etsən, o (gündüz) zənci kimi üzü qara olar, gecəyə çevrilər. Başqa sözlə, Körpə Arslan zaman və məkana mütləq hakimdir.

60 Geniş süfrəsinə göyün yaxşı bax, İkicə çörəkdir var-yoxu ancaq.

Göyün süfrəsinin ikicə çörəyi - Ay və Günəş.

61 "Səninlə xətm olur dünyanın şahı"
Deyə vurulmuşdur möhri-ilahi. Yəni Allahın möhr və xatəmi padşahlığın xətmini sənin adına yazmışdır.

62 Kəyan padşahları xoş tale ilə
Almış on iki rüx, həftxan ələ.

İranın əfsanəvi şahlar sülaləsi Kəyanilərin ən məşhur pəhləvanları və cəngavərləri nəzərdə tutulur. Həftxan - yeddi igidlik, şücaət, qəhrəmanlıq deməkdir. Kəyanilərə qulluq etmiş məşhur Rüstəm Zalın və İsfəndiyarın Firdovsi "Şahnamə"sində təsvir olunmuş yeddi qəhrəmanlıqları nəzərdə tutulur. Keykavus əsarətdə olarkən Rüstəm onu azad etmək üçün Mazandarana yollanır və şahın yolunda yeddi dəhşətli vuruşmada qalib gəlir. İsfəndiyar da Turana hücum edib öz bacılarını Əcəspdən azad edərkən yeddi qəhrəmanlıq göstərir.

On iki cəngavər - "Şahnamə"də geniş yer tutan fəsillərdən biridir. Həmin fəsildə Firdovsi on iki iranlı və turanlı pəhləvanın bir-biri ilə təklikdə vuruşmasını təsvir edir.

Beytin mənası: qədim İranın şahlarının yeddi pəhləvan və on iki cəngavəri var idisə, sənin də yeddi pəhləvanın - yeddi səyyarə və on iki cəngavərin - bürcün var. Odur ki, nəinki yerə, göyə də hakimsən.

63 Dəmirdən İskəndər ayna tapdısa,
Dirilik suyunu Xızır tapdısa...

Arşimedin İskəndər üçün birinci dəmiri cilalayıb güzgü düzəltməyi və İskəndərlə Xızrın zülmətə gedib dirilik suyu axtarmalarını Nizami "İskəndərnamə" əsərində müfəssəl təsvir etmişdir.

64 Ey xoşbəxt, dilində budur hər kimin:
Sənsən sevgilisi yeddi iqlimin.
Beşinci ölkəni sən etdin abad,
Altı yurd işindən oldu xeyli şad.

Orta əsr coğrafiya elminə görə Yer kürəsinin yaşayış məntəqəsi yeddi iqlimdən ibarət olmuşdur. İran beşinci iqlimdə yerləşmişdir.

Beytlərin mənası: sən yeddi iqlimin, yəni bütün dünyanın sevimlisi və əzizisən, beşinci iqlimdə yerləşmiş İranı sən abad etmisən, qalan altı yurd - iqlim isə səndən razıdır.

65 Dörd şah əldə edib dörd bahalı şey;
Beşincisən, ömrün uzun olsun hey.

Yəni səndən əvvəl yaşamış dörd böyük şahın (İskəndər, Nuşirəvan, Xosrov Pərviz və Məlikşah) dörd böyük nemət olan dörd məşhur həmsöhbətləri (Ərəstu, Büzürgmehr, Barbəd və Xacə-Nizam əl-Mülk) olmuşdur.

66 Baş əyməz heç zaman cəzri-əsəmmə.

Cəzri-əsəmm - kar cəzr, həll edilməz cəzr deyərkən şair pərişan qəlbi, ürəyi nəzərdə tutur.

67 Bilici tacirlər çıxarkən yola
Qorucu götürər, salar sağ-sola.

Qorucu (orijinalda: şihnə) - inzibati məmur. Şair möhkəm iradəni, ağılı şihnə ilə, ehtirasları isə yolkəsən oğrularla müqayisə edir.

68 Nafə yükləyəndə hər çinli əttar
Çəkər yapışqandan ona bir hasar.

Müşkü yapışqana, kitrəyə (üfunətli kamed) bükürlər ki, onun ətri yayılmasın və oğrular xəbərdar olmasınlar.

69 Şam kimi xoşlasan gər qızıl tacı,
Gülsən də ağlarsan hey acı-acı.

Şamın alovu qızıl taca, yanarkən əriməyi isə ağlamağa bənzədilmişdir.

70 Müfərrih - hərfi mənası şadlandıran, insan əhval-ruhiyyəsini qaldıran məcun deməkdir.

71 Möhrənin məkanı şahmar ilandır.

Qədim təsəvvürə görə, ilanın başında xüsusi möhrə vardır ki, orada padzəhr yerləşmişdir.

72 Əjdaha ağzında çadıra getmə

Orijinalda misra belədir: "Əjdahanın ağzında çadır qurma" - yəni təhlükəli, qorxulu yerdə yurd salma, bilə-bilə özünü təhlükəyə məruz qoyma.





73 Milçək ki hər yerə qonur uçaraq
Ağı qara eylər, zil qaranı ağ.

Biri-biri ilə çəkişən dostlar düşmənlərlə dostluq edirlər. Elə dostlar həm ağın, həm də qaranın üstünə, yəni hara gəldi oturub, ağı qaraya, qaranı ağa bulayırlar, elə "dost"lardan uzaq ol.

74 Doğra bu dörd bəndi, et para-para.

Dörd bənd - dörd ünsür (od, su, hava, torpaq). Dörd ünsür həyatın rəmzidir.

75 Cəhənnəm qalamaz belə bəndələr,
Neft arayıb təlqi tökməzlər hədər. Təlq - odadavamlı mineral.

Bu və əvvəlki üç beytin mənası: Zəmanə o qədər pisdir ki, mənəviyyata qulluq edən adamlar hörmətdən düşüb, zahidlər sərxoşluqla, Yusiflər isə canavarlıqla məşğuldurlar. Belə bir zamanədə ya pislərə qoşulub pisliyə, alçaqlığa bəraət qazandırasan, ya da Allaha - mənəviyyata xidmət edib pis yola getməyəsən, əsil zəkalı Allah adamları bu tələyə düşməzlər. Çünki pis əməllərə qoşulmaq cəhənnəmi qalamaq, oraya neft və təlq tökmək deməkdir.

76 Bəs deyil baş əydin pula, qızıla
Saldın dörd düyünə, yeddi qıfıla?

Qədimdə padşahlar ən qiymətli daş-qaşları dördkünc kisəyə qoyub, ağzını dörd düyün bağlayıb bir-birinin içərisində yerləşmiş, hamısı qıfıllanmış yeddi sandıqda saxlayardılar.

77 Yel, qızıldan ötrü, yaxşı nəzər sal,
Gör necə eylədi laləni pamal.

Lalənin ləçəkləri qızıl pulla müqayisə edilir.

78 Zər birləşməz iki hərfdir, gerçək,
Birləşsinlər deyə nədir bu əmək?

Ərəb əlifbasında zər (qızıl) sözü biri-biri ilə birləşməyən iki samit hərflər Z və R yazılır.

79 Sarılıq azan tutsa bir gözəl,
Lacivərdi köynək geyər əlbəəl.

Sarılıq (yarağan) xəstəliyinə düçar olanlara qədim həkimlər lacivərdi, ya qara rəngli paltar geyindirərdilər. Hər iki rəng matəm rəmzi olub.

80 Üç işlək qəhrəman, qoç hambalın var,
Dördüsə evini eylər tarü-mar.

Üç hambal - heyvanlar, mədənlər və nəbatat;
Dörd evi dağıdan hambal - bir-biri ilə müxtəlif olan dörd ünsür (od, su, torpaq, hava.)

81 Səninlə zidd olan torpaqla külək
Əlifsiz yazılan xak və bəd demək.

Əlif - ərəb əlifbasının birinci hərfi y (a, ə,) bad (külək) və xak (torpaq) hər ikisi əliflə yazılır. Əlifin ikinci mənası ülfət, məhəbbət deməkdir. Əlifsiz xək - ülfətsiz, məhəbbətsiz torpaq. Bad sözündən əlifi götürəndə isə bəd əmələ gəlir, bəd isə pis deməkdir.

82 Xurma ağacına tac olan tikan
Ayrılsa, fərqi yox onun maşadan.

Yəni öz şirin xurmasından və kökündən ayrılmış xurma ağacının çubuğu ilə maşa (orijinalda: şiş) arasında fərq yoxdur.

83 Qəssab dükanının ağzında hanı
Pay alan, içmədən bir ciyər qanı?

Şair dünyanı qəssab dükanına bənzədib sübut etmək istəyir ki, insan əzab-əziyyətlərə qatlaşıb ciyərini qana döndərməyincə, bu dünyada bir loğma çörək əldə edə bilmir.

84 Başını bu küpdən çıxart, bir görək.

Küp - göy, səma.

85 Başdan yeddi kökü kəsib atmalı,
Ayağından çıxart dörd mıxlı nalı.

Yeddi köklü budaq - yeddi qat göylər; dörd mıxlı nal - dörd ünsürlü yer, yəni əsil insan maddi varlığa pərəstiş etməməlidir.

86 Həşəmlə örtülü quyu üstündən
Həsir, ya daş kimi ölü keçmə sən.

Ağzı qamış həsir ilə örtülmüş bu cismani cahanın quyusunun yanından qamış və daş kimi ölüvay keçmə, yoxsa onun quyusuna düşərsən.

87 Mən kəndxuda qaldım kənddən kənarda.
Kənddən kənar kəndxuda - idiomatik ifadədir, işi görən və vəzifədən uzaq olan deməkdir.

88 Almaz türklüyümü həbəş ölkəsi,
Olmuş xoş dovğadan məhrum cümləsi.
Beytin mənası: Mənim türk kimi gözəl, ağ əsərlərimi və özümün türk (azərbaycanlı) olduğumu qaralıq rəmzi olan Həbəşistana bənzər bu cəhalət ölkəsində qəbul etmirlər, almırlar. Türklərin milli xörəyi olan ləzzətli dovğamı yemirlər - şirin və dadlı əsərlərimi oxumurlar.

89 Simi "yey"siz əgər qoysan baş-ayaq,
Çevrilər mis olar o gümüş ancaq.
"Sim" (gümüş) sözündəki "yey" hərfini atıb samitlərin yerini dəyişdirsək, mis əmələ gələr.

90 Asimana çaşıb risman deyən...
Risman - kəndir, çatı. Asimanı rismandan seçə bilməyən - iki eşşəyin arpasını bölə bilməyən.

91 Günəşi hey çəkək aftafaya biz?!
Aftabı (günəşi) aftafaya doldurmaq, aftafada gizlətmək atalar sözüdür. Böyük həcmli, qiymətli şeyi kiçik sandıqda, mücrüdə gizlətmək kimi mənasız bir iş.

92 Eşşəyim gəlməyir, mənsə gedirəm,
Belə getməyimə şübhə edirəm.
Eşşək - cism, bədən. Yəni mənəvi varlıq bu qorxunc, xətərli dünyadan qaçmaq istəsə də, cismani varlıq, heyvani bədən buradakı həyatdan ayrılmaq istəmir.

93 Yuvam bu dünyadan düşdükdə kənar.
Yəni qəbiristanda yuva salandan sonra.

94 Fələk çox bu sayaq işlər yaratmış,
Fili sərt torpaqda xəndəklər atmış.
Beytin mənası: Yolu su aparıb, qabağın yarğanla doludur, mindiyin təkəbbür fili o yarğanlardan gecə bilməz, öz acizliyini etiraf elə. Unutma ki, fələyin fil boyda oyuncaqları var, sənin başına oyun gətirə bilər. Çərxin öz fili var və həmin fil öz ayaqları ilə yeri yarğana, quyuya, qəbrə çevirib. Belə qorxunc və dəhşətli filin qabağında sənin gülə bənzər zərif vücudun qorxmaya bilərmi?

95 Bu qoşa fillər ki, belə çarpışar...
Bu qoşa fillər - insan ömrü ilə daima vuruşmada olan gecə və gündüz, həyat rəmzi.

96 Dənizdən və dağdan borc alıb taxan
Fələklə oynaya bilməz heç zaman.
Dəryanın borcu - dürr, inci, dağın borcu - ləl, cəvahir. Yəni sən ki, özün inci, daş-qaş, ləl-cəvahir ilə özünü belə yükləmisən, fələklə necə uzlaşıb rəqs edə bilərsən, onunla necə bacararsan?

97 Mahmud təbilitək gurla gurhagur,
Sultan Mahmud Qəznəvinin (999-1030) təbili öz böyüklüyü ilə məşhur olub.

98 Tazının ağzına düşən hər şikar
Təlim gördüyüçün halal sayılar.
Şəriətə görə it murdardır, lakin təlim görmüş ov itləri təmiz sayılır və onların dişlərində gətirdikləri ov isə halaldır.

99 Abi-heyvan - dirilik suyu.

100 İkinin hasili bir olar ancaq,
Səndəki o iki Birə varacaq. Bir - yəni vahid Allah.

101 Üçdən əl çəkməsən, atmasan onu...
Üçlük - xristianlıq, onun əsasını üç ilahi təşkil edir - ata Tanrı, oğul Tanrı (İsus Xristos) və ana (Məryəm); İkilik (dualizm) - atəşpərəstliyin əsasını iki Tanrı - işıq, nur Tanrısı Ahura-Mayda (Hörmüzd), qaranlıq və fəsadın Tanrısı Anqru-Manyu (Əhrimən) təşkil edir. Bu sözlərlə şair demək istəyir ki, Allah bir olan kimi kişinin də dostu bir olmalıdır.

102 Təbim kölgələrdən görsə də xətər,
Salır kölgəsini üstümə hünər.
Birinci sətirdəki kölgə şairi kölgə kimi izləyən paxılları ifadə edir, ikinci sətirdəki kölgə isə himayə, sayə deməkdir.

103 Gövhərlə daşdakı nisbətə misal,
Olmuş Yəzdigirdlə Bəhramdakı hal.
Yəzdigird - Bəhramın atası daşla, Bəhram isə gövhərlə təşbih edilir. Yəni qiymətli gövhər göy daşdan çıxan kimi, bəzən pis adamdan da dünyaya gözəl oğul gəlir.





104 O gün ki, Bəhramın sübhü açıldı,
Qaranlıq gecəyə işıq saçıldı.
Burada Bəhram - Mars deməkdir.

105 Qəlp gümüş yerinə qızıl gördülər,
Dənizdən dürr çıxdı, daşdan da gövhər.
Bəhram anadan olan sübhçağı qaranlıq gecəyə bənzəyən Yəzdigirddən bədnamlığı apardı. Münəccimlər tez üstürlablarını götürüb ulduzları təftiş edərək Bəhramın taleyini axtarmağa başladılar. Onlar elə bilirdilər ki, onun taleyi yarı qızıl, yarı mis, aşağı əyarlı Yəzdigird kimi bir adamın taleyinə rast gələcəklər. Lakin gördülər ki, Bəhram yüzdə-yüz qızıldır və gələcəyi də saf qızıl kimi parlaqdır.

106 Taleyi Hut idi, Müştəri Hutda...
Bəhram Hut bürcündə doğulmuş, Müştəri səyyarəsinin isə Hutda olmağı Bəhramın xoşbəxt və qüdrətli olmağına dəlalət edir.

107 Laləyi-Nemani olsun o yarpaq,
Laləyi-Nemani - anemon - qızıl lalə, əsməgülü.

108 Fələyə usturlab ənkəbutunun
Telindən tor hörmüş nəzəri onun.
Üstürlab - astrolyablya. Qədimdə ulduzların yerləşdiyi yüksəklikləri və s. bu alət vasitəsi ilə ölçərdilər. Ənkəbut - hörümçək - üstürlabın əsas hissələrindən biri.

109 Ağın, həm qaranın oldu qibləsi,
Ağ və qara - gecə və gündüz.

110 Təngülüşasıydı yüz min xəyalın,
Təngluşa - Luşanın kitabı. Babil münəccimi Tevkr Babilini (I ə.) farsca Luşa adlandırıblar. Luşa günəşin (ekliptika) və ulduzların (zodiak) hərəkəti haqqında məşhur kitabın müəllifidir. Nadir miniatür, nəqş, ulduz və bürclərin şəkilləri ilə bəzədilmiş həmin kitab Şərqdə böyük şöhrət qazanmış, əsrlər boyu gözəllik xəzinəsi sayılmışdır.

111 Düşsəydi üstünə günəşin nuru,
Yumardı gözünü cənnətdə huru.
Günəşin şüaları qəsrin hamvar, cilalanmış divarlarında əks olub, düz cənnətə çatır və hurilərin gözlərini qamaşdırırdı, hurilər də məcbur olub gözlərinə örtük salırdılar.

112 Sirişüm - yumurta sarısından düzəldilmiş yapışqan.

113 "Yox, Çin bihandır", - dedi təbiət.
Cin bihan - qızıl, bürünc büt və əlvan naxış və rəsmlərlə bəzənmiş Çin bütxanələri, gözəllik rəmzi. Bihar hind sözü vihardan əxz edilmiş və məbəd deməkdir.

114 Bir də qayıtmadı öz xanəsinə,
Keyxosrov kəsildi zəmanəsinə.
Firdovsinin "Şahnamə"sinin əsas qəhrəmanlarından biri olan İranın qüdrətli və əzəmətli şahı Keyxosrov öz şahlığının çiçəklənən çağında hakimiyyətdən imtina edib qarda, çovğunda, boranda dağlarda yox olur.

115 Həndəsə xəttinə əməl edərdi,
Minlərlə Məcisti o həll edərdi.
Bu beyt onun məharətli münəccim olmağına işarədir.

116 Zic - təqvim, astronomiya cədvəli.

117 Çövkənbaz fələyin topunu aldı,
Göylərə qalib gəlirdi, günəşi belə top kimi öz çövkənınə salırdı.

118 Necə ki, Süheyldən parlayar dəri,
Əsatirə görə, Yəmən ulduzu Süheyl (Kanonus) o ərazinin nemət mənbəyidir. Dünyada şöhrət tapmış ən incə dəri olan ədim guya Süheylin şüaları sayəsində xamlığını itirib qırmızı şəffaf rəng alır. Beytin mənası: Bəhramın Süheylə bənzər parlaq üzü Yəmən torpağına işıq saçanda Münzirin üzü ədim kimi sevincdən qızarırdı.

119 Qapardı sürətlə yol gedən zaman
O, topu Günəşdən, qürsü də Aydan.
Burada Günəş çövkənin topuna bənzədilmişdir. Qürs isə Ayın çevrəsi deməkdir.

120 Boynuna saldığı sanma zünnardı,
Üzündə gül rəngli duvağı vardı.
Onun qırmızı zünnara bənzər boyunbağısı - zolağı, gül rəngli duvağı teli vardı.

121 O başqa gurlardan, sağrısı ondan
Gözəllik topunu almışdı, inan.

O, bütün gurlardan, onun sağrısı, ombası isə onun özündən, yəni bütün bədənindən gözəllik topunu udmuşdu. Başqa sözlə, o, bütün gurlardan gözəl idi, sağrısı isə bədəninin ən gözəl yeri idi.

122 O atəşdi, odla qohum misaldı,
Dərviş paltarında bir mahcamaldı.
Dərvişlər adətən dəri geyirlər. O gur otla bəslənib, otla qohumluq edən bir şölə, od-alov idi; o gur dərviş paltarı geymiş bir gülcamal, bir gözəl idi.

123 Belində qaralan o dəri qaytan
Bağlamış cidovu hər iki yandan. Cidov - çarpaz bağlı.
Gurun ombası yəhərə və qara zolaq isə yəhəri gurun belinə bağlayan qayışa (kəmərə) bənzədilmişdir.

124 Tismə - nazik, uzun qayış.

125 Oynardı tisməli hoqqabazlartək.
Şairin zamanında zənci hoqqabazları tismə ilə müxtəlif oyunlar göstərərmişlər.

126 Quyruğu belindən ayrılmazdı heç,
Boynu dırnağıyla kəsilmişdi ləc.
Yəni quyruğu ilə sağrısına qonan milçəkləri qovar, ayaqlarının dırnaqları isə boynunu, qulaqlarını qaşıyardı.

127 Gurxan hey çapırdı, guru qovurdu.
Bəhram Çin türkləri gurxanilərə qalib gəldiyi üçün ona Gurxan ləqəbi vermişdilər. Şair həmin adın şairanə etimologiyasını izah edərək demək istəyir ki, o, Gurxan yox, gurların xanı idi.

128 Çinin o yüz gözəl nigarıstanı...
Çin nigarıstanı - Çindəki budda və Mani məbədləri. Nigarıstan - bütxana deməkdir, bu sözün kökü nigaştən - "al-əlvan cizgilərlə" bəzəmək, şəkil çəkmək felindən əmələ gəlmişdir. Nigar - al-əlvan cizgilərlə bəzənmiş deməkdir.

129 Hər biri bir elin parlaq ülkəri.
Aşağıda adları çəkilib təsviri verilən gözəllər yeddi elin - ölkənin gözəlləri deyil, dünyanın yaşayış məntəqəsini təşkil edən yeddi iqlimin (hər iqlimə onlarca ölkə daxildir) gözəlləridirlər.

130 Çinin xaqanının qızı Yağmanaz...
Nizami poeziyasındakı Çin müasir coğrafi Çin demək deyildir. Çin deyərkən şair Şərqi Türküstanı nəzərdə tutur, türk sözü isə Nizami lüğətində gözəllik, ağlıq, nəciblik rəmzidir. Təraz (indi Talas), Yağma, Xotən həmin Türküstan Çinində yerləşmiş şəhərlərdir və öz gözəlləri ilə məşhur olublar.

131 Müşki xətdən almış zinət qəməri.
Yəni onun qəmər - ay üzündə müşkə bənzər xətlər - tüklər yenicə çıxmışdı.

132 Yeddi qardaş - yeddi planet.

133 Əqiqə firuzə naxışı saldı.
Yəni əqiqə bənzər bədəninə firuzə - yaşıl rəngli libas geyindirdi. Yaşıl, göy rəng abbasilər sülaləsi hakimiyyətdə olan zaman (750-1258) matəm rəmzi olmuşdur. Həmin rəngi şair sasanilərə də aid edir.

134 Göy yerə enməyə göstərməkdə meyl,
Başını qaldırmış Yəməndən Süheyl.
Göy - Bəhram, yer - İran, Süheyl - Bəhram. Beytin mənası: Yəməndə yaşayıb Yəmən ulduzu Süheylə bənzəyən və göylərə ucalan Bəhram İrana yürüş edib onu cəzalandırmaq istəyir.

135 Kəsdilər kökünü dikbaşlılığın...
Yəni böyük xətər qarşısında dikbaşlılığı atıb məsləhətləşməyə və çıxış yolu axtarmağa başladılar.

136 Arasında o tac qara şirlərin
Bir aydı ağzında iki əjdərin.
Qədim təsəvvürə görə, Ay tutulanda guya onu əjdaha udurmuş, odur ki, əjdahanı qorxudub Ayı onun ağzından çıxarmaq üçün mis teşti, ləyəni döyərək səs-küy salarlarmışlar.

137 Əsəddə qurmuşdu taleyi taxtı,
Sabitdi, möhkəmdi olduqca baxtı.
Yəni Bəhramın taleyi öz taxtını Əsəd - Şir bürcündə qurmuşdu, bu isə qüdrət rəmzidir.

138 Ütarid ülkəri ona bir eşdi.
Ütarid (Merkuri) planeti Günəşə yaxınlaşmışdı, bu isə qədim astroloqların nəzəriyyəsinə görə səadətə dəlalət edir.

139 Zöhrə Surə keçdi, Müştəri qövsə,
Bu ev ziynətlənib, döndü firdovsə.
Zöhrə (Venera) planeti Sur (Öküz) bürcü, Müştəri (Yupiter) isə Qövs bürcünə yaxınlaşmağı şənlik, çalıb-oynamaq, nemət bolluğu, rifah əlamətidir. Firdovs behişt, cənnət deməkdir.





140 Hilal onda idi, altıda Bəhram.
Hilalın - təzə ayın onuncu bürcdə, Bəhramın (Marsın) altıncı bürcdə olması həm ziyafət, şənlik, xoş güzəran, həm də müharibə əlamətidir.

141 Uzadıb əlini Zühəl Mizana,
Toplamışdı xəznə yerdən Keyvana.
Zühəl (Saturn) planetinin Mizan bürcündə olması varlıq əlamətidir. Odur ki, Bəhramın var-dövləti sanki yerdən Keyvana (Saturna; Zühəl ərəbcə, Keyvan isə farsca Saturn deməkdir) qədər ucalırdı.

142 Qaradan, ağdan çox nə ki, yaşayan
Var, məndən görəcək ədalət, aman.
Qara və ağ - gecə və gündüz, dünyanın rəmzi, yəni gecə və gündüzdən ibarət olan bu dünyada nə qədər adam var, məndən ədalət görəcək.

143 Dirəmdə sikkələr mindi qərara.
Dirəm - dirhəm sözünün müxəffəf şəkli. Dirhəm gümüş pul deməkdir, yəni pul dəyərə mindi, öz qiymətini tapdı.

144 Bir kor istəsəydi, dam üstü, əgər,
Reydən İsfahana edərdi səfər.
Yəni o qədər abadanlıq saldılar ki, Rey (indiki Tehran) şəhərindən İsfahana qədər korlar damların üstü ilə gedə bilərdilər.

145 Sur bəxti tapmışdı onda zamana;
Zöhrə sahib idi onda dövrana.
Zöhrə (Venera) - çalğı, rəqs və şənliyin hamisidir. O, Sur (Öküz) bürcündə qərar tutanda Yer üzündə həm səbitlik, firavanlıq, həm də çalıb-oynamaq, şənlik, ziyafət məclisləri, eyş-işrət bərqərar olur.

146 Qövsdə yerləşir parlaq Müştəri,
Müştəridir onun qövsünün yeri.
Qövs həm bürcün adı, həm də kaman deməkdir. Müştəri planetinə xoşbəxtlik gətirən Qövs bürcüdür. Yəni Müştəri kimi əzəmətli olan Bəhram öz kamanının (qövsünün) oxunu Müştəri planetinə tərəf atdı ki, Qövslə Müştəri yaxınlaşıb ona səadət gətirsin.

147 Günəş Surda olar bahar zamanı,
Suru dolandıran ay varmı, hanı?
Bahar fəslində Günəş Öküz və Buzov bürclərində mənzil salır, məcazi mənada: Günəş Buzovu öz çiynində aparır. Şair çox gözəl obraz yaradıb, dolayı yolla Fitnəni Ayla, divanı isə Öküz bürcüylə müqayisə edir. Beytin mənası: Bahar fəslində çiynində buzov gəzdirən Günəş görmüşdük, amma buzov gəzdirən Ay görməmişdik, eləsi varmı?

148 Xizran boyu verdi gözəl laləyə.
Onun sərvə və xizrana (qamışa) bənzər qamətinin üzərində üzü piyalə içərisindəki al şərab və lalə kimi allanırdı.

149 Verdi vücuduna yeddi rəng bəzək,
Keçmiş zamanlarda qadınlar özlərinə bəzək vermək üçün yeddi rəngdən istifadə edirdilər: xına, basma, sürmə, ənlik, kirşan, qaliyə və zərvərəq.

150 Hindlitək üstünə atıldı həman.
Yəni hindli qarətgərləri xəzinə üzərinə atılan kimi Bəhram Fitnənin üstünə atıldı.

151 Balıqdan başlayıb yetişdi aya.
Mahi - balıq, mah - Ay. Bu sinonim sözlərdən istifadə edərək şair xüsusi ifadə yaratmışdır. Balıqdan Aya qədər, yəni yerdən göyə qədər. (Yeri öz üzərində saxlayan əfsanəvi balıq nəzərdə tutulur.)

152 Künc-bucaqda öldü sarıqulaqlar,
Onları qara su, bax, belə udar.
Sarıqulaqlar - pozğunlar, xəbislər, alçaqlar; qara su - gözü kor edən göz xəstəliyi. İkinci mənası isə tufan deməkdir.

153 Üç yüz olsalar da igidlər, ancaq
Onları yaşadan bir hiss, bir otaq.
Nizamidə beytin mənası belədir: yüz adam yaşayan bir evdə adətən iğtişaş olar, amma Bəhramın süvariləri bir nar içində yerləşmiş nar dənələri kimi bir-birləri ilə yekdil və həmrəng idilər.

154 Xaqanla Bəhramtək vuruşdu Bəhram.
Bəhram - Mars planetinin qədim adıdır, Mars isə müharibə ilahəsi sayılır.

155 Oxdan azad oldu dəyənin canı.
Yəni ox kimə dəyirdisə, onu deşib bədəninin o biri tərəfindən çıxırdı xilas olurdu.
156 Qorxudan ödünü Zöhrə qusurdu.
Zöhrə (planet) və zəhrə (öd) omonimlərdən mahiranə söz oyunu düzəldilmişdir. Yəni Bəhram o qədər qan tökdü ki, Zöhrənin qorxusundan bağrı yanıdı və öd qusdu.
157 Əjdər - burada nizə deməkdir.
158 İrəc, Araş, Kiv - Firdovsi "Şahnamə"sinin qəhrəmanları.
159 Nə ağ görmüş, nə də qara görmüşdür.
Ağ və qara - gecə və gündüz, yəni nə qədər gecə və gündüz gəlib-gedibsə, şahın göstərdiyi bu qəhrəmanlığı görməmişdir.
160 Balıq belə olsa aya yetişər.
Yəni şahın taxtı o qədər ucadır ki, o, üzərində Yer durmuş balığın üstündən Aya qədər yüksəlir. Balıqdan Aya qədər idiomatik ifadədir, yerdən göyə qədər məfhumunu əvəz edir.
161 Qılınc - Hindustani, geyim - Davudi,
Saxa gəmisinə yer oldu cudi.
Əfsanəyə görə, Nuh peyğəmbərin gəmisi cudi dağında (indiki Ağrı) tufandan kənara çıxmışdı.
Beytin mənası: Bəhramın səxavət gəmisi adları mətndə çəkilən (müşkənbəri, hindi qılıncları, paltarları və s.) Nemanın cudi dağı kimi yüksək olan vücuduna tərəf apardı.
162 Şüştər - İranın cənubunda Xuzistan vilayətində yerləşmiş ən qədim şəhərlərdən biri. Ticarət mərkəzi olmuş bu şəhərin gəliri dillər əzbəri olmuşdur.
163 Qarğa oğurlayıb bülbül səsini,
Oxurdu "oğru var" nəşidəsini.
Qarğalar bülbüllərin səsini oğurlayıb oğrular kimi: "Oğrunu tutun" deyə qar-qar qarıldayırdı.
164 O hindu cinslidir, bunu yaxşı bil,
Hindlidə oğurluq təəccüb deyil.
Hindli - klassik poeziyada oğurluq, qaralıq və keşikçilik mənasını ifadə etdiyi üçün qara qarğalara bənzədilmişdi.
165 Sərt soyuq atəşi tabdan salırdı,
Su qılınc, qılınc su şəkli alırdı.
Şair burada tiğ sözünün omonimiyasından istifadə edib poetik məzmun yaratmışdır. Tiğ həm qılınc, həm də günəş şüası deməkdir.
Beytin mənası: Soyuqdan su donub buz olur və qılınc kimi kəskin olurdu,
Günəşin qılıncı - şüası isə donub şehə dönürdü, su olurdu.
166 Fələk sincab, qaqum bürünmüşdü dağ.
Göylər sincab rəngli boz buludlarla dolmuş, dağlar isə qaqum dərisi kimi ağ və yumşaq qarla örtülmüşdü.
167 Boyatma qüvvəsi düşüb duzağa.
Yəni bitkilər boyatma qüdrətini itirib başlarını yerə endirmiş, elə bil namaz qılırdılar.
168 Öz kimyası ilə iki rəng cavan
Daşda od lalini eyləmiş nihan.
Əməlləri məchul, başa düşülməz kimyagər ağlı və qarlı, yəni gecəli-gündüzlü cahan odu ləl kimi daşın ürəyində gizlətmişdi, odur ki, ətrafda istilikdən əsər-əlamət yox idi.
169 Qızılgül kürəni etmişdi otaq.
Hikmət palçığından çəkmişdi suvaq.
Burada gülab çəkilməsi nəzərdə tutulur. Suvaq - hikmət gili - kimyagər və zərgərlərin kürənin döşəməsinə yaydıqları gil. Yəni gül hikmətin hökmünə görə şaxtanın təhlükəsindən xilas olmaq üçün köhnə kürədə gizlənib və kürənin ağzını çox möhkəm olan hikmət gili ilə suvamışdır. Bəzi nüsxələrdə kürə əvəzinə kuzə yazılmışdır, bu mətnə daha uyğun gəlir, çünki gülab kuzədə yox, kürədə çəkilir, çünki gülabı yazda-yayda çəkərlər. Mətndə aydın şəkildə deyilir ki, vaxtilə çəkilmiş gülab ağzı hikmət gili ilə bağlanmış küplərdə, kuzələrdə gizlənmişdi.
170 Tabxana - süni surətdə qızdırılan böyük otaq, zal.
171 Alovdur nəşənin, keyfin dayağı,
Zərdüştün qırmızı kükürd ocağı.
Kükürd ocağı - zərdüştilərin müqəddəs atəşi. Bu və bundan sonrakı beytlərdə şair səndəl və uddan (aloe) qalanmış ocağı zərdüştilərin atəşinə, laxtalanan qana, qana batmış al-qırmızı ipəyə, innaba, şəngərfə, qızarmış kömür parçaları qara özəyi çıxarılmış və onun yerinə nar dənələri doldurulmuş almaya, yarı yanmış, yarı qaralmış səndəl qırla boyanmış kəhrəbaya, müşklə niqablanmış günəşə bənzətmişdir. Kömürün alovlanmamış qara hissəsi zülmətə, qızarmış hissəsi isə nura, şəfəqə təşbih edilmişdir.





172 Bir türkdü, rumluydu əsil-nəsəbi,
Hindlilər göz nuru vermiş ləqəbi.
Birinci sətirdə ocağın şöləsi ilə Rum - Kiçik Asiyada yaşayan alyanaqlı ağ türklər ilə müqayisə edilir. İkinci sətirdə hindlilər deyərkən VII əsrdə İrandan Hindistana qaçmış, indiyə qədər də orada yaşayan zərdüştilər - atəşpərəstlər nəzərdə tutulur. Zərdüştilər odu göz işığı kimi sevirdilər.
173 Yunisin məşəli, kəlim çırağı,
İsanın bəzmidir, İbrahim bağı.
Əfsanəyə görə, Yunis peyğəmbər dəryada naqqanın qarnında yaşadığı vaxt əlindəki çırağın işığı ilə dəryanı görərmiş. Kəlim - yəni Musa Sina dağında tonqal yananda göylərə qalxmış və Allah tərəfindən qəbul edilmiş. İbrahim peyğəmbəri müstəbid Nəmrud şah qalanmış kürəyə atdırarkən kürədəki alov-od sönüb güllü-çiçəkli bağa çevrilmişdi. İsa peyğəmbərə qonaq gələndə heç nəyi olmadığı üçün onlara yalnız çırağının işığını təklif edərmiş.
174 Nəzər sal gövhəri qızaran közə,
Al, sarı, göy rəngli nur verir gözə.
Qədim təbabətə görə, üç çalarlı (sarı, qırmızı və mavi) yaqut gözün işığını artırır.
175 Odun vətənidir, cəhənnəm, cənnət
Ondan işıq alıb, bundan hərarət.
Beytin mənası: Odun hərarəti, yandırma qabiliyyəti cəhənnəmdən, işığı, nuru isə cənnətdən gəlib.
176 O bir cəhənnəmdir atəşpərəstə,
Günahsızlar üçün yoldur behiştə.
İslam təliminə görə, xristianların və başqa dinə qulluq edənlərin hamısı cəhənnəmə vasil olacaq və cəhənnəm odunda yanacaqlar. Mömin müsəlmanlar isə sırat əl-müstəqim körpüsündən keçəndə cəhənnəm onlara uzaqdan əlvan, çırağban bir bağ kimi görünəcəkdir.
177 Zərdüşt "Zəndi" ona nəğmələr saçar,
Muğlar pərvanətək xirqələr açar.
Zərdüştilər - atəşpərəstlər atəşgahlarda öz müqəddəs "Zənd-Avəst" kitabından atəş ətrafında dini nəğmələr oxuyardılar.
Xirqə - ən kobud parçadan tikilmiş yamaqlı əba, sufilərin rəsmi geyimi. Burada müqəddəs libas simvolu kimi işlənmişdir.
Muğ - (qədim fars dilində maqu) - atəşpərəstlərin kahini.
Muğlar atəşgahlarda atəş ətrafında oxuyub ritual rəqs edərkən bəzən hala (ekstaza) gəlib öz qaftanlarını (xirqələrini) yandırarlarmış.
178 Qırmızı şərabla dolu büllur cam
Quru su içində yaş oldu tamam.
Beytdə aksimaron deyilən poetik fiqur vasitəsi ilə çox gözəl və nadir obraz yaradılmışdır. Şərab quru suya və atəşə bənzədilmişdir. Ona görə ki, o büllura və içiləndən sonra isə atəşə oxşayır.
179 Gurgözlülər - iri, gözəl gözlü gözəllər.
180 Sipehr - göy, səma, fələk.
181 Şidə - Xürşid sözünün ikinci hissəsini təşkil edən Şid sözündən alınmış və parlaq deməkdir.
182 Günlərin birində böyük sənətkar
Bəhramın əlindən aldı şirin bar.
Bəhram - Mars planeti, yəni həm Bəhram-Gurun, həm də onun hamisi olan və qədim, şəmsi (günəş) təqvimində hər ayın iyirmisində aydın və parlaq görünən Bəhramın (Marsın) əlindən şirin bar - xeyir-dua alıb işə başladı.
183 Şəmmas məbədindən çıxıb kənara,
Abbasilər kimi geyinib qara...
Şəmmas - hərfi mənası günəşə qulluq edən deməkdir, rəvayətə görə, atəşgah tikən atəşpərəst olmuşdur.
Şəmmas məbədi - atəşgah.
Abbas (Əbbas) - Məhəmməd peyğəmbərin əmisi (653-cü ildə vəfat edib), Əbbasilər xilafəti onun adı ilə bağlıdır və həmin sülalənin şüarı qara rəng olmuşdur. Abbasın qara diyarı - qara günbəd.
184 Şahın beş növbəti - söylədi, gəlin, -
Dörd balışı üstdə ayın səslənsin.

Beş növbət - şah sarayının qabağındakı meydançada gündə beş dəfə çalınan şeypur və nağara nəzərdə tutulur, əzəmətli şahlığın rəmzi olub.
Dörd balış - dörd ünsür. Qədim təsəvvürə görə, dörd ünsür Ayın yerləşdiyi sferada dörd balış şəklində yerləşir və Ay da onlara dirsəklənir.
Beytin mənası: Qoy Ay həmişə dörd ünsürə yox, şahın beş növbəsinə arxalansın, yəni şah əbədi yaşasın.
185 Qaranın sirriylə məni et tanış.
Mətndə: "Mənə qır və Qeyruvandan xəbər ver" yazılmışdır.
Qeyruvan - Afrikanın qədim şəhərlərindən biridir, VII əsrdə salınmışdır, indiki Tunisdə yerləşmişdir. Lakin burada sözün lüğəvi mənasında işlədilmişdir - qır ölkəsi deməkdir, "Qır və qır ölkəsindən xəbər ver" - zərbülməsəldir, əsil mətləbə keç deməkdir. Mətndə çox yerində işlədilib, qara geyinənlər və qaralar ölkəsi nəzərdə tutulur.
186 Adamları çəkmiş müşkidən ələm.
Yəni evlərin qabağında qara rəngli bayraq sancmış və qara geyinmişdilər.
187 Gülün dodağını dişlər yasəmən,
Kasıb ərğəvanın dilini çəmən.
Yəni yasəmən gülün ləçəklərinə dəyirdi; Ərğəvan çiçəkləyəndə yarpağı olmaz, ərğəvanın dili deyərkən onun yarpaqları nəzərdə tutulur. Yəni çəmənzar o qədər gözəl və yaşıl idi ki, ərğəvanın yarpaqları utandığından göyərib çıxmırdılar.
188 İrəm "Arami-dil" söyləyir ona.
O bağ o qədər gözəl idi ki, hətta əfsanəvi cənnət bağı - İrəm ona "Arami-dil", yəni "ürək rahatlığı" deyirdi. "Arami-dil" həm də nəğmə adı olub. Belə halda məna bir az dəyişir: İrəm bağının gözəlliyinə vurulub, ona "ürək rahatlığı" nəğməsini oxuyurdu.
189 Minu - cənnət.
190 Rahi-reyhan idi hər şux novrəstə.
Rahi-reyhan - gül ətirli və gül rəngli badə, şərab. Rahi-reyhanın luğəvi mənası reyhan ətri deməkdir. Rah, reyhan, ruh - üçü də ərəbcə bir kökdəndir və bundan istifadə edərək şair çox gözəl obraz yaratmışdır.
191 Dəyər xuzistana ləli onların.
Xuzistan vilayəti (İranın cənubunda) qədim zamanlardan öz şəkər və qəndi ilə məşhurdur. Şair deyir ki, onların al lələ bənzər dodaqları o qədər şirin idi ki, Xuzistanı utandırırdı.
192 Rum, zənci qoşunu qabaqda, dalda,
Bir özgə fikirdə, özgə xəyalda.
Yəni rumlu türklərə bənzər ağ və al yanaqlar öndə, onların arxasında isə zəncilərə bənzər qara qıvrım geysular gedirdilər.
193 Torpaq olsan, suyam, əllərini yu!
Burada torpaq - qul, müti mənasındadır.
194 Şəbdizin nalı qoy alovda qalsın.
Nalı atəşdə (kürədə) qoymaq - qədimdə bir növ cadu olub ki, onun vasitəsi ilə məşuqu əfsunlamaq və ram etməyə çalışarmışlar.
195 Sən Xəllux əhlisən, mənsə həbəşəm.
Xəllux - qədim Türküstan şəhərlərindən biri, öz ağ türk gözəlləri ilə məşhur idi. Həbəşistanda yaşayanlar isə ədəbiyyatda qaranlıq və çirkinlik rəmzi olublar.
196 Qum səp, fərş üstünə axıt qanımı.
Fərş (əslində nət) - dəridən, göndən düzəldilmiş cəllad xalçası. Şahın hüzurunda qəsrdə məhkumun boynunu vuranda nəti salıb üstünə də qum tökərlərmiş ki, qan döşəməni bulamasın; nətin ikinci mənası isə adi örtük, nazik dəridən - ədimdən qayrılmış xalça. Torktaz Torknazdan xahiş edir ki, ya oturduqları fərşin üstündə onunla oynaşsın, ya onun boynunu vursun.
197 Balıq beli hara, sümüyü hara?
Balığın beli adətən qara və ən yeməli yeri olur, onun onurğa sümüyü isə ağ olur, yeməli olmur.
198 Əjdərdən qurtardı, ilanı vurdu.
Kənizlə yatmaqdan vaz keçib ehtiras qapısını öz-özünə bağladı, şəhvət ilanını öldürüb ayrılıq, hicran əjdahasından xilas oldu.
199 Şəkər səpələdi o təzə gülə.
Şəkər səpələdi - yəni şəkər kimi şirin söhbətə başladı.
200 Dedi: "Təsdis idi Zöhrəyə məkan,





Evdə oturmuşdu Bilqeys, Süleyman".
Təsdis - altı bucaq. Zöhrənin təsdisdə - yəni altı planetin ortasında oturması məhəbbət və xoşbəxtlik rəmzidir.
Beytin mənası: Məhəbbətlə əhatə olunmuş Zöhrə altı planetin arasında oturan kimi Bilqeys Süleymanla oturmuşdu.
201 Gül kimi qurtardım yadlar əlindən.
Yəni: Gül kimi başqalarının əlində gəzməkdən xilas oldum.
202 Pişva - rəhbər, öndə gedən, qabaqcıl.
203 Balıqdan ayadək - yerin altından göyə qədər.
204 Kimsə bundan sonra qoy ox atmasın,
Qarının yayına atsa çatmasın.
Yay (kaman) - donqar bel. Yəni heç kimin oxu qarının donqar belinə dəyib onu yaralaya bilməsin.
205 Belə bir hiyləyə şah məhəl qoydu,
Kərpici belə bir qəlibə uydu.
Şah başa düşdü ki, həmin hiylə vasitəsilə onun qurduğu tədbir qəlibı onun istədiyi kərpici verəcəkdir. Yəni o, öz məqsədinə nail olacaqdır.
206 Qarının təndiri batsdır buna.
Əsatirə görə, Nuh tufanı bir qarının təndirindən başlayıb.
Beytin mənası: Kəniz öz-özünə fikirləşdi ki, Nuh tufanı qarının təndirindən başladığı kimi onun başına gələn müsibətin səbəbi də onların evinə gəlib-gedən qarıdadır.
207 Mənə müzəvviri göstərdi tədbir.
Yemədən xeyir etdi mənə muzəvvir.
Müzəvvir - xəstələr üçün əvəlik və kududan hazırlanan xüsusi şorba.
Beytin mənası: Qarı mənə dedi ki, başqa bir kənizdən özünə yalançı bir müzəvvir hazırla. (Yəni başqa bir kənizlə yalandan eşqbazlıq et), mən də hazırladım və o müzəvviri - xəstə xörəyini yeməmiş (yəni o kənizə əl vurmamış) sağaldım.
208 Həməl bürcü etdi günəşimi şad,
Bərdi-əcuzi, de, necə edim yad?
Günəş Həməl bürcündə bahar fəslində qərar tutur.
Bərdi-əcuz - qarı şaxtası - qışın axır ayındakı şiddətli şaxta, boz ay şaxtası. Yəni indi mənim Günəşim sənin vüsalının Həməl bürcündə - bahar fəslində şadlanan bir zamanda qışın şaxtasından nə qorxum ola bilər?
209 Zəfəran sandır, aldırma, burax,
Onu yeyənlərin şadlığına bax!
Qədim təbabətə görə, zəfəran gülmək gətirir və bütün dərdlərə dərmandır.
210 Sarıydı Musanın danası, əlbət,
Çox verdilər ona, odur ki, qiymət.
Musanın danası - Tovratdakı "Qızıl dana", Musa peyğəmbər öz icmasını - yəhudiləri Misirdən xilas edib Fələstinə gətirdikdən sonra onun ümmətinin bir hissəsi tövhidi (monoteizmi, tək ilahiliyi) unudub, qızıldan bir dana düzəldib ona bir büt kimi sitayiş edirlərmiş. Musa o bütü məhv edib.
211 Sarı gil ən baha qiymətə gedər.
Sarı gil - qədimdə sabunu əvəz edən, hamamda yuyunmaq üçün istifadə olunan gülabda yoğrulmuş əla növ gil.
212 Yaşıl çıraq kimi parlaq göründü,
cənnət mələyi tək yaşıl büründü.
Yaşıl çıraq (səba çerağ) - təzə, nurlu, şöləsinin ucu yaşıl parlaq çıraq. Dini əsatirə görə, mələklər yaşıl paltar geyirlər və həmişə yaşıl bağda yaşayırlar.
Beytin mənası: Bəhram yaşılı yaşıl üstündən geyib yaşıl çıraq kimi parladı.
213 Qan aldı boynuna o gözəl pəri.
Yəni Bişr kimi aşiqi öz gözəlliyi ilə öldürüb, onun qanını boynuna götürüb tələsik evə qaçdı.
214 Alimlər ki bilir, on ikicə fənn
Onlardan mükəmməl bilən mənəm, mən!
Orta əsr müsəlman ölkələrində elmül-ədəb, yəni ədəb elmi 12 fəndən (Quran, hədis, təfsir, ədəbiyyat, əruz, coğrafiya, tarix, inşa, xəttatlıq və s.) ibarət idi.
215 Torpaq quyusuna gətirdi onu.
Torpaq quyu - qəbir, yəni su quyusundan çıxarıb qəbrə apardı.
216 Kargah - Emalatxana; burada Allahın emalatxanası nəzərdə tutulur.

217 Oldu sırğalının həlqəbəguşu.
Bişr qulağı sırğalıya elə vurulmuşdu ki, ona qulağı halqalı qul oldu.
218 Xüsuf - Ay tutulması. Ayın nöqsana, qaranlığa düçar olması. Ay tutulanda guya onu əjdaha udur; burada Məlixa əjdahaya, arvadı isə Aya bənzədilmişdir.
219 Qalxdı Şənbəliddən süsən yarpağı.
Şənbəlid - vəhşi zəfəran. Məlixa öz libasında yəhudi nişanı olan sarı rəngli qiyar (yəhudilərin öz paltarlarına tikdikləri sarı rəngli parça) gəzdirdiyinə görə şənbəlidə, vəhşi zəfərana, Bişr isə pak, xeyirxah və ismətli olduğu üçün ağ rəngli süsənə bənzədilmişdir.
220 Dey ayında günlər gödəkdir, gödək,
Bir gün çox qısaydı Tir gecəsitək.
Dey ayı - şəmsi (günəş) təqviminin onuncu ayı, dekabrın 22-dən yanvarın 22-nə müvafiq gəlir; Tir - şəmsi təqviminin dördüncü ayı, iyunun 22-dən iyulun 22-nə uyğun gəlir.
221 Əqiqdən dürr etdi hüzura şabaş.
Yəni o, öz əqiqə bənzər al dodaqlarından dürr tökməyə başladı.
222 Qənd həsəd aparıb şirin dilinə,
Təng olun dönmüşdü incə belinə.
Beytin əsli beladir: O gözəlin şəkərə bənzər ağzı o qədər zərif və dar idi ki, şəkər dağının ürəyi həsəddən onun incə və dar kəmərinin halqasından da dar olmuşdu.
223 Dilfərib - könül aldadan, məftun edən, cazibədar gözəl.
224 Ruyindiz - İndi Rəvandüz deyilən keçmiş Ruyin-Dej qalası. Marağanın yaxınlığında yerləşmiş həmin qədim və alınmaz qala Marağa hakimi Körpə Arslanın qərargahı idi. Ruyinduz bürünc qala deməkdir.
225 Suya sədəf kimi düyünlər vurar.
Sədəf adi yağış damlasını tutub öz içində düyünləyərək dürrə çevirən kimi onun qələmi də kağıza dəyən kimi inci kimi qiymətli naxışlar yaradır.
226 Lö-lö - inci, dürr.
227 Zöhrəylə Süheylə kəbin kəsdilər.
Zöhrə (Venera) - slavyan qızı, Süheyl (Yəmən ulduzu) - müdrik cavan.
228 Mühəvvəl - həvalə edilən, tapşırılan.
229 Gecə müşkdən bir ələm çəkəndə,
Qır alıb gümüşə qələm çəkəndə...
Yəni gecə müşk kimi qara bayrağını qaldırıb gümüş tək ağ gündüzün üzünü qır kimi qara qələmlə qaralayanda onlar keyf məclisinə başladılar.
230 Gecə şahı - Ay.
231 Xoruz nağara tək səs-səsə qatdı,
Səhər zər təbili dərəyə çatdı.
Xoruzun səsi nağara səsi kimi göylərə ucalanda, günəşin qızıl təbilinin səsi ucalıb dağa, dərəyə çatanda, yəni səhər açılanda.
232 Açarsız zindana döndü o dostlar,
Gözdən işıq kimi söndü o dostlar.
Yəni açıq zindandan məhbuslar yox olan kimi, cinlər də yox oldular.
233 Durdu tum səpməyə kəndlilər kimi...
Kəndlilər yerə toxum səpən kimi Mahan ətrafına söz səpərək yaltaqlıq etməyə başladı.
234 Dedi: - Lahövl oxu, özünə bir an...
Lahövlə dəhşətli və qorxunc bir hadisə görəndə oxunulan məşhur ərəb formulasıdır: "La haulə va la qüvvətə illa billah il-Azim" (Əzəmətli Allahdan başqa heç kimsədə qüdrət və qüvvət yoxdur.)
235 Zəbani - cəhənnəm məmuru.
236 Şax-şana - çırtıq vurmaq, əl çalmaq.
237 Dörd ayağı vardı, iki qanadı,
Yeddi başı görcək ağlı oynadı.
Halqa kimi bizi bürüyən fələk
Yeddi baş əjdərdir, heyrət nə demək?
Beytin mənası: Bizim dövrəmizi kəmər kimi qurşaqlamış göyün yeddi baş əjdaha olması heç də təəccüblü deyil. Əjdahanın iki qanadı - gecə və gündüz, dörd ayağı - dörd ünsür və yeddi başı - yeddi qatdan ibarət olan göy. Əjdaha deyərkən şair cismani həyatı, təbiəti nəzərdə tutur.





238 Məzacımda mənim sevda var, gerçək,
Havalar qupquru, yol kimsəsiz, tək.
Sevda - qara malxulya (melanxoliya) xəstəliyi, hava çox quru olanda şiddətlənir.
239 Quyu ətrafını gəzdi baxışı,
Zil qara ipəyə vurdu naxışı.
Qaranlıqda əlini yumşaq qara ipəyəbənzər qumun üstündə gəzdirərək (əlin izləri naxışa bənzədilmişdir) başının altını düzəltmək üçün qum yığmağa başladı.
240 "Xəlifə lüqməsi" - dadlı və rahat həzm olan ximiyə bənzər meyvə.
241 Görüb fərmanında qaranı, ağı,
Yanakı qoymuşdu tənək papağı.
Bol ağ və qara üzüm gətirmiş tənəklər (meynələr) öz barı ilə qürrələnərək yarpaq papaqlarını yan qoymuşdular.
242 Bostan oxşayırdı bir oyunbaza,
Əlində hoqqalar rəngbərəng, taza.
Hoqqabazlar (fokşçular) öz hoqqa deyilən dəyirmi sandıqçalarında möhrə (şar) və başqa gözübağlıcı vəsait saxlayarlarmış. Şair yemişi (qovunu) həmin hoqqaya bənzətmişdir.
243 Dürd - şərabın çöküntüsü.
244 Qapının elə bir dəsgahı vardı,
Göy belindən öpüb heyran baxardı.
Yəni qapı və pərdə o qədər uca idilər ki, göy onların kəmərinə qədər çatır və onların yalnız qurşaqlarını (belini) öpə bilirdi.
245 Pir dedi: "Qayışa cila çəkincə,
Qayışbaldırlıq et, gəl, sən bu gecə.
Qaldır nərdivanı, yerdə qoyma, çək,
Başına açmasın bir nəfər kələk".
Qayışbaldır - ayaqları qayış və ya tismədə olan quliyabanı. Qayışbaldırlar özləri ayaqları üstə durub yol gedə bilmirlər. Buna görə də yoldan gecəni azdırıb-aldadıb onun boynuna minirlər, qayış ayaqlarını onun belinə dolayıb yolçunu ölənə qədər sürürlər. Qoca Mahana "Bu gecə sən də qayışbaldırlıq et" deyərkən həm qayış nərdivanla yuxarı külafirəngiyə qalxmağı təklif edir, həm də bir növ orada qayışbaldır quliyabanıların yaşadığına işarə edir.
Mətndə yazılmışdır: "Heç kəs səninlə qayışbaldırlıq edə bilməsin" - yəni heç bir qayışbaldır quliyabanı səni aldadıb yoldan çıxara bilməsin.
246 Bunlar pəri deyil, on yeddi soltan,
On yeddi oyunu çalmışlar aydan.
On yeddi oyun - qədim nərd oyununda doqquz oyundan ibarət olan tasda, səkkiz dəfə mars edib, doqquzuncu oyunu udaraq on yeddi dəfə rəqibi udmaq deməkdir.
Beytin mənası: Gələn on yeddi gözəlin hər biri gözəllikdə ayı on yeddi dəfə udmuşdu.
247 Zirə aşı - şüyüd plov.
248 Bulqar - Nizami dövründə Volqa çayı ətrafında yaşayan və IX əsrdən böyük dövlət qurmuş türk xalqlarından biri. Bulqarlar, əsasən, heyvandarlıqla məşğul olurdular və öz cins qoyun sürüləri və at ilxıları ilə məşhur idilər.
249 Öz yaqut möhrünü əqiqə qoydu.
O, öz yaquta bənzər ağzı ilə onun əqiqə bənzər al dodaqlarını öpdü.
250 Görməsəm adıma layiq işləri,
Olaram əvvəlki nazənin pəri.
İfritə demək istəyir ki, əgər o Mahanın başına min cür oyun, fəlakət gətirməsə, qoy o Mahanın əvvəl gördüyü kimi gözəl pəri simasına mübtəla olsun. İfritə üçün gözəl gəlin simasında qalmaq böyük əziyyət və eybəcərlikdir.
251 Öküzgözlü deyil, öküzayaqdır.
Öküzgözlü - klassik ədəbiyyatda ceyrangözlü məfhumuna bərabərdir, çünki öküz gözləri iri və gözəl olur.
252 Eyvan dedikləri dönmüş buxara.
Əslində buxar deyil, Buxarıstan yazılmışdır, üfunətli buxar qalxan yer deməkdir.
253 Çoxları səbətdə möhrə gəzdilər,
İlan olduğunu baxıb sezdilər.
Qədim təsəvvürə görə, ilanın başında yerləşmiş bir möhrə vardır ki, ən yaxşı padzəhrdir və ilan vuranı onunla sağaldırlar.

254 Əzrəq gülü ki var, göy əlbisəli,
Bu üzdən olmuşdur günəş qürsəli.
Qürsə - kökə, qürs - günəşin dairəsi, günəş şarı. Bu omonimiyadan istifadə edərək şair söz oyunu yaradır və demək istəyir ki, göy gül ona görə gözəl və ətirlidir ki, öz qidasını günəşdən alır.
255 Nafə göbəyini sübh açdı parlaq,
Udu səndəl kimi yandırdı torpaq.
Səhər öz ətir kisəsini açıb, uda bənzər gecəni yandırıb səndəl ətri saçmağa başladı.
Pəncşənbə, yəni cümə axşamı Müştəriyə mənsubdur, səndəl rəngi ona maxsusdur. Odur ki, səhər açılan kimi yer səndəl ətri saçmağa başlayır.
256 Sürməyi mühitin sədəfi gecə
Sədəfin ağzına dürlər səpincə...
Surməyi fazanın sədəfi olan Ay öz ağzından göyə dürrə bənzər ulduzlar səpərkən, yəni Ay və ulduzlar qaranlıq fəzaya çıxanda şah Çin gözəlinə nağıl söyləməyi əmr etdi.
257 Məşk - dağarcıq.
258 Yanında od rəngli cüt ləli vardı,
Suyu daşda idi sanma axardı.
Onun od rəngli iki ləli var idi, onlar saf sulu idilər, lakin su onların cövhərində idi. Odur ki, o suyu içmək mümkün deyildi. Sulu ləl - təmiz, saf ləl.
259 Bu daşdan, - dedi ki, - yonma gəl bulaq.
Daşdan bulaq yonmaq - bihudə, havayı, mənasız işlə məşğul olmaq.
260 Tutaq ki, bu çeşmən oldu güvara,
Göz çıxarmaq səni yetirməz vara.
Tutaq ki, sənin çeşmən - suyun içməlidir, dadlıdır, lakin göz çıxarmaqdan xeyir görməzsən.
261 Boynunda çəkmişdi aya kəməndi.
Kəməndə oxşar hörüklərini aya bənzər üzünün arxasına salmışdı.
262 Kürd evə gələrək tez axşamüstü,
Səfra sındırmağa cumdu əlüstü.
Kürd səhradan qayıdıb səfrasını öldürmək üçün (qarnının qurdunu öldürmək üçün) yemək istədi, lakin evdə qeyri-adi bir şey gördü ki, səfrası daha da cuşa gəldi.
263 Dəyirman öküzü qurtardı tordan.
Dəyirman daşını fırladan öküzün gözlərini bağlayırlar ki, bir yerdə fırlandığını görməsin. Burada Xeyirin göz sarğısı dəyirman öküzünün göz örtüyünə bənzədilmişdir.
264 Harun üzlü səhər bağlayanda bel,
Zəng kimi səsləndi xoruz, durdu el.
Harun - keşikçi. Qədimdə şahların keşikçiləri kəmərlərinə zınqrov (səlasil) bağlayarlarmış, keşikçilər gəzdikcə zınqırovlar səslənib keşikçilərin oyaq olduqlarını bildirərmiş. Xoruzun banı həmin zınqrovların səsinə bənzədilmişdir.
265 Mübəşşir - xoş xəbər gətirən.
266 Zəncilər Xötənə qoşun çəkmədən
Şənlik meydanını şah etmişdi gen.
Zənciyə bənzər qara gecə Xötənin ağ, gözəl türk qızlarına bənzəyən gündüzə hücum etməyincə, yəni bütün günü gecəyə qədər şah şənlik meydanını genişləndirib şənləndi.
267 Pərgar işləmişdi baxsan hər yerə,
Dörd qalın divara çəkmiş dörd möhrə.
Burada möhrə lay, hissə deməkdir. Qədimdə bağ hasarlarını gildən, torpaqdan hörərdilər. Bir möhrə - 105 sm. Hörgü qurtarandan sonra, onun üstünə birinciyə nisbətən nazik bir möhrə də hörərdilər. Görünür, təsvir olunan bağın hasarı dörd möhrədən, hündürlüyü isə 4 m 20 sm.-dən ibarət imiş.
268 Tamaşa etməyə girdi içəri,
Sərvtək pay almaq oldu şakəri.
Sufilərin müşahidə mərasimi nəzərdə tutulur. Yəni bağda dayanıb diqqətlə müşahidə etməyə başladı ki, görsün orada nə üz verib.
269 Görərsən yığılıb bağa bu axşam
Damğasız bir naxış, tüstüsüz bir şam.
Onlar işlənməmiş, yandırılmamış şama bənzər bakirə gözəllərdirlər və hələ onlara ər malikiyyət damğası vu-





rulmamış naxışa bənzər pak dilbərdirlər.
270 Hər xəznə üstündə bir əjdər yatmış,
Narıncı turunc olub, kamala çatmış.
Onların əjdaha kimi yoğun və qıvrım hörükləri onların xəzinələrinin üstünə - bakirə yerlərinə sallanmışdı.
Rəvayətə görə, əjdaha həmişə xəzinə üstündə yatar.
Əvvəllər narınca bənzər məmələri isə böyüyüb turunc boyda olmuşdu.
271 Gördü nar məmələr, alma tək çənə,
Adları yazılmış buzlar üstünə.
İkinci sətir zərbi - məsəldir. Bir şeyi buza yazıb günə qoymaq - xam xəyal bəsləmək deməkdir. Yəni o gözəllərin almaya bənzər çənələrini öpmək arzusu xam xəyal idi.
272 Pərdə gözəlləri gəldilər, sərin
Bir hovuz gördülər dərindən-dərin.
Pərdə gözəlləri - evdə pərdə arxasında böyümüş və heç kimsənin üzünü görməmiş və heç kimsə də onların üzünü görməmiş bakirə gözəllər. İkinci misra orijinalda belədir: "Bir hovuz gördülər aylı, balıqlı". Gecə ay işıq saçarkən balıqlar qaçıb gizlənərlər, odur ki, burada ay deyəndə gözəllərin hovuzda əks olunan aya bənzər üzlərinə işarə edilir.
273 Murad gümüşünü suya saldılar.
Yəni ehtiraslı kişilər tərəfindən arzu edilən öz gümüşəbənzər ağ bədənlərinə gözəllər su çilədilər.
274 Ay balıqla qoşa suda gəzirdi.
Aya bənzər gözəllər balıqlarla bir yerdə hovuzda üzməyə başladılar.
275 Dəmiri gümüşdür, gümüşü zərdir.
Zərbi - məsəldir, təqribən doşab almışdıq, bal çıxdı misalına müvafiqdir.
276 Qara səmur ilə qaranlıq gecə
Burtas pərdəsini örtdü gizlicə.
Burtas - rus düzəngahlarında yaşayan məşhur türk qəbilələrindən biri olmuşdur. Onlar əsasən ovçuluq və heyvandarlıqla məşğul olmuşlar. Nizaminin vaxtında xəzi Azərbaycan bazarlarına əsasən burtaslar və ruslar gətirərmişlər. Burtasların yorğanları parlaq ağ qaqum və dələ dərisindən olduğu üçün gündüzün işığını şair onunla müqayisə edir.
277 Günəşin bir mıxlı qılıncı söndü,
Min mıxlı zirehə gecə büründü.
Günəşin bir dəstəli qılıncı - şüası itəndən sonra gecənin zirehi, yəni göy min mıxla, yəni ulduzla doldu.
278 Xacənin qızışdı yeddi əndamı.
Yeddi əndam - baş, sinə, iki əl, iki ayaq və qarın nəzərdə tutulur.
279 Açmışdı süsəni xeyri tək çiçək.
Onun süsəni - ağ sifəti xeyri gülü kimi saralmışdı.
280 Samani xalıda yasəməndi san.
Samanilər - Orta Asiyada, Xorasanda və İranın bir hissəsində hökmranlıq etmiş (874-999) hökmdarlar sülaləsi. Onların saraylarındakı xalça və gəbələr öz naxış və qeyri-adi gözəllikləri ilə məşhur idi. Bağdakı gülzarı şair samanilərin həmin məşhur xalçalarına bənzətmişdir.
281 Möhtəsib - şəriətin qanunlarının həyata keçirilməsinə nəzarət edən məmur.
282 İçdi o şeydən ki, sayılır halal.
Xacə zülal suya bənzər pak, şəffaf nişanlı tapdı, kəbinini kəsdirib özünə halal arvad edəndən sonra onu halal su kimi içdi.
283 Müştəriylə Zühəl qovuşan zaman
Günəş daxil oldu Həmələ Hutdan.
Müştəri və Zühəl təslisdə - üçbucaqda olanda, səyyarə və ulduzların şahı olan Günəş Hut bürcündən (22 fevral - 22 mart) Həməl bürcünə (22 mart - 22 aprel) yollandı, yəni bahar fəsli gəldi, ot və bitkilər dirilik suyu içmiş həmişəcavan, yaşıl paltarda gəzən ölməz Xızır kimi yaşıllaşıb cavanlaşdılar.
284 Yer müşk ilə doldu, ud geydi hər yan.
Nafə satan külək oldu müşk alan.
Ud - adətən Hindistandan gətirilən ətirli torpaq rəngli əzvay.
Beytin mənası: Ud rəngli ətir saçan torpaq müşklə dolub, adətən müşk saçan, ətir satan yel, nəsim indi torpaqdan müşk və ud alırdı.
285 Silindi aynadan Günəşin pası.

Günəşin üzü qış buludlarının ləkələrindən xilas oldu.

286 Neylüfər qalınca həsrət yuxuya;
Özünü yetirdi əlbəəl suya.
Nilufər suda bitir, gündüzlər yatır, solur, əyilir, gecələr isə ayılır, dirçəlir.

287 Nərgizin bu sərxoş gəlhagəlində
Süsən zər çubuğu tutdu əlində.
Süsən gülünün ləçəkləri qızılgül kimi qızıl, al rəngində və əlin içi şəklindədir. O həmin qızılı nərgizin başının tacı üçün hazırlamışdı.

288 Şənbəlid - vəhşi zəfəran.

289 Şəqayiq - bir növ lalə.

290 Nəsrinin gövhərə sinmiş yarpağı,
Tutiya əzirdi süsən budağı.
Nəsrinin - vəhşi nərgizin ləçəkləri gövhərə bənzər şeh damlaları ilə dolmuşdu, süsən isə gözləri sağaldıb işıqlandırmaq üçün öz ləçəklərindən göz dərmanı - tutiya ovurdu.

291 Siçanqulağı da saçını aldı,
Hörüb deyləmli tək çiyninə saldı.
Siçanqulağı - mərzənguş (mayoran) - nanə cinsindən ətirli, təbabətdə geniş surətdə işlənən, ağ balaca gülü və gülün nisbətən uzun saçaqları olan birillik ya çoxillik göy (bitki).
Deyləmlilər - İranın qədim qəbilələrindən biri, Xəzər dənizinin cənub-qərbində yerləşmiş İranın şimal vilayəti Gilanda yaşayardılar. Deyləmlilər öz qıvrım və uzun hörükləri ilə məşhur olublar. Şair mərzənguşun saçaqlarını deyləmlilərin hörüklərinə bənzədir.

292 Süsənbərin iyi göylərə qalxdı,
Çarxın əqrəbini yandırdı, yaxdı.
Qədim təbabətə görə, süsənbərin ətri əqrəbləri bihuş edib öldürür və əqrəb vurmuş xəstələrin də ən yaxşı dərmanıdır.
Burada Əqrəb bürcü nəzərdə tutulur və süsənbərin ətrinin şiddəti və çoxluğuna mübaliğə yolu ilə işarə olunur.

293 İnəkgöz - farsca - qavçeşm, ərəbcə - eyn əl-bəqər - gül adıdır, filqulağı (pilquş) - bağayarpağına bənzər yekə yarpaqlı ot adıdır.

294 Cənnət beytləri təqti edirdi.
Təqti etmək - ahənglə oxumaq; cənnət beytləri - ən gözəl, ahəngdar və dərin məzmunlu şeirlər.

295 Yerdə qalanı da zəkat aldılar.
Zəkat - islam ölkələrində beytülmal üçün dini vergi. İslamın beş rüknündən birini zəkat təşkil edir. Hər il müsəlmanlar öz gəlirinin beşdə birini zəkat verməlidirlər, yəni canavardan qalan qoyunu da din vergisi - zəkat yığan xadim gəlib apardı.

296 Ağzına sükutun möhrü vuruldu.
Sükutun haqqını canavardan alandan sonra itin ağzı mumlanıb möhürləndi, yəni it cınqırını da çıxarmadı.

297 Rizq - ruzi, gündəlik yemək, yaşayış vəsaiti.

298 Nemət küfrü pisdir dinsiz olmaqdan.
Yəni sənə yaxşılıq edib, çörək verən bir adama qarşı naşükür olmaq kafirlikdən, dinsizlikdən pisdir.

299 Kinli bir qurluya verdi işarət.
Qur - Müasir Əfqanıstanın dağlıq ərazisində yerləşmiş vilayətlərdən birinin qədim adı. Qurlular uzunboy, qüvvətli və mübariz olduqları üçün qədim şahların şəxsi mühafizəsində xidmət edirdilər.

300 O, heçin adını qoymuşdu ağız.
Yəni onun ağzı o qədər zərif və balaca idi ki, elə bil yox idi. Klassik şairlərin estetikasına görə, ən balaca, dar ağız ən gözəl ağız hesab olunurmuş.

301 Qoşun əfradı - qoşunu təşkil edən əsgərlər.

302 Üstümə səsləndi, dedi: - Sakit ol!
Gedib xədənginlə öz ruzini yol.
Xədəng - qovaq ağacından düzəldilmiş ox.
Beytin mənası: Vəzir kürd əsgərinin üstünə qışqırıb deyir: "Sənin yay-oxun dövlətə lazım deyil, çünki şah heç kimlə müharibə etmir və etmək fikrində deyil, odur ki, sən get öz yay-oxunla ovçuluq et və özünü dolandır".

303 O mən qələmsizə çəkdi bir davat.
Yəni: "Mürəkkəbi qabı ilə bir yerdə mən qələm tuta bilməyən savadsızın üstünə atdı ki, başımı yarsın".

304 Günəşin çeşməsi saxsı güldanda





Reyhanlar yetirib açan zamanda...
İndiki kimi qədim zamanlarda da saxsı dibçəklərdə gül, çiçək əkərdilər. Burada saxsıdan yoğrulmuş kuzə deyərkən Yer kürəsi nəzərdə tutulur. Yəni Günəşin şüaları Yer üzünü gül-çiçək kimi bəzəyəndə, səhər açılanda, şah ədalət suyu üçün susuzluqdan yananlara dürrə bənzər ədalət yağışı yağdırdı və onları suvanmış reyhan kimi xoş və təravətli etdi.

305 Özümə çiniyəm, həbəşəm sənə.
Mən özüm ağlığın və gözəlliyin rəmzi olan türk olsam da, sənin qarşında üzü qarayam, həbəşiyəm.

306 Padşah ədaləti süzəndən bəri
Qurban verdi ona yeddi peykəri.
Bu və bundan əvvəlki beytdə orijinalda şair üç dəfə peykər sözünü işlətmişdir.
Bu Sətirlərin mənası: Şah ədalətin peykərini - simasını müşahidə edib onun mahiyyətinin gözəlliyini dərk etdikdən sonra yeddi peykəri - yeddi planeti, onların şəninə tikilmiş yeddi qəsri və orada yaşayan yeddi gözəli ədalətin peykərinə - vücuduna qurban etdi.

307 Dürlər peyvənd edənləlin bağına.
Dürlər peyvənd edən - qiymətli, maraqlı tarix yazan, nazim, şair, ləl bağı (sapı) - "Bəhramnamə" dastanı.

308 Gördü ki, işrətə yol verməyən tağ
Hamı günbədlərdən toz qaldıracaq.
Orijinalda işrətə yol verməyən tağ əvəzinə büsat açmış günbəd yazılmışdır, yəni fərşini geniş açmış, qılıncının sağı da, solu da kəsən fələk, göy yeddi günbədin, bütün günbədlər kimi tozunu sovurub, onları tar-mar edəcək.

309 Başqa bir günbədin yolunu tutdu.
Yəni Allaha qulluq etmək üçün atəşgah günbədinin yolunu tutdu.

310 Olardı bu zaman altmış yaşı,
Yasəmən bitirdi bənövşə başı.
Bəhramın yaşı altmışa çatanda onun bənövşə kimi şəvə saçlarının arasında yasəmən kimi ağ güllər bitdi, yəni onun başı ağarmağa başladı.

311 Ovladı ahunu öz bədənindən.
Ahu sözünün birinci mənası ahu, ikinci mənası isə eyb, nöqsan deməkdir. Şahın öz bədənində yığdığı ahu - nöqsanlardır. O, öz nöqsanlarını öldürüb əbədiyyətə qovuşmaq istəyirdi.

312 Keyxosrov xəznəsi bir mağaraya...
Keyxosrovun qarlı, boranlı dağda yox olmasına işarədir.

313 Bilmədilər, edib vida bostana
Yönəlib gedibdir fil Hindistana.
Rəvayətə görə, fillər ölümün yaxınlaşdığını yuxuda görüb ölmək üçün Hindistana gedirlər. Burada fil deyərkən Bəhrama, Hindistan deyərkən isə qəbiristan nəzərdə tutulmuşdur.

314 Boyaq dükanında dörd küpsən ancaq.
Qədim təbabətə görə, insanın cismi dörd ünsürdən əmələ gəlmiş dörd mayədən (qan, səfra, sevda və bəlğəmdən - fleqmadan) ibarətdir və həmin mayələr bir küpə (bədənə) yığılmış dörd rəngə bənzədilir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, qədim təbiblər insan məzacının xarakterinin həmin maddələrdən əmələ gəldiyinə inanırdılar.

315 Zülmət, nur pərdəsi altda heç zaman
Uzaq olmaz eşşək mehri-İsadan.
Bu qaranlıq gecə və işıqlı gündüzdən ibarət olan zəmanədə bəzən eşşəyin də möhrəsi (belinin fəqərələri) İsanın mehrindən-məhəbbətindən xali olmur, yəni eşşək də yüksək rütbəyə çatır. Burada İsanın suvar olub Beytül-Müqəddəsə getdiyi eşşək nəzərdə tutulur.

316 Tam əks-əyarlı nəqdi Gəncədən
Rumi çeşnisiylə parladınca mən...
Əks-əyarlı - ən təmiz qızıldan düzəldilmiş, üzərində məşhur və qüdrətli şahın əksi həkk edilmiş pul; Rumi çeşnisi - yəni Vizantiya imperiyalı kimi yüksək əyarlı parlaq qızıl pul.
Yəni mən Gəncə şəhərində öz yüksək əyarlı qızıla bənzər poemamı yaradıb, onu şaha ithaf etdim.

317 Üsul, firu ilə oldu aşina
Bəxtiyşu rəyinə, İyşu baxtına.
İyşu - İsa peyğəmbər, onun taxtı günəş kimi göyün dördüncü qatında yerləşmişdir. Bəxtiyşu - Abbasilər xilafətinin məşhur saray həkimi (VIII ə.).

Beytin mənası: Körpə Arslan dinin ehkamlarını, şəriətin qanunlarını dəqiq yerinə yetirdiyi üçün İsanın xoşbəxtliyi və Bəxtiyşunun fikir dühası ona nəsib olmuşdur.

318 Şahadır hər zaman göyün xidməti,
İkicə çörəkdir onun ücrəti.
Göy ona xidmət etmək üçün ayağı üstə durubdur və öz xidmətinə görə də iki girdə çörək (Ay və Günəş) sahibi olubdur. Ücrət - zəhmət haqqı.

319 Dağın nafəsini göbəkdən saldı.
Onun oxu dağın bağrını yararaq oradan qan nafəsini - al-qırmızı ləl çıxarır.

320 Sənsən bu dünyanın qüdrətli şahı,
Dünyamız gözləməz özgə pənahı.
Orijinalda şah yerinə qaim getmişdir. Qaim (sabit, möhkəm) - şiələrin gizlənmiş on ikinci imamı, Mehdi. Dünya fəsad, günah, hərcmərclikdə boğulan zaman qiyamət gününün ərəfəsində imami-qaim (Mehdi) ağ atın üstündə zühur edib dünyanı təmizləyib ədaləti, din və imanı, rifah və xoşbəxtliyi bərpa edəcəkdir.
Şair Körpə Arslanı həman imami-qaimlə müqayisə edib deyir: "Sən" zəmanənin qaimisən, odur ki, fitnə-fəsadı, zülmü aradan götürdüyün üçün əsil qaim imam Mehdi səndən çəkinib zühur etmir.

321 Tikanın üstünə töksən bal əgər,
Tərəngəbin deyər ona zirəklər.
Tərəngəbin - dəvətikanı deyilən bitkidir, onun şəkərli şirəsi dərman kimi ta qədimdən bu günə kimi təbabətdə geniş miqyasda işlənilir. Fars sözü olan bu bitki adı iki hissədən ibarət olub, tərə - göy-göyərti və əngəbin - bal deməkdir. Şair sözün etimologiyasından istifadə edərək, Körpə Arslana öz əsərinin məziyyətini müasirlərinin kitablarından nə qədər yüksək durduğunu başa salmaq istəyir.

322 İki hərflə gələr başa muradım.
İki hərf - kün (ol). Kün ərəbcə iki hərflə yazılır. Yəni şair kitabını "Ol!", "Əbədi var ol!" duası ilə bitirir.

323 Cəbəl ər Rəhmə və Buqubeys - Məkkənin yaxınlığında iki dağ adıdır.

324 Xətayi geyinib, xəta örtənsən.
Xətay - Kitay, Çin. Çinin zərxara geyimləri ən gözəl və qiymətli geyimlər sayılırdı.
Şair xətapuş (xətaları, nöqsanları ört-basdır edən) və Xətayi-puş (qiymətli Kitay libasları geyən) sözlərinin omonimiyasından mahiranə istifadə edib gözəl cinas düzəltmişdir.

325 Ramazan ayının on dördü vardı,
Gün dörd saat qalxıb batmış olardı.
Hicri - qəməri təqviminin 593-cü il Ramazan ayının on dördü bizim indiki təqvimin 1197-ci il 31 iyuluna müvafiqdir. Deməli, şair poemanı 1197-ci il iyulun otuz biri, gecə saat 12-də bitirmişdir.





# İSKƏNDƏRNAMƏ
## ŞƏRƏFNAMƏ

1 Göyləri sən qurdun, ucaltdın, Allah,
Ona yer üzünü etdin güzərgah.
Qədim insanların təsəvvürünçə, bütün kainatın mərkəzi yer hesab edilirdi; Göy isə Yerin ətrafında dolanır. Buna görə, - yer göylərin güzərgahı, keçdiyi yoldur, - deyilir.

2 Sənsən bu aləmdə bir damcı sudan,
Günəşdən işıqlı gövhər yaradan.
Burada Günəşdən işıqlı gövhər ifadəsi ilə insan da nəzərdə tutula bilər. Bir damcı sudan (nütfədən) insanı yaradan sənsən, - mənası da anlaşıla bilər.

3 Fələyi uca bir hasara aldın,
O yerdə idrakı kəməndə saldın.
Yəni insanın şüuruna, fikrinə göylərin xaricində nə olduğunu bilməyə imkan vermədin.

4 Sənin varlığındır o laməkandan,
İdrak elçisini hər an daşlayan.
Yəni sənin yersiz - məkansız olan varlığın səni tapıb öyrənmək istəyən idrak elçisi insanı hər an daşlayıb, yaxına buraxmaz.

5 Yollardan tüstünü qaldırsan əgər,
Bir çibin Nəmrudun beynini yeyər.
Dini rəvayətlərə görə, Nəmrud allahlıq iddiası edərkən bir çibin onun burnundan beyninə getmiş, onu öldürmüşdü. Nəmrud Babili tikdirmiş və orada hökmranlıq etmişdir. Özü bütpərəst olmuşdur. Guya imana gəlmədiyindən vücuduna milçəklər daraşaraq onu tələf etmişdir.

6 İstəsən əzilsin düşmənin beli,
Quşlarla qırarsan əshabi-fili.
Dini rəvayətə görə, müsəlmanların peyğəmbəri Məhəmmədin anadan olduğu 569-cu ildə Həbəş padşahı Ərəbistana gələrək, Kəbəni dağıtmaq məqsədi ilə Məkkəni mühasirəyə alır. Onun ordusunda müsəlləh hərbi fillər də var imiş. Lakin Allah onun üzərinə Əbabil quşlarını (dağ qaranquşları) göndərir. Bu quşlar dimdiklərində xırda daşlar gətirib, Həbəş qoşununun üstünə salırlar. Kimin başına bu daşlardan düşürsə, o, yara çıxardıb ölür. Bu hadisə həbəşləri geri qayıtmağa məcbur edir. Hərbi fillər ərəblərə dərin təsir bağışladığı üçün həmin ili fil ili, onların sahiblərini isə əshabi-fil (fil sahibləri) adlandırırdılar.

7 Gah kiçik nütfəyə qoydun qızıl tac,
Gah xırda çərdəkdən yaratdın ağac.
Yəni gah bir damcı sudan ibarət olan nütfədən bir xoşbəxt adam - bir padşah, bir filosof, bir peyğəmbər yaradırsan, gah da bir çəyirdəkdən bir ağac çıxarırsan.

8 Gah Xəlil alırsan bütxanələrdən,
Gah dost yaradırsan biganələrdən.
Dini rəvayətə görə, İbrahimxəlil peyğəmbər öz atasının dinini, yəni bütpərəstliyi atmış, bütxanəyə gedib, bütləri qırmışdır. Burada Xəlil - İbrahimxəlil peyğəmbərə işarə olmaqdan əlavə, eyni zamanda dost mənasını verir. İbrahimxəlil əvvəl bütpərəst ikən biganə idi, Allahı tanımırdı, sonra Allahı tanıdı, bütləri qırdı, biganəlikdən çıxıb dost oldu. Qiymətli cavahir doğan bir evdən, Əbu Talibi də çıxaran sənsən.

9 Burada qiymətli cavahir dedikdə, ya Məhəmməd peyğəmbər və ya onun əmisi oğlu, dördüncü xəlifə Əli nəzərdə tutulur. Məhəmmədin atası öldükdən sonra əmisi Əbu Talib yetim qalmış Məhəmmədi oğulluğa götürmüşdü. Nizami burada demək istəyir ki, Əbu Talibin böyüklüyünə, yəni peyğəmbərin atalığı və Əlinin atası olduğuna baxmayaraq, yenə də onu qapıdan qovdu, çünki Əbu Talib, sünnilərin əqidəsinə görə, islamiyyəti qəbul etməmişdi.

10 Kəsərli ayəni öyrətmək səndən,
Şeytanın gözünü tikməksə məndən.
İslam dininə görə, güya Şeytan "Quran"ın ayələrini eşitdikdə orada dura bilməz, qaçıb gedər. Nizami bu beytində demək istəyir ki, sən mənə ayələrini öyrət, yəni mənə yardım et, mən də Şeytanın gözünü bağlayım, günah işlər görməyim.

11 Adın mehribanlıq etsə bir qədər,
Mənimlə oynaya bilərmi divlər?
Yəni sən məni istəsən, gözün üstümdə olsa, qara qüvvələr mənə ziyan vura bilməz.

12 Bu köhnə dəzgahdan düşərsəm uzaq...
Yəni ölüb bu dünyadan gedərsəm... Burada köhnə dəzgah dünya mənasında işlənmişdir.

13 Zamindir qaraya, ağa bu rəhbər...
Yəni Məhəmməd günaha da, savaba da zamindir.

14 Xalını qaraldır Əbbasilərin,
Gözünə nur saçır şəmmasilərin.
Abbasi xəlifələrinin paltarları və bayraqları qara idi. Xalını qaraltmaq ifadəsi burada Abbasilərin səltənət və əzəmətinə işarədir. Şəmmas - atəşpərəst, həm də gözdə ağ - titə deməkdir, inad göstərmək mənasında işlənir. Yəni atəşpərəst şəmmasilərin gözündən ağlığı, korluğu alıb nur saçdı, onları müsəlman etdi.

15 Dodağı İsadan daha möcüzkar.
Yəni onun (Məhəmmədin) nəfəsi ölüləri diriləndən İsanın nəfəsindən daha möcüzəlidir.

16 Zülmətin suyutək geyinmiş paltar.
Yəni dirilik suyu zülmətdə, qaranlıq içində gizli ikən, onun da vücudu qara paltarla örtülü idi.

17 Göy - ona dünyada dörd tağı quran,
Yer - ona fələkdə beş növbət vuran.
Yəni göylər ona yerdə dörd ünsürdən dörd qübbəli çadır quran, yer də göylərdə onun beş növbət vuranıdır. Səlcuq padşahı Sultan Səncərdən qabaq şahların saray darvazasında gündə dörd dəfə nağara çalmaq qayda idi. Sultan Səncərdən sonra nağara çalmağın sayı beşə qaldırıldı. Nizami burada beş növbət vuran dedikdə, beş vaxt namaz qılmağı nəzərdə tutur.

18 Odur öz ağlına eləyən təkyə,
Ayı barmağıyla bölən ikiyə.
Dini etiqadlara görə, Məhəmmədin möcüzələrindən biri də Ayı barmağı ilə ikiyə bölməsidir. Güya qureyşilərin rəislərindən Əbu-Sufyan və Əbu-Cəhl bir dəfə Məkkədə Məhəmməddən doğrudan da peyğəmbər olduğunu isbat etmək üçün Ayı barmağı ilə ikiyə bölməyi tələb etmişlər. Məhəmməd də güya barmağı ilə Aya işarə etmiş və Ay iki parça olmuşdur. Sonra yenə barmağını Aya doğru uzatmış, Ay parçaları yenidən birləşmişdir.

19 Hər iki dünyadan bir don tikərək,
Onlardan düzəltmiş yeganə bəzək.
O donu geyərkən pak vücuduna,
Bir qarış az gəldi uca boyuna.
Yəni Məhəmməd iki aləmdən də yüksəkdir, onun varlığı bu aləmə - yer və göy aləminə sığışmadı.

20 Dəvətə genişlik o vermiş yenə,
Daşlar da şahiddir möcüzəsinə.
İslamiyyət uğranda apardığı müharibələrin birində Məhəmmədin ağzını vurub yaralamışdılar. Bu beyt həmin hadisəyə işarədir.

21 Göy gecə məclisi qızışdırmışdı,
İşıqdan gecənin gözü qamaşdı.
Məhəmməd peyğəmbərin meraca getdiyi, yəni göyün yeddinci təbəqəsinə qalxdığı gecə göylər ondan işıqlandı.

22 Çin ipəklərinə düzmüş dürr, gövhər...
Yəni göyləri ulduzlarla bəzəmişdir.
Yetmiş yollu yurddan köçünü vurdu, Çadın yeddinci fələkdə qurdu.

23 Yəni yetmiş iki millətin yurdu olan bu dünyadan köçüb, yeddinci fələyə meraca getdi.

24 Doqquz hücrəsini bir an buraxdı,
Göyün doqquzuncu tağına qalxdı.
Məhəmmədin doqquz arvadı və doqquz otağı vardı. Yəni o, doqquz hücrəsinin işindən əl çəkdi, dünyanı tərk etdi, doqquzuncu fələyə getdi.

25 Yeddinci əflakə çapdığı zaman
Dişarı atıldı dördkünc daxmadan.
Dini etiqada görə, Məhəmməd meraca Büraq adlı mövhumi at üzərində getmişdir. Dördkünc daxma - güya dörd ünsürdən (sudan, oddan, havadan, torpaqdan) vücuda gəlmiş yer deməkdir. Yəni yeri buraxıb, göyə çıxdı.

26 Ərəb səmasında bir Süheyl çapdı,
Yəmən gönü ondan yeni rəng tapdı.





Yəni onun (Məhəmmədin) Büraqı ərəb torpağının göylərində Süheyl ulduzu kimi parladı, onun nurundan Yəmənin tumacı rəng və xoş qoxu aldı. Süheyl - cənubda görünən çox parlaq bir ulduzdur.

27 Gecə otlağından, sərxoş olaraq
Ay kimi gəlmişdi əldə şəbçıraq.
Əfsanələrə görə, şəbçıraq elə bir gövhərdir ki, dəniz atı sahilə otlamağa çıxarkən onu özü ilə çıxarır, işığında otlayır, doyub məst olandan sonra yenə o gövhəri özü ilə dənizə aparır. Nizami burada Büraqı həmin əfsanəvi dəniz atına, Məhəmmədi də həmin nurlu gövhərə bənzədir: at, gövhəri (şəbçıraqı) dənizə apardığı kimi, Büraq da Məhəmmədi göylər dənizinə, asimana aparmışdır.

28 O səyyar dənizdən toz qopardı.
Burada dəniz - göylərə işarədir. Yəni Məhəmməd göyləri çox sürətlə keçib gedirdi.

29 Çatdı hər dənizə yeddi ülkərdə,
Yeddi yol yuyundu o dənizlərdə.
Yəni göylərin yeddi təbəqəsini keçib, daha da yüksəklərə qalxdı.
Ütarid ulduza verdi qələmi,
Əlinə qələmi alarmı ümmi?

30 Ütarid ulduzu - köhnə astroloji təsəvvürə görə, göylərin katibi sayılır. Ümmi isə savadsız deməkdir. Yəni oxuyub-yazmaq bilməyən Məhəmməd öz gəlişi ilə Ütarid ulduzunu savadlandırdı, işıqlandırdı.

31 Ərş divangahını sürətlə keçdi,
Dərcin də yolunu bir anda biçdi.
Dərc - burada Məhəmməd peyğəmbərin göyə meraq gecəsində keçdiyi göy pillələrindən birinin adıdır. Yəni Məhəmməd göyün təbəqələrini, o cümlədən dərc pilləsini keçib, yeddinci qata yüksəldi.

32 Ağızdan çıxmayan səsi eşitdi,
Görünməz siması ziyarət etdi.
Yəni Allahdan gələn səsi eşitdi və gözə görünməyən varlığını iman gözü ilə gördü.

33 Tərifə başlasam dörd yavərini,
Dörd gövhər satan var, dörd gövhər alan.
Burada dörd yavər dedikdə, Məhəmməddən sonra onun yolunu davam etdirmiş olan dörd xəlifə nəzərdə tutulur. Gövhər - burada islam dini deməkdir. Dörd gövhər satan və alan - yenə dörd xəlifəyə işarədir.

34 Bu dərviş sifətli dörd böyük soltan,
Dünyaya olmuş dörd təkbir oxuyan.
Dərviş sifətli dörd soltan - yenə dörd xəlifəyə işarədir. Dörd təkbir - ölü üçün oxunan namazdır; burada üz çevirmək mənasındadır. Yəni o dörd xəlifə dünyadan üz çevirib, onun bütün varına göz yummuşlar.

35 Bazarlar olmuşdu səs-küydən uzaq,
Zınqırov səsindən dincəlmiş qulaq.
Yəni bayır-bazar küydən, gurultudan boşalmış, hər tərəfə səssizlik çökmüşdü. Gecə qarovulları yatmış, zınqırovların səsi kəsilmişdi (Şahların qarovulları bellərinə zınqırov bağlardılar ki, onun səsindən yuxuları qaçsın, yatmasınlar).

36 Dan yeri başını salmışdı suya,
Yəni Günəş də göyün dənizinə qərq olmuşdu.

37 Gah başım dizimin üstündə dalğın,
Yer - başım altmda, göy - ayağımın.
Yəni başım dizimin üstündə, fikrə dalmış halda xəyalat və ilham göylərində uçurdum. Deməli, yer başımın, göy isə ayaqlarımın altında idi.

38 Günəş qarşısında əriyəntək mum,
O mumla gözümdən çəkildi yuxum.
Yəni Günəş mumu əridən kimi, mənim qızğın fikirlərimlə coşğun ilhamım yuxumu əritmişdi, səhərə qədər yatmamışdım.

39 Müəzzin başlarkən birinci qunut
Ki: "Subhanə həyyəllazi layəmut"...
Yəni azançı əvvəl Allahın əmrlərinə tabelik duasını oxudu: "Həmişə diri və əbədi ölməz olan Allaha alqışlar olsun", dedi.

40 Başladı ürək, dil: "Şeir yaz" deyə,
Harut, Zöhrə kimi cadugərliyə.
Yəni Harut və Zöhrə bir-biri ilə eşqbazlıqda şirin, gözəl söhbətlər və sehrbazlıqlar etdikləri kimi, mənim də

qəlbim, dilim bədii söz yaradıcılığında möcüzəli sənət əsərləri yaratmaqla məşğuldur.

Harut və Marut dini xurafatda İki mələyin adıdır: Güya Babil qülləsində bir quyudan başıaşağı asılmışlar. Əfsanəyə görə, Harut Zöhrə adlı bir qadınla eşqbazlıqda ona sehr və əfsun öyrətmiş və güya bu qadın öyrəndiyi sehr ilə göyə qalxaraq orada Zöhrə ulduzuna çevrilmişdir. Zöhrə ulduzu İran mifologiyasında həm də göy çalğıçısı sayılır. Farsca ona Nahid deyilir.

41 Bu barlı ağacdan kim nıeyvə dərsə,
Söyləsin xoşbəxtdir bu bağban kimsə.

Burada barlı ağac Nizaminin əsərinə - "Şərəfnamə"yə işarədir. Kim meyvə dərsə, yeni kim "Şərəfnamə"ni oxusa... Bağban isə o meyvələri yetişdirən, yəni o sözləri yazan Nizamidir.

42 Ancaq bir şərtim var: bir para dəcəl,
Qonşunun malına uzatmasın əl.

Burada Nizaminin müasirləri olan bəzi xırda şairlərə işarə edilir. Qonşunun malına uzatmasın əl, yəni mənim əsərlərimi oğurlamasın.

43 Daracı oğrusundan qorxarmı dəniz?
Buludum yağdırar ondan çox, şəksiz.

Yəni mənim təbim bir dənizdir: o, damcı oğurlayanlardan qorxmaz. Oğruların apardıqları damcılar əvəzinə ilhamımın buludu bir anda mənə ondan çox muzd verir.

44 Ay işığı qədər olsa yüz çıraq,
Yenə Günəş ona vuracaqdır dağ.

Burada günəş Nizami, çıraq isə dövrünün xırda şairləridir.

45 Dağlara buludlar ağ kafur saçdı,
Ac torpaq ağzını kafurçün açdı.

Yəni dağdan kafur yağdıran bulud göründü - qocalıqdan başımda saçlarım kafur kimi ağardı və həyatım sona yetdi (müsəlmanlıqda ölünü basdırmazdan əvvəl yuyarkən üstünə kafur səpərlər).

46 Bu zaman bir bucaq xoşdur saraydan,
Oyuncaq əlini uzadar dövran.

Yəni qocalıqda yoxsulca bir küncdə yaşamaq sarayda kef çəkməkdən yaxşıdır, çünki bu zaman artıq dövran insanı qocalığına görə ələ salar, ona istehza edər.

47 Məşriqdən ağardı daha dan yeri.
Yəni saçlarım ağarmış, artıq qocalmışam.

48 Başına tac ilə kim vursa bəzək,
Əmgayi ağ deyil, müşk olsun gərək.

Yəni taca layiq olan başa şirmayı kimi ağ saçlar deyil, müşk kimi qara saçlar lazımdır; deməк, bunun üçün qoca deyil, cavan olmalıdır.

49 Keçərsə körpüdən bu Gilan atım,
İnanma Gilana bir də qayıdım.

O zaman yaxşılığı ilə məşhur olan Gilan atı nəzərdə tutulur. Yəni ömrumün Gilan atı həyat körpüsündən keçəndən sonra bir də dünyaya qayıtmayacağam, əbədiyyətə qarışmış olacağam.

50 Qəbrim şüşəsinə əl qoyan zaman,
O pak gövhərimi heç olmasa an.

Şüşə - burada təpəcik mənasındadır. Adətə görə, birinin qəbri üstünə gedənlər o qəbrin təpəciyinə əl basarlar.

51 Bir mey ki, suyu saf, axan gümüşdür,
Onu hər dörd məzhəb halal görmüşdür.

Burada zülal suyu kimi təmiz, saf şərab deməklə Nizami güya cənnətdə olan kövsər suyunu nəzərdə tutur və onun bütün məzhəblərdə halal olduğunu söyləyir.

52 Dörd məzhəb - müsəlmanların iki böyük qismindən biri olan sünnilərin məzhəbləridir: hənəfilər, şafeilər, hənbəlilər və malikilər.
Bərcistək oxum var, atmaram ancaq.

Bərcis Müştəri ulduzunun farsca adıdır. Bu ulduz Qövs (Kaman) bürcündə olduğu üçün ondan ox atarmış. Nizami anlatmaq istəyir ki, düşmənlərlə və paxıllarla mübarizədə mənim də Müştəri ulduzu kimi silahım, sözdən, şeirdən oxlarım var, istəsəm vuraram.

53 Zöhrətək çəkiyə qoyaram dirhəm.
Zöhrənin evi Tərəzi bürcüdür. Yəni mən də söz dirhəmini (gümüşü) Zöhrə kimi tərəzidə çəkərəm.

54 Hər çillə qırx gündür, xəlvəti mindir,





Bu yerdən məclisə girmək çətindir.

Çillə - burada zahidlərin cəmiyyətdən uzaqda keçirdikləri qırx gün deməkdir. Buna dərviş çilləsi deyilir. Yəni qırx çillədən və min cürə pəhriz, qənaət, ibadət işləri ilə məşğul olandan sonra, daha şahların məclislərində iştirak etmək yaramaz. Deməк, ömrümü azad, öz aləmimdə keçirdikdən sonra daha saraya girmək, saray şairi olmaq məndən uzaq olan işdir.

55 Görsəydim özümdən gözəl bir gülşən,
Al, sarı gülünü dərməzdimmi mən?
Hazıram budumdan kabab yeməyə,
Günəştək getməyim dilənçiliyə.

Yəni əsərlərimdən gözəl əsər, özümdən yaxşı şair görsəydim, mən də onun budağından bir gül dərərdim. Lakin, yox, ətəyimi öz sözümün fidanından doldururam, öz ətimdən kabab yeyirəm. Buna görə, Günəş kimi başqalarının qapısını gəzmək mənə lazım deyildir.

56 Mən Ölü olsam da, ən mərd bir kasəm,
Karvanda gedərəm, karvansız şəxsəm.

Əni mən qoca və zəif olsam da, həyat yolunda mərdliklə yeriyən bir adamam. Mən bu dünyada yaşayanlardan - bu karvan əhlindən deyiləmsə də, dirilər karvanı ilə gedirəm.

57 Nəfsin noxtasını bərk tutdum qırx gün,
ırx günün içində hazır olur gön.

Gönü tamamlamaq və qırmızı rəngə boyamaq üçün qırx gün dabbaqxanada bişirirlər. Yəni mən də qırx gün riyazət çəkdim, nəfsimin ixtiyarını əlimə aldım, öz guşəmdə oturdum və məqsədimə nail oldum.

58 Çünki dörd balışda görmədim səbat,
Dörd divar içində keçirdim həyat.

Dörd balış - şahlıq taxtına və dörd ünsürə işarədir. Bu, eyni zamanda qüdrət və qüvvət rəmzidir. Yəni dörd ünsürdən əmələ gələn bu dünyada, yaxud onun şahlıq taxtında bir səbat, vəfa görmədim. Odur ki, bu dünyadan üz çevirib, xəlvətə çəkildim.

59 Qəlbim qadın deyil, çaxmaqdır, çaxmaq,
Məryəmtək boyludur, bakirdir ancaq,
Kişiyə getməyə nə ehtiyac var,
Onun öz daşından öz odu çıxar.

Yəni təbimin kimsəyə ehtiyacı yoxdur. O, Məryəm kimi ərsiz də doğmağa qadirdir. Onun poladı da, çaxmağı da özündəndir. Yazdıqlarım, yaratdıqlarım öz qəlbimin orijinal məhsuludur, kimsənin onda haqqı yoxdur.

60 Nizami bu sapa düzərkən gövhər,
Qələmdən silindi qələm görənlər.

Yəni mən "Şərəfnamə"ni yazarkən Firdovsinin yazdıqlarını buraxdım, yazmadım; deyilməmiş, yazılmamış olanları nəznə çəkdim.

61 Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət.

Mifoloji təsəvvürə görə, Yer kürəsi öküzün, öküz balığın ustündə, balıq da suda dayanmışdır. Beytin mənası: kim ki əməyə alışmış, zəhmət çəkməyi özünə sənət etmişdir, o, yerin altında olan balığın qarnında da olsa dürr, Yerin istinad etdiyi öküzün altında da olsa xəzinə əldə edə bilər. Əməyin qarşısında heç bir şey dura bilməz.

Gümüş küp, ya qızıl bir təşt istəsən,
İraq torpağından uzaq getmə sən.

62 Əgər sənətin gümüş küpünü, şeirin qızıl təştini istəyirsənsə, bunu İraqda axtar.

63 Bilənlər əkdiyi üç toxumdan mən,
Bir ağac əkərəm həm uca, həm şən.

İskəndər Zülqəmeyn üç sifətə malik imiş: padşahlıq, alimlik və peyğəmbərlik. Nizami burada İskəndərin tarixi haqqında bu üç mövzuda yüksək və parlaq bir əsər yazacağam deməklə, "İskəndərnamə"ni nəzərdə tutur.

64 Üç qapı tikdim, üç xəzinə demək,
Çəkdim hər qapıda ayrıca əmək.

Yəni üç ev üçün - İskəndərin sifətlərini göstərən padşahlıq, alimlik və peyğəmbərlik evləri üçün üç qapı tikdim: üç cəhətdən əsər yazdım. Hər cəhət üçün ayrıca əmək sərf etdim. Bunların hərəsi özlüyündə bir sənət və söz xəzinəsidir.

65 Bu namə mübarək olacaq, bişəkk.

Şahın məclisində olsa mübarək.
Burada şah - Nüsrətəddin Əbu Bəkr ibn Məhəmmədir, namə isə "Şərəfnamə"yə işarədir.
66 Yaquta bənzəyən suyu, saqi, dur,
Bu yaqut yağdıran qədəhə doldur.
Bu saxsı cama mey həyat axıdır,
Onun reyhanını öz torpağıdır.
Yaquta bənzəyən su - Nizaminin çoşub-daşan sözləri, yaqut yağdıran qədəh, cam - onun qəlbi və təbidir; mey - o qədəhin çanıdır, yəni şairin sözləri o qəlbin həyatıdır.
67 Ey inci, üzə çıx söz dənizindən,
Sultanın tacında get elə məskən.
Yəni ey sözlərim, təbimin dənizindən çıx, şahın tacına layiq qiymətli incilər ol.
68 Düşmən son düşünən, ürəyində kin,
İstiqbal görəndir, ləqəbi Bişkin.
Yəni düşmən işə keçəndən sonra o, iş haqqında düşünür. Bişkin isə öncəgörmə qabiliyyətinə malik olduğu üçün, hadisə baş verməmişdən qabaq onun çarəsini tapır. Bişkin - Atabəy Nüsrətəddin Əbu Bəkr ibn Məhəmmədin ləqəblərindən biridir.
69 Qılınc sahibidir, tac verən şahdır,
Üç növbət vurandır, beşə pənahdır.
Üç növbət - uzun zaman padşahların qapısında gündə üç dəfə nağara vurardılar. Deyirlər ki, bu, İskəndər Zülqərneyndən qalmışdır. Beş növbət -müsəlmanların hər gün beş vaxt qıldıqları namazdır. Beytmn mənası: qüvvət və taxt-tac sahibi olan Nüsrətəddin elə bir şahdır ki, onun qapısında, İskəndər dövründə olduğu kimi üç dəfə növbət vurulur. Özü də islamın yardımçısı və pənahıdır.
70 Fərattək səmimi bir dostluğu var,
Nil kimi düşməni gizlində boğar.
Yəni Nüsrətəddinin dostluğu Fərat çayının suyu kimi şirin və aşkardır. Düşmənini də, guya Tanrı düşmənlərini boğub gizlədən Nil çayı kimi xəbərsiz məhv edəndir.
71 Fələktək hər kəslə girsə meydana,
Atar qalxanını torpaqtək suya.
Yəni Nüsrətəddin göy kimi, fələk kimi yenilməzdir; o, vuruşanda duşməni öz qalxanını suya atar, məğlub olar.
72 Hər şəhrə hünərlə qələbə çalmış,
Qarun sərvətini əlinə almış.
Qarun - mifoloji rəvayətə görə, mal-dövlətinin çoxluğu, eyni zamanda xəsisliyi ilə məşhur bir adam imiş.
73 Yer xəzinəsindən bir çuval tikmiş,
Xeyri zər toplamış, yasəmən gümüş.
Xeyri - rəngi həmişə sarı olan həmişəbahar gülüdür. Zər - qızıl deməkdir. Yasəmən də gümüş kimi ağ, xoş qoxulu çiçəkdir.
Yəni Keyxosrov, o qədər dövlətlidir ki, xeyri sarılığını onun qızıllarından, yasəmən də ağlığını onun gümüşlərindən almışdır.
74 Fillərlə döyüşdə atınca kəmənd,
Qənnucun şahını edərsən filbənd.
Qənnuc - Hindistanın ən qədim şəhərlərindən biridir. Sultan Mahmud Qəznəvi tərəfindən məhv edilmiş bir dövlətin paytaxtı idi. Vaxtilə çox böyük olmuş, indi isə bir qəsəbə halındadır. Filbənd etmək - şahmatda fil və piyada ilə şahı mat etmək deməkdir.
75 Saydığım altı şey məxsusdur sana,
Adında altı hərf şahiddir buna.
Altı şey - izahı yuxarıdakı misralarda verilir. Adında altı hərf - ərəb əlifbası ilə yazılarkən Nüsrətəddin sözündəki altı samit hərfdir: n, s, r, t, d, n.
76 Yeddi göy altında, ey dünya şahı,
Beşinci ölkənin sənsən pənahı.
Beşinci ölkə - qədim Şərq coğrafiyasında Türküstan və Azərbaycan sayılırdı. Yəni Türküstan və Azərbaycanın şahı sənsən.
77 O gizli xəznəni aça bilməsə,
Verər qızıl açar şanlik o şaxsə.
Yəni bu əsəri oxuyub oradakı hikmətləri anlamasa da, əlində belə bədii bir açarın, əsərin olması onu sevindirər.





78 Bu Çin ipəyinin naxış evində,
Maninin fırçası düşmüşdür bəndə.
Yəni "Şərəfnamə" elə sənətkarlıqla işlənmişdir ki, məşhur sənətkar Mani bunun qarşısında heyran qalmışdır.
79 Ulduz güzgüsüylə o böyük qeysər,
Qaranlıq içindən çıxardı gövhər.
Yəni ilk dəfə güzgü qayıran, qaranlıq bir dəmirin içindən işıqlı gövhər çıxaran İskəndər oldu.
80 Bulqar şəhrini o, etdi bərqərar,
O şəhrin adıdır əslində Bün-qar.
İskəndər zülmətə gedəndə əsbab-əsləhəsini və qoşununu bir mağarada qoyub getmiş, sonra o mağaranın yerində bir şəhər tikdirmiş, adını Büni-qar qoymuş və bu ad tədricən Bulqar şəklinə düşmüşdür. Büni-qar - mağaranın dibi deməkdir.
81 Dünyaya gəlmədən əvvəl xaçpərəst,
Çəkdi bu dünyaya xaç kimi bir xətt.
İskəndər ekvator xəttindən biri Şimal, digəri Cənub qütbünə tərəf xətlər çəkdi, dünyanı dörd yerə böldü.
82 Həmin bu dörd bucaq ətləsi xətlə
Həndəsi ölçünü keçirdi ələ.
Ətləsi xətt - ekvator xəttitidən çəkilən xətlərə işarədir. Beytin mənası budur ki, İskəndər həmin bu dörd xətlə həndəsə elmini yaratdı.
83 Dörd bucaq üstünə bir də artırdı,
Bu doqquz fələyə beş növbət vurdu.
Dörd bucaq - İskəndərin ekvator xəttinin üstündən keçən qütblər dairəsi ilə dörd yerə böldüyü dünyaya işarədir. Yəni İskəndər bu dörd bucaq dünya üzərində elə bir nağaraxana qurdu, daha doğrusu, elə bir əzəmət sahibi oldu ki, səsi, tərifi doqquzuncu fələyə çatdı.
84 O, rübi-məskunu etdi aşikar...
Qədim ərəb coğrafiyaşünasları yeri dörd hissəyə bölərdilər. Bunlardan yalnız birində insan yaşayırmış. Misranın mənası: dünyanın dörddə birinin məskun olmasını həndəsə vasitəsilə İskəndər müəyyən etdi.
85 İskəndər bir böyük yol təqib etdi,
Dirilik suyunun dalınca getdi...
...Dirilik suyunun olmadı sonu,
Ancaq indi tapdı həyat suyunu.
Yəni İskəndər o zaman abi-həyat tapmaq üçün zülmətə gedərkən düşünürdü ki, o sudan əbədi həyat tapacaq. Lakin o vaxt axtardığım indi "Şərəfnamə"nin bulağından tapdı və əbədi həyata yetdi.
86 Xızr bu süfrəndə olmuş həmsüfrən,
Yetmiş yeddi suda ağzını yu sən.
Bu, Nizaminin özünə xitabıdır. Madam ki, sən sənət bulağının daimi həyat suyunu içərək Xızr ilə həmsüfrə oldun, o halda daim doğru, təmiz sözlər söylə. Yetmiş yeddi su - son dərəcə təmizlik və paklığa işarədir.
87 Rum şahı oldu bu bəxşişdən çox şən,
Mumunu qorudu yanar atəşdən.
Yəni İskəndər (Bertelsdə - Dara) bu peşkəşdən sevindi və özünü Daranın qəhrindən hifz etdi.
88 Ulduz tərəzisi ortaya gəldi,
Taleyi göründü Əsəd bürcündən.
Yəni rəsəd alətləri işə başladı. Onun bəxtinə Əsəd (Şir) bürcü düşdü ki, bu da şücaət və quvvət əlamətidir.
89 Günəş yaxınlaşdı o gün Həmələ,
Gedirdi elmdən çatsın əmələ.
Yəni bu zaman Günəş də bilik və əmək nişanəsi olan Həməl bürcünə girmişdi.
Bundan sonra gələn üç beytin mənası belədir: bu zaman tale ulduzları öz evlərində idilər; Ütarid ulduzu Cövza bürcündə, Ay və Zöhrə Buğa bürcündə, Mərrix isə öz fərəh evi olan altıncı evdə idi. Səadətə yaxın olan belə bir tale ilə İskəndər dünyaya gəldi.
Şərq astrologiyasında hər planet üçün iki ev, daha sonra isə bir yoxuş, bir də eniş evi qeyd edilir. Öz evində və yoxuş evində planetlər müvəffəqiyyəti göstərir. Astrologiyanın təsvir edilmiş horoskopunda isə (horoskop - orta əsrlərdə münəccimlərin insan anadan olarkən onun taleyini, gələcəyini qabaqcadan söyləmək üçün tərtib etdikləri ulduzların düzülüş cədvəlidir) bütün planetlər ya öz evində və ya yoxuşunda göstərilir. Deməli, bu halət müvəffəqiyyəti, xoşbəxtliyi xəbər verir.
90 Bəxtini oxudu parlaq alnından,

Verdi oğluna da ondan bir ünvan.
Yəni Nikumaxis İskəndərin taleyini təyin edərkən öz oğlu Ərəstunun da adını ona bağladı.
91 Tale xidmətində duran zamanda,
Söz qaşı möhrünü vuran zamanda.
Oğlunu tapşırdı gənc şahzadəyə.
Yəni ulduzlar xoşbəxtlik göstərən vəziyyətdə olduqları bir gündə o, Ərəstunu İskəndərə tapşırdı.
92 Ağacdır - dörd kökü, altı böyrü var,
Çoxunu boğmuşdur bu qorxulu dar.
Bu dünya altı cəhəti (önü, arxası, sağı, solu, üstü, altı) və dörd kökü, dörd ünsürü (su, od, torpaq, hava) olan bir dar ağacıdır ki, çoxlarını çarmıxa çəkmişdir. Buraya çoxları gəlib-getmişdir.
93 Əlində tərəzi mahir söz ölçən,
Saxta əşrəfini saldı rövnəqdən.
Burada Nizami özünü mahir söz ustası, əsərini də sözün dəyərini, saxta, ya saf olduğunu təyin edən tərəzi, əyar adlandırır.
94 Hər hərfin üstünə barmaq bassam mən, Tapılmaz üstündə qələm işlədən.
Yəni mən başqalarının əsərinə toxunmaq istəmirəm: nöqsan axtarmağa başlasam, tənqidimin qabağında heç kəs dura bilməz.
95 Elə bir dabbaqlıq etdim bu gönə,
Mətanət göstərsin hər ağır günə.
Yəni mən özümə elə tərbiyə vermişəm ki, mənə əziyyət etsələr də, başqasını incitməyə qalxışmaram.
96 O yaşıl sərv ilə Rumun torpağı
Reyhantək bəzəndi, şənləndi bağı.
Yəni gənc İskəndərlə bütün Rum ölkəsi xoşbəxt oldu və onunla fəxr etməyə başladı
97 Gəldi qurd ağzından sübhün nəfəsi,
Keşikçi itinin kəsildi səsi.
Qurd ağzı - yalançı səhər, dan yeri deməkdir; yəni sübh açılmağa başlayanda, qarovulçunun itinin səsi kəsiləndə, itlər yatanda.
98 Coşdu topppuz, yağdı mancanaq daşı,
Əyildi öküzün, balığın başı.
Yəni elə şiddətli müharibə oldu ki, enən gürzlərin qüvvətindən yerin altında öküzün və balığın (gav-mahinin) başı əyildi.
99 Ləli yer öküzü udduğu zaman,
Pusqudan sıçradı qapqara aslan.
Dini rəvayətə görə, yer gav-mahinin, o da suyun üzərində durur. Günəş də gedib haman suda batır. Yəni gövhərə bənzəyən günəşi gav-mahi uddu, nəticədə qaranlıq çökdü.
100 Mənimlə bu qorxu bilməyən pələng,
Olmasın Rum, zənci kimi iki rəng.
Yəni bu pələng qorxusuz və iki rəngli olan dünya mənimlə ikiüzlülük etməsin, mənə qalib gəlməsin. Rum - ağ rəngə, gündüzə, zənci - qara rəngə, gecəyə işarədir.
101 Aldadan yol oldu bu uzaq yollar,
Yeddinci fələkdə ancaq işıq var.
Yəni dünyanın çox uzun olan yolu azdırıcıdır və qurtuluş işığı çox uzaqda görünür.
102 Çin şahı atına qoyarkən yəhər
Zəncinin nalına od vurdu göylər.
Yəni səhər açılmağa başlayanda gecə atını sürətlə sürüb getdi.
103 Günəşi pusqudan fələk sıçratdı, Ulduzlar üzüyü əlindən atdı.
Yəni Günəş çıxarkən ulduzlar söndü.
104 Dəvənin zəngindən, fil güzgüsündən
Sədəf şəvə doğdu inci doğurkən.
Şərq mifologiyasına görə, yağış dənizə ildırımsız yağanda sədəflər dürrə, ildırımla yağanda isə şəvəyə hamilə qalır. Beytin mənası: müharibədə dəvələrin boynundan asılan zənglərin ildırım kimi səsindən, fillərin üstündə olan güzgülərin şimşək kimi parıltısından dəniz sədəfləri dürr əvəzinə şəvəyə hamilə qalırlar.
105 Maral buynuzuna göndər zeh çəkər,
Qarışqa başını dırnağa tikər.





Maral buynuzundan qayrılmış yay və yabanı eşşək gönündən hazırlanmış kirişlə elə düzgün ox atıla bilər ki, qarışqanın başını ayağına tikər.
106 Göylərin Harunu keşik çəkərək,
Belinə asmışdı saysız qızıl zəng.
Göy Harunu və ya hindusu - gecə qarovulçusu Zühəl ulduzudur ki, yeddinci fələkdə olur. Dinlər tarixinə görə, yəhudilərin peyğəmbəri Musa, qardaşı Haruna qarovulçuluq vəzifəsini tapşırmışdı. Harun qurşağının və paltarının dövrəsinə qızıl zınqırovlar asmışdı. Qarovulçu mənasında işlənən Harun sözü buradan alınmışdır.
107 Ordunun çəkisi elədikcə meyl,
Bu gözdən o gözə axıdırdı sel.
Nizami burada bir-birinə qarşı duran iki ordunu gözləri poladdan hazırlanmış bir tərəzinin bir-birini dartan iki gözünə bənzədir. Beytin mənası: poladdan silahlar daşıyan iki qüvvətli ordu iki tərəzi başı kimi bir-biri ilə vuruşurdu. Bu gözdən o gözə qan sel kimi axırdı.
108 Zəncinin qəlbinə çökmüşdü qorxu:
"Biz ipək sanırdıq, cod palazmış bu..."
Yəni biz əvvəl zənn edirdik ki, İskəndər yumşaq və ədalətlidir. İndi görürük ki, o, çox zalım və adamyeyəndir.
109 Hər filin belinə taxt qoyulmuş ac,
Üstündə bir zənci, başında bir tac.
Yəni fillər üstündə ağ şirmayı yəhərlərdə zəncilə oturmuşdular. Onların başlarında qıvrım saçları müşkdən taca bənzəyirdi.
110 Fülərin yanınca gedən piyada
Hər yerdə yüz fili salırdı bəndə.
Burada Nizami şahmat oyununun gedişlərindən istifadə edir. Şahmatda piyada filin yolunu kəsə bilir.
111 Coşarsam atından salaram Nili,
Bu rüxüm piyada buraxar fili.
Yəni mənim nərəm Nil çayının səsini batırar. Mənim heybətim fili dəhşətə gətirər.
112 Rəcəzi bitincə tərpəndi duman,
Xəznədə qıvrıldı sanki bir ilan.
Rəcəz - vuruşanların mübarizəyə girməzdən qabaq yüksək tonla oxuduqları şeirdir. İran mifologiyasına görə, xəzinəni ilan mühafizə edir.
Yəni ilan xəzinə sövdası ilə qıvrılan kimi, o da qalibiyyət arzusu ilə qıvrıldı.
113 Kəməndi tamğaclı qaşına bənzər,
Çaçların qurduğu yay kimi çənbər.
Tamğac - Türküstan şəhərlərindən biri, Çaç isə indiki Daşkəndin yerində bir şəhər olmuşdur. Tamğaclılarda qaşlarını kaman kimi düzəltmək adət idi. Çaçlılar da yaxşı kaman qayırmaqla məşhur olmuşlar.
114 Mən ərəb huşlu bir Rum sərvəriyəm,
Zənci öldürən bir sübhün nuriyəm.
Ərəblər ayıqlıqları ilə seçilərdilər. Zənci qaralığından gecəyə bənzədilir. Rumlu da sübh kimi ağ olur. Yəni sübh gecənin qaranlığını boğan kimi mən də zənci öldürənəm.
115 Fil kəskin qolumdan bir qılınc yesə,
Filban Nil küpünə atar əlbəsə.
Yəni filə bir zərbə vursam, filin sahibi matəm paltarı geyər. Nil küpü - sürməyi boyaq küpü deməkdir.
116 Poladın açdığı dərin yaradan,
Qalmadı abinus ağacında can.
Abinus ağacı - Hindistanda bitən sərt və qara bir ağacdır; burada isə zəncinin vücudu deməkdir. Yəni bir zərbə ilə zənci məhv oldu.
117 O qara buluda qızdı hökmüran,
Çəkdi ağ nəhəngi qara qınından.
Qara bulud - zənci, ağ nəhəng - qılınc deməkdir.
118 Zəncilər gecəydi, rumlular çıraq,
Rumlular qarğanın gözüydü ancaq.
Yəni zəncilərin qoşunu gecə kimi qara, rumluların qoşunu isə çıraq kimi (ağ) idi; yaxud zəncilər qarğa kimi qara, rumlular qarğanın gözü kimi ağ idilər. Burada həmçinin zənci qoşunların çoxluğu və rumlu qoşunların azlığı da ifadə edilmişdir.
119 Əqiqlər şəvədən qalamış ocaq,

Zəncilər od tutub, kül qalmış ancaq.
Əqiq - qırmızı rumlular, şəvə isə qara zəncilərdir. Yəni rumlular zənciləri qalayıb yandırdılar.

120 Qarğalar ağ şahin əlində əsir.
Yəni İskəndər zəncilərə qalib gəldi.

121 İnsanın yükünü çəkən hər hammal,
Ya çıraq daşıyır, yaxud ipək mal.
Həbəşlər gah qalib gəlir, gah məğlub olurdular. Lakin bu halların ikisi də, hammalın müştərisi kimi təsadüfdən asılı olurdu. Yəni hammalın daşıdığı mal özününkü olmadığı kimi, həbəşin qələbəsi də onun müvəffəqiyyəti sayılmazdı.

122 Göy üzü geyərkən laciverd paltar,
Hər kəsə laciverd paltar hazırlar.
Laciverd - tünd göy, həm də matəm rəngi sayılır. Yəni laciverd rəngində olan göylər insanlar üçün də o rəngdə matəm paltarı biçər. Deməli, göylərin, fələyin qəza-qədərindən yaxa qurtara bilməzsən.

123 Çox danə görərsən bu dəyirmanda,
Növbətlə üyüdür unu hər bəndə.
Yəni dünya dəyirmanında dən, sərvət çoxdur. Hər kəs öz dənini növbətlə o dəyirmanda üyüdüb faydalanır. Demək, rumlular da öz növbələrində bu dünya dəyirmanından istifadə etdilər.

124 Həndəsi hərflər, cizgili xətlər,
Bildirir sənindir şanlı bir zəfər.
Yəni həndəsi xəttin hərfləri göstərir ki, sən qalibsən. Həndəsi xətt - Ərəstunun atasının İskəndərə vermiş olduğu qalibiyyət və məğlubiyyət cədvəlinə işarədir.

125 Şah içdiyi camın hər damcısından,
Mühəndis əkirdi gözəl bir fidan.
Yəni şah şərab içdikcə falçı mühəndis bir ümid ağacı əkirdi, ona gözəl vədlər verirdi.

126 Qasidə tapşırdı bir top, bir çıvkan,
Bir çuval küncüd də verdi ərməğan.
Qədimdə insanlar bir-birilə məktub əvəzinə əşya göndərər və öz fikirlərini onların vasitəsilə bir-birinə çatdırardılar. Buna əşya yazısı deyilir. Əlifba icad edilməmişdən qabaq bu, əsas yazı formalarından biri olmuşdur.

127 Küncüddən çox olsa Dara qoşunu,
Mənim də quşlarım dənləyər onu.
Üzərlik doldurdu kiçik çuvala,
Qasidə verincə dedi: "Çıx yola!"
El arasında üzərliyi bədnəzərdən qorunmaq üçün yandırarlar. Lakin son dərəcə acı olduğu üçün quşlar onu yeməz. Dara İskəndərə küncüd göndərmişdi; İskəndər dedi ki, onu mənim quşlarım yeyər, yəni sənin qoşununu mənim əsgərlərim yox edər. İskəndər isə Daraya üzərlik göndərdi və bununla demək istədi ki, mənim qoşunumu düşmənin quşları yeyə bilməz.

128 Mən onu içərsəm verər səadət,
O məni yeyərsə doğar fəlakət.
Yəni mən şərabı içsəm, o, qəlbimə hərarət və işıq saçar, o məni yesə, yəni bərk sərxoş edib məni öldürsə, qismətim torpaq olar.

129 Keyxosrov dünyadan edərkən səfər,
Cavahir camından vermişdi xəbər.
İran mifologiyasında Keyxosrovun gövhər bir camı varmış ki, dünyanın bütün hadisələri, həm keçmiş və həm də gələcək onda əks edilirmiş. Yəni Keyxosrov ölərkən Daranın əhvalını öz camında görüb, əvvəlcədən xəbər vermişdi.

130 Elə iş görmə ki, doğsun sənə kin,
Dəmirə tez təsir etsin sükahin.
Əslində sükahin deyil, segahəndir. Bu, sirkə ilə dəmirdən hazırlanan bir boyadır. Pas salmış dəmiri sirkə yeyər.

131 Qızıl öz vəznini versə arpaya
Qızıl qiymətiylə çıxar ortaya.
Yəni sən qızılsan, İskəndər arpadır. Əgər sən özünü İskəndərlə bərabər etsən, dəyərsiz arpaya qızıl dəyərini vermiş olarsan; belə ki, qızılın arpa kimi çəkilməsi arpanı qızıl qiymətinə qaldırır.

132 Tox ilə ac kabab yesə bir yerdə,
Tox adam kababdan düşəcək dərdə.





Yəni ac adam kabab tikələrinin irilərini, yağlılarını yeyəcək, tox isə bu iştahdan məhrum olduğu üçün dərd çəkəcəkdir.

133 Harada görünmüş aciz bir yunan,
Belə bir gəmini çıxarsın sudan?
Yəni bir rumluda haradan o qədər güc ola bilər ki, gəmini dənizdən çıxarıb qovsun? Burada dəniz İran məmləkətinə, gəmi də Daraya işarədir.

134 Dilini bağla ki, əldə qalsın baş,
Dil quru olarsa, boğaz olmaz yaş.
Quru dil - susmaq, yaş boğaz isə başın kəsilib qana bulaşması deməkdir. Yəni dilini saxla ki, boğazından qan axıdılmasın.

135 Qan ilə islanmış dilsiz bir başdan,
Şübhə yox, yaxşıdır başsız bir insan.
Yəni baş kəsilmiş olduğu üçün danışa bilməyən bir dil başı ağılsız, biliksiz olanın dilindən yaxşıdır. Demək, yersiz danışmaq lal olmaqdan pisdir.

136 Məclis qur, ulduzlar nur verdi yerə,
Firiştə qapını açmış göylərə.
Böyüklərlə məsləhətləş, müharibə və sülh məsələsini müzakirə və həll et.
Tale ulduzları göydən baxır, qədər mələkləri asimanda qapıları açıb gözləyir.

137 Cəmşid tarixini oxu bir daha,
O ayı gör necə uddu əjdaha.
İran mifologiyasında deyilir ki, çiyinlərində iki ilan bitmiş Zöhhak
Cəmşidin taxtını əlindən almışdı. Burada əjdaha - Zöhhak, ay isə-Cəmşiddir.

138 Haman əjdahaya sonra Firidun,
Əjdaha gücüylə açdı nə oyun?
Yəni sonra Cəmşidin nəvəsi Firidun böyük bir qüvvətlə hücuma keçib, Zöhhakı məğlub etdi.

139 Öz mülkümdən mənə iqta göstərmə,
Süheylə baratı Yəməndən vermə.
Burada İskəndər Daraya cavab verir ki, öz ölkəmdən mənə pay vermə. Süheyl ulduzu özü Yəməndədir, yəni Yəmənə məxsusdur, ona Yəməndən barat verilməz.

140 Divlərlə oturub dursa Süleyman,
Qalmaz barmağında üzüyü, inan!
Ehtiras və tamah divi ilə dostluq etmə, yoxsa Süleyman kimi padşahlıq üzüyünü itirmiş olarsan. Şərq mifologiyasından məlumdur ki, Suleyman Bilqeysə aşiq olmuşdu və ona sonsuz dövlət və sərvət verməyə hazır idi. Bilqeys də Süleymandan yalnız üzüyünü istəmiş (Süleymanın üzüyü "Möhri-Süleymani" adı ilə məşhurdur; güya o, bütün aləmə həmin üzüyün vasitəsi və gücü ilə hökm edirmiş), o da üzüyü vermiş. Bilqeys isə onu alıb yanından keçən arxın içinə atmışdı.

141 Çıxarkən bir sənlik, mənlik ortaya,
Ah, necə doymasın cana bu dünya?!
Yəni dünyanın işləri ona görə düzəlmir, insanlar ona görə cana gəlmişdir ki, mən və sən bir zamanda yaşayırıq, heç birimiz bir-birimizi bəyənmirik, xudbinlikdən əl çəkmirik.

142 Bilirəm, bax, budur, fikrinin canı:
Tutmaz bir tərəzi iki batmanı.
Yəni iki düşmən iki batmanlıq daş kimidir ki, hərəsi tərəzinin bir gözündə bir-birinə qarşı durmuş, biri o birisindən aşağı və ya yuxarı olmur.

143 Məni öz daşınla gəl çəkmə daha,
Bəhməni bununçün vurdu əjdaha.
Yəni sən özünü mənimlə müqayisə etmə, sən mənə bərabər deyilsən; mən sənin nəzərində kiçiyəmsə də, sən belə imtahana girmə, çünki Bəhmən belə imtahanda əjdaha tərəfindən uduldu. Bu, ehtimal ki, Bəhmən Ərdəşir ilə yeznəsi və sərkərdəsi Mekabizin əhvalatına işarədir. Qüdrət və əzəmətinə güvənən Bəhmən ona qarşı üsyan edən Mekabizin əlində aciz qalmışdı.

144 Cavabda daş, dəniz atsan ortaya, Dağ kimi daşımı ataram suya.
Yəni əgər özünü dağ və dəniz kimi əzəmətli sayaraq mənə meydan oxusan, mən də daşdan olan kökümü dənizdə yerləşdirib, dağ kimi sənə qarşı duraram.

145 Çin şahı şəhərə nəfəs verərkən,

Ulduzu Günəşə dəyişdi Ədən.
Yəni səhər açılıb Günəş çıxınca, Ədən dənizinə bənzəyən göy ulduzlarını verib, onun əvəzinə Günəşi aldı.

146 Yollara töküldü dəmirdən tikan.
Qədim Şərqdə (hətta orta əsrlərdə Avropada da) müharibə zamanı düşmənin dəvələrini, atlarını zəif salmaq üçün onların keçdiyi yollarda ayaqları altına üçkünc dəmir tikanlar tökərdilər.

147 Davullar gurlarkən dəhşət verərək,
Təbilin dodağından öpürdü fələk.
Yəni təbillərin gurultusu göylərə qalxmışdı, fitnəkar fələk fitnə qoparmaqda öz havadarı olan davulların, təbillərin ağzından öpürdü.

148 O qədər toz qonmuş tərkə, yəhərə,
Yer göyə dönmüşdü, göy isə yerə.
Yəni döyüş zamanı heyvanların ayaqları altından göyə o qədər toz qalxmışdı ki, göy yer kimi tozlu idi. Atlıların parıldayan əsləhə və yaraqları isə yeri ulduzlu göyə bənzədirdi.

149 Zənci öz tacına düzüncə gövhər,
Çin şahı taxtından düşdü dərbədər.
Bu beytdə zənci - axşam, gecə; tac - göy, səma; gövhər - ulduz; Çin şahı - Günəş; taxt (orijinalda: ağ taxt) - gündüz, yaxud gündüzün işıqlı səması; düşdü dərbədər - (Günəş) batdı deməkdir. Yəni gündüz keçdi, axşam oldu.

150 Günəş yaqutunu oğru çalınca,
Bu dünya düşmüşdü yaqut dalınca,
Məhtabı tutaraq dedilər: "Oğru,
Günəşdən gövhəri oğurlamış bu!"
Yəni Günəş batdı, insanlar onun işığını Aydan almağa başladılar. Ayın Günəşdən gövhər oğurlaması - işığı Günəşdən almasına işarədir.

151 Bəhmənin qoluna sarılmış ilan,
Düşmüş İsfəndiyar tunc çardağından.
Yəni Bəhmənin uzun və qüvvətli qoluna əcəl ilanı sarılmış, İsfəndiyar tunc qalasından düşüb həlak olmuşdur. İsfəndiyar - Keylər sülaləsindəndir. Güştasbın oğludur. Firdovsinin "Şahnamə"sində pəhləvan kimi təsvir olunur. Bəhmən isə Güştasbın nəvəsidir. Qədim İran şahlarındandır. Əsl adı Ərdəşirdir.

152 Nəslimə əzəldən ölümdür qismət,
Öldürən bu əmrə verir şəhadət.
Yəni qatilim mənim Keylər nəslindən olduğumu öz sui-qəsdi ilə isbat etdi. Bu öldürülmək də mənə babalarımdan miras qalmış bir taledir.

153 Könlünü çevirmə Rövşənəylmdən,
Təbii, işıqla Günəş olur şən.
Yəni qızımdan, Rövşənəkdən məhəbbətini əsirgəmə, həyat məhəbbətlə gözəlləşir.

154 Gecənin gözünə qaranlıq axdı,
Bağdadı Kaxsız və Kərxsiz buraxdı.
Yəni çərxi-fələyin gözü kor, üzü qara oldu ki, İranın Bağdadını saraysız, qalasız və Kərxsiz qoydu. Bağdad Kərxi Bağdad hasarı xaricində sənətkarlara məxsus geniş bir yer idi.

155 Dünyadan al günəş qanad çəkincə,
Yaqut içdi, şəvə daldı sevincə.
Yaqut - Günəş, günəşli gündüz; şəvə - qaranlıq gecə deməkdir. Yəni Günəş batdı, gecə oldu.

156 Əbləh atlı səhər gəlib üfüqdən,
Axuru çəməndə yerləşdirirkən...
Əbləh atlı səhər - sübh vaxtı göyün iki rəngli olmasını bildirir; çəmən -göy, səma deməkdir. Yəni Günəş dan yerinin alaqaranlığından çıxıb, göyə yüksələrkən...

157 Göy günbəz altında gəl qurma büsat, Kəhrəba qalədə yaramaz nişat!.
Göy günbəz - səma, göy; kəhrəba qalə - yer, dünya deməkdir. Yəni bu dünyada şadlıq, sevinc məclisi qurma.

158 Üzünü kəhrəba kimi saraldar,
Əlbəsən lacivərd bir rəngə çalar.
Yəni dünya vəfasızdır, bugünkü al yanağını sabah saraldar; bugünkü toy paltarını sabah matəm geyimi ilə əvəz edər.

159 Etsin mey özümü unudan kim





İki məğz yaratsın mənə dan kimi.
Dan - dan yeri deməkdir. Dan, yaxud sübh iki olur: birincisinə yalançı sübh, ikincisinə həqiqi sübh deyərlər. Beytin mənası: elə şərab ver ki, məni özümdən çıxartsın, iki məğzli etsin - beynimi iki qat işıq elasin.

160 Ey döviət, hardasan, məni sevindir, Mehdi qapısında taxtını endir.
Burada Mehdi sözü, çox güman ki, şairin mədh etdiyi Atabəy Nüsrətəddinə işarədir.

161 - Ey qoca pəhləvan, - söylədi ona, -
Başın kölgə salmış öz ayağına.
Yəni qocalıqdan belin elə bükülmüş ki, başının kölgəsi ayağına düşmüşdür.

162 Gözəlcə bir cavab verdi pəhləvan:
"Söylərkən dilimiz dönər çox zaman".
Yəni dil ağızda sümüksüz ətdir, hər cür mənasız və yalan söz söyləməyə qabildir.

163 Dörd tağ altında beş növbət nə gərək?
Şeşdərsiz olurmu bu doqquz fələk?
Dörd tağ - dörd ünsür: kainatın əsasında duran su, od, torpaq, külək; beş növbət - şahların sarayı önündə gündə beş dəfə çalınan hərbi musiqi; şeşdər - nərd oyununun duşeşi; doqquz fələk - göyün xəyal edilən doqquz təbəqəsi. Yəni dünyada şahlığın beş növbətini vurma, çünki bu səmanın altında həyat nərdi duşeşsiz oynanmır, demək, səndən üstünləri də ola bilər.

164 Diləkçin kim köynək geysə tərsinə,
Duayla avanda çevirər yenə.
Müsəlman Şərqində Allahdan ehtiyacım istəmək üçün köynəyi tərsinə geymək adət kimi olmuşdu. Yəni ehtiyacını diləmək üçün köynəyini tərsinə geyən adam məqsədinə çatdıqdan sonra onu yenə rastına çevirib geyə bilər.

165 İran başçıları xidmətdə durdu,
Onun daşlarıyla tərazi qurdu.
İranın böyük adamları ona tabe oldular. Təraziyə onun daşlarını qoydular, yəni onun böyüklüyünü təsdiq etdilər.

166 Diniylə atəşə çöküncə dehqan,
Həm ataş söndü, həm ona inanan.
Dehqan - burada Zərdüştün ruhanisi, muğ mənasındadır. Beytin mənası: muğ atəşkədədə atəşpərəstlik dini ilə Zərdüştün ayinlərini icra edərkən həm od söndü, həm özü öldü.

167 Novruz ilə Səddə bayramlarında...
Səddə - Novruza əlli gün qalmış iranlıların bayram etdiyi gündür; güya od bu gün tapılmışdır. Atəşpərəstlik dininin banisi Zərdüştün iradəsi ilə keçirilən bu bayramda od yaxıb şənlik edərlər.

168 Zöhrətək Babildə parladı öncə,
Haruti kəsləri təmizləyincə.
Mifologiya üzrə, Zöhrə ulduzu sehr və cadu hamiyəsi sayılır. Haruti kəslər - Harutun ardınca gedənlərdir. Harut və Marut - Babilə göndərilmiş iki mələkdir. Onlar Zöhrəyə uyub sehrbazlığa başlamış və buna görə də cəzalandırılmış, Babil quyusunda asdırılmışlar.

169 Hirbüdün oduna soyuq su tökdü,
Çox hirbüd belini ikiqat bükdü.
Hirbüd - atəşkədə xidmətçisidir. Beli ikiqat bükmək - məğlub olmaq deməkdir.

170 Əjdaha görüncə gəlir Balinas.
Bildi ki, şüşəni qıracaq almas.
Almasın xassəsi şüşəni kəsməkdir. Yəni o əjdaha kimi görünən qız Balinası gördükdə bildi ki, sehrinin şüşəsinə doğru almas gəlir. Demək, Balinas ona qalib gələcəkdir.

171 Mişku - hərəmxana.

172 Qızıldan yazılsın gərək bu sözlər:
"Çarvadar əkəni dəvəçi biçər".
Çarvadarla dəvəçi eyni rütbədə və eyni hüquqdadırlar. Birinin əkdiyini ona bərabər və tay olan ikincisi biçə bilər.

173 Gecə al günəşdən düyümü dəldi,
Şəfəqin əlinə bir əqiq gəldi.
Onu da uddu Busəhaq firuzə,
Busəhaqlara bax, ilişdi sözə.
Busəhaq - İranın Nişabur şəhərindəki firuzə mədənlərindən birinin adıdır ki, ondan çıxan firuzəyə Busəhaq

deyirlər. Əqiq - burada qırmızı deməkdir, axşam şəfəqinə işarə olunur. Günəş qırmızı qızıldan düyümlənmiş böyük bir düyüm kimi alınır; gecə bu düyümü açır, açıldıqca ondan şəfəq doğur, sonra gecə şəfəqin qırmızılığını Busəhaq Firuzənin göy rəngi ilə dəyişdirir, şəfəq də çəkilir, səmai göy olur. Burada Günəş düyümünün açılması, şəfəq əqiqinin görünməsi, sonra qırmızının göylə örtülməsi - İskəndərlə Rövşənəyin zifah gecəsindəki vəziyyətini təsvir edir.

174 Ondan başqa hər kəs adını çəkər,
Saçıntək başları kəmərə dəyər.
Yəni İskəndərdən başqa kim səninlə evlənmək fikrinə düşsə, o, öz başını daşa vurar, boş qayıdar.

175 Səhər çöhrəsindən pərdə atarkən,
Həbəşə bac üçün dağ çəkdi Xütən.
Xütən - burada gün, həbəş isə gecə deməkdir. Dağ çəkdi - yəni Günəşi parlatdı.

176 Fələk davəsini sürətlə sürür,
Ondandır ki, gündə bir oyun doğur.
Yəni dünyanın işləri tez-tez dəyişilir, bu gün sülh ilə, sabah dava ilə keçir.

177 Kəyan ovlağıdır əcəm torpağı,
Orda bir vəhşidir yadlar ayağı.
Yəni İran Keylərin qəbiristanıdır. Orada yabancılar gəldi-gedərdir. Onlar burada çox qala bilməzlər.

178 Dövran gümüş teştin ağzını açdı,
Qara qarğa qızıl yumurta saçdı.
Gümüş teşt - səhər, qara qarğa - gecə, qızıl yumurta isə Günəş deməkdir. Yəni səhər oldu, gecənin qoynundan Günəş doğdu.

179 Qoca möbidlərsə tarix boyunca
Yumurta və teştdən demiş doyunca.
Yumurta və teşt - burada astronomiyaya işarədir. İranda möbidlər, yəni Zərdüşt dini ruhaniləri, bunların köməyi ilə guya qeybdən xəbər verərdilər.

180 Yaxşıdır hər falı xeyr işə yormaq,
"Rux"u yox, oyunda "şahrux"u vurmaq.
Yəni insan çətinliyə düşəndə ümidsiz olmamalı, əksinə, cəsarətlə mübarizəyə atılmalıdır. Şahrux - şahmat oyununda elə bir gedişdir ki, bununla eyni zamanda da şah qaçırılır və fil də vurulur. Rux - şahmatda top fiqurudur.

181 İskəndər əmr etdi, cavab olaraq,
Məktublar müşk ilə yazılsın ancaq.
Yəni İskəndər hər ölkədən ona müraciət edənlərə müsbət cavab verdi, sülh və xeyirxahlıq bildirdi.

182 İstədi büsatı İranda qursun,
Ərəb də bu yolda ona baş vursun.
Yəni şahlığını İranda etsin, eyni zamanda Ərəbistan da ona tabe olsun.

183 Təvaf işlərindən azad olaraq,
Basaraq Yəmənin gönünə ayaq.
Yəni Kəbəni (bütxanəni) ziyarət şərtlərini yerinə yetirdikdən sonra, Yəmənin məşhur qiymətli dərilərini ayağı altına saldı, onlara sahib oldu.

184 Şəbdizə vurunca gündüz qızıl nal,
O dünya günəşi atlandı dərhal.
Şəbdiz - gecə; qızıl nal - Günəş; dünya günəşi - İskəndər deməkdir. Yəni səhər olcaq İskəndər atına mindi.

185 Örtmə öz qaşınla uca göyləri.
Göyləri qaş ilə örtmək - çox çətin, yaxud mümkün olmayan bir işə girişmək deməkdir.

186 Mən qalib gəlsəm, kin coşduğu zaman
Ataram gizlənən şahı ortadan.
Yəni sən dünyanı tutmuş bir padşahsan, mən cuşə gəlib səni yıxsam, Yer kürəsini yıxmış olaram.

187 Qarınca düşərsə parlaq bir tasa,
Bir çarə düşün, güc iş görməz yoxsa.
Yəni sürüşkən bir qaba qarışqa düşəndə onu bir çöp, bir samanla oradan xilas etmək lazımdır, yoxsa zor ilə onu tutmaq istəsən əzilib məhv olar.

188 Padşah da yuxuya tez hazırlandı,
Dörd ünsür də yatdı, qapı bağlandı.
Dörd ünsür - dünya və dörd divar; qapı - burada qapının iki tayına bənzədilən iki göz qapağı. Yəni padşah





dörd divar arasında gözlərini qapayıb, yuxuya daldı.

189 Günəşin əlində bir narınc vardı,
Fələk narıncının başını yardı.
Narınc - Günəş. Günəş kürəsi. Yəni Günəş çıxdı, üfüqü qan rəngli şəfəqlə boyadı.

190 Lacivərdə şəncərf vurunca dövran
Samur sarı tülkü doğdu o zaman.
Yəni şəfəq keçib, havalar qatı maviyə çalanda qara gecədən sarı ay doğuldu.

191 Nəğməyə başladı pəriüzlülər,
Günəş mehreganda daha xoş gələr.
Mehregan - mehr iranlıların qədim təqvimi üzrə aylardan biri, payızın birinci ayıdır. Mehregan həmin ayın on altıncı günüdür ki, farslar bu günü böyük bayram edərlər; payızda gecə və gündüzün bərabər olması.

192 Göy soyuq, Günəşin xeyməsi ocaq,
Yer quru, Cəmşidin yastığı yumşaq.
Yəni havanın soyuqluğundan yer buz bağlamışdı, quru idi. Lakin İskəndərin səxavəti və Cəmşid kimi ucalığı ilə soyuq qışda çadır isti, yastıq yumşaq olmuşdu.

193 Günəş Dəlv bürcündən çıxdı qırağa,
Girdi Hut bürcünə balıq tutmağa.
Ulduzşünaslıqda Dəlv bürcü Günəşin "ev"lərindən biri sayılır. Günəş bu bürcə yanvar ayında girir. Hut, yəni Balıq və ya Su bürcünə isə Günəş fevral ayında girir. Yəni bu məclis düzələn zamanda il yanvardan fevrala keçirdi.

194 Buzlamış ceyranın kabablıq budu,
Suların bağrına hey duz vururdu.
Yəni ceyranlar qışın bərk soyuğundan donub ölmüş, buz bağlamış və suyun bağrı onların halına yanmışdı. Demək, ceyranlar odda deyil, suda kabab olmuşdu.

195 Buludlar o qədər sıx kafur saçmış,
Çinarın qolları ağ çiçək açmış.
Burada kafur sözü qar mənasında işlənmişdir. Yəni çinarın budaqları qardan ağ çiçək açmışdı.

196 Ya qoca insafsız, rəhmsiz məcus
Əmr etmiş həbəşi qarət etsin rus.
Yeni od yandıran qoca atəşpərəst həbəşin qaranlığını - kömürü rusun qırmızılığına - oda qarət etdirdi.

197 Muğ arpa yerinə əkmiş ərğəvan,
Bənövşə düşürmüş biçdiyi zaman.
Yəni muğ (atəşpərəst) arpa əvəzinə ərğəvan əkmiş və bənövşə rəngində gül biçilmişdir. Ağacın yanmasına işarə olunur.

198 Katibin dalından göyərmiş qələm,
Barmağında müşkin qələmlər möhkəm.
Burada katib manqal, onun barmaqlarında tutduğu manqalın içində olan qara kömür lülələri mənasında işlənmişdir.

199 Reyhanla bəzənmiş saxsı güldandır,
Ancaq bu, meşədən çıxan reyhandır.
Saxsı güldan - burada saxsıdan qayrılmış manqal, onun reyhan gülləri də manqalın içindəki odlardır. Meşədən çıxan reyhan - kömürdən əmələ gələn odlar deməkdir.

200 Ey saqi, qırmızı süddən ver ki hər
Civəyə əks etsə, ona can verər.
Ver mənə, dönmüşdür qanım civəyə,
Söz düzüm dırnaqdan keçən riştəyə.
Dırnaqdan keçən riştə - zərif keçi tükündən və ya yundan əldə əyrilmiş iplikdir ki, bu, baş barmağın uzadılmış dırnağından keçirilib əyirilir. Belə iplik cəhrə ipliyindən daha incə və saf olur. Mətnin mənası: "Ey saqi, o qırmızı süd olan şərabdan mənə ver ki, sarılıq xəstəliyinə tutulanlar onu civə kimi içərkən rəngləri qan kimi qızarır. Mən bu saat qəmdən qana dönmüş titrəyən civəyə bənzəyirəm, dərdimi sözün dırnaqdan keçən incə və saf ipliyinə düzürəm".

201 Elə ki İskəndər çadırı qurdu,
Quldurlar çadırı yıxan vurdu.
Yəni quldurlar baş qaldırıb, ona itaətsizlik etdilər.

202 Sürmədən Günəş mil çəkdi gözünə,
Batdı bir al gövhər Nil dənizinə.
Burada Günəş gözə bənzədilir. Yəni göyün gözü olan Günəş gecənin sürməsindən çəkdi, özünü onun qaranlığı ilə gizlətdi, göyün mavi dənizinə batıb getdi - Günəş batdı, gecə düşdü.

203 Onda çöl xalqının axınlarından
Rahatlıq içində dincələr xəzran.
Xəzran - yəni xəzərlilər. Xəzər dənizinin şimal-qərbində və Volqa çayının hər iki sahilində yerləşən türk qəbilələrindən biri olmuşdur.

204 Gündüz qarğa rəngli qara gecədən,
Çıxmış Zəngibardan kafur kimi şən.
Burada ağlıq mənasını verən kafur Zəngibarda və Həbəşistanda istehsal edilir. Yəni səhər açılmışdı.

205 Yaşıl donlu tovuz humay quşundan
Ağ parlaq sümüyü qapdığı zaman...
Yaşıl donlu tovuz - göy, səma; humay quşu - Günəş; ağ parlaq sümük - sübh, səhər deməkdir. Yəni göy Günəşdən sübhü aldı, - səhər açıldı.

206 Nəfsinin ağacı yamyaşıl durur,
Başını burmadan, başını sən bur!
Yəni həvəs və ehtiras sənin qapında durmuşdur. O sənə qalib gəlmədən sən ona qalib gəl - nəfsini öldür.

207 İndi ki, zəfəran yemədən şadsan,
Yemə zəfəranı, ölərsən, inan!
Zəfəran yemək, deyilənə görə, adamı gülməyə sövq edir. Burada zəfəran bu cəhətdən şərabla müqayisə edilir və zəfəran sözü altında şərab nəzərdə tutulur. Yəni əgər şərab içmədən şadsan, kefin yaxşıdırsa, onda şərab içmə, çünki sərxoşluqdan və lüzumsuz yerə çox gülməkdən məhv ola bilərsən.

208 O ceyran otaran çobanlar belə
Çomağın yerinə ox almış ələ.
Yəni çobanlar da çobanlıq ağacını atıb, əllərinə silah almışlar, yollarından azmışlar.

209 Kiçikdən ən böyük bir fitnə doğur,
Hər qurdun sümüyü ayağa oxdur.
Deyirlər, qurd topuğunun sümüyü zəhərli olur. Beytin mənası: xırda bir şeydən çox vaxt böyük bir ziyan baş verə bilər. Qurd topuğunun bir sümük qırıntısı ayağa batsa, bir oxun başı qədər yara salıb əzab verər.

210 Bənzər o dastana bu tac, taxt, ordu,
"Hindudan sərvəti çalar bir hindu".
Yəni mənim bu taxt-taca malik olmağını "Bir hind oğrusunun paltarını başqa bir hind oğrusunun oğurlaması" hekayəsinə bənzər.

211 Önünə çıxarkən bir atəşkədə
Ondan buz yaratdı atəşpərəstə.
Yəni bütün atəşkədələri dağıdıb xaraba qoydu.

212 Orada bir bahar vardı qəlb açan,
Güllərin dimağı acıydı ondan.
Burada bahar - atəşkədə mənasındadır. Yəni orada bir atəşkədə vardı ki, qızıl gül onun rənginə paxıllıq etdiyindən acı olmuşdu. Qızılgülün dadı acı olur.

213 Hurini cənnətdən atdı dişarı,
Qovdu cəhənnəmə dost olanları.
Yəni hurilər yaşayan cənnəti hurisiz qoyub, hurilərini dağıtdı, cəhənnəm əhli olanları da cəhənnəmdən qovdu. Burada cənnət - atəşkədə, huri - od, cəhənnəmə dost olanlar - muğlardır.

214 Saqi, ver ərinmiş o saf qızıldan,
Qırmızı kükürdü odur doğuran.
Qırmızı kükürd - əski kimyagərlərin fikrincə, elə bir maddədir ki, hər hansı maddəyə vurulsa qızıla çevirər.

215 Mənə ver, dərmantək tutiya edim,
Misimi onunla kimiya edim.
O iksiri mənə ver ki, mis vücudumu onunla qızıla döndərim.

216 Ulduzu ona yar olduğu gündə.
Yəni bəxti açıldığı, xoşbəxt olduğu zaman.

217 Uca fil başına kəmənd atım mən,





Qandan bixi-ruyən çıxarım nildən.
Bixi-ruyən - boyaqçıların işlətdiyi qırmızı kök, nil isə Hindisanda bitən qara otdur.
Beytin mənası: Hindistanda o qədər qan töküm ki, qara ot (nil) əvəzinə qırmızı boya kökü bitsin.

218 Örtülü sərvətə növbət gəlincə,
Hinddə Çin çinisi göründü incə.
Örtülü sərvət - Keydin qızı deməkdir. Yəni əsmər gözəllər ölkəsi olan Hindistandan Çinin ağ gözəli göründü.

219 Baş vermiş arpadır müşkin buğdadan,
Deyil buğda, deyə, boz arpa satan.
Yəni o əsmər gözəlin arpa boyda xalı buğdadan bitmişdi, buğdayı rəngli gözəl üzündə idi. Bu, arpanı buğda yerinə satıb aldadanlardan deyildi. Demək, bunun zahiri buğda, əsli arpa deyil, əksinə, zahiri arpa, əsli buğda idi; saf və təbii gözəl idi.

220 Türk simalı idi o hindli afət,
Şaha Hind elindən vermişdi cənnət.
Yəni o gözəl türk simalı, ağüzlü idisə də, özü hind qızı idi, şah üçün cənnəti Hindistanda yaratmışdı.

221 O rumi üzüylə, hindli diliylə
Etmiş Rum şahını özünə kölə.
Yəni o Rum (ağ) üzlü və hind dilli, hindcə danışan gözəl Rum şahını özünə qulam etmişdi.

222 Oxundan torpağa üz qoyan ceyran,
Gözündə tiryəktək görünür cahan.
Yəni onun oxu ilə yıxılan ceyranın gözündə dünya qaralırdı; yaxud, tiryəkdən məst olan kimi, gözləri süzülüb qalırdı.

223 Atlar dırnağından ipək çöl, çəmən
"Ceyrangöz" olmuşdu ceyran gözündən.
"Ceyrangöz" - bir növ ipək parça adıdır; üstündə ceyran gözü kimi naxışlar olduğu üçün belə adlanır. Beytin mənası: o qədər ceyran ovlanmış ki, yer "ceyrangöz" parçası şəklində idi.

224 Sübhün gözəli zər xal-xalı ilə,
Göyün xeyməsinə saçarkən şölə...
Sübh gözəli - Günəş; zər xalxal - Günəşin nuru; göyün xeyməsi - göy qübbəsi, səma deməkdir. Beytin mənası: səhər açılıb Günəş göydə görünməyə başlarkən...

225 Qara müşk ağacı əkmişəm Hinddə,
Fikrim ağ yasəmən tikməkdir Çində.
Yəni Hindistanı fəth etmişəm, indi Çini də fəth etmək istəyirəm. Burada
qara müşk - hindlilərin qaralığına, ağ yasəmən isə çinlilərin ağlığına
işarədir.

226 Xəbər ver, hesabdan qalmayım geri,
Səbətdə ilandır, ya sümükləri?
İlan kin və ədavət rəmzidir. İlanın bel sümüyünü isə qədim iranlılar dostluq üçün özlərində saxlardılar. Beytin mənası: söylə görüm, arada dostluq var, ya düşmənlik?

227 Əfrasiyab mülkünün varisi erkən,
Başını günəştək ucaltdı Çindən.
Burada Əfrasiyab mülkünün varisi İskəndərdir. Əfrasiyab mülkü ifadəsi - bir zaman Əfrasiyabın İranı zəbt edərək ona hakim olmasına işarədir.

228 Zəxirə - ərzaq, sursat.

229 Düşünmə, laciverd boyalı paltar,
Hər şəxsə göylərdən gəlir, ey salar!
Yəni zənn etmə ki, kişinin başına gələn bəla göydən gəlir.

230 Sarsılmaz qolumdan qorxmadınmı sən?
Mənim tərəzimə torpaq tökürsən!
Birinin tərəzisinə torpaq tökmək - onu gücsüz saymaq, asanlıqla məğlub ediləcəyinə inanmaq deməkdir. Yəni polad kimi gücümdən qorxmadan məni ağır daşlarla deyil, yüngül torpaqla çəkmək istəyirsən.

231 Ulduzlar o qədər qızıl səpirdi,
Yer öküzü qızıl altına girdi.
Mifoloji təsəvvürə görə, Yer kürəsi öküz üstündə durmuşdur. Beytin mənası: gecə oldu, o qədər ulduz doğdu ki, göydən yerə işıqdan sanki qızıl töküldü, yer öküzü qızılın altında duran kimi idi. (Nizamidə: yer öz öküzünü

xəzinəyə sürdü.)

232 Təbii yaqutu yonunca zaman,
Yaqutlu tac ilə cüt oldu cahan.
Yəni göy təbii yaquta bənzəyən Günəşi xırdalayıb səmaya səpmiş, səma almazlarla bəzənmiş tac kimi yerin başına qoyulmuşdur.

233 Neysandan nə şəraf almışsa sədəf,
Çinə də şah verdi elə bir şərəf.
Yəni İskəndər çinlilərə çoxlu dürr-cəvahir bağışladı.

234 Fəğfur - qədimdə Çin imperatorlarına verilən titul.

235 Hər yandan töküldü şahanə yarpaq,
Meyvə yarpağıtək tökdü hər budaq.
Yəni payızda ağac yarpaqlarını tökən kimi, ziyafət süfrəsinə də o bol rəngarəng yemək boşqabları düzüldü.

236 Fərxarə bənzəyən istək evindən,
Tez hazır olurdu hər istənilən.
Fərxar - Çində gözəlləri ilə məşhur bir şəhər olmuşdur. Yəni o məclisdə, Fərxar şəhərində olan kimi, hər kəs öz istədiyinə o saat nail olurdu. Cənnətdə həmişə hər şey arzu edilən dəqiqədə hazır olan kimi orda da hər şey hazır idi.

237 Xəzinə ağzını açınca xaqan,
Qarun xəznəsində yer oldu pünhan.
Yəni Çin padşahı xəzinə qapısını açıb, Qarən xəzinəsindən hər tərəfə hədiyyələr saçırdı.

238 "Fərəsi" "rüx" ilə ayaqdan salır,
"Fərəs"lə "fil"i də cəbhədən alır.
Yəni (şahmat oyununda olan kimi) düşmənin atını topla vurur, filini də atla aradan çıxarır.

239 Çərx kimi dolanır açarkən şəhbal,
Gəzişi cənubdu, çıxışı şimal.
Yəni o ov quşu ova getməkdə cənub küləyi kimi, ovdan gəlməkdə isə şimal küləyi kimi sürətli, iti qanadlı idi.

240 Su kimi lətifdir o çənə, buxaq,
Ataşda suyu kim görmüş baş-ayaq?
Ataşda suyun baş-ayaq görünməsi ifadəsi ilə tər damcıları süzülən lətif ağ buxağın od kimi qırmızı yanaqlar altında sallanması nəzərdə tutulur

241 Üzü bənövşəyə qızıl gül atır,
Gül üzdə bənövşə keşikçi yatır.
Burada bənövşə - saçlar, qızıl gül - yanaq deməkdir. Yəni yanağı qara saçların bənövşəsinə qızılgül taxmış, bənövşəni qızılgülün qarovulçusu etmişdir.

242 Müşk onun zülfünə bağlamış kəmər,
Zülfü də Günəşə kölalik edər.
Yəni müşk onun saçlarının beli bağlı qulu, saçları da Günəş kimi parlaq yanaqlarının beli bağlı qulamı idi.

243 İki pərvanədir bağlanmış bura,
Birinin üzü ağ, birinin qara.
Ömrün ətrafında dönən iki pərvanə - gecə və gündüz deməkdir. Ağ pərvanə - gündüz, qara pərvanə - gecədir.

244 Kimsənin şamına deyil pərvanə,
Dinləməz kimsəni, baxmaz fərmanə.
Bu pərvanələr kimsənin işığına getməz, yəni gecə-gündüz, zamanə, dövran heç kimə tabe deyil.

245 Dan yeri yaqutdan şəfəq saçanda,
Şəbdizin belindən təngi açanda...
Burada yaqut - Günəş, şəbdiz - gecə, təng - aman yolu, kəhkəşan deməkdir. Yeni səhər açılanda, ulduzlar göydə gözdən itəndə...

246 Yeddi rus soyundan tərpətdi ordu,
O zaman Rusiya yeddi vilayətə bölünürdü.

247 Tarixlə, təqvimlə hərbə gedirlər,
Hesabda bir ayı taxir edirlər.
Yəni onlar tarix və təqvim üzüylə uğurlu-uğursuz saatı təyin etməklə başlayır və bu astronomik hesablama üçün bir ay yubanırlar.





248 Zəhər ki, vücuda salır zəlzələ,
Sağalır yenə də başqa zəhərlə.
Təbabətdə zəhərlənməni bədənə başqa bir zəhər vurmaqla da müalicə edirlər; burada həmin tibbi əməliyyata işarə olunur.

249 Daşlarda nizə qan çeşməsi açar,
Bir orman göyərdir yay ilə oxlar.
Burada daşlar dedikdə döyüşçülərin daş kimi bərk sinələri nəzərdə tutulur. Yəni nizə, mızraq döyüşçülərin daş sinələrindən qan bulağı açmış və o bulağın ətrafında nizə, ox meşəsi bitmişdir.

250 Aslantək alışdım sağrı yırtmağa,
Tülkütək baxmaram yağlı quyruğa.
Yəni mən müharibədə aslan kimi pəncə-pəncəyə vuruşuram, tülkü kimi hiyləgərliklə məşğul olmuram.

251 Boynunu çəkən çox adlı pəhləvan
Oturdu buza o soyuqqanlıdan.
Yəni bu müharibə çox igidləri məhv etdi. Buza oturmaq - burada soyumaq, ölmək deməkdir.

252 Firuzə rəngli tağ ertəsi günü,
Dağ-daşdan ucaltdı yaqut güzgünü.
Firuzə rəngli tağ - göy, səma; yaqut güzgü - Günəş. Yəni ertəsi günü dağın arxasından Günəş doğdu.

253 Öpüşün qapısı bununla belə,
Bağlanmış Səmərqənd çubuqlarıyla.
Yəni dodaqlarım gözəl, öpüşüm çox şirinsə də, lakin onların qapısı Səmərqənd ağacı ilə bərk bağlanmışdır, oradan öpüş içəri girə bilməz.

254 Mənimlə bir cınaq çəksə gül, çiçək,
"Apardım" sözünü unutsun gərək.
Yəni güllər də mənim gözəlliyimlə bəhsə girişə bilməz; mən öz gözəlliyimlə hər zaman güllərdən, çiçəklərdən üstünəm.

255 Bu müşkin xalımla çinli bağrıyam,
Falca Rum qəlbinin şən çırağıyam.
Burada müşkin xal - qara, çinli bağrı - ağ vücuda, ağ sifətə yaraşıq deməkdir. Yəni fala baxdırmışam, baxtımə Rum qəlbi, yəni İskəndər düşmüşdür. Rum qəlbinin şəm çırağıyam - yeni məhəbbətim İskəndərin ürəyindədir, İskəndərin xoşuna gəlmişəm.

256 Əqiq möhr üstünü basmamışdı pas,
Saf üzük qaşım deşməmiş almas.
Yəni o qız hələ bakirə idi, o vaxta qədər ona kişi əli toxunmamışdı.

257 Gecəydi o yerdə, qaranlıq diyar
Müşkü ud yerinə etdi ixtiyar.
Orijinalda "qaranlıq diyar" deyil, "yarımişıqlı diyar"dır. Yəni gecə olanda o diyar ağ udu (işığı) deyil, qara müşkü (qaranlığı) seçdi.

258 Kinindən olmuş göy dəli, zəncirli,
Zəncinin yerinə keçdi kəşmirli.
Yəni göyün halı zəncirli dəli kimi qarışdı. Ağ sifətli kəşmirli qara bədənli zəncini əvəz etdi: hava işıqlandı.

259 Əjdər quyruğunda gizləndi Aytək.
Dini rəvayətlərdə Ayın tutulması əjdahanın onu tutub gizlətməsi ilə izah edilir. Buna görə də Ay tutularkən əjdahanı guya qorxudub qovmaq üçün mis qablara döyüb hay-küy salarmışlar. Misranın mənası: İskəndər Zülqərneyn zülmata getdi.

260 Açmış bu mədəni başqa bir şair.
Burada Nizami Firdovsini nəzərdə tutur.

261 Heyvan tapmadısa, kədər yox bunda,
Heyvantək ölmədi heyvan yolunda.
Burada birinci və üçüncü "heyvan" - abi-həyat, dirilik suyu mənasındadır. Yəni İskəndər dirilik suyunu tapmadısa da, bundan incimədi və çox şükür etdi ki, heyvan suyu, yəni dirilik suyu yolunda heyvan kimi ölmədi.

262 Bu incə nüktədən bildi tacidar:
Torpaqdır, onu bu torpaq doyurar.
Yəni bu mənalı hekayədən şah anladı ki, şahlığın tamahını yalnız qəbir torpağı doydurar.

263 Birini günbəddən salır quyuya,

Birini balıqdan ucaldır Aya.
Yəni bu dünya birini göydən yerə endirir, birini yerdən göyə qaldırır - birini alçaldır, birini yüksəldir.
264 Hər yerdə o qoca, o sənət əri,
Yanlış söyləmişdi doğru sözləri,
Yanlışa yenidən vurdum bir bəzək,
O qoca şairdən üzr istəyərək.
Qoca şair - Firdovsidir.Yəni Firdovsi İskəndər dastanını yanlış rəvayətlər üzrə bəzətmişdi. Mən bunu doğru dastan üzrə bir də bəzədim (yenidən işlədim) ki, bunun üçün də Firdovsidən üzr istəyirəm.
265 Dünyanı yumuş bu üçüncü dəniz,
Nəsara dinindən etmiş tərtəmiz.
Mifoloji rəvayətə görə, üç dəniz - birinci asiman, göy, ikinci - dünyanı qaplayan mühit dənizi, üçüncü - havada sallanan dənizdir. Bunun suyu dünyanı yumaqdadır.
Nəsara dini - Allahı üç ünsürdən (ata, oğul, ruhül-qüds) ibarət hesab edən xristianlıq.
266 Uca, dik başını Müştəri öpər,
Təslis və tərbiə cəvahir saçan,
Üçbucaq oturdan, dördlü koturan.
Yəni Müştəri ulduzu kimi yüksəkdə olan, baxışları gövhər saçan. Tərbi - dördləmə; burada bardaş qurub oturma; təslis - üçləmə; burada məclisdəkiləri üçbucaq şəklində oturtma; sağda, solda və qabaqda.
267 Bitincə gövhəri aldım hüzurə,
Gövhəri hədiyyə verdim gövhərə.
Yəni "Şərəfnamə"ni yazıb qurtardıqdan sonra Nüsrətəddinə ithaf etdim. Beytdə əvvəlki iki "gövhər" sözü "Şərəfnamə"ni, sonuncu "gövhər" isə Nüsrətəddin Atabəyi bildirir.

## İQBALNAMƏ

1 Yeddi qat içində nə var binadan,
Min alqış ona ki, odur Yaradan.
Yeddi qat - Şərq əsatirində göyün yeddi təbəqədən ibarət olduğu təsəvvür edilir.
2 Heç bir kəs torpağa dil verə bilməz,
Naxış vura bilməz suya da heç kəs.
Heç kim torpağı danışdıra bilməmiş və heç kim suya naxış sala bilməmişdir. Təkcə Allah torpaqdan nitq sahibi olan insan yaratmış və bir damcı suya (nütfəyə) insanın surətini nəqş etmişdir.
3 Səni ümid ilə hey axtarmaqda
Kimisi qarada, kimisi ağda.
Səni hər kəs qaranlıq gecədə, işıqlı gündüzdə, kimi yerdə, kimi göydə axtarıb tapmaq istəyir.
4 Köhnə hekayəti çatdırdım sona,
Başlasın təzə söz indi cövlana.
Bundan əvvəlki hekayəni - "İskəndərnamə"nin birinci hissəsini "Şərəfnamə"ni yazıb bitirdim, indi də onun ikinci hissəsini - "İqbalnamə"ni yazmağa başlamışam.
5 Saldın ilk sözümü Sən dildən-dilə,
Bu son addımı da yetir mənzilə.
"Şərəfnamə"də müvəffəqiyyətimi və şöhrətimi təmin etdin, indi "İqbalnamə"ni də o cür başa çatdırmağa mənə yol göstər, yardım et.
6 Onun taxtı idi bütün bu əflak,
Başının müqəddəs tacıydı "lövlak".
Həqiqətdə Məhəmmədin taxt-tacı yox idisə də, mənən o həm taxt, həm tac sahibi idi. Quranda "Lövlökə ma xələqqü-l-əflak" ("Əgər sən olmasaydın, göyləri yaratmazdım") ayəsinin ixtisar edilmiş variantıdır. Guya bu sözləri Allah Məhəmmədə müraciətlə demişdir.
7 Parlayıb nur saçdı bu kainata,
Bənzərdi Zülmətda abi-heyata.
Məhəmməd cəhalət qaranlığında olan dünyaya öz mərifəti ilə işıq saçdı. Onun dünyada varlığı əsatirə görə Zülmətda olan dirilik suyuna (abi-həyata) bənzədilir.
8 Uca qalxmasaydı ərşin tağından,





Kimdi kainatın sirrini açan?
Ərşin tağı - burada Məhəmmədin, dini əfsanədə deyildiyi kimi qalxdığı "merac"dır ki, göyün yeddinci təbəqəsi sayılır.
Beytin mənası: Məhəmməd göylərin ən yüksək qatından uca qalxdığı üçün kainatın sirlərini açdı.
9 Cənnətdən torpağa gəldisə Adəm,
O qoydu torpaqdan cənnətə qədəm.
Dini əfsanəyə görə, birinci peyğəmbər olan Adəm Allahın əmrindən çıxdığı üçün cənnətdən çıxarılıb dünyaya atılmışdı.
Beytin mənası: Məhəmməd Adəm peyğəmbərdən də yüksəkdir. Adəm cənnətdən çıxarılıb yerə qovulduğu halda, Məhəmməd yerdən cənnətə getmişdir. Burada Məhəmmədin behişti görməsinə işarə edilir.
10 Aytək çıxdı Yusif quyudan əgər,
Nur saçdı quyudan o, Aya qədər.
Yusif quyudan Ay kimi bayıra çıxdısa, Məhəmməd merac gecəsi yerdən Ayın üstünə, ərşə çıxdı və hər yeri öz nuruna qərq etdi.
11 Xızra abi-həyat oldusa qismət,
Həyat çeşməsindən keçdi Məhəmməd.
Əgər Xızır Zülmata gedib dirilik suyuna çatdısa, Məhəmməd merac gecəsi daha yüksək məqama çatdı.
12 Yunisi uddusa balıq bir zaman,
Ona səcdə etdi balıqla ilan.
Yunis - dini rəvayətə görə, qədim yəhudilərin peyğəmbərlərindəndir. Uydurduğu möcüzə yalan çıxdığı üçün qaçıb Dəclə kənarına gəlmiş, gəmiyə minmiş, günahkar olduğundan gəmi onu aparmamışdır; Yunisi suya atmışlar. Bir böyük balıq onu udmuş, o da balığın qarında tövbə və dua etmiş, Allah duasını qəbul etmiş, bir müddət sonra balıq onu kənara buraxmışdır.
İkinci misrada Nizami Məhəmmədin möcüzələrindən birinə işarə edir. Dini əfsanəyə görə, Məhəmmədin möcüzələrindən biri də güya heyvanları dilə gətirməsi olmuşdur. Guya balıq və ilan da ona ram olub dilə gəlmiş, onun peyğəmbərliyini təsdiq etmişdir.
13 Davuddan yadigar tək bir zireh var,
Məhəmməd yüz zireh qoyub yadigar.
Davud peyğəmbər öləndən sonra ondan insanlara yadigar kimi zireh qayırmaq bacarığı qalmışdı. Məhəmmədin təlimi isə yüz zirehə bərabərdir.
14 İsanın beşiyi göyə qovuşdu,
Məhəmmədsə özü göylərə uçdu.
Məhəmməd peyğəmbərin meracına işarədir.
15 Tur dağı Musaya oldusa eyvan,
Məhəmmədin qəsri yarandı nurdan.
Musa Allahdan vəhy almaq üçün "Turi-Sina" dağına çıxmışdısa, Məhəmməd nurdan yaranmış qəsrdə Allahla söhbət edirdi.
16 Gəlinimdə olan şuxluq, təravət
Peykərşünaslara eylər kifayət.
Gəlinim - burada əsərim, yəni "İqbalnamə"ni, peykərşünas isə sənəti,gözəlliyi qiymətləndirən deməkdir.
17 Kürədən çıxanda güzgü bərq vurar,
Fəqət sınan zaman zirehə yarar.
Qədimdə güzgünü pardaxlanmış dəmirdən qayırardılar. Güzgü qırıldıqda ondan zireh də düzəltmək olurdu.
Beytin mənası: gənclikdə insanın üzü güzgü kimi parlaq və saf olur, amma qocalanda üz qırışır, zireh kimi çin-çin olur.
18 Zülmətə bürünmüş keşikçixana,
Həmlə eləmişdir fil pasibana.
Keşikçixana - dünya, fil - gecə, pasiban - Günəş mənasını verir. Yəni gecə gəlmiş, hər tərəfi qaranlıq basmışdır.
19 Bir ahu balası doğmuşdur çəmən,
Müşk-ənbər saçmada öz göbəyindən.
Ahu - ulduz, çəmən - göy mənasındadır. Ahunun göbəyindən qara müşk düşən kimi göydən yerə qaranlıq çökməkdədir, yəni - gecədir.
20 Dürr üçün qəvvastək suya batırdım,
Gah seçib götürür, gah da atırdım.

Nizami "İqbalnamə"ni yazarkən yeni surətlər, incə mənalar, gözəl ifadələr tapmasını qəvvasın dənizdən dürr çıxarmasına oxşadır.

21 Fələyin köhləni olub təngnəfəs...
Vaxtın sürətlə keçməsinə işarədir.

22 Daxmada gecənin hörüklərindən,
Yeddi rəng ipəklər toxuyuram mən.
Bu dar evimdə gecənin mənə verdiyi ilhamla rəngarəng surətlər, sözlər yaradıb, əsərimi yazıram.

23 Bu laciverd küpdən mən də İsatək
İplər çıxarıram hər an rəngbərəng.
Dini əfsanəyə görə, İsanın peyğəmbərliyinə ən əvvəl inanan on iki boyaqçı olmuşdur. Bunlar İsadan möcüzə istəmişlər. İsa da guya boyaqçılara boyamaq üçün verilmiş bütün əşyanı bir küpə tökmüş və bunları eyni küpdən hər kəsin istədiyi rəngdə çıxarmışdır.
Bu beytdə: laciverd küp - göy, səma; rəngbərəng iplər isə - müxtəlif surətlər və müxtəlif mənalar ifadə edən misralar, beytlər deməkdir.

24 Onda Müştərini görərək hər an,
Vurar üzüyünə Ütarid nişan.
Nizami özünü Ütaridə - katibə, Xoylu İmadı isə xoşbəxtlik gətirən Müştəri ulduzuna bənzədir. Münəccimlərin fikrincə, Müştəri xoş tale göstərən ulduzların ən böyüyüdür, Ütarid isə göylərin katibidir.
Beytin mənası: Müştəri Ütaridə xoşbəxtlik nəzərini salan kimi Ütarid bu səadəti möhürləmək üçün katiblik üzüyünü barmağına keçirir. Keçmişdə şahların katibi onların möhürünü özündə saxlardı ki, yazılanları möhürləsin.

25 Məgər neçə uşaq tutar bir mama?
Bir ağac nə qədər yetirər xurma?
Burada Nizami özünü mamaya və bar verən ağaca, yaratdığı misraları və beytləri uşaq və xurmaya bənzədir. Yəni bir şair bir gecədə nə qədər şeir yazar.

26 Yuxusuz, ac-susuz qalıb o gece,
Bu mavi dəryada üzürdüm tekcə.
Mavi dərya ilham mənasındadır. Yəni bu yuxusuz çalışdığım gecədə fikrim ilham dənizində söz inciləri toplamaq üçün üzməkdədir.

27 Gecə gecə deyil, dibsiz bir quyu,
Ayı da, günü də udmuşdu suyu.
Ayın görünmədiyi gecə, yəni tamam qaranlıq olan gecə el arasında qədimdən bəri qaranlıq quyuya bənzədilir, güya Ay və Günəş bu quyuya düşmüşdür.

28 Atdığım kəməndlə, şahın bəxtindən
Əmlik ceyranları ovlamışam mən.
Şahın dövlətindən ilham kəməndini ələ alaraq xəyalımın çəmənində məna ceyranları ovlamışam - gözəl beytlər yaratmışam.

29 Əngin dənizlərə mən tor atmışam,
Bu torla növbənöv balıq tutmuşam.
Xəyalımın dənizinə tor ataraq, çoxlu təzə fikirlər tapmışam, rəngarəng beytlər yaratmışam.

30 Vuraşur önümdə Çin ilə Həbəş.
Çin - ağ kağız, Həbəş isə kağız üzərində qara xətlər, yazılar deməkdir.

31 Qızışıb coşduqca beynim şərabdan,
Gəldi səxavətə söz də bu zaman.
Şərab şairin ilhamı, təbi mənasındadır. Nizami ömründə şərab içmədiyini başqa beytlərində də bildirmişdir. Məsələn:
Sən mey iç, gətirmə heç bir bəhanə,
Ağzım möhürlüdür, üz vurma mənə.
Bu fikri nizamişünaslar da təstiq edirlər.
Beytin mənası: mənəvi şərabım - təbim coşduqca sözlər, fikirlər də beynimdə coşub daşır.

32 İlham buludlarım çəkdi nərələr,
Gövhərşünaslara yağdırdı gövhər.
İlhamım cuşa gəldi, sənəti sevənlər üçün yağış kimi dürlər yağdırdım.

33 Taleyim açıldı, oldum bəxtəvər,
Zöhrə dəf göndərdi, Müştəri dəftər.





Zöhrə ulduzu Yaxın Şərqin klassik şairlərinin əsərlərində göylərin çalğıçısı sayılır. Zöhrənin dəfi buna işarədir. Kosmoqrafiya Müştəri ulduzu üzərində qara xətlər olduğunu göstərir. Müştərinin bu xətlərini qədimdə yazı saymışlar. Müştərinin dəftəri ifadəsi də buna işarədir. İkinci tərəfdən, Müştərinin Zöhrə ilə bir bürcdə qarşılaşması, qədim astroloqların fikrincə, xoşbəxtlik əlamətidir. Bu beytdə Zöhrənin dəfi - əyləncəli, zövq verən şeirlər, Müştərinin dəftəri isə, xoşbəxtlik kitabı deməkdir ki, bu da "İqbalnamə"yə işarədir. Nizami demək istəyir ki, bu kitabda həm zövq, sevinc, həm də səadət yolunu tapmaq olar.

34 Neçə vaxt ağ rəngə laciverd qatdım,
Bitdi "Şərəfnamə", murada çatdım.
Ağ rəng - kağıza, laciverd isə mürəkkəbə işarədir. Nizami ağ rəngi laciverdə qatdım deməklə, əsərlərini yazmasından bəhs edir.

35 Gör əvvəl nə ekdim, gör bitdi nələr,
Sınığı bu sayaq bitişdirərlər.
Şair "İqbalnamə"ni yazmaqla və onu "Şərəfnamə" ilə bitişdirməklə, "İskəndərname" kimi bütöv bir əsərin meydana çıxdığını göstərir. Beytdə sınıq sözü "Şərəfhamə"nin mövzuca yarımçıqlığına işarədir ki, "İqbalnamə" bunu tamamlayır.

36 Bilmirəm bu qədər füsunkar sözlər
Babil quyusundan çıxır nə təhər?
Əsatirə görə, qədim Babil şəhərində dərin bir quyu var imiş ki, oradan asılmış Harut və Marut adında sehrbaz mələklər də quyudan çıxa bilməzlərmiş. Nizami burada öz şeirlərinin o quyudan çıxa biləcək dərəcədə qüvvətli caduya, yəni təsirə malik olduğunu söyləyir.

37 Zöhrəyə o "Zənd"i kimlər öyrətdi,
Oxuyub Harutu tamam bənd etdi?
Əsatirə görə, guya Zöhrə ulduzu çox gözəl oxumağı ilə Harutu cəzb etmiş, Harut da ona qovuşmaq üçün sehrbazlığa başlamış və sehrbazlıq etdiyinə görə cəzalandırılaraq quyudan başı üstə asılmışdır.
"Zənd" - ataşpərəstlərin peyğəmbəri Zərdüştün kitabının adıdır. Buna "Zənd-Avesta" da deyilir. Nizami isə təbini "Zənd" oxuyan Zöhrəyə, şeirlərini də Zöhrənin cəzbedici nəğmələrinə bənzədir.

38 Sehirli nəğməmdən Zərdüşt xar oldu,
Söndü çox "Zənd"lərin alovu, odu.
Yəni mənim sehrə - qüvvətə malik sözlərimin müqabilində Zərdüştün sözləri kölgədə qaldı, çox "Zənd"lər rövnəqdən düşdü.

39 Dəryaya dürr saçsm qətrə buradan,
Qoy xurma daşısın Bəsrə buradan.
Məlumdur ki, qətrə dəryada sədəfin ağzına düşüb, dürr olar. Nizami deyir ki, qətrələr məndən dəryalara dürr saça bilər, yəni mən sözlərdən dürr yaradan bir şairəm.
İkinci misra Bəsrənin bol və əla xurma yeri olduğuna işarədər. Nizami özünün Bəsrə xurmasından da şirin və bol sözlər yaratdığını söyləyir.

40 Bu altıkünc tağda bir buludam mən,
Səpərəm hər yana su ciyərimdən.
Mən bu altıcəhətli (sağı, solu, önü, arxası, yuxarısı, aşağısı olan) aləmdə elə bir sənətkaram ki, sözlərimin şöhrəti hər yana gedib çatır.

41 Bitkitək pay alıb hamı suyumdan,
Yağışım sərvlər becərir hər an.
Mənim əsərimdən ilham alan şairlər damcı ilə bitən otlara bənzərlər, onlar mənim böyük bəhrələr verən sənətimə möhtacdırlar.

42 Kölgətək işıqdan kim çəksə zərər,
Əlbəttə, həmişə ondan çəkinər.
Çeşməmdən feyziyab olsa da çoxu,
Getmir gözlərinə həsəddən yuxu.
Bu beytlərdə Nizami özünü işığa və onun poetik istedadına həsəd aparan şairləri kölgəyə bənzədir.

43 Mənim meyxanamdan içərlər şərab...
Yəni mənim əsərlərimdən istifadə edərlər.
Bu feyzi onunçün qazandım ki, mən

44 Əsla su içmədim yad bir çeşmədən.
Mən özgəyə göz dikmədən öz əməyimlə belə bir dərəcəyə çatdım.

45 Xəlvətdə poladdan sildim ki, pası,
Yaqut rəngi alsın onun aynası.
Bu və başqa beytlərdə Nizami öz yaradıcılığının tamamilə orijinal olduğunu, heç kəsi təqlid etmədiyini və heç kəsdən söz almadığını göstərir və deyir ki, mən zəhmət və əziyyətimlə öz yaradıcılıq xəyalımı güzgü kimi parlatdım.

46 Hələ can almamış əcəl turactək:
"Dad, məni tutdular!" - çığırıb dad çək.
Dad, məni tutdular! - Turacın oxumasına, təqlid yolu ilə düzəldilmiş ifadəyə işarədir.

47 Fələk - yeddibaşlı qorxunc əjdaha,
Bircə zərbə vursa, məhv oldım daha.
Əsatirə görə, güya göy əjdahası olan fələk Ayı udurmuş, həm də onun tutulmasına səbəb olurmuş.

48 Xəlbirə bənzəyən teştdir asiman,
Sən bir xəlbir torpaq, o da bir teşt qan.
Birinci misra ulduzlarla dolu göyə işarədir, İkinci misrada isə insan bir ovuc torpağa, çərxi-fələk isə məhv olmuşların qanı ilə dolmuş bir teştə bənzədilir.

49 Bu göy rəngli küpün çox hiyləsi var,
İçindən görərsən yüz cür rəng çıxar.
Göy rəngli küp - fələk, səma deməkdir. Beytin mənası: bu fələk cadularla, füsunlarla doludur, ondan yüz növ hiylə baş verir.

50 Küpə bir cadugər minər, deyərlər,
Bu küpə minmişdir yüz min cadugər.
Əfsanələrə görə, küpə bircə cadugər minir, amma göyün küpünə bax ki, üstündə yüz minlərlə cadugər və sehrbaz, yəni bədbəxtlik və nəhslik ulduzları dolaşır.

51 Tülkütək geydirər qırmızı papaq, Sonra qara itə yedirdər ancaq.
"Dərzi tülkü" adlı Azərbaycan nağılına işarədir. Yəni bu çərxi-fələk bu gün bir adama qırmızı tülkü dərisindən papaq geydirsə, sabah onu tülkü kimi qara itlərə yem edər; bu gün güldürər, sabah ağladar.

52 Nədir dörd yol üstə məskən düzəltmək?
Dörd yol - dörd ünsürdən, yəni su, od, torpaq və havadan ibarət dünya deməkdir. Mənası: nə vaxta qədər bu kəşməkeşli dünyada yaşayacağı?

53 Dörd balış qeydindən qurtaranda biz,
Asudə yatarıq səssiz-səmirsiz.
Dörd balış - yenə də dörd ünsürdən ibarət olan dünya deməkdir. Yəni yalnız öləndən sonra asudə olmaq mümkündür.

54 Hər pərdədə yalnız o adam çalar
Ki, ola pərdədən yaxşı xəbərdar.
Musiqidə işlənən pərdə sözü burada məcazi mənadadır. Beytdə deyilir ki, həyatın qanun-qaydalarını bilməyən, onlarla hesablaşmayan adam daim çətinliklərə rast gələr.

55 Belə dörd müxtəlif yol ayrıcından,
Çıxmaram, ya qoca olum, ya cavan.
Dörd müxtəlif yol - sağa, sola, irəli, geri gedən yollar, dünyəvi həyatın yollarıdır. Yəni cavan da, qoca da olsam, bu bir-birinə zidd yollardan keçməyə məcburam.

56 Dəniz dalğalanıb gələrsə feyzə,
Sədəfdən dürr alıb çıxardar üzə.
Padşahın səxavəti dəniz kimi hərəkətə gəlsə, mənim təbimdən de dürr kimi sözlər çıxar.

57 Bir şəhər yaratsam, baxtım olsa yar,
Kim olsun bəs ona sonra şəhriyar?
Nizami əsərini bir şəhərə bənzədib deyir ki, onu tikib qurtarsam, yəni "İqbalnamə"ni müvəffəqiyyətlə yazıb başa çatdırsam, ona sahib çıxan, onun "şəhriyarı" kim olar?

58 Qoyma qoca şaha gənc üstün gələ,
Şiraye Pərvizi öldürdü belə.
Nizaminin "Xosrov və Şirin" poemasında Pərviz öz sağlığında şahlığı oğlu Şiruyəyə vermiş, onu həddindən artıq yüksəltmişdir. Şiruyə də yolunu azıb atası Xorsov Pərvizi öldürmüşdür.

59 Qocaman ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü taxtından.





Qocaman ağac sözlərindən Pişdadiyan sülaləsinin guya yeddi yüz il padşahlıq etmiş dördüncü şahı Cəmşid nəzərdə tutulur. Zöhhak onu taxtdan saldığı üçün öz taxt-tacını itirdi.

60 Çoxları istədi "İqbalnamə"ni,
Tək ona həsr etdim mən bu naməni.
Namə sözü "İqbalnamə"yə, ona sözü isə İzzəddin Məsuda işarədir. İzzəddin Məsud - Nurəddin Arslan şahın oğlu, Məsul atabəylərinin yeddinci hökmdarı olmuş, 1218-ci ilə qədər hakimiyyət sürmüşdür. Nizami "İskəndərnamə"də bir neçə dəfə İzzəddin Məsudun adını çəkmiş, "İqbalnamə"ni də ona ithaf etmiş və oğlu Məhəmməd vasitəsilə əsəri Məsula göndərmişdir. Onun hakimiyyətdə olduğu dövr (1214-1218) nəzərə alındıqda, görünür ki, Nizaminin vəfatı bizim qəbul etdiyimiz 1209-cu ildən sonra olmuşdur.

61 Deyirlər o xoruz banlar hər səhər,
Yerdəki xoruzlar ona səs verər.
Nizami özünü guya göydə yaşayan və hər səhər ilk banlayan xoruza, o biri şairləri isə onu təqlid edərək, yerdə banlayan xoruzlara bənzədir.

62 Bir ov vurubsansa, çıxar meydana,
Bir əsər yazmısansa, ortaya qoy.

63 Vurubsan qızıla şah sikkəsini.
Pulun üstündə şahın adı həkk edilən kimi sən də bu qızıl kimi əsərin ("İqbalnamə"nin) üstünə şahın adını yazmısan, əsəri ona ithaf etmisən.

64 Almış fərmanını Mahmudilərdən,
Həsəbi, nəsəbi Davudilərdən.
Mahmud - Sultan Mahmud Qəznəvi və ya Səbuktəkin Qəznəvilər dövlətinin banisidir. 997-ci ildən 1030-cu ilə qədər hakimiyyət sürmüşdür. Mahmudilər Mahmud nəsli, sülaləsi deməkdir. Davud - Səlcuq hökmdarlarından Qılınc Arslanın böyük qardaşı idi. Məlikşah Səlcuqinin fərmanı ilə 20 il hakimiyyətdə olmuş, 1107-ci ildə ölmüşdür. Şair İzzəddin Məsudun Səlcuq sülaləsindən olan Qılınc Arslanın böyük qardaşı Davud ibn-Süleymanla əsil-nəsəbcə bağlı olduğunu göstərir.

65 Tünd şərab qədəhə tökülsə əgər,
Ləl laciverdə şəbxun eyləyər.
Ləl - qırmızı şərab, laciverd isə tünd göy rəngli qədəh mənasında işlənmişdir. Ləl-laciverdə şəbxun (basqın) eyləyər - yəni qırmızı şərab göy qədəhin rəngini dəyişdirər.

66 Fəzada uçarsa əgər üqabı.,
Üqab - qaraquş, ulduz adı.

67 Ayı göydə fətir eləyib güman,
Çoxları quyuya düşüblər, inan.
Şair Ayın quyu suyunda əks olunan şəklini fətirə, şahın çöhrəsini isə həmin şəkl oxşadır; şaha təmənna ilə yanaşanlar Ayın quyudakı şəklini fətir bilib ona can atanlar kimi özlərini fəlakətə salırlar.

68 Mələyə bənzəyər divlər kənardan,
Div zülmətdən törər, mələksə nurdan.
Əsatirə görə, div qaranlıqdan, mələk isə nurdan yaranmışdır.

69 Neçün Bişkin demiş ona bu dövran?
O ki, mehribandır bütün şahlardan.
Bişkin kəlməsini dürüst yazsalar,
Ona layiq bir ad Keypişin olar.
Bişkin - sözünün lüğəvi mənası çox kinli deməkdir. Nizami bu ləqəbin əsərdə mədh edilən şahın xasiyyətinə uyğun olmadığını bildirir və deyir ki, onun kini deyil, əksinə, mehribanlığı bütün şahlardan artıqdır. Buna görə də şair Bişkin (yaxud Pişkin) sözünün hərflərinin yerini deyişməklə, onu Keypişin şəklinə salır və bu adı şaha daha layiq bilir; çünki Keypişin İranın əfsanəvi padşahı və Keylər sülaləsinin birinci şahı olan Keyqubadın oğlu Keykavusun adıdır.

70 Qopdu bir zəlzələ, göyü oynatdı,
Şəhərlər dağılıb yerlərə batdı.
XII əsrdə Azərbaycanda və o cümlədən, Gəncədə bir neçə zəlzələ olmuşdur. Bunların ən böyüyü 1139-cu il zəlzələsidir ki, rəvayətə görə, bu vaxt Gəncədə 230 minə qədər adam həlak olmuşdur. Kəpəz dağı zirvəsinin çökməsi nəticəsində Göygölün əmələ gəlməsinə səbəb olan bu dəhşətli zəlzələni Nizami həyəcanla təsvir edir.

71 Surun gur səsindən balıq qorxaraq
Atıldı öküzdən bir xeyli uzaq.

Beytin mənası: parlaq üzü Ayın işığının yolunu bağlamışdı və onun gözəlliyinə şahlar mat (heyran) qalmışdılar.

95 "Şirin"in halvasın qurtaranda mən,
Bir halvaçalanım getdi evimdən.

"Şirin" - "Xosrov və Şirin" əsəri, halvaçalanım - arvadım mənasındadır. Beytin mənası: "Xosrov və Şirin" əsərimi yazıb bitirdikdə, öz Şirinimi Afaqımı itirdim.

96 "Leyli" xəznəsinə çəkərkən hasar,
Orda da bir Gövhər eylədim nisar.
Bu toyu çatdırıb mən nəhayətə,
Təzə bir gəlin də verdim cənnətə.

"Leyli və Məcnun" əsərini yazıb sona çatdıranda da ikinci arvadım öldü. Nizaminin ikinci arvadının adı, bizcə, Gövhər olmuşdur. Yuxarıdakı beytlərin ikinci misrasındakı Gövhər sözü buna işarədir və iki mənada işlənmişdir. Üçüncü və dördüncü misralardan məlum olur ki, şair "İqbalnamə"ni yazıb qurtaranda üçüncü arvadı da vəfat etmişdir.

97 Necə gözəl dərdi sinəmdə ikən,
Rum-rus dastanını necə yazım mən?

Rum-rus dastanı burada "İskəndərnamə"yə işarədir. Rum dastanı - İskəndər Ruminin dastanını, rus dastanı isə İskəndərin ruslarla bir sıra müharibələrini bildirir ki, bunlar "Şərəfnamə"də təsvir edilmişdir.

98 Hamıya məlumdur, əhli-Xorasan
Bağdadda fənd ilə yaşayar asan.

Abbasilər dövründə, səkkizinci əsrdə Xorasan hakimlərinin (Əbu-Müslüm Xorasanının, Bəni-Tahir dövlətinin banisi Tahirin və b.) Bağdad xəlifələri ilə diplomatik əlaqələrinə və xəlifələri aldatmalarına işarədir.

99 Darülxilafət - xilafət mərkəzi, paytaxt.

100 Yox, əgər görsəniz yalançıyam mən,
Baş məndən, teşt ilə qılınc da sizdən.

Gördünüz ki, mən sizi aldadıram, başımı teşt içində kəsin. (Keçmişdə məhkum olanların başını teşt içində kəsmək cəza formalarından biri olmuşdur).

101 İskəndər bir xəbər aldı Yunandan:
Olub xəzinəyə Mariyə ilan.

Şərq əfsanələrinə görə, guya hər gizli xəzinə üstündə bir ilan yaşayıb onu qoruyarmış.

102 Mən qalxıb gizləndim dərhal bir küncdə,
Fikrin gah tikanda, gah da türüncdə,

Mənim ürəyimdə bir tərəfdən arvad-uşaq dərdi və ölüm qorxusu, digər tərəfdən də xəzinə qazanmaq, varlanmaq arzusu vardı.

103 Döndüm bir mədənə o xəzinədən,
Dənizək varlandım bir gecədə mən.

Mədəndə qiymətli daşlar, dənizdə dürr, inci və s. bol olduğu kimi, mən də eləcə varlandım.

104 Şahı sarsıtmışdı bu söz, bu söhbət, o, gövhər satana etdi mərhəmət.

Gövhər satan ifadəsində bu əhvalatı danışan çörəkçi nəzərdə tutulur.

105 Düz pərdədə əyri çaldıqlarından
Pərdənin dalında oldular nihan.

Doğru sözləri inkar edib yanlış yol ilə getdikləri üçün tələf oldular.

106 O sərv meşəsində gördü ki, ancaq
Yetmişi qurayub, biri qalıb sağ.

Sərv meşəsi burada alimlər məclisi deməkdir. Yəni onların yetmişi də ölmüş, bir Hürmüz sağ qalmışdı.

107 Təblini çaldıqca təbilçi yeyin,
Qızışdı havası soyuq gecənin.
Naümid olanda o qara qarğa
Ağ xoruz başladı xoş dil açmağa.
Çıxdı Rum taxtına İskəndər erkən,
Dili od, dimağı mumdu deyəsən.

Təblini çaldıqca təbilçi: - Günəş doğduqca...

Qara qarğa - qaranlıq gecə, ağ xoruz - gündüz deməkdir. İkinci beytin birinci misrasının mənası: gecə keçdi, səhər açıldı, dan yeri ağardı. İkinci beytin ikinci misrasının mənası: İskəndərin dili kəsərli, ağlı isə elmi, fəlsəfəni mənimsəmək üçün hər nəqşi asanlıqla qəbul edən mum kimi yumşaq idi.





108 Bir küpün içində gizləndi bir gün,
Axtardı səsini bu yeddi küpün.

Əflatun bir küpün içinə girib yeddi fələyin, kainatın səsini axtardı.

109 Ərğənun təkmilə yetdiyi zaman
Süni ud çox yaxşı oldu xam uddan.

Ərğənün zahirən planoya bənzəyən bir musiqi alətidir. Ud həm simli musiqi aləti, həm də Hindistanda bitən və yanarkan xoş qoxu verən ağac adıdır. İkinci misrada süni ud - musiqi alətinə, xam ud isə ağaca işarədir. Yəni çalınan musiqi dinləyənləri çox ruhlandırır. Bunun təsiri yanan xoş qoxulu udun təsirindən daha yaxşı idi.

110 Bu xəbər bürüdü bütün cahanı
Ki, yaqut paylayır o yaqut kanı.

Yaqut kanı sözlərində elm və hikmət sahibi olan Əflatun nəzərdə tutulur. Yəni hər tərəfə xəbər yayıldı ki, Əflatun gözəl musiqi aləti yaratmışdır.

111 Şahın sarayına çatdı bu xəbər
Ki, Zöhrə Harutla bəhsə giriblər.

Harut əfsanəvi sehirbazdır. Güya o, Zöhrə ulduzuna aşiq imiş və ona çatmaq üçün mahir cadugər olmuşdur. Burada Əflatun adamı sehirləyən musiqi aləti yaratdığı üçün Haruta bənzədilir. Zöhrə də əsatirdə göyün musiqiçisi sayılır.

Yəni saraya xəbər çatdı ki, Əflatun Harut kimi Zöhrə ilə çalğı meydanında deyişməkdədir.

112 Birinci havanı çalanda yenə
Baş qoyub yatdılar Məndəl xəttinə.

Məndəl xətti - sehirbazların və cadugərlərin öz dövrələrinə çəkdikləri tilsimli xəttə deyilir.

Yəni musiqi o qədər təsirli idi ki, dinləyənlər sehirlənmiş kimi bihuş olmuşdular.

113 Qayıdıb üzüklə qurdu min kələk.
Necə ki, ulduzla oynayır fələk.

Fələk göydəki ulduzlarla cürbəcür hadisələr törətdiyi kimi çoban da barmağındakı üzüyün qaşını oynatmaqla min kələk qururdu.

114 Bəlkə ilham alıb sazın telindən,
Ruma ipək həşyə nəqş eləyim mən.

Bəlkə bu ipək telli sazın musiqisi ilə ilhama gələrək Rum tarixini, ipəyini gözəl naxışlarla bəzəyim, İskəndər Rumi haqqında gözəl bir əsər yazım.

115 Bir də ki, xəbər var, qoy gəlsin Sokrat,
Tərkibdə, ixlatda o böyük ustad.

Tərkib və ixlat sözləri köhnə elmi istilahlardır. İxlat - qədim nəzəriyyəyə görə orqanizmdə olan dörd ünsürdür: qan, səfra, qara öd və bəlğəm. Tərkib - bu ünsürlərin birləşmə qayda və nisbətləridir.

Beytdə Sokrat bu əməliyyatın böyük bilicisi kimi göstərilir.

116 İnsanın belə bir xasiyyəti var:
İraq gəzənləri çox yada salar.

İraq gəzən sözləri ilə Sokrat nəzərdə tutulur.

117 Getməmək üçün də vardır çox dəlil,
Hara oynamağa gedib Cəbrail?

Sokrat özünü Cəbrail ilə müqayisə edib. Cəbrail kimi hər kiçik iş üçün yerindən tərpənməməyi, ağır oturub-durmağı özünə layiq bilir.

118 Səhnənin gümbəzi düz olsa əgər,
Köklənməmiş tel də gözəl səslənər.

Evin sahibi (İskəndərə işarədir) düz adam olsa, evindən çıxan söhbət də xoş olar.

119 O, dürr süfrəsindən örtüyü açdı,
Şahın ətəyinə dürr-gövhər saçdı.

Xidmətçi Sokratın dəyərli, hakimanə sözlərini açıb İskəndərə söylədi.

120 Ancaq bu süfrədən doymayır gözün.

Süfrə sözü burada dünyanın mal-dövləti mənasında işlənmişdir.

121 Sokrat verdi ona gümüştək cavab,
Dedi ki: "Qulağa tökülməz simab!"

Simab - civə. Yəni Sokrat ona gümüş kimi parlaq və təmiz cavab verərək dedi ki, qəflət civəsini öz qulağından çıxart, bu haqq sözü eşit.

122 Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından.
Özgələrə tərbiyə verən özü mənən təmiz, yüksək olmalıdır.
123 Olmaz hər zəncidən bir Xacə Müqbil.
Xacə Müqbil - Hüseyn Cavid "Xəyyam" pyesində buna Xacə Nizam deyir. Məşhur "Siyasətnamə" kitabının müəllifi Nizamülmülkdür. Bu bir çox dillərə, o cümlədən Azərbaycan dilinə Rəhim Sultanov tərəfindən tərcümə edilmişdir. Səlcuq padşahlarından Alp Arslanla oğlu Məlikşahın baş vəziri olmuşdur.
124 Qara olsan əgər, söyüd kimi yan, Zəncinin dişini odur ağardan.
Zəncilər dişlərini söyüd kömürü ilə yuyarlarmış.
125 Dirilik suyunu Zülmatda sanan
Alimlər o hökmü çıxarıb burdan.
Əsatirə görə, dirilik suyu Zülmatda, yəni qaranlıq dünyadadır. Nizami demək istəyir ki, qara zəncidə işıqlı, fərəhli rah olduğunu görən alimlər dirilik suyunun qaranlıqda, Zülmatda olduğunu düşünmüşlər.
Bundan o zamankı fəlsəfi əqidəyə görə, "həqiqət qaranlıqdadır" nəticəsini də çıxarmaq olar.
126 Bir idrak nurani olarsa əgər,
Bu tutqun günbəzə qalxıb yüksələr.
İdrak işıqlı, güclü olarsa, əlçatmaz göyləri də dərk edə bilər.
127 Günəşin nuruna yedəkçi ol sən,
Səni tərk etsə də düşmə ümiddən. Günəşin nuru - həqiqət, doğruluq.
Yəni sən həmişə həqiqətdən, doğruluqdan yapış. O səni bir müddət tərk etsə də, ümidsiz olma. Burada Nizami həqiqət və mərifət günəşini kəcavədə gedən bir gözələ bənzədir.
128 İndi sən bir düşün, nə dərgahdasan,
Ər necə, hansı bir seyrəngahdasan?
Nizami Sokratın dili ilə padşahın sarayını elm və mərifət rütbəsi ilə müqayisə edir və elmi, mərifəti daha yüksək tutur.
129 Bilik ayinilə İskəndər yenə
Çıxdı öz möhtəşəm şahlıq taxtına.
Bilik ayini ifadəsində İskəndərin təşkil etdiyi elmi məclislər nəzərdə tutulur.
130 Eşitcək buyurdu ona İskəndər
Ki, muği Günəşə tez yetirsinlər.
Muğ - atəşpərəstə, Günəş - şaha işarədir.
131 Ədəblə, ərkanla o muğ əyildi,
Atəşin önünə təzimlə gəldi.
Atəş sözündə İskəndər nəzərdə tutulur. Məlumdur ki, atəşpərəstlər - muğlar oda sitayiş edirlər.
132 Növbə o hindliyə yetişən vaxtda
Təzə gül açıldı köhnə budaqda.
Təzə gül - eşidilməmiş dəyərli sözlər deməkdir, köhnə budaq - qoca hindli alimdir.
133 Nurdan bəzək vurdu fələk bağına,
Dürdən sırğa asdı yer qulağına.
Onun söylədiyi sözlər kainatın sirlərini işıqlandıran, izah edən və dünyanın, insanların qulağına sırğa olacaq qədər dəyərli, mənalı sözlər idi.
134 Pərvanə zülmətdə yanan çırağa
Uçantək gəlmişəm mən də bu bağa.
Yanan çıraq - İskəndər, bu bağ - İskəndərin sarayı mənasında işlənmişdir. Yəni mən İskəndərin yanına və onun sarayına böyük məhəbbətlə gəlmişəm.
135 Özü gizlindədir, nişanı aşkar?
Nişan - dünya, aləm deməkdir. Yəni Yaradan özü görünmür, lakin yaratdığı aləm göz qabağındadır.
136 Allahı xəyalda olmaz axtarmaq,
Xəyaldan doğan şey divlərdir ancaq.
Xəyal yalnız yaradılmış şeyləri təsəvvür edə bilər, Yaradanı təsəvvür edə bilməz.
137 Haqqı tanımaqçın bəsdir bir nişatı,
Bura yetişdinmi, daha dur, dayan!
Haqqın varlığına dəlil olan bir nişandan - bu gördüyümüz aləmdən o yana getməyək, bu maddi aləmdən başqa şey axtarmayaq.





138 Bu yerdən, bu göydən kənar çıxma sən,
Yoxsa səriştəni lap itirərsən.
Bu gördüyümüz kainatdan başqa bir aləm axtarmaq fikrinə düşsək, doğru yoldan çıxarıq, səhv edərik.
139 Bizə yeddi hüdud çəkmişdir fələk,
Onlardan kənara çıxmayaq gərək.
Yeddi hüdud sözündə sehirbazların dövrələrinə çəkdikləri tilsimli xətlər nəzərdə tutulur.
Beytin mənası: insan bu dünyada yeddi tilsim içində yaşayan kimidir, bu aləmdən kənara çıxmağa, bu aləmdən başqa bir aləm axtarmağa çalışmamalıdır.
140 Qılınc, təşt gözləyir kənar çıxanı.
Kim bu aləmdən kənara çıxmaq istəsə (Allahı axtarmaq fikrinə düşsə) onu ölüm gözləyir.
141 Bu uca barigah - uca bir hasar,
İçində əsirdir bütün xəyallar.
Uca barigah və uca hasar - maddi aləm, kainat deməkdir. Yəni bütün bizim fikirlərimiz, xəyallarımız içində yaşadığımız bu varlıqla hüdudlanmışdır.
142 Yuxuda gördüyün canlı, ya cansız
Sənin öz şamının odudur yalnız.
Yuxuda gördüklərin fövqəladə bir şey deyil, onlar sənin öz fikir-xəyalının məhsuludur.
143 Gövhəri almazla deşərək dedi...
Yəni sözlərini almaz kimi kəskin və parlaq mənalarla birləşdirib danışmağa başladı.
144 Rumipərəst hindli doymaq bilmədi, Öz hind qılıncını çəkərək dedi.
Rumipərəst - yəni Yunandan, Rumdan (burada isə rumlu İskəndərdən) xoşu gələn deməkdir. Hind qılıncını çəkərək - yəni qılınc kimi kəskin dili ilə danışmağa başlayaraq...
145 Hindli bu şərabdan məst olub qaldı...
Burada şərab İskəndərin sözləri deməkdir. Yəni: İskəndərin dedikləri hindlini heyran etdi.
146 Bu küpdə olan rəng yalnız bircədir.
Bu küpdə - bu dünyada deməkdir. Misranın mənası: bu dünya üçün bütün insanlar bərabərdir.
147 Ruhulqüdüs - İskəndər nəzərdə tutulur.
148 Qoy açsın bu sirri ağlın açanı:
Necə çiçək açmış yerin baharı?
İnsan öyrənməli, bilməlidir ki, bu dünya necə yaranmışdır.
149 Padişah beləcə dürlər saçdı,
Bağlı xəzinənin ağzını açdı.
İskəndər öz mənalı sözləri ilə mübahisə açdı və filosoflar söhbətə başladılar.
150 Bunlar andırırdı müşkü, kafuru,
Yarısı mayedi, yarısı quru.
Kafurun təbiətindəki nəmlik və müşkün təbiətindəki quruluq, eyni zamanda, kafurun ağlığı ilə - yer, torpaq nəzərdə tutulur.
151 Hürmüz də əl atdı qıfıla sarı,
Zənciri çeynədi əqlin açarı.
Bəhs olunan mövzu barədə fikir demək növbəsi Hürmüzə çatanda o da məsələni öz anladığı kimi dərindən izah etməyə başladı.
152 Mayedən doğurmaq - yaratmaq deyil,
Kəndxuda başqadır, xuda başqa, bil!
Bir kəs ki, əql ona ad verib: Qadir,
Özü bildiyini özü xəlq edir.
Hazır bir maddədən - mayedən bir şey yaratmaq qüdrət, allahlıq deyildir. Şərt odur ki, yoxdan, heç nədən bir şey yaradasan; allahlıq budur. Bu qüdrətə ancaq Allah malikdir.
153 Bu zidd qüvvələri bir yerə qatdı,
Ağıllı, hünərli insan yaratdı.
Zidd qüvvələr - bir-birinə zidd keyfiyyətlərə malik olan dörd ünsür (su, od, torpaq, hava) deməkdir.
Yəni Allah insanı bu dörd ziddiyyətli maddədən yaratdı.
154 Hər camı ayrıca alıb nuş etdi.
İskəndər bəhsdə iştirak edən hər filosofun sözlərinə ayrı-ayrı, diqqətlə qulaq asdı.
155 Nizami, bu qapı açar götürməz.

İlk nəqş bağlananda görməyib heç kəs.
Nizami, kainatın - varlığın bu əsrarına ağıl çatmaz, yaradılışın başlanğıcını heç kəs görməmişdir, əzəl nəqşini oxumaq mümkün deyil.
156 Bu gizli sözləri, fikirləri sən
Neçin lal dillərə isnad edirsən?
Lal dillər - özü ölüb getmiş filosoflara işarədir.
157 Yemə çörəyini yad süfrələrdə,
Öz süfrən üstünə gəl çəkmə pərdə.
Lal dillər ifadəsində olduğu kimi burada da guya Xızır Nizamiyə öz sözlərini ölüb getmiş filosoflara isnad etməməyi söyləyir.
158 Mərhəmət umarlar qara torpaqdan,
Torpaqdan yaxşıdır ancaq sağ insan.
Nizami öz dövründəki hakimlərin əsl elmə qiymət vermədiklərindən və ölüləri dirilərdən üstün tutduqlarından şikayətlənir, diriləri daha çox sevmək lazım gəldiyini söyləyir.
159 Hoqqabaz torpaqda sehirbazlıq var,
Həm möhrə oğurlar, həm də oynadar.
Burada və bundan aşağıdakı misralarda Nizami torpağın sehrbazlığını, yəni onun ölü bədənləri quru xəzəlləri udub, təkrar canlı heyvanlar, yaşıl otlar, nəbatat şəklində meydana çıxartdığını söyləyir.
160 İstədi çalışıb sirləri örtən
Yeddi qat sürməni silsin tamamən.
İskəndər kainatın sirlərini kəşf etməyə çalışdı, həqiqəti örtən yeddi qat sürmə rəngli, dumanlı göy pərdələrini açıb axtardığını tapmaq istədi.
161 Qərbdə bir tayfa var, özü köçəri,
Nasikdir adları, yoxdur dinləri.
Şərqdə bir tayfa var, xislətdə mələk,
Onlara layiqdir Mənsək ad vermək.
Nasik - ümumi mənasında abid, zahid, Allaha ibadət edən, xüsusi mənada isə mifik bir tayfadır ki, guya Qərbdə heç bir dinə bağlanmayaraq və heç bir ibadətgaha malik olmayaraq çöllərdə yaşamışdır.
Mənsək - ibadət yeri, dini ayinlərin icra olunduğu yer. Burada isə ibadət və pərəstiş olunmağa layiq, mələk xislətli tayfa mənasında işlənmişdir.
162 Nasikdən Mənsəkə çək qoşunları,
Keç sonra Habildən Qabilə sən.
Ordunu qərbdən şərqə çək, sonra da cənubdan şimala tərəf apar.
Qabil və Habil - dini əfsanələrə görə Adəmin oğlanlarıdırlar. Guya qısqanclıq və paxıllıq nəticəsində Qabil Habili öldürmüş, sonra peşman olmuşdur. Bu dünyada insanın ilk cinayəti hesab edilir.
Şərq əsatirində guya Habilin nəsli cənubda, Qabilin nəsli isə şimalda imiş.
163 İşıq bəxş edərsən sən də o şəxsə.
Sən də o adama ədalət göstərib yaxşılıq edərsən.
164 Sən də qaranlıqdan bir pay ver ona.
Sən də o adama zülm elə, cəza ver, yamanlıq et.
165 Allah tərəfindən gəlmiş mükəmməl
O "Sifri-əzəm"dən başqa üç gözəl
Nəsihətnamə də keçirdi ələ...
Sifr - kitab; "Sifri-əzəm" - Tövratın beş cildindən böyüyü. Üç nəsihətnamə Ərəstunun, Əflatunun və Sokratın "Nəsihətnamə"ləri. İskəndər "Sifri-əzəm"dən və bu nəsihətnamələrdən öz işlərində rəhbərlik göstərən əsərlər kimi istifadə edərmiş.
166 O, bir gün çıxaraq öz ac taxtına...
Ac taxtına - fil sümüyündən qayrılmış taxta.
167 Mədəndən gövhərlər çıxarmaq üçün...
Ağıllı fikirlər, gözəl tədbirlər söyləmək üçün.
168 Diltək itiləyib qələmi, yenə
Qamışdan qənd səpdi kağız üstünə.
Qamışdan qənd səpdi - yəni qamış qələmlə qiymətli, şirin sözlər yazdı. Burada eyni zamanda şəkər qamışına işarə edilir.





169 Naqqaya qonşudur sədəf dəryada,
Qılınc yox, dürr verir şaha dünyada.
Sədəf dənizdə nəhənglə bir yerdə olur. Lakin o, tacları bəzəyən incilər verdiyi halda, nəhəngin belində qılınca bənzər tikanlar olur.
170 Qardaşın qanını alma qardaşdan,
Tamam ayrı şeydir çünki südlə qan.
Qardaş qardaşla ana südünə şərik olurlar; amma qan - cinayət işlərində onlar şərik deyillər. Birisi bir günaha batıbsa, onun cəzasını o birinə vermək olmaz.
171 Paslanıb kəsməsə qılıncın əgər,
Qızıl ver, daşları dəmirə döndər.
Qılıncın pas tutsa, onunla bir iş görə bilməsən, qızıl ver ki, daş kimi bərk olan düşməni dəmir kimi əridib yumşaldasan.
172 Xalqın məclisində mütrübtək şad ol,
Sərvsən, kibrdən, çalış, azad ol.
Öz şəxsi mənfəətini güdmə, xalq ilə birgə şad ol. Belə olmasın ki, xalq şad olanda sən kədərə batasan; lovğalıqdan, dikbaşlıqdan uzaqlaş.
173 Bəzəmə üzünü sən reyhansayaq,
Özgənin əlində ol nurlu çıraq.
Gül-çiçək kimi üzünü bəzəmə, çıraq kimi ol ki, yanaraq başqasına fayda verəsən.
174 Qızıl ya sahibi xoşdur? - Sorma sən.
Düyün bənddən pisdir, bənd də düyündən.
Qızıl sahibi qızıl kisəsinə vurulmuş bir düyün kimi, qızıl isə sahibinin ayaqlarına vurulmuş bənd kimidir. Hər ikisi pisdir.
175 Geniş ətəkli ol, çünki meyvələr
Geniş ətəklərə daha çox düşür.
Səxavətli, əliaçıq ol ki, özün də səxavət və əliaçıqlıq görəsən, ruhun bol olsun.
176 Həmişə düz gedən piyada əsgər
Vəzir olan kimi əyri yol gedir.
Bəzi adamların yüksək vəzifə və rütbəyə çatdıqları zaman lovğalanıb yollarından azmalarını Nizami şahmat fiqurlarının hərəkətləri ilə müqayisə edir. Məlum olduğu kimi, şahmatda əsgər (piyada) yalnız düz istiqamətdə hərəkət edə bilər. Lakin o, taxtanın son xanasına çatdıqda vəzir olur və bu zaman yana da (əyri yola da) hərəkət edə bilir.
177 Bəd gündə ulduzdan olma bədgüman.
Yaman vəziyyətə düşəndə bədbin olma, ümidsizliyə qapılıb taleyin uğursuzluğundan şikayətlənmə.
178 Göyə atılan daş yerə tez düşər,
Bu qısa müddətdə işlər dəyişər.
Pis vəziyyət çox tez - bir daşın göyə atılıb yerə düşməsi müddətində dəyişib yaxşılaşa bilər.
179 Çalış ki, kirpiyin olsun almaztək,
Ayıq ol, ölkənin keşiyini çək.
180 Oyanıb qalxanda Günəş yuxudan,
Müşkə kafur səpdi sanki asiman.
Müşk - qara, kafur-ağ, yəni səhər Günəş doğanda müşkə kafur səpilən kimi oldu hava işıqlandı.
181 Əsildir, yüksəkdir o da gövhərtək,
Özünü həmişə qorusun gərək.
Şah nəcabət əhlidir, onun vücudu gövhər kimi qiymətlidir, buna görə də xətərə düşə bilər. Deməli, o, özünü, əsil-nəsəbini həmişə mühafizə etməlidir.
182 Dünya tikanlıdır, kirpiyik biz də,
İynə var, tikan var xislətimizdə.
Dünyanı nahaq yerə pisləməliyik, çünki əgər dünyanın üstü zülm tikanları ilə doludursa, bizim də təbiətimiz kirpi kimi tikanlıdır, demək, ikimiz də - dünya da, biz də bir-birimizə bənzəyirik.
183 İki qarı qızın başladı bəhsi,
Dünyanı götürdü onların səsi.
Bizim dünyanı pisləməyimiz iki bədxasiyyət, qarımış qızın bir-birini pisləməyinə bənzər.
184 Yeddi qat yanar od içrə, nəhayət,

Kabablıq ət üçün nədir bu zəhmət?
Yeddi qat yanar od - dünya deməkdir. Yəni bu kəşməkeşli, mərəkəli dünyada bu qədər arzu və ehtirasa əsir olmaq nə üçündür?
185 Üç gün ötüb keçdi, yenə asiman,
Rum-zənci oyunu oynayan zaman.
İskəndər buyurdu qoca Sokrata
Vursun üzüyündən muma möhr o da.
Rum-zənci oyunu - burada rum (rumlu) - ağ, zənci isə - qara mənasında işlənmişdir. Asimanın rum-zənci oyunu oynaması - səhərlə axşamın, gündüzlə gecənin bir-birini izləməsini bildirir. Mənası: üçüncü gün səhər olanda İskəndər əmr etdi ki, Sokrat öz bilik üzüyünün möhrünü onun mum kimi hər naxışı qəbul edən istedadlı ağlına vursun, onun üçün nəsihətnamə düzəltsin.
186 Dürlər çıxarmaqçün daldı ümmana.
Sokrat İskəndərə gözəl, mənalı nəsihətlər vermək üçün fikrə getdi.
187 Yeməyi heç yemə deniz kimi tək, Yediyin olmasın acı, dənizták.
Dəniz suyu acı olur. Güya acılıq ona görədir ki, dəniz hər şeyi özbaşına təklikdə udur.
Beytin mənası: xudbin və xəsis olma, yeməyi tək yemə. Belə etsən, yediyin nuş olmaz, ağzın daha gəlməz.
188 Vaxtında evindən çıxarsan əgər,
Qapına müşktək ətir səpilər.
Bundan əvvəlki beytdən də aydın olur ki, xəsislik edib yeməyi evində saxlasan, onun üfunəti çox evlərə yayılacaq. Əliaçıq olub onu qonşulara versən, onların məhəbbətini qazanarsan, haqqında yaxşı sözlər yayılar.
189 Tək bircə fətirə, gəl, qane ol sən,
Düşün, Günəşdən ki, artıq deyilsən.
Burada fətir yuvarlaq Günəş qürsü ilə müqayisə edilir. Yəni dünyada acgöz olma, bir çörəklə kifayətlən, düşün ki, parlaq Günəş də bir qürs (dairə) ilə kifayətlənir.
190 Quraqlıq olanda, bilmirsən bunu,
Zirəyə verərlər zirə suyunu?
Rəvayətə görə, guya zirə bitkisinə su verilmir. Quraqlıq vaxtı: zirə - sənə su verəcəyəm, - deyən sahibinin vədilə, ümidlə yaşayır. Buna görə də zirə suyu ifadəsi aldadıcı, yalançı vəd və ümid mənasını daşıyır.
191 Elə sür kəcavə çəkən dəvəni,
Filin ayağına salmasın səni.
Az qan tök, az zülm elə, işini elə ehtiyatla apar ki, şahlığın bərbad olmasın; dəvə (ədalət, qanun) səni filin (xalqın, rəiyyətin) ayağı altına salıb pay-mal etməsin.
192 Bu harın göy atdan daim et həzər, O bir əjdahadır, gəlinə bənzər.
Burada harın göy at - fələk, asiman mənasındadır. Yəni bu dünyanın gərdişi aldadıcıdır, əslində o, kinli bir əjdahadır, lakin zahirdən gözəl bir gəlinə bənzər.
193 Bağla torpaq kimi dinclik kəməri.
Sokratın dilindən deyilən bu sözlər yerin sabit, hərəkətsiz olması barədə idealist fəlsəfi nəzəriyyəyə işarədir.
194 Mən "Xosrovnaməni" yazmaqçün rəvan...
"Xosrovnamə" - "İqbalnamə" (yaxud "Xirədnamə") deməkdir. Xosrov - böyük Şah. Əsər İskəndərə həsr edildiyi üçün onu "Xosrovnamə" də adlandırmaq olar.
195 Yuxudan məhrumdu o nərgiz gözlər,
Sərvimdə görmədim gənclikdən əsər.
Bənövşə üstünü basmış yasəmən,
Öz qızılgülümü solğun gördüm mən.
Şair öz bədəninin üzvlərini müxtəlif bitkilərə bənzədir: nərgiz - gözəl, sərv boy, qamət; bənövşə üstünü basmış yasəmən - yəni saçlar ağarmışdır.
Qızılgülün solğun gördüm - al yanaqlarımı, üzümü solub-saralmış gördüm. Demək, daha qocalmışam.
196 Sikkəni bu qədər sürtülmüş görcək...
Sifətimi rövnəqdən düşmüş görəndə...
197 Dövlət divanından pozdu adım,
Zəhmət divanına yazdı adım.
Dövlət divanı - hakimiyyət mövqeyi, şahlıq; zəhmət divanı - peyğəmbərlik.
198 Bisrək - güclü dəvə, qıvraq və tez yeriyən olur.
199 Büxti - Xorasan dəvəsi.





200 Naqə - dişi dəvə.
201 Qaldırdı balıqdan Aya bayrağı.
İskəndər bayrağını qaldırıb yola düşdü.
202 Yunanlar Okyanos deyərdi ona.
Nizami Okyanos sözünü bilavasitə yunancadan götürmüşdür.
203 Müəyyəb - eybəcər. Müəlləq - asılı, asılmış.
204 Örtüyə bürünər bir az gedərək,
Çunki yer altından keçsin o gərək.
Guya Günəş əvvəl dənizdən keçdiyi üçün onun ipək sularına bürünər, sonra da yerin altından keçdiyi üçün yerin örtüyünü örtər.
205 Alim cavab verdi: "Həmin İsti su
Çoxunun abrını tökmüş, doğrusu".
Bu sirri çox adamlar gəzib axtarmış, tapa bilmədikləri üçün biabır olmuşlar.
206 Qəssasə - bir cins mifik, dəhşətli dəniz nəhəngi.
207 O çıxsın, ətəkdə qoysun oğlanı,
Balası zəncirtək saxlar aslanı.
Aslan üçün balası zəncir kimidir: balası harada olsa, özü də orada olmalıdır. Burada atanın öz övladına məhəbbətinin qüdrətindən söhbət gedir.
208 Ziyəhat - diri, yaşayan.
209 Ulduzlu gecənin od tutub canı,
Sanki əqrəb çalıb xallı ilanı.
Nizami yay gecəsindəki səmanı xallı ilana, ulduzların sayrışmasını isə əqrəb vurmuş ilanın hərarətdən çırpınmasına oxşadır.
210 Gecənin camına gün axıb doldu
Gün batıb axşam oldu.
211 Bu yeddi xalvarlıq təbli çaldıran
Xoruza əmr edib verdirəndə ban...
Yeddi xalvarlıq təbli çaldıran - yeddi təbəqəli göyləri işıqlandıran günəş deməkdir.
Beytin mənası: səhər olub Günəş doğanda, xoruzlar banlayanda...
212 Tutiyə dönübsən, ey şad könül, sən,
Yadına Hindistan düşüb deyəsən...
Tutuquşu əsasən isti ölkələrdə, xüsusən, Hindistanda yaşayır. Oradan başqa ölkələrə aparılan tutuquşu daima öz vətənini arzularmış. Bu beytdə şair öz qəlbini tutuquşuna, eşq və gənclik dövrünü Hindistana bənzədir.
Beytin mənası: tutuquşu Hindistana uçmaq istədiyi kimi, könlüm də gəncləşmək, sevinmək istəyir.
213 Yolları cəhənnəm istisi sardı,
Gündən balığın da beli qızardı.
Hava Günəşdən o qədər qızmışdı ki, istilikdən (məlum əfsanəyə görə) yerin altında olan balıq da qızardı.
214 Padişah buyurdu: o gözəl dilbər
Yaqut sandığından saçsın saf gövhər.
İskəndər əmr etdi ki, o gözəl qız yaqut kimi qırmızı dodaqlarını (ağzını) açıb gövhər kimi sözlər söyləsin.
215 Nur alır gözümüz gündən, gündüzdən,
Rəvamı gözləri gün ala bizdən?
Bütün gözlər Günəşdən nur aldığı halda Günəş (yəni İskəndər) necə bizim gözümüzü bizdən uzaqlaşdırar?
Burada gözümüz sözü haqqında söhbət gedən bütün heykəlin üzündəki iki parlaq gövhəri bildirir.
216 Sabah öz möhrünü göstərən zaman Atəşpərəst oldu hindli Qaraxan.
İkinci gün günəş çıxanda hindli Qaraxan atəşpərəst oldu - gecənin gündüzlə əvəz olunmasına işarədir.
217 Beytlər yayılır bəhrdən çölə,
Heç kəs bu bəhrdə yazmayıb hələ.
Burada birinci misrada bəhr sözü dənizi, ikinci misrada əruz vəzninin bəhrini bildirir.
Yəni bu dənizdən sahilə elə xoş nəğmələr yayılır ki, bunlan heç bir şair heç bir bəhrdə (vəzndə) deməmişdir.
218 Bəzədi göyləri ağ Çin ipəyi,
Yer açdı üzündən qara örpəyi.
Ağ Çin ipəyi - burada Günəşin işığı, qara örpək - gecənin zülməti mənasında işlənmişdir.Beytin mənası: Günəş çıxdı, Yerin üstündən qaranlıq çəkildi.

219 Kim görüb ki, dəniz gəmiyə minə!
Burada dəniz (dərya) sözü gəmiyə minib gedən İskəndərə işarədir.
220 Dəniz dünyasında bir dünya getdi.
Bu misrada ikinci dünya sözü İskəndəri bildirir.
221 Gecənin hindusu bu göy çadırdan
Yeddi rud boyunca ip çəkən zaman...
Rud - nəhr, böyük çay; yeddi rud - yeddi iqlim-dünya, aləm... Hindu qaranlıq; çadır - səma. Burada çay dünya çadırının ipinə bənzədilir.
222 İp üstə oynadı şah bir hindlitək...
Şah ip kimi incə və təhlükəli bir yol ilə getdi.
223 Qılavuz - yol göstərən, bələdçi.
224 Qırmızı pərdəni göy yığan zaman
Düşdü qızıl teşti uca damından.
Günəş özü teştə, işığı isə qırmızı pərdəyə oxşadılır.
Beytin mənası: axşam olanda Günəş qızıl teşt kimi göydən enir.
225 Onların səsləri dəhşətlər saçdı,
Xoruzun boynundan zəngləri açdı.
Xoruzun boynundan zəngləri açdı - xoruzun banlamasına son verdi. Səhər açılarkən təbil səsləri xoruzların səsini batırdı.
226 Dəccal
Dəccalın təbliydi sanki çalman.
- xristiyanlarda İsanın düşməni, müsəlmanlarda Məhəmmədin düşməni; yalançı Mehdi; guya qiyamətdə təbilini çalıb zühur edəcək.
227 Günəş öz evinə edəndə şitab
İstidən aslanlar oldular kabab.
Günəşin evi - astronomiyada Aslan bürcü (Əsəd bürcü) deməkdir. Beytin mənası: Günəş Aslan bürcünə girəndə - yayın ən isti vaxtı gələndə meşədəki aslanlar da istidən bişdilər.
228 Günəşi göylərdə dolanan zaman
Sancıb saraltmadı əqrəbtək xəzan,
Tüstülənən bir teşt vardı əlində,
Gəzib od saçırdı o, Zəngdə, Çində.
Yırtırdı aslantək iti çaynağı
Gah Öküz sağrısı, gah gur dırnağı.
Əqrəb sözü burada Əqrəb bürcü mənasındadır. Astronomiyaya görə, Günəş Əqrəb bürcünə girəndə havalar soyumağa, qış yaxınlaşmağa başlayır. Aslan sözü də Aslan bürcünü bildirir. Günəş bu bürcə girəndə havalar çox isti olur. Zəng və Çin sözləri burada ekvatora yaxın isti ölkələri bildirir. Sancıb saraltmadı əqrəbtək xəzan - yəni hələ payız girməmişdi.
Beytlərin mənası: yay fəsli idi, günəş çox yandırıcı idi, hər çıxanda yerə od saçırdı, hərarəti ilə öküzlərin sağrısını və dağ eşşəyinin (gurun) dırnaqlarını yandırdı.
229 Bu yeddi budaqlı, altı cəhətli,
Dövrəsi, meydanı, yeri vüsətli
Sərvdən ucaldı qalbanə səs:
"Daha fatehlikdən əl çək, bəsdir, bəs!"
Burada sərv - dünya, maddi aləm deməkdir; altı cəhət - sağ, sol, ön, arxa, üst, alt - aləmin altı cəhəti; yeddi budaq isə - yeddi fələk, yeddi qat asiman deməkdir.
230 İskəndər sözünü yazanda katib
Yalnız beşcə hərflə ifadə edib
Beş hərfə müvafiq etdin beş səfər...
İskəndər sözü ərəb əlifbası beş hərflə yazılır. Beş səfər dedikdə, Nizami İskəndərin Misir, İran, Hindistan, Rus və Çin səfərlərinə işarə edir.
231 Əmanət aldığı mayəni yenə
Gərək qaytaraydı tələb edənə.
Maye burada dörd ünsür mənasındadır. Yəni vücudunu müvəqqəti təşkil edən ünsürləri geri qaytarmalısan - torpağı torpağa, odu oda, suyu suya, havanı havaya tapşırmalısan.





232 Ayı yəhərləyən həmin İskəndər
Ölüm yatağına baş əyib inlər.
Ayı yəhərləyən - şöhrəti göylərdə gəzən. Yəni: şan-şövkəti bütün dünyaya yayılmış İskəndər başını yerə qoyub ölüm yatağında can verirdi.
233 Nədənsə gecikib quşların səsi,
Çal, suğdi quşunun gəlsin naləsi.
Suğd - qədimdə Səmərqəndin yaxınlığında bir şəhər olmuş ki, orada yaxşı musiqi aləti qayırarlarmış. Suğdi quşu - məcazi mənada simli musiqi alətini rübabı bildirir.
Beytin mənası: səhər quşunun, xoruzun səsi gəlmir. Müğənni, sən suğdi quşunu - rübabı çal, kədərli nəğmə yayılsın.
234 Nəbzi, qarurəsi olundu təhlil.
Qarurə - sidiyi təhlil etmək üçün işlənən qab, cihaz. Yəni xəstəliyinin səbəbi axtarıldı, öyrənildi.
235 Bəhri-Qülzüm - Qırmızı dəniz.
236 Qünnücdən Qülzümə oldum hökmüran,
Şimşək qılıncımı gördü Qiyrəvan.
Qünnüc - Hindistanda ən qədim şəhərlərdən biridir ki, vaxtilə bir hind dövlətinin mərkəzi olmuşdur. Qülzüm - Qırmızı dəniz sahilində Suveyş kanalının yaxınlığında şəhər. Qiyrəvan - Afrikada Tunis məmləkətində məşhur bir şəhər olmuşdur.
Beytin mənası: Şərqdən qərbə qədər bütün ölkələri fəth etmişdim.
237 Yudum məcusluğu dünya üzündən,
Rus dənizində də od qaladım mən.
Məcusluq - atəşpərəstlik, zərdüştilik.
Tarixdən məlumdur ki, İskəndər zərdüştiliyə düşmən olmuş, atəşkədələri yıxıb məhv etmişdir.
İkinci misrada Nizami İskəndərin ruslarla müharibələrini nəzərə alır ki, bu müharibələri o, "Şərəfnamə"də təsvir etmişdir.
238 Hətta Sərəndibə gedib çıxaraq
Adəmin izinə basdım mən ayaq.
Sərəndib - Seylon adasının hindcədə adıdır.
Əfsanəyə görə, guya Adəm cənnətdən qovulduqda Sərəndib adasına atılmışdır.
239 Ölüm girdabına düşməmiş, gərək
Suya qalxan tutam ləngiməyərək.
Günəş batanda onun qürsü su üzərində qalxana bənzəyir, batarkən bu qalxan suyun üstündə işıq kimi yayılır. İskəndər burada - girdaba düşməmişdən qabaq qalxanı suyun üstünə tutmalıyam, yəni ölüm yaxınlaşanda təslim olub tərk-silah etməliyəm, - deyir.
240 Nifrətə layiqdir bu qozbel dayə.
Qozbel dayə - burada qoca dünya deməkdir.
241 Susuza eyləməz cəhənnəm əlac,
Sən o dörd çeşməli behiştdən söz aç.
Dini etiqada görə, cənnətdə kövsər, səlsəbil, təhur və təslim adında dörd bulaq və ya arx var. Nizami onlara işarə edir.
242 Sanki ərimişdi şah səhərədək
İyirmi yeddinci gecəki aytək.
Hicri tarixlə ayın iyirmi yeddisində Ay qaralmağa və görünməməyə başlayır. Nizami burada İskəndərin ömrünün sonunu yavaş-yavaş incələn və sönən Ayla müqayisə edir.
243 Vərəqə əbiri yaydıqca qəşəng,
Kağız dönüb oldu müşkin bir ipək.
Əbir - ənbərin ikinci adıdır; balinaya bənzəyən və Hind okeanı sahillərinə yaxın yerlərdə olan bir balığın qanından çıxan ətirli maddədir; xoş qoxusu mühafizə olunsun deyə onu ipəyə büküb saxlarlar.
Burada İskəndərin anasına yazdığı sözlər ənbərə, o sözlərin yazıldığı kağız isə ipəyə bənzədilir.
244 Məndən - İskəndərdən bu namə getsin,
Dörd yox, bircə olan anama yetsin.
Burada dörd ana - dörd ünsür (su, od, torpaq, hava) deməkdir ki, qədim təsəvvürə görə insan vücudu da bunlardan ibarətdir.
Beytin mənası: məktubum təbiət hadisələrinə məruz qalmayıb öz doğma anama yetişsin.

245 Şəbdizim sıçradı çaydan o taya,
Məndən salam olsun dosta, aşnaya.
Yəni ömrüm bitdi, dostlara əlvida!
246 Gecə öz taxtini yüklədi filə,
Yer saldı donunu göylərək nilə.
Fil - zülmət mənasını verir.
Birinci misranın mənası: gecə tamamilə qaranlıqlaşdı. Nil - Hindistanda və Yəməndə bitən bir bitkidən əldə edilən tünd mavi boyadır. İkinci misranın mənası: dünya İskəndərin ölümü ilə matəmə batdı.
247 Zənabin ağzından alaraq zəhər, Ayın boğazına onu tökdülər.
Zənəb - quyruqlu ulduz.
Astrologiyaya görə, Ay Zənəb üqdəsində uğursuzluğa düçardır. Buna görə Zənəb üqdəsi ayın boğazında zəhərdir.
Beytin mənası: ay Zənəb nöqtəsinə çatanda artıq gözə görünmür, batır.
248 Çatdı Gudi dağa səxa dalğası
Cudi - Mesopotamiyada yüksək bir dağın adıdır.
249 İpək karxanası bil bu dünyanı,
Bir yanı sudursa, oddur bir yanı.
İpək karxanasında barama qozasını ocaq üstündəki suda həll edib ipək qayırırlar. Mənası: dünya od ilə su arasındadır, ziddiyyətlərlə doludur. Örtdü qara qanad Rumu sərasər, Bürüdü ölkəni sanki zəncilər.
250 Ədəbiyyatda məcazi mənada rum - ağ, zəng və zənci - qara deməkdir. Beytin mənası: İskəndərin ölümü münasibətilə bütün məmləkət yasa batdı. Sanki qara ağa hücum elədi, ağ adamlar qara geyindi.
251 Baxdıqca oğlunun bu məktubuna,
Tumartək qıvrılıb açıldı ana.
Tumar - qədim zamanlarda burulub bağlanan məktub və ümumiyyətlə, yazılı uzun kağızlardır.
Beytin mənası: İskəndərin anası oğlunun son məktubunu oxuyarkən iztirabdan tumar kimi açılıb büküldü.
252 "Cahanmədxəl - Ərəstunun əsərinin adıdır.
253 Xatircəm olmayın, - deyirəm ki, mən
Qara zınqırovlu yeddi hindlidən.
Qədimdə şahlar hindlilərdən gecə damda zınqırovlu keşikçi qoyarlarmış.
Burada Nizami fələyin yeddi damında (göy təbəqələrində) Günəş sistemini təşkil edən yeddi ulduzu yeddi hindliyə bənzədir. Mənası: taleyin uğurlu olmasına bel bağlamayın.
254 Pərgən nəqşədən üzüldü bu dəm
Onun da ömrünə çəkildi qələm.
Pərgar sözü burada dil, nəqşə - dildən çıxan sözlər mənasında işlənmişdir.
Beytin mənası: Fərfuriyus sözlərini deyib qurtaranda onun da ömrü tamam oldu.
255 "Ramişi-can" - İran klassik musiqi havalarından birisinin adı.
256 Odur yeddi ulduz sirini açan,
Odur səkkizinci qərana sultan.
Qəran - min il deməkdir. Səkkizinci qəran - səkkizinci minillik. Köhnə tarixçilər tarixi Adəmdən başlayırdılar. Nizaminin dövründə guya Adəmin cənnətdən yerə atılmasından səkkiz min il keçirmiş. Nizami burada "İqbalnamə"ni ithaf etdiyi İzzəddin Məsudit tərif edib deyir ki, Günəş sisteminin yeddi ulduzunun sirrini bilən və səkkizinci minilliyin şahı olan odur.
257 Dəryamdan iki dürr olubdur əyan.
İki dürr sözləri ilə "İqbalnamə" poeması və Nizaminin oğlu Məhəmməd nəzərdə tutulur.
258 Müqbil, İqbal adlı iki hindli qul
Göndərdim hüzura, olaydı məqbul.
İqbal - "İqbalnamə" əsərinə, Müqbil - Nizaminin oğlu Məhəmmədə işarədir. Eyni zamanda iqbal - bəxt, müqbil - xoşbəxt deməkdir. Lakin müqbil sözü həm də qul mənasında işlənir. Beləliklə, burada "İqbalnamə"nin Məhəmməd vasitəsi ilə şaha göndərilməsi ifadə olunur.
259 Qızını mehrlə köçürər ana,
Qardaş duvaq salar onun başına.
Qız - "İqbalnamə"ni, qardaş isə - əsəri şaha aparan Məhəmmədi bildirir.
Yəni ana qızını təmiz, bakirə olaraq köçürür və belə qızın da duvağını özgələr yox, məhz qardaşı başına saldığı kimi, mən də əsərimi başqası ilə yox, öz oğlumla yollayıram.





260 Hüzura göndərdim bu gəlini mən,
Qardaşı tutmuşdur onun əlindən.
Bu beyt də əsərin Məhəmməd tərəfindən arxayınlıqla mühafizə edilib bakirə bir gəlin kimi sahibinə çatdırılmasını bildirir.
261 Canımı yollayıb bir peşkəş kimi,
Qoşmuşam mən ona ciyərparəmi.
Burada yenə canımı - "İqbalnamə"mi, ciyərparəmi isə oğlumu deməkdir.
262 Dedim: "Gövhər üçün edərlərmi cəng?
Nəğmə gözəl olar, olsa həmahəng".
Əsərimi tələb edənlərə dedim ki, dürr satıb almaq müharibə etmək deyil; burada zor işə keçməz. Nəğmə o zaman bəyənilər ki, o, musiqi ilə həmahəng ola; belə qiymətli əsəri yalnız sənəti başa düşən şəxs qiymətləndirə bilər.
263 Saz olsa qarğanın əgər bədəni,
O, Bəstiənciri bilər hər dəni.
Bəsti - Xorasan vilayətində bir şəhərdir ki, gözələnciri ilə məşhurdur, qarğa da çox əncir yeyən olur.
Beytin mənası: qarğanın canı sağlam olsa, hər əlinə düşən dən ona Bəstiənciri kimi dadlı gələr. Səhhətin möhkəmliyi insanı bir çox qayğıdan azad edər.
264 Şahın adı kimi o, Məsud olsun.
Şah da bu dastanla qoy Mahmud olsun.

# MÜNDƏRİCAT

## XƏMSƏ


Nizami Gəncəvi. Xəmsə ... 7


## SİRLƏR XƏZİNƏSİ


Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması ... 10
Sirlər xəzinəsi ... 18
Tövhid və münacat ... 19
Minacat ... 20
Peyğəmbərlərin sonuncusunun, allah ona rəhmət eləsin, nəti ... 21
Peyğəmbərin meracı haqqında ... 21
İkinci nət ... 23
Üçüncü nət ... 24
Dördüncü nət ... 25
Beşinci nət ... 26
İslam padşahı Məlik Fəxrəddinin mədhi ... 27
Hökmdara xitab və təzim ... 28
Kitabın nəzmə çəkilməsinin səbəbi ... 30
Söz deməyin fəziləti haqqında bir neçə kəlmə ... 32
Şerin mərtəbəsi haqqında ... 33
Həqiqətləri, ürəyi tanımaq və onunla dostluğa can atmaq haqqında söhbət ... 34
Birinci xəlvət. Reyhanların təsviri ... 37
İkinci xəlvət. Halların açılışı ... 39
Gecə işrətinin təsviri və ikinci xəlvətin səciyyəsi ... 40
Birinci məqalət
Adəmin mərtəbəsi haqqında ... 43
Naümid olub sonra bağışlanan padşahın hekayəsi ... 45
İkinci məqalət
Ədaləti qorumaq və insafı gözləmək haqqında ... 45
Adil Nuşirəvan ilə vəzirin hekayəsi ... 47
Üçüncü məqalət
Aləm hadisələri haqqında ... 49
Süleyman ilə qoca əkinçinin hekayəsi ... 50
Dördüncü məqalət
Padşahın rəiyyətə qayğı göstərməsi haqqında ... 51
Sultan Səncər və qarı hekayəsi ... 52
Beşinci məqalət
Bəşərin zəifliyi və qocalığın təsviri ... 54
Kərpickəsən qocanın dastanı ... 55
Altıncı məqalət
Varlığın etibarı haqqında ... 56
Ovçu, it və tülkü ... 57
Yeddinci məqalət
İnsanların başqa canlılardan şərəfli olması haqqında ... 58
Firudin ilə ahu dastanı ... 59
Səkkizinci məqalət
Yaradılışın gözəlliyi ... 60
Baqqal ilə tülkü hekayəsi ... 62
Doqquzuncu məqalət







Böyüktəbiətlilik və uca himmətlilik haqqında ... 62
Bir zahidin hekayəsi ... 63
Onuncu məqalət
Axır zamanın əlamətləri ... 64
İsa əleyhəssalamın hekayəsi ... 65
On birinci məqalət
Dünyanın məşəqqətləri haqqında ... 66
Nəzər sahibi bir möbidin dastanı ... 67
On ikinci məqalət
Bu mənzillə vidalaşmaq haqqında ... 68
Bir-biri ilə çəkişən iki həkimin dastanı ... 69
On üçüncü məqalət
Əlaqələrdən ayrılmaq haqqında ... 71
Hacı ilə sufinin dastanı və onun əmanət verməsi ... 71
On dördüncü məqalət
Oyaqlığın şərti haqqında ... 73
Zalım padşahın zahidlə dastanı ... 74
On beşinci məqalət
Yeni gələnlərin paxıllığı haqqında ... 76
Bir şahzadənin hekayəti ... 77
On altıncı məqalət
Cəld tərpənmək haqqında ... 77
Yaralı uşağın dastanı ... 79
On yeddinci məqalət
Haqqa pərəstiş, təcərrüd və xəlvətə çəkilmək haqqında ... 79
Mürşid ilə müridin hekayəsi ... 81
On səkkizinci məqalət
Paxılların vəhşiliyi haqqında ... 81
Cəmşid ilə bir sirr sahibinin dastanı ... 82
On doqquzuncu məqalət
Axirəti qarşılamaq haqqında ... 83
Harun ər Rəşid ilə dəlləyin dastanı ... 85
İyirminci məqalət
Bu əsr adamlarının həyasızlığı haqqında ... 87
Bülbül ilə şahinin dastanı ... 88
Kitabın tamamlanması haqqında ... 88


## XOSROV VƏ ŞİRİN


Elmi və bədii fikrin üfüqləri fövqündə ... 92
"Xosrov və Şirin" ... 100
Allahın birliyi haqqında ... 100
Yaradılışı dərk etmək haqqında ... 101
Minacat ... 101
Peyğəmbərin nəti ... 102
Kitabın yazılmasından ötrü yuxarıdan gələn buyruq haqqında ... 103
Bu nəzmin tarixi və başlanğıcı haqqında ... 104
Atabəy Əbu Cəfər Məhəmmədin mədhi ... 104
Yeröpmə xitabı ... 105
Səadətli padşah Qızıl Arslanın mədhi ... 106
Kitabın tərtibi və eşq haqqında bir neçə söz ... 108
"Xosrov və Şirin" dastanının başlanğıcı ... 110
Xosrovun ova çıxması və kəndlinin evinə getməsi ... 111
Hörmüzün Xosrovu cəzalandırması ... 112

Xosrovun yuxuda babasını görməsi ... 113
Şapurun Şirinin gözəlliyindən danışması və Xosrovun aşiq olması ... 113
Şapurun Ərmənə getməsi və Şirini istəməsi ... 115
Xosrovun şəklini Şapurun Şirinə göstərməsi ... 116
Şapurun ikinci dəfə Xosrovun şəklini göstərməsi ... 118
Şapurun Xosrovun şəklini üçüncü dəfə göstərməsi ... 118
Şapurun özünü Şirinə göstərməsi ... 119
Şirinin ova və oradan Mədainə getməsi ... 121
Xosrovun Hörmüzdən qaçıb Ərmənə getməsi ... 123
Şirinin Xosrovun sarayına çatması ... 126
Xosrovun atasından qorxub qaçmasından Şirinin xəbər tutması ... 127
Xosrovun Ərmənə çatması ... 127
Xosrov məclisinin tərifi və Şapurun gəlməsi ... 128
Şirinin halından Xosrovun Məhinbanuya xəbər verməsi ... 130
Hörmüzün ölümündən Xosrovun xəbər tutması ... 131
Xosrovun paytaxt Mədainə getməsi ... 132
Şapurun Şirini yenidən Ərmənə gətirməsi ... 132
Xosrovun Bəhramdan qaçıb Ərmənə getməsi ... 132
Xosrovla Şirinin ovlaqda rastlaşması ... 133
Məhinbanunun Şirinə öyüd verməsi ... 135
Xosrovla Şirinin bahar vaxtı əylənməsi ... 136
Məclisdə Xosrovun şir öldürməsi ... 138
Xosrovun Şirinlə işrət məclisi qurması ... 140
Şirinin rəfiqələrinin əfsanə söyləmələri ... 141
Xosrovun Şirindən murad almaq istəməsi və onun mane olması ... 143
Xosrovun hirslənib Şirinin yanından Ruma getməsi və Məryəmlə evlənməsi ... 147
Xosrovun Bəhramla vuruşmaq üçün qoşun çəkməsi və qələbə qazanması ... 147
Xosrovun ikinci dəfə taxta oturması ... 150
Xosrovun ayrılığı ilə Şirinin ah-zar etməsi ... 152
Məhinbanunun Şirinə vəsiyyət edib ölməsi ... 153
Məhinbanunun yerinə Şirinin şahlıq taxtına əyləşməsi ... 154
Bəhram Çubinin ölümündən Xosrovun xəbər tutması ... 155
Mütrüb Barbədin tərifi ... 156
Xosrovun Şirini gətirmək üçün Məryəmdən icazə istəməsi ... 158
Şapurun Xosrovdan Şirinə xəbər gətirməsi ... 159
Fərhad və Şirin hekayəti ... 162
Şirinin Fərhadın düzəltdiyi hovuz və arxa baxmağa getməsi ... 165
Şirinin eşqi ilə Fərhadın çöllərə düşməsi ... 165
Fərhad əhvalatından Xosrovun xəbərdar olması ... 166
Xosrovun Fərhadı yanına çağırtdırması ... 167
Xosrovla Fərhadın deyişməsi ... 167
Fərhadın dağ çaparaq nalə etməsi ... 169
Şirinin Fərhadı görmək üçün Bisütun dağına getməsi ... 172
Şirinin Fərhadın görüşünə getməsindən Xosrovun xəbərdar olması və onu hiylə ilə öldürməsi ... 174
Fərhadın ölümü münasibətilə Xosrovun Şirinə təəssüf məktubu ... 176
Məryəmin ölümü münasibətilə Şirinin Xosrova tənəli məktubu ... 177
Şirinin məktubunun Xosrova çatması ... 179
Xosrovun padşahlıqdakı şövkəti və ləzzət çəkməsinin təsviri ... 179
İsfahanlı Şəkərin əhvalatı ... 181
Xosrovun Şəkəri alması ... 183
Şirinin tək qalıb tanrıya yalvarması və nalə etməsi ... 184
Xosrovun ova getməsi və oradan Qəsri-Şirinə doğru at çapması ... 186
Xosrovla Şirinin bir-biri ilə söhbət etməsi ... 189
Şirinin Xosrova cavab verməsi ... 189





Xosrovun Şirinə cavabı ...
Şirinin Xosrova cavabı ... 190
Xosrovun Şirinə cavabı ... 191
Şirinin Xosrova cavabı ... 192
Xosrovun Şirinə cavabı ... 193
Şirinin Xosrova cavabı ... 195
Xosrovun Şirinə cavabı ... 196
Şirinin Xosrova cavabı ... 197
Xosrovun Qəsri-Şirindən ümidsiz geri dönməsi ... 198
Xosrovun arxasınca Şirinin onun düşərgəsinə getməsi ... 199
Şirinin dilindən Nikisanın qəzəl deməsi ... 201
Xosrovun dilindən Barbədin qəzəl deməsi ... 203
Şirinin dilindən Nikisanın qəzəl deməsi ... 204
Xosrovun dilindən Barbədin qəzəl deməsi ... 204
Şirinin dilindən Nikisanın qəzəl deməsi ... 205
Xosrovun dilindən Barbədin qəzəl deməsi ... 206
Şirinin dilindən Nikisanın qəzəl deməsi ... 207
Xosrovun dilindən Barbədin qəzəl deməsi ... 207
Şirinin çadırdan çıxması ... 208
Xosrovun Şirini qəsrdən Mədainə gətirməsi ... 209
Xosrovla Şirinin evlənməsi ... 211
Şirinin Xosrovu elmə rəğbətləndirməsi ... 212
Büzürgümmidin "Kəlilə və Dimnə"dən qırx fikir söyləməsi ... 215
Nəsihət və hikmət ... 218
Şiruyənin sifəti və Xosrovun işinin sonu ... 219
Xosrovun atəşgahda oturması ... 219
Xosrovun öldürülməsi ... 220
Şiruyənin Şirinə sifariş göndərməsi ... 221
Xosrovun sərdabəsində Şirinin can verməsi ... 223
Nizaminin oğlu Məhəmmədə nəsihəti ... 223
Xosrovun yuxu görməsi ... 228
Peyğəmbərin məktubu ... 228
Rəsulların ağasının meracı ... 229
Nəsihət və kitabın sonu ... 230
Qızıl Arslanın Nizamini görüşə dəvət etməsi ... 231
... 233

## LEYLİ VƏ MƏCNUN

İnsan dühasının əlçatmazlıq nümunəsi ... 240
"Ey adı ən gözəl başlanğıc olan" ... 246
Sonuncu peyğəmbərin tərifi ... 248
Peyğəmbərin meracı ... 248
Hikmət və moizə haqqında ... 250
Kitabın yazılmasının səbəbi ... 252
Axsitanın tərifi ... 253
Padşaha xitab ... 255
Şahzadənin tərifi və oğlumun ona tapşırılması ... 256
Məni inkar edənlərdən şikayət ... 256
Şikayətin üzrü ... 257
Oğlum Məhəmmədə nəsihət ... 258
Az danışmağın gözəlliyi ... 258
Ölən qohumlarımdan xatirələr ... 258
Atamın xatirəsi ... 259
Anam Rəisənin xatirəsi ... 259

Dayım Xacə Ömərin xatirəsi ..... 259
Keçmiş müsahiblərin xatirəsi və başqaları ilə müsahiblik ..... 259
Vücudu unutmaq ..... 259
Şöhrəti unutmaq ..... 259
Keçən ömrü unutmaq ..... 260
Alçaqlığı və yaltaqlığı rədd etmək ..... 260
Zülmə qatlaşmamaq ..... 260
Padşahların qulluğunu tərk etmək ..... 260
İnsanların işinə və ruzisinə əl uzatmamaq ..... 260
Şadlıq və qənaət ..... 261
Şadlıqla xalqa xidmət etmək ..... 261
Təvazökar ol! ..... 261
Xəlvətə çəkilib söz yaratmaq ..... 261
Dastanın başlanğıcı ..... 261
Leyli ilə Məcnunun sevişməsi ..... 264
Məcnunun eşqi haqqında ..... 265
Məcnunun Leylinin tamaşasına getməsi ..... 266
Məcnunun atasının Leyliyə elçi getməsi ..... 266
Leylinin eşqi ilə Məcnunun ağlayıb sızlaması ..... 268
Atasının Məcnunu Kəbəyə aparması ..... 270
Məcnunun atasının Leyli qəbiləsinin qəsdindən xəbər tutması ..... 271
Atasının Məcnuna nəsihəti ..... 273
Məcnunun atasına cavabı ..... 273
Leylinin əhvalı haqqında ..... 275
Baharın tərifi və Leylinin xurmalıq tamaşasına getməsi ..... 276
İbn Səlamın Leylini istəməsi ..... 278
Nofəlin Məcnunla tanış olması ..... 279
Məcnunun Nofələ acıqlanması ..... 281
Leylinin qəbiləsi ilə Nofəlin müharibə etməsi ..... 281
Məcnunun Nofələ acıqlanması ..... 284
Nofəlin ikinci müharibəsi ..... 284
Məcnunun ahuları azad etməsi ..... 286
Məcnunun maralı azad etməsi ..... 287
Məcnunun qarğa ilə söhbəti ..... 288
Qarının Məcnunu Leylinin qapısına aparması ..... 289
İbn Səlamın dastanı ..... 291
Leylinin İbn Səlama verilməsi ..... 292
Leylinin İbn Səlamın evinə köçməsi ..... 293
Leylinin ərə getməsindən Məcnunun xəbər tutması ..... 293
Leylinin xəyalına Məcnunun şikayət etməsi ..... 294
Atasının Məcnunun görüşünə getməsi ..... 295
Məcnunun atasına cavabı ..... 297
Atasının Məcnunla vidalaşması ..... 299
Atasının ölümündən Məcnunun xəbər tutması ..... 300
Məcnun vəhşilər arasında ..... 302
Hekayə ..... 303
Məcnunun ulduzlara şikayəti ..... 304
Leylinin məktubunun Məcnuna yetişməsi ..... 305
Leylinin məktubunu Məcnunun oxuması ..... 307
Məcnunun məktubunu Leylinin oxuması ..... 309
Məcnunun dayısı Səlim Amirinin Məcnunu görməyə gəlməsi ..... 311
Hekayə ..... 312
Anasının ölümündən Məcnunun xəbər tutması ..... 313
Leylinin Məcnuna sifarişi ..... 314





Məcnunun qəzəl oxuması ..... 316
Bağdadlı Səlamın Məcnunun görüşünə getməsi ..... 318
Məcnunun əzəməti haqqında ..... 320
Zeydlə Zeynəbin sevgisi haqqında ..... 320
İbn Səlamın ölümü ..... 323
Zeydin İbn Səlamın ölüm xəbərini gətirməsi ..... 324
Leylinin allaha yalvarması ..... 325
Leyli ilə Məcnunun görüşməsi ..... 326
Payızın yetişməsi və Leylinin ölməsi ..... 330
Leylinin ölümündən Məcnunun xəbər tutması ..... 333
Bağdadlı Səlamın ikinci dəfə Məcnunun görüşünə gəlməsi ..... 335
Leylinin qəbri üzərində Məcnunun ölməsi ..... 336
Zeydin Leyli və Məcnunu yuxuda görməsi ..... 338
Kitabın sonu ..... 339

## YEDDİ GÖZƏL

Nağıllar aləmi və həyat həqiqətləri ..... 344
Başlanğıc ..... 350
Peyğəmbərin mədhi ..... 351
Peyğəmbərin meracı ..... 351
Kitabı yazmağımın səbəbi ..... 353
Əlaəddin Körpə Arslan şaha səna ..... 354
Təzim xitabı ..... 356
Sözün tərifi və hikmət haqqında ..... 357
Oğlum Məhəmmədə nəsihət ..... 360
Dastanın başlanğıcı. Bəhramın anadan olması ..... 361
Simnarın tərifi və Xəvərnəq qəsrinin tikilməsi ..... 362
Xəvərnəqin tərifi və Nemanın gözdən itməsi ..... 364
Bəhramın ova çıxması və gurları dağlaması ..... 365
Bəhramın bir oxla guru və şiri öldürməsi ..... 367
Bəhramın əjdahanı öldürməsi və xəzinə tapması ..... 367
Bəhramın xəvərnəqdə yeddi qızın şəklini görməsi ..... 368
Bəhramın atasının ölümündən xəbər tutması ..... 369
Bəhramın İran torpağına qoşun çəkməsi ..... 370
İranlıların Bəhrama məktub yazması ..... 371
Bəhram-Gurun İranlılara cavabı ..... 372
Bəhramın iki şir arasından tac götürməsi ..... 374
Bəhramın padşahlığı. Bəhramın taxta əyləşməsi ..... 375
Bəhram-Gurun ədalət və səxavəti ..... 375
Quraqlıq ili və Bəhramın rəiyyətə mərhəməti ..... 376
Bəhramın öz kənizi ilə macərası ..... 377
Bəhramın ovlaqdan sərhəngə qonaq getməsi ..... 380
Çin xaqanının qoşun çəkməsi və Bəhram-Gurun zəfər qazanması ..... 383
Bəhramın ordu əmirlərinə acıqlanması ..... 385
Yeddi günbədin tikilməsi. Bəhramın yeddi iqlimin qızını istəməsi ..... 387
Bəhramın qış məclisinin tərifi və yeddi günbəd tikdirməsi ..... 387
Yeddi günbədin tərifi və Bəhramın orada işrətə dalması ..... 388
Yeddi gözəlin yeddi hekayə söyləməsi.Bəhramın şənbə günü qara günbədə getməsi və birinci iqlim padşahı qızının hekayə söyləməsi ..... 391
Hekayə ..... 391
Bəhramın yekşənbə günü sarı günbədə getməsi və ikinci iqlim padşahı qızının hekayə söyləməsi ..... 401
Kəniz satan padşahın hekayəsi ..... 401
Bəhramın düşənbə günü yaşıl günbədə getməsi və üçüncü iqlim padşahı qızının hekayə söyləməsi ..... 405

Bişrin hekayəsi və onun aşiq olması ........ 405
Bəhramın çərşənbə günü qırmızı günbədə getməsi və dördüncü iqlim padşahı qızının hekayə söyləməsi ........ 410
Rus qızının Bəhrama hekayə söyləməsi ........ 410
Bəhramın çərşənbə günü firuzə rəngli günbədə getməsi və beşinci iqlim padşahı qızının hekayə söyləməsi ........ 416
Mahanın hekayəsi ........ 416
Bəhramın pəncşənbə günü səndəl rəngli günbədə getməsi və altıncı iqlim padşahı qızının hekayə söyləməsi ........ 425
Xeyir ilə Şər hekayəsi ........ 425
Bəhramın cümə günü ağ günbədə getməsi və yeddinci iqlim padşahı qızının hekayə söyləməsi ........ 432
Hekayə ........ 432
Baharın tərifi ........ 438
Xaqanın bəhram üzərinə qoşun çəkməsi və Bəhramın öz qoşunundakı qarışıqlıqdan xəbər tutması ........ 439
Bəhramın qoca çobanın evinə yetişməsi ........ 440
Bəhramın vəzirdən hesab istəməsi ........ 442
Birinci məzlumun şikayəti ........ 442
İkinci məzlumun şikayəti ........ 442
Üçüncü məzlumun şikayəti ........ 443
Dördüncü məzlumun şikayəti ........ 443
Beşinci məzlumun şikayəti ........ 444
Altıncı məzlumun şikayəti ........ 444
Yeddinci məzlumun şikayəti ........ 445
Bəhramın zalım vəziri öldürməsi ........ 445
Çin xaqanının Bəhramdan üzr istəməsi ........ 446
Bəhramın son günləri və mağarada yox olması ........ 446
Şaha səna və kitabın xətmi ........ 449

## İSKƏNDƏRNAMƏ

### ŞƏRƏFNAMƏ

Qəhrəmanlıq dastanı ........ 454
"Ey tanrı, dünyada sənsən padşah" ........ 460
Minacat ........ 461
Sonuncu peyğəmbərin tərifi ........ 462
Peyğəmbərin meracı ........ 463
"Şərəfnamə"ni yazmaq haqqında ........ 464
Hekayət ........ 465
Öz halına və zəmanənin gedişinə dair ........ 465
Öz nəfsinə öyüd və nəsihət ........ 467
Xızrın Nizamiyə təlimi ........ 469
Nüsrətəddin Əbubəkr padşahın tərifi ........ 470
Padşaha xitab ........ 472
Dastanın xülasəsi və İskəndərin cahangirlik tarixi ........ 472
Bu əsərin yazılmasının səbəbi ........ 474
Dastanın başlanğıcı ........ 475
İskəndərin təlim alması ........ 477
İskəndərin taxta çıxması ........ 479
Zənci qoşununun gəlməsindən İskəndərin xəbərdar olması ........ 480
İskəndərin Zəngibar şahına xəbər göndərməsi ........ 481
İskəndərin Zəngibar şahını məğlub etməsi ........ 487
İskəndərin Misirdən Ruma qayıtması ........ 489
İskəndərin ovda xoş fal vurması ........ 491





İskəndərin güzgü qayırması ........ 494
Dara elçisinin İskəndərin yanına gəlməsi ........ 495
Daranın İskəndərlə müharibəyə qoşun çıxarması ........ 498
Daranın sərkərdələri ilə məsləhəti ........ 500
Daranın İskəndərə məktubu ........ 503
Daranın məktubuna İskəndərin cavabı ........ 504
Daranın İskəndərlə müharibəsi ........ 506
Daranın sərkərdələri tərəfindən öldürülməsi ........ 508
İskəndərin İran başçıları ilə əhd-peyman bağlaması ........ 515
İskəndərin İran atəşgədələrini dağıtması ........ 519
İskəndərin İsfahanda Daranın qızı Rövşənəyi alması ........ 521
İskəndərin İstəxrdə taxta oturması ........ 525
İskəndərin Daranın qızı Rövşənəyi Ruma göndərməsi ........ 527
İskəndərin Ərəbistana getməsi və Kəbəni ziyarət etməsi ........ 529
İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi ........ 531
İskəndərin Nüşabə ilə məclisdə oturması ........ 538
İskəndərin Əlbürz dağına getməsi ........ 540
İskəndərin Dərbənd qalasını alması ........ 541
İskəndərin Sərir qalasına getməsi və Keyxosrovun qəbrini ziyarət etməsi ........ 545
İskəndərin Keyxosrov məqbərəsinə getməsi ........ 548
İskəndərin Rəy və Xorasana getməsi ........ 549
İskəndərin Hindistana getməsi ........ 552
İskəndərin hindli Keydə məktubu ........ 554
İskəndərin Hindistandan Çinə getməsi ........ 555
İskəndərin Xaqana məktubu ........ 558
Xaqanın İskəndərə cavabı ........ 559
Rum və Çin nəqqaşlarının yarışı ........ 565
Xaqanın İskəndəri qonaq etməsi ........ 566
İskəndərin rus qoşununun hücumundan xəbər tutması ........ 570
İskəndərin Qıpçaq çölünə çatması ........ 572
İskəndərin rus ölkəsinə çatması və müharibəsi ........ 573
İskəndərin ruslarla vuruşması ........ 575
İskəndərin rusları məğlub etməsi ........ 588
Nüşabənin xilas edilməsi ........ 589
İskəndərin çinli kənizlə şənlik etməsi ........ 590
İskəndərin dirilik suyu axtarması ........ 593
İskəndərin zülmətə getməsi ........ 596
İskəndərin zülmətdən çıxması ........ 598
İskəndərin Ruma qayıtması ........ 599
Nüsrətəddin Atabəyin sitayişinə dair ........ 600

### İQBALNAMƏ

Kamillik zirvəsi ........ 604
"Harda ki, ağıl bir xəzinə tapar" ........ 610
Minacat ........ 610
Sonuncu peyğəmbərin tərifi ........ 611
Kitabın yazılmasının səbəbi ........ 611
Sözün tərifi və padşahlara nəsihət ........ 614
Padşahın tərifi ........ 615
Təzim xitabəsi ........ 616
Kitabın başlanması ........ 616
İskəndərin başqırxan qul ilə əhvalatı ........ 618
İskəndər ilə çoban dastanı ........ 619

Arşimides ilə çinli kənizin hekayəsi....... 622
Qibtli Mariyənin hekayəsi və onun kimyagərliyi....... 623
Fağır çörəkçinin hekayəsi və onun varlanması....... 626
Alimlərin Hürmüzü inkar etmələri və həlak olmalarının hekayəti....... 628
Əflatunun çalğı aləti qayırması....... 629
Əflatunun keçmişdən hekayə söyləməsi....... 631
İskəndərlə Sokratın əhvalatı....... 632
Hindli həkimin İskəndərlə söhbəti....... 635
İskəndərin yeddi alim ilə xəlvətə çəkilməsi....... 638
Ərəstunun dedikləri....... 640
Valisin dedikləri....... 640
Bəlinasın dedikləri....... 640
Sokratın dedikləri....... 641
Fərfuryusun dedikləri....... 641
Hürmüzün dedikləri....... 641
Əflatunun dedikləri....... 641
İskəndərin dedikləri....... 642
Nizaminin dedikləri....... 642
İskəndərin peyğəmbərliyə yetişməsi....... 643
Ərəstunun nəsihətnaməsi....... 644
Əflatunun nəsihətnaməsi....... 647
Sokratın nəsihətnaməsi....... 648
İskəndərin peyğəmbərlik səfərinə çıxması....... 650
İskəndərin başa sitayiş edənlər kəndinə yetişməsi....... 656
İskəndərin Qəndəhar bütxanəsinə yetişməsi....... 659
İskəndərin Şimala çatması və Yəcuc səddini bağlaması....... 668
İskəndərin Ruma qayıtması....... 671
İskəndərin vəsiyyəti....... 672
İskəndərin anasına məktub yazması....... 674
İskəndərin məktubunun anasına çatması....... 677
Atasının vəfatında İskəndərusun nalə etməsi....... 678
Ərəstunun ruzgarının sonu....... 679
Hürmüzün ruzgarının sonu....... 679
Əflatunun ruzgarının sonu....... 680
Valisin ruzgarının sonu....... 680
Bəlinasın ruzgarının sonu....... 680
Ferfüryusun ruzgarının sonu....... 680
Sokratın ruzgarının sonu....... 681
Nizaminin ruzgarının sonu....... 681
Məlik İzzəddinin mədhi....... 681
Kitabın sonu....... 682

İzahlar....... 684

Az 2011
2034

Nizami
Gəncəvi

XƏMSƏ

800